BÖYÜK DƏRBƏND ENSİKLOPEDİYASI

BAKI - 2018

TƏRTİBÇİ,
LAYİHƏNİN RƏHBƏRİ: **Nurulla Əliyev**
ehtiyatda olan I dərəcəli kapitan, tarix elmləri doktoru,
«Dərbənd» Xeyriyyə İctimai Birliyinin sədri, Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunktura və elmi şöbəsinin hərb tarixi üzrə professoru, "Dədə Qorqud" Milli Fondun rəyasət heyətinin üzvü, "Azərbaycan Tarixçiləri" İctimai Birliyinin üzvü

ELMİ REDAKTOR: **İradə Hüseynovaya**
Bakı Dövlət Universitetinin "Qafqaz xalqları tarixi" kafedrasının müdiri, tarix elmləri doktoru, professor, Azərbaycan Respublikasının əməkdar müəllimi, YAP Siyasi Şurasının üzvü, Elm, təhsil və innovasiyaların inkişafında xidmətlərinə görə Beynəlxalq "Sokrat" mükafatı laureatı (İngiltərə, Oksford), Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü (akademik) və Beynəlxalq Qızıl ulduz mukafatı laureatı (Türkiyə, Ankara)

BAŞ REDAKTOR: **Eldar İsmayılov**
«Azərbaycan dünyası» Beynəlxalq jurnalının baş redaktoru

REDAKTOR: **Sədi Nuriyev**

fəlsəfə elmləri doktoru, Silahlı Qüvvələrin Hərbi Akademiyasının

Adyunktura və elmi şöbəsinin professoru

REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:

Şəmsəddin Xanbabayev
«Dədə Qorqud» Milli Fondunun Ağsaqqallar Şurasının sədri

Rüfət Əmirov
ehtiyatda olan polkovnik, «Dərbənd» Xeyriyyə İctimai Birliyinin sədrinin müavini

Rafıq Rəhimov
«Dərbənd» Xeyriyyə İctimai Birliyinin Rəyasət Heyətinin üzvü,
təşkilati-informasiya şöbəsinin müdiri

TEXNİKİ REDAKTOR: **Aqil Mehdi**
«Azərbaycan dünyası» Beynəlxalq jurnalının icraçı direktoru

Nurulla Əliyev. Böyük Dərbənd Ensiklopediyası. Bakı: "AFPoliqrAF", 2018, 782 səh.

Kitabda ensiklopedik formada Dərbənd şəhərinin yaranması, onun arxeologiyası, tarixi, topoqrafiyası, toponimikası, etnoqrafiyası, memarlıq abidələri, şəhərin başqa xalqların və ölkələrin həyatında rolu, o cümlədən görkəmli şəxsləri haqqında dolğun və sistemli məlumat verilmişdir.

Kitab şəhərin çoxəsrlik tarixi ilə bağlı daha maraqlı hadisələrlə, görkəmli və tanınmış şəxsiyyətlərlə, şəhərdəki etnik proseslər və əhalinin sosial tərkibi, Dərbəndin iqtisadi və mədəni inkişafı, qədim tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Ensiklopediyanın hazırlanmasında göstərdikləri köməyə görə, akademik Arif Paşayevə, akademik Yaqub Mahmudova, Hüseynbala Hüseynova təşəkkürümüzü bildiririk.

"AFPoliqrAF " – 2018

TƏRTİBÇİDƏN

Azərbaycan tarixşünaslığında Dərbənd Şərqin qədim və memarlıq abidəsi öyrənilir. Dərbəndə yaşayan azərbaycanlıların tarixi taleyi Azərbaycanla sıx bağlıdır və bu tarix qədim əsərlərə gedib çıxır.

1991-ci ildə Azərbaycanın müstəqillik qazanması xalqımızın çoxəsrlik tarixində mühüm hadisə oldu. Lakin XX əsrin 90-cı illərinin əvvəllərində Ermənistanın Azərbaycana qarşı ərazi iddiası və işgalçılıq siyasəti ilə yaranmış mürəkkəb vəziyət, tarixi həqiqətin saxtalaşdırılması üzrə yalnış təşviqat-təbliğat işi Azərbaycanın elm ictimaiyyəti qarşısında mühüm məsələlər qoyurdu. Azərbaycanın minilliklər ərzində başqa ərazilərdə yaşayan həmvətənlərlə yaradılmış əlaqələrinin dərindən öyrənilməsi və tarixi həqiqətin bərpa edilməsi həmin məsələlərdəndir.

1993-cü ilin ortalarından başlayaraq Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin səyi nəticəsində xalqın tarixinin kompleks və planlı şəkildə öyrənilməsinə başlanılması alimlərə qədim Dərbənd şəhərinin tarixinə dair problemlərin də daha dərindən öyrənilməsinə imkan verdi. Dərbənd özünün coğrafi mövqeyinə görə, nəinki Azərbaycan xalqının formalaşmasında, həmçinin digər dövlət və xalqların təkamülündə mühüm rol oynamışdır.

Son iki minillik ərzində qədim Azərbaycan şəhəri olan Dərbənddə baş vermiş tarixi hadisələr özünün dramatikliyi və zənginliyi ilə fərqlənmişdir.

Bu, erkən orta əsrlər dövründən başlayaraq qüvvə baxımından iki güclü dövlətin – Sasani imperiyası ilə hunların bir-biri ilə Xəzər dənizinin qərb sahilləri uğrunda apardıqları qanlı mübarizədə Albaniyanın Çora vilayətində yerləşən Dərbənd keçidinin çox mühüm hərbi-strateji əhəmiyyət daşıması ilə bağlıdır.

V-VI əsrlərdə Qafqaz Albaniyasında Sasani hökmdarlarının idarəçiliyi dövründə Xəzər dənizinin qərb sahillərində möhkəm hərbi istehkamlar tikilmişdir. Azərbaycanda baş verən hərbi-siyasi hadisələrdə Dərbənd bir çox yüzilliklər ərzində özünün coğrafi mövqeyinə görə xüsusi rol oynamışdır. Bizim e.ə. VIII-VII əsrlərdə ilk möhkəmləndirilmiş yaşayış məskənləri yaradılmış Dərbənd keçidinə Roma və Parfiya imperiyaları, Sasani İranı və Bizans, Ərəb Xilafəti və Xəzər Xaqanlığı, Səlcuq dövləti və Qızıl Orda, Səfəvi dövləti və Osmanlı imperiyası və nəhayət, I Pyotrun dövründəki Rus imperiyası göz dikmişdir. Dərbəndin tarixinin öyrənilməsi üzrə aparılmış elmi araşdırmalar əsasən qeyd etmək lazımdır ki, həmin mövzü bu və ya digər dərəcədə ümumiləşdirilmiş əsərlərdə, həmçinin orta əsrlər ərəb müəlliflərinin ayrı-ayrı tədqiqatlarında öz əksini tapmışdır. Qədim zamanlardan XX əsrin sonunadək Dərbəndin tarixinin müxtəlif problemləri tarixçi, arxeoloq və etnoqraflar A.A.Kudryavsev, L.N.Qumilyov, K.V.Trever, P.Q.Butkov, V.Q.Hacıyev, M.M.Dyakonov, Y.İ.Kozubski, V.V.Bartold, A.N.Kajlayev, V.N.Levitov, L.İ.Lavrov, R.M.Məhəmmədov, V.F.Minorski, Y.A.Paxomov, M.S.Səidov, A.R.Şıxsəidov, S.O.Xanməmmədov və başqaları tərəfindən öyrənilmişdir.

Bununla belə, Dərbəndin tarixinə aid əsərlərdə Dərbənddə yaşayan xalqların taleyində baş verən mürəkkəb proseslər və Azərbaycanla bir çox minilliklər ərzində yaranmış tarixi, iqtisadi və mədəni əlaqələri praktiki olaraq öz əksini, tapmamışdır.

Dərbəndin tarixinə həsr olunmuş və respublikada, həmçinin onun hududlarından kənarda nəşr edilmiş əsərlər böyük maraq doğurur. Bu əsərlər arasında H.B.Hüseynovun kitablarını xüsusilə qeyd etmək lazımdır. O, öz əsərlərində qısa şəkildə Dərbəndin yaranması, onun topoqrafiyası, toponimikası, etnoqrafiyası, şəhərin tarixi və memarlıq abidələri, həmçinin Dərbəndin görkəmli şəxsləri haqqında məlumat vermişdir. XXI əsrin əvvəllərində «Dərbənd» cəmiyyəti tərəfindən nəşr olunmuş əsərlər arasında Səftər Sultanovun və Həmid Zeynalovun əsərləri də kifayət qədər maraqlı əsərlərdir. Bu əsərlərdə son üç yüz ilin tarixi hadisələri yer almış, lakin Qafqaz

regionunda və Azərbaycanda baş verən hadisələrdə Dərbəndin hərbi-strateji, geosiyasi əhəmiyyəti tam açıqlanmamışdır.

Tərəfimizdən təqdim olunan «Böyük Dərbənd ensiklopediyası» qədim dövrdən indiki dövrədək uzun tarixi əhatə edir. Burada Dərbəndin zəngin tarixinin geniş ədəbiyyat və mənbələr əsasında ümumiləşdirilməsi aparılıb. Ensklopediyada şəhərin tarixi, onun siyasi, sosial və mədəni sahədə inkişaf aspektləri öz əksini tapıb.

Məqsəd qədim şəhərin tarixi, memarlıq abidələri, iqtisadi inkişafı, baş vermiş etnik proseslər, sosial strukturu, tanınmış ziyalıları haqqında oxucuya geniş məlumat verməkdir.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş «Böyük Dərbənd ensiklopediyası»nda əks olunmuş zəngin informasiya müxtəlif elmi sahələrində, Azərbaycan tarixi üzrə yazılacaq ümumiləşdirilmiş əsərlərdə, respublikanın ali tədris müəssisələrində, xüsusi kurslarda öz praktiki əhəmiyyətini tapa, həmçinin geniş tədqiqatçılar və Azərbaycan tarixi ilə maraqlananlar üçün faydalı mənbə ola bilər.

Nurulla Əliyev
ehtiyatda olan I dərəcəli kapitan,
tarix elmləri doktoru,
«Dərbənd» Xeyriyyə İctimai Birliyinin sədri,
Silahlı Qüvvələrin Hərbi Akademiyasının
Adyunktura və elmi şöbəsinin
hərb tarixi üzrə professoru

Ü M U M İ M Ə L U M A T

Dərbənd – Şimali Azərbaycanın ən qədim şəhərlərindən biri olan Dərbənd haqqında Azərbaycan – Türkiyə, alban, yunan, latın, fars, gürcü, ərəb, rus və b. mənbələrdə, həmçinin orta əsrlər Avropa müəlliflərinin əsərlərində çoxsaylı və ətraflı məlumat verilmişdir. Şəhərin salındığı tarix dəqiq məlum deyildir. Bu ərazidə aparılmış arxeoloji qazıntılar nəticəsində e.ə. VIII-VI əsrlərə aid yaşayış məskəni aşkar edilmişdir. Qədimdə Azərbaycan Albaniyasının Çola (Çoqa və ya Çora) vilayəti ərazisində eyniadlı şəhər salınmışdı. Eramızın əvvəllərindən bu yaşayış məntəqəsi Albaniyanın iri məntəqələrindən birinə çevrilmişdir. Baş Qafqaz silsiləsi ilə Xəzər dənizi arasında olan mühüm strateji əhəmiyyətli «Alban qapıları» adlanan keçid də burada yerləşirdi. Skiflər, alanlar, hunlar, xəzərlər və b. tayfalar Cənubi Qafqaza və Ön Asiyaya hücumları zamanı bu keçiddən istifadə etmişlər. Onların hücumlarının qarşısını almaq məqsədilə yerli hakimlər, sonralar isə Sasani və ərəb canişinləri tərəfindən keçid boyu gözətçi məntəqələri və müdafiə istehkamları tikilmişdi. «Qafqaz dağları ilə Şərq (Xəzər) dənizi arasındakı möhtəşəm tikinti üçün inşaatçılar toplayan və müxtəlif material arayan İran şahları ölkəmizi taqətdən salmışdılar» (Musa Kalankatlı). Qədim şəhər iki qüdrətli qala divarı arasına alınmışdı. Bu divarlar Xəzər dənizinin içərisinə doğru xeyli uzanaraq süni liman yaratmışdı. Divarların əks qurtaracaqları isə hündür dağ ətəklərinə söykənmişdi. VI əsrdə Dərbənd divarlarında həkk olunmuş kitabələrdən məlum olur ki, hələ o zaman Azərbaycanın ərazisi cənubdan şimaladək Adurbadaqan adlanırdı. Erkən orta əsrlərdə sahəsinə görə Dərbənd Cənubi Qafqaz, Ön və Orta Asiyanın bir sıra ən iri şəhərlərini geridə qoyurdu. Bura Dərbənd hakiminin iqamətgahı və qarnizonunun yerləşdiyi yer, inzibati-siyasi və mədəni mərkəz idi. Tarixi mənbələrdə Dərbəndin Bab əl-Hədid, Bab əl-Əbvab (ərəb), Dərbənd (fars), Dəmirqapı (türk), Teymur Kahalqa, Kahulqa (monqol), Xəzər Dərbəndi, Bakı Dərbəndi, Şirvan Dərbəndi və s. adlarından bəhs olunmuşdur. «Kitabi-Dədə Qorqud» dastanında da Dərbəndin adı çəkilir. «Dərbəndnamə» əsərində, alman səyyahı Adam Olearinin (XVII əsr), türk səyyahı Övliyə Çələbinin (XVII əsr) və b. müəlliflərin əsərlərində Dədə Qorqudun qəbrinin Dərbənd şəhəri yaxınlığında olduğu haqda məlumat verilmişdir. Erkən orta əsrlərdə Dərbənd şəhəri Şimali Qafqazı və Şərqi Avropa ölkələrini Orta və Yaxın Şərq ölkələri ilə birləşdirən mühüm ticarət mərkəzi idi. V əsrdə isə Dərbənd iqtisadi və siyasi cəhətdən Albaniyanın mühüm şəhərlərindən biri, həm də Sasani canişinlərinin (məkzbanların) iqamətgahı idi. Sasanilər dövründə hunların, barsillərin, xəzərlərin və b. tayfaların hücumlarının qarşısını almaq üçün Dərbəndin möhkəmləndirilməsinə xüsusi diqqət verilirdi. Sasanilər imperiyasının daxili əyalətlərindən buraya 30 min farsdilli ailə köçürülmüşdü. Sasani hökmdarı I Xosrov (531-579) Dərbənd keçidini qorumaq üçün 5 minlik hərbi hissə ayırmışdı. Lakin bütün bu tədbirlər Şimaldakı köçəri tayfaların Cənuba axınının qarşısını ala bilmədi. 626-627 illərdə xəzərlər Dərbəndi tutub qala divarlarını dağıtdılar. Dərbənd şəhəri uzun müddət xəzərlərin Cənuba hücum yolu olmuşdur. Ərəblərin yürüşü dövründə Dərbənd şəhərinin ərazisi və onun ətrafı onların xəzərlərlə döyüş meydanına çevrilmişdi. 714/715 ildə ərəblər Dərbənd şəhərinin qala və bürclərini bərpa etdilər və burada 24 min ərəb əsgəri yerləşdirildi. Dərbənd şəhərində zərbxana var idi və burada pul kəsilirdi. Abbasilər Xilafəti dövründə (750-1258) Dərbənd şəhəri Xəzər xaqanlığı, rus knyazlıqları, Bizans, Avropa ölkələri, Suriya, İraq, İran, Orta Asiya, Hindistan, Çin və başqaları ilə ticarətdə əsas tranzit məntəqəsinə çevrilmişdi. Dərbənd şəhərinin bazarlarında xarici ölkə tacirlərinin faktoriyaları vardı. Dərbənd şəhəri IX-X əsrlərdə Sacilər və Salarilər dövlətlərinin tərkibində olmuş, sonra isə Şirvanşahların hakimiyyəti altına keçmişdir (988). Şirvanşahlardan asılı olan Dərbənd əmirliyi XI əsrin 1-ci yarısında güclənmişdi. 1032-ci ildə Azərbaycana yürüşdən geri qayıdan rus hərbi

dəstələri Dərbəndin Haşimi əmiri tərəfindən darmadağın edilmişdi. XI əsrin 60-cı illərinin sonu – 70-ci illərinin birinci yarısında Dərbənd Səlcuq dövlətinin tərkibinə daxil edildi. Tarixçi ən-Nəsəvinin (XIII əsr) məlumatına görə, Xarəzmşah Cəlaləddinin dövründə Dərbənd ətrafına 50 min qıpçaq ailəsi köçmüşdü. 1239-cu ildə Dərbənd monqollar tərəfindən zəbt edildi. Qızıl Ordu və Elxanilər (Hülakular) arasında gedən müharibələr zamanı Dərbənd şəhəri mübahisə mərkəzinə çevrilmişdi. Elxanilərin zəiflədiyi dövrdə Dərbəndin də daxil olduğu Şirvanşahlar dövləti dirçəlmişdi. Şirvanşah I İbrahim əslən dərbəndli olduğundan onun banisi olduğu sülalə də Dərbəndilər adlandırıldı. Azərbaycan Dərbəndilər sülaləsi dövründə Dərbənd şəhəri Şirvanın mühüm yaşayış məntəqələrindən birinə və əsas limanına çevrilmişdi. Teymurun Qızıl Ordu xanı Toxtamışla 1395-1396-cı illərdə apardığı mübarizə Dərbənd şəhərinin iqtisadi həyatına ağır təsir göstərdi. Teymurla Şirvanşah I İbrahim arasındakı əldə olunan razılığa görə Şirvanşahlar Dərbənd keçidini Qızıl Ordadan qorumalı idilər. Azərbaycan Səfəvi hökmdarı I Şah İsmayıl (1501-1524) Dərbəndi tutduqdan sonra İraqda yaşayan bayat tayfasının bir hissəsini buraya köçürdü. Səfəvi-Osmanlı müharibələri zamanı Osmanlı ordusu 1578-ci ildə Dərbəndi zəbt etmişdi. 1606-cı ildə Dərbənd şəhərində osmanlılara qarşı üsyan baş verdi və şəhər yenidən Səfəvilərin tərkibinə qayıtdı. Səfəvilər dövründə Dərbəndin qorunması əfşar və ustaclı tayfalarına tapşırılmışdı. 1722-ci il avqustun 23-də I Pyotrun başçılığı ilə rus qoşunu Dərbəndi işğal etdi. Peterburq (1723-cü il 12 sentyabr) və İstanbul (1724-cü il 12 iyun) müqavilələrinə əsasən Rusiya Dərbəndi işğal etdi. Lakin Azərbaycan Səfəvilər dövlətinin başçısı II Şah Təhmasib sonra Peterburq müqaviləsini tanımadı. Görkəmli Azərbaycan sərkərdəsi və siyasətçisi Nadir Əfşarın çar Rusiyası ilə imzaladığı Rəşt (1732) və Gəncə (1735) müqavilələrinə əsasən Dərbənd şəhəri yenidən Azərbaycan Səfəvilər dövlətinin tərkibinə qaytarıldı. Nadir şahın dövründə Kür çayı sahilində yaşayan sorsor (sursur) tayfası Dərbənd yaxınlığına köçürüldü. XVIII əsrin ortalarında Məhəmmədhüseyn xan mərkəzi Dərbənd şəhəri olmaqla Dərbənd xanlığını (1747-1759) yaratdı. 1759-cu ildə Fətəli xan Dərbənd xanlığını Quba xanlığına birləşdirdi. Dərbənd şəhəri Quba xanlığının ikinci mərkəzinə çevrildi. 1774-cü ildə bir sıra Dağıstan və Azərbaycan feodallarının birləşmiş qüvvələri Dərbənd şəhərini mühasirəyə aldı. Dərbəndin müdafiəsinə başçılıq edən Fətəli xanın arvadı Tutu Bikə şəhəri düşmənə təslim etmədi. 1796-cı ildə V.A.Zubovun başçılığı ilə 30 minlik rus qoşunu Dərbəndi zəbt etdi. Lakin 1797-ci ildə rus qoşunları Azərbaycandan çıxarıldı, bununla belə 1806-cı il iyunun 22-də rus qoşunları yenidən Dərbəndi zəbt etdi. Gülüstan müqaviləsinə (1813 il 12 oktyabr) əsasən Dərbənd Rusiya imperiyasına birləşdirildi. 1830-cu ildə Bakı və Quba əyalətlərini əhatə edən və mərkəzi Dərbənddə yerləşən Dağıstan hərbi dairəsi yaradıldı. 1840-cı ildə Xəzər vilayətinin tərkibində keçmiş Dərbənd, Tabasaran və Qaraqaytaq əyalətini birləşdirən Dərbənd qəzası yaradıldı. 1846-cı ildə Cənubi Qafqazda 4 quberniya, o cümlədən, Dərbənd quberniyası yaradıldı. 1860-cı ildə Dərbənd quberniyası ləğv edildi, Quba qəzası və Bakı quberniyasının tərkibinə verildi. Rusiya imperiyasında Dərbənd şəhəri mühüm ticarət məntəqəsi idi. 1912-ci ildə Dərbənddə yaşayan 32716 nəfər əhalinin böyük əksəriyyətini yenə də azərbaycanlılar təşkil edirdi. 1917-ci ilin dekabrında Dərbənd şəhəri və ətraf bölgədə sovet hakimiyyətinin qurulduğu elan olundu. 1918-ci ilin iyulunda isə L.F.Biçeraxovun dəstələri Dərbəndi zəbt etdi. 1920 il martın 25-də Sovet Rusiyasının 11-ci Qırmızı Ordusu Dərbəndi zəbt etdi, 1921-ci ildə isə RSFSR-də təşkil edilmiş Dağıstan MSSR-in tərkibinə daxil olan Dərbənd Şimali Azərbaycandan ayrı düşdü. Sovet hakimiyyətinin ilk illərində Dərbənd şəhərində və ətraf rayonlarda çoxsaylı Azərbaycan məktəbləri fəaliyyət göstərirdi.

Bax: Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. «Azərbaycan» cildi. «Azərbaycan Milli Ensiklopediyası» Elmi mərkəzi, Bakı, 2007.

TƏBİİ – COĞRAFİ ŞƏRAİT

Relyef. Dərbənd Xəzəryani düzənliyin hüdudlarında tarixi Azərbaycanın şimali-şərq qurtaracağında, Dağıstan Respublikasının cənub düzən hissəsində yerləşir. Bu ərazi şəhər rayonu ətrafında Xəzər dənizinin qərb sahilində dar xətt kimi uzanmışdır. Düzənliyin eni Dərbənddən cənuba və şimala doğru getdikcə artır.

Dərbənd rayonunda dörd qədim Xəzər terrası müşahidə olunur: şəhərin şərq hissəsi yerləşən qədim Xəzər və yaxud Xvalın (eni 1,0-1,5 km) terrasası, şəhərin orta hissəsi yerləşən Xəzər terrası (eni 0,5-0,8 km), qalan ikisi isə Bakı vaxtına aiddir və orada şəhərin yuxarı hissəsi yerləşir (üçüncü terrasın eni 0,3-0,4 km, dördüncü terrasın eni 0,1 km-ə yaxındır). Bunlardan əlavə şəhərin dənizə yaxın olan şimal-şərq hissəsində müasir terras inkişaf etmişdir.

Mühəndis-geoloji şərait. Dərbənd ərazisinin mühəndis-geoloji qiymətləndirilməsi planlaşdırma məhdudiyyətinin 4 kateqoriyasını nəzərə alır. Beşinci kateqoriyaya birinci və ikinci qədim Xəzər terassaları və 1-dən 7%-dək enişli səthlər hüdudunda yerləşən və tikintiyə yararlı ərazilər aid edilmişdir. İkinci kateqoriyaya III və IV qədim Xəzər terassının hüdudlarından şəhərin hündür hissəsində yerləşmiş, səthi 10-dan 30%-dək enişli və tikinti üçün məhdud ərazilər aid edilmişdir. Burada müxtəlif tikinti işləri apararkən suxurun fiziki-texniki xassələrini müəyyən etmək məqsədi ilə ayrı-ayrılıqda xüsusi kəşfiyyat işlərinin aparılması tələb olunur. Üçüncü kateqoriyaya dəniz sahilində yerləşən mühəndis hazırlığı tələb edən müasir ərazidə yerləşən ərazilər aid edilmişdir. Dördüncü kateqoriyaya tikinti üçün istifadə olunmayan ərazilər (çimərlik rayonu) aid edilmişdir.

Rusiya Federasiyasının seysmik rayonunda yerləşən yaşayış məntəqələrinin siyahısına görə Dərbəndin ərazisi 9 ballıq zonaya aid edilmişdir.

Bütövlükdə Dərbəndin ərazisi mühəndis-geoloji şəraiti noqteyi-nəzərindən şəhər tikintilərinin yerləşdirilməsi üçün yararlıdır.

Hidrogeoloji şərait. Dərbənd şəhərinin hidrogeoloji şəraiti Şimali-şərqi Azərbaycanın onun dənizyanı xəttində Dərbənd monoklinal yamacı səddində yerləşməsi ilə müəyyən edilir. Şərqi antiklinal zonaya aid edilmiş Dərbənd monoklinal yamacı açıq axarlı və yuyulan hidrogeoloji strukturdur. Monoklinal yamac sarmat qatının çöküntülərindən ibarətdir; daha çoxsulu hissəsi yuxarı və orta sarmatın qum və əhəngindən ibarətdir. Susaxlayan təbəqənin qidalanma sahəsinə sarmat qatlarının yer kürəsinin səthinə çıxan sahəsi aiddir. Əsas qidalanma mənbəyi atmosfer yağıntılarıdır. Yeraltı suların boşalması Xəzər dənizi tərəfdə baş verir. Yeraltı suların keyfiyyəti çox yaxşıdır, Dərbənd şəhəri rayonunda ümumi minerallaşma vahidi 0,3-1,0 q/l həddindədir. Lakin Dərbəndin şimal və cənubuna doğru, «Xoşmənzil» və «Dağıstan işıqları» neft və qaz yataqlarının çox minerallaşmış sularının təsiri nəticəsində bu sular içmək üçün yararlı olmur. Dərbənd şəhəri rayonunda və onun ətrafında yuxarı sarmatın qumları və əhəngləri ilə bağlı olan iki susaxlayan təbəqə var. Birinci təzyiqli yerin susaxlayan təbəqəsindən su 3-5 metr dərinlikdən 150-190 metr dərinliyindən çıxarılır, ikinci isə 300-390 metr dərinliyindən quyularla çıxarılır. Şəhər ətrafında 10-dan çox yuxarı sarmat qatlarından su verən qazılmış quyular var. Onların arasında elə quyular var ki, maksimal suvermə debiti 43,2 l/san bərabərdir.

Dərbənd rayonunda orta sarmat qatlarının yerin susaxlayan təbəqəsi kompleksi 150 metrdən 360 metrədək dərinliyində olan quyularda aşkara çıxarılmışdır.

Sular aşağı sarmat qatlarında 990-1242 m dərinliyində olan quyularda aşkara çıxarılmışdır. Aşağı təbəqədə yerləşən çokrak-tarxan qatlarında 32°-dən 54° dərəcəyədək termal və subtermal sular var. Onlar tərkibinə görə natrium-xlorlu, yüksək minerallı, 9-dan 28,7 q/l-dək quru qalıqlıdır.

1600-2000 m dərinliyində bu suların temperaturu 60-70°C olur, 2500-3000 m dərinliyində bu suların temperaturu 130-150°-yə çatır, quyuların debiti isə – 20-30 l/san və daha çox olur. Termal və subtermal sular müalicədə və müxtəlif təsərrüfat ehtiyacları üçün istifadə oluna bilər.

Başmak təpəsi. Şəhərin şimalında süni yaradılmış torpaq təpəsidir. Əfsanələrin birinə görə İskəndər Zülqərnəynin (Makedoniyalı İskəndər) qoşunları şəhəri çətinliklə mühasirəyə alanda sərkərdə qalanın müdafiəçilərini qorxutmaq üçün legionerlərinə əmr edir ki, onların gözlərinin qabağında ayaqqabılarından tozu çırpsınlar və guya həmin torpaq təpə məhz bunun nəticəsində əmələ gəlmişdir.



Digər rəvayətə görə isə Dərbəndi Azərbaycan Səfəvilər dövlətinə qaytarmış Nadir şah Əfşar (1736-1747) öz əsgərlərini sərt cəzalandırır. Bir gün o, qışda Dərbənd ətrafında qala istehkamlarını qurarkən əmr edir ki, ayaqqabılarını çıxartsınlar. Bu hadisə təpənin adının yaranmasına səbəb olmuşdur.

Dərbənd təpəsi. Şərqi Qafqaz dağ silsilələri ilə Xəzər dənizi arasındakı dar keçidin (eni 3 km) üzərindəki təpədir. Bu təpədə Narınqala qalası tikilmişdir. Ayri-ayri mənbələrdə bu təpənin adı müxtəlifdir. Məsələn, X əsrin ərəb müəllifi Əhməd ibn A·sam əl-Kufi onu «əl-Kunak» və məşhur ingiliş taciri və dəniz səyyahı Entoni Cenkinson qeydlərində isə (1561-1563) «Kasta» adlandırmışdır.

Bu hündür təpədən dar bir zolaq kimi çox şimala və cənuba doğru neçə-neçə kilometr uzanıb gedən Xəzəryanı düzənlik aydın görünür.

Dqib dağı (ərəb., canavar). Dqib dağı haqqında Dərbənd şəhərini təsvir edən bir çox ərəb müəlliflərinin əsərlərində məlumat verilir. Belə ki, Əl-İstəxrinin «Kitabi məsalik və al-məmalik» («Yollar və səltənətlər kitabi») əsərində (X əsr) oxuyuruq: «…şəhərin kənarında əl-Dqib adlandırılan böyük dağ var. Düşmənlərin Azərbaycan və Arran tərəfə hücumundan qorxaraq, hər il bu dağın üstünə çoxlu odun aparıb çoxlu tonqallar qalayırlar».

Məşhur ərəb ensiklopediyaçısı Yaqut əl-Həməvinin «Mücəm əl-Buldun» adlı coğrafi lüğətində (XII əsr) aşağıdakı sətirlər vardır: «Şəhərin bir tərəfində Dqib adlandırılan bir dağ var. Bu dağın üstünə hər il çoxlu odun ehtiyatı yığırlar və Azərbaycan və Arran sakinlərini düşmənin gəlməsindən xəbərdar etmək üçün tonqallar qalayırlar». XIII əsrin digər bir müəllifi əl-Qəzvininin «Yaradılmışların möcüzələri və mövcud şeylərin qəribəlikləri» kitabında isə oxuyuruq: «…şəhərin kənarında Dqib adlandırılan sərt bir dağ var. Hər il onun zirvəsinə çoxlu odun toplayırlar ki, Arran, Azərbaycan sakinlərini düşmənin gəlməsini xəbərdar etmək məqsədilə tonqallar qalasınlar». Həmin məlumatlara Əzizin (XIII əsr), Əbu-l Fidanın (XIII əsr) və başqalarının da əsərlərində rast gəlinir.

Görünür, sonuncu müəlliflər bu məlumatı əl-İstəxridən götürmüşlər və ona görə də məlumatlar bir-birini, demək olar ki, eynilə təkrar edir. Tədqiqatçıların fikrinə görə, xəbərdarlıq tonqallarının yandırıldığı Dqib dağı zirvəsində hazırda eyni adlı kənd yerləşən Calqan dağıdır.

İqlim. Dərbənd Xəzər dənizinin qərb sahilində yerləşir. Şəhər dünya okeanının səviyyəsindən 28 metr aşağıda yerləşir və Adriatik və Qara dəniz sahilindəki ən yaxşı kurort şəhərlərinin yerləşdiyi en dairəsindədir. Təbii termotənzimləyici rol oynayan isti dənizin yaxınlığı burada yumşaq, musson xarakterli iqlim yaradır. Çoxillik müşahidələrin göstəricilərinə görə şəhərdə orta illik temperatur +12,5^{0}C, nisbi rütubət 75%-dır. Buradan quru subtropiklərin şimal sərhəddi keçir. Yağıntı nisbətən az olur və ildə cəmi orta hesabla 430 mm təşkil edir.

Şəhərdə orta aylıq temperatur Selsi şkalası üzrə aşağıdakı kimidir:

Yanvar	–	-1,4
Fevral	–	+1,7
Mart	–	+4,0
Aprel	–	+9,1
May	–	+ 15,9
İyun	–	+21,3
İyul	–	+24,6
Avqust	–	+24,4
Sentyabr	–	+20,0
Oktyabr	–	+14,5
Noyabr	–	+8,6
Dekabr	–	+4,2

Yuxardakı məlumatlardan göründüyü kimi:

– ilin ən soyuq ayı yanvar (-1,4^{0}C), ən isti ayı isə iyuldur (+24,6^{0}C);

– üç qış ayının (dekabr, yanvar, fevral) orta

temperaturu +2,6^{0}C, üç yaz ayının (mart, aprel, may) +9,7^{0}C; üç yay ayının (iyun, iyul, avqust) +23,6^{0}C, üç payız ayınınkı (sentyabr, oktyabr, noyabr) isə +16,4^{0}C-dir;

Göründüyü kimi, payız yazdan iki dəfə istidir. İlin ən yağışlı ayı noyabr (73 mm), ən quraylıq ay isə avqust (cəmi 18 mm) ayıdır.

Yağıntının orta aylıq miqdarı:

Yanvar – 28 mm	İyul – 19 mm
Fevral – 33 mm	Avqust – 18 mm
Mart – 25 mm	Sentyabr – 48 mm
Aprel – 33 mm	Oktyabr – 50 mm
May – 20 mm	Noyabr – 73 mm
İyun – 24 mm	Dekabr – 54 mm

İl ərzində yağan 430 mm yağıntının 255 mm-i sentyabrdan dekabradək düşür.

İlin isti vaxtlarında Dərbənddə əsasən cənub və cənub-şərq küləkləri, qış dövründə isə – cənub-qərb və şimal-qərb küləkləri əsir. Bundan əlavə, gilavar (dənizdən quruya) küləyi əsir.

Dərbənddə güclü külək əsmir. İl ərzində küləyin sürəti saniyədə 2,8 metrdən 3,6 metrədək tərəddüd edir.

İl ərzində 219 günəşli gün olur. Bu da əsasən maydan avqusta kimi olan dövrə düşür. Üç qış ayında isə (dekabr, yanvar, fevral) cəmi 24 günəşli gün olur. Göstərilən məlumatlar çoxillik müşahidələrin nəticəsidir. Lakin ayrı-ayrı illərdə iqlimdə dəyişikliklər baş vermişdir. Buna baxmayaraq həmin dəyişikliklər Dərbəndin iqlim şəraitini xarakterizə edən parametrlər kimi götürülə bilməz.

Dolu. 1897-ci ilin may ayının 12-də Dərbənd şəhərinə günün ikinci yarısında göyərcin yumurtası boyda dolu yağmışdır. Yarım saat ərzində yağan dolu üzüm bağlarına, bostanlara, əkin sahələrinə (5 km. əraziyə) 400 min rubl dəyərində ziyan vurmuşdur. Daha belə bir dolu şəhərə 1923-cü ilin iyun ayının 4-də düşmüşdür. Bu dolu əkin sahələrində və üzüm bağlarında 2-3 gün qalmışdır. Doludan sonra güclü külək və yağış bütün üzüm və meyvə bağlarını məhv etmişdir. Əkin sahələri selin dağlardan yuyub gətirdiyi daşın, çınqılın, lilin altında qalmışdır. Şəhərə dəymiş ziyan güclü təbii fəlakət kimi qiymətləndirilmişdir.

Moskvada ezamiyyətdə olan Dağıstan Ümumittifaq Mərkəzi İcra komitəsinin sədri N.Samurskiyə Dərbənddə olmuş təbii fəlakət haqqında təcili teleqram göndərilmişdir. O da öz növbəsində bu haqda mərkəzi hakimiyyətin təşkilatlarına məlumat vermişdir. Şəhərə təxirəsalınmaz köməklik göstərilmişdir. Təbii fəlakətin vurduğu ziyanı aradan qaldırmaq üçün şəhərə 10 min rubl qızıl pul ayrılmışdır. Bu da 1923-cü ilin kursu ilə 600 min rubl dəyərində idi. Dağıstan Xalq Komissarları Şurasının 9 iyun 1923-cü il tarixli qərarı ilə şəhərə dəymiş ziyanı müəyyən etmək və ziyanın nəticələrini aradan qaldırmaq üçün görüləcək tədbirlər üzrə xüsusi komissiya yaradılmışdır.



Xəzər dənizi. Xəzər dənizi dünyanın ən böyük gölü, Azərbaycan Respublikasının hidroqrafik şəbəkəsinin ən iri və mühüm su hövzəsidir. Avropa və Asiya qitələrinin təmasında geniş materik depressiyasında 36^{0}34′ və 47^{0}10′ şm. Enlikləri, 46^{0}42′ və 54^{0}42′ ş. uzunluqları arasında yerləşir. Təqr. 6500 km uzunluğundakı sahil xəttinin şm.-da Samur, c.-da Astara çayları arasındakı 816 km-i Azərbaycan Respublikasının payına düşür. Ölçülərinə, akvatoriyasında baş verən proseslərin mahiyyətinə, hidroloji xüsusiyyətinə, fauna müxtəlifliyinə və geoloji inkişaf tarixinə görə dəniz hesab olunur. Xəzər dənizinin yazılı mənbələrdə 100-dək adı məlumdur. Aşşur mənbələrində (e.ə. XIV -VII əsrlər) Cənub dənizi, yunan alimləri Miletli Hekatey (e.ə. VI əsr) və Herodotun (e.ə. təqr. 546-480) əsərlərində Kaspi və Hirkan dənizi adlanır. Daha sonralar Alban, Xəzər, Göy, Coşqun, Abeskun, Bakı, Dərbənd, Şirvan, Gürgan, Xvalın və s. adlanmışdır.

Xəzər dənizi geomorfoloji və hidroloji xüsusiyyətlərinə görə üç hissəyə - Şimali, Orta və Cənubi Xəzər çökəkliklərinə bölünür. Şimali və Orta Xəzəri bir-birindən Manqışlaq (Çeçen y-a - Gülalı sayı - Tüb Karaqan y-a), Orta və Cənubi Xəzəri isə Abşeron (Abşeron y-a-Çələkən y-a) astanaları ayırır. Onların maks. dərinliyi müvafiq olaraq 25 m, 788 m (Dərbənd çökəkliyi) və 1025 m (Lənkəran çökəkliyi), orta

dərinlikləri isə 4,4 m, 192 m, 345m-dir.

Xəzər dənizi Neogen dövrünün Miosen mərhələsinin axırlarına qədər (təqribən 25 mln. il əvvəl) Tetis okeanı dənizlərindən biri olmuş və onlarla əlaqəli inkişaf etmişdir. Sonralar həmin əlaqə kəsilmiş və o, qapalı su hövzəsinə çevrilmişdir. Lakin Pliosen dövründə – IV dövrdə Xəzər dənizi Qara dənizlə və beləliklə, Dünya okeanı ilə birləşmişdir. Sonuncu dəfə belə əlaqə Dördüncü Dövrün Xvalın əsrində, təqr. 40 min il bundan əvvəl baş vermişdir. Bundan sonra o, qapalı hövzə (göl) kimi inkişaf etmiş və səviyyəsi dövri olaraq qalxma və enmələrə məruz qalmışdır.

Bax: Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. «Azərbaycan» cildi. «Azərbaycan Milli Ensiklopediyası» Elmi mərkəzi, Bakı, 2007, səh. 39.

Səth suları. Dərbənddə səth suları çaylar, göllər, bulaqlar, arxlar, quyular, su anbarı və kanallarla təmsil olunmuşdur.

Kəhriz – Yeraltı suları yerin üzərinə çıxarmaq üçün qazılan quyular və yeraltı su tunelindən ibarət su qurğusu.

Su təminatı. Müdafiə qurğuları ilə yanaşı şəhər hakimlərinin əsas qayğılarından biri də şəhərin su təminatı idi. Bu, onunla izah olunurdu ki, şəhər tez-tez mühasirədə olarkən şəhərin müdafiəçiləri üçün ən vacibi su təminatı idi. Şəhər susuz yerdə yerləşirdi. Yaxın çaylar – şimalda Ullu çayı və cənubda Rubas çayı şəhərin 15-20 km-də yerləşirdi. Şəhərin ətrafında bulaq yox idi, onun köhnə hissəsində qazılan quyularda su çox dərində idi. Şəhəri su ilə təmin edən onun qərb hissəsində dağlardan özbaşına axıb gələn bulaqlar idi. Bu sular yeraltı daş kanallar vasitəsilə su anbarlarına axıb tökülürdü və buradan da bulaqlara axırdı.

Bu sistem əsrlərlə fəaliyyət göstərmişdir. Hətta leytenant-bombardmançı İvan Qerber də 1728-ci ildə bu haqda məlumat vermişdir.

1770-ci ildə II Yekaterina tərəfindən Xəzəryanı və Yaxın Şərq ölkələrini təsvir etmək məqsədilə göndərilmiş elmi ekspedisiyaya rəhbərlik edən akademik S.Qmelin Dərbənd şəhərinin su təminatı haqqında da məlumat vermişdir.

Şəhər sakinlərini qiymətli su ilə təmin edən və şəhərin müdafiəsini təmin edən su təminatı sistemləri şəhər hakimləri tərəfindən müdafiə olunurdu və genişləndirilirdi. Tarixçilər bu və ya digər şəhər hakimlərinin xidmətlərini qeyd edərək, onlar tərəfindən su anbarlarının tikilməsini və təmirini xüsusi vurğulayırdılar. Belə ki, qədim müəlliflər I Xosrov Ənuşirəvanın (531-579) «sehrənci» (su üçün çən – ərəb.) tikməsi haqqında, 716-cı ildə şəhəri işğal etmiş ərəb sərkərdəsi Məsləmənın su kəmərini təmir etdirməsi və su anbarını tikdirməsi haqqında, xəlifə Mərvanın (744-750) dövründə şəhər su kəmərinin tikilməsi haqqında, xəlifə Harun ər Rəşidin dövründə (786-809) Rubas çayından su kanalının çəkilməsi haqqında, I Şah Abbasın dövründə (1587-1629) yeddi bulağın çəkilməsi və su anbarının tikilməsi haqqında, Şah II Abbasın dövründə (1642-1666) yeni su kəmərinin tikilməsi haqqında, Nadir şahın dövründə (1736-1747) Samur çayından Dərbəndə suyun çəkilməsi haqqında məlumat verirlər.

Lakin qədim yazılı mənbələr bilavasitə şəhərin su təchizatı sistemi haqqında çox da konkret məlumat vermirlər. Şəhərin su kəmərinin ilk dəqiq öyrənilməsi 1862-ci ildə mühəndis-hidrotexnik Frolov tərəfindən aparılmışdır. Bu tədqiqatın aparılmasının nəticələrinə əsaslanan iki yazı vardır: «Dərbəndin yeraltı su mənbələri haqqında» və «Dərbəndin su kəmərləri haqqında». Bu yazılara əsasən şəhərə su dağlarda yerləşən bulaqlardan daş qanaovlar və gil borular vasitəsi ilə daxil olurdu. Şəhərdə bu mənbələrdən qidalanan 6 bulaq var idi: Calqan dərəsi və Cangəlməstan dərəsi – şəhərin cənubunda, Pirəməşqi dərəsi, Köçdərə şəhərin qərbində, Gəurqaya (Katırqaya) şəhərin şimalında yerləşirdi. Bu mənbələr 15 daha kiçik bulağı su ilə təmin edirdi. Calqan dərəsindən yeddi quyu vasitəsilə yerin üstünə bulaqlara çıxarılan su Kilsə bulağına verilirdi. Bu bulağın qalıqları indi də qalmışdır. Cangəlməstan dərəsindən on bir quyu vasitəsilə yerin səhtinə bulaqlara çıxarılan su Şahsalah bulağına verilirdi. Bu bulaq şəhərin cənub divarının arxasında Orta qapının yanında yerləşirdi. Pirəməşqi dərəsi bulağından su Bəyəhməd su kəməri ilə iki bulağa - Narınqalanın içərisinə və Qala bulağına verilirdi. İkinci Məscid su kəməri Pirəməşqi dərəsi bulaqlarından Məscid bulağına, Məscid və Qızlar hamamına verilirdi.

Köçdərə bulaqları cənub şəhər qapısı arxasında Bayat qapısının yanında yerləşən Cur-cur bulağını, şimal qapısının arxasında Carçı qapısının yanında yerləşən Carçı bulağını, 4-cü məhəllədə yerləşən Genküçə bulağını, 6-cı məhəllədə yerləşən Bazar və

Xan bulaqlarını, şimal şəhər qapısının arxasındakı Qırxlar qapısının yanında yerləşən Qırxlar bulağını (Bayır bulağı) və 2-ci məhəllədə yerləşən Mikri bulağını, həmçinin, Qırxlar hamamını su ilə təmin edirdi. Görüşdərə bulaqları 5-ci məhəllədə yerləşən Peyinnik bulağını və 1-ci məhəllədə yerləşən Çortəpə bulağını su ilə təmin edirdi.

Gəurqaya (Katırqaya) bulağı isə şəhərin 2 kilometrliyində və şimal hissəsində yerləşən Avain bulağını su ilə təmin edirdi.

Sadalanan su borularından ən qədimi Pirəməşqi dərəsinin bulaqlarından çəkilmiş Əhmədsu borusu idi. 716-cı ildə ərəb sərkərdəsi Məsləmənin şəhəri mühasirədə saxlaması haqqında əfsanə bu su borusu ilə bağlıdır.

Bu bulaqlardan başqa, şəhərə Avainbulaqdan və kəhrizlərdən su gətirilirdi. Bu bulaq və kəhrizlər – Kəfərli (şəhərin şimalında), Calqan, Hacibəyli və Cüqut bulağı (şəhərin cənubunda) şəhərin kənarında yerləşirdi. Bulaqların suyu şəhərdə olan fəvvarələrin və quyuların suyundan müqayisəolunmaz dərəcədə təmiz və yaxşı idi. Ona görə də imkanlı adamlar suyu daha çox sudaşıyanlardan alırdılar.

Suyun çatışmazlığı ilə əlaqədar rus mühəndisi Frolovun təklifi ilə şəhərin aşağı (yeni) hissəsini su ilə təmin etmək üçün Kilsə meydanında Kilsə bulağından başqa daha beş quyu qazılmışdır.

Sadalanan bulaqlardan hazırda yalnız ikisi fəaliyyət göstərir: Narınqaladakı bulağı su ilə təmin edən Pirəməsqi dərəsinin bulaqları və Şeyx Salah bulağını su ilə təmin edən Cangəlməstan dərəsinin bulaqlarıdır.

1906-cı ilin iyul ayında su borularının vəziyyətinə şəhər müvəkkillərinin iclasında baxılmışdır. Şəhər başçısı K.Heydərov və memar Jadanov tərəfindən təqdim olunmuş şəhər su boru xətləri planına baxılmış və qərara gəlinmişdi ki, «...Şəhərin su təminatı hissəsi üzrə hər şəhər sakininə gündəlik 3 vedrə su kifayətdi».

1. Fəvvarələr şəhərin 4 yerində qurulmalıdır:

a) Kilsə meydanında,

b) Taxtabazar meydanında,

c) Kazarmaların yanında,

d) Qolitsın bağının yanında.

2. Şəhərin bütün su kəmərləri xətlərindəki supaylaşdırıcı kranlar fontanların yaxınlığında olmalı, yanğın kranları isə hər 30 sajendən bir olmalıdır (1 sajen =2,13m).

Şəhərin su təminatı hazırda iki su borusu ilə yerinə yetirilir: Qaytaq su borusu (mənbələri Məcalis stansiyasının yaxınlığındadır) və Samur su borusu (Azadoğlu stansiyasının mənbələri).

Bulaqlar – qədim Dərbənd şəhərin su təminatında xüsusi yer tutmuşdur.

Növünə görə bulaqlar iki qrupa bölünürdü: yaşayış məhəllələrində yerləşənlər və şəhər kənarında və şəhər divarlarının hüdudlarından kənarda yerləşənlər.



Şəhərin şimal hissəsinin iki kilometrliyində Avain bulağı yerləşirdi. Narınqala qayasının yanında da iki bulaq var idi.

Şəhər divarlarının daxilində yerləşən və şəhər sakinlərinin məişət tələblərini təmin edən bulaqlar məhəllə məscidlərinin yanında yerləşirdi. Onlar məhəllələrin adları ilə də adlanırdılar: Xan küçə məhəlləsində – Xan bulağı, Çortəpə məhəlləsində – Çortəpə bulağı, Mikri məhəlləsində – Mikri bulağı və s. Belə 10 bulaq var idi: Qala bulağı (Narınqala qayasının şərq qapılarının pilləkəninin alt meydançasında), Xan bulağı (9-cu məhəllədə Carçı qapısının yanında), Məscid bulağı (Cümə məscidinin həyətində), Bazar bulağı (6-cı məhəllədə), Genküçə bulağı (M.Rzayev küçəsində), Çortəpə bulağı (1-ci məhəllədə), Mikri bulağı (2-ci məhəllədə), Kilsə bulağı (Kilsə meydanında, indiki Azadlıq meydanı), Quruq bulağı (forştatda, indiki «Dagün» fabriki rayonunda).

Şəhər divarlarının hüdudlarından kənarda yerləşən bulaqlardan karvanlar və yolçular istifadə edirdilər. Belə 5 bulaq var idi.

Orta qapının yanında yerləşən Şeyx Salah bulağı, Bayat qapısının yanında yerləşən Cur-Cur bulağı, Qırxlar qapısının yanındakı Bair bulağı və

yaxud Qırxlar bulağı, Carçı qapısının yanındakı Carçı bulağı və şəhərin şimal hissəsinin iki kilometrliyində, şəhərə aparan qədim karvan yolunda yerləşən Avain bulağı şəhər sakinlərini su ilə təmin edirdi.


Şeyx Salah bulağı, Məscid bulağı, Bazar hamamı bulağı, Beşinci məhəllə bulağı, Mikri bulağı Hacı Şahmərdan tərəfindən tikilmişdir.

Bulaqlar özünün tarixi mövcudluğu dövründə dəfələrlə yenidən tikilib və yeniləşdirilmişdir. Bəzi bulaqların üstündə olan yazılar da bunu sübut edir. Məsələn: Şeyx Salah bulağının kitabəsi hicri tarixi ilə 1120-ci və1285-ci illərin (1708/9 və 1868/9) təmirindən xəbər verir. Xan bulağı Dərbənd bəyi Mirzəbəy Xanbalabəy oğlu tərəfindən hicri tarixi ilə 1237-ci ildə (1821/2) yenidən təmir edilmişdir.

Dərbənd şəhərində daha iki bulaq var - Genküçə bulağı və Çahartəpə bulaqları. Bayat qapısının cənub hissəsində yerləşən bulaqlardan bir çox ailələr istifadə edirdi. Onların yaxınlığında Kavuz bəyin bağı yerləşirdi. Burada Bestujev-Marlinski tez-tez istirahət edirdilər. Çır-çır bulaqdan isə Ağadadaş bəy və Məşədi Hacı bəy istifadə edirdilər.

Vaxtı ilə şəhəri su ilə təmin edən bulaqlar tədricən qurumuş və sıradan çıxmışdır. Bu gün haqqında məlumat verilən və fəaliyyətdə olan 15 bulaqdan Narınqalada Şeyx Salah bulağı, Peyinnik bulağı qalmışdır. Fəaliyyətsiz qalanlar Genküçə, Kilsə, Çortəpə, Avain, Bayır (Qırxlar) bulaqlarıdır.

Avain bulağı — məşhur su qaynağıdır, şəhərin şimal hissəsində və bir kilometrliyində şəhərə gedən qədim karvan yolunun yanında yerləşir.



Avain bulağı nəhəng, uzunluğu 20 m-dən çox, Gəurqayanın əsasında tikilmiş hovuzdur. Bir çox heyvanlar bu hovuz-bulaqdan su içir. Hovuza su qayanın mağaracığından dörd ağızla axırdı. Yolun kənarında yerləşən bu su mənbəyinin böyük əhəmiyyəti var idi. Çünki bu su mənbəyi qədim karvan yolunun ayrılmaz tərkib hissəsi idi.


Bu su mənbəyi hələ ərəblərin Dərbənddə hakimiyyəti dövründən məlum idi. Onun bizə gəlib çatan qədim adı «Ab-i-çeşim» (fars dilindən) tərcümədə «göz yaşı kimi təmiz su» deməkdir. Sonra ərəblərin dövründə «Ab-i-Eyn» adlandırıldı («Ab»-su deməkdir, «Eyn» - «göz» yeri). Xeyli zaman keçdikdən sonra bu su mənbəyi turk dilində «Avain» (yəqin ki, «Abi-eyn»in deyim formalarından biri) adlandırılmağa başladı.

Bir çox qədim əsərlərdə bu su mənbəyi xatırlanır. «Dərbəndnamə» əsərinin qədim əlyazmasında, V əsrin sonundan 1064-cü ilə kimi tarixi hadisələri əhatə edən hissəsində, hicri təqvimi ilə 103-ci ildə ərəb sərkərdəsi Əbu Übeyd Cərrah tərəfindən şəhərin tutulması təsvir edilən bölmədə qeyd olunur ki, Cərrah səfər təbilini vurduraraq qoşunlarına əmr etdi ki, şəhərə hucum edilsin. Böyük məşəllər yandırıldı və bu məşəllərin işığında 12 min əsgər hucuma göndərildi. Onlar Dərbəndin qapılarından keçərək Ab-i Eynə çatdılar. Bu su mənbəyi XX əsrin 60-ci illərinə qədər mövcud idi.

Vəliət-arxı (Vəliəhd) – Rubas çayından çəkilmiş qədim suvarma kanalıdır.

Süni suvarma (irriqasiya) qurğuları. Bu suvarma qurğuları haqqında ilk məlumatlar VIII əsrə aiddir. 7 il Dərbənd şəhərində yaşamış xəlifə Harun-ər Rəşidin (786-809) əmri ilə Rubas çayında (şəhərdən 15 km cənubda) bənd tikilmiş və o dövrdə şəhərin kənarlarındakı susuz çöllərə su çəkilmişdir.

Daha bir qədim suvarma arxı şəhərə Gürgünçay çayından çəkilmişdir (şəhərdən 40 km cənubda). Rəvayətə görə Nadir şah Əfşarın dövründə (1736-1747) Samur çayından şəhərə daha bir kanal çəkilmişdir.



Lakin XIX əsrin ortalarında Gürgünçay və Samur çayları boyunca yeni xam torpaqların mənimsənilməsi ilə əlaqədar yay mövsümündə suvarma

üçün çaydan su götürən kanallar çayların məcrasını qurudurdu. Ona görə də su Dərbəndə gəlib çatmırdı. Şəhər ətrafında üzümçülüyün və boyaq otunun (marena) becərilməsinin inkişafı isə müntəzəm suvarma tələb edirdi. 1862-ci ildə Dərbənd şəhər rəisi M.T.Loris-Melikov Dərbənd vilayət rəisinə məktub yazır. Samur kanalının layihəsini və smetasını tutmaq üçün dəvət olunmuş mühəndis-hidrotexnik Frolov artıq 1862-ci ilin avqust ayında Samur suvarma kanalının layihəsini və 2 smetasını tutmuşdu: 113,6 min rubl və 149,6 min rubl. İkinci smeta birincidən qurğunun əsaslılığı ilə fərqlənirdi. Bu kanal 5 min desyatinə yaxın torpağı suvarmalı və hər il onun istismarından 10-12 min rubl gəlir götürülməli idi. Bu zaman nəzərə alınmalı idi ki, 1 desyatin torpağın suvarma haqqı təxm. 12 rubl təşkil edirdi. Lakin dövlət strukturları bu suvarma kanalının çəkilməsinə pul verməyə etiraz etdi.

Hazırda Dərbənd şəhəri ətrafındakı torpaqların suvarma problemini Samur-Dərbənd suvarma kanalı həll edir. Bu kanal Samur çayında tikilmiş bənddən başlayır və 14,8 km keçərək suyu Gürgünçaya tökür və təbii axarı ilə 16-17 km keçərək ikinci su anbarına tökülür, oradan kanal Dərbəndin şimal hissəsinə qədər 22,4 km uzanır və şəhərdən keçərək Ulu çaya çatır.

Su anbarları. Şəhərin su təminatı sistemində su saxlamaq üçün daşdan hörülmüş yeraltı anbarlar böyük rol oynayırdı. Qədim qala şəhərin hərbi qüdrəti və rifahı su ehtiyatından çox asılı idi. Həm də böyük su ehtiyatlarına görə Dərbənd şəhəri uzunmüddətli mühasirələrə davam gətirirdi.

IX əsr ərəb müəllifi ət-Təbəri hicri tarixi ilə 115-ci ildə (733/734) ərəblər tərəfindən Dərbəndin uzunmüddətli və uğursuz mühasirəsi haqqında məlumat verir.

Qalada yerləşən su anbarlarından biri hündürlüyü 7 metr olan çatmatağtavanla örtülmüş, şərqdən qərbə uzanan düzbucaqlı (20x8 metr) formasındadır. Tağ-tavan əlavə olaraq düzbucaqlı sütun-pilyastrlara söykənən iki oxvari tağla bərkidilmişdir. Bu tağlar otağı hər biri 6,2 metr olan bərabər hissəyə bölmüşdür. Bütün qurğu yerin altında yerləşdiyi üçün tağ-tavanın yuxarı hissəsində quyudan su götürmək üçün iki kvadrat dəlik var idi. XIX əsrdə qalada yerləşən rus hərbi qarnizonu bu qədim su qurğusundan adi anbar kimi istifadə etmişdir.

Başqa qədim yeraltı anbar şəhər tərəfdən Narınqalanın girişində yerləşirdi. Bu kvadrat planlı qurğu (2,65x2,65m) yarımsferik tavanla örtülmüşdür. Əfsanədə deyildiyi kimi, bu anbarın suyundan yalnız xan ailəsi istifadə edirdi.

9-cu məhəllədə, Carçı qapı rayonunda yerləşən su anbarı olduğu kimi qalmışdır. Ölçüsünə və konstruksiyasına görə bu anbar qaladakı anbarla eynidir. Anbar düzbucaqlı (17,4x7,4 m), hündürlüyü 10 metrdən çox olan və şərqdən qərbə uzanan çən formasındadır. Hazırda xalq tərəfindən «anbar» adlanan bu qurğu 9-cu məhəllənin yaşayış evlərinin altındadır və xalq arasında bu məhəllə «anbarüstü» adlandırılır. Mütəxəssislər hesab edirlər ki, bu anbar şəhər divarları ilə eyni zamanda tikilmişdir. Şəhər şimal divarının çöl hissəsindəki, Carçı qapın yanındakı «Su» pəhləvi yazısı da buna dəlalət edir.

Şəhərin qədim hissəsində yaşayış evlərinin altında daha iki belə su anbarı qorunub saxlanılmışdır. Belə bir kvadrat formalı su anbarı (3,8x3,8 m) Cümə məscidi rayonunda yerləşir.

X əsr ərəb müəllifləri ibn əl-Fəqih və Yəqubi Bab əl-Cihad (Qırxlar qapısı) qapısının yanında yerləşən «Məsruf su quyusu» haqqında məlumat verirlər. Quyudan su götürmək üçün quyunun içərisinə doğru uzanan pilləkən var idi. Pilləkənın hər iki tərəfində şir və ayaqlarının yanında ağzında üzüm salxımlı tülkü olan insan heykəlləri vardı.

X A L Q

ETNOQRAFİYA VƏ DƏRBƏND ŞƏHƏRİ

Azərbaycanın şimal ərazilərində yaranmış qədim dövlətlərindən biri də Albaniya dövləti olmuşdur. Antik dövrdə Azərbaycanın şimal vilayətlərində və Dağıstanın cənubunda alban, kaspi, sak, kadusi, qarqar, uti, qel, leq və digər tayfalar yaşamışlar. Ölkənin ərazisi Kiçik Qafqazdan və Arazın orta axarlarından Böyük Qafqaz dağlarının şimal-şərq ətəklərinədək uzanır və o cümlədən, Dərbənd şəhərinin yerləşdiyi bütün bölgəni, bu mühüm tarixi-coğrafi keçidin hər iki tərəfini, şimalını və cənubunu əhatə edirdi.

E.ə. IV-III əsrlərdə yaranan Albaniya dövləti sonralar Cənubi Qafqazda ən qüdrətli dövlətlərdən birinə çevrildi. Ölkənin paytaxtı Qəbələ şəhəri idi. Antik müəlliflər Albaniyada 29 şəhərin olduğunu qeyd etmişlər. Bu şəhərlər böyük sənətkarlıq və ticarət mərkəzləri idi. Qədim çağlardan ölkəmizin ərazisindən mühüm ticarət yolları keçirdi. Onlardan Xəzər dənizinin qərb sahili boyunca Dərbənddən şimala və Kür çayı boyunca Qara dəniz sahillərinə doğru uzanan ticarət yolları beynəlxalq əhəmiyyətə malik idi. Ticarətdə puldan geniş istifadə edilirdi. Albaniyada tapılan ən qədim pullar Makedoniyalı İskəndərin gümüş sikkələri hesab edilir. Gətirilmə pullarla yanaşı, yerli sikkələrdən də istifadə olunurdu.

B.e. III əsrinin 226-cı ilində Azərbaycan Sasani şahlarının təcavüzünə məruz qaldı. Sasani dövləti Azərbaycanda mövqelərini möhkəmləndirmək, özünə etnik dayaq yaratmaq məqsədi ilə buraya, xüsusən də Abşeron yarımadasından Dərbəndə kimi Xəzər sahili bölgəyə çoxlu farsdilli tayfalar köçürdü. Bu tayfaların varisləri olan tatlar indi həmin yerdə yaşamaqdadırlar.

Məlumdur ki, azərbaycanlılarının formalaşmasında Qafqaz Albaniyasının qədim yerli əhalisi olan kaspilər, albanlar, maskutlar, qarqarlar, leqlər və başqa tayfalar iştirak etmişlər. Onlar b.e.ə. I minillikdə burada məskunlaşmış fars və türkdilli tayfalarla kimmerlər, skiflər, sarmatlar, hunlar, bolqarlar, xəzərlər, peçeneqlər, həmçinin fars və ərəb müstəmləkəçilərinin bu ərazilərə köçürdükləri tayfalarla qaynayıb qarışmışlar.

628-ci ildə Azərbaycan Albaniyasında Mehranilər sülaləsi hakimiyyətə gəldi. Bu sülalənin ən görkəmli nümayəndəsi Cavanşir VII əsrin 30-cu illərində ərəblərin hücumlarını dəf etmək üçün Sasani ilə itifaq bağladı. 638-ci il Nəhavənd döyüşündən az sonra ərəb ordusu Azərbaycana daxil oldu, tezliklə ərəb ordusu Muğan və Şirvandan keçərək Dərbənd şəhərinə çatdı. Dərbənd hakimi Şəhriyar xilafətin hakimiyyətini qəbul etdi. IX əsrin 60-cı illərində Azərbaycanın feodal hakimləri Şirvanda, Aranda öz müstəqilliklərini elan etdilər. Əsrin sonunda isə Azərbaycanın cənubunda daha güclü Sacilər dövləti yarandı. Türk əsilli Sacilər sülaləsi qısa müddətdə Cənubi Qafqazın çox hissəsini özünə tabe etdi. Dərbənddən Zəncana qədər bütün Azərbaycan ərazisi tarixdə ilk dəfə türk hökmdarlarının hakimiyyəti altında birləşdirildi.

XI-XIII əsrlərdə türk əsilli xalqların (xüsusilə, oğuzların, səlcuqların və qismən qıpçaqların) buraya yürüşlərinin yeni dalğası Azərbaycan türk xalqının formalaşmasının başa çatmasında mühüm rol oynadı.

1136-cı ildə Kürdən cənubdakı Azərbaycan torpaqlarında İldənizlər (Atabəylər) dövlətinin əsası qoyuldu. Tədbirli sərkərdə, mahir siyasətçi və dövlət başçısı olan Şəmsəddin İldəniz tezliklə Dərbənddən İran körfəzinədək böyük ərazini özünə tabe etdi, Yaxın və Orta Şərqin siyasi həyatında fəal rol oynamağa başladı.

XIII-XIV əsrlərdə azərbaycanlıların ulu babaları miqrasiya və sivilizasiya kataklizmlərinin təsirinə məruz qalmışlar. XV əsrin birinci yarısında Azərbaycan ərazisi, o cümlədən, Dərbənd Azərbaycan Şirvanşahlar dövlətinin tərkibində olmuşdur.

I Şah İsmayıl Səfəvi Dərbənd şəhərini tutduqdan sonra Təbrizdən buraya rumlu və qaramanlı tayfasından olan 500 ailə, sonra isə bayat tayfasının

bir hissəsini, I Təhmasib isə 1540-cı ildə – qurçian tayfasından olan 400 ailə köçürmüşdür. Şah I Abbas Dərbənddə qızılbaşlılardan ibarət güclü qarnizon yerləşdirmiş, həmçinin, buraya bayat və ustaclı tayfasından 400 ailə köçürmüşdür.

XVII-XVIII əsrlərdə bu siyasəti I Şah Səfi, II Şah Abbas davam etdirmişdir. A.Olearinin məlumatına görə (1638) Dərbənddə ayrumlu və koydurca türk tayfalarından olan 500 döyüşçü yerləşirdi. Həmçinin, başqa yerlərdə də qarnizonlar var idi. Nadir şah 1741-ci ildə Dərbənddə miksi tayfasından bir neçə yüz ailə məskunlaşdırmışdır.

Bax: 1. Azərbaycan etnoqrafiyası. Üç cilddə. I cild. Bakı, «Şərq-Qərb», 2007, səh.42-44, 46, 50.

2. Народы Дагестана. М.: Наука, 2002. стр. 509-510.

Dərbənd və Azərbaycan xalqının etnogenezi. E.ə. 1-ci minilliyin ortalarında Azərbaycanın şimal hissəsində indi protoalban adlandırılan tayfa birliyi təşəkkül tapmışdır.

Azərbaycanın şimal hissəsi Azərbaycan Albaniyasında dövlətçiliyin formalaşması haqqında məlumatlar e.ə. IV əsrin sonuna aiddir. Yazılı mənbələr bu dövrdə Albaniyanın qarışıq etnik tərkibə malik olmasını göstərir.

Yazılı mənbələr eramızın I-II əsrlərində Cənubi Qafqazın (Azərbaycan da daxil olmaqla) müxtəlif bölgələrində huntürk qruplarının /buntürklər, xonlar/hunlar, kəngərlər/konqlılar, bulqarlar/bolqarlar, xəzərlər/akasirlər) yaşamasını qeyd edirlər. Lakin türk tayfa ittifaqlarının buraya yeni kütləvi axını 227-ci ilə aid edilir. Hun tayfalarından olan türklər Azərbaycanın bütün bölgələrində məskunlaşırdılar.

Azərbaycanın etnolinqvistik xəritəsində eramızın I əsrinin sonunda müşahidə olunan ciddi dəyişikliklər II-VII əsrlərdə daha intensiv xarakter alır. Bu dəyişikliklər qədim Azərbaycanın ərazisinə əvvəlcə hələ e.ə. VIII əsrin sonu – VII əsrin əvvəllərində sak-türk və massaget tayfalarının, sonralar isə hun tayfa ittifaqına daxil olan bulqarların, kəngərlərin, xəzərlərin, sabirlərin, barsillərin, haylandurların, onoqurların və s. gəlməsi və yerləşməsi ilə bağlıdır.

503-cü ildə Arşakilər sülaləsinin sonuncu alban hökmdarı III Vaçaqanın hakimiyyəti dövründə (493-510), hun-sabirlər Dərbənd keçidindən Cənubi Qafqazın içərilərinə doğru irəliləyək Albaniyanın şimal hissəsini və Şərqi Gürcüstanı ələ keçirib bir müddət burada qaldılar. Sabirlərin bir hissəsi Kür çayı hövzəsində, indiki Şəmkir ilə Tiflis arasındakı ərazidə məskunlaşdılar.

«Azərbaycan Milli Ensiklopediyası»nda qeyd edilir ki, türklərin Azərbaycanda məskunlaşdığı dövrdə burada yaşayan bir çox başqa tayfa, o cümlədən xalqlar öz dillərini və mədəni xüsusiyyətlərini saxlayırdı. Türklərdə yazı mədəniyyətinin yüksək səviyyədə olduğunu Dnestr çayından Mərkəzi Asiyayadək uzanan və Azərbaycanın və Dağıstanın Xəzəryanı sahillərini də əhatə edən böyük bir ərazidə aşkar olunmuş runik yazılı abidələr də sübut edir.

Xəzərlərin Şimali Albaniyada mövcud olması müasir Azərbaycan dilinə öz təsirini göstərmişdir. Bu, Dərbənd şivəsi də daxil olmaqla, şimal-şərq dialektləri və şivələrində müşahidə olunur.

VIII əsrdə Azərbaycan Albaniyası ərazilərində xristian və qeyri-xristian əhalinin müsəlmanlaşması və ərəb dilinin rəsmi dilə çevrilməsi geniş miqyas almışdı. Azərbaycanda yeni dinin yayılmasında, əsasən, düzən Arrana (Bərdə, Beyləqan), Muğana və strateji cəhətdən əhəmiyyətli olan şimal-şərqə, həmçinin Dərbəndə və Qəbələyə köçürülmüş, burada çox sayda hərbi dayaq məntəqəsi – «rabadlar» inşa etmiş ərəb tayfaları böyük rol oynadı. İslamın və müsəlman mədəniyyətinin geniş yayıldığı bir dövrdə albanların düzən bölgələrdə yaşayan hissəsi islamı qəbul etdi. Albaniya əhalisinin dağlıq yerlərdə yaşayan və sayca az olan hissəsi içərisində çox məhdud şəkildə olsa da xristianlıq qalmaqda davam edirdi. Udinlər, ingiloylar, buduqlar, qırızlar, xınalıqlılar və digər azsaylı xalqlar bu ərazidə yaşamış albanların nəslindən olanlardır.

Sacilər artıq islamı qəbul etmiş və Azərbaycanın bütün regionlarında yığcam yaşayan türklərin və onlarla qaynayıb-qarışmış digər xalqların timsalında əhalinin böyük əksəriyyətinə arxalanırdılar. Sacilər ilk dəfə olaraq Qəzvindən Dərbəndə və Tiflisə qədər bütün Azərbaycan torpaqlarını vahid dövlət hüdudlarında birləşdirdilər.

Beləliklə, Azərbaycan xalqı Anadoludan Dərbəndə, Borçalıdan Qəzvinədək geniş bir ərazini əhatə edən və etnik, tarixi-mədəni birliyinin formalaşdığı qədim torpaqlarında uzun tarixi dövr keçərək özünün türk və mənimsədiyi müsəlman aləminin mənəvi ənənələrini bugünədək qoruyub saxlamışdır.

Azərbaycan Respublikasının əhalisi mürəkkəb etnik tərkibə malikdir. Burada 100-dən artıq millə-

tin nümayəndəsi yaşayır. Ölkənin əsas əhalisini (90%-dən çoxunu) Azərbaycan türkləri (azərbaycanlılar) təşkil edir. Onların sayı 8,5 mln-a yaxındır. Təxmini hesablamalara görə dünyada 55 mln.-dan artıq Azərbaycan türkləri yaşayır. İran, Gürcüstan və Dağıstanda yığcam halda yaşayan milyonlarla azərbaycanlı bu yerlərin qədim sakinləridir. Azərbaycanlıların dili türk dillərinin cənub-qərb və yaxud oğuz qoluna aiddir.

Azərbaycanlılardan başqa respublikada bir sıra azsaylı xalqlar və milli azlıqlar məskunlaşmışdır. Bunlar hind-Avropa dilləri ailəsinin fars dilləri qrupuna daxil olan tatlar, talışlar, kürdlər, dağ yəhudiləri, Qafqaz dilləri ailəsinin Şərqi Qafqaz (Dağıstan) qrupunun avar-and-sez yarımqrupuna daxil olan ləzgilər, avarlar, udilər, saxurlar, «Şahdağ qrupu» xalqları (xınalıqlılar, buduqlar, qrızlar), Qafqaz dillərinin kartvel qrupuna daxil olan və ingiloy ləhcəsində danışan ingiloylardır. Bundan başqa Azərbaycanda XIX əsrin 30-cu illərində gəlmiş və şərqi slavyan dilləri qrupuna daxil olan ruslar, həmçinin keçən əsrin 60-cı illərindən Ahıska (Məshəti) türkləri məskunlaşmışlar. Ərazi birliyi, oxşar ictimai-iqtisadi, coğrafi və tarixi şərait azərbaycanlıların və azsaylı xalqların məişət və mədəniyyətlərində, adət-ənənələrində ümumi cəhətlərin formalaşmasına səbəb olmuşdur.

Bəzi mənbələrdə Dərbənd şəhərində bir çox etnik qrupların nümayəndələrinin yaşaması haqqında məlumatlar verilir. Hələ yunan alimi Strabonun məlumatına görə alban etnik nümayəndələri Atropatenanın ərazilərində – «Midiya dağlarında» məskunlaşmışlar. Dərbənd Azərbaycan Albaniyasının üzvi tərkib hissəsi idi. «Tarixi-Dərbəndnamə»də göstərilir ki, Dərbənd qala divarı (VI əsr) tikiləndən sonra, qalalardan biri Alpen, B.Dornun məlumatına görə «Səddi-Alpan» adlandırılmışdır. Bəzi antik müəlliflər tərəfindən xatırlanan Keravn dağları (məsələn, Pomponi Mel yazır ki, Albaniya şimalda bu dağlarla həmsərhəddir) Dərbənd bölgəsində Qafqazın cənub-qərb dağ silsilələri ilə lokallaşır. Şimali Qafqazda – Kubanda olan Albanoviçi kəndi keçən əsrdə D.D.Paqiryov tərəfindən qeydə alınmışdı.

Beləliklə, alban etnoniminin daşıyıcıları Şimali Azərbaycanda yaşamışlar. İppolit Portski (III əsr) yazırdı: «Albanlar Xəzər qapılarının cənubunda yaşayırlar». Xəzər qapıları – müasir Dərbənd şəhəridir. Mənbələrdə (III əsr) belə bir ifadə var - «alban qapıları». Bu da şimali – şərqi Albaniyada konkret alban qəbiləsinin məskunlaşdığını bir daha sübut edir.

Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun hazırlayıb çap etdirdiyi «Azərbaycan Tarixi»nin I cildində məlumat verilir ki, Albaniyanın və ona bitişik vilayətlərin ərazisinə Şimaldan köçəri ünsürlərin girməsi eramızın hüdudunda və ilk əsrlərində xüsusilə gücləndi. Yazılı mənbələr və arxeoloji məlumatlar həmin dövrdə Albaniya ərazisinə sarmat-massaget-alan tayfalarının axın etdiyini sübut edir.

Mingəçevir zonasında I əsrin son rübünə aid yeni qəbir tipləri və dəfn adətləri meydana gəlir. Burada ölüləri küplərdə dəfn etmək adəti qalmaqla bərabər, katakomba qəbirlərinə, deformasiya olunmuş kəllələrə təsadüf olunur ki, bu da alanlara xas olan etnik əlamətdir. Bütün bunlar belə hesab etməyə əsas verir ki, hələ eramızın hüdudunda sarmat-massaget-alan tayfaları Dərbənd keçidi vasitəsilə Şimali Azərbaycanın Kaspiboyu zolağının ərazilərinə axın etmişlər.

Erməni müəlliflərinin Kaspinin qərb sahillərində məskunlaşmış tayfalar kimi xatırlatdıqları mazkutlar, şübhəsiz, massagetlərin eynidir. Massagetlərin göstərilən vilayətdə, albanların qonşuluğunda sakin olmasından antik müəlliflər də bəhs etmişlər. I əsrdə Parfiya-Roma münasibətləri ilə əlaqədar olaraq xatırladılan dövlət məhz burada yaradılmışdı. Həmin dövlət Mazkutlar çarlığıdır, ərəb müəlliflərinin Məskət adlandırdıqları dövlətdir.

Bu rayonun toponimiyasında və onun tat əhalisinin dilində skif-sarmat-alan ünsürlərinin izləri vardır. Məsələn, Samur və Rubas çaylarının (Məskət ərazisində) adları osetin dilində (bu dil öz mənşəyini alan dilindən alır) müvafiq sürətdə «dələ» və «tülkü» deməkdir. Abşeron yarımadasında Maştaga (Maşqata) kəndinin adı «massagetlər» kimi izah edilir. Maşkur xoronimi, müvafiq surətdə ermənicə Mazkut və ərəbcə Maskat xoronimləri də massagetlərin adından götürülmüşdür. Dərbənddən cənubda yerləşən rayonun - Çora (Çola) keçidinin adını da, görünür, skif-sarmat dil materialarının köməyi ilə izah etmək olar.

Şimali Azərbaycanın Xəzərsahili zonasında sarmat-massaget-alan mədəniyyətlərinin aşkar izləri vardır. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, daş qutularda (Şamaxı zonası) dəfn edilənlər arasında

qafası deformasiya edilmiş fərdlərə rast gəlinir. Dəfn qaydasının xüsusiyyətləri - ölünün uzanmış halda qoyulması, od mərasiminin kəskin sürətdə nəzərə carpan əlamətləri və i.a. da sarmat-alan təsirindən xəbər verir.

Yuxarıda göstərilən və Azərbaycanın şimal-şərq rayonlarının avtoxton əhalisinin mədəniyyətinə yabançı olan hallar bu əraziyə yeni etnik ünsür gəldiyini tam aydınlığı ilə sübut edir.

T.ü.e.d. Sara Aşurbəyli «Şirvanşahlar dövləti» adlı əsərində qeyd edir ki, Şimali Qafqazda və Dağıstanın dəniz sahili ərazilərində yaşayan türk tayfaları artıq eramızın ilk əsrlərindən Dərbənd keçidindən Albaniyaya keçib gəlirdilər.

Erkən orta əsr mənbələri Şimali Qafqaza, Dağıstanın sahilboyu rayonlarında, Dərbəndə qədər Qafqaz dağları ətrafında yerləşdirilən və artıq eramızın əvvəllərindən Şimali Albaniya ərazisinə axışan müxtəlif türk tayfaları haqqında məlumat verir. Çağdaş tarixşünaslıq sübut edir ki, hələ e.ə. I minilliyin əvvəllərində Albaniya ərazisində əhalinin böyük əksəriyyətini, aparıcı qüvvəsini türk əhalisi təşkil edirdi. Onlarla yanaşı burada irandilli və qafqazdilli tayfalar yaşayırdı. Aborigen türk əhalisinin sayı eramızın əvvəllərində və sonralar Dərbənd keçidi vasitəsilə şimaldan gələn köçəri türklər hesabına daha da artırdı. Dərbənd və Qəbələ ətrafında xəzərlər və hunlar üçün səciyyəvi olan deformasiyaya uğramış uzunsov kəllələr tapılmışdır. III əsrin birinci yarısında hunlar, sonra IV-VI əsrlərdə onoqurlar, bulqarlar, sabirlər, xəzərlər və bir sıra digər tayfalar Dərbənd keçidi vasitəsilə Şimali Qafqazdan və Dağıstandan Şirvana və Arrana gəlib çıxırdılar. Köçəri türk tayfalarının V-VI əsrlərdə güclənmiş basqınlarının qarşısını almaq üçün Sasani hökmdarları dövlətin şimal sərhəddində - Dərbənd keçidində möhtəşəm qalalar tikirdilər. Hələ Ptolomeyin (II əsr) adını çəkdiyi savirlər Volqadan şərqə və qərbə doğru Xəzərsahili çöllərini tutan aorslarla qonşuluqda yaşayırdılar. Ehtimal ki, onlar elə həmin vaxtlarda Dərbənd keçidindən keçərək Arrana (Albaniyaya) girirdilər. Sabirlər V əsrin ikinci yarısından Dağıstanda Kuma çayı rayonunda, Xəzər dənizi və Qafqaz dağları boyunca Dərbəndədək olan ərazidə məskunlaşmışdılar.

Uzun çəkən hərbi əməliyyatlar nəticəsində Sasani şahənşahı Qubad savirləri Qafqaz dağlarının arxasına sıxışdırdı. Və onlar Dərbənd və Dəryal keçidlərində möhkəmləndilər. VI əsrdə Dağıstanda Albaniya ilə sərhəddə savirlərin sayı təqribən 100 min nəfərə çatırdı. Onlar həmin vaxtlar və əvvəllər Dərbənd keçidindən keçərək Albaniyaya basqınlar edirdilər. Bununla əlaqədar Alban katolikosluğunun iqamətgahı Çoradan-Dərbənddən Partava-Bərdəyə köçürüldü.

Türklərin şimaldan etdikləri aramsız hücumlarından və onların qüdrətindən qorxuya düşən Sasani hökmdarı I Qubad və I Xosrov Ənuşirəvan özlərinin şimal sərhədlərini köçəri türklərinin basqınlarından müdafiə etmək məqsədilə bir sıra istehkamlar qurdular və məşhur Dərbənd səddini çəkdirdilər, çoxlu qala və şəhər saldırdılar. Müxtəlif türkdilli tayfaların Albaniyaya gəlmələri VI əsrdə xüsusilə intensiv şəkil almışdır. VI əsrin ikinci yarısında türklər Qafqaza lap yaxınlaşdılar. Bizanslı Menandrin (VI əsr) verdiyi xəbərə görə Göytürk xaqanı Dizavul (İstəmi) İranla, sonra isə Bizansla ipək ticarəti yaratmaq məqsədilə 568-ci ildə Altaydan səfirlik göndərmişdi.

VII əsrin ortalarında ərəblərin Cənubi Qafqaza hücumu və onların Dərbənddən Şimalda Xəzər vilayətlrinə soxulmaq cəhdləri ilə əlaqədar Albaniyada, o zamanlar Şimali Qafqazda və Volqanın mənsəbində güclü səltənət yaratmış xəzərlər zühur etdilər. Onlar 662-ci ildə Dərbənddən Albaniyaya soxuldular, lakin alban hökmdarı Cavanşir tərəfindən geri oturduldular. Türk tayfalarının Dərbənd keçidindən Qafqaz Albaniyasına miqrasiyası VIII əsrdə də davam etmişdi.

Eramızın ilk əsrlərində Azov və Xəzər dənizləri arasındakı çöllərdə, Şimali Qafqazda, Şimali və Cənubi Dağıstanda müxtəlif türk tayfaları yaşayırdılar. Həmin dövrdə onlar Şimali Albaniyaya, Şirvan, Arran və Muğan vilayətlərinə gələrək, Dərbənd və Alan (Dər-i-alan) keçidindən keçib gəlmiş hunlar, bulqarlar, sabirlər, xəzərlər, qıpçaqlar və digər etnik qruplardan ibarət idilər.

Bax: 1. Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. «Azərbaycan» xüsusi cild. «Azərbaycan Milli Ensiklopediyası» Elmi mərkəzi, Bakı, 2007, səh. 100-103, 106.

2. Azərbaycan tarixi. Yeddi cilddə. I cild (Ən qədimdən – b.e. III əsri). Bakı. «Elm». 2007. səh. 430-432.

3. Sara Aşurbəyli. Şirvanşahlar dövləti. Bakı, «Avrasiya press», 2006. səh. 66-79.

4. Ə.İ.Muxtarova. Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər). Dərslik. Bakı, 1999, 362s.

Əhalinin etnik tərkibi. Dərbəndin tarixi və təbii-coğrafi şəraiti onun rəngarəng etnik tərkibini də müəyyənləşdirmişdi.

Məlumdur ki, qədimdə Dərbənd mənzərəsi son dərəcə rəngarəng olan bir coğrafi qovşaqda yerləşirdi. Bu şəhər hələ lap qədim zamanlardan Yaxın Şərq, Ön Asiya, Cənubi Qafqaz ilə və Şərqi Avropa arasında bağlayıcı məntəqə kimi xidmət edirdi. Hələ erkən tunc dövründə Dərbənd keçidindən həm şimala, həm də cənuba çoxsaylı tayfalar axışırdı. Gözəl təbiətə və bulaqlara malik olan Xəzəryanı düzənlikdən çoxsaylı tayfalar əsrlər boyu Cənubi Qafqaz və Yaxın Şərq ölkələrinə soxularaq buraları talan edir və xarabalıqlara çevirirdilər. Buradan qədim Karvan Böyük İpək yolu da keçirdi. Ona görə də tamamilə təbiidir ki, buradan keçən nəhəng xalq kütlələrinin müəyyən bir hissəsi burada xüsusilə ən rahat və mühüm sahə olan Dərbənd keçidində məskunlaşırdı.

1253-cü ildə Monqolustana gedən flamand rahib Gilyom Rubruk yolüstü Dərbənddə olmuş və yerli rəvayətlərə əsaslanaraq yazmışdır: «...Şəhərin aşağı hissəsində olan torpaq əvvəllər cənnət hesab edilirdi».

Qədim Dərbənd üçün mühüm mərhələ buraya «hun», «xəzərlər», «oğuzlar» adı ilə məşhur olan türk tayfalarının mürəkkəb daxilolma prosesi olmuşdur. Suriyalı tarixçi Zaxari Mitilenin (VI əsr) məlumatına görə, V əsrin sonu – VI əsrin əvvəlində Dərbənd rayonunda 13 türkdilli tayfa: savirlər, avarlar, bulqarlar, saraqurlar, uroqlar, sarmatlar, xəzərlər, qıpçaqlar, barsillər, hunlar və digər tayfalar məskunlaşmışlar.

«Dərbəndnamə» tarixi salnaməsi məlumat verir ki, Yezdəgirdin nəvəsi II Qubad şah (481-531) Dərbənddə «… öz qəbiləsindən 3 min ailə və bundan əlavə 3 min süvari dəstəsini» məskunlaşdırmışdı.

Dərbənd və albanlar – Strabon (b.e.ə. I əsrin sonu – I əsrin əvvəli) məlumat verir ki, Qafqaz Albaniyasının əhalisi 26 tayfadan ibarətdir «… hər birinin öz dili və öz şahı var». Lakin qədim salnamələrdə onlar hamısı bir ad altında – albanlar kimi xatırlanır, ona görə ki, bu tayfa I-VIII əsrlərdə Qafqaz Albaniyasında hakim mövqe tutan siyasi etnos olmuşdur. Baxmayaraq ki, lap qədim dövrdən İran şahları (Əhəmənilər, Ərşakilər, Sasanilər) Qafqaz Albaniyasına çoxsaylı irandilli tayfaları (tat, kürd, talış) köçürmüşlər, bu dövlətin bir çox vilayətlərində lap qədimdən türkdilli tayfalar yaşamış və aborigen əhalinin çox böyük əksəriyyətini təşkil etmişdilər.

Cənubi Qafqazda sonrakı siyasi və etnik proseslər - islamlaşma və səlcuq, monqol, səfəvi müharibələri ilə bağlı və keçmiş Azərbaycan Albaniyasının ərazisində hakim türk etnosunun formalaşması, türklərin hakim sosial-siyasi qüvvəyə çevrilməsi öz təsirini göstərmişdir. Albanların çox böyük hissəsi islam dinini, kiçik bir hissəsi - Qarabağın xristian alban əhalisinin az bir qismi erməni qriqoryan kilsəsinin təsiri altına düşərək ermənileşmiş, cüzi bir hissəsi isə (ingiloylar) xristian dininin gürcü pravoslav qolunu qəbul etmişlər. Yalnız Azərbaycanın Oğuz şəhərində və Qəbələ rayonunun Nic kəndində, Gürcüstanın Kvartli rayonunun Oktomberi kəndində kompakt yaşayan alban udinlər (hazırda onların sayı 8 minə yaxındır) müasir dövrədək öz mədəniyyət, dil, din, məişət və adət-ənənələrini qoruyub saxlamışlar.

Albanlara, həmçinin müasir ləzgilər, saxurlar, xınaluqlar, qrızlar, alpanlar, rutullar, buduqlar da aiddirlər. Lakin onlar xristian dininə sitayiş edən udinlərdən fərqli olaraq orta əsrlərdə islamı qəbul edərək müsəlman olmuşlar.

Dərbənd şəhəri və türkdilli xalqlar. Məlumdur ki, türklər Şimal-Qərbi Xəzəryanı bölgənin avtoxton əhalisi hesab olunurlar. IV əsrdən başlayaraq Şimali Qafqazın geniş düzənlikləri yeni türk axınlarına məruz qalmışdı. VI əsr Suriya tarixçisi Zaxari Mitilenin məlumatına görə, IV əsrin sonunda – V əsrin əvvəlində Dərbənd rayonunda 13 türkdilli tayfa: avarlar, bulqarlar, saro-qurlar, uroqlar, sarmatlar, xəzərlər, qıpçaqlar, barsilər, hunlar və b. məskunlaşmışdır.

XVI əsrin ərəbdilli müəllifi Osman Bayburtlu özünün «Tavarixi cədidi mirati cahan» əsərində təsdiq edir ki, türk-oğuzlar Qafqazda hələ islamdan 7 əsr əvvəl, yəni eranın əvvəlində də yaşamışlar. Onlar ayrı bir dinə – Göy tanrısına itaət etmişlər.

X-XI əsrlərdə bu regiona yeni çoxsaylı türk tayfalarının (yeni oğuz tayfalarının, qıpçaqların, səlcuqların) gəlişi müşahidə olunur. X əsr gürcü salnaməsi məlumat verir ki, «…dəfələrlə türklər (qıpçaqlar) peçeneqləri və cikləri sıxışdırmış, nəticədə peçeneqlər qərbə getmiş, ciklər isə Abxaziyanın hü-

dudlarında məskunlaşmışlar».

1067-ci ildə səlcuqların Dərbənd şəhəri üzərinə ilk yürüşü olmuşdur. XI əsr «Tarixi Şirvan ul-Əbvab» salnaməsinin məlumatına görə, səlcuq sultanı Alp Arslan (1063-1072) «…öz hacibi Say Təkini nizami qoşun dəstəsi ilə əl-Baba göndərmişdir». 1075-ci ildə «sərhədyanı vilayət» (Dərbənd) sultan tərəfindən Say Təkinə iqta kimi verilmişdir.

Bir çox mütəxəssislərin fikrincə (məs., Y.A.Paxomov), «…Dərbənddə türkün təsiri mövcud idi və türklər orada, xüsusən hərbi işdə böyük rol oynayırdılar».

Dərbənd şəhərinin məşhur «Qırxlar» qəbiristanlığı da türklərin adı ilə bağlıdır. İnandırıcı məlumatlar vardır ki, 2000-ci ildə YUNESKO tərəfindən 1300 illiyi qeyd olunan məşhur qədim oğuz «Kitabi-Dədə Qorqud» dastanının müəllifi Dədə Qorqud burada yaşamış və Dərbənd yaxınlığında dəfn olunmuşdur.

Şəhər XI əsrdən başlayaraq yazılı mənbələrdə «Dəmirqapı», onun cənubuna yaxın rayon isə «Ulus mahalı» adlandırılmışdır. Şəhər qapılarının və şəhər məhəllələrinin ərəbcə olan adları türk adları ilə əvəz olunur: Qırxlar qapısı, Bayat qapı, Carçı qapı, Türkmən qapısı, Daş qapı, Orta qapı, Bayat məhəlləsi, Məlik küçə, Orta qapı, Zənən küçə və s. Şəhərin ətrafında yerləşən kurqanlar (təpələr) – Başmaq təpə, Qarovul təpə, Yastı təpə və s. də türk mədəniyyətinə aiddir.

Tarixi salnamələrin məlumatına görə, XI-XII əsrlərdə Dərbənddə türklərin təsiri çox böyük idi. Şəhərdə və onun ətrafında çoxsaylı qıpçaq, həmçinin səlcuq (oğuz) ailələri yaşayırdı.

Rus mənbələrində və XVIII-XIX əsrlərin rəsmi sənədlərində türklər tatarlar adı ilə adlandırılır. Sonralar Dağıstan, o cümlədən Dərbənd əhalisinə sovet pasportaları verilərkən, milliyəti bölməsində «türk» sözü yazılmışdır. 1938-ci ildə İ.Stalinin göstərişi ilə kommunist ideoloqları «türk» sözünün Türkiyə türkləri ilə qan qohumluğunu bildirdiyini bəhanə edərək, bu sözü «azərbaycanlı» sözü ilə əvəz etməyi qərara aldılar.

Azərbaycanlılar. Azərbaycanlılar qədim və məşhur oğuz türk tayfalarının varisləridirlər. Mənbələr çox qədim zamanlarda Alban qapıları (Dərbənd) rayonunda məskunlaşan çollar haqqında (türk-oğuz qolu) məlumat verir. Həmin rayonda bu tayfa haqqında II əsrin yunan coğrafiyaşünası Klavdi Ptolomey öz əsərlərində məlumat vermişdir. Akademik V.V.Bartold bu tayfaları qədim türk tayfalarından olan «çol» tayfasına aid edir.

Sonralar da Şərqi Xəzəryanı düzənliklərdən, indiki Türkmənistan ərazisindən gələn çollar, maskut tayfası ilə birlikdə Şimali Xəzəryanı düzənliklərdən keçərək Alban qapıları (Dərbənd) vilayətində, Azərbaycan Albaniyasının şimal-şərq bölgəsində məskunlaşmışdılar. Maskutların yeni məskunlaşdıqları bu ərazi yazılı mənbələrdə mərkəzi Çola şəhəri olmaqla Maskut şahlığı adı altında məşhur idi. Ayrı-ayrı mənbələr bu rayonu Çola vilayəti adlandırır.

Türk-çolların bizim eradan əvvəl daha erkən əsrlərdə burada yaşaması haqqında alban tarixçisi Moisey Kalankatlı (VII əsr) məlumat verir. Bu rayonda çollar haqqında, çolların burada məskunlaşması barədə IX əsr ərəb müəllifi ət-Təbəri də məlumat verir. O, yazırdı ki, Azərbaycanla qonşuluqda çollar yaşayan Xəzər ölkəsi vardır. Onun məlumatına görə fars şahı I Xosrov Ənuşirəvan (531-579) Çol keçidi ilə qonşu olan Qafqazın şərq qurtaracağında yaşayan çollarla ittifaq bağlamışdır.

Dərbənd şəhərin azərbaycanlı əhalisinin say dinamikası

İllər	Ümumi əhali	Azərbaycanlılar	%-lə
1824	11060	10777	97,4
1873	11278	9572	84,9
1897	14649	9767	66,7
1926	23097	7831	33,9
1959	43318	11190	25,8
1970	57192	14381	25,1
1979	67442	17875	26,5

Dərbənd və bayatlar. Bayatlar bir çox türkəsilli xalqların, xüsusən azərbaycanlıların etnogenezində mühum rol oynamış oğuz qəbilələrindən biridir. XIII əsr tarixçisi Rəşid əd-Dininin verdiyi məlumata görə 24 əsas oğuz qəbilələrinin içərisində bayat, qayı boyundan sonra ikinci yeri tuturdu.

A.A.Bakıxanov (XIX əsr) qədim mənbələrə istinad edərək məlumat verir ki, bayat qəbiləsini Fars vilayətlərindən Dərbənddə I Şah İsmayıl (1502-1524) yerli hakimi özünə tabe etmək üçün köçürmüşdür.

1837-ci ildən şəhərin dövlət arxivində saxla-

nılan, yerli sakin Fərhad bəy Alpanbəyovun şəhər komendantı Vasilyevin adına yazdığı ərizəsində deyilir ki, 1601-ci ildə I Şah Abbasın (1587-1629) əmri ilə Dərbənddə «…ona tabe olan icma və şəhəri müdafiə etmək üçün 1000 nəfər atlı süvari ilə Qaziyan Bayat Buzqa oğlu gəlmişdir» və o, «Dərbənd rəisi Çıraq Sultanın yanında xidmət edirdi». Şəhərin cənub divar ərazisi, «… bu əhali ilə məskunlaşmış» (20 ev), o vaxtlar «Bayat kəndi» adlanmışdı. Sonralar onlar şəhərə, şəhər qapıları rayonuna 8-ci məhəlləyə köçmüşlər. Bu yer «bayat məhəlləsi» və yaxınlıqda yerləşən qapı isə – «Bayat qapı» adlandırılmışdır.

Rus müəlliflərinin (A.V.Komarov) verdiyi məlumatlara əsasən hələ 1869-cu ildə bayatlar şəhərin kənarında ayrıca kənddə (10 ev) yaşayırdılar. 1886-cı ilin məlumatına görə bu kənddə cəmi 3 ev var idi və sakinlərinin sayı 18 nəfər təşkil edirdi.

O zaman şəhərin aşağı məskunlaşmamış hissəsində bayatların öz məbədi var idi. Onun qalıqlarını XIX-XX əsrin əvvəllərində də görmək olardı. Məhəllənin adı da «Bayatı ocağı», buradan götürülmüşdür. Hazırda da yerli əhali bu məhəlləni hissəsini Bayatıocağı adlandırır.

Dərbənd və maskutlar. Erkən orta əsrlərdə şimal-şərqi Albaniya ərazisində maskutlar məskunlaşmışlar. Onların burada bizim eranın birinci əsrlərində öz dövlətləri olmuşdur. «Alban tarixi»ndə maskutların məskunlaşdığı vilayət «Maskutlar ölkəsi» adlandırılmışdır. Bəzi tədqiqatçıların fikrinə görə «Maskutlar ölkəsi» Dərbəndlə Beşbarmaq arasındakı ərazini əhatə edirdi. Lakin bu fikirlə razılaşmaq çox çətindir. Belə ki, maskutlar ölkəsinin cənub sərhəddi cənubda Vəlvələçay çayından keçirdi. Bu çayın aşağı hissəsindən Beşbarmağa qədər savirlər (Şabaran), xurslar (Xursan) və tat-xizinlər (Xizan) yaşayırdılar.

Dərbəndlə yanaşı ondan aşağıda yerləşən Çol şəhəri «Maskutlar ölkəsi» də albanlara məxsus idi.

Valeri Flak (I əsrin ikinci yarısı) Xəzər keçidinə (yəni Dərbənd keçidinə) toxunaraq qeyd etmişdir ki, «...Xəzərin dar keçidləri massagetləri əsirliyə sürüyürdü...». Aydındır ki, bu massagetlər yalnız şimal-şərqi Albaniyada, yəni Xəzərin dar keçidlərindən aşağıda və ya gələcək Dərbənddə məskunlaşan maskutlar ola bilər.

Massagetlər haqqında ilk dəfə Herodot yazmışdır və onları Xəzərdən şərqdə yerləşdirmişdir. O, məlumat vermişdir ki, Xəzərin şərq hissəsində sərhəddi görünməyən ucsuz-bucaqsız düzənlik uzanır. Bu düzənliyin xeyli hissəsini massagetlər tuturlar.

Massaget – maskutların etnik mənsubiyyəti mübahisəlidir. Sovet skifşünaslığında onları farsdilli xalqlara aid edirlər, lakin bir sıra Qərbi Avropa tədqiqatçıları massagetləri monqol mənşəli tayfalar hesab edirlər. Zəkəriyyə Ritor Azərbaycan Albaniyasında-Aranda aran dilinin olması haqqında danışaraq qeyd edir ki, bazqunların da (yəni maskutlar) öz ana dili var və onların əraziləri Xəzər qapılarına kimi uzanır. Müasir Azərbaycan tarixşünaslığı da massagetləri türkəsilli tayfalar sayır. Maskutların ərazisinə hazırda Azərbaycan Respublikasının Xaçmaz və Qusar rayonlarının əraziləri və Vəlvələçaydan şimala doğru və Dərbəndədək olan ərazilər daxil idi.

Bax: Ə.İ.Muxtarova. Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər). Bakı, 1999, 362s.

Dərbənd və xəzərlər. Erkən orta əsrlərdən başlayaraq xəzərlər Azərbaycan Albaniyasının şimal-şərqində məskunlaşmışlar. Bunu Dərbənd keçidinin qədim «Xəzər qapıları» adı da təsdiq edir. Siciyalı Diodorun (b.e.ə. I əsrin ikinci yarısı), əsərində belə bir məlumat vardır ki, «…burada «Xəzər qapıları» adlanan çox dar bir keçid var». Bu məlumat Pomponi Melinin məlumatı ilə üst-üstə düşür: «skiflərə yaxın olan xəzərlər Xəzər körfəzini əhatə edirlər».

«Xəzər yolu» ifadəsinə Korneli Tasitin, «Xəzər qapıları» ifadəsinə isə İosif Flavinin əsərlərində rast gəlinir.

Şimali «Midiyadakı» Xəzər qapıları haqqında bir çox müəlliflər məlumat verirlər. Strabon yazır ki: «Selevk Nikator tərəfindən əsası qoyulmuş Raqa şəhəri Xəzər qapılarının cənub hissəsinin 500 stadisində yerləşir». O, davam edərək yazırdı ki, «Midiyanın ən enli yeri Midiya qapıları adlandırılan Zarq keçidindən Xəzər qapılarınadək olan ərazini əhatə edir». Daha sonra Strabon qeyd edir ki, «Kür çayından Xəzər qapılarınadək 5600 stadidir». O başqa bir yerdə qeyd edir ki, Hirkanla Xəzər qapıları arasındakı məsafə 1400 stadidir. Strabonun əsərlərində ümumilikdə şərqdə olan Xəzər qapılarının adı 25 dəfə çəkilir. Yuxarıda qeyd olunanlardan görünür ki, xəzərlər Dərbənd bölgəsində də yaşamış

və bu keçid Xəzər keçidi adlanmışdır. Strabonun «yerli sakinlərin Qafqazı Xəzər tayfalarının adı ilə Xəzər adlandırması» məlumatı diqqəti cəlb edir. Sonra o yazır ki, Xəzər (Qafqaz) dağlarından Kür çayına qədər 1800 stadidir.

Nəzərə alınsa ki, bir stadi 177 və ya 192 metrə bərabərdir, onda Kür çayının mənsəbindən Xəzər qapılarınadək təxminən 350 km-dir. Bu da təxminən müasir Salyandan Dərbəndə qədər olan məsafəyə bərabərdir. Şimalda iki Xəzər qapısının olması barədə Pliniy də məlumat vermişdir.

Beləliklə, xəzərlərin bir hissəsi şimal-şərqi Albaniyada yaşamışdır. Azərbaycan Sovet Ensiklopediyasında Xəzər keçidinin yalnız Xəzər dənizinin cənub sahilində yerləşməsi və antik müəlliflərin səhvən Dərbənd keçidini Xəzər keçidi adlandırması fikirlərilə razılaşmaq mümkün deyil. Ona görə də düşünürük ki, Y.Cəfərovun, «Dionisi Periyegetin xəzərləri albanlarla səhv salması və onun şimaldan başlayaraq əvvəl albanlar, sonra isə xəzərlər haqqında məlumat verməlidir» fikri əsassızdır.

Xəzərlərin bir hissəsi Azərbaycan xalqının tərkibinə daxil olan yerli tayfalardan biri kimi VII-VIII əsrlərdə, çox ehtimal ki, erkən orta əsrlərdə Kür və Araz ovalığında hakimlik edən türk tayfaları içərisində asanlıqla qaynayıb-qarışmışlar.

Qafqaz – qədim yazılı mənbələrdə ilk dəfə Esxil (v.e.ə. 526-456) tərəfindən adı çəkilən Qafqaz oronimini qədim türk dilləri əsasında şərh etmək olar. Qeyd etmək lazımdır ki, bu dağın adı müxtəlif xalqların dilində oxşar fonetik formaya malik idi. Orta əsrlərdə farslarda (b.e. III əsr) – Qapkoyh «Qap dağı», 3-cü əsr yunan mənbələrində «Qaz orouz (Kaz orouz)» «Qaz dağı» («Kitabi-Dədə Qorqud»dakı «Qazlıq» oronimi ilə müqayisə etmək olar) və s. Qədim gürcü dilində bu oronim Qapkox, Qafqaz (Moisey Kalankatlı) və s. kimi qeyd olunmuşdur. IX-XIII əsrlərdə ərəb müəllifləri hər yerdə bu dağın adını Qavk yazır, orta əsrlər ədəbiyyatında isə Qaf dağı kimi yazılır. «Altınduki batır» adlı başqırd nağılında – Qaf tayı, «Koroğlu» dastanının özbək variantında – «Kuy Qaf», türkmən nağıllarında – «Kay Kap» və s. adlandırılır. Azərbaycanın görkəmli dövlət xadimi və şairi Şah İsmayıl Xətai «Qaf» formasından istifadə etmişdir («Qülleyi Qaf»). Bu söz türkcədən kapu – «keçid» (hazırda Babadağın dağ silsilələrindən biri Qapıq adlanır) və kas, «kasların keçidi» etnonimindən ibarətdir.

Həqiqətən də, qədim xəzərlər Dərbənd bölgəsində yaşamışlar. Bu keçid ən qədim mənbələrdə «Xəzər keçidi» kimi də məşhur idi. Qafqaz sözü türkdilli xəzərlərin arasında yaranmışdır. Mavr Serviy Qonorat (IV əsr) qeyd edirdi ki, Qafqaz – «Ckifiyada dağdır».

Bax: Ə.İ.Muxtarova. Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər). Bakı, 1999, 362s.

Dərbənd və kaspilər. Kaspilər - qədim yazılı mənbələrə əsasən Azərbaycan Albaniyasında, Strabonun (b.e.ə. I əsr) «Kaspi torpağı» adlandırdığı vilayətdə məskunlaşmışlar. Orta əsrlər müəlliflərinin məlumatına görə kaspilər Azərbaycanın Mil düzündə məskunlaşmışlar və burada V əsrdə Beyləqan şəhəri salınmışdır.

Erkən orta əsrlərdə kaspilər Azərbaycan Albaniyasının şimal-şərqində, yəni Dərbənddə məskunlaşmışdılar.

Kaspilərin həmin rayonda yaşaması Dərbənd keçidinin qədimdə «Kaspi qapıları» adlandırılması ilə bir daha təsdiqlənir. Bu ada Siciyalı Diodorun (I əsr) və Pomponi (Melanın I əsr) əsərlərində rast gəlinir. «Kaspi yolu» ifadəsinə Korneli Tasitin (I əsr), İosif Flavinin (I əsr) («Kaspi qapıları») əsərlərində rast gəlinir.

Xəzər dənizinin adlarından biri onun qərb sahilində məskunlaşan kaspi qəbiləsinin adı ilə bağlıdır.

Dərbənd və eftallar (çullar). Eftalitlər dolayı yolla Azərbaycan xalqının da etnogenezində iştirak etmişlər. IV əsrin 50-ci illərində eftalitlərlə yanaşı, Xəzər dənizinin şərq sahillərində Çul adlı bir türk tayfası da məskunlaşmışdı.

Həmin tayfanın bir hissəsi isə Azərbaycan Albaniyasının şimalında, Dərbənd bölgəsində eranın əvvəllərindən məlumdur. Dərbənddən 17 km cənubda bir şəhər və Samur-Dərbənd arası Çul (Çol) adlanırdı.

Eftalitlər dövlətinin mərkəz şəhərlərindən biri də Çol (Çul) adlanırdı. Son tədqiqatlar göstərmişdir ki, bu türkdilli tayfanın adı Azərbaycanda bir neçə Çullu kəndinin adlarında indiyədək qalmışdır.

Bax: Ə.İ.Muxtarova. Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər). Bakı, 1999, 362 s.

Dərbənd və amazonkalar – «Amazonkalar qədim yunan mifologiyasında cəngavər qadınlar

dəstəsidir. Onlar nəsli davam etdirmək üçün kişilərlə yaxın əlaqəyə girirdilər. Doğulmuş oğlanları atalarına verir, qızları isə özləri ilə saxlayırdılar».

Qədim müəlliflər onların sirli, güclü və amansız cəngavər, usanmaz süvari qadın olduqlarını göstərirlər. Onlar qalib gəldikləri adamları məhv edirdilər. Döyüş qabağı paltarlarını soyunurdular ki, onlara döyüşdə mane olmasın. Məharətlə qılınc oynadır və yanılmadan ox atırdılar. Onlar qız uşağı doğduqdan sonra sağ döşlərini kəsirdilər ki, qılıncı idarə etməkdə mane olmasın. Belə qorxulu əfsanələr yeni-yeni əfsanələrin yaranmasına səbəb olurdu. Bu mifləri və əfsanələri, qədim şərqin romantik xalqlarının təsəvvüründə yaranmış hadisələri, həqiqətdə elə xalq özü yazmışdır.



Eyni zamanda amazonkalar haqqında məlumatlar Herodot (b.e.ə. V əsr), Skilak Kariandski (b.e.ə. IV əsr), Diodor Siciliyski (b.e.ə. I əsr), Strabon (b.e.ə. I əsr), Dionisi Periyeqet (I əsr), Pomponi Melan (I əsr) və digər nüfüzlu qədim dünya tarixçilərinin əsərlərində rast gəlinir. Onlar məlumat verirlər ki, amazonkalar öz qonşularını daim hücümları ilə narahat edirdilər və onların dağıdıcı yürüşləri Attikaya kimi gedib çıxırdı. Qədim yunan müəlliflərinin hamısı amazonkaların məskunlaşdığı yerin Şimalı Qafqaz olduğunu göstərirlər və onları sarmat xalqları (savromatı) ilə əlaqələndirirlər.

Tədqiqatçıların (K.F.Smirnov, Q.A.Qeybullayev və başqaları) fikrinə görə, sarmatlar – türkdilli xalqlar, onların bizim eradan əvvəl IV-III əsrlərdə məskunlaşdığı ərazi Volqa boyu – Ural düzənlikləri olmuşdur. «…Onlar güclənəcək Skifiyanın (Qara dəniz ətrafının şimal hissəsini) çox hissəsini dağıdıb boşaltdılar, Şimalı Qafqaz və Qara dənizin ətrafını zəbt etdilər». Burada bizim eradan əvvəl 127-ci ildə sarmatların dövləti – Sarmatiya yarandı və bu dövlət təxminən 600 il yaşadı.

Sarmatların (savromatların) Ön Qafqaz düzənliklərini tutması haqqında bir çox mənbələr məlumat verir. Belə ki, «tarixin atası» Herodot göstərir ki, «…Tanaisin şərqində (Don və Donsa çayının ətrafı) sarmatlar yaşayırdı». Strabon yazırdı ki, «…Qafqaz dağları cənubdan Albaniyanı və İberiyanı şimalda isə Sarmat düzənliklərini ayırır». Skilak Karianidski də sarmatların məskunlaşdığı yeri «Tanais çayı» rayonunda göstərir. Plini Sekund məlumat verir ki, dənizə iki qolla tökülən Tanais çayı ətrafında sarmatlar yaşayır.

Klavdi Ptolomey (II əsr) Cənub-Şərqi Avropanı Sarmatiya adlandırırdı. Avropa Sarmatiyası Ptolomeyə görə Don çayından qərbdə, Asiya hissəsi isə ondan şərqdə yerləşdi. Sarmatların bilavasitə albanların yaxınlığında məskunlaşması haqqında Strabon məlumat verir: «…savromatlar iberiyalıların və albanların vilayətlərinədək məskunlaşırlar». Pompey Troq yazır ki, «…albanlarla amazonkalar qonşuluqda yaşayır». Srtabonda oxuyuruq: «…Albanlar iverlər və Xəzər dənizi arasında yaşayırlar, şərqdə dənizə yaxın, qərbdə isə iverlərlə həmsərhəddirlər. Albaniyadan yüksəkliklərdə amazonkalar yaşayır, onlar və albanlar arasında isə gellər və leqlər yaşayır. Amazonkaların padşahı şahzadə Falistriya Xəzər qapılarından Böyük Aleksandrın görüşünə gedirdi».

Bəzi mənbələrin məlumatlarına görə, Makedoniyalı İskəndər Qafqaza planlaşdırılmış yürüşündən əl çəkməsinə məhz amazonkalar səbəb oldu. Yerli əhalinin dediyinə görə dahi sərkərdə belə fikirləşdi: «Tutaq ki, mən dağlara (Qafqaza) yürüş etdim. Əgər mən qadınlar üzərində qələbə çalsam, bu mənə nə şərəf gətirəcək? Əgər mən onlara məğlub olsam, bu bütün dünyada mənim üçün biabırçılıq olacaq».

Bu gün dəqiq məlumdur ki, türk-sarmatlar (savromatı), onlardan qalmış kitabələrdə göstərildiyi kimi Dərbənddə, o cümlədən Şimali Dağıstanın dənizətrafı rayonlarında yaşamışlar. Romalı sürgündə olan şair Subi Ovidi Nazon (b.e.ə. I əsr), bir neçə il bu diyarlarda yaşamış, şarmatları belə təsvir etmişdir: «… onlar sərt soyuqdan özlərini heyvan dəriləri və geniş şalvarlarla qoruyurdular, onların qorxulu üzləri

uzun tüklərlə örtülmüşdür».

Bəzi antik müəlliflər də sarmatları amazonkalar adlandırırdılar. Herodot məlumat verir ki, amazonkalar – sarmat qadınlarıdır. Pomponi Melanın dediyinə görə, sarmatlarda «…hətta qadınlar da kişilərlə bərabər döyüşlərdə iştirak edirlər».

Skilak Karianidski yazır ki, «…sarmat xalqı qadınlar tərəfindən idarə olunur». Plutarxa (I əsr) görə Pompeyin alban padşahı ilə döyüşü zamanı albanların tərəfində amazonkalar da vuruşurdular. Arxeoloji tədqiqatların göstərdiyinə görə, sarmat qadınlarının qəbirlərindən silah, yüyən dəsti, hərdən isə at qalıqları da çıxır. Bu etnik icmada qadınların belə ictimai-siyasi vəziyyəti «sarmat xalqının» amazonka adlandırılmasına səbəb oldu.

Dərbənd və Atropatena tayfaları. Atropatena adı mövcud olmamışdan əvvəl bu ərazi qədim türk mənbələrində Saqarati adlanırdı. Şaqarati adı saqarati etnoniminə aiddir. V.V.Struve hesab edir ki, Saqarati Midiyanın tərkibinə daxil olmuşdur. Bu, I Daranın b.e.ə. 521-ci il tarixli Bisütun kitabəsi ilə təsdiq olunur. Saqarati tayfaları İran ərazisinə b.e.ə. II-I minilliklərin hüdudlarında Dərbənd keçidindən keçərək Cənub-Şərqi Avropadan gəlmişdilər.

Bax: Ə.İ.Muxtarova. Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər). Bakı, 1999, 362s.

Dərbənd və saklar. Saklar Cənubi Qafqaza b.e.ə. VI əsrdə Dərbənd keçidindən keçərək gəlmişlər. V.V.Struve, Strabonun Sakasenanın Kür və Araz çaylarının arasında yerləşməsi haqqındakı məlumatı ilə bağlı yazmışdır ki, «saklar skiflərdən ayrı olaraq «Əhəmənilər dövrünün başlanğıcında», yəni b.e.ə. VI əsrdə gəlmişlər. Bu dövrdə Sakasena Skif şahlığının bir hissəsini təşkil edə bilməzdi».

Ptolemey qeyd edir ki, Sarmatiyada, Qafqazdakı Keravn və Hippi dağlarının arasında sakan qəbiləsi məskunlaşır. Keravn dağları – Dərbənd bölgəsində, Qafqazın cənub-şərq dağ silsiləsidir, Hippi dağları isə – Şimali Qafqazdadır. XVI-XVII əsrlərin Qərbi Avropa xəritələrində Don və Volqa çaylarının mənbələrində Hippike dağları göstərilmişdir.

Bəzi müəlliflər ehtimal edirlər ki, Ptolemey səhv etmişdir və sakanlar Cənubi Qafqazda yaşamışlar. Saklar Albaniyada yaşadıqları üçün, deməli, sakanlar da Albaniyada məskunlaşmışlar. Lakin bu sakanlar Kur-Araz ovaqlığında olan Sakasena vilayətində yaşayan sakanlar olmamışlar.

Bax: Ə.İ.Muxtarova. Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər). Bakı, 1999, 362s.

Dərbənd və Yəcuc-Məcuclar (İncildə Qoq və Maqoq). Bir çox qədim müəlliflər Qoq və Maqoq adlı qəddar xalqın hücümunun qarşısının alınması məqsədilə Sasanilər tərəfindən tikilmiş baş sədd – Dərbənd müdafiə istehkamları haqqında məlumat verirlər. Bu xalq şimalın geniş düzənliklərində məskunlaşmışdı. Müsəlman adət-ənənəsinə görə bu xalq Yəcuc-Məcuc adlandırdı.

Bəzi mənbələrdə divar Yəcuc-Məcuc səddi də adlandırılır. Belə ki, «Tarixi Dərbəndnamə»də oxuyuruq: «… Bilin, tarixçilər məlumat verirlər ki, Zül Qərneyn Yəcuc-Məcuc divarına yürüş cəhdi edərkən o, dağlar arxasında yerləşən İraqın torpaqlarına türklərin təsirini gördüyü üçün, döyüşçülərinə əmr edir ki, bu dağların zirvəsində alınmaz divarlar və istehkamlar ucaldılsın. Bu dağların arxasında xəzərlərin torpaqları və onların dənizləri (Xəzər dənizi) yerləşirdi».

Qədim müəlliflər Yəcus-Məcus xalqı ilə Ural dağları və geniş Xəzəryanı düzənliklərin şimalında məskunlaşmış skiflər, qıpçaqlar, xəzərlər və digər türk tayfalarını eyniləşdirirdilər. Onların dəstələri əsrlər boyu dar Xəzəryanı düzənliyə və Cənubi Qafqaza, Ön Asiya və Yaxın Şərq ölkələrinə yürüşlər edir və yollarında olan bütün şəhərləri və kəndləri darmadağın və talan edirdilər.

IV əsr müəllifi Yevsevi İyeronim «İyezekeilə izahatlar» əsərində məlumat verir ki, «…Maqoqlar skiflər idi. Onlar Xəzər dənizinin yanında məskunlaşmışdılar, qoqlar isə şimal tərəfdə məskunlaşmışdılar».

III əsrdə tərtib olunmuş xəritədə (İngiltərə muzeylərindən birində saxlanılır) Qoq və Maqoq xalqının Xəzər dənizinin qərb sahilində məskunlaşdığı göstərilir.

Bir sıra qədim müəlliflər Yəcuc-Məcuc xalqının onların şüuru haqqında fantastik məlumatlar verirlər: «…Yəcuc-Məcuc Yafes bin Nuhun oğlanları idi. Onların sayı sonsuzdur… Onlar iki tayfaya bölünürdü: kiçikboylular və nəhənglər, sonuncuların boyu 100 dirsəkdən çox idi. Onların qulaqları xalça kimi o qədər uzun idi ki, hətta onlar yatanda qulağının birini altına salırdılar, o birisi ilə üstlərini örtürdülər. Onlar ölülərini yeyirdilər, keçdikləri vilayətləri dağıdıb talan edirdilər».

Dərbənd və xurslar. Şah I Xosrov Ənuşirəvanın hakimiyyəti dövrünə (531-579) aid olan orta əsr mənbələrində Çul və Dərbənd şəhərlərinin adları çəkilir. Bu sular (çular), şübhəsiz, alban çollarına aiddir. Yaqut əl-Əməvinin məlumatında sular haqqında oxuyuruq: «Dərbənd nahiyəsinə yaxın olan Xəzər ölkəsində şəhər».

Beləliklə, hesab etmək olar ki, Şimal-Şərqi Azərbaycan Albaniyasında çol və ya çul adlanan qədim türk tayfası yaşayırdı. Çox güman ki, bu çullar Albaniyaya maskutlar – massagetlərlə birlikdə gəlmişdilər.

Çollar Albaniyada xristianlığı qəbul etmişlər. Moisey Kalankatlının məlumatına əsasən I-II əsrlərdə Çol şəhərində Yelisey adlı xristian missioneri var idi. Əgər Çol şəhəri artıq I əsrdə mövcud idisə, onda, demək olar ki, çollar bu ərazidə bizim eradan əvvəl yaşamışlar. Bu faktlar Çol toponiminin çol, cul türk etnonimindən yaranmasını sübut edir. Çul etnoniminə türk dillərində olan «lu» mənsubiyyət şəkilçisi artırıldıqda Azərbaycanda rast gəlinən Çullu toponiminin əsası yaranır. Uzun müddət Qafqazda beş Çullu toponimi mövcud olmuşdur. Toponimik tədqiqatlar göstərdi ki, erkən orta əsrlərdə Azərbaycan Albaniyasının müxtəlif vilayətlərində Qoroz, Xurs, Xursan, Xoros, Xorus, Qeros toponimlərində adları əks olunan qəbilə yaşamışdır.

VI əsrdə baş vermiş hadisələrlə əlaqədar olaraq Xursan şəhərinin adı «Dərbəndnamə» salnaməsində xatırlanır. Ona görə də VI əsrin Bizans tarixçisi Menandr tərəfindən adı çəkilən Albaniyadakı Xorutzam diqqəti cəlb edir. K.V.Trever hesab edir ki, Xorutza Dağıstanla Şimali Qafqaz arasında yerləşirdi. Çox ehtimal ki, Xorutzan adı altında Xursan başa düşülür. IX-X əsr ərəb mənbələrində bu ad Xors, Xurs, Xirs kimi qeyd olunmuşdur. X əsrin anonim mənbəyində Xursan sasanilər tərəfindən Albaniyanın işğalı nəticəsində yaradılmış və Dərbəndlə Şirvan arasındakı knyazlığın adı kimi tanınmışdır. S.B.Aşurbəyliyə görə Xursanın ərazisi Dərbənddən cənubda Beşbarmaq qalasına və hətta Lahıc (İsmayıllı) kəndinə kimi uzanırdı.

Ptolemeyin xurs kimi qeyd etdiyi etnonimlərin daşıyıcıları olan savarlarla yanaşı Şimal-Şərqi Albaniyada məskunlaşmışdılar və bunun nəticəsində Şabaron və Xursan məntəqələri yaranmışdır. Bu da «savarların yeri» və «xursların yeri» deməkdir.

Bax: Ə.İ.Muxtarova. Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər). Bakı, 1999, 362s.

Dərbənd və hunlar. Ən qədim türk dövlətlərindən biri – Böyük Hun dövləti bizim eradan əvvəl III əsrdə Mərkəzi Asiyada yaranmışdır. Bu dövlət birliyinin yaranması və fəaliyyəti genişmiqyaslı etnik yerdəyişmələr və dəyişikliklər dövrünə təsadüf edir. Sonralar belə etnik yerdəyişmələr və dəyişikliklər tarixi ədəbiyyatda «xalqların böyük köçü» kimi tanınmış möhtəşəm hadisəyə gətirib çıxardı. Məhz buradan çoxsaylı türk qəbilələri sürətlə Orta Asiyaya, oradan da Volqaboyuna, Şimali Qafqaza, Şimali Qara dəniz sahillərinə və Şərqi Avropaya daxil olurlar. Onlar burada özlərindən əvvəl yaşamış etnik qrupları sıxışdıraraq assimlyasiyaya məruz qoydular.

IV əsrin 70-ci illərində çoxsaylı və döyüşkən hun qəbilələri böyük Xəzəryanı və Qafqazətrafı düzənlikləri tutdular. 371-ci ildə hunların əsas qüvvələri Şimali Qara dəniz sahillərinə doğru irəlilədi, digər hissəsi isə Şimali Qafqazın Xəzəryanı düzənliklərindən cənuba tərəf hərəkət etdi. Tezliklə bütün Xəzəryanı düzənlik, Cənubi Qafqaz və Ön Asiya ölkələri hunların hakimiyyəti altına düşdü. Məlumdur ki, artıq 395-ci ildə onlar Azərbaycan Albaniyasına və Kiçik Asiyaya ilk yürüş etmişdilər. IV-V əsrlərdə onların sonsuz dağıdıcı yürüşləri İranın sasani şahlarını «uzun divarların» tikilməsi üzrə genişmiqyaslı işlərin görülməsinə Dərbənd, həmçinin Beşbarmaq və Gilgilçay, yəni şimal sərhədlərinin qorunmasına böyük vəsait sərf etməyə məcbur edəcəkdi.

Dərbəndin şimal əraziləri hunların adı ilə «hunlar ölkəsi», «hunlar çarlığı», Dərbənd bölgəsindəki keçid – Hun keçidi, Hun qapısı, Hun qalası adlandırılmağa başladı.

Anani Şirakasi (VII əsr) özünün «Coğrafiya»sında «hun çarlığının» Dərbənd bölgəsində «dəniz yaxınlığında» yerləşdiyini göstərir. Onun məlumatlarına görə şimaldan hunların qonşuları türk-savirlər, cənubdan isə («…harada ki Dərbənd divarı ucalır») maskutlar idi. VI əsr Suriya salnaməsinin məlumatına görə (Zaxari Mitilen), Xəzər dənizi və Xəzər qapıları «hunların sərhədlərində» yerləşirdi.

Hunlar Cənubi Qafqaz və Ön Şərq ölkələrinin hərbi-siyasi əlaqələrində, Sasani dövlətinin Roma imperiyası ilə Dərbənd keçidi rayonunda hökmranlığa görə apardığı mübarizədə mühüm rol oynamışlar.

Sasani şahı II Şapurun hakimiyyəti dövründə (309-379) hunlar «…Çordan (Dərbənd keçidindən) keçərək dörd il ərzində alban ərazilərində məskunlaşdılar». 451-ci ildə antiiran üsyanı zamanı «alban şahzadəsi Valan» hunları öz tərəfinə cəlb etdi. Hunlar da xristianlıq andı içərək albanlarla bərabər «Dərbənd qapısından» İrana hücum edərək bir çox vilayətləri darmadağın edib, çoxlu sayda əsirlərlə və qənimətlərlə öz ölkələrinə geri döndülər. Hunlar bu döyüşlərdə üsyançılarla açıq birlik nümayış etdirdilər.

Altı ildən sonra, 457-ci ildə, alban şahı II Vaçenin rəhbərliyi altında yeni antiiran üsyanı zamanı (457-463) iranlılar hunları öz tərəflərinə çəkmək üçün «…çoxsaylı muzdlu hunlara pul ödəmək üçün Xaylandurların (hunların) torpaqlarına böyük xəzinə göndərmişdilər. Sonuncular Dərbənd qapısını tutaraq bir il alban şahı ilə müharibə aparmışlar. Vaçenin ordusu darmadağın edilmişdir».

Dərbənd və ərəblər. Azərbaycanın Ərəb xilafəti tərəfindən işğalı VII əsrin 30-cu illərinin sonunda başlanmış və 705-ci ildə başa çatmışdır. Daim bir-birilə düşmənçilik edən döyüşkən köçəri ərəb qəbilələri yeni din – İslam dini bayrağı altında birləşərək qorxulu bir qüvvəyə çevrildi. Ərəb süvariləri Şərq və bütövlükdə Asiya ölkələri üzərindən qasırğa kimi keçir, «Allahın «seçmə adamları»nın» silahı səslənirdi. Yeni din vasitəsilə birləşmiş və çox gözəl silahlanmış, istedadlı sərkərdələrin rəhbərlik etdiyi ərəb ordusunun dağıdıcı zərbələrindən Sasani İranı, Suriya, Misir, İraq kimi qüvvətli və yüksək inkişaf etmiş dövlətlər məğlub oldular. Tezliklə ərəblər Cənubi Qafqaza soxuldular. Onların əsas diqqəti ən mühüm iqtisadi bölgəyə idi – ticarət əlaqələrinin gündən-günə möhkəmləndiyi Şərqi Qafqazdan keçirdi. Bu əlaqələr Şərqi Avropanı Yaxın Şərq ölkələri ilə birləşdirirdi. Onlar yaxşı başa düşürdülər ki, bu ticarət arteriyasının mühüm mərkəzi Dərbənddir. Bu sirli və uzaq şəhərin adı müsəlmanların müqəddəs kitabı olan Quranda çəkilir (əl-Kəhf surəsi, 82-98 ayələr). Bu şəhər islamı qəbul etmişlərin «inananların böyük qapıları» olmalı və «həqiqi inamın» şimala doğru, yayılmasında, yəni yeni torpaqların və xalqların alınmasında dayaq məntəqəsi olmalıdır.

Ərəblər başa düşürdülər ki, Dərbəndə yiyələnmədən nə Şimali Qafqaza çıxmaq, nə də Cənubi Qafqazda, o cümlədən də Azərbaycanda möhkəmlənmək mümkündür.

Ət-Təbərinin məlumatına görə (X əsr), ərəblər Dərbəndə ilk yürüşü Suraka ibn Əmrənin rəhbərliyi altında hicri 22-ci ildə (642/3) xəlifə Ömər ibn əl-Xəttabın dövründə etmişlər. Sasani dövlətinin darmadağın edilməsinə baxmayaraq Dərbənd şəhərini hələ sasani canişini Şəhriyar (Şahbaraz) idarə edirdi və o, ərəblərə güclü müqavimət göstərdi.

Ərəblər xəlifə Osman ibn Affanın (644-656) dövründə, Salman ibn Rəbiyə əl Bahilinin rəhbərliyi altında Dərbənddə yenidən yürüş etdilər. IX-X əsrin bir çox ərəb müəllifləri (Bəlazuri, əl-Yəqubi, ət-Təbəri və başqaları) bu yürüşün böyük çətinliklərindən yazırlar və xəzərlərlə döyüşlərdə «Qırxlar» şimal qəbirstanlığında dəfn olunmuş 40 şəhid («kafirlərlə» müharibədə din uğrunda həlak olmuş müsəlmanlar) haqqında məlumat verirlər.

Ərəb sərkərdələrinin dəfələrlə Dərbəndə yeni yürüşlər etməsi ərəblərin uğursuzluqlarını təsdiq edir. Yazılı mənbələr hicri təqvimi ilə 26-cı ildə (646/7) Həbib bin Məsləmənin yürüşü, hicri təqvimi ilə 30-cu ildə (650/1) «… Bab əl-Əbvaba, Əbd ər-Rəhman ibn Rəbiyənin köməyinə gedən» əfsanəvi Hüzeyf və Səid ibn ac-Assanın yürüşləri haqqında məlumat verirlər. Hicrinin 42-ci ilində (662/3), xəlifə Müəviyyənin dövründə (661-680), ərəblər yenidən Dərbəndi mühasirəyə alırlar. 80-ci ildə (698/9) Məhəmməd bin Mərvan Dərbəndə yola düşür. Hicrinin 66, 88 və 91-ci illərində (685/6; 706/7 və 709/10) ərəb qoşunları Məsləmənin rəhbərliyi altında üç dəfə Dərbənd qala divarlarının yanında görünürlər. Şəhəri hicrinin 98-ci ilində Amr-u ibn Rəbiyə, 103-cü ilində isə (722/3) – Əbu Ubeydə Cərrah mühasirədə saxlayır.

Bütün bu məlumatlar göstərir ki, qonşu ölkələrin zəbt edilməsində böyük təcrübəsi olan ərəblərin Dərbənddə möhkəmlənmək üçün göstərdikləri inadlı cəhdlərə baxmayaraq, onlar buna uzun müddət nail ola bilmədilər. Bu da Dərbəndin qala kimi qüdrətindən və şəhəri müdafiə edən «türk» döyüşçülərinin (xəzərlərin) hərbi istedadı haqqında xəbər verir. Yalnız hicri tarixinin 115-ci ilində (733/4) Məsləmə bin Əbdülməlikin yürüşündən sonra ərəblər Dərbəndi zəbt edib şəhərdə möhkəmlənə bildilər.

Alban tarixçisi Moisey Kalankatlının məlumatına görə, Məsləmə bin Əbdülməlik «…Dərbənd şəhərini ikinci dəfə tikdirdi». Ərəb müəllifləri mə-

lumat verirlər ki, Məsləmə «…ərzaq üçün, arpa üçün anbar, silah üçün anbarlar tikdirir, su sistemlərini təmizlətdirir, şəhərdə dağılmış yerləri düzəltdirir və rənglətdirir, Suriyadan şəhərə 24 min əsgər köçürür və hər məhəllədə məscid və Cümə məscidini tikdirdi».

Dərbəndin Ərəb xilafəti kimi qüdrətli dövlətin hərbi-siyasi və ticarət-iqtisadi təsiri sferasına daxil olması şəhərin gələcək inkişafına mühüm təsir göstərdi. Bu dövrdə Dərbənd Xəzər yolunda məşhur «ipək yolunu» kölgədə qoyan «cənubla» «şimal» arasında «ərəb» ticarətinin baş məntəqəsinə çevrilir. Dərbəndin iri sənətkarlıq mərkəzinə çevrilməsi onun Yaxın və Orta Şərq, Aşağı Volqaboyu mərkəzləri ilə sənət-ticarət əlaqələrini gücləndirir. Ticarətin çiçəklənməsi və sənətkarlığın inkişafı şəhərin genişlənməsinə və böyüməsinə böyük təsir göstərdi.

İmam Əbdülqasim Məhəmməd ibn Hövqəl (X əsr) «Yollar və səltənətlər» kitabında yazırdı: «... Bab əl-Əbvaba xəzi Volqadan gətirirlər. Arranda Bərdədən, Əl-Əbvabdan və Tiflisdən böyük şəhər yoxdur».

Ət-Təbərinin yazdığına (X əsr) görə, bura Cürcandan, Təbəristandan, Deyləmdən tacirlər gəlir, Dərbənd tacirləri isə İraqla, Farsla, Kəmranla, Təbəristanla, Xorasanla, Qara dəniz düzənlikləri ilə fəal ticarət əlaqələri saxlayırdılar. Bu şəhərin o dövrdə özünün şəxsi pul vahidi var idi.

Xilafətin şimal sərhəddi olduğu üçün şəhər daim xaricdən hücuma məruz qalırdı.

Yazılı mənbələrin göstərdiyinə görə, 722, 728, 754, 764, 799-cu illərdə xəzərlər şəhəri mühasirədə saxlamış və şəhərdə görünməmiş dağıntılar və vəhşiliklər törətmişlər. Ona görə də ərəblər ilk gündən şəhərin müdafiə istehkamlarının bərpası və möhkəmləndirilməsi üçün bütün tədbirləri görmüşlər. Xəlifələr buna çoxlu vəsait sərf etmişlər. Şəhərin müdafiəçilərini saxlamaq üçün Bakının duz və neft mədənlərindən çoxlu pul vəsaiti götürülürdü.

VIII əsrin ikinci yarısında Qafqazda ərəblərə qarşı güclü hərəkat başlayır. Dərbənddə də sakitlik pozulur. Şəhər sakinləri ərəblərin hakimiyyətinə qarşı narazılıqlarını büruzə verirdilər. Yəqubinin «Tarix» kitabında 797-ci ildə baş vermiş böyük antiərəb üsyanı və vergiyığan ərəbin öldürülməsi haqqında məlumat verilir.

Xəlifə Harun ər-Rəşidin (786-809) göstərişi ilə Dərbənd qarnizonunu doldurmaq üçün həbsxanalardan 11 min dustaq buraxılmış, Suriya və Mesopotamiyadan isə 7 minə yaxın müsəlman ailəsi Dərbənd qalasının yaxınlığındakı Kamax, Məhəmmədiyyə (indiki Bilhədi), «Bab-Bak (indiki Darbağ) və b. qalalarında yerləşdirilmişlər. Lakin bu tədbirlər heç bir nəticə vermədi. Bundan istifadə edərək xəzərlər itirilmiş mövqelərini bərpa etmək üçün Dərbənd yaxınlığında ərəblərin çoxminlik ordusunu darmadağın etdilər və yalnız Qafqaz canişini Yəzid ibn Məzyədin böyük səyi nəticəsində Dərbənd üzərində nəzarət ərəblərin əlində saxlanıldı.

Ərəblər tərəfindən irriqasiya sistemlərinin yaxşılaşdırılması üzrə işlərin aparılması haqqında ilk məlumatlar xəlifə Harun ər-Rəşidin hakimiyyəti dövrünə aiddir. Bu dövrdə Rubas çayında su anbarı tikilmiş və şəhər ətrafına su çəkilmişdi. Eyni zamanda, şəhərin abadlaşdırılması üzrə bir sıra tədbirlər həyata keçirilmiş, yaşayış evləri və məscidlər tikilmişdi. Hicri tarixi ilə 270-ci ildə (883/4), xəlifə Müttəmidin dövründə Şirvandan bütün neft və duz mədənlərindən gələn gəlirlər hədiyyə «vəqf» olaraq Dərbəndə verilmişdir. Xəlifənin fərmanında deyilirdi: «…Kim bu nefti Bab əl-Əbvabın sakinlərindən alsa, Allahın və peyğəmbərin düşməni olacaq».

IX əsrin sonunda – X əsrin əvvəlində Ərəb Xilafətinin qüdrəti xeyli zəifləyir. Bu dövrdə Dərbəndin Bağdaddan asılılığı xeyli zəifləyir. Belə ki, Bəlazurinin məlumatına görə, hər bir canişin şəhər sakinlərinə pul və hədiyyə verməsəydi şəhərə buraxılmırdı. Yerli tarixi «Dərbəndnamə» salnaməsinin məlumatına əsasən, xəlifə Harun ər-Rəşid Dərbəndin sakinlərinə çanişini dəyişmək hüququnu vermişdir.

Bir çox şahidlərin məlumatına görə, bu dövrdə şəhər əldən-ələ keçirdi.

X əsrin əvvəllərində şəhərdə xilafətin keçmiş adət-ənənələrinin bərpa edilməsinə cəhd göstərilmişdir, lakin bu cəhd uğursuzluqla nəticələnmişdi.

Dərbənd və leqlər. Erkən orta əsrlərdə Azərbaycan Albaniyasında müasir ləzgilərin və lakların əcdadları sayılan leqlər yaşayırdılar. Strabon və Plutarx qeyd edirlər ki, leqlər və qellər (müasir ingiloyların əcdadları) albanlarla amazonkaların arasında məskunlaşmışlar. Qədim mənbələrdə leq etnonimi bütün Dağıstan xalqlarının toplu adıdır. O zamanlar

Cənubi Dağıstanın da xeyli hissəsi Azərbaycan Albaniyasının tərkibinə daxil idi. Lakin leqlər Albaniyanın şimalında da yaşayırdılar. Leq tayfaları alban tayfa ittifaqının tərkibinə daxil olmuşlar. Gürcü mənbələrinin birində leq etnonimi albanlar mənasında işlənmişdir. Təəssüf ki, mənbələrdə leqlərin – ləzgilərin Albaniyanın iqtisadi və siyasi həyatındakı rolu haqqında məlumat verilmir.

Bax: Ə.İ.Muxtarova. Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər). Bakı, 1999, 362s.

Dərbənd və haşimilər – Dərbəndin yerli hökmdarlar sülaləsi olan Haşimilər (869-1075) nəsli öz başlancığını Suriyadan köçmüş Haşim ibn Suraka ibn Salis ibn Həyyum ibn Nacim ibn Haşim əs-Suləmidən başlayır. Mənbələrin verdiyi məlumata görə, 869-cu ildə o, «…əl-Bab sülaləsinin əsasını qoymuşdur».

Dərbənddə böyük bərpa işləri onun adı ilə bağlıdır: «…qalanı, bürcləriniy dağılmış yerlərini təmir etdirmiş, ərzaq anbarını bərpa etdirmişdir». «Tarix-i Şirvan va-Bab əl-Əbvab»ın məlumatına görə, Haşim ibn Suraka «…sərhəd vilayətlərinin məşhur rəis və döyüşçülərindən biri idi».

Məlumdur ki, bu mötəbər nəsbl Dərbənddə qədim zamanlardan ərəb hakimiyyətinin dayağı kimi xaliflərin etibarını qazanmışdı. Belə ki, Haşim (736) öz canişini Əsəd bin Zərifi Dərbəndə göndərərək Qırxlar qapısının açarından başqa, şəhərin bütün qapılarının açarlarını ona vermişdir. Bu açarları saxlamaq üçün Haşimilər nəslinin nümayəndəsi Əqləbi bin Zərif bin Haşim əs-Sülamiyə vermişdir. 796-cı ildə xəlifə Harun ər-Rəşid Xafsa bin Öməri Dərbəndin hakimi təyin edərək, ona demişdir: «...Allahdan qorx və gündə 5 dəfə namaz qılmaq üçün məscidə get. Məsləhətləşməmiş heç nə etmə. Dərbəndin bütün işləri sənin əlindədir; əgər sən satqınlıq etsən və ya xalqa zülm etsən, mən Dərbənd xalqına səni devirmək hüququ verirəm. Mən Əbd əl-Malik bin Əqləbi bin Haşim əs-Sülamini sənin üzərində nəzarətçi təyin edirəm. O, bizim etibarlı adamımız olduğu üçün mən onu qoşun başçısı təyin edirəm».

IX əsr ərəb müəllifi Əhməd ibn Əsam əl-Kufinin «Kitab əl-Futuh» əsərində yazılır ki, 796-cı ildə Harun ər-Rəşid tərəfindən Azərbaycanın və Arranın yeni təyin olunmuş hakimi Səyid ibn Səlm ibn Kutayba Dərbəndə yer vergisini yığmaq üçün adam göndərir. Dərbəndlilər bunu öz hüquqlarının pozulması kimi qəbul edirlər. Dərbənd Ərəb Xilafətinin tərkibinə daxil olduğu ilk gündən şəhəri «xəzər və ruslardan» müdafiə etdiyi üçün bütün növ vergidən azad edilmişdir. Vergi toplayan və onun adamları şəhərdən qovulmuşdur. Bu çıxışda üsyançılara Hayyun ibn əl-Nəcm ibn Haşim başçılıq etmişdir.

Qəzəblənmiş Səyid ibn Səlm ibn Kutayba özü Dərbəndə gəlir, üsyanın başçısı ən-Nəcm ibn Haşimi Dərbəndə apararaq zindana salır. Buna cavab olaraq Hayyun Dərbəndin ərəb hakimi Nəsr ibn Ananı əsir götürür. Qəzəblənmiş Azərbaycan hakimi ən-Nəcm ibn Haşimin başını kəsərək Dərbəndə onun oğluna göndərir. Hayyun ibn Nəcm cavab olaraq Dərbəndin ərəb hakiminin başını kəsir və Bərdəyə göndərir. Səyid ibn Səlm Hayyunu və itaət etməyən dərbəndliləri cəzalandırmaq üçün böyük qoşunla Bərdədən Dərbəndə gedir.

Bunu eşidən Hayyun Xəzər xaqanına çoxlu hədiyyələr verərək onu «İslam ölkəsinə» yəni, Azərbaycanın ərazisinə hücum etməyə vadar edir. Xaqan 40 min nəfər süvari ilə Səyid ibn Səlmin qoşununu darmadağın edir, Azərbaycanın ərazisinə soxulur, ölkəni talan edir və «…100 min qadın, kişi və uşağı» əsr götürür.

Bu hadisədən xəbər tutan xəlif Harun ər-Rəşid Səyid ibn Səlmi hakimiyyətdən uzaqlaşdırır və onun yerinə Azərbaycana yeni hakim – Əli ibn İsa ibn Mahanı təyin edir. Lakin o, Dərbəndi idarə edə bilmədiyi üçün xəlif onun yerinə Yəzid ibn Məzyədi təyin edir.

Yəzid dərbəndliləri sakitləşdirmək üçün vergi toplayan əl-Xarisi və Hayyun tərəfindən edam edilmiş Dərbənd hökmdarının tərəfdarlarını zəncirləyərək xəlifənin yanına göndərir. Sonra «…Dərbənd sakinlərinə namə yazır, onları bağışlayır, bununla ölkə sakitləşir».

Yazılı mənbələrin məlumatına əsasən Haşimilər sülaləsi 869-cu ildə hakimiyyətə gələrək Dərbəndi 206 il ərzində idarə etmişlər. Burada qeyd etmək lazımdır ki, Haşimi bin Suraka əs-Suləmidən başlayaraq Dərbənd hökmdarları Bağdaddan təyin olunmurdular, onlar sakinlər tərəfindən seçilirdilər.

Dərbənd və səlcuqlar. Türk səlcuqların Dərbəndə ilk yürüşü 1067-ci ilə aiddir. Lakin onda da səlcuqlar şəhər üzərində tam şəkildə nəzarəti ələ ala bilməmişlər. 1069-cu ildə səlcuqlar Dərbənd üzərinə səlcuq hakimiyyətini yaymaq üçün daha bir uğursuz

cəhd etmişdi. Yalnız 1075-ci ildə səlcuqlar Dərbənd üzərində nəzarəti ələ ala bildilər.

Bundan az sonra bütün «sərhədyanı vilayət» (Dərbənd ilçəsi) sultan Məlikşah (1072-1092) tərəfindən Savtəkinə iqta kimi verilmişdi.

Dərbənd hakimlərinin Haşimilər sülaləsi devrilmiş və hakimyyətə başqa - yerli Əqləbilər sülaləsi gəlmişdi. Dərbənd XII əsrin ikinci yarsınadək Səlcuq sultanının hakimyəti altında olmuşdur. Məşhur ispan mənşəli ərəb səyyahı Əbu Xalid əl-Əndəlusi əl-Qərnati 1131-ci ildə Dərbənddə olmuş və Səlcuq sultanından asılı olmayan müstəqil Dərbənd hökmdarı Seyf əd-Din Məhəmməd ibn Hənifə haqqında məlumat vermişdir. 1164-cü ildə Dərbənddə olmuş digər müəllif İbn əl-Əzraq əl-Fakirihi şəhər hakimi olan yerli müstəqil əmir Əbu-l-Müzəffərin adını çəkir. Əmir Əbu-l-Müzəffər Şirvanşah I Axsitan bin Mənuçöhrün (1160-1190) qayınatası olan gürcü çarı Dmitrinin qızı ilə evlənmişdir.

Bu dövrdə şəhərin toponimikasında dəyişiliklər baş verir, ərəb adları tədricən türk adları ilə əvəz edilir: şəhərin qapıları Bab əl-cihad - Qırxlar qapısı, Bab əl-Məktub - Bayat qapı, Türkmən qapısı Bab əl-Mühacir - Carçı qapısı və yaxud Daş qapısı, Narınqala, divar dağ-barı adlandırılmışdır. Dərbənd şəhəri Dəmirqapı, şəhərə birləşən bölgə isə – Ulus mahalı adlandırılmışdır.

Dərbənd və Əqləbilər – Yerli türk tayfalarından olan Dərbənd hökmdarlarının sülaləsidir. Bu sülalə ərəb Haşimilər sülaləsini əvəz etmişdir. Sülalənin banisi Əqləb əs-Sülami olmuşdur.

Əqləbilər Dərbənddə ən qədim və hörmətli nəsillərdən biri idi. Xilafətin hökmdarları onlara böyük rəğbət bəsləyirdilər. Əqləbilər nəsli 1075-1239-cü illərdə Dərbəndi idarə etmişlər.

Dərbənd və tatlar. Tat dili qədimdən müəyyən fars etnik qrupunun dili olub. Şübhəsiz, bu etnik qrup fars tayfalarına daxil idi. Mahmud Qaşqari qeyd edir ki, türklər fars dilində danışanları tat adlandırırdılar. Belə bir fikir mövcuddur ki, farsdilli tatlar Persiyadan Azərbaycan Albaniyasına Sasanilər tərəfindən Dərbənd divarının tikilməsi ilə əlaqədar şimal sərhədlərini qorumaq üçün köçürülmüşlər.

Qeyd etmək lazımdır ki, Şimal-Şərqi Azərbaycan Albaniyasındakı tatlar yığcam yaşayırdılar və çox ehtimal ki, erkən orta əsrlərin əvvəlində türk tayfalarının bir hissəsini assimiliyasiyaya uğratmışdılar (məsələn, bu zonada yerləşən Dağ Quşçu və Çöl Quşçu kəndlərinin sakinləri, mənşəcə türk tayfası olmalarına baxmayaraq, tat dilində danışırdılar). Sonra onlar ərəblərin də bir hissəsini assimiliyasiyaya uğratmışdılar (Quba rayonunun Firid və Afurca kəndinin sakinləri və s.). Tat dilində bir çox qədim türkdilli sözlər qorunub saxlanılmışdır. Azərbaycanda tatlar üç qrupa bölünür: müsəlman tatları, xristian tatları və yəhudi tatları.

Bax: Ə.İ.Muxtarova. Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər). Bakı, 1999, 362 s.

Dərbənd və savromatlar (sarmatlar). Sarmat tayfaları – oranlar, türklər, qarqarlar, bəsillər (barsillər), siraklar və b. tayfaları əhatə edirdi. Şimali Qafqazda türkdilli idilər. Əgər midiyalı tayfalar və onların bir hissəsi sarmatlarla qohumdurlarsa, onda çox ehtimal ki, Midiya tayfaları arasında türk tayfaları, türklər də var idi. Türk-sarmatlar Dağıstanın sahilyanı ərazilərində yaşayırdılar. Onlardan qalan tarixi hadisələr buna sübutdur. Yuxarıda qeyd olunanlar belə nəticəyə gəlməyə imkan verir ki, Şimali Qafqazdan – Dərbənddən keçərək türk tayfaları Midiya və Mannanın ərazisinə girmişlər.

Bax: Ə.İ.Muxtarova. Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər). Bakı, 1999, 362 s.

Dərbənd və qacarlar. Çingiz xanın nəslindən olan Hülaku xan (1256-1265) Ərəbistandan Amudəryaya, Hind okeanından Şimali Qafqaza kimi olan böyük ərazidə möhtəşəm Hülakilər feodal dövlətini yaratdı və onun tabeçiliyində olan ərazidə Mərkəzi Asiyadan, Şimali Qazaxıstandan və Zabaykaldan gətirilmiş türkləri burada məskunlaşdırdı. Onların arasında İrandan köçmüş qacarlar tayfasından olan 200 ailə vardı.

Qacarlar yeni dövlətdə yer tutdular, səfəvi şahları dövründə (1501-1736) dövlət xadimləri oldular, İrəvanı, Şirvanı, İraqı, Mazandaranı, Təbəristanı, Gilanı idarə etmiş və Gəncədə, Xorasanda, Astrabadda yerli hakim sülalələrini yaratmışdılar.

Qacarların ölkədəki siyasi təsiri o qədər böyük idi ki, onlar vaxtaşırı hakimiyyətdə olanlarla rəqabət aparırdılar və sonda, 1796-cı ildə fars taxt-tacına

sahib oldular.

A.A.Bakıxanov (1794-1847) özünün məşhur «Gülistan-i İrəm» əsərində yazmışdır ki, «…Ermənistan və Şirvanın hökmdarlar və məmurlarının çoxunun qacarlardan olduğu üçün dağlı xalqlarla çox yaxın münasibətlərdə olmuşlar və Qafqazın aşağı hissəsində yaşayan bütün sakinləri həqarətlə qacar adlandırılırlar». Bu gün yalnız Cənubi Dağıstan dağlılarını (ləzgiləri) və Dərbəndin yerli azərbaycanlı sakinlərini qacar adlandırırlar.

Dərbənd və mikrilər. Nadir şah (1736-1747) dövründə mikri tayfası Dərbəndə köçürülmüşdür. Yerli tarixi salnamələrin məlumatına əsasən «…150 nəfərlik mikri tayfası Nadir şahın Dərbənddəki sərvətini, hərəmxanasını və sarayını qoruyurdu».

«Mikri» etnik termini ilə (burada məskunlaşmış tayfanın adı) məhəllələrin biri – «Mikri məhəlləsi» (2-ci məhəllə), məhəllə bulağı (Mikri bulağı) və məhəllə məscidi (Mikri məscidi) adlandırılmışdır.

Dərbənd və dağ yəhudiləri. 1797-ci ildə Qazıqumuxun hakimi Surxay xan düşməni olan qubalı Şeyxəli xanın (Dərbəndlinin) torpaqlarına hücum etdi. Şəhərə girə bilməyən Surxay xan Dərbəndin cənub hissəsinin 18 km-də yerləşən, dağ yəhudilərinin məskunlaşdığı Abasova kəndinə (türkcə Abas-oba) hücum edib onu darmadağın etdi.

Yazılı mənbələrin verdiyi məlumata əsasən 200-dən çox kənd sakini öldürülmüş, bir çoxu əsir götürülmüş, sağ qalmış 150 nəfəri isə Şeyxəli xan Dərbənddə yerləşdirməyi əmr etmişdi. Yeni sakinləri Dərbənd şəhərinin aşağı, əhali ilə məskunlaşmamış ərazisində yerləşdirdilər. Rəvayətə görə, yəhudilər ev tikməmişdən əvvəl, bu əraziyə Abasova kəndindən torpaq gətirib tökmüş, sonra isə özlərinə ev tikməyə başlamışdılar. Yeni məhəllə Cuhud məhəlləsi və ya Yəhudi məhəlləsi, rus sənədlərində isə – Yəhudi qəsəbəsi adlandırılmışdı. Qəsəbə sürətlə böyüməyə başlamışdı. Əgər 1806-cı ildə şəhərdə 100 nəfər yəhudi kişisi yaşayırdısa, 1897-ci ilin Ümumrusiya əhalinin siyahıya alınmasına əsasən artıq onların ümumi sayı 1117 nəfər idi.

1832-ci ilin rəsmi sənədlərinə əsasən şəhərin yəhudilərinin üzərinə dövlət müəssisələrinin növbə ilə yığışdırılması və yanacağın daşınması vəzifələri qoyulmuşdur.

Şəhərin dağ yəhudi əhalisinin sayının dinamikası

İllər	1824	1837	1897	1926	1959	1970	1979	1989
Ümumi sayı	444	871	2181	6597	11335	9195	3547	2427
Şəhərin ümumi sayına nisbətlə, %-lə	4%	7,7%	14,9%	28,6%	26,1%	16%	5,2%	3,1%

Dərbənd və ruslar. Dərbənd Rusiya tərəfindən işğal edilənədək (1806) bu şəhərdə rus əhalisi yaşamırdı. Dərbənddə ilk rus ailələri hərbi qarnizon zabitlərinin ailələri, sonra isə əsgər ailələri olmuşdur.

XX əsrin əvvəllərində şəhərdə rus əhalisi çox az idi. Belə ki, 1897-ci ildə əhalinin siyahıya alınması zamanı şəhərdə 1092 nəfər rus yaşamışdır (onlardan 698 nəfəri kişi və 394 nəfəri qadın), bu da bütün şəhər əhalisinin 7,5%-ni təşkil etmişdir.

Şəhərin rus əhalisinin sayı

İllər	1873	1897	1926	1959	1970	1979	1989	2002
Dərbənddə rus əhalisinin sayı	546	1092	5499	12310	11284	10404	7644	5073
Əhalinin ümumi sayının (xüsusi çəkisi %-lə)	4,8%	7,5%	23%	28,4%	19,7%	15,4%	9,8%	5,0%

XIX əsrin sonu - XX əsrin 30-cu illərində şəhərdə rus əhalisinin artması həmin dövrdə dəmiryolu xəttinin açılması, XIX əsrin 20-30-cu illərində mərkəzi Rusiyada aclığın baş verməsi və qolçomaqların təqibi ilə əlaqədar rus əhalisinin Dərbəndə axışması baş verdi. XX əsrin 40-50-ci illərində şəhərin rus əhalisinin artması Böyük Vətən müharibəsi illərində şəhərə çoxlu qaçqınların gəlməsi ilə bağlı idi.

Ərəb xilafəti tərəfindən işğaldan sonra ərəb tayfalarının Azərbaycana köçürülməsi. İslamın başlanğıc dövründə hər hansı ərəb tayfasının Azərbaycana köçməsi haqqında ərəb tarixçilərinin heç birində məlumata rast gəlinmir. Bu cəhət bizə iddia etməyə əsas verir həmin dövrdə istilaçılar üçün yeni olan ölkələrdə onların vəziyyəti möhkəm olmadığına görə məskunlaşdırma məsələsindən, yəni bu ölkələrə əhali köçürdüb yerləşdirmək haqqında danışıq ola bilməzdi. Ərəblər yeni ölkələrdə yalnız iri şəhərləri və qovşaq məntəqələri işğal edərək, bunlarda rabitə yollarını qorumaq üçün kiçik qarnizonlar saxlayırdılar, qoşunun əsas hissəsi isə ölkənin içərilərinə dorğu irəliləyirdi ki, onu tamamilə ərəblərin əlinə keçirsin.

Ərəb qoşunlarında hər birləşmə hərbi səfər və müharibələrdə dörd il ərzində iştirak edirdi, bundan sonra ordu toplandığı doğma yerinə qayıdır, onun əvəzində isə sonrakı dörd il üçün yeni ordu göndərilirdi. Təbərinin verdiyi məlumata görə, ərəblərdə bu qayda yeni ölkələri istila etməyin başlanğıc dövründə var idi. «Kufə qoşunlarının hərbi səfər etdiyi vilayətlər Rey və Azərbaycan idi. Bu iki diyarda Kufə əhalisindən on min qoşun var idi: altı mini Azərbaycanda, dörd mini isə Reydə. Bu zaman Kufədə qırx min qoşun var idi. Bunlardan hər iki diyara edilən səfərlərdə yalnız on min qoşun iştirak edirdi, beləliklə, hər bir əsgər hərbi səfərdə dörd il iştirak edirdi».

İstila edilmiş ölkələrə ərəblərin köçməsi və bu ölkələrdə məskən salması yalnız həmin ölkələr tamamilə işğal ediləndən və yeni ələ keçirilmiş ərazidə ərəb hakimiyyəti möhkəmləndikdən sonra başlandı.

Azərbaycana ilk ərəb köçürmələri haqqında Bəlazuri məlumat verir: «Valid ibn Uqbə Azərbaycana gələndə əl-Əşəs ibn Qeys də onunla idi. Valid Azərbaycanı tərk edərkən əl-Əşəsi Azərbaycanın hakimi təyin etdi. Lakin [Azərbaycan] müqaviləni pozdu (üsyan etdi -N.Ə.) və (əl-Əşəs) Validdən kömək istədi, o da Kufə əhalisindən düzəldilən böyük bir ordunu onun üçün göndərdi. Əl-Əşəs ibn Qeys (üsyançıları) bağdan-bağa təqib edərək (Azərbaycanı) Xuzeyfə və Uqbə ibn Ferqədin bağladıqları müqavilə şərtləri əsasında itaətə gətirdi, sonra təqaüd (əta) alan və divan (hesabında) sayılan ərəbləri oraya köçürdü və onlara əmr etdi ki, əhalini islama dəvət etsinlər».

Əməvi xəlifələri ilk ərəb köçkünlərinə Azərbaycanda torpaq verib onları oturaq həyat tərzinə keçirməklə, eyni zamanda iki məqsədə nail olurdular: birincisi, xəzinəni təqaüd vermək xərclərindən azad edir və ikincisi, yeni tutulmuş vilayətlərdə ərəblərin hakimiyyətini gücləndirirdilər. Lakin əvvəllər köçənlər yalnız ayrı-ayrı şəxslərdən ibarət olduğu halda, tez bir zamanda bütöv tayfalar yeni torpaqlara köçürülməyə başladılar.

Bəlazuri yazırdı: «Ərəblər Azərbaycanı tutduqdan sonra iki mahaldan (Kufə və Bəsrədən) və Suriyadan ərəb tayfaları oraya getdilər və onlardan bər biri bacardığı qədər (torpaq) tutdu. Bəziləri isə ərəb olmayanların (əcəmlərin) torpağını satın alırdılar. Bundan əlavə, kəndləri qorumağı onlara həvalə etdilər, beləliklə də, həmin kəndlərin əhalisi onların qulluqçusu oldu».

Bu məlumat hansı tayfanın birinci olaraq Azərbaycana köçdüyünü və hansı tayfanın harada məskən saldığını bildirmir. Aydındır ki, Azərbaycana köçən ilk tayfalar müəyyən bir qrupa mənsub olmayıb, şimal, orta və cənubi Ərəbistan tayfalarından, yəni qeysilər, nizarilər və qəhtanilərdən ibarət idi. Yəqubinin dediyinə görə, Abbasilər hakimiyyət başına keçməzdən əvvəl, Azərbaycana yalnız şimal tayfalarından Rəbiə və Mudar nizariləri köçürdülər. Həmin əl-Əşəs Azərbaycan hakimi olanda, «təqaüd alan ərəblərdən müəyyən qədərini Ərdəbilə köçürdü».

Ərəb tayfalarını Arrana köçürmək məsələsində isə vəziyyət başqa cür oldu. Bu ölkə ərazisinə soxulan ərəb orduları burada xristianlara (əhl əl-kitab) rast gəldilər; ərəblərin bunlarla münasibətləri isə tamamilə başqa cür qurulurdu. Bundan əlavə, ərəblər Arranı istila edərkən, ölkəni öz nəzarəti altında saxlayıb qüdrətli düşmən olan xəzərlərlə qarşılaşdılar.

Yüz ildən artıq davam edən ərəb-xəzər müharibələri ərəbləri məcbur etdi ki, xristian bir ölkədə öz ağalıqlarını möhkəmlətmək üçün istehkamlı məntəqə və şəhərlərə ciddi diqqət yetirsinlər. Ərəblər Arranın

strateji cəhətdən mühüm olan bütün məntəqələrində qarnizonları olan möhkəmləndirilmiş hərbi məskənlər (rabatlar) yaratmağa başladılar. Bu qarnizonları saxlayıb dolandırmaq yerli əhalinin boynunda ağır bir yük idi.

Rabatlarda başlıca olaraq, xəlifədən maaş almayan və «mütatəviyyə» adlanan qoşun toplanırdı. Həmin yerlərdə bütöv tayfalar məskən salıb yerli əhalinin ən yaxşı yerlərini tutur və qəbilə ağsaqqallarını məcbur edirdilər ki, istehkamlı yerləri onların ixtiyarına versinlər. Həmin adamların qadın və uşaqlarını girov götürürdülər ki, onların əleyhinə çıxmasınlar.

Arran əhalisinin torpaqlarını tutan ərəblərin bu torpaqları öz əsgərlərinə verdiklərini ərəb tarixçiləri də təsdiq edirlər. Bəlazuri bildirir ki, ərəblər Dərbəndi aldıqdan sonra dərhal xilafətin şimal hüdudlarında bu şəhərin açar kimi əhəmiyyətli mövqe təşkil etdiyinə diqqət verdilər. Buna görə ərəblər Dərbənddə xilafət sərhədlərini xəzərlərin hücumundan qorumağa qadir olan çox güclü qarnizon saxlayırdılar. Bunun üçün «Məsləmə (ibn Əbd ül-Məlik) Bab əl-Əbvab şəhərinə Suriya əhalisindən iyirmi dörd min əsgər köçürdü və onlara müəyyən maaş (əta) təyin etdi».

Ərəblər Bərdə, Beyləqan, Qəbələ və digər Arran şəhərləri ətrafındakı torpaqları da tutmuşdular. Bundan əlavə, ərəblər Arranda Kasal (Qazax) kimi yeni istehkamlı şəhərlər və şimal sərhədləri boyunca məntəqələr qururdular. Bütün bu yerlərdə ərəb qarnizonları atıcı rabatların ətrafındakı kəndlərin hesabına yaşayırdı. Vaxtilə V.V.Bartold bu cəhəti düzgün qeyd etmişdir: «Ərəblərin istila edilmiş ölkələrə mühacirəti, əvvələn, xəlifə canişinlərinin yaşadığı məntəqələrdə hərbi ordugahlar qurmaq, ikincisi bədəvi qəbilələrin müəyyən ərazini tutması şəklində ifadə olunurdu. Ordugahlar tez bir zamanda şəhər həyatının mərkəzi, başlıca olaraq ümumi müsəlman mədəniyyəti tipinin yarandığı bir yer olurdu».

Beləliklə, rabatların vəzifəsi müəyyən rayonda xilafət hakimiyyətini möhkəmləndirmək, sərhədləri qorumaq, yerli əhalinin baş verə biləcək çıxışlarını yatırtmaq və vergi toplanmasını təmin etmək idi. Rabat komandirləri eyni zamanda həmin yaşayış məntəqəsində yerli hakimiyyət nümayəndəsi (amil) vəzifəsini icra edirdilər. Rabatların şəxsi heyəti yerli əhalinin hesabına mənzillə təmin olunmalı idi, yəni əhalinin bir hissəsi zorla öz mənzillərindən çıxarılmalı idı. Sonralar ray bat döyüşçüləri yeni qulluq yerinə öz ailələri ilə birlikdə köçməyə başladılar; yerli əhali isə bunları da saxlayıb yedirtməli idi.

Hərçənd Bəlazuri qeyd edir ki, ərəb kolonistlərinin yerli əhalidən aldıqları torpaqları orada məskunlaşmış ərəb döyüşçülərinin mülkiyyəti hesab etmək olmaz. Lakin F.Lokkeqor belə hesab edir ki, ərəblərə «bəraət verən» bu fikir yerli əhali torpaqlarının əllərindən alınıb özgəninkiləşdirilməsinə qarşı «gecikmiş etirazdan» başqa bir şey deyildir.

Əməvilər sülaləsinin süqutundan (750-ci il) sonra axırıncı Əməvi xəlifələrinin yüksək tutub arxalandıqları şimal tayfalarının imtiyazları tez yoxa çıxmağa başladı. Abbasilər cənubdakı ərəb tayfalarına arxalanaraq şimal tayfalarını tədriclə Azərbaycandakı məskənlərindən çıxarmağa başladılar. Artıq Azərbaycanın birinci Abbasi hakimi Yəzid ibn Xatəm ül-Mükəlləbi yəmənliləri Azərbaycana köçürməyə başladı. «O, ər-Rəval ibn əl-Müsənna əl-Əzdini Təbrizdən Bəzzədək uzanan torpaqlara, Mürr ibn Əli ət-Taini Narizə... əl-Həmədanini isə Mayanicə köçürdü. Yəmən tayfalarını (Azərbaycanda) elə yerləşdirdi ki, burada nizarilərdən heç kəs qalmadı».

Arranda məskən salmış şimal tayfaları yeni sülalə nümayəndələrini düşməncəsinə qarşıladılar. Köçürülənlərin əksəriyyəti Əməvilərin tərəfdarı olduğuna görə Abbasi hakimiyyət nümayəndələrini tanımaqdan imtina etdilər, tayfaların bir hissəsi isə üsyan qaldıraraq, şəhərlərdə və istehkam məntəqələrində mövqe tutdular və Məhəmməd ibn Sulun başçılıq etdiyi Abbasi qoşunlarına silahlı müqavimət göstərdilər.

Bu zaman axırıncı Əməvi xəlifəsi II Mərvan tərəfindən (744-750-ci illər) təyin edilmiş ölkə hakimi İshaq ibn Müslim əl-Ukaylinin köməkçisi Müsafir ibn Quseyr Arranı tutmuşdu. «Məhəmməd ibn Sul Müsafirlə vuruşdu, nəhayət, onu öldürüb ölkəni tutdu. Bundan sonra o, Beyləqan əhalisini əl-Kilab (kelbit tayfasının dayaq məntəqəsi - *N.Ə.*) qalasına atdı, onlar da o zaman Vard ibn Səfvan əs-Saminin idarə etdiyi şəhəri təslim etdilər. Onlar (Beyləqan əhalisi) çoxlu süluk və onların tay-tuşlarını öz qalalarında topladılar. Məhəmməd ibn Sul onlara qarşı Salehkindini göndərdi, o da qaladakıları mühasirə edib çox qırdı».

Dərbənd, həmçinin Bərdə, Qəbələ və Arranın bir çox digər məntəqələrində də Abbasi nümayəndələrinə eyni dərəcədə müqavimət göstərilmişdi. Məsələn, Bəlazuri yazır ki, suriyalılardan ibarət Dərbənd qarnizonu «hazırda (IX əsrin axırı - *N.Ə.*) heç bir (yeni təyin olunan) hakimin, əsgərlərə paylamalı olduğu pulu olmazsa, şəhərə girməsinə yol vermir».

Xəlifə Mütəvəkkildən (846-861) sonra da Dərbəndi və ətrafdakı istehkamları, Əməvilər dövründə buraya köçmüş suriyalı nəsillərin idarə etdiyini, Bəlazuridən 70 il sonra İstəxri də təsdiq etmişdir: «Bab ül-Əbvab dağlarında hələ Xosrovların tikdirdiyi istehkamlı qalalar vardır. Orada yaşayan adamlara (qoşunlara) tapşırılmışdır ki, xəzərlərin islam torpaqlarına keçə biləcək yolları qorusunlar. Belə qalalar on dörddür, burada Mosul, Diyar Rəbi və Suriyadan olan adamlar yaşayır, bunlar (qalalar) da həmin tayfaların (adı ilə) məşhurdur. (Burada) dil (ərəb dili) nəsildən-nəslə keçir. Onların (qala əhalisinin) üzərində heç bir rəis yoxdur...». Görünür, Abbasilər suriyalıları möhkəm Dərbənd istehkamlarından sıxışdırıb çıxara bilmədikləri üçün bu vəziyyətə dözdülər və həmin tayfaları özbaşına buraxdılar. Çox keçmədən Dərbənd rayonundakı ərəb tayfaları bu vəziyyətdən istifadə edərək xilafətdən ayrılıb, müstəqil Sülamilər əmirliyini yaratdılar.

Əməvilərə tərəfdar tayfaları Abbasilərə sədaqətli tayfalarla zorakılıqla əvəz etmək qaydaları Harun ər-Rəşidin (786-809) hökmranlığından başlayaraq dəyişildi. Harun ər-Rəşid yəqin təkcə sülalə mənafeyini deyil, digər mənafeləri də rəhbər tutaraq, tayfaların yerdəyişməsi və köçürülməsi məsələləri ilə məşğul olmağı özünün təyin etdiyi Azərbaycan və Arran canişinlərinə həvalə etdi. Canişinlər isə şəxsi mənafelərini və mənsub olduqları tayfaların mənafeyini nəzərə alaraq, habelə digər tayfalardan asılı olmayan rahatca qulluq, vəzifə daşımalı olduqları ölkədə üstün olan siyasi və strateji səbəbləri hesaba alaraq, təyin olunduqları yerə, adətən, öz tayfa nümayəndələrinin müşayiəti ilə gəlirdilər. Lakin bu tayfanın hansı qrupa mənsub olduğu məsələsinə, fikrimizcə, nə Harun ər-Rəşid, nə də onun xələfləri fikir verirdilər. Budur, Yəqubi bu cür təyinlərdən biri barəsində belə məlumat verir: «Huzeyfə ibn Hazimin yerinə (Harun) ər-Rəşid Yusif ibn Rəşid əs-Sulamini (Arran hakimi) təyin etdi, onun da hökmranlığı dövründə nizarilərin sayı xeyli artdı, halbuki bundan əvvəl burada yəmənlilər çox idi. Ondan sonra ər-Rəşid Yəzid ibn Məzyəd ibn Zeyd əş-Şeybanini təyin etdi, o da hər yerdən rəbiələri köçürtdü, odur ki, indi onlar (Arranda ərəblərin) əksəriyyətini təşkil edirdilər. Ondan (Yəziddən) sonra Zeyd ibn Xəttab əl-Ədəvi nəslindən olan Əbd ül-Kabir ibn Əbd ül-Həmid hakim təyin edildi, o da oraya (Arrana) Diyar Modar əhalisindən ibarət bir dəstə ilə getdi».

Burada qeyd edək ki, Arranda rəbiələr, demək olar, həmişə çox olub. Bərdə, Şamaxı və s. yerlərdə məskən salırdılar. Tez bir zamanda istər Cənubi Azərbaycanda, istərsə də Arranda, o cümlədən Dərbənddə məskən salanların, demək olar, hamısı həm şimali, həm də cənubi ərəb tayfalarından ibarət idi. Bu tayfalar həmişə bir-biri ilə düşmənçilik etdiklərinə görə, aradan çox keçmədən onların köhnə ədavəti burada da yenidən başlandı. Ancaq Azərbaycanda bu ədavət daha yaxşı torpaq və biçənəklər üstündə bərk qızışdı.

Bu vəziyyət xəlifələri və mərkəzi hakimiyyəti əsla narahat etmirdi, çünki onlar, hələ müxtəlif birləşmələrdən olan tayfalar bir yana qalsın, hətta qohum tayfaları birləşdirmək deyil, əksinə, parçalamaq üçün daha artıq səy və maraq göstərirdilər. VII-IX əsrlər ərzində ərəb tayfalarının Azərbaycanda məskən salması və Azərbaycan əhalisi içərisində bunların izləri məsələsi, hələ P.K.Juzenin qeyd etdiyi kimi, «yalnız alim antropoloqların, dilçilərin, maddi mədəniyyət və xalq təsərrüfatı tarixini yaxşı bilənlərin birgə səyi ilə» elmi surətdə həll oluna bilər.

Gördüyümüz kimi, ərəb mühacirləri Muğan, Şirvan və Arranda geniş ərazi tutmuşdular. Ərəblər həm qədim Dərbənd və Şamaxı, Bərdə və Beyləqan şəhərlərində, həm də yeni salınmış Kasal və Mütəvəkkiliyyədə yaşayırdılar. Səbəb nədir ki, külli sayda ərəbin Azərbaycanda olması və burada ərəb dilinin geniş yayılması Azərbaycan əhalisinin ərəbləşməsi ilə nəticələnmədi? Yəqin ki, əsasən ərəblərin və Arran əhalisinin müxtəlif dində olması buna mane oldu. İşğalçıların dili Azərbaycanda, həm də bütün Cənubi Qafqazda müxtəlif millətləri bir-birinə bağlayan beynəlxalq bir dil olmuşdu. Əhali yerli dillərlə yanaşı ərəb dilində də danışırdılar.

Fikrimizcə, deyilənlərin hamısı belə bir faktı izah edə bilər ki, vaxtilə Göycə gölündən Dərbəndədək böyük bir ərazidə yaşayıb, öz kilsəsi, padşahları, knyazları, özünəməxsus mədəniyyəti olan

albanlar kimi böyük bir xalqdan, indi Azərbaycan Respublikasının şimal-qərbində yaşayan və bilavasitə albanların soykökündən olan bir neçə min udin, ingiloy və b. istisna olmaqla, demək olar ki, heç bir iz qalmamışdır. İstilaçı ərəblər və yerli Arran knyazları tədriclə yaxınlaşmış və nəhayət, o dərəcədə ərəbləşmişlər ki, xalis ərəb, müsəlman adları daşımağa başlamış, ərəb dili və mədəniyyətini qəbul etmişlər, belə ki, bu və ya digər feodalın hansı millətə və ya dinə mənsub olduğunu müəyyən etmək çətin olmuşdur. İstilaçı ərəblərdən asılı vəziyyətə düşmüş digər xalqların tarixində də eyni mənzərəni görmək olar. Lakin Azərbaycanın yerli əhalisi ilə ərəblər arasında tədricən əmələ gəlmiş siyasi və mədəni yaxınlaşma, məsələn, İspaniyada baş verdiyi kimi, mədəniyyət sahəsində qarşılıqlı əməkdaşlığa keçmədi. Ərəblərlə Azərbaycan əhalisi arasında başlayan yaxınlaşma prosesi əvvəlcə səlcuqların, sonra da monqolların hücumu ilə çox tez dayandırılmışdır.

Azərbaycandakı ərəblər ərəb mədəniyyəti mərkəzləri ilə əlaqəni itirdikdən sonra, ana dili və adətlərini tədricən unutmağa başlayıb, yerli türk əhalinin dilində danışmağa keçdilər, onlarla qaynayıb-qarışaraq, onların həyat tərzini, geyim, yemək, məskən və sairəni qəbul etdilər. Bunların hamısına onların ümumi din olan islam dininin etdiyi kömək az olmadı. Ərəblər yerli əhali ilə o dərəcə qaynayıb-qarışdılar ki, indi Azərbaycanda ərəb dilində danışan heç bir yaşayış məntəqəsi qalmamışdır.

Azərbaycanda məskən salmış istilaçı ərəblərin nə vaxtdan ana dilində danışmağı tərgitdikləri sualına cavab vermək çox çətindir, çünki köçmüş ərəblərin öz dillərini mühafizə edib saxlamaları «həmin vilayətdəki ərəb ünsürünün ümumi sayından asılı idi». P.K.Juze belə güman edir ki, burada həmin proses ən tez XV əsrdə baş vermişdir; həm də bu məsələdə P.K.Juze Orta Asiya və Əfqanistanla müqayisə edir, çünki həmin yerlərdə ərəblərin bir hissəsi bu günədək ana dilində danışırlar.

Məlumdur ki, ərəblər Azərbaycanı və Arranı istila edərkən bu ərazidə türk tayfalarına rast gəlmişdilər. Ərəb mənbəyində ərəblərin istilasından çox-çox əvvəl Azərbaycanda türklərin yaşadığı haqqında məlumata rast gəlirik. Rəvayətə görə, Əməvi xəlifəsi Müaviyə bir dəfə qədim tarixə bələd olan yəmənli Abid ibn Şariyəyə belə sual verir: «Türklər və Azərbaycan nə deməkdir?» Abid cavab verir: «Azərbaycan - qədimdən türklərin yaşadığı ölkədir». Bu məlumatı şübhə altına almaq olardı, lakin 1126-cı ildə farsca tərtib edilmiş imzasız bir əsərdə də həmin rəvayətə rast gəlirik; burada belə deyilir: «Azərbaycan qədimdən türklərin əlində olan bir ölkədir». Bu imzasız əsər müəllifi, Himyari padşahlarından biri olan Raiş haqqında məlumat verərkən deyir ki, bu ölkə türklərin əlindədir.

Türklərin Azərbaycan ərazisində məskunlaşması prosesi ərəblərin dövründə də kəsilmirdi. Məsələn, (artıq müsəlman olan) türk əmirlərindən biri Mübarək ət-Türki Qəzvində bir qala tikdirib ona öz adını qoymuşdur.

Azərbaycanda ərəblərin yerli türklərlə Əməvilər dövründə başlanan assimilyasiyası Abbasilər xilafətində daha da gücləndi.

Bax: Ziya Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 2007, səh.189-203.

ƏHALİ

Dərbəndin əhalisi (VII-IX əsrlər). VII əsrin əvvəlinə aid anonim bir mənbədə Şimali Azərbaycanda, eləcə də Şirvanda və Xəzər dənizinin qərb sahillərində məskunlaşmış tayfalar sadalanır. Adları çəkilən və ehtimal ki, bəziləri istisna olmaqla, ölkənin avtoxton əhalisi olan albanlar, leqlər, hunlar, xəzərlər, zekenlər, xenuklar (xenavilər), kaspilər, şərvanlar, xsranlar, təvəsparlar, xeçmataklar, ijmaxlar, bakanlar, pikonaklar (peçeneqlər), maskutlar Dərbənd, həmçinin Şəki, Muğan düzü, Şirvan, Siyəzən, Xızı, Beşbarmaq, Tabasaran, Xaçmaz, Şamaxı, Bakı və Quba zonaları hüdudlarında yayılmışdılar.

Bu tayfalardan bəziləri Qafqaz dağları qollarının gəlib çatdığı və Dərbənd divarının, dənizdə əzəmətli qalanın ucaldığı Xəzər sahillərində yaşayırdılar.

Aqafangelə görə, hunlar Albaniyaya Dərbənd (Çor) keçidindən III əsrin birinci yarısında və sonralar, IV əsrin birinci yarısında və axırında (395-ci il) gəlmişlər. Hunların Azərbaycan Albaniyası ərazilərinə – Dərbəndə, həmçinin Şirvana, Muğana və başqa vilayətlərə hücumları V-VI əsrlərdə də davam etmişdir.

X əsr mənbəyində adı çəkilən Xursan (Xunsar) vilayəti Dərbənd rayonunun cənub hissəsində, Beşbarmaq dağına qədərki ərazidə yerləşirdi. Təvəsparlar isə erkən orta əsrlərdə Şirvanşahlara tabe olan cənubi Dağıstanın Tabasaran vilayəti ərazisində lokallaşdırılır.

Massaget-maskut tayfaları Şabran səddindən şimalda, dəniz sahili boyunda yaşayırdılar. Ərəb mənbələrinə görə, maskutların–massagetlərin ölkəsi Dərbənd rayonunun Xəzərsahili ərazisində, eləcə də Quba, Qusar və Dəvəçi rayonlarında, Abşeron və Muğan düzündə yerləşirdi. Massagetlər Baş Qafqaz silsiləsi ilə dəniz sahili arasında, Dərbənddən Abşerona və Muğan düzünə qədərki bərəkətli vilayətdə məskun idilər.

VII əsr məxəzində Samur və Gilgilçay çayları arasındakı düzənlik Mazkutk, IX-X əsrlər ərəb mənbələrində Məsqət, sonralar orta əsrlərdə isə Müşkür adlanmışdır. Artıq eramızın I əsrində maskutların öz hökmdarlığı var idi. Hökmdarlığın paytaxtının adı, ehtimal ki, I Xosrov Ənuşirəvan tərəfindən məğlub edilmiş (VI) çol adlı türk tayfasının adından götürülmüş Çor, yaxud Çol şəhəri idi. «Məlumdur ki, Çor və ondan törəmə Çor, Çoğa, Çola, Çul və s. adlar Dərbənd keçidinin ən qədim adlarından biridir. Çor (Çoğa, yaxud Çol) şəhəri Torpaqqala şəhər yerində, Bilici stansiyasından 1 km aralı, Dərbənddən 25 km cənubda Rubas və Gülgəri çayları arasında yerləşirdi. Maskutlar Xəzər dənizi boyunca Dərbənddən Kürün mənsəbinədək olan ərazini tuturdular. X əsrdə torpaqlar Şirvan ərazisinə daxil idi. Onun şimal sərhəddi Dərbənd idi. Ərəb müəllifləri Şirvanda kürd məskənlərinin də olduğunu göstərmişlər. X əsr mənbəyində kürdlərin yaşadıqları yerlərin adları sadalanaraq deyilirdi: «Onlar pərakəndə halda Azərbaycanda, Aranda, Beyləqanda və Bab əl-Əbvabda yaşayırdılar».

Beləliklə, mənbələrə əsasən erkən orta əsrlərdə Cənubi və Şimali Dağıstanda, həmçinin Şimali Qafqazda müxtəlif türkdilli tayfalar yaşamışlar. Ehtimal ki, türk tayfalarının ayrı-ayrı qrupları cənuba, Şirvana da gəlib çıxmış, Dərbənd keçidindən keçib gələn hunlar, sabirlər, xəzərlər və digər köçəri ordalarla birlikdə burada məskunlaşmışlar.

Mənbələr göstərir ki, Şirvanda türk, Qafqaz və fars və mənşəli qədim əhali ilə yanaşı, VI-IX əsrlərdə və sonralar ərəblər də yaşamışlar. X əsr ərəb müəllifi əl-Məsudinin yazdığına görə, «Haydaqla əl-Bab arasında ərəb dilindən savayı heç bir dildə yaxşı danışa bilməyən müsəlman ərəblər yaşayır. Onlarla əl-Babın arasında məsafə üç milə (bir fərsəx) qədərdir. Əl-Babın əhalisi onlara kömək göstərir».

Əl-Bəlazuri (IX əsr) və əl-Qərnatinin (XII əsr) məlumatına görə, ərəb sərkərdəsi Məsləmə İbn Əbdülməlik (VIII əsr) Dərbənddə, onun ətraf kəndlərində və Tabasaranda Mosuldan, Dəməşqdən, Tədmurdan, Hələbdən, Suriya və əl-Cəzairin digər şəhərlərindən 24 min ərəb əsgəri yerləşdirilmişdi: Dərbəndin dörd məhəlləsi müvafiq olaraq Dəməşq, Hims, Kufə və əl-Cəzairə adlandırılmışdı.

Bax: Sara Aşurbəyli. Şirvanşahlar dövləti. Bakı, «Avrasiya press», 2006. səh. 23-28.

Dərbənd və onun əhalisinin etnik tərkibi. Dərbənd Azərbaycanın, bütün Qafqazın və bütün Şərq ölklərinin tarixi və etnomədəni həyatında mühüm rol oynamışdır. Arxeoloji qazıntılar şəhərin əsasının yadelli işğalçılar tərəfindən qoyulması mifini darmadağın etmiş və b.e.ə. VIII-VI əsrlərdə burada ucaldılmış möhtəşəm dayaq məntəqəsinin yerli tayfalar tərəfindən tikilməsini sübuta yetirmişdir.

Nəhəng qədim dövlətlər Dərbəndə sahib olmaq üçün, onun mühüm hərbi və iqtisadi əhəmiyyətini nəzərə alaraq və ona Qafqazı işğal etmək üçün forpost şəhər kimi baxdıqlarına görə buraya ardıkəsilməz hücumlar edirdilər. Dərbənd uğrunda mübarizə aparan hər bir dövlət şəhərdə həm hərbi, həm də «etnik» cəhətdən möhkəmlənməyə çalışırdı: şəhərdə və şəhərətrafı ərazilərdə öz tayfalarını məskunlaşdırırdı.

I Xosrov Ənuşirəvanın (531-579) hakimiyyəti dövründə şəhərdə özünün güclü və memarlığına görə möhtəşəm müdafiə istehkamları tikilmişdir. Bu istehkamlar Dərbənd dar keçidini şimaldan hücum edən köçərilərin hücumları üçün bağlayırdı. Sasanilər burada İranın müxtəlif vilayətlərindən gətirilmiş keşikçiləri məskunlaşdırmışdılar. Dərbənd rayonunda irandilli dağ yəhudilərinin görünmələri məhz sasani dövrünə aiddir.

Yazılı mənbələrdə şəhərdə xəzərlər tayfasının bir hissəsinin məskunlaşması haqqında da məlumatlar vardır. «Dərbəndnamə» tarixi salnaməsində Dərbəndin qədim sakinləri arasında tabasaranlıların da adları çəkilir.

Ərəb işğalı dövründə (VII-IX əsrlər) «Dərbəndin strateji və ticarət – yükboşaltma məntəqəsi kimi xüsusi əhəmiyyətini nəzərə alaraq, xəlifələr burada nisbətən azad şəhər idarəçiliyi təsis etmişdilər. Bu şəhərin başında əmirlər və ya rəislər şurası dururdu. Bu dövrdə şəhərin əhalisi etnik cəhətdən yerli türkdilli aborigen etnoslardan, iran və s. tayfaların nümayəndələrindən, həmçinin konkret hərbi-siyasi vəziyyətdən asılı olaraq sayı dəyişilən ərəb qoşunları kontingentindən ibarət idi. Məlumdur ki, VIII əsrin ikinci yarısında şəhərin cənub hissəsində bir neçə müdafiə qurğuları tikilmiş və buraya «Suriyadan, Mesopotamiyadan, Mosuldan yeddi min müsəlman ailəsi köçürülmüşdür». Ərəblər burada uzun müddət öz etnik xüsusiyyətini qoruyub saxlamış və yalnız XIX əsrə yaxın yerli əhali tərəfindən tamamilə assimlyasiya edilmişdir.

Orta əsrlər Dərbəndində rusılar da vardı.

«Rusların ayrı-ayrı qrupları şəhərin ticarət və sənətkarlıqla məşğul olan əhalisi ilə qarışaraq və ya muzdlu hərbiçilərin sıralarına daxil olaraq Xəzəryanı şəhərlərdə məskunlaşırdılar. Şimali Qafqazın ərazilərinə slavyan dili haqqında məlumatların daxil olması belə başlandı». (Qadlo, 1979. s.206, Minorski, 1963. s.68). Qafqazın, Cənub-Şərqi Avropanın, Ön Asiyanın müxtəlif rayonları ilə Dərbəndin sıx ticarət-iqtisadi və mədəni əlaqələri sonrakı dövrlərdə də davam etmişdir.

XII əsr müəllifi Əbu Həmid əl-Qərnati göstərirdi ki, Dərbəndin əmiri «müxtəlif dillərdə: lakzan, tabalan, filan, zakalan, xaydak, kumık, alan, as, zerix-keran, türk, ərəb, fars dillərində danışırdı». Buradan göründüyü kimi, şəhərin əhalisinin bir hissəsi iki və ya bir neçə dildə danışırdı.

Lakin lap əvvəllərdən burada türk əhalinin böyük əksəriyyətini təşkil etdiyi üçün türk dili geniş yayılmışdır.

Əlavə edək ki, Ərəb xilafəti dağıldıqdan sonra, Dərbənd şəhəri yenicə yaradılmış Azərbaycan Şirvanşahlar dövləti ilə sıx siyasi, iqtisadi və mədəni əlaqələrdə idi, Şirvanın və Dərbəndin etnik tərkibinin formalaşması əsaslı olaraq vahid bir istiqamətdə baş verirdi (Z.Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. 1965. s.112-177).

1239-cu ildə Dərbənd monqollar tərəfindən işğal olundu. Yazılı mənbələrin bu dövr ərzindəki məlumatları əsasən şəhərin hərbi-siyasi hadisələrinə və ticarət-iqtisadi vəziyyətinə aiddir. Lakin demək olar ki, XVI əsr başlayanadək şəhərin əhalisinin etnik tərkibi ciddi dəyişikliyə məruz qalmamışdır.

XVI əsrin əvvəlində şəhər Azərbaycan Səfəvilər dövlətinin hakimiyyəti altına düşür, XVI əsrin sonunda isə şəhəri Osmanlı imperiyası işğal edir. XVII əsrin əvvəlində Dərbənd yenidən doğma Azərbaycan Səfəvilər dövlətinin tərkibinə qaytarılır.

Bu dövrdə Rus dövləti Kazan (1552) və Həştərxan (1556) xanlığını işğal etdikdən sonra, Xəzəryanı vilayətlərdə öz siyasi və iqtisadi maraqlarını həyata keçirməyə başladı. Dərbəndə vaxtaşırı rus səfirləri gəlməyə başladı. Şəhərdə rus tacirləri də yaşayırdı.

1722-ci ilin iyununda Dərbənd I Pyotr tərəfindən işğal olunur və şəhər1793-cü il saxta Sankt-Peterburq müqaviləsinə əsasən, guya ki, Azərbaycan Səfəvilər

dövləti Dərbəndi, Bakını, Gilan, Mazandaran və Astrabad vilayətlərini Rusiyaya «güzəştə getmişdir».

1735-ci ildə Azərbaycan Səfəvilər dövlətinin hərbi naziri Nadirqulu xan Əfşarın tələbi ilə Rusiya öz qoşunlarını Xəzəryanı vilayətlərdən çıxarmağa məcbur oldu. Dərbənd Nadirqulu xan Əfşar tərəfindən azad olundu. Nadir şah Əfşarın öldürülməsindən dərhal sonra 1747-ci ildə müstəqil Dərbənd xanlığı yarandı. Lakin tezliklə bu xanlıq Fətəli xan Qubalının əli ilə Quba xanlığına birləşdirildi.

1796-ci ildə, sonra isə 1806-cı ildə Dərbənd tamamilə çar Rusiyası tərəfindən işğal olundu. Çar hökuməti rus əhalisini şəhərə gəlməyə hər vəchlə şirnikləndirirdi və şəhərdə rus millətindən olmayan əhali sıxışdırılırdı. Dərbənddə rus hərbi və mülki əhali qalada və Dübarənin dənizkənarı hissəsində yeni tikilmiş məhəllərində yaşayırdı. Şəhərin mərkəzi məhəllələrində dağ yəhudiləri, qalan 9 məhəllədə isə azərbaycanlılar yaşayırdılar. Şəhərin ətrafında Cənubi Dağıstan xalqlarının nümayəndələri məskunlaşmışdılar.

Şəhər sakinlərinin çoxu sənətkarlıq, ticarət, bağçılıq, bostançılıq, üzümçülük və şərabçılıq və s. ilə məşğul olurdu. Üzümçülük və ticarətlə əsasən yəhudilər məşğul olurdular.

Bu gün Dərbənd şəhərinin etnik tərkibi azərbaycanlılar və Cənubi Dağıstan xalqları ilə müəyyən edilir. Azərbaycan dili və Azərbaycan musiqi mədəniyyəti Dərbənddə dərin kökə malikdir. Dini müəssisələrdən isə Dərbənddə ən qədim Cümə məscidi və həmçinin sinaqoq fəaliyyət göstərir.

Dərbənd öz həyat tərzi, standartları və şərq əxlaq stereotipləri olan tipik Azərbaycan şəhəridir. Məhəllələrdə yaşayan şəhər sakinlərinin həyat tərzində əsrlərlə qorunub saxlanılmış – Bakı, Təbriz və s. bu kimi Azərbaycan şəhərlərinin adət-ənənələri asanlıqla hiss olunur. Dərbəndə xas olan əsas xüsusiyyətlər – sakinlərinin qonaqpərvərliyi və etnik münasibətlərdə tolerantlığın qorunub saxlanmasıdır.

Bax: «Народы Дагестана». Москва «Наука», 2002, стр. 80-84.

Dərbəndin əhalisi (XIX-XX əsrin ikinci yarısında). Lap qədim zamanlardan şəhərin əsas əhalisini islam dinini VII əsrdə qəbul etmiş türklər təşkil edirdi.

XVII-XVIII əsrin Avropa müəllifləri şəhərin əhalisi haqqında təxmini məlumat vermişlər. Məsələn, 1637-ci ildə Dərbənddə olmuş Adam Oleari məlumat verir ki, «…Dərbənd şəhərində xristianlar yoxdur, burada yalnız müsəlmanlar yaşayır». Akademik S.Q.Qmelin 1770-ci ildə yazmışdır: «...şəhərdə 4 min ailə vardır».

XIX əsrin əvvəlində Dərbənd şəhərinə rusların gəlməsi ilə vəziyyət dəyişmiş, müstəmləkəçilər məqsədli şəkildə burada demoqrafik vəziyyəti dəyişməyə başlamışlar. XIX əsrin ikinci yarısında şəhər başçısı general-mayor Loris-Melikov olanda Dərbənd şəhərinə çoxlu erməni köçürülmüşdü. Onlar burada çoxlu üzüm sahələri almış, bu sahədə məşğul olaraq varlanmışdılar.

Şəhərin əhalisi haqqında ilk dəqiq məlumatları şəhərin rus inzibati orqanlarının sənədləri verir.

1810-cu ildə keçirilmiş kameral siyahıyaalma üzrə şəhərdə aşağıda göstərilən sayda ev və əhali var idi:

- yaşayış evləri 1522, onlardan:
- müsəlmanların evi – 1435;
- dağ yəhudilərinin evi – 59;
- ermənilərin evi – 28.

Sakinlər arasında cəmi 4175 nəfər kişi var idi, onlardan: 3959 nəfər müsəlman, 160 nəfər dağ yəhudisi və 56 nəfəri isə erməni idi.

1824-cü ildə kameral siyahıyaalma üzrə isə şəhərdə yaşayırdı:

	Nəfər Cəmi	O cümlədən	
		kişi	qadın
Əhalinin ümumi sayı O cümlədən:	11060	5773	5287
azərbaycanlılar	10777	5407	4970
dağ yəhudiləri	444	230	214
ermənilər	230	130	103

1832-ci il kameral siyahıyaalmasına görə şəhər əhalisinin tərkibi haqqında bəzi məlumatlar verilmişdir:

1. Bəylər – 66 nəfər;
2. Zadəganlar – 2 nəfər;
3. Axundlar – 4 nəfər;
4. Mollalar – 39 nəfər;
5. Müəzzinlər – 11 nəfər;
6. Seyidlər – 43 nəfər;
7. Erməni ruhaniləri – 4 nəfər;
8. Ravvinlər – 3 nəfər.

1873-cü ildə kameral siyahıyaalma üzrə isə şəhərdə yaşayırdı:

Şəhərdə Sabnova forştatı ilə birlikdə 2762 ev var idi (Sabnovada – 58 ev), əhalinin sayı isə aşağıdakı kimi idi:

	cəmi	o cümlədən	
		kişilər	qadınlar
Əhalinin ümumi sayı nəfərlə	11278	6324	4354
O cümlədən:			
azərbaycanlılar	9572	5362	4210
dağ yəhudiləri	871	438	433
ermənilər	284	198	86
yunanlar	2	2	-
almanlar	3	2	1

1886-cı il ailə siyahılarına görə isə Dərbənd şəhər əhalisinin tərkibi belə olmuşdur:

1. Şiə müsəlmanlar – 8994 nəfər;
2. Sünni müsəlmanlar - 1846 nəfər;
3. Pravoslavlar – 1617 nəfər;
4. Qriqoryan ermənilər – 875 nəfər;
5. Katoliklər – 29 nəfər;
6. Lüteranlar – 13 nəfər;
7. Yəhudilər – 2568 nəfər;
8. Zadəganlar – 150 nəfər;
9. Bəylər – 491 nəfər;
10. Pravoslav ruhaniləri - 6 nəfər;
11. Fəxri vətəndaşlar – 300 nəfər;
12. Tacirlər – 22 nəfər;
13. Şəhər sakinləri (meşşan) cəmisi – 14244 nəfər.

Rus imperiyası dövründə Dərbənd şəhər əhalisinin ilk siyahıya alınması. 1895-ci ilin iyul ayının 5-də «Rusiya imperiyasının əhalisinin ilk siyahıya alınması haqqında əsasnamə» təsdiq olunmuşdur. Dərbənd şəhərində əhalinin 1897-ci ildə siyahıya alınması ilə 5 nəfər təmənnasız (Q.A. Spektor, İsmayıl bəy Məmərzabəyov, Əhməd bəy Sadıqov, V.S.Juravlyov, S.A.Abbasov) və 11 nəfər təmənnalı (Solovyov, Vəzirov, Soroka, İsraileviç, Qodlevski, Ukrainsev, Hüseynov, Ağabalayev, Əsgərov, Mirzəbəyov, Almasov) məşğul olmuşdur.

Əhalinin siyahıya alınması 1897-ci il yanvarın 28-də keçirilmişdir. Şəhər ətrafının sakinlərinin siyahıya alınması zamanı aşağıdakı göstəricilər edilmişdir:

- Aşağı əsgər slobodası – 247 nəfər;
- Arbaqaçarı bağı –323 nəfər;
- Forştadt – 452 nəfər;
- Sabnova kəndi – 278 nəfər.

Dərbənd şəhər əhalisinin ümumi sayı:

	cəmi	o cümlədən	
		kişilər	qadınlar
Əhalinin ümumi sayı nəfərlə	14649	8146	6503
O cümlədən:			
azərbaycan türkləri	9767	5131	4636
dağ yəhudiləri	2181	1117	1064
ruslar	1092	698	394
ermənilər	621	332	289
ləzgilər	603	506	97
polyaklar	159	158	1
latışlar	140	140	-
almanlar	26	15	11
türklər (yəgin ki, osmanlı türkü)	19	19	-
farslar	14	8	6
tatlar	8	8	-
finlər	8	8	-
kartvellər	6	5	1
gürcülər	5	5	-

Qeyd: latışlar, polyaklar və rusların çox hissəsi Dərbənd qarnizonunun hərbi qulluqçuları və onların ailə üzvləri idi.

Şəhər əhalisi təbəgələrə görə belə bölünürdü:

- bəy və zadəganlar- 740 nəfər;
- ruhanilər - 30 nəfər;
- tacirlər - 148 nəfər;
- meşşanlar - 11142 nəfər;
- kəndlilər - 2306 nəfər;
- xarici vətəndaşlar - 214 nəfər;
- digər təbəqələrdən olanlar - 69 nəfər.

Şəhər əhalisinin dini təriqətlərə görə bölgüsü:

- müsəlmanlar - 10383 nəfər;
- yəhudilər - 2190 nəfər;
- pravoslavlar - 1135 nəfər;
- xristianlar - 613 nəfər;
- katolikləri - 296 nəfər;
- protestantlar - 25 nəfər;
- mühafizəkarlar - 3 nəfər.

Şəhər əhalisi aşağıdakı dillərdə danışırdı:

- Azərbaycan-türk dilində	- 9767 nəfər - 67%	- ləzgi dilində	- 133 nəfər -0,9%
- yəhudi dilində	- 2181 nəfər -15%	- qazı-qumux (lək) dilində	- 97 nəfər -0,6%
- rus dilində	- 1092 nəfər -8%	- dargin dilində	- 95 nəfər -0,6%
- erməni dilində	- 621nəfər -4,2%	- başqa dillərdə	- 1006 nəfər -6,9%
- avar-andi dilində	- 278 nəfər -1,9%		

Əhalinin savadlılığa görə bölgüsü

	cəmi	rus dili üzrə savadlılar		başqa dillər üzrə savadlılar		ibtidai təhsildən yuxarı təhsillilər	
		kişi	qadın	kişi	qadın	kişi	qadın
Əhalinin ümumi sayı O cümlədən:	1635	727	248	489	42	89	40
ruslar	558	324	140	7	-	53	34
azərbaycanlılar	403	143	11	234	8	6	1
ermənilər	262	106	66	41	29	17	3
dağ yəhudiləri	209	73	29	100	5	2	-
polyaklar	78	23	-	48	-	7	-
latışlar	77	40	-	37	-	-	-
ləzgilər	27	10	-	13	-	4	-
almanlar	7	2	1	3	-	-	-
finlər	6	5	-	1	-	-	-
türklər	2	1	-	1	-	-	-
tatlar	2	1	-	1	-	-	-
farslar	1	1	-	-	-	-	-
gürcülər	1	-	-	1	-	-	-
dili göstərməyənlər	2	-	-	2	-	-	-

1926-cı ildə keçirilmiş əhalinin ümumittifaq siyahıyaalınması üzrə:

	cəmi	o cümlədən	
		kişilər	qadınlar
Əhalinin ümumi sayı (nəfərlə) O cümlədən:	23097	11617	11480
azərbaycanlılar	7831	3848	3989
dağ yahudiləri	6597	3152	3445
ruslar	5499	2730	2769
ləzgilər	868	502	366
ermənilər	812	424	388
farslar	432	263	164
dağ yahudiləri	148	74	74
ukraynalılar	83	59	24
gürcülər	80	56	24
tatarlar	74	42	32

kumıklar	53	50	3
avarlar	51	46	5
almanlar	48	22	26
ləklər	34	29	5
dərgilər	16	16	0

1959-cu ildə keçirilmiş əhalinin ümumittifaq siyahıyaalınması üzrə:

	cəmi	o cümlədən	
		kişilər	qadınlar
Əhalinin ümumi sayı (nəfərlə) O cümlədən:	43318	22435	24883
ruslar	12310	5099	7211
dağ yəhudiləri	11335	5102	6233
azərbaycanlılar	11190	5438	5752
ləzgilər	1591	898	693
tabasaranlılar	1522	937	585
ukraynalılar	747	334	413
kumıklar	443	237	206
tatlar	370	189	181
gürcülər	80	56	24
ləklər	252	153	99
avarlar	107	78	29
aqullar	30	19	11
noqaylar	21	7	14
rutullar	8	8	0
saxurlar	3	3	0
digər millətlər	2800	1368	1432

1970, 1979, 1989 və 2010-cu illərdə Dərbənd şəhərinin əhalisinin Ümuittifaq siyahıyaalması üzrə:

	1970-ci il	1979-cu il	1989-cu il	2010-cu il
Əhalinin ümumi sayı (nəfərlə) O cümlədən:	57192	67442	77857	99054
avarlar	721	772	271	77
aqullar	62	492	1147	2168
azərbaycanlılar	14381	17875	21600	57476
ermənilər	1540	1728	1482	32
dağ yəhudiləri	9195	3547	2427	
darginlər	2340	2835	3242	7786
yəhudilər	0	7886	4540	7
kumıklar	539	829	441	406
ləklər	361	526	451	193
ləzgilər	6477	11013	16993	18626
noqaylar	37	35	49	
ruslar	11284	10404	7644	458
rutullar	8	236	392	393

tabasaranlılar	3296	6183	8776	
tatarlar	0	7886	4540	
tatlar	944	1485	6152	
ukraynlar	544	487	723	
saxurlar	2	8	18	
çeçenlər	25	111	34	
digər xalqlar və millətlər	5436	791	1304	

2002-ci il ümumrusiya siyahıyaalması üzrə:

əhalinin ümumi sayı (nəfərlə)	101031
o cümlədən: azərbaycanlılar	37955
ləzgilər	27064
tabasaranlılar	15606
darginlər	5582
ruslar	5073
aqullar	2956
dağ yəhudiləri	1230
ermənilər	922
digər millətlər	4643

Şəhər əhalisinin artma dinamikası

illər	əhalinin ümumi sayı	Məlumat mənbəyi
1770	4000 (ailə)	Akademik S.Qmelının məlumatı
1810	4175 (kişi)	Kameral siyahıyaalma
1824	11060	- « -
1842	10713	- « -
1850	12032	- « -
1859	13470	- « -
1886	15265	- « -
1897	14649	Rusiya imperiyası əhalisinin birinci ümumi siyahıyaalınması
1915	33000	Şəhər siyahıyaalması
1926	23097	Ümumittifaq əhali siyahıyaalması
1939	34100	- « -
1959	47318	- « -
1970	57192	- « -
1979	67422	- « -
1989	77851	- « -
2002	101031	2002-ci ildə Ümumrusiya əhali siyahıyaalması
2010	119200	2010-cu ildə Ümumrusiya əhali siyahıyaalması

ƏKİNÇİLİK

Dərbənd şəhəri qərbi Xəzəryanı quru subtropik zonada yerləşir və Cənubi Qafqazın şərqində ən qədim əkinçilik mərkəzlərindən biri hesab olunur. Hələ Strabon (b.e. I əsrinin əvvəli) təsdiq etmişdir ki, bu ərazidə məskunlaşmış qəbilə və tayfalar «bərəkətli ölkəyə malikdirlər və çox yaxşı yaşaya bilirlər». Sonra o, bu torpaqların qeyri-adi məhsuldarlığı haqqında məlumat verir. Digər antik mənbələrdə bu torpağın qəribə məhsuldarlığını qeyd edərək məlumat verirlər ki, «bir dəfə əkilmiş torpaq iki-üç dəfə məhsul verir». Daha sonra qeyd edilir ki, «…uzüm sahələri o qədər məhsul verirdi ki, onu yığıb qurtarmaq olmurdu və bir hissəsi üzümlüklərdə qalırdı». Akademik N.İ.Vavilovun dənli bitkilərin qədim sortlarının axtarışı onu Dərbənd rayonuna da gətirib çıxartmışdı.

1253-cü ildə Dərbənddə olmuş flamand səyyahı, monax Gilyom Rubruk yazırdı: «…Biz Dəmir qapılara çatdıq (Dərbəndin qədim adlarından biri) … Bu şəhərin ətrafındakı torpaqlar yerin əsil cənnət məkanı adlandırıla bilər».

Dərbənd ətrafındakı torpaqların xüsusi məhsuldarlığı onun nəhəng müdafiə istehkamları ilə yanaşı, məşhur qala – şəhərin gücünü təşkil edirdi. Rəvayətlərə görə, düşmən alınmaz şəhər divarları qarşısında öz gücsüzlüyünü görəndə, şəhərin igid müdafiəçilərini ram etmək üçün Dərbəndin ətrafındakı bağları və sahələri məhv edirdilər.

Dərbəndlilər bu növ təsərrüfat fəaliyyətlərini öz şəhərlərinin çoxəsrlik tarixindən keçirərək inkişaf etdirə-etdirə bizim günlərimizədək gətirib çıxarmışlar.

Azərbaycanda taxıl bitkiləri arasında buğda, darı, çəltik və arpa daha geniş yayılmışdı. VII əsrə aid bir mənbədə Azərbaysan Albaniyası ərazisində çoxlu arpa zəmilərinin becərildiyi xəbər verilir.

Bu dövrdə becərilən texniki bitkilər arasında hələ qədim zamanlardan Azərbaycanda əkilən qızıl boya (*qırmız*) özünəməxsus yer tuturdu. İbn Hövqəlin yazdığına görə, «Varsan, Bərdə, Bab əl-Əbvab nahiyələrində və Xəzər dənizinin ortasında (başqa mənbələrə görə Kür çayı mənsəbinin qarşısında) yerləşən adada *qırmız* var**.** O Xəzər dənizi vasitəsilə Curgana, oradan isə quru yolu ilə Hind ölkəsinə göndərilir. Qırmız Bab əl-Əbvabın hüdudlarından Tiflisədək bütün Arras çayı yaxınlığından Curzan nahiyələrinədək hər yerdə vardır».

Bakı və Dərbənd ətraflarında yaxşı keyfiyyətli, xarici ölkələrə də aparılan zəfəran becərilirdi.

X yüzillikdə buraya gəlmiş səyyahlar Azərbaycanın, demək olar, bütün şəhərlərində üzümün bol olduğunu göstərir, onun yaş və qurusunun Yaxın Şərq ölkələrinə aparıldığını qeyd edirlər.

Arxeoloji dəlillər də burada üzümün bolluğu barədəki mənbə məlumatlarını təsdiq edir. Bir çox abidələrin arxeoloji tədqiqatı zamanı aşkar edilmiş üzüm tumları, şərabın hazırlanması və saxlanması üçün zəruri olan gil qablar, tuluqlar, şərab çöküntüsü və s. həmin dövrdə üzümçülük və şərabçılığın xeyli inkişaf etdiyini bir daha sübut edir.

Əkinçilik XIX əsrdə də Dərbənd əhalisinin əsas məşğuliyyətlərindən biri idi. Burada əsas yeri dənli bitkilər tuturdu: buğda, arpa, mərcimək, pərinc, noxud, çəltik, qarğıdalı. Dərbənddə, həmçinin bağçaçılıq və bostançılıq da inkişaf edirdi. 1832-ci ildə şəhər kənarında 860 meyvə və üzüm bağı var idi. Meyvə ağaclarını mümkün olan bütün yerlərdə əkirdilər. Barama yetişdirmək üçün çox yerlərdə tut ağacları əkilirdi. Bağlarda 40 növ alma, 30 növ armud, gavalı, badam, əncir, nar və digər meyvələr yetişdirirdilər. Bostanlarda isə yemiş, qarpız, balqabaq (boranı), xiyar, lobya, soğan, sarımsaq, badımcan, pomidor, bibər, istiot, keşniş, vəzəri, şüyüd, reyhan, cəfəri, nanə və s. əkirdilər.

Əkinçilikdə müxtəlif forma və quruluşlu əl əmək aləti olan yerli bellərdən istifadə edildiyi müəyyənləşdirilmişdir. Bu baxımdan Quba-Xaçmaz bölgəsində qazqır beli, Quba beli, Dərbənd beli, ləzgi beli, Şirvanda Navahı beli, Qarabağ beli, Naxçıvanda Şərur beli, Naxçıvan beli, Lənkəran-Astara bölgəsində şum beli, əyribel, xiling və başqa adlarla məlum olan bellər işlədilmişdir.

Dərbəndin əlverişli iqlim şəraiti bu ərazidə çəltikçiliyin inkişafına imkan yaratmışdır. Venesiya di-

plomatı, səyyah Ambroco Kontarini (XV əsr) yazır ki, «tacirlər Dərbənddən Həştərxana düyü və s. aparıb xəz və başqa mallarla dəyişdirirdilər».

Bax: 1. Azərbaycan etnoqrafiyası. Üç cilddə. I cild. Bakı, «Şərq-Qərb», 2007, səh.67, 76, 112.

2. Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü). Bakı. «Elm». 2007. səh.186-191, 194-195, 212-217.

Dərbəndin suvarma sistemi. Azərbaycanda süni suvarma əkinçilikdə mühüm rol oynayırdı. Şərqin torpaq-iqlim şəraiti arxlar və su anbarlarının vasitəsilə görülən süni suvarma işini əkinçiliyin əsası etmişdir.

Şimal-şərqi Azərbaycanda əkinlər əsasən Samur çayı, Qaraçay, Ağçay, Qusarçay, Qudyalçay, Vəlvələçay, Caqacuqçay və başqa xırda çayların suları, həmçinin çoxlu bulaqlar və başqa suvarma mənbələri vasitəsilə suvarılırdı.

Əkinçilər təbiətin şıltaqlığından çox əziyyət çəkirdilər; gah daşqınlar baş verir, gah da quraqlıq olurdu. Bu da əkin sahələrinə və bağlara çox ziyan vurdu. Hələ çox-çox qədimlərdən insanlar təbiət sirlərindən baş açmadıqlarından, təbiətdə baş verən bu və ya başqa qorxulu hadisə və fəlakətlərin (quraqlıq, doluvurma, leysan yağışları, sel və çay daşqınları, duman, ildırımvurma və s.) səbəblərini dərk etmədiklərindən belə bir fövqəladə və qarşısıalınmaz hadisələrə qarşı mübarizə aparmaq məqsədilə müqəddəs hesab etdikləri qüvvələrə səcdə edərək «gözəgörünməzlərə» malik qüvvələr kimi sitayiş etməklə onların təsir gücündən istifadə etmək üçün şərəflərinə nəzir verir, qurban kəsir və müxtəlif xarakter və məzmun daşıyan ayin və mərasimlər keçirilirdi.

Azərbaycanda çox qədimlərdən yağış arzusu ilə keçirilən qodu-qodu mərasimində ilkin məqsəd, güman ki, yağış çağırmaq idi. Lakin sonrakı dövrlərdə bu mərasim günəş arzusu ilə keçirilmişdir. Dekabrist-yazıçı A.A.Bestujev-Marlinski Dərbənd şəhərində qodu-qodu mərasimini görmüş və özünün «Molla Nur» adlı əsərində onun təsvirini vermişdir.

Bax: Azərbaycan etnoqrafiyası. Üç cilddə. I cild. Bakı, «Şərq-Qərb», 2007, səh.138, 165.

Dərbənddə texniki bitkilərin becərilməsi və ipəkçilik. Azərbaycanda arpa, buğda, çəltik və s. ilə yanaşı, bir sıra texniki bitkilər də becərilmişdir. Ən qədim texniki bitkinin tarixi e.ə. I minillikdən başlayır. Texniki bitkilərin becərilməsi yüksək əkinçilik mədəniyyətinə əsaslanırdı.

Azərbaycanda qədim zamanlardan becərilən və xüsusi əhəmiyyət kəsb edən texniki bitkilərdən biri də boyaqkökü (marena) bitkisi olmuşdur. Azərbaycanda boyaqkökünün ən qədim və geniş yayılan ərazisi isə Xəzərsahili vilayətlər olmuşdur. Ona görə də XIX əsrin əvvəllərində Quba, Dərbənd və b. ərazilərdə bu qiymətli bitkinin əkin sahəsinin genişləndirilməsinə xüsusi diqqət verilmiş və bundan xeyli gəlir əldə edilmişdir.

Bu dövrdə boyağın əsas məskənlərindən biri Dərbənd şəhərinin ətraf ərazisi idi. XIX əsrin birinci yarısında toxuculuqla məşğul olan sahibkarlardan bəziləri Dərbənd və Quba əyalətlərində becərilən boyaqkökü bitkisinin yüksək keyfiyyətini nəzərə olaraq bu ərazidə həmin bitkinin əkin sahəsinin genişləndirilməsinə təşəbbüs göstərmişdilər. Artıq XIX əsrin ortalarında Şimali Azərbaycandan Rusiyaya hər il 140 min pudadək (1 pud=16 kq) yüksək keyfiyyətli boyaq ixrac edilirdi. Təkcə 1861-ci ildə Dərbənd vasitəsilə Azərbaycandan Rusiyanın mərkəzi quberniyalarına 197430 pud boyaqkökü aparılmışdı. Həmin 1861-ci ildə Bakıdan 930 pud, Niyazabaddan isə 8380 pud boyaqkökü yola salınmışdı. Boyaqkökü bitkisinin becərilməsində işində muzdlu əmək geniş miqyasda tətbiq olunurdu. Plantasiyalarda Cənubi Azərbaycandan, habelə Dağıstandan gələn çoxlu muzdlu fəhlə çalışırdı.

İpəkçilik Dərbənd sakinlərinin əsas məşğuliyyətlərindən biri idi. Dərbənd ipəkçiləri haqqında XI əsrin yerli müəllifi Əbu Bəkr əd-Dərbəndi özünün məşhur əsəri – «Reyhan əl-haqaiq və bustan əd-dadaiq»də məlumat vermişdir.

Mənbələrin məlumatına əsasən, bu sahə XIV-XV əsrlərdə şəhərdə çox geniş yayılmışdı. Lakin XIX əsrin ikinci yarısından başlayaraq şəhərdə ipək parçaların istehsalı sürətlə azaldı.

1828-1836-cı illərin rəsmi rus mənbələrinin birində məlumat verilir ki, «…İpək parçalar bir vaxt Dərbənddə yaxşı və çox sayda hazırlanırdı, bu yaxınlarda parçanın istehsal etmək üçün burada 200 dəzgah var idi, hazırda isə cəmi 40 dəzgah var». Dərbənddə ipəkçilik sənayesinin tənəzzülü həm də qədim Şamaxıdan çoxlu ipək məhsullarının gətirilməsi ilə bağlı idi.

Lakin ipək almaq üçün barama qurdunun yetiş-

dirilməsi şəhərdə davam edirdi. Belə ki, rəsmi məlumatlara əsasən, 1855-ci ildə Dərbənddən Rusiyaya 802,5 pud, 1856-cı ildə – 819,7 pud, 1857-ci ildə – 855 pud xam ipək göndərilmişdir.

Bax: Azərbaycan etnoqrafiyası. Üç cilddə. I cild. Bakı, «Şərq-Qərb», 2007, səh.201, 207-208.

Marena – çoxillik yarımkol boyaq bitkisidir. Marena cövhəri tibbdə spazmatik və sidikqovucu vasitə kimi istifadə olunur. Yerli əhali qədim dövrlərdən başlayaraq bu yabanı kolların köklərini meşələrdən, şəhər ətrafından yığır, boyaq kimi toxuculuqda istifadə edirdilər. Yerli əhali boyaqotunun qırmızı rəng verdiyini bilirdi. Hələ Herodot (b.e.ə. V əsrdə) özünün «Tarix» əsərində həmin rayonu təsvir edərək məlumat verir ki, «…danışırlar ki, həmin meşələrdə bu cinsdən olan yarpaqlarla örtülmüşdür, onları əzirlər, su ilə qarışdırırlar və bu məhlulla paltarlarında müxtəlif naxışlar çəkirlər; bu naxışlar yuyulub getmir».

Bu yerlərdə yığılan, Cənubi Asiya və başqa ölkələrə göndərilən marena haqqında, demək olar ki, bütün qədim müəlliflər məlumat verirlər.

XVIII əsrin sonunda Dərbənd şəhər sakini Kərbalayı Hüseyn marenanın mədəni yetişdirilməsi üzrə təcrübələrə başlayır. Marenanın yetişdirilməsi ilə məşğul olan Dərbənd sakinləri yalnız boyaqotunun köklərini yığır, qurutduqdan sonra onu erməni tacirlərinə satırdılar.

XIX əsrdə Rusiyada pambıq istehsalının sürətli inkişafı ilə əlaqədar boyaqotuna tələbat artır. Dərbənddə yetişdirilən boyaqotuna rus sahibkarlarından ilk dəfə Vladimir şəhərindən olan fabrikant İ.F.Baranov diqqəti vermişdir. O, boyaqotunu öz fabrikində sınaqdan keçirərək əmin oldu ki, boyaqotu keyfiyyətinə görə Hollandiyadan gətirilən boyaqotundan üstündür. İ.Baranov tezliklə boyaqotunun alınması üzrə müqavilə bağladı və boyaq otunun yetişdirilmə sahələrinin artırılması üçün Dərbənd sahibkarlarına lazım olan miqdarda sərmayə ayırdı. Tezliklə onun bu təşəbbüsünə başqa fabrikantlar da (Zubov, Lepyoşkin, Malyutin və b.) qoşuldular.

1832-ci ildə Dərbənddən 35,1 min pud, 1840-ci ildə - 80, 7 min pud, 1855-ci ildə isə 213 min pud boyaqotu kökü ixrac olunmuşdur. Bu dövrdə boyaqotu istehsalı gəlirli bir sahəyə çevrilmişdi. «Qafqaz» qazetinin məlumatına əsasən, 1 desyatin sahədən 264 rubl dəyərində gəlir götürülürdü. 1862-ci ildə mühəndis Lemkul tərəfindən boyaqotunun emalı üçün xüsusi fabrik tikilmişdi.

1873-cü ildə boyaqotu yetişdirilən sahələr 6000 desyatinə çatdırılmışdı. Şəhər əhalisindən 1666 nəfəri boyaqotunun yetişdirilməsi ilə məşğul olurdu.

Xaricdən daş kömürdən alınmış ucuz boyaq rənginin (alizarin) gətirilməsi boyaqotu kökünün (marenanın) qiymətinin aşağı düşməsinə səbəb oldu. Bu da boyaqotu kökünü yetişdirənlənə böyük maddi zərbə vurdu. Boyaqotunun qiyməti aşağı düşdüyü üçün fabrikin işi dayandırıldı. Qafqaz canişinliyi yerli boyaqotu yetişdiricilərinə kömək məqsədilə 50 min rubl pul ayırdı. Lakin bu gecikmiş yardım bu sahədə məşğul olan yüzlərlə sakini müflişləşməkdən xilas edə bilmədi. Böhran şəhərin iqtisadiyyatına da ağır zərbə vurdu.

Zəfəran – çoxillik çatıotu fəsiləsindən bitkidir. Zəfərandan yeyinti sənayesində ədva kimi istifadə olunur. Dərbənddə zəfəran lap qədim zamanlardan yetişdirilirdi. Hələ ibn Hövqəl (X əsr) qeyd etmişdi ki, bu mədəni bitki «…həddən artıq çox yetişdirilir». S.Bronevski XIX əsrin əvvəlində yazırdı: «…Zəfəran həddən artıq çox yetişdirilir, bu bitki ilə yalnız Dağıstanın və Şirvanın (Azərbaycan) daxili vilayətləri təmin olunmur, həm də qonşu vilayətlər də onunla təmin olunur».

XVIII-XIX əsrin əvvəllərində zəfəranın yetişdirilməsi Dərbənd sakinlərinin əsas məşğuliyyətlərindən biri olmuşdur. 1820-ci ilin oktyabr ayında Dərbənddə olmuş Tiflisdəki fransız konsulu kavaler Qamba məlumat verirdi ki, «… şəhərin ətrafında çoxlu zəfəran yetişdirilir, həmin zəfəranlar çox təmizdir və heç bir qarışığı yoxdur».

Sonralar zəfəran sahələri azalmağa başladı. Bu, burada daha gəlirli yeni təsərrüfat sahəsi olan – marenanın (boyaqotunun) yetişdirilməsi ilə bağlı idi. Buna baxmayaraq, zəfəran yenə də becərilməkdə davam etdirilirdi. 1895-ci ildə Qafqaz kənd təsərrüfatı sərgisində dərbəndli Ələkbər Məmmədəli oğlunun yetişdirdiyi zəfəran «Stanislav» lentli gümüş medala layiq görülmüşdü.

MALDARLIQ

VII-X əsrlərdə Şimal-Şərqi Azərbaycanda, o cümlədən Dərbəndə maldarlığın oturaq və mövsümi (yaylaq-qışlaq) formaları geniş yayılmışdı. Düzənlik bölgələrdə əlverişli şəraitin olması da Azərbaycanda mövsümi maldarlığın formalaşmasında mühüm rol oynamışdır. Bəzi tədqiqatçıların fikrincə, erkən tunc dövründə meydana gəlmiş mövsümi maldarlıq XI-XII əsrlərdə bitkin şəkildə formalaşmışdır.

VII-X əsrlərdə əkinçiliyin intensiv təkamülü maldarlığın inkişafına xüsusi təsir göstərir. Arxeoloji materiallar Azərbaycanda o zaman çoxsaylı xırdabuynuzlu mal-qara sürülərinin olduğunu təsdiq etməyə imkan verır. Azərbaycanda qoyunçuluğun yüksək inkişaf səviyyəsi İbn Hövqəlin məlumatı ilə bir daha təsdiqlənir.

VII-X əslərdə maldarlıq məhsulları istehsalı da artır. Bu dövrdə müxtəlif süd məhsullarının istehsalı və saxlanılması üçün istifadə edilən qabların keyfiyyəti yaxşılaşır. Gil süd badyaları ilə yanaşı, mis sərniclər istifadə olunmağa başlanır. Yağın hazırlanması üçün gil, tuluq və ağac nehrələrdən istifadə olunurdu. O dövrə aid nehrələr əvvəlkilərdən yalnız böyük ölçüsü ilə deyil, eləcə də quruluşu ilə seçilirdi.

Bu dövrdə xırdabuynuzlu mal-qaranın sayının artması daha çox yun, dəri, süd və süd məhsulları əldə etməyə imkan yaratmışdı.

Mövcud material, tədqiq edilən dövrdə Azərbaycanda nəinki Qafqaz ölkələrinə, eləcə də bütün Ön Asiyaya xas olan yüksək mədəniyyətli maldarlıq, o cümlədən atçılıq təsərrüfatlarının olduğunu təsdiq edir.

Belə ki, Quba atları Dərbənddə və başqa qonşu ərazilərə də yayılmışdı. Quba atları rahat yorğa yerişilə başqalarından fərqlənir. 1891-ci ildə Quba qəzasında 37 ilxının olduğu qeydə alınmışdı. İ.İ.Kaluginin fikrincə, Quba yorğaları müəyyən dərəcədə yerli atın qanı qarışmış Həştərxan yorğalarıdır. Bu ata monqol atının təsiri olduğunu qeyd edənlər də var. Lakin K. Səttarzadə daha qiymətli fikir irəli sürərək Quba atlarını Azərbaycan atlarının bir qolu hesab edir.

Bax: 1. Azərbaycan etnoqrafiyası. Üç cilddə. I cild. Bakı, «Şərq-Qərb», 2007, səh. 231, 281-282.

2. Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü). Bakı. «Elm». 2007. səh. 186-191, 194-195, 212-217.

Dərbənd ovçuluq təsərrüfatı. Azərbaycan hələ qədimlərdən bəri zəngin təbiəti – meşələri, çayları, dağları və geniş düzənlikləri ilə məşhurdur. Ölkədə müxtəlif heyvan və quş növlərinin məskunlaşması üçün hər cür şərait olmuşdur. Azərbaycanın fauna və florasının zənginliyi burada ovçuluğun tarixən inkişafı üçün zəmin yaratmışdır. Vəhşi heyvan və quşların ovlanması insanların ən qədimdən məşğuliyyət sahələrindən biri olmuşdur.

XIX əsr-XX əsrin əvvəllərində Azərbaycanda ovçuluqla əsasən odlu silahlardan (ov tüfəngi), cələ, tələ, torlardan, işıq və məşəldən və s. istifadə edilmişdir. Ov tüfəngləri (təklülə) Bakı, Gəncə, Dərbənd, Şamaxı, Şəki, Şuşa kimi şəhərlərdə, həmçinin Lahıcda yerli ustalar tərəfindən hazırlanırdı. Tüfəng üçün qundaq hazırlayan xüsusi «qundaqsaz» adlanan ustalar var idi. Beləliklə də yerli ustaların kustar üsulu ilə hazırladığı «dayandoldurum» adlanan təklülə tüfənglər ovçular arasında daha geniş yayılmışdı. Lakin belə tüfənglərlə çox vaxt dəqiq nişan almaq da olmurdu. Ona görə də xalq arasında bununla bağlı belə bir məsəl də vardı: «Lahıc tüfəngi kimi baş-ayaq vurursan».

Azərbaycanda XIX əsrin sonlarından etibarən Tula silah zavodunda hazırlanan tək və qoşalülə (buna yerli şivədə «qoşəllə» də deyirlər) ov tüfəngləri geniş yayılmağa başladı ki, bununla ov heyvanlarının kütləvi ovlanması daha da artdı.

Bax: Azərbaycan etnoqrafiyası. Üç cilddə. I cild. Bakı, «Şərq-Qərb», 2007, səh.305, 308.

Ovçular cəmiyyəti. 1897-ci il dekabrın 16-da şəhərdə yaşayan 21 nəfər ovçu «Dərbənd şəhər ictimai ovunun nizamnaməsi»nin lahiyəsini təqdim etmişlər. 1900-cu il mayın 12-də Nizamnamə çar tərəfindən təsdiq olunmuş və həmin ilin iyunun 12-dən cəmiyyət rəsmi fəaliyyətə başlamışdır.

SƏNƏTKARLIQ

Dərbənddə sənətkarlıq. Azərbaycanda ağac emalı və şəbəkəli oyma sahəsində çoxlu mahir sənətkarlar var idi. Bursadakı «Yaşıl came» məscidi (1420) qapısının şəbəkəli oymasında usta (xarrat) Əli Təbrizi Hacı Əhməd oğlunun adı həkk olunmuşdur. Şirvanda, Xəzər dənizində kiçik gəmiqayırma müəssisələri var idi. Venesiyalı Kontarini XV əsrin 70-ci illərində Dərbənd və Həştərxan arasında üzən yerli gəmilərin təsvirini belə verirdi: «Oradakı gəmilər balıq formasındadırlar...Gəmiləri ağac mıxlarla quraşdırır və möhkəm qətranlayırlar...»

Mənbələr XV əsrin Azərbaycan şəhərlərində daha çox «möh-tərife» termini ilə ifadə olunan sənətkar təşkilatlarının mövcudluğunu qeyd edirlər. Bu sənətkar təşkilatları zahirən dini səciyyə daşıyırdı. Əxi və Sufi təşkilatları onlara güclü təsir göstərirdi. Əxilər və sufilər də bu təşkilatların üzvü kimi fütüvvətnamələrdə (əxi, sufi traktatlarında) əks olunmuş ayinləri icra edirdilər. XV-XVI əsrlərin qovşağında əxilərin siyasi və təşkilat müstəqilliyinin tənəzzülü sənətkar təşkilatlarının əxilərin qəyyumluğundan azad olmasına, sonralar isə onların daha müstəqil inkişaf etməsinə gətirib çıxardı. Lakin buna baxmayaraq, sənətkar təşkilatları əxilərin təşkilat quruluşundan və ənənələrindən çox şey əxz etmişdilər.

XIV əsrin sonunda Teymurilər imperiyasının meydana gəlməsi asılı ölkələrin (o cümlədən Azərbaycanın) pul tədavülündə dönüşə səbəb oldu. Bu pul sistemi cəmisi 6,2 qrama yaxın olan iri nominal (təngə) üzərində qurulmuşdu. Əmir Teymurun ölümündən (1405) sonra onun adı Şirvan sikkələri üzərində zərb edilmirdi. Şirvanın zərbxanalarında bir neçə il ərzində nominal hakimiyyət rəmzi kimi Qızıl Ordu xanı Cuçi Şadi bəyin adından pul kəsilirdi. Bu təngələrin çəkisi 5,6 qrama yaxın idi.

Ehtimal etmək olar ki, 1412-ci ildən etibarən Bakı və Şamaxı şəhərlərinın sikkəxanaları Qara Yusif və onun oğlu Pirbudağın adı ilə gümüş pullar zərb etmişdilər. 1412-1413-cü illərdə Qara Yusifə Şirvanşah I İbrahimi məğlub etmək, onu vassal asılılığına salmaq müyəssər oldu. Bu tarixi hadisə Şirvan və Bakı sikkələrində öz əksini tapmaya bilməzdi. Gümüş sikkələrin zərb edilməsi Şamaxıda cəmləşmişdi. Dərbənd və Bakıda isə yalnız mis sikkələr kəsilirdi. Beləliklə, XV əsrin ikinci yarısında zərb olunmuş Şirvan sikkələri öz çəkisinə görə Azərbaycanın qalan hissəsinin və ona yaxın ölkələrin sikkələrindən kəskin surətdə fərqlənirdi. Daha güclü hökmdarlarla əhatə olunmuş Şirvanşahlar öz pul vahidlərindən nadir hallarda istifadə edirdilər. Şirvanşahların qızıl sikkələri bizə məlum deyildir. Şirvanın mis sikkələri anonimdir. Onlar əsasən Şamaxıda, Dərbənddə, Bakıda, Şabranda və Mahmudabadda zərb edilmişdi.

XVIII əsrin birinci yarısında hərbi əməliyyatlar zamanı şəhərlər kəndlərə nisbətən daha çox dağıntılara məruz qalırdı. Məlumdur ki, müharibələr zamanı sərkərdələr ilk növbədə iqtisadi cəhətdən daha zəngin olan şəhərləri - ticarət və sənətkarlıq mərkəzlərini zəbt edirdilər. Məhz buna görə də yerli hakimlər, hər şeydən əvvəl, şəhərlərin gözəlliyindən çox, onların müdafiə qabiliyyətini möhkəmləndirməyə fikir verirdilər. Qala divarlarından kənarda ev və bina tikdirməkdən ehtiyatlanan şəhər zadəganları öz imarətlərini yalnız şəhər daxilində inşa etdirməyi üstün tuturdular. Belə hallarda özlərinə bina-mülk tikdirən varlılar nə şəhərin planlaşdırılmasına, nə də xarici görünüşün pozulmasına əhəmiyyət verirdilər. Buna görə də şəhərin küçələri get-gedə daralır, şəhər meydanları tədricən aradan çıxırdı.

Ölkənin iqtisadi həyatında Dərbənd, habelə Təbriz, Marağa, Gulbaniyə, Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Ərdəbil, Xoy, Maku, Urmiya, Astara və digər şəhərlər əhəmiyyətli rol oynayırdı. Lakin XVIII əsrin 20-30-cu illərində Dərbəndi, həmçinin Bakını, Lənkəranı, Astaranı Rusiya ələ keçirmiş, Naxçıvan, Xoy, Maku, Urmiya və s. isə Osmanlılar tərəfindən zəbt olunmuşdu.

Dərbənd və Azərbaycanın digər şəhərlərində sənətkarlığın müxtəlif növləri, o cümlədən dərzilik, papaqçılıq, zərgərlik, dəmirçilik, misgərlik, dabbaqlıq və s. ilə məşğul olurdular. Sənətkarlığın inkişafı şəhərlərin iqtisadi xüsusiyyətlərindən

coğrafi mövqeyindən, ab-havasından və ətraf mühitdən asılı idi.

Bax: Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). Bakı. «Elm». 2007. səh.126-127, 434-435.

Kətançılıq. X əsrdən başlayaraq yazılı mənbələr Dərbəndin toxuculuq istehsalatının mühüm mərkəzlərindən biri olması barədə məlumat verirlər. Burada Qafqazda, Ön Asiya və Şərq ölkələrində yüksək qiymətləndirilən kətan parça və kətan paltar istehsal olunurdu. Bəzi mənbələrin verdiyi məlumata görə, bütün Qafqazda yalnız Dərbənddə kətan parça istehsal edilirdi. Belə ki, əl-İstəxri (X əsr) yazırdı: «…Bab əl-Əbvabdan (Dərbənd) kətan paltarlar ixrac edilirdi, buradan başqa heç yerdə belə paltar yoxdur – nə Arranda, nə də Azərbaycanda».

Başqa bir X əsr məlumatına görə, Dərbənddə «kətan parçaları-masxuri istehsal edirlər» və «..palaz toxuyurlar». Kətan parçaların və kətan paltarların Dərbənddən ixrac edilməsi haqqında İbn Hövqəl (X əsr), İdrisi (XI əsr), Yaqut (XIII əsr) məlumat verirlər. Onlar Dərbənddə kətan parçanın istehsalını Qafqazda yalnız bu şəhərin ətrafında kətanın bitməsi ilə izah edirdilər.

Bəzzazlıq sənəti. Ənənəvi parça istehsalında bəzzazlıq mühüm yer tutmuşdur. Yerli xammal əsasında inkişaf edən bu sənət pambıqçılıq təsərrüfatı ilə üzvü surətdə bağlı olmuşdur. Daxili tələbatın qalması ilə əlaqədar Azərbaycanda bəzzazlıq sənəti XIX əsrin 40-50-ci illərində hələ də davam etməkdə idi. Bakı qəzasının 1842-ci ildəki vəziyyətinə dair hesabatda isə məhdud miqdarda becərilən Abşeron pambığının bir hissəsindən yerli istehlak məqsədilə bez toxunduğu, qalan hissəsinin Quba qəzasına göndərildiyi xəbər verilir. 1843-cü ildə Şirvan qəzasında 35, Dərbənddə 10 bez karxanası fəaliyyət göstərirdi. XIX əsrin 50-ci illərinin əvvəllərində Gəncədə təkcə calamaya (nazik bez) istehsalı üzrə 30 dəzgah işləyirdi. Xam bezdən bəsit boyama, qələmkarlıq və ya basma-naxış üsulu ilə müxtəlif növ pambıq parçalar hazırlanırdı.

Bez əksər hallarda təbii ağ rəngdə toxunandan sonra müxtəlif rənglərə boyanırdı. Onu qırmızı rəngə boyamaqla «şilə», tünd göy rəngə boyamaqla «qədək» əldə edilirdi. Bezin qaba növü sayılan codananı mavi rəngə boyamaqla ondan «çadra» hazırlanırdı.

Bax: Azərbaycan etnoqrafiyası. Üç cilddə. I cild. Bakı, «Şərq-Qərb», 2007, səh.479, 480.

Sərraclıq sənəti. Minik ləvazımatının hazırlanması ilk vaxtlar ev peşəsi səciyyəsi daşımışdır. Lakin sonralar qaltaqlı yəhər və onun əlavə ləvazimatının hazırlanması xüsusi istehsal sərištəsinə malik ixtisaslı usta tələb etdiyindən tədricən yeni bir sənət növü – sərraclıq formalaşmağa başlamışdır.

Sərraclıq sənəti başlıca olaraq şəhərlərdə, qismən isə həftəbazarları olan iri kəndlərdə, xüsusilə köç yolları üzərindəki rəvac satış bazarına malik yaşayış məntəqələrində geniş intişar etmişdi. XIX əsr və XX əsrin əvvəllərində sərraclıq sənəti əsasən Dərbənd, o cümlədən Şamaxı, Nuxa (Şəki), Gəncə (Yelizavetpol), Şuşa, Qazax, Naxçıvan, İrəvan, Bakı, Quba və Lənkəran şəhərlərində, habelə Əliabad kəndində mövcud idi. O dövrdə Şimali Azərbaycanın bəzi yaşayış məntəqələrində (Mərəzə, İvanovka, Yelenendorf) qoşqu ləvazimatı (xamut, qoşqu qayışları, cilov və s.) hazırlayan sərraclar da var idi.

XIX əsrin II yarısında Bakının sürətlə böyüməsi və şəhərdə faytonların sayının artması ilə əlaqədar olaraq, burada qoşqu ləvazimatı hazırlayan xüsusi sərrac emalatxanaları açılmışdı.

Azərbaycanda ənənəvi sərraclıq sənəti tarixən yük və minik yəhəri dəstinin hazırlanması istiqamətində inkişaf etmişdi.

Bax: Azərbaycan etnoqrafiyası. Üç cilddə. II cild. Bakı, «Şərq-Qərb», 2007, səh.442, 443.

YAŞAYIŞ MƏSKƏNLƏRİ VƏ EVLƏR

Azərbaycanda əhalinin artması ilə əlaqədər tarixin sonraki inkişaf mərhələlərində, daha dəqiq desək, ibtidai icma quruluşunun dağıldığı və sinifli cəmiyyətin yarandığı dövrdən etibarən kənd tipli yaşayış məskənləri daha geniş intişar tapmışdr. Buraya tarixən yaranmış oba, şenlik, yurd, düşərgə, qışlaq, yaylaq, yataq, binə və başqa yaşayış məskəni tiplərini də daxil etmək olar.

Heç şübhəsiz, ənənəvi yaşayış məskəni tiplərindən biri şəhərlərdir. Azərbaycanda dövlətin yaranması ilə şəhərlər özünün geniş inkişafına başlayır. Bu tarix təxminən e.ə I minilliyin I yarısına təsadüf edir. Belə qədim şəhərlər sırasında Təbriz, Naxçıvan, habelə Dərbənd, Ərdəbil, Marağa, Şamaxı, Qəbələ, Bərdə, Gəncə, Bakı, Beyləqan, Şabran və bir sıra başqalarını göstərmək olar.

Yaşayış məskənlərinin yerli sosial-iqtisadi inkişafdakı rolunun müxtəlifliyinə baxmayaraq, onların memarlıq planlaşdırma quruluşunda bir sıra ümumi cəhətlər olmuşdur. Vaxtilə salınmış Azərbaycan şəhərləri ərazisinin funksional mahiyətinə görə «ərk» (İçqala, Narınqala), «şəhəristan» (əsilzadələrin yaşadığı hissə) və «rabat» (sənətkarlıq və ticarət hissəsi) adlı üç müxtəlif bölmədən ibarət idi. Şəhər hakiminin sarayı və başqa rəsmi-inzibati binalar, eləcə də onlar üçün ayrılmış sahələr vahid planlaşdırma kompleksi şəklində istehkam divarları ilə əhatə olunmuş ərazidə yerləşdirilərək şəhərin ərk hissəsini təşkil edirdi. Şəhəristan həm müdafiə, həm də xarici görkəm baxımından şəhərin əhəmiyyətli və gözəgəlimli sahəsində yerləşirdi. Yaşayış, ticarət və sənətkarlara məxsus binaların yerləşdiyi şəhərin rabat bölməsi mürəkkəb və qarışıq küçə şəbəkəsi ilə, onun struktur vahidini təşkil edən ayrı-ayrı müxtəlif biçimli və formalı sektorlara bölünməsi ilə diqqəti cəlb edirdi.

Bax: Azərbaycan etnoqrafiyası. Üç cilddə. II cild. Bakı, «Şərq-Qərb», 2007, səh.7, 15, 24.

KARVANSARALAR

Qədim Dərbənd şəhəri mühüm karvan yolun üzərində böyük ticarət mərkəzi olduğu üçün burada çoxlu **karvansara** var idi. Yerli müəllifin məlumatına əsasən 1838-ci ildə Dərbənd şəhərində 3 karvansara var idi. Bu karvansaralar Cümə məscidindən yuxarıda yerləşirdi. Karvansaranın biri Hacı bəy Yüzbaşıya məxsus idi. İkinci karvansaranı 1760-cı ildə Nazir Məhəmməd xan və Hacı Mehrəli tikdirmişdilər. Üçüncü karvansara isə 1792-ci ildə Hacı bəy Yüzbaşının oğlu Xadir bəy və İmamverdi bəyin vərəsəsi Aşiq Ağası tərəfindən tikdirilmişdir.

XX əsrin əvvəllərində Dərbənd şəhərində artıq 9 karvansara var idi:

1. Bazar küçəsində yerləşən Rzayev qardaşlarının karvansarası (hazırda bu binada 17 saylı uşaq bağçası yerləşir).

2. Bazar küçəsində yerləşən Xosrovun karvansarası (hazırda 2 saylı poliklinikanın binasıdır).

3. Taxta bazarın yanında yerləşən Məmməd bəy Mədətbəyovun karvansarası (hazırda şəhər mədəniyyət evinin binasıdır).

4. Şəhər idarəsinə məxsus olan və Taxta bazarının yanında yerləşən karvansara. Bu karvansara XX əsrin 50-ci illərində baş vermiş yanğın nəticəsində yanmışdır.

5. Şəhər elektrostansiyası rayonunda yerləşən Məmmədəmin bəy Məmərzabəyov karvansarası.

6. Hacı Mirzə bəy karvansarası.

7. Ədil bəy Həmzəyev karvansarası.

8. Kərbalayı Məlik Məşədi Cəlil oğlu Allahverdiyev karvansarası.

9. Məşədi Həsən Qafarovun karvansarası.

Şəhərdə ən böyük karvansara 8-ci məhəllədə yerləşirdi. Bu karvansara XVIII əsrin sonunadək mövcüd olmuşdur. Şəhərin aşağı hissəsində yeni karvansara tikilməyə başlayandan sonra bu karvansara əvvəlki əhəmiyyətini itirməyə başlamış və XIX

əsrin əvvəllərindəki Rusiya işğalından sonra burada karvansaraların vəziyyəti sürətlə dəyişmişdir. Çar Rusiyası dövləti Dərbəndə ögey münasibət bəsləyirdi. Ticarət nöqtələri bağlanır, yollar kəsilirdi. Tədricən boşalan karvansaraların çox hissəsini Piridemiş kəndinin sakinləri tutdular. Onlar həmçinin yeraltı su xəttini də mənimsədilər. Qeyd edək ki, iriləri ilə yanaşı Dərbənddə kiçik karvansaralar da mövcud idi.

Bu karvansaralardan başqa, XX əsrin əvvəllərində şəhərdə bir neçə müasir mehmanxanalar tikilmişdir:

- Baryatinsk küçəsində Həmdulla Abdullayevin «Qrand otel»i;
- Kilsə küçəsində Həmdulla Abdullayevin «Petit otel»i;
- Vağzal küçəsində Niftulla Xandadaşovun mehmanxanası.

Bax: Д.А.Талыбов. Дербент: Судьбы и люди. М. 2002. стр. 41-42.

MƏTBƏX

Azərbaycan mətbəxi - dünyanın ən qədim, ən ləziz, ən zəngin mətbəxlərindən biri. Azərbaycan mətbəxi dedikdə, yalnız xörəklər, onların bişirilmə, hazırlanma qaydaları deyil, həm də özlüyündə maddi mədəniyyətin əsas bir hissəsi – mətbəx mədəniyyəti, onun tarixi, fəlsəfəsi, süfrə psixologiyası, adət-ənənələr, mətbəxin fiziologiyası, gigiyenası, kimyası, avadanlığı, etikası, estetikası, poeziyası və s. bu kimi cəhətləri, eləcə də təcrübi amilləri ahəngdar surətdə birləşdirən, Azərbaycan xalqının yaşadığı tarixi ərazi daxilində ətraf mühitlə tam bağlı olan mətbəx mədəniyyəti başa düşülür.

Azərbaycan mətbəxi Azərbaycan Respublikası, Təbriz başda olmaqla Cənubi Azərbaycan, keçmiş İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalı, indi azərbaycanlılardan zorla təmizlənmiş tarixi Qərbi Azərbaycan torpaqlarında, Borçalı başda olmaqla Gürcüstanın azərbaycanlılar yaşamış və yaşayan bir sıra bölgələrində, Dərbənd başda olmaqla Dağıstanda azərbaycanlıların yaşadıqları ərazilərdə yaranmışdır. Əlbəttə, mətbəxi yaradan və formalaşdıran ən başlıca amillərdən biri iqlimdir. Bununla bağlı qeyd etmək kifayətdir ki, təkcə Azərbaycan Respublikasının ərazisindən 9 iqlim qurşağı keçir. İqlim qurşaqlarının belə müxtəlifliyi Azərbaycan ərazisində flora və faunanın zənginliyini, rəngarəngliyini təmin edir, bütün heyvanların və bitkilərin yayılması üçün şərait yaradır ki, bunlar da özlüyündə zəngin mətbəx üçün əsas amillərdir. Zəngin mətbəx yaratmaq üçün ovçuluq məhsullarından istifadə etmək, qidaya yabanı bitkilər əlavə etməkdən başqa, həm də çoxlu mədəni bitkilər tələb olunur. Bunun üçün də əhali eyni zamanda zəngin əkinçilik və maldarlıq mədəniyyətinə malik olmalıdır. Məsələn, dənli bitkilərdən və xəmirdən mürəkkəb xörəklər yalnız o zaman meydana gələ bilərdi ki, məhsul istehsalı adi çörək və çörəkəvəzi yeməklərin hazırlanması üçün tələb olunan miqdardan çox olsun. Bu hal əsrlərlə davam etdikcə belə xörəklər yaranıb milli yaddaşda möhkəmləndi. Təkcə çətənənin (aşsüzənin ibtidai növü) mövcudluğu dənli bitkilərdən və xəmirdən bişirilən xörəklərin tarixini bizim eradan 5-6 min əvvələ aparmaqla bərabər, artıq bu dövrdə taxılın tələbatdan çox istehsal edildiyini göstərir. Məhsuldarlığın yüksək olması həm də yüksək əkinçilik mədəniyyəti deməkdir. Bu da öz növbəsində maldarlığın, suvarma sistemlərinin inkişafına, formalaşmasına təkan vermişdir. Köklü, oturaq həyat olmadan bütün bunlar qeyri-mümkündür. Qeyd etmək lazımdır ki, Cənubi Qafqazda mətbəx üçün əsas olan ərzaq xammalını yüksək əkinçilik və maldarlıq mədəniyyətinə malik azərbaycanlılar istehsal etmişlər.

Azərbaycanda olmuş səyyah və alimlərin, diplomatların və başqalarının yazıları, arxeoloji məlumatlar bu torpaqlarda qədimlərdən buğda, arpa, çəltik, küncüt, paxla, çuğundur, üzüm, alma, heyva və s. bu kimi əkinçilik, bostançılıq, meyvəçilik məhsullarının çox böyük miqdarda becərildiyini, təzə və quru balıq, kürü, bal, kərə yağı, digər heyvandarlıq məhsulları ilə nəinki əhalinin bol təmin olunduğunu, hətta bunların ixrac olunduğunu da göstərir.

Beləliklə, Cənubi Qafqaz ərazisində Azərbaycan xalqı çox zəngin, cazibədar bir mətbəx yarat-

mışdır. Gürcü və erməni mətbəxlərinin Azərbaycan mətbəxindən gen-bol faydalanması da bu amillə bağlıdır. Mətbəx mədəniyyəti özlüyündə konservativ olduğuna, başqa mədəniyyətlərdən çox təsirləndiyinə baxmayaraq ümumtürk mətbəxləri, o cümlədən də Azərbaycan mətbəxi üçün səciyyəvi hal ondan ibarətdir ki, başqa xalqların mətbəxinə çox güclü təsir göstərdiyi halda, təmasda olduğu bəzi xalqlardan, demək olar ki, çox az şey götürmüş, götürdüyü cüzi nümunələri də xeyli dəyişdirib özünə uyğunlaşdırmışdır.

Ümumtürk mətbəxinin bolqar, yuqoslav, rus və s. xalqların mətbəxlərinə təsirindən çox yazılmışdır. Əsrlərlə ərəb və farslarla təmasda olmuş azərbaycanlılar bu xalqların da mətbəxinə təsir etmişlər. Məsələn, görkəmli Azərbaycan alimi Cavad Heyət «İki dilin müqayisəsi» kitabında göstərir ki, fars dilində işlənən aş, azuqə, aşqar, ağız (ağız südü), ərsin, əzgil, ocaq, oxlov, ələk, ələngə, umac, uzunburun balıq, basdıq, qoz, boşqab, bozartma, bucaq, taxıl, tut, tağar, tiyan, cılxa, çömçə, çolpa, xaşal, xaşıl, dadımlıq, damaq, dürmək, doğramac, dolma, dibək dişləmə, süzmə, şit, tərxan, qab, qablama, qaşıq, qatlama, qatıq, qaymaq, qaq, qovurğa, qovurma, kakuti, komac, kündə, kökə, lağırsa, hədik, yaxmac, yavan, yayma, yuxa və s. xörək adları və digər mətbəx terminləri Azərbaycan dilindən götürülmüşdür, ondan iqtibaslardır.

Ümumiyyətlə, Azərbaycan mətbəxində xörək adlarının əmələ gəlməsinin dilçilik nöqteyi-nəzərindən ümumi qanunauyğunluqları var. İlk və mühüm qanunuyğunluq ondan ibarətdir ki, xörəklərin adı onların hazırlanmasında əsas texnoloji mərhələni göstərir. Məs., dolma, doğramac, əzmə kimi xörək adları - ilkin hazırlanma qaydalarını; qızartma, pörtlətmə, qovurma, bozartma, dondurma və s. bu kimi adlar – istilik emalı əməliyyatlarını; dindili külfə, nazik, yarpaqxəngəl, lüləkabab, yuxa və s. xörəyin fiziki formasını; yarpaq dolması, yarma xaşılı, düyü çənkü, səbzə-kükü, bal, qaymaq – istifadə edilən əsas ərzaq növünü; qatıq, sulu xəngəl – yeməyin konsistensiyasını, qatılığını; turşu, şirin nazik – xörəklərin dadını; saciçi, tavakabab, çölməbuğlama – xörəyin hazırlandığı qabın adını; təndirkabab, külfəçörəyi və s. – xörək bişən ocağın adını; Gəncə paxlavası, Qarabağ basdırması, Şəki halvası – xörəyin daha çox bişirildiyi bölgə adlarını və s. əks etdirir. İkinci qanunauyğunluq mətbəximizdə «aş» sözü ilə bağlı sözlərə aiddir; aşpaz, aşxana, xaş, xaşıl, qaşıq və s. Bütün türk xalqlarına aid olan üçüncü qanunauyğunluq xörəklərin adında belə təzahür edir: imambayıldı, vəzirbarmağı, xəngəl, tərxan, axsaq oğlaq və s.

Mətbəximizə güclü təsir göstərən digər amil ocaqdır. Azərbaycan mətbəxi bir neçə ocaq növü yaradıb inkişaf etdirmiş, zənginləşdirmişdir. Təndir, kürə, buxarı, külfə, çala, ocaq, sac, manqal və s. bu qəbil ocaqlardandır. Azərbaycan mətbəxində yanacaq kimi odun, çırpı, təzək, ağac kömürü və təbii qazdan istifadə edilmişdir. Təzəkdən istifadə edilməsi xüsusi maraq doğurur. Təzək saxlanan, təzək yandırılan yerdə bronx və ağciyər xəstəlikləri olmur, meşələrin yanacaq üçün qırılmasının qarşısı alınır. Hind alimlərinin tədqiqatları təzək tüstüsünün güclü antiseptik xassəyə malik olduğunu göstərir.

Ocaqlardan savayı mətbəximizə təsir göstərmiş amillərdən biri də dəridən (motal, çılğı, eymə, tuluq və s.), gildən (küp, çölmək, nehrə və s.), ağacdan (nehrə), daşdan, metaldan hazırlanan qablardır. Məs., mətbəximizə rəngarənglik gətirən motal şoru, motal pendiri kimi özünəməxsus yeməklərin yaranması yalnız dəri qablarda mümkün idi. Mətbəxdə mis qablardan istifadə olunması uzunömürlülüyə səbəb olmaqdan əlavə, istilikdən səmərəli istifadə etmək metodlarını da yaratmışdır.

Milli mətbəx mədəniyyətinin səviyyəsini göstərən amillərdən biri də sudur, suyun təmizlənməsi və ondan istifadə etmək bacarığıdır. Azərbaycan xalqı ta qədimdən suyu iki yerə ayırıb: ağ su və qara su. Tərkibində mineral duzların, metal ionlarının az olduğu yumşaq su ağ sudur. İçkilərin və xörəklərin hazırlanmasında azərbaycanlılar ağ sudan istifadə edirlər. Su sahillərində söyüd ağaclarının əkilməsi də xalqımızın su ilə bağlı bilikləri ilə bağlıdır. Söyüd ağacının kökləri, budaqları, suya girən yarpaqları və s. sudakı mikrobları məhv etmək xüsusiyyətinə malikdir. Su daşına söyüd çubuğunun və ya gümüş əşyanın salınması da bununla bağlıdır. İçinə ərik çəyirdəkləri salınmaqla suyun durulması, gil qablarda suyun saxlanması da xalqın su haqqında bilgilərindəndir. Tarixdə ilk və təbii təmizlənməyə yaxın su təmizləyicisini də azərbaycanlılar yaratmışlar. Su daşı ən yaxşı su təmizləyicilərindən olub, bulağın təbiətdən «evə gətirilməsi» deməkdir. Su daşında su yalnız təmizlənmir, həm də sərinləşir.

Mətbəxə təsir edən amillərdən biri də millətin başqa xalqlarla təmasda olması, məskunlaşdığı tarixi-coğrafi mövqeyidir. Qədim ticarət, karvan və müharibə yollarının Azərbaycandan keçməsi də mətbəxə güclü təsir göstərmişdir.

Azərbaycanlıların ümumtürk dünyasına mənsubluğu eyniadlı mətbəx terminlərinin mövcudluğuna gətirsə də, Azərbaycan mətbəxi bütün türk mətbəxlərinin tacı hesab edilə bilər. Dad yaxınlığı baxımından Azərbaycan mətbəxi Anadolu və Səlcuq türklərinin mətbəxinə daha yaxındır. Ərəblərlə uzunmüddətli təmas mətbəximizə qəhvə, Azərbaycandan keçən İpək yolu isə çay gətirmişdir. Rus, slavyan mətbəxləri və onların vasitəsilə təhrif olunmuş Avropa mətbəxi ilə tanışlıq, XIX əsrin sonu - XX əsrin əvvəlində neft sənayesinin inkişafı ilə əlaqədar Avropa mətbəxi ilə az da olsa birbaşa təmas yalnız restoran mətbəxinə təsir göstərmiş, əhalini alüminium qazana və qaba öyrəşdirməklə onun sağlamlığına zərər gətirmişdir.

Azərbaycan mətbəxinə təsir göstərən amillərdən biri də xalqımızın qədim din və inancları olmuşdur. Zərdüştlük, Avesta fəlsəfəsi azərbaycanlıların milli adətlərində, düşüncə tərzlərində, psixologiyasında öz əksini tapmaqla yanaşı, mətbəxə də təsir göstərmişdir. Aşpazın ilk köməkçisi olan oda, ocağa münasibət də buradan gəlir. Ağ işığa, oda inamın təsiri altında formalaşmış süfrə adətlərimiz, xörəklərimiz bu gün də yaşayır. Azərbaycan ərazisində xristianlığın da uzun müddət mövcudluğu təkzibolunmazdır. Artıq mindörd yüz ilə yaxındır ki, azərbaycanlılar müsəlman mədəniyyətinin daşıyıcılarıdır. Əlbəttə, bir neçə dini mədəniyyətin içərisindən keçmiş xalqın mədəniyyətin də bu dinlərin təsiri danılmazdır. Qiymətli və əlvan metallardan (mis, gümüş) hazırlanmış qablardan istifadə edilməsi, donuz ətinin haram sayılması, şərabın yasaq edilməsi islam dini qanunları ilə bağlıdır. Orucluq, dini mərasim və bayramların keçirilməsi də mətbəxə güclü təsir göstərmişdir. Qeyd etmək lazımdır ki, mətbəximizdə mövcud olan dini tövsiyə və qadağalar xüsusi tədqiqat mənbəyidir. İslam dinində, Quranda mətbəxə münasibət, heyvanların kəsilməsi, bişirilməsi və s. qaydalar müasir qida elmi ilə çox vaxt elə səsləşir ki, Müqəddəs Kitabda yazılanların doğrudan da böyük elmi həqiqət olduğuna şübhə qalmır. Məsələn, islam dinində meyvənin qabığını soyub yemək məsləhət görülmür. Yaxın elmi tarixdə beri-beri xəstəliyinin müalicəsinin tapılması ilə əlaqədar vitaminlərin meyvənin qabığında olması və insan orqanizminin sağlamlığının bu vitaminlərsiz pozulması faktı tibbdə və qida elmində böyük hadisələrdəndirsə, VII əsrdə meyvənin qabığının soyulmasına qoyulmuş qadağa Müqəddəs Kitabla tanış olmayanlara çox təəccüblü görünə bilər.

Mətbəximizdə istifadə olunan əsas ərzaqlardan biri ətdir. Azərbaycanda qədimdən bəri davar və qaramal ətindən istifadə edilir. Mənbələr göstərir ki, qədimdə at əti yeyilib. Yaxın illərə qədər dəvə ətindən istifadə edilib. Ağsaqqallarımız indi də dəvə ətindən hazırlanmış qutabların ləzzətindən danışırlar. Mətbəximizdə ov heyvanlarının ətindən də istifadə edilir. Cavan heyvanların, erkəklərin, şişək (erkəklə tamasda olmamış qoyun) qoyunların, burulmuş, axtalanmış heyvanların əti daha dadlı hesab edilir. Qobustanda, Naxçıvanda və digər bölgələrdə tanınmış üzəri xətli bezoar keçi rəsmləri hələ neçə-neçə min illər əvvəl (mezolit dövründə) burada yaşayanların ətin kulinar məqsədəuyğun bölgüsünü bildiklərini göstərir. Bu, həm də Azərbaycanın kulinariya mədəniyyətinin ilk ocağı olmasını isbatlayır. Mətbəximizdə dağətəyi və dağlıq zonalarda, çayətrafı çəmənliklərdə bitən otlarla bəslənmiş ağ mərmər rəngli ətə malik heyvanların ətinə üstünlük verilir. Şoran torpaqlarında yalnız yemlə bəslənmiş heyvanların əti ən aşağı növlü hesab edilir. Təzə ətə dondurulmuş ətdən çox üstünlük verilir. Bu, yəqin ki, soyuq ölkələrdə yaşayan xalqlardan fərqli olaraq 25-30^{0}C temperaturda ətin təbii yolla dondurulmasının qeyri-mümkünlüyündən irəli gəlir. Ətin özündən başqa, quyruq yağı və içalatdan da istifadə edilir. Ətin uzun müddət saxlanılması üçün onu cızdaq edir, qovurub küplərə və ya qarına doldurur, üzərinə ərinmiş piy əlavə edirlər. Əti cırımlayıb qurudur, qaxac ət hazırlayırlar.

Azərbaycan mətbəxində ev və ov quşlarının ətindən də istifadə edilir. Ov quşları yalnız dimdikləri qar gördükdən sonra, qaz və ördək ayaqları sazaqdan qızaranda, toyuq, hindtoyuğu isə il boyu yeyilir. Ev quşlarını kökəltmək, bordaqlamaq metodundan da istifadə edilir. Bunun üçün quşu səbətə və yaxud tora salır, çox hərəkət etməsinə imkan vermir, yağlı dənlərlə, məsələn, qarğıdalı ilə yemləyib kökəldirlər. Quş piyi yüksək keyfiyyətli piylərdən hesab edilir.

Heyvan və quş ətlərini bütöv halda, doğranmış şəkildə ərzaqlarla bir yerdə və ya ayrıca bişirirlər.

Qiymələnmiş (xırdalanmış) və döyülmüş ətdən istifadə olunması lap qədimlərdən Azərbaycan mətbəxinə xas olan xüsusiyyətlərdəndir. Küftə, dolma, tavakabab və s. bu kimi xörəkləri buna misal göstərmək olar. Quşçuluq məhsullarından ən çox toyuq yumurtasından istifadə edilir. Qayğanaq, nümrü qayğanaq, çalxama, kükü, çığırtma və s. bu kimi xörəklər yumurtadan hazırlanır.

Xəzər dənizi, Kür, Araz və başqa çaylar, göllər, həmçinin Azərbaycana məxsus digər su hövzələri Azərbaycan mətbəxini çox qiymətli balıq məhsulları ilə təmin etdiyindən balıq mətbəximiz daha rəngarəngdir. Mətbəximizdə qızardılmış, soyutma, içi doldurulmuş, közdə bişirilmiş, bütöv və ya doğranmış, qiymələnmiş balıq ətindən bişirilən xörəklərimizdən əlavə, müxtəlif çeşidli – qara, qırmızı və yasdıq kürü də süfrəmizin gözəl nemətlərindəndir.

Azərbaycanın süd mətbəxi də çox zəngindir. Süd, ağız südü, bulama, körəməz, kətəməz, qatıq, pendir, duğ, qaymaq, çiyə, ayran, nehrə yağı, motal pendiri, motal şoru və başqa süd məhsulları, onların əsasında hazırlanmış dovğa, doğramac, ayranaşı, atlama, südlü sıyıq, südlü çəkmə, südlü plov və s. bu kimi xörəklər qədim zamanlardan mətbəximizi zənginləşdirmiş, ağartı məhsulları isə mətbəximizin əsas tərkib hissələrindən biri olmuşdur. Yüksək maldarlıq mədəniyyətinə malik olan bir xalq üçün bu, əlbəttə, təbii haldır.

Azərbaycan mətbəxində çörəyə xüsusi hörmət var. Müxtəlif üsullarla, müxtəlif formada, müxtəlif ocaqlarda bişirilən yuxa, lavaş, səngah, xamralı, təndir çörəyi və b. çörəklər süfrəmizin nemətidir. Əgər süfrəyə çörək qoyulubsa, azərbaycanlılar yeməyə başlayırlar, çünki belə hesab edilib ki, süfrəyə çörəkdən dadlı, qiymətli heç nə verilə bilməz.

Xəmir xörəkləri, xəmir məmulatları da mətbəximizdə xüsusi yer tutur. Qeyd edək ki, xəmir xörəkləri, xəmirlə ətin birgə bişirilməsi bütün türklərə xas olan ənənədir. Faruq Sümər «Oğuzlar» kitabında səlcuqların türk olmasını göstərmək üçün dəfələrlə onların tutmac yediklərini yazır. Xəngəl – xangəl (sulu xəngəl, yarpaq xəngəl), əriştə, gürzə (girs), düşbərə, xaşıl, horra və digər xəmir xörəkləri, adətən soyuq havada yeyilir. Havalar isindikcə mətbəximizdə ət xörəklərinə tələbat azalır, müxtəlif yabanı və mədəni bitkiərdən, tərəvəzlərdən, göyərtilərdən hazırlanan xörəklərin sayı artır. Cincilim, qazayağı, gicitkən, salmanca (unnuca), giriş, əvəlik, yemlik, çuğundur yarpaqları, ispanaq, kahı, yarpız, su tərəsi, dağkeşnişi və s. göyərtilərdən hazırlanan kətə, suyuq, dovğa, süfrə məzələri, əcəb-səndəl və s. isti havada daha çox yeyilən xörəklərdəndir.

Dənli bitkilərdən bişirilən sıyıq, plov, çilov, qovurğa, hədik və s. xörəklər süfrədə özünəməxsus yer tutur. Düyüdən bişirilmiş plovlar Azərbaycan mətbəxinin şah əsərləridir. Çəltikçiliyin vətənlərindən biri olan Azərbaycanda 200-ə qədər plov növü mövcuddur. Düyü Azərbaycanın bəzi bölgələrində çörək əvəzi olmuşdur.

Azərbaycan mətbəxində qənnadı məmulatı, şirniyyat və halvalar xüsusi yer tutur. Azərbaycanda ta qədim zamanlardan şəkər istehsalının mövcudluğu, kəndlilərin öz həyətlərində şəkər çuğundurundan və qamışından şəkər almaları, baldan istifadə etmələri müxtəlif şirniyyatların yaranmasına səbəb olan amillərdəndir. Paxlava, şəkərbura, rahətülhülqum, rical, sucuq, peşmək, peşvəng, tel halva, tər halva, yuxa halvası, quymaq, qatlama və s. Azərbaycan qənnadçılarının fəxridir. Şəkərin yerli istehsalı həm də mürəbbələrin və şəkərlə bişirilən digər məmulatların əmələ gəlməsinə səbəb olmuşdur. Artıq X əsrdə Azərbaycanda saf (rafinadlaşdırılmış) şəkər istehsal edilirdi. Nizami Gəncəvi XII əsrdə həm saf şəkər, həm də qamış və çuğundur şəkəri barədə məlumat verir. Zoğal, böyürtkən, heyva, gilas, ərik, əncil, qoz, balqabaq, qarpız və başqa meyvələrdən, həmçinin qızılgül ləçəklərindən hazırlanan mürəbbələr, gülqənd və s. çay süfrəsinə verilir.

Azərbaycan kulinariyasında turşular (sirkəyə qoyma), şorabalar (duza qoyma) və tutmalar da geniş yayılmışdır.

Pəhriz mətbəxi və müalicə mətbəxi kulinariya mədəniyyətində xüsusi yer tutur. Bir çox xörəklər – quymaq, umac, xaş, horra və s. pəhriz və müalicə məqsədləri ilə qədim zamanlardan mətbəximizdə istifadə edilir.

Mətbəxin əsas hissələrindən biri də mərasim və bayram yeməkləridir. Səməni dən hazırlanan yeməklər yalnız Novruz bayramında, qovut yalnız Xıdır Nəbi bayramında hazırlanır, uşaqların və 100 yaşını keçmiş qocaların dişləri çıxanda hədik, qovurğa bişirilir, kiçik çillə (qadınlar bayramı) bay-

ramında çillə qarpızı kəsilir.

Mətbəxin əsas hissələrindən biri də çoxçeşidli içkilərdir. Tut, zoğal və başqa bitkilərdən araq çəkilir və daha çox müalicə məqsədilə istifadə edilir. «Araq» sözünün «ağ içki» (ər, ar, ir – içki mənasında işlədilir; «kefir» sözündəki «ir» də içki deməkdir) – arınmış, təmizlənmiş, duru içki mənasında olduğunu fərz etmək olar. Distillə etmək yolu ilə tərkibində alkoqol olmayan bitki «araqları» da hazırlanır ki, bunlardan nanə arağı, yarpız, gülab və s. araqları, ağ içkiləri, cövhərləri göstərmək olar. Otların qarışığından alınan belə arağa «çal araq» deyilir. «Kitabi-Dədə Qorqud»da bu söz «sağraq» kimi, yəni sağılan, süzülən ağ təmiz içki kimi işlədilib.

Azərbaycan mətbəxində qədimdən «buzə» adlı içki də hazırlanıb ki, indi bu içki «pivə» adı ilə tanınır. Mənbələr bu içkinin tərkib hissəsinin Azərbaycandan ixrac edildiyi haqqında məlumat verir. Hətta rus dilindəki «buzit» sözü də bu içki ilə bağlıdır. Bütün türk mətbəxlərində olduğu kimi süd, ayran, qatıqdan hazırlanan atlama, süddən hazırlanan bulama kimi içkilər mətbəximizdə əsas yer tutur.

Müxtəlif tamlı, müxtəlif rəngli şərbətlərimiz meyvə şirəsi və şəkər, dəmləmələr və s. ilə hazırlanır. Şərbətlər daha çox plovlarla verilir, mərasim və dini bayramlarda, yas məclislərində və s. içilir.

Bayram süfrəsini bəzəyən içkilərimizdən biri də ovşaladır. Xüsusi qayda ilə hazırlanan sələb, əzgil suyu, qəndab və digər içkilər həm süfrəmizin bəzəyidir, həm də bir sıra xəstəliklərin müalicəsində istifadə edilir.

Azərbaycan süfrəsində çayın öz xüsusi yeri var. Süfrəmizi çaysız təsəvvür etmək qeyri-mümkündür. Çaya nisbətən qəhvə və kakao az içilir. Səhərlər süddən hazırlanmış bulama, qaynadılmış süd isti-isti süfrəyə verilir. Dəmləmələrimiz süfrəyə isti və sərin verilə bilər. Dəmləmələr müxtəlif otlardan, ağac və meyvələrin qabığı və tumundan, əsasən pəhriz və müalicə mətbəxində istifadə edilir. Yeri gəlmişkən qeyd edək ki, dünyanın ən qədim, 3700 il yaşı olan samovarı da Azərbaycanda tapılmışdır.

Azərbaycanın mədən suları («İstisu, «Sirab», «Badamlı» və s.)» süfrəyə həm sərinləşdirici içki, həm də pəhriz suyu və müalicəvi su kimi verilir.

Mətbəximizdə müxtəlif meyvə şirələri, qatılaşdırılmış şirələrdən (bəhməz, doşab) hazırlanan içkilər xüsusi yer tutur.

Sərinləşdirici, susuzluğu yatıran və yağlı xörəklərlə verilən, bal və ya şəkərin sirkə ilə qarışığından hazırlanan iskəncəbini də azərbaycanlılar çox sevir. Azərbaycanlıların xoşladıqları içkilərdən xoşab və paludəni göstərmək olar. Əlbətlə, dişləri sızıldadan bulaqların suyu da Allahın Azərbaycana bəxş etdiyi gözəl nemətlərdəndir.

Azərbaycanlıların gündəlik xörək çeşidinə daxil olan yeməklərin, qəlyanaltıların içərisində müxtəlif yaxmalar (yaxmaclar), dürməklər xüsusi qeyd olunmalıdır. Əgər yaxmaclarımız öz hazırlanma qaydalarına görə dünya mətbəxində yayılmış buterbrodlara, sendviç və kanapelərə bənzəyirsə, Azərbaycan dürməkləri bu tipli yeməklər içərisində xüsusi yer tutur və bunlardan daha yüksək gigiyenik və kulinar xüsusiyyətlərə malikdirlər. Bükmə və cibli Azərbaycan dürməkləri isti və ya otaq temperaturunda verilə bilər. İsti və soyuq qəlyanaltıların içərisində xörəklə birgə yeyilən göyərtilərimizdən başqa, müxtəlif emallardan keçən ərzaq qarışıqlarından hazırlanmış məzələr də süfrəmizə verilir. Süfrəyə axırda verilən çərəzlər və şirin xörəklər də milli mətbəximizdə özünəməxsus yer tutur.

Mətbəxin inkişaf səviyyəsinin rəngarəngliyini müəyyən edən əsas süfrə elementlərindən biri xörək əlavələridir.

XVII əsr məşhur türk səyyahı Övliyə Çələbinin Azərbaycan mətbəxi haqqında yazdıqlarının içərisində be1ə bir qeydə rast gəlirik: «Burada hələ 12 növ xörək əlavəsi və xörək şirələri vardir». Xörək əlavəsi dedikdə süfrəyə xörəkdən ayrı hazırlanıb verilən mətbəx məhsulu başa düşülməlidir. Mətbəximizdə müxtəlif bəhməzlər, meyvə rubları, sarımsaqlı qatıq, sirkə-sarımsaq, bulama, palçıq turşu və lavaşanadan hazırlanan müxtəlif xörək əlavələri var.

Azərbaycan mətbəxində xörək çeşidi fəsilləri, yeri, iqlimi, yaşayış tərzini nəzərə almaqla da tutulur. Köç edən zaman atüstü yeməklər, aran yeməkləri, pəhriz yeməyi, təzəcə ana olmus qadın yeməyi (quymaq), təzə gəlin və təzə bəyin yeməyi, gənclərin, uşaqların yeməyi və s. bu kimi mətbəx məhsulları xalqımızın qədim sərvətlərindəndir.

Mətbəx mədəniyyətimiz xörək növləri ilə çox zəngindir. XV-XVI əsr ingilis səyyahı Antoni Cenkinsonun yazdığına görə, Şamaxıda Şirvan «kralı»

bəylərbəyi Abdulla xan Ustaclının verdiyi qonaqlıqda «əvvəlcə 140 növ xörək gətirdilər. Sonra süfrə yığışdırıldı, təzə süfrə salındı və yenidən 150 növ xörək və çərəz gətirdilər».

Mətbəximizdəki bu çox çeşidliliyi, əlbəttə, müxtəlif mütəxəssislər yaratmışdılar. Mətbəxin böyüklüyü, zənginliyi aşpazlar arasında müəyyən əmək bölgüsü yaratmaya bilməzdi. Övliyə Çələbi xatırladır ki, «burada 12 imamın adı ilə bağlı 12 mətbəx sexi var idi ki, onlarda minlərlə adam işləyirdi». Çörəkçi, şatır, yuxasalan, aşçı, pitibişirən, kababçı, çayçı, şərbətdar, halvaçı, qənnadçı, şirniyyatçı və s. bu kimi mətbəxdaxili ixtisaslaşma müxtəlif qrup yeməkələrin daha da inkişaf etməsinə gətirib çıxarır, eyniadlı xörəklərin ayrı-ayrı növlərinin daha da artmasına səbəb olurdu. Məs., mətbəximizdə 200-ə qədər plov, 30-dan çox dolma, 20-dən çox lüləkabab və s. növü vardır. Bunlar böyük bir xalqın dünyaya bəxş etdiyi nemətlərdir. Dünyada ən uzunömürlü xalqlardan biri olan azərbaycanlılar yüksək mətbəx mədəniyyətinə, qida haqqında dərin biliklərə yiyələnmişlər, çünki təbii qidanı düzgün qurmadan uzun ömür sürmək çətindir.

Azərbaycan süfrə mədəniyyəti xörəklərin əl ilə yeyilməsini tələb edir. Yuxa, lavaş, səngah xörəklərin duru hissəsini yemək üçün qaşıq kimi bükülür və işgənə ilə ağıza aparılır, xörəyin bərk hissələri də çörəklə sıyrilaraq yeyilir. Bundan başqa, çörək xörəyin maye hissəsinə doğranıb yeyilir. Ə1 ilə xörək yeməyin bir sıra üstünlükləri vardır: 1) ən güclü sinir düyünləri, sinir hüceyrələri barmaqların ucunda yerləşdiyindən barmaqların hissiyyatı güclü olur, xörəyin dadını, qatılığını, istilik dərəcəsini avvəlcə barmaqlar duyur; 2) xörək qaşıq və çəngəllə ağıza aparıldıqda ağız boşluğunu, dodaqları yandıra və ya soyuqdan göynədə bilər. Qida ağıza bədən temperaturunda olan barmaqlarla aparılır ki, bu da dadın tam duyulmasına səbəb olur; 3) qida metal çəngəl, bıçaqla qəbul edildikdə, metal ionları qidada olan yod, ftor və s. birləşmələri məhv edir, bu da dişlərin tez xarab olmasına səbəb olur; 4) əl ilə yemək yüksək gigiyena, əllərin mütləq təmiz yuyulmasını tələb etməklə, qidanın qəbulunu psixoloji cəhətdən daha təmtəraqlı, daha ülvi və hörmətli bir prosesə çevirir. Adətə görə, süfrəyə oturmazdan əvvəl əl, üz, qol təmiz yuyulduqdan sonra barmaqlar gülaba va başqa təmizləyici mayelərə batırılır. Bunun üçün də süfrəyə xüsusi qablar qoyulur.

Yeməkdən sonra əllər və ağız mütləq təmiz su ilə yaxalanır. Dişlərin arası diş çöpləri ilə təmizlənir. Diş çöpləri qədimdən kəmər əzvayından, nar və digər qamaşdırıcı, acıtəhər oduncagı olan agaclardan, dişotu adlanan bitkinin çubuqlarından hazırlanırdı.

Dişləri, diş ətini sağlam saxlamaq üçün isə dişlər misfakla firçalanırdı. Yeməkdən 2-3 saat sonra meyvə yeyilərdi.

Ümumiyyətlə, hər bir konkret mətbəx mədəniyyətinin gücü onun qonşu xalqların mətbəxinə göstərdiyi təsirlə ölçülür. Əgər Çin mətbəxi qonşu Birma, Tailand, Malaziya va s. şərq mətbəxlərinin formalaşmasına güclü təsir göstərmişdirsə, Azərbaycan mətbəxi qonşu xalqların mətbəxlərinin təməl daşı olmusdur. Beləliklə, öz təsir gücünə görə Azərbaycan mətbəxi dünyada Çin, Fransa mətbəxləri ilə bir sırada durur.

Azərbaycanın yüksək mətbəx mədəniyyətini onun dadlı xörəklərindən, ətirli içkilərindən və gözəl meyvələrindən daha üstün olan başqa bir amil səciyyələndirir: azərbaycanlının mətbəx fəlsəfəsinin əsasında qonaq durur.

Bax: Azərbaycan kulinariyası ensiklopediyası. Bakı, «Şərq-Qərb», 2007, səh. 14-18.

Azərbaycanın mətbəxi və Dərbənd. Azərbaycan mətbəxi ərazi baxımından Azərbaycan Respublikası, Cənubi Azərbaycan, keçmiş İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalı, Borçalı başda olmaqla Gürcüstanda, Dərbənd başda olmaqla Dağıstanda azərbaycanlıların qədimdən bu günə kimi yaşadıqları torpaqları əhatə edən geniş arealda yayılmışdır.

Dərbənd azərbaycanlılarının mətbəxi zənginliyi və müxtəlifliyi ilə fərqlənir. Onların qidalanma mədəniyyəti Dağıstan xalqlarının mətbəxinə böyük təsir göstərmişdir. Un məmulatları, şorbalar, xəngəllər, müxtəlif növ plovlar birinci yerlərdən birini tutur. Bozbaş və piti, dolma, badımcan dolması çox məşhur yeməklərdəndir. Azərbaycanlılar digər yeməklər də hazırlayırlar: düşbərə və gürzə (girs), çudu, qovurma, ət qutabı, müxtəlif növ plovlar, bozbaş, piti, kələm dolması, yarpaq dolması, basdırma kabab, lülə kabab, kaşi. Bir neçə növ halva, paxlava, mürəbbə, doşab, içkilər (şərbət) və s. Dərbənd süfrəsində layiqli yer tutur. Dərbəndlilərin qidasında bağ və bağça bitkilərinə xüsusilə yer verilir.

Bax: 1. Azərbaycan Milli Ensiklopediyası. 25

cilddə. «Azərbaycan» cildi. «Azərbaycan Milli Ensiklopediyası» Elmi mərkəzi, Bakı, 2007.

2. Народы Дагестана /- М.: Наука, 2002. стр. 517.

Dərbənd mətbəxinin xüsusiyyətləri. Dərbənd Azərbaycanın qədim şəhəri olduğundan orada yaşayan azərbaycanlıların xörəkləri bütün Azərbaycan xörəkləri kimidir. Lakin bəzi xörəklərin hazırlanmasında müəyyən fərqlər vardır.

Plovlar (aşlar). Plov və ya aş əsasən xırda dəmyə düyüdən hazırlanır. Bu da onunla izah olunur ki, uzun düyü dəm aldıqıda quru olur. Xırda düyü isə yağlı suda və yaxud süddə qaynadıldıqda yumşaq, yağlı və südlü olur, çünki yağ və süd düyüyə hopur və plov (aş) hazır olur.

Plovun əlavələri (qaralar): a) badımcanlı qara: ət bişir və qızardılmış soğanla qarışdırılıdıqdan sonra pörtülmüş badımcanın üstünə, ya da içinə qoyulur və plovla yeyilir; b) səbzi qara: ət soğan ilə bişirilir, səbzi ilə qarışdırılır. Səbzi çoxlu göyərtidən ibarət olur: keşniş, kəvər, göy soğan, şüyüd, cəfəri, şomu, turşəng, göy sarımsaq, nanə və s. Səbzi ət ilə qarışdırılaraq plova qatılır və yaxud plovun üstünə qoyulur.

Dolma. Xırda dolma – qoyun və ya dana ətindən və yaxud ikisinin qarışığından hazırlanır. Ət soğan ilə birlikdə çəkilir, paxla, keşniş, şüyüd və qiyməyə az miqdarda qoyun quyruğu qarışdırılır, nazik üzüm yarpaqlarına bükülür, çox az suda və həzin odda bişirilir. Hazır dolma qatıq və ya sarımsaq-qatıqla yeyilir.

İri dolma. Hazır qiyməyə xırda düyü, mərci, xırda noxud qarışdırılır və iri üzüm yarpaqlarına bükülür. Sonra yağlı suda zəif odda bişirilir. Bəzi halda artıq bişmiş dolmanı tavada yağda qızartmaq da olar. Bu dolmaya yalançı və ya kor dolma da deyilir, çünki o dolmada ət çox cüzi olur, ya da heç olmur. Ona görə də insanlar arasında, yalançı dolma da adlandırılır.

Kələm dolması. Kələm pörtlədilir, içinə adi yarpaq dolmasına hazırlanan qiymə qoyulur və həzin odda bişirilir.

Şirin kələm dolması. Adi kələm dolması kimi hazırlanır, amma qazanın içinə və yaxud qıraqlarına azacıq doşab, yaxud qənd tozu tökülür.

Xəngəl. Dərbəndlilərin xüsusən də payız-qış fəsillərində ən çox sevdikləri xörəklərdəndir.

Adi xəngəl. Ət suda qaynadılıb bişəndən sonra, çıxarılır, həmin suda, yəni artıq bulyonda, xırda kubik, ya da romb şəklində kəsilmiş xəmir «yarpaqlar» bulyonda bişirilir. Sulu və yaxud susuz xəngəl ətlə yeyilir. Ətsiz xəngəl sarımsaqlı qatıqla yeyilir.

Barmaq xəngəli (ləzgi xəngəli). Qaynadılmış ətin suyuna barmaq ölçüdə xəmir atılır və adi xəngələ nə əlavə olunursa, bu xəngələ də qatmaq olar.

Sulu xörəklər. Səbzəli bozbaş. Ət qaynadılıb tam bişəndən sonra, qazana cürbəcür göyərti - keşniş, şüyüd, ispanaq, turşəng, cəfəri və s. əlavə edilərək bişirilir.

Südlü aş. Xırda dəmyə düyü suda qaynadılır**.** Sonra düyünün üstünə xırda duzlu, pörtlədilmiş tıxsıs balıq qoyulur və yeyilir. Balıqdan başqa xırda ərik də qatılır.

Göy çudusu. Xəmir lavaş kimi yayılır, üstünə cürbəcür göyərti qoyularaq bükülür, qutab kimi sacda qızardılır və qatıq ilə yeyilir.

Şəkərtıxma. Südlə və ya qatıqla xəmir yoğrulur, kündələr çox nazik yayılır, bir neçə qat yayılmış xəmirə çəkilmiş qoz, fındıq və xüsusən də badam çərəzi şəkər tozu ilə qarışdırılaraq qoyulur, qıraqlarını bükəndən sonra sobada bişirilir. Şəkərtıxma şəkərburadan xeyli böyük olmalıdır.

İçkilər. Əsasən bir neçə cür dəmlənən qara çaydan, cürbəcür tər, quru meyvədən kompot, ayran, meyvə şirəsindən, şərbətdən hazırlanır.

Yerli konyaklardan «Dərbənd», «Dağıstan» və kəmşirin süfrə şərabları dünyada məşhurdur. Dərbəndlilər qonaqlara xörəklə bərabər içki də təklif edirlər. Bu, bir növ ənənədir.

GEYİMLƏR VƏ BƏZƏKLƏR

Azərbaycan xalq geyimləri və Dərbənd şəhəri. Ənənəvi xalq geyimləri və bəzəklər maddi mədəniyyətin digər sahələri kimi, hər bir xalqın həyat və məişətinin ayrı-ayrılıqda araşdırılması üçün zəngin etnoqrafik materiallar verir. Mütəxəssislər geyim mədəniyyətinin başlanğıcını e.ə. 40-25-ci minilliklərə aid edirlər. Tarixi inkişafın gedişində sosial-iqtisadi həyat şəraitinin dəyişməsi geyim növlərində əsaslı dəyişikliklərə səbəb olmuş, yeni-yeni geyim tipləri meydana çıxmışdır. I minilliklərdə Azərbaycan əhalisi, o cümlədən Dərbənd şəhər sakinləri yun və kətandan toxunma köynək və şalvar geymiş, dəri bürüncəklərdən istifadə etmiş, keçə və yun papaqlar gəzdirmiş, ayaqlarına isə ucları yuxarı qatlanmış dəri ayaqqabılar (əsasən çarıqlar) geymişlər. Erkən orta əsrlərin Azərbaycanın kişi və qadın geyimləri haqqında ətraflı məlumatları «Kitabi Dədə Qorqud» dastanından almaq olar. VII-IX əsrlərdə Azərbaycan şəhərlərinin ənənəvi əmtəə mallarından bəhs edən ərəb müəllifləri yerli və dünya bazarlarına Bərdədən ipək, yaxşı pərdələr, müxtəlif parçalardan tikilmiş paltarlar, Dərbənddən isə kətan parçalar, onların boyanmasında istifadə edilən «qırmızı» deyilən qiymətli boyaq maddəsi və marena ixrac edildiyini qeyd edirlər.

XII-XIII əsrlərdə Azərbaycanın ayrı-ayrı sənətkarlıq - ticarət mərkəzləri bu və ya digər parça və geyim növünün hazırlanması üzrə bir növ ixtisaslaşmışdı. Belə ki, Gəncədə zərlə işlənmiş atlas və ziba kimi ipək parçalar, Beyləqanda «kəzzkaşidə» adlanan ipək parça, Ərdəbildə «camə» adlandırılan qara rəngli zərif parça, Salmas və Xoyda ziba, nazik kətan paltar, Bərdədə ipək parça, Təbrizdə atlasdan kişi üst geyimləri, Gəncədə yun paltar hazırlanırdı. Hələ X əsr ərəb müəllifi əl-İstəxri «Kitab məsalik əl-Məmalik» (Məmləkət yolları kitabı) əsərində əl-Babdan (Dərbənddən) kətan parçalar ixrac edildiyini yazırdı.

Azərbaycanın milli qadın geyimləri «alt paltarı» və «üst paltarı» olmaqla iki variantda mövcud olmuşdur. XIX-XX yüzilliyin əvvəllərində istifadə olunan Azərbaycan qadın baş geyimləri öz mühafizəkarlığı ilə digər geyim tiplərindən daha çox seçilirdi. Təsək (çəpçik) tipli qadın baş geyimləri XIX-XX yüzilliyin əvvəllərində Azərbaycanın Dərbənd, Gəncəbasar, Şirvan, Qarabağ, Şəki-Zaqatala bölgələri üçün daha xarakterik olmuşdur. Təsəyin arxa hissəsi əlvan naxışlarla bəzədilir, boğazın altından keçən ucu qozalı gümüş zəncir əks tərəfdə gümüş pul-düyməyə bağlanırdı. Zəncirin də üzərinə gümüş pullar düzmək dəb idi. «Düyməçə» tipli qadın baş geyimləri Dağıstan və İranda da geniş yayılmışdı.

Geymə (qoyma) tipli qadın baş geyimlərinin digər bir qismini də mürəkkəb quruluşlu «dingə» və «çalmalar» təşkil edirdi. Dərbənd azərbaycanlıları arasında «burma» adlanan çalma, bütün etnoqrafik bölgələrimiz üçün xarakterik olan qadın baş geyimi olmuşdur. Gənc qadınlar çalmanın üstündən «herati», «hələbi», «qonşuçatladan», «gilvəngi», «bağdadi» və s. kimi əlvan rəngli kəlağayı bağlayırdılar. Yaşlı qadınlar isə tünd rəngli çalmaya üstünlük verirdilər.

XIX-XX əsrin əvvəllərində Azərbaycan qadınlarının ənənəvi ayaq geyimləri corab, badış, çarıq, başmaq, şətəl, çust, məst, nəleyin, lapçın, dabanlı uzunboğaz və yarımboğaz çəkmələr və s.-dən ibarət olmuşdur.

Qış aylarında ayaq geyimləri içərisində yundan toxunma corablar əsas yer tuturdu. Bəzəkli corablarda hörmə işi rəngli iplər vasitəsilə aparılırdı. Azərbaycanın Dərbənd, Qərb, Gəncəbasar, Şəki-Zaqatala, Quba-Xaçmaz, Lənkəran, Naxçıvan və b. bölgələrində corab toxuculuğu xarakterik olmuşdur.

Dərbənd, Şirvan, Şəki-Zaqatala, Quba-Xaçmaz bölgələrində azərbaycanlı, tat və ləzgi qadınları ev şəraitində şətəl adlanan gödəkboğaz, hörmə ayaqqabı geyirdilər.

XIX yüzillikdə daha xarakterik qadın ayaq geyimi növü başmaq olmuşdur. Arxası açıq, hündür dabanlı, pəncəsinin üstü müxtəlif rəngli müşkü və tumacdan, altlığı isə aşılanmış göndən hazırlananan qadın başmaqları «zənənə», «miyanə» və «quş barmağı» olmaqla üç ölçüdə tikilir, sifarişdən asılı olaraq zövqlə bəzədilirdi.

Bax: Azərbaycan etnoqrafiyası. Üç cilddə. II cild. Bakı, «Şərq-Qərb», 2007, səh. 83-86, 93, 107-108, 113-114.

AİLƏ VƏ AİLƏ MƏİŞƏTİ

Azərbəycanda ailə məişəti və Dərbənd şəhəri. Ailə cəmiyyət ilə qırılmaz tellərlə bağlıdır. Cəmiyyətin özəyini təşkil edən ailələr nigah münasibətləri əsasında qurulur. İnsan həyatının çox hissəsi ailədə keçir. Ailəni səciyyələndirən əsas xüsusiyyətlər nigah, qan qohumluğu, məişət birliyi və ailə üzvləri arasındakı münasibətlər sistemindən ibarətdir.

XIX əsrin ikinci yarısı - XX əsrin əvvəllərində Şimali Azərbaycan kəndinin məişətini tədqiq etmiş müəlliflər Qazax, İrəvan, Naxçıvan, Gəncə, Qarabağ, Şəki, Şirvan, Muğan, Quba, Bakı, Lənkəran bölgələrində, həmçinin Borçalı və Dərbənd azərbaycanlıları içərisində böyük ailələrin mövcud olması haqqında məlumat verir və qeyd edirdilər ki, ailənin başçısı vəfat etdikdən sonra da varidat ailə üzvlərinin ümumi istifadəsində qalırdı. Ailə əmlakının bölüşdürülməsi nadir hallarda baş verirdi.

Böyük ailələr tarixi və etnoqrafik ədəbiyyatda ailə icması, yaxud patriarxal ailə, bölünməmiş, birləşmiş və ya mürəkkəb ailə və s. adlarla məlumdur. Ailə icması üç, dörd və bəzən beş nəslin nümayəndələrindən ibarət olurdu. Bu icmaya onun ağsaqqalı başçılıq edirdi. Ailə icmasının üzvlərinin torpaqdan, əmək alətlərindən, ev heyvanlarından, digər mülkiyyət və əmlakdan birlikdə istifadə etməsi ailə icmasının təsərrüfat və ictimai mahiyyətini müəyyənləşdirməklə onun təbii əsasını təşkil edirdi. XIX əsrin sonu - XX əsrin əvvələrində böyük ailələr qalıq kimi mövcud olsalar da, onlarda klassik ailə icmalarının qayda-qanunları, ənənələri saxlanılmışdı.

Kiçik ailə. Orta əsrlərdə bütün Azərbaycanda olduğu kimi, Dərbənd şəhərində də XIX-XX əsrlərdə də ailənin əsas forması kiçik ailə idi. Böyük ailə ilə kiçik ailə arasındakı fərq yalnız ailə üzvlərinin sayında olmamışdır. Onlar arasındakı kəmiyyət fərqi ilə yanaşı, iki keyfiyyət fərqi olmuşdur. Birincisi, böyük ailənin varidatı bütün ailəyə məxsus olduğu halda, kiçik ailədə mülkiyyətin sahibi yalnız onun başçısı olan kişi hesab edilirdi. İkinci fərq nəsillərin vəziyyəti ilə bağlı idi. Kiçik ailələr üçün xarakterik cəhət onun yalnız şaquli istiqamətdə iki və üç nəsildən ibarət olmasıdır. Əsrlərdən keçib gələn milli ənənəyə görə, atanın övlada üç borcu vardır: tərbiyə, təhsil və evləndirmək. Bu üç borcu atanın oğlanları da öz övladları qarşısında yerinə yetirməli idilər. Dastanlarda bu üç borcun yerinə yetirilməsi Allahın hökmü kimi təbliğ və tərənnüm edilir.

Qohum (Qumalət, qəbilə). Məlumdur ki, Dərbənd şəhəri sakinlərinin həyat tərzində erkən ictimai münasibətlər uzun müddət qorunub saxlanmışdır. Bu ictimai münasibətlər qrup birləşmələrində: «qohum» və ya «qumalət, qəbilə» formasında özünü büruzə verirdi.

«XIX-XX əsrin əvvəlində Dağıstanda silki-torpaq quruluşu haqqında qeydlərdə» Dərbəndə aid deyilirdi ki: «… qohum (qumalət) ailə münasibətlərindən sonra birinci ictimai pillə idi», ona görə də əsil şəhər sakinlərini «qohum-qumalətə» bölünürdülər». Qohum (qumaləti) – ata tərəfdən qohumlar təşkil edirdi.

Buraya əsasən qan qohumları daxil idilər və onlar arasında heç bir əmlak münasibətləri yox idi. Buna baxmayaraq, qohumluqdaxili həmrəylik və qohumluq əlaqələri qorunub saxlanılırdı və bu münasibətlər həm ideoloji birlikdə, həm də müxtəlif qarşılıqlı əlaqələrdə özünü göstərirdi. Şəhərin çoxəsrlik tarixi və tarixi boyu qohumlar böyük, iqtisadi cəhətdən güclü və azsaylı, daha zəif təbəqəyə bölünürdü. Ona görə də varlı təbəqənin sözü və mövqeyi şəhərdə daha önəmli idi. Bu böyük və mötəbər qohumlara (qumalətə) yaxın olan adamlar onun hər bir üzvünə böyük bir dayaq idi.

Qohumlar adətən nəsildə öz mənşəyinə və fəaliyyətinə görə daha tanınmış adamın adını götürürdülər: «kəlbabılar» (Kərbəlayı Abı adından), «Hacımövsümlər» (Hacı Mövsüm adından), «Əmirhəmzələr» (Əmir-Həmzə adından), «Seyidhüseynlər» (Seyid Hüseyn adından) və s. Lakin XIX əsrin rus tədqiqatçısı M.M.Kovalevski yazırdı: «…nəsillərin hamısı heç də qan qohumları deyillər, onların çoxu adlarını yaşadığı mühitə görə və ya öz sənətinə uyğun ad seçirlər». Ona görə də şəhərdə belə «qohumlar» da mövcuddur: «hamamçılar», «sınıqçılar»,

«çarıqçılar», «çitkərlər», «nalbəndlər», «sirkəçilər», «ipəkçilər», «küräçilər», «keçəbasanlar», «duzdaqçılar», «suvaqçılar», «halvaçılar», «gəncəlilər», «qubalılar», «şirvanlılar» və s.

Bu gün bu və ya digər nəslin adını daşıyan şəhər sakinləri heç bilmirlər ki, o vaxtlar onların ulu babaları niyə bu adı götürmüşlər. Elə qohumlar var idi ki, onların nə adları, nə işi, nədə doğulduğu yer ilə heç bir əlaqəsi yox idi. Onlar daha çox öz davranışlarına görə, özlərini aparmalarına görə adlandırılırdılar. Məsələn: «abdallar» (pintilər), «möminlər» (dinə bağlı olanlar), «ciqaylər» (davakarlar), «nizamlar» (nizam-intizama riayət edənlər), «siçanlar» (hər şeyi evə daşıyanlar), «takkalar» (başı boşlar), «dəli-seyidlər» (çılğın seyidlər), «donuz dabanlar» (ağsaqlar), «ac bəylər» (kasıb bəylər), «kosalar» (keçəllər), «itlər» (qəddar) və s. Çox vaxt qohumlar heç bilmirdilər ki, ada görə hansı ağsaqqala minnətdar ola bilərlər.

Qohumlar arasında böyüklərə və ağsaqqala hörmətlə yanaşılırdı. Çünki onlar ədət-ənənələri qoruyub saxlayırdılar və qohumlar arasında olan münaqişələri həll edirdilər.

Köhnə Dərbənd qəbiristanlıqlarında indiyədək böyük qohum qəbirlərinə rast qəlmək olar və dərbəndlilər burada ulu babalarının adlarını görə bilərlər.

Şəhər sakinləri öz keçmişlərinə hörmətlə yanaşırlar. İndi, köhnə şəhər sakinləri bir-birinə qohum olsalar da, keçmiş qohumluq əlaqələrində öz rollarını elə də yerinə yetirmirlər.

Nigah. Ailənin nəsilartırma və uşaqların tərbiyəsi kimi funksiyalarını yerinə yetirməsi məsələlərinin şərhi nigah, toy və uşaqların tərbiyəsi bölmələrində açıqlanır. Tarixi və hüquqi kateqoriya olan nigah kişi ilə qadının intim münasibətlərini rəsmiləşdirən aktdır. İnsan cəmiyyətinin inkişaf tarixində müxtəlif nigah formaları mövcud olmuşdur: qrup nigahları, qoşa nigahlar, punalua və s. İbtidai nigah formaları, ehtimal ki, Azərbaycan xalqının da çox uzaq keçmişinə aiddir. Ola bilsin ki, Azərbaycan Albaniyasında da IV əsrədək müxtəlif nigah formaları olmuşdur. Orta əsrlərdə təkarvadlılıq Azərbaycanda əsas nigah forması olmuşdur.

Həmin dövrdə Azərbaycanda, həmçinin Dərbənd şəhərində poliqamiyanın qalıqlarının saxlanılmasının səbəbini çox vaxt islam dini ilə bağlayırlar. İslam ailə hüququ müsəlmana rəsmi surətdə eyni zamanda 4 arvad saxlamağa icazə verir. Lakin poliqam nigahı, çoxarvadlılığı müsəlman xalqları arasında islam təsbit etməmişdir. İslam dini ailənin möhkəmliyini qorumaq məqsədilə kişiləri qadınlara qarşı ədalətli olmağa çağıraraq çətin şərtlər qoymaqla poliqamiyanı məhdudlaşdırmağa cəhd göstərmişdir.

Şimali Azərbaycanda və Dağıstanda poliqamiya əsasən ikiarvadlılıq şəklində yayılmışdı.

Nigah formalarından bəhs edərkən «siğə» adlanan müvəqqəti nigaha toxunmamaq olmaz. Siğə islam dininin şiə təriqətinə mənsub olan ruhanilər və tacirlər üçün səciyyəvi olmuş müvəqqəti nigah formasıdır. Nigah adətləri sırasında qohumla evlənməyə münasibət əsas yer tutur. Qohumla evlənmə adəti qohumla evlənməyə yalnız icazə verir, onu məcburi saymır. Qohumla evlənmə adətlərindən ən çox əmioğlu, dayıoğlu, xalaoğlu, bibioğlu ilə əmiqızının, dayıqızının, bibiqızının, xalaqızının evlənməsini nəzərdə tutan nigahlar yayılmışdı. Keçmişdə valideynlər çox vaxt gəncləri yaxın qohumlarla evləndirməyə çalışırdılar. O zaman qız üçün «başlıq» və ya «süd pulu» vermək adəti geniş yayılmışdı. Bununla əlaqədar yoxsul ailənin oğlanları hər ailədən qız istəməyə cürət etmirdilər. Varlı ailələr isə bir qayda olaraq sosial-iqtisadı vəziyyət cəhətdən birbirinə münasib ailələrə qız verib, qız alırdılar. Lakin azad məhəbbət və qarşılıqlı sevgi ruhunda tərbiyə olunmuş qızlar çox zaman yaxın qohumla nigah adətinə qarşı çıxır, ata-analarına etirazlarını bildirir və yaxın qohumlarına məcburi şəkildə nişanlananda, ona ərə getməyə könülsüz razı olurdular. Orta əsrlərdə Azərbaycanda ənənəyə görə «nigah yaşı normaları» oğlanlar üçün 18-20, qızlar üçün 16-18 yaş əsas götürülürdü.

Qızların zorla qaçırılması halları tarixdən məlumdur. Xalq arasında qızların zorla qaçırılması işinə həmişə mənfi münasibət bəslənmişdir.

DƏRBƏND AZƏRBAYCANLILARININ ADƏT-ƏNƏNƏLƏRİ VƏ TOY MƏRASİMLƏRİ

«Sözgəzdi» mərasimi. Dərbənd azərbaycanlılarının «Sözgəzdi» mərasimi belə keçirdi. Adətən oğlan öz valideynlərinin seçdiyi qızı almağa, qız da valideynlərinin təklif etdiyi oğlana ərə getməyə razılıq verirdi. Oğlanla qız toy gününədək bir-biri ilə tanış olmurdular. Oğlanın anası qohumları ilə bərabər qıza elçi gedərdi. İki həftədən sonra, cümə axşamı, qızın qohumları oğlanın qohumlarını cavab almaq üçün dəvət edirdilər. Adətən elçiliyi qadınlar edirdilər.

«Toy müqaviləsinin» bağlanması. Elçilikdən bir-iki gün sonra bəyin qohumları – atası, dayısı toy gününü, toy xərclərini, böyük və kiçik nişan mərasimlərini razılaşdırmaq üçün qız evinə gedirdilər (toy xərclərini oğlan evi çəkirdi).

O dövrdə toyun adi xərcləri belə idi: müəyyən məbləğdə pul, 2 pud düyü, 15 kq ət, 10 kq şabalıd, 10 kq soğan, yağ və s. Qız evinin tələbləri sözsüz yerinə yetirilirdi. «Müqavilə» bağlanan gün elçiləri aşa və şirniyyata qonaq edirdilər.

Kiçik nişan mərasimi. «Müqavilə» bağlandıqdan 3 gün sonra kiçik nişan olurdu. Nişan günü oğlan evi qıza nişan üzüyü, bir baş yaylığı və 2 kq şirniyyat aparırdı. Baş yaylığını qızın başına örtüb üzüyü barmağına keçirtdikdən sonra, qonaqları şirniyyat qoyulmuş süfrəyə dəvət edirdilər. Bundan sonra həftənin cümə axşamı və bazar günü bəyin qohumları 1 pud düyüdən aş bişirir, qızın evinə aparır və orada birlikdə yeyirdilər. Bundan əlavə, bazardan ilk nubar meyvələr alaraq qız evinə göndərirdilər.

Novruz bayramı. Həmin gün oğlanın qohumları gəlin üçün alınmış hədiyyələrlə (paltarlıq, şirniyyat, səməni, qoz, kişmiş, alma, armud, noxud, düyü, ət, təzə balıq) qız evinə gedirdilər.

Ramazan bayramı. Bu bayram günündə bəyin qohumları gəlin üçün evdə hazırlanmış şirniyyatlar və aş göndərirdilər.

Qurban bayramı. Bu bayram günündə qız evinə buynuzuna qırmızı lent, boynuna paltarlıq parça bağlanmış, alnına xına qoyulmuş qoç aparırdılar.

Böyük nişan mərasimi. Kiçik nişandan bir həftə sonra böyük nişan mərasimi keçirilirdi. Böyük nişana 200 nəfərə qədər qonaq dəvət olunurdu və musiqiçilər qonaqları əyləndirirdi. Bəyin qohumları gəlin üçün 5 dəst paltar, üzük, saat, sırğa, sinəbənd və ya boyunbağı, 1 pud qənd, 8 kq müxtəlif şirniyyat növləri, 19 qutu çay və toy xərci aparırdılar. Həmin gün oğlanın bacısı qız evinə gəlin üçün qırmızı lent ilə bağlanmış güzgü aparırdı. Gəlinin qohumları ona paltarlıq parça verirdilər. Gəlinin bacısı oğlan evinin xonçalarına qayçı qoyurdu və bunun əvəzində ona 100 manatadək xələt verirdilər. Bu mərasimdə iştirak edənlərə 1 stəkan şirin çay və 2 ədəd şirniyyat verirdilər. Bununla da mərasim başa çatırdı.

Gəlin hamamı. Həmin gün gəlini üzündə duvaq «Qız hamamına» yengə, rəfiqələri, qohumları müşayiət edirdilər. Yolun hər iki tərəfində - evdən hamama qədər əllərində qırmızı parçalar olan qohumlar dururdular. Gəlin və onu müşayiət edən şəxslər əli qırmızı parçalı qohumların arasından keçərək hamama daxil olurdular. Gəlinin üzünü heç kim görməməli idi. Hamamda gəlini ayrı oturdurdular və iki etibarlı qız onu başqa nəzərlərdən qorumaq üçün parça tuturdular. Gəlinin qarşısına bəy evindən gətirilmiş mis ləyən qoyulurdu. Bu ləyən içində qatıq olan qab qoyulurdu. Bu qatıqla gəlinin saçları yuyulurdu. Qatıqla saçın yuyulması uzunömürlülük əlaməti sayılırdı. Bundan sonra gəlin və onunla gələnlər mahnı oxuyaraq yuyunurdular:

Hamamın içində,
İçində və çölündə,
Gəl-gəl qış - bahar,
İsti suyu var.
Dövlətli, kasıb,
Belə-belə yerin var.
Pəh – pəh – pəh –

Çimmə mərasimindən sonra gəlinin ayağının altına xalça salırdılar və o, geyinirdi. Bəyin qohumları özləri ilə hamama şərbət dolu qrafin, şirniyyat gətirirdilər. Bu şirniyyatdan əvvəl gəlinə, sonra isə hamıya paylayırdılar. Gələnlər gəlinin qarşısında əllərində şam tutaraq oxuyub rəqs edirdilər:

Almanı atdım çaynikə,
O çaynikdən bu çaynikə.
Giyov dönüb naçalnikə.
Baxtın mübarək, gəlin,
Taxtın mübarək, gəlin.

* * *

Almanı atdım hovuza
O hovuzdan bu hovuza.
Giyov dönüb çol donuza.
Baxtın mübarək, gəlin
Taxtın mübarək, gəlin.

Və yaxud:

Ətəyi çin-çin gəlin,
Çiyni göyərçin gəlin.
Gəlinlər arasında
Hamıdan göyçək gəlin.

* * *

Gəlinə bax, gəlinə,
Üzün tutub sərinə,
Gəlinə əl dəyməyin,
Gedib deyər ərinə.

Və yaxud:

Qızlar hamamı harda?
- Məscidin meydanında.
Gəlin hamama gedir,
40 incə qız yanında.

* * *

«Qızlar hamamı» adın,
Çimənlər bilər dadın.
Hamama 40 qız gəlib,
Oğlanlar bilməz adın.

* * *

Bu hamam «Qızlar hamamı»
Oxudun dərsin tamam.
Bu hamamda kim çimsə,
Onu saxlayar imam.

* * *

Bu hamam «Qızlar hamamı»
Məzəli sözlər hamamı,
Bu gün bir qızın toyudur,
Qalanlar gözlər hamamı.

* * *

Paklıq burda olacaq
Şadlıq burda olacaq
Bu hamamda çimənlər
Baxtlı gəlin olacaq

* * *

Qızdı, qızıl parçası,
Dağlara düşər parıldar.
Atası cömərd kişi,
Yağmasa da guruldar.

Hamamdan sonra gəlini evə aparırdılar və bəyin qohumlarının toy üçün göndərdiyi düyüdən şilə-plov hazırlayırdılar. Gəlin rəfiqələri ilə bu plovdan dadırdılar. Hamamdan sonra gəlini heç bir kişi görməməli idi.

Qız toyu. Qız toyu saat 12-də başlayırdı. Adətən bu toya qızlar və qadınlar dəvət olunurdu. Gəlin rəfiqələri ilə mağarda otururdu. Onlardan əks tərəfdə musiqiçi qadınlar otururdular. Əvvəllər qız toylarında qarmonçalan (Nazxanım, Balaxanım, Sona İrzaquliyeva) və dəfdə çalan qadınlar (Səriyyə və Zəmanə) çıxış edirdilər. Toyda iştirak edənlər rəqs edib şənlənirdilər. Saat 3-də 30 nəfərdən ibarət oğlan evinin adamları toya gəlirdilər. Oğlanın bacısı qızı rəqsə dəvət edirdi. Bu zaman toyda iştirak edənlər gəlinin ətrafında rəqs edərək onun başına pul səpirdilər. Toy bitdikdən sonra hamını süfrəyə dəvət edirdilər. Adətən toy süfrəsində təndir çörəyi, göyərti, turşu, stəkanlarda ayran, buludlarda qaralı və səbzili aş olurdu. Süfrəyə qızardılmış badımcanla ət verilirdi. Yeməkdən sonra qonaqlar gəlinə xoşbəxtlik arzulayaraq dağılışırdılar.

Qız toyunda qazan ağzını açmaq üçün kişilər dəvət olunur, onlardan bəxşiş alaraq qazanın ağzını açırdılar. Birinci olaraq məhz onları aşa qonaq edirdilər. Oğlan evinə də toy aşı göndərilirdi. Oğlanın qohumları aşı gətirənə hədiyyə verirdilər.

Xınayaxdı. Axşamüstü saat 6-da oğlanın qohumları qız evinə xına ilə bərabər üstünə parça salınmış məcməyi gətirirdilər. Məcməyiyə bir cüt ayaqqabı, 1 kq şirniyyat, 2 böyük şam və uşaqlar üçün 20-30 ədət kiçik şamlar qoyulurdu. Oğlanın qohumları məcməyini bir-birinə ötürürərək rəqs edirdilər. Bundan sonra, gəlinə gəlinlik paltarı geyindirib başına fata qoyaraq stulda oturdurdular. Bəy evindən bir qız, qız evindən də bir qız yandırılmış şamlarla gəlinin sağ və sol tərəfində dururdular. Gəlinin qarşısına hədiyyələr olan məcməyi qoyurdular, ondan bir az aralı əllərində yanan şamlarla durmuş uşaqlar gəlinə baxırdılar və şənlənirdilər. Gəlinin qohumları

gəlinin başına şirniyyat və şabalıd səpirdilər. Musiqiçilər rəqs havaları çalır və gəlini mahnı ilə tərif edirdilər:

Verin gəlinə qızılgülün butası,
Ona toxunmasın düşmən xatası.
Bizə xələt versin qızın atası,
Görüm, ay qız, toyun mübarək olsun,
Qohumun, qardaşın, elin var olsun.

Nə ucadır bu Dərbəndin qalası!
Bu qız əsil yerdən, ağıl dəryası,
Bizə xələt versin qızın xalası,
Görüm, ay qız, toyun mübarək olsun,
Qohumun, qardaşın, elin var olsun.

Harda qalıb Həştərxanın gəmisi?
Yola düşən bir həftədir cəmisi
Bizə xələt versin qızın əmisi,
Görüm, ay qız, toyun mübarək olsun,
Qohumun, qardaşın, elin var olsun.

Kömək olub bacılara bacısı,
İnsanda pis olur dilin acısı.
Bizə xələt versin qızın bacısı,
Görüm, ay qız, toyun mübarək olsun,
Qohumun, qardaşın, elin var olsun.

* * *

Qız qardaşı, əlini sal cibüvə,
Xələt gətirsin deginən bibüvə.
Hamına deyirik: oba, elivə
Görüm, ay qız, toyun mübarək olsun,
Qohumun, qardaşın, elin var olsun.

* * *

Almanı atdım tabağa,
O tabaqdan bu tabağa.
Çalanlara pay verməyə
Anası gəlsin qabağa.
Görüm, ay qız, toyun mübarək olsun,
Qohumun, qardaşın, elin var olsun.

Və yaxud:

Qızın baxtı ağ olsun,
Qohumları sağ olsun.
Gəlin, getdiyin yollar
Yansın, çıl-çıraq olsun.

* * *

Bulağın başı ilə,
Dibinin daşı ilə,
Gəlin seyrə çıxıbdır
Sağdışı, soldışıyla.

* * *

Dur ayağa, qız gəlin,
Tellərini düz, gəlin,
Toyçulara gəl yaxın,
Düş, ortada süz, gəlin.

TOYUN MÜBARƏK!

Tarçı, köklə tarını,
İncə telləri dindir.
Dəfçi, əlin titrəsin,
Qəlbimizi sevindir.

* * *

Toy günüdür, əl çalın!
Oğlan igid, qız qəşəng.
Hamı desin ürəkdən:
Ay qız, toyun mübarək,
Oğlan, toyun mübarək.

* * *

Bəylə gəlin oynasa,
Deyirlər il xoş keçər.
Adam belə məclisdə
İçməmiş sərxoş olar.

Xınayaxdı günü səhərə kimi heç kim yatmırdı. Qadınlar və qızlar xınanı hazırlayır, əvvəl gəlinin ayaqlarına və saçına xına qoyur, sonra isə iştirak edənlərin barmaqlarına xına yaxılırdı. Xınanı qoyarkən mahnı oxuyub rəqs edirdilər:

Baxtın mübarək, gəlin,
Taxtın mübarək, gəlin
Ağ əllərə əlvan xına
Yaxdın, mübarək, gəlin.

* * *

Çalın qızlar, çağırın qızlar,
Çalmaq bizə yaraşır.
Bu gəlinin toy xınasın
Yaxmaq bizə yaraşır.

Xınayaxdı günü oğlan evindən olan qızlar kişi paltarı geyinir, hislə özlərinə bığ çəkir, uzunqulağa oturub mahnı oxuya-oxuya gəlin evinə gedirdilər. O gecə heç kimi yatmağa qoymurdular. Yatanları bir-birinə bağlayır, altlarına su tökürdülər. Yatanlar oyanıb qalxmaq istəyəndə, qalxa bilmir və hamının gülüşünə səbəb olurdular. Bu gecə hamı oxuyur, şənlənir və butulka oyunu keçirirdilər. Butulkanı fırladırdılar, butulkanın boğaz hissəsi kimə tərəf yönəlirdisə, o kəs ya mahnı oxumalı, ya rəqs etməli, ya da pişik səsi çıxartmalı idi. Və yaxud, boşqaba alma qoyaraq fırladırdılar. Alma boşqabdan çıxıb, kimin tərəfinə düşsəydi, o şəxs oyun aparıcısının əmrini yerinə yetirməli idi. Səhərə yaxın hamı xorla «Açıl, səhərim» mahnısını oxuyur və sonra dağılışırdılar.

AÇIL, SƏHƏRİM

Açıl, səhərim, açıl,
Günəş tellərin saçır.
Gülsün elim, gülsün gülüm,
Gülsün bütün el-oba.
Gül, gül, elim, gül,
Gülsün bütün el-oba.
Açıl səhər, açıl səhər,
Gülsün bütün el-oba.

Nikah günü. Əvvəlcə, VVAQ şöbəsində gəlinlə bəy arasında vətəndaşlıq aktı, sonra isə məsciddə axund tərəfindən nigah bağlanırdı. Nigah aktının bağlanması zamanı hər tərəfdən iki şahid iştirak edirdi.

Gəlinin cehizi. Bəy evinə gəlin cehizi musiqi və nəğmələrlə aparılıdı. 1960-cı ilə qədər gəlinin cehizi «Pobeda» markalı bir çarpayı, bufet, şifoner, bir stol, 6 stul, samovar, dörd yastıq, iki yorğan, bir böyük döşək, oturmaq üçün bir döşəkçə, 6-12 dəst stəkan-nəlbəki, qab-qacaq, 6 badya, şirniyyatla (paxlava, şəkər çörəyi) dolu məcməyilərdən ibarət olurdu. Gəlin və bəyin otağı toydan bir gün əvvəl bəzədilirdi.

Gəlinköçmə mərasimi. Oğlan toyu günü oğlan evinin adamları gəlini aparmağa gəlirdilər. Oğlan evindən gətirilmiş ən gözəl və bahalı parçadan gəlin üçün gəlinlik paltarı tikilirdi. Gəlin köçən günü həmin paltarı geyinir, ona qızıl-zinət əşyaları taxılırdı və oğlan evini gözləyirdilər. Oğlan evi gəlini aparmağa gələrkən aşağıdakı mahnını oxuyurdu:

Al almağa gəlmişik,
Şal almağa gəlmişik.
Oğlanın adamıyıq,
Aparmağa gəlmişik.

* * *

Al almağa gəlmişik,
Dar aralıqdan keçmişik.
Qan-tərə bulənmişik,
Geyindirin gəlinimizi,
Aparmağa gəlmişik.

Gəlinin qohumları isə bu mahnını oxuyurdular:

Ay gəlin, gözəl gəlin,
Hamıdan göyçək gəlin,
Gəldilər aparmağa,
Dur ayağa, bəzən gəlin.
Ay gəlin, çiçək gəlin,
Hamıdan göyçək gəlin.
Ər evindən bərk yapış,
Bu evdən əl çək, gəlin.

O dövrdə gəlini aparmaq üçün 5-6 nəfər gəlirdi: bəyin xalası, baldızı, bibisi, dayısı arvadı, qardaşı, dayısı və ya əmisi oğlu. Kiçik bir oğlan gəlinin belini xara və yaxud qırmızı lentlə bağlayarkən bu mahnını oxuyurdu:

Anam-bacım qız gəlin,
Əli-ayağı düz gəlin.
12 oğul istərəm.
12 imam eşqinə
Bircə dənə qız, gəlin.

Gəlinin belini bağlayan oğlana gəlinin adından hədiyyə verilirdi. Gəlinin cehizi olan sandığın üstündə gəlin tərəfindən olan oğlan uşağını oturdurdular. Oğlanın qohumları oğlana hədiyyə verəndən sonra, sandığı götürüb aparırdılar. Qızın atası qapıda dururdu. Üzü duvaqla örtülmüş gəlini evdən çıxaranda atası ona xeyir-dua verərək deyirdi: «Qızım, ər evinə iki ayaqla get, oradan dörd ayaqla çıxarsan; allah səni xoşbəxt eləsin. Ər evi sənin həyat və ölüm evindir».

Əvvəllər gəlini açıq və ya bağlı faytonda aparırdılar. Fayton yerindən tərpənəndə onun dalınca daş atırdılar. Daşın atılması ailənin möhkəmlik rəmzi he-

sab olunurdu. Fayton yola düşərkən, uşaqlar şirinlik almaq üçün onun yolunu kəsirdilər. Fayton bəy evinə çatandan sonra gəlinin başına konfet atırdılar. Gəlinin ayağının altına qoyun dərisi salınırdı. Sonra gəlini stulda oturdaraq qarşısında rəqs edirdilər.

Üzəçıxdı. Toydan yeddi gün sonra gəlinin üzəçıxma mərasimini keçirirdilər. Üzəçıxmada bəyin və gəlinin qohumları iştirak edirdilər. Bu zaman stol və stullardan istifadə olunmurdu. Hamı yerə döşənmiş döşəkçələrin üstündə otururdu. Döşəməyə süfrə salınır və gəlinin qohumları tərəfindən gətirilmiş yeməklər və şirniyyat süfrəyə qoyulurdu. Sonra gəlin əlində gülabla doldurulmuş dolça ilə qohumların qarşısına çıxırdı. Əvvəl o, gülab suyunu qaynanasının əlinə, sonra isə qalan qonaqların əlinə tökürdü. Hamı ona xoşbəxtlik arzulayır, hədiyyələr verir və sonra isə yeməyə başlayırdılar. Gəlin də öz növbəsində qaynanasına hədiyyə olaraq çay və nahar süfrəsi, ət doğramaq üçün baltacıq, düyü təmizləmək üçün süfrə, iki dəsmal, qab-qacağı silmək üçün iki dəsmal, namaz qılmaq üçün 10 ədəd kiçik xalça, 20 ədəd burun dəsmalı, 12 cüt kişi corabı, 1 çay dəsti verirdi. Sonda yengə özü bişirdiyi paxlavanı qonaqlara paylayırdı.

Bəy hamamı. Bəy hamama getməmişdən əvvəl onun sağdışı və soldışı gəlinin evinə bəyin çantasını göndərirlər. Çantada bəyin kostyumu və bir cüt ayaqqabı olurdu. Çantanı alan gəlinin qohumları çantada olan şeylərin üstünə 3 ədəd cib dəsmalı (biri bəy üçün, ikisi – sağdış və soldış üçün), kisə, sabun, üzqırxan dəsti, dəsmal, qətfə qoyaraq bəy evinə göndərirdilər. Çantanı aparıb-gətirənə bəxşiş verilirdi. Bəy hamamdan qayıdarkan musiqi çalınır və şərbət hazırlanırdı. Əvvəl şərbətdən bəy, sonra isə qohumlar içirdi. Bəyi rəqsə dəvət edirdilər. Rəqsdən sonra ona hədiyyələr verir, başına xırda pul tökür və tüfəngdən atəş açırdılar. Musiqiçilərə də hədiyyə verirdilər. Hamı dağılışandan sonra bəy sağdışı və soldışı ilə bir otaqda oturur, bir daha heç kimin gözünə, hətta öz toyunda belə görünmürdü.

Bəyin toyu. Oğlan toyunda yalnız kişilər iştirak edirdi. Musiqiçilər də kişilərdən olurdu. Adətən kişi toyunda bu musiqiçilər iştirak etmişlər: tarçı Səədi, kamançaçı Meşdirza (Məşədi Rza), qavalda Paşa çalıb oxuyurdu. Rəqslərə rəhbərliyi toy bəyi edirdi.

1967-ci ilə qədər kişi toylarında «dırna» oyunu keçirilirdi. Toybəyi dəsmalı qamçı kimi büküb, ucunu düyünləyib isladırdı. Bu da «dırna» adlanırdı. «Dırna» oyunu – kişilik, səbr, dosta sədaqət rəmzi idi. Dərbəndlilər deyirlər ki, bu oyun zamanı dostu və düşməni müəyyən etmək olardı.

Toybəyi iştirak edənlərin birini rəqsə dəvət edir, sonra onu dizi üstə durub əllərini qabağa uzatmağa məcbur edir və dırna ilə əlinə bərkdən vururdu. Zərbəni alan rəqs etməyə başlayırdı, sonra rəqsə başqası dəvət olunurdu və onun da əlinə «dırna» zərbəsi endirilirdi. Beləliklə, iştirak edənlərin hamısı rəqs edir və «dırnanı» bir-birinə ötürürdülər. Kim bu zərbəyə tab gətirmirdisə, uduzmuş hesab olunurdu və daha bir zərbə alırdı. Bu cəzadan azad olmaq üçün onun dostu 50 və yaxud 100 manat cərimə ödəməli idi.

Əgər rəqsə qoca kişilər dəvət olunurdusa, onların əlinə «dırna» zərbəsi vurulmurdu, dırnanı onların qarşısına qoyurdular. Adətən toydan sonra qoca və yaşlılar üçün ayrı otaq – sufyan ayırırdılar. Cavanlara isə toy aşı ayrı otaqlarda verilirdi. Ümumiyyətlə, toyda cavanları və yaşlıları hörmət əlaməti olaraq ayrı-ayrı oturdurdular. Kişilərə buludda qaralı aş, hərəsinə bir stəkan ayran, təzə göyərti, turşu, iki kişiyə bir 250 qramlıq araq butulkası verilirdi. Şərab 3 litrlik şüşə qablarda verilirdi. Mis məcməyidə gəlin evinə aş göndərilirdi. Gəlinə aş aparana çoxlu hədiyyələr verilirdi.

Bəyin toyunda aşağıdakı mahnılar oxunurdu:

TOY MAHNISI

Al-yaşıl geyinmişəm,
Dağdan düzə enmişəm.
Qohum-qardaş nə lazım,
Yarı mən bəyənmişəm.

Nəqarət:
Ay aşıq, tərifla bizim gəlini,
Qaynına deyin bağlasın belini.
El-oba desin, bəy, toyun mübarək
Bəy sevindirsin obasını-elini.

* * *

Bu dərə dərin dərə,
Suları sərin dərə,
Yardan cavab alınca,
Yalvarmışam min kərə.
Nəqarət:

* * *

Yetişdi toy axşamı,
Durun, yandırın şamı,
Gəlinə bəzək vurun,
Gəlib oğlan adamı.

BƏY TƏRİFİ

Xonçana düzülüb noğulla-badam.
Toyunu eylərik, ürəkdən şadam.
Sağ olsun buraya yığılan adam,
Görüm, a bəy, toyun mübarək olsun,
Sağdışın, soldışın, elin var olsun.

Bəy gəlinin yanına getməmişdən əvvəl dostları ilə bərabər 15-20 dəqiqə açıq havada gəzəndən sonra gəlinin otağına girirdi. Evdə işığları söndürürdülər. Toyda iştirak edənlər dağılışırdı. Sakitlik çökürdü. Gəlinin başına duvaq ataraq ayrıca otaqda stulda oturdurdular. Bəy otağa girərkən gəlinin ayağını basmalı idi. Bu da kişinin evdə böyüklüyünü göstərmək rəmzi hesab olunurdu. Əgər gəlin onu qabaqlasaydı, bəy ona qiymətli hədiyyə verməli idi.

Bir müddətdən sonra əgər bəy gəlinin otağından yaxşı əhval-ruhiyyə çıxırdısa, onda hamı başa düşürdü ki, onların arzusu yerinə yetmişdir.

Bəyin qohumları sevinclə oxuyurdular:

ÜZÜN AĞ OLSUN, GƏLİN!

Ayranın üzlü olsun,
Duz tökün, duzlu olsun,
Gəlin qoşa qarısın,
Oğullu-qızlı olsun.

* * *

Üzün ağ olsun, ay gəlin,
Yengən sağ olsun, ay gəlin,
Sənə süd verən ana
Sərvinaz olsun, ay gəlin.

* * *

Ələnsin ay ələklər,
Çırmansın ağ biləklər.
Dostlara xəbər getsin,
Hasil oldu diləklər.

Səhərsi gün gəlinin qohumları gəlin üçün quymaq bişirib gətirirdilər. İştirak edən qohumları aşa qonaq edərdilər. Hamı gəlini təbrik edir, ona can sağlığı və ailə xoşbəxtliyi arzulayırdı. Toy mərasimi başa çatırdı.

Bax: Бейбалаева А.А. Свадебные обряды и нравы дербентских азербайджанцев. Дербент, 2006, стр.5-28.

Uşaqların tərbiyəsi. Gəlinin gətirilməsilə yeni bir ailənin təməli qoyulardı. Gəlinin mövqeyi və ona münasibət uşaq doğulmasından da asılı idi. Gəlin toydan qırx gün keçəndən sonra uşağa qalmadıqda «gəlin çilləyə düşüb» deyərdilər. Gəlini çillədən azad etmək üçün çilləsi kəsilməli idi.

Gəlin hamiləlik dövründə böyük qayğı ilə əhatə olunurdu. Ailənin əhval-ruhiyyəsinə oğlan və ya qız olması da təsir edirdi. Qeyd etmək lazımdır ki, oğlan və qız olmasından asılı olmayaraq, hər bir ailədə yeni körpənin dünyaya gəlməsi şənliklə qarşılanar və uşaqlara xüsusi qayğı göstərərdilər. Körpəni qundaqda anasının yanında salınmış yerə qoyurdular. Sonra uşağı beşiyə (nənniyə) qoyurdular. Körpə beşikdə və nənnidə yatarkən anası ona müxtəlif laylalar oxuyardı. Uşaq anadan olandan 7 gün sonra «adqoyma» mərasimi olardı. Körpə üçün adətən müqqədəs «Quran»dan adlar seçilərdi. Oğlan uşaqlarını 7 yaşında sünnət edərdilər.

Hər bir ailədə övladlarını hərtərəfli inkişaf etmiş, kamil şəxsiyyət kimi tərbiyə etmək valideyinin arzusu olmuşdur. Bu məqsədlə əxlaq tərbiyəsinə xüsusi diqqət yetirilirdi. Ata və ananın qarşılıqlı hörmətə əsaslanan münasibətləri, səmimi, qayğıkeş və mehriban rəftar ailədə sağlam mənəvi mühit yaradırdı.

Bax: Azərbaycan etnoqrafiyası. Üç cilddə. II cild. Bakı, «Şərq-Qərb», 2007, səh. 297-299, 307-312, 314-340.

Dəfn. Ailə məişətinin məsuliyyətli və ciddi məsələlərindən biri dəfn və yas ilə bağlı mərasimlər, adət-ənənələrdir. Qədim zamanlardan formalaşmış xalq inamına görə, insanın həyatı Allah tərəfindən əvvəlcədən müəyyən edilmiş yolla inkişaf edir. İnsan doğulur, böyüyür, ailə qurur və bir gün taleyin hökmü ilə həyatını dəyişir.

Ölüm yatağında olan şəxsin son nəfəsi çıxan kimi başlanan ağlaşma el arasında «şivən» adlanırdı. Rəhmətə gedənin ölümünü molla səlat oxumaqla qonşulara, bütün kəndə bildirərdi. El adətinə görə, dəfn və yas mərasimi təkcə mərhumun ailəsinin deyil, bütün el-obanın qayğısı idi. Dəfn günü ilk növ-

bədə qəbir qazmaq üçün adamlar qəbiristanlığa göndərilərdi. Meyidn yuyulması üçün müəyyən üsul və qaydalar mövcud idi. Bu üsul və qaydaların toplusuna «qüsl» deyilirdi. Yuyulub kəfənləmə başa çatdıqdan sonra mərhumun cənazəsi tabuta qoyulurdu. Mafə qəbiristanlığa aparılarkən yerdən götürülən zaman adətə görə, üç dəfə qaldırılıb yerə qoyular və sonra mərhumun baş tərəfi irəli olmaqla qəbiristanlığa yola salınardı. Cənazə qəbrə qoyulduqdan sonra molla təlqin verir. Təlqin bitdikdən sonra isə qəbir torpaqla doldurulur. Qəbrin üstünə daimi baş daşı bəzi bölgələrdə mərhumun qırxında, bəzi bölgələrdə isə ili tamam olanda qoyulurdu. Mərhum torpağa tapşırıldıqdan sonra molla «Quran»ın «Yasin» surəsini oxuyur və dəfn mərasiminin başa çatdığını bildirir. El adətinə görə mərhuma üç, yeddi, qırx, il verərdilər. Dəfn və yasla bağlı mərasimlər «yasdançıxma» mərhələsi ilə bitirdi.

Bax: Azərbaycan etnoqrafiyası. Üç cilddə. II cild. Bakı, «Şərq-Qərb», 2007, səh. 341-347.

Dərbənd və Azərbaycanda qonaqpərvərlik. Azərbaycanda qonağa həmişə böyük hörmət, diqqət və qayğı göstərildiyindən, hər bir evdə onun rahatlıq tapmasına lazımi şərait yaradılmışdır. Qonağın şəxsən dəvət edilib-edilməməsindən, ev sahibinin onu tanıyıb-tanımamasından asılı olmayaraq, hər kəs ölkəsinə gələn ziyarətçiyə öz qonağı kimi baxmış, onu səmimiyyətlə qarşılayıb yola salmağı özünə borc bilmişdir.

Səfər boyu onları müşayiət edən bələdçi barədə də fikir söyləməyi unutmayan A.Düma belə yazır: «Dərbənddən bura qədər xidmətimizdə duran, bizi heç bir şeydən korluq çəkməyə qoymayan azərbaycanlı bələdçimiz yanımızda idi. İnsafla demək lazımdır ki, o, üzərinə düşən məsuliyyətli işin öhdəsindən layiqincə gəlirdi». Göründüyü kimi, səfərə gələnlərin ixtiyarına hətta bələdçi belə verilirdi.


Azərbaycan ailələrində evə gələn qonaq üçün ya ayrıca bir tikili, ya da evin ən yaxşı otağı hazır saxlanılırdı. Qonaqlar yemək-içməklə, otaqla və yataqla təmin olunurdular.

Azərbaycana gələn dövlət xadimlərinə, yazıçı və alimlərə göstərilən qonaqpərvərliyə dair çoxlu fakt qeydə alınmışdır. Bu barədə H.Quliyev yazır: «I Pyotrun Dərbənddə yaşayan azərbaycanlılar, knyaz Dolqorukinin Bakı və Salyan əhalisi, Şamaxı hərbi qubernatorunun Şuşa əhli tərəfindən, A.Bestujev-Marlinskinin Quba, M.Y.Lermontovun Qusar camaatı, Kazan Universitetinin professoru İ.Berezinin A.Bakıxanov tərəfindən mehribancasına qarşılanması və onlara göstərilən qonaqpərvərlik buna misal ola bilər».

Cəmiyyətdə ən mühüm ünsiyyət saxlamaq vasitəsi olan qonaqpərvərlik adəti müxtəlif xalqların, eləcə də eyni xalqın və ya müxtəlif etnik qrupların üzvləri, bütün sosial təbəqələr arasında geniş yayılmışdır.

Bax: Azərbaycan etnoqrafiyası. Üç cilddə. III cild. Bakı, «Şərq-Qərb», 2007, səh.148-149, 161, 186.

HAMAMLAR



Qırxlar hamamının en kəsiyi

Dərbənddə ictimai həyatın ayrılmaz hissəsi olan məscid və bazar kimi hamamlar böyük rol oynamışdır.

Hamamlar müsəlmanlara şəriət tərəfindən qoyulmuş bəzi qaydaların yerinə yetirilməsində kömək edirdi. İslam şəriətinə görə, pak olmadan namaz qılmaq, Quran oxumaq, məsciddə görünmək qadağandır.

Bəzi hamamlarda idman tapşırıqlarının yerinə yetirilməsi üçün «Zorxana» adlanan xüsusi tikililər mövcud idi. Əldə olan məlumatlara görə, XX əsrin əvvəllərində Qırxlar hamamı nəzdində «Zorxana» hələ də qalmaqda idi.

Şərqdə hamamı «bədənin paklığı» adlandırırdılar.

Dərbənd şəhərinin tarixində nə qədər hamamın olduğu məlum deyil. Çoxsaylı orta əsr yazılı mənbələri onlar haqqında heç bir məlumat vermir. Görünür Şərqdə belə tikililərin olması adi hal idi.

1824-cü ildə tikililərin siyahıya alınmasının nəticələrinə görə şəhərdə üç hamam fəaliyyət göstərirdi: Bazar hamamı və yaxud Qızlar bəyi hamamı (VII məhəllə), Məscid hamamı (Cümə məscidinin yanında) və Qırxlar hamamı (Qırxlar qapısının yanında).

Sonralar Qızlar hamamı (1905) və Hacı Tağı hamamı (1906) tikilmişdir. Bizim günlərədək 6 hamam gəlib çıxmışdır:

1. Xan hamamı (Narınqalada);
2. Bazar hamamı (Qızlar bəyi hamamı) (qədim Bazar meydanında, VIII məhəllədə yerləşir);
3. Məscid hamamı (VII məhəllədə, Cümə məscidinin yanında);
4. Qırxlar hamamı (Qırxlar qapısının yanında);
5. Qızlar hamamı;
6. Hacı Tağı hamamı (I məhəllədə, Taxta bazarın yanında).



Xan hamamının qalıqları

XX əsrin əvvəllərində şəhərdə 4 hamam fəaliyyət göstərirdi: Məscid hamamı, Qızlar hamamı, Qırxlar hamamı və Hacı Tağı hamamı.

XX əsrin 20-ci illərinin ikinci yarısında Taxtabazar rayonunda Dərbənd şəhər sovetinin qərarı ilə yeni hamam tikildi. Layihənin müəllifi «Dağlayihə»nin mühəndisi Jdanov idi (əvvəllər şəhərin memarı olmuşdur).

Lakin obyekti istismara qəbul edən komissiya qərara alır ki, hamam standartlara uyğun deyil: hamam otaqları balaca, dəhlizləri dar, pəncərələr balaca və s. Bunları əsas gətirərək hamam istismara buraxılmır, Jdanov isə mühakimə edilir. Komissiya tərəfindən qəbul edilməmiş hamamın binası yaşayış evinə çevrilir. Hal-hazırda da o, yaşayış evidir (Tağızadə küçəsindəki 118 saylı ev).

Dərbənddə tağlı günbəzvari damlı aşağıda adları göstərilən yeraltı şərq hamamları mövcud idi:

– Narınqalada;

– Qədim ticarət meydanında;

– Cümə məscidinin yanındakı küncdə yerləşən hamam;

– Qızlar hamamı Küncdəki hamamın yanında;

– 6-cı məhəllənin hamamı – Bazar-hamamı (Xan küçəsində);

– Taxta bazar rayonunda, cənub qala divarlarının yanındakı hamam.

Tağlı hamamlar Dərbəndin ən görməli tikililərindəndir. Onlardan ikisi (XVII əsr) indiki zamana qədər istifadə olunurdu. Qala və köhnə ticarət meydanında yerləşən digər iki hamam (XVII əsr) bizim günlərədək yarımdağılmış vəziyyətdə qalmışdır, daha iki hamam isə XIX əsrdə tikilmişdir. Hamam hər bir Şərq şəhəri üçün ənənəvi tikilidir. Buna oxşar hamamlar müsəlman şəhərlərində məscid və bazarlar kimi böyük rol oynamışdır. Hamamlar yalnız çimmək üçün deyil, həmçinin sağlamlığı möhkəmləndirmək, əhval-ruhiyyəni qaldırmaq, istirahət, dostlarla görüşmək və dostcasına söhbət etmək üçün xidmət edirdi.

XX əsrin 50-ci illərində şəhərdə yalnız 2 hamam fəaliyyət göstərirdi: Məscid hamamı və Qırxlar hamamı. Bu gün isə yanız bir hamam - Qırxlar hamamı fəaliyyət göstərir.

Məscid hamamının çox maraqlı tarixçəsi vardır. Uzun müddət baxımsız qalmış hamam zibilxanaya çevrilmiş və xalq arasında Hamam damı adlandırılmışdır. 1788-ci ildə şəhər sakini Hacı Məhəmməd Kərbalayı İbrahim oğlu bu yerdən 24 min araba zibil daşımış, həmin yeri təmizləmiş və hamamı təmir etdirmişdir. Lakin Cümə məscidinin rəhbərliyi hamamın girişindəki yazıya əsaslanaraq hamama öz hüquqlarını elan etmişdir.



Qırxlar hamamının qalıqları

Yazıda deyilirdi:

«Bu hamamı sultan Bəyazid bin Bəhram Ustaclı hicri tarixi ilə 1065-ci ildə hamamın yanında yerləşən məscidin vəqfinə vermişdir».

Vəqf – dini idarə və ya təşkilata məxsus olub heç bir vergi ödəməyən mülkiyyət idi. Hicri tarixi ilə 1065-ci il 11.09.1634-30.11.1635-ci il tarixinə uyğundur.

Bu mübahisəli məsələ Cümə məscidinin xeyrinə həll olunmuş, məscid öz növbəsində Hacı Məhəmməd Kərbalayı İbrahim oğlunun çəkdiyi bütün xərcləri ona ödəyərək hamamı özünə götürmüşdür.

Xan hamamı, Bazar hamamı, Məscid hamamı və Qırxlar hamamının tikilməsini mütəxəssislər XV-XVII əsrlərə aid edirlər. Yerli tarixi xalq yaddaşı isə Bazar hamamını VI əsrə aid edir.

Bütün hamamlar ənənəvi orta əsr Şərq hamam memarlığı üslubunda tikilmişdir. Onlar vahid kompozisiya təşkil edərək yalnız ölçülərinə və tikilmə konstruksiyasına görə fərqlənirlər.

Hamamın bütün binası yaxşı düşünülmüş günbəz və tağ-tavanla örtülmüşdür. Bu da qarşılıqlı və tarazlışdırılmış konstruksiyanı yaratmışdır.



Qızlar hamamı

Divarlar və günbəzlər yerli balıqqulağı daşından hörülmüş, döşəməsi isə böyük daş plitələrlə döşənmişdir. Hamamlar yalnız ölçüləri (300-600 m^2) və memarlıq konstruksiyasının bəzi elementləri ilə fərqlənirdilər.

Hamamlar iki hissədən ibarət idi: isti (çimmək üçün) və soyuq (soyunmaq üçün) hissələr.

Hamamda suyu və çimmək yerini qızdırmaq üçün xüsusi rasional sistem qurulmuşdur. Hamamlar bulaqlarla bağlı idi. Həmin bulaqlardan yeraltı daş xəndəklər vasitəsi ilə hamama su çəkilmişdir. Belə ki, Xan hamamına Narınqaladan, Bazar hamamına Xan bulağından, Məscid və Qızlar hamamlarına Məscid bulağından, Hacı Tağı hamamına isə Peyinikbaşı bulağından su çəkilmişdir.

Əsgər hamamı – XIX əsrin 30-cu illərində Əsgər qəsəbəsində hərbi qarnizonun evli əsgərlərinin ailələri üçün tikilmişdir. Şəhər əhalisini bu hamama buraxmırdılar. Hamam XIX əsrin 70-ci illərinin sonunda əsgər qəsəbəsi dağıldığı üçün sökülmüşdür.

Rus hamamı. XIX əsrin sonunda yerli sahibkar H.Həmdullayev tərəfindən tikilmiş ictimai hamam. Bu, şəhərdə xalq arasında Abdullayev və ya Soldat hamamı adlandırılırdı. Müsəlman əhalisi isə şəhərin köhnə hissəsində yerləşən başqa hamamlardan fərqli olaraq bunu Urus hamamı adlandırırdı.

Sovet dövründə bu hamam rəsmi sənədlərdə – «1 saylı hamam» kimi qeyd olunmuşdur. 2006-cı ildə Puşkin küçəsindəki bu hamam sökülmüş və onun yerində çoxmərtəbəli bina tikilmişdir.

XALQ BAYRAMLARI

Xalq təqvimi. Bu təqvim Azərbaycanın müxtəlif bölgələrinin, o cümlədən Dərbəndin qədim sakinlərinin təbiətə münasibətindən, baxış və görüşlərindən, səma cisimlərinin hərəkətindən, Ayın, Günəşin, ulduzların fəzadakı mövqeyindən, buludların səmadakı vəziyyətindən, həmçinin zəngin təsərrüfat ənənələrindən dolğun şəkildə formalaşmış təqvimdir. Ululərımız xalq meteologiyası ilə, yəni bitkilərin, gül-çiçəklərin təbii görünüşlərini, heyvanların davranışlarını izləmək və müşahidə etməklə də havaların dəyişməsini – yaxşılaşacağını və ya pisləşəcəyini, yağış, yaxud qar yağacağını, qasırğa və tufan baş verəcəyini, yayın isti, quraq, qışın soyuq, sərt keçəcəyini müəyyən etməyə çalışmışlar. Xalq təqviminin meydana gəlməsində Azərbaycanın bölgələri, o cümlədən Dərbənd ərazisinin coğrafi şəraiti, aranlı-dağlı relyefi, iqlimi, təbii sərvətləri də mühüm rol oynamışdır.

Qədimdə Dərbənddə istifadə olunan gün-ay təqvimi əsrlərin dərinliklərindən bizim günlərədək gəlib çıxmışdır. Ay təqviminə görə il 29 və 30 gündən ibarət olan 12 aya bölünürdü. Bu təqvimdəki ayların adı bizim günlərədək gəlib çıxmamışdır. Onların yerinə islam və ərəb yazıları ilə bərabər (VIII-IX əsr) ərəb aylarının adları daxil olmuşdur: məhərrəm, səfər, rəbbi ül-əvvəl, rəbbi üs-sani, cümadi ül-ulla, cümada əl-axiri, rəcəb, şaaban, ramazan, şəvval, zü-l-qədə, zü-l-hiccə.

Ay təqvimindən dini ayinlərdə, rəsmi yazışmalarda vətəndaşlıq sənədlərinin (nikah, boşanma, uşağın doğulması, ölüm) tərtibatında, mühüm hadisələrin (zəlzələ, epidemiya, müharibə və s.) qeydə alınmasında istifadə olunurdu. Gün təqvimindən isə təsərrüfat işləri ilə əlaqədar istifadə edilirdi.

Bu təqvimə əsasən təqvim ayı ayın fazasından aslı olaraq üç dövrə bölünürdü: ayın əvvəli, ayın ortası və ayın (başı) axırı. Hər ayın başlanğıcı dolu (bədirlənmiş) aya təsadüf edirdi.

Ulu babalarımız əhatəsində olduqları sirli-sehrli aləmi həssaslıqla öyrənməklə gündəlik təsərrüfat işlərini, məişət həyatını qurmağa çalışmış, zəruri maddi nemətlərin əldə olunmasına can atmış və onlardan səmərəli şəkildə bəhrələnmək imkanlarını artırmışlar.

İl iki böyük dövrə bölünürdü: yaz və qış. Bu iki dövr – «isti» və «soyuq» anlayışlarını verirdi.

Öz növbəsində dövr ili hər biri üç aydan ibarət olmaqla dörd dövrə, dörd fəslə – yaza, yaya, payıza (əvvəllər onu küz adlandırırdılar) və qışa bölmüş, bu fəsillərin də hər birinə təbiət səciyyəsi verərək «yaz bitirir, yay yetirir, payız götürür, qış ötürür» – demişlər. Hər fəsli, hər ayı da müxtəlif mərhələlərə bölüb, hər mərhələyə təbiət mövsümləri, təsərrüfat işləri ilə bağlı adlar yaraşdırmışlar: şum ayı, əkin ayı, leysan ayı, ağlar-gülər ay, ilin qızılgül dövrü, köç ayı, biçin ayı, vay nənə ayı, suvarma ayı, qoradəyən ay, qorabişirən ay, quyruqdondu (quyruq doğdu), yelqovan, qızıl payız, məhsul ayı, xəzan ayı, qırovdüşən ay, böyük çillə, kiçik çillə, alaçalpo (Boz ay; bəzi yerlərdə bu aya «çıx çömbəl», «oğlaqqıran» da deyilir), döl ayı və s.

Bahar – yazın başlanması günəşlə müəyyən olunurdu və Novruzla – gecəylə gündüzün bərabərləşməsi ilə üs-üstə düşürdü (21-22 mart). Yaz aşağıdakı dövrlərə bölünürdü:

– «muluh» – qışın son 6 gününü və yazın ilk 6 gününü əhatə edirdi (təxminən martın 16-dan 28-nə kimi);

– «hili» – yazın 12 gününü təşkil edirdi (təxminən, 28 martdan 10 aprelə qədər);

– «darğan» və yaxud «takarak» – aprelin 10-dan 22-nə kimi;

– «iran» – aprelin 22-dən 4 maya qədər;

– «dübür gül» – mayın 4-dən 18-20 maya kimi;

– «şülyənq» – mayın 20-dən 2 iyuna qədər;

– «gyisansız günlər» («hesaba alınmayan günlər») – adsız günlər iyunun 3-dən 20-22-nə qədər uzanırdı.

Yay fəsli iyunun 22-dən sentyabrın 22-dək davam edirdi. Qış fəsli dekabrın 22-dən martın 22-nə kimi davam edirdi və bir neçə dövrə bölünürdü: «çillə», «açizə», «embis» və «muluh». «Çillə»yə daxildir: «böyük çillə» – 40 gün, «kiçik çillə» isə 20 gün davam edirdi.

«Acizə» – «kiçik çillə»dən sonra başlayır və 12 gün davam edir (təxmini fevralın 22-dən martın 3-4-nə qədər).

«Embiz» – «acizə»dən sonra gəlir və 12 gün davam edir. Bu qışın qurtarmasını bildirir.

Həftənin günləri: cümə, şənbə, bazar, «haçılar Məkkəyə gedən gün» və ya «hacılar günü» (bazar ertəsi), «nəs» (çərşənbə axşamı), çərşənbə, cümə axşamı.

İnanclara görə, «nəs» günü – ağır gün hesab olunurdu. Bu gündə qıza elçi getmək olmazdı. «Çərşənbə» – iş günü idi, lakin həmin gün uşaqları çimizdirmək olmazdı, çünki onlar xəstələnə bilərdilər; «çümə» – istirahət günü idi; «şənbə» – həm iş, həm də gəzintilər üçün uğurlu gün idi. Toyu adətən «hacılar günü» (cümə axşamı) etməyi məsləhət görürdülər.

Günlər aşağıdakı zaman kəsiklərinə bölünürdü: «dan açılan», «işıq açılan», «nahar», «günorta», «ikindi», «azan və ya axşam», «yatmaq vaxtı», «gecəyarı», «gecəyarıdan sonra», «xoruz banı».

Məlumdur ki, türk xalqları qədim zamanlardan 12 ay dövründən ibarət Ay-Günəş-Yupiter təqvimindən istifadə edirdilər. Bu təqvim Yupiterin Günəşin ətrafında tam dövr etdikdən sonra, onun keçdiyi yolun tam 12 hissəyə bölünməsi hesabı ilə tərtib olunurdu. Hər bir hissə müəyyən bir heyvanın adı ilə bağlıdır: sıçan, öküz, pələng, dovşan, əjdaha, ilan, at, qoyun, meymun, xoruz, it, donuz. Bu zaman dövrləri Dərbənddə də məlum idi. Qırxlar məscidindəki şərq sütununda olan farsdilli kitab bunu bir daha sübut edir:

«Bu, zəfər çalan Şah Abbas Bahadur xan Hüseyin və Qaraxan bəy Suvazlu Polad bəy oğlu tərəfindən tikilmişdir. Ora Allahın nəzəri olan sevimli güşədir.

Bu yazı 1036-cı il, pələng ilində yazılmışdır».

Hicri tarixi ilə 1036-cı il miladi təqvimi ilə 22.09.1626-ci ildən 11.09.1627-ci ilə qədər olan dövrə təsadüf edir.

Oğuz atalar sözlərindən birində deyilir ki, «Oğuzdan üç yüz atmış altı alp qopdu, iyirmi dörd xas bəy, otuz iki səkcək». Burada ilin, gecə-gündüzü, ayların zamanına işarə edilir. Əski oğuzlar təqvimlə bağlı bu astronomik hadisəni insanlaşdırmış, deyim şəklinə salmış və hər günü bir alp-igid saymışlar. 24 xas deməklə gecə-gündüzün 24 saatdan ibarət olduğunu bildirmişlər. Belə anlayışlar Azərbaycan şifahi xalq yaradıcılığında da öz əksini tapmışdır:

Babamın bir çuxası var, on iki cibi.
Cibin hər birində otuz düymə,
Hər düymənin bir üzü ağ, bir üzü qara.

Nümunədəki 12 cib ilin on iki ayına, otuz düymə ayın günlərinə, hər düymənin ağ və qara üzü gündüz və gecəyə işarədir. Başqa bir örnəkdə isə deyilir: «Bir ağacım var on iki budaqlı. Hər budağın otuz yarpağı, hər yarpağın da bir üzü ağ, bir üzü qaradır». Bu bağlamanın açması belədir: bir il 12 aydan, hər ay 30 gündən, hər günün isə yarısı qaranlıq gecədən, yarısı da işıqlı gündüzdən ibarətdir.

El-obada ilin dörd fəsli ilə bağlı belə bir tapmaca da var:

İrəlidən dörd qardaş gəlir:
Birinin beli bükülü,
Birinin əli belli,
Birinin əli güllü,
Biri də dilli-felli.

Bu dörd qardaş qışa, yaza, yaya, payıza işarədi. Göründüyü kimi, fəsillərin hər birinə əlamətlərinə, kəsb etdikləri xüsusiyyətlərinə görə ad verilmişdir.

Beləliklə, qədim azərbaycanlılar əzəli-əbədi dünyanın sirli-sehirli məqamlarını uzun müddət müşahidə edib keçirdiyi təcrübələr əsasında xalq təqvimini yaratmışlar. Onlar ilin dörd fəslinin və aylarının hər biri ilə bağlı saysız-hesabsız inamlar, sınamalar, ayinlər, deyimlər, əfsanələr, rəvayətlər, etiqadlar yaratmış, mərasimlər, şənlik və bayramlar, oyun və əyləncələr, tamaşalar keçirmiş, xüsusilə baharın – yaz fəslinin gəlişinə poetik nümunələr həsr etmişlər. Zaman keçdikcə ulularımızın bu mənəvi mədəniyyəti folklorlaşmış, zəmanəmizədək gəlib çatmış, xalqımızın təfəkküründə, şifahi xalq

yaradıcılığında əksini tapmışdır. Dəyərini heç vaxt itirməyən bu mənəvi xəzinə xalqımızın həyat tərzi, məişəti, güzəranı, arzu və istəyi, dünyagörüşü, inamı və digər zəruri məsələləri haqqında neçə-neçə böyük məna və mətləblər aşılayır. Bu misilsiz incilər insan taleyi, cəmiyyət həyatı ilə bağlılıqdan, insanı şər işlərdən uzaqlaşdırmaq, halallığa, xeyirxahlığa, ədəb-ərkanlı davranışa səsləmək arzusundan doğub.

Bax: 1. Novruz bayramı ensiklopediyası. Bakı, «Şərq-Qərb», 2008, səh.94.

2. Гусейнов Г.-Б.Я. Краткая энциклопедия города Дербента. Махачкала, 2005, стр. 474-476.

Qurban bayramı. Azərbaycanın bölgələrində, o cümlədən Dərbənddə Qurban bayramı – orucluq (Ramazan bayramı) bayramından 70 gün sonra, yəni zül-hiccə ayının 10-da qeyd olunur. Qurban bayramı İbrahim peyğəmbərin oğlu İsmayılı Allaha qurban gətirməsilə bağlıdır. Adil və xeyirxah Allah isə mələklə yerə qoç göndərir və İsmayılı xilas edir. Ona görə də yer üzunun bütün müsəlmanları həmin günü qurban kəsirlər. Qurban bayramı həmçinin Məkkə şəhərinə ziyarətlə də bağlıdır. Bu şəhərdə həmin hadisə baş vermiş və burada İslam dininin banisi Məhəmməd peyğəmbər anadan olmuşdur. Məkkə şəhəri İslam dininin mərkəzi hesab olunur. Hər il zül-hiccə ayının 7, 8 və 9 Kəəbə məscidində və Ərəfat düzənliyində dualar oxunur, namaz qılınır. Zül-hiccə ayının 10-da isə qurbanların əti kasıblara paylanır.

Qurban bayramı – dünya müsəlmanlarının Qurani-Kərimlə təsbit olunmuş və ən geniş yayılmış bayramlarından biri – rəsmi şəkildə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1919-cu il 14 sentyabr tarixli qərarı ilə qeyd edilib.

Rusiya hakimiyyəti dövründə, başqa türk-müsəlman xalqları kimi, Şimali Azərbaycan müsəlmanlarının da dini bayramlarının qeyd olunmasına və müqəddəs yerlərə ziyarətlərinə əngəllər törədilirdi. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra hökumətin yuxarıda göstərilən qərarına əsasən 1919-cu ildə Qurban bayramının rəsmən sentyabrın 17-də qeyd olunması qərara alındı. Sovet hakimiyyəti qurulduqdan sonra Qurban bayramının qeyd edilməsi ləğv olundu. Azərbaycanın yenidən müstəqilliyə qovuşması ilə (1991) başqa milli və dini bayramlarla yanaşı, Qurban bayramının da azad surətdə qeyd olunması rəsmiləşdirildi.

Bax: Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998.

Novruz bayramı. Novruz – fars dilindən tərcümədə «yeni gün», günəş təqvimi ilə yeni ilin gəlişi deməkdir. Novruz bayramı yazda gecə ilə gündüzün bərabərləşdiyi vaxtla üst-üstə düşür. Bu, əsrin dərinliklərindən gələn ən qədim və parlaq bayramlardan biridir. Azərbaycanın bölgələrində, o cümlədən Dərbənddə Novruz bayramı martın 21-22-də qeyd olunur. Novruz bayramı ərəfəsindəki son çərşənbə axşamı xüsusi təntənə ilə qeyd olunur.

Qədim tarixə və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqının əski çağlardan daşıyıb gətirdiyi mənəvi dəyərlər sistemində Novruz bayramının da özünəməxsus yeri vardır. İbtidai çağlara məxsus ilkin dünyaduyumu və arxaik mifoloji inanışlardan qaynaqlanan yazı – yeni günü qarşılama mərasimi yüzillikləri çevrələyən tarixi təkamül prosesi nəticəsində zəngin mədəni-mənəvi keyfiyyətlər qazanaraq geniş miqyasa malik xalq bayramına – Novruza çevrilmişdir. Bu baxımdan Novruz təkcə bir neçə günü əhatə edən bayram deyil, həm də uzun bir təqvim müddətini öz ətrafında cəmləşdirən irimiqyaslı mərasim kompleksidir. Uzunsürən qış dönəminin çətinlik və məşəqqətlərindən (soyuq, qaranlıq, qida sıxıntısı və s.) qurtulub yaşayışa müsbət təsir edən işıq, istilik, qida imkanları açan yaz dönəminə başlamaq arzusu əcdadlarımızı bu mürəkkəb və zəngin mərasim kompleksini yaratmağa təşviq etmişdir. Bilindiyi kimi, ilkin-ibtidai sivilizasiyanın digər üzvləri kimi qədim azərbaycanlılar da öz ətraflarında baş verən kosmoloji prosesləri, xüsusən də təbiət hadisələrini yaşayışa, güzərana necə təsir etməsinə görə çeşidli bölümlərə ayırır və həmin dəyişiklikləri özünün ilkin bədii təxəyyülündə ibtidai şəkildə olmuş olsa da, obrazlaşdırmağa çalışırdı. Həyatı çətinliyə salan, qida, istilik çatışmazlığı və başqa bu kimi sıxıntılarla imtahana çəkən qışın obrazı əcdadlarımızın təsəvvüründə qorxulu, qara cizgilərlə canlanırdı. Elə buna görə də canlı danışıqda geniş yer alan «Qara qış», «Böyük çillə», «Kiçik çillə» təbiətin sərt iqliminin tarixi-semantik məzmun daşıyıcısı kimi ortaya çıxmışdır. Bir çox hallarda «qış»ın əvəzedicisi kimi işlənən «Çillə» sözü dərd-bəla, ağrı-acı, çətinlik, müşkül anlamındadır. Xalq arasında «çillə çəkmək», «çillə tökmək», «çillə-dağ eləmək», «çillə kəsmək» deyimləri də vardır ki, həmin ifadələr,

əslində, əzab-əziyyət çəkmək, dərd-bəlanı tökmək, ağrı-acını, xəstəliyi, müşkülü kəsmək, yox etmək anlamları daşıyır. Qışı dərd-bəla, müşkül, çətinlik kimi qəbul etdiklərindən qədim azərbaycanlılar onu iki yerə bölərək «böyük çillə» və «kiçik çillə» (böyük çətinlik-fevralın birindən iyirmisinədək olan iyirmi günlük dönəm) adlandırmışlar. Qış yerini yaza təhvil verən zaman yandırılan tonqala el arasında «çillə qovan tonqal» deyilməsi və novruzqabağı keçirilən mərasimlərə (qulaq falı, üzüksalma, oddan, sudan atlanma və s.) «çillə çıxartma», «çilləkəsmə» adı verilməsi də qışın ağrı-acı, dərd-bəla, sıxıntı kimi «çillə» obrazında folklor biçimi qazandığını göstərir.

Qışı - çilləni yola salmaq, yazı - yeni günü qarşılamaq məqsədi ilə keçirilən «Novruz çərşənbələri» (əslində, çərşənbə axşamları) adlı ayinlər da qədim azərbaycanlıların təbiətə təsir etmək, onu mülayimləşdirmək, işığı, günəşi çağırmaq arzu-niyyəti öz əksini tapmışdır. «Oğru çərşənbələr» və «Doğru çərşənbələr» adıyla iki qismə ayrılan «Novruz çərşənbələri»nin ümumi sayı yeddidir. «Doğru çərşənbələr»ə qədərki üç çərşənbə el arasında «oğru çərşənbələr» («oğru üskülər, oğru buğlar») adlanır və Kiçik çilləyə düşür. İnama görə, oğru çərşənbələrdə yazın nəfəsi oğrunca yer üzünə - havaya, suya, torpağa, ağaclara toxunub geri qayıdır. Oğru çərşənbələrdən sonra gələn və Bozayı çevrələyən əsas çərşənbələr «doğru çərşənbələr» («doğru üskülər, «doğru buğlar», «çilləbeçələr», cəmlələr) adıyla tanınır. Doğru çərşənbələrdə yazın nəfəsi növbəylə havanın-suyun, ağacların, torpağın canına hopub onları oyadır. Yazın nəfəsi öncə hava və suya toxunur və bununla da, el arasında deyildiyi kimi, «sulara ixtiyar verilir», «sular çillədən çıxır». Sulara ixtiyar verilməsi, daha doğrusu, suların ixtiyarının özünə qaytarılması o deməkdir ki, həmin gündən başlayaraq daha sular donmur, şaxtaqış onu dondurub ixtiyarını əlindən ala bilmir. İkinci çərşənbədə «əkinlər çillədən çıxır», torpaq qarınıbuzunu əridib, nəfəsinin buğuyla toxumu cücərdir, əkini dikəldir. Doğru çərşənbənin üçüncüsündə ağaclara ixtiyar verilir, «ağaclar çillədən çıxır». Həmin çərşənbədə ağaclar qış yuxusundan oyanır və tumurcuğa dolmağa başlayır. Ən sonda - axır çərşənbədə yazın nəfəsi canı-qanı olanları tərpədir-heyvanların, quşların, adamların qanı yerindən oynayır. Beləcə, yaşayış, varlıq yeni bir axara düşür.

Doğru çərşənbələrin el arasında çeşidli adları vardır. Bu sıradan olan birinci çərşənbə «Əzəl çərşənbə»dir. «Əzəl çərşənbə»yə Azərbaycanın müxtəlif bölgələrində «Sular novruzu», «Kiçik çərşənbə» və «Yalan çərşənbə» də deyilir. İkinci çərşənbə «Müjdəverən», «Muştuluqçu», «Külə», «Kul», «Xəbərçi» adlarıyla tanınır. Üçüncü «Gül çərşənbə»dir. Bu çərşənbədə rəhmətə gedənlərin ruhu xatırlanıb qəbir üstünə gedildiyindən ona «Ata-baba günü» də deyilir. Sonuncu, ən təmtəraqlı, təntənəli qeyd olunan «Axır çərşənbə»dir. Ona el arasında «Böyük çərşənbə» də deyilir.

Çərşənbələrdə (Novruz axşamında) tonqal qalanması, göyə yanar fişənglər, tarixən üskü-lopa atılması, bayram süfrəsi düzəldilməsi Azərbaycanda qədim el adətidir. Tonqal qalamaq, oddan atdanmaq, başı üzərində lopa-üskü fırlayıb onu göyə atmaq əski mifik dünyagörüşlə bağlı bir məsələdir. İşığın, günəşin gücünə inanan qədim insan odunalovun köməyi ilə yad-yabançı ruhları, soyuq, qaranlıq, xəstəlik gətirən, yaşayışa sıxıntı verən pis – şər qüvvələri qovub uzaqlaşdırmağın mümkünlüyünə inanırdı. Burada bütün məqamlarda od Günəşin rəmzi kimi düşünülürdü. Çillədən-qışdan çıxmaq üçün tonqal, od yandırılması əslində dolayısı ilə həm də Günəşin-yazın çağırılması mərasimidir. Bu aktın icrası zamanı tonqalın üstündən atılarkən:

Ağırlığım, uğurluğum

Tökülsün, bu odda yansın, - söylənilməsi də əski təsəvvürlə, çillədən, qışın ağrı-acısından qurtulmaq üçün oda – mikrogünəşə bir xilaskar kimi yanaşılması qənaəti ilə bağlıdır.

Çərşənbələrdə, xüsusən də ilaxır çərşənbədə icra olunan bütün mərasim, oyun və əyləndirici ayinlər bütövlükdə bir tam halında yüngülləşdiricilik, saflaşdırıcılıq funksiyası daşıyır və həmin funksiya yeni ovqatın, yeni ruhun – yaz ovqatının, yaz ruhunun, yaz gününün gəlişi və qəbulu üçün psixoloji-estetik zəmin hazırlayır.

Yaz mərasimi daha çox şimal yarımkürəsində yaşayan xalqlar arasında qeyd olunur. Bəzi çox isti ölkələrdə və cənub yarımkürəsində (Afrika, Hindistan, Cənubi Asiya və başqa bu kimi ərazilərdə) qış, demək olar ki, duyulmağından belə bir mərasimin keçirilməsinə ehtiyac olmamışdır. Bunun əksinə, şimal yarımkürəsində yaz-qış əvəzlənməsi qabarıq görüntü yaratdığından bu yarımkürədə yaşayan bütün xalqlar qışın gedişini və yazın gəlişini

bir-birinə bənzər mərasimlərlə qeyd edirlər. Sadəcə olaraq, şimal yarımkürəsinin müxtəlif qurşaqlarında iqlim dəyişməsi fərqli zamanlara düşdüyündən ayrı-ayrı ərazilərdə yazın qarşılanması münasibəti ilə keçirilən mərasimlər müxtəlif (əslində o qədər də aralı olmayan!) vaxtlarda baş verir. Məsələn, yazın bayram kimi Çində fevral, Azərbaycanda mart, Rusiyada aprel aylarında qarşılanması bu səbəbdəndir.

Yaz mərasimi insanlığın ilkin çağlarından kök alıb gəldiyindən etnik fərqlərdən asılı olmayaraq müxtəlif xalqların çeşidli adlarla keçirdiyi bu bayramın tərkibində əski mifik təsəvvürlərlə bağlı çox sayda oxşar ünsürlər müşahidə edilməkdədir ki, onların da böyük əksəriyyəti tipoloji səciyyə daşıyır. Türk Novruzu ilə slavyan Pasxası, yaxud yunan Dionisi arasındakı bənzəyiş və paralellər bu baxımdan təsir amili kimi yox, ilkin – ibtidai çağların mifik dünyaduyumundan gələn tipoloji oxşarlıq kimi dəyərləndirilməlidir. Eyni tipoloji bənzəyiş (tonqal qalanması, yumurta boyanması, şirniyyat hazırlanması, süfrə bəzədilməsi, musiqi, rəqs, oyun, maskarad tamaşaları göstərmək, mahnı oxumaq və s.) digər xalqların yaz mərasimlərində də müşahibə edilməkdədir. Şimal yarımkürəsi insanı sadalanan mərasim ünsürləri ilə təbiətə təsir etmək, xoş ovqat, bayram əhvalı yaradaraq havanı mülayimləşdirmək, yaz, işıq, xeyir ruhlarını çağırıb gətirmək inamını simvollaşdırmışdır.

Novruz süfrəsinə bol nemətlərin düzülməsi də yeni ildən xeyir-bərəkət, bolluq, fıravan həyat diləmək arzu-istəyinin rəmzi ifadəsidir. Süfrəyə yeddi cür nemətin qoyulması müqəddəs sayılan yeddi rəqəminin uğur gətirəcəyinə inamla bağlıdır. Azərbaycanın bir sıra bölgələrində (Ordubad, Təbriz, Urmiya və s.) ilaxır çərşənbənin «Yeddi ləvin (lövün, löyün) bayramı», «Yeddi lögün günü» adı ilə tanınması da bu səbəbdəndir. Zərdüştilik dönəmində süfrəyə «şin» (ş) hərfi ilə başlanan yeddi cür nemət qoyularmış: şərbət, şəkər, şam, şərab, şəkərbura və s. Sonralar – islam dönəmində «şərab» yasaq olunduğu üçün «şin» (ş) hərfi «sin» (s) hərfi ilə başlanan yeddi cür nemət qoyulması məqsədyönlü bilinmişdir: su, süd, səməni, səbzə (göyərti), sumaq və s. Yuxarıda qeyd etdik ki, yeddilik sistemi çərşənbələrin sayında da qorunmuşdur.

Yazın gəlişinin daha yaxın iqlim qurşağında olan xalqlar tərəfindən eyni zamanda bayram edilməsi tamamilə təbiidir. Novruzun qırğız-qazax-tacik, yaxud özbək-əfqan, eləcə də Azərbaycan-Anadolu-İran-İraq oxşarlıqları bu baxımdan bir çox başqa cəhətlərlə yanaşı, coğrafi şərait və iqlim uyğunluğundan irəli gəlir. Bununla belə, hər bir etnosun və bölgənin başqasında təkrarı olmayan bənzərsiz yaz mərasim və ayinləri mövcuddur. Məsələn, «sayaçı», «təkəçi», «kosa-kosa», «xanbəzəmə», «kilimarası», «üzüksalma», «maral oyunu», «cangülüm» və başqa bu kimi sırf elat həyat tərzindən gələn mərasim-tamaşalar təbiətin oyanışı, ilin yeniləşməsi, güzəranın, yaşayışın canlanıb qaynaması ilə bağlı yaranmışdır və istisnasız olaraq hamısı Azərbaycan-türk bədii təxəyyülünün məhsullarıdır. Məsələn, Azərbaycan Novruzunun mühüm atributu olan «kosa-kosa» mərasimində «kosa» - köhnə ilin təmsilçisi olan qocalmış keçi obrazında çıxış edir və mərasimin sonunda oyun -tamaşaya daxil olan yeni, gənc keçi tərəfindən qovulur və ya öldürülür. Burada yeni, gənc keçi yeni ilin rəmzi kimi düşünülmüşdür. Yaxud, «xanbəzəmə» mərasimində qaraqabaq xanı əyləncəli oyun və hərəkətlərə güldürmək və bundan sonra suya basmaq zəhmli, qorxulu qışı gülər günlə – yağışlı, günəşli yazla əvəzləmək istəyinin rəmzi ifadəsidir.

Novruz bir mövsüm mərasimi kimi irimiqyaslı coğrafi hüdudlara yayıldığından və hər il istisnasız olaraq uyğun təqvim məqamında böyük coşquyla keçirildiyindən müxtəlif tarixi mərhələlərdə hakim ideoloji sistemlər ondan siyasi məqsədlər üçün istifadə etməyə cəhd etmişlər. Belə ki, atəşpərəstlər Novruzu zərdüştlüklə əlaqələndirməyə çalışmış (guya Zərdüştə bu gün peyğəmbərlik verilmişdir) və hətta böyük nüfüz sahibi olduqları zamanlarda bu bayrama özlərinin bir sıra cizgilərini (səməni, şam yandırmaq və s.) daxil də edə bilmişlər. Türk folklor mədəniyyətində qədim türklərin Ərgənəkondan çıxış – qurtuluş gününün bu gün olduğu barədə çoxsaylı rəvayətlər mövcuddur. İranda Novruza sırf İran hadisəsi anlamı vermək məqsədilə onu ədalət – xilaskarlıq simvolu olan mifik qəhrəman Firudinin şər-istibdad qüvvə sayılan Zöhhakı (Dehhakı) məğlub etdiyi gün və ya mifik Cəmşid xaqanın taxta oturduğu gün sayaraq bu yöndə çoxsaylı rəvayətlər yaradılmışdır. Daha sonra bu dəfə Novruzu islama bağlamaq üçün çeşidli rəvayətlər düzəldilmişdir. İslamla əlaqəli rəvayətlərdə Novruz gah Həzrət Əlinin anadan olduğu gün, gah da onun taxta oturduğu gün, gah Fatımeyi-Zəhra ilə kəbin kəsdirdiyi gün,

gah da onların övladlarının dünyaya gəldiyi gün hesab edilir. Bü yöndəki təbliğat bayrama dini, məzhəbi don geydirmək kimi mövqeyə qədər gedib çıxırdı. Əlbəttə, bütün bunlar xalqın mənəviyyatına daha güclü şəkildə nüfuz etmək, öz siyasi-ideoloji məqsədlərini bu bayram mərasimi daxilinə yeridərək xalqın uzunmüddətli dəstəyini qazanmaq niyyəti ilə edilmişdir.

Beləliklə, indiki halda tarixin dərin qatlarından yol alıb gələn Novruz bayramının tərkibi aşağıdakı iki əsas qatdan ibarətdir:

a) təbiətin oyanmasını əks etdirən əski mifoloji qat;

b) müxtəlif tarixi dönəmlərin ovqatını ifadə və inikas edən siyasi-ideoloji qat.

Birinci qat əsas və aparıcı axarı təşkil edir. Burada mövsüm mərasiminin genetik başlanğıcı, təkamül prosesi, tarixi-tipoloji mənzərəsi və humanist-bəşəri səciyyəsi öz əksini tapır. İkinci qatda isə ayrı-ayrı epoxalara, nəhəng və möhtəşəm tarixi dövrlərə məxsus hakim sistemlərin mərasimdən məqsədli şəkildə faydalanmaq, onu öz ideoloji qəlibinə salmaq, siyasi mənafeyin icraçısına çevirmək niyyəti qararlaşmışdır. Yüzillər aşıb keçmiş, siyasi-ideoloji sistemlərin biri digərini əvəz etmiş hər yeni gələn sistem Novruzu özününkü etməyə çalışmış, ancaq buna nail ola bilməmişdir. Təbiətin oyanışını, insanın ruh və ovqatının yeniləşməsini inkişaf edən ilkin mifoloji qat xalqın etnoqrafik həyatına qovuşaraq əsil xalq bayramını ortaya gətirmişdir. Bu gün Azərbaycanda keçirilən Novruz, sözün həqiqi mənasında, ilkin qatla – təbiətin oyanışı, yazın gəlişi ilə bağlı insanın işığa, həyata, yeni günə, xoş güzərana, aydın sabahlara inamını ifadə edən saf və duru bir təqvim mərasiminə çevrilmişdir. Humanizm, quruculuq, xeyirxahlıq, xoş ünsiyyət və səmimi münasibət, insanı ucaldan, kamilləşdirən mənəvi dəyərlərə ehtiram və sayqıyla yanaşmaq tarix içində olduğu kimi indi də Azərbaycan novruzunun əsas göstəricisidir.

Ümummili liderimiz Heydər Əliyevin böyük müdrikliklə söylədiyi kimi, «insanları baharın gəlməsi, təbiətin oyanması, həyatın canlanması ilə müjdələyən Novruz bayramı tariximizin müxtəlif dövrlərində bəzi təzyiqlərə, süni maneələrə məruz qalmasına baxmayaraq, bu günə qədər gəlib çatmışdır. Bu milli bayramımızın indi dövlət səviyyəsində geniş qeyd olunması Azərbaycanın müstəqilliyinin bəhrələrindəndir». Ulu Öndərin (Heydər Əliyev) tarixi sərəncamı ilə Azərbaycan Respublikasının milli bayramlar sırasında önəmli yer alan Novruz bayramının tarixi köklərini, bu irimiqyaslı mərasim kompleksinə bağlı olan qədim adət-ənənələrimizi, süfrə-mətbəx mədəniyyətimizi, bayramlaşma etiketlərinin ortaq və regional özünəməxsusluğunu, bir sözlə, Novruzun dolğun və mükəmməl mənzərəsini elmi əsaslar və etnoqrafik təsvir planları ilə geniş oxucu auditoriyasına çatdırmaq üçün həmin istiqamətin elmi-tarixi təcrübəsi əsasında ayrıca «Novruz bayramı ensiklopediyası» yaratmaq məqsədyönlü sayılmışdır.

Dəmirqapı Dərbənddə Novruz bayramı. 2010-cu il martında hər daşına görə azı min şəhid verilən «Narınqala» divarlarının yaxınlığında axşamüstü saat 17-də möhtəşəm Novruz bayramı şənliyi təntənə ilə qeyd olundu.

Bu tədbirdə Dağıstan və Dərbənd şəhərinin dövlət xadimləri və Azərbaycandan gəlmiş qonaqlardan Dünya Azərbaycanlıları Konqresi Qadınlar Şurasının sədri, xeyriyyəçi xanım Dünya Əliyeva, Onun müavini Zahidə Məmmədsalahova (müğənni), habelə Sədaqət Qurbanova (həkim), DAK Azərbaycan nümayəndəliyinin sədri Nadir Orucov, DAK üzvü əməkdar artist Ağalar Bayramov, «Ədalətin zəfəri» qəzetinin təsisçisi və baş redaktoru Məhnaz Adilqızı, «Əlilllər dünyası» qəzetinin təsisçisi və baş redaktoru Tahir Xudiyev, gözəl saz ifaçısı Ərkinaz Eşqin, gözəl qarmon ifaçısı Müşfiqə Arifqızı, AZTV-nın əməkdaşları və başqaları iştirak etmişlər.

Dərbənd Mədəniyyət evinin üzvləri, bayram günlərində adamların çox sevdiyi «Kosa-kosa» tamaşasını oynadılar, müğənnilər mahnılar oxudular. Dağıstan uşaq rəqs özfəaliyyət kollektivinin ifasında Azərbaycanın qədim milli rəqsləri ifa edildi.

Natiqlər çıxışları ilə, müğənnilər mahnıları ilə, ifaçılar ifaları ilə məharətlərini və sevgilərini Dağıstanda yaşayan soydaşlarımıza bildirdilər. Dağıstandakı bu Novruz şənliyi xoş təəssüratlarla yadda qaldı.

Bax: «Ədalətin zəfəri» qəzeti, 2 aprel 2010-cu il, №01 (06).

Novruz bayramında ağacqorxutma – ilaxır çərşənbənin sözün sehirli təsirinə əsaslanan maraqlı ayinlərindən biri. Bar verən ağac bardan qaldıqda deyirlər ki, ağac çilləyə düşüb qısırlaşıb. Çərşənbə

günü bir nəfər – daha çox ağac sahibi, əlinə balta alıb oraya gəlir və ucadan deyir: "Ey barsız, bəhərsiz ağac, sən mənim nəyimə lazımsan?! Kəsəcəyəm səni. Belə deyib ağacın üstünə hücum çəkir. Baltanın küpü, ağzı ilə asta-asta ağacın gövdəsinə vurub onu səksəndirir, qorxudur.

Bu vaxt başqa bir nəfər –ağsaqqal onu tutub saxlayır və deyir: «A kişi, kəsmə ağacı. Mə onu zaminə götürürəm. Qarşıdakı ildə mütləq bar verəcək».

Evdəkilərdən ayağısayalı, əlibərəkətli sayılan kimsə ağacın dibinə şərbət səpir. Buraya noğul, nabat, qovurğa, səməni qoyur. Sonra bağın bir küncündə çır-çırpı yandırılıb, tüstüsü ağaclara verilir. İnanırlar ki, belədə ağac çillədən çıxıb bar-bəhər verər.

Novruz bayramı Adam Olearinin (1603-1671) yazılarında. Bu alman alimi, səyyah 1635-1639-cu illərdəki şərq səyahəti zamanı Səfəvilər dövlətində olmuşdur. O, 1643-cü ildə öz səyahətləri haqqında xatirələrini yazmışdır. Əsərdə Azərbaycanın təbiəti, tarixi, coğrafiyası, iqtisadiyyatı, əhalisinin adət-ənənələri və s. haqqında qiymətli məlumatlar var. A.Oleari Dədə Qorqudun qəbrini Dərbənddə öz gözləri ilə görmüş və ziyarət etmişdi. 1637-ci ilin martında Şamaxıda olan Adam Oleari yeni ilin – Novruzun qarşılanması mərasimini belə təsvir edib. «Astroloq tez-tez stolun arxasına keçir, öz üstürlabı ilə Günəşi müşahidə edir, saata baxır, beləliklə, Günəşin gecə ilə gündüzün bərabərlik nöqtəsinə çatacağı vaxt gözləyirdi. Elə ki, arzuolunan dəqiqə çatdı, o bərkdən elan etdi: Yeni il gəldi, təzə il başlandı. Dərhal toplardan yaylım atəşi açıldı, şəhərin qala divarları və bürclərin hər yerində qaraney (gərənay) səsləndi, təbillər çalındı və beləliklə böyük el şənliyinə başlandı…»

Novruz bayramında adqoyma – insanların və ümumiyyətlə varlıqdakı bütün nə varsa, hamısının ayrı-ayrılıqda fərdi tanıdılması əlaməti. Hər hansı bir nəsnəyə qoyulan, verilən ad təsadüfi yox, müəyyən məqsəddən doğur. Bu, bilavasitə məzmun, mahiyyətlə bağlı olur. Uşağa, əksər hallarda, doğulduğu vaxta – günlə, yer-məkanla, valideynlərinin işgücü ilə əlaqədar olaraq ad verilir.

Ululərımız təbiətin oyanması, canlanması müjdəçisi olan yazın, baharın və bu yazın başlanmasını elliklə qeyd etdikləri Novruz bayramının şərəfinə də qız və oğlanlara ad veriblər. Belə ki, övladlarını həmişə-bahar, həmişəyaşar kimi təravətli, yaz ətirli, sağlam, gümrah görmək istəyən nənə-babalar, ata-analar yazın Novruz bayramının rəmzi kimi qız uşaqlarını Bahar, Bənövşə, Yazgül, Qızılgül, Nazgül, Qızgül, Gülyaz, Süsən, Lalə və b., oğlan uşaqlarını isə daha çox Bayram, Bayraməli, Novruz, Novruzəli adlandırıb və adlandırırlar. El-obaya, yurd-yuvaya, çöl-çəmənə, dağ-daşa Bahar, Baharlı, Baharabad, Bayramabad, Novruzlu, Bayramlı, Bayrambinə, Bayramtəpə, Bayramdərə, Yazçölü, Yazbağı adları veriblər.

Vaxtilə Həmədan yaxınlığındakı Bahar əyalətlərində yaşamış, müxtəlif vaxtlarda Azərbaycan türklərinin – səlcuqların, qaraqoyunluların, ağqoyunluların, eləcə də qızılbaş tayfa birliyinin tərkibində olmuş qədim oğuz tayfası da Baharı (Baharlı) adını daşımışdır.

Novruz bayramında artırma – Novruz bayramı günlərində də uşaqların oynadıqları oyun. Bu oyun zamanı uşaqlar iki dəstəyə ayrılırlar. Püşk (çöp) atırlar. Püşk hansı dəstəyə düşsə, o dəstə aşağı əyilir. O biri uşaqlar bir-bir onların üstündən atılır, axıra çatan uşaq yerə əyilir. Bu minvalla sıra əvvəldən artır, axırdan azalır. Uşaqların hər dəstəsində on uşaq olarsa, onu da aşağı əyilir. İkinci dəstənin üzvləri bir-bir onların üstündən hoppanıb birinci dəstənin sırasında aşağı əyilirlər. Hamı atılıb qurtarandan sonra aşağıya əyilmiş yeni bir dəstə yaranır. Birinci dəstənin uşaqları bir-bir ayağa qalxıb aşağı əyilən uşaqların üstündən hoppanırlar. Bu minvalla oyun uşaqlar yoruluncaya qədər davam edir.

Novruz bayramında Aşıq Rəcəb – şeirləri Dərbənd çevrəsində dillər əzbəri olan Aşıq Rəcəb (1825-1935) uzun bir ömür sürmüşdür. Samur qəzasının Ehrək kəndində dünyaya göz açan Aşıq Rəcəb aşıq şeirinin qiymətli nümunələrini yaratmışdır. Yaz, bahar mövzusu da aşığın diqqətindən kənarda qalmamışdır.

Qarlı dağlar aşa-aşa
Gül üstünə gələn bülbül
Tər qönçəyə qondu qarğa,
Gülə həsrət qalan bülbül.

Baxmamışam yarasına,
Əzəl dərdin çarasına,
Qızılgülün arasına
Qanadını salan bülbül.

Biri güldür, bir çiçək,
Biri-birisindən göyçək,
Aşıq Rəcəb deyir gerçək
Könlü qəmlə dolan bülbül.

Novruz bayramında bayramlaşma – Novruzda bayram günündən başlayaraq qohum-qardaş, yaxın adamlar biri-birinə bayram təbrikinə, ilin-günün yeniləşməsi ilə bağlı gözaydınlığına gəlirlər. Bayramlaşmanın müddəti bəzi bölgələrdə yeddi, əksər yerlərdə isə on iki gündür. Bayramın on üçüncü gününü çöldə-bayırda, gəzintidə keçirmək məsləhət bilinir. Bayramlaşma bir neçə səviyyədə olur:

a) ailə daxilində bayramlaşma: el adətinə görə, ailənin azyaşlı üzvləri özlərindən yaşlıları (babanı, nənəni, ata-ananı, böyük bacı və ya qardaşı) əllərinə gülab səpərək təbrik edirlər. Böyüklər azyaşlılara pul və ya hədiyyə şəklində bayram payı da verirlər.

b) qohum-qonşu və dostlar-yaxınlar arasında bayramlaşma: ailə bağları olan və ya yaxın münasibət saxlayan adamlar bir-biri ilə bayramlaşırlar. Yaşlılar və ya xəstələri olan ailələr ilk öncə ziyarət olunur. Bayramlaşmaya əliboş gedilməz. Hədiyyə kimi səməni, şirniyyat, ətriyyat, qiymətli parça, əşya və s. aparılır. Bayramlaşmaya gələnlər xoş üzlə qarşılanıb bayram süfrəsinə dəvət edirlər. Bir müddət sonra həmin adamların evinə bayramlaşmaya gedirlər.

c) nişanlıların bayramlaşması: nişanlı qıza oğlan evindən ayrıca bayram payı göndərilir. Nişanlı qız isə öz adaxlısına bayram payını xəlvətcə göndərər. Keçmişdə oğlan bacadan şal sallayaraq nişanlısından öz bayram payını alarmış. Şəhriyarın:

«Ay nə gözəl qaydadı şal sallamaq,
Bəy şalına bayramlığın bağlamaq» – misralarında da bu adət öz poetik inikasını tapmışdı.

Novruzda bayram paltarı – Novruz bayramında əyin-başı təzələmək, təzə paltar alıb geyinmək qədimlərdən üzü bəri yaşayan, davam edən gözəl bir el adətidir. Adamlar yeni günə, yeni həyata təzə, təmiz geyimlə, saf bədənlə, arınmış-durulmuş ruhla qədəm basaraq öz varlıqlarını bütünlükdə yaz-bahar ovqatına kökləmək istəmişlər. Novruz bayramındakı digər atributlar kimi yeni geyim də yaşayışı, həyatı yeniləşdirmək fəlsəfəsinə bağlıdır.

Novruzda bayram payı – İlaxır çərşənbə və Novruz bayramında böyüklərin kiçiklərə, qohum-qonşunun, yaxın dostların, nişanlıların, sevgililərin biri-birinə təbrik məqsəd ilə verdikləri təmənnasız hədiyyə. Yaxınlar və ya imkanlı adamlar tərəfindən imkansızlara, xəstələrə ərzaq, paltar və s. şəklində bayram payı vermək də qədimdən qalan el adətidir.

Novruzda bayram süfrəsi – yeni ilin təhvil olmasına bir neçə saat qalmış açılan təhvil süfrəsi: evdəki işıqlar yandırılı, evdəkilər bayram süfrəsi başına toplaşır. Cürbəcür naz-nemətlər (qoğal, paxlava, şəkərbura, şəkərçörəyi, badambura, bamiyə, fəsəli, qozlu-fındıqlı halva və s.) süfrəyə qoyulur, ətirli şərbətlər, noğul və s. çərəzlər düzülür. Süfrədə şam, güzgü, qırmızı yumurta olur. Bayram süfrəsi heç vaxt səməənisiz olmaz. Təzə-tər səməninin şərəfinə alqışlar söylənilir, qədim mahnılar oxunur:

Açdı çiçək, gəldi yaz,
Eylədi quşlar avaz.
Qar üzəri səm oldu,
Hər tərəf səmsəm oldu.
Dağda çiçək səmsəmim,
Bağda çiçək səmsəmin.
Bəyaz gülüm, naz gülüm.
Dərdə dərman yaz, gülüm.

Süfrədəki səməninin ətrafında hər ailə üzvünün adına şam da olur. Şam köhnə ilin ömrünü başa vurduğu, təzə ilin daxil olduğu an yandırılır.

Xalq adətincə, yeni il hansı ovqatla qarşılansa eyni əhval ilin sonuna qədər davam edər. Odur ki, üzlər gülümsəyir, kini-küdurəti, qəmi-dərdi unutmağa çalışırlar. Gözlər süfrəyə, bolluğa və gül-çiçəyə dikilir. Ürəklərdə xoş niyyətlər, xoş arzular çoxalır. Bayram süfrəsi açılanda bütün ailə üzvləri evdə olmalıdır. Xalq inamına görə, Novruz günü evdə olmayan adam yeddi il həmin gün evdə olmaz.

Novruzda bayramlıq – adətə görə, İlaxıır çərşənbə, Novruz axşamı nişanlı qızların adına oğlan evi tərəfindən gətirilən bayram sovqatı. Saçaqlı tirmə şalla örtülmüş xonçalar, zərli boğçalar yan-yana düzülür. Sovqat ipək parça, baş yaylığı, kəlağayı, zinət əşyaları, müxtəlif «bayram yemişi», qırmızı alma, rəngbərəng yumurta, yeddi növ şirniyyat – yeddi löyün və s. ibarət olur. Xonçalar səməni və əlvan şamlarla bəzədilir. Digər xalq bayramlarında olduğu kimi, Novruz bayramında da alnına, ayaqlarına xına (həna) qoyulmuş, boynuna qırmızı parça sarınmış, boynuna zınqırov asılmış toğlu, qoc da aparılır. Gələnlər bu əziz bayram münasibətilə göz-

aydınlığı verərlər, bir-birini təbrik edərlər, el alqışlarına üz tutarlar: «Bayramınız mübarək, neçə belə bayramlara çatasınız! Ömrünüz-gününüz bahar ətirli olsun. Üzümüzə xeyirli, nurlu sabahlar açılsın», - deyərlər.

Novruz bayramında elçilik – məişət mərasimlərimizin ən məşhur və ən geniş yayılmışlarından biri olan toyun başlanğıc mərhələsi. Doğrudur, toy mərasimi və onun başlanğıc mərhələsinin zaman məhdudluğu yoxdur. Bununla belə, Novruzqabağı günlərdə elçiliyə getmək həmişə düşərli sayılmışdır. Elə zənn edilir ki, bu zaman elçiliyə getmək, qız almaq gələcəkdə qurulacaq ailəyə xoşbəxtlik gətirər, ev-eşikdə söz-sov olmaz. Xalq arasında «Novruz elçisinə ayağı sayalı olar» və s. kimi deyimlər bu səbəbdən geniş yayılmışdır.

Elçiliyə getməzdən öncə, oğlan evinin adamları istəyəcəkləri qızın nəsil-nəcabəti haqqında sorağa çıxırlar. Alacaqları qızın söykökünü öyrənirlər. Elə bir el söyləməsində də bu yön öz əksini qorumuşdur:

Mən aşiq gözəl alma,
Tutubdu gözəl alma,
Əsil al, çirkin olsun, –
Bədəsil gözəl alma.

Elçiliyə oğlan evindən əvvəlcə qadınlar gedirlər. Məsələdən xəbərdar olan qız evi də oğlanın nəsil-nəcabətini öyrənir. Aralıqda razılıq yarananda sonra məsələnin – elçiliyin vacib mərhələsi ağsaqqalların üzərinə düşür. Oğlan nəslinin ağsaqqalları elçiliyə gedirlər. Onları da qız nəslinin ağsaqqalları qarşılayırlar. Məsləhət-məşvərətdən sonra razılıq cavabı məclisə verilən şərbətlə, şirinçayla bəlliləşir.

Novruz bayramında evlənmə – iki cavanı – oğlanla qızı bir-birinə qovuşduran ailə qurmaq aktı. Novruz bayramı ərəfəsindəki günlərdə nişanlı oğlan evindən qız evinə bayramlıq aparmaqla bərabər, bu günlərdə toy edib cavanları evləndirməyə də üstünlük verilir. İnanca görə, bu günlərdə qurulan ailənin dayaqları möhkəm olur.

Novruz bayramında evgörmə – Novruz bayramı günlərində təzə evə köçənləri təbrikə getmə. Yeni ev tikənlər cəhd edirlər ki, Novruz bayramına yaxın köçüb orada yerləşsinlər. İnama görə, yeni ilin təzə evdə qarşılanması ailəyə uğur, xoşbəxtlik gətirər. Qohum-əqraba, dostlar-yaxınlar təzə evə köçənləri hədiyyələr və bayram sovqatlarıyla təbrikə gəlir, ev sahiblərinə can sağlığı, xeyir-bərəkət, xoş günlər arzulayırlar.

Novruz bayramında məzar üstə getmə – ilaxır çərşənbə axşamı və bəzən Novruz günlərində ölənlərin qəbirlərini ziyarət etmə adəti. Novruz bayramı üçün hazırlanmış nemətlərdən xonça tutulub qəbiristanlığa gedilir və bu xonça ölənin qəbri üzərinə qoyulur. Şam yandırılır. Qurandan Yasin və b. surələr oxudulur. Qəbrin ətrafı təmizlənir. Sonra hər kəs öz evinə qayıdır. Bu mərasim mərhumun xatirəsinə hörmət və ehtiram bəsləmək, onu yad etmək məqsədi daşıdığı üçün vacib sayılır. Etnoqrafik məlumatlardan və ədəbiyyat materiallarından məlum olur ki, hələ lap qədim Azərbaycanda «Ata-baba günü» adı ilə məzar üstə getmə adəti olmuşdur.

Qədim azərbaycanlılarda belə bir etiqad vardı ki, ata-baba ruhları bu dünyaya gəlib öz yurdlarının, kəndlərinin, ailələrinin həyatı ilə maraqlanır, onlar üçün qayğıkeşlik göstərir. Bu, eyni ilə axır çərşənbə bayramı etiqadları içərisində də görünür. Etiqada görə, axır çərşənbə axşamı gecəsi «ölülər... bacaya gələr, öz ailələrinin dolanışığından, bayramı nə cür keçirmələrindən xəbər tutarlar» (Bax: Ata-baba günü).

Novruz – ilin yeni, başlanğıc günü. Günəş təqviminə əsaslanan astronomik yazın-baharın yetişdiyi ilk gün, yaz gecə-gündüz bərabərliyi dini və dünyəvi baxışlardan, dünyagörüşdən asılı olmayaraq, dünyanın bir çox xalqı Novruzu yeni həyatın canlandığı ilk gün kimi qeyd edir. Azərbaycanın Rusiya tərəfindən işğalına (1813, 1828) qədər ölkəmizdə təzə il martın 21-dən başlanırmış. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) zamanında da yeni ilin Novruz bayramından başlanması haqqında xüsusi qərar verilmişdi. 1920-ci il bolşevik Rusiyası işğalı yeni ilin Novruz bayramından başlanmasını yasaq etmişdi.

Novruz bayramında oyun – xalq arasında uşaq əyləncəsi, aktyor yaradıcılığı, tamaşa, rəqs, idman və pantomima kimi sənətləri ehtiva edən sinkretik anlayış və deyim. Zəngin mənəvi mədəniyyət irsi nümunələrindən olan oyun xalqımızın həyat və məişətində (xüsusilə Novruz bayramında, toy və el şənliklərində) mühüm yer tutur. Oyun və əyləncələr öz məzmunu etibarı ilə olduqca geniş və rəngarəng olub, maddi və mənəvi yaradıcılığın bütün sahələrini əhatə edir. Xalq mənəvi sərvətlərinin digər formaları

kimi, oyun və əyləncələr də bəşər mədəniyyəti xəzinəsinə daxildir. İnsan təfəkküründən hələ gərəyincə formalaşmadığı çağlarda meydana gəlmiş «oyun və əyləncələr insanı da, insan cəmiyyətini də beşikdən başlayaraq müşayiət edir.»

«Oyun» anlayışının lüğəti mənası haqqında müxtəlif fikirlər mövcuddur. Bir fikrə görə, bu deyim «qədim şamanın digər bir adı», digər fikrə görə isə «ayin» sözünün dövrümüzədək gəlib çatmış və dəyişmiş formasıdır. Tədqiqatçılara görə, «oyun» sözünün kökü «oy»dur. Türk xalqları arasında «oy»un ağıl, zəka, hikmət mənalarında işlədilməsi də məlumdur. Ağıl və zəka sahibi sayılan şamanın işinə, fəaliyyətinə «oyun» ad-termini verilmişdir.

Əski türklərdə tanrıçılıq sistemi, göy, tanrı səviyyəsində olsa da, qədim mədəniyyət, ədəbiyyat və tariximizin elə bir sahəsi yoxdur ki, orada şamançılıq elementləri olmasın. Zaman-zaman türklər şamançılıqla bağlı inamları Uzaq Şərqə, Azərbaycana, Anadoluya, Qara dəniz sahillərinə yaymışlar. Şamançılıq dünyagörüşündən doğan Tanrı adları, inamlar, ayinlər-oyunlar da bu qaydada yayılmışdır.

«Oyun» haqqında başqa bir şərhdə bu məfhumun türklərin «oynamaq» söz kökü ilə bağlı yarandığı göstərilir. İnsanın rəqsetmə qabiliyyəti, davranışı və s. hərəkətlərinin bədən oynaqları ilə bağlılığını da bilavasitə «oynaq» sözü ilə əlaqələndirirlər.

Azərbaycan xalq oyun və əyləncələrinin kökləri çox qədimdir. Folklor, xalq musiqisi, rəqslər kimi, oyun və əyləncələr də xalqımızın həyat tərzini, təsərrüfat fəaliyyətini, adət-ənənələrin milli inkişaf səviyyəsini, arzu, istək və düşüncəsini, estetik anlamı və amalını, bir sözlə, mənəvi dünyasını müəyyən edir. Oyun və əyləncələr, eyni zamanda, Azərbaycan xalqının soykökü və təşəkkülü probleminin, etnik tarixinin, etnogenetik əlaqələrinin araşdırılmasına kömək göstərən mühüm qaynaqlardandır.

Novruz bayramında plov – düyüdən hazırlanan milli xörək növü. Novruz bayramı süfrəsinin də əsas rəmzlərindən biri. Azərbaycanın bəzi yerlərində, məsələn, Abşeron kəndlərində, plova «aş» da deyilir. Plov «süzmə» və «daşma» olmaqla iki üsulla hazırlanır. «Süzmə» pilovlar üçün, bir qayda olaraq, artımlı və yaxşı dəm alan düyü növlərindən – sədri, ənbərbu, ağqılçıq və s.-dən istifadə olunur. Bu düyülər bişiriləndə artımlı olur və o qədər də yağ aparmır. Həm də plovu yumşaq və dadlı olur. Elə düyü növləri də var ki, bişiriləndən sonra on dördünü baş-başa düzürlər və bu sıra birqanadlı qarışa boy gəlir.

«Daşma» pilovlar akulə, çiləyi və s. düyü növlərindən bişirilir. Süzmə plovun düyüsünə bəzən paxla (paxlaplov), lobya, mərci (mərciplov), əriştə (əriştəplov), yarma (yarmaplov), şüyüd (şüyüdplov), kişmiş (kişmişplov), kartof (kartofplov), boranı (boranıplov) qatılır. Plov hazırlamaq üçün bir müddət duzlu suda saxlanılan düyü suda qaynadıldıqdan sonra aşsüzəndə süzülür, un, yumurta, qatıq və yağdan hazırlanmış xəmir yayılaraq qazmaq üçün qazanın dibinə salınır (bəzən plovun qazmağı süzülmüş düyüyə qatıq, yumurta əlavə edilməklə də hazırlanır). Bu zaman düyünün üstünə yağ və dəmlənmiş zəfəran tökülür. Plovun qazmağı və qarası (xuruşu) süfrəyə ya ayrıca verilir, ya da plovun üstünə qoyulur. Plovun qaraları növünə görə, əsasən, qoyun, quş əti, balıq, yağ, yumurta, albuxara, qaysava, şabalıd, qoz, soğan, tərəvəz və digər növlərdən hazırlanır. Qaraların hazırlanması xüsusiyyətinə görə, plovun müxtəlif növləri (qovurmaplov, çığırtmaplov, cücəplov, çobanaşı, balıq döşəməsi, boranıplov, südlüplov, döşəməplov, fisincanplov, səbziplov, qiyməplov, küküplov, müsəmməplov, döymə-döşəməplov, mütəncəmplov və s.) yaranmışdır.

Novruz bayramında səbzə – Novruz bayramı süfrəsinin çərəzlərindən biri, tumsuz ağ üzüm sortlarından hazırlanan kişmiş növü. Səbzə hazırlamaq üçün iki üsuldan istifadə olunur:

1) əvvəl üzüm zəif qaynayan əhəng suyuna ani tökülüb götürülməklə pörtülür. Su ilə yuyulur və günəş altında qurudulur;
2) birinci üsuldakı kimi əvvəl üzüm pörtüldükdən sonra tüstüyə verilir və kölgədə qurudulur. Kölgədə qurudulmuş səbzənin keyfiyyəti günəş altında qurudulmuş səbzənin keyfiyyətindən daha yaxşı olur. (bax: Kişmiş)

Novruz bayramında səməni – Novruz bayramının əsas atributlarından biri. Adətən, Novruz bayramı ərəfəsində bütün evlərdə göyərdilən, bərəkət nişanəsi sayılan, taxıl-səməni. Bu məqsədlə buğda, arpa, noxud, mərci və digər dənli bitki məhsullarını islağa qoyub cücərdəndən sonra sini, məcməyi, yaxud boşqaba barmaq qalınlığında sərilir üstü dəsmal və ya tənziflə örtülür, üzərinə su çiləməklə böyüdürlər. Yazın gəlməsi, torpağın oyanması, təbiətin canlanması, yaşıllıq rəmzi sayılan səməni Novruz süfrəsində ən

görkəmli yeri tutur. Qohum-qonşular bir-birinə səməni yollayır. Təzə-tər səməninin şərəfinə alqışlar söylənilir, qədim mahnılar oxunur.

Əkinin, məhsul bolluğunun rəmzi olan səməni qoymaq çox-çox qədimlərdən adət olub. Ona görə ki, səməni taxıldır, çörəkdir, xeyir-bərəkətdir. Taxıl, bərəkət isə həyatın, dolanacağın rəhnidir, insanların yaşaması üçün vacib olan maddi bolluğun ən mühüm şərtidir.

Yazlıq əkin qabağı səməni cücərtmək ənənəsi xalqın çörəyə, qüdsiyyətə ehtiramı, səcdəsi kimi rəmzi mahiyyət daşımış, azərbaycanlıların şifahi poeziyasında bolluq, səadət arzusunu ifadə etmişdir.

Yunan filosofu, yazıçı və tarixçi Plutarx (bizim eranın təxminən 46-127-ci illəri) göstərmişdir ki, qədim Azərbaycanda (Midiyada) taxılı müqəddəs bitki saymaq adəti geniş yayılmışdı. Bu adət hər dəfə ilin başlanğıcında (yazda) icra edilirdi. Çox maraqlıdır ki, bu adət səməni göyərtmək şəklində bizim günlərə gəlib çıxmışdır.

Səməninin varlığı, həyatverici gücü, mənası taxıldır, torpağa tapınmaqdır. Səməni göyərtməklə ümidini, arzusunu, ruzusunu göyərtmiş əkinçi babalarımız:

Səməni, ay səməni,
Göyərdərəm mən səni.
Sən gələndə yaz olur
Yaz olur, avaz olur.
Xoşdur Dədənin sazı,
Yazda ötkəm avazı.
Səməni, can səməni,
Göyərdərəm mən səni.
Səndən mən can istərəm
Dammara qan istərəm.
Qanım təmiz gərək,
sənsiz qanım olmaz.
Cansız sannım olmaz.
İllətimin loğmanı,
Yamanlığın Amanı,
Göyərdərəm mən səni.
Yazda könül şad olur,
Damağımda dad olur,
Qada, illət yad olur,
Səməni, ay səməni,
Göyərdərəm mən səni.
Başım, dişim ağrımasın
Ağrılarım yarımasın,
Düşmənlərim qarımasın.
Cancığazım üzülməsin,
Gözlərimə süzülməsin.
Səməni, ay səməni,
Göyərdərəm, mən səni.
Səməni, can səməni,
Gözlərimə işıq ver,
Dizimə taqət gəlsin,
Qoluma qüvvət gəlsin.
Səməni, ay səməni,
Sən gələndə yaz olur,
Saz olur, avaz olur.
Səməni, saxla məni
Göyərdərəm mən səni.
Səməni, al məni,
Hər yazda,
Sən yada sal məni.
Səməni, saxla məni,
Cöyərdərəm mən səni.

Məşhur el nəğmələrində həzin bir yalvarışla: «Səməni, saxla məni…» – oxuyaraq onları saxlamasını, hifz etməsini istəyirlər. «İldə göyərdərəm səni» - deyə vəd edərək səməninin hər il göyərdəcəklərinə, başqa sözlə, əkin-becərmə işlərinə hazırlaşacaqlarına, torpağa qayğı və nəvaziş göstərəcəklərinə, bolluq yaradacaqlarına söz verirlər.

Novruz bayramında şəkərbura – Novruz bayramı süfrəsinin şirniyyat növlərindən biri. Şəkərbura bişirmək üçün buğda unu, süd, kərə yağı, maya, badam (yaxud fındıq, qoz) ləpəsi, şəkər tozu, yumurta və zəfərandan istifadə olunur. Acımış xəmiri yayıb içərisinə çəkilmiş (üyüdülmüş) ləpə ilə şəkər tozundan hazırlanmış iç (ətirli olmaqdan ötrü hil, gülab da qatılır) qoyulur və yarımdairə şəklində qatlanır, qıraqları burma naxışlarla bükülür, üstü naxışlanır.

Novruz bayramında şəkərçörəyi – Novruz bayramı süfrəsinin şirniyyat növlərindən biri. Əla növ buğda unu, ərinmiş kərə yağı və qənd ovuntusundan (bu olmadıqda şəkər tozundan) hazırlanır. Ərinmiş kərə yağı qənd ovuntusu, yaxud şəkər tozu ilə həcmi 1,5 dəfə artana qədər çalınır və üzərinə un tökülüb xəmir hazırlanır. 70-80 qramlıq girdə kündələrin üzərinə yumurta sarısı sürtülür və bişirilir.

Novruz bayramında şorqoğalı – Novruz bayramı süfrəsi üçün də bişirilən girdə çörək, kökə. Xə-

mirinə maya qatılmış kökənin içərisinə un, yumurta, yağ, duz, raziyanə, cirə, darçın, sarıkök, istiot və s. qatılmış içlik əlavə edilir, üzərinə yumurta sarısı çəkilərək xaş-xaş səpilir. (bax: Qoğal)

Novruzda Şum bayramı – qədim xalq əkinçilik bayramı. Yaz fəslinin əvvəlində elliklə yaz işləri görülür, toxumlar saf-çürük olunur, yaz əkininə – şumlama işinə hazırlaşırlar. Sahələrə çıxıb əkinə əl qoyur, cüt qoşur, əkinə başlayırlar. Bunu edə bilməyən şəxs əkin sahəsinə gedib, torpağı, heç olmazsa, iki-üç bel çevirməlidir. Əkin sahəsinə cüt çıxarılan gün, torpağa xış, kotan ağzı dəyən gün əsil bayram olur.

Ənənəyə görə, yaz şumu mərasimi keçiriləndə evlərdə qovurğa qovurmazlar. Guya qovurğa quraqlıq nişanəsidir, quraqlıq arzulamaq deməkdir. Əqidəyə görə, torpağa atılan dən ki var, qanbir-canbir qardaşlarının sac üstündə qovrulmalarına dözmür, onlar da yanıb tələf olur, küsür, cücərib torpaqdan baş qaldırmır. Bu səbəbdən də Novruzqabağı tumaçıxma dövründə evlərdə buğda göyərdir, səməni goyurlar. Səməni Novruz bayramının əkinçilik təsərrüfatı ilə bağlılığını göstərir. Çal-çağır başlayır, hamı şənlənir, deyib-gülür, çalıb-oynayırlar. Küsülülər mütləq barışmalıdırlar. Yoxsa zəmidə taxılın alağı, dənin zayı artıq olar. Sonra bir cüt öküzü çulla, bəzək əşyaları ilə bəzəyirlər. Kəllərin buynuzlarına çörək keçirir, kəlağayı, qırmızı parça bağlayırlar.

El-obanın ümumi adətinə görə, ilk şırımın açılmasını ömrü-günü əkində, biçində keçmiş əliçörəkli, ayağı sayalı, süfrəsi bərəkətli ağsaqqala etibar edirlər. O da ən yaxşı paltarını geyinib sahəyə çıxır, əkiləcək yerin torpağından bir ovuc xışmalayır, sonra öküzləri xısa qoşub şuma başlayır. Bu zaman ağız-ağıza verib oxuyurlar:

Qurban olum əyri xışa,
Get o başa, gəl bu başa.
Əlin var olsun, baba,
Sən ellə, obayla yaşa.

Torpaq şumlandıqca hamı sevinir, gülür, oynayır, bir-birinin üstünə torpaq, papaq, qurşaq və digər şeylər atır və deyirlər: «Bolluq olsun, bolluq olsun, çörəyimiz bərəkətli olsun». Bununla da babalarımız qarşıdan gələn ilin bol ruzulu, bərəkətli keçməsini arzulayırlar. Əkinin kənarında heyvan kəsilir, onun dərisi ən güclü öküzün belinə döşənir, ətinin ən yaxşı tikələri ilk şırım açana verilir. İlk şırıma bəzi yerlərdə «qarabas» da deyilir. Elə ki qarabas şırımı açılır, hamı bilir ki, daha dayanıb-durmaq vaxtı keçdi, tarla işlərinin dövranı başladı. Əkinçilərin dilində əməyi yüngülləşdirən ritmik holavarlar qatarlanır:

Bahar gəldi, yer oyandı,
Soyuq qışın yası gəldi.
Ala öküz çək kotanı,
Örüşlərin yazı gəldi.

Qızıl öküzüm, yeri.
Qoyma şum qala geri.
İti tərpən, maralım,
Paxıllar baxır bəri.

Öküz qıymaz canını,
Bilməz qamçı sanını.
Qayış çəkən qaşqa kəl
İş üstündə tanını.

Qara kəl, ilim barı,
De, dərdin bilim barı.
Məni mağmın eyləmə
Açılmış dilim barı.

Qoşa kəlim boz, ala.
Tarlaya saldım yola.
Tay öküzə iş aşmaz,
Öküz gərək cüt ola.

Qızıl öküz soldaldır,
Novruz payı bal dadır,
Şən şumu tez çıx başa
Hər nəmərin daldadır.

Əkinçilər toxum kisəsi, səpin dəstgahı ilə şum üstünə çıxanda sevinir, fərəhlənir, bir-birlərinə gözaydınlığı, xeyir-dua verirlər:

- Şumunuz bərəkətli, xeyirli olsun!
- Biri min olsun, a qonşu!

Toxum səpilməmişdən xeyli əvvəl əkin sahəsinə «arat suyu» verilir. Təcrübəyə görə, həmin su torpaqda rütubəti artırır, toxumun tez və sağlam cücərməsinə kömək edir. Əsil hünər, təpər toy-bayramına çevrilən bu çal-çağır ellərimizdə «şum bayramı» adı ilə məşhurdur.

Novruz bayramında üzərlik – el inamına görə, qoruyucu, şəfaverici keyfiyyətə malik bitki. Çöl, yarımsəhra və səhralarda, bəzən yaşayış yerlərində, yol kənarlarında və s. yerlərdə bitir. Şərq xalqları, o sıradan azərbaycanlılar arasında gözdəyməni sovuşdurmaq məqsədilə üzərlik yandırmaq adəti yayılmışdır. Novruzda, axır çərşənbə axşamı gecəsində qış çilləsindən çıxmaq üçün üzərlik yandırıb tüstüsünü oğul-uşağa, ev-eşiyə verirlər.

Tonqal üstündən tullananlar oda üzərlik səpirlər. Özü də yandırılan məqamda belə bir deyim də söyləyirlər:

Üzərliksən, havasan,
Cəmi dərdə davasan.
Balama göz vuranın
Gözlərini ovasan.
Üzərliklər çırtlasın,
Yaman gözlər partlasın.

Çörlü-çöplü üzərlik,
Başı börklü üzərlik.
Bizi çilədən çıxart,
Göstər hökmün üzərlik.

Atın bədöydü, üzərlik,
Otun gömgöydü, üzərlik
Qada-bala sovuşdur,
Haydı-hoydu, üzərlik.

Bu, dərd-bəlanın ailədən uzaq olması, göz dəyməməsi kimi bir inamla bağlıdır. Göz qaytarmaqdan, nəzər sındırmaqdan, xata-balanı uzaq eləməkdən ötrü üzərlik yandırmaq adətinin çox qədim kökləri vardır. Bu etiqad bütün orta əsirlər boyu davam etmişdir. Nizaminin «İskəndərnamə» əsərində üzərliklə əlaqələndirilən inam öz əksini belə tapmışdır:

Üzərlik yaxarlar göz dəyən üçün,
Od yaxıb-yandırar dərdi büsbütün.

Novruz bayramında zorxana – Novruz bayramı günlərinin oyun və əyləncələri içərisində zorxana («güc-qüvvə evi», «hünər, zor yeri» deməkdir) oyunları daha geniş yayılmışdır. Zorxana idman oyunlarının mərkəzi - sarayı olmuşdur. El-obanın adlı-sanlı pəhləvanları müntəzəm olaraq zorxanada toplaşar, məşq edər, bir-birləri ilə yarışar, həm də gəncləri mübariz ruhda tərbiyələndirərdilər.

Azərbaycan Tarixi Muzeyində saxlanılan orta əsrlərə aid zorxana oyunlarında istifadə olunan milli idman alətləri (zorxana milləri, toppuzlar, yekbargirlər və s.) canbaz geyimləri (pəhləvan-güləşçilərin şalvarları və s.) bu cəhətdən çox maraqlıdır.

Orta əsrlərdə mövcud olmuş zorxanalar XIX əsr -XX əsrin əvvələrinədək bəzi cüzi dəyişikliklərlə Dərbənd, Təbriz, Ərdəbil, Marağa, Urmiya, İrəvan, Gəncə, Bakı, Naxçıvan, Ordubad, Quba, Lənkəran, Şəki, Bərdə, Şuşa, Şamaxı və s. şəhərlərdə hələ də fəaliyyət göstərirdi. Lakin çox təəssüflə etiraf etməliyik ki, son zamanlar zorxana ənənələri unudulmaqdadır.

Gücsınama yarışları üçün nəzərdə tutulmuş zorxana binası, adətən, ortasında kiçik günbəzi olan, tavanlı məscid, hamam və ya türbəni xatırladır. Binanın böyük zalının səqfı tağlarla örtülü olur. Zalın ortasında 200-300 tamaşaçının oturduqları səki ilə əhatələnmiş və eyni vaxtda 15-20 idmançı tutan oyun meydançası (süfrə) yerləşir. Oyunları süfrəyə yaxın hündür yerdə oturan təlimçi-murşid idarə edir. Süfrədə oyuna başçılıq edən «miyandar»ın işarəsi ilə musiqi çalınar və oyun başlanardı. Ənənəvi zorxana oyunları rəqs şəklində həyata keçirilir, «Cəngi» musiqisinin sədaları, yaxud nağaranın çox sürətli zərbələri altında müşayiət olunur. Buradakı oyunlar kompleks oyun silsiləsindən («sinə oyunu», ya «quluncsındırma», «mil oyunu», «ayaqdöymə», «kəbbadə» və ya «kəmanə», «səngidaşqaldırma», «çərxi» və ya «təndövrə», «güləş» və ya «qurşaqtutma») ibarətdir və biri digərinin ardınca icra edilirdi.

Mil oyunu barədə H.Sarabski yazırdı: «...Hərə əlinə bir mil alıb başının üstünə qaldırardı. Bu arada dumbul çalınardı. Dumbul əvvəlcə lap ahəstə, sonra get-gedə zilə qalxıb yenə də enərdi. Mil oynadan adam da həmin ahənglə başının üstə milləri hərləyərdi. Oyun qurtardıqdan sonra camaat onları alqışlardı. Bəziləri camaata xoş gəlmək üçün mili tək əlilə yuxarı atıb yenə dəstəyindən tutardı. Yaxşı mil oynadanlar mili qıçının altından da atıb havada tutardı».

El şənliklərində, xüsusilə Novruz bayramında zorxanalar daha təmtəraqlı görünər, səməni, bayram xonçaları, rəngli yumurtalarla bəzədilər, pəncərələrə və taxçalara qırmızı parçalardan örtüklər salınar, hər tərəf məşəllərlə işıqlandırılardı.

Zorxanalarda pəhləvanlar qara zurnanın cəsarət, güc, qüvvət, inam, döyüşkənlik, dönməzlik, yenilməzlik aşılayan zil səsi, zərb alətlərinin gur sədası altında meydanı gəzər, igid cavanları güləşə (qurşaqtutmağa) çağırardılar:

Əl-qolunu çatdadaram,
Ay oğlan!
Bağrını çatdadaram,
Ay oğlan!
Nişanlını alıb qaçaram,
Ay oğlan!
Bəlalı başına bəlalar açaram,
Ay oğlan!

Zorxana iştirakçıları toppuzla, daşla, zəncirlə də oyun göstərərdilər. Pəhləvanlar hər əlində bir toppuzu qaldırar və onları ahəngdar tərzdə başları üzərində fırladar, sinələri önündə hərlədər, çiyinlərinə, böyürlərinə vurar, ya da toqquşdurardılar. Bəzən toppuzların hər ikisi birdən və ya növbə ilə yuxarı atılar və yenə oyunçunun əlinə düşərdi. Vaxtilə Şəki-Zaqatala bölgəsində, Bərdədə zorxana oyun-tamaşaları açıq havada, xalq toy mərasiminin bir hissəsi kimi də mövcud olub. Burada müəyyən bir süjet və ardıcıllıq üzərində qurulmuş ənənəvi zorxana oyunları rəqs şəklində, musiqi və mahnılarla müşayiət olunardı.

Bu baxımdan Naxçıvanda qələmə alınmış oyun-əyləncə daha çox maraqlıdır: böyük bir meydanda «Cəngi» havası altında zorxanalar qurulur, pəhləvanlar üz-üzə dayanıb meydanın qızışmasını gözləyirdilər. Meydanı dövrəyə almış adamlar pəhləvanların güləşindən əvvəl bu nəğməni oxuyurdular:

İki iyid çıxdı meydana,
İkisi də bir-birindən mərdanə.
Həzrəti-həmzə pirimiz.
Aradıq tapdıq bir-birimiz.
Əl başda, diz yerdə,
Güləşəyim düz yerdə.
Haqqış-haqqış,
Bərk yapış.
Əldən çıxdı,
Topuqdan yapış.
Biz deyərik maşallah,
Siz deyin bərəkallah.
Maşallah deyənin
Gözünə nur,
Maşallah deməyənin
Gözünə kül.

Güləş başlanardı. Pəhləvanlar güləşib qurtarandan sonra zorxana yığışdırılardı.

Orucluq bayramı. Müsəlmanların müqəddəs bayramı Ramazan ayına yekun vuran, bir aylıq pəhrizin bitdiyini bildirən bayram. O, Ramazan bayramı da adlanır. Ramazan ayında böyüklər, sağlam olanlar oruc tutmalıdırlar. İl ərzində günah işlər tutmuş müsəlmanlar oruc tutmaqla günahlardan təmizlənə bilərlər. Orucluq göydə təzə ayın çıxması ilə başlanır. Orucluq 29-30 gün davam edir. 30 gündən sonra Səvvəl ayının biri bayram edilir. Oruc tutanların xüsusi gün rejimi olur. Axşamdan yemək hazırlanır. Səhər açılmamışdan, qaranlıq hələ tam götürülməmişdən ailə süfrə başına yığılır və yemək yeyir, çay içir. Səhər yeməyi «obaşdan» (imsak) adlanır. Sonra gün ərzində nə yemək yeyilirdi, nə də heç bir maye içilirdi. Axşam, şər qarışan zaman məscidin damından verilən azan axşam yeməyinin vaxtını bildirir və insanlar axşam yeməyinə başlayırlar. Axşam yeməyi «iftar» adlanır. Belə 30 gün davam edirdi. 30-cu günü oruc tutanlar öz ölülərini yad etmək üçün qəbiristanlıqlara gedir və onların ruhlarına dua oxuyurdular. Axşam hər bir evdə bayram süfrəsi bəzənir, aş və başqa yeməklər hazırlanırdı. Bayrama şorqoğal və başqa şirniyyatlar da bişirilirdi. Həmin gün insanlar bir-birinin evinə qonaq gedir, bişirilən təamlardan yeyir və bir-birini müqəddəs Ramazan bayramı münasibətilə təbrik edirlər. Həmin gün kasıblara «zəkat-əl-fitrə» paylayırlar. Bayram günü hər ailə üzvünə görə evdən müəyyən məbləğ və ya miqdarda «fitrə» çıxardılır.

Mövlud günü. Məulid-ən-Nəbi və ya Məulid günü Məhəmməd peyğəmbərin (570-632) anadan olan günüdür. Məhəmməd peyğəmbər rəbiəl-əvvəl ayının 12-də anadan olmuşdur. Məhəmməd peyğəmbərin anadan olma günü 300 il keçdikdən – İslamın yaranmasından xeyli sonra qeyd edilməyə başlandı. Çünki Məhəmməd peyğəmbərin anadan olma tarixi dəqiq məlum deyil. Məhəmmədsəlavatullanın günü onun ölüm günü, 632-ci il səfər ayının 28-nə aid edilir. Məhəmməd peyğəmbər çox ağıllı, qeyri-adi insan, islam dinini insanlara gətirən və dərin siyasətçi olmuşdur. O, bəşər tarixində son peyğəmbərdir - xatəmdir.

Mövlud günü məscidlərdə Məhəmməd pey-

ğəmbərin şəfərinə dualar oxunur, nəzir verilir. Həmin gün Dərbənddə gəbiristanlığa gedilir, ölülər yad edilir, dua oxunur və dadlı yeməklər hazırlanır.

Mirac (merac) bayramı. Mirac – Məhəmməd peyğəmbərin Məkkədən Yerusəlimə (Qüds şəhərinə) möcüzəvi səyahəti günü və onun Allahın səma taxt-tacına ucalması (merac günü) günüdür. Peyğəmbərin gecə səyahəti haqqında rəvayət 621-ci ilin rəcəb ayının 27-nə aiddir. Bu tarix bir çox müsəlman ölkələrində, o cümlədən Dərbənddə də qeyd olunur. Həmin gün Qurandan ayələr oxunur, namaz qılınır, peyğəmbərin həyatından maraqlı hədislər danışılır.

Zeylət-əl-Qədr. Zeylət-əl-Qədr günü Ramazan ayının 27-si gecəsinə düşür. Zeylət-əl-Qədrin müqəddəsliyi ondadır ki, həmin gecə Məhəmməd peyğəmbərə Quranın ilk ayələri nazil olmağa başlamışdı.

Hesab olunur ki, həmin gecə Allah hər bir insanın namaz qılan vaxtı dediyi duaları, xahişini və xeyir işlərini nəzərə alaraq onun taleyi haqqında qərar verir. Ona görə də Zeylət-əl-Qədri məsciddə Quran surələrini oxumaqla, Allaha və mələklərə dualar etməklə keçirmələri yaxşıdır. Dərbənddə həmin günü əsasən Cümə məscidində qeyd edirlər.

Bax: С.А.Султанов, Г.Э.Зейналов. Дербент и известные люди. Баку, 2004, стр.100-103.

Bazar günü — istirahət və dirilmə günü də deyilir. 1896-ci ilin may ayında Dərbənd şəhər müvəkkillərinin iclasının qərarı ilə müəyyən olunmuşdur. Bu sənədə əsasən «daimi bazarın düzgün təşkil olunması məqsədilə hər bazar günü şəhərdə «bazar günü» kimi təyin olunmuşdur. Qəbul olunmuş qərar haqqında Kürə dairəsinin, Qaytaq-Tabasaran vilayətinin və Quba qəzasının rəislərinə əhalini bu barədə məlumatlandırmaq tapşırılmışdır. Bu günlərdə, saat 12-dək şəhərin bütün ticarət və sənaye müəssisələrinin işləməsi qadağan olunmuşdur.

Dərbənd şəhərinin bazar meydanında ticarətlə məşğul olmağa yalnız kənd yerlərindən gəlmiş kəndlilərə icazə verilirdi. Alverçilərin qarşısını almaq məqsədilə topdansatışa icazə verilmirdi.

XALQ OYUNLARI

Azərbaycanda xalq oyunları və Dərbənd. Azərbaycan xalqının yaratdığı çox zəngin mənəvi mədəniyyət irsi nümunələrindən biri də xalq oyun və əyləncələridir.

Azərbaycan xalq oyun və əyləncələri haqqında məlumatlara qədim yunan, latın, Suriya, ərəb, fars, türk yazılı qaynaqlarında da rast gəlinir.

Orta əsrlərdə Azərbaycan torpağını qarışqarış gəzib-dolaşmış, Dərbənd, Şabran, Şamaxı, Bakı, Şəki, Gəncə, Lənkəran, Ərdəbil, Naxçıvan, Təbriz, Marağa, Qəzvin kimi şəhərlərimizdə aylarla qonaq qalmış, ticarət etmiş, diplomatik danışıqlar aparmış Avropa səyyahlarının və diplomatlarının (A.Cenkinson, A.Oleari, Yan Streys, A.Düma, J.Şarden və b.) xatirələrində xalqımız barədə, onun qədim mənəvi mədəniyyəti, o cümlədən oyun və əyləncələri, rəqsləri və tamaşaları haqqında olduqca maraqlı və qiymətli məlumatlar vardır. Yazıçı və tarixçilərin əsərlərində, abidələrdə, miniatür rəsmlərdə, orta əsrlərdə yaşayıb-yaratmış şairlərimizdən Qətran Təbrizinin, Xaqaninin, Nizaminin, Nəsiminin, Xətainin və b. əsərlərində xalq oyun və əyləncələri (çövkən, oxatma, atçapma, güləşmə, nərd, şahmat – şətrənc və s.) haqqında zəngin məlumatlar öz əksini tapmışdır.

Nizaminin əsərlərində orta əsrlərdə Azərbaycanda geniş yayılan «çövkən», «kəbbədə», «üzük-üzük», «kəndirbazlar», «kilimarası» və başqa neçə-neçə el oyun və əyləncələrin təsviri verilmişdir.

Bax: Azərbaycan etnoqrafiyası. Üç cilddə. III cild. Bakı, «Şərq-Qərb», 2007, səh.467, 474.

İSLAMAQƏDƏRKİ DİNİ İNANCLAR

Dərbənddə qədim dini etiqadlar – dünyanın bir sıra xalqlarında olduğu kimi, Azərbaycanda da islamdan əvvəlki dövrdə bir çox qədim dini inamlar, etiqatlar və mərasimlər geniş yayılmışdır. Azərbaycanda islamaqədərki etiqadların aşağıdakı formaları mövcud olmuşdur: daş ayini, su ayini, ağac ayini, od ayini, kosmoqoniya ilə bağlı etiqadlar və i.a.

Azərbaycanda islamın yayılması 639-cu ildə ərəblərin Azərbaycana yürüşü ilə bağlıdır. 643-cü ildə onlar artıq Dərbəndi fəth etmişdilər.

Xəlifə Osmanın (644-656) dövründə ərəblərin Şimali Azərbaycana yürüşü daha da genişləndi. Yerli əhali yeni dinə bütün məhrumiyyətlərdən və azablardan xilas olmaq vasitəsi kimi baxırdı. Əndəluslu Həmid əl-Qərnatinin məlumatına görə, Dərbəndin dağ kəndlərində hələ islamı qəbul etməyən atəşpərəstlər var idi.

İslam Azərbaycanda əvvəlki sosial-mədəni təsisatları ciddi transformasiyaya uğratdı. Hər bir ölkədə olduğu kimi, burada da islamın yerli şəraitə uyğunlaşdırılmış lokal xüsusiyyətləri formalaşırdı. Əxlaqi və milli dəyərlər islamla sıx bağlıdır. İslam milli sərhədləri aşaraq beynəlxalq əhəmiyyət daşıyır, müxtəlif xalqları vahid bayraq altında birləşdirir, xalqlar arasında qarşılıqlı yardım və xeyirxahlıq hisləri aşılayır.

Bax: Azərbaycan etnoqrafiyası. Üç cilddə. III cild. Bakı, «Şərq-Qərb», 2007, səh.403, 419, 420.

Dərbənd və zərdüştlük – Zərdüştlük dünya dinlərindən ən qədimidir və cox güman ki, onun bəşəriyyətə birbaşa, yaxud dolayısilə təsiri başqa dini etiqadlardan daha çox olmuşdur. Bir çox tədqiqatçıların hesab etdiyi kimi, zərdüştlik e.ə. 2-ci və 1-ci minilliklərin ayrıcında meydana gəlmişdir.

Bu monoteist dinin banisi Zərdüşt ideologiya tarixində ilk dəfə olaraq, dini formada olsa da, sosial Şər problemini qaldırmış, qətiyyətlə Xeyirlə Şəri bir-birindən ayırmış və fərqləndirmiş, bu kateqoriyaların qarışıq salınmamasını tələb etmişdir.

Zərdüştlükdə odun və od kultunun əhəmiyyətini qiymətləndirməmək mümkün deyildir. Avestada və zərdüştilikdə od o qədər böyük rol oynamuşdur ki, zərdüştiləri çox zaman «atəşpərəst» adlandırırlar. Zərdüşt səcdəgahında odu sönməyə qoymur, ona səcdə edilir, onun şərəfinə məbədlər ucaldılırdı.

Zərdüştlük Cənubi Azərbaycanın ərazisində artıq e.ə.1-ci minilliyin ilk əsrlərindən yayılmağa başlamışdır.

Son onilliklərin tədqiqatları zərdüştlük ideyalarının Şimali Azərvaycan, o cümlədən Dərbənd ərazisində də dərin kök saldığını və geniş yayıldığını göstərir. Abşeronun bir çox yaşayış məskənlərində yanan təbii yanar qazlar – «əbədi» odlar qədim zamanlardan buraya Şərqin müxtəlif ölkələrindən zərdüşti möminləri və zəvvarları cəlb etmişdir.

XVIII əsrdə Suraxanıda daşdan tikilmiş bir neçə qədim od məbədi mövcud idi, lakin zərdüştilər yalnız birindən istifadə edirdilər. Suraxanıdakı qədim od məbədləri bizim günlərədək qorunub saxlanmamışdır.

Arxeoloqların Dərbənd şəhəri yaxınlığında aşkarladığı bir neçə zərdüşti qəbirləri Azərbaycanın bu zonasında da zərdüştlüyün yayılmasını sübut edir.

Azərbaycanda zərdüştlüyün geniş yayılmasını təsdiqləyən mühüm əlamətlərdən biri də qədim dövrlərdən indiyədək Novruz bayramının mövcudluğudur. Odla saflaşma özünün dini mahiyyətini itirərək Novruz bayramının mühüm atributlarından birinə çevrilmişdir.

Azərbaycanın, demək olar ki, hər yerində od üstündən tullanmaqla, od vasitəsilə saflaşma, təmizlənmə mərasimi və ənənəsi qalmaqdadır. İnsanlar, sanki, odun müqəddəs, saflaşdırıcı gücünə inanmaqda davam edirlər.

Bax: Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. «Azərbaycan» cildi. «Azərbaycan Milli Ensiklopediyası» Elmi mərkəzi, Bakı, 2007, səh. 153-154.

Zoroastrizm (atəşpərəstlik) – qədim və erkən orta əsrlərdə Orta Asiyada, İranda, Əfqanıstanda, Azərbaycanda, o cümlədən Yaxın və Orta Şərqdə yayılmış dindir. Hal-hazırda zoroastrizmə Hindistanda parslar və İranda gəbrlər sitayiş edirlər.

Zoroastrizmin vətəni qədim İran sayılır. Bu din b.e.ə. IV və X əsrlər arasında yaşamış Zərdüşt pey-

ğəmbərin adı ilə bağlıdır. Dinin əsas kitabı – «Avesta»dır. Zoroastrizmin əsas prinsipləri: Axuramazdaya – vahid Allaha inam, xeyirlə şərin bir-birinə qarşı qoyulması. Odur ki, «Avesta»ya görə, hər bir insanın borcu – yaxşılıq etmək, hər şeydə: təbiətdə, cəmiyyətdə, öz qəlbində şərlə mübarizə aparmaq. Atəşpərəstlik mərasimində əsas rolu od oynayır, ona görə də bu din atəşpərəstlik dini adlandırılır.

Məlumdur ki, atəşpərəstliyin məşhur tərəfdarı II şah Yezdəgird (438-457) özünün Cənubi Qafqaz əyalətlərində bu dini məcburi yaymağa başladı. Onların sırasına şimal sərhəddi qədim Dərbənddən keçən Qafqaz Albaniyası da daxil idi. Bu məcburiyyət İrana qarşı böyük üsyana gətirib çıxartdı.

Y.İ.Kozubskinin məlumatına görə (1906), XIX əsrin sonunda Dərbənd yaxınlığındakı «Qarovul təpə»də arxeoloji qazıntılar zamanı atəşpərəstliyin qalıqları tapılmışdır.

I Şah Abbasın dövründə (1587-1629) bayat türk qəbiləsindən atəşpərəstlik dinini qəbul etmiş olan 1000 nəfər adam köçürülmüşdür. Şəhərin qədim məhəlləsinin Bayat ocağı adlandırılması atəşpərəstliyi qəbul etmiş şəhər sakinlərinin bilavasitə adı ilə bağlıdır.

TOPONİMLƏR

Dərbənd və «Kitabi-Dədə Qorqud» dastanında toponimlərin təhlili. XI-XII əsrlərdə Azərbaycanın tərkibinə daxil olduğu Səlcuq imperiyası dövründə buraya cənubdan çoxsaylı oğuz tayfalarının gəlməsi müşahidə olundu. Onlar öncə burada məskunlaşmış yerli türk tayfaları ilə getdikcə qaynayıb-qarışmışlar.

Orta əsrlərdə Dərbənddə olmuş bütün Avropa müəllifləri şəhərin şimal divarının arxasındakı «böyük oğuz qəbiristanlığı» haqqında məlumat verirlər. Tarixçi R.Maqomedovun məlumatına görə, «…Axtıda (Cənubi Dağıstan rayonunda eyniadlı inzibati mərkəz), kükürdlü hamama çatmamış güney tərəfdə «Oğuzyəhya» adlı qəbiristanlıq yerləşmişdir». Digər Dağıstan alimi A.R.Şıxsəidov yazır ki, bu qəbiristanlığın biri «Oğuzrin surar»dır (ləzgicə «Oğuz qəbiristanlığı»).

Oğuz təsirinin izləri Dağıstanın toponimlərində də qalmışdır. Belə ki, Cənubi Dağıstanda (hal-hazırda burada ləzgidilli xalqlar məskunlaşmışlar), demək olar ki, bütün yaşayış məntəqələri ləzgicə «xur» əvəzinə türk termini olan «kənd» və «qazmalar» terminləri ilə qeyd olunmuşdur: Məhərrəmkənd, Qasımkənd, Tahirkənd, Şıxıkənd, Qurkənd, Butkənd, Zöhrabkənd, Saytarkənd, Qoşkənd, Yaraqqazmalar, Samurqazmalar, Xtunqazmalar, Makaqazmalar, Darquşqazmalar, Bilbilqazmalar, Tahirkəndqazmalar, Kəbirqazmalar, Çaxçaxqazmalar və s. Hidronimləri ləzgicə «vats» əvəzinə türk termini olan «çay»la qeyd olunmuşdur: Darvaq çay, Usex çay, Qurax çay, Axtı çay, Rubas çay, Gilgil çay, Qoçxu çay və s. Toponimlər: Qızıldərə, Alamişe, Doqquzpara, Altıpara, Aşağı Arkit, Yuxarı Arkit, Aşağı Stal, Orta Stal, Yuxarı Stal, Yuxarı Zahid, Yaşıltəpə, Daşlıkənd, Qarakürə, Qaradərə, Şalbuzdağ, Bazardüzü, Qurax, Qurudağ, Qurandağ, Danabaşı və s., həmçinin açıq-aydın göründüyü kimi, türk-oğuz mənşəlidir. Belə türk toponimləri Dərbənddən şimalda da izlənilir. Qədim türk dilinin təsiri Dağıstan xalqlarının dilində də açıq-aydın hiss olunur. Belə ki, çoxsaylı sözlər ümumdağıstan üçün səciyyəvidir: parsuq, qaz, tula, sarımsaq, qazma, yaylıq, yarma, təpə, örüş, düzən, bulaq, qızıl, çaxmaq, gümüş, paxır, qalay, kadaq, qol, koy, bars, saman, və s. sözlər şübhəsiz qədim türk mənşəli sözlərdir. Dilçilik üzrə mütəxəssislərin fikrinə görə, hal-hazırda ləzgi dilinin lügətində sözlərin və terminlərin 50%-dən çoxu türk-oğuz mənşəlidir.

«Kitabi-Dədə Qorqud» dastanı çoxplanlı mifoloji fonu olan əsər olmasına baxmayaraq, tarixən real hadisələri əks etdirir. Ona görə də dastanın boylarında baş verən hadisələrlə bağlı çoxlu coğrafi toponimlər vardır.

Belə ki, dastanda tez-tez «kafir sərhədi» kimi söz birləşmələrinə rast gəlinir. Dərbənd ərəb Xilafətinin şimal sərhəddi olduğu üçün bu söz birləşmələri bilavasitə Dərbəndə aiddir. Ərəb mənbələrində və XI əsrə aid olan yerli «Dərbəndnamə» salnaməsində Dərbəndin şimal ərazilərini «kafirlər ölkəsi» adlandırırdılar. Bəzi ərəb mənbələrində bu əraziləri

«Dər-əl-hərb» («Müharibə ərazisi» yəni «kafirlər ölkəsi», onlarla islam dini naminə aparılan müharibə müqqəddəs hesab olunurdu). Hazırda şəhərin şimal divarının arxasındakı əraziləri Dərbəndin yerli sakinləri bu gün də Kafəri (Kafirlər hissəsi) adlandırırlar. Şəhərin cənub ərazilərini isə Müsulmanı, yəni Müsəlman hissəsi (ərəb dilinin analoqu ilə «Dər əl-islam»-«İslam ərazisi»). Bundan əlavə, şəhərin şimalında «Kafirdağ», «Gəur-qaya» (Kafirqaya), «Gəur-dərə» (Kafirdərə) yerləşir.

Dastanın 11-ci boyunda «Duman qala» toponimi xatırlanır. A.Bakıxanov «Gülüstani İrəm» ensiklopedik əsərində Dərbəndin şimalında-Qəmridən Sulak çayına qədər paytaxtı Aqran olmaqla «Dumanşahın ölkəsi» haqqında məlumat verir və əlavə edir ki, Sasani şahı «… Ənuşirəvan Duman qalasında Duman tayfasından olan qarnizonları orada qoyur və onlardan Dumanşah adlı hökmdar seçir.» «Dərbəndnamə» salnaməsində qeyd edilir ki, Xosrov I Ənuşirəvan (531-579) «Duman tayfasına İhrandan Xəmriyə kimi olan torpaqları verir və Dumanşah adlandırılan hökmdar təyin edir. Onun arxasınca Qaytaq gəlir. Qaytağın yuxarı hissəsi… Qübəçidir. Qaytaqdan sonra Tabasaran gəlir.». Dərbənddən şimalda yerləşən vilayətlər hazırda da öz qədim adlarını qoruyub saxlamışlar. Ərəb mənbələri hicri tarixi ilə 117-ci ildə (737/8) Dərbəndin ərəb hökmdarı Mərvanın Şimalı Dağıstana yürüşünü təsvir edərək «Duman qalasının» ərəblər tərəfindən çətinliklə mühasirəyə alınması haqqında məlumat verirlər.

Qeyd etmək lazımdır ki, dastanda Azərbaycanın, Gürcüstanın, Türkiyənin, İranın, İraqın, Suriyanın, Ərəbistan yarımadasının ərazisində yerləşən 58 toponimin adı xatırlanır. Bu toponimlərin çoxu (32 toponim) Azərbaycanın ərazisindədir. Dastanda bu toponimlərdən ən çox Dərbənd toponiminə («Dəmirqapı Dərbənd» formasında) rast gəlinir.

Tədqiqatçıların yekdil fikrinə görə, dastanın baş qəhrəmanı Dədə Qorqud türk bayat tayfasından idi. Tədqiqatçıların bu fikri dastanda olan məlumatlara əsaslanır. Belə ki, dastanın müqəddiməsi bu sözlərlə başlanır: «Rəsul əleyhüssalam zamanına yaxın Bayat boyundan Qorqud Ata derlər bir ər qopdu.»

Çoxsaylı yazılı mənbələrə və bizim günlərədək qorunub saxlanmış rəvayətlərə əsasən türk bayat tayfası Dərbənddə və şəhərin ətrafındakı ərazilərdə, çox qədim zamanlardan məskunlaşmışdı. Cənub şəhər divarının ən qədim şəhər qapıları Bayat-qapı (bayat tayfasının qapıları), bu qapıların yaxınlığındakı yaşayış rayonu isə Bayat məhəlləsi adlanır. Şəhərin cənub hissəsinə yaxın məsafədə Bayatlar kəndi yerləşirdi. Hələ XIX əsrdə rus müəllifləri bu «Bayat kəndi» haqqında məlumat verirlər. Bu gün də yerli sakinlər şəhərin yaşayış məhəllələrindən birini Bayat-ocağı adlandırırlar. Bu tayfanın içərisindən çıxmışlardan XVI əsrin məşhur tanınmış şairi, Dərbənd aşıq məktəbinin banisi Bayat Abbası, şəhərin tarixində mühüm rol oynamış məşhur ictimai-siyasi xadimlərdən - Dərbəndin orta əsrlər hökmdarı Məhəmməd Hüseyn bəy Bayatı, şəhərin naibi Əli Pənah bəy Bayatı (XVIII əsrin əvvəlləri), Əhməd bəy Bayatı və başqalarını göstərmək olar. Qədim ozanın adı - «Qorqud» komnozit atrtrononimdir və iki hissədən ibarətdir: «qor» və «qud». Birinci hissə «qor» və «alov» («məşəl», «köz») deməkdir. İkinci hissəsi «qud» isə türk mənşəlidir və Azərbaycan dilinin Dərbənd dialektində «qəlb» deməkdir.

Beləliklə, «Qorqud» Azərbaycan dilinin Dərbənd dialektində semantik olaraq - «Alovlu qəlb», «Yanar ürək» deməkdir. Bu da qədim müdrik və böyük ozan surətinə bütün tamlığıyla uyğundur.

Xəzər dənizi – Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İran ərazilərində dəniz. Dünyada ən böyük qapalı su hövzəsi və göldür. Avropa ilə Asiyanın sərhəddindədir. Tarixi mənbələrdə Xəzərin yüzədək adına (Xəzər, Kaspi, Hirkan, Quba, Dərbənd, Bakı, Əkfudə, Cürcan, Təbəristan, Alban, Abaskun, Qunduz, Quz, Xvalis, Quzğun, Saray, Bab əl-Əbvab və s.) rast gəlinir. Hələ eramızın I əsrində yaşamış Roma müəllifi Plini göstərirdi ki, sahilboyunda yaşayanlar arasında dənizin çoxlu adı vardır. Bu adların yaranması müəyyən tarixi-siyasi şəraitlə bağlı olmuşdur. Dəniz çox vaxt onun sahilində yaşayan xalqların (kaspi, xəzər, alban, quz (oğuz), türkmən, bəhr əl-ətrak (ər. «türklərin dənizi» deməkdir), yaxud yaxınlığındakı ölkə, tarixi vilayət və yaşayış məntəqələrinin (Dərbənd, Şirvan, Abaskun, Təbəristan, Xorasan, Muğan, Bakı, Saray, Deyləm, Gilan və s.) adı ilə adlanmışdır. Lakin bu adlardan yalnız Kaspi və Xəzər adı daha çox işlənməkdədir. «Kaspi» bu dənizin qədim və ən çox yayılmış adlarından biridir. Toponim özündə Qafqaz Albaniyasında yaşamış kaspi tayfasının adını əks etdirir. Onların adı ilk dəfə e.ə. V əsrdə yaşamış Herodotun «Tarix» əsərində çəkilmişdir. Xəzər isə

orta əsrlərdən başlayaraq Şərq mənbələrində dənizin ən çox işlədilən adlarından biridir. Dəniz öz adını erkən orta əsrlərdən Şimali Qafqazın şərqində və Volqa çayının aşağı axarında yaşamış və qüdrətli Xəzər xaqanlığı yaratmış türkdilli xəzər tayfasının adından almışdır. Xəzərlər başqa türkdilli tayfalarla (suvar, bulqar, hun və s.) birlikdə Azərbaycan xalqının etnogenezində mühüm rol oynamışlar. Onların Cənubi Qafqaz ərazisində görünmələri barədə tarixi mənbələrdə müxtəlif məlumatlara təsadüf edilir. «Kartlis Sxevrebo» («Gürcüstanın həyatı») adlı qədim gürcü mənbəyində e.ə. IV əsrdə Kartlidə əhalinin altı dildə, o cümlədən xəzər dilində danışdığı qeyd olunub. Xəzərlərin Azərbaycana axını I-III əsrlərdə daha da gücləndi. Sasani hökmdarı II Şapur (309-379) və Xosrov I Ənuşirəvanın (531 - 579) dövründə on minlərlə xəzər ailəsi Azərbaycanda yerləşdirildi. 679-cu ildə xəzərlər Arranı tutaraq yüz əlli ildən çox burada hökmranlıq etmişlər. Azərbaycanı işğal etməyə çalışan ərəblərlə xəzərlər arasında təqr. yüz il davam edən müharibə Xilafətin xeyrinə nəticələndi. 965-ci ildə Kiyev knyazı Svyatoslav Xəzər xaqanlığına dağıdıcı yürüş etdikdən bir müddət sonra xəzərlər siyasi fəaliyyət meydanından çıxdılar və tədricən müxtəlif türk xalqları, o cümlədən azərbaycanlılarla qaynayıb-qarışdılar. Azərbaycanda xəzər etnonimi ilə bağlı bir çox toponim mövcuddur.

Bax: Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki cilddə. I cild. Bakı, «Şərq-Qərb», 2007, səh. 244.

Çora (Çoqa) – Dərbənd rayonunda Xəzər dənizi və Qafqaz dağlarının şərq silsiləsi ilə yaranmış dar keçidin erkən orta əsr adı. Bu etnonim alban, gürcü və yazılı mənbələrində V əsrdən məlumdur. Bəzi tədqiqatçılar hesab edirlər ki, bu etnonim daha erkən dövrlərdə də mövcud olmuşdur.

Beləki, V əsr müəllifi Moisey Kalankatlı «Çöl» türklərinin IV əsrin birinci yarısında Qafqaz Albaniyasının ərazisinə gəlməsi ilə əlaqədar yazmışdır ki, Sasani şahı II Şapur (309-379) alban çarına «Çora dərəsindən keçib onun ətrafında 4 il məskunlaşmış şimal xalqların hücumundan» canını qurtarmaqda kömək etmişdir.

«Çora darvazası» ifadəsinə V əsr müəllifi Aqafanqelin yazılarında da rast gəlinir.

V əsr Suriya salnamələrinin birində də «şahənşah» II Yezdəgirdin (439-457) Çor (Çol) vilayətinə yürüşü haqqında məlumat verilir.

Zaman keçdikcə bu etnonim keçidi bağlayan qalaya da «keçir». Bəzi yazılı mənbələr bu qalanın tikintisini II Yezdəgirdin hökmranlığı dövrünə aid edirlər.

Sonrakı nəsil müəlliflərin əsərlərində aşağıdakı adlarla rast gəlirik: «Çor qapıları», «Çoqa knyazlığı», «Çor keçidinin şəhəri», «Böyük Çoq şəhəri», «Çora qapısının yanında şəhər».

Dağıstanın bəzi dillərində Dərbənd hazırda da Çurul (lək), Çulli (dərgi), Çor (avar) Salli (Tabasaran) adları ilə tanınır. Tədqiqatçı Q.A.Qeybullayev bu adı burada yaşamış türklərin – çolların adı ilə bağlayır.

Çol (Çola) – Dərbəndin qədim adı. Yazılı mənbələrdə Çol (Çola), Çoq (Çoqa), Çor (Çora), Tsur, Sul (Çul) formasında verilir.

«Çol (Çul) qalası» - yazılı mənbələrdə 1001-ci il hadisələri ilə əlaqədar son dəfə xatırlanır. Bu adı ərəb adı Bab əl-Əbvab sıxışdırıb çıxarmışdır. Məşhur tədqiqatçı N.K.Piqulevskaya qeyd edir ki, müxtəlif mənbələrdə rast gəlinən Çol, Çor, Sul – adları Xəzəryanı düzənliklərdə eyni məna verir. M.İ.Artamonov inamla sübut edir ki, Çol (Çor) adını Dərbəndlə bağlamaq lazımdır. Bu gün onunla praktiki olaraq bütün nüfuzlu müəlliflər razıdırlar.

Tədqiqatçılar bu qədim toponimi müxtəlif cür şərh edirlər. Bəziləri onu İran toponiminə aid edirlər, bəziləri isə, onu skif-sarmat dil materiallarının köməyi ilə izah edirlər, üçüncülər bu adda erməni «çol» (yarğan) adını axtarır, bu toponimin kökünü Pamirin yaqnov dilinə aid edir, dördüncülər isə onun mənşəyini Qafqaz dilləri əsasında izah etməyə çalışırlar. Görkəmli Azərbaycan alimi Q.A.Qeybullayev «çol» («çul») türk etnoniminin mənşəyini bu vilayətdə yaşayan daşıyıcıların adı ilə bağlayır. Bu tayfanın həmin rayonda yaşaması II əsr yunan coğrafiyaşünası Klavdi Ptolomey tərəfindən («sulon (çulon)») xatırlanır.

Türkdilli çol xalqı qədimdən məlumdur. Akademik V.V.Bartold onları qədim oğuz tayfasından çıxmış «col» tayfasına aid edir. Məlumdur ki, türkdilli «çol» tayfaları Şərqi Xəzəryanı – hazırki Türkmənistanın ərazisində də yaşamışlar. Bu tayfanın məskunlaşdığı vilayət Çol, Çul, Çor, Sul adlanmışdır. Sonralar çollar maskut tayfaları ilə birlikdə Şimali və Qərbi Xəzəryani düzənliklərdən keçərək Qafqaz Albaniyasının şimal-şərq vilayətlərinə daxil olaraq burada məskunlaşmışlar. Maskutların yeni məskunlaşdığı vilayət mərkəzi Çola şəhəri olmaqla yazılı mənbələrdə Maskut şahlığı kimi

tanınmışdır. Bəzi mənbələr bu rayonu Çola vilayəti adlandırır. Erkən orta əsərlərdə türk çolların burada yaşaması haqqında alban tarixçisi Moisey Kalankatlı da məlumat vermişdir.

Bu rayonda məskunlaşmış çollar haqqında IX əsr ərəb tarixçisi ət-Təbəri göstərirdi ki, Xəzər ölkəsində «çul» adlandırılan xalq yaşayır. Onun məlumatına görə, Sasani şahı Xosrov I Ənuşirəvan (521-579) Qafqazın şərq hissəsinin qurtaracağında, Sul (Çul) keçidi ilə qonşuluqda yaşayan çul xalqı ilə müqavilə bağlamışdır.

Müsəlmanlar – şəhərin cənub divarlarının arxasındakı ərazlərin adı. O, bu ərazilərdə müsəlmanlar yaşadığı üçün belə adlanırdı. «Müsəlman bağları», «Müsəlman qəbiristanlığı» adları da buradan götürülmüşdür.

«Kafirlər» – şəhərin şimal divarı tərəfində ərazi. Bu ərazinin adı kafir (ərəbcə əl-kafirun), yəni islama sitayiş etməyənlər sözündən götürülmüşdür.

Kafir yüksəklikləri – Rusiya şəhər inzibati idarəçiliyindəki rəsmi sənədlərdə şəhərin şimal tərəfində yerləşən yüksəkliyin adı. Əvvəllər burada Kür piyada alayı və əsgər şəhərciyi yerləşirdi. Qazı Mollanın dəstəsi şəhəri mühasirəyə aldıqda (1832) alayın kazarmaları və əsgər şəhərciyi yandırılmışdır. Qazı Mollanın dəstəsi getdikdən sonra Kür piyada alayı və əsgər şəhərciyi şəhərə köçürülmüşdür. Sonralar bu yerlərdə məşhur şərabçı, istefaya çıxmış mülki müşavir K.Koçergin üzüm bağları salmışdır. Ona görə də yerli sakinlər bu rayonu «Koçergin», «Koçerginin bağları» adlandırırlar.

Şəhər – Dərbəndin qədim yerli adlarından biri. Bu ad hazırda Dərbəndin yerli əhalisi tərəfindən istifadə olunur. Orta əsrlərdə, başqa şəhərlərdən fərqli olaraq, «şəhər» sözü ilə dövlət paytaxtları və mühüm şəhərləri adlandırılırdı. Dərbənd uzun əsrlər bu şəhərlərin sırasına daxil idi. Dərbənd Sasani imperiyasının şimal sərhəddində forpost, Qafqaz Albaniyasının «patriarx taxt-tacı» yerləşən xristianlığın mərkəzi, Qafqazda Ərəb Xilafətinin dayağı və mühüm müsəlman şəhəri, Dərbənd əmirliyinin və sonra Dərbənd xanlığının paytaxtı idi.

Yunan şəhəri – qədim Dübarə Dərbənd şəhərinin dənizkənarı hissəsinin ikinci adı kimi bəzi müəlliflərin əsərlərində rast gəlinir.

Qədim mənbələrin məlumatına görə, Kolxidada ticarət məkanları olan Yunanıstanı müasir Abxaziya və Kluxor aşırımlarından keçməklə Şərqi Qafqazı ticarət yolu birləşdirirdi. Ona görə də yunan tacirlərinin Qərbi Xəzəryanı rayonlara, həmçinin qədim ticarət mərkəzi olan Dərbənd də daxil olması mümkün idi. Görünür, Dərbəndin qədim ticarət mərkəzi olan Dübarə ikinci adını bura gələn yunan tacirlərindən almışdır.

Divin evi – şəhərin cənub hissəsinin 5 km-də Qaf adlandırılan dərədə yerləşir. 1858-ci ilin noyabrında Rusiyaya səyahəti zamanı Dərbənddə olmuş məşhur fransız romançısı A.Düma (ata) özünün «Qafqaz» əsərində bu yeri belə təsvir etmişdir: «… Daşkəsənin yaxınlığında, dağ sularının özünə rahat yol düzəltdiyi, hazırda dibi ilə balaca çay axan yer. Rəvayətə görə bu dərədə divlər məskunlaşmışlar. Çayın dibi divlərin evinə gedən yeganə yoldur. Biz ağacın budaqları altından, yosunbasmış daşların üstü ilə gedirdik və budur qarşımızda həmin mağara. Mağaraya daxil oluruq: mağara getdikcə genişlənir və burada çoxlu sümük qalıqları vardır».

Xursan – Kəlbəcər rayonu ərazisində dağ. X əsrə aid mənbədə Xursan Dərbəndlə Şirvan arasında yerləşən knyazlığın adı kimi yad olunur. Tədqiqatçılar bu toponimi xorus/gorus etnonimi ilə bağlayırlar.

Köhnə Xudat –- 1. Xaçmaz rayonunun eyniadlı kəndi. Samur – Dəvəçi ovalığındadır; 2. Qusar rayonunun eyniadlı kəndi. Qusar maili düzənliyindədir. 1900-cü ildə Biləcəri-Port-Petrovsk (Mahaçqala) dəmiryol xəttinin çəkilişi ilə əlaqədar burada tikilən stansiyaya Xudat adı verilmişdir. Xudat kəndi yeni yaradılmış stansiyadan əvvəl salındığı üçün Köhnə Xudat adlandırılmışdır. Sonradan yarandığı üçün kənd əhli arasında Törəmə də adlanır.

Maskatar (məsqətlər) düzü – Xəzər dənizi sahilində düz. Xaçmaz və Qusar rayonları arasında yerləşir. Ehtimal olunur ki, eramızın əvvəllərində Qafqaz Albaniyasının şimali-şərqində (indiki Dərbənd – Beşbarmaq zonası) məskunlaşmış maskut (masqat, massaget, məsqət) tayfasının adından və cəmlik bildirən – ar şəkilçisindən ibarət olub, «maskutlar» mənasındadır.

Mikayıllı – 1.Cəlilabad rayonunun Xanəgah kəndi. Burovar silsiləsinin ətəyindədir. Kəndi mikayıllı nəslinə mənsub ailələr saldığına görə belə adlanmışdır; 2.Xocalı rayonunda kənd. Kənd 1990-cı ildə ermənilərlə mübarizədə həlak olmuş polis baş leytenantı Mikayıl Cəbrayılovun adı ilə adlandırılmışdır. Bu kənd ermənilər tərəfindən yandırıl-

mışdır. 3.Neftçala rayonunun Sarıqamış kəndi. Salyan düzündədir. Keçmiş adı Kötüklü olmuşdur. Kəndin yeri əvvəllər meşəlik olmuş, XIX əsrdə mikayıllı nəslinə mənsub ailələr meşənin ağaclarını qıraraq, kötükləri çıxarmış və burada kənd salmışlar. Ona görə də bu kəndə əvvəlcə Kötüklü, sonra isə Mikayıllı adı verilmişdir. Tərkibində Mikayıl antroponimi olan coğrafi adlara nəinki Azərbaycan toponimiyasında, həmçinin Dağıstanın toponimi - yasında da rast gəlinir; məsələn, Mikayılxur kəndi (Dağıstan, Dərbənd rayonu). Bu oykonimdəki xur ləzgi dilində «kənd» mənasındadır, avar dilində isə «əkin yeri», «şum» mənasındadır.

Samur – Dağıstan və Azərbaycan ərazisində çay. Dağıstanda Xalaxur – Qəs aşırımının (3600 m. yüksəklikdən) yanından başlanır və Xəzər dənizinə tökülür. Aşağı axarı Azərbaycan və Dağıstan arasında sərhəd xətti təşkil edir. Uzunluğu – 216 km. Bu çaydan Qəleysuvar dağı yaxınlığında Samur – Dəvəçi və Samur – Dərbənd kanalları başlanır. Hidronim IX – XII əsrlərə aid ərəb mənbələrində Samur, Sandur, Sambur variantlarında qeydə alınmışdır. Toponim türkdilli xalqların toponimiyasında geniş areala malikdir: X əsrdə Uralda Samur, XIX əsrdə Kubanda Samurlu, Tambov dairəsində Samursk kəndləri, Cənubi Azərbaycanda Samburçay (Qarasu çayının sağ qolu), Sistan çayı yaxınlığında Samur qalası, Lvov vilayətində Sambur, Ermənistanda Samurlu, Samburlu kəndləri və s. Tədqiqatçıların bəziləri bu toponimləri samır adlı türk etnonimi ilə əlaqələndirir, bəziləri isə Samur adlı heyvanla bağlayırlar. Əslində, hidronim bir çox qədim dillərdə, o cümlədən türk dillərində işlənən sam (böyük) və mur (çay) komponentlərindən ibarət olub, «böyük çay» mənasındadır.

Tatar – 1. Cəbrayıl rayonunun Sirik kəndi. Qarabağ silsiləsinin ətəyindədir; 2. Qubadlı rayonunun Xocahan kəndi. Dağətəyi ərazidədir. Oykonim özündə türk tayfalarından olan tatarların adını əks etdirir. Erkən orta əsrlərə aid Orxon-Yenisey yazılı abidələrində də tatarların adı çəkilir. Tatar etnonimi ilk dəfə VI-IX əsrlərdə Baykal gölünün cənub şərqində köçəri həyat sürən monqol tayfaları arasında qeydə alınmışdır. XIII əsrdə monqol işğalları dövründə tatarların adı avropalılara da məlum oldu. Həmin dövrdən başlayaraq monqol işğalları zamanı Azərbaycana gəlmiş tatarların bir qismi burada məskunlaşdılar. Monqol dövrü tarixinin görkəmli Azərbaycan tədqiqatçısı Rəşid-əd-Din monqol yürüşlərində türkdilli tayfaların iştirakından danışarkən Qafqazda tatar etnoniminin iştirakı ilə 14 toponim qeyd edir. Keçən əsrin əvvələrində Zəngilan rayonunda Tatar Kosalar, Zəngilan və Bərdə rayonlarında Tatarkənd adlı yaşayış məntəqələri olmuşdur. Tatar qayası (Qax rayonunun Armudlu kəndi), Tatar qaya (Laçın rayonu, Haqnəzər kəndi), Tatarlılar yaylağı (Laçın rayonu, Alxaslı kəndi), Tatar dərəsi (Zəngilan rayonu, Vejnəli kəndi; Cəbrayıl rayonu, Kürdlər kəndi), Tatar düzü (Cəbrayıl rayonu, Nüsüs kəndi), Tafallar (Beyləqan rayonunda) və s. də məlumdur. Dağıstanın Dərbənd rayonunda Tatarxankənd kəndi, Rusiyanın Novosibirsk vilayətində Tatarsk adlı şəhər, Krımın Baxçasaray və Simferopol rayonlarında Tatarköy, Tatar Osman, Tatarıstanın Əlki rayonunda Tatar Suiksu, tatar Şəpkəse adlı yaşayış məntəqələri qeydə alınmışdır.

Bayat ocağı – Dərbənd şəhərindəki 3-cü məhəllənin adıdır. Mənbələrin verdiyi məlumatlara əsasən, bu rayonda insanların məskunlaşmasından əvvəl, burada bayat tayfasının müqəddəs məbədi yerləşirdi. Bu toponim Dərbəndin qədim Azərbaycan-türk yurdu olduğuna daha bir sübutdur.

Tatlı – 1. Ağstafa rayonunun eyniadlı ərazisində kənd. Dağətəyi düzənlikdədir. Yaşayış məntəqəsi XIX əsrdə Qazax qəzasında yaşamış tatlı nəslinin adı ilə bağlıdır. Bu tayfanın Azərbaycanda yaşayan irandilli tat etnik qrupu ilə əlaqəsi yoxdur. Türk dillərində tat sözü həm etnonim, həm də «əkinçi, biçinci, oturaq həyat keçirən» və s. mənaları kəsb edir. Ona görə də keçmişdə Azərbaycan əhalisinin maldarlıqla məşğul olan hissəsi Cənubi Azərbaycandan mövsümi muzdla işləməyə gələnlərə də tat deyirdilər. XIX əsr məlumatına görə, yerli əhali biçin və döyüm vaxtı cənubdan gələn və tat adlanan biçinçilərdən istifadə edirdi. Bəzən aileləri ilə birlikdə gələn biçinçilər burada həmişəlik qalırdılar. Kənd əhalisi də məhz Cənubi Azərbaycandan gələnlərdir. Onlar əvvəlcə Pərəkar adlı düzdə oturaqlaşmış, sonra isə Həsənsu çayının kənarında məskunlaşmışdılar. Kənd onların adı ilə adlandırılmışdır; 2. Samux rayonunun Zazalı eyniadlı ərazisində kənd. Gəncə – Qazax düzənliyindədir. Yaşayış məntəqəsi vaxtilə Cənubi Azərbaycandan gəlmiş ailələr tərəfindən salınmışdır. Tat komponentli toponimlər həmçinin Dağıstan və Gürcüstan ərazisində də mövcuddur: Tatlar kəndi, Tatavul kəndi (Dərbənd rayonu), Tatuşağı (Kaspi rayonu).

DİL

Azərbaycan dili. Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dili, onun əhalisinin əsas ünsiyyət vasitəsidir. Azərbaycan dili Ural-Altay dilləri ailəsinin türk dili qrupunun oğuz yarımqrupuna daxildir və ən yaxın qohumları olan türk, türkmən və qaqauz dilləri ilə birlikdə türk dilləri arealının cənub-qərb qolunu təşkil edir.

Azərbaycan ədəbi dilinin 800 ilə yaxın tarixi iki böyük dövrə – əski və yeni dövrlərə bölünür. Əski dövr XIII-XVII əsrləri, yeni dövr isə XVII əsrdən sonrakı mərhələni əhatə edir.

Tanınmış alimlər Q.A.Qeybullayev, Ə.İ.Muxtarova öz əsərlərində qeyd edirlər ki, islamın Albaniyada, Arranda, o cümlədən Dərbənddə yayılmasında, möhkəmlənməsində köçkün ərəb tayfalarının müstəsna rolu olmuşdur. Lakin köçkün ərəb tayfaları böyük üstünlüklərə malik olsalar da, onların dili dinin rəsmi dili olsa da onlar Azərbaycandakı etnik prosesdə ciddi dəyişiliklər edə bilmədilər. XIV əsrdə ərəblərin bir hissəsi türkdilli əhali, bir hissəsi isə (şimali-şərqdə) tatlar tərəfindən assimiliyasiyaya uğradı. Quba rayonunun Afurca, Fırıq və b. kəndlərinin tat dilində danışan əhalisi ərəb mənşəli hesab olunur. XIV əsrdə ərəblərin Azərbaycan dilinə keçməsi göstərir ki, hələ bu dövrə qədər Azarbaycan danışıq dili artıq mövcud idi. Köçürülmüş ərəblərin əsas hissəsi türkləşmiş və Azərbaycan dilinə keçmişdir.

Azərbaycan xalqı oğuzların təsiri altında yaranmamış, çətin etnogenezin məhsulu olaraq ilk əsrlərdən VII-VIII əsrlərə qədər şimaldan türk tayfalarının buraya daxil olması və qədim türk özəyinin türk etnik komponentlərinin iştirakı ilə yaranmışdır.

Obyektiv elmi tədqiqatlar sübut edir ki, Azərbaycanda aborigen xalqın formalaşmasından da xeyli əvvəl burada türk əhalisi sayca çox böyük üstünlük təşkil edirdi, çünki xalq etnik prosesin yekun məhsuludur. Vətənimizdə türkdilli Azərbaycan xalqının formalaşması uzun müddət – b.e.ə. VII-VI əsrlərdən b.e. X-XI əsrlərinə qədər davam etmişdir. Bu prosesin belə uzun çəkməsi bəzi obyektiv tarixi faktlarla izah olunur. Belə ki, feodal quruluşu zamanı ölkədə siyasi parçalanma mövcud idi və yeni-yeni türkdilli tayfaların ölkəyə axını baş verirdi. Bütün bunlar etnik prosesin getməsində çətinlik yaradırdı.

Yeni dövr Azərbaycan ədəbi dilinin müasir mərhələsində mühüm hadisələrdən biri Azərbaycan ədəbi dilinin dövlət dili statusu alması oldu. Müstəqil dövlətin mühüm atributlarından biri olan dövlət dili məsələsi Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) hökumətinin diqqət mərkəzində olmuşdur. 1918-ci il 27 iyun tarixli qərarı ilə Cümhuriyyət hökuməti o zaman türk dili adlanan Azərbaycan dilini dövlət dili elan etdi. Hökumət qeyri millətlərdən olan Azərbaycan vətəndaşlarının dövlət dilini öyrənmələri üçün tədbirlər görür, bu məqsədlə kurslar təşkil edirdi.

Şimali Azərbaycanda yeni sovet-rus işğalından (1920) sonra da dil siyasəti mühüm əhəmiyyət kəsb etmişdir. Şimalı Azərbaycanın 1991-ci ilə kimi SSRİ-nin tərkibində olmasına baxmayaraq, Azərbaycan dilinin orta məktəblərdə tədrisinin əsryarımlıq, universitet və institutlarda tədrisinin isə təxminən bir əsrlik tarixi var.

Azərbaycan dili dövlət dili kimi Azərbaycan SSR Konstitusiyasında (1978) təsdiq olunmuşdur. Müstəqil Azərbaycan Respublikasının ümumxalq referendumunda (1995) qəbul edilmiş Konstitusiyasında dövlət dilinin məhz Azərbaycan dili kimi yer alması Heydər Əliyevin adı ilə bağlıdır.

Bax: 1. Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. «Azərbaycan» cildi. «Azərbaycan Milli Ensiklopediyası» Elmi mərkəzi, Bakı, 2007, səh. 151.

2. Г.А.Гейбуллаев. К этногенезу азербайджанцев. Баку, 1991.

3. Ə.İ.Muxtarova. Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər). Dərslik. Bakı, 1999, 362s.

Azərbaycan dilinin formalaşması və Dərbənd. Tarixi-arxeoloji araşdırmalar şimalda Dərbənddən cənubda Zəncanadək, qərbdə kiçik Asiyadan şərqdə Xəzər dənizinədək geniş bir ərazini əhatə edən tarixi Azərbaycan torpaqlarının ən qədim insan məskənlərindən olduğunu təsdiq edir. Əsrlər ötmüş, bu ərazidə e.ə. III-II minilliklərdə yaşamış kuti, lullubu (lullubi), hürri və başqa tayfaların yaratdıqları qəbilə ittifaqları, qurumlar e.ə. I minilliyin əvvəllərində mannalı-

ların güclənməsi ilə əlaqədar təşəkkül tapmış vahid dövlət qurumu ilə əvəz olunmuşdur. Həmin dovrü bu və ya digər münasibətlə araşdıran müxtəlif tədqiqatcılar öyrənilən ərazi əhalisinin etnik mənsubiyyətinin müəyyənləşdirilməsi üçün yazılı, arxeoloji və etnoqrafik materialın bütün mümkün növlərindən istifadə edərək, son nəticə kimi biri digərinə zidd fikirlər söyləsələr də, xalqımızın etnik mənsubiyyət, etnogenez problemini aydınlaşdırmağa çalışmışlar. Azərbaycan xalqının tarixində özünün taleyüklülüyü ilə seçilən bu problemin həllində tələsik söylənilən fikir və mülahizələrin böyük mənəvi zərərini, fikir sahiblərinin ayrı-ayrılıqda hər birinin elmdə tutduğu sanballı mövqeyini, eləcə də yüksək elmi-nəzəri bilik, dərin tədqiqat bacarığı və peşəkarlıq tələb edən bu problemin həllində dünya tarixşünaslığında qəbul və təqdir ediləcək son sözün hələ mütləq deyiləcəyini nəzərə alaraq, alimlərimizin öyrənilən sahədə bu gün əldə etdikləri əsas nəticələri təqdim edirik.

Belə ki, Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov adına Tarix İnstitutunun hazırlayıb çap etdirdiyi «Azərbaycan tarixi»nin I cildində müəlliflər (əsasən, akademik S.N.Əliyev) e.ə. II minilliyin sonu – I minilliyin başlanğıcında Azərbaycan ərazisində, həmçinin Dərbənddə yaşamış tayfaların dillərini təhlil edib və avtoxton əhalisi haqqında geniş məlumat vermişlər. E.ə. XIV-XIII əsrlərin qovuşuğunda başlanmış dəmir dövrünün əvvələrində əski ictimai, mədəni və müəyyən qədər etno-mədəni və dini ənənələr keçmişdə qalmağa başladı. Lakin həmin ənənələrin bəzilərinin izlərini daha sonrakı zamanlarda izləmək mümkündür. Tayfaların talelərini dəfələrlə dəyişdirmiş gur hadisələrə, müxtəlif səciyyəli dəyişikliklərə və sarsıntılara baxmayaraq, nəzərdən keçirilən dövrdə burada etnomədəni və dil baxımından keçmiş tarixi mərhələlərin nəsilləri - Kavkasion və Aralıq dənizi antropoloji tiplərinə aid olanların, Şimal-Şərqi Qafqaz ailəsinin dillərində (şimalda) və hurri, lullubi və digər dillərin (cənubda) dialektlərində danışanların nümayəndələri ilə bağlı olan avtoxton əhali yaşayırdı.

Arxeoloji və antropoloji materiallar, habelə yazılı mənbələr əsasında demək olar ki, bölgənin avtoxton əhalisi müəyyən müddət ərzində nisbətən sabit qalmışdır. Lakni prinsipial baxımdan əhalinin bu cür müəyyənləşdirilməsi, «avtoxton əhali» anlayışı şərtidir. Çünki tayfalar ayrılır, özlərinin ilkin yaşayış yerlərini tərk edərək uzaqlara gedir, uzaq bölgələrin sakinləri ilə qaynayıb-qarışır, yeni məskənlərdə «aborigenlərə» çevrilirdilər.

Bu dövrdə Cənubi Azərbaycan bölgələrinin maddi mədəniyyətində nəinki Kiçik Asiya təsiri, habelə Kiçik Asiyadan, bəlkə də başqa bölgələrdən müəyyən əhali qruplarının bu əraziyə bilavasitə daxil olması müşahidə edilir. Məsələn, Əlişar keramikası bunu təsdiqləyir. Lakin bu ərazidə yerli tayfalar başlıca, üstün etnik massiv olaraq qalmaqda idi.

Bölgənin əsrlər boyunca bura gəlmiş etnik qruplarla qaynayıb-qarışmış avtoxton əhalisi Dəmir dövrünün başlanğıc mərhələsində də əsasən e.ə. III minillikdə, bəlkə də daha erkən zamanlarda burada yaşamış etnik elementlərdən ibarət idi. Bu halda iri tayfa birlikləri arasında yalnız kutiləri istisna etmək lazımdır. Kutilər artıq e.ə. II minilliyə doğru əski qüdrətlərini itirmişdilər. E.ə. I minillikdə isə onların tarix səhnəsini qəti surətdə tərk etdikləri güman olunur.

E.ə. II minillikdə də hurrilər Urmiyaətrafı ərazidə yaşayırdılar. Sulduz vadisində aşkar olunmuş «Xabur keramikası» və e.ə. II minilliyin sonuna – I minilliyin başlanğıcına aid olan Həsənli materialları, habelə e.ə. XVII-XVI əsrlərdə Cənubi Azərbaycan ərazisində mövcud olmuş hurri-ari kontaktı faktı bunu təsdiq edir. Nəhayət, hurrilərin Xəzər dənizindən cənub-qərbdə yerləşmiş vilayətlərdəki təsirinin gücünü həm arxeoloji materiallar, həm də onomastik dəlillər təsdiqləyir.

Bölgənin cənub hissəsində lullubilər yaşamaqda idilər. Maraqlıdır ki, bizim hətta e.ə. I minilliyin başlanğıcına aid olan mənbələrimiz Lullume, Zamua və Manna anlayışları arasındakı varisliyi izləməyə imkan verir. Aşşur hökmdarı II Sarqonun Aşşur allahına məlum «məktubu»nda deyilir: «Zamua adlanan Lullume ölkəsi». Məlumdur ki, Zamua ölkəsi Manna çarlığının meydana gəldiyi vilayət idi.

Güman etmək olar ki, lullubi elementi Urmiyaətrafı vilayətlərdə hələ uzun müddət ərzində qalsa da və Mannanın etnik tarixində mühüm rol oynasa da, Manna çarlığı dövründə hurrilərin burada yaşamaqda davam etdiklərini güman etmək olar.

Erkən dəmir dövründə bölgənin cənub hissələrində başqa tayfalar və tayfa qrupları damehranlılar, nikimxilər, turukkilər, uruatrilər və başqaları yaşayırdılar. Onların etnik-dil mənsubiyyəti haqqında hələ-

lik heç nə məlum deyil.

Məhz avtoxton etnik elementlər bölgənin tarixi mədəniyyətinin yaradıcıları idilər. Həmin mədəniyyət modifikasiyalarla İrandilli tayfaların gəlişinədək mühafizə edilmişdir. İrandilli tayfalar xeyli dərəcədə bu mədəniyyəti mənimsəyərək, müəyyən mənada qədim mədəni ənənələrin davamçıları oldular.

Adı yuxarıda çəkilən «Azərbaycan tarixi»nin I cildində müəlliflər tərəfindən e.ə. II minilliyin sonu – I minilliyin ilk yüzilliklərində Cənubi Qafqazın cənub-şərq vilayətlərində, həmçinin Dərbənddə və İran yaylasının şimal-qərb hissəsində (Cənubi Azərbaycanda da) etnik-dil şəraiti təxminən bu cür təsvir olunur. Güman etmək olur ki, kutilər başqa tayfalarla qaynayıb-qarışaraq tarix səhnəsini artıq tərk etmişdilər. Mənbələrdə bizə məlum olmayan mehran dilinin adı çəkilir. Mənbələrdə «Sipirmena ölkəsi»nin də adı çəkilir. Qədim mətnlərdən birində məlumat verilir ki, bu ökədə yaşayanlar «qadınlar kimi mırtıldayırdılar» (yəni güman etmək olar ki, anlaşılmayan, fonetik baxımdan yad dildə danışırdılar). Urmiyaətrafı hövzənin qeyri-irandilli, daha çox hurri-lullubi zonası fövqəladə dərəcədə mühüm rol oynayırdı. Burada bir neçə iri və xeyli sayda xırda birliklər vardı. Bu zona tezliklə təqribən bütün istiqamətlərdən yeni gəlmələrlə əhatə edildi. Gəlmə əhali kütlələri ayrı-ayrı hallarda tədricən yerli etnik mühitə daxil olurdular. Hələ Manna çarlığı dövründə də belə olmuşdur.

Bölgənin şimal hissələrinə gəldikdə isə orada da avtoxton əhalinin əsasən prototürk, habelə başqa dillərdə (Şimal-Şərqi Qafqaz dil ailəsinin dillərində) danışan tayfaların və tayfa qruplarının yaşadığı şübhəsizdir.

Demək lazımdır ki, Azərbaycanın cənub bölgələrində və onunla həmhüdud olan ərazilərdə lap e.ə. I minilliyin başlanğıcınadək, bəzən isə bir qədər sonra da yerli etnoslar hakim etno-mədəni, iqtisadi və hətta siyasi qüvvə idi. Azərbaycan vilayətlərinin tarixi sivilizasiyası ən qədim zamanlardan etibarən bu diyarda yaşamış tayfalar tərəfindən yaradılmışdır. Hələ e.ə. III minilliyin başlanğıcında Azərbaycan aborigenləri ilk sinfi cəmiyyətlərin və dövlətlərin yaradıcıları oldular. Lakin artıq e.ə. I minilliyin ilk yüzilliklərində təxminən e.ə. II və I minilliklərin qovuşuğunda nəhəng kütlə halında bizi maraqlandıran bölgənin torpaqlarına axışıb gəlmiş yeni tayfa qrupları ölkənin həyatında mühüm rol oynamağa başladı. Cənubi Azərbaycanın etnik-dil mənzərəsi məhz bu zamandan etibarən tədricən dəyişməyə balşadı.

«II dəmir əsri» dövründə (e.ə. 1000-800-cü illər) özləri ilə at dəfni təcrübəsini, ata sitayişi və bir çox başqa cəhətləri gətirmiş, atçılıqla məşğul olmuş süvari gəlmə qrupların bu ərazilərdə mövcudluğunu Xürvin, Əmlaş, Marlik, Kəluraz, Dingətəpə, Həsənli, Luristan, Sialk və başqa yerlərin kompleksləri təsdiq edir.

Yəni ideoloji təsəvvürlərin, dəfn və abidələrinin, heyvanlara sitayişin, incəsənətdə heyvan obrazlarının təsvirlənməsinin və diyarın yerli mədəniyyətlərində kökləri olmayan başqa cəhətlərin yayılması şübhəsiz olaraq yeni məskənə öz məişətini və mədəniyyətini gətirmiş gəlmələrin olduqlarından xəbər verir.

Belə zənn edilir ki, dil insan davranışının ən mühüm formalarından biridir. Dilin dəyişməsinin nisbətən tez bir zamanda (bəzən ikinci və yaxud üçüncü nəsildə) insan qruplarının etnik mənsubiyyətinin dəyişməsinə, yəni assimilasiyaya səbəb olması halları çox təsadüf olunan hadisələrdir. Məsələn, Hindistanda, Orta Asiyada, Əfqanıstanda və b. yerlərdə bu cür olmuşdur. Son antik dövr Avropanın bir çox ərazilərinin (İspaniyanın, Portuqalyanın, Qaliliyanın, Mezo-Dakiya vilayətlərinin) qədim əhalisi romanlaşmaya məruz qalmışdır. Erkən orta əsrlər dövründə Britaniyanın əhalisi əsasən germanlaşmışdır. Yazılı mənbələr üzrə məlum olan dövrlər ərzində bu və ya digər, bəzən isə geniş vilayətlərin əhalisinin öz dilini bir neçə dəfə dəyişməsinə dair nümunələr elmə məlumdur. Kiçik Asiyanın etnik – dil görkəmi son 4-5 min il ərzində ən azı 3 dəfə dəyişmişdir. Kiçik Asiyanın əhalisi orta əsrlərdən etibarən artıq yeni, türklərin gətirdiyi dildə danışmağa başladı. Keçmiş Sovet İttifaqının, Amerika qitəsinin geniş ərazilərinin və s. yerlərin sakinləri özlərinin etnik-dil görkəmlərini dəyişmişlər. Planetin ən qədim mədəniyyətlərindən birinin qurucularından olmuş qədim Misir əhalisi də bu cür dəyişmələrə məruz qalmışdır. Xeyli sayda belə nümunələr göstərmək olar.

Azərbaycanda türk etnosunun avtoxtonluğunu qəbul edən Q.Qeybullayevin fikrincə, «VII əsrdən sonra Azərbaycan xalqının və onun dilinin formalaşması prosesi daha da intensivləşərək təqribən X əsr ücün başa çatır, bunu artıq Qətran Təbrizi yara-

dıcılıgında onun (türk dilinin) bəzi leksik elementlərinin əks olunması faktı sübut edir».

VII yüzili «türk etnosunun Cənubi Qafqaza yayılmasının zirvəsi» sayan S.Əliyarov türk tayfalarının məhz bu vaxt, demək olar, bütün Albaniya vilayətlərində, o cümlədən Dərbənddə məskunlaşdığını qeyd edərək yazır: «Etnogenez prosesi məcrasına bütün əsas komponentlərin - dini və etnik mənsubiyyətlərindən asılı olmayaraq tayfa və xalqların geniş cəlb edilməsini bu dövrün səciyyəvi xüsusiyyəti hesab etmək lazımdır». Onun fikrincə, «yeni etnik birlik olan Azərbaycan xalqının təşəkkülünü VII-IX əsrlərə aid etmək olar».

Xalqımızın təşəkkül tarixi haqqında yazan tarixçilərdən M.İsmayılov da artıq VII yüzildə «Azərbaycanda ümümxalq danışıq dilinin» - Azərbaycan türk dilinin formalaşmasının başa çatması fikrini irəli sürür.

K.Əliyevin tədqiqatına görə, Azərbaycan ərazisində, həmçinin Dərbənddə başlanan türkləşmə prosesi XI yüzil daxil olmaqla həmin əsrin sonunadək davam etmişdir. Onun fikrincə, «yalnız bu vaxtdan bütün Azərbaycan üçün ümumi türk dili qərarlaşmışdır».

Azərbaycan ərazisində, həmçinin Dərbənddə türkdilli Azərbaycan xalqının formalaşmasının XI-XII yüzillərə aid edən tədqiqatçılar (İ.Əliyev, Y.Cəfərov və b.) bu hadisəni türkdilli tayfaların kütləvi yürüşləri, eləcə də ölkədə mövcud olan «ərazi, iqtisadi və dini ümumiliklə» bağlayırlar.

Qeyd etməliyik ki, üçcildlik «Azərbaycan tarixinin» I cildində öz əksini tapmış təsəvvürə görə, «... XIII əsrdə türk dilində danışan köçəri tayfaların buraya (Azərbaycan ərazisinə) gələn güclü dalğası azəri, aran və başqa dillərin sıxışdırılması və Azərbaycan dilinin tamamilə qələbə çalması üçün şərait yaratdı».

Türkləşmənin XI-XII əsrlərdə başlandığını qəbul etməyin «səhv» fikir olduğunu qeyd edən akademik Z.Bünyadov yazırdı: «Türkləşmə prosesi yalnız türk aborigenlərinin (burada ilk orta əsrlərdə Azərbaycana gəlmiş türklər nəzərdə tutulur), cənubdan gələn oğuzlar və şimaldan gələn qıpçaqlarla qarışması nəticəsində, bunların assimilyasiyasından sonra başlandı və getdikcə sürətlənib XI-XII əsrlərdə qurtararaq, Azərbaycan və Arran ərazisində müasir Azərbaycan millətini əmələ gətirən türkdilli Azərbaycan xalqının təşəkkül tapması ilə nəticələndi».

Beləliklə, demək olar ki, bütün tədqiqatçılar Azərbaycan xalqının həyatında baş verən taleyüklü hadisənin – xalqımızın və dilimizin formalaşması prosesinin məhz bizim eranın I minilliyində getdiyini təsdiq etsələr də, bu prosesin başlanğıc və başa çatma vaxtlarında güclü fikir ayrılığı vardır.

Yeni etnik birliyin - bugünkü türkdilli Azərbaycan xalqının eramızın I minilliyinin məhz hansı yüzilində təşəkkül tapdığını dəqiqləşdirməkdən ötrü, bu birliyin yaranması üçün vacib olan şərtlərin - dil, ərazi, mədəniyyət vahidliyinin, məhəlli iqtisadi ələqələr ümumiliyinin nə vaxt baş verdiyini müəyyənləşdirmək lazımdır.

Tarixi və coğrafi qaynaqlardakı çoxsaylı faktların, eləcə də onomastik və folklor materialının tədqiqi sübut edir ki, artıq VII yüzilin sonlarında, yəni ərəblərin Azərbaycanda hegemon qüvvəyə çevrilməyə başladığı, şimallı-cənublu torpaqlarımızın Xilafət tərkibinə daxil edildiyi dövrdə türkdilli, irandilli və Qafqazdilli olan Azərbaycan əhalisi içərisində şəriksiz funksional birincilik türk dillərinə məxsus idi. Doğrudan da, Xilafətin şimal vilayətlərindən olan Arran (Dərbənd) və Azərbaycanın əhalisinin etnik tərkibi haqqında məlumat verən ərəb mənbələri burada müxtəlif dillərdə danışan onlarla tayfaların yaşadığından xəbər versələr də, Azərbaycanın, yuxarıda qeyd etdiyimiz kimi, «ta qədimdən türklərin ölkəsi» olduğunu da bildirirlər.

Görünür, buna hələ ərəb yürüşləri ərəfəsində başqa türkdilli tayfaların Azərbaycana olan axınının güclənməsi ilə yanaşı, ərəb mənbələrində çox vaxt «türk» adlandırılan xəzərlərin burada müəyyən müddət siyasi üstünlük əldə edə bilməsi də təsir göstərmişdi. Türk dilinin Azərbaycanın müxtəlif dilli və ləhcəli xalqları arasında ünsiyyət dilinə çevrildiyi həmin dövrdə ərəb işğalının başlanması, ərəblərin xəzərlərlə bir əsri adlayan arasıkəsilməz hərbi münaqişələri, Abbasilərin hakimiyyətə gəlməsilə Azərbaycana köçürülən (və ya köçən) ərəblərin sayının artması və nəhayət, islamlaşma getməsi burada başlanmış türkləşmə prosesini bir qədər ləngitdi. Özündən əvvəl yaşamış müəlliflərin məlumatının sistemləşdirmiş Yaqut əl-Həməvi (XIII əsrin əvvəlləri) Azərbaycanda o vaxt işlədilən dili «əl-azriyyə (azəri, azərbi)» adlandırırdı. Bərdə (yəni Arran) nahiyələrində işlədilən Arran dilindən, Qafqazda yayılmış müxtəlif yerli dillərdən, söhbət açan əl-İstəxri

(X əsrin 20-30-cu illəri) Azərbaycan, Arranda fars və ərəb dillərinin rəsmi dil kimi işləndiyini qeyd edir. Ondan az sonra Azərbaycana səyahət edən ibn Hovqəl Qabh (Qafqaz) dağlarında 360 dildə danışıldığını xəbər verərək yazır: «Mən bunu bir çox kənddə olub, hər kəndin azəri və fars dillərindən başqa öz dilinin olduğunu görənədək inkar edirdim». Gördüyümüz kimi, azəri dilini fars dilindən fərqləndirən İbn Hovqəl həmçinin təsdiq edir ki, Qafqazdakı ərəb işğal dairəsində yaşayan xalqların rəsmi ünsiyyət dili fars və ərəb dilləridir. İbn Hovqəl yazır: «Lakin ərəb dilində danışanlar azdır. Farsca danışanlar isə ərəb dilini başa düşmürlər. Ərəb dilində fəsih danışanlar tacir və mülk sahibləridir. Dəbil və onun nahiyələrinin əhalisi erməni dilində, Bərdə əhalisi isə Arran dilində danışır». X əsrin 70-80-ci illərində Azərbaycanda olmuş əl-Müqəddəsinin məlumatına görə, Ərdəbilin dağ kəndlərində 60 dildə danışırlar. Arranda arran dilində danışıldığını xəbər verən müəllif yerli əhalinin fars dilində xorasanlılar kimi danışdığını, lakin onları anlamaq mümkün olduğunu da qeyd edir.

Məşhur ərəb səyyah-coğrafiyaşünası və tarixçisi əl-Məsudinin (X əsr) yazdığına görə, Qafqazda hər birinin öz hökmdarı və başqalarının anlamadığı dili olan 72 xalq yaşayır.

Ərəb mənbələri (əl-Bəlazuri, İbn Xordadbeh ve b.) işgal dövründə «ta qədimdən türklərin məskun olduğu» Azərbaycan ərazisində ərəblərin fəth etdikləri yerlər sırasında Taylasanın adını çəkir.

Tarixçi ət-Təbərinin Dərbəndin alınması ilə əlaqədar yerli dağlılar (qabci-qafqazlı) və gəlmə, «qərib» ermənilər haqqında olan məlumatı da o dövr Azərbaycanında yaşayan xalqların etnik tərkibini müəyyənləşdirmək baxımından maraqlıdır: «Həmin dağların yamaclarında olan ölkədə elə hündür yerlər var ki, ermənilər o yerlərdə az qalırlar, çünki onlar onun ətrafında yaşayanlardandır, özləri də gəlmədirlər».

Ərəb mənbələrinin tarixi Azərbaycan əhalisinin etnik tərkibi və danışdığı dil haqqında bu məlumatı, yəni yerli ehalinin azəri və arran dilindən başqa, xususilə ucqar və dağ rayonlarında onlarla (həmin mənbələrdə işlədilən 60-70, 72 və ya 360 rəqəmləri, sözsüz ki, dəqiq olmayıb, yalnız çoxluğa işarədir) dildə danışması, eləcə də fars və ya ərəb dillərini bilməsi tədqiqatçılar arasında müxtəlif rəylərə səbəb olmuşdur. Bəzi alimlər (məsələn, Z.Bünyadov) belə bir ehtimal irəli sürmüşlər ki, «ola bilsin, Arran əhalisinin bir hissəsi (albanlar) çox tez ərəbləşməyə məruz qalıb ərəblərlə qaynayıb-qarışmış, sonralar isə səlcuq türkləri gəldikdən sonra ərəblərlə birlikdə türkləşməyə məruz qalmışlar. Arranın dağ rayonlarında yaşayan albanların digər bir hissəsi isə ermənileşməyə məruz qalmışlar». Eyni materialı araşdıran tədqiqatçılar (məsələn, Y.Yusifov) «Azərbaycanın Dərbəndə kimi ərazisində nə farslaşma, nə də ərəbləşmə olmamışdı» nəticəsinə də gəlmişlər.

Yerli əhali arasında ərəb və fars dillərinin işlədilməsini islamın burada yayılması ilə əlaqələndirən Y.Cəfərovun fikrincə, albanlar arasında başlayan «kütləvi islamlaşma prosesi nəticəsində çox mühüm hadisə baş verdi: udindilli alban əhalisinin islamlaşması onun ərəb və fars dillərinə keçməsinə səbəb oldu». Yenə onun yazdığına görə, bu, «Şimali Afrikadan Orta Asiyayadək ərəblərin işğal etdikləri hər bir ölkədə gedən obyektiv və qanunauyğun etnosiyasi proses» idi.

Qeyd etməliyik ki, müsəlman mədəniyyətinin yüksək səviyyəyə qalxdığı, tədqiqatçıların «müsəlman intibahı» dövrü adlandırdıqları dövrdə islamı qəbul etmiş hər bir müsəlman, hər şeydən əvvəl, dini icmanın üzvü, ondan sonra isə bu və ya digər yerin sakini, hər hansı xalqın nümayəndəsi olsa da, çox işdə əsas amil olan dini mənsubiyyət etnik mənsubiyyətə tam üstün gələ bilmədi. Ərəb-müsəlman mədəniyyətinin inkişafi prosesində iştirak edən və islamı qəbul etmiş müxtəlif millətdən olan xalqlarla ümumi «müsəlman» məfhumu ilə birləşən Azərbaycan əhalisinin müəyyən qismi, mənbələrin məlumatından göründüyü kimi, bütün Xilafət xalqlarının ünsiyyət vasitəsinə, kargüzarlıq və elm dilinə çevrilmiş ərəb dilini bəzi hallarda, hətta mükəmməl mənimsəsələr də öz ana dillərini də yadırğamadılar. Xilafətin «ərəbləşmiş» xalqlarından (suriyalılar, misirlilər və b.) fərqli olaraq islamı qəbul etmiş azərbaycanlılar yalnız müsəlmanlaşdılar. Hətta Azərbaycan ərazisində məskünlaşmış ərəb qəbilələrinin nümayəndələri də tədricən öz doğma dil və adətlərini unudaraq həmdin və həmməslək olduqları türk əhalisinin üstünlük təşkil edən dilini, onun həyat və məişət tərzini qəbul etdilər. Lakin rəsmi (danışıq yox) dil kimi obyektiv olaraq Xilafətdə Əməvilərin hakimiyyətdə olduqları dövrdə (750-ci ilədək) yeni siyasi qüvvənin dili olan ərəb dili, Abbasilərin hakimiyyətinin ilk illərində də işlənirdi.

XI yüzilin ortalarında Səlcuq yürüşü zamanı oğuz elinin, XII yüzilin ilk yarısında isə qıpçaqların Azərbaycana axını gücləndi. Əksəriyyəti türk-oğuz dili daşıyıcısı olan bu tayfalar çox keçmədən Azərbaycan ərazisində yaşayan bir-birinə qovuşmuş onlarla türk tayfa və qəbilələri ilə qaynayıb qarışdılar. Hələ bu, oğuzların gəlişindən çox əvvəl Cənubi Qafqaz, Mesopotamiya və Kiçik Asiya ərazisində oğuz dil qrupuna mənsub olan tayfaların (onoğuzların, kəngərlərin və b.) məskunlaşması səlcuq yürüşündən sonra Azərbaycanın həm şimal, həm də cənub hissəsində oğuzdilli türklərin üstünlüyünə, tədricən məhz bu dil qrupunun qalib gəlməsinə, türkdilli Azərbaycan xalqının hələ ərəblərin gəlişi ərəfəsində başlayan formalaşma prosesinin tam başa çatmasına səbəb oldu. Lakin mənşəcə türk olan səlcuqların hökmranlığı heç də türk dilini Azərbaycan ədəbi dilinə çevirmədi. Fars dilinə üstünlük verən səlcuq hökmdarlarının, eləcə də Atabəylərin, Şirvanşahların saraylarında ünsiyyət yalnız fars dilində idi, kargüzarlıq da bu dildə aparılırdı. XII yüzildə belə, Xaqani, Nizami kimi dahilərimiz məhz buna görə fars dilində yazırdılar. Lakin bu heç də o deyildi ki, dovrün şairləri danışdıqları Azərbaycan-türk dilində yazıb-yaratmamışlar. XI yüzilin görkəmli ədəbi və siyasi xadimi uzun müddət Şamaxıda, Beyləqanda və Gəncədə dövlət işlərində çalışmış Məsud ibn Namdarın ərəb (arabiyyə), əcəmiyyə - türk (türkiyə) və digər yerli (zimmiyyə) dillərdə şeir yazması haqqındakı məlumatı bunu təsdiq edir. Onu da qeyd edək ki, XI-XII yüzildə yaşayıb-yaradan sənətkarlarımız (Qətran Təbrizi, Xaqani, Nizami və b.) öz əsərlərində tez-tez türk dili mənasında «türki (torki)» məfhumu işlətmiş, fars dilində yazdıqları əsərlərində yeri gəldikcə onlarla türk-Azərbaycan sözlərindən istifadə etmişlər.

Beləliklə, haqqında bəhs etdiyimiz dövrdə tarixi Azərbaycan ərazisində, həmçinin Dərbənddə cərəyan edən dil, ərazi, mədəniyyət və iqtisadi əlaqələr vəhdəti zəminində yeni etnik birliyin - türkdilli Azərbaycan xalqının təşəkkülü prosesi başa çatır. Böyük axınla Azərbaycana və Dərbəndə gələn oğuz türklərinin bu prosesdə iştirakı isə Azərbaycan türklərinin səlcuq yürüşlərindən əvvəl başlayan formalaşmasını yalnız sürətləndirmişdi.

Bu prosesin başa çatması nəticəsində təqribən bugünkü Azərbaycan dilimizdə danışan və artıq əksəriyyətini təşkil edən xalqımızın təşəkkülündən sonra da Azərbaycan ərazisində, əvvəllər olduğu kimi, qafqazdilli və irandilli xalqlar yaşayırdılar. Maraqlı burasıdır ki, Azərbaycanın etnik xəritəsi bu gün də min il əvvəlki cizgilərini saxlamışdır. Bu gün də Azərbaycan torpağında indi «azsaylı xalqlar» adlandırdığımız irandilli talışlar, tatlar, kürdlər və b., qafqazdilli udinlər, ləzgilər, xınalıqlar, buduqlar və b. yaşayırlar.

Tarixin gedişatı elə gətirib ki, Sasanilərin və ərəblərin ağalığı dövründə etnik, inzibati və coğrafi məfhumları özündə birləşdirən «Azərbaycan» adı IX-X əsrin əvvəllərində Xilafətin zəifləməsi ilə əlaqədər müxtəlif sülalələrin (yerli və gəlmə) başçılıq etdiyi ayrı-ayrı feodal dövlətlərinin yaranması ilə inzibati və tədricən etnik mənasını itirərək, yalnız coğrafi mahiyyətini saxladı. Tarixi Azərbaycan ərazisində yaranan dövlətlər biri digərini əvəz etdi, bu dövlətlərin sərhədləri çox vaxt bilavasitə Azərbaycan hüdudlarını aşaraq bir neçə tarixi ərazini də özündə birləşdirdi. Beləliklə, sərhədlər dəyişdi, hökmdarlar dəyişdi, yalnız yerli əhali – azərbaycanlılar nə öz simalarını (bunu antropoloji araşdırmalar da sübut edir), nə də öz doğma türk dillərini dəyişdilər.

X-XII əsrdə Azərbaycan memarlığı istər abidələrin say çoxluğu və tip zənginliyinə, istərsə də üslub yetkinliyinə görə əvvəlki dövr tikinti sənətindən xeyli fərqlənir. Məhz bu dövrdə islamın geniş vüsəti ilə əlaqədar dini-sitayiş məqsədli tikililərin, xüsusilə məscidlərin özlərinəməxsus quruluşları formalaşmışdır. Tədqiqatcıların fikrincə, «bu məscidlərin mehrabları önündə günbəzli salonun - məqsurənin olması səlcuq dövrünün monumental dini tikintiləri üçün səciyyəvidir». Monumental biçimlərlə işləndiyindən bizim dövrümüzə daha çox bu məqsurələr gəlib çatmışdır. Ona görə səlcuq dövrü məscidləri elmi ədəbiyyatda həm də «səlcuq köşkü», «səlcuq məqsurəsi» adları ilə də tanınır. Bu məscid tipinin dövrün müsəlman dünyasının çox yerinə, o cümlədən Azərbaycana yayılması bu çağ dini tikililərin plan-məkan və konstruktiv həll, baxımından, doğrudan da, köklü formalaşma prosesi keçirməsini əks etdirir.

Tədqiq edilən dövrdə şimallı-cənublu Azərbaycan ərazisinin böyük şəhərlərində ucaldılan əzəmətli camelərlə yanaşı, kiçik məhəllə (o cümlədən kənd) məscidləri də vardı. Ərəb coğrafiyaşünas-səyyahları (İbn Havqəl, əl-Müqəddəsi) artıq X əsrdə Azərbaycanın bir çox bölgə və şəhərlərində (Şir-

vanda, Qəbələdə, Şəkidə, Varsanda, Təbrizdə, Dərbənddə, Ərdəbildə, Səlmasda, Urmiyada və s.) tikilmiş «gözəl cümə məscidlərinin» adlarını çəkirlər. Bunlardan bu gün də yalniz bir neçəsi (Bakıda indi «Sınıq qala» adı ilə məshur olan üstündəki ərəbdilli kitabəyə gorə hicri 471 (1078-79)-ci ildə «əl-ustad ər-rəis Məhəmməd ibn Əbu Bəkr»in əmri ilə tikilmis məscid, klassik memarlıq nümunəsi olan Ərdəbil cümə məscidi və s.) qalmıs, bəziləri (məsələn, Mərənd, Urmiya cümə məscidləri) sonrakı dövrlərdə yenidən qurulmuşdur.

Tədqiqatlar göstərir ki, Səlcuq imperiyasının çox yerində olduğu kimi, Azərbaycanda da bu zaman monumental məscid tipi - cümə məscidi kvadrat biçimli ibadət salonu günbəzlə örtülən vahid model əsasında tərtib edilmişdir. Bu modelin bir qayda olaraq, bütöv saxlanılan güney divarında mehrab taxçası quraşdırılırdı. Qalan divarların hərəsində isə 2, ya 3 ədəd tağ gözləri açılırdı. Maraqlı burasıdır ki, bu dövrün ümumi prinsiplərini əsas tutan azərbaycanlı sənətkarlar yaratdıqları abidələrdə yerli özünəməxsusluğu da tətbiq etmiş, bənzərsiz sənət əsərləri yarada bilmişdilər.

XI-XII əsrlərdə Azərbaycan memarları şəhərsalmanın inkişafi ilə əlaqədər öz gözəlliyi ilə seçilən saraylar, qəsrlər, karvansaralar, körpülər, eləcə də qalalar, türbələr və b. tikililər ucaldırdılar.

«Azərbaycan Milli Ensiklopediyası»nda qeyd edilir ki, ölkəmizinin özünəməxsus ictimai-iqtisadi, tarixi inkişaf xüsusiyyətləri, burada gedən etnik və mədəni-məişət prosesləri Azərbaycan xalqının vahid mədəniyyətinin formalaşmasını şərtləndirən səbəblərdəndir. Bu, həm də əsrlər boyu ölkənin ayrı-ayrı bölgələri arasında sıx ticarət, iqtisadi, təsərrüfat və mədəni əlaqələrin nəticəsidir.

Azərbaycanın iqtisadi, tarixi və təbii coğrafi bölgələri, ümumiyyətlə bir-birinə uyğun gəlir. Bu cəhətdən tarixi-etnoqrafik bölgələr də istisna deyil. Lakin bu o demək deyil ki, Azərbaycanın başqa sahələri üzrə rayonlaşdırılması bütün tarixi-etnoqrafik bölgələrlə üst-üstə düşür.

Orta əsrlərdə Şirvanın tarixi sərhədləri qərb və şimal istiqamətlərində böyük bir ərazini əhatə edirdi (Şəki, Dərbənd). Lakin burada da tarixi ərazilər müasir etnoqrafik bölgələrlə üst-üstə düşmür. Məişət və mədəniyyətdə lokal cəhətlərin formalaşmasında da bir sıra xüsusiyyətlər mövcuddur. Bu, hər bir bölgədə konkret formada təzahür edir. Lokal fərqlər ölkəmizin etnik cəhətdən mürəkkəb tərkibli olmasından irəli gəlir.

Etnik birlikləri qruplaşdırmaq və müəyyən əlamətlərinə görə sistemləşdirmək məqsədilə etnoqrafiya elmində müxtəlif təsnifat növlərindən istifadə olunur. Məsələn, xalqların coğrafi, dil, təsərrüfat-mədəniyyət, antropoloji və s. təsnifatı mövcuddur.

Hazırda Azərbaycan ərazisində məskunlaşmış xalqların dilləri, əsasən dörd böyük dil ailəsinə türk, Şimali Qafqaz, hind-Avropa və kartvel dil ailələrinə mənsub olsalar da, ölkədəki müasir etnolinqvistik durumda dominantlıq türk dillərinin oğuz qrupuna daxil olan Azərbaycan dilinə məxsusdur. Belə ki, Azərbaycan Respublikası, o cümlədən Dərbənd əhalisinin tam əksəriyyəti məhz bu dildə danışır.

Şimali Qafqaz dilləri Azərbaycan ərazisində ləzgi, avar, saxur, udi, xınalıq, buduq və qrız dilləri ilə təmsil olunmuşdur.

Azərbaycan ərazisində Dağıstan dilləri qrupunun ləzgi yarım qrupuna udi dili daxildir. Hazırda udilər Qəbələ rayonunun Nic kəndində və Oğuz rayon mərkəzində məskunlaşmışlar.

Saxurlar 3 rayonun Qax (Qum və Sarıbaş kəndləri), Zaqatala (Yeni Suvagil, Gəzbarah, Kaç və Muxax kəndləri) və Balakən ərazilərində məskunlaşmışlar. Qeyd edək ki, qədim türk sakların törəmələri olan sakurlar hal-hazırda sırf Azərbaycan türkcəsində danışırlar.

Azərbaycanın şimal-şərqində yayılmış «Şahdağ qrupu» – xınalıq, buduq və qrız dillərini də Dağıstan dilləri qrupunun ləzgi yarım qrupuna aid edirlər. Əsasən, Zaqatala və Balakən rayonlarının ərazisində yayılmış avar dili isə Şimali Qafqaz dil ailəsinin Dağıstan qrupunun avar-ando-didoy yarımqrupuna daxildir.

Hind-Avropa dil ailəsinin İran qrupu dilləri Azərbaycan ərazisində tat, talış və kürd dilləri ilə təmsil olunmuşdur. Tat dili İran dillərinin cənub-qərb yarım qrupuna, talış dili İran dillərinin şimal-qərb yarımqrupuna, kürd dili isə İran dillərinin qərb yarımqrupuna daxildir.

Hind-Avropa dil ailəsi Azərbaycan ərazisində, həmçinin, rus və erməni dilləri ilə təmsil olunmuşdur.

Kartvel dil ailəsi Azərbaycanda gürcü dilinin ingiloy dialekti ilə təmsil olunmuşdur. Bu dilin daşı-

yıcıları xristian və müsəlman ingiloylarıdır.

Yuxarıda qeyd edildiyi kimi, Dağıstanda, həmçinin Dərbənddə yaşayan azərbaycanlılar – kavkasion elementlərinin qarışığı olan böyük yevropeid irqinin xəzər tipli nümayəndələridir, yəni onların antropoloji tərkibi cənub yevropeid irqinin xəzər və kavkasion tiplərinin qarışığı olduğunu göstərir.

Dağıstan, həmçinin Dərbənd azərbaycanlıları Azərbaycan dilinin türk Altay dilləri ailəsinin türk qrupunun cənub-qərb (oğuz) qrupuna aid olan Dərbənd və tərəkəmə dialektlərində danışırlar.

Bununla belə, Dərbənd dialekti (Dərbənd şəhəri sakinlərinin) və danışıq qaydası (Dərbənd və Tabasaran rayonlarının cənub hissəsinin kəndlərində yaşayan azərbaycanların) və xüsusən, türkmən dialekti (Azərbaycan dilinin, Şamaxı və Quba rayonlarının dialektinə yaxın) kumık, tat və İran dillərini böyük təsirinə məruz qalmışdır. Dərbənd azərbaycanlıların çoxu (72,2%) rus dilində sərbəst danışır.

Dərbənd qədim yazı adət-ənənəsinə malikdir. Bütün azərbaycanlılar kimi, dərbəndlilərin də ulu babaları hələ çox qədimlərdən – mixi yazısından, sonralar alban və ərəb işğalından sonra isə 1929-cu ilə kimi ərəb qrafikasından istifadə etmişlər.

1929-cu ildən sonra ərəb qrafikası latın qrafikası ilə əvəz olunmuşdur. 1939-cu ildən azərbaycan yazısı kiril əlifba qrafikasına keçirilmişdir.

Burada olan azərbaycanlılarının yaşadığı bütün rayonlarda ümütəhsil məktəbləri var və orada doğma Azərbaycan dili tədris olunur.

Azərbaycan dili Dağıstanda təlim dili statusuna malikdir. Tabasaran rayonunun 6 məktəbində və Dərbənd rayonunun 3 məktəbində ibtidai siniflərdə bütün fənlərin tədrisi Azərbaycan dilində aparılır. Beşinci sinifdən başlayaraq təhsil rus dilində aparılır, Azərbaycan dili isə fənn kimi öyrənilir.

Azərbaycan dili ayrıca tədris fənni kimi 71 məktəbdə tədris olunur (Dərbənd rayonunun 35 məktəbində, Dərbənd şəhərinin 18 məktəbində, Dağıstan işıqları şəhərinin 9 məktəbində). Dağıstan Respublikasının Təhsil Nazirliyinin məlumatına görə 2000/2001-ci tədris ilində 18624 şagird Azərbaycan dilində təhsil alırdı. Respublikada ana dili və ədəbiyyat müəllimlərinin ixtisasartırması və hazırlanması sistemi yaradılmışdır. Dərbənd Ali Pedaqoji Kollecində 139 tələbə təhsil alır. Onlardan 40 nəfəri artıq kolleci bitirmişdir. Müəllimlərin ixtisasının təkmilləşdirilməsi Azərbaycan Respublikasının təhsil müəssisələrində aparılır.

Ədəbi Azərbaycan dilində bədii, elmi və ictimai-siyasi ədəbiyyat, «Dərbənd» qəzeti nəşr olunur. 1978-ci ildən respublika radiosunda Azərbaycan dilində (hər gün 30 dəqiqə) xəbərlər redaksiyası fəaliyyat göstərir, 1986-cı ildən isə Azərbaycan televiziyasının verilişləri translyasiya edilir (il ərzində 6340 saat həcmində).

Bax: 1. Azərbaycan tarixi. Yeddi cilddə. I cild (Ən qədimdən – b.e. III əsri). Bakı. «Elm». 2007. səh. 176-184.

2. Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü). Bakı. «Elm». 2007. səh. 469, 478-484, 496-497.

3. Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. «Azərbaycan» cildi. «Azərbaycan Milli Ensiklopediyası» Elmi mərkəzi, Bakı, 2007, səh.107-108, 147.

4. Народы Дагестана - М.: Наука, 2002. стр.508.

Dərbənd və «Kitabi-Dədə Qorqud» dastanının dilinin təhlili. «Kitabi-Dədə Qorqud» dastanının dilinin təhlilinə çoxsaylı elmi əsərlər, əsasən, Azərbaycan və Türkiyə linqvistlərinin çoxsaylı elmi araşdırmaları həsr olunmuşdur. Bu əsərlərin, demək olar ki, hamısında deyilir ki, dastanın dili bütün türkdilli xalqlar qrupunun leksik yuvalarının ümumtürk lüğət arsenalını təşkil edir. Lakin yenə də bütün tədqiqatçılar yekdildilər ki, bu fikirdə dastanda Azərbaycan dilinin dərbənd dialekti üstünlük təşkil edir.

Həqiqətən də, dastanın dilində müxtəlif türkdilli xalqların dialektizmləri var, lakin əsərin leksik və fonetik fonu əsasən Azərbaycan dilinin Dərbənd dialekti üçün tipikdir. Dastanın mətnində Dərbənd şəhərinin əsil yerli sakinlərinin hal-hazırda işlətdiyi sözlərə də rast gəlinir. «Kitabi-Dədə Qorqud» dastanının dili - xalq dilidir.

«Kitabi-Dədə Qorqud» dastanı orta əsrlər dövründə Dərbənddə və onun bölgələrində məskunlaşmış türkdilli xalqların xalq dilinin ən əsas atributlarının arxaikliyini qoruyub saxlamışdır.

Linqvistlər dastanın dilini Azərbaycan türk dilinin şərq dialektlərinə aid edirlər. Dərbənd dialekti də, həmçinin türk dilinin şərq dialektinə aiddir və bütün filoloji parametrlərinə görə Azərbaycan

dili yuvaları ilə eynidir. Azərbaycan dilinin bir çox sözləri arxaizm sıralarına keçmiş, lakin onlardan Dərbənd dialektində bu gün də çox istifadə olunur.

Məsələn, dastanda istifadə olunmuş belə söz vahidləri: xatın, avaz, ağır, ayıtmaq, al, asi olmaq, badyə, bazlamac, bayaq, başı-götü, beçid, varmaq, qarı, qanda, qaxmaq, qiyov, qəhər, qohum, dal, zaval, incinib, iraq, yavuq, yalab, yoqurd, yoşan, kahun, keyik, kişi, gor, kərə, mədət, nakəs, «gəlibəni» («qəlibənnəri») (Dərbənd şəhəri – «gəlübəni») (kənd ləhcəsi) – «gəlib» (bədii Azərbaycan dili); «gitübəni» (dastan)-«gitibəni» («qitibənnəri») «Dərbənd şəhəri»-«gitübəni» (kənd ləhcəsi)-«gedib» (bədi Azərbaycan dili); «alıbanı» (dastan)-«alıbanı» («alıbannarı») (Dərbənd şəhəri)-«alubanı» (kənd ləhcəsi)-«alıb» (bədii Azərbaycan dili) və s. Dərbənd dialektində indiki zaman şəkilçiləri «-adam», «-ədəm», «-idəm». Məsələn: «aladam», «vərədəm», «çimədəm» və s. Həmin şəkilçi dastanda birinci şəxs feillərinin sonunda da rast gəlinir: «Ağam Beyrək diyədəm ozan sana».

Dastanda həmçinin Dərbənd dialektinə oxşar ləhcələrə də rast gəlinir; məsələn: «bunda» (dastan)-«burda» (Dərbənd şəhəri)-«bunda» (kənd ləhcəsi); «neçün» (dastan)-«nişin» (Dərbənd şəhəri)-«neçün» (kənd ləhcəsi) və s. Bu terminlərin əksəriyyəti Azərbaycanın Dərbəndlə yanaşı, demək olar ki, bütün bölgələrində işlədilir.

Dastanda istifadə olunan təsdiq nida «dəxi» (məs. «Mənim dəxi istədiyim oldu»), dərbənd dialektində və kənd ləhcələrində «daqı» formasında qorunub saxlanılmışdır.

Dastanın dili, simvolik obrazları, kult ənənələri, kitabədə göstərilən toponimlər, şübhəsiz ki, Dərbənd şəhəri və Azərbaycan dilinin Dərbənd dialekti ilə bağlıdır. «Kitabi-Dədə Qorqud» dastanının yaranmasından 1300 il keçməsinə baxmayaraq Dərbənd dialekti müasir Azərbaycan dilindəki səksəmək, taraqqa, təkəbbür, təkcə, ummaq, xəlayiq, əski, yamac, cici-bacı və s. kimi müasir Azərbaycan dilində köhnəlmiş sözlərdən, Dərbənd dialektində və Dərbəndin Azərbaycan-türkdilli kəndlərinin danışığında daim istifadə olunur.

Dastanda istifadə olunun bir sıra türk mənşəli yuva formaları Dərbənd dialektində indiyədək dəyişikliksiz qorunub saxlanılmasına baxmayaraq, müasir bədii Azərbaycan dilində onlar dəyişiliklərə məruz qalmışdır. Məsələn; «Vardı bu qırx yigidin yigirmisi bir yana, yigirmisi dəxi ibr yana oldu» cümləsində «yigirmi» sözü Dərbənd dialektində dastanda olduğu kimi istifadə olunur. Lakin müasir ədəbi Azərbaycan dilində isə bu termin «iyirmi» kimi işlədilir. Belə nümunələr çox gətirmək olar: «bayır» (dastan)-«bayır» (Dərbənd dialekti) – «bayır» (Azərbaycan dili); «deqil» - «deqil» - «deyil»; «düqün» - «düqün» - «düyün»; «qeynədi» - «qeynədi» - «qaynadı»; «qələ» - «qələ» - «qala» və s.

Dastanda olduğu kimi Azərbaycan dilinin Dərbənd dialektində də feilə birləşən feil hissəciklərindən istifadə olunur: «-ıbanı», «-ibanı», «-ibəni» bəzən isə «-ibannarı», «-ibənnari» modeli istifadə olunur: - «qalxıbanı» («qalxbannar») (Dərbənd şəhəri) – «qalxubanı» (kənd ləhcəsi) – «qalxıb» (bədii Azərbaycan dili); «gəlibəni» (dastan) – leksik əsasların cüzi formalarını qəbul etmiş, lakin xalq danışıq dilinin qədim türk özəyini qoruyub saxlamışdır.

YAZILAR VƏ ƏLYAZMALAR

Azərbaycanda əlifba islahatları və Dərbənd. Çoxəsrlik yazı ənənələri olan Azərbaycan dilində zəngin ədəbiyyat yaradılmışdır. VII əsrdən başlayaraq XX əsrin 20-ci illərinin sonuna kimi Azərbaycan dilinin yazısı ərəb qrafikasına əsaslanmış, yalnız 1929-cu ildə latın qrafikalı əlifbaya keçilmişdir. Halbuki latın qrafikalı Azərbaycan əlifbasının layihəsi hələ 1919-cu il avqustun 20-dən sentyabrın 1-nə kimi Bakıda keçirilmiş Azərbaycan müəllimlərinin qurultayında təsdiq olunduqdan sonra parlamentin müzakirəsinə verilmişdir. Lakin aprel işğalı (1920) milli hökumətə bu layihəni reallaşdırmağa imkan vermədi.

Azərbaycanda, həmçinin Dərbənddə əlifba islahatını zor gücünə hakimiyyəti ələ keçirmiş bolşeviklər reallaşdırdı. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 4-cü sessiyasının 1928-ci il 11 oktyabr tarixli qərarı ilə respublika 1929-cu il yanvarın 1-dən tamamilə latın əlifbasına keçdi. Dərbənddə isə 1929-cu ildə latın qrafikalı əlifbaya keçid mümkün oldu.

1939-cu il iyulun 11-də Azərbaycan SSR Ali Soveti 1940-cı il yanvarın 1-də latın qrafikasından kirill qrafikasına keçmək haqqında qərar qəbul etdi. Bu proses Dərbənddə 1938-ci ildə həyata keçirilmişdir.

20-ci əsrin 80-ci illərində SSRİ-nin dağılması prosesi başlayanda Azərbaycan ictimaiyyətinin irəli sürdüyü ilk tələblərdən biri latın qrafikasına qayıdışla bağlı oldu.

1990-cı ilin əvvəllərində latın qrafikasını bərpa etmək məqsədilə işçi qrup yaradıldı və həmin ilin 11 sentyabrında o, Əlifba komissiyasına çevrildi. Komissiyanın hazırladığı layihə 1991-ci il dekabrın 25-də Azərbaycan parlamenti tərəfindən təsdiq olundu. Azərbaycan prezidenti Heydər Əliyevin 2001-ci il 18 iyun tarixli fərmanından sonra bütün Azərbaycan ərazisində latın əlifbasına keçildi. Lakin, bu gün Dərbənddə kiril qrafikalı əlifba qüvvədədir.

Bax: 1. Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. «Azərbaycan» cildi. «Azərbaycan Milli Ensiklopediyası» Elmi mərkəzi, Bakı, 2007, səh.149-150.

2. Народы Дагестана -М.: Наука, 2002. -588 с.: ил. – (Народы и культуры).

Dərbənd və kufi yazıları – Dərbənddə aşkar edilmiş ərəb yazıları arasında ən qədim yazı hesab olunur. Bu yazılar VIII-XII əsrlərə aiddir. Tədqiqatçıların fikrincə, Dərbənddəki kufi yazıları çoxluğuna görə Qafqazda və dünyada birinci yer tutur. Erkən kufi yazılarına Bayat qapının çöl hissəsindəki kitabədə (hicri tarixi ilə 153-cu il - miladi (23 dekabr 770), şimal qəbiristanlığının qəbir daşında (hicri tarixi ilə 411-ci il - miladi (15 mart 1021); Orta qapının çöl hissəsindəki yazı (hicri tarixi ilə 435-ci il - miladi (1043/4), Qırxlar qəbiristanlığındakı qəbir daşında (hicri tarixi ilə rəcəb ayı (5.IV- 4.V.1136)), şəhər bağındakı daşda (hicri tarixi ilə 479-cu ilin ramazan ayı - miladi (10.XII.1086)), şəhərin şimalındakı qəbir daşında və s. rast gəlinir.

Dərbənd və epiqrafika. Dərbənd, Şamaxı, o cümlədən, Bakıda məzar daşları və b. abidələr üzərində qalmış IX-XI əsrlərə aid kitabələr əsasən ərəb və fars dillərindədir. Ərəb dili uzun müddət təkcə Azərbaycanda və Dərbənddə deyil, bütün müsəlman Şərqində rəsmi və dini funksiya daşıdığından yazışmalar da həmin dildə aparılmışdır. Səlcuq türklərinin Ön Asiyada hegemonluğu şəraitində ərəb dili tədricən öz əvvəlki rəsmi əhəmiyyətini itirməyə başlamış, fars dili isə saraylara yol açmış, poeziya dilinə çevrilmişdir. Bu proses öz əksini epiqrafik abidələrdə də tapmışdır.

İslamın ilk dövrlərində bütün müsəlman şərqində olduğu kimi, Azərbaycanda, o cümlədən də Dərbənddə, istər monumental memarlıq abidələrində, istərsə də müxtəlif təyinatlı şəxsi, metal, şüşə məmulatında və digər məişət əşyalarında kitabələr ərəb əlifbasının kufi xəttində həkk edilirdi. Müxtəlif həndəsi formalara malik kufi xəttinin tətbiqində iki dövr olmuşdur. Birinci dövrə IX-XI əsrlərin, ikinci dövrə isə XI əsrin axırı - XIV əsrin birinci yarısının kitabələri daxildir. Azərbaycanın arxeoloji abidələrinin tədqiqi zamanı tapılan ən qədim ərəbdilli kitabə hələki Dərbənddə məlumdur. 2001-ci ildə Dərbənd istehkamları kompleksinə daxil olan Dağ barını tədqiq edərkən Mitaqi kəndində, Kecərliqala qülləsinin yaxınlığında yerləşən qədim müsəlman qəbiris-

tanlığında XI-XII əsrlərin sarkofaq tipli məzar daşları qeydə alınmışdır. Onların üzərində kufi və nəsh nəşr xətləri ilə həkk edilmiş epitafiyalar vardır.

«Tarixi Bab əl-Əbvab» (Dərbəndin tarixi) – qədim əlyazması, onun bir hissəsi Şərq müsəlman aləmində «Münəccimbaşı» adlandırılan məşhur türk tarixçisi Əhməd ibn Muftullanın əsərində öz əksini tapmışdır.

Əhməd ibn Muftulla göstərir ki, həmin əlyazma ərəb- müsəlman elmlərini yaxşı bilən naməlum müəllif tərəfindən təxminən 1106-cı ildə Dərbənddə tərtib edilmişdir.

Əhməd ibn Muftullanın əsərinə daxil olan əlyazmada alimin bu şəhərdə mövcud olmuş kübar sinfinə qərəzli münasibəti, onun sosial-siyasi baxışları ifadə olunmuşdur. Əlyazmanın əsli hələ ki aşkar edilməmişdir.

Nəsh – ərəb yazı üsulu. Bu üsuldan Quranın və digər dini əsərlərin köçürülməsi zamanı geniş istifadə olunmuşdur. Nəsh üsulu ilə binalarda, şəhər divarlarında, məbədlərdə və Dərbəndin qəbir daşlarında bir çox kitabələr yazılmışdır. Nəsh üsulu ilə yazılmış ən qədim yazılar Dübarə qapının yaxınlığında şəhərin cənub divarında aşkar olunmuşdur:

«Mahmud əl-katib Gilani. Məhərrəm ayı 580». (Hicri tarixi ilə 14 aprel – 13 may 1184-cü il).

Bu yazının sağ tərəfində olan ikinci yazıda deyilir:

«Mahmud əl-katib. 587». (Hicri tarixi ilə 29 yanvar 1191-17 yanvar 1192-ci il).

Ehtimal ki, «Mahmud əl-katib» birinci və ikinci yazıda eyni şəxs olmuşdur. Yazılardakı «katib» sözü – xəttaf, yazar, kalliqraf deməkdir.

Epiqrafik abidələr – mühüm tarixi mənbələrdir. Onlar nəinki siyasi, iqtisadi, məişət və ideoloji tarixin məlumatlarının daşıyıcılarıdır, hətta keçmiş nəslin fikrini və dilini canlandırırlar. Bir qayda olaraq, daş üzərində olan yazılar-kitabələr digər yazılı mənbələrdən fərqlənir.Onlar qısa və çox lakonik olurlar. Kitabələr əsasən, inşaat fəaliyyəti, tarixi şəxslərin ölüm tarixi, onların ulularının adları, inşaatçıların adları və s. haqqında məlumatlardır.

Şəhərin cənub divarının içəri hissəsindəki fars dilində olan kitabədə deyilir: «Hacı-Əmir bin Hacı Təvəkli-Əmir yeddiyüzüncü ilin ramazan ayının ilk günlərində poçt məntəqəsinə su bulağı və quyu vermişdir. Kim onu alarsa Allahın lənətinə gələr». Hicri tarixi ilə 700-cü il ramazan ayının 1-i milad təqvimi ilə 1301-ci il may ayının 10-a təsadüf edir.

Yazı başqa mənbələrdə məlum olmayan Dərbənd hökmdarının adını açıqlayır və şəhərdə XIV əsrin əvvəlində poçt məntəqəsinin mövcud olmasını göstərir. Hazırda həmin kitabə itmişdir.

Belə misalları çox gətirmək olar. Hər bir itmiş daş, dövrlər arasında olan əlaqəni kəsir və özü ilə istedadlı ustanın əli ilə yazılmış qiymətsiz məlumatı yoxa çıxarır.

Tədqiqatçıların fikrincə, Dərbənddə belə qədim kitabələr çox aşkar olunmuşdur. Dərbənd kitabələrinin öyrənilmə tarixi 400 ili əhatə edir.

Onlar haqqında ilk məlumatlara rus səyyahı F.A.Kotovun əsərlərində rast gəlinir. O, 1624-cü ildə Təbrizə gedərkən yolüstü Dərbənddə olmuşdur və Qırxlar qəbiristanlığını təsvir etmişdir. Müşahidəçi Moskva taciri yazmışdır: «… burada 40 şəhid uyuyur, … və hər biri öz qəbrində uyuyur və onların üzərindəki nəhəng ağ daşda yazı vardır, lakin bir yazıları heç kim oxuya bilmir: nə basormanlar, nə də tacirlər».

1638-ci ildə səfirliyin tərkibində Dərbənddə olmuş Adam Oleari «… şimal qəbiristanlığında» və «…Dərbəndin cənub divarının qapıları üstündə» gördüyü «… ərəb və Suriya yazıları» haqqında məlumat vermişdir.

Alman coğrafiyaşünası O.Dapper (1690-cı ildə vəfat etmişdir) və holland alimi N.K.Vitsen (1641-1717) məlumat verirlər ki, qala divarlarında və qəbiristanlıqlarda qədim Suriya, ərəb və naməlum yazılar vardır. I Pyotrun Səfəvi şahının yanına göndərdiyi səfir Con Bell 1716-cı ildə Dərbənddən keçərkən qeyd etmişdir ki, «… şəhərin qədim görməli yerlərinin birində böyük daşlar var, bu daşların üzərində yazılar var, lakin yazılar məlum deyil».

D.K.Kantemir qala divarlarında aşkar edilmiş 13 qədim yazının şəklini çəkmişdir. Lakin o, topladığı materialı çap etdirə bilməmişdir. Yalnız 100 ildən sonra X.D.Fren onun qeydlərindən bəzi parçaları çap etdirmişdir. Bu qeydlərin tam mətni isə yalnız 160 ildən sonra işıq üzü görmüşdür.

Dərbəndin epiqrafik abidələri haqqında məlumatlara Dərbəndin təsvirini verən bütün müəlliflərin əsərlərində rast gəlinir. Belə ki, 1728-ci tldə Dərbənddə olmuş İ.Q.Qerber yazmışdır: «… şəhərin ətrafında türk, ərəb, fars, xaldey və qədim kufi

dillərində yazılar olan çoxsaylı qəbir daşları vardır. Bu yazılar şəhərin qədimliyini sübut edir».

İngilis taciri C.Hanvey 1747-ci ildə yazmışdır ki, Dərbənddə «… 6 futdan 9 fut uzunluğa kimi (1 fut=0,3m) çoxlu qədim qəbir daşları vardır. Bu daşların üzərində hazırkı şəhər sakinlərinə məlum olmayan yazılar vardır». S.Q.Qmelin məlumat verirdi ki, «… Həmin qəbir daşlarında müxtəlif şərq dillərində yazılmış yazılar vardır. Bu daşlarda ölənlərin adları və yaşları göstərilir».

Lakin şəhərin epiqrafik yazılarının toplanılması və onların öyrənilməsinin təsadüfi xarakteri lazımı nəticə vermirdi. Bu işdə dönüş yalnız XIX əsrin 20-ci illərində baş verdi. Bu dönüş məşhur şərqşünas-professor X.D.Frenin təşəbbüsü ilə yarandı.

1828-ci ildə «Dərbənd şəhərinin kitabələri haqqında» əsərində o, «…Dərbənddən yolu düşən alim səyyahlara» və «… Rusiya qoşunlarının ziyalı qərargah məmurlarına» çağırışla müraciət etmişdir ki, «…Dərbəndin qorunub saxlanmış bütün qədim yazılarının» şəklini çəksinlər. Kazan universitetinin botanik-alimi, professor E.İ.Exvald 1826-ci ildə Dərbənddə olarkən çəkdiyi epiqrafik abidələrin tərcümələri və mətnlərini (D.K.Kantemirin çəkdiyi 7 təsvirin yazıları da daxil olmaqla) həmin bu əsərdə çap etdirmişdir.

X.D.Frenin Dərbənd yazılarına oyatdığı maraq axtarışların aparılmasına nəinki şərqşünas-mütəxəssisləri, hətta sadə adamları da cəlb etmişdir. Dərbəndin ərəb dilində yazılmış kitabələrinin axtarışına general-mayor K.K.Feze (Feyzi) böyük qüvvə sərf etmişdir. O, 1840-cı ildə Elmlər Akademiyasına «… Dərbəndin bir sox kufi xətti ilə yazılmış kitabələrin surətlərini», 1843-cü ildə isə daha 16 kitabənin surətini göndərmişdir.

1840-cı ildə baron P.V.Qan tərəfindən Elmlər Akademiyasına «…Dərbəndin kufi xətti ilə yazılmış 11 kitabəsinin surəti» daxil olmuşdur.

K.K.Feze, A.V.Qanın materialları və 1845-ci ildə Dərbənddə aşkar olunmuş daha 14 kufi yazılı kitabəsinin şəkli hazırda Rusiya Elmlər Akademiyası Asiya Xalqları İnstitutunun Sankt-Peterburqdakı arxivində saxlanılır. Fezenin bir çox şəkillərində ərəb dilində Dərbənd sakini «… molla Əmir Aslan bin Allahverdi» tərəfindən surətin çıxarıldığı haqda qeydlər vardır.

1842-ci ildə Kazan Universitetinin məşhur şərqşünası, professor İ.N.Berezin ona qədər məlum olmayan Dərbəndin nəsh xətti ilə yazılmış epiqrafik abidələrini aşkar etmişdir.

Dərbənd kitabələrinin öyrənilməsində XIX əsrin tanınmış şərqşünası və epiqrafçısı, diplomat N.V.Xanıkovun böyük rolu vardır. Dərbəndin 6 kufi yazılı kitabəsini eyni zamanda hicri 469-cu ilə (1076/7) aid olan qəbir daşındakı yazılar və 4 şəklin yazılarının tərcüməsi və mətnlərinin nəşri Xanıkova məxsusdur. Xanıkov özünün «Dərbənd şəhərinin kitabələri və abidələrindən çəkilmiş şəkillərin albomu»nda (Sankt-Peterburq şəhəri Ümumrusiya Coğrafi Cəmiyyətinin Elmi Arxivində saxlanılır) o yazır: «…Dərbənddə tapılmış 21 kitabədən 2-si pəhləvi, 14 qədim ərəb dilindədir, mən onları kufi xəttinə və 5 nəsh və ya suls xəttinə aid edirəm».

Dərbəndin ərəb dilli kitabələrinin toplanmasında akademik B.A.Dorn da çox səy göstərmişdir.

Bu işdə həmçinin 1868-1878-ci illərdə Dərbəndin qradonaçalniki olmuş general-mayor A.V.Komarovun böyük xidmətləri olmuşdur. O, Rusiya alimləri arasında tarix və arxeologiyaya aid elmi işləri ilə tanınırdı.

XIX əsrin 50-ci illərinə aid ərəb kitabələrinin Dərbənd sakini şair, ədəbiyyat aləmində Şüai təxəllüsü ilə tanınan Mirzə Kərim də toplamışdır.

Dərbəndin epiqrafik abidələrinə akademik V.V.Bartold, E.A.Paxomova, P.İ.Spasski, V.A.Kraçkovski, M.H.Neymanova, V.Q.Lukonina, Q.S.Nüberq və başqalarının əsərləri həsr olunmuşdur.

1932-ci ildə Dərbəndin kufi yazılarının toplanması ilə Mərkəzi dövlət emalatxanaları məşğul olmuşdur.

«Dəmir qapılar haqqında rəvayət». Tarixi ədəbiyyatda 1446-cı ildə özünün «üç dəniz arxasına səyahəti» zamanı ilk rus səyyahı, yerli tacir Afanasi Nikitinin Dərbənddə olması haqqında məlumat verilir. Lakin Rusiya Elmlər Akademiyasının Rus Ədəbiyyatı İnstitutunun qədim rus ədəbiyyatı şöbəsinin materiallarında Dərbəndin təsviri olan naməlum müəllifin qədim əlyazması da vardır. Müəllif öz əlyazmasında təsdiq edir ki, o, Dərbənddə Afanasi Nikitindən 30 il əvvəl 1436-1437-ci illərdə olmuşdur.

Onun «Dəmir qapılar haqqında rəvayət» adlanan əlyazmasında deyilir: «…Həştərxan adlanan göy dənizin (Xəzər dənizinin qədim adlarından biri) ya-

xınlığında Dəmir qapılar var. Həmin qapılar Həştərxan dənizi üzərində durur: iki hündür daş divar dənizdən dağa tərəf uzanır. Bu divarlar arasında üç mindən yuxarı adam yaşayır. Həmin qapılar Şamaxı şəhərinə aiddir (yəni, Dərbənd paytaxtı Şamaxı olmaqla Şirvan xanlığına aid idi). Şəhərin hakimi dahi knyaz Xəlil idi (O dövrdə şirvanşah Xəlilullah (1417-1462) Şirvanın hökmdarı idi). …Dəmir qapılardan Şamaxıya 8 günə gedirdilər. Həmin qapılardan Kafimsk adasına (Krım yarımadasının qədim rus adı) 6 həftə yol gedirdilər. Dəmir qapıdan keçərək Şamaxıdan Təbriz xanlığına getmək üçün 300 verst yol gedirdilər».

D İ N

İslam (ərəb dilindən hərfi tərcüməsi – «itaət») – ən geniş yayılmış təkallahlılıq (xristianlıq və iudaizmlə yanaşı) dinlərdən biri. Onun ardıcılları – müsəlmanlardır. İslamın vətəni Qırmızı dənizinin sahilindəki Hicaz vilayətində yerləşən Məkkə və Mədinə şəhərləridir. İslam dininin banisi – Məhəmməd peyğəmbərdir.

İslam dininin yaranma tarixi təxminən 610-cu ilə aiddir. Qısa müddət ərzində (20 il) bütün Ərəbistan bu yeni dini qəbul edir və islamın geniş yayılması başlayır. Əvvəlcə yaxın ərazilərdə, sonralar isə Ərəbistan yarımadasından xeyli uzaqda yerləşən dövlətlərin ərazilərində bu din sürətlə yayıldı. Məhəmməd peygəmbərin ölümündən sonra (632), cəmi 25 il ərzində onun ardıcılları Xilafətin təsirini çox geniş yaymağa nail oldular. Onunla birlikdə yeni dinin – islamın Ərəbistanın hüdudlarındakı böyük ərazilərə yayılmasına nail oldular. Yeni - müsəlman dövlətinin tərkibinə Sasanilər dövləti, Bizans imperiyasının çox hissəsi, Suriya və Fələstin, İraq və Xorasan, Cənubi Qafqaz, Şimali Afrikanın bir hissəsi, Qiriney yarımadası daxil oldu. Yeni dinin ideyaları ilə möhkəmləndirilmiş ərəb silahının uğurları çox təsiredici və möhtəşəm idi.

Mütəxəssislər bu dövrü dünya tarixinin görkəmli hərbi illərinə aid edirlər. İslam dininin təbliğ etdiyi «Allah qarşısında bütün insanların bərabərliyi» fikri ərəb silahının asan qələbələrində böyük rol oynamış və «din uğrunda mübarizləri» ruhlandırmışdır. 651-ci ildə Bəlxin alınması 500 il mövcud olan Sasani dövlətinin süqutuna gətirib çıxarmışdır.

İslam dini bir çox xalqların tarixində mühüm rol oynamışdır.

İslam dünyasının və «dar əl-harb» ərazilərinin (hərfi tərcüməsi «müharibələr ərazisi») kəsişməsində yerləşən «müsəlman şəhəri olmuş» Dərbənd bir neçə yüzillik ərzində Şərqi Qafqazda mühüm hərbi-siyasi və mədəni mərkəzə çevrilmişdir. Buradan yeni din olan islam dini və onunla bərabər ərəb-müsəlman mədəniyyəti Xəzər dənizinin Şimal hissəsinə və Dağıstanın dağlıq rayonlarına yayılırdı. Təsadüfi deyil ki, şəhərin şimal divarındakı mərkəzi qapılar ərəblər tərəfindən «Bab əl-cihad» (din uğrunda müqəddəs müharibə qapıları) adlandırılmışdır. Bu qapılardan qazilər (din mübarizləri) keçərək «qəzavata» (kafirlərlə müharibəyə) gedirdilər. Şəhərin islamlaşması Ərəb Xilafəti ölkələri, sonralar isə nəhəng müsəlman dünyası ilə ticarət-iqtisadi, siyasi və mədəni əlaqələrin qurulmasına gətirib çıxarmışdır. Artıq VIII əsrdə Dərbənd Qafqazın böyük şəhərlərindən birinə, mühüm hərbi-inzibati, ticarət-sənət, tranzit, ideoloji və mədəni mərkəzə çevrilir.

Şəhərin əhalisinin etnik tərkibində də dəyişikliklər baş verirdi. Mühacir ərəblər yerli əhalini şəhərdən sıxışdıraraq özləri burada məskunlaşırdılar. Yazılı mənbələrin verdiyi məlumata əsasən, ərəb sərkərdəsi Məsləmə Dərbənddə Ərəbistandan gətirilmiş 24 min döyüşçünü məskunlaşdırmışdır.

Əl-Kufinin məlumatına əsasən (IX əsr), Məsləmə Dərbəndi «...minlərlə xəzərlər ailəsindən» azad etmiş və «...şəhəri dörd qismə (məhəlləyə) bölməyi əmr etmişdir: bir məhəlləni Dəməşq sakinlərindən olan döyüşçülərə, digərini Ximsədən olan döyüşçülərə, üçüncünü Fələstin döyüşçülərinə, dördüncünü Suriyadan və əl-Cəzirədən olan döyüşçülərə verdilər». Getdikcə şəhərin ərəb əhalisi artırdı. Şəhər «qazilərlə», «müttəvilərlə», «kurralarla» və «qurabalarla» dolu idi. Belə ki, H.Əlqədərinin (1834-1910) məlumatına əsasən Dərbənd getdikcə ərəb şəhərinə çevrilirdi.

Lakin Ərəb Xilafətinin zəifləməsi və sonralar dağılması ilə əlaqədar bölgədə türklərin rolu yenidən artır.

Azərbaycanda İslam dininin qəbulu. 639-cu ildə Bukeyr ibn Abdullahın başçılıq etdiyi müsəlman ordusu ilə Azərbaycan (Cənubi Azərbaycan) mərzbanı Rüstəmin qardaşı İsfəndiyarın başçılıq etdiyi Azərbaycan ordusu toqquşdu. İsfəndiyarın barışıq təklifini qəbul edən Bukeyrin ordusu İsfəndiyarın qardaşı Bəhramın qəfil hücumuna məruz qaldı. Münaqişə dinc yolla həll edildikdən sonra belə bir müqavilə bağlandı:

«Bismillahi-r-rəhmani-r-rəhim. Əmirəlmöminin Ömər ibn əl-Xəttabın canişini Utba ibn Farkad Azərbaycanın vadilərindəki, dağlarındakı və ucqarlarındakı əhilisinə, dini icmalarına, dinlərinə və ayinlərinə əmin-amanlıq verir, bu şərtlə ki, uşaqlardan, qadınlardan, dünya malından heç nəyi olmayan xəstələrdən, tərki-dünya abidlərdən savayı, onlar gücləri çatdıqları qədər cizyə ödəsinlər. Onlardan kim hansı ildə İslam ordusuna cəlb olunsa, həmin ilin vergisindən azad olunur... Ölkəni tərk edənlərə isə sığınacaqlarına yetişənəcən aman verilir».

Ərdəbil əhalisi ilə bağlanmış bu müqaviləyə oxşar «Əhdnamələr» 642-ci ildə Dərbənd, Muğan, Naxçıvan, Beyləqan, Şirvan və Borçalı əhalisi ilə də imzalandı.

Əl-Bəlazurinin yazdığına görə Xəlifə Əli ibn Əbutalıbın Azərbaycana hakim təyin etdiyi Əl-Əşas ibn Qeys Azərbaycana gəldikdə «gördü ki, yerli əhalinin çoxu İslamı qəbul etmiş və Quran oxuyur».

Sovet dövru tarixçilərinin diqqətindən «yayınan» bu faktları hələ də bəziləri qəbul etmək istəmirlər. Yuxarıda dediklərimizdən göründüyü kimi, müsəlmanlar Azərbaycanın yerli əhalisinin dininə toxunmurdular.

Müsəlmanların Cənubi Qafqazda möhkəmlənməsinə xəzərlər və onun müttəfiqi Bizans ciddicəhdlə mane olurdular. 685-ci ildə Bizans sərkərdəsi Lev Cənubi Qafqaza, o cümlədən Azərbaycana yürüş etsə də yerli əhalidən dəstək ala bilmədiyindən burada möhkəmlənə bilmədi. VII yüzilliyin sonlarında Azərbaycanda möhkəmlənən müsəlmanlar Qərbə doğru fəthlərini davam etdirirdilər.

VIII əsrin 30-cu illərində Azərbaycan əhalisinin əksəriyyəti nəinki İslam dinini qəbul etmiş, hətta Cənubi Qafqazda ilk müsəlman məbədi sayıla biləcək Tiflis məscidini inşa etmişdilər.

VIII yüzilliyin sonlarından başlayaraq Xilafətdə real hakimiyyət müsəlman türklərin əlinə keçməyə başladı.

889-cu ildə xəlifə, Əbu Sacın Afşin ləqəbi daşıyan oğlu Məhəmmədi Azərbaycana hakim təyin etdi. Sacoğlu Məhəmməd 893-cü ildə Azərbaycanda hakimiyyəti tam ələ aldı və ölkədəki müsəlman türklərə arxalanaraq xəlifədən asılılığı rədd etdi.

Sacoğlu Məhəmməd Azərbaycan tarixində təkcə uğurlu qələbələri, böyük Azərbaycan dövləti qurması ilə yanaşı, həm də müstəqilliyin atributu kimi pul kəsdirməsi ilə də yadda qalmışdır.

Beləliklə dünya, xüsusilə də Türkiyə tarixşünaslığında qəbul olunduğu kimi, ilk müsəlman-türk dövləti Qaraxanlılar deyil, ondan yarım əsr əvvəl Sacoğlu Məhəmmədin başçılığı altında qurulmuş Azərbaycan Sacilər (879-941) dövlətidir. Sacilərin hakimiyyəti dövründə Azərbaycan sərhədləri Şimalda Dərbəndə, həmçinin Qərbdə Ərzincana, Qarsa, Şərqdə Xəzər dənizinə, Cənubda isə Həmədana qədər uzanırdı.

Bax: «Dövlət və Din» ictimai fikir toplusu. Dekabr. 2008 4(8). səh.59-62.

Dərbənd və İslam. VII əsrin əvvəllərində Ərəbistan yarımadasında meydana çıxan islam tezliklə dünyanın böyük bir hissəsində yayıldı. Azərbaycanın islamlaşması da erkən islam fütuhatı ilə hicrətin 18-ci ilindən (639-cu il) başlanır. Ərəblərə məglub olan Azərbaycan mərzbanı İstəndiyar ibn Fərruxzad sülh müqaviləsini bağladı. Tezliklə Ərdəbil, Təbriz, Naxcıvan, Beyləqan, Bərdə, Şirvan, Arran fəth edilir, ərəblər Xəzərin sahili boyu Dərbəndə kimi gəlirlər. Ərəbləri şəhərin istehkamları heyran edir və onlar Dərbəndi «Bab əl-Əbvab» («Qapılar Qapısı») adlandırırlar. İslam fütuhatı çox yerdə sülh yolu ilə, bəzi yerlərdə isə silah gücünə həyata keçirilirdi. Azərbaycanın Rusiya imperiyası tərəfindən işğal edilməsindən sonrakı dövr də ölkənin islamlaşmasının yeni mərhələsi sayılır.

Cənubi Qafqazda 2 müsəlman inzibati orqanı – müftinin başçılıgı ilə sünni ruhani idarəsi (müftilik) və şeyxülislamın sədrliyi altında şiə ruhani idarəsi (şeyxülislamlıq) yaradıldı. İdarə Tiflisdə yerləşirdi. Hər iki idarənin tabeliyində Tiflis, İrəvan, Yelizavetpol (Gəncə) və Bakı quberniyalarının hərəsində 1 məclis olmaqla 4 məclis var idi. Sünni idarəsində 16, şiə idarəsində 20 qazi var idi. İdarələr Daxili İşlər

Nazirliyinin nəzarəti altında idi və birbaşa canişin qarşısında məsuliyyət daşıyırdı. Quberniya səviyyəli ruhanilər quberniya və qəzalardakı yerli hakimiyyətlərə tabe idilər.

1918-ci il dekabrın 11-də seyxülislam Məhəmməd Pişnamazzadə vəzifəsindən istefa verir və həmin vəzifəyə axund Ağa Əlizadə təyin edilir. Bu dövrdə islamı müasirləşdirmək meylləri güclənir.

1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra şeyxülislamlıq təsisatı ləğv edilir, müsəlman din xadimləri təqiblərə məruz qalır, məscidlərin əksəriyyəti bağlanır.

1944-cü ildə faşizmə qarşı mübarizədə dinin imkanlarından istifadə məqsədilə Cənubi Qafqaz müsəlmanlarının dini qurumunun yaradılması məqsədəuyğun hesab edilir və Cənubi Qafqaz Müsəlmanları Rühani İdarəsi yaradılır. Cənubi Qafqaz Müsəlmanları Ruhani İdarəsi vahid mərkəz olur və şeyxülislam tərəfindən idarə olunur.

SSRİ dağıldıqdan sonra sovet məkanında mövcud olan bütün müsəlman dini təşkilatları böhrana məruz qaldığı, parcalandığı halda, Cənubi Qafqaz Müsəlmanları Ruhani İdarəsi 1980-ci ildə şeyxülislam seçilmiş axund Allahşükür Paşazadənin sədrliyi altında öz fəaliyyət dairəsini daha da genişləndirir. Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Gürcüstanda və Dağıstanda da nümayəndəlikləri açıldı.

Bu gün QMİ öz səlahiyyətləri çərçivəsində Azərvaycanda islam dini icmalarına rəhbərlik edir, şəriət qayda-qanunlarının düzgün yerinə yetirilməsinə nəzarət edir. 1998-ci ildə yaradılmış Bakı İslam universiteti ruhani kadrların yetişdirilməsi sahəsində xeyli iş görür. Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsində də 1992-ci ildən ilahiyyatçı və islamşünas mütəxəssislər hazırlanır. Təxminən həmin dövrdən Bakıda Qafqaz İslam Universitet idə fəaliyyət göstərir.

Bax: Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. «Azərbaycan» cildi. «Azərbaycan Milli Ensiklopediyası» Elmi mərkəzi, Bakı, 2007, səh. 156-157.

Şiəlik – islam dinində iki əsas təriqətdən (sünnü ilə yanaşı) biri. VII əsrdə yaranmışdır. Sünnü və şiə təriqətləri arasında elə bir ciddi fərq yoxdur. Şiələr əsasən peygəmbərin Musi oğlu və kürəkəni Əli ibn Əbutalib, qızı Fatimə və onların birbişa varislərinin – müqəddəs imamların hakimiyyətə olan hüquqlarını tanımışlar. Şiə adı da buradan götürülmüşdür – Məhəmməd peyğəmbərin tərəfdaşları və davamçıları.

Şiələrə görə, Əli və onun varisləri (müqəddəs imamlar) varislik hakimiyyəti prinsiplərini və peyğəmbərliyi təcəssüm etdirirlər, bu səbəbdən də imamlar həyatda əbədi olmalıdırlar.

Birinci imam Əlinin davamçılarının əsas xətti «12-ci imam Mehdi əz-zamanda» qurtarır. Lakin sonuncu imam ölməmişdir «…və özünün dünya üzünə qayıtma gününü gözləyir».

Dərbənddə şiəliyin yayılmasını uzun müddət XVI əsrin əvvəlində şəhəri Səfəvi şahı I Şah İsmayılın (1501-1524) hakimiyyəti altına keçməsi ilə bağlayırdılar. Lakin faktlar şiəliyin burada daha erkən vaxtlarda yayıldığını göstərir. Belə ki, İbn-Asam əl-Kufi (IX əsr) ərəblərin Dərbəndə ilk yürüşlərini təsvir edərək məlumat verir ki, ərəb sərkərdəsi «...Salman ibn Rəbiyə və ona sadiq olan iraqlılar (Kufə qəzasından) əl-Baba (Dərbəndə) gələrək burada məskunlaşmışdılar və buradan Tərgi və Bələncərə (Xəzəriyə) hücum edirdilər». Məlumatlardan görünür ki, Dərbənddə məskunlaşmış ilk ərəblər Kufə qəzasından olmuşlar və onlar şiə adət-ənənələrinin banisi kimi tanınmışlar. Şiəliyin burada erkən yayılmasını Qədim Qırxlar qəbiristanlığındakı qəbir daşında olan yazı da sübut edir:

«Xeyirxah və Rəhimdil Allahın adı ilə.
Allahdan başqa Allah yoxdur,
Məhəmməd onun rəsuludur.
Əli Allahın canişinidir (sərdarıdır).
Bu, qəddarcasına öldürülmüş
Hacı Rukn əd-Dinin oğlu şəhid
Sultan Hacı Şəms əd-Dinin qəbridir.
Peyğəmbərin hicri tarixi ilə 530-cu
İlin rəcəb ayında».

Yazıda olan «Əli Allahın canişinidir» təmiz şiə düstürudur və sünnülər onu tanımırlar. Buradan görünür ki, «sultan (şəhər hakimi) Hacı Şəms əd-Din» - şiə idi və onun qəbir daşını düzəldən də şiə olmuşdur.

Keçmiş Rusiya imperiyasının ərazisində «İslam dini» ensiklopedik lüğətində oxuyuruq: «…Əhməd bin əl-Hüseyn Ubaydallah əs-şi'i əl-Qədari (XI əsrin ortalarında vəfat etmişdir) – Bab əl-Əbvabın kadi əl-Kudatı (Dərbəndin ali hakimi) olmuşdur. Onun atası Əbu Əbdallah əl-Qədari (1020-ci ildə vəfat etmişdir) – bir çox əsərlərin müəllifi və islam dininin şiə təriqətinin məşhur nümayəndələri – Əbu-l-Abbas

ən-Nəcaşı (1058-ci ildə vəfat edib) və Əbu Cəfər ət-Tusinin (1067-ci ildə vəfat edib) dini hamisi olmuşdur».

Əbu Bəkr əd-Dərbəndi (XI əsr) özünün «Reyhan əl-haqaiq və bustan əd-dadaiq» əsərində göstərir ki, əl-Qədari bir çox alimlərə kömək etmiş və illahiyatçi alimlərin «məclisinə» rəhbərlik etmişdir.

Bunların hamısı sübut edir ki, şiə dini axın kimi şəhərdə hələ Səfəvi sülaləsini bura gəlməmişdən əvvəl -X-XI əsrlərdə mövcud idi.

XVIII-XIX əsrin birinci yarısına aid olan yazılı mənbələr məlumat verir ki, şəhərdə müsəlmanların çoxunu şiələr təşkil edir. Şəhərdə sünnülərin 1 əfəndisi və 9 mollası, şiələrin isə - 3 axundu və 34 mollası var idi. Hazırda şəhərdə 9 şiə və 3 sünnü məscidi fəaliyyət göstərir.

Sufizm – müsəlman xalqlarının təfəkküründə və mədəniyyətinə, ictimai və şəxsi həyatına böyük təsir göstərən islam dininin ən geniş yayılmış qollarından biridir. O, VIII əsrin əvvəlində yaranmış və əsasən mistisizm, panteizm və asketizmə əsaslanmışdır. İlkin olaraq sufizm Xilafətdə olan sosial-iqtisadi və ideoloji münasibətlər hökmranlığına qarşı yaranmışdır. Sufilər feodalların və rəsmi müsəlman ruhanilərinin həyat tərzini rədd edirdilər. Sufilər asketizmi, bərabərliyi təbliğ edir, cah-calalı və var-dövləti pisləyirdilər.

Sufizmin ortodoksal islamdan fərqlənən ehkamda öz mövqeyi var idi. Belə ki, o, islamın 5 rüknlərindən ikisini – gündə 5 namazın qılınmasını və zəvvarlığı rədd edirdi. Sufilər şəriətin, xüsusi ilə dini adət-ənənələrin əhəmiyyətini alçaldırdılar və ümummüsəlman «müqəddəs» dini ayinlərini tanımırdılar. Sufilər ümumi mühütdən fərqlənmək üçün qaba paltar geyinir və dərviş həyat tərzi keçirirdilər.

Bütün bunlar müsəlman dünyasında və islamda siyasi gərginliyə gətirib çıxarmışdır. Ona görə də feodal hakimiyyəti və islam rəhbərliyi sufizmi təqib etməyə başlamışdı. İslamda dərin böhran baş verirdi.

Sufizmin ortodoksal islamla uyğunlaşmasında məşhur müsəlman teoloqu və filosofu Məhəmməd əl-Qəzali (1058-1111) böyük rol oynamışdır. O, sufi ideyalarını ortodoksal islam üçün müvafiq olmayan vəziyyətlərdən təmizlədi.

Əl-Qəzalidən sonra sufizm islam dünyagörüşü sisteminə daxil oldu, əl-Qəzali isə «hüccət ül-islam» və «muhiyi-əd-din» adlandırıldı.

Mövcud olan yazılı mənbələr göstərir ki, Dərbənd X-XII əsrlərdə Qafqazda sufizmin mərkəzlərindən biri olmuşdur. Burada çoxsaylı müxtəlif sistemlərə aid olan sufi qrupları və dərviş qardaşlıqları mövcud olmuşdur. Məşhur müsəlman mistiki Əbu-l-Həsən əl-Curcani Dərbənddə «zaviyə» açmışdır.

Əbu Bəkr əd-Dərbəndi «Reyhan əl-haqaiq və bustan əd-dadaiq» XI əsrə aid əsərində müxtəlif dini təriqəti təmsil edən 20 Dərbənd sufi şeyxinin adını çəkmişdir. Hər bir şeyxin davamçılarından və şagirdlərindən ibarət «məclisi» təşkil olunurdu. Onların arasında din və islam ehkamı məsələləri üzrə ciddi mübahisələr və müzakirələr gedirdi.

Dərbənddə sufizmin yayılmasını şimal şəhər divarının yanında XI əsrə aid olan və bu yaxınlarda aşkar olunmuş sufi ziyarətgahı sübut edir.

Müsəlman aləmində o dövrün məşhur sufi şeyxlərinin arasında dərbəndlilər də olmuşdur. Onlardan Əbu-l-Qasim ər-Bərrak, ibn əz-Zincani, Əbu-l-Həsən əl-Curcani, Əbu-l-Abbas Əhməd ət-Əsabəndi, Mammus əd-Dərbəndi, Əbu Bəkr əd-Dərbəndi, Əbu-l-Qasim əd-Dərbəndi, Əbu-l-Valid əl-Həsən əd-Dərbəndi, Əbu İshaq İbrahim bin Faris əl-Babi və başqalarını göstərmək olar.

Sufizm Dərbəndən Dağıstanın dağ rayonlarına da yayılmışdır, onun nəqşibəndilik və kadirat növləri bu günə kimi mövcuddur.

Müsəlman adət-ənənələri. Müsəlman adət-ənənələrində Dərbəndin xüsusi yeri var idi. Məlumdur ki, Quranda və hədislərdə onlarla şəhərin adı çəkilir: Məkkə, Yerusəlim, Xevron, Vifleyem və s. Bab əl-Əbvaba isə, onlardan fərqli olaraq, müsəlmanların müqəddəs kitabında xeyli rəvayətlər həsr olunmuşdur. Quranın «al-Kəhf» surəsinin 15 ayəsində (83-dən 98 qədər) Allahın hökmü ilə İsgəndər Zü-l-Qərneyn tərəfindən «iki sədd arasında» divar ucaldılmışdır. Onların arxasında Allah tərəfindən lənətlənmiş qəddar Yəcuc-Məcuc xalqı qapalı yaşayırdı. Tədqiqatçıların vahid fikrinə görə, burada söhbət Makedoniyalı İsgəndər tərəfindən Dərbənd divarının tikilməsi haqqında gedir.

Şübhəsiz ki, «Yəcuc-Məcuc xalqı» adı altında Şimali Qafqazda və Volqa ətrafı düzənliklərdə yaşayan türk tayfaları nəzərdə tutulurdu. Bu tayfalar əsrlər boyu Ön Şərq ölkələrində yaşayan xalqlara çox ziyanlar vurmuşlar. Hədislərin birində Məhəm-

məd peyğəmbərə aid bu sözlər vardır: «… nə qədər ki, Bab əl-Əbvab kafirlərin əlindədir, müsəlmanlar sakit yaşaya bilməyəcək». Yerli tarixi salnamə olan «Dərbəndnamə»də deyilir ki: «…Məhəmməd peyğəmbərin əyanlarından çoxu ondan eşitmişdir ki, Dərbənd müqəddəs yerdir, onun qorunmasından bütün Cənubun sakitliyi asılıdır. Kim onu qorumaq istəsə, Allahın sevimli bəndəsi olar». Görünür ki, yuxarıda göstərilən mənbələr Qafqazda Ərəb Xilafətinin siyasi-ideoloji platformasına xidmət etmişdir. Döyüşkən türk tayfaları Ön Şərqdə güclənən müsəlman təsirinə ciddi təhlükə idi. Hicri tarixi ilə 22-ci ildə (642/3) Dərbənd uğrunda döyüşlərə başlayan ərəblər yanız hicri tarixi ilə 115-ci ildə həmin rayonda möhkəmlənə bildilər.

Məşhur müsəlman din xadimi axund Məhəmməd Bağır Məclisinin «Akul-Yekin» kitabında belə sətirlər vardır: «Kimsə Əlinin yanına gəlir və Əli ondan soruşur: «Sən haradansan?». O cavab verir: «Dərbənddən». Əli soruşdu: «Zü-l-Qərneyn tikdiyi və Bab əl-Əbvab adlanan Dərbənddənsən?». O, təsdiq etdi». Burada müqəddəs Xəlifənin adının çəkilməsi Dərbəndin müqəddəs şəhər kimi əhəmiyyətini daha da artmışdır. Məhəmməd peyğəmbərin məşhur ilahiyyatçısı və bioqrafı İbn İshaq özünün məşhur «Sirat Rəsul Allah» kitabında Məhəmməd peyğəmbərin Cəbrayıl mələyin gətirdiyi Burak adlı qanadlı atda səmayə möcüzəvi qalxmasını (Əl-Mirac) təsvir edir. Yolüstü Burak peyğəmbəri Yerusəlimə gətirir, burada peyğəmbər məsciddə namaz qılır. Bu faktı təsdiq etmək üçün nüfuzlu müsəlman müəllifi məscidin yanındakı qayada qalmış peyğəmbərin ayaq izlərini göstərir. İslamın davamçıları Məhəmməd peyğəmbərin ayaq izlərinin müsəlman aləminin digər müqəddəs yerlərində də olduğunu təsdiq edirlər.

Belə ki, Dərbənddə, Cənub müsəlman qəbiristanlığının ərazisində «Düldül Əli» adlanan qaya vardır. Bu yer müsəlmanların ziyarətgahıdır. Rəvayətə görə, qayada müqəddəs xəlifə Əlinin atının ayaq izləri vardır. Xəlifə Əlinin atının adı «Düldül» olduğu üçün bu yer belə adlandırılmışdır. 1850-ci ildə Dərbənddə olmuş Kazan universitetinin professoru İ.Berezin məlumat verir ki, yerli sakinlər qayada ayaq izlərindən başqa, xəlifə Əlinin yolunu kəsmiş və Əlinin özünün məşhur «Zülfüqar» qılıncı ilə iki yerə böldüyü qayanı da göstərmişdilər.

Əfsanəvi şəhərin adı digər müsəlman rəvayətləri ilə də bağlıdır. Bu rəvayətlərin birində deyilir ki, Məhəmməd peyğəmbər bir dəfə Cümə məscidində namaz qılmaq üçün Məkkədən Bab əl-Əbvaba möcüzəli gecə səyahəti etmişdir. Rəsmi tarixi sələnamə müqəddəs xəlifə Əlinin Dərbənddə olmasını təsdiqləmir, Cümə məscidi isə Məhəmməd peyğəmbərin ölümündən sonra tikilmişdir.

Dərbənddə müqəddəs yerlərdən biri Qırxlar qəbiristanlığı hesab olunur. Burada müsəlman adət-ənənəsinə əsasən din uğrunda gedən müqəddəs müharibədə həlak olmuş 40 şəhid dəfn olunmuşdur. Bu barədə bir sıra nüfuzlu ərəb müəlliflərindən Bəlazuri (IX əsr), Yəqubi (X əsr) və digərləri məlumat vermişlər.

Müsəlman ruhaniləri. Dərbənd şəhəri müsəlman aləminin şimal sərhədlərindəki dayağı, Şərqi Qafqazda islamın yayılmasının əsas mərkəzlərindən biri idi. Bu şəhər Məhəmməd peyğəmbərin davamçılarının, məşhur xəlifələrin, din uğrunda ilk şəhidlərin adı ilə bağlı olmuş və Ərəb xilafətinin müqəddəs yeri hesab olunurdu. Ona görə də şəhərin sosial həyatında dini hakimiyyətin rolu böyük idi. Lakin yazılı mənbələrə əsasən şəhərin müsəlman ruhaniləri hakim sinfin nümayəndələri kimi fəaliyyət göstərmirdilər.

Şəhərin ərəb canişinlərinin əsas vəzifələrindən biri «kafir ölkələri»nə yürüş təşkil etmək idi.



Ağa Seyid Həmzə
Seyid Mir ağa oğlu Mirmövsümzadə

«Din yolunda mübarizə» ideoloji şüarlar altında keçirilən çoxsaylı yürüşlərdə Dərbənd hakimləri yalnız hərbi rəhbərlər kimi çıxış etmirdilər, onlar həmçinin din rəhbərləri və islamın müdafiəçiləri kimi çıxış edirdilər. Buna baxmayaraq dindarların bəzi təriqətləri arasında birlik yox idi. Şəhərdə müsəlman dini təriqətlərinin güclü və vahid olmasına mənfi təsir göstərən səbəblərdən biri orta əsrlərdə Dərbəndin Qafqazda nəhəng sufi mərkəzlərindən biri olması idi. XI əsrin yerli müəllifi Əbu Bəkr əd-Dərbəndi «Reyhan əl-haqaiq və bustan əd-dadaiq» əsərində Dərbəndin 20 sufi şeyxinin adını çəkir. Bu şeyxlərin hərəsinin öz «məclisi» var idi və onların hər biri başqa «məclislərlə» kəskin ideoloji mübarizə aparırdı. Dərbənddəki sufi məclislərinə orta əsr şəhərin əhalisinin əksəriyyətini təşkil edən çoxsaylı sənətkarlar və kiçik ticarətçilər yığışırdılar. Dərviş şeyxləri ilə (sufilərlə) bağlılıq şəhərinin aşağı təbəqələrinin böyük sahibkarlarla və təcirlərlə mübarizəsini asanlaşdırırdı. Dərbənd ruhanilərinin kubar-aristokratlarla müqayisədə iqtisadi və siyasi zəifliyinə baxmayaraq, onlar yenə əsas, nüfuzlu zümrə hesab olunurdular. Hərdən müsəlman dindarları kubar hakimiyyətinə qarşı çıxırdılar və hətta onları özlərinə tabe edirdilər. Belə ki, «Tarixi Bab əl-Əbvab» adlı yerli salnamənin məlumatına görə şəhər əmiri Məymunun kubar təbəqələrlə mübarizədə muzdur ruslardan istifadə etmək istəməsi, müsəlman din xadimi Musa ət-Tuzni ona qarşı üsyan qaldırmağa vadar etdi və «…28 gün» xalqla birlikdə Məymunu tərəfdərləri ilə birlikdə gizləndiyi əl-Bab qalasını mühasirədə saxladı. «…iş o yerə çatdı ki, əmir Musa ət-Tuziyə qalanın qaytarılması şərti ilə ona təhlükəsizliyini təmin emək üçün müraciət etdi. … Musa ət-Tuzi dövlət işlərini öz əlinə aldı».

XIX əsrin ortalarında Rusiya Dağıstanı tamamilə işğal etdikdən sonra onun ərazisində sərt müstəmləkəçilik siyasəti yeritməyə başladı. Bu siyasət əhali və həmçinin müsəlman ruhanilər arasında narazılığa səbəb oldu. Onlar başa düşürdülər ki, pravolav-xristian Rusiyasının ixtiyarına keçməklə müsəlmançılığın dağlı əhalisinə təsiri zəifləyəcəkdir. Ona görə də yerli ruhanilər «müsəlman dininin qorunub saxlanılması uğrunda» genişmiqyaslı çıxışlara başladılar. «Xalq Təhsili Nazirliyinin jurnalı» yazırdı ki, Dağıstanın məscidlərində «… mollanın əzanını eşitmək olardı. Bu əzanlarda (yəqin ki, möizələr nəzərdə tutulurdu) təbii ictimai fəlakətlər: zəlzələlər, aclıq, quraqlıq və s. ruslarla yaxınlaşmanın nəticəsi olaraq göstərilirdi».

Müsəlman ruhaniləri öz maraqlarını qorumaq üçün əhalinin güclənən istismar və öz hüquqlarının məhdudlaşdırılması ilə əlaqədar narazılığından da istifadə edirdilər. Onlar dağlıların antimüstəmləkə hərəkatında – müridizmdə yaxından iştirak etmişlər.

Bütün bu çıxışlar çar hakimiyyətinin narazılığına səbəb oldu və o, Qafqazdakı müsəlman ruhanilərinə inamsızlıq və hətta düşmən münasibəti göstərməyə başladı. Qafqazdakı rus qoşunlarının baş komandanı general A.P.Yermolov məscidləri rus idarələrinin nəzarəti altına götürməyə və onların fəaliyyətini tənzimləməyə çalışırdı.

Müsəlman dindarlarını Osmanlı və İran meyilli tərəfdarlar kimi təqib etməyə başladılar. Rusiyaya itaət etməməkdə günahlandırılanlardan və şəhərdən qovulanlardan birincisi şeyxülislam (axund) Hacı Qasım Kazımbəy (1820) olmuşdur. Qərara alınmışdır ki, bundan sonra şəhər sakinləri tərəfindən Dərbənd müsəlman (şiə) ruhanilərinin başçısı (axund) seçildikdən sonra o, «… vəzifədə hakimiyyət tərəfindən» təsdiq olunur. Belə ki, Hacı Qasımdan sonra seçilmiş axund Molla Murad vəzifəyə Qafqaz baş komandanı general A.P.Yermolov tərəfindən təsdiq olunmuşdur. 1848-ci ildə Molla Muradın ölümündən sonra onu əvəz etmiş Hacı Molla Sadığı bu vəzifəyə Qafqaz canişini knyaz Vorontsov, 1872-ci ildə isə axund Ağa Mirəhməd Mircəfər oğlunu isə böyük knyaz Mixail Nikolayeviç təsdiq etmişdir.

1913-cü il mart ayının 29-da şiə müsəlmanlar Cümə məscidinə Ağa Seyid Həmzə Seyid Mirağa oğlu Mirmövsümzadəni Dərbəndin axundu seçmişlər. Onu vəzifədə təsdiq olunması üçün vəsatət Dağıstan vilayətinin hərbi qubernatoruna göndərilmişdir. O da öz növbəsində 20 noyabr tarixli məktubu ilə bu vəsatəti axund adını almaq və imtahan vermək üçün Tiflisə Cənubi Qafqaz şiə idarəsinə göndərir. Oradan sənədləri bəzi arayışların əlavə edilməsi üçün yenidən geri qaytarırlar: 1) anadan olması haqqında sənəd: 2) mənsubluğu haqqında sənəd; 3) siyasi etibarlılığı haqqında sənəd. Bütün bu məlumatlar toplandıqdan sonra axund imtahana buraxılırdı və imtahanların nəticələrinə görə «… o,

axund adı almağa layiq görülürdü».

Çar hakimiyyətinin belə münasibətinə baxmayaraq şəhərdə ruhanilərin sayı çox idi. Rəsmi məlumatlara görə 1836-cı ildə şəhərin məscidlərində sünni təriqətindən olan 1 əfəndi və 9 molla, şiə təriqətindən olan 3 axund və 34 molla xidmət göstərirdilər. XX əsrin əvvələrində şiə məscidlərində 38 molla və aid seyid var idi.

Ölkədə Sovet dövlət ideologiyası olan ateizmin təsbit edilməsi ilə şəhərin bütün məscidləri (Cümə məscidindən istisna olmaqla) fəaliyyətini dayandırmış və şəhərdə müsəlman ruhanilərinin sayı xeyli azalmışdır. Fəaliyyət göstərən Cümə məscidində cəmisi 1 axund və 1 molla var idi.

2005-ci ilin əvvəlində, bəzi məlumatlara görə Dərbənd şəhərində 11 məscid fəaliyyət göstərirdi, onlardan ikisi Cümə məscididir.

Müqəddəs Yelisey. «Ağvan ölkəsinin tarixi» salnaməsinin müəllifi Moisey Kalankatlının (VII əsr) məlumatına görə, müqəddəs Yelisey «… Çoqa hüdudlarında dini fəaliyyətlə məşğul olmuşdur».

Tarixçi məlumat verir ki, Müqəddəs Faddey - Peyğəmbərin iradəsini yerinə yetirərək şərq ölkələrinin əhalisinin İusus Xristosun dininə itaət etdirmək üçün Şərqə gedir. O, ermənilər arasında dini təbliğat apararkən vəhşicəsinə öldürülmüşdür. Müəlliminin işgəncələrlə ölümünü görən şagirdi Yelisey geri qayıtmış və gördüklərini Yakov peygəmbərə danışmışdır. Yakov tərəfdaşının ölümünü sakit qəbul edərək, Yeliseyi sakitləşdirmiş, onun işini davam etdirməyi vacib saymış və ona yenidən Şərqə qayıtmağını təklif etmişdir.

Yelisey «…peygəmbər Yakov tərəfindən Yerusəlimin ilk patriarxı təyin olunur və şərq ölkələrinə dini hakim təyin olunaraq, Yerusəlimdən çıxıb İrandan keçərək maskutlar ölkəsinə gəlir. O, Çoqada dini təbliğat aparır və müxtəlif yerlərdən olan xeyli şagirdi öz tərəfinə cəlb edir. O, oradan 3 şagirdi ilə Soqariyə, Uti qəzasına yola düşür». Lakin salnaməçinin məlumatına görə, yolda şagirdlərin qohumları onlara çatır və münaqişə zamanı gənclərdən biri həlak olur, ikisi isə müəllimini tərk edərək, şəhərə qayıdır. Qəmginləşən Yelisey isə dini təbliğat apararaq, yolunu davam etdirir.

Qafqaz Albaniyasında, «Kis adlanan yerdə» ilk kilsənin tikilməsini bağlayırlar. Bu kilsə «… Şərqdə olan bütün kilsələrin ilk anası» sayılırdı. Mütəxəssislər hesab edirlər ki, bu kilsənin qalıqları Şəki şəhərinin yaxınlığında Kiş kəndindədir.

Yelisey Kisdən Samur çayının orta axarına qədərək orada bütpərəstlərin böyük məskünlaşma yerini tapır. O, burada xristian dinini təbliğ etmək istəyərkən vəhşiçəsinə öldürülmüşdür.

Moisey Kalankatlının məlumatına görə, Yeliseyin dini fəaliyyət dövrü ikinci əsrə aiddir.

Qazi («din mübarizi», «qəravatın iştirakçısı») – Dərbənd müsəlman dünyasının şimal sərhədlərində mühüm dayaq, Şərqi Qafqazda islamın yayılmasının əsas mərkəzlərindən biri, peyğəmbərin davamçılarının, məşhur xəlifələrin, «din uğrunda» ilk şəhidlərin adı ilə bağlı xilafətin müqəddəs yerlərindən biri idi. Ona görə də şəhərdə VIII-XII əsrin güclü sosial təbəqəsini qazilər təşkil edirdilər. Bu, şəhərin siyasi həyatında mühüm rol oynayan xüsusi hərbi-dini qruplaşma idi. Onlar çoxsaylı, yaxşı silahlanmış və «din uğrunda» saysız-hesabsız yürüşlərdə möhkəmlənmiş mətanətli və çətin idarə olunan bir qüvvəyə çevrilmişlər. Onların mövqeyi Dərbəndin feodal sosial strukturunda quvvələrin yerləşdirilməsində mühüm əhəmiyyət daşıyırdı. Bir tərəfdə, qazilər şəhər hakimiyyətinin çoxsaylı yürüşlərində mütəşəkkil qüvvə və ruhanilərin dayağı kimi çıxış edirdilər, digər tərəfdən isə şəhərin feodal cəmiyyətinin hakim təbəqəsinə ciddi təhlükə yaradırdılar.

İlk qazilər əsasən çoxsaylı ərəb köçkünlərindən ibarət idilər. Onlar şəhər sakinlərinin xeyli hissəsini təşkil edirdilər. Məlumdur ki, ərəb sərkərdəsi Məsləmə VII əsrdə Dərbəndi işğal edəndən sonra buraya Ərəbistanın daxili rayonlarından 24 min əsgər köçürmüşdü.

Sonralar qazilər sırası sinfi sifətini itirmiş yerli elementlərin (torpaqsız qalmış kəndlilər, iflasa uğramış sənətkarlar və s.) hesabına dolmağa başladı.

Qazilər islamın şimala doğru yayılması işində əsas qüvvə olaraq Dərbənd hakimlərinin hərbi dayağı idilər. Belə ki, «Tarixi Şirvan ba Bab-əl-Əbvab» salnaməsi xəbər verir ki, şəhər hicri tarixilə 237-ci ildə (miladi 851-ci il) xəlifə Mütəvəkkil tərəfindən Məhəmməd bin Xalidə veriləndə, sonuncu, qazilərin köməyi ilə, «… Bab əl-Babla (Dərbəndlə) qonşuluqda yaşayan dinsizlərə hücüm edirdi».

Xəlifə Mənsurun dövründə (754-775) Dərbəndin qazilərini saxlamaq üçün şəhər hakimi Yəzid əs-Suləmi neft və duz mədənlərinə vergi qoymuş-

du. Xəlifənin adından «şimal sərhədlərinin müdafiəçilərinin» xeyrinə Cənubi Dağıstanda və Şirvanda Dərbənd qaziləri üçün ianə yığılırdı, xəlifə Mütamid isə hicri tarixi ilə 270-ci ildə (miladi 883/4-cü il) əmr edir ki, Şirvan sakinlərinin bütün neft və duz mədənləri onlardan alınsın və hədiyyə olaraq Dərbənd qazilərinə bağışlanılsın. 898-ci ildə Harun ər-Rəşid (786-809) hər il neft və duz mədənlərindən Dərbənd qazilərinin saxlanılması üçün gəlirləri yığma hüququ haqqında xüsusi fərman verdi.

Xilafətin mərkəzi hakimiyyəti qaziləri Şirvandan Dərbənd də gətirilən çörəklə təmin edirdi.

Dərbəndin Bağdaddan asılılığının azalması və müstəqilliyinin möhkəmlənməsi qaziləri Xilafətin köməyindən məhrum etdi, Dərbənd əmirlərinin isə onları saxlamağa vəsaiti yox idi. Həmin gündən qazilərin saxlanılmasının yeganə mənbəyi hərbi qənimət və şəhər zadəganlarının yığdıqları ianə oldu.

Belə ki, «Tarix-i Bab əl-Əbvab» salnaməsinin verdiyi məlumata görə, «… hicri tarixi ilə 333-cü ildə (miladi 944-cü il) əl-Babın (Dərbəndin) adamları (qaziləri) öz əmirləri Əhməd bin Əbd əl-Məlik əl-Haşimiyə qarşı üsyan etdilər və onu şəhərdən qovdular». Şəhərin feodal başçıları onun yerinə Şirvan hakimini dəvət etdilər, lakin «… sonradan onu da qovdular və hakimiyyətə Əhməd bin Əbd əl-Məlik əl-Həşimi qaytardılar».

955-956-cı illərdə Dərbənddə yenidən böyük üsyanlar baş verdi. Onları «… Mərzban Salar bin Məhəmməd yatırdı». 1035-ci ildə əl-Babın əhalisi (qazilər) yenidən «… əmir Əbd əl-Məliki qovdular». Həmçinin, şəhərdə 1044-cü, 1054-cü, 1065-ci, 1075-ci illərdə də böyük üsyanlar baş vermişdi ki, onların hamısının əsas qüvvəsi yenə də qazilər olmuşdur.

Hərdən, yaranmış vəziyyətlə əlaqədar, Dərbəndin əmirləri Şirvan hakimlərindən qazilərin xeyrinə vergilərin yığılmasına nail olurdular. Belə ki, «Tarix-i Şirvan və Bab əl-Əbvab» salnaməsinin məlumatına görə, 944-cü ildə deyləmlilər Şirvana soxulduqdan sonra, onun hakimi «…Yəzid əl-Babın (Dərbəndin) sakinləri ilə sülh imzalamaq məcburiyyətində qalır və onlardan kömək istəyir. O, Şabranda və kəndlərdə onlardan aldıqlarını və neft, duz mədənlərindən yığılan vergiləri də qaytardı». Bu, qazilərin Dərbənd hakimləri ilə yaxınlaşmasına səbəb oldu. Lakin bu dövr çox uzun sürmədi. Maddi kömək almayan qazilər tədricən Dərbənd əmirlərindən uzaqlaşdı. Yaranmış vəziyyətlə əlaqədar olaraq qazilər sosial təbəqə kimi zaman keçdikcə Dərbənddə yoxa çıxdılar.

Cənubi Qafqazın müsəlmanları – Cənubi Qaqafqazın islam dininə etiqad edən əhalisi. Əksəriyyəti azərbaycanlılardan (Azərbaycan türklərindən) ibarətdir. Ərəb xilafətinin VII əsrdə Cənubi Qafqaza yürüşləri burada islamın yayılmasına səbəb olmuşdu. XIX əsrin əvvəllərindəki Rusiya işğalına qədər islam Cənubi Qafqazda hakim din olmuşdu. Bundan sonra vəziyyət müəyyən qədər dəyişmiş, çar hökuməti müsəlmanların hüquqlarını ardıcıl və məqsədyönlü şəkildə pozmağa, bölgədə xristianlaşdırma siyasəti yetirməyə başlamış, Cənubi Qafqaz Müsəlman Ruhaniləri İdarəsi haqqında 1872-ci il 5 aprel Əsasnaməsi ilə onları nəzarətdə saxlamağa çalışmışdı. Müsəlmanların üstünlük təşkil etdiyi ərazilərin etnokonfessional tərkibi ermənilərin, rusların və digər xristian əhalinin hesabına dəyişdirilmişdi. Cənubi Qafqazın inzibati-ərazi bölgüsü həyata keçirilərkən əhalinin konfessional tərkibi nəzərə alınmamışdı. Beləliklə, Cənubi Qafqaz müsəlmanları çarizmin milli və dini zülmünə məruz qalmışdı. «1917-ci ilin Qafqaz təqvimi»nin məlumatına görə, Cənubi Qafqazda (*İnzibati-ərazi* bölgüsü məqaləsində təqdim olunan ərazi vahidləri üzrə) 3,3 milyondan çox müsəlman qeydiyyata alınmışdı. Əlimərdan bəy Topçubaşov da «Azərbaycanın təşəkkülü» adlı tədqiqatında belə bir rəqəm göstərmişdir. Cənubi Qafqaz müsəlmanları inzibati-ərazi vahidləri üzrə aşağıdakı kimi bölünmüşdü: Bakı şəhər rəisliyi ilə birgə Bakı quberniyasında 940248, Yelizavetpol quberniyasında 797880, Dağıstan vilayətində 653384, İrəvan quberniyasında 410149, Tiflis quberniyasında 178331, Qars vilayətində 153406, Batumi vilayətində 86320, Zaqatala dairəsində 85136, Qara dəniz quberniyasında 5684, Suxumi dairəsində 3755, Kutaisi quberniyasında 730 nəfər.

Rusiya imperiyasının parçalanması və Cənubi Qafqazda milli dövlətlərin yaradılması şəraitində qeyri-müsəlman əhalinin, xüsusilə ermənilərin müsəlmanlara qarşı zorakılıq aktları artmağa başladı. *Belə bir şəraitdə* Azərbaycan Xalq Cümhuriyyəti nəinki ərazisi hesab etdiyi torpaqlarda, həmçinin Cənubi Qafqazın digər ərazilərində yaşayan müsəlmanların da hüquqlarının müdafiəçisi kimi çıxış etmişdi. Cümhuriyyət hökuməti 1919-cu il avqustun 2-də Birinci dünya müharibəsi başlanandan bəri bütün Cənubi

Qafqaz hüdudlarında müsəlmanlara və onların əmlakına qarşı yol verilmiş zorakılıqları tədqiq etmək üçün *Fövqəladə təhqiqat komissiyası* yaradılması barədə qərar qəbul etmişdi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu sahədə nəzərdə tutulmuş bütün planları gerçəkləşdirməyə imkan vermədi.

Bax: 1. Topçubaşov Ə. Azərbaycanın təşəkkülü. Azərbaycan SSR EA-nın Xəbərləri (tarix, fəlsəfə, hüquq seriyası), 1990, №3;

2. Азербайджанская Демократическая республика (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998; Кавказский календарь на 1917 г., Б., 1916.

Xristianlıq Azərbaycan (Qafqaz) Albaniyası Qafqazda ən qədim ölkə idi və burada bütün xristian aləmində ən erkən Apostol Həvari Avtokefal kilsəsi yerləşirdi. Bura hələ bizim eranın əvvəllərində Yerusəlimdən və Suriyadan ilk xristian missionerləri, həvarilər və onların şagirdləri gələrək, burada ilk xristian icmaları yaratmışdılar.



Georgi Pobedonosetsin təsviri.
Qafqaz Albaniyası dövrünə aid şəkil

Xristian adət-ənənələrinə əsasən, Albaniyada xristianlığın ilk təbliğatçısı İsa peygəmbərin 12 apostolundan (həvarisindən) biri – müqəddəs Varfolomey olmuşdur. O, «…çoxsaylı möcüzələr göstərərək, xəstələri sağaldaraq, onların bədənindən pis ruhları çıxardaraq, bir çox insanları, hətta ölkənin şahını ailəsi ilə birlikdə bu dinə inanmağa vadar etmişdir». Bundan sonra «10 şəhərin sakinləri bu dini qəbul etmişdir». Bu 10 şəhərin arasında Çola (Dərbəndin qədim adı) şəhəri də var idi.

«Dərbəndnamə» yerli tarixi salnamənin məlumatına əsasən, dərbəndlilərə xristianlıq 355-ci ildə Neyeman şah tərəfindən qəbul etdirilmişdir.

Akademik V.V.Bartold Dərbənd rayonunda xristianlığın yayılmasını Sasani şahı I Yezdəgirdin (399-429) və Bizans imperatoru Feodosinin (408-450) dövrünə aid edirlər.

Dərbənd şəhər sakinləri arasında xristianlığın erkən yayılması haqqında fikri şəhərin qədim aşağı – Dübarə, dənizkənarı hissəsinin – Yunan şəhəri, yəni xristianların yaşadığı rayonların adları bir daha sübut edir.

Moisey Kalankatlı (VII əsr) özünün «Albanların tarixi» kitabında yazır ki, müqəddəs Yelisey (İsa peygəmbər 12 apostoldan biri olan müqəddəs Faddeyin şagirdi) «Şərq ölkələrini öz knyazlıqlarına keçirərək, Yerusəlimdən çıxmış, İrandan keçərək maskutlar ölkəsinə gəlmişdir. O, Çoqa şəhərində dini təbliğat apararaq müxtəlif yerlərdən şagirdlər toplamışdır».

Lakin müqəddəs Yeliseyin dini təbliğat fəaliyyəti faciəli qurtarmışdır.

Alban çarı Urnayrın (370-ci ildə vəfat edib) hakimiyyəti illərində Qafqaz Albaniyasında xristianlığın yayılmasının yeni dövrü başlanmışdır.

Atəşpərəstliyin məşhur tərəfdarı olan Sasani şahı II Yezdəgird (438-457) özünün Cənubi Qafqaz ərazilərində atəşpərəstlik dinini zor tətbiq etməklə yaymağa başladı. Yegişenin (V əsr) məlumatına əsasən, «… mərzban (fars canişini) Sepuxt Markianın (Bizans imperatoru Markian 450-457-ci illərdə hakimiyyətdə olmuşdur) hakimiyyəti illərinin əvvəllərində albanların kilsələrini dağıtmaq fikrinə gəlmişdir». Bu zorakılıq yerli əhalinin narazılığına səbəb oldu, nəticədə böyük antisasani üsyanına gətirib çıxartdı. Bu üsyan 451-ci ildə Maku şəhərinin (Cənubi Azərbaycan) yaxınlığındakı Avarayr çölündə qanlı döyüşlə bitdi. Bu hadisələrdən cana doymuş Yezdəgird bildirdi: «Kim hansı dinə itaət etmək istəyirsə, o dinə də itaət etsin».

Lakin Sasanilərin Alban kilsəsinə çox da böyük təsiri olmadığı üçün 457-ci ildə alban çarı II Vaçenin rəhbərliyi altında yeni antiiran üsyanı baş verdi. Və yalnız Qafqaz Albaniyasının sonuncu çarı III Vaçaqanın dövründə (487-510) Albaniyada bir çox kilsələrin, həmçinin Amaras şəhərində monastırın tikilməsi qeydə alınmışdır.

III Vaçaqanın ölümündən sonra Qafqaz Albaniyasında Sasani mərzbanlarının hakimiyyəti qurulur. Bu da burada İranda hökmranlıq edən atəşpərəstliyin müəyyən qədər yalılmasına səbəb olur. Sasani İranından vassal asılılığında olan Alban knyazları xristian dininə sədaqəti qoruyub saxlayırdılar.

VI əsrin II yarısında Qafqaz Albaniyasının xristian kilsəsi nəhəng xüsusi qüvvəyə malik idi və onun başında Ter-Abbas dururdu (552-596). Bu dövrdə kilsənin təsiri və hakimiyyəti o qədər böyük idi ki, o, hətta Qafqaz Albaniyasının hüdudlarından kənarda, Şimali Qafqazın türkdilli xalqlarının – hunlar və savirlərin arasında onları xristian dininin yayılması istiqamətində fəal fəaliyyət göstərməyə başlamışdı.

Qafqaz Albaniyasında xristian dini VII əsrədək - ərəblər bura gələnədək - hökmranlıq etmişdir.

V-VII əsrlərdə Dərbənd nəinki Qafqaz Albaniyasında, hətta bütün Şərqi Qafqazda baş xristian dini mərkəzlərindən biri kimi çıxış etmişdir. Moisey Kalakatlının məlumatına görə, Albaniya xristian kilsəsi başçısının iqamətgahı da Dərbənddə yerləşirdi.

VII-VIII əsrlərdə ərəblərin burada möhkəmlənməsi regionda xristian dininin sonuna gətirib çıxartdı.

KİTABƏLƏR

Azərbaycanda kitabələr və Dərbənd (XVIII əsr). Kitabələr ölkəmizin ərazisində qalmış müxtəlif formalı sənduqə, başdaşı, sinədaşı, qoç və at heykəlli məzar daşları, məscid, karvansara, hamam, ovdan, mədrəsə, qala hasarları, istehkam, ictimai və yaşayış binaları uzərində həkk olunmuşdur. XVIII əsr kitabələrini mətnlərinə görə bes yerə bölmək olar:

1. İnşaat xarakterli, yəni yeni binanın tikinti tarixindən bəhs edən kitabələr. Bu kitabələrdə bəzən binanı tikdirən şəxsin, tikən memarın, inşaatçı ustanın, kitabəni yazan xəttat-nəqqaş-həkkakın, dövrün hökmdarının, əyanların, vəzifə sahiblərinin adları qeyd olunurdu.
2. Sənədlərin lapidar nüsxələri. Buraya dövlət sənədləri hökm, fərman; ictimai sənədlər - vəqfnamə, müraciətnamə, dövrün müxtəlif ictimai-iqtisadi, siyasi vəziyyəti haqqında xəbər verən məlumatlar daxildir. Belə kitabələrin mətni nisbətən genişdir, lakin onların sayı çox azdır.
3. Epitafiyalar - məzar daşlarına həkk olunmus yazılar. Epitafiyalarda dəfn olunan şəxsin adı, olüm tarixi və ictimai vəziyyəti haqqında qısa məlumat verilir.
4. Dini mətnlər. Bütün kitabələrdə dini mətnlərə geniş yer verilirdi. Tarixi abidənin təyinatına uyğun Quran ayələri və hədislər seçilirdi. Epitafiyalarda ictimai mənsubiyyətinə, şəxsi ləyaqətinə, mənsub olduqları təriqətə, fəlsəfi dünyabaxışlarına uyğun dini mətnlər - ayə, hədis və dualar yazılmışdır.
5. Mənzum parcalar: qəmgin mərsiyələr, bayatılar, hikmətli beyt və rübailər, adətən, məzar daslarına yazılmışdır. Lakin XVII-XX əsrin əvvəllərinə aid inşaat kitabələrinin də mənzum tərtib olunması hallarına təsadüf edilir. Ordubad, Bakı cümə məscidləri yanındakı mədrəsələrin, Dərbənddəki Fərruxiyyə mədrəsəsinin, Şah Abbas məscidinin, Dərbənd Cümə məscidinin, Bakı Cümə məscidinin, Suraxanıda hind atəşgədəsinin kitabələrini buna misal göstərmək olar.

Kitabələrin məlumatları bünövrəsi XVII əsrdə qoyulmus, XVIII əsrdə və XIX əsrin əvvəllərinədək davam etmiş bir sıra memarlıq, bədii daşyonma, xəttatlıq, nəqqaşlıq, heykəltəraşlıq məktəbləri, onların banilərinin, görkəmli ustaların adları aşkar edilmis, məktəblərin fəaliyyətinin xronoloji çərçivəsi, təsir dairəsi müəyyənləşdirilmişdir. Bunlarda əhəngdaşı üzərində isləmiş bakılı usta Seyid Tahar, xəttat Nəziri və Şirvan Abşeron məktəbinin bir sıra davamçılarının əsərləri zəmanəmizədək gəlib çatmışdır. Əhəngdaşına yazılmış kitabələr Dərbənd, habelə Bakı, Şamaxı, Qarabağ, Qəbələ, Quba xanlıqlarının ərazisində qalmışdır. Şimali-qərb rayonları ərazisində yaşayıb-yaratmış xəttat-həkkaklar çaylaq daşları üzərində də işləmişdilər. Yerli material ustaların iş uslubuna güclü təsir etmişdir.

Çaylaq daşlarının sərtliyi, onun uzərində kitabə və nəbati motivlərin həkk olunmasının çətinliyinə baxmayaraq, bu ustaların tərtib etdikləri kitabələr bədii cəhətdən xeyli kamildir və çoxsaylı üstün xüsusiyyətlərə malikdir.

Bax: Azərbaycan taixi. 7 cilddə. III cild. Bakı, 2007, səh. 514, 516, 518.

Pəhləvi kitabələri. Dərbəndin qala divarlarındakı kitabələr Cənubi Qafqaz ərazisində bizim günlərədək qorunub saxlanılmış yeganə orta fars epiqrafik abidəsidir. Bu kitabələr VI əsrə – nəhəng Dərbənd istehkam qurğularının tikilməsi dövrünə aiddir.

Şimal şəhər divarının ön tərəfində və Narınqalanın ön və iç tərəfində, yəni ilkin tikilmiş müdafiə kompleksində bu günədək 32 belə kitabə aşkar edilmişdir.

Bu kitabələrin öyrənilmə tarixi üç yüz ilə yaxın bir vaxtı əhatə edir. Kitabələrin rəsmi D.Kantemir tərəfindən çəkilmişdir. 1823-cü ildə kitabələrin siyahısı X.Fren tərəfindən alman dilində (1837-ci ildə rus tərcüməsi) nəşr etdirilmişdir. Kitabələrin dəqiq təsviri ilə şəkilləri və rəsmləri ilk dəfə 1926-cı ildə Y.A.Paxomov tərəfindən verilmiş, onların oxunmasını isə həmin ildə İsveç alimi T.S.Nüberq yerinə yetirmişdir. 1947-ci ildə E.Hersveld kitabələrin yeni oxunuşunu təqdim etmişdir. Sonralar Dərbəndin pəhləvi kitabələrinin şəkillərini və rəsmlərini K.V.Trever (1959) vermişdir. Nüberqin oxumalarına etdikləri bəzi düzəlişləri isə V.B.Henninq (1958), V.Q.Lukonin (1969), F.Hinyu (1972), Q.Qropp (1977), S.Y.Qasımova təqdim etmişdilər.

Dərbənd kitabələri orta əsrlərə yaxın kursiv yazısı ilə yazılmışdır. Yazıların leksikası eynitiplidir. Kitabələrin bir çoxunda eyni şəxsin adı və titulu təkrar olunur. Kitabələrin çoxunda bu yazı vardır «Barzniş amarqar Adurbadaqana» («Barzniş» - şəxsi ad, «amarqar» - maliyyə nəzarətçisi, «Abdurbadaqan» - Azərbaycan).

Bəzi kitabələrdə isə - «Moşiq düzəltmişdir» və ya «Adurquşnaps düzəltmişdir» sözlərinə rast gəlinir. Kitabələrdəki iki yazı isə digərlərindən fərqlənir: «Otuz… etmişdir… dənizin sahilindən dərinliklərədək…» və ya «Dəniz sahilindən dərinliyədək (otuz)…. (amarqar)…». Şimal divarında Carçı qapısının yanındakı kitabədə yalnız «su» sözü oxunmuşdur. Mütəxəssislər hesab edirlər ki, bu yazı yaxınlıqda su anbarının yerləşdiyinin göstəricisi ola bilər.

Yalnız 1928-ci ildə akademik İ.A.Orbelinin aşkar etdiyi bir kitabədə tarix göstərilmişdir: «Bura və buradan yuxarı 37-ci ildə Barzniş amarkar Adurbadaqan tərəfindən düzəldilmişdir».

Mütəxəssislərin fikrinə görə, 37-ci il rəqəmi I Xosrov Ənuşirəvanın hakimiyyəti (531-579) dövrünə düşən 37-ci ildir. Belə ki, Sasanilər sülaləsindən olan heç bir Şah I Xosrov Ənuşirəvan qədər hakimiyyətdə olmamışdır.

Bəzi kitabələrin oxunması onların güclü şəkildə asınıb zədələnməsi ucbatından mümkün deyil.

Bizans kitabəsi. Orta əsr müəllifləri məlumat verirlər ki, ərəb sərkərdəsi Məsləmə 716-cı ildə Dərbəndi böyük çətinliklə ələ keçirmiş və onun əmri ilə şəhərin divarları dağıdılmışdır. Lakin sonra Məsləmə fikrini dəyişmiş və əmr etmişdir ki, divarlar bərpa olunsun və möhkəmləndirilsin. VIII əsr müəllifi Gevondun məlumatına görə, ərəblər şəhərin cənub divarlarını sökərkən böyük bir daş aşkar etmişlər. Onun üzərində belə bir yazı oxunurdu: «Fədakar imperator Markian bu şəhərin tikilməsində və möhkəmləndirməsində kifayət qədər istedad sərf etmişdir. Sonralar İsmayılın oğlanları bu divarları dağıdıb və öz vəsaitləri hesabına yenidən bərpa edərlər». Bu kitabənin bizans (yunan) yazısı olduğu guman edilir.

Lakin erməni müəllifinin bu yazısı müəyyən şübhələr doğurmuşdur.

Bu yazıya əsasən imperator Markian 450-457-ci illərdə hökmdarlıq etmişdi ki, bu da sasani şahı II Yezdəgirdin (438-457) dövrünə təsadüf edir. II Yezdəgirdin dövründə Dərbəndin bir (hazırda şimal divar) müdafiə divarı kərpicdən tikilmişdir. Bu divar Alban (Dərbənd) keçidini Şimali Qafqazın köçəri tayfalarından qorumaq məqsədi ilə tikilmişdir. Bu yazıya əsasən demək olar ki, Bizans dövləti II Yezdəgirdə divarın tikilməsinə görə maddi kömək göstərmişdir. Sasani və Bizans dövlətləri köçəri tayfalarının basqınlarına məruz qaldıqları üçün öz güclərini cəmləşdirib onlara qarşı yönəltmişlər. Dərbəndin daş divarları isə II Yezdəgirdən 100 il sonra sasani şahı I Xosrov Ənuşirəvan (531-579) tərəfindən tikilmişdir. Şimal müdafiə divarı və Narınqala yenidən daşdan tikilmişdir. Üzərində Bizans imperatoru Markianın adı yazılmış cənub divarı isə sonralar əlavə olunmuşdur.

Məlumdur ki, çətin və uzun mübarizədən sonra

Sasanilər İranı qonşu Bizans dövlətini məğlub etmiş və 537-ci ilin sülh müqaviləsinə əsasən I Xosrov Ənuşirəvan (531-579) bizans dövlətindən hər il təzminat ödəməyi tələb etmişdir. Həmin təzminat Sasani dövlətinin möhkəmlənməsinə və Şimali Qafqazın köçəri tayfalarından müdafiəsinə yönəldilirdi.

Alban kitabəsi. 1893-cu ildə Dərbənd şəhərinin şimal divarının xarici (çöl) tərəfində tək olan 10 hərfdən ibarət alban kitabəsi aşkar edilmişdir. Bu kitabə hal-hazırda itirilmişdir. Bu, məşhur 8 alban yazılarından ən ilkidir.

Qalan 7-si isə 1947-1952-ci illərdə Mingəçevir şəhərində arxeoloji qazıntılar zamanı aşkar olunmuşdur (Azərbaycan Respublikası). Şamdanlarda və kəlləciklərdə aşkar olunan «Mingəçevir» alban yazılarından fərqli olaraq «Dərbənd» alban yazısı şəhərin müdafiə divarında təkdir, yeganədir.

1981-ci ildə S.N.Muravyov (Moskva) tərəfindən tərcümə olunmuş yazıda («İberiya-Qafqaz dilçiliyinin həftəlik məcmüəsi», № 8, 1981) deyilir: «Qapıların hasarı».

Dağlar və dəniz arasında olan dar keçid çoxlu qədim mənbələrdə Dərbənd keçidi, Xəzər keçidi, Xəzərlərin qapıları, Hunların qapıları, Dəmir qapılar, Qapılar qapısı adlandırıldığı üçün, onda «Qapıların hasarı» söz birləşməsi semantiki olaraq bu adlara tam və dəqiq uyğundur.

M.Barxudaryanın 1893-cü ildə çap etdirdiyi «Albaniya və onun qonşuları» kitabında verilən məlumata görə, qapının üstündəki yazı yerdən 3 metr hündürlükdə, divarın ən qədim hissəsində yerləşmişdir. Bütün bunlar onu göstərir ki, bu yazı VI əsrə aid olan Dərbənd pəhləvi kitabələrindən də çox qədimdir.

DİNİ-TARİXİ ABİDƏLƏR

Məscidlər. VIII əsrdə ərəblər Dərbəndi işğal edərək, onu bu bölgəsini müsəlman dininin yayılması mərkəzinə çevirdilər. Yazılı mənbələrin məlumatına əsasən burada əsrlər boyu məscidlərin tikilməsinə böyük diqqət verilmişdir.

Belə ki, əl-Bəlazuri (IX əsr), ət-Təbəri (IX əsr), Balami (X əsr), İbn Əssam əl-Küfi (IX əsr) və digər müəlliflərin məlumatına əsasən, ərəb sərkərdəsi Məsləmə Dərbəndi işğal edərək, şəhəri dörd məhəlləyə böldü və hər məhəllədə məscid tikdirdi. Bunlardan əlavə o, ən böyük məscid olan Cümə məscidini tikdirdi.

Yerli tarixi «Dərbəndnamə» sənaməsinin məlumatına görə, Məsləmə yeddi məhəllə məscidi tikdirmiş və bu məscidləri bu məhəllərdə yaşayan tayfaların adı ilə adlandırmışdır: İordan, Fələstin, Dəməş, Xümis, Qeysəri, Cəzirə, Mosul. Bundan başqa, o, cümə namazının qılınması üçün Cümə məscidini tikdirmişdir.

Rus səyyahı Afanasi Nikitinin məlumatına görə, 1466-cı ildə şəhərdə 13 məscid var idi. 1796-cı ildə ərini səfərdə müşayiət etmiş V.İ.Bakunina şəhərdə 15 məscid görmüşdür. Kazan universitetinin professoru, 1842-ci ildə Dərbənddə olmuş İ.N.Berezin şəhərdə 16 məscidin olması barədə məlumat vermişdir.

1838-ci ildə Dərbənd hərbi komendantının göstərişi ilə şəhərin qədim təsvirini tərtib etmiş yerli alimlərindən birinin məlumatında göstərilirdi ki, Cümə məscidindən başqa Dərbənddə «3, 4, və 7-ci məhəllərdə 1408-ci ildə Şirvanşah İbrahim Xəlilullah tərəfindən tikdirilmiş minarəli məscid, 1613-cü ildə I Şah Abbas tərəfindən tikidirilmiş minarəli məscid, 1613-cü ildə 1-ci məhəllədə tikilmiş kiçik məscid, 1758-ci ildə tikilmiş sünnü məscidi, 1778-ci ildə 2-ci məhəllədə tikilmiş şiə məscidi, 1788-ci ildə 3-cü məhəlldə tikilmiş kiçik məscid, 1788-ci ildə 4-cü məhəllədə Hacı İrza tərəfindən tikdirilmiş minarəsiz məscid; 1778-ci ildə 6-cı məhəllədə bazarın ortasında Hacı bəy Kurçi tərəfindən tikdirilmiş kiçik məscid, yenə də həmin məhəllədə Nadir şah tərəfindən tikdirilmiş, içində Kazımın qəbri olan kiçik məscid, 1728-ci ildə Fətəli xan dövründə 7-ci məhəllədə tikilmiş minarəsiz məscid, 1698-ci ildə 8-ci məhəllədə tikilmiş və 1790-cı ildə Hacı Tahir bəy tərəfindən yenidən qurulmuş minarəsiz kiçik məscid və nəhayət, 1738-ci ildə 9-cu məhəllədə Hacı Mani tərəfindən

tikilmiş minarəsiz kiçik məscid»i var idi.

Şəhərin 1810-cu ildə rus mühəndisləri tərəfindən tərtib olunmuş planında Cümə məscidinin qərbində ikiminarəli məscid göstərilmişdir. Qalan məscidlər isə, Cümə məscidinin şərqində şəhərin orta hissəsində yerləşirdi.


Bizim günlərədək qorunub saxlanılmamış məscidlərin biri Narınqalada yerləşirdi. Dərbəndin ümumi panoramını əks etdirən şəkil və rəsmlərdən göründüyü kimi, qalada olan məscidlərin minarələri şəhərin digər məscidlərinin minarələrindən ölçüləri ilə fərqlənmişdir.

XX əsrin əvvəllərində şəhərdə Cümə məscidindən başqa aşağıda adları çəkilən məscidlər də var idi: 1-ci məhəllədə Kəlamçılar məscidi; 2-ci məhəllədə Şirvan və Mikri məscidləri; 3-cü məhəllədə Qızlar və Bayat ocağı məscidləri; 4-cü məhəllədə Genküçə, Çortəpə və Qırxlar məscidləri; 5-ci məhəllədə Peyinnikbaşı məscidi; 6-cı məhəllədə Hacı Əsədulla və Papaqçılar məscidləri; 7-ci məhəllədə Bala və Kilsə məscidləri; 9-cu məhəllədə Minarə məscidi; Həmşəri məscidi, Quruq məscidi və aşura günündə istifadə olunan bir sıra kiçik məscidlər.

1938-ci ildə şəhərdə dini icmaların fəaliyyəti sovet dövləti tərəfindən qadağan olunmuşdur.

Bu gün Cümə məscidindən başqa şəhərdə bir neçə məscidin binaları qorunub saxlanılmışdır: 9-cü məhəllədə Minarə məscidi; 7-ci məhəllədə Kilsə və Bala məscidləri; 5-ci məhəlldə Qırxlar məscidi; Krupskaya küçəsi, 7 ünvanında Papaqçılar və Bazar məscidləri; Lenin küçəsi 92 invanında Həmşəri məscidi.

Minarəli məscid – Dərbəndin doqquzuncu məhəlləsində Carçı qapısının yaxınlığında yerləşir.



Minarəli məscidin girişi

Şəhərin yuxarı hissəsinin XIX əsrin ortalarına aid olan şəkillərindən birində həmin yerdə yarımdağıdılmış minarəli qüllə məscidi təsvir olunur. Bu gün şəhərdə bu yeganə minarəli məsciddir. Məscidin binası XIX əsrdə təzədən tikilmiş yarımsilindrik, tağtavanla örtülmüş dördkünc binadır. Minarəli məscid yerdən 11,5 metr ucalan karnizə qədər qorunub saxlanılmışdır. Onun aşağı hissəsi dördkünc formadadır (2,8x2,8 m), hündürlüyü 1,65 metrdir. Ondan yuxarı 9,9 metr olan silindrik hissəsi gəlir. Bu hissə oyma ornamentli yarımoval karnizlə tamamlanır. Minarə yaxşı yonulmuş daşdan tikilmişdir. Hörgünün yuxarı hissəsindəki daşlarda Qurandan ərəb dilində ayələr həkk onulmuşdur.

Hörgüsünə görə, minarə XIII-XIV əsrlər Şirvan minarələrinə, xüsusi ilə Bakı yaxınlığında, 1265-ci ilə aid olan Xanlardakı məscid minarələrinə və 1448-ci ilə aid Bakı Şirvanşahlar məscidinə yaxındır. Bu da Dərbənd minarəsinin XIII-XIV əsrlərə aid olduğunu göstərir.



Minarəli məscidin daxili görünüşü

Bəzi tədqiqatçılar məscidin tikilməsini Cümə məscidinin nəzdində mədrəsəni tikdirmiş şirvanşah Fərrux Yəsarın (1462-1500) adı ilə bağlayırlar.

Minarənin içində balaca pəncərələrlə işıqlanan vintvari pilləkan var. Şimal hissədəki hörgüdə oyma ornamentli daş var.

Bala məscid – Dərbənd şəhərinin orta qapısının yanında yerləşən A.Olearı tərəfindən 1638-ci ildə çəkilmiş şəkildə XVIII əsrin 20-ci illərinin planında və şəkillərdə bu yerdə böyük kvadrat bina; şəhərin digər binalarından özünün nəhəng ölçüləri və özü-

nəməxsus profilli qübbəsi ilə seçilir.

Bu məsçidin 1860-ci ildə B.A.Dorn tərəfindən çəkilmiş şəkli qübbəsi olan ikimərtəbəli binanın əksidir. Birinci mərtəbənin pəncərələri böyük və yuxarı hissəsi dairəvidir. İkinci mərtəbədəki pəncərələr isə çox balacadır.

1796-ci ildə general V.Zubov Dərbəndi işğal edərkən məscidin binası dağıdılmışdır. Sonralar onun yerində qubbsi və düz damı olan yeni birmərtəbəli bina tikilmişdir. Bu binanın hicri tarixi ilə 1225-ci ildə (miladi 1812-ci il) tikilməsini məscidin giriş qapısının üstündə olan yazı sübut edir.

Çortəpə məscidi – Dərbənd şəhərinin 1-ci məhəlləsində (Çortəpə məhəlləsində) yerləşirdi. Məscidin binası təxminən XVII əsrdə tikilmiş, XIX əsrin sonunda əsaslı təmir edilmişdir. XX əsrin 60-cı illərində məscidin binasının qalıqları daşınıb aparılmışdır.

Qədim təsvirlərə, rəsmlərə və şəkillərə görə bu məscid Dərbəndin taxtaoyma naxışlı hissələrlə işlənmiş nadir memarlıq abidələrindən biri idi.

Cümə məscidi kompleksi – Dərbənddəki ən maraqlı dini tikililərindən biridir. Komplekse məscid binası, mədrəsə, ruhanilər üçün yaşayış evləri və müsəlman məktəbinin binası daxildir. Bütün bu tikililər düzbucaqlı planda (45x55 m) qruplaşdırılmış, həyət isə daş plitələrlə döşənmişdir. Cümə məscidinin böyük və hamar həyəti müxtəlif tədbirlərin, dini bayramların, şəhər sakinlərinin toplaşması və s. üçün geniş ictimai meydanı xatırladır.



Kompleksin həyətinə Dərbənd memarlığına xas olan oxvari formada olan üç qapı aparır: biri şərq tərəfindən, ikisi isə şimal tərəfdən. Ən böyük və ən qədim qapılar kompleksin şərq divarındadır. Qapının üzərində fars dilində Şah Abbas haqqında yazı var. Bu yazı hicri tarixi ilə 1018-ci ilə, miladi tarix ilə isə 6.V.1609-25.III.1610-cu illərə aiddir. Mətndə göstərilmiş «Şah Abbas» I Şah Abbasdır (1587-1629). I Şah Abbas Dərbəndə 1606-cı ildə şəhər sakinlərinin osmanlı hakimiyyətinə qarşı üsyanından sonra gəlmişdir. Şimal tərəfdən kompleksin həyətinə çıxan qapılar ölçülərinə görə kiçikdir və nisbətən gec tikilmişdir. Bu qapıların daşlarının birində onların 1815-ci ildə tikildiyi göstərilir.

Kompleksin həyətinin qərb tərəfində, qədim ticarət meydanı yerləşdiyi yerdə, ruhanilər üçün tikilmiş otaqların kürsülüyündə bulaq var idi – Məscid bulağı.

Kompleksin həyətinin şərq tərəfində XIX əsrin sonunda Dərbənd mesenatı Hacı Şahmərdan Eminov tərəfindən tikdirilmiş müsəlman məktəbinin birmərtəbəli daş binası yerləşirdi. Həyətin şimal tərəfini XV əsrə aid olan mədrəsə binası tuturdu. Dərbənd dini mərkəz olduğu üçün burada fiqhin (müsəlman hüquqşünaslığının), hədisşünaslığın, sufi və tarixi ədəbiyyatın sabit adət və ənənələri mövcud idi. XII əsrdə artıq burada bir neçə mədrəsə var idi. Cümə məscidi kompleksinin şimal hissəsində yerləşən mədrəsə yonulmuş daşdan tikilmiş birmərtəbəli binadır.



Mədrəsə binasının fasadı simmetrik deyildi. Böyük seksiyadan şərqdə – beş balaca seksiya, qərbdə isə səkkiz seksiya yerləşmişdir. Lakin arxiv məlumatlarına əsasən bina XIX əsrin əvvələrində 6 seksiyadan ibarət olmuşdur. Sonra, 1889-cu ildə bina genişləndirilmiş və simmetrik kompozisiya formasını almışdır.


Mədrəsənin binası XV əsrdə tikilmişdir. Sonralar bina bir neçə dəfə yenidən qurulmuşdur. Mərkəzi seksiyanın fasadında olan yazı bunu bir daha təsdiq edir.

Hicri tarixi ilə 879-cu il miladinin 1477/5-ci

ilinə təsadüf edir. Bu da Şirvanşah Fərrux Yəsarın hökmranlığı (1462-1500) dövrünə düşür. Buna görə də mədrəsə «əl-Fərruxiyə» adlanmışdır. Ərəbcə olan ikinci yazı isə göstərir ki, mədrəsənin binası uçduqdan sonra hicri tarixi ilə 1204-cü ildə (1789/90) şəhər hökmdarı Şeyxəli xan tərəfindən bərpa olunmuşdur.

Kompleksin həyətində məscid binasının önündə 3 əsr yaşı olan çinar ağacları bitir. Nəhəng ağacların hər birinin gövdəsinin diametri 10 metrdən çoxdur. Ağacları kimin əkdiyi məlum deyil. Bu ağaclar barədə xalq arasında çoxlu rəvayətlər gəzir. Rəvayətlərin birində ağacın birinin məscidi tikmiş memar tərəfindən əkildiyi deyilir. Guya həmin memar demişdir ki, məscid durduğu qədər ağac yaşayacaq. Az da olsa əhəmiyyət daşıyan binaların qarşısında çinar ağaclarının əkilməsi uzunömürlülük rəmzi idi. Bu qədim Şərqdə ənənəyə çevrilmişdir. Çinarın gözəl, dekarativ görünüşü olur və yaxşı kölgə verir. Güclü kök sistemli və susevər çinar ağacları qarşısında əkildiyi binaları nəmişlikdən qoruyur. Hazırda çinarların yaşı (700 il) müəyyən olunmuşdur. Bu çinarlar dövlət tərəfindən qorunur.

Cümə məscidi – Cümə məscidi kompleksi Dərbənd şəhərinin tarixi cənub hissəsini tam tutur. Bu məscid Qafqazda ən böyük və ən qədim məsciddir. Çoxsaylı yazılı mənbələr «böyük ellik məscidinin» hicri tarixi ilə 715-ci ildə (733/4) Dərbəndi zəbt etmiş ərəb sərkərdəsi Məsləmə ibn Əbdülməlik tərəfindən tikildiyi haqqında məlumat verir. Yerli tarixi salnamə olan «Dərbəndnamə»də və xalq rəvayətlərində Məsləmə ibn Əbdülməliki Əbu Müslim adlandırırdılar. Həmin tarixi məscidin mərkəzi girişində qorunub saxlanılan ərəb dilindəki yazı da təsdiq edir.



Cümə məscidi. 1842-ci il

Düzbücaqlı, şərqdən qərbə uzanan məscidi binasının uzunluğu 67 metr, eni isə 17 metrdir. Binanın tağ-tavanı iki sıra ilə düzülmüş kvadrat (1x1m) sütunlara söykənir. Bu sütunlar binanı üç uzun nefa ayırır. Orta nefin eni 6,3 metr, yan neflərin eni 4 metrdir. Sütunlar arasındakı oxabənzər tağlar neflərin qarşısına çəkilmişdir. Yan neflərin hər seksiyası yarımdairə, orta neflər isə güzgülü taxtavari örtülmüşdür. Orta nefin mərkəzi seksiyası çox da böyük olmayan 14 tilli oxvarı qüllə ilə örtülmüşdür. Cənub nefin ortasında diametri 9,3 metr olan oxvari qüllə ilə örtülmüş, qabağa çıxan kvadrat zal yerləşir. Zalın cənub divarına yağlı boya ilə işlənilmiş yaşıllıq ornamenti çəkilmiş və Qurandan ayələr yazılmışdır. Bu mehrab müsəlmanların müqəddəs şəhəri olan Məkkə istiqamətini göstərir.

Bina yerdən hündürlükdə yerləşən və yan neflərin hər seksiyasına çıxan dəmir çərçivəli balaca tağvari pəncərələr ilə işıqlandırılır. Kvadrat zal mehrabdan yuxarıda yerləşən cənub divarında olan üç pəncərə və qübbədə olan 4 pəncərə ilə işıqlandırılır.

Şimal divarda binanın köndələn oxunda və mərkəzində yerləşən əsas böyük giriş və üç balaca giriş tikilmişdir. Divarın səthindən qabağa çıxan əsas girişin böyük portalı parlaq bitki ornamenti bəzədilmiş və daş üzərində Qurandan ayələr yazılmışdır.

IX-X əsrlərin bir çox ərəb müəllifləri və yerli tarixi salnamə «Dərbəndnamə» məlumat verirlər ki, Məsləmə Dərbənddə müdafiə istehkamlarının bərpa edilməsi üzrə nəhəng tikinti işləri gördürmüşdür və Xilafət ölkələrindən şəhərə çox sayda müsəlman köçürmüşdür. Bəzi mənbələr bu rəqəmin 24 min nəfər olduğunu göstərir.

Bundan əlavə, Quranın müqəddəs hədislərdə adı çəkilən Dərbənd müsəlman adətincə «müqəddəs yer» sayılırdı. Müsəlman siyasətçiləri əsaslı olaraq bu şəhəri şimal sərhəddində Xilafətin forpostu adlandırır və islamın şimal ərazilərinə yayılmasının mərkəzi sayırdılar. Ona görə də bu qədər ərəb köçkünlərinin və islamı qəbul etmiş yerli sakinlərin olması, həmçinin müsəlman adətində Dərbəndin rolu və xilafətin siyasətində rolu ilə əlaqədar Məsləmənın belə bir nəhəng cümə məscidi binasının tikdirməsi tam qanunauyğundur.

Yazılı mənbələr məscidin binasının nə vaxt və nə ilə əlaqədar dağılması haqqında heç bir məlumat vermirlər. Lakin ehtimal olunur ki, Cümə məscidi, ola bilsin, güclü zəlzələ nəticəsində uçmuşdur. Mə-

lumdur ki, Dərbənd XIII-XIV əsrlərdə, Elxanilar və Qızıl Orda dövlətləri arasında sərhəd şəhəri olmuşdur. Bu dövlətlər müharibə etdikləri dövrdə Dərbənd dəfələrlə bir əldən ələ keçirdi. Belə müharibələr dövründə müxtəlif dağıntılar o qədər də qeyri-mümkün bir şey deyildi.

Yazılarda adı çəkilmiş Teymuraz oğlu Əfriburzu şəhərin hakimi və ya zəngin feodalı hesab etmək olar. Çünki bərpa işlərini o maliyyələşdirirdi. Daha bir fars yazısı memarın adı haqqında məlumat verir:

«Allahdan başqa Allah yoxdur,
Məhəmməd Allahın rəsuludur.
Həqiqətən iş Bakı inşaatçısı
Usta Tac əd-Din bin Musanın işidir».

Bu yazıda tarix göstərilmir. Lakin xəttin və üslubun oxşarlığına görə mütəxəssislər iki son yazının eyni zamanda yazıldığını təsdiq edirlər.

Məscidin divarlarının aşağı hissəsi və daxili sütunların yaxşı yonulmuş daşlardan tikilmişdir və onlar qala divarlarını xatırladır. Divarların yuxarı hissələri, daxili tağlar, tağ-tavanlar və qübbələr qırmızı kərpiçdən tikilib və suvaqlanmayıbdır. Bu da gözəl dekorativ ornament təsiri bağışlayır.

Cümə məscidinin daxili interyeri öz böyüklüyü və möhtəşəmliyi ilə göz oxşayır. Kərpiç tağ-tavanların, ağardılmış divar və sütunların, döşəməyə salınmış parlaq xalçaların rəngli koloriti, hətta qızmar yay günündə buradakı yarıqaranlıq və sərinlik, möhtəşəm təntənəli interyer bu məscidin Qafqazda ən böyük və ən qədim müsəlman dini tikililərindən biri olduğunu bir daha qabarıq şəkildə göstərir.

Hamar damı olan tikililərin içərisindən yerdən 17 metr hündürlüyə əzəmətlə yüksələn Cümə məscidinin minarəsi və günbəzi qədim şəhərin görünüşünün əsas elementi idi. Cümə məscidinin binasının ilkin təyinatı haqqında müxtəlif versiyalar gəzir. Bəzi müəlliflər iddia edirlər ki, məscidin binası xristian bazilik məbədi olmuş, lakin VIII əsrdə ərəblər bu binanı məscidə çevirmişdilər. Bu versiyanın tərəfdarları binanın bazilik xarakterli olduğu üçün onu məbəd hesab edirlər. Digər müəlliflər hesab edirlər ki, bina əvvəlcədən məscid kimi tikilmişdir. Bu fikrin tərəfdarları bunu onunla əsaslandırırlar ki, əgər bu nəhəng bina bazilikdirsə, onda sütunlar arasındakı tağlar köndələn yox, neflər boyu yerləşdirilərdi. Binanın bazilik xarakterli olması isə onunla izah olunur ki, islam dininin Şərqi Ərəbistanda ilkin yayılması dövründə məscidlər xristian məbədlərinin yenidən qurulması ilə yaranırdı. Bunun nəticəsində məscidlər sürətlə artır və xristian məbədləri azalırdı. Xristian məbədləri əsasında yenidən qurulmuş məscidlər isə baziliki xatırladırdı. Cümə məscidi isə sonunculara aid edilir.

Üçüncü qrup müəlliflər isə hesab edirlər ki, qədimdə Cümə məscidinin yerində kiçik xristian kilsəsi olmuşdur. VII əsrdə ərəblər tərəfindən zəbt olunmuş şəhərdə bu kilsə indiki ölçüdə yenidən tikilmişdir.

Bu məsələ haqqında tədqiqatçıların hələ ki, son vahid qərarı yoxdur.

1938-ci ildə ölkədə ateizm ideologiyasının hökmranlığı vaxtında Cümə məscidi bağlanmış və onun avadanlığı milliləşdirilmiş, bina isə XDİK (HKBD) istintaq izolyatoruna verilmişdir. 1943-cü ildə Cümə məscidi dindar müsəlmanların istifadəsinə qaytarılmışdır.

Qırxlar məscidi – Dərbənd şəhər şimal divarının içəri tərəfində Qırxlar qapısının yanında yerləşir. Bu, qərbdən şərqə doğru uzanan birmərtəbəli düzbucaqlı (18x10m) binadır. Binanın mərkəzi hissəsi oxvari daş günbəz ilə örtülmüşdür. Günbəzin aralıq eni 7 metrdir.



Qırxlar məscidi.

Yan tərəfləri (qərb və şərq) 4 yarımsferik günbəzlərdən ibarətdir.

Məscidin damında yalnız bir mərkəzi günbəz görünür.

Məscidin qərb divarının içində qalınlığında dama aparan pilləkən qurulmuşdur. Məsciddə minarə olmadığı üçün müəzzin buradan dindarları dua et-

məyə səsləyirdi. Məscid dödr pəncərə ilə işıqlandırılır.

Məscid I Şah Abbasın (1521-1629) əmrilə hicri tarixi ilə 1036-cı ildə (1626/7) Dərbənd hakimi Qaraxan bəy Suvaclı tərəfindən tikilmişdir. Məscidin binası bir neçə dəfə dağılmış (ola bilsin zəlzələ nəticəsində), sonralar isə 1712/3-cü ilin yazında dindarların nəziri hesabına bərpa edilmişdir.

Zərdüşt (atəşpərəstlik) məbədi (Kəbə-i-Zərdüşt) – İranda ölkənin cənubunda, isti, quraqlıq dərədə, qara qalalar ilə əhatə olunan Nəqşi Rüstəm adlanan yerdə yerləşir. 1936-cı ildə amerikanın arxeoloji ekspedisiyası ibadətxananın kürsülüyündə kitabə aşkar etmişdir. Bu yazı Sasanilər sülaləsindən olan tanınmış şahənşah Şapurun (242-272) qələbələrindən bəhs edir.

262-ci ilə aid olan bu kitabədə deyilir: «… Atropatena, İberiya, Makedoniya, Albaniya, Kolkoxa (Qafqaz dağları) və Alban qapılarınadək (Dərbənd rayonunun qədim adı) ərazini şahənşah Şapurun hakimiyyəti altındadır».



290-293-cü ilə aid olan başqa kitabədə deyilir: «… şahənşah Şapurun atları və adamları Antioxinaya (qədim Suriya dövlətinin paytaxtı), şəhərə və Suriya ölkəsinə, vilayətinə, Tarsaya, Qeysəriyyəyə (Kiçik Asiyada şəhər), daha sonra Yunanistana, İberiyaya və Balasakana (qədim Azərbaycan Albaniyasının tarixi vilayəti) və sonra Alban qapılarınadək (Dərbənd) Şapur öz atlıları və qoşunları ilə dağıntılar, yanğınlar törətmişdir».

Bu kitabələrdə qüvvətli hökmdar şahənşah Şapurun qılıncla keçdiyi ölkələr və vilayətlər sadalanır və Alban qapılarında (Dərbənd) onun törətdikləri ətraflı təsvir edilir. Şahənşah Şapurun əsas məqsədi Alban qapılarında öz nəzarətini gücləndirmək idi. Hadisələr sasani hökmdarının bu strateji məntəqəyə böyük əhəmiyyət verdiyini göstərirdi. Dərbənd təpəsində aparılmış arxeoloji qazıntılar bu yazıları təsdiq etmişdir.

Əmcəkli pir bulağı– Dərbəndin cənubunda, Calqan dağ silsiləsinin qolunda möcüzəli «müqəddəs yerlərdən» biri – Əmcəkli pir bulağı yerləşir.

Bulaq balaca mağaranı xatırladır, harada stalaktitlərdən, elə bil yerin şişmiş əmcəyindən şəffaf su damcılayır və bu su insanlara şəfa verir.

Qədim ənənəyə görə bulağa südü qurumuş uşaq əmizdirən analar gəlirlər. Sonsuzluqdan əziyyət çəkənlər də bu sudan içirlər. Bulağın yaxınlığında naməlum bir məzar var. Qədim məzar daşının üstündə bir vaxtlar sövmə (kiçik məbəd) tikilmişdir. İndi onun azacıq izləri qalmışdır.

Yerli əhali arasında gəzən qədim rəvayətdə «… Allaha üz tutan böyük döyüşçü» qoca surətində olan «…daima canlı həyat mənbəyinin» müdafiəsində duran gənc haqqında danışılır. Rəvayətdə qədim şərq surətləri – müdrik və ölməz Xıdır (Xəzər) və İlyasdan danışılır. Onlar öz keyfiyyətlərini döyüşçüyə ötürürlər.

Mütəxəssislərin fikrincə, rəvayətlər və digər çoxsaylı hadisələr bu müqəddəs yerin çox qədimliyini göstərir. 1858-ci ilin noyabrında məşhur fransız romanisti A.Düma (ata) Dərbənddə olarkən bu müqəddəs yeri də ziyarət etmişdir. O, bu müqəddəs pir haqqında «Qafqaz» adlı kitabında yazmışdır.

«Kilsə» məscid – Dərbəndin qədim ticarət mərkəzinin yaxınlığında (indiki 7-ci məhəllə) yerləşir. Bu, çox da böyük olmayan düzbucaqlı binadır (12x5,4 m). Bu məscidin qəribə taleyi var.



806-cı il iyun ayının 22-də rus ordusu general-leytenant Qlazenapın komandanlığı altında Dərbəndi zəbt edir. İşğalçıların zabit heyəti Narınqalada və şəhər sakinlərinin evində yerləşdirilir. O, dövrdə xristian dini ayinlərini yerinə yetirmək üçün şəhərdə kilsə yox idi.

1823-cü ildə Qafqazdakı rus qoşunlarının baş komandanı general A.P.Yermolov Dərbənddə olarkən qarnizon zabitləri onun qarşısında kilsənin tikilməsi baradə məsələ qaldırdılar. A.P.Yermolovun sərəncamına əsasən ticarət meydanında yerləşən məhəllə məscidini «müqəddəs Georgi Pobedonosets adına kilsəyə» çevirdilər. Binanın minarəsinin üstünə xaç qoydular. Bina, demək olar ki, 30 il qarnizon kilsəsi kimi istifadə olunmuşdur.

1852-ci ildə yeni Sobor kilsəsi tikildikdən sonra bütün xristian dini ayinləri orada keçirilməyə başladı. Lakin şəhər hakimləri məscidi müsəlmanlara qaytarmağa tələsmirdilər.

1853-cü ilin fevralında 7-ci məhəllənin sakinləri hərbi qubernatora məscidin qaytarılması haqqında xahişnamə yazırlar. Dərbəndin hərbi qubernatoru Y.F.Minkvits yalnız 1855-ci ildə bu məsələyə baxdı və binanı müsəlmanlara qaytardı. Elə o vaxtdan bu məscidin adı «kilsə-məscidi» kimi qalmışdı. Bu məscid 1936-cı ilə kimi fəaliyyət göstərmişdir. Lakin ölkədə hökmran olan sovet rejimi olduğuna görə məscid öz fəaliyyətini dayandırdı.

1994-cü ildən etibarən məscid Tövbə-məscidi kimi fəaliyyət göstərir.

«Yeddi quyu» ziyarətgahı – Dərbənd şəhərinin cənub qala divarının arxasında yerləşir. Burada təmiz, içməli su yığmaq üçün qayada yonulmuş 7 quyu var. Bu quyular bir-biri ilə bağlıdır. Bir quyudan su o biri quyulara axır və oradan da daş novlar vasitəsilə «Şıx Salah» («Şeyx Salah») bulağının su anbarına tökülür. «Yeddi quyu» ziyarətgahına qadınlar cümə axşamları və bayramqabağı gəlirlər, dua edirlər və Allaha öz arzu və niyyətlərini söyləyirlər.

Dərbənddə daha bir neçə müqəddəs ziyarətgah var: «Cüm-cüm», «İsfəndiyar» və s.

Dərbəndin cənub hissəsində «Cüm-cüm» adlanan qəbiristanlıq var. Rəvayətə görə, burada şəhərin ən qədim hakimi dəfn olunub.

Qalanın cənub hissəsində «İsfəndiyar ailəsi»nin bir sıra qəbirləri var. Bu qəbir daşlarının birindəki yazıda göstərilir ki, bu qəbir Həmzə ağanın oğlu Əmir İsfəndiyara məxsusdur. Onu hicri tarixi ilə 866 (1462)-cı ildə 20 köməkçisi ilə düşmənlər «doğramışlar».

Müqəddəs Georgi Pobedonosets məbədi – Dərbənddə XIX əsrin ortalarında ucaldılmış ən möhtəşəm tikililərdən biri.



Xristian məbədlərinin Rusiya imperiyasına yenidən qatılmış ərazilərində tikilməsi çarizmin müstəmləkə siyasətinin istiqamətlərindən biri idi. Bu məbədin bünövrəsi 1849-cu ildə qoyulmuşdur. Məbədin bünovrəsinin qoyulması mərasimində Qafqaz canişini M.S.Vorontsov məiyyəti ilə iştirak etmişdir.

1850-ci ilin oktyabr ayında Rusiya taxt-tacının varisi, Rusiyanın gələcək imperatoru II Aleksandr da (1855-1881) məbədin tikilməsinə baş çəkmişdir. Bina Dərbənd balıqqulağından olan yonulmuş daş bloklardan tikilmişdir. Bu daş bloklar bir-biri ilə əridilmiş qurğuşunla bərkidilirdi. Tikinti hərbi inşaatçı-mühəndis kapitan Gerşelmanın rəhbərliyi altında aparılmışdır.

Məbədin layihəsi rəssam knyaz Q.Q.Qaqarinə tanış olan Bizans üsulunda hazırlanmışdır. Xaçlar, üçmərtəbəli gümüş çəkilmiş 36 şamdandan ibarət çilçıraq və başqa şamdanlar məşhur Moskva ustaları tərəfindən hazırlanmışdır. İkonostas (ikonaların asıldığı divar) Tiflisdə hazırlanmışdır. 113 pud və 15 funt çəkisi olan kilsə zəngi gəmi ilə Həştərxandan gətirilmişdir. Məbədin girişində quraşdırılmış qüllə saatı Odessa şəhərində hazırlanmışdır. Bu,

Qafqazda birinci belə saat idi və canişinin xüsusi fərmanı ilə bütün ictimai binalarda belə saatlar qoyulmalı idi.

Məbədin 500 nəfər yerləşən mərkəzi zalı Q.Q.Qaqarinin rəhbərliyi ilə naxışla bəzədilmiş, ikonostasın üç ikonası («Sirli gecə», «Müqəddəs arxangel Mixail» və «Müqəddəs arxangel Qavriil») - onun özü tərəfindən çəkilmişdir.

Məbədin tikintisi 1853-cü ilin dekabrında başa çatmışdır. Bu barədə «Qafqaz» (Tiflis) qəzetində böyük məqalə çıxmışdır.

1938-ci ildə şəhər hakimiyyət orqanlarının qərarı ilə məbəd sökülmüşdür. Məbədin yerində və ona yaxın olan ərazidə şəhərin baş meydanı yerləşdirilmiş və bu meydan «Azadlıq meydanı» adlandırılmışdır.

Şərbafxana – dini atributların hazırlanması üzrə kustar müəssisə idi. Burada şəriət paltarı, toxunma ayaqqabılar, qadın ətəkləri üçün xüsusi haşiyələr, namaz xalçaları-canamazlar, kəfənlik pambıq parçalar və s. hazırlanırdı.

Dərbənddə ən böyük səribafxana 6-cı məhəllədə yerləşirdi.

DƏRBƏNDİN QAPILARI

Qədim Dərbənd üçün şəhər qapılarının xüsüsi əhəmiyyəti var idi. Onlar şəhərin rəmzi hesab olunurdu. Şəhərin özünü də qapıların adı ilə adlandırırdılar – Bab əl-Əbvab (ərəb.Qapılar qapısı. Baş qapı), Dərbənd (fars.Qapılar qovşağı) və s.

Şəhər qapıları yalnız müdafiə sistemi xarakteri daşımırdı, onlar eyni zamanda şəhərin xarici görünüşünü bəzəyirdi. Bu qapılar öz görünüşü ilə Dərbəndin varlılığı və qüdrəti haqqında məlumat verməli idi. Ona görə də şəhərin şimal divarının düşmən ərazilərinə və düşmənçilik edən qəbilələr və xalqlar tərəfinə yönəldilmiş qapıları mürəkkəb memarlıq formalarına malikdir. Bu da onlara sərt görünüş verirdi. Bunun əksinə olaraq şəhərin cənub divarının qapıları asan, zərif və əzəmətli görünüşə malik idi.

Əvvəllər nə qədər qala qapıları olduğunu demək çətindir. Zaman keçdikcə, uzunmüddətli mühasirə və qanlı hücümlar dövründə bəzi qapılar dağıdılmış, sonralar əvvəlki görkəmini itirmiş və yenidən bərpa olunmuş, bəziləri isə özünün əhəmiyyətini itirərək hörülmüş, üçüncülər isə – yenidən tikilmişdilər.

Ona görə də müxtəlif müəlliflərdə şəhər qapılarının sayı haqqında müxtəlif məlumatlarla rastlaşırıq. Belə ki, ət-Təbəri (Xəsr) məlumat verir ki, ərəb sərkərdəsi Məsləmə VIII əsrdə Dərbəndi tutarkən, əmr edir ki, şəhərin dağılmış divarlarını bərpa etsinlər. Yerli tarixi «Dərbəndnamə» salnaməsi ət-Təbərinin bu məlumatını dəqiqləşdirərək məlumat verir ki, Məsləmə şəhərin cənub divarında üç dəmir qapını, şimal divarında – iki və qalada bir qapını quraşdırır və onları belə adlandırır: Bab əl-Mühacir (hazırda Carçı qapı), Bab əl-Cihad (hazırda Qırxlar qapısı), Bab əl-Alkama (hazırda Narınqala qapısı), Bab əl-Maktub (hazırda Bayat qapı), Bab əl-Xoms (hazırda dağıdılmış Yengi qapı), Bab əl-Qəsr (hazırda Daş qapı). Bu mənbəyə görə də «…yeddinci qapı - Bab Kuçuk (bu ərəb-türk adı «Kiçik qapılar» kimi tərcümə olunur) dəniz tərəfə açılırdı. Əgər müsəlmanlar barışmaq məqsədilə adam göndərirdilərsə, onu Bab Kuçuk qapıdan çıxarırdılar.

IX əsrin digər müəllifi İbn Əsʾsam əl-Küfi Yəzid ibn Usaydu as Suləminin hicri tarixi ilə 145-ci ildə (762/3) Dərbəndə səfəri haqqında yazaraq məlumat verir ki, «… O, Bab əl-Əbvabın qapılarına çataraq qoşunlarını burada yerləşdirdi və şəhərin qapılarını və istehkamlarını qaydaya saldı. Sonra o, əmr etdi ki, qapılar tikilsin və onları divar boyu uzanan və əl-Kunak dağına (yəqin ki, bu Calqan dağ silsiləsidir) çatan bitki kimi tikdilər».

Birinci qapı Kambax adlanırdı. Sonra gələn digər qapılar ardıcıl olaraq əl-Bərdan, əl- Həmid, Bab əl-Hadid (Dəmir qapı), Bab vaf (Baş qapı), Bab əl-

rusul əl-suqra (Kiçik Səfir qapısı), Bab əl-rusul əl-kubra (böyük Səfir qapısı), Bab Arsa (Zövbər qapısı) və sonuncu qapı – Bab adarr Musa (Xeyirxah Musa qapısı).

Ərəb tarixçisi və səyahətçisi əl-Müqəddəsi (X əsr) məlumat verir ki, «şəhərin şimal divarında üç qapı var: Bab əl-Kəbir (Qırxlar qapısına oxşar olan Böyuk qapı), Bab əl-Saqir (Daş qapıya oxşar Kiçik qapı) və dənizin yaxınlığında olan bağlı daha bir qapı; bu qapı heç vaxt açılmırdı. Dəniz tərəfdən və müsəlman torpaqları tərəfində (yəni şəhərin cənub divarında) olan çoxlu qapılar var idi».

Bu məlumatda şəhərin müdafiəsində heç bir rol oynamayan şəhərin cənub divarı və dəniz tərəfdə yerləşən qapılarının adları çəkilmir.

XV əsrdə şəhərdə 7 qapı var idi. 1638-ci ildə Dərbənddə olmuş Adam Oleari 10 qapı (altısı cənub, dördü şimal divarında), türk səyahətçisi Övliya Çələbi 1647-ci ildə burada altı qapı görmüşdür.

1720-ci ilin sxemlərində on altı qapı görünür (dördü şimal, altısı cənub divarında, iki qapı Narınqala, dörd qapı isə köndələn divarlarda) və D.Kantemir on bir qapının olduğunu göstərir (qalanın qərb qapısı, beş qapı şəhərin cənub və beş qapı şimal divarında).

Onun məlumatına görə şəhərin şimal divarının qapıları belə adlandırılırdı: «Dri-ardizi-kapusi», «Verklar-kapusi», «Bab ul-bab», «Bab ul-kıyamat».

O, dəniz kənarında olan beşinci qapının adı haqqında heç nə demir. Əgər Narınqaladan dəniz tərəfə getməyə başlasaq, bu qapılar indiki Carçı qapısına, Qırxlar qapısına, Daş qapıya və XVIII əsrdə yoxa çıxmış Qıyamət qapısına uyğun olmalıdır. Sonuncu qapı haqqında yazır ki, anlaşılmaz təsvirlərlə bəzədilmiş yeraltı qapılar da mövcud idi və yerli sakinlərin verdiyi məlumatlara görə, onlar nə vaxtsa hündürlüklərinə görə o biri qapılarla bərabər olmuş, sonralar isə tədricən çökmüşlər.

A.İ.Axverdov 1804-cü ildə yazırdı ki, şimal divarında «dəmirdən düzəldilmiş iki qapı var, onlardan biri baş qapıdır – bu Qırxlar qapısıdır, ikincisi isə Carçı qapısıdır. Bunlardan başqa daha biri daşla hörülmüşdür». O, cənub divarında olan qapılardan Xan qapısını (Qala qapısı), Bayat qapısını, Orta qapını, Yengi (Yeni) qapını və daha «dörd bağlanmış və şəhərin köndələn divarında hörülmüş qapıları göstərir».

Dərbənddən keçən tranzit yolun ehtiyaclarını nəzərə alaraq şimal divarının hər qapısına cənub divarında olan bir və ya iki qapı müvafiq idi: Carçı qapısı – Bayat qapıya, Qırxlar qapısı – Orta qapıya və Yengi qapıya; Daş qapı – Quba qapısına; Qiyamət qapısı – Dübarə qapısına.

Hərdən qapılar müdafiə və iqtisadi məqsədilə deyil, sadəcə olaraq hər hansı bir hadisəni əbədiləşdirmək üçün (XVIII-XIX əsrlərdə Avropada dəbə minmiş zəfər tağılar kimi) tikilirdi.

Belə ki, Azərbaycan hökmdarı Qara Yusif Qara Qoyunlu 1412-ci ildə Şirvanşah İbrahim Dərbəndlini darmadağın etdikdən sonra, bu hadisənin şərəfinə Dərbəndin şimal divarında yeni qapı tikdirdi (o vaxtlar bu torpaqlar Şirvanşaha məxsus idi).

Ayrı-ayrı tədqiqatçılar hesab edirlər ki, ilk dəfə simal divarı ucaldılanda bu divarda qapı yox idi və onlar şimaldan təhlükə azaldıqdan sonra açılmışdı. Lakin əl-Bəlazurinin (IX əsr), Məsudinin (X əsr), ibn Fakinin (X ərs), ət-Təbərinin (IX əsr) və digərlərinin məlumatlarına görə, Dərbənd divarında «dəmirdən tökülmüş qapılar» Sasani şahları I Xosrov Ənuşirəvanın (531-579), onun atası Qubad şahın (488-531), babası Firuz şahın (457-488) və hətta ulu babası II Yezdəgirdin (438-457) dövründə tikilən zaman qoyulmuşdur. «Dərbəndnamə» salnaməsinin müəllifi ibn- Əssam əl-Kufi (IX əsr) və bir sıra başqa müəlliflər məlumat verirlər ki, dəmir qapıları 733-cü ildə Dərbəndi işğal etmiş ərəb sərkərdəsi Məsləmə tikdirmişdir.

Bəzi müəlliflər isə (Övliya Çələbi və başqaları) Dərbəndin dəmir qapılarının tikilməsini İskəndər Zülqərneyinin dövrünə aid edirlər. Bəzi əfsanələrdə o, şəhərin banisi hesab olunur.

Başqa məlumatlar da var. Belə ki, «Tarixi Şirvan və əl-Bab» adlı qədim salnamənin müəllifi məlumat verir ki, hicri tarixinin 382-ci ilində (922) əmir Məymun bin Əhməd qapıları «təmiz dəmirdən» düzəltdirmişdir. Bu epizod ayrı-ayrı müəllifləri belə qənaətə gətirir ki, şəhər qapıları əvvəlcə ağacdan, sonralar isə dəmirdən olmuşdur. Hələ XIX əsrin əvvəllərində A.İ.Axverdov yazırdı ki, «…dağıdılmış və bağlanmış qapılardan başqa, bütün qapılara istisnasız olaraq hər iki tərəfdən çox qalın dəmirlərdən üz çəkilmiş və dəmir mismarlarla bərkidilmişdir». Şəhər qapıları XIX əsrdə son dəfə 1836-cı ildə təmir edilmişdir. 1831-ci ildə Qazi Məhəmməd şəhərə hücum edərkən 8 şəhər qapısı onun dəstələri tərəfindən dağıdılmışdır. Qa-

pılar təmir olunarkən yeni qapılar palıd taxtalardan hazırlanmış və onların üstü qalın dəmir təbəqələrlə örtülmüşdür.

Bu gün, demək olar ki, müxtəlif müəlliflər tərəfindən təsvir edilmiş və şəhərin XVIII-XIX əsrlərdə tərtib olunmuş planlara əsasən on qapı yoxdur. Onlar son iki yüz il ərzində şəhərin köndələn divarlarının, dənizkənarı ərazilərdə olan şəhər divarlarının, cənub divarının bir hissəsinin sökülməsi zamanı yoxa çıxmışdır. Cənub divarının sökülməsi zamanı Yengi qapı və Quba qapısı yoxa çıxmışdır. Şimal divarında Qiyamət qapısı dagıdılmışdır. 60-ci illərdə ən qədim qapılardan biri olan Das qapı sökülmüşdür.

Bu gün qorunub saxlanılmış cəmi səkkiz qapını görmək olar. Onlardan ikisi şimal divarında (Carçı qapısı və Qırxlar qapısı), dördü cənub divarında (Qala qapısı, Bayat qapısı, Orta qapı və Dübarə qapı), ikisi isə Narınqaladadır (Narınqala qapısı və Dağ (Qərb) qapısı).

Alban qapıları – Xəzər dənizi ilə Qafqaz sıra dağları yüksək inkişaf etmiş Ön Şərq dövlətlərini Şərqi Avropanın düzənlikləri ilə birləşdirən məşhur qədim Xəzəryanı karvan yolunda dar keçidin adı (3 km-ə qədər).

Yer öz adını burada yaşayan və şimal sərhəddi həmin rayona çatan albanlardan almışdır. Bir çox qədim müəlliflərin göstərdiyinə görə, albanlar bu yerdə də məskunlaşmışdılar.

Belə ki, Yevgeni Kesariyski (bizim eradan əvvəl III əsr) yazırdı ki, «…albanlar isə Kaspianların qapılarının arxasında yaşayırlar». Erkən dövrdə bu Xəzəryanı bölgədə aparıcı yeri dənizə və keçidə (Xəzər dənizi, Xəzər keçidi) ad verən xəzərlilər tuturlar. Bu bölgədə məskunlaşmış qəbilələrin tərkibinə daxil olan albanlar getdikcə bu bölgədə fəal, başlıca rol oynamağa başladılar. Albanların Bizans-Sasani müharibələrindəki iştirakı onların dünya tarixi səhnəsinə çıxmasını göstərir. Onların belə yüksəlməsinə səbəb o zaman Xəzəryanı yolun iqtisadi-ticarət əhəmiyyət daşıması idi. Bu yolun mühüm hissəsinə onlar nəzarət edirdilər.

Bundan əlavə, şimalda digər türk qəbilələrinin fəallaşması, cənubdan Roma və Parfiya işğalının get-gedə güclənməsi bu bölgənin kiçik qəbilələrinin güclü ittifaqda birləşməsini tələb edirdi. Bu birləşmədə albanlar hegemonluğu ələ alırlar, xəzər qəbilələri ikinci plana keçərək tədricən bu bölgədə öz başlıca rolunu itirir və sonra tarixin səhnəsindən tamamilə itirlər.

Bu dövrdən başlayaraq, yazılı mənbələrdə erkən «Xəzər qapıları» əvəzinə yerin yeni adı meydana çıxır – «Alban qapıları». III əsrdə tərtib edilmiş «Pevtinqerovsk xəritəsi»ndə bu bölgə «Maskutların keçidi» kimi qeyd olunmuşdur.

Bayat qapısı – Narınqaladan sonra Dərbənd şəhərin cənub divarının yanında ikinci qapıdır. IX-X əsr ərəb müəlliflərinin məlumatlarına əsasən, qala qapıları əvvəllər yox idi və Bayat qapısı cənub divarının Narınqalasından olan üç qapısından birincisi idi. Bu qapı şəhər divarlarının tikilməsi zamanı inşa edilmiş və yaxud da ərəblər zamanı (VII-IX əsr) təmir işləri aparılan zaman tikilmiş qapıdır.



Bunu qapının üstündə çöl tərəfdə olan ərəbdilli kitabə də göstərir: «Bu qapı hicri təqviminin 150-ci ilində (hicri ilinin 150 ili miladimin 770/1-ci ilinə müvafiqdir) tikilmişdir və ya qurulmuşdur.

Rəvayətə görə, bu qapının adı «bayat» türk qəbiləsinin adı ilə bağlıdır. Həmin qəbilənin 500 ailəsini I Şah İsmayıl (1501-1524) buraya köçürmüş və bu qapı rayonunda məşkunlaşdırmışdır. Digər, az yayılmış rəvayətə görə, qapı öz adını türk «bayat» sözündən almışdır. («Bayat» – «köhnə» deməkdir). Ərəb mənbələri onları Bab əl-Məktub (Məktublar qapısı, Poçt qapısı) adlandırırlar.

XVIII əsrin əvvəllərindəki rəsmlərdə daxili və xarici iki tağlı alaqapı təsvir edilmişdir.

1811-ci ildə rus hərbi mühəndisi Karpovun rəhbərliyi altında şəhər istehkamlarının təmir-bərpa işləri zamanı qapılar yenidən tikilib bərpa edilmişdir. Qapının yanlarında iki qarovul qüllələri tikilmişdir.

Qapının üzərində ərəb yazısının üstündə yeni rus sözləri yazılmışdır: «Zaman məni dağıtdı, itaət isə tikdi. 1811-ci il».

Carçı qapı (türkcə) – Dərbənd şəhərinin şimal divarında qala tərəfdən birinci qarı. Bu qapının yanında xanın carçısı şəhər hakimlərinin əmrlərini və sərəncamlarını elan edirdi. IX-X əsr yazılı ərəb mənbələri bu qapını Bab əl-Mühacir (mühacirlər qapısı) adlandırırdı.



Ərəb tarixçisi əl-Müqəddəsi (X əsr) bu qapını Bab əl-Saqır (Kiçik qapılar) adlandırırdı. Ruslar isə bu qapını «Su qapısı» adlandırırdılar. Çünki bu qapıdan şəhəri su ilə qidalandıran yaxın bulaqlara yol gedirdi. Çox maraqlıdır ki, qapının yaxınlığındakı divarda pəhləvi yazısı qorunub saxlanılmışdır. Bu qapı yenidənqurma nəticəsində öz əvvəlki görkəmini itirmişdir.

Dağ qapıları (darvazaları) – Narınqalanın qərb qapısıdır. Görünür, bu qapının qala hakimlərinin xariclə əlaqəsi üçün xüsusi əhəmiyyəti olmuşdur. Ona görə də bu qapının daha bir adı var idi – Gizli qapı.



Yerli əfsanələrdən birinə görə, şəhər hakimləri bu qapıdan ancaq son məqamda – düşməndən qaçmaq üçün istifadə edirdilər. Ona görə də bu qapılar – «Rusvayçılıq qapısı» da adlandırılmışdır.

Daş qapı – Narınqalanın şimal divarından üçüncü qapı. Bu qapı sakinlərin tikinti materialı götürdükləri daş karxanalarına aparırdı. Bu qapı ölçüsünə görə böyük olmadığı üçün IX-X əsrin ərəb müəllifləri onu Bab əl-Saqir (Kiçik qapılar) adlandırırdılar. Ayrı-ayrı ərəb mənbələrində bu qapılar Bab əl-İmara və ya Bab əl-Qəsr adlandırılırdı. Türk mənbələri bu qapıları Türkmən qapısı, rus müəllifləri isə – Şura qapısı adlandırırdılar.



Bu ad Dağıstan vilayətinin inzibati mərkəzi olmuş Temirxan Şura şəhərinin (hazırda Buynaksk səhəri) adı ilə bağlıdır. Bu qapıdan poçt yolu da keçirdi. Bu qapı qədim qapılardan hesab olunur. Tədqiqatçıların fikrinə görə, qapının aşağı hissəsi forması və quruluşu baxımından Qırxlar qapısı ilə oxşardır. Qapı dəfələrlə yenidən qurulmuş və bunun nəticəsində o, öz milli görkəmini – xarici tərəfindən düzbucaqlı formasını və içəri tərəfindən oxabənzər tağını itirmişdir. Bu dəyişikliklər 1811-ci ildə rus hərbi mühəndisi Karpovun rəhbərliyi altında aparılan şəhər istehkamlarının təmiri və bərpası zamanı baş vermişdir. Qapının yuxarı hissəsində fars dilində yazılmış daş kitabə uzun müddət qorunub saxlanılmışdır. Bu yazı 1452/3-cu illərə aiddir (hicri tarixi ilə 856-ci il). Keçən əsrin 30-cu illərində bu daş kitabə dağıdılmışdır. 1940-cı illərdə qapı şəhər tərəfdən tamamilə yenidən tikilmişdir.

XX əsrin 60-cı illərində qapı dağıdılmış və bir qədər genişləndirilmişdir. Çünki qapının ölçüləri Rostov-Bakı avtomobil yolunun ehtiyacılarını ödəmirdi.

Dəmir qapı – Dərbəndin bir çox adlarından biridir. Monqollar şəhəri Kaxulqa (qapılar), Tamur – kaxulqa (Dəmir qapılar) adlandırırdılar. Türklər isə – Temir qapı və ya Dəmir qapı adlandırırdılar.

Orta əsrlər müəllifləri Dərbəndin özündə Bab əl-Hadid (Dəmir qapılar) adlandırırdılar. Rus mənbələri isə şəhəri Dəmir qapı adlandırırdılar.

A.Kontarini (1474) yazırdı ki, Dərbənd ona görə Dəmir qapı adlanırdı ki, «Tatarıstandan Midiyaya və İrana bu şəhərdən keçmədən girmək mümkün deyil».

Hun qapıları – Dərbənd rayonunda Qafqaz dağlarının şərq qolları ilə Xəzər dənizinin arasında olan dar keçidin adlarından biri. Bir çox qədim mənbələr (Dionisiy Periyeqet, II əsr; Klavdiy Ptolomey, II əsr və başqaları) hunları Qafqaz Albaniyasının şimal qonşuları adlandırırlar.

Moisey Kalankatlı bu rayonu «Hunlar ölkəsi» adlandırırdı. Onun dediyinə görə, Çol (Dərbəndin qədim adı) şəhərinin patriarxı Ovxan həmçinin hunların patriarxı olmuşdur. Qafqaz Albaniyasının ərazilərindəki hunlar haqqında Yegişe (V əsr), Sebeos (VII əsr) və başqaları da məlumat vermişlər.

Kaspi qapıları – Qafqaz dağları ilə Xəzər dənizinin arasındakı eni 3 km-ə qədər olan dar keçidin adı. Sonralar bu keçidin üzərində məşhur Dərbənd müdafiə kompleksi yarandı. Kaspi qapıları haqqında ilk dəfə qədim yunan coğrafiyaşünası Hekatey Miletskinin (b.e.ə. VI əsr) «Yerin təsviri» adlı əsərində rast gəlinir. Həmin bu yer haqqında («Kaspi qapıları») «tarixin atası» sayılan Herodot da (b.e.ə. V əsr) məlumat verir.

Dənizin və keçidin adı Xəzəryanı düzənliklərdə məskunlaşan qədim kaspi qəbiləsinin adı ilə bağlıdır. Qədim mənbələrin məlumatına əsasən, bu rayon Əhəmənilər sülaləsindən (b.e.ə. 550-330) olan məşhur şah I Daryanın (b.e.ə. 522 b.e.ə.-486) 11 satraplığına daxil idi (cəmi 20 satraplıq mövcud idi).

III əsrdə tərtib olunmuş «Pevtingerov xəritəsi»ndə bu rayon «Maskutların keçidi» kimi göstərilmişdir.

Qala qapısı – Dərbənd şəhərin cənub divarında ilk qapı. Digər qapılardan fərqli olaraq bu qapı şəhərə aparmır, bilavasitə qalaya giriş qapısı rolunu oynayırdı. Ona görə də bu qapını Xan qapısı adlandırırlar. Çöl tərəfdən qapının yastı taxtapuşı var, şəhər tərəfdən isə oxvari formadadır. Qapının şərq hissəsində yarımdairəvi qarovul qalacası durur. Mütəxəssislər bu qapının tikilməsini XVIII əsrə, Dərbəndin Quba xanlığının tərkibinə daxil olduğu vaxta və Fətəli xana aid edirlər.

Qırxlar qapısı – Dərbənd şəhərin şimal divarında Narınqala qapısından sonra ikinci qapı. Qapı yaxınlıqda yerləşən «Qırxlar» qəbiristanlığının adı ilə belə adlandırılmışdır. Ərəb mənbələrində bu qapılar Bab əl-Kəbir (Böyük qapı) və ya Bab əl-Cihad adlandırılır. II ad islamı qəbul etməyən xəzərlərlə aparılan çoxsaylı müharibələrlə bağlıdır.

XIX əsrin rus müəllifləri bu qapıları Gizlər qapısı adlandırmışlar.

Qapının tikilməsi VI əsrə aiddir. X əsrin ərəb tarixçisi İbn əl-Fakin məlumat verir ki, «...Bab əl-Cihad qapısı üzərində divarda iki sütun var, hər sütunda ağ daşdan şirin təsviri var».

Narınqala qapısı (Bab əl-Əlkamın) – şəhərə istiqamətlənmiş Narınqalanın şərq qapılarıdır. Bu qalaya əsas giriş – hakim feodalın məskünlaşdığı yerdir. Giriş qapısının üstündə «şah Abbasın» adı çəkilən yazı vardır. Görünür ki, bu qapılar Şah I Abbasın hakimiyyəti dövründə (1587-1629) yenidən tikilmişdir.



Qapının girişi yayşəkilli tağ-tavan ilə örtülmüşdü. Bu vəziyyətdə qapı 1720, 1809 və 1811-ci illər rəsmlərində göstərilmişdir. Qapının üstündəki ikimərtəbəli bina avropa müəlliflərinin çoxsaylı təsvirlərində «komendant evi», şərq mənbələrində isə «Divan-xana» adlandırılır. Bu bina XVII əsrdə tikilmişdir. «Komendant evi» şəhər tərəfindən üçmərtəbəli bina kimi görünür.

Orta qapı – Narınqaladan bir az aralı cənub divarında 3-cü qapı. Bu qapı qədim şəhər Orta-təpənin adı ilə adlandırılmışdır. Orta qapı digər qapılardan gözəlliyi və möhtəşəmliyi ilə fərqləndiyi üçün şəhərə cənub hissədən girmək üçün baş qapı hesab olunurdu.



Qapının ön görünüşü iki yumru sutuna söykənmiş nəhəng tağla düzəldilmişdir. Mərkəzi tağların yanlarında iki çox da böyük olmayan tağlar yerləşmişdir. Bu qapıda aparılmış hörgü işləri qapının bir neçə dəfə yenidən qurulmasından xəbər verir. Mütəxəssislər bu hörgüləri XIV, XV və XIX əsrin əvvəllərinə aid edirlər. Qapının əsas hörgüsünü isə VI –VIII əsrlərə şamil edirlər. Qapının xarici düzbucaqlı giriş hissəsinin üstündə kufi xətti ilə ərəb yazısı vardır: «Böyük və rəhimli Allahın adı ilə. Bu Lütf-Ullah bin Həsənin, Əhməd bin Əbu-Əli bin Yunus və Yəmən bin Bayatın işidir. Allahdan başqa Allah yoxdur. Məhəmməd Onun rəsuludur».

Bu yazı hicri tarixi ilə 435-ci ilə (miladi 1043/1044) aid edilir.

Yerli salnaməyə görə, bu, Əbu-l-Favarisin hakimiyyəti dövründə baş vermişdir.

Dübarə qapı – Narınqala tərəfdən cənub şəhər divarlarının 4-cü qapısı. Bu qapılar şəhərin aşağı tərəfinə (ikinci hissəsinə) – Dübarəyə aparırdı. Memarlıq forması və qoyuluşu ilə Orta qapılara bənzəməsinə baxmayaraq, mütəxəssislər bu qapıları XVI-XVII əsrlərə aid edirlər. Hazırda qapının üst örtükləri qorunub saxlanılmamışdır. 1914-cü ilin şəkillərinə əsasən, Orta qapının örtükləri kimi onlar da oxvari formasındadır.

Qiyamət qapısı – Dərbənd şəhərin şimal divarında qapılardan biri. Bu qapı Daş qapıdan şərqdə yerləşirdi. Ona görə də bəzi müəlliflər (məs., D.Kantemir, XVIII əsr) onu Dənizkənarı qapı adlandırırdılar. Bəzi müəlliflərin qeydlərinə görə (məs., A.Bakıxanov, XIX əsr), bu qapı 1412-ci ildə əmir İsfəndiyarın atası Azərbaycanın hökmdarı Qara Yusifin (1410-1420) Şirvanşah İbrahim əd-Dərbəndi üzərindəki qələbəsi şərəfinə tikdirmişdir. Bunu qapı üzərindəki fars dilində yazılmış və indiyədək arxivdə qorunub saxlanılan kitabə də təsdiq edir. Lakin qapının tikintisi zamanı buraxılmış səhvə görə getdikcə qapılar çökməyə başlamışdı. Zaman keçdikcə, xalq arasında belə bir inam yarandı ki, guya qapılar tam yerin altına çökəndən sonra dünyanın sonu (Qiyamət günü) olacaq. Qapıların da adı elə buradan götürülmüşdür – Qiyamət qapısı. XVIII əsrin əvvəlində qapılar tamamilə çökmüşdü.

Quba qapısı – ayrı-ayrı müəlliflərin (A.Oleari, 1638; D.Kantemir, 1722) təsvirinə və 1720-ci ildə tərtib edilmiş sxemlərə görə bu qapı Dərbənd şəhərinin cənub divarında, hazırda Salman və Tağızadə küçələrinin kəsişdiyi rayonda yerləşirdi. Qapının belə adlanmasına buradan Qubaya doğru uzanan gedən yolun təsiri olmuşdur. XIX əsr rus mənbələrində bu qapı Sulu qapı adlanırdı, belə ki, bu qapının yanından axan Rubas çayından su kanal vasitəsi ilə şəhərə verilirdi.

XIX əsrin ikinci yarısında, şəhər cənub divarlarından kənara çıxmış, bu qapıların yanından şəhərin köhnə və yeni hissəsini birləşdirən küçə salınmış və bu küçə Quba küçəsi (indiki Salman adına küçə) adlandırılmışdı.

Şəhərin yeni hissəsi böyüyüb artdıqca bir küçə şəhərin yeni və köhnə hissəsi ilə nəqliyyat əlaqəsini tam təmin etmirdi. Ona görə də 1871-ci ildə qərara alındı ki, şəhərin cənub divarında kəsişən küçələri davam etdirmək üçün keçid-deşiklər açılsın. Bu keçid-deşiklər Quba qapısının yan hissələrindən açılmışdır. Quba qapısı isə tarixi abidə kimi qorunub saxlanılmışdır.

XX əsrin əvvəllərində Quba qapısı dağıdılmışdır.

Yengi qapı (türkcə Yeni qapılar) – bu qapı XVIII-XIX əsrin çertyojlarında Dərbənd şəhərinin cənub divarında göstərilmişdir. Hazırda bu qapı yoxdur. Bu qapı şəhər divarında sonradan açıldığı üçün Yeni qapı adlandırılmışdır.

Triumfal alaqapı (Zəfər alaqapısı) (Yermolov qapısı) – 1859-cu ildə Yermolov küçəsi ilə Bazar küçəsinin kəsişdiyi yerdə ucaldılmışdır.

Alaqapı Yermolov küçəsində yerləşdiyi üçün xalq arasında Yermolov qapıları adlandırılırdı. Yermolov qapıları triumfal tağ formasında Yermolov küçəsinin üstündən atılmışdır.



Bu tikilidə formasında yerli memarlıq adət-ənənələri ilə yanaşı, şəhərə ruslar tərəfindən gətirilmiş klassik – oxvari tağ-yarımsirkulyar divar oyuğu ilə bir-birinə qarışmışdır.

Yermolov qapıları rus çarının işğalçı siyasətinin monumenti kimi qəbul edilmişdir. Sovet hakimiyyəti qurulduqdan sonra 1929-cu ildə şəhərdə bu küçə Cümə məscidinə qədər uzadıldığı üçün qapılar sökülmüşdür.

QƏBİRİSTANLIQLAR

Dərbənd şəhərin şimal və cənub hissəsində qədim qəbiristanlıqlar yerləşir. On minlərlə qəbir daşları burada dəfn olunanların adlarını qoruyub saxlayır. Bu qəbir daşları əsrlərlə durur, ona görə də qədim Dərbənd qəbiristanlıqları böyük ərazini tutur. XVIII əsrin ortalarında Nadir şahla bərabər Dərbənddə olmuş ingilis İ.Lerx yazmışdır: «…Divarların hər iki tərəfində çoxlu qəbir daşları var, bəziləri dik durur, bəziləri isə yıxılmış vəziyyətdədir. Onlar yazılarla və çiçəklərlə, şəkillərlə bəzədilmişdir».

Hal-hazırda, bu gün qədim qəbiristanlığın yalnız az hissəsi qalmışdır. Bir çox qəbir daşları məhv olmuşdur. Minlərlə qəbir daşları yıxılmış, dağılmış və üstləri torpaqla örtülmüşdür. Bu qəbir daşlarından şəhər, sarayların və Narınqalanın tikilisində istifadə olmuşdur. Lakin buna baxmayaraq Dərbəndin qədim qəbiristanlığının qalıqları təsirini qoruyub saxlamışdır. Dərbənd qəbiristanlığının ölçülərindən heyrətə gələn Ambroco Kontarini XV əsrdə yazırdı: «…Mən deyərdim ki, Dərbənddə çox nəhəng qəbiristanlıqlar var».

Ən qədim qəbir daşları eyni daşdan yonulmuş yarımsilindr formalı içi oyulmuş sərdabələrdir. Onların ölçüləri, demək olar ki, eynidir uzunluğu 3, hündürlüyü 0,8, eni 0,7 metr və qalınlığı 10-12 smdir. Onların üstündə hər hansı bir yonma ornamentinin izi yoxdur. Həmin qəbir daşları XI əsrə aiddir (hicri tarixi ilə 411, 467 və 493-cü illər). Bir az sonra qəbir daşları oxvari forma alır. Qəbir daşlarının yan və ön hissələrində yazılarla bərabər bədii ornamentlər də görünür.

Məhz belə ərəb tipli qəbir daşları A.Olearinin qravürasında (XVII əsr) göstərilmişdir. O, özünün yol qeydlərində yazırdı ki, Dərbəndin şimal qəbiristanlığında «…biz çoxlu qəbir daşları gördük; onlar bir neçə min ədəd idi, onlar adam boyundan hündür, yarımsilindr formalı idi, hətta onların içinə uzanmaq da olardı; onların üstündə ərəb və Suriya yazıları var idi». Hazırda belə qəbir daşlarından şimal qəbiristanlığı Qırxlar, Cümcüm qəbiristanlıqlarında və tək-tək halda bəzi yerlərdə: rus qəbiristanlığında, yeni stadionun girişində və s. qalmışdır.

Zaman keçdikcə qəbir daşları ölçüdə balacalaşır, lakin onlar dekorasiya zənginliyi və mürəkkəb forması ilə fərqlənməyə başlanmışdı. Belə qəbir daşlarında onun «sahibi haqqında» daha geniş məlumat olurdu.

Hər bir qəbir daşı – bütöv bir incəsənət əsəridir. Bu qəbir daşlarının yaranmasında daşyonan ustanın, yazıçı-katibin, rəssamın, həkkahın çox böyük zəhməti olmuşdur. Adətən, onların adı naməlum qalır. Şimal qəbiristanlığında yalnız XV əsrə aid bir qəbir daşının üzərində «ustad Təvəkkülün işi» yazısı aşkar edilmişdir.

Qəbir daşlarının ölçüləri, onların üstündə həkk olunmuş yazılar və ornamentlər müxtəlifdir. Bunların hamısı o dövrlərdə cərəyan edən bədii axınlardan, ustanın zövqündən, bacarığından və istedadından, «qəbir sahibinin» cəmiyyətdə tutduğu vəziyyətdən və s. asılı idi. Qəbir daşlarının yuxarı hissəsindəki yazı Allahın adı ilə, Qurandan götürülmüş kəlamla

başlayırdı. Bu yazıdan bir az aşağıda «qəbir sahibinin» adı və ölüm tarixi göstərilirdi. Qəbir daşının ən aşağı hissəsində, kişi qəbir daşlarında – silah, at, saat və s., qadın qəbir daşlarında isə – muncuqlar, sırgalar və digər bəzək əşyaları həkk olunmuşdur.

Hətta bəzi qəbir daşlarının üzərində bütün «bir bədii» əsərə rast gəlinir. Bu daşlar çox şey haqqında məlumat verir. Bu qədim yazıları oxuyaraq çox cüzi də olsa şəhərin tarixini öyrənirik. Məsələn; «Hicri tarixi ilə 866-cı ildə düşmənlər Həmsə ağanın oğlu İsfəndiyarı köməkçiləri ilə birlikdə öldürmüşlər». Buradan aydın olur ki, İsfəndiyar adlı əmir 1462-ci ildə şəhəri düşməndən müdafiə edərkən həlak olmuşdur. Qəbir daşlarını bəzəyən – bu fani dünya haqqında, xeyirxahlığın əbədiliyi haqqında olan sətirləri oxuyarkən elə bil qəlbin, ruhun təmizlənir, elə bil əsrlərin dərinliklərindən gələcək nəslə öz fikirlərini çatdırmaq istəyən dahi ustadın səsini eşidirsən.

Qırxlar qəbiristanlığı – Qafqazda ən qədim qəbiristanlıqlardan biridir.



Bu qəbiristanlıq haqqındı Dərbənddə olmuş bütün avropa müəllifləri: F.Kotov, A.Oleari (1637), Yan Streys (1670), Korneli de Bruin (1703), İ.Lerx (1747), A.İ.Axverdov (1804) və b. məlumat vermişlər. Orta əsr ərəb mənbələri və «Dərbəndnamə» adlı yerli tarixi salnamə bu qəbiristanlığı hicri tarixi ilə 22-ci ildə (642/3) Salman ibn Rəbiyyə əl-Bahilin başçılığı altında ərəblərin Dərbəndə olan ilk yürüşü ilə əlaqələndirirlər. «…Kafirlərlə döyüş 5 gün davam etdi. Altıncı gün xaqan öz qoşununa elan etdi ki, kim döyüşdən məğlub çıxsa, onu o özü öldürəcək». Öz tərəflərindən də müsəlmanlar qərara aldılar ki, son nəfəsədək vuruşacaqlar. Beləliklə, Salman ibn Rəbiyyə öz 40 döyüşçüsü ilə qəhrəmancasına döyüş meydanında həlak oldu. Onların «Qırxlar» adlandırılan qəbiristanlığı Dərbəndin şimalında yerləşir. Bu qəbiristanlıq (Qırx Şəhid) və sakinlərin ziyarətgahına çevrilmişdir». «Qırxlar» qəbiristanlığı şəhərin şimal hissəsində yerləşən qəbiristanlığın bir hissəsidir. Bu qəbiristanlıq daş hasarla əhatə olunmuşdur.

Hasara alınmış sahə bir-birinə yaxın uzun tərəfləri olan düzbucaqlıdan ibarətdir. Onların daxilindən ölçüləri 12,7x17m və 4x2,5m-dir. Onun geniş hissəsində üç sırada sandığabənzər qəbir daşları yerləşirdi.

Kicik hissəsində isə bir sırada 8 qəbir daşları vardı. Ən böyük qəbirdaşının uzunluğu 3,2m, hündürlüyü – 0,8 m, eni – 0,7 m, qalınlığı – 10-12 sm-dir.

Qəbirdaşlarının iki sırasının arasında nəzir qoymaq və şam yandırmaq üçün çox da böyük olmayan, hündürlüyü 185 sm olan düzbucaqlı tikili var. Bu tikili minarə ilə tamamlanır.

Əsrlər boyu Azərbaycan, Dağıstan və digər ətraf bölgələrin müsəlmanları Qırxlar qəbiristanlığındakı «müqəddəs şəhidlərin» qəbirlərini ziyarət edirlər. Onlar dərd-bəladan qurtarmaq, xəstəliklərdən sağalmaq və arzu-niyyətlərinin yerinə yetməsi üçün Allaha dua edirlər.

Cümcüm qəbiristanlığı – Bayat qapısından 200-250 metr aralıda, cənub müsəlman qəbiristanlığının şimal hissəsində yerləşən qədim qəbiristanlıqdır. Bir çox Avropa müəllifləri (A.Oleari, 1637; Yan Streys, 1670 və s.) bu qədim müsəlman ibadətgahı haqqında məlumat verirlər.

Əfsanədə deyilir:

«Dərbənd böyük Allah tərəfindən sevilən yerdir. Ona görə də bütün din xadimləri və dindarların diqqət-nəzəri bu şəhərə yönəlmişdir. Bir dəfə Allahın sevimlisi İsa peyğəmbər öz əsabələri ilə bu şəhərə gəlir. Şəhərin qədim qəbiristanlığına yaxınlaşıb burada uyuyanların ruhuna dua oxuyur və yoluna davan edir. O, birdən yolda tozun içində qurumuş adam kəlləsi görür».

«Ya Rəbbim, – İsa peyğəmbər öz-özünə fikirləşdi, – bu kimin sümükləridir belə tozun içində? Kim olub bu adam? Aqil bir insan, ya axmaqların axmağı, varlı və ya kasıb, pəhləvan və ya qorxaq? Yalnız dirilər fərqlənirlər, ölülərin hamısı eynidir.

Bu boş kəllə böyük hökmdara və ac-yalavaca, müdrik bir insana və axmağa, layiqli və layiqsiz insana məxsus ola bilərdi».



Yolda tozun içində olan kəllənin kimə məxsus olmasını bilmək arzusu İsa peyğəmbərə o gədər güc gəlir ki, o dizi üstə düşüb üzünü böyük Yaradana tutub yalvardı:

«Ey Böyük Yaradan! Eşit məni. Mənim xahişimi dinlə. Bu Kəllənin sahibini dirilt, imkan yarat mən onunla danışım.

Allah öz peygəmbərinin yalvarışını eşidib kəllənin sahibini dirildir. Hər şey böyük Yaradanın əlindədəir. İsa peyğəmbər soruşdu:

– Ey tozun içində olan kəllənin sahibi, sən kimsən?

Kəllənin sahibi cavab verdi:

– Mən bu zəngin torpağın şahıyam. Mənim adım Cümcümdür. Mənim böyük gözəl sarayım var idi. Sarayımda olan əyanların yeməyinə hər gün qırx dəvə yükü miqdarında duz istifadə olunurdu. Mənim 4 min aşpazım, 4 min musiqiçim, 4 min əldə-ayaqda işləyən, qulaqlarında mirvari olan oğlan uşaqları və bir o qədər də digər qulluqçularım (nökərlərim) var idi.

– İsa peyğəmbər dedi: ey Böyük Yaradan, kim fikirləşə bilərdi ki, dünən bu torpaqların sahibi, hökmdarı olan toza çevriləcək və onun kəlləsi yolun tozunda atların və eşşəklərin ayaqları altında qalacaq. Cümcümə soruşdu:

– Bəs sən kimsən?

– Mən insanlarda vahid və böyük Allaha iman əməl gətirən İsa peyğəmbərəm.

Cümcümə dedi:

– Belədirsə, onda mən sənin imanını qəbul edirəm. Ey Allahın peyğəmbəri, mənə xeyir-dua ver.

İsa peyğəmbər Cümcüməyə xeyir-dua verdikdən sonra o dedi:

– Ey böyük Yaradanın peyğəmbərləri! Sənlə bugunkü görüşümə görə mən böyük Yaradana minnətdaram. İndi isə xahiş edirəm, izn ver mən yenidən ölüm.

İsa peyğəmbər dedi:

– Niyə ölmək istəyirsən. Yaşa, təmiz hava ud, soyuq bulaqlardan su iç, günəşə, gülə sevin, sev, sevil, xeyirxahlıq göstər, insanlara sevinc bəxş et, bütün bunların müqabilində sən cənnəti qazanacaqsan.

– Mən nə üçün yaşayım? Mən Allahın mənə verdiyi ömrü yaşamışam. İndi mənim taxt-tacım, ölkəm və əyanlarım yoxdur. Mən yaşamaq istəmirəm. Ey ulu Tanrının peyğəmbəri, mən cənnəti yerin kəşməkəşinə dəyişmək istəmirəm.

Bu sözlərdən sonra İsa peyğəmbər ulu Tanrıdan xahiş etdi ki, Cümcüməni o dünyaya göndərsin. Bunu eşidən dərbəndlilər Cümcüməni təmtəraqla dəfn etdilər. Cümcümə ulu Tanrının yanında dərbəndlilərin müdafiəçisi oldu. Onun qəbrini təmiz ürəklə ziyarət edən hər bir şəxsin arzuları yerinə yetir».

Bu əfsanənin qədimliyinə 1637-ci ildə Adam Olearinin Dərbənddə eşitdiyi şeir məzmunlu rəvayət sübutdur. Belə ki, Dərbənd sakinləri Adam Olearini inandırmağa çalışırdılar ki, bu şeir məzmunlu rəvayətin müəllifi böyük Azərbaycan şairi Füzulidir (1494-1556).

Məşhur Azərbaycan tarixçisi A.Bakıxanov 1841-ci ildə yazırdı ki, Cümcümə haqqında «...naməlum şairin fars dilində yazdığı şeirlərdə danışılır». Cümcümənin qəbri lap qədim zamanlardan şəhər və ətraf rayonların sakinlərinin ziyarətgahına çevrilib.

Dağ yəhudilərinin qəbiristanlığı. 1797-ci ildə Qazıqumuxun hakimi Surxay xan düşməni olan Şeyxəli xan Dərbəndlinin torpaqlarına hücum etdi.

Şəhərə girə bilməyən Surxay xan Dərbəndin cənub hissəsinin 18 km-də yerləşən, dağ yəhudilərinin məskunlaşdığı Abasova kəndinə (türkcə Abas oba) hücum edib onu darmadağın etdi.



Yazılı mənbələrin verdiyi məlumata əsasən 200-dən çox kənd sakini öldürülmüş, bir çoxu əsir götürülmüş, sağ qalmış 150 nəfəri isə Şeyxəli xan Dərbənddə yerləşdirməyi əmr etmişdi.


Yeni sakinləri şəhərin aşağı, əhali ilə məskunlaşmamış ərazisində yerləşdirdilər. Rəvayətə görə, yəhudilər ev tikməmişdən əvvəl bu əraziyə Abasova kəndindən torpaq gətirib tökmüş, sonra isə özlərinə ev tikməyə başlamışdılar. Yeni məhəllə Cuhud məhəlləsi və ya Yəhudi məhəlləsi, rus sənədlərində isə – Yəhudi qəsəbəsi adlandırıldı.

Qəsəbədə məskunlaşmış dağ yəhudilərinin adətlərinə görə, vəfat etmişləri öz qəbiristanlıqlarında dəfn edirlər və bu qəbiristanlıq onların ziyarətgaına çevrilmişdir.

Hərbi qəbiristanlıq. 1941-ci ildən 1946-cı ilədək aldıqları yaralardan və xəstəliklərdən Dərbənd şəhərinin hərbi-təxliyyə hospitallarında vəfat etmiş 700-dən çox əsgər və zabit dəfn olunmuşdur.

MƏQBƏRƏLƏR

Yazılı mənbələrdə yalnız şəhərin şimal qəbiristanlığında tikilmiş məqbərələr haqqında məlumat verilir. Cənub qəbiristanlığında məqbərələrin mövcudluğu haqqında heç bir müəllif məlumat vermir. Lakin bəzi müəlliflər xəlifənin oğlu Harun ər-Rəşidin «Qırxlar» qapısının yaxınlığındakı məqbərəsi haqqında məlumat verirlər.



Şimal qəbirstanlığında məqbərə. 1842-ci il

1842-ci ildə Dərbənddə olmuş Kazan Universitetinin professoru İ.N.Berezin yazır ki, 1827-1828-ci illərdə şəhərin şimal qəbiristanlığında bir hörmətli şeyxin qəbri üstündə məqbərə ucaldılmışdır. Onun çap etdirdiyi şəkildə isə Qırxlar qəbiristanlığı rayonundakı qülləli üç məqbərə əks olunmuşdur. Y.İ.Kozubski özünün «Dərbənd şəhərinin tarixi» əsərində (1906) məlumat verir ki, hicri tarixi ilə 1243 (miladi 1827/8)-cü illərdə burada dəfn olunmuş şeyxin qəbri üstündə sövmə (kiçik məqbərə) tikilmişdir. Mənbələr Dərbənd şəhər naibi İmamqulu bəyin və şəhərin hakimi İsfəndiyar bəyin ailəsinin şimal qəbiristanlığındakı təmtəraqlı məqbərələrindən məlumat verir.

Bu günə qədər yalnız Qırxlar qəbiristanlığının yaxınlığındakı şimal qəbiristanlığında 1788-ci ildə tikilmiş Fətəli xanın həyat yoldaşı Tutu Bikənin qəbri üstündəki məqbərə qalmışdır.

«Düldül Əli» – Şəhərin cənub qala divarının yarım km-də « Düldül Əli » adlanan bir qaya vardır və bu yer müqəddəs sayılır. Qayada bir neçə iz də vardır. Rəvayətə görə bu izlər Məhəmməd Peyğəmbərin kürəkəni və əmisi oğlu Əlinin atının ayaq izləridir. Bu qaya da Əlinin atının adı ilə «Düldül» adlandırılmışdır. Adətən, bu yerə qadınlar bayramqabağı cümə axşamı günü ziyarətə gəlirlər. Bu yer şəhərin qədim zamanlarından tanınmış müsəlman ibadətgahlarından biridir. Şiə-müsəlmanlarının arasında gəzən rəvayətə görə, Həzrət Əli (656-661-ci illərdə dördüncü mömin xəlifə, Məhəmməd peyğəmdərin əmisi oğlu və kürəkəni) Dərbənddə olmuşdur. Bu faktın tarixi təstiqi yoxdur. Həzrət Əlinin şəhərdə olmasını təsdiq etmək üçün dindarlar cənub qəbiristanlığının ərazisindəki qayadakı izi göstərirlər. Bu qayanın üzərində müqəddəs İmam Əlinin ayağının və onun Düldül adlı atının ayaq izlərinin olduğunu iddia edirlər. Qayanın adı da atın adı ilə bağlıdır.

Orta əsrlərdə Dərbənddə olmuş bir çox Avropa səyyahlarının məlumatına görə, bu qaya müsəlmanların ziyarətgah yeri hesab olunur.



1850-ci ildə Dərbənddə olmuş Kazan Universitetinin professoru İ.N.Berezin yazırdı ki, İmam Əlinin və onun atının ayaq izlərindən başqa, yerli sakinlər ona Həzrət Əlinin yolunu kəsmiş digər bir qalanı da göstərmişlər. Həzrət Əli isə bu qalanı Məhəmməd peyğəmbər tərəfindən ona hədiyyə edilmiş qılıncla iki yerə bölmüşdür. Bu qılınc haça idi, onun iki tiyəsi var idi və «zülfiqar» (ərəbcə «onurğalara malik») adlandırılırdı.

Y.İ.Kozubski isə özünün məşhur «Dərbənd şəhərinin tarixi» (1906) kitabında yazırdı: «… Cənub qala divarının yarım verstliyində Düldül Əli adlı məşhur bir qala vardır. Bu yer müqəddəs hesab olunur, qayada çökəkliklər var. Rəvayətə görə bu çökəkliklər Həzrət Əlinin atının ayaq izləridir. Bu qayaya Həzrət Əlinin atının adı – Düldül adı verilmişdir».

Dərbənd ağbirçəyi – el anası Tutu Bikə. Azərbaycan xalqının alınmaz qalası, dünya şöhrətli Dərbənd şəhərində bir ana qəbri var. Qırxlar qapısının lap yaxınlığındakı türbədə Tutu Bikə öz məzarında uyuyur. 1788-ci ildə tikilib ucaldılan, heç vaxt unudulmayan ziyarətgaha çevrilən bu türbədə həm də qəhrəman ananın iki oğlu – Əhməd xan və Həsən xanın məzarları yerləşir. Ananın qoynunda dünyaya gələn, ananın yanında uyuyan övladları.

Tutu Bikə öz əsli-kökü ilə seçilən Qaytaq qızıdır. O, dağlarda doğulmuş, gözəlliklərdə böyümüşdü. 1766-cı ildə Qubalı Fətəli xana könül vermiş, ailə səadətinə qovuşmuşdu.

1774-cü ildə Gavdüşan çölündə Fətəli xan məğlubiyyətə uğradı və Salyana çəkilməyə məcbur oldu. Düşmənlər Dərbənd qalasını mühasirəyə aldılar. Qalanın qorunmasına Tutu Bikə özü başçılıq edirdi. O, «Qalanı içindən alarlar» - deyib meydana girdi.

Tutu Bikənin qardaşı, Qaraqaytaq usmisi Əmir Həmzə hiyləyə əl atdı və şaiə yaydı ki, Fətəli xan ölüb. Əmir Həmzə Dərbəndi almaq üçün bacısına qarşı qanlı döyüşə hazırlaşdı. Uzun illər Dərbəndin tarixini öyrənmiş Y.İ.Kozubski yazırdı: «Fətəli xanın igid qadını Tutu Bikə qardaşına qarşı çıxaraq, şəhəri mərdliklə müdafiə edirdi; o, qala divarları üzərində şir kimi dayanaraq, hər şeyə özü rəhbərlik edirdi...». İnadlı müqavimət inadlı qələbə ilə nəticələndi. Ərəb-zəngitək qılınc oynadan Tutu Bikə ərinin şərəfini, elinin ləyaqətini hər şeydən üstün tutdu.

Bax: Azərbaycan etnoqrafiyası. Üç cilddə. III cild. Bakı, «Şərq-Qərb», 2007, səh.134-135.

Dərbənd xanlarının məqbərəsi – Dərbənd şəhərində qalmış azsaylı məqbərələrdən biridir. Bu məqbərə hicri tarixi ilə 1202 (miladi 1787/8)-ci ildə şəhərin hakimi Tutu Bikənin qəbri üstündə ucaldılıb. Sonralar bu məqbərədə onun oğlanları Əhməd xan (1791), Həsən xan (1802) və Əhməd-xanın həyat yoldaşı Nurçahan xanım (1841) dəfn olunmuşdur.



Bu, səkkizguşəli sentrik tikilidir. Onun mərkəzi hissəsi oxvari daş günbəzlə örtülmüşdür (1940-cı ildə günbəz dağılmış və 1975-ci ildə yenidən bərpa olunmuşdur). Tikilinin fasadı yaxşı yonulmuş daşdan tikilmiş və XVIII əsrin ikinci yarısına xas

olan çox da dərin olmayan oxvari taxçalarla işlənmişdir. Hündürlüyü bir metrə yaxın olan kürsülük hissəsi kəsmə xonçalarla bəzədilmişdir. Daxili otaq mərkəzi səkkizbucaqlı zaldan ibarətdir. Bu zalda dörd qəbirdaşı durur. Bu qəbir daşlarına yaxın dörd, hər biri düzbucaqlı pəncərə ilə işıqlandırılan oxvari tağ-tavanla örtülmüş taxça var. Məqbərənin kiçik güşələrində tağvari piştağ formalı girişlər tikilmişdir. Bu qapılardan biri dama aparırdı. Məqbərənin geniş sahəli kompozisiyası özündə XVII-XVIII əsrlər Dərbənd şəhər memarlığının bir çox xüsusiyyətlərini cəmləşdirmişdir.

İsfəndiyar məqbərəsi – şimal qəbiristanlığında Dərbənd şəhər hakiminin ailəvi məqbərəsi. Bir zamanlar şimal qəbiristanlığında olmuş bir sıra məqbərələr kimi, İsfəndiyarlar ailəsinin məqbərəsi də dövrümüzədək gəlib çıxmamışdır. Bu məqbərənin mövcud olması ayrı-ayrı Avropa səyyahlarının məlumatlarında xatırlanır. Bu gün bu məqbərədən yalnız üç sandığa bənzər metr yarım uzunluğu olan qəbir daşları qorunub saxlanılmışdır. Onlardan ikisi Orta qapının yaxınlığında cənub qəbirstanlığındadır, biri isə ekspozisiya üçün Narınqala ərazisinə aparılmışdır. Məqbərənin memarlıq dəyəri və dəqiq yeri məlum deyil. Məqbərənin üstündəki yazıların yalnız tərcüməsi qalmışdır. Bu tərcümələr də 1850-ci ildə məşhur rus şərqşünası N.V.Xanıkov tərəfindən çap edilmişdir. Məqbərənin üstündəki birinci və üçüncü yazı ərəb, ikinci isə fars dilində idi. Birinci iki yazıda təkrar olunan hicri tarixi ilə 866-cı il və ikinci yazıdakı zü-l-qədə ayının 16-cı günü 1462-ci ilin avqust ayının 12-nə uyğundur.

Yazılardan məlum olur ki, 1462-ci il avqust ayının 12-də dərbəndlilər hansısa bir düşmənlə müharibədə iştirak ediblər və bu döyüşlər zamanı Dərbəndin hökmdarı (və ya onun canişini) İsfəndiyar Şeyx Əbu-İshaq və onun iyirmi döyüşçüsü həlak olmuşdur. İsfəndiyar atası Məhəmməd – Həmzə ağanın qəbrinin yanında dəfn edilmişdir.

Heydər (ərəb. «şir», «aslan») – Məhəmməd peyğəmbərin kürəkəni və əmisi oğlu, şiələr tərəfindən sitayiş edilən xəlifə imam Əlinin (656-661) vəsfidir.

Rüstəm, Qudarz və Qiv – Firdovsinin «Şah namə» dastanının qəhrəmanlarıdır (XI əsr).

Dərbəndin bu hökmdarı haqqında V.F.Minorski Əbd-ər-Rəhman Səmərqəndiyə əsaslanaraq yazmışdır ki, «…Şahruxun dövründə, hicri tarixi ilə 823-cü ildə (1421) Bab əl-Əbvabın hakimi İsfəndiyar Dərbəndi olmuşdur. Onun adı Xələl Şirvanlıdan (şirvanşah Xəlilullah) ayrılıqda xatırlanır».

Çox ehtimal ki, əmir İsfəndiyar Şirvanşahın Dərbənddəki canişini olmuşdur.

Qırx gürcü gözəlinin məqbərəsi. Yerli rəvayətlərdə nəql edilir ki, bir zamanlar quldurlar Gürcüstandan Dərbəndə 40 oğurlanmış gözəl qız gətirmişlər. Qızları böyük ehtiyatla gətirirdilər ki, yolda onları başqa quldurlar oğurlamasınlar. Gecə şəhərə çatdıqdan sonra, onlar qızları dağda olan kiçik mağarada gizlədirlər. Mağaranın qapısını hörürlər, özləri isə qızları baha satmaq üçün hökmdarın yanına gedirlər. Lakin möhkəm dəmir qapılar bütün gecəni qarovulçular tərəfindən bağlandığı üçün, onlar şəhərə girə bilmirlər. Quldurlar şəhər divarlarının yanında qarovulçularla danışıqlar aparmağa başlayırlar. Qarovulçular təhlükə hiss edib quldurları məhv edirlər. Yalnız bir neçə gündən sonra, bir çoban təsadüfən mağaranı tapır. Lakin artıq gec idi. Qızlar havasızlıqdan mağarada həlak olmuşdular. Bu əhvalatı eşidən hökmdar çox qəmlənir və əmr edir ki, qızların cənazələrini vətənlərinə aparıb, onların adət-ənənələri ilə dəfn olunsunlar. Mağaranı isə günahsız ölmüş qızların xatirəsi kimi saxlamağı əmr etmişdir.

1770-ci ildə Dərbənddə olmuş akademik S.Q.Qmelin də şəhərin şimal hissəsində mağarada gördüklərini yazması bu əfsanəni bir daha təsdiq edir.

Bu gün mağaranın yerləşdiyi yer məlum deyil. Lakin ehtimal etmək olar ki, o rus qəbirstanlığı üzərində ucalan qayadadır.

A R X E O L O G İ Y A

Dərbənd və Azərbaycan arxeologiyası. Azərbaycan milli tarix elminin arxeologiya sahəsi sübut edir ki, Dərbənddə əhalinin məskünlaşma tarıxi tunc dövrünə aiddir. Şimali Azərbaycan ərazisində Dərbəndin şəhər kimi e.ə. V əsrdə Əhəmənilər dövründə formalaşdığı ehtimal olunur.

Erkən orta əsrlər dövründə hərbi cəhətdən iki nəhəng qüvvə – Hun xaqanlığı və Sasani imperiyası arasında amansız mübarizə başladığı zaman Xəzər dənizinin qərb sahili, xüsusən də Dərbənd keçidi həddən artıq vacib hərbi-strateji əhəmiyyət kəsb edirdi. Məhz bu dövrdə Xəzərin bütün qərb sahili boyunca möhtəşəm sahilyanı istehkamların inşa edilməsi Azərbaycanda hərbi və hərbi dənizçilik işinin vacib tərkib hissəsi olmuşdur.

V-VI əsrlərdə Sasani hökmdarlarından II Yezdəgirdin (438-457), Firuzun (459-484), I Qubadın (488-531) və I Xosrov Ənuşirəvanın (531-579) dövründə Azərbaycan (Qafqaz) Albaniyasında Xəzərin qərb sahili boyunda Beşbarmaq, Gilgilçay və Dərbənd kimi əzəmətli hərbi istehkamlar – qalalar ucaldılır. Azərbaycanın qədim və orta əsr memarlığı üzrə tədqiqatçısı T.A.Axundovun fikrinə görə şimal müdafiə qurğuları xeyli əvvəl, hələ miladdan öncə kaspilər, sonralar isə Albaniya dövləti tərəfindən inşa edilmişdir.

Şimal müdafiə qurğuları hərbi nöqteyi-nəzərdən dəqiq düşünülmüş, ərazinin relyefinə maksimum uyğunlaşdırılmış və dərininə eşalonlaşdırılmış bütöv müdafiə sistemi sayılırdı. Həm də bu istehkamların hər biri ümumi müdafiə sisteminin yalnız bir elementi idi. Arxeoloji qazıntılar göstərir ki, Dərbənd şəhər müdafiə kompleksi üç əsas hissədən ibarət idi.

Hərbi-strateji baxımdan Xəzərin qərb sahilində müdafiə qurğuları sistemində ən vacibi Albaniyanın Çora vilayətində yerləşən Dərbənd keçidi idi. Dərbənd özünün nadir coğrafi mövqeyinə görə uzun əsrlər boyu Azərbaycanda baş verən hərbi-siyasi hadisələrin gedişində son dərəcə vacib rol oynamışdır. İlk möhkəmləndirilmiş yaşayış məskənləri hələ miladdan əvvəl VIII-VII əsrlərdə meydana gəlmiş Dərbənd keçidinə Roma və Parfiya, Sasanilər İranı və Bizans, Ərəb xilafəti və Xəzər xaqanlığı, Səlcuq dövləti və Qızıl Ordu, Osmanlı imperiyası, nəhayət, I Pyotrun vaxtından rus imperiyası göz dikmişdilər. Şəhərin meydana gəlməsi və onun strateji əhəmiyyətinə görə, təkcə Azərbaycan tarixində deyil, həm də dünya tarixində oynadığı əhəmiyyətli roluna görə, Dərbənd, hər şeydən əvvəl, yerləşdiyi xüsusi coğrafi vəziyyətə borcludur. Məhz ona görə bu dövrlərdə Dərbənd şəhəri həm Şimali və Cənubi Qafqaza, həm Ön Asiyaya, həm də Xəzərdən keçməklə Mərkəzi Asiyanın geniş ərazilərinə hücum etmək üçün ən əlverişli hərbi əməliyyat meydanı rolunu oynamışdır.

Tədqiqatlar göstərir ki, erkən orta əsrlər dövründə Dərbənd yalnız albanların baş qalası, Sasanilərin Qafqazdakı istinadgahı kimi deyil, həm də mühüm ilk orta əsr şəhəri, ən iri ticarət-sənətkarlıq və siyasi mərkəzlərindən biri kimi tanınmışdı. Onun qədim dünyanın ən mühüm ticarət yollarından biri üzərində tutduğu əhəmiyyətli mövqeyi, alban hökmdarları və Sasanilər dövründə xüsusi hərbi-strareji əhəmiyyəti şəhərin sürətli inkişafı üçün şərait yaratmışdı. VI əsrdə Dərbənd şəhəri mütəşəkkil daxili struktura, dürüst seçilmiş topoqrafiyaya malik şəhər kimi məşhur idi.

«Alban tarixi»ndə Dərbənd «əzəmətli şəhər» adlandırılır. VIII əsr erməni tarixçisi Gevondun məlumatına görə, Dərbənd qala divarları və bürclərlə əhatə olunmuşdu. Anani Şirakatsinin «Erməni coğrafiyası»nda Dərbənd «Çora keçidinin şəhəri, dənizin ortasında tikilmiş möhtəşəm istinadgah» adlandırılmışdır.

Moisey Kalankatlının təsvirindən şəhərin küçə və meydanlar sistemini əhatə edən daxili planı məlum olur: «(Xəzərlər) abır-həyasını itirmiş yırtıcı canavarlar kimi (şəhər sakinlərinin) üzərinə atıldılar, şəhərin küçə və meydanlarında onları amansızcasına kəsib-doğradılar… Onlar alovun yanan dilləri qamışlıqda dolaşan kimi bir qapıdan girib, o birisindən çıxırdılar».

Alban hökmdarları və Sasani şahlarının hərbi-siyasi dayağı və strateji məntəqəsinin əvvəlcə böyük bir hərbi məntəqənin yerləşdiyi mühüm inzibati mərkəzə, daha sonra isə inkişaf edərək iqtisadi-ticarət

mərkəzinə çevrilməsi nəticəsində Dərbənd bir şəhər kimi təşəkkül tapmışdır. Stateji məntəqənin erkən orta əsr şəhərinə çevrilməsində Sasani şahlarının quruculuq fəaliyyəti böyük rol oynamışdır.

Ticarət-sənətkarlıq mərkəzi kimi Dərbənd şəhərinin əsas sənətkarlıq sahəsi qədimdən burada mövcud olmuş və sonralar daha da inkişaf etmiş toxuculuq idi. Dərbənd şəhərinin arxeoloji təbəqələrindən çoxlu silah, şeypur, metal məmulatlar, zindan, çəkic, mis və dəmir filizi qalıqlarının tapılması burada metal emalı və metallurgiyanın inkişafına dəlalət edir. Şüşə əşyalarının çoxluğu, onların özünəməxsusluğu və geniş çeşidi Dərbənddə şüşə istehsalında yüksək inkişafdan danışmağa imkan verir.

Dulusçuluq burada çox yüksək inkişaf səviyyəsinə çatmışdı. Xeyli, ən müxtəlif təyinatlı qab-qacaq, çoxlu saxsı su borusu, bişmiş kərpic, kirəmit, soba qalıqları, qab-qacaq «bişirmək» üçün vəsait və s. şəhərin yüksək inkişaf etmiş dulusçuluq istehsalından xəbər verir. Bu dövrdə Dərbənd həm də mühüm beynəlxalq ticarət mərkəzinə çevrilir; ehtimal ki, bu zaman o daha çox Xəzəryanı ticarət yolunun ən böyük tranzit məntəqəsi rolunu oynayırdı.

Quruluş baxımından Dərbənd şəhəri aydın şəkildə iki tərkib hissəyə ayrılır: içqala və şəhərin özü; indi Narınqala adlanan içqala xüsusi yer tuturdu. Bu, şəhər hakiminin iqamətgahı, onun sarayı və qarnizonun yerləşdiyi yer, inzibati, hərbi-siyasi və mədəni mərkəz idi. 2,5-3,5 m qalınlıqda, ayrı-ayrı sahələrdə hündürlüyü 20-25 m-ə çatan möhtəşəm divarlar onu alınmaz qalaya çevirir. İlkin orta əsrlər Dərbəndi şəhər struktrunun bir hissəsi olan rabada (şəhər ətrafına) malik deyildi; beləliklə, divarlarla əhatə olunmuş çox böyük ərazi şəhərə kifayət qədər iri sahədə genişlənmək və inkişaf etmək imkanı verirdi.

Şəhərin sosial strukturuna gəldikdə isə, qeyd etmək lazımıdır ki, Narınqalada alban hakimləri, sonralar isə Sasanilər tərəfindən təyin edilən şəhər canişinləri otururdu. Sasani şahlığının Dərbənddəki canişini V əsrdə «mərzban» titulu daşıyırdı. Şəhər əyanlarından ibarət hakim siniflə xırda alverçi və sənətkarlar arasındakı təbəqəni təşkil edən döyüşçülər şəhər cəmiyyətinin strukturunda xüsusi yer tuturdular. Sasanilər sərhədlərin mühafizəsi üçün Dərbənddə hərbi kolonistləri yerləşdirərək onlara torpaq paylayırdılar.

Dərbənd o dövrdə Cənubi Qafqazın şərqində əsas memarlıq mərkəzlərindən biri kimi də tanınmışdı. Dövrümüzədək salamat qalmış müdafiə qurğuları və dini tikililər III-VII əsrlərdə memarlıq və şəhərsalmanın inkişaf səviyyəsini müəyyən qədər aydınlaşdırmaq üçün şərait yaradır.

Qala divarları və «uzun sədlər» daha mühüm qurğularına aiddir. V-VII əsrlərdə Sasani imperiyasının şimal köçərilərinə qarşı mübarizəsi ilə əlaqədar olaraq inşa edilmiş bu qurğular Xəzər dənizinin Dərbənd keçidinin yanındakı hissəsindən ölkənin dərinliklərinə doğru uzanan müdafiə kompleksinin ümumi sisteminə daxil idi. Ümumi uzunluğu 120 kilometrədək olan «uzun sədd» daha məsuliyyətli yerlərdə müxtəlifölçülü düzbucaqlı və dairəvi qüllələrlə möhkəmləndirilmişdi. Qüllələrin yuxarı meydançaları pilləli dişlərin qurşağı ilə başa çatırdı. Həmin qurşaqların arasında istehkamın müdafiəçiləri mövqe tuturdular.

Dərbənd yaxınlığındakı keçid daha çox möhkəmləndirilmiş məntəqə idi. Qədim şəhər iki güclü qala divarları arasına alınmışdı. Bu divarlar dənizin içərisinə doğru xeyli uzanmış, dənizin bu yerində süni liman yaratmışdı. Divarların əks ucları sərt, keçilməz dağ ətəklərinə söykənmişdi. Yuxarı istiqamətlənmiş, açıq, geniş pillələri olan, çoxlu qüllələrlə təchiz edilmiş Dərbənd qala divarlarının orta qalınlığı 4 metrədək, hündürlüyü 20 metr idi və dişli məhəccərlə müdafiə olunurdu.

Dərbəndin ərəb işğalı ərəfəsində tikildiyi ehtimal olunan çoxsaylı qədim tikililəri içərisində hamamların qalıqlarını və qayalıqda oyulmuş dörd çatma tağa dayaqlanan günbəzli, iri hovuzu qeyd etmək lazımdır. Plan baxımından böyük bazilikal bina olan, sonralar yenidən qurularaq məscidə çevrilmiş abidənin daha qədim hissələri bu zamana aiddir. Məscidin köhnə hissələrinin hörgü texnikası VI əsrdə ucaldılmış Dərbənd istehkamları ilə eynilik təşkil edir.

«Azərbaycan arxeologiyası»nın IX-XVII əsrlər dövrü Azərbaycan ilk orta əsrlər cəmiyyətinin doqquz əsrlik tarixinin maddi məxəzlər əsasında tədqiqinə həsr olunmuşdur. Bu zaman kəsiyində feodal cəmiyyəti özünün yüksəliş, durğunluq və tənəzzül çağlarını keçirmişdir.

IX-XII əsrlər feodal münasibətlərinin dərinləşməsi, müstəqil feodal dövtətlərinin yaranması və möhkəmlənməsi, təsərrüfat həyatında sənətkarlığın

inkişafında, ticarət əlaqələrinin genişlənməsində böyük tərəqqi dövrü kimi qiymətləndirilir. Tarixin bu dönəmi, urbanizasiya prosesinin sürətlənməsi, islamın hakim dinə çevrilməsi və mənəviyyata dərin təsiri ilə səciyyələnir. İslamın yayılması ölkənin şimal və cənub bölgələrində maddi, həmçinin mənəvi mədəniyyətdəki fərqləri aradan qaldırmağa, vahid, ümumazərbaycan mədəniyyətinin formalaşmasına imkan verdi.

XIII-XVII əsrlərdə isə feodal münasibətləri əvvəlcə durğunluq, sonra tənəzzül keçirir. İqtisadiyyatın, şəhərlərin dirçəlişinə bəzi səylər göstərilsə də, feodal cəmiyyətini durğunluqdan çıxarmaq, onun yüksəlişini təmin etmək mümkün olmurdu. Bu dövrün sonunda şəhərlərin aqrarlaşması başlanır, maddi və mənəvi mədəniyyətdə çökmə müşahidə olunur.

Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun hazırlayıb çap etdirdiyi «Azərbaycan arxeologiyası». Altı cildli kitabın VI cildində qeyd olunur ki, Dərbənd, o cümlədən Şamaxı, Bakı, şəhərlərində həyat bu günədək fasiləsiz davam etdiyindən, bu abidələrdə aparılan arxeoloji qazıntıları müasir şəhərsalma ilə əlaqələndirmək lazım gəlirdi. Belə bir şəraitdə tamamilə düzgün olaraq şəhərin müxtəlif hissələrində qazıntılar aparmaqla ümumi mənzərəni və inkişaf dinamikasını müəyyənləşdirmək qərara alınmışdır. Şamaxı şəhərində səkkiz sahədə, Bakıda iyirmi beş, Dərbənddə isə ondan artıq sahədə arxeoloji qazıntılar aparılmışdır.

Dərbənddə aparılmış arxeoloji qazıntıların yekunu olaraq 1982-ci ildə A.A.Kudryavtsevin iki monoqrafiyası nəşr olundu. Moskvada çap olunan monoqrafiyada Dərbəndin qədim dövrdən başlamış ta X əsrə qədərki tarix və mədəniyyətinin məsələləri araşdırılmışdır. Mahaçqalada çap olunmuş monoqrafiyada isə şəhərin əsasən islam dövrü, monqol işğalına qədərki dövrü öz əksini tapmışdır.

A.A.Kudryavtsevin Dərbənd limanı, Dərbəndin ticarət əlaqələri üzrə apardığı tədqiqatlar da uğurlu olmuşdur. O, sualtı arxeoloji tədqiqatlarla bu limanın X əsrdə Xəzər dənizinin ən böyük limanı olduğunu, həmin vaxtda şəhərin beynəlxalq ticarətdə vasitəçi rol oynadığını sübuta yetirmişdir. Yuxarıda qeyd olunan bu və digər tədqiqatlar Azərbaycanın orta əsr şəhərləri haqqında təsəvvürləri xeyli genişləndirdi. Şəhərlərin topoqrafiyası, plan quruluşuna aydınlıq gətirildi, şəhər tikililərinin xarakteri müəyyənləşdirildi, onların kifayət qədər abad olduğu, küçə və meydanların, həyətlərin döşəndiyi, mükəmməl su təchizatı sisteminin, sanitariya-gigiyena qurğularının mövcudluğu təsdiqləndi. Bəlli oldu ki, şəhərlərin iqtisadi əsasını sənətkarlıq və ticarət təşkil etmişdir. Sənətdaxili ixtisaslaşma kifayət qədər dərinləşmişdir. Şəhərlər ölkənin başlıca mədəni-dini mərkəzləri olmuşdur.

Arxeoloji abidələr arasında yaşayış məskənlərinin xarabalıqları özlərində daha zəngin və tarixi əhəmiyyətli informasiyanı cəmləşdirməsi ilə digər kateqoriyalara nisbətən öndə durur. Bu səbəbdən Azərbaycanın ilk orta əsr cəmiyyətinin öyrənilməsində orta əsr yaşayış yerlərinin arxeoloji tədqiqinin əhəmiyyəti əvəzsizdir. Bəllidir ki, hər bir yaşayış məskəni özündə bir sıra iqtisadi, sosial-mədəni və siyasi qanunauyğunluqları təcəssüm etdirir. Şəhər və kənd yasayış məskənlərinə diqqət yetirdikdə dörd aspekt xüsusilə qabarıq nəzərə çarpır. Birincisi, bu yaşayış məskənləri əməyin müxtəlif növlərini özlərində təmsil edir. İkincisi, topoqrafik baxımdan şəhər və kənd yaşayış məskənləri ciddi fərqlənir. Üçüncüsü, şəhər və kənd yaşayış məskənlərinin hər biri üçün özünəməxsus sosial qrupların məskunlaşması səciyyəvidir. Dördüncüsü, üç əvvəlki əlamət bu fərqli yaşayış məskənlərində mədəni həyat səviyyəsinin müxtəlifliyini şərtləndirmişdir.

Yaşayış məskənlərinin daşıdıqları funksiyalar arxeoloji baxımdan abidələrin ölçüsündə, daxili strukturunda və tapıntıların tərkibində özünü əks etdirir. Buna müvafiq olaraq, yaşayış yerinin bu və ya digər tipə aid edilməsi abidədə bir sıra arxeoloji əlamətlərin varlığına əsaslanır. Yaşayış yerinin sahəsi, istehkamın olub-olmaması, tikililərin xarakteri, saray və ictimai-dini tipli monumental binaların varlığı, istehsal komplekslərinin, ticarətlə əlaqəli tikili və ləvazimatın, abadlıqla bağlı qurğuların mövcudluğu, ev avadanlığı və zinət əşyalarının xarakteri və s. belə əlamətlərdəndir.

Yazılı mənbələrin məlumatı və arxeoloji tədqiqatların nəticələri Azərbaycanda, o cümlədən də Dərbənddə IX-X əsrlərdə şəhər həyatının canlanması, XI-XII əsrlərdə isə şəhərlərin sürətli inkişafını sənədlərlə sübut edir. Məlumdur ki, urbanizasiya və onunla bağlı proseslər müsəlman sivilizasiyasının mühüm fenomeni idi. Müsəlman Şərqində urba-

nizasiya prosesinin sürətlənməsi öz təcəssümünü şəhərsalma fəaliyyətinin genişlənməsində, şəhər həyat tərzinin möhkəmlənməsində, sosial-psixoloji kontekstin dəyişməsində, yeni tip şəhərin formalaşmasında tapdı. Müsəlman dünyasının tərkibində olan Azərbaycan və onun üzvi tərkib hissəsi olan Dərbənd şəhəri bu proseslərdən kənarda qala bilməzdi.

Yaşayış məskənlərinin mürəkkəb sistemində şəhərlər istehsal, mədəni və intellektual potensialı cəmləşdirməsi, hərbi-inzibati, sənətkarlıq, ticarət, dini-mədəni mərkəz olması, kənd bölgələrinə münasibətdə idarəedici funksiya daşıması ilə aparıcı mövqeyə malik idi. Yazılı mənbələrin təhlili və arxeoloji qazıntıların nəticələri feodal şəhərlərinin üç tipini ayırmağa imkan verir. İstehkamlı sahəsi 100 hektara yaxın və daha artıq olan iri şəhərlər ayrı-ayrı dövrlərdə Azərbaycan feodal dövlətlərinin paytaxtı və ya mühüm mərkəzi olmuşdur. Onların iqtisadiyyatı sənətkarlıq və ticarətə əsaslanırdı. Bu şəhərlər ölkənin intellektual potensialının cəmləşdiyi başlıca mərkəzlər idi. Təbriz, Dərbənd, Bərdə, Gəncə, Dəbil, Naxçıvan, Təbriz, Ərdəbil, Marağa, Sultaniyyə, Şamaxı belə şəhərlərdən idi. Həmin şəhərlərin əhalisinin sayı 100 minə yaxın və ya daha çox idi. Şəhərin arxeoloji-tipoloji bölgüsü yazılı qaynaqlardakı müsəlman şəhərlərinin təsnifatına uyğun gəlir. Belə ki, yazılı qaynaqlarda paytaxt şəhərlər «misr», vilayət mərkəzləri «qəsəbə», mahal mərkəzləri «mədinə» adlandırılır. Lakin bunu da xatırladaq ki, orta çağ müəlliflərinin şəhərin statusuna dair təsəvvürləri konkret deyildi. Ərəb coğrafiyaşünası əl-Müqəddəsi üçün başlıca meyar, vacib şərt yaşayış məntəqəsində Cümə məscidinin olması idi. Və yaxud, XIII əsrin əvvəllərində Azərbaycanda olmuş Yaqut Həməvi Ərdəbil, Dərbənd kimi böyük və əhəmiyyətli şəhərləri mədinə adlandırmışdır.

Yazılı qaynaqların məlumatı və arxeoloji tədqiqatların nəticələrini müqayisəli təhlil edən tədqiqatçılar inkişaf etmiş orta əsrlərdə Azərbaycanda 70-ə yaxın şəhərin olduğunu müəyyənləşdirmişlər.

Ümumiyyətlə, Azərbaycanın IX-XII əsr yaşayış məskənləri arxeoloji baxımdan şəhər xarabalıqları, qala və qəsr qalıqları, kənd tipli yaşayış yerləri ilə təmsil olunmuşdur.

Bir halda ki, arxeoloji qazıntılar əsasən orta əsr şəhərlərinin xarabalıqlarında aparılmışdır, əvvəlcə qısa da olsa onların üzərində dayanmaq lazımdır.

IX-XIII əsrin şəhərlərindən Şimali Azərbaycan ərazisində ən məşhur olanları Dərbənd, həmçinin Gəncə, Beyləqan, Naxçıvan, Şabran, Şamaxı, Şəmkir, Bakı, Dəbil, Qəbələ, Bərdə, Şəki idi. Bunlardan bəziləri – Dərbənd, Bakı, Şamaxı, Naxçıvan öz köhnə adlarını saxlamış və indi də bu şəhərlərdə həyat davam etməkdədir.

Tarixi mənbələrin araşdırılması və arxeoloji axtarışların nəticələr göstərir ki, Azərbaycanın IX-XIII əsrlər şəhərlərinin əksəriyyəti ölkənin iqtisadi cəhətdən daha inkişaf etmiş və əhali ilə sıx məskünlaşmış, həmçinin, magistral ticarət yolları keçən strateji cəhətdən əhəmiyyətli olan ərazilərində yerləşmişdir. Başqa Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da şəhərlər sənətkarlıq və ticarət mərkəzləri kimi əsasən IX-X əsrlərdə formalaşmış, sonrakı iki əsrdə, XI-XII əsrlərdə çiçəklənmə çağını keçirmişdir. Azərbaycan tarixinə bu dövr inkişaf etmiş orta əsrlər dövrü kimi daxil olmuşdur. Söz yox ki, bu şəhərlərin formalaşması və inkişafında ilk orta əsrlərdə və ondan qabaqkı dövrlərdə yaranmış bazarın mühüm rolu olmuşdur. Hər halda, arxeoloji qazıntılar zamanı müəyyən olunmuşdur ki, inkişaf etmiş orta əsrlərdə şəhərlərin – Dərbənd, Qəbələ, Gəncə, Beyləqan, Şabran, Bakı və s. ərazisi ilk orta əsrlərə nisbətən daha sıx məskunlaşmış və daha geniş sahəni əhatə etmişdir.

Şərqin digər müsəlman ölkələrində olduğu kimi, Azərbaycanın da orta əsr şəhərləri əsasən üç sosial-iqtisadi topoqrafik hissədən - Narınqala (iç qala), şəhristan (içərişəhər) və rabatdan (bayır şəhər) ibarət idi. Şəhərlərin belə quruluşu feodal cəmiyyətində baş verən sosial-iqtisadi proseslərlə bağlı idi. Bu üç səciyyəvi topoqrafik hissənin hər birinin formalaşması öz növbəsində bir sıra sosial-iqtisadi və hərbi-siyasi amillərlə bağlı idi. Şəhərin siyasi və inzibati mərkəz funksiyasının yerinə yetirməsi onun ərazisində ən əlverişli yerdə Narınqalanın və hökmdar sarayının meydana gəlməsini şərtləndirmişdi. Ölkənin, vilayətin, mahalın idarəsi buradan həyata keçirilir, burada hökmlər və fərmanlar hazırlanır, ölkədə və ya vilayətdə baş verən hadisələr müzakirə olunur, toplanan vergilər buradakı xəzinəyə daxil olurdu.

Şəhərin hərbi-inzibati və mədəni-ideoloji mərkəz rolunu oynaması dövlət idarəçiliyində və mədəni-dini sahədə fəal iştirak edən feodal sinfinin şəhristanda yerləşməsini, şəhərin bu hissəsində monu-

mental ictimai-dini binaların, ticarət obyektlərinin, imarətlərin və çoxotaqlı, yaraşıqlı evlərin inşa olunmasını, abadlıq tədbirlərinin daha ciddi həyata keçirilməsini şərtləndirmişdi. Sənətkarlıq və ticarətin inkişafı nəticəsində yeni topoqrafik hissə - sənətkar məhəllələrinin cəmləşdiyi rabad formalaşmışdır.

İnkişaf etmiş orta əsrlərdə Şimali Azərbaycanın ən böyük şəhərlərindən olan, ərəb müəlliflərinin «Bab əl-Əbvab» adlandırdıqları Dərbənd şəhəri IX-X əsrlərdə özünün çiçəklənmə çağını yaşamışdır. Xəzər dənizinin qərb sahilində ən böyük limana malik bu şəhər mühüm hərbi-strateji, ticarət və sənətkarlıq mərkəzi idi. VIII-X əsrlərdə şəhərin sıçrayışlı yüksəlişi şəhristanda monumental ictimai və dini binaların, yaşayış evlərinin inşasının geniş vüsət alması ilə müşayiət olunurdu. Həmin çağda şəhərin qala divarları arasında olan 150 hektardan artıq ərazisi sıx məskunlaşmışdı.

1972-ci ildən aparılan arxeoloji qazıntılar şəhərin topoqrafiyasına aydınlıq gətirmiş, onun iki hissədən: narınqala və şəhristandan ibarət olduğunu göstərmişdir. Dərbəndin müdafiə sistemində xüsusi yer tutan Narınqalada saray, qarnizon üçün kazarma, inzibati binalar, təsərrüfat tikintiləri və su anbarı var idi. VIII-IX əsrlərdə Narınqalanın şərqində ucaldılmış saray kompleksi 600 *kv.m-dən* artıq sahəyə, çoxotaqlı plan quruluşuna malik idi. Qalınlığı 1-1,5 *m* olan divarları əhəng məhlulu ilə daşdan hörülmüşdü. X əsrin sonu - XI əsrdə saray kompleksi Narınqalanın şimal-qərbinə köçürülmüşdü. Burada düzbucaqlı plan quruluşuna malik saray kompleksi ucaldılmışdı. Arxeoloji qazıntılar nəticəsində IX-X əsrlərin mədəni təbəqəsi şəhərin şəhristan hissəsinin, demək olar ki, bütün ərazisində qeydə alınmışdır. Şəhristanın dənizkənarı hissəsində mədəni təbəqənin IX-X əsrlərə məxsus qatının qalınlığı 50-70 *sm* təşkil edir və bu da intensiv məskunlaşmanı göstərir.

Dərbəndin şəhər səciyyəvi xüsusiyyətlərindən biri VIII-X əsrlərdə sənətkarlıq və ticarətin güclü inkişafı nəticəsində şəhristanın iki hissəyə ayrılması - aşağı, dənizkənarı hissədə, əsasən, sənətkar və tacirlərin məhəllələrinin formalaşması ilə bu hissənin bir növ özünəməxsus rabada çevrilməsi, şəhərin yuxarı hissəsinin, Cümə məscidi ətrafının şəhristan funksiyasını davam etdirməsidir.

Arxeoloji qazıntılar zamanı şəhristanın yuxarı hissəsində tədqiq olunmuş təmtəraqlı evlər, ictimai və dini binalar, nəhəng su anbarı və digər monumental tikililər burada əsasən feodal sinfi nümayəndələrinin yaşadığına dəlalət edir. Bu zaman şəhərin başlıca olaraq ticarət, ictimai-siyasi və mədəniyyət mərkəzi Cümə məscidi yaxınlığındakı bazar meydanında cəmləşmişdi. Dərbəndin bazar meydanının mühüm mərkəzə çevrilməsi əl-Müqəddəsinin məlumatında da öz əksini tapmışdır. O, yazırdı: «Came məscidi bazar meydanının ortasındadır. Burada su bulağı var. Binaları daşdandır».

Bazar meydanından qərbdə və cənubda ictimai binalar, cənubda həm də yaşayış evləri, şərqdə isə şəhristanı iki hissəyə ayıran arakəsmə divar yerləşirdi.

Arxeoloji qazıntılar zamanı təpənin ətəklərində aşkarlanmış köndələninə divarlar Dərbəndin özünəməxsus daxili quruluşunu müəyyənləşdirməyə imkan vermişdir. Artıq XI-XIII əsrlərdə şəhər iki deyil, üç tərkib hissədən ibarət olmuşdur.

Arxeoloji materiallar müxtəlifliyi ilə fərqlənir. Bunların əsas kütləsini şirli və şirsiz saxsı qablar, fayans və s. təşkil edir. İstehsal tullantıları, kürə qalıqları, üçayaqlılar, gil çubuqları və s. tapılması yerli dulusçuluq istehsalından xəbər verir.



Metal tapıntılardan tikinti və gül mismarlarını, ox uclarını, bıçaq və dəhrə tiyələrini, ayaqqabı nallarını, halqaları və s. qeyd etmək olar. Mis əşya və bəzək şeylərinə də təsadüf olunur (sancaq, halqa, düymə və s.). Fiqurlu daşlar, memarlıq hissələri, kirkirə daşları, bülöv daşları və s. tez-tez rast gəlinir. Dərbənddə, o cümlədən Bakıda, Şamaxıda, Təbrizdə və s. yerlərdə zərb olunmuş çoxlu sikkələr tapılmışdır. Onları Şirvanşahların, Dərbənd məliklərinin, Səlcuqların, İldənizlərin və s. sülalələrin adından zərb etmişlər. Hicri 138-ci ildə Dər əs-Salamda kəsilmiş bir ədəd gümüş pul tapılmışdır. Pullar dəfinə şəklində də tapılır. Mə-

nuçöhrün oğlu Axsitanın (XII əsr) adından kəsilmiş pullardan ibarət bir dəfinə (29 ədəd) təndir külbəsində aşkara çıxarılmış, IX-XIII əsrlərə aid yonulmuş daşdan hörülmüş ev qalıqları, saxsı məmulatı, pul və s. tapılmışdır.

Şəhərin qala divarları tikilən zaman yerin quruluşu nəzərə alınırdı. Orta əsr şəhərlərinin içqala divarları kifayət qədər hündür tikilir, bəzən 10-15 metrə çatırdı. Dərbənd Narınqalası möhtəşəmliyi ilə daha çox fərqlənir. Qala divarlarını dördkünc və yaxud yarımdairəvi bürclər müşayiət edirdi. Gəncə qazıntıları zamanıda buradakı qala divarlarında həm dördkünc, həm də yarımdairəvi bürclər aşkara çıxarılmışdır. İ.M.Cəfərzadənin fikrincə, dördkünc bürclər daha qədimə aiddir. Dərbəndin qala divarlarında kvadrat və yarımdairəvi bürclər qalmaqdadır.

Qala divarlarında bürclər müəyyən məsafələrdə tikilirdi. Gəncə və Beyləqanda onların arası 40-50 metr, Bakıda isə daha azdır. Divarın təhlükəli hissəsində bürclərin sayı artırılırdı. Məsələn, Dərbənddə başlıca təhlükə şimaldan gözlənildiyindən burada bürclər daha sıx yerləşmişdi. Dərbənd qalasındakı 73 bürcdən 46-sı şimal divarında idi. Qəbələnin isə cənub qala divarının bürcləri çox sıx tikilmişdir. Bu bürclər nəinki müdafiə, həm də divara dayaq rolunu oynayırdı. Divar və bürclərin yuxarısı adətən dişli, gözlü olurdu. Bu da müdafiə üçün düşmən atəşini izləmək, atəş açdıqdan sonra qorunmaq imkanı yaradırdı. Divarların yuxarısında müdafiəçilərin hərəkəti və hərbi ləvazimat saxlamaq üçün səkilər düzəldilirdi. Bütün bunları XII-XV əsrlərdən zamanımıza qədər qalmış Bakıda İçərişəhərin qala divarlarında əyani şəkildə görmək mümkündur.

Azərbaycan şəhərlərinin adətən 2-3, bəzən isə 4 darvazası olurdu. Bu baxımdan Təbriz və Dərbənd istisna təşkil edirdi. Əl-Müqəddəsi Dərbəndin şimal divarında üç, dəniz və cənub tərəfdən isə çoxlu darvazaları olduğunu qeyd edir. Şimaldakı darvazalar «Carçı», «Qırxlar» və «Daş qapı», cənubdakılar isə «Qala», «Bayat», «Orta qapı» və «Dubalı» adlarını daşımışlar.

Dərbənd şəhərində Bab əl-Cihaddakı (Cihad qapıları) divarın üstündə iki daş sütun var, hər sütunun üstündə ağ daşdan yonulmuş şir heykəli durur. Onlardan aşağıda iki daş var və həmin daşların üstündə də şir təsvir olunmuşdur. Qapının yaxınlığında daşdan yonulmuş insan heykəli var. Şir heykəlləri Qırxlar qapısı və Orta qapının üstündə və Dərbənd diyarşünaslıq muzeyindədir.

Azərbaycanın Şirvan və Arran vilayətlərinin şəhərlərində - Dərbənddə, Bakıda, Qəbələdə, Şamaxıda və Beyləqanda aparılmış arxeoloji qazıntılar zamanı qırıqları tapılan külli miqdarda bədii naxışlarla işlənmiş şirli qablar XI-XIII əsrin əvvələrində dulusçuluq və rəssamlıq sənətlərinin yüksək inkişaf səviyyəsinə çatdığını göstərir.

Dərbənddəki məhəllə məscidinin bayır divarında Xəlilüllahın adı çəkilən h.858 (1454)-ci ilə aid kitabə vardır. Fərrux Yəsara aid edilən Şirvanşah (şirlər şahı) titulu Dərbənddəki cümə məscidinin mədrəsəsindəki kitabə və Abşeronun Mərdəkan kəndindəki Tuba Şahı məscidindəki h. 886 (1481/2)-cı ilə aid kitabədə rast gəlinir.

XV-XVI əsrin birinci yarısına aid arxeoloji və numizmatik materiallar Bakıda, Şamaxıda, Dərbənddə və digər şəhərlərdə tapılmış çoxlu sikkə dəfinələri, dövrümüzədək gəlib çıxmış bir sıra memarlıq abidələri, keramika qalıqları - ticarət əlaqələrinin inkişafından xəbər verir.

Şəhər tikililəri (VIII-XIII əsrlər) – Şəhərlərin qala divarları içərisində yerləşən ərazisi yaşayış evləri, ictimai və dini binalardan ibarət sıx tikintilərə malik idi. Tikintilərin tipologiyası yeni tip binalarla zənginləşirdi. Şərqin digər müsəlman ölkələrində olduğu kimi, Azərbaycan şəhərlərində, həmçinin Dərbəndə də monumental tikililərin yeni tipləri: məhəllə və Came məscidləri, minarələr, mədrəsələr və digər ictimai-dini binalar ucaldılırdı. İctimai-dini və yaşayış binalarının tikintisində çatmatağlar, tağtavanlar, günbəzlər, çatma tağlı portallar, şəbəkəli pəncərələr, stalaktit karnizlər kimi konstruktiv elementlərdən geniş istifadə olunurdu. Arxeoloji qazıntılar geniş miqyasda aparılmadığından VIII-X əsrlərin tikililəri, eləcə də sonrakı dövrlərin tikililəri əksər hallarda komplekslər şəklində deyil, tək-tək üzə çıxarılmışdır. Bununla belə, arxeoloji qazıntıların miqyasının məhdudluğuna baxmayaraq, üzə çıxarılmış tikinti qalıqları orta əsr memarlığının tədqiqi üçün çox qiymətli faktik materiallar olmaqla, Azərbaycan şəhərlərində, o cümlədən də Dərbənddə inşaat texnikası və memarlığının yüksək səviyyəsindən xəbər verir. Müəyyən olunmuşdur ki, artıq IX-X əsrlərdə Azərbaycan şəhərlərində bişmiş kərpic və daş memarlığı aparıcı mövqe tutmuş, möhrə və çiy kərpicdən inşa olunmuş tikililərin sayı kəskin

şəkildə azalmışdı. Yaşayış evləri və saray binalarının, ictimai-dini komplekslərin, körpü və digər təyinatlı tikililərin qalıqlarının forma və materialları orta əsr memar və mühəndislərinin yüksək peşəkarlığını təsdiqləyir.

Yazılı qaynaqların məlumatı və arxeoloji qazıntılar nəticəsində üzə çıxarılan tikili qalıqları əsasında belə qənaətə gəlmək olar ki, şəhərlərin şəhristan və narınqala hissələrində tikililərin salınması planlı şəkildə, müəyyən bir sistemlə aparılırdı. Şəhərin qala divarlarının içərisində - Narınqalada, adətən, hökmdarın (paytaxt şəhərlərdə) və yaxud şəhər başçısının iqamətgahı - sarayı və digər inzibati tikililər yerləşirdi.

Dərbənd Narınqalası arxeoloji qazıntılarla daha yaxşı tədqiq olunmuşdur. Məlum olmuşdur ki, VIII-IX əsrlərdə ərəb canişininin sarayı Narınqalanın şərqində divara bitişik idi. Saray-kompleksin qalıqları 600 *kv.m-ə* yaxın sahəni əhatə edirdi. Saray yaxşı yonulmuş daşlardan, yüksək keyfiyyətli əhəng məhlulu ilə inşa olunmuşdu. Divarların qalınlığı 1-1,5 metrdir. Kompleksə daxil olan yaşayış və təsərrüfat təyinatlı otaqlar kvadrat və dördbucaq biçimli olub, sahələri o qədər böyük deyil - 4x4 *m,* 7,5x5,8 *m* və 7x7 *m*.

X əsrin sonu - XI əsrin əvvəllərində Narınqalanın şimal-qərbində yeni saray kompleksi inşa olunmuşdur. Düzbucaqlı plan quruluşuna malik olan bu bina daha dayanaqlı və möhtəşəm idi. O, yaxşı yonulmuş daşdan, yüksək keyfiyyətli əhəngli məhlulla inşa edilmişdir. Kompleksə daxil olan otaqlar əvvəlki tək əsasən dördbucaq biçimdə olub, sahələri 32-40 *kv.m* idi. Divarların qalınlığı 1,4-1,5 metrdir. Qazıntı zamanı saray kompleksindən daş sütun altlıqlarının tapılması burada sütunlu salonun mövcudluğuna dəlalət edir. Saray kompleksinin yaşayış otaqlarını və salonunu vaxtilə gəc oymalar bəzəyirmiş. Diqqəti cəlb edən cəhət sarayın bədii tərtibatında Şirvan-Abşeron memarlıq məktəbi üçün səciyyəvi olmayan gəc oyma naxışların tətbiqidir. X əsrin sonu - XI əsrin əvvəllərində Dərbənd əmirinin sarayı Narınqalanın şərqindən şimal-qərb tərəfə keçirilmişdir.

Narınqala ətrafındakı ərazilərdə, adətən, varlı adamlara məxsus daha çox yaşayış binaları və ictimai-inzibati binalar yerləşirdi. Şəhərin bu hissəsi, Narınqala da daxil olmaqla, şəhristan adlanırdı. Əhalinin qala divarları ilə qorunan hissədə yaşamaq istəyi şəhristanda binaların sıx yerləşməsini şərtləndirmişdi. Şəhərin ictimai və təsərrüfat həyatında şəhristan üstün mövqe tuturdu. Ərəb coğrafiyaşünaslarının verdikləri məlumata görə Bərdədə hökmdarın sarayı, xəzinəsi və Cümə məscidi şəhristanda - qala divarından içəridə yerləşirdi.

Şəhərlərin şəhristan hissəsində inzibati, ictimai binalar, hamam, karvansara, sair yaşayış binaları və digər tikililər mövcüd idi. Dərbənd, Beyləqan, Şamaxı, Bakı, Qəbələ, Gəncə, Xaraba-gilan və başqa şəhərlərdə aparılan qazıntılar şəhristanda (xüsusilə XII-XIII əsrin əvvəllərində) tikintilərin çoxluğundan, onların sıx yerləşməsindən xəbər verir. Arxeoloji qazıntılarla Dərbənddə, Şamaxıda, Bakıda, Şabranda üzə çıxarılmış ictimai-dini binaların, yaşayış evlərinin, istehkam tikililərinin qalıqları Şirvan memarlığı üçün səciyyəvi olan xüsusiyyətləri özündə əks etdirir. Şamaxı şəhərinin VI qazıntı sahəsində ictimai binanın üç otaq və bir salonunun qalıqları tədqiq olunub. O, səliqəli yonulmuş daşlardan əhəngli məhlulla inşa edilmişdir. Əhəngin keyfiyyətini artırmaq üçün onun tərkibinə bir qədər kül əlavə olunmuşdu. Divarların dayanaqlığını artırmaq məqsədi ilə ağac kətillərdən istifadə edilmişdi. Daha yaxşı mühafizə olunmuş qərb divarında 75x50x30 *sm* ölçüdə taxça düzəldilmişdi. Qalıqların şimala, həm də cənuba doğru izlənilməsi binanın çoxotaqlı kompleks olduğuna dəlalət edir.

Şirvanın mülki memarlığının maraqlı nümunələrindən biri arxeoloji qazıntılar zamanı Dərbənd şəhərində, cənub qala divarının yaxınlığında aşkarlanmışdır. VIII əsrin sonunda inşa olunmuş və XIII əsrin ortalarınadək istifadə edilmiş həmin bina hələlik bu şəhərdə bişmiş kərpicdən tikilmiş yeganə bina qalığıdır. Binanın qalıqlarının hündürlüyü 2,5-3 *m* təşkil edir. Onun bünövrəsi üçün 50-70 *sm* dərinlikdə xəndək qazılaraq yonulmamış daşlarla doldurularaq yüksək keyfiyyətli əhəngli məhlulla möhkəmləndirilmişdir. Bünövrənin qalınlığı 1,35-1,7 *m*-dır. Daha dəqiq desək, şərq divarının bünövrəsi 1,35-1,4 metr, şimal divarında isə 1,6-1,7 metrdir. Binanın divarları 26x26x5 *sm,* 27x27x5 *sm,* 28x28x5 *sm,* 30x30x5 *sm* ölçüdə yaxşı bişirilmiş kərpiclərdən hörülmüş, qalınlığı 1,2-1,3 metrdir. Dərbəndin digər yaşayış evləri kimi, bu bina da şimal-cənub xətti üzrə yerləşməklə uzunluğu 19,4-19,5 *m,* eni 8,2-8,3 m-dir. Binaya giriş şərqdən idi. Evin döşəməsi əhəngdən

olub dörd səviyyəsi qeydə alınmışdır və bu səviyyələrin hər biri buradakı yaşayışın dörd mərhələsi ilə əlaqəlidir. Yalnız bir mərhələdə şimal divarından 8,82 *m* məsafədə arakəsmə divar hörülmüşdü. XII-XIII əsrin əvvəllərində binada geniş təmir işləri aparılmışdır. Arakəsmə divar hörülmüş, döşəmənin səviyyəsindən divarlarda taxça və camaxatan açılmışdır. Qərb divarında düzəldilmiş taxçanın hündürlüyü 35 *sm,* dərinliyi 40 *sm-dir*. Ondan 184 *sm* aralıda hündürlüyü *68 sm,* eni 40 *sm* olan camaxatan yerləşirdi. Şərq divarında bir camaxatan və bir taxça düzəldilmişdir. Bu dövrdə şimal divarına bayır tərəfdən kiçik bir tikili əlavə olunmuşdur.

İctimai binalar arasında şəhərin ikinci, üçüncü və dördüncü məhəllələri arasında yerləşən karvansara arxeoloji qazıntılar nəticəsində yaxşı tədqiq edilib öyrənilmişdir. Bünövrəsi qayalıq üzərində qoyulmuş bu binanın ilk cərgələri iri daşlardan hörülmüşdür və yuxarıya doğru daşların ölçüləri tədricən kiçilir. Birləşdirici məhlul kimi yüksək plastikliyi ilə fərqlənən palçıqdan istifadə olunmuşdur. Qapı və pəncərə aşırımları isə əsasən kvadrat formalı bişmiş kərpicdən əhəngli məhlulla hörülmüşdür. Karvansaranın divarları 2,8-3 *m* hündürlüyə qədər daşdan, sonra isə 27x27x8 *sm* ölçülü çiy kərpiclərlə hörülmüşdür. Divarların qalınlığı 2 m-dən 60 *sm-ə* qədərdir. Binanın antiseysmik keyfiyyətini yüksəltmək üçün bünövrə və hörgünün aşağı cərgələri daha qalın inşa olunmuşdur. Divardakı pəncərə açırımları içəriyə doğru genişlənir. Bu isə onların otağı işıqlandırma imkanlarını artırırdı.

Karvansaranın kvadrat formalı daxili həyəti vardı. Burada alqı-satqı və istirahət etmək olardı. Karvansaranın bütün otaqları dördkünc biçimdədir. Təyinatına görə onları aşağıdakı tiplərə bölmək olar: a) yaşayış, b) məişət, c) təsərrüfat, ç) anbar, d) heyvanlar üçün. VII, IX, XX, XXI, XXII, XXIV, XXVII otaqlar və eləcə də günümüzədək gəlib çıxmamış ikinci mərtəbənin bütün otaqları yaşayış otaqları idi. Onların səciyyəvi xüsusiyyətləri döşəmənin torpaqdan olması, külbəsiz təndirlərin, buxarı tipli ocaqların və xüsusi quruluşlu səkilərin (sufa) varlığıdır. Sonuncu bütün yaşayış otaqlarında mühafizə olunmamışdır.

Karvansaranın yaşayış və təsərrüfat təyinatlı otaqları, dəhliz və koridorları oyma gipslə bəzədilmişdir. Xüsusilə yaşayış otaqlarının qapı və pəncərə açırımları, camaxatan və səkilər (sufa) zəngin bəzədilmişdi.

Şəhristandan bayırda şəhərin adətən sənətkarlıq məhəllələri, rabad tikintiləri yerləşirdi. Bəzi şəhərlərin rabadı da qala divarları ilə əhatə olunurdu. Rabadın və şəhərətrafı təsərrüfat sahəsinin böyüklüyü şəhərin özünün böyüklüyü ilə bağlı idi, çünki rabad şəhərin ayrılmaz hissəsi idi. Rabadda başlıca olaraq «qara camaat» adlanan kasıb ailələr, sənətkarlar, kiçik tacirlər və kəndlərdən gələn yoxsullar yaşayırdılar. Şəhərətrafı sahədə evlər seyrək olur, onlar,ı adətən, həyətlər, bağ və bağçalar, bostan-tərəvəz sahələri və s. müşayiət edirdi.

Yuxarıda qeyd olunduğu kimi, rabad və şəhərətrafı sahələrin məskunlaşması, əsasən, kənd əhalisinin hesabına şəhərə gedən yolun kənarlarında baş verirdi.

Dərbənd şəhərinin sənətkar məhəllələrinin formalaşması özünəməxsusluğu ilə fərqlənmişdir. VIII-X əsrlərdə sənətkarlıq və ticarətin güclü inkişafı nəticəsində Dərbənd şəhristanının aşağı, dənizkənarı hissəsində sənətkar və tacirlərin məhəllələri formalaşmış, bu hissə bir növ özünəməxsus rabada çevrilmişdi. Şəhərin yuxarı hissəsi, Cümə məscidinin ətrafındakı sahə isə şəhristan funksiyasını davam etdirməkdə idi.

Ümumiyyətlə, arxeoloji qazıntılar nəticəsində üzə çıxarılmış tikili qalıqları və salamat qalmış memarlıq abidələrinin tədqiqi orta əsr tikililərinin bir çox səciyyəvi ünsürlərini, onların xüsusiyyətlərini müəyyənləşdirməyə imkan verir. İnşaatçılar müxtəlif tip tikililəri ucaldarkən ərazinin xüsusiyyətlərini və inşa olunacaq binanın xarakterini nəzərə almaqla öz işlərini qururdular. Tikilinin bünövrəsinin möhkəmliyinə xüsusi diqqət yetirilirdi. Qayalıq olmayan ərazilərdə tikililərin bünövrəsi üçün xəndək qazılır, qaya daşlarından və ya çay daşlarından adi palçıqla və ya məhlulla özül qoyulurdu. Kürsü çox vaxt bünövrə ilə vahid konstruksiya təşkil edirdi. Bir, iki, bəzən hətta üç pilləli stilobata təsadüf olunur. Kürsü divarların dayanaqlığını artırır, xüsusilə binanın antiseysmik imkanlarını gücləndirirdi. Kürsünün iri daşlardan hörülməsinə üstünlük verirdilər.

Memarlıq abidəsinin xarakterindən asılı olaraq döşəmələr sadə gil suvaq - şirə çəkilmiş döşəmələrdən başlamış fiqurlu kərpic döşəmələrə qədər müxtəlifdir. Arxeoloji qazıntılar zamanı Dərbənd

şəhərinin yaşayış evlərində hətta əhəng döşəmələrə də təsadüf olunmuşdur.

Orta əsr şəhər tikililərində tətbiq olunan hörgülərin quruluşu müxtəlifdir və əsasən, aşağıdakı növlərlə təmsil olunmuşdur: bişmiş kərpicdən, daşdan və onların qarışığından ibarət hörgü. Kənd tipli yaşayış yerləri üçün səciyyəvi olan çiy kərpicdən hörülmüş divarlara şəhər yerlərində məhdud şəkildə rast gəlinir. XI-XII əsrlərin bişmiş kərpicdən inşa olunmuş tikililərində bəzən hörgü vasitəsi ilə divar səthində naxış salınması dövrün mühüm əlamətlərindəndir.

Yaşayış evlərinin və ictimai-dini binaların inşaatında qapı, pəncərə, taxta və digər açırımların tərtibatına yetərincə diqqət verilirdi.

Azərbaycanın orta əsr memarlığında müxtəlif formalı tağlardan geniş istifadə olunmuşdur. Onlar ,əsasən, çatma və dairəvidir. Dairəvi tağlara başlıca olaraq dövrün xristian abidələrində rast gəlinir.

Sivri tağlar müxtəlif tipdə olub mülki, ictimai-dini və müdafiə tikililərində uğurla tətbiq olunurdu. Tağların hörgü üsulu müxtəlifliyi ilə fərqlənir. Kərpicdən qurulan tağlarda yüksək keyfiyyətli birləşdirici məhlulun olması vacib şərt idisə, daşdan qurulan tağların möhkəmliyi daha çox ayrı-ayrı daşların forma və düzülüşündən asılı idi. Tağların qurulması ciddi hesablama əsasında aparılırdı.

Bəzi tikililərin qalıqları şəhər memarlığında tağtavanlardan istifadəni sənədləşdirir. Tağtavanın ucaldılmasında sənətkarlar hörgünün dəqiq aparılmasına, daşların bir-birinə yaxşı geydirilməsinə xüsusi diqqət yetirirdilər. Hörgü tikişlərinin ardıcıllığına ciddi riayət olunurdu. Mülki və ictimai binaların inşaatında çatma tağ-tavanlar, xatirə abidələrində isə xaçvari tağ-tavanlar daha çox qurulurdu. Sonuncuda tağ-tavanın bütün ağırlığı dörd dayaq nöqtəsinə düşürdü.

İctimai-dini binaların inşasında günbəzli örtüklər də ucaldılırdı. Onlar əsasən yarımkürəvi və konusvari formalıdır.

Şəhərlərin abadlığı (VIII-X əsrlər). Orta əsrlərdə Azərbaycanda şəhərsalma problemləri hələlik Azərbaycan milli tarixşünaslığında sonadək tədqiq olunmamışdır. Bu səbəbdən şəhərlərin mülki və ictimai tikintiləri haqqında, hətta onun plan-quruluşu- məhəllələri, küçələri, bazar meydanları və s. haqqında tam dolğun məlumatlara malik olduğumuzu demək asan deyil. aydın təsəvvürümüz yoxdur. Orta əsr Azərbaycan şəhərlərinin heç olmasa birinin məhəlləsinin bütövlükdə aşkara çıxarıb tədqiq etmək bir arzu olaraq qalmaqdadır.

Orta əsr şəhərləri üçün dar küçələr, əyri və kiçik dalanlar, sistemsiz tikintilərin olması, yaşıllığın azlığı səciyyəvi hal idi.

Şəhər idarə aparatının qarşısında duran ən mühüm abadlıq məsələsi sakinlərin suya ehtiyacını ödəmək, su təchizatı sisteminin təşkili və onun saz vəziyyətdə saxlanılması idi. Bu məqsədlə təbii-coğrafi şəraitdən asılı olaraq müxtəlif üsullardan istifadə edirdilər. Dağ çaylarının və bulaqların bol olduğu ərazilərdə arx, kəhriz və tünglərdən quraşdırılmış kəmər vasitəsilə şəhərə su gətirirdilər. Ətraf ərazidə su mənbəyi olmadıqda və ya su kifayət etmədikdə yer səthinə yaxın olan sahələrdə quyu, kəhriz və ovdanlar qazmaqla yeraltı sulardan istifadə edilirdi. Bu, istər yazılı mənbə məlumatları, istərsə də Dərbənd, Beyləqan, Şamaxı, Bakı, Şabran şəhərlərinin arxeoloji tədqiqi ilə təsdiqlənir.

Şəhərlərdə su ehtiyatının toplanılması və saxlanılması üçün hovuzlar və digər xüsusi sututarları düzəldilirdi. Bu tip tikililər Dərbənddə, Xunanda, Beyləqanda, Xarabagilanda arxeoloji tədqiqatlarla öyrənilmişdir.

Yaqut əl-Həməvi Dərbənd haqqında belə yazırdı: «Şəhərin lap yaxınlığında pilləkənləri olan tağlı quyu var. Su azalanda pilləkənlərlə quyuya düşürlər». Yaqut əl-Həməvinin təsvir etdiyi bu sututarı görünür ki, ovdandır. Orta əsrlərdə Azərbaycanda daşla hörülmüş, üstü tağ örtüklü, içərisinə düşmək üçün pilləkəni olan ovdanlar geniş yayılmışdı. Şəhərlərin su təchizatında bulaqlar da özünəməxsus yer tutmuşdur. Bulaqlardan istifadə faktı Şamaxı, Qəbələ, Dərbənd şəhərlərinin arxeoloji qazıntılarından da məlumdur.

Tikililərin sıx yerləşdiyi, on minlərlə əhalinin yaşadığı şəhər məskənlərində sanitariya məsələlərinin həllinə yönəlmiş tədbirlərin həyata keçirilməsinə böyük ehtiyac duyulurdu. Araşdırmalar küçə və meydanların, ictimai-dini binaların, istehsalat tikililərinin təmizliyinə diqqət yetirildiyini, bu məqsədlə xüsusi qurğular düzəldiyini təsdiqləyir. Müxtəlif mühəndis qurğularının mövcudluğu, eləcə də mühtəsib nəzarətinin ciddiliyi şəhərlərdə təmizliyə riayət olunmasına şərait yaradırdı.

Çirkab və zibil quyuları, drenaj və kanalizasiya xətləri belə qurğulardan idi. Məişət və istehsalat tullantıları, müxtəlif cür zir-zibil imkan daxilində şəhərdən kənara çıxarılırdı. Şəhər daxilində isə zibil yalnız xüsusi dərin quyulara atılırdı. Küçə və meydanlardan çirkli və ya yağış sularının axıdılıb uzalması üçün drenaj sistemindən istifadə olunurdu. Yazılı mənbələr Dərbənd şəhərində su axarlarının (drenaj xətlərinin) mövcudluğunu xüsusi vurğulayırlar. Çoxşaxəli kanalizasiya sisteminin qalıqları Şəmkir narınqalasında IX-X əsrlərə aid təbəqədə üzə çıxarılmışdır. Həmin mühəndis qurğusu bişmiş kərpic, çaydaşı və ağ daş lövhələrdən istifadə etməklə kürəbənd üsulu ilə inşa olunmuşdu. Kanalizasiya xəttinin qalıqları arxeoloji qazıntılar zamanı Örənqala şəhər yerində də üzə çıxarılmışdır.

Qalalar, qəsrlər və qüllələr. Yazılı mənbələrin təhlili Azərbaycan feodal hökmdarlarının istehkam tikililərinin ucaldılmasına xüsusi əhəmiyyət verdiklərini söyləməyə imkan verir. Mənbələrdən birində deyilir ki, Azərbaycan, habelə Dərbənd «əsasən dağlıq diyardır, çoxlu qalaları, bol nemətləri, saysız meyvə ağacları vardır». Azərbaycanın, o cümlədən Dərbəndin müdafiə istehkamları kompleksinə bir-birindən müəyyən məsafədə tikilmiş qəsr və qüllələr də daxil idi. Belə qəsr və qüllələrdə iğtişaşlar və basqınlar zamanı feodalın ailəsi mühafizə olunur, onlarda hərbi hissələr saxlanılır və şəhəri hücumlardan xəbərdar etmək üçün gecələr işıq yandırılır, gündüzlər isə tüstü qaldırılırdı. Təəssüf ki, orta əsr qalaları arxeoloji cəhətdən zəif öyrənilmiş abidələrdəndir.

Kurqanlar (qədim qəbirlər üzərində ucadılmış suni təpə) – düz, dairəvi formada süni yaradılmışdır və Xəzəryani düzənlikdə arasıkəsilməz zəncir kimi Dərbənddən cənuba və şimala, Sulak çayına qədər və sonra Nazrandan (İnquşetiya) Kubana kimi uzanır. Süni kurqanların izi Qara dənizədək müşahidə olunur.

Bu abidələrin təyinatı hələ tam müəyyən olunmamışdır. 1848-ci ildə Odessa tarix və qədimlik cəmiyyətinin üzvü A.Firkoviç şəhərin cənub hissəsində yerləşən bir kurqanı qazmış və orada «… latın hərfləri ilə yazılmış Daş kitab, bir neçə tikel» aşkar etmişdir. Bu haqda 1852-ci ildə çap olunmuş «Qafqaz təqvimi»ndə yazılmışdır. 1875-ci ildə İ.Çornı və N.Narışkin Dərbənd yaxınlığındakı daha bir kurqanı qazmışlar, lakin bu qazıntı işlərinin nəticələri nəşr olunmamış və kurqandan tapılmış tapıntılar isə yoxa çıxmışdır.

Qeyd etmək lazımdır ki, o dövrün rus arxeoloqlarının Dərbənd şəhərinə olan marağı onunla izah olunur ki, onlar burada xristianlığın qədim izlərini axtarmış, yəhudi alimlərinin fəallığı (İ.Çornı) isə yəhudi dininin yayılması barədə dəlil-sübut axtarmaq olmuşdur.

Görünür, arxeoloqlarının qazıntı işləri yerli əhalinin diqqətindən kənarda qalmamışdır və böyük əksəriyyət belə düşünürdü ki, bəzi adamlar bu kurqanlarda ləl-cəvahirat axtarırlar.

1881-ci ildə çar Rusiyası arxeoloqlarının Tiflisdə keçirilmiş V qurultayında A.Russov Dərbənd şəhərində aşkar edilmiş tapıntılar haqqında məlumat vermiş, tapıntıları isə Tiflisdəki Canasiya adına Gürcüstanın Tarix Muzeyinə təqdim etmişdir. Bu tapıntılar hazırda da orada saxlanılır. Tapıntılar b.e.ə. I minnilliyə aid edilir.

Bəzi tədqiqatçılar (A.A.Bakıxanov) məlumat verirlər ki, bu abidələr Əmir Teymur (Təmirlan) tərəfindən yaradılmışdır.

Ötən əsrin 50-ci illərin ortalarında Dərbənd ətrafında bir neçə kurqan mövcud idi: Dovşantəpə, Qarovultəpə, Başmaqtəpə, Yastıtəpə, Alimtəpə, Qurçitəpə, Qatarağactəpə, Böyüktəpə və s. Hazırda o kurqanlar artıq yoxdur. Yalnız şəhərin şimalında iki kurqan qalmışdır: Qarovultəpə və Başmaqtəpə.


Kənd tipli yaşayış yerləri (X-XIV əsrlər). Yazılı mənbələr Azərbaycanda, o cümlədən Dərbənddə orta əsrlərdə çoxlu zəngin kəndlərin olduğunu qeyd edirlər. X əsr ərəb coğrafiyaşünası əl-Müqəddəsi Azərbaycandan bəhs edərkən yazır ki, «… bu (yerlər) başdan-başa kənd və əkin sahələridir». Əsərini XIII əsrin əvvəllərində yazmış Yaqut əl-Həməvi Dərbənd yaxınlığındaki Sincan kəndinin adını çəkir.

Azərbaycan Respublikasında və Dərbənd şəhəri və onun ətrafında XX əsrin son rübündə aparılmış genişmiqyaslı çöl arxeoloji tədqiqatlar da yazılı mənbələrin məlumatını təsdiqləyərək orta əsrlərdə ölkəmizdə kənd məskənlərinin sıx yerləşdiyini göstərir. Burada qeydə alınmış orta əsr yaşayış yerlərinin böyük əksəriyyətini dağ yaşayış məskənləri təşkil edirdi. Onlar topoqrafik baxımdan çaykənarı, düzən, yamac və meşəiçi kənd tipləri ilə təmsil olun-

muşdur. Çaykənarı kəndlərə mənsub yaşayış yerlərinin əksəriyyəti çaylarının hündür sahilində, meşəçi kəndlər isə meşə zolaqlarındakı talalarda, alçaq təpələr üzərində yerləşdilər. Yamac kəndlərinin əksəriyyəti yaxşı təcrid olunan, külək tutmayan dağın şərq və cənub ətəklərində salınmışdı. Bölgədə dağ çaylarının sıx şəbəkəsinin mövcudluğu, yaşayış məskənlərinin salınması və inkişfaında su mənbələrinin mühüm əhəmiyyət kəsb etməsi çaykənarı kəndlərin daha geniş yayılmasını şərtləndirmişdi.

Orta dərəcəli kənd tipli yaşayış yerləri sahəsi 1 hektardan artıq, lakin 3,5 hektardan az olan abidələrlə təmsil olunmuşdur. Qazıntı nəticəsində mədəni təbəqə yatımının qalınlığının 2,2 *m* olduğu müəyyən edilmiş, tikinti qalıqları, təndirlər, təsərrüfat quyuları aşkara çıxarılmış, XII-XIV əsrlərə aid saxsı qab qırıqları, metal məmulat, şüşə və sümükdən bəzək əşyaları və s. tapılmışdır.

Əkinçiliyin inkişafı (IX-XIII əsrlər) – Dərbənd şəhərində əvvəlki dövrlərdə olduğu kimi, IX-XIII əsrlərdə də təsərrüfatın əsas sahələrindən birini əkinçilik təşkil edirdi. Dövrün əkinçilik mədəniyyəti yazılı mənbələr əsasında ümumiləşdirici əsərlərdə və ayrı-ayrı monoqrafiyalarda imkan daxilində lazımınca işıqlandırılmışdır. Bu problem üzrə etnoqraflar da xeyli iş görmüşlər. Lakin Azərbaycanın, o cümlədən də Dərbəndin orta əsr dövrü əkinçilik mədəniyyəti indiyə qədər arxeoloji baxımdan yetərincə öyrənilməmişdir. Məlumdur ki, həmin mövzunu hərtərəfli tədqiq etmək üçün arxeoloji materialların müstəsna əhəmiyyəti vardır. Dərbənd şəhəri və onun ətraf ərazisində aparılmış qazıntılar zamanı abidələrin IX-XIII əsr təbəqələrindən əkinçiliyə aid xeyli arxeoloji material əldə edilmişdir.



Kənd təsərrüfatı alətləri
1-2-gavahın; 3-5-oraq; 6-bel (Dərbənd).

Əkinçilik təsərrüfatının əsas arxeoloji göstəriciləri, söz yox ki, başlıca olaraq, qazıntılar zamanı tapılmış əkinçilik alətləri, müxtəlif avadanlıq, taxıl və digər mədəni bitki qalıqlarıdır. Doğrudur, əkinçilik alətləri və təsərrüfat avadanlığı qazıntılar zamanı tək-tək və çox hallarda sınıq, əzik və paslanmış vəziyyətdə tapılır. Lakin bu tapıntıların ilkin formasını etnoqrafik materiallar əsasında bərpa etmək mümkündür.

Onu da qeyd etmək lazımdır ki, orta əsrlər dövrünə aid geniş qazıntılar əsas etibarilə, şəhər xarabalıqlarında (Dərbənd, Qəbələ, Gəncə, Beyləqan, Şamaxı, Şabran, Xaraba-Gilan, Bakı, Bərdə və s.) aparıldığından kənd təsərrüfatı alətləri və avadanlığı o qədər də çox tapılmır. Buna baxmayaraq, bu tapıntılar, nə qədər az olsa da, yenə də şəhərin kəndlə əlaqəsini öyrənmək üçün çox qiymətli faktik materiallar hesab edilir.

Orta əsrlərdə suvarma əkinçiliyində yeraltı sulardan da geniş istifadə olunurdu. Bunun üçün kəhriz suvarma sistemi ən münasib qurğular hesab edilirdi. Yaqut Həməvi Azərbaycan ərazisində suyun bol olması ilə əlaqədar olaraq yazırdı ki, «mən heç bir yerdə burada olan qədər çox suyu və bulaqları olan yer tanımıram. Bu ölkə üzrə səyahətə çıxana özü ilə qabda su götürməyə ehtiyac yoxdur, çünki o, hara getsə, orada sərin, şirin və saf suya rast gələcəkdir».

Məlumdur ki, bütün dövrlərdə əkinçiliyin inkişafında əkinçilik alətlərinin daha mükəmməl formalarının meydana gəlməsi mühüm rol oynamışdır. Bu baxımdan Beyləqan arxeoloji qazıntılarından tapılmış dəmir gavahın maraqlı tapıntı hesab olunmalıdır. Dəmir gavahın 41 *sm*-lik uzunluğa malikdir. Ağaca keçirilən hissə isə 24 sm-dir. Kəsər hissə həm enli, həm də bir tərəfə daha çox çıxıntılıdır. Oxşar formalı gavahın Dərbənd şəhərinin arxeoloji qazıntılarından da məlumdur. Etnoqrafik materiallar əsasında bu tip gavahının el arasında indi də «ağır kotan» adlanan kotana aid olduğu fikri söylənilmişdir.

Bostan və tərəvəzçilik təsərrüfat sahələri də orta əsrlərdə xeyli inkişaf etmişdir. Azərbaycanda, o cümlədən Dərbənddə əldə edilmiş arxeoloji materiallar və yazılı mənbələrdən məlum olur ki, IX-XIII əsrin əvvəllərində nəinki kənd əhalisi, həm də şəhərlilər bostan və tərəvəz becərməklə məşğul olmuşlar. Aparılan arxeoloji qazıntılar zamanı əhalinin istifadə etdikləri bostançılıq alətlərinin nümunələri – bel, kətmən Dərbənd, Şabran, Sərkərtəpə arxeoloji qazıntılarından məlumdur. X-XIII əsr mənbələrində Azərbaycanda, məsələn, Dərbənddə zəfəran becəril-

diyi haqda məlumat verilir. Akademik Ə.Əlizadə belə hesab edirdi ki, mənbələrdə qeyd olunmasa da həmin dövrün kəndlərində də zəfəran əkilirdi.

Sənətkarlığın inkişafı (IX-XII əsrlər) – Orta əsrlərdə Azərbaycanın və Dərbənd şəhərinin iqtisadi həyatında, xüsusilə şəhərlərdə, sənət istehsalı böyük rol oynamış, yerli əhalinin məişətinə və mədəniyyətinə geniş daxil olmuşdur. IX-XII əsrlərdə sənətkarlığın şəhərlərdə cəmləşməsi prosesi daha da sürətlənmişdi. Bu sənətkarlar nəinki şəhər, həm də kənd əhalisinin tələblərini ödəyən əsas istehsalçılara çevrilmişdilər.

Arxeoloji qazıntılar nəticəsində kifayət qədər istehsalat kompleksləri, sənətkarların əmək alətləri və ləvazimatları, xammal qalıqları, yarımfabrikatlar, istehsal çıxarları, eləcə də çoxsaylı sənətkarlıq nümunələri aşkarlanmışdır. Bu məmulatların özü orta əsrlərdə Azərbaycanın, o cümlədən Dərbənd şəhərinin sənət istehsalının ayrı-ayrı sahəsində tətbiq olunan texnika və texnologiyanı müəyyənləşdirməyə, sənətkarlığın inkişaf dinamikası, sənətdaxili ixtisaslaşmanın səviyyəsi haqqında fikir söyləməyə imkan verir.


Yazılı mənbələrin məlumatının və arxeoloji dəlillərin müqayisəli təhlili, müsəlman Şərqinin sənətkarlığı üçün səciyyəvi olan bütün sənət sahələrinin Azərbaycan şəhərlərində fəaliyyət göstərdiyini təsdiqləyir.

Müsəlman Şərqinin, o cümlədən Azərbaycanın şəhərlərində IX-XII əsrlərdə «əsnaf» istilahı ilə qeydə alınan sənətkar təşkilatları fəaliyyət göstərirdi. Həmin təşkilatların başında rəislər dururdu. «Tarixi əl-Bab» adlı mənbədə sərracların, dabbaqların rəislərinin adları çəkilir. Mənbədən aydın olur ki, Dərbənd şəhərində rəislər böyük nüfuza malik idilər. V.F.Minorskiyə görə «rəis inzibati aparatla əhali arasında vasitəçi olub, hökumətin sərəncamlarını sakinlərə çatdırır və şəhər sakinlərinin adından təqdimat verirdi». Xaqani Şirvani məktublarından birində isə rəislərin ictimai-siyasi nüfuzunun zəifləməsindən şikayətlənir.

Etnoqrafik materiallardan məlumdur ki, emalatxanalarda əmək bölgüsü mövcud idi. Adətən, dəmirçıxanada şagird körük basır, zindanda dəmiri döyməklə ustaya kömək edirdi. Bir neçə adamın iştirakına misgər emalatxanalarında da ehtiyac var idi. Bunlar körük basır, mürəkkəb əməliyyatları həyata keçirməkdə ustaya kömək edirdilər. Qalayçı da tək işləyə bilməzdi. Bunun üçün heç olmasa iki nəfər çalışmalı idi. Bunlardan biri - şagird nəm əsgi və qumla qabı sürtür və usta qalay vuranda körüyü basırdı. Belə misalları sənətkarlığın başqa sahələri haqqında da demək olar. Şagirdlər, əlbəttə, ustalardan asılı vəziyyətdə idi. Ustalar özləri isə feodaldan və ya şəhər hakimlərindən. Məsələn, etnoqrafik məlumatdan aydın olur ki, dulusçuluqla məşğul olan ustalar xammalı torpağın sahibinin icazəsi olmadan əldə edə bilməzdilər. Elə buna görə dulusçu torpaq sahibindən asılı vəziyyətə düşürdü. Dulusçuluq istehsalında aparıcı mövqe usta başı və yaxud emalatxananın sahibinə mənsub idi. Dulus qablarının yazısından məlum olur ki, qabın üstünə ad yazmaqda xüsusi qayda mövcud olmuşdur. Əksər yazılarda «əməl» sözündən sonra ad gəldiyi halda, bəzən addan qabaq, ustad sözü də yazılırdı. Yəqin ki, bu, təsadüfi deyildi. Çox güman ki, buradan emalatxanada çalışan ustaların müxtəlif mövqeyə malik olduqları görünür. Bu fakt hər halda orta əsr Azərbaycan şəhərlərində dulusçuluq sənətində ictimai təşkilatın mürəkkəbliyindən xəbər verir. İnşaat yazıları göstərir ki, memarlıqda da oxşar vəziyyət mövcud idi.

Dəmirçiliyin inkişafı (IX-XII əsrlər) – Orta əsrlərdə əsas əmək alətləri və silahlar dəmirdən düzəldilirdi. Dəmir tikintidə, təsərrüfatda və məişətdə də geniş tətbiq olunurdu.

Orta əsr Azərbaycan şəhərlərinin arxeoloji qazıntılarından dəmirçi alətlərinin bir çox nümunələri məlumdur. Məsələn, Bakı arxeoloji qazıntılarından çəkic, gürz, dəmirçi maşası, iskənə, Dərbənd şəhərində aparılan qazıntılardan isə zindan, çəkic, maşa, yeyə, Dəbildən çəkic və iskənə tapılmışdır.



Sənətkar alətləri
1-3-çəkic; 4-5-iskənə nümunələri (Dərbənd).

Arxeoloji qazıntılar zamanı aşkarlanmış bəzi alətlər çoxfunksiyalı olub, həm sənətkarlıqda, həm də məişətdə istifadə olunurdu. Çəkic, balta, kərki, kəlbətin, mişar, iskənə, qayçı, bıçaq və s. belə alətlərdəndir. Həmin alətlərin əksəriyyəti öz formasını müasir dövrə qədər saxlamışdır. Bu da onların artıq orta yüzilliklərdə mükəmməl formaya malik olduğuna dəlalət edir. Müxtəlif təyinatlı bıçaqların istehsalı kütləvi xarakter daşıyırdı. Artıq XI-XII əsrlərdə ixtisaslaşmanın dərinləşməsi nəticəsində bıçaqçılıq müstəqil sənət sahəsinə çevrilmişdir.

Hərbi bıçaqlar da Azərbaycanın orta əsr şəhərlərinin və həmçinin Dərbəndin arxeoloji qazıntılarından yaxşı məlumdur.


Mezolit dövründən məlum olan ox və kaman orta əsrlərdə də mühüm silahlardan biri olaraq qalırdı. Ox ucluq, ağac gövdə və lələkdən ibarət olurdu. Qazıntılardan xeyli ucluqlar tapılır.

Orta əsr abidələrinin arxeoloji qazıntılarından məlum olan ox ucluqlarının, demək olar ki, hamısı sulquncludur. Onları yalnız pərlərinin formasına görə tiplərə ayırmaq olar. Ox ucluqlarının tipoloji təsnifatı S.Ə.Əhmədovun monoqrafiyasında genişliyi ilə verildiyindən onların ümumi səciyyəsi ilə kifayətlənəcəyik. Ox ucluqları təyinatlarından asılı olaraq müxtəlif formada hazırlanmışlar. Yastı, ikipərli və üçpərli ox ucluqları zirehsiz hədəfi məhv etmək üçün idi və tapıntılar arasında üstünlük təşkil edirlər. Belə ox ucluqları geniş yara açaraq güclü qanaxmaya və bununla da düşmənin canlı qüvvəsinin sıradan çıxmasına səbəb olurdu. Sıx toxunmuş halqalı zireh geymiş düşməni sıradan çıxarmaq üçün ensiz, kəsikdə dəyirmi və ya kvadrat möhkəmləndirilmiş ox ucluqları tətbiq olunurdu. Belə ox ucluqları halqalı zirehi dəlib düşmənə xətər yetirirdi. Lövhəli zireh geyinmiş düşmən döyüşçüsünə qarşı isə üçtilli və dördtilli ox ucluqları işlədilirdi. Bu silahın növləri arasında çəngəl formasında, haçalanan ox ucluqlarına da təsadüf olunur. Belə ox ucluqlarından quş ovunda istifadə olunduğu ehtimal edilir.

Müdafiə ləvazimatı dəbilqə, zirehli geyim və qalxanla təmsil olunmuşdur. Zireh geyiminin ən geniş yayılmış növü məftildən sıx toxunmuş, xırda həlqələrdən ibarət olan gödəkcə idi. XII əsrə qədər qısa gödəkcələr istehsal olunurdusa, həmin əsrin sonundan uzun gödəkcələr yayılmağa başlayır. Uzun gödəkcələr piyadalar üçün yararlı olduğu halda, süvarilər üçün qısa gödəkcələr daha məqsədəuyğun idi.

Arxeoloji qazıntılar zamanı həlqələrdən toxunmuş zireh-geyimlərin fraqmentləri Dərbənddən, dəmir lövhələrdən quraşdırılmış zireh-geyimlərin qalıqları isə Beyləqan və Dərbənddən tapılmışdır. Şamaxı şəhərində aparılan qazıntılar zamanı XI-XII əsrlər təbəqələrindən tapılmış, üzərində əyninə zireh geymiş cəngavərin əlinin təsviri qalmış şirli saxsı qab fraqmenti də diqqətəlayiqdir. Yazılı qaynaqlarda belə zireh geyimi cöşən və ya tanurə adlandırılır.

Müdafiə ləvazimatına habelə döşlük, çiyinlik, dirsəklik, kəmər və dizlik də daxil idi.



Zireh geyim qalıqları (Dərbənd)

Arxeoloji qazıntılar əhalinin məişətində, eləcə də inşaat işlərində dəmir məmulatın geniş işlədildiyini göstərir. Yarımdairəvi və aypara formalı nallar orta əsr şəhər xarabalıqlarının qazıntılarında tez-tez təsadüf olunur. Bu da nalbəndlik sənətinin geniş yayılmasından xəbər verir.

Dərbənd şəhərində misgərlik və metaltökmə sənəti. Metalişləmənin digər mühüm sahəsi - zəngin mis yataqlarının varlığına əsaslanan, qədim istehsal ənənələrinə malik misgərlik sənəti orta əsrlərdə öz inkişafında yeni mərhələyə daxil oldu. Dərbənd, Gəncə, Dəbil, Şamaxı, Naxçıvan, Təbriz, Ərdəbil kimi Azərbaycan şəhərləri mis məmulatı istehsalında öncül mövqe tuturdular. Misgər emalatxanalarında tətbiq olunan istehsal texnologiyası ənənəvi olaraq əritmə, isti və soyuq döymədən ibarət idi. Bundan başqa, istehsal prosesində zərbetmə, kəsmə, lehimləmə, məftilçəkmə, deşmə və digər texniki üsullardan istifadə olunurdu. Orta əsr misgərlərinin yüksək


texniki nailiyyətlərini nümayiş etdirən faktlardan biri də misdən tük naziklikdə saplar hazırlanmasıdır. Belə saplar bədii tikmə sənətində işlədilirdi.

Dərbənddə metaltökmə sənəti də uğurla inkişaf edirdi. Metaltökmə sənətində bərk və yümşaq qəliblərdən istifadə olunurdu. Mis və tunc məmulatın istehsalında tökmə üsulu geniş tətbiq olunurdu. Dərbənd, Şabran, Dəbil qazıntılarında tapılmış həvəngdəstələr tökmə üsulu ilə istehsal edilmişdir.

Mis və tunc məmulatı arasında tökmə üsulu ilə hazırlanmış çıraqlar xüsusi qrup təşkil edir. Onlar Dərbənd, Dəbil, Beyləqan, Şabran, Bakı və Qəbələ şəhər yerlərində aparılmış arxeoloji qazıntılardan məlumdur.

Dulusçuluğun inkişafı (IX-XIII əsrlər) – Orta əsr abidələrindən tapılmış materialların əsas kütləsini saxsı məmulatı təşkil edir. Bu, IX-XIII əsrlərdə Azərbaycanda dulus istehsalının yüksək səviyədə olduğunu göstərir. IX əsrdən başlayan dulusçuluqda inkişaf yüksələn xətt üzrə davam edir və XII-XIII əsrlərin əvvəllərində özünün yüksək səviyyəsinə çatır. IX-XIII əsrlərin dulusçu kürələrinin qalıqları Dərbənddə, Mingəçevirdə, Beyləqan, Qəbələ, Şabran, Bakı, Şamaxı Gəncə şəhərlərində və Torpaqqalada aparılan arxeoloji qazıntılar zamanı üzə çıxarılmışdır.

Bu dövrdə Azərbaycanda, o cümlədən Dərbənd şəhərində saxsı məmulatı istehsalı texnikası daha da təkmilləşir, hər yerdə əl dulus çarxı sürətlə hərəkət edən ayaq dulus çarxı ilə əvəz olunur, qab hazırlama və naxışçəkmə üsullarında yeniliklər baş verir. Orta əsr şəhərlərinin arxeoloji qazıntılarından əldə edilmiş qəlib və möhürlər dulusçu ustaların qabların naxışlanmasında basma üsulundan da istifadə etdiklərini təsdiqləyir. Bəhs olunan dövrdə yeni növ qablar meydana çıxır, qabları yazmaq dəbi yaranır. Boşqab, aftafa, sərnic, küpə, şar-konusvarı qablar, gülabdanlar və s. bu dövrün məhsullarındandır. Anqob və xüsusilə sırdan istifadə etmək dövrün ən böyük nailiyyəti hesab olunur. Bu materiallar qabların bədii işlənilməsi üçün geniş imkanlar yaradır. Şirsiz və şirli qablara cızma xətlərlə, rəngli boya ilə, anqobla, basma, kəsmə üsulu ilə naxışlar vurulurdu. Bu dövrdən başlayaraq Azərbaycanda xüsusilə Dərbənd, habelə Beyləqan, Gəncə, Bərdə, Xaraba-Gilan, Dəbil, Şabran, Qəbələ qazıntıları daha çox və zəngin saxsı məmulatı vermişdir. IX-XIII əsrin əvvəllərinə aid saxsı qablar Bakıda (İçərişəhərdə), Naxçıvanda, Mingəçevirdə, Gülüstan qalasında və Dərbənddə də az tapılmamışdır. Adları yuxarıda qeyd olunan Azərbaycanın orta əsr abidələrinin arxeoloji qazıntılarından da xeyli saxsı toplanmışdır.



At ləvazimatı və məişət əşyaları
1-5, 8-nallar; 6-7-toqqa başlığı; 9- inşaat əşyası;
10-17-mıx və mismarlar (Dərbənd).

Azərbaycanda, o cümlədən Dərbənd şəhərində kustar dulus saxsı məmulatı, kərpic və kirəmit istehsalı əsasında bu sahələrin orta əsrlərdə mövcud olmuş texnoloji prosesinin, gilin əldə edilməsindən hazır məhsulun satışına qədər bütün mərhələlərini izləmək mümkündür. Zəngin etnoqrafik materiallar orta əsr dulusçuluq sənətini hərtərəfli tədqiq etmək üçün çox faydalıdır. Materialların tədqiqi nəticəsində məlum olmuşdur ki, IX-X əsrlərdə, orta əsr şəhərlərində, əl dulus çarxından çox nadir hallarda istifadə edilmişdir. Hətta bu dövrün kənd yaşayış məskənlərində də ayaq dulus çarxından istifadə olunduğu müəyyənləşdirilmişdir. Qab hazırlanan gil, emalatxanada çox yaxşı və həll yoğrulurdu, diqqətlə təmizlənir və ayaq çarxında yüksək keyfiyyətlə hazırlanırdı. Bişirmə keyfiyyəti də çox yüksək idi. Nümunə üçün bu dövrün kürə-konusvari qablarını göstərmək olar. Bişirildikdə daş kimi bərk

vəziyyət aldığı üçün onları sındırmaq belə mümkün olmur. Orta əsr dulusçuları müxtəlif məqsədli qablar üçün müxtəlif gillərdən istifadə edirdilər. Məsələn, qazan hazırlamaq üçün odadavamlı gil götürülürdü, zərif qablar narın gildən düzəldilirdi və s.

İnşaat keramikasının da keyfiyyəti xeyli yaxşılaşmışdı. Tünglərin və kirəmitlərin gili saxsı qabların gilinə bənzər hazırlanırdı. Kərpiclərin gilinə isə çoxlu qarışıq əlavə edilirdi. Tünglər ayaq çarxında, kərpiclər və kirəmitlər isə xüsusi qəliblərdə düzəldilirdi.

Orta əsr saxsı məmulatı hazırlanma texnikasına görə iki əsas qrupa – şirsiz və şirli qablara bölünür.

IX-XIII əsr şirsiz saxsı qabları çeşid və forma etibarı ilə çox müxtəlifdir. Qabların çox çeşiddə olması onların müxtəlif məqsədlər üçün istifadə edilməsi ilə əlaqədardır. Həm də maraqlıdır ki, kürə-konusvari qablar istisna olmaqla bütün orta əsr saxsı qabları öz formasını son zamanlara qədər saxlamışdır. Bu da onların elə həmin dövrdə mükəmməl şəkildə hazırlanması və zamanın sınağından məharətlə çıxa bilməsi ilə bağlıdır. Təkcə şar-konusvari qablar hələ də alimlərə tam aydınlığı ilə məlum olmayan səbəblərdən XVI əsrdə istifadədən çıxmışdır.

Çox yayılmış qabların bir növü də küplərdir. Küplər ərzaq, şərab, su və digər mayeləri saxlamaq üçün istifadə edilirdi. Hündür boğazlı küplərin bəzən 2-4 ədəd dəstəyi olurdu. Dəstəyin üstündə konusvari çıxıqlar düzəldilirdi. Qulpsuz iri küplər torpağa basdırılır, dəstəkli küplər isə anbarın içərisinə, otaqların künclərinə qoyulur və lazım gəldikdə yeri dəyişdirilirdi. Dəstəkli küplər bəzəklərinə görə iki yerə ayrılır: birinci qrup küplər ağ anqobla örtürmüş və memarlıq bəzəkləri ilə naxışlanmışdır. Onların üstündə bəzən naxışlara da təsadüf olunur. İkinci qrup küplər isə üstü şüyrələnmiş və qırmızı rənglə boyanmışdır. Onların üstü müxtəlif təsvirlər olan zolaqlarla naxışlanmışdır.

Qulpsuz iri təsərrüfat küpləri Azərbaycanın bütün orta əsr şəhərlərində, o cümlədən Dərbənddə aparılmış arxeoloji qazıntıların IX-XIII əsr təbəqələrindən aşkar olunmuşdur.

Nehrə qalıqlarına Qəbələ, Mingəçevir, Şabran, Dərbənd şəhərləri ərazilərində aparılan qazıntılarda təsədüf olunmuşdur. Sərnic, küpə, dopu, goduş və s. qablar əsas etibarı ilə maldarlıq təsərrüfatı ilə bağlı olub, ağartı üçün istifadə edilirdi. Şirsiz saxsı məmulatının əsas kütləsini, əlbəttə, mətbəx və süfrə qabları təşkil edirdi. Bunların əksəriyəti qazan, boşqab, kasa, nimçə, badya və duz qablarından ibarətdir.

Qazanlar əsas etibarilə yarımkürə formadadır, onların əksəriyyətinin dairəvi oturacağı var, ancaq dayaz qazanları yastıdır. Su qabları da (səhəng, bardaq, aftafa və s.) çoxluq təşkil edir. Azərbaycanda o, cümlədən Dərbənd şəhərində istehsal olunan orta əsr çıraqları iki qrupa bölünür: birinci qrupa iki tiplə təmsil olunan piydanlar aiddir. Birinci tipə yastı oturacaqlı, piyalə şəkilli piydanlar daxildir. İkinci tip piydanlar üç hissədən – fitil qoyulmaq üçün kiçik açıq burnu olan üs kasacıq, oturacaq rolu oynayan alt kasacıq və onları birləşdirən oxdan ibarətdir. İkinci qrupa qaraçıraq adlandırılan çıraqlar aiddir. Onların qısa boğazı, kiçik gövdəsi, fitil keçirilən burnu və qulpu var. Belə çiraqlarda neft yandırıldığı şübhə oyatmır.

Silbinc tipli qabların tapılması uşaqların beşikdə bəsləndiyi haqqında məlumat verir.

Sadə məişət qabları ya tamam naxışsızdır, ya onların çiyin hissəsi cızma düz və dalğalı xətlərlə, yaxud da basmanaxışla bəzədilmişdir. Bütün Azərbaycanda, o cümlədən də Dərbənddə istehsal olunan basmanaxışlı qablar bədii cəhətdən xüsusi ilə çox zəngindir. Onlar Yaxın və Orta Şərq şəhərlərindən tapılan qablara çox oxşardır.

Mövcud vəziyyəti təsdiq etmək üçün bu və ya digər şəhərin saxsı məmulatlarının yayılma ərazisini izləmək kifayətdir. Sənətkarlar daxili ticarət üçün nəzərdə tutduqları məhsulu özləri dükanlarında, şəhəri bazarında və yaxın kəndlərdə satırdılar.

Ticarətin inkişafı (IX- XIII əsrlər). Sənətkarlıq istehsalının artması ticarətin inkişafı üçün şərait yaradırdı. IX-XIII əsrlərdə şəhərdəki sənətkarlıq sahələri, demək olar ki, bütünlükdə əmtəə səciyyəsi daşıyırdı. Sənətkarlar əhalini hazır metal əşyaları, saxsı məmulatı, tikinti və təsərrüfat materialları, gön-ayaqqabı, ev ləvazimatı və s. məhsullarla təmin edirlər.

IX əsrdən başlayaraq şəhərlərin yüksəlişi ölkənin iqtisadi həyatında sənətkarlığın mövqeyini gücləndirir. Şəhərlər kəndin sənətkarlıq məhsullarına və əmək alətlərinə olan tələbatını daha çox ödəməli olurdu. Hər bir şəhər öz ətrafındakı kəndləri sənətkarlıq məhsulları ilə təmin edirdi. Belə

şəhərlərin əhatə etdiyi ərazi indiki rayonların ərazisindən böyük deyildi. Məsələn, Dərbənd təxminən müasir Xudata qədər olan ərazini «əhatə» edirdi. Buradan aydın olur ki, həmin dövrdə şəhərlər kəndlərlə nə qədər sıx əlaqədə idi. Şəhərə yola düşən kəndlilər o qədər böyük məsafə qetməli olmurdular.

Kəndlilər isə kənd təsərrüfatı məhsullarını və sənət istehsalı üçün lazım olan xammalı (pambıq, barama, ipək və s.) gətirib şəhərdə satır və orada sənətkarlıq məhsulları alırdılar. Ətraf kəndlərin ərzaq məhsulları da şəhərdə öz alıcılarını tapırdı. Məhz buna görə idi ki, ilk mənbələrdə şəhərlərin adı çəkiləndə çox vaxt təkcə şəhərin ərazisi deyil, onun «əhatə» etdiyi iqtisadi rayon nəzərdə tutulurdu. IX-XIII əsr mənbələri düzən və dağətəyi ərazilərdə yerləşən şəhərlər üçün əmtəə malları kimi ipək, pambıq, kətan, düyü, taxıl, üzüm, fındıq, nar, əncir, lobya və s., dağlıq ərazilərdə yerləşən şəhərlər üçün isə (Dərbənd, Qəbələ və s.), kətan, xəz, dəri, alma, zəfəran və başqa kənd təsərrüfatı məhsullarının adını çəkirlər. Belə məhsulların qalıqlarına, yuxarıda deyildiyi kimi, qazıntılarda da təsadüf olunur. Şəhər bazarlarında adları çəkilən mallar sırasında çox vaxt mal-qara (qoyun, inək-camış, öküz, at və s.) və quş (kəklik, qırqovul və s.) adlarına da təsadüf olunur. Qazıntılarda bunların da sümüklərinə kifayət qədər rast gəlmək mümkündür. Bütün bunlar orta əsrlərdə ölkənin daxili ticarətində şəhərlərin oynadığı rolu nümayiş etdirir. Şəhər sənətkarlığı ətraf ərazilərin əhalisini daim özünə cəlb edir, onların istehsal etdikləri məhsulun şəhərdə satılmasına şərait yaradırdı. Bu işdə bazar günləri şəhərlərdə aparılan ticarət mühüm rol oynayırdı.

Karvan yolları üstündə karvansaralar – dayanacaqlar inşa edilirdi. Belə dayanacaqlarda tacirlər istirahət edir və quldurlardan mühafizə olunurdular. Bu tip tikililər xarabalıqları Araz çayı sahilində, Naxçıvan MR-da tədqiq edilmişdir. XII-XIII əsrin əvvəllərində inşa olunduğu ehtimal edilən həmin karvansaranın bir hissəsi 1941-ci ildə Bakı-Culfa dəmiryolu çəkilərkən dağıdılmışdır. Qazıntılar nəticəsində abidənin təxminən yarısı üzə çıxarılıb təmizlənmişdir. Görünür o, kvadrat planlı, daxili həyətli karvansaralar tipində olmuşdur. Karvansara bişmiş kərpicdən inşa olunmuş, divarı içəri tərəfdən gəclə suvanmışdır. Bəzi yerlərdə düzbucaqlı bünövrədən günbəzvari örtüyə stalaktitvari tromplar formasında maraqlı həllə malik keçidlər var.

Karvansaranın şərq cinahında açırımları olmayan qapı biçimində həll olunmuş dərin taxçalara malik böyük bir salon yerləşir. Sağda və solda yerləşən otaqların hamısı geniş mərkəzi keçidə çıxır.

Şəhərlərin özlərində də karvansaralar var idi. Burada başqa yerlərdən gələn tacirlər üçün hər cür şərait yaradılırdı.

Şəhərlərarası ticarət şəhərlərin və onların iqtisadi rayonlarının həmin yerlərdə olmayan mallara tələbatını ödəyirdi. XIII əsrin əvvəllərinə aid bir mənbədə şəhərlərarası ticarəti təsdiqləyən maraqlı məlumatlar verilir. Məsələn, Beyləqanda Şirvanın və Dərbəndin mallarının çox olduğu qeyd olunur.

Bütövlükdə Azərbaycanın və o cümlədən də onun ən mühüm şəhərlərindən biri olan Dərbəndin əmtəə malları qonşu ölkələrin bazarlarına da aparılırdı. Şəhərlər beynəlxalq ticarətdə mühüm rol oynayırdı. VIII əsrdən başlayaraq beynəlxalq ticarət yollarının cənubdan şimala keçməsi Şirvan və Arran şəhərlərinin uluslararası ticarətdə əhəmiyyətini artırmışdı.

IX-XI əsrlərdə Azərbaycanın əsas karvan ticarət yolları dörd istiqamətə yönəlmişdi: 1. Azərbaycan əl-Cəzirə, Suriya və İraq ilə birləşən və sonuncusunun vasitəsilə Hind okeanı vilayətlərinə istiqamətlənən marşrut; 2. Kiçik Asiya şəhərlərinə gedən karvan yolları; 3. Şimal-Şərqi və Cənub-Şərqi Avropaya istiqamətlənmiş yollar; 4. İran, Orta Asiya, Hindistan və Çinə gedən yollar. I qrupa daxil olan karvan yollarında Azərbaycanın cənub rayonları, xüsusilə Ərdəbil və Marağa fəal idi. Bu marşrut üzrə, karvan yolları vasitəsilə Şirvan və Arran şəhərləri müsəlman Şərqinin mühüm ticarət mərkəzləri – Bağdad və Qahirə ilə əlaqə saxlayırdılar. Ərdəbil-Bəlxab-Varsan-Bəyləqan-Yunan-Bərdə yolu Arranın mərkəzi rayonlarını cənub şəhərləri ilə birləşdirildi.

Qərbə istiqamətlənmiş beynəlxalq ticarət yolları Dəbil və Tiflisdən keçməklə iki qrupa ayrılır. Bərdə-Dəbil istiqamətində olan beynəlxalq ticarət yolu Azərbaycan şəhərlərini Kiçik Asiyanın ticarət mərkəzləri ilə əlaqələndirirdi. Bərdə-Gəncə-Şəmkir-Xunan-Tiflis karvan yolu üzrə ilə isə Azərbaycan şəhərləri Trabzon və Qara dəniz limanları ilə əlaqə saxlayırdılar.

Xilafətin şimal ticarətində Volqa-Xəzər beynəlxalq ticarət yoluna üstünlük verməsi ilə Şimal-Şərqi və Cənub-Şərqi Avropaya istiqamətlənmiş

şimal marşrutunun əhəmiyyəti artmışdı. Bu marşrutda Dərbənd, Bərdə, Şamaxı şəhərləri başlıca məntəqələr idi. Xüsusilə, Dərbənd şəhəri vasitəçi mərkəz kimi «şimal və şərq» mallarının cəmləşdiyi anbar rolunu oynayırdı. IX-XI əsrlərdə Aralıq dənizi ölkələrilə ticarətdə Misir, Hind okeanı ölkələrilə ticarətdə İraq mühüm rol oynadığı kimi, Xəzər dənizi ölkələrilə ticarətdə də Azərbaycan, o cümlədən onun Dərbənd və Bakı kimi limanları böyük əhəmiyyətə malik idi.

Dərbənd limanı o zaman Xəzər dənizində ən böyük liman hesab olunurdu. Dənizin içərisinə doğru uzanan qala divarları arasında yerləşmiş bu liman yaxşı möhkəmləndirilmişdi və ciddi nəzarət altında idi. Mənbələrdə bildirilir ki, «Dənizdən başlanan bu limanda hər iki tərəfdə dənizdən şəhərədək divarla hörülmüş tikinti var. Bu (tikinti ilə) girintili-çıxıntılı keçiddən daxil olan gəmilər keçirlər. Keçidin girəcəyinə Tir və Beyrutda olduğu kimi zəncir bağlanılmışdır. Zəncirin üstündə qıfıl asılmışdır. Bu qıfılın açarı dənizin vəziyyətinə nəzarət edəndədir. Onun icazəsi olmadan gəmi limana nə girə, nə də çıxa bilər». Limanın sahəsi haqqında yazılı qaynaqların məlumatı müxtəlifdir - 25 hektardan 300 hektara qədərdir. Sualtı arxeoloji tədqiqatlar yazılı qaynaqların məlumatını tamamlayaraq Dərbənd limanının nəhəngliyini, ən azı 14 hektar sahəni əhatə etdiyini təsdiqləyir.

Karvan yollarının üstündə içməli su ilə «ovdan»lar yerləşirdi və onlardan bəziləri bu günə qədər qorunub saxlanmışdır. Volqa-Xəzər su magistralında Dərbənd şəhəri çox mühüm bir məntəqə olduğundan Xəzər dənizinin enini Təbəristandan Dərbəndə qədər yolun günləri ilə ölçürdülər. Dərbənd Curcan, Təbəristan və Deyləmdən gələn dəniz marşrutlarını şimala gedən dəniz və karvan yolları ilə birləşdirirdi.

Sikkə zərbi (IX-XIII əsrlər) – Dərbəndin ticarət həyatını daha dolğun və genişliyi ilə özündə əks etdirən ən mötəbər arxeoloji material, əlbəttə, əvvəlki əsrlərdə olduğu kimi, yenə də sikkə tapıntıları hesab edilməlidir. Qazıntılardan əldə edilən və təsadüfən tapılan sikkələrdən aydın olur ki, IX əsrdə bütün Azərbaycanda, o cümlədən də Dərbənd şəhərində qızıl, gümüş və mis sikkələr dövriyyədə olmuşdur. Qızıl sikkələr Azərbaycanda nisbətən az zərb olunmuşdur. Beynəlxalq ticarətdə pul vahidi kimi işlədilən gümüş sikkələrin - dirhəmlərin və əsasən yerli ticarət vahidi olan mis sikkələrin – felslərin zərbi isə geniş yayılmışdı. Qazıntılar zamanı adətən pul dəfinələri az tapılır. Tapılan dəfinələrdə təzə, mübadilədə iştirak etməmiş sikkələrə, demək olar ki, təsadüf olunmur.

Dəfinələrin içərisində təkcə yerli zərbxanaların deyil, həm də Xilafətin ərazisinə daxil olan, Qərbi Avropadan başlamış Şimali Afrikaya qədər bütün ölkələrin pullarına rast gəlinir. Bu fakt Azərbaycanın nə qədər geniş ərazini əhatə edən ticarət əlaqələrində olduğunu gözəl sübut edir. Araşdırmalarla müəyyən olunmuşdur ki, X əsrin ikinci yarısında basdırılan dəfinələrdə yerli dirhəmlər 3,1% olduğu halda, xarici sikkələr 96,9% təşkil edir. Bu, bir tərəfdən, xarici ticarətin yüksək inkişafına, digər tərəfdən isə Azərbaycanda zərb olunan gümüş sikkələrin - dirhəmlərin Şimal ölkələrinə kütləvi aparılmasına dəlalət edir. Məlumdur ki, Azərbaycanda, Dərbənddə və eləcə də Xilafətin digər şəhərlərində zərb olunmuş gümüş sikkələr, çox hallarda Azərbaycandan kənara, xüsusilə şimal ölkələrinə aparılırdı. Azərbaycandan və ona qonşu ölkələrdən, həmçinin Rusiya, Almaniya, İsveç, Norveç, İngiltərə və başqa ölkələrin ərazilərindən tapılan sikkələr əsasında müəyyən olunmuşdur ki, IX-X əsrlərdə Cənubi Qafqaz və ona qonşu ölkələrin zərbxanaları səylə işləmişlər. Pulların üstündə zərb olunduğu yerlərin adları göstərilmişdir. Şəhərlərdən Dərbənd, həmçinin Bərdə, Yəzıdiyyə, əyalət və ölkələrdən isə Arran və Azərbaycan adları məlumdur. Pullarda, eyni zamanda, Xəlifənin, yaxud onların varislərinin, bəzən əyalətlərdəki canişinlərin və başqa şəxslərin adları zərb olunurdu.

Sikkə zərbinin artması, ona mübadilə vasitəsi kimi ehtiyacın çoxalması XI əsrdə Azərbaycanda və bütün müsəlman Şərqində başlanan «gümüş böhranı»nın səbəblərindən biri idi. Xilafətin zəifləməsi, ondan ayrılan feodal dövlətlərin siyasi mövqelərinin güclənməsi, pula ehtiyacın çoxalması ona gətirib çıxardı ki, həmin dövlətlər özləri mis pullar kəsməyə başladılar. Sikkələrin keyfiyyəti aşağı endi, gümüşə tutulmuş pullar buraxılmağa başlandı, bəzən xırda ticarət mübadiləsi üçün gümüş pulları iki və üç hissəyə dogramaq məcburiyyəti ortaya çıxdı. XII əsrdə tez-tez saxta pul kəsmək hallarına da təsadüf olunmuşdur. «Gümüş böhranı» beynəlxalq ticarətin inkişafına mane oldu, lakin onu dayandıra bilmədi. Azərbaycanın, o cümlədən Dərbəndin feodal hakimləri, başqa müsəlman ölkələrində olduğu kimi, bu

böhranın təsirini aradan qaldırmaq üçün beynəlxalq ticarətdə işləyə bilsin deyə, öz sikkələrinin üstünə səlcuq sultanlarının, bəzən ərəb xəlifələrinin adını da zərb edirdilər. Bununla onlar pullarının həmin imperiyaların ərazisində işlənməsinə şərait yaradırdılar. Gümüş pulların əvəzini mübadilə və ödəniş vəsaiti kimi mis və qızıl pullar müvəffəqiyyətlə həyata keçirirdi. Azərbaycan, o cümlədən də Dərbənd ərazisində tez-tez tapılan Bizans solidləri və səlcuq dinarları buna misal ola bilər.

Müəyyən edilmişdir ki, XII-XIII əsrin əvvəllərində hər dövlətin mis pulları əsas etibarilə öz ərazisində dövriyyədə olmuşdur. Səlcuq pulları isə istər Azərbaycanın şimal, istərsə də cənub rayonlarında geniş yayılmışdır.

Yuxarıda qeyd etdiyimiz kimi, IX-X əsrlərin gümüş sikkələrində pulun zərb edildiyi şəhərin və yaxud ölkənin adı göstərilirdi, XII-XIII əsrin əvvəllərinə aid belə göstəricilərə nə Dərbənd, nə Şirvan, nə də səlcuq sikkələrində isə təsadüf olunur. Ancaq bu dövrün böyük və ağır çəkili pullarında Ərdəbil şəhərinin adı zərb edilmişdir. Çəkisi müxtəlif olan «normal» və «qeyri-normal» kəsilmiş pullar da tapılmaqdadır. IX-XII əsrlərə aid ən çox sikkə tapıntıları Beyləqan, Gəncə və Qəbələ qazıntılarından məlumdur. Dərbənd, Bərdə, Şəmkir, Dəbil, Naxçıvan, Şamaxı, Bakı, Şabran şəhərlərində, Gülüstan qalasında və başqa yerlərdə aparılan qazıntılar zamanı da xeyli sikkə nümunələri əldə edilmişdir.

Beləliklə, arxeoloji dəlillər və numizmatik materiallar IX-XIII əsrin əvvəllərində Azərbaycan şəhərlərində daxili ticarətin intensivliyini, şəhərin kənd nahiyələri ilə sıx iqtisadi əlaqəsini, geniş xarici ticarət əlaqələrinin mövcudluğunu, pul dövriyyəsinin yetərincə inkişaf etdiyini təsdiqləyir.

Məişət avadanlığı. Arxeoloji tədqiqatlar orta əsrlərdə Azərbaycan şəhər və kəndlərində ənənəvi olaraq gildən düzəldilmiş təndir, ocaq və manqal kimi məişət qurğularından geniş istifadə olunduğunu göstərir. Təndirlər bəzən bişmiş kərpicdən də hörülürdü. Onlar polifunksional məişət qurğusu olub çörək bişirilməsində, həm də evlərin qızdırılmasında tətbiq olunurdu.

Arxeoloji tədqiqatlar orta əsr məişət avadanlığı barədə də təsəvvürlərimizi xeyli genişləndirmişdir. Belə ki, müxtəlif materiallardan – dəmirdən, misdən, tuncdan, gildən, şüşədən və s. düzəldilmiş məişət avadanlığı geniş toplanılmış arxeoloji materiallardandır.

Misal olaraq dəmir zəncir, sacayaq, dilli qıfıl açarı, müxtəlif bıçaq tiyələri, ərsin, qapı cəftələri, qayçı, çənbər qalıqlarını göstərmək olar. Dərbənd, Beyləqan, Xarabagilan, Quba Şamaxı, Şabran və digər yerlərdə aparılan qazıntılar zamanı tapılmış nallar təkdırnaqlı (at, uzunqulaq) və qoşadırnaqlı (öküz, kəl) heyvanlar üçün istifadə olunmuşdur.

Məişətdə mis və tunc qab-qacaq özünəməxsus yer tuturdu. Arxeoloji qazıntılardan əldə olunmuş mətbəx avadanlığı qazan, abgərdən, kəfgir, həvəngdəstə ilə təmsil olunmuşdur. Qazan nümunələri əsasən ayrı-ayrı qırıqlardan ibarətdir.

Azərbaycanın, o cümlədən də Dərbəndin orta əsr abidələrindən tapılmış şüşə məişət əşyalarının əsas kütləsini qablar (bərnilər, qrafinlər, kiçik bardaqlar, qədəhlər, ətir və əczaxana qabları və s.) təşkil edir. Onlar bəzən həndəsi naxış və təsvirlərlə bəzədilmişdir. Qrafin qablar daha çox XI-XIII əsrlər təbəqəsindən tapılır. Onların nümunələri Dərbənd, Beyləqan, Dəbil, Qəbələ, Şabran və Gülüstan qalasında aparılan arxeoloji qazıntılardan məlumdur. Dərbənddən tapılmış qrafinlər boğazlarının görünüşünə görə üç varianta ayrılır. Onların hamısı naxışlanmışdır. Gen boğazlı, qulplu qabların fraqmentlərinə də təsadüf olunur. Qulp adətən qaba hazırlanma prosesində, isti ikən bənd edilirdi. Qulplu və basmanaxışlı qablar ən çox XII-XIII əsrin əvvəlləri təbəqəsindən tapılır. Süfrə qabları arasında banka, piyalə və stəkan tipli qablar çoxluq təşkil edir. Banka tipli qabların əksəriyyətinin üzəri saya olduğu halda piyalə və stəkan tipli qablar əsasən naxışlanmışdır. Naxışlar müxtəlifdir: rəngli şüşə kütləsinin dalğalı və ya düz qurşaq şəklində yapışdırılması, basma, kəsmə naxışlar və s.

Qədəhlər, adətən fraqmentlər halında tapılır. Onlar daha çox Dərbənd qazıntılarında aşkara çıxarılmışdır.


Şəhər yerlərinin arxeoloji qazıntıları zamanı IX-XI əsrlərə aid qatlarında nazikdivar qulpsuz şüşə bərnilərin fraqmentlərinə tez-tez rast gəlinir. Fraqmentlərdən bəlli olur ki, onların içəriyə batıq oturacaqları, hündür, şaquli divarları, hamarlanmış ağzı olurdu. Bu dövrdə piyalələr geniş yayılmış süfrə qablarından idi. Onların alçaq yarımkürəvi gövdəsi, düz hamar və ya kənarları geri qatlanmış ağzı vardır. Oturacaqları bəzi nüsxələrdə içəriyə batıq, yaxud alçaq, diskşəkilli altlıqlıdır. Şüşə stəkan nümunələri Qəbələ, Dərbənd, Şabran, Dəbil qazıntılarından yaxşı məlumdur. XIII əsrin əvvəlləri-

ndə şüşə qabların məişətdə istifadəsi genişlənir. Onların çeşidi artır, həm forması, həm də naxışları müxtəlifləşir. Dərbənd şəhərinin arxeoloji qazıntılarında şüşə məmulat üzrə aparılan müşahidə maraqlı nəticə vermişdir. Məlum olmuşdur ki, XI-XIII əsrin əvvəllərinə aid təbəqədə tapılan şüşə məmulatın üçdə ikisi qab-qacaq nümunələridir. Qabların istehsalının kəmiyyət göstəricisinin artması ilə bərabər, həm də ayrı-ayrı tipli qabların məişətdə istifadəsində də dəyişikliklər baş verir. Bu dövrdə bərni və piyalələrə nisbətən darboğazlı qablar – qrafin və bardaqlardan istifadə genişlənir. Dərbənd, Qəbələ, Şabran və digər abidələrdən aşkar olunmuş qrafin qırıqlarının çoxu kürə şəkilli və ya uzunsov formalı gövdəsi olan qablara məxsusdur.

Orta əsr abidələrindən tapılan sümük əşyaların əsas kütləsini ortası deşik, konusvari düymələr təşkil edir. Onların nümunələri Dərbənd, Beyləqan, Şabran, Qəbələ, Gəncə və başqa yerlərdən əldə edilmişdir. Belə düymələr, görünür, qiymətli dəri paltarlar üçün hazırlanırdı.

İncəsənətin inkişafı (IX-XIII əsrlər). IX-XII əsrlərdə Azərbaycan, o cümlədən Dərbənd monumental və dekorativ-tətbiqi incəsənəti öz inkişafında növbəti yüksəliş mərhələsini keçirmişdir. Yerli gələnəklərdən və müsəlman Şərqinin mədəni nailiyyətlərindən bəhrələnən Azərbaycan sənətkarları dövrün ruhuna, cəmiyyətin bədii-estetik tələbatına cavab verən parlaq sənət əsərləri yaratmışlar. Qeyd edək ki, IX-XII əsrlər Dərbənd şəhər incəsənəti bütün müsəlman və Azərbaycan incəsənəti üçün ümumi olan qanunlara, vahid elmi-nəzəri sistemə söykənirdi. Onun üçün təsviri sənətdən çəkinmək, ornamentalizmə güclü meyil səciyyəvidir. Bütpərəstlik heykəltəraşlıqdan, xristianlıq isə monumental təsviri sənətdən bədii ifadə vasitəsi kimi yararlandığı halda, islam bu sənət sahələrini, ümumiyyətlə, canlı varlıqların təsvir edilməsini məqbul saymamış, əksinə, ornamentalizmə və xəttatlığa rəvac vermişdir. İnformasiyanın rəmzlərlə verilməsi, həndəsi və nəbati elementlərdən mürəkkəb kompozisiyaların yaradılması, abstraktlığa meyil orta əsr Azərbaycan, o cümlədən də Dərbənd şəhər incəsənətinin mühüm əlamətlərindəndir. Bununla belə, canlı aləmin təsviri dekorativ tətbiqi sənətdə tamamilə aradan qaldırılmamışdı. Təsərrüfat və məişətdə istifadə olunan məmulat üzərində bəzən canlı aləmin təsvirinə təsadüf olunur.

IX-XII yüzilliklər Azərbaycan şəhərlərinin tarixində bədii sənət sahələrinin coşqun inkişafı ilə əlamətdar olmuşdur. Bu dövrün sənət məmulatı utilitar



Gəc oymaları (Dərbənd)

ehtiyacları ödəməklə yanaşı, həm də bədii-ideya yükü daşıyırdı. O, həmçinin cəmiyyətin estetik ideallarının və incə zövqünün göstəricisi idi.

Bədii sənətin bir çox sahələri monumental tikililərlə - saray kompleksləri, dini binalar və xatirə abidələri ilə bağlı olmuşdur. Yerli sənətkarlar tikinti materiallarının fiziki və estetik keyfiyyətlərindən uğurla istifadə edərək səthlərdə bədii təsirə malik kompozisiyalar yaradırdılar. Xüsusilə daş və gəc üzrə oymalar, kaşı bəzəkləri dövrün, xüsusilə XI-XIII əsrin əvvəllərinin memarlıq abidələrinin bədii tərtibatında mühüm rol oynayırdı. Daş üzərində oyma sənəti Şirvan-Abşeron memarlıq məktəbi üçün daha çox səciyyəvidir. Onun gözəl nümunələri Dərbənd, Bakı, Şabran və başqa Şirvan şəhərlərinin memarlıq abidələrindən və arxeoloji qazıntılarından məlumdur. Daş üzərində oyma sənətinin təkamülünü izləmək baxımından Dərbənd abidələri böyük maraq doğurur. Dərbənd şəhərinin qala qapılarından Qırxlar qapısı və Orta qapı yüksək bədii tərtibatları ilə fərqlənir. Dərbəndin cənub divarındakı oyma bəzəklər arasında çapan atların cüt təsvirində rəssam sadə kontur şəklin köməyi ilə heyvanların dinamika və plastikasını qabarıq təsvir etməyə nail olmuşdur. Narınqalanın cənub divarındakı atlı və oxatanların təsviri də gözəl sənət əsərlərindəndir. Dərbənd şəhərinin şimal divarında isə at, quş və insan təsvirləri qalmışdır.

Gəc üzrə oyma bəzəklərlə bəzədilmiş tikili qalıqlarına Azərbaycanın müxtəlif memarlıq məktəblərində rast gəlinir. Daş memarlığının hegemon olduğu Dərbənd şəhərində də gəc üzərində oyma sənəti kifayət qədər geniş yayılmışdı. Burada aparılmış arxeoloji qazıntılar zamanı əldə olunmuş gəc oyma bəzəklər dərin, həcmli olması, dəqiqliyi, ornamental motivlərin mürəkkəbliyi və müxtəlifliyi ilə bu sənət sahəsinin yüksək inkişaf səviyyəsindən xəbər verir. Bunu da qeyd etmək lazımdır ki, Dərbənddə gəc oy-

malar əsasən mülki memarlıq abidələrində - Narınqaladakı saray komplekslərində, şəhristanın yuxarı hissəsində, Cümə məscidindən qərbdəki məhəllədə tədqiq edilmiş yaşayış evində («rəisin evində»), eləcə də Came məscidində aşkarlanmışdır.

Yaşayış evində aşkarlanmış gəc oymaların bir qismi 4-10 *sm²* ölçüdə olub ornament və kompozisiya haqqında təsəvvür yaratmır. Amma 50-yə yaxın 15 *sm²*-dən 300 *sm²-ə* qədər ölçüdə 1,5-2,5 *sm* qalınlıqda düzbucaqlı və oval lövhələr vahid ornamental kompozisiyalara malikdir. Maraqlıdır ki, burada həm də gəctəraşın naxış salarkən işlətdiyi, maral buynuzundan düzəldilmiş itiuclu alət tapılmışdır.

Orta çağ Azərbaycan gəctəraşları çoxqatlı oyma bəzəklərdə daha mürəkkəb və zəngin quruluşlu kompozisiyalar yaratmışlar. Onlar gəc dekorunun bədii effektliyini artırmaq məqsədi ilə bəzən müxtəlif rənglərdən istifadə edirdilər. Bunu Dərbənd şəhərinin arxeoloji qazıntılarından aşkarlanan gəc oymalar əyani sübut edir.

Dərbəndin gəc oymaları əsasən ikitəbəqəli idi, amma birtəbəqəli və üçtəbəqəli bəzəklərə də təsadüf olunur. Belə ki, divara və dekorativ hissəyə əvvəlcə gəc suvaq vurulurdu. Qalınlığı 2,5-3 *sm* olan bu təbəqə astar rolunu oynayırdı. İkinci təbəqədə 1-2,5 *sm* dərinlikdə oyma naxış salınır, bəzən çəhrayi, sarı, göy rəngə boyanırdı. Yüksək bədiiliyi ilə fərqlənən üçtəbəqəli gəc bəzəklər saray komplekslərinin dekorunda tətbiq olunmuşdur. Divar səthini örtən gəc üstə vurulmuş orta, boyanmış təbəqə üst qatın oyma naxışları üçün astar rolunu oynayır. Qara rəngli astar üzərində ağ, qara rəngli oyma üst bəzəklər effektlə diqqəti cəlb edir. Burada gəc oymalar astara, qara rəngə qədər davam etmişdir.

Dərbəndin gəc oymalarının əsas kompozisiya motivləri dərin batıqlar, müxtəlif üçbucaqlar, romblar və altıbucaqlar ilə doldurulmuş ayrı-ayrı xonçalardan, kvadratlardan və dairələrdən ibarətdir. Onlar çox vaxt spirallar, dairəciklər, itiyarpaqlılarla uzlaşır. Ornamental kompozisiyalarda həndəsi naxışlarla bərabər, həm də nəbati naxışlar - stilizə olunmuş budaqlar, yarpaqlar, çiçəklər, üzüm salxımları və s. tətbiq olunurdu.

Dərbənd gəc oymalarında bütün daxili sahəsi dairəvi, oval və ya damcıvari, bəzən vergülşəkilli oymalarla bəzədilmiş dərin həndəsi fiqurlar və medalyonlar geniş yayılmışdı.

Dərbənd gəctəraşlarının sevimli ornament motivlərindən biri daxili səthi altıguşəli ulduzlarla doldurulmuş həndəsi fiqurlardan ibarət naxış idi. Gəc oymalar arasında bəzən astral rəmzlər və hifzedici elementlərlə bağlı mürəkkəb fiqurların dairəyə alındığı mürəkkəb kompozisiyalar da az deyildir. Bir sözlə, arxeoloji qazıntıların nəticələrinə əsaslanaraq belə qənaətə gəlmək olar ki, IX-X əsrlərdə Dərbənd şəhərində inşaat sənətinin yüksəlişi, geniş quruculuq fəaliyyəti gəc üzrə oymakarlıq sənətinin təşəkkülünü şərtləndirmiş və şəhərdə peşəkar gəctəraşlar formalaşmışdır.

Arxeoloji qazıntılarından əldə olunan şüşə məmulatda da bədii zövq öz əksini genişliyi ilə tapa bilmişdir. Bu, nəinki onların yığcam və aydın formaya malik olmalarında, gözəlliyində, rənglərinin müxtəlifliyi və parlaqlığında, həm də naxışlarında özünü göstərir. Biz burada həndəsi kəsmələr, qabarıq və batıq naxışlar, «dəniz dalğası» naxışı, ilan və sarğı şəkilli yapışdırmalar, müxtəlif rənglərin «mozaikası» və digər bəzəklərlə rastlaşırıq.

Beyləqandan, Dəbildən və Dərbənddən zərlə naxışlanmış şüşə qablar da tapılmışdır. Bunların istehsal olduğu yer, hələlik, dəqiq müəyyən olunmamışdır. Yapışdırma naxışı olan qablar Qəbələdən və Gəncədən yaxşı məlumdur. Yapışdırma naxışlar adətən qabların boğazına və çiyin hissəsinə tutqun-şabalıdı, sarı və firuzəyi rəngli şüşədən ip şəklində düzəldilərək vurulmuşdur. Bəzən belə bəzəklər ilan şəklində qabın boğazına dolandırılırdı.

Azərbaycanın islam dövrü tətbiqi-dekorativ sənətləri arasında bədii sumükişləmə özünəməxsus yer tuturdu və onun inkişaf səviyyəsinə arxeoloji qazıntılar zamanı tapılmış çoxsaylı sümük əşyalar şahidlik edir. Sümük məmulatının böyük əksəriyyəti cızma və kəsmə üsulu ilə bəzədilmişdir. Dərbənd şəhərinin arxeoloji qazıntılarından tapılmış, hündürlüyü 11 *sm* olan çılpaq qadın heykəlinin fraqmenti yüksək bədiiliyi ilə diqqəti cəlb edir. Heykəlin yalnız bədən hissəsi mühafizə olunmuş, baş və qolların isə ancaq sınğının izləri qalmışdır. Usta bu fiqurda qadın bədənin gözəlliyini yüksək peşəkarlıqla diqqətə çatdırmışdır. Səliqə ilə cilalanmış bədənin üzərində çəhrayi rəngin izləri müşahidə olunur.

Bəzək əşyaları (IX-XIII əsrlər) – Azərbaycanın, o cümlədən də Dərbəndin orta əsr şəhər abidələrində aparılmış arxeoloji qazıntılardan əldə olunmuş IX-XII əsrlərə aid bəzək məmulatı əsas etibarilə əlvan metaldan, şüşə və sümükdən düzəldilmişdir. Bəzək məmulatını təyinatına görə baş, sinə, qol, barmaq və geyim bəzəklərinə ayıraraq təsnif etmək

mümkündür. Baş bəzəklərinə cütqabağı və sırğalar, sinə bəzəklərinə boyunbağı, medalyon, silsilə, boğazaltı, müxtəlif materiallardan hazırlanmış muncuqlar, asmalar, qızıl və gümüş zəncirlər; qol bəzəklərinə bilərziklər; barmaq bəzəklərinə üzüklər; geyim bəzəklərinə kəmər, toqqa və kəmərüstü bəzəklər, düymələr, sancaqlar və müxtəlif tip piləklər daxildir.

Baş bəzəklərinə daxil olan sırğaları hazırlanma materialına görə iki qrupa ayırmaq olar. Tunc və mis sırğaların daxil olduğu birinci qrup formaya görə dörd tipə bölünür. Birinci tipə halqa formalı sırğalar daxildir. İkinci tip sual işarəsi şəklində nazik mis məftildən hazırlanmış sırğalarla təmsil olunmuşdur. Üçüncü tipə armudvari formaya malik olan sırğalar daxildir. Rombvari sırğalar dördüncü tipə aid edilir.

İkinci qrupa daxil olan qızıl və gümüş sırğalar isə iki tiplə təmsil olunmuşdur. Qədim müsəlman qəbiristanlığından tapılan, XII-XIII əsrlərə aid edilən qızıl sırğanın qulağa keçirilən hissəsi sual işarəsi şəklində, asma hissəsi isə aypara formasında olub üzəri naxışlanmışdır.

Arxeoloji qazıntılar zamanı tapılmış muncuğlar əsasən yarımqiymətli daşlardan (əqiq, qranit, lazurit) və şüşədən hazırlanmış, müxtəlif texniki üsullarla bəzədilmişdir. Əqiqdən hazırlanmış muncuğlar əhali arasında xüsusilə geniş yayılmışdır. Onların arasında kürə, silindr və çoxtilli formalı nümunələr daha çoxdur. Bu qəbildən olan muncuqlara, demək olar ki, əksər orta əsr şəhər yerlərində rast gəlinir. Şüşə muncuğlar arasında gözcüklü muncuqlar daha çoxdur. Göz muncuqları gildən də hazırlanırdı. Səthində gözcüklər düzəldilmiş gil muncuqlar Dərbənd, Beyləqan, Qəbələ, Şabran qazıntılarından yaxşı məlumdur.

Üzüklər. Başlıca əl-barmaq bəzəyi olan üzüklər əvvəlkitək mis, tunc, gümüş, qızıl və şüşədən hazırlanmış və orta əsrlərdə daha geniş yayılmışdır. Onlar qaşlı və qaşsız olmaqla iki başlıca bölməyə ayrılır. «Xatəm» adlanan qaşsız halqa bəzək əşyası olmaqla bərabər, həm də ideya yükü daşıyır, nikah, mehr-məhəbbət rəmzi kəsb edirdi. Qaşlı üzüklər forma müxtəlifliyi ilə fərqlənir. Onların əksəriyyəti mis və tuncdan hazırlanmışdır. Bəzilərinin üst tərəfi yastılaşdırılaraq düzbucaq, elleps, rombvari, kvadrat, çoxbucaqlı, dairəvi, gül formasına salınaraq zərb yolu ilə üzərinə naxışlar vurulmuşdur. Dərbənddə, Bakıda (İçərişəhərdə) aparılmış arxeoloji qazıntılardan IX-XIII əsrlərə aid xeyli qaşlı üzük tapılmışdır. Onlardan yastılaşdırılmış, üstünə qoşa romb zərb olmuş nüsxə daha çox maraq doğurur. Dekorativliyi gücləndirmək üçün rombların içərisi düzxətlərlə bəzədilmişdir. Digər bir düzbucaqlı qaşın üstünə isə qarşı-qarşıya duran üçbucaqlar salınmışdır. Metal qaşlı üzüklərin xüsusi tipini möhür-üzüklər təşkil edir. Onlar zinət əşyası olmaqla yanaşı, həm də şəxsi və ya nəsli möhür funksiyası daşımışdı. Tunc və gümüşdən hazırlanmış möhür üzüklərin nümunələri Dərbənd, Beyləqan və Şabran şəhərlərinin arxeoloji qazıntılarından məlumdur. Metal üzüklərlə yanaşı orta çağda şüşə üzüklər də geyilirdi. Göy və qara rəngli şüşədən hazırlanmış halqaşəkilli üzüklər Dərbənd, o cümlədən Mingəçevir, Qəbələ, Şamaxı, Şabran və Dəbilin arxeoloji qazıntılarından məlumdur. Belə üzüklərin üst tərəfinə bəzən eyni materialdan qaşda düzəldilirdi.

Orta əsr abidələrinin arxeoloji qazıntılarında eşmə şüşə üzüklərə az təsadüf olunur. Bu tip üzüklər iki rəngdə şüşədən istifadə etməklə burma üsulu ilə düzəldilirdi. Onların qaşı dairəvi, ellips şəklində olmaqla hamardır. Arxeoloji qazıntılar zamanı kəmərüstü bəzəklərə də rast gəlinir. Onlar düzbucaqlı, oval, rombvari, üçbucaqşəkilli, ox və çoxləçəkli gül formasında piləklərdən ibarətdir. Piləklərin üzəri də öz növbəsində müxtəlif naxışlarla bəzədilmişdir. Kəmər bəzəkləri arasında bir kəmər qaşı diqqəti daha çox cəlb edir. Qaşın ortasında pəncələri üstə oturmuş vəziyyətdə şir təsvir olunmuşdur. Şirin başı bədəninə nisbətən irihəcmlidir. Kəmərüstü bəzəklərdən birində isə öküz başını xatırladan təsvir vardır.

Sancaqlar. Sadə quruluşa malik olan milşəkilli, ucusivri sancaqlar başlıqlarının yarpaqvari və zoomorf formalı olması ilə fərqlənir. Yarpaqvari başlıqlı sancaqlar kəmiyyət etibarilə çoxluq təşkil edir. Zoomorf elementli sancaqlardan ikisi ilanbaşlı, dördü isə quş fiquru formasındadır.

Sancaqların bəziləri libas bəzəyi, bəzisi isə baş örtüyü və saçı bənd etmək üçün istifadə olunmuşdu.

Düymələr. Başlıca geyim bəzəklərindən hesab olunan düymələr əsasən sümükdən hazırlanmış və arxeoloji qazıntılar aparılmış orta əsr abidələrinin əksəriyyətindən tapılmışdır. Onların əksəriyyəti konus, bikonik, yarımkürəvi formada düzəldilmiş, üzərləri parıldayana qədər diqqətlə cilalanmış, həndəsi naxış

elementləri ilə bəzədilmişdir. Pərgar naxışı, konsentrik dairələr, ulduzlar, çərtmələr, xırda çiçək rəsmləri geniş yayılmışdır. Düymələrdən birinin üzərində isə quş təsviri çəkilmişdir. Quşun gözləri aydın təsvir edilmiş, bədəni isə xırda dairəçiklərlə bəzədilmişdir. (Mənbə: Гусейнов Г. Энциклопедия Дербента)

Epiqrafik abidələr (IX-XIII əsrlər) – Tədqiqatlar göstərir ki, Dərbənddə Sasanilər dövrünü əhatə edən çoxlu epiqrafik abidələr mövcuddur. T.ü.e.d. S.Y.Qasımovanın qeydlərində Dərbənd qala divarında tapılmış pəhləvi yazıları b.e.ə. VI əsrə aid olduğu bildirilmişdir.

Arxeoloji qazıntılar zamanı XI-XIII əsrlərə aid xeyli epiqrafik abidə aşkarlanmışdır və onların hər biri böyük tarixi-mədəni əhəmiyyətə malikdir. Bu kitabələrdə Azərbaycan, o cümlədən Dərbəndin orta çağda sosial-iqtisadi, siyasi və mədəni inkişafının ayrı-ayrı məsələlərinə aydınlıq gətirən məlumatlara, müxtəlif məzmunlu şeirlərə, fərmanlara, xatirələrə və s. rast gəlinir. Epiqrafik abidələr tarixi məlumatı təhrif olunmadan, heç bir məzmun dəyişiklərinə uğramadan, dəqiq və etibarlı sənəd kimi nəsildən-nəslə ötürür.

Bəhs edilən dövrə aid epiqrafik abidələr əsasən ərəb və fars dillərindədir. Ərəb dili uzun müddət təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində rəsmi və dini funksiya daşıdığından yazışmalar da həmin dildə aparılmışdır. Səlcuq türklərinin Ön Asiyada hegemonluğu şəraitində ərəb dili tədricən öz əvvəlki rəsmi əhəmiyyətini itirməyə başlamış, fars dili isə saraylara yol açmış, poeziya dilinə çevrilmişdir. Bu proses öz əksini epiqrafik abidələrdə də tapmışdır.

İslamın ilk dövrlərində bütün müsəlman şərqində olduğu kimi, Azərbaycanda, o cümlədən Dərbənddə də istər monumental memarlıq abidələrində, istərsə də müxtəlif təyinatlı saxsı metal, şüşə məmulatında və digər məişət əşyalarında kitabələr ərəb əlifbasının kufi xəttində həkk edilirdi. Müxtəlif həndəsi formalara malik kufi xəttinin tətbiqində iki dövr olmuşdur. Birinci dövrə IX-XI əsrlərin, ikinci dövrə isə XI əsrin axırı - XIV əsrin birinci yarısının kitabələri daxildir. Azərbaycanın arxeoloji abidələrinin tədqiqi zamanı aşkarlanmış ən qədim ərəbdilli kitabə hələlik Dərbənddən məlumdur. 2001-ci ildə Dərbənd şəhər istehkamları kompleksinə daxil olan Dağbarını tədqiq edərkən Mitaqi kəndində, Kecərliqala qülləsinin yaxınlığında yerləşən qədim müsəlman qəbiristanlığında XI-XII əsrlərin sarkofaq tipli məzar daşları qeydə alınmışdır. Onların üzərində kufi və nəsx xətləri ilə həkk edilmiş epitafiyalar vardır. Tədqiqatçıların diqqətini üzərində kitabə olan 154x73x10 *sm* ölçülü, düzbucaq formalı daş stella cəlb etmişdir. Kufi xətti ilə ərəb dilində həkk edilmiş 8 sətirlik qabarıq kitabədə deyilir:

1) Rəhimli, mərhəmətli Allahın adı ilə. De: «O - Allah - birdir, Allah əbədidir, nə doğmuş, nə də doğulmuşdur,
2) Onun heç bir tayı-bərabəri, bənzəri də yoxdur (112-ci surə). Məhəmməd Allahın elçisidir,
3) Düzgün yola və həqiqi dinə döndərmək, ona dini tam aşkar etmək üçün, hərçənd bunu çox-allahlılar nifrətlə qarşılayır.
4) Allah Məhəmmədi salamlasın. Bunu Kisra tikdirdi və (sonra bunu möhkəmlətmək, yeniləşdirmək) əmr etdi Allahın qulu (Abdallah) Harun,
5) Möminlərin əmiri (Əmir əl-möminin) - Allah onu təyinatında yüksəltsin...
6) Möminlərin əmirinin oğlu, müsəlmanların taxtına varis əl-Əmin Allah onun (nəsil... - ?) və ailəsini yüksəltsin. Tikdirdi...
7)...
8) Allah onu yüksəltsin. Abdullahın oğlu Məhəmmədin əli ilə yüz yetmiş altıncı ildə (yazılmışdır).


Hicri təqvimi ilə 176-cı (miladi 793-cü) ilə uyğun gələn bu kitabə hələlik bütün Qafqazda ən qədim kufi xətli kitabə hesab olunur. Kitabədə xatırlanan «Kisra», şahənşah I Xosrov Ənuşirəvanı, «Möminlərin əmiri, Harun» xəlifə Harun ər-Rəşidi, «Taxtın varisi əl-Əmin Məhəmməd» isə xəlifənin böyük oğlu Məhəmməd əl-Əmini bildirir.

Tədqiqatçıların fikrincə kitabə ilkin vaxtlarda hansısa monumental tikili üzərində, ola bilsin ki, Dağbarı qalasının divar hörgüsündə və ya istehkamdakı qüllələrin birinin divarında olmuşdur.

Məscidlər (VII-XIII əsrlər) – IX-XIII əsrin əvvəllərində Azərbaycanda, o cümlədən də Dərbənd şəhərində dini abidələr əsas etibarilə məscid, minarə, xanəgah tikintilərindən ibarət idi. Bəzi yerlərdə, xüsusilə də dağ ərazilərində xristian dini abidələrinə - kilsə və monastır qalıqlarına təsadüf olunur. Xatırladaq ki, yerüstü dini abidələr memarlarımız tərəfindən nisbətən yaxşı tədqiq olunmuşdur. Dini abidələrin bir qismi isə arxeoloji tədqiqatlar nəticəsində aşkara çıxarılmışdır.

Azərbaycan və Dərbənd şəhəri ərazisində IX-

XIII əsrin əvvəllərində dini abidələr içərisində ən geniş yayılanı məscidlər olmuşdur. Məscidlər müsəlmanların müxtəlif ibadət ayinlərini icra etdikləri ən ümdə yerlər idi. Məscid ərəb dilində «ibadətxana», «səcdə qılmaq» mənasını bildirir. Müsəlman Şərqində məscidlər başlıca ibadət yeri olmaqla bərabər həm də mömin insanlar arasında ünsiyyəti, birliyi möhkəmlədən polifunksional, ellik bina idi. İlk məscid, məlum olduğu kimi, Məhəmməd peyğəmbərin dövründə Mədinə şəhərində tikilmişdir. Sonrakı tarixi dövrlərdə Yaxın və Orta Şərqdə, Mərkəzi Asiyada, Azərbaycanda, Hindistanda, İspaniyada və s. ölkələrdə çoxlu məscid inşa edilmişdir. Məkkədə tikilmiş məscid müsəlman aləmində ən müqəddəs yer – «Allahın evi» hesab edilir.



Came məscidinin planı (Dərbənd)

Ən qədim, VII-VIII əsrlər, məscidlər quruluş etibarilə düzbucaqlı, həyətləri isə dördbucaqlı formada olmuşdur. Məscidin ibadət salonunun Məkkə istiqamətindəki divarında (qiblə tərəfdə) mehrab yerləşdirilir. Əhalinin cümə günləri ibadət etdiyi iri həcmli, böyük günbəzli məscidlər «came», Cümə məscidi adlanırdı. Digər müsəlman ölkələrində olduğu kimi, Azərbaycan şəhərlərində də came məscidləri mövcüd idi. Onlardan ən erkənləri Dərbənd və Şamaxı şəhərlərində inşa olunmuşdur. Dərbənd şəhərində hələ VIII əsrdə hər bir məhəllədə məscid inşa olunmaqla bərabər eyni zamanda şəhristanın ən əlverişli və abad yerində hicri 115-ci ildə Cümə məscidi ucaldılmışdır. Hicri 770-ci ildə baş vermiş zəlzələdən ciddi zədələnmiş bu məscid əsaslı təmir edilmiş, lakin onun plan quruluşu, daxili fəza həllinin ilkin forması saxlanılmışdır. Şərqdən qərbə doğru istiqamətlənməklə düzbucaqlı plan quruluşuna malik olan bu məscid daxili sütunların düzülüşü ilə üç nefə ayrılır. Mərkəzi nef yan neflərdən daha üstün mövqeyə malikdir. Məscid cənubda üstü günbəzli, kvadrat biçimli salon ilə tamamlanır. Günbəzin diametri 9 metrə catır. Günbəzli salonun qarşısında, mərkəzi nefdə kiçik olçülü, günbəzlə ortülmüş xüsusi otaq-məqsurə vardır. Məscidin giriş qapıları şimaldandır. Məscidin bünövrəsi və divarları əsasən daşdan, neflər üzərindəki tağlar, tavanlar və günbəz kvadrat biçimli bişmiş kərpicdən hörülmüşdür.

Dərbənd Cümə məscidinin istər plan quruluşu, istərsə də daxili fəza həlli Suriyanın erkən sütunlu məscidlərini xatırladır.

Yaşayiş yerləri. Monqol istilası nəticəsində şəhər və kəndlər talan və qarətlərə məruz qaldı. Onlarla şəhər, yüzlərlə kənd məhv edildi. Azərbaycanın çiçəklənən şəhərləri – Dərbənd, Ərdəbil, Xoy, Marağa, Naxçıvan, Beyləqan, Gəncə, Şəmkir, Şamaxı xüsusi qəddarlıqla dağıdıldı. Kağızkonan, Şiz, Ucan, Bərzənd, Uşnu, Bəcirəvan, Beyləqan, Şəmkir şəhərləri bu dağıntılardan sonra bir daha dirçələ bilmədi.

Arxeoloji tədqiqatların nəticələri monqol işğalı ilə bağlı şəhər və kəndlərin əksəriyyətinin xarabazara çevrildiyini təsdiqləyir. Misal üçün, Şimal-Şərqi Azərbaycanın orta əsr abidələrinin arxeoloji tədqiqi XIII əsrin ortalarında burada 36 yaşayış məskənindən yalnız onunda həyatın davam etdiyini göstərir. Digərlərini əhali tərk etmişdi. Düzən və dağətəyi zonalar daha çox tarmar olunmuşdu.

Köçəri monqol əyanlarının özbaşınalıqları və zorakılığı, ənənəvi əkinçilik bölgələrini köç ərazilərinə çevirmək cəhdləri xüsusilə dözülməz idi. Lakin çox keçmədən, hakimiyyətdə olan qüvvələr dövlətin qüdrətinin yüksəlməsində və xəzinənin doldurulmasında oturaq həyatın, sənətkarlıq, ticarət və şəhərlərin əhəmiyyətini dərk etməyə başladılar. XIII əsrin sonu - XIV əsrin əvvəllərində Qazan xanın həyata keçirdiyi islahatlar ölkənin sosial-iqtisadi həyatının dirçəlişinə, məskunlaşmanın genişlənməsinə, şəhər həyatının canlanmasına təkan verdi. Köhnə şəhərlərdə dirçəliş başlandı, yeni şəhərlər və kəndlər salındı.

XV əsrə aid arxeoloji tapıntılar. Bakıdakı Şirvanşahlar sarayında Şirvanşah I Xəlilullahın (1417-1462) anası və oğlu üçün 1435-1436-cı illərdə tikdirdiyi türbədə aparılmış arxeoloji qazıntılar zamanı 7 qəbir aşkar edilmişdir. Məlum olmuşdur ki, bu türbədə yalnız Xəlilullahın oğlu və anası deyil, həmin ailənin başqa üzvləri (Fərrux Yəmin, Biki, Bəhram, Şeyx Saleh, Xəlilullah və b.) da dəfn olunmuşdur.

Bu qazıntıların əhəmiyyəti hər şeydən əvvəl ondan ibarətdir ki, nəticədə Şirvanşahların Dərbəndi sülaləsinin ilk nəsil şəcərəsini və türbədə dəfn edilənlərin təvəllüd, vəfat tarixlərini, adlarını və yaşlarını daha dəqiq müəyyən etmək mümkün olmuşdur.

Xarabagilanda yerli daşdan tikilmiş səkkizguşəli türbəsərdabə aşkar olunmuşdur. Sərdabənin konstruktiv quruluşu, xüsusilə onun ortasında yerləşən dayaq-sütun XV-XVI əsrlərdə də Azərbaycanda türbə tikintisində Əcəmi məktəbi ənənəsinin davam etdiyini aydın göstərir.

Sikkə qalıqları bu dövr üçün də ən kütləvi tapılan maddi mədəniyyət nümunələrindəndir. Onlar qazıntılardan təsadüfi torpaq işləri gedişində böyük və kiçik dəfinələr və yaxud nadir nüsxələr şəklində tapılmışdır. Bakıda (İçərişəhərdə) tapılmış bir dəfinədə 3271 ədəd gümüş sikkə olmuşdur. Sikkələr Qəzvində (XV əsr), Kirmanda və Kaşanda (XV əsr), Ərdəbildə (XV əsr), Şamaxıda və Təbrizdə (XVI əsr) zərb olunmuşdur. Qəbələ şəhər yeri yaxınlığında (Böyük Əmili kəndi ərazisində) tapılmış, XV əsrin əvvəllərində torpağa basdırılmış dəfinədə isə 150 ədəd gümüş sikkə olmuşdur. Bunlardan 55-i əldə edilmişdir. Sikkələr Şirvanşah Şeyx İbrahimin (1382-1417) adından Şamaxıda və Dərbənddə, 32-si Qaraqoyunlu Pirbudağın (1411-1418) və Qara Yusifin (1410-1420) adından Bakıda zərb edilmişdir. Çox qiymətli maddi mədəniyyət nümunələri sayılan bu arxeoloji tapıntılar əsasında Azərbaycanda XIII-XV əsrlərdə mövcud olmuş zərbxanaları, sikkə zərbində baş verən dəyişiklikləri, hakim sülalələrin şəcərəsini, hökmdarların adlarını, hökmranlıq illərini və s. müəyyən etmək, ölkədə pul dövriyyəsinin, siyasi vəziyyətin, xarici əlaqələrin o zamankı mənzərəsini aydınlaşdırmaq və bir sıra digər məsələləri həll etmək mümkün olmuşdur.

Bax: Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). Bakı. «Elm». 2007. səh. 198-199.

Dərbənd şəhəri XII-XVII əsrlərdə. Yazılı mənbələrin araşdırılması və arxeoloji tədqiqatların yekunlarının təhlili monqol ağalığı dövründə urbanizasiya prosesində məhəlli xüsusiyyətlərinə və inkişaf tempinə görə üç bölgəni – Cənubi Azərbaycan, Arran və Şirvanı fərqləndirməyə imkan verir.

Monqol ağalığı şəhərlərin durumuna xüsusilə ağır təsir göstərmişdi. Buradakı şəhərlərin bir qismi xarabazara çevrilmişdi. Digərləri isə öz əvvəlki təmtəraqlarını itirdilər və bir daha XII əsrdəki inkişaf səviyyəsinə yüksələ bilmədilər. Şirvanın şəhərləri, o cümlədən Dərbənd isə bu iki əks qütb arasında orta vəziyyətdə idi.

Tədqiqatlar nəticəsində son orta əsrlərdə Azərbaycanda 45-ə qədər iri şəhərin olması müəyyənləşdirilmişdir. Paytaxt şəhərlər, habelə Maraga, Təbriz, Dərbənd və Şamaxı şəhərləri inkişaf üçün daha əlverişli imkanlara malik idi.

Şirvan şəhərləri arasında Şamaxı, Dərbənd, Bakı, Şabran mühüm şəhərlər olaraq qalırdı.

Monqol işğalı ilə əlaqədar Dərbənd şəhərinin özü böyük dağıntılara məruz qalmasa da, onun nahiyəsi güclü zərər çəkmişdi. Şəhərin ticarət-sənətkarlıq mərkəzi kimi əhəmiyyəti xeyli zəifləmişdi. Şəhər Qızıl Orda xanları ilə Hülakülar arasında uzun sürən mübarizənin davam etdiyi bir dövrdə hərbi əməliyyatlar obyektinə çevrilmişdi. Tərəflərdən hər biri Dərbəndin hərbi-strateji əhəmiyyətini nəzərə alaraq, onu öz nəzarəti altında saxlamağa səy göstərirdi.

Dərbənd şəhəri son orta əsrlərdə ikipilləli plan quruluşunu qoruyub saxlamışdı. Lakin monqol istilasından sonra şəhərdaxili topoqrafiyada xeyli dəyişikliklər baş vermişdi. Şəhərin məskunlaşmış ərazisi nəzərə çarpacaq dərəcədə azalmışdı. Təsadüfi deyildir ki, XIII əsrin ortalarında şəhərdə olmuş G.Rubruk bildirir ki: «Bu şəhərin daxilində əvvəllər torpaq əsil cənnət torpaqları olmuşdur».

Əmir Teymurun Qızıl Ordu dövlətinə qarşı yürüşündən sonra Dərbənd şəhərinin tənəzzülü daha da dərinləşmiş, əhali şəhərin aşağı dənizkənarı ərazilərini tərk etmişdi. XV əsrin sonunda şəhərdə olmuş A.Kontarini Dərbəndi təsvir edərək bildirirdi ki, onun ərazisinin yalnız altıda bir hissəsi – Narınqala və şəhristanın yuxarı hissəsi məskunlaşdırılmışdır. Şəhristanın aşağı hissəsini əhali tərk etmiş, tikililərin, demək olar ki, hamısı dağılmışdı.

Arxeoloji qazıntılar yazılı qaynaqların məlumatını təsdiqləyərək son orta əsrlərdə yaşayışın əsasən Narınqala və onun ətrafında, şəhristanın yuxarı məhəllələrində, Narınqaladan Cümə məscidinə qədərki ərazidə cəmləşdiyini göstərmişdir.

Narınqalada aparılmış arxeoloji qazıntılar burada son orta əsrlərdə sıx tikililərin mövcudluğunu, intensiv yaşayışı təsdiqləmişdir. Narınqalanın şimal-qərb hissəsi bu dövrdə həyatın daha gur olması ilə fərqlə-

nirdi. Narınqalanın cənubunda, həmçinin XV-XVII əsrlərdə mövcud olmuş dəmirçixana üzə çıxarılmışdır.

Şəhristanda aparılmış arxeoloji qazıntılar zamanı müxtəlif ölçülü yaşayış evləri, su təchizatı sisteminin qalıqları üzə çıxarılmış, xeyli miqdarda məişət avadanlığı, silah nümunələri və bəzək əşyaları tapılmışdır.

Şəhərin istehkamları. Əvvəlki dövrlərdə olduğu kimi, son orta əsrlərdə də istehkam tikililərinin ucaldılmasına, şəhərlərin etibarlı müdafiə sisteminin yaradılmasına böyük əhəmiyyət verilirdi. Aparılmış arxeoloji tədqiqatlar monqol ağalığı və sonrakı dövrlərdə şəhər istehkamlarının bərpası və yenidən qurulması ilə bağlı xeyli faktik materiallar vermişdir.

XIV-XV əsrlərdə Dərbənd şəhərinin istehkamlarında da təmir işləri aparılaraq, qala divarları daha da möhkəmləndirilmişdir. Təmir işləri zamanı Dərbənd darvazaları əsaslı şəkildə yenidən qurulmuşdur. Qeyd edildiyi kimi, Dərbəndin Narınqalasında iki, şəhristanın şimal divarında dörd, cənub divarında isə altı darvaza olmuşdur. Şimal divarında Qırxlar darvazası bütün dövrlərdə baş darvaza rolunu oynamışdır. XV əsrdə darvaza əsaslı şəkildə yenidən qurulmuş, üzəri bədii işlənmişdir. Sütun başlıqları arasında quraşdırılan fars dilli kitabədə təmir işlərinin hicri 842 (1438/1439)-ci ildə usta Hacı Əhməd tərəfindən yerinə yetirildiyi bildirilir: «Ey əziz, bu tikintinin memarı fərmana can-baş ilə əməl edən usta Hacı Əhməd idi. O, sultanın hökmranlığı dövründə dağdan dənizə qədər... zəhmət ilə bərpa elədi. Dərbənd abad oldu». Dərbənd darvazaları arasında Orta qapı yüksək bədii tərtibatı ilə fərqlənir və daha çox Şirvanın saray baş tağlarını xatırladır. XIV-XV yüzilliklərdə aparılmış yenidənqurma nəticəsində darvaza öz bitkin formasını almışdır. O, bayır tərəfdə, bürclər arasında dairəvi sütunlara dirənən bir böyük, iki kiçik çatma tağla bəzədilmişdir. Darvaza aşırımının üstündə isə daş artırmada aslan fiquru həkk edilmişdir.

Şəhər tikililəri XIV-XVII əsrlərdə. Monqol istilası Azərbaycanda, o cümlədən də Dərbənddə memarlığın yüksələn inkişafına ağır zərbə vurdu. Bir çox memarlıq kompleksləri yerlə yeksan edildi. Memarlığın inkişafını təmin edən amillər bir müddət aradan çıxdı.

Arxeoloji qazıntılar zamanı orta əsr şəhər yerlərində monqol işğalının nəticələrini əks etdirən dağıntı və yanğın qatlarına tez-tez təsadüf olunur. Arxeoloji dəlillər şəhər həyatının tənəzzülünü, inşaat sənətinin durğunluğunu, şəhər mədəniyyətindəki kobudlaşma cəhətlərinin əmələ gəldiyini təsdiqləyir. Bununla belə, yuxarıda qeyd olunduğu kimi, monqol ağalığı urbanizasiya prosesini tam dayandıra bilməmişdi. Qazan xanın islahatlarından sonra isə şəhər həyatında müəyyən canlanma baş vermişdi.

Hülakular sülaləsinin nümayəndələri Qazan xandan başlayaraq geniş quruculuq işlərinin, şəhərsalma fəaliyyətinin intensivləşdirilməsinin təşəbbüskarı və himayədarı kimi çıxış etmişdilər. Dövrün başlıca monumental tikililəri iri şəhərlərdə ucaldılmışdır. İri şəhərlərin hərbi-inzibati, iqtisadi və mədəni-ideoloji tələbatını ödəmək üçün monumental binalar-saraylar, imarətlər, köşklər, məscidlər, karvansaralar, bazarlar, hamamlar, sututarları inşa edilmişdi. Qədim ənənələrdən bəhrələnən yerli memarlar cürətli yaradıcılıq təşəbbüsləri ilə Azərbaycan, o cümlədən də Dərbənd memarlığına bir çox mütərəqqi yeniliklər gətirmişdilər. Bir tərəfdən Elxanilərin nəhəng dövlətin ölçüsünə uyğun əzəmətli tikililər ucaltmaq istəyi, digər tərəfdən Azərbaycan memarlığının zəngin potensialı «azman miqyaslı və zəngin ornamentli» memarlıq üslubunu Təbriz məktəbi üçün xarakterik etmişdi. Əvvəlki dövrlərin məşhur memarlıq abidələrini ölçü böyüklüyü və təmtəraq ilə ötmək tələbinin memarlar qarşısında qoyulması hülakülərin öz güc və qüdrətini memarlıq abidələrində ifadə etmək siyasəti olub, bu sahədə də özlərinə qədərki sülalələrin fəaliyyətini kölgədə qoymaq məqsədi daşıyırdı.

Əvvəlkitək şəhər divarları arasında tikililər planlı və sıx yerləşmişdi. Saray kompleksi və inzibati binalar Narınqalada idi. Dərbənddə, Narınqalada tədqiq olunan altı saray kompleksindən ikisi son orta əsrlərə aid edilir. Onlardan biri XIV-XV əsrlərdə, digəri isə XVI-XVII əsrlərdə fəaliyyət göstərmişdi. Sahələri 700-800 km^2 təşkil edən bu saray kompleksləri çoxotaqlı olub, çapma və yonulmuş daşdan hörülmüş, daxili sahmanı yüksək bədiiliyi ilə fərqlənirmişdi. Narınqalada saray kompleksindən başqa XV-XVI əsrlərə aid xan hamamı və XVI-XVII əsrlərə aid iki sututarı tədqiq edilmişdir.

Narınqalanın mərkəzində aşkarlanmış memarlıq kompleksləri arasında XV-XVII əsrlərə aid edilən kazarmatipli monumental tikili qalıqları da vardır.

Bu kompleksin otaqlarında təndir qalıqları, daş sütun altlıqları, tünglərdən quraşdırlmış su kəməri xətti üzə çıxarılmış, məişət əşyaları, silahlar və mis sikkələr tapılmışdır.

Narınqalada üzə çıxarılmış son orta əsrlərə aid memarlıq kompleksləri Şirvan-Abşeron memarlıq məktəbinin səciyyəvi elementlərini özündə əks etdirir. IV qazıntı sahəsində aşkarlanmış memarlıq komplekslərindən biri böyük və kiçik otaqları, dəhlizi, açıq həyəti və təsərrüfat tikililərindən ibarət olub, adi palçıqla yonulmamış daşdan tikilmişdir. Kompleksin divarlarının qalınlığı 65-75 *sm-dir.* Həyət tava daşlarla döşənmişdir. Bu kompleksdən altda aşkarlanan digər memarlıq kompleksi bir neçə otaqdan ibarət olub, daha səliqəliliyi və möhkəmliyi ilə fərqlənir. Kompleksə daxil olan otaqlardan biri daha böyük (9x6 m) ölçüdədir.

Qeyd olunan memarlıq komplekslərinin qazıntılarından xeyli miqdarda Rey, Kaşan, Çindən gətirilmə fayans və çini qab nümunələri, yerli saxsı qəlyanlar, mis sikkələr, memarlıq hissələri tapılmışdır. Üzərində ərəb yazısı olan, XV-XVII əsrlərə aid daş lövhələr xüsusilə diqqətəlayiqdir.

IV qazıntı sahəsində üzə çıxarılmış başqa bir memarlıq kompleksi yuxarıda qeyd edilənlərdən fərqli olaraq bişmiş kərpicdən əhəngli palçıqla inşa olunmuşdur. Bu kompleksin 9,4x3,2 *m* ölçüdə bir otağı tam, digəri isə qismən təmizlənmişdir. Qalan otaqlar isə qazıntı sahəsindən kənarda qalmışdır. Kompleksin divarlarının qalınlığı 0,8-1 *m,* bəzi yerlərdə hətta 2,6 *m* təşkil edir. Tədqiq olunmuş qalıqlar tikilinin möhtəşəm kompleksə mənsubluğunu göstərir.

Son orta əsrlərdə şəhərlərin şəhristan hissəsində əvvəlki tək əsasən feodal əyanlarının, varlı tacir və sənətkarların yaşayış evləri, ictimai və dini binalar yerləşirdi. Şəhristan hissəsindəki tikililərinin xarakterini Şamaxı, Dərbənd, Bakı, Şabran, Naxçıvan və digər şəhər yerlərində aparılmış arxeoloji qazıntılar və eləcə də son orta əsrlərdə çəkilmiş illüstrativ materiallar əsasında səciyələndirmək mümkündür.

Son orta əsrlərin yaşayış evlərinin tədqiqi baxımından IV sahədəki qazıntının nəticələri də maraqlı olmuşdur. Burada üzə çıxarılmış düzbucaq və kvadrat biçimli yaşayış evlərinin qalıqları əsasən adi palçıqla orta ölçülü çaydaşından hörülmüşdür. Divarların hörgüsündə yonulmuş əhəngdaşından və kvadrat formalı bişmiş kərpiclərdən istifadə olunmuşdur. Bəzi tikililərdə qarışıq hörgülərə də rast gəlinir. Belə hörgüdə çaydaşı, əhəngdaşı və ya bişmiş kərpic cərgələri növbələşir. Bəzi binaların divarına bişmiş kərpicdən hörgü ilə cınağı naxış salınmışdır.

Tikililərinin bünövrəsi divarlardan enli olub 60-85 *sm* təşkil edirdi. Bişmiş kərpiclərdən istifadə etməklə bəzən tikililərin döşəməsi döşənirdi.

Yaşayış evləri çoxotaqlı idi. Bəzi evlərdə mətbəx və anbar xarakterli otaqlar vardır. Sahəsi 16 km^2 olan, mətbəx rolunu yerinə yetirmiş otaqlardan birinin şimal divarında böyük ocaq bişmiş kərpiclərin düzülməsi ilə düzəlmişdir. Anbar xarakterli otaqda boğazadək torpağa basdırılmış üç küp aşkarlanmışdır. Onlardan ikisi eyni ölçüdə (hündürlüyü 70 *sm*), biri isə bir qədər kiçik idi.

Dərbənd şəhərində son orta əsrlərdə dənizsahili hissədə tikililər seyrək yerləşmişdir. Yuxarı, Cümə məscidi ətrafı hissədə isə əksinə, müxtəlif tip mülki və dini binalar sıx cəmləşmişdi. Şəhristanın yuxarı hissəsində arxeoloji qazıntılar nəticəsində Dərbənd sakinlərinin müxtəlif təbəqələrinə məxsus yaşayış evləri üzə çıxarılmışdır.

Bir qayda olaraq əyanların, varlı şəhərlilərin evləri ölçülərinin böyüklüyü, plan quruluşunun mürəkkəbliyi və daxili sahmanının zənginliyi ilə fərqlənir.

Son orta əsrlərdə Azərbaycanda, o cümlədən də Dərbənddə inşa olunmuş hamamların tədqiqi onların hər birinin özünəməxsus əlamətləri ilə yanaşı, həcm-məkan, isitmə və işıqlandırma sistemində, su təchizatında vahid prinsiplərin mövcudluğunu göstərir. Azərbaycan hamamlarında hərəkət qrafiki düşünülmüş və dəqiq təşkil edilmiş, soyuq hava kütləsinin daxilə nüfuz etməsinin qarşısının alınmasına, müxtəlif təyinatlı otaq və salonlarda fərqli, zəruri temperaturun təmin edilməsinə yönəlmişdir.

XV-XIX əsrlərdə şəhər abadlığı. Şəhər inzibati-idarə aparatı şəhər abadlığının lazımi səviyyədə saxlanılmasına qayğı göstərir, küçə və meydanların təmizliyinə, səliqə-səhmanına diqqət yetirir, su təchizatı şəbəkəsinin, sututarlarının fəaliyyətini tənzimləyir, sanitar-gigiyena qurğularının saz vəziyyətdə saxlanılmasını təmin edirdi. Yazılı qaynaqlar və arxeoloji qazıntılar son orta əsrlərdə meydan və küçələrin səliqə ilə döşəndiyini təsdiqləyir. Şəhər darvazalarına istiqamətlənmiş əsas magistral küçələr kifayət qədər enli olub, arabaların, yüklü dəvələrin sərbəst hərəkət edə bilməsini təmin edirdi. Məhəllədaxili küçələr isə

ensiz olub, əsasən piyadalar üçün nəzərdə tutulmuşdu. Onların döşənməsi üçün tava daşlarından, bişmiş kərpiclərdən, çaydaşından, çınqıldan, saxsı qırıqlarından istifadə olunurdu.

Son orta əsrlərdə Azərbaycan şəhərlərinin, həmçinin Dərbəndin su təchizatı təbii şəraitdən asılı olaraq müxtəlif üsullardan istifadə etməklə həll olunurdu. Su təchizatının ən bəsit forması şəhər ərazisindəki bulaqlardan istifadə idi. Bulağın yer səthinə çıxdığı yerlərdə sudan istifadəni asanlaşdıran qurğular tikilirdi. Belə bulaqlar Dərbənd, Şamaxı və Qəbələ şəhərlərinin arxeoloji qazıntılarından məlumdur. İçməli suyun yer səthinə yaxın olduğu ərazilərdə quyu qazaraq onun suyundan istifadə edilirdi. Belə quyular arxeoloji qazıntılar zamanı Bakı və Şamaxıda daha çox aşkarlanmışdır. Şəhərlərin suya tələbatı həmçinin ətraf ərazilərdəki, bəzən hətta uzaq məsafələrdəki mənbələrdən gətirilən su hesabına ödənilirdi. Suyun gətirilməsi və şəhər daxilində paylanması məqsədilə müxtəlif hidroqurğular tikilirdi. Bunlar arx və kanallar, kəhrizlər və tünglərdən quraşdırılmış su kəmərlərindən ibarət idi. Təbriz, Gəncə, Dərbənd, Bakı şəhərlərinin su təchizatında kəhrizlər mühüm yer tuturdu.

Kəhrizin inşası müəyyən bir imkanlı şəxsin və ya bir neçə nəfərin vəsaiti hesabina həyata keçirilirdi. Bir qayda olaraq kəhriz onu inşa etdirən şəxsin adı ilə adlandırılırdı.

Şəhərləri su ilə təchiz etmək üçün suyun saxsı tünglərdən quraşdırımış kəmərlər vasitəsi ilə ətrafdakı mənbələrdən gətirilərək paylaşdırılması üsulundan da geniş istifadə olunmuşdu. Arxeoloji qazıntılar zamanı bu növ su kəmərlərinə orta əsr Dərbənd, Şabran, Şamaxı, Qəbələ, Bakı, Gəncə, Bərdə və digər şəhər yerlərində rast gəlinmişdir. Belə kəmərlərin ana xətti iri tünglərdən, şəhər daxilində şaxələnmiş qolları isə kiçikölçülü tünglərdən quraşdırılırdı. Ana xəttin qollara şaxələnməsi, şəhər daxilində müxtəlif istiqamətlərə döndərilməsində üçlük və dirsəklərdən istifadə olunurdu. Tünglərin kip birləşdiyi yer xüsusi, suyadavamlı məhlulla sürtülərək bir daha möhkəmləndirilirdi. Kəmərin suyun təzyiqinə davamlılığını artırmaq, təhlükəsizliyini təmin etmək məqsədi ilə onun üçün xüsusi dar, dayaz kanal qazılaraq döşəməsi relyefə uyğun elə yönəldilirdi ki, suyun son mərhələyə normal axınını təmin etsin. Kəməri hər tərəfdən bişmiş kərpiclər və müvafiq formada yonulmuş daşlarla örtüb məhlulla bərkidirdilər. Bu ortük kəməri mexaniki təsirlərdən mühafizə edirdi. Kəmər boyunca yoxlama və təmir üçün müəyyən məsafələrdə xüsusi yoxlayıcı quyular qazılır və ya iri küplər yerləşdirilirdi.

Su ehtiyatı toplamaq və mühafizə etmək üçün hidromühəndislər müxtəlif tipli sututarları – hovuzlar, ovdanlar və s. inşa edirdilər.

Şəhərlərin abadlığı üçün sanitariya məsələlərinin həlli mühüm əhəmiyyət kəsb edirdi. Arxeoloji qazıntılar son orta əsrlərdə şəhərlərdə yaşayış evlərinin, ictimai və istehsalat tikililərinin sanitariya məqsədi güdən xüsusi qurğularla təchiz edildiyini göstərir.

Kanalizasiya sistemi, çirkab və zibil quyuları bu qəbildən olan qurğular idi. Kanalizasiyanın bəsit forması çirkab suyun quyu vasitəsilə torpağa hopdurulması idi. Belə quyuların ağzı bişmiş kərpiç və ya tava daşdan səliqə ilə hörülürdü. Mərkəzdəki kərpiç və ya tava daşın ortasında suyun axıdılması üçün dairəvi deşik olurdu. Təsvir olunan lokal kanalizasiya quyuları Bakı, Dərbənd, Şabran qazıntılarından yaxşı məlumdur. Kanalizasiya quyuları yaşayış binasından aralıda yerləşdiyindən çirkab ora bir-birinə geydirilmiş saxsı tünglər vasitəsilə axıdılırdı. Məişət və istehsalat tullantıları, müxtəlif cür zir-zibil imkan daxilində şəhərdən kənara çıxarılırdı. Şəhər daxilində isə zibil xüsusi qazılmış dərin quyulara atılırdı.

XVI-XIX əsrlərdə əkinçiliyin inkişafı. Son orta əsrlərdə Azərbaycan, o cümlədən də Dərbənd iqtisadiyyatının əsasını əhalinin böyük əksəriyyətinin məşğul olduğu kənd təsərrüfatı təşkil edirdi. Düzdür ki, monqol istilası kənd təsərrüfatına, xüsusilə də süni suvarma sisteminə əsaslanan əkinçilik təsərrüfatlarına ağır zərbə endirmişdi.

Əhalinin həyatının təminatında taxılın həlledici əhəmiyyəti kənd təsərrüfatında dənli bitkilərin becərilməsinin ön plana çəkilməsini şərtləndirmişdi. Taxılçılıq əkinciliyin başlıca sahəsi idi. Ölkənin bütün vilayətlərində və həmçinin Dərbənddə buğda, arpa və darı əkilirdi. XVI-XVII əsrlərdə Azərbaycan və Dərbənd şəhərində olmuş Avropa səyyah və tacirləri də burada buğda və arpa zəmilərinin bolluğunu xüsusi qeyd edirdilər.

Arxeoloji tədqiqatlar nəticəsində əkinçilik təsərrüfatı ilə bağlı əldə olunan dəlillər: nəbati qalıqlar,

əmək alətləri, taxıl saxlanılan küplər, təsərrüfat quyuları və digər bu kimi tapıntılar bəhs edilən dövrdə dənli bitkilər əkininin kifayət qədər geniş yayıldığından xəbər verir. Dərbənd, Şabran, Şamaxı, Qəbələ şəhər xarabalıqlarının arxeoloji tədqiqindən məlum olan təsərrüfat quyularının böyük əksəriyyəti taxılın saxlanılmasına xidmət etmişdir. Onların bəzilərinin dibində taxıl qalıqlarına da təsədüf olunmuşdur. Məlumat üçün bildirək ki, taxıl quyuları planda dairəvi, kəsikdə aşağıya doğru genişlənən üstü kəsik konus şəklində olurdu.

Taxılçılıqla bağlı əkinçiliyin əsas əmək alətləri xış, qara kotan, ağac mala, bel, çin, oraq, kərənti, dəryaz, yaba, vəl, kürək və b. olmuşdur.

Torpağı şumlamaq üçün kotandan, sadə və ulamalı xışlardan istifadə olunurdu. İqlim şəraiti, relyef xüsusiyətləri, yumşaq torpaqların olması ilə əlaqədar dağətəyi və dağlıq ərazilərdə əsasən xışdan istifadə olunurdu.

Taxılçılıqda başlıca biçin aləti çin və oraq idi. O, biçin prosesində tətbiq olunan dəryaz-kərəntilərin işlək hissəsi düz, uca doğru isə qövsvari formada olmaqla daralaraq sivriləşir.

Taxıl bitkiləri ilə yanaşı xeyli miqdarda paxlalı bitkilər də becərilirdi.

Dərbənddə texniki bitkilərdən qızıl boya kökü bitkisi geniş yayılmışdır. Toxuculuqda qırmızı boyağa olan tələbatın ödənilməsinə yönəlmiş həmin məxsul nəinki yerli, həmçinin xarici bazara çıxarılırdı. Arxeoloji qazıntılar zamanı Dərbənd şəhər abidələrində tez-tez qırmızı boya qalıqlarına rast gəlinməsi də təsadüfi deyildi. Boya kökü becərilməsi XIX əsrin ortalarınadək Dərbənd əhalisinin təsərrüfat məşğuliyyətində mühüm yer tutmuşdu.

Yazılı qaynaqlar və arxeoloji tədqiqatlar Azərbaycanda, o cümlədən də Dərbənd şəhəri ətrafında bostançılığın da əhalinin təsərrüfat həyatında özünəməxsus yer tutduğunu təsdiqləyir. Arxeoloji qazıntılar zamanı ayrı-ayrı abidələrdən tapılmış balqabaq, qarpız, yemiş, xiyar və başqa bitkilərin qalıqları (toxumları) da bunu təsdiq edir. Arxeoloji qazıntılardan həm də bostançılıq və tərəvəzçilikdə mühüm əmək aləti olan toxalar da tapılmışdı.

Son orta əsirlərdə kənd təsərrüfatında mühüm sahələrdən biri əhalini bol meyvə məhsulları ilə təmin edən bağçılıq idi. Azərbaycanda, o cümlədə də Dərbənddə bağların zənginliyini orta çağ yazarları xüsusi vurğulayırlar. Orta əsr şəhər xarabalıqlarından və yaşayış yerlərindən arxeoloji qazıntılar zamanı bağçılıqla bağlı nəbati və maddi mədəniyyət qalıqlarının tapılması yazılı qaynaqların məlumatını bir daha təsdiqləyir. Nəbati qalıqlar qoz, fındıq qabıqları, gavalı, göyəm, ərik, şaftalı, gilas və s. çəyirdəklərindən ibarətdir. Bağçılıqla bağlı olan əmək alətləri və vasitələri dəhrə, bıçaq nümunələri, gillə qırıqları ilə təmsil olunmuşdur. Arxeoloji qazıntılar zamanı meyvə qurudulması üçün istifadə edilmiş təndirlər də üzə çıxarılmışdır.

Təndirdə meyvə qurutmaq üçün xüsusi olaraq gildən hazırlanmış qablara - gillələrə yığılırdı. Ləziz meyvə qurusu həm süfrələrin bəzəyi olmuş, həm də yaxın və uzaq ölkələrə ixrac edilmişdir. Yetişdirilmiş meyvənin müəyyən qismi emal edilərək ondan doşab, rub, sirkə, müxtəlif şirələr hazırlanırdı. Adam Oleari Azərbaycanda, habelə Dərbənd şəhərində doşab, meyvə şirələri hazırlandığını bildirirdi. O, su və sirkə qatmaqla doşabdan ləzzətli bir içki alındığını xüsusi vurğulayırdı.

Əhalinin təsərrüfat məşğuliyyətində bağçılığın üzümçülük sahəsi də mühüm əhəmiyyət kəsb edirdi. Yazılı qaynaqlardan məlum olur ki, bəhs olunan dövrdə üzümlüklərin sahəsi genişlənmiş, becərilən üzüm növləri artmışdı. Dərbənd, Təbriz, Naxçıvan, Şamaxı, Şabran mühüm üzümçülük mərkəzləri kimi məşhur idi. Akademik Ə.Əlizadə F.Rəşidəddinə istinad etməklə bildirirdi ki, Təbriz şəhəri ətrafındakı üzüm bağları ildə 150 ton üzüm verirdi. Arxeoloji qazıntılar zamanı üzüm emalı ilə bağlı bəzi tapıntılar da aşkar edilmişdir. Bunlar əsasən üzüm şirəsi almaq üçün istifadə olunan qurğunun nümunələridir.

Son orta əsrlərdə Azərbaycanın və Dərbəndin kənd təsərrüfatında mühüm sahələrdən biri ipəkçilik idi. Dərbənd şəhərinin kənd nahiyələri barama və ipək sapı istehsalı ilə yaxından məşğul olurdular. İstehsal olunan xam ipək yerli bazarın tələbatını ödəməklə bərabər xarici ölkələrə də ixrac olunurdu. XVI əsrin Avropa səyyahlarından biri qeyd edirdi ki, bu ölkədə müxtəlif yüksək keyfiyyətli zəruri mallar - qoz və fındıq, çiyidli pambıq, zəy, xam ipək, ədviyyat və boyaqçılıq mallarının bütün növlərini əldə etmək mümkündür. Lakin buranın əsas malı olduqca bol xam ipəyin hər cür növüdür.

XV-XVII əsrlərdə heyvandarlığın və ovçuluğun inkişafı. Azərbaycan, o cümlədən də Dərbənd

şəhər əhalisinin təsərrüfat məşğuliyyətində maldarlıq mühüm yer tuturdu. Heyvandarlıq təsərrüfatı əhalinin ət və süd məhsullarına, sənətkarlığın yun, gön-dəri və sümük kimi xammala olan tələbatını ödəyir, təsərrüfatı nəqliyyat və qoşqu qüvvəsi ilə təmin edirdi. Əhalinin bir qismi yarımköçəri həyat keçirir və heyvandarlıqla məşğul olurdu. Son orta əsrlərdə ölkədə və həmçinin Dərbənddə çoxlu qaramal naxırı, qoyun sürüsü və at ilxıları saxlanılırdı.

Arxeoloji qazıntılar zamanı əldə edilmiş osteoloji qalıqlar da bunu təsdiqləyir. Azərbaycanın müxtəlif bölgələrində və o cümlədən Dərbənd şəhərində son orta əsrlərə aid daşdan yonulmuş qəbirüstü qoç heykəllərinə təsadüf olunması qədim dini görüşlərlə bərabər, həm də onun mühüm təsərrüfat əhəmiyyəti kəsb etməsinə dəlalət edir.

Osteoloji qalıqlar arasında keçi sümüklərinə təsadüf olunması bölgədə həmin heyvanın da müəyyən miqdarda bəslənildiyini göstərir. Xatırladaq ki, xalq təbabətində keçi südündən və piyindən həm də müalicəvi vasitə kimi istifadə edirdilər.

İqtisadi baxımdan çox əlverişli olan qoyunçuluq əhalini ət, süd, pendir, yağ kimi mühüm ərzaq məhsulları ilə, sənətkarlığın isə gön və yun ilə təchizində mühüm rol oynayırdı. Xüsusilə Azərbaycanın və Dərbəndin mühüm xalçaçılıq və şalbaflıq mərkəzi olması qoyunçuluğun inkişafına müsbət təsir göstərirdi.

Yazılı qaynaqlarda Azərbaycanda və Dərbənd şəhəri ətrafında iribuynuzlu heyvanların bəslənilməsinə böyük diqqət yetirildiyi bildirilir. Yeri gəlmişkən qeyd edək ki, heyvandarlığın bu sahəsi əkinçiliklə qarşılıqlı təsirdə inkişaf edirdi. Əkinçilik maldarlığı yem ehtiyatı ilə, maldarlıq isə əkinçiliyi təbii gübrə və qosqu qüvvəsi ilə təmin edirdi.

Arxeoloji qazıntılar zamanı süd emalı ilə bağlı saxsı qablara - nehrə, sərnic, küpə və s. tipli qablara tez-tez təsadüf olunması əhalinin qidalanma mədəniyyətində süd məhsullarından geniş istifadəni sənədləşdirir. Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Dərbənd şəhərində yüksək keyfiyyətli süd məhsullarının hazırlanmasını orta çağ yazarları da qeyd edirlər.

Atçılıq təsərrüfatı əvvəl olduğu kimi yenə də əhalinin məşğuliyyətində özünəməxsus yer tutan sahələrdən biri olaraq qalırdı. Bir çox qəbirüstü xatirə abidələrinin at heykəli formasında yonularaq düzəldilməsi və yaxud başdaşılarında, sənduqələrdə at təsvirlərinin çəkilməsi ata olan ehtiramın təzahürüdür.

Arxeoloji qazıntılar aparılmış son orta əsr abidələrinin, demək olar ki, hamısından at sümükləri və at ləvazimatı qalıqları tapılmışdır. Bu dövrdə atdan həm minik, həm qoşqu vasitəsi kimi, həm də hərbi işdə istifadə edirdilər.

Dəvəçilik əhalinin təsərrüfat həyatında müəyyən rol oynamış, dəvənin ət və südü qiymətli qida, yunu şalbaflıq üçün qiymətli xammal idi. Başlıcası isə dəvədən əsas nəqliyyat heyvanı olmaqla, şəhərlərarası və beynəlxalq ticarətdə geniş istifadə edilirdi. Misal üçün, XV-XVI əsrlərə aid karvan təsvirində sıra ilə düzülmüş dəvələr və onların önündə iki nəfərin - sarbanın təsviri həkk olunmuşdur.

Yük daşımaq, qoşqu qüvvəsi və minik heyvanı kimi qatır və ulaqdan də istifadə edilirdi. Arxeoloji qazıntılar zamanı orta əsr abidələrindən tapılmış osteoloji qalıqlar içərisində uzunqulaq sümükləri də vardır. Tapıntılar arasında həmçinin ulaq və qatır nallarına da rast gəlinir.

Arxeoloji qazıntı aparılmış son orta əsr abidələrindən külli miqdarda toyuq, ördək, qaz sümüklərinin, yumurta qabığı qalıqlarının tapılması əhalinin təsərrüfat məişətində ev quşçuluğunun də özünəməxsus yer tutduğunu göstərir.

Azərbaycanın oroqrafik quruluşu, su hövzələri, bitki örtüyü və heyvanat aləmi burada ovçuluq, həmçinin balıqçılıq kimi yardımçı təsərrüfat sahələrinin əhalinin məşğuliyyətində müəyyən yer tutmasını sərtləndirmişdi. Bəhs olunan dövrdə ovçuluq həm də hakim sinfin nümayəndələri - feodallar üçün başlıca əyləncə üsulu idi. Azərbaycanın miniatür sənətində ov səhnələrinin təsvirinə geniş yer verilməsi də Azərbaycan feodallarının əyləncələrindən, həyat tərzindən xəbər verir. Azərbaycanın və Dərbənd şəhərinin orta əsr abidələrindən tapılmış osteoloji qalıqlar arasında vəhşi heyvanların - ceyran, cüyür, maral, dovşan, tülkü sümüklərinin olması, çöl donuzunun qılınc dişlərinə təsadüf olunması, heç şübhəsiz ki, əhalinin ovçuluq məşğuliyyətinin nəticəsidir. Vəhşi heyvanların əti qida üçün, dəri, xəz, sümük və buynuzları isə sənət sahələrinin xammal ehtiyaclarına işlədilirdi. Dərbənd, Şabran və Şamaxı şəhərlərinin xarabalıqlarında mədəni təbəqənin XIV-XVII əsrlərə aid inşaat qatlarında sümükişləmə emalatxanasında istifadə edilən xeyli miqdarda maral

buynuzlarının tapılması yuxarıda qeyd olunanları bir daha təsdiqləyir.

Çöl quşlarının ovlanması dəniz sahili və göllərin ətrafında yerləşən kəndlərin əhalisinin təsərrüfat məşğuliyyətində özünəməxsus yer tuturdu.

Etnoqrafik ədəbiyyatdan yaxşı məlum olan su quşlarının ovlanması üsulları-niğələr, «aldatmalar», «domça-çıraq» vasitəsilə ov, görünür ki, son orta əsrlərdə də geniş tətbiq olunmuşdur.

Su hövzələri olan ərazilərdə əhali balıqçılıqla da məşğul olurdu. Yazılı mənbələr Azərbaycanda və o cümlədən də Dərbənddə qızılbalıq və nərə balıqlarının ovlandığını, onların kürüsünün yeyildiyini xəbər verirlər. Bu məlumatı arxeoloji qazıntılar da təsdiqləyir. Nərə balığının qalıqlarının tapılması və həmin balığın ovlanmağı barədə yazılı mənbə məlumatı, bir tərəfdən, dəniz balıqçılığının inkişafını, digər tərəfdən isə İslam dininin qadağalarına baxmayaraq nərə balığından yerli əhalinin mətbəxində istifadə olunmasını sənədləşdirir. Arxeoloji qazıntlar zamanı balıqçılıqla bağlı əmək alətlərindən əsasən qarmaqlar, tora bərkidilən ağırlıq daşları tapılır.

Dərbənd və digər Xəzərsahili yaşayış məskənlərinin sakinləri balıqçılıqla yanaşı, həm də suiti ovu ilə məşğul olurdular. Bunu Azərbaycanın orta əsr Xəzərsahili şəhər və yaşayış yerlərinin qazıntılarından tapılmış piydanlar da təsdiqləyir. Belə ki, qara çıraqdan fərqli olaraq həmin piydanların yandırılması üçün suiti piyi işlədilirdi. Əblürrəşid-əl-Bakuvinin məlumatından aydın olur ki, suitilərin dərisini soyur və piyindən piydanları yandırmaq üçün istifadə edirdilər. Dərilərindən isə tuluqlar düzəldib neftlə doldurar, başqa ölkələrə aparardılar. Eyni məlumata Kontarinin qeydlərində də rast gəlirik. O bildirir ki, suitinin piyindən piydanların yandırılmasında yanacaq kimi istifadə edir, onu dəvələrə sürtürdülər.

Balıqçılığın və dəniz ticarətinin inkişafı Xəzərsahili yaşayış məntəqələrində gəmi inşasının inkişafına müsbət təsir göstərirdi. Xəzərin sularında həm yerli, həm də xarici ölkələrin, o cümlədən İtaliya gəmiləri üzürdü. Maraqlıdır ki, Şeyx Heydər Şirvana yürüşü zamanı yerli gəmi inşaatçılarının və dülgərlərin köməyi ilə gəmi inşa etdirmişdi. Kontarini XV əsrdə «Oradakı gəmilər balıq formasındadır… Gəmiləri ağac mıxlarla quraşdırır və möhkəm qatranlayırdılar». XVI-XVII əsrlərdə Xəzər dənizində istifadə olunan yerli, əsasən ikidorlu yelkənli gəmilər olub, yükgötürmə qabiliyyəti 30 tondan 100 tona qədər idi.

Dənizçiliyi sənədləşdirən başlıca arxeoloji materiallar isə Dərbənd, Gürgan və Əmburan burnundan, Səngimuğan adasından, Səbail qəsri yaxınlığındakı Bakı buxtasından, Səngəçal və Bəndovanda aparılan tədqiqatlardan məlum olan daş və metal lövbərlərdir. Belə qarmaqlardan qədimdə və orta əsrlərdə dəniz döyüşlərində də istifadə olunurdu. Gürgan yaxınlığında isə sualtı tədqiqatlar zamanı batmış kirjim tipli gəmiyə rast gəlinmişdir.

XIV-XV yüzilliklərə aid dənizçiliklə bağlı tikililər, ehtimal ki, mayak və yaxud gözətçi məntəqəsinin qalıqları arxeoloji qazıntılarla Abşeron yarımadasında (Bilgəh qəsəbəsi yaxınlığında) qeydə alınmışdır.

XVIII-XIX əsrlərdə metallurgiya və metalişləmə. Metallurgiya və metalişləmə iqtisadi həyatın bütün sahələrinə güclü təsir göstərən fəaliyyət sahələri idi. Metalişləmə sənətinin inkişaf səviyyəsi, onun texnoloji təkmilləşməsi bu və ya digər dərəcədə əkinçiliyin, sənətkarlığın, hərb sənətinin və təsərrüfat məişətinin durumuna təsir göstərir, sənətkarlığın texniki səviyyəsini müəyyənləşdirirdi. Azərbaycanın müxtəlif bölgələrində filiz yataqlarının mövcudluğu metallurgiya və metalişləmənin inkisafini şərtləndirən mühüm amillərdən idi. Monqol istilası nəticəsində ağır zərbəyə məruz qalan filizçıxarma və metallurgiya Qazan xan hakimiyyəti dövründə (1796-1803) yenidən dirçəlməyə başlayır.

Görünür, son orta əsrlərdə filizçixarma prosesi XVIII-XIX əsrlərdə mövcud olmuş üsul və texnikadan fərqlənməmiş, Y.Veydenbaumun təsvir etdiyi şəkildə olmuşdur. Həmin təsvirə görə çox darısqal olan mədənə fəhlələr iməkləyərək girir, uzanmış halda filizi qopararaq torbalara doldurur və kəndir vasitəsilə sürüyərək bayıra çıxarırdılar.

Tədqiqatçılar yerli yataqlardan çıxarılan filizin mədənlərin yaxınlığında əridildiyini bildirirlər. Bu səbəbdən filiz yataqlarının olduğu kəndlərin sakinləri metallurgiya ilə yaxından məşğul olurdular.

Etnoqrafik ədəbiyyatdan məlum olur ki, filiz əridilən kürələr ortasında çalaşəkilli odluğu olan açıq ocağa bənzəyirdi. Filiz parçalarını və kömürü kürəyə qat-qat yığaraq körük vasitəsi ilə odluğa hava üfürülürdü. Nəticədə kürənin aşağı hissəsində kömür

közünün hərarətinin yüksəlməsi ilə əmələ gələn və yüksək hərarətlə qızan karbon oksidi yuxarı qalxır, filiz və kömürü qızdıraraq onlarla kimyəvi reaksiyaya girirdi. Bu yolla filizdəki dəmirin və tərkibdəki maddələrin oksidləşməsi nəticəsində, bir tərəfdən, dəmir, digər tərəfdən isə metal pasa əmələ gəlirdi. Beş saat ərzində filiz əriyib qaynar kütləyə çevrilirdi. Hasil olunmuş ərinti qırsının tərkibində hələ metal pasa olduğundan onu döyərək saflaşdırırdılar. Qeyd olunduğu kimi, filizəritmə kürələrində yüksək hərarəti almaq üçün odluğa güclü hava üfürülməsi zəruri idi. Kürəyə süni hava üfürülməsini təmin etmək ücün körüklərdən istifadə olunurdu. Körüklərin dəri hissələri dövrümüzə qədər qalmasa da, onların oda-davamlı şəxsi başlıqları tapılmışdır. Bəsit texnologiyaya əsaslanan belə metaləritmə kürələrində yüksək hərarətin alınmasının təminatı ücün alışarkən zəngin karbon oksidi əmələ gətirən yüksək koloritli yanacaq növü lazım idi. Bu, ilk növbədə yüksək hərarət verən oduncaqlı ağac növləri - palıd, ardıc, arçan, vələs və s.-dən alınan kömür idi.

Ərintinin keyfiyyəti aşağıdakı amillərdən asılı idi: kürəyə havanın müntəzəm üfürülməsi, hərarətin yüksək səviyyədə saxlanılması, ərp formasında üzə qalxmış çıxarların - metal pasanın təmizlənməsi, qırsın mükəmməl döyülməsi və s.

Metal qırsa, adətən, dəyirmi, kündə formalı görünüş verirdilər. Metallurqların hasil etdiklər xammal, adətən istehsal üçün yararlı olmurdu və dəmirçilər hələ onu emal edib yararlı hala salmalı idi. Metaləritmə kürələri, adətən, şəhərlərin rabad hissəsində yerləsirdi. Qəbələ şəhər yerindən üzə çıxarılmış XV əsrə aid edilən üç metaləritmə kürəsi diqqətəlayiqdir. Bu kürələrin içərisindən metal kütləsi, metal pasa tapılmış, yanacaq ehtiyatının qalığı aşkar edilmişdir.

Metalişləmədə sənətdaxili ixtisaslaşma ilk növbədə xammalın xarakterindən asılı olaraq gedirdi. Buna müvafiq olaraq dəmirçilik, misgərlik və zərgərliyə ayrı-ayrılıqda baxmaq məqsədəuyğundur.

XIV-XVII əsrlərdə dəmirçiliyin inkişafı. Arxeoloji qazıntılar dəmirçiliklə ölkəmizin həm şəhərlərində, həm də kəndlərində məşğul olunduğunu göstərir. Dəmirçi emalatxanalarının qalıqları Dərbənd, Şamaxı, Şabran, Naxçıvan, Xarabaşəhər səhərgahlarından, Canaxır, Salmanbulağı yaşayış yerlərindən aşkarlanmışdı.

Son orta əsrlərdə Təbriz, Ərdəbil, Gəncə, Dərbənd, Naxçıvan, Şamaxı mühüm dəmirçilik mərkəzləri idi.

Dərbənd Narınqalasındakı XIII qazıntı sahəsində XIV-XV və XVI-XVII əsrlərdə fəaliyyət göstərmiş metalişləmə emalatxanalarının qalıqları aşkarlanıb tədqiq edilmişdir. XIV-XV əsrlərin emalatxanası 2,8x2,8 *m* və 4,5x2,8 m ölçüdə olmaqla, adi palçıqla daşdan hörülmüş iki otaqdan ibarət idi. Qalınlığı 0,9-1,1 *m* olan divarların hörgüsünün 1 və ya 2 cərgəsi (hündürlüyü 15-35 *sm*) salamat qalmışdır. Emalatxanada kürə qalıqları, metal pasa və tullantılar, metal məmulat, keramika və s. tapılmışdır. Həmin emalatxananın qalıqları üzərində XVI-XVII əsrlərdə fəaliyyət göstərmiş ikinci bir emalatxana yerləşirdi. Bu emalatxana da əvvəlki kimi adi palçıqla yonulmuş və yonulmamış iri daşlardan inşa edilmiş, qalınlığı 0,8-1 *m* olan divarların hörgüsünün 1-3 cərgəsi salamat qalmışdır. Emalatxanada ocaq, metal məmulat, iri daş həvəng-dəstə, şirli və şirsiz saxsı məmulat tapılmışdır.

Beləliklə, arxeoloji qazıntılar nəticəsində əldə olunmuş faktik materiallar ölkənin istər şəhərlərində, istərsə də kəndlərində dəmirçi emalatxanalarının olduğunu sənədləşdirir.

Dəmirçixanada başlıca element olan kürə və körükdən başqa bir sıra zəruri əmək alətləri və ləvazimatı olurdu. Kürə məmulat və ya yarımfabrikatın istidöymə üsulu ilə emalı üçün vacib olan hərarətin alınmasına imkan verirdi. Dəmirçinin başlıca əmək alətləri zindan, gürz, çəkic, tutqac, qələm, yeyədən ibarət idi. Bundan başqa dəmirçixanalarda pərgar da işlədilirdi. Dəmirçi alətləri arxeoloji qazıntılar zamanı Dərbənd, Şamaxı, Bakı, Şabran və Naxçıvan şəhərləri ərazilərindən tapılmışdır.

Dəmirçi emalatxanalarında kənd təsərrüfatı alətləri və onların dəmirdən olan hissələri, müxtəlif sənət sahələrində işlədilən alətlər, soyuq silahlar, təsərrüfat və məişətlə bağlı ləvazimat və s. istehsal olunurdu.

İxtisaslaşmanın dərinləşməsi nəticəsində silahsazlıq və nalbəndlik müstəqil sahələrə çevrilmişdi. Böyük şəhərlərdə ixtisaslaşma daha güclü idi. Qədim ənənələrə malik soyuq silahlar (qılınc, xəncər, nizə, təbərzin, ox və kaman) istehsalı kütləvi xarakter daşıyırdı. Təbriz, Gəncə, Dərbənd, Şamaxı mühüm silahsazlıq mərkəzləri idi.

Yerli sənətkarların istehsal etdikləri silah və zirehlər daxili və xarici bazarın tələbatını ödəyirdi. Müəyyən olunmuşdur ki, çar Boris Qodunovun zireh geyimlərindən on dəbilqəni azərbaycanlı silahsazlar istehsal etmişdilər.

Silahsazlıq orta və kiçik şəhərlərdə də kifayət qədər inkişaf etmişdi. Səfəvilər dövründə silahsazlıq daha da tərəqqi edir. İxtisaslaşmanın dərinləşməsi nəticəsində odlu silahlar istehsalı ilə məşğul olan ustalar ayrılmağa başlayır. Arxeoloji qazıntılar zamanı əsasən ox və nizə ucluqlarına, qılınc və xəncər, hərbi bıçaq nümunələrinə, zireh qalıqlarına təsadüf olunmuşdur.

Tapıntılar arasında ox ucluqları daha çoxdur. Məlum olduğu kimi, ox ucluqdan, ağac və ya qamış gövdədən və yayın yatırıldığı lələkdən ibarət olurdu. Son orta əsrlərdə ox ucluğu əsasən dəmirdən hazırlanır, gövdəyə iki üsulla: sancma və ya geydirmə üsulu ilə bərkidilirdi.

Döymə üsulu ilə daha nazik və yüngül zinət əşyaları hazırlamaq olurdu. Döymə prosesində metal sıxlaşır və daha möhkəm olurdu. Son orta əsrlərdə qəlibkarlıq üsulu ilə hazırlanmış zinət əşyalarından da kifayət qədər geniş istifadə olunurdu. Qəliblər saxsı və daşdan olurdu. Orta əsr sənətkarları baş, qulaq, boyun-sinə, qol, bilək, barmaq, geyim bəzəklərindən ibarət ənənəvi zinət əşyaları ilə yanaşı, həm də qiymətli metaldan qab-qacaq və avadanlıq da hazırlayırdılar. Bunu arxeoloji qazıntılar zamanı əldə edilmiş tapıntılar da təsdiqləyir.

Son orta əsrlərdə Azərbaycanın mühüm sənətkarlıq mərkəzlərində, o cümlədən Dərbənd, Təbriz, Naxçıvan, Şamaxı və Bakı şəhərlərində minasazlıq da kifayət qədər inkişaf etmişdi. Ənənəvi olaraq minasazlıq məmulatı qadın bəzəklərindən başqa, bəzən soyuq silahları, məişətdə işlədilən qabları da əhatə edirdi. Məlumdur ki, minalı məmulatın istehsal texnologiyasını səciyyələndirən başlıca cəhət məmulatın üzərini mina maddəsi ilə bəzəməkdən ibarətdir. Mina maddəsi həm bütövlükdə əşyanın səthinə, həm də onun polad qələmlə açılmış oyma ornamentlərinə yaxıla bilərdi. Məmulatın bədii tərtibatının xarakterindən asılı olaraq, yaşıl, abı, qızılı, tünd-qırmızı, firuzəyi və ağ rəngli minaların müxtəlif çalarları tətbiq olunurdu.

Rəngli materiallar, xüsüsilə ərinmiş şüşəyəbənzər maddə nəinki texniki, həm də bədii cəhətdən metalla uyğunluq təşkil etdikdə məmulatın dekorativliyini artırır, onun estetik təsir gücünu yüksəldirdi.

Mina odadavamlı metal oksidlərdən hazırlanaraq fırça ilə məmulatın üzərinə çəkilirdi. Məmulat odda bişirildikdən sonra mina bərkiyib sabitləşir və şüşəyəbənzar xassə kəsb edirdi. Bu mərhələ istehsal prosesində ən çətin və məsuliyyətli mərhələ olduğundan ustadan böyük təcrübə və həssaslıq tələb edirdi.

Silahların bədii işlənməsində bəzən xatəmkarlıq üsulundan istifadə olunurdu. Bu zaman hazır silah üzərində nəzərdə tutulan çeşni əsasında xırda deşiklər açılır, sonra həmin deşiklərə qızıl və ya gümüş mıx, sədəf, qiymətli daş və s. materiallar doldurularaq bəzənir, məmulatın üzərini sürtüb hamarlayırdılar. Xatəmkarlıq üsulu ilə bəzədilmiş son orta əsrlərə aid silahlardan Azərbaycanda istehsal olunmuş, Moskvada Kremlin Silah Palatasında saxlanılan XVI əsrə aid bir qalxan xüsusilə diqqəti cəlb edir. Maraqlıdır ki, rus arxiv sənədlərində 1594-cü ildə azərbaycanlı bir tacirin rus çarı Fyodor İvanoviçə xatəmkarlıq üsulu ilə bəzədilmiş qalxan hədiyyə etməsindən bəhs olunur: «Qalxanın üzəri oyulmuş və qızılla bəzədilmişdir...».

XIV-XVII əsrlərdə dulusçuluğun inkişafı. Monqol işğalı dövründə dulusçuluq sənətinə də ağır zərbə vurulmuşdu. Son orta əsrlərdə saxsı istehsalı, xüsusilə şirli məişət saxsı məmulatı istehsalı bir daha əvvəlki səviyyəsinə ucala bilməmişdi. Amma inşaat keramikasının – kaşı istehsalının genişlənməsi istisna təşkil edirdi.

Dulusçuluq yerli xammal əsasında inkişaf edirdi. Azərbaycan, o cümlədən Dərbənd şəhər dulusçuları iki növ gildən istifadə edirdilər. Təsərrüfat və mətbəx qabları, əsasən, tərkibində qum qarışığı olan məsaməli, «cod» gildən, süfrə qabları, nəfis saxsı məmulat daha çox narın, «yağlı» gildən hazırlanırdı. Məsaməli (cod) gildən hazırlanmış qablar möhkəmliyi və odadavamlılığı, narıngilli qablar isə hamar səthli və incə olmaları nöqteyi-nəzərindən üstünlüyə malik idi.

Arxeoloji qazıntılar zamanı son orta əsrlərə aid tam salamat qalmış dulusçu emalatxanası aşkarlanmasa da, ayrı-ayrı abidələrdən dulus kürələri, kürə ləvazimatı, qəlib, gil quyusu, istehsal çıxarları məlumdur. Etnoqrafik tədqiqatlardan bəllidir ki, hər

bir dulusçu emalatxanasında gil quyusu olurdu. Arxeoloji qazıntılar zamanı gil quyusu Salmanbulağı yaşayış yerində aşkarlanmışdır. Düzbucaq biçimli, uzunluğu 1,75 m, eni 1,35 m, dərinliyi 0,6 m olan bu quyu keyfiyyətli gillə dolu idi.

Tədqiqatçılar anqob naxışlı qabları şirli saxsı məmlatın nisbətən sadə ornament və fəndlərlə bəzədilmiş ucuz növü hesab edirlər. Erkən şirli saxsı məmulatı üçün səciyyəvi olan bu tip qabların istehsalı son orta əsrlərdə yenidən bərpa olunur. Belə qablar Dərbənd, Qəbələ, Bakı, Şamaxı, Şabran, Gəncə və Naxçıvan şəhərlərinin qazıntılarından məlumdur. Amma son orta əsrlərdə anqob naxışlı qablar digər şirli qablarla müqayisədə hissediləcək dərəcədə az yayılmışdı. Bəzi tədqiqatçılar onların XVII əsr üçün xarakterik olduğunu bildirirlər. Bu qabların naxışlanmasında əsasən sadə həndəsi naxışlar - dairə, zolaqlar, nizamsız səpələnmiş ləkələr, çoxguşəli ulduz və s. işlədilmişdir.

Son orta əsrlərdə çoxrəngli şirli saxsı qabların istehsalı məhdud şəkildə davam etməkdə idi. Lakin bu dövrün çoxrəngli şirli saxsı məmulatı istər bədii işləmə üslubuna, istər naxış motivlərinə, istərsə də rəng çalarlarına görə əvvəlki dövrün nümunələrindən geri qalır və onlardan köklü sürətdə fərqlənirdi. Son orta əsrlərin çoxrəngli şirli qabları, əsasən, nəbati və həndəsi naxışlarla, çox az hallarda heyvan və quş təsviri ilə bəzədilmşdir.

Çoxrəngli şirli saxsı məmulatının istehsalı mürəkkəb texnoloji prosesin nəticəsi olduğundan bu işin öhdəsindən ancaq yüksək peşə hazırlığı olan dulusçular gələ bilirdilər. Dulusçu-rəssamlar iki və daha artıq rəngdən istifadə edərkən, hər şeydən əvvəl, aşağıdıkıları nəzərə alırdılar:

1. Eyni qabın bəzədilməsində istifadə olunan müxtəlif xarakterli naxışları tam qabarıqlığı ilə bir-birindən fərqləndirmək.

2. Eyni xarakterli naxışlardakı ayrı-ayrı ayrıntıları nəzərə çarpdırmaq.

Monqol istilasından sonrakı dövrdə dulusçuluq sənətində müşahidə olunan ciddi geriləmə və durğunluq bu qrupdan olan qabların tədricən sönükləşməsi, öz əvvəlki parlaqlığını itirməsi və nəhayət, istehsaldan çıxması ilə nəticələnmişdir. Arxeoloji qazıntılar XVI əsrin ortalarından etibarən çoxrəngli şirli saxsı qabların istehsalının tam dayandırıldığını göstərir.

Arxeoloji qazıntılar zamanı tapılmış şirli saxsı məmulatı arasında şirə üzərində müxtəlif rənglərlə naxışlanmış kasa və boşqablar da vardır. Bu tip şirli qablar, əsasən, Naxçıvan keramika məktəbi üçün səciyyəvidir. Onlar şəffaf, mavi, açıq-firuzəyi, açıq-yaşıl rənglərlə örtülüb, tünd-göy, yaşıl, qəhvəyi, qara, çəhrayı rənglərlə bəzədilmişdir. Bəzək elementləri sadə həndəsi, növbəti, az-az hallarda isə təsvir motivlərindən ibarətdir.

Arxeoloji qazıntılar nəticəsində tapılmış şirli saxsı məmulatının bir qismini oturacağının altına möhür vurulmuş qablar təşkil edir.

Əlbəttə, sadalanan xüsusiyyətlərin, bütövlükdə XIV-XVII əsrlərin Azərbaycanda, o cümlədən Dərbənddə saxsı məmulatı istehsalı sahəsində xüsusi mərhələ olduğunu söyləməyə əsas verir. Başqa sözlə, monqol istilası, ölkənin təsərrüfat və mədəni həyatının bütün sahələri kimi, saxsı məmulatı istehsalına da güclü təsir göstərməsinə baxmayaraq, bütövlükdə, Azərbaycan, o cümlədən Dərbənd dulusçularının zəngin sənət ənənələrinin inkişafını dayandıra bilməmişdir. Doğrudur, əvvəlki əsrlərə, daha doğrusu, XII əsr səviyyəsi ilə müqayisədə saxsı məmulatı istehsalının həcminin müəyyən qədər məhdudlaşdığı, bədii-texniki səviyyəsinin isə qismən endiyi müşahidə olunur. Əlbəttə, bunu da təkcə monqol istilasının təsiri kimi deyil, həm də ictimai-iqtisadi inkişafın gedişindən doğan bir hal kimi dəyərləndirmək daha ədələtli olardı. Bu cəhətdən, bəhs edilən dövrdə metal qabların istehsalının, fayans və çini qabların idxalının genişlənməsinin və saxsı məmulatı istehsalında inşaat keramikasının xüsusi çəkisinin artmasının təsiredici rola malik olduğunu qeyd etmək yerinə düşərdi.

Azərbaycanın, o cümlədən Dərbənd şəhərinin son orta əsr şirli saxsı məmulatının ayrıca qrupunu Şərqdən gətirilmiş fayans qablara bənzədilən qablar təşkil edir. Həmin qabların istər hazırlanmasında, istərsə də naxışlanmasındı fayans qabların təsiri özünü birüzə verir. Bu qrupdan olan nümunələrin də gili, fayans qablarda olduğu kimi, bozumtul olub, möhkəm deyil. Onların istehsalı üçün yerli kaolin ehtiyatlarından istifadə edilməsi də tamamilə mümkün idi. Fayans qablarla fayansa bənzədilmiş qabları yaxınlaşdıran digər əlamət onların forma etibarilə də oxşarlığıdır. Belə qabların şirlənmə və naxışlanmasında da yaxınlıq vardır. Bu məqsədlə daha çox kobalt şirindən istifa-

də etmişlər. Tək-tək hallarda, daha doğrusu, çoxrəngli naxışlara müraciət edildiyi hallarda, mis və marqanes oksidlərindən alınmış yaşıl və tünd-qəhvəyi rənglər də işlədilirdi. Rənglər parlaq olsun deyə, qabın anqob təbəqəsinin qalın olmasına xüsusi diqqət yetirilmişdir ki, bu da öz növbəsində şirə örtüyünün davamlılığına mənfi təsir göstərmişdir. Lakin naxış zənginliyi, rəng çalarlarının yeniliyi və parlaqlığı onların istehsalındıkı qüsurları kölgədə qoyur.

Fayansaoxşar qabların istehsalında yerli dulusçular Şərq həmkarlarının təcrübəsindən yaradıcılıqla bəhrələnmiş, Azərbaycan keramika məktəbi üçün səciyyəvi olan cəhətləri qoruyub saxlamışdılar.

Fayansaoxşar şirli saxsı qabların istehsalına XIV əsrdən başlanıldığını söyləmək olar.

Son orta əsrlərdə Azərbaycanın başlıca dulusçuluq mərkəzlərində həm də fayans qablar istehsal olunurdu. Ölkədə fayans məmulatı istehsalı üçün zəruri olan xammal mənbələri - kaolinli gil, kvars qumu və çöl şpatı yataqlarının mövcudluğu, eləcə də yerli ustaların yüksək peşəkarlıq səviyyəsi bu sahənin inkişafına əlverişli zəmin yaradırdı. Dərbənd, Gəncə, Naxçıvan, Kiran, Qəbələ, Şamaxı, Şabran və digər şəhərlərin xarabalıqlarında aparılmıs arxeoloji qazıntılar zamanı tapılmış fayans qabların bir qismi gətirilmə, digər qismi isə yerli istehsalın məhsuludur.

Döyüş və ovçuluq ləvazimatı qoruyucu üzüklər ilə təmsil olunmuşdur. Orta çağda kaman və sadağın hazırlanmasında da sümükdən geniş istifadə olunmuşdur. Amma təəssüf ki, onların nümunələri dövrümüzə gəlib çatmamışdır.

Sümükişləmə sənəti. Azərbaycanın, o cümlədən Dərbənd şəhərinin orta əsrlər sənətkarlığında sümükişləmə müstəqil sənət sahəsi kimi fəaliyyət göstərirdi. Zəngin xammal mövcudluğu bu sənət sahəsinin inkişafını şərtləndirmişdi. Arxeoloji tədqiqatlar zamanı tapılmış çoxsaylı sümük əşyalar, habelə mişarlanmış və ya iti alətlə kəsilmiş lakin naməlum səbəbdən istehsalı başa çatmamış məmulat nümunələri sümükişləmə sənətinin həm şəhər, həm də kəndlərdə fəaliyyət göstərdiyini təsdiqləyir. Arxeoloji qazıntılardan sümükişləmə sənətində tətbiq olunan alətlər də tapılmışdır.

Arxeoloji qazıntılar zamanı əldə olunmuş sümük məmulatlar öz təyinatına görə aşağıdakı qruplara ayrılır: əmək alətləri və onların hissələri, döyüş ləvazimatı, musiqi alətləri və onların hissələri, bəzək əşyaları, oyuncaqlar. Əmək alətləri əsasən kirkit, həvə, bis, qıyıq, iynədən, eləcə də bıçaq, dəhrə, ülgüc kimi dəmir alətlərin dəstəklərindən ibarətdir. Sadə əmək aləti olan sümük bizlər əksər abidələrdən tapılmışdır. Biz və qıyıqlardan fərqli olaraq, ucu küt kiçikölçülü konusvari sümük alətlər isə, görünür, orta əsr cərrahları tərəfindən işlədilmişdir. Musiqi alətlərindən tütək fraqmentinə rast gəlinmişdir.

Son orta əsrlərin stolüstü oyunlarında işlədilmiş əşyalardan arxeoloji qazıntılar zamanı aşıq və zər tapılmışdır.

Sümükişləmə sənəti ilə bağlı alətlərin, xammal nümunələrinin istehsal tullantılarının və sümük məmulatın tədqiqi bu sənət sahəsində istehsal prosesini izləməyə imkan vermişdir. Proses bir neçə mərhələdən ibarət idi. Birinci mərhələ xammalın toplanması və istehsala müvafiq ayrılması idi. Tədqiqatçılar sənətkarların iribuynuzlu mal-qara və davara məxsus buynuz və sümüklərdən xammal kimi daha çox istifadə etdiklərini göstərir. Ov heyvanlarından isə maral və cüyürün buynuz və sümükləri geniş işlədilirdi.

İstehsalın ikinci mərhələsində xammal yarımfabrikat halına salınırdı. Bu mərhələdə bir neçə əməliyyat aparılırdı. İlk növbədə, istehsal üçün seçilmiş xammal yağsızlaşdırılır və bir neçə dəfə kül suyunda və ya turşumuş süd məhlulunda qaynadılırdı. Daha sonra xammal bölünür, yonulur, kəsilir, lazımi formaya salınırdı. Üçüncü mərhələdə nəzərdə tutulan məmulat hazırlanır, dördüncü mərhələdə cilalanır və naxışlanırdı. Bəzən cilalanmış və naxışlanmış məmulat bu və ya digər rənglə boyanırdı.

Naxışsalma prosesində sənətkarlar cızma və oyma üsullarından daha çox istifadə edirdilər. Ən geniş yayılmış naxış isə «pərgar» (içərisində nöqtə olan çevrə) ornamenti idi.

Arxeoloji qazıntılar zamanı aşkarlanmış yarımfabrikat və müxtəlif tip sümük məmulatlarından aydın olur ki, sümükişləmə sənətində yerli ustalar iş prosesində mişar, bıçaq, balta, burğu, yeyə, pərgar və digər alətlərdən istifadə etmişlər.

Daşişləmə sənəti. Dövrün memarlıq, xatirə abidələri, arxeoloji qazıntılar zamanı aşkarlanan müxtəlif təyinatlı qurğu və məmulat nümunələri daşişləmə sənətinin kifayət qədər inkişaf etdiyini göstərir. Daşişləmə sənəti, ənənəvi olaraq, daşçıxarma, daş-

yonma və daşoyma kimi üç başlıca istehsal sahəsini əhatə edirdi. Azərbaycan, o cümlədən də Dərbənd ərazisində xammal zənginliyi daşişləmə sənətinin inkişafına müsbət təsir göstərirdi. Yerli sənətkarlar əsasən əhəngdaşı, mərmər, tuf, bərktərkibli qaya daşları, çaydaşı kimi xammaldan istifadə edirdilər. Daşisləmə sənətində xammal, adətən, xüsusi mədən-yataqlarda, karxanalarda tədarük olunurdu. Karxanadan kəsilib çıxarılan sal daşlar iş yerinə gətirilərək təyinatı üzrə yonulub lazımi formaya salınırdı. Daşın yonulması və doğranılması, etnoqrafik materiallardan da göründüyü kimi, müxtəlif formalı baltalarla yerinə yetirilirdi. Memarlıq abidələrindən və arxeoloji qazıntılar zamanı üzə çıxarılan tikili qalıqlarından məlum olur ki, inşaat üçün tətbiqindən asılı olaraq hörgü, sütun altlığı, sütun, üzlük, birləşdirici, günbəz, bəzək, karniz daşlarının hər biri təyinatına uyğun yonulurdu.

Arxeoloji qazıntılardan çoxlu miqdarda təsərrüfat və məişətin müxtəlif sahələrində istifadə olunmuş daş alət və vasitələr məlumdur. Naxçıvanda və Dərbənddə XIV-XV əsrlər təbəqəsindən tapılmış daş balta, arxeoloji qazıntılarda tez-tez təsadüf olunan dəyirman daşları və kirkirə əsasən az ovxuntu verən bərkcinsli daşlardan yonulub hazırlanırdı. Xırman daşı (vərdənə), daş axurlar və s. bu qəbildən olan daş məmulatlarıdır.

Son orta əsrlərdə xatirə abidələrinin - başdaşı, sinədaşı, sənduqə və qəbirüstü fiqurların hazırlanması daşişləmə sənətində mühüm yer tuturdu. Bu dövrdə daşyonmanın heykəltəraşlıq sahəsi qəbirüstü qoç və at fiqurlarının yonulması ilə yenidən dirçəlirdi.

Yerli ustalar daşişləmənin çapma, yonma, cilalama, deşmə, oyma və digər usullarını yüksək peşəkarlıqla yerinə yetirirdilər. Tikililər və qəbirüstü xatirə abidələrindən göründüyü kimi, daşyonmanın qaraçapma, cümməçapma, dişəmə və cilalama üsulları mövcud olmuşdur. İnşaatda başlıca olaraq üzü cümməçapma üsulu ilə yonulmuş daşlardan istifadə edilirdi. Amma bəzən qaraçapma üsulu ilə yonulmus hörgü daşlarına və dişəmə üsulu ilə narın yonulmuş üzlük daşlarına təsadüf olunur. Cilalama üsulu ilə daşın səthinin şümal hala salınması, adətən, əmək alətləri, ictimai binaların üzlük daşları, bəzək hissələrində və məzarüstü xatirə abidələrində tətbiq edilirdi.

Cilalama müxtəlif növ törpü və yeyə vasitəsilə yerinə yetirilirdi. Ustalar iş prosesində əvvəlcə iridişli törpülər işlədir, sonra yastı, üçtilli, dördtilli və bülül yeyələrdən istifadə edirdilər.

Bəhs olunan dövrdə daşişləmənin mühüm sahəsi olan həkkaklıqda böyük nailiyyətlər olduğunu çoxsaylı sənət əsərləri təsdiq edir. Həkkaklar dişli törpülərdən, müxtəlif tip yeyə, burğu, pərgar, ülgü, iskənə və s. alətlərdən istifadə etməklə, qabartma və ya oyma texnikasında nəzərdə tutulan həndəsi, nəbati naxışları və yaxud ərəb əlifbasının kufi, nəsx və süls xətləri ilə kitabələri daş üzərinə həkk edirdilər.

Toxuculuğun inkişafı. Toxuculuq son orta əsrlərdə Azərbaycanda, o cümlədən də Dərbənd şəhərində sənət istehsalında ən geniş yayılmış sahələrdən biri olmaqla ölkə iqtisadiyyatında özünəməxsus yer tuturdu. Bu sənət sahəsi həm şəhər, həm də kəndlərdə mövcud olub, əhalinin geyim və məişət ehtiyaclarının, eləcə də xarici bazarın tələbatının ödənilməsinə yönəlmişdi. Toxuculuğun bəsit və ən məhsuldar əmək aləti olan iy başlıqları arxeoloji qazıntı aparılmış bütün orta çağ şəhər və kənd tipli yaşayış yerlərindən tapılmışdır. Sümük, daş və saxsıdan hazırlanmış iy başlıqları ölcü və kütlə etibarilə bir-birindən fərqlənir. Etnoqrafik tədqiqatlarla müəyyən olunmuşdur ki, ağır kütləli iy başlıqları, əsasən, kətan, yüngülləri isə yun və ipək əyirmək üçün tətbiq olunmuşdur. Dəmir iyin (əyircəyin) özü isə arxeoloji qazıntılar zamanı Amarasın III yaşayış yerindən tapılmış və tədqiqatçılar tərəfindən XIII-XIV əsrlərə aid edilmişdir.

Təbriz, Ərdəbil, Marağa, Dərbənd, Naxçıvan, Gəncə, Şamaxı şəhərləri mühüm toxuculuq mərkəzləri idi. Toxuculuqda başlıca xammal yerli təsərrüfatlara əsaslanmaqla heyvan və nəbati mənşəli idi. Yun, ipək, pambıq və kətanın kifayət qədər istehsalı xammala olan tələbatı tam ödəyirdi. Bu isə, müvafiq olaraq, toxuculuğun şalbaflıq, sərbaflıq və bəzzazlıq kimi sahələrinin inkişafını təmin edirdi. Toxuculuq məmulatı çürüməyə meyilli olduğundan arxeoloji qazıntılar zamanı onlar nadir hallarda tapılır.

Orta əsrlərdə yun məmulat istehsalında müxtəlif növ xalçalar xüsusi yer tuturdu. Xalçaçılıq qadın sənətinin ən geniş yayılmış növü idi. «Dərbənd qadını üçün xalça-palaz toxumaq ən adi məşğuliyyət növü, keçmiş ailə məişətinin zəruri tərkib hissələrindən biri idi».

Azərbaycan, o cümlədən də Dərbənd xalçaları

ölkənin bütün bölgələri üçün ümumi olan səciyyəvi xüsusiyyətlərə malik olmaqla yanaşı, həm də ayrı-ayrı bölgələrə aid məhəlli xüsusiyyətləri ilə də məşhur idi. Bu əsasda tədqiqatçılar Təbriz, Quba-Şirvan, Dərbənd, İrəvan-Naxçıvan, Gəncə-Qazax və Qarabağ xalça tiplərini ayırırlar. Xalçaçı ustalar xovlu xalça məmulatı ilə yanaşı, həm də xeyli miqdarda xovsuz məmulat: kilim, məfrəş, çuval, xurcun, heybə və s. toxuyurdular.

Orta əsr abidələrinin arxeoloji tədqiqi nəticəsində xalçaçılıq sənəti ilə bağlı bəzi əmək alətləri, o cümlədən qayçı, qarmaq, həvə, kirkit tapılmışdır.

Toxuculuğun inkişafı onunla sıx bağlı olan boyaqçılıq sənətinin də inkişaf etməsinə zəmin yaratmışdı. Boyaqçılıq üçün başlıca xammal təbii minerallar və müxtəlif boya alınan bitki və onların kökləri idi. Arxeoloji qazıntılar zamanı boyaqçılıq izlərinə Dərbənd, Şabran şəhər yerində və Canaxır yaşayış yerində XIV-XV əsrlərə məxsus təbəqədə təsadüf olunmuşdur.

Dabbaqlığın inkişafı. Son orta əsrlərdə Azərbaycanda, o cümlədən də Dərbənd şəhərində dəriişləmə – dabbaqlıq sənəti öz inkişafını davam etdirməkdə idi.

Dabbaqxanalarda dərini aşılamaq üçün əhəng quyusu və onun yaxınlığında dərin hovuz olur. Quyu planda dairəvi, kəsikdə aşağıya doğru genişlənən konus formasında olub bişmiş kərpiclə hörülürdü. Quyunun dibində əhəng qalıqlarının aşkarlanması da təsadüfi olmamışdır. Hovuz dördbucaqlı biçimdə olub, bişmiş kərpiclə hörülürdü. İçəri tərəfdən divarlar və döşəməsi gəc suvaqla suvanırdı. Suvaq nümunələrinin analizi onun suya davamlı, yüksək keyfiyyətli gəc suvaq olduğunu təsdiqləmişdir.

Arxeoloji qazıntıların nəticələri və əldə edilmiş materialların təhlili son orta əsrlərdə sənət istehsalı səviyyəsinin müsəlman Şərqinin həmin çağdakı iqtisadi inkişaf səviyyəsinə uyğun olduğunu və sənətkarlığın ölkə iqtisadiyyatında əhəmiyyətli rol oynadığını söyləməyə imkan verir. Aşkarlanmış əmək alətləri və sənət məmulatı ölkə sənətkarlarının o dövrün texniki nailiyyətlərinə yiyələndiyini, yüksək keyfiyyətli sənət məhsulu istehsal etdiklərini, sənətdaxili ixtisaslaşmanın mövcudluğunu sənədləşdirir. Şəhər sənətkarlıq məhsulu bazar tələbatına uyğun istehsal olunurdu. Kənd tipli yaşayış yerlərində aparılmış arxeoloji qazıntıların nəticələri sənətkarlıqla təkcə şəhər sakinlərinin deyil, həm də müəyyən dərəcədə kənd əhalisinin məşğul olduğunu göstərir. Bəzi sənət sahələri, o cümlədən dulusçuluq, dəmirçilik, toxuculuq, xalçaçılıq kimi sənətlər kənd məskənlərində də fəaliyyətdə olub, əsasən yerli tələbatı ödəyirdi.

Tədqiq edilən dövrdə sənətkarlığın inkişaf dinamikasında iki mərhələni ayırmaq olar: XIV-XV əsrlər sənət istehsalının dirçəlişi, ixtisaslaşmanın dərinləşməsi ilə əlamətdar olduğu halda, XVII əsrdə bəzi sənət sahələri istisna edilməklə sənətkarlıqda tənəzzül özünü büruzə verir.

Ticarət yolları və əlaqələr. Monqol istilası bütün Azərbaycanın olduğu kimi, Dərbənd şəhərinin də ticarət əlaqələrini zəiflətdi, onun həcmini minimuma endirdi. Amma, hətta belə bir ağır şəraitdə də ticarət əlaqələri tam kəsilməmişdi. Digər tərəfdən, geniş ərazili Elxanilər dövlətinin yaranması xarici ticarət əlaqələrinin intensivliyinə mənfi təsir göstərən gümüş böhranını doğuran siyasi və iqtisadi səbəbləri aradan qaldırmaq üçün zəmin yaratmış oldu.

Xarici ticarətin yenidən canlanması XIII əsrin sonu - XIV əsrin əvvəllərinə təsadüf edir. Bu zaman hülakülər xəzinəyə müntəzəm gəlirin daxil olmasında şəhər sənətkarlığının və ticarətin əhəmiyyətini dərk etməyə başlayır və bu məqsədlə ticarəti, maliyyə sistemini və şəhər həyatını tənzimləyən islahatlar keçirirdilər. Elxanilər hakimiyyəti şəhərsalma və ticarətin təşkilatçısı kimi çıxış etməyə başlayır.

Qazan xanın islahatları ölkədə daxili və xarici ticarətin inkişafına güclü təkan verdi. Mövcud zərbxanaların fəaliyyəti intensivləşdi, yeniləri fəaliyyətə başladı. Zərb olunan sikkələr nəinki daxili ticarətin tələbatını ödəyir, həm də beynəlxalq ticarət əlaqələrində rəqabətədözümlü pul vahidi kimi geniş işlədilirdi. Şəhərlərdə, xüsusilə paytaxt və böyük şəhərlərdə sənətkarlığın canlanması ticarətin inkişafına müsbət təsir göstərirdi. Təbriz, Marağa, Ərdəbil, Dərbənd, Naxçıvan, Gəncə, Bərdə, Şamaxı, Bakı şəhərlərində iri bazarlar fəaliyyət göstərirdi. Paytaxt şəhərlərdə, eləcə də böyük şəhərlərdə bir neçə bazar olurdu.

Daxili və şəhərlərarası ticarətdə canlanma müşahidə edilirdi. Son orta əsrlərə, xüsusilə XIV-XV əsrlərə aid mədəni təbəqə yatımından arxeoloji qazıntılar zamanı mis sikkələrin kütləvi şəkildə tapılması daxili ticarətin kifayət qədər intensiv xarakter daşıdığına sübutdur. Şəhərlər, əvvəllər olduğu kimi,

yenə də kənd nahiyəsini sənətkarlıq məmulatı ilə təmin edir, kənd isə öz növbəsində şəhər əhalisini ərzaqla, sənətkarlığı isə xammalla təchiz edirdi. Daxili ticarətin intensiv xarakter daşımasında ölkənin təbii-coğrafi şəraiti də müəyyən təsirə malik idi. Ölkədə düzən, dağətəyi və dağlıq rayonların mövcudluğu və onların əhalisinin təsərrüfat məşğuliyyətindəki bəzi ixtisaslaşmalar da ölkədaxili ticarətin inkişafına öz təsirini göstərirdi. Ölkənin şəhərləri karvan yolları ilə bir-birinə bağlanmışdı. Bəzən bu yollar beynəlxalq ticarət yolları ilə qovuşurdu. Məsələn, Şirvana müxtəlif istiqamətlərdən karvan yolları uzanırdı.

Şabrandan Şamaxıya iki karvan yolu ilə getmək olurdu. Birinci karvan yolu Beşbarmaq dağınadək düzənlik ilə, sonra isə dağlıq ərazi ilə Altıağaca, oradan isə Şamaxıya qədər gedirdi. Bu ticarət yolunda üç karvansara vardı. Onlardan birincisi Gilgilçayın sağ sahilində, ikincisi Beşbarmağın ətəyində, üçüncüsü isə Altıağacda yerləşirdi. Onlardan birinin qalıqları arxeoloji tədqiqatlar zamanı Beşbarmaq dağı yaxınlığında qeydə alınmışdır. Şirvan-Abşeron memarlıq məktəbinə xas əlamətlərə malik bu karvansaranın rəsmi A.Oleari, daha sonra isə S.Q.Qmelin tərəfindən çəkilmişdir. A.Oleari yazır: «Bu karvansara böyük dördkünclü daşlardan hörülmüş çox köhnə bir bina idi. O, dördbucaqlı biçimdə idi. Hər tərəfdən divarların uzunluğu 42 addım idi».

Son orta əsrlərdə Azərbaycan beynəlxalq ticarət yollarının keçdiyi ölkələrdən biri olaraq qalırdı. XIII-XIV əsrlərdə əsas şimal yolu Təbriz və Mərənd şəhərlərindən keçərək Araz çayı sahillərinədək çatırdı. Başqa bir yol isə Sultaniyyə, Zəncan, Təbriz, Ərdəbil, Mahmudabad, Bakı, Şamaxı şəhərlərindən keçərək Dərbəndədək uzanırdı. Həmin baş yolun bir qolu isə Araz çayının kənarındakı Bəcirəvan, Beyləqan, Lənbəran, Bərdə, Gəncə və Şəmkirə, sonra isə Tiflisə doğru yönəlirdi. Baş yolun ikinci qolu isə Bərdədən Dərbəndə, oradan da şimala gedirdi.

Həmədandan başlanan yol Zəncanda Tarom və Miyanə olmaqla iki qola ayrılırdı. Taroma gedən yolun özü də iki qola haçalanırdı. Zəncandan Miyanəyə gedən yol isə şimal, şimal-qərb və qərb yollarına ayrılırdı. Şimal yolu Ərdəbil-Muğan-Bakı-Dərbənd xəttini, şimal-qərb yolu Ucan-Urmiya gölünün şimal sahili - Qara dəniz və Kiçik Asiya xəttini, qərb yolu isə Marağa-Urmiya gölünün cənubu - Ravənduz, Mosul, Hələb, Aralıq dənizinin sahillərinə qədər uzanırdı. Qitələrarası Böyük İpək yolu ilə yanaşı, XIII-XIV əsrlərdə şimal yolu Dərbənddən şimalda bir neçə qola şaxələnir, onlardan biri Qızıl Orda ərazisindən keçib Çinə gedirdi.

XIV-XV əsrlərdə Şirvan ipəyinin beynəlxalq ticarətdə rolunun artması, onun həm Avropa, həm də Şərq ölkələrinə ixracı ilə əlaqədar Dərbənd, Biləsuvar, Mahmudabad, Şamaxı, Şabran karvan yolunun əhəmiyyəti daha da artırdı. XV əsrdən etibarən Niyazabad, Şabran, Şamaxı, Təbriz karvan yolu müntəzəm fəaliyyətə başlayır və XVI-XVII əsrlərdə bu yolun fəaliyyəti xüsusilə genişlənirdi. XVI-XVII əsrlərdə Təbriz-Biləsuvar-Mahmudabad-Şamaxı-Şabran-Niyazabad karvan yolu ilə yanaşı, İsfahan-Qəzvin-Rəşt-Astara-Lənkəran-Bakı-Şabran-Dərbənd karvan yolundan da istifadə olunurdu.

Bu dövrdə Volqa-Xəzər ticarət yolunun yenidən canlanması nəticəsində Şimal ölkələri ilə ticarət əlaqələri intensivləşir. Xəzər dənizi ticarətində nəzərəçarpan yenilik Şirvanın Qərbi Avropa ölkələri ilə intensiv ticarətə başlaması və bu ticarətdə genuyalı və venesiyalı tacirlərin xüsusi fəallıq göstərməsindədir. Bakı və Dərbənd limanları ilə yanaşı, bu dövrdə Müskür düzündə Niyazabad və Vəlvələçay limanları, onlardan cənubda isə Şabran limanı beynəlxalq ticarətə qoşulmuşdu. Son orta əsrlərdə Şimaldan gələn rus ticarət gəmiləri Xəzər dənizinin qərb sahilində Niyazabad, Vəlvələçay və Şabran limanlarında sahilə yan alır, tacirlər mallarını boşaldaraq karvan yolu ilə Şamaxıya istiqamətlənirdilər. Görünür, bu limanlardan ilk istifadə XIV əsrdə olmuş, XV əsrdən isə onlar müntəzəm fəaliyyət göstərmişdilər. XV-XVI əsrlərdə beynəlxalq ticarətdə Bakı və Niyazabad limanlarının rolu xüsusilə yüksəlir. Xəzər dənizinin bu zaman «Bakı dənizi» adlandırılması da məhz şəhərin ticarət əhəmiyyətinin artması ilə bağlı idi. XV əsr venesiyalı səyyah Bakı haqqında qeydlərində bildirirdi ki, bu şəhərdə böyük ticarət aparılır və onun adı ilə dəniz Bakı dənizi adlanır. Yeri gəlmişkən qeyd edək ki, Əmir Teymurun 1395-ci ildə Qızıl Ordu dövlətinə qarşı yürüşündən sonra Dərbənd şəhər limanının əvvəlki əhəmiyyətini itirməsi nəticəsində Bakı şəhər limanı Xəzər dənizində baş limana çevrilmişdi.

Orta əsr şəhərlərinin xarabalıqlarında aparılmış arxeoloji qazıntılar nəticəsində Çindən ənənəvi olaraq yüksək keyfiyyətli çini, seladon və saxsı qab-

lar gətirildiyi müəyyən olunub. Yazılı qaynaqların araşdırılması Azərbaycan şəhərlərində, o cümlədən Dərbənddə Çin tacirlərinin çini qablarla ticarət etməsi faktını üzə çıxarıb. Çini və seladon qab nümünələrinin şəhər qazıntılarından tez-tez tapılması, hətta kənd tipli yaşayış yerlərindən aşkarlanması Azərbaycan şəhərlərinin və həmçinin Dərbəndin Çin ilə ticarət əlaqələrinin geniş vüsət aldığına dəlalət edir. Çindən gətirilən müxtəlif çeşiddə nəfis çini və seladon qab nümunələri Dərbənd, habelə Gəncə, Qəbələ, Şamaxı, Şabran şəhərlərinin qazıntılarından daha çox tapılmışdır. Bu qəbildən olan tapıntılar sualtı arxeoloji tədqiqatlardan, xüsusilə Amburan burnu akvatoriyasındakı tədqiqatlardan da yaxşı məlumdur. Bahalı Çin dulus məmulatı nəinki şəhər sakinlərinin, həm də kənd əhalisinin məişətinə daxil olmuşdu.

Ticarətlə bağlı maraqlı tapıntılardan biri də qurğuşundan düzəldilmiş kvadrat formalı çəki daşıdır. Onun üzərində beş kəsik vardır. Bununla görünür onun 5 misqala uyğunluğu göstərilmişdir. Çəki daşının ağırlığı 27,5 qrama bərabərdir.

Numizmatik materiallar da son orta əsrlərdə Azərbaycan şəhərlərinin, o cümlədən də Dərbəndin kifayət qədər geniş ticarət əlaqələrinə malik olduğunu göstərir. Məhz XVI əsrin sonlarından Azərbaycana Avropada zərb olunmuş gümüş pullar - talerlər gətirilir.

XIII-XVII əsrlərdə pul dövriyyəsi. Artıq yuxarıda qeyd edildiyi kimi, gümüş böhranını doğuran siyasi və iqtisadi səbəblər monqol istilası ilə aradan qalxmış oldu. Gümüş pul sistemi bərpa olundu. XIII əsrin 30-40-cı illərindən etibarən Azərbaycanda, o cümlədən Dərbənd şəhərində gümüş pulların (dirhəmlərin) zərbinə başlanıldı. Hülakülər dövlətinin yaranmasından sonra ölkədə gümüş pul sistemi tamamilə öz mövqelərini möhkəmləndirdi. Qazan xanın islahatları nəticəsində Hülakülər dövlətində vahid sikkə sistemi bərqərar oldu. İslahatdan sonra dövriyyəyə «qazaniyyə» adlı qızıl dinarlar, çəkisi 12,8 *q* olan gümüş dinarlar, çəkisi 2,13 *q* olan gümüş dirhəmlər və mis sikkələr - felslər buraxıldı. Tümən isə hesablama vahidi müəyyən edildi. Tümən10000 gümüş dinara bərabər tutulurdu. Qazan xanın islahatlarları Azərbaycanda şəhər həyatının, xüsusilə də əmtəə-pul münasibətlərinin xeyli canlanmasına təkan verdi.

XIV əsrin birinci yarısında Azərbaycanda 35 zərbxana fəaliyyət göstərirdi. Onların çoxunda Hülakülərin gümüş, bəzilərində isə həm də qızıl sikkələr zərb edilirdi. Daxili bazarın ehtiyaclarını ödəmək üçün xeyli mis sikkə zərb edilirdi. Qazan xan islahatının yaratdığı sabitlik və dirçəliş uzun sürmədi. XIV əsrdə cərəyan edən hərbi-siyasi hadisələr dirhəmin mövqeyini yenə sarsıtdı, onun çəkisi tədricən azalaraq həmin yüzilliyin sonunda 1 qrama endi.

XV əsrin əvvəllərində Azərbaycanın, o cümlədən Dərbənd şəhərinin pul sisteminə yeni sikkə tipi - Əmir Teymurun zərb etdirdiyi təngə daxil oldu. Əmir Teymurun Hindistan təcrübəsindən əxz etdiyi bu yeni pul vahidi 6,2 *q* çəkidə zərb olunmağa başlasa da, sonralar 5,2 *q* və daha az çəkiyə enmişdi. Yeni gümüş sikkə tipi yeddi əsrdən artıq müddətdə müsəlman ölkələrinin başlıca pul vahidi olmuş dirhəmi sıxışdırıb aradan çıxardı. Kiçik gümüş pul vahidi olan, daxili bazarın ehtiyacını ödəməyə yönəlmiş «miri» adlı sikkələrin də zərbinin əsasını Əmir Teymur qoymuşdur.

Azərbaycanda təngə ilk dəfə Əmir Teymurun özü tərəfindən hicri 805-ci ildə Təbrizdə və Şamaxıda, hicri 806-cı ildə isə Dərbənddə zərb olunmuşdur. Qaraqoyunlu hökmdarı Cahan şahın hakimiyyəti illərində Azərbaycanda, o cümlədən Dərbənddə təngə zərbi daha geniş yayılmış, onun zərb etdirdiyi təngələr səliqəliliyi, kufi qarışıq nəstəliq xətti ilə fərqlənir. Yüksək əyarlı həmin sikkələrin orta çəkisi 5,2 *q-a* bərabərdi.

Şirvanşahlar XIII əsrin son qərinəsi və XIV əsrdə öz adlarından gümüş sikkə zərb etdirmir, Hülakülərin, Cucilərin, Cəlairilərin və Teymurilərin zərb etdirdikləri sikkələri işlədirdilər. Əmir Teymurun vəfatından sonra Şirvanşahların sikkə zərbi üçün şərait yaranmışdı. Bir qədər sonra Şirvanın Şamaxı, Bakı, Dərbənd kimi şəhərlərin zərbxanalarında hökmdarın adı və zərb tarixi göstərilmədən Şirvanşahların gümüş sikkələrinin buraxılışına başlanılmışdır. Bunlar, əsasən, gümüş təngələr idi. Onların üzərində zərb ilinin göstərilməsinə Şirvanşah I Xəlilullahın hakimiyyəti dövründə başlanılmışdır. Şirvanşah Fərrux Yasar isə sikkənin üzərində öz adını göstərməyə başladı. Lakin onun hakimiyyətinin sonunda təngənin çəkisi azalaraq 2,12 *q-a* enir. Şirvanşahların gümüş təngələri, əsasən, Şamaxı şəhərində zərb olunurdu. Mis sikkələr isə anonim olmaqla Şamaxı, Dərbənd, Bakı, Şabran və Mahmudabadda zərb edilirdi.

XVI əsrin əvvəllərində Şirvanda və Dərbənddə «qazıbəyi» adlanan sikkələrdən də istifadə olunurdu. Həmin sikkələr Şirvanşah Fərrux Yasarın 1501-ci ildə Şirvan taxtında oturmuş oğlu Qazı bəyin adı ilə bağlı olmuşdur. Şirvan Səfəvilər dövlətinə birləşdikdən sonra Şirvanşahların sikkələri sıxışdırılıb aradan çıxarılmışdı.

I Şah Təhmasib dövründə şahı ən geniş yayılmış pul vahidi idi. Daxili ticarətdə «bisti» adlandırılan, düzbucaqlı formaya malik, 0,936 *q* çəkisi olan xırda gümüş sikkə geniş tətbiq olunurdu. Tipoloji xüsusiyyətlərinə görə, I Şah Təhmasib dövründə zərb olunan sikkələr əvvəlki Səfəvi sikkələrinin əlamətlərini özündə davam etdirirdi. Lakin onun hakimiyyətinin sonuna doğru sikkələrin çəkisinin azalması, keyfiyyətinin aşağı düşməsi müşahidə olunurdu.

II Şah İsmayılın pul islahatı keçirmək cəhdi baş tutmadı. Onun ənənəvi şiə rəmzlərindən imtina etməsi şiə ruhanilərinin inadlı müqavimətinə tuş gəlir. Şah Məhəmməd Xudabəndi tədavülə yeni sikkə buraxdı. Bu sikkə «məhəmmədi» adlanırdı.

Səfəvilər dövlətinin sikkə sistemində əsaslı dəyişikliklər I Şah Abbasın islahatı nəticəsində baş vermişdir. Bu zamandan etibarən sikkə sisteminin əsasında yeni sikkə tipi – «abbasi» dururdu.

Nəzəri baxımdan bir «abbasi»nin çəkisi 7,8 *q-a* bərabər olmalı idi. Faktiki materiallar isə onun 7,62 *q-a* bərabər olduğunu göstərir. İslahatdan sonra üç nominalda qızıl sikkələr zərb olunmuşdur. Qızıl «abbasi»nin çəkisi 7,7 *q-a* bərabər idi. «Abbasi»nin üçdə ikisi 5,1 *q-a,* dörddə birisi isə 1,94 *q-a* bərabər idi. Qızıl abbasilərin və onların hissələrinin çəkisi sonradan azalmışdı. Bu dövrdə çəkisi 3,5 *q* olan əşrəfilərin zərbi də davam etdirilirdi.

İslahatın başlıca vəzifəsi sikkə reqaliyasından mümkün qədər çox gəlir əldə etmək və bu məqsədlə yeni sikkələrin real deyil, məcburi kursunun müəyyənləşdirilməsi idi. I Şah Abbasın islahatı uğurlu oldu və «abbasi» Səfəvilər dövlətinin pul dövriyyəsində hakim mövqe tutdu. XVII əsrdə «abbasi» sikkələri ilə yanaşı, həm də «pəncşahı», «məhəmmədi», «şahı» adlı Səfəvi sikkələri işlədilirdi.

Arxeoloji qazıntılar zamanı daxili ticarətin tələbatını ödəmiş mis sikkələr kütləvi tapılan pullardır. Məsələn, Şabran şəhər xarabalıqlarında aparılmış arxeoloji qazıntılar zamanı dəfinə və tək-tək tapıntılar halında orta əsrlərin müxtəlif dövrlərinə aid 1800 ədəd mis sikkə tapılmışdır ki, onlardan 400 ədədi təyin olunmuşdur, (mənşəyi aydınlaşdırılmışdır). Təyin olunmuş həmin sikkələrin əksəriyyəti elxanilərin zərb etdikləri pullardır. Onlardan 200 ədədi Əbu Səidin adından zərb edilmişdir. Sikkələrin zərbolunma xəritəsi geniş olub Şabran, Dərbənd, Şamaxı, Bakı, İrəvan, Xoy və Yəzd şəhərlərini əhatə edirdi. Bu pullar əsasən dirhəm və felslərdən ibarətdir. Onlardan birinin aversində «sikke» sözü yazılmışdır. Onların çəkisi müxtəlifdir və 1-9 *q* arasında dəyişir. Sikkələrin ornamentləri zəngin olub, nəbati, həndəsi və zoomorf təsvirlidir. Təsvirlərdə quş, balıq, delfin, şir, keçi, dəniz tısbağası və s. rast gəlinir.

Arxeoloji tədqiqatlar nəticəsində Qırxçıraq şəhər yerindən toplanmış sikkə tapıntıları bu abidənin XIII-XVII əsrlərlə müəyyənləşdirilmiş xronoloji çərçivəsini təsdiqləməklə yanaşı, həm də onun Mahmudabad şəhərinin xarabalıqları olması ehtimalını həqiqətə yaxın olduğunu göstərmişdir. Belə ki, Qırxçıraq şəhər yerindən əldə edilmiş sikkə tapıntıları, əsasən, Şirvan şəhərlərində – Şamaxı, Bakı, Mahmudabad, Şabran, Dərbənd şəhərlərində zərb edilmiş mis sikkələrdən ibarətdir. Numizmatik materiallar içərisində Mahmudabadda zərb edilmiş sikkələrin olması, eləcə də zərb üçün hazırlanmış yarımfabrikatların tapılması yerli zərbxananın fəaliyyətindən xəbər verir və abidənin Mahmudabad şəhərinin xarabalıqları olmasına dəlalət edir.

Ümumiyyətlə, arxeoloji tədqiqatlar zamanı əldə olunan numizmatik materiallar Hülakü, Qızıl Orda xanlarının, Teymurilərin, Cəlairi, Qaraqoyunlu və Ağqoyunlu sultanlarının, Şirvanşahların, Səfəvilərin zərbxanalarında zərb olunan mis və gümüş sikkələrin son orta əsrlərdə Azərbaycanın pul dövriyyəsində başlıca rol oynadığını göstərir.

Baş bəzəkləri. Baş bəzəklərinə aid edilən sırğaları bir neçə tipə bölmək olar. Birinci tipə halqa formalı sırğalar daxildir. Bunlardan bir cüt qızıl sırğa dairəvi halqadan ibarət olub, hörülmüş məftillərdən ucları kəsik formada hazırlanmışdır. Sırğanın halqa hissəsində ürək formasında çəhrayı rəngli, yaxşı cilalanmış qaş salınmışdır. Qaş halqa hissəyə mis məftillər vasitəsilə bərkidilmişdir. Digər sırğanın qaşı düşmüşdür. Bu sırğa XV əsrə aid edilir. 2-ci tipə sual işarəsi formasında olan sırğalar daxil edilmişdir. Bu sırğalar XVI əsrə aiddir. Gümüşdən hazırlanmış sırğanın qulağa keçirilən yuxarı hissəsi əzilmişdir.

Bəndəm hissəyə iki yarımkürəciyin lehimlənməsi yolu ilə bir kürə bərkidilmişdir. Kürənin yan tərəfindən deşik açılmışdır. Kürənin yuxarı hissəsi spiralvari formada dörd nazik məftillə dövrələnmişdir.

Qədim müsəlman qəbiristanlığından tapılan qızıl sırğanı da bu tipə daxil etmək olar. Sırğanın qulağa keçirilən hissəsi sual işarəsi formasında olub, üzərinə zərb üsulu ilə nöqtələr vurulmuşdur. Sırğanın asma hissəsi isə bir növ ayparanı xatırladır. Qulağa keçirilən hissə asmanın ortasına bənd edilmişdir. Bu sırğa XIV əsrə aid edilir. Belə sırğalar Azərbaycanın bir çox orta əsr abidələrindən də tapılmışdır.

Sırğaların digər tipini aypara formalı sırğalar təşkil edir. Bu sırğaların əksəriyyəti misdən hazırlanmışdır.

Boyun-sinə bəzəkləri. XIV-XVII əsrlərə aid bəzək nümunələri içərisində boyunbağılar da özünəməxsus yer tutur. Onları formasına görə 2 tipə bölmək olur:

Gümüşdən hazırlanmış 28 ədəd asması olan boyunbağı arxeoloji qazıntılar zamanı aşkar olunmuş dəfinə ilə birlikdə tapılmışdır. Boyunbağının asmaları həm formalarına, həm də ölçülərinə görə fərqlənir. Bunlardan 11 ədədi arpa, 6 ədədi nar, 6 ədədi romb, 2 ədədi zoğal çəyirdəyi formasında, 2 ədədi armudvari, 1 ədədi bikonik formada hazırlanmışdır. Tapılan digər bəzək əşyaları və 139 ədəd gümüş Səfəvi pullarına əsasən bu boyun bəzəyini XV-XVI əsrlərə aid etmək olar.

Digər boyun bəzəyi olan gümüş zəncir boyunbağıda 5 ədəd müxtəlif ölçülü spiral borucuqlar bir-birinə lehimlənmiş, bu hissə isə halqaların içərisinə keçirilmişdir.

Boyun bəzəkləri tək asmalarla təmsil olunmuşdur. Bu boyun bəzəkləri puldan hazırlanmışdır. Üzərində cızılmış xətlərdən və eyni zamanda, hazırlandığı metaldan müəyyən etmək olur ki, bu, öz dövründə pul vahidi kimi işlənmişdir. Belə pul asmalar Bakı, Dərbənd, Beyləqan və Şabrandan da tapılmışdır. Qırxçıraqdan aşkarlanmış dairəvi mis asmanı da bu tipə aid etmək olar.

Şabrandan və Dərbənddən tapılmış XV əsrə aid asma ürək formasında olub, üzəri dənəvər naxışla bəzədilmişdir.

Arxeoloji qazıntılar zamanı son orta əsrlərə aid bir neçə sümük asma-amulet də tapılmışdır. Bu asmalarda gözləri bildirən deşiklərdən bəzən ip keçirmək üçün istifadə olunmuşdur.


Boyun bəzəklərinə daxil olan muncuqlar əqiq, yəşəm, dağ bülluru və şüşədən hazırlanırdı. Arxeoloji qazıntılar nəticəsində Dərbənd, həmçinin Beyləqan, Şərifan, Xarabagilan, Şabran, Şamaxı, Bakı, Qırqxçıraq kimi abidələrdən müxtəlif formalı muncuqlar aşkar olunmuşdur. Bakıda tapılmış muncuqlar arasında qızıldan kürə formasında hazırlanmış nümunələr də vardır.

Qol-biləк və barmaq bəzəkləri. Qol-biləк bəzəkləri bilərziklərlə təmsil olunmuşdur. Onları hazırlanma materialına görə 4 qrupa bölmək olar:

I qrupa qızıl bilərziklər daxildir. İri ölçülü bir qızıl bilərzik XX əsrin başlanğıcında Bakıda, Aleksandr Nevski kilsəsinin yaxınlığında arxeoloji qazıntılar zamanı aşkar olunmuşdur. Həmin bilərzik, tapıldığı gümüş pul dəfinəsindəki sikkələrə əsasən, XV əsrə aid edilir.

II qrup gümüş bilərziklə təmsil olunmuşdur. Bu qrupa mənsub bilərzik Bakıda qədim müsəlman qəbiristanlığı ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində digər bəzək əşyaları ilə birlikdə tapılmışdır.

III qrupa daxil edilmiş bilərziklər misdən hazırlanmışdır. Bu bilərzikləri də bir neçə varianta bölmək olar. Bunlar lentşəkilli və çubuqvari bilərziklərdən ibarətdir. Lentşəkilli yastı bilərziklərdən 1 ədədi yastı mis lövhədən ibarət olub, ucları açıq formada hazırlanmışdır. İçəri tərəfi hamar hazırlanmış həmin qolbağın üst tərəfində basma üsulu ilə naxışlar salınmışdır.



Şüşə bilərziklər (Dərbənd)

Digər lentşəkilli ayrı-ayrı bilərziklər qırıqlar halındadır. Onlardan 4-nün üzərində yazı verilmişdir. Bilərziklərdən 5-nin üzərində isə çox incəliklə həndəsi və nəbati naxışlar salınmışdır. Bunlar, əsasən, 4-5 ləçəkli gül, hörükvari və dalğavari naxışlardan

ibarətdir.

Çubuqvari bilərziklər fraqmentlər halında tapılmışdır. Onlardan iki hissəni birləşdirdikdə bütöv bilərzik forması aldığına görə onun təsvirini vermək mümkündür. Sarımtıl metaldan (bürünc) olub, çubuqvari formada hazırlanmış bu bilərziyin uc hissəsi oval formada hazırlanmışdır və açıqdır. İkinci bilərzik qırığının üzərində kəsmə naxışlar verilmişdir.

Yaşayış yerindən tapılmış bilərziyin fərqləndirici xüsusiyyəti onun uclarının zoomorf fıqurla bəzədilməsidir. Onun içəri səthi yastı, hamar, xarici tərəfı qabarıq və naxışlıdır. Ucu balıq quyruğu formasında düzəldilmişdir.

IV qrup bilərziklər şüşədən hazırlanmışdır. Son orta əsrlərin qol-bilək bəzəkləri arasında şüşə bilərziklər daha çoxdur. Onlar qara, göy, yaşıl rəngli şüşədən, en kəsiyi dairəvi, yarımdairəvi və burma üsulu ilə hazırlanmış bilərziklərlə təmsil olunmuşdur.

Qızıl, gümüş, mis, tunc və şüşədən hazırlanmış müxtəlif forma və ölçülü üzüklər barmaq bəzəklərini təmsil edir.

Geyim bəzəkləri. Geyim bəzəklərinə kəmər, toqqa və kəmərüstü bəzək nümunələri, düymə və sancaqlar daxildir. XIV-XV əsrlərə aid bütöv kəmər əldə olunmayıb. Lakin azərbaycanlı zərgərlərin əl işi olan kəmərlərdən biri İstanbulun Topqapı muzeyində saxlanılır. Yuxarıda qeyd olunduğu kimi, 1507-ci ildə Şah İsmayıl üçün hazırlanmış bu kəmər biri digərinə qarmaqla bənd edilmiş dairə, paxlava formalı qızıl hissəciklərindən ibarətdir.

Arxeoloji tədqiqatlar zamanı Qırxçıraq, Dərbənd, Şabran və Bakıdan bir neçə ədəd toqqa başlıqları da tapılmışdır. Uc tərəfı çıxıntılı olub, aşağı hissələri kvadrat və ya düzbucaqlı formalı toqqa başlıqları çoxluq təşkil edir. Toqqalar misdən düymə üsulu ilə hazırlanmışdır.

Arxeoloji qazıntılar zamanı tapılmış beşbucaqlı lövhə şəkilli toqqa başlığının arxa tərəfində çıxıntı vardır, üst tərəfi həndəsi naxışla bəzədilmişdir.

Toqqalardan başqa bu bəzək növünə kəmərüstü bəzəklər və yaxud piləklər də daxildir. Pilәkləri formalarına görə üç tipə bölmək olar. I tipi üçbucaq formalı, ətrafları dilikli və gözcükləri olan piləklər təşkil edir. II tipə təbərzin formalı piləklər daxildir. III tip isə çoxləçəkli gül formasında olan piləklə təmsil olunmuşdur. Bunlar qəlibdə tökmə üsulu ilə misdən hazırlanmışdır. Bu piləklərin oxşarlarına Dərbənddə hələ ilk orta əsr abidələrində rast gəlinir.

XIV-XVI əsrlərin epiqrafik abidələri. Arxeoloji qazıntılar zamanı əldə olunmuş materiallar arasında epiqrafik abidələr özünəməxsus yer tutur və son orta əsrlərdə Azərbaycan feodal cəmiyyətinin sosial-iqtisadi, siyasi və dini-mədəni inkişafının bir çox məsələlərinin araşdırılmasında mühüm elmi əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, yığcamlığı və konkretliyi ilə fərqlənən kitabələr həm də mötəbər, dəqiq tarixi mənbələrdir. Arxeoloji tədqiqatlara cəlb olunmuş müxtəlif xarakterli abidələrdəki kitabələrin oxunması bir çox hallarda həmin tikililərin inşa tarixini dəqiqləşdirməyə imkan vermişdir.

Arxeoloji tədqiqatlarla müəyyən edilmişdir ki, Dərbənd əmirlərinin XV-XVI əsrlərə aid nəsli qəbiristanlığı Qala qapı yaxınlığında yerləşirdi. Buradakı zəngin naxışlı qəbir daşları son dövrlərin qatları ilə örtülmüşdür. 1974-cü ildə arxeoloqların aşkar etdiyi və hazırda Narınqalada qazıntı materialları arasında qorunan zəngin bədii tərtibata malik sarkofaq tipli məzar daşı Qurandan ayələr, ərəb və fars dillərində mətnlərlə bəzədilmişdir. Epitafiyadan bəlli olur ki, dəfn edilən «böyük əmir, haqq işi uğrunda ən böyük döyüşçü, din uğrunda şəhid İftixar...» olmuş və o, 1446-cı ildə öldürülmüşdür. İftixar Dərbənd əmirinin qardaşı, şəhərin komendantı olmuş və əmir rütbəsi daşımışdır.

Son orta əsrlərdə Azərbaycan, o cümlədən də Dərbənd ərazisində geniş yayılmış qəbirüstü abidələrdən olan daşdan yonulmuş qoç və at heykəlli məzar daşlarınında bəzilərinin üzərində kitabələr vardır. Həmin kitabələr Azərbaycan epiqrafları M.Nemət, F.Səfərov tərəfından oxunmuşdur. Kitabələr, əsasən, ərəb və fars dilində olub, əksər hallarda Quranın hansısa ayəsi və mərhumun adından ibarətdir. Bəzi heykəllərdə tarix də göstərilmişdir.

Epiqrafik dəlillər son orta əsrlərdə ərəb əlifbasının müxtəlif, əsasən, kufi, nəsx, süls, nəstəliq xətlərindən istifadə edilməklə abidələr, məişət avadanlığı üzərinə ərəb, fars və türk dillərində kitabələr, ayrı-ayrı ifadələr həkk edildiyini göstərir.

Məscidlər. Son orta əsr yaşayış məskənlərinin strukturunda, əvvəllər olduğu kimi, dini binalar, ilk növbədə məscidlər mühüm yer tuturdu. Bu dövrün dini təyinatlı binaları, əsasən, came və məhəllə məscidləri, mədrəsə, zaviyyə, xanəgah, imamzadə, qədəmgah, xristian məbədləri ilə təmsil olunmuşdur. Ayrı-ayrı məhəllələrin öz məscidinin olması ilə

yanaşı, hər bir şəhərin kütləvi ibadətə imkan verən Cümə məscidi olurdu. Məlum olduğu kimi, şəhərin baş məscidi hesab olunan Cümə məscidinin meydana gəlməsi və yayılması VIII əsrə aid edilir. Bəhs edilən dövrdə isə müsəlman Şərqinin böyük şəhərlərində hətta bir neçə Cümə məscidi olurdu. Came məscidləri möhtəşəmliyi və yüksək bədii tərtibatı ilə fərqlənirdi. Xatırladaq ki, Cümə məscidi təkcə ibadət yeri olmayıb həm də siyasi və ictimai əhəmiyyət kəsb edirdi. Dövrün Came məscidlərinin səciyyəvi xüsusiyyətləri öz əksini Təbrizdəki Əlişah məscidində, Mərənd, Urmiya, Bakı, Gəncə, Dərbənd Came məscidlərində tapmışdır.

1368-1369-cu illərdə zəlzələdən zədələnən Dərbənd Cümə məscidi yenidən əsaslı təmir edilmiş, XV əsrdə onun qarşısında mədrəsə inşa olunmuşdur.

Şəhərlərin hər bir məhəlləsinin öz məscidi olurdu. Bəzən böyük məhəllələrin hətta bir neçə məscidi olurdu.

Mədrəsələr. Came məscidlərinin, bəzi iri məscidlərin və pirlərin nəzdində, adətən, mədrəsələr fəaliyyət göstərirdi. Məsələn, Gəncə, Dərbənd və Şamaxı Cümə məscidlərinin nəzdində mədrəsələrin fəaliyyəti elmi ədəbiyyatdan yaxşı bəllidir. Yazılı qaynaqların şəhərlərdə çoxlu mədrəsələrin fəaliyyəti haqqında məlumat verməsinə baxmayaraq, onların çox az qalıqları dövrümüzə qədər çox az gəlib çatmışdır. Bu baxımdan, Dərbənd Cümə məscidinin nəzdində fəaliyyət göstərmiş, XV əsrdə inşa olunduğu bildirilən mədrəsə böyük maraq doğurur. Mədrəsənin ərəb dilindəki dördsətirlik kitabəsində bildirilir ki, «Uca olan Allah - Ona həmd olsun - dedi: «Elm verilmiş şəxsləri Allah müxtəlif dərəcələrə qaldırır». Dünyada ləyaqətli əxlaq sahibi, zəmanə əmirlərinin ən ədalətlisi sultan şirənşah məxsusən Allahın xatirinə və onun mərhəmətini qazanmaq və qəzəbindən qaçmaqdan ötrü orada (mədrəsədə) qiyamət gününə qədər şəriət elmlərini təhsil edən tələbələr üçün bu mübarək mədrəsənin tikilməsindən ötrü hicri səkkiz yüz yetmiş doqquzuncu ildə əmr etmişdir». Mədrəsə binası uzun ox boyunca yerləşən hücrələr kompleksindən ibarətdir. Hücrələrin arxa divarı məscidin həyətini şimaldan hüdudlayan lal divar yaradır, yalnız iki yerdə asimmetrik yerləşmiş kiçik tağlı keçid vardır.

Mədrəsənin hər bir hücrəsi düzbucaqlı biçimdə, çatmatağla örtüklü kiçik otaqdan ibarət olub, qarşısında çatmatağlı açırıma malik kiçik eyvan vardır. Mərkəzi hücrə istisna olmaqla hücrələrin ölçüsü 2,8x3,4 m-ə bərabərdir. Mərkəzdə yerləşən hücrə nisbətən böyük olub 2,8x4,15 *m* ölçüdədir. Mərkəzi hücrə və tağ-tavanlı iki keçid hücrələrin ritmik çatmatağlı açırımlarından baş-tağla fərqlənmişdir.

T A R İ X
Dərbənd şəhərinin qısa tarixi oçerki

Dərbənd Azərbaycanın ən qədim şəhərlərindən biridir. Dərbənd şəhəri və onunla qonşu olan ərazilər Azərbaycan dövləti olan Albaniyada ən qədim yaşayış məskənlərindən biri hesab olunur. Bunu çoxsaylı ilk mənbələr və tədqiqat əsərləri birmənalı şəkildə təsdiq edir. Eradan əvvəl I minilliyin II yarısında və bizim eranın əvvəllərində Azərbaycan Albaniya dövləti oturaq əkinçilik-maldarlıq təsərrüfatının kifayət dərəcədə inkişaf etdiyi bir ölkə idi. Paytaxtı Qəbələ şəhəri olan Albaniyanın öz hökmdarları, qoşunu, zərbxanası var idi. Bütün bunlar Albaniyada şəhərlərin və şəhər həyatının, o cümlədən Dərbənd şəhərinin meydana gəlməsinə və inkişafına səbəb olmuşdur. Şəhərlərin meydana gəlməsi ibtidai icma qurluşunun tamamilə dağılması idi. Şəhərlər həm də dövlətin yaranması ilə bir vaxtda meydana gəlmişdir. Ticarət yollarının üstündə yerləşən, sosial-iqtisadi cəhətdən inkişaf etmiş alban yaşayış məskənlərinin tədricən şəhərlərə çevirilməsi prosesi eradan əvvəl I minilliyin II yarasının əvvəlinə aid edilir. Qədim dövrün başqa şəhərləri kimi Qafqaz Albaniyasının şəhərləri, o cümlədən Dərbənd şəhəri də onları əhatə edən əkinçi icmaları ilə ən sıx şəkildə bağlı idi.

Müasir Azərbaycan Respublikası və RF.-sı Dağıstan Respublikası ərazilərində arxeoloji qazıntılar zamanı arxeoloqlar tərəfindən antik dövrə aid şəhər tipli məskənlər aşkara çıxarılmışdır. Bu məskənlər içərisində Dərbənd şəhəri və onun ətrafında yerləşən ərazilərin də adları vardır.

Şimali Azərbaycanın Xəzərsahili ərazisinin şimalında yerləşən bu şəhər ən qədim zamanlardan başlayaraq cənuba, Ön Asiyaya istiqamətlənən müxtəlif tayfalar üçün körpü rolunu oynamışdır. Dərbəndin cənubda yerləşən Torpaqqala haqqında ilk məlumatı bizim eranın II əsrində yaşamış Ptolomey verir və onu Albana adı ilə təqdim edir. Başqa antik müəlliflər isə bu şəhəri qədim Çoranın (Çolanın) qalıqları hesab edirlər. Ancaq bütün bunlara baxmayaraq, Dərbənd şəhəri Azərbaycanın şimal şərqində əsası qoyulan ilk şəhər hesab olunur.

Bizim eranın ilk əsrlərində və hətta bundan da əvvəl müasir Dağıstan ərazisinə sarmat-massaget tayfalarının müdaxiləsini bu ərazilərdə aşkar edilmiş arxeoloji abidələr təsdiq edir. Bu tayfalar Dərbənd keçidi vasitəsi ilə Azərbaycanın Xəzərsahili vilayətlərinə daxil olaraq digər ərazilərə də yayılmışdılar. Xəzərin qərb sahillərində məskunlaşmış massagetlər haqqında məlumatları antik müəlliflər də təsdiq edirlər. Abşeron yarımadasındakı Maştağa kəndinin adı «massagetlər» kimi izah edilir. Maskut və Maskat toponimləri də massagetlərlərin adından götürülmüşdür və görünür Dərbəndən cənubda yerləşən Çora (Çola) keçidinin adını da skif-şarmat dil materiallarının köməyi ilə izah etmək olar. Bütün bu proseslərdə Dərbənd şəhəri bir növ siyasi-inzibati, iqtisadi və mədəni mərkəz rolunu oynamışdır.

Erkən orta əsrlərdə Azərbaycan Albaniya dövlətinin beynəlxalq tranzit-ticarət yolları üzərində yerləşən ən məşhur şəhərlərindən biri olan Dərbənd yalnız albanların baş qalası, Sasanilərin Qafqazdakı istinadgahı kimi deyil, həm də mühüm orta əsr şəhəri, ən iri ticarət-sənətkarlıq və siyasi mərkəzlərindən biri kimi tanınmışdı. VI əsrdə bu şəhər mütəşəkkil daxili struktura, dürüst seçilmiş topoqrafiyaya malik şəhər kimi məşhur idi. Moisey Kalankatlının «Alban tarixi» əsərində Dərbənd «Əzəmətli şəhər» adlandırırlır və onun küçə və meydanlar sistemini əhatə edən daxili planının olduğuye qeyd edir.

Dərbənd şəhəri ilk növbədə Azərbaycan Alban hökmdarları və Sasani şahlarının hərbi siyasi dayağı və strateji məntəqəsi kimi formalaşmış, sonradan isə inkişaf edərək sənətkarlıq və ticarət mərkəzinə çevrilmişdir.

Ticarət-sənətkarlıq mərkəzi kimi Dərbənd şəhərinin əsas sənətkarlıq sahəsi qədimdən burada mövcud olmuş və sonralar daha da inkişaf etmiş toxuculuq idi. Dərbəndin arxeoloji təbəqələrində çoxlu silah, şeypur, metal məmulatlar, zindan, çəkic, mis və dəmir filizi qalıqlarının tapılması burada metal emalı və metallurgiyanın inkişafını təsdiq edir. Şüşə əşyalarının çoxluğu, onların özünəməxsusluğu və geniş rəngarəngliyi Dərbənddə şüşə istehsalının yüksək inkişafından danışmağa imkan verir.

Dulusçuluq sahəsi burada çox yüksək inkişaf səviyyəsinə çatmışdı. Çox müxtəlif təyinatlı xeyli qab-qacaq, çoxlu saxsı su boruları, bişmiş kərpic, ki-

rəmit, soba qalıqları, qab-qacaq bişirmək üçün vəsait və s. şəhərin yüksək inkişaf etmiş dulusçuluq istehsalından xəbər verir. Bu dövrdə Dərbənd həm də mühüm beynəlxalq ticarət mərkəzinə çevrilir və bu zaman o daha çox Xəzərsahili ticarət yolunun ən böyük tranzit məntəqəsi rolunu oynamağa başlayır.

Şəhər ərazisinin sahəsinə (160 hektara yaxın) görə Dərbənd Ön Asiya, Cənubi Qafqaz və Orta Asiyanın bir çox ən iri erkən orta əsr şəhərlərini geridə qoyurdu. Arxeoloji məlumatlara görə, dənizkənarı rayon hesaba alınmamaqla, şəhərin əhalinin məskunlaşmış ərazisinin ümumi sahəsi 26-30 hektara çatırdı ki, bu da şəhərin divarlarla əhatə olunmuş sahəsinin 1/6 hissəsini təşkil edirdi. Quruluş baxımından Dərbənd aydın şəkildə iki tərkib hissəyə ayrılır: İçqala və şəhərin özü. İndi Narınqala adlanan İçqala şəhərin həyatında xüsusi yer tutur. Şəhərin bu hissəsi şəhər hakiminin iqamətgahı, onun sarayı və qarnizonun yerləşdiyi yer, inzibati, hərbi-siyasi və mədəni mərkəzi idi. 2,5-3,5 metr qalınlıqda, ayrı-ayrı sahələrdə hündürlüyü 20-25 metrə çatan möhtəşəm divarlar onu alınmaz qalaya çevirirdi. İlkin orta əsrlər Dərbəndi şəhər strukturunun bir hissəsi olan rabada (bayır şəhərə) malik deyildi. Beləliklə, divarlarla əhatə olunmuş çox böyük ərazi şəhərə kifayət qədər genişlənmək və inkişaf etmək imkanı verirdi.

Şəhərin sosial strukturuna gəldikdə isə, qeyd etmək lazımdır ki, Narınqalada Azərbaycan alban hökmdarları, sonralar isə Sasanilər tərəfindən təyin edilən şəhər hakimi otururdu. Sasani şahlığının Dərbənddəki canişini V əsrdə «mərzban» titulu daşıyırdı. VI əsrdə Dərbənd şəhəri ətrafında salınan istehkamlar Sasani hökmdarı I Qubad (488-531) və onun oğlu I Xosrov Ənuşirəvan (521-578) tərəfindən şimaldan gözlənilən hücumların qarşısını almaq məqsədilə tikilmişdir.

İndiyə qədər Dərbənd şəhərinin qala divarlarında 18 daş kitabələr üzərində yazılar aşkar edilmişdir. Yazıların əksəriyyəti Azərbaycanın maliyyə nəzarətçisi Barznişin adından tərtib edilmişdir: («Barzniş, Adurbadaqanın amarqari (nəzarətçisi)»). Bu şəhər əvvəlcə Sasani İranın, sonralar isə Ərəb xilafətinin şimal sərhədlərində uzun müddət güclü bir istehkama çevrilir. Şəhər Alban hökmdarı Cavanşir dövründə də Şimal sərhəd məntəqəsi kimi fəaliyyət göstərirdi. Ərəblər dövründə Dərbənd aramsız davam edən ərəb-xəzər müharibələrinin təsirinə məruz qalır. Eyni zamanda, Dərbənd xilafətin tərkibinə daxil olan Azərbaycanın mühüm şəhərlərindən biri idi. Şəhər əyanlarından ibarət hakim siniflə xırda alverçi və sənətkarlar arasındakı təbəqəni təşkil edən döyüşçülər şəhər cəmiyyətinin strukturunda xüsusi yer tuturdular. Sasanilər sərhədlərin mühafizəsi üçün Dərbənddə hərbi kolonistləri (məskunları) yerləşdirərək, onlara iqta torpaq payı paylayırdılar.

Dərbənd yaxınlığındakı keçid daha çox möhkəmləndirilmiş məntəqə idi. Qədim şəhər iki güclü qala divarı arasına alınmışdı. Bu divarlar dənizin içərisinə doğru xeyli uzanmış, dənizin bu yerində süni liman yaratmışdı. Qala divarları əks tərəfdə sərt və keçilməz dağlara dirənirdi. Yuxarı istiqamətlənmiş, açıq, geniş pillələri olan, çoxlu qüllələrlə təchiz edilmiş Dərbənd qala divarlarının orta qalınlığı 4 metrədək, hündürlüyü 20 metr idi və dişli məhəccərlə müdafiə olunmuşdu.

Dərbəndin ərəb işğalı ərəfəsində tikildiyi ehtimal olunan çoxsaylı qədim tikililəri içərisində hamamların qalıqlarını və qayalıqda oyulmuş, dörd çatma tağa dayaqlanan günbəzi, iri hovuzu qeyd etmək lazımdır. Plan baxımından böyük bazilikal bina olan, sonralar yenidən qurularaq məscidə çevrilən abidənin daha qəbim hissələri həmin dövrə aiddir.

Dərbənd şəhəri həm də Azərbaycanın VII əsrdə yaşamış tarixi şəxsiyyət Dədə Qorqudun vətəni hesab olunur və onun qəbri də bu şəhərə yaxın ərazidə yerləşir.

Xilafətin Şimal ölkələri ilə ticarət müharibəsində əhəmiyyətli mövqe tutan «Qapılar qapısı» Bab əl-Əbvab - Dərbənd Azərbaycan Albaniyasının ikinci böyük şəhəri idi. Ərəb xəlifələri Dərbəndin strateji və ticarət-ötürücü məntəqə kimi xüsusi əhəmiyyətini nəzərə alaraq, onun azad şəhər statusunu saxladılar. Şəhəri əmirlər və ya rəislər şurası idarə etməyə başladı. Hələ 736-cı ildə xəlifə Hişanın dövründə Əsəd Zafir başda olmaqla Dərbəndə göndərilmiş 400 dövlət məmuru bu idarəçiliyin əsasını qoydu. Şəhərin idarəçiliyinə rəhbərlik edən rəislər rəisi nizamnamə çərçivəsində onun mühafizəsini təşkil etməli, qayda-qanun və təmizliyi gözləməli oldu. Dərbənd qarşısında, eləcə də digər sərhəd qalalarında yerləşdirilmiş hərbi hissələr xidmət müqabilində, xəzinədən maaş almır, yerli ehtiyatlar hesabına saxlanılırdılar. Xilafətin sərəncamı ilə sərhədyanı bölgənin «kafır» düşmənlə üz-üzə qalan döyüşçü-qazi əhalisinə vəqf payı kimi bütöv vilayətlərlə yanaşı, Abşeron yarımadasının neft və duz yataq-

larından əldə olunan gəlirlər verilirdi. Xəlifə Harun ər-Rəşid dövründə şəhərlərin rifahını yaxşılaşdırmaq üçün Dərbəndə Rubas çayından bir neçə kanal çəkildi, burada bağ və bostanlar salındı, dəyirmanlar tikildi.

Xilafətin şimal hüdudlarında sərhəd qalası olan Dərbənd Xəzər dənizinin ən mühüm limanı idi. Şəhər dənizin içərilərinə doğru uzunan daş hasarla əhatə edilmişdi. Bu şəhərdə olmuş əl-İstəxri və İbn Hövqəlin məlumatına görə, «Bab əl-Əbvab sahil şəhəridir. Ortasında gəmilərin yan alması üçün körpü var. Körpü ilə dəniz arasında hər iki yandan Qoşa divar çəkilmişdir. Belə ki, gəmilərin giriş yolu dar və çox girintili-çıxıntılıdır. Giriş … zəncirlənmişdir … heç bir gəmi icazəsiz buraya nə daxil olur, nə də çıxır».

VIII-XI əsrlərdə genişlənmiş ticarət Xilafət xəzinəsinə gəlir və mənfəət gətirirdi. Buna görə də Dərbənd hakim dairələri ehtiyatı əldən vermədən Xilafətin yalnız hərbi-strateji deyil, ticarət mənafelərinin də keşiyində dururdular. «Dərbəndnamə»dəki məlumata görə, ehtiyatlı dərbəndlilər şəhərin müdafiə sisteminin quruluşunu gizlətmək məqsədilə Xəzər xaqanının Dərbəndə göndərdiyi elçilərinin gözlərini bağlamışdılar.

Ticarət məqsədilə Dərbəndə gələn yadellilərdən hələ xəlifə Ömər ibn əl-Xəttabın fərmanında nəzərdə tutulmuş gömrük alınırdı. Bu fərmana görə torpaqlarımıza qədəm basan yadelli tacirlərdən, başqa ölkələrdə müsəlmanlardan alınan gömrükhaqqı məbləğində, 10 faiz haqq alınırdı. Zimmi (müsəlman olmayan yerli) tacirlərdən malının dəyərinin beşdə birini, müsəlman tacirlərdən isə ümumi dəyəri 200 dirhəmə bərabər olan malına görə 5 dirhəm, yerdə qalan hər 40 dirhəmlik malına görə 1 dirhəm gömrükhaqqı alınırdı. «Dərbəndnamə»nin məlumatına görə, xəzərlərin ölkəsində ticarət etmək arzusunda olan hər hansı bir Dərbənd sakini apardığı malın onda biri dəyərində haqq ödəməli, ya da alveri atmalı idi. İdxal olunan malların, eləcə də qulların, mal-qaranın və hər cür başqa şeylərin üzərinə qoyulan bu gömrük haqqları Xilafət xəzinəsində hər il 100 mindən 1 milyon dirhəmədək gəlir gətirirdi.

Dərbənd tacirlərinin alverində yerli istehsal məhsulları (kətandan hazırlanmış üst paltarlar, zəfəran, qırmızı bayraq və s.) xüsusi yer tuturdu. Yerli tacirlər şəhərdə istehsal olunan məhsullarla yanaşı, «kafirlərin ölkələrindən» gətirilən qulların satışından da xeyli mənfəət götürürdülər. Şimali Qafqazın bütün xammalı da (qoyun sürüləri, dəri və s.) Dərbənddən keçirdi.

Dərbənd şəhəri XIII əsrin ilk rübündə daha mürəkkəb, çətin, kəşməkəşli vəziyyətə düşmüşdü. Buna səbəb şəhərə olunan xarici həmlələr və daxili feodal qarşıdurmaları idi. 1220-1222-ci illərdə baş vermiş ilk monqol yürüşü Dərbənddən yan ötmədi. Azərbaycanın cənubundan ölkəyə soxulan monqol qoşunları, Cəbə və Şubutayın başçılığı ilə şimala doğru irəlilədilər. Beyləqan, Şamaxı və s. şəhərlər dağıdıldı. Dərbəndə yaxınlaşan monqollar şəhəri tutmağa cəhd göstərsələr də, buna nail ola bilmədilər. Dərbəndin Azərbaycan-türk qoşunları tərəfindən möhkəm müdafiə olunduğunu görən monqol sərkərdələri hiyləyə əl atdılar: onlar Şirvan hökmdarının yanına elçi göndərib onunla sülh bağlamaq istədiklərini bildirdilər. Buna inanan Şirvanşah 10 nəfərlik nümayəndə heyəti göndərdi. Monqol sərkərdələri onlardan birinin boynunu vurdular və qalanlarını məcbur etdilər ki, monqol qoşun hissələrini gizli yollarla şəhərdən şimala keçirsinlər. Həmin vasitə ilə Dərbənddən yan ötən düşmən qüvvələri Azərbaycan ərazisini tərk etdilər. Bu işdə Dərbəndin möhtəşəm keçilməz qala olması əsas rol oynamışdı.

Monqollar Azərbaycanı tərk etdikdən sonra da Dərbənd şəhəri diqqət mərkəzində qalır. Şəhər qıpçaqların və monqol hücumlarından canını qurtaran Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddinin həmlələrinə məruz qalır və bir müddət sonuncunun nüfuz dairəsində olur. Dərbənd XIII əsrin 30-cu illərində yenidən Azərbaycana soxulan monqollara qarşı mübarizə aparmalı olur. Lakin, 1239-cu ildə monqollar Dərbənd şəhərini tuturlar və bununla da Azərbaycanın işğalı başa çatır. Şəhər əvvəlcə monqol canişinləri tərəfindən idarə edilir, 1256-cı ildən isə Hülakülər (Elxanilər) dövlətinin (1256-1357) və daha sonra Cəlairilər dövlətinin (1359-1410) tərkibində qalır. Monqol ağalığı dövründə sərhəd şəhəri kimi fəaliyyətdə olan Dərbənd və iki monqol ulusu dövləti olan Hülakülərlə Qızılordalılar arasında gedən aramsız müharibələr meydanına çevrilir.

Dərbəndin XIV əsrin sonu - XV əsrin əvvəllərindəki tarixi daha gərgin hadisələrlə zəngindir. Şəhər bu dövrdə Teymur və Toxtamış kimi fatehlərin hücumlarına məruz qalır. 1382-ci ildə Şirvanşahlar dövlətində hakimiyyətə başlayan I Şeyx İbrahim Dərbəndinin uzaqgörən siyasəti nəticəsində şəhər Teymur imperiyasının buradakı sərhəd məntəqəsi kimi

təmir olundu, möhkəmləndirildi, şəhərdə şimaldan baş verən hücumlara qarşı mübarizə üçün əməli tədbirlər görüldü. XV əsrdə də Dərbənd özünün sərhəd şəhəri mövqeyini qoruyub saxladı. Həmin dövrdə Səfəvi şeyxlərinin Şirvana, o cümlədən Dərbəndə yürüşləri baş verdi və nəhayət, 1538-ci il Şirvanşahlar dövlətinin süqutu ilə Dərbənd Səfəvilər dövlətinin tərkibinə daxil edildi. 1561-1563-cü illərdə ingilislərin «Moskva» ticarət şirkətinin fəal üzvü kimi Azərbaycanda olmuş «diplomat» və tacir Antoni Cenkinsonun tərtib etdiyi «Gündəlik»də Dərbəndin «perspektiv ticarət əməliyyatlarının başlıca tranzit məntəqəsi olduğu qeyd edilirdi. Bu dövrün digər qaynaqlarında da Dərbənd əzəmətli «Səfəvi dövlətinin başlıca şəhərlərindən biri kimi» (O.Əfəndiyev «Azərbaycan Səfəvilər dövləti». Bakı, 1993, s.212) qeyd olunur.

Dərbənd tarixinin diqqəti cəlb edən səhifələrindən biri səfəvi-osmanlı müharibələri dövrünə təsadüf edir. 1578-ci ildə yenidən Azərbaycana hücum edən osmanlılar 12 ilə qədər davam edən müharibədən sonra ölkənin bir çox şimal şəhərlərini, o cümlədən, Dərbəndi tutdular və zəbt etdikləri ərazilərdə yeni inzibati bölgü apardılar: Şamaxı və Dərbənd paşalıqları yaradıldı. Dərbənd paşalığının tərkibinə Dərbənd (Dəmirqapı), Şabran, Axtı, Quba, Müskür, Kürə, Çira və Rustov sancaqları daxil edilir. Dərbənd Osmanlı sərdarının iqamətgahına çevrilir. Lakin XVII əsrdə I Şah Abbasın (1587-1629) həyata keçirdiyi hərbi-siyasi tədbirlər nəticəsində Dərbənd yenidən Səfəvilər dövlətinin tərkibinə qaytarıldı.

XVII əsrdə (əsrin 30-cu illərində) Dərbənd şəhərində olmuş alman səyyahı Adam Olearinin, Osmanlı diplomatı Övliya Çələbinin məlumatları bu baxımdan xüsusilə dəyərlidir. Adam Olearinin Dədə Qorqudun qəbrinin Dərbənd şəhəri yaxınlığında olduğuna dair məlumatları xüsusilə maraqlıdır.

Şirvan əyanları müxtəlif dövrlərdə Səfəvi hakimiyyətinə qarşı çıxır, Osmanlı hərbi-siyasi yardımına, müdaxiləsinə arxalanırdılar. 1607-ci ildə Səfəvi Şahı I Abbas Dərbənd şəhərini osmanlılardan geri aldı və yerli əhalini dövlət vergilərindən azad etdi. XVII-XVIII əsrin birinci yarısında şəhər yenidən Osmanlı-Səfəvi müharibələrinin obyektlərindən birinə çevrildi.

XVIII əsrin I yarısında Azərbaycan Səfəvilər dövlətinin, 1747-ci ildə isə Azərbaycan Əfşarlar imperiyasının süqutu, Azərbaycan ərazilərində bir çox xanlıqların, o cümlədən Dərbənd xanlığının yaranmasına səbəb oldu. Xanlığın banisi Məhəmmədhəsən xanın atası İbrahimqulu bəy 1722-ci ilə kimi Dərbənddəki şah qarnizonunun hakimi olmuşdu. Xanlıq iki mahaldan ibarət idi: Dərbənd və Ulus. 1735-ci ildə Gəncə müqaviləsinin imzalanmasından sonra çar Rusiyası qoşunları tamamilə Azərbaycanı tərk etdi və Dərbənd şəhəri də Nadir şah Əfşarın imperiyasının tərkibinə qaytarıldı. Nadir şah Əfşarın ölümündən sonra isə Dərbənd şəhəri Quba xanlığının tabeliyinə keçdi.

1759-cu ildə Qubalı Fətəli xan Dərbəndi özünə tabe etdikdən sonra Məhəmmədhəsən xanı həbs edərək Bakıya göndərdi. Qubalı Fətəli xan Dərbəndi xanlığın paytaxtına çevirdi. 1796-cı ildə V.Zubovun başçılığı ilə rus qoşunları Dərbəndi tutmaq istərkən, Quba xanı Şeyxəli xanın başçılıq etdiyi güclü müqavimətə rast gəldi. Buna görə də rus komandanlığı Şeyxəli xanı hakimiyyətdən uzaqlaşdırıb atabir ana ayrı qardaşı Həsən ağanı xan təyin etdi.

1797-ci ilin martında rus qoşunları Azərbaycan ərazisini tərk edən kimi Şeyxəli xan yenidən bütün Quba xanlığında, o cümlədən Dərbənddə hakimiyyəti ələ keçirdi. Doğrudur, sonralar Həsən xan Dərbəndin idarəçiliyini ələ keçirmiş və 1803-cü ilə qədər Dərbənd xanı olmuşdur. Həmin müddətdən sonra Dərbənd yenidən Quba xanlığının tərkibinə qatılmışdır.

1806-cı il iyunun 21-də Dərbənd rus qoşunları tərəfindən işğal edilmiş və şəhər Rusiya imperiyasının tərkibinə daxil edilmişdir.

Hələ XIX əsrin əvvəllərində, yəni 1810-cu ildə Dərbəndin şəhər əhalisinin (4169 nəfər) 95 faizini (3947 nəfərini) şiə məzhəbinə məxsus olan müsəlmanlar, əsasən – azərbaycanlılar təşkil edirdi. 1824-cü ildə şəhərdə müsəlmanların sayı 10377 nəfərə çatmışdı (əhalinin 93,8%). 1851-ci ildə onların xüsusi çəkisi 90%-ə bərabər idi. 1859-cu ildə Dərbənd şəhərində 13470 nəfər, 1893-cü ildə 15265 nəfər, 1897-ci ildə isə 14649 nəfər əhali yaşayırdı. 1897-ci ildə Azərbaycan türklərinin xüsusi çəkisi 66,7% (9767 nəfər) təşkil edirdi.

XIX əsrin sonunda Dərbənd şəhərində olan 11 məhəllədən 9-u azərbaycanlı məhəlləsi idi:

Dərbənd şəhərində olan məhəllələr aşağıdakılar idi:

I Məhəllə – Cartəpə (Çahartəpə)

II Məhəllə – Mikri – (tayfa adı)

III Məhəllə – Bayat ocağı
I V Məhəllə - Genküçə
V Məhəllə - Peyinnikbaşı
VI Məhəllə – Bazar və ya Xanküçə
VII Məhəllə – Ortatəpə
VIII Məhəllə – Bayat
XI Məhəllə – Carçı

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra Dərbənd şəhəri Dağlılar Respublikasının tərkibində qaldı. 1919-cu ilin yazında Petrovsk (indiki Mahaçqala) şəhərini işğal edən Denikin ordusu cənuba doğru hərəkət etməyə başladı. Bundan sonra Dağlılar Respublikasının parlamenti və hökuməti özünü buraxmağa məcbur oldu. Azərbaycan Xalq Cümhuriyyəti ilə Sovet Rusiyası arasında bufer dövlət rolunu oynayan Dağlılar Respublikasının süqutu və denikinçilər tərəfindən Dərbəndin işğalı ingilis komandanlığının Azərbaycan Xalq Cümhuriyyəti ilə Denikin ordusu arasında qoyduğu demarkasiya xəttinin birbaşa pozulması demək idi.

1920-ci ilin aprelin 27-dən 28-nə keçən gecə Sovet Rusiyasının hərbi təccavüzü nəticəsində Şimali Azərbaycan işğal edildi və bütün bunlara baxmayaraq, onun tarixi və qədim şəhəri olan Dərbənd də keçmiş Çar Rusiyanın əvvəlki sərhədlərində yeni Sovet imperiyasının tərkibinə daxil edildi.

1941-1945-ci illər müharibəsi zamanı alman faşizminə qarşı mübarizədə çox mühüm hərbi-strateji əhəmiyyət kəsb edən Dərbənd şəhəri şimali Azərbaycanla ön cəbhə xətti arasında körpü rolunu oynayırdı. 1942-1948-ci illərdə Dağıstan MR Partiya Komitəsinin birinci katibi işləyən Azərbaycan xalqının görkəmli dövlət xadimi Əziz Məmmədkərim oğlu Əliyev müharibənin ən ağır illərində Dərbənd rayonunda yaşayan azırbaycanlılarla bərabər, Dağıstan MR-da yaşayan digər xalqları da Sovet hökumətinin əl ata biləcəyi ən ağır cinayətdən – öz etnik və tarixi torpaqlarından deportasiya olunmaq təhlükəsindən xilas etdi.

Sovet hökuməti süqut etdikdən sonra Rusiya Federasiyası tərkibində muxtar respublika statusu olan Dağıstanın ikinci ən böyük şəhəri yenə də Dərbənd şəhəri hesab olunur. 2002-ci ildə aparılan siyahıyaalmaya görə bu respublikada 36 millət yaşayır və onların içərisində azərbaycanlılar 117 min nəfər təşkil edir. 2007-ci ildə burada aparılan siyahıyaalmaya görə, Dağıstanda 2.659 min nəfər əhali yaşayır.

Müasir dövrdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında çox sıx iqtisadi, siyasi və mədəni əlaqələr movcuddur.

Qafqaz – sirli rəvayətlər və əfsanələr ölkəsi, sonsuz insan təfəkkürünün, ilahi və insani başlanğıcın birləşdiyi yer. Qədim yunanlar Olimp allahlarının Pifon divi üzərindəki qələbəsini möhtəşəm Qafqazla əlaqələndirirdilər. Olimp allahlarından insanlar üçün od oğurlamış nəhəng Prometey burada əzab çəkmək üçün qayaya zəncirlənmiş, Qafqaz dağının zirvəsində dahi Zevs Uran və Qeyin oğulları olan titanlar üzərində qələbə çalmış və onları Tərtərə (sonsuzluğa; ölülər çarlığına) atmışdır. Bura, sirli Kolxidaya qızıl dəri arxasınca qorxmaz Yasonun başçılığı ilə igid arqonavatlar gəlirdilər. Bir az sonra Makedoniyalı İsgəndərin həyatını təsvir edən yazarlar öz qəhrəmanlarını bura «gətirəcəklər» və bir neçə əsrin tarixçilərini çaş-baş salacaqlar.

Bir çox şərq tarixçiləri Qafqazı Albrus (Elbrus) adlandırırdılar. Bəzi müəlliflər onu Qaf dağı adlandırırlar. Bu ada müsəlmanların müqəddəs kitabı olan «Ouranda»da rast gəlinir və onun keçilməz olduğu göstərilir. Məhz bu səbəbə görə Qafqazı insan varlığının son həddi hesab edirdilər.

Ərəb coğrafiyaşünasları Qafqazı Cibal-əl-Fəth (Qələbə dağı) adlandırırdılar. Ərəblər bu dağda saysız qələbələr çalmışlar. 1936-cı ildə Nəqşi Rüstəm dərəsində (İran) tapılmış Sasani şahı I Şapurun (242-272) «atəşpərəst Kəəbəsin»dəki qələbə yazısında Qafqaz dağları «Kapkox» adlandırılmışdır. Plini Sekund (I əsr) əsas Qafqaz dağ silsiləsini «Karvan dağları» adlandırmışdır. Strabon isə (b.e.ə. I əsr) məlumat verirdi ki, «... yerli sakinlər Qafqazı Kaspi adlandırmışlar, yəqin ki, bu ad kaspi qəbiləsinin adı ilə bağlıdır».

Qafqaz dağlarının sirli olması Dərbənd qala divarlarında da möhtəşəm iz qoymuşdur.

Bab əl-Əbvab (ərəb. Qapılar qapısı. Baş qapılar) – Dərbəndin ərəb adlarından biridir. Ərəb mənbələrinin məlumatına əsasən IX-X əsrlərdə (İbn Xordadbəh, Məsudi və başqaları) «Qaytaq dağları» dərələrində Bab (qapı) adını daşıyan çoxlu əsas məntəqələr var: Bab Sul, Bab Alan, Bab Şabran, Bab Lazika, Bab Sedjası, Bab Sahib Sərir, Bab Filan Şab, Bab Karuman şah, Bab İran şah, Bab Lizan şah. Dərbənd baş yolda yerləşdiyi üçün Bab əl-Əbvab adlandırılırdı.

Dərbənd – şəhərin müasir adı. İki fars sözündən əmələ gəlmişdir: «dar» – qapı, «bənd» – əlaqə, rabitə.

Mütəxəssislərin fikrinə görə, şəhərin bu adına ilk dəfə VII əsrə aid yazılı mənbədə rast gəlinir. Lakin məşhur şərqşünas V.Q.Lukonin hesab edir ki, bu ad faktiki olaraq VI əsrdə şəhərin qala divarlarında yazılmış pəhləvi yazılarında qeyd olunmuşdur.

Dərbənd – olmaq, meyl etmək, qanatmaq, bənd olmaq (Azərbaycan dilinin izahlı lüğəti, 2 cild, «Elm» nəşriyyatı, Bakı, 1980-ci il, səh.72) mənasını da verir.

Dərbənd – qədim çoxmillətli (60-dan çox xalq və millət) şəhərdir.

Bu şəhər Xəzər dənizinin sahilində, Böyük Qafqaz dağlarının Tabasaran silsiləsinin ətəyində yerləşir. Dərbənd Xəzər dənizinin sahili boyunca uzanan Dərbənd qapıları və yaxud Xəzər qapıları adlanan dar ərazidə salınmışdır. Şəhərin ərazisi 0,5 min km^2.



Şəhərin tarixi əsrlərin qaranlığında itir. Bir çox qədim mənbələr Qafqazdakı məşhur şəhər haqqında məlumat verir, lakin onun yaranması vaxtı haqqında heç bir konkret tarix göstərmirlər. Lakin qədim yazılı mənbələrin, yerli tarixi salnamənin, xalq əfsanələrinin və rəvayətlərin, arxeoloji qazıntıların nəticələrinin analizi tədqiqatçıları bu qənaətə gətirmişdir ki, bu rayonda yaşayış məntəqəsi hələ tunc dövründə – b.e.ə. III minillikdə olmuşdur. Bu rayonda insanların məskunlaşması yalnız rahat coğrafi və strateji vəziyyətlə deyil, həmçinin yaxşı iqlim şəraiti ilə bağlı olmuşdur. Şəhər haqqında məlumata məşhur qədim tarixçilərin, coğrafiyaşünasların və səyyahların Hekatey Miletli, Haris Metilenli, Herodot, Strabon, Korneli Tasit, Klavdi Elian, Plini Sekund, Ptolomey, İosif Flavi, Eliy Erisfid, Kassi Dion və b. yazılarında rast gəlinir.

Şəhər haqqında dəfələrlə ibn Xordadbeh, Məsudi, əl-Qərnati, əl-İstəxri, əl-Müqəddəsi və b. kimi belə nüfuzlu orta əsrlər müəlliflərinin yazılarında məlumat verilir. Dərbəndin adı bir çox yazılı mənbələrdə müxtəlifcür səsləndirilir.

Ptolomeyin xəritəsində (b.e.ə. II əsr) həmin rayonda Gelda şəhəri (Celda) kimi qeyd olunmuşdur. Erkən ortaəsr alban və erməni müəllifləri şəhəri Çor Qapıları, Qala və Çor, Çoqa, Çola, Cora, Hunlar qapısı, Çora sərhəd qalası, Zuar qapıları, Hun qapıları, Hun qalası, Pahaq Cora adlandırmışlar. Bizans tarixi salnamələrində onu istehkam şəhər – Tzor (Tzur, Sur), Alban keçidi, Çoqa qapıları, nəhəng Çoqa şəhəri, Suriya salnamələrində – Xəzər qapıları, Toraye qapıları, ərəb salnamələrində – Bab əl-Əbvab (Baş qapılar, Qapılar qapısı), Bab əl-Hədid (Dəmir qapılar), Bab Alban (Alban qapıları), Sədd Alban (Alban divarları), bəzən isə sadəcə əl-Bab (qapı), türk müəllifləri isə onu Temir Kapısı və ya Temir Kapı, gürcü müəllifləri – Dzviqis kapi (Dəniz qapıları), Darubandi, rus müəllifləri – Железныйе ворота, Дербент, monqollar şəhəri – Kaxulqa (qapılar), Tamur kaxulqa (Dəmir qapılar) adlandırmışlar. Tarixi salnamələrdə və Dağıstan xalqlarının folklorunda şəhər Çoqa (avar), Çulli (darqi), Çurul (lək), Salli (tabasaran) adı altında verilir.

Bundan başqa ayrı-ayrı mənbələrdə şəhər – Sul, Çor keçidi şəhəri, Böyük qala, Yəcuc-Məcuc səddi, Çora qapıları şəhəri, Şimal qapıları, Dərbənd qapıları və s. adlandırılmışdı. Şəhərin indiki «Dərbənd» adına yazılı mənbələrdə ilk dəfə Anani Şirakasinin VII əsrdə yazılmış «Goğrafiya» əsərində rast gəlinir. Bəzi mütəxəssislər hesab edirlər ki, şəhəri hələ VI əsrdə farslar Dərbənd adlandırmağa başlamışlar. Bu ad dilində tərcümədən «Bağlı qapı» mənasını verirdi (Darbənd – «qapı düyünü», dar – «qapı» və bənd – «sədd, qıfıl» deməkdir).

Şəhərin iqtisadi və siyasi əhəmiyyəti Midiya Roma, Parfiya, imperiyaları, Hun şahlığı, Makedoniyalı İsgəndər, Sasanilər, Ərəb Xilafəti, Bizans, Xəzər xaqanlığı kimi və s. bir çox başqa dövlətlərin xüsusi diqqətini cəlb edirdi. Bu dövlətlər çalışırdılar ki, Dərbənd kimi mühüm strateji və iqtisadi-ticarət rayonunu öz təsiri altında saxlasınlar. Orta əsrlərdə bu bölgəyə səlcuq və səfəvi dövlətləri, Qızıl Ordu və Osmanlı sultanlığı, Teymurilər dövləti və başqaları da iddia edirdilər.

Ərəb Xilafətinin sərkərdələri Məsləmə və Mərvan, Çingiz xanın tanınmış silahdaşları olan Subutaybahadur və Cəbənoyon, zəhmli sərkərdə Teymur və Qızıl Ordunun hökmdarı Toxtamış, Azərbaycan Səfə-

vi dövlətinin banisi I Şah İsmayıl və «Kainatın leysanı» Nadir şah Əfşar öz döyüşçülərini ağsaçlı Dərbənd divarlarının üzərinə hücuma göndərmişdilər.

Dərbənd şəhəri Sasanilər sülaləsindən olan II Yezdəgirdin əmri ilə (438-457) imperiyanın şimal sərhəddində hunlar və xəzərlərdən müdafiə olunmaq üçün şəhər-qala kimi tikilmişdir. Əvvəllər Dərbənd səddi torpaq və gildən idi. 567-ci ildə Sasani şahı I Xosrov Ənuşirəvanın hakimiyyəti dövründə (531-579) müdafiə divarlarının daşdan tikilməsinə başlandı. Tikinti işləri mərhələlərlə aparılırdı: əvvəlcə qala və şəhərin şimal divarı, sonra cənub divarı (hər iki divar bir-birinə paralel yerləşmişdir, divarlar qalaya birləşirdi, şərqdə isə dənizə uzanaraq liman yaradırdı), lap sonralar Dağ divar («Dağ barı» qaladan qərbdə yerləşirdi, uzunluğu 40 km-dən çox idi) – müdafiə tikililərinin mürəkkəb sistemi tikilmişdir. VI əsrdə ilk köndələn divar ucaldılmışdır. Bu divar qalanın yanında Dərbənd şəhərinin yaşayış hissəsini yaşayış olmayan dənizkənarı hissəsindən ayırırdı. Qədim şəhər qərbdən Narınqala ilə əhatə olunmuş hissədə, şərqdə isə dəniz olan hissədə sahəsi 150 hektar olan ərazidə yerləşirdi. Müqayisə etmək üçün Orta Asiyanın, Yaxın Şərqin və Qərbi Avropanın orta əsrlərdə məşhur şəhərlərinin adını çəkmək olar: Səmərqənd (65 ha), Buxara (35 ha), Termez (20 ha), Dəməşq (105 ha), Qüds (100 ha), Hələb (112 ha), Piza (114 ha), Gent (80 ha), Brügqe (80 ha). Arxeoloji məlumatlara görə, dənizkənarı rayon hesaba alınmamaqla şəhərin məskunlaşmış ərazisinin ümumi sahəsi 26-27 ha-a çatırdı ki, bu da şəhərin divarlarla əhatə olunmuş sahəsinin 1/6 hissəsini təşkil edirdi. Ərazisinə görə Dərbənddən kiçik şəhərlər də var idi.

VI-VII əsrlərdə Dərbənd şəhəri xarici təcavüzə qarşı mübarizədə nəinki vacib dayaq məntəqəsi, həm də Qafqazın mühüm mədəniyyət mərkəzi olmuşdur. Salnaməçi Nəsəvi yazırdı ki, Dərbənd güclü qala idi və onu güclə zəbt etmək mümkün deyildi. Onu yalnız satqınlıq nəticəsində tutmaq olardı. 630-cu illərdə Sasanilərin Bizansla müharibədə zəifləməsindən istifadə edərək xəzərlər Dərbəndi zəbt etdilər. VII əsrin 40-50-ci illərində şəhərin qala divarlarının yanında ərəblər göründülər. Dərbənd Ərəb Xilafətinin tərkibinə daxil olandan sonra şəhərdə məscidlər tikilməyə başladı (Cümə məscidi də daxil olmaqla), şəhər əhalisinin çox böyük əksəriyyəti islam dinini qəbul etdi. VIII əsrdə sərkərdə Məsləmə ibn Əbdülməlikin dövründə Dərbənd Qafqazın böyük hərbi-siyasi mərkəzinə çevrilmişdi və burada xilafə canişinin iqamətgahı yerləşirdi. VIII-X əsrlərdə Dərbənd artıq dəniz ticarətinin mərkəzinə, Xəzər dənizində əsas limana çevrilmişdir.

IX əsrdə Ərəb xilafətinin dağılması ilə əlaqədar Dərbənd şəhəri tədricən formalaşan müstəqil əmirliyin mərkəzi olur. 989-cu ildə şirvanşahlar, 1071-ci ildə isə səlcuq türkləri şəhəri özlərinə tabe edirlər.

XIII əsrdə (1239-cu il) Dərbəndi monqollar zəbt edir və şəhər tənəzzülə uğrayır. Qalanın qüllələri və divarlarının başı dağıdılır. XVI-XVIII əsrin əvvəlində Dərbənd Azərbaycan Səfəvilər dövlətinin tərkibinə daxil olur; XVII əsrdə Səfəvi hökmdarı Şah Abbas istehkamların və limanın bərpasına, şəhərin Şimali və Şərqi Qafqazda dayağa çevrilməsinə böyük qüvvə sərf edir. Rusların Dərbəndə ilk hücumu Stepan Razin tərəfindən 1668-ci ildə edilmişdir.

1722-ci ildə Dərbənd I Pyotrun xəzər yürüşü zamanı çar Rusiyası tərəfindən işğal olunmuşdur.

1735-ci ildə Gəncə müqaviləsinə əsasən Dərbənd rus işğalından azad oldu. Dərbənd şəhəri 1743-cü ildən Nadir şahın iqamətgahı, az sonra isə Dərbənd xanlığının mərkəzi olur. 1796-cı ildə şəhər rus qoşunları tərəfindən yenidən zəbt olunur.



Cümə məscidi

I Qacarlar dövləti - Rusiya müharibəsinin gedişində, 1806-cı ilin payızında Dərbənd şəhərində ruslar tərəfindən işğal edildi, 1813-cü ildə isə Gülüstan sülh müqaviləsinə əsasən çar Rusiyasının tərkibinə qatıldı. 1840-cı ildən Dərbənd qəza şəhəri, 1846-ci ildən isə quberniya şəhərinə çevrilir.

1840-cı ildən xüsusi ilə boyaq otunun inkişafı ilə əlaqədar şəhərdə iqtisadiyyatın yüksəlişi hiss

olunmağa başlayır (Bu boyaq otundan xalça və tikiş sənayesi üçün ucuz boya alınırdı). XIX əsrdə Dərbəndin sakinləri boyaq otunu yetişdirməklə bərabər bağçılıqla, üzümçülüklə, balıqçılıqla və s. məşğul olurdular.

1846-ci ildə Dərbənd quberniyası yaradılmışdır. Quberniyanın tərkibinə Dərbənd və Quba qəzaları, Dargin və Samur əyalətləri, Kür və Qaziqumux xanlıqları, Tabasaranın və Qaytağın feodal torpaqları daxil idi.

Quberniyanın başında hərbi qubernator dururdu. Qubernator inzibati-polis, təsərrüfat, maliyyə və məhkəmə məsələlərinə baxırdı. O, həmçinin Cənubi Dağıstandakı rus qoşunlarının komandanı idi.

Dərbənd quberniyasının dəftərxanası və bütün quberniya idarələri (polis idarəsi, quberniya məhkəməsi, komendatura idarəsi, xəzinədarlıq, karantin-gömrük məntəqəsi, poçt idarəsi və s.). Dərbənddə yerləşirdi.

Dərbənd quberniyası 1860-cı ildə ləğv olundu, onun yerində Dağıstan vilayəti yaradıldı.

1898-ci ildə Port-Petrovsk (indiki Mahaçqala) – Bakı dəmiryolu tilkilişinə başlanıldı. Bu dəmiryolu həm də Dərbənd şəhərindən keçirdi.

Sirli tarixi və məşhur memarlıq abidələri olan əfsanəvi Dərbənd şəhəri şairlərin və yazıçıların ilham mənbəyi olmuşdur. Bu şəhər Şərqin dahi şairləri Nizami Gəncəvinin, Sədi Şirazinin, Mücirəddin Beyləqaninin, Əbülqasım Firdosinin və başqalarının əsərlərində tərənnüm edilmişdir.

Dərbənd şəhərinə olan böyük maraq məşhur səyyahları bura gətirmişdir. Ərəb alimi və piliqrimi əl-Məsudi (X əsr) və Xilafətin səfiri Əl-Vasiy Billah, Saddamaat-Tərcümən (845), məşhur venesiyalı Marko Polo (1295) və monqol xanı Münulmin yanına fransız kralı IX Lüdovik tərəfindən göndərilmiş xüsusi səfir Gilyom Rubruk (1255), rus taciri Afanasiy Nikitin (1438) və venesiyalı diplomat Ambroco Kontarini (1474), moskvalı tacir Fedot Kotov (1623) və bir çox başqaları Dərbənd şəhərinin qonağı olmuşlar.

Yazıçı-dekabrist A.A.Bestujev-Marlinskinin (1830-1834-cü illərdə Dərbənd şəhərində dövlət xidmətində olmuşdur), cərrah N.İ.Piroqovun, fransız yazıçısı A.Düma-atanın (o Dərbənd haqqında təəssüratlarını «Qafqazı Prometeydən Şamilə qədər» yol qeydlərində əks etmişdir) adları da bu şəhərin tarixinə düşmüşdür.

Dərbənd – mühüm nəqliyyat qovşağı, dəniz limanıdır. Mahaçqala – Bakı dəmiryol xəttinin ən böyük stansiyasıyalarından biri burada yerləşir. Rostov-Don – Bakı magistral yolu Dərbənddən keçir.

Dərbənd şəhərində cilalama dəzgahları istehsal edən və «Elektrosiqnal» zavodları, Konserv Kombinatı (meyvə-tərəvəz, balıq və ət konservləri) yerləşir.



Qırxlar məscidi (17 əsr)

Dərbənd – qədim xalçaçılıq mərkəzidir və yüksək keyfiyyətli üzüm şərablarının istehsalçısı kimi də məşhurdur. Burada konyak istehsalı kombinatı, yeyinti sənayesi müəssisələri və tikinti materialları istehsal edən müəssisələr fəaliyyət göstərir. Xalçaçılıq məktəbi, S.Stalski adına Ləzgi Teatrı və onun nəzdində qədim Dərbənd şəhər arxeoloji, mədəniyyət və məişət muzeyi, Dağıstanın xalçaçılıq və xalq-tətbiqi incəsənət Muzeyi, Xəzəryanı xalqların etnoqrafiyası və məişəti Muzeyi olan Tarixi memarlıq və bədii qoruq Muzeyi də şəhərə xüsusi yaraşıq verir.

Dərbənd Dağıstanın böyük təhsil mərkəzidir. Burada Rusiya Federasiyasının 18 ali məktəbinin filialları fəaliyyət göstərir.

Dərbənd şəhəri həm də böyük turizm mərkəzidir. Narınqala ərazisində müxtəlif dövrlərin saray komplekslərinin qalıqları yerləşir. Şərq divarlarının yanında – alban dövrünün (antik), sasani və ərəb dövrlərinin (VI-VII əsrlər sasanilər sarayı), şimal-qərb hissəsinin aşağı tərəfində – monqolların hərbi yürüşü olan dövrə qədər, yuxarı hissəsində isə XIV-XVII əsrlər tikililərinin qalıqları qiymətli və əvəzsiz tarixi abidələrdir. Dərbənd xan sarayı tikililərinin dağıntıları (XVIII əsrin 2-ci yarısı), «Daş

torba» (kisə) («Kamennı meşok») adlı - yeraltı tikili, su üçün anbar-çənlər (XVII əsrin əvvəli), hamamlar (XVII əsrdə tikilmiş), təcridxana (1828), Dərbəndin simal hissəsindəki Qırxlar qapısı (VI-XIII əsrlər) və Orta qapı (VI əsr) və s. abidələr qorunub saxlanılmışdır. Dərbəndin yuxarı qədim qalaya birləşən hissəsi, əyri dar küçələr qovşağı olan tipik orta əsr müsəlman şəhəridir.

Bu dar küçələrdə 1-2 mərtəbəli evlər, məscidlər, hamamlar və fəvvarələr var idi. Şəhərin bu hissəsində Cümə məscidi kompleksi (VIII əsr), mədrəsə (XV-XIX əsrlər) və üç qapı (XVII-XIX əsrlər), Qırxlar məscidi (XVII əsr), Minarə məscidi (XVIII əsr; XIX əsrdə qismən yenidən tikilmişdir), Çortəpə məscidi (XVIII-XIX əsrlər) yerləşir. Qırxlar qəbirstanlığının yaxınlığında (Dərbənd qəbiristanlığının simal hissəsi) – keçmiş Xan məqbərəsi (1787-1788), hamamlar (XVII-XVIII əsrlər), yeraltı su anbarları (XVII-XVIII əsrlər), karvansara qalıqları (XVII-XVIII əsrlər) yerləşir. Dərbəndin yeni aşağı hissəsində XIX-XX əsrlərdə tikilmiş binalar, dəmiryol vağzalı (XIX əsrin sonu), passaj (örtülü bazar) yerləşir.

«Dərbənd» – coğrafi ad kimi çox yerdə müxtəlif məqamlarda işlədilmişdir:

– Dərbənd – İran İslam Respublikasının Kir-man əyalətində şəhər;

– Dərbənd - İran İslam Respublikasının Luristan əyalətində şəhər;

– Dərbənd – Türkiyənin Gecəli əyalətində şəhər;



Dərbənd. 1796-cı il

– Dərbənd – Özbəkistan Respublikasının Surxandərya vilayətində şəhər;

– Dərbənd – İran İslam Respublikasında dağ (2438 m);

– Dərbənd – Türkiyədə dağ (2644 m);

– Dərbənd – Türkiyədə çay;

– Dərbəndbaşı – Türkiyədə çay;

– Dərbəndsər – İran İslam Respublikasının şimal qərb hissəsində göl;

– Dərbənd çökəkliyi – Xəzər dənizində (500-800 m);

– Dərbəndi – turşa-şirin üzum növü;

– «Dərbənd» – neft daşıyan yük tankeri;

– «Dərbənd tankeri» rus sovet yazıçısı Yuri Krımovun romanı;

– «Dərbənd tankeri» – bədii film, Mosfilmin istehsalı;

– Qala qapı «Dərbənd» – Bakı şəhərində restoranlar kompleksi;

– «Dərbənd» – görkəmli Azərbaycan bəstəkarı Hacı Xanməmmədovun məşhur mahnısı;

– «Dərbənd» – Bakı şəhərində firma marketi;

– «Dərbənd» - dünya şöhrətli konyak markası;

– «Dərbəndnamə» - dünya şöhrətli Azərbaycan şərqşünası, Rusiya şərqşünaslıq elminin banilərindən biri M.M.Kazımbəyin tarixi-etnoqrafik fundomental əsəri;

– 2002-ci ildə Rusiya Bankı 10 rubl dəyərində «Rusiyanın qədim şəhərləri» seriyasından olan və üstündə Dərbənd şəhəri təsvir olunan pul buraxmışdır;

– Dərbənd – RF Dağıstan Respublikasında şəhər. Bu şəhər Rusiya Federasiyasının digər şəhərlərindən yalnız fəxri yaşı ilə fərqlənmir, o eyni zamanda qədim memarlıq abidələri ilə Yaxın Şərq, Orta Asiya, Qafqaz və Şərqi Avropa ölkələrinin tarixi taleyindəki mühüm rolu ilə də fərqlənir.

Dərbənd şəhərinin hərbi-strateji əhəmiyyəti. Erkən orta əsrlər dövründə hərbi cəhətdən iki nəhəng qüvvə – Hun xaqanlığı və Sasani imperiyası arasında amansız mübarizə başladığı zaman Xəzər dənizinin qərb sahili, xüsusən də Dərbənd keçidi həddən artıq vacib hərbi-strateji əhəmiyyət kəsb edirdi. Məhz bu dövrdə Xəzərin bütün qərb sahili boyunca möhtəşəm sahilyanı istehkamların inşa edilməsi Azərbaycanda hərbi dənizçilik işinin vacib tərkib hissəsi olmuşdur.

V-VI əsrlərdə Sasani hökmdarlarından II Yezdəgirdin (438-457), Firuzun (459-484), I Qubadın (488-531) və I Xosrov Ənuşirəvanın (531-579) döv-

ründə Azərbaycan Albaniyasında Xəzərin qərb sahili boyunda Beşbarmaq, Gilgilçay və Dərbənd kimi əzəmətli hərbi istehkamlar – qalalar ucaldılır. Azərbaycanın qədim və orta əsr memarlığı üzrə tətqiqatçısı D.A.Axundovun fikrinə görə, şimal müdafiə qurğuları xeyli əvvəl, hələ miladdan öncə kaspilər, sonralar isə Azərbaycan Albaniya dövləti tərəfindən inşa edilmişdir.

Şimal müdafiə qurğuları hərbi nöqteyi-nəzərdən dəqiq düşünülmüş, ərazinin relyefinə maksimum uyğunlaşdırılmış və dərininə eşalonlaşdırılmış bütöv müdafiə sistemi sayılırdı. Həm də bu istehkamların hər biri ümumi müdafiə sisteminin yalnız bir elementi idi.

Hərbi-strateji baxımdan Xəzərin qərb sahilində müdafiə qurğuları sistemində ən vacibi Azərbaycan Albaniyasının Çora (Çola) vilayətində yerləşən Dərbənd keçidi idi. Dərbənd – özünün nadir coğrafi mövqeyinə görə çox əsrlər ərzində Azərbaycanda baş verən hərbi-siyasi hadisələrin gedişində son dərəcə vacib rol oynamışdır. İlk möhkəmləndirilmiş yaşayış məskənləri hələ m. ə. VIII-VII əsrlərdə meydana gəlmiş Dərbənd keçidinə, Roma və Parfiya, Sasanilər İranı və Bizans, Ərəb xilafəti və Xəzər xaqanlığı, Səlcuq dövləti və Qızıl Ordu və Osmanlı imperiyası, nəhayət I Pyotrun vaxtından Rus imperiyası göz dikmişdilər. Şəhərin meydana gəlməsi və onun strateji əhəmiyyəti təkçə Azərbaycan tarixində deyil, həm də dünya tarixində oynadığı əhəmiyyətli roluna görə, Dərbənd hər şeydən əvvəl yerləşdiyi xüsusi geo-coğrafi vəziyyətə borcludur. Məhz ona görə bu dövrlərdə Dərbənd şəhəri həm şimali-cənubi Qafqaza, və həm Ön Asiyaya, həm də Xəzərdən keçməklə Mərkəzi Asiyanın geniş ərazilərinə hücum etmək üçün ən əlverişli hərbi əməliyyat meydanı rolunu oynamışdır.

IV əsrin sonundan hunların simasında köçəri tayfa birləşmələrinin – Orta Şərq ölkələrinə real təhlükə yaradan zəhmli qüvvəsinin meydana çıxması Dərbənd keçidinin hərbi-strateji əhəmiyyətini xeyli artırdı. Bu amili nəzərə alaraq, Sasanilər bütün qüvvələri ilə Dərbənd şəhəri üzərində öz nəzarətini saxlamağa can atırdılar. Sasanilər dövründə inşa edilmiş Dərbənd şəhər müdafiə kompleksinə şəhərin 3,5 km uzunluğunda şimal və cənub divarları, hündür təpənin üstündə yerləşən Narınqala istehkamı və Böyük Qafqazın əlçatmaz dağ zirvələrinədək 40 km-dən artıq uzanan dağ divarı daxil idi. Dənizin içərilərinə girmiş divarların arasındakı məsafə içəri qala yanında 350, dəniz yaxınlığında isə 450 metrə çatırdı. Hündürlüyü 18 metrə çatan divarların eni 4m idi. Dəniz divarları arasında liman inşa edilmişdi. Sahildəki arxeoloji qazıntılar göstərdi ki, dəniz sahili boyu iki şəhər divarı arasında müasir ləpədöyən zolağın yerində oval şəkilli oyuqları və ya yarıqları çox böyük olmayan (diametri 3,5 m qədər) hamar tərəfi dənizə divar uzanır. Tamamilə mümkündür ki, bu tikili gəmilərin boşaldılması üçün özünəməxsus yanalma körpüləri və ya şəhəri dənizdən qoruyan, eninə müdafiə səddidir.

Sasani şahları Dərbənd müdafiə kompleksinə xüsusi diqqət ayırır və burada həmişə iri qarnizonlar saxlayırdılar. Belə ki, Qafqazdakı heç bir Sasani mərzbanının bu qədər əhəmiyyətli qarnizonu olmamışdır.

VI əsrdən IX əsrin əvvəllərinədək Yaxın Şərq ölkələrini Cənubi-Şərqi Avropa, Aşağı Volqaboyu və Şimali Qafqazla birləşdirən mühüm ticarət yolları Xəzər dənizi hövzəsindən keçirdi. Volqadan və ya Xəzəryanı ölkələrdən gələn gəmilər üçün reydi olan Dərbənd Xəzər dənizində vacib limana çevrilir.

Bütövlükdə bu dövrdə Dərbənd Xəzər dənizində ən böyük liman olmuşdur.

Dərbənd limanı yaxşı möhkəmləndirilmişdi və oraya girişə ciddi nəzarət olunurdu. Əl-İstəxri Dərbənd şəhər limanını belə təsvir edir: «Bab əl-Əbvab dənizyanı şəhərdir. Onun ortasında gəmilər üçün lövbər dayanacağı var. Bu dayanacaqla dəniz arasında divar tikildiyi üçün (dənizin hər iki tərəfindən iki divar tikilmişdi) gəmilər üçün ora giriş dar və çətindir». İbn Hövqəl qeyd edir ki, limanın qapılarını bağlayan zəncir kilidlənirdi, onun açarı dənizə nəzarət edəndə olurdu və «gəmi limana ancaq qapının sahibinin, yəni Dərbənd əmirinin icazəsi ilə daxil olurdu». Daha sonrakı məlumatlarda, məsələn, Əbu Həsən əd-Curcaninin (1476) yazdığına görə, divarlar nə qədər bir-birinə yaxınlaşırsa, bir o qədər də dənizə girir. Odur ki, onlar arasında keçid çox dardır». Oxşar məlumatları Yaqut əl-Həməvi (XIII əsr) və Əbul-Fida da (XIV əsr) verir. Onlar dənizə uzanan, torpaq tökməklə yaradılmış zolaq, iki bənd və oraya girişi qoruyan divar haqqında yazırlar. Akademik V.V.Bartoldun fikrinə görə, təsadüfi deyil ki, Xəzərdə möhkəmləndirilmiş yeganə şəhər - Dərbənd IX-XI əsrlərdə dənizdən rusların

hücümlarına məruz qalmamışdır.

Dərbənd şəhər limanının beynəlxalq əhəmiyyətini bir çox orta əsr müəllifləri də qeyd etmişlər. Belə ki, əl-İstəxri Dərbənd şəhər limanının beynəlxalq dəniz ticarət mərkəzi kimi əhəmiyyətini vurğulayaraq yazırdı: «Bu, Xəzər dənizində Sərir və digər kafir dövlətləri üçün limandır. Bu, həmçinin Curcan, Təbəristan və Deyləm üçün limandır».

Dərbənd şəhərinin, Abşeronun və hər şeydən əvvəl, Bakı şəhərinin müdafiəsi məqsədilə dənizdə hərbi istehkamların tikilməsi və möhkəmləndirilməsi hələ IX əsrin axırlarından başlayaraq vikinqlərin və rusların sahillərə fasiləsiz hücumlarının qarşısının alınması ehtiyacından irəli gəlmişdir. IX əsrdən başlayaraq rusların Xəzər dənizində üzməsi adi hala çevrilmişdi. Bu barədə ibn Xordadbeh (IX əsr), ibn Fəqih (X əsr), ibn Fədlan (X əsr) və başqaları məlumat verirlər. İbn Xordadbeh özünün «Yollar və dövlətlər kitabı»nda (840-850) yazır ki, slavyan tacirləri «Curcan (Xəzər) dənizinə gedir və oradan istədikləri sahilə çıxırlar».

IX əsrin sonlarından etibarən ruslar Xəzər dənizinə mülki ticarət məqsədilə yanaşı, həm də (xüsusilə X əsrdə) tez-tez irimiqyaslı hərbi yürüşlər edirdilər. İş onda idi ki, Xəzər dənizinin əhalisi sıx olan cənub-qərb sahilləri ən qədim dövrlərdən yadelli işğalçıların diqqətini özünə cəlb edirdi. Tacir ruslar öz gəmilərində tez-tez Xəzər dənizinin sahillərinə gəldikləri üçün Azərbaycanın bu vilayətlərinin təbii ehtiyatlarla zəngin olduğunu yaxşı bilirdilər. Bütün bunlar həmin yürüşlərin müstəsna olaraq soyğunçuluq xarakteri daşıdığını göstərir.

Beləliklə, 1032-ci ildə savirlərin, alanların və rusların birləşmiş qüvvələri Azərbaycanın Şirvan vilayətinə yürüş etdilər, ancaq onlar geriyə dönərkən Dərbənd əmiri Mansur tərəfindən darmadağın edildilər. Yalnız alanların bir dəstəsi xilas ola bildi.

Xəzər dənizi hövzəsinə şərq normanları olan «varyaqların» gəlməsini də qeyd etmək lazımdır. Onlar Baltik dənizi-Riqa körfəzi-Qərbi Dvina-Dnepr - Qara dəniz – Azov-Don-Volqa marşrutu ilə üzərək buraya gəlirdilər. Qədim Skandinaviya mənbələrində və vikinqlərin praktiki təcrübələri əsasında tərtib olunmuş XII-XIV əsrlərin xəritələrində Azərbaycan Albaniyası və Xəzər (Girgan) dənizi barədə çoxlu məlumatlar saxlanılmışdır.

Azərbaycanda hərbi-dənizçilik işlərinin tarixində 1175-ci il nisbətən parlaq iz qoymuşdur. Bu il Volqadan səfil-dəniz quldurları 73 gəmidə Azərbaycanın Şirvan vilayətinə soxulmağa çalışmışdılar. Onlar Xəzəri keçərək Sarı adası yaxınlığında lövbər salmış, sonra isə Kür çayı ilə Ləmbərana (Qarabağ) qədər getmişdi. Bu dövrdə qıpçaqlar Dərbəndi işğal edib cənuba tərəf yürüşlərini davam etdirir və Şabran qalasını tuturlar. Lakin tezliklə gürcülər və şirvanlıların birləşmiş ordusu tərəfindən qıpçaqlar məğlub edilmişdir. Xəzər dənizində də Şirvanşah I Axsitan tərəfindən yaradılmış Azərbaycan Şirvanşahlar dövlətinin donanması yadelli işğalçıları darmadağın etmişdir. Bütün bunlar XII əsrin görkəmli şairi Xaqaninin Şirvanşah I Axsitana ithaf etdiyi mədhiyyələrdə öz bədii əksini tapmışdır.

Xaqani istər ki, çata kamına,
Mey süzə xaqanın qızıl camına.
Dünya hökmdarı Şirvanşah üçün,
Şeirin incisindən bir dəmət düzsün,
Böyük xaqanımız Əbülmüzəffər,
Zəfərçalanların önündə gedər.
Xəzran ordusuna qələbə çalmış,
Boynuna Xizəran kəməndi salmış.
Əlindən dəryalar göhərlə dolmuş,
Gövhərtaclıların gövhəri olmuş.
Dənizin şor suyu aranmış həmən,
Saf igidlərin alın tərindən.
Bakı duasını unutmaz bir an,
Olub sayəsində Bəstan, Xavəran!
Rey ilə Xəzrani, Zipəkəranı,
Bakı istər etsin şahin qurbanı.
Göylər qılıncına göstərdi mədəd,
Fəth oldu əliylə Şəbaran, Dərbənd.

Bu hadisələrdən sonra rusların Şirvana hücumları demək olar ki, uzun muddətə kəsilir.

Bütövlükdə, Hindistanı, Çini və Mərkəzi Asiyanı Qara dəniz və Aralıq dənizi ilə, həmçinin Fars körfəzi ilə Volqaboyu xanlıqları və Moskva dövləti ilə birləşdirən magistral karvan yolu üzərində yerləşən Xəzər bölgəsi XV əsrin ortalarından başlayaraq, Asiya-Avropa ölkələri arasında beynəlxalq ticarətdə əsas rollardan birini oynayırdı.

Bu dövrdə beynəlxalq ticarətin inkişafı, həmçinin Azərbaycanda gəmiqayırmanın inkişafına təsir göstərirdi. İtaliya səyyahı və diplomatı Kontarininin verdiyi məlumatlara görə, XV

əsrdə Xəzər dənizində Azərbaycan Şirvanşahlar dövlətinin qatranlı palıd taxtasından düzəldilmiş ikidorlu və uzun şüvüllü «Balıq» sistemli hərbi gəmiləri üzürdü. Kontarininin məlumatına görə, onlar «tamamilə balıq formasındadır və hətta belə adlandırılmışdır, çünki gəminin burnu və arxa tərəfi nazikdir, yanları isə lap enlidir». Kontarini sonra qeyd etmişdir ki, bu gəmilərin hissələri bir-birinə ağac mismarlarla bərkidilir və qətranla möhkəm hopdurulur, idarə etmək üçün onların iki doru və sükanı əvəz edən böyük şüvülü vardır. Xəzər dənizçiləri kompassız, ulduzları müşahidə edərək, sahildən çox aralanmadan bəxtəbəxt üzürdülər. Hava münasib olduqda yelkəndən, hərdən isə avardan istifadə edirdilər». Bu gəmilərdə yüklə bərabər 10 nəfər yerləşirdi. Oruc bəy Bayat, Petro Della Valle və Jan Streysin məlumatlarına görə, Xəzər dənizində yastıdibli, avarlı, qalera tipli gəmilər 30 ton yük apara bilirdi. Bütövlükdə bu qaleraların iki növü var idi: çoxavarlı – zenzil gəmiləri nazik, uzun olub, geniş manevr və sürətə malik idi, bastard – çoxavarlı gəmilər isə arxa tərəfdən enli olub, yük daşımaq üçün nəzərdə tutulmuşdu. Bütün bu qaleralar hərbi gəmilər hesab olunurdu. Bu gəmilər müvafiq növ ağaclardan hazırlanırdı ki, həmin ağaclar da Şirvan meşələrindən və ya Xəzərin cənub və cənub-qərb sahillərindən gətirilirdi. Əsas tərsanələr Bakıda, Niyazabadda və Dərbənddə yerləşirdi.

I Şah Abbasın (1587-1629) hakimiyyəti əsas diqqəti Aralıq dənizinə çıxmaq və Hörmüz adasını portuqaliyalılardan qeri almaq məqsədilə özünün hərbi-dəniz donanmasının yaradılması probleminin həllinə yönəltmişdi. I Şah Abbas Xəzər dənizinin sahilyanı şəhərlərində, o cümlədən Bakı və Dərbənd şəhərlərində hərbi-müdafiə istehkamlarının möhkəmləndirilməsi qayğısına qalmışdır.

Bütövlükdə, yuxarıda qeyd olunanları ümumiləşdirdikdə, belə bir faktı qeyd etmək lazımdır ki, Azərbaycanın Xəzərsahili bölgələrində yaşayan və həyat fəaliyyəti dənizlə qırılmaz tellərlə bağlı olan əhalisinə orta əsrlərdə öz dövrünə görə hərbi dənizçilik işlərində kifayət qədər yüksək səviyyəyə çatmağa imkan vermişdir. Bakı və Dərbənd şəhərlərinin dəniz istehkamlarında, həmçinin Azərbaycan Şirvanşahlar dövləti və həm də Azərbaycan Səfəvilər sülaləsinin hakimiyyəti dövründə gəmi quruculuğu işlərində, o cümlədən, hərbi təyinatlı gəmilərin istehsalında bunlar əyani şəkildə özünü göstərirdi və nəticədə Azərbaycanın Xəzərsahili bölgələrinə yad-gəlmələrə qarşı inadla mübarizə aparmağa və həmin bölgələrdə onların möhkəmlənməsinə mane olmağa imkan verirdi.

Dərbənd və Qazaka. Qazaka Atropatena dövlətinin paytaxtı idi. Qazaka Aqbatana şəhəri ilə Araz çayı arasında, müasir Miandqab şəhərindən bir qədər şərqdə yerləşirdi.

Roma təsirinə qarşı mübarizə Atropatena və Parfiyanı daha da yaxınlaşdırmışdı. Atropatena Parfiya imperiyasının tərkibində bir çox hallarda özünü müstəqil idarə edən dövlətlərdən birinə çevrilmişdi. 213-223-cü illərdə sonuncu Parfiya şahları arasında baş verən ara müharibələri dövründə Atropatena qısa müddətə tam müstəqillik əldə etdi. 227-ci ildə Dərbənd keçidi vasitəsilə Albaniya və Atropatenaya hunların, həmçinin sabirlərin yürüşləri baş verdi. Atropatena təqrilən 227-cü ildə Sasanilər tərəfindən istila edildi.

Azərbaycan Atropatenası zəngin maddi və mənəvi mədəniyyətə malik bir ölkə idi. Atropatena ərazisində küp qəbirlər geniş yayılmışdı. Ölü sıx bükülmüş şəkildə başı qabın ağzına tərəf olmaqla küpə yerləşdirilirdi. Qəbirlərə dəfn küpü ilə yanaşı gil qablar və başqa əşyalar da qoyulurdu. Küp qəbirlərin heç bir qəbirüstü tikilisi olmurdu.

Atropatena əhalisinin əsas dini zərdüştlük idi. Sasanilər dövründə isə Atropatena zərdüstlüyün əsas mərkəzlərindən birinə çevrilmişdi.

Bax: Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. «Azərbaycan» cildi. «Azərbaycan Milli Ensiklopediyası» Elmi mərkəzi, Bakı, 2007, səh. 173.

Azərbaycan Albaniyası – b.e.ə. birinci minilliyin sonu – b.e. VIII əsrində Cənubi Qafqazın şərqində qədim dövlət. Müxtəlif vaxtlarda dövlətin paytaxtı Kabalaka (Qəbələ), Partav (müasir Bərdə), şəhərləri olmuşdur. Bu şəhərlərin hamısı Şimali Azərbaycanın ərazisindədir. Strabon (b.e.ə. I əsr) Albaniya dövlətinin sərhədlərindən məlumat verərək yazırdı ki, «... albanlar iverlərlə (Gürcüstan) Xəzər dənizinin arasında yaşayırlar, şərqdə dənizə yaxın, qərbdə isə iverlərlə həmsərhəddirlər; Şimaldan Qafqaz dağları ilə əhatə olunmuşdur. Albaniya üzərindəki yüksəkliklərdə amazonlar (türk qəbiləsi) yaşayırlar, onlarla albanların arasında gellər və leqlər yaşayırlar».

Strabonun məlumatına görə, albanlar 26 qəbilə-

dən ibarət idilər. «... onların hər birinin öz dili və şahı var idi». Lakin bütün salnamələrdə onlar bir ümumi ad – albanlar adı ilə xatırlanırlar.

Hərbi yürüşlər zamanı Qafqazda olmuş romalılar Azərbaycan Albaniyasının məhsuldar torpağı haqqında heyrətlə danışırdılar. «...Babil və Misir torpaqlarından fərqli olaraq bu torpaqlar yaxşı sulanır» və «... bir dəfə əkilən torpaq ildə 2-3 dəfə məhsul verir».


Qədim müəlliflərin məlumatına görə, Azərbaycan Albaniyası mövcud olduğu ayrı-ayrı dövrlərdə bölgədə artıq dərəcədə hərbi-siyasi qüvvəyə malik olduğu üçün Əhəməni Fars Pont, Parfiya onunla ittifaqa girmək istəyirdilər. II əsr müəllifi Pristian özünün «Yerin təsviri» əsərində yazırdı: «... Qəddar Marsın döyüşkən oğulları». Arrian (b.e.ə. II əsr) özünün «Əlisgəndərin yürüşü» əsərində məlumat verir ki, məşhur Qavqamela (b.e.ə. 331-ci il) döyüşü zamanı Əhəməni şahı III Daranın nəhəng ordusunda bəkriyyəlilər, skiflər, arameylər, midiyalılar, parfiyalılar, saklar, kappadokiyalılar, hindlilər, babillilər, kariyalılar və başqa qəbilələrlə yanaşı, albanlar da döyüşürdülər. Albanlar «dünya əhəməni dövləti» hökmdarının şəxsi qvardiyasının yanında fəxri yer tuturdular və onlar yunanlar (Makedoniyalı İsgəndərin qoşunu) tərəfindən tez tanınırdılar.

Strabon (b.e.ə. 51 – b.e. 14) və Plutarx (I əsr) Alban şahı Oroysüm çoxminlik ordusunun Roma sərkərdəsi Böyük Pompeyə (b.e.ə. 106-48-ci illər) göstərdiyi layiqli müqavimət haqqında məlumat verirlər.

Qədim Dərbənd (Çoqa) Azərbaycan Albaniyasının mühüm şəhərlərindən biri, mühüm hərbi-siyasi, ticarət və mədəni mərkəzi idi. Məşhur Alban şahı II Vaçenin (453-463) vətəni, ölkənin ən böyük şəhəri olan Dərbənd Azərbaycan Albaniyasını türklərin yürüşlərindən və xəzər xaqanlığının ekspansiyasından qoruyan forpost idi. Şəhər həm də Alban xristian kilsəsinin mərkəzi idi. Anti-sasani üsyanı yatırıldıqdan sonra ölkəni sasanilərdən asılı olan knyazlar idarə etməyə başladılar. VII əsrdə alban knyazları ölkənin müstəqilliyini bərpa etdilər. Lakin VII əsrin ortaları - VIII əsrin əvvəllərində Qafqaz Albaniyası Ərəb xilafəti tərəfindən işğal edilərək ləğv (705) olundu.

Roma (Roma imperiyası). Roma b.e.ə. III-II əsrlərdə işğalçılıq müharibələr nəticəsində bütün Aralıq dənizində hegemonluğa nail olan nəhəng dövlətə çevrildi. Dünya tarixində Karfagenin əsas rəqibi kimi, Spartakın rəhbərliyi altında qulların üsyanı, qüdrətli hökmdarları (Sulla, Mari, Pompey, Sezar, Oktavian və b.) ilə məşhurdur.

476-cı ildə alman barbarlarının başçısı Odoakrom tərəfindən Qərbi Roma imperiyasının son imperatoru Romul Avqustul devrilmişdir. Şərqi Roma imperiyası Bizans imperiyası adı altında 395-1453-cü illərdə mövcud olmuşdur.




Məlumdur ki, hələ Makedoniyalı İsgəndər (b.e.ə. 356-b.e.ə.323) Xəzər dənizindən yeni ticarət yolları axtarmaq məqsədi ilə Qafqaza yürüş hazırlamışdı. B.e.ə. 283-b.e.ə.282-ci illərdə bu məşhur sərkərdənin tərəfdaşı, tanınmış hərbi sərkərdə Patrokl şah I Selevkin əmri ilə Xəzər dənizinin ətrafını dolaşmışdır. Roma imperatoru Neron (54-68) Xəzər (Dərbənd) qapılarına yürüş hazırlamışdı.

Roma-Parfiya müharibələri Xəzər (Dərbənd) keçidinin və orada mühüm dayaq məntəqəsi kimi yerləşən qədim Dərbənd şəhərinin mühüm strateji əhəmiyyətini xeyli artırmış və onun tarixi inkişafında mühüm rol oynamışdır. Bu haqda məlumatlara antik dövr tarixçilərin və coğrafiyaşünasların əsərlərində daha çox rast gəlinir.

Roma-Parfiya müharibələrinin bütün tarixi və antik müəlliflərin məlumatları göstərir ki, Roma imperiyasının əsas məqsədi Xəzər dənizinin qərb sahilindən keçən məşhur Şərq-Qərb ticarət yolu və onun mühüm Xəzər (Dərbənd) keçidində yerləşən dayaq

məntəqəsi olan (qədim Dərbənd) üzərində nəzarəti saxlamaq idi.



Böyük –Daş qayasında latın yazısı

Məşhur Roma tarixçisi Tit Livi (b.e.ə. I əsr) məlumat verir ki, «… Pompey (Roma sərkərdəsi və siyasi xadimi) Mitridatı izləyərək (Pontii carı IV Mitridat b.e.ə. 132-b.e.ə. 63-cü illərdə hakimiyyətdə olmuşdur) ən ucqar rayonlara və naməlum xalqlara çıxmışdır: onu buraxmayan iberləri və albanları döyüşdə məğlubiyyətə uğratmışdır».

Bu məsələyə 1948-ci ildə Abşeron yarımadasında, Qobustanda Böyük-Daş dağının ətəyindəki qayada aşkar edilmiş latın kitabəsi aydınlıq gətirmişdir. Yazıda deyilir:

«İmperator Domisian
Sezar Avqust
Qermanikin dövründə.
Lüsi Yuli
Maksimin senturionun
XII Fulminat legionu».

Bu mətində «senturion» sözü «senturiyanın komandiri», «Fulminat» sözü – «ildırım sürətli» deməkdir. Deməli XII legionun senturiyalarının birinə Lüsi Yuli Maksim Avqust Germaniki komandanlıq etmişdir.

Nəzərə alsaq ki, Roma imperatoru Domisian (81-96) özünə 84-cü ildə Qermanik ləqəbini götürmüşdü, 94-cü ildə isə öldürülmüşdü, onda buradan aydın olur ki, bu yazı 84 və 96-cı illər arasında qayaya həkk edilmişdir.

II əsr Roma tarixçisi Svetoni özünün əsas «On iki Sezarın həyatı haqqında» əsərində sarmatlar tərəfindən Domisianın legionunun hansısa düşərgəsinin məhv edilməsi haqqında məlumat verir.

Svetoninin məlumatına görə, sarmatlarla romalılar arasında döyüş Xəzərin qərb ərazisində, Abşeron yarımadasında, Dərbəndlə Böyükdaş dağı arasında baş verə bilərdi.

Xəzəryanı yol. Xəzər dənizinin qərb sahili ilə Şərqi Qafqaz dağ silsiləsi arasında şimaldan cənuba dar dəhliz kimi uzanan sahilyanı xətt ən qədim zamanlardan Cənubi-Şərqi Avropa, Qafqaz və Ön Asiya xalqlarının tarixi həyatında mühüm rol oynamışdır. Böyük xalq kütləsinin hərəkəti üçün rahat, şirin suyu və gözəl çəmənlikləri ilə zəngin olan bu Xəzəryani düzənlik hələ erkən tunc dövründə Avrasiya düzənliklərinin çoxsaylı döyüşkən türk tayfalarının bu yolla Ön Asiyaya soxulmasına imkan verirdi.

Türklərin bu yoldan istifadə edərək Şərqi Avropadan Ön Asiyaya yürüşləri barədə ilk yazılı mənbə olan Herodotun (b.e.ə. V əsr) «Tarix» kitabında məlumat verilir.

Bu yol təkcə «müharibə yolu» deyildi. O, həmçinin əsrlər boyu Şərqi Avropa ölkələrini Cənubun ən qədim əkinçilik rayonları ilə birləşdirən mühüm beynəlxalq ticarət yolu idi. Yolun ticarət əhəmiyyəti barədə Strabon (b.e.ə. 51 – b.ə. 14), Klavdi Elian (II əsr), qədim Roma, yunan, bizans, fars, ərəb və b. müəlliflər məlumat vermişlər.

Bu yolun qədim dünya üçün əhəmiyyətini qüvvətli dövlətlərin bu rayonda öz təsirini yaymaq cəhdləri ilə də göstərmək olar. Bura Əhəməni Fars dövlətinin (b.e.ə. 550-330) yürüşlərini və Makedoniyalı İsgəndərin (b.e.ə. 356-323) yürüş planının tərtib edilməsi, Parfiya çarlığının burada möhkəmlənmək cəhdi (b.e.ə. 250 - b.e.224), digər Roma imperatoru Domisianın (81-96) hərbi ekspedisiyasının uğursuz nəticəsini göstərmək olar. Alban qapılarına məşhur Roma imperatoru Neron (54-68) yürüş etməyi planlaşdırmış və bir neçə yüzilliklər ərzində Sasanilər sülaləsindən olan şahlar (224-651) buranı nəzarət altında saxlamağa çalışmışdılar.

Dərbənd şəhəri və Azərbaycan Albaniyası antik dövrdə. Albaniya dövlətinin Şimali Azərbaycan ərazisində e.ə. IV-III əsrlərdə formalaşdığı ehtimal olunur. Albaniya dövləti şimalda Qafqaz dağları, şərqdə Xəzər dənizi, qərbdə İberiya, cənubi-qərbdə Ön Asiya, cənubda isə Atropatena ilə həmsərhəd idi.

Antik, alban və digər mənbələrin məlumatına görə, Albaniyada 26 tayfa məskunlaşmışdı (Strabon). Bunlardan albanlar, anariaklar, aynianlar, çiblər, didurlar, gellər, hellər, kaspilər, qardımanlar, qarqar-

lar, leqlər, lpinlər, sakasenlər, savdeylər, utilər və b. tayfalar məlumdur.

Romalılar sərvətlərlə zəngin olan Azərbaycan Albaniyasını işğal etmək, bununla da Hindistandan gələn, Xəzərdən Qara dənizə uzanan ticarət yolunu nəzarət altına almaq istəyirdilər. Romalıların dəfələrlə Albaniyanı tutmaq cəhdlərinə baxmayaraq o, öz müstəqilliyini qoruya bilmişdir. II-III-cü əsrlərdə Roma imperatorları alban hökmdarları ilə dostluq münasibətlərini qoruyub saxlamağa çalışırdılar, amma alban çarları «onların yanına gəlməkdən boyun qaçırırdılar». 227-ci ildə türk tayfaları – hunlar və sabirlər Dərbənd keçidi vasitəsilə Albaniyaya yürüşlər etməyə başladılar. Az sonra, 262-ci ildə Albaniya sasanilər dövlətinin tərkibinə daxil edildi.

Bax: Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. «Azərbaycan» cildi. «Azərbaycan Milli Ensiklopediyası» Elmi mərkəzi, Bakı, 2007, səh. 175.

Maskut çarlığı. Erkən orta əsrlərdə mövcud olmuş, Dərbəndin cənubunda, Beşbarmaq dağı rayonu və Xəzər dənizindən Karvan dağlarına qədər olan ərazilərdə yerləşirdi. Çarlıq Qafqaz Albaniyasının tərkibinə daxil idi. Hesab olunur ki, maskutlar (massagetlər) Cənubi-Şərqi Qafqaziyaya b.e.ə I minilliyin sonunda daxil olmuşlar və «Maskut çarlığını» yaratmışlar. Peyğəmbər İyezekiilin kitabında deyilir ki: «massoqianlar (yəni maskutlar, massagetlər) İafetin oğlu Massoqdan (Adəm peyğəmbərin üç oğlunun birindən) törəmişlər». A.Bakıxanov (XIX əsr) hesab edir ki, massagetlər iki xalqın birləşməsindən – masoq və getlərdən törəmişlər. Ammian Marselini (IV əsr) yazır ki, «…qədim tayfa olan massagetlər Qədim Tatarıstanın düzənliklərindən Xəzər dənizinin şərq sahillərinə gələrək oradan skifləri sıxışdırmışlar».

İlk dəfə bu çarlığın adına Sasani şahlarından birinin kitabəsində yazılarında rast gəlinir. Bu yazı 293-cü ilə təsadüf olunur və adları sadalanan şahlar içərisində həmçinin «maskutların çarı»nın da adı çəkilir.

Ammian Marselini (IV əsr) rum sərkərdəsi Pompey Maquanın Qafqaza səyahətini təsvir edərək məlumat verir ki (b.e.ə. 1066-48-ci illərdə), «…Pompey albanlar və b. tayfaların ölkəsindən keçərək bu tayfaları darmadağın etdikdən sonra Xəzər dənizini görür».

Moisey Kalankatlı (VII əsr) özünün «Albanların tarixi» kitabında yazır ki, Qafqaz Albaniyasında xristian dininin ilk təbliğatçısı olan müqəddəs Yelisey «Şərq ölkələrini öz knyazlığına keçirərək, Yerusəlimdən çıxmış, İrandan keçərək maskutlar ölkəsinə gəlmişdir.

Moisey Xorenski (V əsr) və Yegişe (V əsr) IV əsr hadisələrini təsvir edərək maskutların çarı Sanesane haqqında məlumat verirlər.

Bir çox tədqiqatçıların fikrinə görə, maskutlar türkdilli tayfa idilər. Mənbələr tez-tez onların adlarını hunlarla yanaşı çəkir. Hunlar türklərə aid idi. Belə ki, erməni tarixçisi Aqafangen (V əsr) «massaget - hunlar» ifadəsini istifadə etmişdir. Maskut etnonimi Samur və Gilgilçay-Maskut çayları arasındakı düzənliyinin müasir adında qorunub saxlanılmışdır.

Maskut çarlığı 520-ci ilə qədər mövcud olmuşdur. «Məskət» inzibati vahidi farslar tərəfindən qorunub saxlanmışdır.

Albaniya V-VIII əsrlərdə. V-VIII əsrlər erməni yazılı mənbələrindəki məlumatlara və alban müəllifi Moisey Kalankatlıya görə, I-VII əsrlərdə Albaniya şimalda Qafqaz sıra dağlarından, cənubda Araz çayına, qərbdə İberiyadan, şərqdə Xəzər dənizinədək geniş bir ərazini tuturdu. Təbii sərhədlər bu ərazini çoxsaylı bölgələrə ayırmışdı. İnzibati-ərazi baxımından Albaniya vilayətlərə – *havarlara* və əyalətlərə - *nəhənglərə* bölünürdü.

Albaniyanın Kürün sol sahilini tutan ərazisi inzibati baxımdan aneaq *havarlara* - vilayətlərə bölünürdü. VII əsr «Erməni coğrafiyası»na görə, sol sahil Albaniyası on bir vilayətdən ibarət idi. Yerli alban mənbəyi onlardan həm ərazi, həm də siyasi baxımdan daha əhəmiyyətli olan Qəbələni, Şəkini, Kambisenanı və Yecerini qeyd edir. Bunlardan Qəbələ, Şəki və Kambisena həm də kilsə-inzibati vahidi olan yepiskopluq (yeparxiya) idi; onların idarəçiləri olan yepiskoplar bütün alban məclislərində təmsil olunurdular. Adları çəkilən havarlarla yanaşı, sol sahil Albaniyasına heç də həmişə Albaniya dövləti tərkibində olmayan Lpinina və Çoqa (Çola və ya Çora) ölkələri də daxil idi. Hələ V əsrin ikinci yarısında bu ölkələr özünəməxsus daxili muxtariyyət saxlayan ucqar vilayət idi. Lakin 488-ci ildən sonra alban hökmdarı III Vaçaqanın dövründə Lpinina və Çoqa qəti olaraq Alban dövləti tərkibinə daxil oldu. Çoqa vilayəti eyni adlı və ya Dərbənd keçidindən cənuba doğru - Baş Qafqaz sıra dağlarının şərq qolunun Xəzər dənizinə lap yaxınlaşdığı yerədək (təxminən Beşbarmaq dağınadək) olan Xəzərsahili zolağı əhatə

edirdi.

Bu vilayətdə tabasaranlılar, albanlar, çilblər (silvlər), leqlər, maskutlar, xəzərlər, hunlar yaşayırdılar. Vilayətin əsas şəhərləri Çoqa, Dərbənd və Sri idi.

Çoqa vilayəti mühüm strateji əhəmiyyətli ərazini tuturdu. Baş Qafqaz dağ silsiləsi ilə Xəzər dənizi arasında olan və Albaniya qapıları adlanan keçid burada yerləşirdi. Şimal istiqamətindən gələn, nəinki Albaniya, eləcə də Sasani dövləti və Bizans imperiyası üçün təhlükə təşkil edən müxtəlif tayfalar məhz bu qapıdan yürüş edə bilərdilər. Ona görə bu keçidin qorunmasında albanlarla yanaşı, o dövrün iri dövlətləri olan Sasani və Bizans da maraqlı idi.

Tədqiqatlar sübut edir ki, Alban dövlətinin e.ə. III əsrdən qərarlaşmış siyasi sərhədləri eramızın VIII əsrinədək, demək olar ki, sabit qalmış, min il ərzində yalnız bəzi siyasi hadisələr onun ərazisinin artıb-azalmasına səbəb olmuşdur.

IV əsrin əvvəllərində, mənbənin «şimal hökmdarı Tedrexon» adlandırdığı başçının rəhbərliyi ilə Dərbənd keçidini aşan barsillər yenidən Albaniya ərazisinə hücum etdilər. Lakin Qarqar düzündə məğlub edildilər. Görünür, məhz bu məğlubiyyət hunların öz cənub qoşunları maskutlardan (Cənubi Dağıstan və Şimali Azərbaycanın həmhüdud bölgəsində məskunlaşırdılar) siyasi asılılığını təmin edir. Tarixçi Favstos Buzand IV əsrin 30-cu illərində maskut hökmdarı Sanesanın (Movses Xorenatsi onu Sanatruk adlandırır) «öz başçılığı altında hunlardan, paxlardan, tavasparlardan, xeçmataklardan, ijmaxlardan, qatlar və qualardan, quqarlardan, çilblərdən (cilvlərdən), balasiçlər və yeqeversvanlardan ibarət böyük qoşun» toplayaraq Ermənistana yürüş etdiyi haqqında məlumat verir. Yerli mənbələrdə hun və alan tayfalarının həmin əsrin 60-cı illərində Cənubi Qafqaz hadisələrində iştirakı haqqında da məlumat vardır. Lakin elə bu mənbələr Cənubi Qafqaz ərazisində bu vaxtadək baş verən bütün hərbi əməliyyatlarda fəal iştirak edən şimal tayfalarının sonrakı mühüm hadisələrdə, xüsusilə birləşmiş erməni-Roma qoşunu ilə sasanilər arasındakı Dzirav döyüşündə (371-ci il) iştirak etmədiklərini təsdiq edir. Tədqiqatçılar bunu Şimali Qafqazda, məhz bu dövrdə baş verən və nəticə etibarilə bütün Avropa dünyasını sarsıdan tarixi hadisələrlə bağlayırlar. Belə ki, IV əsrin 60-cı illərinin lap sonlarında hunların Asiyadan Avropaya ikinci və əsas hərəkatı başlanır. Volqanı adlayan yeni hun tayfaları Şimali Qafqaz düzlərinə yayılırlar. Onların Azov dənizi ilə Xəzər dənizi arasında köç edən alanlarla toqquşmaları nəhayət ki, sonuncuların ram edilmələri ilə başa çatır. 377-378-ci illərdə hunlar artıq Pannoniyada (indiki Macarıstanda) möhkəmlənə bildilər.

Əsas hun tayfalarının 371-ci ildə Şimali Qafqaz düzlərindən qərbə – Qara dənizə, sonra isə Dunay sahillərinə yürüşləri heç də o demək deyil ki, onlar Qafqaza, o cümlədən Azərbaycan ərazisinə daha hücum etmədilər. Mənbələrdə 395-ci ildə Dunay sahillərindən Cənubi Qafqaza və Ön Asiyaya doğru yönəldilən hun yürüşləri haqqında çoxsaylı məlumat vardır. Bizans yazıçı-diplomatı, hun hökmdarı Atillanın Dunaydakı iqamətgahında olmuş Panili Priskin (V əsr) məlumatına görə, Basix və Kursix adlı iki sərkərdənin başçılıq etdikləri hun qoşunları «hansısa bir gölü» (Azov dənizini) keçərək, «15 günlük yoldan sonra bir dağı (Qafqazı-N.Ə.) aşdılar və Midiya ərazisinə yetişdilər». Hadisələrin canlı şahidi olmuş latın yazıçısı Yevsevi İyeronim gördüklərini belə təsvir edirdi: «...bütün Şərq Qafqazın vəhşi tayfalarının qabağını kəsən İskəndər bəndini aşan, Meotidanın ucqarlarından qopub gələn hun dəstələrinin cəld atlarda oraya-buraya çaparaq, hər yeri qırğın və dəhşətə düçar etmələri haqqındakı qəfil xəbərdən lərzəyə gəldi». Sasanilərin və bizanslıların tabeliyində olan bir çox yerləri, o cümlədən Suriya, Kappadokiya, Finikiya, Fələsti və s. ölkələri çalıb-çapıb geri qayıdan hunlar, bu dəfə yollarını Xəzər sahili boyunca, Abşerondan saldılar, «sualtı qayanın dibindən qalxan alovun» yanından keçərək, Dərbənd keçidi vasitəsilə öz yerlərinə döndülər.

Hunların Şimali Qafqazda qalan hissəsi V əsrin əvvəllərində onoqur tayfasının başçılığı ilə hun-bulqar tayfa birliyini yaratdı. Erməni tarixçisi Yegişenin (Yelişe, V əsr) əsərində bu tayfa haylandur adı ilə qeydə alınıb. Onun məlumatına görə «hunların ölkəsi», «haylandurların ölkəsi» «hunların qapısı»ndan - Çora (Dərbənd) qalasından şimala doğru ərazini tuturdu.

Yerli mənbələrin təhlilindən belə nəticə çıxarmaq olar ki, onoqurların (haylandurların) V əsrin əvvəllərindən yenidən başlamış yürüşləri ilə şimal tayfalarının Azərbaycan ərazisinə əsas məqsədləri talan və qənimət olan hücumları davam etdirilmişdir.

Azərbaycan ərazisinə bu dövrdə hücum edən

tayfalar arasında onoqurlarla yanaşı, şübhəsiz, mənbələrin bəzən ümumi «hun» adı ilə birləşdirdiyi *oğur (oğuz), saraqur (sarı oğuz), akatsir (ağac, ər, ağ xəzər - ?), bardur (bayandur?), kutriqur, kəngər* və b. tayfalar da vardı.

Moisey Kalankatlı II Yəzdəgirdin (438-457) hakimiyyətindən iyirmi il əvvəl, yəni V əsrin 20-ci illərinin lap əvvəllərində Azərbaycan Albaniyasının Sünik (Zəngəzur) vilayətinə «böyük ordu ilə» gələrək, burada yurd salmış, sözsüz ki, oğ*uz (oğur)* türklərinin «adlı-sanlı nəslindən olan Qor və Qazan adlı iki qardaş» haqqında məlumat verir. V əsr tarixçisi indiki Naxçıvan, Cənubi Azərbaycan və onlara yaxın ərazilərdə məskunlaşmış kəngərlərin yaşadıqları yeri «Kəngərlərin vilayəti», oradakı dağı «Kəngərlərin dağı» adlandırırdı.

Əsasən Çora - Dərbənd keçidindən olan bu axının qarşısını almaq üçün Sasanilər burada güclü müdafiə qurğuları yaratmış, Albaniyada nizami atlı dəstələri yerləşdirmişdilər.

VI yüzilliyin ikinci yarısında Şimali Qafqazın etnosiyası xəritəsi hunların yürüşündən sonra baş verimiş ikinci mühüm dəyişikliyə uğradı; Qafqazyanı düzlərdə yaşayan hun birliklərinə son qoyan bu dəyişiklik Şimali Monqolustanda Türk xaqanlığının (551-744) yaranması ilə əlaqədar qərbə yeni köçəri axınının - *avar* tayfalarının yönəlməsi nəticəsində baş verdi.

588-ci ildə məhz avarlar sabirlərin başçılıq etdiyi hun birliyinə son qoydular və az sonra Dunay sahillərində məskən saldılar. Darmadağın edilmiş sabirlərin Cənubi Qafqaza keçən böyük bir hissəsi Kürün sol sahilində, indiki Şəmkirlə Ağstafadan şimala tərəf, tarixi Kambisena ərazisində yerləşdirildi. Sabirlərin İberiya ilə sərhəddə məskunlaşdırılması Sasani İran dövlətinin daxili siyasət sahəsində ardıcıl atdığı növbəti addım idi. Bu şəm də imperiyanın şimal-qərb sərhədlərinin möhkəmləndirilməsi kimi də qiymətləndirilməlidir.

Bizans tarixçisi Menandr (VI əsr) məhz bu dövrdə Kürün sol sahilində sabirlərlə yanaşı yaşayan, sonralar isə sağ sahilə köçürülən *alanlar* haqqında da məlumat verir. Bıı tarixçinin yazdığına görə, VI əsrin 70-ci illərində Bizansın Albaniya ərazisinə hücumundan sonra rumların tərəfini saxlamağa məcbur edilmiş sabirlər və alanlar Kürün sağ sahilinə köçürülmüş, lakin sonradan yenidən iranpərəst mövqelərini qoruya bilməmişlər.

Şimali Qafqaz sabirlərinin Albaniyaya köçməyən qalıqları isə indiki Dağıstan ərazisində yaşayan köçəri və yarımköçəri tayfalarla qarışaraq, barsillər və başqa etnik qruplarla birlikdə paytaxtı Varaçan (Bələncər) olan «Hunlar məmləkəti»ni yaratdılar.

VI əsrin II yarısından başlayaraq sabir, bulqar, barsil və b. türkdilli Qafqaz tayfaları ilə birlikdə Monqolustandan Qara dənizədək böyük bir ərazini əhatə edən Türk xaqanlığının tərkibinə daxil olmuş *xəzərlər* həmin tayfalar arasında aparıcı rol oynamağa başladı. VII əsrin 20-ci illərində Bizans imperatoru İraklinin (610-641) Persiyaya yürüşü zamanı xəzərlər Bizansın tərəfində Cənubi Qafqaza daxil olmuş türk qoşunları arasında əsas qüvvəni təşkil edirdilər. Dərbəndi, Tiflisi, o cümlədən bütün Albaniyanı işğal edən xəzərlər Türk xaqanlığında ara müharibələri başlananadək (630-cu ildə) bu yerləri əllərində saxladılar. Elə buna görə də bir müddət sonra buralara gəlmiş ərəblər çox vaxt bu ölkələri Azərbaycanla yanaşı, «Xəzərlər (yəni türklər) ölkəsi» adlandırırdılar.

Bütün deyilənlər VII əsrə yaxın Azərbaycan əhalisinin tərkibində, əvvəllər olduğu kimi, türkdilli, farsdilli və qafqazdilli komponentlərin olduğunu təsdiq edir, lakin VI yüzilliyin sonlarından başlayaraq bu tərkibdəki türk komponenti əvvəllərdə olduğundan bir qədər də güclənir, türkdilli əhalinin yayılma arealı daha da genişlənir. Tədricən bu dil bütün azərbaycanlıların ümumdaxili ünsiyyət dilinə çevrilir.

Çoxsaylı tarixi və eləcə də linqvistik faktlar (V-VII əsrlərə aid yerli Qafqaz mənbələrində türkizmlər, Azərbaycanın türkdilli toponimikası və s.) sübut edir ki, VII əsrin sonlarında qafqazdilli, farsdilli, türkdilli olmalarından asılı olmayaraq bütün azərbaycanlılar arasında funksional birincilik artıq türk dilinə məxsus idi. Məhz bu dövrdən, mövcud tayfa, eləcə də dialekt və ləhcə fərqləri zəminində ümumxalq Azərbaycan türk dili formalaşmağa başladı; məhz bu dövrdə az sonra yeni tarixi birliyin – vahid Azərbaycan türk xalqının təşəkkülünə gətirib çıxaran etnik, ictimai-iqtisadi və mədəni dəyişikliklər üçün ilkin şərtlər hazırlandı.

Albaniyanın erkən orta əsrlər dövrü şəhər həyatının canlanması və şəhərlərin artması ilə səciyyələnir. Bu zaman köhnə şəhərlərin (Qəbələ, Naxçıvan, Dərbənd) tikilib genişlənməsi prosesi ilə yanaşı, yeni

şəhərlərin yaranması prosesi gedirdi. Azərbaycan Albaniyası şəhərlərinin tərəqqisi bu dövrün özünəməxsus xüsusiyyətlərindən idi.

Azərbaycan Albaniyasında feodal münasibətləri bir qədər başqa şəraitdə, qüvvətli siyasi mərkəzi hakimiyyət şəraitində inkişaf edirdi; bu hakimiyyət şəhərlərin olmasını zəruri hesab edir, onların tərəqqisinə kömək göstərməyə çalışır, feodallarla mübarizədə onlardan istifadə edirdi. Yeni feodallaşan əyanlarda da onlara pay edilmiş torpaqları mənimsəməyə maraq yaranır, bütün bunlar şəhər həyatının çiçəklənməsinə, köhnə şəhərlərin abadlaşdırılmasına, yeni şəhərlərin salınmasına gətirib çıxarırdı.

Azərbaycan Albaniyası şəhərlərinin ticarət-sənətkarlıq təbəqəsi arasıkəsilməyən ticarəti təmin edə bilən güclü mərkəzi hakimiyyətə malik qüdrətli dövlətin olmasında maraqlı idi. Məhz buna görə də, erkən orta əsrlər Azərbaycan Albaniyasının şəhərləri alban arşakilərinin, sonralar isə alban mehranilərinin dayağı idi.

Azərbaycan Albaniyası şəhərləri ya ticarət yolu üzərində yerləşən qədim məskənin yerində, ya hökmdar və ya feodal təsərrüfatının (dastakertin) bazasında, ya da sənətkarlıq və ticarətin inkişafı üçün əlverişli olan yerlərdə təşəkkül tapmışdı. Azərbaycan Albaniyasında beynəlxalq tranzit ticarəti yollarında Bərdə, Dərbənd, Qəbələ, Beyləqan və b. belə şəhərlər fəaliyyət göstərmişdir. Bu şəhərlər iri inzibati və ticarət-sənətkarlıq mərkəzi sayılırdı.

Erkən orta əsrlər dövründə Dərbənd yalnız albanların baş qalası, Sasanilərin Qafqazdakı istinadgahı kimi deyil, həm də mühüm orta əsr şəhəri, ən iri ticarət-sənətkarlıq və siyasi mərkəzlərindən biri kimi tanınmışdı. Onun qədim dünyanın ən mühüm ticarət yollarından biri üzərində tutduğu əhəmiyyətli mövqeyi, alban hökmdarları və Sasanilər dövründə xüsusi hərbi-strareji əhəmiyyəti şəhərin sürətli inkişafı üçün şərait yaratmışdı. VI əsrdə Dərbənd mütəşəkkil daxili struktura, dürüst seçilmiş topoqrafiyaya malik şəhər kimi məşhur idi.

«Alban tarixi»ndə Dərbənd «əzəmətli şəhər» adlandırılır. VIII əsr tarixçisi Gevondun məlumatına görə, Dərbənd qala divarları və bürclərlə əhatə olunmuşdu. Anani Şirakatsinin «Erməni coğrafiyası»nda Dərbənd «Çora keçidinin şəhəri, dənizin ortasında tikilmiş möhtəşəm istinadgah» adlandırılmışdır.

Moisey Kalankatlının təsvirindən şəhərin küçə və meydanlar sistemini əhatə edən daxili planı məlum olur: «(Xəzərlər) abır-həyasını itirmiş yırtıcı canavarlar kimi (şəhər sakinlərinin) üzərinə atıldılar, şəhərin küçə və meydanlarında onları amansızcasına kəsib-doğradılar… Alovun yanan dilləri qamışlıqda dolaşan kimi onlar bir qapıdan girib, o birisindən çıxırdılar».

Azərbaycan Albaniyası hökmdarları və Sasani şahlarının hərbi-siyasi dayağı və strateji məntəqəsinin əvvəlcə böyük bir qarnizonunun yerləşdiyi mühüm inzibati mərkəzə, daha sonra isə inkişaf edərək ticarət-sənətkarlıq mərkəzinə çevrilməsi nəticəsində Dərbənd şəhər olaraq geniş fəaliyyət dairəsi olmuşdur. Stateji məntəqənin erkən orta əsr şəhərinə çevrilməsində Sasani şahlarının quruculuq fəaliyyəti də böyük rol oynamışdır.

V-VII əsrlər alban yazısının çiçəklənmə dövrü hesab olunur. Məhz bu dövrdə, A.Q.Şanidzenin sözləri ilə desək, «albanlar Qafqazın siyasi və mədəni həyatının bütün sahələrində gürcülərlə eyni dərəcədə bərabər fəallıqla iştirak edirdilər».

Erkən alban ədəbiyyatı əlverişli siyasi-mədəni şəraitdə təşəkkül tapdı. Bu, müstəqil Alban dövlətinin mövcud olduğu, alban arşakilərinin və onları əvəz edən böyük alban hökmdarları - Mehranilərin hakimiyyətdə olduqları, müstəqil alban kilsəsinin fəaliyyət dövrü idi.

Ədəbiyyatın inkişafı nəticəsində maraq dairəsi genişlənmiş, bu isə öz əksini müxtəlif janrlarda tapmışdı: agioqrafik əsərlər, tarixi xronikalar, hüquqi sənədlər - yaranmağa başlayan kilsə qanunları və dünyəvi qanunlar. V-VI əsrlərdə siyasi səbəblər üzündən ədəbiyyatda ellinpərəst istiqamət də nəzərə çarpdı.

Dövrümüzə qədər gəlib çıxmış aşağıdakı tarixi narrativ mənbələrdə bizə yetişmiş o zamankı alban ədəbi ənənələrinə aiddir: Moisey Kalankatlının «Alban tarixi», VII əsr şairi Dəvdəkin elegiyası (ağısı), alban hüquqi mənbələri olan kilsə qanunları (V əsr Aquen məclisinin qanunu və Simeonun qanunlar toplusu adı ilə tanınmış 705-ci il Bərdə məclisinin qanunu).

Moisey Kalankatlının I-X əsrlər Albaniyası və albanların, eləcə də başqa xalqların tarixinə həsr etdiyi əsərinin əhəmiyyəti olduqca böyükdür. «Alban tarixi» Azərbaycanın ictimai-iqtisadi, siyasi, ideoloji və mədəni tarixini, eləcə də tarixi coğrafiyasını

və etnogenezini və s. öyrənmək baxımından hədsiz maraq doğurur.

Moisey Kalankatlı qüdrətli Azərbaycan alban hökmdarı Cavanşirin müasiri idi; məhz bu dövr Azərbaycan Albaniyasının siyasi və mədəni dirçəlişi dövrü sayılırdı. Hərbi istedadı, müdrik və çevik siyasəti ilə Albaniyanı öz əzəli hüdudlarında - cənubda Araz çayından, şimalda Dərbəndədək olan ərazidə birləşdirən və bərpa edən, müstəqil daxili və xarici siyasət yeridən, alban kilsəsinin müstəqilliyini qoruyub saxlayan Cavanşir, şübhəsiz, xüsusi yazılı abidədə öz dövrünün inikasını görmək arzusu ilə Moisey Kalankatlıya «Alban tarixi» kitabını sifariş verir. Həmin kitabın meydana gəlmə səbəblərindən biri də budur.

Üç tərəfdən olan siyasi təzyiq şəraitində dövlətin müstəqilliyini saxlamaq, özünün mədəni-ideoloji bənzərsizliyini qorumaq naminə, alban xalqını mübarizəyə səfərbər etmək məqsədilə dövrün şanlı səhifələri ilə yanaşı, Bibliya dövründən «bu günədək» (yəni VII əsrədək) baş verən hadisələri işıqlandıran bir əsərin olması vacib idi.

Beləliklə, «Alban tarixi» müəllifinin məqsədi Alban məmləkətinin, onun xalqının, ərazisinin, siyasi və mənəvi həyatının yaranma, həmçinin inkişaf tarixini əks etdirmək onun Arşakilər və Mehranilər sülalələrinə mənsub hökmdarlarının, xüsusilə Cavanşirin dövrünü təsvir etmək, hakimiyyətin arasıkəsilmədən irsən keçdiyini göstərmək, apostol patriarxlığı ilə başlamış avtokefal (müstəqil) alban kilsəsinin yaranma tarixini izləmək olmuşdur.

Beləliklə, bu abidə Albaniyanın müstəqil dövlətçiliyini və müstəqil kilsəsini mədh etmişdir.

Feodal münasibətlərinin meydana çıxdığı, xristianlığın yayıldığı və möhkəmləndiyi bu dövrdə Azərbaycanın şimal hissəsində Qəbələ, Dərbənd, Şamaxı, Naxçıvan, Şəki, Bərdə və b. bu kimi erkən feodal şəhərləri formalaşmışdı. Bu dövrün tikinti mədəniyyəti özünü daha çox müdafiə və dini abidələrdə göstərsə də, arxeoloji qazıntıların bir sıra nəticələri mülki memarlıq haqqında da müəyyən fikir yürütmək imkanı verir. Məlum olur ki, hələ antik dövrdə yüksək səviyyədə olan şəhərsalma və tikinti texnikası erkən orta əsrlərdə də öz səviyyəsini saxlamış, bir çox hallarda isə daha da təkmilləşmişdir.

Dövrümüzədək salamat qalmış müdafiə qurğuları və dini tikililər III-VII əsrlərdə memarlıq və şəhərsalmanın inkişaf səviyyəsini müəyyən qədər aydınlaşdırmaq üçün şərait yaradır.

Azərbaycan, o cümlədən Dərbənd şəhəri V-VII əsrlərdə. Azərbaycan sasanilərin Şimal canişinliyində mühüm strateji mövqe tutaraq, imperiyaya girən yolları həm şimalda xəzərlərdən, həm də qərbdə Bizansdan qoruyurdu. Xəzərlər Azərbaycana, xüsusən Arrana və başqalarına nisbətən tez-tez basqın edirdilər. Buna görə də Sasani şahları öz sərhədlərini möhkəmləndirməyə son dərəcə əhəmiyyət verirdilər.

«Alban tarixi»ndə Sasani şahlarından II Şapurun (309-379) hökmranlığı zamanı xəzərlərin təqribən 350-ci ildə Arrana yürüşü haqqında anaxronik məlumat vardır: «Külli miqdarda xəzər Çoqa qapısından keçib, bizim ölkəyə girmişdi. Şapur Assuriya, Xorasan və Xarəzmdən saysız-hesabsız ordu və Atrpatakan əyalətindən çoxlu qoçaq (döyüşçüləri), albanları və Qafqaz dağlarının vəhşi xalqlarından 12 tayfa toplayıb bu böyük qüvvə ilə yürüşə başlayaraq, onların qarşısına çıxdı».

Xəzərlərə qarşı ciddi tədbir görən Sasani hökmdar şah I Qubad (488-531-ci illər) idi; onun sərkərdələrindən biri Dinavərədək gəlib çıxan xəzərləri təqib edərək, Curzan və Arranı onlardan geri aldı. «O, Arran ölkəsinə daxil oldu və ər-Ras adı ilə məşhur olan çayla Şirvan arasında olan bütün torpaqları tutdu».

Bundan sonra I Qubad özü Arrana gəldi, burada Dərbənd, həmçinin Beyləqan, Bərdə, Qəbələ və Şəki şəhərlərini möhkəmləndirdi. Bu məlumat ilk dövrlərin ən yaxşı və mötəbər məxəzlərindən biri hesab olunan Bəlazuridən (əl-Bəlazuridən) götürülmüşdür. Qubad Şirvandan tutmuş Bablan adlanan keçidə qədər çiy kərpicdən hasar çəkdirməyə başladı. Bu hasarın tikintisini Qubadın oğlu Xosrov I Ənuşirəvan (531-579) başa çatdırdı və daha şimala doğru artıraraq Bab əl-Əbvab şəhərini möhkəmləndirdi, çünki o, belə hesab edirdi ki, Cənubi Qafqazda hökmranlığın təmini – öz imperiyasının rahatlığı üçün birinci şərtdir.

Xəzərlərin Cənubi Qafqaza soxulmaları haqqında Yəqubidə (əl-Yəqubidə) dəyərli məlumat vardır: «Xəzərlər» bütün Ərminiyə torpaqlarını tutanlara deyilir». Onlara xaqan adlanan padşah başçılıq edir. Onun Arran, Curzan, Basfurcan və Sisican üzərində Yəzid Balaş adlı canişini vardır. Bu əyalətlər dördüncü Arminiya adlanır ki, vaxtilə İran

şahı Qubad tərəfindən işğal edilmiş və Bab əl-Lanadək min fərsəx uzanıb üç yüz altmış şəhəri olan bu ərazi (onun oğlu) Ənuşirəvana keçmişdir». İran şahı Bab əl-Əbvab, Babasaran və Balancarı tutdu. O, Kaliqala şəhərini və bir çox başqa şəhərlər saldı və bunlarda iranlıları yerləşdirdi. Sonra xəzərlər, vaxtilə iranlıların onlardan (xəzərlərdən) aldıqları torpaqları yenidən iranlılardan tutub aldılar və (bu yerlər) uzun müddət onların əlində qaldı. Beləliklə, aydındır ki, xəzərlər hələ VI əsrdə (531-ci ildən gec olmayaraq) Cənubi Qaqafqaz ölkələrinə basqınlar edib, onları talayırdılar. Buna görə də I Qubad və I Xosrov Ənuşirəvanın hökmranlığı dövründə xəzərlərin adının çəkilməsi heç də təsadüfi deyildir.

I Xosrov Ənuşrəvanın öz imperiyasını dörd böyük əyalətə böldüyünü bildirən Təbəri qeyd edir ki, Azərbaycanın qonşusu» Xəzər ölkəsi olmuş və bu yeri «Sul» adlanan xalq tutmuşdu. «Ağvan tarixi»ndə adı çəkilən «Çoqa ölkəsi», «Dərbənd yaxınlığında olan Çoqa şəhəri» indiyədək bəzi tədqiqatçılar tərəfindən Dərbənd şəhəri ilə eyniləşdirilir.

Dərbənddən əvvəl əmələ gəlmiş Çoqa şəhəri Dərbəndin cənubunda yerləşirdi; bu şəhərin xərabələri indi Torpaqqala adlanır və Belici dəmiryol stansiyasıdır. Təbərinin dediyinə görə, xəzərlər Azərbaycana soxulan zaman Ənuşrəvan onlara qalib gəldi və tutduğu 10 min xəzəri ölkədə yerləşdirdi. Ənuşirəvan gələcəkdə şimaldakı cəngavərlər tərəfindən baş verə biləcək hücumları dəf etmək üçün qalanı Bab əl-Əbvab (Dərbənd) şəhərini saldı; bu şəhər Çoqa ilə birlikdə əvvəlcə Sasanilər dövründə İranın, sonralar isə Ərəb xilafətinin şimal sərhədlərində güclü bir istehkam idi.

«Alban tarixi»nin müəllifi yazır ki, Dərbənd istehkamlarını və qalasını tikmək üçün «İran şahları ölkəmizi taqətdən saldılar. Bu qəribə binanı tikmək üçün memarları səfərbərliyə alan Viro vətəninə gəldikdən sonra öz yeparxiya kilsələrinin qarşısında səcdə edib qapı və döşəmələrini qucaqlayır, sel kimi göz yaşı axıdıb dizi üstə yerdə sürünürdü». Lakin katolikosa «bir az istirahət etmək və həsrətini çəkdiyi» doğma yurdunu «doyunca görmək» müyəssər olmadı, çünki «onu dəhşətli kədər, zəhmət və məşəqqətlər gözləyirdi və çox keçmədən baş verən dağıntının şahidi olmalı idi».

Məlum olduğu kimi, 627-ci ildə, Vironun azad olmasına bir il qalmış, Bizans ilə xəzərlər arasında İrana qarşı bağlanan hərbi ittifaqa görə Xəzər orduları Cənubi Qaqafqaz ərazisinə böyük basqına başladı. Bizans tarixçisinin bildirdiyinə görə, «İmperator İraklinin Sasanilərlə müharibəsi zamanı İrakli «xəzərlər» adlanan Şərq türkləri ilə ittifaq bağladı. Onlar xaqandan sonra ən böyük şəxs sayılan (Cebu Xaqanın) rəhbərliyi ilə Atrpatakan əyalətinə soxuldular. Xəzərlərin bu hücumu «Ağvan tarixi»ndə əks olunmuşdur! Burada deyilir: «xəzərlərin saysız-hesabsız quldur dəstələri İraklinin buyruğu ilə ölkəmizə [Albaniyaya] basqınlar edirdi».

Ölkəyə soxulan xəzərlər birinci zərbəni Dərbəndə endirdilər. Onlar şəhəri uzun müddət mühasirədə saxladıqdan sonra Dərbəndin «gözəl hasarlarını» dağıtdılar; halbuki İran şahları bu hasarları çəkmək üçün memarları səfərbərliyə alıb bir çox müxtəlif materiallar axtarmaqla ölkəmizi [Albaniyanı] taqətdən salmışdılar». Xəzərlər şəhəri alarkən əhaliyə qarşı o qədər rəhmsizlik göstərdilər ki, Albaniya əhalisi arasında çaxnaşma başlandı. Çoxlu adam öz evi və əmlakını buraxıb ölkənin paytaxtı Partava üz qoydu, lakin xalq «yırtıcı canavarlardan» o qədər qorxmuşdu ki, «keçilməz Arsax dağlarında özünə sığınacaq axtarmağa başladı». Xəzərlər isə Partavı alıb «baş verən əhvalatdan xəbərdar olan kimi, qazanları təqib edərək onların bir hissəsinə çatdılar». Xəzərlər Albaniya ərazisini işğal etdikdən sonra Tiflisə tərəf getdilər və burada imperator İraklinin orduları ilə görüşdülər.

Qış başlananda xəzərlər padşah İrakli ilə birlikdə qatlaşmalı olduqları zəhmətə tab gətirməyərək yavaş-yavaş sovuşub getməyə başladılar və nəhayət, onu tərk edib qayıtdılar». Lakin qırxminlik Xəzər ordusu Tiflisdən çəkiləndən sonra Qafqaz dağının ətəklərində, Qəbələ rayonunda qışlayaraq, Albaniyada qalmaqda davam edirdi. Aradan bir neçə ay keçmədi ki, «ikinci dəfə şimal küləyi əsməyə başladı... və şimal yırtıcısı (xəzərlər) özünün qaniçən bala qartalı Şat ilə yürüşə çıxdı».

Xəzər xaqanı Azərbaycan Albaniyası üzərinə ikinci dəfə ordu göndərəndə öz oğlu Şata belə tapşırıq verdi: «Əgər onların ölkəsinin (Albaniyanın) hakim və əyanları mənim oğlumu qarşılayıb öz ölkələrini onun tabeliyinə verərlərsə, şəhərləri, qalaları və ticarəti mənim qoşunlarıma təslim edərlərsə, siz də imkan verin onlar yaşayıb mənə qulluq etsinlər. Yox əgər onlar belə etməsələr, onda qoy sizin göz-

ləriniz 15 yaşından yuxarı kişi nəslinə rəhm etməsin və onları (15 yaşınadək oğlanları) qadınlarla bərabər mənə və özünüzə qul və kəniz kimi saxlayın».

Azərbaycan Albaniyasına soxulan Şat ölkənin sasani canişini - mərzbanı Sema Vştnasın və katolikos Vironun yanına elçilər göndərib tələb etdi ki, ölkəni onun tabeliyinə versinlər. Mərzban Şatın ultimatumunu rədd etdi, «bütün malını və ölkədən oğurladığı bir çox şeyləri özü ilə götürüb canını qurtarmaq üçün İran ölkəsinə qaçdı».

Mərzban qaçdıqdan sonra Albaniyanın yeganə başçısı olaraq qalan katolikos Viro «ölkəni dağıntı və fəlakətdən xilas etmək üçün» xəzərlərlə danışığa girdi və bu məqsədlə 629-cu ilin mart-aprelində Şatın qərargahına getdi.

Qeyd etdiyimiz kimi, hələ Xosrov Ənuşirəvan dövründə Albaniyaya 10 min nəfər xəzər köçürülmüşdü. Xəzərlər Qəbələ bölgəsində məskunlaşmışdılar; çox ehtimal ki, xəzərlər cənuba doğru növbəti hücumları zamanı məğlubiyyətə uğradıqda, M.İ.Artamonovun qeyd etdiyi kimi, Albaniyanı tərk etmədilər, sadəcə, Albaniya ərazisində əvvəlki məskunlaşma yerinə, Qəbələ rayonuna qayıtdılar. Burada onlar öz soyğunçu yürüşləri üçün əlverişli şəraitin yetişməsini gözləyərək qərbdə, çox ehtimal ki, Gürcüstan sərhədlərinədək, cənubda isə Kür çayınadək uzanan böyük bir ərazini nəzarət altında saxlayırdılar. Onlar şərqdə öz mərkəzi hakimiyyətlərilə daimi əlaqə saxlayaraq təkcə Dərbənd keçidini deyil, Dərbənddən qərbdəki bütün dar keçidlərini (Ağbulaq, Salavat keçidləri, Bazardüzü dağındakı iki keçidi) də diqqətlə nəzarət altında saxlayırdılar, çünki bu keçidlərdən ən qısa müddətdə Albaniya ərazisinə qoşun yeritmək olardı.

Beləliklə, deyilənlərə yekun kimi belə nəticəyə gəlmək olar ki, ərəblərin hücumu zamanı Azərbaycanın bütün cənub hissəsi Sasanilər imperiyasının tərkibində qalmaqda davam edirdi. Azərbaycanın şimalı (Arran, Albaniya) isə xəzərlərin tez-tez hücumlarına məruz qalırdı. Eyni zamanda, Albaniya Sasanilərdən vassal asılılığında olaraq qalırdı. Arran xəzərlərə böyük məbləğdə bac verməli olur. Xəzərlərlə bir çox il ərzində edilən mübarizə ərəblərin ölkəni istila etmələrində öz rolunu oynadı.

639-cu ildə ərəb qoşunlarının bir hissəsi Cənubi Azərbaycandan şimal-qərb tərəfə keçdi və bir neçə vuruşmadan sonra Mukanı zəbt edərək onun əhalisini cizyə-can vergisi verməyə məcbur etdi. Bu dəstənin başçısı Bukeyr ibn Abdullah mukanlılarla müqavilə bağladı və onlara aşağıdakı məzmunda fərman verdi:

«Bismillahirrəhman-irrəhim.

Bu fərman Bukeyr ibn Abdullah tərəfindən Mukan əhalisinə, onların şəxsiyyəti, əmlakı, dini və qanunlarını mühafizə etmək haqqında verilən mühafizə fərmanıdır ki, həddi-buluğa çatmış hər bir şəxs bir dinar, yaxud onun dəyərini versin, müsəlmana səmimi yanaşsın, ona yol göstərsin və bir gün bir gecə onu saxlayıb yedirtsin. Nə qədər ki, onlar öz üzərində ərəb hakimiyyətini qəbul edib ərəblərə xeyirxahlıqla yanaşırlar, onlara əmin-amanlıq təmin olunur və biz öz təəhhüdlərimizi yerinə yetirərik. Əgər onlar öz təəhhüdlərini pozub səmimi olmadıqlarını göstərsələr, xainləri ələ verməyincə, onlara aman yoxdur! Əks halda! Onlar xainlərin həmfikri hesab olunacaqlar. Şahidlər əş-Şəmmax ibn Dirar, ər-Rusaris ibn Cunadib və Xəmələ ibn Cuveyyə olmuşlar. Hicri 21-ci ildə (b.e. 642-ci ildə) yazılmışdır».

Bukeyr ibn Abdullah Mukandan Xəzər dənizinin sahili ilə şimala doğru hücum etdi və həmin il Bab əl-Əbvaba (Dərbəndə) çatdı.

Sonrakı 642/643-cü illərdə xəlifə Ömər Dərbəndə Surakə ibn Əmri göndərdi. Surakə ordusunun qabaq dəstəsi Əbd-ür-Rəhman ibn ər-Rəbiə əl-Bəhilinin komandanlığı ilə şəhərin hasarları yanında Bukeyr ilə birləşdi. Surakənin ölümündən sonra xəlifə Dərbənd yaxınlığındakı sərhəd xəttinə Əbd-ür-Rəhman ər-Rəbiəni hakim təyin etdi və ona əmr verdi ki, xəzərlərə qarşı çıxsın. Ərəb atlıları əl-Beyda şəhərinə çatıb onu işğal etdi. Lakin Bələncar yaxınlığındakı xəzərlər hücuma keçib ərəbləri məğlub etdilər və onların komandanı Əbd-ür-Rəhman ər-Rəbiəni öldürdülər.

Bununla da ərəb ordularının Dərbənddən şimala doğru birinci hücumu qurtardı. Şəhər əhalisi ilə, Cənubi Azərbaycanda bağlanan müqaviləyə oxşar müqavilə bağlandı.

Quldarlıq – Dərbənddə qədim zamanlardan mövcud olmuşdur. Buradakı quldarlıq münasibətləri haqqında ilk məlumatları orta əsrlər ərəb müəllifləri vermişlər. Belə ki, əl-İstəxri (X əsr) yazmışdır ki, Bab əl-Əbvabda dünyanın hər yerindən gətirilən qulların ticarəti aparılırdı. İbn Hövqəl (X əsr) həmçinin məlumat verir ki, Dərbəndə satmaq üçün «...başqa yerlərdən çoxlu qul» gətirilirdi. «Dərbəndnamə» yerli tarixi salnamənin məlumatına görə, xəlifə

Mərvan ibn Məhəmməd (744-750) «...əhatə edən hər tərəfdən hər il Dərbəndin sakinlərinə təqdim olunmaq üçün xərac təyin etmişdi: Qumux – 100 qul kişi və qul qadın, Gübeçi – 50 qul, Qaytaq – 500 qul, Tabasaran – 500 qul». Bu haqda, həmçinin əl-Bəlazuri (IX əsr), ibn Əssam əl-Küfi (IX əsr), ibn əl-Fəqih (X əsr) və başqaları məlumat vermişlər.

XIII əsr müəllifləri Dərbənd bazarlarında digər mallar arasında «… qul və gözəl qız kənizlərin» satılması haqqında məlumat verirlər. Məlumdur ki, Dərbənd hakimi Müzəffər Nizami Gəncəviyə (XII əsr) sifariş etdiyi qəsidə əvəzinə qullarından biri olan Afaq adlı kənizi hədiyyə vermişdir. Nəticədə, Afaq dahi şairin həyat yoldaşı olmuşdur.

Ayrı-ayrı mənbələrin məlumatına əsasən, Dərbənddən 20 km cənubda yerləşən Qullar kəndinin əsası burada öz «qul»larını məskunlaşdıran Dərbənd xanı tərəfindən qoyulmuşdu. Azadaqlı kəndi isə azadlıq almış «qul»lar tərəfindən yaradılmışdır.

1796-cı ildə general V.Zubovun qoşunları tərəfindən Dərbənd alındıqdan sonra, general varlı ailələrdən 60-a yaxın «qul»un götürülməsinə əmr vermişdi. Rəsmi sənədlərdə öz «qul»larından məhrum olmuş varlıların adı çəkilir: Əhməd Ağa Dərbəndi, Hacı Məhəmməd bəy, Hacı İmam Nəzər, Hacı Tahir bəy, Hacı Fərzəli bəy və s.

Dağıstanda və Dərbənddə «qul»darlıq münasibətləri Rusiya imperatorunun xüsusi fərmanı ilə Dərbənd Rusiyaya tərəfindən işğal edildikdən xeyli sonra -1867-ci ildə rəsmi olaraq ləğv edilmişdir.

Tarixi ədəbiyyatda bu ad mövcud olsa da Azərbaycanın şimalı və şimali qərbində rast gəlinmiş sözügedən «qul»ldarlığın klassik qulldarlıqla heç bir əlaqəsi yoxdur. Sadəcə, burada «qul» adı altında əksəriyyəti hərbi əsirlərdən olan son dərəcə hüquqsuz nökərlər, xidmətçilər nəzərdə tutulurdu.

Dərbənd şəhəri və Xəzər xaqanlığı – Şərqi Avropada ilk dövlət qurumu olan Xəzər xaqanlığı VII əsrdə Şimal-Şərqi Qafqaz düzənliklərində yaranmışdır. Bu böyük və qüvvətli dövlət Bizans və Ərəb Xilafəti kimi nəhəng dövlətlərlə uğurlu rəqabət aparmışdır. Xaqanlıq VII əsrin 20-30-cu illərindən X əsrin ikinci yarısına kimi – təxminən 300 il mövcud olmuşdur.

Xəzərlər – türk mənşəli tayfalar olmuş və onların ulu vətəni Şimali Dağıstandır. Əvvəllər xəzərlər IV əsrin sonunda Don və Xəzəryanı düzənlikləri tutmuş hun tayfa birliyinin tərkibinə daxil idilər. Hun imperiyasının dağılması hun birliyinə daxil olan nəhəng türk mənşəli tayfaların (barsillər, savirlər, bulqarlar və s.), həmçinin xəzərlərin müstəqil inkişafı ilə müşayiət olunmuşdur. Lakin VI əsrin ikinci yarısında xəzərlər, Şimali Qafqazın digər xalqları kimi, VI əsrin ortalarında Mərkəzi Asiyada yaranmış böyük Türk xaqanlığından asılılığa düşdülər. VII əsrin 30-cu illərində nəhəng Türk xaqanlığı bir sıra dövlətlərə parçalandı, onların arasında Xəzər xaqanlığı da var idi. VII əsrin sonunda xəzərlər Volqa boyunca, Şərqi Qafqazda Xəzər dənizinin Dərbəndə qədər ərazisində hökmranlıq etmişdilər.

Azərbaycan, o cümlədən Dərbənd şəhəri VI-XII əsrlərdə. VII əsrin əvvəllərində Ərəbistan yarımadasında Məhəmməd Peyğəmbərin banisi olduğu yeni dünya dini - islamın meydana gəlməsi ərəb cəmiyyətinin konsolidasiyasına gətirib çıxartdı. Həmin əsrin 30-cu illərində Ərəb Xilafəti təşəkkül tapdı. Ərəblərin həyata keçirdiyi işğalçı yürüşlər İspaniyadan Çin hüdudlarınadək geniş bir ərazidə yaşayan müxtəlif xalqların, o cümlədən azərbaycanlıların həyatında köklü dəyişikliklər etdi.

«Azərbaycan Milli Ensiklopediyası»nın 2007-ci ildə nəşr olunmuş xüsusi cildində məlumat verilir ki, ərəblərin Azərbaycana ilk hücumu 643-cü ildə baş vermişdi. Ərdəbili tutduqdan sonra xilafət ordusu ərəblərin əl-Bab-əl-Əbvab (Qapılar qapısı) adlandırdıqları Dərbəndin strateji əhəmiyyətini nəzərə alaraq, Xəzər sahili ilə şimala doğru hərəkət etdi. Döyüşsüz təslim olan dərbəndlilər müqaviləyə görə mühün imtiyazlar əldə etdilər: ərəblərlə birgə Dərbənd keçidinin müdafiəsində duran və öz əvvəlki dini etiqadlarını saxlayan yerlilər ərəb əsgəri xidmətində olduqları ilin can vergisindən (cizyə) azad olunurdular.

Şimala doğru hücumu davam etdirən ərəb qoşunu Dərbəndi ötərək, xəzərlərin torpaqlarına daxil oldu və əl-Beyda şəhərini ələ keçirdi. Ərəb qoşunları Cənubi Qafqazın bir çox yerlərini, o cümlədən Muğanı işğal etdilər.

Ərəb sərkərdəsi Salman ibn Rəbiə Arazı keçərək Albaniya (Arran) ərazisinə hücum etdi, xeyli əsir götürdü və zəngin qənimət ələ keçirdi. Elə həmin vaxt Şərq istiqamətində hərəkəti davam etdirən Salman Arranın içərilərinə daxil oldu. Bir neçə günlük mühasirədən sonra Beyləqan şəhəri

cizyə ödənilməsi, «əhalinin həyatının və malının», habelə «şəhər divarlarının» saxlanılması şərtləri ilə döyüşsüz təslim oldu. Ölkənin paytaxtı Bərdə əhalisinin şiddətli müqavimətinə baxmayaraq, ərəblər uğur əldə etdilər. Bundan sonra Kürün sağ sahilindəki (Arsax, Uti, Şəmkir və s.) və sol sahilindəki torpaqlar (Qəbələ, Şəki, Şirvan, Lakz, Tabasaran və s.) işğal edildi, yerli hakimlərlə müqavilə bağlandı. Dərbənd şəhəri fəth olundu.

Beləliklə, Azərbaycanın şimal hissəsi də Ərəb Xilafətindən asılı vəziyyətə düşdü.

Professor Sara Aşurbəyli «Şirvanşahlar dövləti» əsərində qeyd edir ki, ərəb istilasına qədərki erkən Şirvanşahlar haqqında məlumat yoxdur. Rəşidəddin (1247-1318) «Məkatibat»ında oğlu Əli üçün nişanladığı Şirvanşahın qızı haqqında danışarkən göstərirdi ki, Şirvanşahlar Dərbənd hökmdarları nəslindən olan qədim xanədandır. V.F.Minorski «Şirvan və Dərbəndin tarixi»ndə Şirvanşahların dörd sülaləsini fərqləndirir: 1. Sasanilərin dağ keçidlərini mühafizə üçün təyin etdikləri qədim Şirvanşahlar; 2. Məzyədi ərəblər; 3. Kəsranilər; 4. Üçüncü sülalənin bir qolu olan Dərbəndi Şirvanşahlar.

Dərbəndin şimal divarında aşkar olunmuş pəhləvi kitabəsində qala divarlarının inşasından danışılır. Kitabədə divarların tikilmə tarixi də göstərilir - I Xosrovun şakimiyyətinin 37-ci ili. Y.A. Paxomovun fikrincə, bu eramızın 568-ci ilinə uyğun gəlir. Dərbəndin salınmasına dair rəvayətə görə, şəhəri və qala divarlarını I Xosrov Ənuşirəvanın (531-579) tapşırığı ilə onun canişini, Dərbənd hakimi, Şirvanşahların əcdadı Nərs ibn Cəməsp tikdirmişdir.

Ərəbdilli tarixçi Həmzə İsfahani əl-Bəlazuri və əl-Məsudinin X əsr məlumatlarında deyilir: «Kəsra (Nuşirəvan) Xəzər dənizindən dağlara qədər Bab əl-Əbvab adlandırılan 20 fərsəx uzunluğunda Dərbənd səddini tikdirdi və hər yerdə sərkərdə təyin edərək, onlara qoşun dəstələri və kişi nəsli üzrə miras keçən torpaq sahəsi ayırmışdı; həmin sərkərdələrin nəsilləri indiyədək (961-ci il) şəhər divarlarının qarşısındakı ərazini qoruyurlar».

Ət-Təbərinin (X əsr) məlumatına görə, Şirvan sərkərdəsi Suraqə ibn Əmrə Dərbəndi zəbt etmək əmri vermiş, xəlifə Ömər ibn əl-Xəttabın hakimiyyəti dövründə – h.22 (642/43)-ci ildə şəhər fəth olunmuşdur. Suraqə Bukayr ibn Abdullahı və Əbdürrəhman ibn ər-Rəbiə əl-Bəhilini qabaqda göndərərək Şirvana doğru hərəkət etdi. Onlar Dərbəndə yaxınlaşarkən bu vilayətin irsi hakimi şah, ehtimal ki, Şirvanşah adlanan Şəhriyar itaət göstərdi, lakin cizyə verməmək, onu sərhədləri şimaldan gələn köçərilərin hücumlarından qoruyan qoşunun saxlanılmasına sərf etmək şərtilə sülh istədi. Hacı Xəlifənin məlumatına görə, Şəhriyar Şirvanın hakimi idi. Bəhs etdiyimiz müəllif isə onu Dərbənd hakimi adlandırır. Göründüyü kimi, ərəblər Şirvana gələnədək Şirvanşahların torpaqları Dərbəndədək uzanırdı və sonralar bu şəhər müxtəlif dövrlərdə Şirvanşahlar dövlətinin tərkibinə daxil olmuşdu.

Sasanilər Dərbənd keçidinə böyük əhəmiyyət verirdilər. Onlar V-VI əsrlərdə və ondan daha əvvəllər özlərinin şimal sərhədlərini köçəri türk tayfalarının hücumlarından qorumaq məqsədilə burada istehkamlar tikmişdilər. Sasanilər Dərbənddə böyük qarnizon saxlayırdılar.

«Azərbaycan tarixi»nin II cildində qeyd edilir ki, mənbələrdəki ziddiyyətli faktlara baxmayaraq, ərəblərin Sasani irnperiyasının Xəzərsahili vilayətlərinə, o cümlədən Azərbaycana real hücumu, yalnız 642-ci ildə Nəhavəndin və Həmədanın fəthindən sonra mümkün oldu. Tədqiqatçıların (AJ.Kolesnikov) fikrincə, əhəmiyyətinə və ciddi nəticələrinə görə ərəblər üçün çox qələbələrdən üstün olan Nəhavəndin zəbti iranlıların milli şüuruna ağır zərbə endirdi. Tarixçi ət-Təbərinin dili ilə desək, o gündən iranlıların birliyi pozuldu. Bundan belə hər vilayətin əhalisi düşmənə yalnız öz vilayəti hüdudlarında döyüşürdü. Əl-Bəlazurinin verdiyi məlumata görə, Nəhavənd döyüşündən bilavasitə sonra ərəblər Həmədan-Rey yolu üstündə yerləşən, alimlərin fikrincə, o dövrdə hələ şəhər səviyyəsinə yüksəlməyən və adi qalalardan olan Qum və Kaşanı tutdular. Bu qələbələrdən sonra qədim Midiya ərazisində möhkəmlənən ərəblər şimala doğru istiqamət götürdülər.

Ərəblərin Azərbaycana tərəf yollarının üstündəki ilk vilayət Rey idi.

Rey yanındakı döyüşlərin ərəblər üçün müvəffəqiyyətlə başa çatılması və Cənubi Azərbaycandakı döyüşlərin də xilafətin xeyrinə bitməsindən sonra Azərbaycan mərzbanı İsfəndiyar isə bu hadisədən sonra ərəblərlə sülh müqaviləsi imzalamalı olur. Bu müqaviləyə görə Azərbaycan əhalisi «imkanları daxilində» can vergisi - cizyə ödəməli idi; «qadınlar və uşaqlar, həmçinin yaşamaq üçün vəsaiti olmayan xro-

niki xəstələr, dünya malından heç nəyi olmayan zahidlər» bu vergidən azad edilirdilər.

Yeni hakimiyyət Azərbaycanın bütün əhalisinə, «onun düzlərində, dağlarında, ucqar və sərhəd yerlərində yaşayanlara, onların əmlakına, dini icmalarına, qanunlarına, qaydalarına aman» verməyi öz üzərinə götürürdü.

Gərmidan yanındakı döyüş bu vaxtadək bir çox döyüşləri zəfərlə başa çatdıran ərəblərin şimala - Albaniyaya, Qafqaza olan yolunu açdı. Xəlifə Ömərin əmri ilə Bukayr sərkərdə Utba ibn Farkadı xəlifənin Azərbaycandakı amili vəzifəsinə təyin edib, özü isə ilk növbədə, ərəblərin Bab əl-Əbvabın (Dərbəndin) fəthinə hazırlıq görməyə başladı; çünki ərəblər yaxşı başa düşürdülər ki, şimal sərhədlərini möhkəmləndirmədən Qafqaz keçidlərini, o cümlədən Dərbəndi öz nəzarətləri altına almadan Azərbaycanı, eləcə də Cənubi Qafqazın başqa vilayətlərini tabe etmək, burada möhkəmlənmək mümkün olmayacaq. Buna görə də xəlifənin əmri ilə Bukayr elə həmin il Dərbənd üzərinə hücuma keçdi.

Şimal yürüşünün çətinliklərini əvvəlcədən görən xəlifə Ömər sərkərdələrindən Suraka ibn Əmri, Huzayfa ibn Asid əl-Qaffarini, Həbib ibn Məsləməni, habelə Əbd ər-Rəhman və Salman ibn Rəbiə əl-Bəhili qardaşlarını qoşunları ilə birgə Bukayrın köməyinə göndərdi. Dəstələr Dərbənd divarı yanında Bukayra çatdılar. Xəlifənin əmrilə birləşmiş qoşunların komandanı təyin edilən Suraka, Əbd ər-Rəhman ibn Rəbiə əl-Bəhilinin dəstəsini əsas qüvvənin qabağında, Huzayfa və Bukayrın qoşunlarını sağ və sol cinahlarda yerləşdirdi; son zərbəni isə Salmanın dəstəsi endirməli idi.

Bu zaman Dərbəndin hakimi və Sasanilərin şimal sərhədlərinin mərzbanı məşhur və qədim nəslə mənsub olan Şəhriyar (və ya Şəhribərəz) idi. Azərbaycanın cənub torpaqlarının fəthi xəbəri, şübhəsiz, ona da çatmışdı. Ərəblərin ön dəstəsinin hücumu başlanan kimi, mənasız qırğının qarşısını almağa çalışan Şəhriyar bu dəstənin başçısı Əbd ər-Rəhmanla danışıqlar aparmaq üçün icazə istədi; o, sərkərdə Suraka ilə görüşdən sonra isə özünün ərəblərə tabe olduğunu bildirdi, amma «quduz düşmənə» və «əsli olmayan qaba xalqlara» qarşı durmuş dərbəndlilərin can vergisindən azad olunmasını xahiş etdi. Nəhayət, tərəflər xəlifənin də təsdiq etdiyi bu imtiyazın dərbəndlilərə verilməsinə razılaşdılar: əli silah tutub, keçidin müdafiəsində duran və öz əvvəlki dini etiqadlarını saxlayan yerlilər ərəb əsgəri xidmətində olduqları ilin cizyəsindən azad edilirdilər.

Dərbəndin alınması ilə şimal tərəfdən təhlükəsizliyi müvəqqəti də olsa təmin etmiş Suraka ibn Əmr yeni torpaqlar ələ keçirmək məqsədilə xəlifə ilə razılaşmadan, Bukayrı Muğan, Həbib ibn Məsləməni Tiflis, Huzayfanı Alan ölkəsi, Səlman ibn Rəbiəni isə ərəblərin Arran adlandırdıqları Albaniya üzərinə göndərir. Surakanın bu özbaşına hərərəkəti xəlifə Ömeri narazı salır. Çünki, onun fikrincə, Suraka işğal etmək istədiyi yerlərin nə geniş ərazisini, nə də saysız qoşununu nəzərə almamışdı. Doğrudan da, göndərilən sətkərdələrdən yalnız Bukayr tapşırığı yerinə yetirir. Muğan fəth olunur. Qalan yerlərdə isə güclü müqavimətlə rastlaşan ərəblər yalnız əldə edə bildikləri qənimətlə kifayətlənməli olurlar. Muğan əhalisi ilə, görünür, artıq 644-cü ildə bağlanmış müqavilənin şərtlərinə görə «gərək hər həddi-buluğa çatan bir dinar və ya onun dəyərində cizyə ödəsin, müsəlmanlara qarşı səmimi olsun, azanda ona yolu göstərsin, bir gün-bir gecə evində saxlasın… Ancaq əgər onlar üz döndərib əhdi pozsalar, axırıncı fitnəkaradək hamını təslim etməsələr, onlara aman olmayacaq».

Bu yürüş zamanı ərəblər xəlifə Ömərin əmrilə Dərbənddən şimalda olan Xəzər xaqanlığı torpaqlarını da tutmağa cəhd göstərdilər.

Sara Aşurbəylinin «Şirvanşahlar dövləti» əsərində məlumat verilir ki, ərəb ordusu xəlifə Ömər ibn-Əffanın (634-644) dövründə cənub-qərbdən hücum edərək Arran və Şirvanı tutmuşdu. Səlman ibn Rəbiənin komandanlığı altında bir dəstə qoşun hərəkət edərək «Şakşin, Meskuan, Ud (geti), Mesiran, Xarxilyan, Təbər, Dərbənd» vilayətlərini tutdu.

Xeyzan əhalisi xərac vermək şərtilə Səlmanla sülh bağladı. Sonra o, Şirvana yaxınlaşdı, Şirvanşahı yanına çağırdı və onunla da dağlı hakimlər, «Məsqət, Şəbəran və Bab (Dərbənd)» şəhəri sakinləri kimi, sülh sazişi bağlandı.

«Azərbaycan tarixi»nin II cildində qeyd olunur ki, növbəti hücuma həmin il vəfat etmiş Surakanı Dərbənd sərhəd xəttinin rəisi vəzifəsində əvəz edən Əbd ər-Rəhman əl-Bəhili başçılıq edirdi. Ərəb atlılarının ilk hücumu uğurlu oldu: xəzərlərin əl-Beyda şəhəri tutuldu. O dövrün tarixçilərinin fikrincə, bu qələbədə ərəblərin qeyri-adiliyi, hətta ölməzliyi

haqqında xəzərlər arasında yayılmış əfsanənin də rolu az deyildi. Lakin çox keçmədən bu əfsanə alt-üst oldu. Xəlifə Osmanın hakimiyyətinin (644-656) ilk ilində də xəzərlərə qarşı basqınları davam etdirən ərəblər növbəti hücumlardan birində darmadağın edildilər. Əbd ər-Rəhman özü öldürüldü, qoşun geri çəkildi. Ərəblərin Azərbaycana birinci yürüşü beləcə başa çatdı.

Beləlikə, 643-644-cü illərdə, xəlifə Ömərin dövründə, ərəblər tarixi Azərbaycan ərazisinin yalnız cənub və Dərbəndədək Xəzər sahili torpaqlarını tuta bildilər. Lakin bu işğalın özülü hələ möhkəm deyildi. Hətta 644-645-ci illərdə, xəlifə Ömərin ölümündən sonra mərkəzdə baş vərən siyasi sabitsizlikdən istifadə edən azərbaycanlılar üsyan edərək, ərəblərin onlarla bağladıqları müqavilələrin şərtlərini yerinə yetirməkdən imtina etdilər. Xilafətin yeni başçısı Osmanın Azərbaycana göndərdiyi sərkərdə əl-Valid ibn Ukbanın rəhbərlik etdiyi ordunun hücumu ilə ərəblərin Azərbaycana yeni – ikinci yürüşü başlandı. Bu yürüşdə birinci yürüş zamanı ad çıxarmış Səlman ibn Rəbiə və Abdallah ibn Şube kimi sərkərdələr iştirak edirdilər.

Bərdəni tərk edən ərəb süvari dəstəsi Albaniyanın Arsax, Uti, Sakasena və b. vilayət və əyalətlərini tutmaqla Kürün sağ sahili torpaqlarının işğalını başa çatdırdı. Qədim şəhər olan Şəmkiri ələ keçirdikdən sonra Kürün sol sahilini adlayan ərəblər, oradakı şəhər və kəndləri də tutdular, Qəbələnin, Şəkinin, Hayzanın, Şirvanın, Şabranın, Məsqətin, Lakzın, Filanın, Tabasaranın, yenidən əl-Babın (Dərbənd) və b. yerlərin hakimləri ilə müqavilə bağladı.

Bağlanılan sülhə baxmayaraq, ərəblər getdikdən az sonra şirvanlılar və dərbəndlilər, görünür, öz qoşunu ilə Dərbəndə gəlmiş Xəzər xaqanının təhriki ilə xilafətlə bağladıqları müqavilələrin şərtlərini yerinə yetirməkdən boyun qaçırdılar. Hicri tarixi ilə 32 (652-653)-ci ildə Səlman ibn Rəbiə dördminlik qoşunu ilə yenidən Dərbəndə daxil oldu və bu zaman artıq şəhəri tərk etmiş xəzər ordusunun izi ilə onların Bələncər şəhərinə doğru irəliləyir. Baş vermiş qanlı döyüşlərdə ərəblər məğlub edildi. Səlman özü isə öldürüldü. Beləliklə, Azərbaycanın çox hissəsi yenidən ərəblərin itaətindən çıxdı.

Ərəblər bütün Azərbaycanı, habelə bir sıra digər Cənubi Qafqaz ölkələrini tabe etdikdən sonra ilk illər mümkün qədər çox vergi alınması ilə kifayətlənir, bu ölkələrin daxili həyatına çox da qarışmırdılar. Xilafətin hegemonluğunu qəbul etmiş, lakin daxili müstəqilliyini saxlaya bilmiş bəzi yerli hakimlər, o cümlədən də Cavanşir, bu vəziyyətdən istifadə edərək, ərəb əsarətindən xilas olmağa cəhd göstərirdilər.

Hələ Xilafətin ilk hücumlarından sonra yaranmış vəziyyətin ağırlığını dərk edən alban hökmdarı Varaz Qriqor ərəblərlə danışığa girməyə cəhd etmiş və Moisey Kalankatlının yazdığına görə, «könüllü surətdə düşmənə tabe olmuşdu». Lakin əyilməz Cavanşir, onun təhriki ilə Bizansın suverenliyini (himayəsini) qəbul edib, imperator II Konstant tərəfindən Ermənistan patriki və sparapeti kimi tanınmış sərkərdə Teodoros Rştuni ilə müqavilə bağladı. Cavanşir imperatordan «uzaq xalqı (yəni albanları) yeni təbəəyliyə qəbul etməyi» xahiş etdi. Tezliklə, Albaniyanın ilk hökmdarlarına məxsus olan bütün vilayət və kəndlər «nəsildən-nəslə» imperator tərəfindən «proton – patrik» kimi tanınmış Cavanşirə verilir.

Lakin az sonra, 654-cü ildə, Teodoros Rştuni Bizansla əlaqələri kəsərək, Sebeosun məlumatına görə, xəlifə ilə saziş bağlayır. Bu hadisədən sonra Cənubi Qafqaz vilayətləri hakimlərinin Teodoros Rştuni ilə ittifaqının möhkəmlənməsinə mane olmaq məqsədilə Bizans imperatoru öz ordusunu bu ölkələrə göndərir. Moisey Kalankatlı kiçik-şimali Midiya ərazisindəki Kunqr kəndində (Cənubi Azərbaycanın Kinkivar kəndi) II Konstantla Cavanşirin görüşü haqqında məlumat verir. İmperatorun hökmü ilə bu görüşdə Cavanşirə padşahlıq xələti və «əbədi hökmdarın xaçının bir hissəsi» bəxş edilir. «Alban tarixi»nə görə Bizansın Cavanşirə göstərdiyi bu etimad onu gözü götürməyənlərin həsədinə səbəb oldu. Cavanşir isə imperatorun bəxşişi olan «İsayi Məsihin hər şeyə qalib gələn xaçı» üçün Girdiman qalasında gözəl bir məbəd ucaldılması əmrini verdi.

Ərəb qoşunlarını yenidən Bələncər yaxınlığında darmadağın etmiş xəzərlər 662-ci ildə Albaniyaya soxuldular, lakin Cavanşirin Kür çayını keçmiş ordusu ilə rastlaşdılar və ciddi məğlubiyyətə uğradılar. Dövrün qaynağında Cavanşirin xəzərlərin başçısına xitabən dediyi bu sözlər qalmışdır: «Get, Çoqanın (yəni Dərbəndin) qapısından gir və bir daha buralara qayıtma!».

Lakin iki ildən sonra yenidən albanların torpaqlarına hücum edən xəzərlər gəlib Araz sahillərinə çıxdılar, çoxlu mal-qara, habelə xeyli yerli sakini

əsir apardılar. Cavanşir vassallığı qəbul etmək şərti ilə xəzərlə sülh bağlamağa məcbur oldu. Saziş Cavanşirin xəzər xaqanının qızına evlənməsi ilə möhkəmləndirildi.

661-ci ildə sonuncu «raşidi» xəlifə Əli ibn Əbu Talibin (656-661) öldürülməsindən sonra Xilafətdə - Əməvilər sülaləsinin hakimiyyət başına gəlməsi Cavanşiri öz siyasi xəttini dəyişməyə vadar edir. O, ərəblərdən özünü zorla qoruyan Bizansdan əli üzüldüyü üçün Azərbaycana ola biləcək yeni ərəb yürüşlərinin qarşısını almaq məqsədilə ilk Əməvi xəlifəsi Müaviyə ilə danışığa girir. Cavanşir bunun üçün iki dəfə - 667 və 670-ci illərdə Xilafətin Əməvilər dövrü paytaxtı Dəməşqə gedir. Nəticədə Albaniya rəsmi olaraq Xilafətə tabe dövlət elan edilir. Lakin yürütdüyü çevik siyasəti ilə Mehranilərin daxili müstəqilliyini qoruya bilən Cavanşir Albaniyadan Xilafət xəzinəsinə axan vergilərin miqdarının əvvəlkinin üçdə birinədək azaldılmasına nail olur.

Beləliklə, ilk ərəb işğallarından sonra Azərbaycanın cənub hissəsi - Adurbadaqan mustəqilliyini tamamilə itirərək bilavasitə xəlifə canişinlərinin hakimiyyətinə tabe olmuş, şimal hissəsi - Albaniya isə siyasi müstəqilliyini saxlamağa cəhd göstərsə də Xilafətin vassalı kimi vergi ödəmək şərtiylə ondan asılı vəziyyətə düşmüşdü.

«Azərbaycan Milli Ensiklopediyası»nın «Azərbaycan» adlı xüsusi cildində məlumat verilir ki, belə bir mürəkkəb şəraitdə Bizans Xilafət və Xəzər xaqanlığı arasında Cavanşirin həyata keçirdiyi çevik siyasət nəticəsində Albaniya daxili müstəqilliyini saxlaya bildi. Lakin Cavanşirin öldürülməsindən sonra vəziyyət kəskinləşdi.

Ucqar şimal vilayətləri üzərində ərəb nəzarətinin zəifləməsindən istifadə edən xəzərlər 685-ci ildə Cənubi Qafqaza hücum etdilər. Bu illərdə Cənubi Qafqaz ərəblərin və bizanslıların da hücumlarına məruz qaldı. Yalnız VII əsrin 80-ci illərinin sonlarına yaxın ərəb xəlifəsi Əbd ül-Məliklə (685-705) Bizans imperatoru II Yustinian (685-711) arasında barışıq əldə edildi. Razılığa görə, Cənubi Qafqaz ölkələrindən alınan vergilər iki imperiya arasında bərabər bölünməli idi. 692-ci ildə Bizans Xilafətlə sülhü pozaraq Şam üzərinə hücum etdi. Baş vermiş döyüşdə ərəblərin qələbəsi onların Qafqazdakı mövqelərini möhkəmlətdi.

Sara Aşurbəyli «Şirvanşahlar dövləti» əsərində qeyd edir ki, VIII əsrin əvvəllərində ərəblər şimala - Dərbəndə və daha sonra Xəzərə qarşı işğalçı yürüşlərə başladılar.

Xəlifə I Vahidin hakimiyyəti illərində (705-715) ərəblər Xəlifə Məsləmə ibn Əbdülməliyin oğlunun başçılığı ilə Azərbaycana bir neçə dəfə yürüş etdilər. Məsləmə tabe olmayan bütün qala və şəhərləri zəbt etdi və türklərlə vuruşa-vuruşa əl-Baba (Dərbənd) gəlib çatdı. Məsləmənin Dərbəndi alması barədə X əsr ərəb müəllifi Əbu Məhəmməd Əhməd ibn Əsam əl-Kufi məlumat verir. Dərbənd istehkamlarının möhkəmliyi Məsləməyə uzun müddət şəhəri tutmağa imkan verməmişdi.

Akademik Ziya Bünyadovun «Azərbaycan VII-IX əsrlərdə» kitabında göstərilir ki, Xəlifə I Validin hökmranlığı illərində (705-715) ərəblər tədricən şimala keçməyə başladılar. Lakin I Valid xəzərlərə qarşı ciddi hücuma başlamazdan əvvəl öz arxasını – Arranı və Şərqi Gürcüstanı, bu ölkələrdə olan yerli bizanspərəst hakim və knyazların gizli qəsdlərindən təhlükəsiz hala gətirməli idi... Ərəb sərkərdəsi Məhəmməd ibn Mərvan yunan-erməni qoşunlarını darmadağın etdikdən sonra təslim olmayan bütün erməni başçılarından 800 nəfəri aldadıb əsir etdi və Naxçıvan hakimi Hişama əmr etdi ki, onları cəzalandırsın. Bu qayda ilə də 400 nəfər cəzalandırıldı.

«Azərbaycan tarixi»nin II cildində qeyd olunur ki, VIII əsrin əvvəllərində Ərəb xilafəti özünün ən qüdrətli dövrünü yaşayırdı. Onun əsas rəqiblərindən olan Bizans mövcud hərbi-siyasi vəziyyətlə əlaqədar Qafqazdakı mövqelərini əldən vermişdi. Yeni şəraitdə Azərbaycan kimi mühüm strateji bazada möhkəmlənmək üçün ərəblərə yalnız onları dəfələrlə ağır vəziyyətə salan xəzərlər üzərində qələbə lazım idi. Bu işdə xəlifə Əbd-ül Məliyin 693-cü ildən Azərbaycan və əl-Cəzirənin canişini təyin etdiyi qardaşı Məhəmməd ibn Mərvan xüsusi fəaliyyət göstərdi. Onun VIII əsrin əvvəllərində, tabeliyində olan Cənubi Qafqaz ərazisində apardığı zor siyasəti ərəblərin bu ərazidə mövqeyini daha da möhkəmlətdi, xəzərlərə qarşı yürüşə çıxmaq imkanı yaratdı.

707-708-ci ildə Məhəmməd ibn Mərvanın qardaşı oğlu, o zaman hakimiyyət başında olan xəlifə 1 Validin (705-715) qardaşı Məsləmə ibn Əbdülməlik Bizansda apardığı müvəffəqiyyətli döyüşlərdən sonra Dərbəndi ələ keçirmiş xəzərlərin üzərinə göndərildi. Azərbaycanın boyun əyməyən bütün qala və

şəhərlərini ələ keçirən Məsləmə Dərbəndə çatdı. Lakin alınmaz divarlar şəhəri tutmağa mane oldu.

Akademik Ziya Bünyadovun «Azərbaycan VII-IX əsrlərdə» əsərində məlumat verilir ki, hicri 91 (709-710)-ci ildə Məsləmə ibn Əbdü-l-Malik türklərə qarşı yeni hücuma keçdi və «Azərbaycan vilayətində əl-Baba çatdı, burada şəhər və qalaları aldı». Lakin h.158 (2.06.709-1.06.710)-ci ildə «xəzər hökmdarı 80 min nəfərlik qoşunla yürüş etdi və Albaniyanı tutdu», yəni ərəblər Dərbənddən qovuldular və Azərbaycana geri çəkildilər.

İki il sonra (711) xəlifə Əbdü-l-Əzizin canişini ibn Xatim əl-Bəhili Azərbaycanın şimal əyaləti Arranın paytaxtı Bərdəyə gəldi və xəzərlərə qarşı yeni hücum hazırlayaraq, yenidən Kürün o tayına keçdi. Yəqin bu, ərəb qoşunlarının Dərbənd üzərinə yeni hücumu idi, çünki Təbəri bildirir ki, hicri 92 (710-71l)-ci ildə ərəb ordusu Dərbəndə çatdı, lakin şəhəri yalnız 714-cü ildə, xəlifə I Validin hökmranlığının axırıncı ilində ala bildi. Məsləmə 714-715-ci ildə Dərbənd üzərinə yenidən hücuma keçdi, onu dağıdaraq, xaqanlığın ərazisinə soxuldu. Burada xəzərlər Məsləmənin ordusu ilə vuruşmağa başladılar və ərəblər geri çəkildilər. Ərəblər geri çəkilərkən onları «Alban patrisilərindən...» Eranşahik Vaçaqanın komandanlığı altında olan Arran qoşunları arxadan mühafizə edirdi. «Xəzərlər onun üzərinə atıldılar, lakin məğlub edilib qaçmağa başladılar».

Sərkərdə Məsləmənin komandanlığı ilə ərəblərin Dərbənd üzərinə hücumu Xəlifə Süleymanın (715-717) hökmranlığının üçüncü ilində və ya ikinci ilində başlandı. Şəhər uğrunda vuruşma gecə-gündüz davam etdi və nəhayət, Dərbənd alındı. Ərəb ordusunda 6 min nəfər var idi və onların hər birinə çoxlu qənimət düşdü. Məsləmə Əbdü-l-Əzizi Arranda qoyub özü Dəməşqə qayıtdı.

Xəlifə II Ömərin (717-720) hökmranlığının birinci ilində xəzərlər ərəblərə qarşı böyük hücumlara başladılar. Xəzərlər Arrandan keçib Cənubi Azərbaycana soxuldular və onu işğal edərək ərəb qoşunlarından bir qədər qırdılar.

Xilafətin şimal vilayətlərinin canişini təyin edilən Məsləmə eyni zamanda Bizansa qarşı mübarizəni təşkil etməyi lazım bildi. Çünki məhz Bizans ərəblər əleyhinə mübarizədə xəzərlərin müttəfiqi idi. Nəhayət, 714-cü ildə gərgin mübarizədən sonra Məsləmə Dərbəndi tuta bildi. Onun qoşunları şəhəri talan edərək, Xəzər xaqanlığının ərazisinə soxuldular, lakin xəzərlərin təzyiqi altında geri çəkilməli oldular. Moisey Kalankatlının məlumatına görə, ərəb hərbi qüvvələrinin geriyə hərəkətini alban patriki Aranşahik Vaçaqanın başçılıq etdiyi yerli qoşun dəstəsi himayə etdi. Məhz bu dəstənin köməyi ilə xəzərlər basıldı.

Beləliklə, Məsləmə Dərbəndi xəzərlərdən alaraq, böyük qənimətlər və Dərbəndin alınma xəbəri ilə Dəməşqə yollandı. Ərəb ordusunun şəhəri tərk etməsi xəbərini eşidən xəzərlər isə yenidən Dərbəndə qayıdaraq əvvəlki mövqelərini tutdular.

717-ci ildə, xəlifə II Ömərin hakimiyyəti (717-720) dövründə ilk böyük həmlə ilə Azərbaycan ərazisinə soxulan xəzərlər qarşılaşdıqları azsaylı ərəb hərbi dəstəsini darmadağın edib Şirvanda ağalığa başladılar. Lakin Xatim ibn Numan əl-Bəhilinin başçılığı ilə xəlifənin göndərdiyi qoşun xəzərləri darmadağın etdi.

Professor Sara Aşurbəyli «Şirvanşahlar dövləti» adlı əsərində o dövrün hadisələrini təhlil edərkən məlumat verir ki, xəlifə Yəzid ibn Əbd-ül Məlikin hakimiyyəti dövründə (720-724) Azərbaycanda xəzərlərə qarşı mübarizəni 722/23-cü ildə Azərbaycanın valisi təyin olunmuş əl-Cərrah ibn Abdullah əl-Həkəmi davam etdirmişdir. O, Kür çayını keçərək Dərbəndə çatdı, 25 minlik ordu ilə xaqanın oğlu Barsbəyin başçılıq etdiyi Xəzər qoşunlarını məğlubiyyətə uğratdı. Cərrah tezliklə şimala yeni hücuma başladı. Xaqanın oğlu Barsbəy 300 minlik ordu ilə Ərdəbilə yetişdi və Şəhrizad kəndinin yaxınlığında ərəbləri əzdi. Əl-Cərrah döyüşdə öldürüldü (730-31). Xəzərlər Ərdəbili tutdular və Azərbaycana dağıdıcı yürüş keçirdilər. Bu yürüş haqqında Gevond belə məlumat verir: «…sərkərdə topladığı qoşunla Çor (Dərbənd) keçidindən keçərək Maskutlar ölkəsinə getdi və Paytakaran (Beylaqan) ölkəsinə basqın etdi».

Akademik Ziya Bünyadov «Azərbaycan VII-IX əsrlərdə» əsərində qeyd edir ki, II Yəzidin (720-724) hökmranlığı zamanı 722-723-cü illərdə xəzərlər qıpçaq və digər türk tayfalarının köməyi ilə təqribən 30 min nəfərlik ordu ilə yenidən Azərbaycanın şimal əyaləti Arrana soxuldular. Mərc əl-Həcərdə bunları Sübeytə ən-Nəhraninin komandası altındakı ərəb ordusu qarşıladı. Ərəblər məğlub edildilər və onların ordugahı xəzərlərin əlinə keçdi.

Həmin ildə II Yəzid əl-Cərrah ibn Abdullah əl-Həkəmini Azərbaycana hakim təyin etdi və ona 25 min nəfərlik qoşun verib əmr etdi ki, xəzərlərə qarşı hücuma başlasın. Lakin xəzərlər böyük ərəb ordusunun hücuma keçdiyi xəbərini alıb Dərbəndə tərəf çəkildilər. Cərrah Bərdəyə yaxınlaşdı, orduya istirahət verdi, sonra Kürdən keçərək Dərbəndə yaxınlaşdı. Xəzərlər xaqanının oğlu Barsbəyin komandanlığı altında 40 min nəfərlik ordunu Cərraha qarşı çıxartdılar. Vuruşma nəticəsində xəzərlər məğlub edildilər, onlardan çoxu əsir düşdü. Ərəblər Xamzin və Tarqu şəhərlərini tutdular və Bələncərə çatdılar. Qala qarnizonu qısa vuruşmadan sonra təslim oldu və ərəblər çoxlu qənimət əldə etdilər. Cərrah bu şəhərlərin əhalisini Arran ərazisinə, xüsusilə Qəbələ mahalına köçürtdü, burada xəzərlərin məskən saldığı kəndlər var idi.

İbn əl-Əsirin verdiyi məlumata görə, hər bir ərəb atlısı Bələncər vuruşmasından sonra qənimət olaraq 300 dinar almışdı. Yenə də ibn əl-Əsirin verdiyi məlumata görə, ərəb ordusunda 30 min atlı olduğunu nəzərə alsaq, xəzərlərdən alınan pulun böyük bir məbləğ təşkil etdiyini görərik. Ərəblər xəzərlərdən çoxlu əsir aldılar.

Bələncərdən sonra Cərrahın ordusu Vəbəndər (ya da Vananlar) şəhərini aldı; burada 40 min türk evi var idi. Bu ordu xaqanlıq ərazisində daha bir neçə yürüş etdikdən sonra, qışlamaq üçün Şəki vilayətinə çəkildi.

«Azərbaycan tarixi»nin II cildində göstərilir ki, 721-722-ci illərdə xəlifə II Yəzidin hakimiyyəti zamanı (720-724) qıpçaq və başqa türk tayfaları ilə birləşmiş 30 minlik xəzər ordusu yeni həmlə ilə Azərbaycanın şimal hissəsinə hücum etdi, bütün Arran torpaqlarını keçərək orada ərəbləri məğlub etdi. Azərbaycanın yeni canişini əl-Cərrah ibn Abdullah əl-Həkəmi xəlifənin əmrinə əsasən 25 minlik qoşunla xəzərlərə qarşı çıxış etdi. Yeni ərəb ordusunun hücumu xəbərini alan xəzərlər Dərbəndə doğru geri çəkildilər. Onları təqib edən əl-Cərrah tezliklə Kür çayını keçərək, Dərbəndə yaxınlaşdı və şəhərdən cənubda axan Rubas çayı sahilində düşərgə saldı. Baş vermiş döyüşdə xəzərlər ərəblərə qarşı xaqan oğlunun başçılığı altında 40 minlik qoşun çıxarsalar da məğlub edildilər. Dərbəndi ələ keçirən ərəblər şimala - xəzərlərin bir sıra qala və şəhərlərinə hücum edib, onları və o cümlədən paytaxt olan Bələnçəri tutdular.

Hicri 108 (726-727)-ci ildə xəzərlər «xaqanın oğlunun» komandası altında Arrana növbəti dəfə hücum etdilər. Ölkəni işğal etdikdən sonra Azərbaycana tərəf yeridilər və orada bəzi şəhərləri mühasirəyə aldılar. Əl-Haris ibn Əmra ət-Tainin komandanlığı altında ərəb ordusu onlara qarşı hücuma keçdi. Xəzərlərin qarşısı alındı, onlar məğlub edilib Arazın o tayına qovuldular, oradan isə geri çəkilməyə məcbur oldular.

727 - 728-ci illərdə Məsləmə ibn Əbd-ül Məlik Azərbaycandan iki dəfə xəzərlərin üzərinə hücum etdi. O, xaqanlıq ərazisinə basqın edib, müxtəlif yaşayış məntəqələrini dağıdır, əsir və qənimətlərlə geri qayıdırdı.

729-730-cu illərdə Hişam Məsləməni geri çağırdı və əl-Cərrah ibn Abdullah əl-Həkəmini yenidən Azərbaycanın hakimi təyin etdi; o isə çox çəkmədən yenidən şimala doğru hücumlara başladı.

730-731-ci illərdə xəzər və türklərin 300 min nəfərlik ordusu Barsbəyin komandanlığı altında ərəblərə qarşı əks-hücuma başlayıb Dərbənd, Dəryal və digər keçidlərlə Arran ərazisinə soxuldu. Əl-Cərrah öz qoşunlarını Bərdə yolu ilə Ərdəbilə çəkdi və orada hadisələrin inkişafını gözləməyə başladı. Beləliklə, VIII əsrin 20-ci illəri qarşılıqlı hücumlar şəraitində keçdi.

Akademik Ziya Bünyadov «Azərbaycan VII-IX əsrlərdə» əsərində o dövrü araşdıraraq qeyd edir ki, xəzərlər ərəb qoşunlarının harada yerləşdiyini bir gürcü knyazından öyrəndilər. İki ordu Araz sahilindəki Varsanda üz-üzə gəldi. Ərəblər xəzərlərin üstün qüvvələrinin təzyiqi altında Ərdəbilə tərəf çəkildilər; burada Savalan dağı yaxınlığında onların arasında gecə-gündüz davam edən böyük vuruşma oldu. Ərəblər tamamilə məğlub edildilər, əl-Cərrah öldürüldü.

Xəzərlər uzun mühasirədən sonra Ərdəbili aldılar, şəhərin kişi əhalisini qırdılar, qadın və uşaqları isə əsir apardılar. Sonra xəzər ordusu Azərbaycanı viran etdi, ölkənin şəhər və qalalarını bir-birinin ardınca tutub Diyarbəkrə və Mosula çatdı.

VIII əsr müəllifi xəzərlərin basqını haqqında belə məlumat verir: «Onlar Hunlar torpağından, Cor (Dərbənd) keçidindən, Maskutlar torpağından keçərək Paytakaran (Beyləqan) ölkəsinə basqın etdilər; Araz çayından keçib Azərbaycana getdilər, Ərdəbili, Qandzak-Şahastanı, Atşi-Baquan adlanan

vilayəti, Spatar-Perozu və Ormizd-Perozu dağıtdılar».

Xəzərlərin belə sürətli hücumu xəlifəni və onun saray məiyyətini çox çaşdırdı. Hişam ərəb qoşunlanın baş komandanı vəzifəsinə Səid ibn Əmr ül-Xəraşini təyin etdi və o dərhal 30 minlik ordu ilə xəzərlərə qarşı yola çıxdı. Səid xəlifədən məxaric üçün 100 min dirhəm pul da aldı.

Ərəblər Van gölü yaxınlığındakı Xilat şəhəri divarları qabağında xəzərlərlə qarşılaşdılar. Ərəblər şəhəri hücumla alıb xəzərləri təqib etməyə başladılar. Onlar Bərdə istiqamətində irəliləyərkən yolda bütün qalaları dağıdırdılar. Ərəblər «onları (xəzərləri) tamamilə məğlub edib onların bayrağını aldılar; bayrağın mis təsviri indiyədək Xəraşi nəslində onların əcdadının igidliyi şərəfinə saxlanılır».

Səid Bərdədə şəhər əhalisi qarşısında nitq söyləyib, onları xəzərlərdən gözlənilən böyük təhlükə qarşısında birləşməyə çağırdı. O, xüsusilə Arran paytaxtının zəngin sakinlərinə müraciət edərək, vəsait verməkdə xəsislik etməməyi onlardan xahiş etdi.

Sonra Səid Beyləqana getdi, şəhəri alıb Varsana gəldi, xəzərlərin qarnizonunu buradan da qovdu.

Xəzərlər Barsbəyin komandanlığı altında 100 min nəfərlik qoşunu Səid ordusuna qarşı göndərdilər. Beyləqan yaxınlığındakı çayın kənarında baş verən vuruşma nəticəsində xəzərlər darmadağın edildi. Barsbəyin özünü isə Səid atdan saldı və başını kəsərək Hişama göndərdi.

Ərəblər xəzərlərin üzərində böyük qələbə çaldılar, çoxlu qənimət ələ keçirdilər. Hər bir ərəb əsgərinə mükafat olaraq azı 1700 dinar (!) verildi.

Hicri 112 (730-73l)-ci ildə xəlifə Hişam əl-Xəraşini paytaxta çağırdı. Məsləmə ibn Əbdü-l-Maliki Azərbaycana hakim təyin etdi; o dərhal xəzərlərə qarşı hücuma başladı və qışa yaxın Dərbəndə çatdı. Hicri 113 (731-732)-cü ildə Məsləmə daha irəliyə gedərək, Bələncərə çatdı; buradakı vuruşmada xaqanın ikinci oğlu öldürüldü.

Hicri 113-cü ildə xəzərlər yenidən Arrana soxuldular, lakin Dərbənddə məğlub edildiər. 1000 nəfər xəzər öz ailələri ilə birlikdə əsir düşdü.

VII cildlik «Azərbaycan tarixi»nin II cildində məlumat verilir ki, 730-731-ci ildə xəzərlər və başqa türk tayfaları xaqanın oğlunun başçılığı ilə 300 minlik qoşunla Dərbənd, Dəryal və başqa keçidlərdən Azərbaycan ərazisinə soxulub, yolları üstündə olan şəhər və kəndləri yandırmağa, hər yeri qarət etməyə başladılar.

Ərəblərlə xəzərlər arasında həlledici döyüşlərdən biri Barzənd yaxınlığında baş verdi. Qələbə qazanan Xilafət qoşunları əsir alınmış bütün müsəlmanları azad etdilər. Beyləqan yaxınlığında çay sahilində baş verən qanlı döyüş pərən-pərən dəstələrdən yığılmış xəzər ordusunun məğlubiyyəti ilə nəticələndi; onların başçısı – xaqan oğlu öldürüldü. Ərəblər dənizə doğru qaçan xəzər ordusunun qalıqlarını yalnız Şirvan torpaqlarınadək təqib etdilər.

Elə həmin il xəlifə öz qardaşı Məsləməni yenidən Azərbaycanın canişini təyin etdi. Yeni əmr və tapşırıqla Bərdəyə gələn təzə canişin dərhal Şirvana doğru hərəkət edib ərəblərə tabe olmaq istəməyən Şabran qalasını mühasirəyə aldı. Bir neçə gün davam edən mühasirədən sonra əlləri hər şeydən üzülmüş şabranlılar aman istədilər. Verilən vədə baxmayaraq qalaya buraxılmış ərəblər bütün kişiləri qılıncdan keçirdilər, qadın və uşaqları isə ətraf kəndlərə səpələdilər.

Buradan Dərbəndə yollanan Məsləmə şəhər divarları yanında düşərgə saldı. Şəhər hakimi ərəbləri qarşılamağa çıxdı. Dərbənd qalasında yerləşmiş xəzər qoşun hissələri isə heç bir maneəyə rast gəlmədən şəhəri tərk etdilər. Xəzərləri sərhədyanı zonadan da çıxarmağa nail olan Məsləmə ətraf yerlərin dağlı hakimlərindən xərac alaraq, öz qoşunlarını Xilafətin şimal vilayətlərindən olan Arranın hüdudlarından kənara - xəzərlərin Bələncər, Vəbəndər və Səməndər şəhərlərinə tərəf yeritdi. Ərəblər və xəzərlər arasında qanlı döyüş bir neçə gün davam etdi və ərəblərin qələbəsi ilə başa çatdı. Geri qayıdan ərəblər yenidən Dərbənd qalasında sığınacaq tapmış min xəzər ailəsini mühasirəyə aldılar. Uzun mühasirədən sonra qala ərəblərin əlinə keçdi. Məsləmə bu dəfə də qaladakı xəzər ailələrinin Dərbənddən çıxıb getməsinə maneçilik törətmədi.

Dərbənd sərhəd vilayətində ərəblərin mövqeyini möhkəmlətmək məqsədilə Məsləmə Dərbəndi dörd qismə (sektora) bölüb, bunların hər birində Dəməşqdən, Himsdən, eləcə də Fələstin, Şam və əl-Cəzirənin başqa yerlərindən olan 24 min ərəb döyüşçüsü yerləşdirdi. Məsləmənin tapşırığı ilə möhkəmləndirilmiş, silah və ərzaqla təchiz edilmiş Dərbənddə müsəlman icmasının başçısı Mərvan ibn Məhəmməd təyin olunur. 732-733-cü ildə Azər-

baycan və əl-Cəzirənin amili vəzifəsi də ona tapşırılır. Məsləmə özü isə, görünür, növbəti hesabat üçün Dəməşqə, xəlifə sarayına yollanır. Əl-Kufinin məlumatına görə, Məsləmənin getməsindən xəbər tutan xəzərlər yenidən Dərbənddən şimalda olan torpaqlarına qayıdırlar.

Yeni canişin Mərvan ibn Məhəmməd 40 minlik qoşunla Bələncərə hücum edib, xəzələri əzir, böyük qənimətlə Dərbəndə qayıdıb, qışın sonunadək orada qalır. Burada baş verən hadisələrin ən yaxşı şərhçisi olan əl-Kufi xəzərlərə qarşı yaz əməliyyatını Mərvanın deyil, bu vəzifədə onu müvəqqəti əvəz edən Səid əl-Haraşinin başlaması haqqında məlumat verir. Başqa mənbələrlə təsdiq olunmayan bu məlumat, ziddiyyətli də olsa, mümkün olan bir fakt kimi nəzərə alınmalıdır. Ə1-Kufiyə görə, Şamdan Dərbəndə çağırılmış Səid xəzərlərin üzərinə elə tez-tez hücum edirdi ki, «atının yəhəri heç vaxt qurumurdu». Lakin görmə qabiliyyətinin pozulması onun istefa xahişi ilə xəlifəyə müraciət etməsinə səbəb olur, Mərvan isə yenidən əvvəlki vəzifəsinə qaytarılır.

Xəzərlərlə qalibiyyətli müharibə aparmaq üçün arxa cəbhənin möhkəmliyinin vacib olduğunu dərk edən Mərvan, Cənubi Qafqazın Xilafətin real müttəfiqinə çevrilməsi zərurətini də yaxşı başa düşürdü. Bu baxımdan onun Xilafətin şimal ərazisi hesab edilən Qafqazda apardığı siyasət əvvəlki canişinlərinkindən fərqlənirdi. Erməni və alban knyazlarının tam itaətinə nail olmuş Mərvan, çox keçmədən, zor gücünə başqa Cənubi Qafqaz xalqlarını da özünə tabe edir. Arxa cəbhədən nigarançılığı qurtaran Mərvan 120 minlik qoşunla Bərdənin 40, Tiflisin isə 20 fərsəxliyində yerləşən, mənbələrdə Kasak (Kasal) adlandırılan yerdə düşərgə salır.

737-ci il ərəb-xəzər müharibələri tarixində ən gərgin dövrün başlanğıcı kimi daxil olur. Ərəblərin şimala doğru hücum əməliyyatlarına başçılıq edən Mərvan xəzərlərin üzərinə iki istiqamətdən - Dərbənd və Dəryal keçidlərindən yürüş təşkil etmək qərarına gəlir. Dərbənd qoşununa şəhərin rəisi Üseyd (Əsəd) ibn Zafır əs-Sulami, Kasakdan Dəryal keçidi vasitəsi ilə hücum edən qoşuna isə Mərvan özü başçılıq edirdi. Yolboyu yerləşən qala və yaşayış məntəqələrini darmadağın edən qoşunlar Səməndər şəhəri yanında birləşdilər və oradan Volqa çayının sağ sahilində yerləşən Xəzər paytaxtı əl-Beyda şəhərinə hücuma keçdilər. Xəzər xaqanı bu şəhərdə möhkəmlənmişdi. Hücum ərəblərin tam qələbəsi ilə nəticələndi. Aman istəyən xaqan hətta islam dinini qəbul etməyə də razılıq verdi. Ərəb mənbələrinin (əl-Bəlazuri, əl-Kufi və b.) məlumatına görə ərəblər nəinki xəzərlərin yaşadıqları ərazini tudular, həmçinin yerli salnaməçinin alban vilayətləri sırasında adlarını çəkdiyi Hecerini (Ecerini), Kambehcanı (Kambisenanı), Şakeni (Şəkini), Xozması (Xaçmazı), Balasakanı və b. yerləri ələ keçirdilər, saysız-hesabsız sürü və ilxıları apardılar. Xəzərlərin bu dəfəki hücumları olduqca güclü idi. Çox keçmədən Şirvan torpağında xəzərlərlə üzləşən Yəzid, ona kömək göndərilməsinə baxmayaraq məğlub edilir və Bərdəyə qaçır.

Bu xəbər xəlifəyə çatanda o, Yəzidə bir daha kömək göndərir. Yəzid yeni qüvvələrlə Kürü adlayaraq Dərbəndə doğru istiqamət götürür və şəhərin müdafiəsini təşkil etmək qərarına gəlir. Az qala bütün Arranı fəth edən xəzərlər ərəblərin Dərbənddəki müdafiə xətlərini yara bilmədilər, qala ərəblərin əlində qaldı, xəzərlər isə Cənubi Qafqazı tərk etməli oldular.

O dövrün müəllifləri və tarixçiləri VIII əsrin 60-cı illərinin ortalarında xəzərlərin Cənubi Qafqaz ərazisinə daha bir neçə yürüşü haqqında məlumat vermişlər. Bundan sonra VIII əsrin sonlarınadək xəzərlər bu ərazidə görünmədilər. Yalnız həmin yüzilliyin lap son ilində, xəlifə Harun ər-Rəşidin (786-809*)* hakimiyyəti dövründə, xəzərlər Arran ərazisinə yenidən müdaxilə etdilər, kiçik ərəb hərbi dəstələrinin müqavimətini qıraraq, Kür çayının sahillərinədək irəlilədilər. Mənbələrdəki məlumata görə, xəzərlər burada 70 gün qaldılar, sonra isə ölkəni talan edərək, 100 min nəfərdən artıq əsir apardılar. Ərəb tarixçisi əl-Kufi xəzərlərin bu müdaxiləsini o zaman Dərbənddə baş verən hadisələrlə əlaqələndirir: Dərbənd əhalisi şəhər hakiminin başçılığı ilə qiyam qaldırmış, ərəblərə xərac verməkdən imtina etmiş, nəhayət xəzərləri yardıma çağırmışdı. Dövrün digər mənbələri (ət-Təbəri, ibn əl-Əsir və b.) bu hadisəni başqa cür işıqlandırsalar da, fakt faktlığında qalır: VIII əsrin son ilində xəzərlər ərəblər üzərində son ciddi qələbəyə nail ola bildilər.

İki gəlmədən biri üçün qələbə, digəri üçün məğlubiyyət olan belə qanlı döyüşlər torpaqları yağı tapdağı altında qalan yerli əhali üçün zülm, iztirab və

əziyyətdən başqa bir şey deyildi.

Bununla da xəzərlərin bir əsrdən çox ardı-arası kəsilməyən soyğunçu yürüşlərinə, demək olar, son qoyulur. Yalnız hələ də xəzərlərin qüdrətinə inanan yerli hakimlər ara-sıra köhnə müttəfiqlərini ərəblərə qarşı birgə mübarizəyə dəvət edirdilər. Hətta IX əsrin sonları-X əsrin əvvəllərində, Cənubi Qafqaz ərazisində müstəqil feodal dövlət qurumlarının yarandığı dövrdə də baş verən lokal xarakterli bu çıxışlar nəticə etibarı ilə Xilafətin Qafqazdakı mövqeyini sarsıdan amillərdən oldu. Beləliklə, obyektiv olaraq, müsəlmanların şimala doğru yollarını bağlamış Xəzər xaqanlığı, rusların və digər xalqların da Şimali Qafqaz tərəfdən müsəlman torpaqlarına müdaxilə etmələrinə mane olmuş, bufer dövləti rolunu oynamışdır.

İspaniyadan Çinə və Hindistanadək bir çox ölkə və xalqları tabe etmiş ərəblər, işğal etdikləri yerlərdə ilk dövrlərdə yeni tipli idarə sistemi qura bilmədiklərindən, bir müddət bu yerlərin əvvəlki idarə sistemlərini saxlamalı oldular. Müxtəlif xalqlardan alınan və idarə işini yüngülləşdirmək məqsədilə çox vaxt köhnə cöğrafi və ya inzibati adını saxlayan bu ərazilər müstəqil və ya asılı ölkədən Xilafətin çoxsaylı vilayətlərinə çevrildilər. Bu vilayətlər, adətən həmin yerləri fəth etmiş sərkərdənin və ya yürüşün bilavasitə iştirakçısının idarəsi altında ərazicə yaxın torpaqları özlərində birləşdirirdi.

Ərəblərin işğalı ərəfəsində tarixi Azərbaycan torpaqları ilə yanaşı, Şərqi Gürcustanı və İranın bir sıra vilayət və şəhərlərini (Təbəristan, Gilan, Dihistan, Rey və b.) də özündə birləşdirən Sasanilərin şimal kustakı (kustu) - əyaləti olan Adurbadaqan (Azərbaycan) bir inzibati vahid kimi cənubda Həmədan, Əbhər və Zəncandan şimalda Dərbəndədək uzanırdı; tədqiqatçıların (Y.Paxomov, T.Trever, V.Henninq və b.) əksəriyyətinin 567/568-ci ilə aid etdikləri Dərbənd divarlarındakı pəhləvi yazısı imperiyanın şimal sərhəddinin Dərbənddən keçdiyini bir daha təsdiq edir.

Akademik Ziya Bünyadovun «Azərbaycan VII-IX əsrlərdə» əsərində qeyd edilir ki, hicri 114 (732-733)-cü ildə ərəblər Hişamın Cəzirə və Azərbaycan hakimi təyin etdiyi Mərvan ibn Məhəmmədin komandanlığı altında xəzərlərə qarşı hücuma keçdilər. Mərvanın qərargahı Kasalda (Qazaxda) idi, buradan Bərdəyə 40 fərsəx və Tiflisə 20 fərsəx yol var idi. O, buradan Dəryəl keçidi vasitəsi ilə xəzərlərin diyarına hücuma keçdi, qoşunun digər hissəsinə isə əmr etdi ki, Dərbənddən hücuma keçsinlər.

Bəlazurinin dediyinə görə, ərəblərin gücündən qorxuya düşən xaqan sülh istədi, Mərvan isə əsir aldığı xəzərləri «Samur ilə Şabiran arasında düzənlikdə Lakzlar vilayətində yerləşdirdi». Gevond bildirir ki, Varaçan şəhərini alan Mərvan böyük qənimət əldə etdi və «Hunlar ölkəsindən şanlı qələbə ilə qayıtdı. Partav şəhristanına çatan Mərvan qənimətin beşdə birini və əsirləri öz hökmdarı Geşama (Hişama) göndərdi və ona məktub yazıb qələbə haqqında məlumat verdi».

Xaqan islam dinini qəbul etdi, Mərvan isə «Şirvan hökmdarına bir vəzifə olaraq tapşırdı ki, müsəlman ordusu xəzər diyarına hücum edərkən qoşunun qabağında getsin, bu ordu oradan qayıdarkən arxada gəlsin».

Sonrakı iyirmi il ərzində, Əməvilər sülaləsi devrilənədək xəzərlər ərəblərin nəzarəti altında idi. Abbasilər hakimiyyət başına gələndə xəzərlər Xilafətdə baş verən hadisələrdən istifadə edərək, öz paytaxtlarında xəlifə nümayəndələrini öldürüb bir müddət müstəqil oldular.

Xəlifə Harun ər-Rəşidin hökmranlığı dövründə xəzərlərin Arrana və onunla qonşu olan ölkələrə hücumları kəsildi, onlarla sülh və ittifaq bağlandı.

Beləliklə, A.Y.Krımski deyəndə ki, xəzərlər Arranda yüz il hökmranlıq etmişlər, faktiki olaraq haqlıdır. Hərçənd ki, yüz il ərzində Arran daim, ardıcıl şəkildə xəzərlərin hakimiyyəti altında olmamışdır. Ancaq onların ölkə üzərində nəzarəti və hücumlarının arası, demək olar, kəsilmirdi. Onlar ölkəni daim gərgin vəziyyətdə saxlayır və tez-tez ondan böyük bac alırdılar. A.Y.Krımski xəzərlərin Arrandakı hökmranlığı və dağıdıcı hücumlarının təqribən 737-ci ildə qurtardığını yazırsa da yuxarda göstərilən materiallardan görünür ki, xəzərlər hətta VIII əsrin lap axırında - 796 və ya 799-cu ildə Arran ərazisinə hücum etmişdilər.

Doğrudur, xəzərlərin çox sonralar da ərəblərlə vuruşduğu haqqında məlumatlar vardır. Məsələn, X əsrə aid bir yəhudi sənədində deyilir: «Budur, bu xalqlar bizimlə (xəzərlərlə) müharibə edirlər: Bab ül-Əbvab, Zibus, Türklər, Luzaniya».

Lakin Kordova xəlifəsi III Əbdürrəhmanın (912-961) yəhudi əyanı Xasay ibn Şapruta xəzər padşahı

Yusifin (İosifin) yazdığı cavab məktubundan göründüyü kimi, bu zaman xəzərlər Ərəb xilafətinin şimal sərhədlərində bir növ mühafizə dəstəsi rolunu oynayaraq, ruslar və digər xalqların Cənubi Qafqaz vasitəsilə müsəlman ölkələri ərazisinə girmələrinə mane olurdular. Yusif belə yazmışdı: «Mən çayın (İtil çayının) ağzını qoruyuram və gəmilərə minib gələn rusları dənizdən keçib İsmayıl övladının (ərəblərin) üstünə getməyə qoymuram və (eynilə) onların (ərəblərin) bütün düşmənlərinin quru yol ilə Bab ül-Əbvaba (Dərbəndə) yaxmlaşmalarına imkan vermirəm. Mən onlarla müharibə edirəm. Əgər mən onları bir saat (rahat) buraxsam, onlar bütün İsmayıl övladının ölkəsini Bağdada qədər məhv edərlər».

«Azərbaycan tarixi»nin II cildində məlumat verilir ki, 734-741-ci illərdə Qafqaz cəbhəsində xəzərlərə qarşı döyüşlərdə uğur qazana bilmiş ərəblər Xilafətın başqa bölgələrində, xüsusilə Orta Asiya və Şimali Afrikada mərkəzi hakimiyyət əleyhinə yönəlmiş çıxışların qarşısını almaqda çətinlik çəkirdilər. Hicri tarixi ilə 126 (743-744-cü) ildə, xəlifə Hişamdan sonraki bir il ərzində, Əbd ül-Məlikin üç nəvəsi (II Valid, III Yəzid və İbrahim) xəlifə taxtında bir-birlərini əvəz etdilər. Hişamın Qafqazda canişini olan qardaşı Mərvan, məhz bu dövrdə Asim ibn Abdullah ibn Yəzid əl-Hilalini Bərdədə öz yerində qoyub Şama gedir və fəal sürətdə hakimiyyət uğrunda mübarizəyə qoşulur. O, 744-cü ildə Əməvilər sülaləsinin son xəlifəsi II Mərvan adı ilə fəaliyyətə başlayır. Lakin Xilafəti bürümüş dini-siyasi hərəkatın qarşısını almaq artıq mümkün deyildi. İqtisadi vəziyyətin ağırlaşması da mövcüd durumu həddən artıq gərginləşdirmişdi.

Ərəb üsuli-idarəsinə qarşı Azərbaycanda güclənən hərəkatın başında əl-Kufinin «beyləqanlı» kimi təqdim etdiyi «əl-Qəssab» (qəssab, ətçi) ləqəbli Müsafir ibn Kəsir (Küseyr) dururdu. O, hələ Mərvanın öz canişinliyi dövründə Dərbəndə hakim təyin etdiyi İshaq ibn Müslim əl-Uqaylinin köməkçisi idi. Xilafət mərkəzində hakimiyyət uğrunda gedən dini-siyasi çəkişmələrdən öz mənafeləri uçün istifadə edən başqa yerli feodallar kimi, Müsafir də vergi zülmündən, aramsız müharibələrdən zara gəlmiş xalqın köməyi ilə hakimiyyəti ələ keçirmək, ərəb ağalığından qurtarmaq istəyirdi.

Əl-Kufinin məlumatma görə, xəlifə Mərvan sərkərdə Əbd ül-Malik ibn Müslim əl-Uqaylini Müsafirin başçılıq etdiyi hərəkatı yatırmaq və xəzinəyə çatası xəracı toplamaq məqsədilə Bərdəyə göndərir. Növbəti döyüş Bərdə ilə Yunan şəhəri arasında baş verir. Döyüşdə Əbd ül-Məlik öldürülür. Qardaşının yerini tutan İshaqla üsyançılar arasında qanlı döyüşlər isə, qaynağın yazdığına görə, «Əbu Müslimin başçılığı ilə Xorasanda qara bayraqlılar zühur edənədək davam etdi».

Doğrudan da Əməvilərə qarşı mübarizə dalğası artıq bütün əyalətləri bürümüşdü. Bu çıxışların ən qüdrətlisi 747-ci ildə Mərv vadisində Əbu Müslim Xorasaninin rəhbərliyi altında başlandı. Üsyan tezliklə Qərbi İrandan İraq ərazisinə yayıldı. Dəclə çayının sağ qolu Böyük Zab çayı üzərində üsyançıların ordusu ilə II Mərvan qoşunu arasında baş verən döyüş xəlifə əsgərlərinin məğlubiyyəti ilə nəticələndi. II Mərvan bir dəstə yaxın adamları ilə Şama, sonra Fələstinə, oradan da Misirə qaçdı. Yeni ordu toplamaq cəhdləri boşa çıxan Mərvan Məğribə keçmək istərkən öldürüldü. Beləliklə, Əməvilər sülaləsinin 90 illik hakimiyyəti başa çatdı. Xilafətdə hakimiyyət Məhəmməd peyğəmbərin əmisi Abbasın nəslinin əlinə keçdi. Ədəbiyyatda paytaxtının adı ilə Bağdad xilafəti də adlandırılan Abbasilər sülaləsinin (750-1258) hakimiyyət dövrü başlandı.

Professor Sara Aşurbəyli «Şirvanşahlar dövləti» kitabında məlumat verir ki, xəlifə əl-Mənsur (754-755) Yəzid ibn Üseyd əs-Suləmi Azərbaycan, Arran və Şirvan valisi təyin etdi. Yəzid 60 minlik qoşunla Kürü keçib Şirvana çatdı. Burada baş verən vuruşmada xeyli ərəb öldürüldü. Yəzid isə qaçaraq Xirs qalasında (Çıraqqala) gizləndi. O, sonra İraqa gedib hərbi yardımla Bərdəyə qayıtdı. Kürü keçərək Dərbəndə çatdı, şəhəri və dağ keçidlərini möhkəmləndirdi. Ərəb tarixçiləri xəbər verirlər ki, xəzərlər itaət göstərmədiyinə görə ərəb canişini Səid ibn Səlim tərəfindən 797/8-ci ildə qətlə yetirilmiş Dərbənd əmiri ən-Nəcm ibn Haşimin oğlu Həyyun ibn Nəcmin dəvəti ilə hücum etmişdilər. Səidin zülmündən narazı olan yerli feodallar onun Dərbənddəki naibinə hücum etdilər. Atasının edamından sonra Həyyun xəlifənin canişininə qarşı üsyan qaldırdı və Səidin Dərbənddəki naibini öldürdü.

H. 230 (844)-cu ildə hakimiyyətə başlayan Məhəmməd İshaqla müharibədə məğlubiyyətə uğradı və elə həmin il Dərbənddə Buğa Əş-Şərabi tərəfin-

dən devrildi. Xəlifə Mütəvəkkil Dərbənd şəhərini və onun ətrafındakı torpaqları iqta kimi Məhəmməd ibn Xalidə verdi. Məhəmmədin sonrakı fəaliyyəti Dərbəndin qonşuluğunda və Sünikdə yaşayan «gavurlara» qarşı yürüşlərlə bağlı olmuşdu.

«Azərbaycan Milli Ensiklopediyası»nın xüsusi buraxılış cildində qeyd edilir ki, ərəb tarixçisi əl-Kufinin (IX əsr) yazdığına görə «Mərvan ibn Məhəmməd xəlifə olan kimi Azərbaycan və Ərminiyədə iğtişaşlar başlandı». Ərəb üsuli-idarəsinə qarşı yönəlmiş bu hərəkatın başında «qəssab» ləqəbli beyləqanlı Müsafir ibn Kəsir (Kuseyir) dururdu. O, Mərvanın canişinliyi dövründə Dərbənd hakiminin köməkçisi vəzifəsində çalışırdı. Əməvilərə qarşı Xilafətin bütün vilayətlərində qızışan mübarizə dalğası Azərbaycanı da bürümüşdü, ölkənin xeyli hissəsi üsyançıların əlinə keçmişdi. Yalnız mərkəzdə hakimiyyəti ələ almış Abbasilərin nümayəndəsi Əbu-l-Abbasın qardaşı Əbu-Cəfər Azərbaycan və əl-Cəzirənin valisi təyin edildikdən sonra bölgədəki vəziyyəti nisbətən sabitləşdirmək mümkün oldu. Üsyançılara qarşı göndərilmiş 100 minlik ərəb qoşunu iğtişaşlara son goydu. Müsafir öldürüldü.

VIII əsrin sonlarında xəlifə canişinləri tərəfindən idarə olunan Azərbaycan və Arran vilayətlərində ərəb üsuli-idarəsinin həyata keçirdiyi sərt tədbirlərə baxmayaraq, iğtişaşlar səngimək bilmirdi. Harun ər-Rəşidin Xilafətin şimal vilayətlərinə təyin ediyi Səid ibn Səlim əl-Bəhilinin valiliyi dövründə (793-799) cizyə verməkdən imtina edən, vergi məmurlarının bir neçəsini qətlə yetirən, qalanını isə şəhərdən qovan dərbəndlilərin qiyamı baş verdi. Dərbənd hakimi Nəcm ibn Haşim edam edildi. Onun oğlu Həyyunun şəhərə dəvət etdiyi xəzərlər ölkədə qaldıqları 70 gün ərzində ərəblərə qarşı vuruşmaqla yanaşı, yerli əhaliyə də böyük zərər yetirdilər: ölkə dağıdıldı, minlərlə insan əsir alındı. Elə bu dövrdə (798-99) «Şirvan məliki» adlandırılan yerli feodal Şammax ibn Şüca qarışıqlıqdan çıxa bilmiş, lakin əsrin son ilində Harun ər-Rəşidin təyin etdiyi yeni «Azərbaycan, Arran və Bab əl-Əbvab» valisi Yəzid ibn Məzyəd (799-801) tərəfindən devrilmişdi. Bölgəyə ikinci dəfə vali təyin olunmuş Yəzid Şirvanda baş verən üsyanı yatırmaqla yanaşı, xəzərlərin Arrana növbəti hücumunu da dəf etdi, ölkədə əmin-amanlığın yaradılması üçün tədbirlər gördü. Onun gəlişilə vəziyyət sabitləşdi, ölkədə qayda-qanun bərpa olundu.

«Azərbaycan tarixi»nin II cildində göstərilir ki, Cənubi Qafqazın, o cümlədən Azərbaycanın strateji və siyasi əhəmiyyətini yaxşı dərk edən ilk Abbasi xəlifəsi Əbu-l-Abbas (750-754) hakimiyyəti ələ alan kimi qardaşı, gələcək xəlifə Əbu Cəfəri Azərbaycan və əl-Cəzirənin valisi təyin etdi. Yeni vali bütün Cənubi Qafqazı bürümüş çıxışların qarşısını almaq, xüsusilə bu zaman Arranın xeyli hissəsini öz hakimiyyətinə tabe edə bilmiş Müsafir ibn Kəsirin üsyanını yatırtmaq üçün buraya hakim təyin etdiyi Məhəmməd ibn Sulu qiyamçılar üzərinə göndərdi. IX yüzillikdə ərəb tarixçilərinin yazdıqlarına görə, «Müsafirin və onun tərəfdarlarının müqavimətinə baxmayaraq, yüzminlik Xilafət qoşununun başında duran Məhəmməd ibn Sul, nəhayət, üsyanı yatıra bilir. Müsafir öldurülür, üsyançıların son sığınacağı olan Sisyandakı Kilab qalası alınır. Müsafirin və onun silahdaşlarının kəsilmiş başları xəlifə sarayına göndərilir».

Lakin Azərbaycanın şimal hissəsində olan Bərdə, Qəbələ, Dərbənd və bir çox digər yerlərdə yeni sülalənin nümayəndələri düşmən kimi qarşılandılar. Bu müqavimət vaxtilə Dərbənd və onun ətraflarında məskünlaşmış Şamdan, Mosuldan və b. yerlərdən gəlmiş şimali ərəb tayfaları tərəfindən xüsusilə güclü idi. Arranda uzun müddət davam edən bu üzücü müqavimət Abbasiləri həmin bölgədə apardıqları yerlibazlıq siyasətini dəyişdirməyə, bəzi yerlərdə şimal ərəb tayfalarının üstünlüyünə dözməyə məcbur etdi. Hətta Harun ər-Rəşidin (786-809) hakimiyyətə gəldiyi dövrdən başlayaraq bu və ya digər ərəb tayfasının aid olduğu qrup məsələsinə (şimal və ya cənub qrupuna aid olmasına) artıq əhəmiyyət verilmədi. Ə1-Yəqubinin məlumatına görə, «Harun ər-Rəşid... Yusif ibn Rəşid əs-Suləmini (Arran hakimi) təyin etdi, o isə ölkəyə *nizarilərdən* (şimallılardan - *N.Ə.)* köçürtdü; buna görə onun hakimliyi dövründə (şimal ərəblərinin) sayı xeyli artdı. Ondan sonra ər-Rəşid Yəzid ibn Məzyəd əş-Şeybanini hakim təyin etdi. O da hər yerdən bura *rəbiiləri* köçürtdü, odur ki, indi onlar Arranda olan ərəblərin əksəriyyətini təşkil edirlər. Ondan (Yəziddən) sonra Zeyd ibn Xəttab əl-Ədəvinin nəslindən olan Əbu əl-Kəbir ibn Əbd əl-Həmid hakim təyin olundu. O da *diyar mudar* əhlindən bir dəstə ilə oraya yollandı».

Beləliklə, çox keçmədən Azərbaycanda Ərə-

bistan yarımadasının hər yerindən müxtəlif tayfa və qəbilələrdən olan ərəblər məskunlaşdı. Öz vətənlərində bir-birlərinə qarşı çox da mehriban olmayan bu tayfalar köhnə ədavətlərini özləri ilə yeni məskənləri Azərbaycana da gətirdilər, burada da, indi özgə torpağı üstündə hərc-mərcliklərini davam etdirdilər. Mənbələrin məlumatına görə, bu qarşıdurmaya yalnız Yəzid ibn Məzyəd əş-Şeybaninin hakimliyi dövründə son qoyuldu. Onun gördüyü tədbirlər nəticəsində əhali sakitləşdi, qanun-qayda bərpa edildi, nizarilər yəmənilərlə bərabərləşdirildi.

VIII yüzilliyin son illərində Harun ər-Rəşid Azərbaycana Səid ibn Səlm ibn Quteybə əl-Bəhilini vali təyin edir. Səidin ilk tədbirlərindən biri cizyə verməkdən imtina edərək, vergi məmurlarının bir hissəsini qıran, qalanını isə şəhərdən qovalayan dərbəndlilərin qiyamına cavab olaraq Dərbənd hakimi Nəcm ibn Haşimi zindana saldırmaq, sonra isə boynunu vurdurmaq oldu. Dərbəndlilərə qahmar çıxan Nəcminin oğlu Həyyun bu tədbirlərin müqabilində Səidin Dərbənddəki məmuruna qarşı eyni cəzanı tətbiq etdi. Səid qoşununu üsyan etmiş Dərbəndə yönəltdi. Dərbənd hakiminin oğlu isə Xəzər xaqanını köməyə çağırdı. Mənbələrin təsdiq etdiyinə görə, bu münasibətlə Arrana hücum etmiş xəzərlər, burada qaldıqları 70 gün ərzində ölkəni dağıdaraq, yüz min əsirlə geri döndülər.

Beləliklə, Azərbaycanda Sacilərin 50 ildən artıq davam edən hakimiyyət dövrü başa çatır. Xilafətin zəifləməsi dövründə ilk dəfə bütün Azərbaycan torpaqlarını birləşdirmiş, IX əsrin sonunda Qafqazda Xilafətin dayağı olmuş bu dövlət bəzən Xilafətin təsir dairəsindən çıxa bilirdi. Elə buna görə Sacilərin siyasi fəaliyyəti, əsas etibarı ilə Xilafətin Azərbaycandakı mövqelərini qorumağa, eləcə də xaricdən olan təhlükəni aradan götürməyə doğru yönəldilmişdi.

Akademik Ziya Bünyadov «Azərbaycan VII-IX əsrlərdə» kitabında göstərir ki, Abbasilər xilafəti tarixində IX əsrin axırı - X əsrin əvvəlləri Xilafətin ucqarlarında yerli hökmdar və canişinlər separatizminin güclənməsi ilə əlamətdardır. Mütəqəlliblərin hərəkatı güclənir və onlardan hər biri mərkəzi hakimiyyətin çətinlikləri və zəifləməsindən istifadə edərək, ayrılmağa, özü üçün yarımmüstəqil və ya müstəqil hakimlik yaratmağa cəhd edirdi. Əvvəlcə bu hökmdar və ya canişinlər öz vilayətlərində yığılıb xəlifənin xəzinəsinə göndərilən vergilərin məbləğini azaltmağa başlayır, sonralar isə beyt ül-mala pul göndərilməsini tamamilə dayandırırdılar. Əgər belə bir mütəqəllibə daha zəif qonşusunun torpaqlarını özününkünə qatmağa, güclü qoşun təşkil etməyə və onun üstünə göndərilən nizami xəlifə ordularını məğlub etməyə nail olurdusa, xəlifələr onların öz vilayətlərində ağalıq etməyə tam ixtiyarı olduğunu qəbul edirdilər, yalnız bir şərtlə ki, onlar xütbə oxunanda xəlifənin adını çəkməyi öz öhdələrinə götürsünlər.

915-ci il üçün Yusif Azərbaycanda öz hakimiyyətini möhkəmlətdi. Sacilər dövləti qərbdə Ani və Dvin şəhərlərindən şərqdə Xəzər dənizinədək, cənubda Zəncandan, şimalda Dərbənd şəhərinədək uzanan çox böyük ərazi tutmuş bir dövlət oldu. Hilal əs-Sabinin məlumatına görə, Yusif ibn Əbu-s-Sacın hökmranlığı zamanında Dərbənd hasarının dənizin içərisindəki hissəsi uçmuşdu. Vəzir ibn əl-Furata yaxın olan adamlardan biri - Əbu əl-Həsən ibn Həmdun ona demişdi: «Mən Yusif ibn Divdad ilə Bab əl-Əbvab mahalında idim. Bu, xəzərlərlə iranlıların torpağı arasında Ənuşirəvanın tikdirdiyi bir səddir. Hasarın uzunluğu bir günlük piyada yoldur. Divar yelpik (mirvəh) şəklində dənizə tərəf gedir, onun uzunluğu 600 dirsəkdir (450 m). Bu hasar Xəzər gəmilərinin gəlib keçməsinə mane olur. Darvazalar dəmirdən düzəldilmiş, hasar isə yonulmuş daşdan (tikilmişdir). Hər daşda iki deşik var, buraya iki dəmir tir salınmış və yerinə qurğuşun əridilib tökülmüşdü. Dənizdə olan mirvəh də həmin qaydada qayırılmışdır. Belə oldu ki, bu mirvəh uçdu və Yusif ibn Divdada onu bərpa etmək lazım gəldiyini xəbər verdilər. O, mühəndisləri və təcrübəli ustaları topladı. Onlar bildirdilər ki, mirvəhi bərpa etmək üçün 60 min dinar lazımdır.»

Yusif vəzir Əbu-1-Həsən ibn əl-Furata bu barədə yazdı və bərpa işləri üçün ayırdığı pulu ləngitdiyi üçün üzr istədi. İbn əl-Furat ona belə yazdı: «Mirvəhin vəziyyəti haqqında yazdığın məktubdan onun bərpası üçün nə qədər pul xərcləmək lazım olduğunu başa düşdüm. Biz tarixlərdə oxuduq ki, Ənuşirəvan bu tikinti üçün ehtiyat edərək, baş verə biləcək hadisə üçün kifayət qədər vəsait ayırmışdı. Şəhərin ağsaqqallarını və qoca adamlarını yığ və onlardan soruş, bu hadisəyədək mirvəh dağılmışdımı, əgər desələr dağılmışdı, deməli, orada ehtiyat

alətlər olmalıdır. Əgər dağılmamışdırsa, sən onlardan həmin alətləri tələb et və onları taparsan. Mənə yaz görüm nə iş görmüsən». Məktub Yusifə çatanda, o, qocaları yığıb bu barədə onlardan soruşdu, lakin bir adam tapılmadı ki, bu hadisəyədək mirvəhin uçduğunu bilsin və ya xatırlasın. Yusif onlardan alətləri və bunların yerini soruşdu, lakin bir nəfərdən başqa heç kəs bunu bilmədi; o adam dedi: «Mən bu barədə danışan qocalardan eşitmişəm. Onlar deyirlər ki, (alətlər) mirvəhin yaxınlığında gizlədilmişdir». Alətləri axtarmağa başladılar, tapıb çıxartdılar. Alətlər hasarı bərpa etmək üçün zəruri olduğu (tam) şəkildə var idi. Həm də o qədər pul sərf etmək lazım deyildi, bircə inşaatçılara əmək haqqı veriləcəkdi».

Gətirilən bu parça Sacilərin öz torpaqlarının şimal sərhədlərinin təhlükəsizliyinə necə diqqət verdiklərini göstərir. Xüsusilə ona görə ki, Yusifin hökmranlığı zamanı ruslar Sacilərin və qonşu vilayətlərin torpaqlarına hücum etmişdilər.

Məsudinin verdiyi məlumata görə, 300 (912-913)-cü ildən sonra ruslar Volqa yolu ilə Xəzər dənizinə gəldilər və Corcan sahillərində Abaskuna çatdılar, sonra da Təbəristana keçdilər. Bütün Xəzər sahili boyunca gələnlərdən qorxub vahiməyə düşdülər, «çünki onları indiyədək heç kəs görməmişdi. Azərbaycan, Arran, Beyləqan, Bərdə və sair şəhərlərin, Deyləm, Cibal və Təbəristan vilayətlərinin əhalisi öz evlərini buraxıb qaçırdı, çünki heç bir zaman düşmən dənizdən onlara hücum etməmişdi». Məsudi yazırdı: «Bu, Əbu-s-Sacın dövründə idi». Sonra yenə bildirir ki, «ruslar gəmilərlə Xəzərin cənub sahillərinə çatıb, öz dəstələrini Corcan, Abşeron (Bilad ən-neft) sahillərinə və Ərdəbilə üçgünlük yol olan bir yerdə Azərbaycan sahilinə çıxartdılar. Ruslar gilanlılarla, deyləmlilərlə və ibn Əbu-s-Sacın sərkərdələrindən birinin komandanlığı altındakı ordu ilə vuruşdular. Onlar Şirvan dövlətində Bakı adı ilə məşhur olan neft sahillərindən bir neçə kilometr aralı adalarda gizlənirdilər. Həmin günlərdə Şirvan hökmdarı Əli ibn Heysəm idi. Camaat vuruşmaya hazırlaşdı, qayıqlara və tacir gəmilərinə minib, həmin adalara getdi. Ruslar onların üstünə atıldılar və minlərlə müsəlman öldürüldü və suda boğuldu. Ruslar aylarla bu dənizdə qalıb, ticarətə və dənizlə hər hansı bir səfərə mane oldular. Ruslar kifayət qədər qarət etdikdən sonra daha adalarda qalmaqdan bezdikləri üçün Xəzər (Volqa) çayının ağzına tərəf yola düşdülər».

Rusların Azərbaycana bu səfəri h. 301-ci ilin əvvəllərində (913-cü ilin axırı) olmuşdur, bu da Sacilərin hakimiyyəti altında Azərbaycanın müstəqil vəziyyətinin başlanğıc dövrünə təsadüf edir.

Yuxarıda qeyd edildiyi kimi, Azərbaycanın və qonşu vilayətlərin müstəqil hakimi olan Yusif ibn Əbu-s-Sacın vəziyyəti o qədər möhkəmləndi ki, tez bir zamanda o, xəlifə xəzinəsinə bac verməyi dayandırmağı və tamamilə Xilafətdən cıxmağı qərara aldı.

Azərbaycan tarixçiləri, Şəki, Arran hakimi Səhl ibn Sumbat haqqında bir neçə tədqiqat olduğuna baxmayaraq, belə ehtimal edirlər ki, Arran vilayətlərindən biri olan Şəkinin, sonralar isə bütün Arranın orta əsr hakimi haqqındakı məlumatı bir qədər tamamlamaq lazımdır.

IX əsrin ikinci yarısında Arran ərazisində ərəblərdən asılı olan bir sıra knyazlıqlar - Sünik, Ktiş, Varsan, Beyləqan, Qəbələ və Şəki knyazlıqları var idi. Bu knyazlıqların hökmdarları Vasak, Stepannos Ablasad, İsa ibn İstifanus (erm. Yesai Əbu Musa), III Varaz-Trdat (Mehronilər nəslindən olan alban knyazları sülaləsinin axırıncı nümayəndəsi), Atrnerseh və başqaları Babəklə bu və ya başqa şəkildə əlaqə saxlayır və özlərinə əlverişli olanda Xilafətə qarşı Babəkə tərəfdar çıxır, özlərinin şəxsi mənafeyinə toxunanda isə ona xəyanət edirdilər.

Bu knyazlardan biri Səhl ibn Sumbat idi. Moisey Kalankatuklu onu «Mərd və gözəl knyaz Səhl və Sunbatean – Eranşahik» adlandırıb deyir ki, o «erməni erasının 270 (822)-ci ilində öz güclü qardaşları və ordusu ilə Bərdədən gələn və Amaras vilayətini viran edən ərəblərə hücum etdi, onları yıxdı, pərakəndə etdi və əsirləri sanki aslanın ağzından xilas etdi».

Lakin fikrimizcə, Səhl ibn Sumbat bundan əvvəl də Xilafətin əleyhinə çıxırdı. Dərbənd «tarixində» verilən məlumata görə, 205 (820)-ci ildə, Xalid ibn Yəzid ibn Məzyəd öz iqamətgahı Bərdəyə gedərkən, yolda Şəki əhalisinin üsyanını yatırmalı olmuşdu. Mənbə bildirir: «Xalid onlarla vuruşmağa girişdi və onların Xalidə gecə vaxtı hücum etdiklərinə baxmayaraq, qalib gəldi və onlardan çoxunu öldürdü. Onlar aman istədilər, o da onlara aman verdi, əvəzində onlar öhdələrinə götürdülər ki, ildə ona 500 min dirhəm ödəsinlər. Sonra onlardan girovlər götürüb, onları buraxıb getdi».

Yəzid ibn Məzyədin əl-Vəlid üzərində qələ-

bəsi, Harun ər-Rəşidin ona olan münasibətini dəyişdirdi; o, Yəzidi özünə yaxınlaşdırdı və ona hörmət göstərməyə başladı. Yəzidin şöhrəti bütün Xilafətə yayıldı və şair Müslim ibn əl-Vəlid onun şərəfinə mədhiyyə yazdı:

Əgər Yəzidlə onun ilkin igidlikləri olmasaydı,
Mürtəd Vəlid hələ çox yaşayardı!
Lakin xəlifə, bədən və başları ikiyə bölən
Bənu Matardan birisinin qılıncını çıxartdı.
O, (Yəzid) Xilafət və islamı qorudu.
Onları elə möhkəmlətdi, necə ki, aslan
Qoruyur balalarının yuvasını hər an
(Yəzid) bir ölümdür ki, Harun (ər-Rəşid)
ən çətin anlarda
Düşmənlərinin üstünə onu göndərir,
Vəlidi öldürmüş bənu Matardan elə bir
qəhrəman ki,
Ağır günlərdə təhlükə ona ancaq cürət artırır.
Xilafətdən söhbət gedəndə, sən, ey Yəzid,
Olursan onun dayağı,
Abbasilər də - onun hökmdarları.

«Onun gəlməsi ilə xalq sakitləşdi və ölkədə qayda-qanun yarandı. O, nizariləri yəmənlilərlə bərabərləşdirdi, padşahların (müluk) və patriklərin oğulları ilə məktublaşıb onlara böyük ümidlər verdi. Ölkə də sakitləşdi».

Yəzid ibn Məzyəd ömrünün axırınadək Azərbaycanda (Bərdədə) qaldı, 185 (801)-ci ildə öldü və Bərdədə basdırıldı.

Beləliklə, Şirvanın birinci rəsmi məliki (padşahı), Yəzid ibn Məzyəd əş-Şeybani olmuşdur. Lakin bundan xeyli əvvəl «Şirvan məliki (padşahı)» Şamax ibn Şüca adlanırdı; o, xəlifə canişini Səid ibn Səlmin hökmranlığı zamanı mərkəzi hakimiyyətin itaətindən çıxmışdı.

Yəzid ibn Məzyədin ölümündən sonra üç oğlu qalmışdı: Əsəd, Xalid və Məhəmməd. Lakin sikkələrə görə fikir yeridilərsə, Yəzid hələ sağlığında Arranı idarə etməyi öz qardaşı Əhməd ibn Məzyədə və oğlu Əsəd ibn Yəzidə tapşırmışdı. Y.A.Paxomovun verdiyi məlumata görə, Əhməd cəmi bir ilə yaxın hökmranlıq etdi (800-cü ildə); bundan sonra Arran hakimiyyəti Əsədə keçir, həm də «atası öləndən sonra bir tək Arranda deyil, habelə Ərminiyada və Dəbildə Əsədin adı ilə sikkə kəsilirdi». Atası öləndən sonra Əsəd Harun ər-Rəşid tərəfindən Yəzidin vəzifəsinə təyin edilmişdi, lakin Əsədin bu vəzifədə nə qədər qaldığı dürüst müəyyən edilməmişdir. Hər halda, Əsədin adı ilə kəsilən axırıncı sikkə 802-ci il tarixli dirhəmdir. Yenə həmin ildə Yəzidin digər oğlu Məhəmmədin adı ilə bir neçə sikkə vardır ki, «sonrakı 187 (802/3)-ci ildə bunlar arası kəsilmədən davam edir».

Lakin Məhəmməd ibn Yəzidin fəaliyyəti Azərbaycandan kənarda - Mosulda və Tarsusda xəlifə Harun ər-Rəşidin öldüyü 809-cu ilə qədər davam etmişdi. Məhəmməd ibn Xalid 230 (844/5)-cu ildə Azərbaycanı idarə edirdi.

Məhəmməd atasının qoşununu öz ətrafına toplayıb İshaqın üstünə getdi. Yəqubinin verdiyi məlumata görə, Məhəmməd «sanarlarla və İshaqla o vaxtadək müharibə etdi ki, axırda onu (ölkədən) qovdu və onları (sanarları) qaçmağa vadar etdi, bundan sonra ölkəni möhkəm idarə etməyə başladı». Lakin Yəqubinin bu məlumatı dürüst deyildi, çünki digər mənbələrdə bildirilir ki, Məhəmməd Gürcüstana (Kartli) girən zaman İshaq ibn İsmayıl öz müttəfiqləri və sanarlarla, ya da gürcü rəvayətinə görə, - kaxetlilərlə onun qabağını kəsməyə getdi və Rexə çatdı, Məhəmməd isə öz qoşunları ilə Uplis-Sixeni tutdu. Rexdə, bərk vuruşmadan sonra Məhəmməd məğlub edildi və Bərdəyə çəkildi.

Həmin ildə Məhəmməd ibn Xalid Buğa əl-Kəbir tərəfindən hakim vəzifəsindən götürüldüyünə görə 237 (851)-ci ilədək işdə deyildi; bu zaman xəlifə Mütəvəkkil Zaqafqaziya mütərəlliblərini sakitləşdirmək üçün Buğa-əl-Kəbiri göndərir, o da ermənilər və onların patrikləri arasında qırğını artırır. Məhəmməd ibn Xalid Buğa-əl-Kəbir ilə birlikdə idi. Uzun sürən vuruşmalardan sonra, Tiflis hakimi İshaq ibn İsmayıl məğlub və edam edildi. Gürcü mənbəyi bu hadisə haqqında belə məlumat verir: «Baqratın padşahlığında 851 (826-878)-ci ildə Bağdad xəlifəsi öz sərkərdəsi Buğanı Gürcüstana göndərdi. Buğa ərəblərə qarşı üsyan edən Tiflisi mühasirə etdi. Tiflis əmiri Saakı (İshaqı) öldürdü, şəhəri dağıdıb yandırdı və ətrafındakı yerləri talayıb viran etdi. Abxaziya padşahı Tevdose onun əleyhinə çıxdı». Sonra Buğa-əl-Kəbir sanarların üstünə getdi, lakin onlar Buğa-əl-Kəbiri məğlub edib, qaçmağa məcbur etdilər. Əvvəlcə Buğa-əl-Kəbirə təslim olmuş mütərəlliblər həmin hadisədən istifadə edərək, ondan üz döndərib

qaçdılar, «Rum, Xəzər və Səqləblərin hökmdarları ilə məktublaşıb, böyük bir qoşun topladılar; Buğa-əl-Kəbir bu barədə Mütəvəkkilə məlumat verdi, o da Məhəmməd ibn Xalid ibn Yəzid ibn Məzyəd-əş-Şeybanini ölkəni idarə etməyə çağırdı. Elə ki, (o) gəldi, qiyamçılar sakitləşdilər, o da onlara bir daha aman verdi».

Xəlifə Mütəvəkkil 851-ci ildə Bab ül-Əbvab şəhərini vilayətləri ilə birlikdə iqta olaraq Məhəmməd ibn Xalidə verdi, Məhəmməd mütərəlliblərlə müharibə qurtarandan sonra buraya gəldi. Buradan da o, əl-Babın qonşuluğunda yaşayan «kafirlərə basqınlar etməyə başladı, nəhayət, Buğa əl-Kəbirin köməyi ilə 242 (856)-ci ildə Azərbaycan və Arran hakimi (vəzifəsində) bərpa edildi».

Sonra Dərbənd «Tarix»i bildirir ki, Məhəmməd 245 (859)-ci ildə Gəncə şəhərini saldı, halbuki «Ağvan tarixi» şəhərin salınması üçün başqa bir tarixi göstərir. Xəzr Patqos öldürüləndən sonra onun oğlu Məhəmməd Arrana gəldi və «ölkəmizi qılınc və əsarətlə tutub bir çox kilsə yandırdı, sonra Bağdada getdi. Oradan padşah fərmanı və xəzinə ilə qayıtdı. Arşakaşen vilayətində Qandzak şəhərini saldı (erm. 295-ci ilində b.e. 846/7-ci il)».

Sonralar Məhəmməd ibn Xalid ölkəni daha idarə etməyib Gəncədə yaşadı. Əl-Möstəinin xəlifəliyi dövründə (862-866) Məhəmməd Bizans sərhədində Xilafət qoşunlarının komandanı və Cəzirə hakimi idi.

Lakin Şirvanşahlar sülaləsinin əsasını qoymaq xidməti Xalidin o biri oğlu, Şirvan hakimi Heysəm ibn Xalid ibn Məzyəd əş-Şeybaninindir.

861-ci ildə xəlifə Mütəvəkkil öldürüldükdən sonra, Xilafət paytaxtında türklərin fəaliyyəti ilə əlaqədər olaraq, xilafətdə iğtişaşlar başlandı; bundan istifadə edən Heysəm Azərbaycanın Şirvan vilayətində müstəqil dövlətin qurulduğunu elan edib, mərkəzi hakimiyyətlə əlaqəni tamamilə kəsdi. O, məzyədilərdən birinci adamdır ki, şirvanşah adı ilə məşhur olmuşdu. Onun vəfat ili məlum deyildir.

Onun yerini tutan oğlu Məhəmməd ibn Heysəm atası kimi qonşu vilayətlərə basqınları davam etdirirdi.

Xalidin üçüncü oğlu - Yəzid ibn Xalid qardaşı Heysəm ibn Xalid ilə eyni zamanda özünü Layzanşah elan etdi, çünki Layzan vilayəti onun əlində idi. O, 917-ci ildə öləndən sonra oğlu Əbu Tahir Yəzid ibn Məhəmməd onun yerinə keçdi və Şirvandakı qarışıqlıqdan istifadə edərək oraya hücum etdi və bir nəfər istisna olmaqla, Heysəm ibn Xalid ailəsi nümayəndələrinin hamısını qırdı. Şirvanı tutub, özünü şirvanşah elan etdi.

«Azərbaycan Milli Ensiklopediyası»nın xüsusi buraxılış cildində məlumat verilir ki, IX əsrin ikinci yarısından sonra Xilafətin hər yerində olduğu kimi, tarixi Azərbaycan torpaqlarında da yerli hakim və ərəb canişinlərinin separatizmi gücləndi, mərkəzi hakimiyyətdən ayrılmaq cəhdləri artdı.

853-cü ildə mərkəzin işğalçılıq siyasətinin davamı olaraq Cənubi Qafqazda zor tətbiq edən Buğa əl-Kəbir Tiflis hakimi İshaq ibn İsmayılı, Ktis və Beyləqan hakimi Yəsai Əbu Musanı, Xaçın hakimi Atrnersehi, Babəki Xilafətə təslim etsə də ərəblərin cəzasından can qurtara bilməyən Səhl ibn Sumbatı və Xilafətə tabe olmaq istəməyən başqa yerli hakimləri Samirə şəhərinə apardı. Bu hadisə Cənubi Qafqazda ərəb canişinlərinin və feodallarının mövqeyini müvəqqəti də olsa möhkəmlətdi. Xəlifə əl-Mütəvəkkilin (842-861) bölgəyə ikinci dəfə vali təyin etdiyi Şeybanilərdən olan Məhəmməd ibn Xalid ibn Məzyədin dövründə (856-857) «üsyançılar sakitləşdilər» (əl-Yəqubi). Yeni təyin edilən Məhəmməd ibn Xalid özünün birinci valiliyi dövründə (851) Dərbənddən başlayaraq bütün regionu fəallıqla idarə etməyə çalışırdısa, ikinci valiliyi dövründə yenidən bərpa edərək iqamətgah seçdiyi Gəncə şəhərində qərarlaşdı. Bu zaman onun qardaşlarından biri – Heysəm ibn Xalid müstəqil olaraq Şirvanı, digər qardaşı Yəzid isə Layzanı idarə edirdilər.

861-ci ildə xəlifə əl-Mütəvəkkilin öldürülməsi mərkəzdəki hərc-mərcliyi artırdı. Babəkilər hərəkatının təsirilə artıq tamam zəifləmiş Xilafətin parçalanması prosesi gücləndi. Məğribdən Məşriqədək geniş bir ərazini əhatə edən Ərəb imperiyasının ayrı-ayrı vilayətlərində mərkəzdən asılılığını bu və ya digər dərəcədə zəiflətmiş dövlətlər yaranmağa başladı. Buna ağır vergi siyasətindən cana doymuş yerli əhalinin fəal çıxışları ilə yanaşı, onların yatırılmasında az rolu olmayan və Xəlifə əl-Mötəsimin dövründən (833-842) başlayaraq ərəb ordusunun özəyini təşkil edən türklərin mərkəzi hakimiyyətlərinin yüksəlməsi də səbəb oldu. Xilafətdə türklərin ağalığının güclənməsi xəlifə hakimiyyətinin süqutunun başlanğıcı oldu.

869-cu ildə qiyam etmiş türk əmirlərinə qarşı

Xilafət paytaxtında mübarizə aparıldığı bir zamanda Haşım ibn Suraka Dərbəndin müstəqil idarə edilməsinə nail oldu. Onun «Sulaym» nəslinə mənsub ərəb sələfləri VIII əsrin əvvəllərində Dərbənd şəhərinin siyasi həyatında fəal rol oynamışdılar. Uzun müddət ərəb hərbi sərkərdələrinin idarə etdiyi bu şəhər Xilafətin şimal sərhədlərini qoruyan mühüm müdafiə qalası idi. Dərbənd əmiri şəhər rəislərinin köməyilə bütün ətraf bölgəni öz nəzarəti altında saxlamağa çalışırdı. Haşimdən sonra irsən onun nəslinin idarə etdiyi Dərbənd XI əsrin sonunadək öz müstəqilliyini saxlaya bildi.

Professor Sara Aşurbəylinin «Şirvanşahlar dövləti» əsərində qeyd olunur ki, «Tarix-i əl-Bab»a görə Əbu Tahir Yəzid ibn Məhəmməd ibn Yəzid ibn Xalid ibn Yəzid ibn Məzyəd ibn Zəidə əş-Şeybani h.305 (917)-ci ildə Şirvanı zəbt etmiş, h. 306 (318)-cı ildə Şirvan torpağında Yəzdiyyə şəhərini saldırmışdır. O, Laqanı iqta şəklində oğullarından birinə – Məhəmmədə vermişdir. Əbu Tahir Yəzidin hakimiyyəti dövründə Dərbəndlə bağlı bir sıra hadisələr baş verdi. H. 318 (930)-ci ildə Şəbəranın qapıları qarşısında onun oğlu Məhəmmədlə əl-Babın əmiri Əbu-Məlik əl-Haşimi arasında vuruşma oldu. Lakin tərəflərin heç biri qələbə çala bilmədi və onlar arasında barışıq bağlandı. Bu dövrdə Dərbənddə «Tarix-i əl-Bab»a görə, əsası h. 255 (869)-ci ildə Haşim ibn Süraqə tərəfindən qoyulmuş Haşimilər sülaləsi hakimiyyət sürürdü. Bir neçə aydan sonra Dərbənd əhalisi Səidə qarşı üsyan qaldırdı. Səid Nəcmi edam edildi. H. 333 (944)-cü ildə Dərbənd əhalisi Əbdülməlik əl-Haşiminin oğlu əmir Əhməd əleyhinə üsyan qaldırdılar və onu şəhərdən qovdular. Onlar Şirvanşah Əbu Tahir Yəzidinin yanına adamlar göndərdilər və onu əl-Bab hakimliyinə dəvət etdilər. Sasanilər dövründən Dərbəndi özünün irsi mülkiyyəti sayan Şirvanşahlar bu iddia ilə dəfələrlə hücum edib oranı tutmuşdular. Lakin həmin vaxt Dərbənddə artıq başqa sülalə - Ərəb Xilafəti tərəfindən təyin edilmiş Haşimilər hakimiyyətdə idi.

Əsərini h. 332 (943)-ci ildə tamamlamış əl-Məsudi xəbər verir ki, bu vaxt Şirvanın hakimi h. 318 (930)-ci ildə aralarında toqquşma olmuş kürəkəni Əbd ül-Məlik Haşiminin ölümündən h. (327 /933-cu il) sonra Xursanı, Vardanı və Dərbəndi zəbt etmiş Məhəmməd ibn Yəzid idi. Məhəmməd ibn Yəzid bütün bu torpaqları Şirvan və Layzanla birləşdirdi.

Əhməd ibn Məhəmmədin Tabasaran hakimi olan qardaşı Heysəm Şirvana hökmranlıq iddiasından əl çəkməmişdi. H. 357 (968)-ci ildə o, ləkzlər ölkəsini tərk edərək Salar İbrahim ibn Mərzban Deyləminin yanında sığınacaq tapdı. Salar ölkəni və Dərbəndin ətrafını qarət etdi. H. 378 (988)-ci ildə ət-Tuzi Dərbəndi onun əmiri Əhməd Haşiminin oğlu Məymundan aldı və onu şəhərdən qovdu. Qulam Təbəsəranda gizlənən və bu hadisələrdən sonra Dərbəndə qayıdan ağası Məymunun yanına qaçmışdı.

Sonra «Tarixi-i əl-Bab»da xəbər verilir ki, h. 380 (990)-ci ildə Dərbənd əhalisi öz əmirləri Məymuna qarşı üsyan qaldıraraq onu hakimiyyətdən qovdular. Onlar Şirvanşah Məhəmməd ibn Əhmədi Dərbəndə dəvət etdilər. Dərbəndə gələn Məhəmməd qalanı yenidən tikdirdi, daha doğrusu, bərpa etdirib möhkəmləndirdi və orada öz adamlarından ibarət qarnizon yerləşdirdi. Məhəmmədin ölümündən (h.381/991-ci il) sonra onun yerinə hakimiyyətə qardaşı Yəzid ibn Əhməd keçdi. Hakimiyyətin dəyişməsindən istifadə edən əmir Məymun yenidən hakimiyyəti ələ aldı. O, Şirvanşah Məhəmməd ibn Əhmədin vaxtında tikilmiş orta divarı (Əs-sür əl-vəstani) dağıtdı. Yəzidin hökmranlıq illəri onun öz dövlətinin ərazisini qoşunlarının hesabına genişləndirmək məqsədilə apardığı feodal ara müharibələri ilə əlamətdardır.

Şirvanşahlar ilkin hökmranlıqları dövründə böyük əraziyə malik idilər. Buraya təkcə Şirvanın qədim torpaqları deyil, bir sıra hallarda, Arranın, Dağıstanın cənub vilayətləri, Tabasaran və Mavakaniyayadək Dərbəndə də daxil olmaqla, Baş Qafqaz dağlarına qədər şimal vilayətlərinin əraziləri də daxil olmuşdur. Şirvanşahlar keçmiş ənənəyə əsasən Dərbəndi də özlərinin qədim torpağı sayırdılar. Mənbələr ərəblərin VII-VIII əsrlərdə apardıqları müharibələrə, şimala - Dərbəndə və daha sonra Dağıstan ərazisinə istilaçı yürüşlərinə, burada artıq VII əsrdən Şirvan və Albaniyaya dəfələrlə hücum edərək, onun qala və şəhərlərini tutub dağıdan xəzərlərin böyük ordusu ilə toqquşmalarına dair məlumat verir.

Azərbaycan, o cümlədən də Dərbənd şəhəri XIII-XVII əsrlərdə. Akademik Ziya Bünyadovun «Azərbaycan Atabəyləri dövləti (1136 -1225-ci illər)» kitabında məlumat verilir ki, tarixçilərdən İbn əl-Əsir və Rəşidəddin əsərlərində qeyd edilir ki, gürcülər üzərində (1221) qələbədən sonra monqollar Dərbənd keçidindən Şimali Qafqaza çıxmaq üçün

Şirvana doğru yönəldilər. Yolüstü onlar Şirvanın paytaxtı Şamaxını mühasirəyə aldılar və nərdivanların köməyi ilə şəhər divarlarını keçməyə cəhd etdilər. Ancaq onların cəhdi uğursuz oldu. Bu zaman monqollar çoxlu mal-qara öldürərək xəndəkləri cəsədlərlə doldurmağa başladılar. Beləliklə, onlar üst-üstə döşənmiş cəsədlərin vasitəsilə şəhərə doluşmağa cəhd göstərdilər. Şamaxı sakinləri üç gün gecə-gündüz monqollara müqavimət göstərdilər. Dördüncü gün cəsədlər çürüyərək aşağı yatdı və şəhərə olan hücum zəiflədi. Lakin monqollar hücuma keçdilər və sakinlərin qəhrəmancasına müqavimət göstərmələrinə baxmayaraq Şamaxı tutuldu. Monqollar çoxlu adam öldürüb şəhəri dağıtdılar.

Sonra monqollar Dərbənd keçidi vasitəsilə şimala keçmək üçün cəhd göstərdilər. Onların ilk cəhdi baş tutmadı, belə ki, «Dərbənd qapılarını tutan qoşun onlara yol vermədi». Belə olduqda monqollar Şivanşah I Guştəsbə (1203-1225) elçi göndərərək guya sülh bağlamaq üçün bir neçə nəfərin göndərilməsini xahiş etdilər. Şirvanşah öz zadəganları arasından 10 nəfər göndərdi. Monqollar onlardan birini öldürüb, qalanlarından isə şimala keçidi göstərməyi tələb etdilər. İş elə belə də oldu.

VII cildlik «Azərbaycan tarixi»nin III cildində göstərilir ki, monqollar Azərbaycana ilk dəfə 1220-ci ildə yürüş etmişlər.

Xarəzmşah Məhəmmədin hakimiyyətinə və onun dövlətinə son qoyan monqollar 1221-ci ilin yanvarında Cəbe-noyanın və Subutaybahadırın başçılığı ilə Xorasan və İraqi-Əcəmdən keçərək, Azərbaycan ərazisinə soxulurlar.

Dərbənd keçidi vasitəsilə Şimali Qafqaza doğru hərəkət etmək istəyən monqollar Gürcüstan hüdudlarını arxada qoyub, Şirvan ərazisinə daxil olur və Şamaxı şəhərini mühasirəyə alırlar. Salnaməçinin yazdığına görə, şəhərin qala divarlarını dəf edə bilməyən monqollar, çoxlu mal-qara öldürərək, onların leşlərindən qalaq düzəltdilər və bu yolla şəhərə daxil olmağa cəhd göstərdilər.

Şamaxılılar üç gün gecə-gündüz düşmənə müqavimət göstərirlər. Göstərilən rəşadətə baxmayaraq, Şamaxı işğal olunub dağıdılır, şəhər müdafiəçilərinin və əhalisinin çoxu məhv edilir.

Buradan Dərbəndə doğru hərəkət edən monqol qoşunları, ilk uğursuzluğa baxmayaraq, nəhayət, ikinci dəfədə hiylə ilə keçidi aşa bilirlər. Bununla monqolların kəşfiyyat xarakterli birinci yürüşü başa çatır.

Akademik Ziya Bünyadov «Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər)» adlı əsərində bildirirki, hicri 619 (15.02.1222-03.02.1223)-cu ildə şimaldan 50 minlik qıpçaq ordusu Şirvana soxuldu. Onlar Dərbəndə yaxınlaşaraq, şəhər hakimi əmir Rəşiddən xahiş etdilər ki, məskən salmaq üçün onlara yer versin, qıpçaqlar isə bunun əvəzində onlara xidmət göstərəcəklərini bildirdilər. Lakin Rəsid onların təklifini rədd etdi. Qıpçaqlar ikinci dəfə ona müraciət etdilər: «Biz öz uşaq və arvadlarımızı girov veririk və sənə tabe olmağı və sənə qulaq asmağı və sənin hakimiyyətinə baş əyməyi öz öhdəmizə götürürük». Rəşid yenə də onların təklifini rədd etdi, bu dəfə qıpçaqlar Dərbəndi hiylə ilə tutdular. Şəhəri qarət edərək, qıpçaqlar oranı tərk etdilər və gürcülərin əlində olan Qəbələyə tərəf yollandılar. Qəbələnin mühasirəsi uğurla nəticələnmədi, onun ətraf nahiyələrini qarət edən qıpçaqlar Gəncəyə doğru getdilər.

Monqol yürüşlərinin dağıdıcı təsiri aradan götürülməmiş, azərbaycanlılar yeni qüvvə ilə üzləşməli oldular. (VII cildlik «Azərbaycan tarixi»nin III cildi) Bu, monqol təhlükəsinin dərbədər saldığı çoxminlik qıpçaq eli idi. Dövrün qaynaqlarından biri xəbər verir ki, monqol hücumundan sonra qıpçaqların bir hissəsi dağlara, bir hissəsi rus torpaqlarına, bir hissəsi isə Dərbəndə üz tutdu. Dərbənd civarına gəlmiş qıpçaqlar Dərbənd əmirinə iki dəfə elçi göndərərək, xidmətləri müqabilində onlara bu yerlərdə məskunlaşmaq üçün torpaq verilməsini xahiş etmiş, lakin hər dəfə rədd cavabı almışdılar. İbn əl-Əsirin məlumatına görə, onda qıpçaqlar hiylə ilə Dərbəndi tutmuşdular.

Akademik Ziya Bünyadov yazır ki, («Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər)») XII əsrin əvvəllərində Şirvan şimaldan Samur çayı, cənubdan Kür çayı, şərqdən Xəzər dənizi ilə məhdudlaşan bir ərazini tuturdu. Qərbdə Şirvanın sərhədi Şəki-Mingəçevir-Yevlax xəttinə qədər çatırdı. Bəzən Şirvanşahlar Dağıstan torpaqlarına, Dərbənd və Zirehgərana qədər soxula bilirdilər. Cənubda onlar Quştəspi vilayətini, Beyləqan və Muğan rayonları ərazisinin dərinliklərinə qədər özlərinə tabe etmişdilər, Qərbdə isə Azərbaycan Respublikasının indiki Gəncə, Şəmkir, Qax, Zaqatala və Şəki rayonlarının torpaqlarına qədər irəliləmişdilər.

Doğrudur, Dərbənd və Beyləqan vaxtaşırı Şir-

vanşahların hakimiyyəti altına düşürdüsə də Dərbənd, demək olar ki, həmişə özünüidarə quruluşu olan qalaşəhər olaraq qalırdı. Beyləqanın isə daxili şəhərin işlərində böyük nüfuzu olan öz rəisi var idi. Beyləqanın tacir-sənətkar əhalisi şəhərin muxtariyyətini qorumağa çalışırdı. Lakin şəhər tez-tez Arran və Azərbaycan hakimlərinin vassal asılılığında idi.

Şirvanşahlar sülaləsinin şəcərə cədvəlində son vaxtlara qədər anlaşılmazlıq və boşluqlar var idi. Bizim Şirvan tarixinin Səlcuqilər və Azərbaycan Atabəyləri dövrü tarixinin tədqiqi Yəzidilər (Məzyədilər) sülaləsinin on beşinci şirvanşahı II Fəxrəddin Fəriburz ibn Sallar ibn Yəzid ilə bağlanır. O, 445-ci ilin səfər ayında (fevral, 1063) Şirvan taxtına çıxmışdır.

Əgər iyirmi il əvvəl I Fəxrəddin Fəriburz haqqında əl-İsfəhani, əl-Hüseyni və Xaqaninin əsərlərindən qırıq-kəsik məlumatlarımız var idisə, Münəccimbaşının əsərində saxlanmış Şirvan və Dərbəndə aid fəsillər V.F.Minorski tərəfindən dərc edildikdən sonra və xüsusilə V.M.Beylis tərəfindən Məsud ibn Namdanın əsəri nəşr olunduqdan sonra bizim Şirvanşahlar haqqında biliyimiz mühüm məlumatlarla dolğunlaşdı və zənginləşdi. Məsud ibn Namdanın əsərlərində saxlanmış material Şirvanşah I Fəriburzun hakimiyyət dövrünü dəqiq müəyyənləşdirmək, torpaqlarının sərhədini təyin etmək və onun Cənubi Qafqazdakı siyasi nüfuzunun miqyasını öyrənmək imkanını verir.

I Fəriburzun atası Sallardan başlayaraq, Şirvanşahların şəxsi adları dəyişir: adi ərəb adları əvəzinə Şirvanşahlar Deyləm hakimlərinə xas olan adlar daşımağa başlayırlar.

Professor Sara Aşurbəylinin «Şirvanşahlar dövləti» əsərində qeyd olunur ki, Şirvanşah Salar ibn Yəziddən sonra Şirvanda onun qanuni varisi - hələ atasının sağlığında dövlət işləri ilə məşğul olan Fəriburz ibn Sallar ibn Yəzid hökmranlıq edirdi. Fəriburzun hakimiyyəti dövründə Şirvanşahlarla qohumluq münasibətində olan Arran hökmdarları Şəddadilərlə bir sıra müharibələr baş veridi.

H.457 (1065)-ci ildə Fəriburz qoşunu ilə əl-Babın kəndlərinə hücum edərək onları qarət edib dağıtdı. Fəriburzun Dərbəndə basqınına əl-Bab əhalisinin rəislərinin başçılığı ilə Əbd ül-Məlikin oğlu, Əmir Mənsura qarşı üsyan qaldırıb onu öldürmələri bəhanə olmuşdur. Mənsur Fəriburzun bibisi oğlu idi və onunla həmişə əmin-amanlıq içində yaşamışdı. Fəriburz onun intiqamını almaq üçün əl-Bab rəislərinin bir çoxunu edam etdirdi, əmlaklarını qarət edib, sürülərini qovub apardı, sonra Şirvana qayıtdı.

Bütün bu hadisələr, bir tərəfdən şəhər əyanları-rəislər, digər tərəfdən isə əl-Bab əmiri ilə Dərbəndə hakimlik iddiasında olan Şirvanşahlar arasında baş verən aramsız toqquşma və vuruşmalar göstərir ki, XI əsrin 2-ci yarısında feodal münasibətlərinin inkişafı şəhər əhalisinin mühüm hissəsinin - feodal hökmdarlarına qarşı müstəqillik uğrunda mübarizə aparan yuxarı təbəqənin güclənməsinə səbəb olmuşdur.

«Tarix-i əl-Bab»da Dərbənd və Beyləqan rəis və əmirləri, habelə Dərbənd rəis və əmirləri ilə Şirvanşahlar arasında gedən mübarizəyə dair çoxlu məlumat verir. «Tarix-i əl-Bab» da daha sonra xəbər verilir ki, h. 457-ci il rəbiülaxir ayının sonuncu günü (9 aprel 1065) Fəriburzun əmisi oğlu Hürmüz ibn Mənuçöhr ibn Yəzid Tabasarandakı irsi malikanəsində öldü və orada dayılarının yanında basdırıldı. Göründüyü kimi, Tabasaran Şirvanşahların torpaqlarına daxil idi və onun qohumları tərəfindən idarə olunurdu. Həmin il Fəriburz qoşunu ilə Məsqətə qayıtdı. Samur çayının sahilində düşərgə saldı və 1065-ci il iyulun əvvəllərində öz dəstələrini Dərbəndin üstünə göndərdi. Dərbənd əhalisi çətin vəziyyətə düşdü. Fəriburz yalnız bibisi Şəmkuyəni həbsdən azad edib, bütün əmlakı və qiymətli şeyləri ilə birlikdə müsəlman ilahiyyatçılarının-faqihlərin müşayiətilə onun yanına göndərildikdən sonra Şirvana qayıtdı. «Tarix-i əl-Bab»da rəislərin şəhərin siyasi hadisələrindəki roluna və Dərbəndi itaətdə saxlamaq iddiasından əl çəkməyən Şirvanşahla münasibətlərinə dair mühüm məlumat verir. Fəriburz getdikdən sonra əl-Bab rəislərinin başçısı Müfərriç Sərir hakimindən yardım istədi. Sərirlilərlə birlikdə Müfərric Şirvana məxsus olan Şabranı mühasirəyə aldı. Şirvan qoşunu şəhər əhalisinin köməyi ilə Müfərrici məğlub etdi. Bundan sonra əl-Bab əhalisi rəislərlə birlikdə şəhəri Şirvanşaha təslim etmək qərarına gəldi. Şirvanşah qalanı təmir etdirdi, onu döyüşçülərlə möhkəmləndirdi və ərzaqla təchiz etdi. Əl-Bab əmiri Əbd ül-Məlik ibn Ləşkəri Haydağa getdi, Şirvanşah isə h.458-ci il səfər ayının sonuncu günü (30 yanvar 1066-cı il) oraya gəlib çıxmış oğlu Əfridunu Əl-Babın hakimi təyin etdi. Əl-Babın əhalisi Əfridunu böyük təntənə ilə qarşıladı və o, bu qalaya

köçdü. Şirvanşahla Arranşah qoşunları və onunla birgə çıxış edən əl-Bab əhalisi arasında baş verən bir neçə vuruşmadan sonra Şirvanşah Məsqətin bütün torpaqlarını və Mehyariyəni (Dərbəndin ətrafındakı yerlər, indiki Quba rayonunun ərazisi - N.Ə) zəbt etdi. Əl-Bab qalası onun oğlu Əfridunun əlində idi.

Dərbənd XI əsrdə və sonralar Şərqi Qafqazın iri ticarət, sənətkarlıq və siyasi mərkəzi olmuşdur. Azərbaycan Şirvan hakimlərinin diqqətini daim cəlb edirdi. XI əsrin ortalarında yarımmüstəqil Dərbənd hakimləri sülaləsinə son qoyuldu, şəhər və onun ətrafındakı torpaqlar Şirvanın tərkibinə daxil edildi və sonralar İraq səlcuqlarından asılı vəziyyətə düşdü.

H.464-cü ildə Əl-Babın rəisləri Fəriburzun sonuncu sığınacağı olan Məsqətə doğru hərəkət etdilər. Lakin Şirvanşah həm onlarla, həm də Şəki ətrafındakı qərb qoşunları ilə mübarizəni davam etdirdi. Fəriburz əhalisi gah ona tabe olan, gah da əleyhinə üsyan qaldıran Dərbəndə sahib olmaq uğrunda vuruşmaqda idi.

V.F.Minorskinin düzgün başa düşdüyü və hələ ona qədər tarixçi Münəccimbaşının (1702-ci ildə ölmüşdür) qeyd etdiyi kimi, sülalə «öz mənşəyinin əsil-nəcabəti ilə öz mövqeyini möhkəmləndirmək üçün» ərəb tayfası Şeybani ilə qohumluğunu rədd etdi və Şirvanşahların Sasanilərlə əlaqəsi iddiasını irəli sürdü. Onların Kisra (Xosrov) Ənuşrəvan mənşəyindən olduqları iddiasını Münəccimbaşı da qeyd edir. O yazır ki, «Ənuşrəvan farsların Ənuşirvan Kəsrası deyildir, bəlkə ilkin Şeybanilər nəslindən olan şəxsdir». Araşdırmalara əsasən, belə bir iddia irəli sürmək olar ki, Şirvanşahlar sülaləsi fasiləsiz olaraq ərəb Yəzid ibn Məzyəd əş-Şeybanidən tutmuş sonuncu (44-cü) şirvanşah Əbu Bəkr Mirzə ibn Bürhan Əli Sultana qədər mövcud olmuşdur. Sülalə 1583-ci ilədək Şirvanı idarə etmişdir.

1068-ci ildə sultan Alp Arslan 5 ay ərzində Gürcüstana yürüşdə oldu. I Fəriburz Dərbəndə hücum çəkərək şəhərin bir neçə rəisini əsir aldı. O, sonradan Dərbəndi öz oğlu Əfriduna mülk kimi verdi. Dərbəndlilər Şirvanşahın özbaşnalığından sultana şikayət etdilər. Sultan yürüşdən qayıdandan sonra rəislərin azad olunmasını əmr etdi. Fəriburz bu əmri yerinə yetirdi. Sonra sultan Şirvanşahı zindana saldırdı. Lakin sultan onu tezliklə azad etdi və öz vətəninə göndərdi. Eyni zamanda hər il böyük məbləğdə pul verməyi onun öhdəsinə qoydu. 1068-ci ilin iyulunda Fəriburzun oğlu Əfridun əl-Bab qalasını tərk edərək Şirvana getdi.

Sultan Alp Arslanın Məvarənnəhrə yola düşməsindən istifadə edən Şirvanşah I Fəriburz öz mülklərini genişləndirmək üçün tədbirlərə əl atdı. Sonrakı illərdə, Məsud ibn Namdanın göstərdiyi kimi, I Fəriburz Arran, Muğan, Beyləqan və Dağıstan mahalları üzərində nəzarəti əlində cəmləşdirirdi. I Fəriburza həsr edilmiş qəsidədə Məsud ibn Namdar Şirvanşahın fəth etdiyi yerlərin adını çəkir:

Məgər sən deyildinmi, ey hökmdar, (Allahın) köməyilə,
Anda (görə) sən Muğana sahib oldun,
Sənsən sahibi (dəniz) sahillərinədək olan torpaqların!
Bir yürüşlə Abxaza qalib gəlirsən
və tələsik Arranı ələ keçirirsən,
Gəncənin hakimini sən təyin edirsən
mən isə (yəni Məsud) bu hökmdarın müşrifiyəm.
Məgər sizin qoşun dəstəsi hücum çəkmədimi
və Qumiki qəflətən tutmadımı?
Sulvar - sizin qulamınız,
öz çoxlu qoşunu ilə süvarilərin yanına gəlmədimi.

1071-ci ilin oktyabrında I Fəriburz oğlu Əfridunu hakim sifəti ilə Dərbəndə göndərdi. Tezliklə Şirvanşah qoşunları gürcülər və dağlılarla qarşıdurmada uğursuzluğa və məğlubiyyətə məruz qaldı və Əfridun Dərbənddən qovuldu.

Şirvanşahın hərəkəti sultan Məlikşahı (1072-1092) tədbirlər görməyə məcbur etdi. 1078-1079-cu illərdə Məlikşah qoşunu ilə Arrandan keçərək İmadəddin əl-İsfahaninin sözləri ilə desək, I Fəriburzu öz iqamətgahına çağırdı. I Fəriburz əvvəlcə Sultanın əmrini yerinə yetirmək istəmədi, lakin «bu imtinadan sonra *(bada imtinaixi)»* Sultanın yanına gəldi və sultan xəzinəsinə hər il 70 min dinar vergi ödəməyə razılıq verdi. Xeyli keçdikdən sonra bu məbləğ 40 min dinara endirildi.

Bu məlumatı təsdiq edən əl-Hüseyni yazır ki, «Sultan Məlikşah Arran torpaqlarından keçərkən Şirvan hakimi ona təslim oldu və (sultan) onun üzərinə illik 70 min dinar xərac qoydu». Eyni zamanda

ən-Nəsəvi başqa rəqəm göstərir: «Məlikşah ibn Alp Arslan Arranı ələ keçirib özünün başqa geniş torpaq mülklərinə birləşdirəndən sonra dövrünün Şirvanşahı onun sarayına gəldi. O, fasiləsiz hücum və döyüşlərdə qoşunlarının böyük hissəsini itirdikdən sonra (gəldi). Belə qərara alındı ki, o, Sultan xəzinəsinə 100 min dinar xərac verəcəkdir».

Sultanlardan, vassal asılılığında olmasına baxmayaraq, Şirvanşahlar bu dövrdə özünün əsas torpaqlarını saxlaya bildi və şübhəsiz ki, Səlcuq hakimləri onun nüfuzu ilə hesablaşırdılar.

Məsud ibn Namdar I Fəriburzun hakimiyyəti dövründə Şirvanın siyasi həyatında bir yüksəliş başlandığını qeyd edir. O, Şirvandan çiçəklənən bir diyar kimi söhbət açır, «onun torpaqlarına göylərin belə həsəd apardığını» söyləyir. O həmçinin Şirvanşah və onun vəziri Əbü-l-Fərəc Məhəmməd əl-Kakuyi tərəfindən o dövrün təhsilli adamlarına göstərilən qayğı və himayəni tərifləyir. Məsud ibn Namdarın hamisi - Şirvanşahın vəziri Bəhaəddin Kamal əl-Mülk Əb-ül-Fərəc Məhəmməd ibn əl-Hüseyni əl-Kakuyi kakuyilərin Deyləm tayfasına mənsub idi. Kakuyilər Səlcuq işğalına qədər Rey, İsfahan və Fars İraqının başqa vilayətlərinin sahibi idilər. Sonralar isə onlar Səlcuqilər və Şirvanşahlarla qohum oldular. Əbü-l-Fərəcin atası Bəhaəddin əl-Kakuyi də Şirvanşahların vəziri olmuşdu.

Namdar bu vəzirlər nəslinin qədimliyinə işarə edərək yazır:

Uzaq İraqda sizin (yüksək) təqamınız vardır,
Siz (hətta) Öküz (bürcü) çıxan zaman,
Ondan da yüksəkdə dayanırsınız.

Deyildiyi kimi, Şirvanın heç bir hakimi müsəlman ibadətgahlarına getməmiş və ümumiyyətlə, Şirvanı belə tərk etməmişlər. Belə görünür ki, Şirvanşah I Fəriburz istisnalıq təşkil edir. Xaqaninin göstərdiyi kimi, o, İsfahana Sultan Məlikşahın yanına gəlmişdir. Şirvanşah II Mənuçöhrün bacısına həsr edilmiş mərsiyədə Xaqani yazır:

Kəyanilərdən (Şirvanşahlardan) heç biri
Kəbəyə getməmişdir.
Sənin baban, şah Fəriburz səfərə çıxdı,
Məlik şahın sarayına yol açdı və İsfahana gəldi.

I Fəriburzun dövründən iki sikkə qalmışdır. Onlardan birində I Fəriburzun özünün adı, xəlifə əl-Müqtədi Billahın (1075-1094) və səlcuq sultanı Məlikşahın adları həkk olunmuşdur. O biri sikkədə də yenə Şirvanşahın öz adı və xəlifə əl-Müstəzhir Billahın (1094-1118) adı həkk edilmişdir.

Şirvanşah 1 Fəriburzun ölüm tarixi mənbələrdə qeyd olunmamışdır. V.F.Minorskinin «Şirvan və Dərbəndin tarixi» bu sözlərlə bitir: Şirvanşah (I Fəriburz) əl-Babı (yəni Dərbəndi) tutmaq imkanına malik olmadığını görüb öz mülklərində qaldı və Sultan xəzinəsinə «hər il təyin olunmuş məbləği *(mal)* ödəməyə başladı. Bu, onun ölümünə qədər ...-ci ilədək davam etdi». Münəccimbaşı özü bu parçanı belə bitirir: «Bil ki, Şirvan haqqında nə yazmışıqsa, ərəb dilində təqribən 500 (1106)-cü ildə tərtib olunmuş Bab əl-Əbvabdakı tarixdən götürülmüşdür». Məsud ibn Namdarın verdiyi məlumata əsasən belə nəticə çıxarmaq olar ki, 1096-1101-ci illərdə Börküyarıq və Məhəmməd arasında hakimiyyət uğrunda gedən ara müharibəsinin əvvəlində I Fəxrəddin Fəriburz hələ hakimiyyət başında idi, onun əmir Əbd əl-Cabbara yazdığı məktubu bu dövrə təsadüf edir. Bu şərti tarixləri onun adı ilə bağlı bizə çatmış sikkələr və onun oğlu II Mənuçöhrün dövründə tikilmiş binalardakı yazılar ilə əlaqələndirə bilərik:

Şirvanşah Əbdül-Müzəffərin dövründə
Möminlərin köməkçisi Mənuçöhr ibn Fəriburz
Dörd yüz yetmiş birinci il (14.07.1078-3.07.1079).

I Fəriburzun ikinci oğlu – I Əfridun haqqında «Şirvan və Dərbənd tarixi» əsərində Şirvanşahın Dərbənddəki canişini kimi danışlır. Əfridunun Şirvanşah olmasını biz «Kartlis Tsxovreba» salnaməsindən bilirik. Orada deyilir: «1120-ci ilin noyabrında Şirvan və Dərbənd hakimləri arasında gedən müharibədə Əfridun öldürüldü və şirvanşahlar məğlubiyyətə uğradılar».

Professor Sara Aşurbəyli «Şirvanşahlar dövləti» əsərində gürcü salnaməsi «Kartlis tsxovreba»nı təhlil edərək göstərir ki, gürcü koronikonuna görə 340-cı (h. 514/1120) ilin noyabrında Şirvan və Dərbənd hakimləri ilə müharibədə Əfridun öldürülmüş və şirvanşah məğlubiyyətə uğramışdır. «Tarix-i əl-Bab»dan bilirik ki, salnamədə Şirvanşahın oğlu adlandırılan Əfridun dəfələrlə Dərbəndin hakimi olmuş və Dərbənd əmirləri bir neçə dəfə onu qovmuşlar.

O, şəhəri idarə edən rəislərlə mübarizə aparmışdır. Əfridun 1106/7-1120-ci illər arasında hökmranlıq etmişdir.

«Həmin h.517 (1123)-ci ildə gürcülərin islam ölkəsində cinayətləri artdı. Adamlar, xüsusilə Dərbənd və Şirvan əhalisi buna çətinliklə dözürdü. Buna görə də, onların bir çox nümayəndəsi gürcülərin onların başına gətirdiklərindən şikayət etmək üçün sultanın yanına gəldi. Bundan sonra Sultan Şamaxıya gəlib çatmış gürcülərə doğru hərəkət etdi. Bu zaman gürcülərlə qıpçaqlar arasında döyüş oldu. Beləliklə, Allah möminləri bu vuruşmadan qurtardı».

Axsitan Məzyədilərin Şirvanın qədim torpaqlarından saydıqları Dərbəndə gələnədək, onu öz nüfuzuna tabe etdirmək məqsədilə gürcü hökmdarı I Demetrinin (1125-1156) kürəkəni Seyf əd-Dinin qızı və əmir Bəybarsın bacısına evlənmişdi. Bu nigahla Axsitan həm Dərbənd hakimləri, həm də gürcü hökmdarı evi ilə qohumluq və müttəfiqlik münasibətləri yaratmışdı (I Axsitanın arvadı İsmət ət-Dinin dayısı qızı və gürcü hökmdarı III Georginin bacısı qızı idi). Bununla Dərbəndin və Gürcüstanın Şirvana qarşı daim mövcüd olan hücum təhlükəsi aradan qaldırıldı, habelə, Axsitanın Dərbənd arxasındakı Dəşti Qıpçaq çöllərində və Gürcüstanda yaşayan və Şirvana düşmən münasibət bəsləyən qıpçaqlar üzərində nüfuzu möhkəmləndi.

Şirvanşah Axsitan Şərqi Gürcüstan sərhəddindəki Xalxala qədər Dərbənd Qafqaz dağlarında yerləşən Qəbələ ilə həmsərhəd olan Mavakan, yaxud Muğan da daxil olmaqla böyük əraziyə sahib idi. Axsitan qıpçaqlarla vuruşmuşdur. Bu döyüş Xaqaninin I Axsitana həsr olunmuş və onun qələbəsini tərənnüm edən üç mədhiyyəsində əksini tapmışdır.

Qıpçaqlar Kür çayı ilə üzüyuxarı qalxaraq Ləmbərana gəlib çıxdılar, eyni vaxtda Dərbəndi ələ keçirdilər. Gürcü – Şirvan qoşunları işğalçıları məğlubiyyətə uğradıb Şirvandan qovdular. Axsitan Dərbəndi və Şabranı geri aldı və onlar yenidən Şirvanşahın torpaqlarına daxil edildi.

Şamaxıda zəlzələ vaxtı I Axsitanın arvadı və uşaqları həlak olduğundan Şirvanşahın özü təqribən 1197-ci ildə öldükdə varisi qalmadığı üçün taxta onun qardaşı I Şahənşah ibn III Mənuçöhr çıxdı.

Ziya Bünyadovun «Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər)» kitabında məlumat verilir ki, Xaqani şahzadə İsmətəddin Səfvət əl-İslama, yəni I Axsitanın arvadına həsr etdiyi mərsiyədə I Əfridun haqqında şəhid kimi söhbət açır. Beləliklə, əgər I Fəriburzun hakimiyyətinin sonu 1096-cı il olmuşsa, I Əfridun isə noyabr, 1120-ci ildə öldürülmüşsə, deməli, Şirvanşah II Mənuçöhr bu illər arasında hakimiyyətdə olmuşdur.

Gürcü salnaməsində Xilat hakimi Şahərman Zəhirəddin İbrahim ibn I Sökmənin (506-521) oğlu II Nəsirəddin Sökmənin (hakimiyyət illəri: hicri 522-579) adının çəkilməsi göstərir ki, Şirvanşah I Əfridun gürcülərə qarşı hərbi yardım üçün həmin hakimə müraciət etmişdir.

1120-ci ildə çar IV David özü Şirvana yürüş edərək fevral ayında Qəbələ şəhərini tutdu və Gürcüstana qayıtdı. Həmin ilin may ayında o, yenidən Şirvana soxuldu və oranı «Ərəbiyə-Licantadan (Lahıc) tutmuş Şiştlanqa və Kürdəvana qədər viran qoyaraq çoxlu qənimətlə Kartliyə qayıtdı. Mateos Urfaetsi IV Davidin hərbi fəalılığını səciyyələndirərək yazırdı: «O, qılıncın gücü ilə iranlılardan çoxlu mühüm yerlər ələ keçirdi. Tiflisi, Dmanisi, Şirvan və Şamxoru tutdu». Həmin ildə gürcülərin Şirvana dağıdıcı yürüşlər etməsinə baxmayaraq Şirvanşah I Əfridun Dərbəndi tutmağa cəhd göstərdi, lakin öldürüldü, qoşunu isə məğlubiyyətə uğradı.

Şirvanşah III Mənuçöhr 1156-cı ildə sağ imiş. Bu, Fələki Şirvaninin gürcü çarı Demetreyə yazdığı mərsiyədən bəlli olur:

O, dünyanı dərk etdi, dünya isə onun
Ömrünü insan ömrünün müddəti qədər uzatdı.
Ədalətli hökmdar.
Şirvanşah, Qazı, dünyanın ədalətli padşahı!
Kim öz üstünlüyü və ədaləti ilə
Şahlığa şöhrət gətirdi?
Bəşərin müdafiəçisi olan - şah Mənuçöhr!

III Mənuçöhrün adı ilə olan sikkələr xəlifə əl-Müqtəfiliəmrillahın (1160-cı ildə ölmüşdür) hakimiyyəti dövründə kəsilmişdir. Buna görə də biz III Mənuçöhrün hakimiyyət dövrünü məhz 1160-cı ilədək uzadırıq, belə ki, onun oğlu I Axsitanın sikkələrində xəlifənin adı yoxdur.

I Axsitanın uzunmüddətli hakimiyyəti dövründə Azərbaycan Şirvanşahlar dövlətinin öz qonşuları ilə qarşılıqlı münasibətinin xarakteri indiyə qədər məlum deyildir. Gürcü salnaməsinə görə, Şirvan Gürcüstandan

asılı vəziyyətdə qalmaqda davam edirdi: «Aqsartan (yəni I Axsitan - *N.Ə.)* - Mövkan, Şirvan və Dərbənddən Xalxala qədər dənizətrafı torpaqların padşahı III Georgiyə qarşı özünü oğul kimi aparırdı. O, IV David tərəfindən bu ölkəyə ərə verilmiş III Georginin bibisi Tamarın oğlu idi. Dərbənd xəzərləri bu şirvanşahı sıxışdırarkən, o, gürcü padşahına müraciət etdi. Padşah Lix dağlarının hər iki tərəfindən qoşun toplayaraq, Yunan imperatorunun qardaşı Andronik özü ilə götürüb Dərbənd darvazalarına qədər gəldi, Müşkür və Şabaram əyalətlərini viran etdi, Şaburan şəhərini tutdu.

Sonuncu şəhərin darvazaları önündə gedən vuruşmada Andronik, padşahın və bütün qoşunun diqqətini özünə cəlb etdi. Georgi şəhəri Şirvanşaha - öz bibisi oğluna verdi».

Təqribən hicri 569 (12.08.1173-01.08.1174)-cu ildə «Dərbənd xəzərləri» - dəniz quldurları Volqadan Şirvana soxuldular. Onlar 73 gəmidə Xəzəri keçərək Ruinas (Sarı) adası yaxınlığında lövbər saldılar və Kür boyunca Ləmbərana qədər qalxdılar. Bu vaxt peçeneqlərin bəzi dəstələri Dərbənd və Şabranı tutdu. Bütün bu hadisələr Xaqaninin I Axsitana həsr etdiyi üç qələbə mərsiyəsində əks edilmişdir:

Xaqan-i Kəbir Əbülmüzəffər ilk fatehlərdən biri oldu.
Dərbənd və Şabranı fəth edərkən onun qılıncı göylərdən
kömək aldı,
Sənin peçeneqlər üzərindəki qələbən göylərə qədər ucalanlar
üçün (yəni başqa hökmdarlar üçün - N.Ə.) yeni dövran oldu.
Sənin oxlarından biri Xızır peyğəmbər kimi
(Quran, XVIII, 71)
Basqınçıların 73 gəmisini darmadağın etdi.
Şəhriyar hakim Allahın rəsulunun şücaəti və Nuhun nitqi ilə
xəzərlər və sonra alanlar arasında tufan qaldırdı.
Onun dəhşəti, cəhənnəm gözətçisi tək, cəhənnəm odunun
xisləti ilə
Dərbəndi cəhənnəmə çevirdi, Şabranda ahu-zar törətdi.
Onun tünd göy qılıncı dəniz üzünü
Ləmbəran və Runnas adasına qədər çoxlu meyitlərlə örtdü.
Şah Axsitanın bayrağında bu sözlər yazılmışdır:
«Biz sənə həqiqi qələbə bağışlamışdıq»
(Quran, XVIII, 1)
Və bu bayraqlar bütün dünyaya şad xəbər yaydı.
İki gündə bu itürəkli adamlar Ərjəngin
Mazandaranda törətdiyi qədər Şirvanda dağıntılar etdilər.
Bu gün şah Dərbənddə və Xəzərlər arasında elə
Bir iğtişaş qopartdı ki, eyni vəziyyəti
Bu itürəkli adamlar Şirvanda törətmişdilər.

Mərsiyələrdən göründüyü kimi, Xaqani onlarda yalnız I Axsitanı tərifləyir, bütün qələbələri ona şamil edir və Bizans şahzadəsi Andronik Komnenin iştirak etdiyi gürcü qoşununun köməyi barədə isə heç nə demir. Bu, həmin hadisələrdə gürcülərin rolu haqqında başqa qaynaqlarda verilən məlumatlara sübut və diqqətlə yanaşmağa vadar edir. Əlbəttə, I Axsitanın məddahı Xaqani üçün təbii haldır.

I Axsitanın hakimiyyəti dövrünə aid hadisələr arasında Mirxond və Həsən bəy Rumlunun Şirvanşah dövlətinin İraq Səlcuqları və Azərbaycan Atabəyləri ilə qarşılıqlı münasibətlərinə dair məlumatlarını qeyd etmək lazımdır. Bu tarixçilərin verdiyi məlumata görə, atabəy Şəmsəddin Eldəniz bütün Şirvanı, o cümlədən də Bakını tabe etdi: «Sultan Məsud Eldənizə öz qoşunları ilə Arrana tərəf çıxmağı əmr etdi. O, bu vaxt ərzində Arranı, Gəncəni, Şirvanı və Bakını tamamilə tutdu». Bu məlumatın tarixini müəyyənləşdirmək çətindir, lakin məlumdur ki, hicri 570-ci ildən sonra Eldəniz gürcü padşahı III Georginin qoşununu darmadağın etmiş və Cənubi Qafqaza sahib olmuşdu.

1186-cı ildə Şirvanşah I Axsitan atabəy Məhəmməd Cahan Pəhləvanın ölümündən sonra Qızıl Arslanın sultanlıqda vəziyyətinin qeyri-müəyyənliyindən istifadə edərək qoşunları ilə Atabəylərin ərazisinə soxuldu. Lakin Şirvanşah ağır məğlubiyyətə uğradı. Onun qoşunları isə Qızıl Arslanın təqibi altında Bakıya çəkildi. Bu vaxtdan etibarən Bakı Şirvanşahların ikinci paytaxtı oldu. Qızıl Arslan Şamaxını və Dərbəndə qədər olan ərazini fəth etdi. Bu torpaqlar bir neçə il onun əlində qaldı.

Şirvanşah I Gərşəsbin (Güştəspin) zamanında

Şirvan müxtəlif fatehlərin dəhşətli basqınlarına məruz qalmışdır. Hicri 614 (10.04.1217-29.03.1218)-cü ildə Xarəzmşah Əlaəddin Məhəmməd (1200-1220) tərəfindən Azərbaycan atabəyi Özbək məğlub edildikdən sonra Xarəzmşah qoşunlarının Şirvana soxulması təhlükəsi meydana çıxdı. Ölkəni talandan xilas etmək üçün Şirvanşah özünü Xarəzmşahın vassalı elan etdi. Qeyd olunduğu kimi, «Şirvan şəhərlərinin minbərlərindən tutmuş Dərbəndə qədər sultanın şərəfinə xütbə oxunurdu».

Hicri tarixi ilə 617-ci ildə (08.03.1220-24.02.1221) monqolların Şirvana ilk basqını oldu. 20 minlik monqol dəstəsi Cəbənoyon və Subedey bahadurun başçılığı altında gürcüləri darmadağın edərək Dərbəndə doğru yollandı. Ancaq bu yolda onların qabağını Şamaxı səhəri kəsdi.

Azərbaycan ərazisində XII əsr - XIII əsrin əvvəllərinə aid aşkar edilən ayrı-ayrı sikkələrin və bir sıra sikkə xəzinələri haqqındakı topoqrafik məlumatların öyrənilməsi Azərbaycanda və bütün Qafqazda gümüş böhranı dövründə pulkəsmənin və mis sikkələrin tədiyyəsinin bəzi mühüm xüsusiyyətlərini aydınlaşdırmağa imkan verir. Bu xüsusiyyətlər ondan ibarətdir ki, Azərbaycan Atabəyləri və Şirvanşahlar dövlətində mis sikkələrin kəsilməsi, professor Y.A.Paxomovun qeyd etdiyi kimi, iki şəkildə – Eldənizlərdə «düzgün» və «düzgün olmayan», Şirvanşahlarda isə «düzgün olmayan» şəkildə icra olunmuşdur.

Prof. Sara Aşurbəyli «Şirvanşahlar dövləti» əsərində göstərir ki, D.Kuymlan kimi, Z.M.Bünyadov da ölkənin feodal pərakəndəliyi şəraitində qısa müddət ərzində – 1196/7-ci ildən 1204-cü ilədək Şirvanın ayrı-ayrı şəhər və vilayətlərində – Şamaxıda, Dərbənddə, Bakıda, Şəki və Qəbələdə Axsitanın qardaşları şahənşah Fərruxzad və qardaşı oğlu II Fəriburzun eyni vaxtda hakimiyyət sürə bilməsinə dair mülahizələrində haqlıdır.

1220-ci ildən başlayaraq Şirvan və bütün Yaxın Şərqin üstünü yadelli işğalçıların – monqolların soxulmaq təhlükəsi aldı. Monqollar Azərbaycan, o cümlədən Şirvan ərazisində ilk dəfə 1220/1-ci ildə I Gərşəsb ibn Güşbəsb Fərruxzadın hakimiyyəti dövründə zahir oldular. İbn əl-Əsir yazır: «Monqollar Azərbaycan və Arranı dağıtdıqdan sonra Dərbəndə - Şirvana yollandılar və onların hökmdarının yaşadığı qala istisna olmaqla onun şəhərini ələ keçirdilər». Monqollar Monqolustana qayıtmaq üçün Dərbəndə yönəldilər. Lakin Dərbənd son dərəcə möhkəmləndirildiyindən onlar buna müvəffəq ola bilmədilər. Monqollar Şirvandan gedəndən sonra darmadağın edilmiş qıpçaqlar bir yerə toplaşaraq Dərbəndə yollandılar». Bu vaxt oranın hakimi İbn əl-Əsirin Şirvanşah adlandırdığı Rəşid idi. Yaqut Həməvinin verdiyi məlumata görə, Şirvanın paytaxtı Şamaxının hakimi «Dərbənd əmirinin qardaşı-Şirvanşah» idi.

XII əsrin əvvələrində Dərbəndi Suləmi nəslindən olan yerli əmirlər idarə edirdilər. Dərbənd əmirliyinin nisbi müstəqilliyinə və bütövlükdə əmirliyin özünə yalnız 1239-cu ildə Dərbənd və bütün ölkə monqollar tərəfindən istila edildikdən sonra son qoyuldu. Qıpçaqlar Dərbəndə yaxınlaşarkən onun hakimi Şirvanşah Gərşəsbin qardaşı Rəşid idi. Qıpçaqlar hiylə ilə Rəşidi aldadıb Dərbəndə girdilər və onu həbs etdilər. Şirvan əhalisi tezliklə qıpçaqları darmadağın etdi. İbn əl-Əsirin sözlərinə görə «qıpçaq əsiri (məmlük) Dərbənd-Şirvanda (ən) ucuz qiymətə satılırdı».

Prof. Sara Aşurbəylinin «Şirvanşahlar dövləti» əsərində və çoxcildlik «Azərbaycan tarixi»nin III cildində qeyd edilir ki, 1231-ci ildə Cormağunun başçılığı ilə monqol qoşunları cənub istiqamətindən yenidən Azərbaycana soxuldular. Təbriz, Gəncə, Bakı, Tovuz və s. şəhərləri ələ keçirən monqollar 1239-cu ildə Dərbəndi tutdular və beləliklə də bütün Azərbaycan ərazisinin işğalını başa çatdırdılar. Onlar, ilk yürüşdən fərqli olaraq bu dəfə ölkəni tərk etmədilər. Azərbaycanda möhkəmlənən monqollar bəzi digər bölgələri də ələ keçirərək Cənubi Qafqazda məskən saldılar.

H.Y.Hüseynovun «Dərbənd şəhərinin qısa ensiklopediyası» kitabında bildirilir ki, XIII əsr monqol müdaxiləsi dövrüdür. Monqol istilası dünya tarixinə xalqların dəhşətli faciəsi kimi daxil olmuşdur. Yaxşı silahlanmış monqol süvariləri Şərqi Türkistandan, Orta Asiyadan, Şimali İraqdan, Şərqi İrandan keçərək Cənubi Qafqaza daxil oldular. Rəvayətdə deyilir ki, Çingiz xan öz döyüşçülərinə əmr etmişdir ki, «… düşmənin həm səhərlərini, həm də kəndlərini məhv etməli, heç kəsə aman verməməli».

XIII əsrin ərəb müəllifi İbn əl-Əsir Beyləqan şəhərinin monqollar tərəfindən alınmasını belə təsvir edir: «…onlar qılıncla elə işləyirdilər ki, şəhərdə heç

kim – nə körpə uşaq, nə qoca, nə qadın qalmamışdır. Monqolların vəhşiliyi o dərəcəyə çatmışdır ki, onlar hətta hamilə qadınların qarnını qılıncla yarırdılar. Əvvəl onların namusuna təcəvvüz edirdilər, sonra isə öldürürdülər».

1222-ci ildə Çingiz xanın tanınmış sərkərdələrindən biri Subutaybahadır və Cəbənoyonın komandanlığı altında 30 minlik monqol süvarisi Dərbəndin qala divarları yanında görünürlər, lakin çoxtəcrübəli monqol sərkərdələri yaxşı möhkəmləndirilmiş şəhəri tuta bilmirlər.

Məşhur tarixçi Rəşidəddin (1247-1318) rəvayətdə məlumat verilən hadisələri təsdiq edərək yazır: «…Dərbənddə türk qarnizonu olduğu üçün şəhəri tuta bilmədilər. Onlar Dərbənd hökmdarı şirvanşaha adam göndərərək dedilər: «Sən bir neçə adam göndər ki, biz sülh bağlayaq». O, (Şirvanşah) xalqın nümayəndələrindən 10 nəfər göndərir. Onlardan birini monqollar öldürür və qalanlarına deyirlər ki: «Əgər siz bizə Dərbənddən keçmək üçün yolu göstərməsəniz, sizə aman vermədən öldürəcəyik». Onlar qorxudan yolu monqollara göstərdilər və monqollar Dərbənddən keçdilər. İkinci dəfə monqollar 1239-cu ilin yazında Çormağunun komandanlığı altında Dərbəndə yaxınlaşdılar. Rəşidəddinin məlumatına görə, Cuçiulusunun (1240-ci ildən Qızıl Ordu) xanı «…yürüş üçün qoşun təyin edərək, o qoşunu Bukdaya tapşırdı və onu Tamir-Kaxalqa (monq. Dəmir qapı) göndərdi ki, o Avir (Avariya) vilayətini zəbt etsin».

Bu dəfə Dərbənd zəbt edildi və tamamilə dağıdıldı. Ərəb coğrafiyaşünası Əbı-l-Fida (1357-ci ildə vəfat edib) yazmışdır ki, bu dağıntıdan sonra Dərbənd «…bəzi səyyahların sözlərinə görə, …. kiçik, az əhalisi olan şəhərə» çevrildi.

Sara Aşurbəylinin «Şirvanşahlar dövləti» əsərində xəbər verilir ki, III Fəriburzdan sonra Şirvanda hakimiyyətə onun oğlu II Axsitan keçdi. Zəkəriyyənin sözlərinə görə, «Şirvanın hakimi əzəmətli, güclü və qüdrətli hökmdar idi». O, sonra Axistanın o vaxtlar Zirehgəranı tutmaq üçün ora yollandığını, lakin əhalinin bundan əvvəl Dərbənd hakimlərinin hücumu kimi, onun da hücumunu dəf etdiyini deyir.

Çingiz xanın nəvəsi Hülakü xan 1260-cı ildə Cucilərin qoşunlarını məğlub edib Dərbəndi tutdu. Tezliklə Hülakü özü də Terek çayı yaxınlığında Bərkə xan tərəfindən məğlubiyyətə uğradılaraq Dərbəndi və Şirvanı itirdi.

Şirvan, demək olar ki, yüzillik bir dövr ərzində Elxanilərlə Qızıl Ordu xanları arasında hərbi əməliyyatlar meydanına çevrilmişdi. Hülakü xanın oğlu və varisi Abaqa xanın (1265-1282) zamanında Qızıl Ordu xanları dəfələrlə Dərbənd keçidindən Şirvana soxulmuşdular.

XIV əsrə aid «Şəffət əs-səfa» adlı mənbədə XIII əsrin ikinci yarısında öz iqamətgahını, görünür Dərbənd ərazisinin Bakıya qədər Elxanilərlə Cucilər arasında hərbi əməliyyat meydanına çevrilməsi və Şirvanşahın həmin yerlərdə qalmasının təhlükəli olması ilə bağlı Güştəsbiyə köçürən Şirvanşah Axsitan barəsində bəzi məlumatlar verilir.

III Axsitanın ölümündən sonra Şirvanda onun oğlu Keykavus ibn Axsitan hökmranlıq etmişdir. XIV əsrin əvvələrində Qazan xanın islahatları ilə əlaqədar Şirvanşahın hakimiyyəti güclənməyə başladı. Mövqeləri möhkəmlənən Şirvanşahların hüquqları tədricən bərpa edildi. Yerli feodal zadəganları ilə Elxanilər dövləti nümayəndələri arasında yaxınlaşma baş verdi. Belə ki, elxanilərin dövlət xadimi, Qazan xanın vəziri Rəşidəddinin (1297-1318) məktublaşmasından bəlli olur ki, o, Şirvanşahlarla qohum olmuşdur. Rəşidəddin Təbriz şəhərindən «böyük mövlana Məscid əd-Din İsmayıl Fəliyə» yazdığı məktubda onu oğlanlarının toyuna dəvət edərək gəlinlərinin adlı-sanlı ailələrdən olduğunu qeyd edir, o cümlədən göstərir ki, oğlu Əmir Əlinin nişanlısının atası Şirvanşah, «Dərbənd hökmdarı sülaləsindən olan Şabran və Şamaxı hökmdarıdır». Əbd ül-Rəzzaq Səmərqəndinin məlumatına əsasən Şeyx İbrahim Dərbənd hakimi Sultan Məhəmmədin oğlu və Keyqubadın nəvəsidir. H. 758 (1356/7)-ci ildə Kavus başqa Azərbaycan feodalları ilə birlikdə qəddar müstəbid Əşrəflə mübarizə məqsədilə Qızıl Ordu xanı Canı bəyin yanına elçilər göndərərək onu köməyə çağırdı. Canı bəy şeyxlərin təkidi ilə böyük qüvvə ilə Dərbənd və Şirvandan keçərək Azərbaycana, Çobani Əşrəfin üstünə yürüş etdi. Canı bəy Əşrəfin qoşunlarını məğlub edərək Təbrizə daxil oldu və Azərbaycanı tutdu.

XIV əsrin sonlarında Şirvanda xırda feodalların və kəndlilərin üsyanı baş verdi. Huşəng 1382-ci ildə onun qəddarlığından qəzəblənmiş rəiyyəti tərəfindən öldürüldü. Bundan sonra Şirvan feodalları Huşəngin birbaşa vəliəhdi olmadığından onun ən yaxın qohumlarından birini, Şirvanşahlar sülaləsinin dərbəndlilər adlanan digər qolunun nümayəndəsi Şeyx I İbrahimi

hökmdar seçdilər.

Professor Sara Aşurbəylinin «Şirvanşahlar dövləti» adlı kitabında, VIII cildlik «Azərbaycan tarixi»nin III cildində göstərilir ki, Hülakü xan zəbt etdiyi ərazilərdə beşinci monqol ulusu – Hülakülər dövlətlərini təsis etdi. 1265-ci ildə Hülakü xan (1256-65) «elxan» (elin xanı) titulunu qəbul etdi və onun qurduğu dövlət «Elxanilər dövləti» kimi də tanındı. Həmin dövlət Azərbaycanda 1256-1357-ci illərdə mövcud olmuşdur. Hülakü xan köçəri monqol-türk feodallarına arxalanaraq tezliklə iqtisadi cəhətdən qüvvətli, möhkəm dövlət yarada bildi.

Hülakülər dövlətinin zəifləməsi və tənəzzülə uğramasının səbəblərindən biri Hülakülərlə qızılordalılar arasında davam edən müharibələr idi. Bu müharibələrin əsas səbəbi Hülakülər dövlətinin təşəkkülü və Azərbaycanın bu dövlətin tərkibinə daxil edilməsi idi. Hülakülər dövlətinin təsisi qızılordalıları Azərbaycanın zəngin təbii sərvətlərindən, otlaqlarından, Misir ilə olan ticarət əlaqələrindən və s. məhrum edirdi. Hülakülərlə qızılordalılar arasında ilk döyüş hələ Hülakü xanın dövründə baş vermişdi. 1263-cü ildə Qızıl Orda xanı Bərkə (1256-66) sərkərdə Noqayı 30 minlik qoşunla Azərbaycana göndərdi. Həmin il yanvarın 13-də Terek çayı sahilində baş vermiş döyüşdə Hülakü qoşunu məğlub oldu. Dərbənd qızılordalılar tərəfindən tutuldu. 1265-ci ildə baş vermiş ikinci döyüşdə isə hülakülər qələbə çaldılar. Tərəflər arasında üçüncu (1288) və dördüncü (1290) döyüşlərdə də hülakülər qələbə əldə etmişdilər. Hülakülərlə qızılordalılar arasında gedən müharibələr Azərbaycan iqtisadiyyatına, təsərrüfatına ciddi təsir göstərirdi.

1394-cü ildə Qızıl Orda xanı Toxtamış bir daha Azərbaycana qoşun yeritdi. Teymur Şəki istiqamətindən onun üzərinə hərbi qüvvələr göndərdi və onu geri oturtdu. Teymur 1395-ci ildə Qızıl Ordaya yürüş etdi, böyük qələbə çaldı və qənimətlə geri qayıtdı. O, Dərbəndin müdafiə istehkamlarını möhkəmlətdi və şimal sərhədlərinin mühafizəsini Şirvanşah I Şeyx İbrahimə tapşırdı.

XIII-XIV əsrlərdə Şirvanşahlar dövləti Hülakülər və Cəlairilər dövlətlərinin vassal asılılığında olmuşdu. Bu dövlət Kür çayından Dərbəndin şimalına kimi olan əraziləri əhatə edirdi. Paytaxtı Şamaxı şəhəri idi.

Şirvanın şəhərləri haqqında monqolların Azərbaycana ilk hücumundan sonra, 1227-ci ildə yazmış Yaqut əl-Həməvi də müəyyən məlumatlar verir. Yaqut əl-Həməvi Dərbənd haqqında yazır: «Bu şəhər Ərdəbildən iki kvadrat mil böyükdür. Onun əhalisinin çoxlu əkin sahələri var. Şəhər dağdan başlayaraq uzanıb gələni qalınlıqda daş divarla dövrələnmişdir. Möhkəm bünövrə üzərində tikilmiş Bab əl-Əbvab Ənuşirəvanın saldırdığı şəhərlərdəndir…» Sonra Yaqut Dərbəndin Xəzər dənizində mühüm ticarət limanı kimi böyük əhəmiyyətindən bəhs edir. Elxanilər dövründə Şirvan və uzaq Şərq arasında ticarət əlaqələri xeyli genişləndi. Məsələn, əl-Öməri Bakı və Dəmir qapıdan (Dərbənddən), Qızıl Orda ərazisindən keçən Çinə gedən ticarət karvan yolundan xəbər verir. Həmdullah Qəzvini 1340-cı ildə xəbər verirdi ki, «Bakının qənşərindəki Allah Əkbər adası hal-hazırda məskundur və bu dənizin limanıdır». Xəritədə onun yaxınlığında Beşbarmaq, Şamaxı, sonra isə Dərbənd və Həştərxan göstərilir. XIV əsrin sonlarınadək ipək, ipək parçalar, xalçalar, ədviyyat və digər mallar Şirvandan, Cənubi Qafqaz və Ön Asiya ölkələrindən Bakı və Dərbənd vasitəsilə Həştərxana, Qızıl Orda, Rusiya və Avropaya aparılırdı.

H.Y.Hüseynovun «Dərbənd şəhərinin qısa ensiklopediyası» kitabında Dərbənd və Qacarlar haqqında qeyd edilir ki, Çingiz xanın nəvəsi Hülakü xan (1256-1265) Ərəb xilafətini darmadağın edərək böyük ərazidə Ərəbistandan başlayaraq Amudəryayadək və Hind okeanından başlayaraq Şimali Qafqazadək güclü Hülakülər feodal dövlətini yaratdı. Onun tabeçiliyində olan bu ərazidə Mərkəzi Asiyadan, Şimali Qazaxıstandan və Zabaykaldan gətirilmiş türk qəbilələrini yerləşdirdi. Onların arasında İrana köçmüş qacar qəbiləsindən olan 200 min ailə var idi.

Qacarlar tezliklə yeni dövlətdə görkəmli yerlərdən birini tutmuş, Səfəvi şahları dövründə dövlət xadimləri olmuşlar və Şirvana, İrana, Mazandarana, Təbəristana, Gilana rəhbərlik etmişlər. Onlar Gəncədə, Xorasanda, Astrabadda, İrəvanda bir sıra yerli hakimlər sülaləsi yaratmışdılar. Qacarların ölkədə siyasi təsiri o qədər güclü idi ki, onlar hakim qüvvələrlə mübarizə apararaq, nəhayət, fars taxt-tacına sahib oldular.

Ağa Məhəmməd şah Qacar öz nökərləri tərəfindən öldürülməsinə baxmayaraq Qacarlar sülaləsi onun ölümü ilə bitmədi. Qacarlar 1925-ci ilə kimi İranda hakimiyyətdə olmuşlar.

A.Bakıxanov (1794-1847) özünün «Gülüstan-i-İrəm» əsərində yazır ki, «... Şirvanın hakimləri və məmurlarının çoxu qacar nəslindən olduqları və dağ xalqları ilə yaxın olduqları üçün, dağıstanlılar hal-hazırda da Qafqazın aşağı hissəsində yaşayan xalqları istehza ilə qacarlar adlandırırlar». Bu gün də Cənubi Dağıstanın yalnız dağlı sakinlərini və Dərbəndin köklü azərbaycanlılarını qacar adlandırırlar. Onlar Dərbəndi özlərinin hərbi-strateji plasdarmına çevirmişdilər. Daha bir səbəbi onda idi ki, Dərbəndin yerli sakinləri qacarlarla eyni din məshəbə-şiəliyə qulluq edirlər.

«Azərbaycan tarixi» çoxcildliyin III cildində məlumat verilir ki, monqol xaqanlığının Ön Asiyanı, Cənubi Qafqazı və Kiçik Asiyanı ələ keçirməsinə baxmayaraq, XIII əsrin ortalarında həmin vilayətlərdə bir sıra iri feodal malikanələri hələ də öz müstəqilliyini itirməmişdi. Ali monqol xaqanı Munke istilaları davam etdirmək məqsədilə 1253-cü ildə Ön Asiyaya qoşun göndərdi. Munkenin qardaşı Hülakü xanın başçılıq etdiyi bu yürüşdə əsas məqsəd İranın, İraqi Ərəbin, Suriyanın və digər vilayətlərin müstəqil fəaliyyət göstərən hakimlərini itaətə cəlb etməkdən ibarət idi. Hülakü xan iri fəodalların köməyi ilə bu vilayətlərdə bir cox yerli hakimləri özünə tabe etdi, iri şəhərləri alaraq coxlu qənimət ələ keçirdi. 1256-ci ildə Şimali Iranda İsmaillilərin Ələmut hökmranlığı süquta uğradı. 1257-ci ildə isə Azərbaycan tabe edildi. 1258-ci ilin fevralında Hülakü Bağdadı ələ keçirdi və 500 ildən artıq mövcud olmuş Abbasilər xilafətinə son qoyuldu. Zəbt edilmiş yeni ərazilər hesabına beşinci monqol ulusu – Hülakülər (Elxanilər) dövləti yaradıldı. Bu dövlət Azərbaycanda bir əsr (1357-ci ilədək) fəaliyyət göstərdi.

Hülakülər dövlətinin yaranması və yüz il müddətində fəaliyyət göstərməsi tədricən Azərbaycanın ictimai-iqtisadi, siyasi və mənəvi həyatına təsir etdi, onun hüdudlarında, əhalisinin etnik tərkibində, dini görüslərində, mədəniyyətində, dilində nəzərəçarpacaq dəyisikliklər baş verdi.

Azərbaycan sərhədləri Şəki vilayətinin qərbindən və şimalından keçərək Dərbəndə doğru uzanırdı. Azərbaycanın şimal sərhədi Dərbənd şəhərinin şimalından keçərək Xəzərə qovuşurdu. Dərbənd Hülakülər dövlətinin şimal müdafiə istehkamı idi. Yaqut Həməvinin (XIII əsr) yazdığına görə, Dərbənddə böyük bir dağın üzərində hər il çoxlu odun toplayırdılar ki, düşmən hücumu zamanı tonqal qalayıb Arran və Şirvan əhalisini təhlükədən xəbərdar etsinlər. Abaqa xanın (1265-1282) dövründə Şahzadə Yuşmutun Dərbənd, Şirvan və Muğana hakim təyin edildiyini xəbər verən Rəşidəddin Şirvanşahların iki min ildən artıq müddətdə Dərbəndin və Şabranın hökmdarı olduqlarını da bildirir. 1328-ci ildə Əbu Səid (1316-1335) Əmir Əkəncini Dərbənd hakimi təyin etdi. Özbək xanın qoşunu 1335-ci ildə Şirvanda məğlubiyyətə uğradı və Dərbəndə doğru çəkildi. Həmdullah Qəzvini qeyd edirdi ki, onlar «oradan öz ölkələrinə getdilər». 1367-ci ildə Cəlairi Şeyx Üveys Şirvanı istila etdiyi zaman Dərbənd hakimləri (Haci Fərəməz və Haci Firudin) onun hüzuruna gəlib öz itaətlərini bildirdilər.

XIII əsrin anonim məxəzi olan «Əcaib əd-dünya»da məlumat verilir ki, türklər Arranda əsas etnik qrup idi: «Arranda 100000 türk süvarisi vardı».

Hülakülər dövlətinin taxtına Sultan Ulcaytu (1304-1316) çıxdıqdan sonra da o, qardaşı Qazan xanın siyasətini davam etdirdi, mərkəzi hakimiyyəti daha da qüvvətləndirdi. Gilan və Herat əraziləri onun dövründə istila olundu. Lakin Ulcaytudan sonra Azərbaycanda vəziyyət yenidən pisləşdi. Elxanilər taxt-tacına çıxmış 12 yaşlı Əbu Səidin (1316-1335) dövründə dövlətin idarəsi baş əmir Çobanın ixtiyarına keçdi. Bu, ölkədə feodal çəkişmələrinə təkan verdi. Azərbaycandakı daxili vəziyyətdən istifadə edən qonşu dövlətlər Hülakülərə qarşı mübarizəyə qalxdılar.

1318-ci ildə Xorasanda Əmir Yasavur mərkəzi hakimiyyətə qarşı çıxdı və Hülakülər dövlətinin bir sıra vilayətlərini qarət etdi. Həmin ildə Elxanilərə qarşı, bir tərəfdən, Misir soltanı, digər tərəfdən isə Qızıl Ordu xanı hücuma keçdi. Hülakülər dövləti üctərəfli təhlükə qarşısında qaldı. Qızıl Ordu qoşunu Dərbəndi keçərək Kür çayı sahillərinə kimi gəldi və əhalini qarət etdi. Hülakülər Qızıl Ordu xanının hücumunun daha təhlükəli olduğunu bildikləri üçün əsas qüvvələrini Azərbaycana göndərdilər və Qızılorduluları geri çəkilməyə məcbur etdilər. Elxanilər şimal sərhədlərini daha da möhkəmləndirdilər.

Qızılordululara Elxanilər arasında ilk toqquşma hələ Hülakü xanın (1256-1265) hakimiyyəti dövründə baş verdi. Qızıl Ordu hökmdarı Bərkə xan (1256-1266) sərkərdə Noqayın başçılığı ilə 30 minlik qoşunu Şirvana göndərdi. Hülakü xan vilayət-

lərdən qoşun topladı və Şirvana yola saldı. Dərbənd Hülakü xan tərəfindən tutuldu. Elxanilərin qoşunu qızılordalıları izləyərək Terek çayına yetişdi. Bərkə xan Elxanilərin üzərinə yeni qüvvələr göndərdi. 1263-cü il yanvarın 13-də Terek çayı sahilində baş vermiş qanlı vuruşmada Hülakü qoşunu məğlubiyyətə uğradı və Şabrana doğru geri çəkildi. Dərbənd şəhəri yenidən qızılordulların əlinə keçdi.

Qızılordulların Azərbaycana ikinci yürüşü Abaqa xanın (1265-1282) dövründə baş verdi. Qızıl Ordu əmiri Noqay müxtəlif bəhanələrlə Dərbəndi keçdi və Şirvana soxuldu.

Qızıl Ordu qoşunlarının ölkəyə üçüncü yürüşü Elxan Arqunun zamanında (1282-1291) baş verdi. Dərbənddən Azərbaycanın cənubuna 50 minlik qoşun göndərildi. Lakin 1288-ci ilin mayında Arqun xanın Biləsuvardan Şamaxıya gəldiyini eşidən düşmən geri qayıtmağı lazım bildi.

Qızılordulular Azərbaycana dördüncü dəfə 1290-cı ilin martında yürüş etdilər. Arqun xanın başçılığı ilə düşmənə qarşı çıxmış elxani qoşunu aprelin 27-də Qarasu adlanan yerdə (Dərbənddən şimalda) onunla üz-üzə gəldi. Baş vermiş qanlı vuruşmada 10 minlik Qızıl Orda qoşunu məğlub edildi.

Qızıl Ordu dövlətində siyasi vəziyyətin pisləşməsi ilə əldaqədar Azərbaycana olan yürüşlər bir müddət kəsildi.

Mərkəzi (Orta) Asiyada Teymur imperiyasının yaranması və onun qonşu ölkələrə hücumları, Qızıl Ordu xanı Toxtamışın Azərbaycanı ələ keçirmək cəhdləri ölkənin vəziyyətini daha da gərginləşdirdi. Nəticədə Azərbaycanın əsas ərazisi Cəlairilər dövlətinin nüfuz dairəsindən çıxdı və Sultan Əhmədin vaxtaşırı cəhdlərinə baxmayaraq, müxtəlif zamanlarda Teymurilərin, bir sıra yerli feodalların və Qaraqoyunluların sərəncamına keçdi. Cəlairilər də bir neçə dəfə Azərbaycana yürüş edərək, Təbrizdə hakimiyyəti ələ aldılar. Əlincə qalası uzun müddət Cəlairi şahzadələrinin əlində qalsa da, onlar 1386-ci ildən Teymurun ölumünədək (1405) Azərbaycanda öz siyasi qurumlarını bərqərar edə bilmədilər.

H.Y.Hüseynov «Dərbənd şəhərinin qısa ensiklopediyası» kitabında bildirir ki, Dərbənddə möhkəmlənmiş monqollar Dağıstanının dağ rayoqlarına da yürüş edirlər. Monqolların Cənubi və Şimali Dağıstana olan hücumları uğursuz nəticələndi.

Tezliklə 1256-cı ildə Çingiz xanın nəvəsi Hülakü babasının zəbt etdiyi torpaqlarda yeni - Elxanilər-Hülakülər dövlətini yaradır (1256-1357). Şərqi Dağıstanın düzənliyi və Dərbəndin ətrafındakı rayonlar iki nəhəng Hülakülər (Elxanilər) və Qızıl Ordu dövlətlərinin toqquşma meydanına çevrilir.

Dərbənd Qızıl Ordunun tərkibinə daxil olduğu halda, Şirvanı, Arranı və Azərbaycanın cənubunu ilhanilər idarə edirdilər. Bu vəziyyətdə Dərbəndin sərhəd məntəqəsi kimi hərbi-strateji əhəmiyyəti daha da artdı. Şimali Qafqazda sərhəd dairəsinin hərbi canişini vəzifəsinə, əsasən, Qızıl Ordu xanlarının yaxın qohumları təyin edilirdi. Belə ki, Batı xanın dövründə burada canişin onun qardaşı Bərkə, Bərk xanın dövründə isə (1257-1267) – Noqay idi və s.

Öz növbəsində Abaqa xan (1256-1282) öz qardaşını «…Albanadək Muğana, Şirvana və Dərbəndə göndərir ki, həmin əraziləri düşməndən, yəni Qızıl Ordu xanlarından qorusun».

Bu Hülakü-Qızıl Ordu münaqişəsi 1262-ci ildə açıq hərbi münaqişəyə çevrilir və yüz il ara-sıra fasilələrlə davam edir. Dərbənd sərhəd şəhəri kimi bütün bu münaqişələrədən çox əziyyət çəkirdi.

Qızıl Ordu şahzadəsi Tokday «Dərbəndin müdafiəçisi və qoruyucusu» təyin olunmuşdu. Yazılı mənbələrin məlumatına əsasən, birinci onilliklərdə qarşıdurma zamanı gah Qızılordulların, gah da Hülakülərın çoxminlik orduları altı dəfə bu şəhərdən keçmişdir. Onların hər keçidi şəhərin dağılmasına və boşalmasına gətirib çıxarmışdır. Dərbənd gah Qızılordulların, gah da Hülakülərın tərkibinə daxil olurdu.

Yalnız Qızıl Ordunun və Hülakü dövlətinin daxilindəki siyasi böhran, Şimali Qafqazda Qızıl Ordunun mövqelərinin zəifləməsi və Kulikovo çölündə (1380) ağır məğlubiyyətə uğraması nəticəsində Çingiz xanın varislərinin uzunillik düşmənçiliyinə son qoyuldu və Dərbənd görünməmiş fəlakətlərdən xilas oldu.

1382-ci ildə Dərbənddə Şirvanşahlar sülaləsinin nümayəndəsi yenidən hakim taxtına əyləşdi və onlar Dərbəndi 1550-ci ilə qədər idarə etdilər.

Professor Ə.İ.Muxtarova göstərir ki, bu dövlət şərqdə İrtış çayı və Altay dağlarının ətəklərinə, Sırdəryanın orta axınına, cənubda Dərbəndə, qərbdə Qara dəniz sahillərinə qədər uzanırdı və Krım daxil olmaqla böyük əraziyə malik idi.

Qızıl Ordunun siyasi tarixi çox təlatümlü keçmiş, çoxlu daxili və xarici müharibələrlə müşayiət olunmuşdur. Batı xan dövründə (1235-1256) Qızıl

Ordu monqol uluslarından ən qüvvətlisi idi. Dövlət şərqdə İrtış və Çuman, Altay dağətəyi və Balxaş, cənubda Sırdəryanın orta axını, Dərbənd, qərbdə Dnepr və Krımla sərhədlənirdi. Batı xan ömrünün son illərində hətta Mavərənnəhri də ələ keçirmişdi. Onu əvəz etmiş qardaşı Bərkə xanın (1257-1266) dövründə Mavərənnəhp Qızıl Ordudan geri alınmışdı, lakin o, müstəqil dövlət olaraq qalmaqda idi. Bunu Qızıl Ordu xanları ilə Hülakülər dövlətinin Azərbaycan uğrunda arasıkəsilməz müharibələri aydın göstərir.

Qızıl Ordunun qüvvətli dövlətə çevrilməsində Özbək xanın (1312-1342) dövründə Ordunun qonşu ölkələr və dövlətlərlə ticarət münasibətləri geniş rol oynamışdı. İslam dininin geniş yayılması şərq ölkələri ilə ticarət əlaqələrinin daha da inkişafına səbəb olmuşdu. Özbək xanın oğlu Canı bəyin (1342-1357) dövründə də dövlət hərbi cəhətdən çox qüdrətli idi. Özbək xanın hərbi qüvvəsi 300 min nəfərə çatırdı. Qızıl Ordu bir müddət Xorasan və Azərbaycanı da ələ keçirmişdi. 1356-cı ildə Canı bəy Dərbənddən keçib Azərbaycana hücum etmiş və Qarabağın kəndlərini talamışdı.

«Azərbaycan tarixi»nin III cildində bildirilir ki, Şirvan vilayəti əsrlər boyu Şirvanşahlar tərəfindən idarə olunurdu. Atabəy Qızıl Arslanın (1186-1191) ölümündən sonra Şirvanşahlar dövləti möhkəmləndi, tamamilə müstəqil fəaliyyət göstərməyə başladı və Azərbaycanın monqollar tərəfindən tam istilasına qədərki dövrdə müstəqil qaldı. XIII əsrin əvvəllərində Şirvan dövlətini Şirvanşah Gərşasb Güstəsb idarə edirdi. Onun dövründə monqol qoşunları Cəbə və Subutayın başçılığı ilə Şirvana soxuldu. Şamaxı şəhəri mühasirə edildi. Şəhər əhalisi ilə istilaçılar arasında qanlı vuruşma oldu. Monqollar Şamaxını ələ keçirdilər və dağıtdılar. Onların keçəcəkləri əsas yol (Dərbənd keçidi) güclü mühafizə olunurdu. Buna görə də Cəbə və Subutay şəhərdən yan keçmək qərarına gəldilər. Onlar hiylə işlədərək Şirvanşaha xəbər göndərdilər və onunla danışıqlar aparmaq istədiklərini bildirdilər. Şirvanşah buna razı oldu və öz nümayandələrini onların yanına göndərdi. Monqol sərkərdələri şirvanşahın elçilərini bələdçiliyə məcbur edərək, Dərbənddən yan ötüb Şimali Qafqaza keçdilər.

Monqollar Şirvandan çıxdıqdan sonra ölkə qıpçaq və gürcü qoşunlarının həmlələrinə məruz qaldı. Şirvanşah Gərşasb dövlətin möhkəmləndirilməsi işi ilə ciddi məşğul olmadı. 1225-ci ildə Şirvanşah Gərşasbın oğlu Fəribürz atasına qarşı çrxdı, onu hakimiyyətdən məhrum etdi və ölkədən qovdu. Gərşasb gürcü feodallarından yardım alaraq Şirvan üzərinə yeridi, lakin məğlubiyyətə uğradı. Fəribürzün hakimiyyəti ordu və xalq tərəfindən müdafiə olundu. O, Şirvanı XIII əsrin ortalarına kimi (1244) idarə etdi. Fəribürzün hakimiyyəti dövründə Azərbaycana yürüş etmiş Xarəzmşah Cəlaləddin onunla sazişə girdi. Cəlaləddinlə bağlanmış müqaviləyə əsasən Şirvanşahlar xərac ödəməli oldular. Lakin Şirvanşahlar 1227-ci ildə Cəlaləddinə vergi verməkdən də imtina etdilər və monqolların ikinci yürüşün dövründə müstəqil fəaliyyət göstərdilər.

1231-ci ildə Cormağunun başçılığı ilə Azərbaycana ikinci dəfə gəlmiş monqollar Şirvanı da zəbt etdilər. Şirvanşahlar monqolların hakimiyyətini qəbul etməyə məcbur oldular və tədricən asılı vəziyyətə düşdülər. XIII əsrin 50-ci illərində Şirvanşah Axsitan dövləti idarə etməyə başladı.

XIV əsrin birinci yarısında Şirvanı Keyqubad və Kavus idarə etmişlər. Dərbənd şəhəri Hülakülər dövlətinin tərkibinə (Şirvan ərazisinə) daxil idi. Əbu Səid Dərbəndin mühafizəsini Əmir Buzəngiyə tapşırdı. Qızıl Ordu xanı Özbək 1318-ci ildə Şirvana müdaxilə etdi, hakim ciddi müqavimətə rast gəlib geri çəkilməyə məcbur oldu. Bu yürüş zamanı Pirsaat çayı sahilindəki Pir Hüseyn məqbərəsi qarət edildi. 1324-cü ildə Şirvan vilayəti (Gürcüstan və Şəki vilayətləri ilə birlikdə) Əmir Çobanın oğlu Şeyx Mahmuda tapşırıldı. 1328-ci ildə isə Əmir Əqbəxi Şirvana hakim təyin olundu. 1335-ci ildə Şirvan iki dəfə Qızıl Ordu qoşunlarının hücumlarına məruz qaldı.

Professor Sara Aşurbəylinin «Şirvanşahlar dövləti» əsərində göstərilir ki, Huşəng 1382-ci ildə öldürüldükdən sonra Şirvan feodalları onun əmisi oğlu İbrahim ibn Sultan Məhəmməd ibn Keyqubadı hökmdar seçdilər. Şeyx İbrahim Məzyədilər sülaləsinin bir qolu olan Dərbəndli Şirvanşahlar sülaləsinin ilk nümayəndəsidir.

Teymur Azərbaycana hücum edərkən qarşısına çıxan hər şeyi yerlə-yeksan edən işğalçı ordunun qarşısında duruş gətirməyin çətin olacağını başa düşən, Şirvanın viran ediləcəyini və əhalisinin qırılacağını görən Şeyx İbrahim Teymura itaət göstərərək ona tabe oldu və onun rəğbətini qazanaraq Şirvanın ha-

kimi saxlanıldı. Teymur oğlu Miranşahı Azərbaycan və Şirvanın, o cümlədən Dərbənd və Bakının hakimi təyin edəndə də İbrahim Şirvanşah adını və öz mövqeyini qoruyub saxlamağa müvəffəq oldu.

H. 787 (1385/6)-cı ildə Toxtamışın doxsan minlik ordusu Dərbənd keçidindən Şirvana hücum etdi. Teymurun oğlu Miranşah atasının və Şirvanşahın qoşunlarının köməyinə çataraq Toxtamışı məğlubiyyətə uğratdı və Dərbənddən qovub çıxardı. Teymur h. 797 (1394/1395)-ci ildə Dərbənddən keçərək Toxtamış üzərinə yürüşə gedərkən Şeyx İbrahim Şirvan qoşunları ilə onu müşayiət edirdi. H. 798 (1395/6)-ci ildə Toxtamışın qoşunlarını təqib edən Teymur Dağıstan ərazisinə girdi və burada haydak əhalisinin şiddətli müqaviməti ilə qarşılaşdı. Teymur Dəmir Qapıdan keçmək qərarına gələndə başa düşdü ki, o, ilk növbədə, həmin ölkəni tabe etdikdən sonra Böyük «Tatarıstana» soxula bilər. Teymur dəfələrlə Azərbaycandan keçərək Gürcüstana və şimala gəlmiş və həmin səfərlərdə Şeyx İbrahim Şirvan qoşunları ilə onu müşayiət etmişdir. Teymur Şeyx İbrahimə Dərbəndi və Şimal sərhəddini qorumağı tapşırmışdı. O vaxt da Dərbənd Şirvanşahın torpaqlarına daxil idi.

Teymurun vassalı olan İbrahim onun adından sikkə kəsdirirdi. XIV əsrin sonlarında Şirvanın bir sıra şəhərlərinin – Bakının, Dərbəndin, Şamaxının zərbxanalarında Teymurun adından sikkə zərb olunurdu. Şeyx İbrahimin vaxtında – h. 791-792 (1388/9-1389/90)-ci illərdə və sonralar, XIV əsrin sonralarında Bakı, Şamaxı, Şəbəran, Dərbənd şəhərlərində kəsilən Şirvan sikkələri gah Teymurun, gah da Toxtamışın adından zərb olunurdu. Toxtamışın darmadağın edilməsi və Teymurun h. 797 (1394/1395)-ci ildə Dərbənddən keçərək Qızıl Ordu ərazisinə hücum etməsi ilə əlaqədar olaraq Şirvanın şimal tərəfdən təhlükəsizliyi uzun müddətə təmin edilmişdi. 1403-cü ilə qədər Teymur bir neçə dəfə Qarabağ və Şirvandan keçərək Gürcüstana və Dərbəndi Şimala arxasına gedib-gəlmiş və çox vaxt Qarabağda və Muğan düzündəki Mahmudabadda qışlamışdı.

I Şeyx İbrahim zamanında Dərbənd mahalı, Cənubi Dağıstanın Samur vadisindəki kənd və icmaları Şirvanın tərkibində idi. Şeyx İbrahiminin fərmanı ilə XIV əsrin sonu - XV əsrin əvvəllərində Axtı, Miskinçi, Doqquzpara, Mükrək, Kürə kəndlərinin, Xakül-Məkə, Xınalıq, əl-Fiy, əl-Məzə qalalarının idarə olunması Qaytaq usmisinin (hakiminin) oğlu Məhəmməd bəyə həvalə edilmişdi. Şirvanın vassalı Məhəmməd bəyin nəsilləri sonralar da həmin ərazini, habelə Kurax və Tabasaranı idarə etmişlər.

VII cildlik «Azərbaycan tarixi»nin III cildində məlumat verilir ki, 1395-ci ilin baharında Teymur Dərbənddən keçərək Qızıl Ordu üzərinə hücum etdi. Şirvanşah İbrahimin və Marağa hakimi Əmir Yadigarın iştirak etdiyi bu yürüşdən 1396-cı ilin baharında qələbə ilə qayıtmış Teymur şimal sərhədlərinin qorunması məqsədilə Dərbəndin müdafiə istehkamlarını daha da möhkəmləndirdi. Şirvanşah İbrahim Şirvanın hakimi kimi tanındı və o da şimal sərhədinin müdafiəsi ilə məşğul oldu.

Əlincə qalası istisna olunmaqla, bütün Azərbaycanı zəbt etmiş Teymur oğlu Miranşahı Dərbənddən Bağdada, Həmədandan Ruma qədər olan böyük bir əraziyə hakim təyin etdi, özü isə Səmərqəndə qayıdaraq oradan Hindistan səfərinə getdi.

Azərbaycanda və Cənubi Qafqazda baş verən hadisələrdən xəbərdar olan, Miranşahın vəziyyəti nizamlamaqda acizliyini hiss edən Teymur Hindistan səfərindən qayıtdıqdan sonra (1399-cu ilin sentyabr ayinda) yenidən Azərbaycana yürüş etdi.

Azərbaycana gəlmiş Teymur Qarabağdan Gürcüstana getdi və Kür çayının sahillərində məskən saldı. Bu zaman Cənubi Qafqazın bir sıra vilayət hakimləri onun hüzuruna gedib itaət edəcəklərini bildirdilər. Həmin hakimlərlə Teymur arasındakı münasibətlərin yaxşılaşdırılmasında Şirvanşah İbrahimin böyük rolu oldu. Seydi Ə1i öldüyü üçün Şəki vilayətinə hakimlik edən oğlu Seydi Əhməd, həmçinin gürcü çarı Georgi Şirvanşah İbrahimin vasitəçiliyi ilə Teymurun yanına gedib, onunla ittifaqa girdilər.

Teymurun bu yürüşü zamanı uzun müddət cəsarətlə müdafiə olunan Əlincə qalası da tabe edildi. Qalada baş vermiş çəkişmələr onun süqutu üçün əsas səbəb oldu.

Teymur bir müddətdən sonra Səmərqəndə qayıtdı və 1405-ci ildə vəfat etdi. Azərbaycan bu dövrdə Miranşahın oğlu Mirzə Ömərin ixtiyarında, Şirvan isə Ibrahimin hakimiyyəti altında idi.

Teymurun ölümündən sonra onun imperiyasi daxilində çəkişmələr başlandı və «Teymur vəliəhdliyi» uğrunda feodal müharibələri şiddətləndi. İmpe-

riyanın mərkəzində baş vermiş hadisələr ucqarlara da təsir göstərdi. Azərbaycan hakimi Mirzə Ömər Teymurun ölüm xəbərini alan kimi öz adına xütbə oxutdurdu və sikkə zərb etdirməklə imperiyanın təsirindən çıxmağa səy göstərdi. İmperiyanın bir çox ərazilərində azadlıq hərəkatı genişləndi. Vəziyyətdən istifadə edən Şirvanşah İbrahim tabeçilikdən imtina etdi, tam müstəqillik qazandı. Teymurilər Şirvanın müstəqilliyini tanımalı oldular.

VII cildlik «Azərbaycan tarixi»nin III cildində Azərbaycan-Rusiya münasibətləri haqqında bildirilir ki, XV əsrdə Azərbaycan Şirvanşahlar dövləti ilə Moskva knyazlığı arasında daha geniş əlaqələr yaranmışdı. Şirvan tacirləri Dərbənd keçidindən şimala gedən karvan yolu və Xəzər-Volqa su yolu ilə Volqaboyu xalqlarla, Moskva dövləti ilə geniş ticarət əlaqələri saxlayırdılar. Şirvanşahlar dövlətinin mühüm liman şəhərləri olan Bakı**,** Niyazabad və Dərbənddən, Yaxın və Orta Şərqin ən böyük sənətkarlıq və ticarət mərkəzlərindən biri olan Şamaxıdan Volqaboyuna və Moskva knyazlığı ərazisinə cürbəcür ipək və pambıq parçalar**,** xam ipək, xalça-palaz məmulatı, zinət əşyaları, ədviyyat, tumac, düyü, qoz-fındıq, neft, duz, müxtəlif silahlar və s. ixrac olunurdu. Azərbaycan-Moskva ticarət əlaqələrinin həyata keçirilməsində Həştərxan mühüm rol oynayırdı. Azərbaycan tacirləri Həştərxandan sonra səfərlərini davam etdirərək su və karvan yolları ilə Moskvaya, Tverə və başqa ticarət mərkəzlərinə gedirdilər. Rus tacirləri isə Həştərxandan cənuba enir, Şirvanın mühüm ticarət mərkəzlərinə, o cümlədən Şamaxıya gəlir, buradan isə yollarına davam edərək İran vilayətlərinə gedib çıxırdılar. Rus tacirləri Azərbaycan bazarlarına cürbəcür xəz dərilər, o cümlədən samur xəzi, bal, mum, kətan parçalar, gön, qab-qacaq, yaraq-əsləhə, ov quşları və s. gətirirdilər.

Şirvanşahlar dövləti ilə Moskva knyazlığı arasında diplomatik münasibətlər də yaranmışdı. Şirvanşah Fərrux Yasarın (1462-1500) elçisi – Azərbaycan diplomatı Həsən bəy 1465-ci ildə Moskvaya getmiş, III Ivanla danışıqlar aparmışdı. Moskva knyazı isə 1466-cı ildə Vasili Papinin başçılığı ilə Azərbaycana xüsusi səfirlik göndərmişdi. 1465-1466-cı illərdə Şirvanşahlar dövləti və Moskva knyazlığı arasında aparılmış danışıqlar tərəflər arasında qarşılıqlı surətdə faydalı olan ticarət əlaqələrini genişləndirmək məqsədinə xidmət edirdi.

XV əsrdə Azərbaycan-Rusiya əlaqələri barədə səyyah Afanasi Nikitinin «Üç dəniz arxasına səyahət» adlı gündəliyində də maraqlı məlumatlar vardır. Afanasi Nikitin o dövrdə Şirvanla geniş ticarət əlaqələri saxlayan Tver şəhərindən idi. Səyyahın gündəliyindən məlum olur ki, ticarət məqsədilə Şamaxıya getməyə hazırlaşan bir dəstə Tver taciri (o cümlədən Afanasi Nikitin), Vasili Papin başda olmaqla Şirvana göndərilən Moskva elçilərinə qoşulmaq ücün Nijni-Novqoroda yola düşmüşdü. Lakin tverlilər Nijni-Novqoroda çatanadək Vasili Papin getmiş və onlar III İvanla danışıqlar aparıb Moskvadan qayıdan Şirvan hökümdarının elçisi Həsən bəyi gözləməli olmuşdular.

Afanasi Nikitinin gündəliyindən məlum olur ki, yolda tatarlar tərəfindən qarət edilən, sonra isə Qaytaq hakimi tərəfindən əsir alınan rus tacirlərini Fərrux Yasar azad etdirmiş və Şamaxıda onları çox yaxşı qarşılamışdı. Vətənə qayıtmaq ücün vəsaiti olmayan bəzi rus tacirləri Şamaxıda qalmış, digərləri isə Şirvanın başqa şəhərlərinə dağılışmışdılar. Afanasi Nikitin geriyə – Moskvaya yola düşərək Dərbəndə çatmış, burada isə fikrini dəyişib Bakıya qayıtmışdı.

«Azərbaycan tarixi»nin III cildində verilən məlumata görə, Azərbaycanın zəngin təbii sərvətləri və münbit torpaqları əzəldən Qızıl Orda xanlarının da diqqətini cəlb etmişdi. Qızıl Orda xanları Elxanilər dövlətinə qarşı Azərbaycan uğrunda uzun-uzadı mübarizədə nəticə etibarilə müvəffəqiyyt əldə edə bilmədilər. Onların Dərbənddən cənuba tərəf basqınları ölkəyə boyük zərər yetirdisə də, bu hücumlar Elxanilər tərəfindən dəf edildi. Toxtamışın da ölkəni ələ kecirmək cəhdləri Teymurun və Şirvanşahların müqavimətinə rast gələrək boşa çıxmışdı.

Azərbaycan uğrunda Teymurla Toxtamış arasında gedən mübarizə Teymurilərin xeyrinə qurtardı. Teymur 1395-ci ildə Dərbənddən şimala keçərək Qızıl Orda xanının torpaqlarına soxuldu. Bu yürüşdə Şirvanşah I İbrahim də iştirak edirdi. Teymurun qoşunları Həştərxan və Saray şəhərlərini viran etdilər (1395). Beləliklə, Azərbaycan Qızıl Orda xanlarının basqınlarından xilas oldu və qısa müddətə Teymurun əsarəti altına düşdü.

XV əsrin ortalarında Cahanşahın köməyi ilə Ərdəbildə Səfəviyyə təriqətinin rəhbərliyinə Şeyx

Cüneydin əmisi Şeyx Cəfər (1449-1470) keçdi. 1459-cu ildə Şeyx Cüneyd Ərdəbilə qayıtmaq istədi, lakin əmisi buna icazə vermədi. O, bir dəstə müridlə Şirvana qəzəvat yürüşü təşkil etdi və sonra qışlamaq üçün Qarabağa qayıtdı. 1460-cı ildə Cüneyd bir daha Dərbənddən şimala hərbi səfərə çıxdı. Səfərlər vaxtı müridlər hər dəfə Şirvandan keçməli olurdular, bu isə Şirvanşah Fərrux Yasarı narahat etməyə bilməzdi. Bu dəfə Şirvan qoşunları Cüneydin yolunu kəsdilər. Martın 4-də Samur çayı sahilində baş vermiş döyüşdə Şeyx Cüneyd həlak oldu.

Şeyx Cüneydin oğlu Şeyx Heydər atasının siyasətini inadla davam etdirdi. O, Uzun Həsənin qızı Aləmşah bəyimlə evlənərək öz hökmdar dayısı ilə ittifaqı daha da möhkəmləndirdi, Cahanşah Qaraqoyunlu və Teymuri Əbu Səidlə mübarizədə Uzun Həsənə kömək etdi. Ağqoyunlu hökmdarı 1470-ci ildə Şeyx Heydəri Ərdəbilə gətirdi və təriqət rəhbərliyini ona qaytardı.

Şeyx Heydər döyüşçülərinə 12 şiə imamı şərəfinə 12 qırmızı zolaqlı papaq geydirdi. Bundan sonra Ərdəbil şeyxinin bütün tərəfdarlarını «qızılbaş» adlandırmağa başladılar. Qızılbaşlar Azərbaycan dilində «qurban olduğum, sadağa olduğum, pirim, mürşidim» çağırışları ilə döyüşə girirdilər. Dağıstana, «kafirlərə» qarşı cihad yürüşləri davam edirdi. Zəngin qənimət ələ keçirmiş Ərdəbil şeyxləri daha da qüvvətlənmişdilər. 1488-ci ildə Şeyx Heydərin Dağıstana növbəti yürüşü zamanı Şirvanşah Fərrux Yasar Ağqoyunlu Sultan Yaqubdan kömək istədi. Tabasaranda, Şahdağın ətəyində Ağqoyunlu sərkərdəsi Süleyman bəy Bicənoğlunun qoşunu ilə toqquşmada qızılbaşlar məğlub oldular. Şeyx Heydər isə öldürüldü.

Beləliklə, XV əsrin ikinci yarısında Səfəvi şeyxləri Cüneydin və Heydərin Azərbaycanda dövlət qurmaq cəhdləri boşa çıxdı.

VII cildlik «Azərbaycan tarixi»nin III cildində göstərilir ki, XV əsrin sonunda Azərbaycan ərazisində Şirvanşahlar və Ağqoyunlu dövlətləri mövcud idi. Ərdəbil şəhərini idarə edən və Səfəviyyə təriqətinin davamçıları olan feodal nümayəndələri də özünəməxsus «Ərdəbil hakimliyi» yaratmışdılar; onlar Ağqoyunlulardan asılı idilər, lakin Ərdəbil və ətraf əraziləri müstəqil surətdə idarə edirdilər. Azərbaycanda feodal müharibələrindən müsibətlər çəkmiş xalq içərisində vahid dövlət yaratmaq və siyasi çəkişmələrə son qoymaq meyilləri güclənirdi.

Şeyx Cüneydin ölümündən sonra Şeyx Heydər atasının siyasətini davam etdirdi. Lakin o, Şirvanla daha ehtiyatla davranaraq oraya birdən-birə hücuma keçməyə cürət etmədi. Dayısı Uzun Həsənin oğlu Yaqubla Heydərin münasibəti gərgin idi. Belə münasibətə səbəb Ərdəbildə hakimlik edən Səfəvi şeyxlərinin güclənməsi və Ağqoyunlu hökmdarının bundan təşvişə düşməsi idi.

Heydərin Şirvana hücumu zamanı Mahmudabad şəhərində ona müqavimət göstərmiş əhali qızğın döyüşdən sonra məğlub edilmişdi. Lakin Heydər bu qələbədən sonra ehtiyat edərək, Şamaxıya deyil, Dərbəndə hücum etməyi qərara aldı.

Artıq yuxarıda deyildiyi kimi vəziyyətin təhlükəli olduğunu anlayan Fərrux Yasar kürəkəni Yaqub padşahdan kömək istəməyə məcbur oldu. Ağqoyunlu hökmdarının fəal köməyi və Şirvan döyüşçülərinin hərbi bacarığı nəticəsində Heydər 1488-ci il iyunun 30-da Tabasaranda məğlub edildi və özü də həlak oldu. Beləliklə, Səfəvilərin siyasi hakimiyyəti əldə etmək uğrunda hələ XV əsrin ortalarında başlanmış mübarizəsi növbəti müvəffəqiyyətsizliyə uğradı.

«Azərbaycan tarixi»nin III cildində qeyd edilir ki, 1509-cu ilin qışında qızılbaşların Şirvana yürüşü oldu. Yürüşə İsmayıl özü rəhbərlik edirdi. Qızılbaş qoşunu Cavad yaxınlığında Kür çayını keçərək Şirvana daxil oldu. İsmayılın üstün qüvvələri ilə toqquşmadan çəkinən Şeyxşah Buğurd qalasında gizləndi. Qoşunun bir hissəsini Şamaxıya göndərmiş İsmayıl Bakıya doğru hərəkət etdi. Bakı və Şabranın qalabəyləri şəhər qapılarının açarlarını Səfəvi şahına təqdim etdilər. Şirvanın digər qalabəyləri də hədiyyələrlə İsmayılın hüzuruna gəldilər. Dərbənd rəisləri Yarəhməd və Ağa Məhəmməd bəy nəinki şahın yanına gəlmədilər, hətta ənənəvi «peşkəş» də göndərmədilər. Qızılbaşlar Dərbəndə hərəkət edərək onu mühasirəyə aldılar. Beş gün ərzində qala divarları altından 12 lağım atıldı. Şəhərin müdafiəçiləri silahı yerə qoymağa məcbur oldular.

AMEA-nın müxbir üzvü Oqtay Əfəndiyev «Azərbaycan Səfəvilər dövləti» kitabında Dərbənd və Şirvan bəylərbəyi Əlqas Mirzənin qiyamını təhlil edərək bildirir ki, yeni Osmanlı basqını ərəfəsində Şirvan bəylərbəyi, şahın qardaşı Əlqas Mirzənin qiyamı Səfəvilər dövlətinin vəziyyətini

mürəkkəbləşdirdi. Yerli Şirvan əyanlarının separatçılığından istifadə edən Əlqas Mirzə özünü müstəqil dövlət başçısı elan etmək qərarına gəldi.

1546-cı ilin əvvəlində Qəzvində qışlama zamanı Şirvandan qaçmış Oruc ağa Rumlu adlı bir şəxs şahın yanına gələrək Əlqas Mirzənin hazırladığı qiyam barədə ona məlumat verdi. Bu xəbər sarayda müzakirə edildiyi bir zaman, Əlqas Mirzədən qaçmış Zeynal xanın oğlu, möhrdar olmuş Sultan Mahmud, Mirzə və Kərəm Mirzə gəlib çıxdılar, artıq qiyam hazırlandığına şübhə qalmadı. Lakin Budaq Qəzvininin məlumat verdiyi kimi, əmirlər belə bir fikir söylədilər ki, özlərini məlumatsız kimi qələmə verib qaçanları həbs etsinlər və Əlqas Mirzəyə göndərsinlər. Şah onların fikri ilə razılaşmadığını bildirdi. «Bu nə söhbətdir? Onlar bu mənfurun tuğrası olan və mənim əvəzimdən möhür vurmuş fərmanını bura çatdırdıqdan sonra mən necə yol verə bilərəm ki, mənə qarşı səmimi olduqlarını ifadə edərək yanıma gəlmiş adamlar məhv edilsinlər. Əgər mən belə edərəmsə, bundan sonra heç kəs mənim yanıma gəlməz». O, elə oradaca Sultan Mahmuda xanlıq, Oruc ağaya isə mehmandar vəzifəsi bağışladı.

1546-cı ilin yazında I Şah Təhmasib qoşunla Təbrizə hərəkət etdi və Əlqas Mirzə ilə danışıqlar aparmaq üçün Ürgənc oğlunu Şirvana göndərdi. Əlqas Mirzə əvvəlcə itaət göstərməkdən imtina etdi. Lakin şahın öz qoşunları ilə yaxınlaşdığını biləndə, anası Xanbəyi xanımı və böyük oğlu Sultan Əhmədi şah sarayının yerləşdiyi Çərəndaba göndərdi. Ana öz oğlunun peşman olduğunu və bunun bir daha təkrar olunmayacağı barədə vəd verməklə bağışlanmaq xahişini şaha xəbər verdi. Şah Xanbəyi xanımla birlikdə öz müvəkkillərinin eşikağasıbaşı Seyid bəy Məhəmməd Kəmunəni, qorçibaşı Sevindik bəy Əfşarı, möhrdar Şahqulu bəy Zülqədəri, divan əmiri Bədr xan Ustaclını, Ərdəbil türbəsinin mütəvəllisi Məsum bəy Şeyxavəndi (Səfəvini) və digər adlı-sanlı adamları danışıqlar aparmaq üçün Əlqas Mirzənin yanına göndərdi. Əlqas Mirzə ilə görüş Cavadda oldu. Əlqas Mirzənin ən yaxın adamlarından olan bəzi əmirlər onu dilə tutdular ki, şahın elçilərini həbs etsin. Lakin o, buna razı olmadı. I Şah Təhmasibin elçiləri ona hər il xəzinəyə min Təbriz tüməni məbləğində pul verməsi və hərbi xidmət üçün min atlı göndərməsi barədə öhdəlik götürməsi haqqında and içdirdilər. Qarşıdan gələn qışda «kafirlərin ölkəsinə» yürüşlər kecirmək barədə razılıq əldə edildi. 1547-ci ilin əvvəlində I Şah Təhmasib böyük qoşunla Şuragöldən (Şorəgöldən) kecərək Gürcüstana hərəkət etdi. Eyni vəxtda Əlqas Mirzə də həmin məqsədlə «çərkəz diyarına» yola düşdü. Lakin əmirlər Şirvandan qayıtdıqdan sonra paytaxtda qızılbaş əyanları arasında baş vermiş tayfa münaqişəsindən istifadə edən Əlqas Mirzə yenidən özünü müstəqil hakim elan etdi və öz adından məscidlərdə xütbə oxutdurdu, pul zərb etdirdi. Buna görə də I Şah Təhmasib Gürcüstandan qayıdarkən ozünün qiyamçı qardaşı ilə hesablaşmaq qərarına gəldi.

Şah Gürcüstan yürüşündən qayıdarkən Gəncədən keçdi, Yevlax adlanan yerdə dayandı. O, buradan 5 min atlı ilə İbrahim xan Zülqədəri, Hüseyncan Sultan Rumlunu, Göyçə Sultan Qacarı, Şahverdi Sultan Ziyad oğlunu, Xacə Basanı Şamaxıya göndərdi. Əlqasın əmiri Mehtər Dövlətyar bundan xəbər tutub Əlqasın ailəsini də özü ilə götürdü və Gülüstan qalasında gizləndi. Şahın əmirləri qalanı mühasirəyə aldılar. Şah özü Zilhiccənin 11-də (fevralın 2-də) Qoyun ölümü keçidinin yanında Kürü keçdi, Ərəşi ötərək Əli Şabana gəldi. Şah, Süleyman Çələbi adlı bir şəxsi 600 nəfərlik dəstə ilə Gülüstan qalasının cənubundan Dərbənd üzərinə göndərdi. O, qaladan bir fərsəx (6-7 km) aralı Qəbələ kələntərinin dəstəsi ilə toqquşdu və onu darmadağın etdi. Süleyman Çələbi Dərbənd divarları arxasında gizlənmiş Sarı Kəymasibi və Dəli Kəymasibi də məğlubiyyətə uğratdı.

Eyni zamanda Əlqas Mirzə şahın elçiləri ilə Cavadda görüşdükdən sonra altı minlik qoşunla Dərbənddən Cənubi Dağıstana (Diyari-Çərkəzə) hərəkət etdi. Həsən bəy Rumlunun məlumatına əsasən, burada soyuqlar düşdüyündən Əlqasın qoşunu müvəffəqiyyət qazanmadı. Əlqas geri qayıdarkən «çərkəzlərlə» döyüşdə məğlub oldu. Bu yürüşdə iştirak etmiş Şəki xanı Dərviş Məhəmməd xanın qardaşı Şahnəzər də nizə ilə vurulub atdan salındı və həlak oldu. Pərvəndi Ağa Rumlu və Əlqas Mirzənin bir çox yaxın adamları da həlak oldular. Bu qələbədən ruhlanan «çərkəzlər» öz qüvvələrini toplayıb yenidən Əlqasa hücüm etdilər, lakin bu dəfə geri çəkilməyə məcbur oldular. Əlqas seyrəlmiş qoşunu ilə Şamxalın mülkü Tərkidən kecərək Dərbəndə çatdı.

Burada Əlqas Mirzə xəbər tutdu ki, I Şah Təhmasib otuz min nəfərlik ordu ilə Şirvandadır.

Əlqas Mirzə Sarı Keymasibin və Dəli Keymasibin başçılığı ilə dəstəni şaha qarşı göndərdi. Onlar Samur çayının sahillərində Şahverdi Sultan Ziyadoğlu Qacar, Məhəmməd bəy Türkman, Suleyman bəy Çələbi Cəpni və Məhəmməd bəy Şirbəxt oğlu Talışın qoşunları ilə qarşılaşdılar və darmadağın edildilər. Əlqasın Məhəmməd bəy Əfşarın başçılığı altında olan başqa bir dəstəsi Qəbələdə darmadağın edildi. Əlqasın qayıtması xəbərini alan şah Şahqulu Xəlifə möhrdarı, Bədr xan Ustaclını, Hüseyncan Sultan Rumlunu və Çıraq Sultan Ustaclını Dərbəndə yolladı. Əlqas Xınalığa qaçdı. Qoşun kütləvi şəkildə sahın tərəfinə keçməyə başladı. Əlqas öz qoşunlarının qalıqları ilə Xınalıqdan şimala hərəkət etdi və Samur çayını keçdi. Qızılbaşların irəlidə gedən hissələri təqibə başlayaraq, «Şirvanın dağətəyində», Axtı mahalının Miskincə kəndində ona çatdılar və qoşununu darmadağın etdilər. Əlqas döyüşdə yaralandı, kiçik dəstəsi ilə dağlarda gizlənə bildi və özünü Şamxalın ölkəsinə çatdırdı. Sonra o, Azov dənizinə keçərək Kəfəyə (Feodosiyaya) gəldi, oradan isə İstanbula yola düşdü.

Əlqas qaçdıqdan daha bir müddət sonra onun yaxın adamları Gülüstan və Dərbənd qalasında şah qoşunlarına müqavimət göstərdilər. Mehtər Dövlətyar Gülüstan qalasında şah qoşunlarına müqavimət göstərirdi. Muhasirəyə alınanlar şahın danışıqlar üçün göndərdiyi elçini edam etdilər. Qizilbaşlar üç ay müddətində, demək olar ki, alınmaz olan qalanı heç bir nəticə əldə etmədən muhasirədə saxladılar. Həsən bəy Rumlu göstərir ki, qala qadınların köməyi sayəsində tutuldu. Dövlətyarın əlindən qəzəblənmis qadınlar alaçıq kəndirlərini şamlı qorçularına ataraq onları qala divarlarının üstünə qaldırdılar. Gülüstan qalası alındı və şahın əmri ilə dağıdıldı. Şahqulu Xəlifə və Hüseyncan Sultan Dərbəndin yanından keçərək Qaytağı viran etdilər, sakinlərdən qarət etdikləri böyük qənimətlə geri döndülər.

Bəhram Mirzə və Abdulla xan Ustaclı qoşunla Dərbəndi mühasirəyə alan əmirlərin köməyinə gəldilər. Dərbəndin qalabəyi Köhnə Şahverdi uzunmüddətli mühasirəyə hazırlaşdı. Qızılbaşlar iki-üç ay ərzində qala bürcünün altından lağım atır və toplardan istifadə edirdilər. Yalnız divar uçurulduqdan sonra Köhnə Şahverdi Əlqas Mirzənin anası Xanbəyi xanımla birlikdə qaladan çıxaraq şaha təslim oldular. Həsən bəy Rumlu xəbər verir ki, elə həmin vaxtda Sulut qalasının hakimi Məsih Şirvani adlı bir şəxs də şahın yanına gəldi və qalanı təslim etdi. Beləliklə, Şirvan əslində «ikinci dəfə» I Şah Təhmasib tərəfindən fəth olundu. Şahın oğlu İsmayıl Mirzə (gələcək II Şah İsmayıl) Şirvana yeni bəylərbəyi təyin olundu, onun lələsi Göyçə Sultan Qacar isə ona köməkçi kimi saxlanıldı. 1547-ci ilin payızında Şirvanın idarə aparatını qiyamçılardan, Əlqas Mirzənin yaxın adamlarından təmizləyən Şah Təhmasib Təbrizə qayıtdı.

Sara Aşurbəylinin «Şirvanşahlar dövləti» əsərində göstərilir ki, Şah İsmayıl Şirvanı işğal etsə də, Şirvanşahların hakimiyyətini tanımış, onları hakimlikdə saxlamışdı.

Sonralar osmanlılar Azərbaycanı işğal edəndə Şirvan əhalisi burada qalmış qızılbaşları qırmışlar. Ehtimal ki, qızılbaşların ağır vergilərindən və zülmündən cana gəlmiş Şirvan əhalisi Osmanlıların gəlişi ilə oturaq əhali üçün daha əlverişli şərait mövcud olan Şirvanşahlar dövlətinin keçmiş müstəqilliyinin bərpa edilməsinə ümid bəsləyirdi. Belə ki, Dərbənd sakinləri Osmanlı ordusunun şəhərə hücumu ərəfəsində qiyam qaldıraraq 300 qızılbaşı öldürmüşdü.

Osmanlı türkləri tutduqları Azərbaycan şəhərlərində öz qarnizonlarını yerləşdirdilər və ölkəni paşalıqlara və sancaqlara böldülər. Şirvan iki bəylərbəyliyə – Şamaxı və Dərbənd bəylərbəyliklərinə bölündü.

Dərbənd vilayəti 8 sancaqdan ibarət idi: Dəmirqapı (Sancaq başı), Şabran, Axtı, Quba, Müşkür, Kürə, Ciraq, Rustov.

Şah Məhəmməd Xudabəndə osmanlılarla mübarizə aparmaq üçün qızılbaş əmirlərinin başçılığı ilə Şirvana qoşun göndərdi. Səfəvi qoşunları Bakını mühasirəyə aldı. Lakin qalanın osmanlıların vəzifəyə təyin etdikləri Əhməd bəyin rəhbərliyi ilə inadla müdafiə olunması, Dərbənddən dəniz yolu ilə kömək – barıt və silah alınması – mühasirədəklərin Bakını qoruyub saxlamasına kömək etdi.

1562-ci ildə Moskva şirkətinin agenti, ingilis səyyahı Cenkinson Şirvana gəldi. Cenkinson Azərbaycanda olarkən Dərbənd, Şamaxı, Cavad və digər şəhərlərə getmişdi. O, məktublarında səyahətini təsvir edərək, Şirvanın şəhərləri haqqında, xüsusilə Şamaxı və Dərbənd barədə ətraflı məlumat vermişdi.

1578-ci ildə Osmanlı Türkiyəsi qoşunları

Azərbaycanın şimal əyaləti Şirvana girdilər. Onlar Şirvanı işğal edəndə ingilis ticarət şirkətinin qulluqçusu Xristofer Berrou orada olmuşdur. O, buraya yuxarıda adı çəkilən Moskva şirkətinin tapşırığı ilə həmin ekspedisiyanın iştirakçısı Artur Eduardla birlikdə gəlmişdi.

Gilan tacirlərinin Bakı ilə ticarəti osmanlı türkləri 1578-ci ildə Xəzər dənizinin Bakıdan Dərbəndədək qərb sahillərini tutandan, rus tacirlərinin Həştərxandan Səfəvilər dövlətinə dəniz ticarəti yolu Xəzər dənizinin şərq sahillərinə keçəndən sonra da kəsilmədi. XVI əsrdə Qərbi Avropa ölkələrindən, Fransa və İngiltərədən Şirvan şəhərlərinə – Bakıya, Şamaxıya, Dərbəndə Şirvanın feodal əyanlarının istifadə etdikləri məxmər, al parça, atlas, zərxara, müxtəlif rəngli bahalı ingilis mahudları, qarazehi idxal olunurdu.

«Azərbaycan tarixi»nin III cildindəki verilən məlumata əsasən l578-ci il avqustun 24-də Osmanlı ordusu Qanıx (Alazan) çayını keçdi və Şirvana daxil oldu. Şirvan bəylərbəyi Aras xan Rumlu düşmənin qat-qat üstün qüvvələri qarşısında Şirvanı tərk edərək, Kürün cənub sahilinə geri çəkildi. Osmanlılar Şəki, Ərəş, Şamaxı, Qəbələ, Bakı, Şabran, Mahmudabad və Salyan şəhərlərini asanlıqla tutdular. Şirvan əhalisi qızılbaşlara qarşı qiyam qaldırdı. Dərbəndin qızılbaş hakimi Çıraq xəlifə osmanlıların şəhərə daxil olması ərəfəsində üsyan qaldırmış şəhərlilər tərəfindən öldürüldü.

Şirvanın Osmanlı hakimi Özdəmirin oğlu Osman paşa Əbubəkri müdafiə edən Şirvan əyanlarına qarşı çıxdı, onları tərk etdi və Dərbəndi özünə iqamətgəh seçdi. Şirvan ərazisi hər biri 16 və 8 sancaqdan ibarət olan Şamaxı və Dərbənd vilayətlərinə bölündü. Əbubəkr Mirzəyə Şirvanda Osmanlı hakimiyyətini möhkəmləndirmək üçün Osman paşaya kömək etmək göstərişi verilmişdi. Bununla da Osmanlı sultanı Şirvan feodallarının keçmiş müstəqilliklərini bərpa etmək ümidlərini puça çıxarmışdı.

Lələ paşa İstanbula qayıtdıqdan sonra Aras xan Rumlu Kürü keçdi və Osman paşanı Şamaxıdan çıxarmağa cəhd göstərdi. Lakin bu zaman şimaldan Şirvana soxulmuş Krım xanının ordusu mühasirədə olan düşmənin köməyinə yetişdi. Bərabər olmayan şiddətli döyüşdə mühasirəyə düşmüş qızılbaş dəstəsi darmadağın edildi, Aras xan isə oldürüldü.

AMEA-nın müxbir üzvü Oqtay Əfəndiyev «Azərbaycan Səfəvilər dövləti» adlı əsərində Dərbənd və Şirvana basqını təhlil edərək xəbər verir ki, 1578-ci il sentyabrın əvvəlində Osmanlı qoşunları Qanıx (Alazan) çayına çatdılar. Onlar əhalisi və yaşıllığı olmayan Şirək düzündən keçərək ərzaq cəhətdən ciddi çətinlik çəkdilər.

Aclıq və üzücü yürüş işğalçıların mənəvi ruhunu əsaslı surətdə sarsıtdı. Sipahilər (süvarilər) və yeniçərilər yürüşdən imtina edərək geri qayıtmağı tələb etdilər. Osmanlı səlnaməçilərinin yazdığına görə, hətta bir qrup döyüşçü sərkərdəyə yaxınlaşaraq bildirdi: «Sən bizi dəli edəcəksən. Nə vəxtadək bu boş və yaşayış olmayan çöllərlə gedəcəksən. Sən qayıtmalısan. Biz qayıtmağa etiraz edən yoldaşlarımızı öldürərik. Bizim üçün əvvəlcə həyat, sonra isə (bütün) dünya vacibdir. Biz nə Qanıxdan keçmək, nə də Şirvan ölkəsini ələ keçirmək arzusunda deyilik».

İsgəndər bəy Münşinin məlumatına görə, xeyli yubanmadan sonra Əmir xan 10 minlik qoşunla Təbrizdən çıxaraq Məhəmmədi xan Toxmağın köməyinə gəldi. Osmanlıların Çıldır yaxınlığındakı qələbələrindən sonra Mustafa paşanın Gürcüstan və Şirvan istiqamətində hərəkət etməsi xəbəri ona çatdı. Əmir xan Qarabağa tərəf yeridi, burada ona qoşulan İmamqulu xanla bərabər Alazan sahilində Osmanlı ordusunun böyük dəstəsinə hücum etdilər. Qızılbaşlar 2 min nəfərə yaxın adam öldürdülər. Onların əlinə böyük miqdarda qənimət keçdi.

Bu məlumatı osmanlı türk tarixçisi Münəccimbaşı da təsdiq edir və əlavə olaraq göstərir ki, bu zaman qızılbaşlar ləvazimatı ilə birlikdə min dəvə və 3 min at ələ keçirmişdilər. Bundan əlavə, bir sıra Osmanlı başçıları qızılbaşlara əsir düşmüşdü. Bu qələbədən sonra Əmir xan Qarabağa qayıtmaq və Səfəvi şahzadəsi Həmzə Mirzənin başlıca qüvvələrinin yaxınlaşmasını gözləmək fikrində idi. Lakin onun oğlu Sultan Murad xan «dəliqanlı qızılbaş döyüşçüləri» dəstəsi ilə Alazan çayını keçdi və düşmənə bir daha zərbə endirdi. Lakin onun dəstəsi osmanlılar tərəfindən mühasirəyə alındı və darmadağın edildi. Bu döyüşdə 2-3 min nəfər qızılbaş həlak oldu. Bundan sonra Əmir xan öz qoşunlarının qalıqları ilə Təbrizə qayıtmağı daha düzgün çıxış yolu hesab etdi.

Osmanlı ordusu Şirvana daxil olduğu zaman yeni qiyam baş verdi. İş bundadır ki, Şirvanın qızılbaş hakimi Araz xan Rumlunun yaxınlaşdığını eşi-

dən Mustafa paşa Alazan çayını keçməyə tələsirdi. Sentyabrın 10-da səhərdən Osmanlı hissələri çayın sol sahilinə keçməyə başladılar. Çayın keçilməsi toran düşənə qədər uzandığından çayın daşması nəticəsində əsgərlərin bir hissəsi batmışdı. Bu, çayın sağ sahilində qalanlar arasında böyük vahimə yaranmasına səbəb oldu. Ertəsi gün səhər, ordu nümayəndələri dəstəsi Mustafa paşanın yanına gələrək qışın yaxınlaşdığını, əsgərlərin yorulduğunu və doyunca yeməməkdən taqətdən düşdüklərini bildirərək dərhal yürüşü dayandırmağı və vətənə qayıtmağı təkidlə tələb etdi. Sərkərdə öz əqidəsinin bütün qüvvəsini işə saldı və onlara böyük qənimət əldə edəcəklərini, Şirvanda ərzaq bolluğu ilə qarşılaşacaqlarını vəd etdi. O, döyüşçülərini şiələrin-qızılbaşların hakimiyyətini devirməkdə «kömək» etməli olduqları öz həmməzhəblərinə, yəni Şirvan sünnilərinə «xəyanət edəcəkləri təqdirdə» qiyamət günündə cəza alacaqları ilə qorxudurdu. Hər halda 2 min nəfərədək yeniçəri yollarına davam etməkdən imtina etdi və atəş açmaqla çayı keçənlərə mane olmağa cəhd göstərdilər. Oruc bəyə görə, çayın keçilməsi və Ərəşə qədər yol qət edilməsi türklərə 8 min insan həyatı bahasına başa gəlmişdi. Sentyabrın 16-da Mustafa paşa Ərəşə daxil oldu.

Osmanlılar burada təxminən üç həftə qalaraq dincəldilər və yürüşü davam etdirmək üçün özlərinə bir aylıq azuqə topladılar. Onlar qala tikərək orada Qaytas paşanın başçılığı ilə beş min nəfərlik hərbi dəstə yerləşdirdilər.

Ağıllı və təşəbbüskar hakim olan Şirvan bəylərbəyi düşmənin qat-qat üstün olan qüvvələri qarşısında tab gətirməyəcəyini hiss edərək Şirvanı tərk edib, Kürün cənub sahilində yerləşdi. Üstəlik də bu vaxt Dağıstandan Əbubəkir Mirzə ləzgi və şirvanlılardan ibarət üç minlik dəstə ilə Şirvana daxil oldu.

Osmanlı ordusu çox da çətinlik çəkmədən Ərəşdən başqa Şamaxı, Qəbələ, Bakı, Şabran, Mahmudabad və Salyanı ələ keçirdi. Professor İ.P.Petruşevski düzgün olaraq qeyd edir ki, «Osmanlı Türkiyəsinin Şirvanı işğal etməsini Azərbaycanın cənub hissəsində bir çox köçəri kürd tayfalarının, Şimali Azərbaycan əyanlarının bir (sünni) hissəsinin onun tərəfinə keçməsi, habelə qızılbaş əmirlərinin arasındakı didişmələr və onların ümümi rəhbərliyə tabe olmaq istəməməsi» asanlaşdırmışdı. İsgəndər bəy Münşinin göstərdiyi kimi, Şirvanın bəzi yaşayış yerlərinin sakinləri (rəiyyətləri), nəinki müqavimət göstərmirdilər, əksinə, hətta «qızılbaşlara qarşı qiyama və mübarizəyə» qalxırdılar. Bu həm qızılbaş feodallarının Şirvanın oturaq əkinçi əhalisinə etdiyi ağır zülmlə, həm də yerli sünni əyanların Şirvan bölgələrinin keçmiş müstəqilliyinə hələ ümidlərini itirmədikləri və öz arzularını sultan ordusunun gəlməsinə bağlamaları ilə izah olunurdu. Məsələn, Dərbəndin Səfəvi hakimi Çıraq Xəlifə 300 qızılbaşla birlikdə Osmanlı qoşunlarının şəhərə daxil olmasına qarşı çıxmış, lakin dərbəndlilərin qiyamı nəticəsində məhv edilmişdi.

Mustafa paşa Şirvanı tutduqdan sonra Şamaxıda Osmanlı sərkərdələrinin şurasını (divanını) çağırdı. Burada ölkədə sultan hakimiyyətini möhkəmləndirmək üçün tədbirlər müzakirə olundu. Şirvanda osmanlı hərbi-inzibati idarə sistemi tətbiq edildi.

Bir aydan sonra Mustafa paşa geriyə hərəkət etdi. O, buna bir sıra səbəblər üzündən məcbur olunmuşdu. Qızılbaşlarla qanlı döyüşlər, Gürcüstanda dəfələrlə pusqulardan edilmiş hücumlar, təbii fəlakətlər zamanı məruz qaldıqları təsirli itkilər – Osmanlı ordusunun ruhdan düşməsində böyük rol oynamışdı.

Artıq açıq qiyamlara keçən yürüşlə əlaqədar narazılıqlar baş alıb gedirdi. Nabələd ölkədə yaxınlaşmaqda olan qış osmanlı əsgərlərinə təskinverici heç nə vəd etmirdi. Buna görə də Mustafa paşa bu ölkədə qalmağı ağılsızlıq hesab edirdi. Zəbt etdikləri ölkədə özlərini həddən artıq inamsız hiss edirdilər. Bu baxımdan, belə bir fakt səciyyəvi idi ki, osmanlı baş komandanı Şirvandakı istilaları əldə saxlamağa öz sərkərdələri arasında həvəs göstərən şəxs tapa bilməmişdi. Şirvanda Osmanlı qoşunlarına komandanlıq etmək təklifi almış Diyarbəkir bəylərbəyi Dərviş paşa və Hələb (Aleppo) bəylərbəyi Məhəmməd paşa tələsik bundan imtina etmişdilər. Mustafa paşa bu vəzifəni Özdəmir oğlu Osman paşaya həvalə etməyə müvəffəq oldu. Sonuncu, sultanı müdafiə edən Dağıstan hakimlərinə bilavasitə yaxın olması sayəsində əlverişli olan Dərbəndi özünə iqamətgah seçdi. Mustafa paşa Ərzurumda qışlamağa getməzdən avvəl Şamaxıda, Ərəşdə, Bakıda və başqa şəhərlərdə qalaları möhkəmləndirdi və bu yerlərdə Osmanlı hərbi hissələri yerləşdirdi. Mustafa paşa Dağıstan hakimlərini sultana sədaqətlə xidmət etdiklərinə görə mükafatlandırmağı da unutmadı.

Qumuq və Qaytaq hakimi Çitlav Şamxal Şabran sancağını aldı, avar hakimi Toğa Laz Bürhanəddinə isə Axtı və İxir sancağı bağışlandı.

Tiflisdən keçərək Ərzuruma hərəkət edən osmanlı ordusunun geriyə qayıtdığı yol da osmanlı əsgərlərinin meyidləri ilə dolu idi. Hətta Osmanlı salnaməçilərinin etiraflarına görə, sentyabrın 25-də Tiflis və Qori arasında qopan qar çovğunu nəticəsində 5-6 min osmanlı əsgəri həlak oldu. Mustafa paşa Tiflis yaxınlığında osmanlıların keçəcəkləri yolda, meşə və cəngəlliklərdə pusqu qurmuş Qarabağ bəylərbəyi İmamqulu xanla Kartli çarı Simonun birgə hucumuna məruz qaldı. 20 min nəfərdən artıq osmanlı əsgəri öldürüldü, zəngin qənimət ələ keçirildi.

Türk mənbələrinə görə, Mustafa paşa Şirvandan getdikdən sonra Osman paşa Gəncəyə basqın təşkil etdi. Qaytas paşa başda olmaqla Osmanlı dəstəsi Kürü keçərək Gəncə bəylərindən biri olan Partal oğlu Əhməd bəyə hücum etdi. Sonuncu qaçdı, yaşayış yeri isə qarət və talanlara məruz qaldı. Osman paşa sonra Araz xan Rumlunun qüvvə topladığı Salyana dəstə göndərdi. Lakin qızılbaşlar osmanlıların hücumunu dəf etdilər və Xürrəm ağanı geri çəkilməyə məcbur edə bildilər. Araz xana qarşı müvəffəqiyyətsizliyə uğrayan Osman paşa Şamaxıda möhkəmlənməyi və Krım tatarlarının gəlişini gözləməyi qərara aldı. Bu vaxt Ərəsdə Qaytas paşa İmamqulu xan Qacarın qoşunlarının hücumuna məruz qaldı. Qızılbaşlar osmanlıları darmadağın edərək Ərəşi tutdular. Qaytas paşa öldürüldü. Osmanlı sərkərdələrindən Əbdurrəhman bəy isə əsir düşdü. Osmanlı hərbi qüvvələrinin bir hissəsi üsyana qalxmış və bununla da qızılbaşlara kömək etmiş sakinlərin əli ilə qılıncdan keçirildi. Ərəşin süqut etməsi xəbərini sağ qalmış bir nəfər döyüşçü Şamaxıya çatdırdı. Osman paşa onu həbs etdi və bu xəbəri əsgərlərdən gizlətdi.

Əbubəkr Mirzə diyarın istila edilməsində sultana xeyli kömək etdiyi üçün Şirvanda hakimiyyəti hətta ondan belə, qəbul etməyə hazır idi. Lakin gözlənildiyi kimi, Əbubəkrin Şirvan hakimiyyətinə olan iddialarını müdafiə edən Şirvan feodallarının ümidləri özünü doğrultmadı. Mustafa paşa Əbubəkrə ölkənin qəti olaraq tabe edilməsi işində Osman paşaya kömək etməyi tapşırdı və vətənə qayıdan kimi, sultandan onun Şirvan hakimi təyin edilməsinə nail olacağı kimi yalançı vədlərlə onu sakitləşdirdi.

«Azərbaycan tarixi»nin III cildində verilən məlumata əsasən, qızılbaşların əsas qüvvələri şahın oğlu Həmzə Mirzənin başçılığı altında düsməni Şirvandan qovub çıxarmaq məqsədilə Qəzvindən Qarabağa hərəkət edirdi. 1578-ci il noyabrın 28-də Ağsu çayı sahilindəki Mollahəsənli adlı yerdə Abdulla xanın oğlu Həmzə xan Ustaclının başçılığı altında qızılbaş qoşunu Osman paşanın köməyinə gəlmiş Krım xanı Adil Gərayın ordusu ilə toqquşdu. Bütün gün ərzində davam edən qanlı döyüşdə Krım qoşunu darmadağın olundu, Adil Gəray isə əsir düşdü. Hücumu davam etdirən qızılbaşlar Şamaxını ələ keçirdilər və Şabrana kimi irəlilədilər. Şirvan osmanlılardan azad edildi, lakin onların dayaq məntəqəsi Dərbəndi geri almaq mümkün olmadı.

AMEA-nın müxbir üzvü Oqtay Əfəndiyev «Azərbaycan Səfəvilər dövləti» əsərində Krım tatarlarının Mollahəsənli yaxınlığında məğlub edilməsi və Dərbənd haqqında geniş məlumat verir. Əsərdə göstərilir ki, Mirzə Salman və əmirlər Qarabağdan təcili hərəkətə başladılar. Onlar Qoyun ölümü keçidindən Kürü keçərək Şirvana daxil oldular. Onlar Osman paşanı Şamaxı qalasında mühasirəyə aldılar.

Mühasirə zamanı qızılbaşlar qalaya girmək istəyən bir neçə tatarı ələ keçirdilər. Onlarda Adil Gərayın Osman paşaya məktubu var idi. Qızılbaş əmirləri məktubu oxuyub öyrəndilər ki, tatar xanı Əbubəkr Mirzə ilə birlikdə rumlu tayfasının düşərgəsini talan etmiş, indi isə təcili qaydada şimala, Osman paşanın köməyinə tələsir. Şamaxı ətrafında qalmaq əmirlərə çox təhlükəli göründü. Çünki aydın idi ki, tatarlar gələnə qədər onlar Osman paşanın uğurla müdafiə olunduğu qalanı ala bilməyəcəklər. Eyni zamanda, əmirlər tatarların cənubdan gələcəyi təqdirdə bir neçə cəbhədə vuruşmaqla döyüşü uda biləcəklərinə şübhə edirdilər. Araz xanın faciəli taleyi də buna şəhadət verirdi. Buna görə də əmirlər yeganə düzgün qərar qəbul etdilər. Şamaxı yaxınlığında Vəli Xəlifə Şamlının başçılığı altında 3 min nəfərlik dəstə qoyaraq Mirzə Salman qorçubaşı Qulu bəy Əfşar, Şahrux xan Möhrdar, Məhəmməd xan Türkman, Pir Məhəmməd xan Ustaclı, Sultan Hüseyn xan, Müseyib xan Şərəfəddin oğlu Təkəli, İmamqulu xan Qacar, Əmir Həmzə xan və digər «adlı-sanlı» əmirlərlə cənuba, tatarlara qarşı yeridi.

Adil Gəray və onun qardaşları - Səadət Gəray

və Əsgər Gəray Həmzə Mirzənin qoşunlarının gəlməsi, Şamaxını mühasirəyə alması xəbərini eşidib mühasirəyə alınmış Osman paşanın köməyinə çatmaq üçün şimala hərəkət etdilər. Tərəflər 1578-ci il noyabrın 28-də Ağsu çayı sahilində, Mollahəsənlı adlı yerdə qarşı-qarşıya gəldilər. Adil Gəray ləzgilərin, qarabörklülərin və şirvanlıların dörd-beş minlik dəstəsi ilə möhkəmləndirilmiş on iki min nəfərlik tatar qoşununu Səfəvilərin qarşısına çıxardı. Bu tərəfdən Əmir Həmzə xan Ustaclı (çərxçi) və başqa əmirlər çıxış edirdilər. İsgəndər bəy Münşi obrazlı şəkildə qeyd edirdi: «Ölülərin qanına bulaşmış döyüş meydanı lalələr örtülmüş çəmənliyi xatırladırdı». Səhər başlanan döyüş axşama qədər davam etdi. Şamaxı yaxınlığında qalmaq əmri almış bir sıra qızılbaş əmirləri düşmənin başlıca qüvvələri ilə döyüşdə iştirak etməyi özləri üçün şərəf işi sayaraq mühasirəni özbaşına tərk etmiş, qızılbaş qoşunlarına qoşularaq onların sıralarını xeyli gücləndirmişdilər. Tatarlar bütün günü hər vasitə ilə onları darmadağın etməyi qərara almış qızılbaşların ardı-arası kəsilməyən hücumlarını mətanətlə dəf etmişdilər.

Qızılbaşların getdikcə artan üstünlüyünü müşahidə edən Adil Gəray tatarları ruhlandırmaq məqsədi ilə döyüş meydanına atıldı. Lakin tezliklə qızılbaş dəstəsi Baba Xəlifə Danqralının (yaxud Qaramanlının) başçılığı ilə Adil Gərayla üz-üzə gəldi. Adil Gəray nizə zərbəsi ilə atdan salındı. Qızılbaşlar Adil Gərayi öldürmək istədilər, lakin tanıyaraq onu salamat saxladılar.

Həlak olmuş Qaytas paşanın yerinə Ərəş hakimi təyin olunmuş Osmanlı sərkərdəsi Piyalə bəy də qızılbaşlara əsir düşdü. Adil Gəray əsir alındıqdan sonra düşmən qoşunu vahimə içərisində qaçmağa başladı. Tatarların əksəriyyəti döyüş zamanı qılıncdan keçirildi. Sağ qalanlar (əsasən həmin yerə bələd olan ləzgilər və şirvanlılar) dağlarda və meşələrdə gizləndilər. Araz xan Rumlu darmadağın edildikdən sonra tatarların ələ keçirdiyi bütün qənimət Səfəvilərə qaytarıldı. Əldə olunmuş qələbədən istifadə etməyə səy göstərən Mirzə Salman yubanmadan Şamaxı üzərinə hərəkət etdi. Osman paşa tatarların darmadağın olunması və Adil Gərayın əsir düşməsi xəbərini eşidərək kənardan ediləcək köməkdən məhrum olduğunu görüb Şamaxını tərk etdi. O, Dərbəndə getmək və orada pərən-pərən salınmış qoşunlarının qalıqlarının yolunu gözləmək qərarına gəldi.

Qızılbaş qoşunlarının qələbəsi xəbərini alan Dərbənd sakinləri osmanlılara qarşı üsyan qaldıraraq qalanı ələ keçirdilər. Buna görə də Osman paşa həmin xəbəri qoşunlardan gizlədərək şimala getməyə tələsirdi. Qış sərt keçirdi, arxadan isə osmanlıları addım-addım izləyən qızılbaşlar gəlirdi. Şabrana çatarkən bərk şaxta düşdü və bu, osmanlıların kütləvi surətdə məhv olmasına gətirib çıxardı. Süvarilər şimala doğru hərəkət edir, piyadalar isə yorğunluqdan yıxılır və bir daha qalxa bilmirdilər. Eyni zamanda, şirvanlılar və dağıstanlılar da qoşunların arxasınca gələn xəzinə əmlakına basqın və qarətlər təşkil edir, qiymətli mallar yüklənmiş qatır və dəvələri sürüb aparırdılar. Geridə qalanları yerli sakinlər qarət edirdilər. Osman paşa xeyli seyrəlmiş qoşunla, nəhayət, Dərbəndə gəlib çatdı. Sakinlər osmanlıları Dərbəndə buraxmaq istəmədikləri üçün şəhəri qüvvə tətbiq etməklə yenidən almaq lazım gəldi. Müxtəlif qızılbaş dəstələri Osman paşanı Şabrana qədər təqib edərək topları və digər hərbi ləvazimatı ələ keçirdilər. Şirvan osmanlılardan azad edilsə də, onların dayaq məntəqəsi olan Dərbənd alınmadı.

Qızılbaş qoşunlarının uğurları barədə xəbərlər Həmzə Mirzənin və anasının yerləşdiyi Qarağacdakı baş düşərgədə böyük sevinclə qarşılandı. Buradan paytaxta - Qəzvinə və bütün ölkəyə «fəthnamələr» («Qələbə məktubları») göndərilirdi. Qərargahın Osman paşa ilə mübarizəni davam etdirmək, onu məhv etmək və Dərbənd qalasını ələ keçirmək barədə əmri alındı.

Lakin qızılbaş qoşunları şah qərargahı göstərişinin ziddinə olaraq Osman paşanın təqib olunmasını dayandırıb Qarabağa qayıtdılar. Bu, tezliklə çox acınacaqlı nəticəyə gətirib çıxarmış, fəlakətli bir səhv idi. İsgəndər bəy Münşi iddia edir ki, bunun təqsirkarları, guya Dərbəndin alınmasında və Şirvanda qələbələrin möhkəmləndirilməsində təkid etmiş «Məhdi Ülyanın iradəsi əleyhinə» hərəkət edən Mirzə Salman və qızılbaş əmirləri olmuşdular. Şərəfxan Bitlisi təqsiri bütövlükdə şahın arvadının üstünə yıxır: «Bu qədər qələbədən həddindən artıq qəhərlənən Sultan Həmzə Mirzənin anası Şirvandakı işlərə qadın düşüncəsizliyi ilə, qayğı və diqqət göstərmədən yanaşdı. Osman paşanı Dəmir qapıda (Dərbənd) qoyub qışın ortalarında Adil Gəray xanla Qəzvinə qayıtdı». Qazi Əhmədin də şərhindən

aydın olur ki, şahın arvadı «bu planla (yəni Dərbəndin tutulması və osmanlıların Şirvandan tamamilə çıxarılması haqqında şah qərargahından alınmış əmrlə) razılaşmadı». O, öz eşikağası Məhəmməd xan Türkmanı Mirzə Salmanın və əmirlərin ardınca göndərdi. Bundan sonra onlar Qarabağa qayıtdılar, bununla da Şirvan məsələsi başa çatdırılmamış və həll olunmamış qaldı.

Sonraki hadisələr qızılbaş sərkərdələrinin fikri ilə az hesablaşan və özbaşına iş görən şah arvadının günahlarını təsdiq edir. Mənbələr təsdiq edirlər ki, tezliklə Qarabağda Şirvan hakimi vəzifəsinə namizədlik (həlak olmuş Araz xan Rumlunun əvəzinə) üstündə şahın arvadı və həmin vəzifəyə Mollahəsənli döyüşünün qəhrəmanı – Abdulla xanın oğlu Həmzə xan Ustaclını namizəd göstərmiş qızılbaş əmirləri arasında fikir ayrılığı yarandı. Şahın arvadı bu təklifi qəbul etmədi və qışın bərk soyuğuna baxmayaraq, 1578-ci ilin sonunda Qarabağı tərk etdi. Əmirlərdən heç biri şah arvadının «yersiz hərəkətinə» qarşı çıxmağa cəsarət etmədi və bir neçə gündən sonra bütün əmirlər qoşunları ilə onların ardınca Qəzvinə yola düşdülər.

Mollahəsənli qələbəsinə baxmayaraq, Səfəvilər Şirvanda möhkəmlənə bilmədilər. Osmanlılar burada əməli olaraq Dərbənddən başqa heç bir dayaq məntəqəsinə malik deyildilər. Lakin onlar Dağıstan hakimlərinin köməyi ilə Şirvanda qızılbaş əmirlərini daim narahat edirdilər.

«Azərbaycan tarixi»nin III cildindəki məlumata əsasən 1578-1579-cu illərdə Osmanlı-Krım ordusunun apardığı hərbi əməliyyatlar, törətdiyi dağıntılar, qarətlər nəticəsində Azərbaycanda şiddətli aclıq və taun xəstəliyi tüğyan edirdi. Əvvəllər əhalinin sıx olduğu bəzi bölgələr viran qalmışdı.

1580-ci ildə Təbrizdə Türkmən və Şamlı əmirləri arasında ixtilaflar gücləndi. Şamlı əyanları arasında da parçalanma baş verdi. 1581-ci ildə qiyamçı Şamlı əmirlərinin Heratda I Abbası şah elan etməsi Xorasanın qısa müddətə Səfəvilər dövlətindən ayrılmasına səbəb oldu. 1580-1581-ci illərdə Krım xanının qardaşları Qazi Gərayın və Səfi Gərayın başçılığı ilə tatar ordusu daha iki dəfə Şirvana soxuldu. Krım tatarları dağıntılar, qarətlər törətdilər və tezliklə Dərbənddən keçərək vətənə qayıtdılar.

Sonuncu yürüş zamanı Peykər xan Qacarın rəhbərliyi alında qızılbaş dəstəsi Krım tatarlarını Şabranla Şamaxı arasındakı ərazidə qarşıladı. Qızılbaşlar şiddətli döyüşdə Şirvan qiyamçılarını, Osmanlı hissələrini və tatarları ağır məğlubiyyətə uğratdılar. Qazi Gəray əsir düşdü. Lakin bu müvəffəqiyyət Şirvandakı ümumi vəziyyəti Səfəvilərin xeyrinə dəyişdirmədi. Dərbənddə qərar tutmuş Osman paşa ərzaq qıtlığı nəticəsində qızılbaş qoşununun Şirvanı tərk etməsindən sonra yenidən bu diyarı ələ keçirdi.

Beləliklə, Krım tatarları osmanlılara Şirvanda hakimiyyəti saxlamaqda çox mühüm kömək göstərdilər. Lakin burada Osmanlı ağalığının bərqərar olması yerli Dağıstan hakimlərinin ürəyincə deyildi.

Tərki Şamxalı və Əbubəkr Mirzə Qarabagın qızılbaş hakimi İmamquluxan Qacara Osman paşaya qarşı birgə mübarizə təklifi ilə müraciət etmişdilər. 1583-cu ildə Samur çayı yaxınlığında baş vermiş döyüşlərdən birində Əbubəkr Mirzə qızılbaşlar tərəfində Osman paşaya qarşı çıxış etmişdi. Bu fakt sübut edir ki, şirvanlılar həmin vaxtdan etibarən osmanlıların yardımı ilə müstəqillik almaq ümidini artıq itirmişdilər.

AMEA-nın müxbir üzvü Oqtay Əfəndiyevin «Azərbaycan Səfəvilər dövləti» adlı əsərində Dərbənd və Səfəvi-Osmanlı münasibətləri haqqında geniş məlumat verilir. Kitabda qeyd edilir ki, Səfəvilər ağır vəziyyətə baxmayaraq Şirvanı itirmək və onu osmanlılara güzəştə getmək fikrində deyildilər. 1580-ci ilin əvvəlində səfəvi, şah sarayında Şirvana yeni yürüş təşkil etmək qərara alındı. Bu dəfə həmin vəzifə Salman xana və ustaclı tayfasının əmirlərinə həvalə edilmişdi. Arazbardan keçən yolla hərəkət edən qızılbaş qoşunları, dözülməz istilər üzündən Həmşəhr yaylağında dayandılar, öz qüvvələrinin cəmləşməsi və Araz çayını keçmək üçün hazırlıq görməyə başladılar. Şirvanda titulları müəyyən edilmiş yürüş iştirakçıları olan əmirlərin arasında Şirvan bəylərbəyi Salman xandan başqa Hüseynqulu Sultanın, Əliqulu Sultanın, Mustafa Sultan Şərəflinin, Mehdiqulu Sultan Çavuşlunun, həmçinin də cəybirli və qaramanlı tayfalarından (oymaqat) olan bir neçə əmirin adları çəkilir.

1580-ci ilin yayında Hacı Maqsud bəy Zülqədərin başçılığı ilə Ərzuruma gələn qızılbaş nümayəndə heyəti İstanbula müşayiət olundu və avqustun 15-də orada onu qəbul edən sultan III Murada Şah Məhəmməd Xudabəndənin məktubu təqdim edildi. Məktubda ilk qızılbaş elçisi olan Vəli bəy

Ustaclının osmanlı sərhəd hakimiyyət orqanları tərəfindən tutulub saxlanması və həbs olunmasından narazılıq bildirilir, Osmanlı qoşunlarının törətdikləri qarət və zorakılıqların, müsəlman qadın və uşaqlarının əsir alınmasının yolverilməz olduğu göstərilir, habelə sülhün bərpa olunması və ziyarətə gedənlərin dincliyini, təhlükəsizliyini təmin etmək arzusu ifadə edilirdi.

Lakin osmanlılar Azərbaycanın Şirvan vilayətini öz əllərində saxlamaq, itirdiklərini qaytarmaq üçün əllərindən gələni əsirgəmirdilər. Əməli olaraq Dərbənddə qapanıb qalmış Osman paşanın çətin vəziyyətə düşməsi sultan III Muradı üçüncü vəziri Sinan paşanı orduya sərkərdə təyin etməyə məcbur etdi. Lakin döyüşlərə yeni qüvvələr daxil edən qızılbaşların daim güclənən təzyiqlrinə tab gətirməyən osmanlılar və tatarlar sürətlə geri çəkilməyə başladılar. Osmanlılar yenidən Dərbənddə qapanıb qaldılar. Tatarlar isə Dağıstandan keçib Krıma qayıtdılar.

Salman xan əsas qızılbaş qüvvələrinin Şirvana gəlməsi xəbərini aldı. Tez-tələsik Kürü keçdi və tatarlardan uğradığı məğlubiyyətin və qaçmasının əvəzini çıxmaq məqsədi ilə Bakını ələ keçirməyi qərara aldı. Düşməni Şabrana qədər təqib etmiş Əmir xan Türkmən geri qayıtdı, Bakını mühasirəyə almış Salman xanla birləşdı. Qızılbaşlar on səkkiz gün ərzində osmanlı hərbi hissəsinin müqavimətini qırmaq üçün uğursuz cəhdlər göstərdilər. Sonra onlar mühasirədən əl çəkməyə məcbur oldular. Çünki osmanlılar Dərbənddən gələn gəmilərlə müntəzəm olaraq hərbi sursat və ərzaqla təchiz olunduqları bir zamanda, qızılbaşlar dağıntı və yerli sakinlərin yoxsul vəziyyəti üzündən azuqə sarıdan kəskin ehtiyac hiss edirdilər. İsgəndər bəy Münşi qeyd edirdi: «Hətta arpa unu belə yox idi. Onun bir batmanı öncə altı misqal zərb olunmuş gümüş dəyərində olan altı yüz Təbriz dinarına satılırdı». Səfəvi qoşunları Şirvanı tərk edib Qarabağdakı şah qərargahına qayıtdı. Həmin qışda heç bir qızılbaş əmiri Şirvanda qalmadı. Bununla əlaqədar olaraq Osman paşanın qoşunları tədricən Şirvanın bir sıra rayonlarını ələ keçirdi. İsgəndər bəy Münşi yazır: «Şirvan əhalisi istər-istəməz Osman paşaya itaət göstərdi».

Osmanlı nümayəndəsi Ömər ağanın Şirvanda tərəflərin vəziyyətini təhqiq etmək üçün oraya gəlməsi ərəfəsində Səfəvi sarayında elçini baş vermiş gerçəklik qarşısında qoymaq məqsədilə, Şirvanı tutmaq üçün təcili tədbirlər görülməsi qərara alındı. Bu məqsədlə əmirlər və «dövlətin ali şəxsləri» təklif etdilər ki, Qarabağdan qacar, otuzikilər və başqa tayfaların bir hissəsi Şirvana yeridilsin. Bu hərbi əməliyyatı həyata keçirmək məsuliyyəti Qarabağ hakimi İmamqulu xan Qacarın üzərinə qoyuldu. Xan adına layiq görülmüş Peykər bəy Ziyad oğlu Qacar Şirvanın yeni hakimi təyin edildi.

Qızılbaş nümayəndəsi ilə Şirvanı gəzən Ömər ağa əmin oldu ki, Dərbənddən və Bakıdan başqa bu ölkədə heç bir yer osmanlılar tərəfindən tutulmamışdır. Bundan sonra Osmanlı nümayəndəsi onu müşayiət edən Səfəvi müvəkkili Şahqulu Sultan və Tebet oğlu Zülqədər «həqiqi vəziyyət barədə» məlumat vermək və sülh danışıqları aparmaq üçün Ərzuruma - Sinan paşanın yanına gəldilər.

Lakin Sinan paşa Osman paşa ilə münasibətləri gərgin olduğu üçün birbaşa sülh danışıqlarına başlamadı O, Şahqulu Sultanı dostluq məktubu ilə geri göndərdi və məktubunda səfəvilərə təklif etdi ki, sülh müqaviləsi bağlamaq üçün «böyük əmirlərin» ləyaqətlilərindən birini sultanın sarayına göndərsinlər. Ağıllı və ehtiyatlı şəxs kimi tanınan Qum hakimi İbrabim xan (Heydər Sultan Çabuk Tarxan Türkmanın oğlu) bu məqsədlə Osmanlı paytaxtına göndərildi. İstanbula layiqli hədiyyə və bəxşişlərlə gələn İbrahim xan dərhal başa düşdü ki, buradakı şərait heç də sülh danışıqlarının xeyrinə deyildir. Səfəvilərlə danışıqlar əleyhinə çıxış edən əsas sima Dərbənddə məskən salmış Osman paşa idi. Osman paşa və onun tərəfdarları sultanı Sinan paşaya qarşı, onun təmkinli, sülhsevər tədbirləri əleyhinə qaldırmışdı. Buna görə də İbrahim xanın cəhdləri nəticə vermədi. O, yeddi il müddətində Osmanlı paytaxtında qaldı və yalnız I Şah Abbas dövründə vətənə qayıtdı.

Şərəf xanın bildirdiyi kimi, Sinan paşanın İstanbula, Məhəmməd Xudabəndənin isə Qəzvinə qayıtması barədə saziş əldə edildi. Lakin sonrakı ildə Sinan paşa baş sərkərdə vəzifəsindən kənar edildi və onun yerinə Fərhad paşa təyin olundu.

1581-ci ilin yazında Qazi Gəray və Səfi Gərayın başçılığı ilə Krım tatarları dördüncü dəfə Şirvana hücum etdilər. Bundan bir qədər əvvəl İmamqulu xan Qacar qızılbaşların güclü dəstəsini Peykər xanın köməyinə göndərmişdi. Şamaxıya hərəkət edən ta-

tarlar başda Şirvan bəylərbəyi Peykər xan olmaqla qacar, cəygirli, qaramanlı və başqa tayfaların əmirləri ilə qarşılaşdılar. Döyüş Şamaxı ilə Şabran arasında baş verdi. «Tatarların əvvəlki uğurlarının təsiri altında özünə güvənən» Qazi Gəray at belində döyüşün ən qızğın yerinə yeridi və qacarlar tərəfindən əsir alındı. Tatarların və osmanlıların birləşmiş qoşunu yenidən ağır məğlubiyyətə uğradı. Səadət Gəray da əsir düşmək təhlükəsi ilə üzləşdi. Sağ qalan tatarlar və osmanlılar döyüş meydanından qaçdılar. Əbubəkr Mirzə də aradan çıxdı.

1581-ci ildə Peykər xan vəfat etdi və onun yerinə Xəlifə Ənsar Qaradağlı Şirvan hakimi təyin olundu. Lakin İsgəndər bəy Münşi göstərir ki, Xəlifə Ənsar Qaradağlı da Şirvanda müvəffəqiyyət qazanmadı. 1582-ci ildə Xəlifə Ənsar vəfat etdi. Şah Qarabağdan Qəzvinə qayıtdıqdan və Xorasana yürüş etdikdən sonra «qızılbaş əmirlərindən heç biri Şirvanda qala bilmədi». Osman paşa bunun sayəsində yenidən Dərbənddən Şamaxıya gəldi və Şirvanda osmanlıların hakimiyyətini bərpa etdi.

Yuxarıda göstərilən faktlar göstərir ki, Krım xanları Osman paşanın Dərbənddə qala bilməsinə xeyli yardım göstərmişlər. Bundan əlavə, Osmanlı sultanı Krım və Şimali Qafqazdan hərbi dəstələr, habelə hərbi sursat və pul göndərməklə Osman paşaya daim yardım göstərirdi.

Mənbə məlumatları göstərir ki, Dağıstanda və Şirvanda osmanlıların güclənməsi ayrı-ayrı yerli hakimlərin narazılığına səbəb olduğundan onlar hətta qızılbaşlarla ittifaqa girirdilər. Məsələn, belə bir məlumat vardır ki, Tərki Şamxalı və Əbubəkr Mirzə Osman paşaya qarşı birgə çıxış etmək təklifi ilə Gəncənin qızılbaş hakiminə müraciət etmişdilər. 1583-cü ilin yazında yeni qüvvələr alan İmamqulu xan Kürü keçərək Şirvana daxil oldu. Şamaxıda olarkən Niyazabad ərazisində Yaqub bəyin Osmanlı qoşunlarının cəmləşməsi xəbərini alan İmamqulu xan Rüstəm xanı qızılbaş dəstəsi ilə onlara qarşı göndərdi. Şiddətli vuruşmada Yaqub bəy və digər osmanlı hərbi başçıları öldürüldü. Osmanlılar tamamilə darmadağın edildi. Qızılbaşlar onları Dərbəndədək təqib etdilər. Köməyə gələn Osman paşa Samur çayı sahilində, Baştəpə yaxınlığında qızılbaşlarla döyüşə girdi. Osmanlılar, türk mənbələrinin göstərdikləri kimi, Əbubəkr Mirzə bu döyüşdə qızılbaşların tərəfində çıxış edirdi. Peçəvi onu bu tərəfdən üz döndərmiş (yəni sultana xəyanət etmiş) «xain kafir» kimi yad edir. İmamqulu xanın Osman paşa ilə döyüşü bir neçə gün davam etdi. Atışma gecələr də məşəl işığında davam etdirildiyi üçün bu döyüş «məşəl savaşı» da adlanırdı. Yalnız döyüşün dördüncü günü osmanlılar üstünlük qazandılar və qızılbaşları döyüş meydanından çəkilməyə məcbur etdilər.

«Azərbaycan tarixi»nin III cildində verilən məlumata əsasən 1582-ci ildə III Sultan Murad qızılbaşlarla sülh danışıqlarına başlamış Sinan paşanı vəzifəsindən gotürüib, Fərhad paşanı Şərq yürüşünün komandanı təyin etdi.

1583-cü ilin yayından Fərhad paşa Qarsdan hərəkətə başlayaraq Çuxursədi tutdu, orada qala tikdirib qoşun yerləsdirdi. Çuxursəd hakimi Məhəmməd xan Toxmaq heç bir kömək almayaraq öhdəsindəki cüzi qüvvə ilə Naxçıvana geri çəkilməyə məcbur oldu.

İsgəndər bəy Münşi ümumxalq, ümumdövlət mənafeyini deyil, öz şəxsi və tayfa mənafeyini hər şeydən üstün tutan və Çuxursəd kimi «abad bir vilayətin» itirilməsinə səbəb olan əmirləri məzəmmət edirdi. Qızılbaş rəhbərləri bütün qüvvələri səfərbərliyə alaraq düşmənin hücumunu dəf etmək əvəzinə daxili mübarizə və fitnə-fəsadla məşğul idi. Türkman tayfasının başçısı Əmir xan həbs olundu və Qəhqəhə qalasında oldürüldü. Bundan sonra Türkman və Təkəli tayfaları bütün ölkədə mərkəzi hakimiyyətə qarşı qiyam qaldırdılar.

Qızılbas tayfaları arasında çəkişmə və mübarizə Azərbaycan Səfəvilər dövlətinin xarici düşmənlərə qarşı müqavimət qüvvəsini xeyli sarsıtmış, Osmanlı ordusunun işğallarını asanlaşdırmışdı. Qızılbaş dövlətinin ağır daxili vəziyyəti haqqında xəbərdar edilmiş Osmanlı sultanı döyüşkən ruhlu Özdəmir oğlu Osman paşanı Dərbənddən İstanbula çağıraraq onu şərq yürüşünə rəhbər təyin etdi. 1585-ci ilin yayında Osman paşa 200 minlik ordu ilə Pasinabad-Çaldıran-Xoy-Mərənd-Sufiyan-Təbriz istiqamətində Azərbaycana hərəkət etdi. Şah Məhəmməd Xudabəndi və atasının əvəzinə bütün dövlət işlərini idarə edən oğlu Həmzə Mirzə 20 minlik qoşunla Təbrizə doğru irəliləyən osmanlıların qarşısını kəsmək üçün tələsdilər. Sufiyan ətrafında qızılbaşların ön hissələri düşmən qoşunu ilə döyüşə girdi, lakin qüvvələr bərabər olmadığı üçün geri çəkilməyə məcbur oldu.

Osmanlı işğalı nəticəsində ölkənin pul sistemi böhran keçirdiyinə görə səfəvi sikkələrin tədavül

dairəsi də məhdud idi. Gümüs sikkələr artıq osmanlı sultanların adından zərb edilirdi. Həmin dövrə aid olan qızıl *altunlar,* III Sultan Muradın adından Şamaxıda buraxılmış gümüş *dirhəmlər,* Naxçıvan və Dəmirqapıda (Dərbənddə) III Sultan Mehmetin adından zərb edilmiş gümüş pullar bizə gəlib çatmışdır.

XVI əsrin axırlarından etibarən Azərbaycana Qərbi Avropanın müxtəlif ölkələrində zərb olunmus gümüş talerlərin güclü axını baş vermişdir. Bir sira numizmatik tapıntılar bunu təsdiq edir. Bu, Azərbaycanın həmin dövrdə beynəlxalq ticarət münasibətləri sistemində mühüm mövqe tutduğunu da göstərir.

AMEA-nın müxbir üzvü Oqtay Əfəndiyevin «Azərbaycan Səfəvilər dövləti» əsərində Krım tatarlarının Şirvana, Qarabağa basqını və Dərbənd haqqında araşdırmalar aparıb bildirir ki, Şirvanın yeni hakimi Osman paşanı Dərbənddən çıxarmaq üçün təsirli tədbirlər gördü. Onun təzyiqi altında Şabranı və Məskuru (Müşkürü) yenidən ələ keçirmiş osmanlılar, Dərbəndə geri çəkilməyə məcbur oldular. Osman paşa qızılbaşlara qarşı iki dəfə qoşun göndərdi, lakin onlar Məhəmməd Xəlifə Zülqədər tərəfindən darmadağın edildilər. Osmanlıların bu uğursuzluqları qaytaqlıları da onların əleyhinə qaldırdı. Osman paşa Qaytaq usmisini tabe etmək üçün hətta onun Başlıdakı iqamətgahına yürüş təşkil etdi. Qaytaqlılar əvvəlcə tüfəng-top atəşlərinə davam gətirməyərək dağlara geri çəkildilər. Lakin qüvvə toplayıb osmanlıları geri çəkilməyə məcbur etdilər. Xəzər sahili boyunca Dərbəndə doğru geri çəkilən osmanlı qoşunu yenidən qaytaqlıların pusqusuna düşərək böyük itki verdi. B.Kütükoğlunun göstərdiyi kimi, Osman paşanın bu yürüşü qızılbaş hakimi Məhəmməd Xəlifə Zülqədərlə Qaytaq usmisi və Tabarsaran hakimi Məsud bəyin yaxınlaşmasını, Dərbənddə olan Osman paşa üzərinə birgə hücum haqqında razılığa gəlməsini mümkün etdi.

Lakin Şimali Qafqazdan Krım tatarlarının iri qüvvələrinin Dərbəndə yürüşü buna mane oldu. Krım xanlığı Azərbaycana münasibətdə işğalçılıq planlarından imtina etməmişdi. İlk vaxtlar Səfəvilər sarayında əsir olan Adil Gəraya hər cür diqqət və iltifat göstərilirdi. Əsirlikdən azad edilmiş bir dəstə tatar onun məiyyətinə verilmiş, onu mühafizə etmək üçün qorçular dəstəsi ayrılmışdı. O, dövlətxana ilə yanaşı binada yaşayırdı; ümid edilirdi ki, mehriban və xoş rəftarlı münasibət göstərməklə, onu öz tərəflərinə çəkib, sultanla ittifaqdan əl çəkməyə razı salar və bununla da Şirvanı Krım tatarlarının viran-edici hücumlarından qurtara bilərlər. Şahın tələbi ilə Adil Gəray İstanbula və Bağçasaraya öz adamları ilə sülh təklifləri irəli sürülən məktublar göndərirdi. Lakin Adil Gəray öldürüldükdən sonra bu cəhdlər uğursuzluqla nəticələndi.

Məlumdur ki, hələ 1579-cu ilin yayında Krım xanı Məhəmməd Gəray osmanlı sultanının tələbi və hərbi qənimət ələ keçirmək məqsədi ilə Bağçasaraydan hərəkət edərək Şimali Qafqazdan keçib Şirvanın hüdudlarına yaxınlaşmışdı. O, özünün qardaşları Qazi Gəray, Səfi Gəray və Səadət Gərayın müşayiəti, yüz minlik ordu ilə oktyabrın 10 (şabanın 18)-də Dərbəndə çatmış və Osman paşa tərəfindən şadlıqla qarşılanmışdı.

Eyni zamanda, şah Məhəmməd Xudabəndə Həmzə Mirzə və qoşunlarla birlikdə Qəzvindən qərbə tərəf hərəkət etmişdi və oktyabrın 19 (şabanın 27)-də Təbrizə daxil olmuşdu. Qızılbaş qoşunlarının Şirvanda osmanlılara qarşı hərbi əməliyyatlarına buradan rəhbərliyi həyata keçirmək üçün qərargah da Təbrizdə yerləşdirilmişdi. Şirvan hakimi Məhəmməd Xəlifə Zülqədər, Adil Gərayın qardaşlarının böyük qüvvələrlə, öldürülmüş qardaşın «qan intiqamını» almaq üçün Dərbəndə gəlmələri barədə qərargaha məlumat vermişdi. Təbrizdə hərbi şuranın iclasında Mirzə Salmanla əmirlərin qoşunlarını tatarlara qarşı göndərmək qərara alınmışdı. Lakin əmirlər yürüşə hazırlaşdıqları bir zamanda tatarlar Şirvana basqın etmişdilər. Məhəmməd Xəlifə cəsur döyüşçü idi və qəhrəmanlıqla ölümü, şərəfsizcəsinə qaçmaqdan üstün tutaraq azsaylı igid döyüşçüləri ilə Samur sahilində tatarlarla qeyri-bərabər döyüşə atılmışdı. Tatarların yeni, əlavə qüvvələr alması sayəsində qızılbaşlar darmadağın edilmişdilər. Məhəmməd Xəlifə isə həlak olmuşdu.

Məhəmməd Gəray və Osman paşa oktyabrın 23 (ramazanın 2)-də Şamaxıya daxil olaraq orada üç gün qaldılar. Buradan Şirvanın müxtəlif hissələrinə hərbi dəstələr göndərildi. Məsələn, Bakının altı yüz nəfərlik qızılbaş müdafiəçilərinin üstünə göndərilən dəstə şəhəri ələ keçirərək Xan Əlini və Maqsud Sultanı əsir götürdü. Sonra Məhəmməd Gəray Ərəş yaxınlığında Kürü keçərək Gəncəni, Qarabağı, Muğanı tutdu, Qızılağaca qədər yeridi və Şimali

Azərbaycan vilayətlərini viranəyə döndərib qarət etdi. Lakin Məhəmməd Gəray və tatarlar başlıca qızılbaş qüvvələrinin yaxınlaşması xəbərini alan kimi «qayıtmaq təbillərini çaldılar». Tatarlar özləri ilə Azərbaycanın xeyli əhalisini əsir və qul kimi (o cümlədən Kəfədəki qul bazarında) satmaq üçün bir çox qadın və qızı apardılar. Qazi Gəray, qardaşları və tatar dəstəsi ilə birlikdə, Osman paşaya kömək üçün Dağıstanda və Dərbənddə saxlanıldı. Tatarların bu yürüşünə qoşulmuş şirvanlıların bir hissəsi Dərbəndə qayıtdı. Əbubəkr Mirzə ilə qalan hissəsi isə Şirvanda, Xaçmaz ərazisində möhkəmlənməyə cəhd göstərdi. Tatarların əsas qüvvələrinin Krıma qayıtması və qızılbaş qoşunlarının Şirvana daxil olması xəbəri Dərbənddəki osmanlı qarnizonu içərisində vahimə yaranmasına səbəb oldu.

Mirzə Salman və qızılbaş əmirləri Şirvana gec daxil olduqlarına görə artıq tatarları orada görə bilmədilər. Qazi Əhmədin məlumatlarına görə, Şirvana olan bu yürüş çox ağır qış şəraitində keçirilmişdi. Atlar və dəvələr sərt şaxtalardan və yem çatışmazlığından tələf olurdular, döyüşçülər isə piyada yeriməli olurdular. Qalın qar örtüyü yolları keçilməz etmişdi. Buna baxmayaraq qızılbaş dəstələri Qarabağdan Kürü keçərək Şirvana daxil oldular və Şamaxını mühasirəyə aldılar. Bir neçə gün davam edən mühasirədən sonra Şamaxı qalası qızılbaşlara təslim oldu.

İsgəndər bəy Münşiyə görə, Əmir xan Xaçmaza toplanmış şirvanlılara və dağıstanlılara qarşı yeridi. Tarixçi göstərir ki, bu yürüş qızılbaşlar üçün uğurlu alınmadı və Əmir xan heç nəyə nail olmadan geri qayıtdı. Bu uğursuzluq qızılbaş tayfaları arasında çəkişməyə səbəb oldu. Şahrux xan Zülqədər tərəfindən müdafiə edilən şamlı və ustaclı əmirləri Əmir xandan öz narazılıqlarını acıqca bildirməyə başladılar. Şahrux xan qızılbaş dəstəsi ilə şirvanlılara qarşı getmək və Əmir xanın bacarmadığını etmək arzusunda olduğunu bildirdi. Bu, Əmir xanı qəzəbləndirdi və qarşılıqlı düşmənçiliyin güclənməsinə səbəb oldu. Əmir xan belə hesab edirdi ki, ona qarşı bu çıxış baş komandan Mirzə Salmanın təhriki ilə təşkil edilir.

Beləliklə, özləri üçün əlverişli şəraitdən istifadə edərək, birgə səylərlə şirvanlıları darmadağın etmək, Osman paşanı Dərbənddən sıxışdırıb çıxarmaq əvəzinə qızılbaş əmirləri iki düşmən cəbhəyə bölündülər və onlardan hər birinin tərəfdarları ayrı-ayrılıqda yerləşdilər. İsgəndər bəy Münşinin göstərdiyi kimi, tərəflərdən hər biri digərinin hücumundan ehtiyat edərək döyüşə tam hazır vəziyyətdə dururdu. Bu dəfə də qorçubaşı Qulu bəy Əfşar siyasi müdriklik göstərdi və öz nifuzu ilə qan tökülməsinin qarşısını ala bildi. O, əmirləri zahirən barışdırmağa nail oldu. Şahrux xan yürüşdən imtina etdi. Lakin onların qəlblərinin dərinliyində «düşmənçilik alovu yanmaqda davam edirdi».

«Azərbaycan tarixi»nin III cildində Dərbəndin Osmanlı və Səfəvi feodallarının hakimiyyəti dövrü geniş təhlil edilir. Cilddə göstərilir ki, 1578-1590-cı illərin qanlı, viranedici döyüşlərindən sonra Səfəvi və Osmanlı dövlətləri arasında 1590-cı ildə İstanbulda sülh müqaviləsi imzalandı. İki dövlət arasında yeni sərhədlərin müəyyən edilməsi prosesi isə iki ildən sonra başa çatdı.

Müqavilə nəticəsində Azərbaycan ərazisi Osmanlı və Səfəvi dövlətləri arasında bölündü. Şirvan, Qarabağ, Təbriz və onun ətraf nahiyələri, Sərab, Marağa və bu şəhərdən qərbdə yerləşən bütün vilayətlər Osmanlı imperiyasının əlinə keçdi, Xalxal, Ərdəbil, Qaradağ, Talış, Zəncan və Sultaniyyə isə Səfəvilər dövlətinin tərkibində qaldı.

Osmanlı hakimiyyət orqanları zəbt olunmuş ərazilərdə yeni inzibati idarə vahidləri yaratdılar, vilayətlərə hakimlər təyin etdilər. Azərbaycanın ən iri yasayış məntəqələrində hərbi hissələr yerləşdirdilər, vergi və mükəlləfiyyətlərin növlərini, məbləğini müəyyənləşdirdilər. Həyata keçirilmiş inzibati, hərbi-siyasi tədbirlər Azərbaycanda möhkəmlənmək, ölkənin ictimai-iqtisadi imkanlarından bəhrələnmək məqsədinə xidmət edirdi. Belə ki, Şirvan Şamaxı və Dərbənd vilayətlərinə bölündü. Şamaxı vilayəti 16 sancaqlıqdan ibarət idi: Şamaxı, Lahıc, Ağdaş, Qəbələ, Səlyan, Zərdab, Şəki, Bakı, Qara Ulus, Diku, Şiryan (Sirhan), Osmani, Xudavərd, Mahmudabad, Ərəş; Dərbənd vilayəti isə 8 sancaqliğa ayrılmışdi: Dərbənd, Şabran, Axtı, Quba, Müskir (Müskür), Kürə, Çaraq, Rustov.

Vətən torpaqlarının bütövlüyü uğrunda mübarizəyə başlayan görkəmli Azərbaycan hökmdarı I Şah Abbas Şirvanın və Dağıstanın azad edilməsi ilə Qafqaz əməliyyatını mümkün qədər tez başa çatdırmağa çalışırdı. Şahın təslim təklifi Şirvan bəylərbəyi Əhməd paşa tərəfindən qəbul edilmədiyi üçün 1607-

ci il yanvarın 9-da Şamaxı üzərinə hücuma başlanıldı.

Lakin hücum, bir tərəfdən, ərzaq və ələfin çatışmaması, digər tərəfdən isə qoşunun hərəkətinə mane olan və günlərlə davam edən leysan yağışlar nəticəsində üç aya qədər təxirə salındı. Bu şəraitdə Bakı, Dərbənd əhalisi də osmanlılara qarşı üsyana başladı.

1607-ci ilin yanvarında Bakıda osmanlıların əleyhinə güclü üsyan qalxdı. Şəhər üsyan başçılarının əlinə keçdi və şah qərargahı ilə əlaqə yaradıldı. Bakıda baş vermiş üsyan Şah Abbası son dərəcə sevindirdi: Səfəvi hökmdarı üsyançıların əksəriyyətinə «hədiyyələr, soyurqallar, bahalı paltarlar» bağışladı. Dərbənddə də osmanlılara qarşı üsyan baş verdi. Üsyançılar şah qoşunları ilə birgə çıxış edərək Dərbəndin hərbi rəisi Həsən paşanı təslim olmağa məcbur etdilər (Dərbənddə üsyan 1607-ci ilin fevral-mart aylarında baş vermişdi). Şəhərdə Osmanlı hakimiyyətinə son qoyuldu. Rüstəm Qaytaqlı şəhər hakimi vəzifəsindən kənar edildi. Çıraq Sultan Ustaclı şəhərin yeni hakimi təyin olundu. Şah Abbas göstərdikləri şücaətə görə Dərbənd əhalisini bütün dövlət vergilərindən azad etdi.

«Azərbaycan tarixi»nin III cildində XVII əsrin əvvəllərində Azərbaycanda xalq hərəkatı və Dərbənd haqqında məlumat verilir. Əvvəlki əsrlərdə olduğu kimi, XVII əsrdə də istismar olunan xalqın hakim siniflərin zülmünə qarşı mubarizəsi müxtəlif formalarda təzahüir etməkdə idi. Şəraitdən asılı olaraq bu mübarizə gah kütləvi etiraz və sikayət, gah da vergi və mükəlləfiyyətlərin ödənişindən yayınma şəklində baş verirdi.

XVI əsrin sonu – XVII əsrin əvvəlləri var-yoxdan çıxmış Azərbaycan və qonşu ölkələrin əhalisinin çıxışları ilə əlamətdardır. Həmin çıxışlar cəlalilər hərəkatı adı ilə əvvəlcə Şərqi Anadolunu, sonra isə Azərbaycanı bürüdü.

Cəlalilər hərəkatının ardınca Azərbaycanın müxtəlif yerlərində bir neçə çıxışlar da baş vermişdi. Təbrizdə, Ordubadda, Bakıda və Dərbənddə 1603-1607-ci illərdə müxtəlif çıxışlar olmuşdu. Bu çıxışların əksəriyyəti uğurla başa çatmışdı. Lakin Azərbaycan xalqı müvəqqəti qələbələrdən istifadə edə bilmədi. 1614-cü ildə I Şah Abbasın Gurcüstan səfəri də güclü həyəcana səbəb oldu. Osmanlılara qarşı ağır, üzücü və uzun müharibənin gedişində I Şah Abbasın fəal köçürmə siyasəti Azərbaycanın müxtəlif bölgələrində əhalinin Fərəhabad, İsfahan, Mazandaran vilayətlərinə yerləşdirilməsi ilə nəticələnmişdi. Bu tədbir Şirvan və Qarabağ əhalisinin bir qisminə də şamil edilmişdi. Şirvanda şah fərmanının yerinə yetirilməsi İsfəndiyar bəy Ovçubaşı Ərəbgirliyə, Qarabağda isə Lütfəli bəy Qaçar Dəftərdara tapşırılmışdı. İsgəndər bəy Münşinin dediyinə görə, bu tədbir nəticəsində Azərbaycandan 15 min ailə Fars əyalətinin daxili ərazilərinə köçürülmüşdü.

1615-ci ildə I Şah Abbasın Qarabağdan və Şirvandan əhalini köçürmə siyasətinə qarşı Əhmədli qiyamı Səfəvi hökmdarı tərəfindən qətiyyətlə yatırılmışdı.

Osmanlılara qarşı üsyan – Dərbəndlilər 1606-cı ildə osmanlılara qarşı üsyan qaldırdılar. Dərbəndlilərə kömək məqsədi ilə Azərbaycan Səfəvilər dövlətinin müttəfiqi Çin usmisi Rüstəm xan üç min atlı ilə şəhərə daxil olmuşdur. Azsaylı osmanlı qarnizonu (60-70 nəfər) Narın qalada yerləşirdi. Azərbaycan Səfəvi hökmdarı I Abbas o dövrdə Şirvanda osmanlılara qarşı mübarizə aparırdı və ona görə də fürsətdən istifadə edərək ordunu «Dərbəndlilərə kömək etmək üçün» buraya yönəltdi.

Dərbəndin osmanlı komendantı Hızır Həsən müqavimətin əhəmiyyətsizliyini başa düşərək, öz qarnizonu ilə səfəvilərə təslim oldu. I Şah Abbas Mənuçöhrü Dərbəndin yeni komendantı təyin etdi.

«Azərbaycan tarixi»nin III cildində qeyd edilir ki, XVI əsrin sonları - XVII əsrin əvvəllərindən başlayaraq Moskva dövlətinin Azərbaycana ticarət-iqtisadi müdaxiləsi gücləndi. Rus ekspansiyasının həyata keçirilməsində Şirvana xüsusi əhəmiyyət verilirdi. Mənbələr təsdiq edir ki, Azərbaycan-Rusiya ticarət əlaqələri ziddiyyətli şəkildə inkişaf edirdi. Rus dövləti Azərbaycana ucuz xammal mənbəyi və əmtəələrin əlverişli satış bazarı kimi yanaşır, digər dövlətlərin Azərbaycana ticarət müdaxiləsinə əngəllər törədirdi.

XVII əsrin ikinci yarısında Azərbaycanın siyasi həyatında Xəzərsahili bölgələrə soxulmuş Don kazaklarına qarşı mübarizə əhəmiyyətli yer tutur. 1668-ci ilin yayında Stepan Razinin başçılığı ilə Azərbaycan ərazisinə təşkil edilmiş kazak yürüşləri xüsusilə qeyd olunmalıdır. Bu yürüş zamanı kazaklar Dərbənddə sahilə çıxaraq, Niyazabad, Şabran şəhərlərini talan etdilər. Lakin onların Bakıya yürüşü uğursuzluqla nəticələndi. Stepan Razin güclü müqa-

vimətdən ehtiyat edərək buranı təcili surətdə tərk etməli oldu. Qarətçilər dəstəsi Xəzərin cənub sahillərinə hərəkət etməyə başladı. Kazak hərəkatının yatırılmasında Azərbaycan Səfəvi dövləti və Moskva knyazlığı eyni dərəcədə maraqlı idi. Moskva knyazlığı üsyanı yatırmaqla daxili sabitliyi bərpa etdi. Azərbaycan Səfəvi dövləti isə talançı yürüşlərə məruz qalmaq təhlükəsindən xilas oldu.

Moskva knyazlığı, rus hakim dairələri dövlətin cənub sərhədlərini genişləndirmək siyasətini getdikcə aşkar səkildə yeritməyə başlamışdı. Moskva hökmdarları İngiltərənin Azərbaycan Səfəvilər dövləti hüdudlarında nüfuz qazanmaq cəhdlərinə qısqanclıqla yanaşır, Osmanlı Türkiyəsi ilə Səfəvilər dövləti arasında daim gərginliyin qalmasına can atırdılar. Əsrin sonlarına doğru Azərbaycan Səfəvi hökmdarı Moskva knyazının Osmanlı imperiyasına qarşı birgə çıxış etmək təklifinə mənfi münasibətini bildirdi.

Moskva knyazı Şərq ölkələrinə müdaxilə ucün Xəzər dənizinə mühüm vasitə kimi yanaşırdı. Ruslar hər vasitə ilə Xəzər hövzəsində möhkəmlənməyə can atırdılar. Dağıstan ərazisinin hansı dövlətə mənsub olması məsələsi də XVII əsrin ikinci yarısında Səfəvi-Rusiya münasibətlərində kəskin nəzərə çarpırdı. Yeni - XVIII əsrdə Rusiya hakim dairələri ölkənin iqtisadi inkişaf potensialına, artan hərbi qüdrətinə arxalanaraq qonşu xalqların torpaqlarını zor gücünə qəsb etməsi yolu ilə dövlətin sərhədlərini cənuba doğru xeyli genişləndirə bildilər.

XVII əsrin ikinci yarısı Azərbaycan (habelə Yaxın və Orta Şərq ölkələri) üçün dərin durğunluqla səciyyəvi olmuşdur. Bu durğunluq prosesi ictimai-siyasi həyatın bütün sahələrini əhatə etmişdir.

AMEA-nın müxbir üzvü Oqtay Əfəndiyev «Azərbaycan Səfəvilər dövləti» adlı əsərində, Azərbaycan Səfəvilər dövləti, habelə Dərbənd Moskva knyazlığı haqqında geniş təhlil aparıb. Əsərdə məlumat verilir ki, Azərbaycan Səfəvilər dövlətinin Moskva dövləti ilə ilk diplomatik əlaqələri I Şah İsmayıl hakimiyyətinin son illərinə aiddir. Tarixi mənbələrdə 1521-ci ildə Səfəvi nümayəndəliyinin Moskvaya gəlməsi və Moskva knyazından «çoxlu top, ustalar və yaraq-əslahə» alması barədə Krım xanının osmanlı Sultanı I Süleymana verdiyi məlumat saxlanmışdır. Bu, rus arxiv sənədlərinin qeydə aldığı ilk əlaqə faktıdır.

Moskva dövlətinin Azərbaycan Səfəvilər dövləti ilə diplomatik əlaqələr yaratmasına qonşular - Osmanlı Türkiyəsinə meyil edən Volqaboyu xanlıqları, həmçinin Krım tatarlanın viranedici basqınları mane olurdu. XVI əsrin ortalarında Moskva dövləti Xəzərin şimal sahillərinə çıxmağa, Xəzər dəniz yolunu ələ keçirməyə uğurlu cəhdlər göstərir, Volqa boyunca cənuba doğru inadla irəliləyirdi.

Həmçinin məlumdur ki, 1553-cü ildə Seyid Hüseynin başçılıq etdiyi Azərbaycan Səfəvi nümayəndə heyəti Moskvaya gəlmişdi. Danışıqların məzmunu haqqında məlumatlar olmasa da güman etməyə əsas var ki, danışıqlarda Osmanlılar əleyhinə hərbi ittifaq haqqında məsələyə də toxunulmuşdur. Məhz bu zaman Sultan Süleymanın qoşunları Azərbaycana soxulmuş və I Şah Təhmasib bu basqın ilə ağır və qeyri-bərabər mübarizə aparmalı olmuşdu. Səfəvi şahı Krım tatar süvarilərinin Dağıstan və Dərbənddən hücumunun qarşısını almaq üçün məntiqən məhz şimalda müttəfiq axtarmalı idi.

1561-ci ildə Moskvaya adı tarixə naməlum qalmış Səfəvi nümayəndəsi gəlmişdi. Bu barədə onunla birlikdə Moskvadan Həştərxana gəlmiş Cenkinson 1562-ci ilin iyununda məlumat verir. 1563-cü il noyabrın 1-də şirvan bəylərbəyi Abdulla xan Ustaclının nümayəndəliyi də Moskvaya gəlmişdi.

Ehtimal etmək olar ki, I Şah Təhmasib Osmanlı Türkiyəsi ilə 1555-ci il sülhünün uzun sürəcəyinə şübhə edir və Moskva dövləti ilə yaxınlaşmağa səy göstərirdi. Moskva dövlətinin başı isə üzücü Livoniya müharibəsinə qarışmışdı və çar sultanla münasibətləri kəskinləşdirmək istəmirdi. Lakin bununla belə, IV İvan 1569-cu ildə Aleksey Xoznikovun nümayəndəliyini I Şah Təhmasibin yanına göndərmişdi. Xoznikov Səfəvilər üçün «xeyli» sursat - 100 top və 500 tüfəng Qəzvinə gətirmişdi.

IV İvanın Kazan və Həştərxan xanlıqlarını işğal etməsi I Süleymanın sarayında ciddi narahatlığa səbəb olmuşdu. Lakin Cənub-Şərqi Avropa və Azərbaycan Səfəvilər dövlətinə qarşı müharibələrə başı qarışan Sultan Süleyman rus dövlətinin istilalarına mane ola bilmədi. 1569-cu ildə II Sultan Səlim Krım xanı Dövlət Gərayla birlikdə rusları qısa müddətə Həştərxandan sıxışdırıb öz mövqeylərini bölgədə möhkəmləndirməyə nail oldu. Lakin bu hal uzun çəkmədi.

Nurulla Arif oğlu Əliyevin «Azərbaycan hərbi dənizçilik tarixi» əsərində Osmanlı dövlətinin Hərbi-

Dəniz Donanması sahəsində, Xəzər dənizində və Dərbənddəki rolu haqqında qeyd olunur ki, Osmanlı dövlətinin dövrünə və qüdrətinə görə tutduğu mövqe gələcəyə doğru bəzi atılmalı olan addımları mütləq edirdi. Bunlardan biri də Xəzər dənizində Osmanlı komandanlığının yaradılması idi. Osmanlı dövlətinin Xəzər dənizindəki hökmranlığı XVI əsrin sonu - XVII əsrin lap əvvəllərinə təsadüf edirdi. O dövrdə Xəzərin cənubunda Səfəvilərin, şimalında Rusların, şərqdə isə Orta Asiya türklərinin hökmranlığı davam edirdi. Xüsusən də Xəzərin şimalında rusların güclü donanması mövcud idi. Bölgədəki osmanlıların müdrik təbəqədən olan insanlarının təklifinə əsasən, Xəzər dənizində donanmanın yaradılması fikri İstanbuldakı «Divanı Hümayun» toplantısında qəbul edilmişdir. Osmanlı dövlətinin Qafqazda mövqeyini möhkəmləndirmək üçün bölgədə dəniz donanması yaradılmış və Mehmet bəy onun komandanı təyin olunmuşdur. O, Xəzərə admiral («kaptan») təyin olunmuş, 27 avqust 1579-cu ildə bölgəyə gəlmiş və Dərbənd şəhərini Xəzər donanmasının komanda mərkəzi kimi seçmişdir. 25 ildən sonra Osmanlı dövlətinin Xəzər bölgəsindən çəkilməsi ilə birlikdə komandanlığının («kaptanlıq») fəaliyyəti də dayandırılmışdır.

Tarixi qaynaqlarda bu barədə bəzi bilgilər saxlanılmışdı.

Belə ki, XVI əsrin axırlarında Səfəvilərdə müharibə zamanı Karun çayı üzərində təcili sürətdə 5 ədəd xüsusi təyinatlı donanmasının gəmi donanmasının inşa edilmişdir. Xəzər hövzəsində yerləşən «Dəmir qapıda» gəmi inşası nəzərdə tutulsa da ideya reallaşmamış qalmışdır. Mehmet bəy Sancaq bəyin rəhbərliyi ilə 1000 tatar əsgərinin mühafizəsi altında «Dəmir qapı» üçün ayrılmış maddi köməyi Dərbənd şəhərinə göndərmişdir (26 iyun 1579).

Mehmet bəy 27 avqust 1579-cu ildə «Dəmir qapı»da Osman paşaya sultanın məktubunu təqdim etdikdən sonra, paşanın göstərişi ilə o, Dərbənd bəylərbəyi - komandanı təyin olunmuşdur. Bu münasibətlə 10 oktyabr 1579-cu ildə Dərbənd şəhərində Osman paşa tərəfindən xüsusi ziyafət də verilmişdir.

Məlumdur ki, 1580-cı ildə Bakı qalası osmanlılar tərəfindən təmir edilmişdi. Həmin dövrdə Səfəvi valisi Salman xanın rəhbərliyi altındakı qüvvələr Bakıya hücum etdi. Lakin şimaldan, yəni Dərbənddən, dəniz yolu ilə bölgədəki donanmanın yardımları ilə Salman xanın hücumu dəf edildi.

Azərbaycan Təhsil Nazirliyi tərəfindən tövsiyə edilmiş «Azərbaycan tarixi» kitabında Osmanlı dövlətinin bölgədəki fəaliyyəti ilə əlaqədar bəzi məlumatlar verilmişdir. Burada göstərilir ki, osmanlılar Xəzər sahillərinə çıxaraq donanma yaratmağa başladılar. Əvvəllər rus ticarət gəmilərinin yerləşdiyi Niyazabad şəhərində Osmanlı gəmiləri inşa edilməyə başladı.

Xəzər dənizində osmanlı gəmilərinin rus ticarət gəmilərinin yerini tutması bir sıra digər qaynaqlarda qeyd olunmuşdur.

Bu mövzuda məşhur yazıçı Qılman İlkin də yazmışdır: «Rus ticarət gəmilərinin toplandığı Niyazabadda türklər özləri üçün ticarət gəmiləri inşa etməyə başladılar».

Osmanlı dövlətinin bölgəyə və dənizə hakim olması – Osmanlı gəmilərinin Xəzərdə avar çəkməsinə və yelkən açmasına səbəb olmuşdur. Bundan əlavə Bakının ticarət mərkəzi kimi əhəmiyyəti daha da artmışdır. Xəzər dənizindəki yükdaşımaları iki dəfəyə qədər artmış və bu ərəfədə Azərbaycanda, o cümlədən də Bakıda, Osmanlı sultanı adına sikkələr də zərb edilmişdir.

1590-cı ilin may ayında ölkəni ağır vəziyyətdən qurtarmaq üçün Azərbaycan Səfəvi hökmdarı I Abbas Osmanlılarla sülh müqaviləsi bağlayır. Azərbaycanın şimal və cənub əyalətlərinin əksəriyyəti, o cümlədən Bakı və Abşeron yarmadası, osmanlıların himayəsi altına düşür. Türklər Dərbənddən tutmuş, Bakıya qədər ticarət yollarını güclü nəzarət altına almışdılar. Osmanlı dövləti Xəzər Dəniz sahilinə çıxaraq təcili donanma yaratmağa başladı. Əvvəllər rus tıcarət gəmilərinin yer aldığı Niyazabadda Osmanlı gəmiləri inşa edilməyə başladı.

Bundan narahat olan ruslar və Səfəvilər diplomatik əlaqələr yaratmağa çalışmış, lakin Rus çarlığı ilə İsveç krallığı arasında problemlərin mövcud olması səbəbindən rus-səfəvi müttəfiqliyi baş tutmamışdı.

Azərbaycan Səfəvilər dövləti yenidən Osmanlı Türkiyəsinə qarşı müharibəyə başlayıb Azərbaycan şəhələri İrəvan, Gəncə, Şamaxı və Bakını geri qaytardılar. Osmanlı dövlətini coğrafi və strateji baxımdan təhlükəsizliyini təmin edən Xəzər komandanlığı bu hadisədən sonra zəifləməyə başladı. Osmanlı dövləti çar Rusiyası ilə Azərbaycan Səfəvi dövləti

arasında qalmış və hər iki tərəfə qarşı mübarizə aparmağa məcbur olmuşdur.

Osmanlı dövləti bölgədən çəkilərkən, Azərbaycan Səfəvilər dövləti ilə uzunmüddətli müharibəyə səbəb olacaq müharibələrə girmişdi. Bu müharibələr Sultan IV Muradın Bağdad və İrəvan səfərinə çıxmasına səbəb olmuş və 1639-cu ildə səfəvilərlə «Qəsri Şirin» müqaviləsi bağlanmışdı.

Ruslar coğrafi baxımdan Qara dənizə Xəzər dənizindən daha yaxın olmalarına baxmayaraq, həmin illərdə Qara dənizdə təsirli qüvvəyə malik olmadıqları üçün Xəzər dənizinə yönəlirdilər.

Xəzər bölgəsində şimal, şərq və qərbdəki türk xalqları arasında birlik yox idi və bu da rusların bölgədə qüvvəsinin möhkəmlənməsinə kömək etmişdi. XVI əsrin ortalarında Sokullu Mehmet Paşanın təklif etdiyi Qara dəniz çayları vasitəsi ilə, Volqa-Don çayları ilə, Xəzərə bağlanmaq məqsədinin irəli sürülməsinin nə qədər uzaqgörənlik olduğunu qeyd etmək lazımdır. Əgər bu, həyata keçirilsəydi, rusların Qara dəniz və Xəzər dənizindəki hakimiyyəti çox çətin və ya heç zaman baş tutmazdı. Digər tərəfdən, rusların, istər Osmanlı sərhədlərinə, istərsə də İtil-Qafqaz-Sibir bölgələrinə irəliləməsinə qarşı müəyyən tədbirlərin görülməsinə şərait yaranardı. 1587-ci ilin avqust ayında İstanbula gəlmiş özbək və noqay elçiləri Xəzərin şimalındakı Həştərxan şəhərində yerləşən rusların müsəlmanlar üçün necə bir təhlükə olduğunu bildirmişdilər və s.

Azərbaycan, o cümlədən Dərbənd şəhəri XVIII əsrdə. «Azərbaycan tarixi»nin III cildində Dərbəndə Rusiya imperiyasının tərəfindən yürüşləri haqqında geniş məlumat verilir. Belə ki, o dövrdə, Azərbaycan Səfəvilər dövlətinin ağır günlərində şah Sultan Hüseyn rus dövlətindən kömək almaq üçün onunla yaxınlaşmağı qərara almışdı. Bu məqsədlə o, 1713-cu ildə «dostluq və ticarət müqaviləsi» bağlamaq üçün Fəzlulla bəyi Peterburqa göndərmişdi.

Səfəvi şahının Rusiyaya müraciəti I Pyotrun Şərqdə siyasətinin fəallaşması dövrünə təsadüf edir. Həmin illərdə Rus dövləti Osmanlı Türkiyəsi ilə uğursuz müharibə aparmış və 1711-ci ildə Prut müqaviləsini imzaladıqdan sonra Qara dənizə çıxış əldə etməkdən əlini üzərək bütün ümidini Xəzər dənizi hövzəsinə bağlamışdı. İsveçlə müharibə davam etdiyi bir şəraitdə cənuba yürüş keçirmək imkanına malik olmayan çar kəşfiyyat xarakterli tədbirlər görürdü. O, 1714-cü ildən başlayaraq Xəzər dənizinin şərq sahillərini öyrənmək üçün Bekoviç-Çerkasskinin başçılığı ilə buraya ekspedisiya göndərmişdi.

I Pyotr Xəzər dənizinin qərb sahillərini öyrənmək məqsədilə Azərbaycandan, xüsusilə karvan yolu ilə Şirvandan keçmək şərtilə Azərbaycan Səfəvilər dövlətinə özünün yaxın adamlarından birini – A.P.Volınskini göndərdi. «Elçi» kimi İsfahana yola düşən A.P.Volınskiyə o, eyni zamanda xüsusi və gizli göstəriş də vermişdi. Həmin göstərişə əsasən rus dövlətinin «elçisi» karvan yollarını, yollar boyunca otlaqların olub-olmamasının (bu, süvari qoşunlar üçün vacib idi), yerli qoşunların müdafiə qurğularının vəziyyətini öyrənməli, burada xristianlarla əlaqə yaratmalı idi. A.P.Volınskiyə burada rus ticarətinin inkişaf etdirilməsi perspektivlərini öyrənmək də tapşırılmışdı. Əslində, A.Volınski bütün səfəri ərzində çarın gizli əmirlərini yerinə yetirən əsil casus kimi fəaliyyət göstərmişdi.

1717-ci il iyunun 30-da A.P.Volınski və Fətəli xan tərəfindən ilk rəsmi Rusiya-İran ticarət müqaviləsinin layihəsi tərtib olundu. Hələ müqavilə hər iki dövlət başçısı tərəfindən təsdiq edilməmiş A.P.Volınski onun mətninin nüsxələrini şahın fərmanı ilə birlikdə rus tacirlərinin alver etdikləri şəhərlərə, habelə Şirvan bəylərbəliyinə göndərdi. Şahın fərmanında və müqavilə layihəsində rus tacirlərinin yerli hakim və tacirlər tərəfindən sıxışdırılması qəti qadağan olunurdu.

Şahın fərmanında Şirvan bəylərbəliyinə tapşırılırdı ki, rus tacirlərinin fəaliyyət göstərdikləri bütün şəhərlərin (Bakı, Dərbənd, Niyazabad) gömrükxana rəislərinə xəbərdarlıq edilsin ki, rus tacirlərinin alver etməsi üçün hər cür şərait yaratsınlar. Şahın fərmanının məzmunundan müəyyən etmək olur ki, Rusiya-Səfəvi ticarətində Azərbaycan şəhərlərindən Şamaxı, Dərbənd, Bakı, Şabran, habelə Niyazabad limanı mühüm rol oynayırmış.

Əslində, Rusiya-Səfəvi ticarəti müqaviləsinin layihəsində söhbət Şirvan və onun Xəzərboyu əyalətlərindən gedirdi. Çünki rus tacirləri əsasən bu yerlərdə cəmləşirdilər. Yerli hakimlər rus tacirlərinin Azərbaycanda istehsal olunan, yaxud buranın bazarlarına Şərq ölkələrindən, hətta uzaq Hindistandan gətirilən mallara göstərdikləri marağı görüb, ticarət gömrüklərinin miqdarını istədikləri qədər

artırdılar. Həmin məsələləri qaydaya salmaq üçün A.P.Volınski Səfəvi dövlətində konsulxana təsis olunmasını təklif etdi.

Şah hökuməti ilə ticarət müqaviləsi bağladıqdan sonra A.P.Volınski Rusiyaya qayıtmağı qərara aldı. O, quru yolla Rəştə getmək, oradan gəmi ilə Həştərxana üzmək, beləliklə, Gilan haqqında da kəşfiyyat məlumatı toplamaq istəyirdi. Lakin şah hökuməti gec də olsa ayıldı, A.P.Volınskinin niyyətini başa düşdü və onun yalnız gəldiyi yolla qayıtmasına icazə verdi. 1717-ci il dekabrın 17-də rus səfiri Şamaxıya gəldi və «yolların açılmasını» gözləyərək 8 ay Şamaxıda qaldı. O, eyni zamanda I Pyotrun göstərişinə əsasən Cənubi Qafqazın xristianları ilə də görüşdü. Kartlinin gələcək çarı VI Vaxtanqın nümayəndəsi Farsadan bəy şəxsən Şamaxıya, A.P.Volınskinin yanına gəldi. Daha sonra «rus elcisi» erməni tacirlər ilə görüşdü. Dərbənddən gələn erməni tacirlər A.P.Volınskiyə Dərbənd qalasının planını da gizlicə gətirmişdilər. Belə bir «hədiyyə»nin I Pyotrun bu bölgəyə yürüşə hazırlaşdığı ərəfədə böyük hərbi-siyasi əhəmiyyəti vardı.

Beləliklə, A.P.Volınski Azərbaycan Səfəvi dövlətində karvan yollarının vəziyyəti ilə tanış olub «gündəliyini» zənginləşdirdi. Yalnız Şamaxıdan Həştərxana gedən yol öyrənilməmiş qalmışdı. Rusiya ilə həmsərhəd olan vilayətlərin karvan yolları haqqında məlumat toplamaq məqsədilə A.P.Volınski karvan yolu ilə öz dəstəsinin üzvlərindən birini - zadəgan A.Lopuxini göndərməyi qərarlaşdırdı. Rus dövlətinin «elçisi» A.Lopuxin karvan yolu ilə Rusiyaya göndərilməsinin səbəbini belə izah edirdi ki, guya Səfəvi şahının I Pyotr üçün hədiyyəsini - bir fili və iki bəbiri Həştərxana gəmi ilə göndərmək mümkün deyildir. A.Lopuxini yola salarkən A.P.Volınski ona xüsusi jurnal tərtib etməyi və həmin jurnala Niyazabad limanından Həştərxana gedən yolda müşahidə etdiklərini qeydə almağı tapşırmışdı.

Beləliklə, A.Lopuxin 1718-ci il martın 10-da 30 nəfər əsgərin müşayiəti ilə yola düşdü. A.P.Volınskinin özü isə Azərbaycan torpağını 1718-ci il iyulun 25-də tərk etdi. Avqustun 1-də Həştərxana çatan A.P.Volınski birbaşa Peterburqa gedib, özünün səfəri barədə I Pyotra məlumat verdi. A.P.Volınskinin fəaliyyətindən razı qalan I Pyotr əvvəlcə ona polkovnik, sonra isə general-adyutant rütbəsi verdi. Xəzərboyu yürüşə hazırlaşan I Pyotr daha sonra A.P.Volınskini Həştərxana qubernator təyin etdi və qarşıdakı yürüş üçün hazırlıq tədbirləri görməsini tapşırdı.

Rusiya İsveçlə 20 ildən artıq apardığı müharibəni 1721-ci ildə qalibiyyətlə bitirdikdən sonra Xəzərboyu əyalətlərə yürüş üçün ciddi hazırlıq görməyə başladı.

Bu zaman Azərbaycan Səfəvi dövlətini ixtişaş və qiyamlar bürümüşdü. Bu hadisələrin şahidi olan A.P.Volınski gündəliyində belə qeydlər aparmışdı: «Burada (Azərbaycanda) nadir yerlər qalmışdır ki, üsyan baş verməmiş olsun».

Mərkəzi hakimiyyətə qarşı yönələn və xalq azadlıq səciyyəsi daşıyan kortəbii üsyanlar eyni zamanda xalq kütlələrini istismar edən yerli feodalların da əleyhinə çevrilmişdi. Lakin yerli feodallar nəinki onlara vurulacaq zərbədən qaça bildilər, hətta bir sıra hallarda xalq hərəkatından, əhalinin avamlığından özlərinin hakimiyyət başına gəlməsi üçün bacarıqla istifadə etdilər.

Şirvanda səfəvilərə qarşı çıxışlara Hacı Davud başçılıq edirdi. Şirvanın Müşkür mahalının Dədəli kəndindən olan Hacı Davud Şirvanın sünni ruhanilərinin başçılarından idi. Vaxtilə Məkkəyə ziyarətə getmiş və «Hacı» adını almışdı. Şəxsi istedadı sayəsində Hacı Davud bütün şimal-şərqi Azərbaycanda, xüsusilə əhalisi sünni təriqətinə mənsub olanlar arasında böyük nüfuz qazanmışdı.

Hacı Davud belə bir şayiə yaymağa başladı: guya o, Allah tərəfindən göndərilmişdir ki, sünniləri şiələrin, zülmündən azad etsin. Bu zaman Dağıstanda da Səfəvilər hakimiyyətinə qarşı üsyan baş verdiyini eşidən Hacı Davud tez Dağıstana yola düşdü. Burada o, Qaytaqlı Əhməd xanla ittifaqa girib onunla birlikdə çıxış etmək barədə tədbirlər hazırladı. Dağıstanda ikən buranın ən nüfuzlu şəxsiyyətlərindən olan Qazıqumuxlu Surxay xanla da əlaqə yaratdı. Müttəfiqlər qərara aldılar ki, Şah Hüseynin Şəki, Şirvan, Quba mahallarına təyin etdiyi xanları və onların ətrafındakıları – məmurları qətlə yetirsinlər.

Hacı Davud geri qayıdıb Səfəvi dövlətinin inzibati mərkəzlərinə hücum etməyə hazırlıq işləri görərkən, Rusiyanın diplomatik kuryeri Dmitri Petriçno, təqribən, A.P.Volınskinin marşrutu ilə İsfahana gedirdi. Lakin o, mənzil başına çata bilmədi. D.Petriçnonun xarici işlər kollegiyasının prezidenti Q.I.Qolovkinə göndərdiyi raportda deyilir: «...Şa-

maxının ətrafını üsyanlar, qarət və soyğunçuluq bürümüşdür. Ona görə də mən yolumu Şamaxıdan salmağa ehtiyat edib, geri qayıtmağa məcbur oldum».

Lakin 1719-cu ilin sonlarında şahın və yerli hakimlərin qoşunları Şirvanda baş verən üsyanı yatırmağa nail oldular. Hacı Davud tutulub Dərbənd həbsxanasına salındı. Onun ən yaxın müttəfiqi Surxay xan Dağıstana qaçaraq canını xilas etdi. Sonradan isə, o şaha xidmət edəcəyinə söz verərək yüzbaşı rütbəsini aldı və şahın Dağıstandakı etibarlı adamlarından birinə çevrildi.

Şirvanda baş verən hadisələr çar Rusiyasının Xəzər dənizi hövzəsində fəaliyyətinin genişləndiyi dövrə təsadüf edirdi. I Pyotrun bu sahədəki tədbirlərindən biri Xəzərin qərb sahillərini topoqrafik cəhətdən öyrənməkdən ibarət idi. O, bu məqsədlə fon Verdenin başçılığı ilə Xəzər dənizinə ekspedisiya göndərdi. Fon Verdenin yaxın köməkçiləri leytenant Soymonov, Urusov, unter-leytenant Doroşenko və Zolotoryov idi. Ekspedisiya «Müqəddəs Aleksandr», «Müqəddəs Yekaterina» və «Həştərxan» adlı üç gəmidə hərəkət edirdi. Xəzər dənizinin şimal-qərb sahillərinin xüsusiyyətini öyrəndikdən sonra ekspedisiya sahil boyunca cənuba doğru hərəkət edərək Bakı körfəzinə daxil oldu. Daha sonra hər üç gəmi yoluna davam edərək Kür çayının mənsəbinə çatdı və çaya daxil olub üzü yuxarı 20 verstlik məsafəni qət etdi.

Dövrün səviyyəsinə uyğun tərzdə aparılan tədqiqat işləri nəticəsində tərtib olunmuş xəritəyə əsasən Xəzər dənizinin bütün qərb sahilləri dəqiqliklə köçürülmüş, sahil sularının dərinliyi, sahil qumları və dənizdəki su axınlarının istiqaməti, limanlar, buxtalar, sualtı qayalar öyrənilmişdir.

Bakı körfəzində ekspedisiya üzvləri o qədər də böyük olmayan üç ada müşahidə etdilər. Bu adalardan ikisi öz görünüşünə görə Baltik dənizindəki Revelin yaxınlığındakı iki adanı – Nargını və Vulfu xatırladırdı. Buna görə də ekspedisiya həmin adaları «Nargın» və «Vulf'» adı ilə xəritəyə saldı. Üçüncü adaya onlar «Pesçanıy» («Qumlu») adını verdilər. Xəzər dənizinin Qafqaz bölgəsi sahillərini öyrəndikdən sonra ekspedisiya cənub istiqamətində irəliləyərək dənizin Astrabad körfəzinədək sahillərini də xəritəyə əlavə etdi.

I Pyotrun qarşıda duran yürüş üçün hazırladığı tədbirlərdən biri də Şirvanda rus konsulluğunu açmaq təşəbbüsü idi. Lakin şah hökuməti buna qəti etiraz etdi. Səfəvi hakim dairələri bildirdilər ki, dövlətin paytaxtı İsfahan olduğuna görə ilk rus konsulluğu da məhz bu şəhərdə açılmalıdır. Uzun mübahisə və götür-qoydan sonra rus tacirlərinin əksəriyyətinin arzu və marağı nəzərə alınaraq Şamaxıda da konsulluq açılması qərara alındı.

XVIII əsrin 20-ci illərində Azərbaycan Səfəvilər dövləti özünün ən ağır tənəzzül dövrünü keçirirdi. Üsyan etmiş əfqan qəbilələri vilayətləri bir-bir ələ keçirir və paytax - İsfahana yaxınlaşırdılar. İsfahan şəhəri mühasirədə olarkən şahzadələrdən biri aradan çıxaraq yaxın adamları ilə birlikdə dövlətin şimal bölgəsinə qaçdı, İsfahanın süqutu və şahla birlikdə ailəsinin edamından sonra burada özünü II Təhmasib adı ilə şah elan etdi. Səfəvi dövləti süquta uğradığı bir dövrdə ölkənin hər yerində yenidən üsyanlar baş verdi. Səfəvilərə qarşı çıxışlar Azərbaycanda, xüsusilə Şirvanda daha artıq qüvvə ilə alovlandı.

Mərkəzi dövlətin və yerli hakimiyyət orqanlarının problemlərindən istifadə edən Hacı Davud tərəfdaşlarının köməyi ilə Dərbənd zindanındakı həbsdən qaçaraq yenidən Şirvan üsyançılarına başçılıq etməyə başladı və Qazıqumuxlu Surxay xanı muzdlu qoşunları ilə birlikdə öz tərəfinə çəkməyə nail oldu.

Bu dəfə Hacı Davud qarşısına daha konkret məqsəd qoydu. Şirvanda Səfəvilərin hakimiyyətini devirmək və burada İrandan asılı olmayan müstəqil dövlət yaratmaq. O, ilk zərbəsini İranın Şirvandakı üç iri inzibati mərkəzinə – Şamaxı, Bakı və Dərbəndə endirdi. Lakin Hacı Davud birbaşa həmlə ilə həmin şəhərləri ala bilmədi və həlledici döyüşlər üçün daha düşünülmüş tədbirlər hazırlamağı qərara aldı. Lakin ciddi döyüşlər üçün dəyənək, balta, yaba və dəryazla silahlanmış kəndlilər, pis silahlanmış şəhər yoxsulları və Dağıstandan gələn muzdlu qoşunlar kifayət etmirdi. Səfəvilərin nizami ordusu ilə mübarizədə mütləq güclü müttəfiq lazım idi. Bu məqsədlə Hacı Davud yazılı şəkildə Rusiya dövlətinə müraciət edib ondan hərbi kömək istədi. Hacı Davudun müraciətinə Peterburqda müxtəlif mövqelərdən yanaşıldı: bəziləri təklif edirdilər ki, Şirvan üsyançılarına kömək etmək lazımdır ki, onlar bu bölgədə Səfəvi hakimiyyətinə son qoysunlar. Bəzilərinin isə, o cümlədən I Pyotr və A.P.Volınskinin planına görə Səfəvi şahı ilə mövcud olan «dostluğa» əsaslanaraq Şirvana və Xəzərboyu əyalətlərə qoşun çəkməklə şaha «kömək» adı ilə üsyançılara divan

tutulmalı və beləliklə də Xəzər dənizi Rusiyanın «daxili gölünə» çevrilməli idi.

Həştərxanın yeni qubernatoru, Rusiyanın Səfəvi dövlətində olan sabiq elçisi A.P.Volınski rus qoşunlarının Xəzərboyu əyalətlərə yürüşü ərəfəsində I Pyotrun göstərişinə əsasən Hacı Davuda cavab məktubu yazaraq soruşdu ki, o yalnız hərbi kömək istəyir, yoxsa Rusiyanın himayəsini qəbul etməyi arzulayır? Hacı Davud cavabında bildirdi ki, o, rus qoşunlarının köməyi ilə Şirvanı Səfəvi hakimiyyətindən azad etmək, özü isə müstəqil Şirvan dövlətinə başçılıq etmək arzusundadır. Rusiyaya gəldikdə isə o, heç də etiraz etmir ki, I Pyotr öz dövlət sərhədlərini İsfahana qədər uzatsın.

Bir sözlə, Hacı Davudun nəzərdə tutduqları Rusiyanın hazırladığı bütün planlarının tamamilə əksinə idi. Məhz buna görə də I Pyotr Şirvanda qalxan hərəkatı boğmaq, guya onunla dostluq münasibətində olan şaha kömək etmək bəhanəsi ilə Şirvana qoşun çəkməyi qərara aldı.

I Pyotrun hazırladığı tədbirlərdən xəbəri olmayan Hacı Davud da öz növbəsində Şirvan bəylərbəyliyinin mərkəzi olan Şamaxı şəhərinə hücum üçün hazırlıq işləri görürdü. Az bir zamanda Hacı Davudun dəstəsi ətraf mahallardan, xüsusilə Quba, Rustov, Müşkür və Altıparadan gələn kəndlilər hesabına artdı. İ.Q.Herberin yazdığına görə, xalq dəstə-dəstə üsyançılara qoşulurdu. Tezliklə Qaytaq usmisi də üsyançılarla birləşdi.

Müxtəlif ictimai təbəqələrdən ibarət olan, lakin qarşısına eyni bir məqsəd qoymuş xalq kütlələrini ətrafına toplayan Hacı Davud əsasən Qazıqumuxlu Surxay xanın qoşunları və üsyançı dəstələri ilə Səfəvilərin Şirvandakı əsas inzibati mərkəzi olan Şamaxı tərəfə hərəkət edib şəhəri mühasirəyə aldı. 1721-ci ilin avqust ayında şamaxılıların köməyi ilə üsyançılar şəhərə daxil oldular.

Yeri gəlmişkən, XVIII əsrin birinci yarısında Azərbaycanda genişlənən xalq hərəkatının feodalizm dövründə baş verən bir çox ictimai hərəkatlarda olduğu kimi, həm zəif və həm də ziddiyyətli tərəfi vardı. Xalq kütlələrinin kortəbii silaha əl atması çox zaman qarətlə, feodal malikanələri və yaşayış məntəqələrinin talan olunması, yandırılması ilə nəticələnirdi. Şamaxı şəhəri alınarkən buradakı zəngin bazarın, karvansaraların, xarici ölkələrdən gələn tacirlərin, o cümlədən rus tacirlərinin malının qarət olunması da bununla izah edilə bilər. Qeyd etmək lazımdır ki, bu məsələdə rus tacirlərinin özlərinin də günahı olmuşdu. Onlar üsyancıların şəhərə hücumu ərəfəsində İran tacirlərinin əmlakını gizlətmişdilər. Üsyançılar şəhərə daxil olduqdan sonra tacirlərin əmlakını tələb etmiş, rus tacirləri isə bu tələbi yerinə yetirməmiş və üsyançılara toplardan atəş açmışdılar. Bundan sonra, adətən, xarici tacirlərə toxunmayan üsyançılar rus tacirlərini cəzalandırmışdılar.

Şamaxıda qazanılmış qələbədən ruhlanan Hacı Davud öz yürüşünü davam etdirməyi qərara aldı. Lakin Dərbənd və Bakı qalalarına edilən hücumlar uğursuz oldu. Buna baxmayaraq, Şirvanda xalq hərəkatı gündən-günə genişlənirdi. Şahın göstərişi ilə İrəvan xanı 1721-ci ildə öz qoşunu ilə üsyançılara qarşı yeridi. Bunu eşidən Hacı Davud daha cəld tərpənərək Kür çayını keçib, gözlənilmədən onlara həmlə etdi. Döyüş üsyançıların xeyrinə qurtardı.

Hadisələrin şahidi olan Yesai Həsən Cəlal yazırdı ki, daha sonra üsyançı dəstələr ara-sıra Qarabağın Xaçın, Dizaq və Vərəndə mahallarında görünmüşlər. Lakin müəllif bu «görünüşün» nəticəsi barədə yazmır. Mənbələrdə Hacı Davudun Azərbaycanın cənub vilayətlərinə də daxil olması, Ərdəbilə yaxınlaşması haqqında məlumat vardır. 1721-ci ildə Hacı Davudun dəstələri Gəncə şəhərini mühasirə etsələr də, şəhəri ala bilmədilər.

Hacı Davudun dəstələri Gəncədən uzaqlaşıb Şirvana getdikdən sonra şəhər Kartli və Kaxeti çarlarının, habelə ermənilərin hücumlarına məruz qaldı. Üç aydan sonra Gəncənin mühasirəsini pis təşkil edən bəylərbəyi Uğurlu xan şəhəri tərk etməyə məcbur oldu.

Rusiyanın ona qarşı mənfi münasibətindən xəbər tutan Hacı Davud özünə arxa tapmaq məqsədilə Osmanlı imperiyasına müraciət etdi. Bunu irəlicədən görürmüş kimi, A.P.Volınski I Pyotra yazmışdı: «Belə olduqda üsyan etmiş knyazlar kömək almaq üçün mütləq Türkiyəyə müraciət edəcəklər... Bu, hec də Rusiyanın xeyrinə olmayacaqdır. Yaxşısı budur ki, özümüiz işə fəal mudaxilə edək».

Şimali Xəzər sahillərində möhkəmlənmək arzusunda olan Osmanlı imperiyası vaxt itirmədən Hacı Davudla əlaqə yaratdı. Hacı Davud İstanbuldan hərbi kömək istəməklə bərabər, həmin dövlətin himayəsini də qəbul etməyə söz verdi.

I Pyotrun 1722-ci il yürüşündən sonra Osman-

lı sarayı Hacı Davudu himayəyə qəbul etdi (1722-ci il, dekabr). Belə olan təqdirdə, I Pyotrun Osmanlı himayəsində olan şəxsə qarşı cəza ekspedisiyası göndərdiyini açıqlamağa cəsarəti çatmazdı.

Osmanlı sultanından müsbət cavab alan Hacı Davud Şamaxıya qayıtdıqdan sonra qoşunları əsasən qarətlə məşğul olan sabiq müttəfiqi Qazıqumuxlu Surxay xanı özündən uzaqlaşdırdı və yenicə yaranmış Şirvan xanlığının vahid hakimi oldu.

İstanbulda Hacı Davudla sultan Əhməd arasında aparılan danışıqlar I Pyotr hökumətini xeyli narahat etdi. Şirvana Osmanlı qoşununun yeridilməsi təkcə Rusiyanın cənub sərhədlərini hədələmirdi, bu, eyni zamanda, onun şərq ticarətinə də ağır zərbə endirə bilərdi. Bütün bunlar I Pyotru Xəzər dənizi hövzəsində tələsik hərəkətə vadar etdi.

Rusiya imperatorunun Şərq siyasətində Şimal-Şərqi Azərbaycan mühüm əhəmiyyət kəsb edirdi. Hətta Şirvan üsyanından əvvəl Peterburqda qarşıda duran yürüş barədə tərtib olunmuş sənədlərdə bu yürüş «Şamaxı ekspedisiyası» adlanırdı.

Şirvan üsyanı qələbə çaldıqdan sonra I Pyotr həm yürüşün adını, həm də istiqamətini dəyişdirməli oldu. I Pyotr ehtiyatlanırdı ki, mərkəzi səfəvi dövlətinin zəifləməsindən istifadə edən Osmanlı imperiyası Cənubi Qafqaza qoşun yeritməklə bu yerləri alar və beləliklə, Rusiyanın Qafqaz siyasətinin həyata keçirilməsinə mane olar. Ona görə də yürüş yubadıla bilməzdi.

1722-ci il iyulun 25-də I Pyotr Rusiyanın Azərbaycan Səfəvilər dövlətindəki konsulu S.Abramova göstəriş verdi ki, şahın Xəzərboyu əyalətləri Rusiyaya güzəştə getməsinə çalışsın. Əks təqdirdə, Rusiya bu yerləri silah gücü ilə almağa hazırdır. I Pyotr S.Abramova yazırdı ki, biz mütləq dəniz sahillərinə sahib olmalıyıq, osmanlıları buraya buraxa bilmərik.

Beləliklə, Xəzərboyu əyalətlərə yürüş etmək üçün hər şey hazır idi. Əvvəlcə yürüşə 1723-cu ildə başlamaq planlaşdırılmışdı. Sonra bu vaxtı bir il qabağa çəkmək lazım gəldi. Peterburqdan xəbər alınmışdı ki, qiyamcı əfqan qəbilələri 1722-ci ilin martında İsfahan yaxınlığında şah qoşunlarını məğlubiyyətə uğratmış və Səfəvilərin paytaxtını mühasirəyə almışlar. Peterburqda qorxurdular ki, Türkiyə Səfəvi dövlətinin süqutundan istifadə edib Rusiyadan əvvəl Xəzərboyu vilayətləri ələ keçirər. Qəti addım atmazdan əvvəl I Pyotr Xəzərboyu əyalətlərin sakinləri arasında yürüşün səbəbini doğrultmaq məqsədilə «Manifest» çap edib, xüsusilə rus ordusu hərəkət edəcək istiqamətdə yerləşən şəhər və kəndlərə göndərdi. «Manifest»də yürüşün əsil səbəbi, mahiyyəti ört-basdır edilir və göstərilir ki, rus ordusunun bu yürüşdə məqsədi Şirvan üsyanı zamanı Şamaxıda qətl və qarətə məruz qalmış rus tacirlərinin intiqamını almaq, habelə Rusiya dövlətinin dostu olan Səfəvi şahına qarşı qalxan üsyançılara, xüsusilə Hacı Davuda və Surxay xana cəza verməkdən ibarətdir. I Pyotr «Manifest»ində həmçinin yerli əhaliyə əmin-amanlıq da vəd edirdi. «Manifest» Azərbaycan dilində də çap olunmuşdu.

1722-ci il avqustun 23-də rus qoşunları Dərbənd şəhərini ələ keçirdi. Şəhərin naibi İmamqulu öz vəzifəsində qalmaq xatirinə Dərbənd qalasının iki gümüş açarını I Pyotra təqdim etdi. Lakin İmamqulu belə hərəkəti ilə heç də dərbəndlilərin rus qoşunlarına münasibətini ifadə etmirdi. Şəhərdə ruslara müqavimət tərəfdarları da vardı və onlar I Pyotra qarşı hətta sui-qəsd hazırlamışdılar. Ancaq sui-qəsdin üstü açılmış, başçıları həbs olunmuşdu.

Tezliklə I Pyotr qoşun komandirlərinə Bakı istiqamətində hərəkət etmək barədə sərəncam verdi. Yürüşə başlamazdan əvvəl imperator 62 nəfər nümayəndəsini Bakıya göndərib Bakı sultanını xəbərdar etdi. Lakin Bakı sultanı I Pyotrun nümayəndəsinə bildirdi ki, o, rus qoşunlarını Bakı qalasına buraxmayacaqdır. Buna baxmayaraq, çar yürüşü davam etdirməyi qərara aldı. Avqustun 30-da rus ordusu Dərbənddən Bakıya doğru hərəkət etdi. Lakin bir sıra səbəblər üzündən I Pyotr yürüşünü dayandırıb sentyabrın 5-də Darbağdan Dərbəndə döndü. Sentyabrın 7-də isə qarnizonu polkovnik Yunkerin başçılığı ilə burada qoyub Rusiyaya qayıtdı.

I Pyotrun öz planını həyata keçirməsinə mane olan təkcə Bakı sultanı Məhəmmədhüseyn xanın rədd cavabı deyildi. Xəzər dənizində baş verən tufan nəticəsində rus əsgərlərinin azuqə və sursatı saxlanılan gəmilərin əksəriyyəti, demək olar ki, dənizdə batmışdı. Bundan əlavə, atlar da yemsizlik və susuzluqdan əldən düşmüşdü. Nəhayət, I Pyotra xəbər çatdırıldı ki, İsveç Niştad sülh müqaviləsinin şərtlərini pozmağa cəhd göstərir. Osmanlı sarayının kəskin etirazı da I Pyotrun qayıtmasında az rol oynamadı. Qeyd edilən bütün bu hadisələr I Pyotru Dərbəndə geri dönməyə məcbur etdi. Bununla belə, I Pyotr heç

cür istəmirdi ki, Hacı Davud Osmanlı Türkiyəsinin himayəsini qəbul etsin. imperator özünün İstanbuldakı səfiri İ.Neplyuyevə tapşırdı ki, nəyin bahasına olursa olsun, Hacı Davudun Osmanlı Türkiyəsinin himayəsinə keçməsinə maneçilik törətsin. I Pyotr Rusiyaya qayıtdıqdan sonra Osmanlı sultanı Hacı Davuda xətti-şərif göndərib bildirdi ki, o, Krım xanı səlahiyyətində Osmanlı dövlətinin tabeliyinə qəbul olunur. Sultan Hacı Davuda xan titulu verdi, onu Şirvan və Dağıstan hakimi kimi tanıdı.

Rus qoşunları 1722-ci ildə Bakı və Şamaxını ala bilməsələr də, I Pyotr yürüşün nəticəsindən razı qalmışdı. Rus imperatorunu «İran ərazisində heç olmazsa bir fut torpaq» əldə etmək də qane edirdi. Lakin Rusiyaya qayıtdıqdan sonra I Pyotr hərbi ekspedisiyalar göndərməklə Xəzər sahilinin qərbində yerləşən bütün əyalətləri tutub Rusiyaya ilhaq etmək qərarına gəldi. Bu cəhətdən böyük hərbi-strateji və iqtisadi əhəmiyyət kəsb edən Bakı qalasını tutmaq əsas vəzifə idi. İmperator bu mühüm və ciddi işi general-mayor M.Matyuşkinə tapşırmaqla bərabər, özü də Bakının alınması barədə tədbirlər hazırladı. I Pyotr Matyuşkinə tapşırdı ki, Bakının aldıqdan sonra qalanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə ciddi fikir versin. İmperatorun bu göstərişi «Allah qoysa, Bakını alsaq, nə etməliyik» başlığı altında Matyuşkinə verdiyi təlimatda öz əksini tapmışdı.

Həmin təlimata görə, Matyuşkin Bakını işğal etdikdən sonra cənuba doğru hərəkət etməli və Kür çayının sağında 300 əsgər yerləşə bilən qala inşa etdirməli idi. I Pyotr nəzərdə tutmuşdu ki, sonralar burada da Neva çayı sahilindəki şəhər kimi böyük bir şəhər saldırsın.

I Pyotr Bakıya üzəcək hərbi donanma üçün Kazan və Nijni-Novqorod şəhərlərində 100-ə qədər iri və kiçik gəmilər quraşdırılmasını əmr etdi.

Bakıya dəniz vasitəsilə yürüş hazırlandığı bir zamanda Sasani paytaxtı əfqan qəbilələri tərəfindən zəbt edildi. İşğalçılar bununla kifayətlənməyib, Səfəvilər səltənətinin digər şəhərlərinə də basqın etməyə başladılar. Gilan əyalətini də təhlükə gözləyirdi. I Pyotr Gilanı zəbt etmək fikrində idi. Odur ki, imperator vaxtı itirmədən hazır olmuş gəmilərlə Gilan istiqamətində hərəkət etməyə əmr verdi.

1722-ci ilin dekabrında başda polkovnik Şipov olmaqla rus eskadrası Ənzəli limanına daxil olub, heç bir müqavimətə rast gəlmədən Rəşt şəhərini zəbt etdi.

«Azərbaycan Milli Ensiklopediyası»nda Dərbənd və digər Xəzəryanı bölgələrə I Pyotrun hücumu təhlil olunaraq qeyd edilir ki**,** Azərbaycan və Səfəvi dövlətinin bir sıra başqa ərazilərini ələ keçirməyə fürsət axtaran rus çarı I Pyotr üçün Şamaxıda rus tacirlərinin qətl-qarətə məruz qalması əslində əlverişli bəhanədən başqa bir şey deyildi.

«Azərbaycan tarixi»nin III cildində məlumat verilir ki, İsfahan şəhəri əfqanların əlinə keçdiyi zaman şahın mühasirədən Astrabada qaçmış böyük oğlu Təhmasib Mirzə tezliklə özünü II Şah Təhmasib adı ilə Səfəvi hökmdarı elan etmişdi. Qeyd edək ki, hələ əfqanlar İsfahanı mühasirədə saxladıqları zaman çox çıxılmaz vəziyyətdə olan Təhmasib Mirzə Xəzərsahili vilayətləri Rusiyaya güzəştə getmək müqabilində rus hökumətinin Səfəvilərə hərbi yardım göstərməsi haqqında müqavilə bağlamaq üçün İsmayıl bəyi Rusiyaya yola salmışdı. İsmayıl bəy hələ İranı tərk etməmiş, əfqanların İsfahanı tutduğunu və II Təhmasibin özünü şah elan etdiyini eşitmişdi. Buna görə də səlahiyyətlərinin yeni şah tərəfindən təsdiqlənməsini vacib sayaraq geri qayıtmışdı. II Təhmasib rus qoşunlarının Xəzərboyu əyalətləri tutduğundan xəbərsiz olduğuna görə, İsmayıl bəyin öz missiyasını yerinə yetirməsinə razılıq vermişdi. Lakin İsmayıl bəy yola düşdükdən az sonra II Təhmasibə çatdırdılar ki, rus qoşunları onsuz da gəlib Rəşti tutublar. Bu xəbəri eşidən şah İsmayıl bəyi geri çağırmaq məqsədilə dalınca çapar göndərdi. Çapar Rəştə çatarkən polkovnik Şipov yalandan İsmayıl bəyin olduğu gəminin artıq Rusiyaya yola düşdüyünü bildirərək onu İsmayıl bəylə görüşməyə qoymadı. Hadisələrdən xəbərsiz İsmayıl bəy rus gəmilərindən birində Həştərxana yola düşdü.

Mərkəzi Səfəvi hakimiyyətinin zəifləməsindən istifadə edən Osmanlı imperiyasi da öz qoşunlarını Cənubi Qafqaza doğru yeritdi. Osmanlı Türkiyəsinin belə bir addım atmasında Qərbi Avropa ölkələrinin, xüsusilə İngiltərənin az rolu olmamışdı. Qərbi Avropa dövlətlərinin diplomatları sultanı inandırmağa çalışırdılar ki, ruslar Şirvan, İrəvan vilayətlərini və Osmanlı Türkiyəsinin bir hissəsini alsalar, o zaman Osmanlı hakimiyyəti altında olan gürcülər və ermənilər «Rusiyanın tabeliyini qəbul edəcəklər». Bunun nəticəsidir ki, Osmanlı qoşunları vaxt itirmədən Cənubi Qafqaza daxil olaraq Tiflis şəhərini işğal edib, Şərqə doğru irəlilədilər.

Ruslar tərəfindən bütün Cənubi Qafqazın tutulması təhlükəsi Osmanlıları fəallaşmağa tələsdirdi. I Pyotr da öz narahatçılığını general-mayor Matyuşkinə belə izah edirdi: «Gürcüstandan xəbər almışam ki, türklər əhalini məcburi öz təbəələri edib, indi də Şamaxıya doğru hərəkət edirlər. Qorxuram onlar gəlib Bakını tutsunlar».

Osmanlıları qabaqlamaq məqsədilə I Pyotr general-mayor Matyuşkinə təlimat verdi ki, Kazan və Nijni Novqorodda nə qədər gəmi hazırlanıbsa, onları götürüb vaxt itirmədən Bakıya tərəf hərəkət etsin və Səfəvi elçisi İsmayıl bəyi də özü ilə aparsın. İsmayıl bəy I Pyotru Bakı sultanı Məhəmmədhüseyn bəyin Bakı qalasını rus qoşunlarına müqavimət göstərmədən təhvil verəcəyinə əmin etmişdi.

1723-cü il iyulun 21-də rus donanması Bakı limanına daxil oldu. Ciddi müqavimət göstərməsinə baxmayaraq, Bakı qarnizonu çoxsaylı orduya və üstün silahlara malik olan düşmən hücumuna tab gətirmədi və vəhşicəsinə bombardman nəticəsində şəhərdə baş verən yanğının, tələfatın qarşısını almaq məqsədilə gərgin və kəskin müqavimətdən sonra, qalanı yadelli işğalçılara təslim etməyə məcbur oldu.

Rus qoşunları Xəzərsahili əyalətlərin bir hissəsini işğal etdikdən sonra I Pyotr İranın elçisi İsmayıl bəyə Dərbənddən Gilana qədər olan torpaqları, habelə Şamaxı, Mazandaran və Astrabadı Səfəvi dövlətinin rəsmi şəkildə Rusiyaya güzəştə getməsi barədə müqavilə bağlanılmasını təklif etdi. Güya ki, şahın onu səlahiyyətlərdən məhrum etməsindən xəbəri olmayan, ruslardan kifayət qədər rüşvət alıb «xidmətlər» görmüş İsmayıl bəy şahdan heç bir icazə almadan, səlahiyyəti çatmaya-çatmaya, 1723-cu il sentyabrın 12-də göstərilən şərtlər əsasında Peterburqda güya ki, Rusiya ilə səfəvilər arasında müqavilə imzaladı. Rusiya bunun əvəzində Səfəvi şahına öz hakimiyyətini qorumaq üçün hərbi yardım göstərməyi öhdəsinə götürdü və bu müqaviləyə əsasən, guya ki, Rusiya Səfəvi şahına Mahmud xanın başçılığı ilə üsyan etmiş əfqan qəbiləsi olan gilzələrə qarşı mübarizədə göstərdiyi kömək üçün Dərbənddən Astrabada kimi qərb Xəzəryani ərazilərə sahib çıxmaq hüququnu qazanmışdır. Bu müqavilə Rusiya dövləti və diplomatiyasının kəmfürsətliyi, riyakarlığı və ikiüzlüyünün daha bir baris nümunəsi idi.

Beləliklə, 1722-1723-cü illərdə Azərbaycanın Xəzərsahili əyalətləri Rusiya tərəfindən işğal edildi. 1721-ci ildə isə Şirvan üsyanı nəticəsində Şamaxı ətrafında gələcək Şamaxı xanlığının təməli qoyulmuş oldu. Lakin II Şah Təhmasib əvvəlcədən hər cür hüquqi əsasdan məhrum olan bu müqaviləni tanımaqdan qəti imtina etdi. İsmayıl bəyə vətənə qayıtmaq əmri verdi. Lakin bu xain geri qayıtmağa cəsarət etməyib ömrünün sonunadək satıldığı Rusiyada qaldı.

İstanbul (Konstantinopol) sülh müqaviləsi. 1724-cü il iyulun 12-də Osmanlı Türkiyəsi ilə Rusiya arasında imzalanmışdır. Bu müqaviləyə əsasən, Dağıstanın və Azərbaycanın bütün Xəzəryanı ərazilərinin Rusiya tərəfindən işğalı İstanbul höküməti tərəfindən tanınılırdı. Əvəzində Peterburq Cənubi Qafqazın qalan ərazilərinin Osmanlı Türkiyəsi tərəfindən işğalına mane olmamaq barəsində öz üzərinə öhdəlik götürürdü.

Dərbənd və Azərbaycanın digər Xəzərboyu bölgərində çarizmin siyasəti. İstanbul müqaviləsinə əsasən, Dərbənddən tutmuş Astrabada qədər Xəzərboyu əyalətlərin Rusiyanın ixtiyarına keçməsi osmanlılar tərəfindən tanınsa da, əslində, Gilan və Mazandarana rusların ayağı dəyməmişdi. Bu bölgələri şəhər-qalalar – Dərbənd, Bakı, Ənzəli rus ordusunun dayaq nöqtələrinə çevrildi.

Rus dövləti Xəzərboyu əyalətlərdən həm iqtisadi, həm də siyasi məqsədlə istifadə etmək üçün xüsusi tədbirlər hazırlamışdı. Rusiya məmurlarını, ilk növbədə, Abşeronun neft quyuları maraqlandırırdı. Rus qoşunlarının Bakı qalasını almasından iki ay keçdikdən sonra ordu komandanlığında neft quyuları barədə xüsusi «reyestr» - siyahı tərtib edildi. Həmin sənəddə «istifadə olunan qara və ağ neft quyuları», «istifadədən çıxmış neft quyuları», habelə neftin daşınması, hər iki növ neftin qiymətinə dair və s. maraqlı məlumatlar vardır.

I Pyotru xüsusilə «ağ neft» maraqlandırırdı. O, Bakını almağa göndərdiyi rus qoşunlarının başçısı general-mayor Matyuşkinin ona göndərdiyi ağ neftin özünün Peterburq sarayının işıqlandırılmasında törətdiyi dəyişiklikdən heyrətə gələn generala yazırdı ki, «Rusiyaya ya bir neçə pud ağ neft göndər, yaxud da özünlə gətir». Oradaca vəcdə gələn işğalçı I Pyotr Matyuşkinə «Ağ neftdən min pud və ya nə qədər mümkünsə göndər» - deyə intəhasız iştah və acgözlüklə əmr verirdi.

Rusiya manufaktura sənayesinin neftdən əlavə, Xəzər boyunda yerləşən əyalətlərin, eləcə də Şir-

vanın təbii sərvətinə və burada istehsal olunan xammala da ehtiyacı duyulurdu. Rusiyanın hakim dairələrini neftən daha çox xam ipək, pambıq, yun, təbii boyalar, tikinti materialları, metal və s. maraqlandırırdı. Bununla əlaqədar olaraq bu yerlərin təbii sərvətlərini istismar etmək məqsədilə xüsusi tədbirlər hazırlanırdı.

I Pyotr hətta Xəzərboyu əyalətlərdə bitən bəzi texniki bitkilərin Rusiyada da yetişdirilməsinə göstəriş verdi. Bu münasibətlə Ukraynada, Həştərxanda və Rusiyanın digər şəhərlərində ipəkçiliyin inkişaf etdirilməsi barədə fərman imzalandı. Bu tədbir I Pyotr üçün o qədər əhəmiyyətli idi ki, hətta tut ağaclarını qıran şəxsi edam edəcəyi barədə qərar da vermişdi. Lakin şimalın sərt iqlimi Rusiya ipəkçiliyi yaratmaq istəyinə mane oldu. Bu hadisədən sonra Rusiyanın iş adamları Xəzərboyu əyalətlərdə yetişdirilən xam ipəyə daha çox əhəmiyyət verməyə başladılar. Rusiyanın rəsmi dairələrində belə rəy yaranmışdı ki, Şirvanın elə bir kəndi yoxdur ki, orada ipəkçiliklə məşğul olunmasın. Şirvanın ipəkçiliyindən istifadə edərək I Pyotr xam ipəyi bir sıra Qərbi Avropa ölkələrinə, o cümlədən İngiltərəyə, Hollandiya, Fransa və Polşaya ixrac etmək fikrində idi.

Rus komandanlığı işğal etdiyi əyalətlərdə öz mövqeyini möhkəmləndirmək məqsədilə Bakı, Astara, Salyan və Niyazabadda istehkamlar inşa etməyi qərara aldı. Rus mütəxəssisləri Kür çayında gəmiciliyin inkişafı və buradan balıqçılıq məqsədilə istifadə edilməsi üçün tədbirlər hazırladılar. Azərbaycan və Cənubi Qafqazın başqa ölkələri ilə sıx iqtisadi əlaqə yaratmaqdan ötrü Rusiya hökuməti Kür çayının mənsəbinə yaxın Peterburq kimi bir şəhər salmaq fikrinə düşmüşdü. Bu şəhər Rusiyanın Xəzər dənizi vasitəsilə şərq ölkələri ilə apardığı ticarətin mərkəzi olmalı idi. 1723-cu ildə İranda və Azərbaycanda ticarət aparacaq 400 səhmdar cəmiyyəti yaradıldı.

Əvvəllər ticarət yönümlü bu səhmdar cəmiyyətləri böyük ümidlər verirdi. Cəmiyyətin yaradıldığı il Bakıdan, Dərbənddən və Ənzəlidən Həştərxana 140 tay və iki bağlama xam ipək, 64 bağlama işlənmiş ipək, 131 tay və 192 bağlama parça göndərildi. Rusiya özünün işğal dairəsində ticarətin inkişafı məqsədilə hər cür vasitədən istifadə etməyə çalışırdı.

Rusiyanın belə bir hərəkəti Bakıda və ümumiyyətlə Xəzərsahili münbit torpaqlarda məşkunlaşmağa can atan ermənilər üçün bir fürsət idi. Onlar I Pyotra müraciətlə «yeni əldə olunmuş torpaqlarda», xüsusilə Bakıda, onlar üçün yer ayırmağı xahiş etdilər. Ermənilərin müraciəti I Pyotrun ürəyindən oldu. Onsuz da bu yerlərdə o, ilk növbədə xristianları, xüsusilə ticarət aləmində fəallıq göstərən erməniləri görmək istəyirdi. Rus tarixçisi P.Butkov yazır ki, 1724-cü il İstanbul müqaviləsindən sonra I Pyotr Rumyantsevə tapşırmışdı ki, erməniləri Xəzərboyu əyalətlərdə istədikləri şəhərlərdə yerləşdirmək gərəkdir, lazım gələrsə, yerli əhalini qovub, ermənilərı həmin yerlərdə məskunlaşdırsın.

Çar cənub sərhədlərdə, Xəzərsahili əyalətlərdə ermənilərı yerləşdirməklə iki məqsəd güdürdü: həm cənubdan sərhədlərin qismən əmin-amanlığını təmin etsin, həm də ticarətdə olan ermənilərin xidmətindən faydalansın. Ermənilərin Şirvana köçürülməsi təkcə I Pyotrun istəyi deyil, eyni zamanda ermənilərin özlərinin bilavasitə arzusundan da irəli gəlirdi. P.Butkovun yazdığına görə, ermənilər üç dəfə I Pyotra müraciət edib «yalvarmışdılar ki, onlara Xəzər dənizi sahillərində daimi yaşayış üçün yer versin».

I Pyotr 1724-cu il noyabrın 14-də general-mayor Kropotova xüsusi əmr vermişdi. Əmrdə deyilirdi: «Erməni xalqı bizdən xahiş etmişdir ki, biz onları öz himayəmizə qəbul edib torpaqlar ayıraq, ona görə də sizə tapşırıram ki, əgər erməni xalqı bəyəndiyi yerdə yaşamaq istəsə, ona kömək edib ləyaqətlə qoruyun, elə rəftar edin ki, onlardan heç bir şikayət eşidilməsin, çünki biz burada erməni xalqını imperatorluq qayğısı ilə əhatə edib, öz himayəmizə götürmüşük».

I Pyotr, demək olar ki, eyni məzmunlu əmri Xəzər sahillərində yerləşən digər ordu qərargahlarına da göndərmişdi. Bu barədə P.Butkov yazır: «General-leytenant Matyuşkin və briqadir Levaşova tapşırılmışdı və eyni zamanda bütün erməni xalqına bildirilmişdi ki, hər cür vasitə ilə ermənilərı və digər xristianları rus ordusunun tutduğu əyalətlərdə - Gilanda, Mazandaranda, Bakıda, Dərbənddə və digər əlverişli yerlərdə mehribanlıqla qəbul etsinlər, onlara nəzakət göstərib mühafizə etsinlər; onlara ev-eşik salmaq üçün münasib sahələr ayırsınlar, torpaq versinlər, şəhər və kəndlərdə sahibsiz qalan evləri də onların ixtiyarına versinlər». Burada Bakı ilə əlaqədar əmrlərdən aşağıdakı sözləri xatırlatmaq yerinə düşərdi: «Xoşagəlməz, yaxud şübhəli müsəlmanları qovmaq və onları xristianlarla əvəz etmək».

I Pyotrun bu məkrli siyasəti 1725-ci il fevralın 11-də xarici işlər kollegiyasının qərarında və I Yekaterinanın 1726-ci il fevralın 22-də verdiyi əmrində də öz əksini tapmışdı.

Dərbənd və Nadir şah Əfşar. Nadir şah Əfşar Şirvanda baş verən «özbaşınalıqlara» görə Şirvan bəylərbəyi Mahmud xanı günahlandırdı. Onu vəzifədən kənar etdi. Şah Şirvanın yeni hakimi vəzifəsinə özünün yaxın adamı, Əfşarlar sülaləsinin nümayəndəsi Heydər bəy Əfşarı təyin etdi. Dərbəndin hakimi isə Məhəmmədəli Qırxlı oldu.

Yeni hakimlər təyin etməklə Nadir şah Əfşar özünə etibarlı dayaq yaradacağına və bununla öz təhlükəsizliyini təmin edəcəyinə, həm də belə böhranlı vaxtda çox vacib olan vergilərin yığılması işini qaydaya salacağına ümid edirdi. Nadir şahın vəziri Mehdi xan söhbətlərinin birində etiraf etməyə məcbur olmuşdu ki, Gəncə müqaviləsinə əsasən, əvvəllər Rusiyanın tutduğu torpaqların Səfəvilərə qaytarılmasına baxmayaraq, onlardan heç bir xeyir götürmək mümkün deyil. Belə ki, İranın hakimiyyət orqanları həmin yerlərdən vergi toplaya bilmirlər.

Bu dövrdə Səfəvilərlə Osmanlılar hələ də müharibə vəziyyətində olduğundan Nadir şah Əfşar Şirvanda işləri bir qədər qaydaya saldıqdan sonra ordunun əsas hissəsi ilə Osmanlı sərhədləri istiqamətində hərəkət etdi. Həmin vaxtlar zəhmətkeş əhalinin istismarı daha da gücləndiyi, vergilərin sayının və miqdarının artdığı, orduya zorla səfərbərlik keçirildiyi və ordu əldən düşdüyü üçün Nadir şahın çox böyük ərazini əhatə edən dövlətinin, demək olar ki, bütün guşələrində yeni-yeni üsyanlar baş verirdi.

Əfşarlar hökmranlığına qarşı yönəlmiş üsyanlardan biri Şirvanda başlandı. Bu üsyan «yaxşı hökmdar» ideyası altında gedirdi. Üsyan iştirakçıları özünü Səfəvilərin hakimiyyətdən uzaqlaşdırılmış şahzadəsi kimi qələmə verən şəxsi müdafiə edirdilər. 1743-cü ildə ardıcıl olaraq Şirvanda özünü Səfəvi şahzadəsi kimi qələmə verən iki Sam Mirzə peyda olunmuşdur.

Birinci yalançı Sam Mirzə əvvəlcə Dağıstanda zühur etdi. O, Dağıstana Osmanlı dövləti tərəfindən ona görə göndərilmişdi ki, burada kömək aldıqdan sonra Şirvana doğru irəliləsin və üsyançı şirvanlıların köməyi ilə yerlərdə Əfşarlar hakimiyyətini ləğv etsin.

Sam Mirzə az müddət ərzində öz ətrafına böyük dəstə toplaya bildi. Tezliklə Nadir şah Əfşara qarşı birgə hərəkət etməyə söz verən Qazıqumuxlu Surxay xan da Sam Mirzənin düşərgəsinə gəldi.

Hadisədən xəbər tutan Nadir şah Əfşar oğlu Nəsrulla Mirzəyə böyük ordu ilə təcili olaraq Şamaxıya doğru hərəkət etməyi tapşırdı. Bundan başqa, Nadir şah Gəncəyə, Çuxursədə, Əhərə, Qaradağa və Muğana 10-20 minlik dəstələri göndərərək yerli qarnizonları möhkəmləndirmək və dövlət əleyhinə çıxışların qarşısını almaq qərarına gəldi. Elə bu vaxt Surxay xanın və 50 minlik ordunun müşayiət etdiyi Sam Mirzə Şamaxını ələ keçirdi. Yerli əhali Sam Mirzəni sevinclə qarşıladı. Lakin Sam Mirzəyə hakimiyyətdə uzun müddət qalmaq nəsib olmadı.

Tezliklə şahzadə Nəsrulla Mirzənin komandanlıq etdiyi nizami Əfşar ordusu Şamaxıya yaxınlaşdı. Sam Mirzə qaçmaq istərkən ələ keçirildi və edam edildi. Surxay xan Dağıstanda gizlənə bildi. Yeni Şamaxıda Əfşar hakimiyyətini bərpa edən Nəsrulla Mirzə atasının göstərişi ilə Heydər xanı Şirvan hakimi təyin edib geriyə döndü.

Lakin Sam Mirzə üzərində qələbə Şirvanda Əfşarlar əleyhinə hərəkatı zəiflədə bilmədi. 1743-cü ilin sonuncu rübündə azadlıq hərəkatına mənşəcə adlı-sanlı ailədən olmayan və özünü Səfəvi şahzadəsi elan edən yeni bir şəxs başçılıq etməyə başladı. O, «Bini-beride» (Burnukəsik) ləqəbi ilə tanınırdı. Məsələ burasındadır ki, bu şəxs hələ birinci Sam Mirzə meydana gələnə qədər özünü Səfəvi taxtının qanuni şahzadəsi kimi qələmə verərək Təbrizdə Əfşarlar əleyhinə üsyana başçılıq etməyə cəhd göstərmişdi. Lakin yalançı şahzadə tezliklə ələ keçirilmiş və ifşa edilmişdi. Hakimiyyət dairələri onu ciddi bir rəqib saymamış, azadlığa buraxmışdı. Uzun müddət şərgərdan həyat keçirdikdən sonra həmin şəxs Dağıstanda özünə sığınacaq tapmış və üsyana başçılıq edərək Dərbəndə yola düşmüşdü. II Sam Mirzənin dəstələrinin gəlməsini gözləməyən Dərbənd feodalı Xurşud bəy öz ətrafına «qiyam qaldırmaq istəyən» feodallardan təxminən 250 adam topladı. Artmaqda olan təhlükəni hiss edən Sultan Məhəmmədəli Nadir şaha həyəcanlı bir məktub yazıb ondan kömək istədi.

Ağsuya – Yeni Şamaxıya nisbətən Dərbəndin strateji əhəmiyyətini daha yüksək qiymətləndirən Nadir şah Şirvan hakimi Heydər xana dərbəndli Məhəmmədəlinin köməyinə tələsməyi əmr etdi.

Lakin Şabranla Dərbənd arasında Şirvan üsyançıları Heydər xana hücum edib ordusunu məğlubiyyətə uğratdılar, özünü isə öldürdülər. Bundan sonra üsyancılar Şirvanın mərkəzi Ağsunu ələ keçirdilər, az sonra II Sam Mirzə də Məhəmmədəlinin müşayiəti ilə Ağsuya girdi. Sam Mirzənin Ağsuda həyata keçirdiyi ilk tədbir Nadir şah tərəfindən qoyulmuş ağır vergi sistemini ləğv etmək oldu. Bunun əvəzində Sam Mirzə xeyli yüngül vergilər tətbiq etdi. Belə münasibət Nadir hökumətinin memarları tərəfindən amansız istismara məruz qalan əhalinin Sam Mirzə ətrafına toplanmasına gətirib çıxardı.

Beləliklə, Yeni Şamaxı böyük bir sahəni – təxminən Xəzər sahillərindən Gəncəyə qədər olan ərazini əhatə edən Şirvan üsyanının mərkəzinə çevrildi. Yalnız Dərbənd istisna təşkil edirdi. Üsyanın Dərbəndə yayılmasının qarşısını almaq üçün Nadir şah oraya nizami ordu göndərdi.

Nadir şah Şirvan üsyançılarına qarşı Nəsrulla Mirzənin başçılığı ilə böyük bir ordu göndərdi. Tərəflər arasında amansız döyüş başlandı. Bu vaxta qədər rəqibini bir neçə dəfə məğlub etmiş Sam Mirzə döyüşə inamla başladı. Lakin o, düşmənin artilleriyaya malik olduğunu güman etmədiyindən məğlubiyyətə uğradı. Üsyançılar geri çəkildilər. Sam Mirzə Ağsu qalasına gəldi. Onun müttəfiqi Məhəmməd xan Dağıstana qaçdı. Tezliklə yeni qüvvələrlə Nadir şah ordusu Ağsunu mühasirəyə aldı. Labüd ölüm qarşısında qalan Sam Mirzə Şərqi Gürcüstan tərəfə yola düşdü və burada Givi Amilaxverinin başçılığı altında mübarizə aparan gürcü dəstələrinə qoşuldu. Lakin üsyançıların birləşmiş dəstələri Kaxeti hakimi Teymuraz tərəfindən məğlub edildi. Bu döyüşdə Sam Mirzə əsir alınaraq Nəsrulla Mirzənin düşərgəsinə gətirildi və orada edam olundu.

Nadiri narahat edən güclü çıxışlardan biri də Hacı Çələbinin Şəki üsyanı (1743) idi. Nadir şahın başı osmanlılarla müharibəyə qarışıq idi və yalnız 1744-cü ilin payızında Şəkiyə gələ bildi. O, 15 minlik qoşunla Gələrsən-Görərsən qalası üzərinə hücum etdi. Yol dar dərələrdən keçdiyindən o, ordunun əsas qüvvələrini artilleriya ilə birlikdə Daşbulaq kəndi yaxınlığında, Kotan düzü deyilən yerdə qoymuşdu. Bir neçə gün amansız döyüş getdi. Carlılar, balakənlilər və dağıstanlılar şəkililərin köməyinə gəlmişdilər. Şəkililər dar keçidlər və meşə örtüyündən istifadə edib arxadan şah qoşunlarına basqın etdilər. Şah 500-dən çox döyüşçü itirib Bərdəyə geri çəkildi. Bərdədə bir qədər dincini alan Nadir şah Dərbəndə tərəf irəlilədi. Oğlu Nəsrulla Mirzəni isə Qəzvinə yollayıb Gilandan dəniz yolu ilə Dərbəndə azuqə göndərilməsini əmr etdi. Şah qoşunları yolboyu bütün kəndləri qarət etdilər.

Əfşarlar hakimiyyətinin süqutu. Şirvan və Şəki üsyanlarından sonra Azərbaycanda xalq kütlələrinin vəziyyəti daha da pisləşdi. Hər yerdə dağıntı və aclıq hökm sürürdü.

Çoxsaylı vergi və mükəlləfiyyətləri xəzinənin başlıca gəlir mənbəyi hesab edən Nadir şah xalq kütlələrinin ağır vəziyyətinə baxmayaraq, əhali üzərinə yeni vergilər qoyulması haqqında fərmanlar verirdi. Hökumətin bu tədbirləri xalq kütlələrinin yeni silahlı üsyanlara başlaması üçün təkan oldu.

XVIII əsrin 40-cı illərinin sonlarında Azərbaycanın cənub vilayətlərində Əfşarlar sülaləsi əleyhinə güclü üsyanlar başlandı. Bu üsyanın başında özünü Sam Mirzə kimi qələmə verən yalançı şahzadə dayanırdı. III Sam Mirzə Əfşarlara qarşı həlledici çıxışa əhalinin şiə hissəsinin, adətən, təntənəli qeyd etdiyi Novruz bayramının birinci günü başlamağı qərara aldı. Əhalinin mərkəzi hökumətə nifrətindən istifadə edən Sam Mirzə şəhərlilərin böyük bir hissəsini öz tərəfinə çəkərək silahlı dəstələr yaratdı və onların köməyi ilə yerli üsuli-idarənin, demək olar ki, bütün nümayəndələrini qırıb hakimiyyəti ələ aldı. Bu dövrdə artıq Əfşarlar dövləti tam tənəzzül keçirirdi. Dövlət əleyhinə çıxışlardan bərk təşvişə düşən Nadir şah Azərbaycana cəza dəstəsi göndərmək üçün qüvvə tapa bilmirdi. Nadir şah 1747-ci il iyunun 19-da (bəzi məlumatlara görə, mayın 9-da) süi-qəsd nəticəsində öldürüldü.

Nadir şahın qətli ilə onun dövləti əslində süqut etdi. İranda şah taxtı uğrunda qanlı müharibələr başlandı. Silah gücünə İran tərkibinə ilhaq edilmiş ölkələr tədricən özlərinin keçmiş müstəqilliklərini bərpa etməyə başladılar.

Bu dövrdə Azərbaycanda da müstəqil xanlıqların yaranması prosesi gedirdi. Araz və Kür çayları arasında Qarabağ xanlığı, Zəngəzur dağlarından Araz çayınadək ərazidə Naxçıvan xanlığı yarandı. Gəncə xanlığı Murovdağ silsiləsindən Kür çayına qədər uzanırdı. Şirvan yaylasında Şamaxı xanlığı, Azərbaycanın şimal-qərbində isə Şəki xanlığı möhkəmləndi.

Abşeron yarımadasında Bakı xanlığı, Azərbaycanın şimal-şərqində, Xəzər dənizinin qərb sahilində Quba və Dərbənd xanlıqları yarandı. Bakı xanlığından cənubda Salyan, Cavad və Lənkəran xanlıqları formalaşdı. Azərbaycanın cənubunda Təbriz, Urmiya, Ərdəbil, Xoy, Qaradağ, Marağa, Maku və Sərab xanlıqları meydana gəldi.

Bu xanlıqlardan əlavə, Azərbaycanda Qutqaşın, Qəbələ, Ərəş, Qazax, Şəmşədil, Borçalı və İlisu sultanlıqları yarandı. Sonuncudan şimalda Car-Balakən camaatı yerləşirdi. Qarabağ xanlığının dağlıq hissəsində Vərəndə, Xaçın, Gülüstan, Dizaq və Craberd məlikləri mövcud idi.

Azərbaycanda bu xanlıqlar və digər feodal hakimlikləri İranda hakimiyyət uğrunda mübarizə aparan feodal qrupları ilə mübarizədə yarandı.

Sam Mirzə hakimiyyətdə uzun müddət qala bilmədi. Tezliklə Əmiraslan xanın ordusu Təbrizə doğru irəliləyərək Sam Mirzənin dəstəsini məğlubiyyətə uğratdı, özünü isə edam etdi.

Yalançı şahzadə üzərindəki qələbədən sonra Əmiraslan xan 1748-ci ildə özünü İranın müstəqil hakimi elan etdi. Onun ilkin mülkləri sırasına Təbriz və onun bölgələri daxil idi. Lakin şah taxtının iddiaçıları ilə döyüş meydanında toqquşmaq istəməyən Əmiraslan xan özünü şah elan etməkdən çəkindi. Məhz bu mülahizələrə görə Əmiraslan xan pulları da öz adından deyil, İmam Rza adından buraxdırırdı.

Əmiraslan xan qısa müddət ərzində çox böyük əraziləri, o cümlədən bütün əyalətləri ilə birlikdə Təbrizi, Ərdəbili, Xalxalı, Gəncəni və Azərbaycanın cənubundakı bir sıra əyalətləri özünə tabe etdi. Lakin Azərbaycanın şimal ərazilərində yerləşən bir sıra xanlıqlar, o cümlədən Bakı, Şamaxı, Şəki, Dərbənd, Quba onun hakimiyyətini tanımaqdan qəti imtina etdilər.

Həmin vaxt Adil şah müxtəlif üsullarla Əmiraslan xanı öz tərəfinə çəkməyə hazırlaşırdı. O, hətta ittifaq bağlamaq təklifi ilə Əmiraslan xanın yanına öz elçisini də göndərmişdi. Lakin Adil şahın təklifini qəbul etməyən Əmiraslan xan ərdəbilli Rzaqulu xanın ordusu ilə Rəştə tərəf hərəkət etməyə və şəhəri ələ keçirməyə çalışdı. Rzaqulu xan geri dönərkən Adil şahın göndərdiyi ordu tərəfindən darmadağın edildi. Əmiraslan xan Şirvan və Şəkiyə doğru yürüşündə uğur qazana bilmədi. Bu şimal xanları ordu toplayaraq Əmiraslan xanın yolunu kəsdilər və onun ordusuna Kür çayını keçməyə imkan vermədilər. Əmiraslan xan geri dönməyə məcbur oldu.

Bu dövrdə Azərbaycanın şimal vilayətlərinin xanları öz müstəqilliklərini həm də Adil şahın ordularından qorumağa çalışırdılar. Bu münasibətlə Qarabağ, Bakı, Dərbənd, Quba, Şamaxı, Şəki xanları Adil şahın yanına nümayəndələr göndərib onların müstəqilliyini tanımaq təklifini irəli sürdülər. «Əks halda özlərini Nadir şahın vaxtındakı kimi aparmağa məcbur olacaqlarını» elan etdilər. Belə cəsarətli ultimatuma görə onları cəzalandırmaq imkanı olmayan Adil şah təklif edilən şərtlərlə razılaşdı və hətta onlara xələt bağışladı.

Azərbaycan xanlarının müstəqilliyindən çox narahat olan Adil şah Əfşar onları öz tərəfinə çəkmək üçün hakimlərə yenidən hədiyyələr göndərməyi qərara aldı. Lakin Azərbaycan xanları İranda vəziyyəti gündən-günə pisləşən Adil şahdan hədiyyələr qəbul etmək istəmədilər.

Tezliklə Adil şah ara vuruşmalarının qurbanı oldu. O özünü İranın şahı elan edən doğma qardaşı İbrahim Mirzə tərəfindən hakimiyyətdən devrildi.

İbrahim şah, hər şeydən əvvəl, özünün əsas rəqibi hesab etdiyi Əmiraslan xanı aradan götürməyi qərara aldı. Elə ilk toqquşmada Əmiraslan xan məğlubiyyətə uğradı və sonralar xəyanət nəticəsində İbrahim şaha təslim edildi. Öz sələfi kimi İbrahim şah da Azərbaycan xanlarının köməyinə ehtiyac duyurdu. Buna görə o da xanlara hədiyyələr göndərərək özünün şah tacını qəbul etdiyini bildirdi və onlardan hərbi kömək istədi. Lakin Şamaxılı Hacı Məhəmmədəli xan istisna olmaqla Azərbaycan xanları İbrahim şahın hakimiyyətini tanımaqdan imtina etdilər. Bu azmış kimi, qubalı Hüseynəli xan, şəkili Hacı Çələbi, salyanlı Səfərəli xan və bakılı Mirzə Məhəmməd xan İbrahim şaha qulluq göstərdiyinə görə Şamaxı xanını cəzalandırmaq qərarına gəldilər.

Onlar öz aralarında razılığa gəldilər və hər kəs öz qoşun dəstəsi ilə Yeni Şamaxıya doğru hərəkət edərək onu mühasirəyə aldılar. Lakin mühasirə gözlənilən nəticəni vermədi. Xanlar arasında ixtilaf yarandı və bundan məharətlə istifadə edən İbrahim şah Şamaxılı Məhəmmədəli xana kömək üçün ordu göndərdi. Bu dövrdə Quba xanı ilə düşmənçilik edən Dərbənd xanın ordusu da Şamaxı xanının köməyinə yetişdi.

Azərbaycan xanları cənubdan İbrahim şah, şimaldan isə Dərbənd qoşunlarının gələ biləcəyini

güman etmirdilər. Onlar həmçinin Yeni Şamaxını azsaylı qoşunla ələ keçirə biləcəklərini düşünmüşdülər və buna görə də hər bir xan 200-300 döyüşçü ilə kifayətlənmişdi. Azsaylı müttəfiq qoşunları üç hissəyə bölünməyə və üç cəbhədə döyüşməyə məcbur olmuşdular. Bu gözlənilməz hadisə Azərbaycan xanlarını bərk qəzəbləndirdi və onlar ittifaqa girərək heç vaxt İbrahim şaha tabe olmayacaqlarına and içdilər.

Hələ 1748-ci ildə Şimali Azərbaycan feodallarının Əfşarlar sülaləsinə qarşı yaranmış ittifaqı Şimali Azərbaycanda Əfşarlar hökmranlığının tam ləğv olunduğunu göstərirdi. İttifaq bağlandıqdan sonra xanlar ilk növbədə Şamaxı xanından intiqam almaq qərarına gəldilər. Bu dəfə nisbətən böyük qüvvə toplayan müttəfiqlər öz qoşunlarını Yeni Şamaxıya doğru yönəltdilər. Yeni Şamaxının - Ağsunun mühasirəsi cəmi 8 gün çəkdi. Hacı Məhəmmədəli xanı hakimiyyətdən devirən qaliblər şamaxılılara «İranlı şah İbrahimə xidmət etməməyə və onun təbəəsi olmamağa and içdirdilər».

Azərbaycanda xanlıqların yaranması. Azərbaycanın XVIII əsrin ikinci yarısındakı tarixi əslində müstəqil və yarımasılı dövlət qurumlarının – xanlıqların tarixindən ibarətdir. Azərbaycan ərazisində xanlıqlar meydana gəlməsinin sosial-iqtisadi və siyasi şərtləri ümumi xarakter daşıyırdı. Lakin ayrı-ayrı xanlıqların yaranması formaca bir-birindən fərqlənirdi.

Azərbaycan ərazisində ilk müstəqil xanlıqların yaranması XVIII əsrin 40-cı illərinə aiddir. Əgər onlardan bəzisi Nadir şah dövlətinin süqutundan sonra meydana gəlmişdisə, digərləri hələ Nadir şahın hökmranlığı dövründə formalaşmağa başlamışdı. Xanlıqların bəzisi isə öz ilkin başlanğıcını hələ Səfəvilər dövlətinin tərkibində yarımmüstəqil inzibati varlıq kimi mövcud olduğu dövrdən götürür.

Hələ Əfşarlar dövründə formalaşmağa başlayan Şəki xanlığı xüsusilə seçilirdi. Azərbaycanın digər xanlıqlarında olduğu kimi, Şəki xanlığında da kənd təsərrüfatının aparıcı sahəsi əkinçilik və maldarlıq idi. İqtisadiyyatda ipəkçilik mühüm yer tuturdu. Demək olar ki, hər bir həyətdə tut ağacları vardı. Kəndlərin əhalisi ipək sarımaqla məşğul olurdu. Şəki ipəyi Azərbaycanın hüdudlarından kənarda da məşhur olub, Rusiya, İtaliya, Osmanlı Turkiyəsi və İrana ixrac edilirdi.

Şəki xanlığında kənd təsərrüfatı ilə bərabər sənətkarlıq və ticarət də inkişaf etmişdi. Sənətkarlığın başlıca növləri xanlığın paytaxtı Şəki şəhərində cəmləşmişdi. Burada ipək parçalar, mis qablar, silah, kənd təsərrüfatı alətləri, məişət əşyaları və s. hazırlanırdı. Müxtəlif sex təşkilatlarında – əsnaflarda dəmirçilər, misgərlər, toxucular, dulusçular, boyaqçılar, dabbaqlar, bənnalar, dülgərlər, pinəçilər, sabunbişirənlər, dərzilər, zərgərlər, silahsazlar və b. birləşirdilər. Sənətkarlıq istehsalı bəzi kəndlərdə də inkişaf etmisdi. Bütün sənətkarlıq məhsullarına vergilər qoyulurdu. Şəhər sənətkarlığının səciyyəvi cəhətlərindən biri məhsulun istehsalçının özü tərəfindən satılması idi.

Şəki xanlığı qonşu Azərbaycan xanlıqları, Gürcüstan, Dağıstan, İran və digər dövlətlərlə geniş ticarət aparırdı. Bu dövrdə Rusiya ilə ticarət durmadan artırdı. Şəki xanlığı Rusiya ilə iki yolla – Dərbənd (quru yolla) və Bakı vasitəsilə (Xəzər dənizi) ilə ticarət əlaqələri saxlayırdı.

Çoxsaylı gömrük rüsumları ticarətin inkişafina böyük əngəl törədirdi. Xanlığa gətirilən və oradan aparılan bütün mallardan gömrük alınırdı. Şəkili Məhəmmədhəsən xanın dövründə xanlıqda vergilərin toplanmasını hüquqi cəhətdən möhkəmləndirən və hakim sinfin mənafelərini təmin edən «Dəstur üləməl» («Qanunlar məcmuəsi») hazırlanmışdı. İltizam sistemi, pul, ölçü və çəki vahidlərinin müxtəlifliyi, gömrük maneələri, həmçinin natural təsərrüfatın hökmranlığı ticarət və sənətkarlığın inkişafına mane olur, əmtəə-pul münasibətlərinin intişarını ləngidirdi.

Şəki xanlığında asağıdakı torpaq mülkiyyəti formaları – *dövlət torpaqları, mülklər, məhsul və icma torpaqları* mövcud idi. Şəki xanlığının sosial əsasını feodallar və kəndlilər təşkil edirdilər. Bundan əlavə, Şəki şəhərində tacirlər və sənətkarlar da yaşayırdılar.

Dərbənd xanlığının banisi Məhəmmədhüseyn xan özünün amansız daxili siyasəti ilə yalnız zəhmətkeş kütlələrin deyil, həm də feodal təbəqəsinin bir çox nümayəndələrinin nifrətini qazanmışdı.

Bir çox xanlıqların əhalisi uzaqgörən və ağıllı siyasət yeridən Fətəli xanda özlərinin xilaskarını görür, ondan imdad diləyirdilər. XVIII əsrin rus tarixçisi Mixail Çulkov bu barədə belə yazır: «Dərbənddə yaşayan xan təbəələrinə zülm verməklə yanaşı, onlardan zorla həddən artıq vergi tələb edir, verməyənlərin gözlərini çıxartdırırdı. Xanın belə

hərəkəti xalqı hiddətə gətirmişdi. Əhali bu zülmdən qurtarmaq məqsədilə hakimiyyət başında olan qubalı Fətəli xana müraciət etmişdi ki, Dərbəndi məhz bu il silah gücü ilə alsın».

1759-cu ildə dərbəndlilərin xahişi ilə qubalı Fətəli xan Dərbəndə hərbi yürüş etdi. Dərbəndlilərin özlərinin köməyi ilə şəhər Fətəli xanın əlinə keçdi. Bu hadisədən sonra, demək olar ki, Azərbaycanın şimal xanlıqlarının Rusiya tərəfindən işğalınadək Dərbənd Quba xanlığının tərkibində qaldı.

Azərbaycanın şimalında yerləşən Quba xanlığında güclü dövlət yaratmaq cəhdi istiqamətində bir sıra uğurlu addımlar atıldı. Hüseynəli xanın apardığı məqsədyönlü siyasət nəticəsində xanlığın hərbi qüvvəsi xeyli artıb möhkəmləndi. 1757-ci ildə onun oğlu Fətəli xan Salyana yürüş edərək oranı Quba xanlığına birləşdirdi. Atasının ölümündən sonra hakimiyyət başına gələn Fətəli xan (1758-1789) xanlığın daha da möhkəmlənməsinə nail oldu. Fətəli xan Azərbaycan torpaqlarını vahid dövlət ətrafında birləşdirməyə səy göstərirdi.

Dərbənd xanlığını birləşdirdikdən sonra Fətəli xanın nüfuzu daha da artdı. Dərbənd şəhəri Quba xanlığının ikinci mərkəzinə çevrildi.

Dərbənd xanlığından sonra Fətəli xan diqqətini iqtisadi cəhətdən zəngin olan Bakı xanlığına yönəltdi. Fətəli xan bilirdi ki, Bakı xanlığı hərbi-siyasi cəhətdən zəifdir və xanlığın hakimi Məlikməhəmməd xan xalq arasında o qədər də nüfuza malik deyildir.

Bakı xanlığı Səfəvi xan tərəfindən nikah diplomatiyası yolu ilı asılı vəziyyətə salınmışdı. Fətəli xan vaxtilə Qaraqaytaq hakimi Əmir Həmzəyə boyun olduğu yetkin bacısı Xədicə Bikəni Bakı xanı Məlikməhəmmədə ərə verməklə onunla müqavilə də bagladı. Həmin müqaviləyə əsasən, Məlikməhəmməd yazılı surətdə söz verdi ki, həmişə Quba xanının xidmətində olacaq, həm onun, həm də varislərinin tabeliyindən çıxmayacaq. Tezliklə Xədicə Bikə qardaşının göstərişi ilə Bakı xanlığının idarə olunmasına müdaxilə etdi və iradəsiz Məlikməhəmmədi demək olar ki, tamamilə öz təsiri altına aldı. Məlikməhəmmədin vəfatından sonra Bakı xanlığının taxtında onun azyaşlı oğlu Mirzə Məhəmməd xan oturdu. Anası Xədicə Bikə isə onun qəyyumu olaraq xanlığın idarəsini büsbütün ələ aldı. Beləliklə də Bakı xanı tamamilə Quba xanlığından asılı vaziyyətə duşdü.

Dərbənd və Bakı xanlıqlarını Quba xanlığına birləşdirdikdən sonra qubalı Fətəli xan Şimali Azərbaycanın mərkəzində yerləşən Şamaxı xanlığına daxil olmaq fikrinə düşdü. Fətəli xanın ilkin məqsədi Azərbaycanın şimalında yaranacaq dövlətin mərkəzini qədim şirvanşahlar dövlətinin uzun müddət paytaxtı olan Şamaxı şəhərinə köçürmək idi. Digər tərəfdən, Şamaxı xanlığına sahib olduqdan sonra onun Şəki və Qarabağ xanlıqları ilə mübarizəsi xeyli asanlaşa bilərdi.

Fətəli xan Dərbənd və Bakı xanlıqlarını qan tökülmədən özünə birləşdirdiyi kimi, Şamaxı xanlığını da müharibəsiz əldə etməyi qərara aldı. O, bu barədə Şamaxı xanlığının hakimi Məhəmmədsəid xan və onun qardaşı Ağası xanla uzun-uzadı danışıqlar apardıqdan sonra razılıq əldə edildi ki, Quba xanlığı Şamaxı xanlığını hər hansı bir təcavüzdən qoruyacaq və bunun müqabilində Məhəmmədsəid xan hər il Quba xanlığınm xəzinəsinə müəyyən məbləgdə xərac verəcəkdir. Lakin çox keçmədi ki, Şəki xanlığına arxalanan Şamaxı xanlığı Quba xanlığına xərac verməkdən imtina etdi.

Bunun nəticəsidir ki, 1765-ci ildən başlayaraq Quba xanlığı ilə Şamaxı xanlığı arasında dörd il müharibə davam etdi. Şəki xanlığının şamaxılılara kömək etdiyini bilən Fətəli xan Şəki xanlığının hakimi Hüseyn xanı öz tərəfinə çəkməyə nail oldu. Bunun əvəzində Fətəli xan Şamaxı xanlığından əldə etdiyi qənimətdən Şəki xanına xüsusi pay verəcəyinə boyun oldu. Şəki xanlığının Quba xanlığı tərəfinə keçməsi müharibəni Fətəli xanın xeyrinə həll etdi. Beləliklə, 1768-ci ildə müttəfiq qoşunları Köhnə Şamaxıya daxil oldular. Məhəmmədsəid xan xərac verməyə razılaşdı.

Qaliblər Şamaxı xanlığını öz aralarında bölüşdürdülər: Yeni Şamaxı və əlavə olaraq iki mahal şəkili Hüseyn xanın ixtiyarına keçdi. O, buranın idarəsini naibi Manaf bəyə həvalə etdi. Lakin bununla yanaşı, Yeni Şamaxıda Quba xanlığının nümayəndəsi də oturmalı idi. Köhnə Şamaxı böyük bir ərazi ilə birlikdə Quba xanlığına birləşdirildi. Fətəli xan yeni ərazinin idarəsini doğma qardaşı Abdulla bəyə tapşırdı. Lakin tezliklə nalayiq hərəkətlərinə görə Abdulla bəy başqaşı ilə əvəz olundu.

1768-ci ilin avqustunda Yeni Şamaxıda Fətəli xanın əleyhinə hazırlanmış sui-qəsdin üstü açıldi, naib Manaf bəy öz həmrəylərini ətrafına toplayıb

Yeni Şamaxıdan Quba xanlığının nümayəndəsini çıxarmağa hazırlaşırdı. Bu hadisədən istifadə edən qubalı Fətəli xan Şəki xanlığının nümayəndəsi Manaf bəyi Yeni Şamaxıdan qovaraq, bütünlüklə Şamaxı xanlığını Quba xanlığına birləşdirdi. Bundan sonra Fətəli xan Yeni Şamaxının idarəsini Məhəmmədsəid xana tapşırdı. Gözlərindən məhrum olan Ağası xan qarabağlı İbrahimxəlil xanın sarayında özünə sığınacaq tapdı (1769).

1768-ci ildə Şamaxı xanlığından sonra Kürlə Araz çayının birləşdiyi ərazidə yerləşən, çox da böyük olmayan Cavad xanlığı da Quba xanlığına birləşdirildi. Xanlığın hakimi Həsən xan könüllü surətdə Fətəli xanın himayəsini qəbul etdi.

Beləliklə, Fətəli xan pərakəndə Azərbaycan torpaqlarını birləşdirmək siyasətini tədricən həyata keçirməyə başladı. Lakin onun bu hərəkəti Azərbaycanın Cənubunda Dağıstanın xudbin siyasət yürüdən bir sıra hakim feodallarının xoşuna gəlmədi. Onlar qubalı Fətəli xanın birləşdirici siyasətinə qarşı çıxmağı qərara aldılar. Quba xanlığının əleyhinə çıxmağa hazırlaşan dəstəyə Qaraqaytaq hakimi, Fətəli xanın qaynı Əmir Həmzə başçılıq edirdi. O, öz hərəkətlərinə bəraət qazandırmaq üçün Avar hakimi Nutsal xanın qardaşları Bulucanın və Məhəmməd Mirzənin Şamaxı ətrafında qətlə yetirilməsindən istifadə etdi.

Tezliklə Quba xanlığının əleyhinə çıxış etmək üçün hazırlanan dəstəyə Qarabağ və Şəki xanlıqlarının hakimləri, habelə Şamaxıdan qaçmış Ağası xan da qoşuldu.

Maraqlıdır ki, Qubanın özündə də Fətəli xanın əleyhinə çıxanlar tapıldı. Onlar əsas etibarilə Fətəli xanın qardaşı Abdulla bəyin tərəfdarları idi. Beləliklə, Quba xanlığı əleyhinə çıxmağa hazırlaşan dəstə xeyli qüvvətləndi.

1774-cü ilin iyulunda feodalların birləşmiş qoşunları Quba istiqamətində hərəkət edərək Xudat yaxınlığındakı Gavduşan çölündə Fətəli xanın qoşunları ilə döyüşə girdilər. Döyüş qubalıların məğlubiyyəti ilə nəticələndi. Yaralanan Fətəli xan Dərbəndə qayıtmağa macal tapmayıb, Salyana çəkildi.

Qələbədən ruhlanan Əmir Həmzə birləşmiş qoşunlarla Dərbənd istiqamətində hərəkət etdi. O, eyni zamanda, bacısı Tutu Bikənin müdafiəsinə başçılıq etdiyi Dərbənd qalasına belə bir xəbər çatdırdi ki, Fətəli xan döyüşdə həlak olub, onlar xanın cənazəsini də özləri ilə gətirirlər. Lakin Tutu Bikə qardaşının yalanına inanmadı və düşmənə qala divarlrından atəş açmağı əmr etdi. Əmir Həmzə qoşunlarını qala divarlarından uzaqlaşdırsa da, Dərbəndi təqribən doqquz ay mühasirədə saxladı. Bu müddət ərzində Fətəli xan dəniz vasitəsilə Dərbəndə qayıtdı.

Həmin vaxt Qaraqaytağa general Medemin başçılığıi ilə rus hərbi qüvvələri gəlmişdi. Onların məqsədi Rusiya Elmlər Akademiyasının həqiqi üzvü S.Qmelinin ölümünə səbəb olmuş Əmir Həmzəni cəzalandırmaq idi. Məsələ burasındadır ki, S.Qmelin II Yekaterina hökumətinin göstərişi ilə Cənubi Qafqazı və Cənubi Dağıstanı öyrənmək üçün 1771-ci ildən həmin yerləri gəzib, material toplayırdı. Bundan şübhələnən Əmir Həmzə S.Qmelini həbs etdirmiş və o, zindanda acından ölmüşdü. Əmir Həmzənin bu hərəkəti Rusiya dövlətini dərindən qəzəbləndirmişdi. Bundan istifadə edən Fətəli xan kömək üçün general Medemə müraciət etdi. O, tərəddüd etmədən və Rusiyanın hakim dairələrindən icazə almadan Fətəli xana kömək göstərdi. Beləliklə, düşmən qoşunları Dərbəndin mühasirəsindən əl çəkib geriyə dönməyə məcbur oldular.

Hacıbala bəyin qiyamı – Fətəli xan Qubalının fəal xarici siyasəti və müharibələri ağır yük kimi onun təbəələrinin üzərinə düşürdü.

1770-1774-cü illərdə Dərbənddə olmuş Rusiya Elmlər Akademiyasının akademiki S.Qmelin öz hesabatında məlumat verirdi ki, şəhərin əhalisi çox ağır vəziyyətdə yaşayır. Şəhərdə ticarət yox dərəcəsində, evlərin çoxu dağıdılmış vəziyyətdə olduğu üçün küçələrdən keçmək olmur. Evlərin pəncələrində şüşə əvəzinə taxta vurulmuşdur. Evlər soyuq və nəmdir. Qmelin yazırdı: «… taxıl çox az əkilir, çörək qıtlığı hiss olunur. Un çox baha satılır».

Yuzbaşı Hacıbala bəy yaranmış vəziyyətdən istifadə edərək 1774-cü ildə şəhərdə hakimiyyəti ələ keçirmək məqsədi ilə Fətəli xana qarşı qiyam qaldırdı. Lakin qiyamı baş tutmadı və Hacıbala bəy öz tərəfdarları ilə Tabasarana qaçmağa məcbur oldu. 1775-ci ildə o, şəhərdə yenidən qiyam qaldırdı.

Mayor Vilyom Fromqoldun yazdığına görə, şəhər sakini Mirzə bəy Əhməd bəy oğlu ona məlumat vermişdir ki, 60 nəfər şəhər sakini silahlanaraq şəhər divarlarından kənara çıxmışdır. Fətəli xana kömək etmək tapşırılmış mayor təcili olaraq qaçaqların dalınca onları şəhərə qaytarmaq məqsədi ilə gizir Poro-

bini göndərmiş, lakin qiyamçılar onun tələbini rədd etmişdilər.

Qiyamçılar Mirzə bəyin onların qiyamı haqqında rus qarnizonunun komandirinə məlumat verdiyini eşidib, onu oğurlayaraq öz düşərgələrinə aparırlar. Lakin mayor Fromqoldun əsiri azad etmək üçün əsgər göndərməsi nəticəsində Mirzə bəy qaytarılmışdı.

Hacıbala bəy həlledici zərbənin vurulması və şəhərdə öz hakimiyyətinin qurulması üçün vaxtın yetişdiyinə tam əmin idi. Onun dəstəsi şəhərin qərbində, Narınqalanın yaxınlığında yerləşmişdi.

Yaranmış vəziyyətin ağırlığını görən mayor Fromqold hadisələrə müdaxilə etmək qərarına gəldi. O, öz zabitlərindən birinə əmr verdi ki, 50 nəfər piyada ilə bütün şəhər qapılarını mühasirəyə alaraq üsyançıların şəhərə girməsinin qarşısını alsın. Nəticədə Hacıbala bəy rus dəstəsinə hücum etməkdən çəkinərək dağlara çəkildi

General de-Medemin hərbi ekspedisiyası – Rusiya imperiyasının xüsusi xidmət orqanlarının kəşfiyyat-casusluq tapşırıqlarını yerinə yetirən akademik S.Qmelinin qaytaq usmisi Əmir Həmzənin əsirliyində (1774) olan zaman ölməsi (1775) Rusiyanın Dərbəndi işğal etməsi üçün bəhanə oldu. Akademik S.Qmelinin ölümündən 9 ay sonra imperatriça II Yekaterinanın Qaytaq usmisi barədə tədbirlərin görülməsi haqqında fərmanı çıxdı. 1775-ci il martın 1-də Qafqaz xəttinə komandanlıq edən Medem 5 min nəfərlik dəstə ilə (Mozdok alayı, Gizlər batalyonu, Qusar eskadronu, ataman Borodinin dəstəsi və ataman Tabunşikovun komandanlığı altında don kazak dəstəsi) Dərbəndə tərəf hərəkət etdi.

Usmi Əmir Həmzə öz süvari dəstəsi ilə rus generalını Dərbəndin şimalının 17 km-də yerləşən İran-Xarab adlanan yerdə atəşlə qarşıladı və dəstəni mühasirəyə aldı.

Usmi qazandığı qələbəni möhkəmləndirmək məqsədilə rus dəstəsinə daha bir hücum etdi. Lakin generalın köməyinə mayor Medvedevin komandanlığı altında artilleriya ilə silahlanmış yüngül səhra komandası gəldi. Topların atəşi nəticəsində dağlılar geri çəkilməyə məcbur oldular.

General Medem dağlılardan qisas almaq üçün qoşununun bir hissəsini mayor Kridnerin komandanlığı altında Qaytaqa və Tabasarana göndərdi, özü isə Dərbəndə istiqamətləndi.

Həmin məqamda Əmir Həmzə həm Fətəli xanın, həm də Rusiyanın düşməni idi. Ağır vəziyyətdə qalmış Fətəli xan məcburən kömək üçün ruslara müraciət etmişdi. Rus qoşunu Dərbəndə yaxınlaşanda Əmir Həmzə şəhərin mühasirəsini götürmək məcburiyyətində qalmışdı.

Mayor Kridner isə bu zaman Məhəmməd xan Qazıqumuxlunu darmadağın edərək Tabasarana soxuldu. Lakin Kridner burada ağır məğlubiyyətə uğradı. Türkiyə Rusiyadan tezliklə qoşunlarının çıxarılmasını və bu yaxınlarda imzalanmış Küçük-Qaynarca sülh müqaviləsinə (1774) zidd olan Fətəli xanın rus təəbəliyinə keçməsi arzusunu rədd etmək tələbini irəli sürdü. II Yekaterina Rusiyası 1776-cı ilin yazında general de-Medemi Dərbənddən geri çağırmaq məcburiyyətində qaldı. Beləliklə, ekspedisiya əslində tamamilə uğursuzluğa düçar oldu.

Dərbənd və Azərbaycan xanlıqları XVIII əsrin son rübündə. XVIII əsrin 80-ci illərinin sonunda bütün hakimiyyəti Xorasan istisna olmaqla, ələ alan Qacarlar sülaləsinin banisi Ağa Məhəmməd xan sabiq Səfəvi dövlətinin sərhədlərini bərpa etdikdən sonra tac qoymağı qərarlaşdırdı. Məlum olduğu kimi, Səfəvi dövlətinin süqutunadək bütün Cənubi Qafqaz – Azərbaycan və Şərqi Gürcüstan bu dövlətin tərkibində idi. Məhz buna görə də Ağa Məhəmməd xan həmin ölkələri özünə tabe etmək fikrinə düşdü.

Cənubi Qafqazda, xüsusilə Şimali Azərbaycanda ona qarşı görülən tədbirlərdən xəbər tutan Ağa Məhəmməd xan yürüşə başlamağa tərəddüd etdi. Lakin Dərbənd, Gəncə və Şəki xanlıqlarından birbirinin ardınca gələn elçilər Ağa Məhəmməd xana itaət etməyə hazır olduqlarını bildirdikdən sonra o, bir qədər ürəkləndi. Yuxarıda adları çəkilən xanlıqların elçiləri ilə aparılan danışıqlardan aydın oldu ki, xanlıqlar arasında birlik yoxdur və onlar birgə müqavimət göstərmək üçün hələ də razılığa gələ bilməmişlər. Ağa Məhəmməd xan belə bir əlverişli fürsəti əldən vermədi və yürüşə başlamaq üçün son hazırlıq işlərini gördü.

Xəzər dənizi eyni zamanda Rusiyanın Orta Asiya olkələrinə də nüfuz etməsində boyük rol oynaya bilərdi. Odur ki, II Yekaterinanın əmrinə əsasən Ağa Məhəmməd xanın qoşunları silaha əl atdıqları təqdirdə düşmənə atəş açmaq və Ağa Məhəmməd xanın qoşunlarını Şamaxı, Bakı və Xəzər dənizi sahillərinə buraxmamaq tapşırılmışdı. Sıroxnevin

və Savelyevin qoşunları Cənubi Qafqaza çatarçatmaz Rusiyadan buraya boyük bir hərbi qüvvə göndərilməsi qərarlaşdırıldı. Rus qoşunlarının Cənuba doğru hərəkət etməsi xəbərini eşidən Ağa Məhəmməd xan, yuxarıda qeyd edildiyi kimi, Şimali Azərbaycanı tərk etməyə məcbur oldu.

Ağa Məhəmməd xanın 1795-ci ildə Kartli-Kaxeti çarlığını, eləcə də Tiflis şəhərini darmadağın edən qoşunları Şuşada qarabağlıların qəhrəmancasına müqavimətinə rast gəlib geri çəkilməyə məcbur oldu.

1796-ci ildə Rusiya qoşunlarının Şimali Azərbaycana yürüşü ilə əlaqədar İran tərəfindən təhlükə sovuşdu. Lakin bunu Rusiya tərəfindən şimali azərbaycanlılara «kömək» adlandırmaq olmazdı. Çar hökuməti hələ I Pyotrun vaxtından Rusiyanın müstəmləkəçilik siyasətini həyata keçirməyə can atırdı. Rusiya strateji məqsədlərdən başqa, Xəzər dənizində əlverişli liman olan Bakıda və Şimali Azərbaycan ərazisində, digər dayaq məntəqələrində möhkəmlənməyi nəzərdə tuturdu ki, bu da Yaxın və Orta Şərq ölkələrinin hamısı ilə ticarət üçün əlverişli zəmin yaratmalı idi. Bu barədə II Yekaterina xüsusi «Manifest» də vermişdi. Nəzərdə tutulmuş bütun bu tədbirlər 1797-ci ildə həyata keçirilməli idi.

Cənubi Qafqaza hazırlanan yürüşə rəhbərliyi II Yekaterina özünün sevimlilərindən biri olan V.Zubova həvalə etdi. Rus ordusu Cənubi Qafqaza, daha doğrusu, Şimali Azərbaycana iki istiqamətdə irəliləməli idi: karvan yolu ilə gedərək, ilk növbədə böyük strateji əhəmiyyətə malik Dərbənd qalasını ələ keçirməli, sonra isə dəniz yolu ilə Dərbəndə doğru bir neçə hərbi gəmi hərəkət etməli idi. V.Zubov Dərbənd və Bakını almalı, burada quru qoşunları ilə gəmidəkiləri birləşdirib vahid ordu ilə qarşıda duran tədbirləri həyata keçirməli idi. V.Zubova rus qoşunları ücün Bakı şəhərində hərbi ləvazimat və ərzaq anbarı yaratmaq da tapşırılmışdı.

1796-cı il aprelin 18-də V.Zubovun başçılığı ilə rus qoşunlarının Azərbaycana yurüşu başlandı. Rus qoşunları Savelyevin mühasirəyə aldığı Dərbənd qalasına yaxınlaşdı.

Ağa Məhəmməd xan Şimali Azərbaycanı tərk edəndən sonra meydanda tək qalmış qubalı Fətəli xanın oğlu Şeyxəli xan Rusiya tərəfindən yaxınlaşan təhlükənin qarşısını almaq üçün digər Azərbaycan xanlıqlarından kömək istədi. Lakin Şeyxəli xanın çağırışına cavab olaraq yalnız bakılı Hüseynqulu xan Dərbəndə iki ədəd top göndərməklə kifayətləndi.

Rus qoşunlarının yaxınlaşması ilə əlaqədar olaraq Dərbənddə böyük iğtişaş baş verdi. Şəhərdə birbirinin əksinə iki cəbhə yarandı: rus qoşunlarının gəlməsini alqışlayanlar və bunu istəməyənlər. Məsələdən xəbər tutan V.Zubov Dərbənd istiqamətindəki yürüşünü sürətləndirdi. Həmin il mayın 2-də rus qoşunu şəhərin lap yaxınlığında düşərgə saldı. Dərbənd qala divarlarına böyük ümid bəsləyən Şeyxəli xan müqavimət göstərməyi qərara aldı. Lakin rus ordusunun toplarından atılan atəşlə qala divarlarının zədələnməsi Şeyxəli xanı təslim olmağa vadar etdi. Tarixi mənbələrə görə, şəhərdəki ermənilrin satqınlığı da bu işdə az rol oynamamışdı. V.Zubov Dərbənd qalasında iki həftə qaldıqdan sonra xanlığın idarəsini Şeyxəli xanın Rusiyaya meyil edən bacısı Pəricə xanıma tapşıraraq, Bakı istiqamətində hərəkət etdi.

Bakılı Hüseynqulu xanın rus qoşunlarının Abşeron yarımadasına yaxınlaşmasına mənfi münasibət bəslədiyindən xəbər tutan V.Zubov təcili olaraq ona məktub göndərdi və yürüşün əsil mahiyyətini ört-basdır edərək xoş niyyətlə gəldiyini bildirdi. Hüseynqulu xan V.Zubovun səmimiyyətinə inanmasa da, Rusiyanın hərbi texnikasından ehtiyat edərək, onu xoş məramla qarşılamağı üstün tutdu. 1796-cı il iyunun 13-də Hüseynqulu xan V.Zubovun düsərgəsinə yollandı.

İki gündən sonra rus qoşunları general-mayor Raxmanovun başçılığı və Şeyxəli xanın müşayiəti ilə Bakı qalasına, təqribən eyni vaxtda Qubaya daxil oldu. V.Zubovun əmrinə əsasən Qubada Dərbənd xanlığından asılı olmayan müstəqil xanlıq yarandı. Bakıda və Qubada müəyyən miqdarda rus qoşunları saxlayan V.Zubov Şamaxıya doğru irəlilədi. Diplomatiya yolu ilə hərəkət edən Zubov çapar vasitəsilə şamaxılı Mustafa xana hədiyyələr və məktub yolladı.

Hədiyyələri və məktubu alan Mustafa xan Zubova xəbər göndərdi ki, onun pişvazına ozü cıxacaq. Rus qoşunları Şamaxıya tərəf hərəkət etdikdə Şəki xanlığının hakimi Səlim xan Zubovun düşərgəsinə gəldi. Həm şamaxılı Mustafa xan, həm də şəkili Səlim xan Zubovla yaxşı münasibətdə olmaqla, hər şeydən əvvəl, Rusiyadan Ağa Məhəmməd xanın əleyhinə hərbi kömək almaq məqsədini güdürdülər.

Rus qoşunlarının Azərbaycanda, Dərbənd istisna olmaqla, heç bir müqavimət görmədən hərəkət etməsinə Ağa Məhəmməd xan biganə qala bilməzdi. Odur ki, öz adamlarını, o cümlədən qardaşı oğlu Əsgər xanı Azərbaycana – Şəki, Şamaxı və Gəncə xanlıqlarına göndərərək onların ruslar əleyhinə çıxmasını tələb etdi.

Ağa Məhəmməd xanın sərbazlarının Azərbaycanda törətdikləri vəhşiliklərin şahidi olan xanlar onun təbligatına uymadılar. Gəncəli Cavad xan da Ağa Məhəmməd xanın müraciətini cavabsız qoydu.

Cənubi Qafqazda mövqeyini möhkəmlədən Zubov II Yekaterinanın «Manifest»inə əsasən Azərbaycanda yuxarıda qeyd edilən tədbirləri həyata keçirməli idi. Lakin 1796-cı il noyabrın 6-da II Yekaterinanın gözlənilməz ölümü Rusiya dövlətinin nəzərdə tutduğu tədbirlərin həyata keçirilməsini bir müddət təxirə saldı. Sankt-Peterburqda taxta çıxan I Pavel Rusiya qoşunlarının tezliklə Cənubi Qafqazdan geri dönməsi barədə əmr verdi. Rus qoşunları Azərbaycandan çıxıb getdikdən sonra artıq özünü şah elan etmiş Ağa Məhəmməd 1797-ci ildə ona müqavimət göstərənlərə divan tutmaq məqsədilə Qafqaza, xüsusilə Azərbaycana ikinci yürüşə başlamağı qərara aldı.

XVIII-XIX əsrlərdə Şimali Azərbaycanın Rusiya tərəfindən istilası. XVIII-XIX əsrlərin dönəmində Azərbaycanın daxili və beynəlxalq vəziyyəti çox mürəkkəb idi. Azərbaycan ərazisi xırda feodal dövlətlərə parçalanmışdı. Qonşu xanlıqların ərazilərini ələ keçirmək uğrunda xanlar arasında ardıarası kəsilməyən ara müharibələri, feodallarla ölkə əhalisinin böyük əksəriyyətini təşkil edən kəndlilər arasında ziddiyyətlərin güclənməsi, iqtisadi tənəzzül Azərbaycanın daxili vəziyyəti üçün səciyyəvi hal idi.

Göstərilən dövrdə Rusiyanın xarici siyasətinin əsas istiqaməti Cənubi Qafqazın istilası idi. Yay kampaniyasının müvəffəqiyyətlə başa çatmasından sonra qarşıda Şimali Azərbaycanın qalan ərazisinin, ilk növbədə Bakı və Quba xanlıqlarının işğalı məsələsi dururdu.

Rus komandanlığı Bakı və Dərbənd qalalarının ələ keçirilməsinə böyük əhəmiyyət verirdi. General Qlazenap 1806-cı il mayın 3-də çara yazırdı: «Nə qədər ki, Bakı alınmayıb, o vaxtadək Şirvan və Qarabağdakı nailiyyətlər həmişəlik təhlükədə olacaqdır, elə Gürcüstanın özü də farsların basqınını gözləməlidir». Qacarlar hökuməti Rusiya və onun planları üçün Bakının əhəmiyyətini aydın başa düşürdü və Qarabağdakı uğursuzluqlardan sonra rus qoşunlarının irəliləməsinin qarşısını almaq məqsədilə hərbi əməliyyatları Şamaxı xanlığı istiqamətinə keçirdi. Bu vaxt bir rus dəstəsi Zərdaba, digəri isə Cavada daxil oldu. Rus qoşunlarının yaxınlaşdığını eşidən Abbas Mirzə düşərgə saldığı Ağsudan Kür çayına doğru geri çəkildi. Bakı və Dərbəndə doğru irəliləmək üçün əlverişli şərait yarandı. Qubalı Şeyxəli xan Rusiya hakimiyyətini qəbul etmək istəmirdi. 1806-ci ilin iyununda rus qoşunları Quba xanına tabe olan Dərbəndə yaxınlaşdılar və iyunun 22-də onu tutdular.

Sonra onlar general Bulqakovun komandanlığı altında Bakıya doğru yönəldilər. General şəhər sakinlərinə müraciət göndərdi. Hüseynqulu xan öz nümayəndə heyətini şəhərin bayrağı, qalanın açarı və duz-çörəklə Bulqakovun yanına göndərdi, lakin Hüseynqulu xanın özü qisasdan qorxaraq, ailəsi ilə birlikdə Qubaya, oradan da Qacarların yanına qaçdı. Beləliklə, 1806-ci il sentyabrın 3-də Bakı xanlığı Rusiyaya tabe edildi. Tezliklə Quba xanı da qacdı, onun xanlığı da Rusiyaya tabe olundu. Dərbənd və Quba xanlıqları Tərki samxalının ixtiyarına verildi, sonralar isə əyalətlərə çevrildi.

Beləliklə, 1806-cı ilin sonunda, Lənkəran, İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla, Şimali Azərbaycan ərazisi Rusiyanın hakimiyyəti altına keçdi.

Bax: 1. Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). Bakı. «Elm». 2007. səh.13, 27-28.

2. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г. Часть II. – СПб., 1869.

Gəmilərin qəzaya uğraması – 1775-ci ildə Dərbənd yaxınlığında gəmi qəzası baş vermişdir. Yemelyan Skvortsova məxsus ticarət gəmisi dörd yerə bölünərək batmışdır. İranın Ənzəli limanında Həştərxana gedən gəmidə yarımmilyon rubl dəyərində ipək-xammal və ipək parça var idi. Bu məhsullar rus, hind, Azərbaycan və Dağıstan tacirlərinə məxsus idi. Malın müəyyən hissəsi batsa da, qalanı dəniz kənarına atılmış və yerli sakinlər tərəfindən mənimsənilmişdir. Lakin Dərbənd və Quba xanlığının hökmdarı Fətəli xan əmr etmişdir ki, bu mallar qaytarılsın və Dərbəndə gətirilərək qarnizon mayoru Kridnerin şəxsində rus hakimiyyətinə təhvil verilsin.

Gəminin batması və heyətin həlak olmasını araşdırmaq Rusiyanın admiral kollegiyasına həvalə edilmişdir.

Məlum olunmuşdur ki, gəmi çox yüklənərək öz tarazlığını itirmiş və qəzaya uğramışdır. Bir müddət keçdikdən sonra şayiələr gəzməyə başladı ki, malların oğurlanmasında və heyətin ölümündə Dərbənd xanlığının əli var və mallar Dərbənd və Qubada gizlədilir, heyətin üzvlərindən 16 nəfəri öldürülüb, qalanı isə ucqar dağ kəndi Qrızda saxlanılır.

Çar II Yekaterina bu məsələnin yenidən araşdırılmasını əmr etmişdir.

Bununla əlaqədar Dərbəndə mayor Mirzə bəy Vahanov, Həştərxan qubernatoru yanında xarici ekspedisiyanın qulluqçusu M.Diqlyansev və malları itmiş bir neçə tacir ezam olunmuşdur. Araşdırmaların materialları çara çatdırılırdı.

Hələ bu hadisələrdən öncə Rusiya və Quba xanı Fətəli xan arasında dostluq əlaqələri qurulmuşdu. Quba hökmdarı Fətəli xan istəyirdi ki, rəqiblərinə qarşı mübarizədə Rusiyanın dəstəyinə sahib olsun.

Lakin Fətəli xanın əsil məqsədləri haqqında Qafqazdakı rəsmi mənbələrdən daxil olan məlumata əsasən II Yekaterinanın Qubaya münasibəti sərtləşdi. Tədqiqat aparılan zaman mayor Kridner və Qafqaz xətti üzrə komandan de-Medemin səhlənkarlığa və rüşvətxorluğa yol verdikləri tezliklə aşkar olunmuş və tutduqları vəzifədən azad olunmuşlar.

1813–cü il Gülüstan Müqaviləsi. Rusiya imperiyası ilə Qacarlar dövləti arasında 1804-1813-cü illər müharibəsinin yekunlarını və Azərbaycanın həmin dövlətlər arasında birinci dəfə bölüşdürülməsini təsdiq edən sənədə - Gülüstan müqaviləsinə əsasən, Şimali Azərbaycan (İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla) Rusiyanın, Cənubi Azərbaycan isə Qacarlar dövlətinin tərkibinə qatıldı.

XVIII əsrdən başlayaraq, Rusiyanın Qara dəniz və Xəzər sahillərindəki torpaqlara doğru irəliləməsi Qafqazda vəziyyəti xeyli mürəkkəbləşdirdi. 1801-ci il sentyabrın 12-də Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında çar manifestindən sonra bütün Cənubi Qafqazı ələ keçirmək üçün stateji meydan yarandı. 1803-cü ildə Car-Balakən, 1804-cü ildə Gəncə inadlı müqavimətdən sonra Rusiya tərəfindən işğal olundu. 1804-ci ilin mayında Azərbaycana bütövlükdə yiyələnməyə çalışan Qacarlar dövləti rus qoşunlarının Cənubi Qafqazdan çıxarılmasını tələb etdi. Rusiya buna rədd cavabı verdi. Həmin il iyunun 16-da iki dövlət arasındakı diplomatik münasibətlər kəsildi, müharibə başlandı. Müharibə hər iki tərəfdən ədalətsiz idi, çünki özgə torpaqlarının ələ keçirilməsi uğrunda gedirdi. Qeyd etmək lazımdır ki, həm Rusiya, həm də Qacarlar dövləti, eyni zamanda, yerli Azərbaycan xanlıqlarına qarşı da mübarizəni davam etdirir, onların ərazisini işğal edib öz ərazilərinə qatırdılar.

1805-ci il mayın 14-də Qarabağ xanlığı, mayın 21-də isə Şəki xanlığı Rusiya ilə müqavilə imzaladılar. Lakin bu müqavilələr dövlətlərarası münasibətləri müəyyən edilmiş şərtlər əsasında, hüquqi yolla nizama sala bilmədi. Çünki Rusiya üzərinə götürdüyü təəhhüdləri sonadək yerinə yetirmədi. Qarabağ xanı İbrahim xan 1806-cı ildə Rusiya işğalçıları tərəfindən xaincəsinə qətlə yetirildi və 1822-ci ildə xanlıq ləğv edildi.

Şimali Azərbaycanın ən böyük xanlığının – Şirvanın Rusiyaya qatılması (1805) nəticəsində növbə Bakı xanlığına çatdı. 1806-cı ildə Bakı xanlığı, az sonra Quba xanlığı ruslar tərəfindən ələ keçirildi. Beləliklə, 1806-cı ildə, demək olar ki, bütün Şimali Azərbaycan Rusiyanın hakimiyyəti altına düşdü. 1806-cı ildə Rusiya ilə Türkiyə arasında da müharibənin başlanması Rusiya-Qacarlar cəbhəsində rusların vəziyyətini nisbətən ağırlaşdırdı.

Hərbi əməliyyat meydanındakı uğursuzluqlar və Napoleonun Rusiya sərhədlərindən qovulması ilə rus qoşunlarının Avropa səfərinin başlanması nəticəsində beynəlxalq vəziyyətdə yaranan dəyişikliklər Qacarların Rusiya ilə müqavilə bağlamasını sürətləndirdi. İngiltərə danışıqlarda vasitəçilik edirdi. 1813-cü il oktyabrın 12-də Qarabağın Gülüstan kəndində Rusiya və Qacarlar arasında müqavilə imzalandı. 11 maddədən ibarət olan müqaviləyə əsasən, Qacar şahlığı Azərbaycanın Gəncə, Qarabağ, Şəki, Quba, Bakı və Talış xanlıqlarına, Şərqi Gürcüstan və Dağıstana olan iddialarından əl çəkir, onların Rusiyanın hakimiyyəti altına keçməsini təsdiq edirdi (maddə 3). Bu müqaviləyə əsasən bir sıra Cənubi Qafqaz əyalətləri və xanlıqlar Dərbənd şəhəri ilə birlikdə, eləcə də Dağıstan ərazisi Rusiyanın tərkibinə daxil edildi. Rusiya bunun sayəsində Xəzər dənizində hərbi donanma saxlamaq üçün tam hüquq qazandı.

Gülüstan müqaviləsi hələ 1806-ci ildə Rusiyanın Dərbənd torpaqlarını özünə birləşdirdiyini faktiki

olaraq tanıdı. Gülüstan müqaviləsinə əsasən, yalnız Rusiyaya Xəzər dənizində hərbi donanma saxlamaq hüququ verilir (maddə 5), ticarət malları üçün beş faizlik gömrük qoyulur, hər iki dövlətin tacirləri daxili gömrük vergilərindən azad olunurdular (maddə 8-10).

Rus çarı I Aleksandr Qacarlarla sülh bağlanması haqqında manifestin ilkin layihəsini 1813-cü il dekabrın 12(24)-də Friburqda (İsveçrə) imzaladı. Xarici işlər naziri N.P.Rumyantsev Sankt-Peterburqda manifesti alarkən, orada səhv olduğunu müəyyən etdi, belə ki, manifestdə Rusiyaya keçən Qarabağ və Gəncə xanlıqlarının adı yox idi. Odur ki, manifest 1814-cü il yanvarın 4(16)-də geri göndərildi. Müqavilənin ratifikasiya fərmanları tərəflər arasında növbəti dəfə mübadilə olundu. Qacarlarla sülh haqqında çar manifesti yalnız 1818-ci il iyulun 16 (28)-da, müqavilənin mətni isə avqustun 7 (19)-də elan edildi.

Gülüstan müqaviləsi ümumdünya tarixində özgə torpaqlarının bölüşdürülməsi məqsədilə bağlanmış rüsvayçı və antihumanist müqavilələrdən biridir. Bu müqavilə, eyni zamanda, iki işğalçı dövlət arasındakı ziddiyyətləri də həll edə bilmədi. Müqavilənin birinci maddəsində dəbdəbəli ibarələrlə bəyan edilən sülh uzun sürmədi. 1826-cı ildə tərəflər arasında ikinci müharibə başlandı. Azərbaycan ərazisi yenidən iki qəsbkarın qanlı döyüş meydanına çevrildi.

1828-ci il Türkmənçay müqaviləsi. Rusiya ilə Qacarlar arasında Azərbaycan torpaqlarının bölüşdürülməsinin başa çatması, Şimali Azərbaycanın Rusiyanın, Cənubi Azərbaycanın Qacarlar dövlətinin tərkibinə qatılmasını təsbit edən sənəddir. *Gülüstan müqaviləsindən* (1813) sonrakı dövrdə Rusiya-Qacarlar münasibətləri onları yeni müharibəyə gətirib çıxardı. 1826-cı ilin iyulunda Qacar ordusu Arazı keçərək, Şuşanı mühasirəyə aldı, lakin şəhər təslim olmadı. İyulun 26-da Salyan tutuldu. Sentyabr ayınadək Talış, Şirvan, Şəki, Qarabağ əyalətləri və Yelizavetpol (Gəncə) dairəsi ələ keçirildi. Bundan sonra Rusiya əks tədbirlər gördü, Şamxor, Gəncə və başqa döyüşlərdə qələbə çaldı, itirilən mövqelər geri qaytarıldı. 1827-ci ilin fevralınadək ciddi döyüşlər baş vermədi.

Müharibə ilə əlaqədar Rusiyanın 1826-cı il sentyabrın 16-da elan etdiyi «bəyannamə»də gələcək sülh müqaviləsinin əsas müddəaları ümumi şəkildə şərh olunmuşdu. Rus qoşunlarının Qafqazdakı baş komandanı A.P.Yermolovun və A.S.Menşikovun 1826-cı il noyabrın 17-də Rusiyanın xarici işlər naziri qraf K.V.Nesselrodeyə təqdim etdikləri yazılı qeydlərdəki təkliflər və Gülüstan müqaviləsinin ayrı-ayrı maddələri əsasında sülh və ticarət müqaviləsinin layihəsi tərtib olundu. Layihə 1827-ci ilin aprelində müzakirə edildikdən sonra sülh müqaviləsinin maddələrini və ticarət haqqında xüsusi aktı əsaslandıran təqdimat hazırlandı. Rusiya diplomatı A.M.Obrezkov gələcək müqavilənin şərtlərinin izah edildiyi çar fərmanını 1827-ci il mayın 24-də Calaloğlu yaxınlığındakı düşərgəyə gətirdi.

Sülh haqqında ilkin danışıqlara Qacarlar tərəfindən edilən cəhdlər (1827-ci ilin fevralında) bir nəticə verməmişdi. Buna görə də rus qoşunları yeni hücuma başlamış, iyunun 26-da Naxçıvan döyüşsüz tutulmuş, iyulun 7-də Abbasabad təslim olmuşdu. İyulda danışıqlar yenidən başlanmışdı. Osmanlı imperiyası ilə müharibə təhlükəsi artdığına görə Rusiya sülh bağlanmasını sürətləndirməyə can atırdı. Lakin bu niyyətdən bir nəticə hasil olmadığına görə yeni baş komandan İ.F.Paskeviç oktyabrda İrəvanı tutdu. Hələ 1826-cı ilin sonunda Cənubi Azərbaycan torpaqlarına daxil olan rus qoşunları həmin istiqamətdə hücumu genişləndirdilər. Oktyabrın 13-də Təbriz tutuldu. Noyabrın 6-da Dehqarqanda yenidən danışıqlara başlanıldı. Rusiya nümayəndə heyətinə İ.F.Paskeviç, A.S.Qriboyedov, A.M.Obrezkov, A.K.Amburger, N.D.Kiselyov və tərcüməçilər – Abbasqulu Ağa Bakıxanov və Q.M.Vlaqali daxil idilər.

Danışıqlarda Qacarlar tərəfini vəliəhd Abbas Mirzə, qaimməqam Fərrahani, bəylərbəyi Fətəlixan, katib Mirzə Məhəmməd Əli və fransız dili tərcüməçisi Mirzə Məsud təmsil edirdi. Təzminat məsələsində bəzi ciddi narazılıqlar yanvarın 7-də danışıqların kəsilməsinə gətirib çıxardı. Buna görə də rus qoşunları yenidən hücuma keçməklə, Qacarlara təzyiqi gücləndirdilər. Yanvarın 28-də Urmiya, fevralın 8-də Ərdəbil tutuldu. Bu vəziyyət müqavilə bağlanmasını sürətləndirdi. 1828-ci il fevralın 9-dan 10-na keçən gecə saat 12.00-da, Abbas Mirzənin münəccimi tərəfindən müəyyən edilmiş vaxtda, Miynə şəhərindən 33 km. şimal-qərbdə olan Türkmənçay kəndində müqavilə imzalandı. Bu münasibətlə rus toplarından 101 yaylım atəşi açıldı.

Müqavilə 16 maddədən ibarət idi.

1-ci maddədə tərəflər arasında «bundan sonra

əbədi sülh, dostluq və tam razılıq» olacağı bildirilirdi; 2-ci maddə Gülüstan müqaviləsi üzrə qarşılıqlı təəhhüdlərin başa çatdığını və onun Türkmənçay müqaviləsilə əvəz olunduğunu təsdiq edirdi; 3-cü maddə ilə Qacarlar dövləti İrəvan və Naxçıvan xanlıqlarını Rusiyaya güzəştlə getdiyini etiraf edirdi; 4-cü maddə sərhədləri müəyyənləşdirirdi: «İran şahı… Qafqaz dağları və Xəzər dənizi arasında yerləşən bütün torpaqların və bütün adaların… Rusiya imperiyasına məxsus olduğunu» tanıyırdı. Müqaviləyə görə, Qacarlar dövləti Rusiyaya iyirmi milyon gümüş manat təzminat verməli idi (6-cı maddə).

Gülüstan müqaviləsində olduğu kimi, yenə də Xəzər dənizində yalnız Rusiya hərbi donanma saxlaya bilərdi (8). 12-15-ci maddələr əhalinin hərəkəti, əsirlər və başqa məsələlərə həsr edilmişdi.

Türkmənçay müqaviləsinin ayrı-ayrı maddələrinin hazırlanmasında A.Qriboyedov mühüm rol oynamışdı. İ.F.Paskeviç qeyd edirdi ki, 4 və 13-cü maddələr Qriboyedov tərəfindən «yaxşılaşdırılmış», 14-cü maddə isə genişləndirilmişdi. Dəyişikliyin əsas hissəsini ermənilərin köçürülməsinə və təzminatın həcminə aid maddələr təşkil edirdi. Tarixi ədəbiyyatda 12, 14 və 15-ci maddələrin müəllifi də A.S.Qriboyedov sayılır.

Türkmənçay müqaviləsi Rusiya tərəfindən 1828-ci ilin martında, Qacarlar tərəfindən iyulda ratifikasiya edilmişdir. Fətəli şahın ratifikasiya fərmanı Axalkalaki qalasını mühasirə edən rus ordusunun düşərgəsində İ.F.Paskeviçə təqdim olunmuşdu. Bu barədə iyulun 29-da tərtib edilmiş protokolu İ.F.Paskeviç, A.S.Qriboyedov və Qacarlar tərəfindən Mirzə Cəfər imzalamışlar.

Türkmənçay müqaviləsi vahid Azərbaycan xalqının və onun torpaqlarının iki yerə parçalanmasını başa çatdırdı. Azərbaycanın şimalında 1918-ci ildə müstəqil Azərbaycan dövləti – *Azərbaycan Xalq Cümhuriyyəti* yaradıldı. *Aprel işğalı (1920)* ilə Azərbaycan Xalq Cümhuriyyəti devrildikdən sonra Türkmənçay müqaviləsi rəsmən RSFSR və Qacarlar arasında 1921-ci ilin fevralında bağlanmış müqavilənin 11-ci maddəsilə qüvvədən salınmışdır.

Bax: Потто В. Кавказская война. Том 3. Персидская война 1826-1828 гг. Вып. 1. –СПб., 1886.

Köçürmə siyasəti. Köçürmə – çar Rusiyası və SSRİ ərazisində yaşayan türk-müsəlman xalqlarına, o cümlədən azərbaycanlılara qarşı yeridilmiş zorakı ayr-seçkilik siyasətidir. Çar Rusiyası rusları, ermənilərı və digər xristian əhalini işğal etdiyi türk-müsəlman xalqların torpaqlarına köçürür, həmin yerlərdə məskunlaşdırırdı. SSRİ dövründə isə bu torpaqlarda məskunlaşdırılmış xristian əhali, xüsusilə ermənilər və ruslar, həmin ərazilərin yerli əhalisini ata-baba yurdlarından sıxışdırıb çıxarır, onların torpaqlarını özününküləşdirirdilər.

XVIII əsrdən başlayaraq, XX əsrin əvvəllərinədək Rusiyanın mərkəzi əyalətlərindən ruslar, İran və Türkiyədən isə ermənilər Rusiyanın işğal etdiyi Şimali Azərbaycana, Krıma, Şimali və Cənubi Qafqaza, Mərkəzi Asiyaya, Sibirə və başqa ərazilərə köçürüldülər. Bu köçürmələr yerli türk-müsəlman və xristian olmayan digər xalqları sıxışdırmaq, zorla ruslaşdırmaq və xristianlaşdırmaqla, onların əzəli torpaqlarına yiyələnmək kimi azğın müstəmləkəçilik məqsədləri güdən qatı irticaçı dövlət siyasəti idi. I Pyotrun vəsiyyətlərini yerinə yetirən Rusiya Qacarlarla (1804-1813 və 1826-1828), Osmanlılarla (1828-1829 və 1877-1878) müharibələrdən və 1861-ci il kəndli islahatından sonra bu siyasəti Cənubi Qafqazda daha da sürətləndirmişdi.

Zaqafqaziya (Cənubi Qafqaz) – çar Rusiyasında, sonralar isə SSRİ-də Qafqazın cənubuna verilən addır. Böyük Qafqazın Baş Qafqaz, yaxud Suayırıcı silsiləsindən cənubda yerləşir. Çar Rusiyasının işğalçılıq siyasəti nəticəsində Şimali Qafqaz torpaqlarının zəbt edilməsi ilə rus dilində «Предкавказье» (Ön Qafqaz) anlayışı işlənməyə başlandı. Buna uyğun olaraq, Cənubi Qafqaz «Закавказье» (arxa Qafqaz, yəni «Qafqazın arxası») adlandırıldı. *Türkmənçay müqaviləsilə (1828)* Cənubi Qafqazın işğalı başa çatdırıldıqdan sonrakı ilk dövrlərdə Peterburqda bu region haqqında nəşr olunan ədəbiyyatlarda (1836-cı ildəki dörd hissəli icmal və s.) «za Kavkaz» şəklində yazıldığı halda, «za» və «Kavkaz» tədricən bitişik yazılmağa başlayır. Çar hökuməti 1828-ci ildən Zaqafqaziyanın (Cənubi Qafqazın) siyasi quruluşunda və inzibati-ərazi bölgüsündə dəfələrlə dəyişiklik etmişdi. Bölgədə iki dəfə (1844-83; 1905-17) canişinlik sistemi tətbiq edilmiş, ya da o mərkəzə tabe olunmuşdu. *Müvəqqəti Hökumət* isə burada Xüsusi Zaqafqaziya Komitəsi (Особый Закавказский Комитет – Озаком) yaratmışdı. Oktyabr çevrilişindən (1917) sonra Cənubi Qafqaz Rusiyanın hakimiyyətindən çıxmış-

dı. Bu ərəfədə Cənubi Qafqaz on iki inzibati vahiddən ibarət idi: 1) Bakı quberniyası; 2) Bakı şəhər rəisliyi; 3) Batum vilayəti; 4) Dağıstan vilayəti; 5) Yelizavetpol quberniyası; 6) Zaqatala dairəsi; 7)Qars vilayəti; 8) Kutais quberniyası; 9) Suxum dairəsi; 10) Tiflis quberniyası; 11) Qara dəniz quberniyası; 12) İrəvan quberniyası. Onun ümumi sahəsi 214693,7 *kv.verst* idi. Bu, bütövlüklə, Qafqaz ərazisinin 59,4%-ni təşkil edirdi (bax: *İnzibati-ərazi bölgüsü*). 1917-ci ilin noyabr –1918-ci ilin may aylarında burada *Zaqafqaziya Komissarlığı*, sonra *Zaqafqaziya Demokratik Federativ Respublikası* (ZDFR) elan edilmiş, *Zaqafqaziya seymi* fəaliyyət göstərmişdi. 1918-ci il mayın 26-da ZDFR parçalanmış, seym buraxılmış, Gürcüstan, Azərbaycan və Ermənistan respublikaları yaradılmışdı.

Vaxtilə çar hökuməti tərəfindən həyata keçirilən inzibati-ərazi bölgüsü siyasətinin ağır nəticələri məhz bu dövrdə bütün kəskinliyi ilə ortaya çıxmışdı. Azərbaycan Xalq Cümhuriyyəti İrəvanı ermənilərə güzəştə getmiş, ərazisini 99908,87 *kv.verst* (mübahisəsiz və mübahisəlilərlə birlikdə) elan etmişdi.

1918-ci ildə ərazi məsələsi üstündə Ermənistanla Gürcüstan arasında müharibə baş vermişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin, sonralar isə Ermənistan və Gürcüstan respublikalarının süqutu ilə Cənubi Qafqazda sovet hakimiyyəti qurulmuşdu. Azərbaycan SSR-in ərazisi 86,6 min, Gürcüstan ərazisi 69,7 min, Ermənistan ərazisi isə 29, 8 min *kv.km* müəyyənləşdirilmişdi. Zaqafqaziya anlayışı sovet dövründə də geniş tətbiq edilmişdi. 1922-36-cı illərdə Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası (ZSFSR) fəaliyyət göstərmişdi. ZSFSR-in ləğvindən sonra da bölgənin hərbi-iqtisadi vahid kimi saxlanması (Zaqafqaziya dəmir yolu, Zaqafqaziya hərbi dairəsi və s.) siyasəti davam etdirilmişdi. SSRİ-nin dağılması ilə (1991) bölgədə vəziyyət yenidən dəyişmişdir. Hazırda Zaqafqaziya anlayışı, əsasən, rusiya imperiyası və sovet dövrü hadisələri ilə əlaqədar olaraq tarixi-coğrafi ad kimi işlədilir. Müasir terminologiyada həmin ərazi coğrafi mövqeyinə görə Cənubi Qafqaz (Transqafqaz) adlandırılır.

1918-ci il aprelin 9 (22)-da yaradılan ZDFR-in hökumət tərkibi aşağıdakı kimi idi: A.Çxenkeli – baş nazir və xarici işlər naziri; N.Ramişvili – daxili işlər naziri; Q.Georqadze – hərbi nazir; N.Xomeriki – kənd təsərrüfatı naziri; X.Məlik-Aslanov – yollar naziri; F.X.Xoyski – ədliyyə naziri; N.Yusifbəyli – maarif naziri; M.H.Hacınski – ticarət naziri; İ.Heydərov – dövlət nəzarəti naziri; A.Xatisyan – maliyyə naziri; A.Saakyan – ərzaq naziri; R.Kaçaznuni – ictimai məişət xidməti naziri; A.Erzikyan – əmək naziri. Göründüyü kimi, hökumət etnik mənsubiyyətinə görə 4 gürcü, 5 azərbaycanlı və 4 ermənidən ibarət idi. Lakin strateji əhəmiyyətli nazirliklər gürcü və ermənilərdə idi. Yeni yaradılmış hökumət daxili və xarici siyasətdə ciddi dəyişiklik edə bilmədi. Daxili ziddiyyətlər 1918-ci il mayın 11-16-da keçirilən *Batum konfransında* daha aşkar şəkildə ortaya çıxdı. Konfransda Gürcüstan Almaniya nümayəndələrinin təzyiqi nəticəsində ZDFR-dən çıxmağı qərara aldı. Bu, Zaqafqaziya seyminin mayın 26-da keçirilən iclasında reallaşdırıldı. Həmin iclasda ZDFR-in parçalanması barədə qətnamə qəbul olundu. Zaqafqaziya seymi buraxıldı. Mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması elan edildi.

Bax: 1. Azərbaycan tarixi. VII cilddə, c. IV-VII. – B., 2000-2003;

2. Обозрение Российских владений за Кавказом ч.1-4, СПб., 1836; Победа Советской власти в Закавказье. – Тбилиси, 1971.

Çar Rusiyasının torpaq siyasəti və Dərbənd XIX əsrdə. Rusiya çarı I Nikolay 1846-cı il dekabrın 6-da canişin adına reskript imzaladı.

Reskript feodalların həm irsi mülk torpaqları, həm də «müsəlman əyalətlərinin Rusiyaya birləşdirilməsi zamanı onların nəsillərinin malik olduqları və indi mübahisəsiz şəkildə onların ixtiyarında olan» torpaqları - tiyullar üzərində tam nəsli mülkiyyət hüququnu təsdiq edirdi. 1841-ci ildə müzakirə edilmiş, çarın «xüsusi» mərhəməti şəklində geri qaytarılan torpaqlar üzərində ağaların və 1840-cı ildən sonra onlardan alınmış mülklər üzərində bəylərin hüququ təsdiq olunurdu.

Çar Rusiyasının zadəgan mülkədarları kimi, Azərbaycan feodalları da öz torpaqlarından imperiyanın ümumi qanunları əsasında istifadə etmək «satmaq, bağışlamaq, irsən vermək və başqa üsullarla özəlləşdirmək» hüququ aldılar. Çar hökuməti bütün imperiyada olduğu kimi, feodalların silki hüquqlarının qayğısına qalaraq qeyd edirdi ki, hüquqi sövdələşmə əsasında Azərbaycan feodalları nünayəndəsinin əlində olan malikanə o şəxsin əlinə keçə bilər ki, «...

ya Zaqafqaziya diyarı ali müsəlman silkinə mənsub olmalı, ya da imperiyanın ümumi qanunlarına görə, məskun mülklərə sahiblik etmək üçün zəruri olan keyfiyyətlərə malik olmalıdır».

Reskript torpaq sahibkarlarına öz torpaqlarından sərbəst surətdə istifadə etmək hüququ verərək torpağın əmtəəyə çevrilməsi üçün müəyyən şərait yaratsa da, feodal torpaq mülkiyyəti hələlik kapitalist torpaq müllkiyyətinə çevrilmədi. Çünki torpağın özəlləşdirilməsi hüququ onunla məhdudlaşırdı ki, torpaq ancaq hakim feodal sinfin əlinə keçə bilsin. Reskript torpaq üzərində feodalların xüsusi mülkiyyət hüququnu möhkəmləndirərək və feodalların torpaq fondunun toxunulmazlığını təmin edərək tiyuldar bəylərin öz mülkiyyətcilik hüquqlarının tanınması uğrunda apardıqları uzunmüddətli mübarizəsinə bir növ yekun vururdu.

Tiyul və mülk torpaqlarının feodal torpaq mülkiyyətinin eyni kateqoriyası şəklində qovuşması bu mülkiyyətin inkişafinda Azərbaycan feodallarının torpaq hüquqlarının güclənməsi ilə əlaqədər olan yeni mərhələ idi. Bu güclənmə ilk növbədə tiyulların mülklərlə eyniləşdirilməsi faktının özündə ifadə olunurdu. Lakin ən başlıcası ondan ibarət idi ki, reskript keçmiş tiyuldarların torpaq üzərindəki mülkiyyətçilik hüquqlarının miqyasını kəskin surətdə genişləndirdi. Əgər əvvəllər bu hüquq əslində asılı feodal kəndlilərindən renta almaq hüququ ilə məhdudlaşırdısa, indi keçmiş tiyuldarlar torpaq mülkiyyətçilərinə çevrilərək, bu torpaqlardan istədikləri kimi istifadə etmək hüququ aldılar. Kəndlilərin əsrlərdən bəri istifadə etdiyi torpaqlar tamamilə feodalların sərəncamına keçdi.

Reskriptin xüsusi maddəsi artıq Azərbaycanın Rusiya tərəfindən istilasından sonra çar hökumətindən tiyul hüququna əsasən torpaq sahələri almış feodalların mülkiyyətçilik hüququna həsr olunmuşdu. Canişinə təklif olunurdu ki, müvəqqəti və ömürlük istifadə üçün torpaq verilmiş bu şəxslərin xidmətlərini nəzərə alaraq, torpağın bu şəxslərdən kimlərin nəsli sahibliyində təsdiq edilməsi, kimlərin isə müvəqqəti istifadəsində saxlanılması baradə çara təqdimat versin. Artıq varislərə keçmiş torpaqlar isə, - əgər onların alınması barədə heç bir sərəncam verilməmişdirsə, - varislərin nəsli mülkiyyəti kimi təsdiq olunurdu.

Çar hökuməti feodalların torpaq üzərində mülkiyyət və kəndlilərin feodal istismarı hüquqlarını təsdiq edərək, sədaqətlə xidmət göstərməyi, hər şeydən əvvəl kəndli hərəkatına qarşı amansız mübarizə aparmağı tələb edirdi. Çar reskripində deyilirdi: «Biz buna möhkəm əminik ki, Zaqafqaziya diyarının… ali müsəlman silki… onun üzərinə qoyulacaq vəzifələrin cani-dildən və ciddi-cəhdlə yerinə yetirilməsinə… həmişə hazır olacaqdır».

Reskriptdə şərh olunan və torpaq sahibkarları ilə kəndlilərin qarşılıqlı münasibətlərini müəyyənləşdirən prinsiplər 1847-ci il 20 aprel və 28 dekabr tarixli «Kəndli əsasnamələri»ndə konkretləşdirildi. Bu əsasnamələrdən birincisi Şamaxı, Şuşa, Nuxa, Lənkəran, Bakı, Quba, və Dərbənd qəzalarının xüsusi sahibkar kəndlilərinə, ikincisi isə Tiflis quberniyasının Yelizavetpol qəzasındakı Qazax və Şəmşəddil nahiyələri ağalarının torpaqlarında yaşayan kəndlilərə aid idi.

Bax: Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). – Bakı. «Elm», 2007. səh. 129-131.

Dərbənd 1831-ci ildə. 1831-ci ildə Dərbənd böyük fəlakətlə qarşılaşır. Dərbənd şəhəri müridizmin məşhur təbliğatçısı olan Qazi molla tərəfindən mühasirəyə alınır. Avqust ayının 16-da Qazi molla Dərbəndə 200 atlı göndərir. Lakin Fərhad bəyin komandanlığı altında 300 nəfər şəhər sakini onları qovur. Bir neçə gündən sonra Qazi mollanın qoşunları yenidən şəhəri mühasirəyə aldılar. Şəhər sakinlərinin çox hissəsi qala divarlarında düşmənə qarşı cəsarətlə vuruşurdu. Onlar iki hissəyə bölünmüşdülər: bir hissəsi şimaldan Fərhad bəyin komandanlığı altında, o biri hissə – cənubdan Hüseyn bəyin komandanlığı altında düşmənə müqavimət göstərirdi. Düşmən döyüş meydanında 20 meyit və üç əsir qoyaraq geri çəkildi.

Bax: Султанов С.А. Дербент: история возникновения и развития. – Дербент, 2003, с. 78.


Dərbənd və Kür piyada alayı. Kür piyada alayı Dərbəndə 1832-ci ilin əvvəlində köçürülmüş və 1834-cü ildə Temirxan Şura keçidinə kimi burada olmuşdur. Alay şəhərin şimalında Kefar yüksəkliklərində yerləşmişdir. Kefar yüksəkliklərindəki bütün tikililər 1831-ci ildə şəhərin mühasirəsi zaman Qazi Məhəmməd tərəfindən yandırılmışdır. Onlar burada özlərinə kazarma və digər təsərrüfat tikililəri tikmişlər. Bundan sonra alay şəhər divarlarının içərisindəki kazarmalara köçürülmüşdür.

Dərbənd qəzası. 1840-cı ildə Kaspiysk vilayəti

yaradıldı. Bu vilayətin tərkibinə Dərbənd qəzası da olmaqla 7 yeni yaradılmış qəza daxil oldu. Dərbənd qəzasına Dərbənd, Tabasaran və Qaraqaytaq əyalətləri də daxil oldu. Dərbənd qəzasının inzibatı mərkəzi Dərbənd şəhəri elan olundu. Dağıstanda baş verən hərbi hadisələrlə əlaqədar Dərbənd qəzası Dağıstan hərbi dairəsinin tərkibində idi. Hərbi dairənin idarə edilməsi hərbi-dairə rəisinə həvalə edilmişdi, o, polis hakimiyyətinə də rəhbərlik edirdi. 1844-cü ildə hərbi dairələr ləğv olunduqdan sonra Cənubi Dağıstanın rəhbəri vəzifəsi təsis edilmişdi və orada olan qoşunlar ona tabe idi.

Dərbənd qəzası 1846-cı ilə kimi mövcud olmuş və həmin ildə Dərbənd quberniyası yaradılmışdır.

Dərbənd şəhərinin gerbi. Şərqdə güc və qüdrəti təcəssüm etdirən şir lap qədim zamanlardan şəhərin rəmzi idi. Qırxlar və Orta qapılarının üstünə vurulmuş bu qüdrətli heyvanın heykəli bizim günlərədək qorunub saxlanılmışdır.



21 may 1843-cü ildə təsdiq olunmuş Dərbənd şəhərinin gerbi



5 iyul 1878-cü ildə təsdiq olunmuş Dərbənd şəhərinin gerbi

Dərbənd Rusiyaya birləşdirildikdən (1806) sonra, onun statusunu digər şəhərlərin statusu ilə bərabərləşdirmək məqsədilə Rusiya imperiyası 1843-cü il martın 21-də Dərbəndin gerbini təsdiq etmiş və təsviri belə idi:

«Dərbənd. Dağıstan vilayəti. Liman şəhəri. Qalxanın yuxarı hissəsində, qızıllı sahədə – Xəzər vilayətinin gerbinin hissəsi; iki yerə bölünmüş aşağı hissənin sağ tərəfində – bir tərəfi dağa söykənən, o biri tərəfi dənizə uzanan qapılı qala divarı; sol hissəsində bir-birinə sarılmış boyaq otunun (marena) kökləri və maku bitkisinin bir neçə budağı qızıl iplə bağlanmışdır. Qızıl ip boyaq otunun sakinlər tərəfindən uğurla yetişdirilməsini göstərir». Dağıstan tam Rusiyaya birləşdirildikdən sonra (1864) 1878-ci il iyulun 5-də Rusiya imperiyasının yeni inzibati ərazisinin – Dağıstan vilayətinin gerbi təsdiq edilmişdir. Gerb belə təsvir olunmuşdur:

«Qızıl fonda açıq qapılarla dördminarəli qara qala divarları; qalanın üstündə qalxanın yuxarı hissəsində kəsilmiş şir başı, altda qara haşiyəli aşağı istiqamətdə ay».

Qalxan qədim, çar tacı və Aleksandr lenti ilə birləşdirilmiş qızıl palıd yarpaqları ilə əhatə olunmuşdur.

Dərbənd Dağıstan vilayətinin inzibati mərkəzi seçildiyi üçün vilayətin gerbi şəhərin gerbi kimi də istifadə olunurdu.

Dərbənd quberniyası – 1846-ci ildə Xəzər vilayətinin ərazisinin bir hissəsindən yaradılmışdır. Mərkəzi – Dərbənd şəhəri. 1860-cı ildə ləğv olunmuş və Dağıstan vilayətinin tərkibinə daxil edilmişdir.

Dərbənd və Deputasiya. Dərbəndlilər iki dəfə bu fəxri hüquqa malik olmuş və öz nümayəndələrini rus imperatorlarının tacqoyma mərasiminə göndərmişlər.

1856-cı ilin avqustunda rus imperatoru II Aleksandrın (1855-1881) tacqoyma mərasiminə Dərbənd quberniyasından iki deputat dəvət olunmuşdu: biri «yuxarı təbəqədən» (quberniya rəhbərliyi nəzərdə tutulur), digəri isə «şəhərin fəxri sakinlərindən». Sonuncuların sırasından Dərbənd şəhər sakini tacir Hacı Kazım Hacı Ağa oğlu seçilmişdi. Hələ 1831-ci ildə imperator I Nikolay (1825-1855) tərəfindən onun «Boynuna qızıl medal» taxılmışdır. Onu Moskvaya müşayiət etmək üçün şəhərin digər sakini, dəfələrlə Rusiyanın bu şəhərində olmuş – Cəfər Əli-Əsgər oğlu təyin edilmişdi.

Tacqoyma mərasimindən sonra Hacı Kazım Hacı Ağa oğlu imperator tərəfindən «Andreyev lentin»də yazısı olan «Fədakarlığa görə» qızıl medal ilə, Cəfər Əli-Əsgər oğlu işə Vətən qarşısındakı xidmətlərinə

görə «Annenkovsk lentin»də yazısı olan gümüş medal ilə təltif olunmuşlar.

İmperator III Aleksandrın (1881-1894) 1881-ci ildə tacqoyma mərasiminə Dərbənddən gələn nümayəndə 37 yaşlı Əlövsət Hacı Zeynalabdin oğlu olmuşdur. O da vətən qarşısındakı xidmətlərinə görə 1883-cü ildə boynuna asmaq üçün «Stanislavsk lenti»ndə gümüş medalla təltif edilmişdir.

154-cü Dərbənd piyada alayı – 1863-cü ildə Rusiya ordusunda yaradılmışdır. Alayın «2 oktyabr 1877-ci ildə Orlok yüksəkliklərinin alınmasına görə» Georgi bayrağı, alayın 13-cü bölüyü isə «1864-cü ildə Qərbi Qafqazın fəth edilməsində fərqlənməyə görə» papağa vurulmuş fərqləndirici nişanları olmuşdur.

Dərbənddə aclıq. Dərbənd özünün çoxəsrlik tarixi ərzində dəfələrlə aclığa məruz qalmışdır. Buna səbəb həm iqlim kataklizmləri, həm də çoxsaylı müharibələr və şəhərin talan edilməsi olmuşdur. Sənədlərdə qeyd olunmuş aclıq baradə bir neçə məlumat.

1769-cu il. Quba və Dərbənd xanı Fətəli xanın Şamaxı xanlığı ilə apardığı üçillik müharibə nəticəsində feodallar arasında gedən müharibədə şəhər sakinlərinin torpaqları əkib-becərə bilmədikləri üçün şəhərdə çörək çatışmazlığı və aclıq hiss olunmağa başladı. Quraqlıq bu acınacaqlı vəziyyəti daha da ağırlaşdırdı. Şəhərdə və şəhər ətrafında çörəyin qiyməti ağlasığmaz dərəcədə qalxdı və adamlar arasında narazılığa səbəb oldu. Gözlənilən sosial partlayışın qabağını almaq üçün Fətəli xan ciddi tədbirlər görməyə məcbur oldu. Fətəli xan çörək almaq tapşırığı ilə iki Dərbənd tacirini – Kərbalayı Əlini və Ağa bəyi Həştərxana göndərir.

Qubernator N.A.Beketovun Rusiya xarici işlər Kollegiyası üçün hazırladığı hesabatdan, Qafqazda Rusiya konsullarının məlumatları, gizli agentura tərəfindən hazırlanmış raportlardan məlum olur ki, Fətəli xanın Rusiya hakimiyyəti ilə əməkdaşlıq etmək istəyi təsdiq olunur. Ona görə də Rusiya bu məsələni müsbət həll etdi, çünki Rusiyadan çörəyin göndərilməsi siyasi xarakter daşıyırdı. Tezliklə Həştərxan tacirlərinə - Şaripinə və Skvortsova məxsus olan on gəmiyə taxil və un yükləyib Dərbəndə yola saldılar.

Dərbənddə aclığın qarşısı belə alındı.

1883-cü il Dərbənd əyalətində məhsulsuz il oldu. Şəhər hökumətdən kömək almadı. Bu vəziyyətdən çıxışı sakinlər özləri tapdılar. 1884-cü il fevralın 15-də şəhərin hərbi komendantı Dağıstan vilayətinin hərbi dairə rəisinə məlumat verirdi: «…Keçən il Dərbənd şəhərində və onun ətrafında çörək çatışmazlığından burada varlı sakinlərin cəmiyyəti kasıb ailələrə kömək etmək üçün 836 rubl pul yığıb, Bakı əyalətindən çörək alaraq kasıb təbəqəni aclıqdan xilas etdilər. Mənim topladığım məlumata görə, hal-hazırda şəhərdə çörək var. Gələcəkdə kasıb ailələrini aclıqdan xilas etmək üçün Dərbənd sakinləri daha 1600 rubladək gümüş pul toplamışlar. Məşədi Rza Məmmədova tapşırılmışdır ki, Bakı və Şirvan əyalətlərindən çörək alsın. Alınmış çörək Dərbənd şəhərinin əminləri – baş məscidin rəhbəri Hacı Kazım Ağayev və Seyid Cəfərin iştirakı ilə kasıblara paylanırdı».

1918-ci il. 1918-ci il aprelin 24-də Q.Sturuanın komandanlığı altında Bakı Xalq Komissarları Sovetinin iki batalyondan ibarət qırmızı qvardiyaçı dəstəsi V.Beşentsevin komandanlığı altında «Qars» kanoner qayığının köməyi ilə Dərbəndə daxil oldu. Şəhərdə Bakı Soveti nümayəndələrinin diktaturası yarandı.

Şəhərə rəhbərlik etmək üçün İnqilab Müdafiə Komitəsi yaradıldı (sədr V.Beşentsev). Bu komitə ilk növbədə dəmiryol stansiyasında boşaldılmaq üçün dayanan ərzaq dolu 34 vaqonu müsadirə etdi və Bakıya yola saldı. Şəhər ərzaqsız qaldı. Şəhəri ətraf rayonlardan ərzaqla təmin etmək cəhdi uğursuz oldu. Ətraf rayonlarda ərzaq kifayət qədər idi, lakin kəndlilər olan ərzaqları ehtiyac duyduqları sənaye malları ilə dəyişməyə razılıq verirdilər. Dərbənd rayonu alverçilərlə, ətrafdan gələn soyğunçu dəstələrlə doldu. Onlar kəndliləri qarət edirdilər. Dərbənd sakini «Çolaq» ləqəbli Cəfərin dəstəsi bu quldur dəstələrinin arasında qəddarlığı və soyğunçuluğu ilə fərqlənirdi.

1918-ci il iyunun 16-da şəhərdə ac sakinlərin üsyanı oldu. Onlara qarşı qırmızı qvardiya dəstəsi göndərildi. Bu toqquşmada yaralılar və ölənlər oldu. İnqilab Müdafiə Komitəsinin sədri V.Beşentsev Bakıdan gələn alverçilərin qabağının alınması üçün kömək istədi.

Şəhəri ərzaqla təmin etmək məsələlərinin koordinasiyası üçün aşağıdakı tərkibdə ərzaq direktoriyası yaradılır: direktor – A.Surinov, direktor müavinləri – Q.İldarov və Remizov, direktoriyanın üzvləri – Əbdürəhimov və Şuljenko. Şəhəri çörəklə təmin etmək məqsədilə şəhərin qırmızı ordu, kəndli və fəhlə deputatları şurası 1918-ci il iyulun 14-də

dekret qəbul etdi.

Bu dekretlə onlar kəndliləri və torpaq sahiblərinin əkin sahələrinin miqdarı haqqında məlumat verməyə məcbur edir və sahibkarlara çörək məhsullarının satılmasına qadağa qoyulurdu. Kəndlilərə və torpaq sahiblərinə əmr olunmuşdu ki, onlar özlərinə 20 pud taxıl saxlayaraq, artığını müəyyən edilmiş qiymətlə ərzaq direktoriyasına versinlər. Əgər taxıl verilməsə, onda onu müsadirə edəcəklər. Taxılın yığımında işləyən fəhlələr sahibkarlardan 20 pud taxıl almaq hüququna malik idilər.

Şəhərdə A.Talıbovun başçılığı ilə taxılın yığımı üzrə xüsusi komissiya və taxıl sahələrinin, bağların və bostanların qorunması üçün K.Məmmədbəyovun komandanlığı altında silahlı süvari dəstə yaradılır. Şəhərdə mövcud olan bütün nəqliyyat növü taxılın və digər kənd təsərrüfatı məhsullarının daşınması üçün səfərbər edilmişdi. İyulun 1-dən şəhərdən və rayondan bütün ərzaq mallarının çıxarılmasına qadağa qoyulmuşdu.

İyulun 12-də Saruxanovun və Xanukayevin dəyirmanları milliləşdirilmişdir. Onlar şəhər Sovetinin bu hərəkətini sabotaj etmək məqsədilə dəyirmanları «təmirə» dayandırmışdılar.

Ərzaq direktoriyası balıq ehtiyatının Həştərxana ərzaq məhsulları və Bakıya sənaye malları ilə dəyişdirilməsi məqsədilə aparılmasını təşkil edir. Temirxan Şura (Buynaksk şəhəri) Dərbənd əhalisini aclıqdan xilas etmək məqsədilə taxıl və iki vaqon kartof tədarük etməkdə kömək edir. Bütün bu görülən tədbirlər Dərbəndin ərzaq təminatındakı yaranmış böhranı bir az da olsa aradan qaldırmışdır. Buna baxmayaraq 1918-ci ilin sonunadək şəhərdə aclıq hiss edilməkdə qalırdı.

Rus-türk müharibəsi (1877-1878) – Balkan ölkələrində öz təsirini möhkəmləndirmək üçün Rusiya tərəfindən başlanmışdır. Müharibənin başlanması ilə əlaqədar Dərbənd əhalisi Rus imperatoruna itaətini bildirmək üçün məktub göndərmişdi. İmperator II Aleksandr (1855-1881) dərbəndlilərə öz təşəkkürünü bildirmişdir.

Eyni zamanda müharibənin elan olunması İçkeriyada (Çeçenistanda) güclü antirusiya çıxışları ilə qarşılandı. Bu çıxışlar tezliklə bütün Dağıstana yayıldı. Üsyançılar Qumux qalasında yerləşən hərbi qarnizonu məhv etdilər və Temirxan Şura-Dərbənd yolunu kəsdilər. Sonuncu Qaytaq hökmdarı Camal bəyin oğlu Mehdi bəy Başlıda özünü usmi (hökmdar) elan etdi və dəstə toplayaraq Dərbənd ətrafındakı kəndləri ələ keçirməyə başladı. Şimali Tabasaranda praporşik Umalat bəy Qadiyev, Cənubi Tabasaranda isə Aslan bəy özlərini maysum (hökmdar) elan etdilər. Ştabs-kapitan Məhəmməd Əli bəy Harun bəy oğlunun Kurinsk xanı elan olunduğu Samur vilayətində də üsyanlar başlandı. Qasım bəy Ağa bəy oğlunun başçılıq etdiyi silahlı dəstə Rukel kəndində göründü. Dərbənddə hərbi vəziyyət elan olundu. Çarın dəstələri böyük qüvvə sərf edərək Qafqazda dağlıların üsyanını yatırdılar.

Rus-Yapon müharibəsi (1904-1905). 1904-cü il fevralın 2-də Kilsə meydanında (hazırda Azadlıq meydanı) şəhər sakinlərinin və Qunib ehtiyyat batalyonunun zabitləri qarşısında Rusiya imperatoru II Nikolayın Yaponiya ilə müharibənin başlanması haqqında «Əlahəzrətin manifesti» oxunmuşdur. Fevralın 4-də Cümə məscidində şəhər axundu Hacı Molla Sadıq Pişnamaz müharibənin elan olunması haqqında Azərbaycan dilinə tərcümə olunmuş «Əlahəzrətin manifesti»ni oxumuşdur.

Fevralın 5-də dərbəndlilər Qafqazdan Uzaq Şərqə gedən ilk hərbi qatarı nəfəs alətləri orkestrinin musiqi sədaları altında, yaylım atəşi ilə qarşılamışlar. 1904-cü il 11 fevral tarixli «Kazbek» qəzetinin (Vladiqafqaz), 1904-cü il 23 iyul tarixli «Qafqaz» qəzetinin (Bakı) səhifələrində bu barədə geniş məlumat verilmişdir.

Dərbənd şəhər İctimai İdarəsinin bütün qulluqçuları hər ay aylıq əmək haqlarının 2%-ni müharibə qurtaranadək orduya kömək fonduna verirdilər.

1905-1907-ci illərin inqilabı. Çar Rusiyası XX əsrə çox ağır iqtisadi və sosial mühitə daxil oldu. Çar Rusiyasının rus-yapon (1904-1905) müharibəsində məğlubiyyəti ölkədəki daxili-siyasi vəziyyəti daha da ağırlaşdırdı.

Peterburqda 1905-ci il yanvarın 9-da fəhlə nümayişinə atəş açılması ölkədə burjua-demokratik inqilabının başlanmasına səbəb oldu. Tezliklə inqilab bütün ölkəni bürüdü.

1905-ci il iyulun 14-də Dərbənd dəmiryolunun fəhlələri Vladiqafqaz dəmiryolu fəhlələrinin elan etdiyi tətilə qoşuldular. Fəhlələr növbədənkənar iş saatlarının ləğv olunmasını və ya onların ikiqat əməkhaqqı ilə ödənilməsini; onların hamısına ictimai mənzillərin verilməsini; cərimələrin ləğv olunmasını; əmək mübahisələrinin həlli üzrə komis-

siyanın yaradılmasını və s. tələblər irəli sürdülər.

Dəmiryolunda tətili yatırmaq üçün şəhərdə dislokasiya edilmiş Qunib ehtiyat Batalyonunun əsgərləri buraya yeridilmişdi. İşdən çıxarılmış 400-ə yaxın fəhlə və qulluqçuların yerini Tiflisdən gəlmiş aşağı rütbəli dəmiryol işçiləri tutdular. Tətil yatırıldı və Rostov-Bakı xəttində hərəkət bərpa edildi.

1905-ci il oktyabrın 7-də Moskvanın dəmiryol fəhlələri tətil elan etdilər. Tezliklə bu tətil Rusiya imperiyasının bütün rayonlarına yayıldı. Siyasi Oktyabr ümumtətili başlandı və o, Vladiqafqaz dəmiryolu işçilərini də əhatə etdi.



1905-1907-ci illər inqilabında iştirak etmiş dəmiryolçuların xatirəsinə ucaldılmış abidə

Oktyabrın 18-də Dərbənddə tətil komitəsi yaradıldı. Bu komitə dəmiryol qovşağındakı hakimiyyəti öz əlinə aldı. Hər gün dəmiryol stansiyalarında mitinqlər və iclaslar keçirilirdi. Burada çıxış edən natiqlər çar rejiminin devrilməsini və demokratik respublikanın qurulmasını tələb edirdilər. Tətilçilərə realnı məktəbinin və qadın gimnaziyasının tələbələri də qoşulmuşdu.

Tətili dəf etmək üçün şəhərə Dağıstan süvari alayının 500 nəfərə yaxın əsgəri yeridilmiş və tətil yatırılmışdı.

Vladiqafqaz Dəmiryol İttifaqının Mərkəzi bürosu dəmiryol şöbələrinə ümumi siyasi tətilə qoşulmaq çağırışı ilə müraciət etdi. Şəhərdə Vladiqafqaz Dəmiryol İttifaqı bürosu yaradıldı. Büro bütün dəmiryol qovşağını öz nəzarəti altına götürdü və qatarların hərəkəti dayandırıldı. Yolu qorumaq üçün 350 nəfərdən ibarət döyüş dəstəsi yaradıldı. Mitinqlərdə və iclaslarda birliyə və hazırlığa çağırışlar səslənirdi.

Şəhərə hökumətə sadiq olan qoşunlar yeridildi, tətilin təşkilatçıları həbs olundu və tətil yatırıldı.

1906-cı ilin fevralında Dərbənd dəmiryol və Biləcəri stansiyası deposunun fəhlə və qulluqçuları tətil etdilər. Lakin tətil yenidən yatırıldı.

1925-ci ildə birinci rus inqilabının başlanmasının 20-illik yubileyi ilə əlaqədar dəmiryol parkında «İnqilabçı-dəmiryolçular» xatirəsinə abidə ucaldılmışdır.

Gənclərin etiraz üsyanı. Dərbənddə 1906-ci il noyabr ayında baş vermişdir. Etirazlar üsyanı realnı məktəbində başlandı. Bu təlatümün əsas səbəbi məktəbin pedaqoji şurasının məktəbdən altıncı sinif şagirdinin «… açıq fikir söyləməsi» üstündə xaric olunması idi. Həmin şagird bütün sinif adından tarix müəllimi Mironoviçə etiraz edərək bildirib ki, onun dərs deməsi sinfi qane etmir. Çünki Mironoviç «xalqların həyatını öyrənərkən ümumi sözlər söyləyir və heç bir dəqiq şərh və izahlar verməyi bacarmır».

6-cı sinif şagirdləri xaric olunmuş sinif yoldaşlarının müdafiəsinə qalxaraq, onun məktəbdə saxlanılması tələbini irəli sürdülər. Pedaqoji Şura onların tələblərini yerinə yetirməkdən imtina etdikdə 6-cı sinif şagirdləri cavab olaraq üsyan etdilər. Onlara 4 və 5-ci sinif şagirdləri, qadın gimnaziyasının 5, 6 və 7-ci sinif şagirdləri, eləcə də bağçılıq, üzümçülük və tərəvəzçilik məktəbinin şagirdləri də qoşuldular. Qızlar gimnaziyasının pedaqoji şurasının sədri Qafqaz tədris korpusunun hamisinə bu haqqda belə məlumat vermişdir: «25 noyabrda realnı məktəbinin şagirdləri Qızlar gimnaziyasına gələrək V-VI-VII siniflərdə dərsin kəsilməsinə nail oldular. Bütün şagirdlərin tələbi bir idi: xaric olunmuş şagird geri qaytarılsın, belə ki, şagirdin açıq fikir söyləməsinə görə xaric olunması haqsızlıqdır».

«Şagirdlərin üsyanı davam etdiyinə» görə realnı məktəbinin pedaqoji şurasının təcili iclası çağırıldı. Şəhər başçısının iclasa gəlmiş köməkçisi Həmid bəy Vəkilov bildirdi ki, «üsyan etmiş gənclərin etirazı o qədər güclüdür ki, onlar üsyanı sabah da davam etdirəcəklərini bildirmişlər. Bu üsyan silahlanmış qüvvə tərəfindən dağıdılacaqdır». Realnı məktəbinin pedaqoji şurası üsyanın təşkilatçısı kimi bütün 6-cı sinif şagirdlərinin məktəbdən xaric olunması qərarını verdi.

Üsyan yatırıldı.

1906-cı ilin noyabr-dekabr aylarında «Bakı» qəzetinin səhifələrində bu barədə məqalələr çap olunmuşdu.

Birinci dünya müharibəsi (1914-1918) – dünyanın yenidən bölüşdürülməsi uğrunda iki hərbi-

siyasi blok arasında başlanan müharibə idi.

Bu müharibəyə Yaponiyadan Amerikaya qədər 38 dövlət cəlb olunmuşdu. 29 milyon əsgər və zabit Avropada, Cənubi Qafqazda, Mesopotamiyada, Suriya və Fələstinin şərq sərhədlərində gedən döyüşlərdə iştirak etmişdi. Osmanlı Türkiyəsinin bu müharibədə Almaniya-Avstriya bloku tərəfində iştirak etməsi Qafqaz cəbhəsini yaratdı (16 oktyabr 1914).

Müharibə dövründə Dərbənd yaralılara tibbi yardım göstərmə mərkəzinə çevrilmişdi. Burada 5 hərbi hospital, müharibədən zərər çəkmişlərə kömək göstərmək üçün Qafqaz komitəsi şöbəsi və Qırmızı Xaç şöbəsi açılmışdı.

1917-ci il Fevral inqilabı. 1917-ci il fevralın 23-27-də Rusiyada çarı devirən burjua-demokratik inqilabı baş verdi. Dövlət Duması hakimiyyətin mərkəzi orqanı kimi Müvəqqəti hökumət yaratdı. Rusiya sosial-demokrat partiyasının bolşeviklər fraksiyasının mərkəzi komitəsi Müvəqqəti burjua hökumətinin əksinə öz hakimiyyət orqanını – fəhlə və əsgər deputatları Şurasını yaratdı. Ölkədə ikihakimiyyətlik yarandı. 1917-ci il martın 2-də dəmiryolçular Dərbənd şəhərində yeni hakimiyyət orqanı kimi fəhlə deputatları Şurası yaratdılar. Maşinist Metreveli (menşevik) Şuranın sədri seçildi. Martın 6-da imperialist müharibəsi dövründən (1914-1916) şəhərdə yerləşən 281 saylı Ufimsk könüllülər dəstəsinin və 262 saylı Orenburq bölüyünün əsgər və zabitləri, o cümlədən hərbi milis komandalarından (1600 nəfərdən çox) ibarət əsgər və zabitlər Şurasını yaratdılar. Bir neçə gündən sonra hər iki Şura fəhlə və hərbi deputatlar Şurasında birləşdilər və dəmiryol stansiyasının rəisi menşevik Klinenberq Şuranın sədri seçildi.

Fəhlə və hərbi deputatlar Şurası Petrovsk (Mahaçqala) Şurası ilə əlaqə yaratdı, şəhər polisini ləğv etdi, «əməksevər elementlərdən» «xalq milisi» yaratdı və «Известия Совета Дербентского района» qəzetini təsis etdi.

Şura üzvlərinin əksəriyyəti menşevik və eserlər partiyasının numayəndələrindən ibarət idi. Onlar Müvəqqəti hökuməti müdafiə edirdilər.

Fəhlə və hərbi deputatlar Şurası ilə yanaşı, şəhərdə Müvəqqəti hökümətin yerli orqanı kimi mülki İcraiyyə Komitəsi yaradıldı. Mülki İcraiyyə Komitəsinə Dərbənd qarnizonunun rəisi podpolkovnik Malışevski başçılıq edirdi. İcraiyyə Komitəsi bilavasitə Dağıstan vilayət İcraiyyə Komitəsinə tabe olurdu və Dərbənd Şurası ilə hesablaşmırdı.

Göstərilən hakimiyyət orqanları ilə paralel şəhərdə 1916-cı ildə seçilmiş şəhər müvəkkil olunmuşların İclası fəaliyyət göstərməkdə davam edirdi və onun İcraiyyə orqanına şəhər başçısı Həmid bəy Vəkilov başçılıq edirdi.

Şəhərdə hakimiyyət uğrunda mübarizədə bolşeviklərin yerli təşkilatları, menşeviklər, sağ eserlər, müsəlmanların Milli komitəsi, kadetlər, yəhudilərin Milli komitəsi, «İttihad ül-İslam» klerikal-müsəlman təşkilatı, «Musavat» Azərbaycan partiyası, pantürkçülər, pan-islamçılar və s. iştirak edirdi.

Şəhərdəki belə vəziyyət 1917-ci il Oktyabr inqilabınadək davam etmişdir.

Dərbənd və Oktyabr hərbi çevrilişi. Rusiyada 1917-ci il oktyabr ayının 25-də (7 noyabr) baş vermiş hərbi çevriliş nəticəsində Müvəqqəti hökümət devrildi və V.İ.Leninin rəhbərliyi altında «proletariat diktaturası» yaradıldı.

Petroqradda baş vermiş mühüm hərbi-siyasi hadisələrdən dərhal sonra, 1917-ci il oktyabrın 28-də bolşeviklərin tələbi ilə Dərbənddə fəhlə və hərbi deputatlar Şurasına ümumxalq seçkisi keçirildi. Yeni seçilmiş Şuranın ilk iclasında (27 oktyabr) praporşik Abramoviç Şuranın sədri, parovoz sürücüsü Metreveli (menşevik) və Rabinoviç (eser) sədr müavini seçildilər. Bunlardan başqa, Şuranın Rəyasət Heyətinə eserlər İvanovski, Topçilin, Zazulin, Zubak-Kardaş və daşnak Martirosov seçilmişdilər. Bolşeviklərdən seçilən deputatlar az olduqları üçün onlar Şuranın tərkibinə daxil edilməmişdilər.



Şəhər meydanında bolşeviklərin nümayişi (1918)

Oktyabrın 28-də yaranmış vəziyəti müzakirə

etmək və qəbul edilən qərarları xalqa çatdırmaq üçün Şura tərəfindən ümümşəhər mitinqi elan olunmuşdur. Lakin seçkilərin nəticələrindən narazı olan bolşeviklər «menşeviklərin, eserlərin, daşnakların, sionistlərin, musavatın və digər əksinqilabçı elementlərin xalqa qarşı yönəlmiş mövqelərini ifşa etmək üçün» bu mitinqdən istifadə edərək, xalqı inandırmağa çalışırdılar ki, onlara siyasi azadlığı və sosial rifahı yalnız bolşeviklərin başçılıq etdiyi sovet hakimiyyəti verə bilər. Hakimiyyətə gəlməyin başqa yolunu tapmayan bolşeviklər xalq tərəfindən seçilmiş fəhlə və hərbi deputatlar Şurasına qarşı «Dərbənd şəhərinin hərbi inqilab komitəsini» və İ.Maskinin komandanlığı altında 100 döyüşçüdən ibarət Qırmızı qvardiya silahlı dəstəsi yaratdılar.

Bolşeviklərin bu hərəkəti Şura deputatlarının narazılığına səbəb oldu və onlar «bolşeviklərin qiyamını» yatırmağı tələb etdilər. Lakin qarnizon rəisi podpolkovnik Malışevskinin qarnizonu bolşeviklərə qarşı qaldırmaq cəhdi baş tutmadı. Əsgərlər bitərəf olduqlarını elan etdilər.

Şəhərdə yenidən ikihakimiyyətlilik yarandı. Bu, bolşevikləri qane etmirdi. Silahlı dəstəyə arxalanan bolşeviklər bildirdilər ki, xalq tərəfindən seçilmiş fəhlə və hərbi deputatlar Şurası 2-ci Ümumrusiya Şurası qurultayının qərarlarını tanımadığı və Mərkəzi Xalq Komissarları Şurasının dekretlərinə tabe olmadığı üçün hakimiyyətin səlahiyyəti olmayan orqanı hesab edirlər. Bolşevik deputatların ultimatumunu yerinə yetirməkdən imtina edən Şura üzvləri iclas zalını tərk etdilər. Bir neçə gündən sonra bolşeviklər Qırmızı qvardiya dəstəsinin köməyi ilə fəhlə və hərbi deputatlar Şurasının üzvlərini qovdular və yeni seçkilərin keçirilməsini elan etdilər.

Bütün partiya və təşkilatlar bolşeviklərin 1917-ci il noyabrın 30-da Qırmızı qvardiya dəstəsinin köməyi ilə keçirdikləri seçkiləri boykot etmələrinə baxmayaraq, seçkilərin baş tutduğu elan olundu. Yeni seçilmiş Şurada bolşeviklər və onların tərəfdarları üstünlük təşkil edirdi. Yeni Şuranın birinci iclasında (1 dekabr 1917-ci il) Y.Rabinoviç sədr, D.Puqin və A.İzmaylov (Bakı RSDF(b)P-nin nümayəndəsi) sədr müavini, İ.Maskin və İ.Kobyakov rəyasət heyətinin üzvləri seçilmişlər.

Yeni seçilmiş Şuranın bolşevik rəhbərləri silahlanmış Qırmızı qvardiya dəstəsinə arxalanaraq şəhərdə «inqilabi qaydalar» yaratmağa başladılar. Sahibkarlara məxsus müəssisələr millileşdirildi. Bolşeviklərin hərəkətindən narazı olanlar keçmiş şəhər başçısı Qasım bəy Heydərovun başçılıq etdiyi Müsəlman Milli Komitəsi təşkilatının və Dərbənd qarnizonunun rəisi podpolkovnik Malışevskinin başçılıq etdiyi mülki İcraiyyə Komitəsinin ətrafında birləşərək şəhərdə hərbi diktatura quran bolşeviklərin qanunsuz hərəkətlərinə ehtiraz olaraq Dağıstan Vilayət İcraiyyə Komitəsinə şikayət ərizəsi ilə müraciət etdilər. Buna cavab olaraq Şimali Qafqazın ərazisində fəaliyyət göstərən Tersk-Dağıstan hökuməti (dekabr 1917-mart 1918, başçısı M.A.Karaulov) Dərbəndə hərbi dəstə göndərdi.

1917-ci il dekabrın 31-də gecə Dağıstan süvari alayının 2-ci batalyonu Qırmızı qvardiya dəstəsinin müqavimətini dəf edərək şəhərə daxil oldu. Bolşeviklərin şəhər komitəsinin binası darmadağın edildi. Bolşevik təşkilatının rəhbərləri təqibdən qorxaraq şəhəri tərk etdilər, qalanları isə gizli fəaliyyət göstərməyə başladılar. Şəhərdə K.Heydərovun başçılığı ilə Müsəlman Milli Komitəsinin yerli təşkilatının hakimiyyəti quruldu.

10 yanvar 1918-ci ildə hərbi bölmə Vilayət İcraiyyə Komitəsinin qərarı ilə şəhərdən çıxarıldı. Bundan istifadə edən bolşeviklər açıq fəaliyyətə keçdilər. Şəhərə yenidən fəhlə və hərbi deputatlar bolşevik Şurası rəhbərlik etməyə başladı. Yenidən Qırmızı qvardiya dəstəsi yaranır və Nikolay Şuşakov onun komandiri təyin olunur.

2 aprel 1918-ci ildə general Lazarev və polkovnik Musalayevin komandanlığı altında imamın «müqəddəs alayları» Dərbənd Qırmızı qvardiyaçılarının müqavimətini qıraraq şəhərə daxil oldu. Fəhlə və Hərbi Deputatların şəhər Şurası və Hərbi İnqilab Komitəsi yenidən darmadağın olundu.

Lakin bir neçə gündən sonra V.Beşensovun komandanlığı altında «Kars» kanoner qayığının köməyi ilə Q.Sturuanın komandanlığı altında Bakı Qırmızı qvardiyaçılar dəstəsi (24 aprel 1918-ci il) Dərbəndə daxil oldu.

Şəhərdə işləmək üçün dəstə ilə birlikdə 26 təcrübəli təşviqatçı və partiya təşkilatçıları qrupu gəldi. K-M.Ağasiyev, Q.Məmmədov, Q.Kandelaki, Q.Nurməhəmmədov, Q.Tağızadə, A.Surinov, Səfərbəyov və b. bu qrupa daxil idilər. Bakı Sovetindən gələn nümayəndə və yerli bolşeviklərdən həmin gün (24 aprel) sovet hakimiyyətinin yeni təşkilatları yara-

dıldı: K.Torjinskinin başçılığı ilə Xalq Komissarları Soveti və V.Beşensovun başçılığı ilə şəhərin İnqilabi Müdafiə Komitəsi.

«Oktyabr inqilabının əldə etdiklərini qorumaq üçün» şəhərdə silahlı qüvvələr yaradılırdı. Yeni təşkil olunmuş hərbi komissarlıq vətəndaşların Qırmızı Orduya səfərbərliyi ilə məşğul olurdu. Artıq mayın sonunda şəhərdə piyada alayı yaradılmışdı.

«Şəhərdə inqilabi qayda-qanunu saxlamaq üçün» xalq milisi yaradıldı.

14 may 1918-ci ildə Bakı Xalq Komissarları Şurasının təklifi ilə yeni inqilab komitəsi yaradıldı və bu komitəyə V.Beşensov (sədr), K.Torjinski (hərbi işlər üzrə sədr köməkçisi), Q.Tağızadə (vətəndaş işləri üzrə sədr köməkçisi) rəhbərlik etdilər.

Bakı Xalq Komissarları Şurası 24 may 1918-ci ildə Q.Naneyşvilinin Dağıstan Vilayəti üzrə Fövqəladə Komissarı təyin olunması ilə əlaqədar Dərbəndin fövqəladə komissar vəzifəsini ləğv etdi. Hakimiyyətin yeni orqanı yarandığı gündən çoxsaylı müxalifət partiyaları və təşkilatları tərəfindən tənqid olunduğu üçün, inqilabi müdafiə komitəsi 31 may 1918-ci ildə şəhərdə yeni ümumxalq seçkilərinin keçirilməsi haqqında qərar qəbul etmək məcburiyyətində qaldı.

12 iyun 1918-ci ildə seçkilər keçirildi və 65 deputat seçildi. Deputatların çoxunu bolşeviklər və onun tərəfdarları təşkil edirdi. K.Torjinski fəhlə, kəndli və qırmızı ordu deputatları Şurasının icraiyyə komitəsinin sədri seçildi.

12 avqust 1918-ci ildə Bakı qırmızıqvardiyaçılar dəstəsindən olan daşnakların satqınlığı nəticəsində polkovnik L.Biçeraxovun dəstələri şəhərə döyüşsüz daxil oldu. L.Biçeraxov şəhərdə hərbi diktatura yaratdı.

6 oktyabr 1918-ci ildə Yusif İzzət Paşanın komandanlığı altında türk qoşunları Dərbəndi tutdular: «…biz bura işğal üçün gəlməmişik, biz bura Qafqaz müsəlmanlarının azadlığını qorumaq üçün gəlmişik».

Lakin 1918-ci il noyabrın ortalarında Osmanlı Türkiyəsindəki siyasi vəziyyətlə əlaqədar Türk qoşunları Dağıstandan geri çağırıldı.

1918-ci il dekabrın ortalarında admiral Tomson və polkovnik Roulandsonun komandanlığı altında 100 nəfərdən artıq ingilis dəstəsi şəhərə daxil oldu.

29 may 1919-cu ildə general Denikinin piyada və süvari dəstələri Dərbəndə daxil oldu. Qısa müddət ərzində şəhər güclü hərbi bazaya çevrildi. Denikin ordusunun qalası Cənubi Dağıstanda yerləşirdi. Burada 800 piyada süngüsü, 500 qılıncdan ibarət 3 süvari dəstə, Tersk plastun briqadası (200 süngü), Abşeron alayı (1200 süngü) yerləşirdi. Şəhərdə atışmalar, talanlar baş verirdi.

1919-cu ilin avqustunda Dağıstanda Denikinə qarşı ümumxalq üsyanı başlandı. Üsyançılara kömək məqsədi ilə Dərbənd istiqamətindən Bakıdan silah göndərilir və könünülər gəlirdi. Şimaldan Dərbənd istiqamətində Dargin dairəsinin 3 min nəfər, cənubdan Kyurin dairəsinin 6 min nəfər döyüşçüsündən ibarət qırmızı partizan dəstələri irəliləyirdi.

Sentyabrın 6-da partizanlar şəhərə hücuma keçdilər və ayın 20-də şəhərin yuxarı hissəsini – məhəllələri tutdular. Üsyançı dəstələr birləşərək yeni hərbi qurum – Dağıstan Azadlıq Ordusu (baş qərargahı Levaşı kəndində idi) yaratdılar.

Yerli hərbi kadrlar olmadığı üçün Dağıstan Azadlıq Ordusuna türk zabitləri Nuru Paşa (baş komandan), Rüfət bəy, Heydər bəy və s. rəhbərlik edirdilər. Dərbənd cəbhəsinə Kazım bəy komandanlıq edirdi. Üsyançıların daxilində türk zabitləri ilə bolşeviklər arasında ziddiyyətlər baş verirdi. Bolşeviklər Dağıstan Azadlıq Ordusuna başçılıq edən türkləri sıxışdırmağa çalışırdılar. Onlar hər bir cəbhədə inqilabi qərargah yaradaraq komandanlığı öz əllərinə aldılar. Dərbənd İnqilabi qərargahına A.Z.Dyakov, S.İ.Tımçuk, S.Dudarov, A.Akimov, T.Yüzbəyov daxil oldular.

60 min süngüdən və qılıncdan ibarət 11-ci Qızıl Ordunun xüsusi ekspedisiya korpusu üçyançıların köməyinə gəldi.

24 mart 1920-ci ildə Calqan kəndində Dərbənd İnqilabi qərargahının və RK(b)P-nin cəbhə partiya komitəsinin birləşmiş iclasında şəhərdən denikinçiləri qovmaq üçün böyük hücuma keçmək qərara alındı. Martın 25-də səhər saat 4-də başlanmış həlledici hücum denikinçilərin təslimi ilə başa çatdı.

Həmin gündən Dərbənddə Sovet hakimiyyəti quruldu.

1917–ci il Ərzincan barışığı – Əməliyyatların dayandırılması haqqında Osmanlı Türkiyəsi hökuməti ilə Zaqafqaziya Komissarlığı (ZK) nümayəndələri arasında dekabrın 5(18)-də Türkiyənin Ərzincan şəhərində imzalanmış saziş. Barışığın şərtlərinə görə onun maddələri sülh müqaviləsi bağlanana qədər

tərəflərin hər biri üçün məcburi idi. Sazişi pozan tərəflərdən biri hərbi əməliyyata başlamasını 14 gün əvvəldən bildirməli idi, əks halda, barışıq ümumi sülh müqaviləsi bağlananadək qüvvədə qalmalıydı. Döyüşən tərəflər arasında elə həmin gün demarkasiya xətti müəyyən edilməli, tərəflər öz ordularının strateji yerdəyişməsinə yol verməli və xüsusən, türk ordusu Qafqaz cəbhəsindən Mesopotamiyaya aparılmalı idi. Qeyd edilirdi ki, Rusiya ilə Mərkəz dövlətləri arasında ümumi barışıq sazişi imzalanacağı halda, onun maddələri Qafqaz cəbhəsi üçün də məcburi olmalıdır. Ərzincan barışığına əsasən Qara dənizdə vuruşan ölkələrin hərbi gəmiləri arasında hərbi əməliyyatlar da dayandırılırdı.

Osmanlı Baş komandanlığı Ərzincan barışığını Sovet Rusiyası ilə deyil, Zaqafqaziya Komissarlığı ilə imzalamaqla, dolayısı ilə onu Zaqafqaziya hökuməti kimi tanımış olurdu. Ərzincan barışıgından sonra Rusiya üçün Qafqaz cəbhəsi dağıldı, rus qoşunları işğal altında saxladıqları Şərqi Anadolu torpaqlarını tərk edərək, geri çəkilməyə başladı. Rusiya qoşunları geri çəkilərkən silahlarının xeyli hissəsini Azərbaycan və Anadolu türklərinə qarşı soyqırımı həyata keçirən erməni-daşnak quldur dəstələrinə verdilər.

Bax: 1. Hüseyn Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi. – B., 1992.

2. Azərbaycan Cümhuriyyəti (1918-1920). – B., 1998.

Zakaspi Hökuməti – *Oktyabr çevrilişindən* (1917) sonra Mərkəzi Asiyada yaradılmış hökumət. 1918-ci il iyulun 11-də Aşqabadda Zakaspi vilayətinin Müvəqqəti İcraiyyə Komitəsi – Zakaspi Müvəqqəti hökuməti təşkil edildi. Hökumətin sədri eser F.A.Funtikov seçildi. İyulun 21-də Zakaspi vilayəti ərazisində eser-menşevik tətil komitələrinin diktaturası qurulmuşdu. Zakaspi hökuməti sovet hakimiyyətinə və bolşeviklərə qarşı qəti mübarizə xətti yeridirdi. Zakaspi hökumətinin 1918-ci il avqustun 19-da İrandakı ingilis qüvvələrinin nümayəndəsi ilə bağladığı müqaviləyə əsasən bölgəyə ingilis-amerikan hərbçiləri yeridildi. Bu qüvvələrin yardımı ilə qırmızı ordu hissələri məğlubiyyətə uğradıldı, Mərvdə bolşeviklərin yaratdığı Türküstan Xalq Respublikası aradan qaldırıldı.

Zakaspi hökuməti Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilə münasibətlər qurmağa çalışırdı. Cümhuriyyət hökuməti 1919-cu il fevralın 12-də Zakaspi hökuməti ilə əlaqə yaradıb danışıqlara girmək barədə müvafiq nazirliklərə tapşırıq verdi. Həmin il aprelin 2-də Aşqabadda Azərbaycan konsulluğu açıldı. 1919-cu ilin yayında Zakaspi hökumətinin də Bakıda konsulluğu fəaliyyətə başladı.

1919-cu ilin oktyabrında qırmızı ordunun təcavüzü nəticəsində Zakaspi hökuməti süqut etdi. Onun Azərbaycan konsulluğu Denikin könüllü ordusunun Bakıdakı nümayəndəliyinə birləşdirildi. Zakaspi hökumətinin üzvləri bolşevik təqiblərindən yaxa qurtarmaq üçün İraqa və Əfqanıstana mühacirət etdilər.

Bax: 1. Иностранная военная интервенция и гражданская война в Средней Азии и Казахстане. Документы и материалы, т.1-2. Алма-Ата, 1963-1964.

2. Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы). Б., 1998.

Dərbənddə Sovet hakimiyyətinin ilk dekretləri. 1918-ci il yanvarın 4-də Dərbənd fəhlə, kəndli və qırmızı ordu deputatları Şurası «Rıbak» səhmdar cəmiyyətinin balıq sənayesini milliləşdirdi;

- 1918-ci il aprelin 27-də Dərbənd şəhər İnqilab Müdafiə Komitəsi qərara aldı: «…sovet qoşunları (Bakı qırmızı qvardiya dəstəsi, 24 aprel 1918-ci il) şəhərə daxil olan günü şəhərdən qaçmışların bütün daşınan və daşınmaz əmlakı sovet respublikasının mənafeyinə müsadirə edilsin»;

- 1918-ci il iyunun 12-də Dərbənd fəhlə, kəndli və qırmızı ordu deputatları Şurası şəhərin kənarında yerləşən bütün dəyirmanların milliləşdirməsi haqqında sərəncam qəbul etdi;

- 1918-ci il iyunun 14-də şəhərdə çörək qıtlığı yarandığı üçün və çörək alverinin qarşısını almaq məqsədilə Dərbənd fəhlə, kəndli və qırmızı ordu deputatları Şurası şəxsi adamlara, çörək məhsullarının topdan satışını qadağan etmək üçün dekret verdi;

- 1920-ci il aprelin 19-da Dərbənd şəhər İnqilab komitəsi konyak zavodlarının, neft anbarlarının milliləşdirilməsi və şəhər əhalisinin iqtisadi vəziyyətinin yaxşılaşdırılması tədbirləri üzrə sərəncam qəbul etdi.

Qafqaz İslam Ordusunun Dağıstan hərəkatı – 1918-ci il oktyabrın 1-dən başlayaraq noyabrın sonlarınadək *Qafqaz İslam Ordusu* türk hərbi hissi-

lərinin yerli könüllü dəstələri ilə birlikdə Dağıstanın şovinist biçeraxovçu rus qüvvələrindən təmizlənməsi üçün həyata keçirdiyi hərbi əməliyyat. Türkiyədən hərbi yardım alınması və bununla da bölgədəki milli azadlıq hərəkatının möhkəmləndirilməsi üçün Dağıstan nümayəndə heyəti hələ 1918-ci ilin aprel-may aylarında Trabzon, İstanbul və Batumda hərbi nazir *Ənvər Paşa* Osmanlı dövlətinin digər yuksək vəzifəli şəxsləri ilə görüşmüşdü. 1918-ci il mayın 11-də Şimali Qafqaz Cümhuriyyəti elan edildikdən sonra Türkiyənin hərbi yardımına ehtiyac xüsusilə aktuallaşmışdı. Çünki Dağıstanın müstəqilliyini tanımayan Sovet Rusiyasının hərbi qüvvələri Petrovsk-Port, Temirxan Şura, Dərbənd şəhərlərini, habelə Dərbənd-Petrovsk dəmir yol xəttini nəzarət altına ala bilmişdi. 1918-ci il avqustun ikinci yarısında isə Dağıstan ərazisi Azərbaycandan sıxışdırılmaqda olan biçeraxovçu hərbi qüvvələrin təcavüzünə məruz qaldı. Əvvəl Dərbənd, sonra isə Petrovsk-Port bu qüvvələrin əlinə keçdi.

Dağıstana real hərbi yardımın göstərilməsi üçün şərait, Bakı şəhəri Qafqaz İslam Ordusu tərəfindən azad edildikdən sonra yarandı. Dağıstanın azad edilməsi ilə həm də Azərbaycan Xalq Cümhuriyyətinin şimal sərhədlərinin təhlükəsizliyi təmin olunurdu. Qafqaz İslam Ordusunun komandanı *Nuru Paşa* oktyabrın 1-də 15-ci piyada tümeninə Dağıstana doğru hərəkət etmək əmri verdi. 15-ci tümənə və ona kömək edəcək Dağıstan könüllülərindən ibarət qüvvəyə Şimali Qafqaz Ordusu komandanı Yusif İzzət paşa başçılıq edirdi. Əslən çərkəz olan Yusif İzzət Paşa, həm də Şimali Qafqaz Cümhuriyyətində Osmanlı dövlətinin təmsilçisi idi. Ordunun qərargah rəisliyinə İsmayıl Haqqı bəy (Berkok) təyin edilmişdi.

Avqustun 29-da İstanbuldan Batuma gələn Yusif İzzət Paşa oradan Şimali Qafqaz Cümhuriyyətinin başçısı Əbdülməcid Çermoyevlə birlikdə oktyabrın 5-də qatarla Bakıya gəldi.

Əvvəlcə bir zirehli qatar, daha sonra 56-cı piyada alayı Dağıstana hərəkət etdi. Oktyabrın 5-də 38-ci piyada alayı da Dərbənd cəbhəsinə gəldi. Xaçmaz mühafizə dəstəsi də 15-ci piyada tümeninin sərəncamına verilmişdi. Oktyabrın 5-də 56-cı alayla Dəbənddəki Biçeraxov qüvvələri arasında qanlı döyüş oldu. Türklər 25 əsgər itirdilər, bir zabit və 28 sıravi isə yaralandı. Ertəsi gün 38-ci piyada alayı da döyüşə qoşuldu. Günortaya yaxın Dərbənd şəhəri bütünlüklə ələ keçirildi. 1918-ci il oktyabrın 13-də Şimali Qafqaz Cümhuriyyəti rəsmən elan olundu. Mərasimdə Əbdülməcid Çermoyev, Yusif İzzət Paşa və Nuru Paşa iştirak edirdilər.

Qafqaz İslam Ordusu hissələri oktyabrın 20-dən Petrovsk-Port istiqamətində hərəkətə başladılar. Biçeraxovun qüvvələri geri çəkilərək, şəhərin qapısı rolunu oynayan Tərki dağında müdafiə mövqeyi tutmuşdular. Oktyabrın 27-də Petrovsk-Port şəhəri cənub qərb tərəflərdən mühasirəyə alındı. Dağıstanın azad olunması uğrunda döyüşlərdə albay Akif bəyin komandanlıq etdiyi Azərbaycan alayı da iştirak edirdi. Qafqaz İslam Ordusunun Dağıstan hərəkatı zamanı Türkiyədə gərgin siyasi hadisələr cərəyan edirdi. Hələ oktyabrın 8-də «İttihad və Tərəqqi» partiyası iqtidarı istefa vermiş, Əhməd İzzət Paşanın başçılığı ilə yeni hökumət təşkil olunmuşdu. Bu hökumət oktyabrın 1-də Antanta nümayəndələri ilə *Mudros barışığını (1918)* imzalamaq məcburiyyətində qalmışdı. Bununla əlaqədar yeni hökumət Cənubi Qafqazdakı və Dağıstandakı qüvvələrin Türkiyəyə geri çəkilməsi haqqında göstəriş verdi. Lakin Nuru Paşa bu göstərişə əməl etməyərək Dağıstanda xilaskarlıq əməliyyatını davam etdirdi.

Tərki dağına hücum noyabrın 5-də sübh tezdən başlandı. Müdafiə olunanlara iki hərbi gəmi də yardım göstərirdi.Türk qüvvələri düşmənin sərt müqavimətini qıra-qıra bir-birinin ardınca taktiki əhəmiyyətli təpələri ələ keçirirdi. Hücum ayın 6-da davam etdirildi. Duruş gətirə bilməyən Biçeraxov qüvvələri şəhəri tərk edib qaçdılar. Beləliklə, Petrovsk-Port şəhəri də azad olundu. Bu şəhər uğrunda döyüşlərdə 113 türk əsgəri və 5 zabit şəhid olmuş, 318 sıravi əsgər və 10 zabit isə yaralanmışdı. Ümumiyyətlə, Dağıstan hərəkatında türklərdən 192 nəfər şəhid olmuş, 362 nəfər yaralanmış, 20 nəfər isə itkin düşmüşdü.

Türk hərbi qüvvələri Dağıstanda çox qala bilmədilər və Mudros barışığının tələblərinə uyğun olaraq noyabrın 26-da Petrovsk-Portdan Dərbənd də, oradan Bakıya çəkildilər, daha sonra isə Azərbaycanı tərk etdilər.

Mudros Barışığı 1918–ci il. Böyük Britaniya (admiral Kaltorn) və Türkiyə (Rauf Hikmət və

Sədulla bəy) nümayəndələri arasında Türkiyənin birinci dünya müharibəsində (1914-18) məğlub olması haqqında barışıq sazişi oktyabrın 30-da İngiltərənin Mudros limanında (Egey dənizi, Lemnos adası) dayanmış «Aqamemnon» kreyserində imzalanmışdır. Bu saziş İngiltərənin diktəsi ilə hazırlanmışdı. Mudros barışığının şərtləri türk ordusunun danışıqsız təslim olmasını, Antanta dövlətləri silahlı qüvvələrinin Qara dəniz boğazlarını tutmasını, onların hərbi gəmilərinin boğazlardan sərbəst gedişgəlişinin təmin edilməsini, Türkiyə hərbi hissələrinin İrandan, Kilikiyadan, Cənubi Qafqazdan, o cümlədən Azərbaycandan və Dağıstandan çıxarılmasını, habelə «fövqəladə vəziyyət yaranarsa», Türkiyənin bütün strateji məntəqələrinin Antanta qoşunları tərəfindən işğalını nəzərdə tuturdu. Barışıq sazişinin 6 və 9-cu maddələrinə əsasən, Şimali Osmanlı Türkiyəsi özünün bütün hərbi donanmasını, gəmi təmiri emalatxanalarını və hərbi-dəniz cəbhəxanalarını müttəfiqlərin ixtiyarına verməli idi. Mudros barışığının 11-ci maddəsinə əsasən, Şimali Azərbaycan İngiltərənin nüfuz dairəsi elan edilir, 15-ci maddəyə əsasən isə Azərbaycanın yolları və neft mənbələri ingilis komandanlığının ixtiyarına keçir, Bakının işğalına Türkiyənin etiraz etməməsi tələb olunurdu. Saziş imzalanmazdan əvvəl oktyabrın 27-də Türkiyənin yeni xarici işlər naziri Nəbi bəyin qəbulunda olan Əlimərdan bəy Topçubaşov qarşıdakı Vyana və Berlin səfərini dayandırıb Antanta nümayəndələri ilə sülh danışıqları aparılan Lemnos (Sakkız) adasına getmək istədiyini bildirmişdi. Lakin nazir gözləmək lazım olduğunu söyləmişdi. Barışığın 24-cü maddəsinə görə Türkiyənin «altı erməni vilayətindən» hər hansı birində qarışıqlıq, iğtişaş baş verərsə, müttəfiqlər oranı tutmaq ixtiyarına malik idilər. Azərbaycan hökuməti və onun Osmanlı dövlətində olan diplomatik nümayəndəsi Mudros barışığının Azərbaycana aid ağır şərtlərinə biganə qalmadı. Noyabrın 3-də Mudros barışığının şərtləri rəsmi şəkildə elan edildi. Azərbaycanın fövqəladə səlahiyyətli nümayəndəsi həmin gün Rauf bəylə danışıqlarda Azərbaycan nümayəndəsinin iştirakı olmadan Bakı və Azərbaycan dəmir yolu haqqında Mudros barışığına bəndlər daxil edilməsinə öz etirazını bildirdi. Noyabrın 4-də Ə.Topçubaşov Mudros barışığının Azərbaycana aid hissəsi ilə bağlı Osmanlı hökumətinin xarici işlər nazirinin müavini Rəşad Hikmət bəyə etiraz notası verdi. Notada deyilirdi ki, Osmanlı hökumətinin Azərbaycan Xalq Cümhuriyyətini tanımasına baxmayaraq, Cümhuriyyətin paytaxtı Bakı şəhəri haqqında maddənin Mudros barışığına daxil edilməsi beynəlxalq hüquq və normalarına zidd olub, Azərbaycanın ingilislər tərəfindən işğal olunmasının asanlaşdırılmasına xidmət edir. Notada qeyd edilirdi ki, barışığın Qafqaza və xüsusən Azərbaycana aid olan bəzi maddələrinin Azərbaycan hökumətinə aydınlaşdırılması yaxşı olardı. Mudros barışığının Transqafqaza aid olan 15-ci maddəsi ilə bağlı notada göstərilirdi ki, Azərbaycan Cümhuriyyətinin dəmir yolları heç bir halda bu maddənin subyekti ola bilməz. Notanın sonunda bildirilirdi ki, Azərbaycan hökuməti Mudros barışığında Cümhuriyyətin mənafeyinə toxunan məsələlərlə bağlı birbaşa, yaxud Osmanlı hökumətinin vasitəçiliyilə danışıqlar aparılmasını zəruri hesab edir.

Mudros barışığının Azərbaycana aid maddələrinə görə narazı qalmasına baxmayaraq, Azərbaycan xalqı vaxtilə türk ordusunu böyük hərarətlə qarşıladığı kimi, dünya müharibəsində məğlub dövlətlər arasında olmasından ehtiyat etməyərək, onu dərin hörmət və ehtiramla yola saldı. Mudros barışığı təkcə Osmanlı imperiyasının varlığına son qoymur, eyni zamanda, Türkiyənin müstəqil dövlət kimi yaşamasını da təhlükə altına alırdı. Mudros barışığı imzalandıqdan az sonra Antanta qoşunlarının Türkiyəni işğal etməyə başlaması (noyabrın 9-da ingilis desant qoşunlarının Dardanel sahilindəki limanları tutması, noyabrın 13-də isə 10 min nəfərədək ingilis qoşununun fransız və italyan qoşunlarının köməyi ilə İstanbuldakı hərbi qışlaları və bir çox yaşayış binalarını tutması və s.) onların məhz bu niyyətindən xəbər verirdi. Türk xalqının milli azadlıq mübarizəsi (1918-23-cü illər) və dünyanın mütərəqqi ictimaiyyətinin həmrəyliyi Mudros barışığı şərtlərinin həyata keçirilməsinə yol vermədi.

Bax: 1. Hüseynov Q.H. Atatürk dövründə Türkiyənin xarici siyasətinə dair. – Bakı, 1970;

2. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). – Bakı, 1993.

3. Yüceer N. Birinci Dünya savaşında Osmanlı ordusunun Azərbaycan və Dağıstan hərəkatı. – Ankara, 1996.

On beşinci firqə – Azərbaycan Xalq Cümhuriyyəti və Türkiyə dövlətləri arasındakı qarşılıqlı razılaşmaya əsasən, 1918-ci il sentyabrın əvvəlində hərbi yardım məqsədilə Azərbaycana gəlmiş və Bakının azad olunmasında fəal iştirak etmiş türk piyada diviziyasıdır.



On beşinci firqənin türk əsgərləri

Diviziya Osmanlı dövlətinin hərbi naziri Ənvər Paşanın əmrinə əsasən, Xəlil paşanın komandanlıq etdiyi şərq ordular qrupunun tərkibində olan 9-cu ordunun tabeliyindən alınaraq, *Qafqaz İslam Ordusuna* verildi. Azərbaycana yetişdikdən sonra onun tərkibində 38, 56 və 106-cı piyada alayları, habelə bir sıra topçu və digər yardımçı bölmələr, cəmi 157 zabit və 7636 əsgər olmalı idi. Azərbaycana daha əvvəl göndərilmiş 38-ci piyada alayı ölkə ərazisinə 1918-ci il iyulun 14-də daxil olmuşdu. On beşinci fırqənin Azərbaycana doğru hərəkətə başlamasına 1918-ci il avqustun 23-də əmr verildi. Firqə Qarakilsə – Qazax yolu ilə Azərbaycana çatmalı və sonra da qatar vasitəsilə Bakıya yetişməli idi. Firqənin qərargahı 1918-ci il sentyabrın 6-da Ağstafaya, 9-da isə Bakı ətrafına çatdı. Firqəyə yarbay Süleyman İzzət bəy komandirlik edirdi. Bu birləşmə Bakının şimalında yerləşdirildi. *Bakı əməliyyatı* (1920) başlamazdan əvvəl Qafqaz İslam Ordusu komandanının əmrilə onun tərkibində müəyyən dəyişikliklər edildi. 56-cı piyada alayı *Beşinci Qafqaz Firqəsi* (diviziya) komandirinin əməliyyat tabeliyinə verilərək Qurd qapısı istiqamətində yerləşdirildi. 106-cı piyada alayı isə Qafqaz İslam Ordusu komandanının ehtiyatını təşkil etdi. Bu hissələrin əvəzində isə 107-ci piyada türk alayı, 2-ci süvari türk alayı, Azərbaycan süvari alayları, Azərbaycan piyada bölmələri və könüllü taborları on beşinci firqəyə verildi. Ona Biləcəri məntəqəsinin şərq tərəfindən Bakıya doğru hücuma keçmək tapşırılmışdı. Hücum ərəfəsində 107-ci piyada alayı da firqə komandirinin tabeliyindən alınaraq ordu komandanının ehtiyatına verildi. Ancaq sentyabrın 14-də döyüşlərin gedişində 15-ci firqə cəbhəsində yaranan ağır vəziyyəti aradan qaldırmaq üçün 107-ci alay ordu komandanının ehtiyatından alınıb firqə komandirinin tabeliyinə qaytarıldı. Sentyabrın 15-də firqənin hissə və bölmələri hücumu uğurla davam etdirərək Bakının Qara şəhər rayonuna qədər irəlilədilər. Tümənin əsgər və zabitləri Bakının düşməndən azad olunmasında böyük şücaət və qəhrəmanlıqlar göstərdilər. Bakı əməliyyatı başa çatdırıldıqdan sonra 107-ci piyada alayı firqənin tabeliyindən çıxarıldı və əvəzində 56-cı alay ona qaytarıldı. 1918-ci il sentyabrın 22-də firqə bu tərkibdə Dağıstana doğru hərəkətə başladı. Orada uğurlu döyüşlər keçirən firqə Dağıstanda milli qüvvələrin hakimiyyətinin yaranmasına yardımçı oldu.

Mudros barışığının şərtlərinə əsasən, on beşinci firqə də Beşinci Qafqaz Firqəsi ilə birgə 1918-ci il noyabrın 2-ci yarısından etibarən Türkiyəyə geri çəkilməyə başladı.

Bax: 1. Yüceer N. Birinci Dünya savaşında Osmanlı ordusunun Azərbaycan və Dağıstan hərəkatı. – Ankara, 1996.

2. Süleymanov M. Qafqaz İslam ordusu və Azərbaycan. – Bakı, 1999.

Zaqafqaziya Konfransı üç Cənubi Qafqaz respublikası – Azərbaycan, Gürcüstan və Ermənistan arasında keçirilmiş konfransdır (1919, may). 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan sonra ölkənin xarici siyasəti qarşısında duran ciddi məsələlərdən biri qonşu dövlətlərlə mehriban əlaqələr yaratmaq, müəyyən məsələlərə münasibətdə Qafqaz həmrəyliyinə nail olmaq idi. Azərbaycan parlamentinin Dağıstan, Gürcüstan və Ermənistana göndərdiyi müraciətdə deyilirdi: «***Qafqaz elə bir vəziyyət qarşısındadır ki, bu ərazi üzərində qurulmuş olan cümhuriyyətlər müqabil dostluq və həmrəylik yapmadan yaşaya bilməzlər!***». Bütün Qafqazı hədələyən ağ və qırmızı Rusiya bu münasibətlərin yaradılmasını daha da zəruriləşdirirdi.

Dağlılar Respublikasının Denikinin Könüllü Ordusu tərəfindən işğal olunması Azərbaycan Xalq

Cümhuriyyətini və Gürcüstanı ciddi narahat edirdi. 1919-cu ilin yazında Şimali Qafqazda cərəyan edən hadisələr bu respublikaların özləri üçün də gözlənilməz nəticələr verə bilərdi. Məhz buna görə də 1919-cu ilin mayında çağırılmış Zaqafqaziya konfrasında bir çox məsələlərlə bərabər, Denikin təhlükəsi də müzakirə edildi. Konfransdakı erməni nümayəndələri Denikin könüllülərinə öz münasibətlərini birbaşa bildirməkdən yayındılar. Lakin şimaldan gələn təhlükə Azərbaycan Xalq Cümhuriyyəti və Gürcüstanı eyni dərəcədə narahat etdiyi üçün onlar bu məsələdə həmrəy olduqlarını bildirdilər. Fətəli Xan Xoyski konfransda çıxış edərək Zaqafqaziya İttifaqı Respublikası ərazisinin, xüsusən Dağıstanın Azərbaycan Xalq Cümhuriyyəti üçün bilavasitə təhlükə yaradan işğalına qarşı etiraz bildirməyi tələb etdi. Azərbaycan nümayəndəliyinin təkidi ilə konfrans Şimali Qafqazın işğalını öz müqəddəratını təyin etmiş xalqların ərazisinin Denikin Könüllü Ordusu tərəfindən işğalı kimi pisləyən qətnamə qəbul etdi. Qətnamədə bu qüvvələrin bütün Cənubi Qafqaz respublikalarının müstəqilliyinə bilavasitə təhlükə törətdiyi də qeyd olunurdu.

Ermənilərin mövqeyinə gəldikdə, bunun bir səbəbi onların sərhəd zolağından uzaqda yerləşməsi ilə bağlı idisə, digər səbəbi ermənilərlə Könüllü Ordu arasında gizli saziş olmasından irəli gəlirdi. Bu sazişə əsasən Könüllü Ordu Azərbaycana və Gürcüstana hücum edəcəyi halda, ermənilər onlara kömək göstərməli idilər. Ermənilər bu hücum zamanı Azərbaycana və Gürcüstana olan ərazi iddialarını da hərbi yolla reallaşdırmaq niyyətində idilər.

Bax: 1. Azərbaycan tarixi, 7 cilddə. – B., 2001;

2. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). – B., 1993.

Dərbənd şəhəri və Denikin ordusunun 1919-cu il hərəkatı. Şimali Azərbaycanın taleyi daha çox dünya səhnəsində baş verən hadisələrlə, ilk növbədə, Sovet Rusiyası ilə bağlı idi. O dövrdə Sovet Rusiyasının öz taleyi isə bu ölkədə hansı qüvvələrin qələbə çalmasından asılı idi. Bu reallığın dərk olunması azərbaycanlılar üçün belə bir sual ortaya çıxarırdı: vətəndaş müharibəsində iki tərəfdən hansı qüvvə onlar üçün daha az təhlükəli ola bilər?

Rusiyada bir-biri ilə düşmənçilik edən iki tərəfdən azərbaycanlılar üçün daha çox təhlükə törədən Cənubi Rusiyada general Anton Denikinin komandanlıq etdiyi Könüllülər Ordusu adlanan «Ağ qvardiya» idi. «Vahid və bölünməz Rusiya» uğrunda vuruşan mühafizəkar hərbçilər müqəddəratını təyin etmiş dövlətlərin suverenliyinə çətin ki hörmət bəsləyəydilər.

Petrovsk (indiki Mahaçqala) şəhərini tutan general Denikin ordusu cənuba doğru hərəkət edirdi. Dağlılar Respublikasının parlamenti və hökuməti özünü buraxmağa məcbur oldu. Azərbaycan Xalq Cümhuriyyəti ilə Sovet Rusiyası arasında bufer dövlət rolunu oynayan Dağlılar Respublikasının süqutu artıq Azərbaycan Xalq Cümhuriyyəti üçün birbaşa təhlükə idi, buna görə də Denikinin irəliləməsi ciddi təşviş doğururdu. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyi müttəfiq qoşunların komandanlığından Könüllülər Ordusu qoşun hissələrinin Dağıstandan çıxarılması üçün hər cür qəti və təxirəsalınmaz tədbirlər görülməsini tələb etmişdi.

İngilislərin general Denikini müdafiə etmələri siyasi gediş idi və onlar heç də Bakını tutmaq, Könüllülər Ordusuna yardım etmək fikrində deyildilər. Hələ 1919-cu ilin yanvarında Bakıdakı Böyük Britaniya qoşunlarının Baş komandanı U.Tomson Qafqaz dağları boyunca və Dağıstanın şimal hissəsindən keçən demarkasiya xəttini müəyyənləşdirmişdi. Bundan əlavə, martda ingilislər Bakının yaxınlığında yerləşmiş, Rusiya Xəzər Donanması adlandırılan hərbi birliyin tərksilah olunması haqqında fərman vermiş, general Prjevalski isə Azərbaycan ərazisini təcili tərk etmişdi. İngilislər Biçeraxovun dəstəsinin də tərksilah edilməsinə çalışırdılar, polkovnik özü isə təltif olunmaq bəhanəsilə İngiltərəyə dəvət edilmişdi.

Beləliklə, ingilis komandanlığı Denikinin cənub istiqamətində irəliləməsinə münasibətdə öz qətiyyətini büruzə verməyə çalışırdı. Lakin hadisələrin sonraki gedişi bunun A.Denikinin planlarına təsir göstərmədiyini təsdiqlədi. Bütün bunlar milli hökumətin Vətənin taleyi uğrunda narahatçılığını daha da artırırdı. Aydın olurdu ki, Bakı nefti ağqvardiyaçıların növbəti məqsədidir.

Hökumət yeni diplomatik tədbirlərə əl atdı, o cümlədən general Şatelvorq Bakıdakı İtaliya nümayəndəliyi ilə danışıqlar apardı. Könüllülər Ordusunun ingilis qərargahı yanındakı nümayəndəsi general Lazarev hökuməti əmin etdi ki, «Denikin ordusu Azərbaycana münasibətdə heç bir təcavüzə əl atmaq

fikrində deyil və onun müstəqilliyini tanıyır». Lakin bu, Denikinin əsil niyyətlərini yaxşı təsəvvür edən hökuməti sakitləşdirə bilməzdi.

Denikinçilər tərəfindən Dərbəndin tutulması ingilis komandanlığının Azərbaycan Xalq Cümhuriyyəti ilə Denikin ordusu arasında qoyduğu demarkasiya xəttinin birbaşa pozulması demək idi.

1919-cu il mayın 26-da parlament öz iclasında Könüllülər Ordusu tərəfindən Petrovsk və Dərbəndin tutulması ilə baglı «Musavat» fraksiyasının sorğusunu, eyni zamanda, respublikanın müstəqilliyinin müdafiəsi üzrə tədbirləri müzakirə etdi. Bu məsələ ilə bağlı çıxış edən fraksiya lideri M.Ə.Rəsulzadə bildirdi ki, müstəqilliyimizi qorumaq zərurəti aydındır, çünki Dağıstan Rusiyanın Azərbaycana və yeni yaranan dövlətlərə giriş qapısıdır. Sorğuya cavabla çıxış edən baş nazir N.Yusifbəyli dövlət sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün hökumətin atdığı konkret addımlar haqqında danışdı.

Aydın oldu ki, Xarici İşlər Nazirliyi Könüllülər Ordusunun Dağıstanın hüdudlarından çıxarılması tələbi ilə ingilis komandanlığına nota göndərmiş, hökumətin sədri isə digər zəruri diplomatik tədbirlər görmüşdür. Parlament hökumətin həyata keçirdiyi bütün tədbirləri bəyəndi və ona yardım edəcəyini bildirdi.

Azərbaycan Xalq Cümhuriyyətinin ciddi təhlükə qarşısında dayandığı bir dövrdə parlamentin bütün fraksiyaları ölkənin müstəqilliyini qorumaq əzmində olduqlarını yekdil nümayiş etdirdilər. Denikin ordusunun Azərbaycan Xalq Cümhuriyyəti sərhədlərinə getdikcə yaxınlaşması onunla mübarizəni ölkənin ən başlıca ümummilli vəzifəsinə çevirdi. Denikin təhlükəsi «Bütün Qafqazda sülhün və sabitliyin qorunması missiyasını» öz üzərinə götürmüş Britaniya komandanlığı ilə aparılan diplomatik danışıqların əsas predmeti olmaqla bərabər, bütün Qafqazda təhlükəsizliyin təmin edilməsi sahəsində Cənubi Qafqaz respublikalarının birgə əməkdaşlığı üçün də real zəmin yaratdı.

1919-cu il mayın 29-da F.X.Xoyski Tiflisdə keçirilən Cənubi Qafqaz respublikalarıının konfransında çıxış edərək, Könüllülər Ordusunun Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikasının ərazisinin, xüsusən Dağıstanın Azərbaycan Xalq Cümhuriyyəti üçün bilavasitə təhlükə yaradan işğalına qarşı etiraz bildirməyi tələb etdi. Azərbaycan Xalq Cümhuriyyəti nümayəndəliyinin təkidi ilə konfrans Könüllülər Ordusu tərəfindən Şimali Qafqazın öz müqəddəratını təyin etmiş xalqlarının ərazisinin işğal edilməsini pisləyən qətnamə qəbul etdi. Qətnamədə həmçinin bu qüvvələrin bütün Cənubi Qafqaz respublikalarının müstəqilliyinə bilavasitə təhlükə törətdiyi qeyd olunurdu.

Paris sülh konfransının və neytral dövlətlərin diqqətini general Denikinin işgalçı niyyətlərinə və onun öz müqəddəratını təyin etmiş Qafqaz xalqlarının hüquqlarını pozmasına yönəldən Cənubi Qafqaz konfransı «ümumi təhlükəyə qarşı öz azadlığını və müstəqilliyini qorumaq naminə bütün Cənubi Qafqaz respublikalarının hərbi-diplomatik səylərini birləşdirməyi» qət etdi.

Mübarizəsini diplomatik səviyyədə davam etdirən Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti Denikinə böyük kömək göstərdiyi üçün ona ciddi təsiri olan ingilis komandanlığına dəfələrlə müraciət edərək, Könüllülər Ordusunun hərəkətlərinə qarşı öz etirazını bildirdi. Yeni demarkasiya xəttinin müəyyənləşdirilməyinə və Könüllülər Ordusunun göstərilən xətdən geri çəkilməsi haqqında ingilis komandanlığının qəti tələbinə baxmayaraq, general A.Denikinin dəstələri Dərbənd şəhərində və bütün Dağıstanda qalmaqda davam edirdi.

1919-cu il iyunun 3-də Yekaterinodarda Azərbaycan Xalq Cümhuriyyəti Kubandakı diplomatik nümayəndəsi C.Rüstəmbəyovla ingilis hərbi nümayəndəliyinin başçısı general Briqsin iştiraki ilə keçirilən görüşdə general A.Denikin Azərbaycan diplomatını əmin etməyə çalışdı ki, onun tərəfindən Dərbəndin və Petrovskın tutulması Həştərxan kommunistlərinə qarşı mübarizədən doğan strateji niyyətlərlə izah edilməlidir. Amma baş vermiş sonrakı hadisələr denikinçilərin vədlərinin yalan olduğunu, ingilis komandanlığının isə Könüllülər Ordusuna loyal münasibət bəslədiyini inandırıcı surətdə sübut etdi. İkili standart siyasəti yürüdən ingilis komandanlığı, bir tərəfdən, Azərbaycanın müstəqilliyinin tərəfdarı olduğunu bildirir, digər tərəfdən isə Könüllülər Ordusunu özünün müəyyənləşdirdiyi «Zaqatala-Qızılburun» demarkasiya xəttində dayandırmaq üçün heç bir ciddi cəhd göstərmirdi. General Denikinin Bakıdakı müttəfiq qoşunlarının komandanı general Şatelvorqa göndərdiyi teleqramda birbaşa göstərilirdi ki, onun qoşunları demarkasiya xəttini ingilis ko-

mandanlığının razılığı ilə keçiblər. O, öz ordusunun Dağıstanda olmasını bu bölgədə dinc həyatı bərpa etməyin, sərhədlərin möhkəmləndirilməsini isə bolşevizmin bütün təzahürlərinə qarşı mübarizənin vacibliyi ilə izah edirdi.

Ağqvardiyaçıların bu hərəkətlərinə ingilis komandanlığının razılıq verməsi faktı Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin ciddi təşvişinə səbəb oldu. Hökumətin başçısı N.Yusifbəylinin general Kori ilə görüşü oldu. General növbəti dəfə hökumət başçısını əmin etməyə çalışdı ki, Denikinlə hərbi əməliyyatlar olacağı təqdirdə ingilis komandanlığı Azərbaycan Xalq Cümhuriyyətini müdafiə edəcək. Lakin ingilis komandanlığının əvvəlki vədlərini də yerinə yetirmədiklərini nəzərə alan Azərbaycan hökuməti öz təhlükəsizliyinin ancaq vədlərlə təmin ediləcəyinin mümkünsüzlüyünü yaxşı başa düşürdü.

Artıq yeni demarkasiya xətti – Zaqatala-Qızılburun xətti haqqında danışan Denikin komandanlığının Azərbaycanla bağlı bəyanatları daha sərt xarakter daşımağa başlamışdı. Azərbaycan hökumətinə göndərdiyi teleqramda polkovnik Lazarev öz ordusunun əsas məqsədlərini belə açıqlamışdı: «Cənubi Rusiya silahlı qüvvələrinin komandanlığı Azərbaycanı Rusiyadan ayırmış hesab etmir. O, Rusiyada ali hakimiyyətin bərpa olunacağından sonra onun bu məsələni həll edəcəyinə qədər Azərbaycanın müstəqilliyini mümkün sayır və onu tanıyır». Beləliklə, keçmiş çar general və zabitləri Azərbaycan Xalq Cümhuriyyəti ərazilərini Rusiyasının tərkib hissəsi saymaqda davam edirdilər.

Təşviş doğuran bu səbəbləri nəzərə alan Azərbaycan Xalq Cümhuriyyəti parlamenti iyunun 5-də bir daha Denikin təhlükəsi ilə bağlı məsələnin müzakirəsinə qayıtmağa və hökumətdən ölkənin müdafiəsinə dair daha əməli və qəti tədbirlər görməyi tələb etməyə məcbur oldu. Deputatlar qarşısında çıxış edən baş nazir N.Yusifbəyli hökumətin gördüyü bütün tədbirlər haqqında onlara məlumat verdi. Hökuməti qətiyyətsizlikdə günahlandıran və ondan daha sərt tədbirlərə əl atmağı tələb edən sosialistlərdən başqa, parlamentin bütün fraksiyaları hökumətin bu istiqamətdə fəaliyyətini təqdirəlayiq hesab etdi.

N.Yusifbəylinin məruzəsi üzrə çıxışlarda bütün fraksiyalar ümumi düşmənə qarşı vahid cəbhədən çıxış etməyin vacibliyini vurğuladılar. Parlamentin qəbul etdiyi bəyanatda deyilirdi ki, Denikinin dövlətçiliyimiz əleyhinə yönəlmiş hərəkətləri kiçik xalqları əsarət altına alıb, azadlıqsevər demokratiyanı məhv etməyə çalışan keçmiş çar generallarının imperialist niyyətlərinin nəticəsidir. Parlament Azərbaycan Xalq Cümhuriyyətinin bütün vətəndaşlarını hökumətin ətrafında birləşməklə ordunun və hökumətin yaxınlaşmaqda olan düşmənə qarşı mübarizədə müvəffəqiyyət qazanmasına yardım etməyə çağırdı. Parlament ümidvar olduğunu bildirdi ki, Cənubi Qafqazın bütün xalqları özlərinin azad inkişafı və müstəqilliklərinin qorunması uğrunda apardıqları mübarizədə birləşəcəklər. O, öz müqəddəratlarını təyin etmiş xalqları müdafiə etmək üçün dünya xalqları və parlamentlərinə müraciət edərək, onları Denikinin yürüşünə qarşı öz etirazlarını bildirməyə çağırdı. Ölkənin müdafiəsi məqsədilə Azərbaycan parlamenti hökumətin tərkibində ölkəni və ya onun bir hissəsini fövqəladə hərbi və ya mühasirə şəraitində elan etməyə, könüllü dəstələr təşkil etməyə və s. səlahiyyəti olan xüsusi orqan təsis edilməsini məqsədəuyğun hesab etdi. 1919-cu il iyunun 14-də N.Yusifbəyli (sədr), A.Səfikürdski, X.Məlikaslanov, M.Y.Cəfərov və S.Mehmandarovdan ibarət yaradılmış Dövlət Müdafiə Komitəsi bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi və onun Denikinlə mübarizəyə yönəlmiş, hamı üçün məcburi olan qərarı baş nazirin imzası ilə dərc olundu.

Respublikada hərbi vəziyyətin elan olunması Denikin təhlükəsinə qarşı mübarizənin yeni mərhələsi oldu ki, bu da hökumətin daha qəti və konkret tədbirləri ilə səciyyələnirdi. Ancaq ingilislərin mövcüd şəraiti Denikinə güzəştlər edilməsi hesabına yüngülləşdirmək cəhdləri vəziyyəti daha da gərginləşdirirdi.

1919-cu il iyunun 11-də ingilislər Petrovskdan cənubda yeni demarkasiya xətti ilə müəyyənləşdirilən sərhədləri qeydə aldılar. Bu, onların Denikinin bütün Dağıstanı işğal etməsi faktı ilə prinsipcə razı olduqlarını göstərirdi. Nəticədə Könüllülər Ordusu Azərbaycan Xalq Cümhuriyyəti sərhədlərinə daha da yaxınlaşmış olurdu. Eyni zamanda, Böyük Britaniya su nəqliyyatının rəisi polkovnik Braunun sərəncamına uyğun olaraq, Xəzər dənizinin Petrovsk, Bakı və Krasnovodsk limanları ingilislərin idarəsi altında qalırdı.

Bütün bu faktlar ingilislərin Qafqazda ikili standart siyasəti yeritdiklərini bir daha təsdiq edir və

bütün əhalinin narazılığına səbəb olurdu.

1919-cu il iyunun 8-də Bakı şəhərinin Balaxanı, Zabrat, Ramana neft-mədən rayonları fəhlələrinin böyük mitinqi oldu və onlar hökumətdən Bakının və Azərbaycan sərhədlərinin müdafiə olunması üzrə təcili tədbirlər görülməsini tələb etdilər. Fəhlələrin qəbul etdikləri qətnamədə deyilirdi: «...Bakı limanından Denikinə mərmilər göndərilir və buna Zaqafqaziyada, o cümlədən də Bakıda ikiüzlü siyasət yeridən həyasız ingilis komandanlığı kömək edir».

İkinci demarkasiya xəttinə də Denikinin məhəl qoymaması Azərbaycan-Gürcüstan əməkdaşlığı üçün görülən tədbirləri daha da sürətləndirdi və hər iki respublika öz aralarında hərbi müqavilə bağlamağı qərara aldılar. Bu barədə Ermənistan hökumətinə də müraciət edildi. Lakin öz qonsularına qarşı Denikinlə gizli sazişə girmiş Ermənistan hökuməti müxtəlif bəhanələrlə iyun ayının 16-da Denikin təhlükəsinə qarşı Azərbaycan Xalq Cümhuriyyəti ilə Gürcüstan arasında imzalanan hərbi-müdafiə paktına qoşulmadı. Həmin pakta görə, Azərbaycan Xalq Cümhuriyyətinin və Gürcüstanın müstəqilliyi və ərazi bütövlüyünə qarşı hər hansı dövlət tərəfindən təcavüz olduğu təqdirdə müqavilədə olan tərəflər üç il müddətində bir-birinə hərbi yardım göstərməyə borclu idilər.

Əvvəlcə ingilis komandanlığının Azərbaycan Xalq Cümhuriyyəti-Gürcüstan hərbi-müdafiə paktına münasibəti mənfi idi. Lakin sonralar bu münasibət dəyişildi. Paris sülh konfransına göndərilən məlumatda deyilirdi ki, ingilis komandanlığı imzalanmış hərbi sazişi Cənubi Qafqazın birliyi üçün başlıca təminat hesab edir.

1919-cu il avqustun 4-də Azərbaycan Xalq Cümhuriyyəti -Gürcüstan sərhədləri boyunca üçüncü demarkasiya xətti müəyyənləşdirildi. Yeni xəttə görə, Dağıstan tamamilə Könüllü Ordunun nəzarəti altında qaldı. General Q.Korinin N.Yusifbəyliyə 1919-cu il 4 avqust tarixli məktubunda yeni demarkasiya xəttinin hüdudları göstərilir və müvafiq coğrafi xəritə təqdim edilirdi. Böyük Britaniya hökumətinin Q.Koriyə teleqramındakı əvvəlki xəbərdarlıq təkrar olunurdu. Cənubi Qafqaz respublikaları Könüllü Ordu üzərinə hər hansı həmlədən çəkinməli, general Denikinə kömək göstərməli, Xəzər donanmasını yanacaq və s. ilə təchiz etməli idilər. Məktubda göstərilirdi ki, bu şərtlərə əməl edilməməsi, Könüllü Ordunun demarkasiya xəttindən şimalda qalmasına Böyük Britaniya zəmanətini mümkünsüz edir. Cənubi Qafqaza Çar Rusiyasının tərkib hissəsi kimi baxan Denikin taktiki baxımdan yerli hökumətlərin mövcudluğunu müvəqqəti olaraq qəbul edirdi. İngilis qoşunları Azərbaycanı tərk edəndən sonra Böyük Britaniyanın Cənubi Qafqaz respublikalarındakı diplomatik missiyasının əsas vəzifələrindən biri bu respublikalarla Könüllü Ordu arasındakı demarkasiya xəttinə əməl olunmasına nəzarət etmək idi.

Paris konfransında iştirak edən Azərbaycan, Xalq Cümhuriyyəti Gürcüstan və Daglılar Respublikası nümayəndələri Avropa hökumətlərini, Antanta Ali Şurasının üzvlərini inandırmağa calışırdılar ki, Cənubi Qafqazda Könüllülər Ordusunun yolunu bağlamaq lazımdır. Onların Ali Şuraya təqdim etdiyi bəyanatda göstərilirdi ki, müttəfiqlər tərəfindən müdafiə olunan Könüllülər Ordusuna bildirilməlidir ki, o, Qafqaz xalqları ilə mübarizə aparmaq üçün deyil, bolşevizmə qarsı mübarizə aparmaq üçün yaradılmışdır. Ona görə də bəyanatda təklif edilirdi ki, Qafqaz respublikalarının hüquqlarına hörmətlə yanaşılması və işğal edilmiş ərazilərdən çıxmaları Könüllülər Ordusundan tələb edilməlidir.

Beleliklə, bütün Qafqaz xalqlarının azadlıq və müstəqilliyinə qarşı Şimaldan gələn təhlükə ilə mübarizəni təşkil etmək istiqamətində Azərbaycan Xalq Cümhuriyyəti və Gürcüstan hökumətlərinin birgə səyləri hərbi müdafiə paktının bağlanması ilə başa çatıb öz bəhrəsini verdi. Dost Azərbaycan və gürcü xalqları bütün dünyaya sübut etdilər ki, öz hüquqalarını birgə müdafiə etməyə hazırdırlar.

Bax: 1. Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). – Bakı: «Elm», 2008, səh. 380, 386, 401-407.

2. Гусейнов Г.Б. Краткая энциклопедия города Дербента. – Махачкала, 2005.



Quba Hərbi Dəstəsi – Azərbaycan Xalq Cümhuriyyəti dövründə şimaldan gözlənilən Denikin təcavüzünə qarşı 1919-cu ilin noyabrında yaradılmış taktiki

hərbi qrup Xaçmaz dəstəsinin bazasında təşkil edildiyindən, həmin dəstənin komandiri polkovnik Şirin bəy Kəsəmənli Quba dəstəsinin də komandiri vəzifəsində saxlanıldı. Quba qəzasındakı bütün hərbi hissə və bölmələr Ş.Kəsəmənliyə tabe etdirildi. Quba dəstəsinin qərargahı Qusara köçürüldü və Ş.Kəsəmənli, eyni zamanda, Qusar qarnizonunun rəisi vəzifəsini də öz üzərinə götürdü.

Quba dəstəsi şimal sərhədi boyunca müdafiə mövqelərini möhkəmləndirməklə bərabər, kəşfiyyat işləri də aparmalı, Denikin qüvvələrinin Dağıstan ərazisindəki yerdəyişmələrini izləməli, toplanılan məlumatları Bakıya göndərməklə yanaşı, zəruri hallarda vəziyyətə uyğun qərarlar qəbul etməli idi.

1919-cu il dekabrın 4-də Ş.Kəsəmənli 2-ci piyada diviziyasının komandir müavini təyin edilməsi ilə əlaqədar Quba dəstəsinin komandiri vəzifəsindən azad edildi və bu vəzifəyə süvari diviziyasının komandiri general-mayor Teymur bəy *Novruzov* təsdiq olundu. Ancaq bir neçə gündən sonra onun da yalnız birbaşa vəzifəsinin icrası ilə məşğul olması məqsədəuyğun bilindi, dəstəyə komandirlik isə 2-ci piyada diviziyasının komandiri vəzifəsinin icraçısı general-mayor Makeyevə həvalə olundu.

Denikin təcavüzü təhlükəsinin sovuşması ilə əlaqədar 1919-cu il dekabrın 31-də Quba dəstəsi ləğv edildi.

Bax: Süleymanov M. Azərbaycan ordusu (1918-1920). – Bakı, 1998.

Genosid (yün. genos – nəsil, soy və lat. caedere – öldürmək) – 1) bütöv əhali qruplarının, etnosların irqi, milli, etnik, yaxud dini əlamətlərə görə tamamilə və ya qismən məhv edilməsi, soyqırımı. Müasir beynəlxalq hüquqla (BMT-nin 1948-ci il Konvensiyası və s.) genosidə beynəlxalq cinayət kimi baxılır; 2) XIX-XX əsrlərdə erməni millətçiləri və daşnak terrorçu quldur dəstələri Şimali, Cənubi və Qərbi Azərbaycanda (indiki Ermənistan ərazisində) azərbaycanlılara, Şərqi Anadoluda isə türklərə qarşı dəfələrlə kütləvi genosid cinayətləri törətmişlər (ətraflı məlumat üçün bax: *Soyqırımı*).

Qafqaz İslam Ordusunun xeyrinə dönüş yarandıqdan sonra iyulun 10-da Kürdəmir, 14-də Kərrar stansiyası düşməndən azad olundu. Göyçay qəzası azad edildikdən sonra burada dinc quruculuq işlərinə başlandı. Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 1919-cı il noyabrın 3-də Göyçay şəhərində realnı məktəbini açmaq üçün qanun qəbul etdi. Bu məqsədlə müvafiq maliyyə vəsaiti ayrıldı. 1920-ci il martın 4-də Göyçay şəhərinin seldən qorunması üçün qanun layihəsi hazırlandı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu nəzərdə tutulan bütün bu tədbirləri həyata keçirməyə imkan vermədi. Göyçay qəzası 1929-cu ildə Azərbaycan Sovet Sosialist Respublikasının rayonlaşdırılması ilə əlaqədar olaraq ləğv olundu.

Bax: 1. Азербайджанская Демократическая Республика (1918-1920). Законодательственные акты (сборник документов). – Б., 1998;

2. Suleymanov M. Azərbaycan ordusu (1918-1920). – B., 1998.

Dərbənd və «Dikaya Diviziya» - Birinci dünya müharibəsi (1914-18) dövründə Qafqazın müsəlman əhalisindən təşkil edilmiş süvari diviziya. Çar Rusiyasında müsəlman əhali, o cümlədən Qafqaz müsəlmanları kütləvi şəkildə hərbi xidmətə cəlb olunmurdular. Lakin müharibənin gedişində cəbhənin möhkəmləndirilməsi üçün Qafqaz müsəlmanlarının süvari qoşunda döyüşmək bacarıqlarını nəzərə alaraq, onlardan ibarət yeni atlı diviziyanın yaradılması qərara alındı.



«Dikaya diviziya»nın zabitləri
1917-ci ildə Peterburqda məsciddə

3-cü süvari korpusunun (Qərb cəbhəsi) tərkibində olan «Dikaya diviziya» (diviziyanın adı həm şəxsi heyətin şücaəti, həm də onların nizami döyüş hazırlığı keçməməsi ilə əlaqədar idi) 6 kiçik tərkibli alaydan – Dağıstan, Kabarda, Tatar (azərbaycanlı), Çeçen, İnquş və Çərkəz alaylarından ibarət idi. Diviziyanın tabeliyinə, həmçinin, Osetin piyada briqadası və 8-ci Don topçu divizionu verilmişdi. «Dikaya diviziya»nın komandiri general D.P.Baqration idi.

Diviziyanın zabit heyətini, əsasən, rus qvardiya zabitləri, həmçinin, yerli zadəgan nümayəndələri təşkil edirdi. «Dikiya diviziya»nın ümumi sayı 1350 süvaridən ibarət idi. Xüsusi hərbi hazırlıq görmədiyinə və könüllülük əsasında yaradıldığına görə,

diviziyanın şəxsi heyətinə müəyyən güzəştlər verilmişdi. Onların hər biri ayda 25 rubl məvacib alırdı. Rusiyada çar hakimiyyəti devrildikdən sonra korpusun siyasiləşdirilməsinə cəhd göstərilməsi, bir tərəfdən, bolşeviklərin, digər tərəfdən, Müvəqqəti hökumətin ondan öz siyasi maraqları üçün istifadə etməyə çalışması bu hərbi qurumun dağılmasına gətirib çıxartdı. Nəticədə 1917-ci ilin sonunda «Qafqazın yerli əhalisindən təşkil edilmiş atlı korpusu» ləğv edildi.

«Dikaya diviziya»nı Azərbaycanla bağlayan onun tərkibindəki «Tatar süvari alayı» idi. Alayın əsgərləri, əsasən, Qarabağ və Gəncəbasar bölgələrindən toplanılmışdı. Korpusun ləğvindən sonra alayın atlıları vətənə döndülər. Müsəlman korpusunun formalaşdırılmasına başlananda, tatar alayında xidmət etmiş süvarilərin böyük hissəsi könüllü şəkildə Gəncəyə toplaşdılar. Həmin süvarilərin əsasında yenidən «Tatar süvari alayı» təşkil olundu və Müsəlman korpusunun süvari briqadasının tərkibində müəyyən dəyişikliklərlə Cümhuriyyətin süqutuna qədər öz mövcudluğunu saxladı.

Bax: 1. Nəzirli Ş. Arxivlərin sirri açılır. – B., 1999;

2. Великая Октябрьская Социалистическая Революция. Энциклопедия. – М., 1987.

Dərbənd 1920-1930-cu illərdə. 1920-ci il martın 25-də şəhərdə sovet hakimiyyəti quruldu və bununla qədim Dərbəndin tarixində yeni dövr başlandı. 1921-ci il yanvarın 20-də Dağıstan Muxtar Sovet Respublikası yarandı. İnqilabın həyəcan dolu illərindən və vətəndaş müharibəsindən sonra şəhərdə sakitlik yarandı, əhali öz dağılmış evlərini bərpa etməyə başladı, üzüm bağlarında səliqə-səhman yaratdılar, əkinçiliklə məşğul olmağa başladılar. 1930-cu ildə yeni era – kənd təsərrüfatının kollektivləşdirilməsi başlandı. Fərdilərdən üzüm bağlarını, torpaq sahələrini, heyvanları alaraq kollektiv təsərrüfat yaratmağa başladılar. Bu təsərrüfatların üzvü yalnız əhalinin kasıb təbəqəsi ola bilərdi.

Bütün böyük binalar, müəssisələr müsadirə olunaraq şəhər Sovetinin mənzil-kommunal təsərrüfatına verilmişdi. Keçmiş böyük mülk, bağ, ticarət sahibləri öldürülür, Kolxoz hərəkatına müqavimət göstərənlər həbs edilərək Sibirə sürgün edilirdilər.

1929-cu ildə çörək kart sistemi ilə verilirdi. Bu sistem 1934-cü ildə ləğv olundu.

1930-cu ildə Dərbənddə «Torqsin» (ticarət sindikatı) adı altında yeni dövlət mağazası açıldı. Burada alver qızılla aparılırdı. Bu vasitə ilə əhalidən qızıl toplanılırdı.

Bax: Султанов С.А. Дербент: история возникновения и развития. – Дербент, 2003, с. 92-93.

Dərbənd 1941-1945-ci illər müharibəsi dövründə. Alman qoşunlarının hücumu xəbərini dərbəndlilər qəzəblə qarşıladılar. Şəhərin küçələrində, meydanlarında, fabrik və zavodların sexlərində çoxsaylı etiraz mitinqləri oldu. Bu mitinqlərdə dərbəndlilər bir nəfər kimi Vətənin müdafiəsinə hazır olduqlarını və son damla qanlarına qədər Vətəni, doğma od-ocaqlarını qoruyacaqlarını bildirdilər.

Müharibənin ilk günlərindən yüzlərlə dərbəndli şəhər hərbi komissarlığına onları könüllü olaraq qızıl ordu sıralarına daxil etməyi xahiş etdilər. Yalnız ilk beş gün ərzində minlərlə ərizə verilmişdi. Vətəndaş müharibəsinin qəhrəmanı Qara Qarayevin komandanlığı altında əlahiddə 6-cı Dağıstan süvari eskadronu yaradıldı və bu eskadron 416-cı Azərbaycan Milli diviziyasının tərkibində (sonralar Taqanroq divisiyası adlanırdı) Qafqazdan Berlinədək döyüş yolu keçmişdir.

345-ci Dağıstan atıcı diviziyası isə Qara dənizin hərbi bazası olan Sevastopolu müdafiə edirdi.

416-cı Milli Azərbaycan diviziyasının komandiri general-mayor Sızranov sonralar xatirələrində yazmışdı: «…Dağıstanlı döyüşçülər bizim sıramızda qəhrəmancasına vuruşurdular, düşmənə güclü zərbələr endirirdilər».

Qadınlar da kişilərdən geri qalmırdı. Onlar da cəbhəyə öz köməklərini göstərirdilər. 1942-ci ilin aprel günlərinin birində cəbhəyə qızlarla dolu bir eşelon yola düşdü. L.Paşeqorova, Y.Borşevskaya, Zoya və Mariya Lomaykovskaya bacıları, L.Yadayeva, L.Qonçarova, A.Məmmədova, A.Aşurova, M.Vyunova, V.Mixaylova, A.Kazantseva, İ.Tarasenko, M.Dadaşova və Dərbəndin yüzlərlə digər qızları döyüşlərlə bütün ölkədən keçdilər, Rumıniyanın, Bolqarıstanın, Polşanın azad olunmasında, düşmənin Berlində darmadağın edilməsində iştirak etdilər və bir çox döyüş orden və medalları ilə mükafatlandırıldılar.

Şəhər qarşısında qısa müddət ərzində hərbi sifarişləri yerinə yetirmək məsələsi qoyulmuşdu. Dərbəndlilər bu çətin işin öhdəsindən ləyaqətlə gəldilər.

Artıq 1941-ci ilin payızında şəhərin müəssisə-

lərində əsgər paltarı, qumbara üçün çantalar, atlar üçün yəhər və maskalanma xalatları, minaatanlar üçün üzlük, sapyor alətləri üçün xüsusi çantalar, yandırıcı qarışıq üçün butulka, dərman üçün ampula və üzüm balı, qoyun dərisindən gödəkçələr, qanı konservləşdirmək üçün banka, qumbara, sabun, su qabları və digər məhsullar hazırlanırdı. Şəhərlilər vaxtı nəzərə almadan gecə-gündüz işləyirdilər. Əsas yük qadınların çiyninə düşmüşdü. Onlar kişilərlə bərabər işləyirdilər.

Eyni zamanda qızıl ordu üçün ehtiyatların hazırlanması məqsədilə müdafiə işləri də aparılırdı. Şəhərdə xalq qoşun dəstələri, özünümüdafiə dəstələri, HHM və HHKM dəstələri, sanitar komandaları yaradılırdı. Bu dəstələrə təlim keçmək üçün «Müdafiə evi» yaradılmışdı.

Müharibənin ilk günlərindən şəhərdə əhalidən «Müdafiə fonduna» yığılan vəsaitləri qeydiyyata almaq üçün xüsusi komissiya yaradılmışdır. Şəhər ona xas olmayan daha bir işlə – əhali özünün istehsal etdiyi kənd təsərrüfatı məhsulları ilə təmin edilməsi ilə məşgul olurdu. Sənaye müəssisələrinin, idarələrin və təhsil müəssisələrinin nəzdində yardımçı təsərrüfatlar yaradılırdı.

Dərbəndlilər döyüş meydanlarında həmyerlilərinin qəhrəmanlıqları haqqındakı məlumatları xüsusi qürurla qəbul edirdilər. 1941-ci ili avqustun 29-da A.Tvardovski «Pravda» qəzetində dərbəndli Səid İbrahimov haqqında oçerk çap etmişdi. Bir gün əvvəl onun gözləri qarşısında həmyerlisi Boris Məlikov həlak oldu. O, öz dostunun qisasını düşməndən aldı. Növbəti hücum zamanı qorxmaz döyüşçü düşmənin 20 əsgərini və iki zabitini əsir götürdü.

Kerç yarımadasında gedən döyüşlərdə kapitan Ş.Əliyev qəhrəmancasına həlak oldu.

Kapitan N.Kalutskinin qaubitsa batareyası Leninqraddan Berlinədək döyüş yolu keçdi.

Sandomirsk plasdarmında topçu M.Surmaç qəhrəmanlıq göstərdi. Onun yoldaşı V.Qromakovski böyük şöhrət qazanmış təyyarəçi İ.Kojedubla bərabər düşmənə havadan ağır zərbələr endirirdi.

Reyxstaqa ilk hücüm edənlərdən biri mayor Ş.Abramovun batalyonu olmuşdur. Keniqsberqin alınmasında A.Rebnikovun batalyonu fərqlənmişdi. Belorusiyada, məşhur Pinsk meşələrində Nikolay Qordiyenkonun komandanlığı altında partizan dəstələri faşistlərə qan uddururdu. Başqa partizan dəstəsində Anya Yeletskaya qəhrəmancasına vuruşurdu…

Hər bir belə məlumat dərbəndliləri qəhrəmanlıqla işləməyə ruhlandırırdı. Onlar iclaslarda və mitinqlərdə yaxşı işləməyə və qızıl ordunun Hitler faşistlərini sona qədər məhv etməsinə kömək edəcəklərinə and içirdilər.

1941-ci ilin planını vaxtından əvvəl yerinə yetirən Dərbənd konserv zavodunun işçiləri cəbhəyə yazırdılar: «Əziz yoldaşlar! Biz həmişə, gecə də, gündüz də sizinləyik. Siz cəbhədə əldə silah düşmənlə döyüşürsünüz, biz isə burada, arxa cəbhədə, elə işləyirik ki, sizi lazımi şeylərlə təmin edək. «Hər şey cəbhə üçün» şüarını biz heç vaxt yaddan çıxarmırıq».

«Pravda» qəzeti arxa cəbhədən ön cəbhəyə gələn məktubların əhəmiyyəti haqqında 1942-ci ilin dekabrında yazırdı: «… Həmyerlilərin ön cəbhə və arxa cəbhə ilə yazışması – böyük işdir. Bu yazışmalar hər iki cəbhəyə çətin dəqiqələri dəf etməkdə, Vətən naminə qəhrəmanlıqlar göstərməkdə köməklik edir».

1942-ci ilin ortalarında Bakı neftinə və Yaxın Şərq neft regionuna can atan faşist ordusu Volqa, Don, Terek çaylarının sahillərinə gəlib çatmışdı.

Orconikidze və Mozdok ətrafında qanlı döyüşlər gedirdi.

Dövlət Müdafiə Komitəsinin 15 sentyabr 1942-ci il tarixli qərarı ilə Dərbənd cəbhəyanı zona elan edilir. Burada Şəhər Müdafiə Komitəsi yaradılır. Bu komitə mülki və hərbi hakimiyyəti öz əlində saxlayırdı.

Şəhərin güclü müdafiə plasdarmına çevrilməsi üçün böyük işlər görülür. Küçələrdə və evlərin zirzəmilərində sapyor hissələri, əhalinin köməyi ilə DOT-lar və DZOT-lar yaradılır. Bu işlərdə on mindən çox adam çalışırdı. İş günü 16 saata çatdırılmışdı. Adamlar normanı 1,5-2 dəfə yerinə yetirərək möcüzələr yaradırdılar. Hətta qocalar və qadınlar da çalışırdılar.

Şəhərdə paralel olaraq Şimali Qafqaz və Cənubi Qafqaz cəbhə qoşunlarının maddi-texniki təminatı üçün bazalardan birinin yaradılması üçün işlər aparılır.

İqtisadiyyatın yenidən qurulması dəmiryol nəqliyyatının işini kökündən dəyişdirdi. İstehsalat qüvvələrinin yerini dəyişməsi, əhalinin və başqa yüklərin təxliyyə edilməsi, yeni sənaye rayonları ilə əlaqə qurulması və nəhayət, cəbhənin əsas ehtiyacları – bütün bunlar nəqliyyatdan, xüsusi ilə dəmiryolu nəqliyyatından yükdaşımanın artırılmasını, stansiyaların qəbuletmə və ötürmə qabiliyyətini, giriş

yollarının yaxşılaşdırılmasını tələb edirdi.

Dərbənd dəmiryolçularının çiyninə çox ağır yük düşmüşdü. Nizam-intizamı möhkəmləndirmək, dəmiryol qovşağının bütün işinin dəqiqliyinin və təşkilinin yaxşılaşdırılması məqsədilə 1942-ci ilin yanvarında xüsusi hərbiləşdirilmiş nəqliyyat dəstələri yaradılır və burada kadr məsələsi ön plana çıxır. Ən qısa müddət ərzində gənc qızlar Zoya Zavyalova, Lida Yanson, Mariya Utina, Lyuba Petrusenko, Natalya Kuprinova, Lyuda Şyukina və onlarla başqaları maşinist köməkçisi sənətinə yiyələndilər və cəbhəyə getmiş kişiləri əvəz edərək bütün müharibə dövrü qatar sürdülər.

Vətən şəhərin dəmiryolçularının fədakar əməyini layiqincə qiymətləndirdi. Onlarla maşinist və onların köməkçiləri, lokomotivlərin və yolun təmiri üzrə qaynaqçılar, dispetçerlər və qatarları təmir edən çilingərlər dövlət mükafatları ilə mükafatlandırılmışlar. Maşinistlər M.Qolovançenko, V.Makarov, Q.Volqin, D.Krakoviç və başqaları «Qafqazın müdafiəsinə görə» medalına layiq görülmüşlər.

1941-ci il iyulun 28-də Dağıstanda 1628 saylı on şöbədən ibarət təxliyyə hospitalı açılır. Bu hospital Dərbənd şəhərində pedaqoji məktəbin korpusunda yerləşdirirmişdi (Lenin küç, 87). Sonralar daha bir təxliyyə hospitalı açılır.

Respublikanın və Dərbənd şəhərinin yaralıları müalicə təcrübəsinə malik olmayan tibb işçiləri, o cümlədən təşkilatçıları işin gedişi zamanı təcrübə toplayırdılar. Müharibənin ilk aylarında cəbhədən hospitala çoxlu sayda yaralı daxil olurdu. Dərbəndlilər qələbəni yaxınlaşdırmaq üçün könüllü olaraq yaralılara qan verirdilər. Xaricdən kömək olmadan qısa müddət ərzində hospitalın sabit işini nizamlamaq üçün şəhərin səhiyyə rəhbərliyinin, həkimlərin, orta və kiçik tibb personalının fədakar əməyi tələb olundu. Şəhərin səhiyyə şöbəsinin məlumatına əsasən müharibə illərində dərbəndlilərin verdiyi qan 1941-ci ilin əvvəlinə olan rəqəmdən 150 dəfə çox olmuşdur.

Hospitallara şəhər sakinləri və əmək kollektivləri fəal kömək edirdilər. Onlar yaralıların yeməklərini yaxşılaşdırır və onlara qulluq edirdilər. Dərbənd hospitalında müalicə olunan yüzlərlə, minlərlə əsgər və zabit həkimlərdən K.M.Zuboviçə, M.K. Qəzənfərovaya, A.Q.Panuntsevaya, P.Q.Panuntsevaya, A.M.Torqaşovaya və digər tibb işçilərinə öz həyatlarıyla borcludurlar.

Vətən müharibəsi illərində şəhərin tibb işçilərinin fədakar əməyi sözün əsil mənasında qəhrəmanlığa, onların sinəsini bəzəyən ordenlərə və gələcək nəslin onların qarşısında minnətdarlıq hissi ilə baş əymələrinə layiqdirlər.

Müharibə illərində Dərbənd arxa cəbhə şəhəri kimi daha bir mühüm və çətin məsələni həll edirdi – ölkənin Avropa hissəsindən təxliyyə olunmuş çoxminli əhali ordusunu qəbul edir və yerləşdirirdi. Şəhərin əhalisi bu evsiz-eşiksiz insanları öz evlərində yerləşdirməyi qərara almışdılar. Onlara bacardıqları köməyi göstərirdilər.

Müharibə illərində 12 mindən çox dərbəndli döyüş əməliyyatlarında iştirak etmişdi. Onların çoxu göstərdikləri şücaətə və qəhrəmanlığa görə orden və medallarla mükafatlandırılmışlar.

Dərbəndin səkkiz igid oğlu: Şəmsulla Əliyev, Vladimir Qromakovski, Şatiyel Abramov, Aleksandr Rıbnikov, Mixail Surmaç, Muhuddin Umurdinov, Nikolay Kalutski və Vladimir Sençenko ən böyük ada – Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşlər. Yakov Xorolets isə Şöhrət ordeninin üç dərəcəsinə layiq görülmüşdür. Üç mindən çox fəhlə və qulluqçu arxa cəbhədə göstərdikləri şücaətə görə yüksək mükafatlara layiq görülmüşdü.

Beş mindən çox əsgər müharibədən qayıtmamışdı. Dərbəndlilər öz şəhərlərinin əzəmətli tarixinə hünər və qəhrəmanlıqları ilə daha bir şöhrətli səhifə yazdılar.

Dərbənd və Dağıstanın 345-ci atıcı diviziyası Dərbənddə 1941-ci ilin sonunda formalaşmışdır. Diviziyanın qərargahı «Dağıstan işıqları» mehmanxanasının binasında yerləşirdi (Lenin küç.,8). Polkovnik N.O. Qruz diviziyanın komandiri təyin edilmişdi.



345-ci atıcı diviziya döyüşçülərinə ucaldılmış abidə

Yüzlərlə dərbəndli könüllü olaraq diviziyaya yazıldı. Diviziyanın tibb xidməti rəisi Zeynəddin Sultanov, hərbi həkim-cərrah Tərxan Heydərov, topçular alayının komissarı – UK(b)P şəhər komitəsinin katibi Nikolay Xomutetski, hərbi müxbir – Nikolay Xamadan təyin edildi.

1941-ci ilin dekabrında diviziya Novorossiyskdən keçərək özügedən barjlarda dənizlə Sevastopola yola düşdu. Diviziya burada Qara dəniz donanmasının əsas bazasının müdafiəsində qəhrəmanlıqla iştirak etdi. Onlarla dərbəndli Sevastopol torpaqlarında qəhrəmanlıqla həlak oldu.

Hal-hazırda Sevastopolda dəfn olunmuş 32 dərbəndlinin adı məlumdur.

Şəhərin küçələrindən biri həlak olmuş dərbəndlilərin xatirəsinə 345-ci Dağıstan atıcı diviziyasının adını daşıyır.

Dərbəndin müdafiə səddi. 1942-ci ilin iyulunda Şımali Qafqazda alman qoşunlarının Cənubi Qafqaza soxulması təhlükəsi ilə yaranmış ağır vəziyyəti nəzərə alaraq, hərbi rəhbərlik Dağıstanın ərazisində Qroznı-Mahaçqala – Dərbənd istiqamətində çoxxətli müdafiə sisteminin yaradılması haqqında qərar qəbul edir. Alman qoşunlarının hücumunun qarşısını almaq üçün Xasavyurddan Dərbəndə kimi səkkiz müdafiə səddinin tikilməsi nəzərdə tutulurdu.



Dərbənd müdafiə səddinin tikintisi

Uzunluğu 700 km-dən çox olan bu müdafiə sədləri barrikadadan, atəş nöqtələrindən, tank əleyinə xəndəklərdən, piyadalara qarşı maneələrdən, blindajlardan, rabitə gedişlərindən və s. mürəkkəb hərbi-mühəndis qurğularından ibarət idi.

Bu müdafiə xəttində Dərbəndin mühüm strateji vəziyyətini nəzərə alaraq 1942-ci il avqustun 23-də VK(b)P Dağıstan vilayət bürosu və DMSSR Xalq Komissarları Soveti «Dərbənd müdafiə səddi»nin tikilməsi üzrə tədbirlər haqqında xüsusi qərar qəbul edir.

«Dərbənd müdafiə səddinin tikilməsi üzrə tədbirlər haqqında Dağıstan MSSR Xalq Komissarları Sovetinin və VK(b)P vilayət bürosunun 23 avqust 1942-ci il tarixli

Qərarı:

Zaqafqaziya cəbhəsinin komandanlığının 10/VIII-42-ci il tarixli sərəncamına uyğun olaraq Dərbənd səhərinin qorunması səddinin tikilməsi haqqında DMSSR Xalq Komissarları Soveti və VK(b)P Vilayət Komitəsinin Bürosu

Qərara alır:

1. VK(b)P şəhər və rayon komitələri katiblərinin və zəhmətkeşlərin rayon və şəhər soveti deputatları sədrlərinin teleqraf vasitəsilə aldıqları sərəncama əsasən şəhər və kəndlərin iş qabiliyyətli əhalisini, həmçinin müəssisələrin və digər təşkilatların fəhlə və qulluqçularını səfərbər etsin.

Səfərbərliyi iki gün ərzində qurtarmaq, səfərbər olunmuşları isə VK(b)P ŞK, RK katiblərinin birinin rəhbərliyi altında hərbı-sahə tikintisinin 91-ci İdarəsinin sərəncamı ilə bölüklərə (tağımlara, manqalara) göndərmək.

2. Əmək mükəlləfiyyətinə cəlb olunmurlar:

a) 16 yaşına çatmamış şəxslər, həmçinin 55 yaşından yuxarı kişilər və 45 yaşından yuxarı yaşı olan qadınlar;

b) 5 aylıq hamiləliyi olan hamilə qadınlar;

c) südəmər uşaqları olan qadınlar, həmçinin onlara baxan başqa ailə üzvü olmadıqda 8 yaşına qədər uşağı olan qadınlar;

d) müvəqqəti əmək qabiliyyətini itirmiş şəxslər (əmək qabiliyyətinin bərpasına qədər), birinci və ikinci dərəcəli əlillər.

3. Rayon şəhər Xalq Deputatları Sovetinin İcra Komitələrinə təklif etmək;

a) səfərbər olunmuşları səngər aləti ilə (səfərbər olunmuşlara şəxsən, eləcə də kolxozlara, müəssisələrə, idarələrə və s. məxsus olan), 12 nəfərdən ibarət olan hər bölük 4 bel, 4 külüng, 2 ling, 1 balta, 1 mişarla təmin edilsin. Səfərbər olunmuş hər bir şəxs özü ilə dəsmal, 1 dəst dəyişək paltarı, yataq əşyaları (yorğan, yapıncı və s.), həmçinin boşqab və qaşıq gö-

türməlidir:

b) səfərbər olunmuşları mətbəx avadanlıqları, xörək bişirmək üçün qab-qacaqla, su gətirmək üçün kuzələrlə və çənlərlə təmin etmək kolxoz rəhbərliyinə həvalə edilsin.

c) bütün səfərbər olunmuşlar manqalarda (hər manqada 12 nəfər), tağımlarda (hər tağımda 4 manqa) və bölüklərdə (hər bölükdə 4 tağım) birləşdirilsin. Hər manqaya komandir və 2-3 nəfər təşviqatçı, tağıma bir komandir və tağımın siyasi rəhbəri və hər bir bölüyə komandir, siyasi rəhbər və bölük çavuşu seçilsin.

d) hər rayonda səfərbər olunmuşların tikintidəki işinə nəzarət etmək üçün katiblərdən, büro üzvlərindən və ya icra hakimiyyəti üzvlərindən biri məsul şəxs kimi təyin edilsin. Seçilmiş yoldaşların soyadları VK(b)P vilayət komitəsinə verilsin.

4. Hərbi-sahə işlərinə səfərbərlik zamanı fəhlə və qulluqçuların əmək haqqı iş yerindən deyil, həmin işlərə qoyulmuş və əmək haqqının qüvvədə olan normalarına əsasən hərbi-sahə tikinti idarəsi tərəfindən ödəniləcəkdir.

Səfərbər olunmuş kolxozçulara tikintidə işlədiyi müddət ərzində orta əmək haqqının 25% kolxozun hesabına ödəniləcəkdir.

5. Tikintiyə səfərbər olunmuşların hər biri özü ilə on günlük ərzaq götürməli idi:

6. Aşağıda adları çəkilən MTS-lərdən vəziyyətdə olan 30 saz traktoru işçi qüvvəsi ilə birlikdə mobilizə etmək: Dərbənd - 16 traktor, Qaytaq - 14 traktor.

7. Rayon icra hakimiyyətlərinə təklif edilsin ki, 100 nəfərə 4 ədəd hesabı ilə yerində yük kirşəsi hazırlansın.

8. Rayon və kənd zəhmətkeşləri deputatlarının şurasına tikinti yerlərində və yaxın olan yaşayış məntəqələrində siyasi-komanda heyətini yerləşdirmək həvalə edilsin.

9. DMSSR Xalq Komissarları Şurası nəzdində olan Dövlət Plan komitəsinə (yoldaş Kinus) 91-ci hərbi-sahə tikinti idarəsinə verilmiş tələbnaməyə (sifarişə) əsasən, respublikanın sərəncamında olan tikinti materiallarının verilməsi həvalə edilsin.

10. Yerli təyinatlı meşə idarəsi və yerli yanacaq sənayesi 91-ci HST-nə taxta və şalbanın hazırlanması üçün meşə yerləri ayırsın.

11. Xalq ticarəti komitəsinə (yoldaş Sneqiryov) və Dağıstanın istehlak ittifaqına (yol.Surnov) tikintidə işin başlanmasına qədər ictimai qidalanmanı, vacib olan məhsulların satışını təşkil etmək, hər bir işçini 800 qram çörəklə və ya 800 qram unla təmin etmək həvalə edilsin.

12. DMSSR Xalq Səhiyyə Komitəsinə (yol.Yanikson) işin başlanmasına qədər tikintidə bir sıra sahə tibb məntəqəsinin açılmasını və tibb işçilərini lazımi tibbi ləvazimatla təmin edərək tikinti işinə ezam edilməsini həvalə etsin.

13. DMSSR Xalq torpaqşünaslıq komitəsinə tikintidə işçi qüvvəsi kimi istifadə olunan heyvanlara veterinar xidməti üzrə tədbirlərin keçirilməsinin yerinə yetirilməsini təklif etmək.

14. Yoldaş Petrovskini Dərbəndin müdafiə səddi üzrə VK(b)P vilayət komitəsinin və Xalq komissarları komitəsinin müvəkkili təyin etmək.

15. DMSSR Xalq komissarları Sovetinin və VK(b)P vilayət komitəsinin Qırmızı keçici bayrağını tikintidə yarışda qalib çıxan batalyona təsis etmək.

DMSSR XKS sədri A.Daniyalov, N.Linkun – Vilayət komitəsinin katibi».

Şəhərin şimal hissəsinin yaxınlığında, Quruçay rayonunda nəhəng sahə müdafiə səddinin tikintisinə başlandı. Bu işə 10400 nəfər adam səfərbər olunmuşdu. İş günü 16 saat idi. Əl ilə çıxarılmış torpağın gündəlik norması 3,5 kub.m idi. Tikintidə istifadə olunan ən mühüm texnika yaxınlıqdakı rayonların kolxozlarından səfərbər olunmuş 660 at arabası idi. Lakin adamlar əməkdə qəhrəmanlıq göstərərək gündəlik normanı 1,5-2 dəfə yerinə yetirirdilər. Yaxın kəndlərin bütün əhalisi insaatçılara kömək edirdi, yaşayış evlərini və yeməklərini onlarla bölüşdürürdü. Hətta qoca kişilər və qadınlar tikintiyə gələrək gənclərlə çiyin-çiyinə çalışırdılar. Hər bazar günü işdən azad olan şəhər sakinləri və məktəblilər köməyə gəlirdilər.

Dərbənd müdafiə səddinin xüsüsi əhəmiyyət daşıdığını SSRİ Dövlət Müdafiə Komitəsinin üzvü L.Beriyanın və Şimali Qafqaz cəbhəsinin Hərbi şurasının üzvü, Azərbaycan Kommunist partiyasının MK katibi M.Bağırovun tikintiyə təftiş yoxlaması ilə gəlməsi bir daha sübut etdi. Artıq sentyabrın ortalarında baş müdafiə xəttinin avadanlıqla təchiz edilməsi başa çatdırıldı.

Heydər Əliyev və Dağıstan xalqları. Tarixi şəxsiyyətlər həm də o zaman böyük, dahi olurlar ki, onlar təkcə öz xalqına yox, bütün bəşəriyyətə mənsub olurlar. Heydər Əliyev də belə dahilərdəndir. Onun Dağıstan xalqları ilə Azərbaycan arasındakı əlaqələrin inkişafındakı rolu misilsizdir.



Azərbaycan və Dağıstan xalqlarının arasında dostluğu, qardaşlığı ümummilli lider Heydər Əliyev uzun illər möhkəmlətmiş və dərinləşdirmişdir. Məhz bu dahi insanın gərgin səyləri nəticəsində xalqımız arasında ticarət, iqtisadi və siyasi-mədəni əlaqələr daha da möhkəmlənmişdir.

Bu mövzuda bütün çıxışlarında Heydər Əliyev həmişə bir fikri söyləmiş, daim ona sadiq qalmış, bu ideyanın tətbiqi və möhkəmləndirilməsinə çalışmışdır. «Əsrin sərt sınaqlarından çıxmış Azərbaycan və Dağıstan xalqlarının qədim dostluq ənənələri vardır. Bu, ululərımızın göz bəbəyi kimi qoruyub saxladıqları və nəsillərə yetirdikləri əvəzsiz Tanrı sərvətidir» – deyən ümummilli liderimiz Dağıstanda da haqlı olaraq sevilmiş, Qafqazın ağsaqqalı adlandırılmışdır.

Dağıstan Dövlət Şurasının el ağsaqqalı Məhəmmədəli Məhəmmədov demişdir: «Heydər Əliyev Qafqaz xalqları üçün elə böyük işlər görüb ki, bu gün onların hamısı qazandıqları müstəqillik və əmin-amanlıq üçün ona minnətdar olmalıdırlar. Heydər Əliyevin öz xalqı, habelə Dağıstan xalqı qarşısında çox böyük xidmətləri vardır. Dağıstan xalqı heç vaxt onu unutmayacaqdır».

Dağıstanın əksər yerlərində adət-ənənəsi, məişəti, dini, dilimiz bir olan xalqları ilə bütün sahələrdə əlaqəmiz məhz möhtərəm Heydər Əliyevin hakimiyyəti illərində daim inkişaf etmiş, möhkəmlənmişdir.

XX əsrin 90-cı illərində bəzi dairələr iki qardaş xalq arasındakı münasibətlərdə gərginlik yaratmaq üçün separat əhval-ruhiyyələri alovlandırmağa çalışırdılar. H.Əliyev cənabları ilk olaraq bu təcəvvüzün, xalqların millətlərarası ünsiyyətində tarix boyu yaranmış mehriban münasibətləri pozmaq cəhdinin qarşısını ala bilmişdir. Belə neqativ halların qarşısını almaq, sadə vətəndaşlar arasında mehriban qonşuluq münasibətlərinin möhkəmləndirilməsi üçün ciddi tədbirlər görmüşdir. Qısa zaman ərzində dövlət səviyyəsində münasibətlər qurulmuş, iki xalqın ictimai nümayəndələri dostluq səfərləri etmiş, müntəzəm olaraq dövlət səviyyəsində nümayəndələrin, ictimai təşkilatların və özəl şəxslərin səfərləri təşkil olunmağa başladı. Beləliklə, bütün fəaliyyət sahəsində etibarlı əməkdaşlıq mexanizmi yaradıldı.

Erməni işğalı nəticəsində çətin vəziyyətdə olan Azərbaycana Qurbanov Səid Camal oğlunun başçılığı ilə Dərbənd inzibati rayonundan Dağlıq Qarabağdan olan qaçqınlara humanitar yardımın göndərilməsi təşkil olunmuşdur. Bakıdan isə Dərbəndə şəhər əhalisi üçün lazım olan mallarla yüklənmiş maşın karvanları gedirdi.

Ümummilli lider Heydər Əliyev Azərbaycan və Dağıstan xalqları arasındakı dostluğun möhkəmləndirilməsinə böyük diqqət yetirirdi. Onun fəaliyyəti dövründə iki dövlət arasında sıx iqtisadi-ticarət və mədəni əlaqələr qurulmuşdur.

Dərbənd şəhərində Azərbaycan İqtisad İnstitutunun filialının açılması, Bakıda isə «Dərbənd» dövlət konserninin nümayəndəliyinin fəaliyyət göstərməsi buna bir sübutdur. Dağıstanın bir çox gəncləri ölkənin hərbi tədris müəssisələrində təhsil alır. Bakının Nərimanov rayonu və Dağıstanın Dərbənd rayonu arasında mədəni-iqtisadi əməkdaşlıq haqqında müqavilə imzalanmışdır. Dərbənd rayonunda iki xalq arasında dostluq əlaqələrinin möhkəmləndirilməsindəki böyük əməyi naminə yeni Cəmikənd orta məktəbi açılmış və bu məktəbə Heydər Əliyevin adı verilmişdir.

1997-ci ilin noyabrında Heydər Əliyev Mahaçqalada Şeyx Şamilin 200 illiyi münasibəti ilə keçirilən yubiley içtirakçılarına göndərdiyi təbrik məktubunda, Bakıda yubiley münasibətilə keçirilən təntənəli gecədəki nitqində Azərbaycan və Dağıstan xalqlarının tarixi əlaqələrinin köklərinin daha

qədim olduğunu qeyd etmiş, Şeyx Şamilin azadlıq uğrunda mübarizəsinin bütün Qafqaz xalqlarının taleyində oynadığı rolu tarixi faktlarla sübut etmişdir. Şeyx Şamilin xidmətlərinə, onun tarixdə tutduğu görkəmli yerə yüksək qiymət verən ümummilli liderimiz indi də hər iki respublikada yaşayan xalqların Şeyx Şamilin ideyalarından, mübarizəsindən bəhrələndiyini qeyd etmişdir. «Xalqlar azadlığa çıxıblar, xalqlar sərbəst yaşamaq imkanı əldə ediblər. Şeyx Şamil bunu istəyirdi, bundan ötrü mübarizə aparırdı» deyən görkəmli lider, dahi şəxsiyyət xalqlarımızın yenə də bir olduğunu göstərirdi. Ulu öndərin «Bizi, Azərbaycanı Rusiyadan-Dağıstandan ayıran sərhəd, mən hesab edirəm şərti xarakter daşıyır, sadəcə olaraq ölkələrin ərazilərinin sərhədlərini göstərir. Amma insanların arasında sərhəd yoxdur və heç bir sərhəd də olmamalıdır» fikri hər iki respublikada yaşayanların ürəklərindən gələn arzu və istəyin eyni olduğunu təsdiq edir.

1941-1945-ci illər müharibəsinin ən ağır illərində Dağıstan xalqlarını, onların iradəsini və enerjisini birləşdirməklə Dağıstanın və Bakı neftinin alman faşistlərindən müdafiəsində mühüm rol oynayan, sonrakı illərin ən ekstremal vəziyyətində də xalqa, insanlara qayğını unutmayan, Dağıstanda akademik mərkəzlərin, dövlət idarələrinin yaradılmasında, milli ədəbiyyat və incəsənətin, təhsilin, iqtisadiyyatın inkişafına, milli kadrların yetişməsində böyük əməyi olan Azərbaycan və Dағıstan xalqlarının böyük oğlu Əziz Əliyevin 100 və 110 illik yubileylərinin həm Azərbaycanda, həm də Dağıstanda yüksək səviyyədə keçirilməsi dediklərimizə tutarlı sübutdur.



Bu gun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Heydər Əliyev siyasi kursunu uğurla davam etdirərək Dağıstan xalqları ilə Azərbaycan arasındakı əlaqələri genişləndirir və inkişaf etdirir.

2003-cü ilin oktyabrında Quba rayonunda Olimpiya İdman Kompleksinin açılışında Dağıstandan da nümayəndə heyətində iştirak etmişdir. Burada o zaman baş nazir olan cənab İlham Əliyevin, həm də Dərbənd rayonu İcra Hakimiyyətinin başçısı Qurban Qurbanovun çıxışlarında «Dağıstan və Azərbaycan daim birlikdə olublar, bir-birinə daim kömək ediblər» kimi sözləri hər iki xalqın ürəyindən keçən hissləri ifadə edir.



Q.Qurbanovun «Əziz İlham Heydər oğlu, Dağıstan xalqı Sizə böyük ümidlər bəsləyir. Zənnimcə, Siz elə edə biləcəksiniz ki, xalqlarımız arasında heç bir sərhəd olmasın» arzusu ata-babalarımızın qardaşlıq ənənələrinin, Qafqazın müdrik ağsaqqalı möhtərəm Heydər Əliyev tərəfindən uğurla davam etdirilməsinə inamdır, etiqaddır. Bu gün Azərbaycanla Dağıstan Respublikası arasında iqtisadi, mədəni əlaqələr yüksələn xətlə inkişaf edir. Azərbaycan və Dağıstan arasında iqtisadi və humanitar əməkdaşlıq üzrə hökumətlərarası komissiya fəaliyyət göstərir. İqtisadi və mədəni əlaqələrin inkişaf etməsi ilə bağlı 2007, 2008-ci illərdə Dağıstan Respublikasının Prezidenti Muxu Əliyevin, 2010-cu ilin mayında Dağıstan Respublikasının Prezidenti Məhəmmədsalam Məhəmmədovun Azərbaycan Respublikasına səfərləri və onların Azərbaycan Respublikasının Prezident İlham Əliyev ilə görüşü bu əlaqələrə bir daha təkan verir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bütün digər sahələrdə olduğu kimi Azərbaycan-Dağıstan münasibətlərinin inkişafında da Ümummilli lider Heydər Əliyev kursunu uğurla davam etdirir.

Dərbənd və Balakən dostluğu. Azərbaycan Respublikasının Balakən rayonu Rusiya Federasiyası ilə həmsərhəddir. Bu rayonu Dərbəndlə sıx dostluq əlaqələri bağlayır. 2008-ci ilin yanvarında Dağıstan nümayəndə heyəti geniş tərkibdə Balakənə gəlmişdir. Nümayəndə heyətinə Dağıstanın Prezident Aparatının yanında ərazinin inkişafı və özünüidarə departamentinin başçısı A.İsrafilov, Milli Məclisin yerli özünüidarə komitəsinin sədri A.Qurbanəliyev, Xarici Əlaqələr Nazirliyinin 1-ci müavini Z.İlyasov, Milli Məclisin deputatı Q.Məhəmmədov, Dərbənd İcraiyyə komitəsinin başçısı Q.Qurbanov, Rutul rayon icraiyyə komitəsinin başçısı D.Süleymanov, Axta rayon icraiyyə komitəsinin başçısı Ş.Rəsulov, Dağıstanın Azərbaycandakı nümayəndəsi M.Qurbanov, televiziya, radio, mətbuat nümayəndələri daxil idi.



Görüşdə Azərbaycan tərəfindən Prezident Aparatının ərazi idarə şöbəsinin rəis müavini T.Budaqov və həmin şöbənin müşaviri M.Quliyev, «Azərbaycan dünyası» beynəlxalq jurnalının redaktoru E.İsmayılov iştirak etmişdilər. Görüş iştikçıları Balakən rayonu ilə yaxından tanış olmuş və bu rayon haqqında geniş sənədli film çəkmişlər.

Bax: «Azərbaycan dünyası» jurnalı, iyul 2008, №86, səh. 31-32.



Dövlət xadimi Səid Qurbanovun xatirəsinə həsr olunmuş «Azərbaycan-Dağıstan: qardaşlıq münasibətləri tarixi, müasirlik, perspektivlər» mövzusunda beynəlxalq konfrans. 2010-cu il aprelin 30-da Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin binasında görkəmli dövlət xadimi Səid Qurbanovun xatirəsinə həsr olunmuş «Azərbaycan-Dağıstan: qardaşlıq münasibətləri, tarixi, müasirlik, perspektivlər» mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir.



Beynəlxalq konfransın iştirakçıları Səid Qurbanovun həyat və fəaliyyətini əks etdirən fotoşəkillərdən və Azərbaycan-Dağıstan dostluq münasibətlərinə dair kitablardan ibarət sərgiyə baxmışlar.

Azərbaycan Milli Elmlər Akademiyasının sabiq prezidenti akademik Mahmud Kərimov A.A.Bakıxanov adına Tarix İnstitutunun təşkilatçılığı ilə keçirilən beynəlxalq konfransın əhəmiyyətindən danışmışdır. O, bildirilmişdr ki, Azərbaycan ilə Dağıstanı müştərək tarix və mədəniyyət birləşdirir. Bünövrəsi ulu babalarımız tərəfindən qoyulmuş dostluğumuzun tarixi zəngin və sarsılmazdır. Yaxın qonşuluq, sıx siyasi, sosial-iqtisadi və mədəni əlaqələr Azərbaycan ilə Dağıstan xalqları arasında dostluğu qabaqcadan müəyyənləşdirmişdir. Bu münasibətlər tarixin müxtəlif dönəmlərində çətin sınaqlardan keçmişdir. Azərbaycan və Dağıstan xalqları bu çətin sınaqlardan həmişə şərəflə çıxmış, bununla da mehriban qonşuluq və qardaşlıq münasibətlərinin əbədi olduğunu sübut etmişlər. Dağıstanda 1941-1945-ci illər müharibəsi dövründə bu respublikanın partiya təşkilatına rəhbərlik etmiş Əziz Əliyevin xatirəsi bu gün də böyük hörmət və ehtiramla anılır. 2007-ci ildə həm Azərbaycanda, həm də Dağıstanda xalqlarımız arasında münasibətlərin tarixində silinməz iz qoymuş görkəmli dövlət xadimi Əziz Əliyevin anadan olmasının 110

illiyinə həsr olunmuş tədbirlər keçirilmişdir.

Azərbaycan ilə Dağıstan arasında dostluq münasibətlərinin inkişafında bu görkəmli dövlət xadimi Əziz Əliyevin böyük xidmətləri olmuşdur.

Azərbaycan-Dağıstan əlaqələri XX əsrin 60-cı illərinin ikinci yarısından başlayaraq xeyli dərəcədə genişlənmiş, ümummilli lider Heydər Əliyevin fəaliyyəti sayəsində bu münasibətlər inkişafın yeni, yüksək keyfiyyətli mərhələsinə qədəm qoymuşdur. Bu beynəlxalq konfransın keçirilməsi Azərbaycan ilə Dağıstan arasında münasibətlərin inkişafında mühüm xidmətləri olan həm ulu öndər Heydər Əliyevin, həm də Səid Qurbanovun əziz xatirələrinə hörmət və ehtiram əlamətidir.

Ümumilli lider Heydər Əliyevin Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında dostluq əlaqələrinin genişləndirilməsi üzrə siyasi kursunu hazırda Prezident İlham Əliyev uğurla davam etdirir.

Dağıstan parlamenti sədrinin müavini Nəsir Əliyev görkəmli dövlət xadimi Səid Qurbanovun mənalı ömür yolundan, iqtisadiyyatın və dövlət idarəçiliyinin müxtəlif sahələrində yarım əsrdən artıq dövrdə çalışdığı bütün vəzifələrdə peşəkarlığından və fədakarlığından danışmışdır. Səid Qurbanovun zəngin təcrübəsi və təqdirəlayiq fəaliyyəti, onun əvəzsiz xidmətləri yüksək qiymətləndirilmişdir. S. Qurbanov bir sıra orden və medallarla təltif edilmiş, o cümlədən müstəqil Azərbaycanın yüksək mükafatı olan «Şöhrət» ordeninə layiq görülmüşdür.

Konfransda «Azərbaycan-Dağıstan qardaşlıq münasibətlərinin şanlı tarix səhifələri» mövzusunda məruzə ilə çıxış edən AMEA-nın Tarix İnstitunun direktoru, Milli Məclisin deputatı, Akademiyanın müxbir üzvü Yaqub Mahmudov vurğulamışdır ki, bu gün Azərbaycan ilə Dağıstanı demokratik Rusiyanın sərhədləri ayırır. Amma heç vaxt biz tarixdə, ürəklərimizdə, mədəniyyətimizdə, dinimizdə, bir yerdə yaşadığımız vaxtda Dədə Qorqudumuzdan, Dərbəndimizdən ayrılmamışıq. Bizim tariximizin qədim Albaniya dövlətinin dövründən başlayan ümumi səhifələri vardır. Albaniya dövləti bizi birləşdirən tarixdir. Biz bunu dostluq tarixi kimi araşdırmalı və bu cür təqdim etməliyik. Bizim bölünməz bir Dərbəndimiz vardır. Dərbəndin tarixi Dağıstan xalqları ilə bizi birləşdirən yeganə tarixdir. Bu, bizi bütün Dağıstan və Rusiya ilə əlaqələndirən bir tarixdir. Dərbəndin tarixi bizim Dədə Qorqudumuzun tarixidir.

Azərbaycan xalqları Dədə Qorqudun Dəmir qapı Dərbənddə uyumasından qürur hissi keçirir. Şirvanşahlar və Səfəvi dövlətlərinin tarixi Dağıstan ilə Azərbaycanın ümumi tarixidir. Tariximizdə dost xalqlarımız üçün müqəddəs olan ümumi qəhrəmanlarımız vardır. Hacı Çələbi xan, Qubalı Fətəli xan, Ömər xan, Şeyx Şamil, Danial Sultan - bunlar hamısı bizi birləşdirən, bizə müqəddəs olan tarixi qəhrəmanlardır.

Müxtəlif dövrlərdə ermənilərin Azərbaycanda həyata keçirdikləri soyqırımı aktlarında azərbaycanlılarla yanaşı, türklər, ləzgilər, saxurlar, avarlar, tatarlar, yəhudilər də qəddarlıqla məhv edilmişdir.

Konfransda Azərbaycan, Dağıstan, Türkiyə və Gürcüstanın tanınmış alimlərinin, tarixçilərinin mövzu ilə bağlı 40-dan çox məruzəsi dinlənilmişdir.

Məruzələrdə Azərbaycan ilə Dağıstan arasında dostluq münasibətlərindən, bu əlaqələrin qurulmasında və inkişafında böyük xidmətləri olan ulu öndər Heydər Əliyevin, görkəmli dövlət xadimləri Əziz Əliyevin, Səid Qurbanovun və başqalarının fəaliyyətlərindən ətraflı bəhs olunmuşdur.

Beynəlxalq konfransda Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, professor Şəmsəddin Hacıyev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Hidayət Orucov, dövlət və hökumət nümayəndələri iştirak etmişlər.

Bax: «Azərbaycan» qəzeti, 1 may 2010-cu il, №93.

SİYASİ–İCTİMAİ PARTİYALAR VƏ TƏŞKİLATLAR

«Əxi» peşə sənətkarlığı ittifaqı. Qaynaqların pərakəndə məlumatlarından görünür ki, sənətkarlıq birliklərinin rəisi institutu bütün əsas sahələri əhatə edirdi: X əsrdə Gəncədə ipək alverçilərinin rəisi vəzifəsi mövcüd idi; XI əsrdə Şirvanşahla müxalifətdə olan rəislər sırasında Dərbəndin sərrac və dabbaqlarının rəisi əl-Heysəm ibn Məymun əl-Bəinin (1075-ci ildə vəfat edib) adı çəkilir. Bakıda inşaatçı sənətkarların rəisinin olması İçəri şəhərdəki Sınıqqala məscidinin divarındakı kitabə ilə sübut edilir; kitabədə «əl-ustaz ər-rəis» titullu Məhəmməd ibn Əbubəkrin adı qeyd olunmuşdur. Sənətkarlıq birliklərinin başçıları haqqında Xaqanidə də məlumat vardır; onun yazdığından aydın olur ki, əvvəllər feodal yerarxiyası strukturunda daha ləyaqətli yer tutan ustabaşılar şairin dövründə özlərinin ictimai-siyasi mövqelərini itirmişdilər: «...bu gün (onları) xəzçi və bez alverçisi ilə (xəzzaz və bəzzaz) eyni tuturlar». Belə vəziyyət «əxi» peşə sənətkarlığı ittifaqlarının meydana çıxması, eləcə də bu dövrdə Azərbaycan şəhərlərində şəhər özünüidarə elementlərinin yaranması ilə əlaqədar idi.

Qabaqlar qüdrətli hakimlərə və şahlara (o cümlədən şirvanşahlara) qarşı açıq siyasi mübarizə aparan şəhər rəisləri və peşə sənətkarlığı birliklərinin başçıları əvvəlki geniş antifeodal sosial zamini əldən vermişdilər. Əsas kütləsi sənətkarlar və şəhər yoxsullarından ibarət olan «əxi»lər (yəni qardaşlıq ittifaqları) bu dövrdə daha fəal antifeodal siyasi qüvvəyə çevrildilər. Artıq XI əsrdə Ön Şərqin bir çox ölkələrinə yayılmış bu ittifaqların mənbələrdən əldə edilən məlumatlara görə Dərbənddə, Bakı, Şamaxı, Beyləqan, Gəncə və digər Azərbaycan şəhərlərində öz təşkilatları olmuşdur.

Azərbaycanın bir sıra şəhərlərində şəhər özünüidarə elementlərinin meydana çıxması, şəhərlərin müstəqilliyi və müxtariyyəti uğrunda aparılan mübarizə orta əsr şəhərinin sənətkarlıq və ticarət mərkəzi kimi inkişafı ilə, şəhərlilərin yerli feodal boyunduruğu və Səlcuq istilasına qarşı mübarizəsi ilə bağlı idi. Şəhər özünüidarəsinin sonrakı inkişafını monqolların hücumları dayandırdı.

Bax: Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü). – Bakı: «Elm», 2007, səh.432-433.

«İttihad ül-İslam» - türk dini-siyasi partiyasıdır. 1889-cu ildə İstanbulda «İttihad və tərəqqi» adı altında yaranmışdır və 1926-cı ilə kimi mövcud olmuşdur. Onun həm Şimali Azərbaycanda, həm də Dağıstanda təşkilatları var idi.

Gənclərin gizli sosial-demokrat təşkilatı – ilk dəfə 1902-ci ildə Rusiya sosial-demokrat fəhlə partiyası (RSDFP) Bakı komitəsinin köməyi ilə dəmiryol emalatxanalarında yaradılmışdır. Bu təşkilata Məhəmmədşah Həmzəyev, Müslim İsrafilov, Pyotr Stepanov, Anaksaqorov və s. daxil idi. Onların çoxu Rusiya ali məktəblərinin tələbələri olmuşlar.

Təşkilat üzvləri Bakıdan alınan gizli vərəqələrlə və ədəbiyyatla tanış olur, RSDFP Bakı komitəsinin müntəzəm olaraq şəhərə göndərdiyi təbliğatçıların məruzələrinə qulaq asır və müzakirə edirdilər.

Rusiyanın mərkəzi vilayətlərində və Qafqazda artan inqilabi hərəkatın təsiri nəticəsində Dərbənddə də sosial-demokrat təşkilatın fəaliyyəti gücləndirildi. Təşkilatçılar tədricən kütləvi siyasi təbliğata keçir, şəhərdə mövcud rejimə qarşı vərəqələr yayırdılar. Şəhərdə təşkilatın təsiri sürətlə artırdı. Bu təşkilata gənc fəhlələr və qulluqçular da daxil olurdular. 1904-cü ildə Dərbəndin sosial-demokrat təşkilatı RSDFP Bakı komitəsinin köməyi ilə yaradılmış Dərbənd şəhər sosial-demokrat qrupunun tərkibinə daxil olur. 1904-cü ilin sonunda isə Dərbənd şəhər sosial demokrat qrupu Dağıstan və Tersk vilayəti sosial-demokrat təşkilatlarının I konfransında yaradılmış RSDFP birləşmiş Dağıstan-Tersk komitəsinin tərkibinə daxil oldu. Sonuncunun tərkibinə Dərbənd qrupundan başqa Qroznı, Port-Petrovsk, Vladiqafqaz, Temirxan Şura, Minvod və Kislovodsk sosial-demokrat qrupaları da daxil oldu.

1905-ci ilin iyununda Dərbənd sosial-demokrat qrupu RSDFP-nın Bakı komitəsinin tərkibinə daxil oldu.

Menşeviklər – RSDFP-ın 2-ci qurultayında (1903) təşəkkül tapmış sosial-demokratik cərəyan. RSDFP-da partiyanın qurulma prinsipləri və siyasi platformasında bolşeviklər və menşeviklər arasında prinsipial anlaşılmazlıqlar var idi.

Dərbənddə menşevik qrupu 1904-cü ildə Rusiya sosial-demokrat fəhlə partiyası (RSDFP) Bakı komitəsinin köməyi ilə dəmiryol emalatxanalarında yaradılmışdır. 1917-ci il fevral inqilabından əvvəl şəhərdə ən güclü siyasi təşkilatlardan biri bu təşkilat idi. Fevral inqilabından sonra daha onlar gizli fəaliyət göstərmirdilər və öz sıralarına ziyalıları, realnı məktəblərinin şagirdləri və müəllimlərini, qarnizon zabit və əsgərlərini cəlb edirdi.

Menşeviklərin partiya təşkilatı şəhərdə ən böyük təşkilat idi. Bu təşkilat xalq və hərbi deputatlar şurasında, ictimai İcraiyyə komitəsində, «Dərbənd rayonunun xəbərləri» qəzetində, böyük həmkarlar ittifaqlarında: dəmiryolçular, yəhudi fəhlələri, poçt-teleqraf işçiləri, müəllimlər arasında liderliyi ələ almışdı.

1918-ci il aprel ayında hakimiyyət Bakı fəhlə partiya komitəsi (FPK) nümayəndələrinin əlinə keçdikdən sonra menşeviklər öz nüfuzlarını itirdilər. Şəhərdə Sovet hakimiyyəti tam qurulduqdan sonra isə (mart 1920) menşeviklərin hakimiyyəti ləğv oldu.

Dərbənd xalq ayıqlığı üzrə hamilik cəmiyyəti – 1903-cü ildə yaradılmışdır. Hamilik cəmiyyətinin tərkibinə Dərbənd şəhəri, Dərgi, Qaytaq-Tabasaran, Kurinsk və Samur bölgələri daxil idi. Hamilik cəmiyyətinə rəhbərliyi Diyar komitəsi yerinə yetirirdi. Nizamnaməyə görə diyar komitəsi Diyar hamilik cəmiyyətinin tərkibinə daxil olan, yeparxiya rəhbəri tərəfindən təyin olunmuş pravoslav dini idarəsinin rəhbərindən, şəhər qazısından, qəza hərbi rəisindən, şəhər məktəbinin müfəttişindən, aksiz idarəsinin rəisindən, şəhər hakimindən, şəhər başçısı və b. rəislərdən ibarət idi. Diyar komitəsinə polismeyster rəhbərlik edirdi və bu komitə vilayət büdcəsindən maliyyələşdirilirdi.

Birinci il hamilik cəmiyyəti Qolisin küçəsində çayxana açmaq üçün 5 il müddətinə bina icarəyə götürmüş və bunun üçün 2955 rubl ayrılmışdır. Bu binada «… xalq oxuları və səhnələri üçün» estrada və oxu zalı qurulmuşdur. Bundan əlavə, çayxanada dama və musiqi aləti (polifon) var idi. 1904-cü ildə çayxananın nəzdində ucuz yeməklər yeməkxanası təşkil olunmuşdur.

Dərbənd xalq ayıqlığı üzrə hamilik cəmiyyəti 1917-ci il fevral inqilabına qədər fəaliyyət göstərmişdir.

«**Hümmət»** – Azərbaycanda ilk milli sosial-demokrat təşkilatı, 1904-cü ilin oktyabrında fəaliyyətə başlamışdı. Təşkilat bir qrup azərbaycanlı demokrat ziyalının təşəbbüsü ilə yaradılmışdı. Onların arasında Sultanməcid *Əfəndiyev*, Əhməd bəy *Ağayev*, Məmməd Əmin *Rəsulzadə*, Məşədi bəy *Əzizbəyov*, Mir Əsədulla *Mirqasımov*, Məmmədəli *Rəsulzadə* (*Rəsuloğlu*), İsa bəy *Aşurbəyov*, Qara bəy *Qarabəyov*, Məmmədbağır *Axundov*, Məmməd Həsən *Hacınski*, Mir Həsən *Mövsümov* və başqaları var idi. «Hümmət» formal olaraq *Rusiya Sosial-Demokrat Fəhlə Partiyasının* (*RSDFP*) *Bakı Komitəsinin* şöbəsi kimi yaransa da, əslində, müstəqil fəaliyyət göstərirdi. S.M.Əfəndiyevin sözlərinə görə, ***«bu qrupun müstəqilliyini müsəlman fəhlələri ilə işin xüsusiyyətləri şərtləndirirdi. Təşkilatın məhz bu formada fəaliyyət göstərməsi çox uğurlu idi, çünki bizim işimizdə elə məqamlar var idi ki, «Hümmət» müstəqil şəkildə çıxış etməyə məcbur idi».***

Bəzi mənbələrə əsasən, hələ 1903-cü ildə M.Ə.Rəsulzadə və onun həmfikirləri tərəfindən tələbə gənclərdən ibarət və sonradan «Hümmət»in əsasını təşkil edən «Azərbaycanın gənc inqilabçıları dərnəyi» yaranmışdı.

«Hümmət» vərəqələrində çox vaxt özünü partiya adlandırırdı. Bolşeviklərin proqramındakı millətlərin öz müqəddəratını təyinetmə prinsipinin cəlbediciliyi və ümumiyyətlə, sosial-demokratiyanın mövcud hakimiyyətə müxalifliyi öz xalqını milli əsarətdən qurtarmaq ümidi ilə yaşayan ziyalıları onun sıralarına cəlb edirdi.



«Hümmət»in yaradıcılarından Məşədi bəy Əzizbəyov, Əjdər Məlikov, Əsədulla Axundov və Məmməd Əmin Rəsulzadə

M.Ə.Rəsulzadənin dediyi kimi, «bu cavan nəsil müxalif sosializmdə çarizmə qarşı ən sadiq olmasa

da, ən əlverişli müttəfiqini görürdü».

RSDFP Bakı Komitəsinin «Hümmət»in iclaslarında təmsilçisi P.A.Caparidze, «Hümmət»in isə RSDFP-də təmsilçisi S.M.Əfəndiyev idi. «Hümmət»in RSDFP Bakı Komitəsi və «Balaxanı və Bibiheybət fəhlələrinin ittifaqı» təşkilatı ilə birlikdə təşkil etdiyi ilk siyasi aksiyalardan biri 1904-cü ilin dekabr tətili olmuşdu. Bu tətil Rusiyada ilk dəfə olaraq fəhlələrlə mədən-zavod sahibləri arasında kollektiv müqavilənin («Mazut konstitusiyası»nın) imzalanması ilə nəticələndi.

1905-ci ilin fevral və avqustunda erməni-daşnakların azərbaycanlılara qarşı törətdikləri soyqırımları zamanı «Hümmət» əhalinin sakitləşdirilməsində və qırğınların qarşısının alınmasında böyük rol oynadı. 1905-ci ilin fevralınadək çıxan «Hümmət» qəzeti 6-cı nömrəsindən sonra «zərərli istiqamətinə görə» bağlandı. M.Ə.Rəsulzadənin sözlərinə görə, bu qəzet partiya orqanı olan ilk türk qəzeti idi.

1905-ci ildə İran inqilabının başlanması ilə əlaqədar «Hümmət»in fəaliyyəti xüsusilə genişləndi. Cənubi Azərbaycanın azad edilməsinə olan ümidlərini İran inqilabının qələbəsinə bağlayan «hümmət»çilərin, demək olar, hamısı bu inqilabda iştirak etdi.

«Hümmət»in fəaliyyətində Azərbaycan dilində qəzetlərin nəşri əhəmiyyətli yer tuturdu. 1906-07-ci illərdə təşkilat «Dəvət-Qoç», «Təkamül» və «Yoldaş» qəzetlərini buraxırdı. Onların böyük hissəsi milli maariflənmənin ənənəvi problemlərinə, zəhmətkeşlərin ağır şəraitinə və ayrı-ayrı hallarda cahil ruhanilərin tənqidinə həsr olunmuşdu.

1907-ci ilin iyununda üzvlərinin əksəriyyətinin həbs edilməsi nəticəsində təşkilat xeyli zəiflədi. «Hümmət»in Bakı şöbəsinin həmin dövrdəki fəaliyyəti barədə son məlumatlar 1910-cu ilə aiddir, bundan sonra isə təşkilat 1917-ci ilə kimi, demək olar, fəaliyyət göstərməmişdir.

1907-ci il repressiyalarından sonra «Hümmət»in Bakıdakı fəaliyyəti məhdudlaşsa da, şəhərdən kənarda apardığı iş davam etməkdə idi. Təşkilatın şöbələri Gəncədə (Yelizavetpol), Şuşada, Naxçıvanda, Culfada fəaliyyət göstərirdi. Lakin onların arasında həm üzvlərinin sayına, həm də siyasi fəallığına görə ən əhəmiyyətlisi «Hümmət»in 1905-ci ildə yaranmış Tiflis şöbəsi idi (bax: «Müsəlman *sosial-demokrat* (*menşevik*) Hümmət *partiyası*»).

«Hümmət»in Tiflis təşkilatı yerli sosial-demokratlarla İran inqilabçılarını Bakı təşkilatına nisbətən daha çox birləşdirirdi. Tiflisdə «İctimaiyyun-eamiyyun» və ya «Mücahid» partiyasının şöbələri də fəaliyyət göstərirdi. 1906-cı ildə Bakıda və Tiflisdə İran inqilabçılarına yardım komitələri yaradılmışdı. Bakı komitəsinə M.Ə.Əzizbəyov, Tiflis komitəsinə isə Nəriman Nərimanov rəhbərlik edirdi. İran inqilabçılarına yardım göstərilməsi 1909-cu il Təbriz üsyanı zamanı daha da gücləndi. Təbriz üsyançılarına köməyə gedən və əksəriyyəti azərbaycanlılardan ibarət olan Cənubi Qafqaz könüllülərinin sayı 800 nəfərə çatırdı. Onlardan 50 nəfəri Təbrizin müdafiəsi zamanı həlak olmuşdu. 1911-ci ilin dekabrında inqilab yatırıldıqdan sonra Təbrizdə və Rəştdə hərbi-səhra məhkəmələri təşkil edilmişdi. 200-dək könüllü yayına bilsə də, çoxları həbs olunmuşdu. O zaman İranda olan M.Ə.Rəsulzadə və Seyid Həsən Tağızadə təqiblərdən yaxa qurtarmaq üçün Türkiyəyə getməyə məcbur olmuşdular.

İranda, eləcə də Rusiyada «hümmət»çilərin təqib edilməsi, həbs və sürgün olunması Tiflis «Hümmət»inə və onun Azərbaycanın müxtəlif bölgə və şəhərlərindəki şöbələrinə ağır zərbə vurdu. Tiflis təşkilatının Bakı «Hümmət»indən daha uzun müddət mövcud olmasına baxmayaraq, 1911-ci ildən sonra onun fəaliyyəti barədə də məlumat, demək olar ki, yoxdur. Bu təşkilat yalnız 1917-ci ilin martından bərpa olundu.

1917-ci ilin martında, Rusiyada Fevral inqilabından bir neçə gün sonra, «Hümmət»in bir çox keçmiş üzvü təcili olaraq konfrans keçirib, təşkilatın RSDF(b)P-nin Bakı Komitəsi ilə birləşməsi məsələsini müzakirə etdilər. Lakin təşkilatın öz ənənələri olduğu və müsəlman kütlələrinin psixologiyası nəzərə alınaraq, səs çoxluğu ilə, partiyanın RSDF(b) P ilə birləşməməsi və «Hümmət» adının saxlanılması qərara alındı. Təşkilatın müvəqqəti komitəsi yaradıldı. 1917-ci il iyunun 16-da, N.Nərimanov başda olmaqla, «Hümmət»in daimi şəhər komitəsi seçildi. Komitəyə 14 üzv, o cümlədən Sultanməcid Əfəndiyev, Həmid Sultanov, Əsədulla Axundov, Məşədi Əzizbəyov, Ağababa Yusifzadə, Bünyad Sərdarov, Möhsün İsrafilbəyov (Qədirli), Tağı Şahbazi daxil idi. Bolşeviklərin proqramını təşkilatın əsas proqramı kimi qəbul etmək qərara alındı. İyulun 3-dən N.Nərimanovun redaktorluğu

ilə «Hümmət» adlı qəzet çap olunmağa başladı. Bakının Binəqədi, Suraxanı, Sabunçu rayonlarında, Gəncə, Lənkəran, Şamaxı və Naxçıvanda təşkilatın şöbələri yaradılmışdı. İyulun sonlarında isə Azərbaycan xalqının milli oyanışı və təşkilatlanmasından ehtiyat edən Bakı bolşeviklərinin təzyiqi nəticəsində «Hümmət» təşkilatında parçalanma baş verdi. Sol qanadı təşkil edən «hümmət»çilər bolşeviklərlə sıx əlaqədə işləyirdilər, sağ qanad isə menşevikyönlü «hümmət»çilərdən ibarət idi. Onlar sosial-demokrat menşevik Tiflis «Hümmət»i ilə və onun liderləri olan İbrahim Əbilov, Səməd ağa Ağamalıoğlu, Əhməd Pepinov və b. ilə əməkdaşlıq edirdilər. Tiflis hümmətçiləri 1918-ci ilin ikinci yarısında Bakıya köcdükdən sonra Azərbaycan Parlamentinin sosialist fraksiyasını təşkil etmişdilər. 1919-cu ilin aprelində Bakıda «Hümmət»in hər iki qanadının gərgin şəraitində konfransı keçirildi. Əsas mübahisə mövzusu hökumətə və Parlamentə münasibət idi. Mübahisələrə baxmayaraq, konfrans «Hümmət» təşkilatının 11 nəfərdən ibarət vahid Mərkəzi Komitəsini seçdi (onların 7-si – Mirzə Davud Hüseynov, Əliheydər Qarayev və b. «Hümmət»in sol qanadını təmsil edirdilər). Lakin 1919-cu ilin yayında bolşeviklərin Bakı komitəsinin «Hümmət»i Rusiya Kommunist (bolşeviklər) Partiyasına (RK(b)P) birləşdirmək niyyəti məlum olduqdan sonra menşevik «hümmət»çilər təşkilatdan çıxdılar. Bolşevik «hümmət»çilər R.Axundovun rəhbərlik etdiyi azərbaycanlı sol eserlərlə birləşməyə də meyil göstərirdilər. Lakin bu cəhdlər uğursuzluqla nəticələndi. Bolşevik «hümmət»çilər RK(b)P-nin Qafqaz Diyar Komitəsinin və RK(b)P Bakı Komitəsinin təşəbbüsü ilə Azərbaycan Kommunist Partiyasının yaradılması məsələsini dəstəklədilər. 1919-cu ilin yayından etibarən bu istiqamətdə fəal iş aparıldı. 1920-ci il fevralın 8-də bolşevik «Hümmət»in, «Ədalət» partiyasının və RK(b)P Bakı Komitəsinin birgə iclasında Azərbaycan kommunist təşkilatlarının təsis qurultayının keçirilməsi haqqında qərar qəbul olundu. Azərbaycan kommunist təşkilatlarının (RK(b)P Bakı Komitəsi, «Hümmət», «Ədalət») fevralın 11-12-də keçirilən 1-ci qurultayında bu təşkilatlar birləşərək M.D.Hüseynovun sədrliyi ilə Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının (AK(b)P) yaradılması haqqında qərar qəbul etdi. Bu vaxtdan etibarən bolşevik «Hümmət»in müstəqil fəaliyyətinə son qoyuldu. Parlamentdə yalnız S.Ağamalıoğlunun rəhbərlik etdiyi menşevik «Hümmət» fraksiyası fəaliyyət göstərirdi.

AK(b)P 1920-ci il aprelin əvvəlindən etibarən RK(b)P Qafqaz Diyar Komitəsi ilə birgə Bakının 11-ci Qırmızı ordu tərəfindən işğalçı və kommunist çevrilişi planını hazırlamağa başladılar. Aprelin 27-də, Bakının işğalçı sovet qoşunları tərəfindən mühasirəyə alındığı şəraitdə, Həmid Sultanov AK(b)P MK, RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu və Mərkəzi Fəhlə Konfransı adından Azərbaycan Parlamentinə hakimiyyətin N.Nərimanovun rəhbərliyi ilə sovet fəhlə-kəndli hökumətinə təhvil verilməsi haqqında ultimatum təqdim etdi. Parlament buraxılandan dərhal sonra, aprelin 28-də N.Nərimanovun sədrliyi ilə M.D.Hüseynov, D.Bünyadzadə, A.Əlimov, Ə.Qarayev, H.Sultanov və Q.Musabəyovun daxil olduğu Azərbaycan Müvəqqəti İnqilab Komitəsi (AMİK) yaradıldı. AMİK-in tərkibinin «hümmət»çi bolşeviklərdən ibarət olması təsadüfi deyildi. Yerli azərbaycanlı kommunist-bolşeviklərdən təşkil olunan bu hakimiyyət qurumu Sovet Rusiyasının birbaşa hərbi müdaxiləsini pərdələmək və xalqda yeni hakimiyyətə rəğbət oyatmaq məqsədilə yaradılmışdı.

Bax: 1. Azərbaycan tarixi. 3 cilddə, c.2. – B., 1964; c.3, – B., 1973;

2. Azərbaycan tarixi. 7 cilddə, c.5. – B., 2001;

3. Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. – B., 1964;

4. Rəsulzadə M.Ə. Əsərləri. C.1. – B., 1992;

5. Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века. – Б., 1997;

6. Очерки истории Коммунистической партии Азербайджана. Т.1. – Б., 1985;

7. Отчет сенатора Кузминского, проделанный в Баку и Бакинской губернии в 1905 г. – Б., 1906.

«Hümmət» və Dərbənd şəhəri – 1905-1907-ci illər inqilabı dövründə «Hümmət»in nümayəndələri Dərbəndin müsəlman əhalisi arasında fəal iş aparır və bu işə inqilab əhvali-ruhiyyəli ziyalıları və fəhlələri cəlb edirdilər. «Hümmət» təşkilatının yerli fəalları haqqında dəqiq məlumat yoxdur.

1918-ci ilin aprelində RK(b)P Dərbənd şəhər komitəsi «Əhalinin müsəlman hissəsi arasında öz təsirini gücləndirmək üçün «Hümmət» təşkilatının yenidən yaradılması» məsələsinə baxdı. Bu, bir daha

sübut edir ki, bu təşkilat şəhərdə əvvəllər də mövcud idi.

1918-ci il mayın 9-da Bakı Sovetinin nümayəndəsi Heydər Tağızadənin sədrliyi ilə şəhər hümmətçilərinin iclası keçirildi. İclasın gündəliyində «Hümmət» şəhər təşkilatının genişləndirilməsi və gələcək fəaliyyəti məsələsi dururdu. Mühazirəçi bənna İsmayil Mehdizadə və digər çıxış edənlər Müsəlman milli komitəsinin («Milli komitə») və «Musavat» müsəlman fəhlə təşkilatının fəaliyyətini kəskin tənqid etmişlər. «Hümmət» təşkilatının möhkəmləndirilməsi və genişləndirilməsi qərara alındı. İclasda təşkilata rəhbərlik etmək üçün müvəqqəti komitə seçildi. Bu komitəyə H.Tağızadə, A.Rzayev, İ.Mehdizadə, Q.İldarov, Ter-Qukasov daxil oldular.

«Hümmət» təşkilatının müvəqqəti rəhbərliyi öz sıralarına müsəlman fəhlə və ziyalılarının cəlb edilməsi üzrə fəal iş aparırdı. Onun vəsatəti ilə Dərbəndin Xalq Komissarları Şurası 1918-ci il mayın 11-də qərarla bolşeviklərə və onun rəhbərlik etdiyi Xalq Komissarları Şurasına qarşı mübarizə aparan «Milli komitə» partiyasını ləğv etdi.

1918-ci il iyunun 7-də «Hümmət» təşkilatının A.Rzayevin rəhbərliyi altında yeni ümumi iclası keçirildi.

Gündəlikdə baxılan məsələ:

1. Müvəqqəti komitənin yenidən seçilməsi haqqında;
2. Kooperasiyalar haqqında;
3. Maliyyə vəziyyəti haqqında;
4. RK(b)P Dərbənd bürosuna iki nümayəndənin seçilməsi haqqında;
5. «Hümmət»in RK(b)P-nın Mərkəzi komitəsi ilə əlaqəsi haqqında;
6. Təşviqat komissiyası haqqında;
7. Tarlaların və bağların qorunması haqqında;
8. Mətbuat haqqında;
9. Ləğv olunmuş Müsəlman Milli Komitəsinin əmlakı haqqında;
10. Cari məsələlər.

İclas müvəqqəti komitə əvəzinə aşağıdakı heyətdə təşkilatın icra komitəsini seçdi: M.Rzayev (sədr), Qulamhüseyn Səfərov, C.Nəsirov, Q.Qədirov, H.Eldarov, A.Talıbov, Eyyub. İcra komitəsinin üzvlüyünə namizədlər: M.Əliyev, D.Həmzəyev, M.Hacıyev, Lətifoğlu, Təftiş komissiyasının üzvləri: M.Rzayev, Abdullayev, D.Nəbiyev, namizədlər: Ş.Heydərbəyov, M.Əlihüseynov seçilmişlər.

Q.M.Ağasiyevin və Q.Tağızadənin təşəbbüsü ilə qərara alındı ki, RK(b)P-nin şəhər təşkilatları və «Hümmət» birləşdirilsin və hümmətçilərin nümayəndələri RK(b)P Dərbənd komitəsinə daxil edildi.

Kommunistlərin və hümmətçilərin birgə qurultayı 1918-ci il mayın 15-də keçirildi.

Ümumiyyətlə, «Hümmət» şəhər təşkilatı cəmi 37 gün fəaliyyət göstərdi.

Kadetlər – 1905-ci ildə yaradılmış konstitusiyaçı demokratlar (KD) partiyası. Onun proqramı: konstitusiya və parlament monarxiyası, burjua azadlığı, mülkədar torpaqlarının saxlanılması, «fəhlə məsələsinin» qanun çərçivəsində həlli.

1917-ci il fevral inqilabından əvvəl kadetlərin böyük bir təşkilatına Dərbənd hərbi qarnizonunun rəisi podpolkovnik Malışevski başçılıq etmişdir.

1917-1920-ci illərdə şəhərin siyasi həyatında kadetlərin böyük rolu var idi. Şəhər təşkilatının sədri Malışevski burada Müvəqqəti Hökumət orqanına – İctimai İcraiyyə Komitəsiyz başçılıq edirdi.

Şəhərdə sovet hakimiyyəti qurulduqdan sonra kadetlərin təşkilatı ləğv edilmişdir.

Ümumrusiya Müsəlmanları İttifaqı – Rusiya müsəlmanlarının siyasi təşkilatı. Rusiya imperiyası ərazisində yaşayan türk xalqları 1905-07-ci illər inqilabının təsiri ilə öz azadlıqları uğrunda mübarizəyə qalxdı. Bu yöndə uğur qazanmaq üçün imperiya ərazisində yaşayan bütün türk xalqlarının qüvvələrini birləşdirmək zəruri idi. Həmin məqsədlə 1905-ci il mayın 20-də Peterburqda Rusiya müsəlmanları nümayəndələrinin ilk birgə yığıncağı toplandı. Yığıncaq iştirakçıları Rusiya müsəlmanlarının ümumi siyasi təşkilatını yaratmaq barədə razılığa gəldilər. Rusiya müsəlmanlarının növbəti toplantısına qədər yaradılacaq partiyanın proqram layihəsinin hazırlanıb, növbəti toplantı iştirakçılarının müzakirəsinə verilməsi qərara alındı.

Rusiya müsəlmanlarının 1906-cı il yanvarın 13-23-də Peterburqda keçirilən 2-ci qurultayı Əlimərdan bəy Topçubaşov tərəfindən hazırlanmış Rusiya Müsəlmanları İttifaqı partiyasının nizamnamə və proqram layihələrini bəyəndi, təkmilləşdirmək şərti ilə, qəbul üçün növbəti qurultaya təqdim olunmasını tövsiyə etdi. 1906-cı il avqustun 15-21-də Nijni Novqorodda keçirilən 3-cü qurultayda Rusiya müsəlmanları İttifaqının proqramı qəbul olundu.

Proqram «Siyasi məqsədlər», «Əhalinin hüququ», «Dövlət quruluşu», «Dini qaydalar», «Məhəlli muxtariyyət», «Məhkəmə», «Maarif», «Maliyyə işləri», «Torpaq məsələsi» və «Fəhlə məsələsi» adlı 10 fəsil və 72 maddədən ibarət idi. İttifaqın başlıca məqsədi zamanın, yaranmış vəziyyətin və öz proqramının tələblərinə uyğun olaraq Rusiya müsəlmanlarının siyasi, iqtisadi və dini işlər sahəsində fəaliyyətlərini əməli cəhətdən əlaqələndirmək və istiqamətləndirmək idi. Proqramın fəsillərində milliyətindən, dinindən, cinsindən asılı olmayaraq ölkənin bütün əhalisinin qanun qarşısında bərabərliyi, sinfi imtiyazların, ölkədə və millətlərə münasibətdə qanunların yaratdığı məhdudiyyətlərin tamamilə ləğv edilməsi, qanun çərçivəsində hər bir şəxsin toxunulmazlığı və azadlığı tələb olunurdu. Hər bir şəxsin mənzil toxunulmazlığı, mülki toxunulmazlığı, istədiyi yerdə yaşamaq hüququnun, dini etiqad, sərbəst toplaşma, söz, mətbuat və vicdan azadlığının təmin edilməsi məsələləri proqramda geniş əksini tapmışdı. Proqramda ölkənin hər yerində vətəndaşlara cinsi, dini, milli fərq qoymadan ümumi, bərabər və gizli səsvermə yolu ilə məhəlli milli muxtariyyətlərinin təsis olunması, ölkənin hər yerində ana dilində ibtidai məktəblərin açılması, təhsilin icbari və pulsuz olması, yeni məktəb və mədrəsələrin açılması, sənaye məktəblərinin, kolleclərin, ali məktəblərin artırılmasına xüsusi diqqət yetirilməsi, kəndlilərə torpaq sahələrinin ayrılması, onların kənd təsərrüfatı alətləri ilə təmin edilməsi, fəhlələrə lazımi iş şəraitinin yaradılması, onların iş saatlarının dəqiq müəyyənləşdirilməsi, fəhlələrin iş saatlarından əlavə vaxtlarda istismar olunmasının qadağan edilməsi, qadın və uşaq əməyinin qorunması və s. tələblər göstərilirdi.

Əlimərdan bəy Tobçubaşov tərəfindən hazırlanmış bu proqram qurultayda maddə-maddə müzakirə edilərək, əlavə və dəyişikliklərlə qəbul olundu. «İttifaq» Bakı şəhərini, müvəqqəti olaraq, partiyanın siyasi mərkəzi seçdi. Bu, təsadüfi olmayıb, Ə.M.Tobçubaşovun partiyanın Proqramının hazırlanmasında və Ümumrusiya müsəlmanları qurultaylarının keçirilməsindəki fəaliyyətinin məntiqi nəticəsi idi. Ə.M.Tobçubaşov qurultaydakı çıxışında demişdi: «***Ey möminlər, ey qardaşlar. Mən bu gün o qədər məmnun oldum ki, bu məmnuniyyətimi sizə heç bir dillə tərif edə bilmirəm. Mən bu günü heç vaxt unutmayacağam. Bu günün indidən belə Ümumrusiya müsəlmanları üçün milli bayram günü olacağı şübhəsizdir***».

Qurultayda avqustun 15-nin bütün Rusiya müsəlmanları tərəfindən ümumi bayram günü kimi qeyd edilməsi də qərara alındı. «İttifaqi-müslimin»in Mərkəzi Komitəsinin, Ə.M. Tobçubaşov daxil olmaqla, 15 nəfərdən ibarət daimi bürosu seçilmişdi (bax: «*İttifaqi-müslimin*»).

Bax: Hüseyn Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi. – B., 1992.

Rusiya müsəlmanlarının 1-ci qurultayı 1905-ci il avqustun 15-də Nijni Novqorodda yarmarka zamanı keçirildi. Qurultayda 150-dək nümayəndə iştirak edirdi. Hökumətin rəsmi razılığı olmadan keçirilən qurultaya Qafqaz, Krım, Kazan, Türküstan, Sibir və b. yerlərdən nümayəndələr gəlmişdi. İsmayıl bəy Qaspralı qurultayın sədri, Əlimərdan bəy Topçubaşov, Rəşid İbrahimov və Əbülsüqut Axtyamov isə onun müavinləri seçildilər. Qurultayı Ə.Topçubaşov açdı. Qurultayda müzakirə edilən əsas məsələlərdən biri siyasi və mədəni sahədə bütün Rusiya müsəlmanlarını birləşdirməyə qabil müsəlman siyasi partiyasının yaradılması məsələsi idi. Müzakirələrdən sonra «İttifaqi-müslimin»in (Ümumrusiya Müsəlmanlar İttifaqı) yaradılması qərara alındı. Qurultayın qəbul etdiyi qətnamədə bütün Rusiya müsəlmanlarının vahid hərəkat çərçivəsində birləşdirilməsi, bütün millətlərin nümayəndələrinin bərabər surətdə təmsil olunması əsasında Rusiyada konstitusiyalı monarxiyanın qurulması, müsəlman və rus əhalisinin hüquqi cəhətdən bərabərliyi, müsəlmanlara qarşı ayrı-seçkilik salan bütün qanunların və idarəetmə metodlarının ləğv edilməsi, müsəlmanların mədəni tərəqqisi müddəaları əksini tapmışdı.

Rusiya müsəlmanlarının 2-ci qurultayı 1906-cı il yanvarın 13-23-də Peterburqda gizli şəraitdə, rəsmi icazə olmadan keçirilmişdi. Qurultayda müsəlman və ziyalıların 100-ə yaxın nümayəndəsi iştirak etmişdi. Azərbaycan müsəlmanlarının nümayəndələri – Əlimərdan bəy Topçubaşov, Qara bəy Qarabəyli və Əsədulla Axundov qurultayın işində fəal iştirak etmişlər. Qurultayda «İttifaq»ın proqram və nizamnamə layihələri (Ə.Topçubaşov tərəfindən hazırlanmışdı), 1-ci Dövlət Dumasına seçkilərdə taktika müzakirə olunmuşdu. 23 bənddən ibarət nizamnamə və müvəqqəti proqram layihəsi qəbul edilmiş, növbəti qurultaya qədər çatışmazlıqların aradan qaldırılması

tövsiyə olunmuşdur. Qurultay Duma seçkilərində kadetlərlə birlikdə hərəkət etməyi qərara almışdı.

Rusiya müsəlmanlarının 3-cü qurultayı 1906-cı il avqustun 15-21-də yenə də Nijni Novqorodda keçirildi. Qurultayda 800 nümayəndə iştirak edirdi. Qurultaya Ə.Topçubaşov sədrlik edirdi. Qurultayın işində müsəlman qəzetlərinin naşirləri də iştirak edirdi. Qurultay hər biri 15 nəfərdən ibarət iki komissiya (təhsil və dini işlər üzrə) yaratdı. Komissiya sədrlərinin məruzələri əsasında 33 maddəlik «Məktəb islahatı» və 13 maddədən ibarət dini siyasətin təkmilləşdirilməsi haqqında qərar qəbul edildi.

Qurultayın işində ən əhəmiyyətli hadisə siyasi partiya elan edilən «İttifaqi müslimin»in Əlimərdan bəy Topçubaşov tərəfindən hazırlanan 11 bölmə və 79 maddədən ibarət proqramının qəbul edilməsi idi. Proqramın siyasi hissəsi kadet partiyası proqramına uyğun olsa da, müsəlmanlar üçün səciyyəvi tələblər də nəzərdə tutulmuşdu (müsəlmanlara digər xalqlarla bərabər hüquqların verilməsi, ana dilində təhsil, qəzet və jurnalların nəşri, islam dininə etiqad azadlığı və s.). Proqramda konstitusiyalı monarxiya ideyası irəli sürülürdü. Qurultayda Cənubi Qafqazda milli münaqişələrə son qoyulması haqqında qətnamə qəbul olundu. İttifaqın 15 nəfərdən ibarət mərkəzi Komitəsi (MK) və onun nəzdində 3 nəfərlik daimi büro seçilmişdi. Ə.Topçubaşov MK-nın və büronun üzvü idi. MK Dövlət Dumasında müsəlman fraksiyasının fəaliyyətinə də rəhbərlik etmişdi.

Qurultay 15 avqustun Rusiya müsəlmanlarının həmrəyliyi günü kimi bayram edilməsini qərara almışdı.

«Faruk» - 1906-cı ildə Bakının neft mədənlərində çalışan dağıstanlı fəhlələr arasında siyasi iş aparmaq üçün bolşeviklərin Bakı komitəsi nəzdində yaradılmış sosial-demokratik qrup. Bu qrupa sırf peşəkar inqilabçı dağıstanlılar daxil idi. Qrup öz fəaliyyətini 1907-ci ildə dayandırmışdır. 1917-ci il fevral inqilabından sonra «Faruk» qrupu yenidən yaradılmış və peşəkar inqilabçı-dağıstanlılar – Qazi Məhəmməd Ağasiyev, Müqtədir Aydınbəyov, Həsən Mürsəlov, Nüsrət Məhərrəmov və b. onun fəal üzvləri olmuşlar.

«Faruk» qrupunun Dərbənddəki fəaliyyəti haqqında heç bir arxiv sənədi yoxdur.

İnqilabçı gənclərin gizli təşkilatı. 1912-ci ildə Vladiqafqazdan Dərbəndə birsinifli rus-yəhudi məktəbinə rəhbərlik etmək üçün 25 yaşında gənc riyaziyyat müəllimi – Yakov Lvoviç Markus göndərilir.

1914-cü ildə onun rəhbərliyi altında şəhərdə inqilabçı gənclərin gizli təşkilatı yaradılır. Bu təşkilatın üzvləri əsasən realnı məktəbinin və qadın gimnaziyasının tələbələrindən ibarət idi. Həsən Eldarov, Aleksandr və Olqa Remizovlar, Aron və Lyuba Erlix, Roza Qluskina, Mirzə Əhməd Rzayev, Ağa Əbdürrəhimov, Vera Saksoy, Manya Dluqiy və Əhməd Sultanov təşkilatın ilk üzvləri olmuşlar.

Getdikcə təşkilatın üzvləri artaraq şəhərin fəhlə və kəndli gənclərini də əhatə etmişdir. Belə ki, təşkilatın işinə çəkməçi Hacımurad Amintayev, bənna İsmayıl Mehdizadə, dərzi Cəfər Nəsirov və başqaları cəlb olunmuşdular. Təşkilat üzvləri inqillabi ədəbiyyatlar oxumaqla yanaşı, əhali arasında geniş təbliğat işi də aparmışlar. Təşkilat üzvləri Həştərxan quberniyasının Çornı diyarındakı siyasi sürgünlərlə də əlaqə yaratmış və onlarla gizli yazışmalar aparmışlar. Bu təşkilatın əsas mahiyyəti ondan ibarət idi ki, Dağıstanda Sovet Hakimyətinin qurulması uğrunda mübarizəyə rəhbərlik etmiş gələcək təşkilatçılar burada ilk inqilabi mətanət və tərbiyə almışlar. Onlardan görkəmli partiya, sovet və komsomoll işçiləri olan Kərim Məmmədbəyovun, Müseyib Şahbazovun, Aron Erlixin, Cəfər Nəsirovun, İsmayıl Mehdizadənin, Məzahir Rzayevin, Xandadaş Tağıyevin, Mirzə Əhmədovun adlarını çəkmək olar.

«Musavat» – Şimali Azərbaycanda milli demokrat partiyası (1914-1920). Partiyanın proqramı: milli-ərazi muxtariyyəti, islamçılıq və türkçilik. 1918-ci ilin sentyabrından 1920-ci ilin aprelinədək Musavat Partiyası Şimali Azərbaycanda demokratik respublikaya başçılıq etmişdir. Sovet işğalından sonra (1920-ci il aprel) fəaliyyətini dayandırmışdır.

Arxiv materialları göstərir ki, Musavat Partiyasının təşkilatı 1917-1920-ci illərdə Dərbənddə də fəaliyyət göstərmiş və «Milli komitə» ilə yanaşı, fəal siyasi qüvvələrdən biri olmuşdur. Dərbənddə (1920-ci il mart) Sovet hakimyyəti qurulduqdan sonra fəaliyyətini dayandırmışdır.

«Ümid» – 1916-cı ildə Dərbənddə yaradılmış müsəlman gənclərinin gizli təşkilatı. Bu təşkilata şəhərin yuxarı hissəsində yaşayan və inqilabi müdafiə edən gənclər – Kərim Məmmədbəyov, Xandadaş Tağıyev, Məzahir Rzayev, Muxtar Qafarov, Müseib Şahbazov, İsmayıl Mehdizadə, Səfər Səfərli, Qədir Qədirov, Hadi Məmmədbəyov, Cəfər Nəsirov və

başqaları daxil idi.

Təşkilat üzvləri bir yerə yığışaraq gizli ədəbiyyat oxuyur, Rusiyada və xaricdə baş verən hadisələri müzakirə edir, şəhərin azərbaycanlılar yaşayan hissəsində şəhərə gələn kəndli-müsəlmanlar arasında maarifləndirmə işi aparırdılar.

Təşkilat gizli mətbəə-rektoqraf yaratmış və burada inqilabi vərəqələr çap edərək, Dərbənd stansiyasından keçib Türk cəbhəsinə yollanan hərbi eşelonlara ötürürdü.

Təşkilat üzvləri mətbəəyə «Nur» adı vermişdilər.

Bolşeviklərin şəhər təşkilatı. 1917-ci ilin aprelinədək bolşeviklər Dərbəndin Şimal hissəsinin 4 km-də yerləşən Saruxanovun balıq kombinatındakı dəstəsi (9 nəfər) və Bakı bolşeviklərinin köməyi ilə dəmir yolunda yaradılmış (7 nəfər) RSDF(b)P təşkilatı ilə təmsil olunurdular. 1917-ci il Fevral inqilabından sonra – şəhərdə bütün siyasi partiyalar və təşkilatlar leqallaşarkən şəhərdə hakimiyyət uğrunda gedən mübarizəni birləşdirmək məqsədilə müstəqil bolşevik təşkilatının yaradılması qərara alındı.

Bolşevik təşkilatına praktiki yardım göstərmək üçün şəhərə Bakı RSDF(b)P nümayəndələri, peşəkar inqilabçılar: Qazi Məhəmməd Ağasiyev (Qazi Məmməd), Müqtədir Aydınbəyov (balaca Məmməd), Əlimirzə Osmanov və başqaları gəlir. Onlar bolşevik ədəbiyyatı ilə yanaşı Bakı RSDF(b)P nəzdində müsəlman seksiyasının mətbuat orqanı olan «Hümmət» qəzetini də özləri ilə gətirirdilər.

Şəhərin əhalisini öz tərəflərinə cəlb etmək məqsədilə bolşeviklər həmkarlar ittifaqı yaradır, günün mühüm məsələlərini qabardaraq şəhər sakinləri arasında nüfuz qazanmağa çalışırdılar.

Bolşeviklərin təşəbbüsü ilə fəhlə və hərbi deputatlar şurası 12 avqust 1917-ci ildə şəhərdə altı saatlıq, yayda isə beş saatlıq iş gününün təyin edilməsi haqqında qətnamə qəbul etdilər. İdarə işçiləri üçün 8 saatlıq, yeniyetmələr üçün isə 7 saatlıq iş günü təyin edildi.

Bolşeviklərdən İ.Kobyakov və D.Pozdeyev 1918-ci ilin fevralında kömək almaq məqsədilə Bakıya göndərilmişdir. 1918-ci ilin martında «Bakı Sovetinin Xəbərləri» (rusca) qəzetinin verdiyi məlumata əsasən, onlar Bakı Sovetinin icra hakimiyyətini Dərbənddəki son hadisələr haqqında məlumatlandırmış və Dərbənd bolşeviklərini partiya ədəbiyyatı və savadlı təşviqatçılar və təbliğatçılarla təmin etməyi xahiş etmişdilər. Bakı Soveti Dərbənd bolşeviklərinin xahişini yerinə yetirməyi sürətləndirdi. Bu da onunla əlaqədar idi ki, 1918-ci ilin yanvarında Klerikal-mülkədar Nəcməddin Qotsinski Dağıstanda «imamət» (şəriət monarxiyası) elan etdi və bütün Sovetlərin fəaliyyətini dayandırmağı tələb etdi. Əks təqdirdə, Dağıstan müsəlmanlarının yeni «imamı» bütün sovetlərə, o cümlədən Bakı Sovetinə «qəzavat» («dinsizlərə qarşı müqəddəs müharibə») elan etməklə hədələyirdi.

Bolşeviklərin şəhər təşkilatı 1918-ci ilin mayında Bakı RK(b)P nümayəndələri tərəfindən şəhərdə yaradılmış RK(b)P şəhər komitəsilə birləşdi.

1918-ci il mayın 30-da RK(b)P Şəhər komitəsinin Rəyasət heyəti seçildi. Cari iş onun üzərinə qoyuldu. Rəyasət heyəti həftədə üç dəfə – bazar ertəsi, çərşənbə və cümə günləri iclas keçirirdi. Hər gün saat 10-dan saat 2-yədək (gündüz) sədr (və ya onun yoldaşları) və katib, saat 5-dən 7-dək (axşam) – rəyasət heyətinin növbətçi üzvü tərəfindən gələnlər qəbul edilirdi (bir qədər sonra rəyasət heyəti icra komitəsi adlanmağa başladı).

RK(b)P Şəhər komitəsi öz sıralarına yeni üzvlərin cəlb edilməsi üçün iş aparırdı. «Известия Комитета революционной обороны города Дербента и его района» qəzeti hər nömrədə məlumat verirdi ki, Dərbəndin RK(b)P Şəhər komitəsi «… Baryatinski küçəsində, şəhər məktəbinin yanında Atabəyovların evində yerləşir (hal-hazırda Lenin küçəsi, ev №50; bu binada musiqi məktəbi yerləşir). Partiya üzvlüyünə qəbul hər gün saat 5-dən 7-dək aparılırdı». Partiya sıralarına daxil olanlara üzvlük biletləri verilirdi. Həmin RK(b)P Şəhər komitəsinin yaradılmasından bir ay sonra onun artıq 70-dən çox üzvü var idi.

Bolşeviklərin təşkilatında nizam-intizama xüsusi diqqət verilirdi. Partiyanın Rəyasət heyəti tərəfindən qəbul olunmuş «Partiya nizam-intizamının nizamnaməsi»ndə deyilirdi:

«…1. Partiya və komitənin iclasına hər hansı bir səbəbdənsə gələ bilməyən partiya və ya komitə üzvü bu haqda partiyanın rəyasət heyətinə yazılı şəkildə məlumat verməlidir.

2. Komitə üzvü üzürsüz səbəblərə görə üç dəfə dalbadal komitə iclasına gəlmədikdə, onun sıralarından çıxarılır və bir daha onun heyətinə seçilmək hüququndan məhrum olunur.

3. Partiya üzvü üzürsüz səbəblərə görə üç dəfə

dalbadal ümumi partiya iclasına gəlmədikdə RK(b)P yerli təşkilatının tərkibindən çıxarılır.

4. Partiya üzvü bütün mitinqlərdə, iclaslarda və s. partiya üzrə həmkarlarının partiyanın proqramına və taktikasına uyğun çıxışlarını müdafiə etməlidir.

Bundan əlavə, partiya üzvü bütün mitinqlərdə, iclaslarda və s. partiya rəhbərlərinə, yəni icra komitəsinin üzvlərinə tabe olmalıdır.

Bu fərmanı pozanlar partiyanın yerli təşkilatının sıralarından xaric olunurlar…».

Şəhərdə iclasların, mitinqlərin və müzakirələrin keçirilməsi üçün xüsusi təşviqat kollegiyası, partiya üzvlərini marksizm-leninizm fəlsəfəsi ilə tanış etmək, onların nəzəri səviyyəsinin artırılması və onların dünyagörüşünün genişləndirilməsi üçün partiya kitabxanası yaradılır. RK(b)P Şəhər komitəsinin əsas məsələsi xalq üzərində öz təsirini genişləndirmək idi.

Dağıstan general Denikinin ordusundan azad olunduqdan sonra (1920-ci ilin martı) RK(b)P Dağıstan vilayətinin təşkilat bürosu yaradıldı. Büro vahid ümümdağıstan partiyasının strukturunun yaradılması uğrunda işə başladı. RK(b)P Dərbənd Şəhər komitəsi Dağıstanın RK(b)P təşkilat bürosuna daxil oldu. Bu təşkilat həmçinin Samur, Kür, Qaytaq-Tabasaran partiya dairə təşkilatlarının fəaliyyətini birləşdirirdi.

1920-ci il iyulun 1-də Dərbənd şəhər təşkilatının 105 üzvü və 101 namizədi vardı. Şəhərdə 2 rayon komitəsi: Qala (şəhərin yuxarı müsəlmanlar yaşayan hissəsində) və Şəhər (şəhərin aşağı müxtəlif xalqlar yaşayan hissəsində) komitələri yaradılmışdı.

Hər bir raykomun nəzdində qiraətxana, təbliğat-təşkilat şöbəsi və qadınlar arasında iş aparmaq üçün şöbə açılmışdı. Raykom tərəfindən keçirilən bütün mitinqlərdə, iməciliklərdə partiya üzvlərinin və namizədlərin iştiraki məcburi idi.

1925-ci ildə (14-cü qurultaydan sonra) partiyanın adı Ümumittifaq kommunist (bolşeviklər) partiyasına dəyişdirildi və Dərbəndin partiya təşkilatı UİK(b)P şəhər komitəsi adlanmağa başladı. 1952-ci ildən isə (19-cu qurultaydan sonra) – (КПСС) Sovet İttifaqı KP Dərbənd Şəhər komitəsi adlandırıldı.

1960-cı ildən şəhər və rayon üzrə ayrı-ayrı partiya təşkilatları fəaliyyət göstərirdi: Dərbənd şəhər komitəsi və Dərbənd rayon komitəsi.

1991-ci ilin avqustunda Kommunist partiyasının fəaliyyəti dayandırılmışdır.

Dərbənd şəhər hərbi-inqilab komitəsi – sovet hakimiyyəti orqanı. Zəhmətkeş və hərbi deputatlar sovetinin 28 oktyabr 1917-ci il hərbi yolla çevrilişindən sonra bolşeviklər tərəfindən noyabrın əvvəlində yaradılmışdır.

Komitə cəmi 5 ay fəaliyyət göstərdi və 2 aprel 1918-ci il də şəhəri tutmuş Dağıstanın imamı Nəcməddin Qotsinski (Hotsalı) tərəfindən buraxıldı.

«Ədalət» - 1917-ci ildə Bakıda yaradılmış Cənubi Azərbaycandan olan fəhlələrinin sosial-demokrat təşkilatıdır. 1917-ci ildən bu günə qədər Bakıda çıxan hüquqşünaslar ittifaqının orqanı olan qəzet. Təşkilatın FKP(b) Bakı komitəsində və onun «Hümmət» müsəlman seksiyasında öz nümayəndələri var idi. Eyni zamanda, «Hümmət» tərəfindən «Ədalət» təşkilatına M.Əzizbəyov təhkim olunmuşdu. «Ədalət»in Orta Asiyada, Cənubi Qafqazda və Dağıstanda (Dərbənddə, Temirxan Şurada, Port-Petrovskda) özünün seksiyaları vardı. Təşkilat «Ədalət» adlı jurnal və qəzet buraxırdı. «Ədalət», Azərbaycanda və Dağıstanda öz işini Bakı FKP(b) «Hümmət» müsəlman seksiyası ilə, sonralar FKP(b) ilə sıx əlaqədə aparırdı.

1920-ci ildə «Ədalət» təşkilatı Qafqazda, Orta Asiyada və Həştərxanda FKP(b) tərkibinə daxil oldu.

İctimai Təşkilatların İcraiyyə Komitəsi – Rusiyada Fevral inqilabından (1917) sonra Müvəqqəti hökumətin təşkil olunmuş yerli idarəetmə orqanları. Cənubi Qafqazın idarəsi üçün *Xüsusi Zaqafqaziya Komitəsi* (XZK; rus dilində OZAKOM «Особый Закавказский Комитет» adlanır) təsis edilmişdi. Quberniya və qəzalarda ictimai təşkilatların icraiyyə komitələri yerli idarəetmə orqanları oldu. Martın 3-də Bakı Şəhər Duması ictimai təşkilatların müvəqqəti komitəsini yaratmağı qərara aldı. Ayın 5-də Bakı İctimai Təşkilatlar Şurası yaradıldı, 17-də isə onun İcraiyyə Komitəsi seçildi.

İcraiyyə Komitəsinin tərkibinə L.L.Biç (sədr, sonra onu V.İ.Frolov əvəz etmişdi), Məmmədhəsən Hacınski, İbrahim bəy Heydərov və b. daxil idi. Yelizavetpolda (Gəncə) icraiyyə komitəsinin sədri Xəlil bəy Xasməmmədov seçilmişdi. İcraiyyə komitələri ictimai təhlükəsizliyi təmin etməli və yeni dövlət qanunlarını həyata keçirməli idi. Onlar quberniya və qəza komissarlarını təyin edirdilər. Xüsusi Zaqafqaziya Komitəsi əldə edilmiş təcrübəni nəzərə almaqla, aprelin 27-də «Zaqafqaziyada yerli idarəetmənin təşkili haqqında» qərar qəbul

etdi. Qərara uyğun olaraq, icraiyyə komitələrinə yeni seçkilər keçirilməli idi. Lakin bu seçkilər də yaşamağa qadir yerli idarəçilik sistemi yarada bilmədi. Bakı Soveti 1917-ci il oktyabr çevrilişindən sonra Bakıda hakimiyyəti ələ almağa cəhd göstərdi. Sovet oktyabrın 27-də keçirilən yığıncağında ali hakimiyyət orqanı kimi İctimai Təhlükəsizlik Komitəsi yaratmağa nail oldu. Lakin Sovetdə mövqelərini möhkəmləndirən bolşeviklər Bakıda ali hakimiyyət orqanı kimi Bakı Soveti İcraiyyə Komitəsini (sədr S.Şaumyan) yaratdılar. Təkhakimiyyətliliyə can atan İcraiyyə Komitəsi noyabrın 12-də Bakı Soveti ictimai təhlükəsizlik komitəsinin ləğvi haqqında qərar qəbul etdi, noyabrın 22-də ictimai təşkilatlar şurası buraxıldı. Siyasi şəraitin mürəkkəbləşməsi ilə əlaqədar, Yelizavetpol quberniyasında hərbi vəziyyət elan olundu, 16 nəfərdən ibarət ictimai təhlükəsizlik komitəsi yaradıldı. İcraiyyə komitələri azərbaycanlıların dövlət idarə orqanlarına cəlb edilməsində müəyyən rol oynadı.

Bax: 1. Azərbaycan tarixi. 7 cilddə, c.5. – B., 2001;

2. Мильман А. Политический строй Азербайджана в XIX – начале XX веков. – Б., 1966;

3. История государства и права Азербайджанской ССР. – Б., 1964.

«İttihad» – Azərbaycan milli dini partiyası, islam ideologiyasına əsaslanırdı, 1918-ci ilin yanvarında Bakıda fəaliyyət göstərən «Rusiyada müsəlmanlıq» partiyası ilə Gəncədəki «İttihadi-İslam» cəmiyyətinin birləşməsi nəticəsində yaradılmışdı.

Görkəmli pedaqoq Sultanməcid *Qənizadə*, tanınmış sahibkar Bəşir bəy Aşurbəyov, Bakı Müsəlman İctimai Təşkilatları Şurası sədrinin müavini Mir Yaqub *Mehdiyev*, həkim Kərim ağa Sultanov, Axund Molla Ələkbər Abbasquluzadə, Axund Molla Hənifə və b. 1917-ci ilin yayında Bakıda «Rusiyada müsəlmanlıq» partiyasının təşkilat komitəsini yaratmışdılar.

1918-ci ilin yanvarında «Rusiyada müsəlmanlıq» partiyası və Gəncədə keçmiş «Difai» partiyasının rəhbərlərindən biri şeyxülislam Molla Məhəmməd Pişnamazzadənin başçılıq etdiyi «İttihadi-İslam» cəmiyyəti birləşərək, «İttihadi-İslam-Rusiyada müsəlmanlıq» adlandırıldı. Bakıda daşnakların azərbaycanlılara qarşı törətdikləri mart soyqırımından sonra partiyanın fəaliyyəti, əsasən Cənubi Qafqaz seymində təmsil olunan fraksiya çərçivəsində davam edirdi. Fraksiyada «İttihad»ın nümayəndələri S.Qənizadə, M.Y.Mehdiyev və Heybətqulu Məmmədbəyli təmsil olunmuşdular. Seymdə fəaliyyət göstərdikləri dövrdə «Müsavat» və «İttihad» partiyaları, demək olar ki, bütün mühüm məsələlərdə həmrəylik göstərərək, birgə mövqedən çıxış edirdilər.

1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyi elan edildikdən sonra partiyada böyük canlanma baş verdi. Bu canlanma doktor Qara bəy *Qarabəyli* partiyanın rəhbəri olduğu dövrdə (1918-ci ilin sentyabrından) xüsusilə gücləndi. Onun səyləri nəticəsində «İttihad» nüfuzlu partiyaya, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin «Müsavat»dan sonra ən böyük fraksiyasına çevrildi. Partiyanın rus və Azərbaycan dillərində «İttihad» adlı qəzeti çap olunurdu. Başqa partiyalardan fərqli olaraq, «İttihad» islam beynəlmiləlçiliyini təbliğ etdiyindən Azərbaycanın digər müsəlman əhalisi də (ləzgilər, kürdlər, talışlar) ona rəğbət bəsləyirdi. Partiyanın aparıcı qüvvəsini ziyalılır, sahibkarlar və din xadimləri təşkil edirdi. «İttihad»ın Azərbaycan kəndliləri və ordu arasında da nüfuzu var idi.

Partiyanın 1918-20-ci illərdəki fəaliyyəti, əsas etibarilə, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin işi ilə bağlı idi. Parlament açılarkən «İttihad» orada 11 üzvlə təmsil olunmuşdusa, 1920-ci ildə onların sayı 13 nəfərə çatmışdı. «İttihad»çılar Azərbaycan Parlamentində aparıcı fraksiya olan «Müsavat»a qarşı kəskin qarşıdurma şəraitində fəaliyyət göstərmişdir. Hələ ilk iclaslardan parlamentdə səs çoxluğuna malik olan «Müsavat» «İttihad»ı hökumət koalisiyasından kənarda qoymağa müvəffəq oldu. «İttihad» isə, öz növbəsində, Fətəli xan Xoyskinin rəhbərlik etdiyi hökumətə etimad göstərməyəcəyini gizlətmirdi. 1918-ci ilin dekabrında işə başlayan hökumət cəmi 2 aylıq fəaliyyətdən sonra istefa verməyə məcbur oldu. Bu, «İttihad»ın neft və neft məhsullarının qanunsuz satışı barədə təqdim etdiyi sorğudan və hökumətə etimadsızlıq göstərməsindən sonra baş verdi. «Müsavat» F.X.Xoyski kabinetinin istefasını «İttihad»ın hökumətə əks mövqeyi ilə, «İttihad» isə yalnız hökumətin özünün buraxdığı səhvlərlə əlaqələndirirdi. Bundan sonra «İttihad» parlamentə, Azərbaycanın dövlət müstəqilliyini tanımaq istəməyən partiyalar (rus-slavyan və erməni fraksiyaları) istisna olmaqla, geniş koalisiya yaratmaq

təklifini irəli sürsə də, «Müsavat» buna razı olmadı və beləliklə, gələcək hökumət böhranlarının təməli qoyuldu. Nəsib bəy Yusifbəylinin başçılıq etdiyi yeni hökumət koalisiyasında ermənilərin və rusların yer alması, «ittihad»çıların isə təcrid olunması sonuncuların bu kabineti ciddi tənqid etməsinə səbəb oldu. Tənqidin əsas hədəfləri daxili işlər nazirliyinin fəaliyyəti, hökumətin kadr siyasəti, maarif sahəsində əyintilər, Qarabağ və qaçqınlar problemləri idi.

1919-cu ildə «İttihad»ın parlamentdənkənar fəaliyyəti də genişləndi. Göyçay, Şamaxı, Cavad qəzalarında, Gəncədə, Qarabağda, Dağıstanda partiyanın şöbə və komitələri açılmışdı. «İttihad»ın nüfuzlu dayaqlarından birinə çevrilmiş Qarabağ komitəsi oraya general-qubernator təyin olunmuş Xosrov paşa bəy Sultanovun köməkliyi ilə yaradılmışdı. Həmin vaxt «Müsavat»ın üzvü olan bəzi şəxslər də bilavasitə «İttihad»ın rəhbərliyinə cəlb olunmuşdu. 1919-cu il aprelin 10-da «İttihad»ın I qurultayı çağırıldı. Partiyanın sədri Q.Qarabəylinin nitqində bütün siyasi qüvvələr Azərbaycanın müstəqilliyi naminə «firqəbazlıq»dan əl çəkməyə çağırılırdı. Nitqdə qeyd olunurdu ki, ««İttihad» bütün səylərini milli barışığın əldə olunmasına, Azərbaycanın müstəqilliyini qəbul edən firqələrin bu amal ətrafında birliyinə yönəltməlidir və partiyanın taktiki xəttini məhz bu vəzifə müəyyən etməlidir». Partiya proqramının qəbulunda «İslamın siyasi kodeks kimi bizə verdiyi hazır təşkilat formulunu kənara ata bilmərik» deməklə məramnamədə firqə ideallarının toxunulmaz qalacağı təsdiq olunmuşdu. Bununla belə, bəzi məsələlərdə, o cümlədən torpaq məsələsində dəyişikliklər edilmiş və torpaqların bir hissəsini mülkədarlarda saxlamaq şərtilə, qalanlarının tədricən əkinçilər arasında bölüşdürülməsi barədə maddə salınmışdı. Qurultayda 22 nəfərdən ibarət Mərkəzi Komitə seçilmişdi. Qurultayın qəbul etdiyi qərarların çoxunun həyata keçirilməməsinə baxmayaraq, partiyanın tərkibi bundan sonra xeyli genişlənmişdi. «İttihad»ın I qurultayında hər 20 nəfərdən 1 nümayəndə seçilmək şərtilə, 300 nəfər partiya üzvü iştirak etmişdisə, 1920-ci ilin yanvarında keçirilən II qurultayında hər 100 üzvdən 1 nümayəndə seçilməklə 1000 nəfər iştirak edirdi. Qurultay 19 maddədən ibarət qərarlar toplusu qəbul etmişdi. Onların içərisində Türkiyə ərazisinin müdafiə edilməsi, daşnakların müsəlmanlara qarşı qəddarlıqlarının qarşısını almaq üçün qətiyyətli tədbirlər görülməsini hökumətdən tələb etmək, əsgərlərin təminatını yaxşılaşdırmaq və onlarla pis rəftar edənləri cəzalandırmaq, dözülməz dərəcəyə çatmış rüşvətxorluğun və cinayətkarlığın qarşısını qətiyyətlə almaq, alış-verişi sərbəstləşdirmək, lazımi miqdarda məktəblər açmaq, torpaqların əhaliyə verilməsi üçün komissiya yaratmaq, Müəssislər məclisini mart ayından gec olmayaraq toplamaq, hökumət qəzetlərinin bitərəfliyini təmin etmək və s. barədə qərarlar var idi. Qurultay partiyanın 32 nəfərdən ibarət Mərkəzi Komitəsini seçdi. Nəcəf bəy *Vəzirov*, Həbib bəy *Mahmudbəyov*, Mir Məhəmməd Mir Bağırzadə MK-nın yeni tərkibinə seçilmişdilər.

Qurultayda səslənən tələbləri «İttihad» fraksiyası parlamentdə də hökumətin qarşısında növbəti dəfə sorğu şəklində qoyaraq, N.Yusifbəyli kabinetinin istefasına nail oldu. 1919-cu il avqustun sonundan N.Yusifbəyli yeni kabinetin təşkilinə başlayarkan «ittihad»çılara koalisiyaya qatılmağı təklif etdi. Çox çətin və uzun sürən danışıqlardan sonra kompromis variant kimi 5-ci hökumət kabinəsində daxili işlər naziri vəzifəsinə Məmməd Həsən Hacınskinin namizədliyi təsdiq olundu, maarif və dini etiqad naziri vəzifəsinə əvvəl Həmid bəy Şahtaxtinski, sonra isə (1920-ci il martın 5-dən) «ittihad»çı Nurməmməd Şahsuvarov təyin edildi. Parlamentin yeni rəhbərliyinin seçilməsi zamanı «ittihad»çı S.Qənizadə parlament sədrinin müavini seçildi. «İttihad» yeni hökumət qarşısında 11 bənddən – Denikinə qarşı qəti addımlar atmaq və Azərbaycan ərazisini ona rəğbət bəsləməyən qüvvələrdən təmizləmək, əhalinin maddi vəziyyətini yaxşılaşdırmaq, qanunsuz əməllərdə yaxalanmış məmurları məhkəmə məsuliyyətinə cəlb etmək və s.-dən ibarət tələblər qoydu. Lakin bəzi işlərin görülməsinə baxmayaraq, yeni kabinetin də ömrü uzun olmadı. Müxalif qüvvələr yenə də bir-birlərinə güzəştə getmədilər. «İttihad»ın öz nümayəndələrini kabinetdən geri çağırması, sonra isə sosialistlərin və «Əhrar»ın koalisiyadan çıxması hökumətin istefası ilə nəticələndi. Sovet ordusunun Azərbaycana yaxınlaşması və bolşeviklərin mövqeyinin güclənməsi ilə əlaqədar yeni kabinetin formalaşdırılması «İttihad»ın və «Müsavat»ın razılığı ilə sol yönlü M.H.Hacınskiyə tapşırıldı. Lakin M.H.Hacınskinin bolşeviklərlə koalisiya yaratmaq səyləri nəticəsiz qaldı və o, aprelin 22-də, yəni bolşevik işğalından bir

neçə gün əvvəl istefa verdi. Aprelin 27-də M.H.Hacınski, Q.Qarabəyli və sosialistlər fraksiyasının nümayəndələri çıxış edərək, bolşeviklərin parlamentə təqdim etdiyi ultimatumu dəstəkləyib, hakimiyyəti sovetlərə təhvil vermək tərəfdarı olduqlarını bildirdilər. Onlar, həmçinin parlament üzvlərini inandırmağa çalışırdılar ki, qırmızı ordu Bakıya girmədən Türkiyəyə köməyə getmək niyyətindədir. Müsəlman dünyasının azadlıq mübarizəsini özlərinin əsas proqram məqsədlərindən sayan «ittihad»çılar bolşeviklərə müttəfiq kimi baxırdılar və bu səhv baxışın nəticəsi olaraq, bolşevizm işğalını bu məqsədə doğru yönəlmiş bir addım kimi qarşıladılar.

Bolşeviklərə böyük umid bəsləyən və «Müsavat»la daim mübarizədə olan «İttihad»ın fəaliyyəti Azərbaycanda sovet hakimiyyəti bərqərar olduqdan sonra dayandırıldı. Partiyanın bir çox üzvü mühacirətə getdi. Azərbaycan Baş Siyasi İdarəsinin 1920-ci illərə aid sənədlərindən birində göstərilir ki, «İttihad»ın bəzi üzvləri dindar kəndlilər arasında sovet rejiminə qarşı təşviqat aparmaqla gizli fəaliyyət göstərməkdə davam edirdilər. 1929-cu ildə 474 nəfər «ittihad»çı qəza orqanları tərəfindən həbs edilmiş, onların bir qismi uzaq Şimala sürgün olunmuşdur. Partiyanın lideri Q.Qarabəyli isə sovet dövründə bir neçə dəfə həbs edildi, 1920-ci ildə əvvəl Solovki həbs düşərgəsinə (Rusiyanın Arxangelsk vilayəti), sonra isə Səmərqəndə sürgün olundu. 1937-ci ildə yenidən həbs olunaraq, Kolımaya (Maqadan vilayəti) göndərildi, 10 ildən sonra Səmərqəndə qayıdaraq, 1953-cü ildə orada vəfat etdi.

Bax: 1. Göyuşov A. Azərbaycanda ittihadçılıq. – B., 1977;

2. Azərbaycan Cümhuriyyəti (1918-1920). – B., 1998;

3. Rəsulzadə M.Ə. Azərbaycan Xalq Cümhuriyyəti. – B., 1990;

4. Məmədzadə M.B. Milli Azərbaycan hərəkatı. – B., 1992;

5. Агамалиева Н., Худиев Р. Азербайджанская Республика. Страницы истории. 1918-1920. – Б., 1994;

6. Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг. – Б., 1998.

Dərbənd şəhər İnqilabi Müdafiə Komitəsi. General Denikinin ordusu Şimali Qafqazdan getdikdən sonra (mart 1920-ci il) Dağıstan üzərində 1918-ci ildə özünü Dağıstanın imamı elan etmiş Nəcməddin Qotsinskinin başçılığı altında dağlıların antisovet üsyanı yetişirdi. Bolşeviklər belə vəziyyətdə idarəçilik orqanı olan sovetlərə ümumi seçkilərin aparılmasının mümkün olmadığını başa düşdülər. Ona görə də hakimiyyət orqanlarının funksiyası İnqilabi komitələrə həvalə edildi. XI Qızıl ordunun inqilabi hərbi şurasının Şimali Qafqazda və Dağıstanda inqilabi hakimiyyət orqanlarının yaranmasına rəhbərlik üçün yönəlmiş təlimatında deyilirdi: «…ağqvardiyaçılardan azad olmuş bütün yerlərdə tezliklə sovet hakimiyyəti bərpa olunur. Sovet hakimiyyətinin ilkin forması inqilabi komitələr hesab olunur».

İnqilabi komitələr qarşısında, sovet hakimiyyətinin müvəqqəti orqanları kimi, aşağıdakı məsələlər dururdu: əksinqilabçıların qalıqlarının məhv edilməsi; devrilmiş sinfin əmlakının müsadirə olunması; banditizm ilə mübarizə; qırmızı ordu hissələrinin və zəhmətkeş əhalinin ərzaqla təminatı.

M.Şahbazov Dərbənd şəhər İnqilabi komitəsinin sədri təyin edilmişdir.

Dərbənd şəhərinin İnqilabi komitəsi 1921-ci ilin noyabrınadək fəaliyyət göstərmişdir. Həmin ildə şəhər Soveti seçilmişdir.

Komsomol (Kommunist Gənclər İttifaqı). Dərbənd şəhərində sovet hakimiyyəti qurulduqdan sonra (25 mart 1920-ci il) bolşeviklər ölkədə 1918-ci il oktyabrın 29-dan fəaliyyət göstərən Rusiya kommunist gənclər ittifaqı (RKGİ) qurumlarını yaratmağa başladılar.



Komsomol təşkilatı. Mərkəzdə - Komsomolun 1-ci katibi Zakir Qarayev (1956-cı il)

15 nəfərdən ibarət ilk komsomol qurumu dəmiryolunda yarandı. Bu qurumun üzvləri: Liza Antonova,

Nüsrət Vəzirov, İsay Naxşunov, Vera Saksoy, İvan Myasnikov, Tosya Osinova, Aleksandr Saksoy və s.

Həmin ilin payızında təşkilatı ilk şəhər komsomol konfransı keçirildi. Konfransın hazırlanmasına və keçirilməsinə kömək göstərmək üçün Bakıdan RKGİ-nın təşkilat bürosunun nümayəndəsi gəlmişdir.

Konfrans şəhər komsomol təşkilatının yaratdı və onun rəhbər orqanlarını seçdi. 14 yaşlı Semyon Erlix təşkilatın ilk katibi seçildi. Lakin bir aydan sonra Dağıstan vilayət komsomol komitəsinin əmrinə əsasən o Dağıstan imamı Nəcməddin Qotsinskinin başçılığı altında qiyamı yatırtmağa göndərildi və Arakansk dərəsində gedən döyüşlərdə həlak oldu.

Onun yerinə bacısı Lyuba Erlix birinci katib seçildi. Şəhər komsomol komitəsi Qolisin küçəsindəki (hazırda Buynaksk küçəsi) 29 saylı yaşayış binasında yerləşirdi.

1922-ci ildə şəhər komsomol komitəsi Krasnoarmeysk 12 döngəsindəki binaya köçürüldü. Burada partiya dairə komitəsi yerləşirdi.

Şəhərin ilk komsomol fəalları aşağıda adları çəkilənlərdir: Aron, Semyon və Lyuba Erlix, Nüsrət Vəzirov, Liza Antonova, İsay Naxşunov, Vera və Aleksandr Saksoy, Həsən Eldarov, Mişa və Olqa Remizovlar, Roza Qluskina, Mirzə Əhməd və Məzahir Rzayev, Hacımurad Əmintayev, İsmayıl Mehdizadə, Cəfər Nəsirov, Aba Abdurəhimov, Manya Dluqi, Əhməd Sultanov, Sofya Narodovoltseva, Tosya Osipova, İvan Myasnikov, Aleksandr Kim, Mişa, Kim və Zilya Laski, Kərim Məmmədbəyov, Polina Qrebennikova, Nikolay Toparkov, Cahangir Həmzəyev, Müseyib Şahbazov, İosif Dosenko, Alla Kiparenko, Boris Boruxov, İosif Ruvinov, Vladimir Şotniyev, A.Suxorukov, P.Malinenko, A.Prilenski, M.Klimenko, Qney, Şerbakova, Kuzmina, Brüxanov, Perşin, Syomin və başqaları. 70 il ərzində şəhər komsomol təşkilatından on minlərlə gənc keçmişdir (1991-ci ildə təşkilatın üzvlərinin sayı 8 min nəfərə çatırdı). 1991-ci ildə şəhər komsomol təşkilatı öz işinə xitam verdi.

Müxtəlif illərdə şəhər komsomol təşkilatının birinci katibləri aşağıdakılar olmuşdur:

Semyon Erlix, Lyuba Erlix, Qriqori Kremin, Daqayev, Əsədulla Maqomedov, Kərim Qarayev, Mixail Sotnikov, Qranya Loxatkina, Semyon İldatov, Həbib Mövsümov, Viniamin Qəzənfərov, Fəxri Məmmədov, Zakir Qarayev, Stanislav Filatov, Taisiya Mixayliçenko, Fəridə Hüseynova, Georgi Bayev, Timur Teymurov, Hüseynbala Hüseynov, Vaqif Feyziyev, Şamil Osmanzadə, Susanna Mirzəxanova, Qaraxan Umarov, Ağabala Əhədov, Fizuli Saquyev.

Qafqaz Konfransı – Azərbaycan Xalq Cümhuriyyəti, Gürcüstan, Ermənistan və Dağlılar respublikaları nümayəndələrinin 1918-19-cu illərdə Qafqazda münaqişələri nizama salmaq və əməkdaşlığı inkişaf etdirmək üçün keçirdikləri toplantı. Birinci dünya müharibəsinin (1914-18) sona çatdığı bir şəraitdə qarşıdan gələn sülh konfransında Qafqaz dövlətlərinin ümumi mövqedən çıxış etmələri və aralarındakı problemlərin həlli üçün Gürcüstan tərəfi 1918-ci il oktyabrın 27-də Azərbaycan, Ermənistan və Dağlılar respublikalarına müraciətlə Qafqaz konfransında iştirak etmək məqsədilə Tiflisə səlahiyyətli nümayəndələr göndərməyi təklif etdi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti bu təklifi razılıqla qarşılayaraq, noyabrın 11-də konfransda iştirak etmək üçün Mustafa Vəkilov və Məmməd Yusif Cəfərovdan ibarət nümayəndə heyəti yaratdı. Dağlılar Respublikası Tiflisə V.Cabagiyev və P.Kotsevdən ibarət nümayəndə heyətini göndərdi. Ermənistan isə Gürcüstan və Azərbaycana qarşı ərazi iddiasında olduğu və silahlı qüvvə tətbiq etməklə işğallara başladığı üçün təklənməkdən qorxaraq, konfransda iştirakdan boyun qaçırdı və öncə Gürcüstanla Borçalı ilə bağlı münaqişəni «həll etməyi», yəni qəzanın bir hissəsinin Ermənistana verilməsini şərt kimi irəli sürdü.

Qafqaz konfransı 1918-ci il noyabrın 14-də Tiflisdə işə başladı. Ermənistan nümayəndə heyəti iştirak etmədiyindən, Gürcüstan nümayəndə heyətinin başçısı Y.Gegeçkorinin təklifi ilə konfrans noyabrın 20-dək təxirə salındı. Sonra elə həmin səbəbdən konfransın açılışı daha 2 dəfə təxirə salındı və işə başlaması dekabrda da mümkün olmadı. Ermənistan tərəfi isə Almaniya və Osmanlı imperiyasının müharibədə məğlub olmasını, Bakıya ingilis qoşununun çıxarılmasını özü üçün əlverişli hesab edərək, dekabrın 15-də Gürcüstana qarşı hərbi əməliyyatlara başladı. Bu münaqişə ingilis hərbi qüvvələri nümayəndələrinin fəal müdaxiləsindən sonra dekabrın 31-də dayandırıldı. 1919-cu il yanvarın 9-da Tiflisdə Azərbaycan, Gürcüstan və Ermənistan nümayəndələri arasında qarşılıqlı danışıqlar başlandı. Azərbaycan-Gürcüstan danışıqlarında Qafqaz konfransına hazırlıq üçün siyasi məsələlər, maliyyə

məsələləri, dəmir yolu və poçt-teleqraf, gömrük və ticarət məsələləri üzrə 4 bölmə yaradılması qərara alındı. Bu məsələlər üzrə bölmələrdə iş aparılması və müvafiq nəticə əldə edildikdən sonra konfransın rəsmi müzakirəsinə çıxarılması nəzərdə tutulurdu.

Qafqaza ingilis qüvvələrinin yeridilməsi ilə yaranan qeyri-müəyyənlik, Qafqaz respublikaları arasında qarşılıqlı etimadsızlığın güclü olması kimi amillər bu sahədə işlərin başlanmasına mane olurdu. Bununla belə, Qafqaz respublikaları arasında normal əlaqələr yaradılması həyati zərurət idi. Ona görə də 1919-cu il fevralın 22-də Gürcüstan xarici işlər naziri qonşu ölkələr arasında dəmir yolu hərəkətinin tənzimlənməsi, poçt-teleqraf rabitəsi, gömrük, maliyyə və mal mübadiləsi məsələlərinin müzakirəsi üçün konfrans keçirilməsi təklifi ilə Azərbaycan, Ermənistan və Dağlılar respublikalarına müraciət etdi. Azərbaycan hökuməti konfransda iştiraka razılıq verdi və gündəliyə siyasi xarakterli məsələlərin: beynəlxalq sülh konfransında birgə iştirak və Qafqaz respublikalarının müstəqilliyinin müdafiəsi sahəsində əməkdaşlıq, sərhəd-ərazi mübahisələrinin sazişlər yolu ilə həlli, bu mümkün olmadıqda, arbitraj vasitəsilə nizama salınması məsələlərinin müzakirəsini də təklif etdi. Gürcü və erməni tərəfləri bu təklifi qəbul etdikdən sonra, konfransın əməli işinə hazırlığa başlandı.

1919-cu il aprelin 11-də Qafqaz konfransı rəyasət heyəti adından Qazax, Naxçıvan və Qarabağda davam edən qanlı toqquşmaların dərhal dayandırılması üçün Azərbaycan Xalq Cümhuriyyəti və Ermənistan hökumətlərinə müraciət edildi. Elə həmin gün Azərbaycan tərəfi konfransın işinin sakit şəraitdə keçməsi və səmərəli işləməsi üçün Qafqazdakı bütün millətlərarası toqquşmaların dərhal dayandırılması məsələsinin müzakirə edilməsinə razı olduğunu bildirdi.

Aprelin 18-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Qafqaz konfransında iştirak etmək üçün aşağıdakı tərkibdə nümayəndə heyətini təsdiq etdi: Parlamentin üzvü Fətəli xan Xoyski (sədr), xarici işlər naziri Məmməd Yusif Cəfərov və parlamentin üzvü Məmməd Əmin Rəsulzadə.

Qafqaz konfransı 1919-cu il aprelin 27-də Tiflisdə işə başladı. Konfransın işində Azərbaycan Xalq Cümhuriyyəti, Gürcüstan və Ermənistan nümayəndə heyətləri iştirak edirdi. Həmin vaxt Dağlılar Respublikası Denikin ordusunun hücumuna məruz qaldığı və ərazisinin əsas hissəsini itirdiyi üçün bu konfransa nümayəndə göndərə bilməmişdi. Konfransı Gürcüstan Respublikasının xarici işlər naziri Y.Gegeçkori açaraq bildirdi ki, Qafqaz xalqlarının həyati mənafeyi, müstəqillikləri üçün gələcəkdə yarana biləcək bütün təhlükələrə qarşı onların birləşməsini tələb edir. Bu istiqamətdə ilk addım siyasi və iqtisadi ittifaq, vahid cəbhə təşkil etməkdir. Azərbaycan Xalq Cümhuriyyəti nümayəndə heyətinin başçısı Fətəli xan Xoyski və Ermənistan nümayəndə heyətinin başçısı, xarici işlər naziri S.Tiqranyan öz hökumətləri adından bildirdilər ki, Qafqaz xalqları birləşməlidirlər və yalnız bu halda birgə, razılıq əsasında yaşamaq mümkündür.

Konfransın rəyasət heyətinin iclasında Fətəli xan Xoyskinin təklifinə əsasən Qafqaz dövlətləri arasında münasibətlərin bütün sahələrdə nizama salınması üçün ərazi-sərhəd mübahisələrinin həlli prinsipləri və yolların müəyyən edilməsi; dəmir yolu, poçt və teleqraf əlaqələrinin nizamlanması; ticarət, gömrük və maliyyə məsələləri, siyasi məsələlər (müstəqilliklərin qarşılıqlı tanınması, xarici təcavüzün qarşısının alınması, vətəndaşlıq məsələləri); məhkəmə-hüquq məsələləri (cinayətkarların verilməsi, dövlətlərə qarşı iddialar qaldırılması); qaçqınlar və köçəri əhali üzrə komissiyalar yaradılması qərara alındı. May ayı ərzində konfransın işi bu komissiyalarda davam etdirildi.

Qafqaz konfransında ərazi-sərhəd məsələsinin müzakirəsi və həlli yollarının müəyyən edilməsi onun ən böyük uğuru oldu. Uzun mübahisələrdən sonra aşağıdakı qərar qəbul edildi: Qafqaz dövlətlərinin sərhədlərinin müəyyən edilməsində yalnız respublikalar arasında qarışıq əhaliyə malik bölgələr haqqında mübahisəli məsələlər müzakirə obyekti ola bilər; respublikalar mübahisəli ərazilərlə bağlı öz aralarında razılığa gələ bilmədikdə bu mübahisələr arbitraj yolu ilə həll olunur. Konfransda, birgə bon buraxılmasına, köçəri əhalinin hərəkət qaydalarına, iqtisadi əməkdaşlığa dair mühüm razılaşmalar da əldə edildi.

1919-cu ilin yazında regionda vəziyyətin kəskin dəyişməsi, Denikin ordusunun Dağlılar Respublikasını işğal etməsi və sürətlə cənuba doğru irəliləməsi, Azərbaycan Xalq Cümhuriyyəti və Gürcüstan üçün ciddi təhlükə yaratması konfransın işində gərginliyə səbəb oldu. Ermənistan nümayəndəliyinin Denikin ordusunun Dağıstanı işğal etməsinə və Cənubi Qafqa-

za qarşı təcavüzkar hərəkətlərinə reaksiya verməməsi Denikinlə Ermənistan arasında gizli razılaşma bağlanması barədə haqlı şübhələr doğurdu. Belə bir şəraitdə Qafqaz konfransının digər iştirakçıları: Azərbaycan Xalq Cümhuriyyəti və Gürcüstan nümayəndəlikləri 1919-cu il iyunun 9-da keçirdikləri iclasda Denikin ordusunun Şimali Qafqazdakı işğallarını kəskin şəkildə pislədilər və Azərbaycan tərəfinin təklifi ilə Qafqazın müstəqilliyinin məhvinə yönəlmiş təcavüzün qarşısını almaq tədbirlərini müzakirə etdilər. Danışıqlar nəticəsində 1919-cu il iyunun 16-da Azərbaycan Xalq Cümhuriyyəti ilə Gürcüstan Respublikası arasında hərbi-müdafiə sazişi imzalandı. Sazişin 10-cu paraqrafı Ermənistanın 2 həftə ərzində ona qoşulmasına imkan verirdi. Lakin Ermənistan Respublikası bundan imtina edərək, Azərbaycana qarşı düşmənçilik hərəkətlərini gücləndirdi, beləliklə, Qafqaz konfransı qərarlarının bütün region miqyasında həyata keçməsinə mane oldu.

Bax: 1. Nəsibzadə N. Azərbaycanın xarici siyasəti (1918-1920). – B., 1996;

2. Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы). – Б., 1998.

Qafqaz Konfederasiyası Paktı – bolşevik işğalından sonra Avropada fəaliyyət göstərən qafqazlı mühacirlərin Qafqaz Konfederasiyası yaratmaq məqsədilə imzaladığı sənəd, 1934-cü il iyulun 14-də Brüsseldə imzalanmışdır. Qafqaz Konfederasiyası Paktı adlanan 14 iyul anlaşmasında Azərbaycan, Gürcüstan və Şimali Qafqaz Milli Mərkəzləri ***«Bir millətin tam inkişafının ancaq tam bir istiqlal şərtilə mümkün olacağını, təkmil Qafqaz qüvvələrinin vahid və müştərək sərhədlər daxilində birləşmədən bu məqsədə çatmasının son dərəcə çətin olacağını, Qafqaz millətlərinin xarici siyasət və milli müraciətlərinin müştərək bir tərzdə ifadə edilməsinin zəruriliyini, Qafqaz Cümhuriyyətləri Konfederasiyasının məmləkətin siyasi və iqtisadi birliyindən irəli gələn siyası bir forma olduğunu»*** nəzərə alaraq, Qafqaz Konfederasiyasının əsaslarını elan etdilər. Sənəddə göstərilirdi ki, Qafqaz Konfederasiyası xaricdə tərkibinə qatılmış Cümhuriyyətlərin adından çıxış edəcək; yaradılacaq Qafqaz Konfederasiyası müştərək gömrük sərhədinə malik olacaq; konfederasiyaya daxil olan cümhuriyyətlərin xarici siyasəti qurumun səlahiyyətli nümayəndələri tərəfindən birgə həyata keçiriləcək; konfederasiyanın sərhədləri cümhuriyyətlərin ordularından təşkil edilən və vahid komandanlıq altında fəaliyyət göstərən konfederasiya ordusu tərəfindən müdafiə olunacaq; konfederasiyadaxili mübahisəli məsələlərə ali konfederasiya məhkəməsində baxılacaqdır.

«Qafqaz Konfederasiyası Paktı»nı Azərbaycan Xalq Cümhuriyyəti adından Məmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Şimali Qafqaz adından Məmməd Girey Sunc, İbrahim Çulik, Tausultan Şakman, Gürcüstan adından N.Jordaniya, A.Çxenkeli imzalamışdılar.

«**Qurtuluş**» – Azərbaycan sıyasi mühacirlərinin Almaniyanın Berlin şəhərində nəşr etdirdikləri toplu. İlk sayı 1934-cü ilin noyabrında işıq üzü görmüşdür. «Qurtuluş» toplusu da, digər siyasi mühacir nəşrləri kimi, bolşevik Rusiyasının əsarətində olan azərbaycanlılara müraciətlə nəşr edilirdi. Hər il 28 May İstiqlalı, 27 Aprel İstila günləri məcmuədə xüsusilə daha geniş əks olunurdu. Topluda Azərbaycan xalqının yenidən öz istiqlalına qovuşacağı günün gələcəyinə inam ifadə edilirdi. «Qurtuluş»da Azərbaycan xalqının tarixi, mədəniyyəti, türk dünyası, beynəlxalq məsələlər və s. barədə də dəyərli yazılar verilirdi. Məcmuənin üzvləri Məmməd Əmin Rəsulzadə, Mirzə Bala Məmmədzadə, Mir Yaqub, Hilal Münşi, B.Nuhoğlu, Almas İldırım, Cəfər Seyid Əhməd, Əhəd Əlizadə, Kərim Yaycılı və başqalarının məqalələri dərc olunurdu. B.Nuhoğlu «Qurtuluş» məclisinin 1936-cı il 18-ci nömrəsində dərc etdirdiyi «27 Nisan» («27 aprel») məqaləsində yazırdı: «27 Nisan ən qara bir günümüzdür. 27 Nisan Milli hüquqiyyətimizin, Milli istiqlalımızın çalındığı bir gündür. 27 Nisan müqəddəs milli bayrağımızın yendirildiyi qara bir gündür. 27 Nisan haqqın çeynəndiyi, vəhşətin və istibdadın müzəffər olduğu bir gündür. Bu gün günəşimiz tutulmuş və sonu gəlməyən bir qaranlıq başlamışdır. 27 Nisanda milli Azərbaycan vicdanı zədələnmiş, milli şüurumuzda daima sızlayan müqəddəs bir yara açılmışdır. Hər 27 Nisanda o yaranın közü qopulur».

Bax: 1. Şəmşir Səbahəddin. Azərbaycan İstiqlal mücadiləsi. – İstanbul, 2002;

2. Tahirli A. Azərbaycan mühacirət mətbuatı. 2 hissədə, h. 1. – B., 2002.

Qafqaz Konfederasiyası Şurası (QKŞ) – Avropa ölkələrindəki Qafqaz mühacirlərinin müş-

tərək siyasi orqanı. Qafqazlı mühacirlərin 1935-ci il fevralın 14-dən 23-dək keçirilən konfransının qərarına əsasən yaradılmışdı. Konfrans Qafqaz Konfederasiyası Şurasının yaradıldığını bəyan etdi. Konfransın qəbul etdiyi on bəndlik «Qafqaz məsələsi və Rusiya» adlı sənəddə Şuranın qarşısında Qafqazın gələcək taleyi ilə bağlı bir sıra vəzifələr qoyulurdu.

QKŞ paritet əsaslarda Azərbaycan, Gürcüstan və Şimali Qafqaz milli təşkilatlarının nümayəndələrindən ibarət idi. Nizamnaməyə uyğun olaraq, Şura müntəzəm toplanmalı, Qafqaza aid bütün siyasi məsələlərlə məşğul olmalı idi. Şurada Azərbaycanın səlahiyyətli nümayəndəsi Azərbaycan Milli Mərkəzinin sədri M.Ə.Rəsulzadə idi. Ermənistan mühacir təşkilatları uzun müddət Şuraya daxil olmadılar. Erməni nümayəndələri «Qafqaz Konfederasiyası Paktı»na yalnız 1940-ci ildə qoşuldular. Heydər Bammat Qafqaz millətlərinin birinin digəri üzərində hegemonluğunun qeyri-mümkünlüyünü qeyd edir, hamını kənardan yardım istəməməyə çağırırdı. O, bildirirdi ki, Qafqazın və Türkiyənin birliyi ortaq mənafe birliyidir; Qafqazın müstəqilliyi Türkiyənin şimal-şərq sərhədlərindən tam rahatlığı deməkdir.

Qafqaz konfederasiyası ideyası ətrafında fikir ayrılıqları vardı. Bu sahədə müxtəlif qruplaşmalar da meydana gəlmişdi. Nə «Qafqaz Konfederasiyası Paktı»nı imzalayıb, sonra isə QKŞ-nı yaradanlar (M.Ə.Rəsulzadə, N.Jordaniya, S.Əhməd və b.), nə də bu məsələ ilə bağlı müxalifətdə duranlar (X.Xasməmmədov, H.Bammat, Q.Kvinitadze və b.) Qafqaz Konfederasiyasının yaranmasına qarşı çıxmışlar. Müxalifətdə olanlar Paktı imzalayanları və Şuranı yaradanları Qaqaz Cümhuriyyətlərinin süqutuna qədər bu ideyaya əhəmiyyət verməməkdə ittiham edirdilər. Müxalifət sosial-demokrat N.Jordaniyanın Qafqaz Konfederasiyası Şurasının rəhbərliyində təmsil olunmasından xüsusilə narahat idi. Onu II İnternasionalla əməkdaşlıqda və Türkiyəyə qarşı mənfi münasibətdə təqsirləndirirdilər.

1936-cı il mayın 24-də «Erməni-Gürcü İttifaqı» yaradıldı və ittifaqın adından erməni və gürcü millətlərinə ünvanlanmış bəyannamə yayıldı. Qafqaz mühacirləri bu separatçılıq addımına kəskin reaksiya verdilər və ittifaqa qarşı bir sıra tənqidi məqalələrlə çıxış etdilər.

Qafqaz Konfederasiyası Şurası 1936-cı il iyunun 16-da Erməni-Gürcü İttifaqının yaradılması ilə bağlı xüsusi bəyanat verdi və bu addımı pislədi: «Qafqaz Konfederasiyası Şurası Qafqaz millətlərinin vahid bir təşkilatda birləşməsini lüzum bilir ki, QKŞ-nın timsalında da belə bir təşkilat vardır». Bununla belə, «Erməni-Gürcü İttifaqı» yaradıldıqdan sonra Azərbaycan və şimali Qafqaz mühacirləri tərəfindən də «Azərbaycan-Dağlılar Birliyi» adlanan rəsmi qurum yaradıldı. Birliyin sədri əvvəlcə Xəlil bəy Xasməmmədov, sonralar isə Heydər Bammat oldu. «Azərbaycan-Dağlılar Birliyi» N.Jordaniyaya müxalif gürcü mühacirlərinin bu birliyə qoşulması ilə nisbətən böyüdü. Bütün Qafqaz cümhuriyyətlərinin birlikdə təmsil olunmasına can atan H.Bammat, ermənilərdən Zərgəryan qardaşlarını da cəlb etdikdən sonra həqiqi Qafqaz Federasiyasının yaradıldığını bildirdi. İkinci dünya müharibəsi (1939-45) ərəfəsində H.Bammat Berlində məskunlaşaraq, «Qafqaz» jurnalının nəşrinə nəzarət edirdi. «Qafqaz» jurnalı 1939-cu il Almaniya-SSRİ paktından sonra dövlətin rəsmi göstərişi ilə bağlandı.

İkinci Dünya müharibəsi dövründə Qafqaz Konfederasiyası Şurasına daxil olan mühacirlər həm ayrı-ayrılıqda, həm də ittifaq halında təmsil etdikləri ölkələrin müstəqilliklərinin tanınması haqqında alman rəsmi dairələri ilə danışıqlar apardılar. 1944-cü il avqustun 22-də dörd Qafqaz Cümhuriyyətinin təmsilçiləri Almaniya Xarici İşlər Nazirliyinə nota verdi və Qafqazın konfederativ dövlət halında formalaşdırılması barədə qərar verilməsini tələb etdi. Almaniya bu dövrdə Qafqaz Konfederasiyası Şurasını vahid bir dövlət qurumu kimi tanımadı. Yalnız müharibənin sonuna yaxın, məğlubiyyət qarşısında qaldıqda, Qafqaz Konfederasiya Şurasına daxil olan cümhuriyyətləri ayrı-ayrılıqda rəsmən tanıdığını bildirdi.

Müharibədən sonra bammatçılar mütəşəkkil təşkilat kimi fəaliyyət göstərə bilmədilər. Birliyin bəzi üzvləri (Əli xan Qantəmir, Fuad Əmircan, N.Şeyxzamanlı və b.) M.Ə.Rəsulzadənin xəttini müdafiə etməyə başladılar.

Millətlər Cəmiyyəti – Birinci və İkinci dünya müharibələri arasındakı dövrdə fəaliyyət göstərmiş beynəlxalq təşkilat olub, Nizamnaməsi *Paris Sülh Konfransında* (1919-20) bəyənilmiş və *Versal sülh müqaviləsinin* (1919) mətninə daxil edilmişdi. Əsas orqanları Cenevrədə (İsveçrə) yerləşən Assambleya, Şura və Katiblik idi. Cəmiyyətin Nizamnaməsini əvvəlcə 44 dövlət qəbul etmişdi. Nizamnaməyə görə,

Millətlər Cəmiyyətinin məqsədi xalqlar arasında əməkdaşlığı genişləndirmək, sülhü və beynəlxalq təhlükəsizliyi qorumaq idi. Onun 16-cı maddəsində cəmiyyətin kollektiv iqtisadi və hərbi sanksiyalar tətbiq etməsi nəzərdə tutulmuşdu.

Azərbaycan Xalq Cümhuriyyəti öz müstəqilliyini qoruyub saxlamaq üçün Millətlər Cəmiyyətinə ümid bəsləyirdi. Lakin Millətlər Cəmiyyəti bu ümidləri doğrultmurdu. Əlimərdan bəy Topçubaşov bununla bağlı yazırdı: «***Hər halda, kiçik xalqları xilas etmək üçün yaradılmış bu təşkilat - Millətlər Cəmiyyəti, hələlik ölü doğulmuş uşağa bənzəyir, onu kimin, necə və nə zaman dirildəcəyi məlum deyil. Elə bil, Fransa, İtaliya və İngiltərə də bunları unudublar»***.

Millətlər Cəmiyyətinin təsis edilməsilə meydana çıxan mühüm məsələlərdən biri də mandatlıq məsələsi idi. Osmanlı imperiyasının və Almaniyanın keçmiş müstəmləkələri Millətlər Cəmiyyətinin hamiliyi altında mandat yolu ilə qalib dövlətlər arasında bölüşdürüldü. Böyük dövlətlər mandatlıq sistemini dağılmış Rusiya imperiyasının hüdudlarında meydana gəlmiş yeni dövlətlərə tətbiq etməyə bir qədər ehtiyatla yanaşırdılar.

1919-cu il avqustun 6-da Versal konfransında Azərbaycanın, Gürcüstanın və Dağlılar Respublikasının xarici dövlətlərə meyli məsələsinin müzakirəsi zamanı Azərbaycan və Gürcüstan nümayəndələri mandatı qəbul edən ölkənin Millətlər Cəmiyyəti tərəfindən müəyyən olunması haqqında cəmiyyətə müraciət etmək təklifini irəli sürdülər. Məmməd Həsən Hacınski isə Azərbaycanın İngiltərə tərəfindən mandatlığa götürülməsini təklif etdi. Gürcüstan nümayəndələri də buna tərəfdar çıxdılar. Qeyd olundu ki, bu, digər dövlətlərin İngiltərədən inciməməsi şərtilə həyata keçirilməlidir. Ona görə də əvvəlcə İngiltərənin fikrini öyrənmək, sonra isə Millətlər Cəmiyyətinə müraciət etmək haqqında razılıq əldə olundu. Lakin ingilislərin 1919-cu il avqustun sonlarında Qafqazdan çıxması nəticəsində bu təklif baş tutmadı.

Versal konfransındakı Azərbaycan nümayəndələri 1919-cu ilin noyabr-dekabr aylarında beynəlxalq şəraitin əlverişli olduğunu görüb, Azərbaycan Xalq Cümhuriyyətinin Millətlər Cəmiyyətinə qəbul edilməsi barədə memorandum hazırlayaraq, Cəmiyyətin katibliyinə təqdim etdilər. Gürcü nümayəndələri də müvafiq memorandum hazırlayıb təqdim etmişdilər. Millətlər Cəmiyyətinin katibliyində Azərbaycanın və Gürcüstanın müraciətlərini öyrənmək üçün xüsusi komissiya yaradılmışdı. Komissiya həmin materialları və real vəziyyəti öyrəndikdən sonra Azərbaycan məsələsini Gürcüstan, Ermənistan, Ukrayna və Kosta-Rika məsələlərilə birlikdə Millətlər cəmiyyətinin üçüncü komissiyasının müzakirəsinə verdi. Komissiyanın müəyyən etdiyi şərtlər daxilində Cənubi Qafqaz respublikaları de-yure tanınmadığı və aralarında mübahisəli ərazi məsələləri olduğu üçün onların Millətlər Cəmiyyətinə qəbul edilməsi məsələsi müvəqqəti olaraq dayandırıldı.

1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyəti bolşevik Rusiyası tərəfindən işğal edildikdən sonra Avropadakı Azərbaycan mühacirəti Millətlər Cəmiyyətinə üzv olmaqdan ötrü yenidən səy göstərdi. Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndə heyəti 1920-ci il noyabrın 1-də 669 saylı məktubla Millətlər Cəmiyyətinə müraciət edərək, Azərbaycanın işğalına etiraz bildirilməsini və onun müstəqilliyinin müdafiə olunmasını tələb etdi. Azərbaycan nümayəndələrinin müraciəti nəzərə alınaraq, noyabrın 24-də Baş katib bu barədə 204868 saylı memorandum imzaladı. Memorandumda Millətlər Cəmiyyəti Assambleyası Azərbaycanın beynəlxalq statusunu «özünü idarə edən bir dövlət» kimi qiymətləndirdi. Parisdə çıxan «Tan» qəzetinin məlumatına görə, Cenevrədə xalqların hüquqları üzrə 5-ci beynəlxalq konqres Azərbaycan nümayəndələrinin məlumatını dinləyərək, Azərbaycan Xalq Cümhuriyyətinin Millətlər Cəmiyyətinə qəbul edilməsini bəyənmişdi. Lakin konqres eyni zamanda «Azərbaycanın rus sovet hakimiyyəti tərəfindən işğal olunduğunu» da nəzərə çarpdırmışdı. Beləliklə, aprel işğalı (1920) Azərbaycan Xalq Cümhuriyyətinin Millətlər Cəmiyyəti üzvlüyünə qəbul olunmasının reallaşdırılmasına imkan vermədi.

Bax: 1. Azərbaycan tarixi. 7 cilddə, c.5. – B., 2001;

2. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). – B., 1993;

3. Qasımov M. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər). – B., 1998.

Müsəlman Milli Komitəsi 1917-ci ilin sentyabrında yaradılmışdır. «Milli Komitə»nin Dərbənd partiya təşkilatının rəhbəri şəhərdə tanınmış şəxsiyyət,

keçmiş şəhər başçısı Qasım bəy Heydərov idi. Bu təşkilat şəhərdə böyük nüfuza malik idi. Sonralar bolşeviklərin başçılıq etdiyi Xalq Komissarları Şurasının ciddi müxalifətinə çevrilmişdir.

Xalq Komissarları Şurası bu partiyaya qarşı çıxa bilmədiyi üçün 11 may 1918-ci il tarixli qərarı ilə onun ləğv etdi və əmlakını milliləşdirdi.

«Yəhudilərin Milli komitəsi» - 1917-ci il Fevral inqilabından dərhal sonra şəhərdə yaradılmış sionist təşkilatı. Şəhərdə keçirilən bütün siyasi aksiyalarda, Şuraya seçkidə iştirak etməsinə baxmayaraq, şəhərin siyasi həyatına o qədər təsiri yox idi. 1917-ci il Oktyabr inqilabından sonra fəaliyyətini dayandırmışdır.

Rus Milli Şurası – 1918-ci ilin noyabrında Bakıda yaradılmış siyasi qurum. Azərbaycanda fəaliyyət göstərən kadet və menşevik partiyalarının, «Rus demokratik cəmiyyəti»nin (üzvlərinin sayı 12 min nəfər), zabitlər, müəllimlər, məmurlar ittifaqlarının, pravoslav kilsələrinin, molokan icmalarının və b. nümayəndələrini birləşdirirdi. Şuranın tərkibi 70 nəfər idi, cari işlərə 12 nəfərdən ibarət «kiçik şura» rəhbərlik edirdi (sədri kadet M.F.Podşibyakin idi).

Muğanda, Şamaxı qəzasında, Lənkəranda, Dərbənddə, Port-Petrovskda, Gəncədə və b. yerlərdə şöbələri fəaliyyət göstərirdi. Mərkəzi orqanları «Единая Россия», «Россия» (Bakı) qəzetləri idi. Proqramlarına «vahid, bölünməz və böyük Rusiya» uğrunda mübarizə; «dövlət quruluşu formasının müəyyən edilməsi» üçün Müəssislər Məclisi çağırılması; «Rusiyanın ucqarlarının» milli-mədəni müxtariyyəti; oxşar məqsədlərə xidmət edən bütün qüvvələrlə əməkdaşlıq daxil idi. Azərbaycan Milli Şurasının qəbul etdiyi qanunda Cümhuriyyət Parlamentində rus nümayəndələri üçün 10 yer ayrılırdı. «Vahid və bölünməz Rusiya» ideyalarına xidmət edən Bakı Rus Milli Şurasının Azərbaycandakı ruslar adından danışmaq üçün heç bir mənəvi hüququ olmadığı halda, Parlamentdə iştirak etməmək barədə qərar qəbul etdi. Lakin Bakıda fəaliyyət göstərən «Slavyan-Rus cəmiyyəti» Azərbaycan Milli Şurasına müraciət edərək, onların Parlamentə daxil olmalarına razılıq verməyi xahiş etdi. Parlament tərəfindən «Slavyan-Rus cəmiyyəti» üçün 5 yer ayrılmışdı. Rus Milli Şurasına 1918-ci ilin payızında işğalçı ingilis qoşunlarının komandanlığı, sonra isə Denikin kömək edirdi. 1919-cu ilin martında Gürcüstandakı eyni birliklə (1918-ci ilin əvvəllərində Tiflisdə yaradılmışdı; sədri kadet Z.F.Semyonov idi; eser və menşeviklər hakim mövqe tuturdu) əlaqə yaratmışdılar. Dağıstanın ağqvardiyaçılar tərəfindən işğalı ilə şura şovinist təbliğatını genişləndirdi, ağqvardiyaçı dəstələrin formalaşdırılmasına başladı. İngilis qoşunları Azərbaycanı tərk etdikdən sonra Şura Cümhuriyyət hökumətinin təqib etdiyi ağqvardiyaçı zabitlərə kömək etmiş, «Xüsusi müşavirə» ilə, «Milli mərkəz»in Kislovodsk, Rostov və b. şəhərlərdəki şöbələri ilə əlaqə saxlamış, Denikinin Könüllü ordu agentlərinin (general N.N.Baratov və b.) Cənubi Qafqazdakı fəaliyyətinə yardım göstərmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan (1920, 28 aprel) sonra Rus Milli Şurası üzvlərinin əksəriyyəti xaricə qaçmışdır.

Bax: 1. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). c.1. – B., 1998;

2. Гражданская война и военная интервенция в СССР. Энциклопедия. – М., 1983.

Rusiya Kommunist (bolşeviklər) partiyası Mərkəzi Komitəsinin Qafqaz Bürosu (RK(b)P MK-nın Qafqaz Bürosu) – RK(b)P MK-nın Qafqazda səlahiyyətli diyar nümayəndəliyi. RK(b)P MK-nın diyar bürolarını yaratmaq haqqında partiyanın 9-cu qurultayının (1920, 29 mart – 5 aprel) qərarına uyğun olaraq, Mərkəzi Komitənin plenumu 1920-ci il aprelin 8-də RK(b)P MK Qafqaz Bürosunun təşkili haqqında qərar qəbul etdi. Büronun tərkibinə S.Kirov, N.Nərimanov, A.Nazaretyan, Q.Orconikidze, Y.Stasova və b. daxil oldular. Qafqaz bürosu Şimali Qafqazın kommunist təşkilatlarının bütün təşkilati işlərinə rəhbərlik üçün yaradılmışdı. Büro Cənubi Qafqaz partiya təşkilatları ilə əlaqə yaratmalı, buradakı müstəqil dövlətləri devirib sovet hakimiyyəti qurmaq uğrunda kommunist təşkilatlarının mübarizəsinə rəhbərlik etməli idi. Yerli partiya təşkilatlarına operativ rəhbərlik üçün Bakı, Armavir, sonradan Rostov «üçlükləri» yaradılmışdı. Bakı «üçlüyü» Cənubi Qafqaz partiya təşkilatları ilə məşğul olurdu. Büro RK(b)P Zaqafqaziya diyar komitəsinin təşkilinədək (1922, fevral) fəaliyyət göstərmişdir.

Bax: 1. Очерки истории коммунистических организаций Закавказя. ч.1. – Тбилиси, 1967;

2. История Коммунистической Партии Советского Союза. т.4. – М., 1970.

Rusiya Müsəlmanları Türk-Tatar Millətlərinin Hüquq Müdafiə Cəmiyyəti – Birinci dünya müharibəsi illərində Rusiya ilə Türkiyə arasında hərbi əməliyyatların başlanmasından az sonra Rusiyadakı müsəlman, o cümlədən türk xalqlarının mədəni və siyasi hüquq tələblərini beynəlxalq aləmə çatdırmaq məqsədi ilə Türkiyədə yaşayan, əslən Rusiyadan olan xadimlərin yaratdığı çoxsaylı təşkilatlardan biri idi. Cəmiyyətin müəssisləri Əli bəy Hüseynzadə (Azərbaycan), Yusif bəy Akçura və Əbdürrəşid İbrahimov (Tatarıstan) olmuşlar. Cəmiyyətə Məhəmməd Əsəd Çələbizadə (Krım) və Mukiməddin Beycan (Buxara) da daxil idilər. Bu heyət (Turan heyəti) Rusiya müsəlmanlarının hüquqlarını qorumaq və Mərkəzi Avropa dövlətlərinin hökumətlərinə anlatmaq məqsədilə 1915-ci ilin sonlarında İstanbuldan Avropaya getmişdi. Səfər Türkiyə hökuməti tərəfindən dəstəklənir və maliyyələşdirilirdi. Səfər zamanı Macarıstan, Avstriya, Almaniya və İsveçrədə görüşlər keçirilməsi nəzərdə tutulmuşdu.

1915-ci ilin sonlarında Ə.Hüseynzadə və Y.Akçura səfər edəcəkləri dövlətlərin rəsmi nümayəndələrinə və tanınmış siyasi xadimlərinə təqdim olunmaq üçün Cəmiyyət adından alman dilində «Rusiya müsəlmanlarının tələbləri» adlı kitabça buraxmışdılar. Memorandum xarakteri daşıyan sənəddə Rusiya müsəlmanları (türk-tatarlar) haqqında qısa məlumat verildikdən və statistik rəqəmlər gətirildikdən sonra bu xalqların siyasi və mədəni hüquqlarının tanınmasının vacibliyi qeyd edilirdi. Memorandumun siyasi tələblər hissəsində Buxara və Xivə xanlıqlarının hüquqlarının genişləndirilməsi, Kazan xanlığının, Osmanlı dövlətinin himayəsində Krım xanlığının bərpası, Volqa çayının neytrallaşdırılması və s. məsələlər də öz əksini tapmışdı.

Macarıstanda hökumət başçısı Kont Tissa tərəfindən yüksək səviyyədə qəbul olunan nümayəndələr Budapeştdə siyasi xadimlərlə yanaşı, ziyalılarla da görüşmüş, yerli mətbuatda məqalələr çap etdirmişdilər.

Vyanada baş nazir Strork və xarici işlər naziri Forqax tərəfindən qəbul edilən nümayəndələr cəmiyyətin memorandumunun müdafiə olunmasını Avstriya hökumətindən xahiş etmişdilər. Nümayəndələr Almaniyadakı görüşlərə xüsusi əhəmiyyət verirdilər. Səfər zamanı Berlində və digər şəhərlərdə çox faydalı rəsmi görüşlər keçirilmişdi. Berlindən sonra heyət İsveçrəyə getdi.

Cəmiyyətin beynəlxalq miqyasda ən səmərəli fəaliyyəti yalnız bitərəf ölkə olan İsveçrədə mümkün oldu. Çünki qarşı-qarşıya duran hərbi-siyasi koalisiyalardan birinin üzvü olan ölkələrdə fəaliyyət beynəlxalq ictimaiyyət tərəfindən soyuq qarşılana bilərdi və bu cür fəaliyyət həmin koalisiyanın hərbi-strateji xəttinin reallaşdırılması üçün cəhd kimi qiymətləndirilərdi. Digər tərəfdən, İsveçrədə mühacirətdə olan rus siyasi xadimləri ilə rəsmi görüşlər onları bu tələblərə münasibətdə daha mülayim mövqe tutmağa vadar edə bilərdi.

Əli bəy Hüseynzadə və Yusif bəy Akçura 1916-cı il iyunun 27-29-da Lozannada keçirilən «Rusiyada azlıqda olan (və əzilən) millətlərin konqresi»ndə də iştirak etmişdilər. Y.Akçura konqres iştirakçılarına paylanmaq üçün 1916-cı ildə Berndə «Rusiyadakı müsəlman türk-tatarların bugünkü vəziyyəti və istəkləri» adlı kitabça nəşr etdirmişdi. Diqqəti cəlb edən cəhət «Rusiya müsəlmanlarının mədəni muxtariyyətdən başqa bir istəkləri yoxdur» fikri idi. Rus sosialistlərini ehtiyatlandırmamaq üçün kitabçada siyasi hüquqlara toxunulmurdu. Y.Akçura İsveçrədə təhsil alan Əziz bəy ilə birlikdə Sürixdə bolşeviklərin lideri V.İ.Ulyanovla (Lenin) görüşündə kitabçanı ona təqdim etmişdi. Lenin onları yaxşı qarşılayıb, diqqətlə dinləsə də, mövzu ilə bağlı hələlik qəti bir görüşü olmadığını bildirmişdi.

1916-cı ilin yanvarında türk xalqlarının Berlində keçirilən konqresində iştirak edən nümayəndə heyəti həmin ay Türkiyəyə qayıtdı. Rusiya müsəlmanlarının problemlərinin beynəlxalq ictimaiyyətə çatdırılması baxımından heyətin fəaliyyəti faydalı olsa da, Avropa dövlətləri Rusiya müsəlmanlarının hüquqlarının müdafiəsi üçün konkret bir iş görmədilər.

Bax: 1. Kurat A.N. Türkiyə və Rusiya. – Ankara, 1990;

2. Qasımov M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər). 3 hissədə, h.1. – B., 2000.

Rusiya müsəlmanlarının icazəli qurultayı Dumanın müsəlman fraksiyasının təklifi ilə 1914-cü il iyunun 15-25-də Peterburqda keçirilmişdir. Qurultay «Ruhani yığıncaqları» və müsəlman dini məktəblərinin islahatı məsələlərinə həsr olunmuşdu. Dövlət Duması Müsəlman fraksiyasının sədri K.M.Tevkelov

qurultayın sədri, Ə.Topçubaşov və Ə.Axtyamov onun müavinləri seçilmişdilər. Qurultayda hökumətin müsəlman ruhani işlərinə münasibəti, qadınların seçki hüququ, Rusiyanın müsəlman məktəblərinin vəziyyəti və s. məsələlər müzakirə edilmişdi. Azərbaycan müsəlmanları adından çıxış edən Məmməd Yusif Cəfərov dövlətin dini işlərə qarışmasının zərərindən və bütün rusiya müsəlmanları üçün vahid ruhani idarəsi yaradılmasının vacibliyindən danışmışdı. Qurultayda qəbul olunmuş qətnamələrdə Türküstan və çöl əyalətlərində yaşayan müsəlmanların Dövlət Dumasına seçkilərdə iştirak etmək hüququnun bərpası, Türkiyə və İranda ruhani təhsili alan şəxslərin Rusiyanın müsəlman məktəblərində müəllim işləməsinə icazə verilməsi və s. nəzərdə tutulurdu.

Rusiya müsəlmanlarının növbəti qurultayı 1917-ci ildə, Fevral inqilabından sonra keçirilmişdi. Müsəlmanların Ümumqafqaz qurultayından sonra 1917-ci il mayın 1-11-də Moskvada, azərbaycanlı milyonçu Şəmsi Əsədullayevin müsəlmanlara hədiyyə etdiyi binada keçirilən Ümumrusiya müsəlmanları qurultayında 900 nümayəndə iştirak edirdi.

Qurultay Rusiyanın federativ respublikaya çevrilməsi və müsəlman əhalisi yaşayan vilayətlərə milli-ərazi (məhəlli) muxtariyyəti verilməsi haqqında Məmməd Əmin Rəsulzadənin layihəsi əsasında qətnamə qəbul etdi. Qurultayın 8 may tarixli iclasında Ə.Topçubaşov Azərbaycan nümayəndələri adından növbədənkənar çıxış edərək, Azərbaycan xalqını gözləyən milli qırğın təhlükəsi haqqında Rusiya müsəlmanlarını, həm də Müvəqqəti hökuməti xəbərdar etmişdi. Bu məsələ Ə.Topçubaşovun rəhbərliyi ilə Peterburqa nümayəndə heyəti göndərilməsi haqqında qərar qəbul etdi. Qadın məsələsi də gərgin mübahisə doğurmuş və müsəlman qadınlarının Kazan qurultayının qərarına heç bir düzəliş edilmədən qəbul olunmuşdu. Rusiya müsəlmanlarının təşkilatı məsələlərinə rəhbərlik etmək və onun siyasi istiqamətlərini müəyyənləşdirmək məqsədilə, qurultay qanunverici funksiyaya malik olan Mərkəzi Ümummüsəlman Şurasını yaratdı. 30 üzvdən ibarət Şura (Qafqazdan 5 nəfər), 12 nəfərdən ibarət İcraiyyə Komitəsi seçildi. Mərkəzi Ümummüsəlman Şurası Peterburqda fəaliyyət göstərməli idi. Azərbaycan nümayəndələrinin təmsil etdikləri federasiya tərəfdarlarının üstünlük qazandığı qurultay mühüm qərarlar qəbul edərək, bütün Rusiya müsəlmanlarının ictimai-siyasi həyatında tarixi rol oynadı.

Bax: 1. Azərbaycan tarixi. 7 cilddə, c.5. – B., 2001;

2. Məmmədov X. Azərbaycan milli hərəkatı. 1875-1917. – B., 1996;

3. Süleymanov S. Azərbaycanda ictimai siyasi hərəkat (XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəlləri). – B., 1999;

4. Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. – B., 2004;

5. Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века. – Б.,1997;

6. Программные документы мусульманских политических партий 1917-1920гг. – Оксфорд, 1985;

7. Azərbaycan dosyesi. – Ankara, 1990;

8. İlqar İ. Rusiyada birinci Müslüman Konqresi. Bütün Rusiya Müslümanlarının (Türklerin) 1917 yılın 1-11 mayısında Moskvada yapdıkları genel toplantının protokolları. – İstambul, 1988.

Həmkarlar İttifaqları. 1917-ci ilin Fevral inqilabınadək Dərbənd şəhərində Həmkarlar İttifaqı yox idi. 1917-ci ilin aprel ayında Bolşeviklərin Şəhər Komitəsi fəhlələri öz tərəfinə cəlb etmək məqsədi ilə Həmkarlar İttifaqları yaratmağa başladılar.

Şəhərdə ilk dəfə dəmiryol işçilərinin Həmkarlar İttifaqı yaradılmışdır. Bu təşkilata iki bolşevik: Q.Kvantaliani və D.Puqin rəhbərlik etmişdir. Bundan sonra qulluqçuların, müəllimlərin, poçt-teleqraf işçilərinin, müsəlman və yəhudi fəhlələrinin, bondarların, inşaatçıların, mətbəə işçilərinin, pinəçilərin, bağ və bostan işçilərinin, papaqçıların, faytonçuların, dərzilərin və s. Həmkarlar İttifaqları yaradıldı. RSDF(b) P Bakı komitəsinin təklifi ilə təşkilat azsaylı olduğu üçün onun əsasında «Bütün peşələrin ittifaqı»nın yaradılması qərara alındı.

1917-ci il mayın 2-də yeni yaradılmış Həmkarlar İttifaqının iclası keçirildi. Bu təşkilat ətrafında şəhərin və ətraf balıq vətəgərlərinin 500-dən çox fəhləsi birləşmişdi. İclasda İttifaqın 7 nəfərdən ibarət idarəetmə orqanı seçilmişdir. D.Puqin Həmkarlar İttifaqının sədri, İ.Maskin sədr müavini seçilmişdir.

Həmkarlar İttifaqı yaradıldığı ilk gündən aktiv fəaliyyət göstərməyə başlamışdı. Bütün müəssisələrdə ilkin həmkarlar komitəsi yaradır, 6 saatlıq iş gününə nail olur, müəssisə rəhbərliyinin işinə nəzarət edir, zəhmətkeşlər üçün qida məhsullarının uyğun qiymətlərə satılması uğrunda mübarizə aparırdı və s.

Şəhərdə ərzaq böhranı ilə əlaqədar bütün peşələrin İttifaqı, bolşevik İ.Kobyakov başda olmaqda, «Fəhlə» kooperativi yaradır. Bu kooperativin idarəetmə orqanına Qrişkeviç, Quleymanov, Zinovyev, Veretennikov və Yeryomin, təftiş komissiyasına isə Knyazev, Koçkaryov və Nikitin seçilmişdir.

Kooperativ məqsədyönlü üzvlükhaqqı hesabına 3 vaqon un almış, çörəyin bişirilməsini və onun kooperativin üzvlərinə satılmasını təşkil etmişdir.

1917-ci il avqustun 12-də şəhərdə bütün peşələrin İttifaqının təşəbbüsü ilə idarə qulluqçularının və satıcıların sahiblərilə əlaqələrini tənzimləmək üçün «Qaydalar» tətbiq etmişdir.

Bu qaydalara əsasən, idarələrdə 10 nəfərdən çox qulluqçu işlədikdə komitələr fəaliyyət göstərir, onların sayı az olduqda isə başçı seçilirdi; idarədə işləyənlər üçün 6 saatlıq, satıcılar üçün isə 8 saatlıq iş günü, işləyənlər və onların ailə üzvləri üçün pulsuz müalicə, məktəblərdə pulsuz təhsil və s. imtiyazlar tətbiq edilmişdir.

Bütün bunlar «Bütün peşələrin İttifaqı» təşkilatının şəhərdə nüfuzunu artırmışdı. 1917-ci ilin oktyabrında ittifaqın sıralarında 2 min fəhlə və qulluqçu var idi.

Lakin bolşeviklər bu ittifaqı siyasi qüvvə kimi istifadə etməyə başladılar. İttifaq Müvəqqəti hökümətə sadiqlik göstərməyə rəsmi olaraq etiraz etdi. Qanunsuz hərəkətlərinə görə «Bütün peşələrin İttifaqı»nın sədri D.Puqin vəzifəsindən azad edilmiş və bolşevik İ.Maskin onun sədri seçilmişdir.

Fəhlə Deputatları Şurası 1917-ci il martın 2-də şəhədə dəmiryolçular tərəfindən yaradılmış ilk sovet hakimiyyəti orqanı olmuşdur. Şuranın sədri parovoz maşinisti Metreveli (menşevik) seçilmişdir. Şura cəmi 9 gün, 1917-ci il martın 11-dək fəaliyyət göstərmişdir. Bu şura Əsgər və zabit deputatları şurası ilə birləşmiş, vahid Fəhlə və hərbi deputatlar şurası yaradılmışdır.

Əsgər və zabit deputatları şurası 1917-ci il martın 6-da Dərbənddə yerləşdirilmiş hərbi hissələrin zabitləri və əsgərləri tərəfindən yaradılmış sovet hakimiyyəti orqanı olmuşdur. Şuranın sədri hərbi qarnizonun rəisi podpolkovnik Malışevski (kadet) seçilmişdir. Bu Şura cəmi 5 gün, 1917-ci il martın 11-dək fəaliyyət göstərmiş və yeni yaradılmış Fəhlə və hərbi deputatlar şurası ilə birləşdirirlmişdir.

Fəhlə və hərbi deputatlar şurası sovet hakimiyyəti orqanı kimi 1917-ci il martın 11-də Fəhlə deputatları şurası, eləcə də Əsgər və zabit deputatları şurasının birləşməsi nəticəsində Dərbənddə yaradılmışdır. Bu təşkilatın sədri dəmiryol stansiyasının rəisi Klinenberq (menşevik) seçilmişdir. Bu şura 1917-ci il oktyabr inqilabınadək fəaliyyət göstərmişdir.

1917-ci il oktyabr inqilabından sonra, oktyabrın 28-də 65 nəfərdən ibarət yeni Fəhlə və hərbi deputatlar şurası yaradılmışdır. Həmin gün Şuranın ilk iclasında praporşik Abramoviç (menşevik) Şuranın sədri, parovozun maşinisti Metreveli (menşevik) və Rabinoviç (eser) sədr müavinləri seçilmişlər. Bunlardan başqa Şuranın rəyasət heyətinə eserlər: İvanovski, Topçilin, Zadulin, Zubak-Kardaş seçilmişlər.

Narazı olan bolşeviklər 100 nəfərdən ibarət silahlı qırmızı qvardiya dəstəsi yaratmışdılar. Bu dəstənin köməyi ilə onlar Fəhlə və hərbi deputatlar şurasını dağıtmış və başqa siyasi təşkilat və partiyaları boykot edərək, noyabrın 30-da «seçki» keçirdilər, bolşeviklərdən ibarət yeni Fəhlə və hərbi deputatlar şurası seçdilər. Y.Robinoviç yeni Şuranın sədri, D.Puqin və A.İzmaylov (Bakı Sovetinin nümayəndələri) sədr müavinləri, İ.Maskin və İ.Kobyakov rəyasət heyətinin üzvləri seçildilər.

1917-ci il dekabrın 31-də Fəhlə və hərbi deputatlar şurası Tersk-Dağıstan hökumətinin Dərbəndə göndərilmiş hərbi dəstəsi tərəfindən dağıdılmışdır. Lakin 1918-ci il yanvarın 10-da hərbi dəstə Temirxan Şuraya geri çağırılmış və bolşeviklərin rəhbərlik etdiyi şura şəhərdə yenidən hakimiyyət orqanı kimi fəaliyyət göstərməyə başlamışdı.

1918-ci il aprelin 2-də Dağıstan imamı N.Qotsinskinin dəstəsi şəhərə daxil olaraq Fəhlə və hərbi deputatlar şurasını dağıtmış və o, bir daha fəaliyyət göstərməmişdir.

Xalq Komissarları Şurası – 1918-ci il aprelin 24-də Bakı Sovetinin nümayəndələri bolşeviklərlə birlikdə Dərbənddə Sovet hakimiyyəti orqanı yaratmışdılar. Xalq Komissarları şurası cəmi 21 gün, 1918-ci il mayın 14-dək fəaliyyət göstərmişdir. Şəhərdə yeni sovet hakimiyyəti orqanı olan – İnqilab Müdafiə Komitəsi yaradılmışdır.

Fəhlə, kəndli və Qırmızı ordu deputatları şurası – Dərbənddə sovet hakimiyyəti orqanı.

Fəhlə, kəndli və Qırmızı ordu deputatları şurasına 1918-ci il iyunun 12-də keçirilən ilk seçkilərdə bolşeviklərdən ibarət 65 deputat seçilmişdir.

İyunun 13-də Şuranın təntətənəli açılışı oldu.

Açılışda Dağıstan vilayətinin fövqəladə hallar komissarı Q.Naneyşvili (Bakı Sovetinin nümayəndəsi) iştirak etmişdir. K.Torjinski iclasın sədri, Q.Kandelaki katibi seçilmişdir.

İclasda Q.Naneyşvilinin təklifi ilə «Dünya proletarlarının rəhbəri V.İ.Leninin» və Bakı Xalq Komissarları Şurasının teleqramları oxunmuşdur.

Deputatlar aşağıdakı tərkibdə Şuranın icraiyyə komitəsini seçmişlər:

K.Torjinski (sədr), A.Silçev və Q-M.Ağasiyev (müavin), Q.Kandelaki (katib), H.Tağızadə, V.Beşensev, İ.Kobyakov, A.Erlix, Q.Eldarov, A.Rzayev, A.Quliyev, Yevseyev, Kuvayev, Sokolov.

Dərbənd polkovnik Biçeraxovun dəstəsi tərəfindən işğal olunduğu üçün Şura cəmi 29 gün, 1918-ci il avqustun 12-dək fəaliyyət göstərmişdir.

1918-ci il sentyabrın 6-da türk qoşunları Dərbənd şəhərinə daxil olunduğuna görə Şura fəaliyyətini tamamilə dayandırmışdır.

«Gülüstan» - 1992-ci ildə yaradılmış yerli ədəbi birlik. Onun təşkilatçısı və rəhbəri – şair Tahir Saleh (Hacıəliyev Tahir Seyidəli oğlu) idi.



Tahir Saleh

Ədəbi birliyin əsas məqsədi: ədəbi irsin təbliği, yerli ədiblərin həmrəyliyi, gənc yazarlara kömək, yaradıcı ziyalıları başqa şəhər ədibləri ilə dostluq əlaqələrinə cəlb etmək idi. Azərbaycan şair və yazıçılarının yaratdığı «Gülüstan» ədəbi birliyi tez bir vaxtda beynəlxalq təşkilata çevrildi.

2009-cu il yanvarın 1-nə olan məlumata əsasən, birliyin 180-dən çox üzvü iki bölmədə: Azərbaycan və rusdillilər bölməsində birləşmişlər.

«Gülüstan» yazıçılar təşkilatı Dağıstanın, Azərbaycanın, Türkiyənin, İranın və bir çox Rusiya bölgələrinin ədəbi təşkilatları ilə əlaqə saxlayır.

«Dərbənd» xeyriyyə cəmiyyəti. (2016-ci ildən «Dərbərd» Xeyriyyə İctimai Birliyi adlanır) Xəzər dənizinin sahilində yerləşən müasir Dərbənd şəhəri ərazisinə və əhalisinə görə Rusiya Federasiyası Dağıstan Respublikasının ikinci şəhərdir.

Alim-etnoloqların, geoloqların, şərqşünasların elmi tədqiqatları sübut edir ki, şəhərin 5000 illik tarixi var. Lakin burada elə memarlıq abidləri, qalalar, qəbiristanlıqlar var ki, onlar şəhərin daha qədim olduğunu bir daha sübut edir. Dərbənd – Cənub-Şərqi Avropadan Ön Asiyaya rahat yol olan və Qafqaz dağları ilə Xəzər dənizi arasında məşhur keçidin olduğu Şərqi Qafqazda yerləşmişdir. Buna görə də cəsarətlə demək olar ki, şəhər və ya yaşayış məntəqəsi burada daha qədimdən mövcuddur. Hazırda şəhərin 100 mindən çox, rayonları ilə birlikdə isə160 minə yaxın əhalisi var.

Tarixən Dərbənd şəhərinin və onun rayonlarının əsas əhalisi azərbaycanlılar olmuş və hazırda da azərbaycanlılar təşkil edir. Dərbənd Rusiya tərəfindən işğal olunduqdan sonra azərbaycanlıların müəyyən hissəsi Azərbaycanın içərilərinə, qohumlarının yaşadıqları yerlərə can atırdılar.

Azərbaycan müstəqillik qazandıqdan sonra ölkədə demokratik proseslər başlandı. Bu qələbə həm də ictimai birliklərin azadlığı oldu. Azərbaycanda cəmiyyətin demokratikləşməsi ilə əlaqədar Milli Məclis 1992-ci ilin noyabrın 10-da «İctimai birliklər haqqında» Qanun qəbul etmişdir. Bu qanuna müvafiq olaraq 1994-cü ildə «Dərbənd» xeyriyyə cəmiyyyəti yaradılmışdır. Bu cəmiyyətin yaradılmasının təşəbbüskarları kimi Dərbənddən çıxmış və ya Azərbaycanda anadan olmuş, lakin əsli Dərbənddən olan Bakı ziyalıları çıxış etmişlər. Onların arasında: Rusiya Peşə təhsili Akademiyasının həqiqi üzvü, iqtisad elmləri namizədi mərhum H.Ə.Zeynalov, hüquqşünas, 3-cü dərəcəli Dövlət müşaviri Ə.Ş.Ələkbərov, sərhəd xidməti general-mayoru mərhum M.C.Nəsirov, yüksək dərəcəli hüquqşünas Ə.M.Əliyev, respublika kooperasiya təhsilinin təşkilatçılarından biri mərhum professor M.B.Tabasaranski, mərhum professor, genetik İ.M.Sadıxov, həmçinin Dərbəndin ən qocaman sakini və Dərbənd şəhər tarixinin böyük bilicisi, mərhum S.Ə.Sultanov, maddi-texniki təchizatın təcrübəli əməkdaşı Ə. S. Seyidov, kooperasiya istehsalatının veteranı, Respublika zadəganlar iclasının üzvü R.T.Rəhimov və başqalarının yaratdıqları «Dərbənd» xeyriyyə cəmiyyəti 1994-cü il fevral ayının 23-də Bakı şəhərində Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınmışdır. Xeyriyyə cəmiyyəti öz Nizamnaməsi ilə fəaliyyət göstərir. Cəmiyyətin fəaliyyət göstərdiyi ilk illərdə 51 üzvü var idi.

Hazırda bu cəmiyyətdə min nəfəri əhatə edən 150-dən çox ailə birləşir. Son məlumatlara görə Bakıda Dərbənddən çıxmış 30 min adam yaşayır.

Cəmiyyət müntəzəm olaraq görüşlər keçirir və həmyerlilərinin vəziyyəti ilə maraqlanır. Cəmiyyətin üzvləri imkan dairəsində bir-birinə kömək edir.

«Dərbənd» cəmiyyətinin təşəbbüsü ilə Azərbaycan televiziyası ilə Dərbənd haqqında silsilə verilişlər verilmişdir: «Dərbəndin generalları», «Qala-qapı Dərbənd», Azərbaycan musiqisinə böyük töhfələr vermiş məşhur Azərbaycan bəstəkarları Asəf Zeynallıya və Hacı Xanməmmədova həsr olunmuş konsertlər və s. nümayiş etdirilmişdir.

Mövcudluğu dövrdə cəmiyyətin fəalları yubileylərə həsr olunmuş təntənəli tədbirlərin iştirakçısı olmuşlar: onlar dahi Azərbaycan şairi Füzulinin anadan olmasının 500 illik, görkəmli şərqşünas-alim Məhəmməd Mirzə Kazımbəyin anadan olmasının 200 illik, general-leytenant Hüseyn Rəsulbəyovun anadan olmasının 80 illik yubileyləri və s. iştirak etmişlər. Cəmiyyətin idarə heyəti mübahisəli məsələlərin hüquqi həllində cəmiyyət üzvlərinə yaxından kömək edir.

Hər il Bakı şəhərinin ali məktəblərində və texnikumlarında təhsil alan dərbəndli tələbələr həmin məktəblərin professor-müəllim heyəti ilə görüş keçirirlər.

Cəmiyyət Dərbənd şəhərinin məktəblərində Azərbaycan dilinin dərindən və geniş öyrənilməsinə hərtərəfli köməklik göstərir. Bu məqsədlə hər il Təhsil Nazirliyinin xətti ilə Dərbənd məktəblərinə 10-20 min manatlıq təmənnasız dərsliklər və bədii ədəbiyyat göndərilir. Dərbənd şəhərinin tarixi və mədəniyyəti təbliğ olunur. Dərbənd və dərbəndlilər haqqında nəşr olunmuş kitablar buna əyani sübutdur. Belə ki, 2001-ci ildə Bakıda S.Sultanovun və H.Zeynalovun «Dərbənd və dərbəndlilər», 2003-cü ildə Dərbənddə S.Sultanovun «Dərbənd: yaranma və inkişaf tarixi» və 2004-cü ildə Bakıda S.Ə.Sultanovun və H.Ə.Zeynalovun 3-cü kitabı «Dərbəndin tanınmış adamları» (redaktoru R.T. Rəhimov), 2006-ci ildə həmin müəlliflərin «Dərbənd – dünya irsinin abidələri şəhəri» kitabları nəşr olunmuşdur. «Dərbənd» xeyriyyə cəmiyyətinin üzvləri dəfələrlə «Xalq», «Respublika», «Elm» və s. respublika qəzetlərində məqalələrlə çıxış etmişlər.

«Dərbənd» xeyriyyə cəmiyyətinin idarə heyəti və rəhbərliyi respublikanın ictimai-siyasi həyatında fəal iştirak edir.

Cəmiyyətin iştirakı ilə Dərbənd şəhəri və Dərbənd rayonu Bakı şəhərinin Nərimanov, Azərbaycan Respublikasının Xaçmaz, Quba və Qusar rayonları ilə mədəni və iqtisadi əlaqələr üzrə müqavilə bağlamışdır.

2009-cu ildə Azərbaycan Respublikası geniş musiqi ictimayətinin iştiraki ilə görkəmli bəstəkar Asəf Zeynallının 100 illik yubileyini qeyd etmişdir. Yubiley konsertində Azərbaycan artistləri ilə yanaşı, Dərbəndin nümayəndə heyəti də iştirak etmişdir.

2015-ci ildə «Dərbənd» Xeyriyyə Cəmiyyəti ulu öndər Heydər Əliyevin və görkəmli dövlət xadimi Əziz Əliyevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirmişdir. Tədbirdə Azərbaycan Respublikası Prezident Aparatının, Milli Məclisin və AMEA-nın nümayəndələri iştirak etmişdir.

2016-cı ildə Əliyev Nurulla Arif oğlu sədr seçilmişdir.

«Dərbənd» Xeyriyyə Cəmiyyəti 21 iyul 2016-cı il tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən «Dərbənd» Xeriyyə İctimai Birliyi adı ilə qeydiyyata alınmışdır.

«DƏRBƏND» XEYRİYYƏ CƏMİYYƏTİNİN TƏŞKİLATÇILARI VƏ YARADICILARI



Zeynalov Həmid
Ənvər oğlu
Sədr



Ələkbərov Əhməd
Şahlar oğlu
Sədr müavini



Nəsirov Mustafa
Cəfər oğlu



Tabasaranski Murad
Bəylər oğlu



Seyidov Əsgər
Mirsaleh oğlu



Sultanov Səftər
Əliyar oğlu



Əliyev Əli
Mahmud oğlu



Rəhimov Rafiq
Tağı oğlu

«Zamanın əlaqələri» ictimai təşkilatı – Dağıstanın xeyriyyəçi mədəni-maarif təşkilatı, 2007-cu ildə yaradılmışdır. Cəmiyyətin sədri Dağıstan Respublikasının əməkdar həkimi Səkinə Babayevadır. Bu cəmiyyət Dağıstanda yaşayan azərbaycanlıların könüllü təşkilatıdır. Bu cəmiyyətdə Rusiya, Azərbaycan və Dağıstan xalqlarının adət-ənənələri, mədəniyyəti və tarixi birləşir.



«Zamanın əlaqələri» cəmiyyətində müxtəlif sahələrdə çalışan müəllimlər, həkimlər, jurnalistlər, əczaçılar, iqtisadçılar, iş adamları və hüquqşünaslar birləşir. Cəmiyyətin əsas məqsədi Dağıstan və Azərbaycan xalqları arasındakı dostluq, iqtisadi, tibbi və mədəni əlaqələri möhkəmləndirməkdir.

«Zamanın əlaqələri» cəmiyyəti Azərbaycanın və Dağıstanın böyük oğlu Əziz Məmmədkərim oğlu Əliyevin 110 illik yubileyinin qeyd olunmasında, habelə Azərbaycan və Dağıstan arasındakı mədəni, tarixi iqtisadi əlaqələrə həsr olunmuş elmi-praktiki konfransda iştirak etmişlər.

Bax: «Azərbaycan dünyası» jurnalı, №83, dekabr 2007, səh.50.

«Ədalət» cəmiyyəti – Dərbənddə 2009-cu ildə yaradılmışdır. Sakit Əsgərov cəmiyyətin sədri seçilmişdir. «Ədalət» cəmiyyəti Dağıstan azərbaycanlılarının ilk cəmiyyətlərindəndir. Onun mərkəzi Dərbənddə yerləşir. Bu cəmiyyət yaranana kimi bir çox çətinliklərlə qarşılaşmışdır…1990-cı il 20 Yanvar hadisəsi, Qarabağ həqiqətləri, soyqırım, Xocalı hadisəsi, köçkün-qaçqın – bütün bu hadisələr Dərbənddə 50 nəfərdən ibarət «tos» cəmiyyətinin yaranmasına səbəb oldu. Sonralar bu cəmiyyət «Azəri» adı ilə fəaliyyət göstərmşdir. Bu cəmyyət fəaliyyət göstərmədiyi üçün 2000-ci il fevralın 2-də ləğv olundu.



«Ədalət» cəmiyyətinin üzvləri şəhidlər xiyabanında

Bu gərgin əziyyətlərdən çəkinmədən çox çətinliklə də olsa, «Ədalət» cəmiyyəti yaradıldı. Xalqın istəyi və arzusu ilə Dərbəndin yerli-köklü xalqı ilk dəfə 2009-cu il martın 18-də Narınqala qarşısında Azərbaycan bayrağının altında elliklə toplaşdı. Bu, yeni yaradılmış «Ədalət» cəmiyyətinin öz doğma xalqına olan məhəbbətindən, adət və ənənələrini nəsildən-nəslə ötürmək istəyindən idi. İyun ayında dünya şöhrətli şərqşünas alim Mirzə Kazımbəyin yubileyi ilə əlaqədar Dərbənd rayon icra hakimiyyətinin akt zalında böyük bir konfrans keçirildi. Bakıdan, Ümumrusiya azərbaycanlılar Konqresindən qonaqlar dəvət edilmişdi. İmam Əlinin mövludu münasibəti ilə layiqli məclis keçirildi. Bayramlarda, elə başqa vaxtlarda da, imkansız ailələrə yardım edilirdi. Cəmiyyətin əsas məqsədi – xeyriyyəçilik işlərinə, xalqın mədəniyyətinə, dilinin və dininin inkişafına yönəldilmişdir.

Maliyyə xərclərini öz üzərinə götürən «Ədalət» cəmiyyətinin sədri Sakit Əsgərov cəmiyyət üzvlərinin köməyi ilə 2009-cu il dekabrın 30-da Dünya azərbaycanlılarının Həmrəylik günü münasibəti ilə böyük yığıncaq keçirmişdir. Məclisdə şəhər və rayonlardan dəvət olunmuş ziyalılar çıxış etmişlər. «Ədalət» cəmiyyəti öz fəaliyyətini ədalət üstündə qurduğu üçün qısa zamanda ildə böyük hörmət qazanmışdır.

Bax: «Azərbaycan dünyası» jurnalı, №91, yanvar 2010, səh.50-51.

İQTİSADİYYAT

«Azərbaycan tarixi»nin II cildində müəlliflər ərəb haklmlyyəti dövründə Azərbaycanda, o cümlədən Dərbənddə şəhər həyatını təhlil edərək belə nəticəyə gəlirlər ki, ərəb müdaxiləsindən sonra Xilafət qoşunlarının itaətə gəlməyən şimal vilayətlərinə etdikləri vaxtaşırı yürüşləri xəzərlərin, həmçinin başqalarının bu yerlərə ardı-arası kəsilməyən hücumları ilə əlaqədar Azərbaycan ərazisində baş verən hərbi əməliyyatlar bu ölkənin şəhərlərinə və şəhər həyatına təsir göstərməyə bilməzdi. Yaxın Şərqin ərəblər tərəfindən «tez bir zamanda və çox vaxt sülh yolu ilə, iqtisadiyyata ciddi zərər yetirmədən» işğal edilən bir çox bölgələrinə nisbətən Azərbaycanın xüsusilə xaricdən daha çox müdaxiləyə məruz qalan şimal hissəsi uzun sürən hərbi əməliyyatlar zamanı ciddi çətinliklərlə üzləşmiş, bəzi hallarda isə dağıdılmışdı. Bütün bunlar şəhər təsərrüfatının böyük zərər çəkməsinə, hətta bir sıra şəhərlərin müvəqqəti tənəzzülünə gətirib çıxarsa da müharibələrarası dinclik dövründə köhnə şəhərlərin bəziləri yeni inkişaf yoluna qədəm qoymuş, bir neçəsi isə təzəliklə salınmışdı.

Orta əsrlərdə başqa yerlərdə olduğu kimi, Azərbaycanda da ölkənin siyasi və iqtisadi həyatında mühüm rol oynayan şəhərlər birdən-birə yarana bilməzdi. Bu şəhərlərin meydana gəlməsinin ilkin iqtisadi şərtləri hələ erkən orta əsrlərdə yaranmışdı; lakin həmin dövrün yaşayış məntəqələrinin heç də hamısı iri feodal şəhəri səviyyəsinə yüksələ bilmirdi. Orta əsrlərin erkən mərhələsində şəhər təsərrüfatının ümumi inkişafı bu yaşayş məntəqələrinin tədricən orta çağ feodal şəhərinə çevrilməsi üçün zəmin yaratdı, Azərbaycanın ərəblər tərəfindən işğalı haqqında məlumat verən mənbələr işğal dövrü üçün Ərdəbil, Muğan, Naxçıvan, Bərdə, Beyləqan, Qəbələ,. Şəki, Şəmkir, Dərbənd, Şabran, Şamaxı, Qazaka və başqa bu kimi şəhərlərin adlarını sadalayır. IX-X yüzilliklərin müəllifləri isə bu siyahını onlarla şəhər və yaşayış məntəqəsinin adları ilə zənginləşdirmişlər. Lakin ərəb mənbələrində adları çəkilən bu yaşayış məntəqələrinin heç də hamısı dövrümüzədək qalmamış, çoxunun hətta adı da unudulmuşdu. Əgər Bərdə, Beyləqan, Qəbələ, Şamaxı, Naxçıvan, Bakı, Dərbənd, Təbriz, Ərdəbil, Şəmkir, Gəncə, Şabran və b. şəhərlərin tarixi yerlərinin müəyyənləşdirilməsi şübhə doğurmursa, mənbələrdə adları çəkilən bir çox şəhər və yaşayış məntəqələri hələ də arxeoloji baxımdan açılmamışdır.

Ərəb işğalından xeyli sonra, VIII əsrdə də Arran və Azərbaycan ərazisində davam edən ardıarası kəsilməyən müharibələr şəhər və yaşayış məntəqələrinə xeyli zərər vurdu. Elə ona görə də çətin ki, bu dövrü iqtisadiyyatın çiçəklənməsi üçün əlverişli hesab etmək mümkün olsun. Arxeoloji tədqiqatların nəticələri ilə təsdiq olunan yazılı mənbələr ərəb işğalı, xəzər yürülşləri, yerli əhalinin xilafətə qarşı çıxışları və s. ilə əlaqədar iki əsrdən çox davam edən nisbi iqtisadi durğunluq dövründən sonra, yəni təqribən IX yüzilin II yarısından, Azərbaycanda şəhərlərin, sənətkarlığın və ticarətin inkişaf etməyə başladığını göstərir. Bu dövrdən başlayaraq şəhərlər yenidən sənətkarlıq və ticarət mərkəzinə çevrilir, orada istehsal olunan məhsullara tələbat artır və Moisey Kalankatlının məlumatına görə, hətta təbii sərvətlərin mənimsənilməsi də güclənir.

Arxeoloji qazıntılar bir sıra Azərbaycan şəhərlərində (Gəncə, Qəbələ, Mingəçevir, Beyləqan-Örənqala, Dərbənd, Çoqa, Bakı, Şabran, Şamaxı) orta əsrlərə xas olan bütün əsas sənət növlərinin (qab-qacaq emalı, qızıl və gümüş məmulatının hazırlanması, toxuculuq və s.) olduğunu göstərən mədəni təbəqələr aşkar etmişdir. Sənətkarlar şəhər əhalisinin əsas kütləsini təşkil edirdilər. Onların sayı kənd əhalisinin şəhərlərə axını hesabına daim artırdı. Sənətkarlar şəhərin sıx məhəllələrində ixtisaslarına görə yerləşərdilər. Bazar mərkəzləri belə məhəlləri, adətən, hər tərəfdən əhatə edərdi. Bəzən sənətkar dükanları şəhərin kənarında, möhkəmləndirilmiş qala divarlarının yanında cərgə ilə düzülürdü.

Ərəb canişininin iqamətgahı Bərdəyə köçürüldükdən sonra Arran ərazisindən keçən ticarət və karvan yollarının başlıca qovşaq məntəqəsinə çevrilmiş bu şəhər, mühüm ticarət mərkəzləri olan Bab əl-Əbvab (Dərbənd), Tiflis, Dəbil, Ərdəbil şəhərləri və onlar vasitəsilə başqa şimal və şərq ölkələri ilə birləşirdi.

Zəngin bazarları və yerli sənətkarların istehsal et-

dikləri müxtəlif çeşidli məhsulları olan Azərbaycan, o cümlədən Arran şəhərləri ticarət əməliyyatlarında iştirak edərək, Xilafətin Avropa və Asiya ölkələri ilə ticarət əlaqələrinin artmasına səbəb olurdu. Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılarda Orta Asiya, Rusiya, Bizans, İran, Çin, Suriya, Fələstin, Misir və b. ölkələrin maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Görünür, həmin ölkələrdən Azərbaycana şüşə, zərgərlik və toxuculuq məmulatı, gümüş qablar, bəzək şeyləri və s. gətirilirdi.

Bu dövr ticarətinin inkişafında Xəzər dənizi mühüm rol oynayırdı. Bizanslıların Qara dənizdən keçən ticarət xətlərini qapamış ərəblər yeni ticarət yollarını Xəzərə istiqamətləndirdilər. Bu isə Abaskun və Astrabaddan tutmuş Dərbəndədək Xəzərsahili şəhərlərin sürətli inkişafına səbəb oldu. Xəzər dənizi hövzəsinin cənub hissəsində gedən ticarət inkişaf etmiş sənətkarlıq istehsalına malik olan bir çox Asiya ölkələri ilə geniş əlaqələr saxlayan Bağdad, Buxara və Səmərqəndin iri bazarlarının yaxınlığı sayəsində daha da artırdı. Ərəblər əvvəllər Bizansın əlində olan Xəzər-Volqa ticarət yoluna nəzarət etməyə başladılar. Bizans imperiyasının arxalandığı xəzərlər isə ərəblər tərəfindən məğlub edildiklərinə görə, yeni ana ticarət yolu üçün təhlükə təşkil etmirdilər. Xəzər dənizinin ərəblərin əlində olan bütün liman şəhərlərinə, İbn Hövqəlin məlumatına görə, «tez-tez bir limandan başqasına gedən tacir gəmiləri gəlirdi».

Tranzit ölkəsi olan Azərbaycan digər ölkələrlə ticarətdə fəal iştirak edirdi. Azərbaycandan olan tacirlər, eləcə də yolları buradan keçən ərəb və b. ölkələrin tacirləri Volqa çayı ilə yuxarı qalxaraq şimala – bulqarların ölkəsinə gedib çıxırdılar. Tacirlər orada əllərində olan malın dəyərinin onda biri miqdarında gömrük haqqı ödəyir, xeyirli alış-veriş edirdilər; çünki bulqarlar bu tacirlərin sövdələrinə maneçilik törətmirdilər. Azərbaycanın, Arranın və eləcə də bütün Xilafətin bazarlarına bulqar və burtaslardan samur, dələ, tülkü xəzləri, dəri papaqlar, oxlar, qılınclar, zirehli geyimlər, balıq yapışqanı, qullar, bal, mum və s. gətirilirdi. Arrandan isə o zaman məhşur olan toxuculuq malları aparılırdı. Bu mallar toxucu müəssisələrinin məhsulları üçün bölüşdürücü məntəqə olan Dərbənd vasitəsilə müxtəlif ölkələrə daşınırdı. Bundan başqa Arran Xilafətin bütün bazarlarında çox tələb olunan keyfiyyətli boyaqlar və zəfəran ixrac edən ölkə idi.

Xilafətin simal ölkələri ilə ticarət mübadiləsində əhəmiyyətli mövqe tutan «Qapılar qapısı» Bab əl-Əbvab – Dərbənd Arranın ikinci böyük şəhəri idi. Ərəb xəlifələri Dərbəndin strateji və ticarət-ötürücü məntəqə kimi xüsusi əhəmiyyətini nəzərə alaraq, onun azad şəhər statusunu saxladılar, şəhəri əmirlər və ya rəislər şurası idarə etməyə başladı. Hələ 736-cı ildə xəlifə Hişamın dövründə Əsəd ibn Zafır başda olmaqla Dərbəndə göndərilmiş 400 dövlət məmuru bu idarəçiliyin əsasını qoydu. Şəhərin idarəsinə rəhbərlik edən rəislər rəisin nizamnamə çərçivəsində mühafizəsini təşkil etməli, qanun-qaydanı və təmizliyi gözləməli idi. Dərbənd qalasında, eləcə də digər sərhəd qalalarında, yerləşdirilmiş hərbi hissələr xidmət müqabilində xəzinədən maaş almır, yerli ehtiyatlar hesabına saxlanılırdı. Xəlifənin sərəncamı ilə sərhədyanı bölgənin «kafir» düşmənlə üz-üzə qalan döyüşçü-qazi əhalisinə vəqf payı kimi bütöv vilayətlərlə yanaşı, Abşeronun neft və duz yataqlarından əldə olunan gəlirlər verilirdi. Xəlifə Harun ər-Rəşid dövründə şəhərlilərin rifahını yaxşılaşdırmaq üçün Dərbəndə Rubas çayından bir neçə kanal çəkildi, burada bağ və bostanlar salındı, dəyirmanlar tikildi.

Xilafətin şimal hüdudlarında sərhəd qalası olan Dərbənd Xəzər dənizinin ən mühüm limanı idi. Səhər dənizin içərilərinə doğru uzanan daş hasarla əhatə edilmişdi. Bu şəhərdə olmuş əl-İstəxri və İbn Hövqəlin məlumatına görə, Bab əl-Əbvab sahil şəhəri idi. Ortasında gəmilərin yan alması üçün körpü var. Körpü ilə dəniz arasında hər iki yandan qoşa divar çəkilmişdir. Belə ki, gəmilərin giriş yolu dar və çox girintili-çıxıntılıdır. Giriş zəncirlənmişdir və heç bir gəmi icazəsiz buraya nə daxil olur, nə də çıxır.

VIII-IX əsrlərdə genişlənmiş ticarət Xilafət xəzinəsinə xeyli gəlir və mənfəət gətirirdi. Buna görə də Dərbəndin hakim dairələri ehtiyatı əldən vermədən Xilafətin yalnız hərbi-strateji deyil, ticarət mənafelərinin də keşiyində dururdular. Məsələn, «Dərbəndnamə»dəki məlumata görə, ehtiyatlı dərbəndlilər şəhərin müdafiə sisteminin quruluşunu gizlətmək məqsədilə Xəzər xaqanının Dərbəndə göndərdiyi elçilərinin gözlərini bağlamışdılar.

Ticarət məqsədilə Dərbəndə gələn yadellilərdən hələ xəlifə Ömər ibn əl-Xəttabın fərmanında nəzərdə tutulmuş gömrükhaqqı alınırdı. Bu fərmana görə, «torpaqlarımıza qədəm basan yadelli tacirlər-

dən, başqa ölkələrdə müsəlmanlardan alınan gömrükhaqqı məbləğində, 10 faiz haqq alınırdı. Zimmi (müsəlman olmayan digər tərallılılar) tacirlərdən malının dəyərinin beşdə birini, müsəlman tacirlərdən isə ümumi dəyəri 200 dirhəmə bərabər olan malına görə 5 dirhəm, yerdə qalan hər 40 dirhəmlik malına görə 1 dirhəm gömrükhaqqı» alınırdı. «Dərbəndnamə»nin məlumatına görə, xəzərlərin ölkəsində ticarət etmək arzusunda olan hər hansı bir Dərbənd sakini ya malının onda biri dəyərində haqq ödəməli, ya da alveri atmalı idi. İdxal olunan malların, eləcə də qulların, mal-qaranın və hər cür başqa şeylərin üzərinə qoyulan bu gömrük haqları Xilafət xəzinəsinə hər il 100 mindən 1 milyon dirhəmədək gəlir gətirirdi.

Dərbənd tacirlərinin alverində yerli istehsal məhsulları (kətandan hazırlanmış üst paltarları, zəfəran, qırmızı boya və s.) xüsusi yer tuturdu. Yerli tacirlər şəhərdə istehsal olunan məhsullarla yanaşı «kafirlərin ölkələrindən» gətirilən qulların satışından da xeyli mənfəət götürürdülər. Şimali Qafqazın bütün xammalı da (qoyun, dəri və s.) Dərbənddən keçirdi.

643-cü ildə Azərbaycan əhalisi ilə bağlanmış müqavilədə də belə bir maddə var idi: «Onlardan kimsə hər hansı il (müsəlman qoşununa) əsgəri xidmətə qəbul edilsə, ilin cizyəsi onun boynundan götürülür». Köçəri tayfaların basqınları təhlükəsi altında olan Dərbənd sərhəd vilayətinin sakinlərinə də belə bir imtiyaz verilmişdi. Belə ki, sərhəddə xidmət edib, müsəlmanları qoruyan dərbəndlilərin bununla öz vergi mükəlləfiyyətlərinin əvəzini çıxdıqları hesab olunurdu. Ət-Təbərinin məlumatına görə, müsəlman qoşunu sasanilərin Şimal sərhədlərinin mərzbanı Şəhribərəz (Şəhriyar) tərəfindən idarə olunan Bab əl-Əbvab - Dərbənd hüdudlarına daxil olduqda, mərzban ərəb sərkərdəsi Əbd ər-Rəhman əl-Bəhilinin hüzuruna gəlmiş, ondan aman istəmiş, cizyədən azad etməyi xahiş etmişdi: «Mən quduz düşmənə və əsli olmayan kobud xalqlara qarşı durmuşam. Qoy bizim sizə verəcəyimiz cizyə - köməyimiz və sizin buyuruğunuza əməl etməyimiz olsun. Bizi cizyə ilə alçaltmayın, əks təqdirdə onunla öz düşmənimiz qarşısında bizi zəiflədərsiniz». Bu məsələ barədə xəlifə Ömər ibn əl-Xəttabdan alınmış razılıqdan sonra ərəblərlə Şəhribərəz arasında bağlanmış müqavilənin mətninə belə bir maddə əlavə edilir: «əl-Əbvabın həm yerli, həm qərib sakinləri, eləcə də o həndəvərlərdə (yaşayan) və onlarla birlikdə (sülh muqaviləsinə) qoşulanlar yürüşə getməli və qoşun başçısının mühüm hesab etdiyi hər adi və qeyri-adi əmri yerinə yetirməlidirlər. Özü də cizyə ancaq səfərbərlik olanda və ancaq çağırışa qoşulanların üzərindən götürülür; cünki xalq qoşununda (xidmət) onların cizyələrinin əvəzidir. Bu (çağrışdan) azad olub (evdə) qalanların üzərinə isə Azərbaycan əhalisinin cizyə sarıdan boynuna düşən öhdəliklər – (müsəlman azanda) yolun göstərilməsi və bir gün bir gecə saxlanılması qoyulur».

Dərbənd və Azərbaycanın iqtisadiyyatının ümumi xarakteri (XI-XII əsrlər). XI-XII əsrlərdə ölkənin təsərrüfat həyatına və iqtisadiyyatına müəyyən zərər yetsə də, ümumi iqtisadi inkişaf davam etməkdə idi. Xilafətin hakimiyyətinin zəiflədiyi illərdə feodal dövlətlərin təşəkkül tapması, Səlcuq yürüşləri dövründə oğuz tayfalarının Azərbaycana öz mal-qara və qoyun sürüləri ilə gəlməsi, bunun nəticəsi olaraq, xüsusilə şəhərlərin ət, yağ, süd məhsulları, yun və qoşqu heyvanları ilə təmin olunması ölkənin təsərrüfat həyatının tədricən dirçəlməsinə, əhalinin yaşayış səviyyəsinin nisbətən yüksəlməsinə səbəb oldu.

Coğrafi və tarixi şəraitə görə, Azərbaycanda maldarlığın yaylaq-qışlaq və köçəbə formaları mövcud idi. Maldarların aran yerlərində də qəti müəyyənləşdirilmiş qışlaqları, dağlarda isə yaylaqları vardı.

Səlcuq yürüşləri nəticəsində bəzi şəhərlərin dağılması, otlaq təsərrüfatının genişlənməsi Azərbaycanda şəhər həyatının ümumi inkişaf meylinin qarşısını ala bilmədi.

Möhkəm və uca divarlarla əhatə olunmuş içqala-kuhəndiz (və ya Narınqala) əvvəlki kimi yenə də şəhərin ən möhkəmləndirilmiş hissəsində idi. Kuhəndizin ətrafında köhnə şəhər məhəllələrinin cəmləşdiyi şəhristan yerləşirdi. Adətən, o da divarla əhatə edilirdi. Bu dövrdə, demək olar, bütün Azərbaycan şəhərləri müdafiə qurğuları sisteminə malik idi. XII-XIII əsrin əvvəllərində Azərbaycanda yetmişədək iri, orta və kiçik şəhər vardı. IX-X əsrlərə nisbətən şəhərlərin ümumi sayı xeyli azalsa da, bu, heç də şəhər həyatının tənəzzülü demək deyildi. Əksinə, şəhərlər yeni, daha yüksək inkişaf pilləsinə qalxdılar.

Dərbənd, eləcə də Gəncə, Təbriz, Naxçıvan, Bakı, Marağa, Ərdəbil, Şamaxı və Beyləqan bu dövrün iri ticarət-sənətkarlıq mərkəzləri idi.

Şəhərlərin və şəhər sənətkarlığının inkişafı, əmtəə-pul münasibətlərinin kənd təsərrüfatına geniş

surətdə daxil olması və nəhayət, hələ erkən orta əsrlərdən coşqun fəaliyyət göstərən geniş ticarət-karvan yolları şəbəkəsinin mövcudluğu XI əsrin sonu XII əsrdə Azərbaycanın ticarət-iqtisadi əlaqələrinin genişlənməsi üçün əlverişli şərait yaratdı. Dərbənd və digər Azərbaycan şəhərləri ərazisində tapılmış yerli və kənarda zərb edilmiş qızıl və xüsusilə mis sikkələr, bu şəhərlərin XI-XII əsrlərdə inkişaf etmiş əlaqələrindən xəbər verir.

Azərbaycan tacirləri daxili və xarici bazarlara neft, pambıq, ipək, duz, meyvə, balıq, ədviyyat və s. göndərir, Böyük İpək yolu və onun şaxələri vasitəsilə Şərq və Qərblə ticarət əlaqələri saxlayırdılar.

Azərbaycan şəhərlərinin zərbxanalarında yerli feodal dövlətlərin (Sacilər, Rəvvadilər, Salarilər, Şəddadilər və b.) başçıları, o cümlədən, Şirvanşahlar və Eldənizlər öz pullarını kəsdirirdilər.

Bax: Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. «Azərbaycan» cildi. «Azərbaycan Milli Ensiklopediyası» Elmi mərkəzi. - Bakı: 2007, səh. 211.

Dərbənd və Azərbaycanda siyasi-iqtisadi vəziyyət XIII-XIV əsrlərdə. XIII əsrin birinci rübündə Azərbaycanın siyasi mənzərəsini ibn əl-Əsir (1160-1234), daha çox iqtisadi və mənəvi həyatını Yaqut Həməvi (1179-1229) işıqlandırmış, sonrakı tarixi hadisələrin təsvirini isə Həmdulla Qəzvini (1280-1349) və başqaları davam etdirmişlər.

XIII əsrin əvvəllərində Mərkəzi Asiyada güclənməkdə olan monqol tayfaları Çingiz xanın (1206-1227) başcılığı ilə Monqol dövlətini yaratdılar. Böyük ordu dəstələrinə malik olan monqollar hərbi yürüşlər edərək, az müddət içərisində Çini və Orta Asiyanın mühüm şəhərlərini tutdular. Onlar 1220-ci ildə İranı işğal edib, Azərbaycana daxil oldular. Qış düşəndə Təbrizə çatan monqollar möhkəm qala divarlarını görüb, Eldəniz hökmdarı Özbəkdən (1210-1225) çoxlu pul, paltar və digər qiymətli şeylər alaraq Xəzər sahilinə, oradan da qışlamaq üçün Muğana yollandılar. Qəsbkarlar 1221-ci ilin yazında yenidən Təbrizə hücuma keçmiş, onu ələ kecirə bilməyəndə Marağa üzərinə yerimişlər. Güclü müqavimətə baxmayaraq monqollar, Marağanı, Ərdəbili tuta bilmişlər. Sonra Arana üz tutan monqollar Beyləqanda vəhşiliklər törətmişlər. Hadisələri diqqətlə izləyən ibn əl-Əsir bu zaman Gəncənin işğaldan sovuşmasını belə izah edir: «Gəncə Aran vilayətinin anası (mərkəzi) idi. Ancaq tatarlar (monqollar) onun əhalisinin çoxluğunu, şücaətini, gürcülərlə olan müharibədə mərdlik və qoçaqlıq göstərdiklərini və bu şəhərin olduqca möhkəmliyini bildikləri üçün oraya yaxın düşə bilmədilər. Ancaq şəhər əhalisinə adam göndərib onlardan pul və paltar istədilər. Şəhər əhalisi onların istədiklərini verdi, onlar oradan çıxıb getdilər».

Monqollar 1222-ci ildə çox çətinliklə Şamaxı şəhərinə daxil olub qətl və qarətlər etdikdən sonra Dərbəndə, oradan da Şimali Qafqaza getmişlər. Bu ərəfədə Azərbaycana bir yandan qıpçaqlar, onların ardınca o biri yandan Xarəzmşahlar basqın etmişlər. 1225-1231-ci illərdə Azərbaycan Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddinin hakimiyyəti altına düşmüşdür.

Monqolların təkrar hücumları ilə Azərbaycan bir daha onların zülmünə məruz qalmış və səkkiz il müddətində təmamilə işğal edilmişdir.

XIII-XIV əsrləri əhatə edən yüzillik müddətində Azərbaycan Elxanilər dövlətinin (1256-1357) tərkibində qalmışdır. Bu dövlətə onun banisi Çingiz xanın nəvəsi Hülaku xanın (1256-1265) adı ilə Hülakular dövləti də deyilmişdir. Cənubi Qafqaz, İran, İraq, Əfqanıstan, Kiçik Asiya və Türkmənistanın çox hissəsini və s. əraziləri əhatə edən Elxanilər dövlətinin paytaxtı müxtəlif vaxtlarda Marağa, Təbriz, Sultaniyyə olmuşdur.

Elxanilər dövlətinin ilk dövrlərində onun tərkibinə daxil olan ölkələrin iqtisadiyyatı müharibələr nəticəsində tənəzzülə uğramışdı. Kəndlilərdən məhsulun beşdə dörd, hətta daha çox hissəsinin vergi şəkilində alınması da vəziyyəti xeyli ağırlaşdırmışdı. Qazan xanın (1295-1304) islahatları vergilərin həcminin dəqiq müəyyənləşdirilməsi, qeyri-qanuni vergilərin qadağan olunması, istifadəsiz torpaqların becərilməsi üçün şərait yaradılması, geniş süni suvarma işlərinin aparılması və s. baxımından təsərrüfatın canlanmasına səbəb oldu. Bu hal Ulcaytu xanın (1304-1316) dövründə də ozünü göstərdi. Lakin zaman keçdikçə vəziyyətin yenidən dəyişməsi dövlətin parçalanmasına və nəhayət, məhvinə gətirib çıxardı.

Xalq kütlələrinin və feodalların xeyli hissəsinin yanında nüfuzunu tamamilə itirmiş Şirvanşah Huşəng 1382-ci ildə öldürüldükdən sonra onun yerinə keçmiş İbrahim Dərbəndi (1382-1417) Şirvanın daxili idarə müstəqilliyini qoruyub saxlamağa çalısırdı.

XIV əsrin sonlarında bir-birinə düşmən iki istilaçı – Qızıl Orda xanı Toxtamış şimaldan və Orta Asiyada iri feodal dövlətinin hakimi Teymurləng (1370-1405) cənubdan böyük qüvvə ilə Azərbaycana hücum etdilər. Şirvan, Təbriz, Naxçıvan, Marağa və Mərənd şəhərləri Toxtamışın qoşunları tərəfindən dağıntılara məruz qaldı. O, geri çəkildikdə isə, Teymurləngin qoşunları gəldi. Təbriz yenidən talandı, onun mahir sənətkarları Teymurləngin əmrilə Səmərqəndə göndərildi.

İbrahim Şirvanın daxili müstəqilliyini saxlamaq üçün Teymurləng ilə sazişə girdi. Dərbənd keçidinin Qızıl Ordanın basqınlarından mühafizəsi Şirvanşaha həvalə olundu. Azərbaycanın Cənub vilayətlərinin idarəsi Teymurləngin oğlu Miranşahın ixtiyarına verildiyi halda, Şirvan dövləti öz mövcudluğunu saxlaya bildi.

Bax: Məmmədov Z. Azərbaycan fəlsəfəsi tarixi. - Bakı: 2006, səh.172-173.

Dərbənd və Azərbaycanın iqtisadi vəziyyəti (XIII-XIV əsrlər). Monqol istilaları Azərbaycan iqtisadiyyatına ağır zərbə endirdi. Ölkədə işçi qüvvəsi kəskin sürətdə azaldı, bir sıra şəhərlər, xüsusilə Beyləqan, Gəncə, Ərdəbil dağıdıldı, bəziləri adi yaşayış məntəqələrinə çevrildi. Kənd təsərrüfatı, suvarma sistemi daha güclü dağıntıya məruz qaldı.

XIII əsrin ortalarında Hülakular dövlətinin güclənməsi təsərrüfatda müəyyən canlanmaya səbəb oldu.

Hülakular dövlətini iqtisadi və siyasi böhrandan xilas etmək məqsədilə Qazan xan (1295-1304) ciddi addımlar atdı və islahatlar keçirdi. Onun torpaq, vergi, məhkəmə, rabitə, ticarət sahələrindəki islahatları ölkə iqtisadiyyatının yüksəlməsinə, dövlətin tənəzzül prosesinin qarşısının alınmasına və qüvvətlənməsinə səbəb oldu.

XIII əsrin əvvəllərində Azərbaycanda şəhərlər yüksək inkişaf səviyyəsində idi: Şəhər iqtisadiyyatında sənətkarlıq və ticarət mühüm yer tuturdu. Əsrin əvvəllərində Azərbaycanda irili-xırdalı 60-dan çox şəhər və qala var idi: Gəncə, Təbriz, Naxçıvan, Marağa, Ərdəbil, Dərbənd və s. Azərbaycanın əsas şəhərlərindən idi. Onların bəzilərində 100 mindən artıq əhali yaşayırdı. Monqol yürüşlərinin dağıdıcı nəticələrinə baxmayaraq, şəhərlərin inkişafı davam etdi, yeni şəhərlər salındı.

XIV əsrin I yarısında və sonralar Marağa, Naxçıvan və Ucan şəhərləri daha da inkişaf etdi. Urmiya, Xoy, Səlmas, Sərab və Uşnu ölkənin iri şəhərləri sırasına daxil oldu. Təbriz Hülaku dövlətinin paytaxtı olaraq daha sürətlə inkişaf edirdi. Onun ərazisi genişlənərək 4000 hektara çatdı. Şəhər 25 min addım (təqr. 24 km) uzunluğunda divar ilə əhatə olunmuşdu. Şəhərdə 1 milyona yaxın adam yaşayırdı. Təbriz şəhərinin ətrafında salınmış Rəşidiyyədə 30 min ev vardı. Bu dövrdə Azərbaycanda Mahmudabad şəhəri salındı. Azərbaycanın bir çox yerlərində – Təbrizdə (Ərk qalası), Abşeronda ölkənin müdafiə qüdrətinin möhkəmlənməsinə xidmət edən qalalar tikildi. Mərdəkandakı 2 qala bu dövrün tikililərindəndir.

Azərbaycan şəhərləri yarımaqrar xüsusiyyətlərə malik olsalar da, onların iqtisadiyyatında sənətkarlıq və ticarət mühüm yer tuturdu. Şəhər əhalisinin sənətkarlıq və ticarətlə məşğul olan zümrəsi çoxluq təşkil edirdi. Bu dövrdə Azərbaycan şəhərlərində, əsasən əvvəlki ənənəvi sənət növləri davam etdirilirdi. Toxuculuq, xalçaçılıq, metalişləmə, keramika, dulusçuluq, dəri istehsalı, ağac emalı, şüşə istehsalı, tikinti işi, şirniyyat hazırlanması, bədii işləmələr və s. əsas sənətkarlıq sahələrini təşkil edirdi.

Ticarətin inkişafı və geniş vüsət alması ölkədə pul tədavülünün tənzimlənməsini tələb edirdi. Azərbaycanın müxtəlif şəhərlərində – Təbriz, Gəncə, Marağa, Naxçıvan, Bərdə, Ərdəbil, Urmiya, Bakı, Şamaxı, Şabran, Beyləqan, Dərbənd, Xoy, Biləsuvar, Şərur, Sərab, Astara, Səlmas, Mahmudabad, Qəbələ, Ərciş, Şirvan, Qarağac, Əlincə, Güştasfi və s. şəhər və qalalarında zərbxanalar mövcud idi və onlarda müxtəlif ölçüdə və vəzndə qızıl, gümüş və mis sikkələr kəsilirdi.

Bax: Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. «Azərbaycan» cildi. «Azərbaycan Milli Ensiklopediyası» Elmi mərkəzi. - Bakı: 2007, səh. 221.

Rusiya və İngiltərənin Dərbənddə iqtisadi maraqları XVI əsrdə. İngiltərə XVI əsrdə Avropa ilə Orta Asiya və Yaxın Şərq ölkələri arasındakı ən mühüm iqtisadı arteriyalardan biri, xüsusilə strateji məntəqə olan Dərbənd üzərində öz nəzarətini gücləndirməyə çalışaraq Xəzər bölgəsində xüsusi fəallıq göstərməyə başladı. Bu məqsədlə 1555-ci ildə o «Moskva ticarət palatası adlı» xüsusi ticarət nümayəndəliyini təsis etdi. Bu nümayəndəliyin özünün Xəzər dənizində şəxsi donanması oldu. Həmin andan ingilislərin bir-birinin ardınca dəniz

və quru ekspedisiyaları başlandı. 1561-ci ildə artıq Xəzərdə məşhur dənizçi Antoni Cenkinson suyu yarıb keçir. O, Xəzərin qərb sahili ilə üzərək (Dərbəndə daxil olmaqla) Həştərxandan İrana gedən yolun iqtisadi-cografi təsvirini tərtib edir.

1563-cü ildə Dərbənddə Tomas Olkokun, Corc Rennin və Riçard Çininin ekspedisiyaları olmuşdur. 1565-ci ildə Rixard Consonun rəhbərliyi altında daha bir ekspedisiya Dərbənddən İrana keçdi. Sonralar Xəzər dənizinin qərb sahili ilə Edvars, Çempen və Borro ekspedisiya edirlər. Lakin qüvvətlənən Rusiya dövləti, bu mühüm iqtisadi bölgəyə daha tez-tez nəzərini yetirməyə başladı və İngiltərəyə – «dənizlər şahzadəsinə» Xəzərdə möhkəmlənməyə daha fəal mane olurdu. Bu qarşıdurmada son nöqtəni I Pyotr qoydu: «Bizim maraqlarımız imkan vermir ki, Xəzərdə olan hansısa bir ölkə, kimin olursa-olsun, Xəzər dənizində möhkəmlənsin».

Dərbənd və Şirvanın iqtisadi vəziyyəti XVI əsrdə. Dərbənd XV əsrdə Şirvanın iqtisadi və mədəniyyət mərkəzi idi. Şəhərin Şirvanın ipəkçilik obyektlərinin mərkəzində yerləşməsi, ipək emalının və hazır məhsul satışının iri mərkəzi olması da buna xeyli dərəcədə kömək etmişdi. İ.Barbaronun sözlərinə görə, Şamaxının 4000-5000 addımlıq ətrafı var idi. Dərbəndilər sülaləsindən olan Şirvanşahlar öz hakimiyyətləri dövründə Şirvanın iqtisadi yüksəliş mərhələsinə daxil olmasına xeyli kömək göstərdilər.

Səfəvilər Şirvanı ələ keçirdikdən sonra Şamaxı Şirvan bəylərbəyiliyinin paytaxtı oldu. XVI əsrin son rübündə ara savaşları dövründə şəhər güclü ziyana məruz qaldı. O, dəfələrlə əldən-ələ keçdi, dağıdıldı və talan edildi.

Bax: Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti. - Bakı: «Şərq-Qərb», 2007. səh. 228.

Çarizmin iqtisadi siyasəti və Dərbənd XIX əsrdə. Cənubi Qafqazın işğalının başa çatması yaxınlaşdıqca, Rusiyanın siyasi və ictimai dairələrində imperiyanın yeni torpaqlarındakı sərvətlərin mənimsənilməsi, istifadəsi və istismarı ideyası özünü büruzə verirdi.

20-ci illərin əvvəllərinə yaxın çar hökuməti hələ bu məsələdə müəyyənləşmiş mövqeyə malik deyildi. Tranzit Avropa-Asiya ticarətində hələlik Cənubi Qafqaza çarizmin Yaxın və Orta Şərqdə iqtisadi mövqelərini möhkəmləndirməkdə fəal vasitəçi və ötürmə məntəqəsi kimi əhəmiyyət verilirdi. Çarizmin mövqeyinin bu cəhətləri öz əksini Cənubi Qafqazda 1821-ci ilin güzəştli tarifi deyilən tarifdə tapdı. Bu tarifə görə, Qərbi Avropa malları üçün də Gülüstan müqaviləsində Rusiya və İran malları üçün nəzərdə tutulmuş rüsum (5%) qoyulurdu.

O dövrdə texniki bitkilərdən qızılboya istehsalı daha böyük əhəmiyyətə malik idi. Onun köklərindən yüksək keyfiyyətli təbii boyalar hazırlanırdı. Qızılboya Azərbaycanda qədimdən istehsal olunurdu. O, hələ orta əsrlərdə Azərbaycan parçalarına, xalçalarına və digər məmulatlarına dünya şöhrəti qazandırmışdı. XIX əsrin 40-cı illərində qızılboyaya sənaye tələbatı artdı. Azərbaycan qızılboyasının yaxşı keyfiyyətinə əmin olan rus sənayeçiləri Xəzər dənizinin qərb sahillərində bu bitkinin plantasiyalarının genişlənməsi və istehsalının artırılmasında fəal iştirak edirdilər. 1851-ci ilə qədər Azərbaycan və Dağıstanda qızılboya becərilməsi əsaslı surətdə mənimsənilərək, iqtisadi həyatın sərfəli və gəlirli sahələrindən birini təşkil edirdi. O zaman Rusiyaya 120 min puddan 140 min pudadək qızılboya kökü aparılırdı. Azərbaycanda qızılboya başlıca olaraq Quba, Şamaxı və Lənkəran qəzalarında becərilir, Bakıdan, Niyazabad limanından və Dərbənddən ixrac olunurdu. 1851-ci ildən 1860-cı ilədək qızılboya istehsalının başlıca mərkəzində Quba qəzasında 2,762 min rublluq 334,5 min pud qızılboya kökü istehsal olunmuş və Nijni-Novqorod yarmarkasına aparılmışdı. Azərbaycan qızılboya istehsalı üzrə Rusiya toxuculuq sənayesinin ehtiyatlarını təmin edən sırf ticarət xarakterli kənd təsərrüfatı sahəsi idi. 50-ci illərdə Moskva yaxınlığında xüsusi olaraq Xəzər sahillərindən gətirilən qızılboyanın emalı ücün fabrik tikildi.

Azərbaycan qızılboyası özünün yüksək keyfiyyətilə xarici boyaqları Rusiya bazarından müvəffəqiyyətlə sıxışdırıb çıxarır, hətta xaricə də ixrac olunurdu.

Bax: Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). - Bakı: «Elm». 2007. səh. 57, 67.

Dərbənd rayonunun sosial-iqtisadi vəziyyəti müasir dövrdə. Dərbənd rayonu qonaqpərvərlik və zəhmətkeşlər diyarıdır.

2008-ci ildə Dərbənd rayonunda sosial-iqtisadi vəziyyətin göstəriciləri sabit olaraq qalmışdır. Keçən il kənd təsərrüfatı məhsullarının istehsalının ümumi həcmi 117%, sənaye istehsalının artımı 102%, pərakəndə ticarətin dövriyəsi 114%, əhaliyə

pullu xidmətin həcmi 117% təşkil etmişdir. Rayonun sosial-iqtisadi inkişafına kompleks yanaşma, rəhbərliyin bütün istiqamətlər üzrə məqsədyönlü sisyasəti nəticəsində bütün sahələrdən gəlir vergilərinin büdcəyə axını ildən-ilə artır. Kiçik biznesdən və sahibkarlıqdan alınan vergilər hesabına rayonun büdcəsi xeyli artmışdır.

Aqrosənaye kompleksi rayonun iqtisadi bazasının əsasını təşkil edir. Əməyə qadir əhalinin 73% burada çalışır. Kənd təsərrüfatı məhsulunun ümumi həcminin 88% bitkiçilik, 12% heyvandarlıq təşkil edir. Bu da 2008-ci ildə 2007-ci illə müqayisədə xeyli artmışdır. Son illər özəl sektorun sürətlə inkişafı və bütün təsərrüfat növlərində həyətyani sahələrin ayrılması nəticəsində (bu torpaq sahələrinin 5 min hektarında tərəvəz becərilir) tərəvəz istehsalı 250 min tona qədər artırılmışdır.

Dərbənd rayonu respublikanın aparıcı üzümçülük rayonlarından biridir. 2008-ci ildə rayonda 34 min tondan çox üzüm istehsal olunmuşdur. Rayon icraiyyə komitəsinin qəbul etdiyi üzümçülüyün inkişafı proqramına əsasən 2010-cu ildə üzümün istehsalını 70 min tona, üzüm sahələrini isə 9 min hektara çatdırmaq nəzərdə tutulurdu.

Rayonun ticarət sahəsində 588 ticarət obyekti fəaliyyət göstərir. Pərakəndə ticarət dövriyyəsi 3 milyard 608 min rubl, əhaliyə pullu xidmətin həcmi 261 milyon rubl təşkil etmişdir.

Son illər rayonda demoqrafik vəziyyət də yaxşılaşmışdır. 2008-ci ildə rayonda 1797 uşağın anadan olması qeydə alınmışdır.

Bu gün Dərbənd rayonu respublikada yeganə qazlaşdırılmış rayondur. Hazırda yeni salınmış mikrorayonların qazlaşdırılması aparılır.

Rayonda 72 tədris müəssisəsi fəaliyyət göstərir: 47 məktəb, 17 məktəbəqədər müəssisə, 6 idman məktəbi və 2 uşaq yaradıcılıq evi vardır. Məktəblərin, məktəbəqədər müəssisələrin maddi-texniki bazasının yaxşılaşdırılması üzrə işlər aparılmışdır. 2008-ci ildə rayonun təhsil müəssisələrinə DR Təhsil Nazirliyi hesabına 7 fənn kabineti, 200 kompyuter, 1 interaktiv lövhə, «Qazel» markalı 3 minik maşını, 6 məktəbli avtobusu alınmışdır. Zidyan-Qazmalar kəndində yeni məktəb, Ullu-Tərəkəmə kəndində idman zalı, Çinar kəndində uşaq bağçası istismara buraxılmışdır. Dəliçoban, Həcux və Rubas kəndlərində yeni məktəblər tikilir. Əmək fəaliyyətlərinə görə rayonun 18 müəllimi «Ümumi təhsilin fəxri işçisi», 4 müəllim isə «DR Əməkdar müəllimi» fəxri adlarına layiq görülmüşdür.

2008-ci ildə səhiyyə sahəsində də xeyli iş görülmüşdür. Məmmədqala qəsəbəsində xəstəxananın nəzdində 40 çarpayılıq ümumi cərrahiyyə şöbəsi açılmışdır. 2007-ci il 21 iyul tarixli 185-FQ-nu «Mənzil kommunal təsərrüfatının yenidən qurulması fondu» Federal Qanununa əsasən rayonda ikiünvanlı bələdiyyə «2008-2011-ci illərdə çoxmənzilli yaşayış evlərinin əsaslı təmiri» və «Qəza vəziyyətində olan evlərdən əhalinin köçürülməsi» Proqramı yaradılmışdır. Bu Proqramı həyata keçirmək üçün rayonda 3 yoldaşlıq cəmiyyəti və 2 idarəedici şirkət yaradılmışdır. Proqramda rayonun Həcux, Məmmədqala və Xəzər yaşayış məntəqələri iştirak edir. Bu məqsəd üçün rayon büdcəsindən 35 milyon 945 min rubl ayrılmışdır.

Darvaq çayı ətrafında 10 min nəfəri qəbul edən turist istirahət kompleksinin tikilməsi nəzərdə tutulmuşdur.

Bax: Дагестан. Вчера, Сегодня, Завтра. ООО «Издательский дом «КСН-РФ», с. 132-133.

SƏNAYE

Azərbaycanın neft-kimya sənayesinin inkişafında Dərbəndin böyük rolu olmuşdur. Azərbaycan mühəndislərinin texniki ixtiraları, yeni neftayırma zavodlarının tikilməsi, dünyada ilk dəfə həyata keçirilən Bakı-Batum (1897-1907) neft kəmərinin və eləcə də Bakı-Tiflis (1883), Bakı-Dərbənd (1900) dəmiryol xətlərinin çəkilməsi neft hasilatının kəskin artmasına səbəb olmuşdur.

Dərbənddə sovet hakimiyyəti qurulanadək aşağıdakı müəssisələr tikilmişdir:

1863-cü il – boyaqotu kökünün emalı üçün fabrik;

1873-cü il – buxar dəyirmanı;

1873-cü il – tütün fabriki;

1879-cu il – şərab zavodu;

1880-ci il – ikinci üzümçülük zavodu;

1899-cu il – dəmir yolu, vağzal, parovoz deposu və təmir üzrə emalatxanalar.

Sovet hakimiyyəti illərində Dərbənddə aşağıdakı müəssisələr tikilmişdir:

– «Dağıstan işıqları» şüşə zavodu. Bu zavodun ilk direktoru Dərbənd sakini Fərəculla Yusifov olmuşdur;

– «Dağyun» yunəyrici fabriki. Bu fabrikin tikintisinə 1934-cü ildə vəfat etmiş memar Mustafa Qasımov rəhbərlik etmişdir;

– Balıqkonserv zavodu 1932-ci ildə istismara verilmişdir. Bu zavodun tikintisində sovet mütəxəssisləri ilə yanaşı alman mütəxəssisləri də iştirak etmişlər;

– 1955-ci ildə şəhəri yonulmuş daşla təmin edən tikinti materialları kombinatı;

– 1960-cı ildə cilalayıcı dəzgahlar zavodu;

– 1971-ci ildə böyükpanelli evtikmə kombinatı;

– 1971-ci ildə alkoqolsuz içkilər zavodu;

– 1971-ci ildə «Elektrosiqnal» zavodu;

– 1962-ci ildə Xalça istehsalı birliyi.

Bax: 1. Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. «Azərbaycan» cildi. «Azərbaycan Milli Ensiklopediyası» Elmi mərkəzi. - Bakı, 2007, səh. 568.

2. Султанов С.А. Дербент история возникновения и развития. - Дербент, 2003, стр. 109-111.

Sənaye sərgiləri – Rusiyada istehsalat və ticarət tələbatının artması ilə əlaqədar XIX əsrin I yarısında təşkil olunmağa başladı.

XIX əsrin ortalarında həmin sərgilərdə Dərbənd şəhəri də iştirak etməyə başladı.

1850-ci ilin martında Tiflisdə açılmış «Qafqaz canişinliyinin təbii və sənaye əsərlərinə» həsr olunmuş regional sərginin eksponatları içərisində Dərbəndin boyaqotu (marena) bitkisi və ipəyi var idi. Həmin ildə Dərbənd boyaq otu Peterburqdakı Ümumrusiya sərgisində nümayiş etdirilmişdir.

1851-ci ildə Londonda açılmış Avrova Ümumdünya sərgisində Dərbənd məhsulları nümayiş olunmuş və Dərbənd marenası sərgi iştirakçıları tərəfindən yüksək qiymətləndirilmişdir.

1873-cü ildə Moskva Politexnik sərgisində mütəxəssislər Dərbənddə yetişdirilən müxtəlif növ üzüm sortlarını yüksək qiymətləndirmişlər.

1895-ci ildə Qafqaz kənd təsərrüfatı sərgisində dərbəndli Ələkbər Məmməd Əli oğlunun yetişdirdiyi zəfəran gümüş medala layiq görülmüşdür.

1912-ci ildə Parisdə Ümumdünya yarmarkasında Dərbənd şərabları ən yüksək mükafata – böyük qızıl medala layiq görülmüşdür.

Balıqçılıq sənayesi. Dərbənd şəhəri qədim zamanlardan balıqla zəngin olan Xəzər dənizinin sahiliində yerləşdiyinə görə balıqçılıq mərkəzlərindən biri idi.

Klavdi Elian (II əsr) Xəzərdə nərə balığının tutulması, qurudulması və sonra «…dəvələrə yüklənib Ekbatana (Cənubi Azərbaycanda indiki Həmədan şəhəri) aparılması» haqqında məlumat vermişdir.

Yerli əhali balığı adətən şəxsi istifadə üçün tuturdu. Emal zavodları və nəqliyyat olmadığı üçün balıqçılığın geniş inkişafı mümkün deyildi. Yalnız XIX əsrdə «Xəzər dənizticarət» donanması yarandıqdan sonra balıqçılıq sənayesi inkişaf etməyə başladı. Xəzər dənizində əsasən zalom tutulurdu. Rəsmi məlumata əsasən 1855-ci ildə şəhərdən kənara 8,3 min pud (1 pud = 16 kq) balıq çıxarılmışdır.

Dəmiryolunun istismara verilməsi bu sahənin sürətli inkişafına təkan verdi. Artıq 1908-ci ildə

317,4 min pud balıq ixrac edilmişdir. Əgər 1850-ci ildə balıqdan gələn gəlir 12,1 min rubl idisə, 1913-cü ildə bu göstərici 496 min rubl təşkil etmişdir.

XX əsrin əvvəllərində Bakı quberniyasının Dövlət Əmlak idarəsinə tabe olan və «Rıbak» cəmiyyətində birləşmiş Dövlət Balıq müəssisələri yaradılmışdır. Şəhər əsasən Rubas və Darvaq çayları arasındakı ərazilərdə yerləşən icarəyə verilmiş balıqçılıq sahələrinin hesabına gəlir əldə edirdi.

Şəhər 1905-ci ildə – 14, 1913-cü ildə – 17 icarəyə verilmiş balıqçılıq sənayesi müəssisəsindən 276,8 min rubl gəlir götürmüşdür.

1915-ci ildə şəhər ərazisində 19 balıq sənayesi, həmçinin «Rıbak» və «Balıqçılıq yoldaşlığı» səhmdar cəmiyyətləri müəssisələri fəaliyyat göstərirdi. Onlar dövlət büdcəsinə 254,7 min rubl gəlir verirdi.

1918-1920-ci illər Vətəndaş müharibəsi şəhərin iqtisadiyyatına ciddi ziyan vurdu və balıqçılıq təsərrüfatını müflis etdi. İcarəyə verilmiş şəhər balıq müəssisələrinin yeni yaradılmış «Dağbalıq» vilayət qurumunun tərkibinə verildiyi üçün onların iqtisadi vəziyyəti daha da ağırlaşmışdır. Buna görə də şəhər 85-90% gəlirdən məhrum olmuşdur.

Dərbəndin balıq sənayesi yalnız 1926-cı ilin sonunda bərpa olundu. 1932-ci ildə şəhərdə tutulan balığı emal etmək üçün alman layihəsi üzrə balıqkonserv zavodu tikilmişdir. İşlədiyi birinci ildə (1933) zavod 3,2 milyon balıq konserv bankası istehsal etmişdir.

XX əsrin 50-ci illərində Xəzər dənizində balıq ehtiyatını saxlamaq üçün Dərbənddə balıq müəssisələrinin sayı ixtisar edilmiş, 60-cı illərdə isə balıqtutma sənayesi işini dayandırmışdır.

Şərab talanı. 1917-ci il fevral inqilabından sonra hakimiyyət uğrunda mübarizə aparan partiya və hərəkatlar praktiki olaraq şəhərin ictimai-iqtisadi həyatına nəzarəti tamamilə itirmişdilər. Bir çox nizam-intizamsız əsgərlər, eləcə də nəzarətsiz qalmış silahlı qruplar, özlərini «qırmızıqvardiyaçılar», «inqilabın müdafiəçiləri», «xalq milisi», «özünümüdafiə dəstələri» adlandırır və şəhərdə sərxoşluq edirdilər. Belə ki, 1918-ci ilin iyununda Bakı qırmızıqvardiya dəstələrindən olan daşnak əsgərlər Dərbənd türməsində istintaq altında olan 11 müsəlman üzərində özbaşına məhkəmə qurmuşdular. Bu da şəhərdə böyük antisovet çıxışlarına səbəb olmuşdu. Şəhər soveti qırmızıqvardiyaçıların və silahlı fəhlələrin köməyi ilə bu çıxışı yatırmışdı.

Lakin şəhərdə şərxoşluq, dinc sakinlərin öldürülməsi, talançılıq böyük miqyas almışdı. Yaranmış bu vəziyyətdə şəhər sakinləri özləri müdafiə tədbirləri görürdülər. Şəhərdə olan şərab anbarları, şərab və araq satılan mağazalar, Heydərovun, Dadaşovun, Poqosovun, Koçerqinin yeraltı anbarlarında olan şərab və araq ehtiyatları şəhər sakinləri tərəfindən ləğv edilmişdi. Dərbənddə «dərbəndi» üzüm növündən ağ süfrə şərabı istehsal olunurdu.

Buxar dəyirmanı Dərbənddə 1872-ci ildə mühəndis Henrix Ferdinandoviç Lemkul tərəfindən tikilmişdir. Dəyirman üçün avadanlıq Almaniyadan gətirilmişdir.

1873-cü il yanvarın sonunda dəyirman istismara buraxıldı. 8 ay işlədikdən sonra dəyirmanın əsas dişli çarxı sıradan çıxdığı üçün dayandı. Ehtiyat hissə Berlindən gətirilənə qədər dəyirman 1 il işləmədi (1874).

1875-ci ildə dəyirmana az miqdarda taxıl gətirildiyi üçün o tam gücü ilə işləmədi. 1876-cı ildə dəyirman işini tamamilə dayandırdı. Dəyirmanın dayanmasının əsas səbəbi aşağı keyfiyyətli un istehsal etməsi idi.

Tütün fabriki Dərbənddə 1873-cü il sentyabrın 20-dən işləməyə başlamış və ilin sonuna qədər 1500 min rubl dəyərində məhsul istehsal etmişdir. Lakin fabrik iqtisadi baxımdan rentabelli deyildi. İstehsal etdiyi məhsulun maya dəyəri bazar qiymətindən yüksək olduğu üçün 1874-cü ildə fabrik işini dayandırdı və 1875-ci ildə bağlandı.

Sallaqxana 1901-ci ildə şəhər memarı Qolyaşkinin tərtib etdiyi lahiyə əsasında tikilmişdir.

Sallaqxana üçün sanitar komissiyası tərəfindən şəhərin şimalında dəniz sahilindən üç verstlikdə (1verst=1,07 km) yerləşən ərazidə yer ayrılmışdır.

Sallaqxananın binası iki hissədən: iribuynuzlu heyvanları kəsmək üçün böyük və xırdabuynuzlu heyvanları kəsmək üçün kameralardan, soyuducu və digər xidmətlər üçün əlavə tikililərdən ibarət idi. Sallaqxanaya şəhər baytarı nəzarət edirdi.

Sallaqxananın tikilməsi şəhərdə mühüm sanitar problemini həll etdi. Sallaqxana şəhər büdcəsinə yaxşı gəlir gətirirdi. Heyvanların kəsilməsi aşağıdakı qiymətlər üzrə aparılırdı: öküz və buğalar – 1 rubl 50 qəpik; inəklər – 1 rubl 10 qəpik; iki yaşından az olan danalar – 40 qəpik; qoyunlar,

keçilər, qoçlar – 25 qəpik; quzu və çəpişlər – 15 qəpik; 3 pud çəkisi olan donuzlar – 50 qəpik; çəkisi 3 puddan çox olan donuzlar – 1 rubl. 1903-cü ildə sallaqxananı genişləndirmək üçün əlavə vəsait ayrılaraq əlavə tikililər tikilmiş, heyvanların saxlanması üçün yer ayrılmış, «Viqandt» firmasından yeni texnoloji avadanlıq və baytar həkim üçün alətlər alınmış, sallaqxanadan şəhərə ödənişli ət çatdırmaq üçün xüsusi araba hazırlanmışdır.

1905-ci ildə şəhərin müsəlman əhalisi öz heyvanlarını kəsmək üçün sallaqxananın nəzdində ayrı binanın tikilməsi xahişi ilə şəhər ictimai idarəsinə müraciət etmişdi. Onların bu xahişi yerinə yetirilmişdir. 1921-ci ildə sallaqxana sovet hakimiyyəti tərəfindən milliləşdirilmişdir.

Konyak kombinatı. Dərbənddə ilk dəfə konyak istehsalına 1902-ci ildə Dadaşov adına şərabçılıq zavodunda başlanmışdır.

1920-ci ilin mayında şəhər hakimiyyətinin qərarı ilə Dadaşov adına konyak zavodu milliləşdirildi. 1924-ci ildə şəhər büdcəsini möhkəmləndirmək məqsədilə konyak zavodu Dərbənd şəhər sovetinə verildi. 1960-cı ildə bu zavodun bazası əsasında Dərbənd konyak kombinatı yaradıldı.

Hazırda Dərbənd konyak kombinatı Rusiyada ən böyük və yüksək istehsalat müəsissələrindən biridir. Kombinatın istehsal etdiyi «Narınqala», «Mahaçqala», «Port-Petrovsk», «Prezident» konyakları, «Samur», «Madera», «Pedro Ximenes», «Xeres» şarabları ölkədə və onun hüdudlarından kənarda böyük şöhrət tapmışdır. Son 10 il ərzində kombinatın məhsulları beynəlxalq müsabiqələrdə iki Qran-pri «Superkubok»unu («Port-Petrovsk» konyakı 1998-ci ildə və «Prezident» konyakı 2002-ci ildə), 8 Qran-pri kubokunu, 130 qızıl, 31 gümüş və 9 bürünc medal qazanmışdır. Hazırda kombinat 13 adda konyak və 13 adda şərab istehsal edir.

Elektrikləşdirmə – Dərbənddə ilk elektrik stansiyası 1912-ci ildə sahibkar Ayzenberq tərəfindən tikilmişdir. Stansiya Auqsburq (Almaniya) zavodunun istehsalı olan iki silindrli dizel mühərrikindən ibarət idi. Bu mühərrik 1906-cı ildə istehsal olunmuş və 40 at gücünə malik idi. Stansiyanın istehsal etdiyi sabit cərəyan elektrik enerjisi şəhər idarəsinin obyektlərinə (şəhər idarəsinin binasına, polis idarəsinə, poçt və teleqraf binalarına, xəstəxanaya, realnı məktəbinə) və varlı sakinlərin evlərinə verilirdi. Elektrik stansiyası yalnız axşam saatlarında işləyirdi. 1922-ci ildə elektrik stansiyası sovet hakimiyyəti tərəfindən milliləşdirilmiş və şəhər kommunal elektrik stansiyasına çevrilmişdir. Stansiyanın direktoru elektrostansiyanın keçmiş sahibi Ayzenberq təyin olunmuşdur. 1927-ci ildə stansiyada Kolomensk zavodunun 1910-cu ildə buraxılmış 100 at gücündə olan dizel qurğusu, 1929-cu ildə Aşers-Leben (Almaniya) zavodunun hələ 1914-cü ildə istehsal olunmuş 200 at gücündə olan dizel aqreqatı quraşdırılmışdır.

Şəhər elektrik stansiyasının gücü az olduğu üçün o illərdə istismara verilən sənaye müəssisələri (Dağyun fabriki və Konserv zavodu) öz elektrik stansiyalarından qidalanırdı. Dəmir yol qovşağının da öz elektrik stansiyası var idi. Bu elektrik stansiyaları axşam vaxtlarında yaxınlıqda yerləşən yaşayış evlərini də enerji ilə təmin edirdilər.

1938-ci ildə şəhər elektrik stansiyasında keçmişdə istismarda olmuş 200 at gücündə olan daha 2 dizel aqreqatı quraşdırılmışdır. Lakin istismar vaxtı keçdiyindən 780 at gücündə olan altı qurğudan yalnız beşi – 580 at gücündə olan qurğular işləyirdi.

1954-cü ildə bu elektrik stansiyasında Moskvanın «Komintern» radiostansiyasından sökülmüş və hər biri 465 at gücündə olan iki dizel aqreqatı quraşdırılmışdır. Bundan əlavə stansiyada «Aşers-Leben» firmasının 200 at gücündə olan və Auqsburq zavodunun istehsalı olan 40 at gücündə bir dizel mühərrikləri işlək vəziyyətdə qalırdı. 1957-ci ildə burada yenə keçmişdə istismarda olmuş 500 at gücündə olan bir dizel qurğusu quraşdırılmışdır. 1959-cu ildə şəhər «Dağenerji» dövlət enerji sisteminə qoşulmuşdur. Bununla əlaqədar olaraq 1960-cı ilin əvvəlində şəhər elektrik stansiyası ləğv edilmiş, bina isə yeni tikilən «Elektrosiqnal» zavoduna verilmişdir.

«Dağıstan işıqları» zavodu. Yüz il bundan əvvəl Dərbəndin şimalında zəlzələ baş vermişdir. Zəlzələ nəticəsində həmin yerdə təbii qaz çıxmağa başlamışdır. Həştərxan sənayeçiləri Malışev qardaşları bu yerlə maraqlanmışlar. 1913-cü ildə onlar bu yerləri şüşə istehsalını təşkil etmək üçün tədqiq etməyə başlamışlar. Şüşə istehsalı üçün xammal – kvars qumu tapılır və yanacaq kimi burada çıxan təbii qazdan istifadə olunur. Tezliklə Malışev qardaşları Dərbənd şəhər başçısından 10 hektar torpaq

sahəsi icarəyə götürərək tikintiyə və dərhal şüşə qabların istehsalına başlamışlar.

Vətəndaş müharibəsi illərində zavod dağıdılmış, 1926-cı ildə yenidən bərpa edilərək məhsul istehsalını davam etdirmişdir. «Dağıstan işıqları» zavodu Dağıstanda sovet hakimiyyəti qurulduqdan sonra tikilmiş ilk nəhəng müəssisə və ölkədə təbii qazla işləyən şüşə istehsalı üzrə ilk mexanikləşdirilmiş zavod idi. Bu zavodda əsasən pəncərə şüşələri istehsal olunurdu. Hazırda zavodda natrisilikatı, üzlük daşlar, kimya və yeyinti sənayesində istifadə olunan şüşə borular, beynəlxalq standartlara cavab verən şüşə qablar istehsal olunur.

Sovet hakimiyyəti illərində şəhərin sənaye müəssisələri sürətlə inkişaf edirdi. Zavodda yeni sexlər açılır, yeni məhsullar istehsal olunurdu. Burada yeni xalçaçılıq fabriki, podşipnik zavodu və üzümçülük sovxozu fəaliyyət göstərirdi. 1991-ci ildə ölkədə siyasi vəziyyət dəyişildiyi və iqtisadi əlaqələrin kəsildiyi üçün şəhərin sənayesi tənəzzülə uğramağa başladı.

2007-ci ilin aprelində şəhərin başçısı, 9 il Dərbənd şəhər milis şöbəsinə başçılıq etmiş Məhəmməd Qafarov zavoda direktor vəzifəsinə seçilir. Bundan sonra zavod yeni inkişaf mərhələsini yaşamağa başlayır, müasir texnologiyalarla təchiz olunur və beynəlxalq standartlara cavab verən məhsul istehsal edir.

Ət kombinatı. 1921-ci ildə əvvəllər şəhərdə mövcud olan sallaqxananın əsasında «İttifaqət» birliyinin tərkibində sallaqxana təşkil edilmişdir. 1933-cü ildə şəhərin büdcəsini saxlamaq üçün sallaqxana şəhər Sovetinin ixtiyarına verilmişdir.

1954-cü ildə bu sallaqxananın əsasında böyük mexanikləşdirilmiş ət kombinatı yaradılmışdır.

«Dağyun» yunəyirmə fabriki – 1930-cu ildə Dərbənddə istismara verilmişdir. Bu, muxtar respublikada yunun sənaye emalı üzrə ilk müəssisə idi.

Fabrik əsasən yerli xalq müəssisələrini hazır yun iplə (xalçalıq, çorablıq və yun parça üçün) təmin etmək məqsədi ilə salınmışdır.

Fabrik ilk istehsal fəaliyyəti dövründə 200 t xalça ipi hazırlamışdır. 1931-ci ilin planını uğurla yerinə yetirdiyi üçün Dağıstan MSSR XI Sovet qurultayının keçici Qırmızı bayrağını almışdır.

Fabrik fəaliyyət göstərdiyi müddət ərzində bir neçə dəfə yenidən qurulmuş və onun illik ip istehsalı 2 min tona çatdırılmışdır.

1993-cü ildən «Dağyun» dövlət fabriki «Dağyun fabriki» adlandırılmışdır.

Konserv kombinatı. 1930-1932-ci illərdə dəniz kənarında alman firmasının layihəsi üzrə keçmiş meşə anbarlarının yerində balıq konserv zavodu Dərbənd şəhərində tikilmişdir. Birinci il zavod 3,2 mln. banka balıq konservi istehsal etdi. 1933-cü ildə zavoda proletar şair Maksim Qorkinin adı verildi. 1936-cı ildə bu zavodun bazası əsasında Dərbənd konserv kombinatı yaradıldı. Bu kombinat 50 növə yaxın ət, balıq, tərəvəz konservləri, tomat-pastası, kompot, meyvə şirələri və s. istehsal edirdi.

2002-ci ildə Rusiya Federasiyası konserv sənayesinin inkişafındakı xidmətlərinə görə kombinata 1974-cü ildən 2001-ci ilədək kombinatın baş direktoru işləmiş S.Ş.Umarovun adı verilmişdir.

Qoztəmizləyən zavod – Dərbənddə 1932-ci ildə açılmışdır. Zavoda xammal qonşu Tabasaran rayonundan gətirilirdi. Təmizlənmiş və emal olunmuş qoz ləpələri ölkənin Avropa hissəsindəki yeyinti məhsulları müəssisələrinə göndərilirdi. Qoz ləpələrinin xırda hissələrindən halva hazırlanırdı.

Zavodda çalışan fəhlələrin sayı 46 nəfər idi.

1936-cı ildə zavod yeni yaradılmış Dərbənd konserv kombinatının tərkibinə daxil olmuşdur. XX əsrin 50-ci illərindən zavod şirə istehsal etməyə başlamışdır.

Dəri-boya fabriki - hələ qədimdən Dərbənddə toxuculuğa və xalçacılığa tələbat olduğu məlumdur. 1850-ci ildə Dərbənddə 3 boyaqçı sexi mövcud olmuşdur.

1934-cü ildə «Qızıl Dağıstan» artelində yun və pambıq parçalarını boyamaq üçün mərkəzləşdirilmiş boyaqçılıq istehsalatı fəaliyyət göstərirdi. 1940-cı ildə bu artelin əsasında yüksək avadanlıqla təchiz olunmuş və 100 rəngdən çox iplik buraxan Dəri-boya fabriki yaradılmışdır.

Şəhər yeyinti kombinatı - 1934-cü ildə Dərbənd şəhərində yaradılmış, «Qırmızı Dağıstan» artelinin bazasında təşkil edilmişdir. Şərq şirniyyatları, alkoqolsuz içkilər üzrə ixtisaslaşmışdır. Sonralar kombinat üzümdən hazırlanmış şərablar istehsal etməyə başladı. Hal-hazırda kombinat yalnız qənnadı məmulatları istehsal edir. 1993-cu ildən kombinat «Pişevik» OOO-ya dəyişdirilmişdir.

Şəhər süd zavodu - 1936-ci ildə keçmiş qubernatorun evində yerləşən süd qəbulu məntəqəsinin bazasında yaradılmışdır. Zavodun istehsal istiqaməti ərinmiş yağın və brınza pendirinin hazırlanması idi. 1964-cü ildə zavodda ərinmiş yağın hazırlanması dayandırıldı və hazır çəkilib bükülmüş məhsulların istehsalına başlandı. Bu məhsullara qatıq məhsulları və digər dietik məhsullar daxil idi. 1982-ci ildə müasir avadanlıqlarla təchiz edilmiş süd zavodu istismara buraxıldı.

Elektrosiqnal zavodu – 1959-cu ildə Dərbənd şəhərində inşa edilmişdir. Bu zavodda mürəkkəb radiocihazlar istehsal olunur. 1996-cı ildən «Elektrosiqnal» səhmdar cəmiyyəti Birliyidir.

Cilalayıcı dəzgahlar zavodu - 1960-cı ildə Dərbənd şəhərində istismara buraxılmışdır. Bu Dağıstanda ilk dəzgahquraşdırma zavodu səthcilalayıcı dəzgahların istehsalı üçün quraşdırılmışdır. Sonralar zavodda müxtəlif xüsusi dəzgahların 20-yə yaxın modelinin, mürəkkəb konstruksiyalı dəzgahlar daxil olmaqla, istehsalına başlanmışdır.

1993-cü ildən – «Dərbənd cilalayıcı dəzgahlar zavodu» səhmdar cəmiyyəti adlanır.

Xalçaçılıq fabriki – Dərbənd şəhərinin keçmiş xalçaların satışı bazasında 1960-cı ildə yaradılmışdır. Fabrik xovlu yun və xovsuz (sumax) xalçaların əl ilə toxunması üzrə ixtisaslaşmışdır. Müəssisənin rentabelliyini artırmaq məqsədilə yarımyun və pambıq palazların buraxılması üzrə yeni sex istismara verildi. Bu palazlar maşında toxunurdu.

Fabrikin xovlu xalçalarına Rusiyada və Qərbi Avropa ölkələrində böyük tələbat var idi. Xalçalar Monrealda keçirilən ЭКСПО-67 beynəlxalq sərgisində nümayiş olunmuşdur.

«Radioelement» zavodu – 1961-ci ildə «Poçt qutusu №5» başlığı altında istismara verilmişdir. Bu zavod SSRİ-də ölkənin müdafiəsinə tələb olan radioelektron qurğuları (transformatorlar, drosselər) üçün sarğı məmulatları istehsal edən ən nəhəng müəssisələrdən biri sayılırdı. Zavodun məhsulları ölkə daxilində satılır və ölkədən kənara ixrac olunurdu. Sonralar zavod X-5387 adlanırdı. 1980-ci ildən zavod əsas məhsullarla yanaşı, mürəkkəb ev texnikası üçün kommutativ məhsulları, kompüterlər və proqramlar ilə idarə edilən dəzgahlar üçün qida blokları istehsal edirdi. 1982-ci ildən zavod «Radioelement» Səhmdar cəmiyyətinə çevrilmişdir.

«Dinamo» fabriki – 1961-ci ildə Dərbənd şəhərində istismara verilmişdir. Fabrik idman malları istehsal edirdi.

Şampan zavodu – 1979-cu ildə DMSSR Nazirlər Sovetinin və RSFSR yeyinti sənayesi Nazirliyinin «Rosqlavvino» birliyinin birgə qərarı əsasında Dərbənd şəhərində yaradılmışdır. Zavod ilk məhsulunu 1982-ci ildə vermişdir və ilk on il ərzində 9 mln. 500 min şüşə «Советское шампанское» buraxmışdır.

Bu şampan şərabları rus şərabçısı Frolov-Boqreyev texnologiyası əsasında istehsal olunurdu. 1983-cü ildə zavodda «KXS» alman firmasının yeni texnologiyası quraşdırılmışdır. Bu da istehsal olunan məhsulun keyfiyyətinin Avropa standartlarına yaxınlaşdırmağa imkan verdi. Zavod tərəfindən şampan şərabının 4 yeni növü («Седой Каспий», «Юрий Долгорукий», «Император», «Северная столица») və 9 adda («Rusiya kəmşirin şampanı», «Aleqote», «Kara-koysu», «Rozaliya», «Kaberne-Sovinyon» və s.) şərab istehsal olunur:

Zavod yenidənqurma hesabına məhsul istehsalını il ərzində 16 mln. şüşəyə çatdırmışdır.

2008-ci ilin əvvəlində zavodun istehsal etdiyi şərablar 174 medala və 7 Qran-Pri mükafatlarına layiq görülmüşdür.

2005-ci ildə Dərbənd şampan şərabları zavodu yeyinti məhsulları yarmarkasında müvafiq nominasiyada diplom almışdır. İlk dəfə olaraq İsveçrənin «Singerta» şirkətinin diplomunu almışdır. «Rusiyanın ən yaxşı müəssisələri» müsabiqəsində «Dinamik inkişaf nominasiyasında» zavod fəxri diplomla mükafatlandırılmışdır.

Naxşunov-Robert İlyiç (1979-1993), DR Milli Məclisinin deputatı Məhəmməd Sədullayev (1993-cü ildən) zavodun direktoru vəzifəsində çalışmışlar.

KƏND TƏSƏRRÜFATI

Kənd təsərrüfatı və aqrar münasibətlər. XVIII əsrin I yarısında Azərbaycan keçmişdəki kimi öz təbii sərvətlərinin zənginliyi ilə fərqlənirdi.

Ölkə iqtisadiyyatının əsas sahələrini əkinçilik və maldarlıq təşkil edirdi. Günəşli günlərin bolluğu və torpağın münbitliyi burada müxtəlif kənd təsərrüfatı bitkilərinin yetişdirilməsinə zəmin yaradırdı.

Əkinçilikdə əsas yeri dənli bitkilər tuturdu. Bu sahədə Şirvan, Təbriz, Gəncə, Qarabağ, Quba, Qazax, Lənkəran, eləcə də Şəkinin bərəkətli torpaqlarından daha çox məhsul əldə edilirdi. Qaratorpaq sahələrdə, xüsusilə Kür və Araz çaylarından çəkilən süni suvarma sistemi - arx və qanovlar əkinçilərə buğda, arpa, düyü, dən və digər dənli bitkiləri yetişdirmək üçün imkan yaradırdı. Dənli bitkilər arasında əsas yeri taxılçılıq tuturdu.

Taxılçılıq üçün daha əlverişli sahələr Kür çayı boyunca yerləşən kəndlərə məxsus idi. XVIII əsrin əvvəllərində Azərbaycana gəlmiş iezuit missionerləri Şirvanda kəndlilər tərəfindən torpağın işlənməsinin və burada yüksək keyfiyyətli taxıl məhsulu götürülməsinin şahidi olmuşlar. Onların yazılarında oxuyuruq: «Torpaq o qədər münbitdir ki, gübrəyə ehtiyacı yoxdur. Torpağa yalnız bir və ya iki il istirahət verildikdən sonra yenidən əkinə başlayırlar. Əldə edilən buğda çox gözəldir, ondan əla çörək bişirilir».

Quba əyaləti də taxılla zəngin idi. Belə ki, Quba kəndliləri Şəki, Dərbənd, Bakı və digər yerləri buğda ilə təmin edirdilər. Müşkür mahalında da keyfiyyətli və bol taxıl məhsulu yetişdirilirdi. Dövrün müasiri, XVIII əsrin 20-ci illərində Şirvanda olmuş İ.Qerber bu barədə öz xatirələrində yazmışdır: «Bu mahal bütün Şirvanı, Şamaxını və Dağıstanın bir hissəsini buğda, arpa, dən ilə təmin edir. Həmin bitkilərin bu yerlərdə xeyli miqdarda əkilməsinə buraya Kürdən axan xırda çaylar kömək edir».

Dənli bitkilər arasında çəltik də mühüm əhəmiyyət kəsb edirdi. Çəltik əsasən Talışda, Cavadda, Marağada, Şəkidə, habelə Təbriz və Şirvan əyalətlərinin vadilərində əkilirdi.

Vergi verən əhalinin həyatında əsas yeri nisbətən az su tələb edən arpa tuturdu. Kəndlilər burada paxlalı bitkilər də becərirdilər.

Ölkənin kənd təsərrüfatında ipəkçiliyin böyük rol oynadığı xüsusi qeyd edilməlidir. Şirvanda, Şəkidə, Ərəşdə, Təbrizdə, Gəncədə, Qubada, Lənkəranda və digər yerlərdə həm keyfiyyət, həm də kəmiyyətcə fərqlənən xam ipək hazırlanırdı. XVIII əsrin 16-18-ci illərində Şirvanda olmus Rusiya dövlətinin elçisi A.P.Volınski xatirə «Jurnalı»nda bu barədə yazmışdır: «Onlar ipəyə böyük maraq göstərirlər, buranın hər yerində külli miqdarda ipək əldə edilir. Elə bir kənd tapılmaz ki, orada istər dəniz kənarında, istərsə də Kürün sahillərində, ipək zavodu (emalatxanası - *məsul red.)* olmasın».

Azərbaycanın kənd təsərrüfatında dənli bitkilərlə yanaşı texniki bitkilərin də (pambıq, zəfəran) yetişdirilməsinə əhəmiyyət verilirdi.

Suya daha çox ehtiyacı olduğundan pambıq əsas etibarilə ovalıqlarda, süni suvarma üçün şərait olan yerlərdə əkilirdi. Pambığın bol yeri Mil və Muğan düzənlikləri, habelə Şirvan çölləri idi. Salyan kəndlərində, eləcədə Gəncə və Naxçıvan şəhərlərinin ətraf kəndlərində də pambıq əkilirdi. Zəfəranın yetişdirilməsi üçün yalnız Abşeron iqlimi əlverişli idi.

Qazax, Ərəş, Təbriz, Ərdəbil, Göyçay kəndlərində texniki bitki kimi küncüt əkilirdi.

Azərbaycanda istər kənd, istərsə də şəhər əhalisi geniş miqyasda bağçılıq və bostançılıqla məşğul olurdu. Üzümçülük Təbriz, Naxçıvan, Ordubad, Salyan, Şamaxı və Bakıda daha artıq inkişaf etmişdi. Bağçılıq Gəncə, Quba, Şəki, Təbriz və s. yerlərdə geniş yayılmışdı.

Kənd təsərrüfatının əsas sahələrindən biri də maldarlıq idi. Müxtəlif yem otları ilə zəngin Muğan, Mil, Şirvan, Qarabağ düzənlikləri, habelə geniş otlaqlara malik Savalan, Böyük və Kiçik Qafqaz dağları maldarlığın inkişafı üçün əlverişli şərait yaratmışdı. Maldarlar ölkəni ət, yağ, süd, pendir, yun və s. kənd təsərrüfatı məhsulları ilə təmin edirdilər.

Bax: Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). Bakı. «Elm». 2007. səh. 430-431, 434.

Kolxoz. Dərbənd şəhərində sovet hakimiyyəti hərbi güc tətbiq edilərək qurulduqdan sonra torpaqla-

rın kəndlilərə paylanması onların problemlərini həll etmədi. Torpaqların şumlanması üçün istifadə olunan alətlər və heyvanlar bir qrup qolçomaqların əlində idi. Onlar da torpağı şumlamaq istəyənlərin qarşısına öz şərtlərini qoyurdular. Yaranmış vəziyyətdən çıxmaq və torpağı birgə şumlamaq üçün yoldaşlıq cəmiyyətləri yaratdılar. Dərbənd şəhərində ilk yoldaşlıq cəmiyyəti 1929-cu ildə yarandı. Bu yoldaşlıq cəmiyyətinə 10-12 kəndli ailəsi daxil idi. Lakin bu iş çox ləng gedirdi. Yeni hökumət kəndlilərin yoldaşlıq cəmiyyətində birləşməsini inadla tələb edirdi. Hökumət fərdi təsərrüfatlara yüksək gəlir vergisi qoymuşdu, kollektiv təsərrüfatlara isə imtiyazlar vermişdi.

Yoldaşlıq cəmiyyətinin ixtiyarında 5-7 hektar torpaq, 1-2 at, 3-4 öküz, 1-2 inək və s. olmasına baxmayaraq, çox zəif və az səmərəli kənd təsərrüfatı müəssisələri idi. Lakin fərdi təsərrüfatlarla müqayisədə çoxlu gəlir verirdi. Getdikcə yoldaşlıq cəmiyyətləri kənd təsərrüfatı artellərinə çevrildilər. Qısa vaxt ərzində şəhər kəndliləri yüzlərlə kiçik kənd təsərrüfatı artelləri yaratdılar. Bu artellərdə əl əməyindən istifadə olunurdu. Torpağı əl ilə şumlayır, əkir, becərir və məhsul toplayırdılar. Texnika almaq üçün vəsait çatışmırdı. Texnikasız isə qabaqcıl texnologiyanı tətbiq etmək olmurdu. Kənd təsərrüfatı artelləri özlərini güclə dolandırırdılar. Bu vəziyyətdən çıxış yolunu hökumət yalnız kənd təsərrüfatı artellərinin böyük vahid bir kollektiv təsərrüfatında birləşməsində görürdü.

1935-ci ildə 12 kənd təsərrüfatı arteli şəhərdə ilk olaraq Jdanov adına kolxozda birləşdi. Tezliklə bu kolxoza Voroşilov, Hacıyev, Orconikidze, 3-cü Beşillik, XXII partiya qurultayı, Daxadayev adına kənd təsərrüfatı artelləri birləşdilər. Şəhərdə ilk kolxozun yaradıcıları bunlar idi: Mirzəbala Əsgərov, Xosrov İbişov, Hacı Ramazanov, Hacı Heybətov, Qulam-Hüseyn Səfərov, Novruzqulu Salihov, Nəbiyulla Məmmədov, Qaya və Xalıq Kazımov qardaşları, Mirzaman Seyidov, Adil Əhədov, Əsgər Rüstəmov, Əbilfəz İbrahimov və başqaları. İsabala Şamiloviç İsayev yeni kolxozun ilk sədri seçilmişdir.

İlk kolxoz çox da böyük deyildi: 70 hektar əkin sahəsi, 14 hektar üzümçülük sahəsi və yüzə yaxın iş qabiliyyətli kolxozçusu vardı. Buna baxmayaraq kolxozda iş yaxşı gedirdi. İnsanlar böyük həvəslə çalışırdılar, kolxoz ildən ilə möhkəmlənirdi. 50-ci illərdə artıq Jdanov adına kolxoz qabaqcıl, yüksək rentabelli təsərrüfata çevrilmiş, SSRİ xalq təsərrüfatı Ümumittifaq kənd təsərrüfatı sərgisinin bir neçə dəfə iştirakçısı olmuş, bir neçə dəfə DMSSR-nın keçicı Qırmızı Bayrağına layiq görülmüşdür. 1970-1980-ci illərdə kolxoz respublikada keçirilən yüksək səmərəlilik və məhsuldarlıq uğrundakı yarışlarda birinci yeri tutmuş, DMSSR Ali Sovetinin dəfələrlə Fəxri Fərmanları ilə mükafatlandırılmış və Respublikanın Şərəf Lövhəsində layiqli yer tutmuşdur.

Kolxoz öz vəsaiti hesabına şəhərin balansına hamam, uşaq poliklinikası, bir sıra mağazalar tikib vermişdir. Kolxozun klubu – şəhərdə olan oxşar obyektlərin ikincisidir. Kolxozçular üçün şəhərin mərkəzində 140 mənzildən ibarət çoxmərtəbəli binalar tikilmişdir. Daha 200 kolxozçuya fərdi tikinti üçün torpaq sahəsi ayrılmışdır.

1983-cü ildə kolxoza Xandadaş Tağıyevin, 1996-cı ildə isə Həşim Kazımovun adı verilmişdir.

Kolxozun 60 illik mövcudluğu ərzində cəmi 2 kolxoz sədri olmuşdur: birinci – İsabala Şamiloviç İsayev və 1962-ci ildə onun ölümündən sonra onu əvəz etmiş Həşim Qayayeviç Kazımov.

Bağçılığın və üzümçülüyün inkişafı. Azərbaycanda üzümçülük və bağçılıq qədim zamanlardan inkişaf etmişdir. Azərbaycanda cır-meşə üzümünün geniş yayılması, bu ərazidə üzümçülüyün qədimlərdən mövcud olmasını bir daha təsdiq edir.

Azərbaycanda təxminən e.ə. III-II və eramızın V-VI əsrlərində üzümçülük və şərabçılığın geniş inkişafını arxeoloji axtarışlar zamanı tapılan irihəcmli küplərlə yanaşı, süddanlar, xırda, mafra, kuzə, qədəh və başqa təsərrüfat qabları da sübut edir.

Burada çiləyi, qırmızı çiləyi, şabranı, ağadayı, xatını, kişmişi, sarıgilə, Təbrizi, Dərbəndi, dəvəgözü və başqa üzüm növləri yetişdirilirdi.

Bax: Azərbaycan etnoqrafiyası. Üç cilddə. I cild. - Bakı, «Şərq-Qərb», 2007, səh.186, 190.

Bostan və tərəvəzçiliyin inkişafı. Azərbaycan özünün dadlı və növbənöv bostan-tərəvəz bitkiləri ilə hələ qədimlərdən tanınmışdır.

İri torpaq sahibləri bostan əkinlərindən alınan məhsulun, demək olar ki, hamısını satış üçün bazara çıxarırdı. Dərbənddə və Azərbaycanın başqa şəhərlərinin bazarlarında yay aylarında çoxlu miqdarda qovun, qarpız satılırdı.

«Xan bağı» 1722-ci ildə Dərbənddə üzüm və zəfəranın yetişdirilməsi məqəsədilə salınmışdır.

Bağ əvvəllər «Əlahəzrətin bağları və bostanları» adlandırılmışdır. Bu təsərrüfat cənub qala divarlarının yaxınlığında yerləşir. Bağda Fransadan, Macarıstandan və İspaniyadan gətirilmiş üzüm sortları yetişdirilirdi.

1723-cü ilin payızında bağlardan 420 funt (1funt=0,4kq) zəfəran yığılmış və Sankt-Peterburqa ixrac edilmişdir. Sonralar bu bağ Dərbənd xanının mülkiyyətinə keçmiş və «Xan bağı adlandırılmışdır».

XIX əsrin ortalarında həmin ərazidə şəhərin nümunəvi bağı salınmışdır. Hazırda bu ərazinin bir hissəsində Dağıstan seleksiya təcrübə məntəqəsi yerləşir.

Pambıqçılıq. Dərbənddə bu mədəni bitki haqqında yazılı mənbələr çox az məlumat verir. Pambıqçılıq Dağıstanda mühüm bitki kimi becərilirdi. Yalnız XIX əsrin əvvəllərinin bəzi rus müəllifləri məlumat verir ki, Dərbənd sakinlərinin əsas məşğuliyyətlərindən biri «… pambığın becərilməsidir».

Şəhər ətrafında yetişdirilən pambıq yalnız gündəlik paltarlar, palaz, yataq əşyaları və s. hazırlanmasında istifadə olunurdu və satış əhəmiyyəti daşımırdı.

XIX əsrin sonunda Rusiyadan və xaricdən ucuz pambıq parçaları gətirildiyi üçün Dərbənddə pambıq əkini dayandırılır.

Üzümçülük və şərabçılıq. Bir çox qədim müəlliflər Dərbənd ətrafında yetişdirilən üzüm haqqında məlumat verir. Dərbənddəki üzümçülük və şərabçılıq haqqında daha ətraflı məlumatı İran yürüşündə I Pyotru müşayiət edən rus müəllifləri verir. Belə ki İ.Qerber yazırdı ki, «…Şəhərin kənarında üzüm bağları var, o üzümlər ki, onlardan heç yanda yoxdur. Amma bu üzümlərdən yaxşı şərab alınmır, ona görə ki, üzümdən şərab hazırlamanın qaydasını bilmirlər».

Bu da onunla izah olunur ki, şəhər sakinləri min ildən artıq idi ki, islam dininə sitayış edirdilər. İslam dini şərabın istehsalını, istifadəsini və satışını qəti qadağan edirdi. 1723-cü ilin payızında təchiz edilmiş zavod iki min vedrə (1 vedrə-12 litr) üzüm çaxırı istehsal etmişdir.

Şəhərdə üzümçülük getdikcə inkişaf etdirilir. Üzümün qeyri-adi yerli sortları: ağadayı, gilabi, xətmi, xəzni, qaytağı, orucbaba, kişmişi, şahüzüm, müşkiyot, qara-üzüm, gəlin barmağı, ağ üzüm və s. yetişdirilirdi.

Getdikcə şəhərdə üzümçülük inkişaf edirdi. Burada yeni məhsul növü olan üzüm arağı istehsal edirdilər.

Rəsmi hesablamalara görə, 1850-ci ildə şəhərdə 3 şərab zavodu var idi. Bu zavodlarda 45 min vedrə çaxır və 4 min vedrə üzüm arağı istehsal edilmişdir.

Artıq 1855-ci ildə şəhərdə 6 şərab zavodu işləyirdi. Bu zavodlar şəhərdə istehsal olunan məhsulların ümumi məbləğinin 54 faizini verirdi. Spirtli içkilərin istehsalı ilə əsasən yəhudilər və ermənilər məşğul olurdular. Dini adətlərə görə müsəlman əhalisinə bu işlə məşğul olmaq qadağan olunmuşdu. Sonrakı 20 il ərzində şəhərdə üzümçülük istehsalı 10 dəfədən çox artmışdı.

1878-ci ildə şəhərdə artıq onlarla şərabçılıq və araq zavodları var idi. Məhsulun keyfiyyəti də yaxşılaşmışdı.

1879-cu ildə şəhərdə üzüm şərabından və cecəsindən buxar ilə etil spirtinin alınması üzrə ilk zavod istehsalata buraxıldı.

1891-ci ildə şəhərdə buxar ilə üzüm spirtinin alınması üzrə 3 zavod fəaliyyət göstərirdi. Onlar 12 min vedrə spirt və 80 min vedrə şərab istehsal etmişdilər.

1895-ci ildə şəhərdə 2 buxar və 19 odla işləyən şərab-araq istehsal edən, həmçinin 68 şərab istehsal edən müəssisə var idi.

1902-ci ildə şəhərdə olan şərab-araq istehsal edən zavodlara Dadaşovun araq və konyak zavodları əlavə olundu. 1913-cü ildə artıq şəhərdə 5 buxar şərab-araq və 16 nəhəng şərab zavodu fəaliyyət göstərirdi.

«Dağıstan vilayətinin 1915-ci il üzrə vəziyyətinin xülasəsi»nin məlumatına əsasən şəhərdə 314,8 min pud üzüm toplanmış və 197,6 min vedrə şərab istehsal olunmuşdur.

Artıq XX əsrin 70-ci illərində Dərbənd rayonu 100 min ton üzüm verirdi. Bu da Dağıstanda yetişdirilən üzümün 1/3 hissəsini təşkil edirdi.

«Kənd təsərrüfatı meyvə və şərab ittifaqı» yoldaşlığı 1824-cü ildə Dərbənddə yaradılmış və onun nizamnamə kapitalı 832 rubl civarında olmuşdu. Bu fərdi təsərrüfatı olan kəndlilərin «… vahid sosialist kollektiv təsərrüfatı» formalarından biri idi.

1926-cı ildə yoldaşlığın artıq 1265 üzvü var idi, onun şəxsi kapitalı isə 15 dəfə artaraq 12,2 min rubl təşkil etmişdir. Yoldaşlığın sərəncamında tinglik və 2 desyatin (1 desyatin=1,45 ha) üzüm bağı var idi.

Yoldaşlıq kolxozlar yarandığı dövrdə ləğv olunmuşdur.

Meşəçiliyin inkişafı. Arxiv materiallarına əsasən, Dağıstanda meşə idarəçiliyinin tarixi 1898-ci ildən başlayır. Dağıstanda dörd meşəçilik: Temirxan Şura, Dərbənd, Qunib və Kürinsk meşəçilikləri Bakı quberniyasının və Dağıstan vilayətinin torpaqçılıq və dövlət əmlakı idarəsinin tərkibinə daxil idi. Meşəçilik idarəsi meşələrin qorunmasına, toxumların toplanmasına, Meşə Nizamnaməsinin yerinə yetirilməsinə, ağac satılmasına nəzarət edirdi.



Sənayenin inkişafı və iqtisadiyyatın yüksəlməsi ilə əlaqədar meşə sənayesinin xalq təsərrüfatında rolu artırdı. Bununla əlaqədar 1966-cı ildə DMSSR Meşə Təsərrüfatı Nazirliyi yaradıldı. Bura 12 meşə təsərrüfatı daxil idi.

2007-ci ildə Rusiya ərazisində yeni meşə məcəlləsi tətbiq edildiyi üçün bütün meşəçilik təsərrüfatları ləğv olunmuş və onların bazasında yeni dövlət idarələri – meşəçilik və dövlət unitar müəssələri yaradılmışdır. Dağıstan Respublikasının ərazisində 24 meşəçilik və 1 meşə parkı (Samur meşəsi) yaradılmışdır.

Dağıstan Respublikasının ərazisinin 10,5% meşə olduğu üçün bu meşələrdən xammal kimi istifadə olunmur. Respublikanın ərazisində olan meşələr əsasən müdafiə, təbiətiqoruma və ekoloji funksiyanı yerinə yetirmə rolunu oynayır.

2008-ci ilin avqustunda Dağıstanda meşə ərazilərini artırmaq üçün Meşə Təsərrüfatı Agentliyi yaradılmışdır.

Bax: Дагестан. Вчера, Сегодня, Завтра. - ООО «Издательский дом «КСН-РФ», стр.60-61.

Moskva imperator kənd təsərrüfatı cəmiyyətinin Dağıstan üzümçülük və şərabçılıq komitəsi. 1903-cü ildə Dərbənddə açılmışdır. Bu müəssisənin Dərbənd üçün üzümçülük və şərabçılıq mərkəzi kimi çox mühüm əhəmiyyəti var idi. Şəhər hakimiyyəti yerli bağbanlara təsərrüfatı savadlı aparmaq üçün həmişə kömək etməyə çalışırdı. Hələ 1875-1877-ci illərdə şəhərin vəsaiti hesabına Maqaracsk şərabçılıq məktəbində (Anapa şəhəri) Dərbənd sakini Pyotr Zeyfert təhsil almışdır. Dərbəndin Müvəkkil olunmuşların şəhər iclası 1899-cu ilin aprelində Qafqaz kənd təsərrüfatı cəmiyyətinin daimi şöbəsinin, üzümlükləri müalicə etmək üçün alət və materiallar anbarının açılması məqsədilə dövlət xəzinəsindən ssuda verilməsini xahiş etmişlər. Lakin buna rədd cavabı verilmişdir. 1899-cu ilin oktyabrında onlar Tiflisdə yerləşən kənd təsərrüfatı anbarına Dərbənddə üzümlüklərin müalicəsi üçün materiallar şöbəsinin açılması xahişi ilə müraciət etmişlər. Lakin yenə də xahiş cavabsız qalmışdır. Nəhayət, 1902-ci ildə, Moskva İmperatorluğu kənd təsərrüfatı cəmiyyətinin nəzdində olan üzümçülük və şərabçılıq komitəsi özü Dağıstan vilayətinin hərbi qubernatoruna müraciət etmişdir ki, Dağıstanda bu komitənin şöbəsinin təşkilinə köməklik göstərsin. Qubernator bu məqsədlə vilayətdə üzümçülük və şərabçılıq mərkəzi kimi Dərbəndi təklif etdi. Hazırlıq işləri üçün seçilmiş komissiyanın tərkibinə Q.Heydərov, A.Astvasaturova və N.Papayeva daxil idi.

Onlar 1902-ci il dekabrın 13-nə «Moskva İmperatorluğu kənd təsərrüfatı cəmiyyətinin Dağıstan üzümçülük və şərabçılıq komitəsi şöbəsinin təsisçiləri olmaları barədə razılıq aktı»nın layihəsini tərtib etdilər. 1903-cü il mayın 5-də yenidən yaradılan müəssisənin Proqramı Torpaqşünaslıq naziri tərəfindən təsdiq edildi, mayın 30-da isə təsisçilərin ilk iclası keçirildi. Cəmiyyətin sədri vəzifəsinə şəhər başçısı Qasım bəy Heydərov seçildi.

Gələcəkdə bu müəssisə üzümçülüyün və şərabçılığın inkişafında nəinki Dərbənddə, habelə bütün Dağıstan vilayətində də böyük rol oynadı.

«Xəzər» bağçılıq cəmiyyəti – Dərbənddə ilk dəfə «Kənd təsərrüfatı Moskva imperator cəmiyyətinin üzümçülük və şərabçılıq komitəsinin Dağıstan şöbəsi»nin sədri Qasım bəy Heydərovun təklifi ilə yaradılmışdır. Cəmiyyətin yaradılmasının əsas məqsədi şəhərdə şərabın düzgün emalı, onun keyfiyyətinin artırılması və daxili bazarda satışını təşkil etmək idi.

«Xəzər» Dərbənd bağçılıq cəmiyyətinin nizamnaməsinin layihəsi 1903-cü ilin sonunda təsdiq olun-

muşdur. Bütün hüquqi qaydalardan sonra 1905-ci ilin sentyabrında səhmdar bağçıların ümumi iclasında cəmiyyətin 3 nəfərdən: Q.Heydərov (sədr), H.Vəkilov və Qubkin (heyət üzvləri), ibarət idarə heyəti seçilmişdir.

Şəhər bağlarının və bağçalarının qorunması üzrə xüsusi süvari dəstə – 1918-ci ilin iyununda Dərbənddə «Hümmət» şəhər təşkilatının təşəbbüsü ilə yaradılmışdır.

1918-ci il iyunun 7-də «Hümmət» təşkilatının birinci iclasında şəhər üçün mühüm olan «Bağların və tarlaların qorunması haqqında» məsələyə baxılmışdır. Şəhər ətrafında fəaliyyət göstərən çoxsaylı quldur dəstələri əhalini, xüsusi ilə kəndliləri terror edir, onları öldürür, əmlakın əlindən alır, məhsullarını yandırır, heyvanları oğurlayır və dinc sakinlərə hücum edirdilər. Dərbənd sakini Çolaq Cəfərin quldur dəstəsi vəhşiliyi və qəddarlığı ilə xüsusi seçilirdi.

Tezliklə «Şəhər bağlarının və bağçalarının qorunması üzrə xüsusi süvari dəstə» yaradıldı. K.Məmmədbəyov dəstənin komandiri təyin edildi. Onun ilk qələbəsi Çolaq Cəfərin quldur dəstəsini məhv etməsi oldu. Döyüşlər zamanı quldur dəstənin başçısı Çolaq Cəfər öldürüldü.

1918-ci ilin iyulunda Şəhər bağlarının və bağçalarının qorunması üzrə xüsusi süvari dəstə K.Məmmədbəyovun başçılığı ilə Xəzər dənizində bolşevizmin dayağını müdafiə etmək üçün Həştərxana göndərilmişdir.

Q.Kazımov adına kənd təsərrüfatı istehsalat kompleksi. Dərbənd rayonu Jdanov adına kolxozun bazası əsasında yaradılmışdır. Bu milyonçu kolxozun böyük torpaq sahəsi və 700 nəfər işçi yeri var idi.

Lakin XXI əsrin əvvəllərində kolxoz böhran vəziyyətə düşmüşdür. Kolxozun torpaqları müqaviləyə əsasən icarəyə verilmişdir. İcarəyə verilmiş torpaqlarda vaxtı ilə üzüm bağları, bağçalar və tarlalar var idi. Baxımsızlıqdan torpaqlar boş səhralara çevrilmişdir.

2004-cu il fevralın 24-də kolxoz üzvlərinin ictimai iclasının qərarı ilə gənc və istedadlı Əli İbrahimov kolxozun sədri seçilmişdir. 2004-cü il iyulun 29-da səs çoxluğu ilə Əli İbrahimov kolxoz sədri vəzifəsinə təsdiq olunmuşdur. Bu dövrdə kolxozun dövlətə 1,5 milyon rublluq müxtəlif borcu var idi. Onun təsərrüfata rəhbərlik etdiyi iki il ərzində kolxoz bütün borclarını ödədi və hətta öz büdcəsini xeyli yaxşılaşdırdı. Kolxozu böhran vəziyyətindən çıxarmaq üçün ilk növbədə bütün icarə müqavilələri ləğv olundu. Kolxozu inkişaf etdirmək, ilk növbədə lazım olan texnikanı almaq üçün lizinq şirkətləri ilə müqavilələr bağlamaq lazım idi. Belə ki, bu müqavilələr əsasında kolxoza 10 vahid ağır texnika: ZİL ekskavatoru, traktor, kotan, toxumsəpən və otbiçən texnika alındı. İlk gəlir alınandan sonra işçilərin əmək haqqı məsələsi də həll olundu.

Kənd təsərrüfatı istehsalat kompleksinin əmək haqqı fondu 2004-cü ildə 550 min rubl idisə, bu gün bu rəqəm 12 milyon rublu aşmışdır. Bir il ərzində 80 hektar üzüm sahəsi yenidən bərpa olunmuş və daha 120 hektar üzüm bağı salınmışdır. Bundan əlavə kolxoz Fransadan soyuğadavamlı fransız üzüm sortlarını gətirmək üçün bir sıra kənd təsərrüfatı müəssələri ilə müqavilə bağlamışdır. Kolxozun işçiləri tərəfindən 50 hektar meyvə bağı salınmışdır. Kolxozda heyvandarlığa da böyük diqqət yetirilir. Kolxoz respublikada süd üzrə ən yüksək göstəricilər əldə etmişdir. Bir inəkdən ildə 2200-2300 litr süd sağılır. Kolxozda 2005-ci ildən istilik təsərrüfatı da inkişaf etdirilir. 120 hektar ərazini əhatə edən istilik təsərrüfatında il boyu tərəvəz yetişdirilir.

Kolxozda sosial mədəni-məişət obyektləri də bərpa olunmuşdur. Bununla əlaqədar iclaslarla yanaşı, mədəni-kütləvi tətbirlər də keçirilir: teatr tamaşaları, konsertlər və s. Kolxoz klubunun birinci mərtəbəsində idman-trenajor zalı fəaliyyət göstərir. Kolxoz və şəhər sakinləri üçün çoxmərtəbəli yaşayış evləri də tikilir.

TİKİNTİ

Tikinti (XVIII əsr). İlk mənbələrdən və epiqrafik abidələrdən məlum olduğu kimi, qədimlərdə Azərbaycanda bir sıra tikinti işləri aparılmışdır. Nuxada, Şusada, Naxçıvanda xan sarayları, Ağdamda imarətlər, Pənah xana və nəslinə aid günbəzlər tikilmişdir. XVIII əsrin ikinci yarısında Bayat, Şahbulaq (Tərnəküt), Pənahabad (Şuşa) qalaları salınmış və həmin qalalarda bazar, karvansara, məscid, hamam və s. binalar inşa edilmişdir. Bakı, Şamaxı, Ordubad, Dərbənd, Quba və digər Azərbaycan şəhərlərində hərbi istehkam, ictimai-mülki binalar tikilmiş, üzərində kitabələr qoyulmuşdur.

Kitabələr memarlıq abidələrinin bina olunması, bərpa və təmir edilməsinə dair məlumat verməklə bərabər, bir çox sosial-iqtisadi, siyasi-inzibati məsələlərin aydınlaşdırılmasına da tarixi mənbə kimi kömək edir.

Kitabələrdə bir sıra yüksək peşə dərəcələrinə (ustad əl-əsatid, rəis əl-əsatid - ustalar ustası, usta) layiq görülmüş inşaatçıların, o cümlədən Məhəmmədvəli, Məhəmməd xan Canai, Dərviş Zaxuri, Molla Həsən Qurdqulu, Usta Məhəmməd Kunalu, Əbdülvəli Zaxuri, İlisulu Übeydulla, Ayba, Bacı əl-Qumuqi, Ustad Seyid b. Aşur, şamaxılı ustalar Cəfər və Haşım, Haci b. Hüseyn, nuxalı Əzizin oğlanları Ustad Məhəmmədnəbi, Abbasəli və b. adları qalmışdır.

Bax: Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). - Bakı: «Elm». 2007. səh. 518-519.

İctimai obyektlərin tikintisi. Dərbənddə rus əhalisinin artması, eləcə də müsəlmanları xristianlaşdırmaq məqsədilə pravoslav kilsəsinin tikintisinin zəruriyyəti ortalığa çıxdı. Bu tikintinin inşasını qubernator A.İ.Qaqarin öz üzərinə götürdü. Bu kilsənin layihəsini knyaz Q.Q.Qaqarin qədim bizans üslubunda tərtib etdi. Tikintiyə sahə mühəndis-kapitanı V.İ.Qerşelman rəhbərlik edirdi. Binanın bünövrəsi 1849-cu il mayın 8-də knyaz və knyaginya Vorontsovların iştirakı ilə qoyuldu. Kilsədə ibadət 1853-cü il dekabrın 15-də başlandı.

1847-ci ildə şəhərdə dəniz limanının tikilməsi zəruriyyəti yarandı. 1858-ci ildə daş bənd ucaldıldı və onun yanında müvəqqəti körpü tikildi. 1870-ci ildə «Qafqaz və Merkuri» ictimai idarəsi limanın və körpünün layihəsini təqdim etdi. Xəzər dənizində gəmilərin üzməsini göstərmək üçün Qafqaz canişini knyaz Vorontsov 1850-ci ildə Dərbənddə mayakın tikilməsi zəruriyyətini qeyd etdi. Bunun üçün o, gəmi mühəndisi Sergeyevi Dərbəndə göndərdi. Sergeyev öz layihəsini təqdim etdi. 1853-cü ildə taxta mayakın tikintisi başa çatdı. 1866-cı ildə taxta mayak daş mayakla əvəz olundu.

1853-cü ildə şəhərin əsas küçələrinin və kilsə meydanının işıqlandırılmasına başlandı. Direklərdə 25 neft lampası quraşdırıldı. XIX əsrin sonunda bu fənərlərin say 100-ə çatdırıldı.

1848-ci ildə kilsə meydanında Kuskov tərəfindən bina tikilmişdir. Hazırda orada şəhər icraiyyə komitəsi yerləşir.

1868-ci ildə şəhərdə teleqraf binası açıldı.

1863-cü ildə Dərbənddə şəhər klubu tikildi.

1913-cü ildə şəhərdə məhəllə kilsəsi tikilmişdir.

Bax: Султанов С.А. Дербент: история возникновения и развития. - Дербент, 2003, стр. 50.

Tikinti materialları kombinatı – 1951-ci il aprelin 16-da Dərbənd divar blokları istehsalı üzrə yaradılmış müəssisə. Sonralar kombinat tikinti materialları kombinatı adlandırılmışdır. Doğranmış daş (ildə 25 min m^3) ilə yanaşı bu gün zavod bişmiş əhəng (ildə 500 m^3), dekorativ keramika, kiçik həcmli sıxma üsulu ilə hazırlanmış kərpic, keramik üsulla hazırlanmış dekorativ məhsullar buraxır. Hazırda kombinatda 4 daş karxanası, saxsı və daş üzlüklər sexi, əhəng sobaları işləyir.

Musayev Nəriman Məhəmməd oğlu kombinata başçılıq edir. Onun rəhbərliyi altında burada 287 nəfər mütəxəssis çalışır. Hazırda müəssisə 1,5 min m^3 yonulmuş daş istehsal edir. Müəssisə yeni texnika ilə – yükləyicilər, buldozerlər, ekskavatorlar, qaldırıcı kranlar, BELAZ yük avtomobilləri ilə təchiz olunmuşdur.



Bu gün Dərbənd tikinti materialları kombinatı şəhərin inzibati orqanları ilə birlikdə Xəzər dənizində katerlər və yaxtalar üçün buxtanın tikilməsi planı üzərində işləyir. Bu, bütün Dərbənddə və Dağıstanda yeganə qurğu olacaqdır.

Kombinatın direktorları:

- Qlinyanov N.İ. -1951-1955-ci illər;
- Mardaxayev X.S. - 1955-1966-cı illər;
- Abdullayev K.K. - 1966-1980-cı illər;
- Qədirov M.K. - 1980-1981-ci illər;
- Əsədov A.M. - 1981-1982-ci illər;
- Kərimov R.S. - 1982-1984-ci illər;
- Bunin V.D. - 1984-1991-ci illər;
- Hüseynov Q.Q. -1991-1994-cü illər;
- Musayev N.M. - 1994-cü ildən.

«Dərbəndtikinti» şirkəti Dərbənd şəhərində 1956-cı ildən fəaliyyət göstərir. 1993-cü ildə «Dərbəndtikinti» şirkəti səhmdar cəmiyyətə çevrilmiş və bazar iqtisadiyyatına keçmişdir. 90-cı illərdə dövlət sifarişlərinin həcmi çox azalmışdır. 90-cı illərdən sonra dövlət sifarişlərini özəl sifarişlər əvəz etdi. Bu da tikinti bazarının inkişafına yeni təkan verdi. Ölkə rəhbərliyi tərəfindən qəbul olunmuş bir çox federal proqramlar öz nəticələrini verir. Belə ki, aztəminatlı və gənc ailələrin sosial vəziyyətini yaxşılaşdırmaq üçün yeni yaşayış evləri tikilir, Dərbənd şəhərində yeni mikrorayonlar salınır. Dərbənd şəhərində 1000 yerlik xəstəxananın tikintisi, yeni mikrorayonların, sosial-mədəni məişət obyektlərinin tikintisi planlaşdırılır.

Bax: Дагестан. Вчера, Сегодня, Завтра. - ООО «Издательский дом «КСН-РФ», стр.198-199.

Evtikmə kombinatı. Dərbəndə şəhərində 1971-ci ildə istismara verilmişdir. Bu kombinatın ilkin gücü ildə 70 min kv. metr şərti sahə tikmək idi. Kombinat eksperimental layihə üzrə tikilmiş və aşağıdakı nomenklatura hesablanmışdır:

– 70 mənzilli beşmərtəbəli yaşayış evi;
– 960 şagird yeri üçün məktəb;
– 500 yerlik sanatoriya-pansionat;
– 140 yerlik uşaq bağçası.


Sonralar kombinat 7, 9 və 12 mərtəbəli yaşayış evləri tikməyə başladı və onun gücü 100 min kv. m-ə çatdırıldı.

1996-cı ildən «Dağtikinti» – səhmdar cəmiyyəti adlandırılır.

Kombinatın direktorları olmuşlar:

– Varvara Pavlovna Komyagina – 1971-1974;
– Daniyal Məhəmməd oğlu Mahmudov – 1974-1983;
– Hacı Rəcəb oğlu Cəbrayılov – 1983-1990;
– Mişi Qriqoryeviç İzyayev – 1990-1991;
– Hacı Rəcəb oğlu Cəbrayılov – 1991-ci ildən.

«Dağcənubtikinti» – Dərbənd evtikmə kombinatı. Kombinata Dağıstanın Əməkdar inşaatçısı Hacı Rəcəb oğlu Cəbrayılov başçılıq edir. 90-cı illərin böhranından sonra müəssisə bütün qüvvəsi ilə işləməyə başladı. Hacı Cəbrayılov evtikmə kombinatının nəzdində inşaat materialları istehsal edən sexlər açdı. Hazırda şirkətin mütəxəssisləri həm Dərbənddə, həm də Dağıstanın bütün regionlarında tikinti işləri aparır. 2006-cı ildə Dərbənddə iki 108 mənzilli yaşayış evi istifadəyə verilmiş, habelə 50 və 126 mənzilli yaşayış binalarının tikintisi başa çatdırılmışdır. İzberbaş və Kaspiysk şəhərlərində 60 mənzilli binalar tikilib istifadəyə verilmişdir. Bu şirkət tərəfindən Həştərxan vilayətində və Çeçenistan Respublikasında bir sıra obyektlər də tikilmişdir.



Hazırda müəssisədə 500-dən çox adam çalışır. Burada çalışan mütəxəssislər yeni innovasion texnologiyalara xüsusi diqqət yetirir və onları istehsalatda tətbiq edirlər. Şirkətin rəhbərliyi işçilərini müntəzəm olaraq ixtisasartırma kurslarına göndərir. Şəhərlərdə əhalinin artımı ilə əlaqədar regionda tikintiyə tələbat gündən-günə artır və yaşayış binalarının tikilməsinə böyük ehtiyac duyulur. Şirkət bu ehtiyacları ödəmək üçün var qüvvəsi ilə çalışır.

«Amika» tikinti şirkəti. 1996-cı ildə «Dərbənd» dövlət tikinti korporasiyası yaradıldı. Bu korporasiya 2004-cü ildə «Amika» tikinti şirkəti kimi

özəlləşdirildi.

Mürsəlov Aydın Vəliulla oğlu şirkətin baş direktoru vəzifəsini icra edir. Bu şirkət yaranan ili onun əməkdaşları 76,5 milyon rubl dəyərində iş görmüş və bu rəqəm ildən-ilə artmışdır.



«Amika» şirkəti hər cür tikinti işlərini yerinə yetirir və respublikanın bütün tikinti proqramlarında yaxından iştirak edir. Şirkət yaşayış və sənəye obyektlərinin tikintisi, eləcədə onların yenidən qurulması, Dağıstan üzrə yaşayış məntəqələrində su və qaz kəmərlərinin çəkilməsi və s. işlərlə məşğul olur. İki il ərzində müəssisə çox sayda məktəb, uşaq bağçası, poliklinika, xəstəxana, idman zalları və inzibatı binalar tikmiş və təmir etmişdir.

«Amika» şirkəti tərəfindən Məhərrəmkənd, Gizlər və Babayurd rayonlarında tikilmiş qeyri-adi su-balıq zavodları onun fəxri hesab olunur. Bu obyektlərin istismara verilməsi Dağıstanda balıqçılıq sənayesinin dirçəlişinə ümid verir. Balıqçılıq sənayesi Dağıstanın büdcəsinə ən çox gəlir verən sahədir. Hazırda «Amika» tikinti şirkətinin 200 nəfər işçisi var.

Şirkətin maddi-texniki bazası daim yeniləşir, yeni texnologiyaların tətbiqi vaxta və vəsaitə qənaət etməyə imkan verir.

Bax: Гордость отчизны. - Махачкала: ООО «Лотос», стр. 72-73.

N Ə Q L İ Y Y A T

Nəqliyyat vasitələri hər hansı bir ərazinin təbii-coğrafi şəraitindən, onun relyef quruluşunun xarakterindən asılı olaraq yaranmışdır. Sadə yük nəqliyyatı – sadə yük daşıma vasitələri nəqliyyatın ən qədimi hesab olunur. Piyada nəqliyyat növü insan qüvvəsi ilə müxtəlif adlı və təyinatlı məişət yüklərinin yerdəyişməsi ilə səciyyələnir. Buna görə də insanın özünün ən qədim nəqliyyat vasitəsi hesab edilməsi heç də təsadüfi deyildir. Çox qədimlərdən insanlar əldə etdikləri məhsulları, zəruri məişət əşyalarını qucaqda, əldə, beldə, başda, çiyində daşımışlar. Sadə yük nəqliyyatının ən bəsit forması iki nəfərin qüvvəsi ilə hərəkətə gətirilən xərək olmuşdur. Əsrlər boyu Azərbaycanda əsas nəqliyyat vasitəsi minik və yük heyvanları olmuşdur. Minilliklər boyu öz dövrünün ən sürətli və ən rahat minik nəqliyyatı vasitəsi at olmuşdur.

Ən vacib karvan yolları Azərbaycandan keçdiyinə görə buraya çoxlu tacirlər gəlirdi. XVII əsrdə Azərbaycanda olan ingilis taciri A.Cenkinson qeyd edirdi ki, təkcə osmanlılar hər dəfə buradan 400-500 at yükü ipək aparırdılar. Holland dənizçisi Yan Streys yazırdı ki, Dərbəndlə Şamaxı arasında hərəkət edən karvanın tərkibində 1800 at, xeyli dəvə, ulaq və b. yük heyvanı var idi.

Yollar. Tarixi Azərbaycan ərazisi öz coğrafi mövqeyi və iqtisadi resurslarına görə çox qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm rol oynamışdır. Azərbaycan ərazisindən keçən Qədim Şərqin əsas ticarət yollarından biri - Böyük İpək yolu onu Mərkəzi Asiya, Mesopotamiya, Hindistan və Kiçik Asiya ilə birləşdirirdi.

Orta əsrlərdə Azərbaycanı Hindistan və Çinlə əlaqələndirən beynəlxalq ticarət yolunun cənub qolu Mərkəzi Asiya, İran və Azərbaycanın cənub vilayətlərindən keçir, Şimal qolu isə Xəzər sahili boyunca Dərbənd keçidinə və Xəzər xaqanlığına doğru gedirdi.

Azərbaycanın Bərdə, Beyləqan, Dərbənd, Naxçıvan, Şəmkir, Ərdəbil, Sərab, Təbriz, Mərənd, Səlmas və s. şəhərləri bu karvan yollarının üstündə olduqlarından, o, orta əsrlər ticarətində mühüm yer tuturdu.

Mənbələr orta əsrlərdə Azərbaycanda Bərdə-Dərbənd, Bərdə-Tiflis, Bərdə-Dəbil, Bərdə-Ərdəbil, Marağa-Dəbil kimi ticarət və karvan yollarının olduğunu göstərir.

Şamaxını Rusiya ilə birləşdirən şimal yolu Dərbənddən keçib Xəzər sahili ilə Həştərxana gedirdi. Şamaxıdan Quba və Dərbəndə iki qoldan ibarət dağ yolları ilə getmək olurdu. Bunlardan biri Təngə dərəsindən, digəri isə Altıağacdan keçirdi. Altıağac yolu çətin olduğundan ona «Şeytan yolu»da deyirdilər.

Böyük İpək yolu boyunca Azərbaycanın ticarət əhəmiyyətli şəhərlərində və karvan yolları üzərində karvansaralar mövcud olmuşdur.

Orta əsrlərdə Dərbənddə və Azərbaycanın digər şəhərlərində xeyli karvansara tikilmişdi. Tədqiqatçılar Azərbaycan ərazisində ən yaxşı karvansaraların ticarət yolu üstündə olduğunu qeyd edirlər. Bəzən karvan yolları vasitəsilə başqa ölkələrlə saxlanılan ticarət əlaqələri dəniz və çay yolları vasitəsilə davam etdirilirdi. Belə ki, Şamaxıdan şimala gedən karvan yolu ya Bakı vasitəsilə, ya da Qobustan yaylası ilə Şabrana, Dərbəndə, oradan isə Xəzər dənizi ilə Volqaya gedirdi. Şamaxıdan başlanan başqa bir yol Təngə dərəsi vasitəsilə Şabrana, Dərbəndə, oradan isə dəniz yolu ilə Həştərxana gedirdi.

Dəmir yolu. 1858-ci ildə istefada olan kapitan Lübanski «Orta Asiyanın Avropa ilə birləşməsi və ya Varşava və Tiflis şəhərləri arasındakı və Qara dənizlə Xəzər dənizi arasındakı dəmir yolları layihələri haqqında» kitabça nəşr etdirdi. Bu kitabçada o, Gizlərdən və Petrovskdan keçərək Dərbənddən Bakıyadək olan dəmir yolunun layihəsini şərh etmişdir.



Yalnız 1896-cı il mayın 17-də Vladiqafqaz dəmiryolu cəmiyyətinə Petrovskdan Dərbəndə qədər olan yolun tikilməsinə icaza verilmişdir. 1897-ci il fevralın 28-də isə Dərbənddən Bakıya qədər olan dəmiryolu xəttinin tikilməsinə icazə verilmişdir.

Petrovsk-Dərbənd xəttinin tikilməsi 1898-ci ilin oktyabrında qurtardı. Oktyabr ayının 25-də günorta saat ikiyə iyirmi dəqiqə işləmiş hərbi orkestrin musiqi sədaları altında bayraqlarla və gül-çiçəklə bəzədilmiş ilk sərnişin qatarı Dərbənd vağzalının perronuna yaxınlaşdı. Qatarı şəhər başçısı başda olmaqla bütün şəhər sakinləri qarşıladı.

1899-cu il avqustun 21-də Petrovskdan Biləcər stansiyasına ilk xidməti qatar gəldi.

1899-cu il avqustun 27-də Dərbənd-Bakı xəttinin rəsmi olaraq açılışı oldu və knyaz Qolitsın arvadı ilə 1899-cu il avqustun 28-də gecə saat birdə Petrovsk–Bakı sərnişin qatarı ilə Bakı stansiyasına gəldi. Bu haqda imperator II Nikolaya məlumat verildi (1894-1917).

Cavab teleqramında imperator II Nikolay yazmışdır: «General-adyutant Q.S.Qolitsın. Mən xoşbəxtəm ki, Zaqafqaziya dəmiryolu vasitəsi ilə Rusiyanın qalan hissəsi ilə birləşdirilmişdir. Bu işi sürətlə yerinə yetirdiyinizdən çox razıyam. Nikolay».

1899-cu ildə istifadəyə verilən Biləcəri-Dərbənd xətti Cənubi Qafqazı Rusiyanın mərkəzi rayonları ilə birləşdirdi.

1900-cü ildə Bakı-Dərbənd dəmir yolu işə salındı (uzunluğu 217 verst). Bununla Cənubi Qafqaz dəmir yolu Vladiqafqaz dəmiryolu ilə birləşdi və onun vasitəsilə Ümumrusiya dəmir yolu şəbəkəsinə qoşuldu.

Azərbaycanın Mərkəzi Rusiya ilə əlaqələrində 1900-cü ildə istismara verilən və Şimali Qafqazdan keçən dəmir yolunun böyük əhəmiyyəti oldu. Dəmir yolu Azərbaycan qəzalarında əmtəə istehsalının artmasına, kəndli təsərrüfatının əmtəə-pul münasibətlərinə cəlb olunmasına daha əlverişli şərait yaratdı və daxili bazarın genişlənməsinə imkan verdi.

Ticarətin inkişafı ilə əlaqədər Azərbaycan dəmir yolunun yük daşıma dövriyyəsi artırdı. Yalnız Yelizavetpol quberniyası ərazisindən keçən Azərbaycan dəmir yolu ilə quberniyanın qəzalarına 1912-ci ildə 11,2 mln. pud, 1913-cü ildə isə 11,9 mln. pud müxtəlif yüklər gətirilmişdi. Bakıdan Tiflis və Dərbənd yolu ilə yük daşınması 1906-1913-cü illər arasında 584300 puddan 72 mln. puda qədər artmışdı.

İri dəmir yol qovşağı olan Bakıdan daşınan yüklər içərisində əsasən ağ neftdən ibarət neft məhsulları mühüm yer tuturdu. 1901-ci ildə Bakı-Dərbənd yolu ilə Rusiyaya 51,7 mln. pud ağ neft daşınmışdı.

Avtomobil yol tuneli – Dərbəndin coğrafi xüsuiyyətlərini, qərbdə Qafqaz dağlarının sərt yollarını, şərqdə Xəzər dənizi arasındakı düzənliyin dar zolağını nəzərə alaraq hələ XIX əsrin birinci yarısında salınmış Rostov-Bakı avtomagistralının (hazırda «Qafqaz» federal avtoyolu, beynəlxalq kataloqda avtomagistral M-29) bir hissəsi şəhərin mərkəzindən, dar küçələrdən keçirdi.

XX əsrin 50-60-cı illərində Rusiyadan Cənubi Qafqaz respublikalarına avtomobil yükdaşımaları və böyük qabaritli böyük yük avtonəqliyyat vasitələrinin artması şəhərdə yol hərəkətini çətinləşdirmişdir. Bu problemi həll etmək üçün şəhərin köhnə hissəsinin altından avtomobillər üçün tunel çəkilməsi qərara alınmışdır. Tunel avtomobil yolunu xeyli qısaldır, həm də tranzit avtonəqliyyat yolunu şəhərin ərazisindən çıxarırdı. 1972-ci ildə diametri 10 m, uzunluğu isə 310 m olan bu tunel istismara verildi.

R A B İ T Ə

Azərbaycanın Rusiyaya teleqraf rabitəsi də zəif idi. Azərbaycanı Rusiya ilə birləşdirən Bakı-Tiflis teleqraf xətti yeganə idi və gündə 1000-1500 teleqram göndərə bilirdi. Digər tərəfdən, Tiflis-Gəncə teleqraf xəttindən Tərtər, Ağdam, Xankəndi də istifadə etdiyi üçün böyük çətinliklər törənirdi. Bakıdan Xəzər dənizi boyu Həştərxana gedən teleqraf xətti ilə isə ayda 7600-dən çox teleqram göndərmək mümkün olmurdu. Bunlardan başqa, Bakıda olan bir neçə teleqraf xətti hökumətə məxsus idi.

1902-ci ilin yayında Minvod-Petrovsk-Dərbənd xətti Bakı və Tiflis dəmir yol stansiyaları arasındakı teleqraf xətti ilə birləşdirildi.

1913-cü ildə bütün Rusiya imperiyasında 7618 dövlət poçt və teleqraf kontoru var idi ki, onlardan cəmi 65-i (1 faizdən az) Azərbaycanda idi.

Qeyd etmək lazımdır ki, bu bölgədə aparılmış inzibati ərazi dəyişiklikləri əzəli Azərbaycan torpaqlarının ermənilər tərəfindən sonralar zəbt olunmasında müəyyən rol oynadı.

Rabitə vasitələri. Maddi istehsalın əsas sahələrindən biri olan rabitə vasitələri həm də xalqın mədəni həyat səviyyəsini göstərən əlamətlərdəndir. Qədim zamanlarda insanlar lazımi məlumatları istənilən yerə çatdırmaq üçün zəng, dəf səslərindən, işıq, tonqal, məşəl və s. vasitələrdən, müxtəlif bayraq və əl hərəkətlərindən, habelə öyrədilmiş göyərçinlərdən istifadə etmişlər.

Qədim zamanlarda şifahi məlumatları lazımi yerlərə çatdırmaq üçün çapar və qasidlərdən geniş istifadə olunmuşdur. Sonralar yazılı məlumatlarla rabitə əlaqə saxlanılması əsasında poçt rabitəsi yarandı.

XIX əsrin 30-cu illərində Dərbənd və digər Azərbaycan şəhərləri ərazisində (Quba, Naxçıvan, Şuşa, Şamaxı, Lənkəran, Nuxa və s.) poçt idarələri yaradıldı. Əsrin axırlarında Azərbaycanda poçt idarələrinin sayı 60-dan çox olmuşdu ki, bunların da yaranmasında Bakı-Tiflis və Bakı-Dərbənd dəmir yolu xətlərinin işə düşməsinin böyük rolu olmuşdur.

Bax: Azərbaycan etnoqrafiyası. Üç cilddə. II cild. - Bakı: «Şərq-Qərb», 2007, səh. 245-248, 278-280, 285-287, 292.

Poçt məntəqəsi. Dərbənddə poçt məntəqəsinin mövcud olması haqqında şəhərin cənub divarının iç hissəsində, Bayat qapının yanında olan ərəb qrafikalı yazı məlumat verir. Burada poçt məntəqəsinin mövcudluğu barədə IX-X əsr ərəb müəllifləri də məlumat vermişlər. Bu şəhərin qapıları «Bab əl-Məktub» adlandırılmışdır.

1807-ci ilin sonunda Tiflisdən Gizlərə olan vahid rabitə xəttinə daxil olan Dərbənd şəhərində poçt məntəqəsi açılmışdır. Bu məntəqəyə şəhərin hərbi komendantı başçılıq edirdi.

1818-ci ildə Tiflis poçt idarəsi Qafqazda Ali Baş komandan olan general A.P.Yermolova Dərbənddə poçt ekspedisiyasının açılması barədə müraciət etmişdir.

1830-cu il aprelin 20-də şəhərdə 2-ci dərəcəli poçt idarəsi açılmış və ona poçtmeyster rəhbərlik etmişdir.

1851-ci il aprelin 1-də Dərbəndlə Temirxan Şura arasında poçt marşrutu açılmışdır. Həmin ildə Şura qapıları rayonunda yeni poçt məntəqəsi tikilmişdir.

Teleqraf stansiyası. 1866-cı ildə Qafqaz teleqraf idarəsinin rəisi mayor Vilboa Bakı-Temirxan Şura teleqraf xəttinin layihəsini hazırlamışdır. Bu xətt Qubadan, Dərbənddən və Deşlaqardan keçirdi.

1867-ci ildə ştabs-kapitan Dingelştedtın rəhbərliyi altında xəttin inşasına başlanmışdır.

1868-ci il fevralın 6-da Dərbənddə IV dərəcəli teleqraf stansiyası iki cihazla 12 saat fəaliyyət göstərməklə öz işinə başladı.

T İ C A R Ə T

Dərbənd və ticarət yolları. Antik Albaniyada iri və xırda yaşayış məntəqələri az deyildi. Ptolemey göstərir ki, Albaniyada 30-dan artıq polis (şəhər) və kome (kənd) var idi.

Arxeoloji qazıntılar nəticəsində antik Albaniyanın bir çox yaşayış məskənləri aşkar edilmişdir. Mingəçevir, Çuxur-Qəbələ, Xınıslı, Təzəkənd xarabalıqları bu qəbildəndir. Mollakənd, Qalangah, Nüydü, Hacıhətəmli yaxınlığında və digər rayonlarda qədim alban şəhərlərinin və məskənlərinin xarabalılqarı kəşf edilmişdir.

Təbiidir ki, alban şəhər və məskənlərinin əhalisi qarşılıqlı əlaqə saxlayırdı. Müxtəlif rayonlarda xeyli miqdarda oxşar və ya eyni məmulatın mövcud olması çoxişlənən malların ancaq fəal qarşılıqlı mübadiləsi şəraitində mümkündür. Məişət əşyaları istehsal mərkəzlərindən istehlak rayonlarına yüz illərdən bəri istifadə edilən ticarət yolları ilə çatdırılırdı. Yerli əhalinin Bazərgan yolu adlandırdığı tranzit yolun izləri indi də qalmaqdadır. Bazərgan yolu Köndələndağın cənub yamacı ilə uzanıb gedirdi. Bütün bu yol boyunca körpü, qüllə, qala və başqa tikililərin xarabalarına rast gəlinir. Mingəçevir yaxınlığındakı bərə Kürün sağ sahilini sol sahili ilə birləşdirirdi. Qədim Qafqaz Albaniyasının ərazisindən baş magistrallardan əlavə Qəbələ, Mingəçevir, Şamaxı, Torpaqqala, habelə digər məskənləri və şəhərləri birləşdirən ticarət yolları da keçirdi. Ehtimal ki, Albaniyanın baş quru magistrallarından biri Kür çayından şimalda yerləşən ərazidən keçir və Bakıdan Şamaxı, Göyçay, Ağdaş, Şəki, Zaqatala, Balakən istiqamətində Laqodexiyə qədər davam edən və oradan Qərbə tərəf gedən yol ilə ayrı-ayrı yerlərdə üst-üstə düşürdü. Bu yol qədim Şamaxını Qəbələ və Mingəçevir ilə birləşdirirdi. Eyni zamanda baş magistraldan ayrılan qol yolları ilə ilin isti, yağıntısız vaxtlarında Albaniyanın şimal vilayətlərinə getmək olurdu. Ağdaşın yaxınlığında Bakı-Tiflis baş magistralından Qəbələyə tərəf Savalan keçidi ilə yol ayrılır. Savalan keçidinin bir hissəsi şərqə dönür. Qədim karvan yolu boyunca uçuq körpülərin qalıqlarına rast gəlinir. Qəbələyə gedən ticarət yolu Çayboğazı qəsəbəsi yaxınlığında şərqə və cənub-qərbə tərəf istiqamət alırdı. Birinci yol Bozdağın cənub yamacları ilə Şamaxıdan keçir, ikinci yol isə Mingəçevirə tərəf gedirdi. Qəbələdən şərqə tərəf Göyçaya qədər uzanan üçüncü qədim yolu əhali Əlvan yol adlandırır. Dagil, Xaçmaz, Bum, Qutqaşen yaxınlığında olan keçidlərlə Qəbələyə Dağıstandan da getmək mümkündür. Yollar qışda qarla örtülür, gediş-gəliş ilin yalnız isti vaxtlarında mümkün olur. Qeyd edilir ki, Dəvə yolu (qədim Bazərgan və ya Elçi yolu belə də adlanır) Mollaisaqlıya qədər uzanır. Şirvanın dağ ətəkləri ilə Şamaxıya çatır, oradan isə Kaspi sahillərilə Duvannıya gedirdi. Həftəran vadisinin əhalisi Şimali Qafqazda və Dağıstanda yaşayan tayfalarla əlaqəni həm də Dərbənd keçidi və Böyük Qafqaz silsiləsinin Xaçmaz, Bum, Qəbələ və Vəndam yaxınlığından keçən dar aşırımları vasitəsilə saxlayırdı.

Bu yollardan əlavə, Şamaxı rayonunu İsmayıllı, Qəbələ, Bum, Xaçmaz, Oğuz və başqa yerlərlə kəndarası yollar da birləşdirir. Qədim Qafqaz Albaniyasının baş magistrallarından biri Qazaxdan başlanan Şəmkir, Gəncə və Mingəçevirdən keçib Şamaxıya gedən yol ilə, həm də Bərdədən başlanan Ağdamdan və Füzulidən keçərək cənubda Atropatenaya və Midiyaya gedən yol üst-üstə düşürdü. Ərəb coğrafiyaçılarının məlumatına görə, Tiflisdən şərqə gedən yol Hunan, Şəmkir və Gəncədən keçərək Bərdəyə qədər uzanırdı, buradan isə Bərzənc, Şamaxı, Şirvan və digər şəhərlər təriqi ilə Dərbəndə, yaxud Bərdədən çıxıb Yunan, Beyləqan, Barsan, Bəlxəb və Bərzənd təriqi ilə Ərdəbilə

getmək olardı.

Strabon yazırdı ki, İberiyaya «Albaniyadan keçid əvvəlcə qayalardan çapılmış yoldan ibarətdir. Sonra (yol) Qafqazdan axan (Alazan) çayının əmələ gətirdiyi bataqlıqdan (keçib gedir)». Onun verdiyi məlumata görə, İberiya və Albaniyanın qovşağında – nisbətən kiçik olan bu dərə-təpəlik ərazidə yollar müxtəlif tərəflərə uzanır, həmin yolla Albaniyanın qərb darvazası sayılan keçidlə albanlar yaşayan əraziyə getmək mümkündür.

Strabon qeyd edirdi ki, adətən «İberiyadan Albaniyaya Alazan çayının sahili ilə» keçmək olar, İberiyadan Albaniya hüdudlarına yalnız bu yolla, dərə-təpəli Kambisenadan və Alazan çayının sahili ilə keçmək mümkün idi.

Qədim dövrün bir çox müəllifləri Qafqaz darvazasını səhvən Kaspi darvazası adlandırırdılar. Ptolemeyin «Sarmat darvazası»nı Plinidəki «Qafqaz darvazası» ilə eyniləşdirmək olar. Bütün əlamətlərdən görünür ki, Qafqaz darvazası indi Dəryal dərəsi dediyimiz dağ keçidinin eynidir. Lakin cənub vilayətləri Qafqaz ilə birləşdirən ticarət yolu burada da qırılmırdı. Yol davam edərək Qafqaz darvazasından şimal-qərbə, Tanaisə tərəf uzanırdı. Strabon məlumat verir ki, Tanais «bir tərəfdən, Asiya və Avropa nomadlarının, digər tərəfdən Bospordan gəmilərlə (Meotid gölünə) gələnlərin ümumi ticarət mərkəzi idi: birincilər qul, gön-dəri və köçərilərdən alına bilən digər əşyalar, ikincilər isə mübadilə üçün paltar, şərab və məişətdə işlədilən başqa ləvazimat gətirirdilər».

Ticarət yollarının kəsişmə nöqtəsi olan Ekbatana yolun cənub-hissəsində yerləşirdi. Bu şəhər eyni zamanda malları yalnız qəbul etmək üçün deyil, həm də satmaq üçün münasib yer idi. Şərqdən Qərbə gedən baş ticarət magistralı Ekbatanadan keçirdi və buradan müxtəlif ölkələrin mallarını almaq olardı. Doğrudan da, Strabon məlumat verir ki, Kaspi dənizinin şimal hissəsinin sahibi olan aorslar «ermənilərdən və midiyalılardan mübadilə qaydası ilə hind və Babil malları alır, dəvə karvanları ilə daşıyıb satırdılar». Güman etmək olar ki, bundan çox-çox əsrlər əvvəl hərbi məqsədlərlə istifadə olunan tranzit yolu Kaspinin şimal sahilində yaşayan tayfalar ilə Atropatena və Ərminiyyə əhalisi arasında ticarət yolu olmaqda davam edirdi. Balıq daşınması haqqında Klavdi Elianın məlumatı da Ekbatanaya gedən ticarət yolunun mövcüd olduğunu təsdiq edir. Daha sonralara aid olan materiala əsasən Beyləqandan çıxıb Varsan və Bərzənddən, yəni kaspilər yaşayan ərazidən keçərək Ərdəbilə, oradan da cənuba - Ekbatanaya getmək olardı.

Bax: Azərbaycan tarixi. Yeddi cilddə. I cild (Ən qədimdən – b.e. III əsri). - Bakı: «Elm». 2007. səh. 377-379.

Ticarət və ticarət yolları (VII-IX əsrlər). Mənbələrdə şəhərlər haqqında ciddi məlumatın olmaması üzündən Azərbaycandakı orta əsr feodal şəhərlərinin meydana gəlməsinin səbəb və şərtləri və bunların inkişafı hələlik çox az öyrənilmişdir. Ölkənin iqtisadi sistemində Azərbaycan şəhərlərinin rolu, bunların daxili həyatı, quruluşu, şəhər əhalisinin müxtəlif təbəqələrinin qarşılıqlı münasibətləri və bunlara oxşar bir sıra digər problemlər də kifayət qədər öyrənilməmişdir.

Azərbaycan şəhərləri arxeoloji cəhətdən pis öyrənilmişdir. Azərbaycanın orta əsrlərdəki şəhərlərinin necə yerləşdiyi haqqında hələlik əlimizdə bir xəritə yoxdur. Azərbaycan ərazisində qədim şəhər xərabələrində çox az qazıntı işləri görülmüşdür. Arxeoloqlar göstərirlər ki, Azərbaycanın yazılı mənbələrdən məlum olan şəhərlərinin əksəriyyəti nəinki elmi cəhətdən öyrənilməmişdir, hətta qeydə alınmamış və bunların harada yerləşdiyi müəyyən edilməmişdir. Şərti olaraq qeyd etmək olar ki, ərəblərdən əvvəlki dövrdə olan şəhərlər padşah və knyazların torpaqlarında salınırdı və adətən, kənd mahalları – rustaklar bunlara aid edilirdi. Şəhərlər narazı və qaçqın kəndlilərin pənah gətirdiyi yerlər idi və buralarda toplanan əhalinin birlikdə fəaliyyət göstərən vahid kütlə halında birləşməsinə kömək edirdi. Şəhər əhalisinin əsas kütləsini bilavasitə istehsalçıların özləri təşkil edirdi və burada onlar ağır güzəran keçirirdilər.

Şəhərlərdə zadəganlarla bərabər «zadəgan olmayanlar» və «sadə» adamlar da yaşayırdılar, lakin həmin kateqoriyadan olanlar arasında varlı adamlar, xüsusilə tacirlər də var idi. Hər peşədən olan sənətkarlar bir küçədə və ya bir məhəllədə yerləşirdilər.

Orta əsrlərdəki yazılı mənbələr və qazıntı materialları bütün Azərbaycan ərazisində bir neçə kateqoriyadan şəhər olduğunu müəyyən etməyə imkan verir. Həmin dövrdə daha geniş surətdə ictimai əmək bölgüsü əmələ gəlir, sənətlər kənd təsərrüfatından ayrılır və şəhərlərdə mərkəzləşir. Şəhər kənddən

ayrı düşür. Lakin həmin dövrdə Azərbaycan və Arran şəhərlərinin əksəriyyəti hələ mühüm ticarət-sənaye mərkəzi olmamışdı. Mənbələrdə təkcə «böyük» və «məşhur» adlanan şəhərlər ticarət-sənaye mərkəzi idi, bunlar da beynəlxalq tranzit ticarətinin əsas yolları üzərində salınmış şəhərlər olmuşdu. Dərbənd, Bərdə, Çoqa, Beyləqan (Paytakaran) belə şəhərlərdən idi. Həmin şəhərlərdə ruhani və dünyəvi zadəganlar, tacirlər, sələmçilər və əkinçiliklə əlaqəsini kəsmiş sənətkarlar yaşayırdılar. Mənbələrdə göstərilir ki, şəhərlərdə geniş istehlak şeyləri hazırlayan sənətkarlardan başqa «qızıl, gümüş, dəmir filizi və mis çıxarmaqda biliyi olan müxtəlif sənətkarlar da» var idi.

Şəhərlərin ikinci kateqoriyası – əsas ticarət yollarından uzaqda yerləşən qapalı sənətkarlıq və ticarət mərkəzləridir. Şəki, Qəbələ, Amaras, Şəmkir, Naxçıvan, Ərdəbil, Girdıman bu kimi şəhərlərdən idi. Həmin şəhərlər eyni zamanda qala idi, çünki burada çoxlu hərbi dəstələr olurdu.

Kəndtipli şəhərlər, yəni əkinçilik xarakterli şəhərlər də var idi; bunlar ictimai-iqtisadi mənada şəhər olmayıb, feodal vilayətlərin inzibati mərkəzi idi. Bunlarda ictimai və əmlak cəhətdən hələ aydın təbəqələşmə yox idi. Bu şəhərlərin əhalisi natural təsərrüfat həyatı keçirirdi və başqa bazarlarla əlaqələri, demək olar ki, yox idi.

Bu dövrdə ticarət və mal mübadiləsi tədricən inkişaf edir, bunların ardınca pul tədavülü artırdı.

Biz qeyd edə bilərik ki, ərəblərin istilası başlananda Azərbaycan və Arranda keçmişdə qala şəhəri olmuş bir sıra məşhur şəhərlər vardı. Bunlardan Dərbənd, Ərdəbil, Bərdə, Beyləqan, Qəbələ, Şamxor, Çoqa, Naxçıvan, Şabran, Şamaxı, Qazaka (Şiz) və başqalarını göstərmək olar.

Azərbaycanın bəzi şəhərlərinin əzəmətini və bunların strateji əhəmiyyətini həmin şəhərlər ətrafında çəkilən hasar və bürclərin qalıqları aydın göstərir. Demək olar, bütün hasar və bürclər yonulmuş iri daşdan hörülmüş, bunların özülü isə bişmiş kvadrat kərpicdən tikilmişdir.

Arranın mühüm orta əsr şəhərlərindən biri Çoqa (Çora) idi. Mütəxəssislərin dediyinə görə, bu «indi Dağıstanda məlum olan bu cür abidələrin ən böyüyüdür. Onun sahəsi 100 hektardır». Qədim şəhər xarabalarının ətrafında bürc və darvazaları olan qala hasarının qalıqları görünür. Hasarın hündürlüyü 2 m, eni isə 12-15 metrdir. Şəhərin ətrafında enli (20-25 m) və dərin (4-6 m) xəndək var idi və mühasirə zamanı buraya su buraxılırdı. Çoqa o zaman Arranın ən böyük siyasi və mədəni mərkəzlərindən biri olmuşdur; ölkə patriarxının taxtı da burada idi.

Arxeoloji materiallar orta əsr Arranın digər böyük şəhəri Dərbənd (Bab ül-Əbvab) haqqında da çox maraqlı məlumat verir. Şəhərin VI əsrdə mövcud olması barədə mənbələrdə verilən məlumatı Dərbəndin qala divarındakı pəhləvi yazıları da təsdiq edir.

VI əsrin axırları-VII əsrin əvvəllərində Azərbaycanda və xüsusilə Arranda çoxlu yeni şəhərlər salınır və mövcud şəhərlər möhkəmləndirilir; buna səbəb hər şeydən əvvəl həmin bölgələrdə məhsuldar qüvvələrin daha da artması idi. Şəhərlər ticarət və sənət mərkəzi olur, məhsula tələbat artır, ölkənin təbii sərvətləri daha çox işlədilir ki, bütün bunları Moisey Kalankatuklu təsdiq edir.

Azərbaycan ərəblər tərəfindən işğal edilməzdən əvvəl, habelə ərəblərin hökmranlığı dövründə həmin ölkələrdən keçən ticarət yollarının birinci dərəcəli əhəmiyyəti var idi: bu ticarət yolları bütün Xilafət sistemindəki ticarətdə heç də az rol oynamırdı. Bu ərazinin ərəblər tərəfindən işğalı və Ön Asiyada çox geniş sahənin Xilafət çərçivəsində birləşdirilməsi ticarətin inkişafı üçün son dərəcə əlverişli şərait yaratdı, tacirlər üçün quru yol ilə və Xəzər dənizi ilə şimala (bulqarlar, slavyanlar) və Avropanın şimal-şərqinə gedən ticarət yollarını açdı. Avropa, Asiya və Afrikanın müxtəlif rayonlarında tapılan çoxlu sikkə dəfinələri əsasında təsəvvür etmək olar ki, Xilafətin hökmranlığı dövründə ticarət nə qədər genişlənmişdi və təqribən o zaman məlum olan bütün ölkələrlə Cənubi Qafqaz ölkələrinin ticarət əlaqələri nə qədər uzaqlara çatırdı. Dünya ticarətində Bizansın üstün rolu tənəzzülə uğradıqdan sonra qonşu ölkələrlə ticarətdə Xilafətin ticarət balansında Azərbaycan şəhərlərinin üstünlüyü daha da gücləndi.

Şəddadilərin paytaxtı Bərdəyə köçürüldükdən sonra ticarət mərkəzi olmaq etibarilə Dəbilin (Dvinin) əhəmiyyəti aşağı düşdü; o zaman Dərbənd, Bərdə, Gəncə, Şəmkir, Ərdəbil, Şabran və digər şəhərlər beynəlxalq ticarət həyatında daha əhəmiyyətli rol oynayırdı. Bunun səbəbi o idi ki, Xilafətin ticarət əməliyyatı yeni yolla inkişaf edərək, başqa şəhərlərdə mərkəzləşmişdi. Bu isə həmin dövrdə Şərqi Gür-

cüstan və Azərbaycanda ticarətin canlanması xəzərlər və slavyanlarla ticarətin inkişafı ilə əlaqədardır. Ş.A.Mesxia isə qeyd edir ki, bu zaman beynəlxalq ticarətdə Azərbaycanla birlikdə iqtisadi cəhətdən kifayət qədər inkişaf etmiş Gürcüstan padşahlıq və knyazlıqları da iştirak edirdilər, həm də bunlar digər xalqlarla ticarətdə vasitəçi kimi hərəkət edirdilər.

Azərbaycan şəhərləri məhz ərəb hökmranlığı dövründə iqtisadi cəhətdən inkişaf etmişdir. Cənubi Qafqazın bu rayonunda yeni şəhərlərin meydana gəlməsinin və Bərdənin sürətlə inkişafının səbəbi əsasən bunda idi ki, Şimali Qafqaz, Volqa və Don çayları hövzəsinin xalqları ilə ticarət əlaqələri sürətlə inkişaf etmişdi: bu cəhət isə Azərbaycan və Arranda əmtəə münasibətlərinin inkişafının başlıca amillərindən biri olmuşdu.

Azərbaycan və Arran şəhərləri öz zəngin bazarları və yerli sənətkarların cürbəcür məhsulları ilə ticarət əməliyyatında iştirak edərək, Xilafətdə şimal-şərqi Avropa ölkələri arasında ticarət əməliyyatının inkişafına yardım edirdi.

Bu dövrdə Azərbaycan və Arran şəhərləri Xilafətin böyük məmurlar iqamətgahının yerləşdiyi inzibati mərkəz olub müstəqil həyat keçirirdi. Bu dövrün başlıca ticarət-sənətkarlıq mərkəzi olan şəhərlərində inkişaf etmiş sənətkarlıq təsərrüfatı adamların kənddən axıb gəlməsinə səbəb olurdu. Şəhərlərdə orta əsrlərdə məlum olan bütün sənətlər – dulusçuluq, dəmirçilik, çəkməçilik, dabbaqlıq, dərzilik və s. var idi; metal qablar, qızıl və gümüş məmulatı, müxtəlif parça və s. hazırlanırdı. Sənətlər Azərbaycan şəhərlərində xüsusilə inkişaf etmişdi, çünki mənbələrdə qeyd edildiyi kimi, ərəblər sənətkarlara nifrət edirdilər, bu sənətkarlar isə hələ islamdan əvvəlki dövrdə xristianlar və yəhudilərdən ibarət idilər. Ölkə işğal edildikdən sonra «inşaatda, dərzilik, çəkməçilik və digərlərində xristianlar işləyirdilər. Boyaqçılar, dabbağlar, dəlləklər [zəli qoyanlar] yəhudilərdən idi; onlar xristianların iyrəndiyi digər xırda sənətlərlə də məşğul olurdular».

Bu dövrün şəhərlərində yaşayan əhalinin etnik tərkibi çox qarışıq idi. Bu şəhərlərdə yerlilərdən başqa, ərəblər, ermənilər, yəhudilər və digər xalqlar yaşayırdılar. Şəhərlərin ticarət və sənətlə məşğul olan yerli əhalisi çox vaxt xalis ticarət mülahizələrinə görə islam dinini qəbul edirdilər. Arran şəhərlərində başqa dinlərə mane olmamaq halları mövcud idi; odur ki, kilsə ilə yanaşı məscidə rast gəlmək olardı; bunu, demək olar, bütün ərəb müəllifləri qeyd edirlər.

VII əsrin axırları - VIII əsrin əvvəllərində xəlifə Əbd ül-Məlikin hökmranlığı dövründə Xilafətdə böyük sikkə islahatı keçirildi, qızıl dinar və gümüş dirhəm Sasani dirhəmi və Bizans miliarisisini sıxışdırıb aradan çıxardı.

Demək lazımdır ki, ərəblər Sasanilər İranı və qismən Bizans imperiyası tərkibinə daxil olan əyalətlərin işğalının birinci əlli illiyi ərzində köhnə çəki və sikkə sistemlərini dəyişdirmədilər. Azərbaycanda, habelə Xilafətin digər şimal vilayətlərində əvvəlki çəki ölçüləri - kafiz və mudd, eləcə də pul vahidləri - dinar və dirhəm olduğu kimi qalmışdı. Sasani sikkə sistemi gümüş monometallizmin növlərindən biri idi və buna bir az başqa metallar qatılmışdı. Keçmiş Sasani əyalətlərindən, hətta ərəblərin dövründə üzərində II Xosrovun, yaxud III Yəzdigərdin və atəşgədə təsviri olan dirhəm kəsilirdi. Bir tək sikkənin tarixi dəyişirdi, Qurandan kufi hərflərlə bir ayə yazılır və adətən, ərəb xəlifəsi, ya hakiminin adı əlavə edilirdi.

660-cı ildə I Müaviyə sikkə islahatı keçirməyə təşəbbüs etmiş və hətta gümüş və qızıl sikkə kəsməyə başlamışdı. Lakin əhali bu yeni pulu qəbul etmədi və islahat müvəffəqiyyətsizliyə uğradı.

Bəzi ərəb mənbələri Əbd ül-Məlikin hökmranlığından əvvəl də Xilafətdə sikkə sistemi islahatı keçirməyə cəhd göstərildiyini qeyd edirlər, lakin mənbələrin əksəriyyəti bu fikirdədir ki, bu islahat yalnız Əbd ül-Məlikin və onun vəziri əl-Həccacın işidir.

İbn Havqəl təsdiq edir ki, Azərbaycan və Arranda qızıl və gümüş sikkə işlənirdi. Bu zaman burada ərəblərin öz sikkəxanası meydana gəlir, çünki ticarətin yüksəlişi və bununla əlaqədar olaraq şəhərlərin artması bunun meydana gəlməsinə səbəb olmuşdu. Azərbaycan və Arran sikkəxanalarında kəsilən pullar uzaqlara, şimalda – Rusiya, Almaniya, İsveç, Norveç, Baltik sahillərinə, habelə Şərq ölkələrinə gedir, əvəzində həmin ölkələrdən xammal gətirilirdi. Azərbaycanda pul tədavülünün belə inkişaf etdiyi bir şəraitdə ticarət daha da canlanmağa başladı.

Azərbaycanda sikkəxana Bərdə, Dərbənd və Şamaxıda (Yəzidiyyə) var idi. Ərəblərin dövründə Arranda kəsilən ən qədim pul hicri 89 (707-708)-cu

il tarixli dirhəmdir. Lakin o dövrün sikkəxanasının dürüst yerini göstərmək çətindir, çünki bu sikkəxana Bərdədən başqa, Şəmkirdə, Qəbələ, Beyləqan və Gəncədə də ola bilərdi. Azərbaycan sikkəxanasında kəsilmiş dirhəmlərin üzərində hicri 105 (723-734) və hicri 106 (724-725)-cı ilin tarixi vardır. Bu sikkəxana Ərdəbildə, yaxud Marağada da ola bilərdi. Dərbənddə kəsilmiş ən qədim pulun üzərində hicri 115 (733-734)-ci ilin tarixi vardır. Əməvilərin sikkəxanalarında pul kəsilməsi hicri 131 (748-749)-ci ildə bitir. Arran ərazisndə Abbasilərin ilk sikkələri, hicri 140 (757-758)-cı ildə meydana gəlir. Bu sikkələr hicri 140-cı Yəzidiyyədə (Şamaxıda) və hicri 142 (759-760)-ci ildə Bərdədə kəsilmiş fels adlı sikkə idi.

Azərbaycan sikkəxanalarında kəsilən pullara çox vaxt şimal ölkələrində və Rusiyanın Avropa hissəsi dəfinələrində təsadüf edilir. Yerli tacirlər öz əmtəələrini bu Ölkələrə aparır, həmin ölkələrin tacirləri isə Azərbaycana mal gətirirdilər. Bununla bərabər, bu pulları işlədən vasitəçi tacirlərin mövcud olduğu ehtimalını rədd edə bilmərik.

Əməvilərin dövründə ərəblər tədqiq edilən ölkələrdə öz ölçü-çəki sistemlərini tətbiq etmişdilər. Bu tədbir 722-ci ildə, əl-Cərrah ibn Abdullah əl-Həkəmi Azərbaycan və Arran canişini olduğu zaman həyata keçirilmişdi. O, Bərdəyə gəldikdə, şəhərdəki ölçü və çəki işlərində sui istifadələr və xəyanət olduğunu ona xəbər verdilər; o, həmin qüsurları aradan qaldırdı və Cərrahiyyə adı ilə məlum olan yeni dürüst ölçü vahidi tətbiq etdi.

Tədqiq etdiyimiz dövrdə ticarətin inkişafında Xəzər dənizi əhəmiyyətli rol oynayırdı. Xəzər hövzəsinin cənub hissəsində ticarətə Bağdad, Buxara və Səmərqənd bazarlarının yaxınlığı böyük təkan verirdi, çünki bunların inkişaf etmiş sənətkarlıq mərkəzi olan bir sıra Asiya ölkələri ilə geniş əlaqələri var idi. Xəzər sahilindəki limanlarda (Abaskun və Astrabaddan Dərbəndədək) fəal ticarət dənizçiliyi inkişaf edirdi. Məsələn, Astrabaddan ipək parça ixrac edilir, Dərbənd bazarları isə, demək olar, bütün Xəzər sahillərindən mal gətirən tacirlərin toplanış yeri idi.

Xəzər limanlanında yığılan mallar Cənubi Qafqazdan Kür və Rion çayları ilə Qara dənizə aparılırdı, yoxsa Dərbənddən Qafqaz vasitəsi ilə quru yolla daşınırdı? Alman tarixçisi Heyd bu suala belə cavab verir: «Zənnimizcə, axırıncı yol şübhəli görünür. Bərzəx əhalisinin siyasi və dini cəhətdən Yunan imperiyasına bağlı olan xristian hissəsi ilə Xəzər dənizinin cənub-qərb hissəsinin sahibi olan müsəlmanlar arasında antaqonizm var idi və bu cəhət ticarət əlaqələrinə o qədər də əlverişli şərait yaratmırdı. Bundan əlavə, xristian Gürcüstanına ərəblərin çoxlu basqınları quru yolları o qədər də etibarlı etmirdi. Nəhayət, müxtəlif tayfaların yaşadığı Qafqaz sıldırım və əyri-üyrü cığırları ticarət yolu salmaq üçün heç də münasib deyildi. Beləliklə, Xəzər dənizi sahilində yaşayanlar çətin ki, Qafqazın quru yolları ilə ticarətə gedəydilər, çünki Volqa vasitəsilə limana getmək üçün geniş yollar onların üzünə açıq idi».

Azərbaycan tacirləri, habelə, bu ölkədən keçən ərəb tacirləri Volqa ilə yuxarı qalxaraq, şimala doğru bulqarlara tərəf gedirdilər. Bu tacirlər orada öz mallarının $^{1}/_{10}$ dəyəri hesabilə gömrükhaqqı verir və yaxşı sövdə edirdilər, çünki islam dinini qəbul edən bulqarlar ticarət işlərinə mane olmurdular. Bulqar və burtaslardan Azərbaycan, Arran və bütün Xilafət bazarlarına samur, dələ və tülkü xəzi, xəz papaq, ox, balıq yapışqanı, qılınc, zirehli geyim, slavyan qullar, mis, mum və s. gəlirdi.

Ərəblər bizanslıların Qara dənizdən keçən əsas ticarət yollarını pozaraq, bu yolları şərqə, Xəzərə tərəf keçirmişdilər; bu isə Xəzər ətrafındakı şəhərlərin coşqun inkişafına səbəb olmuşdu. Ərəblər Xəzər dənizi - Volqa ticarət yolunu nəzarət altına almağa başladılar, o zamana qədər isə bu yol Bizansın əlində idi. Ərəblərin hərbi siyasəti də böyük cənub-şimal ticarət yolunun cinahını qorumağa yönəldilmişdi, ərəblər şimalda Tiflisdən Dərbəndədək geniş ərazini öz əllərində tutduqlarına görə onların bu siyasəti müvəffəqiyyətli idi. Ərəblər Bizansın dayağı olan xəzərləri məğlub etmişdilər və artıq onlar yeni ticarət yolu üçün ciddi bir təhlükə təşkil etmirdilər. Xəzər dənizində bütün limanlar ərəblərin əlində idi və ibn Havqəlin dediyinə görə bu limanlara «tez-tez bir limandan başqasına gedən tacir gəmiləri gəlirdi».

Sonralar, X əsrdə Xilafətin qüdrəti tənəzzülə uğradıqda, rusların gəmilərinin Xəzər hövzəsinə yürüşləri başladı; dənizdə cəsarətli reydlər keçirən bu gəmilər hətta Arranın paytaxtı Bərdəyə də gəlib çatırdı (943-944).

Xilafətin ruslarla ticarəti haqqında olduqca çox məlumat vardır. İbn Xordadbeh göstərir ki, rus tacirləri Volqa ilə aşağı enərək, Xəzər dənizinin

cənub sahillərinə gəlir və oradan öz mallarını dəvələrə yükləyib Bağdada gedirdilər. Orada ruslar kafir hesab edildiklərinə görə öz mallarına gömrükhaqqı verməkdən əlavə bir də cizyə verirdilər. Ruslar Novqoroddan dələ dərisi, xəz və qul gətirirdilər. Xilafətdən gələn tacirlər Xəzər hövzəsi ilə bilavasitə Kiyevlə ticarət edirdilər. Baltik dənizi sahillərindən Xilafətə kəhrəba aparılırdı.

Pskov ətrafında, Volqa hövzəsində Yaroslavl, Vladimir və Kazanda, Dnepr sahillərində, Vitebskdə və Baltik dənizi sahillərində tapılan sikkə dəfinələri Xilafətin Rus dövləti ilə geniş ticarət əlaqələri saxladığını göstərir.

Azərbaycandan o zaman məşhur olan toxunma mallar aparılırdı. Bu mallar Dərbənd yolu ilə müxtəlif ölkələrə gedirdi, çünki bu şəhər toxucu müəssisələrinin məhsulu üçün bölüşdürücü məntəqə idi. Azərbaycan Xilafətin bütün bazarlarında çox tələb olunan boyaq və zəfəran ixrac edən bir ölkə kimi də məşhur idi. Azərbaycan ixracatının xüsusi maddəsini qızıl boya təşkil edirdi. Bab əl-Əbvabdan Tiflisədək bütün Ran ölkəsində yerdə boyaq bitir və burada onu külli miqdarda yığırlar. Bu məhsul su yolu ilə Xəzərdən Cürcana, oradan da karvanla Hindistana göndərilir. Bu məhsul öz keyfiyyətinə görə bütün digər boyaqlardan üstündür. Azərbaycandan nərə balığı kürüsü də ixrac edirdilər.

Dərbənd şəhəri Xilafətlə şimal ölkələri arasında mal mübadiləsində böyük rol oynayırdı. Xəlifələr Dərbəndin strateji və ticarət nöqteyi-nəzərindən xüsusi əhəmiyyətini nəzərə alaraq, burada azad şəhərə oxşar bir idarə orqanı qurmuşdular; bu orqana əmirlər, yaxud rəislər şurası başçılıq edirdi. Hələ 736-cı ildə Əsəd ibn Zafirin başçılığı ilə xəlifə Hişam tərəfindən Dərbəndə göndərilən 400 əmir şəhərin bu cür idarə orqanının əsasını qoydu. Şəhərin başçısı (rəislərin rəisi) öz işində nizamnamə və ya hərəkət dəstur ül-əməli ilə məhdud edilmişdi. Şəhərin bu cür xüsusi vəziyyəti bir də ondan irəli gəlirdi ki, Dərbənd qarnizonu ilə sərhəd qalalarındakı qarnizonlar xəzinədən maaş almayıb, yerli idarənin hesabına dolanırdı. Buna görə də bir sıra vilayətlər, Abşeronun neft və duz mədənlərinin gəliri xəlifələrin sərəncamı ilə vəqf olaraq sərhəd qoşunlarına verilmişdi. Dərbəndin rəislər rəisinə əmr edilirdi ki, şəhərin mühafizəsinə, qayda-qanuna və təmizliyinə nəzarət etsin. «Əgər hakim əhalidən xərac, üşr və paltar vergisi alarsa, ya da Dərbəndin qazılarını hər hansı bir mükəlləfiyyət daşımağa məcbur edərsə, hakim vəzifəsindən kənar ediləcəkdir. Əgər Dərbənd hakimi, qalanı müdafiə etməyə qüdrəti olmazsa, əgər o, qədim məlum olmayan bir zülmlə əhalini sıxışdırarsa, vəzifədən çıxarılmalı və başqa hakim təyin edilməlidir. Əgər Dərbəndin hakimi ölərsə, ya da əhaliyə zülm edərsə, bu şəhərə ləyaqətli hakim gəlincəyədək rəislər onun yerinə müavin təyin etməlidirlər. Əgər Dərbənd hakimi müəyyən adamları müharibəyə göndərərsə, xəlifə Hişamın Əsəd ibn Zafirlə birlikdə Dərbəndə göndərdiyi 400 nəfərdən birini [onlarla bərabər] göndərməlidir və bu zaman digər qoşunlar şəhəri müdafiə etməlidirlər».

«Dərbəndnamə»yə görə, hətta Harun ər-Rəşidin özü şəhərdə olmuşdur; o, həm döyüşçülərin, həm də şəhərin rifahı qeydinə qalaraq, «əmr etdi ki, Rubas çayından bir neçə kanal çəkilsin, nəticədə su şəhərin ətrafına gəldi. O, bağ və bostanlar saldı, dəyirmanlar tikdirdi və bunların hamısını Dərbəndə vəqf etdi».

Demək lazımdır ki, Dərbəndin hakim dairələri Xilafətin təkcə hərbi-strateji mənafeyini qorumaq deyil, həmçinin ticarət mənafeyini də qoruyurdular. 739-cu ildə Məsləmə ibn Əbd ül-Məlik sərəncam vermişdi ki, «Xəzər tacirləri ticarət üçün Dərbəndə gəlsələr, şəhərdən bir fərsəx aralı dayanmalı və orada alver etməlidirlər. Əgər Dərbənd əhalisindən biri Xəzər ölkələrinə gedib ticarət etmək istəsə, ya öz malının dəyərinin onda birini ödəməli, ya da ticarəti buraxmalıdır». Şəhərə gələn Xəzər elçilərinin gözlərini bağlayırdılar ki, şəhərin istehkam sistemindən bir şey başa düşə bilməsinlər. «Kafirlərdən heç kəs yanında müşayiətçi olmadan qalaya girməməlidir. Kafirlərdən olan elçi qalaya gözü bağlı gətirilməli və eyni qaydada çıxarılmalıdır ki, qalada heç bir şey, nə onun hasarlarını, nə də darvazalarını görməsin».

Ticarət məqsədi ilə Xilafət ərazisinə, bu halda isə Dərbəndə gələn yadellilərdən gömrük rüsumu alınırdı. Bu rüsumlar hələ xəlifə Ömər ibn əl-Xəttabın hökmranlığı dövründə qoyulmuşdu; o, belə sərəncam vermişdi: «Xarici [hərbi] tacirlər bizim torpaqlara gələndə, onlardan on faiz alın, çünki digər ölkələrdə (dar ül-hərb) müsəlmanlardan da eynilə o qədər alırlar. Zimmi tacirlərdən (mallarının dəyərindən) beşdə bir, müsəlman tacirlərdən ümumi dəyəri 200 dirhəm olanda beş dirhəm, sonrakı hər 40 dirhəmdən

bir dirhəm alın». Gətirilən əmtəə, habelə qul, heyvan və hər cür əşya üzərinə qoyulan bu rüsumlar xəlifə xəzinəsinə çox böyük gəlir verirdi. İbn Havqəlin verdiyi məlumata görə, gömrük rüsumları ildə 100 min dirhəmdən 1 milyon dirhəmədək gəlir verirdi.

VIII-IX əsrlərdə genişlənən ticarət xəzinəyə böyük gəlir və mənfəət verirdi. Lakin bu ticarətə çox pul qoyulması, bəzən də qısamüddətli, ya da uzunmüddətli borc verilməsi tələb olunurdu ki, bu da sələmçiliyin inkişafına kömək edirdi. M.Kalankatuklu göstərir ki, Azərbaycanda faizlə pul borc verən adamlar olmuşdur.

Ticarət əlaqələri və Dərbənd XI-XIII əsrlərdə. XI əsrin ilk illərində əvvəlki tarixi dövrdə müşahidə olunan ümumi iqtisadi inkişaf daha böyük vüsət alır. 1027-ci ildə Şəddadi hökmdarı II Fəzlunun dövründə Araz çayı üzərində onbirtağlı Xudafərin körpüsünün tikilməsi daxili və xarici ticarət əlaqələrinin inkişafı zərurətindən irəli gəlmişdı. Bu körpünün tikilməsi Azərbaycanın təkcə iqtisadi deyil, həm də siyasi və etnososial həyatı üçün böyük əhəmiyyət kəsb etmiş, onun əsas vilayətlərini birbirinə daha sıx bağlamışdı.

Səlcuq istilaları ölkənin iqtisadi inkişafının bu ümumi meylini müvəqqəti olaraq ləngitsə də dayandıra bilmədi. Böyük bir imperiyanın yaranması və ilk səlcuqlar dövründə onun nisbi sabitliyi Azərbaycanın ticarət-iqtisadi əlaqələrinin genişlənməsi üçün əlverişli şərait yaratdı. Səlcuq hökmdarlarının özləri ticarətin inkişaf etdirilməsi və ticarət yollarının qaydaya salınmasına xüsusi diqqət yetirirdilər. Ticarətin ən yüksək inkişaf səviyyəsinə qalxdığı Səlcuq hökmdarı Məlikşahın hakimiyyəti illərində (1072-1092) ölçü sisteminin tənzimlənməsi və yeganə pul vahidinin müəyyənləşdirilməsi sahəsində cəhd göstərildi. Bir çox yolüstü ticarət-poçt məntəqəsi tikildi, karvan yollarının təhlükəsizliyini təmin etmək üçün tədbirlər görüldü. Beynəlxalq ticarətin canlanması üçün Məlikşahın bütöv bölgələrin tacirlərini bəzi ticarət rüsumlarından azad edən 1087-ci il tarixli fərmanının mühüm əhəmiyyəti oldu. Şəhərlərin və şəhər sənətkarlığının inkişafı, əmtəə-pul münasibətlərinin kənd təsərrüfiatına geniş surətdə daxil olması və nəhayət, əvvəlki yüzillərdə də çoşqun fəaliyyət göstərən geniş ticarət yolları şəbəkəsinin varlığı XI əsrin sonu - XII əsrdə Azərbaycanın ticarət-iqtisadi əlaqələrinin genişlənməsi üçün əlverişli şərait yaratdı. Həm Şimali, həm də Cənubi Azərbaycanın şəhər və vilayətləri daxili və beynalxalq əhəmiyyətli ticarət yollarının sıx şəbəkəsi vasitəsilə birləşdirirdi. Bu ticarət əlaqələrinin nə qədər intensiv və geniş olduğunu, Beyləqan ərazisində arxeoloji qazıntılar zamanı aşkar edilmiş sikkə tapıntıları da sübut edir. Burada böyük miqdarda (1500 nüsxə) Eldəniz sikkələri ilə yanaşı, Şirvanşahların, Dərbənd məliklərinin, Kiçik Asiya səlcuqilərinin, Əhər hakimlərinin kəsdirdikləri pullar, habelə gürcü, Bizans və b. sikkələri aşkara çıxarılmışdır. Eldəniz sikkələrinin təxminən yarısını Cənubi Azərbaycan şəhərlərində, o cümlədən Ərdəbildə zərb olunmuş sikkələr təşkil edirdi.

Ticarət yolları Azərbaycanı nəinki qonşu Şərq ölkələri, elecə də bir çox uzaq ölkələr – Hindistan, Orta Asiya və hətta Çinlə bağlayırdı. Bakı, Şamaxı və Beyləqanda aparılmış arxeoloji qazıntılar zamanı aşkara çıxarılan çini qab-qacaq qırıqları və başqa tapıntılar da bunu sübut edir. Sənətkarlığın bazar, əmtəə istehsalı sahəsinə çevrilməsi, əmtəə-pul münasibətlərinin geniş şəkildə kənd təsərrüfatına müdaxilə etməsi, köçəri təsərrüfatın bu münasibətlər dairəsinə cəlb olunması daxili və xarici bazarlarda intensiv əmtəə mübadiləsi üçün şərait yaradırdı. Şəhər sənətkarlığı əmtəə istehsalının müəyyənləşdirici sahəsi idi. Müxtəlif ipək, pambıq və yun parçalar, metal, ağac və dəri məmulatları daxili və xarici bazarda başlıca ticarət məhsulu idi. Parça və başqa toxuculuq məhsulları ticarəti burada birinci dərəcəli rol oynayırdı. Təbrizin daxili və xarici bazarlara çıxardığı mallar içərisində mühüm yeri rizə (əba) üçün parçalar, Çin zərxarası, ipək parçalar *(kimxa),* örtüklər, atlas və digər parçalar, toxuculuq məmulatları tuturdu. Gəncə bazarlara atlas, zərxara, pambıq və pambıq parçalar, xam ipək, ipək sap, ipək parçalar, xəz çalmalar, keçə «əl-gənci» adlanan donlar, Ərdəbil - qara zərxara, Xoy – zərxara, nazik kətandan paltarlıq parça və hazır paltar, Naxçıvan - yüksək keyfiyyətli Çin zərxarası, zərlə işlənmiş zərif örtüklər, miləmil hamam qətfələri, yun parçadan uzun üst paltarı, keçə, Beyləqan - ipək parça və saplar, Bərdə - xam ipək və ipək parça, Dərbənd - kətan parçalar, Marağa və Uşnu - çoxlu yaxşı keçələr çıxarırdı. Urmiya və Uşnudan digər mallarla yanaşı kiçik xalçalar və balışlar ixrac olunurdu.

Bakı, Gəncə, Şamaxı, Dərbənd, Şabran və di-

gər Azərbaycan şəhərləri ərazisində tapılmış, müxtəlif yerlərdə zərb edilmiş qızıl və xüsüsilə mis sikkələr bu şəhərlərin XI-XII əsrlərdə inkişaf etmiş əlaqələrindən xəbər verir.

Beynəlxalq ticarət yolu rolunu oynayan Dərbənd və Volqa-Xəzər tranzit yolları bu dövrdə də fəaliyyətlərini davam etdirirdilər. Bu yollar vasitəsi ilə Volqaboyu şəhərləri, Rusiya, Polşa və digər Avropa ölkələri ilə əlaqə saxlanılırdı. Yerli tacirlər kimi o ölkələrin tacirləri də çoxlu qiymətli xəzlər, şallar, xalçalar, gözəl corablar və s. gətirir, mallarını çox vaxt bu ətraflarda, ən iri qul alveri yeri olan Dərbənd bazarında satırdılar.

XII-XIII əsrin əvvəllərində Azərbaycanda 70-dək iri, orta və kiçik şəhər vardı. IX-X əsrlərlə müqayisədə şəhərlərin ümümi sayı nəzərəçarpacaq dərəcədə azalsa da, bu, heç də şəhər həyatının tənəzzülü demək deyildi. Əksinə, şəhərlər yeni, daha yüksək inkişaf pilləsinə qalxa bildilər. Bu zaman şəhərlərin kəmiyyət artımı prosesi öz yerini onların keyfiyyətcə inkişaf etməsinə, tacir-sənətkar elementlərinin sayının artmasına verir; beləliklə, şəhər iqtisadiyyatında sənətkarlıq və ticarətin xüsusi çəkisi yüksəlir, əmək məhsuldarlığı artır, şəhər iqtisadiyyatının daxili və xarici bazarla əlaqəsi genişlənir.

Gəncə, Təbriz, Naxçıvan, Marağa, Ərdəbil, Dərbənd, Şamaxı, Bakı və Beyləqan bu dovrün iri ticarət-sənətkarlıq mərkəzləri idi.

Məhz bu dövrdə Xəzər dənizinin mühüm limanı, müsəlman dünyasının sərhəddi olan Dərbənd burada baş verən siyasi çəkişmələrə baxmayaraq, Yaxın Şərqin mühüm şəhərlərindən biri idi. Xəzər vasitəsilə aparılan ticarətin çox hissəsi bu şəhərdə mərkəzləşmisdi. Ticarət isə Dərbəndin hakim dairələrinin əsas gəlir yeri, «onların siyasətə hakim təsirinin mənbəyi» idi.

Bütövlükdə götürdükdə, tariximizin XII yüzilində şəhər həyatının səviyyəsi özünün bütün orta əsrlər tarixi ərzində ən yüksək mərhələsinə çatır. Kənd əhalisinə nisbətdə şəhər əhalisinin xüsusi çəkisi haqqında əldə olan müqayisəli məlumat göstərir ki, bu nisbət həmin dövrdə Qərb ölkələrində olduğundan xeyli yüksək olub, təxminən 30-40% təşkil edirdi.

Bax: Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü). - Bakı: «Elm». 2007. səh. 455-457, 462, 467-468.

Ticarət yolları və Dərbənd (XIII - XVIII əsrlər). XIII əsrin əvvəllərində Azərbaycanın monqollar tərəfindən işğalı kənd təsərrüfatı və sənətkarlıqda olduğu kimi, ticarətə də ağır zərbə vurdu. XI-XII əsrlərdə mövcud olmuş bir sıra şəhərlər, yaşayış məntəqələri, sənətkarlıq, ticarət mərkəzlərinin əksəriyyəti dağıdıldı və bir hissəsi tənəzzül etdi. Təsərrüfat pozğunluğu yalnız daxili bazarın deyil, xarici bazarın da tənəzzülünə səbəb oldu.

XIV əsrin əvvəllərində ölkənin iqtisadiyyatı yenidən dirçəlməyə başladı. Toxuculuq, ipəkçilik, xalçaçılıq, zərgərlik, metalişləmə, şüşə və saxsı qablar istehsalı, çəkməçilik, xəz məmulatı istehsalı və başqa sənət sahələri getdikcə canlanırdı. Azərbaycanın iqtisadi mərkəzlərində əsas əmtəə aşağıdakılar idi: xam ipək, pambıq, taxıl, ipək, yun və pambıq parçalar, kətan parça, pambıqdan toxunmus parça məmulatı, dəvə yunundan hazırlanmış parça və yun büründəklər, çuxa, çalma, xalça, tabaq, kasa, kuzə, daraq, çəkmə, çul, musiqi alətləri, dəri məmulatı, keçə, mis qablar, saxsı və ağac məmulatı, zinət əşyaları və s. Zəkəriyyə Qəzvini məlumat verirdi ki, Gəncə ipəyi öz qəşəngliyi və zərifliyinə görə fərqlənirdi. Bu zaman Şamaxı və Bərdə ipəyi şöhrət tapmışdı. Azərbaycan şəhərlərindən Şamaxı, Gəncə, Bərdə, Qəbələ ipəkçilikdə, Bakı neft və duz istehsalında, Beyləqan şirniyyat (natif) və dulusçuluqda, Təbriz, Şirvan, Xursan xalçaçılıqda, Şəmkir dəri istehsalında mühüm yer tuturdu. Ərdəbildə zolaqlı və bəzəkli parçalar, Bərzənddə isə xüsusi örtüklər hazırlanırdı. Xoyda hazırlanan parça şəhərin adı ilə «Əl-siyab əl-Xüveyya» adlanırdı. «Mücəm əl-büldan»ın verdiyi məlumata görə, Təbrizdə xitai, atlas və başqa parçalar toxunurdu; onları Şərq və Qərb ölkələrinə aparırdılar. Azərbaycanda olmuş venesiyalı səyyah Marko Polo yazırdı: «Təbriz böyük şəhərdir... Burada əhali ticarət və sənətkarlıqla məşğul olur; çox qiymətli zərli ipək parçalar toxunur... Buraya Hindistandan, Bağdaddan, Mosuldan... mallar gətirilir; xarici mallar almaq məqsədilə latın tacirləri də gəlirlər. Şəhərdə daş-qaş boldur. Təbrizə gələn tacirlər böyük mənfəət əldə edirlər».

Mənbələrdə Bərdə ipəyinin böyük bir hissəsinin İrana və Xuzistana ixrac edildiyi qeyd olunur. Şirvandan, xüsusilə Bakıdan başqa şəhərlərə və qonşu ölkələrə dəri tuluqlarda neft ixrac edilirdi. Azərbaycanda yetişdirilən taxıl, pambıq, çəltik, qarğıdalı, paxla, qoz, fındıq, şabalıd, mövüc, kişmiş,

zəfəran, duzlanmış və qurudulmuş balıq (şahmayı), nar, armud, kahı, heyva, şaftalı, əncil, ərik, yemiş, sumax, üzüm, narınc, tut, badam və s. meyvələr qonşu ölkələrə ixrac edilirdi.

Təbriz, Ərdəbil, Naxçıvan, Gəncə, Bakı, Beyləqan, Marağa, Şəmkir şəhərlərində iri bazarlar mövcud idi. Böyük şəhərlərdə, adətən, bir neçə məhəllə bazarı da olurdu. Əsas bazar şəhərin mərkəzi hissəsində yerləşirdi. Bazarlarda adətən misgərlərin, dəmirçilərin, dulusçuların, zərgərlərin, bəzzazların, meyvə satanların ayrıca ticarət guşələri olurdu. Yaxın Şərqin başqa ölkələrində olduğu kimi, Azərbaycanda da bazarlar örtülü idi və hasara alınırdı.

Karvan ticarətinin genişlənməsi ilə əlaqədar olaraq şəhərlərdə və ticarət yolları üzərində xeyli karvansara tikilmişdi. Bu dövrdə tikilmiş ticarət obyektlərindən Təbrizdəki Zübeydə karvansarasını, Culfa, Salyan (XIV əsr), Bakı (İçərişəhər), Buxara, Multanı və Qaradağda mövcud olmuş karvansaralar göstərilə bilər. Ticarət yolları kənarında karvanları qaçaq və quldurların basqınından qorumaq üçün karvansalar adlanan xüsusi keşikçi dəstələri qoyulurdu.

XIII-XIV əsrlərdə Azərbaycan Çin, Hindistan, İran, İraq, Misir, Gürcüstan, Dağıstan, Rusiya və Avropa ölkələri ilə ticarət əlaqələri saxlayırdı. Azərbaycan xarici ölkələrə xam ipək, yun və pambıq, neft, duz, qızılı boya, zəfəran, ədviyyat, şabalıd, düyü, zoğal, badam, müxtəlif növdən olan zərif parçalar, xalça, mis, ağac və şəxsi məmulatı ixrac edirdi. Mənbələrdə qeyd edilir ki, İtaliya və Fransaya xeyli miqdarda Şirvan ipəyi aparılırdı. Xarici ölkələrdən Azərbaycana nəfis ipək və zəri, pambıq parçalar, fil sümüyü, metal məmulatı, boya, ədviyyat, dərman, mal-qara, xəz və s. idxal edilirdi. Marko Polo məlumat verirdi ki, Hindistandan, Bağdaddan və Mosuldan Təbrizə xeyli əmtəə gətirilirdi. Qərb ölkələri ilə olan ticarətdə venesiyalı və genuyalı tacirlər mühüm rol oynayırdılar. XIV əsrin sonlarında Genuya tacirləri Təbrizdə, Şamaxıda və Bakıda olmuşlar. Bu dövrdə Azərbaycan Avropa tacirlərinin diqqətini cəlb edirdi. Onlar ipək almaq üçun burada xammal mənbəyi və bazar axtarırdılar.

XIII-XIV əsrlərdə Hülakular dövlətinin əhatə etdiyi ərazidən keçən ticarət yollarının bir sıra mühüm qolları Azərbaycan ərazisindən keçirdi. Əsas şimal yolu Təbrizdən və Mərənddən keçərək Araz çayı sahillərinə qədər çatırdı. Başqa bir yol Sultaniyyə, Zəncan, Kağəzkonan (Xunəc), Miyanə, Ucan, Təbriz, Sərab, Ərdəbil, Biləsuvar, Mahmudabad, Bakı, Şamaxı və Dərbəndədək uzanırdı. Həmin baş yolun bir qolu Araz çayının kənarındakı Bəcirvana, Beyləqana, Ləmbərana, Bərdəyə, Gəncəyə, Şəmkirə, sonra isə Tiflisə doğru yönəlirdi. Baş yolun ikinci qolu isə Bərdədən Dərbəndə, oradan Şimala, sonra isə Krıma doğru gedirdi. Baş qərb yolu Təbrizdən başlayıb Mərəndə, Xoya, Naxçıvana, Dəbilə, oradan isə Ərcişə, Əhlətə, Malazgirdə, Ərzuruma, Ərzincana, Sivasa, Trabzona, Qara dəniz sahillərinə doğru uzanırdı. Cənubla şərqi əlaqələndirən başqa bir yol Təbrizdən başlayıb, Sərab və Ərdəbildən keçir, Xəzər dənizi sahillərinə, Talışa istiqamətlənirdi. Təbrizdən Əhərə, Bəcirvana və Arrana doğru ayrıca bir yol istiqamət alırdı.

Azərbaycanın cənub əyalətlərindən keçən ticarət yolları əsasən iki məntəqədən - Həmədandan və Sultaniyyədən başlanırdı. Həmədandan başlanan yol Zəncana çatdıqda Tarom və Miyanə yolları adlanan iki qola parçalanırdı. Zəncandan Taroma gedən yolun Xalxal və Ərdəbil, digəri isə Səfidrud vadisinə, sonra isə Səfidrud sahili ilə Gilana və Ənzəliyə gedirdi. Ənzəli ilə Bakını dəniz yolu da birləşdirirdi.

Zəncandan Miyanəyə gedən yol üç qola haçalanırdı: 1) Şimal yolu: Ərdəbil, Muğan, Beyləqan, Bakı, Dərbənd; 2) Şimal-qərb yolu: Ucan, Urmiya gölünün simalından keçərək Qara dəniz sahilində və Kiçik Asiyaya gedən yol; 3) Qərb yolu: Marağa, Urmiya gölunun cənubu - Ravənduz, Mosul, Hələb, Qara dəniz sahillərinə qədər uzanırdı. Volqa yolu Astara vasitəsilə Təbrizlə əlaqədar idi. Karvan Təbriz-Trabzon yolunu təxminən otuz gün müddətinə qət edirdi. Bakı Şamaxı ilə tranzit ticarətdə Xəzər dənizində ən yaxşı liman hesab olunurdu.

«Azərbaycan tarixi»nin III cildində qeyd edilir ki, XVII əsrin sonu - XVIII əsrin əvvəllərində şəhərlərin təsərrüfat həyatında ticarət əhəmiyyətli rol oynayırdı. Ölkənin mühüm ticarət mərkəzləri olan Şamaxı, Ərdəbil, Naxçıvan, Dərbənd, Təbriz, Gəncə, Bakı və Şamaxıdan eyni zamanda magistral beynəlxalq ticarət yolları keçdiyindən həmin şəhərlər həm də xarici və tranzit ticarətdə iştirak edirdilər. Şəhərlər bir-biri ilə karvan yolları vasitəsilə əlaqə saxlayırdılar. Ən gur karvan yolu Azərbaycanla Rusiya arasında idi. Rus tacirlərinin karvanları cənuba doğru aşağıdakı şəhərlərdən keçirdi: Həştər-

xan-Qızlar-Tərki-Dərbənd-Bakı-Şamaxı-Cavad-Lənkəran-Rəşt.

Bu dövrdə Yaxın Şərq ölkələrində baş verən ümumi iqtisadi böhran Azərbaycan şəhərlərində ticarətin inkişafına mənfi təsir göstərmişdi. Ölkənin iqtisadi geriliyinə XVIII əsrin 20-30-cu illərində Azərbaycan ərazisində aparılan Osmanlı-Səfəvi müharibələri də az təsir etməmişdi. Müharibə nəticəsində Azərbaycanın Xəzərboyu əyalətlərində yerləşən şəhərlərindən başqa, demək olar ki, bütün şəhərləri tranzit əhəmiyyətini itirmişdi. Məsələ burasındadır ki, qeyd edilən illərdə Azərbaycanın cənub-qərb və şimal-qərb hissəsində İranla Türkiyə arasında müharibə gedərkən Xəzərboyu əyalətlərində, müvəqqəti olsa da, Rusiya dövləti hökmranlıq edirdi. Rusiyanın hakim dairələri, ticarət sahəsində Yaxın Şərq ölkələri ilə əlaqə kəsildiyi üçün əsas diqqəti Volqa-Xəzər ticarət yolundan maksimum istifadə etməyə yönəldir, Cənubi Qafqaz ölkələri ilə yanaşı, uzaq Hindistanla, hətta Çinlə belə ticarət əlaqəsi yaratmağa çalışaraq, Xəzər dənizində gəmiçiliyin inkişafına ciddi əhəmiyyət verirdi. Azərbaycan tacirləri də rus gəmiçilərindən istifadə edərək mallarını Həştərxana, oradan isə Rusiya daxilindəki şəhərlərə, hətta Avropa bazarlarına çıxarırdılar.

1717-ci ildə isə A.P.Volınski ilk dəfə olaraq Rusiya ilə İran arasında ticarət müqaviləsi bağlanılmasına, həmçinin Şamaxıda Rusiyanın konsulluğunun açılmasına nail oldu. Rus elçisinin sayı ilə şah rus tacirlərinə qarşı maneələrə son qoyulması haqqında Şirvan bəylərbəyi Keyxosrova fərman göndərdi. Eyni zamanda Şirvan bəylərbəyinə tapşırıldı ki, şahın fərmanı əsasında Dərbəndin və Niyazabadın gömrük rəisləri bundan sonra rus tacirlərini sıxışdırmasınlar.

Bax: Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). - Bakı: «Elm». 2007. səh. 436-438.

Bazarlar – şərqin orta əsr şəhərlərinin baş içtimai-iqtisadi özəyidir. Bazar şəhər sakinlərinin istirahət və görüş yeri olmuşdur. Burada musiqiçi dərvişlər, sehrbazlar, əhlilləşdirilmiş heyvanların sahibləri çıxış edirdilər. Sənətkarlar, xırda tacirlər və günəmuzd işləyənlər öz istirahətlərini nərd oyunlarında keçirirdilər. Varlı şəhər sakinləri dəlləklərin və sərrafların dükanlarına yığışır və burada onlar son şəhər qeybətlərini öyrənirdilər, qiymətlər, hava, məhsulun növləri, xan əyanlarının ədalətsizliyi haqqında danışır, alim söhbətlərini və yerli filosofların və siyasətçilərin mübahisəsini dinləyirdilər. Burada uzun, ağır yoldan gəlmiş karvanlar dincəlirdi, uzaq ölkələrdən gəlmiş qohumlar görüşür, səyahətçilərdən yeni xəbərləri öyrənirdilər. Bazar şəhər sakinləri üçün bayram, şairlərin ilham mənbəyi və şəhərin vuran ürəyi idi.



Şəhər sakinləri bazarda

Bütün orta əsr Şərqində məşhur olan iri ticarət mərkəzlərindən biri də Dərbənd idi.

Tananmış şərqşünas, Kazan universitetinin professoru İ.N.Berezin 1842-ci ildə Dərbənddə olmuş və bu şəhər haqqında belə yazmışdır: «…Dərbəndin şərq görünüşünü təsəvvür etmək üçün bazara getmək lazımdır».

Məlumdur ki, şəhərin baş ticarət mərkəzi özünün çoxəsrlik tarixində yerini dəfələrlə dəyişmişdir. Ən qədim bazar şəhərin aşağı hissəsində, dəniz limanına yaxın yerdə yerləşirdi. Ticarət mərkəzinin yaxınlığında sənətkarlar sırası, karvansara və qərbə, Narınqala qalasına tərəf inkişaf edən yaşayış massivi yerləşirdi. Bu şəhərin qədim rayonu, Narınqala qalasının yanında yerləşən rayonundan fərqli olaraq Dübarə şəhər (ikinci şəhər) və yaxud Yunan şəhər (Yunanıstan, yəni ticarət şəhəri) adlanırdı.

Zaman keçdikcə, şəhərin yaşayış tikililərinin artması ilə əlaqədar, bu ticarət mərkəzi şimaldan və cənubdan yaşayış və ictimai binalarla, şərqdən isə – Cümə məscidi ilə əhatə olunduğu üçün o qədim şəhərin özəyi kimi qəbul olunmağa başladı. 1720-ci ilin planlarında bu ticarət kompleksi bir-biri ilə bağlı və ticarət piştaxtaları ilə əhatə olunmuş iki meydandan ibarət idi. Bu meydanlardan Cümə məscidinə tərəf şəhərin baş küçəsi uzanırdı (uzunluğu 150 m). Bu

küçələrin hər iki tərəfində ticarət piştaxtaları tikilmişdi.

XVIII əsrin ikinci yarısında şəhər tikililərinin inkişafı ilə əlaqədar, baş ticarət mərkəzi şərqə, şəhər qapısı olan «Qırxlar qapısı» rayonuna köçürülür. O vaxtlar bu rayondan şəhərin əsas tranzit yolu keçirdi (Qırxlar qapısı – Yengi qapı). Burada şəhərin yeni ictimai-iqtisadi özəyi yarandı: ticarət sıraları, sənətkar emalatxanaları, hamam (Qırxlar hamamı), üç məhəllə məscidi (Qırxlar məscidi, Papaqçılar məscidi və Hacı Əsədulla məscidi), 2 karvansara (hal-hazırda bu ərazi qismən Q.Kazımov adına kolxozun inzibati binaları və klubu tərəfindən tutulmuşdur).

İ.N.Berezin şəhərin bu bazarını belə təsvir edir: «Dərbəndin bazarı demək olar ki, şəhərin yarısını tutur: kağız və ipək məhsulları ilə dolu küçə xətti kimi uzanan kiçik dükanlar; onların yanında iki karvansara – bu, dördqapılı böyük evdir».

XIX əsrin ikinci yarısında Dübarənin ərazisinin tikililərlə əhatə olunması ilə əlaqədar yeni ticarət mərkəzinin inşası zərurəti yarandı. Həm də köhnə bazar şəhərin bütün ticarət dövriyyəsini artıq əhatə etmirdi.

1868-ci il noyabrın 15-də yeni bazar açıldı. Burada 163 dükan, onların 9-u daşdan, 8-i kərpicdən və 146-sı ağacdan (onu Taxta-bazar adlandırırdılar) tikilmişdir (hal-hazırda bu 1 saylı bazardır). Sonralar bazarın şərq tərəfdəki meydanı Taxta-bazar meydanı adlandırılmışdır. Bazarın cənub hissəsində şəhər neft anbarları tikilmişdir (hal-hazırda bu yerdə «Волна» mehmanxanası yerləşir).

Ticarət üzrə deputatlar heyəti. Şəhərdə ticarətə nəzarət etmək üçün şəhər Müvəkkil olunmuşların iclası 18 may 1896-cı il tarixindən iki «bazar nəzarətçilərindən» ibarət ticarət polisi təsis etdi. Sonralar, həmin il iyulun 31-də ticarət nəzarəti üzrə Dağıstan vilayəti Manufaktura və ticarət departamentinin Əsasnaməsi çıxdı. Bundan sonra şəhərin ticarətçiləri və sənayeçiləri 1896-cı il noyabrın 9-da ümumi iclasda Dərbənd şəhəri Ticarət üzrə deputat heyətini seçdilər. Bu heyətə 2-ci gildiyanın taciri Axundov Hacı Mehdi, 2-ci gildiyanın taciri Əminov Hacı Şahmərdan Bala Əmin oğlu və Məmməd Nağı Hacı Nəsrulla oğlu daxil oldu.

1899-cu il fevralın 11-də şəhərin Ticarət üzrə deputatlar heyətinin aşağıdakı tərkibdə yeni 4-illik tərkibi seçildi: Əminov Hacı Şahmərdan Bala Əmin oğlu, Məşədi Hacı Baba Hacı Əli oğlu və Molla Əsgər Molla Əbdül Həsən oğlu, Hacı Mehdi Axundov və Məmməd Həsən Hüseyn oğlu.

Lakin bu seçkilərin nəticələri «…Əminov Şahmərdan Bala Əmin oğlunun qocalığına görə və o biri deputatların rus dilini bilmədikləri üçün» təsdiq olunmamışdır. Ona görə də 1900-cu il mayın 20-də aşağıdakı tərkibdə ticarət üzrə yeni deputatlar heyəti seçilmişdir: Sadıq bəy Mirzəbəyov, Məşədi Əzim Həmzəyev və Mixail Azaryev.

Passaj. 1916-cı ildə şəhər Müvəkil olunmuşların iclasında Dərbənddə «Dövlət bağlı bazarı» tikilməsi haqqında qərar qəbul olunmuşdur. Malyutin dalanında bu bazarın tikilməsi üçün ərazi ayrılmışdır. Lakin şəhərdə baş verən inqilabi hadisələr və Vətəndaş müharibəsi ilə əlaqədar tikinti işləri dayandırılmışdır.

Sovet hakimiyyəti qurulduqdan sonra burada tikinti işləri davam etdirilmişdir. Bazarın şərq qapısının üstündə rus və Azərbaycan dillərində «Şəhər Sovetinin bağlı bazarı. 1926-cı il» yazısı var idi.



Qərara alınmışdır ki, burada bazarın yerinə mağazalar yerləşdirilsin. Bazar binasının içəri hissəsi taxta arakəsmələrlə kiçik otaqlara bölünmüş və bura bazar əvəzinə passaj olmuşdur.

1927-ci ilin dekabrında passajın açılışı oldu. Bu haqda «Красный Дагестан» qəzetində geniş reportaj verildi.

Mülkədarlar. Şimali Azərbaycanda mülkədarlar torpaq sahibləri idilər. Çar Rusiyası Şimali Azərbaycanı işğal edərkən ona müqavimət göstərən bəy və ağaların torpaqlarını müsadirə etməklə dövlət torpaqlarının sahəsini artırır, onların iqtisadi gücünü qırmağa çalışırdı. Bəylərin və ağaların hüquqi-siyasi statusunda da qeyri-müəyyənlik qalırdı. Azərbaycanın bəy və ağalarına, gürcülərdən fərqli olaraq, rus zadəganları ilə eyni status verilməmişdi. Ona görə də Azərbaycan bəyləri və ağaları zadəgan-mülkədarlar deyil, mülkədarlar adlandırılırdı. Bununla belə, Ru-

siyada olduğu kimi, Simali Azərbaycanda da mülkədarların əlində xeyli torpaq sahəsi var idi. Azərbaycan Xalq Cümhuriyyəti Əkinçilik Nazirliyinin məlumatına görə, xüsusi sahibkar və hüquqi şəxslərin torpaqlarının sahəsi Bakı, Gəncə və Zaqatala quberniyaları üzrə 936563 desyatin (1 *des*.=100982 *ha*) idi. Həmin məlumata görə ölkədə 8484 torpaq sahibi vardı, hər torpaq sahibinə, orta hesabla, 110,4 desyatin torpaq düşürdü. Torpaq sahiblərindən 195 nəfəri daha çox torpağa malik idi. Onların içərisində Zülqədərovların (34278 *des*.), Məlikbəylərovların (14522 *des*., Gəncə qəzası), Cəlalovların (21513 *des*.), Ağalarovların (9402 *des*.), Rüstəmbəyovların (5907 *des*.), Məlikbəylərovların (9376 *des*., Cavanşir qəzası), Cavanşirovların (17670 *des*., Cəbrayıl qəzası), de-Burun (6552 *des*.), Mirzəyevlərin (7318 *des*., Quba qəzası), Şirvanskilərin (13146 *des*., Salyan qəzası), Fərrux bəy Vəzirovun (8990 *des*., Şuşa qəzası), Urmiyevlərin (39295 *des*., Zəngəzur qəzası) daha çox torpağı var idi. Lənkəran qəzasında Talışinskilərin böyük torpaq sahəsi vardı. Naxçıvan qəzasında torpaqların 89,3%-i mülkədarların (xəzinə ilə birgə) əlində toplanmışdı. 182 bəy-xan və mülkədarın hərəsi isə 1000 desyatindən çox torpağa malik idi.

Azərbaycan mülkədarları həmin torpaqlarda öz təsərrüfatlarının yaradılmasına xüsusi maraq göstərmir, əksəriyyəti torpaqlarını kəndlilərə icarəyə verirdi. Bununla belə, az da olsa, öz təsərrüfatını yaradıb, muzdlu əmək tətbiq edənlər də var idi. Əmtəə-pul münasibətlərinin inkişafı ilə əlaqədar olaraq, bəzi mülkədarlar torpaqlarını banklara girov qoyurdu.

Rusiyada oktyabr çevrilişindən (1917) sonra mülkədarlar yeni qurulmuş hakimiyyətə qarşı mübarizəyə qoşulmuşdular. Azərbaycanda isə mülkədarlar Xalq Cümhuriyyətinin qurulmasında və möhkəmləndirilməsində iştirak etmişdilər. Cümhuriyyət hökuməti də öz siyasətində onların mənafeyinin qorunmasına xüsusi diqqət yetirirdi. Fətəli xan Xoyski 1918-ci il iyunun 22-də *Zaqafqaziya seyminin* aqrar qanununun Azərbaycana şamil edilməsini dayandırmış, həm dövlət, həm də xüsusi torpaqların tutulması hallarının aradan qaldırılmasını tələb etmişdi. *Bakı Xalq Komissarları Sovetinin* torpaq haqqında dekreti də ləğv olunmuşdu. *Aqrar məsələnin* həll edilməməsi nəticəsində Azərbaycan kəndində baş verən aqrar hərəkatlar zamanı da dövlət özbaşına torpaq tutulmalarının qarşısını almağa çalışırdı. Mülkədarlar isə aqrar məsələnin həllinə köməklik göstərmək, dövlət üçün həyati əhəmiyyətə malik olan gərginlik mənbələrindən birini aradan qaldırmaq əvəzinə, müstəqilliyin yaratdığı imkandan öz mənafeləri üçün istifadə etməyə çalışırdılar. Azərbaycan Xalq Cümhuriyyətinin böyük ehtiyatla yanaşdığı mülkədar torpaq sahibliyi, Azərbaycan SSR dövründə aradan qaldırıldı. Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 5 may tarixli dekreti ilə torpaq üzərində xüsusi mülkiyyət hüququ ləğv olundu.

ƏHALİNİN HƏYAT SƏVİYYƏSİ VƏ SOSİAL TƏMİNATI

Cənubi Dağıstanın rəisinin köməkçisi general-mayor A.S Uzbaşevin 18 avqust 1894-cü ildə etdiyi məruzədə əhalinin həyat səviyyəsi və sosial təminatı haqqında statistik məlumatlar verilmişdir:

1893-cü ilin məlumatına görə, şəhərin yerli əhalisi 3173 evdən, 6831 kişi və 5299 qadından, cəmi 12130 nəfərdən ibarət idi. Bundan başqa, şəhərdə 1285 kişi və 997 qadın cinsindən olan əhali müvəqqəti yaşayırdı. Onlardan:

II gildiyanın məlumatına əsasən, şəhərdə 68 nəfər ticarətlə məşğul idi. Xırda ticarətinin biletlərinə və məlumatına əsasən 284 nəfər kiçik ticarətlə məşğul idi.

	cəmi	o cümlədən	
		kişi	qadın
müsəlmanlar	10043	5705	4338
yəhudilər	2571	1368	1203
erməni-qriqoryanlar	881	491	390
pravoslavlar	875	529	346
roma katolikləri	28	17	11
protestantlar	14	6	8

Fabrik yoxdur, 3 üzüm və şərabçılıq zavodundan ikisi fəaliyyət göstərmirdi; 60-dan çox şərabçılıq müəssəsi il ərzində 60-70 min vedrəyədək şərab istehsal edirdi.

Evlərin sayı:
hökumət evləri – 10
kilsə evləri – 1
ictimai evlər – 2
xüsusi evlər – 2503

Dükanlar:
hökumət dükanları – 6
ictimai dükanlar – 1
xüsusi dükanlar – 21

Gəmiçilik cəmiyyətinin idarəsi – 3

Şəhərin istifadəsində 18 desyatin 228 kv. sajen torpaq sahəsi vardır. Onlardan 7 des. 1138 kv. sajen bağ və 1 dükan yeri idi. Torpaq icarəsindən və dükandan 1 il ərzində 630 rubl gəlir götürülürdü.

Bundan başqa, şəhərin gəlir maddələri il ərzində.

1. Xəzər dənizində tutulan balıqlardan gələn gəlir - 650 rubl;
2. Əkin sahələri, bağları, bostanları sulamaq üçün şəhər su kanalından gələn gəlir - 2000 rubl;
3. Şəhər qapanlarından gələn gəlir - 2360 rubl;
4. Dərbənd reydindən göndərilən və alınan ərzaqların və malların saxlanması üçün dəniz sahilində tikilmiş anbarlardan götürülən gəlir - 580 rubl;
5. Şəhərdə gecələmək və istirahət etmək üçün dayanan arabalardan götürülən gəlir – 500 rubl;
6. Şəhərin boş torpaqlarında müvəqqəti düzəldilmiş anbarlardan gələn gəlir - 300 rubl təşkil edirdi.

Şəhərin ehtiyat kapitalı 8338 rubl 39 qəpik və bankın tikilməsi üçün Malyutinin ayırdığı vəsait 15518 rubl 34 qəpik, cəmi 23856 rubl 73 qəpik təşkil etmişdir.

Şəhərin son üç il ərzində (1891-1893) həqiqi gəliri və məxarici və 1894-cü il hesabat cədvəli aşağıdaki rəqəmlərlə göstərilmişdir:

	1891-ci il (həqiqi)	1892-ci il (həqiqi)	1893-cü il (həqiqi)	1894-cü il (həqiqi)
Mədaxil	24562 r. 13q.	19179r. 20q.	19011r. 93q.	19662r. 65q
Məxaric	17023r. 51q.	22783r. 76q.	22155r. 37q.	20549r. 42q.
	+7538r. 62q.	-3604r. 56q.	-3143r. 44q.	-886r. 77q.

Şagirdlərə yardım cəmiyyəti. Bu cəmiyyət 1886-cı ilin yanvarında yaradılmışdır. Cəmiyyətin daxili işlər naziri tərəfindən təsdiq olunmuş Nizamnaməsində qeyd olunurdu ki, Cəmiyyət «yoxsul şagirdlərə» maddi yardım məqsədi daşıyır. Cəmiyyət üzvləri üçün üzvlük haqqı 5 rubl idi. 1899-cu ildə üzvlük haqqı «…cəmiyyətin üzvlərinin sayını artırmaq məqsədi ilə» 3 rubla qədər endirilmişdir. Bundan əlavə, 1902-ci ildə daxili işlər naziri «...Dərbənd şəhərində cəmiyyətin yardımı təsir dairəsinə daxil ediləcək ibtidai və orta müəssisələrinin açılması barədə» vəsatətini yerinə yetirdi.

Cəmiyyət 1917-ci il oktyabr inqilabi hadisələrinə qədər fəaliyyət göstərmişdir.

Kasıblar üçün şəhər xeyriyyə cəmiyyəti – 1900-cü ilin fevralın 25-də Dərbənd şəhər idarəsinin nəzdində açılmışdır.

Şəhər idarəsi köməyə ehtiyacı olan şəhər sakinlərini aşkar etmək üçün 6 himayəçi seçmişdir. Tezliklə bu rəqəm 15-ə çatdı (10 kişi və 5 qadın).

Şəhər himayəçilərinin üzvü olmaq istəyənlər 3 rubl dəyərində üzvlükhaqqı ödəməli idilər. 3 rubldan az ödəyənlər isə yarışçı-üzvlər adlanırdılar. Birinci il şəhər himayəçilərinin üzvlərinin sayı 71 nəfər, yarışçı-üzvlərin sayı isə 205 nəfərə çatdı. 1902-ci ildə şəhər himayəçilərinin sayı 192 nəfər oldu. İldən-ilə üzvlükhaqqları və ianə artırdı. Belə ki, 1901-ci ildə bu rəqəm 930 rubl, 1902-ci ildə – 1488 rubl, 1903-cü ildə – 2008 rubl, 1904-cü ildə – 2009 rubl, 1905-ci ildə – 2790 rubl və s. oldu. Hər il şəhər büdcəsindən də himayəçilik pulu ayrılırdı.

Xeyriyyə cəmiyyəti evsizlər üçün keçmiş poçt stansiyasının binasını təmir edərək əlillər evi açdı (Aydınbəyov küçəsi, ev 1). Şəhər idarəsinin qərarı ilə əlillər evində olanlar üçün hər gün ½ girvənkə ət, 2 girvənkə çörək və hər ay 2 girvənkə qənd və 1/8 girvənkə çay buraxılırdı.

Evsiz kasıb qocalar üçün sığınacaq açıb ora 8 nəfər adam yerləşdirdilər. Əlillər evinə və yetimxanaya xeyriyyəçi-himayəçilər nəzarət edirdilər.

PUL-KREDİT VƏ BANK SİSTEMİ

Dərbənd və Azərbaycanda pul tədavülü. Albaniya dövləti yaranana qədər Azərbaycanda ticarət uzun müddət sadə əmtəə mübadiləsi formasında aparılmışdır. Başqa ölkələrdə olduğu kimi, burada da tədricən pul funksiyasını yerinə yetirən, başqa əmtəələr üçün dəyər ekvivalenti olan əmtəələr meydana gəlmişdir. Qədim Albaniyada sikkə zərb olunanadək ümumi ekvivalent funksiyasını kauri balıqqulağı, malqara, metal külçələri və başqa mallar yerinə yetirirdi.

Uzun müddət elmdə belə bir fikir hökm sürürdü ki, albanlarda pul tədavülü olmamışdır. Bu rəyi söyləyənlər Strabonun sözlərinə istinad edirdilər: «Onlarda (albanlarda) adətən zərb edilmiş sikkə işlənmir, onlar 100-dən o yana say bilmədiklərindən, ancaq mübadilə ticarəti ilə məşğul olurlar». Lakin Azərbaycanda tapılan çoxlu numizmatik materiallar və bu materialların öyrənilməsi göstərdi ki, Albaniyada pul tədavülünə, görünür, e.ə. IV əsrin axırlarında - III əsrin əvvəllərində başlanmışdır. Tapıntılar əsasında antik dövrdə Albaniyanın pul tədavülünü iki tarixi mərhələyə bölmək olar. Birinci mərhələ ellinizm dövrünü, yəni e.ə. IV əsrin axırlarından e.ə. I əsrin ortalarına qədərki dövrü, ikinci mərhələ isə e.ə. I əsrin ortalarından eramızın III əsrinin ortalarına qədər olan dövrü əhatə edir. Azərbaycanda ellinizm dövrünə aid bir neçə pul dəfinəsi tapılmışdır. Bunlardan biri Bərdə dəfinəsidir. Dəfinə Makedoniyalı İsgəndərin, Selevki hökmdarlarının sikkələrindən ibarətdir. Şamaxı yaxınlığında Xınıslı kəndinin ətrafında tapılan dəfinə daha böyük olmuşdur. Bu dəfinədən 300-dən çox sikkə toplamaq mümkün olmuşdur. Dəfinədəki gümüş sikkələr arasında Afinanın, Frakiya çarı Lisimaxın (e.ə. 323-281-ci illər), Vifiniya çarları I Nikomedin (e.ə. 149-91-ci illər) və II Nikomedin (e.ə. 91-74-cü illər), Pont çarı VI Mitridat Evpatorun (e.ə. 114-63-cü illər) tetradraxmaları, e.ə. 175-ci ildən 83-cü ilədək hökmdarlıq etmiş Selevki çarlarının tetradrahmaları, e.ə. 80-ci illərdə kəsilmiş Roma denarisi və nəhayət, 70-dən çox yerli sikkə vardır. Bu dəfinə e.ə. 60-50-ci illərdə basdırılmışdır.

Sikkələrin həm tərkibi, həm də miqdarı cəhətdən ellinizm dövrünün ən zəngin dəfinəsi Azərbaycan Respublikasının Qəbələ rayonunda, Albaniyanın paytaxtı Qəbələ şəhəri xarabalığının yaxınlığında tapılmışdır. Burada 700-dən artıq gümüş sikkə toplamaq mümkün olmuşdur. Dəfinə kənardan gətirilmə və yerli sikkələrdən ibarətdir. Dəfinənin ən qədim gətirilmə sikkələri Makedoniyalı İsgəndərin draxmaları və Frakiya çarı Lisimaxın tetradrahmalarıdır. Həmin sikkələr uzun müddət istifadə olunduğundan çox sürtülmüşdür. Gətirilmə sikkələrin böyük əksəriyyəti e.ə. 187-ci ildən 129-cu ilədək hakimiyyət başında olmuş Selevki hökmdarlarının tetradrahmalarıdır. Dəfinədə o dövrdə hökmranlıq etmiş bütün Selevki padşahlarının sikkələri vardır.

Dəfinədə Parfiya sikkələri bir neçə drahma ilə təmsil olunmuşdur. Bunlar əsasən Parfiyanın ilk sikkələrindən ibarətdir. Dəfinənin içərisində beş ədəd Yunan-Baktriya tetradrahmasının olması xüsusi maraq doğurur. Bu tetradrahmalar Cənubi Qafqaz ərazisində nadir tapıntılardır. Tetradrahmalardan biri Yunan-Baktriya çarlığının banisi I Diodota məxsusdur və e.ə. 250-247-ci illərdə kəsilmişdir, qalanları isə Evkraditin (e.ə. 169-159-cu illər) adından zərb edilmişdir.

Bu dəfinənin ən böyük qismi yerli bənzətmə sikkələrdən ibarətdir. Üç tetradrahma Selevki sikkələrinə, qalanları (500-dən çox sikkə) isə Makedoniyalı İsgəndərin tetradrahmalarına və drahmalarına bənzətmədir. Dəfinə eramızdan evvəl II əsrin iyirminci illərində basdırılmışdır.

Azərbaycanda ellinizm dövrünə aid başqa bir dəfinə Ağsu rayonunun Nüydü kəndinin yaxınlığında torpaq qəbrindən tapılmışdır. Dəfinə Makedoniyalı İsgəndərin draxmalarına bənzədilmiş 36 ədəd yerli sikkədən ibarətdir.

Cənubi Dağıstanın Qasımkənd rayonundakı Gərayxanov adına sovxozun yaxınlığında tapılmış Selevki hökmdarlarının bir neçə mis sikkələrindən ibarət dəfinə çox maraqlıdır.

Yuxarıda adları çəkilən dəfinələrlə yanaşı, arxeoloji qazıntılar zamanı tarixi Albaniya ərazisində ellinizm dövrü sikkələrinin ayrı-ayrı nümunələri də tapılmışdır. Bu tapıntılar başlıca olaraq Parfiya çarlarının drahmalarından və Makedoniyalı İsgəndərin drahmalarına bənzədilən yerli sikkələrdən ibarətdir. Onlar arxeoloji qazıntılar zamanı Şamaxı

şəhəri yaxınlığındakı Xınıslıda, Qəbələ zonasında və Nüydü qəbiristanından tapılmışdır.

Beləliklə, tapıntılar əsasında aydınlaşır ki, Albaniya ərazisində geniş yayılmış ən qədim sikkələr Makedoniyalı İsgəndərin və Lisimaxın sikkələri olmuşdur. Görünür, məhz bu zamandan Albaniyada pul tədəvülü üçün əlverişli şərait yaranmışdı. Bu da başlıca olaraq ölkənin daxili sosial-iqtisadi inkişafından, beynəlxalq ticarətin genişlənməsindən irəli gəlirdi. Lakin gətirilmə sikkələr ölkənin daxili bazarının daim artan tələbatını tam ödəyə bilmirdi. Buna görə də Albaniyada yerli sikkələrin kəsilməsinə ehtiyac yarandı. Beləliklə, yeni yaranmış Albaniya dövləti tipinə görə Makedoniyalı İsgəndərin geniş yayılmış məşhur tetradrahma və drahmalarına bənzəyən öz pulunu kəsməyə başladı.

Yerli sikkələr iki nominalla – tetradraxma və drahmalarla təmsil edilmişdir. İndiyədək cəmi dörd tetradrahma məlumdur. Bunlar Qəbələ dəfinəsinin tərkibində aşkara çıxarılmış və bir cüt möhürlə zərb edilmişdir. Makedoniyalı İsgəndərin sikkələri kimi, bu tetradrahmaların da üz tərəfində şir dərisi geymiş Heraklın başı təsvir olunur. Təsvir nöqtələrdən ibarət dairəvi haşiyəyə alınmışdır. Sikkələrin arxa tərəfində Zevs təsvir edilmişdir. O, taxtda əyləşmiş, qartal tutan sağ əlini qabağa uzatmış, sol əli ilə skipetrə söykənmişdir. Sağda yazıya bənzər cizgilər vardır. Sikkələrin orta çəkisi 15,31 qramdır. Bu sikkələr Makedoniyalı İsgəndərin sikkələrindən yalnız bir qədər kobudluqları ilə fərqlənir. Bununla belə, nəzərə carpır ki, ilk vaxtlar yerli zərbxanalarda Makedoniyalı İsgəndərin sikkələrinin sürətini mümkün qədər dəqiq çıxarmağa çalışmışlar. Bu meyil drahmalarda da müşahidə olunur.

Tədricən sikkələrin tipləri daha böyük dəyişikliklərə uğramışdır. Üz tərəfində sağa baxan insan başı təsvir olunur. Təsvirlərin yalnız çöhrəsi aydın görünür. Lakin diqqətlə baxanda başda dəbilqə olması gözə dəyir. Dəbilqələr formaca müxtəlifdir. Güman etmək olar ki, sikkələrdə Albaniya çarının şərti təsviri verilmişdir. Başda dəbilqənin olması Albaniyada çar hakimiyyətinin «hərbi xarakterinin» rəmzi kimi qəbul oluna bilər. Məlum olduğu kimi, ellinizm monarxiyalarında çar öz ölkəsinin ordusunun baş komandanı sayılırdı. Pompeyin yürüşü zamanı Albaniya çarı Oroys da öz qoşununun başında durmuşdu.

Makedoniyalı İsgəndərin sikkələrində olduğu kimi, yerli bənzətmə sikkələrin də arxa üzündə taxtda əyləşən Zevs təsvir edilmişdir, lakin təsvir bir qədər kobuddur. Yalnız bəzi sikkələrdə taxtın ayaqları nəzərə çarpır. Görünür, zərb ustaları möhürlərdə xırda detalları verməyə həmişə müvəffəq olmamışlar, söykənəcək və qoltuqaltı sxematik verilmişdir. Fiqurun sağ qolunun üstündə quş oturmuşdur, sol qolu isə skipetrə söykənmişdir.

Təsvirlər sxematik verildiyindən quşun cinsini müəyyənləşdirmək çətindir. Yəqin ki, ustalar Makedoniyalı İsgəndərin sikkələrində olduğu kimi, Zevsin atributlarından biri sayılan qartalın təsvirini vermək istəmişlər. Bəzi sikkələrdə quş şanapipiyi xatırladır.

Maraqlıdır ki, sikkələrin bir qrupunda taxtda əyləşmiş fiqur sağ əlində quş əvəzinə keçi tutmuşdur, fiqurun ozünün başında isə bir buynuzvarı çıxıntı vardır.

Sikkələrin hamısı dəyirmi olub bir üzü çökək, digər üzü qabarıqdır. Bu da ellinizm dövrünün bütün sikkələrinin səciyyəvi xüsusiyyətidir.

Qəbələ dəfinəsinin tədqiqi deməyə imkan verir ki, Albaniyanın sikkə ustaları əvəllər gətirilmə orijinalların dəqiq surətini çıxartmağa çalışırlar. Sonralar sikkə tipləri tədricən pisləşirdi.

Ticarət yollarının üstündə yerləşən, sosial-iqiisadi cəhətdən inkişaf etmiş alban məskənlərinin tədricən şəhərlərə çevrilməsi prosesi eramızdan əvvəl I minilliyin ikinci yarısının əvvəlinə aid edilir.

Qədim dövrün başqa şəhərləri kimi, Azərbaycan Albaniyasının şəhərləri də onları əhatə edən əkinçi icmaları ilə ən sıx şəkildə bağlı idilər.

Azərbaycan və Dağıstan ərazisində arxeolji qazıntılar zamanı antik dövrdə mövcüd olmuş şəhərtipli məskənlər aşkara çıxarılmışdır. Bunlar Qəbələ (Çuxur-Qəbələ, Çaqqallı, Seyidtala, Uzuntala), İsmayıllı (Mollaisaqlı, Şıxdərə Kəlləsi, Qalagah), Ağsu (Nüydü düzü), Qax (Torpaqqala), Qazax (Sarıtəpə), Şamaxı, Beyləqan (Təzəkənd, Qaratəpə) rayonlarında, Mingəçevir zonasında, Dağıstanda (Turpaqqala, Urseki, Tarki, Dərbənd) və başqa yerlərdə qazıntı nəticəsində aşkar edilmiş məskənlərdir.

Ptolemey antik dövr Albaniyasının şəhərlərindən və digər məskənlərindən danışarkən bildirir: Soana çayı mənsəbinin arxasında Telayba şəhəridir; Gerr çayının mənsəbi Gelda şəhəridir: Kaysiya çayının mənsəbi Albana şəhəridir; Albana çayının mənsəbi

Qaytara şəhəridir; onun ardınca Kir çayının mənsəbidir.

Azərbaycanın və Dagıstanın dənizsahili zolağında da bəzi məskənlər vardı. Dağıstan arxeoloqları tərəfindən Dərbənddə, Torpaqqalada (Dərbənddən cənubda), Targilə (Tarki-Tau dənizsahili yamaclardadır) və Ursekidə (İzberbaş şəhərinin yaxınlığında) aşkar edilmiş materiallar bunu göstərir.

Torpaqqala xarabalığının sahəsi 100 hektardan çoxdur. Bəzi tədqiqatcılar güman edirlər ki, Torpaqqala Ptolemeyin nişan verdiyi Albana şəhəridir, başqaları isə onu qədim Çoranın (Çolanın, Çoqanın) qalıqları sayırlar. İkinci fərziyyə həqiqətə daha yaxındır. Alban salnaməçisi Moisey Kalankatlının sözlərinə görə, Çora səhəri Dərbəndin yaxınlığında idi. Sonralar bu şəhər Albaniyanın mühüm şəhərlərindən biri, müəyyən müddət Albaniya katolikosunun iqamətgahı olmuşdur.

Urseki xarabalığının yerində artıq eramızdan əvvəl I minilliyin başlanğıcında qeydə alınmış məskən III-II əsrlərdə şəhərə çevrilir; burada içqala, şəhristan, posad üzə çıxarılmışdır.

Bax: Azərbaycan tarixi. Yeddi cilddə. I cild (Ən qədimdən – b.e. III əsri). - Bakı: «Elm». 2007. səh. 386-389, 394, 409.

Dərbənd və Azərbaycanda xilafətin pul zərbinin icrası (VIII-IX əsrlərdə). Ən geniş yayılmış siyasi-ideoloji təbliğat vasitəsi, mədəniyyət və incəsənət örnəyi olan sikkənin hərtərəfli tədqiqi, onun dəyərinin (əyar və çəkisinin), zahiri əlamətlərinin (təsvir, yazı və s.) öyrənilməsi dövlətin ictimai-iqtisadi, hərbi-siyasi, dini, mədəni həyatında baş verən dəyişiklik və hadisələrin açıqlanması və həllində dəyərli, bəzi hallarda isə təkzibedilməz qaynaq kimi böyük əhəmiyyət kəsb edir.

Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika fondundakı sikkələr arasında Ərəb xilafəti dövründə Azərbaycanda zərb edilmiş sikkələr xüsusi maraq kəsb edir.

1935-ci ildə Ağdam və Naxçıvan, 1958-ci ildə Masallı, 1964-1967-ci illərdə Gədəbəy və Yardımlı rayonlarında aşkarlanmış VII əsrin II yarısına aid qarışıq sikkə dəfinələri Qərblə (Bizans) Şərq (Sasanilər) mübarizəsinin Şimal (xəzərlər) ilə Cənub (ərəblər) müharibəsi ilə əvəz edilməsini göstərən faktlardandır. 1961-ci ildə Qazax və 1969-cu ildə Zaqatala rayonlarında aşkar edilmiş iki dəfinə Sasani İranı, Xəzər xaqanlığı, Bizans və yeni yaradılmış Ərəb Xilafətinin Azərbaycan uğrunda apardıqları kəskin mübarizəni əks etdirən əyani göstəricilərdir.

Ayrı-ayrı sikkə nümunələri, dəfinələr və yazılı mənbələrin təhlili sübut edir ki, Xilafət canişinləri fütuhatın 50 ili ərzində hökmranlıq etdikləri ölkələrin pul bazasındakı ənənələri pozmamaq məqsədilə Sasani və Bizans sikkələrinə bəzi əlavələr etməklə pul zərbi işini davam etdirmişlər. Numizmatik ədəbiyyatda «ərəb-pəhləvi» (bəzən isə «ərəb-sasani»), «ərəb-Bizans» və «Təbəristan» sikkələri ilə eyni dəfinələrdə aşkarlanması, həmin dövrdə onların pul dövriyyəsində bu sikkələrlə birgə iştirak etdiyini sübut edir.

İlk ərəb-pəhləvi sikkələrinin tədqiqi sübut edir ki, onların ilkin zərbinə III Yəzdəgirdin (632-651) hakimiyyətinin son illərində başlanılmışdır. Bu sikkələrin xəlifə Ömər (634-644) dövründə ilkin zərbi zamanı onların ümumi görünüşü eynilə son Sasani şahənşahları – IV Hörmüzd (579-590), II Xosrov (590; 591-698) və III Yəzdəgird (632-651) dövründə kəsilmiş draxmalara bənzər formada saxlanılmışdır. Bu sikkələrdəki zərb tarixi üç tarixi mərhələyə (hicrət-622, Yəzdəgird-632 və Yəzdəgird hakimiyyətindən sonrakı-651) müvafiq həkk edilmişdir.

II Varahranın (276-293) hakimiyyəti illərindən etibarən Sasani sikkələrinin reversində zərbxana adının monoqram formasında həkk edilməsi bir sıra numizmatlar tərəfindən belə işarələrin müxtəlif formada oxunuşu üçün əsas vermiş və bəzi əsərlərdə ərəb-pəhləvi sikkələrindəki monoqramlar və dini ifadələrin açıqlanması ilə bağlı cəhdlər edilmişdir. Belə monoqramların əsasən Cənubi Azərbaycan şəhərlərinə (Həmədan, İsfahan, Bişapur, Mərv, Şiz, Rey, Nişapur, İstəxr və s.) aid edilməsinə baxmayaraq, görkəmli Azərbaycan numizmatlarının (Y.Paxomov, Ə.Rəcəbli) tədqiqatları bu sikkələrin Şimali Azərbaycan istehsalı olduğunu sübut etmişdir.

I növ sikkələrin təhlili sübut edir ki, ilk lokal zərbxanalar Cənubi Azərbaycan şəhərlərindən – Həmədan, İsfəhan, Mərv, Şiz, Rey, İstəxr, Kerman, Dərəbgird, Xuzistan, Bişapur, Şimali Azərbaycan şəhərlərindən isə Dərbənd, eləcə də Naxçıvan, Gilan, Bakı və Bərdə şəhərlərində fəaliyyət göstərmişlər.

İslami Zərbin təsisindən sonra Azərbaycanda ümumxilafət sikkəsi olaraq istifadə edilən gümüş dirhəmlərin bir hissəsinə Azərbaycan və Aran adlı

inzibati bölgələrin, digərlərinə isə Bərdə, Cənzə (Gəncə), əl-Mütəvəkkiliyyə (Şəmkir), əl-Yəzdiyyə (Şamaxı), əl-Bab (Dərbənd) şəhər zərbxanalarının adı həkk edilmişdir. Bundan əlavə, Ərz əl-Xəzər, Bəlx əl-Bəydə, mədən-Bəcinəys adlı ərazi adlarının həkk edildiyi sikkələrin də Azərbaycan istehsalı olduğu müəyyənləşir.

Azərbaycanı fəth etməklə nəinki quru yolu hesab olunan (Çin ilə Mərkəzi və Ön Asiyanı və Bizansı birləşdirən) məşhur İpək yoluna, həm də dəniz yolu adlandırılan Yaxın Şərq, Hindistan və Çini əlaqələndirən yola sahib çıxan ərəblərin beynəlxalq ticarət imkanları artmışdır.

Ərəblər Bizansın Qara dənizdən keçən əsas ticarət yolunun istiqamətini dəyişərək, onu Şərqə – Xəzər dənizi tərəfə keçirdikləri üçün dənizkənarı liman şəhərləri – Dərbənd, Bakı, Abaskun, Astrabad və başqaları ilə ticarətdə başlıca əhəmiyyət daşıyırdılar.

Xüsusən də Şimal-şərqi Avropa və Asiya ölkələrində, o cümlədən Rusiyanın Avropa hissəsində aşkar edilmiş dəfinələrdə Azərbaycan zərbxanalarında kəsilmiş sikkələrin tapılması Xilafətin digər ölkələrlə edilən geniş ticarət əlaqələrini sübut etməkdədir. Belə əlaqələrdə daxili və dünya ticarət yollarının qovşağında yerləşən Dərbənd, eləcə də Beyləqan, Bərdə, Ərdəbil, Təbriz, Urmiya, Marağa, Şamaxı, Şəmkir, Şabran, Gəncə, Naxçıvan və s. Azərbaycan şəhərləri fəal iştirak edirdilər.

Problemin tədqiqi göstərir ki, VIII-IX əsrlərdə Azərbaycan zərbxanalarının sikkələri aparıcı mövqeyə malik olmuş və Ərəb Xilafətinin sikkə sisteminin tərkib hissəsini təşkil etmişlər.

Bax: Dövlət və Din. İctimai fikir toplusu. Dekabr 2008, №4 (8), səh.127-135.

Zərbxana. Sikkəxana. Mütəxəssislərin fikrincə, Dərbənd indiki Dağıstanda yeganə şəhər idi ki, orada orta əsrlərdə sikkə zərb edilirdi. Həmin sikkələrə Britaniya, Berlin, Stokholm muzeylərində, Ermitajda, Bakı, Odessa, Tallin muzeylərində rast gəlmək olar. Onların arasında ən erkən zərb edilmiş sikkə hicri tarixi ilə 115 (733/4)-ci ilə aid misdən hazırlanmış ərəb sikkəsi olan dirhəmdir. Bəzi sikkələrin yaranması yalnız ticarət-maliyyə münasibətləri ilə bağlı olmamış, həmçinin sırf siyasi-məlumat xarakteri də daşımışdır. Məsələn, ərəb sərkərdəsi Yəhya əl-Xaraşi xəlifənin əmrinə əsasən hicri tarixi ilə 178 (794/5)-ci ildə narahat Dərbənddə «qayda yaradarkən» onun Qafqazda ərəb canişini təyin edilməsi haqqında fərman alır. Yeni canişin Bərdədə yerləşən ərəb canişinlərinin iqamətgahına getməzdən əvvəl öz adından sikkələrin zərb edilməsi əmrini verir. Bu, bizim günlərədək gəlib çıxmış, misdən hazırlanmış sikkənin ölçüsü 19-22 mm, qalınlığı 1 mm, çəkisi 2,5 qr və dəyəri 1 dirhəmdir.

Gürcüstanda XII-XIV əsrlərdə Dərbənddə zərb edilmiş sikkələr tapılmışdır.



Dərbənd xanlığında dövriyyədə işlədilmiş (18-19 əsrlər) gümüş abbası

1385-ci ildən 1395-ci ilə qədər Dərbənd Qızıl Ordanın tərkibində olarkən, burada Toxtamışın, 1406-1410-cu illərdə isə – başqa Qızıl Orda xanı Canıbəyin adı ilə sikkələr (dirhəmlər) zərb olunmuşdur. XIV əsrdə Dərbənddə Müzəffər əmirin, onun oğlu Bəybarsın və nəvəsi Əbd ül-Məlikin, XV əsrin əvvəlində Teymurun adı ilə zərb olunmuş sikkələr məlumdur. 1806-cı ildə Dərbənd Rusiya tərəfindən işğal edilərkən burada zərbxanalar mövcud idi. Burada xan sikkələri – 20 qəpik dəyərində olan abbasılar zərb olunurdu. Bu sikkələr aşağı əyarlı gümüşdən hazırlanırdı və 10 qəpiklik rus gümüş puluna bərabər edilmişdir. Sikkənin adı onun üzərində I Şah Abbasın əksi həkk edilməsi ilə bağlıdır. Sikkəxana Qafqaz canişini general-feldmarşal Qudoviç tərəfindən 1809-cu ildə ləğv edildi və keçmiş Dərbənd xanlarının sikkələri 1837-ci ildə tamam yoxa çıxdı.

Pul sistemi (XVIII əsr). XVIII əsrin ikinci yarısında Azərbaycanın ictimai quruluşu özünün iqtisadi əsaslarına görə hələ də natural təsərrüfat çərçivəsindən kənara çıxmamışdı. Təbiidir ki, belə bir şəraitdə pulun hakim rolundan danışmağa dəyməz.

Çünki feodal təsərrüfatında vergilərin əsasını məhsulla toplanan vergi təşkil edirdi. Pul isə əmtəənin vahid bir ekvivalenti kimi özünü təmamilə doğrulda bilmirdi. Lakin bu, həmin dövrdə Azərbaycan şəhərlərində pulun rolunu heç də azaltmırdı. Bunu XVIII əsrin ikinci yarısında Azərbaycan şəhərlərində zərb olunmuş mis və gümüs pullar bir daha təsdiq edir. Numizmatik nümunələrin mövcud olması göstərir ki, natural vergi ilə yanaşı, pul da əmtəə mübadiləsində müəyyən rol oynamışdır. Pulun əmtəə mübadiləsində zəif mövqe tutmasına təkcə natural təsərrüfat səbəb deyildi. Belə bir vəziyyət ayrı-ayrı xanlıqlardan ibarət Azərbaycanda vahid pul sisteminin olmamasından irəli gəlirdi. Demək olar ki, bütün böyük şəhərlərdə xüsusilə Şamaxı, Gəncə, Bakı, Şəki, Dərbənd, Şusa (Pənahabad) və digər xanlıq mərkəzlərində, hər xanın xususi mis və gumüş pulu zərb olunurdu. Pul zərb olunan emalatxana *zərbxana* adlanırdı. Adları çəkilən şəhərlərdə zərb olunan pullardan xalq arasında Pənah xanın adı ilə pənabad adlanan pul nəinki Azərbaycanda, hətta yüksək keyfiyyəti olduğuna görə qonşu ölkələrdə də işlədilirdi. Çox zaman xanlar zərbxanaları iltizama verərək böyük gəlir əldə edirdilər.

Xanlıqlar dövründə zərb olunan pulların sabit qiyməti yox idi. Ölkənin daxili vəziyyətindən asılı olaraq, yerli hakimlər pul vahidlərinin qiymətini artıra, yaxud aşağı sala bilərdilər. Belə bir vəziyyətin mövcud olması şəhərlərdə pul dövriyyəsinə, eyni zamanda ticarətin normal şəkildə aparılmasına ciddi maneə törədirdi.

Hər bir xanlığın pulu o xanlıqda əsas pul hesab olunurdu. Lakin bundan əlavə, həmin xanlıqda digər xanlıq və ölkələrin də pulları dövr edirdi. XVIII əsrdə Azərbaycanda müxtəlif ölkələrin, hətta Hollandiyanın pulu da işlənilirdi. Onu da qeyd etmək lazımdır ki, bir xanlığın pulu başqa bir xanlığa keçdikdə öz dəyərini xeyli itirirdi. O dövrün səyyahı, Azərbaycanın bir cox şəhərlərində olmuş S.Qmelin yazır ki, «...bir xanlıqdan başqa bir xanlığa keçdikdə pulun dəyərsiz olması o saat üzə çıxır». Bəzi şəhərləri istisna etməklə, demək olar ki, Azərbaycanın şəhərlərində zərb olunan pullar *abbası* adlanırdı. Ümumiyyətlə, Azərbaycan şəhərlərindəki pul vahidləri əsasən İranda işlənilən pul terminlərinə uyğun gəlirdi: *abbası, tümən, qran, şahı* və s.

XVIII əsrin ikinci yarısında Azərbaycan xanlıqlarında pul sistemi kimi çəki və ölçü vahidləri də müxtəlif idi. Demək olar ki, hər bir xanlığın özünəməxsus uzunluq ölçüsü və çəki daşları vardı. Bu isə xüsusilə gəlmə tacirlərlə yerli əhalinin alverinə ciddi maneçilik törədir, hərc-mərcliyə, narazılığa səbəb olurdu. Alıcı və satıcıların özünəməxsus ölçüsu vardı; necə deyərlər, alver vaxtı malı hərə öz arşını ilə ölçürdü.

Bax: Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). - Bakı: «Elm». 2007. səh. 501-502.

Bank sistemi. Şimali Azərbaycanın kredit-bank sistemi Ümumrusiya kredit bank sisteminin bir hissəsi kimi formalaşır və inkişaf edirdi.

Bütövlükdə, Şimali Azərbaycanın kredit-bank şəbəkəsi Rusiya banklarının (həm dövlət, həm də səhmdar), bankir evləri, qarşılıqlı kredit cəmiyyətləri, şəhər kredit cəmiyyətləri, xəzinə, əmanət kassaları, xırda kredit birlikləri, borc-əmanət birliklərinin, şöbələrinin, eləcədə öz əməliyyatlarını Şimali Azərbaycanda aparan dövlət və səhmdar torpaq banklarının açılması nəticəsində meydana gəldi.

1897-ci il iyulun 1-dən Rusiyanın bütün xəzinələrinin üzərinə ən sadə bank əməlliyatlarını yerinə yetirmək vəzifəsi qoyulduqdan sonra Şimali Azərbaycanın bank müəssisələri şəbəkəsi daha da inkişaf etdi. Bu xəzinələrdən bəziləri Şimali Azərbaycanda da fəaliyyət göstərirdi. Xəzinələr dövlət palatasına tabe idi. 1872-ci il iyulun 1-dək Cənubi Qafqazda Baş Palata - Cənubi Qafqaz Dövlət Palatası vardı ki, onun da nəzdində 24 xəzinə və məxaric şöbəsi, fəaliyyət göstərirdi. 1872-ci ildə bu palatanın əvəzində iki palata – Tiflis və Bakı dövlət palataları təşkil olundu. Bakı palatası (Bakı və Yelizavetpol) quberniyalarında, Dərbənd qradonaçalnikliyində və Zaqatala dairəsində yerləşən 10 xəzinəyə rəhbərlik edirdi.

Bakı şəhərindəki quberniya xəzinəsi, qəza xəzinələri, Dərbənd və Temir-Xan Şuradakı məxaric şöbələri Bakı dövlət palatasına hesabat verirdilər. XIX yüzilliyin sonuna qədər Göycay, Qazax, Zəngəzur xəzinələri də təşkil olunmuşdu.

1897-ci ildə xəzinələr bank əməliyyatları apararkən onların üzərinə pul dəyişmək, dövlət xəzinə biletlərini almaq və satmaq, kuponlar və kapital üzrə, tirajı çıxmış faizli kağızlar və vaxtı ötmüş dövlət xəzinə biletləri üzrə faizlərin ödənilməsi,

əmanət kassalarının əməliyyatları, dövlət bankları muəssisələrinin orderləri üzrə vəsait qəbulu və verilməsi, nəhayət, pul göndərilməsi vəzifəsi qoyulmuşdu.

Xəzinələrin bank funksiyalarının genişləndirilməsi onları tədricən bank tipli müəssisələrə yaxınlaşdırmaqla yanaşı, borc bank əməliyyatlarının, xüsusilə şərti və cari hesablarının tətbiqindən sonra ümumi inkişafına yardım etdi və hər hansı kredit müəssisəsindən məhrum olan ucqar yerlərlə müxtəlif maliyyə əlaqələrini xeyli yüngülləşdirdi. Belə yerlər isə Şimali Azərbaycanda az deyildi. Lakin daha fəal kredit əməliyyatları, o cümlədən veksellərin hesaba alınması və mala görə borc verilməsi, faizli kağızlar və digər dəyərlər xəzinələrə şamil edilmədi.

Əmanət sarayı. Rusiya ilə İran arasında Gülüstan sülh müqaviləsi (1813) imzalandıqdan sonra Dağıstanın bütün ərazisi Rusiyaya keçdi və yerli hakimlərin rus taxt-tacına and içmə mərasimi başlandı. Yeni sadiqlərdən tələb edilirdi ki, «birincisi, … öz üzərlərinə götürdükləri vəzifələrə ciddi münasibət göstərsinlər, ikincisi, … rus təbəəliyini (vətəndaşlığını) qəbul edənlər borclu idilər:

1) müəyyən vergi ödəməli …;

2) əmanətliyə sadiqlik üçün girov verməli;

3) müxtəlif itaətlər daşımalı və s…».

Dağıstan hakimləri sadiqliyə girov kimi öz əmanətlərini Dərbənddəki Əmanət sarayına təqdim edirdilər.

Yerli hakimlər tərəfindən təbəəliyə sadiqliyi saxlamaq üçün bu üsuldan hamıdan çox general A.P.Yermolov istifadə edirdi. Belə ki, tabe olmayan yerli zadəganlar tez-tez «Rusiyaya sadiqlik təbəəliyini» pozduqlarına görə Dərbəndin Əmanət sarayında girovluqdan əziyyət çəkir və həlak olurdular.

Bank. Dərbənd şəhərində kredit müəssisəsinin açılması haqqında məsələ hələ XIX əsrin ortalarında qaldırılmışdır. Hələ 1853-cü ildə Qafqazın canişini knyaz M.S.Vorontsov burada kredit müəssisəsinin açılmasının mümkün olmadığını göstərmişdir.

1856-ci ildə şəhərin hərbi qubernatoru Y.F. Minkvits yenidən vəsatət qaldırır. Bu vəsatət də rədd edilir.

1862-ci il fevralın 6-da «Şəhər ictimai bankları haqqında» yeni ali əsasnamə təsdiq edilir. Qafqazın canişini vəzifəsini icra edən knyaz Orbeliani Dərbənd şəhər rəisi M.T.Loris-Melikova təklif edir ki, təsdiq olunmuş Əsasnaməyə əsasən şəhərdə bankın təsis edilməsi haqqında məsələni müzakirə etsin və öz təkliflərini versin. Lakin şəhərdə bankın açılması razılığı və ssudanın açılması üçün ilkin kapitalın xəzinədən ayrılması haqqında xahiş cavabsız qaldı.

1870-ci ildə Dağıstan vilayətinin rəisi knyaz L.İ.Melikov Dərbənd şəhərində özəl kommersiya bankının təsis edilməsinə uğursuzluqla nəticələnən cəhd etdi. 1871-ci ildə «Milyutin və oğlanları» Moskva ticarət evi şəhərdə marena istehsalçılar üçün ssuda xəzinəsi açdı.

1872-ci ildə Dərbənd şəhər rəisi A.V.Komarovun sərəncamı ilə şəhər vəsaitlərindən 10 min rubl və Milyutin tərəfindən ianə edilmiş 10 min rubl kapitalla şəhər bankının yaradılmasına bir daha cəhd edilmişdir. Lakin canişinin Baş idarəsi xəbər verdi ki, şəhər ictimai bankı yalnız o halda təsis edilə bilər ki, Dərbənddə ictimai şəhər idarəçiliyi fəaliyyətə başlamış olsun (1896-cı ildə fəaliyyətə başladı).

1889-cu ildə şəhərdə kredit müəssisəsinin açılmasına yenidən cəhd edilmişdir. 12 nəfərdən ibarət ictimai komissiya (K.Heydərov, N.Papayev, Avşarov və b.) bu məsələni öyrənib təklif etdilər ki, şəhərin ictimai vəsaiti olmadığı üçün dövlət kredit müəssisəsi yaradılsın. Lakin maliyyə nazirliyi şəhərin bu xahişini də yerinə yetirmədi.

1895-ci ildə şəhər rəhbərliyi kənd təsərrüfatına kömək üçün şəhərdə qarşılıqlı ictimai kreditin təsis edilməsi haqqında yenidən vəsatət qaldırdı. Bu xahiş də yerinə yetirilmədi.

1896-cı ilin noyabrında şəhərin bir neçə bağ, torpaq və ev sahibləri Dağıstan vilayətinin hərbi qubernatoru knyaz A.A.Baryatinskiyə şəhərdə Tiflis zadəgan torpaq bankının şöbəsinin açılması xahişi ilə ərizə vermişlər. Xahiş rədd edilmişdir.

1898-ci ilin sentyabrında Don torpaq bankının idarəsi şəhərin bir neçə ev sahiblərinin əmlakını girov qoyaraq onlara ssuda verilməsi barədə ərizələrinə baxıb, Dərbəndin bank fəaliyyəti rayonuna daxil edilməsi haqda vəsatət qaldırdı. Maliyyə nazirliyi 1899-cu il yanvarın 18-də bankın vəsatətini məqbul hesab etdi. Lakin 1902-ci ilin əvvəlində Don torpaq bankı Dərbənddə öz fəaliyyətini dayandırdı.

1903-cü il iyulun 2-də Dərbənd şəhər idarəsinin vəsatəti ilə Rusiya imperiyasının Maliyyə nazirliyi, nəhayət Dərbənddə ictimai bankın təsis edilməsinə icazə verdi. Başqa vəsait olmadığı üçün bankın əsas

kapitalı kimi «Milyutin və oğlanları» Moskva ticarət evinin 1871-ci ildə şəhərə ianə etdiyi 10 min rubl müəyyən edildi. O vaxtlar bu pul faizlə şəxsi adamlara verilmiş və bankın açılışına qədər 20422 rubl 24 qəpiyə çatmışdır.

Ona görə də şəhər müvəkkillərinin iclası qərara aldı ki, bank «P.Milyutin və oğlanlarının şəhər bankı» adlandırılsın və bu banka rəhbərlik etmək Milyutinin vəfat etməsilə əlaqədar həmin firmanın nümayəndəsinə həvalə edilsin.

1903-cü il sentyabrın 2-də bankın inzibatı orqanlarına seçki keçirildi. L.P.Ohacanov bankın direktoru, Hacı Həmdulla İbrahimov və A.N.Sergeyev onun müavinləri seçildi.

Bank öz əməliyyatına 1903-cü il sentyabrın 29-da başladı.

Bu, Dağıstanda ilk yerli ictimai kredit müəssisəsi idi.

Bir müddət keçdikdən sonra şəhərdə Rusiya banklarının daha üç şöbəsi açıldı: Rus-Asiya bankının, Qarşılıqlı ictimai kredit və gəmiqayırma bankının şöbələri yaradıldı.

Borc-əmanət kassası. Dərbənd şəhər ictimai idarəsinin qulluqçuları üçün borc-əmanət kassasının təsis edilməsi haqqında məsələ şəhər idarəsinin 1904-cü il sentyabrın 30-da keçirlən iclasında şəhər başçısı Qasım bəy Heydərov tərəfindən qaldırılmışdır.

Şəhər müvəkkil olunmuşların iclası kassanın nizamnaməsinin lahiyəsini hazırlamaq və təsdiq olunmaq üçün Daxili İşlər Nazirliyinə təqdim olunmasını qərara aldı.

Dağıstan vilayəti yerli təsərrüfat işləri üzrə Baş idarəsi cavab vermişdir ki, bu cür borc-əmanət kassasının nizamnəmələri Dağıstan vilayətinin qubernatoru tərəfindən təsdiq olunur.

Kassanın nizamnaməsi 1905-ci il martın 30-da təsdiq olundu.

Borc-əmanət kassası 1905-ci il avqustun 1-dən fəaliyyət göstərməyə başladı. 1905-ci ilin sonunda artıq bu kassanın 63 üzvü var idi. Onlar kassaya 1078 rubl dəyərində pul vəsaiti köçürmüşlər. Həmin müddət ərzində kassa ehtiyacı olanlara 1001 rubl pul vəsaiti borc vermişdir.

Dövlət Bankı. Dərbənd şəhərində SSRİ dövlət bankının şöbəsi 1923-cü ildə açılmışdır. Bu bankın açılması Dərbənd şəhərinin mədəni və iqtisadi dirçəlişi üzrə Dağıstanın Xalq Komissarları Sovetinin xüsusi komissiyasının işləyib hazırladığı təkliflərindən biridir.

MALİYYƏ VƏ VERGİ SİSTEMİ

Dərbənd və Azərbaycanda torpaq münasibətləri. Vergi siyasəti (VIII-X əsrlər). Əməvilər dövründə Xilafətin şimal sərhədlərinə hələ də istilaçı hərbi səfərlər edilirdi və ərəblər hər hansı bir vilayəti tutduqda bütün vilayət üzərinə bac qoymaqla kifayətlənirdilər. Xəlifə Hişamın dövründə Arran hakimi Mərvan ibn Məhəmməd Sərir torpaqlarını tutaraq, «Sərir hökmdarını məcbur etdi ki, ona tabe olsun və öz üzərində onun hakimiyyətini qəbul etsin. Onların arasında bağlanan sülh müqaviləsinə görə Sərir hökmdarı öhdəsinə götürmüşdü ki, (Xilafətə) ildə 1500 oğlan və 500 qız versin və əl-Bab (Dərbənd) taxıl anbarına 100 min pud buğda gətirsin...»; Tuman əhalisi «öhdəsinə almışdı ki, ildə 150 qız, 50 oğlan versin və taxıl anbarına 20 min pud buğda gətirsin»; Zirehgeran hökmdarı «təəhhüd etmişdi ki, ildə 50 oğlan verib taxıl anbarına 100 min pud buğda gətirtsin»; Xəmzin hakimi «öhdəsinə götürmüşdü ki, birdəfəlik 500 (oğlan və qız) göndərsin və taxıl anbarına ildə 30 min pud(taxıl) təhvil versin»; Sindan hakimi «öhdəsinə almışdı ki, sonralar mükəlləfiyyətdən azad olmaq şərtilə birdəfəlik ona 100 (oğlan və qız) göndərsin və ildə əl-Bab taxıl anbarına 5 min pud (taxıl) təhvil versin»; Lakz hökmdarı «öhdəsinə götürmüşdü ki, taxıl anbarına ildə 20 min pud (taxıl) təhvil versin» və i.a.

738-ci ildə Mərvan ibn Məhəmməd Dərbənddə olanda «Məsləmə tərəfindən qoyulan xəracı (Dağıstan) vilayətlərindən yığırdı. O, Qumuxdan və Tumandan ildə 100 qul, 100 kəniz və 20 min batman buğda alırdı; Kəbəçidən 50 kəniz, Qaraqaytaqdan 500 qul və 20 min batman buğda, Kür və Miskincidən 14 min batman buğda və 40 min dirhəm, Şirvandan 20 min batman buğda və 50 min dirhəm alırdı. Bütün bu vəsait müəyyən yerdə saxlanılır və (Dərbənd)

şəhər əsgərlərinə maaş verməyə xərclənirdi».

Lakin xərac, cizyə, digər vergi və gəlirlərin miqdarı haqqında bir sıra orta əsr müəlliflərinin verdiyi məlumatın mövcud olmasına baxmayaraq, terminologiyanın qeyri-müəyyənliyi və ya dürüst olmaması Əməvilər dövründə Azərbaycan, o cümlədən Arran torpaqları üzərində qoyulmuş vergilərin məbləğini hesablamaq mümkün deyildir. Həmin ölkələrdə vergi qoyulmasının dinamikasını və torpaq sahibliyinin xarakterini də izləmək mümkün deyildir. Hələlik əməvilər dövründəki torpaq sahibliyinin və torpaqdan istifadənin xarakterik cəhətlərini təsvir edən heç bir yerli mənbə əldə edilməmişdir.

İcma torpaqları. Kəndlərdə əhaliyə məxsus torpaqlar, biçənəklər, mal-qara otarılan, yanacaq toplanan yerlər, qəbiristanlıq və i.a. icma torpaqları idi.

Xərac və cizyədən başqa Xilafətdə başqa vergilər də var idi:

Xüms – zəkatdan, yəni «islamdan əvvəlki vergilərdən gizlədilmiş hesab edilən bütün əmlakdan», mədənlərdən – «qızıl və gümüş mədənlərindən», kafirlərə qarşı vuruşmalarda tutulub qul halına salınan əsirlər də daxil olmaqla qənimətdən, əsir qadın və uşaqlardan, habelə daşınan əmlakdan alınırdı.

Zəkat və ya sədəqə mal-qaradan alınırdı:

Dəvədən – 4-dən 9 başa qədər dəvədən 6 aylıq bir köşə, ya da birillik iki keçi; 10-dan 14 başa qədərdən 2 quzu; 15-dən 19 başa qədərdən 3 qoyun və i.a. alınırdı.

İnək və camışdan – 30-dan 39 başa qədərdən 6 aylıq bir qaramal; 40-dan 50 başa qədərdən 2 baş qaramal və i.a. alınırdı.

Qoyundan – 40-dan 120 başa qədərdən bir quzu, ya da 2 keçi; 121-dən 199 başa qədərdən 2 quzu; 200-dən 399 başa qədərdən 3 qoyun və i.a. alınırdı.

Əkin və meyvədən – təbii suvarılan sahələrdən onda bir, süni suvarma sahələrindən iyirmidə bir alınırdı, bu da məhsul çəkiləndən sonra.

Qızıl və gümüşdən – 200 dirhəmdən çox olan məbləğdən və 20 misqal qızıl, o cümlədən gümüşdən - məbləğin qırxdan biri, ya da onun dəyəri alınırdı.

Müsəlman olmayan tacirlərdən alınan vergi iki cür idi: zimmilərdən ildə bir dəfə tacirin əmtəəsinin dəyəri 200 dirhəmdən artıq olardısa, bu dəyərin $^{1}/_{10}$-i alınırdı. Xilafətdən kənar ölkələrdən gələn tacirlərdən əmtəələrinin dəyəri 200 dirhəmdən artıq olarsa, bu dəyərin $^{1}/_{10}$-i alınırdı.

Şirvanda (Bakıda) bütün bunlardan başqa neft mənbələri və duz mədənləri üzərinə vergi qoyulmuşdu. Hələ xəlifə Mənsurun dövründə Azərbaycan hakimi Yəzid ibn Useyd «öz adamlarını Şirvanda neft və duz çıxaranların yanına göndərdi və bu adamlar onlardan vergi aldılar; sonralar o, vergi alınmasını [xüsusi adamlara] tapşırdı». Şirvanda neft mədənlərinin olduğunu Dərbənddə hicri 150-733-cü illərdə neft anbarlarının tikildiyi təsdiq edir.

Yəqin Bakı o zaman böyük bir yer idi. X əsrin müəllifi Əbu Dulaf Bakı ətrafına gəlişi haqında belə yazır: «Mən Mukandan böyük Təbəristan (Xəzər) dənizi sahili ilə ağaclar altında 80 fərsəx yol getdim, nəhayət, Şirvan vilayətlərindən Bakuya adlanan yerə çatdım. Mən orada bir neft mənbəyi gördüm; bunun gündəlik icarə haqqı min dirhəmə çatır; onun yanında isə gecə-gündüz, ara vermədən yasəmən yağı kimi ağ neft verən başqa bir mənbə var idi; bunun da icarə haqqı birinciyə bərabərdir». Xəzərlərə qarşı vuruşma zamanı ərəblər bu neftdən istifadə edirdilər.

Xilafətin şimal sərhədində dayaq məntəqəsi olan Dərbəndin xüsusi üstünlükləri var idi, xəlifələr həmişə bunu nəzərə alaraq ətraf ərazini və gəlir mənbələrini vəqf adı ilə onun müdafiəçilərinə verirdilər. Məsələn, 777-ci ildə xəlifə əl-Mehdi (775-785) «əmr etdi ki, Dərbəndin ətraf yerlərinin illik xəracı yığılsın və qalanın döyüşçüləri ilə şəhər əhalisi arasında bölüşdürülsün».

873-cü ildə Şirvan hakimi «Dərbənd əhalisinə (əl-Mötəmidin) (870-892) vəqf olaraq verdiyi hər şeyi geri aldı».

883-cü ildə xəlifə əl-Mötəmid yenidən «Şirvanın neft və duz mədənlərinin yarısını vəqf olaraq Dərbənd əhalisinə (döyüşçülərinə) verdi». Nəhayət, 885-ci ildə həmin xəlifənin verdiyi fərmanla Bakının neft və duz mədənləri vəqf olaraq Dərbəndə verildi. «O, Məhəmməd ibn Əmmarı həmin mədənlərin vergitoplayanı təyin etdi. Məhəmməd bu mədənlərin illik gəlirini Dərbənd döyüşçüləri arasında bölüşdürdü».

Dərbənd qarnizonu döyüşçüləri onlara bağışlanmış vəqflərdən gəlir əldə etmək imkanından məhrum olanda, bu hal onların vəziyyətinə çox pis təsir göstərirdi, çünki onların, əlbəttə, hərbi qənimətdən

başqa heç bir yaşayış vəsaiti yox idi. 902-ci ildə xəlifə əl-Müktəfa dövründə (902-908) «Dərbənd hakimi təyin edilən Bişutur (?) neft və duz mədənlərinin bütün gəlirini, o cümlədən ətraf kəndlərdən gətirilən ərzağı mənimsəyəndə Dərbənd döyüşçüləri çarəsiz qalıb alver və başqa işlərlə məşğul oldular. Onların içərisində rüşvətxorluq və intizamsızlıq başlandı».

Təəssüf olsun ki, Azərbaycan, Arran və digər vilayətlərdən ayrıca olaraq alınan vergilər haqqında məlumat əldə edilə biləcək sənədlər mövcud deyildir. Əməvilərin dövründə yəqin belə sənədlər vardı, lakin bunlar ilk Abbasilər dövründə, ehtimal ki, yox olmuşdur. Abbasilərin hakimiyyəti dövründə də eynilə elə idi. Hər halda xəlifə əl-Məmunun (813-833) hakimiyyəti dövrünədək belə sənədlər saxlanmamışdır. Bundan əlavə, Xilafət taxtı üstündə əl-Əmin (809-813) ilə əl-Məmun arasında gedən mübarizə dövründə divan ül-xərac başqa divanxanalarla birlikdə yandırılmış və ayrıca olaraq hər əyalətdən xəlifə xəzinəsinə verilən gəlir hesabatı yazılan bütün siyahılar yanğında məhv olmuşdur. Hicri 204 (819-820)-cü il «xəlifənin divanlarında hesabatın mövcud olduğu ilk il» idi.

Əl-Məmunun dövründə Azərbaycanın xəracı ildə 4,5 milyon dirhəm idi. Yəqubi bildirir ki, «Azərbaycanın xəracı 4 milyon dirhəmdir, lakin bəzi illər çox, bəzən də az olur».

Yuxarıda gətirilən məlumatdan belə nəticə hasil olur ki, xəlifə xəzinəsinin Azərbaycandan aldığı xərac ildə 4 milyon dirhəm olmuşdur. Muğandan 300 min dirhəm alındığını nəzərə alsaq, belə fərz etmək olar ki, Arrandan ildə təqribən 3 milyon alınırdı, 3 vilayətdən birlikdə alınan məbləğ isə ildə təqribən 8 milyon dirhəm idi.

Xəlifələrdən əl-Vasiq (842), Mütəvəkkil (842-861) və sonrakı beş xəlifə (Mötəmid – 870-892-ci illər daxil olmaqla) dövründə yaşayıb divan ülbəriddə qulluq edən ibn Xordadbeh xəlifə əl-Mötəsimin (833-842) vəziri Fəzl ibn Mərvanın, xəlifə Vasiq dövründə keçmiş Sahib əl-Xəracın adından bu dövr üçün Azərbaycan xəracı haqqında məlumat verir. Bu xərac 2 milyon dirhəmə bərabər idi. Xəlifə Mötəsimin hökmranlığı dövründə və ondan sonra Azərbaycan və digər vilayətlərdən alınan xərac məbləğinin azalmasına səbəb, Xilafətdəki üsyanlar və ayrı-ayrı vilayətlərin ayrılması, habelə hakimlərdə ayrılma təmayülünün güclənməsi idi.

Xilafət xəzinəsinə Azərbaycandan gələn vergi məbləği hicri 296 (908-909)-cı ildən başlayaraq ildə 120 min dinar olmuşdur (1 dinar - 15 dirhəm).

IX əsrin axırı - X əsrin əvvəllərində Azərbaycan vilayətlərindən gələn vergilər ölkə hakimlərindən Sacilərin, sonra Müsafirlərin xəzinəsinə gedirdi. İbn Havqəlin verdiyi məlumata görə, keçmişdə Yusif ibn Əbu-s-Saca qulluq edən Mərzban ibn Məhəmməd ibn Müsafirin (941-957) vəziri Əbü-l-Qasim Əli ibn Cəfər Azərbaycana tabe vilayətlərin hakimlərindən aşağıdakı miqdarda vergi alırdı.

1. Şirvan hakimi Şirvanşah Məhəmməd ibn Əhməd əl-Əzdidən-ildə 1 milyon dirhəm;

2. Əbu Əbd ül-Məlik adı ilə məşhur olan Şəki hakimi İşxanikdən – saziş ilə müəyyən məbləğ;

3. İbn Savad adı ilə məşhur olan ər-Rüba (Bərdə?) hakimi Sanaxaribdən - 300 min dirhəm, habelə əlavə olaraq hədiyyələr;

4. Curzan (Gürcivan) və Sagiyan hakimi Vaçaqan ibn Musadan - 200 min dirhəm;

5. Vayosdzor (Sünik) hakimi Əbü-l-Qasim əl-Vayzuridən – 50 min dirhəm, habelə hədiyyələr;

6. Əhər və Varzukan hakimi Əbü-1-Həyca ibn Rəvvaddan – 50 min dirhəm və hədiyyələr;

7. Xayzan (Xaydak?) hakimi Əbü-1-Qasim əl-Cuyzanidən (Xayzani) borc qalıqları ilə birlikdə - 400 min dirhəm;

8. Xaçın hakimi Sanaxaribdən – saziş əsasında 50 min dirhəm, habelə hədiyyə və atlar 50 min dirhəm məbləğində.

Bax: Ziya Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. - Bakı, 2007, səh. 131-156.

Torpaq mülkiyyəti formaları. Vergilər (XII əsr). Səlcuqilər dövründəki torpaq mülkiyyəti növlərinə - sultan, len *(iqta),* şəxsi və vəqfi - aid məlumatlar olduqca müxtəlifdir. *İqta* torpaqları haqqında daha ətraflı məlumat olduğu halda, xüsusi mülkiyyət və başqa torpaq mülkiyyəti növlərinin miqdarına aid biliklər çox azdır. Tədqiqatçılar göstərirlər ki, bu çatışmazlığın əsas səbəbi yazılı mənbələrdəki materialların müxtəlifliyində, rəqəmli məlumatların, yer adları siyahısının və s. olmamasındadır. Mənbələrin verdiyi həmin cüzi materiallardan istifadə edərək, hər halda, Azərbaycan Atabəyləri dövlətində olan torpaq mülkiyyəti formalarını və dərəcələrini təsvir etməyə və səciyyələndirmək mümkündür.

Tac torpaqları, yaxud seçilmiş (xass) torpaqlar – Sonuncu İraq Səlcuqilərinin və Azərbaycan Atabəylərinin hakimiyyəti dövründə xüsusi mülkiyyətə daxil olmayan xass və həmçinin başqa torpaqlar Sultanın və Atabəyin ixtiyarında idi. Onlar həmin torpaqları istədikləri kimi idarə edirdilər. Tac torpaqlarından yalnız hakim sülalənin nümayəndələri *iqta* pay torparğı ala bilərdi. Sultan və Atabəy nəslindən olmayan şəxslərə isə başqa torpaqlardan *iqta* ayrılırdı.

Mənbələrdə tac torpaqları *əmlak* («mülk»ün cəmi), yəni «torpaq yeri», «gəlir yeri» sözünə *xass* (xüsusi, seçilmiş) sözünü əlavə etməklə *əmlak əl-xass* adlanır.

Azərbaycan Atabəyləri dövlətində atabəy Şəmsəddin Eldənizin daimi yaşayış yeri olan Naxçıvan vilayətinin torpaqları tac *(xass)* torpağı idi. Atabəyin hicri 555 (1160)-cı ildə hakim İnancdan zəbt etdiyi Rey öz ətrafı ilə və Həmədan vilayəti, Gəncə və «ona birləşdirilmiş Azərbaycan Atabəyləri dövlətində *iqtanın* xidmət haqqı» kimi verilməsinə aid məlumat azdır. Atabəy Eldəniz Rey və onun ətrafını tutandan sonra oranı oğlu Cahan Pəhləvana *iqta* kimi vermişdi. Atabəy Cahan Pəhləvan ölümündən bir az qabaq, demək olar ki, bütün dövlət torpaqlarını özünün 70-ə yaxın məmlükü arasında *iqta* pay torpağı kimi bölüşdürdü. 40 şəhər öz ətrafı ilə Əcəm İraqında, 27-i isə Azərbaycanda yerləşirdi. Sədrəddin əl-Hüseyni yazır ki, Cahan Pəhləvan əvvəllər dövləti öz oğlanları arasında bölüşdürmək istəyirdi, ancaq bu məqsədi ölümünə kimi həyata keçməmişdi.

Atabəy Qızıl Arslan iqta mülklərinin xidməthaqqı kimi əmirlərə verilməsi haqqında bir sıra fərman *(mənşur)* vermişdi.

Xarəzmşah Cəlaləddin Manqburnu Azərbaycanı tutduqdan sonra həmin torpaqları öz əmirlərinə *iqta* mülkü kimi verdi. Daha sonra Xarəzmşah Azərbaycan və Arrandakı *iqta* mülklərinin idarə edilməsi hüququnu vəziri Şərəf əl-Mülkün öhdəsinə buraxdı. Vəzir də «özü istədiyi kimi», lazım gələndə ya bağışlamaqla, ya da geri almaqla, bu mülklərin tam səlahiyyətli sahibi kimi davranırdı.

İlk əvvəllər atabəy Özbəyin arvadının ixtiyarında olan Səlmas, Urmiya, Xoy kimi *iqta* əyalətləri Xarəzmşah dövründə yenə də onun öz əlində qalmaqda idi, ancaq indi o torpaqlardan Sultan Cəlaləddinin xeyrinə vergi alınırdı.

Xarəzmşah Azərbaycanı tutub, «bir sıra *iqta* sahiblərinə öz mülklərinə qayıtmağa icazə verdi». Sürməri və onun ətrafının sahiblərindən Şərafəddin Uzdərə və Hüsaməddin Xızır da belə iqtidarlardan idilər. Xarəzmşah «onlara hüquq və vəzifələrini müəyyənləşdirib təsdiq edən fərman yazdı». Vəzir Şərəf əl-Mülk Urmiya və onun ətrafını atabəy Özbəyin məmlüklərindən birinə – Buğdaya *iqta* pay torpağı kimi verdi.

Dərbəndi tutacağına arxayın olan Xarəzmşah «(şəhərin) azyaşlı (hakiminin) atabəyinə ehtiram göstərdi və hədiyyə verdi, onun adına və onun hökmdarı - uşağın adına elə bir *iqta* təyin etdi ki, Dərbənd o iqtanın yanında olduqca balaca görünürdü».

Bax: Ziya Bünyadov. Azərbaycan Atabəyləri Dövləti (1136-1225-ci illər). - Bakı, Şərq-Qərb, 2007. səh. 235, 238.

Dərbənddə torpaq mülkiyyəti formaları və vergilər. XI əsrin sonu – XII əsrdə Səlcuqların hakimiyyəti dövründə əsas torpaq mülkiyyəti forması sultan Məlik şah və onun vəziri Nizam əl-Mülkün zamanında xüsusilə geniş vüsət almış iqta mülkiyyəti oldu.

Türk qoşun başçısına iqta şəklində verilən iri torpaq mülkiyyətinin güclənməsi ölkə feodallarının hakimiyyətini aradan qaldıraraq, onların yerinə öz əmirlərini təyin edən səlcuqlar tərəfindən istila olunması ilə əlaqədar Azərbaycan və Şirvanda feodalizmin daha da inkişaf etməsinin nəticəsi oldu.

H. 467 (1074)-ci ildə türk qoşunlarının başında gələn Əqrar ibn Buğa sultanın Şirvanı iqta şəklində ona verdiyini bildirdi. Lakin Şirvanşah Fəribürz sultandan onun əvvəlki mövqeyini bərpa etməsinə nail oldu. Ancaq sultan sərhəd vilayəti Dərbəndi iqta olaraq iki İraqın əmiri Say-Taginə bağışladıqdan və onun nümayəndəsi gəldikdən sonra Fəribürz sultanın xəzinəsinə hər il xərac (mal) verən, səlcuq vassalı səviyyəsinə endirildi.

XIV əsrin sonu və XV əsrin əvvəllərində Dərbəndli Şirvanşahlar sülaləsinin hakimiyyətə gəlməsilə, 1382-ci ildə xalq üsyanının qələbəsi sayəsində monqol ağalığı dövrünün ağır istismar formaları xeyli dərəcədə yumşaldı, eləcə də, rəiyyətin vəziyyəti yüngülləşdi.

Bax: Sara Aşurbəyli. Şirvanşahlar dövləti. - Bakı, Avrasiya press, 2006. səh. 247-248, 254.

Şəhər mükəlləfiyyəti (pul vergisi) – Dərbənd Rusiya İmperiyasına birləşdirildikdən dərhal sonra 1806-cı ildə şəhərdə yaradılmışdır. Şəhər mükəlləfiyyəti vergisi qoyulmuş şəhər sakinləri, maddi vəziyyətlərindən asılı olaraq, üç qrupa bölünürdü. Birinci qrupa aid olanların ailə başçıları 5 rubl gümüşlə və hər ailə üzvü 18 yaşından yuxarı kişi cinsindən olanlar 1 rubl gümüş pulla ödəyirdilər.

İkinci qrupa aid olanların ailə başçısı 3 rubl gümüş pulla və hər ailə üzvü 50 qəpik ödəməyə məcbur idilər.

Üçüncü qrupa aid olanlar isə müvaviq olaraq 2 rubl və 25 qəpik ödəyirdilər.

Şəhərdə iki ailə var idi ki, onların maddi vəziyyətlərinə görə 1 rubl gümüş pullla vergi ödənilməsi təyin edilmişdi.

1820-ci ilin hesabatına görə şəhərdə birinci qrupa aid olan ailələrin sayı 17, ödəyənlər – 25, ikinci qrup – 127 ailə və 139 ödəyən, üçüncü qrup – 844 ailə və 532 ödəyən var idi.

Mənzil mükəlləfiyyəti. Dərbənd qədim zamanlardan burada ordu yerləşdiyi üçün şəhər-qala kimi tanınırdı. Məlumdur ki, Sasani dövründə şəhəri «... 10 min İran süvari dəstəsi, ərəb sərkərdəsi Məsləmə isə VIII əsrdə şəhəri 24 min ərəb döyüşçüsü ilə müdafiə edirdi. Bütün bu ordunu nəinki yeməklə, həm də mənzil ilə təmin etmək lazım idi. Ona görə də şəhər sakinlərinin üzərinə əsgərləri öz yaşadıqları mənzillərdə yerləşdirmək vəzifəsi düşürdü».

1806-cı ildə Rusiya qoşunlarının Dərbəndə daxil olması ilə əlaqədar əmlak mənzil mükəlləfiyyəti tətbiq olundu. Hər bir ailə öz mənzilinə bir zabit götürməli idi. Sonralar isə hətta aşağı rütbəli zabitlərin ailələrini də yerləşdirmək onların üzərinə düşürdü. Bu sakinlərəi kəndxudalar və komendanturanın nəzdində olan iki zabit, polismeyster və iki deputatdan ibarət evlər komissiyası qeydiyyata götürürdü və buna ciddi nəzarət edirdi.

Lakin bu sistem qarnizonun hərəkətetmə qabiliyyətini təmin etmirdi və buna görə də 1850-ci ildə əmlak-mənzil mükəlləfiyyəti daşınmaz əmlakdan 8%-lik ev vergisi ilə əvəz olunmuşdur. Zabitlərin ailələri Dərbənd sakinindən kirayəyə götürülmüş evə (hazırda Tağızadə küçəsində yerləşən 1 saylı orta məktəbin binası) köçürülmüşdür. Evli kiçik rütbəli hərbi qulluqçulara isə şəhərdən kənarda – Kafir yüksəkliklərində, sonralar isə şəhərin aşağı tərəfində – Dübarədə ev tikmək üçün torpaq sahəsi ayrılmışdır.

GÖMRÜK

Avropa, Asiya və Afrikanın müxtəlif yerlərində aşkar olunmuş çoxsaylı pul dəfinələri Xilafət hökmranlığı dövründə ticarətin geniş miqyas aldığını, Azərbaycanın o dövrün bütün məhşur ölkələri ilə ticarət əlaqələri saxladığını göstərir. Lakin ərəblərin hələ də davam etdirdikləri işğalçılıq müharibələri orta əsr Azərbaycanının iqtisadi həyatının inkişafına mənfi təsir etdi. Xilafətin Bizansla apardığı aramsız müharibələr Şərq ölkələrinin Kiçik Asiya ilə ticarət əlaqələrinə son qoydu. Lakin Bizansın dünya ticarətində aparıcı rolunu itirməsindən sonra Xilafətin qonşu ölkələrlə ticarət münasibətlərində Azərbaycan, o cümlədən Arran şəhərlərinin mövqeyi gücləndi. Artıq Xilafətin ticarət əməliyyatları yeni məcraya yönəldildi, indi başqa şəhərlər həmin əməliyyatların əsas mərkəzləri oldu. Yeni inzibati mərkəzlər yarandı, bəzi ticarət yollarının istiqamətləri dəyişdi. Məhz bu dövrdə qədim Albaniyanın Qəbələ, Şəki, Amaras şəhərləri ticarət mərkəzləri kimi öz əvvəlki əhəmiyyətlərini itirdilər. Beynəlxalq ticarətdə onları Xilafətin poçt idarəsinin (Divan əl-bərid) ixtiyarındakı əsas poçt yolları üzərində yerləşən Bərdə, Dərbənd, Ərdəbil, Marağa, Gəncə, Şamaxı və başqa bu kimi şəhərlər əvəz etdi. Nəinki ticarət, habelə strateji əhəmiyyətə malik olan bu yollarda sikkə (hərfən: «yol») adlanan xüsusi poçt-gömrük məntəqələri yerləşdirildi. Ərəb coğrafiyaçılarının məlumatlarından görünür ki, artıq IX əsrin ortalarında Azərbaycan ərazisindən keçən mühüm yol qovşaqlarında əllidən artıq poçt-gömrük məntəqəsi vardı. Yolçular atlarını bu məntəqələrdə dəyişir, poçt torbalarını bu və ya digər yerə aparan qasidlər burada təyin edilir, gömrükxanalar burada olurdu. Lakin Xilafətin mərkəzində, məsələn, Bağdaddan keçən yollarda bu məntəqələr arasındakı məsafə 1,5-1,7 fərsəx (9-12 *km*) idisə, mərkəzdən uzaqda olan Arranda bu məsafə 7-11,5 fərsəxə (42-70 *km*) çatırdı. Belə ki, Bərdə-Tiflis yolunda 10,

Bərdə-Dərbənd yolunda 15, Bərdə-Dəbil yolunda 7 poçt-gömrük məntəqəsi fəaliyyət göstərirdi. Nabələd yolçuların azmaması üçün yollarda növbəti şəhərədək olan məsafənin qeyd edildiyi xüsüsi «mil daşları» - yolgöstəriciləri də qoyulurdu. O dövrdə inzibati baxımdan Xilafətin Arran vilayəti tərkibində olan Tiflis yaxınlığında tapılmış həmin daşlardan birinin üzərində belə bir yazı həkk edilmişdi: «Allahın adı ilə! Tiflisdən üç mil aralı».

Rusiya imperiyasının gömrük zastavası Dərbənddə 1809-cu ildə aşağıdakı ştat vahidi ilə təsis edilmişdir: nəzarətçi, anbar nəzarətçisi və iki mirzə (katib). 1810-cu il oktyabrın 15-də vilayətin Baş komandanı general A.Tormosov «Dərbənd gömrük zastavasının açılması haqqında sərəncam» imzaladı. Saray müşaviri Andrey Andreyev zastavanın rəisi təyin edildi. Zastava şəhərə daxil olan və ixrac edilən bütün mallardan vergi yığmalı idi.

Dərbənd gömrük zastavasının ilk rəsmi sənədi Dərbənddən Bakıya «…Dərbənd iranlısı (azərbaycanlı) Məşədi Rəsul tərəfindən 40 pud misin aparılması və dövlətə rüsum ödənilməsi» haqqında Şəhadətnamə olmuşdur.

Arxiv sənədləri göstərir ki, gömrük zastavası işçilərinin qanuna ciddi riayət etməsi xoşagəlməz hadisələrə gətirib çıxarırdı. Elə gömrük zastavası da yerli əhaliyə narahatlıq gətirirdi.

1823-cü ilin yanvarında Qafqazın Baş komandanı Yermolov Dərbənd zastavasında verginin yığılmasının yoxlanılması haqqında sərəncam vermişdir. Yoxlama zamanı aşkar olunmuşdur ki, gömrükdən keçən mallara çox az vergi ödənilir. Belə ki, 1820-1823-cü illərdə Dərbənd gömrük zastavasından orta hesabla 86 rubl gümüşlə, 1575 rubl əskinasla və 118 rubl mislə gəlir yığılmışdır. Ona görə də, 1824-cü ildə Yermolov Dərbənd gömrük zastavasının bağlanması haqqında vəsatət qaldırmışdır. Lakin onun vəsatəti rədd edilmiş və sonrakı illərdə zastavanın ştat vahidi artırılmışdır. 1917-ci il inqilabı və vətəndaş müharibəsi illərində Dərbənddəki gömrük təşkilatı fəaliyyət göstərirdi. Bu gömrüyə A.Pavlov rəhbərlik edirdi.

Dərbənd gömrüyü sovet hakimiyyəti illərində də fəaliyyət göstərmişdir və Rostov-Don şəhərindəki idarəyə – Cənub gömrük dairəsinə tabe idi. Dairənin sərhədləri: Azov dənizinin limanlarından Taqanroqa kimi, Qara dənizin şərq sahilindən Adlerə kimi və Xəzər dənizinin limanlarından (Dərbənddən) Manqışlaq qəzasına qədər geniş ərazini əhatə edirdi.

Öz növbəsində, gömrük müəssisələri 3 dərəcəyə bölünürdü. Dərbənd gömrük məntəqəsi 3-cü dərəcəyə daxil idi, yəni bu gömrükdən texniki ekspertiza tələb etməyən mallar keçirilirdi.

Dərbənd gömrükxanasının ştat vahidi az idi və ona rəis rəhbərlik edirdi. Bundan əlavə, ştat vahidlərinə anbar nəzarətçiləri və onların köməkçiləri, kargüzarlar, kuryerlər və qarovulçular da daxil idi. 1988-ci ilin mayında SSRİ-də dövlət sərhəddindən keçirilən nəqliyyat vasitələrinə, mallara, vətəndaşların əmlak və əşyalarına gömrük nəzarətini yerinə yetirmək üçün gömrük zonaları yaradılmışdır. Dağıstan Azərbaycan Respublikası gömrük nəzarəti məkanına daxil idi.

1991-ci ilin sentyabrında SSRİ dağıldıqdan sonra Mahaçqala gömrükxanası yaradıldı və onun bazasında 1992-ci il yanvarın 24-də Rusiya Federasiyasının Şimali Qafqaz gömrük idarəsinə tabe olmaqla Dağıstan gömrükxanası yaradıldı.

1992-ci il oktyabrın 1-də Rusiya Federasiyası Prezidentinin Fərmanı ilə keçmiş SSRİ respublikaları ilə, Azərbaycan da daxil olmaqla, gömrük sərhədi yaradılmışdır. 1993-cü il avqustun 5-də Dağıstan gömrüyünə regional idarə statusu verilmiş, 1993-cü il sentyabr-oktyabr aylarında Mahaçqalada və Dərbənddə, Mahaçqala dəniz limanında, Qızılyurdda və Gizlərdə gömrük məntəqələri açılmışdır.

1993-cü il oktyabrın 27-də Rusiya Federasiyasının Dövlət Gömrük Komitəsinin Fərmanı ilə Dərbənd gömrük məntəqəsinin bazası əsasında Dərbənd gömrükxanası yaradıldı. Bu gömrükxanaya 1-ci dərəcəli gömrük xidmətinin müşaviri Murad Xizriyev rəhbər təyin edilmişdir.

HÜQUQ VƏ MƏHKƏMƏ SİSTEMİ

Dünyəvi məhkəmə – Dərbənd şəhərində 1876-cı il yanvarın 1-də yaradılmışdır. Dərbənd şəhər rəisi ilə Dağıstan vilayət rəisinin arasında 1869-cu ilin yayında başlayan uzunmuddətli yazışma bu hadisəyə təkan vermişdir.

Məhkəməyə öz fəaliyyətində 1866-cı ilin 7 noyabrında çar tərəfindən təsdiq olunmuş «1864-cü il məhkəmə nizamnamələrinin Cənubi Qafqaz diyarına tətbiqi haqqında Əsasnamələr»i rəhbər sənəd kimi istifadə olunması tapşırılmışdı. 1917-ci ildə ləğv edilmiş və 2001-ci ilin oktyabrından fəaliyyəti bərpa edilmişdi.

Zindan (türk. «məhbəs», «həbsxana», «daş torba»). Qalanın şimal divarının yanında, xan sarayının arxasında yeraltı tikili. Onun uzunluğu – 6,5 m, eni 4,25 m, hündürlüyü – 6,5 metrdir. Zal tağ-tavanla örtülmüşdür və onun yerin üstü ilə yeganə əlaqəsi – tağ-tavanın mərkəzində divarları 70x70 sm olmaqla daş yarıq idi. Daş yarıq ortada yumru deşiyi (diametr 25 sm) olan daş plitə ilə örtülmüşdür. Əfsanə və rəvayətlərdə qalada baş verən dəhşətli hadisələrdən bəhs edilir. Xalq arasında bu qala «gedər gəlməz» adlanırdı. Lakin bu qala həbsxanaya çox da oxşamırdı, ona görə də mütəxəssislər düşünürdü ki, bu qədim su anbarlarından biri olmuş və sonralar ondan zindan kimi istifadə edilmişdir.

Həbsxana. Dərbənd Rusiyaya birləşənə qədər məhbuslar Dərbənddə Narınqalada, «Zindan» adlandırılan yeraltı tikililərdə saxlanılırdı. Dərbənd Rusiyaya birləşəndən sonra, qalada hərbi qarnizonun komandanlığı yerləşdiyi üçün, 8-ci məhəllədə yerləşən qədim hamam həbsxanaya çevrilmişdir.

Məhbusları qorumaq Kutais səyyar əlillər bölüyü əsgərlərinə həvalə olunmuşdur.

1860-cı ildə Aşağı əsgər meydanının şərq hissəsində yeni həbsxana tikilmişdir. Bu həbsxana 1918-ci ildə Vətəndaş müharibəsi zamanı yanmışdır.

Şəhərin inqilabi hakimiyyəti yeni həbsxana kimi Baryatinsk küçəsində yerləşən və müsadirə olunmuş yaşayış evini istifadə etmişdir (hazırda bu evin yerində «Dinamo» tikiş fabrikinin binası ucaldılmışdır).

50-ci illərin sonunda həbsxananı şəhərin mərkəzindən köçürmək məqsədi ilə şəhər ətrafında yeni həbsxananın tikintisinə başlanmışdır. Hazırda burada istintaq təcridxanası (SİZO 3/2) yerləşir.

Dərbənddə polis orqanı – 1849-cu il iyunun 9-da yaradılmışdır. Polis orqanlarında aşağıdakı ştat vahidi var idi: polismeyster, 2 deputat, 2 məhəllə nəzarətçisi, kargüzar, kargüzar köməkçisi, mühasib, 4 mirzə və 10 nəfər aşağı rütbəli polis işçiləri, istintaq işlərini aparmaq üçün 1 pristav. Bundan əlavə, bu orqana şəhərin gəlirlərindən maliyyələşdirilən 1 məhəllə nəzarətçisi və 10 silahlı süvari muzdlu daxil idi.

Şəhərin müsəlmanlar yaşayan hissəsi 9 məhəlləyə bölünmüş və bura nəzərət etmək üçün yuzbaşılar (kətta) təyin edilmişdir. Erməni və yəhudi məhəllələrinə nəzərət etmək üçün yəhudi və erməni yuzbaşıları təyin edilmişdir. Məhəllələrin yuzbaşıları 3 məhəllə yuzbaşısına tabe idilər.

1883-cü ildə Dərbənd şəhər idarəçiliyi ləğv olunduqdan sonra şəhərdəki hakimiyyət polislərin əlinə keçdi. Şəhərin ilk polismeysteri knyaz Bolkonski təyin olunmuşdur. Bundan sonra bu vəzifəni növbə ilə istefada olan stats muşaviri K.Koçergin, polkovnik Kolomiysev və polkovnik Çekunov tutmuşdur.

Şəhərin son polismeysteri balıq sənayeçisi Həmdulla Abdullayevin bacısının həyat yoldaşı polkovnik Laçuyev olmuşdur.

E L M

Dərbənd və Azərbaycanın elmində İntibah dövrünün təşəkkülü. Dərbənddə mədəni mərkəzlərin (məktəblərin, kitabxanaların, məscidlərin və b.) fəaliyyət göstərməsi tarixi biliklərin və tarixi təfəkkürün genişlənməsi, tarixi proseslərin mahiyyəti və s. haqqında görüşlərin dərinləşməsi üçün zəmin yaranmışdı. Artıq X əsrdə «Allahın evin»də – məscidlərdə elmi diskussiya və mübahisələr açmaq istəməyən alimlər xüsusi təhsil müəssisələrinin – mədrəsələrin əsasını qoymuşdular. Mənbələrdə dövrün elmi dili olan ərəb dilində yazan əl-Bərdəi, ən-Nəşavi, əl-Səncəvi, ət-Təbrizi, əl-Bakuvi, əl-Marağayi adı ilə əsərlərini yazan neçə-neçə azərbaycanlı alimin adı çəkilmişdir.

IX-XII əsrlərdə Azərbaycanda elmi yüksəliş özünü göstərirdi. Azərbaycanın şəhərlərində elmi biliklər öyrənilir, mədrəsələr və məktəblər fəaliyyət göstərirdi. Yaqut Həməvi Şirvandan, Dərbənddən, Səlmasdan, Marağadan çıxmış və Şərqin böyük şəhərlərində təhsil almış alimlərin adlarını çəkir.

O dövrdə Azərbaycanda fiqh (hüquq) elmi sürətlə inkişaf edirdi. Orta əsr mənbələrində bir çox azərbaycanlı fəqihlərin (hüqüqşünasların) adları çəkilir: Büdeyl Bərzəndi (vəfatı 1082), Əbülqasım Zəncani (990-1078), Əbuhəfs Zəncani (vəfatı 1066), Əbülfəz Məhəmməd Urməvi (1066-1152), Osman Dərbəndi (vəfatı 1108), Əbdüləziz Uşnuhi (vəfatı 1111), Nasir Xoyi (vəfatı 1113), Əbdülməlik Beyləqani (vəfatı 1103) və s. Azərbaycanın Dərbənd, Şamaxı, Bakı şəhərləri də XIV əsrdə mədəniyyət və elm mərkəzləri kimi tanındı. Buna səbəb Şirvanşahlar dövlətinin xeyli möhkəmlənməsi idi. Mərkəzi hakimiyyətin güclənməsi və iqtisadi həyatın canlanması elm sahəsində də yüksəliş yaratdı.

Bax: Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. «Azərbaycan» cildi. Azərbaycan Milli Ensiklopediyası Elmi mərkəzi. - Bakı, 2007, səh. 540, 647-649.

Elmi tədqiqatçılar Dərbənd şəhəri haqqında. Coğrafiya xəritəsində «Dərbənd» sözü ilə göstərilən bir neçə şəhər vardır. Lakin bunlardan biri öz yaşı ilə, xalqların tarixi taleyindəki əhəmiyyəti, eləcə də qədim memarlıq və hərbi istehkam abidələri ilə fərqlənir. Bu, Xəzər dənizinin qərb sahilində yerləşən Dərbənddir.

Çox qədim zamanlarda yaranmış bu şəhər Qafqaz, Ön Asiya, Yaxın və Orta Şərq dövlətlərinin iqtisadi həyatında, qarşılıqlı siyasi münasibətlərdə mühüm rol oynamışdır. Şəhərin mühüm iqtisadi və siyasi əhəmiyyət kəsb etməsi Erkən orta əsr dövlətləri olan Roma və Parfiya imperiyalarının, Midiya dövlətinin, Yunanıstanın, İran Sasani dövlətinin, Ərəb xilafətinin, Bizansın, Xəzər xaqanlığının və başqa dövlətlərin xüsusi marağına səbəb olmuş və onlar bu mühüm strateji rayonu öz nüfuz dairələrinə keçirməyə cəhd etmişlər.

Bir neçə əsr ərzində Dərbənd Ön və Orta Şərq dövlətlərinin mühüm sərhəd qalası kimi xidmət etmiş, onların əkinçilik və heyvandarlıqla məşğul olan şimal sərhədindəki tayfalarla mübarizə yerinə çevrilmişdir.

Dərbənd uzun illər Qafqaz, Ön və Orta Şərq, Cənub-şərqi Avropa ölkələri xalqlarının taleyində mühüm rol oynamış, Qafqaz dağlarının Xəzər dənizinə qovuşduğu yerdə sərhəd qalası kimi xidmət etmişdir.

Dərbənd haqqında məşhur tarixçilər, şairlər, yazıçılar çoxlu dəyərli sözlər yazmışlar. Burada şərq və qərbin tanınmış səyahətçiləri olmuşlar. Hərbi strateji baxımdan müdafiə istehkamları sisteminin ən mühümlərindən Xəzərin qərb sahilində alban vilayəti Çorda yerləşən Dərbənd keçidi göstərilə bilər. Dərbənd öz unikal coğrafı mövqeyinə görə yüzilliklər ərzində baş vermiş hərbi siyasi hadisələrdə mühüm rol oynamışdır. Eramızdan əvvəl VIII-VII əsrlərdə ilk möhkəmləndirilmiş məntəqələri olan Dərbənd keçidinə orta əsrlərdə Səlcuq dövləti, Qızıl Orda, Səfəvilər hakimiyyəti, Hülakular dövləti, Osmanlı imperiyası və başqaları sahib çıxmaq istəmişlər.

Dərbəndin yaranması və dünya tarixində oynadığı mühüm rol, ilk növbədə, onun xüsusi coğrafi mövqeyə malik olması ilə əlaqədardır. Məhz bu səbəbdən də Şimali və Cənubi Qafqaz, sonra isə Ön Asiya, Xəzər vasitəsilə Mərkəzi Asiyaya hücumlar təşkil etmək üçün Dərbənd çox əlverişli baza idi.

Böyük Qafqaz dağlarının Xəzər dənizinə qovuşduğu kiçik dənizkənarı düzənlikdə eni 3,5 kilometr zolaqla ayrılan, qədimdə Cənub-Şərqi Avropa və Ön Asiyaya aparan məşhur Xəzər dənizkənarı yol yeganə olmuşdur.

IV əsrin sonunda Orta Şərq ölkələri üçün hunların köçəri tayfaları kimi möhtəşəm qüvvələrin meydana gəlməsi Dərbənd keçidinin hərbi strateji əhəmiyyətini xeyli artırdı. Bu amili nəzərə alan sasanilər Dərbənd üzərində nəzarəti öz əllərində saxlamaq üçün bütün qüvvələrini səfərbər etdilər. Hərbi tarixçisi N.A.Əliyev özünün «Azərbaycan hərbi dənizçilik tarixi» kitabında qeyd etdiyi kimi, məhz bu dövrdə Azərbaycanda hərbi dənizçilik işinin mühüm tərkib hissəsi Xəzərin bütün qərb sahilində Beşbarmaq, Gilgilçay, xüsusilə də bunlardan ən güclüsü sayılan Dərbənd kimi nəhəng sahilyanı istehkam qurğularının yaradılması olmuşdur.

Sasanilər tərəfindən qurulmuş Dərbənd müdafiə kompleksi şəhərin, uzunluğu 3,5 kilometr olan şimal və cənub divarlarından, uzunluğu 40 kilometrdən çox olmayan Böyük Qafqazın dağ zirvələrinədək uzanmış və yüksəklikdə yerləşən dağ divarı – Narınqala istehkamından ibarət idi. İstehkamda divarlararası məsafə 350 metr, dənizdə 450 metrə çatırdı. Hündürlüyü 18 metr olan divarın qalınlığı 4 metr idi. Divarlar arasında liman qurulmuşdu.

Sahilin arxeoloji tədqiqatları göstərdi ki, dəniz sahili boyunca şəhərin iki divarı arasında hamarlanmış, səthi dənizə yönəlmiş oval şəkilli (diametri 3 metrə qədər) çıxıntıları olan bir divar vardır. Çox güman ki, həmin tikinti gəmilərin boşaldılması üçün nəzərdə tutulmuş tərsanənin qalıqları və ya şəhəri dənizdən qoruyan müdafiə divarı olmuşdur.

Sasani şahları Dərbənd müdafiə kompleksinə xüsusi diqqət yetirir, burada daim böyük qarnizonlar saxlayırdılar.

VI-IX əsrlərin başlanğıcında Yaxın Şərq ölkələrini Cənubi-şərqi Avropa, Aşağı Volqaboyu və Şimalı Qafqazla birləşdirən mühüm ticarət yolları Xəzər dənizi hövzəsindən keçirdi. Volqadan və ya Xəzəryanı ölkələrdən gəmiləri qəbul edə bilən Dərbənd Xəzər dənizində mühüm limana çevrilmişdir. Limana giriş həmişə dəmir zəncirlələ bağlanırdı. Zəncirlər dənizə qədər davam edən paralel divarlar arasında uzanırdı. Gəmilərin limana girişi yalnız şəhər hakimlərinin icazəsindən sonra mümkün olurdu.

Ümumiyyətlə, həmin dövrdə Dərbənd Xəzər dənizində ən böyük limanlardan idi. Onun çox böyük saxlama imkanı var idi ki, bu da arası 450-500 metr olan şəhər divarları arasında idi. Dərbəndin dəniz divarlarının əmələ gətirdiyi limanın sahə ölçüləri 25 hektara çatırdı.

Möhkəm Dərbənd qala tikintisi Ərəb xilafətinin məşhur sərkərdələri Məsləmə, Mərvan və Cərrahın, Çingiz xanın tanınmış əsgərləri Subutay bahadır və Cəbə noyonun, dünyanın cahangiri Teymurləngin, məşhur Qızıl Orda xanı Toxtamışın, Səfəvilər dövlətinin şahı I İsmayılın, dünyanın məşhur fatehlərindən olan Nadir şahın ordularının hücumuna məruz qalırdı.

Bu şəhərə xüsusi maraq göstərmiş antik dövr müəlliflərindən Miletski Hekatey, Mitilenski Xares, Herodot, Strabon, Korneli Tasit, Klavdi Elian, Plini Sekund (böyük), Klavdi Ptolemey, İosif Flavi, Eli Eristid, Kassi Dion, Diodor Sisiliyski, Yevsevi İeronim, Markian Kapella və başqalarının yazılarında məlumatlara rast gəlinir. Dərbənd Orta Şərqin başlanğıcında yaşamış tanınmış müəlliflərin Favsta Buzanda, Yeqişe, Aqafanqela, Moisey Kalankatlı, Ananiya Şirakasi, Leonti Mroveli, Mixail Siriyski, Gevond və başqalarının yazılarında dəfələrlə xatırlanmışdır.

IX-XI əsrlərdə ərəb müəllifləri Bəlazuri, ət-Təbəri, əl-İstəxri, əl-Qərnati, ibn-Xordadbeh, Balami, əl-Məsudi, əl-Mükəddəsi, ibn-Rüstə, ibn-Haukal, əl-Kufi, əl-Yəqubi və başqaları bu şəhər haqqında kifayət qədər məlumat vermişlər. Şəhəri Avropa oxucularına orta əsrlər səyyahları Marko Polo, Gilyom Rubruk, Adam Oleari, Ambroco Kontarini, İosofat Barboro, Övliyyə Çələbi, Afanasi Nikitin, Fedot Kotov və başqaları tanıtmışlar. Rus alimləri XVIII əsrin başlanğıcından qədim Dərbəndin tarix və abidələrini fəal tədqiq etməyə başladılar. D.Kantemir, F.İ.Saymonov, İ.Qerber, X.D.Fren, B.A.Dorn, M.Kazımbəy, F.Z.Bayer, N.Y.Marr, N.B.Bakunin, P.Q.Butkov, S.M.Bronevski, S.Q.Qmelin, P.K.Uslar, N.V.Dubrovin, İ.N.Berezin, A.N.Neverovski, A.V.Komarov və başqaları Dərbənd haqqında faydalı məlumatları səliqə ilə toplayaraq, gələcək nəslə, tarixçilərə çatdırmışdılar. Dərbəndin çoxsaylı tədqiqatçıları arasında V.V.Bartold, İ.N.Orbeli, Z.M.Bünyadov, K.H.Əliyev, D.A.Axundov, N.A.Əliyev, B.K.Əhmədov, E.A.Paxomov, İ.Markvart, B.F.Minorski, P.M.Maqomedov, M.İ.Artomonov, K.B.Trever, L.İ.Lavrov, P.İ.Spasski, P.S.Savelyev, B.N.Zasıpkin, Q.N.Niberq, S.O.Xanmaqomedov, A.R.Şıxsəidov, A.A.Kudryavsev, Ş.S.Fətullayev-Fiqarov və başqalarının adları xüsusilə qeyd edilməlidir.

Əfsanəvi təbiəti, sirli tarixi və məşhur abidələri olan şəhər şair və yazıçıların ilham mənbəyi olmuşdur. O, Şərqin böyük şairləri Nizami Gəncəvi, Xaqani Şirvani, Sədi Şirazi, Mücir Beyləqani, Əbül Qasım Firdovsi, şah İsmail Xətainin ölməz əsərlərində tərənnüm edilmiş, böyük fransız roman ustası A.Dümanın (ata) «Qafqaz» adlı yol qeydlərində, rus etnoqrafı və publisisti V.L.Veliçkonun çoxcildli «Qavqaz. Rus işi. Tayfalararası məsələlər» əsərində, rus yazıçısı, dekabrist A.Bestujev-Marlinskinin povestlərində təsvir olunmuşdur.

Dərbəndin qədim hərbi-istehkam qurğuları öz möhtəşəmliyi, nəhəngliyi, mühəndislik və bədii memarlıq keyfiyyətlərinə görə dünyada yeganədir. İstehkamları, qüllələri və qapıları olan şəhər divarlarının qalıqları, Narınqala istehkamı, Cümə məscidi kompleksi, qədim qəbiristanlıqlar, günbəzləri olan yeraltı hamamlar, su anbarları sistemi, fəvvarələri və başqa tikililəri öz memarlıq həlli, dərin düşünülmüş layihəsi və ustalıqla yerinə yetirilməsi ilə insanı valeh edir.

Şəhərin mürəkkəb və narahat taleyi onun memarlığında öz əksini tapmışdır. Şəhər və onun istehkamları dəfələrlə dağıdılmış və hərbi, memarlıq xüsusiyyətlərini nəzərə almaqla yenidən bərpa edilmiş, öz xarici görünüşündə ənənələri, qədimlik elementlərini saxlamışdır.

Dərbənd çox dövrlərin şəhəridir. Onun memarlıq dəfinələri çoxlu nəsillərin əməyi nəticəsində yaradılmış və bu nəsillərdən hər biri onun xarici görünüşünə milli ənənə ruhunu bəxş etmişdir. Qədim Dərbəndin memarlığına yadelli işğalçıların, mədəni və dini əlaqələrin də təsiri az olmamışdır. Ona görə də şəhər abidələrinin yerinə yetirilməsində Azərbaycan, Dağıstan, Cənubi Qafqaz, Yaxın və Orta Şərq, Orta Asiya və Şimali Qafqaz xalqlarının ənənələri də öz əksini tapmışdır. Lakin qədim Dərbəndin memarlıq məktəbi nəinki öz ənənələrini saxlamış, hətta inkişafının ayrı-ayrı mərhələlərində Şimali Qafqazda memarlığın inkişafında mərkəzə çevrilmişdir.

İlk dəfə Dərbənd şəhəri haqqında tam məlumat, o cümlədən şəhərin yaranması, xalqların və ölkələrin tarixi taleyində şəhərin rolu, onun topoqrafiyası, toponimika və etnoqrafiyası, memarlıq abidələri, Dərbəndin görkəmli adamları, məşhur şəxsiyyətləri haqqında mülahizələr H.B.Hüseynovun «Dərbənd şəhərinin qısa ensiklopediyası» kitabında verilmişdir.

Hazırda Dərbənd Qafqazda ən qədim sənaye, nəqliyyat, mədəniyyət, elm və təhsil mərkəzlərindən biridir. Mütəxəssislərin hesablamalarına görə şəhərin yaşı 5000 ildən çoxdur. Əhalisi 102 min nəfər olan şəhərdə 60-dan artıq millətin nümayəndəsi yaşayır.

Müasir şəraitdə Rusiya Federasiyası ilə Azərbaycanı əlaqələndirən şəhər kimi Dərbəndin əhəmiyyəti böyükdür.

Elm. İctimai fikir və Dərbənd (XIX əsr). Ölkənin sosial və iqtisadi inkişafı ilə meydana gələn yeni maddi və mənəvi tələbat Azərbaycanın savadlı adamlarının elmi, ədəbi, fəlsəfi maraq dairələrini xeyli dərəcədə yeniləşdirir və genişləndirirdi. Dünyəvi təlim-tərbiyə ocaqlarının, xüsusilə qəza məktəblərinin, dövri mətbuatın və milli teatrın rüşeymlərinin meydana gəlməsi xidmətdə olan köhnə ziyalıların mənəvi cəhətdən yeniləşməsinə, yəni, müasir ziyalı nəslini yaranmasına yardım göstərirdi. Qabaqcıl zadəgan ziyalıları Avropa maarifi ilə tanış olmağa başlayırdılar. Bunun nəticəsində Azərbaycanda elmi təfəkkürün fəlsəfə, filologiya, coğrafiya, astronomiya kimi ənənəvi sahələri nəzərəçarpacaq dərəcədə canlanır və inkişaf edirdi. Faktlara və şəxsi təcrübəyə əsaslanan dəqiq və əsaslandırılmış konkret elmi tədqiqatlar meydana gəlirdi. Belə bir şəraitdə Azərbaycan alimləri, hər şeydən əvvəl, doğma diyarın tarixi keçmişini dərk etməyə daxili tələbat hiss edirdilər. Vətən tarixini bilmək həvəsi öz əsərləri ilə Azarbaycanda gerçək tarixi bilikləri yayan və inkişaf etdirən vətənpərvər tarixçilərin və salnaməçilərin bütov bir nəslinin meydana gəlməsinə yardım göstərdi. Onlar ilk mənbələr, canlı şahidlər, maddi mədəniyyət abidələri əsasında Azərbaycanın, onun ayrı-ayrı xanlıqlarının tarixini öyrənirdilər.

Dərbəndli Mirzə Heydər Vəzirov (1880-ci ildə vəfat etmişdir), onun öz sözləri ilə desək, «məşhur xanların yanında» və rus dəftərxanalarında mirzə işləmişdir. O, Nadir şahın ölümündən sonra, 1837-ci ildə fars dilində Dağıstan və Şirvanın siyasi tarixini şərh edən irihəcmli «Zübdət-ət-Təvarix» («Tarixlərin ən yaxşısı») adlı əsərini yazmışdır.

Dərbəndin görkəmli din xadimi Məhəmmədtağı (1843-cü ildə vəfat etmişdir) o dövr üçün aktual olan dini-siyasi mövzuda yazmışdır. Məhəmmədtağı 1840-cı ildə Dərbəndin baş axundu olarkən «alimliyinə və Şərq dillərindən yaxşı məlumatına»

görə Kazan Universitetinin müxbir üzvü seçilmişdi. 1841-ci ildə o, ərəb dilində «Əd-Dürr-əl-Mənzum finasayeh əl-Ümum» adlı əsər yazdı. Məhəmmədtağının əsəri Elmlər Akademiyasında müzakirə olunmuş, M.Kazım bəy və X.Fren kimi şərqşünaslar tərəfindən müsbət qiymətləndirilmişdir.

Zəmanəmizə qədər öz elmi əhəmiyyətini itirməyən çoxlu fundamental əsərlərin müəllifi, dünya şöhrətli şərqşünas alim Kazımbəy Məhəmməd Əli Hacı Qasım oğlu (22.6.1802. Rəşt - 27.11.1870. Peterburq) Azərbaycanda yaşamış şərqşünaslıq elminin inkişafina xüsusilə böyük töhfə vermişdir. M.Kazımbəyin bütün yaradıcılıq fəaliyyəti Kazan (1826-1849-cu illər) və Peterburq (1849-1870-ci illər) universitetlərinin divarları arasında keçmişdir. Onun elmi maraq dairəsi qeyri-adi dərəcədə geniş idi - filologiya, tarix, din, mədəniyyət, qanunşünaslıq, müsəlman Şərqinin coğrafiyası. Kazım bəyin əsərləri dünyanın bir çox dillərinə tərcümə edilmiş, elə müəllifin özü də fars, ərəb, türk, rus, ingilis, fransız dillərində sərbəst yazır və oxuyurdu. Kazım bəyin əsərləri arasında «Türk-tatar dilinin qrammatikası» (Kazan, 1839), «Müsəlman qanunşünaslığı kursu» (Kazan, 1845), «Firdovsiyə görə fars mifologiyası» (SPb., 1848), «Dərbəndnamə» (SPb., 1851), «Quranın tam konkordansı» (SPb., 1859), «Müridizm və Şamil» (SPb., 1859), «Bab və babilər» (SPb., 1865) və başqaları özlərinin sanballılığı ilə fərqlənir.

Kazım bəyin «Türk-tatar dilinin qrammatikası» əsəri Demidov mükafatına layiq görülmüşdü. Bu əsərdə o, türk dili sırasında, Azərbaycan dilinin də elmi prinsiplərini və qaydalarını işləyib hazırlamışdır.

Kazım bəy Şərqin maariflənməsinə xeyli güc və enerji sərf edirdi və əmin idi ki, «orada sivilizasiya ruhu gizlənmişdir».

Kazım bəy N.İ.Lobaçevski, L.N.Tolstoy, N.Q.Çernışevski və Rusiyanın digər qabaqcıl adamları ilə tanış idi və onlarla əlaqə saxlayırdı. O, A.S.Puşkinin «Bağçasaray fontanı» poemasını rus dilindən Azərbaycan dilinə tərcümə etmişdi. Kazım bəy Rusiyanın bir çox Şərq elmi cəmiyyətlərinin həqiqi üzvü idi. O, Rusiyanın, Qərbi Avropa və Amerikanın şərqsünasları arasında xüsusi hörmətə malik idi. Onun haqqında yazılmış nekroloqda deyilirdi: «Nə qədər ki şərq haqqında məlumatlar işlənəcək - bu isə heç vaxt dayandırılmayacaq – Kazım bəyin adı hörmətlə çəkiləcək».

Kazım bəyin kiçik qardaşı Əbdül Səttar Kazım bəy Kazan universitetində türk-tatar dilinin müharizəçisi olmuşdu.

Bax: Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). - Bakı. Elm, 2007. səh. 145-146, 151-154.

F Ə L S Ə F Ə

XI-XII əsrlərdə Azərbaycanda ictimai-siyasi, dini, dini-fəlsəfi və elmi-fəlsəfi baxışlar keçmiş ideyalar zəminində yaranıb formalaşmışdır. İslam dini burada hakim ideologiya olsa da, digər dini əqidələr tamamilə aradan qalxmamışdı. Arranın bəzi yerlərində xristianlıq rəsmi şəkildə fəaliyyət göstərirdi. Əsasən ölkənin cənub rayonlarında qalmış atəşpərəstliyə onun şimalında da (Beyləqan, Dərbənd və s.) təsadüf edilirdi.

O dövrün fəlsəfi fikri Azərbaycan ilahiyyatçıları Əbuhəfs Zəncani, Əbu Ömər Osman Dərbəndi, Əbulfəz Üşnuhi, Əbu Bəkr Urməvi, Əbu Xəfif Şirvani və başqa mütəfəkkirlərin ortodoksal təmayüllü teoloji risalələrində öz əksini tapmışdır.

XI-XII əsrlərdə Azərbaycanda fəlsəfi fikir fiqhə, kəlama (sxolastikaya) və təsəvvüfə (mistikaya) dair traktatlarda, xüsusən peşəkar filosofların yaradıcılığında inkişaf edirdi. Folklor nümunələri, o dövrdə yazıya alınmış «Kitabi-Dədə Qorqud» dastanları yaranan əbəbi əsərlərin mövzularına sirayət etdiyi kimi xalq hikməti də fəlsəfi təfəkkürə təsirsiz qalmırdı, əsrlərin sinağından çıxmış müdrik kəlamlar elmi düşüncələrə belə nüfuz edirdi.

Fiqh-kəlam məktəblərində və təsəvvüfdə əsasən dini-fəlsəfi fikir inkişaf etdirilmişdir. Fiqh «müsəlman hüququ», kəlam isə «müsəlman sxolastikası, ilahiyyatı» mənasını daşımasına baxmayaraq, bunlar arasında kəskin fərq qoyulmurdu. Sxolastlar bir qayda olaraq dövlət işlərində çalışır, hüquq məsələləri ilə də məşgul olurdular, başqa sözlə, *mütəkəllimlər* (sxolastlar) eyni zamanda *fəqih* (hüquqşünas) idilər. Müxalifətçi sxolastika – *mütəzillilik* gizli fəaliyyət

göstərirdi, ortodoksal sxolastika - *əşərilik* isə XI əsrin ikinci yarısında rəsmi dairələrdə artıq qəbul edilmişdi. *Əşərilik rəy* və məntiqi mühakimələrə üstünlük verən hənəfilərlə qəti təəssübkeş hənbəlilər arasında orta mövqe tutan şafii məzhəbli fəqihlər içərisində daha geniş yayılmışdı. XI-XII əsrlərdə Azərbaycanda görkəmli hüquqşünas sxolastlar yaşayıb fəaliyyət göstərmişlər. Yaxın və Orta Şərqdə Əbuishaq əş-Şirazi əl-Firuzabadi (1003-1083), Əbuhəmid Məhəmməd əl-Qəzali (1059-1111), Fəxrəddin Məhəmməd ər-Razi (1148-1209) və başqa məşhur fəqih-mütəkəllimlərdən təhsil almış həmin alimlər elmi yaradıcılıqla bərabər, mədrəsələrdə dərs demiş, dövlət işlərində calışmışlar. Onlardan Təbriz nahiyəsinin qazısı Büdeyl ibn Əli əl-Bərzəndi (vəfatı. 1082), onun oğlu Əbumənsur Salih (vəfatı. 1099), «Bağdad fəqihi» fəxri adını almış, ədalətli hüquqşünas (*fəqih salih*) Əbu Ömər Osman əd-Dərbəndi (1106-cı ildən sonra vəfat edib), vərəsəlik hüququna dair əsər yazmış Əbdüləziz ibn Əli əl-Uşnuhi (61. 1111), «mahir hüquqşünas, disputçu» *(fəqih bari münazir)* Deyr əl-Aqulda qazı işləmiş Əbülfəzl Məhəmməd ibn Ömər əl-Urməvi (1067 - 1152), «dini təlimdə, dolayı sübutda və üsulda görkəmli tədqiqatçı, hüquqşünas» *(fəqih, mühəqqiq, fadilfi elm əl-məzhəb və-l-xələf və-l-üsul)* Əbuhəfs Ömər ibn Əhməd əz-Zəncani əl-Xətibi (doğ. 1098) və başqalarını göstərmək olar.

Bax: Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü). - Bakı. Elm, 2007. s.539-540.

Reyhan əl-Həqaiq və Bustan əl-Həqaiq – sufizm ideologiyası üzrə məşhur traktat. Bu əsəri XI əsr Dərbənd filosofu Əbu Bəkr əl-Dərbəndi yazmışdır.

Nizami Gəncəvi və Dərbənd. İlyas Yusif oğlu Nizami Gəncəvi 1141-ci ildə Gəncədə anadan olmuş, ömrünün sonuna – 1209-cu ilə qədər orada yaşamışdır. O, mükəmməl təhsil görmüş, ciddi mütaliə etməklə, xalq müdriklərinin söhbətlərini dinləməklə biliyini artırmağa səy göstərmişdir. Dini və dünyəvi elmlərə dərindən yiyələnmiş mütəfəkkir bədii yaradıcılığını həmin özül üzərində qurmuşdur.

Nizami saraylarda yaşamaqdan boyun qaçırmış, müstəqil həyat sürmüşdür. O, zahidlərdən və bəzi sufilərdən fərqli olaraq maddi nemətlərə, ümumiyyətlə, var-dövlətə real münasibət bəsləmişdir. «Bir ovuc su ilə çörək üçün hər ayağın torpağı olma» deyən mütəfəkkir yalnız halal zəhmətlə yaşamaq prinsipinə görə çətinliklərə, məhrumiyyətlərə qatlaşmış, qənaətlə gün keçirmişdir.

Nizami Dərbənd hökmdarının kəniz kimi hədiyyə göndərdiyi «ağıllı, kamallı, gözəl, xoşqədəm» qıpçaq qızı Afaq (Anaq) ilə evlənmişdir. Afaqın vaxtsız vəfat etməsi şairin növrağını pozmuş, onu körpə övlad qayğıları çəkməyə məruz qoymuşdur. Nizami sonralar Afaqı xatırlayaraq yazırdı: «Türklər kimi köçməyə möhtac olanda ömrümü türk kimi talan elədi. Türküm çadırımdan köçüb getdisə, ilahi, türkzadəmi sən ozün saxla!»

Bax: Məmmədov Z. Azərbaycan fəlsəfəsi tarixi. - Bakı, 2006, səh.161.

Mirzə Məhəmməd Əli Kazim bəy (1802-1870). Azərbaycanda XIX əsr qabaqcıl ictimai fikrinin görkəmli nümayəndələrindən biri professor Mirzə Məhəmməd Əli Kazım bəydir.

Tanınmış şərqşünas professor İ.N.Berezin öz müəllimi professor Mirzə Kazım bəy haqqında yazırdı: «Çox varlı olmasa da, oğluna müsəlman anlayışına görə əla təhsil vermiş, atasının evində tərbiyə almışdır. Atasından başqa Mirzə Məhəmməd Əlinin müəllimləri - ...ərəb qrammatikasından Molla Saleh Bilici, ritorika və məntiqdən Molla Əbdüləziz Xiskənci, hüquq elmi və onun bütün sahələrindən Şimali İranda məşhur hüquqşünas Şeyx Məhəmməd Bəhreynli olmuşdur. Mirzə Məhəmməd Əlinin parlaq fitri istedadı ona müsəlman təliminin tam kursunu çox tez başa vurmağa imkan vermişdi». İ.N.Berezin yazır ki, Kazım bəy hələ ailədə olarkən, Azərbaycan, fars və ərəb dillərini mükəmməl öyrənmişdi. O, tam bir sıra elmləri öyrənir və vaxtı gələndə öz atasının yerini tutacağını güman edirdi.

Mirzə Kazım bəyin atası Qasım Kazım bəy Dərbənd sakini idi. Sonralar o, Dərbənddə şeyxülislam olmuşdu.

Mirzə Kazım bəyin «Ərəb dilinin müxtəsər qrammatikasi» adlanan ilk elmi əsəri 1819-cu ildə, 17 yaşı olarkən çıxmışdır.

Professor Mirzə Kazımbəy 1842-ci il fevralın 12-də avtobioqrafik səciyyəli xatirəsində yazırdı:

«Gürcüstanı və ümumiyyətlə Qafqazi diyarını Rusiyanın müzəffər silahının fəthinə qədər bütün Dağıstan və onunla qonşu əyalətlər gah İran, gah da Türkiyə ilə müttəfiq olan ayrı-ayrı ölkələrdən ibarət idi. Keçən yüzilliyin sonunda Quba və Dərbənd əyalətləri qələbələrinin gurultusu ilə müasir qonşularının bağrını yaran xüsusi xanlar tərəfindən

idarə olunurdu. Yekaterinanın müasiri Fətəli xan bir müddət öz əzəməti və cürəti ilə şöhrətlənmişdi. Onun iqamətgahı Dərbənddə idi. Onun nazirləri arasında mənim babam da vardı və öz vəzifəsinə görə maliyyə naziri və yaxud xalq ərzağı popeçiteli demək olan nazir rütbəsi daşıyırdı. Həmin xanın ölümündən sonra və rusların Zaqafqaziya diyarına yürüşləri zamanı iğtişaşlar və ara müharibələri artıq çoxdan bəri dünyəvi və hərbi həyatdansa ruhani və alim həyatına daha meyilli olan atamı müsəlmanların müqəddəs yerlərinə səyahət etməyə və öz həyatını elmə həsr etməyə vadar etdi».

1820-ci ildə Kazımbəyin atası Qasım Kazımbəy çar hakimiyyət orqanlarına qərəzli münasibət bəsləyən şəxslərlə gizli yazışmada şübhəli bilinmiş, bütün əmlakı müsadirə edilərək Həştərxana sürgün olunmuşdu. Bu barədə Kazımbəy bunları xəbər verir:

«...Rusiyanın həmişəki xeyirxahı, amma rütbəsinə görə xalq hüququnun müdafiəçisi olan atamın Dərbəndin yerli bəylərindən birinin simasında güclü düşməni var idi, o öz fitnə-fəsadları ilə hökumətin nəzərində atamın birinci ləyaqətinə ikincisi ilə kölgə salmağa müvəffəq olmuşdu; bu səbəbdən yaranan çoxlu narazılıqlar fəsadçının cidd-cəhdlə köməyi ilə gün-gündən artdı və bu, hökümətin hərbi məhkəmə təyin etməsi, onun atamı on dörd dostu ilə birlikdə, malikanəsi alınaraq Həştərxana sürgünə məhkum etməsi ilə bitdi».

1821-ci ildə Kazım bəy Həştərxana atasının yanına getmiş, burada özünə iş axtarmağa məcbur olmuşdu. O zaman Həştərxanda olan xarici missionerlər Mirzə Kazımbəydən Şərq dilləri, o cümlədən ərəb, Azərbaycan dilləri müəllimi olmasını xahiş etdilər. Azərbaycan, türk, fars və ərəb dillərini gözəl bilən Mirzə Kazım bəy təklifi qəbul etdi.

Şərq dilləri müəllimi olarkən, o özü müntəzəm surətdə ingilis, fransız, alman və qismən yəhudi dillərini öyrənir və sonralar 6 dildə - həm Şərq, həm də Qərb dillərində yazır, oxuyur və danışırdı.

Qafqaz üzrə Baş komandan A.P.Yermolov qraf Nesselrodeyə 28 oktyabr 1824-cü il tarixli raportunda bildirirdi ki, bundan sonra Mirzə Kazımbəyin Həştərxanda qalması Rusiyanın ümumi siyasəti üçün təhlükəli və ziyanlıdır; onu sürgün etmək vacibdir.

Yermolovun tələbi yerinə yetirildi. Mirzə Kazımbəyi Sibirə sürgün etməyi qərara aldılar, lakin sürgünə gedərkən yolda o, ağır xəstələndi və müvəqqəti olaraq Kazanda saxlanıldı.

Kazanda Mirzə Kazım bəy özünə qarşı böyük maraq oyatdığı professor Fuksla tanış oldu və o, başqa alimlərlə birlikdə Maarif Nazirliyinə Kazımbəyin Kazan Universitetinin Şərq dilləri üzrə mühazirəçisi kimi Kazanda saxlanılması xahişi ilə müraciət etdi. Bir neçə aydan sonra alimlərin xahişi yerinə yetirildi. 1826-cı il oktyabrın 31-dən Mirzə Kazım bəy Kazan Universitetində Şərq dilləri üzrə mühazirələr oxumağa başladı.

İyirmi ildən artıq bir müddətdə Kazımbəy Kazan Universitetində məhsuldar elmi və pedaqoji fəaliyyətlə məşğul olmuş, şərqşünaslığa dair çoxlu elmi əsərlər yazmışdır.

Kazimbəyin Kazan Universitetindəki fəaliyyəti çoxşaxəli idi. 1835-ci il nizamnaməsinin tətbiqi ərəfəsində Kazan Universitetində professor-müəllim heyətinin tərkibinin tədqiqat predmetləri və obyektləri müəyyən olunmuşdu. Nizamnamə ilə əlaqədar prof. M.Kazım bəyin də tədqiqatlarının obyekti müəyyən edildi. «... Mühaziröçi Kazım bəy məşğul olacaqdır: 1) Sədinin «Gülüstan»ının bəzi hissələrinin təhlili ilə; 2) Sədidən və digər İran müəlliflərinin əsərlərindən seçmə yerləri fars dilindən rus dilinə tərcümə etməklə və bu zaman müxtəlif yazı üsullarını öyrədəcək; 3) ərəb dilinin tədrisi üzrə isə əl-Quranın oxunması və düzgün tələffüzü, qrammatik qaydalarının izahı ilə və əl-Qurandan və ibn Xəllikanın «Vəfəyat ələyan və ənba əbna əzzəmən» («Görkəmli adamların vəfalı və zəmanə oğulları haqqında xəbərlər») adlanan əsərindən tərcümələr etməklə məşğul olacaq».

1835-ci ilin yeni Nizamnaməsinə əsasən Kazan Universiteti dörd şöbə əvəzinə üç fakültəyə, yəni: fəlsəfə, hüquq və tibb fakültələrinə bölündü. Fəlsəfə fakültəsinin tərkibində iki şöbə: dillər və fizika-riyaziyyat şöbələri var idi, həm də dillər şöbəsi ümumi dillər və Şərq dilləri üzrə mütəxəssislər hazırlayırdı. «Nəhayət, artıq avqustun 20-də (1837-ci il – N.Ə.) popeçitel rektorun, prorektorun, tibb və fəlsəfə fakültəsinin 1-ci şöbəsinin dekanlarını təkrar səsə qoymağı təklif edərək, qalan seçkiləri təsdiq etdi. Sentyabrın 7-də belə də edildi, onda məlum oldu ki, Semyonov rektor, Foqt prorektor, Protopopov və Kazım bəy yuxarıda adları çəkilən fakültələrin dekanları seçilib».

Məlum olduğu kimi, Kazan Universiteti elmi-

tədqiqat işini genişləndirdi. Universitetin aparıcı professor və müəllimləri çoxlu tədqiqat əsərləri nəşr etdirirdilər. Kazan Universiteti mühüm elmi ekspedisiyalarda iştirak edirdi. Universitetin digər professorları sırasında Mirzə Kazım bəy Peterburq Elmlər Akademiyasının üzvləri - Fren, Topçubaşov və Dornla sıx əlaqə saxlayırdı.

Kazan Universitetinin elmi ictimaiyyəti və o cümlədən universitetin Elmi Şurası professor Mirzə Kazımbəyin əsərlərini yüksək qiymətləndirirdi. «Mükəlləfiyyət Şurası belə hesab edir ki, əvvəlcə universitet üçün əhəmiyyətli və ona şərəf gətirən əsərlərin, məsələn, Şərq dillərinin tələbələrinin prof. Kazım bəyin rəhbərliyi altında tərtib etdikləri Fars-Ərəb-Türk-Rus lüğəti kimi əsərlərin nəşri üçün vəsait axtarılmalıdır».

O vaxtlar Kazan Universitetində şərqşünaşlıq elmi yüksək səviyyədə idi. Universitetin Şərqdə çoxlu daimi müxbirləri var idi. Maraqlıdır ki, professor Mirzə Kazımbəyin atası Kazan Universitetinin daimi müxbiri seçilmişdi. «...Lobaçevskinin təklifi ilə, şura 1837-ci il noyabrın 6-da Dərbənddə yaşayan Hacı Kazım bəyi (Məhəmmədxan bəyin oğlu, prof. Kazımbəyin atasını), ona ildə 100 rubl məvacib təyin etməklə, universitetin müxbiri seçir, buna görə ki, o, universitetə Şərq dillərində əlyazmalar və «tarixə, ədəbiyyata, statistikaya və coğrafiyaya dair yalnız yerində toplanan məlumatlar» çatdıra bilər. Şura eyni zamanda universitetin həmin müxbirlə maneəsiz əlaqə saxlaya bilməsi üçün Gürcüstanda baş komandana xahişlə müraciət etməyi qərara aldı».

Kazan Universitetində professor Mirzə Kazımbəy şərqşünaslığa dair sanballı tədqiqat əsərləri ilə alimlər arasında böyük nüfuz qazanmışdı. Mirzə Kazım bəyin adı təkcə Rusiyada deyil, xaricdə də məşhur idi. «O (professor Mirzə Kazımbəy). Avropa təhsilinə yiyələnmiş fars (azərbaycanlı – *N.Ə.)* aliminin nadir nümunəsidir. O, Dərbəndin əsilzadə nəslindən idi, orada onun babası Dərbənd xanı Fətəli xanın vaxtında nazir - Xalq ərzağı naziri və yaxud popeçiteli vəzifəsini tutmuşdu... Kazanda Kazım bəyin qarşısında onun dərin erudisiyası və yorulmaz fəaliyyəti üçün geniş meydan açıldı. Bu müddət ərzində əsərləri onun adını həm rus, həm də əcnəbi alim və oriyentalistlər arasında məşhur etdi».

Professor Mirzə Kazımbəy Kazan Universitetində 1827-1828-ci akademik ilində öz fəaliyyəti haqqında bunları yazır: «1) Mən, Q.Boldırevin hazırladığı İran müntəxəbatını oxudum - tələffüz öyrətdim. 2) Əlyazmalarını təhlil etdim, onların vasitəsilə müxtəlif yazı üsullarını göstərdim. 3) Dövlət Şahın yazdığı Təzkirə ət-qövl şüəranın tərcüməsi ilə məşğul oldum; qrammatik qaydaları başa saldım. 4) Əl-Quranın tərcüməsi ilə məşğul oldum, onun bəzi çətin yerlərinə ən yaxşı müəlliflərin verdikləri şərhləri tətbiq edərək, kök sözləri, düzəltmə sözlərin mənalarını və qrammatik qaydaları izah etdim. 5) İbn Xəllikanın ərəb dilində «Vəfəyat əl-əyan» əsərindən bəzi parçaları oxudum və tərcümə etdim. 6) Karamzinin «Tarix»indən bəzi parçaları rus dilindən fars dilinə tərcümə etdim».

Kazan Universitetinin şərqşunaslıq üzrə elmi ekspedisiyalarının və səyahətlərinin bütün planları ya professor Mirzə Kazım bəyin özü tərəfindən, ya da onun bilavasitə iştiraki ilə tərtib olunurdu. Arxivlərdə saxlanılan «magistrlər Berezin və Dittelin Avropa Türkiyəsi, Kiçik Asiya, İran, Suriya və Misirə üçillik elmi səfərə göndərilməsi haqqında...» yazıda, 128-ci vərəqdə Kazım bəy tərəfindən tərtib edilən və 1841-ci ildə Kazanda nəşr olunan «Dittel» və Berezinin «Şərqə elmi səfər planı» verilir.

Professor Mirzə Kazımbəyin alim kimi dərin erudisiyası haqqında Brokhauz və Efronun Ensiklopedik lüğətində deyilir: «Onun şərqşünaslıq sahəsində dərin erudisiyası Avropa təhsilinə yiyələnməsi səbəbinə (o, ingilis və fransız dillərində yazırdı), Kazım bəyi dərhal istər Qərbi Avropanın, istərsə də rusların ən yaxşı oriyentalistlərinin cərgəsinə keçirdi».

Akademik V.Bartold özünün «Avropada və Rusiyada Şərqin öyrənilməsi tarixi» əsərində Rusiyada şərqşünaslıq elmlərinin inkişafı və rus şərqşünaslığının baniləri haqqında danışarkən, Mirzə Kazım bəyin onlardan biri olduğunu göstərir. Professorlar Senkovski və Mirzə Kazım bəy öz tədqiqatları ilə rus şərqşünaslarının bütöv bir məktəbini yaratdılar. «Rusiyada ərəb, fars və türk dillərinin öyrənilməsindəki uğurlara xaricdən dəvət olunan professorların mühazirələrindən başqa Boldırevin Moskvada (1811-1837), Senkovskinin Sankt-Peterburqda (1822-1847), Kazım bəyin Kazanda (1826-1845) və Sankt-Peterburqda (1845-1870) uzunmüddətli müəllimlik fəaliyyəti səbəb olmuşdu. Boldırev XIX əsrin son onilliklərinə qədər Rusiya universi-

tetlərində istifadə edilən ərəb və fars dilləri üzrə dərs vəsaitlərinin müəllifi idi. Senkovski və Kazım bəy öz mühazirələri ilə rus şərqşünaslığını yaratmışlar; sonrakı nəsillərin, demək olar, bütün rus oriyentalistləri bu iki alimdən birinin şagirdi və yaxud onların şagirdlərinin şagirdi olmuşlar».

Peterburq Universitetinin dəvəti ilə Kazım bəy elmi fəaliyyətini Peterburqda davam etdirmək üçün Kazan Universitetini tərk etdi.

Kazan Universitetinin alimləri Kazım bəyin şərəfinə vida gecəsi təşkil etdilər. Gecədə çıxış edən şagirdi prof. İ.N.Berezin müəlliminə özünün ən xoş arzularını şeirlə ifadə etmişdi. Aşağıda həmin şeirdən bir parça verilir:

«Mən inanıram və siz də inanın,
O öz böyük qəhrəmanlığını şərəflə
Həyata keçirəcəkdir Nevanın sahillərində,
Şimali və əsrarəngiz Pamirdə;
Oriyental müdrikliklə
Tanış edəcəkdir rus aləmini
Onda gəlin uzun yol qarşısında deyək:
«Yaxşı yol, yaxşı yol!»

Professor Kazımbəyin Peterburq Universitetində elmi-pedaqoji fəaliyyətə başlaması haqqında V.V.Qriqoryev yazırdı: «Fars dili kafedrasında Mirzə Cəfərin varisi təkcə bizdə yox, bütün Asiyada və bütün Avropada hazırkı dövrün ən gözəl şəxsiyyətlərindən biri, dərin müsəlman təhsilini Avropa elmi ilə əsaslı tanışlıqla birləşdirən, istər ərəb, fars, türk, istərsə də ingilis, fransız, rus dillərini eyni dərəcədə yaxşı bilən və bu altı dilin hamısında yazan və dərc edilən asiyalı oldu».

M.Kazım bəyin tələbələri arasında böyük şərqşünaslar vardır. Onlardan prof. İ.N.Berezinin, İ.A.İvanovun, N.İ.İlminskinin və bir çox başqalarının adlarını çəkmək olar.

Xüsusi qeyd etmək lazımdır ki, N.Q.Çernışevski Peterburq Universitetinin tələbəsi olarkən (1846-1850) professor Mirzə Kazım bəylə görüşmüşdü. Onların tanışlığı təsadüfi ola bilməzdi, çünki Çernışevski Şərq dilləri ilə çox maraqlanırdı. 1850-ci ildə N.Q.Çernışevski buraxılış imtahanlarına ciddi hazırlaşırdı. Çernışevskinin gündəliyində 1850-ci il aprelin 15-də edilən bir qeyddə deyilirdi: «Oraya (imtahanlara – *N.Ə.*) mən Kazım bəylə birgə gəldim və bir qədər onunla söhbət etdim...».

Professor Mirzə Kazımbəy tərəfindən 110-dan artıq elmi əsər yazılmışdır, onların çoxunda Şərqdəki ictimai-siyasi və fəlsəfi cərəyanlardan bəhs edilir; Kazım bəyin Azərbaycan dilinin öyrənilməsinə dair tədqiqatlarını xüsusi qeyd etmək lazımdır. Mirzə Kazımbəy tam 170 il qabaq Azərbaycan dilinin elmi qrammatikasının əsas prinsiplərini yaratmışdır. Onu da qeyd etmək lazımdır ki, ilk dəfə olaraq məhz o, «Azərbaycan dili» istilahını elmi cəhətdən əsaslandırmış və tətbiq etmişdir. Həm də o belə yazırdı: «азербиджанский».

Azərbaycan dilinin öyrənilməsi sahəsində öz tədqiqatları haqqında danışarkən Kazım bəy yazırdı: «Mən xoşbəxtəm ki, bu predmet haqqında ilk dəfə olaraq belə müfəssəl yaza bilmişəm. İndi mən gənc oriyentalistlərin rus nəsli üçün asudə vaxtlarımın mənə imkan verdiyi qədər iş görmüşəm».

M.Kazımbəyin şərqşünaslıq məsələlərinə dair, demək olar, bütün əsərləri ingilis, fransız və alman dillərinə tərcümə edilmişdir. Həmin əsərlər arasında «Bab və babilər: 1844-1852-ci illərdə İranda dini-siyasi iğtişaş», «Müridizm və Şamil», «Alim imam», «Dərbəndnamə», «Şərq dilləri elminin Avropaya gəlib çıxması və uğurları», «İslam tarixi» və bir çox başqalarını qeyd etmək lazımdır. Professor Kazımbəyin elmi əsərlərinin əksəriyyəti mükafatlara layiq görülmüşdü. Professor Kazımbəyin yaratdığı Azərbaycan dilinin qrammatikası 1846-cı ildə ikinci dəfə nəşr edilmiş və Demidov mükafatına layiq görülmüşdü.

Professor Mirzə Kazımbəy 1870-ci il noyabrın 27-də Peterburqda vəfat etmişdir. Şuranın iclasında Peterburq Universitetinin mühazirəçisi onun haqqında demişdir: «Uzun sürən və faydalı elmi və pedaqoji fəaliyyəti, dərin insanpərvərliyi və alicənab xarakteri Şuranın bütün üzvlərinə yaxşı bəlli olan mərhum Ə.K.Kazımbəyin şəxsində universitetə ağır və əvəzsiz itki üz vermişdir». Professor İ.N.Berezinin yazdığı nekroloqda deyilirdi: «Nə qədər ki Şərq haqqında biliklər öyrəniləcək - bu isə heç vaxt başa çatmayacaq, Kazım bəyin adı hörmətlə çəkiləcəkdir».

Bax: H.Hüseynov. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən. - Bakı, 2007, səh. 124-136.

TƏBİƏT VƏ TEXNİKA ELMLƏRİ

Üzümçülük və tərəvəzçilik üzrə Dağıstan vilayət seleksiya təcrübə stansiyası 1926-cı ildə Dərbənd şəhərində Dağıstanın kənd təsərrüfatı üzrə ilk elmi-tədqiqat müəssisəsi kimi açılmışdır.

İlk illər təcrübə stansiyası sahə bitkiləri – taxil, paxlalı bitkilər, kətan (kenaf, pambıq və s.) və tərəvəz bağçaçılıq bitkiləri üzərində iş aparırdı.

1931-ci ildə Dağıstanın üzümçülük və bağçaçılıq seleksiya təcrübə stansiyasının bazasında Dağıstanın üzümçülük və şərabçılıq üzrə zona təcrübə stansiyası yaradıldı. M.A.Ulusski bu müəssisənin direktoru təyin olundu.

1933-cü ildə Dağıstan üzümçülük və şərabçılıq üzrə zona təcrübə stansiyası üc müstəqil zona təcrübə stansıyasına bölündü: üzümçülük, tərəvəzçilik və taxil bitkiləri üzrə.

1935-ci ildə bu stansiyalar üzümçülük və tərəvəzçilik üzrə Dağıstan zona təcrübə stansiyasında birləşdirildi. Bu stansiya 1957-ci ildə Dərbənd üzümçülük və tərəvəzçilik üzrə təcrübəli stansiyası kimi Dağıstanın Kənd Təsərüfatı Elmi-Tədqiqat İnstitutunun tərkibinə daxil oldu.

1978-ci ildən bu stansiya Dərbəndin üzümçülük üzrə təcrübə stansiyası, 1991-ci ildən isə – Dağıstanın üzümçülük və tərəvəzçilik üzrə seleksiya təcrübə stansiyası adlanmağa başladı.

Təcrübə stansiyasının ilk elmi işçiləri A-T.Q.Talıbov, M.Y.Peytel, M.Ulusski, V.N.Kornilova, F.O.Adamanov, N.A.Kirsanov, T-S.İ.Mullayev və başqaları olmuşlar.

Dərbəndin üzümçülük və tərəvəzçilmk üzrə seleksiya təcrübə stansiyası fəaliyyət göstərdiyi illərdə onun elmi əməkdaşları yerli üzümün 150-dən çox öyrənib aşkara çıxarmışlar: Qoz-üzümü, Asıl-qara, Şabağı, Emen-hacı, Əli-ağa, Şah-üzümü, Hüsayne, Güləbi, Xətmi, Molla-Hüseyn, Dubut, Şavranı, Çauş, Riş-baba, Sarah, Təbriz, Vəznə, Ağ-əmcək, Sarı-əmcək, Qara-əmcək və s. Onlar yeni yüksəkməhsullu, transportabelli və yüksəkşəkərli üzüm sortları aşkara çıxarmış, tərəvəz bitkilərinin yerli sortlarının yaxşılaşdırılması, onların xəstəlikləri və ziyanvericiləri ilə mübarizə üsullarını işləyib hazırlamışlar.

Stansiyanın əməkdaşlarının apardıqları tədqiqatlar nəinki bizim ölkədə, onun hüdudlarından uzaqlarda da geniş tanınmışdır. Onlar «SSRİ-nin Ampeloqrafiyası» (1953-1954) (üzüm sortları və növləri haqqında elm), «SSRİ-nin ən yaxşı üzüm sortları» (1972), «SSRİ Ampeloqrafiyası» (1984), «Beynəlmiləl ampeloqrafik reyestr» (Fransa), «Üzümçülük ensiklopediyası» (1987) əsərlərində nəşr olunmuş və onlarla digər əsərlər respublikanın üzümçülərinə və tərəvəzçilərinə kömək məqsədilə ayrı-ayrı nəşrlərlə çap olunmuşdur. Stansiyanın apardığı işlər «SSRİ- nin xalq təsərrüfatı nailiyyətləri Sərgisinin I dərəcəli Attestatına» (1972), «SSRİ xalq təsərrüfatı nailiyyətləri Sərgisinin II dərəcəli Attestatına» (1973), Dağıstan MSSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanına (1980), Dağıstan Respublikasının Fəxri fərmanına (1997) layıq görülmüşdür.

ELMİ ELİTA VƏ ZİYALILAR

Dərbənd – Qafqazın ən qədim elmi mərkəzlərindən biridir. Yerli müəlliflər tərəfindən tərtib olunmuş salnamələr şəhərin tarixi üzrə ən qiymətli mənbələr hesab olunur. Belə ki, VII əsrin alban tarixçisi Moisey Kalankatlı 626-cı ildə şəhərin çar Ziqibelin rəhbərliyi altında xəzərlər tərəfindən mühasirəyə alınması haqqında məlumat verir.

Dərbənd şəhəri elmi fikrin mərkəzi kimi Azərbaycanda və bütün Qafqazda, İran, Bizans və Ərəb Xilafəti kimi qədim sivilizasiya ölkələrinin mədəni, elmi adət-ənənələrinin yayılmasında böyük rol oynamışdır.

Vaxtilə burada atəşpərəstliyin və qədim İran mədəniyyətinin digər komponentləri yayılmışdır. Məlumdur ki, dövrün dini təriqəti olan atəşpərəstliyin əsasını çoxpilləli əsər olan «Avesta» təşkil edir. Bu əsərdə təbiətin dini ayinləri ilə yanaşı, kəndlilərin, quldarların, feodalların – əhalinin geniş təbəqəsinin maraqları öz əksini tapmışdır. «Avesta» dini əsər olmaqla yanaşı, həm də böyük fəlsəvi-etik əsərdir.

Sonrakı əsrlərdə Dərbənddə xristian dini yayılmağa başlamışdır. VII əsr alban tarixçisi Moisey Ka-

lankatlının göstərdiyi kimi, burada xristian dininə hələ II əsrdə sitayiş edilirdi. Alban çarı Urnaynın (IV əsr) köməyi ilə bu din dövlətin ərazisində əsas din hesab olunurdu və Dərbənd nəinki Qafqaz Albaniyasında, həm də bütün Şərqi Qafqazda xristian dini mərkəzinə çevrilmişdir. Burada patriarxın iqamətgahı yerləşirdi.

Dərbənd Qafqazda bütün şəhərlərdən əvvəl islamlaşdırıldı (VIII əsr) və ərəb-müsəlman mədəniyyətinin ilk mühüm dayağı oldu. Tədqiqatlar göstərir ki, artıq X-XI əsrlərdə burada ərəb-müsəlman siyasi-hüquqi və mədəni əlaqələri möhkəmlənmişdir.

Bundan əlavə, Dərbənd Şirvanın bilavasitə qonşuluqda yerləşdiyi üçün, onunla sıx bağlı idi, öz üzərində onun mədəniyyətinin təsirini hiss edirdi. Şirvanın mədəniyyətinin yüksək səviyyədə olması haqqında yazılı mənbələrin məlumatından görmək olar. Beləki, Mənuçöhrün hökmranlığı dövründə (X1 əsr) dünyanın hər yerindən alimlər, elm və poeziyasevərlər Şirvana toplanırdı.

Dərbəndlilər təhsillərini davam etdirmək üçün Buxaraya, Dəməşqə, Bağdada, İsgəndəriyyəyə, Qahirəyə və digər müsəlman təhsil aləminin mərkəzlərinə gedirdilər, onlar məşhur alim, ərəb və fars dillərinin, astronomiyanın və ilahiyyatın bilicisi kimi tanınırdılar.

Yalnız X-XII əsr bəzi yazılı ərəbdilli mənbələrin öyrənilməsi mütəxəssislərə (türk tədqiqatçısı Şərəfəddin Erel Dağıstanlı, rus şərqşünasları İ.Y.Kraçkovski, A.N.Qenko və b.) bir çox orta əsrlər elmini təmsil edən və Xilafət ölkələri arasında hədis, fiqh, ədib dilinin bilicisi kimi şöhrət qazanmış 20-yə yaxın dərbəndlinin adını aşkar etməyə imkan vermişdir.

Belə ki, məşhur alim-piliqrim Nasir-i Xosrov (1003-1088) «Səfərnamə» kitabında yazmışdır ki, İranın Şəmiranə şəhərinə səfərlərindən birində Əbu-l-Fida Əli əl-Filsufi əd-Dərbəndi adlı bir şəxslə görüşmüşdür. Bu adam ona çox böyük təsir bağışlamışdır və onlar geri qayıdarkən yenidən görüşməyi qərara almışlar. Adından göründüyü kimi, bu adam Dərbənddən idi və o, fəlsəfə elmi ilə məşğul olmuşdur.

Rusiya Elmlər Akademiyasının Dağıstan elmi mərkəzinin tarix, dil və ədəbiyyat institutunun əlyazmalar fondunda hər səhifəsi 23 sətir olan 492 səhifədən ibarət ərəb əlyazması saxlanılır. Bu əsərin adı «Reyhan əl-həqaiq və bustan əd-dadaiq»dir. Yazıldığı vaxt – XI əsr, müəllifi – Əbu Bəkr Məhəmməd bin əl-Fərəc əd-Dərbəndidir.

Əlyazmada məlumat verilir ki, o dövrdə Dərbənddə islamın üç istiqamətdə davamçıları mövcud idi: mütazilizm, kəlam və sufizm. Məşhur müsəlman mərkəzlərində təhsil almış, şagirdləri və davamçıları olmuş, şəhərdə yaşayan müxtəlif təriqətləri təmsil etmiş 20 şeyxin (Əbu Yaqub Yusuf əl-Babi, Əbu İshaq İbrahim əl-Qədari, Əbu Zəkəriyyə əl-Qədari, Əbu Abdallah Məmmus bin əl-Həsən əd-Dərbəndi, Əbu-l-Həsən əl-Curcani və b.) adını çəkir.

Əlyazmanın müəllifi məlumat verir ki, sufi təriqətləri ilə şəhər icması arasında ciddi fəlsəfi mübarizə gedir. Əsas məqsəd şəhərdə müxtəlif təriqətləri dəyərləri ilə razılaşdıraraq vahid ümumi sufi nəzəriyəsini yaratmaq idi.

Bütün bunlar göstərir ki, o dövrün Dərbəndi Qafqazda dini-fəlsəfi fikrin mərkəzlərindən biri olmuş və Dərbənd alimləri ərəb-müsəlman dini-fəlsəfi irsini öyrənmişlər, hətta ona öz fikirlərini daxil etməyə cəhd göstərmiş və buna nail olmuşlar.

Məşhur «Dərbəndnamə» salnaməsinin müəllifi əslən dərbəndli, hədislərin məşhur bilicisi və Dərbəndin Əqləbid sülaləsindən olan hökmdarlarının saray tarixçisi Yusuf bin əl-Hüseyn bin Daud Əbu Yaqub əl-Fəqih əl-Babi (1089-cu ildə vəfat etmişdir) olmuşdur. Qafqazdakı islam tarixi üzrə mühüm hesab olunan bu mənbə çoxsaylı fars, ərəb, türk, rus siyahılarında məşhurdur və bir sıra şərhlər nəşrinə məruz qalmışdır: ingilis dilində (M.Kazımbəy, 1851), alman dilində (Q.Y.Klaprot, 1814), rus dilində (İ.İ.Yaroslavsev, 1726), fransız dilində (Q.Y.Klaprot, 1829) və s.

XI əsrdə elm aləmində məşhur olan «Tarix-i Şirvan va əl-Bab» əsərinin müəllifi Dərbənd əmirliyinin Haşimi sülaləsindən olan hökmdarların saray tarixçisi Məmmus bin əl-Həsən bin Məhəmməd Əbu Abdallah əd-Dərbəndi (1040-1110) olmuşdur.

XI əsrin daha bir tarixi salnaməsi olan «Tarix-i əl-Bab» tədqiqatçıların fikrinə görə yerli müəllifə məxsusdur. Məşhur ərəb ensiklopediyaçısı Yaqub ibn Abdallah ər-Rumi əl-Hətavinin (1179-1229) «Ölkələrin lüğəti» əsərində Hakim ibn İbrahim ibn Hakim əd-Dərbəndi haqqında məlumat verilir. O, alicənab, layiqli, nüfuzlu «… şafii fəqihi» olmuş və Bağdada əl-Qəzalinin yanında müsəlman hüququnu öyrənmiş və çoxlu hədislərə qulaq asmışdır.

Həmin müəllif Dərbənddən çıxmış daha bir neçə məşhur adamın adını çəkir: Musa bin Yusuf bin əl-Hüseyn Əbu Abdallah əd-Dərbəndi, Əbu-l-Valid əl-Həsən ibn Məhəmməd ibn Əli əd-Dərbəndi (1063-cü ildə vəfat etmişdir). Onlar bir sıra ərəb-müsəlman təhsil mərkəzlərində təhsil almış və Bağdadda, Dəməşqdə, İsgəndəriyyədə, Bəlxdə, Nişapurda, Heratda, Bəsrədə, Həmədanda olmuş və burada ilahiyyat alimlərindən, o cümlədən Zahir bin Nahin İbrahim bin Cəfər, Həsən bin İbrahim, Hilal bin Abdullahın hədislərinə qulaq asmışlar.

O dövrün «Fəsail» əsərində aşağıdakı Dərbənd alimlərinin adlarını oxuyuruq: Zahir bin Məhəmməd əl-Babi, Məhəmməd bin Hişam əl-Babi, Əbdül Həsən Həbib bin Fədh əl-Babi.

XIV əsr ərəb müəllifi ibn Battud daha bir alim – Əbu Valid əd-Dərbəndi haqqında məlumat verir.

Məhəmməd Əli Tərbiyətin «Danişməndan-i Azərbaycan» əsərində Azərbaycandan çıxmış yüzlərlə görkəmli elm, ədəbiyyat və incəsənət xadimlərinin tərcümeyi-halı toplanmışdır. Bu əsərdə müsəlman aləmində məşhur ilahiyyatçı, Dərbənddə anadan olmuş Əhməd ibn Məhəmmədin (1436-1506) adı çəkilir.

Türkiyənin arxivlərində və saxlanclarında Dərbənd alimləri haqqında çoxlu maraqlı məlumatlar tapmaq olar. Belə ki, Şərəfətdin Erel Dağıstanlı «Dağıstan və dağıstanlılar» kitabında Dərbəndin keçmiş alimləri haqqında məlumat verərkən 100 hadisədən 90-da türk arxivlərinə istinad etmişdir.

XIX əsrdə Dərbənd kübar Avropa-rus mədəniyyətinin mühüm ocağı olmuşdur. Bu şəhərdə elm və mədəniyyət tarixinə parlaq səhifələr yazmış bir çox alimlər böyümüşlər. Onların arasında ömrünün 50 ilini Kazan, sonra Sankt-Peterburq universitetlərində elmə və müəllimliyə həsr etmiş görkəmli tarixçi, şərqşünas, filosof, hüquqşünas, professor Mirzə Məhəmməd Əli Kazımbəy (1802-1870) xüsusi yer tutur.

1842-ci ildə Dərbənddə olmuş məşhur şərqşünas, Kazan universitetinin professoru İ.N.Berezin Dərbəndin məşhur alimləri olmuş Molla Tağı və Mirzə Heydərin adını çəkir. Mirzə Heydər Vəzirov Dərbənd haqqında tarixi mənbələrin öyrənilməsi ilə məşğul olmuş və fars dilində «Dərbəndnamə» adlı əlyazma əsərini yazmışdır.

XIX əsrin görkəmli Azərbaycan alim-ensiklopediyaçısı A.Bakıxanov özünün məşhur «Gülüstan-i İrəm» əsərində o dövrün görkəmli Azərbaycan alimləri arasında Molla Ağa Dərbəndinin adını çəkir.

XIX əsrin ikinci yarısının və XX əsrin əvvələrinin müəlliflərinin məlumatına görə şəhərdə yaşamış azçox tanınan alimlər: Feyzulla Axund (ilahiyyatçı), Yəhya Axund (ilahiyyatçı), Mirzə Kərim Şuai (şair), Mirzə Cəbrayıl Sipeyri (yazıçı), Mirzə Məhəmməd Tağı (şair), Əli Axund (ilahiyyatçı), Axund ibn Abid (ilahiyyatçı və astronom), Mirzə Məhəmməd Kazım (alim-həkim), Mir Arslan bəy (arxeoloq, Kazan universitetinin müxbiri) və s.

Sadıq bəy Cəfərov da Dərbənd alimlərindəndir. O, 1846-1866-cı illərdə Həştərxan kişi gimnaziyasında fars dilini tədris etmiş və Kazan universitetində türk-tatar dili müəllimi kimi Rusiya orientalistləri arasında məşhur olmuşdur.

O dövrün Dərbənd alimlərindən Məhsumə Dərbəndi və Əliməmməd Abdullazadə məşhur Azərbaycan mütəfəkkirləri M.F.Axundov, S.Ə.Şirvani, N.Vəzirovla birlikdə görkəmli alim və demokrat Həsən bəy Zərdabinin nəşr etdirdiyi ilk Azərbaycan demokratik «Əkinçi» qəzetində əməkdaşlıq etmişlər.

XIX əsrn sonu XX əsrin əvvəllərinin mütəfəkkirlərindən biri sayılan görkəmli ictimai xadim, ictimaişünas, alim-publisist, Dağıstan vilayəti və Zaqatala dairəsindən 3-cü Dövlət Dumasının deputatı (1907-1912) İbrahim bəy Heydərovunda adını çəkmək olar.

XX əsrdə Dərbənddə bir sıra alimlər dəstəsi yetişmişdir. Onların arasında görkəmli ixtiraçı, texnika elmləri doktoru, professor, iki dəfə SSRİ Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı Həsənov Henrix Əli oğlu; fəlsəfə elmləri doktoru, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin professoru Məmmədov Şeyda bəy Fərəc oğlu; pedaqoji elmlər namizədi, M.F.Axundov adına Azərbaycan rus dili və ədəbiyyatı institutunun rektoru işləmiş Tahirbəyov Bayram Harun bəy oğlu; məşhur şair, ədəbiyyatşünas, tərcüməçi, jurnalist və müəllim Seyidov Fazil Mir Sadıq oğlu; iqtisad elmləri doktoru, professor, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin siyasi iqtisad kafedrasının müdiri, ali məktəblər üçün «Siyasi-iqtisad» dərsliyinin müəllifi Cavadov Hətəm Ağaəli oğlu; Azərbaycan Milli Elmlər Akademiyasının və Beynəlxalq Memarlıq Akademiyasının akademiki, Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyasının prezidenti, SSRİ Dövlət mükafatı laureatı Fətullayev Şamil Seyfulla oğlu;

texnika elmləri doktoru, professor, F.E.Dzerjinski adına Hərbi Akademiyanın kafedra rəisi Seyidov Tofiq Mirzə oğlu; Azərbaycan Hərbi Dənizçilik tarixinin müəllifi, tarix elmləri doktoru, Azərbaycan Ali Hərbi Dənizçilik məktəbinin rəisi Əliyev Nurulla Arif oğlu; tarix elmləri doktoru, professor, 3 elmi kitabın müəllifi, Dağıstan Dövlət Universitetinin «Ümumi tarix» kafedrasının müdiri Ələkbərli Məmməd-Kəsir Ələkbər oğlu; geologiya-minerologiya elmləri doktoru, professor, «Hidrogeologiya» kitabının müəllifi, Qırmızı Əmək Bayrağı ordeninin kavaleri, SSRİ Dövlət mükafatı laureatı, hidrogeologiya elminin banilərindən biri Əsgərov Əziz Həmzə oğlu; kənd təsərrüfatı elmləri doktoru, professor, kənd təsərrüfatında bitkiçilik və intensiv texnologiyalar sahəsində SSRİ-in görkəmli alimlərindən biri, Azərbaycan torpaqşünaslıq elmi-tədqiqat institutunun direktoru Sadıqov İsmayıl Məmməd oğlu və b. göstərmək olar.

Ziyalılar. Azərbaycanın, o cümlədən Dərbəndin ziyalılarının formalaşması dərin tarixi köklərə malikdir. Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə əsasən, ölkənin iki imperiya arasında bölüşdürülməsi Azərbaycan ziyalılığına ağır zərbə vurdu. Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı nəticəsində ölkənin bu hissəsində, bir tərəfdən, ziyalıların sayında və tərkibində dəyişiklik yaranmış, digər tərəfdən, müstəmləkə əsarətinin ağır şərtləri özünü büruzə vermişdi. Bəzi hesablamalara görə, XIX əsrin sonlarında Şimali Azərbaycanda ziyalıların sayı 5635 nəfər, XX əsrin əvvəllərində isə 12 mindən çox olmuşdur. Milli ziyalılar onların yarısını təşkil edirdi. Bütün imperiyada olduğu kimi, şimali Azərbaycanda da əhalinin ümumi sayına görə ziyalıların az olmasına baxmayaraq, onun tərkibi dövrünə görə müasir idi. Ziyalıların mühüm bir hissəsi mühəndis-texniki işçilərdən (neft sənayesi üzrə: Fərrux bəy Vəzirov, Fətulla bəy və Baxış bəy Rüstəmbəyovlar, Hüseyn bəy Talışxanov, Abuzər bəy Rzayev, Teymur bəy Mehmandarov, İsmayıl bəy Səfərəliyev, Əbdülqadir Əfəndiyev, Ağa Eminov, Behbud xan Cavanşir, Sərvər bəy Atabəyov, Balabəy Mustafabəyov, Midhət bəy Məlikov; avia və avtonəqliyyat vasitələrinin təmiri üzrə: Əli Verdiyev; dəmir yolları üzrə: Fətəli bəy Sultanov, İsaq bəy Mehmandarov, Səməd bəy Vəkilov, Xudadat bəy Məlik-Aslanov, Rəşid bəy Axundov, Yusif xan Məmmədbəyov; tikinti üzrə: Məmməd Həsən Hacınski; elektrotexnika üzrə Məşədi Əzizbəyov, Ağa Aşurov; mühəndis-texnoloqlar İbadulla Əliyev, Ağa və Hacıbəy Axundovlar, İbrahim Heydərov, Kərim bəy və Səffət bəy Məlikovlar və b.) ibarət idi.

Ziyalıların digər mühüm hissəsi səhiyyə sahəsində çalışırdı. Onlardan Əbdülkərim bəy Mehmandarov, Xudadat bəy Rəfibəyli, Məmməd Rza bəy Vəkilov, Həsən bəy Ağayev, Əbdülxalıq Axundov, Bəhram bəy Axundov, Qarabəy Qarabəyli, Nəriman Nərimanov, Abbas Səhhət, Əli bəy Hüseynzadə, Məmməd bəy Qayıbov, Əliheydər Cavadov, Bəybala bəy Sultanov, Bahadır bəy Əliverdibəyov, Mustafa ağa Şərifov, Bahadır bəy Qayıbov, İlyas Cəfərov, Məlik bəy Sultanov, Xosrov Paşa bəy Sultanov, Musa bəy Rəfiyev, Kərim bəy Sultanov, Əli Cavadov, Cəmil Ləmbəranski, Əsədulla bəy Şahtaxtinski, Sultanməcid Əfəndiyev və b. qeyd etmək olar. Tibb sahəsində azərbaycanlı qadın mütəxəssislər də (Əminə xanım Batırşina, Sona xanım Rəhimova-Vəlixan, sona xanım Axundova və b.) fəaliyyət göstərirdilər. Kənd təsərrüfatı sahəsində Nəcəf bəy Vəzirov, Səmədağa Ağamalıoğlu, Cahangir bəy Əliyev, Böyükağa Vəkilov, Hüseyn bəy Hüseynbəyov və b. çalışırdı.

Çar hökumətinin yaratdığı bütün çətinliklərə baxmayaraq, hərbi ziyalılar da (Balakişi bəy Ərəblinski, Ədibəy Novruzov, Ağası bəy Avşarov, Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski, Fürudin bəy Vəzirov, Hüseyn xan Naxçıvanski, Mir Kazım bəy və Əsəd bəy Talışxanovlar, İbrahim ağa Usurov, İsrafil bəy Yadigarov və b.) formalaşmaqda idi.

Çarizmin müstəmləkəsi olan Şimali Azərbaycanda hüquq sahəsində ziyalı kadrların yetişməsi xüsusilə əlamətdar idi. Onlardan Əsgər ağa Adıgözəlov (Gorani), Adil xan və İsmayıl xan Ziyadxanovlar, Ələkbər bəy, Ələsgər bəy və Xəlil bəy Xasməmmədovlar, Fətəli xan Xoyski, Məmməd bəy Hüseynbəyov, Mustafa bəy Eminov, Əlimərdan bəy Topçubaşov, Aslan bəy Səfikürdski, Cahangir bəy Xoyski, Hidayət bəy Sultanov, Məmməd bəy Şahmalıyev, Cümşüd bəy Sultanov, Əsəd bəy və Əsgər bəy Kəngərlilər, Rəşid bəy Axundzadə, Qasım Qasımov, Həmid bəy Şahtaxtinski, Mustafa bəy Vəkilov, Məmməd xan Təkinski, Məmməd Yusif Cəfərov, Rüstəm xan Xoyski, Nəriman bəy Nərimanbəyov, Nurməmməd bəy Şahsuvarov, Şəfi bəy Rüstəmbəyli, Əhməd bəy Pepinov, Yusif Vəzir Çəmənzəminli və b. göstərmək olar.

Azərbaycan ziyalılarının böyük bir hissəsi xalq

təhsili sahəsində (Fürudin bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Mahmud bəy Mahmudbəyov, Sultanməcid Qənizadə, Əbdüləli bəy Əmircanov, Qafur Rəşad, Əlisgəndər Cəfərov və b.) çalışırdı.

Azərbaycan mədəniyyətinin müxtəlif sahələrində (ədəbiyyat, incəsənət, mətbuat və s.) çalışan ziyalıların xeyli hissəsi fəaliyyətə müəllimlikdən başlamışdı. Müəllimlər və digər ziyalılar arasında azərbaycanlı qadınların (Hənifə xanım Məlikova-Abayeva, Səkinə xanım Axundzadə, Həmidə xanım Məmmədquluzadə Cavanşir, Rəhilə xanım Hacibababəyova, Xədicə xanım Ağayeva, Şəfiqə xanım Əfəndizadə, Xədicə xanım Əlibəyova və b.) da sayı getdikcə artmışdı.

Təhsillə bərabər, elmi fikir də inkişaf edirdi. Elmi fikrin əsas sahələri üzrə tədqiqatlar aparılırdı. Azərbaycan elmi fikri Əhməd bəy Cavanşir, Həsən bəy Zərdabi, Mir Möhsüm Nəvvab, Əhməd bəy Ağayev, Nəcəf bəy Vəzirov, Əli bəy Hüseynzadə, Məhəmmədağa Şahtaxtinski, Fürudin bəy Köçərli və bir çox b. ilə təmsil olunmuşdur. Mətbuat-nəşriyyat işinin inkişafı nəticəsində bilavasitə, bu sahədə də çalışan ziyalıların rolu yüksəlmişdi. H.Zərdabinin «Əkinçi» (1875-77) qəzeti ilə formalaşan bu sahədə, o cümlədən siyasi publisistika ilə xeyli ziyalı (Məmməd Əmin Rəsulzadə, Əhməd bəy Ağayev və b.) məşğul olurdu. Ədəbi-bədii sahədə Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Süleyman Sani Axundov, Cəlil Məmmədquluzadə, Məhəmməd Tağı Sidqi, Abbas Səhhət, Nəriman Nərimanov, Məmməd Səid Ordubadi, Abdulla Şaiq, Hüseyn Cavid, Əhməd Cavad, Cəfər Cabbarlı və b., musiqi sahəsində Üzeyir bəy Hacıbəyli, Zülfüqar bəy Hacıbəyli, Müslüm Maqomayev və b., təsviri sənət sahəsində Mirzə Qədim İrəvani, Mir Möhsün Həvvab, Əzim Əzimzadə, Bəhruz Kəngərli, Əli bəy Hüseynzadə və b. kimi görkəmli ziyalılar, təməli 1873 ildə qoyulmuş professional Azərbaycan teatr sənəti sahəsində müqtədir sənətkarlar – aktyor və rejissorlar nəsli (Cahangir Zeynalov, Hüseyn Ərəblinski, Hüseynqulu Sarabski, Mirzağa Əliyev, Sidqi Ruhulla, Abbas Mirzə Şərifzadə və b.) yetişmişdi.

Müsəlman ruhanilər, xüsusilə onun yüksək təbəqəsi (şeyxülislamlar: Şeyx Əhməd Salyani, Axund Əbdüssəlam Axundzadə, Molla Məhəmməd Axund Pişnamazzadə, müfti Hüseyn Əfəndi Qayıbov) Azərbaycan ziyalıları içərisində özünəməxsus yer tuturdu.

Bütün bunlara baxmayaraq, Azərbaycanda ziyalıların sayı xalqın istedat və intellektual yaradıcılıq imkanlarından çox aşağı idi. Bunun günahı Azərbaycan xalqını müstəmləkə əsarətində saxlayan, milli-dini ayrı-seçkilliyi dövlət siyasətində həyata keçirən çar hökümətində idi. Azərbaycan ziyalılarının iqtisadi, sosial-siyasi və hüquqi vəziyyəti istənilən səviyyədə deyildi. Mövcud çətinliklərə baxmayaraq, Azərbaycan ziyalıları xalqın qarşısında xidmətlərini layiqincə yerinə yetirir, onun maariflənməsi, dünya mədəniyyətinin qabaqcıl nailiyyətlərinə qovuşması üçün əlindən gələni əsirgəmirdi. Bu məqsədlə mədəni-maarif və xeyriyyə cəmiyyətləri («Nəşri-maarif», «Nicat», «Səfa», «Səadət» və s.) yaratmağa başlamışdılar.

İctimai-siyasi baxışlarına görə Azərbaycan ziyalıları yekcins deyildi. XIX əsrin sonu-XX əsrin əvvəllərində Rusiya imperiyasında mövcud olan ictimai-siyasi qüvvələrin bütün spektri Şimali Azərbaycanda da öz əksini tapmışdı. Lakin iki xətt tədricən üstünlük təşkil etməyə başlayırdı: Azərbaycan ziyalılarının böyük əksəriyyəti milli müstəqilliyə tərəfdaş çıxaraq, bu yönlü siyasi partiya və təşkilatlar ətrafında birləşir, digər bir qrup isə sosial-demokrat ideyasını qəbul edərək, Rusiya bolşevik partiyasının Azərbaycan dəstəsini yaradırdı. Birincilər Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasına və onun var qüvvəsi ilə fəaliyyətinə çalışdığı halda, ikincilər Azərbaycan bolşevik təşkilatının digər milli dəstələri ilə birgə Azərbaycan Xalq Cümhuriyyətinə qarşı açıq-aşkar mübarizəyə qoşulmuş, sovet Rusiyası ilə birlikdə Cümhuriyyətin süqutunda fəal rol oynamışdı. Azərbaycan ziyalılarının ictimai-siyasi baxışlarına görə birliyinin olmaması onun hər iki hissəsi üçün faciə ilə nəticələnmişdi. Xalq Cümhuriyyəti xadimləri bolşevik rejiminin təqibindən yaxa qurtarmaq üçün mühacirət etmiş, yaxud yeni qurulmuş sovet hakimiyyəti tərəfindən məhv edilmişdi. Sovet hakimiyyətinin qurulmasında iştirak etmiş Azərbaycan ziyalılarının böyük bir hissəsi isə 1937-38 illərdə repressiyaya məruz qalmışdı.

Bax: 1. Гусейнова Д.С. Интеллигенция Азербайджана в конце XIX - начале XX в., 1993.

2. Святочовоски Т. Русский Азербайджан 1905-1920. Формирования национального самосознания в мусульманском обществе. - Хазар, 1990, №1-2.

T Ə H S İ L

Dərbənd və Azərbaycanda təhsil. Monqol zülmü Azərbaycan mədəniyyətinə müəyyən zərbə vurmuş, maarifin və elmin inkişafını ləngitmişdi. Monqol əsarəti müxtəlif xalqların çoxəsrlik mədəniyyətinə mənfi təsir göstərmişdi. Sonda monqollar yerli mədəniyyəti, istər-istəməz, qəbul etməli olmuşdular.

Azərbaycan hətta monqol işğalı dövründə də Şərqin ən mühüm mədəniyyət mərkəzlərindən biri olaraq qalırdı. Maarif sahəsində az da olsa inkişaf nəzərə çarpırdı. Yeni məktəblər, mədrəsələr və ali təhsil müəssisələri təsis edilirdi.

İbtidai təhsil müəssisəsi «məktəb», orta təhsil müəssisəsi isə «mədrəsə» adlanırdı. Şagird məktəbdə müxtəlif fənlər haqqında ilkin məlumatlar əldə edirdi. Məktəb mədrəsə üçün hazırlıq mərhələsi sayılırdı. Belə məktəblərdə, adətən, yaşlı uşaqlardan bir-iki nəfər «xəlifə» təyin edilirdi. Xəlifələr dərslərin hazırlanmasında başqa uşaqlara kömək edir, müəllimin göstərişlərini həyata keçirirdilər. Şagirdlər 15 yaşına catanadək ilk təhsili məktəbdə alır, sonra isə mədrəsəyə qəbul olunurdular. İbtidai bilik verən bu məktəblər sırasına «yetimlər evi» və «təlim evi» adlanan xeyriyyə müəssisələri də daxil idi. Məktəblərdə xüsusi tədris proqramı yox idi. Quranı öyrəndikdən sonra uşaqların çoxu məktəbi bitirmiş hesab olunurdu. Mədrəsələrdə dini təlim əsas yer tuturdu. Lakin bununla yanaşı ədəbiyyat**,** tarix, coğrafiya, riyaziyyat, nücum, məntiq, fəlsəfə dərsləri də keçirilirdi.

Artıq XIII-XV əsrlərdə Təbrizdə «Qazaniyyə», «Fələkiyyə», «Şeyx Kəmaləddin Xocəndi», «Dəməşqiyyə», «Qazi Şeyx Əli», «Məqsudiyyə», «Müzəffəriyyə», «Nəsriyyə» mədrəsələri məşhur idi. Şənbi-Qazandakı «Şəfeiyyə» və «Hənəfiyyə» mədrəsələri, Bakıda Şirvanşahlar sarayının «Şah məscidi» yanında mədrəsə, Seyid Yəhya mədrəsəsi, Ərdəbildə Şeyx Səfi məqbərəsi nəzdindəki «Darül-irşad», Dərbənd məhəllə məscidi yanında mədrəsə, Rəbi-Rəşididə 500 nəfərə qədər ustadın çalışdığı ali təhsil müəssisəsi fəaliyyət göstərirdi. Mədrəsələrdə Azərbaycanın məşhur münəccimi, riyaziyyatçısı, tarixçisi Xacə Nəsirəddin Məhəmməd Tusinin «Ədəb əl-mütəllimin və l-mühəssilin» («Müəllimlər və tələbələr üçün ədəb qaydaları») adlı əsərində sadə və ümumi tərzdə şərh ədilmiş qaydalara riayət edilməsi qarşıya qoyulurdu.

Dərbənddə XIII əsrdən etibarən məscidlər yanında fəaliyyət göstərən «yetimlər evi», «təlim evi» adlanan xeyriyyə müəssisələri də ibtidai təhsil verən məktəblər şəbəkəsinə daxil idi. Bu dövrdə Dərbənddə məhəllə məscidi yanında mədrəsə də fəaliyyət göstərirdi.

XVII əsrdə Dərbənddə, Ordubadda, Naxçıvanda, Bakıda, Şamaxıda cümə məscidlərinin, bir sıra məktəb-məscid binalarının inşa olunması, əvvəlki dövrlərdə tikilmiş binaların bərpasının genişləndirilməsi haqqında məlumat verən kitabələr Azərbaycanda maarif sisteminin kamilliyini göstərir. Müxtəlif bədii tərtibata malik olan daş plastikası nümunələri Azərbaycan ərazisində bir sıra bədii daşyonma, xəttatlıq, nəqqaşlıq məktəblərinin mövcud olduğunu sübut edir. Kitabələrə əsasən, mərkəzi şəhərlərdə yaranmış məktəblərin təsir dairəsini, onların fəaliyyətinin xronoloji çərçivəsini, bu məktəblərin əsasını qoymuş mahir xəttat və nəqqaşların adlarını aşkar etmək mümkün olmuşdur.

Şirvan-Abşeron bədii daşyonma məktəbinin abidələrinə Dərbənddə, eləcə də Abşeronda, Şamaxıda, Mərəzədə, İsmayıllıda, Qəbələdə, Xaldanda, Sabirabadda, Hacıqabulda, Salyanda, Dəvəçidə, Şabran, Qubada, Xudatda, Xaçmazda, Qusarda və digər ərazilərdə rast gəlmək olar. Bu məktəbin təsir dairəsi Kür çayından aşağı, Xəzər dənizinin sahili boyuna (Masallı, Lənkəran, Astara bölgələrinə) qədər gəlib çıxmışdı. Şirvan-Abşeron məktəbinin başlıca mərkəzləri Şamaxı, Bakı və Dərbənd şəhərləri olmuşdur. Şimali Azərbaycan ərazisində Şirvan-Abşeron məktəbi ilə yanaşı, bir sıra yerli məktəblər də fəaliyyət göstərmişdir.

XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycanda elmin ayrı-ayrı sahələrinin inkişafında böyük uğurlar qazanıldı.

Rusiyada şərqşünaslıq elminin yaranması və inkişafında azərbaycanlı alimlər – Mirzə Cəfər Topçubaşov və Mirzə Kazımbəy böyük rol oynamışlar.

Bax: 1. Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). - Bakı: Elm, 2007. Səh. 135-136, 172-173, 342-344.

1. Azərbaycan etnoqrafiyası. Üç cilddə. III cild. - Bakı: Şərq-Qərb, 2007. Səh. 263, 274, 292.

Rus-Azərbaycan məktəbi, Rus-müsəlman məktəbi, Rus-tatar məktəbi – XIX əsrin sonu – XX əsrin əvvəllərində Qafqaz azərbaycanlıları arasında geniş yayılmış məktəblər, daha çox rus-müsəlman məktəbləri adı ilə tanınırdılar. Əsası 1887-ci ildə Bakıda Həbib bəy Mahmudbəyov və Sultanməcid Qənizadə tərəfindən qoyulmuşdur. Xüsusi açılmış ilk rus-Azərbaycan məktəbi dörd il şagirdlərdən toplanmış təhsilhaqqı hesabına fəaliyyət göstərmişdir. 1891-ci ildə Bakı əhalisinin xahişi ilə ilk xüsusi rus-Azərbaycan məktəbinin işinə xitam verilmiş, onun yerində xalq məktəbləri direktorunun nəzarəti altında şəhər bələdiyyə idarəsinin vəsaiti hesabına iki ibtidai təhsil ocağı yaradılmışdır. Birinci məktəbə S.Qənizadə müdir təyin edilmişdi. Şəhər əhalisinin təhsilə olan ehtiyacını təmin etmək üçün rus-müsəlman məktəblərinin sayı ildən ilə artırılmış, birinci rus inqilabı ərəfəsində Bakıda 12 oğlan, 4 qız rus-Azərbaycan məktəbi açılmışdı. 1898-ci ildə S.Qənizadənin təşəbbüsü ilə onun müdir olduğu ikinci rus-Azərbaycan məktəbi natamam orta təhsil verən ikinci dərəcəli məktəbə çevrilmiş, Aleksey ali ibtidai məktəbi adı ilə tanınmışdır.

Rus-Azərbaycan məktəbi xalqın təhsil maraqlarına cavab verən güclü təhsil hərəkatına çevrilmiş, onun nümunəsində Bakı, Tiflis, Gəncə, İrəvan quberniyalarında rus-Azərbaycan məktəbləri açılmışdır. Rus-Azərbaycan məktəbinin təsiri ilə əski molla və məhəllə məktəblərində islahatlar aparılmış, onların böyük əksəriyyəti müasir tələblərə uyğunlaşdırılmışdır. Rus-Azərbaycan məktəbi Azərbaycanda siyasi müstəqillik və istiqlaliyyət, milli dirçəliş uğrunda mübarizə tarixində, xalq maarifinin və mədəniyyətin inkişafında misilsiz rol oynamışdır. Rus-Azərbaycan məktəbinin açılışı ilə «Əkinçi»dən sonra Bakıda azərbaycanlıların ikinci ictimai qurumu yaradılmışdır. Məktəblərin sayı artdıqca Qori, İrəvan seminariyalarında, ali pedaqoji institutlarda və gimnaziyalarda təhsil alan gənclərin Bakıya toplaşması üçün geniş imkanlar yaranmış, XIX əsrin 90-cı illərində azərbaycanlılara məxsus «Müsəlman ziyalılarının özəyi» adlı ilk ictimai təşkilat təsis olunmuş, əyalət şəhərlərində, kənd və qəsəbələrdə milli-mədəni həyat dirçəlmişdi. Rus-Azərbaycan məktəbi müəllimlərinin təşəbbüsü ilə Bakıda, Gəncədə, Naxçıvanda, Şəkidə, Qubada, Dərbənddə, Tiflisdə, İrəvanda və s. şəhərlərdə ilk teatr truppaları təşkil olunmuş, səhnə vasitəsilə maarifçilik ideyaları təbliğ olunmuşdur. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi və mədəni həyatında fəaliyyət göstərənlər, əsasən, rus-Azərbaycan məktəbi müəllimlərindən və məzunlarından ibarət olmuşdur.

Rus-müsəlman məktəbləri pedaqoji heyətinin Sultanməcid Qənizadə, Mahmud bəy Mahmudbəyov, Süleyman Sani Axundov, Abdulla Şaiq, Abdulla bəy Divanbəyoğlu, Əlisgəndər Cəfərzadə, Qafur Pəşad (Mirzəzadə), Fərhad Ağazadə (Şərqli) və b.-nın istedadı sayəsində milli realist və romantik ədəbiyyat rövnəq tapmış, ilk dərsliklər yaradılmış, ilk uşaq jurnalları nəşr edilmiş və yüksək bədii təsir gücünə malik sağlam düşüncəli uşaq ədəbiyyatı təşəkkül tapmışdır.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasında və fəaliyyətində rus-azərbaycan məktəbinin xidmətləri xüsusilə əlamətdardır. Həmin məktəblərin məzunları XX əsrin əvvəllərində siyasi mübarizədə, siyasi partiyaların təşkilində iştirak etmişlər. Məmməd Əmin Rəsulzadə Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının sədri, Məmməd Yusif Cəfərov onun fəal liderlərindən biri olmuşdur. Üzeyir bəy Hacıbəyli, Ceyhun bəy Hacıbəyli, Seyid Hüseyn, Cəfər Cabbarlı və b. milli dövlət quruculuğunda fəal iştirak etmişlər.

Rus-Azərbaycan məktəbinin müəllimlərindən Sultanməcid Qənizadə və Mustafa Mahmudov Azərbaycan Parlamentinin üzvü olmuşlar.

Dərbənddə təhsil (XIX əsr-XX əsrin əvvəllərində). Dərbənd Rusiya tərəfindən işğal olunana qədər (1806) şəhərdə təhsil sistemini əsasən məhəllə məscidlərinin nəzdindəki ibtidai məktəblər təşkil edirdi. XVIII əsrdə Dərbənddə olmuş coğrafiyaşünas Zəkəriyyə əl-Qəzvini yazırdı ki, şəhərdə «…çoxlu qüllələr var və hər bir qüllədə dini elmlərlə məşğul olanlar üçün mədrəsə var». Məscid nəzdindəki məktəblərdən başqa, bəzi mollalar öz

evlərində məktəblər açırdılar və bu məktəblərdə 10-20 uşaq təhsil alırdı. Bir qayda olaraq məktəblərdə oğlanlar və qızlar ayrılıqda təhsil alırdılar. Qızlar məktəbində qadınlar, oğlanlar məktəbində isə kişilər dərs deyirdi. Varlı şəhər sakinləri uşaqlarının təhsil alması üçün daha bilikli müəllimləri evə dəvət edirdilər. Məktəblərdə təhsil əsasən ərəb dilini bilmədən müqəddəs kitab olan Quranı əzbərdən öyrənmək idi.

Məktəbi müvəffəqiyyətlə bitirən və «ərəb dilini» bilən şagirdlər müəllimlərinin məsləhəti ilə dini məktəb olan mədrəsədə təhsillərini davam etdirə bilərdilər. Mədrəsə şagirdləri ərəb və fars dillərini, ilahiyyatı və qanunvericiliyi, məntiqi, ritorikanı, tarixi, hesabı, coğrafiyanı, tibbi öyrənirdilər, bədii ədəbiyyatla ərəb və fars dillərində tanış olurdular.

Dərbənddə XI-XII əsrlərdə sufi təriqətindən olan mədrəsə (zaviyə) məşhur idi.

Bundan başqa, «Cümə məscidi» kompleksinin həyətində orta dini təhsil müəssisəi – «mədrəsə» fəaliyyət göstərirdi. Cümə məscidinin nəzdindəki mədrəsənin binası 1475-ci ildə tikilmişdir. Bu tədris müəssisəsi 1918-ci ilə qədər fəaliyyət göstərmişdir. Burada geniş proqramla yüksək dini rütbəli şəxslər – «Üləmalar» və axundlar dərs deyirdi. Mədrəsənin bəzi məzunları təhsilini davam etdirmək üçün şöhrət tapmış ali məktəblərə – nizamiyyə müsəlman təhsilinin mərkəzləri olan Buxara, Dəməşq, Bağdad, İsgəndəriyyə, Xorasan, Qahirə və s. şəhərlərə gedirdilər. Bu təhsil ocaqlarında onlar ərəb-müsəlman mədəniyyəti vasitəsi ilə dünya xalqlarının mədəni nailiyyətlərini öyrənirdilər.

Dərbənd şəhəri ziyalıları ilə fərqlənirdi, burada yerli əhali sıralarından çoxlu alim var idi. Aşağıda XX əsrin alimləri haqqında məlumatlar verilir:

– Axund Hacı Molla Tağı - Kazan universitetinin müxbir üzvü;

– Mirzə Heydər Vəzirov – «Dərbəndnamə» - Dərbənd tarixi üzrə kitabın müəllifi. 1880-ci ildə vəfat etmişdir;

– Axund Feyzulla – din xadimi. 1889-cu ildə vəfat etmişdir;

– Axund Yəhya – peyğəmbərlər və dindarlar haqqında yazmışdır. 1896-cı ildə vəfat etmişdir;

– Mirzə Məhəmməd Kazım – alim, həkim. Tibb elminə Ərdəbildə və Qəzvində yiyələnmişdir;

– Mirzə Kərim Şuai - «Şaxsey-vaxsey» haqqında yazmışdır və onun tarixi hekayələri əlyazma formasında qalmışdır;

– Mirzə Cəbrayıl – 680-cı ili Kərbalada baş verən dini faciələrin göstərilməsinin müəllifi. 1895-ci ildə vəfat etmişdir;

– Mirzə Məhəmməd Nağı (təxəllüsü «Gümri») - Mənəviyyat haqqında kitab yazmışdır. 1897-ci ildə vəfat etmişdir;

– Axund Əli – dindar alim;

– Molla Axund ibn Abid - XIX əsrin ortalarında ilahiyyat və astronomiya haqqında kitablar yazmışdır.

Məktəb və mədrəsələr, Avropa təqdiqatçılarının nöqteyi-nəzərindən yerli ziyalıların hazırlanmasında, elmin və mədəniyyətin inkişafında kifayətedici rol oynamamışdır.

1864-cü il sentyabrın 7-də Dərbənddə qızlar üçün məktəb açıldı. Bu məktəbdə aşağıdakı millətlərin nümayəndələri təhsil alırdı:

– Müsəlman qızları – 11 nəfər;
– Tabasaran dairəsindən – 2 nəfər;
– Kürinsk xanlığından – 2 nəfər;
– Rus qızları – 4 nəfər və 1 nəfər erməni qızı.

Bu məktəb 1873-cü il iyunun 20-də 4-illik qızlar məktəbinə çevrilmişdir. 1898-ci ildə məşhur Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyev bu məktəbə 400 rubl yardım etmişdir. 1900-cü ildə məktəb 3-illik progimnaziya, 1904-cü ildə isə gimnaziya olmuşdur.

Məktəblərdə oxuyan şagirdlərin milli tərkibi

1. Yadellilər	297 nəfər;
2. Ruslar	244 nəfər;
3. Gürcülər	10 nəfər;
4. Ermənilər	214 nəfər;
5. Tatarlar	86 nəfər;
6. Dağlılar	12 nəfər;
7. Avropa yəhudiləri	34 nəfər;
8. Dağ yəhudiləri	32 nəfər;
9. Digər millətlər	14 nəfər.

Statistik məlumatlara görə 1891-ci illə müqayisədə 1915-ci ildə şəhərdə şagirdlərin sayı 4,12 dəfə artmışdır: 1000 nəfər sakinə 66,3 şagird

1915-ci ildə şəhərdə olan tədris müəssisələrinin sayı

Tədris müəssisələrinin adı	yaranma tarixi	miqdarı	şagirdlərin sayı	o cümlədən	
				oğlanlar	qızlar
Şəhər dördillik ibtidai məktəb	1877	1	94	94	-
Kilsə məktəbi	1893	1	85	51	34
İbtidai Puşkin məktəbi	1898	1	196	-	196
Realnı məktəb	1902	1	484	484	-
Qızlar gimnaziyası	1902	1	291	-	291
Qoqol adına rus-tatar (Azərbaycan) məktəbi	1902	1	72	72	-
İbtidai Aleksandrovsk məktəbi	1903	1	100	100	-
Rus-Avropa məktəbi	1904	1	213	161	52
Bağçılıq, üzümçülük və tərəvəzçilik məktəbi	1904	1	58	58	-
Erməni məktəbi	1905	1	62	27	35
Müsəlman məktəbləri	-	10	284	253	31
Yəhudi məktəbləri	-	11	286	286	-
Cəmi:		31	2225	1586	639

düşürdü və bu rəqəm 1891-ci ilə nisbətən 1,8 dəfə çox idi. Bu dövr ərzində qız şagirdlərin sayı 8,3 dəfə artmışdı.

Məscidin və sinaqoqların nəzdində olan məktəblərdən başqa, şəhərin bütün tədris müəssisələri şəhər büdcəsindən maliyyələşirdi. Bundan əlavə, yaxşı oxuyan şagirdlərə təqaüd vermək üçün şəhər büdcəsindən vəsait ayrılırdı. 1905-ci ildə şəhər ictimai idarəsi tərəfindən 120 rubl dəyərində təqaüd təsis edilmişdir. Bu təqaüdə layiq görülmüşlər: realnı məktəbin şagirdi Cavad bəy Zeynalbəyov, şəhər ibtidai məktəbinin şagirdi M.Rusanov və qızlar gimnaziyasının şagirdi A.Asriyans.

1917-ci ilə qədər olan Dərbənd təhsil müəssisələrində şagirdlərin sayı

İllər	Tədris müəssisələrinin sayı	şagirdlərin sayı		
		cəmi	o cümlədən	
			oğlanlar	qızlar
1892	16	520	443	77
1895	16	525	461	64
1900	5	362	255	107
1905	11	1140	727	413
1910	11	1376	915	461
1915	11	1882	1174	708

Qeyd: 1900-cü ilə qədər məktəblərin sayına məscid və sinaqoqların nəzdindəki məktəblər də daxil edilmişdir, sonrakı illərdə isə sonuncular daxil edilməmişdir.

Şəhərdə sovet hakimiyyəti qurulduqdan sonra (1920) fəaliyyət göstərən bütün məktəblər 1 pilləli (1-4 siniflər) və 2 pilləli (5-9 siniflər) sovet məktəblərinə çevrilmişlər. Şəhərdə 1 pilləli məktəblər fəaliyyət göstərməyə başladı: 1 saylı məktəbin direktoru Xusesov İosif Nikolayeviç, 2 saylı rus məktəbinin direktoru Rassolima Anna Pavlovna, 3 saylı Azərbaycan məktəbinin direktoru Abdullayev Mir Əsədulla Seyid Rza oğlu, 4 saylı yəhudi və 2 pilləli 1 rus məktəbinin direktoru Akkermanov Nikolay Yeqoroviç olmuşlar. Bundan əlavə, şəhərin yaşlı əhalisi arasında savadsızlığı ləğv etmək üçün dərnəklər – «likbez»lər açılmışdır. Bu dərnəklərdə işləmək üçün 1920-ci ildə şəhərdə qısamüddətli pedaqoji kurslar da açılmışdır.

Şəhərdə sovet məktəblərinin yaranmasında və savadsızlığın ləğv edilməsində böyük əmək sərf etmiş ilk müəllimlər aşağıdakılardır:

1. Seyidov Mir Saleh;
2. Sultanov Əhməd bəy;
3. Hüseynov Qara Kazım;
4. Seyidov Mir Baba;
5. Seyidov Əbdül Səməd;
6. Abdullayev Miri (3 saylı məktəbin direktoru);
7. Əliyev Sadıq;
8. Əliyev Mizəfər Həmzə oğlu;
9. Mirzəbəyov İsabəy;
10. Qaziyev Abdulla;
11. Qaziyev Əbdül Cəlil;

12. Seyidov Mirzə Əhməd Murtuz oğlu;
13. Seyidov Mirzə Əli Nağı;
14. Əsgərov Əbdül Cəlil;
15. Əliyev Feyzulla (keçmişdə molla);
16. Cavadov Şəfi;
17. Nəsirov Əsədulla bəy;
18. Əliyeva İlhamə (İqlimə) Bəybala qızı;
19. İbrahimova (Əlibəyova) Ayna xanım;
20. Akkermanov Nikolay Yeqoroviç (2-ci pilləli məktəbin direktoru);
21. Xusesov İosif Nikolayeviç (1 saylı məktəbin direktoru);
22. Rassolima Anna Pavlovna (2 saylı məktəbin direktoru);
23. Spasski Pyotr İvanoviç (Dərbənddə ilk tarixi muzeyin təşkilatçısı);
24. Politayeva Nina Nikolayevna;
25. Vasilyeva Yelena Pavlovna;
26. İvkov Nikolay Nikolayeviç;
27. Mixaylov Georgi Mixayloviç;
28. Bek Polina Qriqoryevna (alman dili);
29. Barıkina Yekaterina Andreyevna;
30. Lısina Tatyana Borisovna;
31. Pinxasov Yuxan;
32. İbrahimov Əbdül Cəlil.

Aparılmış işin nəticəsi olaraq şəhərdə əhalinin savadlılığı xeyli yüksəlmişdir. 1897-ci il siyahıya alınmasına görə, şəhərdə 11,2%, 1926-cı ilə görə isə 32,2% savadlı əhali var idi.

XX əsrin 20-ci illərinin əvvəlində Dərbənddə aşağıdakı təhsil müəssisələri var idi:

– Realnı məktəbi – 1 və 2 pilləli 3 məktəbə çevrilmişdir. Bu məktəblər əsas binada yerləşirdi. 1-ci və 2-ci mərtəbələrdə 1 və 2 saylı birpilləli məktəblər (5-ci sinfə qədər) yerləşirdi. İkipilləli məktəb isə (6-ci sinifdən 10-cu sinfə qədər) həmin binada yerləşirdi, lakin dərslər axşamlar keçirilirdi;

– Türk ibtidai məktəbi – «Cümə məscidi»nin həyətində yerləşirdi;

– 3 saylı türk ibtidai məktəbi – kilsə meydanında (Azadlıq meydanı) yerləşirdi;

– Bağçaçılıq məktəbi;

– Yəhudi ibtidai məktəbi (Lenin küçəsi);

– Dəmiryol ibtidai məktəbi – sonralar şəhərin yuxarı hissəsində Məzahir Rzayev adına məktəb tikilmiş, «Cümə məscidinin» həyətindəki məktəb isə bağlanmışdır.

20-ci illərin ortalarında Dərbənddə kənd məktəbləri müəllimlərini hazırlamaq üçün ikiillik pedaqoji kurslardan başqa, Dağıstanın bütün millətlərinin nümayəndələri üçün vilayət partiya məktəbi açılmışdır. Təhsil rus dilində aparılırdı.

Bu dövrdə maarifçiliyin inkişafında mühüm hadisə baş verdi. Şəhərdə 1923-cü ildə pedaqoji məktəb, 10-illik internat məktəbi və 1927-ci ildə kənd təsərrüfatı texnikumu açıldı. Bu tədris müəssisələri bütün Dağıstan üçün pedaqoji kadrların hazırlanmasında mühüm rol oynamışdı. Burada Dağıstanın bütün millətlərinin nümayəndələri oxuyurdu və təhsil türk dilində aparılırdı. Dərs kitabları Bakıdan gətirilirdi. 1929-cu ildə milli respublikalarda latın qrafikası tətbiq olunduqdan sonra bütün kitabların milli dillərdə çap olunmasına başlandı. Sonralar isə tədricən bütün məktəblərin ruslaşdırılmasına başlandı. Pedaqoji məktəbin təşkilində onun direktoru Əliyev Müzəffər böyük rol oynamışdır. O, qısa bir zamanda məktəbi Bakıdan gəlmiş təcrübəli pedaqoji kadrlarla komplektləşdirdi. 30-cu illərin ortalarında M.Əliyev Dərbənd şəhər sovetinin sədri olmuşdur, lakin 1937-ci ildə M.Əliyev «xalq düşməni» kimi həbs edilmiş və 10 il şimalda cəza çəkmişdir.

1928-ci ildə ölkənin sənayeləşdirilməsinə başlandığı üçün çoxlu kadr tələb olunurdu. Köhnə mütəxəssislər az olduğu üçün (onların bir hissəsi türmədə idi) təcili gənc mütəxəssislərin hazırlanması məsələsi qalxdı. Bunun üçün 1930-cu ildən onillik məktəblər yeddiilik məktəblərə çevrildi və məzunlara texnikuma qəbul olmaq imkanı verildi. Eyni zamanda, fəhlə fakültələri və institutların nəzdində hazırlıq kursları yaradıldı.

Statistik məlumatlara görə, 1931-ci ildə şəhərdə 1 pilləli 12 məktəb fəaliyyət göstərirdi və burada 3700 uşaq (məktəb yaşlı uşaqların 88,4%) təhsil alırdı. Pedaqoji Texnikum orta ixtisaslı müəllim, Kənd Təsərrüfatı Texnikumu üzümçülük, pambıqçılıq, tərəvəzçilik və bağçılıq ixtisasları üzrə mütəxəssis, zootexnikum – baytar və zootexnik, xalçaçılıq texnikumu – xalça ustaları, 2 fəhlə fakültəsi («rabfak») respublikanın xalq təsərrüfatı üçün mütəxəssislər hazırlayırdı. Bu orta ixtisas təhsil müəssisələrində 960 nəfər təhsil alırdı. Bundan əlavə, şəhərdə politexnik təlim verən 3 FZO (fabrik-zavod nəzdindəki təhsil oçaqları) fəaliyyət göstərirdi və burada 260 nəfər təhsil alırdı. Şəhər əhalisinin

savadlılığı 44,1% təşkil edirdi.

1965-ci ildə şəhərdə 10 orta, 4 səkkizillik və 3 ibtidai ümumtəhsil məktəbi fəaliyyət göstərirdi və burada 15449 şagird oxuyurdu. Bundan əlavə, fəhlə-gənclər axşam məktəblərində 1500 şagird təhsil alırdı. Şəhərdə Kənd Təsərrüfatı Texnikumu, tibb məktəbi, Pedaqoji Texnikumu, mədəni-maarif məktəbi, Cihazqayırma Texnikumu (təhsil axşam aparılırdı), xalçaçılıq məktəbi orta təhsil müəssisələri fəaliyyət göstərirdi və burada 2120 nəfər təhsil alırdı.

1970-ci ilin məlumatlarına əsasən, şəhərin ümumtəhsil məktəblərinin sayı 21, o cümlədən 4 ibtidai və 5 səkkizillik, 11 orta və 1 fəhlə-gənclər məktəbi təşkil edirdi. Bu məktəblərdə 17,3 min şagird təhsil alırdı. Orta itxtisas təhsili müəssisələrində 22,5 min nəfər, texniki-peşə məktəblərində 1900 nəfər təhsil alırdı.

Hazırda şəhərdə 22 ümumtəhsil məktəbi fəaliyyət göstərir və burada 19300 şagird təhsil alır.

Zaviyə – sufi məbədi. Dərbənddə zaviyə XI əsrdə məşhur sufi şeyxi Əbu-l-Qasim əl-Dərbəndi tərəfindən yaradılmışdır. Yazılı mənbələrin məlumatına əsasən, zaviyə şəhərdən kənarda, şəhərin Şimal divarının arxasında – Narınqala ilə Qırxlar qəbiristanlığının arasında yerləşirdi.

Dərbənd zaviyəsində müsəlman dünyasında məşhur olan din xadimləri təhsil almışlar. Onlardan Əbu Bəkr əd-Dərbəndi, Əbu-l-Qasim əl-Bərrak, İbn əz-Zəncani, Əbu-l-Həsən əl-Cürcani, Əbu-l-Abbas Əhməd əl-Əsədabadi, Məmmus əd-Dərbəndi və b. adlarını göstərmək olar.

Dərbənd zaviyəsi şəhərin sosial həyatında, onun dini mərkəz kimi yüksəlməsində böyük rol oynamışdır. Bir çox müridlər burada təhsil aldıqdan sonra öz şeyxlərinin icmasında qalaraq, Dərbənddə yaşamağı üstün tuturdular (xüsusilə İbn az-Zəncani, Əbu-l-Həsən Cürcani və başqaları).

Məscidyanı məktəblər. Dərbənd Rusiya tərəfindən ilhaq olunanadək (1806) uşaqlar əsasən təhsili məscidyanı məktəblərdə və nadir hallarda evdə alırdılar.

1832-ci ilin məlumatına görə, məscidyanı məktəblərdə 250 oğlan təhsil alırdı. Onlardan 130 nəfəri imkansız ailələrdən, 70 – tacir, 25 – bəy, 25 – ruhani ailəsindən idi.

Məscidyanı məktəblərdə yalnız dini təhsil verilirdi. Bu məktəblərdə kübar fənləri tədris etmək müsəlman dininə zidd hesab olunurdu. Çar hakimiyyəti məscidyanı məktəbin işlərinə rəsmi olaraq qarışmırdı və onlara maddi yardım göstərmirdi.

1834-cü ildə icazəsiz fəaliyyət göstərən bütün məktəblərin bağlanması haqqında Əlahəzrətin əmri çıxdı. Buna görə mənzil komissiyası Dərbəndin məscidyanı məktəblərində rəsmi icazəsi olmadan dərs verən müəllimlərin siyahısını təqdim etdi.

1. Molla Məhəmməd Qasım Əhmədov – 50 şagird;
2. Molla Həmdulla Kəlbə Hüseyn – 60 şagird;
3. Molla Məmməd Rza Məşədi Zeynal – 60 şagird;
4. Molla Əli Kərbəlayı – 15 şagird;
5. Molla Ağa Məmmədov – 18 şagird;
6. Molla Cavad Mirzə Ramazanov – 10 şagird;
7. Molla Qasım Mirzəyev – 12 şagird;
8. Molla Kərbəlayı Ələsgər Qasımov – 15 şagird;
9. Molla Məmməd Baba Kazımov – 20 şagird;
10. Molla Məmməd Rəsul Abdullayev – 9 şagird;
11. Molla Rəsul Əsgərov – 15 şagird;
12. Molla Məmməd Hüseyn Cəfərov – 20 şagird;
13. Molla Məmməd Nağı Bağırov – 20 şagird;
14. Molla Baba Əbdülhüseynov – 6 şagird.

Əlahəzrətin əmrinə baxmayaraq, şəhərdə məscidyanı məktəblər fəaliyyət göstərməkdə davam edirdi. Hətta şəhərdə kübar məktəblər açıldıqdan sonra da məscidyanı məktəblər haqqında məlumatlar rəsmi statistikaya daxil edilmişdir.

1873-cü ildə şəhərdə 394 nəfər şagirdi olan 18 məscidyanı məktəb, 1887-ci ildə 164 şagirdi olan 6 məktəb, 1913-cü ildə 270 nəfər şagirdi olan 10 məktəb (onlardan 40 nəfəri qız), 1915-ci ildə 213 nəfər şagirdi olan 10 məktəb (52 qız) fəaliyyət göstərmişdir.

1920-ci ildə sovet hakimiyyəti qurulduqdan sonra məscidyanı məktəblərin fəalliyyətinə qadağa qoyuldu.

Rus qəza məktəbi – Dərbənddə açılmışdır Dağıstanda ilk rus tədris müəssisəsi olmuşdur.

Şəhərdə dövlət tədris müəssisəsinin açılması haqqında məsələ rəsmi olaraq 1828-ci ildə general Saqin tərəfindən qoyulmuşdur. O, kənd təsərrüfatı və bağçılıq üzrə tədris kursunun Azərbaycan dilində olmasını təklif etmişdir.

Oxşar vəsatət 1829-cu ilin aprelində Qafqaz canişini general-feldmarşal İ.F.Paskeviç (1827-1830) tərəfindən, 1834-cü ilin fevralında isə Qafqazda baş komandan olan baron Rozen tərəfindən təkrar olunmuşdur. 1835-ci ilin sonunda 12 may 1835-ci il tarixli «Zaqafqaziya texnikumları haqqında Əsasnamə»yə əsasən Dərbənddə Rus qəza məktəbinin açılması rəsmi elan olunmuşdur. Məktəbdə yalnız oğlanlar təhsil alırdı. Məktəb 3 sinifli plnalaşdırılmışdır: – 1 hazırlıq və 2 tədris sinfi. 3-cü sinifdə tədris fənləri rus dilində, 1-ci və 2-ci siniflərdə tədris fənləri Azərbaycan dilində aparılırdı. Ona görə də Azərbaycan dilinin öyrənilməsi

vacib sayılırdı.

Məktəbdə 5 müəllim çalışırdı. Onlardan biri tərbiyəçi idi. Şəhərin komendantı podpolkovnik Şnitnikov məktəbin fəxri tərbiyəçisi təyin olunmuşdur.

Həll edilməmiş maliyyə və təşkilatı məsələlərə görə məktəbdə dərsin başlanması ləngiyirdi. Bununla əlaqədar olaraq komendant Qala bəyi (polismeyster), mayor bu barədə öz rəisinə məlumat verərək yazmışdır: «…yalnız 10 nəfər xristian ailəsi öz uşağını məktəbə verməyə razılıq vermişidir, müsəlman (azərbaycanlılar) ailələri isə öz uşaqlarını məktəbə verməkdən imtina etmişlər». O, da öz növbəsində Hacı Əliyevə bu məsələnin araşdırılmasını tapşırmış və araşdırma heç bir nəticə verməmişdir.

Onda komendant uşaqları 8-15 yaşına qədər olan ailələrin siyasını tutmağı əmr etmiş və bu ailələri onunla söhbət etməyə dəvət etmişdir. Bu tədbirdən sonra yalnız iki valideyn – Xıdır bəy oğlu Nəcəf Qulu bəy oğlu Həsənin (11 yaş) və poruçik Hacı Qasım bəy Heydərov oğlu Nimətullanın (8 yaş) – məktəbə getməsinə razılıq vermişlər.

1838-ci il yanvarın 2-də məktəbdə dərslər başlanmışdır. Şəhərin yuxarı hissəsində yerləşən 6 və 3 otaqlı iki yaşayış evi məktəb üçün icarəyə götürülmüşdür.

Məktəb açılan ili bura 35 şagird qəbul olunmuşdur. 1867-ci ildə rus şagirdlərinin Azərbaycan dilini öyrənməsi ləğv olunmuş və onun əvəzinə latın və fransız dilləri tətbiq olunmuşdur. İllik təhsilhaqqı 8 rubl idi.

1877-ci ildə qəza məktəbi 4 sinifli şəhər məktəbinə çevrilmişdir. Məktəbin 50-illik yubileyi zamanı (2 yanvar 1888-ci il) bu tədris müəssisəsində 1410 cild kitabı olan fundamental kitabxana; 273 cildli kitabı olan şagird kitabxanası; 117 cihazlı fizika kabineti fəaliyyət göstərmişdir.

Məktəbdə 50 il ərzində təhsil alan şagirdlərin sayı

İllər	Ümumi sayı	Kursu bitirmişlər	Xaric olunanlar	Yeni daxil olanlar
1838	35	-	2	-
1848	57	2	8	12
1858	84	3	28	36
1868	84	-	-	-
1878	125	3	13	37
1888	108	9	21	32

Məktəbdə 1913-cü ildə 133, 1915-ci ildə – 94 şagird təhsil almışdır. Sovet hakimiyyəti ölkədə təhsil islahatı aparanadək məktəb fəaliyyət göstərmişdir.

Müsəlman məktəbi – 1848-ci ilin mayında Dərbənd şəhərində açılmışdır. Bu rus qəza məktəbindən sonra şəhərdə ikinci dövlət təhsil müəssisəsi idi. Dərbənddəki müsəlman məktəbi canişin M.S.Vorontsovun göstərişi ilə Qafqazda açılmış 8 məktəbdən biri idi. Məktəbin nizamnaməsində deyilirdi ki, burada təhsil almaq üçün «bütün azad təbəqədən olan» müsəlmanların uşaqları qəbul olunur. Məktəbdə Azərbaycan, rus, ərəb dilləri, coğrafiya, tarix, hesab, hüsnüxətt, «rus qanunları» haqqında ümumi anlayış, gəmi istehsalının qayda və formaları tədris olunurdu. Burada uşaqlar pulsuz təhsil alırdılar və dövlət himayəsində saxlanılırdılar.



Rus və fars dili müəllimi Mirzə Mehdi bəy Haşımbəyov

Qafqaz müsəlman məktəblərinin təşkilində o dövrdə Qafqaz canişininin xüsusi işlər üzrə məmuru işləyən məşhur rus oriyentalisti N.Xanıkovun böyük rolu olmuşdur. Məktəbin plan və proqramlarının işlənməsi, onun müəllimlərlə komplektləşdirilməsi Xanıkovun məsləhətləri nəzərə alınmaqla aparılırdı. Onun məsləhəti ilə «… məktəbin baş müəllimi vəzifəsinə Dağıstanda ilk alim mollalardan sayılan Ayqun-kadi Canqutay dəvət olunmuşdur». Rus və fars dillərini tədris etmək üçün podporuçik Mirzə Mehdi bəy Haşımbəyov dəvət olunmuşdur. Məktəbin otaqları xüsusi evdə yerləşirdi və illik icarə pulu 300 rubl idi. Birinci il məktəbə 30 şagird sənəd vermişdir. Onlardan 10 nəfəri Dərbənddən idi.

1848-ci il mayın 8-də məktəbin rəsmi açılışında Qafqaz canişini knyaz M.S.Vorontsov həyat yoldaşı ilə və Dağıstanın müxtəlif rayonlarından dəvət olunmuş 100 nəfər nümayəndə iştirak etmişdir. Dərbənd sünni müsəlman ruhanilərinin başçısı Xəlil Əfəndi Azərbaycan dilində İmperator Əlahəzrəti və onun Qafqazdakı canişininin şərəfinə nitq söyləmişdir. Cavab nitqindən sonra canişin müəllimlərə və şagirdlərə hədiyyə paylamış və onları ziyafət süfrəsinə dəvət etmişdir.

1849-cu ildə artıq məktəbdə 64 şagird var idi. Onların 10 nəfəri Dərbənddən idi. 1850-ci ildə – 42 şagird, 10-u Dərbənddən idi. 1851-ci ildə – 56

şagird, 8-i Dərbənddən idi. Sonrakı illərdə şagirdlərin miqdarı azalmağa başladı və 1854-cü ildə məktəbdə yalnız 20 şagird qaldı.

Xəzəryanı vilayyətdə qoşun komandanı olan knyaz Orbeliani məktəbi Temirxan Şuraya köçürməyi təklif etdi. 1856-cı il yanvarın 16-da Dərbənddəki məktəb bağlandı və Temirxan Şura şəhərinə köçürüldü.

Qadın məktəbi – Dərbənd şəhərində 1873-cü il iyunun 20-də müsəlman qızları üçün İbtidai məktəbin bazasında yaradılmışdır.

Şəhər rus texnikumu – Dərbənd şəhərində 1877-ci il iyulun 1-də Rus qəza məktəbinin bazasında yaradılmışdır.

Məhəllə-kilsə məktəbi – 1890-cı ildə pravoslav kilsəsinin nəzdində açılmışdır. Bu məktəbin açılmasının təşəbbüskarı şəhər kilsəsinin dyakonu (aşağı dərəcəli keşiş) İqnati Vasilyeviç Zadvornov-Qromov olmuşdur. Məktəbin açılması üçün vəsaiti kollej assesoru F.Y.Radionov vermişdir. O, məktəbin açılışından sonra hər il məktəbi saxlamaq üçün pul vəsaiti ayırırdı. Məktəb şəxsi binada yerləşirdi. 1894-cü ildə məktəbin yeni binasının inşası məsələsi qaldırılmışdır. Bu məqsədlə dyakon Zadvornov-Qromov Bakıda 550 rubl, Dərbənddə 300 rubl ianə toplamışdır.

1896-cı ildə məktəbin tikilməsi üçün şəhərin yeni hissəsində – Baryatinsk küçəsində sahə ayrılmışdır. 1899-cu ilin yanvar ayının 7-də təntənəli surətdə məhəllə-kilsə məktəbi binasının bünövrəsi qoyuldu. Şəhər mühəndisi Qubkin tərəfindən tutulmuş smetaya əsasən məktəbin tikilməsinə 13 min rubl tələb olunmuşdur. Dəmir yolunun podratçı-inşaatçısı M.İ.Uşakov bu iş üçün 10 min rubl ianə vermişdir. Dyakon Zadvornov-Qromov və keşiş S.V.Lukyanov 2 min rubl ianə toplamışdır. Dəmir yolu Saritsindan alınmış tikinti materialını pulsuz vermişdir.

1900-cu il yanvarın 7-də məktəbin binasına dini xeyir-dua verilmiş və yanvarın 9-da burada dərslər başlanmışdır. 1901-ci ildə məktəbdə səcdəgah qurulmuş və məktəb kilsə məktəbinə çevrilmişdir. 1901-ci il oktyabrın 1-də Vladiqafqaz yepiskopu Vladimir məktəbə müqəddəslik xeyir-duası vermişdir.

Kilsə məktəbi əsasən pravoslav əhalisinin məskunlaşdığı məhəllənin mərkəzində yerləşdiyinə görə başlıca olaraq kilsə ehtiyaclarına xidmət etmişdir. Ona görə də 1902-ci ildə məktəbin həyətində yeni məktəb tikilmiş və bu məktəb 1903-cü ildə fəaliyyətə başlamışdır.

Bağçılıq, şərabçılıq və bostançılıq məktəbi – Şəhərdə kənd təsərrüfatı məktəbinin təsis edilməsi məsələsi 1890-cı ildə Dağıstan vilayətinin hərbi rəisi Çavçavadze tərəfindən qaldırılmışdır. Həmin məktəbin açılması şəhər sakinlərinin bağçılıqla, üzümçülüklə və bostançılıqla məşğul olması ilə əsaslandırılır.

Məktəb Çortəpə küçəsində (indi Aydınbəyov küçəsi) keçmiş poçt məntəqəsinin binasında yerləşdirilmiş, parktiki işlər üçün şəhər nümunəvi bağının bir hissəsi ayrılmışdı. Lakin məsələ bəzi bürokratik işlərə görə həll edilməmiş qalmışdır.

1897-ci ildə şəhər müvəkkillərinin iclası Bakı quberniyası və Dağıstan vilayətinin Xalq maarifi direktoruna şəhərdə kənd təsərrüfatı məktəbinin açılması məsələsinin həll edilməsi üçün müraciət etmişdir.

1897-ci ilin mayında şəhər müvəkkillərinin iclası qərar qəbul etdi. Qərarda deyilirdi: «…Dağıstan vilayəti hərbi qubernatoruna Dərbənd şəhərində məktəbin binasının tikilməsi üçün şəhərin ehtiyat fondundan 251 min rubl ayırmaq xahişi ilə müraciət edilsin».

Dövlət Əmlakı və Əkinçilik Naziri Dağıstanın hərbi qubernatoruna məlumat vermişdir ki, Dərbənddə kənd təsərrüfatı məktəbinin (bağçılıq və üzümçülük şöbələri) açılması və ştatların saxlanılması üçün ildə 2500 rubl və tədris vəsaitlərinə isə 1000 rubl ayırmaq mümkündür.

1897-ci ilin oktyabrında şəhər müvəkkillərinin iclası Dağıstan vilayətinin hərbi qubernatoruna «… şəhərin ehtiyat sərmayəsindən avadanlığın əldə olunması üçün 4000 rubl və gələcək məktəbin dövriyyə sərmayəsinin yaradılması üçün 4000 rubl ayrılması» xahişi ilə müraciət etmişdir. Lakin mülki məsələlər üzrə vilayət nümayəndəliyi şəhərə ehtiyat sərmayəsindən yalnız cəmisi 4000 rubl ayrılmasına (3600 rubl avadanlıq və 400 rubl dövriyyə sərmayəsi üçün) icazə vermişdir.

Beləliklə, lazımı vəsait olmadığı üçün kənd təsərrüfatı məktəbinin açılışı müəyyən müddətə təxirə salınmışdır. 1902-ci ilin yanvarında şəhər müvəkkillərinin iclası yenidən bu məsələyə qayıtmış və məktəbin açılması haqqında qərar qəbul etmişdir.

1903-cü il oktyabrın 25-də şəhər idarəsinin başçısı Qasım bəy Heydərov şəhərin adından Sankt-Peterburq şəhərində Əkinçilik departamenti ilə müqavilə bağlayır və 1904-cü il mayın 15-də Dərbənddə bu məktəbin açılması barədə icazə alır. A.P.Makarenko məktəbin direktoru, Nikitski (Anapa şəhəri) müəllim təyin olunurlar. Şəhər idarəsinin başçısı Qasım bəy Heydərov «məktəbin açılması üçün çox iş gördüyü» üçün məktəbin fəxri hamisi seçilmişdir. Məktəbə 12 yaşından yuxarı uşaqlar qəbul olunurdular.

Məktəb iki şöbədən və üç xüsusi sinfi olan hazırlıq sinfindən ibarət idi. Məktəbi bitirənlər «bağban və şərabçı təlimi ustası» attestatı alırdılar. Birinci il məktəbə 25 şagird qəbul olunmuşdur (16 nəfəri birinci hazırlıq sinfinə və 9-u ikinci sinfə), onlardan 20-si Dərbənd sakinlərinin uşağı, 5-i isə gəlmələr idi. 1926-cı ildə bu məktəbin əsasında Kənd Təsərrüfatı Texnikumu yaradılmışdır.

Özəl ibtidai məktəb – 1899-cu ildə Dərbənd şəhərində şagirdlərlə evdə məşğul olan müəllim M.A.Simmerman tərəfindən açılmışdır. Məktəb yalnız hazırlıq siniflərindən ibarət idi. Bu məktəbə dəstək verən şəhər idarəsi 1899-cu ilin noyabr ayında şəhər büdcəsindən 200 rubl vəsait ayırmışdır. Məktəb 1901-ci ildə bağlanmışdır.

Qadınlar üçün gimnaziya – Dərbənd şəhərində 1900-cü ilin sentyabrında müsəlman qızları üçün İbtidai məktəbin bazasında yaradılmışdır. Bu gimnaziya 3 sinifli, ödənişli təhsildən (illik təhsil haqqı 20 rubl) ibarət idi. Bu məktəb Bakı quberniyasının xalq məktəbləri direktorunun nəzarəti altında idi.

1904-cü ildə bu gimnaziya Qadın gimnaziyasına çevrildi.

1905-ci ilin avqustunda imperator əlahəzrəti Böyük Knyaginya Mariya Pavlovna gimnaziyanın hamisi vəzifəsinə stats-dama qrafinya E.A.Voronsova-Daşkovanı təsdiq etdi. E.A.Voronsova-Daşkova Qafqazda canişin olan İ.İ.Voronsov-Daşkovun arvadı idi. Gimnaziya şəhərdə sovet hakimiyyəti qurulanadək fəaliyyət göstərmişdir.

Realnı məktəbi. Dərbənddə oğlanlar üçün orta təhsil müəssisəsinin açılması məsələsi uzun müddət həll olunmamış qalırdı.



Keçmiş realnı məktəbinin binası

Hələ 1882-ci ildə şəhər ictimaiyyəti Qafqazda mülki hissələrin baş rəisi knyaz Dondukov-Korsakova bu məsələnin həll edilməsinə kömək etmək üçün müraciət etmişdir.

1884-cü ildə Dərbənddə oğlanlar gimnaziyasının saxlanması üçün hətta xərclərin maddəsi də Təhsil Nazirliyinin smetasına daxil edilmişdir. Lakin smetanın təsdiqi zamanı bu maddəni çıxarmışlar. 1897-ci ildə şəhər müvəkkilolunmuşlarının iclası bu məsələni yenidən qaldırdı, lakin bu məsələ dövlət rəhbərləri tərəfindən qəbul edilmədi. 1899-cu ildə yenidən ali hakimiyyət orqanlarına şəhərdə oğlanlar üçün gimnaziyanın açılması baradə müraciət etdilər və hər il bu məktəbə şəhər vəsaitlərindən 2 min rubl, binanın tikilməsi üçün təmənnasız torpaq sahəsi və avadanlıq almaq üçün 5 min rubl ayırmağa söz verdilər. Lakin Dağıstan vilayətinin hərbi qubernatoru general Tixanov bu dəfə də xahişi rədd etdi.

Şəhər hakimlərinin hesabına görə yeddisinifli və bir hazırlıq sinifli gimnaziyanın saxlanması üçün illik xərc 40 min rubldan yuxarı deyildi. Avadanlıq, kitab, dərs vəsaitlərinin alınması üçün ayrıca smeta tərtib edilmişdir. Şagirdlərin sayı belə planlaşdırılmışdır: hazırlıq sinfi – 40 nəfər; 1, 2, 3 və 4 siniflərdə – hər sinifdə 35 nəfər, 5, 6 və 7 siniflərdə – hər sinifdə 30 nəfər şagird. İllik təhsil haqqı 50 rubl müəyyən edilmişdir. Bütün bunlara baxmayaraq, vəsait olmadığı üçün şəhər sakinlərinin xaişi yenidən rədd edilmişdir.

1902-ci il avqustun 27-də şəhər müvəkkilolunmuşlarının iclası Qafqaz tədris dairəsinin hamisindən teleqram almışdır. Teleqramda deyilirdi «… maarif Naziri 19 avqust teleqramı ilə Dərbənddə realnı məktəbi şəhər vəsaitləri hesabına açılmasına icazə vermişdir». Şəhər müvəkkilolunmuşlarının iclası

bu tələblərlə razılaşdı və illik təhsilhaqqını 20 rubl dəyərində müəyyən etdi.

1902-ci il oktyabrın 1-də realnı məktəbinin açılışı oldu. S.D.Netatkeviç məktəbin ilk direktoru təyin olundu. Şəhər müvəkkilolunmuşlarının 1904-cü il tarixindəki iclasında realnı məktəbinin açılmasında şəhər başçısı Qasım bəy Heydərovun xidmətlərini nəzərə alaraq onu məktəbin fəxri hamisi seçir və onun adına 150 rubl dəyərində təqaüd təsis olunur. Heydər bəy Qasımov adına təsis edilmiş təqaüdə ilk olaraq 3-cü sinif şagirdi Mehdi bəy Məmmədbəyov layiq görülür.

1903-cü ildə bu məktəb «Əlahəzrətin icazəsi» ilə «İmperator II Nikolayın adına Dərbənd realnı məktəbi» adlandırıldı.

1904-cü ildə mühəndislər Qubkin və Jdanov tərəfindən Taxtabazar meydanında məktəbin yeni binasının layihəsi və smetası tutuldu. Baş tədris binasının planı «N» hərfi (Nikolay) formasında idi. Yeni məktəb binasının tikintisi 1914-cü ildə başa çatdı.

Təhsilhaqqı çox olduğu üçün burada əsasən varlı ailələrdən olan uşaqlar təhsil alırdı. 1903-cü ilin rəsmi göstəricilərinə görə, burada təhsil alan şagirdlərin 90% varlı ailələrdən idi. Bu da şəhər sakinləri arasında narazılığa səbəb oldu. Şəhər sakinlərinin məktəb direktoruna müraciət etməsinə baxmayaraq, onların tələbi yerinə yetirilmədi.

1920-ci ildə realnı məktəbi rəsmi olaraq bağlandı və onun binası 1-ci dərəcəli 7 illik sovet məktəbinə verildi.

1923-cü ildə keçmiş realnı məktəbin binasında II Dağıstan Pedaqoji Texnikumu (hazırda Dərbənd Pedaqoji kolleci) açıldı.

1941-1951-ci illərdə məktəbin binasında 1628 saylı təxliyyə hospitalı, sonralar isə hərbi hospital yerləşmişdir.

1951-ci ildə bina yenidən Pedaqoji Texnikuma qaytarıldı.

İ.V.Qoqol adına rus-tatar məktəbi. Dərbəndin baş qazisi Hacı Molla Məmməd Sadıq Pişnamazın şəhər müvəkkilolunmuşların iclasına müraciətindən sonra 1902-ci ildə Dərbənd şəhərində açılmışdır.

Şəhər idarəsi müsəlmanların bu xahişini müdafiə edərək Dağıstan vilayətində 1902-ci il sentyabrın 1-dən rus-tatar məktəbinin açılması üçün Bakı quberniyası xalq məktəbləri direktorunun razılığını almışdır. Bu məktəbə İ.V.Qoqolun adı verilmişdir. Məktəb üçün Qubernator küçəsində (hazırda III İnternasional küçəsi, ev №12) xüsusi ev icarəyə götürülmüşdür, sonralar isə həmin küçədə məktəb üçün bina tikilmişdir (hazırda 7 saylı məktəb).

Qadın məktəbi – Dərbənd şəhərində 1903-cü ildə Puşkin İbtidai məktəbinin bazasında 2 sinifli orta təhsilli tədris müəssisəsi yaradılmışdı.

Azyaşlı üşaqlar üçün yetimlər evi – ilk dəfə Dərbənd şəhərində 1903-cü ildə açılmışdır. Dağıstan vilayətinin qubernatoru tərəfindən təsdiq olunmuş qaydalara əsasən, bu evə Dərbənddə anadan olmuş və dinindən aslı olmayaraq 2 yaşından yuxarı olan uşaqlar qəbul edilirdi. Oğlanlar burada 10, qızlar isə 17 yaşınadək saxlanılırdı. Yetimlər evi şəhər vəsaiti hesabına saxlanılırdı.

1905-ci ildə yetimlər evinə Qafqaz canişininin arvadı Yelizaveta Andreyevna Voronsova-Daşkovanın adı verilmişdir.

4 saylı texniki-peşə məktəbi. 1903-cü il sentyabrn 15-də Vladiqafqaz dəmiryolunun vəsaiti hesabına Dərbənd şəhərində 2 sinifli ibtidai şəhər ümumtəhsil «Aleksandrovsk məktəbi» açılmışdır. Bu məktəbdə dəmiryol stansiyası qulluqçularının və fəhlələrinin uşaqları təhsil alırdı. Məktəbin direktoru Vixrev Mixail Pavloviç idi. Birinci il məktəbə 53 oğlan və 44 qız olmaqla 97 şagird qəbul olunmuşdur. 1906-cı ildə şagirdlərin sayı 130 oğlan və 90 qız olmaqla 220-ə çatmışdır. Bu məktəb 1930-cu ilə qədər ibtidai ümumtəhsil məktəbi kimi fəaliyyət göstərmiş, sonra isə Dərbənd dəmiryol məntəqəsi nəzdində 7 illik fabrik-zavod məktəbinə çevrilmişdir.

1941-ci ildə 600 nəfər şagirdin təhsil aldığı həmin məktəb «4 saylı dəmiryol tikintisi təlimli fabrik-zavod məktəbinə» çevrilmişdir.

1942-ci ildə 4 saylı FZT (FZO) 1 saylı dəmiryol məktəbinə çevrilmişdir. Burada parovoz maşinistinin köməkçisi, yol briqadirləri, parovozların təmiri üzrə çilingərlər, vaqonların təmiri üzrə çilingərlər və alətçi-çilingər hazırlanırdı.

1963-cü ildə məktəb «4 saylı şəhər texniki-peşə məktəbi», 1985-ci ildə – «4 saylı İxtisaslaşmış texniki-peşə məktəbi», 1995-ci ildə «4 saylı texniki-peşə məktəbi»nə çevrilmişdir.

Bu məktəbin məzunları arasında Sovet İttifaqı Qəhrəmanı Nikolay Kalusski də olmuşdur.

Məktəbin direktoru olmuşlar:

- Vixrev P.M. - 1903-1918-ci illər;
- Menşikov S.A. - 1918-1936-cı illər;
- Bubnov A.N. - 1936-1940-cı illər;
- Yermolov F.Q. - 1940-1943-cı illər;
- Bartman V.İ. - 1943-1944-cü illər;
- Aşurov D.İ. - 1944-1963-cü illər;
- Starçevski N.S. - 1963-1969-cu illər;
- Miroşnikov P.R. - 1969-1973-cü illər;
- Vahabov A.S. - 1973-1976-cı illər;
- Zahirov Z.Ş. - 1976-1982-ci illər;
- Məlikməmmdov İ.M. - 1982-ci ildən.

Rus-yəhudi məktəbi Dərbənd şəhərində 1904-cü il mayın 2-də dağ yəhudilərinin vəsatəti ilə açılmışdır. Məktəbə yerli sakin İ.Ravinoviç başçılıq etmişdir. Məktəb şəxsi ianə və şəhər büdcəsindən ayrılan vəsait hesabına fəaliyyət göstərmişdir. Əvvəllər məktəb icarəyə götürülmüş xüsusi evdə yerləşirdi. Sonralar məktəb üçün Baryatinski küçəsində bina inşa edilmişdir.

Realnı məktəbin tələbələrinin tətili Dərbənd şəhərində 1905-ci il noyabrın 23-də ölkədə birinci rus burjua-demokratik inqilabının yüksəlməsi dövründə başladı. Tətil ərəfəsində məktəbdə aşağıdakı çağırışlar səslənirdi: «Dərbənd tələbələrinə! Demək olar ki, bütün orta tədris müəssisələri öz rəisləri qarşısında tələblər qoymuşlar və bu tələblərin bir hissəsi artıq yerinə yetirilmişdir. Məgər siz bu hərəkatda iştirak etməyəcəksiniz, məgər siz orta məktəbi bürokratların hakimiyyətindən azad etməyə çalışmayacaqsınız? Rusiyanın gənc tələbələrinin irəli sürdüyü tələbləri siz də irəli sürün!!! Uğura biz yalnız birlikdə nail ola bilərik...

Yaşasın azad məktəb!».

Realistləri hərəkətə çağıran bu çağırışın təsiri altında tələbələr məktəbin binasında azad yığıncaqların keçirilməsini, müfəttişlikdən polis funksiyalarının ləğv edilməsini, məktəbdə təhsil alan azərbaycanlılar və yəhudilər üçün ana dilinin tədrisinin aparılmasını, şpionluq sistemini ləğv etməyi, kilsə-slavyan dilinin tədrisinin ləğvini, tələbələrə məktəbdənkənar nəzarətin ləğvini və s. tələb etmişlər.».

Realnı məktəbinin tələbələrinə qadın gimnaziyasının tələbələri də qoşuldu. Tətil noyabrın 30-na qədər davam etdi və hakimiyyətin və tədris rəislərinin güclü təsiri altında dayandırıldı.

Pedaqoji kollec. Dağıstanda sovet hakimiyyətinin ilk illərində əsas məsələlərdən biri əhali arasında savadsızlığın ləğv edilməsi idi. Bu məsələni həll etmək üçün 1920-ci ildə Dağıstanın cənub rayonları üçün müəllimlərin hazırlanması məqsədi ilə Dərbənddə qısamüddətli pedaqoji kurslar açıldı.

1923-cü ilin aprelində yüksəkixtisaslı pedaqoji kadrların hazırlanması üçün Dərbənddə dördillik təhsil müddəti ilə II Dağıstan Pedaqoji Texnikumu açıldı. Pedaqoji texnikum üçün realnı məktəbinin binası ayırılmışdır. Burada təhsil Azərbaycan dilində aparılırdı. Məktəbin müəllim kadrları ilə komplektləşdirilməsində və təhsil prosesinin dərslik və dərs vəsaitləri ilə təminatına Azərbaycan SSR yaxından köməklik göstərirdi. Məktəbin ilk direktoru Bakıdan gəlmiş Seyid Əbdürrəhman-zadə olmuşdur.

1927-ci ildə ibtidai siniflər üçün 26 müəllim hazırlamış Pedaqoji Texnikumun ilk buraxılışı olmuşdur. Həmin ildə məktəbdə təhsil rus dilinə keçirilmiş, məktəb isə Dərbənd Pedaqoji məktəbi adlandırılmışdır.

1994-cü ildə pedaqoji məktəbə kollec statusu verilmişdir.

Məktəb fəaliyyət göstərdiyi müddətdə ibtidai sinif müəllimləri, baş pioner dəstə rəhbərləri, məktəbəqədər uşaq müəssisələri üçün tərbiyəçilər, orta məktəbin yuxarı sinifləri üçün rus və ingilis dilləri, riyaziyyat müəllimləri – cəmi 18 min mütəxəssis buraxmışdır.

Pedaqoji məktəbin məzunları arasında məşhur alimlər, incəsənət və mədəniyyət xadimləri, hərbçilər və dövlət xadimləri olmuşdur: Sovet İttifaqı Qəhrəmanı Şəmsulla Əliyev, sərhəd qoşunları general-mayoru Mustafa Nəsirov, Sosialist Əməyi Qəhrəmanı Xamis Qaziyev, Dağıstan pedaqogika institutunun direktoru professor Həmidullah Məhəmmədov, və s.

Məktəbin direktorları:

- Əbdürrəhman-zadə Seyid – 1923-1928;
- Əliyev Müzəffər Həmzə oğlu – 1928-1936;
- Mirzəbəyov İsa bəy– 1936-1938;
- Əliyev Əbdül-Əli Əli oğlu– 1938-1940;
- Məhəmmədov Məhəmməd Əbdülmanaf oğlu – 1940-1941;
- Bartman V.İ. – 1941-1942;

- Məmmədov Taib Məmmədnəbi oğlu – 1942-1945;
- Əliyev Qəni Mehdi oğlu – 1945-1949;
- Saqıdov Əbdürrəhim Qimat oğlu– 1949-1952;
- Pirsəidov Həmdulla Qədir oğlu– 1952-1959;
- Baqrayeva Zinaida Aleksandrovna – 1956-1965;
- Muradov Əbdül Nahməd oğlu – 1965-1970;
- Qazıəhmədov Hacıəhməd Bəy oğlu - 1970-ci ildən.

2009-cu il yanvarın 1-nə qədər olan məlumata görə məktəbdə 1419 tələbə təhsil alırdı.

26 saylı Peşə məktəbi (xalçaçılıq məktəbi). Cənubi Dağıstanda təlimatçı, usta, toxucu üzrə xalçaçılıq mütəxəssislərini hazırlamaq məqsədi ilə 1924-cü ilin oktyabrında Dərbənd şəhərində Xalçaçılıq Texnikumu açılmışdır. Nəbiyev Mirzə Məhəmməd oğlu texnikumun ilk direktoru olmuşdur.

Texnikum 1939-cu ilə kimi fəaliyyət göstərmiş və 15 il ərzində mindən çox mütəxəssis hazırlamışdır. 1939-cu ildə texnikum tələbələri ilə birlikdə Moskvaya, M.İ.Kalinin adına Dövlət İncəsənət məktəbinə köçürülmüş və burada xalçaçılıq fakültəsi açılmışdır.

1949-cu ildə Dərbənddə yenidən xalçaçılıq istehsalı üçün mütəxəssislər hazırlanması üzrə 3 illik tədris müəssisəsi – fabrik-zavod-xalçaçılıq məktəbi açılmışdır. Məktəb RSFSR Yerli Sənayesi Nazirliyinin tabeliyində idi

1996-cı ilin oktyabrında məktəb Dağıstan Respublikası Təhsil Nazirliyinin 26 saylı peşə məktəbi adlandırılmışdır.

Peşə məktəbi fəaliyyət göstərdiyi müddətdə yeddi minə yaxın mütəxəssis buraxmışdır.

Peşə məktəbi tələbələrinin əl işləri Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində (XTNS), Bolqarıstanda, Macarıstanda nümayiş etdirilmiş və 1-ci mükafatlara layiq görülmüşdür.

Hal-hazırda məktəbdə mütəxəssislər hazırlamaq üçün aşağıdakı şöbələr fəaliyyət göstərir:
- əl ilə toxuma;
- dərzi-toxucu;
- trikotaj toxucuları;
- tikiş dəzgahlarının operatoru;
- zərgərlər;
- daş və keramika üzərində naxış vuran usta;
- ağaç üzərində naxış vuran usta;
- EHM operatorları.

Məktəbin direktorları:
- Həsənov Əli-Saqid
  - 1944-1950-ci illər;
- Qavrilov Boris Qavriloviç
  - 1950-1952-ci illər;
- Nəbiyev Mirzə Məhəmməd oğlu
  -1952-1964-cü illər;
- Əmirxanova Adiyat Feyzulla qızı
  -1964-1974-cü illər;
- Ələkbərova Hürriyyət İbrahim qızı
  - 1974-cü ildən.

Kənd Təsərrüfatı texnikumu – 1926-cı ildə Dərbənd bağçılıq, üzümçülük və bostançılıq məktəbinin əsasında Dağıstanın kənd təsərrüfatı üçün mütəxəssislərin hazırlanması məqsədi ilə yaradılmışdır.

Texnikum fəaliyyət göstərdiyi dövrdə 10 minə yaxın mütəxəssis hazırlamışdır. SSRİ Dövlət mükafatı laureatı S.Nurməhəmmədov, Dağıstan Kənd Təsərrüfatı Elmi-Tədqiqat İnstitutunun direktoru, elmlər doktoru Z.Pulatov, tank qoşunları general-polkovniki M.T.Tankayev, Dağıstan Dövlət universitetinin rektoru A.A.Əbilov və başqaları bu məktəbin məzunları olmuşlar.

Hazırda kənd təsərrüfatı texnikumu Dağıstanda kənd təsərrüfatı mütəxəssisləri hazırlayan ən böyük orta ixtisaslı tədris müəssisəsidir. Məktəb aşağıdakı ixtisaslar üzrə mütəxəssislər hazırlayır: kəndli və fermer təsərrüfatı, ətraf mühitin və təbii ehtiyatların qorunması, hüquqşünaslıq, iqtisadiyyat, mühasibat uçotu və audit.

Texnikumun direktorları:
Talıbov Abu Talıb Hacı oğlu
  1926 – 1930-cu illər;
Məmərzabəyov Mehrab Məmməd Əmin oğlu
  1932-1933-cü illər;
Vəlixanov Ramazan Şərif oğlu
  1933 – 1937-ci illər;
Mirzəyev Məhəmməd Mirzə oğlu
  1953 – 1955-ci illər;
Teymurov Mirzə Bəhmən-zadə
  1955 – 1962-ci illər;
Sadıqov Əli Məhəmmədəli oğlu
  1962 – 1978-ci illər;
Qurbanov Məhəmməd Seyid oğlu
  1978 – 1992-ci illər;
Güləhmədov Leytan Nurməhəmməd oğlu
  1993 – 1996-cı illər;

Sultanov Sultan Həmid oğlu
1996 – 2000-ci illər;
Güləhmədov Leytan Nurməhəmməd oğlu
2000 – 2004-cü illər;
Qarayev Ruslan Sultanmurad oğlu
2004-cü ildən.

2006-cı il yanvarın 1-nə olan məlumata əsasən, məktəbdə 792 tələbə təhsil alırdı.

Dağıstan Respublikası Mədəni-Maarif məktəbi – 1940-cı ildə Dərbənd şəhərində orta ixtisaslı mədəni-maarif işçilərinin (kitabxanaçılar, mədəniyyət evlərinin və kənd klublarının işçiləri, özfəaliyyət dərnəklərinin rəhbərləri, mədəni-kütləvi istirahətin təşilatçıları və s.) hazırlanması üçün yaradılmışdır. 1966-cı ildə məktəb Mahaçqala şəhərinə köçürülmüş və sonralar bağlanmışdır.

Tibb məktəbi – 1953-cü il oktyabrın 1-də Dərbənd şəhərində təsis olunmuşdur. Burada bir feldşer şöbəsi (30 tələbə) var idi. Məktəb 8 saylı orta məktəbin kürsülük hissəsində yerləşirdi. Saqareyşvili Marisa Savelyevna məktəbin ilk direktoru olmuşdur.

Bir müddətdən sonra tələbələrin artması ilə əlaqədar Buynaksk küçəsindəki 5 saylı binada əlavə otaqlar verilmişdir.

1990-cı ildə Şeboldayev küçəsində yeni tipli tədris korpusu istifadəyə verildi.

Məktəb fəaliyyət göstərdiyi dövrdə 5140 mütəxəssis buraxmışdır. 2001-2002-ci tədris ilində məktəbin 540 nəfər şagirdi olmuşdur.

Məktəbin direktorları:
– Saqareyşvili Marisa Savelyevna – 1953-1972;
– Dövlətxanova Nina Fyodorovna – 1972-1999;
–Ramazanov Nəriman Salman oğlu–1999-cu il.

Dağıstan Politexnik Kollecinin Dərbənd filialı. 1962-ci ilin sentyabrında yeni işə düşmüş cilalayıcı zavodu üçün orta texniki personalın hazırlanması, eləcə də Dərbənd şəhərinin metal emal edən digər müəssisələrinin mütəxəssislərə olan ehtiyacını ödəmək üçün burada Dağıstan mexaniki texnikumu filialının axşam şöbəsi açıldı.

1965-ci ildə bu filial Dəzgahquraşdırma Sənayesi nazirinin əmri ilə müstəqil təhsil müəssisəsinə – Dərbənd dəzgahquraşdırma axşam texnikumuna çevrilmiş, 1966-ci ildə isə Dağıstan politexnik kollecinin Dərbənd filialına dəyişdirilmişdir.

Mövcud olduğu illər ərzində bu təhsil müəssisəsi 2 minə yaxın mütəxəssis hazırlamışdır.

Bu məktəbin direktoru vəzifəsində işləmişlər:
– İlya Aqaşyayeviç İlyayev - 1962-1997-ci il;
– Svetlana Petrovna Sokolova- 1997-2000-ci il;
– Dəmir Xıdıroviç Dəmirov - 2000-ci il.

2009-cu il yanvarın 1-nə qədər məktəbdə 378 tələbə təhsil alırdı.

Musiqi məktəbi – 1972-ci ildə Cənub Dağıstana kadr hazırlamaq məqsədi ilə təşkil olunmuşdur. Məktəb fəaliyyəti dövründə 1255 mütəxəssis hazırlamışdır. 2006-cı il yanvarın 1-nə olan məlumata görə, məktəbin bütün şöbələrində (fortepiano, xor dirijorluğu, xalq çalğı alətləri, simli alətlər, nəfəs alətləri, teatr incəsənəti) 182 şagird təhsil almışdı.

Məktəbin direktorları:
- Annenko Aleksandr Petroviç-1972-1980-ci illər;
- Giyadov Yuri İosifoviç- 1980-1981-ci il;
- Kuruqliyev Feytila Abdiyeviç-1981-2006-cı il;
- Əsgərov Firdosi Səftər oğlu- 2006-cı ildən.

Dərbənd İncəsənət və Mədəniyyət İnstitutu – Dərbənd şəhərində 1993-cü ildə açılmış və Dağıstan Respublikasında yeganə mədəniyyət institutudur.



Mirzəyev Həsən Məmmədəli oğlu

Dərbənd İncəsənət və Mədəniyyət İnstitutunun rektoru Rusiya Federasiyasının əməkdar mədəniyyət işçisi, Dağıstan Respublikasının əməkdar təhsil işçisi, Rusiya Federasiyasının «Mətbuat» jurnalistlər birliyinin üzvü Mirzəyev Həsən Məmmədəli oğludur. Onun rəhbərliyi altında institutun bir çox nailiyyətləri olmuşdur.

Bu institut fəaliyyətinə bir beşmərtəbəli binada başlamışdır. 2007-ci ildə ekspert komissiyasının 28 mədəniyyət və incəsənət institutları arasında keçirdiyi kompleks qiymətləndirməsinə əsasən, tələbələrə düşən kompyuter sayına görə Dərbənd İncəsənət və Mədəniyyət İnstitutu birinci yeri qazanmışdır. 2010-cu ildə dövlət qayğısı nəticəsində təhsil müəssisəsində yeni beşmərtəbəli korpus istifadəyə verilmiş və maddi-texniki bazası inkişaf etdirilmişdir. Yeni korpusda idman zalı, yeməkxana və yataqxana yerləşir.

Yarandığı gündən özünü yüksək ixtisaslı mütə-

xəssislər hazırlayan təhsil müəssisəsi kimi təqdim etmişdir. İnstitutun professor-müəllim heyətinin 65%-nin elmi dərəcəsi və elmi adı var. Gənc müəllimlər peşəkarlıqlarını artırmaq üçün təhsillərini aspiranturada və təkmilləşmə kurslarında davam etdirirlər. Təhsil müəssisəsinə Rusiya Federasiyasının aparıcı universitetlərindən təcrübəli professor-müəllim heyəti mühazirə oxumaq üçün dəvət olunur.

Müasir texniki vasitələrdən və daim yenilənən zəngin elektron kitabxanadan institut tələbələri daim istifadə edir. Təhsil ocağının maddi-texniki bazasının inkişafı aspiranturanın, yeni ixtisasların açılmasına və təhsil alanların sayının artırılmasına imkan verir.

İnstitutda ildə iki dəfədən az olmayaraq internet vasitəsi ilə imtahanlar keçirilir, bu isə tədris olunan fənlərin obyektiv qiymətləndirilməsindən və tələbələrin yüksək hazırlıq səviyyəsindən xəbər verir. Tələbələr elmi işlərə cəlb olunur və onların iştirakı ilə elmi-praktiki konfranslar keçirilir. Bu konfranslara respublikanın müxtəlif təhsil müəssisələrindən müəllim və tələbələr dəvət olunur.

Təhsil müəsisssəsi öz fəliyyəti dövründə mindən yuxarı yüksəkixtisaslı mütəxəssis hazırlamış və onlar doğma şəhərdə, respublikada, respublikadan kənarda öz sahələri üzrə çalışırlar. Məzunların bir çoxu müəssisələrdə təcrübə keçdiyi zaman göstərdikləri yüksək biliklərə görə həmin müəssisə rəhbərləri onları gələcəkdə işlə təmin etmək üçün instituta müraciət edirlər.

İnstitutda milli adət-ənənələr də xüsusi yer verilir. Tələbələr müxtəlif idman yarışlarında, şən hazırcavablar klubunda (ŞHK), konsertlərdə, «Şəhər günü», «Yeni il», «Novruz bayramı» və s. kimi bayram tədbirlərində yaxından iştirak edirlər.

Hər il respublika səviyəsində institutda «Qabiliyyət və ilham» adlı musiqi yarışı və müxtəlif fənnlər üzrə olimpiadalar keçirilir. Yarış qalibləri instituta müsabiqədənkənar qəbul olunmaq kimi güzəşt qazanırlar. İnstitutun tələbə şurası şəhərin, respublikanın müxtəlif diplom və fəxri fərmanları ilə təltif olunmuşdur.

Dağıstan Dövlət Universitetinin Dərbənd filialı – 1994-cü ildə Dərbənd şəhərində açılmışdır. Universitetə hüquq elmləri namizədi, dosent İbrahimova Zərifə Əlisöhbət qızı rəhbərlik edir. Universitetdə «Hüquq», «Biologiya», «Tarix», «Filologiya», «Maliyyə və kredit» fakültələri fəaliyyət göstərir. Burada 1350 nəfər tələbə təhsil alır.

Universitetdə müasir texnologiya ilə təchiz olunmuş kompüter sinifləri, kimya laboratoriyası, kitabxana, oxucu zalı, tələbə klubları fəaliyyət göstərir.

Universitetdə 60 nəfər müəllim çalışır. Onlardan 8 nəfəri elmlər doktoru və professor, 34 nəfəri elmlər namizədi (onlardan 9 nəfər dosent), 1 nəfəri doktorant, 4 nəfəri aspirant və 9 nəfəri elməlr namizədidir. Tədris prosesinə 15 nəfər elmlər doktoru və 44 nəfər elmlər namizədi cəlb olunmuşdur. Universitetin alimləri elmin inkişafına böyük töhfələr verirlər. Onlar tərəfindən 100-dən çox elmi məqələ, monoqrafiya və bir sıra dərs vəsaitləri nəşr olunmuşdur. Universitetdə çalışan müəllimlər hər il təkmilləşdirmə institutlarında ixtisasartırma kursunu keçirlər. Məktəbin tələbələri şəhərin və respublikanın müxtəlif ictimai işlərində, kütləvi-mədəni tədbirlərində yaxından iştirak edirlər. Belə ki, bu filialın «Şən və hazırcavablar klubu»nun komandası Dağıstan və Qafqaz liqasının finalçısı və Soçidə keçirilən «Şən və hazırcavablar klubu» beynəlxalq festivalın laureatı olmuşdur.

Dağıstan Dövlət Pedaqoji Universitetinin Dərbənd filialı – 1996-cı ildə Dərbənd şəhərində açılmışdır. Nəzirov Səfərəddin Yəhya oğlu Dağıstan Dövlət Pedaqoji Universitetinin Dərbənd filialının direktorudur. Burada 3500-dən çox tələbə təhsil alır. Universitetdə təhsil əyani və qiyabidir. Universitetdə 90 min cildlik müxtəlif təhsil ədəbiyyatı olan kitabxana, 7 kompüter sinfi, iki linqafon kabineti, 120 yerlik ev kinoteatrı fəaliyyət göstərir. 137 kompüter və başqa texniki vasitələr tələbələrə bilik səviyyələrini artırmağa, yeni kompüter biliklərinə nail olmağa imkan verir. Universitetdə internet-klub da fəaliyyət göstərir.

Universitetdə böyük müəllim kollektivi çalışır: 3 nəfər elmlər doktoru, 49 nəfər elmlər namizədi və dosent, 18 nəfər Dağıstan və Rusiyanın əməkdar müəllimi, 25 nəfər aspirant və tədqiqatçı vardır. Dissertasiyaların müdafiəsi Sankt-Peterburqda, İvanovoda, Moskvada, Saratovda, Rostov-Donda, Stavropolda, DDPU və DDU-da keçirilir. Rusiyanın YUNESKO-dakı səfiri Qriqori Orconikidze, Dərbənd rayonunun icra başçısı Qurban Qurbanov, Dərbəndin meri Feliks Qazıəhmədov və başqaları filialın fəxri müəllimləri olmuşdur.

Universitetin nəzdində gəncləin tələbə komitəsi

və «Şən və hazırcavablar» tələbə klubları fəaliyyət göstərir. Gənclər komitəsinin qüvvəsi ilə «Lavina» qəzetinin buraxılışı təşkil olunmuşdur.

Müqəddəs knyaz Aleksandr Nevski adına Dərbənd kadet korpusu (Kadet internat məktəbi) - hərbi mütəxəsisslərin hazırlanması üçün 2000-ci il Dərbənd şəhərində yaradılmışdır. 2006-cı il yanvarın 1-ə olan məlumata əsasən, 16 bölükdə (siniflərdə) 400 kadet təhsil alırdı.

Təlim-təhsil prosesi əsas fənlərin dərindən öyrənilməsi sistemi üzrə aparılırdı: rus dili və ədəbiyyat, riyaziyyat, fizika, kimya, informatika, Rusiya tarixi, xarici dil və əlavə təhsil üçün: hərbi hazırlıq, hərb tarixi, hərbi hüquq, hərbi etika və estetika, psixoloji mədəniyyət və fiziki hazırlıq dərsləri keçilir.

Qvardiya general-mayoru Maqomedov Maqomed Omaroviç kadet korpusunun rəisidir.

Dağıstan Dövlət Universitetinin İranşünaslıq mərkəzi – 2004-cü ildə DDU-nun «Şərqşünaslıq» fakültəsində açılmışdır. Universitetin fars dili və ədəbiyyatı müəllimi Məmmədzadə Nuri bu mərkəzin rəhbəri təyin olunmuşdur.

2005-ci ilin martında Dağıstan Dövlət Universiteti ilə İran İslam Respublikasının Rusiya Federasiyasındakı səfirliyi nəzdində mədəni əlaqələr nümayəndəliyi ilə əməkdaşlıq haqqında müqavilə «Şərqşünaslıq» fakültəsi əsasında İranşünaslıq mərkəzinin rəsmi açılısı haqqında rektorun əmri verilmişdir. Mərkəzin yaranmasının əsas məqsədi fars dili və ədəbiyyatı üzrə mütəxəssislərin hazırlanması və Dağıstanda İranşünaslıq sahəsində tədqiqat işlərinin aparılmasıdır. Mərkəzin nəzdində fars dilini öyrənmək üçün linqafon kabineti və iranşünaslıq üzrə fars, rus, ərəb, ingilis dillərində kitablarla zənginləşdirilmiş kitabxana fəaliyyət göstərir. Mərkəz bir sıra mədəni-kütləvi tədbirlər keçirmişdir.



Universitetdə iranşünas tələbələrin elmi dərnəyi yaradılmışdır. Tələbələrin məqalələri ilə elmi dərnəyin bülleteni nəşr olunur.

Mərkəz tələbələrin İran və Dağıstan mədəni-tarixi əlaqələri ilə bağlı olan yerlərə ekskursiyalar təşkil edir. Belə ki, Dərbənd şəhərinə, Məskəncə kəndinə və Dağıstanın tarixi-etnoqrafik muzeyinə gəzintilər təşkil edilmişdir. Mərkəzə tələbələrlə görüşə görkəmli mütəxəssislər dəvət olunur, dil təcrübəsini keçmək üçün tələbələr İran İslam Respublikasına göndərilir.

Dağıstan Dövlət Universitetinin İranşünaslıq mərkəzi tərəfindən 2006-cı ildə Dərbənd şəhərində fars dili kursları açılmışdır.

Dərbəndin orta ixtisas təhsili müəssisələrinin 01.01.2009-cu ilə olan şagirdlərinin sayı

S/S	Təhsil müəssisənin adı	Yaranma tarixi	Şagirdlərin sayı
1	Pedaqoji kollec	1994-cü il	1419
2	Tibb məktəbi	1953-cü il	673
3	Kənd təsərrüfatı texnikumu	1926-cı il	792
4	Dağıstan politexnik kollecinin filialı	1994-cü il	378
5	Musiqi məktəbi	1972-ci il	182

MƏTBUAT, RADİO VƏ TELEVİZİYA

XIX yüzilliyin ikinci yarsında Şimali Azərbaycanın mədəni həyatının ən mühüm hadisələrindən biri azərbaycandilli dövri mətbuatın meydana gəlməsi idi. İstedadlı Azərbaycan publisistləri, ictimai xadimləri və öz dövrünün qabaqcıl mütəfəkkirlərinin bütöv bir nəsli bu mətbuatda sınaqdan keçmişdir.

Azərbaycan ictimaiyyətinin ayrı-ayrı nümayəndələri böyük çətinlikləri dəf edərək milli mətbuatın bünövrəsini qoymağa cəhd göstərirdilər. Qəzet nəşr etməyi qərara almış H.Zərdabi bu yolda böyük zəhmət sərf etmişdi. Qəzet nəşrinin təşkilində H.Zərdabiyə o zamankı Bakı qubernatoru D.S.Staroselski (1832-1884) xeyli yardım göstərmişdi. Bu adam maraqlı və parlaq şəxsiyyət idi. Digər inzibatçılardan fərqli olaraq Staroselski demokratik ruhlu zəhmətkeş adamlara ürəkdən rəğbət bəsləyən insan idi. O, Azərbaycan xalqının tarixinə, adət-ənənələrinə, onun dilinə maraq göstərirdi. Onun cəhdləri ilə Bakı səhnəsində M.F.Axundovun bir sıra pyeslərinin ilk tamaşası təşkil edilmiş, Şamaxıda üçsinifli məktəb açılmışdı. Məhz D.S.Staroselskinin vəsatəti ilə ilk Azərbaycan qəzetinin buraxılmasına icazə alınmışdı. Elə onun sərəncamı üzrə quberniya mətbəəsi üçün İstanbuldan şrift alınmış, elə qəzet də burada çap olunmağa başlamışdı.

«Əkinçi» – Azərbaycanda ilk milli qəzet, 1875-77-ci illərdə Bakıda (iki həftədən bir) nəşr edilmişdir. İlk nömrəsi 1875-ci il iyulun 22-də çıxmışdır. Cəmi 56 nömrə (1875-ci ildə-12, 1876-cı ildə -24, 1877-ci ildə-20) buraxılmışdır. Qəzetin 1877-ci il nəşrinə kiçik formatlı beş əlavə nüsxə də çıxmışdır (№1, 6, 7, 13, 15). Azərbaycanda peşəkar dövri mətbuatın başlanğıcı sayılan «Əkinçi»nin banisi, redaktoru, naşiri, korrektoru, bəzən hətta mürəttibi Həsən bəy Zərdabi olmuşdur. Qəzetdə 1200-ə qədər məqalə, məktub, xəbər, felyeton, şeir, redaksiya qeydi və s. verilmişdir. Maarifçi-demokratik ideyaların carçısı və tribunası olan «Əkinçi»nin ətrafında toplanmış qabaqcıl ziyalılar – M.F.Axundzadə, onun davamçıları N.Vəzirov, S.Ə.Şirvani, Ə.Gorani (Adıgözəlov), Əhsənül-Qəvaid, Ə.Heydəri, Məhbus Dərbəndi və b. qəzetlə fəal əməkdaşlıq edirdilər. Mürtəce və mühafizəkər qüvvələr, cəhalət, nadanlıq, gerilik, köhnəlmiş adət-ənənələr, çarizm və yerli feodal istismarı əleyhinə, elm, maarif və mədəniyyətin tərəqqisi uğrunda ardıcıl mübarizə aparırdı. «Əkinçi»nin Azərbaycan mədəniyyəti tarixindəki mühüm xidmətlərindən biri maarifçi realist ədəbiyyat və incəsənətin inkişafı uğrunda mübarizə aparmasıdır.

«Əkinçi»nin nəşri Azərbaycan dilinin saflığı və zənginləşməsi yolunda mühüm hadisə olmuşdur. Qəzetin dili canlı xalq dilinə yaxın idi. Mürtəce qüvvələrin arasıkəsilməz hücumlarına, senzuranın təqiblərinə məruz qalan qəzetin nəşri 1877-ci ilin sentyabrında dayandı. «Əkinçi» Azərbaycan ictimai, elmi və ədəbi-bədii fikir tarixində, XIX əsrin sonu – XX əsrin əvvəllərində milli ziyalılığın və milli azadlıq ideyalarının formalaşmasında, Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin və ideoloqlarının nəzəri görüşlərinin əsasını təşkil edən Azərbaycançılıq ideologiyasının təşəkkülündə və inkişafında mühüm rol oynamışdır. «Əkinçi»nin nəşri milli istiqlala doğru gələn yolda mühüm hadisə idi. 1979-cu ildə Bakıda «Əkinçi»nin tam mətni kitab halında Turan Həsənzadənin transliyasıyası ilə kiril əlifbasında nəşr olunmuşdur.

Bax: Məmmədov B. «Əkinçi» qəzeti. - B., 1976; Axundov N. Mətbuatımızın ilki. - B., 1976; Hüseynov C. «Əkinçi» qəzetinin izahlı biblioqrafiyası. - B., 1977.

Mətbəə. Dərbənd şəhərində ilk özəl mətbəə 1895-ci ildə Melnikova tərəfindən açılmışdır.

Sovet hakimiyyəti qurulduqdan sonra Melnikovanın mətbəəsi milliləşdirildi və dövlət mətbəəsi yaradıldı. Sonralar bu, «3 saylı Mətbəə» Dövlət unitar müəssisə adlandırılmışdır.

2006-cı ildən «3 saylı Mətbəə» Məhdud Məsuliyyətli Cəmiyyət adlandırılır.

«Дагестанский вестник» – ictimai-siyasi və ədəbiyyat qəzeti. H.X.Vəkilov tərəfindən rus dilində 1907-ci il sentyabrın 6-dan dekabrın 13-ə kimi Dərbənddə nəşr edilmişdir. Qəzetin 15 nömrəsi çıxmışdır. Qəzetin məqsədi «… mədəniyyət və tərəqqi tərəfdarlarını ümümi və mətbuat bayrağı altında birləşdirmək və birgə qüvvə ilə Dağıstanı uzunsürən yuxundan ayıltmaq» idi.

Qəzetin səhifələrində ölkəşünaslıq xarakterli məqalələr dərc edilirdi. Onun səhifələrində Dərbənd realnı məktəbinin şagirdi Məhəmməd Həsənovun «Dağlının Hacı Murad haqqında hekayəti» – görkəmli naib imam Şamil haqqında oçerki çap olunmuşdur.

«Известия рабочих и военных депутатов Дербентского района» - Dərbənddə sovet hakimiyyətinin ilk qəzeti. 1917-ci il aprel ayında Fəhlə və Hərbi Deputatlar Şurası tərəfindən təsis olunmuşdur. Qəzet 1918-ci il aprel ayınadək nəşr olunmuşdu. Mətbəəsi Qolitsin küçəsində (hazırda Buynaks küçəsi, ev 16), Balayevin evində yerləşirdi.

Bolşevik qəzeti – Dərbənd şəhərinin ilk leqal bolşevik qəzeti. O, «Dərbənd şəhər hərbi inqilab komitəsinin bülleteni» adlanılırdı. Bu qəzet şəhər kommunist təşkilatının (bolşeviklərin) rəsmi orqanı idi. Qəzetin redaktoru 19 yaşlı Bakı bolşeviklərinin nümayəndəsi Georgi Kandelaki idi.

1918-ci il aprelin 18-də qəzet «Dərbənd şəhəri Xalq Komissarları Sovetinin xəbərləri» adı altında çap olunmuşdur. Mayın 16-dan qəzet «Dərbənd şəhəri və onun rayonunun İnqilabi Müdafiəsi Komitəsinin xəbərləri», iyunun 30-dan isə «Dərbənd şəhər və rayon fəhlə, kəndli, qırmızıqvardiyaçılar deputatlarının xəbərləri» başlığı altında buraxılmağa başlandı. Qəzet həftədə üç dəfə min nüsxə çap olunurdu. Qəzetin redaksiyası və mətbəəsi Baryatinski küçəsində (hazırda Lenin 36) yerləşən birmərtəbəli binada yerləşirdi. Sovet hakimiyyəti dövründə şəhərdə qəzet «Qırmızı ulduz», 1952-ci il iyun ayından isə «Kommunizm bayrağı» başlığı altında buraxılırdı. 1991-ci ildə Kommunist partiyasının fəaliyyəti qadağan edildikdən sonra qəzetin çapı dayandırıldı.

«Dağıstan Şurası» – 1920-1923-cü illərdə Dərbənddə Azərbaycan dilində nəşr edilən ilk sovet respublika qəzeti. Cənubi Dağıstanın Fövqaladə Hallar Komitəsinin sədri K.Məmmədbəyov qəzetin redaktor vəzifəsini icra edirdi. 1923-cü ildən qəzet «Dağıstan füqərası» adı altında nəşr olunmağa başladı.

«Dağıstan füqərası» – 1923-1932-ci illərdə Dərbənddə Azərbaycan dilində nəşr olunun respublika qəzetidir.

Qəzetin ilk redaksiya heyətinə daxil idilər:

– Lətif Sabit – baş redaktor;

– Məmməd-Əli Fətəliyev məsul katib;

– Əbdül-Cəlil Əsgərov, Fazil Seyidov;

– Almas İldırım (20-ci illərin sonunda Türkiyəyə mühaciət etmiş şair, orada da vəfat etmişdir), İsa bəy Mirzəbəyov.

Qəzetin redaktoru olmuşlar: Lətif Sabit (1923-1925), Cəfər Nəsirov və Qəzəli Gilasov (1925-1927), Məhəmməd Sədullayev (1927), Məmməd-Kazım Ələkbərli (1928-1930), Mirbağır Seyidov (1930-1932).

1932-ci ildən qəzet «Lenin bayrağı» adı altında çıxmağa başladı.

Zəhmətkeş – tat dilində nəşr olunan qəzet, Dərbənddə 1928-ci ilin mayından çıxırdı. Qəzetin ilk redaktoru Yexil Matatov olmuş, sonralar isə Yaaqu Aqarunov, Naftoli Anisimov olmuşlar.

1940-cı ildə qəzetin adı dəyişdirilərək «Qırmızı astra» adlandırılmışdır. Redaktoru isə İtom Solomonov təyin edilmişdir.

1948-ci ildən qəzet «Qırmızı Qədəm» adı altında çıxmağa başlamışdır. Redaktoru Avadya Zaxarov olmuşdur.

1952-ci ildən qəzetin tat dilində nəşri dayandırılmışdır.

1990-cı ilin oktyabrından qəzet yenidən tat dilində «Vətən» adı altında çıxmağa başladı. Qəzetin ilk redaktoru Mixail Qavrilov oldu. 1994-cü ildə Sadıq Rabayev, 2000-ci ildən isə Edaso İzqiyayev qəzetin redaktorları olmuşlar.

«Lenin bayrağı». 1932-ci ildən Azərbaycan dilində Dərbənd şəhərində çap olunan respublika qəzeti (Bundan əvvəl bu qəzet «Dağıstan füqərası» adlanırdı). 1932-1962-ci ilədək bu qəzetin redaktoru Mirbağır Seidov olmuşdur. 1962-ci ildən qəzet «Leninçi» adı altında nəşr olunurdu.

«Leninçi» - 1962-ci ildən Dərbənddə Azərbaycan dilində nəşr olunan respublika qəzeti. Bu qəzetin redaktorları Gilas Gilasov (1962-1971) və Nəriman Ağasiyev (1971-1993) olmuşlar. 1993-cü ildən qəzet «Dərbənd» adı altında nəşr olunmağa başladı.

«Dağıstan» - Azərbaycan dilində radio və televiziya yayımı redaksiyası 1982-ci il aprelin 1-də yaradılmışdır. Milli yayım qrupunun baş redaktoru Firuzə Şərifovadır. Əvvəlcə Azərbaycan dilində yayım 15 dəqiqə idi. Azərbaycan dilində yayım Dərbənd, Tabasaran, Rutul, qismən Gizlər rayonlarını əhatə edirdi. O dövrdə redaksiyanın ilk yayım redaktoru Azərbaycanın Dəvəçi rayonundan olan İbrahimov Yavər Hacıqulu oğlu, baş redaktor mərhum Hüseyn Hüseynov idi. Redaksiyanın ilk verilişləri: «Xalqlar dostluğu – ədəbiyyatın dostluğu», ictimai-siyasi radiojurnalı «Narınqala», uşaq radiojurnalı «Şahin». Ayda bir dəfə «Əmək şöhrətli adamlar haqqında» başlığı altında əmək



qabaqcılları haqqında oçerklər, yazılar hazırlanırdı.

1989-cu ildə fəaliyyətdə olan rubrikalarla yanaşı, baş redaktor Yavər İbrahimovun təşəbbüsü ilə «Bayatı» başlığı altında yeni aylıq veriliş efirə çıxarılır. Bu verilişdə Dağıstan azərbaycanlılarının həyatı, adət-ənələri haqqında danışılırdı.

1990-cı ildə Bakıda baş vermiş qanlı yanvar hadisələrinə həsr olunmuş «Xalqın ağrısı», «Vətən, biz sənin övladlarınıq», «Qərənfilin göz yaşları» və s. verilişlər səslənmişdir. Qarabağ müharibəsinə həsr olnumuş «Vətən həsrəti» verilişləri daim və ardıcıl verilirdi.

1991-cı ildən yayım vaxtı 15 dəqiqədən 30 dəqiqəyədək artırılmışdır. 1991-ci ildə Mahaçqalada Oskar küçəsi 33-də Azərbaycan məscidinin açılışı oldu. «İslamın səsi», «Mənəvi moizə» adlı verilişlərdə dindarların problemləri işıqlandırılır, din xadimlərinin çıxışlarına yer verilirdi. Qeyd etmək lazımdır ki, 90-cı illərin ortalarında məscidi Azərbaycanın dini lideri – şeyxülislam Hacı Allahşükür Paşazadə ziyarət etmiş və Azərbaycan dilində geniş müsahibə vermişdir.

1993-cü ildə «Dağıstan» radio və televiziya yayım redaksiyası rəhbərliyinin qərarı ilə «kiçik» redaksiyalar şöbələrə birləşdirildi. Həmin ildə Yavər İbrahimovun gedişindən sonra Azərbaycan dilində yayım şöbəsinin rəhbəri Tahir Hacalıyev təyin olundu.

1997-ci ildə İmam Şamilin anadan olmasının 200 illik yubileyinə silsilə verilişlər həsr olundu və yayımlanır.

İki qardaş respublikanın dostluq əlaqələrini daha geniş işıqlandırmaq üçün «Dağıstan-Azərbaycan dostluq əlaqələri» başlığı altında yeni rubrika yayımlanmağa başladı. Bu verilişlərdə çıxışlar, reportajlar, Azərbaycanın baş naziri Artur Rəsizadə, Azərbaycan Prezidentinin Milli məsələlər üzrə müşaviri Hidayət Orucov və s. dövlət xadimləri ilə müsahibələr yayımlanmışdır.

Hazırda Azərbaycan dilində yayım şöbəsində redaksiyada 17 ildən çox iki əməkdaş çalışır: baş redaktor – Firuzə Şərifova, redaktor Zöhrə Musayeva.

Redaksiyanın fəaliyyəti dövründə yeni, birbirindən maraqlı rubrikalar efirə çıxmışdır: «Ana dili dərsi», «Ailə, məktəb, cəmiyyət», «Dağıstan–Azərbaycan dostluq əlaqələri», «Azərbaycan müxtəlif dalğalarda», «Mənim xalqımın tarixi», «İqtisadiyyat – inkişaf yolları», «Bulaq», «Nağıllar aləminə səyahət» və s.

2004-cü ildən şöbənin jurnalistləri Rusiya Federasiyasının Jurnalistlər İttifaqının «Ana dilinin qorunması və inkişafı» nominasiyasında hər il keçirilən «Qızıl qartal» müsabiqəsinin laureatı olmuşdur.

2000-ci ildə şöbə müdiri Firuzə Şərifova Rusiya Federasiyasının «Fəxri fərmanına» və 2007-ci ildə «Dədə Qorqud» diplomuna layiq görülmüşdür. Zöhrə Musayeva isə təşəkkür almışdır.

2007-ci ildə Azərbaycan dilində yayım şöbəsinin 25 yaşı tamam olmuşdur.

«Dərbənd» – 1993-cü ildən Azərbaycan dilində Dərbənddə nəşr olunan Respublika qəzeti.

Redaktorları B.Alxasov (1993-1995), T.İmamov (1993-2005), M.Əlifxanov 2005-ci ildən.

«Azərbaycan dünyası» beynəlxalq jurnal –1998-ci ildə təsis edilmiş, ölkədə ilk çoxtirajlı və üç dildə (Azərbaycan, rus və ingilis) nəşr olunan jurnaldır. Jurnalın təsisçisi və baş redaktoru ictimai-siyasi xadim Eldar İsmayılovdur.

Bu jurnal azərbaycanlıların sıx yaşadığı ərazilərdə yayılır. Jurnalın məqsədi və vəzifələri vətəndaşlıq həmrəyliyinin və beynəlxalq sülhün möhkəmləndirilməsinə yönəldilib, o cümlədən həmvətənlərin birləşməsinə, onların hüquqlarının və ictimai maraqlarının müdafiəsinə, Vətən və türk dünyası ilə əlaqələrinin genişləndirməsinə istiqamətləndirilibdir. Jurnalın səhifələrində müstəqil Azərbaycan, eyni zamanda, Vətəndən kənarda yaşayan (Avropa, Rusiya, MDB ölkələri) yürddaşlarımızın siyasi, iqtisadi, islami və mədəni nailliyyətləri işıqlandırılır. Jurnalın Ağsaqqallar Şurası və idarə heyəti fəaliyyət göstərir. Ağsaqqallar Şurasının üzvləri akademiklər, görkəmli ziyalılar, ictimai-siyasi xadimlərdir.

2005-ci ildə «Azərbaycan dünyası» beynəlxalq jurnalı ölkənin iqtisadi və sosial inkişafına kömək məqsədilə «Dədə Qorqud» mükafatını, «Vətən Övladı», «Qızıl Ürək» və «Mehriban Ana» ordenlərini təsis etmişdir.

Bu mükafatlar siyasət, iqtisadiyyat, xeyriyyəçilik, mədəniyyət, elm, idman, din nominasiyaları üzrə verilir. Dərbəndin görkəmli siyasi-ictimai xadimləri Azərbaycanla dostluq əlaqələrinin inkişafı və möhkəmləndirilməsində, habelə siyasi, mədəni, iqtisadi və digər sahələrdə xidməti olmuş şəxslər bu mükafatlara layiq görülmüşlər. «Azərbaycan dünyası» beynəlxalq jurnalının Dərbənddə yaşayan azərbaycanlıların həmrəyliyi sahəsində gördüyü işlər əvəzsizdir.

MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT

XI əsr - XIII əsrin əvvəllərində bütün müsəlman Şərqində elm və mədəniyyət yüksək inkişaf səviyyəsinə çatmışdı. Azərbaycan ərazisində yaranmış həmin dövlətlərdən biri də Azərbaycan xalqının mədəniyyət və incəsənətinin inkişafında böyük rol oynamış, mərkəzi Şamaxı şəhəri olan Şirvanşahlar dövləti idi. Şirvan və Arran şəhərlərindən – Şamaxıdan, Bakıdan, Dərbənddən, Bərdədən çıxmış alim və şairlər Bağdad, Qahirə, İsgəndəriyyə, Buxara, Səmərqənd, Nişapur kimi müsəlman mədəniyyəti mərkəzlərində təhsil almış, Yaxın və Orta Şərq ölkələrində olmuş, onların elm və mədəniyyət xadimləri ilə məktublaşmışlar.

XII əsrin məşhur şairlərindən biri də Mücirəddin Beyləqanidir. O, Xaqaninin şagirdi olmuş, Şirvanda şeir sənətini ondan öyrənmişdir. Ədəbi irsindən bir divanı dövrümüzədək gəlib çatmışdır. Divanda Dərbənd hakiminə həsr olunmuş qəsidələr də vardır.

XII əsrdə Şirvanşahların saray şairlərinin ən görkəmlisi Əfzələddin İbrahim ibn Əli Xaqani (h. 515-595 (1121(2-1199)-ci illər) idi. Xaqani şairlər içərisində ilk dəfə olaraq III Mənuçöhrə və onun oğlu I Axsitana bir neçə tərifləyici qəsidələr yazmışdır. O, Şirvanı «zülm ocağı» adlandırdığına görə həbs olunur, həbsdən çıxdıqdan sonra, Şamaxıda çox qalmır, sərgərdan gəzərək Dərbənddə, Gəncədə yaşayır.

XII əsrin dahi şairi, dünya ədəbiyyatının korifeylərindən biri Nizami Gəncəvi idi. Nizami otuz yaşından sonra Dərbənd hakiminin ona hədiyyə göndərdiyi gözəl qıpçaq kənizi Afaqla evlənmişdir. Mənbələrə görə, Nizaminin «Xəmsə»dən başqa 200000 beytdən ibarət şeir divanı olmuşdur.

XII əsrin məşhur fəqihlərindən (hüquqşünaslarından) biri şamaxılı Əbu Bəkr Məhəmməd Şirvani sayılır. O, Dərbənd nahiyəsində Nibətullah ibn Mübarək ibn əs-Səkfinin və Şirvanın digər görkəmli alimlərinin yanında oxumuşdur. Xınalıqlı Həkim ibn İbrahim əd-Dərbəndi də bu şəhərdə Qəzalidən fiqh dərsi almış, hədisləri dinləmişdir.

Yaqut Həməvi Şirvan, Şamaxı, Dərbənd, Qəbələ, Beyləqan və başqa şəhərlərdən çıxmış bir çox alimin adını çəkir.

X əsr ərəb müəllifləri Dərbənddə şirlərin və insanların daş heykəl təsvirlərinin mövcudluğunu qeyd etmişlər.

Ərəbcə yazmış müəllif İbn əl-Fəqih əl-Həmədaninin təqribən eramızın 903-cü ilində yazılmış «Kitab əl-buldan» («Ölkələr kitabı») əsərində maraqlı məlumat verilir; «Bab (Dərbənd) şəhərində Bab əl-Cihaddakı (cihad qapıları) divarın üstündə iki daş sütun var; hər sütunun üstündə ağ daşdan yonulmuş şir heykəli durur. Onlardan aşağıda iki daş var və həmin daşların üstündə də şir təsvir olunmuşdur. Qapının yaxınlığında daşdan yonulmuş insan heykəlləri var. Hökmdar evinin üzərində də divardan bir qədər aralı daşdan iki şir heykəli boylanır. Bab sakinləri onlara divarın tilsimləri deyirlər». Bu heykəllər daha əvvəlki, islamaqədərki dövrə, Dərbənd səddinin tikildiyi V-VI əsrlərə aiddir. Dərbəndin qala divarları üzərindəki qədim heykəllər bu günədək qalmışdır. Şir heykəlləri Qırxlar qapısı və Orta qapı qala qapılarının üstündə və Dərbənd diyarşünaslıq muzeyindədir.

Bax: Sara Aşurbəyli. Şirvanşahlar dövləti. - Bakı, Avrasiya press, 2006. səh. 86-87, 255- 274.

KİTABXANA

XX əsrin əvvəllərindən kitabxana işi genişləndikcə, kitabxanalarda rusdilli kitablarla yanaşı, ana dilində olan ədəbiyyatın azərbaycanlı oxucular hesabına artması müşahidə olunurdu. Lakin kitabxanaların sayı və kitab fondunun tərkibi oxucuların böyük əksəriyyətinin tələbatını lazımınca ödəyə bilmirdi.

Azərbaycanda yeni növ müxtəlif mədəni-maarif müəssisələri, məsələn, xalq evləri, «Bilik-qüvvə» cəmiyyəti və başqaları meydana çıxırdı. Onlar maarifçilik tədbirləri ilə yanaşı, işdən azad vaxtlarda kütləvi əyləncələr də təşkil edirdilər.

Muzeylərin təşkil olunması işinə də başlanmışdı. 1904-cü ildə Bakı quberniyası və Dərbənddə xalq məktəbləri idarəsinin pedaqoji muzeyləri fəaliyyət göstərirdi. Onlarda müxtəlif əyani vəsaitlər, materiallar, flora və fauna üzrə kolleksiyalar toplanmışdı.

Bax: Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). - Bakı. Elm. 2008. səh. 238.

İctimai kitabxana. Dərbənd Qafqazda erkən müsəlman mərkəzlərindən biri hesab olunurdu. Dərbənd müsəlman alimlərinin adına X-XII əsrlərin bir çox ərəb salnamələrində və ensiklopediya lüğətlərində rast gəlinir. Artıq XI əsrdə Dərbəndin hüdudlarından kənarda məşhur olan sufi məktəbi (zaviyə) fəaliyyət göstərirdi və bu məktəbin məzunları sonralar tanınmış alim olurdular.

Şəhərin baş məscidi olan Cümə məscidində çoxlu sayda kitab saxlanılırdı və bu kitablardan şəhər sakinləri istifadə edirdilər. Cümə məscidinin kitabxanası Sovet hökuməti tərəfindən 1938-ci ildə məhv edilmiş və bağlanmış, bina isə DİXK-in (Daxili işlər xalq komissarlığının) istintaq tədricxanasına verilmişdir.

Şəhərdə ictimai kitabxananın mövcud olması haqqında arxiv sənədi vardır. 1860-cı il iyunun 10-da Qafqaz canişini feldmarşal knyaz Baryatinski xüsusi təqdimatla yerli sakin Hacı Qurban İbrahimovun binanın aşağı mərtəbəsindən gələn gəlirin ictimai kitabxananın saxlanılması üçün ianə kimi ayrılması xahişini yerinə yetirmişdir.

1862-ci ildə şəhər ictimai klubunun tikilməsindən sonra kitabxana klubun binasına köçürülmüş və kitabxananın nəzdində oxu zalı açılmışdır.

Sonralar XIX əsrin 90-cı illərində şəhərdə özəl oxu zalı da açılmışdır.

Şəhərdə sovet hakimiyyəti qurulduqdan sonra, yalnız 1930-cu ildə kitabxana üçün təyin olunmuş otaqda «kütləvi kitabxana» açılır. 1946-cı ildə şəhər kitabxanasının fondundan uşaq ədəbiyyatı fondu ayrılır və müstəqil şəhər uşaq kitabxanası yaranır. XX əsrin 50-ci illərində şəhər kitabxanalarında 50 min nüsxəyə yaxın kitab var idi. Oxucuların sayı 3 minə qədər artmış və onlara 4 kitabxanaçı xidmət göstərmişdir.

70-ci illərdə şəhər kitabxanasının 3 filialı, 1985-ci ildə isə gənclər kitabxanası açılmışdır.

Hazırda şəhər kitabxanası şəbəkəsi kitab fondu 125 min kitab təşkil edən 6 kitabxananı özündə birləşdirir. Oxucuların sayı 25 min nəfərdən çoxdur.

Kitab dükanı. Dərbənd şəhərində ilk özəl kitab dükanı 1889-cu ildə açılmışdır. 1890-cı ildə yəhudi dilində olan kitablarla Ravinoviçin dükanı, 1901-ci ildə – Xusesovun dükanı, 1902-ci ildə isə Melnikovun öz kitab dükanı açılmışdır.

MUZEYLƏR

Dərbənddə muzey işinin yaranma tarixi məşhur diyarşünas, orta məktəb müəllimi Pyotr İvanoviç Spasskinin adı ilə bağlıdır. 1934-cü ildə onun topladığı eksponatlar Kəlbə Məmməd Əliyevin keçmiş evində – Azadlıq meydanında yerləşən çox da böyük olmayan binada yerləşdirilir. Sonralar bu bina Dərbənd Şəhər Şurasının qərarı ilə dövlət muzeyi kimi qeydiyyata alınır.

1982-ci ildə bu muzey diyarşünaslıq muzeyindən tarix-memarlıq muzeyi statusunu alır.

Rusiya Federasiyası Nazirlər Sovetinin Qərarı ilə 31mart 1988-ci il tarixindən bu vaxta qədər mövcud olan muzeylərin bazası əsasında Dərbənd Dövlət tarix-memarlıq və bədii muzey-qoruğu yaradıldı. Bu muzeyin tərkibinə 23 abidə daxil olundu. Hazırda bu qoruğun tərkibində 5 muzey var:

Arxeologiya muzeyi. Bu muzey «Narınqala»da yerləşir. Burada 1961-ci ildən arxeoloji qazıntılar aparılır.

Bestujev-Marlinskinin ev-muzeyi. Bu muzey Dərbənddə 8-ci məhəllədə (147-ci məhəllədəki 22 saylı evdə) yerləşir (evin keçmiş sahibi Aslanovdur) və 1988-ci il oktyabr ayının 12-də açılmışdır.

Muzeyin materialları A.Bestujevin həyat və yaradıcılığından bəhs edir. A.Bestujev yerli əhali ilə dostluq münasibətində olmuş və özunun ölməz əsərlərini burada yazmışdır (1830-1834).

Döyüş şöhrəti muzeyi. Dərbənddə 1941-ci ilin payızında yaradılmışdır. Muzeydə 1941-1945-ci illər Böyük Vətən müharibəsində dərbəndlilərin qəhrəmanlığı və Sevastopol şəhərini müdafiə etmiş 345-ci atıcı diviziya döyüşçülərinin keçdiyi yol haqqında olan eksponatlar yerləşdirimişdir.

Xalçaçılıq və xalq-tətbiqi muzeyi. Bu muzey 1982-ci ildə Dərbənd şəhərində açılmışdır. Muzey M.Rzayev küçəsində keçmiş erməni-qriqoryan məbədinin binasında yerləşir. Muzeydəki nadir eksponatlar Dağıstanın xalq sənətkarları və onların nadir işlərindən bəhs edir. Ekspozisiyanın əsasını xalçaçılıq təşkil edir.

Qədim Dərbəndin mədəni-məişət muzeyi. Bu muzey 7-ci məhəllədə yerləşir. Muzeyin ekspo-

zisiyası XIX əsrtn nadir abidəsi olan Qız qalasında yerləşir.

Muzeydə türk, İran, Cənubi Qafqaz xalqlarının misdən zərb olunmuş məişət əşyaları da nümayiş olunur.

Təbiət muzeyi. Muzey Dərbənd şəhəri Lenin küçəsindəki 6 nömrəli evdə yerləşir (keçmiş Baryatinski). Muzeyin ekspozisiyaları çox maraqlıdır. Burada heyvanların, balıqların, quşların müqəvvaları və şəhər sakinlərinin yaşayış tərzi haqqında olan qədim şəkillər nümayiş etdirilir.

ƏDƏBİYYAT

Ədəbi adət-ənənələr. Dərbəndin öz ədəbi adət-ənənələri qədim zamanlara gedib çıxır və şəhərin tarixinin bu, ən qədim səhifəsi hələ tam öyrənilməmişdir, hərçənd bu məsələnin ayrı-ayrı sahələri tədqiq olunmuşdur. Məsələn, Azərbaycan alimi F.Köçərlinin «Azərbaycan ədəbiyyatı» (1981) adlı irihəcmli monoqrafiyasının «Dərbəndin şairləri» bölməsində XIX əsrdə yaşayıb-yaratmış üç şair haqqında məlumat verilir: Məhəmməd Tağı, Mirzə Cəbrayıl və Mirzə Kərim. Dərbənd şairlərinin bədii irsi haqqında digər Azərbaycan alimləri M.Seyidov, M.Allahmanov, M.Qasımlı və s. də məlumat verirlər. Qədim Dərbəndin bədii söz ustaları haqqında bəzi məlumatları yerli Azərbaycan ziyalılarından çox nadir bədii toplular tərtib edənlərin şəxsi arxivləri məlumat verir. Onlar bu nadir əsərlərin cüzi hissəsini nəşr etdirmişlər (Mumtaz S. Xalq şairləri (Azərbaycan dilində). - Bakı, 1935; Yarəhmədov M. Dağıstan töhfələri. (Azərbaycan dilində). - Bakı, 1987). Hətta bu cüzi məlumatlar da göstərir ki, burada istedadlı şairlər yaşayıb-yaratmış və poeziya həmişə yüksək qiymətləndirilmişdir. Belə ki, bütün dünyada məşhur olan «Nəğmələr kitabı»nın müəllifi Əbü-l-Fərəc Əli əl-İsfahaninin (IX əsr) məlumatına görə bədii söz ustası kimi şöhrət qazanmış VIII əsr ərəb şairlərindən biri Əbu Təmmam ət-Tai Dərbənddə olmuşdur. O, öz şeirlərində şəhərin qüdrətli hökmdarı Yəzid İbn Məzyədi vəsf etmişdir. O da əvəzində şairə «… 10 min dirhəm və çoxlu hədiyyələr» vermişdir.

Məlumdur ki, şeiri çox sevən və qiymətləndirən Dərbənd hökmdarı Müzəffər (tam adı – əl-Məlik əl-Adil Əbu-l-Müzəffər ibn Xəlif dara-yi Dərbəndi) böyük Azərbaycan şairi Nizami Gəncəviyə (1141-1209) qəsidə yazmağı sifariş etmişdi və əvəzində şairə kənizi qıpçaq qızı Afaqı verdi və sonralar şair onunla evləndi. Əsaslı dəlillər sübut etməyə imkan verir ki, məşhur «Kitab-i Dədə Qorqud» dastanı Dərbənddə yazılmışdır. Tədqiqatçılar bu əsərə «orta əsrlər oğuz (türk) qəhrəmanlıq dastanını deyə görkəmli abidə» kimi baxırlar. 2000-ci ildə YUNESKO-nun qərarı ilə bu dastanın 1300 illiyi qeyd olunmuşdur.

1637-ci ildə Dərbənddə olmuş Avropa səyyahı Adam Olearinin mağara haqqında məlumatı buna sübutdur. O, həmin mağarada «imam Qorqudun» qəbrini görmüşdür. Dərbənd haqqında olan mənbələrdə daha erkən əsrlərin şairləri haqqında çox cüzi yazılı məlumatlar var.

Məlumdur ki, Şərqin çox tanınmış XVI əsr şairi Yusif əd-Dərbəndi məşhur Bəhram şahın saray şairi olmuşdur. XVI əsrin çox məşhur şairi Bayat Abbas Dərbənddə anadan olmuşdur («bayat» sözü onun anadan olduğu qədim şəhərin məhəlləsini göstərir (8-ci məhəllə) və yaxud onun bayat türk qəbiləsinə mənsub olduğunu bildirir).

XIX əsr Dağıstanın məşhur maarifçisi və alimi Həsən Əlqədərinin şəxsi arxivindən şairlərin şeirlərinin iki əlyazma toplusu məlumdur.

Bayat Abbasın yaradıcılığı Azərbaycan filoloqu, professor M.Seyidov tərəfindən tədqiq olunmuşdur. Onun əsərləri müxtəlif şeir toplularına daxil edilir (Dağıstan tövhələri. (Azərbaycan dilində). Tərtibçi M.Yarəhmədov. - Bakı, 1987).

XVI əsrin Dərbənd aşığı Əli-Məhəmməd haqqındakı dastan Azərbaycanda indiyədək məşhurdur.

XVI əsrin digər şairlərindən Məsum Dərbəndi və Diləfruz Pəri Dərbəndli haqqında məlumatlar bizə gəlib çatmışdır. Məsum Dərbəndli haqqında məlumat çox azdır. Məlumdur ki, onun bəzi əsərləri yerli şeirsevərlərin şəxsi arxivində saxlanılır. Diləfruz Pəri haqqında məlumat daha çoxdur. Diləfruz Pəri varlı ailədə anadan olmuş, zamanına görə yaxşı ev təhsili almış və gözəl lirik əsərlər yazmışdır.

Onun əsərlərinin əsas hissəsi hazırda Azərbaycanın «Almaz fondunda», bəziləri isə şeirsevərlərin şəxsi arxivində saxlanılır.

XVIII əsr Dərbəndin ədəbi həyatında gözəl şairə Zərnigar xanım Dərbəndinin (1722-1770) yaradıcılığı xüsusi yer tutur. O, Dərbənd taciri Hacı Yaqubun yeganə qızı olmuş və zamanına görə yaxşı ev təhsili almışdır. Zərnigar xanım erkən uşaq yaşlarından musiqiyə böyük maraq göstərmişdir: sazda çalırdı və gözəl mahnılar yazırdı. Tezliklə o, ədəbi sözün mahir ustadı oldu və Dərbəndin hüdudlarından kənarda tanındı. Belə bir rəvayət var ki, məşhur Zərnigar xanım and içmişdir ki, o, ona şeir deyişməsində qalib gələn adama ərə gedəcək. Bu qələbə Qarabağdan gəlmiş aşiq Valehə nəsib oldu və Zərnigar xanım aşıq Valehə ərə gedərək, onunla birlikdə aşıq Valehin vətəninə gedir. Zərnigar xanım Qarabağın Salam-Təpəsi kəndində dəfn olunmuşdur. Onun dastanlarından, xüsusilə şairənin həyatını təsvir edən «Valeh və Zərnigar», «Həqiqət və tale» və s. dastanları bu gun də aşıqlar tərəfindən ifa olunur. Onun bir çox əsərləri yerli şeirsevərlərin şəxsi arxivində qorunub saxlanmışdır. Mahmud Allahmanovun elmi əsərləri onun yaradıcılığına həsr olunmuşdur (Aşıq Zərnigar. «Azərbaycan qadını» jurnalı, №2, 1988). XIX əsrin məşhur şairlərindən biri Mirzə Məhəmməd Tağı idi (1819-1891). O, öz əsərlərini «Gümri» təxəllüsü ilə yazırdı. Hələ sağ ikən onun əsərləri şərq poeziyasının antologiyasına daxil olunmuşdur. Onun qəsidələri «gözəl hecanı» qiymətləndirənlər arasında çox məşhur idi. Onu dini mövzulara aid qəsidələri xüsusilə məşhur idi. 1882-ci ildə Təbrizdə «Kənzul-məsaib» adı altında iki hissəli əsərləri çap olunmuşdur. Bu əsər Məhəmməd peyğəmbərin nəvəsi, qızı Fatimənin oğlu ilk müsəlman şəhidi imam Hüseynin faciəsinə həsr olunmuşdur. Bu əsərlər şairi məşhurlaşdırdı və o, İran şahının qəbuluna layiq görüldü.

7-ci məhəllədə balaca meydança var. Xalq arasında indiyədək bu meydança «Gümri meydanı» adlandırılır. Təbrizdə məşhur şair Gümrinin xatirəsi naminə gənc istedadların dəstəyi üçün xüsusi fond yaradılmışdır.

XIX əsrin məşhur şairi və alimi Mirzə Kərim (1820-1894) geniş istedada malik idi və öz əsərlərini «Şüai» təxəllüsü ilə yazırdı.

O, dini mövzulara aid qəsidələr, mərsiyələr, lirik şeirlər və poemalar yazmışdır.

1880-ci ildə Təbriz şəhərində onun yeganə «Divan» adlı kitabı nəşr olunmuşdur. Azərbaycan Respublikasının əlyazmalar fondunda onun geniş həcmli «Kəşkül» adı altında dini elegiyaları qorunub saxlanılır.

Mirzə Kərim öz şeirlərini fars dilində də yazmışdır. O, alimlər arasında da məşhur idi. Y.İ.Kozubski özünün «Dərbənd şəhərinin tarixi» kitabında (1906) onun adını şəhərin alimləri sırasında çəkir və bildirir ki, Mirzə Kərim Kazan universitetinin müxbiri, yəni elmi maraq oyadan məlumatların ştatlı toplayıcısı olmuşdur. Məşhur şərqşünas M.Kazımbəy isə özünün «Dərbəndnamə» (1851) tədqiqat əsərinin müqəddiməsində yazırdı ki, ilkin mənbənin araşdırılmasında ona «Dərbənddən olan köhnə dostu Mirzə Kərim» kömək etmişdir.

Mirzə Kərim Şüainin kiçik qardaşı Mirzə Cəbrayıl (1824-1902) öz əsərlərini Sipeyri təxəllüsü ilə yazırdı. O, çoxsayda ədəbi və poetik əsərlər, lirik və satirik şeirlər, dini mövzulara aid qəsidələr yazmışdır. Sipeyrinin ədəbi irsi tədqiq olunmamışdır. Onun əsərləri əsasən şeirsevərlərin şəxsi fondunda saxlanılır.

XIX əsr şairlərinin əsərləri də çox məşhurdur: Mirzə Səməndər, Mirzə Nağı (təxəllüsü Zövqi), Dərbəndli Ağa bəy, Molla Əhməd Faiz, Molla Feyzulla (Feyzi Dərbəndi), Mir Sadıq Dərbəndi, Hüseyn Əli xan Məhzun, Mirzə Xəlil Bülbül və s.

XIX yüzilliyin ikinci yarısı Azərbaycan ədəbiyyatının tam yeni ideya-estetik istiqamətdə inkişafı, böyük nailiyyətlər qazanması dünya ədəbiyyatı sisteminə daxil olması dövrüdür. 50-ci illərin əvvəllərindən Azərbaycanda maarifçilik ideologiyası əsaslarının qoyulması, Azərbaycan-Qərbi Avropa və rus ədəbi əlaqələrinin qüvvətlənməsi bədii ədəbiyyatın qarşısına yeni tələblər, vəzifələr qoymuş, onun real gərcəkliklə əlaqəsini olduqca qüvvətləndirmiş, onda yeni ədəbi-estetik prinsiplərin, növ və janrların inkişaf tapmasına səbəb olmuşdu. Bu dövr Azərbaycan ədəbiyyatının mühüm nailiyyətləri yeni yaradıcılıq metodunun - realizmin bir ədəbi metod kimi formalaşması və ədəbi prosesdə hakim mövqe tutması ilə bağlı olmuşdur.

Qərbi Avropa və rus ədəbiyyatında olduğu kimi, XIX yüzilliyin ikinci yarısında Azərbaycan ədəbiyyatında da yeni realist sənət prinsiplərinin

təşəkkülünü şərtləndirən başlıca amil maarifçilik ideologiyası və bu ideologiyanın insan və onu əhatə edən mühit, ailə və sosial münasibətlər haqqında tam yeni konsepsiya irəli sürməsi ilə üzvi sürətdə bağlı olmuşdur.

Bu konsepsiyanın mahiyyətinin, insan şüurunun, xarakterik psixologiyasının, mənəvi aləminin formalaşmasında mühit, ailə və ictimai münasibətlər əsas həlledici rol oynayır, insan bilavasitə mühitin məhsuludur fikri üstünlük təşkil edirdi.

Azərbaycan ədəbiyyatında marifçilik ideologiyası əsasında yeni ədəbi-estetik prinsiplər ilk növbədə komediya janrında həllini tapmışdır. Bu dövrdə Azərbaycan dramaturgiyasının əsası qoyulmuş, və o, əlamətdar bir inkişaf yolu keçərək ədəbi prosesdə həlledici mövqe tutmuşdur.

Poeziyada XIX əsrin ikinci yarısında Azərbaycan ədəbiyyatında klassik şeir ənənələri davam və inkişaf etdirilmiş, yeni nailiyyətlər əldə edilmişdi. Bu dövrdə Azərbaycanın Bakı, Şamaxı, Şusa, Qazax, Şəki, Naxçıvan, Ordubad, Lənkəran və başqa şəhərlərində də klassik şeir üslubunda yazan şairlər fəaliyyət göstərmişdir. Bu şairlərin əksər hissəsi müxtəlif şəhərlərdə təşkil olunmuş «Məclisi-üns», «Məclisi-fəramüşan», «Beytüs-Səfa», «Məcmə üş-süəra», «Əncüməni-şüəra» və «Fövcül-füsəhə» adlı ədəbi məclislər ətrafında toplanmışdılar. Bu məclislərdən əlavə Şəki, Qazax, Ağdas və Dərbənddə də kiçik ədəbi dərnəklər fəaliyyət göstərmişdi.

Dərbəndnamə – Dərbəndin orta əsrlər tarixini öyrənmək üçün böyük əhəmiyyəti olan nadir kompilyativ əsərlərdən biridir.

Avropa alimləri dünyasına bu nadir tarixi salnamə XVIII əsrin əvvəlində, I Pyotrun İran yürüşündən sonra məlum olmuşdur.

1722-ci ilin iyulunda, rus qoşunları Dərbəndə daxil olduqdan sonra, şəhər naibi İmamqulu bəy şəhər qapılarının gümüş açarını və şəhərin tarixi üzrə qədim əlyazmasını imperatora verdi. İmperator Sankt-Peterburqa qayıtdıqdan sonra əlyazma xarici işlər Kollegiyasına verildi. Əlyazmanın sonrakı taleyi məlum olmamışdır. Dövrünün görkəmli sovet şərqşünası akademik V.V.Bartold Elmlər Akademiyasının Asiya muzeyində, indiki Rusiya Elmlər Akademiyasının şərqşünaslıq institutunun Sankt-Peterburq filialında akademik F.Z.Bayerin yazıları arasında «…Dərbənddə Pyotr tərəfindən alınmış türk (Azərbaycan) əlyazmasının əvvəlinin tərcüməsi»ni tapmışdır.

V.V.Bartoldun fikrinə görə, «Dərbəndnamə»nin əvvəlinin latınca tərcüməsi alimlər dünyasında tanınan və I Pyotru İran səfəri zamanı müşayiyət edən moldovalı knyaz D.Kantemir tərəfindən olunmuşdur. D.Kantemirin ölümündən sonra (1723) onun arxivi akademik F.Z.Bayerə verilmişdir. O da 1726-cı ildə latınca yazdığı «Qafqaz divarı haqqında» əsərinin çapı zaman bu tərcümədən istifadə etmişdir.

Həmin ildə F.Z.Bayerin əsəri professor İ.İ.Yaroslav tərəfindən «Naşiri F.Z. Bayer olan Qafqaz divarı haqqında» başlığı altında rus dilinə tərcümə olunmuş və Elmlər Akademiyasının nəşriyyatında çap olunmuşdur.

Avropalıların Dərbəndin tarixi salnaməsi ilə ilk tanışlığı belə başlanmışdır.

Bu nəşrlər Avropanın alimlər dünyasında sensasiyaya səbəb oldu.

Nəhəng kitabxanalar bu kompilyativ əsər uğrunda əsl ova çıxdılar. «Dərbəndnamə»nin əlyazmalarının siyahısı Berlinin Kayzer kitabxanasına, Parisin Kral kitabxanasına, iki siyahı – Sankt-Peterburqdakı İmperatorluğun ümumi kitabxanasına, biri – məşhur kolleksionerlərin şəxsi kitabxanasına, Rumyantsev muzeyinə düşdü.

Məşhur rus alimi, coğrafiyaşunası və xəritəşünası, sonralar gizli müşavir və senator olmuş F.İ. Saymonov, 1724-cü ildə, I Pyotrdan 2 il sonra, naib İmamqulu bəyin əlindən həmin «… perqamentdə qədim ərəb dilində yazılmış» əlyazmanı alır. F.İ. Saymonov əlyazmanı rus dilinə tərcümə etmək üçün Yusif adlı bir şəxsə verir və əlyazma həmin ildə də tərcümə olunur. Bu «İran şəhəri Qəzvinin mollası İbrahim tərəfindən İran şəhəri olan Dərbəndin bünövrəsinin qoyulması, tikilməsi və İran, skif dövlətləri arasında gedən savaş haqqında danışılır. Oriental dillər şəhəri olan Kazanın rus dilinə tərcüməçisi Yusif tərəfindən tərcümə olunmuşdur». Bu əsər hazırda Moskva şəhərində Mərkəzi dövlət qədim aktlar arxivində saxlanılır.

Lakin F.İ.Saymonov tərəfindən alınmış həmin əlyazma saxlanılmamışdır. Sonralar Saymonov yazmışdır ki, «… əlyazma tərcüməçidə qalmışdır və o öldüyü üçün onu tapmağa ümid yoxdur».

XVIII əsrin 70-ci illərində alman tibb mütəxəssisi Yakov Reyneqqs Qafqaza səyahətə çıxmışdı.

Qubden dargin aulunda «Dərbəndnamə»nin Azərbaycan dilində əlyazmasını aşkar edir. Reyneqqs tərcümənin surətini çıxarır və özünün Qafqazın tarixi-topoqrafik təsvirinə həsr olunmuş əsərində dərc etdirir. Əlyazmadan çıxardığı surəti isə 1790-cı ildə Almaniyanın Göttingen universitetinə bağışlayır.

1814-cü ildə Rusiya Elmlər Akademiyasının ekstraordinar akademiki Q.Y.Klaprotun Şərqi Qafqazın tarixi-coğrafi təsvirinə həsr olunmuş Veymar şəhərində alman dilində çapdan çıxmış əsərlər toplusunun tərkibində «Dərbəndnamə»nin tərcüməsi də var idi. Müəllifin verdiyi məlumata görə, tərcümə «Peterburq əlyazması» əsasında edilmişdir. Klaprotun elədiyi tərcümənin mətni saxlanılmamışdır. Müəllifin özünün verdiyi məlumata görə, «Dərbəndnamə»nin əlyazmasının əvvəli ilə o, Peterburqda Bayerin kağızlarına əsasən tanış olmuş, qalan hissəsi ilə Peterburqda qraf Anqlametskidən əldə etmiş alman oriyentalisti Ditsin əlyazmasından tanış olmuşdur. Akademik V.V.Bartoldun fikrinə görə Bayerin arxivindəki əlyazmanın əvvəli və Ditsdə olan əlyazmanın digər hissəsi I Pyotra Dərbəndin naibi İmamqulu bəy tərəfindən verilmiş və sonralar itmiş əlyazmanın tam bütövlüyünü təşkil edirdi. Belə ki, nə Bayerin kağızlarında, nə də Berlin kitabxanasında Ditsin saxlanılan kağızlarda, Klaprotun verdiyi məlumatlara görə, «Dərbəndnamə» əlyazmasının hissələri tapılmışdır. Onda onlar ya Klaprotun özündə qalmışdır və ya onun ölümündən sonra 1835-ci ildə yoxa çıxmışdır.

Beləliklə, «Dərbəndnamə» salnaməsinin bu siyahısı da saxlanılmamışdır. Bartoldun yazdığı kimi, «…əlyazmanın haradan tapılması və onunla nə olması, bu barədə heç bir məlumat verilmir».

1829-cu ildə Q.Y.Klaprot Berlin əlyazmasının əsasında «Dərbəndnamə»nin fransız dilində tərcüməsini vermişdir.

Həmin ildə «Тифлисские ведомости» qəzeti «Dərbəndnamə»nin türkcə tərcüməsinin tezliklə işıq üzü görəcəyi haqqında məlumat verdi. Bu tərcümə İ.İ.Yaroslavtsın rus mətni ilə qəzetin səhifələrində çap olunacaqdır. Məşhur Azərbaycan tarixçisi, ədəbiyyatşünası, şairi, filosofu və ensiklopediyaçı alimi Abbasqulu Ağa Bakıxanovu (1794-1847) türk dilindəki mətnin müəllifi elan etmişdilər. Lakin bu tədbir geniş reklam olunmasına baxmayaraq, baş tutmadı. Yalnız qəzetin 44-cü və 45-ci nömrələrində ««Dərbəndnamə» adlı tatar əlyazmasının tərcüməsi haqqında» başlığı altında rus tərcüməsində «Dərbəndnamə» salnaməsindən iki hissə çap olunmuşdur: biri – Şah I Xosrov Ənuşirəvan (531-579) və onun tərəfindən Qafqaz divarının tikilməsi haqqında, digəri – Qubad şah tərəfindən İran sakinlərinin Dərbəndə köçürülməsi haqqında (488-531) idi.

1851-ci ildə Sankt-Peterburq Universiteti şərq fakültəsinin ilk dekanı, görkəmli şərqşünas, dərbəndli professor Mirzə Kazımbəyin (1802-1870) ingilis dilində kitabı çıxmışdır. Kitab ««Dərbəndnamə» və ya Dərbəndin tarixi adlanırdı. Mirzə A.Kazımbəy seçilmiş türk variantından tərcümə etmiş və mətni açıqlamalarla çap etmişdir. Sankt-Peterburq 1851-ci il».

Bu «Dərbəndnamə» salnaməsinin ilk elmi tədqiqi idi: Azərbaycan mətni, şəxsi ingilis tərcüməsi, başqa müəlliflərin tərcüməsi, xüsusilə Q.Y.Klaprotun yuxarıda qeyd olunan alman tərcüməsi, geniş qeydlə verilmişdir. Kitabın ətraflı «Müqəddimə»sində müəllif bir sıra əsas məsələlərə – bu abidə haqqında ilk məlumatlara, onun rəvayətlərinin variantlarının müxtəlifliyinə, məlum əlyazmaların arxeoloji xüsusiyyətlərinə baxmışdır. Əsər mütəxəssislərin yüksək qiymətini almışdır. Belə ki, akademik B.A.Dorn Elmlər Akademiyasına təqdim olunmuş rəyində yazmışdır: «Kazımbəy bizə Rus imperiyasının vilayətlərindən birinin, Qafqaz tarixinin mühüm sahəsindən olan yaxşı elmi nəşr hədiyə etmişdir».

Müəllif kitabın əsasına Dərbənddən alınmış Azərbaycan əlyazmasını qoymağı qərara almışdır.

M.Kazımbəy Dərbənddə «Dərbəndnamə» salnaməsinin bir-neçə nüsxəsinin mövcud olduğunu bilirdi. Bu əlyazmalardan birini tapmaq məqsədi ilə Kazımbəy iki dəfə Dərbəndə getmiş, qohumlarından və tanışlarından onun üçün salnamənin bir nüsxəsini tapmalarını xahiş etmişdir və «… bir çox illər keçəndən sonra, məhz 1839-cu ildə dostu Mirzə Kərimin vasitəsilə salnamənin çox gözəl əlyazmasını əldə edir (məşhur Dərbənd şairi Mirzə Kərim Şüai nəzərdə tutulur). M.Kazımbəydən sonra 1898-ci ildə nəşr olunmuş salnamənin rus tərcüməsi nəzərə alınmazsa, «Dərbəndnamə» əsərinin öyrənilməsi 75 il dayandırılmışdır.

Yalnız 1927-ci ildə «İran» jurnalında görkəmli şərqşünas akademik V.V.Bartoldun «Dərbəndnamə»nin yaranması məsələsi haqqında» məqaləsi çıxmışdır.

«Dərbəndnamə»nin tədqiqində Dağıstan alim-

ləri böyük rol oynamışlar.

1980-ci ildə Dağıstan alimləri M.S.Səidov və A.R.Şıxsəidov «Dərbəndnamə»ni ərəb dilindən rus dilinə tərcümə etmişlər. Burada salnamənin 36 siyahısını vermişlər.

1992-ci ildə Q.M-R.Orazayev və A.R.Şıxsəidov «Dərbəndnamə»nin Azərbaycan və ərəb dilindən olan rus tərcümələrini salnamənin öyrənilməsi tarixi haqqında geniş müqəddimə və mətnə açıqlamalarla nəşr etmişlər.

«Dərbəndnamə» salnaməsinə M.S.Səidovun, İ.X.Abdullayevin, V.Q.Hacıyevin, Q-B.Murkelinskinin, A.A.İsayevin, B.Atayevin və başqalarının da əsərləri həsr olunmuşdur. Fundamental «Dərbəndnamə» əsəri üçün M.Kazımbəy Demidov mükafatına layiq görülmüşdür.

Tədqiqatçılar tərəfindən aşkar olunmuş «Dərbəndnamə»nin əlyazmalarının siyahısı 40-ı ötüb keçmişdir. Artıq Azərbaycan, fars, ərəb, lək, qumıq, avar, dargin dillərində olan əlyazmalar məlumdur. Bu gün salnamənin siyahıları Sankt-Peterburqun, Moskvanın, Tiflisin, Yerevanın, Bakının, Parisin, Berlinin, Mahaçqalanın dövlət arxivlərində, bir çox şəxsi kolleksiyalarda, Dağıstan məscidlərindəki kitabxanalarda qorunub saxlanılır.

Ayrı-ayrı mətnlərin müqayisəli təhlili göstərmişdir ki, mətnlər, demək olar ki, eynidir. Onların mətnlərinin əsas hissələri və onlarda təsvir edilən epizodların ardıcıllığı üst-üstə düşür. Bu əlyazmalar əsasən Azərbaycan dilində yazılmışdır və bu dildən də ərəb, habelə Dağıstan xalqlarının dillərinə tərcümə olunmuşdur. Belə bir məlumat var ki, Əliyar adlı bir şəxs 1805-ci ildə «Dərbəndnamə»ni Azərbaycan dilindən fars dilinə tərcümə etmişdir.

Uzun müddət «Dərbəndnamə»nin müəllifi Dağıstanın Endirey aulundan olan Məhəmməd Əvabi Aktaşi hesab olunmuşdur. Onun əlyazması «1225-ci ilin cümədə əl-xira ayının 15-ci günü» tarixinə aid edilir, bu da 1810-cu il iyulun 18-nə təsadüf edir. Q.Y.Klaprot, M.Kazımbəy və digər məşhur tədqiqatçılar da bu fikrə əsaslanmışlar.

Lakin XX əsrin əvvəlində V.V.Bartold bu fikri rədd etdi. O, yazmışdır ki, «…Məhəmməd Əvabi Aktaşinin yazdığı başqa «Dərbəndnamə»nin farsca yazılmış qısa ixtisarı idi. V.V.Bartold belə bir fikir də söyləmişdir ki, Məhəmməd Əvabi Aktaşinin istifadə etdiyi «məşhur yazının» müəllifi Qəzvin şəhərindən olan Molla İbrahim» olmuşdur.

Bu müəllif haqqında məlumat Saymonovun verdiyi əlyazmanı tərcümə etmiş Yusup İjbulatov da söyləyir. Qeyd etmək lazımdır ki, Rumyantsev muzeyində saxlanılan salnamənin Azərbaycan dilindəki siyahısında da «İbrahim Qiyas oğlu»nun adı xatırlanır.

Lakin son illərin tədqiqatına əsasən, «Dərbəndnamə» salnaməsinin müəllifi Dərbəndin Əqləbilər sülaləsindən olan hakimlərinin saray tarixçisi Yusuf əl-Babi olmuşdur (1089-cu ilədək vəfat etmişdir).

«Dərbəndnamə» salnaməsi Dərbənddə, Şirvanda və Dağıstanda baş verən və bir-birilə bağlı olan müxtəlif hadisələrin ayrı-ayrılıqda yazılmış toplusunu təşkil edir.

«Dərbəndnamə» salnaməsi şəhərin tarixini, V əsrdən XI əsrin ortalarına qədər olan əsas hadisələri əhatə edir: V-VI əsrlərdə sasani-xəzər əlaqələri; Sasanilər sülaləsindən olan Qubad şah (488-531) və Şah I Xosrov Ənuşirəvan tərəfindən Dərbənd istehkamlarının tikilməsi (531-678); Salman və Əbdurrəhman ibn Rəbiyənin rəhbərliyi altında ərəblərin Dərbəndə ilk yürüşü; hicri tarixi ilə 64-cü ildə (683/4) Məsləmənın Dərbəndə yürüşü; hicri tarixi ilə 70-ci ildə (689/690) Məsləmənın Dərbəndə ikinci yürüşü; hicri tarixi ilə 103-cü ildə (721/2) Əbu Übeydə Cərrahın Dərbənddə yürüşü; hicri tarixi ilə 115-118-ci illərdə (733/4-736/7) Məsləmənın Dərbənddə inzibatı-təsərrüfat və tikinti fəaliyyəti; hicri tarixi ilə 118-120-ci illərdə (736/7-737/8) ərəb canişini Əsəd ibn Zafir ul-Müslim tərəfindən Dərbəndin idarə olunması; Mərvan ibn Məhəmmədin Dərbənddə fəaliyyəti; Haşimi canişinləri – Yəzid ibn Zafir Süleymi, Ceyun ibn Naci Haşimi və Rabilə Baxilinin Dərbənddə idarəçiliyi; xəlifə Harun ər-Rəşidin Dərbənddə olması; Dərbəndin Hafiz ibn Ömər (796), Həşim Məsis ibn Ceyun (820-825) tərəfindən idarə olunması; hicri tarixi ilə 160-cı ildə (766/7) Şirvan hakimi Həşim ibn Məhəmməd tərəfindən Dərbəndin zəbt edilməsi və onun şəhərdə təsərrüfatçılıq fəaliyyəti və s.

Əsər şəhər üçün faciəvi olan XI əsrin ortalarının hadisələrinin təsviri ilə qurtarır.

«Dərbəndnamə»nin ayrı-ayrı siyahılarında Dərbənddə dəfn olunmuş müqəddəs insanların və şəhidlərin adı sadalanır, bu regionda «müsəlmanların ziyarət etdiyi müqəddəs yerlərin» də adı çəkilir.

«Dərbəndnamə» salnaməsindən gətirilmiş qısa məzmun bütün siyahılar üçün eyni deyil. Bəzilə-

rində faktlar və hadisələr daha geniş verilmiş, bəzilərində isə – yalnız sxematik qeyd olunmuşdur. Bəzi hadisələr Məsləmənın - ikinci yürüşünün hicri tarixi ilə 115-ci il (733/4) - təsviri ilə qurtarır, başqalarında hadisələrin təsviri hicri tarixi ilə 456-cı ilə (1064/5) gedib çıxır, üçüncülər isə hicri tarixi ilə 320-ci ildə (932/3) baş verən hadisələrdə qırılır və s.

Görünür, bu çoxsaylı tərcüməçilərin və köçürücülərin hadisələri bilməməsindən, eləcə də imkanlarının məhdudluğundan asılı idi.

Salnamənin bəzi nüsxələrində, xüsusilə Dağıstan xalqlarının dillərində olanlara Dərbəndə aid olmayan və daha qədim zamanlarda baş vermiş hadisələr, o cümlədən faktlar əlavə olunmuşdur.

Qədim əlyazmaları saxlanılan matenadaranda lək dilində olan nüsxədə belə bir yazı var: «Hamıya məlum olan güclü zəlzələ baş verdi. Bu zəlzələ nəticəsində Şamaxı və Saxur kimi şəhərlər hicri tarixi ilə 1078-ci ildə (yəni, 1668-ci ildə) səhər çağı dağıldı» və yaxud da başqa bir yazı: «Buday şamxalın və qazı Əbdullahın dövründə Qazıqumık şəhərində vəba xəstəliyi tüğyan etdi və bunun nəticəsində hicri tarixi ilə 1098-ci ildə (1686/7) Xukal adlı yerdən 500 meyid çıxarılmışdır. Allah bizi başqa pis xəstəliklərdən qorusun».

«Dərbəndnamə» salnaməsinin məlumatlarının tarixi gerçəkliyi haqqında danışarkən qeyd etmək lazımdır ki, bu hadisələr bu və ya digər halda orta əsrlər Şərqinin əl-Bəlazuri, əl-Məsudi, əl-Yəqubi, ət-Təbəri, Kudama, İbn əl-Əsir, ibn Asam əl-Kufi, ibn Xordadbeh, ibn əl-Fəqih, əl-İstəxri, İbn Hövqəl və başqa belə nüfuzlu müəlliflərin məlumatlarına uyğun gəlir.

V.F.Minorskinin qeyd etdiyi kimi, «Dərbəndnamə»nin mətni yerli rəvayətlər əlavə edilərək müsəlmanların tarixindən götürülən Qafqazda baş vermiş ilkin istila haqqında məlumatdır».

Mütəxəssislər hesab edirlər ki, «Dərbəndnamə»nin müəllifi «Tarixi Bab əl-Əbvab» və «Şirvanın və Dərbəndin tarixi» kimi yerli salnamələrdən də istifadə etmişdir. «Dərbəndnamə» salnaməsinin elmi-tarixi tədqiqi, demək olar ki, 150 ilə çatır. O tədqiqatçıların orta əsrlər irsinin nəinki ümumdağıstan, habelə ümumqafqaz əhəmiyyətli olan qiymətli nümunə kimi indiyədək daim diqqət mərkəzində qalır.

Dərbənd və «Kitabi-Dədə Qorqud». 1815-ci ildə alman alimi F.Dits Drezden kitabxanasında əvvəllər məlum olmayan türk (oğuz) dilində «Kitabi-Dədə Qorqud» başlığı altında əlyazmanı aşkar edir.



Hazırda bu kitab ən qədim yazılı türk folklor əsəri hesab olunur. Əlyazma girişdən və bir-biri ilə süjet xətti ilə bağlı olmayan, lakin eyni qəhrəmanlardan danışan 12 boydan ibarət idi. Lakin əlyazma F.Dits tərəfindən tədqiq edilməmiş, yalnız onun 12 boyundan biri «Təpəgöz»ü alman dilinə tərcümə etmiş və nəşr etdirmişdir. Bir müddət sonra tanınmış alman şərqşünası Neldek F.Dits tərəfindən aşkar edilmiş əlyazmanı tamlıqla nəşr etməyə cəhd etmişdir. Akademik V.V.Bartoldun məlumatına əsasən, tədqiqatçı əlyazmanın bir çox yerlərini düzgün oxuya bilmədiyi üçün bu iş yarımçıq qalmışdır.

1859-cu ildə digər alman alimi T.Polden eposun tam surətini alman dilinə tərcümə və çap etmək üçün çıxarır, lakin bəzi səbəblərə görə istədiyini yerinə yetirə bilmir. 1892-ci ildə topladığı materialları o dövrdə Almaniyada təhsil alan gələcək rus akademiki V.V.Bartolda verir.

1894-cü ildə V.V.Bartold əlyazmanın mətnini rus tərcüməsi ilə birlikdə çapa hazırladı və hətta bir-neçə boyların tərcüməsini də nəşr etdi. Lakin işi davam etdirmədi. Yalnız ölümündən sonra (1930), onun arxivində rus dilinə tərcümə olunmuş mətnlə birlikdə çapa hazır tam mətni aşkar olundu. Bartoldun hazırladığı bu əsər 1950-ci ildə Nizami adına Azərbaycan Dili və Ədəbiyyatı İnstitutu tərəfindən nəşr olundu.

1938-ci ildə «Kitabi-Dədə Qorqud»un əlyazmasını türk alimi Orxan Şaiq Gökay, sonra isə azərbaycanlı alim Həmid Araslı (latın əlifbası ilə) nəşr etdirdi.

1950-ci ildə Azərbaycan alimləri H.Araslı və M.Təhmasib bu gözəl türkdilli folklor abidəsinin tam mətnini hazırlayıb çap etdirdilər.

Demək olar ki, 140 il Drezden əlyazması yeganə əlyazma hesab olunurdu. Lakin 1952-ci ildə italyan şərqşünası F.Rossi Vatikan kitabxanasında «Kitabi-Dədə Qorqud»un daha bir əlyazmasını aşkar etdi

və həmin ildə də italyan tərcüməsi ilə birlikdə faksimilinin nəşrini ətraflı girişlə çap etdi.

Lakin bu əlyazmanın variantı Drezdendə F.Dits tərəfindən aşkar olunmuş əlyazmadan bir qədər fərqlənirdi. Vatikanda aşkar edilmiş əlyazma 6 boydan ibarət idi. Hətta boylar bəzi dəyişiliklərə məruz qalmışdı. Tədqiqatlar göstərir ki, Vatikan əlyazmaları Drezden əlyazması ilə müqayisədə daha erkən dövrə aiddir.

1959-cu ildə Ə.Dəmirçizadə «Kitabi-Dədə Qorqud» dastanının dilinin analizinə həsr edilmiş ilk xüsusi tədqiqatını çap etmişdir. XX əsrin 50-60-cı illərində türk alimlərinin dastana həsr olunmuş bir sıra əsərləri çap olunmuşdur. Xüsusilə, Mühərrəm Yerkin «Kitabi-Dədə Qorqud» dastanının tədqiqinə həsr olunmuş bir sıra əsərlər çap etdirmişdir.

1962-ci ildə H.Araslı dastanı ikinci dəfə çap etdirdi. Həmin ildə dastanın rus tədqiqatçısı A.N.Kononovun ilk əsəri işıq üzü gördü. Ş.A.Cəmşidov da «Kitabi-Dədə Qorqud» dastanının tədqiqinə bir sıra əsərlər həsr etmişdir. 1974-cü ildə məşhur şərqşünas V.M.Jirmunskinin tədqiqatı çapdan çıxdı. 1976-cı ildə X.Koroğlu öz əsərini çap etdirdi. V.Bartoldun, Ə.Sumbatzadənin, A.Yakubovskinin, O.Bayatın, A.Dilaçarın, F.Zeynalovun, F.Köprülünün və digər məşhur müəlliflərin əsərlərində «Kitabi-Dədə Qorqud» dastanının məsələlərinə çoxsaylı müraciətləri də qeyd etmək lazımdır. «Kitabi-Dədə Qorqud» dastanına olan belə maraq onun yalnız nadir ədəbiyyat əsəri olması kimi izah olunmur, həmçinin bu şifahi xalq yaradıcılığının böyük abidəsi bütün türkdilli xalqların və türk dünyası üçün eyni dərəcədə qiymətli olması ilə izah olunur. Akademik Ə.S.Sumbatzadənin qeyd etdiyi kimi, «türkdilli xalqlar arasında dastanın hansı ərazidə yaranması və formalaşması məsələləri mübahisə doğura bilər» və düzgün olaraq əlavə edir ki, ««Kitabi-Dədə Qorqud» dastanının mənbələri o dövrkü türkdilli dünyanın geniş çöllüklərində, lakin məhz Azərbaycanın ərazisində yarandığını, inkişaf etdiyini təsdiq etməyə əsas verir». Dastanın digər məşhur tədqiqatçısı X.Koroğlu yazır ki, «… Abidənin tamlıqla yaranması Qafqazda baş vermişdir, xüsusilə Azərbaycan mühitində». H.Araslı və V.Bartold, Ə.Dəmirçizadə, A.Dilaçar, A.Yakubovski, M.Yerkin, F.Zeynalov, P.Köprülü də eyni fikirdə olmuşlar.

Bu fikirlərdən təsdiq olunur ki, birincisi dastanda olan Azərbaycan yer adlarının mövcudluğu ilə – Ağca qala (Araz çayı ilə Arpa çayının arasında qədim şəhər), Ab-Haras və Ağ-Hasar (Cənubi Azərbaycanda kəndlər), Ağ-Qaya (Azərbaycan Respublikasının Kəlbəcər rayonunda kənd), Əlincə qalası (Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasında qala), Qaradağ, Gəncə, Bərdə, Dəmir qapı Dərbənd, Göyçə gölü və s. İkincisi, dastandakı dil materialının xüsusiyyətilə. Ə.Dəmirçizadə qeyd edir ki, «Kitabi-Dədə Qorqud» dastanının dilində «… oğuz elementlərinin üstünlüyü ilə» «… oğuz və qıpçaq elementlərinin paralelliyi» aydın görünür.

Ə.S.Sumbatzadənin fikirincə, oğuz-qıpçaq elementlərinin belə qarışıqlığı və paralelliyi yalnız türkdilli türk və oğuz ailələrinin uzun müddət bir yerdə yaşamış və kontaktda olduğu regionlarda ola bilərdi. Məlum olduğu kimi qədim Qafqaz Albaniyası belə region olmuşdur. Buraya əsrlərlə şimaldan, Uralyanı, Volqayanı və Qara dənizkənarı çöllüklərdən türk-qıpçaqların axını olmuşdur. Sonralar isə, XI əsrin əvvəlindən cənub-şərqdən türk-oğuzların (səlcuqların) axını olmuşdur.

Bu inandırıcı fikirlə razılaşaraq, demək olar ki, qədim türk dastanı «Kitabi-Dədə Qorqud» Dərbənddə yazılı abidə kimi Şərqi Qafqazın ən qədim şəhərlərindən olan formalaşmışdır.

Dərbənd ən qədim zamanlardan Alban qapıları, Hunların qapısı, Xəzər qapıları, sonralar isə Dərbənd keçidi kimi tanınmış rayonda yerləşmişdir.

Dərbənd Ön Asiya ölkələrinin şimal xalqları ilə ticarət-iqtisadi əlaqələrinin mühüm qovşağı və həm də mühüm hərbi-strateji əhəmiyyətə malik idi. Onun yerləşdiyi ərazi Qafqaz dağ silsiləsi ilə Xəzər dənizi arasındakı dar, eni 3 km-ə yaxın yeganə dar keçid yol idi. Bu yolla qədim zamanlardan türk (qıpçaq) tayfaları şimaldan Qafqaz Albaniyasının ərazisinə və oradan Ön Asiyaya keçirdilər. Hələ Herodot (b.e.ə. V əsr) b.e.ə. VII əsrin sonunda baş verən hadisələri təsvir edərək bildirirdi ki, skiflər darmadağın olmuş kimmerləri qovaraq Qara dənizin şimal sahillərindən Midiyanın ərazisinə girdilər. «… Qafqaz dağları sağ tərəfdə olmaqla yuxarı yolla», yəni Xəzər qapılarından keçərək Xəzər dənizinin qərb sahili ilə bu türk tayfalarının Ön Asiyaya son yürüşü olmamışdır. Onlar bir-neçə dəfə Xəzər qapılarından Assuriyaya, Urartuya, Midiyaya dağıdıcı yürüşləri zamanı istifa-

də etmişlər. Bir çox antik tarixi salnamələri bu yolla skif və sarmat tayfalarının b.e.ə. I əsrin 2-ci yarısında çoxsaylı yürüşləri haqqında məlumat verir. Cənubi Qafqaza şimaldan, Alban qapıları-Dərbənd keçidindən türkdilli tayfaların çoxsaylı hücumları haqqında Moisey Kalankatlı (VII əsr) və başqaları məlumat verir.

Qeyd etmək lazımdır ki, bütün bu yürüşlər qədim Dərbənd üçün böyük əhəmiyyət daşıyırdı. Qafqaz Albaniyasının türk dünyası ilə şimaldan cənuba və geriyə türk tayfalarının yeganə yolu idi. Bu səbəbdən də başqa bölgələrdən fərqli olaraq qədim Dərbənd daim türk aləmi ilə kontaktda olmuşdur. Bu zəngin təbiətli və strateji əhəmiyyətli bölgədə türk tayfalarının bir-birini əvəz etməsi yolu ilə məskunlaşması nəticəsində burada türkçülüyün fəal gəncləşməsi prosesi gedirdi. Bu proses yalnız qədim Dərbəndə aid deyil. Qafqaz Albaniyası üzrə mütəxəssis Fəridə Məmmədova yazır ki, «… İlk əsrlərdən Qafqaz Albaniyasının bir çox vilayətlərində türkdilli tayfalar sıx yaşayırdılar, onlar getdikcə artır və yeniləşirdilər. Bu artım və yeniləşmə xüsusilə III-V əsrlərdə və sonralar da baş verirdi». VI əsrin suriyalı tarixçisi Zaxari Mitilenin məlumatına əsasən, V əsrin sonunda-VI əsrin əvvəlində Dərbənd bölgəsində 13 türkdilli tayfa məskunlaşmışdır. Artıq bu dövrdə türklər Şimali Qafqaz torpaqlarının tam sahibi idilər. L.İ.Artamonovun göstərdiyi kimi, türk xaqanı Sincibin torpaqları nəinki Xəzər dənizinin qərb sahilinə və Dərbəndə gedib çatırdı, hətta Azov-Xəzər dənizlərarası geniş çöllükləri də əhatə edirdi. Təbərinin (X əsr) məlumatına görə «… sasani şahı Firuz Sul vilayətində (Xəzər qapıları rayonunun ərəbcə adı) öz torpaqlarını türklərdən qorumaq üçün daşdan Alan tikilisini ucaltmışdır. Firuzun oğlu Qubad şah da atasından sonra həmin yerlərdə çoxlu yeni tikililər ucaltmışdır. Kisra taxta çıxandan sonra isə (Xosrov I Ənuşirəvan) Sul vilayətində onun əmri ilə daşdan şəhərlər və istehkamlar tikilmişdir» Bu müəllifə əsaslanaraq demək olar ki, türk xaqanı Sincib Xosrov I Ənuşirəvanın əyalətlərinə dağıdıcı hücumlar edərək, Sasanilərə ciddi təhlükə yaradırdı.

Şəhərin yerləşdiyi bölgənin qədim adı – Xəzər qapısı, Hun qapısı, Xəzər keçidi, sözsüz ki, türk mənşəlidir. Şəhərin özünün qədim adı – Çöl (Çoq, Çor, Sur, Tzur, Çol) açıq-aydın türk etnonimi çölü əks edir. Bu adın daşıyıcıları bu bölgədə məskunlaşırdılar. Dərbəndin cənub-qərbindəki dağın zirvəsindəki kəndin adı – Calqan bu etnonimdən götürülmüşdür. Qədim türk etnonimləri Dərbəndə yaxın yerləşən kəndlərin adlarında da qalmışdır – Qullar, Padar, Dəliçoban, Azadoğlu, Ullu-Tərəkəmə, Başlı və s. Şəhərin qədim toponimləri – yaşayış məhəllələrinin adı (Orta təpə, Peyinnik başı, Molla-daşı, Şirvan-burnu, Bayat-ocağı və s.), şəhər qapılarının adı (Boyat-qapı, Orta qapı, Daş-qapı, Qırxlar qapısı və s.), qalanın adı (Narınqala) və dağ müdafiə divarının adı (Dağ-barı) da qədimdə bu şəhərdə məskunlaşmış xalqın türk olduğunu bir daha sübut edir. Qədim türk mədəniyyətinin izləri Dərbənd rayonunda süni yaradılmış yumru təpəciklərdə də qalmışdır: Dovşan-təpə, Qarovul-təpə, Başmaq-təpə, Yastı-təpə, Alim-təpə, Kürki-təpə, Qatar-ağac-təpə, Böyük-təpə və s. Dərbənd bölgəsinin türkdilli arealın olmasına qədim müəlliflərdən, xüsusilə Strabon (b.e.ə. I əsr), Zaxari Mitilen (VI əsr), Moisey Kalankatlı (VII əsr) və başqaları işarə edirlər. Demək olar ki, ərəb müəlliflərinin hamısı müsəlmanların Dərbəndə ilk yürüşləri (VII əsr) haqqında məlumat verərək bildirirlər ki, şəhəri tutmuş xəzərlər (türklər) ərəblərə güclü müqavimət göstərmişlər. Hicri tarixi ilə 115-ci ildə (733/4) Dərbəndi zəbt etmiş ərəb sərkərdəsi Məsləmə şəhəri dörd hissəyə («qısm») bölür və Ərəbistandan olan tayfaları orada yerləşdirir, bir hissəsini isə yerli sakinlərə – xəzərlərə verir. Bütün bunlar qədim Dərbəndin etnik xüsusiyyətini açıq-aydın göstərir. Əl-İstəxri (X əsr) yazırdı: «... Bab Əl-Əbvabın sakinləri hərdən xəzər dilində danışırlar». Bu məlumat Dərbəndin etnik xüsusiyyətinin erkən ərəb dövrünə aid olmasına sübutdur.

XI-XII əsrlərdə tərkibinə Azərbaycanın da daxil olduğu səlcuqların Oğuz imperiyasının yaranması ilə buraya cənubdan çoxsaylı oğuz tayfalarının gəlməsi müşahidə olundu. Onlar öncə burada məskunlaşmış qıpçaq tayfaları ilə getdikcə qaynayıb-qarışmışlar. Tezliklə oğuzlar burada hakim vəziyyət tutdular, türk-oğuz dili isə üstünlük qazandı.

Orta əsrlərdə Dərbənddə olmuş bütün Avropa müəllifləri şəhərin şimal divarının arxasındakı «böyük oğuz qəbiristanlığı» haqqında məlumat verirlər. Məşhur Dağıstan tarixçisi R.Maqomedovun məlumatına görə «… Axtada (Cənubi Dağıstan rayonunda eyniadlı inzibati mərkəz), kürküd hama-

mına çatmamış günəşli tərəfdə «Oğuzyekya» adlı qəbiristanlıq yerləşmişdir». Digər Dağıstan alimi A.R.Şıxsəidov yazır ki, bu qəbiristanlığın biri «Oğuzrin surar»dır (ləzgicə «Oğuz qəbiristanlığı»).

Oğuz təsirinin izləri Dağıstanın toponimlərində də qalmışdır. Belə ki, Cənubi Dağıstanda, hazırda ləzgidilli xalqlar məskunlaşmışlar. Demək olar ki, bütün yaşayış məntəqələri ləzgicə «xur» əvəzinə türk termini olan «kənd» və «qazmalar» terminləri ilə qeyd olunmuşdur: Məhərrəm-kənd, Qasım-kənd, Tahir-kənd, Şıxı-kənd, Qur-kənd, But-kənd, Zöhrab-kənd, Saytar-kənd, Qoş-kənd, Yaraq-Qazmalar, Samur-Qazmalar, Xtun-Qazmalar, Maka-Qazmalar, Darquş-Qazmalar, Bilbil-Qazmalar, Tahir-kənd-Qazmalar, Kəbir-Qazmalar, Çaxçax-Qazmalar və s. Qızıl dərə, Alamişe, Doqquz para, Altı para, Aşağa Arkit, Yuxarı Arkit, Aşağa Stal, Orta Stal, Yuxarı Stal, Yuxarı Zahid, Yaşıltəpə, Daşlıkənd, Qarakürə, Qaradərə, Şalbuz dağ, Bazardüzü, Qurax, Quru dağ, Quran dağ, Damabaşı və s. Toponimləri, göründüyü kimi, açıq-aydın türk-oğuz mənşəlidir. Belə türk toponimləri Dərbənddən şimalda da izlənilir. Hidronimləri ləzgicə «vats» əvəzinə türk termini olan «çay»la qeyd olunmuşdur: Darvaq çay, Usex çay, Qurax çay, Axtı çay, Rubas çay, Gilgil çay, Qoçxu çay və s.

Qədim türk dilinin təsiri Dağıstan xalqlarının dilində də açıq-aydın hiss olunur. Belə ki, çoxsaylı sözlər ümumdağıstan üçün səciyyəvidir: parsuq, qaz, tula, sarımsaq, qazma, yaylıq, yarma, təpə, örüş, düzən, bulaq, qızıl, çaxmaq, gümüş, paxır, qalay, kadaq, qol, koy, bars, saman, və s. sözlər şübhəsiz qədim türk mənşəli sözlərdir. Dilçilik üzrə mütəxəssislərin fikrinə görə, hazırda ləzgi dilinin lügətində sözlərin və terminlərin 50%-dən çoxu türk-oğuz mənşəlidir.

«Kitabi-Dədə Qorqud» dastanı, çoxplanlı mifoloji fonlu əsər olmasına baxmayaraq, tarixən real hadisələri əks edir. Ona görə də dastanın boylarında baş verən hadisələrlə bağlı çoxlu coğrafi toponimlər vardır.

Belə ki, dastanda tez-tez «kafir sərhədi» kimi söz birləşmələrinə rast gəlinir. Dərbənd Ərəb Xilafətinin şimal sərhəddi olduğu üçün bu söz birləşmələri bilavasitə Dərbəndə aiddir. Ərəb mənbələrində və XI əsrə aid olan yerli «Dərbəndnamə» salnaməsində Dərbəndin şimal ərazilərini «kafirlər ölkəsi» adlandırırdılar. Bəzi ərəb mənbələrində bu əraziləri «Dər-əl-hərb» («Müharibə ərazisi» yəni «kafirlər ölkəsi»; onlarla islam dini naminə aparılan müharibə müqqəddəs hesab olunurdu) adlandırırlar. Hazırda şəhərin şimal divarının arxasındakı əraziləri Dərbəndin yerli sakinləri bu gün də Kafəri (Kafirlər hissəsi) adlandırırlar. Şəhərin cənub ərazilərinə isə Müsulmanı deyirlər, yəni Müsəlman hissəsi (ərəb dilinin analoqu ilə «Dər əl-islam»-«İslam ərazisi»). Bundan əlavə şəhərin şimalında «Kafir dağ», «Gəur-qaya», «Gəur-dərə» yerləşir.

Dastanın 11-ci boyunda «Duman qala» toponimi xatırlanır. A.Bakıxanov «Gülüstani İrəm» ensiklopedik əsərində Dərbəndin Şimalında – Qəmridən Sulak çayına qədər paytaxtı Aqran olmaqla «Dumanşahın ölkəsi» haqqında məlumat verir və əlavə edir ki, Sasani şahı «… Ənuşirəvan Duman qalasında Duman tayfasından olan qarnizonları orada qoyur və onlardan Dumanşah adlı hökmdar seçir». «Dərbəndnamə» salnaməsində nəql edilir ki, Xosrov I Ənuşirəvan (531-579) «Duman tayfasına İhrandan Xəmriyə kimi olan torpaqları verir və Dumanşah adlandırılan hökmdar təyin edir. Onun arxasınca Qaytaq gəlir. Qaytağın yuxarı hissəsi… Qübəçidir. Qaytaqdan sonra Tabasaran gəlir». Dərbənddən şimalda yerləşən vilayətlər hazırda da öz qədim adlarını qoruyub saxlamışlar. Ərəb mənbələri hicri tarixi ilə 117-ci ildə (737/8) Dərbəndin ərəb hakimi Mərvanın Şimali Dağıstana yürüşünü təsvir edərək «Duman qalasının» ərəblər tərəfindən çətinliklə mühasirəyə alınması haqqında məlumat verir.

Qeyd etmək lazımdır ki, dastanda Azərbaycanın, Gürcüstanın, Türkiyənin, İranın, İraqın, Suriyanın, Ərəbistan yarımadasının ərazisində yerləşən 58 toponimin adı xatırlanır. Bu toponimlərin çoxu (32 toponim) Azərbaycanın ərazisindədir. Həmin toponimlərdən dastanda ən çox rast gəlinən Dərbənd «Dəmirqapı Dərbənd» (Dərbəndin dəmir qapıları) toponimdir.

Tədqiqatçıların yekdil fikrinə, görə dastanın baş qəhrəmanı Dədə Qorqud türk bayat tayfasından idi. Tədqiqatçıların bu fikri dastanda olan məlumatlara əsaslanır. Belə ki, dastanın müqəddiməsi bu sözlərlə başlanır: «Rəsul əleyhüssalam zamanına yaxın Bayat boyundan Qorqud Ata derlər bir ər qopdu».

Çoxsaylı yazılı mənbələrə və bizim günlərədək qorunub saxlanmış rəvayətlərə əsasən türk

bayat tayfası Dərbənddə və şəhərin ətrafındakı ərazilərdə, çox qədim zamanlardan məskunlaşmışdır. Cənub şəhər divarının ən qədim şəhər qapıları Bayat qapı (bayat tayfasının qapıları), bu qapıların yaxınlığındakı yaşayış rayonu isə Bayat məhəlləsi adlanır. Şəhərin cənub hissəsinə yaxın məsafədə Bayatlar kəndi yerləşirdi. Hələ XIX əsrdə rus müəllifləri bu «Bayat kəndi» haqqında məlumat verirlər. Bu gün də yerli sakinlər şəhərin yaşayış məhəllələrindən birini Bayat ocağı adlandırırlar. Bu tayfanın içərisindən çıxmışlardan XVI əsrin məşhur tanınmış şairi, Dərbənd aşıq məktəbinin banisi Bayat Abbası, şəhərin tarixində mühim rol oynamış məşhur ictimai-siyasi xadimlərdən – Dərbəndin orta əsrlər hökmdarı Məhəmməd Hüseyn bəy Bayatı, şəhərin naibi Əli Pənah bəy Bayatı (XVIII əsrin əvvəlləri), Əhməd bəy Bayatı və başqalarını göstərmək olar.

Qədim ozanın adı - «Qorqud» iki hissədən ibarətdir: «qor» və «qud». Birinci hissə «qor»-fars mənşəlidir və «alov» («məşəl») deməkdir. İkinci hissəsi «qud» isə türk mənşəlidir və Azərbaycan dilinin dərbənd dialektində «qəlb» deməkdir.

Beləliklə, «Qorqud» Azərbaycan dilinin Dərbənd dialektində semantik olaraq - «Alovlu qəlb», «Yanar ürək» deməkdir. Bu da qədim müdrik və böyük ozan surətinə tamlıqla uyğundur.

«Kitabi-Dədə Qorqud» dastanının dilinin təhlilinə çoxsaylı elmi əsərlər, əsasən, Azərbaycan və türk linqvistlərinin elmi əsərləri həsr olunmuşdur. Bu əsərlərin hamısında deyilir ki, dastanın dili bütün türkdilli xalqlar qrupunun leksik yuvalarının ümumtürk lüğət arsenalını təşkil edir. Lakin yenə də dastanda Azərbaycan dilinin Dərbənd dialekti üstünlük təşkil edir.

Həqiqətən də, dastanın dilində müxtəlif türkdilli xalqların dialektizmləri var, lakin əsasən əsərin leksik və fonetik fonu Azərbaycan dilinin Dərbənd dialekti üçün tipikdir. Dastanın mətnində Dərbənd şəhərinin əsl yerli sakinlərinin hazırda işlətdiyi sözlərə də rast gəlinir. «Kitabi-Dədə Qorqud» dastanının dili xalq dilidir.

«Kitabi-Dədə Qorqud» dastanı orta əsrlər dövründə Dərbənddə və onun bölgələrində məskunlaşmış türkdilli xalqların dilinin ən əsas atributlarının arxaikliyini qoruyub saxlamışdır.

Linqvistlər dastanın dilini türk dilinin şərq dialektlərinə aid edirlər. Dərbənd dialekti də türk dilinin şərq dialektinə aiddir və bütün filoloji parametrlərinə görə Azərbaycan dili yuvaları ilə eynidir. Azərbaycan dilinin bir çox sözləri arxaizm sıralarına keçmişdir, lakin bu gün də Dərbənd dialektində onlardan çox istifadə olunur.

Məsələn, dastanda istifadə olunmuş belə söz vahidləri: xatın, avaz, ağır, ayıtmaq, al, asi olmaq, badyə, bazlamac, bayaq, başı-götü, beçid, varmaq, qarı, qanda, qaxmaq, qiyov, qəhər, qohum, dal, zaval, incinib, iraq, yavuq, yalab, yoqurd, yoşan, kahun, keyik, kişi, gor, kərə, mədət, nakəs, «gəlibəni» («qəlibənnəri») (Dərbənd şəhəri – «gəlübəni») (kənd ləhcəsi) – «gəlib» (Azərbaycan ədəbi dili); «gitübəni» (dastan) – «gitibəni» («qitibənnəri») «Dərbənd şəhəri» - «gitübəni» (kənd ləhcəsi) – «gedib» (Azərbaycan ədəbi dili); «alıbanı» (dastan) – «alıbanı» («alıbannarı») (Dərbənd şəhəri) – «alubanı» (kənd ləhcəsi) – «alıb» (Azərbaycan ədəbi dili) və s. Dərbənd dialektində indiki zaman şəkilçiləri «-adam», «-ədəm», «-idəm» kimi işlədilir. Məsələn: «aladam», «vərədəm», «çimədəm» və s. Həmin şəkilçi dastanda birinci şəxs fellərinin sonunda da rast gəlinir: «Ağam Beyrək diyədəm ozan sana».

Dastanda həmçinin Dərbənd dialektinə oxşar ləhcələrə də rast gəlinir, məsələn: «bunda» (dastan) – «burda» (Dərbənd şəhəri) – «bunda» (kənd ləhcəsi); «neçün» (dastan) – «nişin» (Dərbənd şəhəri) – «neçün» (kənd ləhcəsi) və s.

Dastanda istifadə olunan təsdiq nida «dəxi» (məs. «Mənim dəxi istədiyim oldu»), Dərbənd dialektində və kənd ləhcələrində «dahı» formasında qorunub saxlanılmışdır.

Dastanın dili, simvolik obrazları, kult ənənələri, kitabədə göstərilən toponimlər, şübhəsiz ki, Dərbənd şəhəri və Azərbaycan dilinin Dərbənd dialekti ilə bağlıdır. «Kitabi-Dədə Qorqud» dastanının yaranmasından 1300 il keçməsinə baxmayaraq, Dərbənd dialekti müasir Azərbaycan dilinin səksəmək, taraqqa, təkəbbür, təkcə, ummaq, xəlayiq, əski, yamac, cici-bacı və s. kimi müasir Azərbaycan dilində köhnəlmiş sözlərdir, Dərbənd dialektində və Dərbəndin türkdilli kəndlərinin danışığında bu sözlərdən daim istifadə olunur.

Dastanda istifadə olunan türkmənşəli yuva formaları Dərbənd dialektində dəyişikliksiz qorunub saxlanıldığı halda, müasir Azərbaycan ədəbi dilin-

də onlar dəyişiliklərə məruz qalmışlar. Məsələn; «Vardı bu qırx yigidin yigirmisi bir yana, yigirmisi dəxi bir yana oldu cümləsində «yigirmi» sözü Dərbənd dialektində dastanda olduğu kimi istifadə olunur. Lakin müasir Azərbaycan ədəbi dilində isə «iyirmi» kimi istifadə olunur. Belə nümunələrdən çox gətirmək olar: «bayır» (dastan) – «bayır» (Dərbənd dialekti) – «bayır» (Azərbaycan dili); «degil» - «degil» - «deyil»; «dügün» - «dügün» - «düyün»; «qeynədi» - «qeynədi» - «qaynadı»; «qələ» - «qələ» - «qala» və s.

Azərbaycan dilinin Dərbənd dialektində dastanda olduğu kimi felə birləşən fel hissəcikləri istifadə olunur: «-ıbanı», «-ibanı», «-ibəni» bəzən isə «-ibannarı», «-ibənnari» modeli istifadə olunur: - «qalxıbanı» («qalxıbannar») (Dərbənd şəhəri) – «qalxubanı» (kənd ləhcəsi) – «qalxıb» (Azərbaycan ədəbi dili); «gəlibəni» (dastan) – leksik əsasların cüzi formalarını qəbul etmişdir, lakin xalq danışıq dilinin qədim türk özəyini qoruyub saxlamışdır.

«Kitabi-Dədə Qorqud» – əfsanəvi müdrik insan olan Qorqud haqqında bəzi məlumat verən girişlə başlayır. Qorquq Məhəmməd peyğəmbərin zamanlarına yaxın bir dövrdə oğuz bayat tayfasında anadan olmuşdur. Xalq arasında tayfa başçısı əbədi ozan kimi böyük nüfuza malik idi. O, «Kitabi-Dədə Qorqud» – oğuz pəhləvanları haqqında olan dastanın yaradıcısıdır. Beləliklə, Dədə Qorqud mifik surət deyil, real şəxsiyyətdir.

Bəs bu izi harada axtarmaq lazımdır? Dastanın bütün tədqiqatçıları hesab edirlər ki, bu izi Azərbaycan ərazisində axtarmaq lazımdır.



Bu sualın cavabını məşhur alman alimi, diplomatı və səyyah Adam Olearinin (1603-1871) məlumatlarında axtarmaq lazımdır. 1638-ci ilin aprelində hersoq Fridrex Şlezviq-Qolştinskinin səfirliyin tərkibində İrana səfəri zamanı o, Dərbənddə olmuşdur. Hersoq sonralar özünün 1647-ci ildə çap olunmuş «Moskoviyaya və Moskoviyadan Persiyaya və geriyə səyahət» yol qeydlərində, VI kitabın 10 hissəsini Dərbəndə həsr etmiş və bu hissəni «Dərbənd şəhəri haqqında və buradakı görməli yerlər haqqında» adlandırmışdır. Bu əsərdə müəllif şəhəri, onun qədim abidələrini, əhalinin məişət, adət və ənənələrini ətraflı təsvir etmiş, burada şəhərin tarixi və görməli yerləri ilə bağlı eşitdiyi rəvayətləri qələmə almışdır. Şəhərin şimal hissəsindəki böyük qəbiristanlıq haqqında məlumat verən Adam Oleari yazır ki, «… Dərbəndin bu tərəfində biz çoxlu qəbir daşları gördük; bunlar bir-neçə min idi; onlar adam hündürlüyündə idi. Sakinlər bu qəbirlər haqqında belə əhvalat danışırdılar. Güya lap qədim zamanlarda, lakin Məhəmməd peyğəmbərdən sonra, oğuz millətindən olan Qazan xan var idi. O, bu yerdə Dağıstan ləzgisi adlandırdıqları tatarlarla çox sərt mübarizə aparırdı.

O, onlar üzərində qələbə çalır. Onlardan bir-neçə minini öldürür, daha məşhurların qəbirləri üzərində belə formada qəbir daşları qoydurur». Adam Oleari kitaba əlavə olunmuş şəklə və Qazan xanın Dağıstanın dağlıları ilə döyüş yerinə işarə edir (hazırda bu ərazidə Qırxlar qəbiristanlığı yerləşir).

Qazan xanın bu yerlərdə olması haqqında Dərbənddə 3 il (1670-1673) köləlikdə olmuş «Oryol» rus hərbi gəmisinin yelkən ustası hollandiyalı Yan Streys məlumat verir. O, Dərbənddə olması haqqında xatirələrini «İtaliya, Yunanıstan, Liflandiya, Moskoviya, Tatariya, Midiya, Persiya, Ostindiya, Yaponiya, və digər müxtəlif ölkələrə səyahət zamanı baş vermiş bir çox hadisələr barədə üç unudulmaz və gerçək xatirə» kitabında təsvir etmişdir. Bu kitabın rus versiyası «Три путешествия» adı altında Moskvada 1935-ci ildə çap olunmuşdur.

Yan Streys də Adam Oleari kimi «midiyalıların» (oğuz türklərinin) Qazan xan başda olmaqla «Dağıstan dağlıları» ilə döyüşlərindən məlumat verir. Xüsusilə məlumat verir ki, şəhərin şimal divarının arxasında «… midiyalılar ordusunun ilk başçılarının qəbir daşları var». Bu qəbiristanlıq hazırda «Qırxlar» qəbiristanlığı kimi mövcuddur və müsəlmanların ziyarətgahıdır.

Adam Olearinin və Yan Streysin məlumatından başqa, Dmitri Kantemir də (1723) Qırxlar qəbiristanlığındakı qəbirlərin «… uzun müddət Dərbəndi tutmuş oğuz xalqına» məxsus olduğu haqqında eşitdiyi əfsanəni qeyd edir. Sankt-Peterburq kitabxanasında saxlanılan «Dərbəndnamə»nin siyahılarından birində Dərbənddə dəfn olunmuş 50 şəhidin

adı çəkilir. Bütün adlar (onların arasında çoxlu türk adları var) «sultan» türk termini ilə qeyd olunur - sultan Mir Əli, sultan Kux xan, sultan Hacı Şəmsəddin, sultan Pir Murad Rumi, sultan Kuçe və s.

Adları çəkilən müəlliflərin oğuzlar və onların başçısı Qazan xan haqqındakı məlumatları, şübhəsiz ki, o dövrdə yerli əhali arasında gəzən əfsanə və rəvayətlərin vahid bir mənbəyindən çıxır. Bu əfsanələr 1815-ci ildə Drezden kitabxanasında F.Dits tərəfindən aşkar ediləcək «Kitabi-Dədə Qorqud» dastanının əlyazmasının əsasını təşkil edir. Dağıstan tədqiqatçısı N.A.Maqommedovun fikrinə görə, «… İstifadə olunmuş toponimlər bu dastanın Cənubi Dağıstanda yarandığını təsdiq edir: baş qəhrəmanın adı ilə kəndlərin və bulaqların adı bağlıdır: Aşağı Stal, Qazan bulaq».

«Kitabi-Dədə Qorqud» dastanının bütün məzmunu islam dini ruhundadır. Hər bir boyun sonunda Məhəmməd-Mustafanın adı xatırlanır. Dastanda çətin vəziyyətlərə düşmüş oğuzlar mütləq Ulu Tanrıya (Allaha) müraciət edirlər. Onlar öz ümidlərini «Dünyanı yaradanla» bağlayırdılar. Ağır dəqiqələrdə «Müqəddəs Quranı» çıxarıb əllərini onun üstünə qoyaraq and içirdilər. Bu, şübhəsiz ki, qədim ozan Dədə Qorqudun xalq arasında müqəddəs şəxsiyyət olmasında böyük rol oynamışdır. Təsadüfi deyil ki, Qorqud adındakı «dədə» determinantı bəzi türk genezisində «baba» deməkdir. Azərbaycan dilində bu özək «ata» konteksti ilə bağlıdır (hamı tərəfindən hörmət edilən adam). Dağıstanda islam mövzusunun əsas leytmotivi köhnə bütpərəstlik qanunlarını inkar etmək, yəni politeizmdən monoteizmə keçilməkdir. Ona görə də qədim əfsanələrdə və ayrı-ayrı tədqiqatçıların belə bir fikrilə qarşılaşırıq: Dədə-Qorqud müsəlman dininin təbliğatçısı, dinin xalq kütlələri arasında yayıcısı olmuşdur. Bu haqda akademik V.V. Bartold yazır: «Qədim dinlərin və islamın mübarizəsi Qafqaz xalqları arasında Qorqud haqqında bir vaxt gəzən əfsanələrdə öz əksini tapmışdır. 1638-ci ildə Adam Oleari imam Qorqud haqqında hekayə eşitmiş və onun qəbrinin Dərbənd yaxınlığında olduğunu göstərmişdi. Qorqud Qazan xana mahnılar oxumuş və onu o dövrdə bütpərəst olmuş dağlılara qarşı dini mübarizəyə ruhlandırmışdır. İmam Qorqud dağlılar arasında islam dininin təbliğatçısı olmuş və onların əlindən həlak olmuşdur».

XVII əsrin məşhur türk səyyahı Övliya Çələbi özünün «Səyahətnamə» kitabında yazır ki, Şamaxı şəhərində olan zaman o, tez-tez yerli sakinlərdən Dərbənddə yerləşən «… böyük sultan Dədə Qorqud»un müqəddəs məzarı haqqında eşitmişdir və Şirvanın müsəlman əhalisinin bu müqəddəs yerə olan hörmətini vurğulayaraq əlavə edir ki, bir çox dindar müsəlmanlar ora ziyarətə gedirlər. 1647-ci ildə Övliya Çələbi Dərbənddə olarkən, Dədə Qorqudun məzarını ziyarət etmişdir.

Adam Oleari Dərbənddə eşitdiyi bir başqa əfsanəni söyləyir: «… Dədə Qorqud haqqında söyləyirlər ki, o, Məhəmməd peyğəmbərin dostu olmuş və həmişə onun ayaqlarının yanında dururdu, ondan öyrənirdi və Məhəmməd peyğəmbərin ölümündən sonra o hələ 300 il yaşamışdır. Deyilənlərə görə o Qazan xanın yanına gedir, onun üçün udda çalır və nəğmələr oxuyurdu. O, bu nəğmələrilə Qazan xanı ləzgilərlə mübarizəyə səsləyirdi. O, bütpərəst Dağıstan tatarları və ləzgiləri arasında islamı açıq təbliğ etməyə başladı və onlar onu öldürdülər».

Adam Oleari «… İmam Qorqud»un məqbərəsinə getmiş və onu belə təsvir etmişdir: «… onun qəbri dağın içərisində yonulmuş böyük mağaradır. Onun tabutu 4 taxtadan düzəldilmişdir; aralıda, yerdən 2 dirsək yuxarıda yerləşən dəlikdə çox kasad görkəmdə hamıya görünürdü. … Mən oraya girib hər şeyə diqqətlə baxmışam və heç bir bəzək əşyası tapmamışam. Orada məzarı qoruyan bir qarı var idi. Ziyarət günü torpağın üstünə palaz döşənərdi, tabut yerləşən qapıdan qızılı parça asılardı. Şəhərdən və uzaq kəndlərdən çoxlu qadınlar və qızlar ayaqyalın mağaraya girirdilər. Tabutu öpüb arzularının yerinə yetirilməsi üçün yerə oturub dua edirdilər. Namaz qılandan və dua edəndən sonra onlar qocaya nəzir verirdilər. Nəzirlər pendirdən, yağdan, süddən, puldan və s. ibarət idi».

Burada müsəlmanlar tərəfindən hörmət olunan müqəddəs «İmam Qorqudun» tabutu haqqındakı məlumat Qurana ziddir. Quranda deyilir ki, hər bir vəfat etmiş müsəlman torpağa tapşırılmalıdır.

Məlumdur ki, qədim türklər kult rəmzlərinə xüsusi diqqət verirdilər. Belə ki, məşhur türkoloq A.Qumilyov «Qədim türklər» əsərində qeyd edir ki, türkdilli xalqlar arasında ən çox əhəmiyyət kəsb edən və uzun ömürlü kultlardan biri Boz Qurd kultudur. «Oğuznamə»nin variantlarından birində nəql edilir ki, Oğuz xaqan «Dünyanın bütün

hissələrini» zəbt etmək məqsədilə yürüşə gedən zaman, onu döyüşlərdə qələbə gətirən qurd müşayiət edirdi.

Qədim türklərin rəmzlərində ağaca sitayiş də böyük əhəmiyyət daşıyırdı.

Dastanın məşhur tədqiqatçısı Orxan Şaiq Gökay yazırdı ki, Anadolu türk variantında dastanın qəhrəmanı Beyrəyin sevgilisinin adı Ağ-Qovaqdır. Digər türk tədqiqatçısı Osman Bayat məlumat verir ki, Uluq bəyin əsərlərində qeyd olunmuş («Səcərətül Ətvar», «Cəmiyyəti tarix», «Səcireyi tərəkəmə») «Oğuznamə»nin siyahılarından birində nəql olunur ki, qıpçaq tayfasından olan başçı yolda anadan olur. Körpəni çürümüş qayın ağacının kölgəsində qoyub gedirlər. Ağac uşağın üstünə düşən İşıqdan (Nurdan) «hamilə olur» (canlanır).

Tarixin və türk-oğuz folklorunun müxtəlif mənbələrində bildirilir ki, yuxuda Ağac və onun altında Qız görmüş xaqan həmin qıza vurulur, onu axtarıb tapır və onunla evlənir.

Moisey Kalankatlının «Alban tarixi»ndə məlumat verir ki, hun türkləri ali səma allahı Tenqri ilə bərabər, palıd ağacına da sitayiş edirdilər.

Ağac rəmzinin kult mənası daşıması hazırda Dərbəndin və onu əhatə edən türkdilli əhalisinin arasında öz əhəmiyyətini hələ də itirməmişdir.

Müsəlman ziyarətgahlarının ərazisində bitən ağaclar, onların tərkib hissəsi sayılır. Ziyarətçilər arzu-niyyətlərinin yerinə yetməsi üçün bu ağaclara parça qırıqları bağlayırlar. Yol qırağında və bulaqların yanındakı qoca ağaclar da müqəddəs hesab olunur. Belə ağacları qırmaq və ya kəsmək günah sayılır. Mühüm əhəmiyyət kəsb edən binaların (məscid, saray) yanına mütləq qovaq ağacı əkirlər. Qoz və heyva ağacı gözdəymədən qoruyur.

Beləliklə, Adam Olearının məlumatına görə müsəlmanların müqəddəs saydığı «İmam Qorqudun» qalıqları saxlanılan palıd tabutu, islamı qəbul etmiş türklərin qoruyub saxladığı qədim türk etnik kult rəmzinə aid etmək lazımdır.

Adam Oleari göstərilmiş məqbərənin konkret yerini də təsvir edir. Onun sözlərinə görə, alman səfarəti şimala doğru hərəkət edərək şəhərdən çıxır, «milin dörddə bir hissəsini» keçəndən sonra, «üzümlüklə yanaşı», gecələmək üçün əyləndilər. Nəzərə alsaq ki, şimalda yol şəhərin şimal divarının baş qapısından – Qırxlar qapısından keçirdi, bir quru yol mili 1,6 km təşkil edir, deməli, səfarətin düşərgəsi şəhərin şimal



hissəsindən 400-450 m məsafədə salınmışdır.

Düşərgənin yerləşdiyi yeri daha dəqiq müəyyən etmək üçün Adam Olearinin aşağıdakı sözlərinə diqqət yetirək: «… Burada biz daha iki müqəddəsin məqbərəsini gördük: onlardan biri – Pir Mühərrə (H.B.Hüseynov - görünür, Mühərrəm)» düzənlikdə, digəri – İmam Qorqudun – dağda idi. Bizim günlərədək gəlib çatmış şimal şəhər divarına, Qırxlar qapısına və Qırxlar qəbiristanlığına əsaslanaraq, Adam Oleari tərəfindən təsvir olunmuş «İmam Qorqudun məqbərəsi»ni hazırda «Rostov-Bakı» avtomobil yolu boyu uzanan dağ qayalıqlarında axtarmaq lazımdır. Bu gun bu yola tərəf yönəlmiş yerdə, dağın ətəyində dağ süxurlarının sürüşməsinin izləri görünür, şübhəsiz ki, bu süxurlar nə vaxtsa «dağ qayasında yonulmuş məqbərənin», Adam Olearinin gördüyü «İmam Qorqudun tabutu» olan məqbərənin girişini örtmüşdür. Güman olunur ki, dağ süxurlarının sürüşməsi 1668-ci ildə baş vermiş zəlzələnin nəticəsidir. Bu hadisə Adam Olearinin Dərbənddə olmasından 30 il sonra (1638) baş vermişdir. Xəzərin qərb bölgəsini əhatə edən bu dəhşətli zəlzələ bütün Azərbaycanı və Dağıstanı lərzəyə salmışdır. Bu zəlzələ haqqında müxtəlif yerli mənbələrdə məlumatlar var. «Məlum güclü zəlzələ səhər vaxtı hicri tarixi ilə 1078-ci ildə baş verdi. Bu zəlzələ nəticəsində Şamaxı və Saxur kimi şəhərlər yerlə yeksan oldu». Bu məlumatı «Dərbəndnamə»nin əlyazma vərəqlərinin birində oxumaq olar. «Zəlzələ Rəcəb ayının sonunda, səhər namazı vaxtı baş verdi. O Şamaxını və kəndləri dağıtdı, bu zaman çoxlu insan həlak oldu. 1078-ci il» Bu məlumatı yerli ərəb mənbələri xəbər verir. «Güclü zəlzələ baş verdi. Bu zəlzələ Şamaxı şəhərini yerlə yeksan etdi, 1078-ci il səhər». Bu, Batsad kəndindən olan yazıda göstərilir (Dağıstan, Qunib rayonu). «Bir gün Rəcəb ayının sonunda güclü zəlzələ baş verdi. Bu zəlzələnin nəticəsində şəhərlər və məscidlər dağıldı. Çoxlu insan həlak oldu». Bu yazı Riça kənd məscidinin divarında var (Dağıstan, Aqul rayonu).

Hicri tarixi ilə 1078-ci il miladi 1668-ci ilə müvafiqdir. Beləliklə, dağ qayalıqlarında yonulmuş yer qədim ozan Dədə Qorqudun məqbərəsi mövcud

idi. Lakin baş vermiş zəlzələ nəticəsində onun girişi örtülmüşdür. Zaman keçdikcə xalqın ziyarətgahı olan məqbərə unudulur. Digər ziyarətgahlar da unudulmuşdur: Cümcüm qəbiristanlığı, İsfəndiyar qəbiristanlığı, Mühərrə Piri və s. Bunlar haqqında orta əsrlərdə Dərbənddə olmuş bir çox Avropa səyyahı məlumat vermişdi. Görünür, ona görə də zəlzələdən iki il sonra (1670) Dərbənddə olmuş və burada 3 ildən artıq yaşamış diqqətli hollandiyalı «Yan Streys «İmam Qorqudun məqbərəsi» haqqında heç bir məlumat vermir. Halbuki 30 il əvvəl 2 həftə Dərbənddə olmuş Adam Oleari onu ətraflı təsvir etmişdir. Eyni zamanda, Yan Streys şəhərin digər görməli islami yerləri haqqında məlumat vermişdir.

XX əsrin əvvəlində V.V.Bartold bu haqda yazmışdır: «… Hazırda Dərbənddə heç kim nə Qazan xan, nə Dədə Qorqud, nə də oğuz tayfası haqqında məlumat verə bilməz».

Dərbənd Şərqi Qafqazda ən qədim zamanlardan ticarət-iqtisadi mərkəz olmaqla yanaşı, həm də mədəni mərkəz hesab olunurdu.

Müsəlman aləminin hər yerindən Dərbəndə bilik dalınca çoxsaylı insan gəlirdi. Öz növbəsində, dərbəndlilər Bağdad, Xorasan, Səmərqənd və digər məşhur müsəlman mərkəzlərində təhsil alırdılar.

Başqa müsəlman mərkəzlərindən fərqli olaraq, Dərbənd - nəhəng sufi mərkəzi idi. XI əsrin yerli müəllifi Əbu Bəkr əd-Dərbəndinin məlumatına görə, onun dövründə şəhərdə 20-dən çox sufi şeyxi yaşayırdı. Onlardan hər birinin öz «məclisi» (yığıncağı, alimlər cəmiyyəti) və şagirdləri var idi. Burada «Zaviyə» (sufi məbədi) də var idi. Bu «Zaviyə»nin əsası müsəlman aləmində çox tanınmış məşhur şeyx Əbu-l-Qasim əd-Dərbəndi tərəfindən qoyulmuşdur.

Tanınmış fars alimi-piliqrimçi Nasir-i Xosrov (1003-1088) «Səfərnamə» kitabında yazır ki, səfərlərinin birində Şəmiran şəhərində Əbu-l-Fadi Xəlifə İbn Əli əl-Filsufi əd-Dərbəndi adlı bir şəxslə görüşmüşdür. Bu adam ona böyük təsir bağışlamışdır və onlar qərara almışlar ki, geri qayıdanda bir də görüşsünlər. Adından göründüyü kimi, o, Dərbənddə anadan olmuşdur və məşğuliyyəti fəlsəfə elmidir (Əl-Filsufi). XI əsrin dərbəndli filosofu Əbu Bəkr Məhəmməd bin Musa əl-Fərəc əd-Dərbəndi sufizm ideologiyası üzrə «Reyhan əl-həqaiq və bustan əd-dadaiq» adlı traktat yazmışdır. XI əsr Dərbənd alimləri «Dərbəndnamə», «Tarix-i əl-Bab», «Tarix-i Bab əl-Əbvab və Şirvan» kimi məşhur tarixi salnamələr yazmışlar.

Məşhur ərəb ensiklopediyaçısı Yaqut ibn Əbdallah ər-Rumi əl-Xətavinin (1179-1229) «Ölkələrin lüğəti»ndə oxuyuruq ki, «… İbrahim ibn Hakim əl-Hunluki əd-Dərbəndi xeyirxah, etibar qazanmış şafii fəqihi idi. O, əl-Qəzalidən müsəlman hüququnu öyrənmiş və çoxlu hədis eşitmişdir».

Orta əsrlər Dərbəndi yalnız alimləri ilə məşhur deyildi. O dünyaya bir sıra məşhur şair, dahi memar bəxş etmişdir. Onlar nadir abidələr yaradaraq şəhəri Şərqi Qafqaz memarlığının inkişaf mərkəzlərindən birinə çevirmişlər.

Görünür, məhz qədim Dərbəndin belə rol oynaması hazırda Azərbaycanda mövcud olan «kəllə Dərbənd» (ağıllı Dərbənd), «kəlləli dərbəndlilər» ifadəsini yaratmışdır.

Qədim Dərbəndin belə çoxəsrlik intellektual potensialı qədim türk dastanı «Kitabi-Dədə Qorqud»un yaranmasının, inkişafının və zənginləşməsinin bazası olmuşdur.

Koroğlu – Azərbaycan xalqının qəhrəmanlıq dastanı. Dastan müxtəlif variantlarda bütün türk xalqlarında mövcuddur. Mifoloji, yarımifoloji və tarixi qəhrəmanlıq dastanı əsrlərlə «Koroğlu» haqqında qəhrəmanlıq nəğmələrinə çevrilmişdir.

A.Xodzko «Koroğlu» dastanının tam külliyatını toplamış və onu ilk dəfə 1842-ci ildə ingilis dilində çap etmişdir. 1856-ci ildə A.Penn «Qafqaz» jurnalında dastanın rus tərcüməsini çap etdirmişdir. A.Penn dastanın müqəddiməsində məlumat verir ki, dastandakı hadisələr Cənubi Qafqaz müsəlmanları və Şimali İran azərbaycanlıları arasında baş vermişdir.

Hazırda Azərbaycan xalqının qəhrəmanlıq şöhrətindən danışan «Koroğlu» folkloru bir çox dünya xalqlarının dillərinə tərcümə olunmuşdur.

Dastanın ayrıca bir hissəsi «Koroğlunun Dərbənd səfəri» adlanır. Bu hissədə baş qəhrəmanın uzaq Çənlibeldən Dərbəndə səfəri təsvir olunmuşdur. Bu şəhərdə Dərbənd hökmdarının qızı Mömünə xatın yaşayırdı. Dastandakı rəvayətə görə bir dəfə bu cəsarətli qız Koroğlunun həyatını xilas edir. Qızın bu qəhrəmanlığı Koroğluda ona qarşı sevgi hissləri oyadır. Koroğlunu bir çox sınaqlardan keçirəndən sonra, Mömünə xatın ona ərə getməyə razılıq verir. Lakin toydan sonra Mömünə xatın Dərbəndi tərk etmək, Koroğlu isə Çənlibeldəki dostlarını tək qoymaq istəmir. Onda Koroğlu Dərbəndi abadlaşdırır və Çənlibelə qayıdır.

ŞAİRLƏR

Dərbəndin XIX əsrdə və XX əsrin əvvəllərində yaşamış məşhur şairləri: Şüai, Gümri və Mirzə Səməndər. Seyid Əzim Şirvani yazırdı: Mənə xəbər çatıb ki, Dərbənddə Məhəmməd Tağı Gümrinin kitabı çıxır. Mən onun çap olunmasını səbirsizliklə gözləyirdim. Nəhayət, kitabı mənə çatdırdılar. Mən dərhal onu oxudum. Təəssüflənirəm ki, 1 dəstə söyüd bu topludan yaxşıdır. Seyid Əzim Şirvaninin bu kitab haqqında fikrini dərbəndlilər başa düşə bilmədilər. Şüai nəslinin nümayəndələri Azərbaycanda yaşayır.

Gümrinin nəvəsi Teyyub Dərbənd realnı məktəbini bitirdikdən sonra Bakıya köçmüşdür. Bu ziyalı və savadlı adam Aşurbəyovlar ailəsi ilə qohum olmuşdur.

«Dərbənd şüaları» - şərq poeziyasının təbliğatçısı, görkəmli şair Molla Əhməd (1765-1871) tərəfindən yaradılmış gənc şairlərin ədəbi cəmiyyəti.

Molla Əhməd əsərlərini «Faiz» təxəllüsü ilə yazmışdır. Cəmiyyət 1910-cu ilə qədər fəaliyyət göstərmişdir.

Molla Əhməd ədəbiyyat aləmində yüksək nüfuza malik idi və onu Seyid Əzim Şirvani, Hilali Şirvani, Mirzə Həsən Yüzbaşov, Mirzə Həsən Növrəs və dövrünün bu kimi digər tanınmış və məşhur şairləri ilə sıx dostluq əlaqələri bağlayırdı. İstedadlı müəllim, Azərbaycan, ərəb, fars dillərini mükəmməl bilən Molla Əhməd Şərq poeziyasının təbliğatçısı olmuşdur.

Məşhur şairlər Mirzə Kərim Şüai, Mirzə Cəbrayıl Sipeyri, Mirzə Məhəmməd Tağı Gümri, Mirzə Xəlil Bül-bül, Hüseyn Əli Məhzun və başqaları onun tələbələri olmuşlar. Molla Əhmədin əsərləri Azərbaycan poeziyası xəzinəsinə daxil olmuşdur.

Abbas Bayat – XVI əsrin məşhur şairi, Dərbənd şəhərində anadan olmuş və orada yaşamışdır. Adda olan «bayat» sözü bayat türk qəbiləsinə aid olduğunu göstərir. Abbas Bayatın əsərləri yalnız onun vətənində tanınmamış, həmçinin vətənin hüdudlarından uzaqda da – Azərbaycanda, İranda məşhurdur. Şairin iki əlyazma şeirlər toplusu məlumdur. Onlardan biri tanınmış Dağıstan alimi və maarifçisi Həsən Əlqədərin şəxsi arxivindən tapılmışdır.

Abbas Bayatın yaradıcılığının tədqiqatını məşhur Azərbaycan filoloqu, professor M.Seyidov aparmışdır. Onun əsərləri indi də müxtəlif şeir toplularına daxil edilir: Dağıstanın nemətləri. - Bakı, 1987).

Dərbəndli Diləfruz Pəri – XVII əsrin məşhur şairəsi, varlı dərbəndli ailəsində anadan olmuşdur. Onun əsərlərinin əlyazmaları Azərbaycan Respublikası əlyazmaları fondunda saxlanılır (inver. № Б-125). Onun əlyazmaları şəxsi kolleksiyalarda da vardır.

Şairənin əsərləri indi də şeir toplularına daxil edilir: El şairləri. Bakı, 1935; Dağıstan töhfələri. Bakı, 1978.

Dərbəndli Zərnigar xanım (1722-1770) – məşhur şairə. Dərbənd taciri Hacı Yaqubun yeganə qızı olmuşdur. Çox yaxşı ev təhsili almışdır.

Zərnigar xanım lap uşaqlıqdan poeziyaya və musiqiyə böyük həvəs göstərmişdir. O, sazda çox gözəl çalır, oxuyur və mahnı qoşurdu. Tezliklə o, tanınmış şairə oldu və sorağı Dərbənddən uzaqlara yayıldı. O, bir çox şeir yarışmalarında da məşhurlaşdı. Hətta belə bir əfsanə də söyləyirlər ki, Zərnigar xanım and içir ki, kim ona şeir yarışında qalib gəlsə, ona ərə gedəcək. Deyilənlərə görə 39 aşıq onunla yarışmada məğlub olur və sazlarını onun ayaqları altına qoyurlar. Yalnız Qarabağdan olan aşıq Valeh deyişmədə ona qalib gəlir. Öz sözünə sadiq qalan Zərmigar xanım aşıq Valehə ərə gedir. Aşıq Valeh onu öz vətəninə aparır. Hazırda Qarabağın Salam-Təpəsi kəndinin qəbiristanlığında aşıq Zərnigar xanımın başdaşı var. Onun ən gözəl əsərlərindən birinə «Valeh və Zərnigar» dastanını aid etmək olar. Bu dastanda onun Valehə olan məhəbbəti vəsf olunmuşdur. Aşıqlar bu gün də bu dastanı böyük həvəslə sevə-sevə oxuyurlar.

Zərnigar xanım Dərbəndlinin əsərləri əsasən şəxsi arxivlərdə saxlanılır. Bəziləri şeir toplularına daxil edilmişdir. (El şairləri. - Bakı, 1935; Dağıstan töhfələri. - Bakı, 1987.)

Məsum Dərbəndi – XVII əsr şairi. Onun həyat və yaradıcılığı haqqında ətraflı məlumat yoxdur. Onun əsərləri, əsasən, Dərbənddə və Azərbaycanda şəxsi arxivlərdə saxlanılır. Bizim dövrümüzdə Azərbaycan dilində çap olunmuş ayrı-ayrı şeir toplularında onun şeirlərinə rast gəlinir: Dağıstan töhfələri. Bakı, 1987.

Mirzə Xəlil («Bül-bül») - XVIII əsrin sonu-XIX əsrin əvvəli görkəmli Dərbənd şairlərindən biri.

Onun yazdığı qəzəllər Azərbaycan poeziyasının xəzinəsinə daxil olmuşdur.

Mirzə Xəlilin yaradıcılığı tədqiq edilməmişdir. Lakin onun şeirsevərlərin şəxsi kitabxanalarında saxlanılan əsərlərindən bəziləri onun söz ustası kimi Füzuli məktəbinin ən parlaq nümayəndələrindən biri olduğunu sübut edir.

Molla Feyzulla – Dərbəndin görkəmli şairi, XVIII əsrin ikinci yarısında Dərbənddə anadan olmuşdur. O, öz əsərlərini «Feyzi» təxəllüsü ilə yazmışdır. Onun yazdığı qəzəllər və qəsidələr Dərbəndin hüdudlarından kənarlarda da tanınırdı. Onun əsərlərinin çoxu itmişdir. Şeirsevərlərin şəxsi arxivlərində saxlanılan əsərləri, xüsusilə 324 sətirlik «Dönüklük» satirik poeması onun böyük söz ustası olduğunu göstərir. Molla Feyzullanın əsərləri tədqiq olunmamışdır. Onun bəzi əsərlərinə XX əsrin şeir toplularında rast gəlmək olar.

Mirzə Məhəmməd Tağı (1819-1891) – XIX əsrin müsəlman aləminin məşhur şairi idi. O, öz əsərlərini «Gümri» təxəllüsü ilə yazmışdır. Hələ sağlığında onun əsərləri Azərbaycanın şeirlər antalogiyasına daxil edilmiş və qəsidələri, mərsiyələri xalq arasında böyük şöhrət qazanmışdır.



Cənub müsəlman qəbiristanlığında Gümri məqbərəsi

1882-ci ildə Təbrizdə onun Məhəmməd peyğəmbərin nəvəsi imam Hüseynə həsr olunmuş ikihissəli «Kənzul-məsaib» əsəri çap olunmuşdur. Bu əsər ona geniş şöhrət qazandırmış və hətta o, İran şahı tərəfindən qəbul edilmişdir.

Onun əsərləri Bakıda, Azərbaycan Milli Elmlər Akademiyasının əlyazmalar fondunda və şəxsi kitabxanalarda saxlanılır.

Mirzə Kərim (1820-1894) – görkəmli alim və şair. O, öz əsərlərini «Şuai» təxəllüsü ilə çap etdirmişdir (şua – ərəbcə işıq, nur deməkdir).

Yaxşı ev təhsili almış gənc Mirzə Kərim Kür dairəsinin rəisi polkovnik Sultan Əhməd bəyin diqqətini cəlb etmiş, o onu 1840-ci ildə katib kimi işə götürmüş və bütün səfərlərdə özü ilə aparmışdır. Məhz burada Sultan Əhməd bəy ona ilk rütbə və medal verilməsinə nail olmuşdur.

Sultan Əhməd bəy istefaya çıxdıqdan sonra Dərbəndə köçür və Mirzə Kərimi də katib kimi özü ilə aparır. 1860-cı ildə naməlum səbəblərə görə polkovnik Sultan Əhməd bəy intihar edir. Hakimiyyət orqanları onun ölümündə Mirzə Kərimi günahlandıraraq, onu Sibirə sürgün edirlər. Bir neçə ildən sonra bəraət qazanan Mirzə Kərim Dərbəndə qayıdır. O, Sibirdən qayıtıqdan sonra məhəllələrin birinə məhəllə rəisi seçilir. O, məhərrəm ayının mərasimlərinə (aşuraya) həsr olunmuş dini teatr tamaşalarının təşkili ilə məşğul olur. Müsəlman tarixi ədət-ənənələrini yaxşı bilən və şairlik istedadı olan Mirzə Kərim bu tamaşalar üçün mükalimə yazır və həmin tamaşalara rejissorluq edir. Bu tamaşalar əhali arasında böyük uğur qazanmışdır. Mirzə Kərimin mükalimələri şiə dünyasının digər regionlarında da – Azərbaycanda və İranda geniş şöhrət qazanmışdır. Bundan əlavə o, dini mövzulara aid çoxlu qəsidələr, mərsiyələr, həmçinin lirik şeirlər və poemalar yazmışdır. Onun yeganə «Divan» şeirlər toplusu 1880-cı ildə Təbriz şəhərində çap olunmuşdur. O, şeirlərini türk və fars dillərində yazmışdır.

Mirzə Kərim Şuai 1894-cü ildə vəfat etmiş və cənub qəbiristanlığında dəfn edilmişdir.

Mirzə Səməndər (Əbdül Əli Ağa Emin oğlu) – Dərbənddə və Azərbaycanda tanınmış satirik şair idi. O, öz əsərlərini «Səməndər» təxəllüsü ilə yazmışdır.

Mirzə Səməndər 1827-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. O, ibtidai təhsilini məşhur din xadimi Ağa Babadan almışdır. Onun şair kimi püxtələşməsində Mirzə Kərim Şuainin, Mirzə Məhəmməd Tağı Gümrinin və başqalarının böyük əməyi olmuşdur. Mirzə Səməndər Mirzə Cəbrayıl Sipeyrini öz müəllimi hesab edirdi. O, ərəb əlifbasını məhz ondan öyrənmişdir.

Sonralar Mrzə Səməndər Bakı şəhərində tanınmış Hadi Hacıbabanın mədrəsəsində təhsilini davam etdirmişdir. Artıq 20 yaşında Mirzə Səməndər Bakı

və Dərbənd şəhərlərinin poeziya sevənləri arasında məşhur idi.

Mirzə Səməndər həm də dini mərsiyə və qəsidələr müəllifi kimi də tanınırdı.

Onun əsərləri çap olunmamışdır, lakin çoxsaylı əsərləri indiyədək xalq arasında şifahi formada qalmaqdadır. O, 1920-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Mirzə Cəbrayıl (1842-1902) – alim və şair Mirzə Kərim Şuainin kiçik qardaşı, XIX əsrin məşhur şairi. Öz şeirlərini «Sipeyri» təxəllüsü ilə çap etdirmişdir. O, Dərbənd qəza məktəbində müəllim işləmişdir. Mirzə Cəbrayıl 1877-ci ildə təqaüdə çıxaraq şeir yazmaqla məşğul olmuşdur. O, şəbihlər (dini teatr janrı) və çoxlu qəsidələr, mərsiyələr, lirik şeirlər yazmışdır. Mirzə Cəbrayıl çox istedadlı şair idi. Onun fenomen yaddaşı çoxlarını təəccübləndirirdi. O, Füzulinin, Natəvanın və Əlişir Nəvainin türk dilində yazılmış şeirlərini və qəzəllərini əzbər bilirdi.

«Avar qazisinin başına gələn əhvalat» povesti, «Boyaq», «Xanyaç» və digər şeirləri onun ədəbi dilin ustası kimi tanınmasını bir daha sübut edir.

O, tarixə də böyük həvəs göstərirdi. 1891-ci ildə Dərbənd tarixinə həsr edilən «Dərbəndnamə»nin özünün yeni versiyasını yazır. Bu əlyazma Bakıda Azərbaycan MEA Əlyazmalar İnstitutunda saxlanılır.

Mirzə Cəbrayıl 1902-ci ilin fevralında vəfat etmiş və Dərbənd qəbiristanlığında dəfn olunmuşdur.

MEMARLIQ

Dərbəndin qədim memarlıq məktəbi. Dərbənd – açıq səma altında nəhəng muzeydir. Onun çoxsaylı abidələri özünün monumentallıq, mühəndis və memarlıq üslubu ilə göz oxşayır, Dərbəndin müdafiə istehkamları isə, mütəxəssislərin fikrinə görə – dünyada bizə gəlib çatan vahid qədim istehkam abidəsidir.

Uzunluğuna görə dünya istehkam abidələrindən (Böyük Çin səddi, Dunay çayı üzərində Roma limesi (val), Afinada Pireyin «Uzun səddi», Antiox səddi, nolovits sərhəddində rus nişanlayıcı valı və s.) geri qalmasına baxmayaraq Dərbəndin müdafiə kompleksi planının dəqiqliyi ilə, konstruktiv qərarların qəbul edilməsinin həlli ilə, yerinə yetirilməsinin yüksək texniki ustalığı ilə, möhtəşəm monumentallığı və gözəlliyi ilə üstünlük təşkil edir. Dərbəndin memarlıq abidələri əsrlərlə, bir çox nəsillərin dahiliyi və əməyi ilə yaradılıb. Onlardan hər biri bu abidələrin görünüşündə zamanının ənənəvi hissəciyini əks etdirib.

Qədim Dərbəndin memarlığına əsrlər boyu qonşu ölkələrdən gəlmiş müxtəlif işğalçı Sasani İranı və Ərəb Xilafəti kimi dövlətlərin müxtəlif mədəni və dini axınlarının təsiri olmuşdur. Ona görə də Dərbəndin memarlığına və abidələrinin tikilmə texnikasına Dağıstan və Cənubi Qafqaz, Yaxın Şərq və Ön Asiya, Şimali Qafqaz və Orta Asiya xalqlarının ənənələri çox sıx qarışmışdır.

Lakin qədim Dərbəndin memarlıq məktəbi nəinki öz orijinallığını saxlaya bilmiş və başqa məktəbin əyalət sahəsinə çevrilməmiş, həm də özünün xüsusi memarlıq istiqamətli variantını yaratmış və ayrı-ayrı dövlətlərdə Şərqi Qafqaz memarlığının inkişaf mərkəzlərindən biri olmuşdur.

Əsrlər boyu Dərbənd memarlığının inkişafı üçün memarlıq dekorunun istifadə olunmasına təmkinlik xas idi. Dərbəndin qədim tikililərinin çoxunda bədii memarlıq obrazı fasadın böyük səthlərinin ziddiyyətli müqayisəsi, böyük, formaca sadə oyuqların, qüllələrin və s. memarlıq dekorativ elementlərinin cüzi istifadəsi ilə yaradılmışdır. Dərbənd memarlığının inkişafında yalnız bir mərhələ dekorativ elementlərin daha geniş istifadə olunması ilə xarakterizə olunur.

Bu mərhələdə XIV-XVI əsrlərdə Şirvanın şəhərə böyük təsiri idi. Belə zəngin dekorasiya memarlıq abidələrinə Orta qapı və Dübarə qapı şəhər qapıları nümunədir. Qədim Dərbəndin tikililəri, əsasən, fasadları bədii üslubda işlənmiş və həyətə istiqamətlənmiş birmərtəbəli və ikimərtəbəli binalardan ibarət idi.

Zaman dəyişdikcə şəhərin memarlığında da dəyişiklik baş verirdi. Bu onunla əlaqədar idi ki, Dər-

bəndin rolu dəyişdikcə (sərhəd qalası, Qafqaz Albaniyasının patriarxının iqamətgahı, Şərqi Qafqazın mühüm ticarət mərkəzi olması, Qafqazda islam dininin dayağı olması və s.) şəhərin özü də inkişaf edirdi: ictimai-ticarət mərkəzinin yeri, ayrı-ayrı küçələrin və məhəllələrin əhəmiyyəti dəyişirdi, onlarla bərabər isə qapıların da rolu dəyişirdi. Onlardan bəziləri əsas qapıya çevrilirdi, digərləri hörülürdü, üçüncülər isə yenidən yaradılırdı. Ona görə də onların çoxunda Dərbəndin memarlığının inkişafının bütün dövrlərinə aid qatları aşkar etmək olur. Məsələn, şəhərin memarlığında istifadə edilən düz mailli aralığı (bəndlərin ən ilkin formasını) Qırxlar qapısında görmək olar. Bu da, ola bilsin ki, Dərbəndin müdafiə sisteminin tikilməsi dövrünə aiddir. Sonralar və bir neçə yüzilliklər ərzində ərəblər tərəfindən gətirilmiş çatma tağdan istifadə olunur (Dübarə qapı, Cümə məscidi).

XV-XVI əsrlərdə Azərbaycan memar və nəqqaşları başqa ölkələrdə də fəaliyyət göstərmiş, müxtəlif şəhərlərdə maraqlı sənət örnəkləri yaratmışlar. Məsələn, Dərbənddəki XV əsrə aid olan Qırxlar qapısı, Böyük Məscid, Dəmir qapı. Qeyd etmək lazımdır ki, Dərbənddəki Qırxlar qapısı və Böyük məscidin memarı Hacı Əhməddir.

XVIII əsrin birinci yarısında, rus hərbi qarnizonu Narınqalada və şəhər qapılarında bir sıra bərpa işlərini aparmağa çalışarkən, yarımqövsşəkilli tağlar geniş yayılmağa başlayır (Bayat qapı, Carçı qapı). XVIII-XIX əsrlərdə yayşəkilli tağlardan istifadə olunmağa başlayır.

Dərbənd xanlarının məqbərələrinin həcm-məkan təsviri özündə XVII-XVIII əsr Dərbənd memarlığının bir çox xüsusiyyətlərini cəmləşdirib və Dərbənd memarlıq məktəbinin dövrünə görə son əsərlərindən biridir.

XIX əsrin birinci yarısında Dərbənddə eyni zamanda iki memarlıq məktəbi mövcud idi – birincisi yerli memarlıq ənənələrinin davamçısı idi (mədrəsə, məscid, yaşayış evləri, bulaqlar və s.), digəri isə rus ampir üslubundan istifadə edirdi.

İncəsənət və memarlıq. Qədimdən təşəkkül tapmış ənənələri davam etdirən xalq ustalarının xanlıqlar dövründə yaratdıqları diqqəti cəlb edən memarlıq abidələri, dekorativ-tətbiqi incəsənət nümunələri nəzərə alınmazsa, bu dövrün təsviri incəsənəti ümumiyyətlə durğunluq dövrü kimi səciyyələnə bilər.

XV-XVII əsrlərdə öz inkişaf zirvəsinə çatmış və Orta Şərqdən xaricdə belə şöhrət tapmış miniatür boyakarlıq və tətbiqi incəsənət XVIII əsrdə tədricən tənəzzül edir.

Bu dövrün təsviri incəsənətinin ən geniş yayılmış və inkişaf etmiş sahəsi, ən gözəl nümunələri XVIII əsrin memarlıq abidələrində dövrümüzə qədər çatmış divarüstü boyakarlıqdır. Əsrlər boyu ölkəmizin başına gələn təbii və ictimai fəlakətlər nəticəsində tarix bizə divarüstü boyakarlığın daha qədim nümunələrini saxlamamışdır. İstifadə olunmuş boyaların keyfiyyətsizliyi naxışların sıradan çıxmasına səbəb olmuşdur.

Monumental və xalq-dekorativ incəsənətinin bu önəmli sahəsinin Azərbaycanda geniş rəvac tapması bir sıra yazılı qaynaqlarla təsdiq edilir. 1796-cı ildə rus qoşunlarının Azərbaycana yürüşünün iştirakçısı P.Q.Butkov Dərbənddə yaşayış evi interyerinin bəzəyini təsvir edərək yazır ki, orda olan süjetli kompozisiyaların bəzisi «başçıları fillərə minmiş qədim asiyalıların döyüşünü, bəzisi sevgililərin görüşünü, bəzisi isə atlı ovçuların maralları qovaraq onları qılıncla oldürməsini təsvir edir».

Memarlar. Dərbəndin qədim abidələri – əzəmətli müdafiə istehkamları, möhtəşəm Narınqala, nəhəng Cümə məscidi kompleksi, nəzər-diqqəti cəlb edən mühəndis qurğuları olan hamamları (yeraltı hamamlar), orijinal minarələr və gözoxşayan Qırxlar məscidini, qeyri-adi dəniz divarlarını, öz möhtəşəmliyi ilə cəlbedici Dağ-Barı sistemini, qədim şəhərin layihəsini, həyatverici su təminatı sistemini yaradan, «müqəddəslərin» qəbirləri üzərində gözəl sərdabələr yaradan ustalar haqqında danışan kitabdır. Onların hamısı bizim günlərədək gəlib çatmamışdır. Hətta daşlar da «əsrin yükünə» tab gətirməmişdir. Bəzi hallarda ustadın adı onun yaratdığı işlə itib-batmışdır. Bəzilərində isə dahi ustad hökmdarın adı ilə yanaşı öz adını yazmağa cəsarət etməmişdir. Ona görə də qədim Dərbəndin bir çox memarlarının adı bizə gəlib çatmamışdır. Onlar zamanın kəsiyində «itib-batmışlar».

Dərbənd haqqında olan əfsanədə «300 memar və 6 min usta» haqqında məlumat verilir. Bu memarlar və ustalar haqqında məlumat İran şahı Xosrov I Ənuşirəvanın (531-578) əmrilə toplanmışdır.

Qədim Dərbəndin möhtəşəm abidələri hökmdarların, sərkərdələrin əmrilə tikilib. Lakin bu abi-

dələrin, istehkamların, qalaların və s. əsas memarı (ustadı) naməlum olaraq qalır. Hicri tarixi ilə 770-ci ildə (1368/9) nəhəng Cümə məscidini bərpa edənin adı məscidin baş giriş qapısının üstündəki daşda fars dilində yazılmış yazıda göstərilmişdir: «Bu məscidi 770-ci ildə Teymurazın oğlu Əfriburs tikmişdir ...» və bir az ondan aralıda məscidin qərb tərəfində görünən daş kitabədə ərəb dilində belə bir yazı var: «Bakıdan olan bənna Musanın oğlu Tac-əd-Din ustadın işi».

Məlumdur ki, XI-XIX əsrlərdə Azərbaycanda üç peşəkarlıq termini istifadə olunurdu: bənna, memar və ustad. Birinci termin XII-XIV əsrlərdə istifadə olunurdu və Naxçıvan memarlıq məktəbi ilə bağlıdır, ikinci – XI-XV əsrlərdə və Şirvan-Abşeron memarlıq məktəbi ilə bağlıdır və üçüncü – XI-XIX əsrlərdə, Təbriz memarlıq məktəbi ilə bağlıdır. Bu üç terminə Dərbənd yazılarında rast olunur, bu da onların bir-biri ilə əlaqəli olduğunu göstərir. Qeyd etmək lazımdır ki, yuxarıda göstərilən terminlərdən biri – «ustad» – Dərbənd yazılarında daha çox rast gəlinir. Bu da Dərbənd abidələrinin Şirvan-Abşeron memarlıq məktəbi ilə daha sıx bağlı olduğunu göstərir. Buna Orta qapının Şirvanşahlar sarayı kompleksinin Divanxanası ilə oxşarlığı sübutdur. Sonra memarlıq cəhətdən Dərbəndin qədim hamam tikililəri (Məscid hamam, Bazar hamamı) Bakı hamamları ilə (Hacı hamamı) çox oxşardır.

Dərbənd şəhərində memarın olması məsələsinin vacibliyi 1896-ci il avqustun 31-də şəhər müvəkkillərinin iclasında qaldırılmışdır. Fasadların və planların təsdiqi vəzifəsi, tikintilərə nəzarət əsasnaməyə əsasən şəhər idarəetmə təşkilatlarının üzərinə düşürdü. Amma ayrıca memarın saxlanmasına yetərincə vəsait tapılmadı, yerli mühəndislər isə bu ictimai vəzifəni rədd etdilər. Ona görə də iclasda deputatlardan Yerusəlimyantsa, Juçenko, Sadıqova və Axundovaya şəhərdə gedən tikinti işlərinə nəzarət etməkdə şəhər ağsaqqalına kömək etmək vəzifəsi tapşırıldı. Lakin planların yoxlanılması üçün ayrılıqda hərbi mühəndislər pulla və müqaviləyə əsasən cəlb edilirdi və bu, şəhər üçün çətin və ağır idi. Ona görə də Dağıstan vilayətinin Tikinti şöbəsinə təcili hallarda şəhər hesabına mühəndislərin ezam olunması haqqında tələbnamə göndərirdi. Rədd cavabı aldıqda, şəhər müvəkkil olunmuşların iclası bir şəhər memarını muzdla saxlamaq üçün bir dəmiryolu mühəndisi ilə müqavilə bağlayır. Birinci olaraq şəhərin memarı vəzifəsini mühəndis Q.Vodopyanov icra etməyə başladı. O, 1900-cü ilə qədər işlədi. Ondan sonra şəhərin memarı olmuşlar: Qolyaşkin (1900-1903), Jdanov (1903-1907); A.Miçko (1907-1914), Qubkin (1914-1918), Mustafa Qasımov (1923-1934), Mürsəl bəy Hüseyn bəy oğlu Xıdırbəyov (1934-1937), Oleynikov Fyodor Fedoseyeviç (1937-1945), Səftər Əliyar oğlu Sultanov (1946-1959), Kostenko (1960-1967), Abramov Yuri Borisoviç (1967-1969), Kəlbixanov (1969-1973), Semyonov Semyon Sosunoviç (1973-1983), Tacəddin Tofikoviç Sultanov (1983-1987), Yaqudayev Sergey Xizgiyayeviç (1987-1994), Məmmədəli Nurəddinoviç Əliyev (1994-cü ildən).

Dərbənd «Madonna»sı – Dərbənd şəhərində 1987-ci ildə Narınqalada arxeoloji qazıntılar zamanı tapılan gildən kiçik heykəldir. Bərəkət allahını təcəssüm edən bu balaca heykəlin 5000 il yaşı var. Keçmiş SSRİ ərazisində 3 belə tapıntı olmuşdur: Moldaviyada, Ukraynanın cənubunda və Orta Asiyada.

Qazıntı zamanı qatların birində çoxlu kənd təsərrüfatı alətləri: kərki, ucluqlar, xış, oraq və s. aşkar edilmişdir. Bütün bu tapıntılar vaxtilə əkinçiliyin burada hələ qədim zamanlarda inkişaf etdiyini göstərir.

Xanəgah, imamzadə. Son orta əsr Azərbaycan və Dərbənd memarlığında mühüm yer tutan xanəgah, zaviyyə, imamzadə kimi dini tikililərin inşası genişlənmişdi. Tədqiqatçıların araşdırmalarına görə, XIV-XVII əsrlərdə ölkədə yüzlərlə zaviyyə, rabat və xanəgahlar olmuşdur.

Elxanilər öz mövqelərini möhkəmləndirmək üçün nəinki islam dinini qəbul etmiş, həm də hələ islamı qəbul etməzdən əvvəl Azərbaycanın başlıca dini mərkəzlərini ziyarət edir, onlara vəqflər paylayırdılar. Məsələn, Pir Hüseyn xanəgah məscidinin minarəsi Hülaku hökmdarı Arqun ağanın vəsaiti hesabına təmir edilmiş, xanəgahda quruculuq işləri aparılmışdır.

Xanəgahlar karvan yolları üstündə, dini xadimin, şeyxin öz təlimini təbliğ etdiyi mərkəzdə təşəkkül tapıb formalaşırdı. Onların sosial-iqtisadi və siyasi həyata təsiri böyük idi. Bir qayda olaraq, kompleksin mərkəzində türbə yerləşir, digər tikililər onun ətrafında cəmləşirdi. Həmin türbə kvadrat, səkkizkünclü və ya dairəvi biçimli tikili olub, digər binalarla konstruktiv baxımdan əlaqəli idi. Onlar nadir hallarda təcrid olunmuş şəkildə yerləşirdi.

XV əsrdə türbənin ətrafında xanəgah kompleksinin digər tikililəri inşa olunarkən onun ilkin formasına xələl gətirilmiş, məscidin türbəyə birləşməsi nəticəsində giriş baş tağı örtülmüşdür. Türbənin içərisindəki mehrabşəkilli pannoların gəc üzərində oyulmuş naxış və kitabələrdən ibarət memarlıq bəzəyi yüksək bədiiliyi ilə fərqlənir.

Şeyx Səfi kompleksi bir neçə əsr ərzində yenidənqurma və təmirlərə məruz qalmış mürəkkəb memarlıq kompleksidir və Azərbaycan memarlığında özünəməxsus yer tutur. Onun başlıca özəyini xanəgah təşkil edir, digər monumental binalar xanəgaha uyğunlaşdırılmış, planlaşdırma prinsipləri və memarlıq kompozisiyasının vahidliyi qorunub saxlanılmışdır. Komplekse daxil olan Şeyx Səfı türbəsi, ona birləşən məscidlə Azərbaycan memarlığının incilərindən, olmaqla qülləvari tikililərin ən gözəl nümunələrindəndir. Tədqiqatçıların fıkrincə, tikililərdən türbə və səkkizkünclü məscid kompleksin ən erkən binalarıdır və XIII-XIV əsrlərdə inşa edilmişdir. Abidənin qərb tərəfində aparılmış arxeolqji qazıntılar bu ehtimalı təsdiqləmişdir. Qazıntılar nəticəsində xanəgah, yeni çilləxananın bir hissəsi, şərbətxana öyrənilmiş, çoxlu kaşı, yazılı lövhələr, Səfəvi sikkələri, Elxanilər və Səfəvilər dövrlərinə aid çoxlu saxsı məmulat tapılmışdır. Müəyyən edilmişdir ki, kompleksin ən erkən binası olan xanəgah Şeyx Səfiəddinin dövründə tikilmişdir. Şeyx Səfı türbəsi xronoloji baxımdan kompleksin ikinci tikilisidir. Türbə hazırkı görünüşünü isə XVI əsrdə almışdır. Türbənin silindrik gövdəsi şirli kərpiclərlə «Allah» sözü ilə naxışlanmışdır.

Şeyx Səfı kompleksinin müxtəlif dövrlərə aid tikililərinin toplu halında formalaşması şah Təhmasib dövründə baş vermiş, şah Abbas yeni tikililərlə onu daha da zənginləşdirmişdir.

Qubernator evi. 1847-ci il Dərbənd şəhərinin sxemində Daş qapının yanında «qubernatorun evi» göstərilmişdir. Hazırda Qaqarin və III İnternasional küçələrinin kəsişməsində yerləşən və yonulmuş daşdan tikilmiş mərtəbəyarımlıq ev Dərbəndin ilk hərbi qubernatoru general-mayor A.İ.Qaqarinə məxsus olmuşdur (1846-1850).

1850-ci ildə naməlum müəllif yazmışdır ki, Kilsə meydanından (Hazırda Azadlıq meydanı) dənizə tərəf uzanan küçədə (hazırda III İnternasional küçəsi) «…çox gözəl evdə hərbi qubernator yaşayır, həmin küçədə, çox da böyük olmayan evlərdə Dərbəndin bütün zadəganları yaşayır».



«Qubernator evinin» eyvanının daş dirsəyi

1850-ci ilin 16-17 oktyabrında Rusiyanın gələcək imperatoru II Aleksandr (1855-1881) Dərbənddə olarkən bu evdə dayanmışdır. Sonra həmin evdə 1848-ci il mayın 6-7-də – Qafqazda canişin, knyaz, general-feldmarşal M.S.Vorontsov arvadı ilə, 1858-ci ilin dekabrında – Qafqaza səyahət etmiş məşhur fransız roman ustası A.Düma (ata), 1859-cu ilin avqustunda – Qafqazda canişin və qoşun komandanı, Qafqaz müharibəsinin qəhrəmanı və İmam Şamili heyran etmiş general-feldmarşal A.İ.Baryatinski, 1863-cü il sentyabrın 16-17-də – böyük knyazlar Mixail və Nikolay Nikolayeviçlər (imperator II Aleksandrın qardaşları), 1863-cü ilin noyabrında – Qafqazda canişin böyük knyaz Nikolay Nikolayeviç və «şəhərin digər qonaqları» olmuşlar.

Sonralar bu evin sahibi olmuşlar: şəhərin hərbi qubernatorları: F.Z.Minkvits, Z.S.Manyukov, D.K.Aseyev, şəhər rəisi (1878-1883) general-mayor A.P.Madatov.

Sovet hakimiyyəti illərində bu ev müsadirə olunmuş, əhalidən süd qəbulu məntəqəsinə çevrilmiş, və sonralar burada süd zavodu yerləşmişdir. 1972-ci ildən isə bu binada Şəhər yeyinti kombinatının qənnadı sexi yerləşdirilmişdir.

Kilsə meydanında fəvvarə – Dərbənd şəhərində 1849-cu ildə quraşdırılmışdır. Fəvvarəyə su Calqan dərəsindən çəkilmişdir. «Uzunluğu 5 verst 100 sajen» (1 verst=1,067 km; 1 sajen=2,13 m) olan su kəməri 3 ay ərzində tikilmişdir.

Şəhərin yeni tikilən aşağı (Dübarə) hissəsində su yox idi. İçmək üçün su şəhər sakinlərinə şəhərin digər fəvvarələrindən çəllək vasitəsilə gətirilirdi. 1848-ci ildə Qafqaza yeni canişin təyin olunmuş knyaz M.S.Vorontsov Dərbənddə olarkən hərbi qubernator A.İ.Qaqarin ona şəhərin yaxınlığında, Calqan dərəsində bir neçə şirin sulu bulağın olması haqqında məruzə etmişdir. Knyaz Vorontsov dərhal bu bulaqladan şəhərin baş meydanına su kəmərinin

çəkilməsi üçün icazə verir. 1849-cu ilin mayında orada fəvvarə tikilir.

Fəvvarənin arxa divarı yarımdairə formasında Yermolayev küçəsi səviyyəsində olan təpəyə söykənmişdir. Fəvvarə hər iki tərəfdən meydana tərəf uzanırdı.

Fəvvarə şəhərin görkəmli memarlıq abidələrindən biri kimi gözəl görkəmi olan Georgi Pobedonesets məbədi ilə birlikdə şəhərin mərkəzi meydanının ümumi kompleksini təşkil edirdi.

Fəvvarənin suyundan şəhərin aşağı hissəsinin sakinləri istifadə edirdi.

1866-cı ildə su kəməri zədələndiyi üçün fəvvarə 3 il işləmədi. 1870-ci ildə varlı yəhudilər fəvvarənin su kəmərini təmir etmək üçün 2700 rubl pul ayırdılar. 1886-cı ilin ölçülərinə görə fəvvarə gün ərzində 4300 vedrə su verirdi.

1891-ci ildə su kəmərinin əsaslı təmiri şəhər büdcəsinin hesabına aparılmışdır.

1941-1945-ci illər müharibəsində həlak olmuş Dərbənd döyüşçülərinin abidəsi.



Faşist Almaniyası üzərində qələbənin 40 illiyi ilə əlaqədar Dərbənd şəhərində 1985-ci ildə Azadlıq meydanında qurulmuşdur.

Layihənin müəllifləri S.Yaqudayev və S.Xizqidovdur.

Nizami Gəncəvinin abidəsi – YUNESKO tərəfindən elan olunmuş dahi Azərbaycan şairi Nizami Gəncəvinin 850 illik yubeli ilə əlaqədar keçirilmiş tədbirlər planına əsasən, 1991-ci ildə Dərbənd şəhərində ona abidə qoyulmuşdur. Abidənin heykəltəraşları Azad Əliyev və Sahib Quliyevdir.



Dərbənddə 6 saylı orta məktəb və şəhərin küçələrindən biri Nizami Gəncəvinin adını daşıyır.

TƏSVİRİ VƏ DEKORATİV TƏTBİQİ SƏNƏTLƏR

Azərbaycanda sənətkarlıq və Dərbənd. Orta əsrlərdə Azərbaycanda sənətkarlıq öz intibah dövrünü yaşayırdı. Orta əsr ərəb müəllifləri Azərbaycanda xalçaçılıq, ipəkçilik sənətinin yüksək inkişaf etdiyini, qızıl və gümüş məmulatlarının istehsal edildiyini göstərirdilər. Dərbənd, eləcədə Təbriz, Gəncə, Ərəş, Ərdəbil, Culfa, Bərdə, Naxçıvan, Marağa kimi şəhərlər sənətkarlıq mərkəzlərinə çevrilmişdi. Bu şəhərlərdə onlarla sənət sahəsi yüksək inkişaf etmişdi.

XVII əsrdə sənətkarlıqda ixtisaslaşma prosesi davam edir, yeni sənət sahələri, çini qablar və şəffaf pəncərə şüşəsi istehsalı edilir, odlu silah istehsalı genişlənir. Bu dövrdə Azərbaycanda yüzdən çox ipək, pambıq və yun parça növü mövcud olmuşdur.

Daş üzərində oyma daşişləmə sənətinin ən qədim sahəsidir. E.ə. VIII minilliyə aid Qobustan qaya rəsmləri oyma sənətinin nadir nümunələridir. Orta əsrlərdə Azərbaycanda ən qədim sənət növlərindən biri olan dulusçuluq (əsası neolit dövründə, e.ə. VII-

VI-cı minilliklərdə qoyulmuşdur) sənəti Azərbaycanın böyük şəhərləri Dərbənd, Bərdə, Təbriz, Beyləqan, Gəncə, Naxçıvan, Ərdəbil, Marağa, Şamaxı, Bakı və s. yerlərdə geniş yayılmışdır. Dulusçular su və xörək qabları, qızdırıcı vasitələr, təsərrüfat küpləri, çıraqlar, su təchizatı vasitələri istehsal edirdilər.

Azərbaycanda misgərlik sənəti öz başlanğıcını eneolit dövründən götürsə də tunc dövründə (e.ə.II minilliyin II yarısında) geniş yayılmışdır.

Bax: Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. «Azərbaycan» cildi. «Azərbaycan Milli Ensiklopediyası» Elmi mərkəzi. - Bakı, 2007.

Dərbəndin bədii daşyonma sənəti. Epiqrafik abidələr XIV əsrin birinci yarısına qədər kufi xətti ilə yazılmış və müxtəlif həndəsi formalara malik olmuşdur. Kufi xəttinin formalaşmasının birinci dövründə (IX-XI əsrlər) mətn sadə daşıcızma üsulu ilə yazılmışdır. Kufi xəttinə Dərbənd şəhərindəki məzar daşları və başqa abidələr üzərində qalmış abidələrdə rast gəlinir.

İkinci dövrə (XI əsrin sonu – XIV əsrin birinci yarısı) aid kitabələr çiçəkli kufi xətti ilə yazılırdı və bunlar müəyyən bədii tərtibata malik idi. Şirvanşah Şeyx İbrahim dövründə (1382-1417) Dərbənd qala hasarındakı kitabə də kufi xətti ilə yazılmışdır.

Dərbəndin memarlıq abidələrinin və məzar daşlarının bəzəklərində prizmatik, sxematik stalaktitlər, şəbəkə oyma, qabartma üsulu ilə həm mürəkkəb, həm də sadə kompozisiyalı çoxtəbəqəli nəbati və həndəsi ornamentlər, eləcə də onlara uyğun kitabə motivləri işlənmişdir.

Cənubi Dağıstan, Dərbənddə fəaliyyət göstərmiş memar, inşaatçı usta, xəttat, həkkaklardan Mahmud Gilani, Saleh Əli oğlu, Qasım, Məhəmməd, Mənsur, Seyid Fariz, Mamay əl-Zaxuri, İsa Məhətə oğlu, Vaxuh Kərimәddin, bakılı Qarçıqay və Gökçə, Əli, Fərrux Şamaxılı (XII-XV əsrlər), nügədili Qoçi bəyin oğlu Cəfər, Dərbəndli Mahmud, Ağacan, Hüseyinqulu, Loğman Zeyd Əbubəkr və Naxçıvanlı Əhmədin (XVIII əsrin əvvəlləri) adları da XII-XIX əsrə aid kitabələrdə qeyd olunmuşdur.

Dərbənd və Numizmatika. V-VII əsrlərdə ilk lokal Azərbaycan zərbxanalarında – Dərbənd, Ərdəbil, Şirvan, Bakı, Bərdə, Naxçıvan şəhərlərində vurulmuş gümüş Sasani dirhəmləri, qızıl dinar və mis felsləri göstərmək olar.

Dərbənddə xalçaçılığın inkişafı. Xalçaçılıq özünün adi toxuculuğa əsaslanan inkişafında uzun bir təkamül yolu keçmişdir. Xalçaçılığın inkişafı qoyunçuluğun inkişafı ilə bağlıdır. Antik Yunan tarixçilərinin məlumatına görə hələ b.e.ə. V əsrdə Xəzərin qərb sahilində məskunlaşan əhali rəngli yun parçaların istehsalı ilə məşğul olmuşlar. Artıq onda məlum idi ki, sapların rənglənməsi bu yerlərdə bitən bitkilərdən alınmış rənglərlə aparılmışdır.

XII əsrdə Dərbənd otlardan, kollardan və ağac qabıqlarından alınan rənglərlə məşhur idi. Dərbəndin təbiəti toxuculuqla və xalçaçılıqla məşğul olanları uzun illər təbii boyalarla təmin etmişdir.

XIX əsrin 60-cı illərinə kimi, əsasən, boyaq otundan – marenadan istifadə etmişlər və bu boyaq otu bir çox ölkələrə ixrac edilmişdir. Kimyəvi boyalar kəşf olunduğundan sonra marenanın istehsalı dayandırılmışdır. Yetişməmiş qozun qabığından mixəyi, «qaraçup» bitkisindən qara, ağ yoncadan isə müxtəlif qızılı rənglər alırdılar. Məlumdur ki, bu bölgələrdə olan dağların təkində sapların rənglənməsi üçün çoxlu kimyəvi maddələr vardır.

Ərazinin az olması, işsizlik və burada çoxlu xammalın mövcudluğu xalçaçılığın istehsalı ilə əlaqədar qadın bədii sənətkarlığının inkişafını müəyyən etdi. Qadınlar ilin 8-9 ayını xalçaçılığa sərf edirdilər. Qadın ustalar döşəmə üçün xovlu və keçə xalçaları, divar palazları, xurcunlar və məişətdə istifadə olunan digər əşyalar hazırlayırdılar.

Özünəməxsus basma naxışlı keçə xalçaları qalın və yumşaq olur. Basılmış naxış yumşaq, yayğın, həndəsi və buynuzvari naxışlardan ibarətdir. Bu naxışlar qədim heyvandarlıqda olan ayinlərlə bağlıdır.



Xalçaçılıqda, əsasən, daranmış yundan hazırlanan saplardan istifadə olunur. Bu sapları hazırlamaq üçün əsas xammal kimi yazda qırxılmış sərt və yarımsərt yundan istifadə olunurdu. Ən yaxşı yun rus-voloşsk, tuşinsk, türkmən, iomudsk, badgizsk, qaldinsk, dağlı, şərqi çin qoyun növlərinin ağ yunu hesab olunurdu. Dəvə və keçi yunundan da istifadə olunurdu.

Yun sapların rənglənməsi xalçaçılığın istehsalında mühüm əhəmiyyət kəsb edir. Boyaların davamlılığı, paylaşdırılması, naxışlarla əlaqədar rənglərin seçilməsi, bədii xalça istehsalının əsas keyfiyyət göstəricisidir. Boyalar işığa, nəmişliyə, sürtünməyə, kimyəvi reagentlərə davamlı olmalıdır. Bəzi məhdud bitki boyalarından başqa, bu tələblərə davamlı sintetik boyalar (alizarin qrupu) cavab verir.


Əl xalçalarının istehsalında xovlu və xovsuz palaz, kilim və sumaq növlü xalçalar daha geniş yayılmışdır. Xovlu xalçanın parçası özüldən, arğacdan və xovdan ibarətdir. Bu xalçaların özülü yun və ipək saplardan, arğac – yun, ipək və pambıq saplardan ibarətdir. Xovlu xalçanın üzü ilmələrlə hörülmüş müxtəlif rəngli saplardan ibarətdir. Xovlu ilmələr bir və iki qatdan ibarətdir. Əl xalçaları üfiqi və şaquli xalçatoxunan dəzgahlarda və milli naxışlı şəkil üzrə aparılır.

Xalçanın toxunması – yaradıcılıq və incəsənət tələb edən bir sənətdir.

Xalçalar haqqında məlumata folklorda, dastanlarda, o cümlədən qədim Azərbaycan abidəsi «Kitabi-Dədə Qorqud»da tez-tez rast gəlinir.

Dərbənd, Şamaxı, Naxçıvan və digər şəhərlərdə olmuş flamand Rubruk qeyd etmişdir ki, burada çox yaxşı xalçalar istehsal olunur. Azərbaycan Ağqoyunlular dövlətinin (XV əsr) hökmdarı Uzun Həsənin sarayında olan gözəl xalçalar barədə venesiyalı Ambroco Kontarini xəbər verir. Xalçalar haqqında dəyərli məlumatlara XVII-XVIII əsr səyyahlarının yazılarında da rast gəlinir. Dərbənddən Bakıya, sonra isə Şamaxıya gəlmiş alman Adam Oleari qeyd edir ki, kəndlilərin evləri çox səliqəlidir və döşəmələri xalılarla örtülüdür. Dərbənddə, Bakıda, Şamaxıda və Təbrizdə olmuş şotlandiyalı hakimin qeydlərində də oxşar məlumatlar vardır.

Dərbənddə dulusçuluq. Dərbənd və onu əhatə edən bir neçə ləzgi kəndi qədim zamanlardan şirli saxsının mərkəzi hesab olunmuşdur. Dərbənd saxsısını şərti olaraq yarımxromlu şirlənmiş saxsı



adlandırırlar. Bu saxsı erkən orta əsrlərdən başlayaraq XX əsrin əvvəllərinə qədər istehsal olunmuşdur. Dərbənddə orijinal yüksək bədii tərtibatlı boşqablar, dolçalar, piyalələr, sinilər və s. suvarma şirəli naxışlı məişət əşyaları hazırlanırdı. Bu qablarda əsasən at, quş, bitki elementli, antropomorf fiqurlu naxışlara rast gəlinirdi. Dərbənd dulusçuluq işi ilə kişilər məşğul olurdu, qadınlar isə naxışvurmada iştirak edirdilər. Saxsı məmulatlar yerli qırmızı və boz palçıqdan taxta dəzgahda hazırlanırdı. Bu dəzgah ayaq ilə hərəkətə gətirilirdi. Məmulat quruduqdan sonra onu hamar daşla cilallayır və sonra çiy kərpicdən tikilmiş «kuym» adlanan sobada yandırırdılar.

Məmulatı şirələmək üçün güclü odda qurğuşun yandırılırdı. Alınmış qurğuşunu suda və yumurta sarısında həll edərək kiçik qabların şirələnməsində istifadə edirdilər. Böyük qabların şirələnməsində isə qurğuşundan alınmış mayeni neftlə qarışdıraraq istifadə edirdilər. Qablar solyar işarələri və sadə həndəsi elementlərlə bəzədilirdi.

Dərbənd və Dağıstanda silah istehsalı, xəncərlərin növləri. Şimali Qafqaz və Dağıstan həm sakinlərinin mədəni ənənə qədimliyi, həm də çoxmillətli əhalisi ilə seçilir. Dağıstanın əksər kəndlərində soyuq silah istehsal edilsə də, yalnız Kubaçi, Amuzqi, Qumik silahqayırma mərkəzi hesab olunurdu.

XIX əsrdə Amuzqi və Kubaçı ustaları arasında əmək bölgüsü yaranmışdı: Amuzqi ustaları xəncər tiyələri düzəldir, Kubaçı ustaları dəstək, qın və onların bəzək elementlərini hazırlayırdılar. XIX əsrin I yarısında silah üzərində olan irihəcmli naxışlar biriki texnoloji üsulla hazırlanırdı. XX əsrin sonlarında isə kiçikhəcmli naxışlar üç-dörd material növündən istifadə etməklə beş-altı texnoloji üsulla hazırlanırdı (misal üçün, xəncər döymə, oyma, qarasavat üsulları ilə hazırlanır, qızıl və gümüş ornamentlərlə, rəngli məxmər parça ilə bəzədilirdi). Silahın düzəldilməsi müxtəlif peşə sahiblərinin, bəzən ayrı-ayrı kənd

ustalarının səy və bacarığının birləşdirilməsini tələb edirdi. Tiyənin düzəldilməsi, dəstək və qının ağac və sümük hissələrinin hazırlanması, gümüş elementlərinin düzəldilib silaha bərkidilməsi birbirindən fərqlənən texniki əməliyyat olduğuna görə bir xəncər üzərində bir neçə usta işləyirdi.

Dağıstan xəncərlərinin çoxlu növ və formaları mövcud idi. XIX əsrin sonları – XX əsrin əvvəllərində Dağıstan və Şimali Qafqazda bir neçə silah istehsalı mərkəzi fəaliyyət göstərirdi: Vladiqafqaz (Dağıstandan bura köçmüş ustalar əsasən kazak silahları düzəldirdilər), Dərbənd (şəhərdə silahqayıran ustaların sayı tədricən azalırdı, artıq 1917-ci ildə burada cəmi 3 silahsaz qalmışdı), Petrovsk (Dağıstan kəndlərindən bura köçmüş ustalar əsasən ordu zabitləri və kazaklar üçün silah düzəldirdilər, şəhərdə silahsazların sayı tədricən azalırdı – 1915-ci ildə cəmi 6 nəfər), Samux və Kür dairələrinin hər birində cəmi bir silahsaz qalmışdı, Qunib, Avar, Andı dairələrində gümüşişləmə üzrə ustalar qalsa da, 1915-ci ildə silahsazlar, demək olar ki, yox idi; Temirxan Şura dairəsinin Verxneye Kazanişe kəndində əsasən sadə xəncər düzəldirdilər, Tərki, Qazı Qumux, Kadar kəndlərində də silahsazlar tədricən bu sənəti atır, bəzək əşyaları, dekorativ məişət əşyaları, qab-qacaq düzəldilməsinə keçirdilər. Beləliklə XX əsrin əvvəllərində yalnız Amuzqi və Kubaçı ən böyük silahqayırma mərkəzi kimi qalmışdı, buradakı ustalar ənənəvi silahqayırma texnologiyasını davam etdirirdilər.

Qaytaq – Tabasaran dairəsinə aid olan Amuzqi kəndində XIX əsrin sonlarında 50-yə yaxın təsərrüfat var idi ki, onların da hamısı xəncər tiyələri hazırlayırdı. Y.Şillinq göstərir ki, xəncər tiyəsinin düzəldilməsi 13 mərhələdə başa çatır. Adi xəncər tiyəsi 2 gün, Dəməşq tiyəsi isə 6-8 gün ərzində hazırlanır. Qaytaq-Tabasaran dairəsinə aid olan Kubaçı kəndi hələ X əsrdən başlayaraq soyuq silah istehsalı mərkəzi kimi qeyd edilir. Kəndin adı orta əsr farsdilli mənbələrində Zirehgeran (yəni «Zirehqayıranlar»), türk dillərində Kubaçı (halqalı zireh türk dillərində «kübə yaraq» termini ilə bildirilir) şəklində göstərilirdi. XIX əsrin sonları – XX əsrin əvvəllərinə aid Kubaçı xəncəri olduqca bahalı idi: 60-100 rubla satılırdı. Belə xəncərin düzəldilməsinə 12-15 gün sərf olunurdu. 1862-ci ildə usta İbrahim Mehmed oğlunun London sərgisində nümayiş etdirilən xəncəri Kubaçı xəncərlərinin Avropada məşhurlaşmasının əsasını qoymuşdu.

XVIII-XX əsr xəncərləri öz forma və tərtibatına görə aşağıdakı qruplara bölünür: Kubaçı xəncərləri (Kubaçı və Amuzqi ustaları). Lak xəncərləri (Nalçik və Vladiqafqaz üstaları), Avar xəncərləri (Verxneye Kazanişe və ətraf kəndlər).

Bax: «Hərbi Bilik» jurnalı. - Bakı, 2009, №1.

Dərbənd və Qafqaz xalqlarında silahın hədiyyə verilmə ənənəsi. Qafqaz silahı öz xüsusiyyətləri ilə fərqlənir. Belə ki, Qafqaz xalqlarında silah hərbi ləvazimat, hərbi geyimin bir elementi olmaqla bərabər, mürəkkəb təsəvvürləri özündə əks etdirən əşya sayılmışdır. Silahdan təkcə öz əsas təyinatına görə deyil, müxtəlif ayinlərin icrasında, hətta rəqslərdə istifadə olunurdu. Dağlarda silah təkcə hərbi ləvazimatın bir hissəsi deyil, hücum və müdafiə vasitəsi, kişi davranışını təcəssüm etdirən bir nümunə və ümumiyyətlə, kişilik rəmzi hesab edilirdi. Silahın itirilməsi insan üçün azadlığın itirilməsinə bərabər tutulurdu. Silah üzərində verilmiş söz andiçmə sayılırdı. Bu sözün pozulması ölümlə nəticələnməli idi. Kişinin xarici görkəmində silah əsas rol oynadığına görə onu birinci növbədə gözəlləşdirirdilər. Əksər hallarda kişi nimdaş paltarda gəzir, lakin silahını qızıl, gümüş, daş-qaşlarla bəzəyirdi. Evin qonaq otağının ən dəyərli bəzəyi divarlardan asılmış silahlar sayılırdı. XX əsrin əvvəllərində Şimali Qafqaz və Cənubi Dağıstanda silah tədricən öz təyinatını itirir və xalq sənətkarlığının bir növü kimi rəmzi və dekorativ məna kəsb edən əşyaya çevrilir. Silah elə əşyalara aiddir ki, düzəldildiyi mühitdən kənara çıxandan sonra da onun qiyməti artır. Xalqın maddi-texniki inkişaf səviyyəsi ilə bərabər onun mənəvi təsəvvürlərini özündə əks etdirən əşya kimi silah müxtəlif cəmiyyət və dövrlərdə hörmətlə qarşılanmış və qorunmuşdur.

Hələ qədim dövrlərdə siyasi münasibətlərdə hədiyyə vacib rol oynayırdı. Dövlət başçılarının bir-birinə verdiyi hədiyyələr siyasi əlaqələrin yaranması və dərinləşməsinə xidmət edirdi. Daimi insan münasibətlərində hədiyyə universal əhəmiyyətə malik olmuşdu.

Hakimiyyət prinsiplərinin mürəkkəbləşməsi xüsusi hədiyyə kateqoriyasını meydana gətirmişdi – tabəələr hökmdara hədiyyə verirdilər. Hökmdar tabəələrdən hədiyyəni qəbul edir və onun müqabilində qayğı göstərirdi. Tədricən siyasi və insan münasibətlərində hədiyyənin əhəmiyyəti dəyişmişdir: rəhbərin

hədiyyə qəbul etməsi həmin rəhbər tərəfindən hədiyyə verən regionun qayda, adət və mədəniyyətlərini qəbuletmə rəmzi sayılırdı.

Qədim dövrlərdən silah müqəddəs əşya kimi dini ayinlərdə rəmzi obyektlərdən biri idi. Türk xalqları inanırdılar ki, döyüşçü həlak olanda döyüşçünün ruhunu özündə təcəssüm edən silah ölür. Bu səbəbə görə silah qəbirə qoyulanda sındırılmış vəziyyətdə qoyulurdu. Qədim əsatirlərdə silah canlı varlıq kimi qəbul edilirdi. Bu isə ənənəvi mədəniyyətdə müxtəlif hərbi və məişət ayinlərinin yaranmasına səbəb olmuşdur. Ənənəvi olaraq silah hakimiyyət rəmzi sayılırdı. Bütün deyilənlərə yekun olaraq belə nəticəyə gəlmək olar ki, silah mədəniyyətdə təkcə döyüş vasitəsi olmamışdır. Silahın sosial funksiyaları zaman-zaman itsə də (əsasən də öz müstəqilliyini və dövlətçiliyini itirmiş xalqlarda), tarixi özünüdərkin bərpası ilə həmin funksiyalar qismən bərpa olunur. Məsələn, Azərbaycanda müasir dövrdə dədə-babalardan qalmış silahları asmaq ənənəsi yaşamaqdadır.

Xalq mədəniyyətinin ayrılmaz hissəsi kimi silahın öz bədii xüsusiyyətlərindən başqa onun kimə məxsus olması da silahın tarixi qiymətini artırır.

MUSİQİ

Folklor. Rəqs sənətinin tarixi zərb musiqi alətlərinin tarixindən xeyli qədimdir. Hələ insanlar ibtidai icma quruluşunun ilk mərhələlərində əllərini bir-birinə vuraraq, ahəngdar səs sədaları altında rəqs etmişlər. Azərbaycan xalqı uzun əsrlər boyu rəngarəngliyi və coşqunluğu ilə insanı valeh edən rəqslər yaratmışdır. Rəqslərimiz öz dərin rişələrilə torpağımızda kök atmış, yetkin və qüdrətli sənət kimi sevilmişdir.

Görkəmli fransız ədibi Aleksandr Düma Qafqaz səyahəti zamanı Azərbaycanda, o cümlədən Dərbənddə olmuş və onun təbiəti haqqında, əhalisinin məşğuliyyəti, əyləncəsi barədə dəyərli məlumat vermişdir. O, səyahətnaməsində yazırdı: «Biz Mahmud bəygilə gəldik, onun evi ən gözəl binalardandır. Mən Dərbənddən Tiflisədək heç bir yerdə belə bina görməmişdim. Biz Şərq qaydasında səliqə-sahmana salınmış salona daxil olduq.

Musiqi sədaları yüksəlirdi... Bizim fleytaya oxşayan tütəyin, mandalinanı xatırladan tarın və çonquriyə bənzəyən metal dayaqlı kamançanın şən sədaları bir-birinə qarışdı».

Bax: Azərbaycan etnoqrafiyası. Üç cilddə. III cild. - Bakı, Şərq-Qərb, 2007, səh. 253, 258.

Dərbənd aşıqları. Aşıq sənəti qədim tarixi köklərə malik bir sənətdir. Aşıq sənəti bütün türk dünyasına aid xalqların dünyagörüşünü, fəlsəfi baxışını formalaşdırır. Aşıq məktəbinin mərkəzlərindən biri Dərbənd şəhəri hesab olunur və əsrlərin dərinliklərinə gedib çıxır. Hərçənd aşıq sənətinin bəzi tədqiqatçıları Dərbənd bölgəsində aşıq sənətini aşıq Bayat Abbasın (XVI əsr) adı ilə bağlayırdılar, həqiqətdə isə aşıq janrının formalaşma mənbəyini tarixin daha dərin qatlarında axtarmaq lazımdır.

Tədqiqatlar göstərir ki, Dərbənd onu əhatə edən kəndlərin türkdilli əhalisi ilə birlikdə lokal aşıq mühitinin yaranması və formalaşmasının bazası olmuşdur.

Bizə gəlib çatan ən erkən aşıq adət-ənənələrinin nümayəndəsi, Dərbənd aşıq məktəbinin banisi Bayat Abbas olmuşdur. O, aşıq dünyasında «qoşma», «qıfılbənd», «ustadnamə», «təcnis», «gəraylı», «fəxriyyə» ustası kimi məşhur idi.

Dərbənddə aşıq məktəbinin formalaşmasına onun Azərbaycan və Şirvanla mövcud dostluq tellərinin təsiri olmuşdur. Bu qonşu bölgələr arasındakı uzunmüddətli iqtisadi-ticarət və siyasi əlaqələr onların vahid etnik-mədəni imkanlarını möhkəmləndirmişdir. Təbrizdən, Həmədandan və Azərbaycanın digər ticarət mərkəzlərindən Dərbəndə ustad aşıqlar gəlirdilər. Dərbənddə keçirilən aşıq məclislərinə Şabrandan, Qubadan, Bakıdan olan Şirvan aşıq məktəbinin nümayəndələri iştirak edirdilər. Yerli salnamələr Dərbəndə aşıq janrının məşhur ustalarından Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Valeh, Tağı Xandanlının və digər aşıqların olması haqqında məlumat verirlər.

Öz növbəsində Dərbənd aşıqları da Şivanda məşhur idilər. Ona görə də Dərbəndin aşıq adət-ənənələri, Dərbənd aşıqlarının oxuduğu əsərlərin mövzusu və musiqisi Şirvan aşıq məktəbi ilə, xüsusilə məşhur Şirvan aşığı ustad Molla Qasımın (XIII əsr), sonralar isə Aşıq Ələsgərin yaradıcılığı ilə sıx bağlı idi.

Qeyd etmək lazımdır ki, Dərbənddə türk ozanlarının «Allahı» sayılan Dədə Qorqudun qəbri yerləşdiyi üçün məşhur ustad aşıqları özünə çəkirdi. Dərbənd aşıq sənətində «dastanlar» xüsusi yer tutur. Onlar şairanəliyi və təsvir vasitə və üsulları ilə zəngin olduğu üçün diqqəti cəlb edir. «Məsum və Diləfruz», «Valeh və Zərnigar», «Seyid və Pəri», «Səfi Məhəmməd», «Yetim Aydın», «Bikəs», «Adıgözəl», «Ordubadlı Kərim», «Qaçaq Mail», «Molla Nur», «Koroğlunun Dəmirqapı Dərbəndə səfəri» dastanları Dərbəndin aşıq poeziyasının parlaq nümunələrindəndir və bu günə kimi xalq sənətkarlarının dilindən düşmür. Qeyd etmək lazımdır ki, bu dastanların süjeti Dərbəndin həyatından götürülmüşdür və onların qəhrəmanları konkret tarixi şəxslərdir. Bu da Dərbənd aşıq məktəbinin məşhur epik adət-ənənələrinin göstəricisidir.

Dərbənd aşıq məktəbi ənənəsinin motivlərindən biri saf və sədaqətli məhəbbət mövzusudur. Bu janrın məşhur ustaları Diləfruz Pəri Dərbəndli (XVII əsr), Məsum Dərbəndli (XVIII əsr), Dərbəndli Zərnigar xanım (XVIII əsr) və b. olmuşlar.

XVIII-XIX əsrlərdə Dərbəndin aşıq sənəti ətraf və tərəkəmə kəndləri hesabına öz hüdudlarını genişləndirmişdir. Bunun nəticəsi olaraq bu sənətin tanınmış aşıqları yetişmişdir: Səfi Məhəmməd, Camal Dəliçobanlı, Xalid Qaradağlı, Gilas Vəlikəndli, Fətəli Vəlikəndli, Əhməd Himeydli, Aşıq Tahirbəy Bilqədilli, Aslan Zidyanlı və başqaları.

Dərbəndin aşıq sənəti Dərbənd-Quba bölgələrində yaşayan qeyri-türkdilli xalqların nümayəndələrinə də böyük təsir göstərmişdir. Dərbənd aşıq məktəbinin adət-ənənəsinin təsiri altında Dağıstan etnosları arasından xeyli aşıq çıxmışdır – İbrahim Müşkürlü (XVI əsr), Əkbər Müşkürlü (XVI əsr) və başqaları.

XVIII yüzilliyin görkəmli söz ustalarından biri də Aşıq Valeh Kərbalayı Şəfi Məhəmməd oğlu olub və o, 1722-ci ildə Qarabağın Abdal Gülablı şenliyində dünyaya göz açmışdır. Əsl adı Şəfi olan və yüz il ömür sürən Aşıq Valeh öz doğma kəndində dünyasını dəyişmişdir.

Aşıq Valehin bizə miras qalan ədəbi irsinə əsaslanaraq onun kamil savada və geniş dünyagörüşünə malik olmasını söyləmək olar. Bu baxımdan aşığın inciləri əsasında yaradılan «Valeh və Zərnigar» dastanı xüsusi maraq doğurur.

Aşığın adı ilə bağlı dastandan aydın olur ki, Dərbənd elində Zərnigar adlı gözəl, qabiliyyətli və hazırcavab bir qadın aşıq varmış. Bu qadın cəmi aşıqların dilini susdurub, sazını alarmış. Heç bir aşıq ona tab gətirməz, cəngə girməzmiş. Özünə böyük inamı olan Valeh ustadı Səmədin icazəsilə Dərbəndə getmək, Zərnigarla deyişmək fikrinə düşür. O, Zərnigarla görüşüb qarşı-qarşıya durub deyişir. Deyişəndə Zərnigarı bağlayır, arzusu kama yetir, evlənir, yarı ilə birlikdə Qarabağa qayıdır...

Aşıq Valeh mükəmməl dini təhsili ilə yanaşı, klassik ədəbiyyatı, tarix elmini də yaxşı bilirmiş. Sənətkar «Cahannamə»sində Şərq dünyası, nadir tarixi şəxsiyyətlər, cahangirlər, xalq qəhrəmanlarının adlarını nəzmə çəkmiş, ehtiramla yad etmişdir.

Aşıq Hüseyn şəxsiyyətli, sübutlu-isbatlı adam olmaqla yanaşı, həm də sadə, səmimi və mehriban bir insanmış. Sərrast ovçu, nüfuzlu el adamı imiş, kamil savadı varmış. Ərəb və fars dillərini mükəmməl bilirmiş. Bir müddət Şərq ölkələrində olması onun dünyagörüşünə güclü təsir göstərmişdir:

Gəzdim Çeçeni, Çərkəzi,
Nə qorxdum, nə ar eylədim.
Dəmirqapı Dərbənd, Quba,
Gürcüstana var eylədim.

Kamil sənətkar əlli ildən çox saz çalmış, söz qoşmuş, dastanlar yaratmışdır.

Aşıq sənəti Dərbənddə yaşayan azərbaycanlılar tərəfindən qorunub saxlanılmışdır. Azərbaycanda böyük aşıq məktəbi var. Dərbənd aşıq sənəti Şirvan aşıqlarından bəhrələnmişdir. Azərbaycan aşıqları Dərbənddə tvrixəntez-tez olmuşlar. Xüsusən, aşıq Ələsgərin yaradıcılığının Dərbənd aşıqlarının yaradıcılığına çox böyük təsiri olmuşdur. Dərbənd aşıqları «Əsli və Kərəm», «Leyli və Məcnun, «Aşıq Qərib», «Koroğlu» və digər dastanları çox gözəl bilirdilər. Dərbənd aşıqları yalnız sazla deyil, həm də tarla da aşıqlıq etmişlər. Hətta kamança ilə ifa edənlərə də aşıq deyirdilər.

XX əsrin 50-ci illərində Dərbənddə aşıqlar ansamblı və sazçı qızlar ansamblı fəaliyyət göstərmişdir. Sonralar aşıq sənəti zəifləmiş və qismən unudulmuşdur.

Dərbənd aşıq məktəbi hazırda yaşayır və fəa-



Qurbanov Sakit (Dərbənd)



Məhəmmədov Şəmşir (Dərbənd)



Məcidov Damaday (Dərbənd)

liyyət göstərir. Bayat Abbas tərəfindən qoyulmuş adət-ənənəni yeni gənc istedadlar– Aşıq Əfəndi, Gilas Gilasov, Marağadan Niftulla, Katruxdan Sultan, Xəlil Calqanlı və başqaları davam etdirirlər.

Aşıq sənətinin adət və ənənələrini davam etdirmək üçün folklor institutunun əməkdaşı Nailə Rəhimbəylinin şəxsi təşəbbüsü ilə Dərbənd şəhərində



«Şarvili» aşıq ansamblı (Dərbənd)

«Oxu aşıq» adlı birinci aşıq festivalı keçirilmişdir. Bu festivalın keçirilməsinin əsas məqsədi Dağıstan və Azərbaycan xalqları arasında mövcud olan dostluğu və qardaşlığı daha da möhkəmləndirmək və ənənələri davam etdirməkdir. Bu dostluğun, ənənələrin tarixi çox qədimdir.

Festifal Azərbaycan və Dağıstanın ayrı-ayrı rayonlarından olan aşıqların çıxışları ilə yadda qalmışdır:

- Mahmud Məmmədov (Azərbaycan);
- Nemət Qasımlı (Azərbaycan);
- Altay Məmmədov (Azərbaycan);
- Sakit Qurbanov (Dərbənd);
- Damaday Məcidov (Dərbənd);
- Şəmşir Məmmədov (Dərbənd);
- «Şarvili» aşıq ansamblı (Dərbənd).

Festivalın keçirilməsində Dərbənd şəhər İcraiyyə Başçısının müavini Tacəddin Sultanovun, Dərbənd şəhər Mədəniyyət Şöbəsinin müdiri Hüseynbala Hüseynovun, Dağıstan Mədəniyyət Nazirinin müavini Bədircat Nəbiyevanın, sənətşünaslıq namizədi Nailə Rəhimbəylinin, Dağıstanın əməkdar mədəniyyət işçisi, professor Xəlil Xəlilovun, sənətşünaslıq doktoru Rafiq İmraninin böyük zəhməti olmuşdur. Bu festivalda şair Tahir Saleh də iştirak etmişdir.

Festival çərçivəsində Azərbaycan və Dağıstan alimlərinin birgə konfransı keçirilmişdir. Konfransda aşıq sənətinin öyrənilməsi istiqamətində aparılan tədqiqatlardan danışılmışdır. Dağıstan alimləri qeyd etmişlər ki, Dərbənddə aşıq sənətinin öyrənilməsinə böyük ehtiyac vardır. Konfransda festivalın hər il Dərbəndin tarixi yerlərində, xüsusi ilə Narınqalada keçirilməsi qərara alınmışdır. Dağıstanda saz məktəbinə marağın artırılması ilə əlaqədar Dağıstan alimləri bu problemin həllində Azərbaycan musiqişünasları və aşıqları ilə əməkdaşlığın zəruri olduğunu qeyd etmişlər. Azərbaycanda aşıq məktəbləri olduğu kimi, Dərbənddə də bu məktəblərin olmasının vacibliyi qeyd olunmuşdur.

DƏRBƏND ŞƏHƏRİNİN MƏDƏNİ-İCTİMAİ HƏYATINDA YAXINDAN İŞTİRAK ETMİŞ, DAĞISTAN RESPUBLİKASININ «XALQ ARTİSTİ» VƏ «ƏMƏKDAR ARTİSTİ» FƏXRİ ADLARINA LAYİQ GÖRÜLMÜŞ AZƏRBAYCAN RESPUBLİKASININ İNCƏSƏNƏT XADİMLƏRİ



İbrahimova Elza
İmaməddin qızı



Quliyeva İlhamə
Məzahir qızı



Rzayev Zaur Əlihüseyn oğlu



İsrafilov Avtandil
Eynulla oğlu



Zeynalov Azər
Zeynalabdin oğlu



Şükürov Ədalət Zakir oğlu



Bəkirova Bəsti
Vəliəhməd qızı



Qantayev Bəxtiyar
Əli oğlu



Rzaquliyev Şərbət
Hikmət oğlu

TEATR

Dərbəndin teatr adət-ənənələrinin kökləri əsrlərin dərinliklərinə gedib çıxır və burada şiə (X-XI əsrlər) təriqətinin yayılması və təşəkkülü ilə bağlıdır. İslamdakı bu dini axına – «şəbih» (dini teatr tamaşası) ənənə forması xas idi. Zaman keçdikcə şəbih özünün dramatik və səhnə formaları ilə incəsənətin xüsusi teatr növünə çevrilmişdir. Bir qayda olaraq, şəbih bir pərdədən ibarət idi.

Getdikcə Dərbənd şəbihlər şəhəri şöhrətini qazanır. Bütün Dərbənd məscidlərində hər il məhərrəmlik ayında keçirilən 10 günlük «şaxsey-vaxsey» matəm mərasimlərində şəbih oynayan ixtisaslı ifaçılar var idi.

Dərbənd şəbihlərinin şöhrəti onun hüdudlarından da kənara çıxmışdır. Şəbihlərin yerli ifaçılarından – Gümri, Şuai, Sipeyri, Səməndər, Zövgi, Mirzə Əli Abbas, Bəşirağa, Qulam, Əli Əsgər, Mütəllim Mirzə Baba oğlu, Kərbalayı Miri Mir Övsət oğlu, Mir Həmdulla və başqaları Qafqazın və İranın şiə aləmində böyük şöhrət qazanmışlar. Onlardan biri, Gümri, İran şahının şəxsi qəbuluna layiq görülmüşdür. XVIII-XIX əsrlərdə Dərbənddə olmuş, demək olar ki, bütün rus müəllifləri şəbihlərin yüksək səviyyədə keçirilməsi haqqında məlumat verirlər.

XIX əsrin ortalarında şəhərdə yerləşən hərbi qarnizonda ilk rus həvəskar teatrı yaranır. Burada hərbi qulluqçular və onların həyat yoldaşları iştirak edirlər. Tamaşalar hərbi qarnizonun klubunda və şəhərin ictimai klubunda keçirilirdi.

XIX əsrin sonunda şəhərin tədris müəssisələri müəllimlərinin və şagirdlərinin qüvvəsi ilə Azərbaycan həvəskar teatrı yaranır.

XX əsrin əvvəllərində şəhərdə iki həvəskar truppa (rus və Azərbaycan) və üç teatr səhnəsi: Şəhər ictimai klubunda, Qunib ehtiyat batalyonunun kazarmalarında var idi. Bundan əlavə, «Mulen» və «Miraj» kinoteatrlarının zalı da teatr tamaşaları üçün istifadə olunurdu.

1904-cü ilin fevralında Azərbaycan həvəskar teatrının kollektivi «Dərbənd Azərbaycan Musiqili-dram teatrı»nın yaradılması vəsatəti ilə müraciət etmiş və bu vəsatət 1904-cü il sentyabrın 22-də Daxili İşlər Naziri tərəfindən təsdiq olunmuş, teatr həmin il dekabrın 9-da Şəhər ictimai klubunun səhnəsində fəaliyyətə başlamışdır.

XIX əsrin sonu – XX əsrin əvvəllərinin arxiv sənədləri Bakının, Tiflisin, Həştərxanın, Moskvanın peşəkar teatrlarının Dərbənddəki qastrolları haqqında məlumat verir.

1917-1920-ci illərin inqilabi hadisələri və vətəndaş müharibəsi şəhərdə teatrın fəaliyyətinin dayandırılmasına səbəb oldu.

1920-ci ildə proletar-gənclər klubunun nəzdində Azərbaycan həvəskar dram dərnəyi yaradılmış və bu dərnəyə 1927-ci ildə peşəkar dram teatrı statusu verilmişdir. 1931-ci ildə teatr Azərbaycan Dövlət musiqili-dram teatrı statusunu almışdır. Lakin 1949-cu ildə teatr maliyyələşdirilmədiyi üçün bağlanmışdır. Həmin il Axtada yerləşən ləzgi dövlət dram teatrı Dərbəndə köçürülmüşdür.

1962-ci ildə şəhərdə tat xalq teatrı, 1967-ci ildə isə Azərbaycan xalq teatrı yaranmışdır.

1998-ci ildə Dərbənddə Azərbaycan dövlət dram teatrı yenidən bərpa olunmuşdur.

2000-ci ildə Tabasaran dövlət dram teatrı açılmışdır.

Dağıstan Dövlət Opera və Balet teatrı – Dərbənd şəhərində 1937-ci ildə yaradılmışdır. Folklor abidəsi olan «Xoçbar» süjeti əsasında ilk opera yazmış Qotfrid Əli oğlu Həsənov respublikada mövcud olan vokalçılardan ibarət ifaçılar kollektivi yaratmaq istəmiş, lakin o öz arzusunu həyata keçirə bilməmişdir. Musiqişünas M.Yaqubov onu «Dağıstan musiqisinin atası» adlandırmışdır.

Yalnız 1999-cu ilin martında Dağıstan Hökumətinin qərarı ilə Opera və Balet teatrı açıldı. Bu gün teatrın ştatında 310 nəfər var. Teatrın repertuarında aşağıda adları çəkilən operalar var: Q.Həsənovun «Xoçbar», N.Daqirovun «İrçın-Kazak», S.Raxmaninovun «Oleko», N.Qokielinin «Qırmızı Papaq», balet tamaşaları: M.Kajlayevin «İmam Şamil», «Dağlı qız». «Dağlı qız» və «İmam Şamil» tamaşaları – müasir, klassik və milli rəqslərin sintezidir. «Eniqma» tamaşasında Avropa balet stilindən istifadə olunmuşdur. Gənc balet ifaçılarından A.Şahmərdanovanı, M.Hacıyevi, A.Doroxovu göstərmək olar.

Dağıstanda məşhur vokalçılar: Rusiya Federasiyasının xalq artisti A.Ayqumov, Rusiya Federasiyasının əməkdar artistləri U.Arbuxanova, T.Kuraçov, Dağıstan Respublikasının xalq artistləri M.R. Zavayev, M.Abbasov, A.Məhəmmədmirzəyev, Dağıstan Respublikasının əməkdar artistləri M.Kamalov, S.Musayeva, M.İsmayılova, Kabardin-Balqar Respublikasının xalq artistləri A.Taşlo və L.Xasayeva.

Teatrın orkestrinin işi maraqlı və çoxplanlıdır. Orkestrin ifaçılıq məharəti və təcrübəsi artdıqca opera

tamaşasının keyfiyyəti də artır. Orkestrin aparıcı ifaçılarından Dağıstan Respublikasının əməkdar artistləri S.İdrisov, A.Daibov, artistlərdən S.İlmatova, A.Dadaşov, A.Pinkus, İ.Xoxlov, Q.Ponomaryeva, S.Tahirova və A.Şvetsin adlarını çəkmək olar. Opera teatrının xor kollektivi yüksəkixtisaslı vokalçılardan ibarətdir: Dağıstan Respublikasının xalq artistləri M.Məhəmmədov, U.Urucev, M.-Z.Baqautdinov, Dağıstan Respublikasının əməkdar artistləri S.Bəymurzayeva, N.Babiçev, xorun gənc ifaçılarından – L.Miridonova, M.Çimayeva, T.Absalutdinov və Z.Davıdovun adlarını çəkmək olar.

Hazırda opera truppası P.Çaykovskinin «Yevgeni Onegin», Ü.Hacıbəyovun «Arşın mal alan», M.Kajlayevin «Validə» operettaları, R.Voldqardtın «Pişiyin evi» uşaq operası üzərində çalışır.

Teatrın baş rəssamı – Dağıstan Respublikasının əməkdar rəssamı İbrahimxəlil Supyanovun işi yüksək bədii tərtibatına görə həmişə fərqlənir.

Teatrın direktoru Məhəmməd Əhmədov, bədii rəhbəri və baş dirijoru Ramazan Hacıyevdir.

Kolxozlararası Azərbaycan teatrı – Dərbənd şəhərində 1962-ci ildə Jdanov adına milyonçu kolxozun sədri İsabala İsayevin təşəbbüsu ilə Kolxozlararası Azərbaycan dram teatrı yaradıldı. Teatr Dərbəndin 25 kolxoz və sovxozu tərəfindən maliyyələşdirilməli idi. Teatrın təşkilati məsələlərini Azərbaycan Dövlət musiqili dram teatrının keçmiş aktyorları Əsəd Əsədov və Hilal Mərdanov öz üzərlərinə götürdülər. Hilal Mərdanov Dağıstanın əməkdar mədəniyyət işçisidir. Onlara bu teatrın təşkil olunmasında Azərbaycan Dövlət musiqili-dram teatrının keçmiş aktyoru Əlimran Cəfərov böyük köməklik göstərmiş və kolxozlararası Azərbaycan teatrının ilk direktoru olmuşdur. Sonralar bu vəzifədə onu Məzahir Əmirov və İslam Babayev əvəz etmişdir.

Teatrın işinə Dövlət musiqili dram teatrının keçmiş aktyorları Seyfulla Quliyev, Gülçəmən Mərdanova (Dağıstanın əməkdar artisti), Bənövşə Əhmədova, Məzahir Əmirov, musiqili-dram teatrının aktyorları Tamara Muxtarova, Şövkət Abbasova, Səlimxan Əhmədov cəlb olunmuşdular. Cabir Sadıxov teatrın musiqi rəhbəri təyin olunmuşdur. Onlardan başqa teatra yeni aktyorlar da gəlmişdi: Müşkulət Hüseynova, Rəsul Dərbəndi və s.

Jdanov adına kolxoz 250 yerlik tamaşaçı zalı ilə öz klubunu teatrın sərəncamına verdi.

Teatrda səhnələşdirilən ilk tamaşa Səid Rüstəmovun «Əsli və Kərəm» dramı olmuşdur. Tamaşanın rejissoru Ə.Əsədov idi. Tamaşa bir ay böyük uğurla göstərildi. Bir il ərzində teatrın səhnəsində aşağıda adları çəkilən tamaşalar qoyulmuşdur: «Əsli və Kərəm», «Məşədi İbad», «Vaqif», «Beş manatlıq gəlin», «Hacı Qara», «Qatır Məmməd», «Qaçaq Nəbi», «Aşıq Qərib». Ə.Əsədov və X.Mərdanov bu tamaşaların rejissorları olmuşlar. 1963-cü ildə teatr maliyyələşdirilmədiyindən bağlandı.

1967-ci ildə kolxozlararası Azərbaycan musiqili dram teatrının bazasında Azərbaycan Xalq Teatrı yaradıldı.

Dərbənd Azərbaycan Xalq Teatrı – Dərbənd şəhərində 1967-ci ildə yaradılmışdır. Teatrın rəhbəri və rejissoru N.Həşimoğlu təyin edilmişdir. Bütün çətinliklərə baxmayaraq o, qısa müddət ərzində Dərbənd teatrının adət-ənənələrini davam etdirməyə hazır olan gözəl bir kollektiv yaratdı. Bu dövrdə, demək olar ki, keçmiş dövlət musiqili dram teatrının təcrübəli aktyorlarından qalmamışdı. Qalanlar isə özfəaliyyət teatrında işləmək üçün çox qoca idilər. Rejissor baş rolları özü oynayırdı. Ləzgi Dövlət dram teatrından xalq teatrına öz həyat yoldaşını, Dağıstanın Xalq artisti Düriyyə Rəhimovanı keçirmişdi. Onun qızı M.A.Əliyev adına Azərbaycan İncəsənət institutunun qiyabi şöbəsinin tələbəsi Yaqut Xandadaşova da teatrda işləyirdi.



Teatrın kollektivi belə ciddi tamaşaların öhdəsindən ləyaqətlə gəlmişdir: S.Vurğunun «Fərhad və Şirin», C.Cabbarlının «Solğun çiçəklər» və «Sevil», Yusif Əzimzadənin «Aprel səhəri», S.Rüstəmovun «Beş manatlıq gəlin» və «Rəisin xanımı», Ş.Qurbanovun «Birdən belə olmadı», M.Şamxalovun «Qayınana», Ü.Hacıbəyovun «Məşədi İbad», Q.Xuqayevin «Arvadımın əri» və «Elbrus evlənir» və s. Dövri mətbuat və mütəxəssislər teatrın işləri haqqında müsbət rəydə idilər.



Tamaşadan səhnəcik

Özfəaliyyət aktyorlarının peşəkarlığı layiqincə qiymətləndirilirdi. «Fərhad və Şirin» pyesinin quruluşu və aktyorlar Dağıstanın Mədəniyyət Nazirliyi tərəfindən mükafatlandırılmışlar. «Şirin» rolunda Düriyyə Rəhimova, «Fərhad» rolunda isə N.Həşimoğlu çıxış etmişlər. Eyni zamanda, tamaşada digər aktyorlar – «Şapur» – Əbulfəz Məmmədov, «Xosrov» – Vaqif Mehdiyev, «Azər-baba» – Seydulla Xanmirzəyev, «Suriyyə» – Təhmiraz İmamov, «Topal» – Fəxrəddin Orucda çıxış etmişlər.

Bu illər ərzində Nasir Həşimoğlunun rəhbərliyi altında teatr səmərəli işləmiş, o, pyeslərə quruluşlar vermiş, konsertlər hazırlamış, şəhər və rayon zəhmətkeşləri qarşısında çıxışlar etmişdir. Aktyorlar arasında Dağıstanın Xalq artisti Düriyyə Rəhimovanın, Məhərrəm və Rəhilə Ömərovların, Bənövşə Əhmədovanın (hazırda Dağıstan Respublikasının əməkdar artisti), Şövkət Abbasovun, Yaqut Xandadaşovanın (hazırda Dağıstan Respublikasının Əməkdar mədəniyyət xadimi, Azərbaycan Dövlət Dram Teatrının quruluşçu rejissoru) işlərini qeyd etmək lazımdır.

Teatrda musiqiçilər də işləmişlər: Məşdi-Rza Mehrəliyev (tar), Tacir Kamalov (klarnet) və başqaları.

1994-cü ildə N.Həşimoğlu ağır xəstələndi və təqaüdə çıxdı. Xalq teatrının rejissoru Dağıstan Respublikasının xalq artisti Düriyyə Rəhimova təyin edildi. O, bu vəzifədə Azərbaycan xalq teatrının Azərbaycan Dövlət Dram Teatrına (1998-ci il) dəyişdirilməsinədək işlədi.

Türk (Azərbaycan) Dövlət Dram Teatrı. XIX əsrin 80-cı illərinin ortalarında Dərbənd şəhərində Azərbaycan teatrsevərlər dram dərnəyi yaradıldı. Teatrın yaradıcıları və təşəbbüskarları şəhərin Azərbaycan ziyalılarının nümayəndələri – məktəblərin yuxarı sinif şagirdləri və müəllimləri olmuşlar.

O zamanlar müsəlman qadınlarının ictimai vəziyyətilə əlaqədar teatrın truppası yalnız kişilərdən ibarət idi və kişi aktyorlar qadın rollarını da ifa edirdilər. Teatrsevərlər truppası öz tamaşalarını şəhər ictimai klubunun səhnəsində, «Mulen» və «Miraj» kinoteatrlarının zallarında qoyurdular.

1904-cü ilin fevralında teatrsevərlər dərnəyinin kollektivi «Dərbənd musiqili dram teatrının Nizamnaməsi»ni təsdiq etmək üçün ərizə ilə müraciət etdilər. Bu Nizamnamə 1904-cü il sentyabrın 22-də Rusiya imperiyasının daxili işlər naziri tərəfindən təsdiq edildi. Bu gündən Dərbənddə onun çoxəsrlik tarixində ilk dəfə olaraq peşəkar teatr yarandı.

Bu teatrın özəyini xüsusi təhsili olmayan, lakin aktyor istedadı olan, teatra və incəsənətə bütün qəlbi ilə bağlı olan – Dürək Abbasqulu, Hüseynqulu Ərşad oğlu, Hüseyn Xankişi oğlu, Fətulla Hacı Səlim oğlu, Pərviz Hacı Səlim oğlu, Mirələm Mir Sadıq oğlu, Hacı Cübay Ələkbər oğlu, Məşədi İbad Hacı Tağı oğlu, Miqdar Hacıağa oğlu və s. təşkil edirdilər. Sonralar bu adlar Qafqazda peşəkar səhnə sənətinin tarixinə daxil olacaqdı.

Dərbənddə türk teatrının yaranmasında və inkişafında XIX əsrin sonunda Bakıda ilk peşəkar türk teatrının yaranması böyük rol oynamışdı. Bakı teatrının aktyorları tez-tez Dərbəndə qastrola gəlir, burada Dərbənd aktyorları ilə görüşür, onlarla dostluq əlaqələri yaradır, bilik və təcrübə mübadiləsi aparırdılar. Dərbənd tamaşıçıları qarşısında Hüseynqulu Sarabski (Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» operasında Məcnun rolunun ilk ifaçısı), Mirzəağa Əliyev (gələcəkdə SSRİ xalq artisti), Hüseyn Xələfov (Hüseyn Ərəblinski), Əhməd Anatollu, H.Hacıbabəyov, M.Bağırov və Bakı teatrının başqa görkəmli aktyorları çıxış etmişlər. Öz növbəsində, Dərbənd türk dram teatrı da öz tamaşalarını Qubada və Bakıda göstərmişdir.

1910-cu ildə Şəhər ictimai klubunun səhnəsində Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» operasının Dərbənd türk dram teatrının quruluşunda ilk tamaşası olmuşdur. Məcnun rolunu üç gənc aktyor ifa etmişdir: Dürək Abbasqulu, Hüseynqulu Ərşad oğlu, Fətulla Hacı Səlim oğlu. Leyli rolunu iki qardaş – Yönis və Ağababa ifa etmişlər. Operanın quruluşu böyük uğurla keçmiş və bu barədə «Kaspi» (Bakı şəhəri), «Qafqaz» (Tiflis şəhəri), «Terek» (Vladiqafqaz şəhəri) kimi mötəbər qəzetlərdə heyrətedici məqalələr çıxmışdır.

Həmin səhnədə və elə həmin ildə Ü.Hacıbəyovun «O olmasın, bu olsun» komediyasının tamaşası olmuşdur. Tacir Məşədi İbad rolunu Məşədi İbad Hacı Tağı oğlu, Sultan bəy rolunu – Miqdar Hacıağa oğlu ifa etmişdir.

1918-ci ildə inqilab hadisələri və ölkədə vətəndaş müharibəsinin başlanması ilə əlaqədar şəhər klubu bağlanmış və truppa dağılmışdır.

1920-ci ildə şəhərdə sovet hakimiyyəti tam qurulduqdan sonra, keçmiş şəhər klubunun binasında

ölkədə «mədəni inqilab» çərçivəsində keçirilən tədbirlər nəticəsində Gənc proletarlar klubu açıldı (KPM). Yeni klubun müdiriyyəti digər tədbirlərlə yanaşı, Azərbaycan teatrsevərlər teatrının da işini bərpa etdi.

Teatrın yeni truppasının tərkibində «gənc fəallar» işləməyə başladılar: Məmmədkazım Ələkbərli, Əbdülcəlil Əsgərov, Süleyman Ələkbərov, Müzəffər Əliyev, Fazil Seyidov və başqaları.

1927-ci ildə Azərbaycan teatrsevərlər truppasına peşəkar teatr statusu verildi və keçmiş şəhər ictimai klubunun binası Gənc proletarlar klubuna verildi. Şəhər Sovetinin sədri Mehrab Mamərzabəyovun göstərişi ilə teatrın açılışına qədər bina şəhərin memarı Mustafa Qasımovun və tikinti idarəsinin rəisi Mürsəl Xıdırbəyovun rəhbərliyi altında əsaslı təmir edilmişdir. Tamaşaçı zalı gips naxışlarla bəzədilmiş və qızıl su ilə işlənmişdir.

Lakin teatrın açılışına bir gün qalmış gecə naməlum səbəblərə görə binada yanğın baş verimiş və bina tamamilə yanmışdır. Səhnəsiz qalmış truppa yenidən dağılmışdır.

1930-cu ildə şəhərdə «İnşaatçılar klubunun» tikintisi başa çatdı (hazırda III İnternasional 15-də yerləşən S.Stalski adına ləzgi dövlət teatrının binası). 1931-ci ildə bu klubda Dağıstanda ilk peşəkar Azərbaycan Dram Teatrı açılmışdır. Teatra rejissor Bakıdan dəvət olunmuşdur. Bu Dərbənddə doğulmuş gənc istedadlı aktyor – gələcəkdə Azərbaycan Respublikasının Xalq artisti və SSRİ xalq artisti İsmayıl Dağıstanlı idi.

1933-cü ildən 1949-cu ilə qədər teatrın rejissoru Müsaib Cümcüm olmuşdur.

1936-ci ildə Azərbaycan teatrına Azərbaycan Dövlət musiqili dram teatrı adı verilmişdir.

Dürək Abbasqulu, Hüseynqulu Ərşad oğlu, Hüseyn Həsənkişi oğlu, Fətulla Hacı Səlim oğlu, Pərviz Hacı Səlim oğlu, Mirələm Mir Sadıq oğlu Seyidov, Sira İzmaylova, Əsədulla Quliyev, Miqdar Hacıağa oğlu, Seyfulla Quliyev, Əbu Müslim Dərbəndli, Əbilfəz İzmaylov, İsabəy Mirzəbəyov, Seyid Hüseyn Abdullayev, Həmdulla Qarayev, Nüsrət Vəzirov, Məzahir Əmirov, Məşədi Kazımov və b. müxtəlif illərdə teatrda uğurla çalışmışlar.

1949-cu ildə Dağıstan MSSR hökumətinin sərəncamı ilə Azərbaycan dövlət dram teatrı bağlanmışdır.

1960-ci ildə Azərbaycan Dövlət teatrının keçmiş artisti Əsəd Əsədovun rəhbərliyi altında «Kolxozlararası Azərbaycan teatrı» yaradılmışdır. Bu teatr cəmi bir il fəaliyyət göstərmişdir.



1967-ci ildə yaradılmış Azərbaycan xalq teatrı bazasında 1998-ci il aprelin 23-də Dağıstan Respublikası hökumətinin qərarı ilə yenidən Azərbaycan Dövlət dram teatrı yaradıldı.

Teatrın səhnəsində C.Cabbarlının «1905-ci il», «Sevil», «Od gəlini»; A.Şirvanzadənin «Namus»; S.Vurğunun «Vaqif»; K.Trenyovun «Lyubov Yarovaya»; S.Rüstəmin «Qaçaq Nəbi»; Ü.Hacıbəyovun «Aşıq Qərib», «Arşın mal alan», «Məşədi İbad»; M. Qurbanovun «Molla Nəsrəddin»; Anarın «Təhminə və Zaur»; S.Abdullanın «Tahir və Zöhrə» və s. əsərləri tamaşaya qoyulmuşdur.

Xeyriyyəçilik konserti. Moskva teatr cəmiyyətinin xeyriyyəçilik konserti 1904-cü ildə Dərbənddə klubun şəhər ictimai zalında oldu. Konsertdə Moskva şəhərinin məşhur opera müğənniləri iştirak etmişlər. Şəhər klubunun səhnəsində P.İ.Çaykovskinin «Pikovaya dama», «Mazepa» operalarından və M.P.Musorqskinin «Boris Qodunov» operasından parçalar göstərilmişdir. Bu, şəhərdə səslənən ilk konsert idi. Konsertdən yığılan vəsait Moskvada A.S.Puşkinin abidəsinin qoyulması üzrə komissiyanın fonduna keçirilmişdir.

S.Stalski adına Dövlət Ləzgi musiqili dram teatrı. 1906-cı ildə Axtıda, Bakı neft mədənlərinin bir qrup fəhləsinin iştirakı ilə İ.Şamxalovun rəhbərliyi altında ilk ləzgi həvəskar teatrı yaradıldı.

Sovet hakimiyyəti qurulduqdan sonra ləzgi özfəaliyyət teatrı yarımpeşəkar teatra dəyişdirildi və

«Axtı sovet teatrı» adını aldı.

1935-ci ildə teatr dövlət dram teatrı, 1997-ci ildə isə ləzgi dövlət musiqili dram teatrı statusunu aldı.

1938-ci ildə teatra Dağıstanın xalq şairi İ.Stalskinin adı verildi.

1949-cu ildə teatr Axtıdan Dərbənd şəhərinə köçürüldü.

Teatrın yaranmasında və qurulmasında Azərbaycan mədəniyyətinin böyük təsiri olmuşdur. İlk teatrsevərlər truppası özü ilə Axtıya Azərbaycan teatrının adət-ənənələrini gətirdi.

Həvəskar aktyorlar ilk tamaşaları Azərbaycan müəlliflərinin pyesləri üzrə tərcüməsiz oynayırdılar (o zamanlar Cənubi Dağıstanın, demək olar ki, bütün əhalisi Azərbaycan dilini millətlərarası ünsiyyət dili olduğu üçün bilirdi).

İ.Şamxalov adına həvəskar teatr ləzgi dramaturgiyasının yaranmasına təkan verdi. Zaman keçdikcə teatrın repertuarı İ.Şamxalovun «Bürcəli» və «Pəri xanım», N.Eyyubovun «Səlim və Zöhrə», B. Hacıyevin «Əlican» və s. kimi tamaşaları ilə zənginləşdi.

Ləzgi teatrının yaranmasında rejissorlar S.Ağabalayev, K.Ramazanov, M.Cümcüm və B.Aydayev, şair T.Xryukski, aktyorlardan A.Saydumov, S.Vəlixanov, M.Kuxmazov, A.Maqsudov, A.Allahquliyev, Ş.Kuxmazova, M.Mirzəbəyov. İ.Ramazanov, A.Həbibov və başqaları böyük rol oynamışlar.

Dağıstanda milli ləzgi teatr sənətinin inkişafına mühüm töhfə vermiş azərbaycanlı incəsənət xadimlərindən biri də tanınmış rejissor Faiq Zöhrabov olmuşudur.

1963-1968-ci illərdə İncəsənət İstitutunun rejissorluq fakültəsində sənət müəllimləri Tofiq Kazımov və Rza Sarabskidən təhsil alan F.Zöhrabov 5 il – 1985-1991-ci illərdə kollektivin xüsusi dəvəti ilə Dağıstanda S.Stalski adına Ləzgi Dövlət Dram teatrının baş rejissoru kimi xalqlarımız arasında mədəni-tarixi əlaqələrin möhkəmləndirilməsinə xidmət edib. Burada o, Georgi Lezgintsevin «Dağlardan gəlmiş adam» romanı əsasında eyniadlı pyesi, Qaldoninin «Məzəli əhvalatlar» və özünün yazdığı «Qardaşlar» pyesinin tamaşasını hazırlayıb. Dağıstan ictimayyəti və mətbuatı Azərbaycan rejissorunun fəaliyyətini minnətdarlıq hissi ilə yüksək qiymətləndirib. Bu barədə onlarla məqalə yazılmışdı. Teatrşünas Ş.Yusifovun «Dağlardan gəlmiş adam» pyesinin tamaşası ilə əlaqədar Muxtar respublikanın baş orqanı olan «Daqestanskaya pravda» qəzetinin 27 mart 1986-cı il tarixli nömrəsində çap olunmuş geniş məqalədə deyilir: «Yeni tamaşa teatrın işində yaxşılığa doğru əsaslı dönüş yarandığını deməyə əsas verir. Bu dönüş hər şeydən əvvəl Faiq Zöhrabovun teatra baş rejissor vəzifəsinə gəlməsi ilə başlanıb. Onun ilk tamaşası kollektivin yaradıcılıq tərcümeyi-halında böyük hadisəyə çevrildi». F.Zöhrabovun səhnədə gənc kadr problemindən bəhs edən «Qardaşlar» pyesi özünün quruluşunda Dağıstan tamşaçıları tərəfindən rəğbətlə qarşılanıb. Dağıstan mətbuatı əməkdar artist A.Ədilbəyovun «Rejissor» məqaləsi («Znamya kommunizma» qəzetində, 19.09.87) F.Zöhrabovun taleyini qardaş xalqın mədəniyyətinə bağlamağı bacaran «Dağıstan teatr incəsənət tarixinə parlaq səhifələr yazan» yaradıcı şəxsiyyət kimi qiymətləndirir. Qəzet yazır: «F.Zöhrabov həssas, qayğıkeş və tələbkar pedaqoq, novator rejissordur. O, dramaturgiya sahəsində də uğurla fəaliyyət göstərir, yazdığı pyes səhnədə rəğbətlə qarşılanıb».



Faiq Zöhrabov

F.Zöhrabov dünya dramaturgiyası ilə dərindən maraqlanan, Azərbaycan teatrının bədii imkanlarını genişləndirən bir rejissor olmuşdur.

Yeri gəlmişkən, F.Zöhrabovun xidmətləri təkcə rejissorluq fəaliyyəti ilə bitmir. O, həm də tərcümə etdiyi pyeslərin müəllifi, həssas və tələbkar pedaqoq idi.

F.Zöhrabov bir pedaqoq kimi fəaliyyəti dövründə istedadlı aktyor nəsli yetişdirib. Onun tələbləri sırasında milli teatrımızın ağırlığını daşıyan Yaşar Nuri, Zərnigər Ağakişiyeva, Gülşən Qurbanova, Hüseynağa Atakişiyev, Pərviz Bağırov, Atabala Səfərov, Ofelya Aslan, Azər Mirzəyev kimi sənətkarlar, Zahid Quliyev, Zümrüd Məmmədova kimi tanınmış ifaçılar çıxmışdır.

Hazırda teatra Dağıstan Respublikasının xalq artisti və Rusiyanın Əməkdar artisti rejissor Ə.Novruzbəyov başçılıq edir.

KİNOTEATR

XIX əsrin sonunda Dərbənd şəhərində 3 özəl kinoteatr fəaliyyət göstərirdi: «Miraj» (sahibi H.Abdullayev və Çiqayev) – bu kinoteatr neft sənayeçisi H.Abdullayevin evinin 1-ci mərtəbəsində (ev 1924-cü ildə yanmışdır), «Mulen» kinoteatrı – Komendant küçəsində Şturmanın evində (hazırda burada 1 saylı uşaq idman məktəbi yerləşir) və «Elektro-Skettinq» yay kinoteatrı şəhərin ictimai bağında yerləşirdi. Bu, Dağıstanda ilk kino qurğuları idi.

1935-ci ildə Lenin küçəsi 42-də, «Rodina» kinoteatrı tikildi. 2000-ci ildə bu bina Azərbaycan dövlət dram teatrına verildi.

1983-cü ildə 600 və 200 yerlik iki zallı yeni tipli «Yubiley» kinoteatrı istismara verildi. Bu kinoteatr Buynaksk küçəsi, 51-də yerləşirdi. 1997-ci ildə bu bina Stalski adına Ləzgi dövlət musiqili dram teatrına verildi.



Kinoteatr «Rodina»



Kinoteatr «Yubiley»

KLUB

Komsomol klubu. Dərbənd şəhərində 1922-ci ilin sonunda Rusiya kommunist gənclər ittifaqı Dərbənd komitəsinin təşəbbüsü ilə yaradılmışdır. Klubun təşkilatçıları Vera Saksoy, Vavilon Aruyunov, Polina Qrebennikova və s. olmuşlar. Klub ilk komsomol təşkilatının rəhbəri Semyon Erlixin adı ilə adlandırılmışdır. Klubun işçiləri şəhər və kəndli gənclər arasında bolşeviklərin xeyrinə kütləvi siyasi-tərbiyəvi işlər aparırdı. Klubun nəzdində dərnəklər fəaliyyət göstərirdi: simli alətlər və dram dərnəyi, qızlar üçün isə tikiş dərnəyi açılmışdı.

Şəhər ictimai klubu. 1962-ci il mayın 16-da Dərbənd şəhərində ictimai klubun binasının əsası qoyuldu. Tikinti üçün yer şəhər ictimai bağının qərb hissəsində (hazırda Kirov adına parkdır), Qubernator küçəsində (hazırda III İnternasional küçəsi) seçilmişdir. Tikinti üçün şəhər vəsaitlərindən 10 min rubl ayrılmış və 5 min rubl dəyərində ianə toplanmışdır. Bir il yarımda birmərtəbəli binanın tikintisi başa çatdırıldı və 1863-cü il dekabrın 19-da 130 nəfər klub üzvünün iştirakı ilə onun açılışı oldu.



Keçmiş şəhər klubu

«Qafqaz» qəzetinin verdiyi məlumata əsasən, açılışdan sonra «nahar və rəqslər» keçirildi. Klubun işinə sədrin rəhbərliyi ilə Ağsaqqallar Şurası başçılıq edirdi. Klub uzvlərinin ümumi iclasında şəhər

rəisi knyaz M.Q.Cemaridze tərəfindən qəbul edilmiş «Dərbənd şəhərinin şəhər ictimai klubunun Nizamnaməsi» Qafqaz canişini tərəfindən təsdiq olunması üçün Tiflisə göndərilmişdir.

Klubda kitabxana təşkil olunmuşdu. Klubun nəzdində hərbi qarnizon batalyonunun «xor musiqisi» dərnəyi də fəaliyyət göstərirdi. Lakin, 1874-cü ildə batalyonun əvəzinə yerli komanda təsis edildiyinə görə klub musiqisiz qaldı. Klubun Ağsaqqalar Şurası şəhərdə xorun böyük əhəmiyyətini nəzərə alaraq xor dərnəyini saxlamaq üçün bu zaman şəhərdən keçən Qafqazda canişin olan böyük knyaz Mixail Nikolayeviçə, xahişlə müraciət edir. Onların bu xahişi yerinə yetirilir.

Klubun kiçik səhnəsində hərbi qarnizonun zabitlərinin və onların arvadlarının qüvvəsi ilə rus həvəskar teatrı fəaliyyət göstərirdi. Sonralar ziyalıların və təhsil müəssisələri tələbələrinin köməyi ilə burada səhnəyə azərbaycan dilində kiçik pyeslər tamaşaya qoyulurdu.

Şəhərin ictimai həyatında mühüm rol oynayan klubun işi daim hakimiyyətin nəzarəti altında idi.

1900-cu ilin aprelində klubun yeni Nizamnaməsi qəbul edildi. Şəhərdə sovet hakimiyyəti illərində (1920-ci il) klubun binasında «Fəhlə-kəndli gənclər klubu», sonra isə «Dağlı qızlar klubu» açılmışdır. 1925-ci ildə klubun binası Azərbaycan teatrsevərlərinə verilmişdir. 1927-ci ildə klubun binası əsaslı təmir edilmiş və peşəkar Azərbaycan dram teatrına çevrilmişdir. Lakin teatrın rəsmi açılışı gecəsi klubun binası yanmışdır və XX əsrin 50-ci illərinə kimi bina bərpa edilməmiş qalmışdır. Bina təmir edildikdən sonra burada «Məktəblilər və pionerlər evi» yerləşdirilmişdir. Hazırda binada Şəhər təhsil idarəsi yerləşir.

Uşaq və yeniyetmə yaradıcılıq sarayı. 1930-cü ildə Dağıstanda uşaqlarla məktəbdən kənar işlər üçün iki uşaq müəssəsi yaradılmışdır – Dağıstan və Dərbənd «Uşaqların bədii tərbiyəsi üzrə evlər». «Uşaqların bədii tərbiyəsi üzrə evlər» bədii iş sahəsində uşaqların tələbatını qane etmədiyi üçün 1936-cı ildə Dağıstan MSSR Xalq Komissarları Şurasının qərarı ilə və ÜLKGİ MK-nın 22 iyul 1936-cı il tarixli qərarına uyğun olaraq Dərbənd və Dağıstan «Uşaqların bədii tərbiyəsi üzrə evlər» ləğv edildi və onların bazasında Mahaçqala və Dərbənd «Pionerlər evi» yaradıldı. Bu sənədə əsasən Dərbənd Şəhər Soveti Rəyasət heyətinin 18 oktyabr 1936-cı il qərarı ilə Dərbənd pionerlər və məktəblilər evi yaradılmışdır. Dərbənd pioner və məktəblilər evinin ilk müdiri Dərbənd «Uşaqların bədii tərbiyəsi üzrə evlər»in müdiri olmuş Spektr Viktoriya Nikolayevna olmuşdur. Bu müəssisənin adı bir neçə dəfə dəyişilmişdir – Dərbənd pioner və məktəblilər evi, Uşaq yaradıcılığı evi, Uşaq və yeniyetmə sarayı, Uşaq və yeniyetmə yaradıcılıq sarayı.

Hazırda uşaq və yeniyetmə yaradıcılıq sarayına 2500-dən yuxarı uşaq cəlb olunmuşdur. Onun nəzdində 49 dərnək, klub, studiya, bölmə və s. uşaq mərkəzləri yaradılıb.

Sirk – Dərbənddə sirk 1936-cı ildə açılmışdır. Burada göstərilən tamaşalar əsasən, o dövrdə Rusiyada dəbdə olan güləş yarışlarından ibarət idi.

Dərbənd sirkinin səhnəsində yerli güləşçilərlə yanaşı – Kazbek (Dərbənd), Rabayev (Dərbənd), həmçinin başqa şəhərlərdən gəlmiş güləşçilər də – Ladoqa (Kiyev), Kamenkov (Xarkov), Ziqanşin (Kazan) və s. iştirak etmişdilər. Sirk 1940-cı ildə bağlanmışdır.

Fotoatelye – şəhərdə ilk dəfə 1900-cu ildə Şərifov, 1901-ci ildə isə M.Qurni tərəfindən açılmışdır. 1902-ci ildə daha bir fotoatelye İvan Antonyuk tərəfindən açılmışdır.

O dövrdə Dağıstanın bütün şəhərlərində – Temirxan Şurada (Buynaksk), Port-Petrovskda, Gizlərdə fotoatelyelər açılırdı və onlar şəhərin mədəniyyətinin inkişaf səviyyəsi kimi qiymətləndirilirdi.

ŞƏHƏRSALMA MƏDƏNİYYƏTİ

Dərbəndin şəhər və kəndləri (VII-X əsrlər). Yunan coğrafiyaşünansı Ptolomey (70-147-ci illər) Qafqaz Albaniyasında 29 şəhər və kənd olduğunu göstərir. O, bunların arasında Xabala, Moseqa, Albana, Şamaxıya, yaxud Kamexiya, Ketara, Baruka və başqalarının adını çəkir. Bəzi alimlər (d'Anvil, Tomaşek, Barbuye və b.) həmin adları Qəbələ (Cabalaca), Dərbənd (Albaniya), Şamaxı (Samechia), Bakı (Gaetara, Baruca) şəhərləri ilə eyniləşdirirlər.

VI əsrin əvvələrində massagetlərin Arşakilər hakimliyi Sasanilər tərəfindən aradan qaldırıldıqdan sonra Şabrançay və Gilgilçay hövzələri arasındakı ərazidə Şirvanşahlar adlı kiçik feodal məlikliyi yarandı. Sonralar X əsrdə Şirvanın ərazisi xeyli genişləndi. Şimali-şərqdə Dərbənd, şimali-qərbdə Şəki və cənubda Muğan müəyyən vaxtlarda onun tərkibində olmuşlar. «Alban tarixin»də Şirvanda lokallaşmış aşağıdakı məskən və şəhərlərin adları çəkilir: Çoğa (Çola, Çor, Zur) - Dərbənddən cənubda Torpaqqala şəhər ərazisini yerində qala və şəhər; Kapaqa (Qəbələ) – vilayət və şəhər; Aqven (Alven, Albaniya); Baqasakan-vilayət və şəhər; Şake, Dərbənd şəhər-qala.

VIII əsr müəllif Gevondun «Xəlifələrin tarixi» əsərində Baqasan çölünün (Dəşti-Beyləqan), Dərbəndin Maskutlar (massaget) məmləkətinin (Quba rayonu), Aşti-Baquan (Bakı adları), Spatar-Peroz, Hürmüz-Peroz vilayətlərinin adları çəkilir.

VII əsr məxəzində Kür zonasında neft və duz çıxarılmasından xəbər verilir ki, bu da, şübhəsiz, Bakıya və Abşerona aiddir. VII əsrin birinci yarısında neft Qəbələyə, Dərbəndə və başqa şəhərlərə aparılırdı. 733-cü ildə Dərbənddə hərbi texnikada işlədilən neftin saxlanması üçün anbarlar tikilmişdi. Orta əsrlərdə Şirvanın tərkibinə daxil olan ən qədim şəhərlərdən biri də Dərbənd idi. O, iri iqtisadi mərkəz, Şimali Qafqazı Cənubi Qafqaza və Yaxın şərq ölkələri ilə bağlayan qovşaq məntəqəsi idi. Dərbənd mühüm strateji əhəmiyyətə malik idi. E. ə. VIII-VI əsrlərdə burada artıq müdafiə istehkamları mövcud idi. V əsrdə Dərbənd Şərqi Qafqazın iri sənaye və iqtisadi mərkəzi, 461-ci ildən sonra Sasanilər dövlətinin tərkibinə daxil olan canişinliklərdən birinin paytaxtı idi.

Alban salnaməsi «Alban tarixi» Sasanilərin Şərqi Qafqazdakı ən nəhəng tikinti abidələrindən birinin Dərbənddən 25 km cənubda, Torpaqqala şəhər xarabalığının yerində lokallaşdırılan, ətrafında bürcləri və qapıları olan iri qala divarlarının qalıqları qalmış Çoğa, Çor, Çol şəhərinin də adını çəkirlər. Çor eramızın əvvəllərində Massaget hökmdarlığının paytaxtı idi. Sonralar, Dərbəndin möhkəmlənməsi və bölünməsi ilə bağlı Çoğa tənəzzülə uğrayır və adını tamamilə itirərək Dərbəndlə əvəz olunur.

Volqadan, yaxud Xəzəryanı ölkələrdən gələn gəmilərin dayanması üçün reydi olan Dərbənd Xəzər dənizində xüsusi limana çevrildi. Limana giriş dənizin içərilərinədək uzanan iki paralel divar arasında çəkilmiş zəncirlə bağlanmışdı. Limana gəmilər yalnız şəhər hakimiyyət dairələrinin icazəsi ilə daxil olurdu.

Bax: Sara Aşurbəyli. Şirvanşahlar dövləti. - Bakı, Avrasiya press, 2006. səh. 30-49.



Dərbənddə şəhərsalma erkən orta əsrlərdə.

Erkən orta əsrlər Dərbəndin topoqrafiyası islamaqədərki Orta Asiya şəhərləri üçün xas olan iki və ya üç fərdi bölməli klassik sxemə tam uyğun idi, burada qala, şəhər və şəhər ətrafı (rabad) əsas komponentlər hesab olunurdu.

Çoxillik tədqiqatlar nəticəsində erkən orta əsrlər Dərbəndinin iki əsas hissəsini: qala və şəhər aşkar edilmişdir.

Dərbənd 150 ha olan divardaxili şəhər ərazisinə görə Ön Şərq, Cənubi Qafqaz və Orta Asiyanın ən böyük erkən orta əsrlər şəhərlərindən çox böyük idi. Belə ki, Orta Asiyanın ən böyük erkən orta əsr-

lər şəhərlərinin yerləşdiyi ərazilərin ölçüləri belə idi: Buxara – 35 ha, Termez – 20 ha, Pəncikənd – 14 ha, Kafirqala – 16 ha, Varaxşi – 9 ha, Səmərqənd – 65 ha.

Qeyd olunmuşdur ki, Narınqaladan Cümə məscidinə kimi olan divarlararası ərazi erkən məskünlaşma ərazisi olmuşdur. Bu rayonun Cənub divarında hərbi nöqteyi-nəzərdən iki təhlükəsiz qapı var idi: Bayat qapı və Orta qapı. Bu qapılar şəhərin küçələri ilə sıx bağlı idi.

Şəhərin erkən orta əsrlər ərazisi Sasani İranında mövcud olan şəhərsalma planına əsasən tikilirdi. Sasani İranında mövcud olan şəhərsalma planında antik şəhərlərin bir çox xüsusiyyətləri qorunub saxlanmışdır. Məhəllələrin planlaşdırılması şəhər ərazisini balaca dar küçələr bloklara bölürdü. Bu küçələr haqqında VIII-IX əsrlərin ərəb müəllifləri məlumat vermiş və həmin küçələr şəhərin yuxarı qədim hissəsində bu günədək qorunub saxlanılmışdır.

Şəhərin üç baş küçəsi yuxarıdan aşağıya, Dərbənd təpəsinin ətəyindən Cümə məscidi rayonunadək uzanırdı. Onlardan ikisi şəhərin Şimal və Cənub divarları boyunca uzanırdı, biri isə ortadan keçirdi. Bu küçələrlə 7-8 köndələn küçə kəsişirdi və məhəllələr əmələ gəlirdi.

Bu məhəllələr haqqında ilk məlumatları IX-X əsrlər ərəb müəllifləri (ət-Təbəri, Bəlazuri, Bələmi və b.) vermişlər. Onların məlumatına görə, ərəb sərkərdəsi Məsləmə hicri tarixi ilə 115 (733/4)-ci ildə Dərbəndi zəbt etdikdən sonra, şəhəri 7 məhəlləyə (ərəb., kısm) bölmüş və orada Xilafətdən gətirilmiş 24 min könüllünü tayfa-tayfa məskunlaşdırmışdır. Həmin qismlər tayfaların adı ilə adlandırılmışdı: «Dəməşqi» (Suriya), «Fələstin», «Xomisi» (Suriyada Xoms şəhəri), «Qeysəri» (Mərkəzi Anadoluda Qeysəriyyə şəhəri), «Cəzirə» (əl-Cəzirə – Dəclə və Fərat çayları arasındakı ərazinin şimal hissəsində tarixi vilayət), «Mosılı» (İraqın şimalında Mosul şəhəri) və bir qism yerli əhalinin adı ilə «Xəzəri» adlandırılmışdır.

Bəzi mənbələrin məlumatına görə şəhərdə İordaniyadan çıxmışlar yaşayan «İordan» qismi və Küfi şəhərinin sakinləri məskunlaşan «Küfi» qismi mövcud idi.

Xilafətin mövqeyi zəifləyəndən və şəhərdə türk elementi qüvvətləndikdən (XII-XIII əsrlər) sonra, şəhər məhəllələri və küçələri yeni adlar almışdır: «Bayat məhəlləsi» - Bayat qapının yanındakı məhəllə, hazırda 8-ci məhəllə; «Carçıqapı məhəlləsi» və ya «Anbarüstü» - Carçı qapının yanındakı məhəllə, hazırda 9-cu məhəllə; «Ortatəpə məhəlləsi» - hazırda 7-ci məhəllə; «Gümri meydanı» - hazırda 8-ci məhəllə Yuxarıdan aşağıya tərəf uzanan küçələr belə adlandırılmışdır: şəhər cənub divarı boyunca uzanan küçə – «Məlik küçə», şəhər şimal divarı boyunca uzanan küçə – «Xan küçəsi» və mərkəzi küçə – «Orta küçə».

Köhnə şəhərdə rahatlıq və istiqamət götürmək üçün aralıqlar və tinlər salınmışdır. Onlar burada yerləşən tikililərin adı ilə adlandırılmışdır: Məscid aralığı, Nalbənd aralığı, Basqallar aralığı, Hamam aralığı, Bazar aralığı və s.

Şəhərin inkişafı ilə əlaqədar Cümə məscidindən aşağı məhəllələrə yeni adlar verilmişdir: Peyinnik başı – hazırda 5-ci məhəllə, 118-ci məhəllə; Çahartəpə – hazırda 1-ci məhəllə, 112-ci məhəllə; Mikri məhəlləsi – hazırda 2-ci məhəllə; Bayat ocağı – hazırda 3-cü məhəllə; Molla daşı – hazırda 1-ci məhəllə, 96-cı məhəllə; Şirvan burnı – hazırda 1-ci məhəllə, 58-ci məhəllə.

Məhəllələrin ərəb adları öz əhəmiyyətini itirmiş, lakin türk adları olduğu kimi qalmışdır.

Dərbəndin şəhər və kəndləri (IX–X əsrlərdə). IX-XI əsrlərdə Şirvanın şəhərləri və digər yerləri ərəb mənbələrinin məlumatlarında (İbn Xordadbeh) Qafqazın şərq hissəsində olan 11 «dağ şahı» kimi qeyd olunur. Həmin məmləkətlər sırasında Bab (Dərbənd) və başqalarının adını (Qəbələ, Şirvan, Məsqət, Şəbəran, Ləkz və s.) çəkirlər. Göstərilən vilayətlər VIII əsrdə şahlıq adlandırılan ayrıca feodal məlikləri idisə, artıq IX əsrdən onlar tədricən Şirvan tərəfindən tabe edilərək müstəqilliklərini itirirlər. Bu məliklər IX-XI əsrlərdə müxtəlif vaxtlarda Şirvanşahlar dövlətinin tərkibinə daxil olmuşlar.

«Tarix-i əl-Bab»da Şirvana və Dərbəndə hücum edənlərin adı dəfələrlə çəkilir. Dərbəndin cənubunun hidronimikasında, ehtimal ki, alan dili leksikasına mənsub olan Rubas («Tülkü») çay adı qalmışdır.

«Tarix-i əl-Bab»da Məsqət X-XI əsrlərdə deyləmlilərin, rusların və kürdlərin hücumlarına məruz qalmış bir şəhər kimi dəfələrlə xatırlanır. XI əsrin 2-ci yarısında Şirvanşah Fəribürz Məsqət vilayətlərinə sahib olmaq uğrunda əl-Bab əmirləri ilə müharibələr aparmış, onun bütün torpaqlarını tutub Şirvan vilayətinə qatmışdı.

Yaqutun lokallaşdırılmasına görə (1227) «Bab

əl-Əbvab, yaxud Dərbənd yaxınlığındakı bu qədim şəhər» ehtimal ki, indiki Qubanın yerində olmuşdur.

Əl-İstəxri (təqribən 930-cu ildə yazmışdır) göstərir ki: «Bərdədən Bab əl-Əbvaba olan yol: Bərdədən Bərzəncə 18 fərsəx, əl-Abxazdan Samur körpüsünədək 12 fərsəx və Samur körpüsündən Bab əl-Əbvabadək 20 fərsəxdir».

İbn Hövqəl qeyd edir ki, «Bərdədən əl-Əbvaba olan yol» «Bərdədən Kür çayı üstündə yerli və gətirilmə mallar satılan mühüm ticarət şəhəri Bərdicə 18 fərsəx; Samur körpüsündən Bab əl-Əbvaba 20 fərsəxdir».

Yuxarıda qeyd olunan marşrutlarda Şəbərandan Abxaza, Abxazadan Samura və Samurdan Dərbəndədək olan məsafənin fərsəxlərlə göstərilməsi Abxazı indiki Qubanın yerində və onun yaxınlığında lokallaşdırmağa imkan verir.

İbn Hövqəl 977/8-ci ildə yazdığı əsərində Bərdə, Bab əl-Əbvab və Tiflisi Arranın ən böyük şəhərləri adlandırır. İbn Hövqəlin xəritəsində göstərilir: əl-Bab (Dərbənd), Şəbəran, əl-Abxaz (Quba), Kabisi, Şəki, Qəbələ, Təbəsəran Dərbənddən şimal-qərbdə, Cənubi Dağıstanda, indiki Tabasaran ərazisində mövcud olmuş və ehtimal ki, X-XI əsrlərdə arabir Şirvanşahlara tabe ərazilərə daxil olmuşdur.

Dərbənd və Azərbaycanda XI əsrin əvvəli - XIII əsrin birinci rübündə şəhərlərin inkişafı. Feodal cəmiyyətinin məhsuldar qüvvələrinin inkişafı, sənətkarlıq, ticarət və əmtəə-pul münasibətlərinin yüksəlişi Şirvan dövlətində şəhərlərin və şəhər həyatının inkişafına səbəb oldu. XIII əsrin birinci rübündə Şirvanda iri iqtisadi və mədəni mərkəzlər kimi çoxlu əhaliyə malik bir sıra böyük şəhərlər var idi. Şamaxı, Bakı, Beyləqan, Dərbənd Şərqdə məşhur olan mühüm sənətkarlıq və ticarət mərkəzlərinə çevrildilər. Mənbələrdə Şirvanın şəhər və kəndlərində xalçaçılığın inkişaf etdiyi xəbər verilir. XIII-XIV əsrlərə aid Dərbənd-Şirvan qrupuna məxsus ən qədim xalça dövrümüzədək gəlib çıxmışdır.

Kəndlərdə pambıq və kətan becərilirdi. Onlardan şəhərdə pambıq və kətan parça və paltar hazırlanırdı. Bu sahədə Dərbənd xüsusilə şöhrət qazanmışdı. Ərəb və fars mənbələrində Şirvanın mühüm şəhərləri, bir sıra yerlərdə çıxarılan faydalı qazıntıları kənd təsərüfatı məhsulları, sənətkarlıq əsərləri, şəhərlərdəki ticarət haqqında məlumat verilir.

XIII əsrin birinci rübündə Abşeronda xeyli neft çıxarılırdı. Bunu irandilli coğrafiyaşünas Məhəmməd ibn Nəcib Bəkranın verdiyi məlumatlar da təsdiq edir. O, təqribən 1210-cu ildə yazdığı «Cahannamə» əsərində neftin müxtəlif növlərindən danışarkən Bakı və Muğandakı neft quyularından ağ neft, Dərbənd yaxınlığında yaşıl neft hasil olduğunu qeyd edir.

Ərəb müəllifi əl-İdrisi h. 548 (1154)-ci ildə yazdığı «Coğrafiya» əsərində və xəritəsində Arran və Şirvanın mühüm şəhərləri arasında Beyləqan, Əş-Şəməxiyyə, Şirvan, Bab əl-Əbvab, Əş-Şəbəran, Qəbələ və Şəkinin adlarını çəkir. Əl-İdrisi Bab əl-Əbvabdan Tiflisə qədər bütün Arran ölkəsində külli miqdarda boyaqotu yığılmasına və Xəzər dənizi vasitəsilə Curcana, oradan isə Hindistana aparılmasına dair İbn Haqvəlin məlumatını təkrar edir. XIII əsrin əvvəlinə dair «Əcaib əd-Dünya» əsərində Dərbənd malları arasında rus tacirlərinin şimaldan gətirdikləri qiymətli «qunduz, samur, sincab xəzlərinin, qul və gözəl cariyələrin» adlarını çəkir.

1971-ci ildən etibarən Dərbənd ərazisində aparılan arxeoloji qazıntılar bu qədim şəhərin iqtisadi həyatına dair narrativ mənbələrin məlumatlarını tamamlayır. Qazıntılar nəticəsində iki hissədən – içqala və şəhərin özündən ibarət olan orta əsrlər Dərbəndinin strukturu müəyyən edilmişdir. Dərbəndin müdafiə istehkamları kompleksində Narınqala içqalası xüsusi yer tutur. İçqalanın bir hissəsi Sasanilər dövründə və XI əsrin sonu – XII əsrdən daha intensiv şəkildə məskunlaşmışdır. Kompleksin çox böyük olması, onun içqalanın ən əlverişli yerində yerləşməsi, binanın divarlarının orta əsrlər Dərbənd memarlığı üçün son dərəcə nadir hal olan bişmiş kərpicdən tikilməsi və çoxsaylı avadanlığı bu memarlıq abidəsinin qalıqlarını XII-XIII əsrlər Dərbənd xanının sarayı ilə eyniləşdirməyə əsas verir.

Yazılı mənbələrin xəbər verdiyi kimi, Dərbənd Qafqazda böyük şəhər və Xəzər dənizində iri liman kimi tikilmişdir. XI-XIII əsrin əvvəllərində Dərbənddə qızğın şəhər həyatı olmuş, sənətkarlıq və ticarət, bir sıra ölkələrlə əmtəə-pul münasibətləri inkişaf etmişdir.

Beyləqan, Şamaxı və Dərbənd əhalisi şəhərətrafı yardımçı təsərrüfatla məşğul olurdu. Sənətkarlığın inkişafı XI-XIII əsrlərdə ticarətin inkişafına təkan verdi. Beyləqanda, Şamaxıda, Bakıda və Dərbənddə çoxlu miqdarda sikkə və pul dəfinələrinin tapılması Azər-

baycanın müxtəlif şəhərləri və Yaxın Şərq ölkələri ilə ticarət əlaqələri saxlandığını göstərir. Beyləqanda satılan Şirvan və Dərbənd malları, əsasən Şamaxıdan gətirilən qiymətli qunduz, samur, sincab xəzləri, qul və cariyələr, Şabran və Şamaxı ipəyi, Bakı nefti, duz və s. ibarət idi.

XIII əsrin əvvəllərində Şirvanda və Arranda türklərin sayca çoxluğu həm də səlcuq axını və Eldəgizlərin qoşununun artması ilə bağlı idi. Əsir Dərbənd, Şamaxı və digər şəhərlərin qul bazarlarında satırdılar.

«Tarixi əl-Bab» əsərində XI əsrdə Dərbənddə şəhər əyanlarının əmir qarşısında and içdikləri «hökumət evi»nin adı çəkilir. Şəhər rəislərinin və əyanlarının yığıncaqları da orada keçirilirdi. Şirvan şəhərləri spesifik mallar istehsalı ilə şöhrət qazanmışdı. Məsələn, Beyləqan öz şirniyyatı və saxsı qabları, Bakı nefti və duzu, Şamaxı xalçası və ipək parçaları, Dərbənd zəfəranı və kətan paltarları ilə məşhur idi.

XI-XIV əsrlərdə Dərbəndin və Şirvanın sosial strukturu. Şəhər quruluşu. XI-XIV əsrlərdə Şirvanşahlar dövlətində sosial münasibətləri və şəhər quruluşunu öyrənmək baxımından yazılı mənbələr dağınıq və cüzidir. Bu boşluğu əsasən Dərbənddə, Bakıda, Abşeronda, Şamaxıda, Şirvanın digər şəhər və yaşayış yerlərindəki çoxsaylı memarlıq abidələrindəki kitabələr, habelə həmin dövr Şirvan hakimlərinə məxsus numizmatik məlumatlar doldurur.

XI əsrdə Dərbəndin feodal iyerarxiyasının başında 1077-ci ilə qədər Haşimilər sülaləsindən olan əmirlər dururdu. Sonra Dərbənd və ətrafındakı torpaqlar Şirvanın tərkibinə daxil edildi və İraq səlcuqlarından asılı vəziyyətə düşdü. Dərbənd XII əsrin əvvəlindən ikinci rübünədək müstəqil əmirlik idi. Onun başında əmir dururdu. Mənbələrdə Gəncədə, Beyləqanda, Dərbənddə və Bakıda güclü və nüfuzlu şəhər rəislərinin, varlı tacirlərin fəaliyyəti haqqında məlumat verilir. «Tarix-i əl-Bab»da Dərbənd rəislərinin Dərbənddə öz hakimiyyətini bərqərar etməyə və onu öz torpaqlarına qatmağa cəhd göstərən şirvanşahla çoxlu toqquşmaları və ona qarşı qiyamları təsvir olunur. Xəlifə Mütəvəkkil h. 237 (851)-ci ildə əl-Babı və ondan asılı olan torpaqları Məzyədilər sülaləsinin ilk nümayəndələrindən biri olan Məhəmməd ibn Xalidə bəxş etdiyindən Şirvanşahlar özlərini Dərbəndin ən qədim müddəisi sayırdılar. Həmin mənbədə şəhərin bütün rəislərinin hesabat verdikləri Dərbənd rəislərinin başçısı rəis ərrüəsa Müfərricin də adı çəkilir. Rəis ər-rüəsa başda olmaqla şəhərin ağsaqqallarından və rəislərindən – tacir gildiyasının və müxtəlif birlik və sənətkarlıq sexlərinin nümayəndələrindən ibarət şəhər şurası Dərbənddə «hökumət evində» yerləşirdi.

XI-XIV əsrlərdə Bakı, Şamaxı, Güştəsb, Dərbənd və digər şəhərlərin zərbxanalarında bədii naxışla işlənmiş və üstü kitabəli gümüş və mis sikkələr zərb edən adları məlum olmayan usta sənətkarlar işləyirdilər. Nəccar adlanan ağac, gəc və s. üzərində bədii oyma ustaları xüsusi qrup təşkil edirdi.

Şirvan və Arran şəhərlərində – Bakıda, Qəbələdə, Şamaxıda, Dərbənddə və Beyləqanda aparılan arxeoloji qazıntılar zamanı qırıqları tapılan külli miqdarda bədii naxışlarla işlənmiş şirli qablar XI-XIII əsrin əvvələrində dulusçuluq və rəssamlıq sənətlərinin yüksək inkişaf səviyyəsinə çatdığını göstərir.

Mənbələr Şirvanda və Dərbənddə monqol istilasına qədər qulların olduğunu da xəbər verirlər. Qul bol olduğundan Dərbəndin məşhur qul bazarında onlar çox ucuz satılırdı.

Erkən orta əsrlər və qədim Dərbəndin şəhər salmasında istehkam qurğularının memarlığında yerli adət-ənənənin və parfiya-sasani və yunan-rum sinkretizmi haqqında. Dərbənd tarixə bizim ölkədə və bütün orta əsrlər Şərqində sasani istehkam qurğularının tikililəri ilə nəhəng sasani abidəsi kimi daxil olmuşdur.

Qafqaz, Cənub-Şərqi Avropa, Ön Asiya xalqlarının tarixində onun hərbi-siyasi rolu yaxşı məlumdur və əhəmiyyətli dərəcədə yerli və əcnəbi mütəxəssislərin əsərlərində işıqlandırılmışdır. Dərbəndin Cənubi Qafqaz aləminin köçərilərin hücumundan müdafiəsində xüsusi yeri olmuşdur və şəhərin inkişafı bir çox qovşaq nöqteyi-nəzərindən ona b.e. VI əsrində Yaxın və Orta Şərqin nəhəng dövlətlərinin Şimal sərhədində tikilmiş möhtəşəm sasani qalası kimi baxmağa imkan vermişdir.

Son illər Dərbənddə aparılmış genişmiqyaslı arxeoloji tədqiqatlar şəhərin tarixində tamamilə yeni mərhələlər açmağa imkan vermişdir. Dərbənd erkən orta əsrlər dövründə köçərilərlə mübarizədə yalnız möhtəşəm dayaq məntəqəsi kimi çıxış etmirdi, həm də regionun mühüm iqtisadi və ideoloji mərkəzi rolunu oynayırdı. Burada Yaxın Şərq və Aralıq dənizi mədəni təsiri yerli Azərbaycan və Cənubi Qafqaz

mədəniyyəti ilə qarışırdı.

Bu mədəniyyətlərin bir-birinə təsiri Dərbəndin memarlığında və tikinti adət-ənənəsində öz parlaq əksini tapmışdır.

Dərbənd müdafiə istehkamlarının əsas hissəsinin qorunub saxlanması (bura iki şəhər divarı – cənub və şimal, Narınqala və Dağ barı daxildir) və onların əsas hissələrinin geniş arxeoloji tədqiqi, həmin təsirlərin mənbələrinin izlənilməsinə və Dərbənd şəhərinin və istehkam qurğularının tikintisinin əsasını təşkil edən mədəni-tarixi adət-ənənələrinin aşkar edilməsinə imkan vermişdir.

Orta əsrlərə aid tarixi və coğrafi qaynaqlar Dərbəndin erkən orta əsrlər müdafiə qurğularının tikilməsini İranın sasani hökmdarının, əsasən I Xosrov Ənuşirəvanın (531-579) tikinti fəaliyyətilə əlaqələndirir. Bu, onun divarlarında olan pəhləvi (orta fars) kitabələri ilə təsdiq olunur.

Lakin tədqiqatlar göstərmişdir ki, Dərbənddə sasani inşaatının iki nəhəng mərhələsi olmuşdur: çiy kərpic və daş. Tədqiqatlarda bu mərhələlərin hər birinin xronoloji çərçivəsi haqqında vahid fikir yoxdur. Çiy kərpic və torpaqdan olan istehkam qurğularının bəziləri II Yezdəgirdin hakimiyyəti dövrünə (438-457), başqaları isə I Xosrov Ənuşirəvanın hakimiyyət illərinin ikinci dövrünə aid edilir.

Son dövrlərdə Dərbənddə aparılmış qazıntı işləri sasani inşaatının mərhələlərini xronoloji çərçivədə qurmaq imkanı vermiş və şəhərin çiy kərpic və torpaqdan tikilmiş istehkam qurğuları (şimal divarı və qala) b.e. V əsrinin ikinci yarısına, daşdan olan hissəsi isə VI əsrin əvvəlinə – VII əsrin ortalarına aid edilmişdir.

Dərbəndin çiy kərpic və torpaqdan tikilmiş istehkam qurğularının tədqiqi göstərmişdir ki, bu qurğulara təpənin zirvəsindən dənizə kimi keçidi bağlayan nəhəng şəhər divarı, həmçinin çiy kərpiçdən tikilmiş qalanın divarları tam və qismən (şərq və cənub divarları) daxildir.

V əsrin sonu – VI əsrin əvvəlində Qafqazdakı tarixi vəziyyət Sasani İranının hökmdarlarından dövlətin şimal sərhədinin möhkəmləndirilməsinə yönəldilmiş yeni hərbi-siyasi tədbirlərin görülməsini tələb etmişdir.

Sasani dövlətinin Qərbi-İran və Cənubi Qafqaz bölgələrinə təhlükə yaradan Şimali Xəzəryanı çöllülərin fəallaşması və burada köçərilərin nəhəng birləşmələrinin yaradılması Sasani şahlarını Dərbənddə genişmiqyaslı tikinti işlərin aparmağına məcbur etmişdir. Bir neçə onillik ərzində burada daşdan nəhəng müdafiə istehkam qurğularının tikintisi aparılmışdır. Bu istehkam qurğuları Dərbənd keçidini nəinki yeni səviyyədə bağlayırdı, həmçinin Dağıstan daxili yerli kommunikasiyalar üzrə dağlarda olan bütün yolları müdafiə edirdi.

Dərbənddə sasani inşaatının ikinci mərhələsi çiy xammaldan tikilmiş istehkam qurğularının daşla əvəzolunması kimi yadda qalmışdır.

40 km-dən çox uzunluğu olan Dərbənd müdafiə kompleksi dünya istehkam qurğuları incəsənətinin ən gözəl nümunələrindəndir.

1983-86-cı illərdə Dərbənd ekspedisiyası tərəfindən aparılmış sualtı arxeoloji tədqiqatlar şəhərin «dəniz divarlarının» uzunluğunun 250-450 metr olması haqqında danışmağa imkan verir.

Dərbənd müdafiə kompleksi üç əsas hissədən ibarət idi: qala, şəhərin özünün möhtəşəm paralel divarlar və Dağ barı.

Dərbənd müdafiə sisteminin bütün üç əsas hissəsi dövlətin şimal sərhədlərində Sasani İranının məqsədyönlü istehkam tikintisinin məhsulu idi, lakin onlar inkişaf funksiyalarının prosesi zamanı tədricən dəyişmişdir: onlar həm hərbi-siyasi, həm də sosial-iqtisadi xüsusiyyət daşımışdır. Bu da şəhərin müdafiə sistemində öz əksini tapmışdır.

Erkən orta əsrlər Dərbəndi möhtəşəm dövlət qalası kimi yaranmışdır.

Bu da onun planlaşdırılmasında və strukturunda öz əksini tapmışdır. İlkin olaraq onun istehkam sisteminə yalnız qala və keçidi bağlayan şimal divarı daxil idi. Lakin sonralar, sosial-iqtisadi inkişaf posesində, o, nəhəng ticarət-sənətkar mərkəzinə və erkən orta əsrlər şəhərinə çevrilmişdir.

Dərbəndin qədim istehkam qurğularının tədqiqi onların tikilməsində iki əsas tikinti dövrünü ayırd etməyə imkan vermişdir. Bu dövrlər Dərbənd təpəsində istehkam məntəqəsinin inkişafı ilə bağlıdır.

Bax: А.А.Кудрявцев О синкретизме парфяно-сасанидских, Греко-римских и местных традиций в фортификационной архитектуре и градостроительстве древнего и раннесредневекового Дербента. Этнокультурные процессы в древнем Дагестане. (Сборник статей). Махачкала, 1987, стр. 52-101.

Dərbəndin şəhərsalma mədəniyyəti (VIII-X-VIII əsrlər). Divarlar ucaldılandan sonra onların arasındakı sahədə insanların məskunlaşması başladı. İlk sakinlər şimaldan döyüşkən qəbilələrin hücumu zamanı oxlardan, daşlardan və digər silahlardan qorunmaq üçün şimal divarlarına yaxın yerlərdə məskunlaşırdılar. Getdikcə məskunlaşma zonası genişlənərək dənizə və cənub divarlarına doğru genişlənmişdir.

Ərəblərin gəlişi dövründə (VIII əsr) şəhər şimal və cənub şəhər divarları arasında yerləşirdi.

VIII-XII əsrlərdə şəhər hər iki istiqamətdə, Narınqala qapısından dənizə tərəf sürətlə böyüməyə başlayır.

Lakin VIII əsrin ikinci yarısından şəhərin nəhəng dəniz ticarəti mərkəzinə çevrilməsi və Xəzər dənizində ən mühüm liman olması ilə əlaqədar əsas məskunlaşma onun dənizkənarı ərazisində, dənizdən qala istiqamətində gedir.

Bu aşağı məskunlaşma rayonu yuxarıdan fərqli olaraq «Dübarə şəhər» və ya «Yunan şəhəri» adlandırıldı.

XII əsrdə, demək olar ki, bütün divarlar arasındakı məsafə tutulduğundan şəhərin ərazisi 150 hektardan çox idi. O dövrdə orta əsrlər Qafqazının mühüm ticarət-iqtisadi mərkəzlərindən biri olan Azərbaycanın böyük şəhəri Beyləqanın ərazisi 36 hektar olmuşdur. Hətta Yaxın Şərqin orta əsrlər şəhərləri olan Dəməşqin (105 ha), Qüdsün (100 ha), Hələbin (112 ha) ərazisi Dərbəndin ərazisindən kiçik idi. Sonralar liman üçün yararlı Bakının inkişafı ilə əlaqədar olaraq Dərbənd limanı özünün əvvəlki əhəmiyyətini itirir və Dübarə şəhər getdikcə boşalır. 1475-ci ildə Dərbənddə olmuş venesiyalı diplomat Ambroco Kontarini yazırdı ki, «…dəniz tərəfdə olan binalar, demək olar ki, tam dağılmışdır».

Sonrakı əsrlərdə şəhər yenidən qərbdən şərqə, Narınqaladan dənizə tərəf inkişaf etməyə başlayır. Qədim şəhərin arxitekturası əsasən sərhədyanı qalanın müdafiə funksiyalarına tabe edilmişdir.

Şəhərin küçələrinin ucu-bucağı görünmürdü. Şəhərin küçələri çox mürəkkəb bir sistemi xatırladırdı. Görünür, ona görə də VIII əsrdə şəhəri işğal etmiş ərəblər onu şərti olaraq «qismlərə» - kvartallara bölmüşlər. Sonralar bu «qismlər» türkcə «məhəllə» adlandırılmışdır.

Əgər düşmən şəhərə girirdisə, o, dar və sıx küçələrdə manevrliliyini itirirdi və hər evi hücumla almağa çalışırdı. Lakin bu evlərin düz, hamar damı müdafiəçilərin plasdarmı sayılırdı və onlar buradan düşmənə ağır zərbələr endirirdilər.

1779-cu ildə Dərbənddə olmuş fransız səyyahı Kexlin-Svarts bu sistemsiz kəsişən dar küçələri görüb, onları «dolaşmış sap yumağı» ilə, şəhəri isə «dənizə püskürən vulkanın nəhəng axını» ilə müqayisə etmişdir.

Erkən orta əsrlər Dərbəndinin topoqrafiyası şəhərin iki və üç qeyri-tipik klassik bölünmə sxeminə tamamilə uyğundur. Şəhərin əsas komponentləri qala, şəhərin özü və onun ətrafıdır. Məhz belə sxem Orta Asiyanın antik şəhərləri və islamaqədərki əsas rayonları üçün tipikdir.

Əsrlər ərzində şəhər dağıdıcı mühasirələrə məruz qalmış, darmadağın edilmiş və yenidən qurulmuşdur. Ən böyük dağıntılar 1239-cu ildə Dərbəndi mühasirəyə almış monqollar tərəfindən törədilmişdir. 1253-cü ildə Dərbənddə olmuş flamand səyyahı Gilyom Rubrukun göstərdiyinə görə, monqollar şəhəri darmadağın etmiş və dənizkənarını, şəhərin zəngin hissəsini – Dübarəni uçurmuşlar. Şəhər sonrakı əsrlərdə də Elxanilərin və Qızıl Ordu xanlarının hücumuna məruz qalmış, talan olunmuş və dağıdılmışdır.

A.Oleari tərəfindən 1638-ci ildə çəkilmiş şəkillərdə aydın görünür ki, şəhərin tikili hissəsindən Narınqala və Cümə məscidinədək olan yuxarı hissə qalmışdır. Şəhərin orta hissəsi yeni tikilməyə başlayır, aşağı-dənizkənarı hissə isə tamamilə boşdur.

1720-ci ilin planlarında Narınqalanın yanında tikilmiş binalar, sıx tikilmiş yuxarı hissə, orta hissə, orta hissənin böyük məhəlləleri və aşağı – dənizkənarı hissə yaxşı görünür.

İngilis zabiti Hanvayın məlumatına görə, 1740-cı ildə Dərbəndi tutmuş Nadir şah dənizkənarı hissədə insanların məşkunlaşmasına çalışaraq, burada ticarət dükanları olan bir neçə küçə saldırmışdır. Lakin onun bu cəhdi nəticəsiz qalmışdı.

Hələ XVIII əsrin ortalarında Dübarənin ərazisində əhali qoyun otarırdı. 1796-ci ildə işğalçı rus qoşunlarının yürüşünün iştirakçısı P.Q.Butkov yazırdı: «… şəhərin axırıncı hissəsi, Dübarə boşdur». Belə vəziyyət 1806-cı ildə general Qlazenapın yürüşü zamanı davam etmişdir. Yalnız XIX əsrin əvvələrində Qafqazda ali komandan olan general Yermolovun sərəncamı ilə şəhərin aşağı hissəsinin tikilməsinə

başlanılmışdır.

Beləliklə, mənbələrin məlumatına görə, şəhərin ən qədim tikililəri onun yuxarı hissəsindədir. Bura Narınqaladan Cümə məscidinə qədər olan tikililər – Bayat qapıdan Qırxlar qapısınadək olan hissə daxildir. XVIII əsrdə şəhərdə olmuş rus müəllifləri şəhərin təsviri haqqında maraqlı məlumatlar verirlər.

1796-cı il yürüşü zamanı ərini müşayiət edən Vladimir draqun alayının podpolkovnikinin arvadı V.İ.Bakunina yazırdı: «Küçələr çox dardır, qalın divarları olan hündür evlər var, bu evlər yonulmuş daşdan tikilmiş, balaca pəncərələrini çərçivə əvəzinə dəmir barmaqlar əvəz edirdi. Ona görə də şəhər türməni xatırladırdı».

Ərəb tarixçisi və səyyarı ibn Haukal özünün məşhur «Ölkələr və yollar kitabı»ında yazırdı ki, Qafqazın bir çox şəhərləri böyüklüyünə görə Bab-əl-Əbvabdan geri qalır. Bura «Ərdəbildən zəngin» və «Tiflisdən böyükdür».

Əsrlər keçsə də şəhərin qədim görkəmi, demək olar ki, dəyişilməz və olduğu kimi qalmışdır. Burada hər şey orta əsrlər Şərqinin nağılabənzər görkəmini qoruyub saxlamışdır.

Dərbənd şəhərinin 1920-1940-cı illərdə inkişafı. Şəhər sovetinin ilk sədri Mehrab Məmmədəmin bəy oğlu Məmərzabəyovun dövründə (1922-1927) şəhərin abadlaşdırılması və tikintisi üzrə işlərə başlanılmış və bu işlər 30-cu illərə qədər davam etdirilmişdir. Şəhərin yuxarı hissəsinin yaxşılaşdırılması üçün «Gen küçə» (M.Rzayev küçəsi) Bazar küçəsindən (Krupskaya küçəsi) başlayaraq Cümə məscidinin həyətinə qədər uzadılmışdır. Bu küçə uzadıldıqda



Köhnə şəhər küçəsi.
1914-cü il

XIX əsrin ortalarında Qafqaz canişini Yermolov tərəfindən tikilmiş alaqapı, ticarət dükanları və yaşayış evləri sökülmüşdür. Küçənin uzadılması bitdikdən sonra köhnə dükanların yerində ərazini yaşıllaşdırmaq üçün bağlar salınmışdır. 50-ci illərdə bu yerdə X.Tağıyev (Kazımov) adına kolxoz üçün klub tikilmişdir.

Şəhərin abadlaşdırılması məqsədi ilə onun aşağı hissəsində yəhudilərin yaşadığı məhəllədə natəmizliyi ləğv etmək qərara alınmışdır. Məhəllə sakinləri buna qarşı çıxsalar da, o dağıdılmış və yerində park salınmışdır. Bu parkda Böyük Vətən müharibəsi illərində (1941-1945) həlak olanların xatirəsinə əbədi məşhəl yanır. Yəhudi əhalisini yaşayış evləri ilə təmin etmək üçün şəhərin mərkəzində iki və üçmərtəbəli «Zəhmətkeş» adlı daş evlər tikilmişdir. Yəhudilər aşağıdakı küçələrdə yerləşdirilmişlər:

- Lenin küçəsi, 4 və 24 saylı evlər;
- III İnternasional küçəsi;
- Azadlıq küçəsi – kənd təsərrüfatı texnikumunun qarşısında.

Qədim Dərbənddə ilk ticarət mərkəzi «Kilsə» məscidinin yanında yerləşən meydan hesab olunurdu. Burada dükanlar və karvansara yerləşirdi. Sonralar bu ticarət mərkəzi «Qırxlar qapısı» və «Yengi qapı» rayonundan köçürüldü. O vaxtlar bu küçə Bazar küçəsi adlanırdı. Burada iki sırada ticarət dükanları və iki karvansara var idi. Bu dükanların və karvansaraların sahibi Abdarlar və Xosrov idi.

XX əsrin əvvəlində Cənub qala divarının arxasında boş meydanda taxta dükanların tikilməsinə başlanıldı və bura «Taxta bazar» adlandırıldı. 30-cu illərin əvvəlində taxta dükanlar söküldü və onların yerində daş dükanlar tikildi. Yeni Daş bazarının tikintisinin iş icraçısı Əbdül Həmid Sultanov idi. 20-ci illərin əvvəlində şəhərdə gözəl passaj binası tikildi, burada ticarət dükanları yerləşdirildi.

Müsəlman əhalinin uşaqlarının təhsil alması üçün şəhərin yuxarı hissəsində məktəb tikildi və bu məktəbə M.Rzayevin adı verildi. Azadlıq meydanında müasir hamam binası tikildi, lakin hamamın otaqları dar olduğu üçün istifadəyə verilmədi, onun layihəçisi Jdanovu həbs etdilər.

Şəhərdə mövcud olan kazarma binası yenidən qurularaq müasir çörək zavodunun istifadəsinə verildi. Bu zavod indiyədək istifadədədir.

Şəhərin aşağı hissəsində nə su kəməri, nə də bulaqlar var idi. Ona görə də 20-ci illərdə orada bir neçə

supaylayıcı daxmalar tikildi.

Şəhərin abadlaşdırılması ilə yanaşı bəzi neqativ hadisələr də baş verirdi. Şəhərdəki məscidlər, kilsələr və sinaqoqlar bağlandı. Xüsusi ilə qədim müsəlman məbədi olan «Cümə məscidi»nin taleyi üzərində dayanmaq istərdik. Bu gözəl bina 30-cu illərə qədər istifadə olunmamış, sonra isə ondan həbsxana kimi istifadə olunmuşdur.

1942-ci ildə alman faşistləri ilə müharibə zamanı sovet hökuməti cəbhəyə pul vəsaiti toplamaq məqsədi ilə bu dini binaları ibadət üçün açmağa icazə verdi. O vaxtlar Cümə məscidini qaydaya saldılar. 20 il ərzində nəzarətsiz qalan məhəllə məscidləri tədricən dağıldı və onların yerində mülki binalar tikildi.

Dağılmış məscidlərin yerləşdiyi yerlər:

1. «Bayat qapı» - qala qapısının yanı;
2. 8-ci məhəllə meydanındakı («Bayat qapı») – 3-cü bina;
3. «Xıdırnisə» məscidi (Bestujev muzeyinin yanında);
4. 5-ci məhəllədə 3-cü bina. «Qızlar» məscidi;
5. 2-ci məhəllədə «Mikri bulağı» yanındakı 2-ci bina;
6. 1-ci məhəllədə 5 bina. Həmçinin: «kələmçilər», «Şirvanburnu», «Cortəpə»;
7. Şəhərin cənub hissəsində – «quruq».

Cəmi 16 məscid binası dağıdılmışdır. Bizim günlərədək aşağıdakı məscidlər qalmışdır:

1. «Cümə»;
2. «Kilsə»;
3. «Minarə»;
4. «Qırxlar»;
5. «Bala»;
6. «Xan küçə»;
7. 5-ci məhəllədə iki bina;
8. «Genküçə»;
9. «Bayat ocağı»;
10. «Həmşəri».

Cəmi 11 bina qalmışdır. Onladan başqa daha 7 bina qalmışdır – «Təkkə», burada məhərrəmlik zamanı ibadət və xeyriyyəçilik işləri – «Təziyə» görülürdü ki, hazırda bu binalar yaşayış evləridir.

Dərbənd keçidi – Qafqaz dağları ilə Xəzər dənizi arasında sahilkənarı dar xəttin adı (eni 3 km). Qədimlərdə bu xəttin üzərində məşhur Dərbənd müdafiə kompleksi tikilmişdir. Buradan Yaxın Şərqdən Şərqi Avropaya gedən mühüm karvan yoluna nəzarət olunurdu. «Dərbənd keçidi» adına yazılı mənbələrdə bizim eradan əvvəl VII əsrdə rast gəlinir. Daha qədim mənbələrdə bu rayon Xəzər qapıları, Xəzərlərin qapısı, Alban qapıları kimi qeyd olunmuşdur. III əsrdə tərtib edilmiş «Pevtinqerovsk xəritəsi»ndə rayon «Maskutların keçidi» adlandırılmışdır.

Dərbənd müdafiə kompleksi, Dərbənd qalası – Dərbənd şəhərinin şərq kənarında Mahaçqala-Bakı avtomobil yolunda yerləşmişdir. Mütəxəssislər hesab edirlər ki, hələ lap qədim zamanlarda (b.e.ə. VII-VI əsrlər) burada yaxşı möhkəmləndirilmiş yaşayış məntəqəsi vardı. Arxeoloji qazıntılar bunu bir daha təsdiq edir.

Dərbənd müdafiə kompleksi – Sasani tikililəri sistemində Xəzər dənizinin qərb sahilində olan ən nəhəng, öz miqyası və möhtəmşəmliyi ilə göz oxşayan kompleksdir.

Dərbənd müdafiə kompleksi – bir çox əsrlər ərzində tikilmiş, hərbi-mühəndis və inşaat işlərinin nailiyyətlərindən istifadə edərək getdikcə genişləndirilmişdir.

Kompleks Dərbənd təpəsinin zirvəsindən dənizə qədər uzanan iki paralel nəhəng daş divardan ibarətdir. Hər divarın uzunluğu 3,5 km-dir. Dənizin yanındakı divarlar arasındakı məsafə 450 metr, təpənin zirvəsində, divarların Narınqala ilə birləşdiyi yerdə – 350 m-dir. Narınqalanın cənub-qərb küncündən daha bir möhtəşəm daş divar – Dağ divarı uzanır. Hazırda bu divar 40 km məsafəyədək uzanır. Yerli iri balıqqulağı bloklarından tikilən bu divarın qalınlığı 4 metrə, hündürlüyü 10-18 metrə çatır.


Bizim günlərədək gəlib çatan Dərbənd müdafiə kompleksi nəhəngliyinə və möhtəşəmliyinə görə Sasanilərin Qafqazda tikdikləri bütün başqa «uzun divarlardan» fərqlənir və üstünlük təşkil edir. Narınqalanın şimal divarının xarici hissəsində olan və qorunub saxlanılan 28 pəhləvi kitabəsindəki yazılar Dərbənd müdafiə kompleksinin Xosrov I Ənuşirəvan (531-579) tərəfindən tikildiyini sübut edir.

Dərbənd müdafiə kompleksini üç hissəyə bölmək olar: Narınqala, şəhər divarları və Dağ barı. Bu divarların özəyi Narınqala – şəhərin və limanın nadir və möhtəşəm qalasıdır.

Narınqala – Xəzər dənizi ilə Qafqaz dağının şərq silsilələri arasındakı dar keçid (eni 3 km-ə yaxın) üzərində hakim olan Dərbənd təpələrində yerləşir. Qalanın yüksəkliyindən şimaldan cənuba neçə-neçə kilometr uzanan Xəzəryanı düzənlik görünür.

Narınqalanın ölçüləri cənubdan – şimala 200 m, qərbdən şərqə isə 220 metrdir. Ərazisi 4,5 hektardır. Onun divarının ümumi uzunluğu 900 metrə yaxındır. Müqayisə üçün Orta Asiyanın nəhəng erkən orta əsr mərkəzləri olan qalanın perimetrləri: Maymurqda – 800 m, İştixanda – 1200 m, Keşdə – 800 m, Unaqedə – 800 metrdir.

Dərbənd Narınqalasının divarlarının qalınlığı 2,5 m-dən 3,5 metrə qədərdir. Onlar elə bil təpənin zirvəsini əhatə edir. Qərb və şimal tərəfdən, düşmənin daha çox gözlənildiyi tərəfindən çox sərt hündür qayalıqlardan ibarətdir.



Zindan, Düzbucaqlı rezervuar, Xaçvari rezervuar, Hamam, Məscid, Qərb qapıları, Qauptvaxt, XVII əsr xan sarayı, Kiçik rezervuar və Divanxana adlanan 10 şərti hissədən ibarətdir.

Divarın cənub və qərb hissələrinin hündürlüyü bəzi yerlərdə 15-20 m çatır və nəhəng çıxıntılı qüllələri yoxdur.

Qalanın şərq hissəsi düşmənin şəhərə soxulmasının qarşısını almaq məqsədilə heç bir çıxıntısız bütöv divardır. Yalnız XVII-XVIII əsrlərdə bu divar qalanın fasadına çevrilmiş və burada feodal hakimlərin iqamətgahı yerləşmişdir. Qalanın təbii divarı isə o biri divarlardan daha çox möhkəmləndirilmişdir.

Qalanın adı haqqında çoxlu rəvayətlər və əfsanələr vardır. Onların bəzilərində deyilir ki, şah tikilmiş qalanı sevimli arvadının adı ilə adlandırılmışdır (Narın – geniş yayılmış türk qadın adıdır, onun mənası: zərif, incə deməkdir). Digər rəvayətlərə görə, qala ölçüsünə və gözəlliyinə görə belə adlandırılmışdır (türk dilində «narın» - balaca, yığcam deməkdir). Üçüncülər iddia edirlər ki, qalanın ərazisində bir vaxtlar çoxlu narınc bitirdi və qalanın ilk adı Narıncqala olmuşdur. Getdikcə samit «ç» əhəmiyyətini itirərək Narınqala formasını almışdır. Dördüncülər hesab edirlər ki, qalanı şah öz sevimli qızı Narınc xanımın adı ilə adlandırmışdır və s. Tədqiqatlara görə ilkin olaraq, sasanilərin dövründə şimal şəhər divarı və qala tikilmişdir. Burada hərbi qarnizon yerləşirdi. Ona görə də bəziləri ehtimal edirlər ki, qala (farsca «kuhəndiz») fars adı ilə «Neran» (hərbi, müharibə üçün təyin olunmuş) adlandırıla bilərdi. Sonralar türk dilinin burada hakim dil olması ilə əlaqədar Narınqala adlandırmışdır.

Düşünürük ki, nəhəng Dərbənd səddi ilə əhatələnmiş böyük şəhərlə müqayisədə kiçik görünən bu qalanın adı elə Azərbaycan türkcəsindəki narın – kiçik, xırda anlamındadır.

Narınqala – şəhər içində şəhərdir. Burada yaşayışı təmin etmək üçün bütün sistemlər vardır (su anbarları, ərzaq anbarları, saraylar, məscidlər, hamam, qazamat və s.).

Şəhəri müxtəlif vaxtlarda təsvir etmiş bir çox səyyahlar qalanın içində olan tikililər haqqında ətraflı məlumat vermiş, orada yaşamış xan və ya hökmdar haqqında isə qısa məlumat verməklə kifayətlənmişlər. Bu, görünür, şəhər hakimlərinin iqamətgahının ərazisində girişin məhdudluğu ilə əlaqədar olmuşdur. Yalnız bəzi yazılı mənbələr Dərbəndi işğal etmiş ərəb sərkərdəsi Məsləmə tərəfindən qalada «bəzi binaların», XVIII əsrdə Nadir şah Əfşar və Quba xanı Fətəli xan tərəfindən sarayların tikilməsi haqqında məlumat vermişdir.

Arxeoloji qazıntılar nəticəsində qalanın ərazisində monqol dövründən (XIII əsr) sonra yaşayış və təsərrüfat tikililəri, ərəb dövrünə aid olan saray kompleksi (VIII-X əsrlər), Sasanilər dövrünə (VI-VII əsrlər) və hətta sasanilərdən əvvəlki dövrə aid olan tikililər aşkar edilmişdir.

Narınqalanın ilk təsvirlərindən birinə XVIII əsr rus müəlliflərinin yazılarında rast gəlinir. 1796-cı ildə Dərbəndi ziyarət etmiş akademik R.Q.Butkov yazmışdır: «…Narınqalada ikimərtəbəli yonulmamış daşdan xan sarayı tikilmişdir. Saray ən hündür yerdə tikilmişdir. Xan və onun bacısının yaşadığı otaqlar dördbuc-

aqda, Qış sarayında olduğu kimi yerləşir, ortada hovuz vardır. Üzü şəhərə tərəf olan hissədə qalereya düzəldilib, qalereyanın sağında, solunda və qarşısında yataq otaqları yerləşir, onlar da başqa otaqlar kimi rəsm əsərləri ilə bəzədilib. Yan tərəflərdən otaqlara qapılar açılır. Otaqlarda çoxlu güzgü və başqa bəzək əşyaları vardır».

1806-cı ildə qalada olmuş başqa rus müəllifi bunu belə təsvir tərtib etmişdir: «… Qəsrin darvazasından keçərkən sağ tərəfdə keçmiş xan hərəmxanası yerləşir. Həyətin ortasında səkkizguşəli geniş hovuz vardır».

Bu təsvirlərə və xan sarayının qalıqlarına əsaslanaraq demək olar ki, o dövrdə qalanın yaşayış hissəsi П (P) hərfi formasında olmuş və qalanın şimal-şərq küncündəki şərq divarına bitişik yerləşmişdir.

Bu qəsrin qərb hissəsində anbarlar, mətbəxlər və s. xidməti həyət yerləşmişdir. Qalanın girişindən solda – qarnizon yerləşən həyət idi.

Qalanın giriş qapısının yanında xan dəftərxanası – Divanxana və qəbul otağı yerlşirdi. Onlar XVII əsrə aiddir. Qalanın giriş qapısının üstündə «Şah Abbas»ın adı yazılmış yazı oxunur. Tədqiqatçıların fikrinə görə bu, yalnız Səfəvi şahı I Şah Abbas (1587-1629) ola bilər.

Qalanın içindəki başqa bütün binaların qalıqları daha erkən orta əsrlərə aiddir və bir neçə dəfə yenidən tikilmişdir. XIX əsrin əvvəllərində qalanın saray tikililərinin yenidən tikilməsi rus hərbi inşaatçısı Karpovun layihəsi üzrə aparılmışdır. 1811-ci ildə başlanmış işlər 1828-ci ildə qaupvaxtın otaqlarının tikilməsi ilə başa çatmışdır.

Qalaya 2 giriş qapısı aparır: şərq – şəhərə tərəf olan qapı – Narınqala qapısı və qərb – şəhərin bayır hissəsindən qalaya gedən Dağ qapısı.


Qalanın şimal-qərb hissəsində məscid yerləşirdi. Hazırda onun yalnız bünövrəsi qalmışdır. Məscidin yanında şəhərin qədim hamamı qorunub saxlanılmışdır.

Qalanın şimal divarının yanında, xan sarayının arxasında «zindan» adlanan yeraltı tikili vardır. Onun uzunluğu – 6,5 m, eni 4,25 m, hündürlüyü – 6,5 metrdir.

Qalanın şimal-qərb küncündə xaçvari şəkildə yeraltı rezervuar yerləşirdi. Onun dərinliyi 10 metrdir. Quyunun nəhəng ölçüləri və xaçvari forması onu Dərbəndin digər qədim su anbarlarından fərqli olduğunu göstərir.

Müsəlman şərqi üçün su anbarının qeyri-adi forması bəzi tədqiqatçılara belə deməyə əsas verir ki, su anbarını Bizans ustaları (yəni xristianlar) tərəfindən tikilmişdir.

İstehkamlar. Şəhərin müdafiə istehkamları Dərbəndin ən qədim və ən möhtəşəm abidələri hesab olunur. Onlar Narınqaladan, şəhər divarlarından və Dağ divardan (Dağ barı) ibarətdir. Onların hər biri müstəqil fəaliyyət göstərə bilən, eyni zamanda, aydın planlaşdırılmış vahid möhtəşəm müdafiə sistemidir. Bu sistemin özəyi, şübhəsiz, qaladır. İstehkamlar şəhəri və dəniz limanını qoruyan ümumi uzunluğu 50 km olan sərhəd divarın və möhtəşəm qalanın tərkib hissəsidir. Dərbənd müdafiə kompleksinin dəqiq planlaşdırılması, konstruksiyası, tikinti texnikasının üstünlüyü, möhtəşəm monumentallığı və ciddi gözəlliyi ilə bəzi nəhəng dünya abidələrini geridə qoyur.




Dərbənd istehkamları yerli əhəngdaşından ibarət nəhəng daş-bloklardan tikilmişdir. Daş-bloklar standart ölçüdədir və orta hesabla uzunluğu 1 m, qalınlığı 0,25-0,3 m, eni 0,7-0,8 m təşkil edir. Bəzi ərəb müəllifləri daş-blokların ölçüsünü həqiqətə uyğun olmayan ölçüdə göstərirlər.

Belə ki, Yəqubinin (X əsr) məlumatına görə, «… divar dördbucaqlı yonulmuş daşlardan tikilmişdir. Bu daşın birini 50 nəfr adam qaldıra bilməzdi. Bu daşlar bir-birinin üstünə qoyularaq dəmirlə bərkidilmişdir».

Divar daşlarının dəmir boltlarla birləşdirilməsi haqqında digər orta əsr ərəb müəllifləri də məlumat verirlər: əl-İstəxri (X əsr), Məsudi (IX əsr), ibn əl-Fəqih (X əsr), əl-Qərnati (XII əsr) və b.

İstehkam divarlarının qalınlığı 2,3-3,8 m çatır. Bəzi müəlliflər divarların daha qalın olduğu haqqında məlumat verirlər. Məsələn, əl-Yəqubidə oxuyuruq: «… divar o qədər enlidir ki, onun üstü ilə 20 atlı yanaşı sərbəst keçə bilər».

DƏRBƏND MÜDAFİƏ SİSTEMİNİN SXEMATİK PLANI



Adam Oleari (1637) Dərbənd qalaları haqqında danışarkən yazmışdır: «… onların üstündə araba ilə getmək olardı».

Bəzi ərəb müəllifləri divarın qalınlığının 300 dirsək olması haqqında məlumat verirlər. Qala divarlarının qalıqlarının hündürlüyü 10-12 metr, bəzi yerlərdə 18-20 metrə çatır.

İstehkamlar dəfələrlə yenidən tikilmiş və bərpa olunmuşdur. Mütəxəssislər bir-birindən çox fərqlənən, müxtəlif dövrlərə aid olan və müxtəlif tikinti məktəbləri ilə bağlı olan ona yaxın hörgü növü göstərirlər. Ən qədim hörgü yalnız divarın kürsülüyündə qorunub saxlanılmışdır.

Qədim Dərbənd istehkamlarının ümumi uzunluğu 50 km-ə yaxın, daş hörgünün həcmi 2 milyon kub.m-dən. çoxdur.

Dərbənd müdafiə istehkamları ilk növbədə şimaldan hücum edən döyüşkən düzən tayfalarına qarşı tikilmişdir.

Qədim müəlliflər Dərbəndi möhtəşəm qala adlandırmışlar.

Dərbənd və Qafqazda «Uzun divarlar». Xəzər dənizinin qərb sahili mühüm siyasi və strateji əhəmiyyət daşıdığı üçün elə ilk gündən Sasani sülaləsindən olan şahların diqqətini cəlb etmişdir (224-651). Hələ hakimiyyət uğrunda gedən mübarizə dövründə Sasanilər Xəzər dənizi yolunun onlar üçün, onların başçılıq etdiyi dövlət və bütün Yaxın Şərq üçün xüsusi rolu olduğuna bir daha əmin oldular.

İkinci Sasani şahı I Şapur (241-272) Xəzər qapılarının mahiyyətini artıq yaxşı başa düşürdü. O, hərbi yürüş etdi və Xəzər qapıları üzərində nəzarəti saxlamaq üçün birinci cəhd etdi. İranın cənubunda Nəqşi Rüstəm adlı yerdə və qədim İranda ehtiramla anılan Atəşpərəst məbədinin sokolundakı «Şahin-şah Şapurun» qələbəsi haqqında yazı buna sübutdur. Bu yazıda Sasanilər dövlətinin tərkibinə daxil olan vilayətlərin adı sadalanmışdır. Onların içərisində Dərbənd keçidi rayonunun da adı vardı.

Lakin III əsrdə və IV əsrin birinci yarısında Sasanilər bu vilayətləri öz əllərində saxlaya bilmədilər.

260-cı ildə Şapur tərəfindən Roma imperatoru Valerianın (193-260) Edes yaxınlığında (Mesopotamiya) darmadağın edilib, əsir götürülməsinə baxmayaraq bu yerlər romalıların təsiri altında idi və Qafqaz Albaniyasının, Gürcüstanın ermənilərin çarları atəşpərəst Sasanilərlə hesablaşmamaqda davam edirdilər.

Sasanilər Cənubi Qafqazda və xüsusilə Alban qapıları rayonunda öz mövqelərini möhkəmləndirməyə çalışırdılar. Amid (359) və Dzirav çölündəki döyüşlər zamanı Alban çarı İberiya çarından fərqli olaraq, Sasanilər tərəfində vuruşurdu.

Fəqət II Şapurun bir sıra hərbi və siyasi uğurları 387-ci ildə Cənubi Qafqazın sasanilər İranı ilə Roma imperiyası arasında bölünməsinə gətirib çıxardı. Sasanilər Şərqi Qafqazda üstünlük təşkil edərək bütün qərbi Xəzəryanı rayonları özlərinin hakimiyyəti və təsiri altına aldılar.

Həmin vaxtdan bu ərazi Sasanilər dövlətinin şimal sərhədlərinin etibarlı qorunmasını təmin edən

mühüm hərbi-strateji və siyasi plasdarm əhəmiyyəti daşıyır.

Alban qapılarına nəzarət edən Sasanilər, nəinki zəbt etdikləri torpaqları köçəri türk qəbilələrinin hücumundan qoruyur, onların yerli türk qəbilələri ilə ittifaqa girməsinin də qarşısını alırdı.

Burada ilk sasani istehkamlarının əmələ gəlməsini yazılı mənbələr çar II Yezdigerdin hakimiyyəti dövrünə (438-457) aid edirlər. Yeqişenin verdiyi məlumata görə (V əsr) Sasani qoşunları «qapıları» (Xəzər qapısını, Hunlar qapısını) hunlardan qoruyurdular.

Lakin V əsrdə Sasanilərin bütün cəhdlərinə baxmayaraq, Cənubi Qafqazı öz təsirləri altında saxlaya bilmədilər. Şərq sərhəddindəki uğursuz hərbi əməliyyat, eftalitlərlə müharibədə (459-484) Sasani şahı Firuzun ölümü, Firuz, Valarşa və Zarera qardaşları tərəfindən törədilmiş daxili çəkişmələr, şmalda hunların fəallaşması, 451, 461 və 483-cü illərdə Cənubi Qafqazda Sasanilərə qarşı üsyanları bu rayonda onların mövqeyini çox zəiflətdi və onlar alban keçidi üzərindəki nəzarəti itirdilər. Bizans mənbələrinin verdiyi məlumata görə Dərbənd istehkamlarına nəzarət Hun hökmdarı Amvazukun əlinə keçdi. İranın sərhədlərində və daxilində vəziyyət bir qədər sabitləşdikdən sonra Qubadın hakimiyyəti dövründə (488-531) Sasanilər Alban keçidini geri almağa müvəffəq oldular. Bizans müəllifi Qeysəriyyəli Prokopi bildirir ki, Qubad «Xəzər qapılarını» Amvazukun ölümündən sonra aldı.

Onun məlumatına görə Amvazuk qapıların müdafiəsini Bizansa vermək istəyirdi. Lakin imperator I Anastasi (430-518) öz gücünə arxalanmadığı və Sasanilərlə müharibə etmək istəmədiyi üçün bundan imtina etdi. Qubad isə Amvazukun uşaqlarını qovdu və qapıları tutdu. Bu məlumatı ərəb müəlliflərindən ət-Təbəri (X əsr), Yəqubi (X əsr), İbn əl-Əsir (XIII əsr) və başqaları təsdiqləyərək yazırlar ki, Qubad şimal qəbilələri ilə ağır müharibə aparırdı, xəzərlərdən Bab əl-Əbvabı geri alaraq, onu öz oğlu Xosrov I Ənuşirəvana verdi (531-579).

Məhz Qubadın dövründə Sasanilər V əsrin sonunda türk qəbilələri tərəfindən tutulmuş Cənubi Qafqaz vilayətlərini yenidən geri aldılar. Onlar şimal istiqamətində irəlilədikcə «uzun divarlar», müdafiə istehkamları tikirdilər: Beşbarmaq, Gilgilçay.

Beşbarmaq istehkamı eyniadlı dağın yanında yerləşir. Oradan dənizin sahilinədək olan məsafə 1,75 km-dir.

Beşbarmaq istehkamlardan şimalda, Gilgilçayın dar dərədən düzənliyə çıxıb axan yerində nəhəng divar yerləşir. Bu divar Gilgilçayın adı ilə və yaxud Şirvan adlandırılır. O, dənizin sahilindən başlayaraq 30 km-dək, sahilyanı düzənlikdən dağa, Çıraqqalayadək uzanır. Hər iki divarın tikinti materiallarına və inşasına görə çox oxşarlığı var. Bu da tədqiqatçılara hər iki divarın eyni vaxtda tikildiyini düşünməyə əsas verir. Mütəxəssislər bu divarların Qubadın hakimiyyəti dövründə (488-531) tikildiyini düzgün hesab edirlər.

Bu, erkən orta əsrlər müəlliflərinin məlumatları ilə də təsdiq edilir. Belə ki, Məsudi (IX əsr) «... Şirvanda Qubad tərəfindən tikilmiş divar haqqında» məlumat verir. Başqa bir müəllif Bəlazuri göstərir ki, Qubad «...Şirvan vilayəti ilə Alban qapıları arasında çiy kərpicdən sədd tikmişdir».

Qafqazda sasanilər tərəfindən tikilmiş istehkamın tacı daşdan tikilmiş Dərbənd müdafiə kompleksi idi. Yuxarıda göstərildiyi kimi, bir sıra müəlliflərin məlumat və rəvayətlərində bu istehkamın tikilməsinin məşhur Sasani şahı I Xosrov Ənuşirəvanın adı ilə bağlı olduğunu qeyd edirlər (531-579) və hətta dəqiq tarix də göstərirlər 562-571.

Lakin bununla razılaşmaq çətindir, belə ki, hündürlüyü 20 metr olan, çətin dağ relyefi ilə 40 km-dək uzanan və hörgüsünə 2 milyon kub metr daş istifadə olunan nəhəng istehkam kompleksi qısa müddətdə tikilə bilməzdi. Ona görə də bir çox mütəxəssislər hesab edirlər ki, Dərbənd müdafiə istehkamları mərhələlərlə uzun müddət ərzində tikilmişdir və I Xosrov Ənuşirəvan ulu babaları tərəfindən başlanılmış işi bitirmişdir.

Sasani mərzbanlarının iqamətgahı. Bir neçə 100 illiklər ərzində sasanilər qərbi Xəzəryanı mühüm hərbi strateji raoynunda nəzarəti gücləndirmək və yeni şimal sərhədlərini möhkəmləndirmək məqsədi ilə tədbirlər görmüşlər.

Sasani şahları öz vəziyyətlərini möhkəmləndirmək və türk tayfalarının hücumundan müdafiə məqsədi ilə Qafqaz Albaniyası və İberiyada çoxsaylı hərbi qarnizonlar saxlayırdılar. Onlar tərəfindən Xəzər dənizi ilə Qafqaz dağları arasında «uzun divarlar» (Beşbarmaq, Şirvan, Dərbənd) tikilmişdir. Şəhərin ətrafında İranın daxili vilayətlərindən köçürülmüş əhali yerləşdirilmiş hərbi yaşayış məskənləri salınmışdır. Bu kəndlərə nəzarət etmək üçün sasani şahları rəislər təyin etmişdilər.

Çolanın özündə güclü qarnizon (10 minə yaxın süvari) yerləşdirilmişdir. Şəhər sasani canişinlərinin (mərzbanlarının) iqamətgahı oldu.

Çolanın ilk mərzbanı Sasani şahı II Yezdəgird (439-457) tərəfindən təyin olunmuş Sepuxt idi. Onun hərəkətləri Sasanilərə qarşı güclü üsyana gətirib çıxardı. Mənbələr Çolanın son Sasani mərzabanı Şəhr-Barazda haqqında məlumat verir.

Köndələn divarlar. Dərbənd təpəsinin zirvəsində yerləşən Narınqaladan dənizə kimi uzanan şimal və cənub şəhər divarlarından başqa, şəhərin yaşayış hissəsini tam tikilməmiş hissəsindən ayıran köndələn divarlar da mövcud idi.

Bəzi müəlliflər şəhərin köndələn divarlarla bölünmüş üç hissəsindən, digərləri isə dörd hissəsindən, üçüncüləri isə – iki köndələn daş və bir taxta divar haqqında məlumat verirlər.

Belə məlumatlar köndələn divarların müxtəlif vaxtlarda tikildiyini sübut edir.

VIII əsrdə ərəblər Dərbəndə gələnədək Orta qapıdan Qırxlar qapısınadək bir köndələn divar var idi. Bu köndələn divara hicri tarixi ilə 115 (733/4)-ci ildə ərəblər tərəfindən tikilmiş Cümə məscidinin şərq divarı söykənmişdir. Bu köndələn divar haqqında XI əsrin mənbələri də məlumat verir. Bu divar XVIII əsrin 20-ci illərində şəhərin tərtib olunmuş planlarında da qeyd olunmuşdur.

XVII əsrin əvvəllərində I Şah Abbas şəhərin dağılmış qala istehkamlarını bərpa edərkən, mövcud olan köndələn divarın şərq hissəsində cənub divardakı Quba qapısından şimal divardakı Daş qapıyadək daha bir köndələn divar tikdirmişdir.

1638-ci ildə Dərbənddə olmuş A.Oleari şəhəri belə görmüşdür: «…Şəhər üç hissəyə bölünmüşdür. Onlardan ən alisi – dağın zirvəsindəki qəsrdir (Narınqala). Orada canişin yaşayır. … Orta hissəsi insanlarla məskunlaşmışdır… 2000 adi addım uzunluğunda olan aşağı hissəsində ev yoxdur və yalnız bir neçə bağ və əkin sahələri vardır». Divarlar arasında şəhərin inkişafı ilə əlaqədar Narınqaladan dənizə uzanan birinci köndələn divar XVIII əsrin sonunda öz əhəmiyyətini itirdiyi üçün və şəhər komunikasiyalarının normal fəaliyyət göstərməsinə mane olduğu üçün dağıdılmışdır.

Köndələn divarlarla bölünmüş şəhərin hissələri arasında qapılar tikilmişdir. Yuxarı köndələn divarda üç qapı, aşağı köndələn divarda – bir qapı var idi. Dənizə yaxın ağacdan tikilmiş daha birqapılı köndələn divar var idi.

İlk iki köndələn divar yadelli düşməndən qorunmaq üçün müdafiə rolunu oynayırdısa, Dərbənd təpəsinin ətəyində tikilmiş daş köndələn divar şəhər hakimlərinin malikanəsini şəhərdən ayırırdı və başqa əhəmiyyət daşıyırdı. Bu divar XVIII əsrdə şəhər hakimləri ilə şəhər zadəganları arasında siyasi əlaqələrin kəskinləşməsi nəticəsində tikilmişdir.

Dərbənd Divarı (Böyük Qafqaz divarı) – Dağ-Barı kimi tanınır. VI-VIII əsrlərdə Şah I Xosrov Ənuşirəvan tərəfindən şərqdən qərbə – Dərbənddən Tabasaran dağlarınadək şimal köçərilərinin hücumundan müdafiə olunmaq məqsədilə tikilmişdir. Xəzər xaqanlığı dağıldıqdan sonra bu divarın strateji əhəmiyyəti itdi. Tədricən divar dağılmağa başladı və yerli sakinlər onun qalıqlarını tikinti materialı kimi istifadə etməyə başladılar.

Alman səyyahı A.Oleari divarın 150 mil uzandığını qeyd edir. I Pyotrun İran yürüşündə iştirak edən D.Kantemir bu dağ divarı tədqiq etmiş və xəritəsini çəkmişdir. O, xəritədə divarın qalıqlarını, qüllələrini və qapılarını göstərmişdir. Böyük Qafqaz divarının indiyə qədər qorunub saxlanmış qalıqları onun istehkamının yüksək incəsənət səviyyəsindən xəbər verir.

Dağ-Barı – Dərbəndin istehkam qurğularının əsas hissəsidir. Dərbəndin istehkam qurğuları ilə birlikdə vahid müdafiə kompleksini təşkil edir. Bu qurğular Sasanilərə (224-651-ci illərdə), sonralar isə ərəblərə, Xəzəryanı yolu etibarlı bağlamağa xidmət edir və regionun bütün daxili kommunikasiyalarına nəzarət etməyə imkan verirdi. Bu istehkamın bir ucu dənizə, o biri ucu isə uzaq dağlara gedib çıxırdı. Məhz həmin bu çətin dağ relyefində tikilən «möcüzəvi divar» haqqındakı əfsanəyə əsasən Xosrov I Ənuşirəvan «10 min döyüşcü, 6 min usta və 300 memar» toplamış və tikintiyə rəhbərlik etmək üçün özü Dərbəndə gəlmişdi.



Bilqədi kəndində yerləşən Dağ-barının bir hissəsi

VII-VIII əsrlərdə bu rayona gəlib çıxmış ərəblər gördükləri nəhəng daş divarın təsiri altında Xosrovun «bəxtiyar, xoşbəxt ruhu»nun bəhrəsi haqqında məlumat verirlər.

Sasani şahlarının Xəzər xaqanlığından qorunmaq üçün tikdirdikləri Dərbəndin «uzun divarları» ərəb xilafətinin dağılmasından sonra da bir neçə əsr Cənubi Qafqazı şimaldan etibarlı şəkildə qoruyurdu və Dərbəndin X əsrdə müstəqil feodal quruma – Dərbənd Əmirliyinə çevrilməsi ilə əlaqədar Dağ-Barı divarı öz əhəmiyyətini itirir. O zamandan başlayaraq Dərbəndin çətin və kəşməkəşli hadisələrlə dolu tarixində qala divarları və qalalar mühüm rol oynamağa başlayır.

Praktiki olaraq baxımsız qalan möhtəşəm müdafiə qurğusu – Dağ-Barı getdikcə dağılır. XIII-XX əsrlərin müəllifləri artıq bu divar haqqında heç bir məlumat vermirlər və yanlış olaraq şəhərin özünü Sasani şahı Xosrov I Ənuşirəvanın adı ilə bağlayırlar.

Erkən ərəb mənbələrinin məlumatları ilə tanış olan XII əsrin əvvəllərinin müəllifi ən-Əndəlusi Dağ-barı haqqında keçmişdə tənəzzül etmiş xəzərlərdən müdafiə olunmaq üçün ucaldılmış qədim qurğu kimi danışır. Erkən ərəb mənbələri ilə tanış olmayan Avropa müəllifləri (Rubruk – 1253, Kontarini – 1475, Kotov – 1623 və başqaları) şəhər istehkamlarını təsvir edərək Dağ-Barı haqqında heç bir məlumat vermirlər. Amma Adam Olearinin məlumatı onların məlumatından bir qədər fərqlənir. Onun məlumatı XVII əsrin birinci yarısında bir zamanlar göz oxşayan bu möhtəşəm qurğunun vəziyyətindən xəbər verir. 1722-ci ildə I Pyotru İran səfərində müşayiət edən D.Kantemir Dağ-Barının şəhərə yaxın sahəsinə baxaraq, qeyd edirdi ki, o, indi dağıntını xatırladır və yalnız bir-neçə qala qapıları ilə qalmışdır. Yüz il ondan sonra Dərbənddə sürgündə olan dekabrist A.Bestujev-Marlinski (1829-1833) yazmışdır ki, Çalqan dağ silsiləsi arxasındakı divar yarıuçuq vəziyyətdədir.

Bu gün Dağ-Barı tamamilə dağıdılmışdır və onun uzunluğu və konstruksiyası haqqında yalnız qədim yazılı mənbələrdən, ikinci minilliyin birinci yarısının səyyahlarının məlumatlarından, XVIII-XIX əsrin əvvələrində rus müəllifləri tərəfindən tərtib edilmiş plan və çertyojlardan, eləcə də nəhəng müdafiə divarının qalıqlarından öyrənmək olar. Dağ-Barı Narınqalanın cənub-qərb küncündən başlayır və dağa



Tabasaran rayonunda yerləşən Dağ-barının bir hissəsi

sarı, şəhər üzərində ucalan Calqan dağ silsiləsinə qalxır və dağların içinə gedir. Dağ-Barının qalıqlarını 40 km məsafədə, Tabasaran rayonunda Xapil kəndinədək görmək olar.

Dağ-Barının təxminən belə uzunluğu haqqında İbn əl-Fəqih (X ə.), Yəqubi (X ə.), əl-İstəxri (X ə.) və başqaları da məlumat verir: «…. bu barı meşəliklərlə və sıldırım, keçilməz dağlardan keçir və 7 fərsəxə qədər uzanır (1 fərsəx ≈ 6-7 km-ə bərabərdir)». Dağ-Barının «…Tabasaran adlı istehkama» qədər uzanması haqqında Məsudi (IX əsr) məlumat verir. Bəzi mənbələr Dağ-Barının uzunluğunun 14 fərsəx, 40 fərsəx olduğunu göstərir. Adam Oleari (1638), yerli məlumatlara əsaslanaraq 50 mil rəqəmini göstərir, bəzi müəlliflər isə qədim mənbələrin məlumatlarını düzgün başa düşməyərək yazırlar ki, divar «…Qara dənizə qədər», «iberiyalıların ölkəsinə» (Gürcüstan) qədər uzanır.

Rus taciri F.Kotov (1623) şəhərdə eşitdikləri rəvayətləri təkrarlayaraq yazırdı: «Dərbənd şəhərindən uzanan bu divar daş divar idi və dağlardan keçərək Qara dənizə kimi gedib çıxırdı».

Dağ-Barı iri balıqqulağı bloklarından, şəhər divarları və qalanın divarlarının tikildiyi həmin texniki üsulla tikilib. Dağ-Barı divar boyu fortlar və yarımfortlar sistemi ilə əlavə olaraq möhkəmləndirilib, bu da onun qüdrətini daha da artırırdı.

Əl-İstəxri yazırdı: «… Bu şəhərdən (yəni Dərbənddən - N.Əliyev) dağlar istiqamətində daşdan tikilmiş çoxlu istehkamlar var və bu dağdan şəhərə girmək mümkün deyil».

A.Bestujev-Marlinskidə oxuyuruq ki, bu fort-

lar «… müxtəlif ölçülü – 120-dən 80 addıma qədər uzunluqda, eni dörd dairəvi bucağı olan qüllələrdir». O, daha sonra məlumat verir ki, hər fortda bulaqlara gedən gizli yollar var idi.

1842-ci ildə Dərbənddə olmuş Kazan universitetinin professoru İ.N.Berezin yazırdı: «…Bu divar zamanın əli ilə çəkilmiş, bəzi intervallarla Tabasaran düzənliyi ilə 10 verst ərazidə uzanır, sonra kiçik dağ silsilələri ilə qalxaraq uzaq dağlarda itir».

Əl-İstəxrinin verdiyi məlumata görə «…Bab əl-Əbvab dağlarındakı qalalar Xosrov tərəfindən tikilmişdir. Xəzərlərin islam torpaqlarına getdiyi yolları qorumaq üçün qalalarda camaat yaşayır». Məsudidə oxuyuruq ki, I Xosrov Ənuşirəvan «…qalalarda yollara uyğun dəmir qapılar düzəltdirmiş və orada bu qapıları qorumaq üçün camaatı məskunlaşdırmışdır».

Yəqubinin məlumatına görə, «...7 fərsəx boyunca 7 keçid tikilmişdir». İbn Xordadbeh (X əsr) Dərbənd qalasını saymadan 13 qala haqqında, əl-İstəxri isə 14 qala haqqında yazır. Dağ-Barı yaxınlığında yerləşən bu yaşayış məskənləri bugünədək gəlib çatmışdır. Dərbənddən gedərkən onlar aşağıdakı qaydada yerləşmişlər – Pir-Dəməşq (Pirəməşqi), Mitaqi, Qamax, Zidyan, Bilqadi (ərəb mənbələrində Bab əl-Hədid, yəni Dəmir qapılar), Himeydi (ərəb mənbələrində Mühəmmədiyyə), Darvaq (ərəb mənbələrində Bab-Vak, yəni dağa Qapı, Dağ Qapıları), Zil, Tətil və Xapil. Bəzi tədqiqatçılar qədim Dərbənd şəhərini qoruyan hərbi yaşayış məskənlərinə, Calqan, Muqart və Rukeli (ərəb mənbələrində Runland) də aid edirlər… Bu hərbi yaşayış məskənlərinə İrandan və Ərəbistandan köçürülmüş sakinlər haqqında bir çox qədim əfsanələr və yazılı mənbələr xəbər verir. Yəqubi (X əsr) xəbər verir ki, xəlifə Mənsurun hakimiyyəti dövründə (754-775) Dərbəndin yaxınlığında ərəblər üçün üç şəhər tikilmişdir: Qamax, Mühəmmədiyyə və Bab-Vak. Dərbənd şəhərinin 2 km-də fort qalası yanında dördüncü Pir-Dəməşq adlı ərəb kəndinin qalıqları var. Burada qəbir daşlarından başqa evlərin dağıntıları və indiyə kimi istifadə olunan bulaq da qorunub saxlanılmışdır. XIX əsrin ortalarında burada vəba xəstəliyi tuğyan etdiyinə görə kənd boşalmışdır.

Hicri tarixi ilə 549-cu ildə (1154) Dərbəndə səfər zamanı gürcü şahını müşayiət edən İbn əl-Əzraq Dağ-Barı rayonunda yerli ərəblərlə rastlaşır. Bu ərəblər öz adət-ənənələrini və dillərini qoruyub saxlayaraq, dağlar arasında yerləşən iki şəhərcikdə yaşayırdılar. Onlar Dərbənd əmirlərinin xeyirxahlığı və himayədarlığı nəticəsində 500 ildən artıq idi ki burada yaşayırdılar.

Rus müəlliflərinin bildirdiyinə görə, Qamax kəndinin sakinləri hələ XIX əsrin sonunda ərəb dilində danışırdılar. Calqan və Mitaqi kəndlərinin sakinləri isə hələ indiyədək fars dilinin bir dialektində danışırlar.

Torpaqqala – Dərbəndin cənub hissəsinin 18-ci km-də, Belici kəndinin yaxınlığında qədim böyük şəhər.

100 ha yaxın sahəsi olan möhtəşəm istehkam düz kvadrat formasındadır. Böyük şəhərin bu gün görünən dağılmış bəndi vaxtı ilə çiy kərpicdən tikilmiş möhtəşəm divar olmuşdur. Bəndlərin hündürlüyü 10-12 metr, qalınlığı 8-10 metrdir (mütəxəssislər belə hesab edirlər ki, əvvəllər bu divarların hündürlüyü 20 metr, eni isə 10-12 metr olmuşdur).

Böyük şəhərin ətrafı hazırda 3-4 metr dərinliyi və 20-25 metr eni olan xəndəklərlə möhkəmləndirilmişdir. Şəhərin 4 tərəfində qapı tikilmişdir. Bu qapıların izləri bəndlərdə qalmışdır. Şəhərin cənub-qərb tərəfində torpaq tökülmüş süni təpəcik, yəni qalanın izləri qalmışdır.

Şəhərin bəzi fraqment təsvirlərini vermiş A.Başkirov (1927), İ.Orbeli (1928), Y.Paxomov (1937), M.İsakov (1941) və başqa, şəhər, demək olar ki, tədqiq olunmamışdır.

Arxeoloji məlumatlar olmadığı üçün şəhərin yaranma və inkişaf tarixini müəyyən etmək mümkün deyil. Lakin buradan bir mühüm nəticəyə gəlmək olar: Torpaqqala şəhəri VI əsrdən tez yarana bilməzdi, çünki şəhərin cəmi 18 km-də mövcud olan başqa bir şəhər möhtəşəm Dərbənd daş müdafiə kompleksi Sasani hökmdarı I Xosrov Ənuşirəvan (531-549) tərəfindən tikilmişdir.

Bəzi tədqiqatçılar hesab edirlər ki, II əsr müəllifi Klavdi Ptolomey tərəfindən xatırlanan Alban şəhəridir, başqaları onu Xəzərlərin Bələncər şəhəri hesab edirlər, üçüncülər isə bu şəhəri «Sull vilayətində» əsası II Yezdəgird (438-457) tərəfindən qoyulmuş Şəhristan-i Yezdəgird ilə eyniləşdirirlər.

Akademik Z.Bunyadov, Q.Qeybullayev, V.Kotoviç və bir sıra başqa nüfuzlu tədqiqatçılar bu şəhərə qədim yazılı mənbələrdə xatırlanan Çol (Çola, Çoqa) şəhərinin dağıntıları kimi baxırlar. Onların fikrincə, şimaldan qədim Çola şəhərinin ətrafını qoruyan Dər-

bənd qalası sərhəd məntəqəsi kimi yaranmışdır.

İki – Çol və Dərbənd şəhərlərinin eyni zamanda mövcud olması barədə bəzi qədim mənbələr də məlumat verir.

Lakin bu deyilənlər ətraflı tədqiqatların aparılmasını tələb edir.

Şəhər divarları. Narınqaladan dənizə qədər bir-birinə paralel olan iki şimal və cənub divarları uzanır. Qalanın yanındakı divarların arasındakı məsafə 350 metrdir, şəhərin orta və aşağı hissəsində isə bu ölçü 450 metrdir. Beləliklə, şəhər divarları arasına alınmış şəhər qalasının sahəsi 150 hektara yaxın təşkil edirdir.

Qərbdən şərqə doğru uzanan şəhər divarları bir tərəfi hündür təpə zirvəsində möhtəşəm qalaya, digər tərəfi isə dənizə söykənən rəzə kimi dar Dəbənd keçidini bağlayır. Hündürlüyü 10-12 metr, bəzi yerlərdə isə 15-20 m olan divarların qalınlığı 3,5 metrdir. Divarların uzunluğu 3,5 km-ə yaxındır. Divarların daha möhkəm olması üçün, onlar qabağa çıxan möhtəşəm kvadrat, yarımdairəvi və trapesiya formalı qüllələrlə bərkidilmişdir.

Bu qüllələrdən açılan atəşlər düşməni qala divarlarına yaxın gəlməyə qoymurdu.

Demək olar ki, şimal divarı tam qorunub saxlanmışdır. Çoxsaylı döyüşkən qəbilələrin məskunlaşdığı vilayətlərə tərəf yönəlmiş bu divar düşmənin süvari dəstəsinin ağır zərbələrini öz üzərinə götürürdü. Ona görə də bu divarda 46 qüllə var, onlar bir-birlərindən təxminən 70 m məsafədə yerləşir və qapılardan kiçikdir. Divar yerin relyefinin maksimal istifadəsindən asılı olaraq tikilmişdi.

Cənub divarı şimal divarından fərqli olaraq qaladan dənizə qədər düz xətt boyu tikilmişdir. Dərbənd keçidinin müdafiəsində bu divar elə də böyük əhəmiyyət kəsb etmirdi. Ona görə də bu divarda çox az qüllə vardı. XIX əsrin ikinci yarısında divarın çox hissəsi uçulmuşdur. Divarın yalnız iki sahəsi qalmışdır: 800 m-ə yaxın qalaya söykənən və 400 m-ə yaxın şərqi qurtaracaq hissəsi. Ona görə də cənub divarının qüllələrini dəqiq müəyyən etmək çətindir. Lakin XVII əsrin sonu – XVIII əsrin əvvəlində yaşamış müəlliflər məlumat verirlər ki, cənub divarında cəmi 15 qüllə var idi.

Şəhərin şimal və cənub divarında qapılar tikilmişdir.

Dərbənd və Qafqazda ərəb canişinlərinin iqamətgahı. Qafqazı (Azərbaycan, Arran və Dərbənd) işğal etdikdən sonra, Ərəb xilafəti əsasən, özünün şimal sərhədlərini kafirlərdən və döyüşkən xəzərlərdən müdafiədə Ərəbistandan uzaq olan bu diyarı idarə etməkdə böyük problemlərlə qarşılaşdı. Ona görə də bu diyara Xilafətə yaxın olan adamlar hakim təyin olunurdu. Məlumdur ki, müəyyən vaxtlarda «Azərbaycanın, Arranın» və Dərbəndin hakimləri xəlifələrin qohumları olmuşdur: Bunlardan Məsləmə ibn Əbdülməlik (735) – xəlifə Əbd əl-Məlikin oğlu (685-705) və hakimiyyətdə olan xəlifə Hişam ibn Əbd əl-Məlikin qardaşı (724-743); Mərvan ibn Məhəmməd ibn Mərvan (735-736) – Əməvilər sülaləsindən, sonralar 14-cü xəlifə olmuş (744-750) Hişam ibn Əbd əl-Məlikin əmisi oğlu; Əbu Cəfər əl-Mənsur (752) – sonralar 2-ci Abbasilər xəlifəsi (754-755); Harun ər-Rəşid (778-786) – Abbasilər sülaləsindən 5-ci xəlifə olmuş əl-Məhdinin oğlu (775-786) və s.

Ərəb hakimlərinin iqamətgahı Dərbənd şəhərində yerləşdiyi üçün Xilafətin Qafqaz əyalətlərinin taleyi də bu şəhərdən asılı idi.

X əsrin ortalarında Ərəb xilafətinin zəifləməsi və Xəzər xaqanlığının Kiyev knyazı Svyatoslav (? - 972) tərəfindən darmadağın edilməsi (966) ərəb canişinliyinin mərkəzi Bərdə şəhərinə köçürülmüşdür.

Dərbənddə hakimiyyət yerli sülalənin əlinə keçir və getdikcə müstəqil feodal Dərbənd Əmirliyi yaranır.

Dəniz divarları. Dəniz divarları bizim günlərədək qorunub saxlanmamışdır. Ona görə də yalnız qədim müəlliflərin, yerli əfsanə və rəvayətlərin məlumatına əsasən onlar haqqında fikir söyləmək olar.

Dərbənd müdafiə istehkamlarını təsvir edən IX-X əsr ərəb müəlliflərinin ümumi fikrinə görə, şəhərin şimal və cənub divarları dənizin içinə kimi uzanırdı. Şəhər divarlarının belə konstruksiyasından məlumat verən



Dəniz divarlarının qalıqları. 1914-cü il

rəvayətlərə görə bir dəfə gecə vaxtı şəhərin qala qapıları bağlandıqdan sonra Dərbəndə çox varlı bir karvan yaxınlaşır. Karvanı qarovulçular şəhərə buraxmırlar. Şəhərin qala qapıları açılanda artıq karvan yox idi. Aydın olur ki, karvan dənizə uzanan qala divarlarının ətrafını dolaşdıqdan və şəhərə giriş tapmadıqdan sonra, lazım olan vergini ödəməkdən imtina edərək çıxıb getmişdir.

Dərbənddəki limanlar haqqında bir sıra orta əsr müəllifləri də məlumat verirlər. Belə ki, əl-İstəxri yazmışdır: «… Bab əl-Əbvab şəhəri dənizin sahilində yerləşir, onun mərkəzində isə gəmilər üçün liman var. Limanla dəniz arasında sahilə paralel olaraq iki divar tikilmişdir».

Məsudi qalanı belə təsvir edir: «… divarın dənizə girən hissəsi əl-kaid adlanır, çünki o sahilə yaxınlaşan düşmən gəmilərini limana girməyə qoymurdu». İbn Haukal qeyd edir ki, limanın qapılarını bağlayan zəncir qıfıllanırdı. Açarlar isə dəniz nəzarətçisində olurdu və «… gəmi limana yalnız nəzarətçinin icazəsi ilə girə bilərdi». Əbu Həsən əl-Cürcani (XV əsr) dəniz divarlarını təsvir edərək dəqiqləşdirir ki, «… divarlar dənizə uzandıqca onların arasındakı məsafə daralır və gəmilərin limana girməsi mümkün olmur».

Bəzi müəlliflər I Xosrov Ənuşirəvanın bu sirli divarları tikməsini belə təsvir edirlər. Baladzorinin məlumatında deyilir: «… o, əmr edir ki, gəmilərdə daşlar gətirib o vaxtadək dənizə tullamalı ki, daşlar görünsün. Daşlar görünəndən sonra onların üzərində divar tikdirmişdir».

Məsudinin sözlərinə görə, divarlar hava ilə doldurulmuş tuluqlar üzərində tikilmişdir. Tuluqlar divar hörüldükçə dənizin dibinə enirdi və dalğıclar onları deşirdilər. Bunun nəticəsində divarlar dənizin dibinə möhkəm otururdu. Divarların bu üsulla tikilməsi haqqında ibn Cəfər, Zəkəriyyə əl-Qəzvini və bir sıra başqa müəlliflər də məlumat vermişlər.

Dənizə gedən divarların uzunluğu haqqında ərəb müəlliflərinin vahid fikri yoxdur. Məsudi yazır ki, bu divarların uzunluğu 1 mildir (1 ərəb mili-2 km), Bəlazuri, Kudama və ibn Rusta (X əsr) yazırlar ki, bu divarların uzunluğu 3 mildir, ət-Təbəri bu rəqəmi 105 dirsək göstərir, əl-İstəxri bu məsafənin 6 qüllə olduğunu söyləyir (məlumdur ki, şimal divarındakı qüllələrin arasındakı məsafə 70 metrə yaxındır), Hilal əs-Sabi (XI əsr) bildirir ki, dəniz divarlarının uzunluğu 600 dirsəyə qədərdir və s. Tədqiqatçılar son iki müəllifin məlumatlarının daha düzgün olduğunu güman edirlər.

Dəniz divarları müdafiə funksiyalarını da yerinə yetirirdi. Orta əsrlərdə Dərbənd Xəzər dənizində nəhəng liman şəhəri idi. Qədim müəlliflərin verdiyi məlumata görə Dərbənd limanı böyük ərazini əhatə edirdi. Əl-İstəxri və Hilal əs-Sabinin məlumatına görə limanın sahəsi 25 hektara yaxın idi.

Əsrlər ərzində su daşları yuyur və divar dağılırdı. Məşhur «Coğrafi cədvəllər»in müəllifi İsmayıl bin Nasir (XIII əsr) yazır: «… Dənizin dalğaları şəhər divarlarını bir neçə dəfə dağıtmışdır».

Səfəvi şahı I Abbas 1606-cı ildə dəniz divarlarının bərpası üzrə işlər aparmağa başlamışdır. Adam Olearidə də yazırdı ki, «…Dərbəndin bütün sahilləri qayalıqdır, gəmilərin burada dayanması mümkün deyil və təhlükəlidir».

Amansız zamanın təsirindən Dərbənd limanının izləri qalmamışdır. Dərbənd istehkamlarının tez-tez dağıdılması, dəniz mühitinin amansız olması, Xəzər dənizinin səthinin enib-qalxması dəniz divarlarının konstruksiyasının yox olmasına gətirib çıxarmışdır. Hazırda dəniz divarının dənizə girən hissəsi tamamilə dağılmışdır.

Dübarə – Dərbənd şəhərinin aşağı, dənizə yaxın divararası hissəsi. Şəhərin bu hissəsi Dübarə qapının adı ilə bağlıdır.

Qədim Dərbəndin tikilməsi Narınqaladan başlamışdır. Bura şəhərin inzibati mərkəzi və onun hakiminin iqamətgahı sayılırdı. VIII əsrin ikinci yarısından insanlar şəhərin dənizkənarı hissəsindəki divarlar arasında məskunlaşmağa başlamışlar. Bu da Dərbəndin nəhəng dəniz ticarəti mərkəzinə və Xəzər dənizində mühüm limana çevrilməsi ilə bağlı olmuşdur. Bu vaxtdan şəhərin tikilməsi iki istiqamətdə aparılmışdır: qaladan aşağı, dənizə tərəf və limandan üzü yuxarı, qalaya doğru.

Şəhərin yeni, aşağı hissəsi – «Dübarə» – «İkinci şəhər» adlandırılmağa başlamışdır. Bu şəhərin əsas ticarət mərkəzi idi.

Fransız kralı IX Lüdovikin (1214-1270) 1253-cü ildə Dərbənddə olmuş səfirinin sözlərinə görə, «...şəhərin aşağı hissəsi əsl cənnətdir». X əsrdə, şəhərin inkişafı ilə əlaqədar dəniz daşımaları artmış və dənizdə su tutumu yüksək olan gəmilər üzməyə başlamışdır. Buna görə də Xəzərdə dayaz Dərbənd limanı baş liman kimi əvvəlki əhəmiyyətini itirir. Dübarənin inkişafı ləngiyir və monqolların 1223-cü ildəki hücümu zamanı şəhərin bu hissəsi uçur. Burada həyat uzun müddət mövcud olmamışdır. 1475-ci ildə Dərbənddə olmuş venesiyalı səfir Ambroco Kontarini

yazmışdır: «Şəhərin dəniz istiqamətindəki hissəsi tamamilə dağıdılmışdır». Adam Oleari isə «Şəhərin aşağı 2000 adi addım uzununda olan hissəsində ev yoxdur və yalnız bir neçə bağ və əkin sahəsi olduğunu göstərir. Sonralar burada yunanlar məskunlaşdığı üçün indiyədək şəhərin bu hissəsi «Yunanlar şəhəri» adlanır.» Həmin məlumatı Dərbənddə olmuş İ.Qreber və hollandiyalı YanŞtreys də vermişdir. Onlar yazmışdılar ki, «… şəhərin aşağı, dənizə qədər olan hissəsində lap qədim zamanlardan yunanlar və digər xristianlar yaşamışlar. Lakin sonralar, görünür onlar qovulmuş və tikililər dağıdılmışdır. Bu günə kimi də şəhər boşdur və orada heç kim yaşamır».

1740-cı ildə şəhəri tutmuş Nadir şah (1688-1747) Dərbənd limanının və şəhərin dənizkənarı hissəsinin bərpasına cəhd edir. Nadir şahın xidmətində olmuş ingilis Hanvay məlumat verir ki, Dərbəndin aşağı hissəsində insanlar bu yaxınlarda məskunlaşmışlar. Nadir şah burada ticarəti inkişaf etdirmək məqsədilə liman rayonunda bir neçə küçə saldırmış və saray tikdirmişdir. Lakin bütün bu cəhdlərə baxmayaraq, insanlar burada məskunlaşmamışdır. 1806-cı ildə A.A Kremskoy yazırdı ki, «şəhərin dənizə tərəf uzanan hissəsi Dübarə adlanır, burada heç bir tikili yoxdur və tamamilə boşdur».

S.Bronevskinin 1823-cü il məlumatına görə, «... şəhərin Dübarə adlandırılan və dənizə tərəf uzanan hissəsində yaşayış olmayan boş yer var». XVIII əsrin ortalarında şəhərin bu hissəsində şəhər sakinləri heyvanlarını otarmaqda davam etmişlər. Dübarədə insanların məskunlaşması XVIII əsrin sonundan başlamışdır. Surxay xan Qazıqumuqlu tərəfindən Dərbənd xanlığının Abbas kəndi darmadağın edildikdən sonra, Şeyxəli xan bu kəndin sakinləri olmuş yəhudiləri şəhərə köçürmüşdür. Şəhərin Dübarə hissəsi əsasən XIX əsrin birinci yarısından başlayaraq sürətlə tikilməyə başladı. Hazırda bu rayon şəhərin mərkəzi hissəsidir.

Kilsə meydanı – şəhərin mərkəzi meydanı. Şəhərin inkişafı üzrə ilk baş planının yerinə yetirilməsi ilə əlaqədar 1825-ci ildə tikilmişdir. Meydanda Müqəddəs Georgi Pobedonosetsin pravoslav məbədi yerləşdiyi üçün 1897-ci ildə şəhər yerli hakimiyyət orqanının qərarı ilə Kilsə meydanı adlandırılmışdır. 1920-ci ildə şəhərdə sovet hakimiyyəti qurulduqdan sonra meydan Azadlıq meydanı adlandırılmışdır.

İdarə yerləri üçün bina. Dərbənd Rusiyaya birləşdirildikdən sonra (1806-cı il 22 iyun) bütün dövlət müəssisələri şəhərin qədim hissəsindəki şəxsi evlərdə yerləşirdi. 1854-cü ildə Dərbəndə bir neçə məqalə həsr etmiş «Qafqaz» qəzeti yazırdı: – «… 1847-ci ilədək bütün idarə yerləri və mülki məmurlar yuxarı müsəlman məhəllələrində yerləşirdi». Arxiv materiallarından görünür ki, Dərbənd sakini Nəcəfov 1822-ci ildə illik ödəniş 2000 rubl olmaqla 12 il müddətinə idarə yerləri üçün yaşayış evini icarəyə vermişdir. 1834-cü ildə isə, həmin bina ödənişi 2750 rubl olmaqla daha 12 il müddətinə icarəyə götürülmüşdür.

XIX əsrin 40-cı illərində şəhərin (Dübarə) yeni aşağı hissəsi sürətlə tikilməyə başlayanda Dərbəndin hərbi qubernatoru knyaz A.İ.Qaqarin öz vəsaiti olmadığı üçün Həştərxan taciri Kusikovla idarə binalarının tikilməsi üçün müqavilə bağlayır.



Keçmiş idarələrin yerləşdiyi bina.
Hazırda şəhərin inzibati təşkilatının binasıdır

1848-ci ildə Kilsə meydanının şimal-şərq tinində binanın əsası qoyulur. 1850-ci ilin dekabrında ikimərtəbəli daş bina istifadəyə verilmişdir. Binanın giriş qapısında indiyədək çuğundan tökülmüş rum rəqəmlərinin MDCCCXLVIII izi görünür. Bu da 1848-ci ilə təsədüf edir. Sonralar Kusikov bu binanı şəhər sakini Surinova satmışdır. O da öz növbəsində binanı şəhər idarəsinə icarəyə vermişdir. 1901-ci ildə evin sahibi şəhər icra hakimiyyətinə bu evi 25 min rubla almağı təklif edir. Lakin vəsait olmadığı üçün sövdə baş tutmur.

1905-ci ilin yanvarında şəhər başçısı K.Heydərov şəhər müvəkkil olunmuşların iclas nümayəndələrinə məruzəsində demişdir ki, şəhər idarəsi, qəza hərbi idarəsi, polis və aptek üçün idarələri icarəyə götürmək üçün şəhər ildə 2250 rubl ödəyir və təklif edir ki, qənaət məqsədi ilə bina Surinovun həyat yoldaşından 15 min rubla alınsın. Xüsusi yaradılmış komissiya binanı yoxlamış və qənaətə gəlmişdir ki,

bina yaxşı vəziyyətdədir və onu almaq olar. Hüquqi sənədləri qeydiyyatdan keçirdikdən sonra həmin binada şəhər idarəsi, bank və aptek yerləşdirildi.

Sovet hakimiyyəti illərində bu binada partiya və sovet orqanları yerləşirdi. Hazırda burada şəhər inzibati orqanları yerləşir.

Liman. Dərbənd Xəzər dənizində qədim liman şəhərlərindən biri olmuşdur. Məlumdur ki, şəhər divarları tikilərkən onlar dənizə qədər uzadılaraq mudafiə olunan liman yaradılmışdır. Tədqiqatların göstərdiyi kimi, şəhərin limana yaxın olan divarlararası sahəsi erkən dövrlərdə insanlarla məskunlaşmış və Yunan şəhəri adlandırılmışdır. Görünür, bu şəhər limanın yanında yaranmış qədim ticarət mərkəzi olmuşdur. İnkişafla əlaqədar orta əsrlərdə Dərbənddəki qədim liman tənəzzülə uğramışdır.

XVIII əsrin əvvəllərində qərb Xəzəryanı rayon qüvvətlənən rus imperiyasının maraq dairəsinə düşür.



Dərbənd limanı

I Pyotrun planlarında Avropanın Yaxın və Orta şərqlə ticarətində Rusiya vasitəçi rolunu oynamalı idi. Bunun üçün ticarət yolunu Türkiyənin hökmranlıq etdiyi Qara dənizdən Xəzər dənizinə yönəltmək lazım idi. Bu tranzit yolun baş dayaq məntəqəsi kimi Bakıya, Dərbəndə və Həştərxana böyük rol ayrılırdı.

I Pyotr İran yürüşündən dərhal sonra Xəzərdə qoşun komandanı olan general-mayor Matyuşinə təlimat göndərir: «… Dərbənddə limanın tikilməsi üçün 200 kazak ayırmaq və layihəyə əsasən həmin limanı tikmək lazımdır».

Tərtib olunmuş layihəyə əsasən şəhərin divarlarını dənizə kimi uzatmaq, iki – cənub və şimal dalğaqıran bənd ucaltmaq lazım idi. 400 metr uzunluqda olan cənub dalğaqıran bənd əyri xətlə şimal dalğaqıran bəndinədək yaxınlaşdırılmalı və gəmilər üçün giriş qoyulmalı idi. Lakin 1723-1724-cü illərdə bir sıra siyasi və iqtisadi səbəblərə görə limanın tikintisi dayandırıldı.

1741-ci ildə şəhəri geri almış Nadir şah (1688-1747) Dərbənddə dəniz limanının tikintisini davam etdirməyə cəhd göstərdi. Lakin bu cəhd baş tutmadı.

XIX əsrin ortalarınadək Dərbənd limanı bu vəziyyətdə qalmışdır.

1847-ci ildə Qafqaz canişini Vorontsov Dərbəndin yerli hakimiyyətinə «limanı abadlaşdırmağı» təklif etdi.

Bir ildən sonra, 1848-ci il mayın 7-də, Voronsov limanın yerinə baxdı. Burada 66 sajen uzunluğunda (1 sajen=2,1 m) və 7 fut (1 fut=0,3 m) dərinlikdə, 41 sajen lövbər təşkil edən dalğaqıran tikmək qərara alındı. Donanma Şturman Korpusunun mühəndisləri Sokolov (Bakı) və Fyodorov (Sevastopol) 1848-ci ilin iyul-oktyabr aylarında Dərbənd reydinin planını tərtib etdilər. Həmin ildə Qafqaz canişini Vorontsovun göstərişi ilə sahə mühəndisi ştabs-kapitan Gerşelmana mövcud olan Dərbənd limanının yaxşılaşdırılması haqqında təkliflərin tərtib olunması həvalə edilmişdir. Bu təkliflər baxılmaq üçün Qara dəniz donanmasının komandirinə göndərilmişdir. O da, öz növbəsində Sevastopol doklarını tikən mühəndis polkovnik Uptona dalğaqıranın layihəsini və planını tərtib etməyi həvalə etmişdir.

Layihənin tərtibatına görkəmli mütəxəssislər cəlb olunmuşdur. 1850-ci ildə həmin layihə baxılmaq üçün imperatora təqdim olunmuşdur.

1850-ci ilin aprelində Gerşelmanın rəhbərliyi altında limanın tikintisinə başlandı. 1853-cü ildə limanın tikintisi başa çatdırıldı. Lakin liman kiçik daşlardan tikildiyi üçün ilk payız fırtınası zamanı dağıldı.

1854-cü ilin avqustunda vurulmuş ziyanı müəyyən etmək və tikintinin gələcəyi haqqındakı təklifləri təqdim etmək üçün Bakıdan Dəniz-tikinti hissəsi Korpusundan mühəndis-gizir Tuçkov göndərilmişdir.

1855-ci ildə Həştərxan limanı və Xəzər donanmasının Baş komandanı Vasilyev Dərbənddə üzən dalğaqıranın tikilməsi haqqında təklif irəli sürmüşdür.

1858-ci ilin avqustunda cənub şəhər divarının uzadılması üçün 12 gün ərzində hər birinin çəkisi 10 puda (1 pud=16 kq) qədər olan 500 daş plitə qoyulmuşdur. Tikilmiş bəndin üzərində taxtadan müvəqqəti liman tikilmişdir.

1859-cu ilin sonunda mühəndis-kapitan Falkenqaqenə yeni Dərbənd dalğaqıranının tikintisi üçün layihə və smetanın tərtibatı tapşırılmışdı. 1861-ci ilin martında layihənin və smetanın tutulması başa çatdırıldı. Nəzərdə tutulmuşdur ki, həmin liman 120-150 gəmini eyni

zamanda qəbul edə biləcəkdir. Bu liman 4 il ərzində tikilməli idi və dəyəri 529 min rubl idi. Amma vəsait olmadığı üçün limanın tikintisi dayandırılmışdır.

1864-cü ildə mühəndis Falkenqaqenə yeni sadələşdirilmiş taxta limanın layihəsini və smetasını tutmaq həvalə olunmuşdur. Belə layihə hazırlandı. Bu limanın uzunluğu 100 sajen və gəmilərin keçməsi üçün dərinliyi 14 fut təşkil edirdi. Limanın üstü ilə iki vaqonun keçməsi üçün dəmiryolu salınması planlaşdırılmışdır. Bundan əlavə, yüklərin yüklənməsi və boşaldılması üçün 3 gəmidə hər biri 200 pud yükqaldırma qabiliyyətinə malik olan və dəmiryolu xətti ilə hərəkət edən 2 qaldırıcı kranın quraşdırılması planlaşdırılmışdır. Bu limanın tikilmə müddəti 6 ay (1865-ci ilin yayı) və dəyəri 35 min rubl idi. Vəsait olmadığı üçün bu limanın da tikintisi təxirə salınmışdır.

1868-ci ildə Rusiya İmperator donanmasının general-admiralı Böyük knyaz Aleksey Aleksandroviç (rus çarı II Aleksandrın birinci oğlu, 1855-1881) Dərbənddə olarkən şəhər sakinləri ona limanın tikilməsi barədə xahişnamə təqdim etdilər. 1869-cu ildə Böyük knyazın şəxsi göstərişi ilə Dərbənd şəhər rəisi limanın tikilməsi məsələsini yenidən qaldırır.

Yalnız 1875-ci ildə limanın tikilməsi məsələsinə baxmaq üçün mühəndis fon Sur-Miller Dərbəndə ezam olunmuşdur. 1893-cü ildə isə yeni layihənin tərtib olunması yerli mühəndis Sultanova həvalə olunmuş və o, bu işləri 1895-ci ildə başa çatdırmışdır. Lakin bu layihə də yerinə yetirilməmişdir.

Buna baxmayaraq Dərbənd vasitəsilə dəniz daşımaları yerinə yetirilirdi.

1846-cı ildə Qafqaz canişini Vorontsovun şəxsi göstərişi ilə Xəzər dənizilə müntəzəm poçt-sərnişin hərəkətləri açılmışdır. Bu daşımaları 3 gəmi yerinə yetirirdi. Onlar sahil boyu üzərək Həştərxan, Petrovsk, Dərbənd, Abşeron, Bakı, Lənkəran, Ənzəli, Astrabad limanlarına daxil olur və geri qayıdırdılar.

Çətinliklərə baxmayaraq Dərbənd limanında ticarət yükdaşıma dövriyyəsi ildən-ilə artırdı. 1845-1847-ci illərdə Dərbənd limanı ilə yükdaşıma 4 dəfə artmışdır. Bu limanla yükdaşıma 2,5-3 dəfə ucuz başa gəlirdi.

Port-Petrovsk-Dərbənd (1898) və Dərbənd-Bakı (1899) dəmiryolu xətti istismara verildikdən sonra Dərbənd limanı öz əhəmiyətini getdikcə itirir.

XX əsrin əvvəllərində şəhər hakimiyyəti əhəmiyyətini itirmiş limanı Dərbənd taciri Hacı Mirzə Abdullayevə satır. O, burada – «Dərbənd taciri Hacı Mirzə Abdullayevin meşə limanı idarəsi» müəssisəsini açır. Sovet hakimiyyəti illərində tacir Abdullayevin müəssisəsi ləğv edildi və liman işini dayandırdı.

Lakin dəmiryolu Cənubi Dağıstanın nəqliyyat tələblərini ödəmirdi. Bu vəziyyətdən çıxışı Dağıstan rəhbərliyi Dərbənddə tezliklə müdafiə olunan limanın tikilməsində görürdü. Bu dəfə də Dərbənddə limanın tikilməsi məsələsi sona qədər həll olunmamış qaldı.

1930-cu ildə keçmiş limanın ərazisində balıq-konserv zavodunun tikilməsinə başlanıldı.

Mayak. Dərbənd dəniz limanı kimi lap qədimdən bəllidir. Burada möhtəşəm qala divarları ilə qorunan limanların mövcüdluğu haqqında IX-X əsr ərəb müəlliflər məlumat verirlər. Bir çox tədqiqatçılar hesab edirlər ki, Dərbənddə liman ərəblər gəlməmişdən əvvəl, Sasani şahı I Xosrov Ənuşirəvan tərəfindən daş istehkamların ucaldılması dövründə tikilib.



Lakin qədim müəlliflərin məlumatlarında Dərbənddə mayakın olması haqqında heç bir məlumat yoxdur. Yalnız XVIII əsrin ortalarında dəniz yükdaşınmasının inkişafı ilə Xəzərdə poçt-sərnişin gəmilərinin müntəzəm reyslərinin Dərbənd limanına girməklə açılması ilə əlaqədar Dərbənddə mayakın tikilməsi zərurəti yarandı. Qafqaz canişini knyaz M.S.Vorontsovun göstərişilə 1850-ci ilin iyulunda mayakın layihəsini tərtib etmək üçün Dərbəndə gəmi mühəndisi praporşik Sergeyev gəlir. Avqust ayının sonunda layihə təsdiq olunmaq üçün canişinin Tiflisdəki dəftərxanasına çatdırıldı.

Layihədə göstərilirdi ki, mayak sudan 320 sajen məsafədə (1 sajen=2,3) hündürlüyü 30 fut olan (1 fut=1/7 sayın=0,3) Şimal qala divarında tikilməlidir Mayakın hündürlüyü 35 fut və 9 düym olmalıdır (1 düym=1/2 fut=2,54 sm). İşığın hündürlüyü dəniz səthindən 130 fut təşkil edirdi. Daim yanan, hər

tərəfdən görünən işıq dəniz üfüqünün 10 dəniz milini (1 dəniz mili=1,85 km) işıqlandırırdı. Mayak işıqlandırma sistemi dairəvi yerləşdirilmiş diametri 9 düym olan 8 lampadan ibarət idi.

Mayakın tikilməsinə 1851-ci ildə başlandı və 1853-cü il yanvarın 16-da istifadəyə verildi. Qafqaz canişini M.S.Vorontsovun sərəncamı ilə mayak 1853-cü il mayın 1-dən axşamdan səhərə kimi yandırılmağa başlandı.

1866-ci ildə taxtadan tikilmiş mayak daş mayakla əvəz olundu. Bu mayakın hündürlüyü 54 fut, dəniz səthindən hündürlüyü 148 fut təşkil edirdi. Mayakın bir işıqlandırıcısı var idi və o, 14 mil məsafəni işıqlandırırdı. Qalanın arxasında, xüsusi bağda mayak qurğuları tikildi. Bu dövrdə Xəzərdə yeni bölmə – losiya və mayak direktorluğu yarandı. Mayak da həmin direktorluğun sərəncamına verildi.

Dərbənd mayakı və mayak tikililəri həmin vəziyyətdə bizim günlərədək qorunub saxlanılmışdır.

BAĞLAR VƏ PARKLAR

«İnqilab şöhrəti» bağı. 1901-ci ilin yazında Vrangel və Qolitsın küçələri arasında bağ salındı və şəhər başçısı Qasım bəy Heydərovun təklifi ilə Qafqazda canişin olmuş knyaz Qolitsının şərəfinə Qolitsın bağı adlandırıldı. Bağın mərkəzində gözəl hovuz tikilmişdir. Bağ şəhər sakinlərinin istirahət yerinə çevrildi. Bağda həftədə bir dəfə Qunib ehtiyat batalyonunun nəfəsli alətlər orkestri çalırdı.

1918-ci ildə şəhər ətrafında fəaliyyət göstərən quldur dəstələri ilə mübarizə aparmaq üçün K.Məmmədbəyovun komandanlığı altında Xüsusi süvari dəstə yaradılmışdır. Bu dəstə şəhərin bağlarını və bostanlarını da qoruyurdu. Zilyan-Qazmalar kəndinin yaxınlığında Çolaq Cəfərin böyük quldur dəstəsinin məhv edilməsi üzrə döyüşlərin birində Xisusi süvari dəstənin bir neçə döyüşçüsü həlak olmuşdur. Onların hamısını şəhərin mərkəzində, Qolitsın bağında qardaşlıq məzarında şərəflə dəfn etdilər. Məzarın üstündə ağ daşdan yonulmuş düzbucaqlı piramida formasında abidə ucaldılmış və həlak olanların adları yazılmış çuğun lövhə qoyulmuşdu.

1966-cı ildə qəbirüstü abidə daş postament üzərində kişi abidəsi ilə əvəz olunmuşdur.

1970-ci ildə Dağıstanda sovet hakimiyyətinin qurulmasının 50-illik yubileyi ilə əlaqədar bağda «İnqilab şöhrəti» memorialı ucaldılmışdır. Əvvəllər qardaşlıq qəbiristanlığındakı adsız heykəl memorialın mərkəzində yerləşir. Bu memorialın heykəltaraşı H.Heybətov, memarı isə V.Skuqaryevdir.

Nümunəvi şəhər bağı. Bu bağ Qafqazda canişin olan qraf M.S.Vorontsovun sərəncamı ilə 1848-ci ildə bağbanların, o cümlədən bostançıların aqronomçuluğu və aqrotexnikanın praktiki təlimi məqsədilə salınmışdır. Bağbanlar bağa qulluq edən mütəxəssislərdən məsləhətlər ala bilər, qısamüddətli təlim kursları keçə bilər, əkin tingləri və toxum ala bilərdilər. Bağ Dərbənd şəhərinin hesabına saxlanılırdı, təlim və məsləhətlər isə pulsuz idi.

Belə bağın yaradılmasının zəruriliyini şəhər hakimləri onunla izah edirdilər ki, şəhər əhalisinin bir çox hissəsi bağçaçılıqla və bostançılıqla məşğul olur və bu, onların yeganə gəlir mənbəyi hesab olunurdu.

Bağ şəhərin cənub divarının arxasında yerləşirdi və 1,45 hektar sahəni əhatə edirdi. Bağda minə yaxın meyvə ağacı və üzüm tingləri, xüsusən krım sortları var idi. Sonralar bağın sahəsi 6,5 desyatinə qədər artırılmışdır.

1853-cü ilin məlumatına əsasən bağın bəzi yerlərində 1500-ə qədər ağac, məktəbyanı ərazilərdə və əkin sahələrində 3000-dən çox ağac, 7000-ə yaxın tinglik, üzüm sahələrində 7-minə yaxın üzüm tingləri, bostanlarda 50 sorta qədər müxtləif tərəvəz, istilikxanalarda və oranjereyalarda dibçəklərdə 1500-dən çox müxtəlif növ bitkilər yetişdirilirdi. Demək olar ki, bütün bitkilər bu diyar üçün yeni idi.

1855-ci ildə şəhər xəzinəsində pul vəsaitinin çatışmazlığından bu bağ hərbi hospitalın baş həkimi L.M.Lobaçevskiyə icarəyə verilir.

Sonralar, 1872-ci ildən 1899-cu ilədək şəhərin keçmiş polismeysteri K.A.Koçerqin bağı icarəyə götürür.

1900-cü ildən 1904-cü ilədək – K.İ.Şahidcanov, 1904-cü ildə isə yeni açılmış Bağçılıq, şərabçılıq və bağçaçılıq məktəbi bağı təcrübə işləri aparmaq məqsədilə icarəyə götürür.

Sovet hakimiyyəti illərində bu bağ Kənd Təsərrüfatı Texnikumuna verilmişdi. XX əsrin 50-ci illərinin sonundan başlayaraq bağın ərazisində sürətlə yaşayış evləri və ictimai binalar tikilməyə başladı (19 saylı orta məktəb, «Yubileynı» Kənd Təsərrüfatı Texnikumunun binası, Çapayev döngəsində yaşayış evləri və s.).

Hazırda yaşayış evlərinin arasında çox da böyük olmayan ərazi qalmışdır. Bu ərazidə kənd təsərrüfatı texnikumunun tədris təsərrufatı yerləşir.

Şəhər ictimai bağı – 1848-ci ildə Dərbənd şəhərində salınmışdır.

1850-ci ilin noyabrında Dərbəndə səfər etmiş «P.D.» adli bir müəllif yazmışdır: «çox xudmani ictimai bağça, özü haqqında Dərbənddə həmişəlik xoş xatirə qoymuş knyaz Qaqarin tərəfindən əkilmiş bitkilər» (Dərbəndin ilk hərbi qubernatoru A.İ. Qaqarin nəzərdə tutulur).

P.A.Stepanov adlı digər müəllif 1862-ci ildə yazmışdır ki, «… Dərbənddə çox gözəl bir bağ var, hərdən xalq burada xətti batalyonun musiqiçilərinin musiqisi altında rəqs etmək üçün yığılır».

1900-cü ildə bağın sahəsi 6255 kv sajen olmuşdur (1 sajen=2,13 m) və bağ şəhər sakinlərinin gəzinti və istirahət yeri idi. 1903-cü ildən həftədə bir dəfə bağda Qunibsk ehtiyat batalyonunun nəfəs alətləri orkestri çalırdı.

1903-cü il mayın 15-də Rusiya imperiyasının paytaxtı Sankt-Peterburq şəhərinin 200 illiyinin bayram edilməsi ilə əlaqədar şəhər müvəkkil olunmuşlarının qərarı ilə Petrovsk bağı adlandırılmış və bağda Pyotrun büstü qoyulmuşdur. Sovet hakimiyyəti illərində şəhər ictimai bağı S.M.Kirov adına park adlandırılmış, I Pyotrun büstu götürülmüş və 1924-cü ildə onun yerinə V.İ.Leninin büstü qoyulmuşdur.

MƏHƏLLƏLƏR

IX-X əsrlərin ərəb müəllifləri məlumat verirlər ki, sərkərdə Məsləmə Dərbəndi işğal etdikdən (733) sonra burada Ərəbistandan gəlmişləri məskunlaşdırdı və şəhəri dörd hissəyə böldü. Hər məhəllə burada məskunlaşan tayfanın adı ilə adlandırıldı: Fələstin, Xumıs, Kufi, Cəzirə. «Dərbəndnamə» salnaməsinə əsasən Məsləmə «… 7 məhəllə yaratdı. Urdundan çıxmış könüllülər üçün bir məhəllə … Fələstindən olan könüllülər üçün bir məhəllə … Dəməşqdən olanlar üçün bir məhəllə … Xumısdən olan konüllülər üçün bir məhəllə… Qeysəridən olan könüllülər üçün bir məhəllə düzəldilmişdi. Cəzirədən olan könüllülərin də tələbini yerinə yetirmişdir. Mosuldan olan könüllülər üçün də məhəllə düzəltdi». Bu məhəllələr çoxluq təşkil edən qəbilənin adını daşıyırdı. Bu adlar XI-XII əsrə qədər olan ərəb müəlliflərinin məlumatlarında verilir. Şəhərdə türk dili üstünlük təşkil etdiyi üçün sonralar məhəllələrin adı dəyişdirilir: Molla daşı, Şirvan burnu, Kufə məhəlləsi, Çortəpə, Bazardaşı və ya Xan küçə, Anbarüstü, Carçı məhəlləsi, Bayat məhəlləsi, Ortatəpə, Peyinnik başı, Bayat oçağı, Mikri məhəlləsi, Gen küçə, Çuxur küçə, Emamə küçə, Çopur küçə.

Dərbənd Rusiyaya birləşdirilməndən sonra (1806) şəhərin köhnə hissəsi doqquz məhəlləyə bölünür. Bu məhəllələr sadəcə olaraq birdən doqquza qədər nömrələnir. Şəhərin aşağı hissəsindəki tikililər 1897-ci ilə qədər olan rəsmi sənədlərdə, şəhərin küçə və döngələrinə yeni adlar verilməsilə əlaqədar, Urus məhəlləsi, Erməni məhəlləsi, Yəhudi məhəlləsi, Müsəlman forştadtı (Quruq) adlandırılmışlar.

Hazırda şəhərin köhnə hissəsi 9 məhəlləyə bölünmüşdür.

Əsgər qəsəbəsi. Qafqazda mövcud olan hərbi düşərgələri yaşayış məskənlərinə çevirmək və rus əhalisinin burada yaşamasını əbədiləşdirmək üçün Qafqazın Baş komandanı general A.Yermolov alayların qərargah-mənzillərində evli əsgərlərdən ibarət xüsusi taborlar yaratmışdı. Bunun nəticəsində Əsgər qəsəbələri adlandırılan yaşayış məskənləri yaradıldı.

Dərbənddə Əsgər qəsəbəsi şəhərin şimal divarlarının arxasında Kafir yüksəkliklərində yaradılmışdır.

1832-ci ildə Qazı Molla şəhəri mühasirəyə alarkən Kafir yüksəkliklərindəki kazarmalar və evli əsgərlərin yaşadığı evlər yandırılmışdır. Bunun əvəzində 1843-cü ildə şəhərin daxilində yeni Əsgər qəsəbəsinin salınması üçün ərazi ayrılmışdır.

1850-ci ildə Əsgər qəsəbəsində 90-a yaxın ev var idi.

1851-ci ildə Əsgər qəsəbəsi yeni evlərin tikilməsi hesabına genişləndirilmişdi və 1858-ci ildə artıq burada 140 ev var idi. Əsgər qəsəbəsinin bütün əhalisini ruslar təşkil edirdi.

Mövcud olan Əsasnaməyə görə, aşağı rütbəli zabitlər qarnizonda xidməti bitirdikdən sonra evlər onların mülkiyyətində qalırdı və bu evlərin yalnız başqa aşağı rütbəli zabitlərə satılmasına icazə verilirdi.

Əsgər qəsəbəsinin planlı tikilməsi üçün 1866-cı ildə Cənubi Dağıstanın rəis müavini general A.S.Uzbaşevın sədrliyi ilə xüsusi komissiya yaradılmışdır.

Həmin plan Qafqaz canişini tərəfindən təsdiq olunmuşdur. 1873-cü ildə əsgər evləri əsasən layihələşdirilmiş Kilsə (hazırda Komunarlar küçəsi) və Komendant (hazırda Kandelaki küçəsi) küçələrinə daxil edilmişdir.

Quruq (türkcə «quraqlıq», «su olmayan» yer) – cənub şəhər divarlarının arxasında yaşayış massivi. 1824-cü ildə ikinci baş plana əsasən şəhərin köhnə hissəsinin bərpasına və Dübarənin tikintisinə başlandı. Şəhərin köhnə hissəsində, məhəllələrin əyri küçələrindən və Kilsə meydanından keçərək (hazırda Azadlıq meydanı) Bazar döngəsinədək (hazırda Krupskaya küçəsi) uzanan geniş düz küçə keçirdi (hazırda M.Rzayev). Evləri sökülmüş kasıb sakinləri şəhərin cənub divarlarının arxasında yerləşən keçmiş xan bağının ərazisinə köçürürdülər. «Nümunəvi layihə» ilə özünə ev tikməyə qadir olan varlı əhaliyə isə Dübarədə sahə təklif olunurdu. Xalq arasında şəhərin cənub divarlarının arxasında yerləşən kasıb məhəllə Quruq, rəsmi sənəddə isə – Müsəlman forştadtı adlanırdı. Bu rayonda «Dağyun» (1930) yun kombinatının açılışından sonra ərazi Fabrika qəsəbəsi adlandırıldı.

Yerli əhali bu ərazini Quruq, Forştadt, Fabrika qəsəbəsi və s. adlandırırdılar.

Bazar başı – Dərbənd şəhərinin Başmaqçı Bazarı rayonunda məhəllə adı. Hazırda 6-cı məhəllə.

Yəhudi məhəlləsi. XVIII əsrin sonunda Dərbənd şəhərində, köndələn divar arxasındakı cənubda Quba qapısı və şəhər divarının şimalındakı Daş qapını (Dübarə) o vaxtlar tam tikilməmiş birləşdirən hissəsində, yəhudi məhəlləsi əmələ gəlmişdir. Nəzarətsiz və nizamsız tikilən «Məhəllə» tezliklə şəhərin əsas qayğısına çevrildi. XIX əsrin ortalarına yaxın bu məhəllə şəhərin çirkablı və ən natəmiz hissəsinə çevrildi.

1866-cı ildə «Yəhudi məhəlləsi»nin planlaşdırılması üçün Cənubi Dağıstan rəisinin köməkçisi general-mayor A.S.Uzbaşevin sədrliyi altında xüsusi komissiya yaradıldı. Bu ərazidə 194 ev var idi. Burada 955 nəfər adam yaşayırdı. Evlərin bir çoxunun həyəti, çirkab quyuları yox idi. Çirkab suları həyətlərə və küçələrə axıdılırdı.

Komissiya yəhudi məhəlləsinin aşağıdakı planını təqdim etdi:

«1) məhəllənin 6 şərqdən-qərbə uzanan köndələn küçəsindən 4-nü bağlamaq, bu küçələrin hesabına evlərin həyətlərini genişləndirmək;

2) məhəllənin ərazisində 44 malikanə saxlamaq və hər bir malikanənin sahəsini 140 sajenə çatdırmaq. Malikanə sahibləri ləğv edilən 150 evin sahiblərindən bu torpaqları almalıdırlar. Evləri ləğv edilən əhaliyə qərbdə – müsəlman forştadtında, yəhudi qəbiristanlığı rayonunda sahə ayırmaq».

1866-cı il mayın 25-də Dağıstan vilayətinin rəisi komissiyanın bu layihəsini təsdiq etdi. Lakin bu layihə yəhudi məhəlləsinin etirazına səbəb oldu və yerinə yetirilmədi. 30 ildən sonra, 1896-cı il oktyabrın 2-də şəhər ictimai idarəsi müvəkkillərinin iclasında «Yəhudi məhəlləsinin» antisanitar vəziyyəti haqqındakı məsələyə yenidən baxılmışdır. Rəsmi arayışda qeyd olunurdu ki, məhəllənin sahəsi cəmi 7007 kv. sajendir və bu ərazidə 193 ev yerləşir. Bəzi evlərdə 5 ailə yaşayır. Kanalizasiya sistemi olmadığı üçün bütün çirkab sular həyətlərə və küçələrə axıdılır. Komissiya yəhudi məhəlləsinin köçürülməsi üçün şəhərin cənub hissəsinin 1,5 verstliyində dağın ətəyində yer ayırdı. Burada plan üzrə yeni məhəllə salınmalı və tikintiyə ciddi nəzarət edilməli idi. Lakin bu qərar xalqın etirazına səbəb oldu və məsələnin həlli uzandı. Şəhər müvəkkillərinin iclası bu məsələyə dəfələrlə qayıtdı. Lakin məhəllənin sakinləri köçürmə ilə razılaşaraq, öz tələblərini irəli sürürdülər. Onlar tələb edirdilər ki, hər köçürülən ailəyə 200 rubl vəsait verilsin. Şəhər hakimiyyəti sakinlərin bu tələblərini yerinə yetirə bilmirdi, məcburi köçürməyə isə qanun yol vermirdi. Ona görə də bu məsələ öz həllini tapmadı.

Fəqət 1924-cü ildə M.İ.Kalinin bu şəhərdə olarkən yerli hakimiyyət orqanları bu məsələni yenidən qaldırdı. M.İ.Kalininin söz verdiyi kimi, RSFSR hökuməti tezliklə pulu, 26 min rubl qızılla verdi. Bu vəsaitin hesabına 7 ədəd 2 mərtəbəli çoxmənzilli daş ev tikildi (Buynaksk küç., 8/11, III İnternasional küç., 13/14, Buynaksk küç., 13 və 14; Buynaksk küç., 68/11; Lenin küç., 4 və 24). «Yəhudi məhəlləsi»nin sakinləri

məcburi olaraq bu evlərə köçürüldü. Xalq arasında bu evləri «Zəhmətkeş evləri» adlandırırdılar. 1930-cu ildə keçmiş «Yəhudi məhəlləsi» tamamilə sökülərək onun yerində istirahət parkı salındı və o, hazırda «Dostluq» parkı adlanır.

«Qızıl şəfəq» - balıqçılıq kolxozu Dərbənddə XX əsrin 20-ci illərində yaradılmışdır. Balıq vətəgələri ərazisində, şəhərin cənubunda kolxozçular üçün «Qızıl şəfəq» adlanan qəsəbə yaradılmışdır. Sonralar şəhər böyüdükcə qəsəbə ortada qaldı, həm də Xəzər dənizində balıq ovu azaldığına görə bu kolxoz ləğv olundu.

Hazırda kolxoz və balıqçıların qəsəbəsindən ancaq Qızıl şəhər küçə adı yadda qalmışdır. Yerli əhali arasında indiyədək bu rayon «Balıqçılar qəsəbəsi» adlanır.

KÜÇƏLƏR

Dərbəndin ən qədim və böyük küçələri – Şapur və İmamə küçələri hesab olunur. Şapur küçəsi bayat meydanından başlayaraq şəhərin qala divarı boyu Bala məscidinin yanındakı Orta qapıya qədər uzanırdı. Dərbəndlilər bu küçəni Çopur küçə adlandırırdılar. Küçəyə Şapur adını sasanilər vermişlər.

Ruslar Dərbəndə gələnə qədər bu küçədə heç bir dəyişiklik olmamışdı. Ruslar gələndən sonra bu küçədə özbaşınalıq başladı. Xıdırbəylər və Həsənbəylər küçənin qurtaracağında ev tikdilər.

Şapur küçə ilə Zənən küçəsi məscidin qarşısında birləşirdi. Keçmişdə qadınlar küçədə kişilərlə rastlaşmamaq üçün bu küçə ilə gedib-gəlirdilər. Fətəli xan bu küçə ilə şəhərə daxil olmuşdu.

Fətəli xan məscidin yanından sola keçərək Cümə məscidinin qarşısından keçirdi və Xan küçəsi ilə Başmaqçı bazarına enirdi.

Dərbəndin ikinci böyük küçəsi-İmamə küçəsidir. Bu küçə həm də Küfə küçəsi adlanırdı. Bu küçənin ilk sakinləri Küfə əyalətindən olan ərəblər olmuşlar. Onlar Dərbəndə 685-ci ildən 705-ci ilədək hakimiyyətdə olmuş Mərvanın oğlu, Əməvilərin xəlifəsi Əbd ül-Məlikin hakimiyyəti dövründə köçürülmüşlər. Onlar çox cəsur idilər. Məhəmməd peyğəmbərin ölümündən sonra, Quranı əzbər bilən onun sadiq tərəfdarları kimi qaldılar. Onlar Əməvilərlə döyüşə atılaraq son adama kimi cəsarətlə vuruşmuşlar. İmamə küçəsinin də adı buradan götürülmüşdür.

Dərbəndin üçüncü böyük küçəsi – Çopur küçə, 4-cü mərkəzi küçəsi Çahartəpə, Molla daşı, Şirvan burnu adlanır.

Dərbəndin ən qədim adlı dalanı – Basqallar aralıqçı adlanır. Bu dalanın ilk sakinləri Azərbaycanın İsmayıllı rayonunun Basqal kəndindən olmuşlar.

Bu şəhər sənətkarlar şəhəridir. Onların yeraltı hamamları bu günədək gəlib çıxmışdır. Bu sakinlər əsasən parça və kələğayı hazırlayırdılar. Onların arasında Misgər Əmilər də yaşamışdır.

Basqallılar və bir neçə tacir bura Şah Abbasın dövründə xalqın yaşayış tərzini yaxşılaşdırmaq məqsədi ilə köçürülmüşlər.

Qazax aralıqçı – gənclər gec evləndiyi üçün bu dalan belə adlandırılmışdır. Deyirlər ki, Nikolay yaxşı çar olub. O, azərbaycanlıları hərbi xidmətə çağırmırdı. Xidmətə çağırılanlar isə xidmət etdikləri üçün evlənmirdilər.

Qazax aralıqçı adı da buradan götürülmüşdür. Dərbəndlilər ona «aralıq», digər bölgələrdə isə «döngə» deyirlər.

XVI əsrin üçüncü hissəsində türklər Dərbənddə 24 il qalmış və ona görə də bəzi türk sözlərindən indiyədək istifadə olunur.

Dərbəndin küçə və meydanları ilk dəfə şəhər müvəkkil olunmuşların 14 oktyabr 1897-ci tarixli iclasında müəyyənləşmişdir. Qərara alınmışdır:

1. Georgi Pobedonosets pravoslav kilsəsinin ətrafındakı meydan Kilsə meydanı adlandırılsın (hazırda Azadlıq meydanı);
2. Taxta bazarın şərq hissəsindəki meydan Bazar meydanı adlandırılsın;
3. Rus hamamının qarşısındakı meydan Vrangel meydanı adlandırılsın;
4. Şəhər ictimai klubunun qarşısındakı meydan şəhərin ilk hərbi qubernatoru, general-mayor A.İ.Qaqarinin xatirəsinə Qaqarin meydanı adlandırılsın;
5. Qunib ehtiyat batalyonu kazarmalarının qərb hissəsindəki meydan Yuxarı əsgər meydanı adlandırılsın;
6. Qunib ehtiyat batalyonu kazarmalarının şərq hissəsindəki meydan Aşağı əsgər meydanı adlandırılsın;

7. Kilsə meydanından Qunib ehtiyat batalyonu kazarmalarınadək olan küçə Qubernator küçəsi adlandırılsın (hazırda III İnternasional küçəsi);
8. Qubernator küçəsinə paralel olan, Kilsə meydanından Qunib ehtiyat batalyonu kazarmalarınadək olan küçə Kilsə küçəsi adlandırılsın (hazırda Kommunarlar küçəsi);
9. Kilsə küçəsinə paralel, kilsə meydanından Qunib ehtiyat batalyonu kazarmalarınadək olan küçə Birinci komendant küçəsi adlandırılsın (hazırda Kandelaki küçəsi);
10. Birinci komendant küçəsinə paralel Qunib ehtiyat batalyonu kazarmalarınadək olan küçə İkinci komendant küçəsi adlandırılsın (hazırda Tağızadə küçəsi);
11. İkinci komendant küçəsinin cənubu, Bazar meydanından dəniz sahilinə qədər olan küçə Qafqazda canişin olmuş və 1859-cu ildə İmam Şamili həbs etmiş general-feldmarşal A.İ.Baryatinskinin adı ilə Baryatinsk küçəsi adlandırılsın (hazırda Lenin küçəsi);
12. Baratinski küçəsinin cənubu, Bazar meydanından dənizin sahilinə qədər olan küçə Xəzəryanı vilayətdə qoşun komandanı olan baron Vrangelin xatirəsinə Vrangel küçəsi adlandırılsın (hazırda Puşkin küçəsi);
13. Vrangel küçəsinin cənubu, K.Koçerginin evindən dəniz sahilinə qədər olan küçə Dərbəndin keçmiş hərbi qubernatoru general D.K.Aseyevin (1858-1860) xatirəsinə Aseyev küçəsi adlandırılsın.
14. Sonralar bəzi küçələrin adı dəyişdirilmişdir. 15 sentyabr 1901-ci ildə şəhər müvəkkil olunmuşlarının iclasında şəhər başçısı Q.Heydərovun təklifi ilə Aseyevsk küçəsi Qafqazda canişin olmuş knyaz S.Q.Qolitsının xatirəsinə Qolitsın küçəsi adlandırılmışdır.
15. Yanvar 1902-ci ildə şəhər müvəkkil olunmuşlarının iclasında Dağıstan vilayətinin hərbi qubernatorunun köməkçisi general-mayor A.S.Uzbaşevin 50-illik yubileyinə görə Birinci komendant küçəsi Uzbaşev küçəsi adlandırılmışdır.

1903-cü ildə şəhər iclasının müvəkkili Nuh bəy Kəlbə Hüseyin bəy oğlu 7-ci məhəllədəki Orta qapıdan Cümə məscidinə qədər olan küçəni Xıdırbəyov küçəsi adlandırılması təklifini irəli sürmüşdür. Şəhər müvəkkilolunmuşlarının iclası bu təkliflə razılaşdı.



Bazar döngəsi (hazırda Krupskaya küçəsi) – Dərbənd şəhərində XIX əsrin birinci yarısında baş inkişaf planının yerinə yetirilməsi nəticəsində əmələ gəlmişdir. Şəhərin köhnə əyri-üyrü və dar küçələrinin arasından Qırxlar qapısından Yengi qapısınadək yeni enli yol çəkilmişdir. Bu küçə şəhər üçün həm iqtisadi, həm də hərbi əhəmiyyət daşıyırdı.

Birincisi, şəhərin ticarət mərkəzinə, bazara şimaldan və cənubdan daxil olan malların birbaşa gətirilməsini təmin edirdi.

İkincisi, şəhərin qədim yuxarı hissəsinə hərbi qüvvələrin tez və sürətlə daxil olmasına, lazım gəldikdə isə şəhərin köhnə hissəsini yeni hissəsindən ayırmağa imkan verirdi.

Küçə öz adını o zamankı baş ticarət mərkəzi olan bazarın adından almışdır. Hazırda bu ərazidə Q.Kazımov adına kolxozun klubu və inzibati binaları yerləşir. Sovet hakimiyyəti illərində bu küçə Krupskaya küçəsi adlandırılmışdır.

Vağzal küçəsi (hazırda Kobyakova) – Dərbənd şəhərində dəmir yolu çəkilən zaman formalaşmışdır (1898-1899) və dəmir yolu boyu uzanırdı. Bu küçə Baryatinski küçəsinin (Lenin küçəsi) və ona paralel olan digər küçələrin – Vrangel (Puşkin küç.), Qolitsın (Buynaksk küç.) və cənuba doğru uzanan küçələrin qurtaracaqlarını birləşdirərək dəmiryolu stansiyasının yanından bağlara kimi uzanırdı.

Küçə birtərəfli, qərb tərəfdən tikilirdi, şərq tərəfi isə dəmiryolu idi və bu yol şəhəri dəmiryol stansiyası ilə birləşdirən magistral yol idi.

Bu küçə tez bir zamanda şəhərdə ən yaxşı küçələrdən biri olmuş və şəhər sakinlərinin istirahət yerinə çevrilmişdi. Bu küçə xalq arasında Panel küçəsi adlanırdı.

Sovet hakimiyyəti illərində bu küçəni Kobya-

kov küçəsi adlandırdılar. Sonra bu küçə iki küçəyə bölündü: Kobyakov və Vağzal küçəsi.

Yermolov küçəsi (hazırda Məzahir Rzayev küçəsi) – XIX əsrin birinci yarısında Dərbəndin inkişafı üzrə ikinci baş planın yerinə yetirilməsi nəticəsində yaranmışdır.

Bu plana əsasən köhnə məhəllələrin arası ilə geniş düz yol çəkilmişdir. Bu yol şəhərin yeni Yermolov adına meydanını (hazırda Azadlıq meydanı) Bazar döngəsi ilə birləşdirirdi. Evləri plana düşmüş sakinlərə isə şəhərin cənub hissəsinin yarım verstliyində yeni tikilən «müsəlman forştadtında» torpaq sahələri ayrılmışdı.

Yermolov küçəsinin və Bazar döngəsinin kəsişdiyi yerdə şəhərin baş ticarət mərkəzi – bazar yerləşirdi (hazırda bu ərazidə klub və Q.Kazımov adına kolxozun inzibati binaları yerləşir). Yermolov küçəsi ilə Bazar döngəsinin kəsişdiyi yerdə 1859-cu ildə zəfər qapısı tikilmişdir. Bu küçə şəhərin həyatında həm memarlıq-inşaat, həm də hərbi-iqtisadi planda mühüm rol oynayırdı.

Birincisi, şəhərin köhnə hissəsini yeni hissəsi ilə birləşdirən əsas küçə idi. İkincisi, şəhərin köhnə hissəsindəki vəziyyətə nəzarət etməyə imkan verirdi və lazım olanda ora tez hərbi qüvvə yeritmək mümkün olurdu. Üçüncüsü, bu küçə şəhərin hər iki hissəsinin təsərrüfat və mədəni həyatını birləşdirirdi. 1903-cü ildə Yermolov küçəsi döşənilmişdir.

XX əsrin 30-cu illərində küçə cümə məscidinə kimi uzadılmışdır.

Xalq arasında bu küçəni Gen küçə də adlandırırdılar. Çünki digər küçələrlə müqayisədə çox geniş və düz küçə idi. Sovet hakimiyyəti illərində bu küçənin adı dəyişdirilərək inqilabi hərəkatın fəal üzvlərindən olan Qazı Məhəmməd Ağasiyevin xatirəsinə Qazı Məhəmməd küçəsi adlandırmışdır. 1980-ci ildən isə bu küçə Məzahir Rzayevin adını daşıyır.

Küçələrin işıqlandırılması. Dərbənd şəhərinin küçələrinin işıqlandırılmasına 1853-cü ildən başlanmışdır. Qubernator, Kilsə və Yermolov küçələrinin neft lampası ilə işıqlandırılması üçün 25 dirək hazırlanmışdır.

1858-ci ildə Kilsə küçəsini işıqlandırılmaq üçün təcrübə məqsədi ilə spirt-skipidar tərkibli 10 lampa hazırlanmışdır. Bu təcrübə uğurlu olmuş və 1859-cu ildə Moskvada daha 30 belə lampanın istehsalı şifariş edilmişdir.

1860-cı ildə şəhərdə 40, 1877-ci ildə – 70, 1881-ci ildə – 100, 1898-ci ildə – 130 küçə lampası mövcud idi.

1902-ci ilin aprelində rus cəmiyyətinin közərmə üsulu ilə işıqlandırmanın nümayəndəsi, mühəndis-texnoloq Borjamovski şəhər küçələrinin işıqlandırılmasını Qalkin sistemindən olan «Rusiya» neft-közərmə lampaları ilə aparılması təklifini irəli sürdü. Lampanın dəyəri çox yüksək idi – Dərbəndə çatdırılması ilə 180 rubl, lampanın quraşdırılma avadanlığının bir qutusunun qiyməti 30 rubl, quraşdırılması isə 10 rubl idi. Hər lampanın gücü 1000 şam işığına bərabər idi və onları bir birindən 80 sajen məsafədə olan 7 arşın hündürlükdə dirəklərdə qururdular.

Qalkinin lampaları istifadə zamanı adi lampalardan 3 dəfə qənaətli idi.

1903-cü ilin mayında həmin lampalardan daha 7-si quraşdırıldı. 1904-cü ildə şəhərin küçələrini 320 adi lampa və 19 Qalkin lampası işıqlandırırdı.

KÖHNƏ ŞƏHƏRİN KÜÇƏLƏRİ (MƏHƏLLƏLƏR)











KƏNDLƏR

Möhtəşəm Dərbənd müdafiə kompleksi tikildikdən sonra Sasanilər strateji əhəmiyyətli Alban keçidi üzərində öz nəzarətlərini gücləndirdilər, onun ətrafında qalalar tikməyə və İranın daxili vilayətlərindən köçürülmüş tayfalar üçün kəndlər salmağa başladılar. Bu qala-peyklər Dərbəndin baş qalasına şimaldan və cənubdan yaxınlaşmaq üçün istehkam idi.

Bu kəndlərin bir hissəsi Dağ-Barı ətrafında salınmışdır. IX əsrin ərəb müəllifi əl-Məsudi məlumat verir ki, I Xosrov Ənuşirəvan (531-579) Dağ divarda «... yollara uyğun olaraq dəmir qapılar ucaltdı və bu qapıları qorumaq üçün orada əhali məskunlaşdırdı».

VIII əsrdə ərəblər Dərbənd üzərində nəzarəti əllərinə alaraq, şəhər ətrafını istehkamlarla möhkəmləndirməyə başladılar. Ərəb mənbəyi məlumat verir ki, xəzərlərin Dərbəndə çoxsaylı hücumlarından narahat olan xəlifə Əbu Cəfər əl-Mənsur (754-755) Dərbənd hakimi Yəzid ibn Usayddan soruşur ki, «Dərbəndi xəzərlərin hücumundan hansı vasitələrlə qorumaq olar». O, cavab vermişdir ki, Dərbəndin ətrafında olan istehkamları möhkəmləndirmək və orada hərbi qarnizonlar yerləşdirmək lazımdır. Xəlifənin razılığını alan Yəzid Kaley Suvar, Kaley Myuta, Kaley Kamax və Kaley Sofian qalalarını möhkəmləndirdi. Bundan əlavə, o, Darvaq, Yersi, Himeydi, Muğatır və Məhrağa kəndlərini möhkəmləndirərək Suriyadan, Ərəbistandan və İraqdan gətirilmiş 7 min ailəni orada yerləşdirir. Yəzid ibn Usayda daha yeni iki qalanın - Yəzidiyyə və Sirmekiyyə qalalarının əsasını qoydu və burada öz tayfasından olan adamları yerləşdirdi. Beləliklə, o, Dərbəndi xəzərlərin hücum təhlükəsindən qorudu.

«Dərbəndnamə» və ərəb mənbələri Darvaq (ərəb. Bab-Bak), Himeydi (ərəb. əl-Mühəmmədiyyə; əl-Humadiyyə), Mitaqi (ərəb. Muğatır), Marağa (ərəb. Məhrağa), Qamax (ərəb. Kamax), Rukel (ərəb. Rukal, Ruklan) kəndlərinin salınmasını da bu dövrə aid edir.

Belə kəndlərin salınmasının dəqiq sayı məlum deyil. Əl-Yəqubinin məlumatına görə, Dağ divarda «… 7 fərsəx uzunluqda olan ərazidə 7 keçid tikilmiş və hər keçiddə dəmir qapı qoyulmuşdur». İbn Xordadbeh Dərbənd qalasını saymadan 13 qala, əl-İstəxri 14 qala haqqında məlumat verir.

Dərbəndin məşhur tədqiqatçısı S.O.Xan-Məhəmmədov Dağ-divarın yanında yerləşən 7 kəndi - Mitaqı, Qamax, Zidyan, Bilgədi, Himeydi, Darvaq, Zil və Dərbəndin cənubunda yerləşən Calqan, Rukel və Muğartı kəndlərini müasir kənd hesab edir. Bu siyahıya Narınqalanın qərb hissəsinin 2 km-də dağıntıları askarlanmış Ərəblər və Pir-Dəməşq kəndlərini də aid etmək olar.

A.Bakıxanovun (1841) məlumatına görə, «… Bu 8 kəndin: Calqan, Rukal, Qamax, Mağatır (Muğartı), Zidnan (Zidyan), Humeydi (Himeydi), Mutaqi (Mitaqi) və Bilhadi (Bilqadi) – əhalisi tat dilində, Dəməşqdən köçürülmüş Darvaq kəndinin sakinləri isə ərəb dilində danışırlar».

Calqan və Mitaqi kəndlərinin sakinləri hazırda öz qədim dillərində danışırlar.

Ulus mahalı – Cənubi Dağıstanın Darvaq çayından Samur çayına qədər Dərbənd xanlığına aid olan dənizkənarı ərazinin adı. Ulus mahalına Dərbəndin cənubunda yerləşən 9 kənd – Əqləbi, Ərəblər, Belici, Molla kənd, Molla Xəlil, Səlik, Nüydi, Qullar, Azadoğlu kəndləri aid idi.

Dərbənd Rusiyaya ilhaq ediləndən sonra, Dərbənd xanlığı ləğv edilmiş, Ulus mahalı isə Quba xanı Fətəli xanın qızı Pəricə xanımla evlənmiş Tərki Şamxalı Mehdi xanın idarəçiliyinə verilmişdir.

Lakin Mehdi şamxalın ölümündən sonra (1830) Dərbənd xanı titulu ləğv olunduğuna baxmayaraq, Ulus mahalını onun varisləri idarə etməkdə davam etmişlər. Yalnız 1883-cü ildə Qafqaz canişininin sərəncamı ilə Tərki Şamxalının Ulus mahalında yerləşən kəndləri və əraziləri dövlət idarəçiliyinə verilmişdir. Bu barədə Tərki Şamxalının knyaz general-mayor Şəmsəddin xanın qızı knyaginya Soltənət Tarkovskaya 1900-cu ildə onun bu mahala olan hüququnu bərpa etmək üçün məhkəmə orqanlarına iddia irəli sürmüşdür. Lakin o, hüquqlarını bərpa edə bilməmişdir.

Pir-Dəməşq – Dağ-Barı divarının dördüncü istehkamının yanında, Narınqaladan təxminən 2 km qərbdə yerləşən ərəb hərbi yaşayış məskəni.

Dağ-Barı öz əhəmiyyətini itirdikdən sonra burada Pir-Dəməşq kəndi yarandı.

Qədim qəbiristanlıqdakı nəhəng qəbir daşlarının qalıqları bu kəndin hələ ərəblərin dövründə də mövcud olmasını sübut edir.

VIII əsrin rus çertyojlarında bu kənd Peremeşki adı altında göstərilmişdir. Yerli əhali arasında da kənd bu ad altında tanınırdı.

1722-ci ildə Dmitri Kantemir tərəfindən tərtib edilmiş planda – Piridimiski kimi göstərilmişdir. XIX əsrin ortalarında burada vəba xəstəliyi baş verdiyi üçün kənd boşalmışdır.

Əqləbi – Dərbəndin cənub hissəsinin 7 kilometrliyində yerləşən qədim kəndlərdən biridir. Yazılı mənbələrdən göründüyü kimi, bu kəndin əsası IX-XII əsrlərdə Dərbəndi idarə edən Əqləbidlər sülaləsinin banisi Əqləb əs-Suləmi tərəfindən qoyulmuşdur.

Azadoğlu – Dərbəndin (Məhərrəmkənd rayonu) cənub hissəsinin 25 kilometrliyində yerləşən ən qədim kəndlərdən biridir. Əvvəllər bu kənd Dərbənd xanlığına aid olan Ulus mahalının tərkibində olmuşdur.

Kəndin adı «Azadoğlu» türk mənşəlidir və «azad olunmuşun oğlu» və ya «azadlığa buraxılmış» mənasını verir.

Mütəxəssislərin fikrincə, bu kənd azadlıq almış qullardan yaradılmışdır və Qullar kəndinin yaxınlığında yerləşir.

1986-ci ilin məlumatlarına əsasən, kənddə 13 ev və 36 sakin olmuşdur. 1989-cu ilin siyahiyaalınma göstəricilərinə görə, kəndin əhalisi 600 nəfər olmuşdur.

Qullar – Dərbəndin cənub hissəsinin 27 km-də yerləşmiş bu kənd əvvəllər Dərbənd xanlığının Ulus mahalına daxil idi. Kəndin adı «qul» türk sözündən götürülmüşdür. Mənbələrin verdiyi məlumata əsasən, burada öz qullarını məskunlaşdırmış Dərbənd xanlarından biri kəndin əsasını qoymuşdur. Zaman keçdikcə sakinlər öz keçmiş sosial statusunu itirmiş və qonşu kəndlər kimi rəiyyət adlanmağa başladı.

1886-cı ilin məlumatına əsasən, kənddə 24 ailə, 107 nəfər yaşayırdı.

1989-cu ilin məlumatında isə kənddə 1493 nəfər adamın yaşadığı göstərilir.

S Ə H İ Y Y Ə

Dərbənd - Qafqazda ən qədim mədəni mərkəzlərdən biridir. Şəhər öz tarixçiləri, din xadimləri, şairləri, filosofları ilə yanaşı, ən qədim zamanlardan həkimləri ilə də məşhur idi.

XIX əsrdə Dərbənddə olmuş rus həkimləri yerli həkimlərin müalicə üsullarını da yüksək qiymətləndirirdilər. 1847-ci ildə Dərbənddə olmuş məşhur rus cərrahı N.İ.Piroqov da Dərbənd loğmanlarının əməyini yüksək qiymətləndirmişdir. Bəzi loğmanlar öz təcrübəsində məşhur şərq təbabətindən istifadə edirdilər.

Şəhərdə həkimliklə ciddi məşğul olan təbiblər sülaləsi var idi. Onlar öz təcrübələrini gələcək nəsillərə ötürürdülər. Məsələn, şəhərdə «sınıqçılar» nəsli vardı.

XIX əsrdə Cənubi Dağıstanda məşhur Dərbənd həkimləri vardı: otlarla müalicə edən loğman Əsgər Hüseyn oğlu Batayev, «sınıqçı» Nəbiyulla Səməd oğlu, Əbdülkərim, Əsgər Emin Xanbaba oğlu, mamaçalar Fatma xanım, Dusti xanım və başqaları.

1806-cı ildə Dərbənd Rusiyaya ilhaq edildikdən sonra burada ilk müalicə müəssisələri açılır. İlk belə müalicəxanalardan biri hərbi qarnizonda açılmışdır. 1841-ci ildə bu lazaretdə müalicə yerləri 60 çarpayıya qədər artırılmış və Cənubi Dağıstandakı rus qoşunları üçün səyyar hospitala çevrilmişdir. Çarpayılar boş olanda şəhər sakinlərini də hospitalda müalicə edirdilər.

1830-cu ildə şəhər əhalisinə xidmət göstərmək üçün burada «şəhər loğmanı» vəzifəsi təsis edildi, 1834-cü ildə isə bura Moskva «mamaçalıq institutunu» bitirmiş mamaça Anna İvanovna göndərilmişdir. Lakin şəhər sakinləri rus həkimlərinə böyük ehtiyatla yanaşırdılar.

1860-cı ildə şəhərdə ilk əczaxana-aptek açıldı.

Hesablamalara görə, 1893-cü ildə hərbi hospital həkimlərinin köməyindən 182 nəfər, sakini, 1894-cü ildə isə – 120 nəfər şəhər sakini istifadə etmişdir. Şəhərdə özəl klinikalar da açılmağa başladı. Lakin burada tibbi xidmət baha olduğu üçün şəhər sakinlərinin çoxu bu xidmətdən istifadə etmirdi.

1914-cü ildə Birinci dünya müharibəsinin başlanması ilə əlaqədar və yaralıların müalicəsi üçün Dərbənddə 5 hospital açılmışdır.

1915-ci ildə şəhər əhalisinə 2 xəstəxana – 34 çarpayılıq şəhər Aleksandriysk və 50 çarpayılıq Vladiqafqaz dəmir yolu xəstəxanaları tibbi xidmət göstərirdi. Tibbi personal 3 nəfər həkimdən, 3 nəfər feldşer və 1 nəfər mamaçadan ibarət idi.

Taun. XIX əsrin əvvəlində Qafqazda taun xəstəliyinin növbəti epidemiyası başlandı. Onun ilk simptomları 1802-ci ilin sonunda Gürcüstanda qeydə alınmışdır. Epidemiya sürətlə şimal tərəfə yayılmağa başladığı üçün Peterburqda ciddi narahatlığa səbəb oldu. 1803-cü il sentyabrın 12-də bu xəstəliyə qarşı Qafqaz xəttində ciddi tədbirlərin görülməsi haqqında xüsusi «əlahəzrətin buyruğu» verildi. Tezliklə epidemiyanın qarşısı alındı.

Epidemiyanın ikinci dalğası 1810-cu ildə qeydə alındı və daha güclü olduğuna görə çoxlu bədbəxtliklərə səbəb oldu. Ciddi tədbirlərin görülməsinə baxmayaraq, epidemiya tezliklə Qafqaza yayıldı və 1818-ci ilə qədər davam etdi. 1818-ci ilin mayında Qafqazdakı rus qoşunlarının baş komandanı Yermolov məlumat vermişdir ki, Kabardada taun xəstəliyindən əhalinin dörddə bir hissəsi həlak olmuşdur.

1813-cü ilin yayında taun xəstəliyi Dağıstanın Tabasaran və Kurax bölgələrindən də yan keçmədi. Tezliklə Dərbəndin yaxınlığında yerləşən Pir-Dəməşqi kəndinin əhalisi də bu xəstəliyə tutuldu. Dərbənd rəhbərliyi xəstəliyin yayılmasının qarşısını almaq və şəhərdən heç kimi buraxmamaq məqsədilə şəhər sakinləri və əsgərlərdən canlı mühasirə yaratdı.

Lakin 1813-cü il noyabrın 8-də mühasirədə duran şəhər sakinlərindən biri qaranlıqdan istifadə edərək Pir-Dəməşqi kəndində yaşayan qohumlarından xalça və yağla dolu olan bardaq götürür. Şəhər sakini qohumundan götürdüklərini evə gətirir. Səhərisi gün onun arvadı, bacısı və oğlu ölür. Qonşular ölənləri dəfn etmişdilər ki, xəstəliyin əlamətləri onların da ailəsində özünü göstərməyə başladı. Bundan narahat olan şəhər rəhbərliyi əmr etdi ki, şəhər sakininin evi əşyaları ilə birlikdə yandırılsın. Yaxınlıqda yerləşən daha dörd ev əşyaları ilə birlikdə yandırılsın, ailələri isə şəhərdən çıxarılsın. Şəhərdə bütün dükanlar, hamamlar və məscidlər bağlanmışdır. Şəhər sakinlərinə həyətlərində bütün günlər peyin yandırılması əmri verilmişdir.

Batalyon feldşerlərindən birinin məlumatına görə taun xəstəliyindən 1813-cü il noyabrın 8-dən 1814-cü il yanvarın 21-dək 122 nəfər xəstələnmiş (67 kişi və 55 qadın), onlardan 26 nəfər (23 kişi və 3 qadın) sağalmış, 96 nəfər (44 kişi və 52 qadın) ölmüşdür. Bundan başqa, 89 nəfər şəhər kənarında karantində saxlanılırdı. Xəstəliyə tutulmuş 55 nəfər qadından 53-ü ölmüşdür. Şəhərdə yaranmış ağır vəziyyət və şəhər rəhbərliyinin acizliyi qorxudan dəhşətə gəlmiş şəhər sakinlərinin narazılığına səbəb olmuşdur.

1813-cü il noyabrın 19-da bir dəstə şəhər sakini Seyid Zəkanın evinin qarşısında toplaşaraq, ondan yaranmış vəziyyətdən çıxmaq üçün məsləhət istəmişlər. Şəhər komendantı Buxvostovun və plas-adyutant Luludakinin fəaliyyətsizliyindən imperatora şikayət yazmaq qərara alınmışdır. Sakinlərin fikirincə, məhz onların fəaliyyətsizliyi nəticəsində insanlar həlak olurdular.

Dəstə molla Seyid Zəkanın başçılığı altında Cümə məscidinə tərəf hərəkət edir, yol boyu şəhərin digər sakinləri də dəstəyə qoşulurdular. Tezliklə məscidin həyəti adamla doldu. Şəhər sakinləri dükanların, hamamların və məscidlərin açılması tələbini irəli sürdülər.

Komendant onun əmrinin pozulmasını eşidib, əsgərlərlə bərabər məscidin həyətinə gəlib bura toplaşanları silahla hədələyərək dağılmağı əmr etdi. Buna cavab olaraq molla Seyid Zəkanın oğlu və bir neçə gənc qılıncla əsgərlərə hücum etdilər. Bu davadalaş nəticəsində bir neçə nəfər, həmçinin molla Seyid Zəkanın oğlu öldürüldü. Komendant izdihamı dağıdaraq 13 nəfər «qiyamçı»nı həbs etdi. Onların arasında «baş qiyamçı» - molla Seyid Zəka da var idi. Məhkəmə molla Seyid Zəkanı dərbəndlilərin gözü qarşısında edam olunması barədə hökm çıxartdı.

Həbs olunmuşların arasında 1806-cı ildə Əlahəzrətin əmrilə şəhərin naibi təyin olunmuş mayor Əlipənah bəy də var idi. Məhkəmənin qərarı ilə o, Rusiyanın şəhərlərindən birinə sürgün edildi.

Həbs olunanlardan biri də Qızılyardan gəlmiş kapitan Asisala idi. O da Dərbənddən sürgün olundu.

Şəhər sakinlərini sakitləşdirmək məqsədilə hərbi dairə rəisi 1814-cü ilin yanvarında şəhərdə xəstəliyin yayılmasının qarşısını almaq vasitəsi kimi epidemiya qurtaranadək yaxın kəndlərə köçməyə icazə verdi.

Görülən tədbirlərin az səmərə verdiyini və feldşerin əlacsızlığını görən şəhərin hərbi komendantı 1815-ci ilin yanvarında öz rəhbərliyinə ixtisaslı tibb işçisinin göndərilməsi haqqında xahişnamə göndərdi.

Yalnız may ayında şəhərə Sevastopol Piyada alayının həkimi Popov və Tiflisdən stab-həkim Dranisin göndərildi. Onlarla bərabər, Tiflisdən «… epidemiyanı təmizləmək üçün təmizləyici maddələr: 40 funt – sulfat turşusu; 20 funt – marqans və 80 funt xörək duzu» göndərilmişdir.

Bu zaman xəstəlik artıq qarnizon batalyonuna da daxil olmuşdu. Aprel ayında bir unter-zabit, iki əsgər ölmüş, 2 əsgər isə lazaretə göndərilmişdir.

1814-ci ilin iyun-iyul aylarında epidemiya şəhərdə son həddə çatdı və yalnız ilin sonunda epidemiyanın qarşısı alındı. Şəhərin hərbi komendantının məlumatına görə, «...1814-cü il yanvarın 4-dən dekabrın 27-dək 423 nəfər sakin və Dərbənd qarnizonunun 18 nəfər aşağı rütbəli zabiti ölmüşdür». 1815-ci ilin ortasında şəhərdə epidemiyanın qarşısı tam alındı.

Əczaxana. Dərbəndin Rusiyaya ilhaqından əvvəl, demək olar ki, şəhərdə əczaxana yox idi (1806). Hər bir loğman xəstələrini özü hazırladığı dərmanla müalicə edirdi. Şəhərə ixtisaslı rus həkimləri gəldikdən sonra sakinlərin dərmana olan tələbatını qismən qarnizon höspitalı təmin edirdi. Ona görə də 1830-cu ildə Qafqazda canişin olan general-feldmarşal İ.F.Paskeviç Dərbənddə «dövlət əczaxanası» açmağı planlaşdırırdı, lakin bu, nəticəsiz qaldı.

1860-cı ilin sonunda qərara alındı ki, xeyriyyəçilik hesabına ictimai əczaxana açılsın. Bu şərtlə ki, kasıb sakinlərə dərman pulsuz verilsin. 1861-ci ilin yanvarında Hacı Qurban İbrahimov əczaxananın açılması üçün 1000 rubl verdi və o, buna görə Qafqazda olan canişindən təşəkkür aldı.

1862-ci ildə əczaxanada işləmək üçün alman əczaçı Heyn Dərbəndə dəvət olundu.

Bu əczaxana Yermolov küçəsindəki, (indi M.Rzayev, 9) şəxsi ikimərtəbəli mülkün birinci mərtəbəsində yerləşirdi.

1904-cü ilin noyabrında «qanundankənar» ikinci əczaxana açıldı. Bu əczaxana kasıblara dərmanı pulsuz paylayırdı. Əczaçı isə yerli sakin Korqanov idi. Sovet hakimiyyəti illərində bu əczaxana Lenin küçəsi, 28-də olan ikimərtəbəli binaya köçürüldü və bu günə qədər əczaxana fəaliyyət göstərir.

Sanitar xidməti. Şəhər istimai idarəsi 1896-cı ildə Dərbənddə sanitar nəzarəti təşkil etmək üçün 8 «sanitar-hami» seçmişdir. Lakin bu Dağıstan vilayəti üzrə işlər idarəsi tərəfindən ləğv olunmuşdur.

1897-ci ilin fevralında şəhər ictimai idarəsi «Sanitar hissəsi üzrə Əsasnamə»ni hazırlamaq üçün müvvəkilolunmuşlardan və həkimlərdən ibarət xüsusi komissiya yaratmışdır. 1899-cu il fevralın 20-də həmin Əsasnamə Dağıstan vilayəti Hərbi qubernatoru tərəfindən təsdiq edilmişdir.

1899-cu il mayın 17-də Şəhər müvvəkil olunmuşlarından ibarət sanitar komissiyası yaradılmışdır: Novomaryevski və Rodionov, eləcə də 8 nəfər sanitar-hami: Hacı Ağa bəy Mirzəbəyov, Əhməd bəy Mirzəbəyov, Qasım bəy Heydərov, Məmməd bəy Xıdırbəyov, M.R.Papayev, İ.N.Xusesov, İ.A.Vasilyev, Q.M.Melnikov. Şəhər 8 rayona bölünmüş və hər rayona hami təyin edilmişdir. Onlar rayonun sanitar vəziyyətinə nəzarət etməli və bu qaydaları pozanları qanuni məsuliyyətə cəlb etməli idilər.

1901-ci ildə 12 nəfər sanitar-hamı seçilmişdir. 1904-cü ilin yanvarında şəhərin sanitar həkimi vəzifəsi tətbiq olunmuşdur.

Xəstəxana. Dərbənd şəhərində ilk xəstəxana 1902-ci il mayın 25-də təntənəli sürətdə açılmışdır. Onun açılması şahzadə Mariya Fyodorovnanın anadan olması gününə həsr edilmişdir. Bu xəstəxana «Aleksandriyskaya» adlandırılmışdır. Xəstəxana 10 çarpayıdan (6 kişi və 4 qadın) ibarət idi.



4 çarpayı pulsuz idi. Qubernatorskaya küçəsində yerləşən bina xəstəxana üçün şəxsi adamdan alınmışdır (hazırda III İnternasional küçəsi).

Xəstəxananın nəzdində ambulator müalicə də aparmaq olardı.

1903-cü ildə xəstəxanada 2 çarpayılı yolxucu xəstəliklər şöbəsi açılmışdır. 1904-cü ildə çarpayı-

ların sayı 20-yə çatdırılmışdır (18-ümumi, 2 infeksion).

1905-ci ildə şəhərdə xəstəxananı saxlamaqdan ötrü «xəstəxana üçün pul» tətbiq edilmişdir. Bu vəsaiti ev sahibləri verirdilər.

1628 saylı evakohospital (təxliyyə hospitalı) – Böyük Vətən müharibəsi başlandıqdan sonra Dərbənddə 1941-ci il iyulun 28-də açılmışdır. Bu, Dağıstanda açılmış ilk evakohospital idi. Hospital pedaqoji məktəbin korpuslarında (Lenin küç., 87) yerləşirdi. Sonralar 3 və 6 saylı məktəbin binaları da hospitala verilmişdir. Belə böyük miqyasda hərbi-tibbi xidmətin təşkil olunması təcrübəsi nə şəhərin tibb işçilərində, nə də respublika miqyasında var idi. Dərbənd həkimləri və şəhiyyə təşkilatçıları işin gedişində təcrübə toplayırdılar. Qısa bir müddət ərzində tədris korpusları hərbi hospitala lazım olan cərrahiyyə, travmatoloji və terapevtik şöbələrə verildi, əməliyyat və rentgen kabinetləri təchiz edildi, yeməkxana blokları və ərzaq anbarları, camaşırxanalar, laboratoriyalar, hamamlar qaydaya salındı, nəqliyyat təsərrüfatı və s. yaradıldı. Müharibənin ilk aylarında cəbhədə baş verən hadisələr hospitalın normal işinin sürətləndirilməsini tələb edirdi. Şəhərə yaralıların axını başlandı. Şəhərin səhiyyə rəhbərliyi, həkimlər, orta və kiçik tibb personalı qısa zaman ərzində kənardan kömək olmadan hospitalın sabit işləməsini təmin etdi.

Şəhər sakinləri tibb işçilərinin köməyinə gəlirdilər. Müəssisələr, idarələr, bəzi ailələr avadanlıqla, yataq dəstləri ilə, otaqların təmirinə, habelə ərzaq məhsulları ilə yardım edirdilər. Sakinlərin çoxu və əmək kollektivləri könüllü qan verirdilər.

Yüzlərlə, minlərlə yaralı və şikəst hospitalın həkimlərinə onları həyata qaytardıqlarına görə borclu idilər. Hospitalın həkimləri A.S.Əliyeva, M.K.Qəzənfərova, K.M.Zuboviç, A.Q.Panunseva, S.M.Çernyak, S.M.Xazanov, A.M.Torqaşeva, Y.V.Markina, K.Q.Panunseva, O.V.Makarkina və digər fədakar həkimlər minlərlə əsgər və zabitləri həyata qaytarmışlar. T.P.Borovskaya, A.P.Çikunova, Ye.V.Menşikova, M.A.Zayseva, Ye.Yurina, Ye.Şerbakova, P.Yemsova, O.Astaxova, M.Vyunova, R.Aitova və onlarla tibb bacıları və dayələr minlərlə yaralılara qulluq edərək onları ayağa qaldırmışlar.

Tibb işçilərinin çoxu dövlət mükafatına layiq görülmüşlər. Hospital 1949-cu ilə kimi fəaliyyət göstərmişdir.

5062 saylı evakohospital (təxliyyə hospitalı) – 1942-ci ilin aprelində açılmışdır. Bu hospital 300 çarpayılıq idi. Hospital üçün 115 saylı məktəbin (hazırda 15 saylı orta məktəb, Puşkin küçəsi №21) və «Dağıstan işıqları» mehmanxanasının (hazırda 1 saylı uşaq poliklinikası, Lenin küçəsi, №8) binaları ayrılmışdır. 1945-ci ildə hospital fəaliyyətini dayandırmışdır.

Perinatal mərkəz. Dərbənd şəhərində 1984-cü ildə tanınmış professor M.A.Ömərovun başçılığı ilə açılmışdır. Gənc Səkinə Babayeva əmək fəaliyyətinə həmin ildə bu mərkəzdə başlamışdır. O, 8 ay ordinator işlədikdən sonra, perinatal mərkəzin doğum şöbəsinin müdiri təyin olunmuşdur.

Perinatal mərkəz müasir tibbi texniki avadanlıqla və dərman preparatları ilə təchiz olunmuşdur. Mərkəzin əsas məqsədi – bura müxtəlif xəstəliklərlə (şəkər, böyrək xəstəlikləri, hepatit, yüksək təzyiq, ürək çatışmazlıqları) daxil olan hamilə qadınlara təcili yardım göstərməkdir.

TURİZM



Dərbənd turizm mərkəzlərindən biridir. Dərbənddə turistlərə onun tarixi, mədəniyyəti, adət-ənənləri, tarixi abidələri, fəaliyyətdə olan müsəlman məscidləri, orta əsrlərdə Böyük İpək yolu keçən ən qədim qala-şəhər Dərbəndlə tanış olmaq üçün yaxşı şərait vardır.

Dərbənd təbiətinin gözəl mənzərələri, iqlimi, mineral su mənbələri və müalicəvi palçıq yataqları, Xəzər sahilinin geniş qumlu çimərliyi, isti dənizi, ionlaşdırılmış havası, tarixi memarlıq abidələri və xalqın təkrarolunmaz mədəniyyəti və incəsənəti turistləri özünə cəlb edir.

Xəzər dənizinin cəlbedici qumlu çimərliyi vardır. Dəniz sahilinin balıqqulağı-qumlu çimərliyinin sahəsi 2600 ha təşkil edir. Burada suyun və havanın hərarəti, yay vaxtı günəşli günlərin uzunluğu Qara dəniz sahilində yerləşən kurort şəhərlərinin iqlimi kimidir. Ona görə də burada istirahət etmək daha əlverişlidir. Xəzər dənizinin sahilindəki çimərlik mövsümü suyun orta illik hərarəti $+21,2^0$ olmaqla 140 gün davam edir.

Dərbəndin ərazisində çoxsaylı tarixi memarlıq abidələri qorunub saxlanmışdır: Narınqala (VI-XIX əsrlər), Cümə məscidi (VIII-XIV əsrlər), Mədrəsə (XV-XIX əsrlər), Minarə məscidi. Narınqala YUNESKO tərəfindən dünya əhəmiyyətli tarixi abidə kimi tanınmışdır. Vaxtilə tarixdə məşhur olan «Böyük üpək yolu» – əfsanəvi ticarət karvan yolu Dərbənddən keçirdi. Dərbəndin xalça ustaları toxuduqları xalçalar, Dərbənd sənətkarları əl işləri ilə dünyanın bir çox sərgilərində və ticarət-satış mərkəzlərində böyük şöhrət qazanmışlar və bu turistlərin marağına səbəb olur.

«Şəhristan» mehmanxana kompleksi 2003-cü ildə Dərbəndin görməli yerlərindən birində açılıb. Bu kompleks qəsr formasında tikilmişdir. Buradakı çoxlu restoranlar, kafelər, cənnət quşları saxlanılan volyerlər, sehrli mağaralar, süni düzəldilmiş şəlalələr və nəhəng akvarium görənlərin xatirində dərin iz buraxır.

Mehmanxana otaqları şərq və müasir üslubda tikilmiş, ən yeni kondinsioner sistemi, peyk televiziya antenləri, yaxşı istirahət üçün vacib olan avadanlıqlarla təchiz edilmişdir. «Şəhristan»da olmuş bir çox adamlar onu şəhər içində şəhər adlandırmışlar.





DƏRBƏNDİN FÖVQƏLADƏ HALLARDA İDARƏ EDİLMƏSİ

Yanğınsöndürmə komandası – Dərbənd şəhərində ilk dəfə 1903-cü ilin mayında təşkil olunmuşdur. Şəhərdə evlərin hamısının daşdan olduğunu və yanğınların çox az halda baş verdiyini nəzərə alaraq, şəhər sakinlərindən ictimai yanğınçöndürmə komandasının təşkil olunması qərara alındı. Yanğınsöndürmə komandasının rəhbəri – brandmeyster vəzifəsi şəhər başçısının köməkçisi Həmid bəy Vəkilova həvalə olundu. Yanğınsöndürmə komandası 8 nəfər həvəskar şəhər sakinindən və yanğınsöndürmə avadanlıqlarına və atlara baxmaq üçün 2 nəfər muzdlu qulluqçudan ibarəi idi. Brandmeysterə və həvəskar yanğınsöndürənlərə hər bir söndürdükləri yanğına görə şəhər ictimai idarəsi tərəfindən mükafat verilirdi. Şəhərdə yanğınsöndürmə komandası yaranmazdan əvvəl yanğınsöndürmə işlərinə poliseymeyster rəhbərlik edirdi. Onun sərəncamında 2 yanğınsöndürmə şlanqı, 1 əl nasosu var idi. 1898-ci ildə daha bir əl nasosu, 1901-ci ildə Rostovdakı «Qulyı i Blansar» firmasından – 2 çəllək, 2 əl nasosu, 2 yanğınsöndürmə şlanqı, 1903-cü ildə isə 2 qoşqulu at alınmışdır.

1906-cı ilin iyulunda şəhər müvvəkilolunmuşlarının iclasında qərara alındı ki, «…şəhərdəki su kəməri boyunca hər 30 sajendən bir» yanğın kranları quraşdırılsın.

Şəhərdə sovet hakimiyyəti illərində yanğınsöndürmə komandası Fəhlə, kəndli və əsgər deputatları şurasının nəzdindəki kommunal idarəsinin tərkibinə daxil edilmişdir.

1922-ci ildə yanğınsöndürmə komandasının rəisi M.İ.Əliyev təyin edilmişdir.

1928-ci ildə 11 nəfər adam, 7 at, 1 əl nasosu və 2 boçkadan ibarət yanğınsöndürmə komandası Çortəpə küçəsində yerləşirdi (hazırda Aydınbəyov küçəsi, 4).

1929-cu ildə yanğınsöndürmə komandası kommunal təsərrüfatın tərkibindən çıxarılmış və Daxili İşlər Xalq Komissarlığının (DİXK) Təcili xidmət orqanlarına aid edilmiş və V.Qardin bu komandanın rəisi təyin edilmişdir. Yanğınsöndürənlər Serkovnı küçəsinə (hazırda Kommunarlar küçəsi) köçürülmüş və ilk dəfə olaraq italyan firmasının «Fiat» yanğınsöndürən maşını ilə təmin olunmuşdur. 1931-1936-cı illərdə yanğınsöndürənlər komandasının rəisi S.Tahirov işləmişdir. Onun işlədiyi dövrdə (1934-cü il) yanğınsöndürənlərin ailələri üçün yataqxana tikilmiş və istifadəyə verilmişdir.

1937-1941-ci illərdə şəhərin yanğınsöndürənlər komandasının rəisi L.T.Şevçenko, 1941-1952-ci illərdə – İ.A.Averin, 1953-1968-ci illərdə A.M.Şahbazov olmuşdur.

1968-ci ilin martında Dağıstan respublikasının yanğınsöndürmə xidmətində yenidənqurma işləri aparılmış və bununla əlaqədar olaraq A.M.Şahbazovun başçılığı ilə Dərbənd peşəkar yanğınsöndürmə dəstəsi yaradılmışdır.

1982-ci ildə yenidən dəyişikliklər edilmiş və nəticədə DMSSR DİN-nin yanğından müdafiə şöbəsinin hərbiləşdirilmiş müstəqil 9 saylı yanğınsöndürmə hissəsi yaradılmışdır.

Fövqaladə Hallar Nazirliyinin Dərbənd İdarəsi – Dərbənd şəhərində 2002-ci ildə təsis edilmişdi. Bu idarəyə Əliyev Odissey Məhəmməd oğlu başçılıq edir. İdarənin işçiləri, Əliyev Odissey başda olmaqla, Dərbənd şəhərində və Dərbənd rayonunda baş verən fövqaladə hadisələrin, təbii fəlakətlərin – daşqın, zəlzələ, yanğın və s. aradan qaldırılmasını təmin edir və əhalinin bu hadisələrə hazırlığını artırmaq sahəsində iş aparırlar. Məktəblərdə və ali təhsil müəssisələrində ekstremal vəziyyətlərdə ilkin kömək göstərmək üçün müntəzəm məşğələlər aparılır.

HƏRBİ KOMİSSARLIQ

1918-ci il iyulun 26-da Dərbənd Fəhlə, kəndli qızılordu deputatları şurasında V.Beşentsevin başçılığı ilə «Hərbi-dəniz şöbəsi» yaradıldı. Bu şəhər idarəçilik sisteminin tarixində ilk hərbi müəssisə idi.

1920-ci ilin aprelində Dərbənd şəhərinin yeni yaradılmış İnqlab komitəsinin 5 saylı əmri ilə şəhərin hərbi komissarlığı yaradıldı və 1920-ci il mayın 17-də onun ştatı təsdiq olundu.

1920-ci il mayın 29-da Dərbənd şəhər komissarlığı Cənubi Dağıstanın hərbi komissarlığına dəyişdirildi. Bu komissarlığa üç: Dağıstan-Samur, Kür və Qaytaq-Tabasaran dairələri tabe edildi.

Sonrakı illərdə Dərbənd hərbi komissarlığı dəfələrlə yenidən təşkil olunmuşdur. Hazırda Dərbənd şəhərinin birləşmiş hərbi komissarlığı kimi fəaliyyət göstərir. Onun funksiyaları Dərbənd şəhərinin ərazisinə, Dağıstanın işıqları şəhərinə və Dərbənd rayonunun ərazisinə şamil edilir.

Hərbi komissarlığa müxtəlif illərdə rəhbərlik etmişlər:

– V.Beşentsev – iyul-sentyabr 1918-ci il;
– Dudarov – aprel 1920-ci il;
– Dyakov – aprel-may 1920-ci il;
– Korolyov – may-avqust 1920-ci il;
– İ.T.Kolobokov – avqust-noyabr 1920-ci il;
– Potapov – noyabr-dekabr 1920-ci il;
– Briq – dekabr 1920-ci il – fevral 1921-ci il;
– Yatskovskiy – fevral-iyun 1921-ci il;
– Voronsov – iyun-sentyabr 1921-ci il;
– Yevstafyev – 1923-cü il;
– Sviridov – 1924-cü il;
– V.N.Vasilyev – 1924-1926-ci illər;
– Moryanov İ.N. – 1936-1941-ci illər;
– İ.R Zolotuxin – yanvar-aprel 1942-ci il;
– A.M. Olxovatov – aprel-iyul 1942-ci il;
– L.R.Lolazarov – avqust 1942-ci il-fevral 1943-cü il;
– D.Q.Nəbiyev – mart 1943-cü il-1946-ci il;
– E.Q. Orentlixemar – 1946-1948-ci illər;
– N.İ.Dronikov – 1948-1952-ci illər;
– S.Boyev – 1952-1954-cü illər;
– M.N.Nəbiyev – 1954-1957-ci illər;
– N.V.Luskin – 1958-1959-cü illər;
– İ.İ.Valçkovski – 1960-1965-ci illər;
– D.S.Maxnes – 1965-1974-cü illər;
– A.Ş.Həsənov – 1974-1979-cü illər;
– Y.M.Biyqişiyev – 1979-1985-ci illər;
– V.A.Starodvorski – 1985-1997-ci illər;
– A.A.Quliyev – 1997-ci il.

DƏRBƏNDİN İNZİBATİ – ƏRAZİ VAHİDLƏRİ VƏ İDARƏETMƏ

İnzibati siyasət. İdarə sistemi (VII-VIII əsrlər). Ərəb istilasından sonra istər Azərbaycanda, istərsə də Arranda idarə aparatı Sasanilərin dövründə olduğu kimi saxlanılmışdı. Sasanilərdə və Bizans imperiyasında olduğu kimi dövlət təşkilatına malik olmayan ərəblər çarəsizlikdən Azərbaycan və Arranda mövcud olan idarə qaydalarını qəbul etmişdilər.

Ərəblər Mərakeşdən Sinzyanədək geniş bir ərazidə öz hakimiyyətlərini qurduqdan sonra sayca çox olan bu ölkələri idarə etmək üçün vilayətlərdə canişinlik sistemi yaratdılar. Əvvəllər beş belə vilayət var idi. Bunlardan birincisinə - Hicaz, Yəmən, Ərəbistan yarımadasının torpaqları, Suriya, Livan və İordaniya daxil idi. İkinci vilayət Misir idi. Üçüncü vilayət iki İraqdan - Ərəbistan İraqı qədim Babilistan və Assuriya və İran İraqından ibarət idi. Azərbaycan, Arran, Gürcüstanın bir hissəsi, Ərminiyyə, Əlcəzirə vilayəti və Kiçik Asiya ərazisinin bir hissəsi birlikdə dördüncü vilayət idi. Beşinci vilayətə - Şimali Afrika və Əndəlus daxil idi. Birinci dörd «mömin» xəlifənin («xüləfayi raşideyn») dövründə Xilafətin inzibati bölgüsü yuxarıdakı şəkildə idi. Əməvilərin dövründə Xilafət, Sasanilərdə olduğu kimi, 9 əyalətə bölünmüşdü: 1)Suriya və Fələstin, 2) Kufə (İraq), 3)Bəsrə (İran, Sicstan, Xorasan, Bəhreyn, Oman və ehtimal Nəcd və Yəmamə ilə birlikdə), 4) Ərminiyyə, 5)Hicaz, 6)Kerman və Hindistanın sərhəd yerləri, 7)Misir, 8)İfrikiyyə (Afrika), 9)Yəmən və Cənubi Ərəbistan.

Bir müddət sonra bu 9 vilayət sayca azaldılıb 5 vilayətə endirildi və bunlardan üçüncüsü olan Əlcəzirəyə Azərbaycan, Arran və Kiçik Asiyanın şərq ərazisinin bir hissəsi daxil idi.

Abbasilərin dövründə Xilafət 83 quradan (əyalətdən) ibarət olan 14 vilayətə bölünürdü; bunlar da daha kiçik inzibati vahid olan nahiyələrə (mahallara) bölünürdü. Nahiyə 12 rustakdan ibarət olub, hər birinə 12 kənd daxil oldu.

Ərəblərin hücumu ərəfəsində inzibati vahid olan Azərbaycan ərazisi Həmədan, Əzhər, Zəncandan tutmuş Dərbəndədək uzanırdı.

Azərbaycanın şimal sərhədinin Sasanilər dövründə Dərbəndədək uzandığı barədə həmin şəhərin hasarlarındakı pəhləvi yazıları məlumat verir; bu yazılar b.e. 553-cü ildə Azərbaycandakı Sasani mərzbanı Bərzini tərəfindən tərtib edilmişdir.

İstəxri bu məlumatı verir: «Biz Ərminiyyə, Arran və Azərbaycanı xəritədə birləşdirir və ona bir ölkə kimi baxırıq. Azərbaycanın sərhədləri Tərm və Zəncanın son həddinə çatan dağ silsiləsidir. Sonra bu silsilə Dinəvərin son hüduduna çatır, sonra Hülvan və Şahrazurun o tərəfinədək uzanır».

Həmin Azərbaycanın hər tərəfini gəzib onun xəritəsini tərtib edən ibn Hövqəl İstəxrinin dediklərini tamamlayaraq, Azərbaycan, Arran və Ərminiyyənin ümumi xəritəsini yaratmış və bunu «Azərbaycanın xəritəsi» adlandırmışdır. O, Xəzər dənizinin də xəritəsini çəkərək, bütün sahil ərazisini Dərbəndədək Azərbaycan adlandırmışdır. İbn Hövqəldə bu sətirləri oxuyuruq: «Qərbə doğru, Rum sərhədlərinə tərəf çevrilib onun şərq hüdudları və islamın ən uzaq hədlərində olan vilayətləri təsvir edək. Yazmağa başladığımız ilk ölkələr Ərminiyyə, Arran və Azərbaycandır. Bu ölkələri biz bir vilayət hesab edirik. Bunları əhatə edən yerlər: şərqdən - Cibal və - Deyləm, habelə Xəzər dənizinin qərb hissəsi; qərbdən - Ərmən, Allanlar hüdudu və Cəzirə ərazisinin bir hissəsi; şimaldan - Alanlar və Kəbk dağları; cənubdan - İraq hüdudu və Cəzirənin şərq hissəsidir».

«Hüdud əl-Aləm» müəllifi Azərbaycan, Arran və Ərminiyyəni bir ölkə kimi qeyd edir. Müqəddəsi bütün bu üç ölkəni vahid adla «İqlim ər-Rəhab» adlandırır.

Ərəb istilasından əvvəl Azərbaycanın paytaxtı Ərdəbil idi və Sasani mərzbanının iqamətgahı burada yerləşirdi. Ərəblər paytaxtı X əsrədək vilayətin baş şəhərlərindən olan Marağaya köçürdülər, bundan sonra isə mənşəcə türk olan Yusif ibn Əbu əs-Sac yenidən paytaxtı Ərdəbilə köçürdü.

Ərəblərin hökmranlığı dövründə Azərbaycanın əsas şəhərləri bunlar idi: Marağa, Xunəc, Miyanic (Miyanə), Ərdəbil, Varsan, Sisar, Bərzə (Urmiya gölünün cənubunda), Səburxast (Urmiya gölünün 8 fərsəx cənubunda), Cabravan (Urmiya gölünün cənubunda), Təbriz, Mərənd, Xuvey (Xoy), Külsərə (Kültəpə, Marağadan 53 kilometr şərqdə), Mukan (Muğan), Bərzənd, Cəncə (Qazaka), Nariz (Urmiya şəhərinin şərqində), Urmiya, Səlmas, Şiz, Sindabaya, Balvankərc, Mayanic (Dinəvər ilə Sisar arasında), Naxçıvan.

Arran müəyyən vaxtlarda Azərbaycanın tərkibinə daxil olmuşsa da, onun ərazisinin hüdudlarının dürüst müəyyən edilməsinə ehtiyac vardır. Əl-Müqəddəsi Arran haqqında bu məlumatı verir: «Arrana gəldikdə bu ərazi bütün vilayətin (Azərbaycan vilayətinin) üçdə birini təşkil edir və dəniz ilə Araz çayı arasında bir yarım Cəzirəyə bənzəyir. Malik (Kür) çayı isə vilayəti uzununa iki yerə bölür. Onun paytaxtı Bərdə, şəhərləri isə bunlardır: Beyləqan, Şəmkir, Cəncə, Baric, Şamaxı, Şirvan, Bakı, Şabran, Bab əl-Əbvab, Lahican, Qəbələ, Şəki, Malazgird və Tebla». İbn Hövqəl bildirir ki, Arran ərazisi «Bab əl-Əbvab hüdudlarından Tiflis hüdudlarınadək uzanır».

İstəxri yazır: «Arranın sərhədləri Bab əl-Əbvabdan Tiflisədək və Araz çayı yaxınlığında Nəciran (Naxçıvan) adı ilə məşhur olan yerədək uzanır. Arranda Bərdə və Bab əl-Əbvabdan böyük şəhər yoxdur». Yaqut Həməvi bildirir: «Azərbaycanla Arran arasında Araz adlı çay axır. Bu çayın qərbində və şimalında olan yerlər Arrana aiddir».

«Cami əd-düvəl»də Arran ərazisi haqqında bu məlumat verilir: «Arrana gəldikdə, bu məşhur ölkədir ki, Azərbaycan və Kəbk dağları ilə sərhəddir. Onun əsas şəhərləri bunlardır; Nəşavə şəhəri, buna Naxçıvan da deyilir, beşinci iqlimindədir (onun) uzunluq dairəsi 78°, en dairəsi 42°-dir; Bab əl-Əbvab, Gəncə, Şəmkir, Beyləqan və Sərir Allan».

Arranın tərkibinə Arsax, Şəki vilayəti və Sünik daxil idi. Mirzə Camal Cavanşir bildirir: «Qarabağ vilayəti Arran ölkəsinin bir hissəsidir: bu ölkəyə Kür və Araz çayları arasında olan vilayət və torpaqlar və bu torpaqlardakı Gəncə, Naxçıvan, Ordubad, Bərdə və Beyləqan şəhərləri daxil idi». Abbasilər dövründə, xüsusilə Harun ər-Rəşidin hökmranlığı zamanında, həm Azərbaycan, həm də Arran, sərhədləri qəti

müəyyən edilmiş vilayətlər idi.

Xəlifələr çox geniş bir imperiyaya çevrilən Xilafəti idarə etmək üçün hər bir vilayətin əhalisini, vergi sistemini, ictimai şəraitini, onların vəziyyətini və digər xüsusiyyətlərini ətraflı öyrənməli idilər.

Hər vilayətin başında xəlifənin canişini olan əmir dururdu ki, bu da öz vilayətində qoşunların komandanı idi. O, eyni zamanda vilayətin inzibati idarəsinə başçılıq edirdi. Beləliklə, bütün mülki və hərbi hakimiyyət əmirin əlində idi. Xilafətin tərkibində az-çox azad federasiya əmələ gətirən hər bir vilayət, əmirin rəhbərlik etdiyi və vilayətin baş şəhərində yerləşən divan tərəfindən idarə olunurdu. Əmirin rəhbərliyi altında xüsusi tapşırıqları icra edən məmurlar - amil (mülki hakim, vergi toplanışına baxan) və qazı (məhkəmə idarəsinin rəisi), yəni dini məhkəmə hakimi dururdu, qazı vəqf işlərinə nəzarət edir və amilin hərəkətlərindən narazı olan şəxslərin işlərini ayırd edirdi.

Xilafətdəki poçt yolları Xilafətin coğrafi şəraiti haqqında ətraflı məlumat tələb edirdi. Xilafətin mərkəzi ilə vilayətlər arasında rabitə yaratmaq üçün «bərid» adlanan poçt yaradılmışdı. Mənbələrdə göstərilir ki, bərid I Müaviyənin (661-680) hökmranlığı dövründə əmələ gəlmişdi, xəlifə Əbd ül-Məlik (685-705) isə bəridin işini yaxşılaşdıran bir sıra tədbirlər gördü, poçt işində hətta göyərçindən istifadə etməyə başladılar. Əl-Kəlkəşəndinin verdiyi məlumata görə, «yeni düzəldilmiş şeylərdən ən yaxşısı Xilafətin hər yerində yaradılan bərid idi. Bərid göndərmələri (pulu) yaxşı qoruyurdu, xəbərləri tez çatdırırdı və vəziyyəti bərpa edirdi».

Xilafətin müəyyən məntəqələrində poçt stansiyaları və əvəzetmə vasitələri var idi, bunların yardımı ilə qasidlər Xilafətin mərkəzi ilə ucqarları arasında nisbətən tez rabitə yarada bilirdilər. Sonralar xəlifənin və vilayət hakimlərinin əmrləri çox böyük sürətlə göndərilirdi və mərkəzi hakimiyyətin yerlərə gedən rəsmi nümayəndələri xəlifə ilə operativ şəkildə rabitə saxlaya bilirdilər. Stansiyalar arası məsafə bir bərid, yəni dörd fərsəx (176 kilometr) idi, bu da qasidin bir mənzil at sürməsinə imkan verirdi, hər bir stansiyada inzibati məqsədlə məmurlar ştatı var idi.

Rəis. Dərbənd şəhərində məskunlaşan tanınmış ərəb sərkərdələri hərbi rəis vəzifəsini yaratmışlar. Burada böyük torpaq sahələrini tutan və bir çox yürüşlər zamanı varlanan rəislər Dərbəndin qüvvətli sosial qrupuna çevrildilər. Onlar böyük iqtisadi və siyasi qüvvəyə malik idilər.

Orta əsrlər Dərbəndinin iqtisadi inkişafı ilə əlaqədar yerli əhalinin bölünməsi baş verir və onların içərisindən nəhəng ticarət-sənətkar zadəganlar çıxır. Onların iqtisadi qüvvələrinin əsasını beynəlxalq ticarətdən, sənətkarlıq istehsalından gələn nəhəng gəlirlər təşkil edir.

Şəhər zadəganları Dərbənd hakimlərinə – əmirlərə qarşı əsas müxalif qüvvəyə, onların daimi siyasi rəqibinə çevrilmişlər. Şəhər zadəganlarının öz nümayəndələri, ticarət və sənətkarlıqla məşğul olanların öz rəisləri var idi.

Salnamələrin məlumatına əsasən rəislərin Dərbəndə çox böyük təsiri var idi. Faktiki olaraq onlar şəhərin sahibi hesab olunurdu və Dərbənd hakimləri çox vaxt onlardan asılı olurdular. «Dərbəndnamə»də verilən məlumata görə, 736-cı ildə xəlifə Dərbəndin baş qapılarının (Bab əl-Cihad) açarlarını şəhərdə möhtərəm rəis olan Əqləbi Süleyməyə, qalan qapıların açarlarını isə öz canişini Əsəd bin Zəfirə saxlamağı əmr etmişdir.

Mənbələrin məlumatına görə, 869-cu ildə şəhərdə hakimiyyətə gəlmiş Haşimilər sülaləsi əvvəllər bütün işləri «…müdrik ağsaqqallarla və rəislərlə məsləhətşərək» həll edirdi.

Şəhərdə rəislərin rolu haqqında «Tarix-i Bab əl-Əbvab» salnaməsi də məlumat verir.

Mahal özünüidarəçiliyi. Hələ VIII əsrdə Dərbənd ərəblər tərəfindən mahala bölünmüşdü. Bu mahallar tez bir zamanda özünüidarə ictimai rayonlarına çevrildi. Zaman keçdikcə mahal özünüidarənin müəyyən forması yarandı. Bir qayda olaraq mahal həyatını qonşuların və sakinlərin etibarını və hörmətini qazanmış ağsaqqallar idarə edirdi. Onların arasından başçı seçilirdi.

«Təkkə» (məhəllə məscidi) mahalın ictimai mərkəzi idi. Burada mahal şurası sakinlərlə birlikdə özlərinin daxili məsələlərini həll edirdilər: öz ərazilərində ictimai qayda, küçələrin təmizliyi, su borularının və kanalizasiyanın vəziyyəti, hamamın, məscidin, məscid nəzdindəki məktəbin vəziyyəti və təmiri, məhəllə çobanının tutulması, məhəllə məscidinin mollasının tutulması, kasıblar arasında xeyriyəçilik ianəsinin paylanması, bəlaya düşənlərə köməklik göstərilməsi, toylarda və dəfn mərasimlərində iştirak edilməsi və mahalın digər məsələləri həll olunurdu. Elə olurdu ki, hətta uşaqları evləndirərkən mahal şurasının üzvlərinin fikirləri nəzərə alınırdı. Mahal şurası sakinlərin müsəl-

man adət-ənənələri çərçivəsində həyat tərzinə təsir göstərirdi. Həyati vacib məsələ olanda mahal şurası bu məsələni mahal sakinlərinin müzakirəsinə çıxarırdı. Mahal şurası hakimiyyət strukturunda bütün mahal adından müvəkkil kimi çıxış edirdi. Mahal ictimai idarəsinin qərarı mahalın bütün sakinləri üçün vacib və mütləq idi. Bu qərardan yayınmaq, boyun qaçırmaq, onları yerinə yetirməkdən imtina etməklə xoşagəlməz hadisələrlə rastlaşmaq olardı, belələrini onları mahaldan sürgün də edə bilərdilər.

Bu ictimai özünüidarə forması hakimiyyət tərəfindən müdafiə olunurdu və XX əsrin ikinci yarasınadək fəaliyyətdə idi.

Mahal bəyi – Dərbənd xanlığında idarəçilik vahidi.

Kafirlər – Dərbənd şəhərin şimal divarının arxasında ərazi. Bu, ərəb sözüdür – islam dinini qəbul etməyənlərə deyilir. Bu ərazidə islam dinini qəbul etməyən xalqlar – xəzərlər məskunlaşmışdılar. Bu ərazidə yerləşən obyektlərin adı da bu sözdən götürülmüşdür: Kafirlər qəbiristanlığı, Kafirlər qayası, Kafirlər bulağı, Kafirlər yüksəkliyi.

Bu rayonun başqa adı da var – Xəzərlər.

Azərbaycanın tarixi-siyasi coğrafiyası XIII-XIV əsrlərdə və Dərbənd. Azərbaycan XIII-XIV əsrlərdə geniş əraziləri əhatə etmiş Hülakular (Elxanilər) və Cəlairilər dövlətlərinin tərkibində olmuşdur. Hülakülər dövlətinin sərhədləri İran körfəzindən Dərbəndin şimalına, Misir hüdudlarından Amudərya çayına kimi uzanırdı. Onun tərkibinə Azərbaycan, Ərəb İraqı, Əcəm İraqı, Kirman, Gürcüstan, Kiçik Asiya (Rum), Ərminiyyə, Kürdüstan, Fars, Xuzistan, Xorasan və s. vilayətləri daxil idi.

XIII-XIV əsrlərdə bir vilayət kimi Azərbaycan torpaqları Dərbəndin şimalından Zəncanın cənubuna, Xəzər və Gilan sərhədlərindən Göyçə gölünün qərb sahillərinə kimi olan ərazini əhatə edirdi.

Bu dövrdə Azərbaycan adı altında həm müasir Cənubi Azərbaycan, həm də Şimali Azərbaycan ərazisi nəzərdə tutulurdu. Vahid Azərbaycan ərazisi əvvəlki – Atabəylər və sonrakı Səfəvilər dövrlərindəkinə nisbətən yığcam idi və təxminən 370-375 min km^2 ərazini əhatə edirdi.

Azərbaycan ərazisinin azalmasına səbəb monqol yürüşləri və bundan məharətlə istifadə edən xristian aləminin, xüsusilə ermənilərin məkrli siyasəti olmuşdur. Azərbaycan vilayətinin bu dövrdəki sərhədləri Xəzər dənizi – Gilan vilayəti – Zəncan, Soyuqbulaq, Uşnu şəhərlərinin və Ruindej qalasının cənubundan – Urmiya, Səlmas, Xoy, Maku şəhərlərinin və Naxçıvan mahalının qərbindən – Dəbil (Dvin) şəhərindən – Göyçə gölü – Debed çayından Şəki mahalının qərbindən və şimalından – Dərbənd şəhərinin şimalından keçirdi.

Azərbaycan vilayətinə daxil olan əyalətlər və onların tərkibindəki mahallar və tümənlər siyasi-inzibati, ictimai-iqtisadi, mədəni və mənəvi baxımdan vahid ərazini təmsil edirdilər.

Xan idarəçiliyi. Dərbənd xanı öz fəaliyyətində xanlığa daxil olan şəhər və Ulus mahalını idarə edən müəyyən inzibati aparata istinad edirdi.

Xanın baş köməkçisi vəzir idi.

Bundan əlavə, idarə orqanına dəftərdar, kətxuda, qarı, mahal bəyi, çavuş, yüzbaşı, müxtəlif tapşırıqları yerinə yetirən nökərlər daxil idilər.

Y.İ.Kozubskinin məlumatına görə, Fətəli xanın dövründə şəhərin yaxşı idarə edilməsi üçün, şəhər 4 hissəyə bölünmüşdü, onların idarəçiliyi «...xüsusi bəyə tapşırılırdı, lazım olduqda bu bəylərdən biri naib təyin olunurdu və bütün şəhər ona tabe olurdu».

9 yaşayış məntqəsi daxil olan Ulus mahalını şəxsi inzibati orqanı olan mahal bəyi idarə edirdi. İ.Q.Qerberin göstərdiyi kimi, Ulus mahalında «...hər kəndin öz çoğası (koxa) var idi, onlardan bir neçəsi yüzbaşıya tabe idi, bütün qəzaya Dərbənd sultanı bir mahal bəyi göndərirdi, o da öz növbəsində Müşgürdən gəlir toplayırdı və Dərbənd sultanına təqdim edirdi». Beləliklə, kənd çoğası – yüzbaşıya, yüzbaşı – mahal bəyinə, mahal bəyi isə xana tabe idi. Bundan əlavə, mahal bəyinin yanında çoxlu nökərlər olurdu. Mühüm qərarlar qəbul edəndə xan «divan» (şura) çağırırdı. Bu şuraya xanın ən yaxın adamları, şəhərin mötəbər sakinləri və hörmətli din xadimləri daxil idi.

Xan öz idarəçiliyində hərbi qüvvəyə arxalanırdı.

Akademik P.Q.Butkovun məlumatına əsasən Dərbənd xanının 4 min nəfərdən ibarət qoşunu var idi. İ.Q.Qerberin məlumatına əsasən «…Dərbənd sakinləri hamısı hərbi adamlardır, onların 600 nəfəri süvari və 1000 nəfəri quru qoşuna seçilirdi». Rusiya səfirliyinin başçısı A.P.Volınskinin Səfəvi şahına yazdığı məktubunda oxuyuruq: «Dərbənd xanı 1000 nəfər hazır adam saxlayırdı, lazım gəldikdə isə qəzalardan daha 500 hərbi adam toplaya bilirdi, çünki kəndlilərin hər birinin tüfəngi var idi». Onun sözlərinə görə, xan sarayının qabağında «… 46 mis top» qoyulmuşdur.

Lakin xanın silahlı qüvvələrinin əsas özəyini kurçi türk tayfasından olan nökərlər təşkil edirdi.

Dərbənddə xan idarəçiliyi şəhərin Rusiyaya ilhaqından sonra ləğv edilmişdir.

Xan (ərəblərdə - «əmir», səlcuqlarda – «sultan»). Dərbənddə xan taxt-tacı nəsildən-nəslə keçirdi. Dərbəndin bir sıra hökmdar sülalələri məlumdur. Xilafətin hakimiyyəti dövründə Dərbəndi Haşimilər sülaləsinin əmirləri (869-1075), türk-səlcuqların hakimiyyəti dövründə – Əqləbilər sülaləsinin sultanları (1075-1239), Hülakülər dövləti dağıldıqdan sonra – Cəlairilər və Müzəffərilər sülaləsi, Şirvanşahların dövründə – Dərbəndilər sülaləsi və b. idarə edirdilər.

Elə dövrlər olmuşdur ki, xan taxt-tacını qadınlar tutmuşlar: Tutu Bikə, Xan Bikə xanım, Pəricə xanım.

Hərdən azyaşlı varislər də Dərbənd xanı olurdular: İmamqulu bəyin oğlu Məhəmmədhüseyn 9 yaşında şəhərin naibi olmuş, Qubalı Fətəli xanın kiçik oğlu Həsən xan 12 yaşında Dərbəndi idarə etmiş, o biri oğlu Şeyxəli xan Dərbənd taxt-tacına 13 yaşında sahib olmuşdur.

Təbiidir ki, belə hallarda onlara xanın yaxın adamları və yaxud qohumları dövləti idarə etməkdə köməklik göstərirdilər. «Tarix-i Şirvan və Bab əl-Bab» salnaməsinin müəllifinin məlumatına görə, 1043-cü ildə dərbəndlilər 4 yaşlı Mənsur bin Əbd əl-Məliki özlərinin əmiri elan etdilər, lakin «… onun adından dövlət işlərini rəis Əbu-l-Faris Əbd əs-Salam bin Müzəffər bin Əqləb aparırdı».

Kazan universitetinin professoru İ.N.Berezin «Şərqə səyahət» əsərində Dərbənd xanları haqqında geniş məlumat vermişdir.

N.Dubrovin özünün «Rusların Qafqazda müharibələri və ağalıqları tarixi» (1871) əsərində yazmışdır: «… xan idarəçiliyi özbaşınalığı və qəddarlığı ilə seçilirdi. Bütün qanunlar, sakinlərin bütün hüquqları xanın əlində idi. Bütün məsələləri xan şəxsən özü həll edirdi».

Xan idarəçiliyinin qəddarlığı haqqında Y.İ.Kozubskinin «Dərbənd şəhərinin tarixi» (1906) kitabındakı məlumatdan öyrənmək olar. Dərbənddə xan idarəçiliyi şəhərin Rusiyaya ilhaqından sonra ləğv edilmişdir (1806).

Bəylər. Dərbənd xanlığında, digər xanlıqlardan fərqli olaraq, əsilli-köklü məskunlaşmış və torpaqları olan bəylərlə yanaşı digər bəylər də var idi. Bu adı onlara hökmdar, yəni xan verirdi. Rus müəlliflərinin məlumatına əsasən bəy adını «xana xidmət edənlər alırdılar. Xanın acığı tutanda bu adları və verdiyi torpaqları onlardan geri alırdı».

Y.İ.Kozubskinin «Dərbənd şəhərinin tarixi» kitabında məlumat verilir: «...demək olar ki, Dərbənd bəyləri heç nə ilə fərqlənmirdilər, onlar xana xidmət etməli idilər və onların ata-babadan qalmış malikanələri, torpaqları və kəndləri yox idi. Onlar torpaqları və kəndləri müəyyən müddətə xandan alırdılar və xanın onlara açığı tutanda hamısını geri alırdı və başqalarına verirdi».

Göründüyü kimi Dərbənddə əsilzadə bəylərdən başqa xan tərəfindən bu adı almış çoxlu bəylər də var idi. Onları «quru bəy» adlandırırdılar, çünki onların quru adlarından başqa heç nələri yox idi. Dərbənd Rusiyaya ilhaq edildikdən sonra, yerli əhalinin hansı təbəqəyə mənsub olmasının araşdırılması zamanı Qafqazın baş rəisində çoxlu suallar meydana çıxmışdı: bəylərin mənsub olduğu təbəqə və onların hüquqlarını müəyyənləşdirməkdə çətinlik çəkirdi.

Azərbaycan xanlıqlarında təsərrüfat həyatı və Dərbənd. Dövlət idarəçiliyi. Xanlıqların iqtisadi həyatında əsas yeri kənd təsərrüfatı tuturdu. Ayrı-ayrı bölgələrdə müxtəlif sahələr üzrə ixtisaslaşma gedirdi. Qarabağ, Quba, Gəncə və Şəki xanlıqları dənli bitkilər, Lənkəran, Şamaxı xanlıqları və Bərğuşad mahalı çəltik, Dərbənd, Quba və Bakı xanlıqları qızılboya, zəfəran, Şəki və Şamaxı əvvəlkitək ipəkçilik mərkəzi idi. Bağçılıq və bostançılıq, demək olar ki, bütün xanlıqlarda yayılmışdı. Gəncə, Şəmkir, Xəzəryanı ərazilər və bəzi başqa yerlərdə əkinçilik tədricən ticari səviyyə alırdı.

Kənd təsərrüfatının digər ən mühüm sahəsi maldarlıq idi. Quba, Qarabağ, Ərdəbil, Şamaxı, Dərbənd, Salyan, Cavad əsas maldarlıq bölgələri idi. Şəhərlərin əhalisi o qədər də çox deyildi. XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Şamaxıda 5-10 min, Bakıda 4-5 min, Şəkidə 6 min, Şuşa və Dərbənddə hər birində 10 min nəfər əhali yaşayırdı.

Qarabağ, Gəncə, Şamaxı, Dərbənd, Cavad kimi maldarlıq bölgələrində dəri emalı inkişaf etmişdi. Sənətkarlıq emalatxalarında yəhər, başmaq, ayaqqabı, çarıq və b. məhsullar istehsal olunurdu.

XIX əsrin 2-ci yarısında Şimali Azərbaycanın sosial-iqtisadi həyatında ciddi dəyişikliklər baş verdi. Rusiya imperiyasında təhkimçilik hüququnun ləğvindən sonra başlayan sənaye yüksəlişi ucqarların xammal mənbələrinə ehtiyac doğururdu.

XIX əsrin 2-ci yarısında, xüsusən son otuz ilində ticarət əkinciliyi geniş miqyas almış, bazaryönümlü pambıqçılıq, tütünçülük, üzümçülük sahələri formalaşmış, bu sahələrdə xammalın ilkin emalı müəssisələri – pambıqtəmizləmə zavodları, tənbəki fabrikləri, şərab və araq zavodları tikilmişdi. Neft Bakısı ilə yanaşı Gəncə, İrəvan, Şuşa, Naxçıvan, Şəki, Şamaxı, Dərbənd, Lənkəran şəhərləri tədricən sənaye mərkəzlərinə çevrilirdi. Cənubi Qafqaz dəmir yolunun Tiflis-Bakı xəttinin çəkilməsi (1883), daha sonra Bakı-Petrovsk (Mahaçqala) xətti (1900) vasitəsilə Rusiya dəmiryolları şəbəkəsinə qoşulması, çay və Xəzər dəniz gəmiçiliyinin inkişafı Şimali Azərbaycannın dünya iqtisadiyyatı sisteminə qoşulmasını sürətləndirdi.

XIX əsrin son rübündə Azərbaycan iqtisadiyyatının başlıca sahəsinə çevrilmiş neft sənayesi ilə yanaşı, digər istehsal sahələri – misəritmə, pambıqtəmizləmə, ipəksarıma və s. də sürətlə inkişaf edir, yeni sənaye mərkəzləri meydana çıxırdı.

İqtisadiyyat sahələrində baş verən mühüm proseslər sosial həyatda əhəmiyyətli nəticələrə gətirib çıxardı – burjuaziya və fəhlə təbəqələşməsi meydana çıxdı.

Fəhlə təbəqələşmənin formalaşmasının başlıca mənbələri Şimali Azərbaycan kəndi və Cənubi Azərbaycandan, Şimali Qafqazdan, Volqaboyundan axıb gələn qəsbkarlar idi. Burjuaziya kimi, Azərbaycan fəhlələri də çoxmillətli idi. Bakı neft sənayesi, metal emalı, dağ-mədən, yüngül və yeyinti sənayesi, gəmi təmiri müəssisələri, dəmir yolu fəhlələri onun başlıca dəstələrini təşkil edirdi.

Quberniya – Azərbaycan Xalq Cümhuriyyətində ən iri inzibati-ərazi vahidi.

İlk dəfə Rusiyada çar I Pyotr zamanı tətbiq edilmişdir. 1708-ci il 18 dekabr tarixli fərman əsasında Rusiyada 8 quberniya yaradılmışdı. 1719-cu ildə quberniyaların sayı 11-ə, 1745-ci ildə 16-ya çatmışdı. II Yekaterinanın dövründə quberniyaların sayı xeyli artırılmış, 1781-ci il 13 iyun tarixli fərmanla imperiya 40 quberniyaya bölünmüşdü. XIX əsrin əvvəllərində onların sayı yeni işğal olunan torpaqlar hesabına daha da artmışdı. Əsrin sonlarında Rusiya imperiyasında olan 78 quberniyanın 7-si Qafqazda idi. Quberniyalar qəzalara bölünmüşdü.

Çar hökuməti Cənubi Qafqazdakı işğalının ilk mərhələsində ümumrusiya inzibati-ərazi bölgüsünü burada tətbiq etməyə tələsmirdi. 1840-cı il 10 aprel tarixli inzibati idarə islahatlarına görə, Cənubi Qafqaz diyarı Gürcü-İmeretiya quberniyasına və Kaspi vilayətinə bölündü. 1846-cı ildə Cənubi Qafqaz Tiflis, Kitais, Şamaxı və Dərbənd quberniyalarına ayrıldı. 1849-cu ildə İrəvan *quberniyası* da yaradıldı (bununla Qərbi Azərbaycan ərazisində gələcək Ermənistan dövləti yaradılması üçün daha bir addım atıldı).

1859-cu il Şamaxıda zəlzələdən sonra quberniya mərkəzi Bakıya köçürüldü. 1860-cı ildə Dərbənd quberniyası ləğv olundu, onun tərkibindəki Quba qəzası Bakı quberniyasına verildi, qalan ərazidə Dağıstan dairəsi yaradıldı (bununla əzəli Azərbaycan torpaqları olan Dərbənd və onun ətrafındakı ərazilərin Azərbaycandan ayrılmasının əsası qoyuldu). 1867-ci ilin dekabrında Tiflis, İrəvan və Bakı quberniyalarına daxil olan torpaqlar hesabına yeni- Yelizavetpol quberniyası təşkil olundu. Beləliklə, Rusiya imperiyasının dağılması ərəfəsində Cənubi Qafqazda 5 quberniya var idi. Rusiyada həyata keçirilən bütün bu islahatlar nəticəsində Azərbaycanın ərazi-dövlətçilik ənənələrinə ağır zərbə vuruldu.

Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra burada quberniya inzibati-ərazi bölgüsü saxlanıldı. Respublikanın ərazisində iki quberniya – Bakı və Yelizavetpol quberniyaları mövcud idi. Yelizavetpol quberniyasının adı dəyişdirilərək tarixi Gəncə adı bərpa edildi. Azərbaycanın digər torpaqları isə Cənubi Qafqazdakı başqa quberniyaların tərkibində qaldı və ana vətəndən ayrı düşdü. Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin bu torpaqları geri qaytarmaq üçün göstərdiyi təşəbbüslər nəticə vermədi.

Quberniya idarə sistemi – Azərbaycan Xalq Cümhuriyyəti dövründə yüksək yerli idarəçilik orqanı. Bu idarə sistemi 1708-ci ildə Rusiyada quberniyaların təsis edilməsi nəticəsində yaranmışdı. Quberniya idarə sisteminin təkmilləşdirilməsində II Yekaterinanın Rusiya imperiyası quberniyalarının idarəsi üçün təsisatlar haqqında 1775-ci il 7 noyabr tarixli qanunu mühüm rol oynamışdı. Həmin qanunda göstərilirdi ki, quberniyaların nizamlı idarə edilməsi üçün onların əhalisi 300000-dən 400000-dək olmalıdır. General-qubernatorun başçılığı ilə quberniya idarələri təşkil olunurdu. Şimali Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra burada bəzi xanlıqlar bir müddət saxlanılmış, ləğv olunmuş xanlıqlar ərazisində isə əyalətlər yaradılmışdı.

Şəhəri idarə etmək üçün hərbi-xalq idarəçiliyi tətbiq edilmiş və bu komendant idarə üsulu adlandırılmış,

quruma isə hərbi komendant başçılıq etmişdi. 1840-cı il 10 aprel qanunu ilə üç pilləli (quberniya-qəza-sahə) inzibati ərazi quruluşu tətbiq edilmiş və Dərbənd qəzası yaradılmışdır. Sonrakı inzibati-ərazi bölgülərində Cənubi Qafqazdakı quberniyaların sayı beşə (Tiflis, Kitais, Bakı, Yelizavetpol, İrəvan) çatdırılmışdı.

1846-cı ildə Dərbənd quberniya şəhərləri sırasına keçirilmiş və şəhərin idarə olunması Dağıstan hərbi dairəsi tərəfindən təyin olunan hərbi qubernatora həvalə olunmuşdur. Bu sistemə qubernator, quberniya idarəsi, xəzinə palatası, dövlət mülkiyyəti palatası və b. qurumlar daxil idi.

Belə idarəçilik 1860-cı ilə qədər saxlanılmışdır. Sonra hərbi qubernator vəzifəsi ləğv olundu və qradonaçalnik vəzifəsi təsis edildi.

Yeniliklər şəhərin iqtisadi və sosial həyatına heç bir müsbət təsir göstərmədi, çünki onların hamısı ilk növbədə həmin regionda müstəmləkəçilik rejiminin möhkəmləndirilməsinə yönəldilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra quberniya idarə sistemi müəyyən dəyişikliklərlə saxlanılmış, istisna hal kimi Qarabağ qeneral-qubernatorluğu (1919, yanvar) yaradılmışdı. Sovet hakimiyyəti illərində quberniya idarə sistemi ləğv edildi.

Hərbi-Xalq İdarəsi. Hərbi-Xalq İdarəsi Dərbənd şəhəri Rusiya tərəfindən işğal olunduqdan sonra yaradılmışdır. Bu idarəçilik forması – yerli əhalinin hərbi qüvvə və hərbi qanunlarla idarə olunması, «xalq adətlərinin» (şəriət və adət) məhkəmədə istifadə olunması demək idi.

Şəhər rəhbərliyinə çar hakimiyyətinin nümayəndəsi – hərbi komendant başçılıq edirdi. Onun vəzifəsinə şəhərdəki qayda-qanuna nəzarət etmək, şəhər qarnizonuna komandanlıq etmək, məhkəmə işlərinə baxmaq, eləcə də inzibati, təsərrüfat və polis nəzarəti daxil idi.

Komendant yerli bəylərdən birini naib təyin edirdi. Onun vəzifəsinə vergilərin yığılması, kiçik məhkəmə işlərinə baxılması, bəylərin iştirakı ilə və hərbi komendantın nəzarəti altında şəhərin idarə edilməsi daxil idi.

Hərbi komendant qalabəyini (poliseymeyster) təyin edirdi. Qalabəyinə kətdxudalar tabe idilər. Onların vəzifəsinə həvalə edilmiş məhəllələrdə qayda-qanuna və təmizliyə nəzarət etmək, zabit ailələrinin şəhər sakinlərinin evində yerləşdirilməsi daxil idi.

Şəhər hakimiyyəti – hərbi, inzibati, polis və maliyyə işləri şəhər komendantının səlahiyyətində və əlində idi.

1812-ci ilin əvvəllərində markiz Pauluççi təlimatlandırma səfəri ilə Qafqazda olmuşdur. O, burada hərbi komendantların öz vəzifəsindən sui-istifadə etdiklərini aşkara çıxarmışdır.

O, 1812-ci il 10 mart hesabatında polis nazirinə məlumat verirdi ki, «Bakı, Quba, Dərbənd vilayətləri mənim tərəfimdən yoxlanılarkən çoxlu qayda-qanun pozuntuları, xalqın narazılığı və buradakı idarəçilikdə vəzifədən sui-istifadə ilə rastlaşdım…». Onun vəsatəti ilə Rusiyaya tabe olan Qafqaz ərazilərinin idarəçilik strukturunda dəyişikliklər edildi.

Dərbənd əyaləti 1812-ci ildə yaradılmışdır. Əyalətin başında Qafqazda baş komandan olan Dağıstanın hərbi dairəsinin rəisi dururdu. Dərbəndin komendantı Dağıstanın hərbi dairə rəisinə tabe idi. Dərbənd əyalətinin sərhədi cənubda Samur çayı, şimalda Darvaq çayı, qərbdə Kür və Tabasaran xanlıqlarından onu ayıran Tabasaran dağına gedib çıxırdı. Sərhəd şimaldan cənuba 60 verst, qərbdən şərqə 11,5 verst uzanırdı və 690 kv verst ərazini əhatə edirdi (1 verst=2,1 km).

Əyalətin inzibatı mərkəzi Dərbənd şəhəri idi. Sonralar əyalət dairə adlandırıldı.

Dağıstanın hərbi dairə rəisləri təyin olunmuşlar: general-mayor Xatunsev (1812), general-mayor Krabbe (1824).

Şəhər idarəsi komendantdan, şəhər məhkəməsindən ibarət idi. Şəhər məhkəməsində komendant sədrlik edirdi və iki nəfər müsəlmandan və 1 nəfər erməni iştirak edirdi. Komendant idarəçiliyi və mənzil komissiyasında qalabəyi (poliseymeyster), hərbi qarnizonun zabitlərindən bir və müsəlmanlardan 2 nəfər iştirak edirdi. Bundan başqa, şəhərdə gömrükxana zastavası və xəzinədarlıq yerləşirdi.

XIX əsrdə inzibati idarə üsulu və Dərbənd. Azərbaycanda çarizmin iqtisadi siyasətinin həyata keçirilməsi, diyarın təbii ehtiyatlarının mənimsənilməsi cəhdləri bəzi digər amillərlə yanaşı, komendant üsuli-idarəsinin təsiri altında ləngidilirdi. Bu idarəçilik üsulu hətta ali çar məmurlarının etirafına görə, «dövlət gəlirləri üçün soyğunçu, diyarın rifahı, onun sakinlərinin səadəti və mənəviyyatı üçün məhvedici» oldu.

Komendant üsuli-idarəsi dövlət xəzinəsinə xeyli ziyan vururdu. Komendantlar, hərbi hissə komandirləri və Rusiya idarə aparatı ilə bağlı olan məmurlar yığılan vergilərin xeyli hissəsini mənimsəyir, xəzinənin torpağını və vəsaitini dağıdırdılar. Hərbi hissələrin

zabitləri olan bu hərbi rəislər xəzinə gəlirlərinin sahibi və bölüşdürücüsü vəzifələrinin öhdəsindən gəlməyə qadir deyildilər.

Komendantların əllərində möhtəşəm, əslində, nəzarətsiz hakimiyyətin cəmlənməsi, komendant üsuli-idarəsinin özü azğın despotizm, qeyri-məhdud sui-istifadələr doğururdu. Bunlar isə kütləvi silahlı kəndli çıxışlarının səbəblərindən biri idi. Çar hakimiyyət orqanları bunu aydın dərk edirdi. Çarizmin Cənubi Qafqazdakı siyasətinin başçılarından biri olan baron P.Qan I Nikolayın adına raportunda yazırdı: «Qubadakı narahatlıqlar (1837-ci il üsyanı) xalq üçün əziyyətli olduğu qədər də zəif olan hərbi (komendant) üsuli-idarəsinin nəticəsidir».

Çarizmin Cənubi Qafqazda öz hökmranlığını möhkəmləndirməsinə nail olmaq cəhdi komendant üsuli-idarəsinin ləğvini və onun yeni sistemlə əvəz olunmasını tələb edirdi. İslahatın ləngidilməsini həm ziyanlı, həm də təhlükəli sayan imperiya hakim dairələrinin həm Peterburqdakı, həm də Qafqazdakı bir çox nümayəndələri onun təxirə salınmadan həyata keçirilməsini tələb etməyə başladılar. Onların fikrincə, islahat aşağıdakı vəzifələri həll etməli idi: Cənubi Qafqazın Rusiya tərkibində olmasının müvəqqəti xarakteri barədə söhbətlər üçün bəhanəni həmişəlik ləğv etmək; diyarın idarə xərclərinin onun öz vəsaiti hesabına tamamilə ödənilməsini, gəlirlərin bir hissəsinin ümumdövlət xəzinəsinə daxil olmasını təmin etmək; elə bir qayda yaratmaq ki, Cənubi Qafqaz sakinləri onun müdafiəsində fəal iştirak etsinlər, bir müddətdən sonra isə əsgər versinlər; Cənubi Qafqazı «mülki və siyasi tellərin köməyi ilə» Rusiya ilə «vahid bir orqanizm halında bağlamaq və oradakı sakinləri rus kimi danışmağa, düşünməyə və duymağa məcbur etmək» məqsədi güdülürdü.

İnzibati idarə və məhkəmə sisteminin islahatı çarizm və hakim dairələrin maraqlı olduqları iqtisadi dəyişiklikləri həyata keçirmək, xalq kütlələrini hakimiyyətə qarşı mübarizədən yayındırmaq və çarizmin Cənubi Qafqazdakı mövqeyini mökəmləndirmək məqsədini güdürdü.

İslahatın layihəsi Qafqazın o zamankı baş komandanı M.F.Paskeviç tərəfindən tərtib olunmuş və 1830-cu ilin aprelində I Nikolaya göndərilmişdi. Layihə çarizmin müstəmləkəçi məqsədlərini əks etdirirdi. O, qubernator və vilayət rəisləri vazifələrinə generalları təyin etməklə Rusiyanın daxili quberniyalarındakı müvafiq idarələrin timsalında quberniya, vilayət və qəza inzibati və məhkəmə idarələrinin yaradılmasını nəzərdə tuturdu. Bütün inzibati və məhkəmə idarələri tamamilə «irsi rus zadəganları» içərisindən çıxmış məmurlardan təşkil edilməli və hər işdə Rusiya qanunları rəhbər tutulmalı idi.

Beləliklə, Paskeviç «hərbi xalq üsuli-idarəsinin» aradan qaldırılması ilə yanaşı, Cənubi Qafqaz xalqlarının milli xüsusiyyətləri ilə hesablaşmayaraq, hüquq, məhkəmə və inzibati idarə sahəsində bütün yerli xüsusiyyətlərin də ləğv olunmasını təklif edirdi.

Paskeviçin layihəsi o zaman Cənubi Qafqaz diyarını yoxlamış senatorlar P.İ.Kutaysov və Y.İ.Meçnikov tərəfindən müdafiə olundu. Onların Paskeviçlə birlikdə dövlət şurasına təqdim etdikləri «Zaqafqaziya diyarının quruluşu haqqında təkliflər» Rusiyanın Cənubi Qafqazı qətiyyətlə ruslaşdırmağa can atan və diyarın idarə olunmasında onun tarixi xüsusiyyətlərinin nəzərə alınmasına qarşı çıxan hakim dairələrin siyasi xəttini əks etdirirdi.

1837-ci ildə senator Qanın sədrliyi altında Cənubi Qafqaza missiya göndərildi. Ona yerlərdə müvafiq məlumatlar toplamaq və «Zaqafqaziyanın idarə olunması üçün müəssisələr» (idarələr) lahiyəsini tərtib etmək göstərişi verilmişdi. Lakin komissiya diyarın xüsusiyyətlərini öyrənmədi və Paskeviç Kutaysov və Meçnikovun təklifləri əsasında artıq 1838-ci ilin əvvəllərində islahat layihəsini tərtib edərək, Cənubi Qafqaz diyarının idarəsi üzrə komitənin təsdiqinə verdi. Komitə və Qafqaz hakimiyyət orqanları üzvlərinin layihəyə çoxsaylı qeydləri ilə əlaqədər olaraq, bu inzibati məhkəmə islahatı layihəsi ancaq 1840-cı il aprelin 10-da I Nikolay tərəfindən «Zaqafqaziya diyarının idarə olunması üçün tədbir» adı altında təsdiq olundu.

1841-ci il yanvarın 1-dən islahat hər yerdə tətbiq olundu. Yeni inzibati və məhkəmə idarələrinin açılışı yerli əyanların iştiraki ilə təntənəli şəraitdə keçirdi. Bunların hamısı zahiri təsir göstərmək, xalqı aldadaraq onlarda xoşbəxt həyatın başlandığı haqqında xülya yaratmaq məqsədi güdürdü.

Yeni idarələrin yaradılmasına görə «xilaskar» imperatora təşəkkürü çatdırmaq üçün Peterburqa gürcü zadəganları, bəylər və digər imtiyazlı təbəqələrin nümayəndələrindən ibarət heyət göndərildi.

İslahat Cənubi Qafqazın inzibati quruluşunu dəyişərək, onu Ümumrusiya inzibati ərazi bölgüsünə uyğunlaşdırdı. Cənubi Qafqaz diyarı mərkəzi Tiflis

olan Gürcüstan-İmeretiya quberniyasına və mərkəzi Şamaxı olan Xəzər vilayətinə bölünürdü. Quberniya və vilayət qəzalara (dairələrə), onlar isə öz növbəsində nahiyələrə (sahələrə – *N.Ə.)* bölünürdü.

Azərbaycan torpaqlarını əksəriyyəti 7 qəzanı - Şamaxı (keçmis Şirvan əyaləti), Şusa (Qarabağ əyaləti), Nuxa (Şəki əyaləti), Lənkəran (Talış əyaləti), Bakı (Bakı əyaləti), Dərbənd (Dərbənd, Tabasaran və Qaraqaytaq əyalətləri) və Quba (Samur dairəsi ilə birlikdə Quba əyaləti) qəzalarını özündə birləşdirən Xəzər vilayətinin tərkibinə daxil oldu. Xalqları çar müstəmləkəçiləri ilə silahlı mübarizəyə qalxmış Dağıstanla həmsərhəd olan sonuncu iki qəza xüsusi Dərbənd hərbi dairəsinə daxil edildi.

İslahat hərbi-komendant idarələrinin ləğvinə və onların ölkənin daxili quberniyalarındakı idarələrə müvafiq yeni idarələrlə əvəz olunmasına gətirib çıxardı. Quberniya idarələrinə «ali hakimiyyət»in nümayəndəsi olan qubernator, Xəzər vilayəti idarələrinə isə vilayət rəisi başçılıq edirdi. Həm qubernator, həm də vilayət rəisi çarın fərmanı ilə təyin edilir və bilavasitə Qafqazın baş rəisinə tabe olurdular.

Quberniya və vilayət orqanları sisteminə quberniya (vilayət) idarəsi, xəzinə və dövlət əmlakı palataları, zemstvo mükəlləfiyyətləri komitəsi və s. daxil idi. Gürcüstan-İmeretiya quberniyasından fərqli olaraq, Xəzər vilayətində xeyriyyə işlərinə rəhbərlik edən zadəgan deputatlar məclisi, təbabət idarəsi və bəzi digər idarələr yaradılmamışdı. Guya ki, bu fərqlər «Zaqafqaziyanın bu və ya digər hissəsinin rus vətəndaşlıq hüququnu qəbul etməyə hazırlığının qeyri-bərabərliyi üzündən yerli xüsusiyyətlərə qayğı xatirinə» qoyulmuşdu. Əslində isə bu, müsəlman əhalisi ilə məskünlaşmış milli ucqarlara münasibətdə çar hökumətinin müstəmləkəçilik siyasətinin daha bir təzahürü idi.

Qəza idarəsinə qəza rəisi başçılıq edirdi. O, qəzada qayda-qanuna riayət olunmasına, şəhər və zemstvo polisinin vəzifələrinə daxil olan hər işə cavabdeh idi. Qəza rəisinin köməkçisi, qəza xəzinəsi, nahiyə iclasçıları və şəhər polisi ona tabe idi.

«Qayda-qanun»un bilavasitə keşikçisi, hakimiyyət orqanları və məhkəmənin bütün sərəncamlarının icraçısı nahiyə iclasçısı idi. O, vergilərin əhali tərəfindən vaxtında ödənilməsini və bütün digər mükəlləfiyyətlərin yerinə yetirilməsini təmin etməli idi.

1840-cı il 10 aprel qanunu Cənubi Qafqazın məhkəmə sistemində mühüm dəyişikliklər etdi. Qəza məhkəməsi hakimlərdən, çar hakimiyyət orqanları və vergi verən təbəqələrdən olan iclasçılardan ibarət idi. Qəzanın polis və məhkəmə orqanlarında işlərin aparılması üzərində nəzarəti quberniya və vilayət prokurorlarının təqdimatı üzrə diyarın baş rəisi tərəfindən təyin edilmiş qəza prokurorları həyata keçirirdi.

Məhkəmə islahatı həm də bunda ifadə olundu ki, artıq cinayət işlərinə hərbi məhkəmələrdə yox, ümummülki məhkəmələrdə baxılırdı. Lakin bu islahatın əsas ideyalarından biri – məhkəmənin idarəçilik işindən ayrılması həyata keçmədi və məhkəmə səlahiyyətlərinin bir hissəsi nahiyədən tutmuş diyaradək Qafqaz hakimiyyət orqanlarının əlində qalmaqda idi. Məsələn, qəza rəislərinə əmlak mübahisələrini və iddialarını, habelə 100 manat məbləğinədək bəzi cinayət işlərini həll etməyə icazə verilirdi.

Məhkəmə işləri mərhələlərin çoxluğu ilə səciyyələnirdi. Nahiyə iclasçısı formal istintaq aparır və materialları qəza rəisinə, sonuncu isə qəza məhkəməsinə təqdim edirdi. Qəza məhkəməsinin hökmü və ya qərarı isə baxılmaq üçün qəza prokurorluğuna təqdim olunurdu. İş qəza prokurorunun qərarı ilə birlikdə quberniya və ya vilayətin cinayət və mülki məhkəmə palatasına daxil olurdu. Sonuncunun qərarı quberniya və ya vilayət prokuroruna otürülür, o isə öz göstərişləri ilə birlikdə məhkəmə palatasına qaytarır, palata prokurorun qeydlərini nəzərdən keçirir və hökmdə düzəlişlər aparırdı. Bundan sonra bütün iş qubernatora (və ya vilayət rəisinə) göndərilirdi. O, altı həftə ərzində ya hökmü təsdiq edir, ya da onu öz qeydləri ilə birlikdə geriyə – palataya qaytarırdı.

Mülki işlərə ümumimperiya qanunlarına əsasən baxılırdı. Mülki məhkəmə prosesində əhalinin yoxsul təbəqələrinin müraciətini çətinləşdirən və onların narazılığını doğuran xeyli lüzumsuz formalizm nəzərdə tutulurdu.

Jandarmeriya (Rusiyanın siyasi polisi) – Dərbənd şəhərində 1837-ci il oktyabrın 7-də xüsusi vəziyyətlə əlaqədar olaraq təsis edilmişdir. Bu vaxtadək şəhərin bütün müdafiə funksiyalarını komendant icra edirdi. Dərbənd jandarmeriyasının ilk rəisi jandarm korpusunun zabiti mayor Suntsev təyin edilmişdi. Jandarmeriya üçün vağzalın yanındakı bağçada birmərtəbəli bina inşa edilmişdi (hazırda yaşayış binasıdır). Jan-

darmeriya şəhərdə 1917-ci ilə kimi mövcud olmuşdur.

Dərbənd və inzibati idarədə dəyişikliklər (1860-1870-ci illər). Çarizmin Azərbaycanda və digər milli ucqarlarda yeritdiyi siyasət onlarda dövlətçiliyin cüzi inkişafına belə imkan vermirdi. Qafqazda ali hakimiyyət çar canişininə məxsus idi.

60-70-ci illər Cənubi Qafqaz diyarının idarə olunmasında canişinin rolunun daha da yüksəlməsi ilə xarakterizə olunur. II Aleksandrın 1856-cı ildə bu vəzifəyə təyin edilmiş uşaqlıq dostu general-feldmarşal A.İ.Baryatinski diyarın inzibati idarə edilməsində, canişinin keçirdiyi islahatların qeydiyyatçısına çevrilmiş imperator nəzdindəki Qafqaz komitəsinin «nəzərinə çatdırmaqla» istənilən dəyişiklikləri müstəqil olaraq həyata kecirmək hüququ aldı.

Canişin aparatı çiddi yenidənqurmaya məruz qaldı. 1859-cu il yanvarın 1-dən qüvvəyə minmiş «Baş idarə və Qafqaz canişini Şurası haqqında Əsasnamə»yə uyğun olaraq, canişin dəftərxanası və dövlət əmlakı ekspedisiyasının əvəzinə, Cənubi Qafqazda əslində imperiyanın daxili işlər, ədliyyə, maliyyə, dövlət əmlakı nazirliklərinin və digər mərkəzi orqanlarının rolunu yerinə yetirən bir sıra departamentlər, xüsusi idarələr (ümumi işlər, məhkəmə, maliyyə, dövlət əmlak departamentləri, kənd təsərrüfatı və mühacirlərin koloniyalarının xüsusi idarəsi) meydana cıxdı. Baş idarə şurası Canişin şurasına çevrildi.

Qafqazın inzibati idarəsinin yenidən qurulması əvvəlcə üç il, sonra isə yeddi il üçün nəzərdə tutulmuş təcrübə formasında həyata keçirilirdi.

1862-ci ildə Baryatinskini canişin vəzifəsində əvəz edən boyük Mixail Nikolayev (1862-1882) işə başlayan kimi öz sələfi tərəfindən Qafqazda yaradılmış çar inzibati aparatını ciddi şəkildə dəyişdirməyə başladı. Yeni canişin 1865-ci ilin əvvəlində diyar, quberniya və qəzalardakı idarələrin bütün əsasnamə və ştatlarına yenidən baxmaq ücün Xüsusi Komitə yaratdı. Komitə tərəfindən hazırlanmış layihə II Aleksandrın 1867-ci il 9 dekabr tarixli Qafqaz və Cənubi Qafqaz diyarının idarəsinin dəyişdirilməsi haqqında fərmanı ilə təsdiq edildi.

«Əsasnamə» baş idarə rəisinə tabe edilməklə ümumi, maliyyə və məhkəmə işləri departamentlərini bir departamentdə birləşdirməyi nəzərdə tuturdu. Baş idarə rəisi canişin şurasından və daha geniş hüquqları olan Baş idarə şurasına çevrilmiş şuraya da başçılıq edirdi.

1881-ci ildə II Aleksandrın öldürülməsindən sonra Rusiyada irtica qüvvətləndi. Qafqazın idarəsinin daha da mərkəzləşdirilməsi onun təzahürlərindən biri oldu. Qafqaz idarəçiliyinin hər hansı müstəqilliyi ilə daha barışmaq istəməyən çar hökuməti 1883-cü ilin aprelində canişinliyi ləğv edərək, Qafqaz diyarının idarəsini eyni zamanda dairə ordu komandanı olan Qafqazdakı mülki hissə üzrə baş rəisə tapşırdı. Qafqaz idarəçiliyinin əvvəlki müstəqilliyi ləğv edildi, nazirliklərin və idarələrin Qafqaza münasibətdə hakimiyyətləri tam bərpa edildi.

Fəhlə və kəndlilərin amansız istismara və zülmə qarşı getdikcə güclənən mübarizəsi şəraitində Azərbaycanın inzibati-ərazi quruluşunda edilən dəyişikliklər inzibati-polis nəzarətini gücləndirmək tələblərinə uyğunlaşdırıldı. 1859-cu ildə Şamaxıda baş verən, böyük dağıntılara gətirib çıxaran güclü zəlzələ ilə əlaqədar quberniya mərkəzi Bakıya köçürüldü. Şamaxı quberniyası Bakı quberniyası adlandırıldı.

Şəhər Özünüidarə orqanı – şəhər idarə sistemi olub, Rusiyada 1870-ci il şəhər islahatından sonra formalaşmışdı. Sərəncamverici orqan olan şəhər dumasından və onun seçdiyi şəhər idarəsindən ibarət idi. 1870-ci il şəhər islahatı Azərbaycanda ancaq 1878-ci ildə, özü də yalnız Bakıda tətbiq edildi. Çar III Aleksandrın 1892-ci il şəhər əsasnaməsi isə 1897-ci ildə Yelizavetpolda (Gəncə) həyata keçirildi. Lənkəran, Nuxa (Şəki), Quba, Şamaxı və digər qəza şəhərlərində sadələşdirilmiş ictimai idarələr yaradıldı. 1917-ci il Fevral inqilabından sonra yaradılmış Müvəqqəti hökumət dövründə yerli özünüidarə orqanlarının, o cümlədən şəhər özünüidarəsinin əhəmiyyəti artdı. 1917-ci il Oktyabr çevrilişindən sonra vəziyyət dəyişdi. Bakıda hakimiyyəti ələ keçirmiş Bakı Soveti 1918-ci il aprelin 20-də şəhər dumasını ləğv etdi. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra şəhər özünüidarəsinin təşkilinə böyük əhəmiyyət verildi. Cümhuriyət hökuməti 1918-ci il iyulun 30-da şəhər özünüidarəsinin bərpası haqqında qərar qəbul etdi. Qərara əsasən, Azərbaycanda şəhər özünüidarəsinin bərpası üçün tədbirlər görülməsi daxili işlər nazirinə həvalə olundu. Şəhər özünüidarəsinin olmadığı qəza mərkəzlərində, Ağdaş, Salyan, Ağdam, Bərdə, Qazax və bu kimi şəhərlərdə kəndxuda ştatı yaradıldı. Bakıda, Gəncədə və digər şəhərlərdə özünüidarənin canlandırılması sahəsində qanunvericilik tədbirləri və praktiki işlər görüldü. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra şəhər özünü-

idarə sistemi ləğv olundu.

Kəndxuda (məhəllə nəzarətçisi) – kənd, məhəllə və s. inzibati ərazi vahidinin başçısı.

Şəhər ictimai idarəsi. 1895-ci ilin mayında qəbul edilmiş «Zaqafqaziya diyarının və Stavropol quberniyasının şəhərlərində, əvvəllər şəhər idarəçiliyi tətbiq olunmayan şəhərlərdə, şəhər əsasnaməsi» əsasında Dərbənd şəhərində ilk dəfə 1896-cı ildə Şəhər ictimai idarəsi tətbiq edilmişdir.



Şəhər ictimai idarəsi (1900-1903-cü illər)

Bu sənədə əsasən iki növ şəhər ictimai idarəçiliyi mövcud idi: tam – burada dövlət duması və şəhər idarəçiliyi seçilirdi; sadələşdirilmiş – burada şəhər müvəkkilolunmuşlarının iclası seçilirdi, ilk növbədə isə şəhərin başçısı və onun köməkçisi (müavini) seçilirdi. İdarəçilik forması şəhərin vəsaitindən, əhalinin məşğuliyyət növündən, istehsalın vəziyyətindən və s. asılı idi.

Dərbənd üçün sadələşdirilmiş idarəçilik forması tətbiq edilmişdi.

Şəhər müvəkkilolunmuşlarının seçkiləri dörd ildən bir seçicilərin xüsusi toplantısında keçirilməli idi. Seçicilərin siyahısı seçkilərə üç ay qalmış tərtib edilirdi və bu siyahıya 25 yaşından az olmayan, Rusiya vətəndaşlığı olan, şəhərdə 5 ildən az olmayaraq yaşayan və bir il ərzində 100 rubldan az olmayan gəlirli kişilər daxil edilirdi. Seçilən müvəkkilolunmuşların sayı (12-15 nəfərə qədər) Dağıstan vilayətinin hərbi qubernatorunun nəzərincə təyin edilirdi.

Şəhər iclasına namizədlərin qeydə alınması aşağıdakı kimi aparılırdı: seçici öz namizədliyini özü irəli sürürdü və ya namizəd beş seçici tərəfindən irəli sürülürdü. Səsvermə gizli, qutuya xüsusi şarların atılması yolu ilə aparılırdı.



Şəhər ictimai idarəsi (1904-1907-ci illər)

Qaydaya görə, seçilən müvəkkilolunmuşların xüsusi sayı (müsəlman əhalisi nəzərdə tutulurdu) müvəkkilolunmuşların ümumi sayının 20%-ni aşmamalı idi. Yəhudi əhalisi nümayəndələrindən müvəkkilolunmuşlar seçilmirdilər. Yəhudilərin siyahısından seçici senzi olan bir nəfər vilayət və şəhər işləri üzrə nümayəndə təyin edilirdi. Bu qayda açıq-aşkar əhalinin milli tərkibinə uyğun deyildi. Belə ki, rəsmi statistikaya əsasən şəhərdə daim yaşayan 13,6 min əhalidən 9,7 mini (71%) azərbaycanlılar, 2,2 min (16,1%) – yəhudilər, 1,1 min (8%) – ruslar və digərlərindən ibarətdi.

Şəhər müvəkkilolunmuşların ilk seçkisi 1895-ci il dekabrın 21-də şəhər klubunda oldu.

Dağıstan vilayətinin hərbi qubernatoru tərəfindən təyin olunmuş şəhər ictimai özünüidarənin say tərkibi – 15 nəfər müvəkkilolunmuşdan: 12 nəfər xristianlardan, 2 nəfər müsəlmanlardan və 1 nəfər yəhudilərdən ibarət idi.

Seçicilərin siyahısına 165 nəfər xristian (ruslar və ermənilər) və 726 nəfər müsəlman (azərbaycanlılar) daxil edilmişdi. Yəni gəlmə 165 nəfər xristian 15 nümayəndə seçirdi, yerli-köklü 726 nəfər müsəlman isə gəmi 2 nümayəndə seçə bilirdi.

23 nəfərin namizədliyi irəli sürülmüşdür (18 nəfər xristian və 5 nəfər müsəlman). Seçki üç gün davam etdi. Lakin seçicilər və seçilməmiş namizədlər şəhər işləri üzrə vilayət idarəsinə «Seçki haqqında qanun»ların ciddi pozulması şikayətilə müraciət etmişdilər ki, seçicilərin siyahısı düzgün tərtib edilməmiş, səsvermə düzgün aparılmamışdır və s.

Dağıstan vilayəti hərbi qubernatoru şikayətin haqlı olduğunu təsdiq etmiş və şəhərin tarixində ilk dəfə keçirilmiş seçkilərin nəticələri ləğv edilmişdir.

1896-cı il yanvarın 26-da həmin şəhər klubunda yeni seçkilər keçirildi.

Şəhər müvəkkilolunmuşları 1896-cı il fevralın 7-də keçirilən ilk iclasında Nikolay İvanoviç Novo-

maryevskini özlərinin sədri seçmişlər. 1896-cı il mart ayının 1-də keçirdikləri ikinci iclasda Vladimir İvanoviç Kozlyakovskini şəhər başçısı (rus, zadəgan nəslindən, Moskva universitetinin tibb fakültəsini bitirmişdir) və müvəkkilolunmuşların şəhər iclasının üzvü İvan Akimoviç Bünyatovu onun köməkçisi seçmişlər.

Sonralar müvəkkilolunmuşların tərkibində bəzi dəyişikliklər baş verdi. Belə ki, seçkidən bir az sonra, 1896-ci il iyulun 25-də seçilmişlərdən Pinxas Dadaşov vəfat etdi, 1896-cı il oktyabrın 2-də V.F.Beloyevski səhhətilə əlaqədar istefa ərizəsi verdi, 1896-ci il noyabrın 1-də X.Sadıqov ailə vəziyyətilə əlaqədar öz vəzifəsindən imtina etdi. 1897-ci il yanvarın 12-də şəhər müvəkkilolunmuşların iclasına namizəd olanlar – N.P.Neron və A.K.Mirzəbəyov, şəhər işləri üzrə vilayət idarəsi tərəfindən təyin olunmuş Şamoil Xanukayev boş yerləri tutdular.

V.İ.Kozlyakovski şəhər başçısı seçildikdən iki ay sonra yaşı və səhhəti ilə əlaqədər tutduğu vəzifədən imtina etdi. Şəhər başçısının vəzifəsini müvəqqəti olaraq onun köməkçisi İ.A.Bünyatov icra edirdi.

Şəhər müvəkkilolunmuşların birinci tərkibinin vaxtı tamam olduğu üçün 1900-cü il yanvarın 22-nə yeni seçkilər təyin olundu. Seçicilərin çoxsaylı şikayətlərini, azərbaycanlıların, xüsusilə müsəlman nümayəndələrinin müvəkkilolunmuşların şəhər iclasına seçilmə hüququnun tapdanmasını nəzərə alaraq, Dağıstan vilayətinin hərbi qubernatorunun xüsusi sərəncamı ilə qərara alındı ki, şəhər müvəkkilolunmuşların iclasına 7 nəfər deputat müsəlmanlardan seçilsin və yəhudi seçiciləri siyahısından bir nəfər yəhudi müvəkkilolunmuş təyin edilsin.

Şəhər müvəkkilolunmuşların iclasının sədri Sergey Andreyeviç Juçenko, şəhər başçısı Qasım bəy Minətulla bəy oğlu Heydərov, onun köməkçisi isə Vladimir Lüdviqoviç Lemmerman seçilmişlər.

Dağıstan vilayətinin hərbi qubernatoru il yarımdan sonra Dərbənddə şəhər başçısının ikinci köməkçisi vəzifəsinin də tətbiq edilməsinə icazə verdi. 1901-ci ilin oktyabrında bu vəzifəyə Həmid bəy Mirzə-Xudat bəy oğlu Vəkilov seçildi.

Şəhər müvəkkilolunmuşların iclasının bu tərkibində də dəyişikliklər baş verdi. Seçkidən iki ay sonra seçilmişlərdən R.Q.Mayılov və N.P.Neron «şəxsi münasibətlər və ev işləri ilə əlaqədar» tutduğu vəzifədən imtina etdilər. 1903-cü ilin avqustunda şəhər müvəkkilolunmuşlar iclasının sədri S.A.Juçenko vəfat etdi və onun yerinə Əhməd bəy Mirzəbəyov seçildi.

Şəhər müvəkkilolunmuşların iclasına üçüncü dəfə keçirilən seçki çox sərt və üzücü şəraitdə keçdi. Ciddi qanun pozuntularına yol verildiyi üçün səsvermənin nəticələri bir neçə dəfə ləğv olundu. 902 nəfər seçicinin iştirak etdiyi seçki 1904-cü il mayın 8-dən iyunun 26-a kimi davam etdi. Dağıstan vilayətinin hərbi qubernatoru bu dəfə də uzun sürən seçkini məcburiyyət qarşısında dayandırdı və sonuncu səsvermənin nəticələrini təsdiq etdi, hərçənd burada da ciddi qanun pozuntuları baş vermişdi: şəhər müvəkkilolunmuşların iclasının tərkibinə 7 nəfər xristian əvəzinə 8, 7 nəfər müsəlman əvəzinə 6 nəfər seçilmişdi.

Şəhər müvəkkilolunmuşların iclasına seçilmiş namizədlər aşağıdakılardır: Aleksandr Qriqoryeviç Abramov – rus, Sergey Davidoviç Qazalov – rus, Aleksandr Dmitriyeviç Dmitriyev – rus, Məmməd bəy Xıdırbəyov – azərbaycanlı, Molla Məcid Səfərəli oğlu – azərbaycanlı.

1904-cü ilin dekabr ayında vəfat etmiş Hacı Mirzə Abdullayevin əvəzinə onun vəzifəsini Məmməd bəy Xadırbəyov icra etməyə başladı. Şəhər başçısı vəzifəsinə yenidən Qasım bəy Heydərov, onun köməkçiləri isə – Həmid bəy Vəkilov və Sarkis Ter-Qazaryants seçilmişlər.

Şəhər müvəkkilolunmuşların iclasına növbəti seçkilər 1908, 1912 və 1916-ci illərdə keçirilmişdir. Bu seçkilər zamanı da qanun pozuntularına yol verilmişdir. Bu seçkilərin seçicilərinin siyahısında da həmin müvəkkillər olmuşlar.

1908-ci ildə yeni müddətə şəhər başçısı Qasım bəy Heydərov, onun köməkçisi isə Həmid bəy Vəkilov seçilmişlər. Qasım bəy Heydərov Rusiya sosial-demokrat partiyasına daxil olduğu üçün Qafqaz canişininin göstərişi ilə 1912-ci ildə seçilmiş müvəkkillərin siyahısından çıxarılmışdır. Şəhər başçısı İosif Nikolayeviç Xusesov, onun köməkçisi isə Həmid bəy Vəkilov seçilmişdir. 1916-ci ildə son seçkilər zamanı şəhər başçısı Həmid bəy Vəkilov seçilmişdir.

Qəza İdarə Sistemi – Azərbaycan Xalq Cümhuriyyəti dövründə yerli inzibati-ərazi vahidi, quberniyanın tərkib hissəsi.

Qəzalar inzibati-ərazi vahidləri kimi çar Rusiyası zamanı yaradılmışdı. Azərbaycanın şimalının Rusiya tərəfindən işğalından sonra ləğv olunan xanlıqların əvəzində əyalətlər yaradıldı. 1840-cı il 10 aprel tarixli fərman əsasında inzibati-məhkəmə islahatının gedişi zamanı əyalətlərin yerinə qəzalar yaradılmışdı. 1867-ci və 1873-ci illərdə qəzaların sayı artırılmışdı. Çar II Alek-

sandrın 1888-ci il fərmanı ilə Cənubi Qafqazda 37 qəza yaradılmışdı. Bu vəziyyət Rusiyada çarizmin süqutunadək davam etmişdi.

Azərbaycanda Xalq Cümhuriyyəti qurulduqdan sonra quberniya inzibati-ərazi bölgüsü saxlandığına görə, onun tərkib hissəsi kimi qəzalar da qalmaqda davam etdi. Cümhuriyyətin ərazisində müəyyən edilmiş 18 yerli inzibati-ərazi vahidindən ikisi (Zaqatala və Göyçə mahalları) istisna olmaqla, qalanları qəzalar idi. Azərbaycanda sovet hakimiyyəti illərində qəzalar yerli inzibati-ərazi vahidi kimi saxlanmış, yalnız 1929-cu ildə ləğv edilmişdir.

Quberniya və qəza komissarları – Şimali Azərbaycan və Dağıstanın sovet hakimiyyəti elan edilmiş ərazilərində Bakı Xalq Komissarları Sovetinin hakimiyyət icraçıları. Bakı quberniya komissarı Məşədi Əzizbəyov, Cavad və Lənkəran qəzalarının fövqəladə komissarı M.İsrafilbəyov, Bakı qəza komissarı B.Əfəndiyev, Quba qəza komissarı A.B.Yusifzadə, Dağıstanın fövqəladə komissarı V.Naneyşvili, Dərbənd qəza komissarı Q.Ağasiyev təyin edilmişlər. Onlar yerli şəraiti nəzərə almadan sovet hakimiyyətinin yeni işğalçı tədbirlərini həyata keçirməyə çalışırdılar. Bu da əhalinin narazılığına səbəb olurdu. Bakı XKS-nin süqutu ilə (1918-ci il, 31 iyul) bu vəzifələr də ləğv olundu.

Müsəlman Milli Komitələri – Rusiyada Fevral inqilabından (1917) sonra Azerbaycan şəhərlərində yaradılmış təşkilatlar. Tərkibinə milli burjuaziya və ziyalı nümayəndələrinin də daxil olduğu ən güclü təşkilat Bakı Müsəlman Milli Komitəsi idi. 1917-ci il martın 29-da *Bakı Müsəlman İctimai Təşkilatları Komitəsi* yaradıldı. Məmməd Həsən Hacınski onun sədri, Məmməd Əmin Rəsulzadə isə sədr müavini seçildilər. Milli hakimiyyətin rüşeymini təşkil edən müsəlman milli komitələri «Ümumi milli mənafeyi» qorumaq bayrağı altında çıxış edir, «Milli hüquq bərabərliyi», «milli zülmün aradan qaldırılması» şüarlarını irəli sürərək, mübarizəyə qalxmış Azərbaycan xalqının milli azadlıq hərəkatına rəhbərlik edirdilər. *Gəncə Müsəlman Milli Komitəsinə* Adil xan Ziyadxanov, Aslan bəy Səfikürdski, Nəsib bəy Yusifbəyli, Xəlil bəy Xasməmmədov, Həsən bəy Ağayev və b. başçılıq edirdilər. İrəvan Milli Komitəsinin üzvləri Mir Hidayət Seyidov, Bağır Rzayev, Nəriman bəy Nərimanbəyov və b. idi.

Bakı Müsəlman İctimai Təşkilatları Komitəsi 1917-ci il aprelin 15-20-də Bakıda keçirilən Qafqaz müsəlmanları qurultayı ərəfəsində Qafqaz müsəlmanlarına müraciət dərc etmişdi. Müvəqqəti İcraiyyə Komitəsinin qarşıya qoyduğu başlıca məqsədlərdən biri özünüidarə orqanlarında və gələcək müəssislər məclisində müsəlmanların proporsional şəkildə təmsil olunmasına nail olmaq idi. Qafqaz müsəlmanları qurultayında Cənubi Qafqaz üçün mərkəzi Bakı olmaqla Şimali Qafqaz, Dağıstan üçün isə mərkəzi Vladiqafqaz olmaqla Mərkəzi Komitələr yaratmaq qərara alındı.

Cənubi Qafqaz üçün Mərkəzi Komitənin təşkili Bakı müsəlman ictimai təşkilatları komitəsinə tapşırıldı. Komitənin Şuraya çevrilməsi ilə əlaqədar onun tərkibi təmsilçilik əsasında genişləndirildi. Şuranın rəhbər orqanları – Komitə və İcraiyyə bürosu oldu. 1917-ci il iyulun 12-də Ə.Topçubaşov Komitənin sədri, M.H.Hacınski və M.Ə.Rəsulzadə sədrin müavinləri, Mirhəsən Vəzirov katib seçildi. Bakı Müsəlman Milli Komitəsi Azərbaycan milli hərəkatının rəhbər orqanına çevrildi.

Milli Komitələr vətənpərvər qüvvələri öz ətrafında birləşdirir və yerlərdə hakimiyyəti ələ alırdılar. Bakı Müsəlman Milli Komitəsinin qarşısını isə bolşeviklərin başçılıq etdiyi Bakı Soveti kəsmişdi. Milli hərbi hissələrin yaradılması yerli milli komitələrin fəaliyyətində əsas yer tuturdu. İlk milli dəstələrdən biri «Vəhşi diviziya» adlanan «Qafqaz yerli diviziyası»na daxil olan «Tatar süvari alayı» idi. Çar ordusu dağıldıqdan sonra bu alay Azərbaycana qayıdaraq, milli silahlı qüvvələrin özəyini təşkil etdi. Silaha olan ehtiyacı ödəmək üçün Gəncə Milli Komitəsi dekabrın 17-də şəhərdəki keçmiş çar ordusunun 219-cu alayını, eləcə də Qafqaz cəbhəsindən Rusiyaya qayıdan bir neçə hərbi eşelonu tərksilah olmağa məcbur oldu. 1918-ci il yanvarın 7-də A.Ziyadxanov, A.Səfikürdski, N.Yusifbəyli, X.Xasməmmədov və başqalarının başçılıq etdiyi Gəncə Müsəlman Milli Komitəsi Şəmkir və Dəllər stansiyası yaxınlığında gürcülərin göndərdiyi zirehli qatarın köməyi ilə tərksilah əməliyyatı keçirərək, 15 min tüfəng, 70-ə yaxın pulemyot və 20 top əldə etdi.

1917-ci il noyabrın 9-12-də Bakıda Cənubi Qafqaz müsəlman milli komitələrinin konfransı keçirildi. Konfrans millətlərin öz müqəddəratını təyinetmə hüququnun dərhal reallaşması məqsədilə milli Müəssislər Məclisinin çağırılmasını qərara aldı. Sürətlə cərəyan edən siyasi proseslərin gedişində Azərbaycan Müəssislər Məclisini çağırmaq qeyri-mümkün olduğundan Cənubi Qafqaz Mərkəzi Müsəlman Komitəsi bu məsələnin həllini Zaqafqaziya seyminin müsəlman üzvlərinə həvalə etdi. 1918-ci il mayın 27-də seymin müsəlman

fraksiyası özünü Azərbaycan Müvəqqəti Milli Şurası adlandıraraq, mayın 28-də Azərbaycanın İstiqlal bəyannaməsini elan etdi. Beləliklə, Müsəlman Milli Komitələri başlıca məqsədlərinə nail oldular.

Mülki icra hakimiyyəti – Dərbənd şəhərində müvəqqəti hökümətin yerli idarə təşkilatıdır. Xalq və hərbi deputatlar Şurasının razılığı ilə 1917-ci il martın sonunda yaradılmışdır. Onun tərkibinə praktiki olaraq şəhərin bütün partiyaların və siyasi təşkilatlarının nümayəndələri (bolşeviklərdən, eləcə də xalq və hərbi deputatlar Şurasının bir neçə deputatlarından başqa) daxil oldular. Mülki icra komitəsinə hərbi qarnizonun rəisi podpolkovnik Malışevski (kadet) başçılıq edirdi.

Mülki icra komitəsi öz praktiki işində Dağıstan vilayətinin mülki icra komitəsinə tabe idi.

Dərbənd şəhər mülki icra komitəsi 1917-ci ilin Oktyabr çevrilişinə qədər mövcud olmuşdur.

Müsəlman Milli Komitəsinin Müvəqqəti İcraiyyə Komitəsi – Rusiyada Fevral inqilabından (1917) sonra baş verən proseslərdə müsəlmanların fəallığını təmin etmək, Azərbaycan milli qüvvələrini birləşdirmək məqsədilə təsis olunmuş qurumdur. Komitə Azərbaycan siyasi qüvvələrinin rəhbər orqanına çevrilmiş, Azərbaycan milli hərəkatında görkəmli rol oynamışdır. Komitə mürəkkəb tarixi şəraitdə Azərbaycan xalqının maraqlarını ifadə və müdafiə etmişdir. Müsəlman Milli Komitəsinin təbii varisi 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını elan edən *Azərbaycan Milli Şurası* oldu.

Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikası, Dağlı Respublikası – 1918-1919-cu illərdə Şimali Qafqazda - Dağıstan və Terek vilayətləri ərazisində fəaliyyət göstərmiş milli hökumət. Oktyabr çevrilişindən (1917) sonra bolşevikləri dəstəkləyən sovetlər, Terek kazaklarının rəhbərliyi və dağlı xalqların milli şuraları Şimali Qafqazda hakimiyyət uğrunda mübarizəyə başladılar. Bu qurumların nümayəndələri noyabrın 8-də Vladiqafqazda birgə iclas keçirdilər. İclasda Terek kazaklarının atamanı M.Karaulov və Şimali Qafqaz Dağlılar Mərkəzi Komitəsinin sədri Ə.Çermoyev, Terek vilayəti İcraiyyə Komitəsinin sədri P.Kotsev və vilayət soveti rəhbərliyi bölgədə idarəçiliyi təmin etmək üçün ayrı-ayrı sahələr üzrə komissarlıqlar yaratdılar. Oktyabrın sonunda Petroqrad çevrilişi Dağıstanda da pisləndi və Terek dağlıları ilə birlikdə Terek-Dağıstan hökuməti yaradılması fikri irəli sürüldü. Dekabrın 2-də Şimali Qafqaz Dağlı İttifaqının yaradılması haqqında bəyannamə qəbul edildi. Rəşid xan Qaplanovun başçılığı ilə müvəqqəti hökumət təşkil olundu. General Talışxanov hərbi komissar, M.Karaulov ədliyyə və maliyyə komissarı, «Vəhşi diviziya»-nın komandanı general Polevtsev Terek-Dağıstan hərbi hissələrinin komandanı təyin olundular. Lakin bolşevik təbliğatı və Qafqaz cəbhəsindən qayıdan rus əsgərlərinin yerli əhaliyə qarşı zorakılıqları milli toqquşmalara səbəb oldu. Dekabrın 13-də bolşevik təsiri altında olan rus əsgərləri M.Karaulovu qətlə yetirdilər. Bu, rus-kazak hərbçilərinin bölgədə dağlılara qarşı qətl və qarətlərinin geniş miqyas almasına gətirib çıxardı. Qroznıda, Vladiqafqazda rus əsgəri qüvvəsinə arxalanan sovetlər 1918-ci ilin əvvəlində hakimiyyəti ələ keçirdilər. Martın 17-də Pyatiqorskda Terek Xalq Komissarları Soveti təşkil edildi. Şimali Qafqazda bolşevik hakimiyyəti qurulmasına başlandı.

Dağıstanda isə Nəcməddin bəy *Qotsinskinin və Şeyx Uzun Hacının* başçılıq etdiyi islamçı qüvvələr fəallaşdılar. Petrovsk bolşeviklərdən təmizləndi. N.Qotsinski Dağıstan və bütün Şimali Qafqaz müsəlmanlarının imamı kimi öz hakimiyyətini elan etdi, aprelin əvvəlində isə Bakıda müsəlman əhaliyə qarşı erməni-bolşevik soyqırımının qarşısını almaq üçün hərbi yürüşə başladı. Dağıstan süvari alaylarının da iştirak etdiyi bu yürüş zamanı erməni-bolşevik qüvvələri Xaçmaz yaxınlığında məğlubiyyətə uğradıldı. Lakin N.Qotsinskinin başçılıq etdiyi Dağıstan könüllüləri Bakı Sovetinin yaratdığı Biləcəri-Xırdalan müdafiə xəttini yarmağa hazırlaşdığı zaman Həştərxandan dəniz yolu ilə bolşeviklərin Petrovska hərbi qüvvə yeritməsini eşidib Dağıstana dönməyə məcbur oldular.

Terek-Dağıstan hökuməti isə iflic vəziyyətə düşdü və dağlı milli qüvvələrinin liderləri Zaqafqaziya seymi ilə birləşmək, bütün Qafqazın təmsil olunduğu hakimiyyət yaradılmasına nail olmaq məqsədilə Tiflisə toplaşdılar. Seymdə azərbaycanlı nümayəndələr tərəfindən müdafiə olunan bu təşəbbüs onun gürcü-erməni çoxluğu tərəfindən rədd edildi. Lakin azərbaycanlı ictimai xadimlərin təkidi ilə Trabzona sülh konfrasına göndərilən nümayəndə heyətinin tərkibinə dağlı nümayəndələri də daxil edildi. Trabzonda dağlı nümayəndələri Şimali Qafqazla Cənubi Qafqazın vahid dövlətdə birləşməsini təklif etdilər. Lakin gürcü və erməni nümayəndələri, eləcə də alman komandanlığının təmsilçisi Qafqazda müstəqil dövlət yaradılması zamanı bölgədə müsəlman-türk təsirinin güclənməsindən ehtiyatlanaraq buna razılıq vermədilər.

Trabzonda uğur qazana bilməyən dağlı nümayəndələri İstanbula gedərək Osmanlı hökuməti ilə birbaşa təmasa girdilər. Batum sülh konfransı ərəfəsində hərbi nazir Ənvər Paşa ilə görüşüb ondan yardım istədilər. 1918-ci il mayın 11-də isə dağlı nümayəndə heyəti Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikasının (Dağlı Respublikası) yaradılması haqqında İstiqlal bəyannaməsi qəbul etdi. Osmanlı dövlətinə və onun müttəfiqlərinə bu haqda rəsmi nota verildi. Əbdülməcid Çermoyevin dövlətinin rəhbərliyi tərəfindən bu bəyənat məmnunluqla qarşılandı. Alman nümayəndə heyəti isə bu qurumun bütün Şimali Qafqazı əhatə etməsinə qarşı çıxdı və Kuban vilayətindəki kazaklara qarşı münasibətləri daha önəmli saydığını nümayiş etdirdi. Mayın 24-də Ə.Çermoyevin başçılıq etdiyi Dağlı Respublikası hökuməti Gəncəyə köçdü. Dağlı Respublikası nümayəndə heyəti 1918-ci il iyunun 8-də Batumda Osmanlı dövləti ilə dostluq və əməkdaşlıq müqaviləsi imzaladı. Bu müqaviləyə əsasən, Osmanlı dövləti Dağlı Respublikasına hərbi yardım etməyi və onu xarici təhlükələrdən müdafiə etməyi öhdəsinə götürdü.

Daha sonra Dağlı hökumətinin üzvləri P.Kotsev və V.G.Cabagiyev Osmanlı dövlətinin hərbi yardımı məsələsinin detallarını aydınlaşdırmaq üçün Tiflisdə Yusif İzzət paşa ilə danışıqlar apardılar. Dağlı hökuməti başçısı Ə.Çermoyevin xahişilə İsmayıl Haqqı bəyin başçılığı altında Dağıstana hərbi dəstə göndərdi. 74 zabit və 377 əsgərdən ibarət olan bu hərbi qüvvə Dağıstanın dağlıq bölgəsində bolşeviklərə qarşı mübarizə aparan Nuh bəy Tarkovskinin və polkovnik Gəfərovun başçılıq etdikləri könüllü dəstələrə yardım göstərdi. İyunun 21-də Qunib aulunda qərargah yaratmış əslən çərkəz olan İsmayıl Haqqı bəy bütün Şimali Qafqaz müsəlmanlarına müraciət edərək, onları birləşməyə və bolşeviklərə qarşı qəti mübarizəyə çağırdı. 1918-ci ilin yayında Bakı yaxınlığında Osmanlı-Azərbaycan hərbi qüvvələrinin zərbələrindən Şimala qaçan L.Biçeraxovun rus kazak dəstəsi Dərbəndi və Petrovsk-Portu ələ keçirərək burada Rusiya hakimiyyətini bərpa etdi. Belə vəziyyətdə N.Tarkovski dağlı alayları ilə Xunzaxa, oradan da Temirxan Şuraya yürüş edərək bütün bölgənin kazaklar tərəfindən işğalının qarşısını aldı. Sentyabrın sonunda Osmanlı və Azərbaycan hərbi qüvvələri Dağlı Respublikasına yardıma gəldilər. Yusif İzzət Paşanın komandanlıq etdiyi ordu hissələri oktyabrın 6-da Dərbəndi, noyabrın 7-də Petrovsk-Portu Biçeraxovun rus-kazak-erməni qüvvələrindən azad etdi.

Oktyabrın 13-də Dağlı Respublikası hökuməti Ə.Çermoyevin başçılığı ilə Dərbəndə, oktyabrın 24-də isə Temirxan Şuraya köçdü. Azərbaycan Hökuməti onun normal fəaliyyətə başlaması üçün oktyabrın 8-də 1 milyon rubl faizsiz kredit ayırdı. Daha sonra əlavə maliyyə yardımı, yanacaq və silah-sursat yardımları göstərildi. Noyabrın ortalarında Dağlı Respublikası hökuməti Antanta nümayəndələrinin tələbi ilə Biçeraxovla barışıq imzaladı. Osmanlı hərbi qüvvələri bölgədən çıxarıldı.

1918-ci il noyabrın 12-də Temirxan Şurada Dağıstan, çeçen və inquş nümayəndələrinin böyük toplantısı çağırıldı. Toplantıda Dağlı Respublikası hökumətinə tam etimad nümayiş etdirdilər. Noyabrın 24-də Dağlı Respublikası hökumətinin rəsmi orqanı olan «Şimali Qafqaz» qəzetinin ilk nömrəsində hökumətin «Dağlılara, kəndlilərə, kazaklara, fəhlələrə, ziyalılara!» müraciəti dərc edildi. Burada hökumətin Dağıstan və Çeçenistanda vəziyyətə nəzarət etdiyi, bolşevik qüvvələrinə qarşı qəti mübarizə aparıldığı bildirilir, Şimali Qafqazın bütün xalqlarının, o cümlədən rusların hüquqlarının qorunmasına təminat verilirdi. 1918-ci il noyabrın 28-də Bakıda Azərbaycan Xalq Cümhuriyyəti ilə Dağlı Respublikası arasında müqavilə bağlanması, Azərbaycan tərəfinin Dağlı hökumətinə 10 milyon rubl həcmində maliyyə yardımı göstərməsi Dağlı Respublikasının öz mövqeyini möhkəmləndirməsi üçün böyük əhəmiyyətə malik idi.

Dağlı Respublikası hökuməti Qafqazdakı ingilis qüvvələrinin komandanı U.Tomsonun təklifi ilə dağlı-kazak münasibətlərini normallaşdırmaq üçün əməli addımlar atdı. Dekabrın 10-da Bakıda Dağlı hökumətinin nümayəndəsi Şimali Qafqazın rus, kazak əhalisinin təmsilçiləri ilə müqavilə imzaladı. Bu sənədlə rus əhalisinə ali dövlət idarəçiliyində iştirak hüququ verildi, kazak hərbi dəstələrinin 40 minlik dağlı ordusunun tərkibinə daxil edilməsi qərara alındı. Bu razılaşmaya əsasən, dekabrın 15-də Ə.Çermoyevin başçılıq etdiyi hökumət istefa verdi. Dekabrın 19-da P.Kotsevin başçılığı ilə yeni koalision hökumət təşkil edildi. İki nazir postu kazaklara ayrıldı. Lakin ingilislərin himayəsində olan L.Biçeraxovun pozuculuq fəaliyyəti üzündən kazaklar Dağlı hökuməti ilə əməkdaşlıqdan imtina etdilər. Dekabrın 31-də isə Tomson bildirdi ki, Dağlı Respublikasının səlahiyyəti Rostov-Petrovsk dəmir yolu xəttinə kimidir, ondan cənubdakı Dağıstan ərazisi L.Biçeraxovun fəaliyyət dairəsi

olaraq, Petrovsk-Bakı dəmir yolu, Petrovsk və Dərbənd limanları müttəfiqlərin nəzarəti altında qalacaqdır. İnqilis komandanlığı bu addımı ilə Şimali Qafqaz xalqlarının birliyinə və bolşevik təcavüzünə qarşı mübarizəsi işinə ciddi zərbə vurdu. Şimali Qafqazda «vahid və bölünməz Rusiya» uğrunda çıxış edən general Denikinin Dağlı Respublikasına qarşı təcavüzünə şərait yarandı.

Şimali Qafqaz dağlı xalqları nümayəndələrinin 1919-cu il yanvarın 15-də Temirxan Şurada keçirilən yığıncağında parlament yaradılması qərara alındı. Yanvarın 20-də Dağlı məclisi adlı nümayəndəli orqan yaradıldı. Dağlı xalqlarının milli azadlıq mübarizəsinin fəal iştirakçısı, qumıq ictimai xadimi Zübeyir Temirxanov Dağlı məclisinin – parlamentin sədri seçildi.

1919-cu ilin əvvəlində Denikin ordusu Terek vilayətinə soxuldu, inquşların müqavimətini, çətinliklə də olsa, qırıb Vladiqafqazı ələ keçirdi. Dağlı hökumətinmin ingilis komandanlığı və Deikinlə danışıqları nəticəsiz qaldı. Denikin Dağlı Respublikasını tanımaqdan boyun qaçırdı və könüllü ordunun generalı Lyaxovu Terek-Dağıstan diyarının hakimi təyin etdi. Martın 5-də Denikin ordusu Çeçenistana soxuldu. Azərbaycan Hökuməti Dağlı Respublikasına qarşı təcavüzün dayandırılması üçün bütün imkanlara əl atdı. Dağlı hökumətinə yeni maliyyə yardımı göstərdi, könüllü hərbi dəstələr və sanitar briqadaları təşkil edilməyə başlandı, Bakıdakı ingilis missiyasından təsirli tədbirlər görməsi istənildi və s. Azərbaycan Hökumətinin diplomatik fəaliyyəti nəticəsində Gürcüstan hökuməti də martın 7-də Denikinin Dağlı Respublikası ərazisinə hücumuna etirazını bildirdi və Dağlı hökumətinə yardım göstərəcəyini elan etdi. Dağlı Respublikası üçün çox ağır bir vaxtda – martın 28-də Azərbaycanın diplomatik nümayəndəliyi Temirxan Şurada fəaliyyətə başladı.

Aprelin əvvəlində Denikin ordusunun Çeçenistanın çox hissəsini işğal etməsi Dağlı Respublikasında hökumət böhranı yaratdı. P.Kotsevin və hərbi nazir N.Tarkovskinin passivliyini tənqid edən hökumət üzvləri R.Qaplanov, V.G.Cabagiyev və N.Şahsuvarov istefa verərək yeni hökumət qurulmasını istədilər. Aprelin 11-də parlamentin iclasında P.Kotsev istefa verdiyini elan etdi. Parlament hökumətin təşkilini yenidən P.Kotsevə tapşırdı. Dağlı hökumətinin əhali arasında böyük nüfuza malik din xadimləri Şeyx Uzun Hacı və Şeyx Əli Hacıya müraciətlə bütün dağlı qüvvələrini səfərbər etmək cəhdi gözlənilən səmərəni vermədi. Dağıstanın isə Dağlı Respublikasından çıxıb Azərbaycanla birləşmək uğrunda hərəkatı geniş vüsət aldı (bax *Azərbaycan-Dağıstan ittifaqı*).

Mayın 12-də P.Kotsevin başçılıq etdiyi Dağlı hökuməti istefa verdi. Dağlı parlamenti yeni hökumətin təşkilini general M.Xəlilova tapşırdı. Lakin Denikin nümayəndəsi ilə danışığa girən general Xəlilov Dağlı Respublikası hökumətinin buraxıldığını bildirdi və ayrıca Dağıstan hökuməti yaradılması haqqında qərar verdi (bax *Dağıstan hökuməti*).

Mayın sonunda Dağıstan hökuməti Denikin ordusunu müqavimət göstərmədən ölkəyə buraxdı. Beləliklə, bütün Şimali Qafqaz Denikin ordusunun nəzarətinə keçdi. Şimali Qafqaz xalqlarının istiqlal mübarizəsi növbəti dəfə məğlubiyyətə uğradı. Şimaldan gələn təhlükə Azərbaycan Xalq Cümhuriyyətinin sərhədlərinə yaxınlaşdı.

Dərbənd rayonu Xalq Təsərrüfatı Soveti – Dağıstanda sovet hakimiyyəti tərəfindən 1920-ci ilin may ayında yaradılmışdır. Bununla bərabər vilayəti idarə etmək məqsədi ilə Dərbənddə Dərbənd Rayon Xalq Təsərrüfatı Soveti yaradılmışdır. Lakin 1921-ci ildə vilayət aparatını idarə etmək çətin olduğu üçün Dərbənd Rayonu Xalq Təsərrüfatı Soveti ləğv olunmuş və Dağıstan iqtisadiyyatının idarə edilməsi bütövlüklə yeni yaradılmış Dağıstan Mərkəzi Xalq Təsərrüfatı Sovetinə həvalə olunmuşdur.

Şəhər müdafiə komitəsi. SSRİ Dövlət Müdəfiə Şurasının qərarı ilə (Böyük Vətən müharibəsi illərində ölkədə bütün hakimiyyəti özündə cəmləşdirən fövqəladə ali təşkilat) 1942-ci ilin 15 sentyabrından Dərbənd cəbhəyanı zona elan edilir və Dərbənd şəhər müdafiə komitəsi yaradılır. Bu komitə şəhərin hərbi və mülki hakimiyyətini bütövlükdə öz əlində cəmləşdirir.

Dərbənd şəhər müdafiə komitəsinin tərkibinə daxıl oldular:

– Ostremski R.M. – ÜRK(b)P Şəhər komitəsinin birinci katibi – sədr;

– Melixov N.M. – şəhər icra komitəsinin sədri – sədr müavini;

– Derbin İ.K. XDİK şəhər şöbəsinin rəisi – komitə üzvü;

– Krılov, polkovnik, qarnizon rəisi – komitə üzvü.

Oktyabrın əvvəlində Mahaçqala ÜRK(b)P Şəhər komitəsinə keçirilən Ostremskini Dərbənd ÜRK(b) P Şəhər komitəsinin yeni təyin olunmuş birinci katibi A.A.Əliyev əvəz etdi. Şəhər müdafiə komitəsinin fəaliyyəti bütün Cənubi Dağıstana da təsir edirdi.

TANINMIŞ İNSANLAR VƏ DƏRBƏND

Abbas Bayat – XVI əsrin məşhur şairi, Dərbənd şəhərində anadan olmuş və orada yaşamışdır. Adda olan «bayat» sözü onun bayat türk qəbiləsinə aid olduğunu göstərir. Abbas Bayatın əsərləri yalnız onun vətənində tanınmamış, vətənin hüdudlarından da uzaqda – Azərbaycanın digər bölgələrində, İranda da məşhurdur. Şairin iki əlyazma şeirlər toplusu məlumdur. Onlardan biri tanınmış Dağıstan alimi və maarifçisi olmuş Həsən Əlqədərin şəxsi arxivindən tapılmışdır.

Abbas Bayatın yaradıcılığının tədqiqatını məşhur Azərbaycan filoloqu, professor M.Seyidov aparmışdır. Onun əsərləri indi də müxtəlif şeir toplularına daxil edilir: Dağıstanın nemətləri. Bakı, 1987.

Abbasov Adil Seyfulla oğlu – 1933-cü il sentyabrın



5-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Əslən dərbəndlidir. 1941-ci ildə Bakı şəhəri 1 saylı məktəbə getmiş, 1951-ci ildə həmin məktəbi bitirmiş və Azərbaycan Ali Hərbi məktəbinə (AAHM) daxil olmuşdur. AAHM-i bitirdikdən sonra Azərbaycan Dövlət İdman və Bədən Tərbiyəsi İnstitutuna daxil olmuş və həmin institutu bitirdikdən sonra Bakı şəhər idman komitəsində 49 il təlimatçı-metodist, sektor müdiri, şöbə rəisi, komitənin baş məsləhətçisi işləmişdir.

O, «Əməkdar idman xadimi», «Azərbaycanın əməkdar məşqçisi», respublika dərəcəli hakim, SSRİ və Azərbaycan Respublikasının Bədən tərbiyəçisi əlaçısıdır.

Abbasov A. SSRİ futbol federasiyasının fəxri döş nişanı ilə təltif olunmuşdur.

Abdinbəyov Süleyman Sadıx oğlu – iqtisadiyyat üzrə fəlsəfə doktoru, dosent, 1923-cü il dekabrın 17-də Quba şəhərində anadan olmuşdur. Əslən dərbəndlidir. 1941-ci ildə Bakı şəhəri 171 saylı məktəbi, 1946-cı ildə Moskva Ali Komsomol Məktəbini, 1958-ci ildə keçmiş Sovet İttifaqının KP Mərkəzi Komitəsi yanında Ali Partiya məktəbini bitirmişdir.

O, 1942-1952-ci illərdə Bakıda Oktyabr (indiki



Yasamal) rayonunda Komsomol Komitəsinin birinci katibi və Respublika komsomol komitəsində şöbə müdiri, 1952-1957-ci illərdə Azərbaycan KP MK-də inzibati ticarət-plan və maliyyə şöbəsinin müdir müavini, Azərbaycan Komsomol LKGİ-ın Gəncə vilayət komitəsinin birinci katibi işləmişdir. 1958-ci ildən Respublika kənd təsərrüfatı əməkçiləri və fəhlələri Həmkarlar Komitəsinin sədri və Azərbaycan Respublikası Həmkarlar Komitəsinin Mərkəzi Şurasının katibi seçilmiş, 1963-1974-cü illərdə «Azərittifaq»ın sədri, 1975-ci ildən Moskva Kooperativ İnstitutu Bakı Filialının direktoru işləmişdir.

Abdinbəyov S. dəfələrlə Azərbaycan Respublikası Ali Sovetinə deputat seçilmişdir.

O, «Qırmızı Əmək Bayrağı», «Şərəf nişanı» ordenləri və 6 medalla təltif olunmuşdur. 30-a qədər elmi məqaləsi çap olunmuşdur.

1996-cı il may ayının 5-də vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Abdinova Asya Bəhram qızı – 1930-cu ildə anadan olmuşdur. Əslən dərbəndlidir. O, Bakı Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini bitirmiş və həmin universitetin mexanika-riyaziyyat fakültəsində çalışırdı. A.Abdinova 1960-cı ildə riyaziyyat üzrə namizədlik dissertasiyasını müdafiə etmişdir. Onun adı «2002-ci ilin Azərbaycan Respublikasının tanınmış qadınları» kitabına daxil edilmişdir.

Abdinov Bəhram Övsət oğlu – 1896-cı ildə Dərbənd şəhərində anadan olub. Azərbaycanlıdır.



İbtidai təhsilini Dərbəndin qəza məktəbində almışdır. 1905-ci ildə Dərbənd realnı məktəbinə daxil olaraq, 1913-cü ildə təhsilini uğurla başa vurmuşdur. B.Abdinov 1915-ci ildə Moskvada Petrov-Razumovski adına Kənd Təsərrüfatı İnstitutuna daxil olmuş və 1917-ci ilə

qədər orada oxuyur. 1917-ci ildə Rusiyada baş verən məlum hadisələr onun təhsilini yarımçıq qoyur və o, Tabasarana gəlir, burada zemstvo aqronomunun yanında təlimatçı kimi fəaliyyətə başlayır. B.Abdinov 1919-cu ildə partizan dəstəsinin tərkibində Denikinə qarşı hərbi əməliyyatlarda iştirak edir. B.Abdinov 1919-cu ildə Bakıya gəlir və onun adı xaricə təhsil almağa göndərilən tələbələrin siyahısına daxil edilir. B.Abdinov Almaniya Universitetlərindən birində – Ştutqart şəhərində təhsilini davam etdirir. B.Abdinov o dövrdə Almaniyada həmyerlilər cəmiyyətinin rəhbəri olmuşdur. Lakin 1920-ci ildə Azərbaycanda məlum aprel hadisələri üzündən Avropaya təhsil almağa gedən digər azərbaycanlılar kimi B.Abdinovda vətənə qayıdır və 1922-ci ildə yenidən təhsilini başa vurmaq üçün Almaniyaya göndərilir. 1922-ci ildə Gettingen Universitetini, 1924-cü ildə isə Poppuldort Kənd Təsərrüfatı Akademiyasını müvəfəqqiyyətlə bitirərək Vətənə qayıdır. Almaniyada oxuyan zaman o A.Eynşteynin tələbəsi olmaq şərəfinə nail olmuşdur.

B.Abdinov 1926-cı ildə Naxçıvan MSSR-də Xalq Torpaq Komissarının müavini, sonra isə sədri olur. O, 1926-1929-cu illərdə Naxçıvan MSSR MİK-nə üzv seçilir.

B.Abdinov 1929-cu ildə Azərbaycan Xalq Torpaq Komissarlığının Kənd Təsərrüfatı idarəsinin rəis müavini vəzifəsinə təyin edilir. B.Abdinov bu vaxtdan başlayaraq həm də Xalq Təsərrüfatı İnstitutunda və Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda pedaqoji fəaliyyətlə məşğul olur. O, 1931-ci ildə Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin üzvü seçilir.

B.Abdinov 1932-ci ildə Sosial Yenidənqurma İnstitutunda elmi işlər üzrə direktor müavini, sonra isə elm şöbəsinin müdiri təyin edilir. 1934-1939-cu illərdə subtropik bitkilərin və çayın respublikada inkişaf etdirilməsi ilə bağlı Azərbaycan SSR Xalq Torpaq Komissarlığının subtropik bitki şöbəsinin müdiri təyin edilib. 1939-1941-ci illərdə məktəblərdə pedaqoji fəaliyyətlə məşğul olub.

1941-1946-ci illərdə aqronom-inspektor vəzifəsində çalışıb, 1946-ci ildə Torpaq Nazirliyində Aqrotexnika və Mexanizasiya idarəsinin mudiri təyin edilib. Sonra isə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinə baş aqronom vəzifəsinə keçirilib. Nazirlikdə işləməklə bərabər o, Xalq Təsərrüfatı İnstitutunda, V.İ.Lenin adına APİ-də, Kənd Təsərrüfatı Texnikumunda pedaqoji fəaliyyətlə də məşğul olub. Bu muddətdə onun Azərbaycanda qarğıdalının artırılması, çay bitkisinin aqrotexnikası haqqında elmi əsərləri nəşr olunub. B.Abdinov Azərbaycanda həm də yaradıcılıq təşəbbüsü ilə çıxış edən, təsərrüfata yeniliklər gətirən bir alim kimi də tanınmışdır.

B.Abdinov Naxçıvan MSSR-də yeni sarı tütün növünün əkilib yerli şəraitə uyğunlaşdırılmasında təşəbbüs göstərmiş, nəticədə bu bölgədə pul gəliri artaraq, təkcə 1955-ci ildə tütündən 10540000 rubl əldə edilmişdir.

B.Abdinov eksperiment keçirərək, İrandan Azərbaycana «Balbas» cinsli qoyunların gətirilərək yerli heyvandarlıq şəraitinə uyğunlaşdırılmasında yaxından iştirak edir.

B.Abdinov respublikada quşçuluqda cinsləri yaxşılaşdırmaq məqsədilə Krımdan «Leqqorn» toyuq cinslərini Naxçıvan MSSR-ə gətirərək, burada Azərbaycanda ilk quşçuluq müəssisəsinin əsasını qoydu.

B.Abdinovun təcrübələri nəticəsində respublikamızda taxıl və yem bitkilərinin növlərinin yaxşılaşdırılmasında böyük uğurlar əldə edildi. O, həm də Tərtərdə seleksiya mərkəzinin və Lənkəranda subtropik bitkilərin yetişdirilməsi üçün təcrübə sahəsinin yaradıcısı da hesab edilir. İlk dəfə olaraq Azərbaycanda «feyxoa» bitkisi yetişdirilməyə başlandı.

Azərbaycanda kənd təsərrüfatının inkişafında xüsusi xidmətlərinə görə bir sıra dövlət mükafatlarına layiq görülmüşdür.

1969-cu il oktyabrın 5-də vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Abdinova Ədilə Bəhram qızı – elmlər namizədi, 1932-ci ildə Dərbənd şəhərində anadan olmuşdur.

O, 1954-cü ildə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsini bitirmişdir. Azərbaycan MEA Neft-Kimya Prosesləri İnstitutunda işləmişdir.

Ə.Abdinova 150 çox elmi əsərin və 20 patentinin müəllifidir. Onun adı «2002-ci ilin Azərbaycan Respublikasının tanınmış qadınları» kitabına daxil edilmişdir.

Abdinov Övsət Bəhram oğlu – 1944-cü il fevralın 23-də Balakən şəhərində anadan olub. Əslən dərbəndlidir. Azərbaycanlıdır.

1966-cı ildə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsini bitirib. 1972-ci ildə fizika-riyaziyyat



elmləri üzrə alimlik dərəcəsi almaq üçün namizədlik, 1986-cı ildə fizika-riyaziyyat elmləri doktoru dissertasiyalarını müdafiə etmişdir.

Abdinov Ö.B. namizədlik işini Dubna şəhərindəki Nüvə Tədqiqi Birləşmiş İnstitutunda yerinə yetirmişdir. 1973-cü ildən 1975-ci ilə qədər Azərbaycan Dövlət Universitetinin nəzəri fizika kafedrasında baş müəllim işləmişdir. 1975-ci ildən indiyə qədər Azərbaycan Milli Elmlər Akademiyasının Fizika institutunda yüksək enerji fizika laboratoriyasının rəhbəridir.

1993-cü ildən 2003-cü ilə qədər Nüvə Tədqiqi Birləşmiş İnstitutunda Baş elmi əməkdaş işləmişdir. Abdinovun rəhbərliyi altında Azərbaycan fizikləri Nüvə Tədqiqi Birləşmiş institutunun (Dubna şəhəri), İFVE (Serpuxov şəhəri), SERN (Cenevrə şəhəri, İsveçrə) sürətləndiricilərdə yerinə yetirilən elmi-tədqiqat işlərində iştirak etmişlər. Bu elmi mərkəzlərdə məktəb keçmiş onlarla mütəxəssis Azərbaycanın müxtəlif təşkilatlarında uğurla çalışırlar. Hazırda onun tərəfindən elementar hissəciklərin yeni nəslinin parçalanması və yenidən yaranmasının tədqiqi, planlaşdırılan nəhəng ATLAS (Cenevrə şəhəri, SERN) eksperimentində onların xüsusiyyətlərinin öyrənilməsi üzrə işlər aparır. Bu eksperimentdə 35 ölkədən 150-dən çox institut iştirak edir.

Abdinov Ö.B. müasir eksperimentlərin fiziki analiz ilə bağlı bir sıra layihələrin məsul icraçısı və fəal iştirakçısıdır. Abdinovun rəhbərliyi altında SSRİ-nin 2 Dövlət proqramı, 2 RFFİ Qrantı və 1 STCU Qrantı yerinə yetirilmişdir.

Abdinov Ö.B. bir sıra Beynəlxalq konfransların üzvü və sədri olub.

Abdinov Ö.B. böyük elmi-təşkilati və pedaqoji iş aparır. Fəaliyyətinin müxtəlif illərində Azərbaycan Dövlət Universitetində, Azərbaycan Dövlət Neft Akademiyasında dərs demişdir. Abdinov Ö.B. Nüvə Tədqiqi Birləşmiş İnstitutunun və Azərbaycan Milli Elmlər Akademiyası Fizika institutunun elmi şuralarının, namizədlik və doktorluq elmi dərəcələrinin verilməsi üzrə İxtisaslaşmış şuranın, AAK ekspert şurasının üzvüdür.

1993-cü ildən Nüvə Tədqiqi Birləşmiş İnstitutunda (NTBİ) Azərbaycan Respublikası Hökumətinin Səlahiyyətli Nümayəndəsinin müavinidir. ATLAS eksperimentində Azərbaycan üzrə koordinatordur.

Abdinov Ö.B. yüksək enerji sahəsində yüksəkixtisaslı və hərtərəfli inkişaf etmiş mütəxəssisdir. O, 200-dən çox elmi əsərin müəllifidir.

Abdullayeva Aida Həmdulla qızı – 1922-ci ildə Bakıda anadan olmuşdur. Azərbaycanlıdır. Əslən dərbəndlidir. Azərbaycan Dövlət Konservatoriyasını «Arfa» sinfi üzrə bitirmişdir. Hazırda Azərbaycan Musiqi Akademiyasında dərs deyir, professordur. Onun həyat yoldaşı Tokay Məmmədov məşhur heykəltaraşdır. Onların oğlu Cahangir jurnalist, qızı Leyla musiqiçidir.

Abdullayev Eldar Abusət oğlu – 1958-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

O, Bakıda Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu memarlıq ixtisası üzrə bitirmişdir. İnstitutu bitirdikdən sonra 1980-1981-ci illərdə Anapa şəhərində «Krasnodarmülkilayihə» İnstitutunda, 1981-1982-ci illərdə Mahaçqala şəhərində «Dağmülkilayihə» İnstitutunda işləmişdir. 1982-1983-cü illərdə sovet ordusu sıralarında xidmət etmişdir.

1984-1991-ci illərdə Oqni şəhərində «Dağıstan işıqları» şüşə zavodunda baş konstruktor şöbəsində memar, zavod komsomol komitəsinin katibi, zavod direktorunun müavini vəzifələrində işləmişdir.

1991-1994-cü illərdə Dərbənd rayon İcraiyyə komitəsində rayonun baş memarı və rayon icraiyyə komitəsi sədrinin müavini vəzifələrində çalışmışdır.

1994-cü ildən Dərbənd şəhər inzibati başçısının müavinidir.

Abdullayev Əsəd Hacıbala oğlu –1886-cı ildə Dərbənd şəhərində anadan olmuşdur. Abdullayev Həmdulla Hacıbala oğlunun nəslindəndir. O, Dərbənd realnı məktəbini, 1914-cü ildə isə Sankt-Peterburq Mülkü Mühəndislər İnstitutunun memarlıq fakültəsini bitirmişdir.

1937-ci ildə «xalq düşmənı» kimi həbs olunmuşdur. 2 ildən sonra azadlığa buraxılmış və Bakıya qayıdaraq öz ixtisası üzrə işini davam etmişdir. 1964-cü ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Abdullayev Həmdulla Hacı Fətulla oğlu – 1881-ci ildə Dərbənd şəhərində tacir ailəsində anadan olmuşdur. Azərbaycanlıdır.

Dərbənd realnı məktəbini bitirmişdir. Ali təhsili Almaniyada almışdır. 1910-cu ildə Qaytağın keçmiş hökmdarı Abdul-Cəlil Usmiyevin oğul nəvəsinin qızı Suvat xanımla evlənmişdir. Suvat xanım (ana tərəfdən) general B.Ərəblinskinin nəvəsi idi. Suvatın doğma xalası – general Ərəblinskinin qızı məşhur Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin həyat yoldaşı olmuşdur. O, H.Abdullayevin taleyində mühüm rol oynamışdır.

Şimali Xəzərin balıq sənayesini icarəyə götürüb və Petrovskda səhmdar cəmiyyət yaratmış, H.Z.Tağıyev bu cəmiyyətə rəhbərlik etməyi H.Abdullayevə təklif etmişdir.

Gənc və çalışqan Abdullayev təşkilatçılıq bacarıqlarına arxalanaraq tezliklə Dağıstanın nüfuzlu sahibkarları sırasına daxil olur və Qafqazda ən varlı adamlardan biri olur.

Bundan əlavə, o Dərbənd şəhərində ilk mehmanxana «Qrand-hotel» (hazırda bu bina 1 saylı uşaq poliklinikasıdır, Lenin küçəsi, 8), ictimai hamam (hazırda Puşkin küçəsi, 43, 1 saylı hamam və K.Marks döngəsində poçt və teleqraf binasıdır), Baryatinski küçəsində çoxlu memarlıq abidələri və yapma məmulatları ilə iki mərtəbəli şəxsi yaşayış evi tikdirir. Bu, şəhərdə xüsusilə dəvət olunmuş fransız memarı tərəfindən tikilmiş ən gözəl binalardan biri idi. Bu binanı «ağ ev» adlandırırdılar.

Sovet hakimiyyəti illərində bu evdə Cənubi Dağıstanın ÜFK (VÇK) yerləşmişdir. 1924-cü ildə bina yandı. Bir qədər sonra bu binanın yerində M. Lermontov adına 8 saylı orta məktəb binası tikilmişdir.

H.Abdullayev Petrovskda ikimərtəbəli yaşayış evi (hazırda Şəmsi Bədəlbəyli küçəsində Dağıstan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin binası), Bakıda isə Bondarnaya küçəsində (indi Dmitrov küç.,8) dördmərtəbəli yaşayış evi tikdirir. 1918-ci ildə Xəzərdə çox tanınmış balıq sənayeçisini yeni yaradılmış Azərbaycan Demokratik Respublikasının hökuməti işə dəvət edir və Abdullayev respublikanın ən mühüm strukturlarından biri olan – «Azbalıq»a rəhbərlik edir. 1920-ci ildə Dağıstanda sovet hakimiyyəti tam qurulduqdan sonra respublikanın xalq komissarları sovetinin sədri D.Korkmasov H.Abdullayevi respublikada balıq sənayesini yaratmaq üçün dəvət edir.

«Dağbalıqtrest»in idarəsinə rəhbərlik edən H.Abdullayev yeni idarənin struktur təşkili üzrə böyük iş aparır. Onun rəhbərliyi altında Azərbaycan sərhədlərindən başlayaraq Lopatin yarımadasına qədər dağıdılmış balıq sənayesi bərpa edilir.

20-ci illərin sonunda – repressiyaların nisbətən zəif dövründə Rusiyada məşhur mütəxəssis Ramzinin başçılığı ilə «Sənaye partiyası» adlı gizli təşkilat – «Mühəndislər ittifaqı birliyi» «ifşa» olundu. 1929-cu ildə H.Abdullayevə mövcud olmayan bu partiyaya «mənsub olduğu» haqqında ittiham irəli sürüldü və o həbs edildi. Lakin tezliklə sübut olmadığı üçün o, azad olundu, amma işə buraxılmadı. Abdullayevlər ailəsi yenidən Bakıya köçür. Burada «yeni aşkar olunmuş vəziyyətlərə görə» təkrarən həbs edilir, rusvayçılıqla Mahaçqalaya, oradan da Moskvaya göndərilir. Moskvada «Kommunist Partiyası tarixi»nə daxil olmuş «Sənaye partiyası»nın 48 fəal üzvü üzərində məhkəmə olmuşdur. Onların hamısı «xalq düşməni kimi» güllələnməyə məhkum olundular. H.Abdullayevin əmlakı müsadirə olunmuş, ailəsi isə – arvadı və üç azyaşlı qızı Qazaxıstana sürgün edilmişlər.

Dağıstan hökuməti tərəfindən əvvəlcədən Almaniyaya təhsil almağa göndərilmiş 15 və 13 yaşlarında iki oğlu isə taleyin hökmünə buraxılmışdır.

Abdullayeva Həyat Həmdulla qızı – 1912-ci ildə Dərbənd şəhərində balıq sənayeçisi Həmdulla Abdullayevin ailəsində anadan olmuşdur. Atasının həbsindən və güllələnməsindən sonra (1930) anası ilə birlikdə Qazaxıstana sürgün edilmişdir. 1942-ci ildə Repin adına Leninqrad rəssamlıq, heykəltaraşlıq və memarlıq institutuna daxil olmuşdur (Böyük Vətən müharibəsi illərində institut əvvəlcə Düşənbə şəhərinə, sonra isə Moskva yaxınlığında Zaqorsk şəhərinə köçürülmüş, mühasirə qurtardıqdan sonra yenidən Leninqrada qaytarılmışdır. Təhsilini başa vurduqdan sonra Bakıya qayıtmış və Bakı incəsənət məktəbində müəllim işləmişdir.

Həyat bir sıra bürünc heykəlin: M.Qorkinin Bakıda respublika kitabxanasında, məşhur Azərbaycan aktyoru Hüseynqulu Sarabskinin, XIX əsrin şairi Natəvanın Azərbaycan incəsənət muzeyində, ağacdan düzəldilmiş «Lənkəranlı qadın» fiqurunun (Azərbaycan incəsənət muzeyi), Böyük

Vətən müharibəsi cəbhələrində həlak olmuş əsgərlərin bürünc heykəllərinin (Qubadlının rayon mərkəzində, Azərbaycan) və Jdanov şəhərində (Donetsk vilayəti), XIX əsrin məşhur şairi M.P.Vaqifin heykəlinin (Şuşa şəhəri, Azərbaycan), M.Füzulinin Bakı şəhərində dövlət opera və balet teatrında qoyulmuş mərmərdən heykəlinin, qucağında uşaq oturmuş «Leyla» bürünc fiqurun, «Yeddi gözəl»də rəqs edən yeddi balerinanın fiqurları (çini), «Sənsiz» (gipsdən) qadın fiqurunun müəllifidir.

Hazırda təqaüddədir. Bakı şəhərində yaşayır.

Abdullayeva (İbrahimova) Liya Səracəddin qızı – 1933-cü il mayın 15-də Vladiqafqaz şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Əslən dərbəndlidir. Mahaçqala şəhərində qadınlar orta məktəbini bitirmişdir. 1953-1958-ci illərdə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsində təhsil almışdır. Universiteti bitirdikdən sonra 1958-ci ildə Bakı Şin zavoduna göndərilmiş, 1963-cü ilə qədər laboratoriya müdiri vəzifəsində işləmişdir. 1963-cü ildə Azərbaycan Elmlər Akademiyasının Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun aspiranturasına daxil olmuşdur. 1969-cu ildə Kimya elmləri namizədi elmi dərəcəsini almışdır. O, 1971-ci ildən 2003-cü ilədək İnşaat Mühəndisləri Universiteti kimya kafedrasının dosenti işləmişdir. L.Abdullayeva 2003-cü ildə təqaüdə çıxmışdır.



Abdullayev Mir-Əsədulla Seyid-Rza oğlu — 1891-ci ildə Dərbənd şəhərində papaqçı ailəsində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd realnı məktəbini, 1914-cü ildə isə Temirxan Şurada (indiki Buynaksk ş.) 2 illik müəllimlik kursunu bitirmişdir. Pedaqoji fəaliyyətə Dağıstan vilayəti Dargin mahalının Levaşin rayonunda məktəb direktoru və rus dili müəllimi kimi başlamışdır.

Abdullayev M.S. sonra Dərbəndə qayıtmış, 1920-ci ildən 1932-ci ilədək 3 saylı 1-ci dərəcəli türk məktəbinin (hazırda N.Gəncəvi adına 6 saylı orta məktəb) müdiri vəzifəsində işləmiş və rus dilini tədris etmişdir. O, eyni zamanda şəhər və rayon xalq təhsil şöbəsinin inspektoru vəzifəsini icra edirdi.


M.S.Abdullayev 1934-cü ildən ömrünün sonunadək Dərbənd pedaqoji məktəbində direktor müavini işləmişdir (hazırda Dərbənd pedaqoji kolleci).

Abdullayev Rəsmi Əsəd oğlu – 1918-ci ildə Dərbənd şəhərində ziyalı ailəsində anadan olmuşdur. Azərbaycanlıdır. Atası Əsəd Abdullayev (Dərbəndin böyük balıq sənayeçisi Həmdulla Abdullayevin doğma qardaşı) Peterburq Politexnik İnstit-utunu bitirmişdir. Anası Sürəyya xanım, məşhur Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin qızı və general Ərəblinskinin nəvəsi idi.

Rəsmi Əsəd oğlu Bakı şəhərində Azərbaycan Sənaye İnstitutunu bitirmiş, texnika elmələri doktoru dissertasiyasını müdafiə etmiş, həmin institutun geofizika kafedrasına rəhbərlik etmişdir.

1995-ci ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Abdulov Sadıq Əli oğlu – 1958-ci il dekabrın 17-də Azərbaycan Respublikasının Astara rayonunda anadan olmuşdur. Azərbaycanlıdır. 1976-cı ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Neft və Kimya İnstitutunun «Maşınqayırma» fakültəsinə qəbul olmuşdur. İnstitutda təhsil ala-ala Azərbaycanın baş məşqçisi Əhməd Rəcəblinin yanında dzyudo ilə məşğul olmuşdur. Azərbaycan yığma komandasının üzvü idi.



1981-ci ildə «Sovet İttifaqı idman ustası» fəxri adına layiq görülmüşdür. 1983-cü ildə Dərbəndə köçmüş və ixtisası üzrə Dərbənd Cilallayıcı dəzgahlar zavodunda işə düzəlmiş və burada məşqçi fəaliyyətini davam etdirmişdir.

2002-ci ildən Dərbənddə İncəsənət və Mədəniyyət İnstitutunda idman fakültəsinin dekanı vəzifəsində çalışır. 2004-cü ildə Dağıstan Respublikası Dövlət Şurasının fərmanı ilə «Dağıstanın bədən tərbiyəsinin Əməkdar işçisi» fəxri adına layiq görülmüşdür.

Abramov Aleksandr Bensionoviç – kənd təsərrüfatı elmləri namizədi, 1924-cü ildə Dərbənd şəhərində anadan olmuşdur. O, 1948-ci ildə Dərbənd Kənd Təsərrüfatı Texnikumunu, 1953-cü ildə Şimali Osetiya Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir.

A.Abramov Lenin adına və «Yeni dünya»



kolxozlarının sədri, Ümümittifaq Bitkiçilik İnstitutunun Dərbənd dayaq məntəqəsinin elmi əməkdaşı, Dərbənd kənd təsərrüfatı istehsal idarəsinin baş aqronomu, Dərbənd rayonu dövlət tədarük idarəsinin baş müfəttişi, G.Davıdova adına sovxozun direktoru, Dərbənd zona-təcrübə stansiyasının seleksiya və üzümün aqrotexnikası şöbəsinin müdiri, «Dərbənd» Aqrosənaye istehsalı üzrə direktor müavini işləmişdir. O, Böyük Vətən müharibəsi veteranı, Dağıstanın və Rusiya Federasiyasının əməkdar aqronomudur.



Abramov Şatiyel Semyonoviç — 1918-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Dərbənd şəhərində 7-illik məktəbi bitirdikdən sonra ailəsi ilə birlikdə Mahaçqala şəhərinə köçmüşdür. O, burada 1 saylı orta məktəbi bitirmiş və Qroznı Neft İnstitutuna daxil olmuşdur. 1941-ci ilin iyulunda tələbə Abramov könüllü orduya gedir. Qroznı hərbi-piyada məktəbində qısamüddətli kurs keçir və 1941-ci il dekabrın 17-də leytenant rütbəsi alaraq öz şərəfli yolunu Qroznı yaxınlığında yenicə yaranmış 246-cı atıcı alayının 82-ci atıcı diviziyasında başlayır. O, Cənub-Qərb cəbhəsində, Volqada, 3-cü Ukrayna və 1-ci Belorus cəbhəsində döyüşmüşdür. Cənubi Buq, Dnestr, Visla çaylarının keçilməsində, Varşavanın azad edilməsində, Berlinin alınmasında iştirak etmişdir. Bölüyə komandanlıq etmiş, əvvəl müavin, sonra isə batalyon komandiri olmuşdur.

1944-cü il aprelin 23-də Poznan qala şəhərinin alınmasında göstərdiyi igidliyə görə kapitan Ş.Abramov Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə 1945-ci il mayın 31-də mayor Ş.S.Abramova Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

Müharibədən sonra Ş.Abramov Qroznı Neft İnstitutunu bitirmiş, sonra namizədlik dissertasiyası müdafiə etmiş, ümumi geologiya kafedrasına rəhbərlik etmiş, institutun geoloji kəşfiyyat fakültəsinin dekanı olmuşdur.

Ona SSRİ-nin Fəxri neftçisi, Çeçen-İnquş MSSR-nın Əməkdar elmlər xadimi, Çeçen-İnquş MSSR-nın fəhlə-gənclər əməkdar hamisi adı verilmişdir. 2004-cü il mayın 15-də vəfat etmişdir. Moskva şəhərində dəfn olunmuşdur.

Ş.Abramovun oxuduğu məktəbin binasına (hazırda Lenin küç., 50; musiqi məktəbinin binasıdır) memorial lövhə vurulmuşdur.

Sovet İttifaqı Qəhrəmanı, qvardiya kapitanı, 246-cı qvardiya atıcı alayın atıcı batalyonunun 82-ci qvardiya atıcı diviziyasının atıcı batalyon komandirinin müavini, Dərbənd şəhərinin sakini, tat Şatiyel Semyonoviç Abramovun mükafatlandırma vərəqindən, 7 mart 1945-ci il:

Yoldaş Abramov, nizami hissə üzrə atıcı batalyonun komandir müavini kimi, özünü çox cəsarətli, qəhrəmanlıq şücaətləri göstərməyə hazır olan təcrübəli və bacarıqlı zabit kimi göstərmişdir. 1945-ci il fevralın 7-də Poznan şəhəri uğrunda gedən döyüşlərdə Abramov yaralanmış, lakin döyüş meydanını tərk etməyə etiraz etmiş və döyüşə rəhbərlik və komandanlıq etməkdə davam etmişdir.

1945-ci il fevralın 19-da Poznan qalası uğrunda gedən ağır, gərgin döyüşlərdə batalyon komandiri öldürüldü. Abramov yoldaş tərəddüd etmədən batalyona rəhbərliyi öz üzərinə götürdü. Düşmən Abramovun batalyonundan sayca xeyli üstün idi. Düşmənin yaxşı istehkamları vardı. Lakin buna baxmayaraq, yoldaş Abramovun komandanlığı altında olan batalyonun cəld hərəkəti və bacarıqlı manevr etməsi sayəsində, düşmən öz müdafiə istehkamlarında davam gətirə bilmədi və məhv edildi. Bu döyüşlərdə yoldaş Abramov bir çox cəsarətli təşəbbüs və şəxsi qəhrəmanlıq göstərmişdir. Qala səddinə hücum edən Abramov döyüşçüləri, öz komandirlərini hücum edənlərin ön sırasında görərək birinci olaraq təpəyə çıxdılar və öz Qırmızı bayraqlarını ora sancaraq orada möhkəmləndilər.

Nail olunmuş uğurları inkişaf etdirərək, yoldaş Abramov 3,4 saylı istehkamların yaxınlığındakı əsas dayaq məntəqəsi olan radiodorlu ağaclığı ələ keçirdi. Bu zaman o atıcı bölmələrdən ayrı düşmüş, onun sahəsində olan düşmən tanklarından da istifadə etmişdir. Bu döyüşdə Abramovun batalyonu birinci olaraq düşmənin 3,4 saylı müdafiə istehkamlarının

arasına, düşmənə aman vermədən soxuldu. Bununla o düşmənin hissələrini iki yerə: şimal və cənub hissələrə parçaladı. Bu döyüşdə yoldaş Abramov, şəxsən dotlardan birinə soxularaq ağır vəziyyətə düşdü. Onun üstünə 6 faşist atıldı. Gərgin əlbəyaxa döyüşdə, tiyədən və qumbaradan istifadə edərək 5 faşisti öldürdü və birini əsir götürdü.

Bu döyüşlərin gedişi zamanı Abramovun batalyonu 400-dan çox hitlerçini məhv etmiş və 1500-dən çox əsgər və zabitini əsir götürmüş, zəngin qənimət əldə etmişdir.

246-cı qvardiya atıcı alayın komandiri
qvardiya mayoru - Plyakin


Ordu Hərbi Şurasının rəyi: Sovet İttifaqı Qəhrəmanı adını almağa layiqdir

8-ci qvardiya ordusunun komandanı
general-polkovnik - Çuykov V.
Ordu Hərbi Şuranın üzvü
general-mayor - Pronin

Əbu Təmmam ət-Tai (796-843) – görkəmli ərəb şairidir. Ərəb poeziyası antologiyasının yaradıcısıdır. O bir sıra elegiya, panegirik, satirik şeirlərin müəllifidir. Bir çox orta əsrlər şairləri kimi o da çoxlu səyahətlər etmişdir. Orta əsrlərdə zərb-məsələ çevrilmiş bu sözlər ona aiddir: «Uzun müddət bir yerdə yaşamaq onun əqidəsinə və şərəfinə ziyan vurur».

Məşhur «Nəğmələr kitabı»nın müəllifi Əbu-l-Fərəc Əli əl-İsfahaninin (IX əsr) verdiyi məlumata görə, bir gün tale Əbu Təmmam ət-Taini Dərbənddə, xəlifə Harun ər-Rəşidin canişini Yəzid ibn Məzyədinin iqamətgahına gətirib çıxarır. Bir müddət burada qaldıqdan sonra, öz zərb-məsəlinə sadiq qalaraq, şəhəri tərk edir.

Afanasi Nikitin (?-1472) – rus səyyahı və Tver taciri olmuşdur. 1466-1472-ci illərdə Azərbaycana, İrana və Hindistana səfər etmişdir. Səyahətdən qayıdarkən Afrika sahillərində, Ərəbistanın Maskat şəhərində, Türkiyədə olmuşdur. A.Nikitin doğma Tver şəhərinə çatmadan Smolensk yaxınlığında vəfat etmişdir. A.Nikitin Dərbənddə (1466) olmuş və özünün «Üç dəniz ətrafına səyahət» adlandırdığı yol gündəliyində bu şəhəri təsvir etmişdir. Moskva knyazı İvan Vasilyeviçin katibi Vasili Mamerev Tver tacirinin ölümündən sonra onun qalan gündəliyini salnaməyə daxil etmişdir.



Bu yazılarda Dərbənd, onun abidələri və insanları haqqında xatirələr var.

Beş əsr bizi Afanasi Nikitindən ayırır. Bu müddət ərzində həyat tanınılmaz dərəcədə dəyişilib. Bir çox şəhərlərdən yalnız dağıntılar qalıb, digər şəhərlərin adları insanların yaddaşlarından silinib. Yalnız Dərbəndin qədim abidələri dəyişilməmiş qalmışdır. Onlar bu gün də bizim gözlərimiz önündə qədim rus şəhəri Tverdən olan və hər şeylə maraqlanan tacirin gördüyü və təsvir etdiyi kimi canlanır.

Ağamoğlanova Məlahət Salix qızı – ali kateqoriyalı həkim, 1948-ci il avqustun 8-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbəndin 1 saylı orta məktəbini bitirmiş və Mahaçqalada Dağıstan Dövlət Tibb institutuna daxil olmuşdur. Bakı şəhərinə köçdükdən sonra Azərbaycan Dövlət Tibb institutunun müalicə-profilaktika fakültəsində təhsilini davam etdirmişdir. 1973-cü ildə institutu bitirmiş, Bakı şəhəri M.Əfəndiyev adına 2 saylı klinik xəstəxanada terapiya şöbəsində həkim-ordinator, şöbə müdiri və 1983-ci ildən baş həkimin müavini vəzifəsində işləyir.



Ağasiyev Ənvər Məmmədmirzə oğlu – 1920-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dağıstan Tibb İnstitutunu bitirdikdən sonra (1942-ci il) cəbhəyə göndərildi. 1943-cü ildən 1959-cu ilədək Naxçıvanda sərhəd qoşunlarında xidmət etmişdir. 1959-1970-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında DTK sərhəd qoşunları dairə hospitalının şöbə müdiri vəzifəsində işləmişdir. 1959-cu ildən yaşına görə ehtiyata buraxılanadək (1986) Azərbaycan SSR DTK hərbi-tibb xidmətin rəisi olmuşdur.



«Şərəf nişanı» və «II dərəcəli Vətən muharibəsi» ordenləri ilə, «Qafqazın müdafiəsinə görə», «Almaniya üzərində Qələbəyə görə», «Döyüş xidmətlərinə görə»,

«Qüsursuz xidmətə görə» I və II dərəcəli, «Dövlət sərhədlərinin müdafiəsində fərqləndiyinə görə» və başqa medallarla təltif edilmişdir.

«Ermənistan SSR əməkdar həkimi», «Azərbaycan SSR əməkdar həkimi», «SSRİ səhiyyə əlaçısı» fəxri adlarını almışdır. Tibb xidməti polkovnikidir.

1993-cü ildə vəfat etmişdir. Bakı şəhərində dəfn olunmuşdur.

Ağasiyev Qazıməmməd Ağasi oğlu – 1882-ci ildə Dağıstan vilayəti Samur dairəsinin Axtı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. Kənd məktəbinin 2-ci sinfini bitirib 14 yaşında olarkən Bakıya işləməyə gəlmişdir. Neft mədənində işləyə-işləyə gizli marksist dərnəyinin üzvü olmuşdur. 1901-ci ildən Rusiya Sosial Demokratik Fəhlə Partiyası (RSDFP) Bakı komitəsinin işində fəal iştirak edir.



Ağasiyev 1904-cü ildən peşəkar inqilabçı, Bakı RSDRP-nın yeni yaradılmış «Fəruq» müsəlman seksiyasının fəal üzvlərindən biri olur.

Qazıməmməd Ağasiyev birinci rus inqilabı dövründə (1905-1907-ci illər) Bakı fəhlə-deputatlar sovetində neftçiləri təmsil edirdi.

İnqilab yatırıldıqdan sonra Ağasiyev təqibdən gizlənərək Dağıstana gedir. Burada o, 1909-1910-cu illərdə Kyurin dairəsində bir sıra sosial-demokrat dərnəkləri yaradır. 1911-ci ildə yenidən Bakıya qayıdır və inqilab işinə qoşulur. Qazıməmməd Ağasiyev 1917-ci il fevral inqilabından sonra Bakı fəhlə, əsgər və matros deputatları sovetinin tərkibinə daxil olur.

Qazıməmməd Ağasiyev 1918-ci ilin aprelində 26 təbliğatçının tərkibində sovet hakimiyyətinin qurulmasına kömək etmək üçün Dağıstana yola düşür. O, Dərbənddə İcra komitəsi sədrinin müavini və Fəhlə, kəndli və qırmızı ordu əsgərləri sovetinin şöbə müdiri (iyun-avqust 1918-ci il), Xalq Komissarları Sovetinə (aprel-may 1918-ci il) FK(b) P şəhər komitəsinin üzvü, şəhərin müdafiəsi üzrə İnqilab komitəsinin üzvi (aprel-iyun 1918-ci il) seçilir, Dərbənddə «Hümmət» təşkilatının dirçəlişində fəal iştirak edir. 1918-ci ilin iyulunda, Cümə məscidinin həyətində mitinqdə çıxış edən zaman silahdan açılan güllə ilə ağır yaralanır. Bakıda müalicə olunduqdan sonra yenidən Dərbəndə qayıdır. 1918-ci il avqustun ortalarında Dərbənd yenidən polkovnik Biçeraxovun dəstələri tərəfindən işğal olundu. Bir çox bolşeviklər, o cümlədən də Qazıməmməd Ağasiyev Najveddinov tərəfindən güllələndi.

Şəhərin prospektlərindən biri Qazıməmməd Ağasiyevin adını daşıyır.

Axundova Almaz Ağalar qızı – 1942-ci ildə Bakı şəhərində anadan olub. Azərbaycanlıdır. Əslən dərbəndlidir. Universitetin fizika-riyaziyyat fakültəsini bitirmişdir və tibb institutunda fizika fənnindən dərs deyir.

Axundova Gövhər Hüseyn qızı – 1910-cu ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Gövhər xanım Bakıda Kənd Təsərrüfatı İnstitutunu bitirmiş və elmi-tədqiqat institutunda işləmişdir. Onun həyat yoldaşı Güləhmədov Əbdürəhman ixtisasca aqronom, AEA-nın kənd təsərrüfatı elmi-tədqiqat institutunda işləmişdir. O, AEA-nın həqiqi üzvü, elmlər doktoru və professor idi.

Axundova (Seyidova) Xurşid Mirsəməd qızı – 1 sentyabr 1946-cı ildə Dərbənd şəhərinin 6-cı mahalında anadan olmuşdur. 1946-jı ildə onun ailəsi Bakıya köçür.

1953-1964-cü illərdə Zaqulba qəsəbəsində yerləşən 234 №-li məktəbdə təhsil almışdır.

1964-1969-cu illərdə BDU-nin filologiya fakültəsində "rus dili və ədəbiyyat" ixtisası üzrə təhsil almışdır.

1969-1970-ci illərdə Azərbayjan Milli Elmlər Akademiyasının Dilşünaslıq İnstitutunda kiçik elmi işçisi vəzifəsində çalışıb.

1971-2004-cü illərdə BDU-nin xariji vətəndaşların təhsili üçün rus dili kafedrasında çalışıb.

2004-cü ildən BDU-nin Humanitar fakültəsinin rus dili kafedrasında baş müəllim vəzifəsində çalışır. Evlidir. İki uşağı var.

Axundov Hidayət Cümşüd oğlu – 1949-cu il oktyabrın 26-da Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Əslən dərbəndlidir.



1971-ci ildə Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat, 1971-ci ildə Moskva universitetini təbliğatçı ixtisası üzrə bitirmişdir.

Kənd təsərrüfatı iqtisadi-riyaziyyat informasiya modellərinin işlənməsi və təhlili, informasiya texnologiyaları, statistika, funksional təhlil üzrə təcrübəli mütəxəssisdir.

1975-1990-cı illərdə Moskva şəhərində SSRİ Dövlət Aqrosənaye Komitəsində İnformasiya-Hesablama mərkəzində, 1993-1996-cı illərdə Azərbaycan Dövlət Statistika komitəsində xarici ticarət şöbəsinin rəisi, 1996-2001-ci illərdə Azərbaycan Aqrosənaye Bankında qiymətli kağızlar və xarici investisiyalar şöbəsi rəisinin müavini vəzifələrində işləmişdir. 2001-ci ildən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyində İnformasiya sistemləri üzrə ekspert vəzifəsində çalışır.

Axundov Ruslan Hidayət oğlu – 1975-ci il yanvarın 3-də Moskvada anadan olmuşdur. Azərbaycanlıdır. Əslən dərbəndlidir. Orta məktəbi Moskva şəhərində oxumuş, Moskva Aviasiya İnstitutunun uçuş cihazları və elektron cihazları fakültəsini (1991-1997) bitirmişdir.



1998-2000-ci illərdə Rusiyanın Dövlət Dumasında informatika sistemləri üzrə ekspert, 2000-ci ildən Moskva şəhərində «Qapalı Səhmdar Cəmiyyəti»də (ZAO) informatika texnologiyası xidmət şöbəsinin rəisi vəzifəsində çalışır.

Axundova Sara Məşədi Hacıbaba qızı – Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. O, dərbəndli Bəhram Abdinovun həyat yoldaşı olmuşdur. Onların iki qızı var idi. Böyük qızı Asya 1930-cu ildə anadan olmuş, Bakı Dövlət Universitetini bitirmiş, və orada müəllim işləmişdir. Dosent və elmlər namizədidir. Kiçik qızı Ədilə Bakı Dövlət Universitetinin kimya fakültəsini bitirmiş və Politexnik İnstitutunda müəllim işləyir. Dosent və elmlər namizədidir.

Axundov Səftər Hacı Mehdi oğlu – sahibkar, ictimai xadim. O, 1861-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Karvansaranın, un dəyirmanının, üzüm bağlarının, Qolisin küçəsindəki gəlirli ikimərtəbəli evin (hazırda Buynaksk küçəsindəki 25 № ev) sahibi idi.



1910-cu ildə balıqçılıq sənayesi şəhər ictimai idarəsinin icarəsi üzrə şəriki A.Dadaşovla birlikdə realnı məktəbin yeni binasının tikilməsi üzrə podratı uddu və icarə ödənişi hesabına onu tikdi (hazırda Lenin küçəsi 87-də «Elektrosiqnal» zavodunun binasıdır).

İnqilabi hadisələr dövründə ailəsi ilə birlikdə Bakıya köçür. 1936-cı ildə həbs edilir, Dərbəndə aparılır və burada «xalq düşməni» kimi mühakimə olunur. Həbsxanada vəfat etmişdir.

Axundov Vahid Cümşüd oğlu – Azərbaycanın görkəmli iqtisadçı alimi, iqtisad elmləri doktoru, professor, 1942-ci il fevralın 9-da Bakıda anadan olmuşdur. Azərbaycanlıdır. Tanınmış dərbəndli Axundovlar nəslinin nümayəndəsidir. 1964-cü ildə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun iqtisadiyyat fakültəsini bitirmişdir.



1970-1990-cı illərdə Azərbaycan Respublikasının Dövlət Plan Komitəsinin Elmi-Tədqiqat İqtisadiyyat İnstitutunda şöbə müdiri, direktor müavini, direktor vəzifələrində işləmişdir. Sonralar Azərbaycan Respublikasının Nazirlər Soveti yanında Xalq Təssərrüfatı İdarəetmə İnstitutunun direktor müavini vəzifəsində çalışmışdır.

1990-cı ildən Azərbaycan Respublikası Prezidentinin iqtisadi siyasət üzrə müşaviridir.

O, regional iqtisadiyyata aid çoxsaylı elmi əsərlərin və monoqrafiyaların müəllifidir.

Alçiyev Nikolay Yuryeviç – 1947-ci ildə anadan olmuşdur.



O, çilingər, teplovoz və elektrovozun maşinisti, maşinist-instruktor, lokomativ deposunun rəis müavini, partiya komitəsinin katibi vəzifələrində çalışmışdır.

N.Y.Alçiyev 1985-1990-cu illərdə Dərbənd şəhər Partiya Komitəsinin birinci katibi, 1994-2000-ci illərdə şəhər başçısı işləmişdir. 2000-ci ildən Dağıstan Respublikasının Xalq İclası sədrinin birinci müavinidir.

Almas İldırım (İldırım Əbdülməhəmməd oğlu Almaszadə) (24.3.1907 - Bakı yaxınlığındakı Qala k. – 14.1.1952, Türkiyə, Qalabucaq ş.) – Azərbaycanın istiqlal şairi. Azərbaycanlıdır. Bakıda «İttihad» məktəbini bitirmiş (1925), 1927-ci ildə Bakı Dövlət Universitetinin Şərq fakültəsinə daxil olmuş, lakin «tacir oğlu» olduğu üçün məktəbdən çıxarılmışdır. «Cığırdaş» şair, «müsavatçılara aşiq və Türkiyə çavuşlarının həqiqi şagirdi», bolşevizm ideologiyası üçün «zərərli bir insan» kimi təqib olunan Almas İldırım 1928-ci ildə Dağıstana, sonra isə Türkmənistana sürgün edilmişdir. 1933-cü ildə İrana, 1934-cü ildə oradan Türkiyəyə mühacirət etmiş, müəllimliklə məşğul olmuşdur.



Yaradıcılığa 20-ci illərdə başlamış, «Yaşıl yarpaq», «Gənc qızıl qələmlər» ədəbi təşkilatlarının üzvü olmuşdur. İlk şeiri («A dağlar») 1923-cü ildə İstanbulda çıxan «Həyat» jurnalında dərc olunmuşdur. «Dün, bu gün» (S.Rüstəmlə müştərək, 1926), «Dağlar səslənirkən» (1930) kitablarındakı lirik və ictimai-siyasi ruhlu şeirlərində («Nəriman», «Müstəmləkə olmuş Şərqə», «9 yanvar», «Potyomkin», və s.) dövrün nəbzi güclüdür. «Dağlar səslənirkən» kitabı «kommunizmə zidd fikirlər» olması bəhanəsi ilə müsadirə edilərək satışdan yığışdırılmışdı. Türkiyədə yaşadığı illərdə, əsasən vətən həsrəti, onun tarixi taleyi mövzularında yazıb-yaratmış, istiqlal şairi kimi tanınmışdır:

Hanı məni gül qoynunda doğuran,
Məxmərimi göz yaşıyla yoğuran,
Beşiyimdə «layla balam» çağıran,
Azərbaycan, mənim baxtsız anam oy!..
Neçə bir il həsrətinlə yanam oy!

Könlümə tək Kəbə yapdım səni mən,
Sənsiz nedəm qürbət eldə günü mən,
Sənsiz nedəm Allahı mən, dini mən,
Azərbaycan, mənim tacım, taxtım oy!..
Oyanmazmı kor olası baxtım oy?!

Almaz İldırımın bu dövrdəki yaradıcılığı «Boğulmayan bir səs» (1936), «Azərbaycan mahnıları» (1938), «Bayatılar» (1943, 1947), «Seçilmiş şeirləri» (1953), «İgidlərə səsləniş» (1990) kitabları, «Qara dastan», «Bir gün gələcək», «Sürgün» və s. poemaları Azərbaycan mühacir poeziyasının parlaq nümunələrindəndir. Alamas İldırım haqqında «Azərbaycanfilm» kinostudiyasında sənədli film çəkilmişdir (rej. Z.Məhərrəmov, 1990). Bakıda adına küçə var.

Əsərləri: Azərbaycanın didərgin salınmış övladı – şair Almas İldırım şeirlərilə. B., 1990; Qara dastan. Şeir və poemalar (tərtibçi Maarif Teymur). B., 1994.

Amalat bəy - Tərki şamxallarının nəslindən olan böyük Mehdi xanın oğludur. Gənc Amalat bəy Rusiya imperatorluğuna sadiqliyə and içmiş və Tərki şamxallığının tərkibinə daxil olan Buynaksk hakimi təyin edilmişdir.

Avar xanı Sultan Əhməd əvvəlcə Rusiyaya and içən, sonra isə andını dəyişən Amalat bəyi Rusiyaya qarşı çıxmağa təhrik etdi və Dağıstan ərazisində rus qoşunlarına qarşı bir-neçə böyük əməliyyatlarda iştirak etməyə vadar etdi. Döyüşlərin birində yaralanan Amalat bəy əsir götürüb və Dərbəndə çatdırılır. Qafqazda baş komandan olan general A.P.Yermolov Amalat bəyi hərbi məhkəməyə verməyi əmr edir. Lakin Kür piyada qoşun alayının komandiri polkovnik S.İ.Verxovski Yermolovdan gənc dağlını bağışlamağı və tərbiyələndirmək üçün

ona verilməsini xahiş edir. Amalat bəy Kür alayının sevimlisinə və onun komandirinin şərəf predmetinə çevrilir.

Amalat bəyin itirilməsi ilə barışmayan avar xanı, onu yenidən öz tərəfinə çəkə bilir. Xan Amalat bəyin öz qızı Soltanata olan hisslərini bilərək, ona deyir ki, qızımı o kəsə verəcəyəm ki, polkovnik Verxovskinin başını mənə gətirsin. Xanın qızını dəlicəsinə sevən Amalat bəy öz xilaskarını öldürməyi qərara alır.

1820-ci ilin yayında Kür alayının komandiri kiçik dəstə ilə Mehtuluya çıxır və yolda Amalat bəy tərəfindən öldürülür. Verxovskinin cəsədi Dərbəndə gətirilir və şəhərin cənubunda xristian qəbirstanlığında dəfn edilir (hazırda erməni qəbirstanlığının bir hissəsidir). Gecə Amalat bəy qəbiristanlığa gəlir, qəbri qazır, tabutu açıb meyidin başını kəsir və dağlara aparır ki, xanın gözəl qızı ilə evlənsin. Lakin səhv baş verir. Qaranlıqda başqa adamın, polkovnik Şevtsovun qəbri açılır. Xan isə öz qızını Amalat bəyə vermir.

Sonralar Soltanat Tərki şamxalı Əbu Müslimə, Amalat bəyin xalası oğluna ərə gedir, Dərbənddə yaşayır və 1845-ci ildə vəfat edir.

Müasirlərin yazdıqlarına görə, aldanmış və təhqir olunmuş Amalat bəy dağlarda sərsəri həyat keçirir və döyüş meydanlarında azğınlıq edirdi. Xalq şaiyələrində deyilir ki, o, ruslarla döyüşdə Verxovskinin kiçik qardaşı, topçu zabit tərəfindən öldürülüb.

1819-1820-ci illərdə baş vermiş, hərbi və zadəgan dairələrində diqqət çəkən hadisələr Dərbənddə cəzasını çəkən dekabrist A.Bestujev-Marlinskinin «Amalat bəy» povestində təsvir edilmişdir.

Bu hekayə məşhur fransız roman ustası A.Düma (ata) tərəfindən fransız dilinə tərcümə edilmişdir. 1859-cu ildə A.Dümanın redaktorluğu ilə bu povestin alman dilində tərcüməsi çıxır.

Aslanov Cəmil Teymur oğlu – baş leytenant,



1984-cü il iyulun 19-da Bakı şəhərində hərbçi ailəsində anadan olmuşdur. Azərbaycanlıdır. Tibb elmləri doktoru, professor dərbəndli Sona xanım Rəsulbəyovanın nəvəsidir.

O, orta təhsili Bakıda 27 saylı məktəbdə və Avropa liseyində almışdır. 1999-cu ildə Türkiyənin İzmir şəhrində yerləşən hərbi liseyə daxil olmuş və onu bitirdikdən sonra, 2003-cü ildə Ankarada Türkiyənin Silahlı Qüvvələrinin Hərbi Akademiyasında təhsilini davam etdirmiş, 2007-ci ildə Hərbi Akademiyanı bitirmiş və İstanbul şəhərində fəaliyyət göstərən NATO-nun hərbi hissəsində staj keçmişdir.

2008-ci ildə Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinə göndərilmişdir. Milli Qvardiyada tağım komandiridir.

Aslanov Əsgər Məmmədsaleh oğlu – 1924-cü il



mayın 5-də Dərbənd şəhərində anadan olmuşdur. 1942-ci ildə şəhər 3 saylı səkkizillik orta məktəbi bitirmiş və Dərbənd Pedaqoji Texnikumuna daxil olmuşdur. O, 1943-cü ilin yanvarında ordu sıralarına çağırılmış və Belarusiya, Qərbi Ukraynanın azad olunmasında iştirak etmişdir. 1946-cı ildə ordu sıralarından tərxis olunmuş və 1947-1952-ci illərdə Dağıstan Tibb İnstitutunda təhsil almışdır.

Ə.Aslanov Aqulsk rayonunun Sanitar-epidemiologiya xidmətinin baş həkimi və Aqulsk (Dağıstan) Səhiyyə şöbəsinin müdiri, 1956-1975-ci illərdə Dərbənd şəhər sanitar-epidemologiya xidmətinin baş həkimi işləmişdir. 1975-ci ildən Dərbənd şəhər 2 saylı poliklinikasında həkim-terapevt və həmin ildə Mərkəzi rayon xəstəxanasının mülki müdafiə xidməti üzrə baş həkimin müavini, Dərbənd şəhər mülki müdafiə-tibb xidməti üzrə qərargah rəisi işləmişdir. 2007-ci ildən təqaüddədir. O, SSR tibb əlaçısı (1953), SSRİ-ın mülki müdafiə əlaçısı, Dağıstan Respublikasının əməkdar həkimi (1966), Rusiya Federasiyasının əməkdar həkimi (1971) fəxri adlarına layiq görülmüşdür.

Ə.Aslanov «Böyük Vətən müharibəsi» ordeninin kavaleridir, 10 döyüş medalı, «V.İ.Lenin 100-illiyi», «Fədakar Əməyə görə» və «Əmək veteranı» medalları ilə təltif olunmuşdur.

Aşurov Cümşüd Şevanyayeviç (1913-1980) – Dərbənddə doğulmuşdur, dağ yəhudisidir. Orta məktəbi bitirmiş, eyni zamanda şəhərdə məşhur pianoçu olan T.N.Eldarovadan musiqi təhsili almışdır.



1930-cu ildə Dərbənd pedaqoji məktəbinə qəbul olmuşdur. Hələ tələbə ikən, kompozisiyada öz qüvvəsini sınayaraq bir neçə mahnı və instrumental pyes bəstələmişdir. Onun bu dövrdə ən uğurlu işi «Cümşüd» rəqsi olmuşdur.

Sonrakı illərdə tat xalq teatrında tarçı işləyən S.Aşurov Juno Semyonovun «Məhsum» dramına musiqi, «Şərqin üfüqləri» marşını, «Bahar quşu» rəqs pyesini, «DMSSR 10 illik yubileyinə» həsr olunmuş marşı yazır.

İstedadlı gənc respublikanın musiqi ictimaiyyətinin nəzərindən qaçmır. O, 1935-ci ildə P.İ.Çaykovski adına Moskva konservatoriyasına təhsil almaq üçün göndərilir. Aşurov C. burada professor Q.İ.Litinskinin və dosent Y.O.Menserin kompozisiya sinfində məşğul olur. Lakin ailə vəziyyəti ilə əlaqədar, təhsilini yarımçıq qoyaraq Dərbəndə qayıdır.

Aşurov burada Azərbaycan Dövlət teatrında işləyərək A.Şirvanzadənin «Namus» dramına, M.Baxşiyevin «Qəhrəmanların qələbəsi» pyesinə və M.Ordubadinin «Beş manatlıq gəlin» komediyasına musiqi, «İzberbaş» rəqsini və digər musiqi əsərlərini yazır.

Məşhur Azərbaycan bəstəkarı Ü.Hacıbəyovun təklifi ilə C.Aşurov 1938-ci ildə Bakıya gəlir. Azərbaycan xalq yaradıcılığı evinin musiqi şöbəsinin müdiri işləyir, eyni zamanda Ü.Hacıbəyovdan kompozisiya sinfi üzrə məsləhətlər alır.

1940-cı ildə Ümumazərbaycan mahnıları müsabiqəsində onun «Ölkəmizdə» adlı mahnısı ikinci mükafatı alır, Azərbaycan bəstəkarlar İttifaqı isə onu Moskvaya – bəstəkarların ixtisasartırma kurslarına göndərir. Kursu bitirən Aşurov Dərbəndə qayıdır və Azərbaycan Dövlət Dram teatrının musiqi rəhbəri işləyir.

C.Aşurov bu illərdə öz qüvvəsini dramaturgiyada da sınayır. Onun sovet ordusuna həsr olunmuş «Qızburun» pyesini tat teatrı tamaşaya qoyur.

1949-cu ildə Ləzgi Dram Teatrı Axtıdan Dərbəndə köçdükdən sonra C.Aşurov teatrın kollektivi ilə işləməyə başlayır. O, bir çox tamaşalara musiqi yazır, «paralel olaraq sevdiyi musiqi janrı üzərində də işləyir. «Qülboor» (sözləri S.İzqiyayevin), «Gözəl yar» (söz. S.Stalskinin), «Baxtovar ya çun» (söz. A.Mütəllibovun), «Moskva» (söz. M.Baxşiyevin), «Dostluq çayı» (söz. S.İzqiyayevin), «Xars» xoreoqrafik süitası və bir çox başqa əsərləri Dağıstanın musiqi xəzinəsinə daxil olmuşdur. Respublikanın musiqi incəsənətinin inkişafındakı xidmətlərinə görə ona «Dağıstanın əməkdar incəsənət xadimi» fəxri adı verilmişdir.

C.Aşurov 1980-ci il fevralın 15-də vəfat etmiş və Dərbənd şəhərində dəfn olunmuşdur.

Aşurov Danil İzyaquyeviç – 1913-cü ildə Dərbənd şəhərində anadan olmuşdur. Dağ yəhudisidir. Ali təhsillidir. Müəllim işləmişdir, 1944-1960-cı illərdə isə 1 saylı Dərbənd Dəmiryolu məktəbinin direktoru işləmişdir.

1961-ci ildən 1967-ci ilin fevralınadək Dərbənd şəhər xalq deputatlar sovetinin sədri işləmişdir.

Aşurov Qəhrəman Vəli oğlu – 1952-ci ildə



Dərbənd şəhərində anadan olmuşdur. O, 1970-ci ildə Dərbənd şəhər 19 saylı orta məktəbini, 1979-cu ildə SSRİ Daxili İşlər Nazirliyinin Volqoqrad Ali Müstəntiq Məktəbini bitirmişdir.

B.Aşurov İzberbaş şəhərinin Daxili işlər şöbəsinin müstəntiqi, Dağıstan MSSR Daxili İşlər Nazirliyinin instintaq şöbəsinin müstəntiqi, Dərbənd rayon daxili işlər şöbəsinin istintaq işləri üzrə rəis müavini, instintaq şöbəsinin rəisi vəzifələrində çalışmışdır. 1990-1996-cı illərdə Dərbənd rayonunun federal hakimi 1996-cı ildən isə Dərbənd rayon federal məhkəməsinin sədridir.

O, Rusiya Federasiyasının Ali Məhkəməsinin nəzdindəki Məhkəmə departamentinin fəxri fərmanına layiq görülmüş, Dağıstan Respublikasının Fəxri hüquqşünasıdır.

Aşurov Vəli Nəsrulla oğlu – 1910-cu ildə Dərbənd şəhərində anadan olmuş, 1935-1937-ci



illərdə Dərbənd komsomol komitəsində, 1937-1943-ci illərdə Dərbənd şəhər Sovetində, 1943-1947-ci illərdə Dərbənd şəhərində ikinçi sahənin hakimi, 1948-ci ildə Dərbənd şəhər prokuroru, xalq hakimi, «Yağsüdkom» (Şəhər süd zavodu) müdiri, meşəbəyi köməkçisi və Dərbənd xəzmeşə emalı kombinatının həmkarlar ko9mitəsinin sədri vəzifələrində çalışmışdır.

O, üç dəfə (1933, 1940, 1973) Dağıstan MSSR-in Ali Sovetinin Fəxri fərmanı ilə təltif olunmuşdur. V.Aşurov 1981-ci ildə vəfat etmiş və Dərbənd şəhərində dəfn olunmuşdur.


Atnilov Danil – 1913-cü ildə Dərbənd şəhərində anadan olmuşdur. O, Moskva Poliqrafiya Texnikumunu və Dağıstan Pedaqoji İnstitutunun ədəbiyyat fakültəsini bitirmişdir. D.Atnilov ilk «Zamanın dalğaları» adlı povesti 1949-cu ildə işıq üzü görmüş, 1954-cü ildə «Zamanın sürəti» adlı kitabı çap olunmuşdur.

D.Atnilovun rus dilində «Təmiz cizgilər», «Naxşun adlı oğlan» adlı kitabları, uşaqlar üçün yazdığı «Birinci dərs» və «Bax, belə olur» adlı şeirləri çap olunmuşdur. Şair Puşkinin, Lermontovun, Marşakın, Aqniya Bartonun şeirlərini, M.Qorkinin hekayələrini tərcümə etmişdir. 1961-ci ildə vəfat etmiş və Dərbənd şəhərində dəfn olunmuşdur.

Babaxanov Səlim Babaxanoviç – 1927-ci ildə anadan olmuşdur. Ləzgidir. Ali təhsillidir. 1950-ci ildən ÜK(b)P-nın üzvüdür. Məktəbdə müəllim, tədris hissə müdiri, Dərbənd Vilayət Partiya Komitəsinin təlimatçısı, rayon partiya komitəsinin təbliğatçısı, «Daqestanskie Oqni» (Dağıstan işiqları) qəzetinin redaktoru, zavod komitəsinin sədri, partiya komitəsinin katibi, «Daqoqni» zavodunun direktoru işləmişdir.

1973-cü ildən 1981-ci ilədək Dərbənd KP şəhər komitəsinin birinci katibi işləmişdir.

Babayev Arif Həsənbala oğlu – 1941-ci il mayın 1-də Bakı şəhərində anadan olmuşdur.



Azərbaycanlıdır. Əslən dərbəndlidir.

1949-1959-cu illərdə Bakıda 1 saylı orta məktəbdə oxumuş, Bakı Energetika texnikumunu (1961), Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun «Avtomatika prosesləri» fakültəsini (1967) bitirmişdir. Bakıda Krasin adına hidroelektrik stansiyasında mühəndis, 1972-ci ildən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin emalatxana və laboratoriya rəisi vəzifələrində işləmiş, 1989-cu ildən «Prom-Pribor» zavodunda texnoloji quraşdırma və standartlaşma şöbəsinin rəisi vəzifəsində işləyir. Əmək veteranıdır.

Babayev Miryusif Tofik oğlu – 1956-cı il oktyabrın 8-də Dərbənd şəhərində anadan olmuşdur.



Onun atası Babayev Tofik Mirbaba oğlu Kənd Təsərrüfatı Texnikumunda baş mexanik vəzifəsində işləmişdir, anası – Babayeva Fizzə Qulamhüseynova (Əliyeva) evdar qadındır.

M.Babayev 1963-cü ildə Dərbənd şəhər M.Rzayev adına 4 saylı ibtidai məktəbində təhsil almış, 1972-ci ildə isə Buynaksk şəhərində Ticarət Texnikumuna daxil olmuşdur. Məktəb illəri dövründə o, müxtəlif idman növlərinə maraq göstərmiş və bir çox nailiyyətlər əldə etmişdir. 1974-cü ildə respublika üzrə dzudo yarışında 2-ci yerə, bir ildən sonra keçirilən sərbəst güləş üzrə çempionatının mükafatına və respublika birinciliyində 2-ci yerə layiq görülmüşdür.

O, 1977-ci ildə həqiqi hərbi xidmətə çağırılmış və Hava Hücumundan Müdafiə qoşunlarında xidmət etmişdir. 1991-ci ilədək Dərbənd şəhərində müxtəlif ticarət müəssisələrində işləmişdir.

M.Babayev 1991-ci ildə nəşriyyat və kitab ticarəti üzrə firma təsis etmiş, 1992-1994-cü illərdə isə üç dəfə Dərbənd şəhərində kitab yarmarkası təşkil etmişdir.

O, Cümə məcidi Şurasının üzvüdür. Bir çox mədəniyyət ocaqlarının bərpa ediməsində, saxlanılmasında yaxında iştirak edir və xeyriyyəçilik fəaliyyəti ilə də məşğul olur.



Babayeva Səkinə Ağası qızı – 1951-ci il fevralın 5-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1971-ci ildə Dərbənd şəhər orta məktəbini, 1978-ci ildə Dağıstan Tibb institutunu bitirmişdir. 1981-1982-ci illərdə ixtisası üzrə ordinatura keçmişdir. 1984-1985-ci illərdə tibb məktəbində işləmiş, sonra isə doğum evində ordinator işləmişdir. Perinatal mərkəzin açılması ilə əlaqədar doğum şöbəsinin müdiri vəzifəsinə təyin olunmuşdur. Dağıstan Respublikasının əməkdar həkimidir.



Bağırov Anar Vaqif oğlu – Azərbaycan opera müğənnisi (dramatik tenor), professor H.Əliyevin tələbəsi, 1977-ci il iyulun 29-da Bakıda anadan olmuşdur. Azərbaycanlıdır. O, tanınmış dərbəndli tacir Hacı Muradın nəslindəndir.

1984-cü ildə 151 saylı məktəbdə oxuyarkən, eyni zamanda Rastropoviç adına 21 saylı musiqi məktəbində fortepiano və nəfəsli alətlər sinfində dərs almışdır. 1994-cü ildə Azərbaycan Dövlət Konservatoriyasının nəfəsli alətlər şöbəsinə daxil olmuş və 1998-ci ildə orkestr artisti və müəllim peşələrinə yiyələnmişdir. A.Bağırov Azərbaycan Musiqi Akademiyasının vokal fakültəsinin ikinci kursuna qəbul olunmuş və 2001-ci ildə Akademiyanın bakalavr pilləsini və magistraturanı solo müğənnisi kimi bitirmişdir.

Hərbi xidmətini 3 il Prezident orkestrində başa vurmuşdur. Hərbi xidmətdən qayıtdıqdan sonra Azərbaycan Dövlət xor kapellasında və opera teatrında işə başlamışdır.

Vokalçıların II Respublika müsabiqəsində (may, 2000) iştirak etmişdir. 2003-cü ildən Azərbaycan Dövlət opera və balet akademik teatrının solisti kimi Ü.Hacıbəyovun «Koroğlu» operasında – vəzir, Nadir, əyanlar – 1-ci Cora rollarında, V.Adıgözəlovun «Natəvan» operasında – Mirzə Fəna, Brüssel opera teatrının səhnəsində (Belçika) və Avropanın başqa teatrlarında çıxış edir.



Bağırov Orxan Rüstəm oğlu – 1966-cı il fevralın 4-də anadan olmuşdur. Azərbaycanlıdır. Əslən dərbəndlidir. Babası Əbülfəz Bağırov məşhur mühəndis idi. Bakı-Dərbənd, Bakı-Lənkəran magistral yolunun çəkilişində fəal rolu olmuşdur. Görkəmli alim Rüstəm Bağırovun oğludur.

224 saylı orta məktəbi bitirmiş, hərbi xidmətini Almaniya Demokratik Respublikasında keçmişdir.

1992-1998-ci illərdə Azərbaycan Dövlət Tibb Universitetinin «Müalicə-profilaktika» fakültəsində təhsil almışdır. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin tibb-sanitariya hissəsində işləmişdir. 2003-cü ildən Ədliyyə Nazirliyinin Mərkəzi xəstəxanasında həkim vəzifəsində çalışır. Tibb xidməti mayorudur.



Bağırov Rüstəm Əbülfəz oğlu – 1935-ci ildə anadan olmuşdur. Azərbaycanlıdır. Texnika elmləri doktoru, Beynəlxalq Elmlər Akademiyasının akademiki və ekoenergetiki, Azərbaycan elmi-tədqiqat və qaz-layihə institutunun laboratoriya rəhbəridir. 1959-cu ildə Azərbaycan Neft və Kimya İnstitutunu bitirmiş və Milli Elmlər Akademiyasın Neft-Kimya Prosesləri İnstitutunun qazların texnologiyası laboratoriyasında əvvəl sıravi mühəndis, sonralar isə baş mühəndis işləmişdir. R.Bağırov 1963-1965-ci illərdə Moskvada Nüvə Geofizikası Ümumittifaq İnstitutunun aspiranturasında oxumuş və 1966-cı ildə texnika elmləri namizədi elmi dərəcəsini almışdır. O, Azərbaycan Qaz-layihə elmi-tədqiqat institutunun banilərindən biri olmuş və uzun müddət bu institutda çalışmışdır. R.Bağırov həm də ilk dəfə

olaraq sənaye tipli xromatoqrafik proseslərin elmi əsasını hazırlamış və bunun əsasında yarımsənaye qurğunun layihə sənədlərini işləyib hazırlamışdır. Bu proseslər Azərbaycan qaz emalı zavodunda sınaqdan keçirilmişdir. 1971-1974-cü illərdə Rüstəm müəllim süni seolitlərdən istifadə etməklə qazların sulfat birləşmələrindən təmizlənməsi üzrə elmi-tədqiqat işini bitirmişdir. Qeyd etmək lazımdır ki, bu tədqiqatların nəticəsində bir neçə belə sənaye qurğuları layihələşdirilmiş və onlar Orta Asiya, Şərqi Sibir və Orenburq qaz yataqlarında uğurla tətbiq olunmuşdur. R.Bağırov 1977-1980-ci illərdə helium tərkibli qazlardan təmiz heliumun alınması prosesində ilk dəfə olaraq yarımkeçirici polimet liflərindən istifadə etmişdir.

1981-1983-cü illərdə sulfat qazlarından təmiz sulfatın alınması üçün ilk dəfə olaraq yerli xammaldan katalizatorun istehsalına başlanmışdır. Yeni məhsul Orenburq (Rusiya) və Mübarək (Özbəkistan) qazemalı zavodlarında tətbiq olunmuşdur.

1991-1995-ci illərdə respublikada qaz təminatını yaxşılaşdırmaq məqsədi ilə R.Bağırovun rəhbərliyi altında Azərbaycanda istehsal olunan yüksək alışqanlı qaz yanacaqlarının əsasında məişət və sənaye təyinatlı qazların alınması prosesinin geniş tətbiqi işlənib hazırlanmış və geniş istifadəsi tövsiyə olunmuşdur.

R.Bağırovun təklifi ilə 1996-1998-ci illərdə təbii qazın tərkibinə əlavə etmək üçün istifadə olunan və xaricdən baha qiymətə alınan etilmerkaptan 20-25 dəfə ucuz başa gələn odorant məhlulu ilə əvəz olunmuşdur.

R.Bağırovun Azərbaycanda istehsal olunan təbii neft qazlarının tərkibindəki suyun və karbohidrogenin miqdarını müəyyən etmək üçün səyyar tədqiqat laboratoriyasının yaradılması sahəsində müstəsna rolunu da qeyd etmək lazımdır.

Professor Bağırovun rəhbərliyi altında quşçuluq və heyvandarlıq fermalarının istehsal tullantılarından bioloji qaz yanacaqlarının alınması üçün xüsusi qurğular yaradılmış və həmin qazların təhlükəsiz istifadəsi qaydasının nəzəri əsasları hazırlanmışdır. Bu elmi işin tətbiqi respublikanın dağlıq rayonlarının qazla təminatının yaxşılaşdırılmasına kömək edərdi.

R.Bağrov 1989-cu ildə texnika elmləri doktoru, 1990-cı ildən isə professordur. O, 1983-1988-ci illərdə Ümumittifaq Elmi-Tətqiqat və Qazlayihə İnstitutunun elm üzrə direktor müavini, 1993-2003-cu illərdə Azərbaycan Respublikası Prezidentinin yanında Ali Attestasiya komissiyasının eksperti işləmişdir. Ömrünün sonuna qədər Azərbaycan elmi-tətqiqat və qazlayihə institutunun nəzdində laboratoriyaya başçılıq etmişdir. Rüstəm müəllimin yüksəkixtisaslı mütəxəssislərin elmi kadrların yetişdirilməsində müstəsna rolu vardır. Professor 250-dən çox elmi əsərin və məqalələrin, 8 monoqrafiya və kitabın, 30 ixtira və 5 patentin müəllifi olmuşdur. O, ABŞ, Fransa, Rusiya, Almaniya, İsveç, Özbəkistan, Türkmənistan alimləri ilə yanaşı qaz sənayesinin ayrı-ayrı sahələri üzrə genişmiqyaslı elmi-tədqiqat işəlri aparmış və 45 beynəlxalq elmi simpoziumda, konqreslərdə və konfranslarda məruzələrlə çıxış etmişdir.

R.Bağırovun elmi fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, SSR-i Nazirlər Sovetinin mükafatını almış, «SSRİ qaz sənayesinin Fəxri işçisi», «SSRİ-nin Əməkdar ixtiraçısı» adlarına layiq görülmüşdür.

Professor R.Bağırov çox hörmətli böyük bir nəslin nümayəndəsidir. Onun babası Məşədi Məhəmməd Bağır Dərbəndin ən hörmətli ağsaqqalı, atası Əbülfəz Bağırov Bakı-Dərbənd və Bakı-Lənkəran magistral yolunu çəkmiş tanınmış mühəndis idi. Rüstəm müəllim özü isə 74-illik həyatının yarım əsrdən çoxunu elmə və təhsilə, respublikanın qaz sənayesinin inkişafına həsr etmişdir.

Bağırov Teyfuq Bəydulla oğlu – 21 avqust 1958-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



1965-1975-ci illərdə Dərbənd şəhərinin 9 №-li məktəbində təhsil almışdır.

1975-1980-cı illərdə S.Orconekidze adına Moskva Aviasiya İnstitutunun iqtisad fakültəsində mühəndis-iqtisadçı ixtisas üzrə təhsil almışdır.

1980-1987-ci illərdə Bakı Aqreqat-İstehsalat Birliyində Hesablama Məlumat bürosunun rəisi vəzifəsində çalışıb.

1987-1990-cı illərdə Bakı "Ulduz" Zavodunda

əmək və əmək haqqı şöbəsinin büro rəisi vəzifəsində çalışıb.

1990-1991-ci illərdə "Bakmil" Sovet-İtaliya Birgə Müəssisəsinin maliyyə direktorunun köməkçisi vəzifəsində çalışıb.

1991-1993-cü illərdə "İzmir" KNPO-da baş iqtisadçı vəzifəsində çalışıb.

1993-1998-ci illərdə Dərbənd şəhərində yerləşən Azərbaycan Dövlət iqtisad Universitetinin filialında baş müəllim vəzifəsində çalışıb.

1998-ci ildən hal-hazıradək audit firmasının müdiri. Evlidir. Üç uşağı – bir oğlu və iki qızı var.

Bağırova (Seyidova) Maqbula İmamverdi qızı –



10 fevral 1936-ci ildə Dərbənd şəhərinin 6-cı mahalında anadan olmuşdur. Atası Seyidov Mir İmamverdi 1937-ci ildə repressiyaya uğramış və həmin 1937-ci ildə onun ailəsi Qazaxıstan Respublikasının Kokçitav rayonuna sürgün olunmuşdur.

1943-1953-cü illərdə Qazaxıstan Respublikası Kokçitav rayonunun orta məktəbində təhsil almışdır.

1955-ci ildə Seyidovlar ailəsi bəraət qazanmış və Dərbənd şəhərinə qayıtmışdır.

1960-1965-ci illərdə Dağıstan Dövlət Universitetinin biokimya fakültəsinin qiyabi şöbəsində biokimyaçı ixtisası üzrə təhsil almışdır.

1955-1961-ci illərdə Dərbənd şəhərinin 8 №-li məktəbində pioner dəstə başçısı və kargüzar vəzifələrində çalışıb.

1961-1967-ci illərdə Dərbənd şəhərinin 9 №-li məktəbində kimya və biologiya müəllimi və direktor müavini vəzifələrində çalışıb.

1967-1970-ci illərdə Dərbənd şəhərində Uşaq Evinin direktoru olmuşdur.

1970-1972-ci illərdə Dərbənd Şəhər Partiya Komitəsində təlimatçı vəzifəsində çalışıb.

1972-1976-cı illərdə Dərbənd Şəhər Partiya Komitəsində katibi vəzifəsində çalışıb.

1976-1996-cı illərdə Dərbənd şəhərində Uşaq Bağçasının direktoru vəzifəsində çalışıb.

2011-ci ildə Dərbənd şəhərində vəfat edib. Onun üç oğlu var idi.

Baqliyev Məlik Canmedinoviç – 11 iyun



1955-ci il tarixdə Dağıstan Respublikasının Xasavyurt rayonunun Yeni Kurş kəndində anadan olmuşdur.

1978-ci ildə Dağıstan dövlət universitetini bitirən kimi Dağıstan Respublikasının DİN-nin sistemində cinayət axtarışı üzrə müfəttiş kimi işə başlamış və DİN-nin təbii sərvətlərin mühafizəsi şöbəsinin rəis müavini vəzifəsinə yüksəkləşmişdir.

1994-cü ildən Vergilər polis Departamentinin İdarəsinin şöbə rəisi vəzifəsində çalışır, 2000-ci ildə isə Dağıstan Respublikası üzrə RF Vergi Polis Federal Xidməti İdarəsinin rəis müavini təyin edilmişdir.

2003-cü ildə Dağıstan Respublikası üzrə RF Vergi Polis Federal Xidməti İdarəsinin narkotik dövriyyə şöbəsinin rəis müavini təyin edilmişdir.

11 yanvar 2007-ci il tarixdə Dağıstan Respublikası Prezidentinin sərəncamı ilə Dağıstan Respublikası Təbii Sərvətlər və Ətraf Mühitin Mühafizəsi naziri təyin edilmişdir.

2008-ci ilin yanvar ayından Dağıstan Respublikası Hesablama Palatasının sədri, 2013-cü ilin iyul ayında Dağıstan Respublikası Əmək və Sosial İnkişafı naziri təyin edilmişdir.

2014-cü ildən Dərbəndin meridir.

Dağıstan Respublikasının əməkdar hüquqşünası, Rusiya Federasiyası Vergi Polisinin fəxri işçisi, Rusiya Federasiyası narkotik nəzarəti üzrə fəxri işçisi, Dağıstan Respublikasının fəxri fərmanı, Rusiya Federasiyasının DİN, RF VPİ-nin və RF NDİ-nin medalları ilə təltif edilmişdir.

Milliyyətcə ləzgidir. Evli, üç uşağı var.

Baxşiyev Dubiyə Yusufoviç – 1914-cü il fevralın 15-də Dərbənd şəhərində anadan olmuşdur.



O, birinci dərəcəli məktəbi və Dərbənd stansiyasının parovoz deposunun nəzdindəki FZM-i bitirmişdir. Fabrik-zavod məktəbində çilingər işi üzrə təlimatçı, tat dilində çıxan «Zəhmətkeş» qəzetinin redaksiyasında

işləmişdir. 1935-ci ildə «Pravda» adına Ümumittifaq Kommunist Jurnalistika İnstitutuna göndərilmişdir. Üç ildən sonra onu təhsil əlaçısı kimi ÜİK(b)P MK nəzdindəki Mərkəzi qəzet kurslarına qəbul etdilər. Bu kursu bitirdikdən sonra o, ÜİK(b)P MK «Partiynoe stroitelğstvo» («Partiya quruculuğu») jurnalının şöbə müdiri işləmişdir.

Baxşiyev D.Y. Böyük Vətən müharibəsi iştirakçısıdır. O, Cənub-qərb və Stalinqrad cəbhələrində vuruşmuşdur. Göstərdiyi şücaətə və qəhrəmanlığa görə 3-cü dərəcəli şöhrət ordeni, «Stalinqradın müdafiəsinə görə» medalları ilə təltif edilmişdir.

1942-ci ilin sentyabrında ağır yaralandıqdan sonra II dərəcəli əlillik qrupu alaraq ordudan tərxis olunur. Moskvada nəşriyyatda işləmişdir. Ali Partiya məktəbini və Sovet İttifaqı KP MK nəzdində İctimai Elmlər Akademiyasının aspiranturasını bitirmişdir. Dissertasiya müdafiə etmiş və tarix elmləri namizədi elmi dərəcəsini almışdır.

Baxşiyev D.Y. 1952-ci ildə Böyük Sovet Ensiklopediyasının Baş Redaksiyasına işə göndərilmişdir. O, burada baş elmi redaktor, sonra isə redaksiya müdirinin müavini işləmişdir.

Baxşiyev D.Y. 1944-cü ildən Moskvanın Ali məktəblərində müəllim işləmişdiir. O, 1962-ci ilin fevralında Moskva Yüngül Sənaye Texnologiya İnstitutunun Sovet İttifaqı KP tarixi və fəlsəfə kafedrasının müdiri seçilmişdir. 1965-ci ildə tarix elmləri doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.

Baxşiyev D.Y. uzun illər ərzində ictimai elmlər kafedrasının şurasına rəhbərlik etmişdir.

Uzunmüddətli məhsuldar jurnalist, pedaqoji, elmi və ictimai işinə, ali məktəblərdə təlim-tərbiyə prosesinin təkmilləşdirilməsinə və inkişafına böyük əmək sərf etdiyinə görə D.Y.Baxşiyev dəfələrlə dövlət mükafatları ilə, Ali və Orta Peşə Təhsili Nazirliyinin, SSRİ EA-nın, bir sıra beynəlxalq təşkilatların fəxri fərmanları ilə mükafatlandırılmışdır.

Baxşiyev D.Y. 1993-cü ildə vəfat etmiş və Dərbənd şəhərində dəfn edilmişdir.

Baxşiyev Mixail Yusufoviç (1910-1972) – tat yazıçısıdır. O, əsərlərini «Mişi Baxşiyev» imzası ilə yazırdı. Dərbənd şəhərində fəhlə ailəsində anadan olmuşdur. 1931-ci ildə fəhlə fakültəsini, 1936-cı ildə isə Moskva torpaq quruculuğu institutunu bitirmişdir. DMSSR Xalq Torpaq komissarlığında SSRİ Yazıçılar İttifaqı Dağıstan şöbəsinin katibi, Dağıstan ÜİK(b)P Vilayət komitəsi mətbuat sektorunun müdiri işləmişdir. Böyük Vətən müharibəsi iştirakçısıdır. Döyüş orden və medalları ilə təltif edilmişdir. Müharibədən sonra Sovet İttifaqı KP Dağıstan Vilayət Komitəsində, «Daqestanskaə pravda» respublika qəzetində redaktor müavini işləmişdir. DMSSR əməkdar mədəniyyət işçisidir.

M.Y.Baxşiyev tat sovet ədəbiyyatının banilərindən biridir. Onun ilk kitabı, povesti «Yeni həyata doğru» («Navstreçu novoy jizni») 1931-ci ildə Moskvada «Gənc qvardiya» («Molodaə qvardiə») nəşriyyatında çapdan çıxmışdır. 1932-ci ildə həmin nəşriyyatda onun «Komsomol haqqında» («O komsomole») şeirlər toplusu, Bakıda isə tat dilində «Oktyabrın neməti» şeirlər toplusu çıxıb.

M.Y.Baxşiyevin əsas əsərləri «Komsomol» (M.,1939), «Şeirlər və mahnılar» (Bakı, 1937), «Şah Abbas və hambal» (Mahaçqala, 1940), «Yerlilərim haqqında hekayələr» (Mahaçqala, 1950), «Yeni Kuruşda», «Doğma insanlar» (Mahaçqala, 1950), «Şeirlər və poemalar» (Mahaçqala, 1957), «Sadə adamlar» (Mahaçqala, 1958), «Mahnılar» (Mahaçqala, 1955), «Mənim həmvətənlərim» (Mahaçqala, 1960), «Qoy hamı tanısın» (Mahaçqala, 1970), «Üzüm salxımları» (Mahaçqala, 1971), «Narınqala divarları yanında» (Mahaçqala 1967 və 1979) və s-dir.

Bakıxanov Abbasqulu ağa Mirzə Məhəmməd oğlu (1794-1846) – məşhur Azərbaycan yazıçısı, şairi, filosofu, diplomatı, tarixçisi, coğrafiyaşünası, arxeoloqu, astronomu və maarifçisi idi.



O, əsərlərini «Qüdsi» təxəllüsü ilə imzalayırdı («Qüdsi» – ərəb dilində – müqəddəs, xeyirxah, dindar deməkdir).

A.Bakıxanov özünün fundamental tarixi-ensiklopedik «Gülüstani-İrəm» əsərində Azərbaycanın və Dağıstanın tarixini qədim zamanlardan başlayaraq 1813-cü ilə qədər (Gülüstan sülh müqaviləsinin imzalanmasınadək) tədqiqatını aparmış və bu əsərdə Dağıstanın tarixi haqqında da maraqlı məlumatlar verilmişdir.

Müəllif şəhərin ərəblər tərəfindən işğalının nəticələri, monqol yürüşləri, Ağqoyunlu və Qaraqoyunlu ara müharibələri, İranın təsirinin genişlənməsi və s. analiz edilmişdir. Bu əsər indiyədək Avropa və Rusiya elmi ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. A.Bakıxanovun bir sıra digər əsərləri də Dərbənd şəhəri ilə bağlıdır. Rusiya EA Asiya Ölkələri İnstitutunun arxivlərində A.Bakıxanovun 1731-ci ilə aid olan maraqlı «Dərbəndin ətrafında tapılan dörd kitabə Qırxlar qəbirstanlığına bərabərdir» əlyazması xüsusilə mühüm əhəmiyyət kəsb edir. XIX əsrin 40-cı illərində A.Bakıxanov məşhur oriyentalist Xanıkovun xahişi ilə Cümcüm qəbir daşından estamp çıxarmaq üçün Dərbəndə gəlmişdir. Xanıkov tərəfindən yazı və tərcümə 1856-cı ildə nəşr edilmişdir. Bakıxanovun nəslindən məşhur musiqiçilər yetişmişdir. Məşhur tarzən, ansambl rəhbəri və müəllim Əhmədağa Bakıxanov, görkəmli bəstəkar və skripkaçı Tofiq Əhmədağa oğlu Bakıxanov bu nəsildəndirlər.

Baratınski Aleksandr Nikolayeviç (1867-1918) – Dərbəndli məşhur alim Mirzə Kazımbəyin nəvəsi, birinci rus inqilabının fəal iştirakçısı olmuşdur. 1907-ci ildə III Dövlət Dumasına deputat seçilmişdir. Duma buraxıldıqdan sonra Kazan ətrafındakı şəxsi mülkündə yaşamış və təsərrüfat işləri ilə məşğul olmuşdur. 1918-ci ildə bolşeviklər tərəfindən güllələnmişdir.



Bayramov Paşa Qulam oğlu – 1921-ci il dekabrın 21-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

Bakı ticarət texnikumunu qida məhsullarının hazırlanması üzrə texnoloq ixtisası ilə bitirmişdir (1960-1963).

Böyük Vətən müharibəsinin (1941-1945) ilk günlərindən iştirakçısı olmuşdur. Hərbi xidmətini tank qoşunlarında keçmişdir. Stalinqrad, Rostov və digər şəhərlər ətrafında gedən döyüş əməliyyatlarında iştirak etmişdir. Ağır yaralanmış və Saratov şəhərindəki hərbi hospitalda yerləşdirilmişdir.

Böyük Vətən müharibəsində fəal iştirak etdiyinə görə «Hünərə görə», «Stalinqradın müdafiəsinə görə» və digər medallarla təltif edilmişdir.

Bakının mərkəzində yerləşən, rəsmi görüşlər və ziyafətlərin təşkil edildiyi məşhur «Novbahar» və «Dostluq» restoranlarında baş aşbaz idi. Bayramov Paşa özünün aşpazlıq sənətinin incəliklərini böyük həvəslə gənclərə öyrədirdi. Onun şagirdlərindən biri özünün ixtisası üzrə Almaniyada işləyən oğlu Mirzə Bayramovdur. Uzun müddət ticarət sistemində baş aşbaz vəzifəsində (1960-1989) işləmişdir və «Sovet ticarətinin əlaçısı» döş nişanına layiq görülmüşdür.

Əmək və müharibə veteranı olmuşdur. 1-ci dərəcəli əlil idi.

1994-cü ildə vəfat etmişdir. Bakı şəhərində dəfn olunmuşdur.



Bayramov Vladimir İbrahimoviç – 1951-ci il aprelin 4-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

O, 1972-ci ildə Kazan Ali Tank Komandanlıq məktəbini bitirmişdir. Tağıma, bölüyə, batalyona, motoatıcı alaya, motoatıcı diviziyaya komandanlıq etmişdir.

1981-ci ildə Zirehli Tank Qoşunları Akademiyasını, 1991-ci ildə isə Silahlı Qüvvələrin Baş Qərargah Akademiyasını bitirmişdir. 1992-ci ildə ona general-mayor hərbi rütbəsi verilmişdir.

1994-cü ildən Rusiyanın FHN-nin mülki müdafiə, fövqəladə hallar və təbii fəlakətlərin aradan qaldırılması işləri üzrə Şimali Qafqaz regional mərkəzinin rəis müavini işləyir.



Behbudov Səfi Maxış oğlu – 1933-cü il mayın 1-də Cəbrayıl rayonunun Aşağı Maralyan kəndində qulluqçu ailəsində anadan olub. Azərbaycanlıdır. Uşaqikən anasını itirib, atası isə Böyük Vətən müharibəsində şəhid olub. Qardaşının himayəsində böyüyüb.

O, yeddiillik təhsilini Aşağı Maralyan kəndində alıb. 1951-ci ildə akad. Mehdi Mehdizadə adına Cəbrayıl orta məktəbini bitirib və həmin ildə Bakı Dövlət Universitetinin (keçmiş S.M.Kirov adına) filologiya fakültəsinə daxil olub. 1956-cı ildə həmin

Universiteti qurtarıb və Cəbrayıl rayonundakı Aşağı Maralyan kənd məktəbinə müəllim göndərilib. 1956-cı ildən 1960-cı ilin oktyabrına kimi həmin məktəbdə həm tədris hissə müdiri vəzifəsində çalışıb, həm də dil-ədəbiyyat müəllimi işləyib.

1960-cı ilin oktyabrından 1963-cü ilin oktyabrına kimi Azərbaycan MEA Nəsimi adına Dilçilik İnstitutunun (keçmiş Nizami adına Ədəbiyyat və Dil İnstitutunun) əyani aspirantı olub. 1966-cı il oktyabrın 21-də «Azərbaycan dilinin Zəngilan şivəsi» mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 1 dekabr 1991-ci ildə SSRİ AAK qərarı ilə baş elmi işçi diplomu alıb.

S.M. Behbudovun indiyə kimi 100-ə qədər elmi məqaləsi ölkəmizdə və ölkəmizdən kənarda müxtəlif jurnallarda və məcmuələrdə çap olunub. Bakıda, Moskvada, Sankt-Peterburqda, Ufada, Ujqorodda, Nukusda və başqa şəhərlərdə türk dillərinin dialektologiyası məsələlərinə həsr olunmuş ümumittifaq müşavirələrdə və digər elmi konfranslarda maraqlı və məzmunlu məruzələrlə çıxış edib.

Türkdilli respublikalar içərisində ilk nümunə olan və 128 xəritədən ibarət «Azərbaycan dilinin dialektoloji atlası»nın (1990), Türkiyədə çap edilmiş ikicildlik «Azərbaycan dilinin dialektoloji lüğəti»nin (1999, 2003), «İraq-türkman ləhcəsi» (2004), «Azərbaycan dili dialekt və şivələrində köməkçi nitq hissələri» (1992), «Rasim Kərimlinin poeziyası» (2002), «Azərbaycan dilinin Dərbənd dialekti» (2008), «Dərbənd dialektində və Zəngilan şivəsində zaman anlayışını bildirən sözlər» (2008), «Dərbənd dialektində -lar, -lər, şəkilçisi və onun məna xüsusiyyətləri» (2008) əsərlərinin əsas müəlliflərindən biri və «Azərbaycan dili şivələrinin omonimlər lüğəti»nin (2003) müəllifidir.

S.Behbudov hazırda Azərbaycan MEA Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dialektologiyası şöbəsində aparıcı elmi işçi vəzifəsində çalışır, ailəlidir, iki qızı, bir oğlu, 4 nəvəsi var.

Berezin İllarion Nikolayeviç (1818-1896) – məşhur rus şərqşunası (türkşünas, iranşünas, monqolşünas), Kazan Universitetinin professoru, Mirzə Kazımbəyin tələbəsi, dostu və sirdaşı olmuşdur. O, özünün Yaxın və Orta Şərq ölkələrinin arxeologiya, filologiya və tarix işləri ilə tanınmışdır.

Berezin İ.N. 1842-ci ildə Dərbənddə olmuş və şəhərin o dövrdəki təsvirini vermişdir: «Dərbəndi yaxşı tanımaq üçün, onun bazarını gəzmək kifayətdir. Bütün ictimai həyat burada cəmlənir: alverçilər, dəmirçilər, mallarının qarşısında çömbəlib oturan qırmızı saqqallı tacirlər və s. Dərbənd bazarı şəhərin bütün mərkəzini əhatə edir: küçə kimi uzun sıraya düzülmüş ipək mallarla dolu kiçik dükanlar, onların yanında iki karvansara. Dərbəndin yadelli cəmiyyəti bazarlarda, karvansarada, hamamlarda və məscidlərdə yaşayır».

Bəxşəli Qaçaq - O, Məcəlisdə yaşamışdır. Kimsə onun nəslindən olan qadının namusuna toxunur. Bəxşəli axşam namazını məsciddə həmkəndliləri ilə birlikdə qaldıqdan sonra Dərbəndə gəlir, həmin adamı öldürür və geri qayıdır. Səhər namazını yenə məsciddə qılır. Axşam və səhər camaat onu məsciddə gördükləri üçün onu heç kim ölümdə günahlandıra bilmir.

Bəxşəli Dərbənddə özünün ikinci düşmənini öldürür və Quba meşələrində gizlənir.

Bəşirova (Cəfərova) Həqiqət Həbibulla qızı –



1955-ci il aprelin 17-də Bakı şəhəri Sabunçu rayonunda anadan olmuşdur və Dərbəndli Tacir Hacı Cəfər nəslinin nümayəndəsidir. Azərbaycanlıdır. Bakı şəhər Sabunçu rayon 75 saylı orta məktəbini (1962-1968), Bakı Neft Texnikumunu kimyaçı-texnoloq ixtisası üzrə (1970-1973) bitirmişdir. 1973-cü ildən 2004-cü ilədək Azərbaycan Respublikası Kimya sənayəsi Nazirliyinin Olefinlər Ümumittifaq Elmi-Tədqiqat İnstitutunda texnik-texnoloq vəzifəsində işləmişdir.

İctimai həyatda fəal iştirak etdiyinə görə Ümumittifaq Olefinlər Elmi-Tədqiqat İnstitutunun Komsomol komitəsinə, Xətai rayon Partiya Komitəsinə üzv seçilmişdir. Sonra Xətai rayon sovetinə deputat və Xətai rayon xalq məhkəməsinə iclasçı seçilmişdir.

1977-1979-cu illərdə dəfələrlə Xətai rayon, Bakı şəhər komsomol və partiya konfranslarına nümayəndə seçilmişdir.

Əmək fəaliyyətində və ictimai işlərdə göstərdiyi fədakarlığa görə dövlət mükafatları ilə, fəxri

fərmanlarla və «Rəşadətli əməyə görə» medalı ilə mükafatlandırılmışdır.

Bəşirov Məşədi Salman – 1870-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. O, şəhərdə baş verən inqilab hadisələrində fəal iştirak etmişdir. 1918-ci ildə oğlu Abdulla ilə birlikdə «Hümmət» təşkilatına və K.Məmmədbəyov tərəfindən bağların və bağçaların mühafizəsi üçün yaradılmış Xüsusi süvari dəstəyə qoşulmuşdu. Dəstə quldurların basqınlarına məruz qalmış kəndlilərin təsərrüfatlarını qoruyurdu.

1918-ci ilin ortalarında Çolaq Cəfərin başçılıq etdiyi quldur dəstəsi şəhərin şimal bağlarına və bağçalarına basqın etmişdi və kəndlilərin böyük qoyun və inək sürülərini aparmışdı. K.Məmmədbəyovun dəstəsi quldurları şəhərdən 12 km aralıda – Zidyan-Qazmalar kəndi yaxınlığında yaxalamış və darmadağın etdikdən sonra əhalinin əmlakını özünə qaytarmışdır. Bu döyüşdə quldur dəstəsinin başçısı Çolaq Cəfər öldürülmüşdür. Həlak olanların arasında Bəşir Məşədi Salmanda var idi. Həlak olmuş döyüşçülər Qolisin bağında qardaş qəbiristanlığında dəfn olunmuşdular. 1920-ci ildə şəhər küçələrinin biri onun adı ilə adlandırılmışdır.

Binayev Asail – 1904-cü ildə Dərbənd şəhərində anadan olmuşdur. Tatdır. Orta təhsilli, ÜİK(b)P üzvü olmuşdur. Dərbənd rayon ÜİK(b)P təbliğat və təşviqat şöbəsinin müdiri və tat dilində çıxan «Zəhmətkeş» qəzetinin redaktoru işləmişdir. 1934-cü ildə Dərbənd Şəhər zəhmətkeş deputatlar sovetinin sədri vəzifəsində işləmişdir. 1937-ci ildə repressiyanın qurbanı olmuşdur.

Bünyadzadə Dadaş Xoca oğlu (8.4.1888, Bakı yaxınlığındakı Fatmayı k. - 1938) – siyasi və dövlət xadimi. 1908-ci ildə Rusiya Sosial-Demokrat Fəhlə Partiyasına (RSDFP) daxil olmuş, «Hümmət» təşkilatının fəaliyyətində yaxından iştirak etmişdir. 1917-ci il Fevral inqilabından sonra «Hümmət» (bolşevik) təşkilatının rəhbərlərindən biri olmuş, Bakı Soveti İcraiyyə Komitəsinin üzvü seçilmişdir. 1918-ci il iyunun əvvəlində S.Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Soveti onu Bakı qəzasında əksinqilaba və banditizmə qarşı mübarizə üzrə fövqəladə müvəkkil təyin etmişdi. Bakıda sovet hakimiyyətinin süqutundan sonra Həştərxana qaçmış, Rusiya Kommunist (bolşeviklər) Partiyası (RK(b)P) Həştərxan quberniya komitəsinin üzvü seçilmiş, Zaqafqaziya müsəlmanlarının işləri üzrə komissarlığın sədri, «Hümmət»in Həştərxan təşkilatı bürosunun üzvü olmuşdur.



Cavadov Abı Zeyfullayeviç - 9 fevral 1960-cı ildə Dərbənd şəhərində anadan olmuşdur. 1977-ci ildə o ümumtəhsil məktəbini qurtardıqdan və orta təhsil haqqında attestatı aldıqdan sonra "Elektrosiqnal" Dərbənd zavoduna əmək fəaliyyətinə başladı, orada onun SSSR-nin Hərbi Qüvvələrin çağırışına qədər çalışmışdır.




1982-ci ildən 1992-ci ilədək çörək zavodunda briqadir və eyni zamanda "Taxıl" cəmiyyətinin idman məktəbinin məşqçi vəzifəsində işləyirdi. 1992-ci ildə Abı Cavadov quyunu qazmışdır və "Bulaq" tikmişdir.

Məktəb illərdən Abı Cavadov idman ilə, xüsusilə ağır atletikaya ciddi yanaşmağabaşlamışdır. Əmək fəaliyyəti ilə yanaşı sevimli idmanla çalışırdı. O 1982-ci ildə ağır atletika üzrə SSSR-nin idman ustası adı almışdır, özü və gənclərlə məşq edirdi.

2014-cü ildə Naxçıvan şəhərində dünya çempionu və Kybokun sahibi olmuşdur.

2012-ci ildə Dünya iqtisadiyyati İnstitutunu menecer ixtisası üzrə bitirmişdir. Həmin ildə Mədəniyyət İnstitutunun bədən tərbiyəsifakültəsini bitirərək ikinci ali təhsilini almışdır.

Cəbrayılov Hacı Rəcəb oğlu – 1934-cü ildə anadan olmuşdur. Azərbaycanlıdır. Odessa Ali Mühəndisləri məktəbini «Energetik» ixtisası üzrə bitirmişdir. Kənd elektrorabitə sahəsində müxtəlif vəzifələrdə çalışmışdır. 1982-ci ildən Dərbənd evtikmə kombinatında işləmiş, hazırda «Dağcənubtikinti» şirkətinin baş direktoru vəzifəsində işləyir.



Cəfərova (Nağıyeva) Amilə İslam qızı – 1930-cu il iyunun 14-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd Pedaqoji Məktəbini müəllim ixtisası üzrə bitirmişdir (1946-1949).



Uzun müddət Dərbənd (1950-1952) və Bakı şəhərlərinin (1961-1969) məktəbəqədər müəssisələrində müəllim, sonra Azneft Birliyinin məktəbəqədər müəssisələri üzrə baş inspektor vəzifəsində işləmişdir (1969-1987). Şəhərin məktəbəqədər müəssisələrində apardığı uğurlu tərbiyə işinə görə Fəxri fərmanlarla və «SSRİ neft sənayesi əlaçısı» döş nişanı ilə təltif edilmişdir (1985).

Əmək veteranıdır (1987).

Cəfərov Fizuli Həbibulla oğlu – 1941-ci il aprelin 23-də Dərbənd şəhərində anadan olmuşdur və Dərbəndli Tacir Hacı Cəfər nəslinin nümayəndəsidir. Azərbaycanlıdır.



4 saylı Dərbənd şəhər orta məktəbini (1948-1959), 1 saylı Dərbənd Şəhər Dəmiryol məktəbini (1959-1961), Rostov Dəmiryol Nəqliyyatı Mühəndisləri İnstitutunu mühəndis-elektromexanik ixtisası üzrə (1971-1976) bitirmişdir.

1968-ci ildən 1976-ci ilədək mühəndis, sex rəisi, Respublika Yol Nəqliyyatı Nazirliyinin Azərbaycan dəmiryol lokomotiv deposu partiya komitəsinin katibi işləmişdir. 1976-cı ildən 1980-ci ilə qədər Bakı şəhər Nizami rayonu 11 saylı texniki-peşə məktəbi direktor müavini işləmişdir.

1980-cı ildən bu günə qədər Azərbaycan dəmiryol təhlükəsizlik xidmətinin rəis müavini – yanğına nəzarət şöbəsinin baş təlimatçısı vəzifəsində işləyir.

Əmək fəaliyyətində göstərdiyi fədakarlığa və təmiz işinə görə fəxri fərmanlarla, dövlət medalları ilə mükafatlandırılmışdır və «Fəxri dəmiryolçu» döş nişanına layıq görülmüşdür (2004).

Dəmiryol xidməti general-mayorudur. Əmək veteranıdır (1985).

Cəfərov Fuad Kamil oğlu – 1952-ci il oktyabrın 7-də Bakı şəhərində anadan olmuşdur və Dərbəndli Tacir Hacı Cəfər nəslinin nümayəndəsidir. Azərbaycanlıdır.



Bakı şəhəri Yasamal rayon 189 saylı orta məktəbi (1960-1970), Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu – mühəndis ixtisası üzrə bitirmişdir (1970-1975).

İttifaq sukanal layihəsində layihələşdirici vəzifəsində işləmişdir (1975-1995). 1996-ci ildən indiyədək Geologiya muzeyində dizayner vəzifəsində çalışır.

Cəfərov Həbibulla Məmməd Rza oğlu – 1898-ci il dekabrın 31-də Dərbənd şəhərində anadan olmuşdur və Dərbəndli Tacir Hacı Cəfər nəslinin nümayəndəsidir. Azərbaycanlıdır.



Həbibullanın atası Məhəmməd Rza Hacı Səfər oğlu Hacı Əli Əsgərin nəvəsi olmuşdur, məşhur tacir və ilk dəfə azad seçki əsasında seçilmiş Dərbənd şəhər özünüidarə təşkilatının üzvü idi (1896-1917). Dərbənd şəhərinin məşhur bir nəslini təmsil edirdi.

Dərbənd şəhərində realnı məktəbini, M.V.Lomonosov adına Moskva Dövlət Universitetini, Novo-Çerkask Kənd Təsərrüfatı Universitetini bitirmişdir. Uzun müddət müəllimlik sahəsində çalışmışdır: sadə müəllimdən Dərbənd şəhərinin rayon xalq təhsili şöbəsinin müdiri vəzifəsinə qədər yüksəlmişdir.

Özünün maliyyə vəsaiti hesabına orta məktəb tikdirmişdir və uzun müddət həmin məktəbin direktoru olmuşdur.

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Elmi-Tədqiqat İnstitutunda baş elmi işçi, Respublikanın baş aqronomu, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirinin


müavini vəzifələrində işləmişdir.

Üzümçülüyün və şərabçılığın inkişafına elmi üsulların tətbiqi məsələlərinə həsr olunmuş və Azərbaycan Respublikasında nəşr olunmuş bir sıra kitabların və məqalələrin müəllifi olmuşdur.

Peşəkarlıq fəaliyyəti dövründə göstərdiyi xidmətlərə görə dövlət medalları, fərqləndirici döş nişanı və fəxri fərmanlarla mükafatlandırılmışdır. Əmək veteranı olmuşdur.


1977-ci ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Cəfərov Kamil Məmməd Bağır oğlu – 1925-ci il iyulun 9-da Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Bakı şəhərində peşə-mədən məktəbini (1932-1937), Dadaşov adına Gəncə İnşaat Texnikumunu kəşfiyyat qurğusu texniki ixtisası üzrə (1965-1970) bitirmişdir. Uzun müddət Geologiya Nazirliyi sistemində kollektor və istehsalat ustası vəzifəsində işləmişdir (1946-1990). Fədakar əmək fəaliyyətinə görə dövlət orden və medalları ilə təltif edilmişdir. Böyük Vətən müharibəsi iştirakçısıdır. Böyük Vətən müharibəsi illərində Kareliya cəbhəsində top tuşlayıcısı olmuşdur (1943-1945). Əmək veteranıdır.



2006-cı ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Cəfərov Məmməd Rza Hacı Cəfər oğlu – 1863-cü il mayın 10-da Dərbənd şəhərində məşhur tacir ailəsində anadan olmuşdur. Azərbaycanlıdır.



Məşədi Məmməd Rzanın atası – Hacı Cəfər Əli Əsgər oğlu şəhərdə məşhur tacir və böyük torpaq sahibi idi. Dərbənd şəhərinin məşhur bir nəslini təmsil edirdi.

Məşədi Məmməd Rza Dərbənd şəhəri realnı məktəbini bitirmişdir. O, şəhərin siyasi və mədəni həyatında fəal iştirak edirdi. Savadlılığına, rus və ərəb ədəbiyyatını bildiyinə, apardığı xeyriyəçilik işlərinə görə şəhər sakinləri arasında böyük nüfuza malik idi.

Buna görə də onun şəhər başçısı vəzifəsinə namizədliyi irəli sürülmüş, lakin o, bu vəzifədən imtina etmişdir. 1896-cı ildən 1917-ci ilədək azad seçkilər əsasında ilk dəfə seçilmiş Dərbənd şəhər özünüidarəetmə təşkilatının üzvü olmuşdur. Dərbənd şəhərində dəfn edilmişdir.

Cəfərov (Cəfərzadə) Məmmədyusif Hacıbala oğlu - (14.3.1885, Bakı 15.5.1938, Bakı, Şağan k.) - Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri; Cümhuriyyət Parlamentinin sədr müavini (2.2.1920-27.4.1920). Bakı kişi gimnaziyasını (1907) və Moskva Dövlət Universitetinin hüquq fakültəsini (1912) fərqlənmə diplomu ilə bitirmişdir. Təhsil illərində Moskvada oxuyan azərbaycanlı tələbələrin yaratdığı «Azərbaycan etnoqrafik konsert gecələri»nin və «Azərbaycan həmyerlilər təşkilatı»nın üzvü, sonralar isə rəhbərlərindən biri olmuşdur.



Ali təhsilini başa vurandan sonra Bakıya qayıdaraq, məhkəmədə andlı hakim köməkçisi vəzifəsində çalışmışdır. Hüquqşünas kimi şəhər əhalisinin hörmətini qazanan 27 yaşlı Məmmədyusif 1912-ci ildə Bakı, Yelizavetpol (Gəncə) və İrəvan quberniyalarının müsəlman əhalisi tərəfindən Rusiyanın 4-cü Dövlət Dumasına deputat seçilmişdir. O, 4-cü Dövlət dumasında Cənubi Qafqazdan seçilən yeganə müsəlman deputat idi.

M.Cəfərov 1912-17-ci illərdə Sankt-Peterburqda fəaliyyət göstərən 4-cü Dövlət dumasının 5-ci bölməsinin, Müsəlman fraksiyasının, büdcə, köçürmə, sorğu, məhkəmə islahatı, hərbi və dəniz işləri üzrə komissiyalarının üzvü seçilmişdir. O, dumada Rusiya baş nazirinin hesabatı, gömrük departamenti və köçürmə idarəsi üzrə xərclərin smetalarına dair budcə komissiyasının hesabatı, 1913-cü ildə Cənubi Qafqazın bəzi yerlərində məhsulsuz qalmış əhaliyə kömək tədbirləri, müharibə və s. məsələlərin müzakirəsi zamanı çıxışlar etmiş, çar hökumətinin müstəmləkəçilik siyasətini, Cənubi Qafqaz əhalisinə, xüsusən müsəlmanların

maariflənməsinə laqeyd münasibət göstərildiyini, hüquqlarının məhdudlaşdırıldığını, milli məktəblərin bağlandığını tənqid etmiş və kazarmaya çevrilmiş məscidlərin geri qaytarılmasını Müsəlman fraksiyası adından tələb etmişdir. Çarizmin köçürmə siyasətinə öz mənfi münasibətini bildirən M.Cəfərov, bunun «yerli ünsürü sıxışdırmaq yolu ilə ucqarlarda rus ünsürünü gücləndirmək» məqsədi daşıdığını göstərirdi. Köçürmə nəticəsində ən yaxşı torpaqların yerli əhalidən alınıb gəlmə əhaliyə verilməsini, yerli əhalinin yaşamaq imkanlarının əlindən alınmasını M.Cəfərov «dövlət işi yox», yerli əhaliyə qarşı yönəldilmiş «dövlət bəlası» hesab edirdi.

M.Cəfərov Sankt-Peterburqda olduğu dövrdə Lənkəran balıqçıları, Şamaxı müəllimləri, müsəlman ruhaniləri ona bir deputat kimi müraciət etmişlər. O, əhalinin irəli sürdüyü məsələləri həll etmək üçün bir sıra dövlət idarələri və nazirliklərlə əlaqə saxlamış, onların həllinə çalışmışdır.

Fevral inqilabını (1917) rəğbətlə qarşılayan M.Cəfərov 1917-ci il martın 9-da Müvəqqəti hökumətin göstərişi ilə 4-cü Dövlət dumasının üzvlərindən yaradılan Xüsusi Cənubi Qafqaz Komitəsinin tərkibinə daxil idi. Həmin komitədə ona sənaye və ticarət işlərinə rəhbərlik tapşırılmışdı. Bu komitə «Müvəqqəti hökumət tərəfindən 1917-ci il martın 6-da bütün xalqa elan olunmuş prinsiplər əsasında Cənubi Qafqaz diyarında möhkəm qayda yaratmalı və diyarda hakimiyyət orqanını təşkil etməli idi».

M.Cəfərov Fevral inqilabı nəticəsində əldə olunmuş azadlığı müdafiə etmək, qoruyub saxlamaq üçün bütün səyləri birləşdirməyə çağırırdı: «Bu azadlığı əlinizdən verməyin, onu əlinizdə möhkəm saxlayın, iç işləri barədə isə sonra danışarıq». Çarizmin devrilməsi ərəfəsində fəaliyyət göstərmiş 4-cü Duma tribunasından istifadə edən M.Cəfərov öz səsini müxalifətin səsinə qoşaraq «mərkəzləşdirilmiş bürokratik mexanizmin Rusiyanın özgə xalqlarının milli hislərini» təhqir etdiyini tam açıqlığı ilə bildirmişdi.

M.Cəfərov 1917-ci il aprelin 15-20-də Qafqaz müsəlmanlarının Bakıda keçirilən qurultayında çıxış etmiş, müsəlmanları birliyə çağırmışdır. Həmin il noyabrın 15-də Tiflisdə yaradılan Cənubi Qafqaz Komissarlığında M.Cəfərov ticarət və sənaye komissarı vəzifəsini tutmuşdu.

M.Cəfərov 1918-ci il fevralın 23-dən Tiflisdə işə başlayan Cənubi Qafqaz seyminin Müsəlman fraksiyasının üzvü, bu fraksiyanın ümumi rəyasət heyətinin sədr müavini idi. O, seymin və Müsəlman fraksiyasının iclaslarında dəfələrlə çıxış edərək, Cənubi Qafqaz xalqlarını dostluğa, ədavəti aradan qaldırmağa, əldə edilmiş azadlığı qorumağa çağırmış, Osmanlı dövləti ilə danışıqlara başlamağı və sülh sazişi bağlamağı təklif etmişdir. 1918-ci il mayın 27-də Müsəlman fraksiyasının fövqəladə iclasında Məmməd Əmin Rəsulzadənin sədrliyi ilə yaradılan Müvəqqəti Milli Şuranın İcraiyyə Komitəsinin tərkibinə M.Cəfərov da seçilmişdi.

M.Cəfərov Azərbaycan Müvəqqəti Milli Şurasının 1918-ci il mayın 28-dəki iclasında qəbul etdiyi İstiqlal bəyannaməsini imzalayanlardan biri olmuşdur. Həmin iclasda Fətəli xan Xoyskinin təşkil etdiyi ilk Azərbaycan Hökumətinin tərkibində M.Cəfərov ticarət və sənaye naziri vəzifəsini tutmuşdur. Həmin il iyunun 17-də Hökumət istefa verdikdən sonra, M.Cəfərov Azərbaycan Xalq Cümhuriyyətinin Gürcüstan Respublikasında diplomatik nümayəndəsi olmuşdur (1918-ci il iyunun axır-larından 1919-cu il martın ortalarına kimi). O, bu vəzifədə Azərbaycan və Gürcüstan hökumətləri arasında dostluq əlaqələrinin yaradılmasında, keçmiş Cənubi Qafqaz Federativ Respublikasının əmlakının bölüşdürülməsində, Gürcüstan və Dağlılar respublikaları nümayəndələrinin Tiflisdə keçirilmiş konfransında yaxından iştirak etmiş, Azərbaycan və Gürcüstan arasında əlavə müvəqqəti kağız pul buraxılması haqqında müqaviləni imzalamışdır.

1919-cu il martın 14-də Nəsib bəy Yusifbəylinin təşkil etdiyi 4-cü hökumətdə M.Cəfərov xarici işlər naziri vəzifəsini tutmuş, bu vəzifədə 1919-cu il dekabrın 22-ə qədər çalışmışdır. M. Cəfərov bir diplomat kimi Azərbaycan Respublikasının mənafeyini müdafiə etmişdir. Bu, onun imzaladığı Gürcüstan və Azərbaycan respublikaları arasında hərbi müdafiə sahəsində əməkdaşlıq haqqında müqavilədə, Ermənistan, Gürcüstan və Azərbaycan respublikaları arasında sazişdə, azərbaycanlılara qarşı soyqırımı və ayrıseçkilik siyasəti əleyhinə Ermənistan xarici işlər nazirliyinə, müsəlman əhalisinin mənafeyinin, əmlakının müdafiə edilməsi, Azərbaycanın ərazi bütövlüyünün qorunması barədə Böyük Britaniyanın Cənubi Qafqazdakı və Bakıdakı

qoşunlarının komandanlıqlarına göndərdiyi notalarda və s. aydın əksini tapmışdır.

M.Cəfərovun sərəncamı ilə çar Rusiyasının Cənubi Qafqazda siyasətinə dair sənədlər toplusunu hazırlamaq üçün xüsusi komissiya yaradılmışdı.

1920-ci il fevralın 2-də Məmməd Əmin Rəsulzadənin təklifi ilə Azərbaycan Parlamenti sədrinin birinci müavini seçilmiş və Cümhuriyyətin süqutunadək bu vəzifədə çalışmışdır. M.Cəfərov 1920-ci il aprelin 27-də Parlamentin son iclasında gərgin müzakirələrdən sonra hakimiyyətin Azərbaycan Müvəqqəti İnqilab Komitəsinə verilməsi haqqında qərarı imzalamışdır.

Cümhuriyyətin süqutundan sonra Azərbaycanın pambıqçılıq və şərabçılıq trestlərində hüquq məsləhətçisi vəzifəsində çalışmışdır.

Cəfərova Nailə Fərəculla qızı – 1945-ci il iyul ayının 10-da Dərbənd şəhərində anadan olmuşdur və Dərbəndli tacir Hacı Cəfər nəslinin nümayəndəsidir. Azərbaycanlıdır. Nailə xanımın babası Əlirza Hacı oğlu Dərbənddə məşhur tacir nəslini təmsil edirdi.



Nailə xanım Dərbənd şəhər 3 saylı orta məktəbini (1952-1962) və Dağıstan Dövlət Universitetini riyaziyyat müəllimi ixtisası üzrə əla qiymətlərlə (1962-1967), Dağıstan Dövlət Universitetini riyazi analiz kafedrasında aspiranturanı (1968), Azərbaycan Respublikasının müəllimləri təkmilləşdirmə kurslarını (1990) bitirmişdir.

1968-ci ildə Mahaçqala şəhərində Dağıstan Dövlət Universitetinin riyazi analiz kafedrasında assistent vəzifəsində işləmişdir. 1968-ci ilin sentyabr ayından 2001-ci ilə kimi Bakı şəhəri Suraxanı rayonu xalq təhsili sistemində riyaziyyat müəllimi işləmişdir. Müəllimlik fəaliyyətində göstərdiyi xidmətlərə görə dəfələrlə Respublika xalq təhsili idarəsinin fəxri fərmanları ilə mükafatlandırılmışdır. 1997, 1998-ci illərdə Bakı şəhəri üzrə keçirilən «İlin ən yaxşı müəllimi» müsabiqəsinin və riyaziyyat üzrə pedaqoji oxuların qalibi olmuşdur.

Cəfərov Nəbiulla Məmməd Rza oğlu – 1911-ci ildə Dağıstanın Dərbənd şəhərində məşhur tacir ailəsində anadan olmuşdur. Azərbaycanlıdır. M.V.Lomonosov adına Moskva Dövlət Universitetini və Azərbaycan Dövlət Universitetini bitirmişdir.

1930-cu ildən 1931-ci ilədək Dərbənd şəhər Xalq Komissarları Sovetində işləmişdir. 1931-ci ildən 1934-cü ilə qədər isə Azərbaycan SSR XKS-də işləmişdir.

1934-cü ildə xidməti vəzifəsini yerinə yetirərkən yol qəzası nəticəsində həlak olmuşdur. Bakı şəhəri fəxri xiyabanda dəfn edilmişdir. S.M.Kirov adına parkın salınması ilə əlaqədar onun cəsədi Dərbənd şəhərində yenidən dəfn edilmişdir.

Cəfərov Sadıq bəy - Dərbənd şəhərində anadan olmuşdur. Həmyerlisi, Kazan universitetinin professoru Mirzə Kazımbəyin məsləhəti ilə Kazan Universitetinin sınaq komitəsi nəzdində imtahanı uğurla vermiş və Həştərxan kişi gimnaziyasına ərəb və fars dilləri müəllimi təsdiq edilmişdir. Bu vəzifədə 1846-cı ildən 1866-ci ilədək işləmişdir.

Cəfərova Səkinə Əlirza qızı – 1917-ci il noyabr ayının 7-də Dağıstanın Dərbənd şəhərində anadan olmuşdur və dərbəndli tacir Hacı Cəfər nəslinin nümayəndəsidir. Azərbaycanlıdır. Səkinə xanımın babası Məmməd Rza Hacı Cəfər oğlu məşhur tacir və Dərbənd şəhərinin şəhər özünüidarəsinin üzvü olmuşdur (1896-1917).



Dərbənd Pedaqoji Məktəbini tərbiyəçi-müəllim ixtisası üzrə (1924-1934), Dərbənd şəhər partiya komitəsi nəzdində partiya məktəbi kurslarını bitirmişdir.

Orta məktəb müəllimi və Dərbənd rayon partiya komitəsində qadınlar şurasının sədri işləmişdir.

Böyük Vətən müharibəsi illərində (1941-1945) Dərbənd şəhər internat məktəbinin tədris hissə müdiri işləmişdir. Azərbaycana köçdükdən sonra uzun müddət tərbiyəçi, sonra isə Sumqayıt uşaq bağçasının müdiri vəzifəsində işləmişdir.

Pedaqoji fəaliyyətində nail olduğu xidmətlərə və respublikanın məktəbəqədər müəssisələrində uğurlu fəaliyyətinə görə dövlət mükafatlarına layiq görülmüşdür.

1984-ci ildə Naxçıvan şəhərində vəfat etmiş və Dərbənd şəhərində dəfn olunmuşdur.

Cəfərova Şövkət Kamil qızı – 1954-cü il may ayının 12-də Bakı şəhərində anadan olmuşdur. Dərbəndli tacir Hacı Cəfər nəslinin nümayəndəsidir. Azərbaycanlıdır.



Bakı şəhəri Yasamal rayonu 189 saylı orta məktəbi (1961-1971), Azərbaycan Neft-Kimya İnstitutunu mühəndis-energetik ixtisası üzrə (1971-1976) bitirmişdir. 1975-ci ildən 1980-ci ilə qədər Azərbaycan Neft-Kimya İnstitutunun mətbəəsində, Xəzər dəniz gəmiçiliyin Elmi-Tədqiqat İnstitutunda layihələşdirici, Azərbaycan Dövlət Neft Şirkətində mühəndis, Bakı Ali Hərbi Dənizçilik Məktəbinin gəmi enerji qurğuları kafedrasında baş müəllim (1993-2001) işləmişdir. Hazırda Moskva şəhərində Rusiya Neft Şirkətində işləyir.

Cəfərov Taleyim Kamil oğlu – 1963-cü il noyabr ayının 14-də Bakıda anadan olmuşdur. Dərbəndli tacir Hacı Cəfər nəslinin nümayəndəsidir. Azərbaycanlıdır. Bakı şəhəri Səbail rayonu 6 saylı orta məktəbi (1970-1980), Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu körpü və tünellərin tikintisi ixtisası üzrə (1986-1992) bitirmişdir.



Bakı kondisionerləri zavodunda (1980-1982), Bakı metropolitenində işləmiş və fəhlədən xidmət rəisinin müavini vəzifəsinədək yüksəlmişdir (1987-1995). Hazırda tikinti sahəsində kommersiya fəaliyyəti ilə məşğuldur.

Cəfərov Zeynalabdin Hacı Cəfər oğlu – 1887-ci ildə Dərbənd şəhərində məşhur tacir ailəsində anadan olmuşdur. Azərbaycanlıdır.



Dərbənd şəhərində orta məktəbi və Rostov Dəmiryol Texnikumunu texnik-elektromexanik ixtisası üzrə bitirmişdir (1921). O, öz əmək fəaliyyətini Azərbaycan Respublikasının dəmiryolu nəqliyyatının inkişafına həsr etmişdir. Uzun müddət Ağdaş, Ləki dəmiryolunda (1926) və Kürdəmir dəmir yolu stansiyasında işləmişdir. Ağdaş rayonunda Ləki qəsəbəsində uşaq müəssisələrinin və orta məktəbin tikilməsində yaxından köməklik göstərmişdir. İşdə göstərdiyi fədakarlığa və xidmətə görə fəxri fərmanlarla mükafatlandırılmışdır və «Fəxri dəmiryolçu» adına layıq görülmüşdür. 1964-cü ildə vəfat etmiş və Ləki qəsəbəsində dəfn edilmişdir.


Cəfərzadə Sürid Rza oğlu – Azərbaycanın tanınmış neftçisi, 1936-ci il avqustun 3-də Dərbənd şəhərində anadan olmuşdur. Dərbənd şəhər 8 saylı orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Neft və Kimya İnstitutuna daxil olmuş və neftçıxarma fakültəsini bitirmişdir.

Əmək fəaliyyətinə Neft Daşlarında qazmaçı vəzifəsində başlamışdır. 1977-1980-ci illərdə Suriya Ərəb Respublikasında neft-qazma və neftçıxarma sistemində baş usta vəzifəsində işləmişdi. İki çağırış SSRİ Ali Sovetinin deputatı seçilmişdir. Neft Daşlarında idarə rəisi və baş mütəxəssis kimi fəaliyyət göstərmişdir.

Cavadov Hətəm Ağəli oğlu (Ağaliyeviç) (1930-2000) - Dərbənd şəhərində anadan olmuş, yeddiillik orta məktəbi (hazırda 6 saylı orta məktəb), Dərbənd Pedaqoji Texnikumunu və Leninqrad Dövlət Universitetini bitirmişdir. 1956-cı ildə iqtisad elmləri namizədi namizədlik dissertasiyasını, 1968-ci ildə isə iqtisad elmləri doktoru dissertasiyasını müdafiə etmişdir. Lomonosov adına Moskva Dövlət Universitetinin professoru idi.

Dağıstan Dövlət Universitetində, Lomonosov adına Moskva Dövlət Universitetində muəllim, Moskva Dövlət Universitetində idarəetmə kafedrasının müdiri, SSRİ Xalq Təsərrüfatı Akademiyasında kafedra müdiri işləmişdir. Çoxsaylı elmi əsərlərdən başqa, o, ali məktəblər üçün «Siyasi iqtisad» dərsliyinin də müəllifidir. Bir sıra ölkələrdə – Çexoslovakiya, Polşa, Kuba və b.-da aspirantları və tələbələri olmuşdur. Moskva şəhərində dəfn edilmişdir.


Cəlilova (Mürsəlova) İntizar Vəliyulla qızı – 1946-cı il yanvar ayının 26-da Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1965-ci ildə orta məktəbi gümüş medalla bitirmiş, Dağıstan Dövlət Tibb İnstitutuna (Mahaçqala) daxil olmuş, 1971-ci



ildə «Müalicə-profilaktika» fakültəsini bitirmiş və Çuvaş Muxtar Respublikasının Kozlov şəhər xəstəxanasında ginekologiya şöbəsində həkim və şöbə müdiri kimi fəaliyyət göstərmişdir.

1972-1978-ci illərdə cərrah, 1978-1993-cü illərdə Azərbaycan Kurortlar Şurasında şöbə müdiri, 1993-2005-ci illərdə Respublika Diaqnostika Mərkəzində baş direktorun müavini, 1995-ci ildə baş direktor, 9 saylı poliklinikanın baş həkimi işləmişdir. Yüksək ixtisaslı həkimdir.

Cümcüm Müsaib Məmmədəli oğlu (1905-1974) – Dağıstan MSSR-ın xalq artisti. Bakı şəhərində kustarçı ailəsində anadan olmuşdur. Anasını erkən yaşlarında itirdiyi üçün onun tərbiyəsi ilə atası məşğul olmuşdur.



Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 15 yaşlı yeniyetmə məktəbə gedir. Məktəbdə oxuduğu illərdə onda teatra böyük məhəbbət oyanır. 1920-ci ildən 1928-ci il daxil olmaqla təhsildən ayrılmadan Azərbaycan Fəhlə Gənclər Teatrında işləyir. 1928-ci ildə istedadlı gənci Tiflisə, Azərbaycan Dövlət Teatrına dəvət edirlər. O, burada əvvəlcə aktyor, sonralar isə rejissor işləyir. Eyni zamanda teatr studiyasında oxuyur.

1933-cü ildə studiyanı bitirdikdən sonra o, Dağıstana dəvət edilir. O burada 1949-cu ilədək əvvəlcə rejissor, sonra isə Dərbənddəki Azərbaycan Teatrının baş rejissoru vəzifəsində işləyir. 1945-ci ildə Müsaib Cüm-Cümə DMSSR-nın əməkdar artisti fəxri adı verilir.

1949-cu ildə Dərbənddəki Azərbaycan Dövlət dram teatrı bağlanır və Dərbənd şəhərinə Axtı kəndindən Dövlət Ləzgi Dram Teatrı köçürülür. Müsaib Cümcüm bu teatra baş rejissor kimi dəvət olunur.

1960-cı ildə Müsaib Cümcümə DMSSR-nın xalq artisti fəxri adı verilir.

1967-ci ilin oktyabrında o, ləzgi teatrını buraxaraq bütün fəaliyyətini gənc tat teatrına həsr edir.

M.Cümcüm 1974-cü ilin iyul ayında vəfat etmişdir. O, işlədiyi müddətdə 140 tamaşanı səhnələşdirmişdir.

Dağıstanın xalq artisti Müsaib Məmmədəli oğlu Cümcümun yaşadığı evdə xatirə lövhəsi asılmışdır (Lenin küçəsi, 36).

Dadaşova (Əbdürəhimova) Hacı Fatimə xanım. Fatimə xanım Ağası qızı – Dərbənddə tanınmış Əbdürəhimovlar ailəsinin nümayəndəsidir. Azərbaycanlıdır. Onun qardaşı Hacı Mirzə bəy Cənubi Dağıstanın naibi və Dərbənd şəhər özünüidarəsinin müvəkkili olmuşdu.

XIX əsrin sonunda Fatimə xanım əsli bakılı olan burjuaziya nümayəndəsi Dadaşov Hacı Şıxəliyə ərə getmişdir. O, oğlanları ilə birlikdə, «Hacı Şıxəli Dadaşovun varisləri» gəmi şirkətinin sahibkarı idi. Onlar «300-letie üarstvovaniə doma Romanovıx» kitabına düşmüşlər.

XIX əsrin sonunda Ş.Dadaşov Bakıda Cümə məscidi tikdirir. Hazırda orada xalçaçılıq müzeyi yerləşir. Bundan əlavə o, şəhərdə böyük yaşayış evləri tikdirirdi. Hazırda bu evlər memarlıq abidələri sayılır. Hacı Şıxəlinin ölümündən sonra Hacı Fatimə Dərbəndə köçür və xeyriyyəçiliklə məşğul olur. O, burada ikimərtəbəli yaşayış evi (Buynaksk küçəsi, 31), üzüm bağı alır və sonuncuda ikimərtəbəli bağ evi tikdirir. Fatimə xanım yaxınları ilə birlikdə müqəddəs islam şəhərləri – Məkkə və Mədinəni ziyarət edir. Fatimə xanım 1942-ci ildə vəfat etmişdir.

Dadaşov Manuvax Mardaxayeviç – baş leytenant, dağ yəhudi şairi, 1912-ci ildə Dərbənddə anadan olmuşdur. O, 1929-1930-cu illərdə Moskva Dövlət Universitetinin nəzdində olan fəhlə fakültəsini bitirmişdir. Müxtəlif qəzetlərin redaksiyalarında işləmişdir.



M.M.Dadaşov hələ tələbə ikən şeir yazmağa başlamışdır. Onun ilk əsərləri şeir toplularında və dövri mətbuatda çap olunmuşdur. O, 1941-1945-

ci illər müharibəsində iştirak etmiş və 1943-cü ildə Zuqansk (Voroşilovqrad) şəhəri uğrunda gedən döyüşlərdə həlak olmuşdur.

Dadaşov Mixail Borisoviç – nasir, 1936-cı ildə Dərbənddə anadan olmuşdur. O, 1966-cı ildə Moskva Dövlət Universitetinin iqtisadiyyat fakültəsini bitirmişdir. M.B.Dadaşov «Za Kommunistiçeskiy trud» qəzetinin (İzberbaş şəh.) kənd təsərrüfatı şöbəsinin rəisi, sonra isə «Kommunist bayrağı» qəzetinin (Dərbənd şəh.) redaksiyasında işləmişdir. 1962-1965-ci illərdə Dərbənd komsomol komitəsinin birinci katibi, 1965-1985-ci illərdə Dərbənd icraiyyə komitəsinin maliyyə şöbəsinin rəisi vəzifələrində çalışmışdır, 1990-cı ildən Dərbənd rayon vergi müfəttişi rəisidir.

M.B.Dadaşov hekayələr («Ənus»), pyeslər («Zvannıy ujin»), satirik toplu («İspovedğ»), rəvayət («Sueta suet»), povestlər («Qorənka», «Bratğə»), roman («Sudğba») və s. əsərlər yazmışdır. O, muxtar respublika mükafatının laureatı. «Rus-dağ yəhudi lüğəti»nin müəllifidir.

Davıdova Gülbahar Şaulovna (1892-1983) – Dərbənd rayonunun Xoşmənzil kəndində anadan olmuşdur. Kənd orta məktəbini bitirmiş, xadimə işləmişdir. 1925-ci ildə ailəsi ilə birlikdə Dərbənd şəhərinə köçmüşdür. İlk kolxozların yaradılmasında fəal iştirak etmiş, manqa başçısı, briqadir, bir müddət kolxoz sədri işləmişdir.



Yüksək üzüm məhsulu yetişdirdiyinə görə SSRİ orden və medalları ilə təltif edilmişdir. 1966-ci ildə isə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

Keçmiş «Kommunizm yolu» sovxozu və şəhərin küçələrindən birinə Gülbahar Davıdovanın adı verilmişdir.

Dərbəndli Həsən xan – Fətəli xan Qubalının İlisu sultanlarının ailəsindən çıxmış arvadı Hürizaddan doğulmuş üçüncü, ən kiçik oğludur. Böyük qardaşı Əhməd xan Qubalı və Dərbəndlinin 1791-cı ildə ölümündən sonra taxt-taca sahib olan ortancıl qardaş Şeyxəli xan 7 yaşlı Həsəni Salyanın naibi təyin etdi.

1796-ci ildə general V.Zubovun komandanlığı altında Qafqazdakı rus ekspedisiyası korpusu Dərbəndi işğal etdi və əsir götürülmüş Şeyxəli xanın yerinə şəhərə onun bacısı Pəricə xanımı hakim təyin edildi. Rus meylinin tərəfdarı olan Pəricə xanım 12 yaşlı Həsən xanı məcbur edir ki, Rusiyaya itaət etsin və Salyanı general V.Zubova təhvil versin. Həsəni isə Fətəli xanın ölümündən sonra Qaytaq usmisi Rüstəm xana ərə getmiş anasının yanına göndərir.

1800-ci ilin mayında Şeyxəli xanın düşməni Surxay xan Qazıqumuxlu Dərbənd sakinlərinin müxtəlif qruplaşmaları ilə gizli razılaşaraq, Qaytaqdan Həsən xanı geri çağırır və ona qalanı almaqda kömək edir. Həsən xan özünü Dərbəndin xanı elan edir. O zamanlar Dərbəndin hakimi Şeyxəli xan tərəfindən təyin olunmuş Fətəli xanın qızı Pəricə xanım idi.

Dərbənd xanlığının taxt-tacına sahib olan Həsən xan Dərbənd sakini Hacı Tağını onu Rusiya təbəəliyinə qəbul edilməsi xahişi ilə Sankt-Peterburqa göndərir.

Şeyxəli xan torpaqlarının itirilməsi ilə barışmayaraq müttəfiqləri ilə Dərbəndi mühasirəyə alır. Şəhərin 12 günlük mühasirəsi uğursuz nəticələnir. Bir müddət keçdikdən sonra Şeyxəli xan yenidən buraya hücum edir və Ulus mahalının bütün kəndlərini özünə tabe edir. Beləliklə, Həsən xanın hakimiyyəti altında yalnız Dərbənd şəhəri qalır. Lakin tezliklə Rusiya imperatoru I Paveldən (1796-1801) Həsən xana və Şeyxəli xana şəxsi təşəkkür, qardaşların barışması və öz aralarında ittifaq yaratmaları haqqında əmr məktubu göndərilmişdir. Qardaşlar Samur çayının sahilində görüşdülər, barışdılar və onlardan hər biri öz hakimiyyətində qaldı. Həsən xan 1803-cü ildə vəfat etdi. Onu əvvəl şimal qəbirstanlığında ailəvi məqbərədə dəfn etmişlər, sonra isə onun cəsədi şiələrin müqəddəs şəhəri olan Kərbalaya aparılmış və orada dəfn olunmuşdur.

Dərbəndli Əhməd xan – Fətəli xan Qubalının Qaraqaytaq usmisi Əmir Həmzənin bacısı Tutu Bikədən doğulmuş böyük oğlu idi. 1787-ci ildə Tərki şamxalı Məhəmmədin qızı Kiçibikə ilə evlənmişdir.

1789-cu ildə atasının ölümündən sonra 1759-cu ildən Dərbəndin də daxil olduğu Quba xanlığının taxt-tacına sahib olur. Lakin gənclik ehtirasına

qapılaraq (atasının keyfiyyətləri onda olmadığı üçün) o, Quba xanlığından asılı olan xanları öz tabeliyində saxlaya bilmədi. Bakılı Mirzə Məhəmməd xan, Şamaxılı Hacı Məhəmmədəli xan və başqaları acıqla müstəqillik göstərməyə başladılar və hətta silahla hədələdilər. Əhməd xan kömək üçün Rusiyaya müraciət etdi. Lakin rədd cavabı aldığından öz gücünə onlara cavab vermək məcburiyyətində qaldı. Lakin bu, uğursuzluqla nəticələndi. Fətəli xan tərəfindən yaradılmış böyük Quba xanlığı tezliklə dağıldı. Əhməd xan 1791-ci ildə Qubada vəfat etdi və Qırxlar qəbiristanlığının yanındakı ailə sərdabəsində anasının yanında dəfn edildi.

Dərbəndli Zərnigar xanım (1722-1770) – məşhur şairə. Dərbənd taciri Hacı Yaqubun yeganə qızı olmuşdur. Çox yaxşı ev təhsili almışdır. Zərnigar xanım lap uşaqlıqdan poeziyaya və musiqiyə böyük həvəs göstərmişdir. O, sazda çox gözəl çalır, oxuyur və mahnı qoşurdu. Tezliklə o, tanınmış şairə oldu və onun sorağı Dərbənddən çox-çox uzaqlara yayıldı. O, bir çox şeir yarışlarında məşhurlaşmışdı. Hətta belə bir əfsanə də söyləyirlər ki, Zərnigar xanım and içir ki, kim ona şeir yarışında qalib gəlsə ona ərə gedəcək. 39 aşıq onunla yarışda məğlub olur və sazlarını onun ayaqları altına qoyurlar. Yalnız Uzaq Qarabağdan olan aşıq Valeh deyişmədə ona qalib gəlir. Öz sözünə sadiq qalan Zərnigar xanım aşıq Valehə ərə gedir. Aşıq Valeh onu öz vətəninə aparır. Hazırda Qarabağın Salamtəpəsi kəndinin qəbiristanlığında aşıq Zərnigar xanımın başdaşı var. «Valeh və Zərnigar» dastanını onun ən gözəl əsərlərinə aid etmək olar. Bu dastanda onun Valehə olan məhəbbəti vəsf olunmuşdur. Bu gün də aşıqlar bu dastanı böyük həvəslə, sevə-sevə oxuyurlar.

Zərnigar xanım Dərbəndlinin əsərləri əsasən şəxsi arxivlərdə saxlanılır. Onlardan bəziləri müxtəlif şeir toplularına daxil edilmişdir: «El şairləri», Bakı,1935; «Dağıstan töhfələri», 1987.

Domisian – Flavilər sülaləsindən olan Roma imperatoru (81-96). Saray münaqişəsi nəticəsində öldürülmüşdür. Onun hakimiyyəti illərində Roma imperiyasi Şərqi Qafqazdakı mühüm hərbi strateji və ticarət-iqtisadi rayona və Dərbənd keçidinə öz təsirini yaymağa cəhd göstərmişdir. Domisianın bu yürüşü, 1948-ci ildə Böyük Daş (Azərbaycan) dağının ətəyində aşkar olumuş qayanın üstündəki latın dilində olan yazıda öz əksini tapmışdır. Bu Asiyada ən qədim Roma yazısıdır. Lakin romalıların həmin rayonda möhkəmlənməsinin izləri aşkar olunmamışdır.

Dövlətxanov Cavid Əlirza oğlu (1927-1997) – Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

O, Dərbənd şəhər 1 saylı orta məktəbini və Bakı şəhərində Azərbaycan Sənaye İnstitutunun memarlıq və inşaat fakültəsini bitirmişdir. O, «Dağnefttikinti» TQİ (tikinti quraşdırma idarəsi) trestinin rəisi, Dərbənd icra hakimiyyəti idarəsinin kommunal təsərrüfat şöbəsinin müdiri, DMSSR Nazirlər Sovetinin memarlıq və inşaat idarəsinin rəisi, «Dağıstantikinti» trestinin baş mühəndisi, Dağıstan kommunist partiyası vilayət komitəsinin tikinti şöbəsinin müdiri, Dağıstan xalq təsərrüfatı şurası sədrinin müavini, Şimali Qafqaz xalq təsərrüfatı şurası sədrinin müavini, Rostov vilayət icraiyyə komitəsinin sədr müavini, 1970-ci ildən 1988-ci ilə qədər isə DMSSR Nazirlər Soveti sədrinin birinci müavini işləmişdir. O, Nevınomıssk və Volqodonsk kimya kombinatlarının, Azovsk optikamexaniki və Taqanroq metallurgiya zavodlarının, Volqodonsk atom maşınqayırma zavodunun və ölkənin digər sənaye nəhənglərinin tikilməsində yaxından iştirak etmişdir. Onun bilavasitə rəhbərliyi altında respublikada ilk çoxmərtəbəli «Leninqrad» mehmanxanası, Rus Dram teatrının binası, respublika kitabxanası və Mahaçqala şəhərində «Rusiya» kinoteatrı, rayon mərkəzi xəstəxanasının kompleksi, tibb məktəbi, «Yubileynı» kinoteatrı və Dərbənd şəhərində digər obyektlər tikilmişdir.

Dövlətxanov dəfələrlə Rostov vilayət sovetinin və Dağıstan MSSR Ali Sovetinin deputatı seçilmişdir. O, Qırmızı Bayraq, Əmək, Xalqlar Dostluğu ordenləri, Fəxri döş nişanı və SSRİ-nin bir sıra medalları ilə təltif olunmuşdur. Dövlətxanovun doğulduğu və yaşadığı binaya xatirə lövhəsi vurulmuşdur.

Düma Aleksandr (ata) (1802-1870) – dahi fransız yazıçısı, «Üç muşketyor», «Qraf Monte Kristo», «Qrafinya de Monsoro» və digər tarixi romanların müəllifi.

1858-ci ilin noyabrında Qafqaza səyahəti zamanı



Dərbənddə olmuşdur. Şəhər möhtəşəm qala divarları ilə, tarixi memarlıq abidələri ilə, xalq arasında gəzən rəvayətləri ilə onu heyran qoymuşdur.

A.Düma burada sürgündə olmuş dekabrist A.Bestujevin və Dərbənd qarnizonunun unter-zabitinin qızı 19 yaşlı Olqa Nesterova arasındakı faciəli məhəbbəti eşidib dəhşətə gələrək, onların bu məhəbbətinə şeir həsr etmiş və onu Dağıstan səfərində müşayiət edən Şimal draqun alayının komandiri polkovnik İ.P.Baqrationdan xahiş eləmişdir ki, bu sətirləri Olqanın başdaşında yazdırsın.

Dahi roman ustası Dərbənddə olmasını və təəssüratlarını «Qafqaz» yol qeydlərində təsvir etmişdir: «… Yeddi qapılı şəhər. Dərbəndin qədim divarları dağ zirvəsindən dənizə qədər uzanırdı. Bizim qarşımızda möhtəşəm şərq memarlığına aid olan nəhəng qala qapıları dururdu. Bu qapının yanında fəvvarə var idi. Tatar (azərbaycanlı) qadınlar uzun rəngarəng çadralarda buraya suya gəlirdilər. Başdan ayağa qədər silahlanmış kişilər divara söykənərək heykəl kimi hərəkətsiz dayanmışdılar. Onlar bir-birilə danişmır, yanlarından keçən qadınlara baxmır, sankı xəyala dalmışdılar.

Şəhərin özü dəmir qapıları xatırladırdı, bu böyük möhtəşəm divar, sanki Asiyanı Avropadan ayırmaq və skiflərin qarşısını almaq üçün tikilmişdir.

Bu Asiya ilə Avropa arasında tikilmiş əsl sərhəd şəhəri idi. Şəhərin yuxarı hissəsində məscidlər, bazarlar, düz-damlı evlər və qalaya aparan sərt pilləkənlər yerləşirdi. Aşağıda isə kazarmalar, alçaq damlı evlər yerləşirdi. Bütün bunlar hamısı necə də gözəl idi. Sahildən bütün şəhər görünürdü. Şəhərin yuxarı hissəsi tatar (azərbaycan) auluna, aşağı hissəsi isə rus kazarmalarına oxşayırdı.

Divar hər yer – harada kı, divar uçmamışdır – öz qədimliyini saxlamışdır, harada kı, o uçmuşdur, bu yer adi daşdan və müasir memarlıq qaydalarına əsasən yenidən tikilmişdir.

Dərbənd iki böyük küçəilə xaçvari şəkildə kəsişir. Bu küçələrdən biri (dik küçə) dənizdən fars-tatar şəhərinə aparır və bazarın yanında dağa söykəndiyi üçün burada qurtarır. Köndələn küçə, başqa sözlə desək, şir qapısından (Qırxlar qapısı) fəvvarələr qapısınadək (Yengi qapı) uzanır. Baş küçələrin hər iki tərəfində dükanlar tikilmişdir. Onların hamısı-misgərlərin və dəmirçilərin dükanlarıdır.

Bazarı gəzdikdən sonra biz məscidə yollandıq. Molla bizi qəbul etməyə artıq hazır idi…».

Eldarov Həsənbala Hüseyn oğlu – Dərbənd şəhərində anadan olmuşdur. Dərbənd realnı məktəbini bitirmiş və burada inqilabi hərəkata qoşulmuşdur. Gənclərin gizli inqilab təşkilatının üzvü idi. O, Sankt-Peterburq Kənd Təsərrüfatı İnstitutuna daxil olmuş, lakin 1917-ci il Oktyabr inqilabı təhsilini bitirməyə mane olmuşdur. H.Eldarov Dərbəndə qayıdır və şəhərdə sovet hakimiyyətinin qurulmasında fəal iştirak edir.

O, şəhər Xalq Komissiarları Şurasının (1918-ci il aprel), İnqilabi Müdafiə Komitəsinin (1918-ci il may), İcraiyyə komitəsinin üzvü və Fəhlə, Kəndli, Qırmızı qvardiyaçı deputatları Şurasının Ərzaq direktoratının (1918-ci il iyun), «Hümmət»in Dərbənd şəhər təşkilatının üzvü seçilmiş və şəhər komsomol təşkilatının işində fəal iştirak etmişdir. Sovet hakimiyyəti qurulduqdan sonra Gəncədə Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir.

H.Eldarov Gəncə Kənd Təsərrüfatı İnstitutunda müəllim, Gəncədə və Naxçıvanda aqronom, Dərbənd şəhərində K.Marks adına sovxozda aqronom işləmişdir. O, 1960-cı ildə vəfat etmiş və Dərbənddə dəfn olunmuşdur.

Eldarov Ömər Həsən oğlu – Görkəmli Azərbaycan heykəltaraşı, 1927-ci il dekabrın 12-də Dərbənddə anadan olmuşdur. Azərbaycanlıdır.



Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini (1942-1945), Leninqrad şəhərində İ.Repin adına Boyakarlıq, Heykəltaraşlıq və Memarlıq İnstitutunu (1951) bitirmişdir. M.F.Axundovun büstü, «Natəvan», «Xoşbəxtlik» əsərləri onun ilk işləridir. Onun yaratdığı Ü.Hacıbəyovun abidəsi, «Neftçilər» kompozisiyası (1963), S.Bəhlulzadənin portreti, «Ömrün dörd çağı» əsəri Moskvada Tretyakov qalereyasında saxlanılır. Onun hazırladığı

X.B.Natəvanın və M.Füzulinin heykəlləri Bakıda, «Sapun Qora » Sevastopolda, S.Ayninin heykəli Düşənbədə, habelə bir çox abidələri Sumqayıtda və bir sıra şəhərlərdə ucaldılmışdıqr. O, Naxçıvan şəhərinin mərkəzində ucaldılmış 2 dəfə Sosialist Əməyi Qəhrəmanı, Ulu Öndər, Azərbaycanın eks-Prezidenti H.Ə.Əliyevin büstünün də müəllifidir. Ö.Eldarov H.Ə.Əliyevin heykəllərinin, büstlərinin, abidələrinin yaradılmasının əvəzedilməz sənətkarıdır.

O, Azərbaycan Respublikasının Xalq rəssamı, keçmiş Sovet İttifaqının Rəssamlar Akademiyasının üzvü olmuş, Azərbaycan Respublikasının «Şərəf nişanı» ordeni, «Şərəf» ordeni, bir sıra xarici ölkələrin orden və medalları, fəxri fərmanları ilə təltif olunmuşdur.

Ö.Eldarov Azərbaycanda ilk Dövlət Rəssamlıq Akademiyasının təşkilatçışı və ilk rektorudur.

Eminov Hacı Şahmərdan – Dərbəndin qədim sakini, tanınmış tacir və ictimai xadim olmuşdur. O, bir neçə dəfə şəhər idarəsi ticarət komissiyasının üzvü seçilmişdir. Onun şəhərdə aşağıda adları çəkilən malikanələri var idi:

- Kommunarlar küçəsində böyük gözəl yaşayış binası. Onun yanında ticarət mərkəzi;
- Puşkin adına küçədə altı mağaza olan yaşayış binası;
- 6-cı məhəllədə ikimərtəbəli yaşayış binası.

Hacı Mərdan xeyriyyəçilik işləri ilə də məşğul olmuşdur:

- «Bayır bulaq», «Mikri bulaq», «Peyinnik bulaq» və s. bulaqlarını tikdirmişdir;
- «Cümə məscidi»nin həyətində məktəb binası tikdirmişdir. Bundan əlavə o, şəhərin yoxsul əhalisinə daim maddi yardım da göstərmişdir.

Hacı Mərdan XX əsrin əvvəllərində vəfat etmiş və ailəvi qəbiristanlıqda dəfn olunmuşdur. Onun üç oğlu var idi: Məşədi Ələkbər, Məmmədsadıq və Məmmədkərim.

Eyxvald Eduard İvanoviç – Kazan Universitetinin professoru. O, 1825-ci il iyulunda Dərbənddə olmuş, şəhərin və onun ətrafının təsvirini «Professor Eyxvaldın səyahəti» (1838) adlı yol qeydlərinin IV hissəsində vermişdir. Bu əsərin 50 səhifəsində şəhərin sakinləri, qədim tarixi, geologiyası, flora və faunası haqqında geniş məlumat vermişdir.

Əbdürəhimov Bədrəddin Hacı Mirzəbəy oğlu - 1897-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlı. İbtidai təhsilli. 1920-1921-ci illərdə Fəhlə-kəndli müfəttişliyinin (FKM) təlimatçısı, 1922-1926-cı illərdə isə şəhər milis şöbəsinin rəisi olmuşdur. 1927-1929-cu illərdə Dərbənd şəhər soveti icra hakimiyyətinin sədri işləmişdir. Sonra o Mahaçqalaya köçürülmüş və respublikanın müxtəlif nazirliklərində rəhbər vəzifələrdə işləmişdir.

Mahaçqala şəhərində vəfat etmiş və orada dəfn olunmuşdur.

Əbdürəhimov Hacı Mirzəbəy (1845-1918) – Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlı. Əslzadə bəy, istefada olan məşvərətçi, 1900-1904-cü illərdə Dərbənd şəhər müvəkkillər iclasın deputatı, 1916-cı ildən Cənubi Dağıstanın naibi olmuşdur. 1918-ci ilin may ayında Bakıdakı Yermolayeva küçəsində (hal-hazırda M.Rzayev küçəsi) yerləşən iqamətgahında daşnaklar tərəfindən öldürülmüşdür.

Əbdürəhimova Xanbikə Hacı Mirzəbəy qızı - 1910-cu ildə Dərbənd şəhərində Cənubi Dağıstanın naibi Hacı Mirzə bəy Əbdürrəhimovun ailəsində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd Pedaqoji Texnikumunu və Azərbaycan Pedaqoji İnstitutunu (Bakı) bitirmişdir. Bakı şəhər Oktyabr rayon partiya komitəsində əvvəlcə təbliğat və təşviqat şöbəsinin müdiri, sonra isə Oktyabr rayon partiya komitəsinin katibi işləmişdir.

1995-ci ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Əbu Bəkr əd-Dərbəndi (Məhəmməd bin Musa bin əl-Fərəc Əbu Bəkr əd-Dərbəndi əş Şafii əs-Süfi) – dahi müsəlman dini-araşdırıçı (İmam əl Aşari elmi məktəbinin davamçısı), sufi. Bab əl-Əbvab (Dərbənd) şəhərinin Xinış (Xoms) məhəlləsində 1058 və 1068-ci illərin arasında anadan olmuşdur. Onun atası, Musa əl-Labbad əl-Müəddit, məşhur din xadimi, Dərbəndin şeyxülislamı idi. O, zamanəyə görə oğluna yaxşı ev təhsili vermişdir. Əbu Bəkr təlim və tərbiyəsi ilə Dərbəndin şəfilər icmasının dini başçısı, Xims Əbu-l-Qasim əl Bərrak (məhəllə məscidinin) imamı, Bağdad «an-Nizamiyyə» mədrəsəsinin məzunu Əbu-l-Həsən əl-Bəsri, Əqləbidilər sülaləsindən olan Dərbənd hökmdarlarının saray tarixşünası Yusuf-əl-Babi, məhəllə qaziləri (hakimləri) İbrahim əl-Qədari və Yahiyiya-əl-Qədari, Haşimilər sülaləsindən olan Dərbənd hökmdarlarının saray tarixşünası, «Tarixi

Bab əl-Əbvab və Şirvan» («Şirvanın və Dərbəndin tarixi») məşhur salnamənin müəllifi Məmnus əd-Dərbəndi və Dərbəndin o dövrdə olan digər məşhur adamları məşğul olmuşlar.

Əbu Bəkr strukturca qanuniləşdirilmiş ilk sufi qardaşlığının meydana çıxmasına təkan verən sufi ideologiyasının və müsəlman mistisizminin təcrübi kodlaşmasının (sistemə salınması) formalaşması dövründə yaşamışdır. Bir çox yazılı mənbələr sübut edir ki, hələ IX-XII əsrlərdə Dərbənddə müxtəlif sistemli sufi qrupları (dəstələri) və dərviş qardaşlıqlar mövcud idi. Əbu Bəkr həm də Əbu-l-Həsənin məşhur Dərbənd sufi zaviyəsində oxumuşdur. Bu zaviyə, mənbələrdə göstərildiyi kimi, «şəhərin şimal divarları arxasında Narınqala ilə Qirxlar qəbirstanlığı» arasında yerləşirdi. XI əsrin 80-cı illərinin ortalarında Əbu Bəkr bilik axtarışı və təhsilini artırmaq üçün (rixla) adəti üzrə səyahətə çıxır. Uzun müddət Təbəristanda (Şimali İran) yaşayır və orda da Amul şəhərində gizli mədrəsəni bitirir.

XI əsrin 90-cı illərin əvvəllərində o, Məkkə, Mədinə, Bağdad, İsfahan, Həmədan şəhərlərində və xilafətin digər mərkəzlərində olandan sonra Dərbənddə qayıdır və burada özünün şəxsi məclisini yaradır.

1098-ci ilin əvvəlində Əbu Bəkr əd-Dərbəndi şəhərdə baş verən və onun üçün qəbul edilməz ictimai-siyasi dəyişikliklər olduğu üçün (Dərbəndin hökmdarları sülaləsinin Haşimilərin Əqləbidlərə dəyişilməsi baş verdi) şəhəri məcburi tərk etməli olur. O, Qəriblikdə, Bağdad şəhərində öz həyatının və elmi yaradıcılığının şah əsərləri olan «Reyhan əl-həqaik və bustan əd-dadaiq» («Həqiqətlər reyhanı və incəliklər bağı») adlı əsərini bitirir.

Bu, Qafqazdakı ilkin sufizmin ən mühüm abidələrindəndir. Bu salnamə Rusiya Elmlər Akademiyasının Dağıstan Elmi Mərkəzinin Əlyazmalar fondunda saxlanılır və 492 səhifədən (hər səhifə 23 sətir) ibarətdir. Mütəxəssislərin fikrincə bu salnamə XI-XII əsrlərin hüdudlarında ensiklopedik lügət janrında yazılmışdır. Bu salnamədə göstərilir ki, o dövrdə Dərbənd Qafqaz sufizmin ən mühüm mərkəzlərindən biri olmuşdur.

Əbu Bəkr əd-Dərbəndi dövrünün bir çox məşhur adamları ilə şəxsən tanış idi. Onların biri də dahi əl-Qəzəli idi. Əbu Bəkr əd-Dərbəndinin bilavasitə hamiləri arasında Təbəristanın baş hakimi və Amul (İran) mədrəsəsinin rəhbəri Fəxr-əl-İslam Əbül Məhəsin ər-Ruyani (1108-ci ildə vəfat edib), tanınmış şəriət təbliğatçısı Əbu Abdallah əl-Bəkri (1105-ci ildə vəfat edib), məşhur Xorasan şairi Əbül Müzəffər əl-Əbiverdi (1113-cü ildə vəfat edib), Bağdadda «Nizamiyyə» mədrəsəsinin müəllimi Şəms əl-İslam İmam əd-Din əl-Kiya əl-Harrasi (1110-cu ildə vəfat edib), Bağdadda əl-Mənsur məscidinin imami Cəfər əs-Sərrac (1106-ci ildə vəfat edib), nüfuzlu mühəddis (müqəddəs hədislərin bilicisi) İbn əl-Kaysarani (1113-cü ildə vəfat edib), hənəfi məzhəbini (hüquq məktəbi) yaradanlardan biri Şəms əl-Əimma əs-Sərahsi (1107-ci ildə vəfat edib), məşhur «Kitab əl-Firdous»un müəllifi Şiravay bin Şəhridar (1115-ci ildə vəfat edib) və başqaları var idi. Xilafətin müxtəlif bölgələrində Əbu Bəkr əd-Dərbəndinin öz tələbələri və davamçıları var idi. Birincilərin sırasında - şiə islam təriqəsinin görkəmli xadimi, «İmam-əd-Din» (Dinin dayağı) fəxri adını qazanmış Əbu Cəfər Məhəmməd bin Əli-l-Qasim ət-Təbəri (1131-ci ildə vəfat edib) olmuşdur. Əbu Bəkr əd-Dərbəndinin mənəvi-etik baxışlarının davamçılarından biri müsəlman aləmində məşhur şafiit ənənəçiliyinə əsaslanan Əbu Tahir Əhməd bin Məhəmməd əs-Silafi əl-İsfahani olmuşdur (1180-ci ildə vəfat etmişdir). Misir əmirinin tanınmış vəziri az-Zahir ibn əs-Sallar onun üçün 1157-ci ildə İskəndəriyyədə məscid tikdirmişdi. Sonralar məscidə onun adı verildi.

Əbu Bəkr əd-Dərbəndinin Vətəndəki evində bir çox görkəmli alimlər olmuşlar. Onların arasında yuxarıda adları çəkilən əs-Silafi, məşhur zahid İbn-Xazmanın (1063-cü ildə vəfat etdib), şagirdi Əbu Abdullah Məhəmməd əl-Humaydı (1095-ci ildə vəfat edib) var idi.

Əbu Bəkr əd-Dərbəndi Quranın simvol-alleqorik (tavil) şərhinin tərəfdarı idi. O, ümumislam ənənələrini rədd etmədən, obyektiv olaraq onların istifadə sahəsini bir az məhdudlaşdırır, onları qismən sufizm ənənələrinə yaxınlaşdırırdı. O, təkcə sufi terminlərinin ənənəvi şərhinə riayət etmir, həmçinin ona yerli materialı daxil etməklə yeni ənənəvi elementlər artırırdı.

Bununla o, sufi ənənələrini zənginləşdirir, müsəlman mistsizminin nəzəri müddəalarını müasirlərin mənəvi tələbatlarına və zamanın vacib

tələblərinə yaxınlaşdırırdı. Onun əsərinin sufizm ənənələrinin inkişaf etdirilməsi nöqteyi-nəzərindən və bütövlükdə müsəlman dini-fəlsəfi fikrinin dəyərliliyi baxımdan əhəmiyyəti də elə bundadır.

Əbu Həmid Məhəmməd əl-Qərnati əl-Əndəlusi (?-1170) – məşhur ərəb tarixçisi, İspaniya Qrenadasında anadan olmuşdur. Uzun müddət Bağdadda və Dəməşqdə təhsil almışdır. O, şafii fəqihi olaraq səyahət etmiş və şafilik ideyalarını yaymışdır.

1131-ci ildə Dərbənddə olmuş və Dərbənd sakinlərini bağdadlı din xadimi, şafiit Əbdul-l-Həsən əl-Mahamilinin «Kitab al-Mukni» əsəri ilə tanış etmişdir.

Əbu İshaq İbrahim bin Faris əl-Babi (XI əsr) – şeyx, dini dairələrdə İbn Faris kimi tanınmışdır. Onun qələminə müsəlman aləmində şöhrət tapmış Məhəmməd peyğəmbərin hədisləri üzrə bir çox əsərləri aiddir. Onun çoxlu davamçıları və şagirdləri olmuşdur.

Əfəndiyev Abdulla Molla İbrahim oğlu (30.9.1897, Dağıstan) - Azərbaycan Xalq



Cümhuriyyəti Parlamentinin xüsusi qərarına əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələblərdən biri. Bakı realnı məktəbini bitirmiş (1916), Moskva Kommersiya İnstitutunun iqtisadiyyat şöbəsində 2-ci kursa qədər oxumuş, lakin maddi çətinlik üzündən təhsilini yarımçıq qoymağa məcbur olmuşdu. AXC Parlamentinin 1919-cu il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini davam etdirmək üçün Berlin Kommersiya İnstitutuna (Almaniya) göndərilmişdi. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən Azərbaycanlı Tələbələr İttifaqının 1923-25-ci illər üçün məlumatında onun təhsilinin bitməsinə 6 ay qaldığı göstərilirdi. A.Əfəndiyev sonrakı taleyi barədə burada məlumat aşkar olunmamışdır.

Əhməd ibn Məhəmməd (1436-1506) – Dərbənddə doğulmuşdur. Zəmanəsinin məşhur müsəlman ilahiyyatçılarından biri olmuşdur.

Əhməd ibn Məhəmməd məşhur seyid nəslinə məhsusdur. Bu da onun Məhəmməd peyğəmbərin nəslindən olmasını göstərir (qızı mömin Fatimə, əmisi oğlu və kürəkəni Əli tərəfindən).

Məhəmməd-Əli Tərbiyətin Azərbaycandan çıxmış minlərlə ədəbiyyat və incəsənət, elm üzrə dahi müsəlman xadimlərinin tərcümeyi-halı toplanmış məşhur «Danisməndani Azərbaycan» kitabında təsdiq olunur ki, Əhməd ibn Məhəmmədin ulu babası xəlifə əl-Qaimin (1031-1075) izlənməsindən xilas olmaq üçün, XI əsrin əvvəllərində, Ərəbistandan Azərbaycanın Beyləqan şəhərinə köçür. Bu nəslin Əhməd ibn Məhəmmədin aid olan qollarından biri sonralar Dərbənddə köçmüşdür. Həmin müəllifin göstərdiyinə görə Əhməd ibn Məhəmmədin atası Dərbənd şəhərində mühüm din xadimi və yerli seyidlərin başçısı olmuşdur. İbtidai təhsili Dərbənd şəhərində almış Əhməd ibn Məhəmməd təhsilini Təbrizdə və Xorasanda məşhur şiə ilahiyyatçılarının və ideoloqlarının yanında davam etdirmişdir. Vətənə qayıtdıqdan sonra gənc ilahiyyatçı atasının yerini tutmuş və seyidlərin başçısı təyin edilmişdir. Lakin 1463-cü ildə 27 yaşında olarkən səfəvi şeyxlərinin tərəfdarı kimi Cənubi Azərbaycana köçməyə məcbur olmuş və Təbriz yaxınlığındakı Lalə kəndində məskunlaşmışdır. O vaxtlardan gənc ilahiyyatçı böyük uğur qazanan əsərlərini Əhməd ibn Məhəmməd Laləvi imzası ilə yazmağa başladı. O, 1506-cı ildə, 70 yaşında Təbriz şəhərində vəfat etmiş və yerli Kəcil qəbirstanlığında dəfn olunmuşdur.

Əhmədov Nəriman Səlim oğlu – 1928-ci ildə



Dərbənd şəhərində anadan olmuşdur. O, Dərbənd Pedaqoji Məktəbi, Dağıstan Ali partiya Məktəbini və Sovet İKP MK nəzdində Ali Partiya Məktəbini bitirmişdir. N.S.Əhmədov yeddillik məktəbdə müəllim, Dərbənd şəhərinin komsomol rayon komitəsinin birinci katibi vəzifəsində işləmişdir. O, Dərbənd icraiyyə komitəsinin sədri, Dərbənd rayon partiya komitəsinin birinci katibi olmuşdur. N.Əhmədov «Şərəf nişanı» ordeni və 12 medalla təltif olunmuşdur. O, Dağıstan Respublikasının Əməkdar mədəniyyət və Dağıstan Respublikasının Əməkdar təsərrüfat işçisi fəxri

adlarına layiq görülmüşdür. O, 1995-ci ildə vəfat etmiş və Dərbənd şəhərində dəfn olunmuşdur. Şəhərin küçələrindən birinə onun adı verilmişdir.

Əhmədov Səlim Sədrətdin oğlu – 1961-ci il dekabr ayının 12-də Dərbənd şəhərində anadan olmuşdur. O, 1978-ci ildə Dərbənd şəhər orta məktəbini və 1978-1983-cü illərdə Orjenikidze şəhərində Qorsk Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir.



S.Əhmədov 1983-cü ilin avqust ayından oktyabr ayınadək Dərbənd şəhər maddi-texniki təminatının Konstruktor bürosunun konstruktoru işləmişdir. O, 1983-1985-ci illərdə Sovet ordusu sıralarında xidmət etmişdir.

S.Əhmədov 1985-ci ilin may ayından 1986-cı ilin sentyabr ayınadək Dərbənd Avtonəqliyyat parkının istismar şöbəsində mühəndis, 1986-cı ilin sentyabr ayından 1989-cu ilin sentyabr ayınadək təşkilat şöbəsində təlimatçı, sonralar isə təşkilat şöbəsinin rəis müavini, Dərbənd rayon komsomol komitəsinin təşkilat şöbəsinin rəisi və 1989-1991-ci illərdə Dərbənd şəhər Gənc menencmentlər məktəbinin direktoru vəzifələrində işləmişdir. O, Dərbənd şəhər komitəsi yanında Kunq-fu seksiyasında təlimatçı işləmiş, sonralar isə menencment məktəbində Kunq-fu elementləri ilə psixofizikadan dərs demişdir.

S.Əhmədov 1991-1996-cı illərdə «Diamond»un direktoru, 1996-1998-ci illərdə «Xəzərtürk İnterneyşinal»nın baş direktoru, 1998-2000-ci illərdə xarici əlaqələr üzrə «Dərbənd aqrokonsern» nin direktor müavini, 2000-2003-cü illərdə Dağıstan Respublikasının Azərbaycan Respublikasında daimi təmsilçisnin müavini, 2003-2008 illərdə «Stalker» firmasının direktoru işləmişdir.

Əhmədov 2003-cü il və 2008-ci ildə Dərbənd şəhər məclisinin deputatı seçilmişdir. O, 2011-ci il aprel ayının 4-dən Dərbənd şəhər məclisinin sədri işləyir. 2006-cı ildən «Vahid Rusiya» partiyasının üzvüdür.

Əhmədov Şərafutdin Səlim oğlu – elmlər doktoru, 1938-ci ildə anadan olmuşdur.

O, 1960-cı ildə Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunu, Mərkəzi Komitə nəzdində Ali



Partiya Məktəbini bitirmiş, o, müəllim, Rukolsk (Dərbənd rayonu) yeddiillik məktəbinin direktoru, Dərbənd komsomol komitəsinin katibi, təlimatçı, sonralar isə Dərbənd şəhər partiya komitəsi təşviqat və təbliğat şöbəsinin rəisi, 1984-cü ildən Dərbənd şəhər Təhsil idarəsinin müdiri işləmişdir.

20 ildən artıqdır ki, elmlər doktoru Ş.Əhmədov bu təhsil şöbəsinə başçılıq edir. İşlədiyi müddət ərzində o, şəhərin ümumtəhsil müəssisələrində təhsil prosesinin yenidən qurulmasında yüksək təşkilatçılıq və pedaqoji keyfiyyətlər nümayiş etdirmişdir. Onun səyi nəticəsində tədris müəssisələri idən-ilə artır. Hər il 25-30 şagird məktəbi qızıl və gümüş medallarla bitirir. Fəal intellektual əməyə qadir olan uşaqlar üçün Ş.S.Əhmədovun səyilə ixtisaslaşmış təhsil müəssisələri: gimnaziyalar, kadet internat məktəbi, məktəblərdə lisey və gimnaziya sinifləri açılmışdır. Onun başçılığı ilə «İstedadlı uşaqlar» kompleks proqramı uğurla həyata keçirilir. Hər il 11 əsas fənn üzrə keçirilən şəhər və respublika olimpiadaları şəhər təhsil idarəsi tərəfindən maliyyələşdirilir. 2003-2004-cü illərdə şəhər məktəblərinin 38 şagirdi respublika olimpiadalarının qalibi olmuşdur.

Dərbənd şəhərinin ümumtəhsil müəssisələrində 1600 müəllim çalışır. Onlardan bir çoxu DR Əməkdar müəllimi adına layiq görülmüşlər. Hər il müəllimlər arasında «İlin ən yaxşı müəllimi», «İlin ən yaxşı tərbiyəçisi» şəhər müsabiqələri keçirilir.

Şəhərdə təhsil idarəçiliyinin yeni geniş ictimai formaları inkişaf tapmışdır. Beləki, şəhər hamilik şurası, tədris müəssisələri başçılarının şəhər şurası, şəhər metodik şurası, milli dillər üzrə şura, həmçinin ayrı-ayrı fənlər üzrə ekspert komissyaları yaradılmışdır və onlar hal-hazırda fəaliyyət göstərir. Şəhərin 22 məktəbində milli dillər öyrənilir. Hər il bu dillər üzrə olimpiadalar keçirilir.

Şərafutdin Əhmədov bir sıra kitabların müəllifidir: «Jizng i deətelğnostğ A.Alieva v Daqestane», «Da svətitsə imə tvoe», «Dobrıy sled na zemle».

Əhmədovun fəaliyyəti dövlət və pedaqoji

ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir. O, Rusiyanın və SSRİ-ın təhsil əlaçısıdır. 1993-cü ildə o, «DR Əməkdar müəllimi» fəxri adına layiq görülmüş, 1998-ci ildə isə Dostluq ordeni ilə mükafatlandırılmışdır.

Şərafutdin Əhmədov 2006-cı il oktyabrın 5 də Bakı Dövlət Universitetində «Əziz Əliyevin Dağıstanda həyatı və fəaliyyəti haqqında (1942-1948)» mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Əhmədov Təkrar Həmdulla oğlu – polkovnik,



1958-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. 1975-ci ildə Dərbənd şəhər 3 saylı orta məktəbini və 1981-ci ildə Bakı Orta Xüsusi Milis Məktəbini, 1989-cu ildə Kiyev Ali Milis Məktəbini bitirmişdir. O, Dərbənd rayon milis şöbəsində milis, Buynaksk şəhər milis şöbəsində cinayət-axtarış müfəttişi, Dərbənd şəhər milis idarəsinin ərazi müfəttişləri üzrə şöbə rəisi işləmişdir. T.Əhmədov 1999-cu ildən Dağ. MR Daxili İşlər Nazirliyinin Dərbənd şəhər iştimai təhlükəsizlik idarəsinin rəisi, 2002-ci ildən – Dərbənd şəhər miqrasiya xidmətinin şöbə rəisi vəzifələrində işləmişdir.

O, 2008-ci ildən Dağıstan Respublikasında «Rossiə» sığorta şirkətinin direktoru və Dərbənd şəhəri «Evrokomers» bankının direktoru işləmişdir. T.Əhmədov «Milis əlaçısı» döş nişanı, daxili işlər nazirliyində qüsursuz xidmətə görə üç medalla təltif olunmuşdur.

Ələvi Əbülfət – Cənubi Azərbaycan ziyalısı, ictimai xadim. Əslən dərbəndlidir. C.Məmmədquluzadə ailəsinin Təbrizdə yaşadığı dövrdə şəhər valisinin müşaviri idi. İstanbul universitetinin hüquq fakültəsini bitirmişdir. Şərq və Qərb mədəniyyətinə dərin bələdliyi və mütərəqqi ictimai baxışları ilə seçilirdi. 1919-cu ildə Təbrizdə «Ələviyyə» adlı yeni tipli məktəb təşkil etmişdir. «Molla Nəsrəddin» jurnalının Təbrizdə yenidən nəşrə başlamasında Ələvinin mühüm rolu olmuşdur. O, C.Məmmədquluzadəni Təbriz valisi ilə görüşdürmüş, baş məqalələri farsca olmaq şərtilə jurnalın Azərbaycan türkcəsi ilə nəşrinə icazə almışdır. Farsca baş məqalələri Ələvi özü yazmışdır. O, C.Məmmədquluzadənin «Ölülər» və «Anamın kitabı» pyesləri ilə tanış olmuş, hər iki əsəri bəyənmiş, lakin ikincini daha yüksək qiymətləndirmişdir. Ələvnin təşəbbüsü və fəal yardımı ilə 1921-ci ilin aprelində «Ölülər» Təbrizdə tamaşaya qoyulmuşdur. Həmidə xanımın yazdığına görə o, «Anamın kitabı»nın da Təbriz səhnəsində oynanılmasına çalışmışdır. C.Məmmədquluzadənin həmişəlik Təbrizdə qalmasını istəyən Ələvi bunu təkid etmişdir. Onun fikrincə, «Molla Nəsrəddin» jurnalı geriliyin və cəhalətin hökm sürdüyü Cənubi Azərbaycana daha çox fayda gətirə bilərdi.

Ələkbərli Məmmədkəsir Ələkbər oğlu (1912-1997) - 1912-ci ildə Dərbənd şəhərində anadan



olmuşdur. Azərbaycanlıdır. Tarix elmləri doktoru, professordur. 3 kitabın, 20 monoqrafiyanın və bir çox elmi məqalələrin müəllifidir.

Dərbənd Pedaqoji Məktəbini müvəffəqiyyətlə bitirdikdən sonra 6 saylı yeddiillik Azərbaycan məktəbinin direktoru təyin edilmişdir. 1932-ci ildə təhsil almaq üçün Moskva Tarix-Fəlsəfə İnstitutuna göndərilmişdir. İnstitutu bitirdikdən sonra Dağıstan Pedaqoji İnstitutunda (Mahaçqala şəhəri), sonra Kabardin-Balkar Pedaqoji İnstitutunda (Nalçik şəhəri) işləmişdir. Böyük Vətən Müharibəsinin (1941-1945) iştirakçısı olmuşdur. Bir çox döyüş orden və medalları təltif edilmişdir.

Müharibədən sonra Blaqoveşsensk, Leninqrad və Çernovtsı ali təhsil məktəblərində işləmişdir. 1959-cu ildən başlayaraq 30 il ərzində Dağıstan Dövlət Universitetinin «Ümumi tarix» kafedrasına rəhbərlik etmişdir.

Ələkbərli Məmmədkazım Ələkbər oğlu (1905-1937) - Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Orta təhsilini burada almışdır.

1924-cü ildə Azərbaycan Pedaqoji İnstitutunun filologiya fakültəsinə daxil olmuş və oranı əla qiymətlərlə bitirmişdir. İstedadlı gənc filoloq Dağıstan rəhbərliyi tərəfindən azərbaycanlı əhalisi arasında ideoloji təbliğatın təşkili üçün cəlb olumuşdu.



1928-ci ildə M.Ələkbərli respublika qəzeti olan «Dağıstan füqarası»nı (Azərbaycan dilində) redaktə edir. Sonralar digər respublika qəzetini - «Maarif yolu»nu (Azərbaycan dilində) redaktə edir. Onun redaktə etdiyi qəzetlərin səhifələrində dağlıların məişəti, maariflənməsi, tərbiyəsi, mədəniyyəti, incəsənəti haqqında aktual və vacib problemləri işıqlandırılır, bu problemlərə Dağıstanın ən yaxşı ədiblərinin diqqətini cəlb edirdilər. «Dağıstan füqarası» qəzetinin səhifələrində Dağıstanın məşhur publisistləri İ.Vahabov, N.Əhmədov, A.Rizayeva, Q.Rəhimxanov və başqaları öz məqalələrini çap etdirirdilər. Respublikanın aparıcı publisistlərindən biri isə elə M.Ələkbərli özü olmuşdur.

1930-cu ildə M.Ələkbərli Moskvada Qırmızı Professorlar İnstitutunun dinləyicisi olur. İnstitutu müvəffəqiyyətlə bitirdikdən sonra Azərbaycan MMR-ə partiya işinə göndərilir. O, burada müxtəlif vaxtlarda «Bakinski raboçi», «Vışka», «Literaturnaya qazeta» qəzetlərinin, «Temp», «Udarnik», «Revolyusiya və kultura», «Partiynıy rabotnik» jurnallarının redaksiyasına başçılıq edir, «Kommunist» nəşriyyatının direktoru, Azərbaycan Yazıçılar İttifaqının idarə heyətinin sədri, Azərbaycan Dövlət Universitetinin rektoru vəzifələrində işləyir.

Kəskin qələmli publisist, istedadlı ədib, fəal partiya işçisi Ələkbərli zamanın ən mühüm problemlərinə öz münasibətini bildirirdi və bununla o, oxucuların böyük hörmətini qazanmışdır. Onun «Oktyabr və Azərbaycanda ədəbiyyat», «Azərbaycan ədəbiyyatı», «Sabir», «Puşkin Azərbaycanda», «Sovet ədəbiyyatının inkişaf üfüqləri» və başqa əsərləri indiyədək öz əhəmiyyətini itirməmişdir.

M.Ələkbərlinin fəlsəfi baxışları da çox maraqlıdır. Onun «Materializm və idealizm və yaxud yeni fəlsəfə» adlı əsərinin əlyazması Azərbaycan Respublikası Dövlət Arxivində saxlanılır.

M.Ələkbərlinin yaradıcılığının əsas mövzusu beynəlmiləlçilik idi. O, bütün həyatı boyu burjua-millətçi ideologiyasının irticası mahiyyətinə qarşı qətiyyətli mübarizə aparır, milli mənəviyyatın istismarına qarşı çıxış edir, xalqlar dostluğunu və qardaşlığı tərənnüm edirdi.

Ələkbərli yaradıcılığının ən parlaq vaxtında, 30-cu illərdə ölkədə aparılan repressiyanın qurbanı oldu. O, 1937-ci ildə hərbi kollegiyanın hökmü ilə güllələədi.

M.K.Ələkbərli cəmi 32 il yaşadı. Bu 32 il də ona kifayət etdi ki, istedadlı təşkilatçı, içtimai xadim və ədib kimi qəlblərdə və xatirələrdə yaşasın.

Rəsmi arayışdan:

«Məmmədkazım Ələkbər oğlu Ələkbərlinin işinə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası tərəfindən 1956-cı il aprel ayının 7-də baxılmışdır. Hərbi Kollegiyanın 1937-ci il sentyabr ayının 12-dən M.-K.Ə.Ələkbərliyə qarşı çıxarılan hökm, işində heç bir cinayət olmadığı üçün ləğv edilsin.

SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının sədr müavini V.Borisoqlevskiy, 25 aprel 1955-ci il».

Ələkbərov Əhməd Şahlar oğlu – 1938-ci il iyun ayının 13-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.(1938-2017)



Bakı şəhər Yasamal rayon 175 saylı orta məktəbini (1945-1955), Azərbaycan Dövlət Universitetinin hüquqşünaslıq fakültəsini (1961-1967) bitirmişdir.

1964-cü ildən 1971-ci ilədək partiya və komsomol işlərində çalışmış, Sumqayıt şəhər komsomol komitəsinin təşkilat şöbəsinin təlimatçısı və müdiri, Sumqayıt şəhər icra komitəsi sədrinin köməkçisi olmuşdur.

1971-ci ildən respublika prokurorluğu orqanlarında – Sumqayıt şəhər prokurorluğunun baş müstəntiqi (1971-1974), Azərbaycan Respublikası prokurorluğunun istintaq idarəsinin prokuroru (1974-1978), Bakı şəhər 26 Bakı komissarları rayonu prokurorunun müavini (1978-1980), Naxçıvan Muxtar Respublikası prokurorunun müavini (1981-1985), Azərbaycan Respublikası prokurorunun nəqliyyat üzrə baş köməkçisi (1985-1986), Azərbaycan nəqliyyat prokuroru, – Azərbaycan Respublikası prokurorluğu kollegiyasının üzvü

(1986-1993), ekspertiza nəzarəti üzrə şöbənin baş prokuroru (1993-2001) işləmiş, 2001-ci ildən 2014 iladək Baş prokurorun köməkçisi – Azərbaycan Respublika prokurorluğunun şöbə rəisi işləyib.

Peşə fəaliyyətindəki xidmətlərinə görə «Prokurorluğun fəxri əməkdaşı» döş nişanına layiq görülmüş və dəfələrlə respublika rəhbərliyi tərəfindən mükafatlandırılmışdır.

Ələkpərov Əlisöhbət Seyfulla oğlu – 1956-cı il aprelin 3-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



O, 1983-cü ildə Dağıstan Dövlət Universitetinin tarix fakültəsini və 1994-cü ildə Ukrayna Daxili İşlər Nazirliyinin akademiyasını bitirmişdir. Podpolkovnik Ə.Ələkpərov 20 il SSR-nın Daxili İşlər Nazirliyində müxtəlif vəzifələrdə, milis nəfərindən idarə rəisinədək yüksəlmişdir.

Ə.Ələkpərovun rəhbərliyi altında bir çox ağır cinayətlərin üstü açılmışdır.

O, 2000-ci ildən isə Federal hakim vəzifisində çalışır.

O, Daxili İşlər Nazirliyinin 50-dən çox mükafatı ilə təltif olunmuş və Dağıstan Respublikasının Əməkdar hüquqşünası adına layiq görülmüşdür.

Ələkbərova (Əfəndiyeva) Fatimə Əbdürəhman qızı – tibb elmləri doktoru, professor, 1915-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. O, Dərbənd Pedaqoji Texnikumunu və Dağıstan Tibb İnstitutunu (Mahaçqala şəhəri) bitirmişdir. Dağıstan Tibb İnstitutunda yoluxucu xəstəliklər kafedrasının müəllimi və kafedra müdiri işləmişdir. F.Ələkbərova Dağıstanda professor rütbəsi almış ilk qadın olmuşdur.

Ələkbərova Gülnarə Şahlar qızı – 1958-ci il noyabr ayının 12-də Bakıda müəllim ailəsində anadan olmuşdur. Azərbaycanlıdır. Yasamal rayonunda 225 saylı orta məktəbi bitirdikdən sonra (1965-1975), istedadlı məzun kimi təhsil almaq üçün Moskva şəhərinə göndərilmişdir.



1975-1979-cu illərdə o, Moskva Vilayət Pedaqoji İnstitutunda təhsil almışdır. İnstitutu bitirdikdən sonra tərbiyəçi, 1980-cı illərdə Yuri Qaqarin adına pionerlər və məktəblilər sarayının metodisti, 1981-90-cı illərdə Azərbaycan Dəmiryol Texnikumunun müəllimi olmuş, 1990-92-ci illərdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət etmiş, 1992-1995-ci illərdə Şərq Universitetinin prorektoru işləmişdir. 1995-ci ildən isə 219 saylı orta məktəbində rus dili və ədəbiyyat müəllimidir.

Ələkbərov Xanlar Şahlar oğlu – 1950-ci ilin iyul ayının 3-də Bakı şəhərində müəllim ailəsində anadan olmuşdur. Azərbaycanlıdır. Yasamal rayonu 20 saylı orta məktəbi bitirdikdən sonra T.Şevçenko adına Kiyev Pedaqoji İnstitutunda oxumuş, lakin ordu sıralarına çağırıldığı üçün institutu bitirə bilməmişdir.



O, Sovet qoşunları qrupunda Almaniyada idman bölüyündə xidmət keçmişdir. Yüngül atletika üzrə idman ustasıdır. Hərbi xidmətdən sonra 1971-ci ildə Bakı Kooperasiya Texnikumuna («Sənaye malları üzrə əmtəəşünas») ixtisasına qəbul olunmuşdur. Texnikumu əla qiymətlərlə bitirərək Moskva Kooperasiya İnstitutuna («Ticarət» ixtisası üzrə) qəbul olunmuş və 1975-ci ildə oranı bitirmişdir. Mərkəziittifaqın və Azərittifaqın topdansatış bazalarında işləmişdir.

1975-1980-ci illərdə o, yenidən Azərbaycan Dövlət Xarici Dillər Pedaqoji İnstitutunun fransız dili şöbəsinə daxil olmuşdur. O, eyni zamanda kommersiya sahəsində işləməkdə davam edirdi. Son illər fransız dili üzrə repititorluqla məşğul olurdu.

X.Ələkbərov 2005-ci ildə 56 yaşında vəfat etmişdir və Bakı şəhərində atasının və əmisi Abdulun məzarları yanında dəfn edilmişdir.

Ələkbərova (Səmədova) Püstəxanım İmran qızı – 1923-cü ildə Dərbənddə anadan olmuşdur. Azərbaycanlıdır.

1940-cı ildə Pedaqoji Texnikumu bitirdikdən sonra müəllim işləmişdir. Böyük Vətən Müharibəsi ərəfəsində atıcılıqla məşğul olmuş və «Vo-roşilov nişanı» ilə təltif olunmuşdur. Böyük Vətən müharibəsi illərində maliyyəçi işləmiş, sonralar



Qorki şəhərində (indiki Nijni Novqorod) iqtisadiyyat üzrə təhsilini davam etdirmişdir. Dərbənd şəhərində mənzil-kommunal sistemində mənzil-kommunal idarəsinin vəzifəsində işləmişdir.

Böyük Vətən müharibəsi illərində göstərdiyi rəşadətli əməyinə görə «Əmək veteranı» medalı ilə təltif olunmuşdur. Böyük Vətən müharibəsi veteranıdır.

Ələkbərov Şahlar Sadıq oğlu – 1917-ci il may ayının 2-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



Şahlar Ələkbərovun atası Məşədi Sadıq məşhur tacir olmuşdur və Hacı Molla Əhmədin «möminlər» (din adamları) nəslini təmsil etmişdir.

Şahlar Ələkbərov Dərbənd şəhərində orta məktəbi (1924-1934), Dərbənd Pedaqoji Texnikumunu (1934-1938), Azərbaycan Dövlət Universitetini (tarix ixtisası üzrə) (1965-1970) bitirmiş, Dərbənd şəhər orta məktəbində tarix müəllimi işləmişdir.

Sovet Ordusu sıralarında əsgəri xidməti keçdikdən sonra pedaqoji fəaliyətini Azərbaycan Respublikasının xalq təhsili sistemində kitabxanaçı, Yasamal rayon 17 saylı orta məktəbin ibtidai sinif müəllimi, tədris hissə müdiri, sonra isə Bakı şəhər Yasamal rayon 19 saylı orta məktəbin direktoru kimi davam etdirmişdir. O, həmçinin partiya işində çalışmışdır. Yasamal rayon partiya komitəsində təlimatçı vəzifəsindən təbliğat və təşviqat şöbəsinin müdiri vəzifəsinədək yüksəlmişdir.

1965-ci ildən 1968-ci ilədək Bakı şəhər Yasamal rayon 1 saylı internat məktəbinin ilk direktoru olmuşdur. 1970-ci ildə iqtisadiyyat və ictimai fənlər üzrə müəllim, sonra Bakı Kooperasiya Texnikumunun tədris hissə üzrə direktor müavini işləmişdir. Əməkdə və ictimai işlərdəki xidmətlərinə görə fəxri fərmanlara, təşəkkürlərə və dövlət mükafatlarına layiq görülmüşdür.

1987-ci ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Ələkbərov Vahid Yusif oğlu – 1950-ci il sentyabr ayının 1-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. O, əmək fəaliyyətinə 1972-ci ildə başlamış və «Xəzərdənizneft» istehsalat birliyində qazmaçı işləmişdir. 1974-cü ildə Azərbaycan Neft və Kimya İnstitutunu bitirmişdir. 1974-1979-cu illərdə «Xəzərdənizneft» istehsalat birliyində neft və qaz ustası, mühəndis-texnoloq, növbə rəisi və neft sənayesi rəisinin müavini işləmişdir. 1979-1990-cı illərdə «Surqutneftqaz», «Başneft» və «Koqalımneftqaz» istehsalat birliklərində rəhbər vəzifələrdə çalışmışdır. 1990-1991-ci illərdə SSRİ neft və qaz sənayesi nazirinin müavini və 1-ci müavini işləmişdir. 1991-ci ildən «Lukoyl»un prezidentidir.



V.Ələkbərovun Dağıstanın və Dərbəndin istilik sisteminin yaradılmasında böyük rolu vardır. Dağıstanla Rusiya arasında şirkətin istilik şəbəkəsinin Dağıstana verilməsi haqqında müqavilə imzalanmış və «Lukoyl» şirkətinin Xəzərdə fəaliyyəti ilə əlaqədar bəzi məsələlər Dağıstanın prezidenti Muxu Əliyevlə müzakirə edilmişdir.

V.Ələkbərov «Lukoyl»un prezidenti kimi Dərbəndin mədəni, ictimai, iqtisadi həyatında yaxından iştirak edir və şəhərin yaşayış binalarının, müəssisələrinin əsaslı təmirinin aparılmasına köməklik göstərir.

Ələkbərov Vahid iqtisad elmləri doktoru, «Vertikalğno inteqrirovannıe neftənıe kompanii Rossii: metodoloqiə formirovaniə i realizaüii» və «Neftğ Rossii. Vzqləd top menedjera» monoqrafiyalarının müəllifidir.

O, «Dostluq», «Fəxri döş nişanı», «Vətən qarşısında xidmətlərinə görə» (4-cü dərəcəl), «Müqəddəs Sergey Radonejski», «Müqəddəs knyaz Daniil Moskovski», həmçinin bolqar «Madar atlısı» ordenləri ilə və «Qərbi Sibirin neftqaz kompleksinin mənimsənilməsi və inkişafına görə» medalı ilə təltif olunmuşdur.

Azərbaycan və Rusiya arasında iqtisadi əlaqələrin inkişafındaki xidmətlərinə görə «Şöhrət ordeni» ilə təltif olunmuşdur.

Əlqədəri Həsən (1834-1910) - məşhur Azərbaycan filosofu, tarixçisi və mütəfəkkiri olmuşdur.

Ərəb dilində yazılmış «Cərab əl-Məmnun», «Divan əl-Məmnun» və Azərbaycan dilində yazılmış «Əsəri Dağıstan» əsaslı tarixi kitablarının müəllifidir. Öz əsərlərini «Məmnun» təxəllüsü ilə yazırdı.

«Əsəri Dağıstan» salnaməsində Şimali-şərqi Azərbaycanın, o cümlədən Dağıstanın tarixi və Şimali Qafqaz xalqları haqqında yazılmışdır. Bu Əsərdə Dağıstanın tarixi haqqında qiymətli və ətraflı maraqlı məlumatlar vardır.

Əl-Qədari (Əhməd bin əl-Xusayn bin Əbu Abdallah əl-Qədari) (XI əsrin ortalarında vəfat etmişdir) – Bab əl-Əbvabın kadi-əl-kudatı (ali hakimi). Dərbənd əmirliyində olan hakimlərin hamısı baş hakim kimi ona tabe olmuşlar. Eyni zamanda Əl-Qədari şəhərin şiə icmasının baş ruhanisi olmuşdur.

Əl-Qədari ilk təhsili öz atası Əbu Abdallahdan almışdır (1020-ci ildə vəfat etmişdir). Onun atası bir çox əsərlərin müəllifi və məşhur şiə xadimlərindən olan Abu-l-Abbas an-Nəcaişin (1058-ci ildə vəfat etmişdir) və Abu Cəfər ət-Tusinin (1067-ci ildə vəfat etmişdir) dini müəllimi olmuşdur.

Əbu Bəkr əd-Dərbəndi (XI əsr) özünün məşhur «Reyhan əl-haqaiq və bustan əd-dadaiq» («Həqiqətlər reyhanı və incəliklər bağı») əsərində yazır ki, Əl-Qədari bir çox alimlərə köməklik göstərmiş, din aləmində İbn-əl-Məsləmə kimi tanınan Əbu Muəmmar Əmrə bin əl-Həsən əl-Babi tərəfindən yaradılmış məclislərə rəhbərlik etmişdir.

Əl-Qədarinin tələbələri və davamçıları arasında onun oğlanları Əbu İshaq İbrahim (XII əsrin əvvələrində vəfat etmişdir) və Əbu Zənariyyə Yəhya (1098-ci ildə vəfat etmişdir) xüsusi yer tuturlar. Onların ikisi də Əbu Bəkr əd-Dərbəndinin məhəllə hakimləri vəzifələrini tutmuşlar. Üçüncü oğlu – Əbu Süleyman Daud əl-Fəqih də təhsilini Dərbənddə almış, sonralar isə Məkkəyə köçmüşdür.

Əl-Qədari Dərbənddə vəfat etmiş və Narınqalanın yanındakı qədim şimal qəbirstanlığında dəfn edilmişdir. Onun iki oğlu da həmin qəbirstanlıqda dəfn olunmuşlar. Onların orada dəfn olunmasını epiqrafik materiallar da təsdiq edir.

Ələkbərov Mirzami Əbusət oğlu – podpolkovnik, 1926-cı ildə Dərbənd şəhərində anadan olmuşdur. O, 1943-cü ildə Dərbənd şəhər 4 saylı yeddiillik məktəbini, 1949-cü ildə Dağıstan Yol-Tikinti Texnikumunu, 1953-cü ildə Xarkov Hərbi Mühəndislər Məktəbini bitirmişdir. M.Ələkbərov müxtəlif dövlət mükafatları ilə təltif olunmuşdur.

1992-ci ildə vəfat etmiş və Sverdlov vilayətində dəfn olunmuşdur.

Ələkbərov Seyfulla Hacıbaba oğlu – tibb elmləri namizədi, professor, 1902-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. O, Dərbənd realnı məktəbini və Bakı Sənaye İnstitutunu (hazırda Azərbaycan Neft Akademiyası) bitirmişdir. SSRİ Dövlət Bankının Dağıstan filialınfn müdiri və Dağıstan Ticarət Nazirinin müavini işləmişdir. 1984-cü ildə vəfat etmiş və Dərbənd şəhərində dəfn olunmuşdur.

Ələkbərov Sədulla Hacıbaba oğlu 1904-cü ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd realnı məktəbini və Azərbaycan Tibb İnstitutunu (Bakı) bitirmişdir. Həkim, baş həkim, Dağıstanın səhiyyə nazirinin müavini işləmişdir. 1985-ci ildə vəfat etmiş və Mahaçqala şəhərində dəfn olunmuşdur.

Ələkbərova Zemfira Sədulla qızı – tibb elmləri doktoru, professor, 1932-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. O, Dağıstan (Mahaçqala) Tibb İnstitutunu bitirmişdir və orada ixtisası üzrə işləmişdir. Sonra Moskva şəhərinə köçmüş və orada uzun müddət Elmi-Tədqiqat İnstitutunda işləmişdir.

Əlibəyova Ayşət Müslüm bəy qızı – Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Realnı məktəbinin məzunu olmuşdur. Bakıya köçəndən sonra ali texniki təhsil almış və layihə institutunda memar işləmişdir.

Əlixanov Kamal Əbumüslüm oğlu – şair, 1925-ci ildə anadan olmuşdur. Yeddiillik təhsil almışdır. K.Əlixanov 1941-1945-ci illər müharibəsi iştirakçısı, Dağıstanın əməkdar inşaatçısıdır.

O, 1997-ci ildə «Həyatın elegiyası», 1999-cu ildə isə «Sevgini dara çəkməzlər» adlı şeirlər toplusunu çap etdirmişdir. 2002-ci ildə vəfat etmiş və Dərbənd şəhərində dəfn olunmuşdur. Onun yaşadığı Sovet küçəsinin 5 saylı evində xatirə lövhəsi vurulmuşdur.

Əlipənah bəy Bayat – Dərbənd şəhərində nüfuzlu Əhməd bəy Bayatın oğlu və Dərbənd naibi

təyin edilmiş, sonralar Şeyxəli xan Qubalı tərəfindən qovulmuş Məhəmməd Hüseyn bəyin qardaşı idi.

1806-cı ildə Bakı qalasının qapılarında Bakı xanı ilə danışıqlar zamanı rus ordusunun baş komandanı, infanteriya generalı knyaz P.D.Sisianov layiqli cəzasına çatdırıldı. Sisianovun ölümünün qisasını almaq üçün Bakıya, Dərbəndə, Qubaya Qızılyardan general Qlazenapın komandanlığı altında rus ordusu göndərilmişdir.

Dərbənd şəhərindən bu xəbəri alan Əlipənah bəy Dərbənddə Şeyxəli xan hakimiyyətinə xəyanət edərək bura da ona qarşı qiyam qaldırır, şəhərdən onun naibini qovur və rus generalını qarşılamaq üçün nümayəndə göndərir. Rus generalından onu himayəsi altına almasını xahiş edir.

Rus qoşunları şəhərə daxil olduqdan sonra (21 iyun 1806-cı il) Əlipənah bəyə mayor rütbəsi verildi və şəhərin naibi təyin edildi. Lakin tezliklə yeni naib hakimiyyətindən sui-istifadə etməyə başladı, bu da şəhər sakinlərinin narazılığına səbəb oldu. Ruslar rolunu artıq oynamış Əlipənah bəyə 1809-cu ildə bu vəzifədən kənarlaşdırdılar və o, 1813 ildə şəhərdə iğtişaşlarda iştirak etdiyinə görə Dərbənddən Rusiyaya sürgün edildi.

Əlipənahbəyov Osman bəy Əlipənahbəy oğlu – podpolkovnik, Əlipənah bəy Bayatın nəticəsi, Dərbənd şəhərinin ilk qeyri-rus qradona-çalniki olmuşdur. Rus ordusunda xidmət etmişdir.

O, 1912-ci ildə vəfat etmiş və Dərbənd şəhərində dəfn olunmuşdur.

Əliyev Abdulla Arif oğlu – 1970-ci il yanvar ayının



3-də Bakı şəhərində anadan olmuşdur və dərbəndli tacir Hacı Cəfər nəslinin (5-ci məhəllə) nümayəndəsidir. Azərbaycanlıdır.

O, Bakı şəhəri 68 saylı orta məktəbi (1976-1983), C.Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbi (1983-1986), Poltava Ali Hərbi Rabitə məktəbini – qoşun rabitəçi-zabiti ixtisası üzrə (1987-1991) bitirmişdir.

1991-1992-ci illərdə Ağdam şəhərində yerləşən Cənubi Qavqaz hərbi dairəsinin HHM və rabitə qoşunları komandiri vəzifələrində hərbi xidmət keçmişdir.

1992-ci ildən 2005-ci ilədək Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rabitə qoşunlarında hərbi hissə komandirinin müavini vəzifəsində xidmət etmişdir.

2005-ci ildən indiyədək Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rabitə qoşunlarında hərbi hissə komandiri vəzifəsində xidmət edir.

Hərbi xidmətdə göstərdiyi xidmətlərə görə bir sıra medallarla mükafatlandırılmışdır.

Azərbaycan Respublikasının müharibə veteranıdır (1998). Polkovnik-leytenantdır.

Əliyev Bahadur Məmməd oğlu 1928-ci ildə



Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

1 saylı Dərbənd orta məktəbini və Dağıstan Tibb İnstitutunu (1952) bitirmişdir. Xiv rayon xəstəxanasında işləmişdir. O, burada klinik ordinatordan xəstəxananın baş həkimi vəzifəsinədək yüksəlmişdir. B.Əliyev 1957-1962-ci illərdə Moskvada Mərkəzi Həkimlərin Təkmilləşdirilmə İnstitutunun radiologiya və rentgentologiya kafedrasının aspirantı olmuşdur.

1962-ci ildən 1993-cü ilədək Radioloji-Onkoloji Elmi-Tədqiqat Mərkəzəində çalışmışdır. O, burada kiçik elmi işçidən klinik şüa terapiya şöbəsinin rəhbəri vəzifəsinədək yol keçmişdir. 230 elmi əsərin, o cümlədən iki monoqrafiyanın müəllifidir. Yeni radioloji cihazın işlənilib hazırlanması və klinik təcrübədə tətbiq edilməsinə görə iki müəllif şəhadətnaməsi və SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin 3 medalını almışdır. Tibb elmləri doktoru (1972) və professordur.

Əliyev Çingiz Teyyub oğlu – 1950-ci il sentyabrın



7-də Bakı şəhərində anadan olmuşdur. Əslən dərbəndlidir. Ç.Əliyev 1967-ci ildə Bakı şəhəri 134 saylı orta məktəbi və 1972-ci ildə Azərbaycan Dövlət Politexnik İnstitutunun yolların tikintisi və istismarı fakültəsini bitirmişdir.

Ç.Əliyev 1984-cü ildən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyində və Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyində işləmişdir.

O, 1991-1994-cü illərdə Göranboy, Fizuli, Zəngilan, Qubadlı bölgələrində xüsusi döyüş əməliyyatlarının fəal iştirakçısı olmuşdur. Qarabağ müharibəsi və Dövlət Təhlükəsizliyi orqanının veteranıdır. Polkovnik-leytenantdır.

Əliyev Dəmirqaya Həsən oğlu (1914-1986) - Dərbənd şəhərində anadan olmuşdur. M.Rzayev adına 7-illik məktəbi bitirmişdir. Komsomol komitəsinin katibi və Qafqaz neft sənayesi birliyinin qrup komitəsinin sədri işləmişdir.

Moskva şəhərində birillik siyasi işçilər kursunu bitirdikdən sonra o, yenidən komsomol işinə qayıdır. 1938-ci ildən 1940-cı ilədək o, Dərbənd konserv zavodunun komsomol təşkilatının katibi sonra isə ÜLKGİ şəhər komitəsinin şöbə müdiri, 1941-ci ildən 1944-cü ilədək Dərbənd ÜK(b)P şəhər komitəsinin şöbə müdiri, Dərbənd MTS siyasi şöbəsinin müdiri işləmişdir.

1945-ci ildə şəhər icraiyyə komitəsinin, sonrakı illərdə isə Dərbənd ÜK(b)P rayon komitəsinin birinci katibi, ÜK(b)P Dərbənd şəhər komitəsinin birinci katibi, Dərbənd ÜK(b)P dairə komitəsinin katibi işləmişdir.

1961-1986-cı illərdə Dərbənd rayon İliç adına şərabçılıq sovxozuna rəhbərlik etmişdir.

D.H.Əliyevin xidmətləri üç Qırmızı Əmək Bayrağı ordeni və Şərəf Nişanı, doqquz hökumət medalı, SSRİ XTNS-nin üç qızıl medalı, RSFSR və DMSSR-nın Ali Sovetinin Rəyasət heyətinin fəxri fərmanları ilə mükafatlandırılmışdı. Ona «DMSSR əməkdar üzümçüsü» fəxri adı verilmişdir.

D.H.Əliyev Dağ.MSSR Ali Sovetinin deputatı və SSRİ KP vilayət komitəsinin üzvü seçilmişdir.

Əliyeva Diana Hafis qızı – 1961-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

O, Dərbənd şəhər 8 saylı orta məktəbi bitirmiş və 1980-cı ildə Dağıstan Pedaqoji İnstitutunun tarix fakültəsinə daxil olmuşdur. İnstitutu bitirdikdən sonra, Dərbənd şəhər məktəblərində müəllim, Dərbənd şəhər Komsomol komitəsində şöbə müdiri, 1991-ci ildən isə Dərbənd şəhər Mərkəzləşdirilmiş kitabxana sisteminin direktoru işləyir.

D.Əliyeva Dağıstan Respublikasının Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür.

Əliyev Ələkbər Əli oğlu – 1952-ci ildə Bakı şəhərində müəllim ailəsində anadan olmuşdur. Azərbaycanlıdır. Əslən dərbəndlidir. O, Bakı şəhər 190 saylı orta məktəbi, Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini bitirmişdir. Ə.Əliyev riyaziyyat müəllimi və Azərbaycan Elmlər Akademiyasının Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutunda kiçik elmi işçi işləmişdir. 1978-1980-ci illərdə Moskva şəhərində keçmiş SSRİ Elmlər Akademiyasının Hesablama Mərkəzinin aspiranturasında oxumuşdur. 1984-cü ildə Moskvada namizədlik dissertasiyasını müdafiə etmiş və fizika-riyaziyat elmləri namizədi alimlik dərəcəsini almışdır. 1986-cı ildə Ali Attestasiya Komisiyasının qərarı ilə ona baş elmi işçi rütbəsi verilmişdir. Sonralar o, sektor müdiri işləmişdir.



1991-ci ildə 134 saylı orta məktəbdə riyaziyyat və informatika müəllimi kimi də çalışmışdır. 2000-ci ildən Bakı şəhər Səbail rayonundakı 162 saylı orta məktəbin direktoru vəzifəsində çalışır.

Əliyev Ələsgər Əli oğlu – 1955-ci il iyul ayının 21-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Onun atası və anası Dərbənddə anadan olmuşdur.



O, 1973-cü ildə Bakı şəhər 133 saylı orta məktəbi bitirmiş və Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuşdur. 1979-cu ildə həmin institutun «Müalicə-profilaktika» fakültəsini bitirmişdir.

1973-cü ildə Azərbaycan Elmlər Akademiyasının Qeyri-üzvi və Fiziki-kimya İnstitutunda laborant, 1980-1982-ci illərdə Sumqayıt şəhərinin «Təcili yardım» stansiyasında həkim, 1982-1984-cü illərdə M.Topçubaşov adına Elmi-Tədqiqat Klinik və Eksperimental İnstitutunda ürəkdaxili və kontrast müayinələr mərkəzində həkim-cərrah, 1987-1991-ci illərdə rentgenologiya laboratoriyasında kiçik elmi işçi kimi fəaliyyət göstərmişdir.

1989-cu ildə «Tac işemiya xəstəliyi zamanı miokard dəyişiklikləri» mövzusunda dissertasiya müdafiə etmiş və tibb elmləri namizədi alimlik dərəcəsini almışdır. 1991-2000-ci illərdə M.Tobçubaşov adına Elmi-Tədqiqat Cərrahlıq İnstitutunda şüa diaqnostikası şöbəsində böyük elmi işçi vəzifəsində fəaliyyət göstərmişdir.

O, xarici ölkələrə dəvət almış və uzun illər Səudiyyə Ərəbistanının Abha şəhərində «Asee» Mərkəzi xəstəxanasında tibbi görüntülər şöbəsində radioloq vəzifəsində çalışmışdır. Hazırda Azərbaycan Dövlət Gömrük İdarəsinin Mərkəzi xəstəxanasında invaziv-radioloq vəzifəsində işləyir.

Əliyev Ələsgər bir çox elmi məqalənin müəllifidir. Onun elmi məqalələri Azərbaycan, Rusiya, Gürcüstan, Orta Asiya, İndoneziya, Ərəb və Avropa ölkələrinin jurnallarında dərc edilmişdir.

Əliyev Əhəd Məşədi Məmmədkazım oğlu – 1901-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd realnı məktəbini və Moskvada Xarici Ticarət İnstitutunu bitirmişdir. 30-cu illərdə SSRİ-nin Xarici Ticarət Nazirliyi sistemində – Əfqanıstanda Sovet İttifaqının ticarət nümayəndəsi işləmişdir. Ötən əsrin 40-cı illərində Saxalin adasında SSRİ-nin balıqçılıq sənayesi sistemində işləmişdir.

Bakı şəhərində dəfn olunub.

Əliyev Əli Əbdül oğlu – 1900-cü ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Ali təhsil almış, 1929-cu ildən Azərbaycan K(b)P-nin üzvü olmuşdur. Bakı şəhərində müəllim, Azərbaycan K(b)P MK aparatında işləmişdir.

Böyük Vətən müharibəsi illərində Azərbaycanın bir qrup partiya işçiləri ilə (Əziz Əliyev və başqaları) Dağıstana göndərilmişdir.

1942-ci ildən 1944-cü ilədək ÜK(b)P Dərbənd şəhər komitəsinin birinci katibi işləmişdir.

Əliyev Əli Mahmud oğlu – hüquqşunas, 1943-cü ildə oktyabrin ayının 30-da Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Sumqayıt şəhərində zavodda işləmişdir. Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. O, Bakı şəhəri Əzizbəyov rayonunun prokuroru, Qusar rayon prokuroru, Bakı şəhəri Nərimanov rayonunun prokuror köməkçisi, Bakı şəhəri prokurorluğunda şöbə müdiri vəzifələrində işləmişdir.



Əliyev 2005-ci ildə təqaüdə çıxmışdır. «Dərbənd» cəmiyyətində idarə heyətinin üzvü və hüquq məsləhətçisidir.

Əliyev Əziz Məmmədkərim oğlu – 1897-ci ildə keçmiş İrəvan quberniyasının Hamamlı kəndində doğulmuşdur. Azərbaycanlıdır.



1917-ci ildə İrəvan kişi gimnaziyasını qızıl medalla bitirmiş və həmin il Petroqraddakı Hərbi-Tibb Akademiyasına daxil olmuşdur. İkinci kursun yay tətilini evlərində keçirmək üçün İrəvana gələn Ə.Əliyev burada daşnakların törətdikləri vəhşilikləri görərək ailəsini Şərura köçürə bilmiş və bir müddətdən sonra isə Şahtaxtı kəndinə aparmışdır. Təhsilini bitirməyə imkan olmasa da gənc tələbə əhaliyə tibbi xidmət göstərmişdir. 1923-cü ildə Bakıya köçən Ə.Əliyev Azərbaycan SSR XKS-də iş icraçısı, ümumi şöbə müdirinin müavini vəzifələrində çalışmış, paralel olaraq Bakı Dövlət Universitetinin tibb fakültəsində oxumuşdur. Azərbaycan səhiyyə sahəsində tədqiqatlar aparan gənc alim tibb sahəsi üzrə namizədlik dissertasiyası müdafiə etmişdir. Azərbaycanda tibb elminin inkişafında, ali tibb təhsilinin təşəkkülündə, yüksək ixtisaslı tibb kadrlarının hazırlanmasında müstəsna xidməti var. Onun 1934-cü ildə hazırladığı **«Klinik analizlər»** kitabı Azərbaycan dilində yazılmış ilk tibbi ali məktəb dərsliklərindən biridir. 1937-ci ildə həbs edilən Əziz Əliyev həbsdən sonra elmi fəaliyyətini davam etdirərək doktorluq dissertasiyasını yazmışdır. Bir müddət Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru vəzifəsində çalışan Ə.Əliyev gənc olmasına baxmayaraq, bacarıqlı səhiyyə təşkilatçısı kimi özünü göstərmiş və siyasi işlərə cəlb olunmuşdur. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi olan Əziz Əliyev 1941-ci ili Azərbaycan K(b)P MK-nin katibi vəzifəsində qarşılamışdır.

Əziz Əliyevin siyasi fəaliyyətinin Dağıstan dövrü (1942-1948-ci illər) Azərbaycan-Dağıstan əlaqələrinin şanlı səhifələrini təşkil edir.



1942-ci il iyulun 25-də alman qoşunları Şimali və Cənubi Qafqazı zəbt etmək məqsədilə **«Edelveys»** əməliyyatına başlamışdılar. Alman komandanlığı öz məqsədinə çatsaydı, faktiki surətdə müharibədə qalib gəlmiş olardı. Şimali Qafqazın tutulması Xəzər dənizi və Volqa çayından keçən lend-liz yolunun **(İngiltərə və ABŞ-dan SSRİ-yə hərbi yardım yolu)** kəsilməsi və Sovet Ordusunun Cənubdan bütünlüklə əhatələnməsi, Ural, Qazaxıstan, Orta Asiyaya gedən yolların itirilməsi demək idi. Cənubi Qafqazın itirilməsi SSRİ-nin yeganə və əsas neft bazası Bakının, SSRİ-nin yeganə molibden mədənlərinin, əhəmiyyətli ərzaq ehtiyatlarının, müalicə-reabilitasiya bazalarının yoxa çıxması, Xəzərin şimal və qərb sahillərinin, həmçinin İran, Türkiyə və Yaxın Şərqə gedən yolların Almaniyanın əlinə keçməsi demək idi. 1942-ci il iyulun 3-dən 1943-cü ilin oktyabrına qədər Qafqaz uğrunda gedən döyüşlər öz miqyasına, mübarizənin sərtliyinə, döyüş əməliyyatlarının uzanmasına, döyüş şəraitinin mürəkkəbliyinə görə II Dünya müharibəsi tarixində xüsusi yer tutur. İyul ayında Don çayını keçməklə alman qoşunları (167 min nəfər) Qafqaza soxulmuşdular. Onların 1130 tankına qarşı 100-dən artıq sovet tankı, 1000 təyyarəsinə qarşı 130 sovet təyyarəsi duruş gətirməli idi. Avqustun 12-dək almanlar marşal Semyon Budyonnının rəhbərlik etdiyi Şimali Qafqaz cəbhəsinin qoşunlarını məğlubiyyətə uğradaraq qarşılarında olan bütün sovet tanklarını məhv etmişdilər. 130 təyyarədən sovetlərdə cəmi 94 təyyarə qalmışdı. Almanların dağ-atıcı hissələri Böyük Qafqazı aşaraq Suxumi istiqamətinə doğru irəliləməyə başlamışdılar, bu isə döyüşlərin Cənubi Qafqazda başlanması demək idi.

SSRİ üçün Şimali Qafqazda ağır şəraitin yaranmasının səbəblərindən biri səhv milli siyasət idi. Hələ XX əsrin 20-ci illərindən etibarən burada qurulmuş sovet hakimiyyəti əvvəlki çar hökumətinin müstəmləkə siyasətini davam etdirir, bütün tədbirlər milli və dini xüsusiyyətlər nəzarə alınmadan həyata keçirilirdi. Sovetlərin yeritdiyi siyasətə qarşı yönələn ən kiçik etirazlar «banditizm» adlandırılaraq ən qəddar üsullarla yatırılırdı. 1939-cu il sentyabrın 1-də qəbul edilən «Ümumi hərbi mükəlləfiyyət haqqında qanun»a əsasən 18 yaşına çatmış bütün sovet vətəndaşları hərbi xidmətə çağırılırdı. Tədqiqatçı A.Bezuqolnının araşdırmaları göstərir ki, Qafqazdan olan çağırışçıların əksəriyyəti Almaniya ilə həmsərhəd olan qərb hərbi dairələrinə göndərilirdi. Milli hərbi hissələr, milli zabit kadrları da qərb sərhədində cəmləşdirilirdi (məsələn, 77-ci Azərbaycan dağ-atıcı diviziyası SSRİ-nin cənub sərhədinə gətirilmiş, bir çox azərbaycanlı zabitlər kimi tank qoşunları kapitanı Həzi Aslanov Belorusiyaya təyinat almışdı və s.). Nəticədə müharibənin ilk aylarında milli hissələr məğlub edilmiş, milli zabit kadrlarının əksəriyyəti həlak olmuş və ya əsir düşmüşdür. Orduya yeni çağırılanların əksəriyyəti nəinki hərbi işi, hətta rus dilini bilmirdilər. Bu, döyüş əməliyyatlarında özünü göstərmişdir. Bir çox hallarda hərbi rəhbərlik öz səhvlərini ört-basdır etmək üçün məğlubiyyəti milli diviziyaların qorxaqlığı, fərsizliyi ilə bağlayırdı. **396-cı Azərbaycan milli atıcı diviziyası Kerç-Feodosiya əməliyyatına aviasiya, artilleriya, tank dəstəyi olmadan döyüşə göndərilmiş, nəticədə 8 min döyüşçüdən cəmisi 150 nəfər sağ qalmışdır.** İtkin və ya əsir düşmüş döyüşçülərin ailələri repressiyalara məruz qalırdı. Şovinist komandirlərin niyyətini anlayan bir çox döyüşçülər almanlar tərəfə keçirdilər. Antiazərbaycan qüvvələrinin səylərinə baxmayaraq, M.Bağırov İ.Stalini azərbaycanlıların sadiqliyinə inandıra bilmiş, yeni milli Azərbaycan diviziyalarının yaradılmasına, Azərbaycanda yeni hərbi məktəblərin açılmasına nail olmuşdur. Dağıstanda vəziyyət fəlakət dərəcəsinə çatmışdı. Hərbi hazırlığı olan və rus dili bilən dağıstanlı döyüşçülərin əksəriyyəti Ukrayna, Moldova və Belorusiyada gedən döyüşlərdə həlak olmuşdular. Tələsik yaradılmış Kabarda-Balkar süvari diviziyası və çeçen süvari alayı alman tanklarına qarşı göndərilmiş və təbii ki, darmadağın edilmişdilər. Tüfəng və qılıncla silahlanmış ən cəsur süvarinin də tankla açıq döyüşdə məğlub olacağını nəzərə almadan

insanları ölümə göndərmiş general Maslennikov İ.Stalinə raportunda dağıstanlıları qorxaqlıqda ittiham etmişdir **(yeri gəlmişkən, qatı şovinistliyi ilə seçilən Maslennikov gürcü və erməni hərbi hissələrini də «qaralayır», ən çox şikayətləri isə azərbaycanlılara qarşı yazırdı).** İ.Stalinin buna reaksiyası kəskin olmuşdur. Heç bir yoxlama aparılmadan Xalq Müdafiə Komissarı (MXK) 0585 saylı əmri (30 iyul 1942-ci il) imzalayır və bu əmrə əsasən Şimali Qafqaz dağlılarının orduya çağırışını qadağan edir. Avqustun 24-də Dağıstan əhalisinin də orduya çağırışı qadağan edilmişdir. 1941-ci ildə Dağıstanda 54675 kişi ordu sıralarına çağırıla bilərdi (onlardan 16631 nəfər hərbi xidmətdə olmuşdur), lakin cəmi 3203 nəfər orduya çağırılmışdı, onlar da əsasən Dağıstan şəhərlərində yaşayan ruslar və ya müharibənin əvvəlində çağırılan dağlılar idi.

Sovet repressiyalarının canlı simvolu olan L.P.Beriya dərhal Şimali Qafqaza göndərilmiş, Dərbənd, Mahaçqala, Nalçik şəhərlərində xalq daxili işlər komissarlığının diviziyaları yerləşdirilmişdi. Hesablamalar göstərmişdi ki, Şimali Qafqaz və Dağıstanda 18-45 yaşlarında 95 min kişi vardır və onlar cəbhəyə çağırılmır, əksinə potensial düşmən kimi qəbul edilir. Nəticədə sovet qoşunları ilə yerli əhali arasında toqquşmalar baş vermiş, bir çox ucqar rayonlarda Sovet hakimiyyəti devrilmişdi. Ayrı-ayrı kəndlərin əhalisi köçürülmüşdü. Bu zaman kəndlərdən olan kişilərin cəbhədə hələ də vuruşması nəzərə alınmamışdı. Məsələn, təyyarəçi, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Ametxan Sultanın ailəsi bütünlüklə Sibirə sürgün edilmişdi. Ailələri ilə necə rəftar olunduğunu bilən bir çox döyüşçülər ya almanlar tərəfə keçir, ya da fərarilik edərək dağlarda sovetlərə qarşı vuruşmağa başlayırdılar. Almaniyada Əhmədnəbi Maqomayevin rəhbərliyi ilə «Şimali Qafqaz Milli Komitəsi»nin yaradılması, alman ordusunun tərkibində **«Şimali Qafqaz milli legionunun»** sovetlərə qarşı vuruşması İ.Stalini bütün Şimali Qafqaz əhalisinin köçürülməsi haqqında İ.Beriyanın təklifi ilə razılaşmağa vadar etmişdir. Köçürülmə Dağıstandan başlamalı idi.

1942-ci ilin sentyabr ayının əvvəllərində Dağıstanda L.Beriyanın göndərdiyi yoxlamalar əhalinin aclıq həddində yaşamasını müəyyən etmişdi, Dağıstan Vilayət Partiya Komitəsinin 1-ci katibi H.İ.Linkun isə heç bir tədbir görmürdü. Şimali-qərbi Dağıstanda banditizm geniş vüsət almışdı.



Belə şəraitdə Mircəfər Bağırov Dağıstan Vilayət Partiya Komitəsinin 1-ci katibi vəzifəsinə Əziz Əliyevin təyin edilməsini təklif etmişdi. Qafqaz adət-ənənələrini yaxşı bilən, yüksək təşkilatçılıq qabiliyyəti olan, pedaqoji sahədə böyük təcrübəyə malik, Qafqazda hər zaman hörmətlə qarşılanan peşə sahibi – həkim olan, qətiyyət və əqidəsi ilə seçilən Əziz Əliyev qısa zamanda vəziyyəti dəyişdirməyə qadir idi. 1942-ci il sentyabrın 16-da Dövlət Müdafiə Komitəsinin qərarı ilə Əziz Əliyev Dağıstan Vilayət Partiya Komitəsinin 1-ci katibi təyin edilmiş və Mahaçqala Müdafiə Komitəsinin sədri seçilmişdi.

Bu dövrdə Ə.Əliyevin əsas diqqəti Dağıstanda, həmçinin Dərbənddə müdafiə istehkam-larının tikilməsinə, şəhər sənayəsinin hərbi dövrün tələblərinin müvafiq şəkildə qurulmasını və əhalinin sosial məsələlərin həllinə yönəldilmişdi. Dərbənd şəhərin strateji, iqtisadi əhəmiyyətini nəzərə alaraq o, şəxsən müdafiə səngərlərin qurulmasında iştrak edir və öz göstərişlərin verirdi.

Ə.Əliyevin yeni vəzifədə olaraq ilk tədbirlərdən biri də yaranmış vəziyyətin səbəblərinin öyrənilməsi idi. Yoxlamalar göstərmişdir ki, hərbçilər icazə olmadan evlərdən ərzaq, mal-qara və əşyaları müsadirə edir, hərbi ehtiyac olmadan əhalinin evlərini dağıdırdılar. Müdafiə qurğularının tikintisinə cəlb olunan əhaliyə maaş və yemək-içmək verilmirdi. Belə işlərə çıxmaq istəməyənlərin ailələri girov götürülürdü. Banditizmə qarşı mübarizə adı ilə kütləvi şəkildə həbslər və qətllər törədilirdi. Bütün bunlara son qoyan Ə.Əliyev ətrafına yerli kadrları toplamağa çalışırdı. O, yerlərdə vəziyyətlə tanış olaraq alman təbliğatına qarşı mübarizənin və vətənpərvərlik işinin gücləndirilməsini 1-ci dərəcəli vəzifə elan etmişdi. Nəticədə 1942-ci ilin

sentyabr-noyabr aylarında Dağıstanda sovet pulları, təbliğat ədəbiyyatı və silahla təchiz edilmiş 42 alman paraşütçü agenti zərərsizləşdirilmişdir. Müharibənin sonunadək 160 belə agent ifşa edilmişdir. Milli din xadimləri və ziyalılar təbliğata cəlb edilmişdir. Təsərrüfat sahəsində müsbət dəyişikliklər hesabına cəbhəyə ərzaq və müxtəlif malların göndərilməsinə başlanılmışdır. Müharibənin sonunadək Dağıstandan cəbhəyə 129,5 min ton taxıl, 48 min ton ət, 50 min ton yun, 1332 ton yağ və s. göndərilmişdir.

Lakin Ə.Əliyev anlayırdı ki, İ.Stalində Dağıstan xalqları barəsində formalaşdırılmış fikri dəyişmək üçün bilavasitə hərbi sahəyə münasibətdə dönüş olmalıdır. Dağıstan və Şimali Qafqazdan dağlıları orduya aparmaq müharibənin sonunadək qadağan edilmişdir. Qadağadan yan keçmək üçün Ə.Əliyev könüllülərin toplanıb milli hərbi hissələr şəklində cəbhəyə göndərilməsinə nail olmuşdu. Təkcə 1942-ci ilin sentyabr-oktyabr aylarında aparılmış təbliğat işləri nəticəsində 4900 könüllü toplanmışdır. Milli zabitlərin rəhbərliyi altında milli hərbi hissələrdə vuruşan bu könüllülərin ilk uğurları geniş təbliğ olunurdu. Yaralılara, cəbhədə olan döyüşçülərin ailələrinə qayğı artırılmışdı.

Nəhayət, vəziyyəti birdəfəlik düzəltmək üçün Əziz Əliyev çox cəsarətli və çox riskli hərəkətə əl atmışdı. O, Sovet Ordusunun Səfərbərlik və Təşkilatçılıq Baş İdarəsinin rəisi Şadenkoya məktub yazaraq Dağıstan əhalisinin ordu sıralarına çağırılmamasını səhv addım kimi qiymətləndirmişdir. Belə qadağanın qoyulmasında bilavasitə İ.Stalinin rolunun olmasını bilərək məktubunda yazmışdır: «Qızıl Ordu sıralarına çağırışın qadağan edilməsi Dağıstan xalqlarının həyatında siyasi baxımdan zərərlidir və heç nə ilə yuyula bilməyən ləkədir». Faktiki olaraq, öz məktubu ilə Ə.Əliyev mərkəzi hakimiyyətin qərarına etiraz etmişdir və bu, Stalin dövrü üçün çox nadir fakt sayılırdı. Məktub ya dağıstanlılardan ibarət diviziyaların toplanılmasına icazənin verilməsi, ya da məktubu imzalamış Ə.Əliyev və onun köməkçisi A.Daniyalovun repressiyalara məruz qalması ilə nəticələnməli idi.

Risk özünü doğrultmuşdu: məktubdan sonra bir neçə milli diviziyanın yaradılmasına icazə verilmiş, orduya çağırış bərpa edilməsə də, könüllülərin geniş şəkildə orduya cəlb olunmasına icazə verilmişdi.

1943-cü ilin yanvarında Dağıstanda könüllü olaraq orduya getmək istəyənlərin çağırış kampaniyası keçirilmişdir. Faktiki olaraq, bu, dağlıların sovet quruluşuna loyal münasibətlərini göstərmək üçün bir şans idi. 1943-cü ilin martınadək 8255 könüllü çağırılmış və onlardan 3,2 min nəfər rus dilini öyrənmişdir. Cənubi Qafqaz cəbhəsinin komandanının müavini general-leytenant Kurdyumov öz raportlarından birində qeyd edirdi: «Dağıstanda könüllülərin cəlb olunması Çeçen – İnquşetiyadan yaxşı keçirilir. Görünür ki, Dağıstan Vilayət Partiya Komitəsi bu məsələyə ciddi yanaşmışdır». Cənubi Qafqaz cəbhəsi siyasi şöbəsinin rəis müavini polkovnik Antonov 5 fevral 1943-cü il tarixli raportunda qeyd edirdi: «Dağıstan Respublikasının partiya – sovet orqanları və respublika hərbi komissarlıqları könüllülərin çağırışı üzrə böyük iş görürlər. Könüllülər sırasında hərbi məktəblərə getmək istəyən çoxlu sayda şəxs var...»

1943-cü ildən etibarən daha alman təbliğatı da qafqazlılara təsir göstərmirdi və bunu alman hərbçiləri də etiraf etməyə məcbur olmuşdular. Ə.Əliyevin rəhbərliyi ilə görülmüş işlər öz bəhrəsini vermişdi. Artıq 1945-ci il iyulun 1-dək Sovet Ordusu sıralarına Dağıstandan 122268 nəfər göndərilmişdi. Onlardan 1630 nəfəri zabit idi. Döyüşlərdə 25 min dağıstanlı SSRİ-nin orden və medalları ilə təltif edilmişdir.

Müharibə qələbə ilə nəticələnəndə dağıstanlılar öz rəhbərlərinə inam və sədaqət rəmzi olan xəncər bağışladılar. Həmin xəncər indi Azərbaycan Milli Tarix Muzeyinin kolleksiyasındadır (YTF № 2995). Əziz Əliyevin sayəsində dağıstanlılar bir çox digər xalqlar kimi sürgün olunmamış, öz dədə-baba torpaqlarında qalmışdılar. Təsadüfi deyil ki, Dağıstan Respublikasının prezidenti **Muxu Əliyev**



2007-ci ildə Dağıstanda Əziz Əliyevin 110 illik yubileyinə həsr edilmiş tədbirdə demişdir: **«Əziz Məmmədkərimoviçin adı Dağıstana xidmət göstərmiş parlaq siyasi və ictimai xadimlərin sırasında ən layiqli yerlərdən birini tutur».**

Dağıstanda, o cümlədən Dərbənddə müharibədən sonra iqtisadiyyatın mülki istiqamətdə yenidən qurulmasında da Əziz Əliyevin böyük rolu olmuşdur. Dərbənd şəhərinin siyasi, tctimai və iqtisadi inkişafında onun xidmətləri əvəzsizdir. Bu gün dərbəndlilər onun xatirəsini əziz tutur və daim yad edirlər.

Əziz Əliyevin Dağıstan əhalisi tərəfindən hədiyyə edilmiş xəncəri Azərbaycan Milli Tarix Muzeyinin kolleksiyasında. Azərbaycan Milli Tarix Muzeyinin silah kolleksiyasında Azərbaycanın görkəmli siyasi xadimi Əliyev Əziz Məmmədkərim oğluna məxsus xəncər nadir eksponatlardan sayılır. Muzeyin yeni tarix fondunda 2995-ci nömrə altında qorunan bu xəncər muzey tərəfindən 1978-ci ildə alınmışdır. Muzeyin inventar kitabında qeyd edilir ki, xəncər Əziz Əliyevə 1945-ci ildə Böyük Vətən Müharibəsində qələbə münasibətilə Dağıstan əhalisi tərəfindən hədiyyə olunmuşdur.

Əziz Əliyevə məxsus xəncərin Kubaçı, Avar və Lak xəncər növləri ilə müqayisəsi göstərir ki, o, Kubaçı xəncəridir. Kubaçı xəncərlərinin ayırd edilməsində onların naxışları əsas rol oynayır. Kubaçı ornamentlərini yüksək peşəkarlıq əsasında müxtəlif texniki üsul və vasitələrdən istifadəni tələb edən mürəkkəb, çoxşaxəli naxışlar fərqləndirir. Y.M.Şillinq Kubaçı ornamentində bu kompozisiyaları fərqləndirir: **1. Tutta («budaq»)** – üzərinə simmetrik olaraq yarpaq və çiçəklər taxılmış budaq kompozisiyanın mərkəzini təşkil edir; **2. Marxaray («cəngəllik»)** – bu kompozisiyada bir və ya bir neçə mərkəzdən kənara yayılan spiralların arası yarpaq təsvirləri ilə doldurulur; **3. Tamğa («möhür»)** - halqa, ellips, romb, kvadrat şəklində olan qapalı iri medalyondur. Medalyonun daxili tutta və marxaray kompozisiyaları ilə doldurula bilər; **4. Kusat naxış («dama-dama naxış»)** - bu kompozisiyada ikiyarpaqlı elementlərdən yaradılan romblar öz növbəsində dama-dama həndəsi ornament təşkil edir; **5. «Lum»** - yuxarıdakı ornamentlərin haşiyəsini təşkil edən zəncirvari yarpaqlardan ibarət naxışdır; **6. Zoomorf üslub** – yarpaqlar arasında heyvan təsvirləridir.

Əziz Əliyevə bağışlanmış xəncərin yaxın analoqlarının axtarışı Sankt-Peterburq şəhərində uğurla nəticələnmişdir. **Rusiya Etnoqrafiya Muzeyində (REM)** analoji xəncərə rast gəlinmişdi. REM-in soyuq silahlar kataloqunda qeyd edilir ki, bu xəncər – qəmə XX əsrin əvvəllərində Dağıstanın Kubaçı kəndində düzəldilmiş, 1926-cı ildə Seyid Məhəmməd oğlu tərəfindən Kubaçıdan alınmış və REM-ə bağışlanmışdır. Xəncərin quruluşu, ölçüləri, düzəldilmə texnologiyası və materialları AMTM-də qorunan xəncərlə eynidir.

Əziz Əliyevə hədiyyə edilmiş xəncər ümumi uzunluğu 47,5 sm, tiyənin uzunluğu 33 sm-dir. Xəncər dəstəyi poladdandır. Tiyə yuxarıdan aşağıya doğru tədricən daralan poladdan düzəldilmiş və onun ortasından iki yiv oyulmuşdur. Yivlər arasında çox çətinliklə ərəb qrafikası ilə yazıların olması görünür. Yazılara diqqətlə baxılanda aydın olur ki, sürtülərək tamamilə yeyildiyinə görə oxunmur. Dəstək qızılı və gümüşü simlər, qarasavatla bəzədilmiş, ortasına sümükdən lövhə taxılmışdır. Qının iç hissəsi nazik taxtadan düzəldilmiş, dəstəyə toxunan hissəsinə məxmər parça yapışdırılmışdır. Qının çöl tərəfi metaldandır, üzəri qızılı və gümüşü simlər, qarasavatla bəzədilmiş, ortasına sümükdən lövhə taxılmışdır. Qının aşağı ucu qoza şəkilli, zəngin bəzədilmiş əlavə elementlə tamamlanır. Qın və dəstək üzərində olan naxışlar xəncərin Kubaçi növünə aid olmasına şübhə yaratmır. Yazıların yeyilməsi belə ehtimal etməyə imkan verir ki, tiyə köhnə, dədə-babadan qalmış xəncərin tiyəsi olmuş və keyfiyyətini itirməmişdir. Ənənəyə görə etibarlı tiyələr nəsildən-nəsilə keçirilir. Qın və dəstək dəyişilsə də belə tiyələr göz bəbəyi kimi qorunmuşdur. Müqayisəli təhlil göstərir ki, tiyə, ehtimal ki, XX əsrin 20-ci illərində düzəldilmişdir. Əziz Əliyev üçün hədiyyə hazırlananda bu tiyə seçilmiş, qın və dəstək isə yenidən, ehtimal ki, 40-ci illərin ortalarında hazırlanmışdır.

Bu gün Əziz Əliyevin adı Azərbaycan və Dağıstanın dost və qonşu münasibətlərini təsdiqləyən ideoloji rəmzə çevrilmişdir. Həmin münasibətlərin bariz nümunəsi eksponat şəklində Azərbaycan Milli Tarix Muzeyində qorunur.

Əliyev Fərhad Hacıbaba oğlu 1958-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Fizika-riyaziyyat elmləri doktoru, professordur. Dərbənd şəhər 3 saylı orta məktəbi və Moskva Dövlət Universitetini bitirmişdir. Moskva Dövlət Universitetində, Belçika Katolik Universitetində işləmişdir. Hazırda Madrid Kral Universitetində işləyir. 100-dən çox elmi nəşrin və ali məktəblər üçün dərsliklərin müəllifidir.



Əliyev Heydər Əlirza oğlu (10.5.1923, Naxçıvan ş. - 12.12.2003, Klivlend, ABŞ; Bakıda Fəxri Xiyabanda dəfn olunmuşdur) – dünya tarıxının dahi şəxsiyyətlərindən biri, Azərbaycanın böyük siyasi və dövlət xadimi. Dünya azərbaycanlılarının ümummilli lideri, Azərbaycan xalqının qurtuluş mübarizəsinin (1990-93) qalibi. Yeni Azərbaycan Partiyasının (1992) banisi, Azərbaycan Xalq Cümhuriyyətinin tarixi varisi olan müasir Azərbaycan dövlətinin qurucusu və Azərbaycan Respublikasının Prezidenti (1993-2003). Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra 1939-41-ci illərdə Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsil almışdır. 1941-ci ildən Naxçıvan Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri işləmişdir. 1944-ci ilin mayında Naxçıvan Vilayət Partiya Komitəsi tərəfindən dövlət təhlükəsizlik orqanlarına işə göndərilmiş, Leninqradda (indiki Sankt-Peterburq) xüsusi ixtisas təhsili almış, leytenantlıqdan general rütbəsinədək yüksəlmişdir. 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. 1964-ci ildə Azərbaycan Sovet Sosialist Respublikası Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir. Heydər Əliyev Dövlət Təhlükəsizliyi Komitəsində fəaliyyəti dövründə bu mühüm strukturun azərbaycanlılaşdırılması üçün öz xalqı qarşısında misilsiz xidmətlər göstərmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev AKP MK-nin birinci katibi, MK-nin büro üzvü seçilmişdir. Bununla, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü başlanmışdır. Heydər Əliyev AKP MK- nin avqust (1969) plenumundakı məruzəsi ilə respublikada xalq təsərrüfatına və mədəni quruculuğa rəhbərliyi əsaslı surətdə yaxşılaşdırmaq, dövlət və əmək intizamını möhkəmləndirmək, kadrların məsuliyyətini artırmağın yeni xəttini müəyyən etmişdir. Bu xətt Heydər Əliyevin sonrakı məruzə və çıxışlarında daha da inkişaf etdirilərək elmi surətdə əsaslandırılmış, respublikanın iqtisadi-siyasi həyatında xalqın mənəviyyatına mənfi təsir göstərən tənəzzul meyllərinin qarşısının alınması, sağlam mənəvi-psixoloji iqlimin, ictimai ovqatın bərqərar olunması uğrunda uzunmüddətli mübariz fəaliyyət proqramına çevrilmişdir. Heydər Əliyevin AKP-nın 28-ci (1971, mart) və 29-cu (1976, yanvar) qurultaylarında MK-nin hesabat məruzələri bu proqramın həyata keçirilməsində mühüm əməli rol oynamışdır. Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyasının 24-cü (1971, mart-aprel) və 25-ci (1976, fevral-mart) qurultaylarında çıxış etmiş, həmin qurultaylarda Sov. İKR MK-nin üzvü seçilmişdir. Heydər Əliyev 1976-ci ilin martında Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş, eyni zamanda, Sovet Sosialist Respublikaları İttifaqı Nazirlər Soveti sədrinin birinci muavini **təyin edilmişdir. Türk-müsəlman xalqlarına qarşı ayrı-seçkilik siyasətinin yeridildiyi şəraitdə SSRİ kimi nəhəng bir dünya dövlətinin ali rəhbərliyinə ucalmaqla Heydər Əliyev misilsiz dövlət idarəçiliyi istedadı və bacarığı nümayiş etdirmişdir.**

SSRİ Konstitusiyası komissiyasının üzvü olan Heydər Əliyev yeni konstitusiyanın hazırlanmasında fəal iştirak etmiş və konstitusiyanı qəbul edən SSRİ Ali Sovetinin sessiyasında çıxış etmişdir (1977, oktyabr). Heydər Əliyev Azərbaycan Sovet Sosialist Respublikasının (Azərbaycan SSR) yeni konstitusiyasının layihəsini hazırlayan komissiyanın sədri kimi, **Azərbaycan dilinin Azərbaycan SSR-ın dövlət dili haqqında maddənin respublika konstitusiyasına daxil edilməsinə nail olmuşdur** (1977-ci, iyul). O, Azərbaycan SSR Ali Sovetinin sessiyasında «Azərbaycan SSR Konstitysiyasının (Əsas Qanunun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunları haqqında» məruzə etmişdir (1978, aprel).

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk illərdən mükəmməl iqtisadi inkişaf konsepsiyası hazırlanmış, ənənəvi təsərrüfat sahələrinin şöhrəti və səmərəliliyi bərpa edilmiş, yeni-yeni istehsal sahələrinin, istiqamətlərinin əsası qoyulmuş, iqtisadiyyatın sənaye bazası genişləndirilmiş və müasirləşdirilmişdir. Nəticədə, Azərbaycanın

iqtisadi potensialı güclənmişdir. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə (1969-82-ci illər) idarəetmə mexanizmi və metodlarının təkmilləşdirilməsi, qanunçuluğa ciddi əməl edilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafı sahələrində yüksək göstəricilər əldə edilməklə yanaşı, azərbaycançılıq, milli ruhun, milli-mənəvi özünüdərkin, mədəniyyətin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qaytarılması, soykök əsasında millətdə müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün də çox mühüm işlər görülmüşdür. Nəticədə, 1970-80-ci illərin birinci yarısı respublikanın ictimai-iqtisadi və sosial-mədəni həyatında sürətli yüksəliş mərhələsi olmuş, müstəqil Azərbaycanın təməli qoyulmuşdur. **Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə (1969-82) ictimai-iqtisadi inkişafın və milli-mədəni oyanışın bütün sahələrində müstəqilliyə doğru böyük dönüş başlanmışdır.**

Heydər Əliyev SSRİ-nın ali rəhbərliyi tərkibində fəaliyyət göstərdiyi dövrdə xalq təsərrüfatına rəhbərliyin bütün sahələrində tükənməz dövlət idarəçiliyi istedadı nümayiş etdirmiş, xüsusilə elm, təhsil, mədəniyyət və səhiyyənin inkişafına böyük qayğı göstərilmişdir. Heydər Əliyev dövlətçilik fəaliyyətinin Moskva dövründə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın yalnız SSRİ məkanında deyil, həmçinin bütün dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

Heydər Əliyev SSRİ Ali Sovetinin (8, 9 və 10-cu çağırışlar) deputatı seçilmiş, 9-cu çağırış SSRİ Ali Soveti İttifaq Sovetenin sədr müavini, Azərbaycan SSR Ali Sovetnin (7, 8, 9 və 10-cu çağırışlar) deputatı və respublika Ali Soveti Rəyasət Heyətinin üzvü olmuş, Lenin ordeni (4 dəfə), Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif edilmiş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına (1979, 1983) layıq görülmüşdür.

1970-80-ci illərdə Sov. İKP MK və SSRİ Ali Soveti nümayəndə heyətinin başçısı və üzvü kimi Meksika, Almaniya, Vyetnam, Koreya, Xalq Demokratik Respublikası, Rumıniya, Yuqoslovaya, İtaliya, Misir, Suriya və Hindistana rəsmi səfərlər etmişdir.

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sov. İKP MK Siysi Bürosunun və şəxsən Baş katib M.S.Qorbaçovun yeritdiyi səhv xəttə, onun antiazərbaycan siyasətinə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa vermiş və mövcud rejimə qarşı müxalif mövqe tutmuşdur

Heydər Əliyev sovet qoşunlarının 1990-cı ilin 20 yanvarında Bakıda törətdiyi qanlı qırğınla əlaqədar ertəsi gün Kreml rejiminin təqiblərinə və səhhətinin ağır olmasına baxmayaraq Azərbaycanın Moskvadakı nümayəndəliyində verdiyi cəsarətli bəyanatında Azərbaycan xalqına qarşı silah işlədilməsini qətiyyətlə pisləmiş, Azərbaycan xalqının Qurtuluş mübarizəsinin önünə keçmişdir. Mübariz mövqeyini qətiyyətlə davam etdirən Heydər Əliyev Dağlıq Qarabağda kəskin münaqişəli vəziyyətlə bağlı mərkəzin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq 1991-ci ilin iyununda Sov. İKP sıralarını tərk etmişdir.

Heydər Əliyev doğma xalqını milli-siyasi fəlakət burulğanından xilas etmək üçün 1990-cı ilin iyununda Azərbaycana qayıtmış, ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda **Qurtuluş mübarizəsini** davam etdirmiş, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü, xüsusilə onun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində çalışdığı illər (1991-93) muxtar respublikanın siyasi, sosial-iqtisadi və mədəni inkişafının çətin, eyni zamanda əlamətdar dövrüdür. Heydər Əliyev, birinci növbədə, Naxçıvan Muxtar Respublikasını Ermənistanın silahlı təcavüzü və işğalı təhlükəsindən xilas etdi. Bu illərdə Heydər Əliyevin təşəbbüsü ilə muxtar respublikanın Ali Məclisi onun adından «sovet sosialist» sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin (1918-20-ci) üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması haqqında qərarlar qəbul etdi. Blokada şəraitində olan muxtar respublikanın iqtisadi problemlərinin həllinə ciddi diqqət yetirildi. Qonşu Türkiyə və İranla iqtisadi əlaqələr yaradıldı. Naxçıvanı Türkiyə ilə birləşdirən «Ümid körpüsü», İranla yük və sərnişin daşınmasını genişləndirən Şahtaxtı-Poldəşt körpüsü inşa edildi və s.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən, eyni zamanda Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmişdir. Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasındakı (1991-ci, fevral) çıxışında Vətənin ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcunu yerinə yetirməyə, müstəqillik uğrunda mübarizəyə qoşulmağa gəldiyini bəyan etmiş, dağılmaqda olan Sovet İttifaqında, eləcə

də Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti obyektiv təhlil edərək, cəmiyyəti dərindən düşündürən problemlər barədə mühüm ideyalar irəli sürmüş, prinsipial və konkret fikirlər söyləmiş, təkliflər vermiş, siyasi və iqtisadi böhranın səbəbləri, onların aradan qaldırılması yolları barədə qətiyyətli mövqeyini bəyan etmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərərək demişdir: **«Yaranmış vəziyyətin günahkarı hakimyyətdə olan Kommunist Partiyasının Mərkəzi Komitəsi, partiya və dövlət hakimiyyətini ələ keçirmiş Qorbaçovdu».**

Xalqının müstəqilliyi uğrunda dönmədən mübarizə aparan Heydər Əliyev Azərbaycan Ali Sovetinin 1991-ci il 7 mart tarixli sessiyasında SSRİ rəhbərliyinin müttəfiq respublikaları guya yeni ittifaq yaratmağa çağıran təklifinə qarşı çıxmış, bununla bağlı referendumda iştirak edib-etməmək məsələsində öz qətiyyətli mövqeyini belə ifadə etmişdir: **«Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdı».** Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Respublikasında referendum boykot edilmiş, rus sovet qoşun hissələri buradan çıxarılmış, 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilmiş, Naxçıvan müstəqillik və milli dövlət quruculuğu nümunələri göstərərək, xalqın inamını sarsılmağa qoymamış, müstəqilliyə ümid yaratmışdı.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərdiyi müddətdə bütün Azərbaycan xalqı və Vətən üçün taleyüklü məsələlərdə daim qətiyyətlilik nümayiş etdirmişdir: Kommunist Partiyasının Naxçıvanda fəaliyyət göstərən bütün strukturları ləğv edilmiş (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il 26 avqust tarixli qərarı), Azərbaycan Ali Sovetinin 1991-ci il 29 avqust tarixli sessiyasının qərarına əsasən, Azərbaycanda həmin il sentyabrın 8-nə təyin edilmiş prezident seçkilərinin Naxçıvan Muxtar Respublikası ərazısında keçirilməsinin dayandırılması (Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il 4 sentyabr tarixli qərarı) haqqında qərar çıxarılmışdır. Heydər Əliyevin siyasi təcrübəsi və qətiyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında sabitlik təmin olunmuş, demokratik dövlət quruculuğu formalaşmışdır. 1993-cü ilin may-iyununda respublikada hakimiyyət böhranı, hərcmərclik son həddə çatdıqda, ölkə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi qarşısında qaldıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Bu, əsl mənada, milli hərəkata çevrildi və nəticədə Azərbaycanın o zamankı dövlət başçıları onu rəsmən Bakıya dəvət etməyə məcbur oldular. **Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi. Həmin gün Azərbaycan xalqının tarixinə Qurtuluş günü kimi daxil oldu. Heydər Əliyevin başçılıq etdiyi Qurtuluş mübarizəsi zəfər çaldı.** Bununla, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrü başlandı. Azərbaycan dövlətçiliyinin məhv edilməsi, vətəndaş müharibəsi və ölkənin parçalanması təhlükəsi aradan qalxdı. İyunun 24-dən isə Heydər Əliyev Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Oktyabrın 10-da andiçmə mərasimində Heydər Əliyev xalqa müraciət etdi: **«Belə bir yüksək və məsuliyyətli vəzifəni üzərimə götürərkən, birinci növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edib. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm».**

Heydər Əliyev Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial iqtisadi, elmi-mədəni həyatında. beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı, Azərbaycan dövlətçiliyinin varlığı üçün böyük təhlükə olan 1994-ci il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, dövlət müstəqilliyi qorunub saxlanıldı, silahlı yolla hakimiyyətə gəlmək cəhdlərinə son qoyuldu, ölkədə möhkəm ictimai-siyasi sabitlik bərqərar edildi. Heydər Əliyev Azərbaycan rəhbərliyinə qayıdışı ilə əsas qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, respublikaçılıq, ədalət, demokratiya, hüquqi dövlət quruculuğu, milli tərəqqi, dünyəvilik və s, ümummilli, ümum-bəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyuldu. Dövlətin xarici siyasəti, o cümlədən aparıcı dövlətlər və beynəlxalq təşkilatlarla əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başladı. Prezidentin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda, hətta bədxahlarımız tərəfindən də etiraf edilən uğurlu

və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından çox əhəmiyyətli idi. Bu illərdə milli ordu quruculuğunda ciddi dəyişikliklərə başlandı. Təcavüzkar erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindəki azğınlıqlarının qarşısı alındı, qəddar düşmənə əks-zərbələr endirildi və 1994-cü ilin mayında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. Bununla, xalqımız genefondunun məhv edilməsinin qarşısı alındı. Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının Azərbaycana, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibəti əsaslı surətdə dəyişdi. ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın milli mənafelərinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

Heydər Əliyev Azərbaycanın təbii ehtiyatlarından və əlverişli coğrafi-strateji mövqeyindən ölkənin milli mənafelərinə uyğun olan irimiqyaslı beynəlxalq iqtisadi sazışlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində çox gərgin fəaliyyət göstərdi. 1994-cü ilin sentyabrında Bakıda «Əsrin müqaviləsi» adını almış neft müqaviləsi bağlandı.

Bundan sonra Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar yeni-yeni sazişlərin imzalanması belə müqavilələrin sayını 21-ə, iştirak edən dövlətlərin və iri şirkətlərin sayının isə müvafiq surətdə 15 və 33-ə çatdırılmasına imkan verdi ki, bu da yaxın illərdə Azərbaycana qoyulacaq xarici sərmayənin 60 milyard dollardan çox olacağını nəzərdə tutur. Bütün bunlar ölkənin iqtisadi sistemini canlandıracaq guclu maliyyə kanalıdır. Bu müqavilələr, eyni zamanda, çox mühüm siyasi məna kəsb edir və Azərbaycanın beynəlxalq aləmdə rolunu gücləndirən amil funksiyası daşıyır. Heydər Əliyevin yeritdiyi müdrik siyasət nəticəsində Azərbaycan neftinin dünya bazarlarına nəqli sahəsində də uğurlu addımlar atılmış, «Bakı-Supsa» boru kəməri tikilib istifadəyə verilmişdir. Heydər Əliyevin müdrik uzaqgörənliyi və siyasi iradəsi sayəsində «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac boru kəmərinin inşa olunması haqqında müqavilə imzalanmış və onun həyata keçməsi uğurla başa çatırılmışdır.

Heydər Əliyevin təşəbbüsü ilə tarixi Böyük İpək yolunun bərpasına yönəlmiş beynəlxalq proqramın həyata keçirilməsində Azərbaycan aparıcı rol oynamış, 1998-ci ilin sentyabrında 32 ölkənin və 14 beynəlxalq təşkilatın yüksək səviyyəli nümayəndələrinin Bakıda konfransı keçirilmiş, konfrans proqramın icraçı katibliyinin Bakıda yerləşməsi haqqında qərar qəbul etmişdir.

Gürcüstan, Ukrayna, Özbəkistan, Azərbaycan və Moldovanın daxil olduğu GUÖAM birliyinin yaradılmasında və beləliklə, böyük bir coğrafi məkanda region qüvvələrinin birləşməsində də Heydər Əliyevin böyük xidməti olmuşdur. 1999-cu ilin aprelində GUÖAM ölkələri başçılarının Vaşinqton görüşündə Heydər Əliyev təşkilatın ilk sədri seçilmişdir.

Heydər Əliyevin çoxşaxəli və genişmiqyaslı fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının bərqərar olması, iqtisadi böhranın aradan qaldırılması və tərəqqinin təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, ölkə iqtisadiyyatında ilk artım meyllərinin başlanması, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi və inflyasiyanın qarşısının alınması, manatın alıcılıq qabiliyyətinin davamlı surətdə sabit saxlanması prioritet sahələrdir.

Heydər Əliyev demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu sahəsində ardıcıl siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır. 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə ümumbəşəri demokratik dəyərləri özündə əks etdirən Azərbaycan Respublikası konstitusiyasının qəbul edilməsi, 1995-ci və 2000-ci illərdə çoxpartiyalılıq əsasında demokratik parlament seçkilərinin keçirilməsi, Konstitusiya məhkəməsinin fəaliyyətə başlaması, ölüm cəzasının ləğv olunması, «Bələdiyyə seçkiləri haqqında qanun»un və bir sıra digər qanunların qəbulu və əməli surətdə həyata keçirilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan dövləti insan hüquq və azadlıqları sahəsində, demək olar ki, bütün beynəlxalq konvensiya və sazişlərə qoşulmuşdur.

Heydər Əliyevin İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında,, 1998-ci il 22 fevral tarixli fərmanı Azərbaycan Respublikasının dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratmış, insan hüquq və azadlıqlarının təmin edilməsini dövlət sıyasəti səviyyəsinə qaldırmış, 1995-ci ilin mayında əfvetmə təsisatı bərpa edilmiş, 1995-2003-cü illərdə əfv fərmanlarına və amnistiya

aktlarına əsasən minlərlə məhbus cəzaçəkmədən tam və ya qismən azad edilmiş, Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tam hüquqlu üzvü olmuşdur.

Heydər Əliyev Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyünün pozulması, işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlardan soydaşlarımızın didərgin salınması və çadırlarda qaçqın və köçkün vəziyyətində yaşamağa məcbur olması, Azərbaycan ərazisinin 20%-dən çoxunun Ermənistan silahlı birləşmələrinin işğalı altında qalması və s. haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması sahəsində çox gərgin və geniş miqyaslı fəaliyyət göstərmişdir. Heydər Əliyevin Azərbaycan Prezidenti kimi, BMT-nin sessiyalarında, ATƏT-in zirvə toplantılarında çıxışları, Fransa, ABŞ, İngiltərə, Belçika, Almaniya, İran, Türkiyə, Çin, Səudiyyə Ərəbistanı, Misir, Rusiya, Qazaxıstan, Pakistan, Qırğızıstan, Özbəkistan, Yaponiya və b. ölkələrə rəsmi səfərləri də bu məqsədə xidmət etmişdir.

Prezident Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri təşkil edir. O, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin də sülh yolu ilə həll olunmasına tərəfdar olduğunu bildirmiş, bu yolda ardıcıl mübarizə aparmış, problemin sülh yolu ilə həlli baş tutmadıqda, Qarabağın silahla azad ediləcəyini əzmlə bəyan etmişdir.

Heydər Əliyev türk dövlətləri arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin möhkəmləndirilməsi sahəsində də gərgin fəaliyyət göstərmişdir. O, türk dövlətləri başçılarının 1992-ci ildən işə ba-lamış zirvə toplantılarında müntəzəm olaraq fəal iştirak etmiş, türk xalqlarının birliyi naminə bir sıra dəyərli tədbirlərin həyata keçirilməsinə nail olmuşdur. Türk dövlətləri başçılarının 6-cı zirvə toplantısının (2000, aprel) Bakıda keçirilməsi və bu böyük tədbirin türk dünyasının böyük ədəbi abidəsinin – «Kitabi-Dədə Qorqud» eposunun 1300 illiyinin beynəlxalq miqyasda qeyd edilməsi ilə eyni vaxta düşməsi də bu baxımdan çox əlamətdardır. Heydər Əliyevin rəhbərliyi ilə hər iki tədbirin çox yüksək səviyyədə keçirilməsi və bütün türk xalqlarının əsl bayramına çevrilməsi Azərbaycan Prezidentini həm də çağdaş türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi şöhrətləndirmişdir.

Heydər Əliyevin tarixin acı və amansız sınaq dövrlərində, ermənilərin xüsusi qəddarlıqla həyata keçirdikləri soyqırımları nəticəsində dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş azərbaycanlıların birlik və həmrəyliyinin yaradılması işində müstəsna xidmətləri vardır. Heydər Əliyev hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən onun təşəbbüsü ilə 1991-ci il dekabrın 16-da Ali Məclis dekabrın 31-ni Dünya Azərbaycanlılarının Birliyi və Həmrəyliyi Günü elan etmişdir. Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi xarici dövlətlərə rəsmi səfərləri zamanı, istisnasız olaraq, hər bir ölkədə yaşayan azərbaycanlıların nümayəndələri ilə çox önəmli görüşlər keçirmiş, Azərbaycan diasporunun formalaşması və təşkilatlanması, onların azərbaycançılıq ideyası altında ana Vətən – Azərbaycan ətrafında sıx birləşməsi üçün misilsiz xidmətlər göstərmişdir. Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 2001-ci il noyabrın 9-10-da dünya azərbaycanlılarının Bakıda I qurultayı keçirilmiş, Azərbaycan diasporunun fəaliyyətinin canlandırılması və gücləndirilməsi sahəsində çox mühüm tarixi qərarlar qəbul edilmişdir.

Heydər Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1%-ni toplayaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Prezident Heydər Əliyev Azərbaycanın digər bölgələri kimi, blokada şəraitində yaşayan Naxçıvanı da daim diqqət mərkəzində saxlamış, «Naxçıvan Muxtar Respublikasının 75 illik yübileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında» 1999-cu il 12 fevral tarixli sərəncamında muxtar respublikanın gələcək inkişaf perspektivlərini müəyyən etmişdir. Heydər Əliyevin muxtar respublikanın yubiley şənliklərində şəxsən iştirak etməsi Azərbaycanın bu qədim diyarının hərtərəfli inkişaf proqramının həyata keçirilməsinə yeni güclü təkan vermişdir.

Heydər Əliyev dahi siyasi və dövlət xadimi olmaqla yanaşı, həm də tarix, fəlsəfə, ədəbiyyat və incəsənətin gözəl bilicisi, elmin və mədəniyyətin himayəçisi idi. Onun bilavasitə təşəbbüsü və iştirakı ilə neçə-neçə ədəbiyyat, incəsənət və elm xadimlərinin yubileyləri keçirilmiş, onların fəaliyyəti yüksək dövlət mükafatları və fəxri adlarla qiymətləndirilmiş, abibələri ucaldılmışdır. Azərbaycan mədəniyyətinin inkişafında böyuk xidmətləri olan qocaman sənətkarlara, istedadlı gənc şair və yaşıçılara, müxtəlif yaradıcılıq sahələrində yeniyetmələrə fərdi təqaüdlər təyin etməsi də mədəniyyətimizin inkişafına Heydər

Əliyevin böyük qayğısının bariz nümunələrindəndir.

Azərbaycanda latın əlifbasına keçilməsi, dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında 2001-ci ildə imzaladığı fərmanlar, milli-mənəvi dəyərlərin qorunub saxlanması çağırışı ilə Azərbaycan xalqına müraciətləri, türk xalqları və dövlətləri arasında əlifba və dil birliyinin təmin edilməsi və bir çox digər sahələrdə çoşğun fəaliyyəti Heydər Əliyevə böyük şöhrət gətirmişdir. O, Bakı Dövlət Universitetini «Azərbaycan xalqının milli sərvəti», Elmlər Akademiyasını isə «Azərbaycan xalqının tarixi nailiyyəti» adlandırmış və respublikada elmin, təhsilin inkişafına daim diqqət və qayğı göstərmişdir; Heydər Əliyev 2001-ci il 15 may tarixli fərmanı ilə Elmlər Akademiyasına Azərbaycan Milli Elmlər Akademiyası statusu verməklə bu nəhəng elm ocağının Azərbaycan xalqı qarşısındakı xidmətlərini və akademik elmin ölkənin inkişafının əsas təminatçılarından olduğu faktını bir daha yüksək səviyyədə təsdiqləmişdir.

Zəngin, hərtərəfli və dərin tarixi biliyə malik olan Heydər Əliyev doğma tarixin doğru-düzgün araşdırılması, öyrədilməsi və təbliğ olunmasını daim diqqət mərkəzində saxlamış, bu mühüm sahəyə böyük qayğı göstərmiş, metodoloji göstərişləri və apardığı çox dəyərli ümumiləşdirmələrlə tarix elminin inkişafına güclü təkan vermişdir. Onun müxtəlif tarixi hadisələr, proseslər, görkəmli tarixi simalar barədə çıxışları, məruzələri, irəli sürdüyü dövrləşdirmələr, 1948-53-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası (1997, 18 dekabr) və soyqırımı (1998, 26 mart) haqqında fərmanları, «Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik» və 31 Mart-azərbaycanlıların soyqırımı günü» münasibətilə Azərbaycan xalqına müraciətləri (2000, 29 dekabr və 2001, 27 mart) və s. bunun parlaq nümunələridir.

Heydər Əliyev öz əsərlərində, məruzə, çıxış, xalqa müraciətlərində, imzaladığı fərman və sərəncamlarda Azərbaycan xalqının dövlətçilik tarixində parlaq rol oynamış Azərbaycan Xalq Cümhuriyyətinin, Cümhuriyyət xadimlərinin fəaliyyətinə obyektiv və yüksək qiymət vermiş, müstəqil Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu dönə-dönə qeyd etmişdir. Prezident Heydər Əliyevin 1998-ci il 30 yanvar tarixli sərəncamı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi bütün ölkədə geniş qeyd olunmuşdur. **«Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyuk rol oynamışdır» (Heydər Əliyev).**

Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 85-ci ildönümü münasibətilə imzaladığı sərəncamla (2003-cü, 1 fevral) Azərbaycan xalqının dövlətçilik tarixində mühüm yer tutduğunu nəzərə alaraq, Bakı şəhərində Azərbaycan Xalq Cümhuriyyətinə abidə ucaldılması haqqında göstəriş vermişdir. Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair arxiv sənədləri və fundamental nəşrlər işıq üzü görmüş, 2003-cü ilin mart-may aylarında Bakıda Azərbaycan Xalq Cümhuriyyətinin 85 illiyinə həsr olunmuş beynəlxalq elmi-sessiya keçirilmiş, «Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası»nın nəşr olunması üçün hazırlıq işlərinə başlanmışdır.

1998-ci ilin mayında Azərbaycan xalqı, mütərəqqi beynəlxalq ictimaiyyət Heydər Əliyevin anadan olmasının 75 illiyini yüksək təntənə ilə qeyd etmişdir. Azərbaycanda və bir sıra xarici ölkələrdə Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyi və tərəqqisi naminə titanik fəaliyyətindən bəhs edən silsilə kitablar, kitab-albomlar nəşr olunmuş, kinofilmlər yaradılmışdır.

Heydər Əliyev bir sıra xarici ölkələrin yüksək ordenlərinə, beynəlxalq mükafatlara, o cümlədən, Türkiyənin Sənaye və İş Adamları Vakfının 1997-ci ilin insan haqları və ilin dövlət adamı mükafatına, ən nüfuzlu televiziya kanallarından biri «Nərgiz TV»nin apardığı rəy sorğusuna görə planetimizin siyasi xadimləri arasında «Dünyada ilin adamı» fəxri adına (1997), «İpək yolu Fondu»nun təsis etdiyi «İpək yolu Xidmət Mükafatı»na (1999), müxtəlif ölkə universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara, mükafatlara layiq görülmüşdür. Dövlətlərarası əlaqələrin inkişafında, regional münasibətlərin, siyasi sabitliyin tənzimlənməsində yorulmaz səylərinə görə Heydər Əliyev «Qızıl fortuna» Beynəlxalq Reytin təşkilatının ali mükafatı – «Qızıl Ulduz» («Qloriya populi») ilə təltif olunmuşdur (2001).

Ümumdünya tarixinin nadir şəxsiyyətlərindən biri olan Heydər Əliyevin əbədiyyətə qovuşduğu gun Azərbaycan xalqının, bütün türk-islam dünyası və mütərəqqi bəşəriyyətin tarixinə ən ağır hüzn günü kimi daxil oldu. Dahi rəhbər əbədiyyət dünyasına arxasınca irəliləyə milyonlarla azərbaycanlını – doğma xalqını birləşdirərək qovuşdu.

Azərbaycan xalqı Heydər Əliyevin adını geniş miqyasda əbədiləşdirmişdir. Anadan olduğu Naxçıvan şəhərində Heydər Əliyevin büstü ucaldılmış (1983), Heydər Əliyev muzeyi yaradılmışdır. Azərbaycan Respublikasının bütün rayon, şəhər, böyük qəsəbə və kəndlərində Heydər Əliyev bağ və parkları, meydanları salınmış, bulaq-abidə komplektsləri, pannolar inşa edilmişdir. Kiyevdə Heydər Əliyev adına Siyasi Elmlər və Beynəlxalq Münasibətlər İnstitutu fəaliyyət göstərir. Heydər Əliyev məktəbləri və universitetlərində elmi-nəzəri mühazirələr, məruzələr dinlənilir, seminarlar keçirilir. Bakının beynəlxalq hava limanı, Bakı-Tbilisi-Ceyhan neft kəməri, Respublika sarayı, Bakı idman-konsert kompleksi və s. Heydər Əliyevin adını daşıyır.

Heydər Əliyev Bakıda Fəxri Xiyabanda, ömür-gün yoldaşı akademik Zərifə xanım Əliyevanın yanında dəfn olunmuşdur. Onun məzarı qədirbilən Azərbaycan xalqının müqəddəs ziyarətgahına çevrilmişdir.

Əliyev Heydər və Dağıstan xalqları. Tarixi şəxsiyyətlər həm də o zaman böyük, dahi olurlar ki, onlar təkçə öz xalqına yox, bütün bəşəriyyətə mənsub olurlar. Heydər Əliyev də belə dahilərdəndir. Onun Dağıstan xalqları ilə Azərbaycan arasındakı əlaqələrin inkişafındakı rolu misilsizdir.

Azərbaycan və Dağıstan xalqlarının arasında dostluğu, qardaşlığı ümummilli lider Heydər Əliyev uzun illər möhkəmləndirmiş və dərinləşdirmişdir. Məhz bu dahi insanın gərgin səyləri nəticəsində xalqlarımız arasında ticarət, iqtisadi və siyasi-mədəni əlaqələr daha da möhkəmlənmişdir.

Bu mövzuda bütün çıxışlarında Heydər Əliyev həmişə bir fikri söyləmiş, daim ona sadiq qalmış, bu ideyanın tətbiqi və möhkəmlənməsinə çalışmışdır: «Azərbaycan və Dağıstan xalqlarının əsrlərin sərt sınaqlarından çıxmış qədim dostluq ənənələri vardır. Bu, ulularımızın göz bəbəyi kimi qoruyub saxladıqları və nəsillərə yetirdikləri əvəzsiz Tanrı sərvətidir». Bunları deyən ümummilli liderimiz Dağıstanda da haqlı olaraq sevilmiş, Qafqazın ağsaqqalı adlandırılmışdır.

Dağıstan Dövlət Şurasının el ağsaqqalı Məhəmmədəli Məhəmmədov demişdir: «Heydər Əliyev Qafqaz xalqları üçün elə böyük işlər görüb ki, bu gün onların hamısı qazandıqları müstəqillik və əmin-amanlıq üçün ona minnətdar olmalıdırlar. Heydər Əliyevin öz xalqı, habelə Dağıstan xalqı qarşısında çox böyük xidmətləri vardır. Dağıstan xalqı heç vaxt onu unutmayacaqdır».

Adət-ənənəsi, məişəti, dini, Dağıstanın əksər yerlərində dilimiz bir olan xalqları ilə bütün sahələrdə əlaqəmiz məhz möhtərəm Heydər Əliyevin hakimiyyəti illərində daim inkişaf etmiş, möhkəmlənmişdir. Yaradıcı ziyalıların, alimlərin görüşlərinin keçirilməsi, bayram günlərinin, qazanılmış uğurların, hər iki respublikada tanınmış şəxslərin yubileylərinin dövlət səviyyəsində birgə qeyd edilməsi dediklərimizə əyani sübutdur.

Xalqlarımızın müştərək tarixinin inkişafında, birliyinin möhkəmlənməsində öz böyük həyat yolu, qəhrəmanlığı ilə Qafqaz xalqları qarşısında əvəzsiz xidmət edən iki dahi şəxsiyyətin – böyük sərkərdə Şeyx Şamilin və iki xalqın böyük oğlu adlandırılan Əziz Əliyevin yubileyinin həm Azərbaycan, həm də Dağıstanda dövlət səviyyəsində qeyd olunmasında Heydər Əliyevin xidmətləri əvəzsizdir.

1997-ci ilin noyabr ayında Heydər Əliyev Mahaçqalada anadan olmasının Şeyx Şamilin 200 illiyi münasibəti ilə keçirilən yubileyin iştirakçılarına göndərdiyi təbrik məktubunda, Bakıda yubiley münasibətilə keçirilən təntənəli gecədəki nitqində Azərbaycan və Dağıstan xalqlarının tarixi əlaqələrinin köklərinin daha qədim olduğunu qeyd etmiş, Şeyx Şamilin azadlıq uğrunda mübarizəsinin bütün Qafqaz xalqlarının taleyində oynadığı rolu tarixi faktlarla sübut etmişdir. Şeyx Şamilin xidmətlərinə, onun tarixdə tutduğu görkəmli yerə yüksək qiymət verən ümummilli liderimiz həmişə hər iki respublikada yaşayan xalqların Şeyx Şamilin ideyalarından, mübarizəsindən bəhrələndiyini qeyd etmişdir. «Xalqlar azadlığa çıxıblar, xalqlar sərbəst yaşamaq imkanı əldə ediblər. Şeyx Şamil bunu istəyirdi, bundan ötrü mübarizə aparırdı» deyən görkəmli lider, dahi şəxsiyyət xalqlarımızın yenə də bir olduğunu göstərirdi. Ulu öndərin «Bizi, Azərbaycanı Rusiyadan-Dağıstandan ayıran sərhəd, mən hesab edirəm şərti xarakter daşıyır, sadəcə olaraq ölkələrin ərazilərinin sərhədlərini göstərir. Amma insanların arasında sərhəd yoxdur və heç bir sərhəd də olmamalıdır» fikri hər iki respublikada yaşayanların ürəklərindən gələn arzu və istəyin eyni olduğunu təsdiq edir.



Əliyev İlham Heydər oğlu (d. 24.12.1961, Bakı) – Azərbaycan Respublikasının Prezidenti (2003-cü ildən), görkəmli siyasi və dövlət xadimi. Azərbaycan xalqının Ümummilli lideri, dahi dövlət xadimi Heydər Əliyevin oğludur. Peşəkar siyasətçidir. 1982-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirmişdir. Orada elmi-pedaqoji fəaliyyətə başlamış (1982), aspirant, müəllim olmuşdur. Tarix üzrə fəlsəfə doktorudur (1985). 1991-ci ildən Moskvada «Orient» şirkətinin baş direktoru işləmiş, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin xarici iqtisadi əlaqələr üzrə vitse-prezidenti (1994-cü ildən) və birinci vitse-prezidenti (1997-ci ildən), Azərbaycan Respublikasının baş naziri (2003) vəzifələrində çalışmışdır. Azərbaycan dövlətçiliyinin qorunub saxlanılması və yeni Azərbaycanın qurulmasında Heydər Əliyevin ən yaxın silahdaşı olmuşdur.

İlham Əliyev müəllifi Heydər Əliyev olan neft strategiyasının hazırlanmasında, bu siyasətin dünya meydanında uğur qazanmasında və gerçəkləşdirilməsində, həmin sahədə müxtəlif layihələrin hazırlanmasında, çox çətin diplomatik tapşırıqların yerinə yetirilməsində fəal iştirak etmiş, ölkəyə investisiya axınında mühüm rol oynamışdır. Onun ölkədə iqtisadi islahatların həyata keçirilməsində, müstəqil Azərbaycanın xarici ölkələrlə iqtisadi və mədəni əlaqələrinin genişləndirilməsində, xüsusilə neft-qaz yataqlarının birgə işlənilməsinə dair dünyanın qabaqcıl neft şirkətləri ilə tarixi müqavilələrin, o cümlədən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri haqqında müqavilənin bağlanılması və reallaş-dırılmasında, ümumiyyətlə, Azərbaycan Respublikasının dünyaya inteqrasiyasında mühüm xidmətləri vardır. İlham Əliyevin böyük əməyi olan neft strategiyasının həyata keçirilməsi, beynəlxalq şirkətlərlə neft müqavilələrinin imzalanması nəticəsində 1994-2000-ci illərdə xarici şirkətlər Azərbaycana 800 milyon ABŞ dolları məbləğində bonus vermişlər. Azərbaycanın neft sektorunda 30 mindən artıq iş yeri açılmışdır.

Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda fəal iştirak edən İlham Əliyev həm də görkəmli partiya xadimdir. O, ölkənin aparıcı siyasi partiyası olan Yeni Azərbaycan Partiiyasının (YAP) lideridir. İlham Əliyev YAP-ın I qurultayında partiya sədrinin müavini, II qurultayında (2001) isə birinci müavini seçilmişdir. Bu mühüm vəzifənin öhdəsindən layiqincə gələn İlham Əliyev əhalinin geniş kütlələrinin yeni Azərbaycanın quruculuğuna səfərbər olunmasında olduqca səmərəli fəaliyyət göstərir. 2000-ci ilin parlament seçkilərində YAP-ın seçki kampaniyasına İlham Əliyev başçılıq etmişdir. Məhz onun rəhbərliyi ilə YAP həmin seçkilərdə parlaq qələbə qazanmış xalqın iradəsi ilə İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Prezident İlham Əliyev Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu siyasətini uğurla davam etdirir. Onun rəhbərliyi ilə ölkədə iqtisadi islahatlar daha da sürətlənmiş, xüsusi prezident fərmanı ilə 2004-2008-ci illərdə regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramı qəbul olunmuşdur. Respublikada idmanın inkişafına, onu dünya səviyyəsinə çatdırılmasında da İ.H.Əliyevin böyük xidməti olmuşdur.

Prezident İlham Əliyev ölkədə insan azadlıqlarının daha dolğun təmin olunmasını diqqət mərkəzində saxlayır. O, Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi kursunu uğurla həyata keçirir. Onun «Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında» və «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» sərəncamları (2004, 12 yanvar), Milli Ensiklopediyanın nəşrinə rəhbərliyi şəxsən öz üzərinə götürməsi və bununla bağlı imzaladığı sərəncamlar, alimlərə elmi dərəcələrə görə verilən əlavə əmək haqqını, tələbələr, magistrlər və aspirantların təqaüdlərini dəfələrlə artması milli-mənəvi və ümumbəşəri dəyərlərə dövlət qayğısının parlaq təzahürləridir. İlham Əliyev Azərbaycan xalqının tarixi keçmişinə xüsusi qayğı və diqqət göstərir. O, Azərbaycan Xalq Cümhuriyyətinin

dövlətçilik tariximizdəki roluna yüksək qiymət vermişdir: «Azərbaycan Xalq Cümhuriyyətinin yaranması tariximizdə çox əlamətdar və önəmli hadisə idi. İlk dəfə müsəlman aləmində demokratik respublika yaranırdı, Azərbaycan xalqı müstəqilliyə qovuşurdu. Ölkəmiz dünya birliyinə üzv olurdu. Bu, çox əlamətdar hadisə idi».



Prezident İlham Əliyevin qətiyyətli və məqsədyönlü fəaliyyətin nəticəsində Heydər Əliyevin xarici siyasət kursunun həyata keçirilməsində, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü pozmuş erməni işğalçılarının təcavüzkar mövqeyinin beynəlxalq aləmdə ifşa olunmasında mühüm uğurlar qazanılmaqdadır. Geniş dünyagörüşünə, dərin və hərtərəfli biliyə, yüksək mədəniyyətə malik olan İlham Əliyev müasir və çevik siyasətçi kimi dünyada böyük hörmət və nüfuz qazanmışdır. O, sü-rətlə dəyişən çağdaş dünyada, qloballaşma və inteqrasiya prosesində, bütün beynəlxalq görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda Azərbaycanın mənafelərini bütün sahələrdə uğurla müdafiə edir. İlham Əliyevin uğurlu xarici siyasəti sayəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində də rolu və nüfuzu getdikcə artır.

Azərbaycan Prezidenti İlham Əliyev bir çox ölkələrin və beynəlxalq təşkilatların fəxri adları və mükafatlarına layiq görülmüş, AŞPA-nın fəxri üzvü diplomu və medalı ilə təltif olunmuşdur.

Bu gun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək Dağıstan xalqları ilə Azərbaycan arasındakı əlaqələri genişləndirir və daha da dərinləşdirir.

Bu gün Azərbaycanla Dağıstan Respublikası arasında iqtisadi, mədəni əlaqələr yüksələn xətlə inkişaf edir. Azərbaycan və Dağıstan arasında iqtisadi və humanitar əməkdaşlıq üzrə hökumətlərarası komissiya fəaliyyət göstərir. İqtisadi və mədəni əlaqələrin inkişaf etməsi ilə bağlı 2007-2008-ci illərdə Dağıstan Respublikasının Prezidenti Muxu Əliyevin, 2010-cu ilin may ayında Dağıstan Respublikasının Prezidenti Məhəmmədsalam Məhəmmədovun, 2013, 2015 və 2016-cı illərdə Dağıstan Respublikasının Prezidenti Ramazan Abdullatipovun Azərbaycana səfərləri və onların Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə görüşlər bir daha bu əlaqələrə təkan verir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bütün digər sahələrdə olduğu kimi Azərbaycan-Dağıstan münasibətlərinin inkişafında Ümummilli lider Heydər Əliyev kursunu uğurla davam etdirir.



Əliyeva Mehriban Arif qızı — Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, 1964-cü il avqustun 26-da Bakı şəhərində ziyalı ailəsində anadan olumuşdur.

Mehriban Əliyeva 1982-ci ildə Bakı şəhəri 23 saylı orta məktəbi qızıl medalla bitirərək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil omuşdur. O, 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirmiş və 1988-1992-ci illər ərzində Moskvada akademik Krasnovun rəhbərliyi altında Göz Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda işləyib. O, 2005-ci ildə «Eftanaziya və təbabətdə humanizm problemi"» mövzusunda dissertasiya işi müdafiə edib.

Aktiv ictimai fəaliyyətə 1995-ci ildə hal-hazırda rəhbərlik etdiyi Azərbaycan Mədəniyyət Fondunu yaratmaqla başlayıb. 1996-cı ildə Azərbaycan

mədəniyyətinin geniş təbliğ olunması məqsədi ilə üç dildə (Azərbaycan, ingilis və rus) çap olunan «Azərbaycan-İrs"» jurnalını təsis edib. 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib və həmin vəzifədə özünü gözəl təşkilatçı kimi nümayiş etdirib. Mehriban Əliyeva 2004-cü il 10 mayda təsis edilmiş Heydər Əliyev Fondunun prezidentidir.

Mehriban Əliyevanın fəaliyyətində idmanın inkişafına da xüsusi önəm verilir. 2004-cü il 28 dekabrda Mehriban Əliyeva Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilib.

2012-ci il 8 dekabrda Avropa Olimpiya Komitəsi Baş Assambleyası 2015-ci ildə I Avropa Oyunlarının Bakıda keçirilməsi haqqında qərar qəbul etdi. Birinci Avropa Oyunlarını yüksək səviyyədə keçirmək məqsədi ilə 2013-cü il yanvarın 17-də Təşkilat Komitəsi yaradıldı və onun sədri Mehriban Əliyeva təyin olundu. 2012-ci ildə "Avroviziya" Mahnı Müsabiqəsinin uğurla keçirilməsində böyük rolu olmuşdur.

2004-cü ildən Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2013-cü ildən partiyanın sədr müavinidir.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə görə bir çox beynəlxalq təşkilatlar, dövlətlər tərəfindən yüksək mükafatlara layiq görülüb.

Azərbaycan və Dağıstan xalqları arasında mədəni əlaqələrin inkişafı və Dərbənd şəhərinin yenidən qurulması yönündə başladığı işlər bu gün də uğurla davam etdirilir.

Əliyeva İqlimə Bəybala qızı – Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. İbtidai təhsilini orada almışdır. H.Z.Tağıyevin Bakı şəhərində təşkil etdiyi məktəbi bitirmiş və Balaxanı kənd məktəbində dərs demişdir. Sonra Dərbənd məktəblərinin birində müəllim işləmişdir. Onun həyat yoldaşı Məcid Əliyev həkim olmuşdur.

Əliyev Kamal Müseyib oğlu – 1943-cü il avqust ayının 16-da Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



Bakı şəhəri Suraxanı rayonu 141 saylı orta məktəbi (1950-1960), Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun sənayenin planlaşdırılmasının iqtisadiyyatı fakültəsini (1967-1976), neft sənayesinin iqtisadiyyatı üzrə təkmilləşdirmə kurslarını (1987) bitirmişdir.

1962-ci ildən indiyədək Bakı şəhəri Suraxanı rayonu neft sənayesi sistemində işləyir. Əmək fəaliyyətində mühəndisdən əmək haqqı şöbəsinin rəisi vəzifəsinədək yüksəlmişdir.

1972-ci ildən 1975-ci ilədək ÜLKGİ Mərkəzi Komitəsinin üzvü olmuşdur.

Əmək fəaliyyətində göstərdiyi xidmətlərə görə dövlət mükafatları ilə və «Rəşadətli əməyə görə» medalı ilə (1974) mükafatlandırılmışdır. Əmək veteranıdır (1995).

2010-cu il aprelin 25-də vəfat etmiş və Bakı şəhərində dəfn edilmişdir.

Əliyeva (Əlipənahbəyova) Minə Qəni qızı – 1923-cü ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Onun anası Əsmər müxtəlif dövlət müəssisələrində, atası isə müəllim işləmişdir. Minə Mahaçqala Tibb İnstitutunu okulist ixtisası üzrə bitirmişdir. Sonra Bakıya köçmüş və göz klinikasında işləmişdir. Onun həyat yoldaşı Əliyev Nurəddin hava alanının rəisi işləmişdir. Onların bir qızı və bir oğlu var. Oğlu tibb elmləri doktoru, professordur və institutda dərs deyir.

Əliyev Məmmədağa Məmmədsadıq oğlu – texnika elmləri namizədi, dosent. 1928-ci il aprelin 12-də Dərbənd şəhərində anadan olmuşdur.



Anası Bilqeyis Abbas Mirzə qızı Əliyeva evdar qadın idi və oğlu Məmməd dörd bacıların yeganə qardaşı olmuşdur.

O, Bakı şəhərinin 1 saylı orta məktəbinə daxil olur. 1945-ci ildə respublikanın müharibədən sonraki dövrdə o birinci qızıl medalı və orta məktəbini qurtarması haqqında əla attestatı alır. Təhsil almasında xüsusi nailiyyətlərə görə o, M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun Kimya, neftin və qazın emalın texnologiyasının fakültəsinə imtahansız qəbul olunur.

Məmməd Ağa Əliyev "qırmızı diplom" ilə təhsilini bitirmişdir, həmin ildə onu fəaliyyətin davam etdirmək məqsədilə institutunda müəllim kimi saxlayırlar.

1964-cü ildə Azərbaycan SSR-nin ali və orta təhsil məktəblərin Baş İdarəsinin rəisi vəzifəsinə təyin edilmiş və 24 ilə yaxın bu vəzifədə xidmət etmişdir.

1969-cu ildə hakimiyyətinə gələrkən Azərbaycan SSR-nin Kommunist Partiyasının Mərkəzi Komitəsinin Birinci katibi Heydər Əliyev Məmməd Ağa Əliyevin fəaliyyətinə qiymət verərək, yaradıcılığı üçün bütün şəraitləri yaratmışdır.

Azərbaycan SSR-nin Kommunist Partiyasının Mərkəzi Komitəsinin Birinci katibi Heydər Əliyevin Fərmanı ilə Məmməd Ağa Əliyevə Respublikanın Ali məktəbinin "Əməkdar işçisi" adı verilmişdir.


1999-cu ildə Bakıda onun «Konstruküiə tipovıx apparatov i oborudovaniə neftepererabatıvaöhix i nefteximiçeskix zavodov» adlı monoqrafiyası çapdan çıxmışdır. Bu kitab müvafiq ali məktəblərdə dərslik kimi istifadə olunur.

Əliyev Müzənfər Həmzə oğlu 1902-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Riyaziyyatçı-müəllimdir. Dərbənddə xalq təhsili şöbəsinin müdiri, pedaqoji texnikumun direktoru, Xalq deputatları şəhər Sovetinin İcra hakimiyyətinin sədri işləmişdir.

1937-ci ildə o, bu vəzifədə olarkən həbs edilmiş və «xalq düşməni» kimi mühakimə edilmişdir. Həbsdən qayıtdıqdan sonra Bakı şəhərində yaşamış və işləmişdir.

1995-ci ildə vəfat etmiş və Bakı şəhərində dəfn edilmişdir.

Əliyev Nəriman Abdulxalıq oğlu – 1930-cu ildə



Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. O, 1955-ci ildə Dağıstan Kənd Təsərrüfatı İnstitutunun üzümçülük və tərəvəzçilik fakültəsini bitirmişdir. İnstitutun son kursunda oxuyarkən, 1955-ci ilin aprel ayında, o, tələbə yoldaşları ilə birlikdə Ş.Əliyev adına sovxoza təyinatla 6 aylıq təcrübə keçməyə gəlir. Onda hələ bu sovxoz yeni qurulurdu və vəziyyət çox ağır idi. Onlar sovxozun təsərrüfatının qaldırılmasına köməklik göstərmişlər.

Sonralar N.Əliyev həmin sovxoza direktor təyin olunur. Gənc direktorun sovxozun nümunəvi təsərrüfata çevrilməsi üçün atdığı ilk addım üzüm sahələrinin 1000 hektara çatdırılması və yeni üzüm sortlarının əkilib-becərilməsi oldu.

1964-cü ildə sovxoza yeni üzüm sortlarının tingləri gətirilib əkildi. 1977-ci ildə sovxoz hər hektardan orta hesabla 100 sentner, 1978-ci ildə isə – 150 sentner üzüm götürdü. N.Əliyevin rəhbərliyi altında sovxozun şöhrəti, əldə etdiyi nailiyyətlər bütün ölkəyə və ölkədən kənarlara yayıldı. Nəriman Əliyevin adı üzümçülər arasında əfsanəyə çevrildi. O, elmdə də böyük uğurlar qazandı: əvvəl kənd təsərrüfatı elmləri üzrə əvvəlcə namizədlik dissertasiyasını, sonra isə doktorluq dissertasiyasını müdafiə etdi. Onun əməyi dövlət tərəfindən yüksək qiymətləndirilərək ona Sosialist Əməyi Qəhrəmanı adı verildi.

2003-cü ildə N.Əliyev Dağıstanın əməkdar elm xadimi adına layiq görülmişdür.

O, 2007-ci ildə faciəli surətdə həlak olmuşdur.

Əliyev Nurulla Arif oğlu – 1962-ci il sentyabr ayının



25-də Dərbənd şəhərində anadan olmuşdur və dərbəndli tacir Hacı Cəfər nəslinin (5-ci məhəllə) nümayəndəsidir. Azərbaycanlıdır.

Bakı şəhəri Sabunçu rayonu 68 saylı orta məktəbi (1969-1977), C.Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbi (1977-1979), hərbi-siyasi, ictimayyət və tarix müəllimi ixtisası üzrə Kiyev Hərbi-Dənizçilik Siyasi Məktəbini (1979-1983), Moskva şəhərində Hərbi-Dəniz Donanmasının operativ-taktiki və hərbi-pedaqoq ixtisası üzrə Silahlı Qüvvələrin Humanitar Akademiyasını (1990-1993), psixologiya və pedaqogika üzrə metodist-müəllim ixtisası üzrə M.V.Lomonosov adına Moskva Dövlət Universitetini (1992) və «NATO – sülh naminə əməkdaşlıq» kurslarını (2000) bitirmişdir.

2000-ci ildə tarix elmləri namizədi, 2007-ci ildə isə tarix elmləri doktoru dissertasiyalarını müdafiə etmişdir. 2003-cü ildən dosentdir.

1983-cü ildən 1990-cı ilə qədər Leninqrad hərbi-dəniz bazasında tərbiyəçi-komandir vəzifələrində xidmət etmişdir. Kronştadt rayon, Leninqrad şəhər və vilayət komsomol və partiya konfranslarının nümayəndəsi olmuşdur, həmçinin Qırğızıstan qurultayında iştirak etmişdir.

1992-ci ildən 1993-cü ilədək tərbiyəvi iş orqanlarında şöbə rəisi vəzifəsindən idarə rəisinə kimi yüksəlmişdir. 1993-cü ildən 1995-ci ilədək Baş Qərargah rəisinin baş köməkçisi, Azərbaycan Respublikasının Müdafiə Nazirinin baş köməkçisi və cəbhə zonalarında döyüşən briqadada xidmət etmişdir.

1995-ci ildən 1997-ci ilədək Bakı Ali Hərbi

Dənizçilik Məktəbi rəisinin tərbiyəvi işlər üzrə müavini vəzifəsində xidmət etmişdir. 1997-ci ildən 2010-cu ilə qədər Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin rəisi, məktəbin Elmi Şurasının sədri və elmi toplu redaksiya heyətinin sədri olmuşdur. 2010-cu ildən 2015-ci ildək Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı səfirliyinin hərbi attaşesi vəzifəsində xidmət edib. 2015-ci ildən «Dərbənd» Xeyriyyə Cəmiyyəti sədrinin birinci müavini, 2016-cı ildən «Dərbərnd» Xeyriyyə İctimai Birliyinin sədridir.

İlk dəfə olaraq N.Əliyevin rəhbərliyi altında hərbi-dənizçi kadrların hazırlanmasında çoxmərhələli hərbi-dənizçi təhsili sistemi işlənilib hazırlanmışdır. 1999-cu ildən Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi keyfiyyətcə yeni tədris proqramı (2003-cü ildən bu proqram təkmilləşdirilmişdir) üzrə zabit və miçman heyətinin hazırlanmasında təhsil prosesinin Azərbaycan dilinə keçidini mərhələli şəkildə gerçəkləşdirmişdir ki, bu da Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin inkişaf səviyyəsinə tamamilə cavab verir.

2004-cü ildə Bakıda «Dərbənd» icması tərəfindən nəşr olunan «Dərbəndin məşhur adamları» toplusuna, Dağıstan Respublikasının Mahaçqala şəhərində 2005-ci ildə «Yupiter» nəşriyyatı tərəfindən nəşr olunan «Dərbənd şəhərinin qısa ensiklopediyası»na onun haqqında xüsusi məlumatlar daxil edilmişdir. N.Əliyev 2005-ci ildə Bakı şəhərinin «Qarabağ həqiqətləri» cəmiyyətinin diplomuna və mükafatına, həmçinin Beynəlxalq elmi mərkəz tərəfindən 2004-cü ildə təsis edilmiş «XXI əsr Azərbaycan alimləri» cəmiyyətinin diplom və mükafatına layiq görülmüşdür. O, vətən tarixşünaslığında ilk dəfə olaraq Azərbaycan hərbi-dəniz tarixinin qədim zamanlardan başlayaraq XXI əsrin əvvəlinədək tarixini tədqiq etmişdir. N.Əliyev Azərbaycan hərbi-dəniz terminologiyası lüğətinin yaradılmasının təşəbbüskarı, «Azərbaycan hərbi-dəniz tarixi» iki hissəli (Azərbaycan və rus dillərində) dərs vəsaitinin, 7 cildlik «Azərbaycanın hərb tarixi» monoqrafiyasının, Azərbaycan-türk hərbi-dəniz lüğətinin, hərbi psixologiya və pedaqogika üzrə dərs vəsaitlərinin, həmçinin «Böyük Dərbənd ensiklopediyası»nın müəllifidir.

1-ci dərəcəli kapitan Nurulla Əliyev Azərbaycan dilində hərbi-dəniz fənlərinin müxtəlif sahələrinə aid olan kitab, dərs vəsaitləri və elmi-metodik sənədlərin hazırlanmasına, onların nəşr və tədrisdə tətbiq olunmasına böyük əmək sərf etmişdir. Onun nəşr olunmuş əsərləri, yazılmış və toplanmış materiallarından «Azərbaycan tarixi»nin yeddinci cildinin yazılmasında istifadə edilmişdir.

N.Əliyevin elmi məqalələri «Hərbi bilik» (Bakı), «Türkiyə Dəniz Qüvvələri Dərgisi» (Ankara), «Rusiya Hərbi-Dəniz tarixi» (Moskva), «Elmlər Akademiyasının Xəbərləri» (Bakı), «Tarix və onun problemləri» (Bakı) və s. elmi nəşrlərin səhifələrində tez-tez çap olunur.

O, respublikada və xaricdə nəşr olunmuş 45 kitabın, 182 elmi məqalənin müəllifidir. Hərbi xidmətdə göstərdiyi yüksək xidmətlərə görə Sovet İttifaqının 12 dövlət medalı və Azərbaycan Respublikasının 6 medalı ilə, fəxri fərmanlarla, ÜLKGİ MK-nin yübileyi döş nişanı ilə, «Şöhrət» və «Hərbi fədakarlıq» döş nişanları ilə, müasir ordu quruculuğunun yaradılmasında, müasir standartlara uyğun dənizçi – zabit korpusunun hazırlanmasındakı xidmətlərinə görə «Dədə Qorqud» Milli Fondunun diplomu ilə təltif olunmuşdur.

Türkiyə, ABŞ, Rusiya, Qazaxıstan və s. ölkələrdə Azərbaycanın dövlət nümayəndə heyətinin tərkibində rəsmi səfərlərdə olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti seçilmiş Heydər Əlirza oğlu Əliyevin (1993, 1998), İlham Heydər oğlu Əliyevin (2003, 2008) andiçmə mərasimlərinin, Azərbaycan gənclərinin I (2001), II (2002) və III (2003) forumlarının iştrakçısı, habelə Bakı şəhərində keçirilən «Vyana balı» (2004, 2005) festivallarının təşkilatçılarından biridir.

Azərbaycan Respublikasının müharibə veteranı (1997), Azərbaycan Respublikasının Silahlı Qüvvələr veteranı (2003) və Azərbaycan Respublikası Ağsaqqalar Şurasının üzvüdür (2009). Ehtiyatda olan 1-ci dərəcəli kapitandır (1995-2015).

Əliyev Odissey Məhəmməd oğlu – 1965-ci ildə martın 18-də Mahaçqala şəhərində anadan olmuşdur. Mahaçqala şəhər orta məktəbini, 1986-ci ildə Ukraynada Ali Hərbi Məktəbini bitirmişdir. Hərbi məktəbi batirdikdən sonra onu təyinatla Azərbaycan Respublikasının Naxçıvan şəhərində yerləşən qarnizona göndərmişlər. O, burada tağım komandiri vəzifəsində



xidmət etmişdir. 1990-cı ildə Kuba Respublikasına göndərilmiş və iki il orada xidmət etmişdir. 1990-cı ildə sovet qoşunları Kuba Respublikasından çıxarılıqdan sonra Dağıstana göndərilmişdir. O, burada Botlix və Hümmət rayonlarının hərbi komissarlığında, sonra isə Respublika Hərbi komissarlığında xidmət etmişdir. 1994-cü ilin martında Fövqəladə Hallar Nazirliyinin qərargahına keçirilmiş və 2002-ci ilədək burada müxtəlif vəzifələrdə xidmət etmişdir.

2002-ci ildə Fövqəladə Hallar Nazirliyinin Dərbənd İdarəsinin rəisi təyin olunmuşdur.

Əliyev Salix Maqcanoviç 1892-ci ildə anadan olmuşdur. Milliyətcə tatardır, ali təhsillidir, 1918-ci ildən ÜİK(b)P üzvü olmuş, 1931-ci ildən 1933-cü ilədək ÜİK(b)P Dərbənd rayon Partiya Komitəsinin birinci katibi işləmişdir.

Əliyeva (Əsgərova) Səltənət Niyaz qızı –



1965-ci il iyun ayının 11-də Dərbənd şəhərində anadan olmuşdur. Tacir Hacı Əsgər Məmmədyarov nəslinin nümayəndəsidir. Azərbaycanlıdır.

Sumqayıt şəhər 24 saylı orta məktəbini (1972-1980), kimyaçı-texnoloq ixtisası üzrə Sumqayıt Kimya-Texnologiya Texnikumunu (1980-1984), həmçinin məktəbəqədər pedaqoji təhsil və metodika ixtisası üzrə Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutunun (2004) bitirmişdir.

1986-cı ildən 2006-cı ilədək təhsil sahəsində Azərbaycan Respublikasının Hərbi-Dəniz Qüvvələrinin məktəbəqədər müəssisələrində tərbiyəçi, 2006-cı ildən 2010-cu ilə qədər müdiri vəzifəsində işləyib. 2010-cu ildən bu günə qədər Azərbaycan Ali Hərbi Dənizçilik məktəbində kabinet müdirdir.

Əliyev Şəmsulla Feyzulla oğlu 1916-ci ildə



Dərbənd şəhərində müəllim ailəsində anadan olmuşdur. Azərbaycanlıdır. 4 saylı orta məktəbi və Dərbənd pedaqoji məktəbini bitirmişdir. Dağıstan Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsində təhsil almışdır.

Dərbənd rayonunun Zidyan və Marağa kənd məktəblərində müəllim, Dəliçoban kənd məktəbinin direktoru, Dərbənd rayon icraiyyə komitəsinin təlimatçısı işləmişdir.

1942-ci ilin yanvar ayının 1-də Şəmsulla Əliyev könüllü olaraq Qızıl Orduya gedir. O, hərbi təhsil almaq üçün Bakı Quru Qoşunları Məktəbinə göndərilir. Bu məktəbi əla qiymətlərlə bitirir və 1942-ci ilin sentyabr ayının 8-də leytenant Ş.Əliyev ilk dəfə Şimali Qafqazda döyüşdə iştirak edir. Pulemyotçu tağımına və bölüyünə, atıcı tağıma komandanlıq etmiş, atıcı batalyonun komandir müavini olmuşdur.

Göstərdiyi igidliyə və hünərə görə iki «Qırmızı Bayraq» və iki 1-ci dərəcəli «Vətən müharibəsi» ordeni ilə təltif edilmişdir.

Kapitan Şəmsulla Əliyev 339-cu Taman atıcı diviziyasının tərkibində Şimali Qafqazı, Kubanı və Tamanı, Kerç boğazını alman-faşist işğalçılarından azad etmiş və 1943-cü ilin noyabr ayının əvvəlində Krım sahillərinə gəlmişdir. Noyabr ayının 14-də Kerç şəhəri ətrafında gedən döyüşlərdə ölümcül yaralanmışdı.

Göstərdiyi misilsiz igidliyə və şücaətə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin 6 may 1944-cü il tarixli fərmanı ilə ona Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

Şəmsulla Əliyevin adı əbədiləşdirilmişdir. Dərbənd şəhərində tikiş fabrikinə və küçəyə onun adı verilmiş, şəhərdə onun büstü qoyulmuşdur.

Kerç dövlət muzeyində ona xüsusi stend həsr olunmuşdur.

Əliyev Teyyub Əhməd oğlu – 1910-cu il mayın 5-də



Dərbənd şəhərində anadan olmuşdur. Zaqafqaziya Hərbi Məktəbini bitirmiş və 1937-ci ildə Leninqrad Hərbi-Tibbi Akademiyasına qəbul olmuşdur. 1939-cu ildə Fin kompaniyasında iştirak etmişdir.

T.Əliyev 1942-ci ilin yanvarında həkim-cərrah kimi cəbhəyə getmişdir. Kursk və Stalinqrad döyüşlərində və Reyxstaqın alınmasında iştirak etmişdir.

T.Əliyev dörd orden və bir neçə medalla təltif olunmuşdur. O, 1953-cü ildən podpolkovnik

(polkovnik-leytenant) rütbəsində təqaüdə çıxmışdır.

T.Əliyev 1979-cu il iyulun 9-da Bakı şəhərində vəfat etmişdir.



Əliyeva Zərifə Əziz qızı –1923-ci il aprelin 28-də Naxçıvan MSSR Şahtaxtı kəndində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycanın, o cümlədən Dərbəndin ictimai həyatında böyük xidmətləri olmuş görkəmli siyasi xadim Əziz Əliyevin qızıdır.

Dünya şöhrətli azərbaycan oftalmoloqu, tibb elmləri doktoru (1976), professor (1979), N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun bitirdikdən sonra Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1969-cu ildən Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda dosent, professor, laboratoriya rəhbəri vəzifələrində işləmişdir. O, oftalmologiyanın müasir problemlərinə həsr olunmuş çoxsaylı elmi əsərlərin müəllifidir. Onun əsərləri bir çox xarici ölkələrdə çap olunmuş və onun metodundan dünya təbabətində geniş istifadə olunmuşdur.

Z.Əliyeva oftalmoloqların Ümümittifaq Elmi Cəmiyyətinin idarə heyətinin və Sovet Sülhü Müdafiə Komitəsinin üzvü seçilmişdir (1979). Moskvada çıxan «Vestnik oftalmoloqii» jurnalının redaksiya şurasının üzvü, Azərbaycan Oftalmologiya Cəmiyyətinin sədri olmuşdur.

1985-ci ildə vəfat etmiş və Bakıdakı fəxri xiyabanda dəfn edilmişdir.

Bakıdakı park və Avropada analoqu olmayan Elmi-Tədqiqat Oftalmologiya İnstitutu Z.Əliyevanın adını daşıyır.

Eminov Hacı Şahmərdan Balaəmin oğlu – Dərbənddə anadan olmuş, azərbaycanlı, tacir, 1896-1900-cu illərdə şəhər ticarət nümayəndəliyinin üzvü, manufaktura mallarının satışı üzrə magazaların müdiri, Serkovnı küçəsində üçmərtəbəli daş evin sahibi idi (hazırda Kommunarlar küçəsi, 33). O, öz dövründə geniş xeyriyyəçiliyi ilə məşhur olmuşdur. H.Ş.Əminov Peyinnikbaşı məhəllə məscidini (indi məscidin yerində uşaq poliklinikasının filialı yerləşir: Krupskaya küçəsi, 10, Cümə məscidinin həyətində müsəlman məktəbinin binasını tikdirmiş və öz hesabına müəllimləri saxlamış, suayıran fəvvarələr quraşdırmışdır. 2-ci məhəllədə Mikri bulağı və 5-ci məhəllədə Peyinnik bulağı tikdirmiş, şəhər sakinlərindən də ehtiyacı olanlara maddi və digər yardımlar göstərmişdir. Dərbənddə sovet hakimiyyəti qurulduqdan sonra o, könüllü olaraq öz əmlakını şəhərə təhvil vermiş və buna görə də o repressiyaya məruz qalmışdı.



Əmirov Elçin Mehrab oğlu – polis polkovnik-leytenantı, 1956-cı il ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbəndin məşhur Əmirovlar ailəsinin nümayəndəsidir. Orta məktəbi Bakı şəhərində bitirmişdir. 1978-ci ildə Azərbaycan Dövlət İdman və Bədən Tərbiyəsi İnstitutunu bitirdikdən sonra hərbi xidmətə göndərilmişdir. Hərbi xidməti başa vurduqdan sonra Azərbaycan Daxili İşlər Nazirliyinin «Dinamo» idman cəmiyyətində əmək fəaliyyətinə başlamışdır.

O, sonralar DİN-in islah əmək müəssisələri idarəsinə zabit vəzifəsinə təyin olunmuşdur. 1988-ci ildə DİN BKŞ-də bölmə, şöbə rəisi vəzifələrində çalışmışdır. 1994-ci ildə DİN İdman Cəmiyyətinin sədr müavini və DİN xüsusi hazırlıq şöbəsinin rəisi vəzifələrini icra etmişdir.

E.Əmirov «Usta», DİN-in I, II, III dərəcəli medalları ilə təltif olunmuşdur.

2005-ci il ildə Azərbaycan Respublikasının «Bədən tərbiyəsi və idman işçisi» fəxri adına layiq görülmüşdür.



Əmirov Məzahir Əlisoltan oğlu – 1917-ci il dekabr ayının 20-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Əlisoltan və Tuqiyə xanımın oğlu, Hacı Cəfərin nəvəsidir.

Orta məktəbi (1925-1935), aktyor ixtisası üzrə Bakı Teatr Texnikumunu (1935-1938) bitirmişdir.

Şəki rayonunun Nuxa teatrında aktyor (1938-1939) işləmiş, Dərbənd Azərbaycan Dövlət Dram Teatrının

aparıcı aktyoru (1939) olmuşdur.

1939-cu ildə Qızıl Ordu sıralarına çağırılmış, sovet-fin və sovet-polyak müharibələrinin (1939) iştirakçısı olmuşdur.

1941-ci ildən 1944-cü ilədək Böyük Vətən müharibəsində iştirak etmiş, əvvəlcə süvari qoşunlar, sonralar isə motoatıcı qoşunların tərkibində vuruşmuşdur. Aldığı ağır yaraların, xüsusilə üçüncü yaranın nəticəsində Silahlı Qüvvələrin sıralarından tərxis olunmuş və 1944-cü ildən isə əvvəl Dərbənddə, sonralar Bakıda xalq təsərrüfatının müxtəlif sahələrində çalışmışdı.

1960-cı ildə Dərbənd şəhər komitəsi bürosunun qərarı ilə Dərbənd şəhərində yeni yaradılmış kolxozlararası Azərbaycan teatrının direktoru vəzifəsinə göndərilmişdir.

M.A.Əmirov şəhərdə peşəkar teatrın yaradılması, Azərbaycan milli mədəniyyətinin və ənənələrinin təbliği işinə böyük zənginlik gətirmişdir.


Məzahir Əmirov 1961-ci ildə ailəsi ilə birlikdə Bakıya köçmüşdür. O, burada uzun müddət ticarət sahəsində məsul vəzifələrdə: rayon qarışıqmallar və kitab satışının direktor müavini, çəki (tara) bazasının müdiri, təqaüdə çıxanədək «Bakı-Moskva» qatarında vaqon-restoranın direktoru işləmişdir. Əmirovlar ailəsinin fərqləndirici xüsusiyyətlərindən biri də odur ki, onun oğlanlarının dördü də özlərini hərbi xidmətə həsr etmişlər: Şöhrət – kapitan, Niyazi – mayor, Otello – polkovnik-leytenant, Rüfət – polkovnikdir.

Böyük Vətən müharibəsində fəal iştirak etdiyi üçün 12 orden və medal ilə təltif edilmişdir. Onların arasında «Hünərə görə» və «Döyüşdə göstərdiyi şücaətə görə» medalı da var idi.

Əmək və müharibə veteranı olmuşdur. Birinci dərəcəli əlil idi.

1998-ci il may ayının 13-də vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Əmirov Niyazi Məzahir oğlu – 1964-cü il yanvar ayının 9-da Bakı şəhərində anadan olmuşdur. Dərbəndli tacir Hacı Cəfər nəslinin (5-ci məhəllə) nümayəndəsidir. Azərbaycanlıdır.



O, Bakı şəhərində 150 saylı orta məktəbi (1970-1980), SSRİ DİN Piatrovski adına Xarkov texniki-yanğın məktəbini yanğın təhlükəsizliyi mühəndisi ixtisası üzrə, leytenant hərbi rütbəsi verilməklə (1981-1984) bitirmişdir.

Azərbaycan Respublikası DİN sistemində Şəki şəhər yanğından mühafizə rəisinin müavini vəzifəsində (1984-1990), Azərbaycan Respublikası Müdafiə Nazirliyi sistemində yanğın təhlükəsizliyi şöbəsi rəisinin müavini vəzifəsində (1992-1996) işləmişdir.

Mayor Niyazi Əmirov 1996-cı il mart ayının 6-da vəfat etmişdir. Bakı şəhərində II Fəxri Xiyabanda dəfn edilmişdir.

Əmirov Nürəddin Əmir oğlu – 1906-cı ildə anadan olmuşdur. Bakıda Ali Partiya Məktəbini bitirmişdir. 1937-ci ildə ÜK(b)P Dərbənd rayon komitəsinin birinci katibi vəzifəsində işləmişdir.

Əmirov Otello Məzahir oğlu – 1947-ci il aprel ayının 13-də Dərbənd şəhərində anadan olmuşdur. Dərbəndli Tacir Hacı Cəfər nəslinin (5-ci məhəllə) nümayəndəsidir. Azərbaycanlıdır.



Bakı şəhəri Yasamal rayonu 80 saylı orta məktəbi (1965), Moskva Kooperasiya İnstitutunu ərzaq mallarının əmtəəşünası ixtisası üzrə (1966-1977) bitirmişdir.

Azərbaycanın kinolaşdırma sistemində (1962-1969), Ticarət nazirliyi sistemində (1969-1971), Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyində işləmiş və müfəttiş vəzifəsindən islahəmək müəssisələrinin rəis müavini vəzifəsinədək yüksəlmişdir (1973-1992). 1992-ci ildən Azərbaycan Respublikası Müdafiə Nazirliyi sistemində döyüş zonasında briqada komandirinin müavini vəzifəsində, Müdafiə Nazirliyinin mərkəzi aparatında hərbi əlaqələr şöbəsinin baş zabiti vəzifəsində (1993-1998) xidmət etmişdir. Vicdanlı işinə və xidmətinə görə fəxri fərmannlarla və təşəkkürlərlə mükafatlandırılmışdır.

Ehtiyatda olan polkovnik-leytenant (1998), Qarabağ müharibəsinin veteranıdır.

2012-ci ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Əmirov Rüfət Məzahir oğlu – 1956-cı il dekabr ayının 10-da Dərbənd şəhərində anadan olmuşdur. Dərbəndli tacir Hacı Cəfər və Əmirulla nəslinin (5-ci



məhəllə) nümayəndəsidir.

Azərbaycanlıdır.

Bakı şəhərində 150 saylı orta məktəbi (1964-1972), C.Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbi (1972-1974), Bakı Ali Ümumqoşun Komandanlıq Məktəbini motoatıcı qoşunların komandiri ixtisası üzrə (1974-1978), M.V.Frunze adına Hərbi Akademiyanı – qərargah-komandanlığı, taktiki-əməliyyat ixtisası üzrə əla qiymətlərlə (1988-1991), İtaliyanın Roma şəhərində NATO hərbi kollecində ATƏT (OBSE) kurslarını (1992) bitirmişdir.

Hərbi xidmətini Almaniya Demokratik Respublikasının Bernburq, Koxştetd, Roslau, Serbst şəhərlərində yerləşən sovet qoşunlarının motoatıcı tağım və bölük komandiri vəzifəsində (1978-1983), motoatıcı bölüyün komandiri (Lazo qəsəbəsində), 15 saylı ümumqoşun ordusunun qərargahının müdafiə və xidmət bölüyünün komandiri (Xabarovsk şəhəri), motoatıcı taborun qərargah rəisi (Filino qəsəbəsi) və motoatıcı taborunun komandiri (Lesozavodsk şəhəri) vəzifələrində (1983-1988) xidmət etmişdir.

1991-ci ildən 1992-ci ilin fevralınadək Qırmızı Bayraqlı Zaqafqaziya Hərbi Dairəsi diviziyasının əməliyyat bölməsi rəisinin baş köməkçisi olmuşdur. 1992-ci ilin fevralından 2002-ci ilə kimi Azərbaycan Respublikasının Silahlı Qüvvələrində qərargah komandanlığı vəzifələrində hərbi xidmətini keçmişdir.

1992-ci ildən 1998-ci ilədək Əməliyyat İdarəsinin rəisi – Azərbaycan Respublikası Silahlı Qüvvələri Baş Qərargah rəisinin müavini olmuş, Silahlı Qüvvələrin Baş Qərargah rəisi vəzifəsini icra etmiş, cəbhə komandanının müavini, ordu birliyinin komandiri, Silahlı Qüvvələrin Baş qərargah rəisinin birinci müavini, Bakı Qarnizonunun rəisi, Silahlı Qüvvələrin İdman Komitəsinin sədri olmuşdur.

1998-ci ildən 2002-ci ilədək öz fəaliyyətini hərbi müəllim işinə həsr etmişdir. 1994-cü ildən 1998-ci ilədək hərbi münaqişənin tənzimlənməsi üzrə gedən Azərbaycan-Ermənistan danışıqlarında Azərbaycan Silahlı Qüvvələrinin hərbi məsləhətçisi kimi iştirak etmişdir.

R.M.Əmirov respublikada böyük hərbi-elmi və ictimai işlər aparır: Silahlı Qüvvələrin "OİK" futbol klubunun prezidenti (1996-1998), Azərbaycan Həvəskarlar Futbol Federasiyasının Prezidenti (1999-2004), 2005-ci ildən 2008-ci ilədək Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının inspektor komitəsinin sədri olmuşdur. 2008-ci ildən indiyədək Sahə Futbol Federasiyasının vitse-prezidentidir. 2004-cü ildən 2014-cü ilədək Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi işləmişdir.

Fədakar əməyinə və qüsursuz xidmətlərinə görə çoxsaylı dövlət medalları və fəxri fərmanlarla mükafatlandırılmışdır.

2014-cü ildə Müdafiə Nazirinin əmrinə əsasən Azərbaycan Ordusunda hərbi xidmətə bərpa olunmuş və Müdafiə Nazirliyi Şəxsi Heyət üzrə Baş İdarəsinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi vəzifəsinə təyin edilmişdir.

2015-ci ildən C.Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbin rəisidir. Rütbəsi polkovnikdir

Ailəlidir, üç övladı var.

Əmirova (Qazıbəyova) Svetlana Məcid qızı –



1957-ci il fevral ayının 4-də Dərbənd şəhərində anadan olmuşdur. Svetlana xanımın atası – Məcid Kazbek oğlu Dərbənd şəhərində xalq təsərrüfatı sahəsində rəhbər vəzifələrdə işləmiş və məşhur Qazıbəyovlar nəslini təmsil edirdi.

Dərbənd şəhərində 14 saylı orta məktəbi (1964-1974), Dağıstan Dövlət Universitetini ingilis dili və ədəbiyyat ixtisası üzrə (1976-1981), həmçinin Moskva Müəllimləri Təkmilləşdirmə İnstitutunu ingilis dili tədrisinin metodikası ixtisası üzrə (1990-1991) bitirmişdir.

Pedaqoji sahədə işləmiş və ingilis dili müəllimi vəzifəsindən ali məktəb müəllimi vəzifəsinədək yüksəlmişdir (1985-1991). 1991-ci ildən 2005-ci ilədək H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində işləmiş və xarici dillər kafedrasının müəllimi vəzifəsindən kafedra müdiri vəzifəsinədək yüksəlmişdir. Pedaqoji fəaliyyətində göstərdiyi xidmətlərə görə fəxri fərmanlarla və təşəkkürlərlə mükafatlandırılmışdır.


Əmirov Şöhrət Məzahir oğlu – 1959-cu il fevral ayının 21-də Dərbənd şəhərində anadan olub. Dərbəndli Tacir Hacı Cəfər nəslinin (5-ci məhəllə) nümayəndəsidir. Azərbaycanlıdır.



Bakı şəhəri 150 saylı orta məktəbi (1966-1976), Bakı Kooperasiya Texnikumunu əmtəəşünas ixtisası üzrə (1976-1979), sonra M.F. Axundov adına Azərbaycan Rus Dili və Ədəbiyyat İnstitutunu (1979-1981) bitirmişdir.

1982-ci ildən 1992-ci ilədək Təhsil Nazirliyi sistemində Azərbaycan Rus dili və ədəbiyyat institutunda şöbə müdiri vəzifəsində işləmişdir. 1992-ci ildən 1996-cı ilə kimi hərbi xidmətini Azərbaycan Respublikasının Silahlı Qüvvələrində keçmişdir. Ehtiyyatda olan kapitandır. 1996-cı ildən indiyədək kommersiya sahəsində işləyir.

Əmirseyidov Etibar Şeyx oğlu – 1955-ci il sentyabrın 16-da Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



O, Dərbənd şəhər 8 saylı orta məktəbi bitirmiş, 1972-ci ildə Dağıstan Tibb İnstitutuna daxil olmuş, 1975-ci ildən isə təhsilini Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə fakültəsində davam etdirmiş və 1978-ci ildə həmin institutu bitirmişdir.

O, 1978-1982-ci illərdə Dərbənd şəhərində həkim, 1982-1984-cü illərdə isə Dərbənd rayon Padar xəstəxanasının baş həkimi, 1984-1986-cı illərdə Sverdlovskdə xüsusi klinik ordinatura keçdikdən sonra 1986-1991-ci illərdə Dərbənd şəhərində burun-boğaz-qulaq həkimi (LOR), 1991-2005-ci illərdə isə Dərbənd rayon ərazi vahidinin baş həkimi və 2005-ci ilin noyabr ayından bu günə qədər Dərbənd rayonlararası diaqnostika mərkəzin baş həkimi vəzifəsində çalışır.

1995-ci ildən Dağıstan Respublikasının əməkdar həkimidir.

Əmirseyidova (Əbiyeva) Həcər Həmzə qızı – 1921-ci il fevralın 10-da Dərbənddə anadan olmuşdur. Azərbaycanlıdır. 1939-cu ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olmuş və 1946-cı ildə həmin institutu bitirmişdir.



O, 1941-1945-ci illərdə SSRİ xalq daxili işlər komissarlığının xüsusi xidmətində, sonralar xalq dövlət təhlükəsizliyi komissarlığında xidmət etmişdir.

O, 1937-1938-ci illərdə Bilici kəndindəki ibtidai məktəbdə müəllimə, 1938-1939-cu illərdə Dərbənd rayonu Zidyan kənd orta məktəbində müəllim, 1947-1949-cu illərdə Dərbənd xalça fabrikının direktoru, 1949-1950-ci illərdə Dərbənd rayon partiya komitəsinin qadınlar şurasının müdiri, 1950-1952-ci illərdə Dərbənd rayon partiya komitəsinin katibi, 1952-1971-ci illərdə Dərbənd 6 saylı orta məktəbin direktoru vəzifələrində işləmişdir.

H.Əmirseyidova 10-dan çox medal və döş nişanları ilə təltif olunmuşdur. Əmək veteranıdır.

Əmirseyidov Şeyx Şıxbala oğlu – 1924-cü il yanvar ayının 24-də Dərbənd rayonunun Çimi kəndində anadan olmuşdur. Azərbaycanlıdır. 1941-ci ildə orta məktəbi bitirmiş, 1942-ci ildə cəbhəyə getmiş və 1951-ci ilədək orduda xidmət etmişdir.



O, şəhər partiya komitəsində, sonralar aqrosənaye sistemində kənd təsərrüfatı idarəsinin rəisi, sovxoz direktoru işləmişdir. O, iki dəfə Qırmızı Əmək Bayraqı ordeni, 10-dan artıq medalla təltif olunmuşdur. Əmək veteranıdır.

Ənnağıyev Orxan Hikmət oğlu – 1986-cı il avqust ayının 27-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. O, Dərbəndin məşhur Rəsulbəyovlar nəslindəndir. Hərbi qulluqçu Rəsul Rəsulbəyovun qız nəvəsidir (Rəsulbəyova Xuramanın oğlu).



O.Ənnağıyev Bakıda 1 saylı orta məktəbi bitirdikdən sonra İngiltərədə Bristol Universitetinin iqtisadiyyat fakültəsini bitirmişdir. Hazırda Londonda RBS təşkilatında işləyir. İngiltərə-Azərbaycan cəmiyyətinin nümayəndəsidir. «Xumar xeyriyyə mərkəzi» tərəfindən Dağlıq Qarabağdan məcburi köçkünlərə yardım etməkdə əməyi vardır.

Ərəblinski Balakişi Əlibəy oğlu – 1828-ci ildə



Çar-Balakən camaatlığının Tala kəndində məhəllə ağsaqqalının ailəsində anadan olmuşdur. Azərbaycanlıdır. Ailə Zaqatalanın Ərəblər məhəlləsindəndir. Elə Ərəblinski soyadı da buradan götürülmüşdür.

O, 1-ci dərəcəli Peterburq kadet korpusuna daxil olur və kornet rütbəsi almaqla buranı 1848-ci ildə müvəffəqiyyətlə bitirir.

O, rus ordusunda 50 il xidmət edir. 50 illik xidməti dövründə Ərəblinski rus ordusunun keçirdiyi bütün döyüş əməliyyatlarında və vuruşlarda iştirak edib. Dərin bilikli zabit Ərəblinski tezliklə podpolkovnik rütbəsinə yüksəlir və briqada komandiri vəzifəsini tutur.

1849-cu ildə kapitan Ərəblinski general-feldmarşal Paskeviçin komandanlığı altında rumınların Vilaqoşı qalasının alınmasında iştirak edir. 1854-cü ildə mayor rütbəsində o, general Lazarevin komandanlığı altında Xivə xalqına qarşı aparılan hərbi əməliyyatda iştirak edir. Sonra isə 1853-1856-cı illərdə Krım müharibəsində (polkovnik rütbəsində) iştirak edir.

1877-1878-ci illərdə hərbi hissələrə bacarıqla komandanlıq etdiyinə və göstərdiyi igidliyə görə ona general-mayor rütbəsi verilir.

1896-ci ildə Ərəblinski general-leytenant rütbəsində istefaya çıxır və son günlərinədək Dərbənd şəhərində yaşayır. Onun iştirak etdiyi müharibələrə və döyüşlərə bir çox elmi və bədii əsərlər yazılmışdır, lakin əsərlərin heç birində nədənsə bu qəhrəman, igid, cəsarətli generalın adı çəkilmir. Rusiya qarşısındakı xidmətlərinə, döyüşlərdə göstərdiyi sücaətə və igidliyə görə general Balakişi Ərəblinski bir çox orden və medallarla, üstündə ad yazılmış qızıl qılıncla və Rusiya imperatorunun hədiyyəsi – Dərbəndin cənubunda malikanə ilə (Ərəblinka dəmiryolunun yanında qədim Ərəblər kəndi) mükafatlandırılmışdır. B.Ə.Ərəblinski 1902-ci ilin yanvar ayının 2-də vəfat etmiş və «Qırxlar» qəbiristanlığının yaxınlığında, şimal qəbiristanlığında dəfn edilmişdir.

General B. Ərəblinskinin 2 qızı vardı: böyük qızı – Nurcahan və kiçik qızı - Sona. Sona 1896-cı ildə məşhur Bakı milyonçusu, böyük metsenat Tağıyevə ərə getmişdir. Tağıyevlərin evində generala xüsusi hörmət bəsləndiyini Azərbaycan Milli Tarix Muzeyində olan rəsm əsəri göstərir. Bu əsərdə Z.Tağıyev meşin kürsüdə oturub, onun başının üstündə isə qızıl çərçivədə general Ərəblinskinin şəkli asılıb.

H.Z.Tağıyev qaynatasının ölümündən sonra Qırxlar qəbiristanlığını öz vəsaiti hesabına daş hasara almış, buraya yol çəkdirmiş və qarovulçular ştatı saxlamışdır.

XX əsrin 50-ci illərində daş hasar dağıdılmışdır. «Qırxlar» qəbiristanlığında isə üç metrlik ərəb və rus dilində yazılı və maraqlı naxışı olan daş sütün durur. Rus dilində onun üstündə yazılıb: «General-leytenant Balakişi Ərəblinski. 1828-1902».

Ərəblinskinin həyatından gətirilən bir maraqlı fakt onun çox hörmətli və nüfuzlu olmasını bir daha sübut edir. Təkcə Azərbaycan və Qafqazda deyil, Rusiyada və hətta Avropada tanınmış milyonçu H.Z.Tağıyevin 5 qızı var idi: Sürəyya, Həyat, Fatma, Leyla və Sara. O özü təhsil almadığına və təhsilə dərin hörmət bəslədiyi üçün qızlarından ikisini, Leyla və Saranı təhsil almaq üçün Peterburqa, Smolnı Nəcib Qızlar İnstitutuna göndərməyi qərara alır. Lakin o tanınmış adına, vəziyyətinə, orden və mükafatlarına baxmayaraq rədd cavabı alır. Səbəb də onu göstərirlər ki, bu məktəbə statusuna əsasən yalnız knyaz, qraf, bəy, xan soyadları alanların qızları qəbul edilir. Rus tax-tacı qarşısında göstərdiyi xidmətlərə görə, onların babası Ərəblin-skinin sənədlərini təqdim etdikdən sonra, qızları məktəbə götürürlər. H.Z.Tağıyevin bir qızı daha dahi Azərbaycan kimyaçı alim Mövsüm bəy Xanlarovun (1857-1921) həyat yoldaşı olmuşdur.

Ərəblinski Sona xanım Balakişi qızı – 1881-ci ildə Dərbənd şəhərində əsil zadəgan ailəsində anadan olmuşdur. Azərbaycanlıdır. 1896-cı il aprel ayının 28-də Sona xanım Bakı milyonçusu H.Z.Tağıyevlə ailə qurur. Sona xanım H.Z.Tağıyevin sadiq həyat yoldaşı və tərəfdaşı olmuşdur. Sona xanım həyat

yoldaşına xeyriyyəçilik işlərində yaxından kömək etmişdir. Uzun illər o, rus-müsəlman qadınları üçün Aleksandr pedaqoji məktəbi şurasının əvəzsiz üzvü, 1901-ci ildə H.Z.Tağıyev tərəfindən əsası qoyulmuş müsəlman qızları üçün məktəbin hamisi olmuşdur. Aleksandr məktəbi ilə yanaşı qızlar üçün Bakı «Müqəddəs Nina» tədris müəssisəsinin də hamisi olmuşdur. Sona xanım 1938-ci ildə vəfat etmişdir. Onların bu nigahdan 5 övladı olmuşdur: Leyla, Sara, Sürəyya, Məhəmməd (1901), İlyas (1903).

Leyla – 1898-ci ildə anadan olmuşdur. Onun iki oğlu və bir qızı var idi. Hələ fevral inqilabından əvvəl 1917-ci ildə o həyat yoldaşı ilə birlikdə İrana gedir. Onun həyat yoldaşı Əli milyonçu Ş.Əsədullayevin oğludur.

Sara – 1899-cu ildə anadan olmuşdur. O, milyonçu qızı kimi daim təqiblərə məruz qalmışdır. Sonra o, Bakıdan Leninqrada gedir və orada instituta qəbul olur. Milyonçu qızı olduğu üçün onu institutdan qovur və həbs edirlər. Həbsdən çıxdıqdan sonra Rusiyanı diyarbadiyar gəzərək müvəqqəti işə düzəlirdi. Ölkədə siyasi vəziyyət düzəldikdən sonra o, Bakıya gəlir və atasının və ailəsinin reabilitasiya olunması haqqında məsələ qaldırır. Uzun müddətdən sonra o atasının xeyriyyəçi adını xilas edir və özünə qarşı hörmət qazanır. Ona bir otaqlı ev verirlər, diqqət və qayğı ilə əhatə edirlər və Z.Tağıyev adına xeyriyyəçilik cəmiyyətinin sədri seçirlər. Sara xanımın Zeynal bəy Səlimxanovla olan nigahından Sofiya adında bir qızı, ikinci nigahından isə iki oğlu var idi. Sara xanım uzun çəkən ağır xəstəlikdən sonra 1992-ci ildə Bakıda vəfat etmişdir.

Sürəyya – 1905-ci ildə anadan olmuşdur. O, Bakıda yaşamış, təqiblərə məruz qalmış və onu instituta qəbul etməmişlər. O, Dərbənddə tanınmış ailənin nümayəndəsi olan Peterburqda ali texniki təhsil almış Əsəd Abdullayevə (balıq sənayeçisi Həmdullanın qardaşı) ərə getmişdir. 1937-ci ildə Əsəd Abdullayevi «xalq düşməni» kimi həbs edirlər, lakin sonra o, azad olunur. Onların iki övladı olmuşdur: Rəsmi və Dilarə. Dilarə xanım Azərbaycan Tibb İnstitutunu bitirmişdir, hazırda ixtisası üzrə işləyir.

Ərk Adil (Abdullayev Adilgəray Həmdulla oğlu) – 1915-ci ildə Dərbənddə tanınmış balıq sənayesiçisi Abdullayev Həmdullanın ailəsində anadan olmuşdur. Realnı məktəbini bitirmişdir. Qardaşı Əmiraslanla birlikdə gənc mütəxəssislərin hazırlanması proqramı çərçivəsində Dağıstan hökuməti tərəfindən təhsil almaq üçün Almaniyaya göndərilmişdir. Lakin, atası «xalq düşməni» kimi həbs olunub güllələndikdən sonra hökumətin himayəsindən məhrum olmuşlar və xaricdə taleyin ixtiyarına buraxılmışlar. Almaniyada faşistlər hakimiyyətə gələn dövrdə qardaşlar Türkiyəyə mühacirət etməyə məcbur olmuşlar. Onlar burada işləyə-işləyə, eyni zamanda Ərk familiyası altında təhsil almışlar. Müharibə qurtardıqdan sonra onlar Türkiyədən əvvəl İsveçrəyə, sonra isə Almaniyaya getmiş və orada təhsillərini davam etdirmişlər. Ərk Adil mühəndis-energetik elmlər doktoru, professor olmuş, Braunşveyq Universitetində dərs demiş və həmin universitetin rektoru olmuşdur. O, Almaniyanın Braunşveyq şəhərində dəfn olunmuşdur.

Ərk Əmir (Abdullayev Əmiraslan Həmdulla oğlu) – 1917-ci ildə Dərbənddə balıq sənayeçisi Abdullayev Həmdullanın ailəsində anadan olmuşdur. İbtidai məktəbi bitirmişdir. Qardaşı Adilgərayla birlikdə gənc mütəxəssislərin hazırlanması çərçivəsində Dağıstan hökuməti tərəfindən təhsil almaq üçün Almaniyaya göndərilmişdir. Lakin atasının «xalq düşməni» kimi həbs olunub güllələndikdən sonra hökumətin himayəsindən mərhum olmuş və xaricdə taleyin ixtiyarına buraxılmışdır. Almaniyada faşistlər hakimiyyətə gələn dövrdə (1933-ci il) qardaşı ilə birlikdə Türkiyəyə mühacirət etməyə məcbur olmuş, orada işləmiş və Əmir Ərk adı altında təhsil almışdır.

O, müharibə qurturdıqdan sonra İsveçrəyə, sonra isə Almaniyaya getmişdir. Əmir Ərk mühəndis-konstruktor, məşhur ixtiraçı olmuş, şöhrətlənmiş və Almaniyada nəşr olunmuş «Kim kimdir» kitabına daxil olmuşdur. Almaniyada vəfat etmiş və Hamburq şəhərində dəfn olunmuşdur.



Əsgərov Arifniyaz Mehdibala oğlu – 1934-cü il mart ayının 24-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Onun atası – Mehdibala Baladayı oğlu hərbi xidmətini SSRİ Silahlı Qüvvələrində komandir vəzifəsində sovet-fin müharibəsinin (1939-1940) iştirakçısı olmuş, Böyük Vətən müharibəsi illərində azərbaycanlılardan ibarət

döyüşən dəstənin komandiri olmuşdur.

1943-cü ildə döyüşdə həlak olmuş və Krasnodar diyarının Krasnoselsk kəndində fəxri xiyabanda dəfn edilmişdir.


A.M.Əsgərov Dərbənd şəhər 4 saylı orta məktəbini (1955-1966), Dağıstan Mədəni-maarif Texnikumunu xor dirijorluğu ixtisası üzrə (1963-1968) bitirmişdir. Müəllimlik fəaliyyətinə Dərbənd şəhər orta məktəbində musiqi müəllimi kimi başlamış, sonra uzun müddət Dərbənd şəhər «Korlar cəmiyyətinin» direktor müavini işləmişdir.

Azərbaycana gələndən sonra Bakı şəhər 1 saylı internat məktəbində, sonra Sumqayıt şəhər 24 saylı orta məktəbində musiqi müəllimi, Sumqayıt şəhər «Korlar cəmiyyətinin» direktor müavini işləmişdir.

Uşaqların tərbiyəsində göstərdiyi fədakarlığa və vicdanlı əməyinə görə fəxri fərmanlarla və «Tərəqqi» medalı ilə mükafatlandırılmışdır (1991). 1-ci dərəcəli əlil idi.

2008-ci il sentyabr ayının 2-də vəfat etmiş və Sumqayıt şəhərində dəfn olunmuşdur.

Əsgərov Baba Niyaz oğlu – 1959-cu il aprel ayının 23-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Sumqayıt şəhər 12 saylı orta məktəbi (1966-1976), Azərbaycan Neft və Kimya İnstitutunu mühəndis-texnoloq ixtisası üzrə bitirmişdir (1977-1984).



1977-ci ildən 1987-ci ilədək Sumqayıt kimya zavodunda aparatçı vəzifəsindən mühəndis-mexanik vəzifəsinədək yüksəlmişdir. Komsomol, partiya və sovet işlərində fəal iştirak etmiş, şəhər, rayon komsomol və partiya konfranslarına nümayəndə seçilmişdir. 1987-ci ildə Sumqayıt kimya zavodunun partiya təşkilatının rəhbəri işləmişdir.

1988-ci ildən 1991-ci ilədək Sumqayıt şəhər partiya komitəsinin «İqtisadi inkişaf və maşınqayırma sənayəsi» şöbəsinin təlimatçısı kimi çalışmışdır.

1991-ci ildən bu günə qədər Sumqayıt şəhər icra hakimiyyətinin iqtisadiyyat şöbəsinin müdiridir. O, şəhərin əmək və ictimai həyatında göstərdiyi fədakarlığa görə dövlət fəxri fərmanları ilə mükafatlandırılmışdır. 2004-cü ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə «Tərəqqi» medalı ilə təltif edilmişdir.

Əsgərov Eldar Səftər oğlu – 1956-cı il oktyabrın 28-də Dərbənd şəhərində anadan olmuşdur. O, 3 saylı orta məktəbdə təhsil almışdır.



O, 1978-ci ildə hərbi xidmətə çağrılmış və Almaniyada xidmətini keçmişdir. Həmin ildə o, Moskva Dövlət Mədəniyyət İnstitutuna daxil olmuşdur.

O, institutu bitirdikdən sonra Dərbənd şəhər mədəniyyət evində əmək fəaliyyətinə başlamış və hazırda Xəzər kəndinin uşaq xoreoqrafiya məktəbində şöbə müdiri işləyir.

E.Əsgərov Dağıstan Respublikasının Əməkdar mədəniyyət xadimi fəxri adına layiq görülmüşdür.

Əsgərov Əbdulcəlil Həmzə oğlu — 1902-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan Pedaqoji İnstitutunu və Moskvada Krupskaya adına Pedaqoji Akademiyanı bitirmişdir. XX əsrin 20-ci illərində Azərbaycan dilində Dağıstanda çıxan «Dağıstan füqərası» qəzetinin baş redaktorunun müavini, ÜK(b)P Dağıstan vilayət komitəsinin təbliğat və təşviqat şöbəsinin müdiri, Azərbaycan K(b)P MK-nin nəzdində Marksizm-Leninizm İnstitutunun direktoru, Azərbaycan K(b) P MK-nin elm və mədəniyyət şöbəsinin müdiri işləmişdir.

1937-ci ildə «xalq düşməni» adlandırılmış və repressiyanın qurbanı olmuşdur.

Əsgərov Əziz Həmzə oğlu — 1907-ci ilin mayında Dərbənd şəhərində sənətkar ailəsində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd şəhərində 7-illik məktəbi bitirdikdən sonra 1924-cü ildə Dağıstanın Xalq Maarifi komissarlığı yaxşı oxuduğu üçün onu Bakıya Pedaqoji Texnikumda təhsil almaq üçün göndərir.



17 yaşlı Əziz Əsgərov yaxşı oxumağı, texnikumun ictimai həyatındakı fəaliyyəti ilə öz yaşıdlarından seçilirdi. Artıq o, ikinci

kursda həmkarlar komitəsinin üzvü, üçüncü kursda isə – komsomol təşkilatının katibi və texnikumun pedaqoji şurasının üzvü idi.

Texnikumu bitirdikdən sonra Əziz Əsgərovu Mahaçqalaya göndərirlər. O, burada «Dağıstan füqərası» respublika qəzetinin əvvəlcə şöbə müdiri, sonralar isə məsul katibi işləmişdir. Qəzetdə bir il işlədikdən sonra Əziz Əsgərov təhsilini davam etdirmək üçün özünün oxumağa göndərilməsini xahiş edir. Qəzetin rəhbərliyi onun xahişini yerinə yetirir və 1929-cu ildə Bakıya Azərbaycan Dövlət Universitetinə göndərir. Bu vaxtdan başlayaraq Əziz Əsgərov öz həyatını Azərbaycanın təhsil müəssisələrinin flaqmanı olan Azərbaycan Dövlət Universiteti ilə möhkəm və əbədi bağlayır. Təhsillə yanaşı o, geologiya-minerologiya kafedrasında laborant vəzifəsində işləyir. O vaxtlar kafedraya Paris Universitetinin və Sorbonna Politexnik İnstitutunun məzunu professor Aslanbəy Vəzirov rəhbərlik edirdi. Hələ 3-cü kurs tələbəsi olarkən Əziz Əsgərov birinci kurs tələbələrinə parktiki məşgələlər keçirdi, dördüncü kursda isə professor A.Vəzirzov istedadlı tələbəyə hətta mühazirə oxumağa da icazə verdi.

1934-cü ildə universitetdə təhsili əla başa vurduqdan sonra Elmi şuranın məsləhəti ilə Ə.Əsgərov biologiya fakültəsinin paleontologiya və geologiya kafedrasının aspirantı qəbul edilir. O, burada həm assistent işləyir, həm də tələbələrlə praktiki iş aparırdı. 1938-ci ildə Ə.Əsgərov «Azərbaycanın cənub-şərq hissəsində mineral mənbələrin geologiyası» mövzusunda geologiya-minerologiya elmləri namizədi elmi dərəcəsini almaq üçün dissertasiya müdafiə edir. Tezliklə onun elmi rəhbəri, o vaxtlar kafedraya rəhbərlik edən, dünya şöhrətli alim, professor V.V.Boqaçov Ə.Əsgərovu kafedraya müəllim qəbul edir və o burada Azərbaycan dilində müharizələr oxuyur. Getdikcə onun pedaqoji fəaliyyət dairəsi genişlənir. Ə.Əsgərov 1940-1949-cu illərdə Azərbaycan Müəllimlər İnstitutunda, 1946-1953-cü illərdə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunda, 1954-1956-ci illərdə Azərbaycan Sənaye İnstitutunda mühazirələr oxuyur.

Onun pedaqoji ustalığı və yüksək peşəkarlığı nəzərə alınaraq 1945-ci ildə SSRİ ali təhsil nazirliyi tərəfindən ona M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin geologiya fakültəsinin dekanı akademik Y.M.Sergeyevlə birlikdə İttifaqın geologiya fakültələri üçün standart tədris planı və ümumi geologiya, hidrologiya və mühəndis geologiyası kursları üzrə proqramlar hazırlamaq həvalə olunur. Bundan əlavə, onun tərəfindən 5 metodiki vəsait, həmçinin Azərbaycan dilində «Hidrogeologiya» dərs vəsaiti yazılmışdır. Əziz Əsgərov pedaqoji fəaliyyətini elmi fəaliyyəti ilə uğurla əlaqələndirirdi. Onun tərəfindən Azərbaycan mineral sularına həsr olunmuş 3 monoqrafiya, bir dərslik, 6 elmi-populyar kitabça və yüzlərlə elmi və elmi-populyar məqalə yazılıb nəşr edilmiş, universitet, respublika və ümumittifaq əhəmiyyətli müxtəlif konfranslarda və forumlarda onlarla məruzələr olunmuşdur. 1948-1950-ci illərdə onun tərəfindən bu gün ən kamil hesab olunan mineral suların təsnifatı işlənib hazırlanmışdır. 1949-cu ildə Ə.Əsgərov M.V.Lomonosov adına MDU geologiya fakültəsinin ixtisaslaşdırılmış şurasında «Azərbaycanın mineral mənbələri» mövzusu üzrə doktorluq dissertasiyasını müdafiə edir. Professor Ə.Əsgərov heç vaxt kabinet alimi olmayıb. 1933-cü ildən başlayaraq 1985-ci ilədək o, hər il sahə ekspedisiyalarına rəhbərlik etmişdir. Onun bütün sahə ekspedisiya işlərinin nəticələri çoxcildli hesabatlarında öz əksini tapmış və Azərbaycan Respublikasının Geologiya və Mineral Ehtiyatları Dövlət Komitəsinin ərazi geoloji fondunda qorunub saxlanılır.

Ə.Əsgərovun rəhbərliyi altında aparılan geoloji sahə işləri və elmi tədqiqatlar Azərbaycanda istirahət zonalarının tikilməsinin inkişafına böyük təkan vermişdir. Onun şəxsi təşəbbüsi ilə respublikada 100-dən çox sağlamlıq ocağı yaradılmış və mineral suların doldurulması zavodları tikilmişdir.

Ə.Əsgərovun xidmətləri Qırmızı Əmək Bayrağı ordeni ilə, onlarla medalla, Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanları ilə, Ümumittifaq Həmkarlar ittifaqı kurort idarəsinin döş nişanı ilə, müxtəlif nazirliklərin və hərbi təşkilatların 60 fəxri fərmanı ilə qiymətləndirilib.

1979-cu ildə SSRİ Nazirlər Sovetinin qərarı ilə ona dövlət mükafatı və üç (Badamlı, Sirab, Vayxır) qiymətli mineral suların yataqlarının ilk kəşf edicisi diplomu verilmişdir. Professor Əziz Əsgərov aparıcı mütəxəssislərdən biri kimi yalnız Azərbaycanda tanınmamışdır. L.P.Karpinskinin və V.İ.Vernadskinin tələbələri və davamçıları M.V.Lomonosov adına MDU hidrogeologiya kafedrasının müdiri professor

O.K.Lanqe, geologiya elmində tanınmış S.A.Bektaşi, İ.K.Raviç, N.İ.Tolstixin, V.M.Şıts, M.İ.Vrublevskiy və başqa alimlərin əsərlərində onun əməyi yüksək qiymətləndirilmişdir. Onu haqlı olaraq Azərbaycan hidrogeologiyasının patriarxı adlandırırlar.

1992-ci ildə xalq qarşısındakı və elmin zənginləşdirilməsində ki, xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən görkəmli alimin 85-illik yubileyinə həsr olunmuş təntənəli mərasimlər keçirilmişdir.


Əziz Əsgərov 1993-cü ildə vəfat edib və Bakı şəhərində dəfn olunub.

Dərbənddə onun anadan olduğu və yaşadığı evin qarşısına xatirə lövhəsi vurulmuşdur.

Əsgərov Firdosi Səftər oğlu (Səftəroviç) – 1981-ci ildə Dərbənd şəhər musiqi məktəbini bitirib və Həştərxan Dövlət Konservatoriyasında təhsilini davam etdirmişdir. O, Dərbənd şəhər musiqi məktəbinin nəfəsli alətlər şöbəsində aparıcı müəllim və 2006-cı ilin fevralından həmin məktəbin direktoru vəzifəsində çalışır.



Əsgərov Mehdibala Babadayı oğlu – 1908-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



M.B.Əsgərov Dərbənd şəhər orta məktəbini, Dərbənd Pedaqoji Texnikumunu tərbiyəçi-müəllim ixtisası üzrə bitirmişdir. Dərbənd şəhər sovet və partiya strukturlarında işləmişdir. Dərbənd konserv kombinatının kadrlar şöbəsinin rəisi olmuşdur. Uzun müddət «Bayat qapı» və «S.Orconikidze» kolxozlarının sədri vəzifəsində çalışmışdır.

1938-ci ildən 1943-cü ilədək SSRİ Silahlı Qüvvələrində komandir kimi hərbi xidmətdə olmuşdur. Sovet-fin müharibəsinin iştirakçısıdır, Böyük Vətən müharibəsi illərində azərbaycanlılardan ibarət döyüşən dəstənin komandiri olmuşdur.

1943-cü ildə döyüş zamanı həlak olmuşdur və Krasnodar vilayətinin Krasnoselsk kəndində fəxri xiyabanda dəfn edilmişdir.

Əsgərov Mehdi Niyaz oğlu – 1963-cü il fevralın 17-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



24 saylı Sumqayıt şəhər orta məktəbini (1970-1980), Azərbaycan Politexnik İnstitutunu maşınqayırma-mühəndisi ixtisası üzrə (1982-1988) bitirmişdir. 1981-ci ildən 1983-cü ilədək Sumqayıt kimya zavodunda usta vəzifəsində işləmişdir. Komsomol işində fəal iştirak edirdi. Sumqayıt kimya zavodunun ÜLKGİ-nın katibi olmuşdur. Sumqayıt şəhər, rayon konfranslarına, Azərbaycan Respublika komsomol qurultayına nümayəndə seçilmişdir (1981-1983). 1983-cü ildən bu günə qədər Sumqayıt şəhər Azərbaycan boru-prokat zavodunda usta vəzifəsində işləyir.

1994-cü ildən 1996-cı ilə qədər Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hava Hücumundan Müdafiə (HHM) qoşunlarının maddi-texniki təminat sistemində hərbi xidməti keçmişdir.

Fədakar əməyinə və fəal ictimai fəaliyyətinə görə fəxri fərmanlarla və təşəkkürlərlə mükafatlandırılmışdır.

Əsgərov Mirzə Səftər oğlu – pedaqoji elmlər namizədi, 1959-cu ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



O, 1974-cü ildə Dərbənd şəhər 3 saylı orta məktəbini, 1978-ci ildə Dərbənd musiqi məktəbini, 1983-cü ildə Həştərxan Konservatoriyasını xor dirijoru, xor müəllimi ixtisası üzrə bitirmişdir. M.Əsgərov 1983-cü ildən Dərbənd şəhər musiqi məktəbində müəllim, 1986-cı ildən Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetində müəllim və baş müəllim işləmişdir. Rusiya Federasiyasının əməkdar incəsənət xadimi, professor B.V.Baranovun təklifi ilə 1990-cı ildə o, Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) akademik xorunun xormeyster və dirijoru, 1997-ci ildən isə bədii rəhbəri olmuşdur. MDU-nin xoru M.Əsgərovun rəhbərliyi

altında Rusiyanın bir sıra böyük səhnə, konsert zallarında müvəffəqiyyətlə çıxış etmiş, beynəlxalq festivalların iştirakçısı və laureatı olmuşdur.

Parlaq və temperamentli musiqiçi, vokal-xor incəsənətinin bilicisi, fortepiano və xalq çalğı alətlərini ifaçısı, sənətkarların və gənclərin sevimlisi M.Əsgərov bir sıra musiqi yarışlarının münsiflər heyətinə («Büllur lira», «Chorus Inside 2008», «Moskva-sülh şəhəri», «Fetos») dəvət olunmuşdur.

O, Rusiya Federasiyasının Əməkdar mədəniyyət işçisi və Ümumrusiya musiqi cəmiyyətinin Əməkdar xadimidir fəxri adlarına layiq görülmüşdür.

Əsgərova Nazilə Əlinağı qızı – 1958-ci il martın 22-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



O, 11 saylı orta məktəbdə təhsil almış və 1975-ci ildə isə Dağıstan Dövlət Universitetinin kimya və biologiya fakültəsinə daxil olmuşdur.

N.Əsgərova Dərbənd şəhər internat məktəbində müəllim kimi əmək fəaliyyətinə başlamış və 1992-ci ildən isə həmin məktəbin direktor müavini vəzifəsində çalışır.

O, Dağıstan Respublikasının xalq təhsili əlaçısı, Dağıstan Respublikasının əməkdar işçisi və Rusiya Federasiyasının fəxri təhsil işçisi adlarına layiq görülmüşdür.

Əsgərova Rəna Cahangir qızı – şairə, 1938-ci il yanvarın 19-da Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



O, Məzahir Rzayev adına 4 saylı orta məktəbi bitirmiş və həmin məktəbin kitabxanasında, sonralar isə «Dərbənd» qəzetində çalışmışdır.

O, hələ uşaqlıqdan ədəbiyyata, musiqiyə və rəssamlığa meyilli idi. O, Azərbaycanda 1990-cı ildə baş vemiş 20 yanvar hadisələrindən sonra ilk şeirini yazmışdır. O, öz şeirlərini «Rəna Türksoylu», «Rəna Dərbəndli» ədəbi təxəllüsü altında yazmışdır.

R.Əsgərova 1998-ci ildə «Sirli dünya» və «Tarixdə şırımlar» adlı iki şeir toplusu nəşr etdirmişdir. Onun şeirləri Azərbaycan və Dağıstan mətbuatında çap olunmuşdur. O, Dağıstan Respublikasının əməkdar mədəniyyət işçisi və Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

O, «Dədə Qorqud», «Qızıl qələm» və «Vətən övladı» mükafatlarının laureatı olmuş.

Əzizov Mişi Manaşiroviç 1901-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Dağ yəhudisidir. 10 aylıq marksizm-leninizm kursunu bitirmişdir. Fəhlə, çəkməçi işləmişdir.

O, 1937-1939-cü illərdə Dərbənd şəhər Zəhmətkeş deputatlar Sovetinin İcraiyyə komitəsinin sədri işləmişdir.

Feyziyev Vəliyulla Hüseyn oğlu – 1891-ci ildə Dərbənddə anadan olmuşdur.

O, muzdlu qənnadıçı, Buynaksk şəhərindəki çörək zavodunun direktoru (1938-1939), Bakı şəhərində 9 saylı çörək zavodunun (1939-1941) və Dərbənd şəhər yeyinti kombinatının müdiri işləmişdir.

«Qafqazın müdafiəsinə görə» medalı ilə mükafatlandırılmışdır.

1959-cu ildə vəfat etmiş və Dərbənddə dəfn olunmuşdur.

Fəriburz (Fəxr əd-Din Fəriburz ibn Sallar ibn Yəzid) – Kəsranilər sülaləsindən (1063-?) şirvanşah. O, səlcuq sultanlarından (Alp-Arslan) asılı idi.

«Şirvanın və Dərbəndin tarixi» salnaməsində məlumat verilir ki, 1068-ci ildə şirvanşah Fəriburz Dərbəndə hücum edərək, şəhərin bir neçə rəisini əsir götürmüş, şəhərə isə oğlu Əfridunu hakim təyin etmişdir.

Dərbəndlilər şirvanşahın özbaşnalığı haqqında səlcuq sultanı Alp Arslana şikəyət edirlər. Alp Arslana gürcü çarı VI Baqratın (1027-1072) üzərinə yürüşdən qayıdarkən «…rəislərin azad olması əmrini verir və şirvanşah bu əmri yerinə yetirir. Sonra sultan şirvanşahı həbs edir. Lakin onu azad edərək, vətəninə göndərir. Şirvanşah bunun əvəzində çoxlu pul ödəməli idi. Hicri tarixi ilə 460-cı ilin ramazan ayında (iyul, 1068-cı il) şirvanşah Fəriburzun oğlu Əfridun Bab əl-Əbvab qalasını tərk edərək Şirvana gedir. Sonrakı illərdə Fəriburz Alp Arslanın Mavərənnərhə getməsindən istifadə edərək bir neçə dəfə Dərbənd üzərinə hücum edir. 1071-ci ilin oktyabrında o, öz oğlu Əfridunu Dərbəndə müstəqil hakim kimi

göndərir. Lakin o, şəhərdən qovulur».

Şirvanşah Fəriburzun varisləridə Dərbəndi tutmağa çalışmışlar. Belə ki, «Kartlis sxovreba» gürcü salnaməsinin məlumatına görə «…1120-ci ilin noyabrında Şirvan və Dərbənd hökmdarları arasında gedən müharibə zamanı Əfridun öldürülmüş, şirvanlılar isə məğlub olmuşlar».

Fətəli xan (1736-1789) – Hüseyn xanın oğlu.



1758-ci ildə, atasının ölümündən sonra Quba xanlığının taxt-tacına sahib olmuş və dərhal öz torpaqlarının sərhədlərini genişləndirməyə başlamışdır. Qısa bir müddət ərzində Azərbaycanın Şimali-şərq və bir sıra torpaqlarına öz təsirini salmışdır.

1759-cu ildə dərbəndlilərin yerli xandan narazılığından istifadə edərək Tərki şamxalını, Qaytaq usmisini və Tabasaran qazisini köməyə çağıraraq Dərbəndi tutmuşdur. Dərbənd xanlığının alınmasında kömək etdiyi üçün Fətəli xan Quba xanlığının bir sıra kəndlərini Tərki şamxalına verdi, Tabasaran qazisinə böyük məbləğdə pul mükafatı, usmiyə isə Ulus mahalındakı Molla Xəlil kəndini hədiyyə verdi və Dərbənddən keçirilən mallardan öz xeyrinə vergi almağa icazə verdi.

Dərbənd xanlığı Quba xanlığının tərkibinə daxil oldu, Fətəli xan Qubalı öz adına «Dərbəndli» titulunu da artırdı. Fətəli xanın torpaqlarının yeni şimal sərhədi Qaytaq ərazisinə sıx yaxınlaşdı. Ona görə güclü və narahat usmi Əmir Həmzə ilə ittifaqı daha da möhkəmləndirmək üçün Fətəli xan 1766-cı ildə onun bacısı Tutu Bikə ilə evləndi və bacısı Xədicə Bikəni ona ərə verməyə söz verdi. Lakin sonralar Fətəli xan fikrini dəyişərək bacısını Bakı hökmdarı Məhəmməd xanın oğluna ərə verdi. Fətəli xanın bu hərəkəti təhqir olunmuş usmi ilə düşmənçiliyə gətirib çıxardı. Bu düşmənçilik Əmir Həmzənin ölümünə qədər davam etdi. Bu iki güclü feodal hakiminin uzun və amansız savaşına Tutu Bikə də cəlb olunmuşdur. Usminin yolunu kəsmək məqsədi ilə Fətəli xan Tutu Bikəni Dərbəndin hökmdarı təyin edir. Lakin bu da usmini dayandırmadı. Fətəli xan tərəfindən ona toxunulmuş zərbə bacısına olan məhəbbətindən güclü idi.

Fətəli xanın varisləri Dərbəndi onun Rusiya tərəfindən işğalınadək (1806) idarə etmişlər.

Şəhərin küçələrindən biri Fətəli xanın adını daşıyır.

Fətəliyev Ramiz Məmmədəli oğlu – Moskva Kinemotoqrafiya İnstitutunu bitirmiş, məşhur kinossenarist, «Azərbaycanfilm» kinostudiyasının direktoru, Azərbaycan Milli Məclisinin deputatıdır. Onun atası Fətəliyev Məmmədəli Dərbənd şəhərində anadan olmuşdur. O, jurnalist olmuş və 20-ci illərdə Dərbənddə Azərbaycan dilində çıxan «Dağıstan fuğərası» qəzetinin məsul katibi işləmişdir. Anası Xavər xanım Rzaqulu qızı Dərbənddə məşhur Fiqarovlar nəslindədir.

Fətullayev Məmmədağa Absaməd oğlu – 1920-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



1934-cü ildə Dərbənd şəhər 4 saylı orta məktəbini bitirmiş və Dərbənd Pedaqoji Texnikumuna daxil olmuşdur. 1938-ci ildə həmin texnikumu, 1943-cü ildə Sevastopol zenit artilleriyası məktəbini bitirmişdir. O, 1939-cu ildən ordu sıralarında xidmət etmişdir. Hərbi xidmətini Böyük Vətən müharibəsi dövründə davam etdirmişdir. Cənub-Qərb, Varşava cəbhələrində batareya bölməsinin komandiri olmuş, Cənubi Baykal cəbhəsində yaponlara qarşı vuruşmuşdur. Ukrayna, Belorusiya şəhərlərinin faşistlərdən azad olunmasında iştirak etmişdir. Azərbaycan diviziyasında kApitan rütbəsində batareya komandiri olmuşdur. 1956-cı ildən partiya və təsərrüfat quruculuğunda rəhbər vəzifələrdə çalışmışdır.

O, 1988-ci ildə təqaüdə çıxmış və 2004-cü ilədək Dərbəndin müharibə veteranları şurasının sədri və Dağıstan gənclərinin əməkdar tərbiyəçi kimi fəaliyyət göstərmişdir.

M.Fətullayev göstərdiyi sücaətə görə Vətən Mühaibəsi ordeni ilə, «Almaniya üzərində qələbəyə görə», «Kiyevin müdafiəsinə görə», «Yaponiya üzərində qələbəyə görə», «Döyüş xidmətlərinə görə», «Əmək igidliyinə görə» və bir sıra başqa medallarla təltif olunmuşdur.

Fətullayeva (Əmirseyidova) Solmaz Şeyx qızı – 1959-cu ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



1976-cı ildə Dərbənd 8 saylı orta məktəbini qızıl medalla qurtarmış, həmin ildə Azərbaycan Dövlət Tibb İnstitutuna qəbul olmuş və 1982-ci ildə həmin institutu bitirmişdir.

O, 1982-2008-ci ilə qədər Dərbənd şəhərində nevropotoloq işləmişdir. 2008-ci ildən Səhiyyə Nazirliyində ekspert-nevropotoloq işləyir. S.Fətullayeva Dağıstanın səhiyyə əlaçısıdır. Rusiyanın fəxri donorudur. Ali kateqoriyalı həkimdir.

Fətullayev-Fiqarov Şamil Seyfulla oğlu – Azərbaycanın görkəmli memar-tarixçisi. 1928-ci il dekabrın 24-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbəndin məşhur zadəgan Fiqarovlar ailəsinin nümayəndəsidir. 1953-cü ildə Azərbaycan Dövlət Politexnik İnstitutunu bitirmişdir (indiki Texniki Universitet).




Memarlıq doktoru (1979-cu il), Azərbaycanın əməkdar memarı (1979-cu il), Beynəlxalq Şərq Memarlıq akademiyasının vitse-prezidenti, Azərbaycan Milli Elmlər akademiyasının müxbir üzvüdür. O, bir sıra məqalə, monoqrafiya və əsərlərin müəllifidir. Onun məqalələri və əsərləri keçmiş Sovet İttifaqının şəhərlərində və xaricdə (Polşada, İtaliyada, Türkiyədə, İranda) çap olunmuşdur («Qradostritelğstvo q.Baku XIX-naçalo XX vekov» (Leninqrad, 1978), «Arxitekturnaə gnüiklopediə q.Baku» (Baku, 2003), «Jilıe doma v zastroyke qorodov Azerbaydjana na rubeje 19-20 vekov» (1963)). Bir çox yaxın və uzaq xarici ölkələrdə beynəlxalq konfranslarda çox maraqlı məruzələrlə çıxış etmişdir.

Ş.Fiqarov elmdəki nailiyyətlərinə görə Rusiya, Polşa və digər ölkələrin orden və medalları ilə təltif olunub.

Azərbaycan Respublikasının yüksək mükafatı olan "Şöhrət" ordenə layiq görülmüşdü

10 mart 2015-ci ildə vəfat etmişdir.

Fiqarov Çingiz Hüseyn oğlu – 1939-cu ildə Bakıda anadan olmuşdur. Azərbaycanlıdır.



Dərbənddə tanınmış tacir Hacı Hüseynin nəslindəndir.

Odessa şəhərində Gəmiqayırma İnstitutunu gəmilərin və dənizdəki buruqların istismarı və təmiri üzrə mühəndis-mexanik ixtisası üzrə bitirmişdir. Uzun illər dənizdə üzən buruqların quraşdırılması, istismarı və təmiri şöbəsinin rəisi, dənizdə buruqların kəşfiyyat idarəsinin rəisi vəzifələrində işləmişdir.

Fiqarov Ələkbər Əlirza oğlu - 1950-ci il sentyabr ayının 11-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



1957-ci ildən1965-ci ilə kimiBakı şəhəri 18 saylı orta məktəbi,1965-ci ildən 1967-ci ilə kimi Bakı şəhəri 189 saylı orta məktəbi,1967-ci ildən 1974-ci ilə kimi Azərbaycan Neft və Kimya İnstitutu Energetika fakültəsini,1979-cu ildə Moskva Energetika İnstitutunda 3 aylıq təkmilləşdirmə kurslarını bitirmişdir.

1976-cı ildən 1990-cı ilə kimi Ümumittifaq Neft Elmi-Tədqiqat Təhlükəsizlik Texnikası İnstitutu (ÜNETTTİ), mühəndis; böyük mühəndis; kiçik elmi işçi; böyük elmi işçi vəzifəsində işləmişdi.

1990-cı ildən bu günə kimi Azərbaycan Dövlət Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası Elmi-Tədqiqat İnstitutu, laboratoriya müdiri vəzifəsində işləyir.

Fiqarov Əli Hacı Həsən oğlu – 1927-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Texnika elmləri namizədi, dosent. O, Azərbaycan İnşaat İnstitutunu bitirmiş və Elmi-Tədqiqat İnşaat İnstitutunda əmək fəaliyyətinə başlamışdır. Sonralar Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda müəllim işləmişdir.

Bakı şəhərində vəfat etmiş və orada dəfn olunmuşdur.

Fiqarov Əlirza Ələkbər oğlu - 13 sentyabr 1981-ci ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



1988-ci ildən 1998-ci ilə kimi Bakı şəhəri, 1 saylı orta məktəbi, 1998-ci ildən 2003-cü ilə kimi Azərbaycan Tibb Universiteti tibb-profilaktika fakültəsini, 2003-cü ildən 2004-cü ilə kimi həkim-epidemioloq ixtisası üzrə internaturanı, 2012-ci ildən 2014-cü ilə kimi FELTP epidemiologiya üzrə beynəlxalq kurslarını bitirmişdir.

2008-ci ilin aprel ayında təhlükəli infeksiyalar üzrə klinik treninqləri, 2010-cu ilin iyun ayında həkimlərin təkmilləşdirməsi kurslarını, 2012-ci ilin mart ayında EİDSS kurslarını bitirmişdir.

2004-cü ildən 2015-ci ilə kimi "AZAL" QSC Tibb-Sanitar İdarəsinin həkimi, 2008-ci ildən 2012 -ci ilə kimi "İnfocity" jurnalın texniki redaktoru, 2011-ci ildən 2013-cü ilə kimi Softline treninq mərkəzinin məşqçisivəzifələrində işləyirdi. 2015-ci ildən bu günə kimi "Qarant Sığorta" həkim-operator vəzifəsində işləyir. Aviasiya tibbi üzrə 3 ədəd dərc edilmiş elmi əsərlər (müştərək müəlliflik) kimi elmi işləri var.

Fiqarov Fərhad Əlirza oğlu - 29 dekabr 1955-ci il tarixdə Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



1963-cü ildə Bakı şəhəri 18 saylı məktəbinin 1-ci sinfinə daxil olub, həmin məktəbini 1973-cü ildə bitirmişdir. Həmin ildə Azərbaycan Neft və Kimya İnstitutunun kimya-texnologiya fakültəsinə daxil olmuşdur.

1973-cü ilin sentyabr ayından 1974-cü ilin mart ayına kimi mühəndis hidrogeologiya və hidrotexniki qurğuların İnstitutunda laborant vəzifəsində çalışmışdır.

1974-cü ilin oktyabr ayından 1975-ci ilin oktyabr ayına kimi Torpaqşünaslıq və Aqrokimya İnstitutunda laborant vəzifəsində çalışmışdır.

1975-ci ilin noyabr ayından 1978-ci ilin oktyabr ayına kimi Murmansk vilayətinin şimal donanmada xidmətdə olmuşdur.

1979-cu ilin yanvar ayından avqust ayına kimi Torpaqşünaslıq və Aqrokimya İnstitutunda laborant vəzifəsində çalışmışdır.

Əmək fəaliyyətinə 1979-cu ilin avqust ayından V.İliç adına Neft emalı zavodunda başlamışdır (hazırda Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (SOCAR) Heydər Əliyev adına Neft emalı zavodu adlanır) Texniki qurğuların operatoru, texniki qurğuların baş operatoru, kataliz riforminq qurğunun rəisi, kataliz riforminq istehsalatın rəis müavini vəzifələrində işləyib.

2011-ci ilin aprel ayından kataliz riforminq 3 saylı istehsalatın rəisi vəzifəsində işləyir.


Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (SOCAR) Fəxri Fərmanı ilə təltif olunub.

Fiqarov Hacı Hüseyn Hacı Əlimərdan oğlu – Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. O, erkən yaşlarında anasını, yeniyetmə vaxtına isə atasını itirmişdir.

Hacı Hüseyn Dərbənd şəhərində realnı məktəbini, 1916-cı ildə Sankt-Peterburq şəhərində Dəmiryol İnstitutunu, sonralar isə Bakı şəhərində Sənaye İnstitutunun inşaat fakültəsini bitirmişdir.


İnqilabi hadisələr ilə əlaqədar onun ailəsi Bakı şəhərinə köçməyə məcbur olmuşdur. Hacı Hüseyn Bakıda müəllimliklə məşğul olmuş və sənaye institutunda, memarlıq, inşaat və meşəçilik texnikumlarında dərs demişdir.

Fiqarov Namiq Hüseyn oğlu – 1942-ci ildə anadan olub. Azərbaycanlıdır. Dərbəndin məşhur Fiqarovlar ailəsinin nümayəndəsi, Hacı Zülfüqarın nəslindədir. Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsini, Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsini bitirmiş, dalğaların rəqsi üzrə dissertasiya müdafiə etmişdir. Onun dalğaların rəqsi, tətbiqi mexanika üzrə monoqrafiyaları var. N.Fiqarovun elmi



məqalələri həm Rusiyada, həm də xaricdə çap olunmuşdur. Hazırda laboratoriya müdiri, direktor müavini və professordur.

Fiqarov İsmət Hüseyn oğlu – Dərbəndin



məşhur Fiqarovlar ailəsinin nümayəndəsi, Hacı Zülfüqarın nəslindədir. 1945-ci il martın 3-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

1963-cü ildə 18 saylı orta məktəbi bitirmiş, Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktikası fakültəsinə daxil olmuş və 1969-cu ildə həmin institutu bitirdikdən sonra Respublika Klinik-uroloji xəstəxanasında həkim-pediatr işləmişdir. Azərbaycan Həkimlərin Təkmilləşdirilməsi İnstitutunun uroloji kafedrasında assistent (1975), tibb elmləri namizədi (1980), tibb elmələri doktoru (1995), professor olmuş, həmin institutunda operativ-nevroloji və uroloji kafedrasının müdiri vəzifəsində çalışmışdır. Respublikanın əməkdar həkimi (1996) və Azərbaycan Respublikasının baş uroloqudur.

İ.Fiqarov müxtəlif uroloji və nevroloji xəstəliklər və qusurların müalicəsinə həsr edilmiş 11 əsər, o cümlədən 3 monoqrafiyanın müəllifidir. Keçmiş Sovet İttifaqının müxtəlif şəhərlərində, Rusiyada, Amerika Birləşmiş Ştatlarında (Nyu-York, Klivlend), İtaliya, Türkiyə və bir sıra xarici ölkələrdə keçirilmiş elmi-praktik konfranslarda iştirakçı və məruzəçi olmuşdur.

Fiqarov Rüfət Fərhad oğlu - 15 mart 1987-ci



il tarixdə Bakı şəhərində anadan olmuşdur.

1993-cü ildə Bakı şəhəri 94 saylı məktəbinin 1-ci sinfinə daxil olub, 2004-cu ildə Bakı şəhəri 291 saylı "Araz" ekoloji liseyini bitirmişdir.

1995-ci ildən 2002-ci ilədək fortepiano sinfi üzrə Bakı şəhəri 4 saylı musiqi məktəbində oxumuşdur.

2004-cü ildə Dövlət İqtisad Universitetinin "Maliyyə və kredit" fakültəsinə daxil olub, 2009-cu ildə oranı bakalavr dərəcəsi ilə bitirmişdir.

2004-cü ildən 2009-cu ilədək Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (SOCAR) Heydər Əliyev adına Neft emalı zavodunda anbardar, 2009-cu ildən Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (SOCAR) Rabitə və İnformasiya Texnologiyaları İdarəsində mühasib işləmişdir. 2010-cu ildən SAP ERP mühəndis vəzifəsində işləyir.

Fiqarov Teymur Fərhad oğlu - 26 avqust 1990-



cı il tarixdə Bakı şəhərində anadan olmuşdur.

1997-ci ildə Bakı şəhəri 72 saylı liseyinin 1-ci sinfinə daxil olub, 2008-ci ildə həmin liseyi bitirmişdir.

1998-ci ildən 2005-ci ilədək skripka sinfi üzrə Bakı şəhəri 4 saylı musiqi məktəbində oxumuşdur.

2009-cu ildə Azərbaycan Respublikası Neft Akademiyasının "Ümumi geologiya" fakültəsinə daxil olmuşdur, 2013-cü ildə onu bakalavr dərəcəsi ilə bitirmişdir. Həmin ildə SOCAR-ın və Fransız TOTAL şirkətlərinin sponsorluğu ilə fransız dilində təhsil alması üçün Fransanın Po şəhərinin Universitetinə magistratura pilləsi üzrə daxil olmuşdur.

Hal-hazırda TOTAL şirkətində təcrübə keçir.

"Nə? Harada? Haçan?" respublikalararası və beynəlxalq yarışların üzvüdür.

Fiqarova Əminə Tofiq qızı – məşhur caz



pianoçusu, Rusiya bəstəkarlar ittifaqının üzvü. 1965-ci ildə Bakı şəhərində anadan olmuş, Dərbəndin tanınmış milyonçu Fiqarov nəslinin nümayəndəsidir. Əminə Fiqarova hələ Bülbül adına musiqi məktəbində oxuyarkən fortepiano və violonçel üçün musiqi yazmağa başlamışdır. 1982-ci ildə o, Bakı Musiqi Akademiyasına daxil olub. Sonra Əminə konsert fəaliyyəti ilə məşğul olmaq

məqsədilə Moskvaya gedir. Onda o, pop-musiqi yazmaqla məşğul olurdu. Moskvada onun fəaliyyəti ilə maraqlanmış və Rusiyanın bəstəkarlar İttifaqına qəbul etmişlər. Sonra onu klassik pianoçu kimi Hollandiyaya qastrol səfərinə dəvət etdilər. Əminə burada məşhur holland pianoçusu Roba Van Krifelddən caz dərsi və Amerika müğənnisi Koko Yorkdan vokal dərsi almağa başladı. Artıq bir ildən sonra onun «Attraction» adlı ilk diski çıxdı. 1998-ci ildə isə Əminənin «Another Me» adlı ikinci albomu işıq üzü gördü. 1999-cu ildə «Firewind» adlı üçüncü albomu çıxdı. Bu albomda Əminə caz – septetlə birlikdə çıxış etmişdir. Əminə «Firewind» (Bakının rəmzi olan «Od və külək») albomunda Azərbaycan xalq mahnısından istifadə etmişdir. Əminə xanım istər İndoneziyada, istər Braziliyada, istərsə də Amerikada olsun, o, həmişə doğma vətəni Azərbaycandan danışır.

Fiqarova Günel Ələkbər qızı - 1987-ci il mart ayının 28-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



1993-cü ildən 2004-cü ilə kimi Bakı şəhəri, Nəsimi rayonu, Namiq Axundov adına 1 saylı orta məktəbi, 2004-cü ildən 2008-ci ilə kimi Bakı Asiya Universitetin Beynəlxalq iqtisadi münasibətlər fakültəsini, 2007-ci ilin mart ayından may ayına kimi Misir səfirliyində keçirilən ərəb dili kurslarını, 2009-cu ilin sentyabr ayından dekabr ayına kimi "Octogon" təhsil mərkəzində mühasibat +1C kurslarını bitirmişdir.

Fiqarova Sofiya Rüstəm qızı – 1949-cu il iyulun 6-da Bakı şəhərində anadan olmuşdur. Dərbəndli Əlimirzə Fiqarovun nəvəsidir. 1966-cı ildə Bakı şəhəri 189 saylı orta məktəbi, 1966-1971-ci illərdə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsini və 1973-1977-ci illərdə isə həmin universitetin aspiranturasını bitirmişdir. O, 1981-ci ildə «Müxtəlifsəthli yarımkeçirici təbəqələrdə kinetik hadisələr» mövzusunda namizədlik və 2008-ci ildə isə «Aşağıölçülü elektron sistemlərində köçürmə hadisələri» mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.



S.Fiqarova 1973-cü ildən Bakı Dövlət Universitetinin fizika fakültəsinin bərk cisimlər fizikası kafedrasının professoru vəzifəsinə qədər yüksəlmişdir.

Onlardan biri akademik B.M.Əsgərovla həmmüəllifi olduğu «Thermodulnamics Çibbs Method And Statistikal Physics of elektron Çasses» adlı monoqrafiyası «Springer» Almaniya nəşriyatı tərəfindən ingilis dilində dərc edilmişdir. Onun elmi məqalələrinin böyük bir hissəsi Almaniyanın, İngiltərənin, Hollandiyanın, ABŞ-ın, Fransanın və Rusiyanın nüfuzlu elmi jurnallarında dərc olunmuşdur.

Fizika-riyaziyyat elmləri doktoru S.Fiqarova 100-dən çox elmi əsərin müəllifidir. Onun elmi-tədqiqat sahəsi müasir elmin aparacı istiqamətlərindən biri olan nanoelektronika-aşağıölçülü (nanoölçülü) elektron sistemlərində köçürmə hadisələrinin nəzəriyyəsidir.

Fiqarova Üryət Əlimirzə qızı – Dərbənddə anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun memarlıq fakültəsini bitirmiş və memar-layihəçi işləmişdir.

Firdovsi Əbu-l-Qasim (934-1025) – qədim Şərqin dahi şair filosoflarından biri, dünya ədəbiyyatı xəzinəsində görkəmli yerlərdən birini tutan «Şahnamə» epik poemanın müəllifi. Bu böyük epik əsər 60 min beytdən ibarətdir. Bu əsərdə şair öz xalqının 4 min illik tarixini cəmləşdirmişdir. Bu əsərdə 50 İran şahının və ona qarşı çıxan Turan hökmdarlarının hökmranlığı təsvir olunmuşdur.



«Şahnamə» bir çox sosial problemlərə toxunan parlaq tarixi və dərin fəlsəfi əsərdir. «Şahnamə» əsərinin siyasi yönülmlüyü haqqında aşağıdakı fakt gətirilir. Dahi şair əsərini yazıb qurtardıqdan sonra, onu istedadlı türk siyasi xadimi və sərkərdəsi Sultan Mahmud Qəznəviyə təqdim edir. Hökmdar əsərdə İran tərifləmib Turan pisləndiyi üçün əvvəlcədən gözəl əsər üçün vəd etdiyi qızıl mükafatı vermək

fikirindən daşınsa da vədindən tamamilə imtinanı öz ad-sanına yaraşdırmayıb ona qızıl əvəzinə gümüş mükafat göndərir. Lakin öz himayədarını İrana meyli ilə incitmiş Firdovsiyə bu da qismət olmur. Mükafat şəhərə yetişəndə onun nəşi artıq qəbiristanlığa aparılırdı. Bu əsərdə Dərbəndin də adı xatırlanır. Firdovsinin mülahizəsinə əsasən Dərbəndin əsası İranın ikinci Keyhanilər sülasindən olan İran şahı Leyrasp tərəfindən qoyulmuşdur. Dərbəndin Leyrasp tərəfindən əsasının qoyulması barəsində mülahizələrə bir sıra sonrakı müəlliflərin də – Həmdullah Qəzvini, Mirzə Heydər Vəzirov və b. əsərlərində rast gəlinir. Görünür, onlar da Firdovsinin istifadə etdiyi mənbələrə və yaxud «Şahnamə» əsərinə istinad etmişlər.

Gegeçkori Yevgeni Petroviç (1879-1954) – Gürcüstanın istiqlal hərəkatının görkəmli xadimi, sosial-demokrat. Rusiyanın 3-cü dövlət dumasının deputatı olmuşdur (1908-12). Fevral inqilabından (1917) sonra Xüsusi Cənubi Qafqaz Komitəsinin üzvü idi. 1917-ci ilin noyabrında Cənubi Qafqaz Komissarlığının sədri seçilmişdir. 1918-ci ilin fevralında Cənubi Qafqaz seymi Gegeçkori başda olmaqla Cənubi Qafqaz hökumətini təşkil etmişdir. 1918-ci ilin mayından Gürcüstan Respublikasının xarici işlər naziri olmuşdur. Gürcüstan Sovet Rusiyası tərəfindən işğal olunduqdan sonra Fransaya mühacirət etmişdir.

Gilasov Gilas İdayət oğlu (1909-1983) –



azərbaycanlı, görkəmli ədib, yazıçı və şair. 1927-ci ildə Dərbənd Pedaqoji Texnikumunu, 1932-ci ildə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunu bitirmişdir. 1927-ci ildən Dərbənddə Azərbaycan dilində nəşr olunan «Maarif yolu» jurnalı və «Dağıstan füqərası» qəzeti ilə əməkdaşlıq edirdi və onların səhifələrində «G.İdayət» təxəllüsü ilə öz povest və şeirlərini çap etdirirdi.

1956-cı ildən təqaüdə çıxana kimi şəhərdə Azərbaycan dilində nəşr olunan «Leninçi» qəzetinin redaktoru işləmişdir. O, yerli Azərbaycan folklorunun toplanmasında və keçmiş Dərbənd şairlərinin əlyazmalarının axtarışında çoxlu iş görmüşdür.

Gilasov Rövşən Gilas oğlu – tarix elmləri



doktoru, professor, 1934-cü ildə Dərbənd şəhərində anadan olmuşdur. Dərbənd Pedaqoji Məktəbi, Dağıstan Dövlət Universitetini (1960), Moskva şəhərində aspiranturanı bitirmişdir.

O, 8 saylı Dərbənd şəhər orta məktəbində müəllim, SSRİ-i EA Tarix İnstitutunun (Moskva) SSRİ xalqlarının ümumi problemləri şöbəsində, Dağıstan Dövlət Universitetində (1973), Dağıstan Dövlət Universitetinin Dərbənd filialında (2006-cı ildən) işləmişdir. R.Gilasov Dağıstan Respublikasının əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

O, 70 elm əsərin və 2 monoqrafiyanın müəllifidir.

Hacı Əli Mirzə – Dərbənd qazisi. O, eyni zamanda Dərbənddəki Dövlət imperator bankının fəxri direktoru seçilmişdir.

Bankın nizamnaməsinə əsasən bankdan kredit götürdüyü kredit üçün heç bir girov qoya bilməyən bütün kasıb müsəlmanlar Hacı Əli Mirzənin zəmanətinə əsaslanmalı idilər.

Hacı Əli Mirzə Zeynalov Həmid Ənvər oğlunun ulu babasıdır.

Hacı Fatma – Dərbəndin məşhur bəylərindən olan Əbdürəhimovlar nəslindən idi. Onun qardaşı Əbdurəhimov Hacı Mirzə bəy saray müşaviri olmuş (podpolkovnik), Cənubi Dağıstanın naibi vəzifəsini tutmuş və Dərbəndin ictimai özünüidarəçiliyinin deputatı seçilmişdir.

XIX əsrin sonunda Hacı Fatma xanım Azərbaycanda «Şixəli Dadaşov və onun oğlanları» adlı ilk paroxod şirkəti yaratmış bakılı Hacı Şixəli Dadaşova ərə getmişdir. Fatma xanımın övladları olmamışdır. Həyat yoldaşının ölümündən sonra Hacı Fatma xanım ona çatmış mirası ilə Dərbəndə köçmüş və burada böyük ev tikdirmişdir və ömrünün sonuna qədər burada yaşamışdır. O, Dərbənddə dindarlığı və xeyriyyəçiliyi ilə tanınmışdır.

1942-ci ildə vəfat etmiş və Dərbənd şəhərində dəfn olunmuşdur.

Hacıyev İsmayıl Yusif oğlu (təxəllüsü Dağıstanlı) – Azərbaycan və SSRİ Xalq artisti, 1907-ci il yanvarın 6-da Azərbaycanın Qax rayonunun Zərnə kəndində


anadan olmuşdur. Əsli Dağıstandan olduğu üçün özünə Dağıstanlı təxəllüsünü götürmüşdür.

İsmayıl Dağıstanlı səhnə fəaliyyətinə 1923-cü ildə Nuxa (Şəki) dram dərnəyində başlamışdır. 1926-1930-cu illərdə Bakı Teatr Texnikumunda oxumuşdur. O, 1931-ci ildə Dağıstanda açılmış Azərbaycan Dram teatrının ilk peşəkar rejissoru olmuşdur.

O, 1936-1937-ci illərdə C.Cabbarlı adına İrəvan və Azərbaycan Dövlət Darm Teatrlarında çalışmışdır. Uzun illər Azərbaycan Dövlət Dram teatrının qabaqcıl aktyorlarından biri, səhnənin baş və əsas rollarının ifaçısı olmuşdur. Azərbaycan, rus və dünya klassiklərinin dram əsərlərinin qəhrəmanlarının rollarını böyük ustalıqla ifa etmişdir. Kinofestifalların iştirakçısı olmuşdur.

O, 1948-ci ildə SSRİ və 1972-ci ildə isə Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşdür. Ona 1974-cü ildə SSRİ Xalq artisti fəxri adı verilmişdir və iki dəfə «Lenin», «Qırmızı Əmək Bayrağı» və «Xalqlar Dostluğu» ordeni və medalları ilə təltif edilmişdir.

Hacıyev Murad Stalislavoviç – 1961-ci ildə Mahaçqala şəhərində anadan olmuşdur.



O, Mahaçqala 113 saylı orta məktəbi və Dağıstan Politexnik İnstitutunu bitirmişdir. Şərabçılıq üzrə mühəndis-texnoloqdur. O, Dərbənd rayonu K.Marks adına sovxozuna (hazırda K.Marks adına Dövlət unitar müəssisəsi) başçılıq etmişdir. 1993-cü ildən Dərbənd konyak kombinatının direktoru işləyir.

Hacəliyev Tahir Seyidəli oğlu - Azərbaycanın Quba rayonunda 1950-ci ildə anadan olmuşdur.



Jurnalist, şair, yazıçı, publisistdir. O həmçinin Dağıstan mədəniyyətinin əməkdar işçisidir, SSRİ-nin, Rusiyanın və Dağıstanın Jurnalistlər İttifaqının, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür, "Gülüstan" Ədəbiyyatçı Beynəlxalq İttifaqının prezidentidir, FNKA "Azərros" Federal Şurasının üzvüdür, Dağıstan Respublikasında FNKA "Azərros"un sədridir, Dərbənd şəhərin "Dostluq-Drujba" ictimai təşkilatının vitse-prezidentidir, Birləşmiş Millətlərin Təşkilatın nəzdində Şimali Qafqazı üzrə narkomaniya və narkobiznes ilə mübarizə mətbuat-mərkəzin və NTV telekanalının (Türkiyə) kuratorudur. Məhkəmənin xalq iclasçısı və deputat seçilmişdir. Dağıstanın, Rusiyanın və Azərbaycanın Jurnalistlər İttifaqının mükafatlarına layiq görülmüşdür.

1998-ci ildən 2000-ci ilədək Dərbənd şəhərinin Azərbaycan Dövlət Dram Teatrın baş inzibatçısı, bədii rəhbərinin müavini, bədii bölməsinin müdiri, "Vətən" qəzetinin xüsusi müxbir, kuratoru vəzifələrində çalışmışdır. Hazırda "Dərbənd" respublika qəzetinin redaktorudur. O "Dərbəndə gəl" şerlər məcmuəsinin müəllifidir. Haqqında "Xalq Prometeyi" kitabı yazılmışdır.

Herodot (e.ə. 480-e.ə. 420) – «Tarixin atası» adlandırılan qədim yunan tarixçisi, yunan-iran müharibələrinə həsr olunmuş «Tarix» əsərinin müəllifi. O, bu əsərdə Əhəmənilər sülaləsinin hökmranlığından, Misirdən yazmışdır. Skif türklərinin həyat və məişəti haqqında ilk məlumatı Herodot vermişdir. Herodotun «Tarix» əsərində türk qəbilələrinin Qədim Şərq dövlətinin ərazisinə girmələri üçün «Kaspi qapılarından» istifadə etmələri barədə ilk yazılı məlumata rast gəlirik. Onlar e.ə. VII əsrdə Assiriya, Manna, Suriya, Fələstin, Misir kimi böyük dövlətləri özlərinə tabe etməyə cəhd göstərmişdilər. Herodotun məlumatına görə, «skiflər Asiyada 28 il hökmranlıq etmiş və hər yeri talan etmişlər». Herodot skiflərin getdiyi yolu təsir edərək yazırdı ki, onlar Volqa və Amur-Dərya çaylarından keçərək Şimalı Qara dəniz sahilləri və Ön Qafqaz düzənliklərinə daxil olmuş, darmadağın edilmiş kimmer tayfalarını (başqa türk qəbilələri)» izləyərək Xəzər dənizinin qərb sahili ilə Dərbənd keçidindən keçərək Ön Şərq dövləti olan Midiyanın ərazisinə soxulmuşdular.

Hacəliyev Telman Tahir oğlu (təxəllüs Telman Tahirli) - 14 yanvar 1978-ci il tarixdə Dağıstan Respublikasının Dərbənd şəhərində anadan olmuşdur.



1984-cü ildən 1993-cü ilədək Dərbənd şəhəri 6 saylı dəmiryol məktəb-internatda oxuyub.

1993-cü ildən 1997-ci ilədək Turqut Ozal adına Dərbənd türk kollecində

oxuyub.

1997-ci ildən 2002-ci ilədək Krasnodar İncəsənət və Mədəniyyət İnstitutunda, Beynəlxalq Şərq Universitetinin beynəlxalq əlaqələr fakültəsində oxuyub.

1992-ci ildən yerli qəzetlərində dərc edilmiş, 1993-cü ildən isə "Dağıstan" Dövlət Teleradio şirkətinin radio verilişində müxbiri olmuşdur.

2014-cü ildə Azərbaycanın "Qafqaz Media" İctimai Birliyinin diplomuna, "Peşəkar Jurnalist" oskarına, "Ağa Musa Nağıyev" fondunun diplomuna layiq görülmüşdür.

Hazırda Dərbənd şəhərin azərbaycanlıların yerli milli-mədəniyyət muxtariyyətin sədridir.

Heydərov İbrahim İsa bəy oğlu (1879-1949) Dərbənd şəhərində əsl bəy ailəsində anadan olmuşdur. Azərbaycanlıdır. O, realnı məktəbini, Peterburqda Yol Mühəndisliyi İnstitutunu (1904) bitirmişdir. 28 yaşında ikən Dağıstandan və Zaqatala dairəsindən Rusiya 3-cü Dövlət dumasına üzv (1907-1912) seçilmişdir. Heydərov Bakı şəhər idarəsinin üzvü, idarənin təsərrüfat şöbəsinin müdiri idi.

1907-ci ildə «Nəşri-maarif» cəmiyyətinin idarə heyətinə daxil olmuşdur. 1913-cü ildə A.Babayevlə birlikdə «Dəyanət» neft-sənaye şirkətini təşkil etmişdir. 1914-cü ilin yanvarında «Səfa» xeyriyyə cəmiyyəti idarə heyətinin üzvü, 1916-cı ilin martında isə «Nicat» cəmiyyətinin sədr müavini seçilmişdir.

İ.Heydərov Fevral inqilabından sonra müsəlman ziyalılarının 1917-ci il martın 16-da Bakıda keçirilən iclasına sədrlik etmiş, Qafqaz müsəlmanları qurultayı (15-20 aprel 1917, Bakı) rəyasət heyətinin üzvü seçilmişdi. Xüsusi Cənubi Qafqaz Komitəsi (1917) Heydərovu Dağıstan vilayətində Müvəqqəti hökumətin komissarı təyin etmiş, lakin Dağıstan İcraiyyə Komitəsinin sosialist üzvləri, İ.Heydərovun sosial-demokrat olmasına baxmayaraq, onun namizədliyinə qəti etiraz etmişdilər. Xüsusi Cənubi Qafqaz Komitəsi güzəştə gedərək, Dağıstanda idarəçiliyi həyata keçirmək üçün Heydərovun da daxil olduğu üç nəfərdən ibarət xüsusi heyət yaratmışdı.

Bir çox dağlı liderləri, ictimai xadimləri kimi Heydərov da məhz Bakı mühitində yetişmiş, Şimali Qafqaz dağlılarının azadlıq hərəkatının rəhbərlərindən biri olmuşdur. Fevral inqilabından (1917) sonra Vətənə dönmüş, azadlıq hərəkatını təşkilatlandırmaq istiqamətində iş aparmışdır. Heydərov türk dilinin təhsil dilinə çevrilməsi ideyasını dəstəkləmiş, hətta 1917-ci il iyunun 15-də Temirxan Şurada müəllimlər üçün türk dili kursları açanlardan biri olmuşdur. O, Dağıstan Müsəlman Milli Komitəsinin üzvü idi. Komitənin siyahısı ilə Rusiya Müəssislər məclisinə seçilmişdi.

İbrahim Heydərov Cənubi Qafqaz seymində sosialist blokunun üzvü, 1918-ci il aprelin 22-də yaradılmış Cənubi Qafqaz Federativ Respublikası hökumətində dövlət nəzarəti naziri idi. Seymin nümayəndə heyətinin tərkibində Trabzon konfransında iştirak etmişdir. Bakıda türk-müsəlman əhalisinə qarşı daşnak-bolşevik qüvvələri tərəfindən törədilmiş soyqırımı ilə bağlı 1918-ci il aprelin 20-də Heydərov Cənubi Qafqaz seyminin adından Bakı Soveti ilə danışıqlara göndərilmiş Bakıya çatan kimi bolşeviklər tərəfindən həbs olunmuşdu. Bununla əlaqədar olaraq, Cənubi Qafqaz seyminin üzvü Camo bəy Hacınski Heydərovun azad edilməsi üçün təcili tədbirlər görməyi təklif etmişdi. Bir müddət Bakı Xalq Komissarları Sovetində quberniya komissarı vəzifəsində işləmiş, bu vəzifədən «Hümmət» təşkilatının təklifi ilə kənar edilmişdir. Heydərov Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikası hökumətinin səlahiyyətli nümayəndəsi kimi, 1918-ci il noyabrın 28-də Azərbaycan Xalq Cümhuriyyəti ilə Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikası arasında müqaviləni imzalayanlardan biri olmuşdur.

O, Dağlılar Respublikası hökumətinin 1918-ci il dekabrın 19-da təşkil olunan yeni tərkibində yollar və poçt-teleqraf naziri təyin olunmuşdur, hökumət tərəfindən Avropa dövlətləri ilə danışıqlara göndərilən yeni nümayəndə heyətinə daxil edilmişdir. Denikin qoşunlarının müdaxiləsi nəticəsində Dağlılar Respublikası hökumətinin buraxılması ilə və sabiq hökumət üzvlərinə qarşı təqiblərlə əlaqədar İ.Heydərov Bakıya qayıtmış, Azərbaycanın ictimai-siyasi həyatında, xeyriyyə konsertlərinin, teatr tamaşalarının, o cümlədən Üzeyir bəy Hacıbəylinin «Leyli və Məcnun» operasının, Ağa Əminovla birlikdə «Azərbaycan gecələrinin» təşkilində fəal iştirak etmiş, 1920-ci ildə Fransaya mühacirət etmişdir.

O, ümid edirdi ki, Avropa dövlətləri Sovet Rusiyasını Şimali-Qafqaz respublikasının müstəqilliyini tanımağa məcbur edəcəklər. Lakin onun paris missiyası uğursuzluqla nəticələndi.

1925-ci ildə Türkiyə hökuməti onu dəvət etdi və dəmiryol tikintisinin texniki hissəsinə başçılıq etməyi ona həvalə etdi.

1940-ci ildə onu rabitə yolları Nazirliyində işə dəvət etdilər və o ölümünə qədər burada işlədi. 1949-cu ildə vəfat etdi və Ankarada Cevesi qəbiristanlığında dəfn edildi.

İbrahim bəy böyük irs qoyub getmişdir. Onun Rusiya imperiyasının, Şimali Qafqaz və Dağıstanın sosial-siyasi və milli problemlərinə həsr olunmuş məqalələri, məruzələri və çıxışları qalmışdır.

Harun ər-Rəşid (786-809) – Abbasilər ərəb sülaləsinin 5 xəlifəsi. Harun ər-Rəşidin surəti «Min bir gecə» nağılında ideallaşdırılmışdır.

Harun ər-Rəşid atası xəlifə əl-Məhdinin idarəçiliyi dövründə, (778-786) Cənubi Azərbaycanın və Arranın hakimi olmuşdur. Onun hakimiyyəti Bab əl-Əbvaba da yayılmışdır.

Qafqazdakı ərəb canişinlərinin iqamətgahı Dərbənddə və sonra Bərdədə yerləşirdi. Ona görə də, orta əsr müəlliflərinin Harun ər-Rəşidin 8 il Dərbənddə yaşaması haqqında verdikləri məlumatı, onun Qafqaz üzərindəki canişinliyi dövrünə aid etmək lazımdır.

786-cı ildə xəlifə taxt-tacını sahib olmuş Harun ər-Rəşid Hayyun ibn Nəcmi Dərbəndin yeni hakimi təyin etmiş və ona şəhərdəki qayda-qanunlara riayət etməyi tapşırmışdı. Hayyun şəhərin alınmaz qala olduğuna ümid edərək, şəhərdə özbaşnalıq edir və sakinləri incidirdi. Onun bu hərəkəti haqqında məlumat alan Harun ər-Rəşid Salman ibn ər-Rəbbiyə əl-Bəhlilini Dərbəndə göndərir. O, Həyyunu və onun tərəfdarlarını zəncirləyib Bağdada yola salır.

790-cı ildə Huzayf ibn Xazim Dərbəndin hakimi təyin edilir. O, bura 12 min döyüşçü ilə gələrək, dağılmış şəhər divarlarını və istehkamlarının bərpası işlərinə başlayır. Dərbənddəki vəziyyəti öyrənmək üçün xəlifə özü Dərbəndə gəlir. Onun əmri ilə şəhərə Rubas çayından su kanalı çəkilir, bağlar və bağçalar salınır, dəyirmanlar tikilir və onlardan götürülən gəlir şəhərin yoxsul sakinlərinin xeyrinə sərf olunurdu.

Mövcud olan rəvayətə görə, Dərbənddə Harun ər-Rəşidin azyaşlı oğlu vəfat edir və o, Kəfəri qəbiristanlığında (şəhərin şimal hissəsindəki qəbiristanlıq) məqbərədə dəfn olunur. Bu hadisə yazılı mənbələr tərəfindən təsdiq olunur. Belə ki, bir çox ərəb yazılı mənbələrindən məlumdur ki, özünün xeyirxahlığı ilə tanınan Harun ər-Rəşidin həyat yoldaşı Zibeydə (xəlif Əbu Cəfər Mənsurun (754-755) qızı) uzunmüddətli qızdırmadan sağaldıqdan sonra, qədim şəhərin dağıntıları üzərində yeni şəhərin tikilməsini əmr edir. Bəzi mütəxəssislər hesab edir ki, bu, indiki Təbriz şəhəridir. Təbriz – «qızdırmadan xilasolma» mənasını verir. Rəvayətə görə bu hadisə 792-ci ildə baş vermişdir.

Xəlifə Harun ər-Rəşidin Dərbənddə olması vaxtını Huzayf ibn Xazimin şəhəri idarəetmə dövrü (790-cı ildən), Təbrizin əsasını qoyulması (792-cı il) ilə müqayisə edərək belə bir nəticəyə gəlmək olar ki, Harun ər-Rəşidin azyaşlı oğlunun ölməsi haqqında rəvayət, həyat yoldaşının xəstəliyi və sağalması, onun əmri ilə Təbriz şəhərinin tikilməsi həqiqətə uyğun hesab etmək mümkündür.

Xəlif Harun ər-Rəşidin dövründə Dərbənddə böyük tikinti-bərpa işlərinin aparılması haqqında h. 176-cı ilə (793) aid küfi xətti ilə yazılmış ərəb kitabəsi də məlumat verir.

Yazıda deyilir ki, Kisr tərəfindən tikilmiş Dərbənd qalası xəlifə Harun ər-Rəşidin idarəçiliyi dövründə təmir və bərpa edilmişdir. Amil Məhəmməd - Harun ər-Rəşidin böyük oğlu h. 175-ci ildə (791/2) varis, 809-cu ildə isə atasının ölümündən sonra xəlifə təyin edilmişdir.

Heydərov Qasım bəy Minətulla bəy oğlu – 1858-ci ildə Dərbənd şəhərində məşhur bəy ailəsində anadan olmuşdur. Azərbaycanlıdır. Orta təhsilini Dərbənddə və Bakı realnı məktəbində almışdır. Sonra Moskva Universitetinin hüquq fakültəsinə qəbul olunmuşdur. Rus ordusunda xidmət etmişdir. Ehtiyata ştabs-kapitan rütbəsində çıxmışdır.

1896-ci ildə Q.Heydərov şəhər müvəkkilləri məclisinin deputatı, 1900-cü ildə isə şəhər başçısı seçilir. Bu vəzifədə o, 1909-cu ilə kimi olmuşdur. O, Rusiya Sosial-Demokrat Partiyasının sıralarına daxil olduqdan sonra Dağıstan vilayətinin hərbi qubernatoru onu vəzifəsindən azad etmişdir.

Qasım bəy Heydərovun təşəbbüsü ilə şəhərdə realnı məktəbi (1902), Qadın gimnaziyası (1902), Rus-tatar (azərbaycan) məktəbi (1902), Aleksandr dəmiryolu məktəbi (1904), bağçaçılıq- üzümçülük məktəbi (1904) açılmışdır.

Dərbənd realnı məktəbinin təsis edilməsində sərf etdiyi əməyə və enerjiyə görə şəhər müvəkkilləri məclisi qərar qəbul edir ki, şəhərin hesabına ildə 150

rubl həcmində Qasım bəy Heydərov adına təqaüd təsis edilsin və məktəbin ən yaxşı şagirdinə verilsin (ilk təqaüdçü 3-cü sinif şagirdi Mehdi bəy Məmmədbəyov olmuşdu).

Şəhərin və vilayətin ictimai-siyasi həyatında yaxından iştirak edən Q.Heydərov 1917-ci ilin mart ayında Dağıstanda «Müsəlman milli komitəsi»nin yaradılmasında iştirak edir, Dərbənddə onun şöbəsini təşkil edir və özü ona rəhbərlik edir. «Milli komitə» təşkilatı şəhərdə aparıcı siyasi qüvvələr arasında ciddi nüfuz qazandı. 1917-ci ilin noyabr ayında və 1918-ci ilin sentyabr ayında bir müddət bolşeviklərin rəhbərlik etdikləri şəhərin Xalq Komissarları Şurasına qarşı duran ciddi müxalifət rolunu oynadı. Buna görə də Xalq Komissarları Şurası 11 may 1918-ci il qərarı ilə bu komitənin fəaliyyətini qadağan və əmlakını müsadirə etdi.

1918-ci ilin noyabr ayının 20-də Vladiqafqazda Terekin zəhmətkeş xalqlarının 5-ci qurultayı açıldı. Bu qurultayda Dağıstanın nümayəndələri də iştirak edirdi. Onların arasında Qasim bəy Heydərovun başçılıq etdiyi 5 nəfərdən ibarət «Müsəlman milli komitəsinin» nümayəndələri də var idi.

Vladiqafqazdan qayıdarkən, Məmmədqala dəmiryol stansiyasında Q.Heydərovun başçılıq etdiyi nümayəndə heyəti qatardan düşürülmüş və qırmızıqvardiyaçılar tərəfindən stansiyanın yanında yerləşən bağda güllələnmişlər. Güllələnənlər arasında Q.Heydərovun tək oğlu da var idi.

Heydərov Minətulla bəy Qasım bəy oğlu – 1827-ci il oktyabrın 4-də Dərbənd şəhərində bəy ailəsində anadan olmuşdur. İbtidai təhsilini qəza məktəbində almışdır.

1843-cü ildə, 16 yaşında hərbi xidmətə çağırılmışdır. O, hərbi xidmətinə Qafqazda rus qoşunlarının tərkibində Güəzli süvari milis dəstəsində sıravi əsgər kimi başlamışdır. Artıq üç ildən sonra, 1846-cı ildə xidmətdə göstərdiyi şücaətə görə Minətulla bəy Heydərova gizir rütbəsi verilmiş və yeni yaradılmış Samur quru qoşunlar alayına batareya komandiri təyin edilmişdir. Döyüşlərdə göstərdiyi şücaətə və igidliyə görə 4-cü dərəcəli Müqəddəs Georgi ordeninə layiq görülmüşdür.

1881-ci ildə M.Heydərov polkovnik rütbəsinə yüksəlmişdir. Göytəpə uğrunda gedən döyüşlərdə fərqləndiyinə görə 3-cü dərəcəli Müqəddəs Georgi ordeni ilə təltif olunmuşdur.

1884-cü ildə ona general-mayor rütbəsi verilmiş və quru qoşunların ehtiyat alayına keçirilmişdir. Minətulla bəy Heydərov ömrünün sonunadək Dərbənddə yaşamış və 1904-cü ildə vəfat etmişdir. Minətulla bəyin üç oğlu var idi: Qasım bəy, Musa bəy və İsa bəy.

Həmzəyev Sədulla Hacıbaba oğlu – 1899-cu ildə Dərbənd şəhərində tacir ailəsində anadan olmuşdur. Azərbaycanlıdır.



Sədullanın atası – Hacıbaba Dərbənd şəhərində məşhur tacir, böyük torpaq sahibi olmuşdur. Onun şəxsi mülkləri, bağları və 2960 rubl dəyərində əkin sahələri var idi (1875).

Hacıbaba şəhərin içtimai və siyasi işində fəal iştirak edirdi. 1904-cü ildən 1908-ci ilədək şəhər müvəkkilləri heyətinə daxil idi

O, öz yaşıdlarından mütərəqqi baxışları ilə seçilirdi. O, Qafqazdakı inqilab hərəkatının fəal iştirakçısı idi. Dağıstanda sovet hakimiyyəti qurulduqdan sonra, respublikanın ictimai-siyasi işlərində fəal iştirak etmiş, Mahaçqala şəhərinin dövlət və partiya orqanlarında məsul vəzifələrdə çalışmışdır.

Bakı şəhərinə köçdükdən sonra Sədulla Həmzəyev Sankt-Peterburq şəhərində yaxşı təhsil almış, xarici dilləri və Şərq xalqlarının mədəniyyətini öyrənmişdir. Böyük Vətən müharibəsinin iştirakçısı olmuşdur.

Uzun müddət diplomatiya sahəsində işləmişdir. 1960-ci illərin əvvəllərində Sovet İttifaqının İranda səfiri, sonralar isə Azərbaycanda Dağıstanın nümayəndəsi olmuşdur.


1973-cü ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Həsənov Atababa Məcid oğlu – 1922-ci ildə anadan olmuşdur. Azərbaycanlıdır. Ali təhsillidir. Müəllim, milli orta məktəbin direktoru, parovoz deposunun maşinist köməkçisi, parovoz deposunun ustası və baş ustası, Dərbənd şəhər partiya komitəsinin sənaye-nəqliyyat şöbəsinin müdiri və Dər-bənd şəhər partiya komitəsinin ikinci katibi vəzi-fələrində işləmişdir.

Həsənov Qəni – 1901-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. İxtisasca müəllim

olmuşdur. 20-ci illərdə şəhər Sovetinin xalq təhsili şöbəsinin müdiri işləmişdir. 1927-ci ildə qısqanclıq zəminində öz mənzilində öldürülmüşdür.

Həsənov Qotfrid Əli oğlu – 1900-cu ildə mayın 6-da Dərbənd şəhərində, Dağıstanın tanınmış tarixçisi, filosofu, şairi və maarifçisi olan Əlqədəri Həsənin oğlu (1834-1910). Məşhur hüquqşünas Əli Həsənovun ailəsində anadan olmuşdur.



Dərbənd realnı məktəbinin hazırlıq sinfində təhsil aldığı illərdə Qotfrid qeyri-adi musiqi qabiliyyəti göstərir və valideynləri onu yerli pedaqoq-pianoçu A.Bülün yanına qoyurlar. Realnı məktəbini bitirdikdən sonra Qotfrid Moskvaya gedir, eyni zamanda «Bethoven studiyasında» musiqi ilə ciddi məşğul olur. Bu zaman inqilabi hadisələr başlayır və Q.Həsənov siyasi mübarizədən kənarda qalmır. O, qırmızı ordu sıralarına daxil olur və Türküstan və Dağıstan hadisələrində iştirak edir. Lakin inqilabi hadisələr onun musiqiyə olan ehtirasını azaltmır. 1921-ci ildə Q.Həsənov folklor materialını toplamaq üçün Dağlıq Dağıstana özünün ilk musiqi-etnoqrafik ekspedisiyasına yola düşür. Onun yolu avar, dargin və lak rayonlarından düşür. Zəngin xalq musiqi adət və ənənələri onun qəlbinə hakim kəsilir. O, burada həmişəlik özünü musiqiyə həsr etməyi qərara alır və Leninqrad Konservatoriyasının fortepiano və kompozisiya sinfinə daxil olur.

Q.Həsənov 1928-ci ildə konservatoriyanı müvəffəqiyyətlə bitirərək Dağıstana qayıdır. Gənc bəstəkar öz əsas diqqətini xalq musiqisinin və Dağıstan musiqi ənənələrinin dərindən öyrənilməsinə yönəldir. Hələ konservatoriyanın tələbəsi olarkən, o yay tətilləri zamanı Dağıstanın cənub rayonlarına-Qasımkənd və Axtın rayonlarına səyahət edir. Konservatoriyanı bitirdikdən sonra o özünün üçüncü ən böyük səyahətini edir. Bu dəfə o, Dağıstanın Qunib, Xunzaxsk və Tlyaratinsk rayonlarına gedir və oradan zəngin etnoqrafik material – fonoqrama yazılmış 80-dən çox xalq mahnısı və melodiyaları toplayır. Bəstəkarın bu səyahətlərinin nəticəsi olaraq «Xoçbar» adlı ilk Dağıstan operası yaranır və bu opera Dağıstan musiqi mədəniyyətinin tarixinə ilk nümunə kimi daxil olur. «Simfonik orkestr üçün Dağıstan fantaziyası», ilk Dağıstan romansı «Mən öz damımda tək əm», 70-ə yaxın yenidən işlənmiş və Dağıstan xalq mahnıları yazılmış əsərlər, «Ayqazı» tamaşasına yazılmış musiqi, «Karasaç» nağıl baletinə yazılmış musiqi və başqa incəsənət nümunələri onun qələminə məxsusdur. Onun əsl xalq ruhunda yazılmış əsərləri indiyədək Dağıstanın musiqi kollektivlərinin ifasında səslənir. «Fortepiano və orkestr üçün konserti»nə görə 1949-cu ildə Q.Həsənov ikinci dərəcəli Dövlət mükafatına layiq görülmüşdür. Ümumiyyətlə bəstəkar Q.Həsənov öz əsərləri ilə Dağıstanın klassik müsiqisinin əsasını qoymuşdur.

Müəllim kimi də Q.Həsənovun Dağıstan xalqları qarşısında xidmətləri böyükdür. Hələ 1926-cı ildə onun fəal iştirakı ilə Buynaksk şəhərində respublikada ilk musiqi məktəbi açılır. 1937-ci ildən 1942-ci ilədək Q.Həsənov Leninqrad Konservatoriyasında çalışır. Onun bilavasitə rəhbərliyi altında Dağıstanın istedadlı musiqiçiləri və bəstəkarları yetişmişdir – İ.Aqababov, Ş.Çalayev, Yesinova, Kleyzimer, Loşakova, Şamasov, Yaqubov, Ələsgərov, Əfəndiyev və başqaları.

Dövlət tərəfindən Q.Həsənovun Dağıstanın musiqi mədəniyyətinin inkişafındakı xidmətləri yüksək qiymətləndirilmişdir. Ona «Dağıstanın əməkdar incəsənət xadimi» fəxri adı verilmiş və o «Qırmızı Əmək Bayrağı» və «Fəxri döş nişanı» ordenləri ilə təltif edilmişdir. Q.Həsənov 1965-ci ilin may ayının 28-də vəfat etmişdir.

Həsənov Henrix Əli oğlu – 1910-cu ildə Dərbənd şəhərində Dağıstanın tanınmış tarixçisi, filosofu, şairi və maarifçisi olan Əlqədəri Həsənin oğlu (1834-1910), tanınmış hüquqşünas Əli Həsənovun ailəsində anadan olmuşdur.



H.Həsənov ibtidai məktəbi bitirdikdən sonra Rusiyada başlanan inqilabi hadisələr onun təhsilini yarımçıq qoyur və Mahacqalaya gəlir. O, burada barjda motorçu, sonra isə bondar zavodunda çilingər işləyir. Gənc və vicdanlı işçi olan H.Həsənov Dağıstan respublikası üçün kadr lazım olduğuna görə təhsil almaq üçün Bakı Sənaye İnstitutuna göndərilir. Bir ildən sonra o Leninqrad Gəmiqayırma İnstitutunda

təhsilini davam etdirir və 1935-ci ildə həmin institutu fərqlənmə diplomu ilə bitirir. Onun diplom işi qızıl medala və pul mükafatına layiq görülür.

İstedadlı mühəndisi Mərkəzi konstruktor bürosuna işə göndərilir. O, burada yeni gəmilər üçün qazanları layihələşdirmə qrupunda işləyir. 1938-ci ildə H.Həsənov bu layihələşdirmə qrupuna rəhbərlik edir. H.Həsənovun rəhbərliyi altında çox qısa müddət ərzində stendlərdə və istismar şəraitində gəmi qazanlarının bir sıra orijinal konstruksiyaları layihələşdirilir və işlənib hazırlanır. Bu qiymətli işinə görə o, 1942-ci ildə Stalin mükafatına layiq görülür.

1941-1945-ci illər müharibəsi dövründə H.Ə.Həsənov ölkənin digər aparıcı mütəxəssisləri ilə birlikdə hərbi gəmilərin texniki təchizatı işində bilavasitə iştirak edir. Döyüşlərin gedişində suüstü gəmilərin və sualtı qayıqların enerji sistemlərinin istismar uzunömürlülüyünün və etibarlılığının yüksəldilməsi istiqamətində kompleks işlər görür və yeni gəmi qazan qurğularının layihələşdirilməsində iştirak edir.

1946-cı ildə yeni, tələbatlara cavab verən gəmi enerji qurğularının yaradılması üçün Baltik zavodunda (Leninqrad şəhəri) xüsusi qazan qurğuları konstruktor bürosu yaradılır və bu büroya H.Həsənov başçılıq edir.

Burada, onun rəhbərliyi altında dünyada analoqu olmayan, bir sıra yeni təkmilləşdirilmiş qazan konstruksiyaları yaradılır. Buna görə H.Həsənov 1958-ci ildə Lenin Mükafatına, 1970-ci ildə isə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülür.

Gərgin elmi və konstruktor işi ilə yanaşı H.Həsənov böyük pedaqoji işlə də məşğul olur. Kontr-admiral, baş konstruktor, texnika elmləri doktoru, professor H.Ə.Həsənov eyni zamanda Leniqrad Gəmiqayırma İnstitutunda kafedraya rəhbərlik etmişdir.

Vətən qarşısındakı xidmətlərinə görə H.Ə.Həsənov bir çox orden və medallarla təltif edilmişdir. Onun adını Dərbənddə bir küçə və okean tankeri daşıyır.

H.Həsənov 1979-cu ildə vəfat etmiş və Sankt-Peterburq şəhərində dəfn olunmuşdur.

Həsənov Salix Sadıq oğlu – 1907-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. O, Leninqrad (hazırda Sankt-Peterburq) Sənaye İnstitutunu bitirmişdir.

S.Həsənov institutu bitirdikdən sonra Bakı ipəkçilik kombinatına göndərilmişdir. O, əmək fəaliyyətini mühəndis vəzifəsindən başlamış və kombinatın direktoru vəzifəsinədək yüksəlmişdir.

O, vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Həsənova Suriya Niftulla qızı – 1927-ci il martın 1-də Dərbənd şəhərində anadan olmuşdur. 1945-ci ildə Dərbənd Pedaqoji Məktəbini bitirmişdir. 1945-ci ildən təqaüdə çıxanadək Dərbəndin 4 saylı məktəbində ibtidai sinif müəllimi işləmişdir.

S.Həsənova bir neçə dəfə Dərbənd şəhər Sovetinin deputatı seçilmişdir.

O, Dağıstan Respublikasının «Əməkdar müəllimi» fəxri adına layiq görülmüşdür. Əmək veteranıdır. 1954-cü il iyun ayının 5-də vəfat etmişdir.

Hüseynov Çingiz Salix oğlu – professor, Bakı şəhərində anadan olmuşdur. Əslən dərbəndlidir.

O, Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir. O, keçmiş SSRİ Səhiyyə Nazirliyinin Baş İdarəsində işləmişdir. Hazırda Moskvada Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat İnstitutunda işləyir.

O, tibb elminə aid bir sıra əsərlərinin müəllifidir.

Hüseynov Əbdülvahab Bədrzaman oğlu – 1913-cü ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 7-illik məktəbi, 1930-cu ildə Moskva İnşaat Texnikumunu, sonralar isə inşaat institutunu bitirmişdir.

O, Moskva Şəhər Sovetinin Tikinti İdarəsində, SSRİ Balıq Təsərrüfatı Nazirliyinin mərkəzi aparatında və SSRİ Müdafiə Nazirliyinin hərbi tikinti idarəsində işləmişdir.

Hüseynov Ə. 2001-ci il aprelin 6-də Moskva şəhərində vəfat etmiş və orada dəfn olunmuşdur.

Hüseyn Əli xan – XVIII əsrin ikinci yarısı – XIX əsrin əvvəllərində yaşamışdır. Yaşadığı dövrün məşhur şairlərindən biri olmuş və öz əsərlərini «Möhsün» təxəllüsü ilə imzalamışdır.

Onun qəzəlləri və qəsidələri Dərbəndin hududlarından uzaqlarda da məşhur idi. Hüseyn Əli xan tarixi mövzuda şeirlər də yazmışdır. Onun «Bizim xalq» adlı şeiri buna nümunə ola bilər. Bu şeirdə Hüseyn Əli xan Qazıqumuxlu hakim tərəfindən Dərbəndin alınması təsvir olunub. Şairin «Kədər» əsərindən isə oxucu onun Dərbənd hakimləri nəslindən olduğunu, onun atası və o özünün xanlıq tacına sahib olduğunu öyrənir.

Hüseyn Əli xanın əsərləri Azərbaycan xalqının yaddaşında qorunub saxlanılır.

Hüseynov Firudin Abbas oğlu - 1935-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Tarix elmləri doktoru, professor.

Hüseynov Hüseynbala Yəhya oğlu – 1942-ci ildə



Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1 saylı Dərbənd şəhər məktəbini, Azərbaycan Neft və Kimya İnstitutunu və Ali Partiya məktəbini bitirmişdir.

H.Y.Hüseynov müxtəlif dövrlərdə Konserv kombinatında fəhlə, Dərbənd şəhər Parovoz deposunda çilingər, Bakı şəhər Kompressor stansiyasında mexanik, Dərbənd «Radioelement» zavodunda baş mexanik işləmişdir.

1969-cü ildən 1972-ci ilədək Dərbənd şəhər Komsomol Komitəsinin birinci katibi, 1972-ci ildən 1977-ci ilədək Dərbənd şəhər Partiya Komitəsinin katibi, 1977-ci ildən 1983-cü ilədək Dərbənd şəhər Xalq Deputatları Soveti İcraiyyə komitəsinin sədri vəzifəsində işləmişdir.

1991-ci ildən Dərbənd şəhər İcra Hakimiyyətinin mədəniyyət, mətbuat, din və inzibatı işlər üzrə idarəsinin rəisi işləyir.

Hüseynov İslam Məşədi Hacı oğlu – 1914-cü ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Orta məktəbi bitirdikdən sonra RF-nın Leninqrad şəhərində keçmiş SSRİ DTK-nin xüsusi məktəbində təhsil almışdır. O, XX əsrin 30-50-ci illərində Dağıstan MSSR-ın Daxili İşlər orqanlarında, «Daqestanskie oqni» və Dərbənd şəhərlərində milis rəisi vəzifələrində işləmişdir.

O, 1950-ci ildə Dərbənd şəhərində vəfat etmişdir.

Hüseynov Muxtar Kazım oğlu – polkovnik, 1926-



cı ildə Dərbənd şəhərində anadan olmuşdur. 1942-ci ildə M.Rzayev adına 4 saylı Dərbənd orta məktəbini, 1949-cu ildə Ulyanovsk Hərbi Rabitə məktəbini, 1965-ci ildə Leninqrad (hazırda Sankt-Peterburq) Hərbi Rabitə Akademiyasını bitirmişdir. O, 1944-cü ildən Sovet Ordusu sıralarında sıravi əsgər, tağım komandiri, bölük komandiri, batalyon komandirinin müavini, diviziya rabitə rəisi olmuşdur. 1972-ci ildə yaşı ilə əlaqədar istefaya çıxmışdır.

M.Hüseynov 1972-1992-ci illərdə Azərbaycan Rabitə Nazirliyinin Xüsusi İdarəsinin rəisi vəzifəsində işləmişdir və ona general-mayor rütbəsi verilmişdir. 1992-1997-ci illərdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrində: Müdafiə Nazirliyinin Baş qərargahının rabitə qoşunları komandanının köməkçisi və Baş feldyeqer poçt rabitəsinin rəisi olmuşdur. 1997-ci ildən istefadadır. M.Hüseynov SSRİ-in Fəxri rabitəçisi və SSRİ rabitə ustasıdır.

Onun adı SSRİ-in xüsusi rabitə İdarəsinin veteranlar kitabına daxil edilmişdir.

Hüseynxan bəy – Dərbəndin tanınmış bəy nəslindəndir. O, XVIII əsrin II yarısında Qafqazda özünü gənc və uzaqgörən siyasətçi kimi göstərmiş Fətəli xan Qubalının fəal tərəfdaşı olmuşdur. O, digər həmfikirləri ilə birlikdə Dərbənd şəhərini Quba xanlığına (1759) birləşdirilməsi işində Fətəli xan Qubalıya yaxından kömək etmişdir. Fətəli xan Qubalı öz növbəsində etibarlı şəxs kimi Hüseyn bəyi şəhər təhcizat idarəsinin rəisi təyin etmişdi. Bu vəzifəni Hüseynxan Əhməd xanın və Tutu Bikənin hakimiyyəti dövründə də icra etmişdir. Lakin, Şeyxəli xanın hakimiyyəti dövründə (1791) o, xanın hərəkətinə qarşı açıq etirazını bildirdiyinə görə tutduğu vəzifədən uzaqlaşdırılmışdır.

Hüseynxan bəyin nəslindən olan ailələr hazırda Dərbənd şəhərində yaşayır.

Hüseynov Nəriman Məmməd oğlu- 19 fevral



1952-ci il Dərbənd şəhərində anadan olmuşdur.

Dağıstan Dövlət Universiteti bitirmişdir.

27 iyul 1981-ci il tarixdən baş tərbiyəçi, 6 saylı məktəb-internatın müəllimi, 22 avqust 1990-cu il tarixdən şəhər xalq maarif şöbəsinin müfəttişi, 16 yanvar 1993-cü il tarixdən Dərbənd şəhəri 20 saylı İbtidai İdman Məktəbinin direktoru vəzifələrində işləmişdir.

1989-cu ildə Rusiya Federasiyasının xalq maarifinin əlaçısı, 2002-ci ildə - Dağıstan Respublikasını əməkdar müəllimi, 2008-ci ildə -

Rusiya Federasiyasının ümumi təhsilin fəxri işçisi, 2015-ci ildə - Rəsul Həmzətovun medalı ("Dağıstan haqqı" qəzeti, 000024 №-si, 14.02.2015), 13-15 aprel 1998-ci ildə – Azərbaycan İncəsənət Festivalının keçirilməsinin təşkilatçısı olmuşdur. 2006-cı ildə Dağıstanın xalq şairi Rəsul Həmzətovun adının məktəb verilməsində, respublikada ulu şairin ilk muzeyinin açılmasında rolu olmuşdur. Rusiyanın Təhsil və Elm Nazirliyinin 15 may 2008-ci il tarixli 146 №-li əmr ilə inovasiya maarifləndirici proqramların tətbiqini həyata keçirən ümumtəhsil müəssisələrin arasında müsabiqənin qalibi kimi diplomla təltif edilib.

2012-ci ildə - etnomədəniyyət təhsil və tərbiyəsi olan ən yaxşı məktəb-müsabiqəsinin qalibi olmuşdur. 2007-ci ildə - Rəsul Həmzətov adına Beynəlxalq Fondun təşəkkür məktubunu almışdır.

2014-cü ildə - "Ən yaxşı müəllim" müsabiqənin qalibi müəllim A.Q. Ramaldanova, "Ən yüksək dərəcəli sinif müəllimi" şəhər müsabiqəsində 2-ci yer alan müəllim B.Ş.İsmayılova olmuşdur.

2015-ci ildə - Rəsul Həmzətov adına Beynəlxalq Fondun təşəkkür məktubu almışdır.

2015-ci ildə - Dağıstan Yazıçıların Birliyinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

Hüseynov Oqtay Əbdülvahab oğlu – polkovnik, 1946-cü ildə anadan olmuşdur. Moskva Dəmiryol Nəqliyyat Texnikumunu və 1973-cü ildə Moskva Dəmiryol Nəqliyyatı Mühəndisləri İnstitutunu bitirmişdir. 1974-cü ildən SSRİ DİN (hazırda Rusiya Federasiyasının DİN) işçisidir.



O.Hüseynov dövlət mükafatları, «DİN fəxri işçisi» döş nişanı və adlı silahla təltif olunmuşdur.

Hüseynov Salih Fətulla oğlu – 1895-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Yeni yaranmış Sovet dövləti üçün mütəxəssislərin hazırlanması məqsədilə dövlət onu xarici ölkəyə təhsil almağa göndərir. Uman (Almaniya) Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. Kənd təsərrüfatı elmləri namizədidir. Tarla bitkilərinin hazırlanması texnologiyası üzrə tanınmış mütəxəssis olmuşdur.

S.Hüseynov uzun müddət Azərbaycan Tarla Bitkiləri Elmi-Tədqiqat İnstitutunun direktoru işləmişdir. Dövlət Mükafatı laureatıdır. S.Hüseynov 1962-ci ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Hüseynov Sənan Məşədi Hacı oğlu – 1935-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

Ukraynanın Lvov şəhərində keçmiş SSRİ DTK-nin xüsusi məktəbində təhsil aldıqdan sonra 40 ildən artıq Dağıstan MSSR-in Daxili İşlər orqanlarında çalışmış, o cümlədən Dağıstanın Dövlət Avtomobil müfəttişliyində milis rəisi vəzifəsində işləmişdir. Milis polkovnikidir.

Hüseynova Nubiyyə Əliyar bəy qızı – 1920-ci il noyabr ayının 20-də Dərbənd şəhərində bəy ailəsində anadan olmuşdur. Azərbaycanlıdır. Orta məktəbi Dərbənd şəhərində bitirmişdir. 1945-ci ildə ailə vəziyyəti ilə əlaqədar Moskva şəhərinə köçmüş və Tibb İnstitutunu bitirmişdir. Təqaüdə çıxana qədər SSRİ DİN-nin klinikasında həkim işləmişdir. Onun həyat yoldaşı Əbdülvahab Hüseynov inşaatçı mühəndisdir və hərbi inşaat idarəsində işləmişdir. İki oğlu var. Böyük oğlu Oqtay 1946-cı ildə anadan olmuş, Moskva Dəmiryol Nəqliyyatı İnstitutunu bitirmiş və ixtisası üzrə işləmiş, sonra isə SSRİ DİN-də işləmiş və hazırda orada polkovnik rütbəsində çalışır. Onun üç qızı var.

Kiçik oğlu Ənvər 1949-cu ildə anadan olmuş, Moskva Aviasiya İnstitutunu bitirmiş və Suxov adına Aviasiya-Konstruktor müəssisəsində çalışır. Onun bir qızı var.

Xadırbəyov Məmməd bəy – 1842-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. İstefada olan kapitan, Dərbənd şəhər Dumasının ikinci (1900-1904) və üçüncü (1904-1908) çağırışlarının deputatı seçilmişdir. Məmməd bəyin Dərbənd şəhərinin inkişafında xidmətlərini nəzərə alaraq, şəhər İclasının deputatı Nuh bəy Kəlbə Hüseyn bəy oğlu 1903-cü ildə 7-ci məhəllədə yerləşən küçənin – Orta qapıdan Xan küçəsinə kimi Cümə məscidinin boyunca uzanan küçəni Xadırbəyov küçəsi adlandırmağı təklifini irəli sürmüşdür. Muraciətdə deyilirdi: «…Xadırbəyovlar nəsli Dərbəndin qədim bəylər nəslindən biridir. Onlar şəhərin inkişaf etməsində və abadlaşdırmasında yaxından kömək göstərmişlər. Onların misilsiz xidmətləri hökumət tərəfindən

diqqətsiz qalmamışdır. Onlara böyük torpaq sahəsi və bağları verilmişdir. Ona görə də 7-ci məhəllədəki küçəni Xadırbəyovların xatirəsinə adlandırmaq ədalətli olardı». Şəhər Dumasının üzvləri bu təkliflə razılaşmışlar.

Xalikov Şahlar Mikayıl oğlu – 1953-cü il dekabrın



11-də Dərbənd şəhərində anadan olmuşdur. O, Dərbən şəhər 4 saylı orta məktəbi və Krasnodar İncəsənət və Mədəniyyət İnstitutunun rejissorluq fakültəsini bitirmişdir. O, 1993-1998-ci illərdə Azərbaycan və Tat teatrının, 1998-ci ildən isə Azərbaycan Dövlət Dram Teatrın direktoru olmuşdur. Ş.Xalikov 2002-ci ildən Dağıstan Respublikasının Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür.

Xan Bikə xanım – Qubalı Fətəli xanın qızı və Bakı xanı II Mirzə Məhəmməd xanın həyat yoldaşı olmuşdur.

1800-cü ilin fevral ayında şəhər sakinlərinin narazılığının artması və onlar tərəfindən şəhər naibi Məhəmməd Hüseyn bəyin qovulması ilə əlaqədar şəhərdə vəziyyət ağırlaşmışdır. Xan Bikə xanım qardaşı Şeyxəli xan tərəfindən Dərbəndin naibi təyin olunmuşdur. Şəhərin sakinlərinin çıxışlarına başçılıq etmiş Sultan bəy Bayat onun köməkçisi təyin edilmişdir.

Xanbabayev Abusəməd Həsən bəy oğlu – 1917-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Sonra ailəsi ilə birlikdə Buynaksk şəhərinə köçmüş və burada orta məktəbi, sonra isə partiya məktəbini bitirmişdir. Buynakskda komsomol işində və şəhər Sovetinin sədri vəzifəsində işləmişdir. Buynakskdan Mahaçqalaya köçürülmüş və burada Dağıstan MSSR-in Nazirlər Sovetində işləmişdir. 1949-cu ildə Dərbənd şəhərinə göndərilmiş və burada 1952-ci ilə qədər Şəhər İcraiyyə Komitəsinin sədri vəzifəsində işləmişdir. O, Dərbənd şəhərindən Mahaçqala şəhərinə köçdükdən sonra respublika «Dağsənayeşurası»nın sədri vəzifəsində işləmiş və 1978-ci ildə burada vəfat etmişdir.

Xanbabayev Şəmsəddin Hüseynqulu – 1939-cu il aprel ayını 1-də Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində anadan olmuşdur.



O, 1956-cı ildə Bakı şəhərinə gəlmiş və Bakı Kommunal İnşaat Texnikumuna daxil olmuşdur. Təhsilini başa vurduqdan sonra o, hərbi xidmətə getmiş, qayıdandan sonra isə Azərbaycan Politexnik İnstitutunun axşam şöbəsində təhsilini davam etdirmiş və eyni zamanda Keşlə ağac emalı kombinatında çalışmışdır. Ş.Xanbabayev 1976-cı ildə Sosial Təminat Nazirinin müavini, 1977-ci ildə Ordubad Rayon İcraiyyə Komitəsinin sədri və 1983-cü ildən isə Naxçıvan şəhər Partiya Komitəsinin birinci katibi vəzifələrində çalışmışdır. O, 1988-ci ildə Ordubad KP-nın birinci katibi, 1990-cı ildə Naxçıvan Muxtar Respublikasının Plan Komitəsinin sədri, 2000-ci ildə Azərbaycan Respublikasının Sosial Təminat Nazirinin müavini və 2004-cü ildən isə Xaçmaz rayon İcra Hakimiyyətinin başçısı təyin edilmişdir.

Ş.Xanbabayev Yeni Azərbaycan Partiyasının üzvüdür. O, 15 il Ali Sovetin deputatı olmuşdur. Bir çox orden və medallara layiq görülmüşdür.

Qardaşlaşmış Dərbənd və Xaçmaz şəhərləri arasında mədəni, iqtisadi və tarixi əlaqələrin inkişaf etdirilməsində onun mühüm rolu var.

2008-ci ildə Azərbaycan iqtisadiyyatının inkişafında, Rusiya və Azərbaycan xalqları arasındakı dostluğun möhkəmləndirilməsində mühüm xidmətlərinə, xeyriyyəçilik və qoruculuq fəaliyyətinə, səmimi vətən sevgisinə görə «Dədə Qorqud» Milli Fondu və «Azərbaycan Dünyası» beynəlxalq jurnalının Ali Şurası onu «Vətən övladı» qızıl medalı və diplomu ilə təltif edib.

Xancanbəyov Mürsəl İsabəy oğlu – 1938-ci il avqustun 16-da Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Tacir ailəsindəndir. Orta məktəbi Dərbənd şəhərində, ali təhsilini isə Azərbaycan Dövlət Universitetində almışdır.

Sonralar o, Moskva şəhərinin rabitə sistemində, Azərbaycan Respublikasının Rabitə Nazirliyinin Hesablama Mərkəzində işləmişdir. Dərbənd Cəmiyyətinin Təftiş Komissiyasının sədri kimi fəaliyyət göstərmişdir.

2006-cı ildə Bakı şəhərində vəfat etmiş və burada dəfn olunmuşdur.

Xanməmmədov Hacı Dadaş oğlu – 1918-ci il iyunun 15-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycanın görkəmli bəstəkarı və pedaqoqu, Azərbaycanın Xalq artisti, Azərbaycan Dövlət Konservatoriyasının professoru, Azərbaycanın Əməkdar İncəsənət xadimi olmuş və «Şöhrət» ordeninə layiq görülmüşdür. Kənd həyatı onun şairanə adət-ənənələrinin gənclik cağlarını bu yerlərdə keçirən Hacının yaddaşında iz buraxmış, yaradıcılıq ruhuna hopmuşdur. Uşaqlıq illərindən musiqiyə böyük həvəs göstərmiş və tarda çalmağı öyrənmiş, Dərbənddə məşhur tarzən və dirijor Cümşüd Aşurovun rəhbərlik etdiyi Şərq Musiqi alətləri Orkestrininin tarzən-solisti olmuşdur.



1933-cü ildə Hacı Xanməmmədov Dərbənd şəhərində orta məktəbi bitirdikdən sonra Bakıya gəlmişdir. Hələ uşaq yaşlarından musiqiyə həvəs göstərən Hacı Xanməmmədov sənədlərini Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi məktəbinə vermiş və tar sinfinə daxil olmuşdur. Onun ifası Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyovun diqqətini cəlb etmiş və böyük bəstəkar ömrünün sonuna qədər Hacı Xanməmmədova xüsusi diqqət yetirmiş, onun professional musiqiçi kimi yetişib püxtələşməsində böyük rol oynamış, çətin günlərində dayağı olmuşdur.

Onun Azərbaycan Dövlət Radiosu nəzdində Xalq Çalğı alətləri Orkestrində solist kimi işləməyinin əsas səbəbkarı dahi bəstəkar olmuşdur. Üzeyir Hacıbəyovun rəhbərlik etdiyi kollektivdə işləmək, məşhur musiqiçilərlə təmasda olmaq, eyni zamanda orkestrin konsertmeystri və dirijoru Səid Rüstəmovun tar sinfində təhsil almaq özünü sənətə həsr etməyə hazırlaşan bir gənc üçün az şey deyildi.

1943-cü ildə Üzeyir Hacıbəyov Azərbaycan SSR Dövlət Konservatoriyasında «Xalq musiqisinin əsasları» şöbəsini açdıqda oraya Hacı Xanməmmədov da dəvət edir.

Böyük bəstəkarın zəngin, mədəni irsinə yiyələnmək üçün gecə-gündüz öz üzərində çalışan Hacı Xanməmmədov doğma musiqi sənətinin dərin qatlarından qidalanır, musiqi folklorundan yaradıcı şəkildə bəhrələnir, eyni zamanda dünya musiqi sənətini də həvəslə mənimsəyirdi. Məhz bunun nəticəsidir ki, Hacı Xanməmmədov sonrakı yaradıcılıq yolunda dünya musiqisinin keçmiş və müasir ənənələrinin ən yaxşı cəhətlərini birləşdirir. Artıq 1944-cü ildə Cənubi Qafqaz Respublikalarının musiqi ongünlüyündə gənc bəstəkar H.Xanməmmədov «Gözəl Pəri» (sözləri Z.Cabbarzadənindir) mahnısı ilə iştirak edir.

1941-1945-ci illər müharibəsi dövründə H.Xanməmmədov vətənpərvərlik hissini, cəbhədə hünər göstərən gəhrəmanlarımızın rəşadətini vəsf edən əsərlər yazmışdır. «Yürüş marşı», «Qəhrəman» kimi əsərlər belə nümunələrdəndir. 1947-ci ildə H.Xanməmmədov Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsində öz təhsilini davam etdirir. Onun konservatoriyada Boris Zeydman, Qara Qaraev, Nikolay Çumakov, Daniil Danilov, Georgi Burşteyn, Xurşud Ağayeva kimi gözəl müəllimləri olmuşdur. Konservatoriyada H.Xanməmmədov musiqinin həm iri, həm də kiçik həcmli janrlarında, eyni zamanda həm vokal, həm də instrumental sahələrində çox məhsuldar işləmişdir. Simfonik orkestr üçün «Uvertüra», simli kvartet, violençel ilə fortepiano üçün «Sonata», xalq çalğı alətləri orkestri üçün «Neftçilər haqqında süita», xor, solist və simfonik orkestr üçün «Sülh uğrunda» kantatası (sözləri S.Rüstə-movundur), xalq mahnılarının səs və fortepiano üçün işləmələri bu qəbildəndir. Hələ tələbəlik illərində H.Xanməmmədov tar ilə orkestr üçün «1 nömrəli konsert» ilk sanballı əsərini yazmış və bu əsər onun diplom işi kimi yüksək qiymətləndirilmişdi. H.Xanməmmədov tar və simfonik orkestr üçün geniş şöhrət qazanmış iri həcimli – 4 konsert yazmışdır. Bir neçə ildən sonra o, «2 nömrəli konsert»ini yazır. Müəllif əsəri onun ilk ifaçısı, məşhur tarzən, Azərbaycan SSR Xalq artisti H.Məmmədova ithaf etmişdi. H.Xanməmmədovun «3 nömrəli konsert»inin ilk ifaçısı respublikanın əməkdar artisti mərhum tarzən Əhsən Dadaşov olmuşdur.

1980-ci illərin ikinci yarsında H.Xanməmmədov tar ilə orkestr üçün «4 nömrəli konsert»i yazır. Bu əsəri bəstəkar öz sevimli müəllimi Qara Qarayevin əziz xatirəsinə ithaf etmişdir. Bu əsərin ilk ifaçısı respublikanın xalq artisti Ramiz Quliyev olmuşdur. H.Xanməmmədovun xalq çalğı orkestri üçün

yaradıcılıq tapıntıları onun «Azərbaycan eskizləri» suitasında və «Simfoniyetta»da gözəl nəticə vermişdir.

Musiqili komediya janrıda H.Xanməmmədov yaradıcılığında mühüm yer tutur. O bu janr üzrə iki əsər müəllifidir. Bəstəkar 1960-cı illərdə Məhərrəm Əlizadənin librettosu əsasında «Bir dəqiqə», A.Xaldeyevin librettosu əsasında «Bütün ərlər yaxşıdır» (rus dilində) səhnə əsərlərini yaratmışdır. Hər iki əsər Ş.Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrında müvəfəqqiyyətlə tamaşaya qoyulmuşdur.

Azərbaycan Dövlət Musiqili Komediya Teatrının kollektivi ilk dəfə 1965-ci ildə Moskvada qastrolda olarkən öz repetuarına «Bir dəqiqə» musiqili komediyasını da salmışdı. Əsər Sovet Rusiyasının teatr pərəstişkarlarına böyük təsir bağışlamışdı.

H.Xanməmmədov həm də gözəl mahnılar müəllifidir. Onun mahnılarında təbiət, onun füsunkar gözəllikləri öz təcəssümünü tapmışdır. «Kəklik», «Söyüdlər», «Payız toyları» və s. mahnılar bu qəbildəndir. «Gənclik mahnısı», «Gəncliyin baharı» mahnıları isə nikbin, yenilməz həyat qüvvəsinə malik bəşər insanına həsr olunmuşdur. Məhəbbətin tərənnümü isə Hacı Xanməmmədov musiqi yaradıcılığının baş mövzusu olmuşdur. «Yaşa könül», «Yadıma düşdü», «Sənin gözlərin» «Qurban olduğum», «Gözüm düşdü», «Bir arzum var», «Qadan alım», «Güllü», «Telli», «Ala gözlər» və digər mahnılar onun tükənməz istedadının məhsuludur.

1990-cu ildə Hacı Xanməmmədov Azərbaycan SSR-də ilk dəfə kamança ilə simfonik orkestr üçün «konsert» yazmışdır. Bununla da H. Xanməmmədov istər tar ilə simfonik orkestr üçün və istərsə də kamança ilə simfonik orkestr üçün «konsertlər»in təməl daşını qoyan bir bəstəkar kimi Azərbaycan professional milli musiqisinə daxil olunmuşdur. 1978-ci ildə Azərbaycan SSR ictimaiyyəti H.Xanməmmədovun anadan olmasının 60 və yaradacılığının 40 illiyini təntənə ilə qeyd etmişdi. Bu gecədə H.Xanməmmədovun arfa ilə simli orkestr üçün «konsert»i ilk dəfə səslənmişdi. Sonra bəstəkarın xalq çalğı orkestri üçün «süita»sı və bir sıra mahnıları da səslənmişdi. 1988-ci ildə isə Bakıda H.Xanməmmədovun anadan olmasının 70 illiyi qeyd olunmuşdu.

H.Xanməmmədov görkəmli bəstəkar, dirijor kimi, eyni zamanda da gözəl pedaqoq-hami tərbiyəçi olmuşdur. 40 ildən artıq bir dövrdə H.Xanməmmədov Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi məktəbində dərs demişdir. 1957-ci ildən isə o, Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında dərs demiş, xalq çalğı alətləri k-afedrasında dirijorluq ixtisası üzrə professor olmuşdur. O, müxtəlif illərdə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktoru, Azərbaycan Dövlət Mahnı və Rəqs ansamblının bədii rəhbəri kimi məsul vəzifələrdə çalışmış, bir bəstəkar, bir ictimai xadim kimi də çox faydalı işlər görmüşdür. Bu fədakar sənətkarın zəhməti xalq və dövlət tərəfindən layiqincə qiymətləndirilmişdir. H.Xanməmmədov musiqimizdə professionallıq, ideyalılıq, xəlqilik kimi xüsusiyyətləri özünə məxsus bir yanarlıqla yorulmadan müdafiə etmişdir. O, klassik ənənələrdən daima bəhrələnmiş və onun yaradıcılığında musiqi folklorumuzdan, şifahi ənənəyə əsaslanan professional musiqimizin əsas janrı olan muğamlarımızdan həssaslıqla istifadə izlərini duymamaq mümkün deyil. Məhz bu səbəbdən H.Xanməmmədovun əsərlərinin əksəriyyəti zamanın imtahanından şərəflə çıxmış, bəziləri isə musiqi xəzinəmizin qızıl fonduna daxil olmuşdur. H.Xanməmmədov 2005-ci il aprelin 7-də vəfat etmiş və Bakı şəhərində Fəxri Xiyabanda dəfn olunmuşdur.

Xanukayev Aleksandr Nisonoviç – 1912-ci ildə Dərbənddə anadan olmuşdur. 1929-cu ildə 1 saylı orta məktəbi və 1937-ci ildə Leninqrad Dağ-mədən İnstitutunu bitirmişdir.

1941-1945-ci illər müharibəsinin başlanması ilə əlaqədar ordu sıralarına çağırılmışdır. O, mühasirəyə alınmış Leninqrad şəhərini müdafiə edən istehkamçı bölməsinə (minaaxtaran) başçılıq etmişdir. Tam məxfi partladıcı qurğulu xüsusi alman aviabombalarının zərərsizləşdirmə metodunun işləyib hazırlanmasnda onun xüsusi xidməti olmuşdur. A.N.Xanukayev topladığı təcrübəni özünün xüsusi «Alman fuqas aviabombalarının dağıdıcı təsiri» kitabında (1944) sistemləşdirmişdir. Həmin ildə onun həmmüəllifi P.T.Kalininlə birlikdə – «Piyada aleyhinə minaların zərərsizləşdirilməsi və məhv edilməsi» üzrə rəhbər sənəd kimi başqa bir kitabı çap olunmuşdur. Sonralar, 1947-ci ildə birinci kitab üzrə namizədlik dissertasiyasını müdafiə etmişdir.

Müharibə qurtardıqdan sonra o, Leninqrad Dəmiryol Partladıcı sənayesi idarəsinin direktoru işləmişdir. 1944-cü ildən Leninqrad Dağ-Mədən

İnstitutunda müəllim işləməyə başlamış və burada dağ işlərini aparmaq üçün pardladıcıların nəzəri tədqiqatı ilə məşğul olmuşdur.

1960-cü ildə «Enerqiə voln naprəjeniy pri razruşenii porod vzrıvom» mövzüsu əsasında doktorluq dissertasiyasını müdafiə etmişdir. 1962-ci ildə həmin başlıq altında kitab nəşr etdirmişdir. O, bu mövzu üzrə 150-yə yaxın kitab, 55 ixtira və elmi məqalələr müəllifidir.

Xəlilullah I (1417-1465) – şirvanşah, İbrahim xan Dərbəndinin oğlu. Atasının ölümündən sonra taxt-taca çıxmışdır. O, tikinti işlərinə meyilliyi ilə məşhur idi. Onun hakimiyyəti illərində Şimali Azərbaycanın Bakı, Quba, Salyan və Şamaxı şəhərləri arasında bir neçə karvansara, qüllə, məscid və Bakıda möhtəşəm Şirvanşahlar sarayı tikilmişdir. Şirvanşah I Xəlilullahın əmri ilə Dərbəndin qala divarlarının bəzi yerləri təmir olunmuşdur.

Xiromanov Zəkəriyyə Əbdülhəmid oğlu – 1899-cu ildə anadan olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına (bax Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar) əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri olmuşdur. 1918-ci ildə Dağıstanın Temirxan Şura realnı məktəbini bitirdikdən sonra AXC parlamentinin 1919-cu il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini elektrotexnika sahəsində davam etdirmək üçün Almaniyanın Ştutqart İnstitutuna göndərilmişdir. Şimali Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən Azərbaycanlı Tələbələr İttifaqının 1923-1925-ci illər üçün məlumatında onun təhsilinin bitməsinə il yarım qaldığı göstərilmişdir. Sonrakı taleyi haqqında heç bir məlumat aşkar olunmamışdır.

Xoroles Yakov İqnatyeviç – 1923-cü ildə Dərbənd şəhərində anadan olmuşdur.



1941-1945-ci illər müharibəsinin başlanması ilə əlaqədar, müdafiə istehkamlarının tikintisinə səfərbər olunmuş və 1943-cü ildə cəbhəyə getmişdir. O, general V.Çuykovun komandanlıq etdiyi 8-ci qvardiya ordusunun 57-ci diviziyasının 170-ci alayına sıravi əsgər kimi daxil edilmişdir. Cənub-Qərb, 3-cü Ukrayna və 1-ci Belorus cəbhələrinin qoşunlarının tərkibində vuruşmuşdur.

1944-cü ilin avqustunda Visla çayının alınmasında göstərdiyi sücaətə görə Xoroles 3-cü dərəcəli, 1945-ci ilin fevralında 2-ci dərəcəli və SSRİ Ali Sovetinin 31 may 1945-ci il tarixli fərmanı ilə 1-ci dərəcəli Şöhrət ordeninə layiq görülmüşdür.

1945-ci ilin oktyabrında SSRİ Ali Sovetinin fərmanına əsasən üç dəfədən artıq yara almış Xoroles ordudan tərxis olunmuşdur. O, Dərbənd şəhərinin fəxri vətəndaşıdır.

2007-ci ildə vəfat etmiş və döyüşçülər qəbiristanlığında dəfn olunmuşdur.

Xosrov I Ənuşirəvan (531-579) – Sasanilər



sülaləsindən (224-651) olan hökmdar. Müsəlman tarixi adət-ənənə ədəbiyyatında Şah Xosrov I Ənuşirəvanın surəti İsgəndər Zül-Qarneyn kimi ideallaşdırılmış və müsəlman dövrünə qədər ki, bütün İran şahlarının dahi fəaliyyətlərini ona aid etmişlər. Riçard Frayın qeyd etdiyi kimi: «…Xosrovun adı Sezarın adı kimi ərəblər üçün möhtəşəmlik və şöhrət sinonimi kimi səslənir». Ənuşirvanın adı-xoşbəxt və ölməz deməkdir.

Bir çox ortaəsrlər ərəb müəllifləri və yerli tarixi salnamələr Dərbənd müdafiə istehkamlarının Şah Xosrov I Ənuşirəvan tərəfindən tikildiyi haqqında məlumat verirlər.

Belə ki, Məsudi (X əsr) yazır ki, dar keçiddə, harada Qafqaz dağları Xəzər dənizi ilə ayrılır, orada Ənuşirvan Bab əl-Əbvabı və bir tərəfi üç fərsəx dənizə və Tabarıstanı möhkəmləndirmək üçün dağlara kimi uzanan məşhur divarı ucaltmışdır. «Möcüzəvi divarların» Xosrov I Ənuşirəvan tərəfindən tikilməsi haqqında, həmçinin əl-İstəxri (X əsr), əl-Qərnati (XII əsr) və bir sıra digər nüfuzlu ərəb müəllifləri məlumat verir.

Bununla yanaşı bir sıra ortaəsrlər mənbələri Xosrov I Ənuşirəvanın ulu babası II Yezdəgirdin (439-457) başladığı, babası Peroz (439-457) və atası Gavadın (491-531) davam etdirdiyi «dənizin yanında

möhtəşəm qalanın» tikintisinin onun tərəfindən başa çatdırması haqqında məlumat verir.

Belə ki, Bəlazuri (IX əsr) hesab edir ki, Qubad şah dalğaqıranı tikmiş və Dərbənd istehkamını ucaltmağa başlamışdır. Onun oğlu Xosrov I Ənuşirəvan isə bu divarların və istehkamların tikintisini başa çatdırmışdır. Hazırda Dərbəndin küçələrindən biri Xosrov I Ənuşirəvanın adını daşıyır.

Xıdırbəyov Mürsəl bəy Ağa Dadaşbəy oğlu – Dərbənddə anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd realnı məktəbini və 1917-ci ildə Don Politexnik İnstitutunun inşaat fakültəsini bitirmişdir. Uzun müddət Dərbənd şəhərinin mühəndis-memarı, tikinti idarəsinin rəisi işləmişdir. 1937-ci ildə «xalq düşməni» kimi repressiyaya məruz qalaraq həbs olunmuşdur. 1957-ci ildə reabilitasiya olunmuşdur.

İbrahimova Aynaxanım Hacı Həmdulla qızı – Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd şəhərində ibtidai təhsil aldıqdan sonra xeyriyyəçi H.Z.Tağıyevin Bakıda müsəlman qıları üçün açdığı tədris müəssisəni bitirmiş və 20-ci illərdə Dərbənd məktəblərində dərs demişdir.

İbrahimova Elmira Barat qızı – «Platan» həftəlik informasiya-əyləncəli məcmuənin redaktorudur. O, Dağıstan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmiş və jurnalist fəaliyyətinə başlamışdır. Əvvəlcə «Dağıstan universiteti» qəzetinin müxbiri, sonra isə redaktoru işləmişdir. 1990-cı ildən «Dağıstan qadını» jurnalının müxbiri və məsul katibi işləmişdir. Fəaliyyəti dövründə o, respublikanın fəxri mükafatları ilə təltif olunmuşdur.



Elmira İbrahimova Dərbənddə fəaliyyət göstərən Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin filiallarında doğma Azərbaycan dilinin tədrisi və öyrənilməsi, Dərbənddə və onun rayonlarında, Xasavyurdda, Buynakskda, Gizlərdə yaşayan azərbaycanlıların iqtisadi və mədəni problemlərini həll etmək üçün Dərbənd şəhərində azərbaycanlıların mədəniyyət mərkəzinin yaradılmasının təşəbbüskarı kimi çıxış etmişdir.

Elmira İbrahimova 1990-2000-ci illərdə «Dağıstanın tibbi» qəzetinin redaktoru işləmişdir. 2000-ci ildən isə «Platan» həftəlik informasiya-əyləncəli məcmuənin redaktoru işləyir.

Elmira İbrahimova Rusiya Federasiyası Jurnalistlər ittifaqının üzvü, «Dağıstanın qızıl qələmi» mükafatının laureatı, respublikanın Əməkdar Mədəniyyət Xadimi, İslam dininə dair yazılar yazan jurnalistlər müsabiqəsinin diplomantı, müxtəlif nominasiyalarda «Qızıl qartal» müsabiqəsinin qalibi olmuşdur. E.İbrahimova «Gənc nəslin mənəvi tərbiyəsi üzrə bir sıra işlərə görə» Ümumrusiya diplomuna layiq görülmüşdür.

İbrahimov Əli Məhyəddin oğlu – 1977-ci il yanvarın 22-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



1995-ci ildə Dərbənd şəhəri 3 saylı orta məktəbini bitirmiş, eyni zamanda 1993-1995-ci illərdə zərgərlik texnikumunda təhsil almışdır.

2000-ci ildə Krasnodar şəhərində Mədəniyyət və İncəsənt İnstitutunu, 2003-cü ildə Kənd Təsərrüfatı Texnikumunu mühasibat və audit ixtisası üzrə bitirmişdir. O, iqtisadçı, gələcək kadrlar üçün prezident proqramının dinləyicisidir. «Gənc qvardiya» gənclər təşkilatının sədri, «Vahid Rusiya» partiyasının üzvüdür. 2004-cü ildən «Kazımov adına SPK kolxoz»un sədri seçilmişdir.

2005-ci ildən «Gənc Qvardiya. Vahid Rusiya» təşkilatının sədridir. 2008-ci ildə DDPU-nun tarix fakültəsini bitirmiş və tarix kafedrasının aspirantıdır.

İbrahimov Hacıhəmdulla – Dərbənd şəhərində anadan olmuşdur. 1983-cü il 29 sentyabr Dərbənddə açılmış ilk Dağıstan yerli kredit cəmiyyəti müəssisəsinin direktoru olmuşdur.

İbrahimov Hacı Qurban – tacir, Dərbənd şəhər sakini, öz xeyriyyəçiliyi ilə məşhur olmuşdur. 1858-ci ildə Hacı Qurban İbrahimov Dərbənd şəhərinin Yermolov küçəsinin tinində (hazırda M.Rzayev küçəsi) yerləşən və ona mənsub olan ikimərtəbəli daş evini şəhərə bağışlamışdır. 17x17 sajen ölçüdə ev ayda 200 rubl gəlir gətirən zirzəmidən, birinci mərtəbədə yerləşən və ildə 600 rubl gəlir verən 11 dükandan, polismeysterin mənzili və şəhər polisi yerləşən ikinci mərtəbədən (şəhər xəzinəsindən evin sahibinə ildə 700 rubl verilirdi) ibarət idi. (Məlumat üçün: 1859-cu ildə şəhərin bütün gəliri 17524 rubl 61 qəp., məxarici

isə 15180 rubl 90 qəp. təşkil edirdi).

1860-cı il martın 31-də Qafqaz canişini general-feldmarşal A.İ.Baryatinski Hacı-Qurbanın şəhər xəzinəsinə ianəsini qəbul etməyə icazə verir və ona təşəkkür elan edir. 1860-cı il mayın 19-da evin şəhər mülkiyyətinə təntənəli sürətdə verilmə mərasimində Hacı Qurban və onun oğlu Abigüldən başqa, Dərbənd şəhər ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

20 ildən sonra, 1880-ci ilin fevral ayının 10-da evdə yanğın baş verir və 1830-cu ildən polis otağında yerləşən şəhər arxivi tamamilə yanır. 2 gün davam edən yanğın nəticəsində bina yanıb külə dönür və ayın 14-də binanın qalıqları dağıdılır.

Dərbənd şəhərində ilk apteki də Hacı Qurban İbrahimov açmışdır. 1860-cı ildə Hacı Qurban şəhərdə aptekin açılması üçün 1000 rubl vəsait ayırmış və şəhərin imkansız sakinlərinə bu aptekdən dərmanların pulsuz verilməsi haqqında göstəriş vermişdi.

İbrahimov İzəddin Səracəddin oğlu – 1936-cı ildə



Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1961-ci ildə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunu bitirmiş və Kibernetika İnstitutunda işə başlamışdır. Moskva Avtomatika İnstitutunun aspiranturasına daxil olmuş və akademik Petrovun rəhbərliyi ilə ölkənin enerji təminatı sisteminin avtomatik idarəetməsinin tədqiqində iştirak etmişdir. 1973-1984-cü illərdə Azərbaycan Politexnik İnstitutunun Avtomatika və hesablama texnikası kafedrasının dosenti işləmişdir. 1976-1980-cı illərdə Tanzaniyanın Dar-Əs-Salam şəhərinə ezam olunmuşdur.

1984-cü ildə vəfat etmişdir.

İbrahimov Məhəmmədrəsul Abdulla oğlu – 1950-



ci ildə Dərbənd şəhərində anadan olmuşdur.

O, Leninqrad Dövlət Universitetinin tarix fakültəsini və SSRİ EA Moskva Mikluxo-Maklay adına Etnqrafiya İnstitutunun nəzdində aspiranturanı bitirmişdir. Dağıstan Elm Mərkəzinin Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunda baş laborant, kiçik elm işçi, baş elm işçi, Regional Etnoqrafiya Tədqiqatlar Mərkəzinin elmi katibi işləmişdir.

M.İbrahimov tarix elmləri namizədi, Dağıstan Dövlət Universitetinin tarix fakültəsinin arxeologiya və etnoqrafiya kafedrasının dosenti idi.

Onun əsas elmi-tədqiqat işləri Dağıstan əhalisinin etnik və konfessional formalaşmasına, tarixi demoqrafiyasına, etnik coğrafiyasına, Dağıstanın müasir etnodemoqrafik və etnokonfessional vəziyyətlərinə, Dağıstan əhalisinin etnoqrafiyasına həsr olunmuşdur. O, 100-dən çox elmi əsərin və 1 monoqrafiyanın müəllifidir.

İbrahimov Səracəddin Soltanəhməd oğlu – 1905-ci



il yanvar ayının 31-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

O, 1912-ci ildə Dərbənd realnı məktəbinə daxil olmuş, 1918-ci ildə Rusiyada başlanmış vətəndaş müharibəsi ilə əlaqədar təhsilini Bakı realnı məktəbində davam etdirmiş və 1921-ci ildə həmin məktəbi bitirmişdir. 1920-ci il aprelin 28-də 11-ci Qızıl Ordunun Bakıya hərbi təcavüzündən sonra o, Dərbəndə qayıtmış, burada 1924-cü ilədək komsomol təşkilatında çalışmışdır. 1924-cü ildə komsomolun tövsiyəsi ilə Moskva şəhərinə SSRİ Ali Məhkəməsi yanında təcili 3 illik hüquq kurslarına təhsil almağa göndərilmişdir. Kursları bitirdikdən sonra 1927-ci ildə Mahaçqala şəhərinə Dağıstan MSSR Ədliyyə Nazirliyinə göndərilmiş, orada müstəntiq işləmişdir. 1929-cu ildə Dərbənd şəhər İcraiyyə Komitəsinin təklifi ilə Dərbənd şəhərinin xalq hakimi təyin olunub, eyni zamanda Dağıstan MSSR Ali Məhkəməsinin Kollegiya üzvü və Cənubi Dağıstan Federasiyası üzrə SSRİ Ədliyyə Nazirliyinin səlahiyyətli nümayəndəsi olmuşdur.

1931-ci ildə ixtisasını dəyişərək inşaatçı peşəsinə yiyələnmiş və Şimali Qafqaz Enerji Tikinti idarəsində şöbə rəisi vəzifəsində çalışmış və Dağıstan MSSR, Şimali Osetiyada, Kuban, Moskva və Rostov vilayətində inşaat işlərinin təşkilində fəal iştirak etmişdir.

1936-cı ildə tutduğu vəzifədən öz xahişi ilə azad

olmuş və ailəsi ilə birlikdə Mahaçqalaya köçmüş, orada «Dağıstanneft» idarəsinin Mahaçqala bazasının rəisi vəzifəsində işləmişdir.

1941-1945-ci müharibəsi dövrü Mahaçqala limanında Şimali Qafqaz qaçqınlarının və sənayenin təxliyyəsi üzrə Dövlət Müdafiə Komitəsinin səlahiyyətli nümayəndəsi olmuşdur.

Müharibədən sonra 1946-cı ildən 1959-cu ilədək «Dağıstantikinti» idarəsində direktor müavini vəzifəsində işləmişdir. 1959-cu ildə Bakı Şin zavoduna kapital tikinti şöbəsinə müdir vəzifəsinə təyin edilərək, sənaye-mülki inşaat obyektlərinə rəhbərlik etmişdir. 2002-ci il may ayını 4-də Bakı şəhərində vəfat etmişdir.

İbrahimov Sultan Səracəddin oğlu – 1930-cu ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



Xəzər Ali Hərbi Dənizçilik məktəbini bitirdikdən sonra Odessa şəhərinə xidmətə göndərilmişdir. Sonra isə Uzaq Şərq hərbi dəniz donanmasında xidmət etmişdir. Dünya okeanında hərbi sualtı gəmilərdə üzmüşdür. Xəzər Ali Hərbi-Dənizçilik Məktəbinin şturman fakültəsinin rəis müavini təyin olunmuşdur. 2-ci dərəcəli kapitan 1979-cu ildə vəfat etmişdir.

İbrahimova Zərifə Əlisöhbət qızı – 1975-ci il yanvarın 22-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



O, 3 saylı orta məktəbi bitirmişdir. 1989-cu ildə Dərbənd Pedaqoji Kollecinə daxil olmuş, 1992-ci ildə bitirmişdir. Həmin ildə Dağıstan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuş və 1996-cı ildə bitirmişdir.

1996-cı ildə Moskva Hüquqşünaslıq İnstitutunun aspiraturasına daxil olmuşdur. 1997-ci ildə DDU-nin hüquq fakültəsinin dekanı vəzifəsinə təyin olunmuşdur. 2001-ci ildə namizədlik disertasiyasını müdafiə etmişdir. 2002-ci ildən Dağıstan Dövlət Universitetinin Dərbənd filialının direktoru vəzifəsində çalışır.

I İbrahim xan Dərbəndi (İbrahim ibn Sultan-Məhəmməd ibn Key-Qubad) – Sultan Məhəmmədin oğlu və 30-cu şirvanşah Key-Qubadın (1317-1357) nəvəsidir. Şirvanşah I Axsitan bin Mənuçöhr (1160-1197) Dərbənd hakimi Əbu-l-Müzəffər Seyf-əd-Dinin qızı ilə evlənmişdi.

Şirvanşah Key-Qubadın ölümündən sonra Şirvanda hakimiyyət İbrahim xanım dayısı Kavusa (1356-1372) keçir. Onun ölümündən sonra isə hakimiyyət oğlu Hüsəngin (1372-1382) əlinə keçir. Hüsəngin ölümündən sonra şirvanlılar hakimiyyətə Hüsəngin dayısı oğlu İbrahim xanı gətirdilər. I İbrahim xan Dərbəndi Şirvanşahlar dövlətində 1382-1417-ci illərdə hakimiyyətdə olmuş və dərbəndlilər sülaləsinin əsasını qoymuşdur.

Bu illər Şirvanşahlar dövləti üçün çox ağır bir dövr idi (Dərbənd şəhəri və bölgəsi Şirvanşahlar dövlətinin tərkibində idi). Onun ərazisi iki güclü və qəddar hökmdarların Teymur və Toxtamışın güzəştsiz vuruşma meydanına çevrilmişdir. Şirvan çoxsaylı, işğalçı ordularına qarşı mübarizə aparmaq iqtidarında deyildi. Yalnız İbrahim xanın çevik siyasəti, onun ağıllı diplomatik addımları Şirvanı tam dağılmaqdan xilas etdi. Onun Teymurun tərəfini saxladığı üçün, Teymur baxmayaraq ki, oğlu Miranşahı bütün Azərbaycanın hökmdarı təyin etdi, lakin o Şirvanşah I İbrahimin adını və şirvanşahlıq vəzifəsini saxladı. Mənbələrin verdiyi məlumata əsasən «...Teymur İbrahim xanın Şirvana olan hüququnu təsdiq edən sənəd imzaladı və ona Dərbəndin müdafiəsini tapşırdı».

Şirvanşah I İbrahim Dərbəndi, torpaqlarının sərhədlərini genişləndirməyə başladı. Belə ki, 1410-cu ildə o Təbrizi tutdu və sonrakı yürüşə hazırlaşmağa başladı. Lakin Azərbaycan hökmdarı Qara Yüsif Qara Qoyunlu 1411-ci ildə çoxsaylı qoşunla Şirvana hücum etdi və şirvanşah qoşunlarını darmadağın edərək şirvanşahı əsir götürdü. Bu qələbə naminə Qara Yusif Qara Qoyunlunun oğlu əmir İsfəndiyar Dərbəndin şimal divarında yeni – Qiyamət qapısını ucaltdı. Fəqət, hökmdar Şirvanşah I İbrahim Dərbəndinin bütün sərvətini onun əlindən alsada lakin onun taxt-tacını saxladı.

Dərbəndilər sülaləsinin nümayəndələri 150 ildən çox, 1382-ci ildən 1538-ci ilədək Şirvana hökmdarlıq etmişlər.



İxidov Mixail Matatoviç – 1917-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Dərbənd Pedaqoji Texnikumunu, 1939-cu ildə Dağıstan Pedaqoji İnstitutunun (hazırda Dağıstan Dövlət Universiteti) nəzdində ikiillik Müəllim İnstitutunun tarix fakültəsini, 1944-cü ildə Dağıstan Pedaqoji İnstitutunu və 1949-cu ildə SSRİ-i EA Etnoqrafiya İnstitutunun nəzdində aspiranturanı bitirmişdir. Orta məktəbdə tarix və coğrafiya müəllimi, SSRİ EA Dil və Ədəbiyyat tarixi İnstitutu Dağıstan filialının baş elmi işçisi, işləmişdir.

M.İxidov elmlər doktoru və Dağıstan Respublikasının əməkdar elm xadimi olmuşdur. O, 100-dən çox elmi əsərin, o cümlədən iki monoqrafiyanın müəllifidir. 1997-ci ildə vəfat etmişdir.



İldatov Semyon Azaryeviç (1924-1984) – Dərbənd şəhərində anadan olmuşdur.

O, 1941-1945-ci illər müharibəsinin iştirakçısı olmuşdur. Qafqazın müdafiəsində, Polşanın azad olunmasında iştirak etmişdir.

S.İldatov 1945-ci ildən UK(b)P Dərbənd rayon komitəsinin sənaye şöbəsinin təlimatçısı, ÜİZKGİ Dərbənd rayon komitəsinin birinci katibi, UK(b)P rayon komitəsinin ikinci katibi, şəhər ticarət şəbəkəsinin, konserv kombinatının, cilallayıcı dəzgahlar zavodunun və alkoqolsuz içkilər zavodunun direktoru vəzifələrində çalışmışdır. O, yeddi döyüş ordenləri ilə təltif olunmuşdur.

Onun yaşadığı evə (Krasnoarmeysk küçəsinin tini) xatirə lövhəsi vurulmuşdur.

İosafat Barbaro – italiyalı diplomat Venesiya Respublikası tərəfindən 1466-1478-ci illərdə Azərbaycan Ağqoyunlu sülaləsindən olan Azərbaycan hökmdarı Uzun Həsənə səfir göndərilmişdir. Təyin olunduğu yerə gələrkən yolüstü Dərbənd şəhərində olmuş və şəhərin təsvirini vermişdir. Barbaro, 1437-ci ildə Venesiya tacirləri ilə birlikdə Dərbənd şəhərində olmuş tacir Coni da Valle haqqında məlumat verir. Coni da Valle şəhər hökmdarının xahişi ilə «fustan»ı (çox da böyük olmayan avarlı gəmi) tikir və bu gəmi ilə Astrabaddan gələn gəmiləri talan edirdi.



İrzaquliyeva Sona Sadıq qızı 15 oktyabr 1927-ci ildə Dərbənd şəhərində qulluqçu ailəsində anadan olmuşdur. Azərbaycanlıdır. Orta təhsilini şəhərin «Məzahiriyyə» adlı orta məktəbində, 1954-1957-ci illərdə Dərbənd Pedaqoji Texnikumunda oxumuşdur. 1957-ci ildə Dərbənd şəhər Mədəni Maarif Texnikumunda qarmon müəllimi vəzifəsində çalışmaqla yanaşı S.İrzaquliyeva Moskva Xalq Yaradacılıq Evinə qiyabı kursa daxil olaraq 3 il. 1960-ci ildə göndərişlə Moskva İncəsənət İnstitutunun qiyabi şöbəsinə qəbul olub (xalq çalğı alətləri şöbəsi, bayan şöbəsi).

1962-ci ildə Dərbənd Mədəni Maarif şöbəsinə müdiri vəzifəsinə təyin olunur.

1964-ci ildə S.İrzaquliyeva Bakı şəhərinə köçmüş və 161 saylı şəhər məktəbində nəğmə müəlliməsi kimi fəaliyyətini davam etdirmiş, orada qarmon dərnəyi açaraq qarmon çalanlar ansamblı yaratmışdır. 1965-ci ildə T.İsmayılov adına «Uşaq-gənclər yaradıcılıq sarayı»na, 1970-ci ildə 3 saylı uşaq musiqi məktəbinə isə dəvət olunur. Əmək fəaliyyətini hər iki məktəbdə bu günə kimi davam etdirir.

1976-ci ildə Azərbaycan SSR musiqi məktəbləri üçün Mədəniyyət Nazirliyinin təsdiqi ilə ilk proqram tərtib etmişdir. S.İrzaquliyevanın 1999-cu ildə «Qarmon məktəbi» adlı kitabı işıq üzü görüb. O, 1986-ci ildə «Əmək veteranı», «Qafqazın müdafiəsi uğrunda» medalları, fəxri fərmanlarla, 1998-ci ildə Bakı şəhər Təhsil İdarəsi tərəfindən ilin ən yaxşı dərnək rəhbəri kimi 3-cü dərəcəli diplomla təltif olunmuşdur. 2003-cü ildə Azərbaycan və ingilis dillərində çapdan çıxmış «XXI əsrin Azərbaycan ziyalıları» almanaxında S.İrzaquliyevanın həyat və fəaliyyətinə böyük bir səhifə həsr edilmişdir. S.İrzaquliyeva 2007-ci ildə Azərbaycan Respublikasının «Fəxri maarif işçisi» adına layiq görülmüşdür. Ona 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə Azərbaycan Respublikasının «Əməkdar müəllimi» fəxri adı verilmişdir.

İsayev İsabala Şamil oğlu – 1903-cü ildə Dərbənd şəhərində fəhlə ailəsində anadan olmuşdur. Azərbaycanlıdır.



12 yaşındaikən əmək fəaliyyətinə başlamışdır. «Balıqçı» Səhmdar Cəmiyyəti idarəsində kuryer (ayaqçı), dəmiryolunda tabelçi işləmişdir.

Sovet hakimiyyətinin ilk illərində İsabala İsayev Dağıstan MSSR Dərbənd şəhərində müxtəlif vəzifələrdə çalışmışdır. 1935-ci ildə İ.İsayev Dərbənd rayonu Jdanov adına kolxozun sədri seçilir və 27 il bu kollektivə rəhbərlik etmiş.

İsabala İsayevin xidmətləri keçmiş SSRİ dövlətinin «Lenin», «Fəxri nişan» ordenləri, SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin kiçik qızıl medalı, Miçurin medalı və digər dövlət mükafatları ilə mükafatlandırılmışdır. 1962-ci ildə vəfat etmişdir.

İsmayılov Eldar İsmayıl oğlu – ictimai-siyasi xadim,



1949-cu il iyulun 7-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd şəhərinin fəxri vətəndaşıdır.

1977-ci ildə Q.Plexanov adına Moskva Xalq Təsərrüfatı İnstitutunun iqtisadiyyat fakültəsini bitirib. 1998-ci ildən «Azərbaycan dünyası» beynəlxalq jurnalın təsisçisi və baş redaktorudur. Jurnalın bir neçə nömrəsini Dərbənd şəhərinə və orada yaşayan yürddaşlarımızın siyasi, iqtisadi və mədəni nailliyyətlərinə həsr edib. «Dədə Qorqud» mükafatının, «Vətən Övladı», «Qızıl Ürək» və «Mehriban Ana» ordenlərinin təsisçisidir.

Dərbənddə yaşayan azərbaycanlıların həmrəyliyi sahəsində gördüyü işlər əvəzsizdir.

E.İsmayılov Azərbaycanlıların Ümumdünya Konqresinin üzvü, «Qızıl qələm», «Dədə Qorqud» mükafatlarının laureatıdır. Beynəlxalq sülhün möhkəmləndirilməsinə görə bir sıra xarici ölkələrin orden və medallarına layiq görülmüşdür. E.İsmayılov bir neçə kitab müəllifidir.

İsmayılov Hacı Məcid oğlu - aktyor, Azərbaycan Respublikasının xalq artisti 1944-cü il yanvarın 22-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Atası Məcid İsmayılov Dərbənd şəhərində anadan olmuşdur. O, gənc yaşında Dərbəndən Bakıya gəlir



və burada əmək fəaliyyətinə başlayır.

H.İsmayılovun uşaqlığı İçəri şəhərdə keçib. 190 saylı orta məktəbi bitirib. İlk sənət müəllimi tanınmış kinorejissor Tofiq İsmayılov olub. Aktyorluq sənətinin sirlərini tanınmış sənətkar Lütfi Məmmədbəyovdan öyrənməyə başlamışdır. Daxil olduğu M.Əliyev adına İncəsənət İnstitutunun kino və aktyor fakültəsində Rza Təhmasibdən, Məlik Dadaşovdan, Rza Sarabskidən, Tofiq Kazımovdan dərs alır. O, «Aydın», «Həmyerlilər», «Kişilər», «Birincilər və sonuncular», «Bir gəncin manifesti» və başqa tamaşalarda oynayır.


Hacı İsmayılov institutu bitirdikdən sonra İrəvanda fəaliyyət göstərən Cəfər Cabbarlı adına İrəvan Dövlət Dram Teatrında işləməyə başlayır. Sonra o, Hüseyn Ərəblinski adına Sumqayıt Teatrına işə düzəlir.

1970-ci ildən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında çalışmağa başlayır. O, Elçinin, Nəriman Həsənzadənin, Bəxtiyar Vahabzadənin, İlyas Əfəndiyevin, Hidayət Orucovun, Anarın və digər xarici dramaturqların əsərlərində irili-xırdalı rollar oynamışdır.

O, 15 filmə çəkilmişdir. 1976-ci ildə mərhum rejissor Rasim Ocaqov onu «Ad günü» telefilminə çəkir. Sonra o, «Özgə həyat», «Ölsəm bağışla», «Bağlı qapı arxasında», «Həm ziyarət, həm ticarət» və s. filmlərə çəkilmişdir.

Hacı İsmayılov teatr və kino sənətində göstərdiyi misilsiz fəaliyyətinə görə Azərbaycan SSR Dövlət Mükafatına (1980), Azərbaycan Respublikasının Əməkdar və Xalq artisti fəxri adlarına layiq görülmüşdür.

İsmayılov Hikmət Əlisayfa oğlu – 1950-ci ildə



Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. H.İsmayılov Dərbənd şəhər 3 saylı orta məktəbi, Həştərxan Xüsusi Orta Milis Məktəbini (1973), Dağıstan Dövlət Universitetinin hüquq fakültəsini (1980) bitirmişdir. Mahaçqala şəhər Sovet rayonu Daxili İşlər şöbəsinin

müfəttişi, cinayət axtarış şöbəsinin baş müfəttişi, cinayət axtarış rəisinin müavini, 1989-cu ildən 2000-ci ilə kimi Dərbənd şəhəri Daxili İşlər şöbəsinin rəis müavini işləmişdir. 2000-ci ildən Dərbənd şəhər Məhkəməsinin sədridir. 1996-cı ildən ədliyyə polkovnikidir. Dağıstan Respublikasının Əməkdar hüquqşünasıdır (1995). «İgidlik ordeni» (1997), 1, 2 və 3-cü dərəcəli «Daxili işlər orqanlarındakı qüsursuz xidmətlərinə görə» medalları ilə təltif olunmuşdur.

İsmayılova Hüsniyyə Səftər qızı – mühəndis-konstruktor, 1942-ci il martın 18-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd şəhər 15 saylı orta məktəbi və 1968-ci ildə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun energetika fakültəsini bitirmişdir.



O, «Azərenerjisazlama» idarəsində texnoloq, mühəndis, birinci dərəcəli konstruktor, şöbə rəisi, baş konstruktor vəzifələrində işləmişdir. Əməkdə fərqləndiyi üçün o, «Əməkdar energetik» və «Əməkdar səmərələşdirici» fəxri adlara layıq görülmüşdür.

İsmayılov Vəliulla Əliheydər oğlu – 1927-ci il noyabrın 24-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd şəhər orta məktəbini bitirmişdir (1934-1944).



Konüllü cəbhəyə getmiş və 1941-1945-ci illər müharibəsi cəbhələrində iştirak etmişdir. Aldığı ağır yara nəticəsində görmə qabiliyyətini itirmişdir. Aparılan 6 aylıq müalicədən sonra görmə qabiliyyəti tədricən bərpa olunmuşdur. 1-ci dərəcəli əlildir. Müharibədən sonra 1948-ci ildə Daşkənd şəhərində Özbəkistan SSR DİN məktəbinə daxil olmuşdur. Uzun müddət Quba, Xaçmaz, Qusar rayonlarının islah-əmək müəssisələrində tərbiyəçi vəzifəsində işləmişdir (1952-1956). Yeniyetmələr arasında apardığı tərbiyəvi işə görə medal və fəxri fərmanlarla təltif edilmişdir. Respublikalararası şahmat yarışlarının iştirakçısı olmuşdur.

Əmək və müharibə veteranı idi. 1999-cu ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

İzmaylov Çingiz Əbilfəz oğlu – 1944-cü il martın 26-da Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



O, 1951-1961-ci illərdə Dərbənd şəhər orta məktəbini, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin psixologiya fakültəsini psixoloq ixtisası üzrə (1971-1976) bitirmişdir. 1976-cı ildən bu günə qədər M.V.Lomonosov adına Moskva Dövlət Universitetində elmi və pedaqoji fəaliyyətlə məşğuldur. 1979-cu ildə «Rəngfərqləndirmə sferik modeli» mövzusu üzrə namizədlik dissertasiyasını, 1984-cu ildə isə «Rəngin qavranması modeli və mexanizmi» mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1986-ci ilin noyabr ayının 14-də SSRİ Nazirlər Soveti yanında AAK-nın qərarı ilə ona psixologiya elmləri doktoru elmi adı verilmişdir. 1987-ci il aprel ayının 15-də Ç.İzmaylova MDU-nin psixologiya fakültəsinin psixofiziologiya kafedrası üzrə dosent elmi adı verilmişdir. 1989-cu ildən kaqnetiv psixologiya ixtisası üzrə Avropa cəmyyətinin üzvüdür. O, 1990-cı il iyun ayının 28-də psixologiya və mühəndis bilikləri kafedrası üzrə professor elmi adını almışdır.

2005-ci il dekabr ayının 26-da Ç.Ə.İzmaylov Moskva Dövlət Universitetinin Elmi Şurasının qərarı ilə «Moskva universitetinin əməkdar professoru» fəxri adına layiq görülmüşdür. 1992-ci ildən Rusiya Federasiyası Müdafiə Nazirliyinin Hərbi-Tibb Akademiyasının müxbir üzvüdür. Ç.Ə.İzmaylov M.V.Lomonosov adına MDU-da və ölkənin başqa ali məktəblərində «Sensor sistemlərin fiziologiyası», «Psixofizika», «Qavrama psixofiziologiyası», «Psixologiya», xüsusi kurslar: «Rəngli görmə», «Psixofizika və psixofizioloji ölçülər», «Rənglər və insanın emosiyaları» və digər fənlərdən dərs deyir.

Ç.Ə.İzmaylov rənggörmə psixologiyası üzrə bir sıra kitabların, monoqrafiyaların və elmi məqalələrin (70-dən çox) müəllifidir. Monoqrafiyalardan: «Sferiçeskaə modelğ üvetorazliçeniə» M., 1980; «Üvetovoe zrenie». (soavt. E.N.Sokolov). M.,1984; «Psixofizioloqiə üvetovoqo zreniə». (Soav.

E.N.Sokolov, A.M.Çernorizov). M., 1989. Dərs vəsaitlərindən: «Praktikum po gksperimentalğnoy psixoloqii», «Obhaə psixometrika». (Soavt.M.B.Mixalevskaə). M., 1983; «İzmereniə v psixoloqii» (Soavt. A.N.Qusev, M.B. Mixalevskaə). M., 1997. Elmi və pedoqoji fəaliyətdəki xidmətlərinə görə Ç.İzmaylov dövlət mükafatları və fəxri fərmanlarla təltif olunmuşdur.

2012-ci ildə vəfat etmiş və Moskva şəhərində dəfn olunmuşdur.

İzmaylov Əbilfəz Mirzə – 1906-cı ilin mayında Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



1920-ci ildən 1924-cü ilədək Dərbənd şəhər 1-ci dərəcəli məktəbdə oxumuşdur. Sonra o, fəhlə fakültəsinin 2-ci kursunu bitirmişdir. Əbilfəz İzmayılov rus və ərəb dillərini mükəmməl bilirdi.

Ə.İzmaylov gənc yaşlarından teatra böyük maraq göstərir. 1920-ci ildə proletar gənclər Klubu nəzdində Azərbaycan teatrsevərlər teatrı təşkil edilən gündən onun fəal iştirakçısı olur və 1927-ci ilədək aktyor kimi bu teatrda fəaliyyət göstərir.

1927-ci ildə Ə.İzmaylov teatr fəaliyətindən uzaqlaşır və fəal ictimai-siyasi fəaliyyətlə məşğul olur. 1927-1928-ci illərdə Dərbənd rayon komsomol komitəsinin təlimatçısı işləyir.

1928-1929-cu illərdə Ə.İzmaylov yeyinti sənaye işçiləri həmkarlar ittifaqı Şəhər komitəsinin sədri seçilir, 1929-1930-cu illərdə isə Dərbənd şəhər deputatlar şurasının Fəhlə-Kəndli müfəttişliyinin sədri, 1931-1932-ci illərdə Şəhər xalq təhsili şöbəsinin siyasi maarifləndirmə işləri üzrə təlimatçısı işləyir.

1932-ci ilin mart ayında o yenidən teatra qayıdır və burada 1946-cı ilin mart ayınadək aktyor, rejissor və direktor vəzifələrində çalışır. 1937-ci ildə teatrla müqavilə bağlayaraq «Cənub cəbhəsi» pyesini yazır. Onun bu dram əsəri Dağıstanda Sovet hakimiyyətinin qurulması işindən bəhs edir. 1937-1938-ci il teatr mövsümündə pyesin ilk tamaşası olur və Ə.İzmaylov tamaşada rolların birini ifa edir.


Aktyor Ə.İzmaylov bir çox dram və musiqili tamaşalarda rol oynamışdır: O, C.Cabbarlının «Od gəlini», A.Ostrovskinin «Bez vinı vinovatıe», Molyerin «Cancur-Səməd», S.Axundovun «Dəmirçi Həva» və başqa pveslərdə; musiqili tamaşalarda: Ü.Hacıbəyovun «Leyli və Məcnun», «Əsli və Kərəm», «Arşın mal alan», «Bu olmasın, o olsun» və s.

Rejissorluq işi ilə məşğul olan Ə.İzmaylov teatrın repertuarını bir sıra parlaq tamaşalarla zənginləşdirir. 1940-cı ildə Ə.İzmaylov Dağıstan MSSR Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunur. 1943-cü ildə 1941-1945-ci illər müharibəsi dövründə Dərbənd şəhərində mədəniyyətin inkişafı sahəsində fəal iştirak etmişdir.

1941-1945-ci illər müharibəsi Azərbaycan teatrı Ə.İzmaylovun rəhbərliyi altında Dağıstanın MSSR-in kəndlərində, rayonlarında, çağırış məntəqələrində, hospitallarda, hərbi hissələrdə tamaşaların və konsertlərin keçirilməsində fəal iştirak etmişdir. 1941-1945-ci illər müharibəsindəki fəal mədəni fəaliyyətinə görə Ə.İzmaylov 1944-cü ildə «Qafqazın müdafiəsi uğrunda», 1945-ci ildə isə «1941-1945-ci illər Böyük Vətən müharibəsində fədakar əməyinə görə» medalları ilə təltif olunmuşdur. 1947-ci ildə Ə.İzmaylov fəal ictimai fəaliyyətinə görə Dağıstan MSSR incəsənət işçilərinin Fəxri fərmanı ilə təltif olunur.

1946-cı ilin aprelində Ə.İzmaylov yenidən partiya işinə keçir. 1946-cı ilin noyabrınadək Sov.İKP Dərbənd rayon komitəsinin təlimatçısı vəzifəsində çalışır. Ə.İzmaylov 1954-cü ildə vəfat etmiş və Dərbənd şəhərində dəfn olunmuşdur.

İzmaylov İbrahimpaşa Hacı Mirzə oğlu – 1902-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



İzmayılov İbrahimpaşanın atası – Hacı Mirzə Dərbənd şəhərində məşhur tacir olmuş və VI məhəllənin məşhur nəslini təmsil edirdi. Onun qardaşı Əliheydər İsmayılov – tacir idi və Həmzəyevlərin nəslinin nümayəndəsi Xavər xanım Həmzəyeva ilə ailə qurmuşdur.

İbrahimpaşanın anası – Susana xanım Dərbənd şəhərinin tanınmış taciri Hacıbaba Həmzəyevin qızı idi.

İ.M.İzmaylov ibtidai təhsil aldıqdan sonra uzun müddət Dərbənd şəhər İcra Hakimiyyətinin torpaq şöbəsinin müdiri vəzifəsində işləmişdir. O, Dağıstan

VPK-nin birinci katibi Əliyev Əziz Məmmədkərim oğlu ilə sıx işgüzar və dostluq əlaqəsi saxlamışdır. 1957-ci ildə vəfat etmiş və Dərbənd şəhərində dəfn olunmuşdur.

İzgiyayev Sergey Davıdoviç (1922-1972) – tat şairi, dramaturqu və tərcüməçisi Dərbənd şəhərində kəndli ailəsində anadan olmuşdur. İlk şeirlərini 12 yaşında yazmışdır. Sergey İzgiyayevin şair kimi yetişməsində Dubiya və Mişi Baxşiyev qardaşlarının böyük rolu olmuşdur. Onlar ona öz şeirlərini «Qırmızı Bayraq» respublika qəzetində nəşr etməkdə kömək etmişlər. Bu da ona Dağıstanın ədəbiyyat aləmində tanınmasına və məşhurlaşmasına səbəb olmuşdur.



1941-1945-ci illər müharibəsi dövründə S.İzgiyayev orduya səfərbər olunmuşdur. Ordudan tərxis olunduqdan sonra, 1946-cı ildə yerli Dərbənd şəhər radiosunda tat dilindəki verilişlər redaksiyasının direktoru, «Qırmızı Bayraq» adlı tat dilində çıxan respublika qəzetinin məsul katibi, Dərbənd RPK-də təlimatçı vəzifəsində, Dərbənd şəhər İcra hakimiyyətində mədəniyyət şöbəsinin müdiri və Dərbənd rayon «Dostluq» kolxozunun sədri işləmişdir.

S.İzgiyayevin 1952-1972-ci illərdə şeirləri çap olunmuşdur: «Biz sülhü qoruyanlarıq», «Gənclik nəğmələri», «Lirik şeirlər», «Şairin fikirləri», «Ürəklə söhbət». «Məhəbbət və tale» və s. S.İzgiyayev həm də bir sıra dram əsərləri də yazmışdır: «İki salxım üzüm», «Gənc briqadir», «Bacı», «Benyaminovun ailəsi» və s. O, Azərbaycan və Dağıstan klassiklərinin əsərlərini tat dilinə tərcümə etmişdir. S.İzgiyayevin şeirlərinə mahnılar da yazılmışdır.

Kalutski Nikolay Vasilyeviç – polkovnik, Dərbənd şəhərinin fəxri vətəndaşı, 1919-cu ildə Dərbənd şəhərində anadan olmuşdur. O, Dərbənd Zavod-Fəhlə məktəbi komsomol komitəsinin katibi işləmişdir. Qırmızı ordu sıralarına çağırılmışdır. Cənub sərhədlərində qulluq etmiş və müharibəni burada qarşılamışdır. O, cəbhəyə getməsi barədə raport yazır və onu Yeni Peterqof Hərbi-Siyasi Sərhədçilər məktəbinə göndərirlər.



1941-ci il avqustun 17-də mayor Şorinin başçılıq etdiyi kursant batalyonu 50 gün Kinqisepp şossesində almanlarla döyüşlərdə 700 kursantdan 698 nəfərini itirir. Sağ qalan iki nəfərdən biri Nikolay Kalutski idi. Gənc zabit artilleriya batalyonunun siyasi rəhbəri, sonralar isə Leninqrad cəbhəsinin Primorsk operativ qrupunun artilleriya diviziyasının batareya komandiri təyin olunmuşdur.

Kalutskinin batareyası Leninqrad, Talin uğrunda gedən döyüşlərdə, Narva və Visla çaylarının keçilməsində, Berlinin alınmasında iştirak etmişdir. Kapitan Kalutski Qızıl Ulduz, 1-ci və 2-ci dərəcəli Vətən Müharibəsi ordenləri ilə təltif olunmuşdur. 1945-ci il aprelin 10-da ona Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

O, müharibədən sonra V.İ.Lenin adına Hərbi-Siyasi Akademiyanı bitirmiş və sovet ordusu sıralarında quluğunu davam etdirmişdir.

N.Kalutski 1941-1945-ci illər müharibəsinə həsr olunmuş üç kitabın müəllifidir «Zavetnıe zori» (1979), «Avtoqraf Pobedı» (1987), «Oqonğ na sebə» (1981).

O, Moskvada vəfat etmiş və orada dəfn olunmuşdur.

Kazımbəy Aleksandr Aleksandroviç – 1844-cü ildə Rusiyanın Kazan quberniyasında anadan olmuşdur. O, dərbəndli məşhur Azərbaycan alim Mirzə Kazımbəyin oğludur.

A.Kazımbəy Pajesk korpusunda oxumuş və Peterburq Universitetinin hüquq fakültəsində təhsil almışdır. Gənc yaşlarında Ədliyyə Nazirliyinə başçılıq etmiş, eyni zamanda imperiya sarayının qofmeysteri və senatoru təyin edilmişdir. O, məşhur rus hüquqşünası və senatoru A.F.Koni ilə (1844-1929) dostluq əlaqəsində olaraq, onunla birlikdə hüquqi islahatlar lahiyələrinin hazırlanmasında iştirak etmişdir.

A.Kazımbəy 1867-ci ildə qraf L.Tolstoyun qızı Mariya Lvovna Tolstoya ilə evlənmişdir. Onun atası, Lev Tolstoy Kazan ətrafında böyük torpaq sahibi idi. O, qızına cehiz kimi 3 minə yaxın əkinə yararlı torpaq və meşə massivləri vermişdir. Buna görə də A.A.Kazımbəy quberniyanın böyük torpaq sahibkarlarından biri hesab olunur. Bu nigahdan onların oğlu Lev və qızı Proskovya doğulmuşlar. A.A.Kazımbəy 1894-cü ildə xərçəng xəstəliyindən vəfat etmişdir.

Kazımbəy Aleksandr Lvoviç (1902-1977) – Kazan şəhərində anadan olmuşdur Mirzə Kazımbəyin nəticəsidir. A.L.Kazımbəy ingilis, alman və fransız dillərinin mükəmməl bilirdi.

A.L.Kazımbəy 16-17 yaşlarından Ağ Qvardiya Ordusunda vuruşmuş və 1920-ci ildə bolşeviklərin qələbəsinin qaçılmaz olduğunu gördüyü üçün valideyinləri ilə birlikdə xaricə getmişdir. Onlar İstanbulda, Solonikdə, Belqradda yaşamışdır. Gimnaziya təhsilini Yuqoslaviyanın paytaxtında başa vurmuşdur. 1923-cü ildə gənc A.L.Kazımbəy rus mühacirətinin mərkəzi sayılan Münxen şəhərinə getmidir. O, burada Universitetdə təhsil almış, tələbə hərəkatının fəal iştirakçısı kimi tanınmış və rus monarxistlərinin Münxen klubuna başçılıq etmişdir. Sonra Fransanın Sarbon Universitetinin siyasi və sosial elmləri kursunu bitirmiş və bir müddət Monakoda işləmişdir. 1925-ci ildə Fransanın paytaxtında onun rəhbərliyi altında «MladoRossiya İttifaqı» təsis edilmişdir.

1934-cü ildə Aleksandr Kazımbəyin liderliyi altında «MladoRossiya İttifaqı» böyük siyasi qüvvəyə çevrilmişdir. A.L.Kazımbəy vətəninə xidmət etməyə can atan və Rusiyaya qayıtmaq ümidi ilə yaşayan rus siyasi mühacirlərinin sevimlisi idi. 1930-cu ildə A.Kazımbəy mühacirətdə olan Romanovlar evi ilə sıx əlaqəsi var idi, eyni zamanda Rusiyanın tac qoyulmamış imperatoru hesab olunan dahi knyaz Kirill Vladimiroviçin xarici siyasət məsələləri üzrə məruzəçisi idi.

1937-ci il avqustun 8-də A.L.Kazımbəy Kirill Vladimiroviça istefaya çıxmaq üçün xahişlə müraciət etmiş və onun müraciəti qəbul olunmuşdur. 1942-ci ildə «MladoRossiya İttifaqı» buraxılmışdır. Sonralar A.Kazımbəy müharibə ərəfəsində emiqrant qüvvələrini faşizimlə müharibədə birləşdirmək məqsədi ilə görkəmli rus emiqrant xadimlərinin iştirakı ilə görüşlər təşkil etmişdir. Lakin o vaxtki antisovet mövqe tutan Fransız hökumətinin sanksiyası ilə 1940-cı ilin iyununda Aleksandr Lvoviç Kazımbəy və onun tərəfdarları həbs olunmuşdur. Antifaşist xidmətinə görə millətçilər onun başına 100 min marka mükafat təyin etmişdilər. 1940-cı ilin payızında o, ABŞ-ın San-Fransisko şəhərinə köçür. Orada o, aktual-publisist məqalələrin müəllifi kimi rus mühacirləri arasında məşhurlaşır. Onun məqalələri rus mühacirlərinin «Novaə zarə» qəzetində çap olunurdu.

1944-1954-cü illərdə Kazımbəy A. ABŞ-ın Yelsk Universitetində rus dili kurslarını aparmış, sonralar Konnektikut ştatının kollecində rus dili və ədəbiyyat kafedrasına rəhbərlik etmişdir. 1940-cı illərin sonunda o, jurnalist fəaliyyəti və pedaqoji işi ilə yanaşı ilahiyətçiliklə də məşğul olmuşdur. Bu dövrdə A.L.Kazımbəy ABŞ-da nəşr olunan «Edinaə üerkovğ» jurnalının daimi müəllifi idi.

1953-cü ildə A.L.Kazımbəy Konnektikut kollecində təcrübə keçən Hindistanın Baş Naziri Cəbahurəl Nerunun bacısı Ramişvari Nerudan rus dili kurslarını açmaq üçün Hindistana dəvət almışdır. 1954-cü ildə A.L.Kazımbəy Hindistanın Nyu-Deli şəhərinə gəlir və bir müddətdən sonra SSRİ-ə qayıtmaq və Sovet vətəndaşlığı almaq üçün Sovet səvirliyinə müraciət edir. Üç il gözlədikdən sonra, 1957-ci ildə SSRİ Ali Sovetinin rəyasət heyətinin üzvü Q.M.Malenkovun şəxsi verdiktinə əsasən A.L.Kazımbəy vətənə qayıdır.

A.L.Kazımbəy vətəndə ABŞ-da başladığı işi davam etdirmək üçün rus-provoslav kilsəsi ilə əməkdaşlıq yaratmaq istəyir. O, bu arzu ilə Moskva Patriarxiyasına gəlir. Onun bu işində bütün Rusiyanın və Moskvanın patriarxı I Aleksinin böyük rolu olmuşdur.

1962-ci ildə A.L.Kazımbəy Moskva Patriarxiyasının kilsələri üzrə xarici əlaqələrini baş müşaviri təyin olunur. O, Rus provoslav kilsəsinin qarşısındakı böyük xidmətlərinə görə iki Müqəddəs Vladimir ordeni və Patriarxiyanın fəxri fərmanları ilə mükafatlandırılmışdır.

A.L.Kazımbəy 1977-ci il fevralın 24-də vəfat etmişdir.

Kazımbəy Aleksandr Nikolayevic – 1859-cu il mart ayını 3-də Saratov quberniyasında anadan olmuşdur. Dahi Azərbaycan alimi, şərqşünas Mirzə Məhəmməd Əli Kazımbəyin qardaşı Əbdül-Səttər bəyin oğludur. Milliyyətcə azərbaycanlı olaraq ömrünün sonuna qədər Rusiyada yaşamış, tibb elmi ilə məşğul olmuşdur. Rusiyada tanınmış görkəmli alim-terapevti idi.

O, 1883-cü ildə Kazan Universitetinin tibb fakültəsini bitirdikdən sonra, həmin Universitetdə əmək fəaliyyətinə başlamışdır. 1887-ci ildə 28 yaşında tibb elmləri doktoru adına layiq görülmüş, 1913-cü ildə isə əməkdar professor adını almışdır.

A.N.Kazımbəy 22 il, yəni 1894-1916-cı illər ərzində Universitetdə kafedra müdiri vəzifəsində işləmişdir. Onun elmi əsərləri əsasən ürək xəstəliklərinin öyrənilməsinə həsr olunmuşdur. A.N.Kazımbəyin ağciyər xərçənginə aid dəyərli əsərləri vardır. Kazan

Həkimlər Cəmiyyətinin sədri olmuşdur (1903-1907).

O, məşhur rus tibb alimi, akademik V.İ.Vinoqradovun tələbəsi olduğu üçün nüfuzlu və təcrübəli kardioloqlar arasında böyük nüfuza malik idi. Tibb elmində «Kazımbəy simptomu» termini adlanır. Tibb üzrə çap olunmuş 30-dan çox elmi əsərlərin müəllifi idi. A.N.Kazımbəy 1919-cu ildə Kazan şəhərində vəfat etmişdir.



Kazımbəy Mirzə Əbdül Səttar Hacı Qasım oğlu (1818-1888) – Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Mirzə Kazımbəyin ögey qardaşıdır. Əbdül Səttar Dərbənd şəhərində klassik şərq təhsili almışdı. Azərbaycan və fars dillərini mükəmməl bilirdi. Mədrəsə proqramı çərçivəsində tarix və Şərq ədəbiyyatı, fəlsəfə və məntiq sahəsində geniş biliklərə malik idi. Rus və ərəb dillərini öyrənməyə çalışırdı. 1839-cu ildə atasının ölümü ilə bağlı Dərbəndə gəlmiş Mirzə Kazımbəy 21 yaşlı Əbdül Səttarı özü ilə Kazana aparmışdır. 1839-cu ilin oktyabr ayının 18-də Əbdül Səttar Kazımbəy Kazan Universitetinin fəlsəfə fakültəsinin ədəbiyyat şöbəsində türk-tatar dili müəllimi təyin olunur. 1840-cı ilin noyabr ayının 16-da həmin fəndən universitet üçün baza rolunu oynayan Birinci Kazan gimnaziyasında müəllim işləmişdir. 1842-ci il avqustun 20-də Əbdül Səttar Kazımbəy uğurla imtahan verərək, sınaq mühazirəsini demiş və Hökumət Senatının qərarı ilə Birinci Kazan gimnaziyasına türk-tatar müəllimi vəzifəsinə təyin olunur.

Şərq tarixini və şərq dillərini dərindən bilməsi onu şərqşünasların arasında məşhurlaşdırmışdır. 15 ildən sonra, 1855-ci il iyun ayının 3-də Əbdül Səttarı Peterburq Universitetinə fars dili üzrə professor köməkçisi vəzifəsinə təyin edilir. Akademik, məşhur şərqşünas V.V.Bartold Əbdül Səttarın Şərq xalqlarının tarixi və mədəniyyəti haqqında dərin biliyə malik olduğunu qeyd etmişdir.

Peterburq Universitetinin rus orientalistikasının aparıcı elmi mərkəzə çevrilməsi ilə əlaqədar Kazan Universitetində şərq dillərinin tədrisi dayandırıldı. Kazan şəhərində şərq dillərinin tədrisinin ləğv olunması nəticəsində Əbdül Səttar universitetdən uzaqlaşmağa məcbur olur. Sonda o, Penza quberniyasında meşəbəyi işləməyə başlayır.

XIX əsrin 50-ci illərində o, provoslav dinini qəbul edərək Nikolay Kasimoviç Kazımbəy adını daşımağa başlayır. 1858-ci ildə Nikolay Kasimoviç Kazan sakini Yekaterina Terentyeva ilə evlənir. Onların bu nigahdan üç oğlu olur: Aleksey, Vladimir və Pyotr Kazımbəylər. Əbdül Səttar (Nikolay) Kasimoviç Kazımbəy 1888-ci ildə vəfat etmiş və Kazan şəhərində dəfn olunmuşdur.

Mirzə Nikolay Kazımbəyin nəslinin nümayəndələri 1917-ci ilə qədər əsasən keçmiş Penza quberniyasında yaşamışlar. 1917-ci il Oktyabr çevrilişindən sonra onlardan bəziləri Polşaya və Çin Xalq Respublikasının Xarbin şəhərinə miqrasiya etmişlər. Hazırda bu nəslin dörd davamçısı Polşada yaşayır.

Kazımbəy Lev Aleksandroviç (1876-1952) – Məşhur Azərbaycan alimi Mirzə Kazımbəyin nəvəsidir. L.A.Kazımbəy ailə adət-ənənəsini davam etdirərək Pajesk korpusunu bitirmişdir. Təhsilini başa vurduqdan sonra, 1898-ci ildə rus-alman ailəsindən çıxmış və Rusiya tarixinin hərbi-diplomatik aləmində dərin iz buraxmış Nadejda Genadiyevna Şpiqelberqlə ailə qurmuşdur. Onun atası rus almanlarından olan Genadi Şpiqelberq uzun müddət diplomat olmuşdur. Lev Kazımbəy qvardiya zabiti kimi elitar hərbi hissələrdə xidmət etmiş, Kazan şəhərində Zadəgan iclasının sədri və fəxri hakimi, həmçinin Vilni (hazırda Vilnus) şəhərində Zadəgan və kəndli banklarının direktoru olmuşdur.

Kazımbəy Hacı Qasım Hacı Məhəmməd oğlu – dünyaşöhrətli şərqşünas Mirzə Kazımbəyin atasıdır. O, Dərbənd şəhərinin məşhur ilahiyyatçı-alimi və şeyxülislamı idi (1811-ci ilə qədər). Öz dini təhsilini İranın Xorasan şəhərində təhsil almışdı.

Hacı Qasım Qubada yaşayan məşhur ailələrdən birində anadan olmuşdur. Onun atası Məhəmmədxan bəy Qafqazda görkəmli siyasətçilərdən olan Fətəli xan Qubalının yanında nazir olmuşdur. Fətəli xanın yanında müxtəlif vaxtlarda Hacı Qasımın 3 qardaşı – İsmayıl bəy, İbrahim bəy və Məhəmməd Cəfər bəy nazir olmuşlar.

Dərbənd çar Rusiyası tərəfindən işğal edildikdən sonra, Rusiya imperiyasına qarşı düşmən münasibət bəsləyənlər təqib olunurdular. Onların arasında Hacı Qasım da var idi. 1820-ci ildə Qafqazın Ali Baş Komandanı general A.P.Yermolovun şəxsi xəbərverəni Lütfəli bəyin məlumatına əsasən şəhərin bir qrup mötəbər şəxslərinə qarşı, həmçinin şəhər sakinlərinin böyük hörmətini qazanmış şeyxülislam

Hacı Qasım İranın xeyrinə Rus imperiyasına qarşı casusluqda ittiham olunmuşlar.

General A.P.Yermolov tərəfindən təyin olunmuş tribunal artilleriya podpolkovniki Mişenkonun sədrliyi altında bir neçə saat ərzində Hacı Qasım və şəhərin daha 14 sakininin günahını «sübuta yetirmiş», onların bütün rütbələrinin ləğv olunması haqqında hökm çıxararaq və onları Rusiyanın Omsk şəhərinə sürgün etdirmişdi.

Hacı Qasım uzaq Omsk şəhərinə sürgün edilsədə şəhərdə başlanmış çıxışlara görə hakimiyyət orqanları hökmü dəyişərək, onu Həştərxan şəhərinə göndərmişlər. Sürgündən qayıdan Hacı Qasım Kazan Universitetinin müxbiri kimi işə götürülmüşdür. O, Universitetə şərqşünaslıq və tarix elminə maraq doğuran qədim əlyazmaları, tarixi məlumatlar və s. toplayırdı.

Mirzə Kazımbəy Kazan alimləri arasında böyük hörmət qazandığı üçün və institutun rektoru böyük rus riyaziyyatçısı N.İ.Lobaçevski ilə səmimi dostluğundan ruhlanaraq 1837-ci ildə atasının Kazan universititinin Dərbənd üzrə müxbiri təyin olunmasına nail olur. Hacı Qasımın əsas vəzifəsi Universitet kitabxanası və muzeyi üçün qədim əlyazmaların, sikkələrin, etnoqrafik əşyaların toplanması idi.

Gənc Məhəmmədəlinin xristian dinini qəbul etməsi xəbəri atası üçün böyük faciyəyə çevrilir. Mirzə Kazımbəy xristian dinini qəbul etdiyi üçün atası Həştərxan məscidində yerli müsəlmanların qarşısında ondan imtina edir. Hiddətlənmiş müsəlmanlar hətta onu öldürmək qərarına gəlmişdilər. Hacı Qasım iki od arasında qalmışdı. O, öz ilk övladının həyatını qorumaq üçün baş sındırırdı. Məhəmməd Əli-Aleksandr atasının yanına adam göndərir ki, o Mirzə Kazımı qəbul etsin. Şeyxülislam cavab verir ki, o onu oğlu kimi yox başqa dinə itaət edən kimi qəbul edəcək. Lakin, görüş zamanı o, özünü saxlaya bilməyərək, ağlayaraq oğlunun boynuna sarılmış və onun üzünü öpüşlərə qərq etmişdir. Sonra özünə gələrək paklanmış – əllərini və dodaqlarını yumuşdur. İllər keçdikdən sonra Hacı Qasım öz ilk övladına olan münasibətini dəyişmiş və övladının başqa dini qəbul etməsini həyatın sərt oyunu kimi qəbul etmişdir. Hacı Qasım Kazımbəy 1839-cu ildə vəfat etmiş və Dərbənddə dəfn olunmuşdur.

Kazımbəy Mirzə Məhəmmədəli Hacı Qasım oğlu – 1802-ci il iyun ayının 22-də Dərbənd şəhərində məşhur və hörmətli ailədə anadan olmuşdur. İbtidai təhsili atasından almışdır. Atası Hacı Qasım tanınmış din xadimi, Dərbəndin şeyxülislamı olmuşdur. Atası onun yaxşı təhsil alması üçün alim-ilahiyyatçılardan Molla Əbdül-Əziz Hısketci (ərəb dilinin qramatikası), Molla Məhəmməd Bəhreynini (müsəlman qanunvericiliyi və hüquqşünaslıq) bu işə cəlb etmişdir. Gənc Məhəmmədəlinin elmə olan böyük həvəsi müsəlman fəlsəfəsini, məntiqi, bəlağət elmini yaxşı mənimsəməyə imkan verdi. O, türk, fars və ərəb dilini mükəmməl bilirdi.

Artıq o, 17 yaşındaikən ərəb dilində özünün ilk elmi əsərini – «Ərəb dili qrammatikasının təcrübəsi», bir ildən sonra isə «Müəmma və Lügəz» əsərlərini ərəb və fars dillərində yazdı.

1820-ci ildə Kazımbəyin ailəsinə ağır zərbə vurulur. Şəhərin bir sıra hörmətli və mötəbər şəxslərini Rusiyaya qarşı fəaliyyətdə günahlandırdılar. Bu şəxslərin arasında şəhər sakinlərinin dərin hörmətini qazanmış onun atası şeyxülislam Hacı Qasım da var idi. Hacı Qasım bəyin ailəsini Həştərxana sürgün edilir və burada gənc M.Kazımbəy ərəb və fars dillərindən özəl dərslər verməyə başlayır. O, burada şotlandiyalı missionerlərlə tanış olur. Bu görüş gələcək alimin taleyində böyük rol oynayır. Şotlandiyalı missionerlər ondan şərq dillərini öyrənirdilər, M.Kazımbəy isə onlardan ingilis dilini öyrənirdi.

1823-cü ildə M.Kazımbəy xristian dinini qəbul edərək adını dəyişib Aleksandr Kasimoviç Kazem-Bek olur. Dinini dəyişdiyi üçün ondan bütün dostları, tanışları, valideynləri və qohumları üz çevirirlər. 1825-ci ilin oktyabr ayında M.Kazımbəy Sibir şəhəri Omska yola düşür. Yolüstü o, Kazan şəhərində olur. O, burada Kazan Universitetinin professor-müəllim heyəti ilə görüşür. Onu yaxşı mütəxəssis kimi universitetin rektoru professor N.A.Fuksla və məşhur oriyentalist professor X.N.Frenlə tanış edirlər.

M.Kazımbəy Omskda bir il yaşayır. Kazan Universitetində şərq dilləri müəlliminə böyük ehtiyac duyulduğu üçün onu buraya dəvət edirlər. 1826-cı ilin oktyabr ayında 24 yaşlı M.Kazımbəy şərq dillərinin mühaziräçi müəllimi təyin olunur. 1827-ci ildə Kazan Universitetinin rektoru məşhur riyaziyyatçı N.İ.Lobaçevski təyin olunur. Onun gəlişi ilə şərq dillərinin tədrisi daha da inkişaf edir. 1828-ci ildə universitetdə türk-tatar dili kafedrası yaradılır və kafedraya Kazımbəy başçılıq edir. Eyni zamanda Kazımbəy şərqşünaslıq, tarix, filologiya, dilçilik məsələləri üzrə dərin tədqiqatlar aparır. Kazımbəyin görkəmli elmi nailiyyətlərini nəzərə alaraq London Britaniya Krallığının Asiya Cəmiyyəti 1829-cu

ilin yanvarında Rusiyadan olan 27 yaşlı alimi öz cəmiyyətinin həqiqi üzvü seçir.

1831-ci ilin aprelində Kazan Universiteti onu adyunkt-professor vəzifəsinə təsdiq edir. Onun elmi əsərləri xarici dillərə tərcümə olunur və ən nüfuzlu elmi nəşriyyatlarda çap olunur.

1835-ci ildə Kazımbəy Rusiya Elmlər Akademiyasının müxbir üzvü seçilir.

1839-cu ildə M.Kazımbəy ilk dəfə olaraq «Türk-tatar dilinin qramatikasını» tərtib edir. Böyük elmi dəyəri olan bu kitab Rusiya Elmlər Akademiyası tərəfindən çox yüksək qiymətləndirilir və Kazımbəy «Demidovsk» mükafatına layiq görülür.

1849-cu ilin sentyabrında professor Kazımbəyi Kazan Universitetindən Sankt-Peterburq universitetinə keçirilir. Dostları onu təntənə ilə yola salırlar. Professor N.İ.Lobaçevskinin evində Kazımbəyə Kazan Universitetinin Fəxri üzvü diplomu təqdim olunur. 1850-ci ilin fevralında o, Rusiya Coğrafiya Cəmiyyətinin həqiqi üzvü seçilir. 1850-ci ilin aprelində isə onun nailiyyətləri Fransada tanınır və onu Parisdəki Asiya Cəmiyyəti özünün ştatlı üzvü seçir. 1851-ci ildə M.Kazımbəy özünün məşhur əsəri olan «Dərbəndnamə»ni nəşr etdirir və ikinci dəfə Rusiya Elmlər Akademiyasının «Demidovsk» mükafatına və Böyük Britaniya kraliçasının xüsusi qızıl medalına layiq görülür.

1854-cü ilin iyununda M.Kazımbəy «İmperiya Hərbi Akademiyasında türk dili müvəqqəti kursu üçün dərs vəsaiti»ni tərtib edir və o, 3-cü dəfə «Demidovsk» mükafatına layiq görülür. M.Kazımbəy Rusiya tarixində ilk alimdir ki, 3 dəfə bu Fəxri mükafata layiq görülmüşdür.

1855-ci ilin avqust ayının 27-də Sankt-Peterburq Universitetində yeni şərq dilləri fakültəsi yaradılır və onun ilk dekanı M.Kazımbəy təyin edilir.

1859-cu ildə M.Kazımbəy Şərq dilləri fakültəsinin dekanı vəzifəsindən getmək üçün ərizə yazır və özünü tamamilə elmi işə həsr edir. 1860-cı ilin oktyabrında Sankt-Peterburq universitetinin Şurası M.Kazımbəyin elmi-pedaqoji fəaliyyətinin 40 illiyini qeyd etməyi qərara alırlar. Həmin ildə o, yenidən Sankt-Peterburq Universitetinin şərq dilləri fakültəsinin dekanı seçilir. 1861-ci ilin mayında M.Kazımbəy ABŞ-n Boston şəhərindəki Amerika Orientalları Cəmiyyətinin müxbir üzvü seçilir.

1869-cu il mayın 18-də Sankt-Peterburq Universitetinin 50 illik yubileyi günü M.Kazımbəy akademik Dornla birlikdə şərq dilləri doktoru fəxri ada layiq görülür. 1869-cu ilin əvvəlində M.Kazımbəyin səhhəti qəflətən pisləşir və 1870-ci ilin noyabr ayının 24-də vəfat edir.

M.Kazımbəyin 110-dan çox fundamental əsəri dəfələrlə ABŞ, İngiltərə, Hollandiya, Fransa, Almaniya, Türkiyə, İran və dünyanın bir çox ölkələrində nəşr olunmuşdur.

M.Kazımbəy görkəmli elmi-pedaqoji nailiyyətlərinə görə Rusiya Elmlər Akademiyasının və Amerika Oriyentalları Cəmiyyətinin müxbir üzvü, Britaniya Krallığının, İrlandiya və Paris Asiya Cəmiyyətlərinin həqiqi üzvü, Kopenhagen Krallığının Şimali Antikvarlar Cəmiyyətinin üzvü, Almaniya Oriyentalları Cəmiyyətinin və Amerika Fəlsəfə Cəmiyyətinin üzvü, Kazan Universitetinin fəxri üzvü, Sankt-Peterburq Arxeoloji Cəmiyyətinin müxbir üzvü, Sankt-Peterburq Universitetinin professoru və fəxri doktoru seçilmişdir.

Kazımbəy Nikolay Aleksandroviç (1865-1918) – Rusiyanın Kazan quberniyasında anadan olmuşdur. O, bacısı Mariya Aleksandrovna Yefremova-Kazımbəy (1863-1939) kimi məşhur Azərbaycan alimi Mirzə Kazımbəyin Yekaterina Muravyova ilə vətəndaşlıq nigahından doğulmuş rəsmi varisi idi.

N.Kazımbəy Kazan quberniyasında böyük torpaq sahibi idi. 1907-ci ildə Stolıpin reforması zamanı müflisləşəndən sonra, Kazan şəhərində «Mənim müflisləşməyimin səbəbləri» adlı kitabça çap etdirmişdir. O, həmin kitabçada imperiyanın aqrar siyasətinə qarşı çox sərt çıxış etmişdir.

N.Kazımbəy 1918-ci ildə bolşevik terrorunun qurbanı olmuşdur.

Kazımbəy Olqa Aleksandrovna – 1843- cü ildə Rusiyanın Kazan quberniyasında anadan olmuşdur. O, məşhur Azərbaycan alimi Mirzə Kazımbəyin qızıdır. Olqa Kazımbəy ənənəvi ev təhsili almışdır. O, rus və fransız dillərini çox gözəl bilirdi.

O. Kazımbəy X1X əsrin 90-cı illərində atası Mirzə Kazımbəyin ilk bioqrafı kimi, onun nəsli ilə bağlı bir sıra tarixi sənədləri və materialları nəşr etdirərək məşhurlaşmışdır. 1866-cı ildə Olqa Kazımbəy böyük rus şairi A.S.Puşkinin dostu, məşhur rus şair Yevqeni Mirzə Kazımın oğlu Nikolay Baratınskiyə ərə getmişdir. Bu nigahdan onların oğlu Aleksandr və qızları Olqa, Yekaterina və Kseniya doğulmuşlar. O.Kazımbəy 1918-ci ildə vəfat etmişdir.

Kazımbəy Proskovya Aleksandrovna (1873-1943) – Məşhur Azərbaycan alimi Mirzə Kazımbəyin nəvəsi, Smolnı Kübar Qızlar İnstitutunu bitirmiş, imperatriça

Aleksandra Fyodorovnanın rəfiqələri arasında layiqli yer tutmuşdur.

Proskovya gözəl rəsm əsərlərinin müəllifi və mahir pianoçu kimi imperator sarayında özünəməxsus nüfuza malik idi. Gənclik illərində Proskovya Peterburq Universitetinin hüquq fakültəsində təhsil alan tələbə milliyətcə bolqar Aleksandr Malinovla (1867-1938) rəsmi olaraq nişanlanmış. A.Malinov üç dəfə Bolqarıstan hökumətinə başçılıq etmişdir. Baxmayaraq ki, onların nigahı sonralar dağılsa da, lakin aralarındakı səmimi münasibətlər qoruyub saxlamışdır.

Rus-yapon müharibəsi dövründə (1904-1905) və həmçinin Birinci Dünya müharibəsi illərində digər rəfiqələr kimi O.Kazımbəy imperatriça Aleksandra Fyodorovna və digər böyük knyaginyalarla birlikdə hospitallarda və lazaretlərdə tibb bacısı kimi yaralılara tibbi yardım göstərmişlər.


Məlum səbəblərə görə Proskovya bolşeviklərin hakimiyyətini qəbul etməmişdir. O, fəal mübarizə yolunu seçərək, Ağ Qvardiya Ordusu sıralarına daxil olmuşdur. İnqilabi sarsıntılar bu tək qadını Sibirə – admiral Kolçakın döyüşçüləri sırasına gətirir. O, zirehli qatarda tibb bacısı kimi xidmət edərək qırmızılarla döyüşdə iştirak edir. Lakin, Ali Baş Komandan Kolçakın və digər çar generallarının bolşeviklərlə mübarizədə məğlub olması Proskovyanı Sibirdən Kazana qayıtmağa məcbur edir.

Kazımbəy Vasili Alekseyeviç (1886-1931) – Kazan quberniyasında anadan olmuşdur. Məşhur Azərbaycan şərqşünası Əbdül Səttar Kazımbəyin nəvəsidir. Atası Aleksey Nikolayeviç Kazımbəy tibb elmi sahəsində görkəmli alim olmuşdur.

Vasili Alekseyeviç Kazımbəy Kazan Universitetinin tibb fakültəsini bitirdikdən sonra, Çinə getmiş və Xarbin şəhərində Şərqi-Çin dəmiryol xəstsxanasında işləmişdir. Həkim V.A.Kazımbəy müasirlərin yaddaşında bacarıqlı həkim, xeyirxah və mehriban insan kimi qalmışdır. V.A.Kazımbəy 1931-ci il avqustun 5-də vəfat etmişdir.

Kazımov Ənsər Qayaməhəmməd oğlu – 1937-ci il aprelin 12-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

Azərbaycan Dövlət Pedaqoji İnstitutunu tarix fakültəsini (1956-1961), həmçinin Moskva şəhərində SSRİ Elmlər Akademiyası Tarix İnstitutunun nəzdində aspiranturanı (1972) bitirmişdir. Tarix üzrə fəlsəfə doktorudur. 1978-ci ildən 1996-ci ilə qədər



müəllim, sonra isə Mahaçqala şəhərindəki Dağıstan Pedaqoji İnstitutunun tarix fakültəsinin dekanı, 1996-cı ildən Dərbənd şəhərindəki Dağıstan Pedaqoji Universitetinin filialında prorektor vəzifəsində işləmişdir.

2010-cu il martın 24-də vəfat etmiş və Dərbənd şəhərində dəfn olunmuşdur.

Kazımov Həşim Qayaməhəmməd oğlu – 1927-ci ildə



Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Məzahir Rzayev adına 4 saylı yeddiillik məktəbi və Dərbənd Kənd Təsərrüfatı Texnikumunun (1964) qiyabi şöbəsini bitirmişdir. 1946-ci ildən Jdanov adına kolxozda kolxozçu, briqadir, baş aqronom, sədr işləmişdir. 1994-cü ildə vəfat etmişdir.

Kazımov Nadir Sədulla oğlu – 1960-cı il



oktyabrın 7-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Atası Sədulla Dərbənd şəhərində xeyriyəçi tacir Hacı Tağı Kazım oğlunun nəvəsi idi.

O, Dərbənd şəhər 3 saylı orta məktəbində təhsil almış və 1977-ci ildə Dağıstan Dövlət Pedaqoji İnstitutunun ingilis-tarix fakültəsinə daxil olmuşdur.

N.Kazımov 1982-1983-cü illərdə Gizlər şəhərinin Komsomolsk qəsəbə orta məktəbində tarix və ingilis dili müəllimi, 1984-1988-ci illərdə Dərbənd şəhər 4 saylı orta məktəbində tarix müəllimi və hərbi rəhbər, 1988-1990-cı illərdə Dərbənd şəhər təhsil şöbəsində müfəttiş, 1990-1991-ci illərdə Dərbənd şəhər icraiyyə komitəsində baş mütəxəssis və 1991-2010-cu illərdə isə 6 saylı internat məktəbinin direktoru vəzifələrində çalışmışdır.

O, 2010-cu ildən Dərbənd şəhər təhsil idarəsinin müdiridir.

O, Rusiya Federasiyasının xalq təhsili əlaçısı,

Dağıstan Respublikasının Əməkdar müəllimi fəxri adlarına layiq görülmüşdür.

Kavad I (Qubad) – Sasanilər sülaləsindən (224-651) olan İran şahı 491-531-ci illərdə hakimiyyətdə olmuşdur. Yerli tarixi salnamə olan «Dərbəndnamə» I Qubad şah tərəfindən Dərbənd divarının tikilmə tarixi haqqında ətraflı məlumat verir.

Dərbənd sərhəd divarının I Qubad şah tərəfindən tikilməsi haqqında X əsrdə yaşamış ərəb müəllifi İbn əl-Fəqih də məlumat verir. Bəzi müəlliflər və «Dərbəndnamə» salnaməsinin müxtəlif variantları məlumat verir ki, Qubad şah sərhəd divarının tikilməinə başlayıb, tikintini isə onun oğlu Xosrov I Ənuşirəvan başa çatdırıb. Belə ki, Bəlazuri yazır ki, Qubad şah Şirvanı tutduqdan sonra, əmr edir ki, bu vilayətin şimal sərhəddində dənizdən Alban qapısınadək nəhəng bənd qurulsun və burada 300 möhkəmləndirilmiş yer olsun.

Kərbalayı Hüseyn – tacir, şəhərin şimal hissəsində, Qatar-ağacı olan yerdə 3 manufaktura dükanının, karvansaranın və 240 qapan (1 qapan=0,36 ha) torpağın sahibi.

XVIII əsrin sonunda o, boyaq otunun (marena) yetişdirilməsi ilə maraqlanmışdır. Bəzi məlumatlara görə, 2 dəfə İrandan gətirilmiş bahalı toxumun əkilməsi heç bir nəticə verməmişdir. Kərbalayı Hüseynin çoxlu əmək və vəsait sərf etməsinə baxmayaraq, o, məhsul ala bilməmişdir. Lakin o, nəyin bahasına olursa olsun Dərbənd torpağında bu bitkini yetişdirməyə çalışmışdır. O, dükanlarını, karvansaranı və torpaqlarının bir hissəsini satmış və təcrübəsini davam etdirir. Bir neçə vaxtdan sonra torpağın altından boyaq otunun ilk cücərtiləri görünməyə başladı. Doğma torpaq onun torpağa olan sonsuz məhəbbətini qiymətləndirir. Faktlar göstərir ki, Dərbənd boyaq otunun şöhrəti uzaq Fransaya qədər gedib çıxmışdır. Fransız toxucuları Kərbalayı Hüseyni Fransaya aparmağa nail olurlar. Orada Kərbalayı Hüseyn boyaq otunu becərir və fransızlara bu qiymətli bitkini becərmək üsullarını öyrədir. Fransızlar öz minnətdarlığını Kərbalayı Hüseynə bildirmək üçün toxuculuq sənayesinin mərkəzi sayılan Avinyon şəhərində ona və onun köməkçisi fransız Altena abidə qoyurlar.

Dərbənd şəhərinə qayıtdıqdan sonra Kərbalayı Hüseyn həccə getməyi qərara alır. Lakin o yolda ölür və qürbətdə dəfn olunur.

Kərimov Süleyman Əbusəid oğlu – 1966-cı ildə



Dərbənd şəhərində anadan olmuşdur.

Dərbənd şəhər 19 saylı orta məktəbi və Dağıstan Dövlət Universitetinin iqtisadiyyat fakültəsini bitirmişdir. O, iqtisadçı, «Eltav» zavodu baş direktorunun (Mahaçqala) iqtisadiyyat məsələləri üzrə müavini (1989-1995), «İttifaqmaliyyə» şirkətinin (Moskva) baş direktoru (1995-1997), elmi işçi (1997-1999), Ümumxalq korporasiya institutunun vitse-prezidenti (1999) işləmişdir.

S.Kərimov Rusiya Federasiyası Dövlət dumasının III (1999-2003) və IV (2003-2007) çağırışının deputatı seçilmişdir. IV çağırış Dövlət dumasının bədən tərbiyəsi və idman Komitəsi sədrinin müavini idi. 2008-ci ildən Rusiya Federasiyası Dağıstan Respublikasından Federasiya Şurasının üzvdür.

«Nafta-Moskva» neft şirkətinin sahibi S.Ə.Kərimovun adı «Forbos» jurnalının hər il çap etdiyi milyonerlər siyahısındadır.

Kontarini Ambroco – Venesiya Respublikasının səfiri kimi 1453-1458-ci illərdə Diyarbərkrə, Anadoluya və Azərbaycanın qərb ərazilərində hakimlik edən Ağ Qoyunlu Azərbaycan türk tayfasının başçısı Uzun Həsənin yanına göndərilmişdir. Onun məqsədi Osmanlı Türkiyəsi ilə müharibəyə hazırlaşan Venesiyaya köməklik etmək idi. Onun üzərinə düşən missiyanı tezliklə həll edib Gürcüstandan keçərək Venesiyaya qayıdır. Gürcüstanda o eşidir ki, türklər Kafu qalasını tutub, Qara dənizdə hökmranlığını yaradıblar. Venesiya səfiri məcbur olub vətəninə Şamaxıdan, Dərbənddən, Moskvadan keçərək qayıdır. A.Kontarini Dərbənd şəhərində 1475-ci ilin payızında gəlir və o burada yarım il qalır. 1476-ci ilin aprel ayında o gəmi ilə Həstərxana gəlir və oradan rahat Venesiyaya qayıdır. Dərbənd şəhəri və onun sakinləri A.Kontarinin xoşuna gəlir.

Korneli de Brüin – XVII əsrin məşhur holland rəssamı və səyyahı.

1703-cü ildə Həştərxan gəmilərinin birində qədim Dərbənd şəhərinə gəlmiş, onun sakinlərinin həyatı və yaşayış tərzi ilə tanış olmuşdur. O, bütün gördüklərini

dəqiqliyilə çəkir. Dərbəndin bu dənizdən qələmlə çəkilmiş XVIII əsrə aid olan şəkli sonralar başqa rəsm əsərlərindən öz real təsviri ilə seçilir və Avropa tarixçiləri arasında geniş istifadə edilirdi.

Kotov Fedot Afanasyeviç – rus taciri və səyahətçisi.

1623-1624-cü illərdə Səfəvilər dövlətinə səyahət etmişdir. Onun yolu Dərbənddən keçirdi. Qədim şəhərin görüntüləri onu heyrətə gətirmiş və o, özünün kitabında («Səyahət») yazmışdır: «… Dərbənd isə ağ daşdan tikilmiş möhkəm şəhərdir, lakin boşdur. Şəhərin bir ucu dağa söykənir, bir ucu isə dənizə qədər uzanır».

Hər şeylə maraqlanan Moskva taciri minilliklərlə əfsanələr gəzən Dərbənd şəhərinin şimal hissəsində yerləşən, Qafqazın ən qədim Qırxlar qəbiristanlığında olmuş və qeyd etmişdir ki: «Dərbənd şəhərində dəfn olunmuş 40 şəhidin məzarı dəniz kənarından yuxarıda yerləşir. Onların məzarlarının üstündəki yazını heç kim oxuya bilmir».

Qantəmir Əlixan – Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikasının (Dağlı Respublikası) Azərbaycan Xalq Cümhuriyyətində diplomatik nümayəndəsi. Ə.Qantəmir 1917-ci ildən Şimali Qafqazda dağlı xalqların azadlıq mübarizəsinin fəal iştirakçısı idi. O, 1918-ci ilin martında dağlı xalqların Zaqafqaziya Seymi ilə danışıq aparmaq üçün Tiflisə göndərdiyi nümayəndə heyətinin üzvü olmuş, Dağlı nümayəndə heyətinin tərkibində Trabzon və Batum konfranslarında iştirak etmişdir.

1918-ci il mayın 11-də Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikası yaradılması haqqında bəyannamə elan edildikdən sonra, Osmanlı dövləti ilə yanaşı, Azərbaycan Xalq Cümhuriyyəti də ona hərtərəfli yardım göstərdi. Azərbaycan Xalq Cümhuriyyət hökuməti Dağlı hökuməti ilə sıx siyasi iqtisadi və hərbi əməkdaşlıq xətti yeridir, eyni zamanda, hər iki respublika sərhədlərinin dəqiqləşdirilməsini zəruri sayırdı. Azərbaycan Xalq Cümhuriyyəti tərəfi bu məqsədlə müştərək komissiya yaradılmasını təklif etmişdi. Dağlı Respublikası ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında normal əlaqələrin qurulmasında Ə.Qantəmir mühüm rol oynadı. 1918-ci ilin oktyabrında Dağlı Respublikası hökumətinin Azərbaycan Xalq Cümhuriyyətində diplomatik nümayəndəsi təyin olunan Ə.Qantəmir Dağlı Respublikası ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında iqtisadi, maliyyə və digər sahələr üzrə müqavilə və sazişlər bağlanmasında iştirak etmişdir.

Dağlı Respublikası 1919-cu il mayın sonunda Denikin ordusu tərəfindən işğal olunduqdan sonra da Ə.Qantəmir öz hökumətinin nümayəndəsi kimi fəaliyyətini davam etdirmiş, Cənubi Qafqaz respublikalarının 1919-cu ilin may və iyununda maliyyə-iqtisadi, hərbi-siyasi məsələlər üzrə Tiflisdə keçirdikləri konfransda onu təmsil etmişdir.

Qasım Mustafa Hacı oğlu – 1882-ci ildə anadan olmuşdur. Bakı realnı məktəbini və Sankt-Peterburq Mülki Mühəndislər İnstitutunu (1907) bitirmişdir.

Həmdulla Abdullayevin rəhbərliyi altında Hacı Zeynalabdin Tağıyevin Port-Petrovskda balıqsənaye kompleksinin tikintisində və Port-Petrovsk şəhərinin memarı işləmişdir.

Dərbənddə Sovet hakimiyyəti qurulduqdan sonra vətəndaş müharibəsi illərində dağıdılmış 17 kəndin yenidən tikilməsi üzrə şöbəsinin, Dərbənd şəhər Kommunal Təsərrüfat şöbəsinin müdiri vəzifələrində işləmişdir.

1923-cü ildə «Dağıstan işıqları» adlı ilk mexanikləşdirilmiş şüşə zavodunun tikilməsi üzrə Tikinti idarəsinin rəis müavini, 1930-cu ildə Dərbənd konserv zavodunun və «Dağkimyaqaz» müəssisəsinin rəis müavini təyin olunmuşdur.

1933-cü ilin yanvar ayında vəfat etmiş və Qırxlar qəbiristanlığında dəfn olunmuşdur.

Qasımov Namiq-Kamal Abusəməd oğlu – 1919-cu ildə Dərbənd şəhərində müəllim ailəsində anadan olmuşdur. Azərbaycanlıdır. 1920-ci ildə atası bolşeviklər tərəfindən qətlə yetirildikdən sonra, dayısının ailəsində böyümüş və tərbiyyə almışdır. O, Məzahir Rzayev adına yeddiillik məktəbi və Dərbənd Pedaqoji Texnikumunu (1939) bitirmişdir. Azərbaycan dilində çıxan «Lenin bayrağı» şəhər qəzetinin ədəbi əməkdaşı və redaktor müavini, Azərbaycan Dövlət Dram Teatrının ədəbi şöbəsinin müdiri, Dərbənd şəhər İcraiyyə Komitəsinin mədəniyyət şöbəsinin müdiri vəzifələrində işləmişdir.


N.Qasımov hələ məktəbdə oxuyarkən öz gücünü poeziyada sınamışdır. Sonralar o, Azərbaycan poeziyasının əsl təbliğatçısına çevrilir və bir sıra rübai və qəzəllərini Namiq-Kamal Dərbəndi adı altında çap etdirir. 1960-cı ildə ailəsi ilə birlikdə Bakı şəhərinə köçür və 2000-ci ildə Bakıda vəfat edir.

Qazıyeva Xamıs Abdulsalamovna – Sosialist Əməyi Qəhrəmanı (1968), 1932-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Milliyətcə ləzgidir.



Məzahir Rzayev adına yeddiillik orta məktəbi, Dərbənd Pedaqoji Texnikumunu (1947) və Dağıstan Qadın Pedaqoji İnstitutunu (1953) bitirmişdir. 1955-ci ilə qədər M.Rzayev adına məktəbdə müəllim, 1955-1980-ci illərdə Dağıstan MSSR Akuşinsk rayonu Usişa kəndində müəllim işləmişdir. 1980-1995-ci illərdə Dağıstan MSSR Ali Sovetinin katibi, 1975-1995-ci illərdə Dağıstan MSSR Ali Sovetinin və 1970-1975-ci illərdə isə SSRİ Ali Sovetinin deputatı olmuşdur.

Qazıəhmədov Hacıəhməd Bəy oğlu – 1934-cü ildə Hiv rayonu Trkal kəndində (Dağıstan) anadan olmuşdur. O, Hiv orta məktəbini (1950), Dağıstan Dövlət Universitetinin filologiya fakültəsini (1959) bitirmişdir. Trkal yeddiillik məktəbində ibtidai sinif müəllimi (1950-1954), Kaşkent (Hiv rayonu) səkkizillik məktəbinin direktoru (1959), Arxit (Hiv rayonu) uşaq evinin direktoru (1959-1963), Hiv rayon təhsil şöbəsinin müdiri (1963-1970), 1970-ci ildən Dərbənd pedaqoji kollecinin direktoru işləmişdir.



H.Qazıəhmədov «Xam torpaqların mənimsənilməsinə görə», V.İ.Leninin anadan olmasının 100-illiyi ilə əlaqədar, «Fədakar əməyə görə», «Rusiyanı ictimai işlərlə yüsəldək» ictimai Federal proqrammı çərçivəsində «Müqəddəs arxangel Mixail», «Avropa keyfiyyəti» Müstəqil cəmiyyətin «Qızıl medalı» kimi medallarla təltif olunmuşdur. H.Qazıəhmədovun adı «Rusiyanın görkəmli adamları» ensiklopediyasına daxil olmuşdur.

O, Beynəlxalq Pedaqoji Təhsil Elmləri Akademiyasının müxbir üzvüdür.

H.Qazıəhmədov Dağıstanın və Rusiya Federasiyasının əməkdar müəllimi, Dağıstan Respublikasının xalq müəllimi kimi fəxri adlara layiq görülmüşdür.

Qaziəhmədov Feliks Hacıəhmədoviç – 1964-cü ildə Xivə rayonunun Trkal kəndində anadan olmuşdur.



O, 3 saylı orta məktəbi, Dağıstan Dövlət Universitetinin iqtisadiyyat fakültəsini, Rusiya Federasiyası Prezidenti yanında Rusiya Dövlət Xidməti Akademiyasının bitirmişdir. 1992-ci ildə Dərbənd şəhər Xalq Deputatları Şurasının sədri seçilmişdir. 1994-cü ildən Dərbənd şəhər başçısının müavini, 2000-2010-cu illərdə Dərbənd şəhər başçısı vəzifəsində işləmişdir.

Dağıstan Respublikasının əməkdar iqtisadçısıdır. «Dostluq» ordeni və YUNESKO-nun xatirə medalı ilə təltif olunmuşdur.

Qmelin Samuyel Qotlib (1744-1774) səyahətçi alim, Sankt-Peterburq Elmlər Akademiyasının akademiki (1767). 1768-1774-cü illərdə Don çayı hövzəsinə, Volqa çayı boyuna, Qafqaza, Xəzər dənizinin sahillərinə səyahət etmişdir.

Qmelinin hesabatına əsasən, onun ölümündən sonra, «Təbiətin üç aləminin tədqiqi üçün Rusiya üzrə səyahət» adlı kitabı nəşr olunmuşdur.

1770-ci ilin iyun ayının 12-də S.Qmelinin ekspedisiyasının üzdüyü gəmi (ekspedisiyanın tərkibində, ondan başqa, tələbə Mixaylov və rəssam Baur da var idi) Dərbənd reydində lövbər salır. Şəhərin hakimi Fətəli xan (1759-cu ildə Dərbənd Quba xanlığının tərkibində idi) akademiki və onun yoldaşlarını mehribanlıqla qarşıladı və onları öz iqamətgahında yerləşdirdi, onlara iş üçün bütün şəraiti yaratdı. Qmelin Dərbəndin qala divarlarına baxdı və onların qədim qəbirstanlıqlarının, şəhər su təminatı sisteminin, şəhər sakinlərinin məişətini, kənd təsərrüfatının vəziyyətini, şəhər rayonunun flora və faunasının təsvirini yaratdı, botanika elmi üçün tamamilə yeni bitkini noxudu (lobya fəslindən) və bir çox başqa bitkiləri aşkar etdi. Üç aydan sonra ekspedisiya öz yolunu cənuba doğru davam etdirdi.

1774-cü ilin yanvar ayında, geri qayıdarkən, S.Qmelinin ekspedisiyası yenidən Dərbənddə gəlir. Qısa müddətli istirahətdən sonra, usmiy Əmir Həmzənin torpaqlarından (ölkəsindən) keçmək üçün Gizlərdən onları müşayiət edəcək dəstə gözləyirdi. Ekspedisiya Dərbənddən çıxdı. Lakin görülmüş

təhlükəsizlik tədbirləri onlara kömək etmədi.

Bərikəy kəndində Əmir Həmzə ekspedisiya üzvlərini rotmistr Qorinin dəstəsindən alır, həbs edir və əsirləri uzaq dağ kəndinə Əhməd kəndə aparır. Onun azad edilməsi ilə bağlı göstərilən bütün səylər nəticəsiz qalır.

Əsirlikdə xəstələnən Qmelin 1774-cü ilin iyul ayının 27-də vəfat edir.

Əmir Həmzə ekspedisiyanın qalan üzvlərini azad edir və onlara alimin cənazəsini verir. Mixaylov və Baur alimin cəsədini arabada yalnız Qayakənd kəndinə kimi gətirə bildilər. İstidən meyid dağılmağa başladığı üçün onu kəndin kənarında dəfn etdilər.

Qromakovski Vladimir Aleksandroviç – 1922-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Milliyətcə rusdur.



O, 1 saylı Dərbənd şəhər orta məktəbini, Mahaçqala aeroklubunu və Krasnodar Hərbi-Aviasiya Təyyarəçilər Məktəbini bitirmişdir. 1940-cı ildən sovet ordusunda xidmət etmişdir. O ilk dəfə 1942-ci il iyul ayının 26-da 896-cı Qırıcı Aviasiya alayının tərkibində hərbi təyyarələri Borisoqlebsk–Stalinqrad marşrutu üzrə köçürərkən Povorino stansiyası rayonunda almanların «Yunker-88» bombardmançı təyyarələri ilə döyüşdə iştirak etmişdir. Sonralar o, Bryansk, Voronej, 1-ci Ukrayna, 1-ci Belorus cəbhələrindəki döyüşlərdə və Berlinin alınmasında iştirak etmişdir. O, baş təyyarəçi, sonra manqa komandiri, məşhur hava ustası, üç dəfə Sovet İttifaqı Qəhrəmanı İ.Kojedubun döyüş yoldaşı olmuşdur. O, üç «Qırmızı Ulduz» ordeni ilə təltif edilmişdir. V.A.Qromakovskinin döyüş yolunun yekunu: 186 üçus etmiş, 29 hava döyüşündə iştirak etmiş, düşmənin 17 təyyarəsini məhv etmiş və 7 təyyarəsini isə qrup döyüşlərində sıradan çıxarmışdır.

Baş leytenant V.A.Qromakovski sonuncu təyyarəni Berlin səmasi üzərində vurub məhv etmişdir.

V.A.Qromakovskiyə Sovet İttifaqı Qəhrəmanı fəxri adı SSRİ Ali Rəyasət heyətinin 1946-ci il 15 may tarixli fərmanı ilə Berlinin alınmasında göstərdiyi qəhrəmanlığa və igidliyə görə verilmişdir.

1941-1945-ci illər müharibəsindən sonra V.Qromakovskiy Sovet Ordusunun Hərbi-Hava Qüvvələrində xidmətini davam etdirmişdir. Eskadrilya komandiri, alay komandirinin müavini, aviasiya korpusunun uçuşa hazırlanması üzrə inspektor olmuşdur. Polkovnik rütbəsində ehtiyata çıxmışdır. Moskva şəhərində vəfat etmiş və dəfn olunmuşdur.

Quliyev Baba Cəfər oğlu – tarzən, bəstəkar,



Dağıstanın Respublikasının Əməkdar Mədəniyyət işçisi, 1913-cü ildə Dərbənd şəhərində kəndli ailəsində anadan olmuşdur. Azərbaycanlıdır. Uşaqlıqdan musiqiyə böyük həvəs göstərdiyi üçün atası ona tar alır və musiqi məktəbinə qoyur. Artıq gənc yaşlarında o gözəl tar ifaçısı kimi tanınırdı.


1936-cı ildə Dərbənd şəhərindəki Azərbaycan Dövlət Dram Teatrının bədii rəhbəri işləyir. Bir neçə ildən sonra onu Dağıstan Mahnı və Rəqs ansamblına dəvət edirlər. Burada o, öz musiqi məharətini təkmilləşdirir və mahnı bəstələməyə başlayır.

1941-1945-ci illər müharibəsi dövründə Baba Quliyev «Dagıstanlı qəhrəman», «Cəbhəçiyə öyüd» adlı mahnılar bəstələyir, sonra könüllü olaraq cəbhəyə gedir. Qələbə bayramını o iki «Qırmızı ulduz» ordeni və «Hünərə görə» medalı ilə qarşılayır.

Baba Quliyev təhsilini Moskva Dövlət Konservatoriyasının milli musiqi şöbəsində davam etdirir. 1952-ci ildə təhsilini başa vurub Mahaçqalaya qayıdır və yenidən Dağıstan Dövlət Milli Ansamblında tarzən kimi çalışır. Bir müddətdən sonra o Dərbənd şəhərinə qayıdır və burada şəhərin xor cəmiyyətinin sədri, həmçinin rayon mədəniyyət şöbəsinin ictimai təlimatçısı təyin edilir. Bu dövrdə o yeni-yeni mahnılar bəstələyir: «Dağıstanın işıqları», «Mənim sazım» və s.

1956-1966-cı illərdə Baba Quliyev Dərbənd Mədəni Maarif Texnikumunda müəllim işləyir. O, 1971-ci ildə vəfat etmişdir.

Quliyev Hacıağa İmanqulu oğlu – texnika elmləri doktoru, professor, Dərbənd şəhərinin fəxri vətəndaşı 1967-ci ildə Azərbaycan Dövlət Universitetinin coğrafiya fakültəsini bitirmiş və Neft Daşlarının hidrometeoroloji stansiyasında helikopter uçuşlarının meteoroloji təminatı üzrə



mütəxəssis işləmişdir.

H.Quliyevin elmi tədqiqatlarının əsas istiqaməti «Açıq dəniz üzərində meteoroloji amillərin uçuşlara təsiri» olmuşdur. 1986-cı ildə «Orta Xəzərin neft-qaz yataqları ərazisinin mikroiqlim variasiyaları» mövzusunda namizədlik dissertasiyasını, 2010-cu ildə «Xəzərin Azərbaycan sektorunda havada hərəkətin idarə edilməsinin meteoroloji təminatının xüsusiyyətləri» mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

1994-2011-ci illər ərzində Milli Aviasiya Akademiyasının «Aviasiya meteorologiyası» kafedrasının müdiri vəzifəsində işləmişdir.

Quliyev Seyfulla Hüseynqulu oğu (1904-1991) -



Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. O, uşaqlıqdan musiqiyə böyük həvəs göstərmiş və saz çalmağı öyrənmişdir. Musiqiyə olan həvəsi onu 1919-cu ildə proletar gənclər klubuna gətirir. O, burada türk dram dərnəyinin üzvü olur. Sonralar bu dərnək peşəkar türk teatrına (1920) çevrilir, 1939-cu ildə isə Azərbaycan Dövlət Musiqili Dram Teatrı adlandırılır. 1949-cu ilədək o, bu teatrda çalışır.

Seyfulla Quliyev opera partiyalarının məşhur ifaçısı kimi xalqın sevimlisinə çevrilir. O, Ü.Hacıbəyovun «Leyli və Məcnun» operasında Məcnun rolunu mahir ifaçısı kimi şöhrət qazanır.

Quliyev Vadim Cəfər oğlu – tarix elmləri



namizədi, dosent, 1964-cü il dekabrın 15-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. O, Dərbənd şəhər 8 saylı orta məktəbi bitirdikdən sonra «Radioelement» zavodunda fəhlə işləmiş, sonralar Dağıstan Pedaqoji İnstitutunun tarix fakültəsinə daxil olmuş və həmin institutun komsomol komitə katibinin müavini seçilmişdir.

V.Quliyev 1989-cu ildən Dərbənd şəhər 8 saylı orta məktəbində direktor müavini, 1998-ci ildən Dağıstan Dövlət Pedaqoji Universitetinin Dərbənd filialının direktor müavini, 2012-ci ildən isə Dərbənd şəhər ümümtəhsil internat məktəbinin direktoru vəzifələrində çalışmışdır.

2011-ci ildən Dağıstan Respublikası ictimai palatasının üzvüdür.

Quliyev Zakir Məzahir oğlu – 1952-ci ildə



Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

1969-cu ildə gənclər arasında boks üzrə Azərbaycan çempionu olmuşdur. 1970-ci ildə Sevastopol şəhərində gənclər arasında keçirilən SSRİ birinciliyində ikinci yerə, həmin ildə Leninqrad televiziyası tərəfindən təşkil olunmuş kubok yarışlarında qızıl medala və 1971-ci ildə yenidən Leninqradda gənclər arasında keçirilən «Televiziya kuboku» yarışlarında qızıl medalla layiq görülmüşdür.

1971-ci ildə həqiqi hərbi xidmətə çağrılmışdır. Həmin ildə hərbiqulluqçular arasında Cənubi Qafqaz birinciliyində 57 kq çəki kateqoriyasında 1-ci yer, 1972-ci ildə hərbiqulluqçular arasında keçirilən 57 kq çəki kateqoriyasında SSRİ birinciliyində 2-ci yer, həmin ildə Cənubi Qafqaz hərbi qulluqçuları arasında keçirilən yarışlarda 1-ci yer tutmuş və boks üzrə Azərbaycan çempionu olmuşdur.1972-ci ildə Daşkənd şəhərində keçirilən Ceksonun xatirəsinə həsr olunmuş boks üzrə beynəlxalq turnirdə 1-ci yeri tutmuşdur.

Ukraynanın Dnepropetrovsk şəhərində keçirilən turnirdə qızıl medala, Lvov şəhərində keçirilən Sanlivenko turnirində 57 kq çəki kateqoriyasında qızıl medala layiq görülmüşdür. 1972-ci ildə Zakir Quliyev SSRİ idman ustası adına layiq görülmüşdür. 1972-ci ildə Oryol şəhərində RİC «Dinamo» ümumittifaq birinciliyində 2-ci yeri tutmuşdur. Həmin ildə Tombov şəhərində gənclər arasında keçirilən yarışlarda ikinci yeri tutmuşdur. 1973-cü ildə ordudan tərxis olunmuşdur. 1973-cü

ildə SSRİ kuboku üzrə keçirilən zona yarışlarının qalibi olmuşdur. Kiyev şəhərində RİC «Dinamo» komitəsinin 50 illiyinə həsr olunmuş yarışlarda 2-ci yeri tutmuşdur (1973), RİC «Dinamo» yığmasının üzvü idi, 1974-cü ildə Dnepropetrovsk şəhərində qızıl medala layiq görülmüş, Lvov şəhərində 1-ci yer tutmuş, Daşkənd şəhərində keçirilən yarışlarda gümüş medala layıq görülmüş, Qrodno şəhərindəki yarışlarda 1-ci yer tutmuş, Donesk şəhərində RİC «Dinamo» turnirində 2-ci yeri tutmuşdur. SSRİ idman ustası normativlərini 3 dəfə yerinə yetirmişdir. 1975-ci ildə Azərbaycan SSR boks üzrə yığma komandası heyətinin tərkibində Estoniyada keçirilən beynəlxalq turnirdə 2-ci yeri tutmuşdur.

1973-cü ildə S.M.Kirov adına İdman İnstitutuna qəbul olmuş və 1978-ci ildə həmin İnstitutu bitirmişdir. Təyinatla daxili işlər orqanlarında çalışmışdır. Hazırda Azərbaycan Daxili İşlər Nazirliyinin idman cəmiyyətində məşqçi işləyir. Boks üzrə əməkdar məşqçi adına layiq görülmüşdür. 1996-2009-cu illərdə boks üzrə beynəlxalq hakim statusunu almışdır. Həmin ildən bu günə qədər Azərbaycan Respublikası Boks Federasiyasının vitse-prezidentidir.

Qurbanov Qurban Səid oğlu 1956-cı ildə



Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. O, şəhər 11 saylı orta məktəbi, Dağıstan Dövlət Universitetinin iqtisadiyyat fakültəsini və Moskva Hüquq və Sahibkarlıq İnstitutunun hüquq fakültəsini bitirmişdir. «Elektrosiqnal» zavodunda mühəndis, ÜLKGİ Dərbənd şəhər Komitəsinin şöbə müdiri, ÜLKGİ Dağıstan Vilayət Partiya komitəsinin şöbə müdiri, Dağıstan Meyvə-Tərəvəz təsərrüfatının rəisi, Dağıstan MSSR Dövlət Aqrosənayesinin şöbə müdiri, «Dərbənd-kredit» bank idarəsinin sədri vəzifəsində işləmişdir. 1998-ci ildə Dərbənd İnzibatı rayonun başçısı seçilmişdir. 2002-ci ildə Rusiya Federasiya Dağıstan Respublikasının Dövlət Şurasının üzvü seçilmişdir. İqtisadiyyat üzrə fəlsəfə doktorudur.

2014-cü ilə qədər çalışmışdır.

Qurbanov Məhəmməd Səid oğlu – 1950-ci ildə



Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. O, 1973-ci ildə Dağıstan Dövlət Kənd Təsərrüfatı Akademiyasını və Azərbaycan Dövlət İqtisad Universitetini bitirmişdir.

İqtisadiyyat üzrə fəlsəfə doktorudur.

Dağıstanın Üzümçülük və Şərabçılıq Elmi-İstehsalat birliyinin baş mütəxəssisi, Dərbənd Kənd Təsərrüfatı texnikumunun direktoru, Dərbənd rayon İcraiyyə Komitəsinin və Dərbənd rayon Xalq Deputatları Şurasının sədri, Dərbənd Aqrar-sənaye idarəsinin sədri vəzifələrində işləmişdir.

2002-2013-cü illərdə Azərbaycan Respublikasında Rusiya Federasiyası Dağıstan Respublikasının daimi nümayəndəliyinin başçısı olmuşdur. «Dostluq» ordeni ilə təltif olunmuşdur.

Qurbanov Səid Camal oğlu – 1928-ci il dekabrın



21-də Dərbənd rayonunun Salik kəndində anadan olmuşdur.

1955-ci ildə Dağıstan Kənd Təsərrüfatı İnstitutunu bitirdikdən sonra Səid Qurbanov Dərbəndin Berikey qəsəbəsində baytarlıq xidmətinin rəhbəri, 1958-1962-ci illərdə kolxoz sədri, sovxoz direktoru və 1962-ci ildən Dərbənd şəhər Kolxoz-Sovxoz Ərazi idarəsinin rəisi vəzifələrində çalışmışdır. O, 1965-ci ildə Dərbənd rayon İcraiyyə Komitəsinin başçısı, 1966-cı ildə isə Dərbənd Rayon Partiya Komitəsinin birinci katibi olmuşdur. 1971-ci ildə Dağıstan Respublikasının Kənd Təsərrüfatı naziri təyin edilmişdir. 1973-cü ildə yenidən Dərbənd rayon Partiya Komitəsinin birinci katibi seçilmişdir.

Səid Qurbanov 1985-ci ildən 1991-ci ilə qədər Dərbənd rayonunda sovxoz direktoru işləmişdir. 1991-1998-ci illərdə o, Dərbənd rayon Deputatlar Şurasının sədri və Dərbənd şəhər Şurası sədrinin müşaviri olmuşdur. 2005-ci ildə təqaüdə çıxdıqdan sonra ictimai fəaliyyətini davam etdirmişdir. Ömrünün sonunadək Dağıstan Respublikasının Prezidenti yanında Ağsaqqallar Şurasının üzvü olmuşdur. 2009-cu ildə vəfat etmişdir.

Leqkopitov Vasili – 1831-ci ildə Dərbənd qəzasının ilk kameral təsvirinin alınmasını keçirmək üçün Sankt-Peterburq şəhərindən yüksək rütbəli çar məmuru kimi buraya göndərilmişdir. Onun rəhbərliyi altında Dərbənd şəhər və ona aid olan ərazilər haqqında statistik, etnoqrafik, topoqrafik və maliyyə məlumatları toplanmışdır. 1835-ci ildə bu məlumatlar Bakı və Quba qəzalarında aparan digər məmurların hesabatları ilə birlikdə «Obozrenie Rossiyskix vladeniy za Kavkazom, v statistiçeskom, gtnoqrafiçeskom i finansovom otnoşeniəx» kitabına daxil edilmişdir. V.Leqkopitov Dərbənd şəhəri haqqında öz hesabatında yazırdı: «….Dərbənd müsəlmanları kəndlərdə (Calqan, Mitaqi və s.) tatar (Azərbaycan) və tat dillərində danışırlar. Hətta öz dilləri olan ermənilər və yəhudilər də Azərbaycan dilində danışırlar. Dərbənd müsəlmanları Bakı və Qafqazın digər şəhərlərində yaşayan müsəlmanlardan çox az fərqlənirlər. Dərbəndlilər mənəvi keyfiyyətlərinə görə qubalılara, ziyalılığa görə bakılılara daha yaxındırlar».

Mammus əd-Dərbəndi (Mammus bin əl-Həsən bin Məhəmməd Əbu Abdallah əd-Dərbəndi) (1040-1110) – XI əsrin II yarısı – XIII əsrin əvvəlində Bab əl-Əbvabın mötəbər din xadimlərindən, şeyxlərindən biri olmuşdur. Onun atası – mühəddis (hədislərin bilicisi) və tarixçi Əbu-l-Valid əl-Həsən bin Məhəmməd əd-Dərbəndi (1064-cü ildə vəfat etmişdir) – müsəlman aləmində çox məşhur və tanınmış şəxslərdən biri olmuşdur. Dövrün Yazılı mənbələrindəki məlumata görə o, «mühəddislər imamı Maverannahrın» və «Buxaranın tarixi» kitabının müəllifi Əbu Abdallah Məhəmməd bin Əhməd əl-Hüncarın (1021-ci ildə vəfat edib) şagirdi olmuşdur.

Mammus əd-Dərbəndi Xilafətin müxtəlif şəhərlərində, həmçinin Bağdadda, Səmərqənddə, Buxarada təhsil almışdır. Onun ən görkəmli müəllimlərindən biri ərəb tarixçisi və hədislərin bilicisi, çoxhissəli «Bağdadın tarixi» əsərinin müəllifi – əl-Xatib əl-Bağdadi olmuşdur. Maraqlıdır ki, əl-Xatib əl-Bağdadi vaxtilə Mammusun atasından təhsil almışdır. Mammusun əsl-nəcabəti və yaxşı təhsil alması ona Haşimilər sülaləsindən olan Dərbənd hökmdarlarının saray tarixçisi işləməyə imkan vermişdir.

O, məşhur «Tarix Bab əl-Əbvab və Şirvan» («Dərbəndin və Şirvanın tarixi») salnaməsinin müəllifidir. Dərbənd səlcuq türkləri tərəfindən ələ keçirildikdən sonra (1075) Mammus əd-Dərbəndi şəhəri tərk etmək məcburiyyətində qalır və Bağdad şəhərinə köçür. O burada İbn əl-Xadib əd-Dakkak kimi tanınan Əbu Bəkr Məhəmməd əl-Mərvazi ilə tanış olur və onun davamçısına çevrilir.

Mammus əd-Dərbəndi dövrünün görkəmli alimləri ilə tanış idi: Bağdaddakı ən-Nizamiyyə mədrəsəsinin rəhbəri Əbu İshaq aş-Şirazi, Əbu Nasr əl-Kuşayri, Əbu Hamid əl-Qəzəli və başqaları. O gənc alimlərə, xüsusilə həmyerlisi Musa bin İbrahim əd-Dərbəndiyə kömək etmişdir.

Mammus əd-Dərbəndinin şagirdlərindən biri – sufi Əbu Bəkr əd-Dərbəndi məşhur ensiklopedik «Reyhan əl-haqaiq və bustan əd-dadaiq» əsərinin müəllifi öz müəllimlərinə bir çox Bağdad alimlərilə tanış etdiyi üçün borcludur, xüsusilə, əl-Qəzəli, ibn əl-Xatib və müsəlman dünyasının digər görkəmli alimləri. O, 1095-ci ildə vəfat etmişdir və Bağdad şəhərində dəfn olunmuşdur.

Manarov Musa Xiramanoviç – 1951-ci ildə anadan olmuşdur. Moskva Aviasiya İnstitutunu (1974) bitirmişdir. 1978-1992-ci illərdə kosmonavt dəstəsinin sıralarında olmuşdur. O, bort-mühəndis kimi iki beynəlxalq heyətlə kosmik uçuş həyata keçirmişdir. 1987-ci ildə (şərti adı «Dərbənd») və 1988-ci ildə (şərti adı «Dərbənd-2»). Cəmisi 541 sutka 31 dəqiqə və 10 saniyə kosmosda olmuşdur. Birinci uçuşda kosmosda qalma müddəti ilə o, rekord vurmuşdur – 365 sutka 22 saat və 47 saniyə. O, Dərbənd milli-ərazi dairəsindən RSFSR-ın xalq deputatı (1990-1993), RSFSR Ali Soveti Millətlər Palatasının üzvü seçilmişdir. 1966-cı ildə fəxri qonaq kimi Dərbənd şəhərinə gəlmişdir.



M.X.Manarov «Lenin», «Oktyabr inqilabı», «Georgi Dmitrov» (Bolqarıstan), «Günəş azadlığı» (Əfqanıstan), «Fəxri legion» (Fransi) ordenləri, «Beynəlxalq İkar-1989» mükafatı ilə «Xarmon prizı» adlı fəxri diplomla təltif olunmuşdur. Polkovnik-leytenant rütbəsində istefaya çıxmışdır (1999). Hazırda «İnteqral xətlər» səhmdar müəssisəsinin direktorudur.

Marko Polo (1254-1324) – məşhur italyan səyyahı. O, 1271-1275-ci illərdə Çinə səyahət edərkən Dərbəndi də ziyarət etmişdir. 1298-ci ildə onun yazdığı «Marko Polonun kitabı»nda deyilir ki, Dərbənd «…o ölkədir ki, hara Böyük Aleksandr şimala gedərkən heç vəchlə girə bilməmişdir. Çünki, bu ölkə bir tərəfdən dənizlə, digər tərəfdən uca dağlarla və meşələrlə əhatə olunmuşdur; dənizlə dağ arasındakı məsafə o qədər dardır ki, oradan keçmək heç cür mümkün deyil. Böyük Aleksandr əmr edir ki, bu divar qalalarla möhkəmləndirilsin və divarın o tərəfində yaşayan adamlar ona heç bir ziyan vura bilməsinlər. Bu keçid sonralar Dəmir qapı adlandırıldı». Bu avropalıların qədim şəhər haqqındakı ilk məlumatı mənbəyi.

«Marko Polonun kitabı»nın rus tərcüməsi «1286-cı ildə Venesiyalı zadəganın Tatariya və Şərqin digər ölkələrinə səyahəti» başlığı altında 1827-ci ildə Sankt-Peterburqda çap olunmuşdur.

Mehdizadə İsmayıl – Dərbənd şəhərində anadan olmuş, ibtidai təhsil almışdı.

Gənc yaşlarından bənna yanında köməkçi işləyərkən inqilab hərəkatına qoşulmuşdur.

O, 1914-cü ildə şəhərdə peşəkar inqilabçı Y.L.Markusun rəhbərliyi altında inqilabçı gənclərin gizli təşkilatına, bolşeviklər tərəfindən şəhərin müsəlman əhalisinin arasında iş aparılması məqsədi ilə yaradılmış «Ümid» qeyri-leqal müsəlman gənclər təşkilatına daxil idi.


İ.Mehdizadə şəhərin yuxarı müsəlman hissəsində «İşıq» içtimai oxu zalının yaradılmasında və bu zalın işində iştirak edirdi. Burada bolşeviklər məruzələrlə və hesabatlarla çıxış edirdilər, oxu zalının şurası isə bolşevik qəzetlərinin, Bakıda nəşr olunan «Molla Nəsrəddin» satirik jurnalının paylanmasını reallaşdırır, gənclərin teatrsevərlər dram dərnəyini təşkil edirdi.

O, «Hümmət» təşkilatının Dərbənd seksiyasının təşkilatçılarından biri idi. Şəhər hümmətçilərinin 1918-ci il mayın 9-da təşkil olunmuş iclasında Mehdizadə «Hümmət» şəhər təşkilatının genişləndirilməsi və onun gələcək işi» barədə məruzə ilə çıxış etmişdir. Onu bu təşkilatın rəyasət heyətinə üzv seçmişdilər.

Məhəmməd Hüseyn bəy – Dərbənd naibi İmamqulu bəyin oğludur. 11 yaşında dərbəndlilər tərəfindən Nadir şahın ölümündən sonra Dərbənd xanlığının xanı elan olunmuşdur. XVIII əsrin rus tarixçi-iqtisadçısı M.Çulkov 1758-ci ildə çap olunmuş «Rus kommersiyasının tarixi təsviri» kitabında yazmışdır ki: «… Məmməd Hüseyn xan ona tabe olanlara qəddar münasibət bəsləyirdi, onlardan çox vergi alaraq həyatlarını daha da dözülməz edirdi, döyürdü və hətta onların gözlərini çıxarırdı». Bunun nəticəsində xanlığın daxili və xarici siyasi vəziyyəti getdikcə ağırlaşırdı. 1759-cu ildə cana doymuş dərbəndlilər gənc və güclü Quba xanı Fətəli xanın köməyi ilə Məhəmməd Hüseyn bəyi taxtan saldılar və Quba xanlığının təbəəliyinə keçmək istədilər.

Məhəmməd Hüseyn bəy Bakıya qaçdı və 1768-ci ildə orada vəfat etdi. Sonralar onun varisləri Dərbəndin tarixi ilə bağlı olan Qafqazda baş vermiş mühüm hadisələrin iştirakçısı olmuşlar.


Məhəmmədov Nazim Əbdürəhman oğlu – tarix



elmləri doktoru, 1943-cü ildə Dərbənddə anadan olmuşdur. O, Dərbənd Kənd Təsərrüfatı Texnikumunu, Dağıstan Dövlət Universitetinin tarix fakültəsini (1969) və SSRİ EA dil və ədəbiyyatın tarixi institutu Dağıstan filialının aspiranturasını bitirmişdir. O, SSRİ EA Dil və Ədəbiyyatı Tarixi İnstitutunun Dağıstan filialında kiçik elmi işçi və baş elmi işçi işləmişdir. 1999-cu ildən Dağıstan Tarixi Tədris Mərkəzinin aparıcı işçisidir.

Məhəmmədov Ştiberq Hacı Məhəmməd oğlu – 1952-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. İnstitutu bitirdikdən sonra müxtəlif müəssisələrdə iqtisadçı, «Elektrosiqnal» zavodunun baş mühasibi, Dərbənd şəhər partiya komitəsinin ikinci katibi işləmişdir. 1990-1991-ci illərdə Dərbənd şəhər partiya komitəsinin birinci katibi olmuşdur.

Məhərrəmov Tofiq Əlibəy oğlu – 1935-ci ildə



Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Buynaksk şəhərində Kooperasiya Texnikumunu bitirdikdən sonra, 1961-ci ildə Bakı şəhərinə köçmüş və Bakı Yeyinti-Sənaye Texnikumunu, sonra isə Moskva Kooperasiya İnstitutunun Bakı filialının iqtisadiyyat fakültəsini bitirmişdir.

T.Məhərrəmov keçmiş Əli Bayramov adına tikiş fabrikinin direktor müavini, «Toxucu» İstehlak Birliyinin baş direktorunun müavini vəzifələrində işləmişdir.

Məmmədbəyova Afət Hüseyn qızı – 1914-cü ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd realnı məktəbini, Vladiqafqazda Qorsk Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir.

Məmmədbəyov Ağa Məmməd Hüseyn oğlu – 1905-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd realnı məktəbini bitirmiş, Sovet ordusunda xidmət etmiş və zabit rütbəsinə kimi qalxmışdır. O, 1942-ci ildə Qatçin şəhərində 1941-1945-ci illər müharibəsində alman faşistlərinə qarşı döyüşdə həlak olmuşdur.

Məmmədbəyov Əli Əhməd oğlu – 1903-cü ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan Dövlət Pedaqoji İnstitutunu, Azərbaycan Dövlət Universitetinin fəlsəfə fakültəsini, Moskvada Qırmızı Professorlar İnstitutunu bitirmişdir. O, Azərbaycan Ali İqtisad Şurasının məsul katibi, Bakıda ali təhsil müəssisələrində müəllim işləmiş, Azərbaycan Sovet Ensiklopediyasının hazırlanmasında iştirak etmişdir.

Ə.Məmmədəbyov elmi-tədqiqat işlə də məşğul olmuşdur. «Bazis və üstqurum», «Determinizm və indeterminizm», «Tarixi qanunauyğunluğun problemləri» və s. əsərlərin müəllifidir. O, alim-tərcüməçilərlə birlikdə K.Marksın «Kapital» əsərinin Azərbaycan dilinə ilk tərcüməsində iştirak etmişdir (1935).

1938-ci ildə «xalq düşməni» kimi həbs edilmiş və 1942-ci ildə həbsdə vəfat etmişdir.

Məmmədbəyov Hadı Məmmədhüseyn oğlu – 1901-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Realnı məktəbini bitirmiş və «Derbentskie novosti» qəzetinin mətbəəsində işləmiş və qəzetin işçisi olmuşdur.

O, 1918-ci ildə denikinçilərə qarşı vuruşmuşdur. 1923-cü ildə Moskvaya Kommunist Universitetində təhsilini davam etdirmişdir. 1924-cü ildə Dağıstan MSSR Daxili İşlər Komissarlığında banditizmə qarşı dəstə rəisi olmuşdur. 1932-ci ildə Timiryazyev adına Kənd Təsərrüfatı Akademiyasını bitirmiş və SSRİ Balıq Təsərrüfatı Nazirliyində işləmişdir.

H.Məmmədbəyov «Qırmızı bayraq» ordeni, 1941-1945-ci illər müharibəsində iştirak etdiyi üçün bir sıra dövlət mükafatları ilə təltif olunmuşdur. 1986-cı ildə Moskvada vəfat etmiş və dəfn olunmuşdur.

Məmmədbəyov Kərim Hüseyn oğlu (1898-1938) – Dağıstan MSSR Qaytaq-Tabasaran diyarının Yersi kəndində anadan olmuşdur.



Azərbaycanlıdır.

O, Dərbənd realnı məktəbini bitirib «Ümid» müsəlman gəncləri inqilabi dərnəyinin təşkilatçılarından biri olub. Qafqazın mütərəqqi müsəlman gənclərinin I qurultayının iştirakçısı olmuşdur.

1917-ci ilin payızında Kazan Tibb İnstitutuna daxil olur, lakin 1917-ci il oktyabr çevrilişindən sonra Dərbənd şəhərinə qayıdır. Burada o şəhərin İnqilabi Müdafiəsi Komitəsinə üzv seçilir (aprel-iyun 1918-ci il), banditizmlə mübarizə üçün yaradılmış Qırmızı Qvardiya süvarı dəstəsinin komandiri, Dərbənd şəhər Xalq Komissarları Şurasının nəqliyyat komissarı təyin edilir.

1918-ci ilin iyulunda K.Məmmədbəyovun komandanlığı altında dəstə Xəzər dənizində – Həştərxanda bolşevizmi müdafiə etmək üçün ezam olunur. Burada o, RK(b)P-sı Quberniya Komitəsinin və Quberniya İcra hakimiyyətinə üzv seçilir, Həştərxan və Tsaritsin cəbhələrinin hərbi komissarı təyin edilir.

1920-ci ilin martında XI Qırmızı Ordu hissələrilə birlikdə Dərbəndə qayıdır və Dağıstan Vilayətinin İnqilab Hərbi Şurasının qərarı ilə Dağıstanın hərbi komissarı, eyni zamanda – milis rəisi və hərbi tribunalın rəisi təyin olunur.

1921-ci ildən 1931-ci ilədək K.Məmmədbəyov Föqələdə hallar komissiyasının sədri və Dağıstan MSSR Birləşmiş Dövlət Siyasi İdarəsinin rəisi işləyir. 1927-ci ildən Dağıstan MSSR Dövlət Plan Komitəsinin və Xalq Komissarları Şurası sədrinin birinci müavini vəzifələrində işləyir.

1931-ci ildən 1938-ci ilə qədər K.Məmmədbəyov Dağıstan MSSR-nın Xalq komissarları Şurasının sədri işləyir.

1932-ci ildən 1938-ci ilədək Şimali Qafqaz Diyar İcra Hakimiyyəti Rəyasət Heyətinin və Diyar Partiya

Komitəsinin üzvü olmuşdur. SSRİ MSK-nin üzvü idi. 1920-1938-ci illərdə Dağıstan MİK Rəyasət heyətinə üzv seçilmişdir. K.Məmmədbəyov «Qırmızı Bayraq» ordeni, döyüş silahı və İnqilab Hərbi Şurasının Fəxri Fərmanı ilə mükafatlandırılmışdır.

1938-ci ildə millətçilik və pantürksizmdə günahlandırılaraq güllələnmişdir. 1954-ci ildə SSRİ Ali Məhkəməsinin qərarı ilə reabilitə edilmişdir. Şəhərin küçələrindən biri K.Məmmədbəyovun adını daşıyır.

Məmmədbəyov Mihrab Məmmədəmin oğlu – 1890-cı ildə Dərbənd şəhərində anadan olmuşdur. Dərbənd bağçılıq, üzümçülük və bostançılıq məktəbini bitirdikdən sonra inqilab hərakatına qoşulmuş, vilayət inqilab komitəsinin sədr müavini olmuşdu. M.Məmmədbəyov 1920-ci ildən Dərbənd torpaq şöbəsində işləmişdir. O, İnqilab komitəsinin üzvü olmuş, 1923-cü ildə yeni yaradılmış şəhər Sovetinə sədr seçilmiş və 1927-ci ilədək bu vəzifədə işləmişdir. Sonralar Gəncə Kənd Təsərrüfatı İnstitutunda oxumuş, 1932-1933-cü illərdə Dərbənd Kənd Təsərrüfatı Texnikumuna başçılıq etmiş, 1933-1937-ci illərdə isə Dərbənd zona təcrübə-seleksiya stansiyasında çalışmışdır. 1937-ci ildə yenidən Dərbənd şəhər Sovetinin sədri seçilmiş, lakin sonralar xəyanətdə günahlandırılmış və «xalq düşməni» kimi məhkum edilmişdur. M.Məmmədbəyov 1947-ci ildə həbsdən qayıtmışdır. Lakin Dərbəndə qeydiyyata götürülmədiyinə görə Xudat da yaşamağa məcbur olmuşdur. O, 1956-cı ildə vəfat etmiş və Dərbənddə dəfn olunmuşdur.

Məmmədbəyova Ruhən Huseyn qızı – 1910-cu ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd Pedaqoji Texnikumunu bitirmiş və məktəbdə müəllim işləmişdir.

Məmmədbəyova Sima Hüseyn qızı – Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Moskva Dəmiryol Nəqliyyatı İnstitutunu bitirmişdir. 1996-cı ildə vəfat etmişdir.

Məmmədbəyov Şəmsəddin Hacıbaba oğlu – 1921-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Dərbənd şəhər 1 saylı orta məktəbi və Yevpatoriyada Ali Hava Hücumundan Müdafiə Məktəbini bitirmişdir.

O, 1939-cu ildən Sovet ordusu sıralarında xidmət etmiş və 1941-1945-ci illər müharibəsinin iştirakçısı olmuşdur. Müharibəni podpolkovnik rütbəsində, artilleriya alayının qərargah rəisi vəzifəsində bitirmişdir.

Ş.Məmmədbəyov 1951-1955-ci illərdə Avstriyada (Vyana şəhəri) zenit-artileriya diviziyasının komandiri olmuşdur. 1955-1994-cü illərdə Barnaul şəhərində (Altay diyarı) kombayn zavodu baş direktorunun müavini işləmişdir.

O, Aleksandr Nevski ordeni, iki «Vətən Müharibəsi», «Qızıl ulduz», «Döyüş xidmətlərinə görə» ordenləri ilə və 15 medalla təltif olunmuşdur. 1994-cü ildə vəfat etmiş və Barnaul şəhərində dəfn olunmuşdur.

Məmmədov Hüseynbala Cəfərqulu oğlu – 1899-cu




il oktyabrın 22-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. O, 1917-ci ildə Dərbənd realnı məktəbini bitirmişdir. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin xüsusi qərarına əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri olmuşdur. Parlamentin 1919-cu il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini davam etdirmək üçün Almaniyanın Bonn Ali Kənd Təsərrüfatı Məktəbinə göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən Azərbaycanlı Tələbələr İttifaqının 1923-1925-ci illər üçün məlumatında onun təhsilinin bitməsinə 6 ay qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdır.

Məmmədov Şeyda bəy Fərəc oğlu – 1912-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Məzahir Rzayev adına şəhər yeddiillik məktəbi, Dərbənd Pedaqoji Texnikumunu və Moskva Fəlsəfə və Ədəbiyyat İnstitutunu bitirmişdir. Fəlsəfə elmləri doktoru, professor, RSFSR-in əməkdar elm xadimidir. Birinci Moskva Tibb İnstitutunda və Moskva Dövlət Universitetində dərs demişdir. Polkovnik Ş.Məmmədov Sovet Ordusunun Baş Siyasi İdarəsində məsul vəzifə tutmuşdur. 1985-ci ildə vəfat etmiş və Moskvada dəfn olunmuşdur.

Məmmədova Şəfiqə Həşim qızı – Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 11 saylı şəhər orta məktəbi və Azərbaycan İncəsənət

İnstitutunu bitirmişdir. Şəfiqə xanım Məmmədova teatr, kino sahəsində çalışır. Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin professorudur. Şəfiqə xanım Azərbaycan Respublikasının Xalq artisti, Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.

Məmmədov Taib Məmmədnəbi oğlu – 1910-cu ildə Dərbənddə anadan olmuşdur. Dərbənd Pedaqoji Texnikumunu (1928) və Dağıstan Pedaqoji İnstitutunun tarix fakültəsini (1941) bitirmişdir. Dərbənd Pedaqoji Texnikumunda kitabxana müdiri, kənd ibtidai məktəbinin müəllimi, kənd məktəbinin direktoru, rayon komsomol komitəsinin təbliğatçısı, maarif işçiləri həmkarlar komitəsinin katibi, «Dağıstan» kolxozu tədris kombinatının direktoru, Dağıstan səhiyyə fəhlə fakültəsinin direktoru, tədris şöbəsinin rəisi, Dərbənd Pedaqoji Məktəbinin direktoru işləmişdir. T.M.Məmmədov «Şərəf nişanı» ordeni, «Qafqazın müdafiəsi», «1941-1945-ci Böyük Vətən müharibəsi illərində fədakar əməyə görə», «V.İ.Leninin 100-illiyi ərəfəsində fədakar əməyə görə» medalları təltif olunmuşdur.



Məmmədzadə Nuri Həsənağa oğlu – 1978-ci il oktyabrın 6-da Mahaçqala şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1998-ci ildə Dağıstan Dövlət Universitetinin tarix fakültəsini şərqşünaslıq ixtisası üzrə bitirmişdir. Həmin il İran İslam Respublikası Tehran Universitetinin fars dili və ədəbiyyat fakültəsinin magistraturasına və 2002-ci ildə isə həmin Universitetin doktoranturasına daxil olmuşdur.



O, öz elmi işini XIX əsrin məşhur Dərbənd şairi Məhəmməd Tağı Gümri Dərbəndinin yaradıcılığının öyrənilməsinə həsr etmişdir. Məhəmməd Tağı Gümri Dərbəndi fars dilində 600-ə yaxın beyt yazmışdır. Məmmədzadə Nuri Məhəmməd Tağı Gümri Dərbəndinin şeirlərinin öyrənilməsinə və bərpasına 4 ilə yaxın vaxt sərf etmişdir. Görkəmli İran alimlərindən professor F.Xarirçi, professor M.Əkbəri, doktor A.Seyf onun elmi rəhbəri olmuşlar. Dissertasiyanın müdafiəsi Tehran Universitetində keçirilmiş və yüksək qiymətləndirilmişdir.

Məmərzabəyov Mehrab Məmməd Əmin oğlu – 1890-cı ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd Bağçılıq, Üzümçülük və Tərəvəzçilik məktəbini bitirdikdən sonra Saratov şəhərində işləmiş və burada inqilabi işə qoşulmuş, quberniya İnqilab Komitəsinin sədr müavini olmuşdur. 1920-ci ildə Dərbənd şəhərinə gəlmiş və 1927-ci ilədək şəhər torpaq şöbəsində işləmişdir. Sonralar o, Gəncə şəhərində Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmiş və 1932-1933-cü illərdə Dərbənd Kənd Təsərrüfatı Texnikumuna, sonra isə Dərbənd Zona Təcrübə-Seleksiya stansiyasına başçılıq etmişdir. 1937-ci ildə «xalq düşməni» kimi həbs edilmiş və 1947-ci ildə həbsdən azad olunmuşdur. Dərbənd şəhərində vəfat etmiş və orada dəfn olunmuşdur.

Məsum Dərbəndi – XVII əsr şairi. Onun həyat və yaradıcılığı haqqında heç bir ətraflı məlumat yoxdur. Onun əsərləri, əsasən, Dərbənd şəhərində və Azərbaycan Respublikasında yaşayan vətəndaşların şəxsi arxivlərində saxlanılır. Müasir dövrdə Azərbaycan dilində çap olunmuş ayrı-ayrı şeir toplularında onun şeirlərinə rast gəlinir («Dağıstan töhfələri», Bakı, 1987).

Mirzə Cəbrayıl (1842-1902) – alim və şair Mirzə Kərim Şuainin kiçik qardaşıdır. Öz şeirlərini «Sipeyri» təxəllüsü ilə çap etdirmişdir. O, Dərbənd qəza məktəbində müəllim işləmişdir. Mirzə Cəbrayıl 1877-ci ildə təqaüdə çıxaraq yaradıcılıqla məşğul olmuşdur. O, şəbihlər (dini teatr janrı) və çoxlu qəsidələr, mərsiyələr, lirik şeirlər yazmışdır, lakin onun yazdığı şeirlər çap olunmamışdır. Mirzə Cəbrayıl çox isdedadlı şair idi. O, M.Füzulinin, X.Natəvanın və Əlişir Nəvainin türk dilində yazılmış şeirlərini və qəzəllərini əzbər bilirdi. O, tarix elminə də böyük həvəs göstərirdi. 1891-ci ildə Dərbənd şəhərinin tarixinə həsr olan «Dərbəndnamə»nin yeni öz versiyasını yazır. Bu əlyazma Azərbaycan MEA M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır.

Mirzə Cəbrayıl 1902-ci ilin fevralında vəfat etmiş və Dərbənd qəbiristanlığında dəfn olunmuşdur.

Mirzə Xəlil («Bül-bül») – XVIII əsrin sonu

XIX əsrin əvvəlində tanınmış Dərbənd şairlərindən biri olmuşdur. Onun yazdığı qəzəllər Azərbaycan poeziyasının xəzinəsinə daxil olmuşdur.

Mirzə Xəlilin yaradıcılığı tədqiq edilməmişdir. Müasirlər onu Füzuli məktəbinin ən parlaq nümayəndələrindən biri olduğunu qeyd edirlər.

Mirzə Kərim (1820-1894) – görkəmli alim və şair. O, öz əsərlərini «Şuai» təxəllüsü ilə çap etdirmişdir (şua – ərəbcə işıq, nur deməkdir).

Yüksək ev təhsili almış gənc Mirzə Kərim Kür dairəsinin rəisi polkovnik Sultan Əhməd bəyin diqqətini cəlb etmiş, o onu 1840-ci ildə katib kimi işə götürmüş və bütün səfərlərində özü ilə aparmışdır. Sultan Əhməd bəy ona ilk hərbi rütbə verilməsinə və medalla təltif olunmasına nail olmuşdur.

Sultan Əhməd bəy istefaya çıxdıqdan sonra Dərbənd şəhərinə köçür və Mirzə Kərimi də katib kimi özü ilə aparır. 1860-cı ildə naməlum səbəblərə görə polkovnik Sultan Əhməd bəy intihar edir. Hakimiyyət orqanları onun ölümündə Mirzə Kərimi günahlandıraraq, onu Sibirə sürgün edirlər. Bir neçə ildən sonra bəraət qazanan Mirzə Kərim Dərbəndə qayıdır. O, Sibirdən qayıtıqdan sonra şəhər məhəllələrin birinə rəisi təyin edilir. O, məhərrəm ayının mərasimlərinə (aşuraya) həsr olunmuş dini teatr tamaşalarının təşkili ilə məşğul olur. Müsəlman (şiə) tarixi adət-ənənələrini yaxşı bilən və şairlik istedadı olan Mirzə Kərim bu tamaşalar üçün mükalimə yazır və həmin tamaşalara rejissorluq edir. Bu tamaşalar əhali arasında böyük rəğbətlə qarşılanır. Mirzə Kərimin dini səpgidə yazdığı mükalimələri Azərbaycanda və İranda geniş şöhrət qazanmışdır. Bundan əlavə o, dini mövzulara aid çoxlu qəsidələr, mərsiyələr, həmçinin lirik şeirlər və poemalar yazmışdır. Onun yeganə «Divan» şeirlər toplusu 1880-ci ildə Təbriz şəhərində çap olunmuşdur. O, şeirlərini türk, Azərbaycan və fars dillərində yazmışdır. Mirzə Kərim Şuai 1894-cü ildə vəfat etmiş və Dərbəndin cənub qəbiristanlığında dəfn edilmişdir.

Mirzə Məhəmməd Tağı (1819-1891) – XIX əsrin müsəlman (şiə) aləminin məşhur şairi idi. O, öz əsərlərini «Gümri» təxəllüsü ilə yazmışdır. Hələ sağlığında onun əsərləri Azərbaycanın şeirlər antalogiyasına daxil edilmiş və qəsidələri, mərsiyələri xalq arasında böyük şöhrət qazanmışdır.

1882-ci ildə Təbrizdə onun Məhəmməd peygəmbərin nəvəsi imam Hüseynə həsr olunmuş ikihissəli «Kənzul-məsaib» əsəri çap olunmuşdur. Bu əsər ona geniş şöhrət qazandırmış və hətta o, İran şahı tərəfindən qəbul edilmişdir.

Onun əsərləri Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda və şəxsi kitabxanalarda saxlanılır.

Mirzə Səməndər (Əbdül Əli Ağa Emin oğlu) – 1827-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycanın tanınmış satirik şairlərindən biri idi. O, öz əsərlərini «Səməndər» təxəllüsü ilə yazmışdır. Mirzə Səməndər ibtidai təhsilini məşhur din xadimi Ağa Babadan almışdır. Onun şair kimi püxtələşməsində Mirzə Kərim Şuainin, Mirzə Məhəmməd Tağı Gümrinin və başqalarının böyük əməyi olmuşdur. Mirzə Səməndər Mirzə Cəbrail Sipeyrini öz müəllimi hesab edirdi. O, ərəb əlifbasını məhz ondan öyrənmişdir.

Sonralar Mrzə Səməndər Bakı şəhərində tanınmış Hadi Hacıbabanın mədrəsəsində təhsilini davam etdirmişdir. Artıq 20 yaşında Mirzə Səməndər Bakı və Dərbənd şəhərlərinin poeziya sevənləri arasında məşhur idi. O, həm də dini mərsiyə və qəsidələr müəllifi kimi də tanınırdı.

Mirzə Səməndərin əsərləri çap olunmamış lakin, onun çoxsaylı əsərləri indiyədək xalq arasında şifahi formada qalmaqdadır. Mirzə Səməndər 1920-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Mirzəbəyov Abdulla bəy Əhməd oğlu – tibb elmləri namizədi, Dərbənd şəhərində anadan olmuşdur. Dərbənd realnı məktəbini və Mahaçqala Tibb İnstitutunu bitirmişdir. Mahaçqala şəhərində həkim, «Talqi» balneoloji istirahət mərkəzinin baş həkimi işləmişdir. 1964-cü ildə Mahaçqalada vəfat etmiş və Dərbənd şəhərində dəfn olunmuşdur.

Mirzəbəyov Əbdurəzaq Mərdan oğlu – görkəmli ictimai-siyasi xadim, 1938-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. 1938-ci ildə Qroznı Neft İnstitutunu bitirmişdir. 1972-ci ildən Qızılyar elektromexanik zavodunun direktoru işləmişdir. 1984-cü ildə Dağıstan Respublikası Nazirlər Sovetinin sədr müavini, 1987-1998-ci illərdə isə sədri vəzifələrində işləmişdir. Ə.Mirzəbəyov SSRİ və Dağıstan MSSR Ali Sovetlərinin deputatı, Dağıstan Respublikasının Nazirlər Sovetinin üzvü seçilmişdir. O, «Qırmızı Əmək Bayrağı», iki «Şərəf nişanı» ordenləri, çoxlu medallarla təltif olunmuşdur. 2008-ci il iyulun 17-də vəfat etmişdir.

Mirzəbəyov Əhməd bəy Nağı bəy oğlu – 1861-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. İlk təhsilini evdə almışdır. O, titulyar müşavir rütbəsinə ucalmış, beynəlxalq əlaqələr şöbəsi rəisinin müavini, 1896-ci ildən şəhər müvəkkillər məclisinə namizəd, birinci (1896-1900), ikinci (1900-1904) və dördüncü (1908-1912) şəhər müvəkkillər heyətinin deputatı olmuşdur.

1903-1904-cü illərdə şəhər müvəkkillər məclisinin sədri seçilmişdir.

Mirzəbəyov Mərdan bəy Əhməd bəy oğlu – 1898-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Dərbənd realnı məktəbini və Moskva Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. Hələ realnı məktəbində təhsil aldığı zaman inqilabi hərəkata qoşulmuşdur. Oktyabr inqilabından sonra qırmızı partizan olmuşdur. Polkovnik Biçeraxov və general Denikinin dəstələrinə qarşı döyüşmüşdür. Moskvada təhsilini bitirdikdən sonra Dağıstan xalq torpaq komitəsinə üzv olmuş, sonra isə həmin komitənin sədr müavini vəzifəsində çalışmışdır. 1953-cü ildə vəfat etmiş və Mahaçqala şəhərində dəfn olunmuşdur.

Mirzəbəyov Rəhim bəy İsmayıl bəy oğlu – polkovnik, 1916-cı ildə Dərbənd şəhərində anadan olmuşdur. 1941-1945-ci illər müharibəsinin iştirakçısı olmuşdur. Qroznı Neft İnstitutunun texnologiya fakültəsini bitirmişdir. Quryev şəhərində (Qazaxıstan) neft emalı zavodunun hərbi nümayəndəsi, Qroznı şəhərində isə Qroznı Neft İnstitutunun hərbi kafedrasının rəisi vəzifəsində çalışmışdır. 1997-ci ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Mirzəbəyova Şahzadə Əhməd bəy qızı – o görkəmli pedaqoq, maarifçi və yazıçı Talıbov Abdullanın (Abdulla Şaiq) həyat yoldaşıdır. Onların iki oğlu və bir qızı olmuşdur. Onların oğlu Kamal Abdulla oğlu Talıbzadə görkəmli ədəbiyyatşünas, yazıçı və Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. Akademik Kamal Talıbzadə 2006-cı ildə vəfat etmişdir.

Mirzəyev Həsən Borisoviç – hüquq elmləri



doktoru, professor, Rusiya Təbiyyat Elmlər Akademiyasının akademiki, Bricport Universitetinin (ABŞ) fəxri doktoru, 1947-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. O, Azərbaycan Dövlət Universitetini və Moskva İdarəetmə İnstitutunu bitirmişdir. Rusiya Ədliyyə Akademiyasının rektoru, Rusiya Federasiyası Ədliyyə Nazirliyinin Moskva Beynəlxalq Hüquq İnstitutunun vəkillik kafedrasının müdiri, BMT-nın MAİ insan hüquqları şöbəsinin prezidenti, Beynəlxalq informatika akademiyasının vitse-prezidenti, Rusiya Federasiyası Prezidenti yanında Akademiyanın dövlət xidməti dissertasiya şurasının üzvü, Rusiya və MDB ölkələri üzrə Beynəlxalq vəkillər assosiasiyasının baş katibinin müavini, Rusiya Prezidenti yanında hüquq məhkəməsinin təkmilləşdirilməsi məsələləri üzrə Şuranın üzvü, Rusiya və Belorus İttifaq parlament iclasının deputatıdır.

H.Mirzəyev «Əmək fədakarlığı», «Georgi Jukov», «Rusiya Federasiyasının Ədliyyə Nazirliyinin 200-illik yübileyi», «F.N.Plevako adına qızıl medal» medalları, Rusiya Ədliyyə Nazirliyinin ali mükafatları «Anatoli Koni medalı», «Rusiyanın fəxri vəkili» adı ilə təltif olunmuşdur.

O, 3-cü dərəcəli Dövlət Ədliyyə müşaviri (general-mayor), Rusiya Federasiyasının əməkdar hüquqşünasıdır.

Mirzəxanova Susanna Əbdülhəmid qızı – 1951-ci il avqustun 31-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



1968-ci ildə orta məktəbi bitirdikdən sonra «Elektrosiqnal zavodunda» işləmişdir. 1977-ci ildə Susanna Mirzəxanova Dağıstan Politexnik İnstitutunun mühəndis-inşaatçı fakültəsini bitirdikdən sonra o Evtikmə Kombinatında inşaatçı-mühəndis və iş icraçısı vəzifələrində çalışmışdır. 1977-ci ildə Dərbənd şəhər Komsomol Komitəsinin ikinci katibi vəzifəsinə təyin edilmişdir. S.Mirzəxanova sonra şəhər partiya komitəsinin büro üzvlüyünə və 1979-cu ildə isə Dərbənd şəhər Komsomol Komitəsinin birinci katibi seçilir. 1983-1984-cü illərdə şəhər Partiya Komitəsinin sənaye-nəqliyyat şöbəsinin müdiri, 1984-1987-ci illərdə Dərbənd şəhər İcraiyyə Komitəsinin sədr müavini və plan-iqtisad komissiyasının sədri, 1987-1988-ci illərdə Dağıstan Vilayət Komitəsinin tikinti şöbəsinin təlimatçı, 1988-1990-cı illərdə Dərbənd şəhər Xalq Nəzarəti Komitəsinin sədri, 1990-1992-ci illərdə Dərbənd

şəhər İcraiyyə Komitəsinin köməkçisi vəzifələrində işləmişdir.

S.Mirzəxanova 1989-cu ildə Rostov Ali Partiya məktəbini (qiyabi), 1998-ci ildə Dağıstan Dövlət Universitetinin maliyyə və kredit fakültəsini bitirmişdir. 1981-ci ildə S.Mirzəxanova Dağıstan Ali Soveti Rəyasət heyətinin fəxri fərmanı ilə təltif olunmuşdur.

S.Mirzəxanova 1992-ci ildən Dərbənd şəhər maliyyə xidmətinin mərkəzi şöbəsinə başçılıq edir.

Molla Əhməd (1765-1871) – 1765-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dövrünün tanınmış şairlərindən olub o, öz əsərlərini «Faiz» təxəllüsü ilə yazmışdır.

Molla Əhməd ədəbiyyat aləmində yüksək nüfuza malik idi və onu Seyid Əzim Şirvani, Hilali Şirvani, Mirzə Həsən Yüzbaşov, Mirzə Həsən Növrəs və digər kimi dövrünün digər tanınmış və məşhur şairlər ilə sıx dostluq əlaqələri bağlayırdı. Ərəb, fars dillərini mükəmməl bilən Molla Əhməd Şərq poeziyasının təbliğatçısı olmuşdur. Məşhur şairlər Mirzə Kərim Şüai, Mirzə Cəbrayıl Sipeyri, Mirzə Məhəmməd Tağı Gümri, Mirzə Xəlil Bül-bül, Hüseyn Əli Məhzun və başqaları onun tələbələri olmuşlar. Molla Əhmədin («Faiz») əsərləri Azərbaycan poeziyasının xəzinəsinə daxil edilmişdir.

Molla Feyzulla – XVIII əsrin ikinci yarısında Dərbənd şəhərində anadan olmuşdur. O, öz əsərlərini «Feyzi» təxəllüsü ilə yazmışdır. Onun yazdığı qəzəllər və qəsidələr Dərbəndin hüdudlarından kənarlarda da tanınırdı. Onun 324 sətirlik «Dönüklük» satirik poeması Molla Feyzullanın böyük söz ustası olduğunu göstərir. Molla Feyzullanın yaradıcılığı tədqiq olunmamışdır. Onun bəzi əsərlərinə XX əsr Azərbaycan şairlərinin şeir toplularında rast gəlmək olar.

Mövsümov Həbibulla Hacıbala oğlu- 25 dekabr 1925-ci ildə Dərbənd şəhərində anadan olmuşdur.



1943-cü ildə Dərbənd pedaqoji məktəbini bitirdikdən sonra onu əlaçı kimi Mahaçqala şəhərin Pedaqoji institutunun fizika-riyaziyyat fakültəsinə göndəriblər.

1945-ci ildə institutunu bitirdikdən sonra o Botlix orta məktəbinin direktoru vəzifəsində işləyir.

1948-ci ildə H.H.Mövsümov doğma Dərbənd şəhərin Məzahir Rzayev adına 4 saylı məktəbinin tədris hissə müdiri vəzifəsinə təyin edilmişdir.

1951-ci ildə H.H.Mövsümovu Dərbənd şəhər Komitəsinin Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqının birinci katibi vəzifəsinə seçmişdirlər.

H.H.Mövsümov uzun illər ərzində partiya və sovet orqanlarda çalışırdı: Sovet İttifaqı Kommunist Partiyasının şəhər komitəsinin təşkilat şöbəsinin müdiri, icraiyyə komitəsinin sədr müavini və şəhər partiya komitəsinin katibi.

1958-ci ildən 1963-cü ilədək o M.Y.Lermontov adına 8 saylı orta məktəbin direktoru.

1963-1969-cu illərdə - Dərbənd şəhər Partiya Komitəsinin katibi

1969-1971-ci illərdə-19 saylı yeni orta məktəbinin ilk direktoru kimi fəaliyyət göstərmişdir.

1971-ci ildə Sovet İttifaqının Kommunist Partiyasının Şəhər Komitəsi onu xalq maarifi şəhər komitəsinin müdiri vəzifəsinə göndərmişdir.

2000-2009-cu illərdə Dərbənd şəhər Təhsil üzrə Veteranlar Şurasının sədri vəzifəsində çalışmışdır.

1976-cı ildə H.H.Mövsümov iqtisadi elmlər namizəd dərəcəsi almaq üçün Azərbaycan Elmlər Akademiyasında dissertasiyasını müdafiə etmişdir.


Dağıstan Muxtar SSR-nin məktəblərin "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür. Rusiya Federasiyasının təhsil əlaçısıdır.

H.H.Mövsümov "Şərəf nişanı" orden, 1941-1945 Böyük Vətən Müharibə illərində "Əmək İgidliyinə görə" medalları ilə təltif olunmuşdur.

Dağıstanın "Əməkdar müəllimi" - Həbibulla Mövsümovun 90-cı ildönümünə həsr olunur.

2015-ci ilin sonunda və 2016-cı ilin astanasında Həbibulla Mövsümovun 90 yaşı tamam olmalı idi.

Mövsümov Rafiq Həbibula oğlu - 1952-ci il aprel ayının 5-də Dərbənd şəhərində - əsil dərbəndi-



azərbaycanlı müəllimlər ailəsində anadan olmuşdur. Azərbaycanlıdır.

1968-ci ildə M.Y.Lermontov adına 8 saylı orta məktəbini bitirmişdir.

1974-cü ildə Moskva Avtomexanik İnstitutunun müvəffəqiyyətlə bitirmişdir və

mühəndis-mexanik ixtisasını almışdır. İnstitutunu qurtardıqdan sonra onu gənc mütəxəssis kimi doğma Dərbənd şəhərinin "Elektrosiqnal" zavoduna göndərmişdilər. Həmin zavodda sıravi mühəndisdən çexin və şöbənin rəisi vəzifəsinə 14 iş stajı ərzində zavodun böyük kollektivində hörmət qazanmışdır. 1987-ci ildə işində yüksək göstəricilərinə görə onu Dağıstanın qədim müəssisə olan "DAQYUN" fabrikinin baş mühəndisi vəzifəsinə təyin ediblər. Qısa müddət ərzində o fabrikini şəhərin ən qabaqcıl müəssisənin sırasına salmışdır.

1998-ci ildən 2014-cü ildə pensiyaya çıxanadək o "Transneft" sistemində Dağıstanın bölməsinin rəhbəri vəzifəsində işləyirdi. 2003-cü ildə "Transneft" QSC-nin Fəxri Fərmanı ilə təltif olmuşdur və 2011-ci, 2012-ci, 2013-cü illərdə "Yüksək göstəriciləri nailiyyətlərə görə" "Svyaztransneft" QSC-nin, "Transneft" QSC-nin rəhbərləri tərəfindən təşəkkür məktubları almışdır.

2003-cü ildə Rusiya Federasiyasının Dövlət Dumasına Rusiyanın Respublika partiyası tərəfindən dərbəndilərin arasında yeganə namizəd seçilmişdi.

2015-ci ilin oktyabr ayında "Dədə Qorqud" ictimai təşkilatı tərəfindən Dərbənd şəhərin mer postuna irəli sürülmüşdür.

1977-ci ildə Nəzakət Ənvər qızı Zeynalova ilə evlənmişdir. Əli-Əhməd, Kəmran, Bəxtiyar üç oğlu və Həbibulla, Nəzakət, Murad və Leyla-dörd nəvə vardır.

Hal-hazırda dərbəndilərin birləşməsi üzrə böyük ictimai iş aparır, Dərbəndin ən yaxşı beynəlmiləl ənənələri istifadə edərək şəhərin gənclərin tərbiyəsi ilə məşğuldur.

"Dədə Qorqud" Dağıstan Xeyriyyə Fondun rəhbəridir.

Musayev Nəriman Məhəmməd oğlu – 1966-cı il iyulun 14-də İzberbaş şəhərində anadan olmuşdur. 1982-ci ildə Moskva Dağ İnstitutuna qəbul olmuş, 1988-ci ildə həmin institutu «Dağ mühəndis-fiziki» ixtisası üzrə bitirmişdir. Əmək fəaliyyətinə Dağıstan Tikinti Materialları Kombinatında başlamışdır. 1994-cü ildən DTMK-nın direktor vəzifəsində çalışır. Dərbənd Şəhər Məclisinin deputatıdır.



Nağıyeva Dilarə Fərəc (Əliəsgər) qızı – 1940-cı il mayın 23-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



Azərbaycan milyonçusu, mesenat, xeyriyyəçi, neft sənayeçisi Ağa Musa Nağıyevin nəvəsidir.

1959-cu ildə əmək fəaliyyətinə başlayıb. 1971-1977-ci illərdə «Azərbaycanfilm» kinostudiyasında, sonra isə Azərbaycan SSR Ticarət Nazirliyi və SSRİ Dəmir Yol Nazirliyinin nomenklatur işçisi olub, kadr mütəxəssisi kimi fəaliyyət göstərmişdir.

Nəbiyev Cümşüd Hacı Həsənbala oğlu – 1906-cı ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1922-1928-ci illərdə milis orqanlarında xidmət etmişdir. 1929-1931-ci illərdə Dərbənd şəhər Xalq deputatlar sovetinin sədri, 1941-1945-ci illər müharibəsi dövründə Dərbənd şəhərinin hərbi komissarı vəzifələrində çalışmışdır. Bakıya köçdükdən sonra Azərbaycan Dövlət Universitetinin prorektoru vəzifəsində işləmişdir.

Nəsirov Cəfər Nəsrulla oğlu – Dərbənd şəhərində anadan olmuş və ibtidai təhsilini burada almışdır. Gənc yaşlarından, hələ dərzi şagirdi olarkən inqilabi hərəkata qoşulmuş, 1914-cü ildə peşəkar inqilabçı Y.Markus tərəfindən yaradılmış gizli gənclər inqilab təşkilatının, «Ümid» qeyri-leqal müsəlman gənclər təşkilatının üzvü olmuşdur.

C.Nəsirov şəhərin yuxarı hissəsində «İşıq» ictimai oxu zalının yaradılmasında və işində iştirak etmişdir. Burada azərbaycanlı bolşeviklər mühazirə və məruzələrlə çıxış edir, oxu şurası isə bolşevik qəzetlərini, Bakıda nəşr olunan «Molla Nəsrəddin» satirik jurnalını yayır, teatrsevər gənclərin dram dərnəyi fəaliyyət göstərirdi. O, şəhərdə komsomol hərəkatının fəal nümayəndəsi olaraq, şəhər partiya həyatında da fəal iştirak etmişdir. Sonralar şəhər sovetində işləmiş, şəhər sakinləri arasında savadsızlığın ləğv edilməsində xeyli iş görmüşdür.

C.Nəsirov şəhərdə «Hümmət» sosial-demokrat (bolşevik) təşkilatının yerli komitəsinin yaradıcılarından biri olmuşdur.

1922-ci ildə qadınlar arasında savadsızlığı aradan qaldırmaq və onları «proletariat mədəniyyətinə»

cəlb etmək məqsədi ilə yaradılmış şəhər dağlı qızlar klubu (hazırda Komunarlar küçəsi, 46) onun adı ilə adlandırılmışdır.

C.Nəsirov 1925-1927-ci illərdə Dərbənddə Azərbaycan dilində nəşr olunan «Dağıstan füqərası» respublika qəzetini redaktoru olmuşdur. O, 1927-ci ildə vəfat etmiş və Dərbənddə dəfn olmuşdur.

Nəsirov Elşad Mustafa oğlu – 1960-cı il dekabrın



29-da Bakıda anadan olmuşdur. Azərbaycanlıdır. Əslən dərbəndlidir. Bakı şəhərində 189 saylı orta məktəbi bitirmişdir. 1976-1982-ci illərdə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda təhsil almışdır. 1980-1982-ci illərdə SSRİ-nin Əfqanıstandakı səfirliyində diplomatik təcrübədə olmuşdur.

1982-1986-cı illərdə SSRİ Elmlər Akademiyasının Şərqsünaslıq İnstitutunda elmi işçi, 1986-1989-cu illərdə SSRİ Xarici İşlər Nazirliyinin Konsul idarəsində, 1989-1992-ci illərdə SSRİ-nın Hindistan Respublikasında vitse-konsul vəzifələrində çalışmışdır.

E.M.Nəsirov 1991-ci ildən başlayaraq Azərbaycan Respublikasının xarici ölkələrdə ilk nümayəndəliyinin yaranmasında və açılışında böyük rol oynamışdır. 1992-ci ildən Azərbaycan Respublikasının BMT-da Azərbaycanın daimi nümayəndəliyində birinci katib kimi diplomatik fəaliyyət göstərmişdir. 1995-1997-ci illərdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində şöbə rəisinin müavini, 1997-2000-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətində xarici iqtisadi əlaqələr idarəsinin rəisi, 2000-2005-ci illərdə SOCAR-da Marketing və İqtisadi Əməliyyatlar idarəsində baş menecer işləmişdir. 2004-cü ildən Azərbaycan Futbol Federasiyasının vitse-prezidentidir. 2005-ci ildən SOCAR-ın vitse-prezidenti vəzifəsinə təyin edilib. E.M.Nəsirov rus, ingilis, fars, türk, hind, urdu dillərini mükəmməl bilir.

Nəsirova Xavər Məmməd Sadıq qızı – 1926-cı il dekabrın 15-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Əslən dərbəndlidir. O, Bakı şəhərində 189 saylı orta məktəbi, Müəllimlər İnstitutunun təbiət-coğrafiya fakültəsini bitirmiş və orta məktəbdə müəllim işləmişdir. 1946-cı ildə Azərbaycan Dövlət Universitetinə daxil olmuşdur. Universiteti bitirdikdən sonra orada 50 il müəlimlik etmişdir. 2009-cu ildə fəxri təqaüdə çıxmışdır.

Nəsirov Mustafa Cəfər oğlu – general-mayor,



Dərbəndin Fəxri vətəndaşı, 1921-ci ildə Dərbənd şəhərində qulluqçu ailəsində anadan olmuşdur. Azərbaycanlıdır. Məzahir Rzayev adına Dərbənd ibtidai məktəbini, Dərbənd pedaqoji məktəbini və ikiillik Dağıstan Pedaqoji İnstitutunu bitirmişdir. 1940-cı ildən Sabnova kəndində natamam orta məktəbin müəllimi və tədris hissə müdiri işləmişdir. 1942-ci ildə ordu sıralarına çağırılmışdır. 1943-cü ilin iyulunda Saratov Hərbi Sərhəd məktəbini bitirmişdir. 1947-ci ilin martında M.Nəsirov DİHK qoşunları üzrə Frunze (Bişkek) şəhərinin hərbi komendantı təyin olunmuşdur. O, Qırğızıstan Pedagoji İnstitutına daxil olmuş və 1948-ci ilin iyul ayında oranı bitirmişdir. 1948-1952-ci illərdə SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin Hərbi Akademiyasında təhsil almışdır. Akademiyanı bitirdikdən sonra Azərbaycan SSR Sərhəd Dairəsi qərargahında döyüş hazırlığı şöbəsinin rəis müavini işləmişdir. Bu illərdə onun sərhəd xidməti və hərbi hazırlıq sisteminin təkmilləşdirilməsi məsələləri üzrə bir sıra məqalələri çap olunmuşdur. Tezliklə gənc zabit Prişip sərhəd dəstəsinin qərargah rəisi, Neftçala sərhəd dəstəsinin rəisi, sonra isə Naxçıvan sərhəd dəstəsinin rəisi vəzifələrində xidmət etmişdir. M.Nəsirov SSRİ DTK sərhəd qoşunlarında belə məsul vəzifələr tutan ilk azərbaycanlı idi. Bu dövrlərdə M.Nəsirov həmçinin Naxçıvan və Culfa sərhəd sahələri üzrə SSRİ Sərhəd Komissarı təyin olunmuşdur. M.Nəsirov iki aydan sonra sərhəd zonasında İran İslam Respublikası ilə birlikdə Araz və Mil-Muğan hidroqurğularının tikilməsi üzrə sərhəd müvəkkili təyin olunmuşdur. M.Nəsirov iki dəfə Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmiş, üç dəfə Naxçıvan Muxtar Respublikası və Azərbaycan Respublikası Ali Sovetinin Fəxri Fərmanları ilə mükafatlandırılmışdır.

1968-ci ilində noyabr ayında M.Nəsirov Azərbaycan SSR Dövlət sərhəddində sərhəd qoşunlarının operativ xidməti faliyyətinə rəhbərlik üzrə Bakı şəhərində SSRİ DTK-nin Zaqafqaziya Dairəsinin əməliyyat qoşun şöbəsinin rəis müavini,

1972-ci ilin dekabr ayında – SSRİ DTK-nin Zaqafqaziya Sərhəd Dairəsi Qoşunlarının rəis müavini işləmişdir. O dövrdə sərhəd qoşunlarında 65 yaşına qədər xidmət edən yeganə general olmuşdur. M.Nəsirov orduda xidmət etdiyi illər ərzində dörd dəfə Azərbaycan SSR Ali Sovetinin deputatı, Ali Sovetin Rəyasət heyətinin üzvü seçilmişdir, «Qırmızı Bayraq» (1967), «Qırmızıbayraqlı əmək», 1-ci dərəcəli «Böyük Vətən müharibəsi» ordenləri və 20 medal, həmçinin Jukov medalı ilə mükafatlandırılmışdır. Ehtiyata buraxıldıqdan sonra Azərbaycan Respublikası müharibə veteranları komitəsinin sədri və Azərbaycan Respublikası Prezidentinin Hərbi məsələlər üzrə müşaviri işləmişdir. Ona «Azərbaycan Respublikasının əməkdar təbliğatçısı», «Əməkdar hüquqşünas» və «SSRİ DTK-nın fəxri əməkdaşı» adları verilmişdir. 2012-ci il may ayının 27-də vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur. Dərbəndin küçələrindən biri M.Nəsirovun adını daşıyır.

Nəzirov Səfərəddin Yəhya oğlu – 1947-ci il iyunun 1-də Berikey kəndində kolxozçu ailəsində anadan olmuşdur. Onun bütün əmək fəaliyyəti xalq təhsili ilə bağlıdır. O, Dağıstan Dövlət Pedaqoji İnstitutunun kimya-biologiya fakültəsini bitirdikdən sonra Berikey kənd orta məktəbində müəllim işləməyə başlamışdır. Sonra o, Dərbənd Kənd Təsərrüfatı Texnikumunda şöbə müdiri, təsərrüfat təlimi üzrə direktor müavini və təlim-tədris işləri üzrə direktor müavini vəzifələrində işləmişdir.



2002-ci ildən Dağıstan Dövlət Pedaqoji Universitetinin Dərbənd filialının direktoru vəzifəsində işləyir.

Novruzəliyev Şixisif Nurəli oğlu – 1950-ci ildə anadan olmuşdur. 1973-cü ildə Qorski Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. O, 1973-1979-cu illərdə Dərbənd rayonlararası «Selğxoztexnika» birliyinin idarə rəisinin müavini, 1979-1982-ci illərdə rayonlararası «Selğxozximiə» istehsalat birliyinin sədri, 1982-1989-cu illərdə K.Məmmədbəyov adına sovxozun direktoru, 1989-1993-cü illərdə Aqrosənaye kompleksinin rayon həmkarlar komitəsinin sədri, 1993-1995-ci illərdə «Dərbənd» aqrokonserninin baş direktoru və 1995-ci ildən isə «Gəcuq» dövlət unitar müəssisənin baş direktorudur. Dağıstan Respublikasının Dövlət mükafatı laureatıdır.



O, Ümumrusiya Konqresinin «Millətin sağlamlıq liqası» ictimai təşkilatın diplomu ilə təltif olunmuşdur. Ş.Novruzəliyev Dağıstan Respublikasınını Xalq Məclisinin deputatıdır. Onun adı «Rusiyanın ən yaxşı adamları» (2004) ensiklopediyasına daxil olmuşdur.

Paşayev Arif Mir Cəlal oğlu – Dərbənd şəhərinin fəxri vətəndaşı, akademik, 1934-cü il fevralın 15-də Bakı şəhərində anadan olmuşdur.



Orta təhsilini 1951-ci ildə 164 saylı məktəbdə almış, 1957-ci ildə isə Odessa Elektrotexnika Rabitə İnstitutunu radiofizika ixtisası üzrə bitirmişdir.

A.M.Paşayev 1959-cu ildən Azərbaycan MEA-nın Fizika İnstitutunda elmi fəaliyyətə başlamışdır.

O, 1960-cı ildə keçmiş Sovet İttifaqının aparıcı elmi mərkəzlərindən sayılan Dövlət Nadir Metallar İnstitutunun aspiranturasına daxil olmuş, 1966-cı ildə «Yüksək və ifratyüksək tezliklərdə yarımkeçiricilərin parametrlərini ölçmək üçün kontaktsız üsul və cihazların işlənməsi»" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək texnika elmləri namizədi, 1978-ci ildə «Yarımkeçiricilərin tədqiqində qeyridağıdıcı üsulların fiziki əsasları, inkişaf prinsipləri və tətbiqi perspektivləri"» mövzusunda doktorluq dissertasiyasın müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsi almışdır.

A.M.Paşayev 1971-1996-cı illərdə Azərbaycan MEA-nın Fizika İnstitutunda Zədəsiz ölçmə və nəzarətin fiziki üsulları laboratoriyasına rəhbərliyi ilə yanaşı, institutun elmi istiqamətlərinin müəyyən edilməsində də fəal iştirak etmişdir. Bu illərdə akademik A.M.Paşayev dəfələrlə Azərbaycan elminin nailiyyətlərini Rusiya, Ukrayna, Latviya, Estoniya və Gürcüstanın bir sıra irimiqyaslı elmi mərkəzlərində nümayiş etdirmişdir. Azərbaycan MEA-nın Fizika İnstitutu rəhbərliyinin xahişi ilə

akademik A.M.Paşayev 1996-cı ildə Milli Aviasiya Akademiyasının rektoru vəzifəsinə keçdikdən sonra da institutun laboratoriyasında aparılan işlərə də elmi rəhbərlik edir.

Onun mikroelektron vericilər sahəsindəki elmi tədqiqatların nəticələri iki monoqrafiya şəklində çap edilmişdir: «Qeyrielektrik kəmiyyətlərin bərk cisimli mikroelektron çeviriciləri"» (1998) və «Bərk cisimli mikroelektron maqnitoelektrik və rütubətli elektrik çeviriciləri"» (1999). A.M.Paşayevin tədqiqatlarının nəticələri 1988-1990-cı illərdə SSRİ Elmlər Akademiyasının İfratkeçirici elektronika" Elmi Şurasının mükafatına layiq görülmüşdü.

Akademik A.M.Paşayev 1996-cı ildən hazırkı dövrə kimi Milli Aviasiya Akademiyasının rektorudur. Onun rəhbərliyi dövründə Milli Aviasiya Akademiyası yeni inkişaf mərhələsinə qədəm qoydu, tədris prosesinin, elmi-tədqiqat işlərinin ən yüksək müasir tələblər səviyyəsində təşkilinə və təhsilin Azərbaycan dilində aparılmasına başlandı.

Milli Aviasiya Akademiyası 1999-2003-cü illərdə MDB Dövlətlərarası Aviasiya Komitəsinin qərarı ilə mülki aviasiya ali təhsil müəssisəsi sertifikatına layiq görülmüş, 2000-2002-ci illərdə isə IKAO-nun (Beynəlxalq Mülki Aviasiya Təşkilatı) mülki aviasiya ali təhsil müəssisələrinin siyahısına daxil edilmişdir. MAA-nın rektoru akademik A.M.Paşayev MDB ölkələri Dövlətlərarası Aviasiya Komitəsi nəzdində olan aviasiya mütəxəssislərinin hazırlanması üzrə Koordinasiya Şurasının üzvü seçilmişdir. 2003-cü ilin mart ayında Milli Aviasiya Akademiyası MDB ölkələri arasında Avropa Universitetləri Assosiasiyasına tamhüquqlu üzv kimi qəbul olunmuş ilk akademik ali təhsil müəssisələrindəndir. A.M.Paşayev tərəfindən işlənmiş bir çox cihaz və qurğular ixtira səviyyəsində yerinə yetirilərək keçmiş Sovet İttifaqının müxtəlif sənaye müəssisələrində tətbiq edilmiş, müxtəlif beynəlxalq sərgi və müsabiqələrdə qızıl, gümüş, bürünc medal və diplomlara layiq görülmüşdür.

Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Beynəlxalq Nəqliyyat Akademiyasının akademiki, Beynəlxalq Mühəndislik Akademiyasının akademiki, Beynəlxalq Ekoenergetika Akademiyasının akademiki, Beynəlxalq Elmlər Akademiyasının akademiki, Beynəlxalq İnformatizasiya Akademiyasının akademiki, fizika-riyaziyyat elmləri doktoru, professor Arif Mir Cəlal oğlu Paşayev «VEKTOR"» Beynəlxalq Elm Mərkəzinin Mükafat Komitəsinin qərarı ilə «Azərbaycanın tanınmış alimləri"» beynəlxalq layihəsinin qalibi olmuş və «XXI əsrin tanınmış alimi"» beynəlxalq diplomu ilə təltif edilmişdir.

Akademik A.M.Paşayevin 400-dən çox elmi əsəri dərc olunmuş, 30-dan artıq kitabın, monoqrafiyanın müəllifidir, 60-dan artıq ixtira üçün müəlliflik şəhadətnaməsi və sənaye nümunələri almışdır. Bundan əlavə o, fizika sahəsindəki yüksək nailiyyətlərinə görə «SSRİ-nin ixtiraçısı"» medalına, Y.Məmmədəliyev adına medala və İngiltərə Beynəlxalq Bioqrafiya Mərkəzinin qızıl medalına layiq görülmüşdür. Akademik Arif Paşayev Azərbaycan və dünya mədəniyyətinin inkişafına, demokratiyaya, sülh və vətəndaş cəmiyyəti mədəniyyətinin tərəqqisinə verdiyi mühüm töhfəyə görə «Mədəniyyət səfiri»" ictimai fəxri adı ilə təltif edilmiş, «İntellekt-2006"» ilin layihəsi mükafatına, Beynəlxalq Mühəndislik Akademiyasının Qızıl medalı"na, həmçinin «Azərbaycan Dünyası» jurnalının təsis etdiyi «Vətən övladı» ordeninə və Dünya sülh şurasının «Sülh elçisi» diplomuna layiq görülmüşdür.

A.M.Paşayev Tbilisi Texniki Universitetində Ərazi Şurasının üzvü, Azərbaycan MEA-da cihazqayırma üzrə Elmi Şuranın sədri, Milli Aviasiya Akademiyasının nəzdində dissertasiya işlərinin müdafiəsi üzrə İxtisaslaşdırılmış Şuranın sədridir.

1991-ci ildə A.M.Paşayev Muxtar hidroakustika informasiya sisteminin yaradılması sahəsində kompleks işlərə görə" Azərbaycan Dövlət Mükafatı laureatı adına layiq görülmüşdür.

O, öz həyatının 45 illik bir dövrünü zədəsiz nəzarət fizikasının və yarımkeçiricilərin parametrlərinin ölçülməsi metodlarının elmi əsaslarının inkişafına və tədqiqinə həsr edib.

Paşabəyov Edison Kərim oğlu – 1947-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd Konserv Kombinatının elektrosexində usta, elektrosexin rəisi, kombinatın baş mühəndisinin müavini və baş mühəndisi, Dərbənd şəhər Partiya Komitəsinin sənaye-nəqliyyat şöbəsinin müdiri



vəzifələrində çalışmışdır.

1983-1993-cü illərdə Dərbənd şəhər Xalq Deputatları Şurasının İcraiyyə Komitəsinin sədri, 1993-1994-cü ilrdə Dərbənd şəhər başçısı işləmişdir.

Paşabəyov Kərim Həsənbəy oğlu – 1914-cü ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd Pedaqoji Texnikumunu bitirmişdir. Müəllim, «Lenin bayrağı» rayon qəzetinin redaktoru, şəhər Partiya Komitəsinin təbliğat və təşviqat şöbəsini müdiri, rayon İcraiyyə Komitəsinin sədr müavini, rayon Partiya Komitəsinin ikinci katibi və 1952-1955-ci illərdə şəhər İcraiyyə Komitəsinin sədri vəzifələrində çalışmışdır.

Paşabəyov Xanlar Edison oğlu - 31 oktyabr 1976-cı ildə Dərbənd şəhərində anadan olub. Dağıstan Dövlət Universitetini bitirib. Əmək fəaliyyətinə Dərbənd şəhərinin Balıqçılıq üzrə Bələdiyyə İdarəsində hüquqşünas kimi başlayıb.



1995-ci ildə Dağıstan Respublikasının Ədliyyə Palatasında təcrübə keçib. Daha sonra isə 10 il bu idarədə işləyib. 1997-ci ildən Dərbənd şəhərində müstəqil notarius kimi işləyib. 2008-ci ildə Məhkəmə Departamentinə keçib, Dərbənd şəhəri 102 saylı sahədə hakim olub.

2011-ci ildə Dağıstan Respublikası Xalq Məclisinə deputat seçilərək, qanunvericilik və dövlət tikintisi komitəsinin sədr müavini olub.

2015-ci ilin sentyabr ayından 2016-cı ilin aprelinə kimi Dağıstanın dövlət əmlakının idarəsi naziri olub.

2016-ci ilin 14 aprelindən Dağıstan Respublikasının Ədliyyə naziri təyin olunub.

Evlidir, 3 uşaq atasıdır.

Paşabəyov Yaşar Kərim oğlu – 1947-ci ildə Dərbənd şəhərində müəllim ailəsində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd Konserv Kombinatında sex rəisinin müavini, zavodun baş mühəndisinin müavini işləmişdir. Sonra Dərbənd şəhər Partiya Komitəsinin sənaye-nəqliyyat şöbəsinin müdiri, 1983-1993-cü illərdə Dərbənd şəhər İcraiyyə Komitəsinin sədri vəzifələrində çalışmışdır. Hazırda şəhər mülki müdafiə işləri üzrə idarənin rəisidir.

Ramazanov İbrahimxəlil Heydərəli oğlu – 1930-cu ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



1948-ci ildə Dərbənd Pedaqoji Texnikumunu, 1955-ci ildə ikiillik Rostov Hüquq Məktəbini, 1961-ci ildə Ümumittifaq Hüquqşünaslıq İnstitutunu Krasnodar filialını bitirmişdir. Mitaqi kənd yeddiillik məktəbində müəllim, Mitaqi kənd sovetinin katibi, Tabasaran rayon prokurorluğunun müstəntiqi, Dərbənd şəhər rayonlararası prokurorun köməkçisi və baş müstəntiqi, 1968-1987-ci illərdə Dərbənd şəhər Xalq Məhkəməsinin sədri, 1987-2000-ci illərdə Dərbənd rayon Xalq Məhkəməsinin sədri vəzifələrində çalışmışdır. Ədliyyə general-mayoru İ.Ramazanov Dağıstan Respublikasının 1-ci dərəcəli yüksək ixtisaslı hakimi və yüksək ixtisaslı hakimlər kollegiyasının daimi üzvüdür.

Rəhimov Rafiq Tağı oğlu – 1941-ci il aprel ayının 25-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Əslən Dərbəndlidir. 1949-1960-cı illərdə Oktyabr rayonu (indi Yasamal rayonu) 16 və 29 saylı məktəblərində oxumuşdur. 1960-1962-ci illərdə Tibb Texnikumunda təhsil almışdır. 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin ticarətin iqtisadiyyatı fakültəsinə daxil olmuş, lakin 1967-ci ildə həmin fakültəni Xalq Təsərrufatı İnstitutunda başa çatdırmışdır. Universiteti bitirdikdən sonra təhsilini universitetin 2-illik fəlsəfə şöbəsində davam etdirmişdir. 1964-1969-cu illərdə həmkarlar ittifaqı sistemində klub müdiri, təlimatçı, təşkilat şöbəsinin müdiri, Azərbaycan Həmkarlar Şurasında əmək və əmək haqqı şöbəsinin müdiri, dövlət idarələri həmkarlar ittifaqında işləmişdir.



1969-1995-ci illərdə Azəristehlak-Azərittifaq sistemində baş əmtəəşünas, əmək və əmək haqqı şöbəsinin müdiri, Baş İdarənin müdir müavini, 1995-2003-cü illərdə «Azərsun holdinq» səhmdar birliyinin

sədr müavini vəzifələrində çalışmışdır. Moskva Kooperativ İnstitutunda baş müəllim, Moskva Dövlət Acıq Universitetinin Bakı filialında «Dünya iqtisadiyyatı», Menecment və Beynəlxalq iqtisadi əlaqələr» kafedralarında baş müəllim işləmişdir. Azərbaycanda Əsilzadə məclisinin üzvüdür.

R.T.Rəhimov 1993-cü ildə «Dərbənd» cəmiyyətinin yaranması günündən bu günə kimi cəmiyyətin təşkilat informasiya şöbəsinin müdiri və dərbəndlilərin bu cəmiyyətə cəlb olunması üzrə böyük iş aparır.

O, Sultanov S.A, Zeynalov T.G. «Derbent i izvestnıe lödi» Baku, 2004 q; N.A. Aliev «Rod Qadji Djafara iz Derbenta», Baku 2007 q. – kitablarının baş redaktorudur.

Rəhimova Duriyə Gülbaba qızı – 1929-cu ildə Azərbaycan SSR Quba rayonu Kimil kəndində anadan olmuşdur. Quba pedaqoji məktəbini bitirmişdir. Müəllimə, kitabxana müdiri, Quba mədəniyyət evinin və Dərbənd rayonu mədəniyyət evinin direktoru, Dağıstan Dövlət Filarmoniyasının solisti, Quba və Sumqayıt Dövlət Dram Teatrlarının, Dərbənd Dövlət ləzgi Dram Teatrının aktrisası, Dərbənd şəhərindəki Azərbaycan Xalq Teatrının rejissoru işləmişdir. Azərbaycan gənclərinin I və II festivallarının laureatı, Bakı, Leninqrad və Moskva şəhərlərində Dağıstan MSSR incəsənəti və mədəniyyəti 10-günlüyünün iştirakçısı olmuşdur. Duriyə xanım Dağıstan MSSR Əməkdar artisti (1965) və Xalq artisti (1977) fəxri adlarına layiq görülmüşdür. «Xalqlar dostluğu» ordeni ilə mükafatlandırılmışdır (1986).

Rəhimov Əbdül Manaf Rəhim oğlu – 1905-ci ildə Dərbənddə anadan olmuşdur. Azərbaycanlıdır. 10-illik məktəbi və Moskva Meliorasiya və Su Təsərrüfatı İnstitutunu bitirmişdir. Dərbənd şəhər su rayonunun direktoru, şəhər İcra Komitəsinin müavini, Dağıstanın MSSR Su Təsərrüfatı rəisi, Dağıstan Xalq Komissarları Şurasının sədr müavini və 1941-1945-ci illər müharibəsindən sonra SSRİ Meliorasiya və Su Təsərrüfatı Nazirliyinin su təsərrüfatı idarəsinin rəisi vəzifələrində çalışmışdır.

1995-ci ildə vəfat etmiş və Moskva şəhərində dəfn olunmuşdur.

Rəhimov Miqdar Rəhim oğlu – 1916-cı ildə Dərbənd şəhərində anadan olmuşdur. Dərbənd Kənd Təsərrüfatı Texnikumunu və Dağıstan Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. Dərbənddə sovxoz aqronomu, Dağıstan MSSR Şərab və Krım Şərab trestinin rəhbəri, Azərbaycan SSR Nazirlər Sovetinin Üzümçülük və Bağçılıq idarəsinin rəisi işləmişdir. Moskvada vəfat etmiş və orada dəfn olunmuşdur.



Rəhimov Mövsüm Hilal oğlu – 1963-cü il iyulun 11-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1980-cı ildə Dərbənd şəhər 1 saylı orta məktəbi bitirmişdir. Sovet Ordusunda xidmətini başa vurduqdan sonra Rusiya Federasiyasının İvanova şəhərinin Enerji İnstitutunu istilikenerji mühəndis ixtisası üzrə bitirmişdir. O, Voronej İqtisadiyyat və Hüquq İnstitutunda təhsilini davam etdirmişdir. O, 1998-ci ildə Rusiya Federasiyası Xalq Təsərrüfatının İdarəetmə üzrə kadrlar hazırlama kursunu keçmişdir. Sonralar təhsilini İngiltərədə davam etdirmişdir. M.Rəhimov İvanova şəhərində pivəbişirmə kompaniyasında mühəndis-istilik texniki, sex rəisi, baş energetik, baş mühəndis, «SUNBrewing» kompaniyasının texniki direktoru, 1999-cu ildə Kursk şəhərində pivəbişirmə kompaniyasının baş direktoru və 2001-ci ildə isə «Şəhristan» şirkətinin baş direktoru vəzifələrində çalışmışdır. O, 1995-ci ildə ABŞ-da «Fakel Birminqema» beynəlxalq mükafatına, 2000-ci ildə Rusiyanın Yeyinti sənayesinin Əməkdar işçisi adına layiq görülmüşdür.



Rəhimov Seyran Hacı oğlu – 1951-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dağıstan Dövlət Politexnik İnstitutunu bitirmişdir. O, «Radioelement» zavodunda fəhlə, sex ustası, sex rəisi, istehsal üzrə direktor müavini, təlimatçı, Dərbənd şəhər partiya komitəsinin şöbə müdiri və 1987-ci ildən isə «Radioelement» zavodunun direktoru vəzifəsində çalışır.

O, dəfələrlə şəhər Sovetinin deputatı, 2001-2006-cı illərdə Ümümrusiya Azərbaycan Konqresinin vitse-prezidenti və 2001-ci ildə isə Ümümrusiya

Azərbaycan Konqresinin Dağıstan regional şöbəsinin sədri vəzifələrinə seçilmişdir.

S.Rəhimov «Rusiya təhsilinin əlaçısı», «Radioelektron sənayesinin əlaçısı» və «Əmək qəhrəmanı» qızıl medalı ilə təltif olunmuşdur.

Rəsulbəyova Bikə xanım Cümşüd qızı – texnika elmləri doktoru, professor 1925-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1947-ci ildə Bakı Neft və Kimya İnstitutunu, onun aspiranturasını bitirmiş və texnika üzrə fəlsəfə doktoru elmi adını almışdır. 1963-cü ildən Azərbaycan Dövlət Neft Akademiyasında işləyərkən kimya-texnologiya fakültəsinin dekanı, 1971-ci ildən isə kimya neft və qaz kimyası kafedrasının müdiri işləmiş və bu kafedraya 20 il rəhbərlik etmişdir. O, 20-dən çox kitab və mühazirə toplusunun, 250 elmi əsərin, tədqiqat işlərinin və 14 müəllif şəhadətnaməsi müəllifidir. 2000-ci ildə vəfat etmişdir.

Rəsulbəyov Cümşıd Azad oğlu – 1985-ci ildə




Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd şəhərinin məşhur Rəsulbəyovlar nəslinin nümayəndəsidir. O, 1991-2001-ci illərdə Bakı şəhəri 134 saylı orta məktəbində təhsil almışdır. 2001-2005-ci illərdə Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. 2005-2007-cı illərdə Almaniya Federativ Respublikasının Köln Universitetinin vergi hüququ üzrə magistraturada təhsilini davam etdirmişdir. Hazırda Almaniyanın Frankfurt şəhərində «AREVA» şirkətində vergi analitiki vəzifəsində işləyir.

Rəsulbəyov Hüseyn Cümşüd oğlu – general-



leytenant, Azərbaycan SSR əməkdar mühəndisi 1917-ciil iyunun 26-da Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1 saylı şəhər orta məktəbini bitirmişdir. 1932-ci ildən 1936-cı ilə qədər Orconikidze Dəmiryol Politexnik Texnikumunda oxumuş və oranı fərqlənmə diplomu ilə bitirmişdir.



H.Rəsulbəyovun Dərbənd şəhərində yaşadığı ev (1929-1930-cu illər)

Minvod dəmir yolunda yarım il işlədikdən sonra əlaçı məzun kimi Leninqrad Elektrotexnik Rabitə İnstitutuna göndərilmişdir.

1938-ci ilin oktyabrında təhsildə fərqləndiyinə görə H.Rəsulbəyov F.Dzerjinski adına Qızıl Ordu Hərbi Artilleriya Akademiyasının 3-cü kursuna qəbul olunmuşdur. 1941-ci ildə Akademiyanı hərbi cihazlar ixtisası üzrə mühəndis-mexanik diplomu ilə bitirdikdən sonra o, 1-ci dərəcəli hərbi texnik rütbəsi alır. H.Rəsulbəyov 1941-1945-ci illər müharibəsinin iştirakçısıdır. Kerç, Şimali Qafqaz uğrunda gedən döyüşlərdə iştirak etmiş, Odessa və Sevastopolun müdafiəsi zamanı döyüşlərdə fərqlənmişdir. H.Rəsulbəyov 1938-ci ilin oktyabrından 1975-ci ilə qədər – 38 il hərbi xidmətdə olmuşdur. Artilleriya general-leytenantıdır. O, Bakı dairəsi HHQ-i Raket Qoşunlarının komandanı olmuşdur. H.Rəsulbəyov 1975-ci ildə istefaya çıxmış və Azərbaycan SSR Rabitə Naziri vəzifəsinə təyin edilmişdir. H.C.Rəsulbəyov 1984-cü il avqust ayının 17-də vəfat etmiş və Bakıda Fəxri Xiyabanda dəfn olunmuşdur. Bakı Rabitə Elektrotexnikumu və Dərbənd şəhərinin prospektlərdən biri onun adını daşıyır. Onun anadan olduğu binaya memorial lövhə vurulmuşdur (M.Rzayev küçəsi, 22). «Azərnəşr» (Bakı) nəşriyatında general-leytenant H.Rəsulbəyov haqqında «Ə löblö tebə, jizŋğ» xatirə kitabı ışıq üzü görmüşdür.

Rəsulbəyova Xumara Rəsul qızı – 1962-ci ildə Bakı



şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. O, dərbəndli məşhur Rəsulbəyovlar nəslindəndir. O, 1979-cu ildə 134 saylı orta məktəbi və Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir.

Hazırda Azərbaycan Respublikası Mərkəzi klinikasında həkim – şöbə müdiri vəzifəsində çalışır. Ali kateqoriyalı həkimdir.

Rəsulbəyov İmran Cümşüd oğlu – ədliyyə general-mayoru, 1920-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1941-ci ildə Bakıda Ali Hərbi Dənizçilik Məktəbini bitirmişdir və 1941-1945-ci illər müharibəsinin ilk günündən Şimal donanmasında (Murmansk şəhəri) xidmət etmişdir.

O, 1948-ci ildə ordudan tərxis olunduqdan sonra Moskva Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Universiteti bitirdikdən sonra Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquqi-Siyasi Təqiqatlar İnstitutunda, Azərbaycan SSR Nazirlər Sovetində hüquq şöbəsinin müdiri, Azərbaycan SSR Ali Sovetinin Əfvolunma şöbəsinin rəisi, Azərbaycan SSR Baş Prokurorunun müavini, Azərbaycan SSR Ədliyyə Nazirliyinin Baş İdarə rəisi vəzifələrində çalışmışdır.

İ.Rəsulbəyov hüquq elmləri namizədi, Azərbaycan SSR Əməkdar hüquqşünası, 3-cü dərəcəli dövlət ədliyyə müşaviri olmuşdur. 1982-ci ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Rəsulbəyova Nigar İmran qızı – 1960-cı ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. İmran Rəsulbəyovun qızıdır. 1977-ci ildə Bakı şəhərində 23 saylı məktəbi, Bakı Dövlət Universitetinin hüquq fakültəsinə daxil olmuş və 1982-ci ildə oranı bitirmişdir. N.Rəsulbəyova 1982-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquqi-Siyasi Tədqiqatlar İnstitutunun cinayət və mülki hüquq şöbəsinə baş lobarant vəzifəsinə təyin olunmuşdur.



N.Rəsulbəyova 1989-cu il dekabr ayının 14-də Azərbaycan Respublikası Arbitraj Məhkəməsinin baş məsləhətçi, 1991-ci ildə isə Dövlət arbitri təyin olunmuşdur. 1993-cü ildə Ali Arbitraj Məhkəməsinə, 2000-ci ildə isə Azərbaycan Respublikası Milli Məclisinin qərarına əsasən Azərbaycan Respublikası İqtisad Məhkəməsinə hakim təyin olunmuşdur. 1995-2000-ci illərdə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü və 1998-1999-cu illərdə Bakı Dövlət Universitetində müəllim, 2005-2007-ci illərdə Məhkəmə-Hüquq Şurasının üzvü və 2002-ci ildən Azərbaycan Respublikası İxtisaslaşdırılmış Məhkəməsinin Hakimləri Assosiasiyasının sədr müavini olmuşdur. 1997-ci ildən Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsində çalışır.

Rəsulbəyov Rəsul Cümşüd oğlu – polkovnik, 1928-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. O, 1951-ci ildə Orjonikidze şəhərində Hərbi-Avtomobil Məktəbini və 1967-ci ildə qiyabi olaraq Azərbaycan Neft Akademiyasını bitirmişdir. Cənubi Qafqaz Hərbi Dairəsinin nəqliyyat şöbəsinin rəisi vəzifəsindən tərxis olunmuşdur. Sonra o, ixtisası üzrə Azərbaycan Respublikası Müdafiə Nazirliyində 5 il işləmişdir.

2002-ci ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Rəsulbəyova Sofa xanım Cümşüd qızı – 1930-cu ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1954-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universiteti) pediatriya fakültəsini bitirmişdir. Ana və Uşaqları Mühafizə Elmi-Tədqiqat İnstitutunun direktor müavini, Azərbaycan Respublikası Səhiyyə Nazirinin müavini, Azərbaycan Respublikası Dəmiryol İdarəsi xəstəxanasının baş pediatoru vəzifələrində çalışmışdır.

S.Rəsulbəyova – tibb üzrə fəlsəfə doktorudur.

Rzayev Məzahir Hacıəsəd oğlu – 1897-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Rus-tatar məktəbini bitirmişdir. Böyük qardaşı Mirzə Əhmədin təsiri altında inqilabi hərəkata qoşulmuş, «Ümid» müsəlman gənclərinin gizli təşkilatının dərnəyinin üzvü idi. Məktəbi bitirdikdən sonra Kiyev şəhərinə oxumağa getmiş və orada o, 1917-ci ilin fevral inqilabı ilə üzləşmişdir. Bundan sonra Məzahir Rzayev Dərbənd şəhərinə qayıtmış və sovet hakimiyyətinin qurulmasında fəal iştirak etmişdir. O, 1918-ci ildə Xalq Komissarları Şurasına, Hərbi İnqilab Komitəsinə (may 1918) seçilmişdir. O, şəhərdə «Hümmət» (iyun 1918) Azərbaycan sosial-demokrat (bolşevik) hərəkatının təşkilatçılarından biri olmuş və onun təftiş komissiyasına başçılıq etmişdir. Şəhər L.Biçeraxovun



dəstələri tərəfindən işğal olunduqdan sonra (avqust 1918) M.Rzayev həbs olunmuşdur. Onun həbsi şəhərin müsəlman əhalisi arasında böyük narazılığa səbəb olmuş və M.Rzayev şəhəri tərk etmək şərti ilə həbsdən azad olunmuşdur. Biçeraxovçular şəhərdən çıxdıqdan sonra (sentyabr 1918), M.Rzayev şəhərə yenidən qayıtmış və Sovet hakimiyyətinin qurulması işini davam etdirmişdir.

General Denikinin dəstəsi şəhərə daxil olduqda (may 1919) M.Rzayev şəhəri yenidən tərk edərək Gəncəyə və oradan Bakıya getmişdir. Denikinçilər şəhərdən çıxdıqdan sonra (mart 1920) o, yenidən Dərbəndə qayıtmışdır və şəhər rəhbərliyində çalışmışdır.

1920-ci ilin iyun ayında M.Rzayev şəhərin yuxarı Azərbaycanlılar yaşayan məhəlləsində RK(b)P qala rayon komitəsini yaratmış və ona başçılıq etmişdir.

Rzayev Mirzə Əhməd Hacıəsəd oğlu – 1895-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Məzahir Rzayevin böyük qardaşıdır. Təhsilini Kiyev şəhərində almışdır. Dağıstanda Sovet hakimiyyətinin qurulmasında fəal iştirak etmişdir. İnqilab Müdafiə Komitəsinə (may-iyun 1918), fəhlə kəndli və qırmızı ordu deputatları şurasının icra hakimiyyətinə üzv seçilmiş, Dərbənddə «Hümmət» sosial-demokrat (bolşeviklər) təşkilatının Azərbaycan seksiyasının yaranması üzrə hazırlıq komissiyasına başçılıq etmiş və «Hümmət»in İK(b)P şəhər təşkilatı ilə birləşdikdən sonra onun icra komitəsinin sədri seçilmiş, mahallarda partiya qurumlarının yaradılmasında, sonra isə mahal İK(b)P rayon komitəsinin yaradılmasında fəal işlər aparmışdır.



1920-ci ildən sonra Bakıya köçmüşdür. Azərbaycan Respublikası Xalq Komissarları Şurası aparatında işləmişdir. Sonra isə «Azərnəşr»in direktoru işləmişdir. 1940-ci ildə vəfat etmiş və Bakıda dəfn olunmuşdur. Dərbənd şəhəri M.Rzayev küçəsindəki onun yaşadığı 37 saylı evə xatirə lövhəsi vurulmuşdur.

Rzayev Zeyfulla Əbilfəz – 1922-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. O, 1938-ci ildə Dərbənd 1 saylı orta məktəbi, 1941-ci ildə Dərbənd Pedaqoji Texnikumunu, 1950-ci ildə Leninqrad Dövlət Universitetinin hüquq fakültəsini, Ali Partiya-Həmkarlar məktəbini bitirmişdir.

Z.Rzayev Dərbənd şəhər 3 saylı orta məktəbində müəllim, Dərbənd şəhər «Vətən» kinoteatrının direktoru, Dərbənd PK BK(b)P təlimatçısı, Dərbənd şəhər Neft-Kimya Sənayesi işçiləri Həmkarlar İttifaqının Mərkəzi şurasının sədri, «Trud» qəzetinin redaktoru vəzifələrində işləmişdir.

1941-1945-ci illər müharibəsi iştirakçısıdır. Z.Rzayev 1-ci dərəcəli «Şöhrət Ordeni, «Qırmızı Ulduz» və 1-ci dərəcəli «Vətən müharibəsi» ordenləri ilə, 27 medalla, həmçinin «Hünərə görə», «Döyüş xidmətlərinə görə», «Berlinin alınmasına görə», «Praqanın alınmasına görə» və s. medallarla təltif olunmuşdur. 2008-ci ildə vəfat etmiş və Dərbənd şəhərində dəfn olunmuşdur.

Sadıxov A.Q. – 1954-cü il yanvarın 18-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. O, Dərbənd şəhər M.Y. Lermontov adına 8 saylı orta məktəbi (1961-1971) və Pyatiqorsk Pedaqoji Xarici Dillər İnstitutunun (1976-1981) xarici dil müəllimi (alman dili) ixtisası üzrə bitirmişdir. A.Sadıxov 1972-ci ilin mayından Dərbənd Evtikmə kombinatında texnik, 1974-cü il sentyabrın 1-dən Dərbənd şəhər 4 saylı məktəbdə hərbi rəhbər, 1983-cü ildən direktor müavini və 1986-cı ildən isə direktor vəzifələrində çalışmışdır.



A.Sadıxovun direktor olduğu müddətdə məktəbdə təhsil və intizamın səviyəsi daha da yüksəldi. Məktəb Dağıstan Respublikası prezidentinin fəxri fərmanlarına, müxtəlif diplomlara, 2007-ci ildə isə məktəblərarası yarışlarda «Rusiyanın ən yaxşı məktəbi-2007» adına və innovasiya təhsil proqramının mənimsəməsinə görə Rusiya Təhsil Nazirliyinin diplomuna layiq görülmüşdü. Məktəbin şagirdləri hər il müxtəlif şəhər, respublika, ümürusiya üzrə keçirilən tədbir və yarışların iştirakçısı olmuşdurlar.

Məktəb, ölkənin gələcək nəslinin tərbiyəsindəki əməyinə görə «Müəllim qəzeti»nin redaksiya

heyətindən və «Vahid Rusiya» partiyasından təşəkkür məktubları almışdır.

A.Sadıxov 1993-cü ildə Dağıstan Respublikasının Xalq təhsil əlaçısı, 2002-ci ilin noyabrında isə Dağıstan Respublikasının Əməkdar müəllimi fəxri adlarına adına layiq görülmüşdür.

Sadıxov Zubail Həmid oğlu – 1927-ci ildə Dərbənd şəhərində Həmid bəy Əhmədxan oğlunun ailəsində anadan olmuşdur. Azərbaycanlıdır.

1946-1951-ci illərdə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsində təhsil almışdır. 1963-1965-ci illərdə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin təşkilat şöbəsində, 1966-1969-cu illərdə Azərbaycan Həmkarlar Şurasında hüquq şöbəsinin müdiri, dövlət idarələri işçiləri Həmkarlar İttifaqının sədri, son vaxtlar Bakı Dövlət Universitetinin hüquq fakültəsində baş müəllim işləmişdir. Z.Sadıxov hüquq üzrə fəlsəfə doktorudur.

O, «Qadınların əmək mühafizəsi» (2000), «Əmək mübahisələri və onların həlli» (2002) adlı əsərlərinin müəllifidir. 2003-cü ildə Bakıda vəfat etmişdir.

Sadıqova Bilqeyis Əbdüləhəd qızı – 1922-ci ildə Həştərxan şəhərində anadan olmuşdur. 1936-cı ildə yeddinci sinifi bitirdikdən sonra Bilqeyis xanımın ailəsi Dərbənd şəhərinə köçmüşdür. O, Dərbənd Pedaqoji Məktəbinə daxil olmuş və 1941-ci ildə həmin məktəbi bitirmişdir. O, Dərbənd rayonunun Məhrağa kənd orta məktəbində rus dili müəllimi kimi əmək fəaliyyətinə başlamışdır. Sonralar onu Rükəl yeddiillik orta məktəbinə işə keçirilir.

O, 1944-cü ildə Dərbənd rayon təhsil şöbəsində pedaqoji kabinet müdiri, 1945-ci ildə Dərbənd konserv kombinatının sərbəst komsomol təşkilatının katibi, 1946-cı ildə kommunist partiyası sıralarına qəbul edilmiş və Dərbənd Şəhər İcraiyyə Komitəsində mədəni-maarif şöbəsinin müdiri olmuşdur. B.Sadıqova 1949-cu ildə Məzahir Rzayev adına 4 saylı orta məktəbdə müəllim və 1968-ci ildən təqaüdə çıxana qədər 7 saylı uşaq bağçasının müdiri vəzifələrində çalışmışdır.

Tutduğu vəzifələrdən asılı olmayaraq tapşırılan sahəyə yüksək məsuliyyətlə yanaşmaq onun nüfuzunu artırmışdı.

O, dəfələrlə məktəbin partiya komitəsinin katibi, Dərbənd şəhər partiya komitəsinin büro üzvü və Dərbənd şəhər sovetinin deputatı, Dağıstan respublikasının xalq iclasçısı olmuşdur.

Bilqeyis xanım bacarıqlı təşkilatçılıq işinə görə dəfələrlə Dağıstan Vilayət Komitəsi tərəfindən mükafatlandırılmış, 11 dövlət mükafatı laureatıdır. «Müharibə illərində fədakar əməyinə görə», «Böyük Vətən müharibəsinin veteranı» medalları ilə təltif olunmuşdur.

Bilqeyis xanımın xoşbəxt ailəsi var. O, 6 övlad və nəvə-nəticə sahibidir. Həyat yoldaşı – Həmzə bəy Sadıqov müharibə iştirakçısıdır.

Sadıqov Əhəd Aydınbəy oğlu – iqtisadiyyat üzrə fəlsəfə doktoru, Dərbənd şəhərində anadan olmuşdur. O, Dərbənd şəhər 4 saylı orta məktəbi, 2006-cı ildə isə Moskva Dövlət Texniki Universitetini bitirmişdir.



O, Dünya İqtisadiyyatı İnstitutunun prorektorudur, bir çox iqtisadiyyat fənlərindən dərs deyir. Ə.Sadıqov bir çox elmi toplularının redaktoru, 15-dən çox elmi məqalə və bir neçə dərs vəsaitinin müəllifidir.

Sadıqov Əli Məmməd oğlu – 1913-cü ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Leninqrad (indiki Sankt-Peterburq) Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir.

1941-1945-ci illər müharibəsi iştirakçısıdır və 20-yə yaxın dövlət mükafatlarına layiq görülmüşdür. Hərbi xidmətə qədər karantin müvəkkili, hərbi xidmətdən sonra Dərbənd şəhər Partiya Komitəsinin katibi, sovxoz direktoru, Kənd Təsərrüfatı Texnikumunun direktoru vəzifələrində işləmişdir.

Sadıqov Həmid Əhmədxan oğlu – 1902-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd şəhər realnı məktəbini bitirmişdir. Dərbənd şəhər İcra Hakimiyyətində daşınmaz əmlakın istismarı şöbəsinin müdiri və digər dövlət müəssisələrində işləmişdir. 2001-ci ildə vəfat etmişdir.

Sadıqov İsmayıl Məmmədəli oğlu – 1926-cı ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Şəhər 1 saylı orta məktəbi və Leninqrad (indiki Sankt-Peterburq) Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. Kənd təsərrüfatı elmləri doktoru, professordur. Azərbaycan Respublikası



Elmi-Tədqiqat Əkinçilik İnstitutunun direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının Genetika və Seleksiya İnstitutunun direktor müavini, Kuban (Rusiya Federasiyası Krasnodar şəhəri) Kənd Təsərrüfatı İnstitutunun əkinçilik və suvarma kafedrasının müdiri vəzifələrində çalışmışdır. O, 150-dən çox elmi əsərin və 4 monoqrafiyanın, həmçinin kənd təsərrüfatı bitkilərindən məhsul almaq üçün nəzəri və praktiki işlərin müəllifidir. Professor İ.Sadıqovun 25-dən çox elmlər namizədi və elmlər doktorunun yetişməsində böyük əməyi olmuşdur. O, 2004-cü ildə vəfat etmiş və Bakıda dəfn olunmuşdur.

Sadıqov Nazim Məmmədəli oğlu – 1920-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Leninqrad Tibb İnstitutunu bitirmişdir. Dərbənd, Kronştat, Moskva şəhər Botkin adına xəstəxanada həkim işləmişdir. Tibb elmləri namizədi, dosentdir.

N.Sadıqov bir qrup həkim ilə akademik Şumakovun rəhbərliyi altında SSRİ-də ilk dəfə ürəkdə cərrahi əməliyyat aparmışdır. 1972-ci ildə Moskvada vəfat etmiş və Dərbənd şəhərində dəfn olmuşdur.

Sadıkov Nəcməddin Hüseyn oğlu – general-polkovnik, Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi. 1956-cı il mayın 24-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1973-cü ildə 19 saylı orta məktəbi, 1975-ci ildə isə Bakı Ali Ümumqoşun Komandanlıq məktəbinə daxil olmuş və 1979-cu ildə həmin məktəbi bitirmişdir. 1985-ci ildə M.Frunze adına Hərbi Akademiyaya daxil olmuş 1988-ci ildə Akademiyanın ümumqoşun operativ-taktiki komanda-qərargah ixtisası üzrə əsas (ümumqoşun) fakültəsini bitirmişdir. 1991-ci ildə Sovet İttifaqı Marşalı V.M.Şapoşnikov adına «Atəş» dörd aylıq Ali Zabit kurslarını bitirmişdir. 1992-ci ildən 1993-cü ilin yanvarına qədər Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ələhiddə motoatıcı briqadasının komandiri, 1993-cü ilin mayına qədər isə ordu korpusunun komandiri vəzifələrində xidmət etmişdir.



1993-cü ilin mayın 26-dan 1993-cü ilin iyulun 10-a qədər Azərbaycan Respublikası Müdafiə Nazirinin sərəncamında olmuşdur. 1993-cü ilin iyulundan 1993-cü ilin noyabrına kimi Cəbhənin Səyyar İdarəçilik qərargahının rəisi – Cəbhə komandanlığının birinci müavini vəzifəsində xidmət etmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamı ilə 1993-cü ilin noyabr ayından Silahlı Qüvvələrin Baş Qərargahının Rəisi – Müdafiə Nazirinin birinci müavini vəzifəsinə təyin olunmuşdur.

1978-ci ildə «SSRİ Silahlı Qüvvələrinin 60 illiyi», 1984-cü ildə «Döyüş xidmətlərinə görə», 1987-ci ildə «Qüsursuz xidmətə görə 3-cü dərəcəli», 1988-ci ildə «SSRİ Silahlı Qüvvələrinin 70 illiyi», 1991-ci ildə «Qüsursuz xidmətə görə 2-ci dərəcəli», 1991-ci ildə «Azərğaycan Bayrağı» ordeni ilə, 25.03.2002-ci ildə «Ukrayna Respublikası Silahlı Qüvvələrinin 10 illiyi», 05.02.2003-cü ildə «Tacikistan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi», 24.06.2003-cü ildə «Vətən uğrunda», 26.06.2003-cü ildə «Qüsursuz xidmətə görə 3-cü dərəcəli» və «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi 1991-2001», 22.06.2004-cü ildə «Azərbaycan Respublikası Silahlı Qüvvələrinin veteranı», 21.06.2006-cı ildə «Hərbi xidmətdə fərqləndiyinə görə 3-cü dərəcəli» orden və medallarla təltif olunmuşdur.

Üç uşaq atasıdır.

Seyidov Əsgər Mirsaleh oğlu – 1934-cü il aprelin 10-da Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1962-1967-ci illərdə Azərbaycan Dövlət Universitetinin iqtisadiyyat fakültəsini bitirmişdir. 1954-1958-ci illərdə Hərbi-Dəniz Donanmasında xidmət etmişdir.



Azərbaycan Xalq Təsərrüfatı Şurasının Şərabçılıq sənayesi idarəsində iqtisadçı, mühasib, Azərbaycan Respublikası Nazirlər Sovetinin

Üzümçülük və Şərabçılıq Komitəsinin müdiri, Maddi-Texniki Təchizat Dövlət Komitəsində şöbə rəisinin müavini, idarə rəisinin müavini, «Avtoyoltikinti» şirkətində şöbə rəisi, idarə rəisinin müavini, idarə rəis əvəzi vəzifəsində və Bakı Şəhər İcraiyyə Komitəsinin mənzil-kommunal təsərrüfatı idarəsində maddi fondlar və balanslar üzrə baş direktorun müavini vəzifələrində çalışmışdır. Hazırda Bakı şəhəri Mənzil-Kommunal Təsərrüfatı Departamentinin təchizat və komplektləşdirmə idarəsinin rəis müavini vəzifəsində işləyir.

Respublika üzümçülük və şərabçılıq sənayesi və maddi-texniki təchizat sistemlərində təcrübəli ixtisasçılar sırasındadır.

Seyidov Fazil Mir Sadıq oğlu – şair, ədəbiyyatşünas, tərcüməçi, jurnalist, müəllim 1898-ci il dekabrın 24-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. İbtidai təhsilini rus-tatar məktəbində almış və eyni zamanda mədrəsədə də oxumuşdur. Mədrəsədə o müsəlman fəlsəfəsi ilə yanaşı ərəb və fars dillərini, təfsiri (quranın oxunması və şərhi) öyrənir.



1918-ci ildə F.Seyidov əhali arasında savadsızlığın ləğv olunması çərçivəsində Sovet hakimiyyəti tərəfindən yaradılmış 8 aylıq qısa müddətli müəllimlər kursunu bitirir.

1919-cu ildə Bakı şəhərində Pedaqoji İnstituta daxil olur və 1923-cü ildə onu bitirdikdən sonra Şuşa, Şamaxı, Ağsu məktəblərində müəllim işləmişdir. 1928-1931-ci illərdə o «Azərnəşr» Azərbaycan Dövlət Nəşriyyatının kütləvi-siyasi ədəbiyyat şöbəsində tərcüməçi işləyir.

O, Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini (1939), sonra isə, Azərbaycan Dövlət Pedaqoji Univerisitetinin ədəbiyyat fakültəsini qiyabi bitirir (1949).

Ədəbiyyatşünas və əlyazmalar mütəxəssisi kimi F.Seyidov böyük və mühüm işlər görmüşdür. Onun tərəfindən müxtəlif illərdə aşağıda adları çəkilən kitablar çapa hazırlanmışdır: «Xurşid-Banu Natəvan» (Bakı, 1956), «Hacı Zeynalabdin Şirvani» (Bakı, 1961). Onun tərəfindən Qövsi Təbrizinin, Zikri Ərdəbilinin, Məhəmməd Əmin Şirvaninin və bir çox əvvəllər çap olunmamış müəlliflərin şeirlər toplusu tərtib və çap olunmuşdur.

F.Seyidov şair kimi də məşhurdur. Hələ 1922-ci ildə o öz şeirlərini «Diri meyid», «Dərbəndli», «Dəli Bəhlul», «Məsləhətçi» adları altında Azərbaycanın və Dağıstanın «Dağıstan füqərası», «Molla Nəsrəddin», «Maarif yolu», «Kommunist», «Azərbaycan kolxozçusu», «Yeni fikir» və s. məşhur qəzetlərin səifələrində çap etdirmişdir. O, Bakıda vəfat etmiş və burada dəfn olunmuşdur.

Seyidov Tofiq Mirzəəhməd oğlu – general-mayor, texnika elmləri namizədi, professor, 1922-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Məhəmməd peyğəmbərin 47-ci nəslindəndir. T.Seyidov 1938-ci ildə şəhər 115 saylı orta məktəbi, Tiflis Hərbi Artilleriya Məktəbini bitirmişdir. 1941-1945-ci illər müharibəsinin iştirakçısıdır. Qafqazın müdafiəsində, Berlinin alınmasında və Praqa əməliyyatlarında iştirak etmişdir. Müharibədən sonra Mərkəzi Qoşun Qruplarının hissələrində xidmət edərək batareya komandirindən diviziya qərargah rəisinə qədər yüksəlmişdir. 1949-cu ildə Dzerjinski adına Hərbi Artilleriya Akademiyasına daxil olmuşdur. Akademiyanı bitirdikdən sonra burada müəllim işləmişdir. 1972-ci ildən ömrünün sonuna qədər Akademiyanın kafedra rəisi vəzifəzində çalışmışdır. T.Seyidov qoşunların idarə edilməsinin avtomatlaşdırılması sahəsində böyük mütəxəssis idi. O, 60-dan çox elmi əsər, dərslik və dərs və-saitlərinin müəllifidir. 1980-cı ildə elmi-pedaqoji fəaliyyətindəki xidmətlərinə görə ona professor elmi adı və general-mayor hərbi rütbəsi verilmişdir. Vətən qarşısındakı xidmətlərinə görə o «Vətən müharibəsi» 1-ci dərəcəli, «Qırmızı ulduz» ordenləri, «Berlinin alınmasına görə», «Praqanın azadlığına görə» və digər medallarla təltif olunmuşdur. 1983-cü ildə vəfat etmiş və Moskva şəhərində dəfn olunmuşdur. Dərbənd şəhərinin küçələrdən biri onun adını daşıyır.



General-mayor T.Seyidovun anadan olduğu evə (6-cı məhəllə, mənzil 114.) xatirə lövhəsi vurulmuşdur.

Seyidov Mirkərim Sultan oğlu – 1923-cü ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Məzahir Rzayev adına yeddiillik məktəbi və Dərbənd Pedaqoji Texnikumunu bitirmişdir (1939). Dərbənd rayonu Sabnova kənd məktəbində ibtidai sinif müəllimi işləmişdir.



1940-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsinə daxil olunmuşdur. 1941-ci ilin avqustunda 1941-1945-ci illər müharibəsinin başlanması ilə əlaqədar Sovet ordusu sıralarına çağırılmışdır. Hərbi Siyasi məktəbdə kiçik rütbəli zabitləri hazırlıq kursunu keçmişdir. O, Şimal-Qərb, Ukrayna, 3-cü Belarus və Pribaltika cəbhələrində vuruşmuş, artilleriya divizionun komissarı və batareya komandirinin müavini vəzifələrində xidmət etmişdir. «Qızıl Ulduz» və 1-ci dərəcəli «Vətən Müharibəsi» ordenləri ilə təltif olunmuşdur.


Müharibədən sonra M.Seyidov Dərbənd rayon Partiya Komitəsinin sənayə şöbəsinin təlimatçısı, şöbə müdiri, Dərbənd rayon Partiya Komitəsinin birinci və ikinci katibi vəzifələrində çalışmışdır. 1963-cü ildən ömrünün sonuna qədər 6 saylı Dərbənd şəhər internat məktəbinin direktoru işləmişdir. 1993-cü ildə vəfat etmiş və Dərbənd şəhərində dəfn olunmuşdur.

Dağıstan Respublikasında xalq təhsilinin inkişafında göstərdiyi xidmətlərinə görə Dağıstan Respublikasının Dövlət Şurasının 19 sentyabr 2000-ci il tarixli Fərmanı ilə 6 saylı internat məktəbinə M.Seyidovun adı verilmişdir.

Seyidov Mirzə Əhməd Murtuz oğlu – 1888-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Kübar təhsili almış və türk (Azərbaycan) dili müəllimi işləmişdir.

1920-1948-ci illərdə Məzahir Rzayev adına 4 saylı yeddiillik məktəbdə, ikinci Dağıstan Pedaqoji Texnikumunda və Dərbənd Kənd Təsərrüfatı Texnikumunda Azərbaycan dili müəllimi işləmişdir. M.Seyidov «Lenin» və «Qırmızı Əmək Bayrağı» ordenləri, «Qafqazın müdafiəsinə görə», «1941-1945-ci Böyük Vətən Müharibəsi illərindəki fədakar əməyinə görə» medalları ilə təltif olunmuşdur. Dərbənd şəhərində vəfat etmiş və burada dəfn olunmuşdur.

Seyidov Mirələn İmamverdi oğlu – 1934-cü il iyunun 10-da Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



Azərbaycan Dövlət Neft Akademiyasını bitirmişdir. 1959-cu ildən «Neftkimyacihaz» konstruktor bürosunda çalışmışdır. 1960-cı ildə Dərbənd şəhərində açılmış «Radioelement» zavoduna göndərilmişdir. O, burada baş texnoloq vəzifəsindən zavod direktoru vəzifəsinə kimi yüksəlmişdir.

1974-cü ildə «Dağıstantəchizatsatış»ın Dərbənd filialının direktoru təyin olunmuşdur. Hazırda bu vəzifədə çalışır.

Əmək fəaliyyəti dövründə göstərdiyi xidmətlərə görə bir çox orden və medallarla təltif olunmuşdur: «Fədakar əməyə görə», «Şöhrət nişanı», «DMSSR əməkdar ixtiraçısı».

Seyidov Miri Seyid Hüseyn oğlu – 1942-ci il aprelin 24-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Orta məktəbi Dərbənd şəhərində bitirmiş, sonra isə Azərbaycan Neft Akademiyasının istehsal proseslərin avtolaşdırması fakültəsini bitirmişdir.

O, Azhidroneft Kimya İnstitutunda baş mühəndis olmuşdur.

Seyidov Mirsaleh Mirteyyub oğlu – 1891-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dağıstan Pedaqoji İnstitutunun «Rus dili və ədəbiyyat» fakültəsini bitirmişdir. 1919-cu ildən orta məktəblərdə rus dili və ədəbiyyat müəllimi, sonralar isə məktəb direktoru işləmişdir. Eyni zamanda Dağıstanın bir sıra rayonlarından gələn müəllimlərə təkmilləşdirmə kurslarında dərs demişdir. 1951-ci ildə vəfat etmiş və Dərbənd şəhərində dəfn olunmuşdur.

Seyidova Məsmə Ağalar qızı – 1955-ci il aprelin 9-da Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Orta məktəbi bitirdikdən sonra Dağıstan MSSR Buynaksk Maliyyə Texnikumunu bitirmişdir. 1974-cü ildən Dərbənd şəhər Təhsil İdarəsində mühasib və baş mühasib vəzifələrində çalışmışdır.

1985-ci ildən Şimalı-Osetiya Dövlət Maliyyə-



Kredit İnstitutuna daxil olmuş və 1990-cı ildə həmin institutu bitirmişdir.

2003-cü ildə İnstitutun «Rusiyanın mühasibi» Rusiya Federasiyası Prezident şurasının qərarı ilə ona peşəkar mühasib, mühasib-ekspert fəxri adları verilmişdir. 2004-cü ildə Rusiyanın Elm və Təhsil Nazirliyinin əmri ilə «Rusiyanın fəxri təhsil işçisi», 2005-ci ildə Dağıstan Respublikasının Dövlət Şurasının fərmanı ilə «Dağıstan Respublikasının Əməkdar iqtisadçısı» fəxri adlara layiq görülmüşdür.

Sençenko Vladimir Petroviç – 1922-ci ildə Dərbənd şəhərində hərbi qulluqçu ailəsində anadan olmuşdur.



O, Dərbənd şəhər 1 saylı orta məktəbini va Kaçinsk Hərbi Təyyarəçilər Məktəbini bitirmişdir.

1942-ci ilin fevralından 1941-1945-ci illər müharibəsi cəbhələrində alman işğalçılarına qarşı vuruşmuşdur. O, Qvardiya qırıcı alayının tərkibində Kalininsk, Volxovsk, Qərb, Bryansk, 1-ci Pribaltika, 3-cü Belorus, 1-ci Ukrayna cəbhələrində vuruşmuş və Berlinin alınmasında iştirak etmişdir.

V.P.Sençenko döyüş tapşırıqlarını yerinə yetirən zaman göstərdiyi şücaətə görə «Lenin», 4 «Qırmızı Bayraq», «Qırmızı Ulduz», 1-ci dərəcəli «Vətən müharibəsi» ordenləri ilə təltif olunmuşdur.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 27 iyun 1945-ci il tarixli Fərmanı ilə V.P.Sençenkoya Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

Müharibə qurtardıqdan sonra orduda xidmətini davam etdirmişdir. 1955-ci ildə Qırmızıbayraqlı Hərbi-Hava Akademiyasını bitirdikdən sonra qırıcı aviasiya alayına komandanlıq etmiş, aviasiya diviziyası komandirinin müavini, diviziya komandiri, Hərbi Hava Qüvvələrinin komandan müavini vəzifələrində xidmət etmişdir. General-mayor V.P.Sençenko 1977-ci ildə ehtiyata çıxmışdır. Dərbənd şəhər küçələrindən biri onun adını daşıyır.

Səlimov Nurəddin Zeynətdin oğlu – polkovnik,



1940-cı ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

1965-ci ildə RSFSR DİN-in Orjonikidze adına Hərbi Məktəbi və Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.

O, 1965-1975-ci illərdə Bakı şəhərində SSRİ DİN Daxili Qoşunlarında xidmət etmiş, 1975-1993-cü illərdə Azərbaycan DİN aparatında, həmçinin Qusar, Xaçmaz və Dəvəçi rayon Daxili İşlər şöbəsinin rəisi vəzifələrində çalışmışdır.

N.Səlimov əməkdə göstərdiyi xidmətlərinə görə 7 medalla mükafatlandırılmışdır.

Səmədov Adil Məhəmməd oğlu – 1940-cı ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

O, 1959-cu ildə Dərbənd şəhər 3 saylı orta məktəbi, 1965-ci ildə isə Dağıstan Dövlət Universitetinin inşaat fakültəsini bitirmişdir.

A.Səmədov «Radioelement» tikinti zavodunun şöbə müdiri, 3 saylı tikinti-montaj idarəsinin baş mühəndisi, şəhər İcraiyyə Komitəsinin sədri, xalq nəzarəti şöbəsinin sədri, şəhər İnzibati Şöbəsinin rəisi vəzifələrində çalışmışdır. 2000-ci ildə vəfat etmiş və Dərbənddə dəfn olunmuşdur.

Səmədov Həşim Hüseynbala oğlu – texnika elmləri namizədi, professor 1912-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

O, Azərbaycan Dövlət Neft Akademiyasının energetika fakültəsini bitirmişdir.

H.Səmədov 1941-1945-ci illər müharibəsi iştirakçısı, iki dəfə Sovet İttifaqı Qəhramanı Həzi Aslanovun tank briqadasında vuruşmuşdur.

O, Dərbənd şəhərində elektrostansiyanın direktoru, aspiranturanı bitirdikdən sonra Azərbaycan Dövlət Neft Akademiyasında müəllim və istehsal proseslərin avtomatlaşdırılması fakültəsinin dekanı vəzifələrində çalışmışdır. Azərbaycan Respublikasının Əməkdar Mühəndisi adına layiq görülmüşdü. H.Səmədov 1985-ci ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Səmədova Gülçöhrə Hacıbaba qızı – 1925-ci il martın 20-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. O, Dərbənd Pedaqoji Texnikumunu bitirdikdən sonra Dərbənd şəhərinin yaxınlığında yerləşən Kamax kəndində müəllim işləmişdir. 1948-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasının hazırlıq kursunu, 1951-ci ildə Moskva Kimya-Texnologiya İnstitutunu bitirmişdir.

O, 1951-ci ildən Bakı Dəri Məmulatları, Dəri-Qalantereya fabriklərində mühəndis işləmişdir.

G.Səmədova Bakı şəhər Sovetinin 2 çağırışında deputat seçilmişdir. Əmək veteranıdır.

Səmədov Məhərrəm Əbülfəz oğlu – 1914-cü ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

1930-cu ildə Novoçerkassk Mühəndis-Meliorasiya İnstitutunu sonra isə, SSRİ Daxili İşlər Xalq Komissarlığının Leninqraddakı Xüsusi Məktəbini bitirmişdir. 1941-1945-ci illər müharibəsi dövründə Azərbaycan SSR-ın İran və başqa sərhəd rayonlarında Milli Təhlükəsizlik Nazirliyinin əməliyyat üzrə səlahiyyətli nümayəndəsi, böyük dövlət xadimi Əziz Məmmədkərim oğlu Əliyev Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi işləyərkən M.Səmədov onun əməkdaşı olmuş və Dərbənd şəhər Partiya Komitəsinin katibi vəzifəsində işləmişdir.

Səmədov Vaqif Məhəmməd oğlu – 1952-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Tibb elmləri namizədi, yüksəkixtisaslı həkim, Dağıstan Respublikasının Əməkdar həkimdir.

O, Azərbaycan Dövlət Tibb Universitetini (1976) və Leninqrad (indiki Sankt-Peterburq) Tibb İnstitutunun aspiranturasını bitirmişdir.

O, Dərbənd şəhər təcili yardım şöbəsinin, Mərkəzi şəhər xəstəxanasının terapiya şöbəsinin müdiri vəzifələrində çalışmış və tibb məktəbində dərs demişdir.

V.Səmədov Dərbənd diaqnostik mərkəzin əsasını qoymuş və ona başçılıq etmişdir (1992-2005). 2005-ci ildə vəfat etmiş və Dərbənd şəhərində dəfn olunmuşdur.

Səmədov Vidadi Məhərrəm oğlu – polkovnik, 1951-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

Dərbənd şəhər 3 saylı orta məktəbi, Bakı Dövlət



Universitetinin hüquq fakültəsini (1968) bitirmişdir. 1973-1997-ci illərdə Bakı şəhərinin rayonlarında müstəntiq, Bakı şəhər prokurorluğunda istintaq idarəsinin prokuroru, 1981-ci ildə Bakı şəhər prokurorluğunda istintaq şöbəsinin rəisi vəzifələrində çalışmışdır. 1987-ci ildən Bakı şəhər prokurorunun 1-ci müavini işləyir, baş hüquq məsləhətçisidir.

Səmədov Zubail Hacıbaba oğlu – 1928-ci il oktyabrın 14-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Əslən dərbəndlidir. Orta məktəbi və 1948-ci ildə isə Dərbənd şəhərində Pedaqoji Məktəbi bitirmişdir. Sonralar Moskva Yungül Sənaye İnstitutunun dəri məmulatları fakültəsini bitirmişdir.

Azərbaycan Respublikası Dövlət Təchizat sistemində çalışıb, tikinti materialları şöbəsinin rəisi, Bakı şifer və keramik materialları kombinatında şöbə rəisi vəzifələrində çalışmışdır.

Streys Yan Yansen – hollandiyalı gəmi ustası. 1668-ci ildə Rus çarı Aleksey Mixayloviçin (1645-1672) yanında xidmətə başlayıb və Xəzər dənizində «Oryol» gəmisində xidmət edib. S.Razinin üsyanı zamanı (1670-1671) gəmisi ilə birlikdə əsir düşür və Qaytaq üsmiyasına qul kimi satılır, o da öz növbəsində onu Dərbənd tacirinə satır. Streys 3 il Dərbənddə yaşadıqdan sonra azad olunur. O Dərbənd xatirələrini «Tri dostopamətnıx i ispolnennıx mnoqix prevratnostey puteşestviy po İtalii, Qreüii, Liflяndii, Moskovii, Tatarii, Midii, Persii, Ostindii, Əponii i razliçnım druqim stranam» kitabında qələmə almışdır. (Bu kitabın «3 səyahət» adlı rus versiyası 1935-ci ildə çap olunmuşdur). Kitabda Dərbənd, onun abidələri, əhalinin məişət və adət-ənənələri, eşitdiyi yerli rəvayətlər və s. təsvir olunmuşdur. O yazırdı «…şəhər yuxarı və aşağı hissəyə bölünmüş və onlar arasındakı məsafə üçüncü hissəni yaradırdı. Yuxarı hissə qəsr kimi yuxarıda yerləşmişdi. Mən qəsrdə olarkən burada min nəfərdən ibarət qarnizon yerləşirdi. Qəsr sursatla yaxşı təmin olunmuşdur. Sultan da burada tez-tez olur. Şəhərin orta hissəsini farslar tutur. Şəhərin bu hissəsi çox pis vəziyyətdədir və daxmalarla doludur. Şəhərin aşağı hissəsində yaşayış yoxdur, yalnız bağlar və əkin sahələri görünür».



Sultanov Asim Məşdi Baba oğlu – 1938-ci il yanvarın 25-də Dərbənd şəhərində anadan olmuşdur. O, Azərbaycan Neft və Kimya institutunu bitirmiş və 2002-ci ilə qədər Dərbənd şəhərindəki «Elektrosiqnal» zavodunda direktor müavini vəzifəsində çalışmışdır.

Sultanova (Məmmədzadə) Bahar Səftər qızı – 1958-ci ildə aprelin 18-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Bakıda orta məktəbi və Azərbaycan Tibb Universitetini bitirmişdir. Bakı şəhərində klinik xəstəxanada həkim işləyir.

Sultanova Bikəbacı (Fəridə) Hüseynbala qızı – 1928-ci il oktyabrın 4-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. 1947-ci ildə Bakıda orta məktəbi qızıl medalla, 1954-cü ildə isə Azərbaycan Dövlət Neft Akademiyasının inşaat-mühəndisi fakültəsini bitirmişdir. 1954-cü ildən Dərbənd şəhər İcra Hakimiyyətinin layihə-smeta bürosunun rəisi işləmiş və eyni zamanda Kənd Təsərrüfatı Texnikumunda dərs demişdir. 1959-cu ildə Bakıya köçmüş və Azərbaycan SSR Sənaye Tikintisi Nazirliyinin tikinti-montaj trestində işləmişdir. 1960-cı ildən Azərbaycan Dövlət Neft Akademiyasında elmi-tədqiqat sektorunun kiçik elmi işçisi, 1961-ci ildən mühəndis qrafikası kafedrasının baş müəllimi və assistenti vəzifələrində çalışmışdır. 1986-cı ildə təqaüdə çıxmışdır. O «Əmək veteranı» medalı ilə təltif olunmuşdur.

Sultanov Əbdülhəmid Əhəd oğlu – polkovnik, 1912-ci ildə Dərbəndə anadan olmuşdur. Azərbaycanlıdır. Məzahir Rzayev adına yeddiillik məktəbi və Mahaçqala Sənaye Texnikumunun dəmiryol şöbəsini bitirmişdir. Əmək fəaliyyətinə Dərbənd şəhərinin tikinti obyektlərində başlamışdır.

1935-ci ildə Bakı şəhərinə köçmüş və Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı (XDİK) Dəmiryolu idarəsində işləməyə başlamışdır. Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. Sonra isə Azərbaycan SSR-in Yardımlı, Sabirabad, Masallı rayonlarının XDİK-nın şöbə rəisi və 1954-cü ildən isə Azərbaycan SSR DİN-in Mərkəzi Aparatında müxtəlif vəzifələrdə çalışmışdır. 1989-cu ildə vəfat etmiş və Bakıda dəfn olunmuşdur.

Sultanova Ədilə Zeynəddin qızı – 1937-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. O, Dağıstan Tibb İnstitutunu bitirmiş və Bakı şəhərində uşaq xəstəxanasında həkim-pediatr işləmişdir. Onun iki ovladı var: oğlu Bakı şəhərində vəkil işləyir, qızı isə Moskva şəhərində yaşayır.

Sultanov Əhməd bəy Mürsəl bəy oğlu – 1896-cı ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Əvvəlcə realnı məktəbini bitirmiş və elə həmin məktəbdə müəllim işləmişdir. Əhməd bəy Sultanov Dərbənd şəhərində sürgündə olmuş və burada çoxsaylı hekayələr və povestlər yazmış və dekabrist Bestujev-Marlinskinin «Molla Nur» adlı povestini Azərbaycan dilinə tərcümə etmişdir. O, 1914-1917-ci illərdə Hümmət təşkilatının katibi olmuşdur. Sovet hakimiyyəti qurulduqdan sonra o, maarif işində rəhbər vəzifədə işləmişdir. O, 1924-cü ildə vəfat etmişdir.

Sultanov Əliqulu İlyas oğlu – 1960-cı ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



O, Dərbənd şəhər orta məktəbini və Rusiya Federasiyasının Novoçerkassk Hidromeleorasiya İnstitutunu bitirmişdir. Yəmən Ərəb Respublikasına ezam edilmiş və burada Hidro-Meleorativ tikinti idarəsinə rəhbərlik etmişdir. Oradan qayıtdıqdan sonra Dərbənd şəhər Hidromeleorasiya tikintilərinə rəhbərlik etmişdir.

Sultanov Əlyar Səftər oğlu – 1951-ci il iyunun 17-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

Ailəsi Bakı şəhərinə köçdükdən sonra o, burada 169 saylı orta məktəbi bitirmişdir.

1968-1974-cü illərdə Azər-baycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsini bitirmişdir. O, 1988-ci ildə tibb elmləri namizədi, 1994-cü ildə dosent elmi dərəcəsini almışdır.

Ə.Sultanov Azərbaycan Tibb Universitetində daxili xəstəliklər və reanimasiya kafedrasının dosenti vəzifəsində çalışır, 25 elmi əsərin müəllifidir.

Sultanov Ənvər Zeynəddin oğlu – 1941-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

O, Dağıstan Tibb İnstitutunu bitirmişdir. O, Dərbənd Mərkəzi xəstəxanasında cərrah vəzifəsində işləyirdi.

O, 2009-cu ildə vəfat etmişdir. İki övladı var: birinci qızı – Nilya Moskva şəhərində həkim, ikinci qızı - Səbinə Moskva şəhərində orta məktəblərin birində alman dili müəllimidir.

Sultanov Məşədi Baba – 1886-cı ildə Dərbənd şəhərində anadan olmuşdur. Dağıstanın cənubunda balıq sənayesi idarəsində rəhbər vəzifədə çalışmışdır. Onun birinci həyat yoldaşı – Rəsulbəyova Nabat İmran qızı; ikinci həyat yoldaşı – Sultanova Aleksandra Kuzminişna.

M.Sultanov əvvəllər Dərbənd şəhərində, sonralar isə Mahaçqala şəhərinin Levanevsk 6 ünvanında yaşamışdır.

O, Mahaçqala şəhərində vəfat etmiş və Dərbənd şəhərində dəfn olunmuşdur.

Sultanova Mina Zeynəddin qızı – 1934-cü ildə Dərbənd şəhərində anadan olmuşdur. O, Dağıstan Tibb İnstitutunu bitirmiş və Bakı şəhərində baş həkim işləmişdir.

Mina xanım Bakı şəhərində vəfat etmişdir. Onun iki övladı var idi: qızı – Dilarə Dağıstan Tibb İnstitutunu bitirmiş və Bakı şəhərində həkim işləyir; oğlu –Nuruddin Dağıstan Kənd Təsərrüfatı İnstitutunu bitirmiş və Moskva şəhərində yaşayır.

Sultanov Səftər Əlyar bəy oğlu – 1913-cü ilin iyunun 20-də Dərbənd şəhərində bəy ailəsində anadan olmuşdur. Azərbaycanlıdır. Atası Əlyar bəy İsmayıl bəy oğlu Dərbənd şəhərinin ən zəngin adamlarından olmuşdur. Bəy nəslindən olan anası Zivər xanım Məmmədrzabəyova şəhərdə gənclər və qadınlar arasında böyük nüfuza malik idi. Bu ailə xeyriyyəçiliklə məşğul olur, kasıb və çoxuşaqlı ailələrə kömək göstərirdi.



Səftər Sultanov Dərbənd şəhərində orta məktəbi bitirdikdən sonra, təhsilini davam etdirmək üçün Bakıya gəlir. O, Bakı şəhərində Kommunal-Tikinti Texnikumunu, sonra isə Novoçerkasskda Don Politexnik İnstitutunun inşaat fakültəsini bitirmişdir. Bu təhsil ocaqlarını bitirdikdən sonra, onu genişsahəli inşaatçı-mühəndis kimi Stalinqrad şəhərinə müdafiə müəssisələrinin inşasına göndərilir.

S.Sultanov 1940-1945-ci illərdə Sovet ordusu sıralarında xidmət etmiş, 1941-1945-ci illər müharibəsi cəbhələrində vuruşmuşdur. Ağır yaralandığı üçün ona ikinci dərəcəli əlillik verilir. Döyüş xidmətlərinə görə o, dörd ordenlə, 15 medal, çoxsaylı döyüş nişanları ilə təltif olunmuşdur.



Soldan sağa: General M.Nəsirov, M.Fətullayev (Dərbənd şəhər müharibə veteranları Şurasının sədri), S.Sultanov, Ş.Fətullayev (memar, AMEA müxbir üzvü). Dərbənd 15.10.1995

1946-cı ildən Səftər Sultanov Dərbənd şəhərində mühənis-memar vəzifəsində işləməyə başlayır. 1959-cu ildə Sultanovlar ailəsi Bakıya köçür. Azərbaycan paytaxtında Səftər Sultanov 40 ildən artıq SSRİ «Hiproazneft Neftkimya və Neftemalı» sənayesinin Layihə İnstitutunun baş mütəxəssisi işləmişdir. Səftər bəy Sultanov 75 yaşında təqaüdə çıxmışdır. Onun dörd kitabı nəşr olunmuşdur. O, Həmid Zeynalovla birlikdə «Dərbənd və dərbəndlilər», Bakı, 2001; «Dərbənd – yaranma və inkişaf tarixi», Dərbənd, 2003; «Dərbənd və məşhur adamlar», Bakı, 2004; «Dərbənd – məşhur ailələrin şəcərəsi», Bakı, 2005 adlı kitabları nəşr etdirmişdir.

Sultanov Süleyman Mürsəl oğlu – 1902-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd şəhər realnı məktəbini, Gəncə Kənd Təsərrüfatı İnstitutunu və Moskvada Qırmızı Professura İnstitutunu bitirmişdir. Dərbənddə nəşr olunan «Dağıstan füqərası» qəzetinin baş redaktoru işləmişdir. Azərbaycan SSR

Kənd Təsərrüfatı Nazirliyində, Şəki rayon Partiya Komitəsinin birinci katibi, Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi, sonra isə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin aparatında işləmişdir. 1937-ci ildə «xalq düşməni» kimi həbs edilmiş və 18 il həbs cəzası çəkmişdir. Həbsdən qayıtdıqdan sonra reabilitasiya olunmuş və Bakı şəhər İcraiyyə Komitəsinin kənd təsərrüfatı şöbəsinin müdiri işləmişdir. 1975-ci ildə Bakıda vəfat etmiş və Dərbənd şəhərində dəfn olunmuşdur.

Sultanov Həsən Xəlil oğlu – 1920-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd Pedaqoji Texnikumunu bitirmişdir. Plexanov adına Moskva Xalq Təsərrüfatı İnstitutunun 3-cü kursundan ordu sıralarına çağırılmış və 1941-1945-ci illər müharibəsi cəbhələrində vuruşmuşdur. Müharibədən sonra Bakı şəhəri Səbail rayonunun hərbi komissarlığında işləmişdir. 1968-ci ildə polkovnik rütbəsində ehtiyata buraxılmış və Bakı şəhər meyvə-tərəvəz ticarəti idarəsinin müdiri işləmişdir. O, 1983-cü ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Sultanov Niyazi Məşədi Baba oğlu – 1923-cü ildə



Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd Pedaqoji Texnikumunu və Dağıstan Tibb İnstitutunu bitirmişdir. Tibb xidməti polkovniki, Qazaxıstan SSR-ın əməkdar həkimi.

O, 1941-1945-ci illər müharibəsi iştirakçısıdır. Alay, briqada tibb xidməti rəisi və diviziyada epidemioloq vəzifəsində xidmət etmişdir. Müharibədən sonra Rumıniyada və Macarıstanda Sovet Qoşunlarınını tərkibində briqada həkimi, ordunun hərbi tibb şöbəsinin baş zabiti, diviziya tibb xidmətinin rəisi vəzifələrində çalışmışdır.

1960-cı ildə S.M.Kirov adına Leninqrad Hərbi Tibb Akademiyasının komanda fakültəsini bitirdikdən sonra diviziya, briqada, ordunun tibb xidməti sistemində komanda vəzifələrini tutmuş, Alma-Ata Dairə hərbi hospitalının rəisi təyin olunmuş, sonra Qazaxıstan Dövlət universitetinin hərbi kafedrasının tədris şöbə rəisi, Azərbaycan Dövlət Universitetinin hərbi kafedrasının rəisi işləmişdir. O, iki «Qırmızı Ulduz», «Vətən müharibəsi» ordenlərinə və 23 medala layiq görülmüşdür.

1976-cı ildə ehtiyata buraxılmış və Bakıda 4 saylı poliklinikanın baş həkimi, Bakı şəhəri Binəqədi raoyn Səhiyyə şöbəsinin müdiri, Bakı şəhəri Məlikov adına 6 saylı xəstəxananın baş həkimi vəzifələrində işləmişdir. O, 2001-ci ildə vəfat etmiş və Bakıda dəfn olunmuşdur.

Sultanov Rafət Məşədi Baba oğlu – 1931-ci




il dekabrın 6-da Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd şəhər 1 saylı orta məktəbi, Dağıstan Pedaqoji İnstitutunu və Moskva Hüquq İnstitutunu bitirmişdir.

O, Dərbənd şəhər 1 saylı orta məktəbdə müəllimi, Dərbənd tibb məktəbinin direktor müavini, Dərbənd şəhər Partiya Komitəsinin təbliğat və təşviqat şöbəsinin müdiri, Dərbənd şəhər İcraiyyə Komitəsi Xalq Deputatları Şurasının sədr müavini vəzifələrində çalışmışdır.

R.Sultanov 1967-ci ilin martından 1972-ci ilin iyulunadək Dərbənd şəhər İcraiyyə Komitəsi Xalq Deputatları Şurasının sədri, sonralar Ş.Əliyev adına tikiş fabrikinin direktoru və Kənd Təsərrüfatı texnikmunda şöbə müdiri işləmişdir. O, müxtəlif orden və medallarla təltif olunmuşdur.

R.Sulatanov 2005-ci il aprelin 23-də ildə vəfat etmiş və Dərbənd şəhərində dəfn olunmuşdur.

Sultanov Rüfət Bağır oğlu – 1937-ci ildə Dərbənd



şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

1955-ci ildə Dərbənd Kənd Təsərrüfatı Texnikumunu, 1962-ci ildə isə Novoçerkassk Mühəndis-Meliorasiya İnstitutunu, 1968-ci ildə isə bu institutun aspiranturasını bitirmişdir.

R.Sultanov Dərbənd şəhərində Samur-Dərbənd suvarma sistemi idarəsində hidrometr, sahə rəisi, «Dağıstanbaşsutikinti» idarəsinin baş mühəndisi və bu idarənin rəisi vəzifələrində işləmişdir.

1974-1988-ci illərdə SSRİ Su təsərrüfatı

Nazirliyinin «Dağdüyüsutikinti» tikilən düyü və suvarma idarəsinin direktoru vəzifəsində çalışmışdır.

Dağıstan MSSR şəraitində torpaqların suvarması məsələsinə həsr olunmuş 7 elmi əsərin müəllifi, Dağıstan MSSR və Rusiya Federasiyasının əməkdar meliaratorudur.

Sultanov Sultan Həmid oğlu – 1947-ci ildə



Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd şəhər 1 saylı orta məktəbi, Kənd Təsərrüfatı Texnikumunu, Moskva Dövlət İqtisad İnstitutunu və Rostov Dövlət Pedaqoji İnstitutunu bitirmişdir. Dərbənd uşaq idman məktəbinin məşqçisi, rayon İdman Komitəsinin sədri, Dərbənd rayon Gənclərin Fiziki hazırlığı üzrə Komitəsinin sədri, «Məhsul» könüllü idman cəmiyyətinin rayon şurasının sədri, Dərbənd Kənd Təsərrüfatı Texnikumunun direktoru, «Dərbənd» aqrar-sənaye konserninin baş direktoru, 2002-ci ildən isə Dərbənd rayon aqrar-sənaye kompleksi idarəsinin rəisi, Dərbənd rayon İcra Başçısının birinci müavini işləyir.

Dağıstan MSSR-nın Ali Sovetinin fəxri fərmanı və «Döyüş rəşadətinə görə» medalı ilə təltif olunmuşdur.

Sultanova Şatda Məşədi Baba qızı – 1927-ci il mayın 1-də Dərbənd şəhərində anadan olmuşdur. O, Dərbənd Pedaqoji məktəbini və Dağıstan Pedaqoji İnstitutunu bitirmişdir.

S.Sultanova 3 və 11 saylı orta məktəblərdə biologiya müəllimi işləmişdir.

O, 1985-ci il mayın 22-də vəfat etmişdir.

Sultanov Tacəddin Tofiq oğlu - 1952-ci ilin



noyabrın 7-də Dərbənd şəhərində anadan olmuşdur.

1959-cu ildə Dərbənd şəhər 3 saylı orta məktəbi bitirmişdir. 1971-1973-cü illərdə Sovet ordusu sıralarında xidmət etmişdir. 1973-cü ildə Dağıstan Politexnik İnstitutuna daxil olmuş və eyni zamanda «Dolkommun-proyekt» layihə təşkilatında texnik, mühəndis və qrupun rəhbəri vəzifələrində əmək fəaliyyətinə başlamışdır. 1980-ci ildən Dərbənd Kənd Təsərrüfatı Texnikumunun direktor müavini işləmişdir. 1982-1987-ci illərdə Dərbənd şəhərinin baş memarı, Dərbənd şəhər İcraiyyə Komitəsinin inşaat və memarlıq idarəsinin rəisi vəzifəsində çalışmışdır. 1987-ci ildən 1990-cı ilə qədər «Dolkommunproyekt» layihə təşkilatı filialının rəisi, 1990-cı ildən 1997-ci ilədək Dərbənd şəhər komunal müəssisələri kombinatının direktoru, 1997-1999-cu illərdə Dağıstan Respublikası Hökumətinin və Dövlət Şurası idarəsinin kadr siyasəti üzrə idarə şöbəsinin müdiri olmuşdur.

1999-cu ildən Dərbənd şəhər təhsil bələdiyyəsi başçısının müavini, 2000-ci ildən isə Dərbənd şəhər Dairəsi Təhsil Bələdiyyəsi başçısının birinci müavini vəzifəsində çalışır. T.Sultanov şəhər iqtisadiyyatının inkişafına, xalqlar və millətlər arasında dostluq və əməkdaşlığın möhkəmləndirilməsinə görə «Dostluq», «Vicdanlı adam» adlı orden və medallarla təltif olunmuşdur.

Sultanov Tofiq Əbdülhəmid oğlu – general-mayor, 1945-ci ildə anadan olmuşdur. Azərbaycanlıdır. Əslən dərbəndlidir. 1967-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasını energetika fakültəsini və 1969-cu ildə Sankt-Peterburq (Leninqrad) şəhərində DTK-in Ali kursunu bitirmişdir. Dövlət təhlükəsizliyi orqanlarında, həmçinin 1971-1985-ci illərdə xaricdə, 1985-ci ildən Azərbaycan DTK Mərkəzi aparatında, 1989-1992-ci illərdə DTK sədr müavini işləmişdir. 1992-ci ildə təqaüdə çıxmış və Moskva şəhərində yaşayır.

Sultanov Valeri Zeynəddin oğlu – texnika elmləri



namizədi, 1952-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. O, 1972-ci ildə Kirovoqrad mülki aviasiya uçuş-şturman məktəbini, 1980-cı ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu, 1989-cu ildə Leninqrad Mülki Aviasiya Akademiyasını və Bakı Biznes Universitetini bitirmişdir.

O, AN-24, İL-18, TU-154, Boinq-727 və Boinq-707 təyyarələrində uçmuş, Azərbaycan Respublikası Mülki Aviasiyası İdarəsində baş

şturman, 1996-cı ildən isə «Azəraeronaviqasiya» («AZANS») müəssisəsinin direktoru vəzifəsində işləyir. Bir neçə ildir ki, aeronaviqasiya xidmətinin inkişafı üzrə «RADA» regional assosiasiyasının sədridir.

Sultanova Violetta Zəlimxan qızı – 1963-cü ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

1981-ci ildə Dərbənd şəhər 3 saylı orta məktəbini fərqlənmə ilə, 1986-cı ildə Dağıstan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. Filologiya elmləri namizədi, dosent, Dağıstan Respublikasının əməkdar müəllimidir. V.Sultanova 3 saylı Dərbənd şəhər orta məktəbində müəllim, Dərbənd Humanitar İnstitutunun filologiya fakültəsinin dekanı, prorektoru və 2001-ci ildən isə rektoru vəzifəsində çalışır.

Sultanov Zeynəddin Məşədi Baba oğlu – 1912-ci il aprelin 28-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



Doktor Z.Sultanov qədim knyaz nəslinin nümayəsindən idi.

O, 1930-cu ildə Dağıstan Tibb İnstitutuna daxil olmuş və 1934-cü ildə həmin institutu həkim-dermatoloq ixtisası üzrə bitirmişdir.

Z.Sultanov 1935-ci ildə Dağıstan Xalq Səhiyyə Komissarlığının baş dövlət müfəttişi təyin olunmuşdur. 1935-1939-cu illərdə Mahaçqala şəhərində Respublika Dəri-Zöhrəvi dispanserinin baş həkimi vəzifəsində çalışmışdır.

O, 15 aprel 1939-cu ildə hərbi həkim kimi Qırmızı Orduya həqiqi hərbi xidmətə çağırılmış, 1941-1945-ci illər müharibəsi dövründə Qutaisi şəhərində yerləşən Cənubi Qafqaz xalqlarından ibarət 388-ci atıcı diviziyada hərbi həkim kimi xidmət etmişdir. 1941-ci ilin dekabr ayının əvvəllərində həmin diviziya Sevastopol şəhərinə göndərilmiş və 1942-ci ilin payızına qədər Z.Sultanov ordu tərkibində şəhərin müdafiəsində iştirak etmişdir.

Z.Sultanov tibb xidməti mayoru rütbəsində ordudan tərxis olunmuş və Mahaçqala şəhərində yerləşən Respublika Klinik Xəstəxanasının baş həkimi təyin edilmişdir. O, 1956-cı ilə qədər RSFSR-ın müxtəlif şəhərlərinin xəstəxana və hospitallarına rəhbərlik etmiş, sonralar isə doğma Dərbənd şəhər xəstəxanasının baş həkimi vəzifəsinə təyin olunmuş və orada 1964-cü ilə qədər çalışmışdır. 1965-ci ildə isə o, Azərbaycan Mülki Aviasiya idarəsinin tibbi sanitar xidmətinin müdiri işləmişdir.

Z.Sultanova 1967-ci ildə yüksək ixtisaslı həkim adı verilmişdir. Əmək fəaliyyəti ərzində o, müxtəlif mükafatlarla, medallarla, fəxri fərmanlarla və qiymətli hədiyyələrlə təltif olunmuşdur.

O, 1991-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Surmaç Mixail Mixayloviç (1912-1997) – Dərbənd şəhərində dəmiryolçu ailəsində anadan olmuşdur. 1926-cı ildə şəhər 115 saylı məktəbin 7 sinifini və 1929-cu ildə Vladiqafqaz Dəmiryol Texnikumunu bitirmişdir. 1920-1942-ci illərdə Dərbənd şəhər yolunun 9-cu məsafəsinin rəis müavini işləmişdir.



1942-ci ildə Sovet ordusu sıralarına çağırılmış, Tiflis Artilleriya Məktəbində qısa müddətli kurs keçdikdən sonra cəbhəyə göndərilmişdir. Qafqazın müdafiəsində, Ukraynanın azad olunmasında və Berlin uğrunda döyüşlərdə iştirak etmişdir. O, bir çox orden və medallara, həmçinin 1945-ci ildə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Müharibədən sonra M.Surmaç Qudermesdə dəmiryol rəisi işləmişdir. Moskvada vəfat etmiş və orada dəfn olunmuşdur.

Süleymanova Zöhrə İbrahim qızı – 1950-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



1973-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirmişdir. Bakıda orta məktəb müəllimi, «Dənizneftqaz» İnstitutunun baş mühəndisi işləmişdir. 1983-cü ildən Bakı şəhəri telefonrabitə qovşağının baş metroloqudur.

Şahbazov Məmmədrza Əlirza oğlu – 1956-cı ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd şəhər 3 saylı orta məktəbi,



1976-cı ildə Lvov orta Yanğın Texniki Məktəbini, 1986-cı ildə Dağıstan Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir.

O, Dərbənddə dövlət yanğın mühafizəsinin inspektoru, milis şöbəsinin əməliyyat növbətçisi, SƏDM müfəttişi, müstəntiq, əməliyyat işi üzrə rayon milis şöbəsinin rəis müavini işləmişdir. 1990-cı ildən Dərbənd rayon milis şöbəsinin rəisidir.

M.Şahbazov milis polkovniki, 1995-ci ildə Dağıstan Respublikasının Əməkdar hüquqşünası, 2002-ci ildə Rusiya Federasiyasının DİN-in Fəxri əməkdaşı adlarına layiq görülmüşdür. O, «Daxili işlər orqanlarındakı qüsursuz xidmətlərinə görə» 1, 2 və 3-cü dərəcəli medallarla, ad yazılmış «Makarov» tapancası ilə mükafatlandırılmışdır.

Şahbazov Müseyib – 1898-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

Dərbənd realnı məktəbini bitirmişdir. 1917-1920-ci illər inqilabi hərəkatda iştirak etmişdir. 1920-ci ildə Dərbənddə Sovet hakimiyyəti qurul-duqdan sonra şəhər İnqilab Komitəsinin sədri, Bakıya köçdükdən sonra isə Gəncə qəza İcra Hakimiyyətinin sədri, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin şöbə müdiri, Kirov (indiki Binəqədi) rayon Partiya Komitəsinin katibi və Azərbaycan SSR Xalq Maarifi komissarı vəzifələrində çalışmışdır. 1937-ci ildə «xalq düşməni» kimi həbs olunmuş və güllələnmişdir. Dərbənd şəhərinin küçələrindən biri onun adını daşıyır.

Şahmərdanov İbrahim – şair-cəbhəçi. 1915-ci ildə Dağıstan Respublikası Xivsk rayonunun Yargil kəndində anadan olmuşdur. Tabasaran millətindəndir.

Dərbənd Pedaqoci texnikumunu bitirəndən sonra doğma kənd məktəbində müəllim vəzifəsində çalışıb.

Şairin birinji nəşri 1932-ci ildə rayon qəzetinin səhifələrində, "Suyun mənbələri" adlanan birinci kitabı isə 1974-cü ildə mətbuatda çap olunmuşdur.

İbrahim Şahmərdanov Böyük Vətən Müharibəsinin iştirakçısı olmuşdur. O, çox sayda əmək və döyüş mükafatları ilə təltif olunmuşdur. Onların arasında II dərəjəli "Vətən müharibəsi" ordeni, "Şücaətə görə", "1941-1945-ci illərdə Böyük Vətən Müharibəsində Almaniya üzərində qələbə qazandığına görə", "1941-1945-ci illərdə Böyük Vətən Müharibəsində şanlı əməyinə görə" medalları ilə təltif olunub.

Şair-cəbhəçinin yaradıcılığında hərbi-vətənpərvərlik mövzusuna, həmçinin şairin həyatının son illərini keçirdiyi Dərbənd şəhərinin tarixi keçmişinə və hazırkı zamana həsr edilmiş əsərlərinə xüsusi yer ayrılır.

İbrahim Şahmərdanov Dağıstan ədəbiyyatının xəzinəsinə böyük yaradıjılıq irsi qoymuşdur. Onun ədəbi əsərləri Dağıstan Respublikasının ali və orta təhsil müəssisələrində tədqiq edilir. Ədəbi əsərlərindən çoxu rus və Dağıstan xalqlarının dillərinə tərcümə olunmuşdur. İbrahim Şahmərdanovun mahnılar üçün sözləri və şairin şeirləri Tabasaran və rus dillərində səslənirlər.

14 noyabr 2015-ci il tarixində Dərbənd şəhərinin Dövlət Ləzgi mahnı-dramatik teatrında İbrahim Şahmərdanovun anadan olmasının 100 illik yubileyi keçirilmişdir.

Tədbir Dərbənd şəhərinin Dövlət Ləzgi mahnı-dramatik teatrı, "Dostluq" mədəni mərkəzi, Xivsk rayon və "Dərbənd şəhəri" şəhər dairəsinin administrasiyaları tərəfindən təşkil olunmuşdur.

Şalumov Binyamin Zavlunoviç – texnika elmləri doktoru, professor, 1935-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Dərbənd şəhər 11 saylı orta məktəbi, Qroznı Neft İnstitutunu bitirmişdir.

B.Şalumov layihə təşkilatında konstruktor, SSRİ-ın Dövlət Plan Komitəsi nəzdindəki kimya və neft sənayesi Dövlət komitəsinin layihə təşkilatında konsruktor, 1975-ci ildən optik və elektron üçün xüsusi xammalın emalı laboratoriyasının rəhbəri, 1979-cu ildən SSRİ-in «Elektron və optika üçün xüsusi təmiz maddələr» problemi üzrə Kimya Sənayesi Nazirliyinin baş kimyaçısı, 1985-ci ildən «DIAG INTERNATIONAL» Sovet-İsveçrə birgə filialının direktoru, 1995-ci ildən Rusiyada «V.G.INTERPRISIS» ABŞ firmasının baş direktoru işləmişdir. O, 63 yaşında ilk dəfə əlinə fırça götürmüş və tədricən 500-dən çox rəsm əsəri çəkmişdir. Onun tabloları Rusiyanın, Avropanın, Kanadanın, Amerikanın fərdi və qrup sərgilərində nümayiş olunmuş, muzeylər («Avropa rəsm

muzeyi», ABŞ, Moskva meriya muzeyi, Moskvada ABŞ səfirliyi) və fərdi kolleksionerlər tərəfindən alınmışdı. B.Şalumov Rusiyanın Rəssamlar İttifaqının üzvü, Beynəlxalq rəsm federasiaysı və «Westrn New York Artist"'s Group» ABŞ Rəssamlar İttifaqının üzvüdür. Mədəniyyətin inkişafına göstərdiyi böyük xidmətlərinə görə B.Şalumov Rusiya Rəssamlar İttifaqının medallı ilə təltif olunmuşdur.

Şeyxəli xan – Quba və Dərbənd hökmdarı Fətəli xanın ortancıl oğlu.

1789-cu ildə atasının ölümündən sonra qardaşı Əhməd xan (1789-1791) tərəfindən Quba xanlığına daxil olan Salyanın hakimi təyin edilmişdir. 1791-ci ildə böyük qardaşının ölümündən sonra, 13 yaşında xanlıq taxt-tacına sahib olmuş və «Quba və Dərbənd» hökmdarı titulunu daşımağa başlamışdı.

Hakimiyyətdə olduğu illərin əvvəllərində özünü atasının siyasətinin davamçısı kimi göstərmiş və yadelli işğalçılara qarşı inadla mübarizə aparmışdı. V.Zubovun komandanlığı altında 30 minlik rus ordusuna qarşı ciddi müqavimət göstərmişdir. Şeyxəli ruslar tərəfindən həbs olunub Şamaxıya hərəkət edən rus ordusu tərəfindən aparılsa da gənc xan yolda qaçmağa müvəffəq olmuşdur. Şeyxəli xan keçmiş düşməni Surxay xan Qazıqumuxlunun yanında gizlənmişdir. Surxay xanla birlikdə 15 minlik ordu toplayaraq ruslara hücum etmişdir.

II Yekaterinanın ölümündən sonra (1796-cı il 6 noyabr) 1796-cı ilin dekabrında Rusiya imperatoru dəlisov Pavel (1796-1801) Qacarların tələblərinə güzəştə gedərək, Qafqazdakı bütün hərbi əməliyyatları dayandırmış və qoşunlarını geri çağırmışdır. Bundan istifadə edən Şeyxəli xan Dərbəndi yenidən öz xanlığına birləşdirib özünü müstəqil xan elan etmişdir.

Bu dövrdə Rusiya Qafqazda işğallarını davam etdirmək üçün ciddi fəaliyyət göstərirdi. 1806-cı il iyulun 22-də general-leytenant Q.İ.Qlazenapın komandanlığı altında rus qoşunları Dərbəndi işğal etmişdir. Şeyxəli xan ömrünün sonunadək Rusiya işğalçılarına qarşı vuruşmuşdur. 1810-cu ildə Rusiya əleyhinə Qubada güclü üsyan qaldırmış, yalnız rus ordusunun amansız və böyük cəza əməliyyatları nəticəsində Şeyxəli xan İrana qaçmağa məcbur olmuş, sonra Qafqaza qayıtmış və Balakən kəndində vəfat etmişdir.

Şeyx Heydər – Azərbaycan Səfəvi sülaləsinin görkəmli nümayəndələrindən biri, «Səfəviyyə» sufi təşkilatının şeyxi (1460-1488), Şeyx Cüneydin (1447-1460) oğlu, I Şah İsmayılın (1501-1524) atası. Onların nəsli müqəddəs 7-ci imam Musa ibn Cəfərdən başlayır. Onlar həmişə şeyx və ya ruhani müəllim olmuşlar. Şeyx Heydər ruhani və siyasi lider kimi 1460-1488-ci illərdə fəaliyyət göstərmişdir. O, öz davamçıları üçün 12 imamın xatirəsi naminə 12 al-qırmızı zolaqlı şiş papaq tətbiq etmişdir. Ona görə də Səfəvilərin davamçılarını qızılbaşlar adlandırılmışlar.

1488-ci ildə Şeyx Heydər öz müridləri ilə Dərbənd divarlarının yanında görünmüşdü. Şəhər sakinləri onu şəhərə buraxmadılar. Şeyx Heydər Dərbəndi mühasirəyə aldı. Şəhər hakimi Şirvanşah Fərrux Yəsarın (1462-1500) hücumun qarşısını ala bilmədiyini hiss edərək Sultan Yaqub (1478-1490) Ağqoyunludan kömək istədi. Köməyin yetişdiyini görən Şeyx Heydər Dərbəndin mühasirəsini götürdü və onları Rubas çayının sahilində qarşıladı. Şeyx Heydər qanlı döyüşlərin birində Tabasaranda həlak oldu. Onun məzarı Tnit kəndinin (Tabasaran rayonu) yaxınlığındadır. Hazırda onun məzarı ziyarətgaha çevrilmişdir.

Şəkərəliyev İsmayıl Şəkərəli oğlu – Rusiya Federasiyası Dağıstan Respublikası Xasavyurd rayonunun Kuruş kəndində anadan olmuşdur. Azərbaycanlıdır.



Dağıstan Dövlət Texniki Universitetini maşınqayırmanın texnologiyası ixtisası üzrə bitirmişdir.

1996-cı ildə İ.Şəkərəliyev Ş.Tahirmirzəyev və R.Babayevlə birlikdə «Kompromis» firmasını yaratmışlar. «Kompromis» şirkəti Dərbənd şəhərinin həyatında fəal iştirak edir. 2005-ci ildə uşaqlar üçün ikimərtəbəli idman kompleksinin tikintisi şirkətin böyük nailiyyətlərindən biri hesab etmək olar. Hazırda idman kompleksinin zallarında 9-17 yaşlarında olan 400 çox uşaq və gənc məşq edir. İdman kompleksinə tanınmış idmançı və hazırda yaxşı məşqçi Ramiz Əbdülqədirov başçılıq edir. İ.Şəkərəliyev Dərbənd şəhər Məclisinin deputatıdır.

Şıxsəyidov Murad Şıxsəyid oğlu – 1952-ci il noyabrın 15-də Dağıstan MSSR Buynaksk rayonunun Buqlen kəndində anadan olmuşdur.



1975-ci ildə Dağıstan Kənd Təsərrüfatı İnstitutunu bitirmiş və Dərbənd rayonu Ş.Əliyev adına sovxozda briqadir işləmişdir. 1976-cı ildə Dağıstan «Quşçuluq sənayesi» trestinin texniki-təminat şöbəsinin rəisi işləmişdir. 1980-1981-ci illərdə Moskva Ümumittifaq İqtisadiyyat və Kənd Təsərrüfatı Elmi-Tədqiqat İnstitutunun aspirantı olmuş və oranı bitirdikdən sonra «Daqestanskaə pravda» qəzetinin xüsusi müxbiri işləmişdir. 1982-ci ildə Qayakənd rayon İcraiyyə Hakimiyyəti sədrinin birinci müavini seçilmiş və Kənd Təsərrüfatı idarəsinin rəisi vəzifəsinə təyin edilmişdir. 1987-1991-ci illərdə RSFSR KP RK-nin Yeyinti və Kənd Təsərrüfatı Sənayesinin şöbə müdirinin birinci müavini işləmişdir. 1992-ci ildə «Eno» bankı idarəsinin sədri, 1995-ci ildə isə «Dağşərab» respublika kontrakt korporasiyasının prezidenti seçilmişdir. 1996-cı ildən «Dağşərab»ın baş direktoru, 1998-2001-ci illərdə Dağıstan Respublikası Kənd Təsərrüfatı və Ərzaq Təminatı nazirinin birinci müavini işləmişdir.

2001-ci ildən 2007-ci ilin avqust ayının 28-dək Qayakənd rayonunun İcraiyyə Hakimiyyətinin başçısı, 2007-ci ilin avqustundan isə Dağıstan Respublikası Kənd Təsərrüfatı Naziri vəzifəsində çalışır.

O, «Dostluq ordeni», 2007-ci ildə Rusiya Federasiyası Sənayeçiləri və Aqrarları Birliyi tərəfindən akademik K.Timiryazyev ordeni ilə təltif olunmuş, «Rusiya milli olimpi» ona «2002-2003-cü illərin rayon başçısı» Rusiya Federasiyası ən yaxşı rayon başçısı fəxri adını vermişdir. 2008-ci ildə Rusiya Federasiyasının Kənd Təsərrüfatı Nazirinin «Aqrosənaye kompleksinin inkişafında göstərdiyi xidmətlərə görə» Qızıl medalı ilə mükafatlandırılmışdır.

Şixsəidov Əmri Rza oğlu – 1928-ci ildə Dərbənddə anadan olmuşdur. Leninqrad Universitetinin şərqşünaslıq fakültəsini və SSRİ EA Dağıstan filialının Tarix, Dil və Ədəbiyyat İnstitutunun aspiranturasını bitirmişdir.



Mahaçqala şəhər 5 saylı orta məktəbində müəllim, kiçik elmi əməkdaş, elmi katib, şərqşünaslıq şöbəsinin müdiri işləmişdir. Hazırda Rusiya EA Dağıstan Elmi Mərkəzinin Etnoqrafiya, Arxeologiya və Tarixi İnstitutunun baş elmi əməkdaşıdır.

Ə.Şixsəidov elmlər doktoru, «Dağıstan Respublikasınını əməkdar elm xadimi», «Rusiya Federasiyasının əməkdar elm xadimi» fəxri adlarına layiq görülmüş, Rusiya Federasiyası hökumətinin mükafatı laureatıdır.

O, «Dostluq ordeni», «1941-1945-ci illər müharibəsindəki fədakar əməyə görə» və «V.İ.Leninin anadan olmasının 100 illiyi ilə əlaqədar fədakar əməyinə görə» medalları ilə təltif olunmuşdur. 250-dən çox elmi əsərin və 16 monoqrafiyanın müəllifidir.

Şoul Samandu (Simanduyev Şoul Adinyaqu oğlu) – dağ yəhudi poeziyasının banisi, 1856-cı ildə Dərbənddə anadan olmuşdur. Dağ yəhudisidir. Valideyinlərini erkən itirdiyi üçün muzdlu fəhlə kimi üzüm bağlarında, taxıl yığımında işləmişdir. Dağ yəhudi əlifbası olmadığı üçün o, sinaqoqun nəzdində yerləşən məktəbdə qədim yəhudi əlifbasını öyrənmişdir. Şoul şeirlərini Azərbaycan dilində qədim yəhudi əlifbasında, «ŞAS-Bobo» təxəllüsü altında yazmışdır. ŞAS soy təxəllüsü öz adı və atasının adının ilk hərflərindən götürülmüşdür. Lakin onun şeirləri sadə xalq arasında və əsasən şifahı formada yayılmışdır. Onun əsərləri arasında «Əlifba» adlı silsilə şeirləri vardır. Bu şeirlərdə o, oğluna nəsihət formasında öz həyat əqidəsini şərh edir, xalqı mənəviyyata və xeyirxahlığa çağırır.

Şoul Samandunun əsərləri əsasən şifahi formada və dağ yəhudi ziyalılarının nadir arxivlərində qorunub saxlanmışdır.

Tabasaranskaya Esmira Murad qızı – 1948-ci il sentyabrın 9-da Bakı şəhərində anadan olmuşdur. Əslən dərbəndlidir. Bakı şəhərində orta və musiqi məktəblərini, 1969-cı ildə Asəf Zeynallı adına musiqi məktəbini bitirmişdir. 1973-1978-ci illərdə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının musiqişünas fakültəsində təhsil almışdır.

O, Asəf Zeynallı adına musiqi məktəbində və Rostropoviçlər adına musiqi məktəbində müəllim işləmişdir.

Tabasaranski Murad Bəylər oğlu – 1922-ci ilin dekabrın 20-də Dağıstanın Tabasaran rayonunun Çeçe dağ kəndində anadan olmuşdur. Azərbaycanlıdır. İqtisad elmləri namizədi, professordur. Atası vətəndaş müharibəsinin iştirakçısı olmuş, anası Bakıda Zeynalabdin Tağıyevin gimnaziyasında müəllimə işləmişdir. 1930-cu ildə Murad Bəylər oğlu məcburi kollektivləşmə ilə razılaşmadığı üçün ailəsi ilə birlikdə həbs olunmuşdur. Onun dostları onun həbsdən qaçmasını təşkil etdilər. Lakin bundan sonra onun atası itkin düşdü.



1937-ci ildə onun qohumlarını ikinci dəfə təqib etməyə başladılar. Tabasaranskilərin böyük nəslinin bütün nümayəndələri bir yay gecəsi həbs olunmuş və güllələnmişdir. 1941-ci ildə Murad Tabasaranski könüllü olaraq cəbhəyə gedir.

Döyüş xidmətlərinə görə ona qvardiya leytenantı rütbəsi verilmişdir. Döyüşlərdə ağır yaralanan Murad Bəylər oğlu əlil olur və 1943-cü ildə evə qayıdır. 1943-cü ilin sentyabrında Bakı şəhər Hərbi komissarlığının xahişi ilə Bakı şəhər 5 saylı peşə məktəbində hərbi-vətənpərvərlik işinə başlıq edir. Murad Tabasaranski ilə Əziz Əliyev arasında yaxın dostluq münasibəti olmuşdur.

1945-ci ildə Murad Tabasaranski müharibə iştirakçısı kimi Sənaye İnstitutuna qəbul olunmuş, 1952-ci ildə Moskva Sovet Ticarəti İnstitutunu, 1954-cü ildə isə Moskva Ali Pedaqoji İnstitutunu bitirmişdir.

1954-cü ildə Murad Tabasaranski təyinatla Bakı Kooperasiya Texnikumuna müəllim göndərilir. 1957-ci ildən həmin Texnikumun direktoru işləyir. 1963-cü ildə Murad Bəylər oğlu Tabasaranski Plexanov adına Moskva İnstitutunda namizədlik dissertasiyasını müdafiə edir. Murad Tabasaranski 24 ildən çox «Bakı fəhləsi» qəzetinin ştatdan kənar müxbiri olmuşdur.

Murad Bəylər oğlu Tabasaranski Nərimanov rayon sovetinin deputatı seçilmiş, 24 il «Azərittifaq»ın üzvü, 23 il Respublika Həmkarlar Komitəsinin rəyasət heyətinin üzvü olmuşdur.

Murad Bəylər oğlu Tabasaranski 2010-cu ilin fevralın 20-də Bakı şəhərində vəfat etmişdir.

Tabasaranskaya Svetlana Murad qızı – 1951-ci il mayın 5-də Bakı şəhərində anadan olmuşdur. Əslən dərbəndlidir, Tabasaranski və Bəylərovlar ailəsindəndir.



1968-ci ildə Bakı şəhərində orta məktəbi, 1972-1976-cı illərdə Azərbaycan İqtisad Universitetinin əməyin iqtisadiyyatı fakültəsində təhsil almışdır. İqtisad elmləri namizədir.

O, hazırda Azərbaycan Kooperativ Universitetində baş müəllim işləyir.

Tabasaranski Zeynal Əlimərdan oğlu – 1918-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd orta məktəbini və Moskvada Qubkin adına Neft İnstitutunu bitirmişdir. Texnika elmləri doktorudur. Qubkin adına Moskva Neft İnstitutunun professoru olmuşdur. 1996-cı ildə vəfat etmiş və Moskvada dəfn olunmuşdur.

Tağıyev Xandadaş Mirzə oğlu – 1900-cu ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. O, Dərbənd realnı məktəbini bitirmişdir. Təhsil aldığı illərdə inqilab hərəkatına qoşulmuş və «Ümid» gizli müsəlman gəncləri təşkilatının üzvü idi. Dağıstanda sovet hakimiyyətinin qurulmasının və Rusiya kommunist partiyasının qurumlarının yaranmasının fəal üzvlərindən biri olmuşdur.



1920-1923-cü illərdə Qaytaq-Tabasaran dairə

İnqilabi komitəsinin sədri işləmişdir. Bu dairəyə Dərbənd şəhəri və Dərbənd rayonu daxil idi. Sonra isə Dərbənd şəhər Sovetinin torpaqşünaslıq şöbəsinin müdiri, Dağıstanın əkinçilik üzrə Xalq komissarının müavini, Dağıstan Kənd Təsərrüfatı Nazirliyinin plan-iqtisad şöbəsinin rəisi, RSFSR Nazirlər Şurasının nəzdində Dağıstan Respublikasının daimi nümayəndəsi vəzifələrində işləmişdir.

1937-ci ildə «xalq düşməni» kimi məhkum olunmuşdur.

1956-cı ildə Hərbi kollegiyanın hökmü ləğv olunmuş və o, reabilitasiya edilmişdir.

Dərbəndin küçələrindən biri onun adını daşıyır. Onun Mahaçqala şəhərində Krasnoflotsk küçəsindəki yaşadığı 43 saylı evə xatirə lövhəsi vurul-muşdur.

Tağı-zadə Heydər Əli Hacı Məcid oğlu (1888-1918) – Tiflis şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

O, 16 yaşında inqilab hərəkatına qoşulmuş, 1905-1907-ci illərin inqilabında iştirak etmişdir.

1906-cı ildə Tağı-zadə ailəsi Bakıya köçür, burada Heydər Əli neft mədənində işləyir və neftçilərin inqibi hərəkatına qoşulur. 1909-cu ildə o, İrana gedir və burada İran inqilabında iştirak edir (1905-1911).

1918-ci ilin aprelində bolşevik təşviqatçılarından bir qrupu Q.Sturuanın komandanlığı altında Bakı Sovetinin Qırmızı qvardiya dəstəsi ilə Dərbəndə gəlir və şəhərdə sovet hakimiyyətinin qurulmasına kömək edir. Burada Tağızadə müsəlman əhalisi arasında fəal təbliğat işi aparır, Dərbənddə RSDR(b) P «Hümmət» müsəlman bölməsini yaradır və ona rəhbərlik edir. 1918-ci ilin aprelində Dərbənd şəhər Xalq Komissarları Şurasının torpaqşünaslıq üzrə komissarı, 1918-ci ilin mayında Dərbənd şəhər mülki işlər üzrə inqilabi müdafiə Komitəsinin sədr müavini, 1918-ci ilin iyununda şəhərin icraiyyə komitəsinin fəhlə, kəndli və qırmızı ordu deputatlarının üzvü, 1918-ci ilin mayında yeni yaradılmış Dərbənd RK(b) P şəhər komitəsinin rəyasət heyətinin üzvü seçilir.

1918-ci il avqustun əvvəlində Port-Petrovskda cənub cəbhəsindən qaçmış polkovnik L.Biçeraxovun dəstəsinə müqavimət göstərmək üçün Hərbi Şura yaradılır. Şuraya Dağıstanın Fövqəladə Hallar komissarı Q.Naneyşvili başçılıq edirdi. Şuranın tərkibinə Port-Petrovsk Şurasının üzvü Merzkov, Dağıstan vilayətinin hərbi komissarı Klimov, Dərbənd Şurasının sədr müavini Tağı-zadə də daxil idi.

1918-ci ilin avqustunda Dağıstan Biçeraxov tərəfindən zəbt olunduğundan sonra Tağı-zadə digər bolşeviklərlə birlikdə Dərbənddən 20 km şimaldakı Padar kəndinin yaxınlığında güllələnmişdir. Şəhərin küçələrindən biri onun adını daşıyır.

Tahirbəyov Bayram Harun bəy oğlu – 1931-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Bakı Pedaqoji İnstitutunun ədəbiyyat fakültəsini bitirmişdir. «Bakı fəhləsi» qəzetinin əməkdaşı, sonra isə baş redaktoru işləmiş, Azərbaycan Dövlət Universitetində dərs demiş, M.F.Axundov adına Azərbaycan Rus dili və Ədəbiyyatı İnstitutunun rektoru işləmişdir. Pedaqoji elmlər namizədi, professordur. Hazırda Rusiya Elmlər Akademiyasında işləyir.

Tahirbəyova Ədilə Harun bəy qızı – Bakıda anadan olmuşdur. Azərbaycanlıdır. Tanınmış dərbəndli Harun Məşədi bəy nəslinin nümayəndəsidir. Azərbaycan Neft və Kimya İnstitutunun geoloji fakültəsini bitirmiş və ixtisası üzrə işləmişdir. 2000-ci ildə vəfat etmişdir.

Tahirbəyov Harun Məşədi bəy Dadaş oğlu – 1881-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd realnı məktəbini bitirdikdən sonra maliyyəçi ixtisasını almışdır. 1920-ci ildə Bakıya köçür və burada Azərbaycan Respublikası Xalq Komissarları maliyyəsi sistemində məsul vəzifələrdə çalışmışdır. 1950-ci ildə vəfat etmişdir.

Tahirbəyova Nailə Harun bəy qızı – 1922-ci ildə Bakıda anadan olmuşdur. Azərbaycanlıdır. Tanınmış dərbəndli Harun Məşədi bəy nəslinin nümayəndəsidir.

Azərbaycan Tibb İnstitutunu bitirmiş və Ağ Ciyər Xəstəlikləri Elmi-Tədqiqat İnstitutunda işləyir, tibb elmləri namizədi və professordur.

Talıbov Abu Talıb Hacı oğlu – 1891-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd rus-tatar məktəbini və bağçılıq, üzümçülük və tərəvəzçilik məktəbini bitirmişdir. Şəhərdə sovet hakimiyyətinin qurulmasında fəal iştirak etmişdir. İnqilab müdafiə komitəsinin üzvü (aprel-may 1918), Xalq Komissarları Şurasının (aprel-may 1918), Fəhlə, kəndli və qırmızı ordu deputatları şurasının xarici kollegiyasına və icra hakimiyyətinin üzvü (iyun-avqust 1918), icra hakimiyyətinin «Hümmət» sosial-demokrat təşkilatının Azərbaycan bölməsinin

üzvü (iyun 1918) seçilmişdir. Dağıstanda sovet hakimiyyəti tam qələbə çaldıqdan sonra (1920) Dərbənd Şəhər İnqilab Komitəsində xalq komissarı, Cənubi Dağıstanda üçüncü beynəlmiləl briqadasının siyasi rəhbəri işləmiş, Dərbənd kənd təsərrüfatı texnikumuna, Gəncə Kənd Təsərrüfatı İnstitutuna, Azərbaycanın Kənd Təsərrüfatı Elmi-Tədqitat İnstitutunda üzümün seleksiyası şöbəsinə başçılıq etmişdir. 1937-ci ildə «xalq düşməni» kimi həbs olunmuşdur. O, 1950-ci ildə reabilitasiya olunmuş və Dərbənd şəhərində üzümçülük və tərəvəzçilik üzrə Dərbənd zona-təcrübə stansiyasında üzümün aqrotexnikası şöbəsinin müdiri işləmişdir. «DMSSR-da kənd təsərrüfatı sisteminin aparılması» kitabının müəllifidir. Kənd təsərrüfatı elmindəki nailiyyətlərinə görə A.Talıbov fəxri döş nişanı ordeni ilə (1966) təltif olunmuş və ona «DMSSR-nin əməkdar aqronomu» adı verilmişdir. A.Talıbov 1966-cı ildə vəfat etmiş və Dərbənddə dəfn olunmuşdur.

Dərbənd şəhərinin küçələrindən biri onun adını daşıyır.

Talıbov Mirzə Əbdürrəhim (1834-1911) –



maarifçi, alim, yazıçı. İlk təhsilini Təbrizdə almış, fars və ərəb dillərini mükəmməl mənimsəmişdir. Şah despotizminə və ruhani istibdadına qarşı radikal baxışlarına görə təqib olunduğundan təqribən 30 yaşında Qafqaza köçmüş, təhsilini Tiflisdə davam etdirərək rus, ingilis və fransız dillərini öyrənmişdir. Şimali Qafqazda yollar çəkmiş, Dağıstanda maarif sahəsində mühüm işlər görmüş, dərsliklər çap etdirmişdir.

Talıbovun ədəbi, ictimai-siyasi və fəlsəfi görüşlərinin formalaşmasına M.F.Axundovun böyük təsiri olmuşdur. Bədii əsərlərində əxlaq, idrak, tərbiyə məsələlərindən danışılır, maarifçilik ideyaları təbliğ olunur, mövhumat, istibdad, tüfeylilik, əcnəbipərəstlik pislənir. Talıbov insanların maddi və hüquq bərabərliyinin qızğın müdafiəçisi idi. 1907-ci ildə İranın birinci Milli Məclisinə deputat seçilmiş, lakin məşrutə ilə şahlığın bir araya sığmadığını bildirərək, deputatlıqdan imtina etmişdir. Talıbovun çoxcəhətli ədəbi-elmi fəaliyyətinin Azərbaycan və İran ictimai fikrinin inkişafında, xüsusilə, İran inqilabının (1905-1911) hazırlanmasında mühüm rolu olmuşdur. Siyasi-ictimai, bədii, elmi və publisistik fəaliyyətinə görə Talıbov şahın göstərişi ilə «kafır» elan edilmişdi.

«Molla Nəsrəddin» jurnalının nəşr olunduğu ilk illərdə Talıbov Dağıstanın mərkəzi Temirxan Şurada yaşayırdı. Onun C.Məmmədquluzadə ilə şəxsi tanışlığına aid rəsmi sənəd yoxdur. Lakin məlumdur ki, C.Məmmədquluzadənin hələ «Şərqi-Rus» qəzetində işlədiyi zaman Talıbov haqqında müəyyən məlumatı var idi. Talıbov «Məsail ül-həyat» («Həyat məsələləri») əsəri 1906 ildə «Qeyrət» mətbəəsində nəşr edilmişdi. Talıbovun «Molla Nəsrəddin»in ilk saylarını oxuduqdan sonra bu haqda Tehrandakı dostlarına məktubla xəbər çatdırmışdı. Talıbovun fəaliyyətində və görüşlərindəki liberalizm təzahürləri və tərəddüdləri, əsərlərini fars dilində yazması və onları baha qiymətə satdırması C.Məmmədquluzadəni qane etmirdi. «Molla Nəsrəddin»də (1907, №21) «Millət qurbanları» adlı felyetonu dərc olunduqdan sonra Talıbov jurnala çox kəskin münasibət bəsləməyə başlamışdır. Talıbov jurnalın İrana gətirilməsinin qadağan edilməsini tələb edənlərin fikrinə tərəfdar olmuş və qəzəbini gizlətməyərək yazmışdı: «Hər kəs onu («Molla Nəsrəddin»i – N.Ə.) oxusa, ona yazanlarla yazışsa, belə namussuz adamın nə haqqı var ki, özünü iranlı hesab etsin».

C.Məmmədquluzadə «Ayineyi-millət» felyetonunda Talıbovla münaqişənin üzərinə yenidən qayıtmış, fəaliyyətinin bəzi məqamlarını tənqid hədəfinə çevirmişdi.

Məşhur yazıçı, xeyriyyəçi kimi ad-san qazanan Talıbova «Molla Nəsrəddin»in sərt münasibəti jurnalın və onun naşirinin ədəbiyyatın xəlqiliyi məsələsində qəti, güzəştsiz mövqedə dayandığını bir daha sübut edir.

Talıbov Nəbi Sədulla oğlu –1926-cı ildə Dərbənd



şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

Dərbənd şəhər 1 saylı orta məktəbini, Dağıstan Kənd Təsərrüfatı İnstitutunu və aspiranturanı bitirmişdir.

Kənd təsərrüfatı elmləri namizədidir. Azərbaycan Bağçılıq və Üzümçülük Elmi-Tədqiqat İnstitutunda şöbə

müdiri işləmişdir.

O, vəfat etmiş və Bakıda dəfn olunmuşdur.

Teymur (Teymur-Kürakan, Tamerlan, Ağsaq Teymur, Teymurləng, Topal Teymur) – əsl adı Teymur ibn Taraqaydır (1336-1405).

Teymurun şah sülaləsinə mənsub olmamasına baxmayaraq o, Orta Asiyada paytaxtı Səmərqənd olmaqla yeni türk dövlətini yaratmağa nail olmuş və 1370-1507-ci illərdə hakimiyyətdə olmuş Teymurilər sülaləsinin əsasını qoymuşdur.

Bu sülalənin nümayəndələri arasında bacarılıqlı diplomat, atasının yaratmış olduğu dövlətin möhkəmləndirilməsi üçün çox işlər görmüş Şahrux (1377-1447) kimi, astronomiya elmi sahəsində öz əsərləri ilə tanınmış məşhur alim və maarifçi Uluqbəy (1394-1449), Şimali Hindistanda Böyük Moğolların sülaləsinin əsasını qoymuş şair və yazıçı Babur (1483-1530) və s. kimi görkəmli şəxslər olmuşdur.

Döyüşlərin birində Teymur sağ ayağından yaralandığı üçün Topal Teymur adını almışdır.

Teymur fateh idi. Teymur Xorəzmi, İranı, İraqı, Əfqanıstanı və Pakistanı fəth etdikdən sonra, 1391-ci ildə Qızıl Ordaya çatmaq və onun hakimiyyətini tanımayan Toxtamışı cəzalandırmaq məqsədi ilə Şirvana hücum etmişdir. Onun bu yürüşü saray tarixçiləri və «Zəfərnamə» əsərinin müəllifləri Nizaməd-Din Şami və Şərəfəd-Din Yəzdi tərəfindən ətraflı təsvir edilmişdir.

Bu yürüşə möhtəşəm Dərbənd müdafiə istehkamı çətinlik yaradırdı. Qızıl Ordaya çatmaq üçün bu istehkamdan keçmək lazım idi. Ağıllı siyasətçi və böyük taktik olan Teymur Şirvanı fəth etdikdən sonra Şirvanşah İbrahim Dərbəndini Şirvan hakimi təyin edərək, onun Dərbəndə təsirindən istifadə etməklə maneəsiz şəhəri tutdu və onu Şirvanşah İbrahim Dərbəndinin hakimiyyəti altına verdi.

Teymur Toxtamışı məğlub edərək Dərbəndə qayıdır və İbrahim Dərbəndiyə onun dövlətinin Şimal sərhəddi olan Dərbənd istehkamlarını möhkəmləndirməyi və şəhəri Qızıl Ordanın hücumlarından qorumağı əmr edir.

1396-cı ildə Teymur Toxtamışı izləyərək yenidən Dərbənddən keçir və Terek çayının sahilində Qızıl Orda xanının qoşununu darmadağın edir. Burada bir mühüm məsələni qeyd etmək yerinə düşər: Moskva knyazlığı və onun varisi olan Rusiya dövlətinin yüksəlişi məhz bu hadisənin nəticəsində baş tutdu. Rus knyazlarının özlərinin birləşməsi fikri isə sadəcə bir uydurmadır. Teymurun tarixçilərinin məlumatına əsasən yürüşdən Dərbəndə qayıdan Teymur Terek və Sulak çayları arasında yaşayan kumıkların torpaqlarına «müqəddəs yürüş» etmiş və oradan öz qüvvələrini avarların, darginlərin və lakların ərazilərinə yönəltmişdir.

Dağıstanın əhalisi arasında bu günədək Teymurun yürüşləri haqqında rəvayətlər qorunub saxlanılmışdır və bir çox yer adları onun adı ilə bağlıdır: Teymur-şah-yolu, Timuril-nuh və s.

Teymurxanov Murad Zabir oğlu (3.1.1899, Dağıstan –?) – Azərbaycan Xalq Cümhuriyyəti



Parlamentininxüsusiqərarına (bax. Xaricə təhsil almağa göndərilən azərbaycanlı tələbələr haqqında qərar) əsasən, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biridir. 1918-ci ildə Şura realnı məktəbini bitirmişdir. Parlamentin «Azərbaycan vətəndaşlığı haqqında» 1919-cu il 11 avqust tarixli qanununun 6-ci maddəsinə əsasən, Azərbaycan vətəndaşlığını qəbul etmişdir. Parlamentin 1919-cu il 1 sentyabr tarixli qərarına əsasən, təhsilini nəqliyyat sahəsində davam etdirmək üçün Almaniyanın Karlsruhe şəhərinə göndərilmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrin vəziyyətini öyrənən Azərbaycanlı Tələbələr İttifaqının 1923-25-ci illər üçün məlumatında Teymurxanovun təhsilinin bitməsinə il yarım qaldığı göstərilirdi. Sonrakı taleyi barədə məlumat aşkar olunmamışdur.

Teymurov Abdurazaq Məmmədəli oğlu –



1909-cu ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. O, Dərbənd realnı məktəbini bitirmişdir. O, II dərəcəli Dərbənd məktəbini, Fəhlə fakültəsini və iqtisadiyyat kurslarını bitirmişdir.

A.Teymurov fəhlə-kəndli ittifaqının (həmkarlar)

katibi işləmişdir. 1941-1945-ci illər müharibəsi dövründə Dərbənd müdafiə istehkamlarının qurulmasında, Samur meşələrində ağac tədarükündə iştirak etmiş, quldurlarla mübarizə üçün yaradılmış xüsusi dəstədə qulluq etmişdir.

A.Teymurov 22 il şəhər icra komitəsində plan şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

O, «Qafqazın müdafiəsi», «Böyük Vətən müharibəsi illərində fədakar əməyə görə», «Əməkdə fərqləndiyinə görə», «Fədakar əməyə görə» V.İ.Leninin anadan olmasının 100 illiyi münasibəti ilə medallarla təltif olunmuşdur. O, 1978-ci ildə vəfat etmiş və Dərbənddə dəfn olunmuşdur.



Teymurov Mirzə Bəhmən oğlu – 1902-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Dərbənd realnı məktəbini və Gəncə Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir. Realnı məktəbində oxuyarkən gənclərin inqilabi hərəkatına qoşulmuş və başqaları kimi 1919-cu ilin sentyabrında Denikinin əkskəşfiyyatçıları tərəfindən həbs olunmuş və hərbi-səhra məhkəməsi onu güllələnməyə məhkum etmişdir.

Qohumlarının və anasının işə qarışması nəticəsində azad edilmişdir.

O, şəhərdə sovet hakimiyyəti qurulduqdan sonra əmək fəaliyyətinə başlamış, 1920-1921-ci illərdə Cənubi Dağıstan rayon ərzaq komitəsi ümumi şöbənin rəisi, 1921-1922-ci illərdə Qaytaq-Tabasaran dairəsinin dairə-ərzaq komissarının müavini, 1922-ci ildə Cənubi Dağıstan mübarizə dəstəsinin rəisi, 1922-1923-cü illərdə Dərbənd dairəsi süvari milisinin başçısı, 1923-1924-cü illərdə Dərbənd vilayətinin xalq müstəntiqi, 1924-1926-cı illərdə Dərbənd vilayətinin xalq məhkəməsinin hakimi, 1926-1928-ci illərdə Dərbənd vilayəti üzrə DMSSR-in Ədliyyə Xalq komissarının müvəkkili, 1928-ci ildə Dərbənd dövlət notariat idarəsinin notariusu, 1928-1929-cu illərdə Dərbənd şəhər Sovetinin katibi, 1929-cu ildə Mahaçqala rayonunun xalq hakimi və 1929-1930-cu illərdə DMSSR MİK rəyasət heyəti katibliyinin müdiri vəzifələrində işləmişdir.

1930-cu ildə təhsil almaq üçün Gəncə Kənd Təsərrüfatı İnstitutuna göndərilmişdir. 1932-ci ildə geri çağrılaraq DMSSR Əkinçilik Xalq Komissarlığına göndərilmişdir. O, burada baş aqronom-təlimatçı, plan-iqtisad şöbəsinin rəisi, əkinçilik üzrə xalq komissarlığının pambıqçılıq idarəsinin baş aqronomu, əkinçilik üzrə xalq komissarlığının baş aqronomu, Dərbənd MTS-in direktoru vəzifələrində çalışmışdır.

1953-1963-cü illərdə Dərbənd Kənd Təsərrüfatı Texnikumunun direktoru vəzifəsində işləmişdir.

Teymurov M. «Şərəf nişanı» ordeni, «Qafqazın müdafiəsinə görə» və «Fədakar əməyə görə» medalları, «SSRİ sosialist kənd təsərrüfatı əlaçısı» iki fəxri döş nişanı ilə mükafatlandırılmışdır. 1976-cı ildə vəfat etmiş və Dərbənddə dəfn olunmuşdur.

Teymurov Muxtar Məmmədəli oğlu – polkovnik, 1916-cı ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Ali Hərbi məktəbi bitirmişdir. 1941-1945-ci illər müharibəsi iştirakçısıdır, orden və medallarla mükafatlandırılmışdır.

Müharibədən sonra Bakıda rayon hərbi komissarlığında işləmişdir.

M.Teymurov 1993-cü ildə vəfat etmiş və Bakıda dəfn olunmuşdur.

Timm Vasili Fyodoroviç (Georq Vilhelm) (1820-1895) – rəssam və qrafika ustası. Döyüş səhnələrinin və şəhər görünüşləri janrı üzrə rəssam. Onun fırçasına Dağıstana həsr olunmuş – «Axtı kəndinin görünüşü», Gimri və Qunib kəndlərinin mənzərəsi kimi nadir sənətlər məxsusdur.



Dərbənd 1849-cu ildə. Rəssam V. Timm

Rəssam 1849-cu ildə Dərbənddə olmuş və şəhərin tarixi əhəmiyyəti olan bəzi görməli yerlərinin mənzərəsini çəkmişdir. Bu mənzərələrə «Böyük Pyotrun daxması», «Dərbənd qalasının

pəncərəsindən görünüş» və s. daxildir. Bu rəsmlər onun nəşr etdirdiyi «Russki xudojestvennı listok» («Russkiy xudojestvennıy listok») kitabına daxil edilmişdir.


Toxtamış (Qiyas əd-Din Toxtamış) – Qızıl Orda xanı (1376-1395).

1386-cı ilin yazında Toxtamış 90-minlik qoşun ilə Dərbənd şəhərini mühasirəyə aldı, Şirvanın sərhədlərinə soxuldu, yol boyu kəndləri və şəhərləri talan edərək, həmin yolla geri qayıtdı.

1387-ci ildə o, yenidən Dərbəndi mühasirəyə aldı, Şirvana soxuldu və Kür çayının sahilinə çatdı. Onu burada Teymurləngin oğlu Miranşahın qoşunu qarşıladı və ağır məğlubiyyətə düçar etdi. Miranşahın qoşunu Qızıl Orda qoşunlarını qovaraq Dərbəndə çatdı.

1394-cü ildə Toxtamış xan yenidən Dərbəndi mühasirəyə alaraq Şirvana daxil oldu, lakin 1395-ci il aprelin 14-də Terek çayında ona çatan Teymur tərəfindən məğlub edildi. Bundan sonra Toxtamış ömrünün qalan 10 ilini öz ölkəsindən kənarda yaşamağa məcbur oldu. Teymur Qızıl Orda xanının taxt-tacına Temür-Qutluğu oturtdu.

Turabov Sabir Fətulla oğlu – professor, 1931-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. M.F.Axundov adına Azərbaycan Pedaqoji İnstitutunun bitirmiş və həmin institutda rus klassik ədəbiyyatının tarixi fənnindən dərs demişdir.



O, 150-dən çox məqalənin, o cümlədən «Azərbaycan və rus poeziyası», «Azərbaycan rus və sovet yazıçılarının yaradıcılığında», «Dostluq və qardaşlıq poeziyası», «Rus sovet yazıçıları Nizami Gəncəvi haqqında» kitablarının müəllifidir. 2008-ci ildə vəfat etmiş və Bakıda dəfn olunmuşdur.

Tutu Bikə - Azərbaycan xalqının alınmaz qalası, dünya şöhrətli Dərbənddə bir ana qəbri var. Qırxlar qapısının lap yaxınlığındakı türbədə Tutu Bikənin məzarı uyuyur. 1788-ci ildə yapılıb ucaldılan, heç vaxt unudulmayan ziyarətgaha çevrilən bu türbədə həm də qəhrəman ananın iki oğlu – Əhməd xan və Həsən xanın məzarları yerləşir. Ananın qoynunda dünyaya gələn, ananın yanında uyuyan övladları.



Tutu Bikə öz əsli-kökü ilə seçilən Qaytaq qızıdır. O, dağlarda doğulmuş, gözəlliklər arasında böyümüşdü. Çox döyüşlər şahidi, çox mübarizələr iştirakçısı olmuşdur. Yaşa dolanda başında ismət çələngi, əlində qılınc, at belində, dağ cığırlarında, qalada, qayalıqda dolaşmışdır. 1766-cı ildə Qubalı Fətəli xana könül vermiş, ailə səadətinə qovuşmuşdu. Dağ dağa arxalanırdı, ismət qeyrətə.

1774-cü ildə Gövduşan çölündə Fətəli xan məğlubiyyətə uğradı və Salyana çəkilməyə məcbur oldu. Düşmənlər qalanı mühasirəyə aldılar. Qalanın qorunmasına Tutu Bikə özü başçılıq etdi. Yaraqlandı, hamını Dərbəndin müdafiəsinə səslədi, ehtiyatlı olmağa çağırdı. «Qalanı içindən alarlar» – deyib meydana girdi. Tutu Bikənin qardaşı Əmir Həmzə hiyləyə əl atdı və şayiə yaydı ki, Fətəli xan ölüb. Əmir Həmzə Dərbəndi almaq üçün bacısına qarşı qanlı döyüşə hazırlaşdı… «Öz vəzifəsinə sadiq qalan Quba xanının arvadı Tutu Bikə mərdlərə məxsus mətanətlə, aslan kimi qala barıları üstündə duraraq, bütün işlərə özü sərəncam verir, görüş bəhanəsi ilə qala divarlarına yaxınlaşan qardaşını qala toplarının atəşilə hədələyirdi». Uzun illər Dərbəndin tarixini öyrənən Y.İ.Kozubski yazırdı: «Fətəli xanın igid qadını Tutu Bikə qardaşına qarşı çıxaraq, şəhəri mərdliklə müdafiə edirdi, o qala divarları üzərində şir kimi dayanaraq, hər şeyə özü rəhbərlik edirdi…» İnadlı müqavimət inadlı qələbə ilə nəticələndi. Ərəbzəngi tək qılınc oynadan Tutu Bikə ərinin şərəfini, elinin ləyaqətini hər şeydən üstün tutdu…

Tutu Bikə 1789-cu ildə vəfat etmiş və Şimal qəbiristanlığında onun üçün tikilmiş və «Dərbənd xanlarının məqbərəsi» adlanan məqbərədə dəfn edilmişdir.

Umaxanov Məhəmməd Salam İlyas oğlu – görkəmli siyasətçi, dövlət və ictimai xadim, 1918-ci il iyunun 6-da Levaşinsk rayonunun Sudaxar kəndində anadan olmuşdur. Ləzgidir.



O, orta məktəbi və Dağıstan balıq sənayesi texnikumunu bitirmiş,

komsomol işinə göndərilmişdir. 1938-ci ildə hərbi xidmətə çağırılmışdır.

Umaxanov 1941-1945-ci illər müharibəsi dövründə Mərkəzi, Bryansk, Pribaltika və Belorus cəbhələrində məsul vəzifələr tutmuş və Belorusun, Pribaltikanın, Polşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

1947-ci ildə ordudan tərxis olunmuş döyüşçü zabit, reyxstaq hücumunun iştirakçısı vilayət partiya komitəsinin inzibatı şöbəsinin və hərbi şöbəsinin müdiri işləmişdir. 1952-ci ildə Umaxanov İzberbaş dairə İcraiyyə Komitəsinin sədri seçilmiş, sonra isə Yüngül və Yeyinti Sənayesi Nazirliyinə başçılıq etmişdir.

O, 1954-cü ilin mayında Karabudaqkənd rayon partiya komitəsinin birinci katibi seçilmişdir. O, bu işdə istedadlı təşkilatçı və rəhbər kimi özünü göstərmişdir. 1956-cı ilin dekabrında Dağıstan MSSR-nın Nazirlər Sovetinin sədri seçilir. Umaxanov 1967-ci ilin noyabrında Dağıstan Vilayət Komitəsinin birinci katibi seçilir və 15 il respublikaya rəhbərlik edir. Dağıstanlıların fəxri sayılan Çirkeysk hidroelektrik stansiyası onun rəhbərliyi dövründə tikilmişdir. O, İrqanaysk və Miatlinsk hidroelektrik stansiyalarının tikilməsinədə böyük qüvvə sərf etmişdir.



Umaxanov Dağıstanın və Dərbəndin çiçəklənməsinin əsas şərtini böyük müasir aqrosənaye kompleksinin yaradılmasında görürdü. Onun rəhbərliyi altında respublikada və Dərbənddə kənd təsərrüfatının inkişafı proqramı hazırlanmış və həyata keçirilmişdir. Bundan əlavə o, dövlət əhəmiyyətli məsələ olan Xəzərin sahilində – Dərbənddə turist komplekslərinin və sanatoriya-müalicəvi müəssisələrin yaradılmasını həyata keçirmişdir. Onun qayğısı və dəstəyi nəticəsində SSRİ EA-nın Dağıstan filialında yeni elmi bölmələr açılmış və SSRİ EA-nın Geotermiya İnstitutunun Dağıstan filialı yaradılmış, Dağıstan Politexnik İnstitutu açılmışdır.

Umaxanov vətən qarşısındakı xidmətlərinə görə dörd «Lenin», «Oktyabr İnqilabı», «Qırmızı Bayraq», «Qırmızı Ulduz», I və II dərəcəli «Vətən Müharibəsi» ordenləri və çoxsaylı medallarla mükafatladırılmışdır.

Umurdinov Muhuddin – 1912-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. 1942-ci ildə Dərbənd yanğından mühafizə komandasının qarovul rəisi vəzifəsindən ordu sıralarına çağrılmışdır. Oryol şəhərinin, Ukraynanın, Belorusiyanın alman işğalçılarından azad olunmasında iştirak etmişdir.



1944-cü ilin yanvarında Mogilyov vilayətində gedən döyüşlərdə iki güllə və 12 qəlpə yarası almışdır.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 4 iyul 1944-cü il tarixli fərmanı ilə Oryol şəhərinin azadlığı uğrunda gedən döyüşlərdə göstərdiyi şücaətə görə ona Sovet İttifaqı Qəhrəmanı fəxri adı verilmişdir.

Müharibədən sonra Umurdinov Daşkənd şəhəri Yanğından Mühafizə Şöbəsinin siyasi şöbəsinin rəis köməkçisi, sonra isə kolxoz sədri işləmişdir. 1981-ci ildə vəfat etmişdir.

Dərbənd şəhərinin küçələrindən biri onun adını daşıyır, onun işlədiyi yanğın komandasının binasında xatirə löhvəsi vurulmuşdur.

Uslar Pyotr Karloviç (1816-1875) – baron, general-mayor, dilçi və etnoloq, Sankt-Peterburq İmperator Elmlər Akademiyasının müxbir üzvü, Rusiya Coğrafiya cəmiyyəti Qafqaz şöbəsinin müdiri, Qafqaz dillərinin elmi öyrənilməsinin banilərindən biri.




Rusiya ordusu Baş

qərargahının zabiti kimi Qafqaz rayonlarının bir çoxunun tədqiqatını aparmışdır. Onun tərəfindən qrammatik oçerklər yazılmış, əlifba və abxaz, avar, dargi, ləzgi, tabasaran və çeçen dillərinin lüğəti tərtib olunmuşdur.

1863-cü ildə P.Uslar öz linqvist biliklərini təkmiləşdirmək məqsədi ilə bütün qışı Dərbənddə keçirmişdir. 1863-cü il oktyabrın 19-da o, akademik Şifnerə yerli şərait barədə belə yazmışdır: «… mən indi vəhşi bir diyarda yaşayıram, burada nə mətbəə var, nə də bir cildçi».

Qeyd etmək lazımdır ki, alimin «vəhşi diyar» adlandırdığı Dərbənddə o dövrdə rus qəza məktəbi, müsəlman məktəbi fəaliyyat göstərirdi. Bir ildən sonra isə şəhərdə müsəlman qızları üçün ibtidai məktəb, ictimai kitabxana, 18 məscidyanı məktəb fəaliyyət göstərirdi. 1863-cü ilin dekabrında şəhər ictimai klubunun tikintisi başa çatmışdır.

Usmiyev Əmir Çoban – sonuncü Qaytaq usmisi



general-mayor Adil xanın nəvəsi. Adil xan Dərbəndin hərbi komendaturasına gəlməkdən imtina etdiyi üçün general Yermolov tərəfindən usmi adından məhrum olunmuşdur. Əmir Çoban çar taxt-tacına «… qısqanc xidmətinə görə» rus ordusunun general-mayor rutbəsini almışdır. Onun mükafatları var idi.

XX əsrin əvvəllərində Əmir Çoban Dərbənddə məskunlaşmış və 8-ci məhəllədə yaşamışdır. Şahidlərin məlumatlarına görə, o sürdüyü həyat tərzi ilə fərqlənirdi. Məsələn, onun 12 arvadı var idi və o, onları müxtəlif məhəllələrdə yerləşən 3 evində saxlayırdı. Bu, dərbəndlilərə xas olan hərəkət deyildi.

Onun uşağı olmadığına görə qardaşının oğlunu oğulluğa götürmüşdü. Sonra oğlunu general Ərəblinskinin böyük qızı Ürvətlə evləndirmişdir. Əmir Çoban gənc ailəyə ev də bağışlamışdır (hazırda bu ev Kommunarlar 46).

Əmir Çoban 1916-cı ildə vəfat etmiş və Dərbənd xanlarının məqbərəsi yaxınlığında dəfn olunmuşdur.

Ümm əl-Müminat – Dərbənd hakimi Əbu Müslimin bacısı.

«Axtınamə»də (naməlum müəllifin qədim tarixi salnaməsi) deyilir ki, xəzərlər Şirvanda özlərinin hökmranlığı dövründə Samsam adlı hərbi rəislərindən birini onun adamları ilə birlikdə Samur çayı rayonunda məskunlaşdırmışlar. Dəməşq sakini Mikrahi Samsamın köməkçisi idi. Samsam uzun müddət və inadla Şahbani (Axtı kəndinin qədim adı) qalasını tutmaq istəmişdir. Qalanın hakimi Dərviş-əl inadla müqavimət göstərmişdir. Lakin Samsam və Mikrahinin qüvvələri üstünlük təşkil etdiyi üçün Dərviş-əl Dərbəndə Əbu Müslimin yanına gələrək, ondan kömək istəmişdir. Bunun əvəzində Dərviş-əl Əbu Müslimin bacısı Ümm əl-Müminatla evlənmişdir. Əbu Müslim Samsam və xəzərləri məhv etmək üçün Dərviş-əllə qoşun göndərmişdir.


Dərviş-əllə Samsam arasındakı müharibə 7 ay davam etmişdir. Yalnız şeyx Şah əl-Burzinin köməyi Dərviş-ələ qələbə çalmaqda kömək etmişdir. Qələbədən sonra Dərviş-əl şeyx Şah əl-Burzi ilə birlikdə Dərbəndə Əbu Müslimin yanına getmişlər. Əbu Müslim onları mehribancasına qarşılayaraq Dərviş-əlin kəndi olan Şahbanı kəndini Uxti adlandırmışdır (ərəb. Bacısına məxsus). Sonralar bu kənd Axtı adlandırılmışdır.

Vahabov Fərhad Hüseyn oğlu – general-



leytenant, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi aparatının rəhbəri. 1950-ci ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. İki ali təhsili var: tarix və hüquq. Onun atası Vahabov Hüseyn Məmməd oğlu (əsl adı Məşədi Məmmədrəsul bəy) Dəvəçi rayonu Şahnəzərli (Şabran) kəndində anadan olmuşdur. O, prokuratura orqanlarında Azərbaycan Respublikasının bir neçə rayonlarının prokuroru vəzifəsində çalışmışdır. Onun babası – Hacı Vahab bəy çar dövründə bu ərazilərin pristavı olmuşdur. Onun həyat yoldaşı Umleyla-bikə Dərbənd xanlarının kötücəsi və Hacı Duru xanın nəslindən idi.

Vavilov Nikolay İvanoviç (1887-1943) –



sovet genetiki, bitkiçilik mütəxəssisi, coğrafiyaşünas, müasir elmi seleksiyaların əsasının, mədəni bitkilərin dünyada yaranma mərkəzləri haqqında elmin, onların coğrafi yayılmasının yaradıcısı, SSRİ-də biologiya və kənd təsərrüfatı elminin təşkilatçılarından biri, ictimai xadim, SSRİ EA akademiki (1929), USSR EA akademiki (1929), KTETLÜA-nın (Kənd Təsərrüfatı Elmi-Tədqiqat laboratoriyasının ümumittifaq Akademiyası) prezidenti (1929-1935) və vitse-prezidenti (1935-1940), SSRİ ÜİİK (Ümümittifaq İcraiyyə Komitəsi) üzvü (1926-1935), Ümumittifaq coğrafiya cəmiyyətin prezidenti (1931-1940) olmuşdur.

Vavilov N.İ. Dərbənd şəhərində ilk dəfə 1935-ci ilin sentyabrında olmuşdur. O, Dərbənd zona təcrübə stansiyasında olmuş, elmi-tədqiqat işinin vəziyyəti ilə tanış olmuş və onu yüksək qiymətləndirmişdir.

Vavilov şəhərin sənaye müəssisələrində olmuşdur. O, istehsalat prosesinə diqqət yetirirdi, regionun tarixi, iqtisadiyyatı, məişəti və mədəniyyəti ilə maraqlanırdı. Akademiki konserv kombinatı xüsusilə maraqlandırdı. O, kombinatın fəxri qonaqlar kitabında belə bir qeyd etmişdir:" «Dağıstanda konserv sənayesinin inkişafı çox böyük işdir. Yaxşı qurulmuş sənayesi yüksək mədəniyyətin göstəricisidir. Dərbəndin konserv zavodu mənə böyük təsir bağışladı. Onun məhsulu yüksək keyfiyyətlidir».

1936-cı ilin yayında alim yenidən Dərbəndə gəldi. N.İ.Vavilovun 1935-1936-cı illərin şəxsi müşahidələri və topladığı materiallar «Şimali Qafqazın dağlıq əkinçiliyi və onun inkişaf perspektivləri» əsərində öz əksini tapmışdır. Dərbənd şəhərin küçələrindən biri onun adını daşıyır.

Vəkilov Həmid bəy Xudat bəy oğlu – 1869-cu ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

O, Tiflis realnı məktəbini bitirmiş, rus ordusunda xidmət etmiş, kornet rütbəsində ehtiyata buraxılmışdır. Atası Xudat bəy Dərbənd şəhər idarəsində tərcüməçi vəzifəsində iş-ləmişdir.

1918-ci il aprelin 24-də Bakı Sovetinin qırmızı qvardiya dəstələri Dağıstanın imamı Nəcməddin Qotsinskinin geri çəkilən qoşununu izləyərək Dərbəndə daxil oldu. Həmin gün Bakıdan gəlmiş Bakı Soveti nümayəndələri Dərbənd bolşevikləri ilə birlikdə şəhərdə inqilab istəməyənlərin həbsinə başladılar. Həbs edilənlərin sırasında Həmid bəy Vəkilov da var idi. Həbsin ikinci günü istintaqsız və məhkəməsiz Həmid bəy Vəkilovu şimali müsəlman qəbirstanlığında güllələdilər. Onu Şeyx Salah bulağının yaxınlığındakı cənubi müsəlman qəbirstanlığında dəfn etdilər.

Vəkilova (Mirzəbəyova) Xavər Əhməd bəy qızı –



1918-ci il martın 13-də Dərbənd şəhərində tacir zadəgan Nağı bəy Mirzəbəyovlar ailəsində anadan olmuşdur. Azərbaycanlıdır.

O, Azərbaycan Dövlət Konservatoriyasının nəzdində 10 illik musiqi məktəbini və 1941-1946-cı illərdə isə indiki Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir.

O, böyük Azərbaycan şairi Səməd Vurğunla ailə həyatı qurur və onların bu nigahdan üç övladı: iki oğlu və bir qızı olmuşdur. Böyük oğlu Yusif (Yusif Səməd oğlu) yazıçı, bir sıra bədii əsərlərin müəllifi və «Literaturnıy Azerbaydjan» jurnalının baş redaktoru, Milli Məclisin deputatı və Azərbaycan Yazıçılar İttifaqının katibi (indiki Yazıçılar Birliyi) işləmişdir. 1998-ci ildə vəfat etmişdir. Vaqif Səməd oğlu M.Qorki adına Moskva Ədəbiyyat İnstitutunu və U.Hacıbəyov adına Azərbaycan Musiqi Konservatoriyasını bitirmişdir. O, məşhur yazıçı və şairdir. Milli Məclisin deputatı olmuşdur. Qızı Aybəniz Səməd Vurğunun ev-muzeyinin direktoru işləmiş və 2009-cu ildə vəfat etmişdir.

Xavər xanım 1975-ci il oktyabrın 6-dan S.Vurğunun ev muzeyinin direktoru olmuşdur. Xavər xanım Mədəniyyət Nazirliyi tərəfindən dəfələrlə mükafatlandırılmışdır. Ümummilli lider Heydər Əliyev X.Vəkilovanın fəaliyyətini yüksək qiymətləndirmiş və ona 2002-ci ildə əməkdar mədəniyyət işçisi, 2003-cü ildə isə Prezident təqaüdü təsis etmişdir.

Xavər xanım 2006-cı ilin yanvarında vəfat etmişdir.

Vəlixanov Ramazan Şərif oğlu – 1904-cü ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. O, 1920-ci ildə ibtidai məktəbi, 1922-ci ildə ikiillik pedaqoji kursları, 1927-ci ildə partiya işçiləri üçün kursları, 1930-cu ildə Dərbənd Pedaqoji Texnikumunu, sonra isə Moskva şəhərində Kommunist Universitetini bitirmişdir.



R.Vəlixanov müəllim, 1922-1925-ci illərdə Dərbənd rayonu Padar kənd ibtidai məktəbinin direktoru, 1925-1927-ci illərdə Dərbənd rayonu Vəlikənd kənd məktəbinin direktoru və Kommunist gənclər məktəbində partiya özəyinin katibi, 1927-1932-ci illərdə təhsil şöbəsinin müdiri və Dərbənd İcraiyyə komitəsinin sədr müavini, 1932-1933-cü illərdə Dərbənd İcraiyyə komitəsinin kadrlar şöbəsinin müdiri, 1933-1937-ci illərdə Dərbənd Kənd Təsərrüfat Texnikumunun direktoru vəzifələrində çalışmışdır. O, 1937-ci ildə «xalq düşməni» kimi həbs olunmuşdur. 1956-cı ildə bəraət almışdır. 1957-ci ildə Dərbəndə qayıddıqdan sonra Dərbənd rayonunun Bələdçi qəsəbəsində meyvəşitillik sovxozunun direktoru işləmişdir. 1973-cü ildən fərdi təqaüdə çıxmışdır. O, 1976-ci ildə vəfat etmişdir.

Vəliyev Yusif Abdulla oğlu – 1924-cü ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. İbtidai təhsil almışdır. Ailəsi Bakıya köçəndən sonra teatr məktəbini bitirmiş və Şəki şəhər dram teatrında işləməyə başlamışdır. Sonralar Bakıda Gənc Tamaşaçılar Teatrında işləmişdir. Burada ona «Azərbaycan SSR əməkdar artisti» və «Azərbaycan SSR xalq artisti» adı verilmişdir.

Yusif Vəliyev 20-dən artıq filmdə çəkilmişdir. Onlardan, «Bir cənub şəhərində», «Babək», «Arxadan vurulan zərbə», «Uşaqlığın son gecəsi» və başqa filmlərdə iştirak etmişdir.

Yusif Vəliyev 1989-cu ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Vəzirova Mədinə Məcid qızı – 1913-ci il martın 15-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan Sənaye İnstitutunu (hazırda Azərbaycan Dövlət Neft Akademiyası) bitirmişdir. Bakının neft mədənlərində usta köməkçisi vəzifəsindən mədən müdiri vəzifəsinədək yüksəlmişdir. Bir sıra dövlət mükafatlarına «SSRİ əməkdar neftçisi» medalına layıq görülmüşdür. Onun adı «XX əsrin Azərbaycan qadınları» ensiklopedik lüğətinə daxil edilmişdir. Görkəmli sovet neftçisi, dövlət xadimi, Sosialist Əməyi Qəhrəmanı Nikolay Baybakov öz memuarlarında M.M.Vəzirovanın adını dəfələrlə qeyd edir.



M.Vəzirova 2006-cı ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Vəzirov Mirzə-Heydər – XIX əsrin birinci yarısının yerli alimi. Y.İ.Kozubski özünün «Dərbənd şəhərinin tarixi» əsərində Mirzə-Heydər Vəzirovun adını digər yerli alimlərin sırasında çəkərək məlumat verir ki, o Kazan Universitetinin müxbiri olmuşdur.

Mirzə-Heydər Vəzirovun qələminə, digər əsərlərlə yanaşı Rusiya Elmlər Akademiyasının Dağıstan elmi mərkəzinin əlyazma fondunda saxlanılan «Dərbəndnamə» tarixi salnaməsi də aiddir.

Əsərdə müəllifin dərk etdiyi kimi şəhərin tarixindən XIX əsrə qədər olan faktlar və hadisələr əks olunub. Bu əsərdə bildirilir ki, «... Şəhərin Narınqalanın İsa Məsihin anadan olmasınadək 733 il ərzində hündür, sulu və iqliminə görə sağlam yerdə, Keyanilərdən olan İran şahı Süleymanın – Lehrazibin müasiri, xəzərlərin Azərbaycana hücümunu saxlamaq üçün tikilmişdir. 270-ci ildən sonra Beqmenin nəticəsi, İsfəndiyarın oğlu, əmr edir ki, qaladan dəniz sahilinə divar çəkilsin. Bu divarın arxasına İrandan qovulmuş ailələri köçürmüşdür».

M.H.Vəzirov I Pyotrun İran yürüşünü təsvir edərək belə bir maraqlı epizodu misal gətirir «...I Pyotr Dərbənddə olarkən onun qoşununun bəzi zabitləri ona şikayət edirlər ki, sakinlər onlara çörək satmırlar. Çar onların şikayətlərinin doğru

olub-olmadığını yoxlamaq üçün özü ilə bələdçi və 2 əsgər götürərək qarşısına çıxan birinci küçəyə – Məlik küçəsinə gedir. Bir həyətə girir və görür ki, bir qadın yeni bişmiş çörəkləri düzür. Çar xahiş edir ki, hansı qiymətə istəyirsə ona 4 çörək satsın. Lakin qadın cavab verir ki, evin sahibinin (ərinin) icazəsi olmadan sata bilməz və əlavə edir ki, onların un ehtiyatı azdır. Qadın bir çörəyi dörd yerə bölüb hərəsinə birini verir və əvəzində pul almaqdan qəti imtina edir. İmperator qadının xeyirxah və mehribanlığına görə onun ərini mükafatlandırır və əmr edir ki, hər kasıb ailəyə iki çərək un (1 çərək – 209,9l qramadək) və 20 arşın kətan verilsin». M.Vəzirovun həyat və yaradıcılığı indiyədək tam tədqiq edilməmişdir.

II Yezdəgird – Sasanilər sülaləsindən olan İran şahı, 439-457-ci illərdə hökmdarlıq etmişdir. Rəvayətə görə o Alban (Dərbənd) keçidinə çatmış, İsgəndər Zü-l-Qərineynin tikdiyi qədim divarın qalıqlarını tapmışdır. O, divarın qalıqlarını qumdan və lildən təmizləyərək, divarı «mis və qurğuşun daşlardan» uçaltmağa başladı.

Yəzid ibn Məzyəd – Harun ər-Rəşid (786-809) tərəfindən təyin edilmiş ərəb mənşəli ilk Dərbənd hakimi olmuşdur.

Müasirlərin məlumatına əsasən Yəzid ibn Məzyəd gözəl təşkilatçılığa və hərbi qabiliyyətə, siyasi fəhtə, sonsuz cəsarətə və s. xüsusiyyətlərə malik idi. Doğma dayısı onun haqqında belə deyirdi: «Əgər o istəsə – əlçatmaz ona əlçatan, düşmən isə dost ola bilər».

900 il bundan əvvəl Dərbənddə yazılmış «Tarix-i Şirvan va Bab əl-Əbvab» salnaməsi təsdiq edir ki, Yazid ibn Məzyəd «… məşhur əmirlərdən və tanınmış igidlərdən biri idi».

Xəlifə Harun ər-Rəşid özünün hərbi rəisinin özbaşnalıq xasiyyətini bilərək ona etibar etmir, lakin ən çətin vaxtlarda mütləq onun köməyindən istifadə edirdi.

Məsələn, Dərbəndin və Şirvanın açgöz ərəb canişinləri xalqı yığdıqları vergi ilə cana doydurub və bununla xalqın qiyamına gətirib çıxardanda, xəlifə, bir qayda olaraq, qiyamçıları sakitləşdirmək üçün ora Yəzid ibn Məzyədi göndərirdi. Yəzid ibn Məzyəd 4 dəfə Qafqazda canişin təyin olunmuşdur. Sonuncu dəfə bu vəzifəyə 799-cu ildə göndərilmişdir.

Orta əsr müəllifləri təsdiq edirlər ki, Yəzid ibn Məzyəd idarə etdiyi ərazidə qayda-qanun yaradır və ziyafət verirdi. Bu ziyafət zamanı onun yanına çox gözəl bir qız gətirirlər. Canişin qızın gözəlliyini görən kimi, yeməyi yarımçıq qoyur və onu yataq otağına aparır. O, qızın ağuşunda vəfat edir.

Yəzid ibn Məzyəd Azərbaycan Albaniyasının qədim paytaxtı olan Bərdə şəhərində dəfn edilmişdir. Bu hadisə 801-ci ildə olmuşdur. Onun varisləri Dərbəndi və Şirvanı idarə etmiş, gah bir-bir müharibə aparmış, gah da sülh imzalamışdılar.

Yusifxanov Hacı Yusif xan Tahir xan oğlu – 1806-cı ildə anadan olmuşdur. 1852-ci ildə general-mayor rütbəsi alıb. 1878-ci ildə yetmiş iki yaşında vəfat edib. Dərbənddəki Qırxlar ziyarətgahında dəfn olunub. General Yusif xan çox səxavətli və maarifpərvər bir insan idi. O, Kür nahiyəsinin hakimi olanda, şəxsi məvacibi hesabına çətin keçilən dağ çaylarının üstündən körpülər saldırıb, məscidlər tikdirib. Müsəlman dindaşlarının maariflənməsinə xüsusi diqqət və qayğı göstərən general-mayor Yusif xan Tahir bəy oğlu məktəblər açdırıb, Dağıstanın azərbaycanlı əhalisi yaşayan ərazisində, böyük kəndlərdə kitabxanalar təşkil edib. Dünyanın bir neçə ölkəsindən kitablar alıb, qəzetlərə abunə yazılıb. Milli mətbuatımızın qaranquşu «Əkinçi»nin vaxtsız bağlanmasına çox pərişan olan general Yusif xan qəzetin bütün saylarını ən qiymətli xəzinə kimi şəxsi mülkündə saxlayırmış. 1862-ci ildə Həcc ziyarətinə gedib, qayıdandan sonra xanlığı idarə etməkdən istefaya çıxıb, Dərbəndə köçüb.

Görkəmli ədəbiyyatşünas-alim Firidun bəy Köçərli (1863-1920) general Əlqac Yusif xanın müsəlman xalqına əvəzsiz xidmətləri barədə öz əsərində qiymətli sətirlər yazmışdır:

«Bu zati-şərif qayətdə pəhrizkar və taatü qərabata mülazimü müttəqi və dindar bir şəxs olduğundan, özünə artıq hörmət və məhəbbət qazanmışdır. Ol cənabın (general Yusif xanın) otaqları daim mədrəsə kimi təlim və təəllümiülumi fünundan xali olmazdı və bundan əlavə ol mərhumun himmət və xərci ilə Kür nahiyəsində çoxlu körpülər tikilib, yollar qayrılıb və məscidü mədrəsələr təmir olunubdur. Öz ehsanatı xeyratı ilə külli Dağıstanda şöhrət kəsb edibdir». (F.Köçərli. Azərbaycan ədəbiyyatı. II cild. Bakı, 1981, səh. 337).

Şair-alim Mirzə Həsən Əlqədəri (1835-1910) altı il onun mülkündə yaşayıb, general Yusif xanın balalarının – Ömər bəyin təlim-tərbiyəsi ilə məşğul olub. Qafqazda, xususilə də bütün Dağıstanda xeyirxahlığı və insani keyfiyyətləri ilə məşhur olan general Yusif xanın ölümündən xalq yasa batmışdı. Yasa batan elin matəmini şair Mirzə Həsən Əlqədəri 1878-ci ildə nəzmə çəkmişdir:

Dəriğa, ahü vaveyla ki, alicah Yusif xan.
Edib darül-bəqa əzmin, candan oldu rugərdən
Vücudi zinəti Qafqaz idi, həm əhli-islamə
Pənahi xas olmuşdu, olanda müztərib dövran.
Qalıbdır indi başsız əhli-islam bu diyar içrə,
Cəzadır kim, ona matəm tuta məcmüyü-Dağıstan.
Xudaya, mərqəndi-pakın münəvvər eylə lütfinlə.

General-mayor Yusif xanın Kür nahiyəsində üç min beş yüz desyatin torpaq sahəsi vardı.

Yusifxanova Şəmiyə Şahmərdan qızı – 1904-cü ildə Dərbənd şəhərində anadan olmuşdur.



O, Dərbənddə gimnaziyanı, Bakı şəhərində V.Lenin adına Pedaqoji İnstitutu (hazırda Tusi adına Pedaqoji Universitet) bitirmişdir. Sonralar tibb elminə yiyələnmiş və həkim olmuşdur.

Ş.Yusifxanova 1929-cu ildən Dağıstan MSSR Səhiyyə idarəsində və Dağıstan Tibb İnstitutunda müəllim işləmişdir.

Yusifova Elmira Əhəd qızı – 1940-cı il mayın 3-də Bakı şəhərində anadan olmuşdur. Əslən dərbəndlidir. O, 1957-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının nəzdində 10-illik xüsusi musiqi məktəbini bitirmiş və Azərbaycan Dövlət Konservatoriyasının fortepiano və nəzəriyyə fakültəsinə daxil olmuşdur. 1963-cü ildə Konservatoriyanı bitirmiş və A.Zeynallı adına Musiqi Texnikumunda (hazırda musiqi kolleci) fortepiano və musiqi nəzəriyyəsi fənnindən dərs demişdir.

E.Yusifova dəfələrlə müxtəlif mükafatlarla təltif olunmuşdur. Əmək veteranıdır.

Yusifov Fərəculla Feyzulla oğlu – 1894-cü ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanldır. O, Dərbənd realnı məktəbində oxuyarkən inqilabi hərəkata qoşulmuşdur. İnqilabi vərəqələr yaydığına görə jandarmalar tərəfindən həbs olunmuşdur. Sovet hakimiyyəti qurulduqdan sonra Moskvaya ali təhsil almağa göndərilmişdir.

F.F.Yusifov Dağıstan sənayesinin yaradılmasında fəal iştirak etmişdir. Sovet İttifaqında ilk mexanikləşdirilmiş «Dağıstan işıqları» şüşə zavodunun tikilməsində iştirak etmiş və zavodun ilk direktoru olmuşdur. Sonralar Dağıstanın balıqçılıq sənayesinə rəhbərlik etmişdir. O, Dağıstan Xalq Komissarları Soveti sədrinin müavini işləmiş, 1941-1945-ci illər müharibəsi dövründə yenidən «Dağıstan işıqları» şüşə zavodunun direktoru təyin edilmişdir. 1948-1959-cu illərdə Dağıstan MSSR Nazirlər Soveti nəzdində çəki və ölçü palatası komitəsinin sədri işləmişdir. 1959-cu ildə təqaüdə çıxmışdır.

Yusifov Fuad Fərəculla oğlu – 1929-cu ildə Bakı şəhərində anadan olmuşdur. Əslən dərbəndlidir. Orta məktəbi Mahaçqala şəhərində bitirmişdir.



O, Leninqrad Ali Hərbi Rabitə Məktəbini bitirmiş və Bakı Hava Hücumundan Müdafiə dairəsində qulluq etmişdir.

F.Yusifov Azərbaycan Sənaye İnstitutunun (hazırda Azərbaycan Neft Akademiyası) energetika fakültəsini bitirmişdir.

O, leytenant Şmit adına zavodda (indiki Səttərxan adına zavod) mühəndis-energetik, 1967-ci ildə «Azon» zavodunun baş energetiki, Oktyabr rayonu (indiki Yasamal) Partiya Komitəsinin büro üzvü və sonralar «Azon» zavo-dunun kommersiya direktoru vəzifələrində çalışmışdır.

Yusifov İqor Xanukoviç – 1956-cı il iyunun 12-də Dərbənd şəhərində anadan olmuşdur. 1974-cü ildə orta məktəbi, 1979-cu ildə Novoçerkassk Politexnik İnstitutunu və 1991-ci ildə isə Ümumittifaq Xarici Ticarət Akademiyasını bitirmişdir. O, 1979-1984-cü illərdə «Mosenerqo» sistemində mühəndis, 1984-

1987-ci illərdə Kuba Respublikasında «Havana» istilikenerji stansiyanın tikilişində baş ekspert və 1991-ci ildən dövlət vəzifələrində fəaliyyət göstərmişdir.

İ.Yusifov 1993-ci ildə Rusiya Federasiyasının Xarici İqtisadi Əlaqələr nazirinin müavini, 1994-19996-cı illərdə «Rosvoorujenie» sistemində rəhbər vəzifədə, 1996-1997-ci illərdə Rusiya Federasiyası Sənaye nazirinin müavini, 1998-1999-cu illərdə Rusiya Federasiyasının Dövlət Ehtiyyatları Agentliyinin sədr müavini, sədri və 2001-2004-cü illərdə Rusiya Federasiyasının Enerji Naziri vəzifələrində çalışmışdır.

Yusifov Məhəmməd Həsəmuddin oğlu – 1942-ci ildə Tabasaran rayonunun Qurik kəndində anadan olmuşdur. Dərbənd şəhər 1 saylı orta məktəbini və Dağıstan Dövlət Universitetini bitirmişdir.

Filologiya elmləri doktoru, professor, Dağıstan Respublikasının əməkdar elm xadimidir. O, SSRİ EA Dağıstan filialının Tarix, Dil və Ədəbiyyat İnstitutunun elmi əməkdaşı, Dağıstan Dövlət Universite-tinin kafedra müdiri və tədris işləri üzrə prorektoru, Dağıstan Dövlət Universitetinin Dərbənd filialının dtrektoru işləmişdir.

2003-cü ildən Dərbənd şəhərindəki «İvanovsk Dövlət Universiteti» ali təhsil-dövlət ümumtəhsil müəssisəsi filialının direktorudur.

O, 90 elmi əsərin, o cümlədən 6 monoqrafiyanın, ali məktəblər, pedaqoji məktəblər və ümumtəhsil məktəbləri üçün bir neçə müntəxabatın, dərsliklərin və dərs vəsaitlərinin müəllifidir.

M.H.Yusufovun əsərləri Azərbaycanda, Türkiyədə, ABŞ, İngiltərədə və s. ölkələrdə tanınır. Yusufov Kembric şəhərinin (İngiltərə) beynəlxalq bioqrafik mərkəzi tərəfindən «1997-1998-ci illərin adamı» adına layiq görülmüş, ona bu barədə xüsusi medal təqdim olunmuş və onun adı «XX əsrin tanınmış adamları» kitabına daxil edilmişdir.

Yusifov Ramazan Yusif oğlu – 1912-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. O, müəllim, ÜİLKGİ komitəsinin katibi, Dağıstan MSSR Ali Soveti Rəyasət heyətində tərcüməçi, ÜK(b)P Xivə və Qasımkənd rayon komitələrinin birinci katibi işləmişdir.

R.Y.Yusifov 1949-1952-ci illərdə Dərbənd şəhər kommunist partiyası mərkəzi komitəsinin birinci katibi vəzifəsində çalışmışdır.

Yusifov Rasim Fərəculla oğlu – 1928-ci ildə



Bakı şəhərində anadan olmuşdur. Əslən dərbəndlidir. O, Dərbənd Pedaqoji İnstitutunu, Moskvada A.M.Qorki adına Dünya Ədəbiyyat İnstitutunun aspiranturasını bitirmişdir. O, həmin institutda şöbə müdiri vəzifəsində çalışmışdır.

Filologiya elmləri doktoru, professor R.Yusifov 20-dən çox elmi əsərin müəllifidir.

Yüzbəyov Zeydulla Qədiməli oğlu – 1945-ci ildə



anadan olmuşdur.

O, Dərbənd şəhər 1 saylı orta məktəbi və Dağıstan Dövlət Universitetini bitirmişdir. «Elektrosiqnal» zavodunda (Dərbənd şəhəri) usta, Dağıstan Pedaqoji İnstitutunun siyasi iqtisad kafedrasında çalışmış, SSRİ Elmlər Akademiyası Dağıstan filialı iqtisad şöbəsinin müdiri, Rusiya Elmlər Akademiyasının Dağıstan Elmi Mərkəzinin Sosial-İqtisadi Tədqiqatlar İnstitutunun direktoru, 1992-1998-ci illərdə – Nazirlər Soveti sədrinin müavini, Dağıstan Respublikası Dövlət Əmlak Komitəsinin sədri, 1998-ci ildən Rusiya EA Əmlak İdarəetmə Agentliyi direktorunun birinci müavini işləmişdir. Hazırda Moskva Dövlət Universitetinin prorektoru, dövlət əmlak departamentinin rəhbəri vəzifəsində çalışır.

Z.Yüzbəyov iqtisad elmləri doktoru, professor, İdarəetmə Akademiyasının akademiki, Rusiya Federasiyasının əməkdar elm xadimi, Rusiya Federasiyasının əməkdar iqtisadçısıdır.

Yusif əd-Dərbəndi (Yusif bin Əhməd Əbu-l-Qasim əl-Fukai əd-Dərbəndi) – müsəlman dünyasında əl-Fukai kimi tanınmışdır. Bab əl-Əbvabda ən mötəbər və hörmətli sufi şeyxi və zahid, Dərbənd sufilərinin dini başçısı olmuşdur. Yusif əd- Dərbəndi – Dərbənd sufi zaviyəsinin banisi idi.

Onun şagirdlərindən (müridlərindən) çoxu bu zaviyədə təhsil aldıqdan sonra Dərbənddə qalıb şeyxlərinin icmasında yaşamışlar (xüsusilə

müsəlman aləmində məşhur olan İbn əz-Zəncani, Əbu-l-Həsən əl-Curcani və b.). Onun şagirdlərindən biri Humaydiyə ərəb kəndində (müasir Hümeydi) və Dağıstanda məşhur olan kor ilahiyyatçı Munabbix əl-Humaydi olmuşdur.

Yusif əd-Dərbəndinin Dərbəndin hüdudlarından kənarda da məşhur olmasını Təbəristan şeyxlərinə də yaxşı məlum olması dəlalət edir. Beləki, tanınmış sufi – aşarit Əbu-l-Abbas əl-Əsadabadi (1096-ci ildə vəfat edib) vaxtilə Yusif əd-Dərbəndinin şagirdi olmuş və Dərbənd zaviyəsində oxumuşdur. O, Təbəristanın (Şimali İran) alimlərinə məsləhət vermişdir ki, onlar Bab əl-Əbvaba gedib şeyx, fəqih və zahid Yusif əd-Dərbəndiyə öz ehtiramlarını bildirsinlər.

Yusif əd-Dərbəndi XI əsrin əvvəlində Dərbənddə vəfat etmiş və Narınqalanın yanındakı qədim şimal qəbiristanlığında dəfn olunmuşdur.

1928-ci ildə Y.A.Paxomov onun qəbir daşını aşkar etmişdir. Təəssüf ki, onun ölüm tarixi qəbir daşında qorunub saxlanılmamışdır. Qəbir daşının üstündəki ərəb yazısı L.İ.Lavrov tərəfindən onun «Şimali Qafqazın ərəb, fars və türk dillərində qəbrüstü yazılar» adlı kitabında çap olunmuşdur.

Yusuf əl-Babi (Yusif bin İbrahim bin Nəsr əl-Hafiz Əbu-l-Qasim əl-Bərrak əl-Babi) – müsəlman aləmində əl-Bərrak kimi tanınırdı.

O, hədislərin gözəl bilicisi, səfilər müsəlman icmasının dini başçısı, Xoms məhəlləsindəki məscidin imamı olmuşdur. Suriya köçkünləri nəslindən idi. Uzun müddət Bağdadda yaşamış və çox səyahət etmişdir. Əl-Bərrak – Şimali Qafqazda ən erkən illahiyyət əsəri olan «Şarx əş-Şixab»in müəllifidir. Onun imzası bu günə kimi qorunub saxlanılmışdır. Əsərin əlyazması tam tədqiq olunmamışdır. Əl-Bərrak həmçinin Əbu Süleyman əl-Bustaninin (998-ci ildə vəfat edib) «İlam as-sunan fi-şərh şəhin əl-Buxari» əsərinə rəylər yazmışdır. Onun ən məşhur şagirdlərindən biri Əbu Bəkr Məhəmməd bin Musa əd-Dərbəndi (XII əsrin 1-ci yarısında vəfat etmişdir) Qafqazda ən erkən sufi əsərlərindən biri olan «Reyhan əl-haqaiq və bustan əd-dadaiq»in müəllifidir. Bu əsərdən göründüyü kimi, əl-Bərrak sufi ideyalarına xidmət etmişdir. Əl-Bərrak 1098-ci və 1104-cü illər arasında vəfat etmiş və Narınqalanın yanındakı şimal qəbiristanlığında dəfn olunmuşdur.

Qəbir daşının üzərindəki ərəb yazısını L.İ.Lavrov özünün «Şimali Qafqazın ərəb, fars və türk dillərində qəbrüstü yazılar» kitabında çap etdirmişdir.

Yusif əl-Babi (Yusif bin əl-Hüseyn bin Davud Əbu Yaqub əl-Fəqih əl-Babi) – hədislərin bilicisi kimi məşhur idi. Yusif əl-Babinin şagirdlərindən biri – Əbu Bəkr əd-Dərbəndi sufi müsəlman dünyasında məşhur, ensiklopedik əsər olan «Reyhan əl-haqaiq və bustan əd-dadaiq»in müəllifi idi. XI əsrin Dərbənd səlcuq-türklərinin nəzarəti altına keçmişdir. Şəhərdə hakimiyyətdə olan sülalə dəyişildi: Haşimlər ərəb sülaləsi devrildi və hakimiyyətə yerli türk sülaləsi olan Əqləbilər gəldi. Haşimilərlə birlikdə şəhərdən qaçmış saray tarixçisi Mammus əd-Dərbəndinin yerinə yeni saray tarixçisi və Əqləbilərin tərəfdarı Yusif əl-Babi təyin olunmuşdur.

Əbu Bəkr əd-Dərbəndi də onun yeni hakimiyyətin tərafdarı olması haqqında məlumat vermişdir. O, öz əsərində yazır ki, şəhərdə siyasi qarşıdurma zamanı bəzi Dərbənd şeyxləri, həmçinin Yusif əl-Babi də Əqləbiləri müdafiə etmişdilər. Son zamanlar aparılmış tədqiqatlar göstərir ki, qədim tarixi «Dərbəndnamə» salnaməsi həqiqətən Yusif əl-Babi tərəfindən yazılmışdır Uzun müddət bu əsərin Məhəmməd Əvabi Əktaşi tərəfindən XIX əsrin əvvəlində yazıldığı hesab olunurdu. Əslində isə Əktaşi öz əsərini yazarkən onun protoqraflarının birindən istifadə etmişdir.

Yusif əl-Babi 1089-cu ildə Dərbənddə vəfat etmiş və Narınqalanın yanındakı şimal qəbiristanlığında dəfn olunmuşdur.

Yusif ibn Əbu Sac (862-927) – Sacilər sülaləsinin (879-926) və Azərbaycan Sacilər dövlətinin (879-941) görkəmli siyasi xadimi, Saci hökmdarı. Onun hakimiyyəti zamanı dağılmış Dərbənd qala divarının dəniz hissəsi təmir olunmuşdur. Yusif ibn Əbu Sac Qafqaza gəlməzdən əvvəl müqəddəs Məkkənin hakimi olmuşdur. Lakin bir dəfə o, zəvvarlar dəstəsinə hücum etdiyinə görə, onu qandallara zəncirləmişlər və Bağdad həbsxanasına salmışlar.

Xəlifənin iradəsinə zidd olaraq Qafqazda canişin olan qardaşı Məhəmməd Əbu Sacın yanına qacmışdır. Tezliklə xəlifənin Qafqazdakı canişini taun xəstəliyindən vəfat etmiş və onun yerini

oğlu Divdad ibn Məhəmməd tutmuşdur. Lakin Yusif ibn Əbu Sac qardaşı oğlunu hakimiyyətdən uzaqlaşdırmış və özünü «… Qafqazın və Bab əl-Əbvabın hakimi» elan etmişdir. O, demək olar ki, xəlifəyə tamamilə tabe olmurdu və müstəqil siyasət aparırdı. Yusif ibn Əbu Sac qısa müddət ərzində Gürcüstanı, Ermənistanı və Şirvanı talan edərək özünə tabe etmişdir.

Bu dövrlərdə Dərbəndin dəniz divarlarının bir hissəsi dağıdılmışdır. Bu barədə Yusif Əbu Sac xəlifənin vəziri Əbu-l-Həsən ibn əl-Fuatıya məlumat verərək əlavə etmişdir ki, təcrübəli mütəxəssislərin fikrincə divarların bərpa edilməsinə 60 min dinar lazımdır və bu pul xəzinədən götürülməlidir. O dövr üçün bu çox böyük məbləğ idi. Beləliklə, Dərbəndin Dəniz divarları bərpa olunmuşdu.

Yusif ibn Əbu Sacın sonrakı taleyi belə oldu: O, çoxlu güc toplayaraq xəlifənin özü ilə müharibəyə başladı. Lakin bir neçə döyüşdən sonra Yusif ibn Əbu Sac əsir düşmüş və onu yenə Bağdad həbsxanasına salmışlar. Onun Subuk adlı keçmiş qulamlarından biri xəlifəilə müharibəni davam etdirərək keçmiş sahibinin azad olunmasını tələb etmişdir.

Qarşıdurma uzun müddət davam etmiş, xəlifə müharibənin mənasızlığını görüb Yusif ibn Əbu Sacı azad etmişdir.

O, Qafqaza qayıtmışdır. Lakin tezliklə o, geri çağrılmış və Bizansla sərhəddə gedən müharibəyə göndərilmişdir. Yusif ibn Əbu Sac orada əsir düşmüş və 65 yaşında öldürülmüdür.

Zamanov Sədi Məmmədbağıroviç – 1924-cü ildə Dərbənd şəhərində anadan olmuşdur. 1940-cı ildə Məzahir Rzayev adına yeddiillik məktəbi bitirmişdir. Məktəb dərnəyində musiqini sevmiş və tar çalmağı öyrənmişdir.



Məktəbi bitirdikdən sonra, 1941-ci ildə, onu Mahaçqala şəhərində Dağıstanın Dövlət Mahnı və Rəqs ansamblına dəvət etmişlər. O, 1945-ci ildə Dərbəndə qayıtmış və Dövlət Azərbaycan Dram Teatrında musiqi rəhbəri işləmişdir.

1949-cu ildə teatr bağlandıqdan sonra S.Zamanov pedaqoji fəaliyyətlə məşğul olur. O, əvvəllər M.Rzayev adına məktəbdə musiqi müəllimi işləyir, burada Dağıstanda ilk sazçı qızlar ansamblını yaradır.

S.Zamanov sonralar Dərbənd pedaqoji məktəbində, Dağıstan mədəni-maarif məktəbində (Dərbənd şəhəri), Dərbənd musiqi məktəbində, uşaq musiqi məktəbində musiqi müəllimi işləyir.

S.Zamanovun səyi nəticəsində şəhərdə respublika müsabiqələrində uğurla çıxış edən bir sıra özfəaliyyət kollektivləri yaradılmışdır. Onun yaratdığı Zamanovlar xalq çalğı alətləri ansamblı Dağıstanda və onun hüdudlarından kənarda böyük şöhrət qazanmışdır.

S.Zamanov Dağıstan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə diplomlarla, fəxri fərmanlarla mükafatlandırılmışdır və ona «DMSSR əməkdar mədəniyyət xadimi» fəxri adı verilmişdir. S.Zamanov 1999-cu ildə vəfat etmişdir.

Zeynalbəyov (Zeynalov) Əlibəy Zeynalbəy oğlu – 1863-cü ildə Dərbənddə məşhur tacir və xeyriyyəçi Zeynalbəyin ailəsində anadan olmuşdur. Azərbaycanlıdır. Üç oğul və bir qız atası idi. Özü də tacir və xeyriyyəçi idi. 1931-ci ildə Dərbənd şəhərində vəfat etmiş və orada dəfn olunmuşdur.

Zeynalov Arif Əhəd oğlu – 1937-ci il fevralın 26-da Bakı şəhərində anadan olmuşdur. Dərbəndli Zeynalovlar (Zeynallı) nəslinin nümayəndəsidir. Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsini bitirdikdən sonra vəkillər kollegiyasının üzvü olaraq əmək fəaliyyətinə başlamışdır.



A.Zeynalov 1974-cü ildə Bakı şəhəri Nərimanov rayon Məhkəməsinə hakim, 1979-cu ildə Bakı Şəhər Məhkəməsinə, 1980-cı ildə isə Azərbaycan Respublikası Ali Məhkəməsinə üzv seçilmişdir. 1985-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin sədr müavini, 1987-ci ildə Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin birinci müavini, 1990-2000-ci illərdə Azərbaycan Respublikası Ali Məhkəməsinin üzvü və sonralar rəyasət heyətinin üzvü kimi fəaliyyət göstərmişdir.

Zeynalov A.Ə. 2004-2009-cu illərdə Azərbaycan

Respublikası Konstitusiya Məhkəməsinin aparat rəhbəri vəzifəsində çalışmışdır. Ona 2005-ci ildə 2-ci dərəcəli dövlət müşaviri rütbəsi verilmişdir.

Zeynalov Arif Həmid oğlu - 1982-ci ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Əslən dərbəndlidir. 2006-cı ildə Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi əlaqələr fakültəsini bitirmiş, həmin fakültənin magistraturasında təhsil almışdır. Xarici firmada çalışır. Bir neçə xarici dilləri mənimsəyib.

Zeynalov Cəfər Zeynal oğlu – 1902-ci il oktyabrın 2-də Dərbənd şəhərində anadan olmuşdur.



C.Zeynalov 1925-ci ildən Dövlət Siyasi İdarəsində, Daxili İşlər Xalq Komissarlığında və DTK-də çalışmışdır. O, 1941-1945-ci illər müharibəsinin iştirakçısı olmuşdur. Krım istiqamətindəki döyüşlərdə ordu xüsusi bölməsinin başçısı kimi iştirak etmişdir.

C.Zeynalov 1951-1953-cü illərdə DTK-nin Dağıstan MSSR Buynaksk şəhər bölməsinin rəhbəri işləmişdir. «Fəxri çekist» adına layiq görülmüşdür. 1974-cü il mart ayının 22-də vəfat etmişdir.

Zeynalov Ənvər Əlibəy oğlu – 1900-cü ildə Dərbənddə anadan olmuşdur. Azərbaycanlıdır. Dəmiryollar sistemində bir sıra vəzifələrdə, mağaza müdiri, mühasib, baş müfəttiş işləmişdir.

1983-cü ildə Dərbənd şəhərində vəfat etmiş və orada dəfn olunmuşdur.

Zeynalov Həmid Ənvər oğlu – 1940-cı ildə Dərbənd şəhərində tacir zadəgan olan Zeynalbəyovlar ailəsində anadan olmuşdur. Azərbaycanlıdır.




Orta məktəbi bitirdikdən sonra Həmid bəy Zeynalov Bakıya köçür. O, burada istehsalat təlimi ustası, ticarət-kulinariya məktəbinin şöbə müdiri, müdir mavini, sonralar isə direktor vəzifəsində çalışmışdır. Həmid bəy Azərbaycan Dövlət Universitetinin iqtisadiyyat fakültəsini bitirmişdir. H.Zeynalov ticarətin konyukturasını və tələbatını öyrənmək üzrə Umumittifaq Elmi-Tədqiqat İnstitutu Bakı filialının direktor müavini, şöbə müdiri və Bakı Sovet Ticarət Texnikumunun direktoru işləmişdir. Sovet ekskursiya və turizm idarəçiliyi üzrə Azərbaycan Respublika Şurasının sədri olmuşdur. Azərbaycan Nazirlər Sovetinin ticarət və məişət xidməti şöbəsinin məsul əməkdaşı vəzifəsini tutmuşdur. Artıq 15 ildir ki, Həmid bəy iqtisadi idarəçiliyin rəisi, Azərbaycan Təhsil Nazirliyi kollegiyasının üzvüdür. Həmid Zeynalov iqtisad elmləri namizədidir. Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti, Rusiya peşə təhsili Akademiyasının akademikidir. Azərbaycanın «Tərəqqi» medalı ilə təltif olunmuşdur. «Azərbaycan-Dağıstan» dostluq cəmiyyətinin üzvü və 1993-cü ildən 2016-cı ilədək «Dərbənd» xeyriyyə cəmiyyətinin sədri olub. 2016-cı ilin fevral ayında vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Zeynalov Nazim Ənvər oğlu – 1946-cı il martın 29-da Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan Politexnik İnstitutunu bitirmişdir. «Bakkondisioner» elmi-istehsalat birliyinin əsas şöbələrinin birində rəis, Azərbaycan Politexnik Universitetində baş müəllim vəzifələrində işləmişdir.

Zeynalov Niyaz Ənvər oğlu – 1924-cü ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Əmək fəaliyyətinə Dərbənddə ticarət sistemində başlamış, sonralar isə Bakı şəhərində davam etdirmişdir. Uzun illər Azərbaycan Ticarət Nazirliyin «Azərbakaleya» topdan satış idarəsinin direktoru işləmişdir.

1974-cü ildə Bakı şəhərində vəfat etmiş və Dərbənddə dəfn olunmuşdur.

Zeynalov Muxtar Əlibəy oğlu – 1925-ci il yanvarın 23-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. İxtisasca mühəndis-iqtisadçı olmuşdur.



Uzun illər Bakı şəhərində ticarətdə rəhbər vəzifələrdə çalışıb. Azərbaycan Respublikasının Ticarət Nazirliyində, Bakı şəhər ticarət idarəsində

və son illərdə Ümumittifaq Kooperativlər İttifaqında Ticarətin İdarəetmə-Səmərələşdirilməsi İnstitutunda şöbə müdiri vəzifələrində çalışıb.

O, 1941-1945-ci illər müharibəsinin iştirakçısı, Əmək veteranıdır. 2002-ci ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Zeynalov Vaqif Ənvər oğlu – 1942-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Ali təhsillidir. Dəmiryollar ticarət idarəsinin rəis müavinidir. Dağıstan Respublikasının Xidmət sahəsi üzrə əməkdar xadim fəxri adına layiq görülmüşdür.

Zeynalova Dilarə Həmid qızı – 1972-ci ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Əslən dərbəndlidir. Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsini bitirmiş və həkim-terapevt işləmişdir. Türkiyənin İstanbul Universitetinin doktoranturasında təhsil almışdır.

Zeynalova Leyla Xeyrulla qızı – 1947-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dağıstan Dövlət Pedaqoji İnstitutunun rus dili və ədəbiyyatı fakültəsini bitirib. Bakı şəhərində yaşayır, müəllim işləyir.

Zeynalova Mehriban Həmid qızı – 1970-ci ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Əslən dərbəndlidir. 1993-cü ildə Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsini bitirmişdir. Biologiya elmləri namizədidir. Azərbaycan Dövlət İqtisad Universitetində baş müəllim vəzifəsində çalışır.

Zeynallı Asəf (Asəf Zeynal Abid oğlu Zeynalov)



– 1909-cu il aprelin 5-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Atası çox erkən vəfat etmiş və üç oğlunun tərbiyəsi Əsbənd ananın çiyinlərinə düşmüşdü.

Asəfin musiqiyə olan həvəsi çox erkən yaşlarında aşkar olundu. Onun anası Azərbaycan qadınlarının sevimli musiqi aləti olan qarmonda çox gözəl çalırdı və Asəf böyük həvəs və maraqla xalq musiqisini saatlarla oturub dinləyirdi.

Maddi çətinliklərə baxmayaraq, Əsbənd kiçik oğlunu məktəbə qoyur. 1916-cı ildə Asəf Dərbənd realnı məktəbinə daxil olur. Burada aldığı biliklərlə yanaşı musiqi qabiliyyəti də üzə çıxır. O, burada o vaxtlar şəhərdə böyük nüfuza malik olan nəfəs alətləri orkestrində kornetdə çalır.

1920-ci ildə kasıblaşmış Zeynalovlar ailəsi iş axtarmaq üçün Bakıya gəlir. Burada Asəf əvvəl 9-illik məktəbə daxil olur, sonra isə tezliklə musiqiyə olan həvəsi böyük nəfəs alətləri orkestri olan hərbi məktəbə gətirir.

1923-cü ildə o, dahi azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov tərəfindən yeni açılmış Bakı türk musiqi məktəbinin kərənay sinfinə daxil olur. Hələ musiqi məktəbində oxuyarkən bu istedadlı uşaq böyük müvəffəqiyyətlə konsertlərdə çıxış edir. Bir ildən sonra, müəllimlərinin məsləhətilə violonçel sinfinə keçir. Artıq iki ildən sonra o, Bakının konsert zallarında solo konserti ilə çıxış edir. A.Zeynallı violonçel dərsləri ilə yanaşı, pedaqoq N.V.Jeneskinadan fortepiano çalmağı, Üzeyir Hacıbəyovdan isə nəzəriyyəni öyrənir.

1926-cı ildə böyük uğurla imtahan verərək yeni yaradılmış Azərbaycan Dövlət Konservatoriyasına qəbul olur. O, burada təcrübəli müəllimlərin rəhbərliyi altında (prof. B.V.Karaqiçev, L.Y.Aba və L.P.Yablonko) biliyini artırır, kompozisiyada öz qüvvəsini sinayır.

Asəfin yaradıcılıq simasının formalaşmasında konservatoriyanın rəhbəri Ü.Hacıbəyov böyük rol oynamışdır. Asəf onun rəhbərliyi altında Azərbaycan xalq musiqisinin əsaslarını, melodiyaların xüsusiyyətini və xalq musiqisinin inkişaf üsullarını, Azərbaycan xalq musiqi alətlərini öyrənir və Azərbaycan ahəngində tapşırıqlar yazır.

Asəf Zeynallı 19 yaşında özünün ilk cilddi əsərini «Asəf Zeynallı» imzası ilə yazır. Bu əsər, Azərbaycanın musiqi cəmiyyətinin marağını və diqqətini müəllifə cəlb edir və bu, onun yaradıcılıq fəaliyyətinin başlanğıcı olur.

Uğurlarından qanadlanan və qocaman musiqişünasların dəstəyini alan gənc bəstəkar həvəslə işləyir. O, xalq mahnılarının intonasiyasına əsaslanan bir sıra əsərlər yazır: «Şikəstə» (Azərbaycan xalq musiqisinin instrumental-vokal janrında), «Çahargah» (Azərbaycan musiqi ahənginin adlarından biri) və fortepiano üçün «Durna», skripka ilə fortepiano üçün «A la maqam» (Muğam janrında), iki violonçel və fortepiano üçün

«Qoyunlar», «Qırmızı bayraq», «10 il», «Ölkəm» mahnılarını, «Çadra», «Seyran», «Sual», «Sevgili canan» romansları və s.

A.Zeynallı 20-ci illərin sonunda, konservatoriyanın tələbəsi olarkən Azərbaycan Satir-agit teatrında işə düzəlir. O, burada musiqi hissəsinə rəhbərlik edir, var qüvvəsi ilə tamaşalara musiqi yazır.

Qısa müddət ərzində «Hind qızı», «Yanğın», «Sevil» və digər pyeslərə musiqi yazır.

O, bu illərdə müəllimlik fəaliyyəti ilə də məşğul olur.

1931-ci ildə konservatoriyanı bitirdikdən sonra A.Zeynallının yaradıcılıq fəaliyyəti daha da sürətlənir. O, Azərbaycan Proletar Musiqiçilərinin Assosiasiyasını yaradır və ona rəhbərlik edir. A.Zeynallı Azərbaycan incəsənətinin təbliği məqsədilə Leninqrad şəhərinə iki səfər edir və burada Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət konsertlər təşkil edir və Azərbaycan musiqisinə xas olan xüsusiyyətlər barədə məruzələrlə çıxış edir. O, özünün ən böyük əsərini – 7 hissədən ibarət «Fraqmentlər» suitasını və «Bakı» simfoniyasını yazır. A.Zeynallı 1932-ci ilin yayında öz əsəri üçün material toplamaq məqsədilə görkəmli müğənni Bülbüllə Qarabağ diyarına yaradıcılıq səfəri edir. O, burada xalq musiqi yaradıcılığının ən qiymətli incilərini toplayır və yazır.

A.Zeynallı evə qayıdarkən yolda yatalaq xəstəliyinə tutulur. Bakıya qayıtdıqdan sonra 1932-ci il oktyabrın 27-də vəfat edir.

Sovet dövründə ali musiqi təhsili almış ilk Azərbaycan bəstəkarı A.Zeynallı cəmi 23 il yaşadı. Bu illərdən yalnız 5-i, 1928-1932-ci illər onun fəal yaradıcılıq fəaliyyətinə düşür.

Buna baxmayaraq, bu gənc istedadlı bəstəkar 5 il ərzində Azərbaycan musiqi mədəniyyətinin xəzinəsinə daxil olan xeyli musiqi əsərləri yazıb yaratmışdır.

Onun yaradıcılığının əsas ana xətti xalqdır.

A.Zeynallının adı Azərbaycan Dövlət Konservatoriyasına verilmişdir. (Azərbaycanın dahi bəstəkar, konservatoriyanın banisi Ü.Hacıbəyovun ölümündən sonra (1948-ci il) konservatoriyaya onun adı verilmişdir). Hazırda Bakı musiqi kolleci A.Zeynallının adını daşıyır. Azərbaycanda ilk uşaq musiqi əsərini yazan A.Zeynallı sayılır. Bakının mərkəzi küçələrindən biri onun adını daşıyır. Görkəmli bəstəkarın yaşadığı mənzildə onun ev-muzeyi açılmışdır.



DƏRBƏNDİN MÜHÜM HADİSƏLƏRİNİN TARİXİ XRONOLOJİ XÜLASƏSİ

B.e.ə.VIII-VI əsrlər	- Albaniyanın Çola (Çogd və ya Çord) vilayəti ərazisində eyniadlı şəhərin salınması. - Dərbənd təpəsinin şimal-şərq hissəsində Xosrov I Ənuşirəvan (531-579) tərəfindən daş divarın tikintisinə başlanılması (dördüncü sədd) və 567-ci ildə başa çatdırılması. Dərbənd divarlarının üzlüklərində 20-dək pəhləvi kitabəsinin yazılması (akademik Ziya Buniyadovun əsərlərində qeyd olunmuşdur).
B.e.ə. VI əsr	- Sakların Dərbənddə məskunlaşması tarixçi V.V.Struvenin məlumatı. - Yunan coğrafiyaşünası Miletski Geqateyin Dərbənddə olması və əsərlərində şəhərin Kaspi qapıları, müdafiə kompleksinin yaranması haqqında məlumat verməsi.
B.e.ə. V əsr	Herodotun «Tarix» əsərində Dərbənddə yetişdirilən marena bitkisi və türklərin Xəzəryanı yoldan istifadə edərək Şərqi Avropadan Ön Asiyaya daxil olması haqqında məlumat verməsi.
B.e.ə. III əsr	Dərbənd rayonunda tunc dövrü yaşayış məntəqəsinin meydana gəlməsi.
B.e.ə. III-II əsrlər B.e. V-VI əsrlər	Azərbaycan ərazisində Dərbənddə üzümçülük və bağçılığın qədim zamanlardan inkişaf etdirilməsi, məşhur dərbəndi üzüm növünün yetişdirilməsi.
B.e.ə. II əsr	Ptolomeyin xəritəsində Dərbənd rayonunun Qelda şəhəri (Celda) kimi təqdim edilməsi.
B.e.ə. II-I əsrlər	Atropatena tayfalarının (Saqarati etnoniminin daşıyıcıları) Cənubi-Şərqi Avropadan Dərbənd keçidindən keçərək İran ərazisinə daxil olması.
B.e.ə. I əsr	- Yazılı mənbələrdə Xəzər dənizinin 100-dək adının, o cümlədən Dərbənd dənizi adının olması. - Dərbənddə geyim mədəniyyətinin inkişaf etməsi. Şəhər sakinlərinin yun və kətandan toxunma köynək və şalvar geyməsi, dəri bürüncəllərdən geniş istifadə etməsi. - Dərbənd şəhəri yaxınlığında zərdüşti qəbirlərin meydana gəlməsi Azərbaycanın bu bölgəsində zərdüştiliyin yayılması.
I əsr	- Xəzərlərin Qafqaz Albaniyasının (Dərbənd şəhəri rayonu) şimal-şərqində məskunlaşması. - Roma müəllifi Plininin öz əsərində Xəzərin sahilboyu sakinləri arasında dənizin çoxlu adının mövcudluğunu qeyd etməsi. Dərbənd dənizi adının isə Xəzərin sahilində yerləşən tarixi yaşayış məntəqəsi ilə bağlı olması.
Eranın əvvəlləri	- Böyük Qafqaz silsiləsi ilə Xəzər dənizi arasında olan mühüm strateji əhəmiyyətli «Alban qapıları» adlanan keçidin burada yerləşməsi və skiflər, alanlar, hunlar, xəzərlərin bu keçiddən istifadə etməsi.
I əsr	Neron – Rum imperatoru (54-68). Onun ticarət yoluna nəzərət etmək üçün Dərbəndə böyük yürüş planlaşdırması.
II-VII əsrlər	Hun tayfalarından olan türklərin (227) Dərbənddə və Azərbaycanın digər bölgələrində məskunlaşması.
III əsrin I yarısı və V əsr	Hunların Albaniyaya Dərbənddən gəlməsi (tarixçi Sara Aşurbəyliyə görə).
62-113-cü illər	Romanın dövlət xadimi və yazıçısı Kiçik Plininin öz əsərində imperator Domisianın ordusunun Qafqaz Albaniyasına hərbi yürüşü haqqında məlumat verməsi.
68-ci il	İmperator Neronun Dərbəndə və Xəzərin sahillərinə böyük hərbi yürüşə hazırlığı.
350-ci il	Xəzər qoşununun Çor qapısından keçərək Alban torpaqlarında məskunlaşması.
309-380-ci illər	II Şapurun köməyi ilə Xəzər qoşunlarının Çor qapılarına qədər uzaqlaşdırılması.
451-ci il	Şah II Yezdəgird (450-457) Cənubi Qafqaz satrapatlarına, o cümlədən Qafqaz Albaniyasına daxil olan Dərbənddə atəşpərəstlik dinini yayması.
454-cü il	Hunların Çor qalasını tutması.
462-ci il	Xəzərlərin Dərbəndə yürüşü və əhalinin müqavimətilə rastlaşması.
466-cı il	Xəzər çarı Ambazukun Dərbəndi mühasirəyə alması.

V əsr	- Alban şəhəri Dərbəndin iqtisadi və siyasi mərkəz kimi fəaliyyət göstərməsi. - İranının daxili əyalətlərindən sasanilər tərəfindən 3 min irandilli ailənin Dərbəndə köçürülməsi. - İmperator Markianın (450-457-ci illər) Dərbənd divarlarını tikmək üçün maddi yardım göstərməsi. - II Yezdəgird – İran şahı. Onun Alban (Dərbənd) keçidinə çatması və İsgəndər Zü-l-Qərineynin tikdiyi qədim divarın qalıqlarını aşkar etməsi, onu qumdan və lildən təmizləyərək «mis və qurğuşun daşlardan» uçaltması.
V-VI əsrlər	Qubad I (Kobad) – Sasanilər sülaləsindən olan İran şahı (491-531), Şimal sərhədlərini köçəri türk tayfalarının hücumlarından qorumaq məqsədilə Dərbənd sərhəd divarının Qubad şah tərəfindən tikilməsi. Sasanilərin Dərbənddə böyük qarnizon saxlaması.
V-VII əsrlər	Dərbəndin Sasani hakimiyyətində əsas hərbi-stateji və inzibati-siyasi mərkəzə çevrilməsi.
508-ci il	Qubad şahın Dərbəndi zəbt etməsi və İrana birləşdirməsi.
VI əsr	- Sasani sülaləsindən (224-651) olan hökmdar I Xosrov Ənuşirəvanın (531-579) Dərbənd keçidini qorumaq üçün 5 minlik qoşun ayırması və Dərbənddə istehkamlar ucaltması, limanın əsasının qoyulması. - Dərbəndin şimal divarında pəhləvi kitabəsində qala divarlarının inşası haqqında məlumat. - Dərbənd şəhərində Orta qapının tikilməsi. - Dərbənd şəhərində Qırxlar qapısının tikilməsi.
VI-VII əsrlər	- Dərbəndin adının ilk dəfə Anani Şirakatsinin «Coğrafiya» yazılı mənbələrində rast gəlinməsi. - Dərbənd adının şəhərin qala divarlarında yazılmış pəhləvi yazılarında qeyd olunması (Məşhur şərqşünas V.Q.Lukoninin fikrinə görə).
VI-IX əsrlər	Dərbənddə türk mənşəli qədim əhali ilə yanaşı ərəblərin yaşaması.
VII əsrin əvvəlləri	Ərəb tədqiqatçıları Dərbənddə, Şirvanda və Xəzər dənizinin qərb sahillərində türkdilli tayfalarının məskunlaşması haqqında məlumatları.
626-cı il	Zagibelin rəhbərliyi altında xəzərlərin Dərbəndi tutması.
626-627-ci illər	Xəzərlərin Cəbə xaqanının başçılığı ilə Dərbəndin tutulması. Qala divarlarını dağıtması və cənuba hücum məntəqəsi kimi istifadə etməsi.
627-ci il	Bizans ilə xəzərlər arasında hərbi ittifaqın imzalanması. İmperator İraklinin sasanilərlə müharibəsi zamanı xəzərlərlə bağnalmış ittifaqa görə Xəzər ordularının Cənubi Qafqaz ərazisinə hücumlara başlaması. Xəzərlərin ilk zərbəni Dərbəndə endirməsi.
VII əsrin 30-cu illəri	- Sasani dövlətinin Azərbaycanda mövqelərini möhkəmlətmək, özünə etnik dayaq yaratmaq məqsədi ilə Abşerondan Dərbəndə kimi Xəzər sahili bölgəyə çoxlu irandilli tayfaları köçürməsi. - Ərəb ordusunun yürüşləri nəticəsində Dərbənd hakimi Şəhriyarın xilafət hakimiyyətini qəbul etməsi.
VII-IX əsr	Bayat qapının tikilməsi.
639-cu il	Azərbaycanda islam dininin yayılması. Ərəblərə məğlub olan Azərbaycanın mərzbanı İsfəndiyar ibn Fərruxzadın sülh müqaviləsi bağlaması və ərəblərin Xəzərin sahili boyu Dərbəndə kimi gəlməsi. Şəhər istehkamlarının ərəbləri heyran etməsi və onların Dərbəndin adını «Bab əl-Əbvab» kimi təqdim etməsi.
641-ci il	Ərəblərin Dərbəndə uğursuz yürüşü.
642-ci il	Xəlifə Ömərin əmri ilə ərəb sərkərdəsi Bukayrın Dərbənd üzərinə yürüşü. Dərbəndin hakimi və sasanilərin şimal sərhədlərinin mərzbanı Şəhriyarın ərəb dəstəsinin başçısı Əbd ər-Rəhmanla danışıqlar aparması, qırğının qarşısının alınması və dərbəndlilərin can vergisindən azad edilməsi.
642-643-ci illər	Ərəb müəlliflərinin mənbələrində və «Dərbəndnamə» salnaməsində Dərbənd şəhərinin şimal hissəsində, Qafqazın ən qədim «Qırxlar» qəbiristanlığının meydana gəlməsi.
643-cü il	- Ərəblərin Dərbəndi (Bab əl-Əbvab) zəbt etməsi və sülh sazişi. Burada islam dininin yayılması.

644-cü il	- Əndəluslu Həmid əl-Qərnatinin məlumatına görə Dərbəndin dağ kəndlərində islam dinini qəbul etməyən atəşpərəstlərin olması. - Dərbənd sərhəd xəttinin rəisi ərəb sərkərdəsi Surakanın vəfat etməsi və onu bu vəzifədə Əbd ər-Rəhman əl-Bəhlilinin əvəz etməsi.
644-645-ci illər	Ərəblərin xəlifə Osman ibn Əffanın (644-656) dövründə Salman ibn Rəbiə əl Bahilinin rəhbərliyi altında Dərbəndə yürüşü və xəzərlərlə döyüşlərdə «Qırxlar» şimal qəbiristanlığında dəfn olunmuş 40 şəhid haqqında məlumatı.
646-647-ci illər	Həbib bin Məsləmənin Dərbəndə yürüşü.
650-651-ci illər	Hüzeyf və Səid ibn əs-Əsamın Dərbəndə yürüşü.
652, 658-ci illər	Xəzərlərin Dərbənd keçidindən keçərək Gürcüstanın sərhədlərinə daxil olması.
652-653-cü illər	Salman ibn Rəbiənin Dərbəndə uğursuz hücumu və onun öldürülməsi.
656-cı il	Ərəblərin Dərbəndə uğursuz yürüşü.
662-ci il	Ərəblərin Cənubi Qafqaza, o cümlədən Dərbənddən Albaniyaya hücumu və Alban hökmdarı Cavanşir tərəfindən onların geri oturdulması.
662-663-cü illər	Xəlifə Müəviyyənin (661-680) Dərbəndə yürüşü.
685-686-cı illər	Ərəb qoşunlarının Məsləmənin rəhbərliyi altında Dərbəndə yürüşü.
692-ci il	Ərəblərin Dərbəndə uğursuz yürüşü.
698-699-cu illər	Məhəmməd bin Mərvanın Dərbəndə yürüşü.
VII əsr	Dərbənddə taxıl bitkilərinin və zəfəranın becərilməsi haqqında məlumat.
VII-X əsrlərdə	- Narrativ mənbələrdə Dərbənddə mövcud olmuş Azərbaycan memarlığında günbəzli tikililər haqqında məlumat verilməsi. - Dərbənddə maldarlığın oturaq və köçəri formalarının yayılması.
706-707-ci illər	Ərəb qoşunlarının Məsləmənin rəhbərliyi altında Dərbəndə 2-ci yürüşü.
707-708-ci illər	Məhəmməd ibn Mərvanın qardaşı oğlu, o zaman hakimiyyət başında olan xəlifə I Vəlidin (705-715) qardaşı Məsləmə ibn Əbdülməlikin Bizansda apardığı müvəffəqiyyətli döyüşlərindən sonra Dərbəndi ələ keçirmiş xəzərlərin üzərinə yürüşü.
709-710-cu illər	- Ərəb sərkərdəsi Məsləmə ibn Əbdü-l-Məlikin Dərbəndə yürüşü və şəhəri zəbt etməsi. 2.06.709-1.06.710-ci illərdə xəzər hökmdarının 80 min nəfərlik qoşunla yürüş etməsi və Dərbəndi tutması. - Ərəb qoşunlarının Məsləmənin rəhbərliyi altında Dərbəndə 3-cü yürüşü.
710-711-ci illər	- Xəlifə Əbdü-l-Əzizin canişini ibn Xatim əl-Bəhilinin Dərbəndə yürüşü.
714-cü il	Xəlifə I Vəlidin hökmranlığı dövründə Dərbəndə yürüş edilməsi və şəhərin ərəb ordusu tərəfindən zəbt edilməsi.
714-715-ci illər	Ərəb sərkərdəsi Məsləmə ibn Əbdü-l-Məlikin Dərbəndə yürüşü, xəzərlərin ərəb ordusuna qarşı müqaviməti.
715-717-ci illər	Xəlifə Süleymanın hökmranlığı dövründə ərəb qoşunlarının sərkərdə Məsləmənin komandanlığı altında Dərbəndə yürüşü və şəhərin 6 min nəfərlik ordu ilə zəbt edilməsi.
716-cı il	Ərəb sərkərdəsi Məsləmə tərəfindən Dərbənd şəhərinin zəbti. Su kəmərinin təmiri və su anbarının tikilməsi.
717-ci il	Əmr ibn Rəbiyənin Dərbəndi mühasirədə saxlaması.
721-722-ci illər	Azərbaycanın canişini əl-Cərrah ibn Abdullahın xəzərlərə qarşı çıxış etməsi və Dərbəndi zəbt etməsi.
722, 728, 754, 764, 799-cu illər	Xəzərlərin Dərbəndi mühasirədə saxlaması.
730-731-ci illər	- Xəzər xaqanın oğlu Barsbəyin başçılığı ilə 300 minlik ordunun ərəblərə qarşı əks hücumu və Dərbəndə yürüşü. Ərəblərin məğlubiyyəti və əl-Cərrahın öldürülməsi. - Məsləmə ibn Əbdü-l-Məlikin xəzərlərə qarşı hücumu və qışa yaxın Dərbəndə çatması. - Məsləmənin öz ordusu ilə bir neçə dəfə Dərbəndə daxil olması və qalada yerləşmiş xəzərlərin şəhərdən çıxıb getməsinə maneçilik törətməməsi. Məsləmənin Dərbəndi dörd hissəyə bölməsi, ərəb döyüşçülərini burada yerləşdirməsi və Mərvan ibn Məhəmmədi müsəlman icmasının başçısı təyin etməsi.
731-732-ci illər	Xəzərlərin Dərbəndə yürüşü, məğlubiyyəti, 100 nəfərin öz ailələri ilə birlikdə əsir düşməsi.

732-733-cü illər	- Əl-Kufinin məlumatına görə xəzərlərin Məsləmənin Dəməşqə, xəlifənin sarayına getməsindən xəbər tutması. Xəzərlərin Dərbənddən şimalda olan torpaqlarına qayıtması. - Xəlifə Hişamın Cəzirə hökmranlığı dövründə ərəb sərkərdəsi Mərvan ibn Məhəmmədin komandanlığı altında Dərbənddən xəzərlərə qarşı hücumu və qələbəsi.
733-734-cü illər	Məsləmə ibn Əbdülməlikin Dərbəndə yürüşü. Dərbəndin ilk ərəb hökmdarı.
736-cı il	Əsəd ibn Zafir əs-Suləminin Dərbənd hakimi təyin edilməsi.
737-ci il	Xəzərlərin ərəblərin Dərbənddəki müdafiə xətlərinə ən güclü yürüşü, şəhər qalasının ərəblərin əlində qalması, xəzərlərin Cənubi Qafqazı tərk etməsi.
742-ci il	Dərbənd şəhərində Came məscidinin tikilməsi.
744-750-ci illər	Xəlifə Mərvanın əmri ilə şəhər su kəmərinin tikilməsi.
746-cı il	Xəlifə Mərvanın Dərbənd hakimi İshaq ibn Müslim əl-Uqaylini bütün Azərbaycan torpaqlarına vali təyin etməsi.
754-755-ci illər	Xəlifə əl-Mənsur Yəzid ibn Üseyd əs-Suləminin Azərbaycan, Arran və Şirvanın valisi təyin edilməsi. Yəzidin 60 minlik qoşunla Kürü keçməsi, Dərbəndə çatması, şəhəri və dağ keçidlərini möhkəmləndirməsi.
750-1258-ci illər	Dərbəndin Xəzər xaqanlığı, Rus knyazlığı, Bizans, Avropa ölkələri, Suriya, İraq, İran, Orta Asiya, Hindistan, Çin və s. dövlətlərlə ticarətdə əsas tranzit məntəqəsinə çevrilməsi.
762-763-cü illər	İbn A′səm əl-Küfinin Dərbənddə olması və əsərlərində Yəzid ibn Useyd əs Suləminin şəhərə səfəri haqqında məlumat verməsi.
786-809-cu illər	Abbasilər ərəb sülaləsinin 5 xəlifəsi Harun ər-Rəşid Dərbənd hökmdarı.
793-799-cu illər	Harun ər-Rəşidin Xilafətin şimal vilayətlərinə təyin etdiyi Səid ibn Səlim əl-Bəhilinin valiliyi dövründə qiyamının baş verməsi. Dərbənd hakimi Nəcm ibn Haşimin edam edilməsi.
796-843-cü illər	Əbu Təmmam ət-Tai görkəmli ərəb şairi, Xəlifə Harun ər-Rəşidin canişini Yəzid ibn Məzyədin iqamətgahına gəlməsi.
797-ci il	Yəqubinin «Tarix» kitabında olan məlumata görə Dərbənd şəhərində böyük antiərəb əleyhinə üsyanının baş verməsi.
798-799-cu illər	- Yerli feodallardan olan Şammax ibn Şücanın «Azərbaycan, Şirvan və əl-Bab (Dərbənd)» vilayətlərinin hakimi olması. - «Şirvan məliki» adlandırılan yerli feodal Şammax ibn Şücanın devrilməsi. Yəzid ibn Məzyədin (799-801) Dərbəndin valisi təyin edilməsi və üsyanları yatırması. Xəzərlərin Arrana və Dərbəndə hücumlarının dəf edilməsi.
799-801-ci illər	Şirvanın birinci rəsmi məliki, eyni zamanda Azərbaycan, Arran və Dərbəndin hakimi Yəzid ibn Məzyəd əş-Şeybaninin olması.
VIII əsr	- Xəlifə Harun ər-Rəşidin (786-809) göstərişinə əsasən Dərbənddə müdafiə tədbirlərinin görülməsi. - Xəzərlərin Dərbənd yaxınlığında ərəblərin ordusunu darmadağın etməsi. - Qafqaz canişini Yəzid ibn Məzyədin böyük səyi nəticəsində Dərbənd üzərində nəzarətin saxlanılması. - Dərbənd – Qafqazın böyük şəhərlərlərindən biri, hərbi-inzibati, ticarət-sənət, tranzit, ideoloji və mədəni mərkəzi. - Mərvan ibn Məhəmməd ibn Mərvan. İqamətgahı Dərbənd olmaqla Azərbaycan və Arran hökmdarı. - Hülaku xan (Çingiz xanın nəvəsi). Hülakular dövlətini yaratması və Dərbəndin Qafqazda onun şimal sərhəd məntəqəsi kimi fəaliyyət göstərməsi.
VIII əsrin sonu	Ərəb tarixçiləri əl-Kufi, ət-Təbəri, ibn əl-Əsir öz əsərlərində xəzərlərin ərəblər üzərində son ciddi qələbəyə nail olmaları, həmçinin Dərbənddə qiyam nəticəsində xəzərlərin yardımı haqqında məlumatlar verirlər.
VIII-IX əsrlər	Dərbənddə islam və ərəb yazıları ilə bərabər ərəb aylarının (məhərrəm, səfər, rəbi əl-əvval, rəbbi əs-sani, cümada ül-əvvəl, cümada ül-axər, rəcəb, şaaban, ramazan, şəvval, zü-l-qədə, zü-l-hiccə) adlarının daxil olması.
VIII-XII əsrlər	Dərbənd şəhərinin güclü sosial təbəqəsini qazilərin təşkil etməsi və onların islamın şimala doğru yayılmasında əsas qüvvə hesab olunması.

VIII-XIV əsrlər	Dərbəndin Xəzər dənizində böyük liman və ticarət mərkəzi kimi fəaliyyət göstərməsi.
844-cü il	Hakimiyyətə başlayan Həyyunun Məhəmməd İshaqla müharibədə məğlubiyyətə uğraması və Dərbənddə Buğa Əş-Şərabi tərəfindən devrilməsi. Xəlifə Mütəvəkkilin Dərbənd şəhərini və onun ətrafındakı torpaqları iqta kimi Məhəmməd ibn Xalidə verməsi.
845-ci il	Ərəb xəlifəsinin səfiri əl-Vasiy Billahın və Səddəmət-Tərcümanin Dərbənddə olması.
851-ci il	Xəlifə əl-Mütəvəkkil Dərbəndi və onun ətraf vilayətlərini Azərbaycan və Arran hakimi Məhəmməd ibn Xalid ibn Yəzid əş-Şeybaniyə iqta verməsi və onun bütün regionu idarə etməsi.
869-cu il	Haşim ibn Surakanın Dərbəndi müstəqil idarə etməsi. Haşimdən sonra irsən onun nəslinin idarə etdiyi Dərbəndin XI əsrin sonunadək öz müstəqilliyini saxlaya bilməsi.
886-cı il	Dərbənd əmirinin Şəndana hücumu və ona məxsus iki bəndin ələ keçirilməsi.
IX əsr	Ərəb müəllifi əl-Bəlazurinin öz əsərlərində Məsləmənin dövründə Dərbənddəki vəziyyət haqqında məlumat verməsi.
IX əsrin sonu – X əsrin əvvəli	Cənubi Qafqazda və Dərbənddə xəzərlərin lokal xarakterli çıxışları. Xilafətin Qafqazdakı mövqeyinin zəifləməsi, müsəlmanların şimala doğru yollarının Xəzər xaqanlığı tərəfindən bağlanması, rusların və digər xalqların Şimali Qafqaz tərəfdən müsəlman torpaqlarına müdaxilə etmələrinə mane olması.
IX-X əsr	Ərəb və fars müəlliflərinin öz əsərlərində Dərbənddə poçt məntəqəsinin Bayat qapının yanında mövcud olması haqqında məlumat verməsi.
909-cu il	Şirvan və Dərbəndin birləşmiş qoşunlarının Şəndan üzərinə hücumu. Məğlubiyyət nəticəsində 10 min şirvanlının və dərbəndlinin düşmənlərə əsir düşməsi.
915-ci il	- Əbü-l-Qasim Yusif ibn Əbu-s-Sacın Azərbaycanda öz hakimiyyətini möhkəmlətməsi və Dərbənd şəhərinin Sacilər dövlətinin tərkibinə daxil olması. - Hilal əs-Sabinin əsərində bu dövrdə Dərbənd hasarının sualtı hissəsinin uçması barədə məlumat verilməsi. - Haşiminin üçüncü oğlu Əbdülməlikin Dərbənd əmiri təyin edilməsi. Haşimilər sülaləsi daxilində çəkişmələrin başlanması. Mərhum əmir Məhəmmədin oğlu Əbu-n-Nəcmin əmisi əleyhinə üsyan qaldırması və Dərbənd əhalisinin köməyi ilə hakimiyyəti ələ keçirməsi.
919-cı il	Xəzər qoşunları ilə birlikdə Əbdülməlikin ordusunun Dərbəndə hücumu və yenidən hakimiyyətə gəlməsi.
930-cu il	Şirvan-Dərbənd sülh müqaviləsi.
933-cü il	Ərəb tarixçisi əl-Məsudinin öz əsərlərində Məhəmməd ibn Yəzidin Dərbəndi zəbt etməsi, bütün torpaqların Şirvanla və Layzanla birləşdirilməsi haqqında məlumat verməsi.
934-1025-ci illər	Firdovsi Əbu-l-Qasim – fars şairi, türk sultanı Mahmudun sifarişi ilə «Şahnamə» poemasını yazmış, tarixi hadisələri bilirəkdən saxtalaşdırmışdır, o cümlədən yanlış olaraq Dərbənd şəhərinin əsasının İran şahı Leyrasp tərəfindən qoyulmasını göstərmişdir.
939-cu il	Əmir Əbdü-l-Məlikin vəfat etməsi və onun üçyaşlı oğlu Əhmədin Dərbənd əmiri təyin olunması.
942-ci il	Şirvanşah Məhəmməd ibn Yəzidin oğlu, Tabasaran hakimi Heysəmin Dərbənd şəhərinin hakimi təyin olunması.
943-cü il	Rusların (vikinqlər) şəhəri zəbt etmək cəhdi.
944-cü il	- Dərbəndin Şirvanşahlar hakimiyyəti altına keçməsi. - Dərbənd əhalisinin Əbdül Məlik əl-Haşiminin oğlu əmir Əhməd əleyhinə üsyan qaldırması və onun şəhərdən qovulması.
953-cü il	Dərbəndin lakzların hakimi Xəşrəmi Əhməd ibn Münəbbih tərəfindən idarə olunması.
954-cü il	Xəşrəmin devrilməsi və rəislərin Dərbənd taxtının qanuni sahibi Əhməd ibn Əbdülməliki üçüncü dəfə öz yerinə qaytarması.
955-ci il	Tarixçi ibn Mişqaveyhin öz əsərlərində Salari hökmdarı Mərzban ibn Məhəmmədə vergi verməkdən imtina edən dərbəndlilər haqqında məlumat verməsi.
955-956-cı illər	Azərbaycanın hakimi Mərzban ibn Məhəmmədin Dərbənddə olması, buradan qayıdan Mərzbanın Vaspurakan hakimindən Deysəm ibn İbrahimi təslim etməsini tələb etməsi və onu zindana atdırması.

957-958-ci illər	Mərzbanın vəfat etməsi və Salari əmirlərindən birinin – həbsxanada saxlanılan Deysəmin öldürülməsi.
961-ci il	Ərəbdilli tarixçilər Həmzə İsfahani əl-Bəlazuri və əl-Məsudinin öz əsərlərində Dərbəndin səddi haqqında məlumat vermələri.
968-ci il	- Salar tərəfindən Dərbəndin zəbt və qarət edilməsi. - Mərzbanın oğlu İbrahimin Dərbənd əmiri Əhməd ibn Əbdülməlikin qoşunları ilə döyüşü və İbrahimin ordusunun məğlubiyyəti nəticəsində Dərbəndin Salarilərin təsir dairəsindən çıxması.
971-ci il	Salarilərin Dərbəndə hücumu və Qırxlar qapısı yanında baş vermiş döyüşdə əmir Əhmədin qoşunlarının məğlubiyyəti.
976-cı il	Dərbənd əmiri Əhmədin vəfat etməsi və hakimiyyətə onun 16 yaşlı oğlu Maymunun gəlməsi.
987-ci il	Əmir Maymunun 10 ildən çox itaətə gəlməyən rəislərinə qarşı gizli surətdə ruslarla (vikinqlərlə) əlaqə yaratması və onları Dərbəndə dəvət eməsi. Rusların 18 gəmi ilə Dərbəndə gəlməsi.
988-ci il	Dərbəndin Şirvanşahlar hakimiyyəti altına keçməsi.
989-cu il	Din xadimi gilanlı Musa ət-Tuzinin əmir Məymuna qarşı qiyamı və ruslarla əlaqəsi olan əmiri Tabasarana qovması. Qiyamçıların Şirvanşahı şəhərə dəvət etməsi və burada Maymunun xidmətçilərinin biri tərəfindən yaralanması. Əmir Məymunun yenidən hakimiyyətə qayıdışı.
990-cı il	«Tarixi-i əl-Bab» kitabında Dərbənd əhalisinin öz əmirləri Məymuna qarşı üsyan qaldırması və onun hakimiyyətdən uzaqlaşdırılması, onların Şirvanşah Məhəmməd ibn Əhmədi Dərbəndə dəvət etməsi, qalanın bərpa edilməsi və hərbi qarnizonun yerləşdirilməsi haqqında məlumat verilməsi.
991-ci il	- Dərbənd əmiri Məymunun şəhərdən qovulması. Dərbəndə qayıdan Şirvanşahın şəhər qalasının möhkəmləndirilməsi üçün tədbirlər görməsi. - Məhəmməd ibn Əhmədin vəfat etməsi və qardaşı Yəzid ibn Əhmədin hakimiyyətə keçməsi. Hakimiyyətin dəyişməsindən istifadə edən əmir Məymunun yenidən hakimiyyəti ələ alması.
991-1027-ci illər	Şirvanşah Yəzid ibn Əhmədin hökmranlığı dövrünün dərbəndlilərə qarşı mübarizə illəri kimi keçməsi. Şirvanşahın öz dövlətinin ərazisini genişləndirmək məqsədilə Dərbənd hakimlərinə qarşı müharibələr aparması.
992-ci il	Məymunun Dərbəndə hücumu və şəhəri ələ keçirməsi.
993-cü il	Məymunun Dərbənd qalasına növbəti hücumu və şirvanşah tərəfindən tikilmiş orta səddin uçurulması.
997-1002-ci illər	Məymunun oğulları Məhəmməd və Ləşkərinin Dərbənddə hakimiyyətdə olması.
IX əsrin sonu	Azərbaycanın cənubunda güclü Sacilər dövlətinin yaranması. Dərbənddən Zəncana qədər bütün Azərbaycan ərazisinin türk hökmdarının hakimiyyəti altında birləşməsi.
IX-XI əsrlər	Dərbənddə məzar daşlarının, abidələr üzərindəki kitabələrin tərtib olunması. Nəsh üsulu ilə yazılmış ən qədim yazıların Dübarə qapının yaxınlığında Dərbənd şəhərinin cənub divarında həkk edilməsi.
X əsr	- Ərəb coğrafiyaşünas səyyahları ibn Hövqəl və əl-Müqəddəsinin Dərbənddə olması və əsərlərində buradakı «gözəl came məscidləri» haqqında məlumatları. - Ərəb alimi və piliqrimi əl-Məsudinin Dərbənddə olması. - Dərbənd limanının Xəzər dənizinin ən böyük limanı olması və şəhərin beynəlxalq ticarətdə vasitəçi rol oynaması (tanınmış alim A.A.Kudryavtsevin sualtı arxeoloji tədqiqatlarına əsasən). - Ərəb müəllifi Əhməd ibn A'səm əl-Kufi və ingilis taciri, dəniz səyyahı Antoni Cenkinsonun (1561-1563) əsərlərində Xəzər dənizi arasındakı dar keçidin üzərindəki təpə (Kasta təpəsi) haqqında qeydləri. - Ərəb müəlliflərindən İstəxri, İbn Hauqəlın əsərlərində Dərbəndin toxuculuq istehsalı mərkəzlərindən biri olması haqqında məlumatları. Qafqazda və Yaxın Şərq ölkələrində yüksək qiymətləndirilən kətan parça və paltarın Dərbənddə istehsal olunması.

	- Xəzərlərin Dərbəndə yürüşləri haqqında X əsrə aid yəhudi sənədlərinin məlumatları (Ziya Bünyadovun «Azərbaycan VII-IX əsrlərdə» kitabı əsasında). - Tanınmış ensiklopediyaçı Əbül-Həsən Harun Zəncaninin öz əsərlərində Azərbaycan-Hindistan əlaqələri, Dərbənd şəhərinin oynadığı tranzit ticarət yolu haqqında məlumat verməsi. - Ərəb səyahətçisi Əhməd ibn Fədlanın Dərbənddə olması və əsərlərində şəhərin qədim abidələri haqqında məlumat verməsi. - Ərəb tarixçisi İbn əl-Fabin Qırxlar qapısınının əhəmiyyəti haqqında öz əsərlərində məlumat verməsi.
1019-cu il	Dərbənd əmiri Mənsurun Dərbənddən qovulması və Yəzidin hakimiyyətə gəlməsi. Əmir Mənsurun yenidən Dərbənd taxtına sahib olması (1021).
1023-cü il	Əmir Mənsurun Dərbənddən qovulması və şirvanşahın yenidən şəhərə dəvət olunması.
1024-cü il	Əmir Mənsurun yenidən hakimiyyətə sahib olması.
1032-ci il	Azərbaycandan geri qayıdan rus (vikinq) dəstəsinin Dərbəndin Haşimi əmiri tərəfindən məğlub edilməsi.
1034-cü il	Əmir Mənsurun ölümündən sonra oğlu Əbdülməlikin hakimiyyətə gəlişi. Daxili qüvvələrin başcılığı ilə Əbdülməlikə qarşı qiyamın başlanması və onun Dərbənddən qovulması. Şirvanşah Əbu Mənsur Əli ibn Yəzidin hakimiyyətə gəlməsi. Şirvanşahın vəziri Mənsur ibn Müsəddidin Dərbənd hakimi təyin edilməsi. Əmir Əbdülməlikin Dərbəndə yeni hücumu və hakimiyyəti ələ keçirməsi.
1038-ci il	Dərbəndin səlcuqlar tərəfindən idarə edilməsi.
1040-1110-cu illər	Mammus əd-Dərbəndi (Mammus bin əl-Həsən bin Məhəmməd Əbu Abdallah əd-Dərbəndi) – hədislərin bilicisi və tarixçi, Bab əl-Əbvabın (Dərbəndin ərəb adlarından biri) mötəbər şeyxlərindən biri.
1043-cü il	Əmir Əbdülməlikin vəfat etməsi və oğlu Mənsurun şəhərin hakimi təyin olunması. Bu dövrdə əmirlə rəislər arasında gedən mübarizənin son qanlı həddə çatması.
XI əsrin 1-ci yarısı	Dərbənd əmirliyinin Şirvanşahlar dövründə güclü şəhərə çevrilməsi.
XI əsr	- Əl-Qədari (Əhməd bin əl-Hüseyn bin Əbu-Abdullah əl-Qədari) Bab əl-Əbvabın qazi-əl-quzzatı (ali hakimi) və şəhərin şiə icmasının baş ruhanisi. - «Əxi» peşə sənətkarlığının ittifaqının təsis edilməsi və Dərbənddə fəaliyyəti. - Dərbənd şəhərinin yerli müəllifi Əbu Bəkr əd-Dərbəndi «Reyhan əl-həqaiq və bustan əd-dadaiq» əsərində Dərbəndin Qafqazda nəhəng sufi mərkəzlərindən biri olması haqqında məlumat verməsi. Əsərdə 20 sufi şeyxinin adının çəkilməsi. - Dərbənddə zaviyənin (sufi məbədi) məşhur sufi şeyxi Əbu-l-Qasim əd-Dərbəndi tərəfindən yaradılması. - Dərbəndin «Tarix Bab əl-Əbvab» kitabında o dövrün hadisələri haqqında məlumat verilməsi. - Mistik və teoloq Əbu Bəkr Məhəmməd əd-Dərbəndi «Həqiqətlər reyhanı və zəriflik bağı» kitabında sufizm ensiklopediyasının tarixi haqqında məlumat verməsi. - Əl-Bərrak (Yusif bin İbrahim bin Nəsr əl-Hafiz Əbu-l-Qasim əl-Babi) – Bab əl-Əbvabda şafii icmasının baş ruhanisi, hədislərin bilicisi. - Əl-Lakzi (Yusif bin əl-Hüseyn bin Daud Əbu Yaqub əl-Fəqih əl-Babi) – hədislərin bilicisi və Əqləbilər sülaləsinin saray tarixçisi. - Əl-Fəkai (Yusuf bin Əhməd Əbu-l-Qasim əd-Dərbəndi) – sufi şeyxi, sufi ruhanilərinin başçısı, Bab-əl-Əbvabda ən hörmətli və mötəbər şəxs.
1051-ci il	Dərbənd naibi Əbülfəvaris Əbdüssəlamın vəfat etməsi və anası Şəmkuyənin himayəsi sayəsində müstəqil əmirlik edən 13 yaşlı Mənsurun 3 ildən sonra Dərbənddən Tabarsarana qaçması. Onun Dərbənd əmiri elan edilən atabir qardaşı Ləşkərin tezliklə Mənsurun qulamı tərəfindən öldürülməsi və Mənsurun yenidən sərirlilərin köməyilə hakimiyyətə qayıtması.
XI əsr 60-cı illərin sonu – 70-ci illərin yarısı	- Dərbəndin Səlcuqlar dövlətinin tərkibinə daxil edilməsi. - Xarəzmşah Cəlaləddinin dövründə Dərbənd ətrafına 50 min qıpçaq ailəsinin köçürülməsi.

1063-?-il	Fəriburz (Fəxr əd-Din Fəriburz ibn Salar ibn Yəzid) – Yəzidilər sülaləsindən 15-ci Şirvanşah. Şirvanşah Fəriburzun Dərbəndə hücum etməsi (1068), şəhərin bir neçə rəisini əsir götürməsi, oğlu Əfridunu Dərbəndə hakim təyin etməsi.
1064-cü il	Dərbənd yaxınlığında əmirlə rəisin silahlı qüvvələri arasında qanlı döyüşün baş verməsi və bundan istifadə edən qumıkların başsız qalmış şəhərə hücumu.
1065-ci il	Ləşkərinin Qaytaqda tərbiyə alan azyaşlı oğlu Əbdülməlikin Dərbənddə hakimiyyətə gətirilməsi. Həmin ildə şirvanşah Fəribürzun öz qoşunu ilə Dərbəndə yürüşü. Əmir Əbdülməlikin Qaytağa qaçması və Dərbənd şəhərinin Şirvanlılar tərəfindən tutulması.
1071-ci il oktyabr	Əfridunun hakim kimi Dərbəndə yürüşü və Şirvanşah qoşunlarının gürcülər və dağlılar tərəfindən məğlubiyyətə uğradılması. Əfridunin şəhərdən qovulması.
1071-ci il	Səlcuqların Dərbəndə ikinci yürüşü.
1075-ci il	- Dərbənd şəhərinin Səlcuqların hakimiyyəti altına düşməsi. - Əbdülməlikin hakimiyyətdən uzaqlaşdırılması və əmisi oğlu Maymun ibn Mənsurun hakimiyyətə gətirilməsi. Dərbəndin az sonra Səlcuqların yeni hücumuna məruz qalması.
XI-XIII əsrlər	Yeni türk xalqlarının Dərbənd şəhərində və onun ətraf rayonlarında məskunlaşması. Azərbaycan xalqının dili və adət ən-ənələrininin formalaşması dövrü.
1120-ci il noyabr	Gürcülərin hökmdarı Qurucu Davidin öz ordusu ilə Dərbəndə hücumu və baş vermiş döyüşdə şah Əfridunun ölümü.
1120-1197-ci illər	Xəqani Şirvani (Əfzəl əd-Din İbrahim ibn Əli Nəcər Şirvani). Şamaxının Məlhəm kəndində anadan olmuş, XII əsr görkəmli Azərbaycan şairlərindən biri. Onun Dərbənddə müvəqqəti yaşaması.
1121-ci il	Gürcü çarı II Davidin (1089-1125) Dərbəndi mühasirəyə alması.
1131-ci il	Dərbənddə olmuş Əbu Həmid əl-Qərnati – məşhur ərəb tarixçisi. Onun Dərbənddə olması və öz əsərində əmir Sayaf əd-Din Məhəmməd ibn Hənifənin Dərbəndin müstəqil hakimi kimi fəaliyyət göstərməsi barədə məlumat verməsi.
1136-cı il	Atabəylər dövlətinin əsasının qoyulması. Atabəylər dövlətinin başçısı Şəmsəddin Eldənizin Dərbənddən İran körfəzinədək böyük ərazini özünə tabe etməsi.
1141-1209-cu illər	Nizami Gəncəvi (Əbu Məhəmməd İlyas ibn Yusif,) – böyük Azərbaycan şairi, filosofu və mütəfəkkiri. Onun Dərbənd hökmdarına qəsidə yazması və qəsidəni hökmdara şəxsən özü təqdim etməsi, Nizaminin Dərbənddə olması.
1154-cü il	- Dərbənddə olmuş ibn əl-Əzraq əl-Fəqirinin öz əsərlərində əmir əl-Məlik əl-Adil Əbu-l-Müzəffər ibn Hənifənin şəhərin müstəqil hakimi kimi fəaliyyət göstərməsi barədə məlumat verməsi. - Ərəb tarixçisi ibn əl-Əzraqın abxaz hökmdarı Demetri ilə Dərbənddə olması və əsərlərində şəhərin əmiri Əbülmüzəffər haqqında məlumat verməsi.
1173-ci il 12 avqust-1174-cü il 1 avqust	«Dərbənd xəzərlərin»in dəniz quldurlarının Volqadan Şirvana yürüşü və Dərbənd və Şabranın zəbt edilməsi.
1179-cu il	Şirvan hökmdarı Axsitanın böyük qoşunla Dərbəndə daxil olması.
1186-cı il	I Axsitanın qoşunlarının Azərbaycana yürüşü. Şamaxıdan Dərbəndə qədər olan torpaqları zəbt etməsi.
XII əsr	- Səlcuqların pəhləvilər sülaləsi ilə əvəz edilməsi. - Ərəb səyahətçisi Əbu Həmid əl-Qərnatinin Dərbənddə olması və əsərlərində şəhərin həyatından məlumat verməsi. - Əd-Dərbəndi, Məhəmməd bin Mussa əl-Fərəc Əbu Bəkr əş-Şafii əs Sufi – böyük müsəlman ilahiyyəçisi.
XII- XIII əsrlər	Rəşid – Dərbənd hökmdarı.
1220-1221-ci illər	Monqolların – Cəbə Noyonun və Subutay Bahadırın başçılıq etdiyi 30 min nəfərlik ordusunun Azərbaycana, Arrana, Dərbəndə yürüşü. Dərbəndi ələ keçirə bilməməsi və Monqolustana qayıtması.
1222-ci il	- Qıpçaqların Dərbəndə yürüşü və şəhərin əmiri Rəşidin Dərbəndi tərk etməsi. Qıpçaqların talançı hücumlarının qarşısının Şirvan, Gürcüstan və başqa yerlərin əhalisi tərəfindən alınması. Dərbəndə qayıdan Əmir Rəşidin şəhərdə qalmış qıpçaqları qılıncdan keçirməsi.
1227-ci il	Görkəmli ərəb müəllifi Yaqut əl-Həməvinin Dərbənddə olması və öz əsərlərində monqolların şəhərə ilk hücumu haqqında məlumat verməsi.

?-1231-ci illər	Cəlal-Əd-Din Mankburnı – sərkərdə, Xorəzm şahı (1220). Dərbəndin onun qoşunları tərəfindən mühasirəyə alınması (1228).
1239-cu il	Dərbəndin monqollar tərəfindən zəbt edilməsi.
1247-1318-ci illər	Məşhur tarixçi Rəşid əd-Dininin Dərbənddə olması və şəhərdə türk qarnizonunun monqollardan müdafiəsinin təşkili haqqında öz əsərlərində məlumat verməsi.
1253-cü il	Flamand səyyahı rahibi Gilyom Rubrukun (1220-1293) Dərbənddə olması və əsərlərində şəhər haqqında məlumat verməsi.
1254-1324-cü illər	Marko Polo - məşhur italyan səyyahı. Çinə səyahət edərkən Dərbəndi ziyarət etməsi (1271-1275) və əsərlərində şəhərin qədim abidələri, iqtisadi və mədəni həyatı haqqında məlumat verməsi.
1256-1265-ci illər	Qacarların Cənubi Dağıstana və Dərbəndə siyasi təsiri, onların hakimiyyəti dövründə günahsız ölümlər və repressiyalar.
1258-ci il	Dərbəndin Qızıl Orda hakimiyyəti altına düşməsi.
1260-cı il	Dərbəndin Qıpçaq xanı Berkay tərəfindən zəbt edilməsi.
1262-ci il	Çingiz xanın nəvəsi Hülaku xanın Dərbəndi zəbt etməsi.
1263-cü il 13 yanvar	Dərbəndin Qızıl Ordalılar tərəfindən zəbt edilməsi.
1265-1282-ci illər	- Hülaku xanın oğlu və varisi Abaqa xanın dövründə Qızıl Orda xanlarının Dərbənd keçidindən Şirvana yürüşü. - Abaqa xanın dövründə Şahzadə Yuşmutun Dərbənd, Şirvan və Muğanin hakimi olması.
1288-ci il	Qızıl Orda və Hülaku xanlarının qoşunları arasında üçüncü döyüş.
1290-cı il	Qızıl Orda və Hülaku xanlarının qoşunları arasında dördüncü döyüş və monqolların məğlubiyyəti.
XIII əsr	Plano Karpini – Roma papası IV İnnokentinin nümayəndəsi. Monqolustana gedərkən yolüstü Dərbənddə olması (1245) və şəhərin görməli yerlərini təsvir etməsi.
XIII-XVII əsrlər	Azərbaycan dili – Dərbənd əhalisinin əsas ünsiyyət vasitəsi. Azərbaycan dilinin türk dili ailəsinin oğuz qrupuna daxil olması. Dərbənddə Azərbaycan ədəbi dilinin əhali tərəfindən istifadəsinin 800 ilə yaxın tarixinin olması. Ən böyük dövr əski vaxtını XIII-XVII əsrləri, yeni dövr isə XVII əsrdən sonrakı mərhələni əhatə etməsi.
1318-ci il	Qızıl Orda qoşununun Dərbəndi keçərək Kür çayı sahilinə yürüşü və Hülakuların qüvvələri ilə döyüşü.
1319-cu il	Özbək xan (Qiyas əd-Din Məhəmməd Özbək) – Qızıl Orda xanı (1312-1341). Dərbəndi mühasirə edərək, Şirvanı zəbt etməsi.
1325-ci il	İlxan Əbu Səidin qoşunlarının Dərbəndi zəbt etməsi.
1328-ci il	Əbu Səidin (1316-1333) Əmir Əkənçini Dərbənd hakimi təyin etməsi.
1335-ci il	Özbək xanın varisi Arpa xanın Dərbəndi zəbt etməsi.
1336-1405-ci illər	Teymur (Teymur-Kürakan, Tamerlan, Ağsaq Teymur, Teymur-ləng, Topal Teymur) – görkəmli sərkərdə, Teymurilər sülaləsinin banisi.
1356-cı il	Qızıl Orda xanı Canıbəy tərəfindən Dərbəndin mühasirəyə alınması.
1357-ci il	Ərəb coğrafiyaşünası Əbi-l-Fidanın Dərbənd şəhəri haqqında öz əsərlərində məlumat verməsi.
1360-1370-ci illər	Dərbənddə müdafiə kompleksinin tikilməsi.
1382-ci il	Şirvan feodallarının İbrahim ibn Sultan Məhəmməd ibn Keyqubadı hökmdar seçməsi. Şeyx İbrahimin Məzyədilər sülaləsinin bir qolu olan dərbəndli Şirvanşahlar sülaləsinin nümayəndəsi kimi ilk dəfə təmsil etməsi.
1382-1417-ci illər	- Qızıl Orda və Elxanilər (Hülakular) arasında gedən müharibə dövründə Dərbənd şəhərinin mübahisə mərkəzinə çevrilməsi. - Elxanilər dövlətinin zəiflədiyi dövrdə Dərbəndin Şirvanşahlar dövlətinin tərkibinə daxil olması. - Dərbəndilər dövründə Dərbəndin Şirvanın mühüm yaşayış məntəqələrindən birinə və əsas liman şəhərinə çevrilməsi.
1382-1538-ci illər	Dərbəndilər sülaləsinin Şirvana hökmdarlıq etməsi.
1382-1550-ci illər	Dərbənddə Şirvanşahlar sülaləsinin bərqərar edilməsi.
1388-1390-cı illər	Şeyx İbrahim tərəfindən Bakı, Şamaxı, Şabran və Dərbənd şəhərində Teymurun və Toxtamışın adından sikkələrin zərb olunması.

1385-1386-cı illər	Toxtamışın Dərbənd keçidindən istifadə edərək Şirvana yürüş etməsi və Teymurun oğlu Miranşahın Toxtamışı Dərbənddən qovması.
1395-ci il	Teymurun qoşunlarının Dərbənddən keçərək Qızıl Ordanın ərazisinə daxil olması.
1395-96-cı illər	- Teymurun Qızıl Orda xanı Toxtamışla apardığı mübarizə nəticəsində Dərbəndin iqtisadi həyatında ağır dövrün başlanması. - Teymurla I İbrahim arasında razılaşmaya əsasən Şirvanşahların Dərbənd keçidini Qızıl Ordadan qoruması.
1396-ci il	Teymurun Qızıl Ordaya yürüşü.
XIV-XV əsrlər	I İbrahim xan Dərbəndi (İbrahim ibn Sultan Məhəmməd ibn Keyqubad). Şirvan hakimi (1382-1417), Dərbənd Şirvanşahlar sülaləsinin banisi.
1412-ci il	Əmir İsfəndiyarın hakimiyyəti dövründə Qiyamət qapısının tikilməsi.
1417-1465-ci illər	I Xəlilullah. İbrahim xan Dərbəndinin oğlu, Dərbənd hökmdarı.
1429-cu il	Dərbənddə ilk dəfə pul sisteminə əmir Teymurun zərb etdirdiyi yeni sikkə tipi olan təngənin daxil olması.
1432-ci il	Qaraqoyunlu tayfasının başçısı Sultan İsgəndərin Dərbənd şəhərinə daxil olması.
1436-1506-cı il	Əhməd ibn Məhəmməd. Dərbənddə anadan olmuş, məşhur müsəlman ilahiyyatçısı.
1437-ci il	Dərbəndin Gürcü çarı I Aleksandr (1413-1442) tərəfindən zəbt edilməsi.
1462-ci il 12 avqust	Dərbənd hökmdarı (canişini) İsfəndiyar Şeyx Əbu İshaq və onun 20 döyüşçüsünün şəhəri düşməndən müdafiə edərkən həlak olmaları və şimal qəbiristanlığında dəfn edilməsi.
1465-ci il	Şirvanşah Fərrux Yəsarın (1462-1500) elçisi Həsən bəyin Moskvada III İvanla danışıqlar aparması.
1474-cü il	Kontarini Ambroco – Venesiyalı diplomat, səyyah. Sultan Uzun Həsənin başçılıq etdiyi Ağqoyunlu dövlətində Venesiya Respublikasının səfiri (1453-1458). Vətəni Venesiyaya gedərkən Dərbənddə olması (1475) və əsərlərində Dərbənd haqqında məlumat verməsi.
1488-ci il	Şeyx Heydərin Dərbəndə hücumu və onun məğlub edilməsi.
XV əsr	- Cümə məscidi kompleksinin həyətin şimal hissəsində yerləşən birmərtəbəli yonulmuş daşdan tikilmiş mədrəsənin fəaliyyət göstərməsi. - İosafat Barbaro – italiyalı diplomat. Sultan Uzun Həsənin başçılıq etdiyi Ağqoyunlu dövlətində Venesian Respublikasının səfiri (1466-1478). Təyin olunduğu yerə gələrkən yolüstü Dərbənddə olması və şəhərin təsvirini verməsi. - Afanasiy Nikitin rus səyyahı və tver taciri. «Üç dəniz ətrafına səyahət» adlandırdığı yol gündəliyində Dərbəndi təsvir etməsi (1466). - Rusiya səyahətçisi Fedot Kotovun Dərbənddə olması və əsərlərində şəhər əhalisinin məşğuliyyəti haqqında məlumat verməsi.
XV əsrin I yarısı	Oğuz-türkmən tayfalarının Dərbənd şəhərində və onun ətraf rayonlarında məskunlaşması. Tərəkəmələrdə etnik dilin formalaşma dövrü.
XV əsrin II yarısı	Səfəvi şeyxləri Cüneydin və Heydərin Dərbənd keçidindən istifadə edərək Şimali Azərbaycana, Dağıstana yürüşü.
XV-XVII əsrlər	Narınqala saray kompleksində (XV-XVI) xan hamamı və su tutarının (XVI-XVII) tədqiq edilməsi.
1509-cu il	I Şah İsmayılın (1501-1524) Dərbəndi tutması və İraqda yaşayan bayat tayfasının bir hissəsinin buraya köçürülməsi.
1510-cu il	I Şah İsmayılın Dərbəndi tutmasından sonra Təbrizdən 500 ailənin (rumlu və qaramanlı tayfalarından) şəhərə köçürməsi.
1514-cü il	Osman Paşanın qoşunlarının Dərbənd şəhərini tutması.
1547-ci il	- Süleyman Çələbinin 600 nəfərlik dəstə ilə Dərbəndə yürüşü. - Əlqas Mirzənin Dərbənddə özünü hökmdar elan etməsi.
1554-cü il	Qasım Mirzənin komandanlığı altında türk qoşunlarının və müttəfiqi olan Krım xanı ilə birlikdə Dərbəndi mühasirəyə almaları.
1558-ci il	Türk qoşunlarının Dərbəndə daxil olması.
1562-ci il	İngilis səyahətçisi Antoni Cenkinsonun Dərbənddə olması və əsərlərində şəhərin qədim abidələri, mədəniyyəti haqqında məlumat verməsi.
1563-cü il	İngilis Tomas Olkovur, Corc Rennin və Riçard Çinin ekspedisiyalarının Dərbənddə olması.
1565-ci il	Riçard Consonun rəhbərliyi altında ekspedisiyanın Dərbənddən İrana keçməsi.

1571-1622-cı illər	I Şah Abbasın əmri ilə Dərbənd şəhərində su kəmərinin, su anbarının və yeddi bulağın tikilməsi.
1578-ci il	- Səfəvi-Osmanlı müharibələri zamanı türk ordusunun Dərbəndi tutması. - İngilis səyyahları Xristofer Berrou və Artur Eduardın Dərbənddə olmaları. - Şirvanın Osmanlı hakimi Özdəmirin oğlu Osman paşa Əbubəkiri müdafiə edən Şirvan əyanlarına qarşı çıxışı. Şamaxı və Dərbənd vilayətlərinin bölünməsi. - Dərbəndin Səfəvi hakimi Çiraq Xəlifənin 300 qızılbaşla birlikdə Osmanlı qoşunlarına qarşı çıxması və şəhər sakinlərinin qiyamı nəticəsində məhv edilməsi.
1579-cu il	- Krım xanı Məhəmməd Gərayın qardaşı Adil Gəray tərəfindən Dərbəndin tutulması. - I Şah Abbas Dərbəndi zəbt etdikdən sonra qızılbaşlardan ibarət qarnizonun şəhərdə yerləşdirilməsi, bayat və ustaclu tayfalarından ibarət 400 ailənin şəhərə köçürülməsi.
1579-cu il 27 avqust	Xəzər komandanlığının Dərbənd şəhərində yerləşdirilməsi və Mehmet bəyin admiral təyin olunması.
1580-ci il	Qızılbaşların osmanlılara qarşı uğursuz hücumları və Dərbənd əhalisinin Osman paşaya itaət etməsi.
1581-ci il	Osman paşanın Dərbənddə qala bilməsi üçün Krım xanlarının ona yardım göstərməsi.
1582-ci il	Türk qoşunlarının Dərbəndə yürüşü.
1583-cü il	İmanqulu xan, Şamxal və Əbubəkir Mirzənin – qızılbaş qüvvələrinin osmanlılara qarşı hücumu.
1590-cı il	Səfəvi və Osmanlı dövlətləri arasında İstanbulda sülh müqaviləsinin imzalanması. Azərbaycan ərazilərində yeni inzibati vahidlərin yaradılması və Dərbənd vilayətinin 8 sancaqlıqdan ibarət olması.
XVI əsrin əvvəlləri	Dərbənddə «qazıbəyi» adlanan sikkələrdən istifadə olunması. Həmin sikkələrin adı 1501-ci ildə Şirvan taxtında oturmuş Qazi bəyin adı ilə bağlıdır.
XVI əsr	- Abbas Bayat – Dərbəndin məşhur şairi. - Qasım Mirzə. Birləşmiş türk-tatar qoşunlarının başında Dərbəndi mühasirəyə alması (1554).
1603-cü il	I Şah Abbasın osmanlıları məğlub edərək Dərbəndə daxil olması.
1607-ci il fevral-mart	Dərbənddə osmanlılara qarşı üsyanın baş verməsi.
1609-1610-cu illər	Dərbənddə Cümə məscidi kompleksinin tikilməsi haqqında məlumat verilməsi.
1623-cü il	Moskvalı tacir Fedot Kotovun Dərbənddə olması.
1626-1627-ci illər	Dərbənd hökmdarı Qaraxan bəy Cuvaclı tərəfindən I Şah Abbasın əmrilə Qırxlar məscidinin tikilməsi. Məscidin binasının bir neçə dəfə dağılması (ola bilsin zəlzələ nəticəsində), 1712/3-cü ilin yazında dindarların nəziri hesabına bərpa edilməsi.
1635-1639-cu illər	Alman alimi, səyyah, Dərbəndin ilk coğrafi təsvirinin müəllifi Adam Olearinin Dərbənddə olması (1637), Dədə Qorqudun qəbrini ziyarət etməsi və əsərlərində şəhər əhalisinin sənətkarlığı haqqında məlumat verməsi..
1638-ci il	Rus taciri Afanasi Nikitinin Dərbənddə olması.
1642-1666-cı illər	II Şah Abbasın əmri ilə Dərbənd şəhərinə yeni su kəmərinin çəkilməsi.
1647-ci il	Türk səyahətçisi Övliya Çələbinin Dərbənddə olması və öz əsərlərində şəhər qapıları haqqında məlumat verməsi.
1668-ci il	Stepan Razinin rəhbərliyi altında rusların Dərbəndə ilk hücumu.
1672-1725-ci illər	I Pyotr – birinci rus imperatoru, Rusiyanın görkəmli siyasi və hərbi xadimi. Onun Dərbəndə səfəri (1722).
1688-1747-ci illər	Nadir şah Əfşar – Böyük sərkərdə. Onun böyük ordu ilə Dərbəndi tutması (1741).
XVII əsrin əvvəli	I Şah Abbasın dövründə atəşpərəstlik dinini qəbul etmiş bayat türk qəbiləsindən olan 1000 nəfərin köçürülməsi və Dərbəndin qədim məhəlləsinin Bayat ocağı adlandırılması.
XVII əsr	- Dərbənddə iki hamamın fəaliyyət göstərməsi. - Alman səyahətçisi Georq Tektanderin Dərbənddə olması və əsərlərində şəhər əhalisinin sənətkarlığı haqqında məlumat verməsi. - Məsum Dərbəndi – şair. - Dərbəndli Diləfruz Pəri - əsrin məşhur şairəsi. - Streys Yan Yansen – hollandiyalı gəmi ustası. Onun Dərbənddə yaşaması (1670-1671) və Dərbənd xatirələrini öz kitabında qələmə alması. - I Şah Abbasın hakimiyyəti dövründə Narınqala qapısının yenidən tikilməsi.

XVII-XVIII əsrlər	- XVIII əsrin sonunda Dərbənd sakini Kərbalayı Hüseynin marenanın mədəni yetişdirilməsi üzrə təcrübəyə başlaması. - Dərbənddə yığılan və Hindistana göndərilən marena haqqında qədim müəlliflərin əsərlərində məlumatların verilməsi. - İmamqulu bəy – Dərbəndin naibi, general-mayor. - I Yekaterina (əslən Marta Skavronskaya) – rus imperatriçası (1725-1727), İran yürüşü zamanı I Yekaterinanın Dərbənddə olması. - I Şah Səfi və II Şah Abbas tərəfindən Dərbənddə ayrumlu və koydurşa türk tayfalarının yerləşdirilməsi.
XVII-XX əsrlərin əvvəli	Dərbənddəki Fərruxiyyə mədrəsəsinin, Cümə məscidinin inşaat kitabələrinin mənzum tərtib olunması.
1703-cü il	Holland səyahətçisi Korneli de Bruinin Dərbənddə olması və əsərlərində şəhərin həyatı haqqında məlumat verməsi.
1717-ci il 30 iyun	Rus səfiri A.P.Volınski və Fətəli xan tərəfindən Rusiya-İran ilk rəsmi ticarət müqaviləsi layihəsinin tərtibi və Dərbənd şəhər limanının ticarətdə mühüm rol oynaması.
1719-cu il	Hacı Davudun tutulması və Dərbənd həbsxanasına salınması.
1720-ci il	Hacı Davudun həbsdən qaçması, Qazi Qumuxlu Surxay xan ilə birləşməsi və Şirvandakı üç iri mərkəzə – Şamaxı, Bakı və Dərbəndə yürüşü.
1722-ci il 23 avqust	I Pyotrun İran yürüşü nəticəsində Dərbəndin Rusiyaya birləşdirilməsi.
1722-1770-ci illər	Dərbəndli Zərnigar xanım. Dərbənd taciri Hacı Yaqubun yeganə qızı, Dərbəndin məşhur şairəsi.
1722-ci il	D.Kantemirin Dərbənddə olması və pəhləvi kitabələrinin ilk rəsmini çəkməsi.
1723-1724-cü illər	Rusiya-İran (1723-cü il 12 sentyabr), Rusiya-Osmanlı (1724-cü il 12 iyun) müqavilələrinə əsasən Dərbəndin Rusiyaya birləşdirilməsi.
1733-cü il	Krım xanı Qaplan Gərayın qoşunlarının Dərbənd şəhərinə yaxınlaşması.
1735-ci il	Şahzadə Anna İoanovnanın Gəncə müqaviləsinə əsasən Dərbəndi İran hakimiyyətinin tərkibinə verməsi.
1736-1747-ci illər	Nadir şah tərəfindən Samur çayından Dərbənd şəhərinə su kəmərinin çəkilməsi.
1736-1789-cu illər	Dərbəndli və Qubalı Fətəli xan. Onun Dərbənd xanlığını Quba xanlığı ilə birləşdirməsi və öz tituluna yeni «Dərbəndli» sözünü artırması (1759).
1741-ci il	Nadir şah tərəfindən Dərbəndə mikri tayfalarının köçürülməsi.
1743-cü il	Dərbənd şəhərinin Dərbənd xanlığının mərkəzi olması və Nadir şahın iqamətgahına çevrilməsi.
1744-cü il	Nadir şahın Dərbəndə qayıtması.
1745-ci il	Qaytaq usmisi Əhməd xanın qoşunlarının Dərbəndə hücumu.
1747-1759-cu illər	Məhəmməd Hüseyn xanın mərkəzi Dərbənd şəhəri olmaqla Dərbənd xanlığını yaratması.
1759-cu il	Fətəli xanın Dərbəndə yürüşü. Dərbəndin Quba xanlığına birləşdirilməsi.
1761-ci il	Kərim xan Zəndin Qarabağa yürüşü.
1765-1871-ci illər	Molla Əhməd – Dərbəndin görkəmli şairi, istedadlı müəllim, Azərbaycan, ərəb, fars dillərinin mükəmməl bilicisi.
1766-cı il	Tutu Bikənin Dərbəndin hökmdarı elan olunması.
1770-ci il	Akademik S.Q.Qmelinin Dərbənddə olması və əsərində şəhərin şimal hissəsində yerləşən «40 gürcü gözəli»nin məqbərəsi haqqında məlumat verməsi.
1774-cü il avqust	General de-Medemin başçılıq etdiyi rus qoşunlarının Dərbəndə gəlməsi.
1774-cü il	Dağıstan və Azərbaycan feodallarının birləşmiş qüvvələrinin Dərbəndi mühasirəyə alması.
1774-cü il iyul	Fətəli xanın Əmir Həmzənin Dərbəndə hücumunu dəf etməsi.
1776-cı il	Rus qoşunlarının Dərbəndi tərk etməsi.
1777-1861-ci illər	Yermolov Aleksey Petroviç – infanteriya generalı. Onun Dərbənddə iki dəfə (1820, 1824) olması və şəhərin inkişafında rolu.
1782-ci il	Bakarov Aleksandr Bakaroviçin Dərbəndi ziyarət etməsi.
1787-1788-ci illər	«Qırxlar» qəbiristanlığının şimal hissəsində Fətəli xanın arvadı Tutu Bikənin qəbiri üstündə məqbərənin ucaldılması.
1789-1790-cı illər	Mədrəsə binasının Dərbənd hökmdarı Şeyxəli xan tərəfindən bərpa olunması, binanın genişləndirilməsi və simmetrik kompozisiya formasını alması.

1794-1846-cı illər	Bakıxanov Abbasqulu Ağa Mirzə Məhəmməd oğlu. Məşhur Azərbaycan yazıçısı, şairi, filosofu, diplomatı, tarixçisi, coğrafiyaşünası, arxeoloqu, astronomu və maarifçisi. (1731-ci ilə aid olan: «Dərbəndin ətrafında tapılan dörd kitabə Qırxlar qəbirstanlığına bərabərdir» əlyazması).
1795-1834-cü illər	Qazi Məhəmməd (Qazi molla). Dağıstanın ilk imamı, Şimali Qafqazın dağlılarının çar rejiminə qarşı milli-azadlıq hərəkatının başçısı və onun Dərbənd şəhərinə hücumu (1831).
1796-cı il fevral	General Savelyevin komandanlığı altında rus qoşunlarının Dərbənd şəhərini mühasirəyə alması.
1796-cı il 20 may	General Savelyevin II Yekaterinanın ölümü ilə əlaqədar Dərbəndi tərk etməsi və şəhərə Şeyxəli xanın qoşunlarının daxil olması.
1796-cı il	- V.A.Zubovun başçılığı ilə 30 minlik rus qoşununun Dərbəndi zəbt etməsi. - Rus səyyahı Bakunin və onun arvadı V.İ.Bakuninanın Dərbənddə olması və şəhərin dini-tarixi abidələri haqqında məlumat verməsi.
1797-ci il	- Rus qoşunlarının Azərbaycandan və Dərbənddən çıxarılması. - Qazıqumuxlu Surxay xanın Dərbənd kəndlərinə yürüşü.
1799-cu il	Şeyxəli xanın xahişi ilə Dərbənd xanlığının yenidən Rusiyanın tərkibinə daxil olması.
XVIII əsrin ortaları	İngilis səyyahı İ.Lerxin Dərbənddə olması, şəhərin şimal və cənub hissəsindəki qədim qəbiristanlıqlar haqqında öz əsərlərində məlumat verməsi.
XVIII əsr	- İranla Rusiya arasında Rəşt (1732) və Gəncə (1735) müqavilələrinə əsasən Dərbəndin Səfəvilər dövlətinə qaytarılması. - Nadir şahın hakimiyyəti dövründə Kür çayı sahilində yaşayan sorsor (sursur) tayfasının Dərbənd yaxınlığına köçürülməsi. - Nadir şahın (1736-1746) əmri ilə Samur çayından şəhərə süni suvarma kanalının çəkilməsi. - Orta qapının yanında yerləşən Bala Məscidin fəaliyyəti haqqında A.Olearinin məlumat verməsi. - Dərbənddə Çortəpə məscidinin tikilməsi. XX əsrin əvvəlində əsaslı təmir olunması. 1960-cı ildə məscidin dağılması. - Dərbənddə ticarət mərkəzlərinin (karvansaralar) fəaliyyət göstərməsi. - Hüseynxan bəy. Dərbəndin tanınmış bəy nəslinin nümayəndəsi, rus generalı V.A.Zubova Dərbəndin rəmzi açarlarını təqdim etməsi (1796). - Molla Feyzulla – Dərbəndin görkəmli şairi. - Pəricə xanım – dövlət və siyasi xadim. Dərbənd və Quba xanı Fətəli xanın qızı. - Tutu Bikə – Dərbəndli və Qubalı Fətəli xanın arvadı, Dərbənd hökmdarı. - Fətəli xan tərəfindən Qala qapısının tikilməsi. - Tarixçi İ.Q.Qerberin öz əsərlərində Dərbənd əhalisi haqqında məlumat verməsi.
XVIII –XIX əsrlər	- Hüseyn Əli xan. Dərbənd şəhərində anadan olmuş, dövrün məşhur şairi. - Mirzə Xəlil («Bülbül») görkəmli Dərbənd şairlərindən biri. - Kazımbəy Hacı Qasım Hacı Məhəmməd oğlu. Tanınmış Dərbənd ziyalılarının nümayəndəsi, ilahiyyatçı, Dərbəndin şeyxülislamı (1811-ci ilə qədər). - Amalat-bəy. Tərki Şamxal nəslinin nümayəndəsi, Tərki Şamxallığının tərkibinə daxil olan Buynaksk hakimi. - Seyid Zəka – molla. - Xan Bikə xanım – Qubalı Fətəli xanın qızı və Bakı xanı II Mirzə Məhəmməd xanın həyat yoldaşı, Dərbəndin naibi.
1802-1870-ci illər	Kazımbəy Mirzə Məhəmmədəli Hacı Qasım oğlu. Dərbənd şəhərində anadan olmuş, akademik, şərq dilləri doktoru, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, Amerika Oriyentalları Cəmiyyətinin müxbir üzvü, Britaniya Krallığının, İrlandiya və Paris Asiya cəmiyyətlərinin həqiqi üzvü, Kopenhagen Krallığının şimali antikvarlar cəmiyyətinin üzvü, Almaniya Oriyentalları cəmiyyətinin və Amerika fəlsəfə cəmiyyətinin üzvü, Kazan Universitetinin fəxri üzvü, Sankt-Peterburq arxeoloji cəmiyyətinin müxbir üzvü, Sankt-Peterburq Universitetinin professoru və fəxri doktoru.

1806-cı il 20 fevral	Dərbəndin keçmiş naibi İmamqulu bəyin nəticəsi, Dərbənd hakimi Məhəmməd Hüseyn xanın nəvəsi İbrahim bəyin Bakı qalasının qapıları yanında Bakı hakimi ilə sülh danışıqları zamanı rus qoşunlarının Qafqazda baş komandanı olan (1754-1806) general, knyaz P.D.Sisianovu öldürməsi.
1806-cı il 21 iyun	Rusiya ordusunun 3 min nəfərdən ibarət dəstəsinin general-poruçik Q.İ.Qlazenapın komandanlığı altında Dərbəndin şimalında 30 verstlikdə yerləşən Kuçu adlanan yerdə düşərgə salması və general-mayor P.Q. Lixaçovun komandanlığı altında 600 kazak dəstəsinin şəhərə daxil olması. Dərbəndin fəxri sakinlərinin generalın qarşısına çıxması və onu Narınqalayadək müşayiət etməsi.
1806-cı il 22 iyun	Rus qoşunlarının Dərbəndə yürüşü və Dərbəndin Rusiya dövlətinin tərkibinə daxil edilməsi.
1806-cı il 25 iyun	Dərbəndin ağsaqqallarının və tanınmış bəylərin Cümə məscidində imperator I Aleksandra itaət etmək haqqında and içmələri.
1807-ci ilin sonu	Tiflisdən Gizlərədək olan vahid rabitə xəttinə daxil olan Dərbəndin poçt məntəqəsinin açılışı və bu məntəqəyə şəhərin hərbi komendantının başçılıq etməsi.
1810-1881-ci illər	Piroqov Nikolay İvanoviç – rus anatomu, cərrah, müəllim, ictimai xadim, hərbi sahə cərrahlığı və cərrahlıqda anatom-eksperimental istiqamətin banisi, Sankt-Peterburq Tibbi-Cərrahiyə Akademiyasının professoru, Sankt-Peterburq Elmlər Akademiyasının müxbir üzvü. Onun Dərbənddə olması (1847), hərbi hospitalda efir narkozundan istifadə edərək bir neçə nümunəvi əməliyyat aparması və gips sarğılarından istifadə etməsi.
1810-1893-cü illər	Qaqarin Qriqori Qriqoryeviç – monumental rəssam, memar. Dərbənddə olan «Georgiy Pobedonosets» məbədinin layihəsi və divar naxışının müəllifi, Rusiya Rəssamlıq Akademiyasının vitse prezidenti
1811-ci il	Rus hərbi mühəndisi Karpovun rəhbərliyi altında şəhərin istehkamlarının bərpası və Dərbənd qapılarının təmiri.
1813-cü il 12 oktyabr	Gülüstan sülh müqaviləsi.
1813-cü il 24 oktyabr	Gülüstan müqaviləsinə əsasən Dərbəndin Rusiyanın tərkibinə daxil edilməsi.
1815-ci il	Cümə məscidi kompleksinin şimal qapılarının tikilmə tarixi.
1815-1879-cu illər	Baryatinski Aleksandr İvanoviçin Dərbəndi ziyarət etməsi (1859).
1816-1875-ci illər	Uslar Pyotr Karloviç – baron, rus ordusu Baş qərargah general-mayoru, dilçi və etnoloq, Sankt-Peterburq İmperator Elmlər Akademiyasının müxbir üzvü, Rusiya coğrafiya cəmiyyəti Qafqaz şöbəsinin müdiri, Qafqaz dillərinin elmi öyrənilməsinin banilərindən biri. Onun linqvist biliklərini təkmilləşdirmək məqsədi ilə Dərbənddə olması (1863).
1818-1888-ci illər	Kazımbəy Mirzə Əbdül Səttar Hacı Qasım oğlu. Dərbənd şəhrində anadan olmuş, Kazımbəy nəslinin nümayəndəsi, görkəmli şərqşünas, Peterburq Universitetinə fars dili üzrə professor köməkçisi.
1819-1891-ci illər	Mirzə Məhəmməd Tağı – Dərbəndin məşhur şairi.
1820-1894-cü illər	Mirzə Kərim – görkəmli alim və şair. Dərbənddə məhəllə rəisi.
1820-1895-ci illər	Timm Vasili Fyodoroviç (Georq Vilhelm) – latış rəssamı və qrafiki. Onun Dərbənd şəhərində olması (1849) və şəhərin tarixi əhəmiyyəti olan bəzi görməli yerlərinin mənzərəsini çəkməsi.
1823-cü il	X.Frenin Dərbəndin pəhləvi kitabələrinin siyahısını alman dilində (1837-ci ildə rus tərcüməsi) nəşr etdirməsi.
1825-1935-ci illər	Aşıq Rəcəb - Dərbəndin məşur şairi.
1827-1904-cü illər	Minətulla Qasım bəy oğlu. Dərbənd şəhərində anadan olmuş, general-mayor, quru qoşunların ehtiyat alay komandiri.
1827-1920-ci illər	Mirzə Səməndər (Əbdül Əli Ağa Emin oğlu). Dərbənd şəhərində anadan olmuş, dini mərsiyə və qəsidələr müəllifi.
1828-ci il	Dərbənddə qaupvaxtanın tikilməsi.
1828-ci il 10 fevral	Türkmənçay sülh müqaviləsi.
1828-1902-ci illər	Ərəblinski Balakişi Əlibəy oğlu. Bakı quberniyasının Zaqatala qəzasının Tala kəndində anadan olmuş, general-leytenant, Dərbənddə yaşamışdır (1896).

1829-cu il	Bestujev Aleksandr Aleksandroviç (1797-1837) – ştabs-kapitan. Dərbənddə Gürcü 10-cu xətti batalyonunda sıravi əsgər kimi xidmət etməsi.
1830-cu il 20 aprel	Dərbənd şəhərində 2-ci dərəcəli poçt idarəsinin açılması və ona poçtmeysterin rəhbərlik etməsi.
1830-cu il	Mərkəzi Dərbənddə yerləşən (Bakı və Quba əyalətlərini əhatə edən) Dağıstan hərbi dairəsinin yaradılması.
1831-ci il 16 avqust	Qazi-Məhəmmədin Dərbəndə yürüşü və şəhərin 8 qapısının onun dəstələri tərəfindən dağıdılması.
1832-1834-cü illər	Kür piyada alayının Dərbənddə yerləşməsi.
1834-1910-cu illər	Əlqədəri Həsən – məşhur Dağıstan filosofu, tarixçisi və mütəfəkkiri, «Asari Dağıstan» tarixi kitabının müəllifi.
1834-1911-ci illər	Talıbov Mirzə Əbdürrəhim – maarifçi, alim, yazıçı. Onun Dağıstanın mərkəzi Temirxan Şurada yaşaması.
1836-cı il	Dərbənd qapılarının təmiri və bərpası.
1838-1924-cü illər	Tağıyev Hacı Zeynalabdin Məhəmmədağa oğlu. Bakı şəhərində anadan olmuş, Azərbaycan sahibkarlığının görkəmli nümayəndəsi, xeyriyyəçi, maarifpərvər və ictimai xadim. Onun Dərbənddə qızlar üçün təhsil müəssisəsi tikdirməsi və məktəbin saxlanması üçün hər il pul köçürməsi.
1840-cı il	- Dərbənd və Quba qəzalarının yaranması. - Xəzər vilayətinin tərkibinə keçmiş Dərbənd, Tabasaran və Qarayataq əyalətini birləşdirən Dərbənd ərazisinin yaradılması.
1841-ci il	Azərbaycan tarixçisi A.Bakıxanovun öz əsərlərində Dərbəndin şimal hissəsində yerləşən qədim Cümcüm qəbiristanlığı haqqında məlumat verməsi.
1842-ci il	- Kazan Universitetinin professoru Berezin İllarion Nikolayeviç (1818-1896)- rus şərqşunası, professor. Onun Dərbənddə olması və şəhərin o dövrdəki təsvirini verməsi. - Xadırbəyov Məmməd bəy. Dərbənd şəhərində anadan olmuş, istefada olan kapitan, şəhər İclasının ikinci (1900-1904) və üçüncü (1904-1908) çağırışlarının deputatı.
1842-1902-ci illər	Mirzə Cəbrayıl – əsrin məşhur şairi. Dərbənd tarixinə həsr olan «Dərbəndnamə»nin yeni versiyasının müəllifi (1891).
1843-cü il	Dərbəndli din xadimi Məhəmmədtağının vəfatı.
1843-1918-ci əllər	Kazımbəy Olqa Aleksandrovna. Kazan quberniyasında anadan olmuş, Dərbəndin məşhur alimi Mirzə Kazımbəy nəslinin nümayəndəsi, Kazımbəyin ilk bioqrafı.
1844-1894-cü illər	Kazımbəy Aleksandr Aleksandroviç. Kazan quberniyasında anadan olmuş, Dərbəndin məşhur alimi Mirzə Kazımbəy nəslinin nümayəndəsi, hüquqşünas, Rusiya imperiya sarayının qofmeysteri və senatoru.
1845-1918-ci illər	Əbdürəhimov Hacı Mirzəbəy. Dərbənd şəhərində anadan olmuş, əsilzadə bəy, istefada olan məşvərətçi, şəhər müvəkkil iclasının deputatı.
1846-cıil 14 dekabr	Dərbənd quberniyasının yaranması və hərbi qubernator vəzifəsinin təsis olunması.
1850-ci il	Məşhur rus orientalisti N.V.Xanıkov öz əsərində Dərbəndin şəhər hakiminin şimal qəbiristanlığında yerləşən ailəvi «İsfəndiyar məqbərəsi»nin üstündəki yazıları çap etdirməsi.
1850-ci il iyul-avqust	Qafqaz canişini knyaz M.S.Voronsovun göstərişi ilə Dərbənd mayakının layihəsinin tərtib edilməsi üçün gəmi mühəndisi praporşik Sergeyevə həvalə olunması və layihənin təsdiqi.
1850-ci il 16 oktyabr	Rus imperatoru II Aleksandrın Dərbəndi ziyarət etməsi.
1850-1853-cü illər	Sahə mühəndisi ştabs-kapitan Gerşelmanın rəhbərliyi altında Dərbənd limanının tikintisinin başlanması (1850) və tikintinin başa çatdırılması (16.01.1853).
1851-ci il	- Mayakın tikintisinə başlanılması. - Londonda Avropa Ümumdünya sənaye sərgisinin keçirilməsi və orada Dərbənd şəhərinin məhsullarının nümayişi.
1851-1911-ci illər	Kozubski Yevgeni İvanoviç. Dərbəndin Rusiyaya birləşməsinin 100 illik yübileyi münasibətilə Dərbənd şəhər ictimai idarəsinin sifarişi ilə (1903) «Dərbənd şəhərinin tarixi» adlı kitabın onun tərəfindən yazılması.
1852-1920-ci illər	Şeyx Uzun Hacı – Şimali Qafqaz dağlılarının azadlıq hərəkatı liderlərindən biri.

1859-cu il	Yermolov qapısının tikilməsi.
1860-cı il	Dərbəndin Dağıstan vilayətinin tərkibinə daxil edilməsi.
1865-1918-ci illər	Kazımbəy Nikolay Aleksandroviç. Rusiyanın Kazan quberniyasında anadan olmuş, Dərbəndin məşhur alimi Mirzə Kazımbəy nəslinin nümayəndəsi, Kazan quberniyasında böyük torpaq sahibi.
1854-cü il	Limanın kiçik daşlardan tikildiyi üçün payız fırtınası zamanı dağılması.
1858-ci il 5 may	Asyeyev Dmitri Kuzmiç. Abşeron piyada alayının komandiri, Dərbəndin hərbi qubernatoru.
1858-ci il noyabr	Düma Aleksandr – dahi fransız yazıçısı, səyahət zamanı Dərbənddə olması.
1858-1918-ci illər	Heydərov Qasım bəy Minətulla bəy oğlu. Dərbənd şəhərində anadan olmuş, Dərbənd şəhər başçısı (1900-1909).
1759-cu il	Əhməd xanın Dərbəndin daxil olduğu Quba xanlığının taxt-tacına sahib olması.
1859-1919-cu illər	Kazımbəy Aleksey Nikolayevic. Saratov quberniyasında anadan olmuş, tanınmış Dərbənd ziyalılarının nümayəndəsi, tibb elmləri doktoru, əməkdar professor, Kazan həkimləri cəmiyyətinin sədri.
1859-65-1925-ci illər	Qotsinski Nəcməddin. Şimali Qafqaz Dağlılarının azadlıq hərəkatı liderlərindən biri, Dağıstan və Çeçenistanın 5-ci imamı.
1860-cı il	- Dərbənd şəhərində vətəndaş idarəçiliyinin təsis edilməsi. - Dərbənd qalasının ləğv olunması və qarnizonun kazarmalarda yerləşdirilməsi. - Dərbənd quberniyasının ləğv edilməsi. - Quba qəzasının Bakı quberniyasının tərkibinə daxil edilməsi. - Dərbəndin mühüm ticarət məntəqəsinə çevrilməsi.
1861-1936-cı illər	Axundov Səftər Hacı Mehdi oğlu. Dərbənd şəhərində anadan olmuş, sahibkar, ictimai xadim.
1863-cü il	- Cəfərov Məmməd Rza Hacı Cəfər oğlu. Dərbənd şəhərində anadan olmuş, Dərbənd şəhər özünüidarəetmə təşkilatının üzvü. - Dərbənddə boyaq otu kökünün emalı üçün fabrikın tikilməsi.
1863-1923-cü illər	Mahmudbəyov Mahmud Bəy Polad Bəy oğlu – maarif və mətbuat xadimi, publisist. Dağıstan vilayəti xalq məktəbinin direktoru.
1863-1931-ci illər	Zeynalbəyov (Zeynalov) Əlibəy Zeynalbəy oğlu. Dərbənd şəhərində anadan olmuş, tacir və xeyriyyəçi.
1866-cı il	Taxtadan tikilmiş Dərbənd mayakının daş mayakla əvəz olunması.
1867-1918-ci illər	Baratınski Aleksandr Nikolayeviç. Dərbəndin məşhur alimi Mirzə Kazımbəy nəslinin nümayəndəsi, III Dövlət Dumasının deputatı (1907).
1868-1939-cu illər	Lukomski Aleksandr Sergeyeviç – rus hərbçisi, Dərbənddə general Denikinin Könüllü ordusunun təşkilatçılarından biri.
1869-1918-ci illər	Həmid bəy Xudat bəy oğlu. Dərbənd şəhərində anadan olmuş, əksinqilabçı.
1872-ci il 5 aprel	Zaqafqaziya müsəlman ruhaniləri idarəsinin yaradılması və onun Əsasnaməsinin təsdiq olunması.
1872-1950-ci illər	Məmməd Səid Ordubadi – yazıçı, şair, dramaturq, publisist, tərcüməçi, ictimai xadim. «Qırmızı Dağıstan» qəzetinin nəşrinin təşkilatçısı (1920).
1873-cü il	- Moskva Politexnik sənaye sərgisinin keçirilməsi və orada Dərbənddə yetişdirilən müxtəlif növ üzüm sortlarının nümayişi. - Dərbənddə buxar dəyirmanının tikilməsi. - Dərbənddə tütün fabrikinin tikilməsi.
1873-1943-cü illər	Kazımbəy Proskovya Aleksandrovna. Dərbəndin məşhur alimi Mirzə Kazımbəy nəslinin nümayəndəsi, mahir pianoçu.
1873-1953-cü illər	Qarabəyli Qara bəy İsmayıl ağa oğlu. Yelizavetpol quberniyası, Yuxarı Ayıblı kəndində anadan olmuş, ictimai-siyasi xadim, həkim, publisist, mütəfəkkir. Onun İmam Nəcməddin Qotsinskinin dəstəsi ilə birlikdə Dərbənddə olması.
1875-2008-ci illər	Rəşidova Sərhət. Dərbənd rayonunda anadan olmuş, uzunömürlü və dünyanın ən qocaman sakini.
1875-1946-cı illər	SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədri (1922-1938) Kalinin Mixail İvanoviçin Dərbənddə olması (1925, 1928).

1876-1952-ci illər	Kazımbəy Lev Aleksandroviç. Dərbəndin məşhur alimi Mirzə Kazımbəy nəslinin nümayəndəsi, qvardiya zabiti, Kazan şəhərində Zadəgan iclasının sədri və fəxri hakimi, Vilni (hazırda Vilnüs) şəhərində Zadəgan və kəndli banklarının direktoru olmuşdur.
1879-cu il	Dərbənddə şərab zavodunun tikilməsi.
1879-1954-cü illər	Gegeçkori Yevgeni Petroviç. Gürcüstan istiqlal hərəkatı xadimi, sosial-demokrat, 3-cü Dövlət Dumasının deputatı.
1880-ci il	- Dərbəndli Mirzə Heydər Vəzirovun vəfatı. - Dərbənddə ikinci üzümçülük zavodunun tikilməsi.
1880-1922-ci illər	Killigil Ənvər Paşa. İstanbul şəhərində anadan olmuş, general-leytenant, Türkiyənin görkəmli dövlət xadimi, Osmanlı dövlətinin hərbi naziri, Azərbaycanda, o cümlədən Dərbənddə milli azadlıq hərəkatını dəstəkləyən şəxs.
1881-ci il	Abdullayev Həmdulla Hacı Fətulla oğlu. Dərbənddə anadan olmuş milyonçu və balıq sənayeçisi.
1881-1938-ci illər	Ərəblinski Sona xanım Balakişi bəy qızı. Dərbənd şəhərində anadan olmuş, Hacı Zeynalabdin Tağıyevin arvadı, «Aleksandr» məktəbi, «Müqəddəs Nina» qızlar üçün Bakı tədris müəssisəsinin himayədarı.
1881-1950-ci illər	Tahirbəyov Harun Məşədi bəy Dadaş oğlu. Dərbənd şəhərində anadan olmuş maliyyəçi, Azərbaycan Respublikası Xalq Komissarları maliyyəsi sistemində işləmişdir.
1882-1918-ci illər	Ağasiyev Qazıməmməd Ağası oğlu. Dağıstan Vilayəti Samur dairəsinin Axtı kəndində anadan olmuş inqilabçı.
1882-1933-cü illər	Qasım Mustafa Hacı oğlu. Dərbənd «Dağkimyaqaz» müəssisəsinin rəis müavini.
1883-1937-ci illər	Qaplanov Rəşid Xan Zavid oğlu – siyasi və dövlət xadimi. Şimali Qafqazda gedən siyasi proseslərin fəal iştirakçısı, Çərkəz-Dağıstan və Şimali Qafqaz Dağlı Xalqları İttifaqı Respublikası hökumətlərində müxtəlif nazir vəzifələrini tutmuşdur.
1885-1938-ci illər	Cəfərov (Cəfərzadə) Məmməd Yusif Hacıbala oğlu. Bakı şəhərində anadan olmuş, əslən dərbəndli, Zaqafqaziya seyminin Müsəlman fraksiyasının üzvü, fraksiyanın ümumi rəyasət heyətinin sədr müavini.
1886-1931-ci illər	Kazımbəy Vasili Alekseyeviç. Kazan quberniyasında anadan olmuş, dərbəndli məşhur şərqşünas Əbdül Səttar Kazımbəyin nəvəsi, Xarbin şəhərində Şərqi-Çin dəmiryol xəstsxanasının həkimi.
1886-1938-ci illər	Şamçızadə Əli Razi Əli Yəhya oğlu. Gəncə şəhərində anadan olmuş, şair, publisist, dramaturq, Dağıstana sürgün olunmuşdur (1917). Azərbaycan Cümhuriyyətinin kəşfiyyat xidmətində fəaliyyət göstərmişdir.
1887-1943-cü illər	Vavilov Nikolay İvanoviç – rus genetiki, bitkiçilik mütəxəssisi, coğrafiyaşünas, SSRİ EA akademiki, Ümumittifaq Coğrafiya Cəmiyyətinin prezidenti. Onun Dərbənd zona təcrübə stansiyasında (1935) və konserv zavodunda olması.
1887-1964-cü illər	Cəfərov Zeynalabdin Hacı Cəfər oğlu. Dərbənd şəhərində anadan olmuş dəmiryolçu.
1888-1918-ci illər	- Beşentsev Vasiliy Aleksandroviç. Tula quberniyasında anadan olmuşdur, ÜİK(b)P Dərbənd şəhər Komitəsi rəyasət heyətinin üzvü. - Tağı-zadə Heydər Əli Hacı Məcid oğlu. Tiflis şəhərində anadan olmuşdur, Dərbənd RK(b)P şəhər Komitəsi rəyasət heyətinin üzvü.
1888-1938-ci illər	Bünyadzadə Dadaş Xoca oğlu. Bakı şəhərində anadan olmuş, siyasi və dövlət xadimi, Zaqafqaziya müsəlmanlarının işləri üzrə komissarlığın sədri.
1888-1941-ci illər	Matatov Yexiil Ruvinoviç. Dərbənd şəhərində anadan olmuşdur, Dağıstan Mərkəzi İcraiyyə Komitəsinin katibi.
1888-ci il	Seyidov Mirzə Əhməd Murtuz oğlu. Dərbənd şəhərində anadan olmuş, müəllim.
1890-cı il	Məmərzabəyov Mehrab Məmməd Əmin oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Dərbənd zona təcrübə-seleksiya stansiyasının direktoru.
1891-ci il	Abdullayev Mir Əsədulla Seyid Rza oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Dərbənd Pedaqoji Kollecinin direktor müavini.
1891-1951-ci illər	Seyidov Mirsaleh Mirteyyub oğlu. Dərbənd şəhərində anadan olmuşdur, məktəb direktoru.
1891-1959-cu illər	Feyziyev Vəliyulla Hüseyn oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Dərbənd şəhər yeyinti kombinatının müdiri.
1891-1966-cı illər	Talıbov Abu Talıb Hacı oğlu. Dərbənd şəhərində anadan olmuşdur, DMSSR-nin əməkdar aqronomu, Azərbaycan Kənd Təsərrüfatı Elmi-Tədqitat İnstitutunda üzümün seleksiyası şöbəsinin müdiri.

1892-1983-cü illər	Davıdova Gülbahar Şaulovna. Dərbənd rayonu Xoşmənzil kəndində anadan olmuşdur, Sosialist Əməyi qəhrəmanı.
1893-cü il	Troitski Boris Nikolayeviç. ÜİK(b)P Dərbənd rayon Komitəsinin birinci katibi (?-1925).
1894-1971-ci illər	Xruşşov Nikita Sergeyeviç. Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi (1953-1964). Xruşşov N.S. Azərbaycana səfərdən qayıdarkən Dərbənd şəhərində (1958-ci il) olması.
1895-1940-cı illər	Rzayev Mirzə Əhməd Hacıəsəd oğlu. Dərbənd şəhərində anadan olmuşdur, «Azərnəşr» nəşriyyatının direktoru.
1895-ci il 5 iyul	Dərbənd şəhər əhalisinin Rusiya çar hökuməti tərəfindən ilk siyahıya alınması.
1895-1962-ci illər	Hüseynov Salih Fətulla oğlu. Dərbənd şəhərində anadan olmuşdur, kənd təsərrüfatı elmləri namizədi, Azərbaycan Tarla Bitkiləri Elmi-Tədqiqat İnstitutunun direktoru.
1895-ci il	Qafqaz kənd təsərrüfatı sərgisində dərbəndli Ələkbər Məmməd Əli oğlunun yetişdirdiyi zəfəran bitkisinin nümayişi və onun gümüş medala layiq görülməsi
1896-cı il	Dərbənddə seçkilər əsasında ictimai özünüidarə sisteminin yaranması.
1896-1924-cü illər	Sultanov Əhməd bəy Mürsəl bəy oğlu. Dərbənd şəhərində anadan olmuşdur, inqlabçı, müəllim.
1896-1969-cu illər	Abdinov Bəhram Övsət oğlu, Dərbənddə anadan olmuşdur, Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin baş aqronomu.
XIX əsr	Minkvist Yuli Fyodoroviç – general-mayor. Dərbəndin ikinci hərbi qubernatoru (1850-1856).
XIX-XX əsr	- Eminov Hacı Şahmərdan Bala Əmin oğlu. Dərbənd şəhər ticarət nümayəndəliyinin üzvü, manufakturanın satışı üzrə mağazaların müdiri (1896-1900). - Kozlyakovski Vladimir İvanoviç – rus, əsilzadə zadəgan, Dərbənd şəhərinin ilk kəndxudası (1896). - Hacı Fatma. Dərbəndin məşhur bəylərindən olan Əbdürəhimovlar nəslinin nümayəndəsi, xeyriyyəçi.
1897-ci il 12 may	Dərbənd şəhərinə göyərçin yumurtası boyda dolunun yağması və şəhərə 400 min rubl dəyərində ziyan vurması.
1897-1962-ci illər	Əliyev Əziz Məmmədkərim oğlu. İrəvan quberniyasının Hamamlı kəndində anadan olmuş, Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi və Mahaçqala Müdafiə Komitəsinin sədri (1942).
1897-ci il	Əbdürəhimov Bədrəddin Hacı Mirzəbəy oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Dərbənd şəhər xalq deputatları Sovetinin, İcraiyyə Komitəsinin sədri.
1897-1920-ci illər	Rzayev Məzahir Hacıəsəd oğlu. Dərbənd şəhərində anadan olmuşdur, inqilabçı.
1898-ci il	- Petrovsk-Port (indi Mahaçqala)-Bakı dəmiryolunun çəkilməsi və Dərbənddən keçməsi. - Dərbənd meşəçiliyinin fəaliyyətə başlaması. Meşəçiliyin Bakı quberniyası və Dağıstan vilayətinin torpaqçılıq və dövlət əmlakı idarəsinin tərkibinə daxil olması. - Seyidov Fazil Mir Sadıq oğlu. Dərbənd şəhərində anadan olmuşdur, şair, ədəbiyyatşünas, tərcüməçi, jurnalist, müəllim.
1898-1937-ci illər	Şahbazov Müseyib. Dərbənd şəhərində anadan olmuşdur, inqilabçı, Azərbaycan Xalq Maarif komissarı.
1898-1976-cı illər	Məmmədzadə Əbdülvahab Yurdsevər. Bakı şəhərində anadan olmuşdur, ədəbiyyatşünas, publisist, Azərbaycan milli istiqlal hərəkatının fəal iştirakçılarından biri.
XIX əsrin əvvəli	Dərbənddə texniki bitki olan boyaq kökünün geniş becərilməsi və xarici dövlətlərə ixrac edilməsi.
XIX əsrin ortaları	Rusiyanın sənaye sərgilərində Dərbənd şəhərinin iştirakı.
1898-1938-ci illər	Məmmədbəyov Kərim Hüseyn oğlu. Qaytaq-Tabasaran diyarının Yersi kəndində anadan olmuşdur, Dərbənd şəhərindəki «Ümid» müsəlman gəncləri inqilab dərnəyinin təşkilatçılarından biri.
1898-1977-ci illər	Cəfərov Həbibulla Məmməd oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Azərbaycan Respublikası Kənd Təsərrüfatı nazirinin müavini.
1899-cu il	Məmmədov Hüseynbala Cəfərqulu oğlu. Dərbənd şəhərində anadan olmuş, xaricdə (Bonn) dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrdən biri.
1899-1973-cü illər	Həmzəyev Sədulla Hacıbaba oğlu. Dərbənd şəhərində tacir ailəsində anadan olmuşdur, 1960-cı illərin əvvəllərində Sovet İttifaqının İranda səfiri, Dağıstanın Azərbaycanda nümayəndəsi.

1899-cu il	- Xiromanov Zəkəriyyə Əbdülhəmid oğlu. Dərbənd şəhərində anadan olmuşdur, dövlət hesabına ali təhsil almaq üçün xaricə göndərilmiş tələbələrdən biri. - Səfərov Məhiş Məşədi Hacı oğlu. Şuşa şəhərində anadan olmuşdur, İmperator II Nikolay adına Dərbənd realnı məktəbinin məzunu, xaricdə dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrdən biri. - Şahnəzərov Əhməd Hacı oğlu. Dərbənd şəhərində anadan olmuşdur, xaricdə (Fransa) dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrdən biri. - Teymurxanov Murad Zabir oğlu. Dərbənd şəhərində anadan olmuşdur, xaricdə (Almaniya) dövlət hesabına təhsil alan azərbaycanlı tələbələrdən biri. - Dərbənddə dəmir yolu, vağzal, parovoz deposu və təmir üzrə emalatxanaların tikilməsi.
XIX əsrin sonu	- Dərbənd mesenatı Hacı Şahmərdan Eminovun müsəlman məktəbini birmərtəbəli daş bina formasında tikdirməsi. - Dərbənd Şampan şərabları zavodunun yaradılması və burada 9 növ şərabın istehsal edilməsi. Dağıstan Respublikası Milli Məclisinin deputatı Məhəmməd Sədullayevin zavodun direktoru təyin edilməsi (1993).
XIX əsr	- Dərbənddə iki hamamın tikilməsi və istifadəyə verilməsi. - Quba atlarının Dərbənd qəzasında geniş yayılması. - Əsrin əvvəllərində rusların əsas əhalisinin türklər təşkil edən Dərbənd şəhərinə digər millətləri məskunlaşdırması. - Dərbəndin başçısı milliyətcə erməni general-mayor Loris-Melikovun şəhərə erməni ailələrini yerləşdirməsi. - Dadaşova (Əbdürəhimova) Hacı Fatimə xanım Ağası qızı. Dərbənddə tanınmış Əbdürəhimovlar ailəsinin nümayəndəsi, xeyriyyəçi. - Əli Pənah bəy Bayat. Əhməd bəy Bayatın oğlu və Dərbənd naibi. - İbrahimov Hacı Qurban. Tacir, Dərbənd şəhər sakini. - Qaqarin Aleksandr İvanoviç – knyaz, Ali sarayın pajı, generel-mayor, Dərbəndin ilk hərbi qubernatoru (1846-1850). - Malyutin Nikolay Pavloviç. Dərbənd şəhərində boyaq otları yetişdirənlər üçün kredit bankı təsisçisi (1871). - Süzane – fransız tədqiqatçısı, qraf. Onun Dərbənddə olması (1840), Dərbəndin qədim abidələrinin tədqiqatını aparması və Dərbəndin təsvirini verməsi. - Vəzirov Mirzə Heydər. Dərbənd şəhərində anadan olmuş alim, Kazan Universitetinin müxbiri. -Qantəmir Əlixan – diplomat. Şimali Qafqazda dağlı xalqların azadlıq mübarizəsinin fəal iştirakçısı, Dağlı Respublikası hökumətinin Azərbaycanda diplomatik nümayəndəsi.
XIX-XX əsrin əvvəlləri	- Azərbaycanda mövcud olan zorxanaların XX əsrin əvvəlinədək Dərbənddə fəaliyyət göstərməsi. - Şüai – Dərbəndin tanınmış şairi. - Gümri – Dərbəndin tanınmış şairi.
XIX-XX əsrlər	- Eminov Hacı Şahmərdan – Dərbəndin, tanınmış taciri və ictimai xadimi, şəhər idarəsi ticarət deputlarının üzvü. - Mirzəyev Xeyrulla. Dərbənd şəhərində anadan olmuşdur, Bakı şəhərinin hərbi komissarı. - Süleyman İzzət bəy – Türkiyə hərbi xadimi, yarbay (polkovnik-leytenant). Onun komandanlığı altında 15-ci firqə Dərbənd şəhərində Biçeraxovun hərbi qüvvələrini darmadağın etməsi və Dərbənd şəhərinin azad olunması (6.10.1918).
1900-cü il	- Bakı-Dərbənd dəmiryolunun çəkilməsi. - Əliyev Əli Əbdül oğlu. Bakı şəhərində anadan olmuşdur, ÜİK(b)P Dərbənd şəhər Komitəsinin birinci katibi (1942-1944). - Tağıyev Xandadaş Mirzə oğlu. Dərbənd şəhərində anadan olmuşdur, RSFSR Nazirlər Şurası nəzdində Dağıstan Respublikasının daimi nümayəndəsi.
1900-1965-ci illər	Həsənov Qotfriq Əli oğlu. Dərbənd şəhərində anadan olmuşdur, bəstəkar-musiqiçi, Dağıstanın əməkdar incəsənət xadimi.

1901-ci il	- Əliyev Əhəd Məşədi Məmməd Kazım oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Sovet İttifaqının Əfqanıstanda ticarət nümayəndəsi (1930). - Əzizov Mişi Manaşiroviç. Dərbənd şəhərində anadan olmuşdur, Dərbənd şəhəri Budyonnı adına istehsalat artelinin sədri.
1901-1927-ci illər	Həsənov Qəni. Dərbənd şəhərində anadan olmuşdur, Dərbənd şəhər Sovetinin Xalq Təhsili şöbəsinin müdiri.
1902-ci il	- Qafurov İzitdin Abdulla oğlu. ÜİK(b)P Dərbənd rayon Komitəsinin birinci katibi (1934-1935). - Gənclərin Dərbənd şəhərində yaradılmış gizli sosial-demokrat təşkilatının fəaliyyəti.
1902-1937-ci illər	Əsgərov Əbdul Cəlil Həmzə oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Azərbaycan KP(b) MK-nin elm və mədəniyyət şöbəsinin müdiri.
1902-1984-cü illər	Ələkbərov Seyfulla Hacı Baba oğlu. Dərbənd şəhərində anadan olmuşdur, SSRİ Dövlət Bankı Dağıstan şöbəsinin rəhbəri və Dağıstan ticarət nazirinin müavini.
1902-1995-ci illər	Əliyev Müzənfər Həmzə oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Şəhər Xalq deputatlar Soveti İcra hakimiyyətinin sədri.
1903-cü il 5 may	Dərbənddə Moskva İmperator kənd təsərrüfatı cəmiyyətinin Dağıstan üzümçülük və şərabçılıq komitəsinin açılması.
1903-cü il 15 sentyabr	Dərbənd şəhərində ibtidai texniki-peşə məktəbinin (1942-ci ildə 4 saylı Dəmiryol məktəbi) açılışı.
1903-cü il	Dərbənd şəhərində azyaşlı uşaqlar üçün yetimlər evinin açılması.
1904-cü il	Razaxanov Şafəddin Məhəmmədrəsul oğlu. Dərbənd Şəhər Zəhmətkeş deputatlar soveti İcraiyyə komitəsinin sədri (1935).
1904-1937-ci illər	Binayev Asail. Dərbənd şəhərində anadan olmuşdur, Dərbənd Şəhər Zəhmətkeş deputatlar sovetinin sədri.
1904-1985-ci illər	Ələkbərov Sədulla Hacı Baba oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Dağıstan Səhiyyə nazirinin müavini.
1905-ci il 14 iyul-18 oktyabr	Dərbənd dəmiryolu fəhlələrinin Vladiqafqaz dəmiryolu fəhlələrinin elan etdiyi tətilə qoşulması və tətilin yatırılması.
1905-1974-cü illər	Cümcüm Müsaib Məmmədəli oğlu. Bakı şəhərində anadan olmuşdur, DMSSR-nın Xalq artisti, Dərbənddəki Azərbaycan teatrının baş rejissoru.
1905-1995-ci illər	Rəhimov Əbdül Manaf Rəhim oğlu. Dərbənd şəhərində anadan olmuşdur, SSRİ Meliorasiya və Su Təsərrüfatı Nazirliyi Su təsərrüfatı idarəsinin rəisi.
1906-cı il fevral	Dərbənd dəmiryolu və Biləcəri stansiyası deposu fəhlələrinin birlikdə tətili.
1906-cı il noyabr	Dərbənddə gənclər tələtümünün baş verməsi.
1906-cı il	- Y.İ.Kozubskinin Dərbənddə olması və öz tədqiqatlarında XIX əsrin sonunda şəhərin yaxınlığında «Qaraul-təpə»də arxeoloji qazıntılar zamanı atəşpərəstlik qalıqlarının tapılması haqqında məlumat verməsi. - Y.İ.Kozubskinin «Dərbənd şəhərinin tarixi» kitabını çap etdirməsi. - Nəbiyev Cümşüd Hacı Həsənbala oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Azərbaycan Dövlət Universitetinin prorektoru, 1941-1945-ci illər müharibəsi dövründə Dərbənd şəhərinin hərbi komissarı.
1906-1954-cü illər	İzmaylov Əbilfəz Mirzə oğlu. Dərbənd şəhərində anadan olmuşdur, aktyor, rejissor, teatr direktoru, DMSSR Baş Ədəbiyyat Şurasının Dərbənd rayonu üzrə müvəkkili.
1907-1993-cü illər	Əsgərov Əziz Həmzə oğlu. Dərbənd şəhərində anadan olmuşdur, geologiya minerologiya elmləri doktoru, professor, Azərbaycan Hidrogeologiyasının patriarxı.
1909-1932-ci illər	Zeynallı Asəf (Asəf Zeynal Abid oğlu Zeynalov). Dərbənd şəhərində anadan olmuşdur, Görkəmli Azərbaycan bəstəkarı.
1909-1983-cü illər	Gilasov Gilas İdayət oğlu. Görkəmli ədib, yazıçı və şair, «Leninçi» qəzetinin redaktoru.
1910-cu il	Mirzəcanov Balabəy Əliş oğlu. ÜİK(b)P Dərbənd şəhər Komitəsinin birinci katibi (1944-1948).
1910-1972-ci illər	Baxşiyev Mixail Yusufoviç. Dərbənd şəhərində anadan olmuşdur, şair.
1910-1979-cu illər	Həsənov Henrix Əli oğlu. Dərbənd şəhərində anadan olmuşdur, kontr-admiral, baş konstruktor, texnika elmləri doktoru, professor, Leniqrad Gəmiqayırma İnstitutunda kafedra müdiri.

1910-1995-ci illlər	Əbdürəhimova Xanbikə Hacı Mirzəbəy qızı. Dərbənd şəhərində Cənubi Dağıstanın naibi Hacı Mirzə bəy Əbdürrəhimovun ailəsində anadan olmuşdur, Bakı şəhəri Oktyabr (Yasamal) rayon partiya komitəsinin katibi.
1912-ci il	- Dərbənd əhalisinin 32716 nəfər təşkil etməsi və əksəriyyətinin azərbaycanlılar olması. - Parisdə ümumdünya yarmarkasının keçirilməsi və orada Dərbənd şərablarının böyük qızıl medala layiq görülməsi. - Abdullayeva Həyat Həmdulla qızı. Dərbənd şəhərində balıq sənayeçisi Həmdulla Abdullayevin ailəsində anadan olmuşdur, görkəmli heykəltəraş. - Xanukayev Aleksandr Nisonoviç. Dərbənd şəhərində anadan olmuşdur, elmlər doktoru, görkəmli ixtiraçı.
1912-1985-ci illər	- Məmmədov Şeyda bəy Fərəc oğlu. Dərbənd şəhərində anadan olmuşdur, fəlsəfə elmləri doktoru, professor, polkovnik, RSFSR-in Əməkdar elm xadimi. - Səmədov Həşim Hüseynbala oğlu. Dərbənd şəhərində anadan olmuşdur, texnika elmləri namizədi, professor, Azərbaycan Neft və Kimya İnstitutunda (indiki Azərbaycan Dövlət Neft Akademiyası) dekan.
1912-1989-cu illər	Sultanov Əbdülhəmid Əhəd oğlu. Dərbənd şəhərində anadan olmuşdur, polis polkovniki, Azərbaycan DİN-in Mərkəzi aparatında müxtəlif vəzifələrdə çalışmışdır.
1912-1997-ci illər	- Ələkbərli Məmmədkəsir Ələkbər oğlu. Dərbənddə anadan olmuşdur, tarix elmləri doktoru, professor, Dağıstan Dövlət Universitetinin kafedra müdiri. - Surmaç Mixail Mixayloviç. Dərbənd şəhərində anadan olmuşdur, Sovet İttifaqı Qəhrəmanı.
1913-cü il, 29 mart	Dərbənd şəhərinin Cümə məscidinə Ağa Seyid Həmzə Seyid Mir Ağa oğlu Mir Möhsün-zadənin axund seçilməsi.
1913-cü il	Dərbəndin şimal hissəsində «Dağıstan işıqları» zavodunun tikilməsi və onun bazasında ölkədə təbii qazla işləyən şüşə istehsalı üzrə ilk mexanikləşdirilmiş zavodun yaranması (1926).
1913-1971-ci illər	Quliyev Baba Cəfər oğlu. Dərbənd şəhərində anadan olmuşdur, bəstəkar, Dağıstanın əməkdar mədəniyyət işçisi, Dərbənddəki Azərbaycan Dövlət Dram Teatrının bədii rəhbəri.
1914-1918-ci illər	Birinci Dünya Müharibəsi dövründə Dərbənddə 5 hərbi hospital, müharibədə zərər çəkmişlərə kömək göstərmək üçün Qafqaz komitəsi şöbəsi, eləcə də Qırmızı xaç şöbəsinin açılması.
1914-1993-cü illər	Baxşiyev Dubiyə Yusufoviç. Dərbənd şəhərində anadan olmuşdur, tarix elmləri doktoru, Moskva Yüngül Sənaye Texnologiya İnstitutunun kafedra müdiri.
1914-2006-cı illər	Paşabəyov Kərim Həsənbəy oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Dərbənd şəhər İcraiyyə Komitəsinin sədri (1952-1955).
1916-cı il	Dərbənd şəhərində «Ümid»-müsəlman gənclərin gizli təşkilatının yaradılması.
1916-1943-cü illər	Əliyev Şəmsulla Feyzulla oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Sovet İttifaqı Qəhrəmanı.
1917-ci il 2 mart	Dərbənd şəhərində dəmiryolçular tərəfindən Fəhlə Deputatları Şurasının yaradılması və maşinist Metrevelinin onun sədri seçilməsi.
1917-ci il 6 mart	Dərbənd şəhərində Əsgər və zabit deputatları şurasının yaradılması.
1917-ci il 11 mart	Dərbənd şəhərində Fəhlə və hərbi deputatlar Şurasının yaradılması.
1917-ci il aprel	- Dərbənddə bolşeviklərin şəhər təşkilatının yaradılması. - Dərbənd şəhər Həmkarlar İttifaqının yaradılması.
1917-ci il 28 oktyabr	Dərbənddə Fəhlə və hərbi deputatlar Şurasına ümumxalq seçkisinin keçirilməsi.
1917-ci il noyabr	Bolşeviklər tərəfindən Dərbənd şəhər hərbi-inqilabi komitəsinin yaradılması.
1917-ci il dekabr	Dərbənddə sovet hakimiyyətinin elan edilməsi.
1917-ci il	Dərbənd şəhərində Müvəqqəti hökumətin yerli orqanı kimi mülki İcraiyyə Komitəsinin yaranması.
1917-ci il sentyabr -1918-ci il 11 may	Dərbənd şəhərində Müsəlman Milli Komitəsinin yaranması və fəaliyyəti.
1917-1920-ci illər	Dərbənd şəhərində Musavat partiya təşkilatının fəaliyyəti.
1917-1978-ci illlər	Xanbabayev Abusəməd Həsən bəy oğlu. Dərbənddə anadan olmuşdur, Dərbənd şəhər İcraiyyə Komitəsinin sədri.
1917-1984-cü illər	Rəsulbəyov Hüseyn Cümşüd oğlu. Dərbənd şəhərində anadan olmuşdur, general-leytenant, Azərbaycan SSR əməkdar mühəndisi, Azərbaycan SSR Rabitə naziri.

1918-ci il	- Umaxanov Məhəmməd Salam İlyas oğlu. Levaşinsk rayonunun Sudaxar kəndində anadan olmuşdur, görkəmli siyasətçi, dövlət və ictimai xadim, Dərbəndin müasir aqrosənaye kompleksinin yaradıcısı. - Hümmət milli sosial-demokrat təşkilatının Dərbənd şəhərində fəaliyyəti.
1918-ci il yanvar	Dərbənd şəhərində Qırmızı qvardiya dəstəsinin yaradılması və Nikolay Şuşakovun onun komandiri təyin edilməsi.
1918-ci il 2 aprel	General Lazarev və polkovnik Musalayevin komandanlığı altında imamın müqəddəs alayları Dərbənd Qırmızı qvardiyaçılarının müqavimətini qıraraq Dərbəndə daxil olması. Fəhlə və hərbi deputatların şəhər Şurası və Hərbi inqilab komitəsinin ləğv olunması.
1918-ci il 24 aprel	- Dərbənddə İnqilab Müdafiə Komitəsinin yaranması və V.Beşentsevin onun sədri təyin edilməsi. - Dərbənddə Xalq Komissarları Şurasının yaranması və Torjinskinin rəhbərliyi altında fəaliyyəti.
1918-ci il may	Rusiya kommunist bolşeviklər partiyasının (RK(b)P) Dərbənd şəhər komitəsinin yaradılması.
1918-ci il 12 iyun	Dərbənddə sovet hakimiyyəti orqanı olan Fəhlə, Kəndli və Qırmızı Ordu deputatları Şurasına ilk seçkilərin keçirilməsi.
1918-ci il iyul	L.F.Biçeraxovun dəstələrinin Dərbəndi tutması.
1918-ci il 12 avqust	Çar ordusunun polkovniki, osetiyalı menşevik Biçeraxov Lazarın Dərbəndə gəlməsi.
1918-ci il 6 oktyabr	Yusif İzzət Paşanın komandanlığı altında türk qoşunlarının Dərbəndə daxil olması.
1918-ci il 26 noyabr	Türk qoşunlarının Dağıstandan və Dərbənddən geri çağırılması.
1918-ci il dekabr	Admiral Tomson və Roulandsonun komandanlığı altında ingilislərin Dərbənd şəhərinə daxil olması.
1918-ci il noyabr - 1920-ci il 28 aprel	Rus Milli Şurasının yaranması və Dərbənd şəhərində onun şöbələrinin fəaliyyəti.
1918-1921-ci illər	Dərbənd şəhər İnqilabi Müdafiə Komitəsinin fəaliyyəti.
1918-1945-ci illər	Abramov Şatiyel Semyonoviç. Dərbənd şəhərində anadan olmuşdur, Sovet İttifaqı Qəhrəmanı.
1918-1995-ci illər	Abdullayev Rəsmi Əsəd oğlu. Dərbənddə anadan olmuşdur, balıq sənayeçisi Həmdulla Abdullayevin qardaşı, texnika elmələri doktoru, geofizik.
1918-1996-cı illər	Tabasaranski Zeynal Əlimərdan oğlu. Dərbənd şəhərində anadan olmuşdur, texnika elmləri doktoru, Qubkin adına Moskva Neft İnstitutunun professoru.
1918-2005-ci illər	Xanməmmədov Hacı Dadaş oğlu. Dərbənd şəhərində anadan olmuş, Dünya şöhrətli bəstəkar, Azərbaycan Dövlət Konservatoriyasının professoru, Azərbaycanın Əməkdar İncəsənət xadimi, Azərbaycan Respublikasının Xalq artisti.
1919-cu il 29 may	General Denikinin piyada və süvari dəstələrinin Dərbəndə daxil olması.
1919-cu il avqust-sentyabr	- Dağıstanda Denikinə qarşı ümumxalq üsyanının başlanması. - Dağıstan Azadlıq Ordusunun yaranması. Türk zabitləri: Nuru Paşa, Rüfət bəy, Heydər bəy və s. b.-nın orduya rəhbərlik etmələri. - Kazım bəyin Dərbənd cəbhəsinə komandanlıq etməsi.
1919-1989-cu illər	Rıbnikov Aleksandr İlyiç. polkovnik-leytenant, Sovet İttifaqı Qəhrəmanı.
1920-ci il 25 mart	Rusiyanın XI Qızıl Ordusunun Dərbəndi tutması və Dərbənd şəhərində sovet hakimiyyətinin qurulması.
1920-ci il mart-iyul	RK(b)P Dağıstan Vilayəti Təşkilat Bürosunun yaranması və RK(b)P Dərbənd şəhər Komitəsinin RK(b)P-nin Cənubi Dağıstan Təşkilat bürosuna daxil olması.
1920-1982-ci illər	Rəsulbəyov İmran Cümşüd oğlu. Dərbənd şəhərində anadan olmuşdur, ədliyyə general-mayoru, hüquq elmləri namizədi, Azərbaycan SSR Əməkdar hüquqşünası, 3-cü dərəcəli dövlət ədliyyə müşaviri, Azərbaycan SSR Ədliyyə Nazirliyinin Baş idarə rəisi.
1920-1993-cü illər	Ağasiyev Ənvər Məmmədmirzoyeviç. Dərbənd şəhərində anadan olmuşdur, tibb xidməti polkovniki, Azərbaycan SSR əməkdar həkimi, SSRİ səhiyyə əlaçısı fəxri adlarına layiq görülmüş və Azərbaycan SSR DTK hərbi-tibbi xidmətinin rəisi.
1920-ci il	Fətullayev Məmmədağa Absaməd oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Dərbənd müharibə veteranları Şurasının sədri.

1921-2012-ci illər	Nəsirov Mustafa Cəfər oğlu. Dərbənd şəhərində anadan olmuşdur, general-mayor, Dərbəndin Fəxri vətəndaşı, SSRİ DTK-nın Zaqafqaziya Sərhəd Dairəsi qoşunlarının rəis müavini (1972), SSRİ Ali Sovet Rəyasət Heyətinin üzvü, Azərbaycan Respublikası Prezidentinin hərbi məsələlər üzrə müşaviri.
1921-ci il 20 yanvar	Dağıstan Muxtar Sovet Respublikasının yaranması və Dərbəndin onun tərkibinə daxil edilməsi.
1922-ci il	- Abdullayeva Aida Həmdulla qızı. Bakıda anadan olmuşdur, Dərbəndin tanınmış milyonçusunun qızı, Azərbaycan Musiqi Akademiyasının professoru. - Sençenko Vladimir Petroviç. Dərbənd şəhərində anadan olmuşdur, general-mayor, Sovet İttifaqı Qəhrəmanı, Hərbi Hava Qüvvələrinin komandan müavini.
1922-1983-cü illər	Seyidov Tofiq Mirzəəhməd oğlu. Dərbənd şəhərində anadan olmuşdur, general-mayor, texnika elmləri namizədi, professor, Dzerjinski adına Hərbi Artilleriya Akademiyasında kafedra rəisi..
1922-2010-cu illər	Tabasaranski Murad Bəylər oğlu. Tabasaran rayonunda anadan olmuşdur, iqtisad elmləri namizədi, professor, Bakı Kooperasiya Texnikumunun direktoru, «Bakinskiy raboçiy» (Bakı fəhləsi) qəzetinin ştatdankənar müxbiri.
1923-cü il 4 iyun	Dərbənd şəhərinə dolu yağması və təbii fəlakət nəticəsində vurulmuş ziyanı aradan qaldırmaq üçün şəhərə 10 min rubl qızıl pulun (1923-cü ilin pulu ilə 600 min rubl) ayrılması.
1923-1985-ci illər	Əliyeva Zərifə Əziz qızı. Naxçıvan Respublikasının Şahtaxtı kəndində anadan olmuşdur, Azərbaycan və Dərbəndin ictimai həyatında böyük xidmətləri olmuş görkəmli siyasi xadim Əziz Əliyevin qızı, akademik, Azərbaycan Oftalmologiya cəmiyyətinin sədri.
1923-1993-cü illər	Seyidov Mirkərim Sultan oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Dərbənd ÜİK(b)P rayon Komitəsinin birinci katibi.
1923-1996-cı illər	Abdinbəyov Süleyman Sadıx oğlu. Quba şəhərində anadan olmuşdur, dərbəndli Abdinbəyovlar nəslinin nümayəndəsi, dosent, Azərittifaqın rəhbəri (1963-1974).
1923-2001-ci illər	Sultanov Niyazi Məşədi Baba oğlu. Dərbənd şəhərində anadan olmuşdur, tibb xidməti polkovniki, Qazaxıstan SSR-in əməkdar həkimi, Bakı şəhəri Kirov (indiki Binəqədi) raoynu səhiyyə şöbəsinin müdiri.
1923-2003-cü illər	Əliyev Heydər Əlirza oğlu. Naxçıvan şəhərində anadan olmuşdur, Azərbaycanın böyük siyasi və dövlət xadimi. Dünya Azərbaycanlılarının Ümummilli lideri, Azərbaycan və Dağıstan xalqları arasında dostluq, qardaşlıq münasibətlərinin inkişafında böyük rolu olmuşdur.
1923-2007-ci illər	Xoroles Yakov İqnatyeviç. 1923-cü ildə Dərbənddə anadan olmuşdur, Dərbənd şəhərinin fəxri vətəndaşı.
1924-cü il	İbrahimov Mahmud Hacıyavoviç. Dərbənd rayonunun Axtı kəndində anadan olmuşdur, Dərbənd şəhər Komitəsinin birinci katibi.
1924-1989-cu illər	Vəliyev Yusif Abdulla oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Azərbaycan SSR Xalq artisti.
1924-1999-cu illər	Zamanov Sədi Məmmədbağıroviç. Dərbənd şəhərində anadan olmuşdur, musiqi ifaçısı, musiqi müəllimi, DMSSR Əməkdar mədəniyyət xadimi, «Zamanovlar» xalq çalğı alətləri ansamblının yaradıcısı.
1925-ci il	- Dərbənd partiya təşkilatının adının dəyişdirilməsi və ÜİK(b)P şəhər Komitəsi adlandırılması. - Dərbənd dəmiryolunda «İnqilabçı-dəmiryolçular» abidəsinin açılması.
1926-cı il	- İ.A.Paxomov tərəfindən Dərbənd pəhləvi kitabələrinin dəqiq təsviri və rəsmlərinin ilk dəfə verilməsi və onların oxunmasının İsveç alimi T.S.Nyuberq tərəfindən yerinə yetirilməsi. - Ruvinov Şalum Nisimoviç. Dərbənd şəhərində anadan olmuşdur, Dərbənd şəhər Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsinin sədri (1972-1977). - Talıbov Nəbi Sədulla oğlu. Dərbənd şəhərində anadan olmuşdur, kənd təsərrüfatı elmləri namizədi, Azərbaycan Bağçılıq və Üzümçülük Elmi-Tədqiqat İnstitutunda şöbə müdiri.
1926-2004-cü illər	Sadıqov İsmayıl Məmmədəli oğlu. Dərbənd şəhərində anadan olmuşdur, kənd təsərrüfatı elmləri doktoru, professor, Azərbaycan Əkinçilik Elmi-Tədqiqat İnstitutunun direktoru.
1927-ci il	- Babaxanov Səlim Babaxanoviç. Dərbənd KP şəhər Komitəsinin birinci katibi. - İrzaquliyeva Sona Sadıq qızı. Dərbənd şəhərində anadan olmuşdur, Azərbaycan Respublikasının Əməkdar müəllimi. - Eldarov Ömər Həsən oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Azərbaycan Respublikasının Xalq rəssamı, keçmiş Sovet İttifaqı Rəssamlar Akademiyasının üzvü, Azərbaycanda ilk Dövlət Rəssamlıq Akademiyasının təşkilatçışı və ilk rektoru.

1927-1997-ci illər	Dövlətxanov Cavid Əlirza oğlu. Dərbənd şəhərində anadan olmuşdur, DMSSR Nazirlər Soveti sədrinin birinci müavini.
1928-ci il	- Əliyev Bahadur Məmməd oğlu. Dərbənd şəhərində anadan olmuşdur, tibb elmləri doktoru, professor. - Fətullayev-Fiqarov Şamil Seyfulla oğlu. Bakı şəhərində anadan olmuşdur, Dərbəndin məşhur Fiqarovlar zadəgan ailəsinin nümayəndəsi, görkəmli Azərbaycan memar-tarixçisi, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü. - Əliyev Məmməd Sadıx oğlu. Dərbənd şəhərində anadan olmuşdur, texnika elmləri namizədi, dosent, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Ali və Orta İxtisas idarə rəisi (1964-1987).
1928-2009-cu illər	Qurbanov Səid Camal oğlu. Dərbənd rayonu Salik kəndində anadan olmuş, dövlət xadimi, Dağıstan Respublikasının Prezidenti yanında Ağsaqqallar Şurasının üzvü.
1929-cu il	- Rəhimova Duriya Gülbaba qızı. Quba rayonunda anadan olmuşdur, DMSSR-nın xalq artisti, Dərbənd şəhərindəki Azərbaycan Xalq Teatrının rejissoru. - Dərbənd şəhərində latın qrafikalı əlifbaya keçid.
1929-1986-cı illər	Safanov Benyamin Yusiyeviç. Dərbənd şəhərində anadan olmuşdur, tat şairi və nasiri.
1930-cu il	- Ramazanov İbrahimxəlil Heydərəli oğlu. Dərbənd şəhərində anadan olmuşdur, 1-ci dərəcəli yüksəkixtisaslı hakim (ədliyyə general-mayoru), Dağıstan Respublikası yüksəkixtisaslı hakimlər kollegiyasının daimi üzvü. - Rəsulbəyova Səfa xanım Cümşüd qızı. Dərbənd şəhərində anadan olmuş, tibb elmləri namizədi, SSRİ səhiyyə əlaçısı, Azərbaycan Dəmiryol İdarəsinin baş pediatoru.
1930-2000-ci illər	Cavadov Hətəm Ağaliyeviç. Dərbənd şəhərində anadan olmuşdur, iqtisad elmlər doktoru, professor, Moskva Dövlət Universitetinin kafedra müdiri.
1930-2007-ci illər	Əliyev Nəriman Abdulxalıq oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Sosialist Əməyi qəhrəmanı, kənd təsərrüfatı elmləri doktoru, Dağıstan Respublikasının Əməkdar elm xadimi.
1931-ci il	Tahirbəyov Bayram Harun bəy oğlu. Dərbəndin qədim nəsli Tahirbəyovlar ailəsində anadan olmuşdur, pedaqoji elmlər namizədi, professor, Rusiya Elmlər Akademiyasının əməkdaşı.
1931-1933-cü illər	Əliyev Salix Maqcanoviç ÜİK(b)P Dərbənd rayon Komitəsinin birinci katibi.
1931-2005-ci illər	Sultanov Rafət Məşədi Baba oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Dərbənd şəhər İcraiyyə Komitəsi Xalq Deputatları Sovetinin sədri (1967-1972).
1932-ci il	- Qazıyeva Xamıs Abdulsalamovna. Dərbənd şəhərində anadan olmuşdur, Sosialist Əməyi qəhrəmanı, SSRİ Ali Sovetinin deputatı. - Dərbənddə Balıqkonserv zavodunun istismara verilməsi.
1934-cü il	- Cəbrayılov Hacı Rəcəb oğlu «Dağcənubtikinti» şirkətinin baş direktoru. - Seyidov Mirələn İmamverdi oğlu. Dərbənd şəhərində anadan olmuşdur, DMSSR Əməkdar ixtiraçısı, «Dağıstantəchizatsatışı» Dərbənd filialının direktoru.
1935-ci il	- Bağırov Rüstəm Əbülfəz oğlu. Dərbəndli Məşədi Məhəmməd Bağır nəslinin nümayəndəsi, texnika elmləri doktoru, professor. - Hüseynov Firudin Abbas oğlu. Dərbənd şəhərində anadan olmuşdur, tarix elmləri doktoru, professor. Moskvada Musiqi Akademiyasının ümumi tarix kafedrasının baş müəllimi. - Hüseynov Sənan Məşədi Hacı oğlu. Dərbənd şəhərində anadan olmuşdur, milis polkovniki, Dağıstan Dövlət Avtomobil müfəttişliyində milis rəisi.
1937-ci il	Sultanov Rüfət Bağır oğlu. Dərbənd şəhərində anadan olmuşdur, SSRİ Su Təsərrüfatı Nazirliyinin «Dağdüyüsutikinti» tikilən düyü və suvarma sisteminin direktoru (1974-1998).
1937-2010-cu illər	Kazımov Ənsər Qayaməhəmməd oğlu. Dərbənd şəhərində anadan olmuşdur, tarix elmləri namizədi, Dağıstan Pedaqoji Universiteti Dərbənd filialının prorektoru.
1938-ci il	- Cümə məscidinin bağlanması, avadanlığının milliləşdirilməsi, binanın DİXK (HKBD) istintaq izolyatoruna verilməsi. 1943-cü ildə Cümə məscidinin dindar müsəlmanların istifadəsinə verilməsi. - Ələkbərov Əhməd Şahlar oğlu. Dərbənd şəhərində anadan olmuşdur, ədliyyə general-mayoru, Azərbaycan Respublikası Baş prokurorunun köməkçisi. - Dərbənd şəhərində latın qrafikasından kiril qrafikalı əlifbaya keçid.
1940-cı il	- Zeynalov Həmid Ənvər oğlu. Dərbənd şəhərində anadan olmuşdur, iqtisad elmləri namizədi, Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti, «Azərbaycan-Dağıstan» dostluq cəmiyyətinin üzvü. - Dərbəndin daş qapısının yenidən tikilməsi.
1940-2000-ci illər	Səmədov Adil Məhəmməd oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Dərbənd şəhər İcraiyyə Komitəsinin sədri.

1941-ci il 28 iyul	Dərbənd şəhər Pedaqoji məktəbinin korpusunda təxliyyə hospitalının yerləşdirilməsi.
1941-ci il noyabr-dekabr	Dərbənd şəhərində Dağıstanın 345-ci atıcı diviziyasının yaradılması və polkovnik N.O.Qruzutajin onun komandiri təyin edilməsi.
1941-ci il	- Cəfərov Fizuli Həbibulla oğlu. Dərbənd şəhərində anadan olmuşdur, dəmiryol xidməti general-mayoru, Azərbaycan Dövlət Dəmiryol təhlükəsizlik xidmətinin rəis müavini – yanğına nəzarət şöbəsinin baş təlimatçısı. - Rəhimov Rafiq Tağı oğlu. Bakı şəhərində anadan olmuşdur, əslən dərbəndli, «Dərbənd» cəmiyyətinin təşkilat-informasiya şöbəsinin müdiri.
1941-1945-ci illər	- 12 mindən çox dərbəndlinin döyüş əməliyyatlarında iştirakı. - 8 nəfəri dərbəndlinin Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi. - 3 mindən çox fəhlə və qulluqçunun arxa cəbhədə göstərdikləri şücaətə görə yüksək mükafatlara layiq görülməsi. - 5 mindən çox əsgərin müharibədən qayıtmaması.
1941-1946-cı illər	Dərbənddə «Hərbi qəbiristanlığın» yaranması. Böyük vətən müharibəsində döyüş zamanı aldıqları yaralardan, xəstəliklərdən hərbi-təxliyyə hospitallarında vəfat etmiş 700-dən çox əsgər və zabitin dəfn olunması.
1942-ci il	- Fiqarov Namik Hüseyn oğlu. Dərbəndin məşhur zadəgan Fiqarovlar ailəsinin nümayəndəsi, professor. - Hüseynov Hüseynbala Yəhya oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Dərbənd şəhər İcra Hakimiyyətinin mədəniyyət, mətbuat, din və inzibatı işlər üzrə idarəsinin rəisi. - Novruzbəyov Əsədullah Səfərulla oğlu. S.-Stalsk rayonunun Vəkələr kəndində anadan olmuşdur, Rusiya Federasiyasının Əməkdar artisti, Dağıstan Respublikasının Xalq artisti, Dərbənd şəhərində yerləşən Dövlət ləzgi musiqili dram teatrının bədii rəhbəri. - Axundov Vahid Cümşüd oğlu. Bakı şəhərində anadan olmuşdur, dərbəndli Axundovlar nəslinin nümayəndəsi, iqtisad elmləri doktoru, professor, Azərbaycan Respublikası Prezidentinin iqtisadi siyasət üzrə müşaviri. - İsmayılova Hüsniyyə Səftər qızı – mühəndis-konstruktor, Dərbənd şəhərində anadan olmuşdur, «Azərenerjisazlama» idarəsinin baş konstruktoru.
1942-ci il yanvar	Drbənd dəmiryolunda xüsusi hərbiləşdirilmiş nəqliyyat dəstələrinin yaradılması.
1942-ci il iyul	Hərbi rəhbərliyin Dağıstanın ərazisində – Qroznı-Mahaçqala-Dərbənd istiqamətində çoxxətli müdafiə sisteminin yaradılması barədə qərarı.
1942-ci il 23 avqust	ÜİK(b)P Dağıstan Vilayət bürosu və DMSSR Xalq Komissarları Sovetinin «Dərbənd müdafiə səddi»nin tikilməsi haqqında xüsusi qərar qəbul etməsi.
1942-ci il 15 sentyabr	Dövlət Müdafiə Komitəsinin qərarı ilə Dərbəndin cəbhəyanı zona elan edilməsi.
1944-cü il	- Abdinov Övsət Bəhram oğlu. Balakən şəhərində anadan olmuşdur, Dərbəndin tanınmış nəslinin nümayəndəsi, fizika-riyaziyyat elmləri doktoru, AMEA Fizika İnstitutunda yüksək enerji fizika laboratoriyasının rəhbəri. - İsmayılov Hacı Məcid oğlu. Bakı şəhərində anadan olmuşdur, əslən dərbəndlidir, aktyor, Azərbaycan Respublikasının Xalq artisti.
1944-2012-ci illər	- İzmaylov Çingiz Əbilfəz oğlu. Dərbənd şəhərində anadan olmuş, psixologiya elmləri doktoru, professor, Moskva Dövlət Universitetinin əməkdar professoru, Rusiya Federasiyası Müdafiə Nazirliyinin Hərbi-Tibb Akademiyasının müxbir üzvü.
1945-ci il	- Cəfərova Nailə Fərəculla qızı. Dərbənd şəhərində anadan olmuşdur və Dərbəndli tacir Hacı Cəfər nəslinin nümayəndəsi, qabaqcıl müəllim. - Fiqarov İsmət Hüseyn oğlu. Bakı şəhərində anadan olmuşdur, Dərbəndin məşhur Fiqarovlar ailəsinin nümayəndəsi, tibb elmələri doktoru, professor, Respublikanın Əməkdar həkimi və Azərbaycan Respublikasının baş uroloqu. - Məmmədova Şəfiqə Həşim qızı. Dərbənd şəhərində anadan olmuşdur, professor, Azərbaycanın Xalq artisti. - Sultanov Tofiq Əbdülhəmid oğlu. Dərbənd şəhərində anadan olmuş, general-mayor, Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini (1989-1992).
1945-ci ilin sonu	Dərbənd şəhərinin Dağıstanın və Tabasaranın cənub rayonlarından gəlmiş ləzgilərlə məskunlaşdırılması.
1947-ci il	- E.Xersveldin Dərbəndin pəhləvi kitabələri haqqında öz oxularını təqdim etməsi. - Nəzirov Səfərəddin Yəhya oğlu. Berikey kəndində anadan olmuşdur, Dağıstan Dövlət Pedaqoji Universiteti Dərbənd filialının direktoru. - Sultanov Sultan Həmid oğlu. Dərbənd şəhərində anadan olmuş, Dağıstan respublikasının əməkdar aqronomu, Dərbənd rayon başçısının müavini.

1947-2005-ci illər	Paşabəyov Edison Kərim oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Dərbənd şəhərinin başçısı (1993-1994).
1948-ci il	Leşikov Valeri Andreyeviç. Dərbənd şəhərində anadan olmuşdur, texnika elmləri namizədi, Evtikmə Layihə-Texnoloji Elmi-Tədqiqat İnstitutunun direktoru, Rusiya İctimai Elmələr Akademiyasının müxbir üzvü.
1949-cu il	İsmayılov Eldar İsmayıl oğlu. Bakı şəhərində anadan olmuşdur, Dərbənd şəhərinin fəxri vətəndaşı, «Azərbaycan dünyası» beynəlxalq jurnalın təsisçisi və baş redaktoru, «Dədə Qorqud» Milli fondun Prezidenti.
1950-ci il	- Əbiyev Səfər Axundbala oğlu. Bakı şəhərində anadan olmuşdur, Dərbəndin tanınmış Hacı İbrahim Xəlil nəslinin nümayəndəsi, general-polkovnik, Azərbaycan Respublikası Müdafiə Naziri. - İsmayılov Hikmət Əlisayfa oğlu. Dərbənd şəhərində anadan olmuşdur, ədliyyə polkovniki, Əməkdar hüquqşünas, Dərbənd şəhəri məhkəməsinin sədri. - Qurbanov Məhəmməd Səid oğlu. Drəbənd şəhərində anadan olmuşdur, Azərbaycan Respublikasında Rusiya Federasiyası Dağıstan Respublikasının daimi nümayəndəliyinin başçısıdır. - Vahabov Fərhad Hüseyn oğlu. Bakı şəhərində anadan olmuşdur, əslən dərbəndli, general-mayor, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi aparatının rəhbəri.
1951-ci il	- Babayeva Səkinə Ağası qızı. Dərbənd şəhərində anadan olmuşdur, Dağıstan Respublikasının Əməkdar həkimi, Perinatal mərkəzin doğum şöbəsinin müdiri. - Rəhimov Seyran Hacı oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Ümümrusiya Azərbaycan Konqresinin vitse-prezidenti.
1952-ci il	- Quliyev Zakir Məzahir oğlu. Dərbənd şəhərində anadan olmuş, boks üzrə əməkdar məşqçi, boks üzrə beynəlxalq hakim, Azərbaycan boks federasiyasının vitse-prezidentidir. - Məhəmmədxanov Ştibeq Hacı Məhəmməd oğlu. KP Dərbənd şəhər Komitəsinin birinci katibi (1990-1991). - Sultanov Tacəddin Tofiq oğlu. Dərbənd şəhərində anadan olmuş, Dərbənd şəhər dairəsi təhsil bələdiyyəsi başçısının birinci müavini. - Şıxsəyidov Murad Şıxsəyid oğlu. Buynaksk rayonunda anadan olmuşdur, Dərbənd rayonu Ş.Əliyev adına sovxozda briqadir, Dağıstan Respublikasının Kənd Təsərrüfatı naziri. - Sultanov Valeri Zeynəddin oğlu. Dərbənd şəhərində anadan olmuşdur, texnika elmləri namizədi, «Azəraeronaviqasiya» («AZANS») müəssisəsinin direktoru. - Dərbənd ÜİK(b)P Şəhər Komitəsinin adının dəyişdirilməsi və Sovet İttifaqı KP Şəhər Komitəsi adlandırılması.
1952-2005-ci illər	Səmədov Vaqif Məhəmməd oğlu. Dərbənd şəhərində anadan olmuşdur, tibb elmələri namizədi, Dağıstan Respublikasının Əməkdar həkimi, Dərbənd diaqnostika mərkəzinin baş həkimi (1992-2005).
1953-cü il	Dərbənddə Dağıstan tikinti materialları kombinatının tikilməsi və fəaliyyət göstərməsi.
1955-ci il	- Putin Vladimir Vladimiroviç – Rusiya Federasiyasının prezidenti. Onun Dərbənddə olması (2006) və tarixi abidələri ilə tanışlığı. - Dərbənddə tikinti materialları kombinatının tikilməsi.
1956-cı il	- Dərbənddə Azərbaycan məktəblərinin bağlanması. - «Dərbəndtikinti» şirkətinin yaradılması. 1993-cü ildə şirkətin səhmdar cəmiyyətinə çevrilməsi və şəhərin sosial-mədəni məişət obyektlərinin tikilməsində fəal iştirak etməsi. - Sadıqov Nəcməddin Hüseyn oğlu. Dərbənd şəhərində anadan olmuşdur, general-polkovnik, Azərbaycan Respublikası Silahlı Qüvvələrin Baş Qərargahının rəisi – Müdafiə Nazirinin birinci müavini. - Əmirov Rüfət Məzahir oğlu. Dərbənd şəhərində anadan olmuşdur, ehtiyatda olan polkovnik, Azərbaycan Hərb Tarixi muzeyinin rəisi. - Qurbanov Qurban Səid oğlu. Drəbənd şəhərində anadan olmuşdur, iqtisad elmlər namizədi, Dağıstan Respublikasının Əməkdar iqtisadçısı, Dağıstan Respublikası Dövlət Şurasının üzvü. - Mürsəlov Aydın Vəliyulla oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Dağıstan Respublikasının Əməkdar inşaatçısı, Dağıstan Respublikası Milli Məclisinin deputatı.
1958-ci il	Əliyev Fərhad Hacıbaba oğlu. Dərbənd şəhərində anadan olmuşdur, fizika-riyaziyyat elmləri doktoru, professor, Madrid Kral Universitetinin əməkdaşı.
1959-cu il	- K.V.Treverin öz əsərlərində Dərbəndin pəhləvi kitabələrinin şəkillərini və rəsmlərini təsvir etməsi. - Əsgərov Baba Niyaz oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Sumqayıt Şəhər İcra hakimiyyəti iqtisadiyyat şöbəsinin müdiri.

1960-cı il	- Sədullayev Məhəmməd Muxtar oğlu. Narodinsk rayonda anadan olmuşdur, texniki elmələr namizədi, Dərbənd Şampan şərabları zavodunun direktoru. - Nəsirov Elşad Mustafa oğlu. Bakı şəhərində anadan olmuşdur, əslən dərbəndli, diplomat, marketing və investisiya üzrə SOCAR-ın vitse-prezidenti (2005), Azərbaycan Futbol Federasiyasının vitse-prezidenti (2004). - Rəsulbəyova Nigar İmran qızı. Bakı şəhərində anadan olmuşdur, dərbəndli Rəsulbəyovlar nəslinin nümayəndəsi, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi (1997). - Kazımov Nadir Sədulla oğlu. Dərbənd şəhərində anadan olmuşdur, dərbəndli tacir Hacı Tağı Kazım oğlunun nəvəsi, Dağıstan Respublikasının Əməkdar müəllimi, Dağıstan Respublikasının internat məktəbləri üzrə direktorlar şurasının sədri.
1961-ci il	- Əliyev İlham Heydər oğlu. Bakı şəhərində anadan olmuşdur, görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (2003, 2008), Azərbaycan Respublikası ilə Dağıstan Respublikası arasında dostluq əlaqələrinin genişləndirilməsi üzrə Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirməsi.
1964-cü il	-Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyat yoldaşı, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri.
1962-ci il	- Əliyev Nurulla Arif oğlu. Dərbənd şəhərində anadan olmuşdur, Dərbəndli tacir Hacı Cəfər nəslinin nümayəndəsi, tarix elmləri doktoru, 1-ci dərəcəli kapitan, Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin rəisi, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Çin Xalq Respublikasında Hərbi Attaşesi.
1963-cü il	- Rəhimov Mövsüm Hilal oğlu. Dərbənd şəhərində anadan olmuşdur, möhtəşəm «Şəhristan» şirkətinin baş direktoru. - Sultanova Violetta Zəlimxan qızı. Dərbənd şəhərində anadan olmuşdur, filologiya elmləri namizədi, dosent, Dağıstan Respublikasının Əməkdar müəllimi, Dərbənd Humanitar İnstitutunun rektoru.
1964-cü il	Qaziəhmədov Feliks Hacıəhmədoviç. Xivə rayonunun Trkal kəndində anadan olmuşdur, Əməkdar iqtisadçısı, Dərbənd şəhər İcra Başçısı (2000-2010).
1965-ci ildə	- Əliyev Odissey Məhəmməd oğlu. Mahaçqala şəhərində anadan olmuşdur, Fövqəladə Hallar Nazirliyinin Dərbənd İdarəsinin rəisi. - Fiqarova Əminə Tofiq qızı. Bakı şəhərində anadan olmuşdur, Dərbəndin tanınmış Fiqarov nəslinin nümayəndəsi, məşhur caz pianoçusu, Rusiya Bəstəkarlar İttifaqının üzvü.
1966-cı il	- Musayev Nəriman Məhəmməd oğlu. İzberbaş şəhərində anadan olmuşdur, DTMK-nın direktoru, Dərbənd şəhər məclisinin deputatı. - Ramazanov Salih Miilay oğlu. Aqul rayonunun Tpiq kəndində anadan olmuşdur, Dərbənd Evtikmə kombinatı baş direktorunun müavini, Dağıstan Respublikası Xalq Məclisinin deputatı.
1971-ci il	Rusiya Elmlər Akademiyası Dağıstan Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutunun ekspedisiya üzvlərinin Dərbənddə qazıntılar aparması və tədqiqatlar əsasında şəhər əhalisinin birinci məşkünlaşma dövrünün b.e.ə. IV-III miniliyə təsadüf etməsini aşkara çıxarması.
1972-ci il	Dərbənddə arxeoloji qazıntıların aparılması və şəhərin topoqrafiyasına aydınlıq gətirilməsi.
1975-ci il	İbrahimova Zərifə Əlisöhbət qızı. Dərbənd şəhərində anadan olmuşdur, hüquq elmləri namizədi, Dağıstan Dövlət Universiteti Dərbənd filialının direktoru.
1977-ci il	Dərbənd şəhərində «Volna» Elmi-Tədqiqat İnstitutunun yaradılması və bu institutun mülki aviasiya üçün müasir texnologiyaların tətbiqi ilə məşğul olması.
1978-ci il	Dağıstan Dövlət radiosunda Azərbaycan dilində redaksiyanın yaradılması və yayımlanması.
1984-cü il	Dərbənd şəhərində Perinatal mərkəzin açılması.
1986-cı il	Azərbaycan Dövlət televiziyasının Dərbənd şəhərində və Dağıstan Respublikasının digər bölgələrində yayımı.
1987-ci il	Nağıyev Kamran Mehdi oğlu. Bakı şəhərində anadan olmuş, dərbəndli Rəsulbəyovlar nəslinin nümayəndəsi, «Graund Holding Company» şirkətinin VİP şöbəsinin agenti.
1994-cü il 23 fevral	Bakı şəhərində «Dərbənd» xeyriyyə cəmiyyətinin təsis edilməsi və Zeynalov Həmid Ənvər oğlunun onun sədri seçilməsi.
1994-cü il	Dağıstan Dövlət Universitetinin Dərbənd filialının yaradılması.
1996-cı il	- Dağıstan Dövlət Pedaqoji Universitetinin Dərbənd filialının yaradılması. - «Dərbənd» dövlət tikinti korporasiyasının yaradılması. 2004-cü ildə «Amika» tikinti şirkəti kimi fəaliyyət göstərməsi. Mürsəlov Aydın Vəliyulla oğlunun şirkətinin baş direktoru təyin olunması.

2000-ci il	Dərbənd şəhərinin ətrafında Qafqazda yerləşən zərdüşti məqbərəsinin tədqiq edilməsi.
XX əsrin əvvəli	Dərbənddə 7 karvansaranın fəaliyyət göstərməsi.
XX əsrin 20-ci illəri	Dərbənd şəhər sovetinin qərarı ilə Taxtabazar rayonunda hamamın tikintisi.
XX əsrin 80-ci illəri	5 minə yaxın azərbaycanlının Dərbəndi tərk etməsi, şəhərə 12 minə yaxın ləzginin köçürülməsi.
XX əsrin ikinci yarısı	Nyuberqin Dərbəndin pəhləvi kitabələrini oxumalarına V.B.Xenninq (1958), U.Q.Lukonin (1969), F.Xinyu (1972), Q.Qropp (1977), tərəfindən bəzi düzəlişlərin edilməsi S.Y.Qasımovanın təqdimatı.
XX-XXI əsrlər	Şəkərəliyev İsmayıl Şəkərəli oğlu. Xasavyurd rayonunda anadan olmuşdur, Dərbənd şəhər Məclisinin deputatı.
2000-ci il	Dərbənd şəhərinin sosial və iqtisadi inkişafı üçün uzun müddətli proqramın qəbul edilməsi.
2001-ci il	- Azərbaycan arxeoloqlarının Dərbənd istehkamları kompleksinə daxil olan Dağbarını tədqiq etmələri və Mitaqi kəndində, Kecərliqala qülləsinin yaxınlığında yerləşən qədim müsəlman qəbiristanlığında XI-XII əsrlərin sarkofaq tipli məzar daşlarını qeydə almaları. Onların üzərində kufi və nəsx xətləri ilə həkk edilmiş epitafiyaların aşkar edilməsi. Bu kitabənin Qafqazda ən qədim (793-cü ilə aid) kufi xətli kitabə hesab olunması. - Dərbənd şəhərində «Şəhristan» mehmanxana kompleksinin yaradılması.
2002-ci il	- Rusiya Federasiyasının Mərkəzi Bankı tərəfindən 10 rubl dəyərində üstündə Dərbənd şəhərinin təsviri olan pulun buraxılması. - Dərbənd şəhərində Fövqəladə Hallar Nazirliyi İdarəsinin yaradılması və fəaliyyət göstərməsi.
2003-2004-cü illər	Dərbənd şəhər məktəblərinin 38 şagirdinin Respublika olimpiadalarının qalibi olması.
2004-cü il	- Dərbənd şəhərində «Qafqaz qadınları dünya dəyərlərinin təşəkkül tapması, zorakılığa qarşı» mövzusunda beynəlxalq konfransın keçirilməsi. - Dərbənd şəhərində 10 min nömrəni əhatə edən ATS-ın istismara verilməsi. - Dərbənd şəhərinin sosial-iqtisadi inkişaf proqramının qəbul edilməsi (2004-2010).
2005-ci il	Dərbənd şəhərində 11 məscidin fəaliyyət göstərməsi, onlardan ikisinin Cümə məscidi olması.
2006-cı il	Dərbənd şəhərində Dağıstan Dövlət Universitetinin İranşünaslıq mərkəzinin nəzdində fars dili kurslarının açılması.
2007-ci il	- Dağıstan Respublikası Prezidenti Muxu Qimbatoviç Əliyevin rəhbərliyi altında nümayəndə heyətinin Azərbaycan Respublikasına səfəri. - Dərbənd sakini Məhəmməd Qafarovun «Dağıstan işıqları» şəhərinin başçısı seçilməsi. - Dağıstanın xeyriyyəçi «Zamanın əlaqələri» mədəni-maarif təşkilatının yaradılması və Dağıstan Respublikasının Əməkdar həkimi Səbinə Babayevanın onun sədri seçilməsi. - Azərbaycanda və Dağıstanda görkəmli dövlət xadimi Əziz Əliyevin anadan olmasının 110 illiyinə həsr olunmuş tədbirin keçirilməsi
2008-ci il 26 iyun	Dağıstan Respublikası Prezidenti Muxu Qimbatoviç Əliyevin rəhbərliyi altında nümayəndə heyətinin Azərbaycan Respublikasına səfəri.
2008-ci il	- Dərbənd rayonunda 34 min tondan çox üzümün, 250 min ton tərəvəzin istehsal olunması. - Rayonda 72 tədris müəssisəsi və 558 ticarət obyektinin fəaliyyət göstərməsi. - Darvaq çayı ətrafında 10 min nəfəri qəbul edən turist istirahət kompleksinin tikilməsi. - Dərbənd rayonun Məmmədqala qəsəbəsində xəstəxananın nəzdində 40 çarpayılıq ümumi cərrahiyyə şöbəsinin açılması. - Dərbənd əhalisinin 110 min nəfər olması (60 millətin və xalqın nümayəndələri). - Dərbənddə 55 min kvadrat metr yaşayış sahəsinin əhalinin istifadəsinə verilməsi. Şəhərdə 26 ümümtəhsil məktəbin, 28 uşaq bağçasının, 20-dən çox orta peşə və ali təhsil müəssisələrinin (əksəriyyəti ölkənin tanınmış təhsil ocaqlarının filialı kimi) fəaliyyət göstərməsi. Şəhərin 22 məktəbində milli dillərin öyrənilməsi.
2009-cu il	Dərbənddə «Ədalət» cəmiyyətinin təsis edilməsi.
2010-cu il mart	Dəmir qapı Dərbənddə Narınqala divarlarının yaxınlığında Azərbaycan Respublikası nümayəndələrinin iştirakı ilə Novruz bayramı şənliyinin təntənə ilə qeyd olunması.
2010-cu il aprel	Dərbənd Azərbaycan Dövlət Dram Teatrının kollektivi Bakı şəhərinə qastrol səfəri.
2010-cu il 30 aprel	Azəbaycan Milli Elmələr Akademiyasında görkəmli dövlət xadimi Səid Qurbanovun xatirəsinə həsr olunmuş «Azərbaycan-Dağıstan: qardaşlıq münasibətləri tarixi, müasirlik, perspektivlər» mövzusunda beynəlxalq konfransın keçirilməsi.
2010-cu il 24 may	Dağıstan Respublikasınının Prezidenti Məhəmmədsalam Məhəmmədovun başçılıq etdiyi nümayəndə heyətinin (Dərbənd şəhər və rayon icra hakimiyyətinin nümayəndələrinin tərkibi də daxil olmaqla) Azərbaycana səfəri.
2010-cu il 20 sentyabr	Dərbənd rayonu Heydər Əliyev adına Cəmikənd orta məktəbində güləş məktəbinin açılması.

Ə L A V Ə L Ə R

DÜNYADA «DƏRBƏND» ADININ QEYD OLUNDUĞU YERLƏR

«Dərbənd» – ad kimi dünyanın müxtəlif yerlərində qeyd olunmuşdur:

1. Dərbənd – Dağıstan respublikasında şəhər. Bu şəhər Rusiyanın digər şəhərlərindən yalnız fəxri yaşı ilə fərqlənmir, o eyni zamanda qədim memarlıq abidələri ilə və yaxın Şərq, orta Asiya, Qafqaz və Şərqi Avropa ölkələrinin tarixi taleyindəki mühüm rolu ilə də fərqlənir.

2. Dərbənd – İran İslam Respublikasının Kirman əyalətində şəhər;

3. Dərbənd - İran İslam Respublikasının Luristan əyalətində şəhər;

4. Dərbənd – Türkiyənin Gecəli əyalətində şəhər;

5. Dərbənd – Özbəkistan Respublikasının Surxandərya rayonunda şəhər;

6. Dərbənd – İran İslam Respublikasında dağ (2438 m);

7. Dərbənd – Türkiyədə dağ (2644 m);

8. Dərbənd – Türkiyədə çay;

9. Dərbəndbaşı – Türkiyədə çay;

10. Dərbəndsər – İran İslam Respublikasının şimal qərb hissəsində göl;

11.Dərbənd çökəkliyi – Xəzər dənizində (500-800 m);

12. Dərbəndi – turşa-şirin üzum növü;

13. «Dərbənd» – neft daşıyan yük tankeri;

14. «Tanker – Dərbənd» rus sovet yazıçısı Yuri Krımovun romanı;

15. «Tanker – Dərbənd» – bədii film, Mosfilmin istehsalı;

16. Qala qapı «Dərbənd » – Bakı şəhərində restoranlar kompleksi;

17. «Dərbənd» – görkəmli Azərbaycan bəstəkarı Hacı Xanməmmədovun məşhur mahnısı;

18. «Dərbənd» – Bakı şəhərində firma marketi;

19. «Dərbənd» - dünya şöhrətli konyak markası;

20. «Dərbəndnamə» - dünya şöhrətli rus-azərbaycan şərqşünası M.M. Kazımbəyin tarixi-etnoqrafik fundamental əsəri;

21. 2002-ci ildə Rusiya Bankı 10 manat rubl dəyərində «Rusiyanın qədim şəhərləri» seriyasından olan və üstündə Dərbənd şəhəri təsvir olunan pul buraxmışdır;

22. «Kitabi-Dədə Qorqud», «Koroğlu» dastanlarında, N.Gəncəvinin, M.Füzulinin, Ə.Xaqaninin əsərlərində «Dərbənd» adının hallanması.

ORTA ƏSRLƏR ƏRƏB MÜƏLLİFLƏRİNİN ƏSƏRLƏRİ

Bu əsərlərdə Bab əl-Əbvab (Dərbəndin ərəb adlarından biri) haqqında məlumatlar verilmişdir:

- «Kitab-i Fütuh əl-Buldan», müəllifi – Əhməd ibn Yəhya əl-Bəlazuri (892-ci ildə vəfat etmişdir);

- «Kitab əl-Buldan», 891-ci ildə Əhməd ibn Əbu-Yəqub ibn Cəfər əl-Yəqubi tərəfindən yazılmışdır (904-cü ildə vəfat etmişdir). «Tarix» - onun əsəridir;

- «Kitab əl-Fütuh», müəllifi Əbu Məhəmməd Əhməd ibn Asam əl-Kufi (926-cı ildə vəfat etmişdir);

- «Kitab əl-Məsalik vəl-Məmalik», müəllifi Əbu-Əbdulla Məhəmməd əl-Ceyqani (936-cı ildə vəfat etmişdir);

- «Kitab əl-Buldan», müəllifi nəməlum, 902-903-cü illərdə qısa formada Əbu Bəkr Əhməd ibn Məhəmməd ibn İshaq əl-Həmədani tərəfindən tərtib edilmiş və bizim günlərədək gəlib çatmışdır;

- «Muruc əl-Dzahab-i Maadin əl-Cevgeri», müəllifi Əbdül Həsən Əli ibn Hüseyn əl-Məsudi, 943-947-ci illər arasında yazılmışdır;

- «Kitab əl-Əlakan Nəfisa», müəllifi Əbu-Əli Əhməd ibn Ömər ibn Rüstəm (X əsr);

- «Kitab əl-Məsalik vəl-Məmalik», 885-ci ildə Əbu-l-Qasim Übeydulla ibn Əbdulla ibn Xordadbeh tərəfindən yazılmışdır;

- «Kitab əl-Hərəc», müəllifi Əbu-l-Fərəc Kudama (948-ci ildə vəfat etmişdir);

- «İqlimi bilmək üçün ən yaxşı bölümlər», müəllifi Əbu Abdallah Məhəmməd əl-Müqəddəsi (X əsr);

- «Kitab əl-Məsalik vəl-Məmalik», 930-cu ildə Əbu İshaq İbrahim ibn Məhəmməd əl-Farisi əl-İstəxri tərəfindən yazılmışdır və Əbu Zeyd Əhməd ibn Səhl əl-Bəlxinin (934-cü ildə vəfat etmişdir) əsərlərinin toplusudur, əl-İstəxri tərəfindən əlavələr edlmişdir;

-«Kitab əl-Məsalik vəl-Məmalik», 976-cı ildə Əbdül Qasim Məhəmməd ibn Hauqəl tərəfindən yazılmışdır;

- «İbn Fədlanın Volqa çayına səyahəti», müəllifi Əhməd ibn Fədlan (X əsrin I yarısı);

- «Kitab əl-Məsalik vəl-Məmalik», müəllifi Əbu Ubeydulla əl-Bəkri (1094-cü ildə vəfat etmişdir);

- «Dünya ölkələrinə səyahət etməyi sevənin nəşəsi», 1154-cü ildə Əbu Abdulla Məhəmməd əd-Edrizi tərəfindən yazılmışdır;

- «Tarix əl-Kamil», müəllifi İzz əd-Din Əbu-l-Həsən Əli ibn Məhəmməd (1160-1234);

- «Məcəl əl-Buldan» - coğrafi lüğət, 1218-ci ildə Şəab əd-Din Əbu-Abdulla Yaqut əl-Həməvi tərəfindən yazılmışdır (1229-cu ildə vəfat etmişdir);

- «Mövcud olan yaradılmış əşyaların möcüzələri və qəribəlikləri»; müəllifi Zəhəriyyə bin-Məhəmməd əl-Qəzvini (1283-cü ildə vəfat etmişdir);

- «Təqvim-e əl-Buldan» - coğrafi lüğət, müəllifi İmad əd-Din Əbu-l-Fəda İsmail bin Nasser (1271-1331);

- «Ürəklərin nəşəsi», müəllifi Həmdulla bin Əbukər əl-Mustafa əl-Qəzvini (1349-cu ildə vəfat etmişdir);

- «Tatimat əl-Müxtəsər fi əxbər əl-bəşər», müəllif Umar ibn əl-Vardi (1291-1349);

- «Səyahət», müəllif Məhəmməd ibn Abdallah ibn Battutə (1304-1377);

- «Dünyada bizimlə bərabər yaşayan xalqların, bərbərlərin, farsların, ərəblərin, tarixi üzrə nümunələr kitabı», 1370-ci ildə Əbdürəhman Əbu Zeyd ibn Xaldun tərəfindən yazılmışdır (1332-1406);

- «Yeddi iqlim», 1601-ci ildə Əmin Əhməd əl-Razi tərəfindən yazılmışdır;

- «Tarix əl-Kamil», müəllifi ibn əl-Əsir (XIII əsr).

DƏRBƏNDİN HÖKMDAR SÜLALƏLƏRİ

I Xəlilüllah İbn Şeyx İbrahim. H. 820 (1417)-ci ildə Şeyx İbrahimin ölümündən sonra onun yerinə böyük oğlu və varisi Şirvanşah I Xəlilüllah keçdi.

1192-ci ildə Şamaxı zəlzələdən dağıldıqdan sonra I Axsitan Bakı şəhərini öz iqamətgahına çevirmiş və o, həmin vaxtdan Şirvanın ikinci paytaxtı olmuşdu. Ölkənin və onun paytaxtı Bakının abadlığı ilə məşğul olan Xəlilüllah zamanında Şirvanşahlar ansamblının, karvansara və körpülərin tikintisinə başlanmışdır. Ölkə tərəqqi edirdi.

H. 831 (1427/8)-ci ildə Qara Yusifin oğlu İsgəndər Şirvana hücum edərək Şirvan dövlətini tabe etdirməyə cəhd göstərdi. Şamaxı İsgəndərin qoşunları tərəfindən dağıdıldı və talan edildi. Həmin vaxt Şirvanşahların Dərbənddə olan saray şairi Bədr Şirvani İsgəndər Şamaxıdan getdikdən sonra bura gəlmiş, şəhərin dağılmasını və talan olunmasını görmüşdü.

XV əsrin əvvəlindən XVI əsrin əvvəlinədək bir əsrə yaxın müddətə Şirvan müstəqil dövlət olaraq qalmışdır. Dərbənd şəhəri və əyaləti, Muğan düzünün bir hissəsi Şirvanın mülklərinə daxil idi. Dərbənd hasarının şimal divarlarındakı «Qırxlar qapısı»nın üzərindəki farsca kitabə də bunu təsdiqləyir. Dərbənddəki məhəllə məscidinin bayır divarında da h. 858 (1454)-ci ilə aid Xəlilüllahın adı çəkilən kitabə qalmışdır. Xəlilüllah hakimiyyəti dövründə Bakı, Şamaxı, Dərbənd şəhərlərində təngə ölçüsündə anonim gümüş sikkələr kəsilən zərbxanalar var idi.

Sərkərdə əmir Süleyman bəy Biçək oğlu və Ayba Sultan Yaqub böyük qoşunla Şeyx Heydərlə müharibədə Fərrux Yəsara kömək etmək üçün Şirvana yollandı. Darmadağın olunmaqdan qorxuya düşən şeyx Gülüstanı talan edib qoşunlarını Mahmudabada apardı, oranı da tutub dağıtdı, sonra Dərbəndə doğru hərəkət edərək, onu mühasirəyə aldı. Sultan Yaqub əmirlərə düşməndən tutulub alınmış Şirvan şəhərlərini, Dərbəndi və Mahmudabadı Fərrux Yəsara qaytarmaq haqqında əmr verdi.

Fərrux Yəsarın hakimiyyəti dövründə Şirvan dövləti feodal inkişafı və müstəqillik dövrü keçirirdi. Fərrux Yəsara aid edilən Şirvanşah titulu haqqındakı məlumata Dərbənddə Cümə məscidinin mədrəsəsindəki kitabədə və Abşeronun Mərdəkan kəndindəki Tuba şahı məscidindəki h. 886 (1481/2)-cı ilə aid kitabədə rast gəlinir.

Fərrux Yəsarın hakimiyyəti dövründə Dərbənd və Dağıstanın cənub əyalətləri Şirvanın tərkibinə daxil idi. Bunu Axtı kəndinin məscidindəki kitabə də təsdiq edir.

II Şeyx İbrahim (Şeyxşah) ibn Sultan Məhəmməd Qazi. Şah İsmayıldan qaçaraq Gilana gedən Şeyxşah h. 908 (1502)-ci ildə Şirvana qayıdaraq Sultan Mahmudun tərk etdiyi Şirvanşahlar taxtına mübarizəsiz çıxdı.

Şah İsmayıl h. 913 (1507/8)-cü ildə zülqədərlər tayfasının iğtişaşını yatırmaq üçün Maraş vilayətinə yürüşündən istifadə edən Şeyxşah İsmayıla ödəməli olduğu xəracı verməkdən boyun qaçırdı və onun elçilərinə ehtiram göstərmədi. Şah İsmayıl Şeyxşahın xərac vermək istəməməsi ilə əlaqədar h. 915 (1509)-cu ilin sonlarında Şirvana yürüş etdi. İsmayıl əmirlərini Şamaxını tutmağa göndərdi, özü isə qoşunlarının bir hissəsi ilə Bakıya yollandı. O, Bakıdan Şəbərana getdi, sonra Dərbəndə yaxınlaşdı. Şah İsmayıl Dərbəndi mühasirəyə aldı. Mühasirədə olan Dərbəndlilər qızılbaşların üstünə daş və ox yağdırdılar. Dərbənd əmirləri Yar Əhmədağa və Məhəmməd bəy təslim oldular. Şah Mənsur bəyi Dərbənd hakimi təyin etdi.

Şahrux ibn Fərrux Yəsar. Özündən sonra vərəsəsi olmayan II Xəlilüllah h. 942 (1535)-ci ildə öldükdən sonra Şirvanın feodal əyanları Fərrux Yəsarın oğlu və Şeyxşahın nəvəsi 15 yaşlı Şahruxu təcili Dağıstandan Şamaxıya gətirərək Şirvanşahlar taxtına oturtdular. Bu dövrdə Dərbəndi Şirvanşahlar xanədanı tənəzzülə uğradı.

Bürhanəli Sultan ibn Sultan Xəlil. Şahruxun əmisi oğlu Bürhanəddin, yaxud Bürhanəli Sultan Xəlil ibn Şeyxşah uzun müddət Dağıstanda qaytaqlı qohumlarının yanında qaldıqdan sonra böyük qoşun toplayaraq h. 951 (1544)-ci ildə Əlqas Mirzə ilə mübarizə aparmaq üçün Şirvana doğru hərəkət etdi. İsmayıl Mirzə onun qarşısına çıxdı. Dərbənd yaxınlığındakı Filan kəndində qızılbaş qoşunu onunla döyüşə girdi, lakin Bürhanəli duruş gətirə bilməyib qaçdı.

Mehrab Mirzə. Bürhanəlinin ölümündən sonra Şirvan əyanları Dərbəndi Şirvanşahlar nəslindən olan Mehrab adlı birisini Şirvan hakimi seçdilər.

Qasım Mirzə. Sultan Süleyman 1544-cü ildə Azərbaycana dördüncü dəfə yürüş etdi. Həmin il eyni vaxtda Şirvanda Səfəvilərə qarşı Sultanın yardım ilə yeni üsyan baş verdi. Şirvanşahlar nəslindən olub İstanbulda gizlənən Qasım Mirzə içərisində odlu silahla silahlanmış yeniçərlər olan Osmanlı döyüşçü dəstəsi ilə Qəffə vasitəsilə Şimali Qafqaza, oradan da Dağıstandan keçərək Dərbəndə gəlib Şirvana soxuldu.

Şirvanşah Dərbəndlilərin tarixi. XI əsrin son rübünün əvvəlində yazıb-yaratmış müəllifin adı dövrümüzədək gəlib çatmamış, onun Şirvan və Dərbəndin tarixinə aid salnaməsindən isə yalnız türk tarixçisi Münəccimbaşının (1702-ci ildə Məkkədə ölmüşdür) ərəbcə əsərinə daxil etdiyi ayrı-ayrı fəsillər qalmışdır. Münəccimbaşının əsərində Şirvanın və Şirvanşah Dərbəndlilərin tarixinə dair daha erkən mənbələrdən maraqlı məlumatlar var.

XVI əsrin Şirvan tarixi üçün mühüm mərkəzlərdən biri də Şirvanşah Dərbəndlilər sülaləsinin nümayəndələri haqqında məlumat verilən «Tarixi cənnəti»dir.

XVI əsr Səfəvi-türk müharibələri dövrünə aid mühüm mənbələrdən biri də III Sultan Muradın Azərbaycana bir neçə yürüşünün iştirakçısı Şərəfxan Bidlisinin Şirvandakı siyasi hadisələr, Şirvanşah Dərbəndilərin hakimiyyəti dövrünə dair məlumat verilən ikicildlik «Şərəfnamə» əsəridir.

Şərəfəddin Əli Yəzdinin «Şərəfnamə» əsərində Teymurun Azərbaycana yürüşləri, Şahruxun hakimiyyət dövrü və onların Şirvanşah Dərbəndlilərə - Şeyx İbrahim və onun oğlu I Xəlilüllahla bağlı münasibətlərinə dair müfəssəl məlumat verilir.

DƏRBƏNDİN HÖKMDARLARI

1. I Ərdəşir 224-240-cı illər
2. I Qubad 488-531-ci illər
3. Xosrov I Ənuşirəvan 531-579-cu illər
4. Şəhriyar fars canişini «Mərzban» 642-ci il
5. Xəlifə Ömər ibn əl-Xəttab (Dərbənd 642-643-cü illər 644-656-cı illər)
6. Salman ibn Rəbiyə 654-655-ci illər
7. Xəlifə Yəzid ibn Əbdül Məlik 720-724-cü illər
8. Xəlifə Hişam ibn Əbdül Məlik 24-743-cü illər
9. Məsləmə 730-734-cü illər
10. Mərvan ibn Məhəmməd 744-750-ci illər
11. Xəlifə Mənsur 754-775-ci illər
12. Xəlifə Əb-ül-Abbas 750-754-cü illər
13. Xəlifə əl-Mənsur 754-755-ci illər
14. Hazim bin Çarhi 769-cu il
15. Xəlifə Harun ər-Rəşid 784-809-cu illər
16. Sansa bin Ömər 798-ci il
17. Həşim bin Suraka 869-cu il
18. Məlik Salar (ibn Yəzid) 1049-1063-cü illər
19. I Fəribürz 1063-1096-cı illər
20. II Mənuçöhr I Fəribürz 1096-1105-ci illər
21. I Əfridun ibn I Fəribürz 1105-1120-ci illər
22. III Mənuçöhr ibn Əfridun 1136-1166-cı illər
23. I Axsitan ibn Mənuçöhr 1160-1196-cı illər
24. Əfridun ibn III Mənuçöhr 1160-cı il
25. I Şahənşah ibn III Mənuçöhr 1196-1204-cü illər
26. II Fəribürz ibn II Əfridun 1201-1204-cü illər
27. I Fərruxzad ibn III Mənuçöhr 1204-1225-ci illər
28. Cəbə – Çingiz xanın sərkərdəsi 1222-ci il
29. III Fəribürz ibn I Gərşəsb 1225-1243/4-cü illər
30. II Axsitan ibn III Fəribürz 1243/4-1260-cı illər
31. II Fərruxzad ibn II Axsitan 1260-1282/3-cü illər
32. III Axsitan ibn II Fərruxzad 1283-1294-cü illər
33. I Keykavus ibn III Axsitan 1294-1317-ci illər
34. I Keyqubad ibn II Fərruxzad 1317/8-1348-ci illər
35. Kavus ibn I Keyqubad 1344/5-1372/3-cü illər
36. Huşəng ibn Kavus 1372/3-1382-ci illər

37. Şirvanşah I İbrahim ibn Sultan Məhəmməd 1382-1417-ci illər
38. I Xəlilüllah ibn Şeyx İbrahim 1417-1465-ci illər
39. Şirvanşah Fərrux Yəsar ibn Xəlilüllah 1465-1500-cü illər
40. Fərrux Yəsar 1466-cı il
41. Bəhram bəy ibn Fərrux Yəsar 1500-1501-ci illər
42. Qazi bəy ibn Fərrux Yəsar 1501-1502-ci illər
43. Sultan Mahmud ibn Qazi bəy 1502-ci illər
44. II Şeyx İbrahim ibn Sultan Məhəmməd Qazi 1502-1524-cü illər
45. Yar Əhməd ağa – yerli hökmdar 1508-ci il
46. Şah İsmayıl – Şeyx Heydərin oğlu 1509-cu il
47. Mənsur bin Sultan 1510-cu il
48. Osman-Paşa – türk canişini 1514-cü il
49. II Xəlilullah ibn Şeyx İbrahim 524-1527/8-ci illər
50. II Fərrux Yəsar ibn Şeyxşah 1527/8-1535-ci illər
51. Şahrux ibn Fərrux Yəsar 1535-1539-cu illər
52. Bürhanəli Sultan ibn Sultan Xəlil 1539-1549-cu illər
53. Əlqas Mirzə – yerli hökmdar 1547-ci il
54. Mehrab Mirzə
55. Qurbanəli
56. Qasım Mirzə
57. Kavus Mirzə 1549-1577/8-ci illər
58. Əbubəkr Mirzə 1577-1587-ci illər
59. Qazi Gəray-Krım xanı Məhəmməd Gərayın oğlu 1579-cu il
60. Fərrux xan 1634-1635-ci illər
61. Fərdi bəy Ustaclı
62. İmamqulu xan – naib 1722-ci il
63. Məhəmməd Həsən xan – İmamqulu xanın oğlu 1747-1759-cu illər
64. Məhəmmədəli xan Kirklü-Sultan rütbəli Dərbənd canişini 1743-cü il
65. Qəni xan Abdallı – Nadir şahın canişini 1744-cü il
66. Fətəli xan 1759-1789-cu illər
67. Tutu Bikə – Fətəli xanın arvadı 1766-cı il
68. Pəricə xanım – Fətəli xanın qızı 1796-cı il
69. Əhməd xan – Fətəli xanın oğlu 1789-1790-cı illər
70. Şeyxəli xan – Fətəli xanın oğlu1796-1799-cu illər
71. Həsən xan – Fətəli xanın oğlu
72. Əli Pənah bəy – Əhməd bəy Bayatın oğlu – naib 1802-1806-cı illər

DƏRBƏNDİN QUBERNATORLARI

1. Qaqarin A.İ. – knyaz, general-mayor (1846-1850)
2. Minkvits Yuli Fyodoroviç – general-mayor (1850-1856)
3. Manyukin Z.S. – general-mayor (1857-1858)
4. Aseyev Dmitri Kuzmiç – (1858-1860)

DƏRBƏNDİN ZADƏGANLARI

1. Ərəblinski Balakişi Əlibəy oğlu – general-leytenant
2. Abdullayev Həmdulla Hacıbala oğlu – balıq sənayeçisi
3. Əbdürəhimov Hacı Mirzəbəy oğlu – şəhər naibi
4. Abdinov Övsət Zeynalabdin oğlu – tacir
5. Ələkbərov Hacıbaba – tacir
6. Axundov Hacı Mehdi – tacir
7. Axundov Səftər Hacı Mehdi oğlu – tacir
8. Əliyev Məşədi Məmmədkazım oğlu – tacir
9. Əlipənahbəyov Əlipənah – tacir
10. Hüseynov Musabəy – şəhərin pristavı
11. İbrahimov Əhmədxan – tacir
12. Heydərov Minətulla – general-mayor
13. Cavadov Hacıağa – tacir
14. Zeynalov Zeynal bəy – tacir
15. Kazımov Hacı Kazım – tacir
16. Mirzəbəyov Nağı bəy – tacir
17. Mirzəbəyov Əhməd bəy Rəsul oğlu – tacir
18. Məmərzabəyov Məmməd Əmin – şəhər idarəsinin məmuru
19. Məmmədbəyov Məmməd Hüseyn – polis işçisi
20. Nəbiyev Hacı Həsənbala – tacir
21. Nəsirov Mustafa – general-mayor
22. Rəsulbəyov Cümşud – general-leytenant
23. Seyidov Mirzə Əhməd – müəllim
24. Sultanov İsmayıl bəy – tacir
25. Sadıqov Əhmədxan bəy – polis işçisi
26. Sadıqov Rəşid – dövlət işçisi
27. Tahirbəyov Məşədi bəy Dadaş – tacir
28. Teymurov Hacı Teymur – tacir
29. Fiqarov Hacı Zülfüqar – tacir
30. Xıdırbəyov Hüseyn bəy – dövlət işçisi
31. Eminov Hacı Şahmərdan – tacir
32. Eldarov Həsənbala Hüseyn oğlu – aqronom
33. Zeynalov Zeynalabdin – tacir
34. Fiqarov Əli-Mirzə Hacı Əli-Mərdan oğlu

ŞƏHƏR ÖZÜNÜİDARƏ TƏŞKİLATININ ÜZVLƏRİ (1896-1917)

1. Axundov Hacı Mehdi – tacir
2. Sadıqov Hacı bəy – dövlət işçisi
3. Mirzəbəyov Əhməd bəy Nağı bəy oğlu – tacir
4. Xıdırbəyov Məmməd bəy – dövlət işçisi
5. Vəkilov Həmid bəy – şəhər başçısının müavini
6. Əbdürəhimov Hacı Mirzəbəy – şəhərin naibi
7. İlyasbəyov Əlipənah bəy
8. Heydərov Qasım bəy – şəhər başçısı
9. Mirzəbəyov Əhməd bəy Rəsul oğlu
10. Həmzəyev Məşədi Əzim – tacir
11. Hüseynov Nuhi bəy – tacir
12. Abdullayev Hacı Mirzə – balıq sənayeçisi
13. Əliquliyev Əliyar – feldşer
14. Həmzəyev Hacıbaba
15. Vəzirov Molla Məcid Səfərəli oğlu
16. Kərbalayı Mirzə İsmayıl
17. Eminov Hacı Şahmərdan – tacir
18. Bala Əmin oğlu
19. Məmməd Nağı Nəsrulla oğlu
20. Məşədi Hacıbaba Hacıəli oğlu
21. Molla Əsgər Əbdülhəsən oğlu
22. Məmməd Həsən Hüseyn oğlu
23. Mirzəbəyov Hacı Sadıq bəy oğlu

ŞƏHƏR İCRAİYYƏ KOMİTƏSİ BAŞÇILARININ SİYAHISI (1994)

1.	Məmərzabəyov Mehrab Məhəmməd oğlu, azərbaycanlı	-	1922-1927-ci illər
2.	Əbdürəhimov Bədrəddin Hacı Mirzəbəy oğlu, azərbaycanlı	-	1927-1929-ci illər
3.	Nəbiyev Cümşüd Hacı Həsənbala oğlu, azərbaycanlı	-	1929-1931-ci illər
4.	Dağlarov, azərbaycanlı	-	1932-1933-cü illər
5.	Binəyev Əsail, dağ yəhudisi	-	1934-cü il
6.	Razaxanov Şafiddin Məhəmmədrəsul oğlu, ləzgi	-	1935-ci il
7.	Naxşunov Roman Nisanoviç, dağ yəhudisi	-	1936-cı il
8.	Əliyev Müzənfər Həmzə oğlu, azərbaycanlı	-	1936-1937-ci illər
9.	Əzizov Mişi Manaşiroviç, dağ yəhudisi	-	1937-1939-cu illər
10.	Oleynikov İvan Fedoseyeviç, ukraynalı	-	1939-cu il
11.	Sesyonov Peysax Şamayloviç, dağ yəhudisi	-	1939-1941-ci illər
12.	Əliyev Dəmirqaya Həsən oğlu, azərbaycanlı	-	1941-1944-cü illər
13.	Litvinov Vasili Kuzmiç, rus	-	1944-1948-ci il
14.	Melikov Aleksey İvanoviç, rus	-	1948-1949-cu illər
15.	Xanbabayev Absəməd Həsənbəy oğlu, azərbaycanlı	-	1949-1951-ci illər
16.	Paşabəyov Kərim Həsənbəy oğlu, azərbaycanlı	-	1952-1957-ci illər
17.	Həsənov Atababa Məcid oğlu, azərbaycanlı	-	1957-1960-cı illər
18.	Aşurov Danil İzyaquyeviç, dağ yəhudisi	-	1961-1967-ci illər
19.	Sultanov Rafət Məşədi Baba oğlu, azərbaycanlı	-	1967-1972-ci illər
20.	Ruvinov Şalum Nisimoviç, dağ yəhudisi	-	1972-1977-ci illər
21.	Hüseynov Hüseyn Bala Yəhya oğlu, azərbaycanlı	-	1977-1983-cü il
22.	Paşabəyov Edison Kərim oğlu, azərbaycanlı	-	1983-1994-cü illər
23.	Alçiyev Nikolay Yuryeviç, rus	-	1994-2000-ci illər
24.	Qazıəhmədov Feliks Hacıəhməd oğlu, ləzgi	-	2000-2010-cu illər
25.	Cəlilov Maqomed Xəlil oğlu, azərbaycanlı	-	2015-ci ildə
26.	Baqliyev Məlik Canmedin oğlu, ləzgi	-	2015-ci ildən

DƏRBƏND SEYİDLƏRİNİN AİLƏLƏRİ

Dərbənddə 80 seyid ailəsi var idi. Qəbir das-larındakı yazılardan görünür ki, bu ailələrin tarixinin 200 ilə yaxın yaşı var.

Yalnız bir ailə – ədəbiyyat müəlimi Ağa Mirzə-əhmədin ailəsinin daha dərin kökləri var – Axund Seyid Həmzə, onun atası Məşədi Mir Mehdi, Ağa Mirkazım. Ağa Mir Mehdinin qəbir daşındakı yazı bu nəslin 750 yaşı olduğunu göstərir. Hesablamalar-dan belə çıxır ki, rəhmətlik Mir Mehdi Həzrət Əlinin və Fatimənin 18-ci və ya 19-cu nəslindədir.

Dərbəndlilər yalnız 200 il bundan əvvəl vəfat etmiş Seyid Zəkanın qəbrini ziyarət edirlər.

1796-cı ildə Fətəli xanın oğlu Şeyxəli xan ruslara qarşı üsyan qaldırdı.

Qiyami yatırmaq üçün general Zubov – Dərbəndə gəlir. Seyid Zəka Dərbəndliləri müdafiə edirdi. O, Dərbənd sakinləri ilə birlikdə həlak olur, bir çox ailələr sürgün olunur. 750 il yaşı olan nəslin nümayəndəsi Ağa Mir Mehdinin oğlu məşhur general oldu. Texnika elmləri doktoru, professor, hərbi akademiyanın kafedra müdri, rus hərbi elmini zənginləşdirmiş bu adam Tofiq Ağamirzə Əhməd oğlu Seyidovdur. Müsəlman aləmində yeganə generaldır ki, özünün Məhəmməd peyğəmbərin və Həzrət Əlinin nəslindən olduğunu sübut etmişdir.

Allah ona rəhmət etsin!

(İkinci general – İordaniya kralı Əli Hüseyndir.

Dördüncu general – Mərakeşin kralı İkinci Həsəndir.

Onlar Məhəmməd peyğəmbərin 47-48-ci nəslinə aiddirlər).

Seyidlər Dərbəndə İrandan Səfəvilər sülaləsinin hakimiyyətinin sonu dövründə gəlmişlər. Onların çoxu 7-ci məhəllədə Cümə Məscidinin yanında məskunlaşmışlar.

Dərbənd şəhərinin Seyid və Ağa Mir ailələri:

1. Hacı Axund Ağamir Əhməd Ağa Mirzə Xəlil oğlu (1975-ci ildə vəfat edib). Onlar 3 qardaş idilər. İkinci qardaşı – Məşədi Mir ağa 1920-ci ildə vəfat edib. 3-cü qardaşı – Mir Həmdulla 1980-ci ildə vəfat edib. Mirzəxəlil, Mirsaleh, Kərbalayı Mirfətulla – 1838-ci ildə vəfat etmiş Hacı Seyid Əhmədin oğlanlarıdır. Onun qardaşı-Kərbalayı Seyid Məhəmməd 1848-ci ildə vəfat edib. Onlar 1795-ci ildə vəfat etmiş Mir Seyid Əlinin oğullarıdır. Mir Seyid Əli 1750-ci ildə vəfat etmiş Seyid Əmirəlinin oğlu idi. Onun atası Seyid Molla Nağı 1695-ci ildə vəfat edib. Onlar cənub qəbiristanlığında Düldül Əli adlanan yerdə dəfn olunmuşlar.
2. Kərbalayı Mir Sadıqın nəsli. 1740-cı ildə vəfat edib. Onun varisləri: Mir Baba, Mir Saleh, Mir Tofiq, Mir Rafiq və Mir Sadıq. Onlar 9-cu mə-həllə sakinləri olmuşlar.
3. Mir Mustafa və onun qardaşı Mir Tağının nəsli. Mir Mustafa mərhum Mir Bağırın atasıdır. O, cənub qəbiristanlığında dəfn olunub.
4. Mir İsmayıl və onun qardaşı Seyid Zahidin nəsli. Mir İsmayıl dülgər Mirələmin atası idi. Onlar 8-ci məhəllədə yaşamışlar.
5. Mərhum Mir Nağının, Seyid Həsənin və Seyid Əzimin atası Mir Həmidin nəsli. Onlar 7-ci məhəllə sakinləri idi.
6. 7-ci məhəllə sakinləri Mir Hacı Baba və onun qardaşı Seyid Vəlidin nəsli.
7. Ağamir Hüseyn, Mir Cəfər, Mir Həmdulla, Seyid Murtaza, Mir Ağa qardaşlarının nəsli. Onlar 7-ci məhəllə sakinləri idi.
8. Seyid Həşim və Mirinin oğlanları – Seyid Kamil, Seyid Cavadın nəsli. Onlar 7-ci məhəllə sakinləri idi.
9. Mir Tayib, Seyid Məmməd və onun oğlanları Seyid Mustafa və Hacı Seyid Əhmədin nəsli. Onlar 7-ci məhəllə sakinləri idi.
10. Məşədi Mir Qədirin, Seyid Rzanın atası, Mir Zeynal Abidinin atası, Məşədi Mir Qadirin babası, Hacı Mir Qiyasın babası və Məşədi Mir Mustafanın atası, 7-ci məhəllədən Seyid Həsənin və Mir Əhmədin ulu babalarının nəsli.
11. Mir Abbasın atası Mir Mazanın babası Mir Habilin nəsli.
12. Mərhum Seyid Fazilin və Mir Afərin atası Udaman Seyidin nəsli.
13. Seyid Sultanın qardaşı, mərhum Mir Təvəkkülün və Mir Kərimin atası Mir İsmayılın nəsli.
14. Ağamir Mehdinin nəsli. O, 750-ci ildə vəfat edib. Müəllim Ağa Mir Əhməd Mirəli Eknam, hərbi texnika elmləri doktoru, professor, Moskvada Elmlər Akademiyasında kafedra müdiri, general mər-

hum Tofiq Seyidov da bu nəslin nümayəndələri olmuşlar. Tofiq Seyidov 1960-cı ildə vəfat edib.

15. Mir İmamverdi və 6-cı məhəllə sakini Mir Səmədin nəsli.
16. Ağa Mir Kazımın oğlu Mir Məhəmməd Əlinin nəsli. Onların tarixi general Tofiq Seyidovun nəsli ilə qarışır. Mir Məhəmmədin ikinci oğlu Əli Mirkazım professor Fərhad Seyidovun atasıdır. Onlar 6-cı məhəllənin sakinləri idilər.
17. Məşədi Mir Kazımın və onun qardaşı Seyid Hüseynin qardaşının nəsli. Məşədi Mir Kazımın böyük oğlunun adı Ağalar idi. Onlar 5-ci məhəllə sakinləri idilər.
18. Seyid Əbuzərin, Seyid Mehdinin və 5-ci məhəllə sakini xanəndə Seyid Müzəffərin nəsli.
19. Ağa Mir Hüseynin və onun qardaşı Seyid Həşimin və Ağamir Hüseynin atasının nəsli. Onların oğulları: böyük oğlu – Kərbalayı Ağa Mir-Bağır, kiçik oğlu – Ağa Mir Kamal. Ağa Mir Kamal Mir Hüseynin və Seyid Zahidin atası idi. Onlar 5-ci məhəllədə yaşamışlar.
20. 5-ci məhəllədən olan Şeyx Babanın, Seyid Rzanın və Əbülfəzin nəsli.
21. 5-ci məhəllədən olan Ağa Mir Abbasın, Mir Dayı və onun oğlu ikinci Ağa Mir Abbasın (mərhum) nəsli.
22. Mir Cəfərin nəsli. Mir Cəfər mehmanxanada yanğın olan zaman Ramis Kamının qolları arasında vəfat etmişdir. Onun oğlu Ağa Mir Təyyub cəbhədə həlak olub. Onlar 6-cı məhəllədə yaşamışlar.
23. Şıx İslamın atası Şıx Babanın nəsli. Onlar 2-ci məhəllədə yaşamışlar.
24. Mir Seyid Əli və onun övladları. Hazırda onlar 2-ci məhəllədə yaşayırlar.
25. 2-ci məhəllə sakini Ağa Mir Seyid Əlinin əmisi oğlu Seyid Həmzə.
26. 1-ci məhəllə sakini Mir Əli Əkbərin atası mərhum Mirinin nəsli. 1937-ci ildə repressiyaya məruz qalmışdır.
27. 1-ci məhəllə sakini mərhum Mir İslamın atası, şikəst Mirilər nəsli.
28. 2-ci məhəllə sakinləri Mirəli Əsgərin və Mir Abbasın atası Hacı Mirinin nəsli.
29. Quruqlu mərhum Mir Abbasın atası Mir Qafarın nəsli.
30. İkinci Mir Ağanın babası, Seyid Ağanın atası Mir Ağanın nəsli 6-cı məhəllə sakinləri idilər.
31. Mir Mazanın babaları və ulu babaları. On-lar Çahartəpədə (1-ci məhəllə) yaşamışlar.
32. Seyid İslamın atası Mir Ağa. Onlar Çahar-təpə (1-ci məhəllə) sakinləri olmuşlar.
33. Seyid Ağa və Mir Əsədullanın atası. Onlar Çahartəpədə (1-ci məhəllə) yaşamışlar.
34. 5-ci məhəllə sakini Mir Tağı.
35. 5-ci məhəllə sakini Mir Fəttahın nəsli.
36. Mir Sadığın babası, Mir Əlləmin atası Qovuş Mir Sadığın nəsli (5-ci məhəllə).
37. Seyid Muxtarın və Seyid Sürəyyanın atası Mir Əli Əkbərin nəsli (6-cı məhəllə).
38. Mir-Abdullanın nəsli. O, müəllim Mir Abdullanın babası idi. Onlar Kommunarlar küçəsində yaşamışlar.
39. Mir Abdulla Vahabın nəsli. (7-ci məhəllə).
40. Mir Qədirin nəsli (7-ci məhəllə).
41. Seyid Aslanın nəsli. Onun 3 qardaşı var idi. Seyid Aslanın nəvəsi Seyid Sabirdir. O 5-ci məhəllədən olan Mir Bağırın oğlu idi.
42. Mərhum Şıx İslamın oğlu Mir Zeynal Abdinin nəsli. Mir Zeynal Abdinin atası Mir Əli Əsgər olmuşdur (7-ci məhəllə).
43. Seyid Həmzə nəsli (7-ci məhəllə).
44. Seyid Muxtarın nəsli (qəssab). O, mərhum Mir Abbasın atası idi (5-ci məhəllə).
45. Seyid Muxtar və Ağa Seyidin nəsli (7-ci məhəllə). Hazırda onlar Daşkənddə yaşayırlar.
46. Məşədi Seyid Həsənin nəsli (5-ci məhəllə).

DƏRBƏNDİN AXUNDLARI

1. Axund Məşədi Hacı Abdulla Hacı Rəcəbəli oğlu. O, ilahiyyatı öyrənmişdir. 1871-ci ildə vəfat etmişdir.
2. 1-ci Hacı Ağa Mirəhməd. Məzarı Düldül Əli kəndindədir. Onun qəbrinin 20 metrliyində oğlu Seyid Məhəmmədin qəbridir.
3. Molla İsmayılın oğlu, Kərbalayı Abdullanın qardaşı Axund Hacı Molla Yəhya. İmam küçəsinin sakini.
4. Cəbhə axundu, Məşədi Məhəmmədin əmisi. 8-ci məhəllə.
5. Məşədi Məhəmməd Saleh – Ağa Məhəmmədin nəvəsi, Nəzəralının oğlu. Onu məsciddə zəhərləyib öldürmüşlər.
6. 2-ci Hacı Məhməd – Ağamirzə Xəlilin oğlu, Ağa Mirmehdinin nəvəsi, Mir Hüseynağanın nəvəsi. 9-cu məhəllədən Mir Fətullanın qardaşı. O, məhərrəm ayında şəhər məscidində vəfat etmişdir.
7. Mirzə Hüseynin atası. – İmam küçəsi.
8. Səlik Axundu.
9. Axund Kəbalayı Əlibala – Bayat qapı.
10. Axund Hacı Pişnamaz – Ağa Molla Mütəllimin oğlu. 1928-ci ildə vəfat edib.
11. Axund Molla Qədir. 1930-cu ildə vəfat edib.
12. Qızıldiş Əbusəlimin atası axund Şübaşi – 4-cü məhəllə.
13. Axund Molla Əli.
14. Axund Hacı Saleh – Hacıkərimin oğlu. İranda vəfat edib.
15. Mirabbasın atası – axund Mir Qafar.
16. Axund Seyid – Mustafanın oğlu, Seyid Məmmədin nəvəsi. 7-ci məhəllə.
17. Axund Kərbalayı Səftərin oğlu. İranda vəfat edib.
18. Axund Hacı – Molla Məhəmməd Sadığın oğlu.

DƏRBƏNDİN MOLLALARI

1. Molla Əbuzər – Molla Mazanın nəvəsi, Kərbalayı Rəsulun oğlu, Niftalının qardaşı.
2. Molla Tağı – 7-ci məhəllənin sakini.
3. Molla Mövsüm.
4. Molla Məhəmmədəli – Kərbalayı Abbasın oğlu.
5. Molla Seyfəli.
6. Molla Əlikişi.
7. Molla Qədir.
8. Molla Nağı.
9. Molla Qəni.
10. Molla Əliəhməd – Hacı Əhədin oğlu.
11. Molla Saleh.
12. Molla Hüseyn.
13. Molla Saleh – molla Mirzə Kazımbəyin oğlu.
14. Molla Zaman.
15. Molla Hacıbala.
16. Molla Zaman – Bayat qapı.
17. Molla Müsaib – Bayat qapı.
18. Molla Vəli – 5-ci məhəllə.
19. Molla Teymur – 3-cü məhəllə.
20. Molla Məhəmmədhəsən – Hacı Molla Əlinin oğlu.
21. Molla Cəfər – Məşədi Mirzə Əhmədin oğlu.
22. Molla Məmmədağa.

Onların içərisində istedadlı və bacarıqlısı 1-ci Molla Saleh, Məhəmməd Əli, Molla Mirzə Kazımbəy, 2-ci Molla Saleh, Molla Məhəmməd Əli, Hacı Əhədin oğlu Molla Əliəhməd hesab olunurdu.

Molla Məhəmməd Ağa xristian dinini yaxşı bilirdi.

DƏRBƏND ŞƏHƏRİNİN MƏSCİDLƏRİ

1. Cümə məscidi. VII əsrin sonunda tikilmişdir.
2. Carçı qapısının yanındakı məscid. Bu məscidin yanında minarə var. Bir neçə dəfə dağıdılmışdır və bərpa edilmişdir.
3. Bayat qapının yanındakı məscid.
4. Gümri məscidi. Hazırda yoxdur.
5. Kilsə məscidi, ikinci adı Tovoa məscidi.
6. Məscid – 5-ci məhəllədə yenidən tikilir.
7. Xıdır Rza məscidi. Hazırda yoxdur.
8. Hacı Şahmərdan məscidi, 5-ci məhəllə.
9. Molla Nağı məscidi, 6-cı məhəllə.
10. Bazar hamamı məscidi, 6-cı məhəllə.
11. Qırxlar qapısı məscidi. Şah Abbasın dövründə tikilmişdir.
12. Kərbalayı Hürnisənin adını daşıyan məscid, 4-cü məhəllə.
13. 4-cü məhəllədə ikinci məscid.
14. Çahartəpədəki məscid.

15. Molla daşı məscidi. Hazırda yoxdur.
16. Minarəli məscid.
17. 2-ci məhəllədəki məscid. Hazırda yoxdur.
18. Qoruqda yerləşən məscid.
19. İranlıların məscidi, 2-ci məhəllə. Bu məscidin tikilməsi üçün torpaq sahəsini Hacı Tağı vermiş və maliyyə köməyi göstərmişdir.
20. 20-ci məscid. Qorunub saxlanılmamışdır. 3-cü məhəllə.
21. 21-ci məscid, 3-cü məhəllə.
22. 22-ci məscid, 5-ci məhəllə.
23. 23-cü məscid – Papaqçılar nəslinin məsçidi.

Dərbənddə bir Cümə məscidi və 22 xırda məscid var. Cümə məscidindən başqa, qalanları – təkə adlanır. Dərbəndlilər bu məscidləri ona görə təkə adlandırırlar ki, orada bir ibadət otağı var.

DƏRBƏND ŞƏHƏRİ «REALNI» MƏKTƏBİNİN MƏZUNLARI

1. Məhəmməd Rza Hacı Cəfər oğlu, Hacı Rəsulun nəvəsi (5-cı məhəllə).
2. Həbibulla Məhəmməd Rza Cəfərov (5-cı məhəllə). İki universitet bitirib.
3. Mustafa Məşədi Hacıbaba oğlu Cəfərov (5-cı məhəllə).
4. Fərəc Əlirza oğlu Cəfərov (5-cı məhəllə).
5. Zeynal Məşədi Həsən oğlu Qafarov (6-cı məhəllə).
6. Mirkazım Mirməhəmməd Əli oğlu Seyidov (6-cı məhəllə).
7. Asəf Zeynallı (6-cı məhəllə).
8. Əliheydər Kərbalayı Həmzə oğlu Əsgərov (6-cı məhəllə).
9. Qəzənfər Məşədi Hacıbaba oğlu Talıbov (6-cı məhəllə).
10. Əbdülcəlil Məşədi Həmzə oğlu Əsgərov (6-cı məhəllə).
11. Məmmədkazım Ələkbərli (5-cı məhəllə).
12. Minətulla Molla Hüseyn oğlu (5-ci məhəllə).
13. Məmmədyəmən Molla Hüseynqulu oğlu (5-ci məhəllə).
14. Mirzə Əhməd bəy Məmmədbəyov (6-cı məhəllə).
15. Kərim Mirzə Əhməd oğlu Məmmədbəyov (6-cı məhəllə).
16. Hadi Mirzə Əhməd oğlu Məmmədbəyov (6-cı məhəllə).
17. Süleyman Əhmədbəy oğlu Soltanov (6-cı məhəllə).
18. Həsənbala Abdi oğlu Eldarov (6-cı məhəllə).
19. Eminbala Eldarov (6-cı məhəllə).
20. Cəlil Baba bəy oğlu Soltanov (6-cı məhəllə).
21. Məhəmmədəli Mirzəağa oğlu Teymurov (7-ci məhəllə).
22. Ağa Mirzəağa oğlu Teymurov (7-ci məhəllə).
23. Mirzə Əmin Mirzə Bəhmən oğlu Teymurov (7-ci məhəllə).
24. İsabəy Hacıağa bəy oğlu Mirzəbəyov (7-ci məhəllə).
25. Əbdüləhəd Məşədi Məmmədkazım oğlu (7-ci məhəllə).
26. İbrahim bəy Hacı bəy oğlu Sadıqov (7-ci məhəllə).
27. Həmid bəy Əhmədxan bəy oğlu Sadıqov (7-ci məhəllə).
28. Mürsəl bəy Ağadadaş bəy oğlu Xıdırbəyov (7-ci məhəllə).
29. Məhəmməd bəy Mirzəbəyov (7-ci məhəllə).
30. Həmid bəy Vəkilov (7-ci məhəllə).
31. Sədulla bəy Vəkilov (7-ci məhəllə).
32. Nəsrulla Hacıbaba oğlu Vəzirov (7-ci məhəllə).
33. Həmdulla Vəzirov (7-ci məhəllə).
34. Əhməd bəy Mirzəbəyov (9-cu məhəllə).
35. Ağabəy Əhməd bəy oğlu Mirzəbəyov (9-cu məhəllə).
36. Abdulla Əhməd bəy oğlu Mirzəbəyov (9-cu məhəllə).
37. Bəhlər İsmayıl bəy oğlu Mirzəbəyov (9-cu məhəllə).
38. Mərdan bəy Əhməd bəy oğlu Mirzəbəyov (9-cu məhəllə).
39. Hacımirzə Hacı Fətulla oğlu Abdullayev (9-cu məhəllə).
40. Həmdulla Abdullayev (9-cu məhəllə).
41. Əsəd Abdullayev (9-cu məhəllə).
42. Şahlar Mirzəbəy oğlu Abdullayev.
43. Feyfulla Feyzulla oğlu Abdullayev (9-cu məhəllə).
44. Müzənfər Əliyev (4-cü məhəllə).
45. Xandadaş Məşədi Mirzə oğlu Tağıyev (8-ci məhəllə).
46. Ənvər Tağıyev (8-ci məhəllə).
47. Şəmsəddin Zamanov (9-cu məhəllə).
48. Bədrəddin Məşədi Mirzəbəy oğlu Əbdürəhimov (4-cü məhəllə).
49. Mirzə Urva Məhəmməd Rza oğlu (6-cı məhəllə).
50. Hacıhəsən Hacı Əlimərdan oğlu Fiqarov (4-cü məhəllə).

51. Seyfulla Fətulla oğlu Fiqarov (4-cü məhəllə).
52. Əlirza Ələkbər oğlu Fiqarov (4-cü məhəllə).
53. Xeşdər Səfərov (3-cü məhəllə).
54. Saleh Məşədi Fətulla oğlu Hüseynov (2-ci məhəllə).
55. Ənvər Əlibəy oğlu Zeynalov (9-cu məhəllə).
56. Şəfi Hacı Hacıağa oğlu Cavadov (2-ci məhəllə).
57. Şıxşabəy Əbdürəhimov (2-ci məhəllə).
58. Nüsrət İsgəndərov (3-cü məhəllə).
59. Teyyub, şair Gümrinin nəvəsi (9-cu məhəllə).
60. Muxtar Səfərov (4-cü məhəllə).
61. Talıb Talıbov (4-cü məhəllə).
62. Mirzəəhməd Rzayev (4-cü məhəllə).
64. İsabəy Minətulla oğlu Heydərov (1-ci məhəllə).
65. Qasım bəy (1-ci məhəllə).
66. İbrahim bəy İsabəy oğlu (1-ci məhəllə).
67. Ömər bəy (1-ci məhəllə).
68. Məhəmmədsalih Nəzərov (4-cü məhəllə).
69. Mirzə Kadi Məmərza bəy oğlu (1-ci məhəllə).
70. Mikayıl Əbdürəhimov (4-cü məhəllə).
71. Muxtar Ərəblinski (Kilsə küçəsi).
72. İsgəndər Ərəblinski (Kilsə küçəsi).
73. Kərim Eminov, milyonçu Hacı Şahmərdanın oğlu (6-cı məhəllə).
74. Məhəmməd bəy Əli bəy oğlu Məhərrəmov (8-ci məhəllə).
75. Cümşüd İmranbəy oğlu Rəsulbəyov (8-ci məhəllə).
76. Məhəmməd bəy Yəhya bəy oğlu (8-ci məhəllə).
77. Mehrab bəy Mirzəbəyov, Məhəmməd bəyin oğlu (9-cu məhəllə).
78. Hüseyn Hacıbaba oğlu Axundov (7-ci məhəllə).
79. Məşədi Məhəmmədbağır Kazımov (5-ci məhəllə).
80. Yusif Rzayev (7-ci məhəllə).

DƏRBƏND ŞƏHƏRİNİN TANINMIŞ NƏSİLLƏRİ
(XIX-XX əsrlər)

Milyonçu Hacı Zülfiqarın (Fiqarov) nəsli

Milyonçu Hacı Zülfiqarın nəsli 4-cü məhəllədə yaşamışdır. Onun dörd oğlu var idi: böyük oğlu – Hacı Əlimərdan, ikinci oğlu – Kərbalayı Əsgər, üçüncü oğlu – Fətulla, dördüncü oğlu – Hacı Əlirza.

Hacı Əlimərdanın birinci nigahından 4 qızı və iki oğlu, ikinci nigahından isə iki oğlu var idi. Hacı Əlimərdanın arvadı Səkinə xanım 4-cü məhəllənin sakini Hacı Molla Əlinin qızı və Molla Məhəmməd Həsənin bacısı idi. 1882-ci ildə vəfat etmiş və Dərbəndin «Qırxlar» qəbiristanlığında dəfn olunmuşdur. Hacı Əlimərdan isə həcc ziyarətində olarkən vəfat etmişdir. Kərbalayı Əsgərin bir oğlu və 2 qızı var idi. Kərbalayı Əsgərin oğlu Hacımirzə – şair idi. O, öz şeirlərini Zövqi təxəllüsü ilə yazmışdır. Zövqi şeirlərində 1918-ci ildə türk qoşunlarının Dərbəndə gəlişini vəsf etmişdir. Təəssüf ki, onun yeganə qızı olan Sürəyya atasının şeirlərini qoruyub saxlaya bilməmişdir.

Fətullanın 2 oğlu və 3 qızı var idi. Onun nəslinin davamçıları hazırda Bakıda yaşayırlar.

Hacı Zülfiqarın 4-cü oğlu Əlirza gənc yaşında vəfat etmişdir. Hacı Zülfiqarın və onun nəslinə Buynaksk küçəsində yerləşən Dərbənd Dövlət Bankının binası, Abdullayevlərin malikanəsi (hazırda – zona təcrübə məntəqəsi), Dərbəndin şərq hissəsindəki 4 ha üzüm bağları və Bakıda şəxsi mülk məxsus idi.

Ulu babalarımız və onların varisləri
(bu siyahı Dərbənd şairi Hacı Mirzə Fiqarovun («Zövqi») cib kitabçasından götürülmüş, sonralar isə Əli Əhməd Fiqarovun qızı Fiqarova Ayət tərəfindən ona əlavələr olunmuşdur)

1. Şam xan
2. Fətəli xan
3. Mehdi xan
4. İsmi xan
5. Məhəmməd xan
6. Mustafa xan
7. Fətəli bəy
8. Səfər bəy
9. Musa bəy
10. Nağı bəy
11. Rüstəm bəy
12. Ağası bəy
13. Övsət bəy
14. Məhəmməd Nəbi bəy
15. Əsgər bəy
16. Həsən bəy
17. Rizə bəy
18. Bağır bəy
19. Mürsəl bəy
20. Əli Mərdan bəy

21. Fətulla bəy
22. Heydər bəy
23. Niftulla bəy
24. Hüseyn bəy
25. Rizə Qulu bəy
26. Əli bəy
27. Məhəmməd Rizə bəy
28. Məhəmməd Nəbi
29. Hacı Zülfüqar
30. Hacı Əli Mərdan, Hacı Zülfüqarın oğlu
31. Fətulla, Hacı Zülfüqarın oğlu
32. Kərbalayı Əsgər, Hacı Zülfüqarın oğlu
33. Hacı Mirzə, Kərbalayı Əsgərin oğlu
34. Əli Əkbər, Hacı Əli Mərdanın oğlu (1848)
35. Əli Mirzə, Hacı Əli Mərdanın oğlu (1880)
36. Hacı Həsən, Hacı Əli Mərdanın oğlu (1887)
37. Hacı Hüseyn, Hacı Əli Mərdanın oğlu (1888)
38. Məhəmməd Nəbi, Fətullanın oğlu (1875)
39. Əli Əkbər (Ələkbər), Rizə Qulunun oğlu
40. Əli Əhməd, Fətullanın oğlu
41. Rizə Qulu, Əli Əkbərin oğlu
42. Sədulla, Əli Əkbərin oğlu
43. Əli Rza, Əli Əkbərin oğlu
44. Minətulla, Əli Mirzənin oğlu
45. Zöhrab, Əli Mirzənin oğlu
46. Şahlar, Əli Mirzənin oğlu
47. Rüstəm, Əli Mirzənin oğlu
48. Əli, Hacı Həsənin oğlu
49. Tofiq, Hacı Həsənin oğlu
50. Rafiq, Hacı Həsənin oğlu
51. İsmayıl, Hacı Həsənin oğlu
52. Çingiz, Hacı Hüseynin oğlu
53. Namiq, Hacı Hüseynin oğlu
54. İsmət, Hacı Hüseynin oğlu
55. Seyfulla, Məhəmməd Nəbinin oğlu
56. Müseyib, Əli Əhmədin oğlu
57. Məhəmməd, Seyfullanın oğlu
58. Şamil, Seyfullanın oğlu
59. Xalid, Rizə Qulunun oğlu
60. Nazim, Rizə Qulunun oğlu
61. Kamil Rizə Qulunun oğlu
62. Fərhad, Əli Rzanın oğlu
63. Vaqif, Rüstəmin oğlu
64. İmran, Əlinin oğlu
65. Hüseyn, Çingizin oğlu
66. Eldar, Namiqin oğlu
67. Vüqar, İsmətin oğlu
68. Fuad, Məhəmmədin oğlu
69. Fikrət, Məhəmmədin oğlu
70. Emin, Xalidin oğlu
71. Əlirza, Əli Əkbərin oğlu
72. Rüfət, Fərhadın oğlu
73. Teymur, Fərhadın oğlu

Fiqarov soyadı 1841-ci ildən mövcuddur. Tacir Hacı Tağı Hacı Kazım oğlunun nəsli (5-ci məhəllə)

5-ci məhəllənin sakini Hacı Tağı Dərbənddə tanınmış nəslin nümayəndəsidir. O, Məşədi Sədullanın nəvəsi və Hacı Kazımın oğlu idi. Hacı Kazımın 3 oğlu və iki qızı var idi.

Hacı Tağının arvadı Xanım Məmməd bəyin qızı və Mirzə Əhmədin bacısı idi.

Hacı Tağının atası Hacı Kazım 1856-cı ildə rus imperatoru II Aleksandrın tacqoyma mərasimində iştirak edən yeganə dərbəndli tacir idi.

Tacqoyma mərasimindən sonra II Aleksandr ziyafət vermiş və qonaqların xahişini və arzularını dinləmişdir. Ziyafətdə iştirak edən Hacı Kazım Dərbənddə rus məktəbinin açılmasını xahiş etmişdir. Hacı Kazımın xahişi qəbul olunmuş və 1860-cı ildə Dərbənddə realnı məktəbi fəaliyyət göstərməyə başlamışdır. Bu məktəb məzunların dünyagörüşünə böyük təsir göstərmişdir. Hacı Kazımın nəslindən bu imperator məktəbini onun nəvəsi Məşədi Məmmədbağır (Hacı Tağının böyük oğlu), Hacıağanın iki oğlu – Məşədi Əlihüseyn və Miqdar bitirmişdir. Məktəbin məzunları Dərbəndin ziyalı elitasının yaranmasında, Dərbənd şəhərinin mədəni maarif həyatının inkişafında mühüm rol oynamışdır. Realnı məktbinin məzunları siyasi dövlət xadimləri və görkəmli alimlər olmuşlar. Hacı Tağının nəslinə yaşadıqları malikanə, hamam, karvansara, bir sıra dükanlar və Bakıda İçərişəhərdə dördotaqlı ikimərtəbəli ev məxsus idi.

Tacir Hacı Cəfər Əli Əsgər oğlu nəsli (5-ci məhəllə)

Hacı Cəfər Hacı Əli Əsgər oğlu – 1829-cu ildə Dərbənd şəhərində məşhur tacır Hacı Əli Əsgərin ailəsində anadan olmuşdur. Atası kimi o da «Hacı» adını Məkkəyə ziyarət etdikdən sonra almışdır. O, həm tacir, həm də Dərbənd şəhərinin tanınmış ağsaqqalı olmuşdur. O, mesenat idi və xeyriyyəçilik işləri ilə məşğul olurdu. Onun böyük mehriban ailəsi – şəhərdə bariz nümunə idi.

Tacir Hacı Cəfər Əli Əsgər oğlunun nəsli

Hacı Cəfər Əli Əsgər oğlu 5-ci məhəllədə yaşamışdır.

Hacı Cəfərin ikinci arvadı – Səkinə xanım Hacı Soltanın qızı, Ağamirzənin nəvəsi və Çitnarşar nəslindən idi.

Hacı Cəfərin 4 oğlu və 4 qızı var idi. Böyük oğlu – Məhəmməd Rza realnı mətəbinin məzunu, ziyalı, ağıllı, mədəni, rus və ərəb ədəbiyyatını mükəmməl bilən bir insan idi. O, 1944-cü ildə vəfat etmişdir.

Hacı Cəfərin ikinci oğlunun adı Nunadi – Əlirza, 3-cü oğlunun adı Məşədi Məmmədbağır, 4-cü oğlunun adı Zeynalabdin idi. Onların üçmərtəbəli evi 16 otaqdan ibarət idi.

Hacı Cəfərin böyük qızı – Hacıbikə Hacıbaba Vəzirovun arvadı, Həmdulla və Nəsrullanın anası idi. İkinci qızı – Məsumə xanım Abdullayevlərin gəlini, Hacı Abdullanın kiçik oğlu Feyzullanın arvadı və Seyfullanın anası idi. Üçüncü qızı – Rühən xanım 7-ci məhəllənin sakini Məşədi Qasımın arvadı idi.

Dördüncü qızı – Tuqiyyə xanım – Hacı Məhəmməd Hüseynin gəlini, Əmirəlinin oğlu Əli Soltanın arvadı idi.

5-ci məhəllənin sakini Məhəmməd Rzanın arvadı Umleyla «Çahartəpə» rayonundan olan İsabəyin bacısı idi.

Əlirzanın arvadı – Fatma xanım tacir Hacı Hüseynin nəvəsi Ağa Rəhimin qızı idi.

6-cı məhəllənin sakini Məşədi Məhəmmədbağırın arvadı – Bikə xanım tacir Məşədi Əzimin qızı, Tağıyevin qızlar məktəbinin məzunu, Abdulla və Kamilin anası idi.

Zeynalabdinin arvadı – Şirvandan olan bağbanın qızı idi.

Məmmədrzanın iki oğlu: Həbibulla – iki universitet, Nəbiulla isə Azərbaycan Dövlət Universitetini bitirmişdir. Nəbiulla Azərbaycan Nazirlər Sovetinin əməkdaşı olmuşdur. 1934-cü ildə yol qəzası nəticəsində həlak olmuşdur.

Əlirzanın yeganə oğlunun adını Türkiyədə yaşayan Ankara Universitetinin məzunu Fərəculla daşıyır.

Məşədi Məmmədbağırın oğlu Kamil mühəndisdi və Bakıda yaşayır. Əlirzanın 3 qızı var idi. Böyük qızının adı – Maral idi. Onun oğlu Hətəm Cavadov 1929-cu ildə anadan olub. O, Moskva Dövlət Universitetinin professoru və iqtisad elmləri doktoru idi. 2001-ci ildə vəfat etmiş və Moskva şəhərində dəfn olunmuşdur.

Səkinənin oğlu Əhməd Ələkbərov Azərbaycan

Respublikası Prokurorluğunda general-mayor rütbəsində xidmət edir.

Nəzarətin oğlu Əliyev Nurulla Arif oğlu – 1-ci dərəcəli kapitan, tarix elmləri doktorudur. Azərbaycan Respublikasının Çin Xalq Respublikasında hərbi attaşesi olub. «Dərbənd» Xeyriyyə Cəmiyyətinin sədridir.


Səltənət Baba dayının gəlini, Mehdibalanın arvadı olmuşdur. Batalyon komandiri Mehdibala 1942–ci ildə həlak olmuşdur.

Hacı Cəfər Əliəsgər oğlu deputatlar heyəti tərkibində. Dərbəndlilər bir neçə dəfə Rusiya imperatorlarının tacqoyma mərasiminə öz nümayəndələrini göndərmək şərəfinə nail olmuşlar.

Rus imperatoru II Aleksandrın tacqoyma mərasiminə (1855-1881) 1856-ci ilin avqustunda əlahəzrətin əmri ilə Dərbənd quberniyasından 2 deputat: biri «ali təbəqədən» (quberniya rəhbərliyi nəzərdə tutulur), o biri isə «fəxri şəhər sakinlərindən» təyin edilirdi. Fəxri şəhər sakinlərindən Dərbənd sakini tacir Hacı Kazım Hacı Ağa seçilmişdir. Hələ 1831-ci ildə ona I Nikolay tərəfindən «Qızıl medal» (1825-1855) verilmişdir. Onu Moskvaya müşayiət etmək üçün başqa şəhər sakini, dəfələrlə Rusiya şəhərlərində olmuş Hacı Cəfər Əli Əsgər oğlu təyin edilmişlər.

Tacqoyma mərasimindən sonra Hacı Kazım Hacı Ağa oğlu imperator tərəfindən Andreyev lentində «Səyə görə» yazısı olan qızıl medalla, **Hacı Cəfər Əli Əsgər oğlu** isə Annenkovsk lentini yaxaya vurmaqla gümüş medalla təltif edilmişlər.

Məmməd Rza Hacı Cəfər oğlu Cəfərov – Dərbənd şəhərində 1863-cü il mayın 10-da məşhur tacir ailəsində anadan olmuşdur. Azərbaycanlıdır.



Məşədi Məmməd Rzanın atası – Hacı Cəfər Əli Əsgər oğlu şəhərdə məşhur tacir və böyük torpaq sahibi idi. Dərbənd şəhərinin məşhur bir nəslini təmsil edirdi (5-ci məhəllə).

Məşədi Məmməd Rza Dərbənd şəhərində realnı məktəbini bitirmişdir. O, şəhərin siyasi və mədəni həyatında fəal iştirak edirdi. Savadlılığına, rus və ərəb ədəbiyyatını bildiyinə, apardığı xeyriyyəçilik işlərinə görə şəhər sakinləri arasında böyük nüfuza malik idi.

Buna görə də onun şəhər başçısı vəzifəsinə namizədliyi irəli sürülmüş, lakin o bu vəzifədən imtina etmişdir. 1896-cı ildən 1917-ci ilədək azad seçkilər əsasında ilk dəfə seçilmiş Dərbənd şəhər özünüidarəetmə təşkilatının üzvü olmuşdur. Dərbənd şəhərində dəfn edilmişdir.

Arvadı **Umleyla Cəfərova** – Dərbənd şəhərində anadan olmuşdur və «Çahartəpə» məhəlləsində məşhur tacir İsabəyovların nəslini təmsil etmişdir. Azərbaycanlıdır.

Övladları:

oğlu – Həbibulla Məmməd Rza oğlu Cəfərov (1898-1977);

oğlu – Nəbiulla Məmməd Rza oğlu Cəfərov (1911-1934);

qızı – Əsbənd Məmməd Rza qızı Cəfərova (1913-1972).

Hacı Cəfər Əli Əsgər oğlunun nəslinin nümayəndələri Dərbənd şəhərinin ictimai-siyasi həyatında mühüm rol oynamış və respublikanın dövlət orqanlarında məsul vəzifələrdə çalışmışlar. Onlardan Hacı Əli Əsgər, Hacı Cəfər, Hacı Məmməd Rza, Məşədi Əzim XIX əsrin sonu və XX əsrin əvvəllərində Dərbənd şəhər icmasına səlahiyyətli üzv seçilmişlər.

Respublikada sovet hakimiyyəti qurulduqdan və şəhərin varlı tacirləri, torpaq sahibləri, mülkədarları arasında geniş miqyaslı inkvizasiya aparıldıqdan sonra Məmməd Rza Hacı Cəfər oğlu, Məşədi Əzim, Məmməd Bağır Hacı Cəfər oğlu, Babadayı Hacı Əsgər oğlu, Əli Heydər İsmayılov və başqalarının əmlakı musadirə olundu, özləri isə Dərbənd şəhərindən sürgün edildilər. Lakin yaranmış çətin vəziyyətə baxmayaraq, onlar özlərində qüvvə tapıb normal həyata qovuşdular, yenidən doğma Dərbəndə qayıtdılar və nəslin ənənələrini, ictimai fəaliyyətlərini davam etdirdilər. Məhz bunun nəticəsində onların övladları yaxşı təhsil almağa, dövlət və təsərrüfat işlərində fəal iştirak etməyə və yeni şəraitdə cəmiyyətdə hörmət qazanmağa müvəffəq oldular.

Çox təəssüf olsun ki, onların xeyli hissəsi artıq aramızda yoxdur. Lakin ləyaqətli nəsil yetişdirən həmin adamların bir neçəsi yaş həddindən və yaşadıqları yerdən asılı olmayaraq, əmək fəaliyyə-

tini davam etdirir, respublikanın ictimai və mədəni həyatında fəal iştirak edirlər.

Bu nəslin parlaq nümayəndələri sovet-fin müharibəsinin Kareliya cəbhəsində, 1941-1945-ci illər müharibəsinin iştirakçısı olmuş, onlardan bəzisi isə döyüş meydanlarında həlak olmuş, Almaniya və Rusiyada torpağa tapşırılmışlar. 1941-1945-ci illər müharibəsində göstərdikləri şücaət və qəhrəmanlıqlara görə Əsgərov Mehdibala Babadayı oğlu, Nağıyev Kərim İslam oğlu ölümdən sonra hökumət mukafatlarına layiq görülmüşlər. 1941-1945-ci illər müharibəsində yaralanmış Bayramov Paşa Qulam oğlu, Əmirov Məzahir Əli Soltan oğlu və başqaları dövlət mükafatları ilə təltif edilmişlər.

Həmin adamlardan bəziləri dövlət, partiya, hərbi və hüquq orqanlarında fəaliyyət göstərirdilər. Cəfərov Həbibulla Məmməd Rza oğlu (Azərbaycan Respublikası Kənd təsərrüfatı nazirinin müavini), Həmzəyev Sədulla Hacı Baba oğlu (Bakıda Dağıstan nümayəndəliyinin başçısı), Ələkbərov Şahlar Sadıq oğlu (Azərbaycan Kommunist Partiyası Yasamal rayon partiya komitəsinin şöbə müdiri, Bakı kooperativ texnikumunun direktoru), İzmaylov İbrahimpaşa Hacı Mirzə oğlu (Dərbənd Şəhər İcraiyyə Komitəsi torpaq şöbəsinin müdiri), hazırda ədliyyə general-mayoru Ələkbərov Əhməd Şahlar oğlu (Baş prokurorun köməkçisi - Azərbaycan Respublikası Prokurorluğunun şöbə müdiri), Cəfərov Füzuli Həbibulla oğlu (Təhlükəsizlik xidməti rəisinin müavini - Azərbaycan Dəmiryolu Yanğın Nəzarətinin baş müfəttişi), polkovnik Əmirov Rüfət Məzahir oğlu (Azərbaycan hərb tarixi muzeyinin direktoru, C.Naxçıvanski adına hərbi məktəbin rəisi), Əliyev Nurulla Arif oğlu (Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin rəisi, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Çin Xalq Respublikasındakı hərbi attaşesi, «Dərbənd» Xeyriyyə Cəmiyyətinin sədri), Əsgərov Baba Niyaz oğlu (Sumqayıt şəhər İcra hakimiyətinin şöbə müdiri), Kazımov Ənsar Qaya oğlu (Dağıstan Pedaqoji Universiteti Dərbənd filialının prorektoru), İsmayılov Xəlil Heydər oğlu (Qusar rayonunun hərbi komissarı) öz fəaliyyəilərini davam etdirirlər.

Şəhərin ictimai və mədəni həyatında bu nəslin nümayəndələri olan İzmaylov Əbilfəz Hacı Mirzə oğlu (Dərbənddə Azərbaycan Dram Teatrının direktoru), onun həyat yoldaşı İzmaylova Sira Aleksandrovna (Dağıstan Respublikasının Xalq artisti, RSFSR-nın əməkdar artisti), Əmirov Məzahir Əli Soltan oğlu (Dərbənddə Azərbaycan Dram Teatrının aparıcı aktyoru) və başqaları geniş şöhrət qazanmışlar. Hazırda Əbülfət Hacı Mirzə oğlunun nəvəsi İzmaylov Rüstəm Çingiz oğlu Moskvanın tanınmış teatrlarından birinin aktyorudur. Rəngkarlıq sahəsində gözəl əsərləri olan İzmaylov Cəmaləddin Xəlil oğlu Respublikanın tanınmış rəssamıdır.

Elm və təhsil sahəsində Respublikada və onun hüdudlarından kənarda tanınan dərbəndli alimlərin pedaqogika, psixologiya, iqtisadiyyat, təbabət və hərbi dənizçilik sahələrinin inkişafında mühüm xidmətləri olmuşdur. İqtisad elmləri doktoru, professor Cavadov Hətəm Ağaəli oğlu (Moskvada SSRİ Xalq təsərrüfatı Akademiyasının kafedra müdiri), biologiya elmləri doktoru, professor Əliyeva (Həmzəyeva) İzzət Sədulla qızı (ATİ-də kafedranın professoru) və onun həyat yoldaşı, tibb elmləri namizədi Əliyev Həbib (Respublika xəstəxanasının baş həkimi), psixologiya elmləri doktoru, professor İzmaylov Çingiz Əbilfəz oğlu (Lomonosov adına Moskva Dövlət Universitetinin psixologiya kafedrasının müdiri) və onun həyat yoldaşı, psixologiya elmləri namizədi İzmaylova Tamara, tarix elmləri doktoru Əliyev Nurulla Arif oğlu (Azərbaycan Respublikasının Çin Xalq Respublikasında hərbi attaşesi), tarix elmləri namizədi Kazımov Ənsar Qaya oğlu (Dağıstan Pedaqoji Universitetinin Dərbənd filialının prorektoru), Azərbaycan Respublikasının Əməkdar müəllimi Cəfərova Nailə Fərəculla qızı və başqalarının elmin inkişafı sahəsində böyük xidmətləri var.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin quruculuq işlərində, hərbi və hərbi dəniz təhsili sisteminin yaradılmasında ehtiyatda olan polkovnik Əmirov Rüfət Məzahir oğlu (Azərbaycan Respublikası Silahlı Qüvvələri Baş qərargah rəisinin birinci müavini), birinci dərəcəli kapitan, tarix elmləri doktoru Əliyev Nurulla Arif oğlu (Azərbaycan Respublikası Müdafiə Nazirliyinin baş köməkçisi, sonra isə Ali Hərbi Dənizçilik Məktəbinin rəisi, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Çin Xalq Respublikasındakı hərbi attaşesi), ehtiyatda olan polkovnik-leytenant Əmirov Otello Məzahir oğlu (Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi əlaqələr şöbəsinin baş zabiti), polkovnik-leytenant

Əliyev Abdulla Arif oğlu (hərbi hissə komandiri), ehtiyatda olan mayor Əmirov Niyazi Məzahir oğlu (Azərbaycan Respublikası Müdafiə Nazirinin yanğın təhlükəsizliyi şöbəsi rəisinin müavini) və başqalarının mühüm xidmətləri olmuşdur. Hazırda Əliyev Nurullanın oğlu Əliyev Bəxtiyar İstanbul şəhərində hərbi dəniz liseyini bitirdikdən sonra Türkiyə Hərbi Qüvvələrinin Ankara şəhərinin Gülhanə Hərbi Tibb Akademiyasında təhsilini davam etdirib və hazırda Hərbi Mərkəzi Klinik Hospitalda çılışır.

Həbibulla Məmməd Rza oğlu Cəfərov – 1898-ci il dekabrın 31-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.



Həbibullanın atası Məhəmməd Rza Hacı Səfər oğlu Hacı Əli Əsgərin nəvəsi olmuşdur, Dərbənddə realnı məktəbini bitirmişdir, məşhur tacir və ilk dəfə azad seçki əsasında seçilmiş Dərbənd şəhər özünüidarə təşkilatının üzvü idi (1896-1917). Dərbənd şəhərinin məşhur bir nəslini təmsil edirdi (5-ci məhəllə).

O, M.V.Lomonosov adına Moskva Dövlət Universitetini, Novo-Çerkask Kənd Təsərrüfatı Universitetini bitirmişdir. Uzun müddət müəllimlik sahəsində çalışmışdır: sadə müəllimdən Dərbənd şəhərinin rayon xalq təhsili şöbəsinin müdiri vəzifəsinə qədər yüksəlmişdir.

Özünün maliyyə vəsaiti hesabına orta məktəb tikdirmişdir və uzun müddət həmin məktəbin direktoru olmuşdur.

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Elmi-Tədqiqat İnstitutunda baş elmi işçi, Respublikanın baş aqronomu və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirinin müavini vəzifəsində işləmişdir.

Üzümçülüyün və şərabçılığın inkişafına elmi üsulların tətbiqi məsələlərinə həsr olunmuş və Azərbaycan Respublikasında nəşr olunmuş bir sıra kitabların və məqalələrin müəllifi olmuşdur.

Peşəkarlıq fəaliyyəti dövründə göstərdiyi xidmətlərə görə dövlət medalları, fərqləndirici döş nişanı və fəxri fərmanlarla mükafatlandırılmışdır. Əmək veteranı olmuşdur.

1977-ci ildə vəfat etmişdir. Bakı şəhərində dəfn olunmuşdur.

Təvarət Hacı Mirzə qızı Cəfərova (İzmaylova) – 1913-cü ilin fevral ayının 13-də Dərbənd şəhərində məşhur tacir ailəsində anadan olmuşdur. Təvarət xanımın atası – Hacı Mirzə İzmaylov Dərbənd şəhərinin məşhur tacirlərindən idi və 6-cı məhəllənin məşhur nəslini təmsil edirdi.

Dərbənd şəhər pedaqoji məktəbini tərbiyəçi ixtisası üzrə bitirmişdir. 2 oğul və 4 qız böyüdüb tərbiyə etmişdir. 1987-ci ildə vəfat etmişdir. Bakı şəhərində dəfn olunub.

Övladları:

oğlu – Nazim Həbibulla oğlu Cəfərov (1928);

qızı – Adilə Həbibulla qızı Cəfərova (1930);

qızı – Vilayət Həbibulla qızı Cəfərova (1935);

qızı – Nəzarət Həbibulla qızı Cəfərova (1938-2007);

oğlu – Fizuli Həbibulla oğlu Cəfərov (1941);

qızı – Həqiqət Həbibulla qızı Cəfərova (1955).

Nəbiulla Məmməd Rza oğlu Cəfərov – 1911-ci ildə Dağıstanın Dərbənd şəhərində məşhur tacir ailəsində anadan olmuşdur. Azərbaycanlıdır.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetini və Azərbaycan Dövlət Universitetini bitirmişdir.

1930-cu ildən 1931-ci ilədək Dərbənd şəhər Xalq Komissarları Sovetində işləmişdir. 1931-ci ildən 1934-cü ilə qədər isə hökumət evində Azərbaycan Respublikasının Nazirlər Kabinetində işləmişdir.

1934-cü ildə xidməti vəzifəsini yerinə yetirərkən yol qəzası nəticəsində həlak olmuşdur. Bakı şəhərində fəxri xiyabanda dəfn edilmişdir.


S.M.Kirov adına parkın salınması ilə əlaqədar onun qəbri Dərbənd şəhərinə köçürülmüşdür.

Əsbənd Məmməd Rza qızı Abdullayeva (Cəfərova) – 1913-cü ildə Dağıstanın Dərbənd şəhərində məşhur tacir ailəsində anadan olmuşdur. Azərbaycanlıdır.

Şəhərdə məşhur milyonçu Abdullayev ailəsini təmsil edən Seyfulla bəyə ərə getmiş və həyatını ailəsinə həsr etmişdir.

1972-ci ildə vəfat etmişdir və Dərbənd şəhərində dəfn edilmişdir.

Məmməd Bağır Cəfər oğlı Cəfərov – 1878-ci ildə Dərbənd şəhərində anadan olmuşdur.



Azərbaycanlıdır. Məmməd Bağırın atası – Hacı Cəfər Ələsgər oğlu Dərbənd şəhərinin məşhur tacirlərindən biri olmuşdur.

Məmməd Bağırın ailəsində onun qardaşları Hacı Məmməd Rza, Əlirza və Zeynalabdin təmsil olunurdu.

Məmməd Bağır Dərbənd şəhərində mədrəsəni bitirmiş və yaxşı təhsil almışdır, ərəb və fars dillərini bilirdi. O, torpaq sahibi və şəhərdə böyük daşınmaz əmlaka malik idi, şəhərdə ticarətlə məşğul olurdu və İrandan gətirilən malları satırdı.

Məmməd Bağırın arvadı tanınmış tacir Məşədi Əzim Həmzəyevin qızı Bikə xanım idi.

Onların övladları:

oğlu – Abdulla Məmməd Bağır oğlu Cəfərov (1923-1992). Bir oğlu var.

Oğlu – Kamil Məmməd Bağır oğlu Cəfərov (1925).

Cəfərov Kamil Məmməd Bağır oğlu – 1925-ci il iyul ayının 9-da Dərbənd şəhərində anadan olmuşdur.

Bakı şəhərində peşə-mədən məktəbini (1932-1937), Dadaşov adına Gəncə İnşaat Texnikumunu kəşfiyyat qurğusu texniki ixtisası üzrə (1965-1970) bitirmişdir.

Uzun müddət Geologiya Nazirliyi sistemində kollektor və istehsalat ustası vəzifəsində işləmişdir (1946-1990).

Fədakar əmək fəaliyyətinə görə dövlət orden və medalları ilə təltif edilmişdir. Böyük Vətən müharibəsi iştirakçısıdır. Böyük Vətən müharibəsi illərində Kareliya cəbhəsində top tuşlayıcısı olmuşdur (1943-1945). Əmək veteranıdır.

24 oktyabr 2006-cı ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Kamil Məmməd Bağır oğlunun arvadı – **Cəfərova (Nağıyeva) Amilə İslam qızı** – 1930-cu il iyunun 14-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

Dərbənd pedaqoji məktəbini müəllim ixtisası üzrə bitirmişdir (1946-1949).

Uzun müddət Dərbənd (1950-1952) və Bakı şəhərlərinin (1961-1969) məktəbəqədər müəssisələrində müəllim, sonra Azneft Birliyinin məktəbəqədər müəssisələri üzrə baş inspektor vəzifəsində işləmişdir (1969-1987).

Şəhərin məktəbəqədər müəssisələrində apardığı uğurlu tərbiyə işinə görə Fəxri fərmanlarla və «SSRİ neft sənayesi əlaçısı» döş nişanı ilə təltif edilmişdir (1985).

Əmək veteranıdır (1987).

Övladları:

oğlu – Cəfərov Fuad Kamil oğlu (1952);

qızı – Cəfərova Şövkət Kamil qızı (1954);

oğlu – Cəfərov Taleyim Kamil oğlu (1963).

Tacir Hacı Əsgər Məmmədyarovun nəsli

Babadayı Hacı Əsgər oğlu Əsgərov məşhur tacir olmuş və məşhur torpaq sahibləri Məmmədyarovların nəslini təmsil etmişdir. Onun oğlu **Mehdibala Babadayı oğlu Əsgərov** 1908-ci ildə Dərbənd şəhərində anadan olmuşdur.



M.B.Əsgərov Dərbənd şəhər orta məktəbini, Dərbənd pedaqoji texnikumunu tərbiyəçi-müəllim ixtisası üzrə bitirmişdir. Dərbənd şəhərində sovet və partiya işlərində işləmişdir. Dərbənd konserv kombinatının kadrlar şöbəsinin rəisi olmuşdur. Uzun müddət «Bayat qapı» və «S.Orconikidze» kolxozlarının sədri vəzifəsində çalışmışdır.

1938-ci ildən 1943-cü ilədək SSRİ Silahlı Qüvvələrində komandan vəzifəsində hərbi xidmətdə olmuşdur. Sovet-Fin müharibəsinin iştirakçısıdır, 1941-1945-ci illər müharibəsi dövründə azərbaycanlılardan ibarət döyüşən dəstənin komandiri olmuşdur.

1943-cü ildə döyüş zamanı həlak olmuş və Krasnodar vilayətinin Krasnoselsk kəndində fəxri xiyabanda dəfn edilmişdir.

Mehdibalanın arvadı - Soltənət Əlirza qızı Əsgərova (Cəfərova) – Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Dərbənd Pedaqoji Texnikumunu tərbiyəçi-müəllim ixtisası üzrə bitirmişdir.

Müəllimlik fəaliyyətini uşuqların tərbiyyəsinə həsr etmişdir. Uzun müddət Dərbənd şəhərində



4 saylı orta məktəbdə müəllim işləmişdir.

1944-cü ildə vəfat etmişdir. Dərbənd şəhərində dəfn edilmişdir.

Övladları:

oğlu – Arif Mehdibala oğlu Əsgərov (1934);

oğlu – Adil Mehdibala oğlu Əsgərov (1936);

qızı – Nafizə Mehdibala qızı Əsgərova (1938).

Tacir Hacı Molla Əhməd Ələkbərov nəsli (5-ci məhəllə, Serkovnaya küç.)

Ələkbərovlar – Dərbəndin «mömin» ailələrindən biri olmuşdur. Onlar 5-ci məhəllədə yaşamışlar vaxtıilə bu nəsildə qoca və cavanlar daxil olmaqla 70 kişi olmuşdur. Hacı Molla Əhmədin 9 övladı var idi: Məşədi Sadıq, Abil, Məşədi Hacıbaba, Əbusət, Mömin Hacı, Əmiraslan, Hacı Nəcəfqulu, Hacı Nəsrulla, Həşim və Fətulla.

Məşədi Sadığın iki oğlu və iki qızı var idi: Şahlar, Əbdül, Mariya və Həlimə.

Şahlar zabit olmuşdur. Şahların oğlu Əhməd Ələkbərov – general-mayordur, Azərbaycan Respublikası prokurorluğunda işləyir. Məşədi Hacıbabanın oğlanları – Həbib və Xeyrulla – inşaatçı, Seyfulla və Sədulla – həkim, professor olmuşlar. Sədullanın qızı Zemfira Ələkbərova Dağıstanın əməkdar həkimi, professor, tibb elmləri doktorudur, Moskva şəhərində Revmotologiya İnstitutunda laboratoriya müdiri işləyir.

Seyfullanın qızı Zarema Ələkbərova, tibb elmləri namizədidir, Bakı şəhərində yoluxucu xəstəliklər üzrə həkim işləyir. Rengenoloq Raqib Ələkbərovun qardaşı – Hüseynov Firudin Abbas oğlu tarix elmləri doktoru, Moskvada Musiqi Akademiyasının professorudur.

Şahlar Sadıq oğlu Ələkbərov – 1917-ci il mayın 2-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Şahlar Ələkbərovun atası Məşədi Sadıq məşhur tacir idi. O, Hacı Molla Əhmədin «möminlər» nəslinin nümayəndəsi.

Şahlar Ələkbərov Dərbənd şəhərində orta məktəbi (1924-1934), Dərbənd Pedaqoji Texnikumunu (1934-1938), Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini (1965-1970) bitirmiş, Dərbənd şəhər orta məktəbində tarix müəllimi işləmişdir.



Sovet Ordusu sıralarında əsgəri xidməti keçdikdən sonra pedaqoji fəaliyətini Azərbaycan Respublikasının xalq təhsili sistemində kitabxanaçı, Yasamal rayon 17 saylı orta məktəbin ibtidai sinif müəllimi, tədris hissə müdiri işləmiş, sonra isə Bakı şəhər Oktyabr (indiki Yasamal) rayon 19 saylı orta məktəbin direktoru vəzifəsində əmək fəaliyytini davam etdirmişdir.


Partiya işində çalışmışdır. Oktyabr (indiki Yasamal) rayon partiya komitəsində təlimatçı vəzifəsindən təbliğat və təşviqat şöbəsinin müdiri vəzifəsinədək işləmişdir.

1965-ci ildən 1968-ci ilədək Bakı şəhər Yasamal rayon 1 saylı internat məktəbinin ilk direktoru olmuşdur.

1970-ci ildə ictimai fənlər üzrə müəllim, sonra Bakı Kooperasiya Texnikumunun tədris hissə üzrə direktor müavini işləmişdir. Əməkdə və ictimai işlərdəki xidmətlərinə görə fəxri fərmanlara, təşəkkürlərə və dövlət mükafatlarına layiq görülmüşdür.

1987-ci ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Tacir Məşədi Əzim Həmzəyev nəsli



Məşədi Əzim Həmzəyev məşhur tacir olmuşdur. 1899-cu ildən 1904-cü ilə qədər Dərbənd müvəkkillər məclisinə daxil idi.

Onun oğlu **Rzaqulu Məşədi Əzim oğlu Həmzəyev** tanınmış tacir və domna sobalarının istehsalçısı idi.

Onun qızı **Bikəxanım Məşədi Əzim qızı Cəfərova (Həmzəyeva)** – 1895-ci il iyun ayının 14-də Dərbənd şəhərində anadan olmuşdur. Azərbaycanlıdır.

Bikəxanım Cəfərova yaxşı təhsil almışdı və

qadınların cəmiyyətdə roluna mütərəqqi baxışları ilə öz yaşıdlarından fərqlənirdi.

Buynaksk qadınlar gimnaziyasını bitirdikdən sonra həyatını dağlı qadınlarının tərbiyəsinə, onlarda cəmiyyətdə qadınların fəaliyyətinə və onların hüququnun qorunmasına müasir baxışların formalaşmasına həsr etmişdir. Moskvada keçirilən dağlı qadınların qurultayına deputat seçilmiş və həmin qurultayın iştirakçısı olmuşdur.

1971-ci ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur.

Tacir Qoçu İsmovun nəsli

Tacir Qoçu İsmov Məşədi Cəlilin və Kərbalayı Cabbarın qardaşı idi. Onu 1936-cı ildə sürgün etmişlər. Onun böyük oğlu Əbülfəz hazırda İsraildə yaşayır. Onların evi 1-ci məhəllənin aşağı hissəsindədir. Qoçu İsmovun çox gözəl və böyük əraziyə malik olan bağı var idi.

Tacir Abdallar (Rzayevlər) nəsli (6-cı məhəllə)

Tacir Abdallar 6-cı məhəllədə yaşamışlar. Onlar üç qardaş olmuşdular: Əbülfəz, Nüsrət və Asəf. Asəf Rzayevin oğlu Seydulla hazırda Moskva şəhərində yaşayır. Abdallar ailəsi Dərbəndə Nadir şahın hakimiyyəti zamanı köçmüşlər. Bu nəsil Kür çayının sahilində köçəri həyat sürürdü. Bu nəslin davamçıları hazırda da var.

Abdallar nəslinə karvansara, parça dükanları, 4 ha üzüm sahəsi və böyük malikanə məxsus idi.

Tacir Hacı Əliəhməd Niftulla oğlunun nəsli (6-cı məhəllə)

Tacir Hacı Əliəhməd Niftulla oğlu 6-cı məhəllədə yaşamışdır. Onun həyat yoldaşı tacir Kərbalayı Hacı Əlihüseynin qızı idi. Hacı Əliəhmədin iki oğlu var idi: Əlövsət və Əliməmməd. Onun iki oğlu və qızı Məsumə cavan ikən vəfat etmişlər. O, evini Babadayı Mirzağaya sataraq Qubaya köçmüş və 1965-ci ildə burada vəfat etmişdir.

Tacir Məşədi Həsənin nəsli (6-cı məhəllə)

Tacir Məşədi Həsənin nəsli 6-cı məhəllədə yaşamışdır. Onlar bir neçə qardaş olmuşlar. Qardaşı Mahmud Məşədi Həsənlə bir binada yaşamışdı. Mahmudun böyük qızı Məşədi Həsənin böyük oğlu Əbdülxaliqin kiçik qızı isə kiçik oğlu Zeynalın həyat yoldaşı idi.

Məşədi Həsənin qızı Gövhər müəllimə, Mirzə Əhmədin həyat yoldaşı və general Tofiq Seyidovun anası idi. Məşədi Həsənin nəslinə karvansara, parça dükanları və malikanə məxsus idi.

Tahir Salehin nəsli (6-cı məhəllə)

Tacir Salehin nəsli Dərbəndin 6-cı məhəlləsində yaşamışdılar. Onlar dörd nəfər olmuşlar: Mirzəhüseyn, Abbasmirzə, Mirzəhəsən və Əbi. Əbi uşaq ikən vəfat etmişdir.

Mirzəhüseynin həyat yoldaşı – manufakturaçı Məşədi Məhəmməd Kazımın qızı, Abbasmirzənin həyat yoldaşı – Məşədi Hacıbabanın qızı, Mirzəhəsənin həyat yoldaşı Məşədi Məhəmməd Nağının qızı idi. Taxta bazarın aşağı hissəsində onların parça dükanları, malikanələri və 4 ha üzüm sahəsi var idi. Mirzəhüseynin bir qızı – Həcər xanım, Abbasmirzənin 4 oğlu, Mirzəhəsənin üç qızı və bir oğlu olmuşdur.

Hacı Vahab bəyin nəsli

Hacı Vahab bəy çar Rusiyasının Dərbənddəki ağalığı dövründə pristav olmuşdur. Onun həyat yoldaşı Umleyla-bikə Dərbənd xanlarının kötücəsi və Hacı Duru xanın nəslindən idi. Ərə getməzdən əvvəl Umleyla-bikə Dağıstanın Axtı rayonunun Misgəncə kəndində yaşamışdır. Onun oğlu – Vahabov Hüseyn Məmməd oğlu (əsl adı Məşədi Məmmədrəsul bəy) Şabran (Dəvəçi) rayonu Şahnəzərli kəndində anadan olmuşdur. O, Azərbaycan Respublikasının bir neçə rayonunun prokuroru vəzifəsində işləmişdir. Hazırda Hacı Vahab bəyin nəvəsi Vahabov Fərhad Hüseyn oğlu – general-mayordur, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi aparatının rəhbəri vəzifəsində işləyir.

Tacir Məşədi Məhəmməd Kazım nəsli (7-ci məhəllə)

Bu nəsil Dərbəndin 7-ci məhəlləsində yaşamışdır. Bu tacirlərdən Məşədi Məhəmməd Kazım və Hacı Mirzə Sadıq qardaşları xüsusilə məşhur idilər. İkincisi Abdullayev qardaşlarının dayısı olmuşdur. Onun dükanı indiki bazar qapılarının yanında idi.

Tacir Əhməd bəy Mirzəbəyovun nəsli

Əhməd bəy Nağı bəy oğlu Mirzəbəyov 1861-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. O, təhsilini evdə almışdır. Əhməd bəy titulyar müşavir, barışıq hakimi katibinin köməkçisi işləmişdir. 1896-cı ildə şəhər müvəkkilliyiniə namizəd, 1897-ci ildən isə şəhər müvəkkilərinin 1-ci, 2-ci və 4-cü heyətinin üzvü olmuşdur.

1903-cü ildən 1904-cü ilədək şəhər müvəkkiləri məclisinin sədri olmuşdur. Onun 6 övladı var idi: Ağa bəy, Abdulla bəy, Mərdan bəy, Əbdürəzaq bəy, Kiçibikə və Tugiyə.

Ağa bəy dini və kübar təhsili almış, 1918-ci ilə qədər polis idarəsində işləmişdir. Onun 3 övladı var idi: Reyhanat, Rumiyə və Zülqədər.

Abdulla bəy Dərbənd realnı məktəbini və Dağıstan Tibb İnstitutunu bitirmişdir. O, «Talqi» istirahət mərkəzində baş həkim işləmişdir. Onun Şərqiyə adlı yeganə bir övladı var.

Abdulla bəy Mahaçqalada vəfat etmiş və Dərbənddə dəfn olunmuşdur.

Mərdan bəy 1898-ci ildə Dərbənddə anadan olmuş və realnı məktəbini, Moskva Kənd Təsərrüfatı Akademiyasının zotexniklik fakültəsini bitirmişdir. Dağıstan Xalq Kənd Təsərrüfatı komitəsində işləmişdir. Onun 5 övladı var idi: Əbdürəzaq, Dalqat, Əhməd Paşa, Səltənət və Daqmara.

O, 1959-cu ildə Mahaçqalada vəfat etmişdir.

Əbdürəzaq bəy 1938-ci iildə anadan olmuş və ali mühəndis təhsili almışdır. Uzun müddət Dağıstan Respublikası Nazirlər Sovetinin sədri işləmişdir. O, hazırda Litvada Rusiya Federasiyasının daimi nümayəndəsidir.

Kiçibikə Dərbəndin böyük mülkadarı Məşədi Ağa bəy Məmərzabəy oğlunun arvadı olmuşdur.

Tugiyə əmisi oğlu Bəylər İsmayıl bəy oğlunun arvadı olmuşdur. Onların iki oğlu var idi: Rəhim bəy (1916) və Səlim bəy.

Tacir Nəzərəli Ağaməhəmməd oğlunun nəsli (9-cu məhəllə)

Bu nəsil Dərbəndin 9-cu məhəlləsində yaşamışdır. Ağaməhəmmədin oğlu Nəzərəlinin 7 oğlu və bir qızı var idi. Onun böyük oğlu Məşədi Məhəmməd Salih axund olmuşdur. İkinci oğlunun adı Kərbalayı Mirzə Rəşid, üçüncü oğlunun adı Mirzə Yaqub, dördüncü oğlunun adı – Mirzə Bəhram, beşinci oğlunun adı – Kərbalayı Mirzə Əbdülqasım, altıncı oğlunun adı – Kərbalayı Mirzə Əsgər və 7-ci oğlunun adı – Əbüləsvənd idi. Onlar Gümri Məhəmməd Tağının uşaqlarının bibisi oğlanları idi. Nəzərlinin bacısı Gümri Məhəmməd Tağının həyat yoldaşı idi.

Gümrinin bir oğlu cinayət edərək 10 il müddətinə Sibirə sürgün olunmuşdur. Gümri və Kərbalayı Mirzə Rəşid kömək üçün İrana Nəsrəddin şahın yanına gedirlər. İran şahı onları çox yaxşı qarşılayır, lakin xahişlərini rədd edir.

Tacir Hacı Soltan Ağamirzə oğlunun nəsli (9-cu məhəllə)

Dərbəndin 9-cu məhəlləsinin sakini Hacı Soltan Ağamirzə oğlunun üç oğlu (Şahmərdan, Məhəmməd Nəbi və Məşədi Məhəmmədzaman) və 4 qızı var idi. Birinci qızı Səkinə xanım Hacı Cəfərin həyat yoldaşı olmuşdur. Hacı Cəfər Ələsgərin (5-ci məhəllə) oğlu idi. İkinci qızı Ayət xanım Mirzə bəyin gəlini, Hacı Nəsrullanın həyat yoldaşı olmuşdur. Dördüncü qızı İsmayıl bəyin gəlini, Balabəyin həyat yoldaşı, Cəlil bəyin anası olmuşdur. Hacı Soltanın nəsli çit parça istehsalı ilə məşğul olurdu.

Kərbalayı Ağası bəy Xancan bəy oğlunun nəsli (6-cı məhəllə)

Bu nəsil Dərbəndin 6-cı məhəlləsində yaşamışdır. Kərbalayı Ağası bəyin böyük oğlu İsabəy Rəşid bəyin yeznəsi olmuşdur. Bu ailə hazırda Bakıda yaşayır, ikinci oğlu Hüseyn bəy hazırda Dərbənddə onun oğlu isə Bakıda yaşayır.

Kərbalayı Ağasının böyük qızı 2-ci məhəllənin sakini Fətulla Turabovun həyat yoldaşı idi. Onun bacısı Mənzər xanım Ağalar Mədətovun həyat yoldaşı idi. Ağası bəyin nəsli Azərbaycanda yaşayır.

Tacir Məşədi Mirzə Kərbalayı Tağı oğlunun nəsli (8-ci məhəllə)

Bu nəsil Dərbəndin 8-ci məhəlləsində yaşamışdır. Salyanlı Musanın nəvəsi, Kəblə Tağının oğlu Məşədi Mirzə Xandadaş Tağıyevin atası idi. Bu nəsildən olan Məşədi Mirzənin oğlu, Kərbalayı Tağının nəvəsi Xandadaş Tağıyev birinci dairə rəisi, sonralar Dağıstan MSSR-ın Kənd Təsərrüfatı Naziri olmuşdur. Sibirə sürgün edilmiş və 1957-ci ildə sürgündən qayıtmışdır. Bir müddət Bakıda işləmiş, sonra Dağıstanın təbii ehtiyatlar nazirliyində işləmişdir.

Tacir Mirzə Həsən Molla Hüseynqulu

oğlunun nəsli (6-cı məhəllə)

Tacir Mirzə Həsən Dərbəndin 6-cı məhəlləsinin sakini olmuşdur. O, konsul Molla Hüseynqulunun oğlu idi. 1937-ci ilə kimi Mirzə Həsən Azərbaycan konsulluğunda işləmişdir. Mirzə Həsən Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsini bitirmişdir. 1937-ci ildə o, repressiyaya məruz qalmışdır. Sürgündən sonra Bakıya qayıtmış və burada vəfat etmişdir. Onlar üç qardaş, iki bacı olmuşlar.

Böyük qardaşı Nemətulla Dərbənddə cinayət axtarışı şöbəsi rəisinin müavini işləmişdir. İki qardaşı İzberbaşı şəhərində neft mədənlərində baş mühəndis işləmişlər. Nemətulla müharibəyə getmiş və cəbhədən qayıtmamışdır. Onun arvadı Baqiyət xanım Məşədi Vəli bəyin nəvəsi idi. Sonralar Baqiyət xanım Səftər Axundovun gəlinlərindən biri olmuşdur.

Tacir Həsrətqulu Hacıqulu oğlunun nəsli (9-cu məhəllə)

Tacir Həsrətqulu Dərbəndin 9-cu məhəlləsində yaşamışdır. Baxmayaraq ki, Həsrətqulu kasıb və yoxsul ailədə anadan olmuşdur, o, böyüyəndən sonra neft alverinə girişib kifayət qədər var-dövlət qazanmışdır. Şəhərin cənub hissəsində onun neft anbarları və böyük malikanəsi var idi. İnqilabdan sonra Həsrətqulu öz əmlakını satıb və ailəsi ilə birlikdə Bakıya köçmüşdür. Nəvələri və nəticələri hazırda Bakıda yaşayır.

Tacir Əbdüləhəd və Röhən Şahbazovların nəsli (7-ci məhəllə)

Əbdüləhəd və onun bacısı Röhən Dərbəndin 7-ci məhəlləsində Səftər Axundovun malikanəsini satın almışdılar.

Röhən Müseyib Şahbazovun anası idi. Şahbazov Həştərxanda mükəmməl rus təhsili alaraq inqilabdan sonra Vətənə qayıtmışdır. Sonralar Müseyib Azərbaycan hökumətində yüksək vəzifələr tutmuşdur. Bu nəslin nümayəndələri hazırda Azərbaycanda yaşayır.

Tacir Hacı Mirzə Əhməd Əmirhəmzə oğlunun nəsli (4-cü məhəllə)

Hacı Mirzə Əhməd Əmirhəmzə oğlu Dərbəndin 4-cü məhəlləsində yaşamışdır. Onun 2 oğlu və bir qızı var idi. Böyük oğlu İzifə ali təhsilli idi, kənd müəllimi və məktəb direktoru işləmişdir. Müharibə veteranı idi.

Hacı Mirzə Əhməd Dərbəndin ən hörmətli adamlarından biri idi. Onun 24 hektar torpaq sahəsi, dükanları və üçmərtəbəli malikanəsi var idi. Onun nəvələri hazırda həmin malikanədə yaşayırlar.

Tacir Məhəmməd Nağı Kərbalayı Abdulla oğlunun nəsli (İmam küç.)

Mirzə İsmayılın nəvəsi, Kərbalayı Abdullanın oğlu Məhəmməd Nağı Dərbəndin keçmiş İmam küçəsində yaşamışdır. Məhəmməd Nağının həyat yoldaşı Mina milyonçu Abdullayevlərin nəslindən olmuşdur. Onun evi Tağızadə küçəsinin yuxarı hissəsində yerləşir. Evin 1-ci mərtəbəsində dükanlar yerləşirdi. Dərbəndin şimalında 5 hektarlıq gözəl bir bağı vardı.

Tacir Məşədi Miri (Tağızadə küç.)

Tacir Məşədi Miri Dərbəndin Tağızadə küçəsində yaşamışdır. Onun 3 oğlu və 3 qızı var idi: Mirabbas, Mirəli Əsgər, Şeyx Tahir. Şeyx Tahir sovet zabiti və müharibə veteranı olmuşdur.

Böyük qızı Kərbalayı Pərvizin arvadı, ikinci qızı Seyid Zəhra Kərbalayı Cavadın gəlini, kiçik qızı Urve və Abdullanın qardaşının arvadı olmuşlar. Məşədi Miri balıqçılıq ticarəti ilə məşğul olmuşdur. Bu nəsildən heç kim qalmamışdır.

Tacir Abasqulunun nəsli

«Qızıldiş» Abasqulunun malikanəsi şəhər meydanının tinində yerləşirdi. Evin birinci mərtəbəsində dükanlar yerləşirdi. Onun 2 qızı və 2 oğlu var idi. Onun böyük oğlu İbrahim ali təhsilli ziyalı idi. İbrahimin həyat yoldaşı müəllim Mirsaleh Seyidovun qızı idi. İkinci oğlu Hacı Əhmədin həyat yoldaşı Seyfullanın qızı idi.

Tacir Abasqulunun böyük qızı dükançı İbrətin həyat yoldaşı, ikinci qızı Asya Sabir Seyidovun arvadı idi. Asya həkim olmuşdur.

Tacir Hacıbala bəyin nəsli (2-ci məhəllə)

Tacir Hacıbala bəy Dərbəndin 2-ci məhəlləsində yaşamışdır. Dərbənddə bu nəslin çox dərin iz buraxmış tarixi var. Onlar iki qardaş olmuşlar.

Hacıbala bəyin arvadı Seyid Zinyət olmuşdur. Onun böyük dükanları var idi. Hacıbala bəy dindar

olmuşdur. Hər il məhərrəm ayında o, İmam ehsanı verirdi. O, çox adamlara kömək etmişdir. Hacıbaba bəyin öz övladı olmadığı üçün qardaşı qızı Kənizi qızlığa götürmüşdür.

Kəniz 6-ci məhəllənin sakini Mir Məhəmməd Əlinin oğlu Mir Kazım ağanın arvadı idi.

Tacir Qulam Eminovun nəsli (2-ci məhəllə)

Dərbəndin 2-ci məhəlləsində yaşamış bu nəsil dörd qardaş olmuş: Qulam, Muxtar, Məhəmməd Rəsul və Məşədi Təvli. Bu nəsil xırda ticarətlə məşğul olurdu.

Tacir Qayıb Eminovun nəsli (2-ci məhəllə)

Tacir Qayıb Eminovun nəsli Dərbəndin 2-ci məhəlləsində yaşamışdır. Onun evi və bir sıra dükanları var idi.

Qayıb Eminovun böyük oğlu Xəlil aqronom, kiçik oğlu Nüsrət isə həkim olmuşdur. Kapitan Nüsrət 1944-cü ildə faşistlər hospitalı bombardman edərkən həlak olmuşdur. Qayıb Eminovun 2 qızı Həmdullanın oğlu Mirzə Hüseynin həyat yoldaşı olmuşlar.

Qayıbın həyat yoldaşı Məsmə xanım Kərbalayı Tağının qızı, Məşədi Mirzənin bacısı, Xandadaş Tağıyevin bibisi idi.

Qayıbın kiçik qızı Bikəxanım atasının ölümündən sonra bibisi oğlu Urbeyə ərə gedir. Qayıb Eminovun ailəsi Xanməhəmmədin oğlu Dadaşla qonşuluqda yaşayırdı.

Dadaşın ikinci oğlu məşhur bəstəkar Hacı Xanməmmədovdur.

Nabat xanım Yəhya bəyin arvadı, Məhəmməd bəyin və Həcər xanımın anası idi. Rus çarı I Nikolayın dövründə Yəhya Tabasaranda dairə rəisi olmuşdur. Nüsrət və Hacı dost idilər. Onlar tarda çalırdılar. Sonralar onların yolları ayrıldı. Hacı bəstəkar, Nüsrət isə həkim oldu.

Tacir Hacı Şərif Kərbalayı Abas oğlu nəsli (Buynaksk küç.)

Hacı Şərif böyük tacir və mülkədar idi. Onun malikanəsi 20 otaq və zirzəmidən ibarət idi. Giriş qapısının üstündə üç böyük və hündür qonaq otaqları yerləşirdi. Həyətdə dərin su quyusu var idi. Binanın cənub hissəsində hündür hasar çəkilmişdir. Hasarın arxasında 4 hektar sahəsi olan üzüm və meyvə bağı var idi. Böyük tacir və mülkədar Hacı Şərifin 4 oğlu və 2 qızı var idi.

Böyük oğlunun arvadı Həcər xanım 5-ci məhəllənin sakini Nemətullanın nəvəsi, zərgər Məşədi Abdulcamalın qardaşı qızı idi. İkinci oğlunun arvadı Xonça xanım Məhəmməd Rəfinin nəvəsi, usta Əlövsətin qızı və Camalın bacısı idi. Onlar Hacı Şəriflə qonşuluqda yaşayırdılar.

Üçüncü gəlini Kəbutər xanım tacir Hacı Kazımın nəticəsi, Hacı Tağının nəvəsi, Kərbalayı Həsənin qızı, sovet zabiti, aqronom, müharibədən geri qayıtmayan Hacı Salehin arvadı idi.

Hacı Şərifin böyük qızı 9-cu məhəllə sakini Məhəmmədin həyat yoldaşı idi. Onun üç oğlu var idi. Oğlu Məhəmməd Baba dayının kürəkəni ikinci oğlu Əhəd Tutu Bikənin həyat yoldaşı idi. Hacı Şərifin ikinci qızı məhəllə sakini Məhəmməd bəyin oğlu Molladaşı Fərəc bəyin arvadı idi.

Fərəc bəyin iki oğlu Hacı Şərəfin nəvəsi idi. Birinin adı Həsən, o birinin adı Şeyda idi. Şeyda bəy Moskva Dövlət Universitetinin fəlsəfə kafedrasının keçmiş müdiri, tarix elmləri doktoru, professor, general idi.

Axundov Səftər Hacı Məşdi oğlu nəsli (7-ci məhəllə)

Səftər Axundov 1863-cü ildə kiçik qulluqçu ailəsində anadan olmuşdur. Onun 3 qardaşı (Hacıbaba, Cəfər, Hüseyn) və iki bacısı var idi.

Kərbalayı Axund oğlu Hacı Mehdi şəhər dumasında kiçik vəzifə tuturdu. S.Axundovun böyük bacısı 6-cı məhəllənin sakini Məşədi Mehdiqulunun arvadı idi.

S.Axundovun iki qızı və 6 oğlu var idi: Mustafa, Əliyar, Muxtar, Bəhmən, Hüseyn və b. Səftərin nəvəsi Vahid Axundov Azərbaycan Respublikası Nazirlər Kabinetində işləmişdir. Axundovun gəlinləri: Balaxanının Asəf qızı; Vəlibəyovların, Güləmi nəslindən olan Bəqiyət xanım (7-ci məhəllə); Abduddayev Əsədin qızı Şəmiyə xanım Hacı Zeynalabdinin nəvəsi, Rəsminin bacısı. Altıncı gəlini Çahartəpə məhəlləsində olan Kərbalayı Əlövsətin nəvəsi, Məsijənin qızı.

S.Axundovun ikinci qızı Əlimərdan bəyin oğlu Bəybalanın həyat yoldaşı idi. Ziyalı bəylərdən olan Bəybala bəy Bakıda nazirlikdə işləmişdir.

S.Axundovun iri balıqçılıq müəssisəsi var idi. S.Axundov gəliri hesabına Dərbənddə Buynaksk

küçəsində malikanə tikdirir və Bakı şəhərində ev alır. İnqilabdan sonra S.Axundov Bakıda yaşamışdır. 1937-ci ildə S.Axundov həbs olunub Sibirə sürgün edilir. Onda Səftərin 75 yaşı var idi. S.Axundovun 7-ci məhəllədəki evini Əbduləhədin bacısı Ruhənə satırlar. Ruhən Azərbaycanın dövlət idarələrində işləmiş Şahbazovun anası idi.

Hacı Rəcəbli Hacı Mehdi nəsli
(9-cu məhəllə)

Hacı Rəcəbli 1760-cı ildə Dərbənddə anadan olmuş və 1838-ci ildə vəfat etmişdir. O, 9-cu məhəllədə Xan bulağının yanında yaşamışdır. Onun 3 oğlu və 2 qızı var idi. Böyük oğlu Məşədi Hacı Abdulla (onun 3-cü oğlunun adı Feyzulla olmuşdur) Dərbənddə 1874-cü ildə, ikinci oğlu Hacı Əbutalıb 1864-cü ildə vəfat etmişlər. 3-cü oğlu Əbdülhəmid İstanbuldan qayıtmamış və 1860-cı ildə orada vəfat etmişdir. Hacı Rəcəblinin böyük qızı 7-ci məhəllənin sakini Həmzə bəyin arvadı, Hacı bəyin anası, Əhməd xanın, Cəfərin və rus mayoru İbrahim bəyin nənəsi idi.

Hacı Rəcəblinin 2-ci qızı 9-cu məhəllə sakini Zeynal bəyin aradı, Əlibəyin anası, Ənvər və Niyazın nənəsi idi. Hacı Rəcəblinin böyük oğlu Hacı Abdullanın arvadı Hacı Məcidin qızı Əsmər xanım olmuşdur. İkinci oğlu Hacı Əbutalıbın arvadı Ruqiyyə xanım da Hacı Məcidin qızı idi. 3-cü oğlu Əbdülhəmidin arvadı Səkinə xanım Mirzə Mehdiqulu bəyin qızı idi.

Feyzullanın bir oğlu (Seyfulla) və bir qızı (Səriyyə) var idi. Hacı Abdullanın 3 oğlu və 1 qızı var idi. Bədircahan xanım Məşədi Hacıbabanın arvadı, Əbutalib dayının gəlini idi. Hacı Abdullanın böyük oğlu Hacı bəyin qızı, Heydər bəyin nəvəsi, Əlimərdan bəyin nəticəsi, 8-ci məhəllənin sakini Tuti xanım idi.

Hacı Abdullanın ikinci oğlu Hacı Fətullanın arvadı Soltanat xanım Hacı Əbdürrəhimin qızı, Hacı Mirzəsadığın bacısı və Hacı Teymurun nəvəsi idi. Hacı Abdullanın üçüncü oğlunun həyat yoldaşı Məsumə xanım Hacı Cəfərin qızı, Məhəmməd Rzanın bacısı, Hacı Ələsgərin nəvəsi idi.

Hacı Əbutalibin iki oğlu var idi: Məşədi Hacıbaba və Əbüsalam. Hacı Rəcəblinin 3-cü oğlu Əbdülhəmidin 3 qızı var idi: Bəhcət xanım, Məhəbbət xanım və Bikə xanım.

Hacı Fətullanın oğlu, Hacı Abdullanın nəvəsi Həmdulla Abdullayev 1931-ci ilə qədər «Dağbalıqtrest»in rəisi işləmişdir. Hazırda onun iki oğlu (ikisi də texniki elmlər üzrə alimdirlər) Almaniyada: Adigəray Hamburqda, Əmiraslan bəy Braunşveyqdə yaşayırlar.

Həyat xanım Abdullayeva həyatını hekəltəraşlığa həsr etmiş və gözəl incəsənət əsərləri yaratmışdır. Bakıda yaşayır. Onun beşinci qızı Aidə Həmdulla qızı 1922-ci ildə anadan olmuşdur. Bakıda konservatoriyanı bitirmişdir və orada professor vəzifəsində çalışır. Onun həyat yoldaşı Tokay – heykəltəraşdır.

Hacı Abdullanın böyük oğlu Hacı Hacıbalanın 2 oğlu (Mirzəbəy və Əsəd) və iki qızı var idi. Mirzəbəyin arvadı Hacı Fətullanın qızı Ayət xanım (əmisi qızı) idi. Əsədin arvadı Hacı Zeynalabdinin 3-cü qızı Sürəyya xanım həkim idi. Əsəd 1968-ci ildə Bakıda vəfat edib, həyat yoldaşı isə 1989-cu ildə vəfat edib. Onların oğlu Rəsmi Abdullayev Neft-Kimya İnstitutunun professoru idi. O, 1997-ci ildə Bakıda vəfat edib. Onların yeganə qızı Dilarəm Abdullayeva – həkim idi. Onun əri, Bəhmən Axundov dərbəndli Səftər Axundovun oğlu idi.

Hacı Rəcəblinin nəvəsi Şahlar Abdullayev Məşədi Mirzəbəyin oğludur.

1926-cı ildə Həmdullanın oğlanlarına (Adilgəray – 1915-ci ildə, Əmiraslan isə 1917-ci ildə anadan olublar) təhsilini davam etdirmək üçün Almaniyaya getməyə icazə verilmişdir. Hacı Abdullayev oğlanlarını Almaniyaya aparır. 5 ildən sonra Həmdullanı həbs edilir və ölüm cəzasına məhkum olunur. «Xalq düşməninin» ailəsini (iki qızı, bir oğlu və həyat yoldaşı Suvat xanım; Suvat xanım knyaz Əbdülcəlil Usmiyevin qızı idi) Şimali Qazaxıstana göndərirlər.

Həmdullanın böyük qızı Həyat xanım (1912-ci ildə anadan olub) gizli olaraq Leninqrada gedir, orada Memarlıq və Heykəltaraşlıq İnstitutuna daxil olur və ali təhsil alır. Həmdullanın 3-cü oğlu Yusif Abdullayev (1919-cu ildə anadan olub) Bakıda Neft-Kimya İnstitutunu bitirib Özbəkistana gedir. Bir müddətdən sonra onu Moskvaya keçirirlər. O, burada SSRİ Neft Sənayesi Nazirliyində işləyir. Oğlu Eldar mühəndis işləyir.

Knyaz Əbdülcəlil Usmiyevin oğlu Hətəm Bakıda Sənaye İnstitutunda təhsil almışdır. 1937-ci

ildə Hətəm 4-cü kursda oxuyarkən həbs olunur və həmin gün də güllələnir.

Knyaz Əbdülcəlil Usmiyevin qızı Suvat xanım 1896-cı ildə anadan olub. 1910-cu ildə Həmdulla Abdullayev onunla evlənmişdir. Həmdulla məktəbi bitirdikdən sonra əmisi Feyzullanın balıqçılıq zavodunda işləmişdir.

Həmdulla arvadının qohumu Bakı milyonçusu H.Z.Tağıyevdən xahiş edir ki, Vorobyov balıqçılıq zavodunu ona icarəyə verməkdə köməklik göstərsin. Tağıyev bu xahişi yerinə yetirir. Beləliklə, Həmdulla bəy Port-Petrovskda səhmdar cəmiyyəti yaradır və bu cəmiyyətin sahibi olur.

1918-ci ilin əvvəlində Abdullayev Bakıya köçür və bir müddətdən sonra «Azbalıq»ın direktoru işləyir. 1922-ci ildə Dağıstan Xalq Komissarları Sovetinin sədri Cəlalutdin Qorxmazov onu vətənə dəvət edir və Abdullayev «Dağbalıqtrest»in rəisi təyin olunur. Abdullayev ilk növbədə çəllək zavodunun fəhlələri üçün yataqxana, sonra isə xəstəxana tikir.

H.Abdullayevin əmək nailiyyətlərindən bir çox Dağıstan qəzetləri yazırdı. Dövlət onun oğlanlarına Avropada təhsil almaq üçün xaricə getməyə icazə verir.

1930-cu illərdə Abdullayev xalq düşməni kimi həbs olunur və güllələnir. Almaniyada dövlət çevrilişi baş verdikdən sonra, onun oğlanları Türkiyəyə gedirlər. Müharibədən sonra qardaşlar əvvəl İsveçrəyə, sonra isə Almaniyaya gedirlər.

1957-ci ildə Moskva dairə hərbi tribunalı Həmdulla Abdullayevin işinə yenidən baxır və o ölümündən sonra bəraət alır.

O gündən Suvatbikə oğlanlarının axtarışına başlayır. Nəhayət, 1967-ci ildə Adilgəray Bakıya gəlir, anası, qardaşı və bacıları ilə görüşür. O, Neft-Kimya İnstitutunda alman dilində müharizə oxuyur. O, daima DTK-nin nəzarəti altında olurdu. Adilgəray Almaniyanın Braunşveq şəhərində yaşayır, texnika elmləri doktoru, Enerji İnstitutunun rektorudur.

Əmiraslan elmlər doktoru, poliqrafik maşınlar üzrə müxtəxəssis, şirkətin vitse-prezidenti, Almaniyanın Hamburq şəhərində yaşayır.

Almaniyada çap olunmuş «Кто есть кто» toplusunda Abdullayev qardaşları haqqında məlumat var. Hər ikisinin həyat yoldaşı almandır.

Məşədi Mirzəbəy Abdullayevin Qazaxıstana (Barnaul şəhəri) sürgün edilmiş ailəsi heyvandarlıq fermasında işləmişdir. Bakıya 1946-cı ildə qayıtmışlar.

Hacı Rəcəblinin ikinci oğlu Abutalıbın iki oğlu var idi: Məşədi Hacıbaba və Əbüsalam. Hacıbabanın həyat yoldaşı Bədircahan əmisi Hacı Abdullanın qızı, Hacı Rəcəblinin nəvəsi idi.

Məşədi Hacıbabanın 4 oğlu və bir qızı var idi. Qızı Minə xanım Kərbalayı Abdullanın oğlu Məmmədnağı İsmayılovun həyat yoldaşı idi. Məmmədnağı orta səviyyəli tacir, onun 2oğlu və bir qızı var idi.

Hacıbabanın böyük oğlu Övsət əmisi oğlu Hacımirzə Abdullayevlə birlikdə Dərbənddə Ağac limanı təşkil edirlər. Bu liman Hacıfətullanın oğlu Hacımirzə Abdullayevə məxsus idi.İkinci oğlu Ələsgər Rusiyadan Dərbəndə meşə materialları yola salırdı. 3-cü və 4-cü oğlanları isə atalarının dükanında alış-verişlə məşğul olurdular.

Məşədi Hacıbabanın ikinci oğlu Əbüsalam əmisi qızı Behcat xanımla evlənmişdir.

Ələvsət Hacımirzə ilə meşə limanında işləyirdi. Bu liman Hacımirzənin ölümündən sonra (1912) 1928-ci ilədək Məşədi Hacıbabanın oğlanlarına məxsus idi.

Ələsgər və Əlibala öz evlərində – 6-cı məhəllədə yaşayırdılar. Kiçik qardaşları Qəzənfərin evini müsadirə və özünü həbs etdilər. Bir-neçə ildən sonra Qəzənfəri azad etdilər. O,1938-ci ildə infarktdan vəfat etdi. Ələvsət 1901-ci ildə, Ələsgər 1931-ci ildə, Əlibala isə 1942-ci ildə vəfat edib.

Ələsgərin oğlanları İlyas və İdris (ikisi də ali təhsilli idi) Bakıda yaşamışlar. İlyas 1971-ci ildə, İdris isə 1965-ci ildə vəfat edib.

Hacı Rəcəblinin üçüncü oğlu Əbdülhəmidin (1862-ci ildə İstanbulda vəfat edib) yoldaşı Səkinə xanım Qasım bəyin nəvəsi, Mirzə Mehdiqulu bəyin qızı, Paşabəyovlar nəslindən idi. O, 1888-ci ildə vəfat etmiş və Qırxlar qəbiristanlığında atasının qəbrinin yanında dəfn olunmuşdur.

Əbdülhəmidin qızları: böyük qızı Behcət xanım – 1931-ci ildə, ortancıl qızı Məhəbbət – 1932-ci ildə, kiçik qızı – Bikə xanım – 1914-cü ildə vəfat etmişlər. Məhəbbət xanımın yeganə Xədicə adlı bir qızı var idi. Xədicə milyonçu Hacı Şahmərdan Eminovun oğlu Məşədi Ələkbərin həyat yoldaşı idi. Onun iki oğlu var idi. Xədicənin ölümündən sonra, uşaqlarını nənəsi böyütmüşdür. Hacı Şahmərdanın nəslinin

son davamçıları olan bu oğlanlar 1919-cu ildə vəfat etmişlər. Bahcət xanımın iki qızı və bir oğlu var idi.

Fərəc bəyin nəsli (1-ci məhəllə)

Dərbəndin 1-ci məhəlləsinin sakini Fərəc bəyin iki oğlu var idi: Həsən bəy və Şeyda bəy Məmmədovlar.

Fərəc bəyin babası Həsən bəy, atası isə Məmməd bəy olmuşdur. Həsən bəy Məmmədov sovxoz direktoru işləmişdir. Şeyda bəy alim, tarix elmləri doktoru idi, Moskva Dövlət Universitetinin fəlsəfə kafedrasının müdiri işləmişdir. Onun elmi əsərləri dünyanın 15 ölkəsində tanınır. General-mayor Şeyda bəy 1941-ci ildən 1945-ci ilə qədər SSRİ Silahlı Qüvvələrini Baş Qərargahında xidmət etmişdir. Onların ulu babaları Dərbəndə Şirvanşahların dövründə köçmüşdülər. Bu nəsil XV əsrin əvvəlində Dəməşq ətrafından buraya gəlmişlər. Bu nəsil Məhəmmədəli öz başlanğıcını Şam bəydən götürür. Məhəmmədəli Şam bəy 1-ci Əlipənah bəyin oğludur. Əlipənah bəyin məzarı Qırxlar qəbiristanlığındadır.

Heydər bəyin nəsli
(Azadlıq meydanı, 2-ci məhəllə)

Heydər bəyin 3 oğlu var idi: Minətulla bəy, Nemətulla bəy (general) və Hacı Həmdulla bəy. Minətulla bəy ailəsi ilə birlikdə Azadlıq meydanının yanında, Nemətulla isə 2-ci məhəllədə yaşayırdılar. Mikirli bulağı da bu məhəllədə idi. Heydər bəyin oğlu Nemətulla çar zabiti idi. O, 1910-cu ildə vəfat etmişdir. Onun nəslindən heç kim qalmamışdır.

Heydər bəyin böyük oğlunun 3 oğlu var idi: Musa bəy, İsa bəy və Qasım bəy.

Musa bəyin İsmayıl bəy adlı bir oğlu var idi. 1918-ci ildə o, Dərbənd şəhəri polisinin rəisi idi. Onu əmisi Qasım bəylə birlikdə güllələmişlər. Onda əmisi Qasım bəy Dərbənd şəhərinin başçısı idi. Onları Daşnaksütündan olan erməni biçaraxovçuları güllələmişdilər. «Dağıstan» qəzeti 1-ci sayında məlumat verirdi ki, biçaraxovçulara xidmət edən ermənilər Dərbənd şəhərində yaşayan müsəlmanlara divan tutmuşlar. 14 noyabr 1918-ci il tarixli «Dağıstan» qəzeti yazırdı ki, güllələnmiş müsəlmanların günahı göstərilmirdi. Onlar nəinki Dərbəndin başçısını, hətta qarşılarına çıxan hər bir müsəlmanı öldürürdülər.

Qasım bəy Sankt-Peterburqda Universitet bitirmişdir. O, bir-neçə xarici dil bilirdi.

İsa bəy Heydərov da ziyalı insan olmuş və Xudat bəyin oğlu Həmid bəy Vəkilovdan sonra Dərbənd şəhərinin başçısı olmuşdur. İsa bəyin Dərbəndin şimalında böyük torpaq sahələri və digər təsərrüfatları var idi.

Minətulla bəyin oğlu İsa bəyin 2 oğlu və bir qızı var idi. Qızının həyat yoldaşı ziyalı Məhəmməd bəy idi. Məhəmməd bəy Əli bəyin oğlu, Məhərrəm bəyin nəvəsi idi. İsa bəyin böyük oğlu Ömər bəy də ziyalı idi. Onun həyat yoldaşı – Bala bəyin qızı, polkovnik Murtuzəli bəyin və Əlimərdan bəyin bacısı idi. Murtuzəli bəy 1922-ci ildə Heydərovla birlikdə Türkiyəyə getmişdir.

Heydər bəyin oğlu İbrahim bəy hərtərəfli inkişaf etmiş adam idi. Onun birinci arvadı Sayad xanım polkovnik Uqumiyəyevin qızı, general-leytenant Ərəblinskinin qızının nəvəsi idi. Bu qadından onun İbrahim bəy adlı bir oğlu olmuşdur. İbrahim bəy Heydərov Sankt-Peterburqda Dəmiryolu Nəqliyyatı İnstitutunu bitirmişdir. 1913-cü ildə İbrahim bəy Rusiyanın 3-cü dumasına deputat seçilmişdir. O, həmçinin 1917-ci ildə Qafqaz müsəlmanları qurultayında iştirak etmişdir. 1 yanvar 1919-cu ildə İbrahim bəy Heydərov Şimali Qafqaz Dağıstan Respublikasının xarici işlər naziri vəzifəsini tutur. Bir müddətdən sonra o, ikinci arvadından olan oğlu və 2 qızı ilə Fransaya mühacirət edir. 1925-ci ilədək Fransada olur. 1925-ci ildə böyük oğlu Minətullanın dəvəti ilə Türkiyəyə (Ankara) köçür. Türkiyədə o, nəqliyyat nazirliyində işləyir. Onun rəhbərliyi altında Türkiyənin bir çox şəhərlərində dəmiryolu xətti çəkilmişdir. İbrahim bəy 70 yaşında vəfat etmiş aə Ankaranın ən yaxşı qəbiristanlıqlarının birində dəfn olunmuşdur (İbrahim bəy 1879-cu ildə anadan olmuş və 1949-cu ildə vəfat etmişdir).

Heydər bəyin nəvəsi, Minətulla bəyin oğlu Qasım bəyin inqilabdan əvvəl 6 hektar üzüm sahisi var idi. Qasım bəy Heydərovun həmçinin Buynaksk küçəsində ikimərtəbəli mülki və evin yanında 2 hektar torpaq sahəsi var idi.

Əbdürəhim bəy nəsli (4-cü məhəllə)

Əbdürəhim bəyin 3 oğlu və 3 qızı var idi: Hacı Mirzə bəy, Hacı Şeyda bəy və Bəybala bəy.

Hacı Mirzə bəyin 2 oğlu var idi: Bədrəddin və Bəylər.

Məşədi Bəylərin oğlu Hətəm sovxoz direktoru işləmişdir. Bədrəddinin oğlu Sabir bəy Bakıda milis polkovnikidir. Bədrəddin bəyin qızı Hafiz Cavadovun həyat yoldaşı idi. Bəybalanın yeganə oğlunun adı Mehdi bəy idi. Qızı neft mühəndisi idi. Onlar Bakıda yaşayırdılar.

Əbdürəhim bəyin böyük qızı Humay xanım Həmzə bəyin oğlu Hacı bəyin həyat yoldaşı idi. Onlar 7-ci məhəllədə yaşayırdılar. İkinci qızı Fatimə xanım bakılı tacir Hacı Hacıağanın həyat yoldaşı idi.

3-cü qızı Məhəmmədəmin bəyin həyat yoldaşı, Məmərza bəyin gəlini idi. Məmərza bəy Məhəmmədəminin atası idi. Onlar səlcuq türklərinin nəslindən törəmişdilər.

Hacı Tahir bəy Novruz Əli bəy oğlunun nəsli (5-ci məhəllə)

Hacı Tahir bəy Novruz Əli bəyin oğludur. Onun Hacı Fərzəli, Hacı Niftalı, Səlimə xanım, Mina xanım və Ruqiyyə xanım adlı beş övladı olmuşdur.

Hacı Niftalının üç qızı var idi. Böyük qızının adı Unbül xanım, kiçiyinin adı Xonça xanım idi.

Hacı Fərzəli və övladları (Ayna xanım, Ruqiyə xanım, Süleyman bəy, Səad bəy, Hacı bəy, Ənnağı bəy) Dərbəndə Qubadan Fətəli xanla gəlmişdilər.

1806-cı ildə general Zubov Narınqala qalasında tabeçiliyində olanları toplamağa çalışır. Lakin tədbir başda Novruzəli bəy olmaqla narazı qüvvələr tərəfindən pozulur. Novruzəli bəy Fətəli xanın oğlu Şeyxəli xana xidmət edirdi.

Paşabəyovlar nəsli (6-cı məhəllə)

Kərimpaşa bəyin atası Həsən bəy, Həsən bəyin atası Yəhya bəy, Yəhya bəyin atası 2-ci Həsən bəy, 2-ci Həsən bəyin atası Ağasi bəy, Ağası bəyin atası Pənah bəy, Pənah bəyin atası Paşa bəy, Paşa bəyin atası Mirzə bəy, Mirzə bəyin atası Məhəmmədəli bəy, Məhəmmədəli bəyin atası Əlisəba bəy, Əlisəba bəyin atası Fərhadqulu bəy olmuşdur.

Qəbir daşlarındakı yazılardan görünür ki, bu nəslin təxminən 400 illik tarixi var. Onlar Dəməşq rayonunda yaşamış türk – səlcuq tayfalarındandırlar. Suriyalılar bu ərazini Bədiyəti əş-Şam adlandırırlar. Onlar Qafqaza XV əsrin sonunda Tərkilərlə birlikdə gəlmişlər. Tərkilər Dağıstanın şimalındakı şamxallıqda, Paşabəyovlar isə Dərbənddə məskunlaşmışlar.

Ona görə onları kumık hesab edirlər. Onların qəbir daşlarında yazmışlar «Ya Həsən, ya Hyseyn».

1922-ci ildə Dərbəndi tərk etmiş Tərki bəyləri hazırda Livanda yaşayırlar.

Soltan bəyin nəsli (6-cı məhəllə)

Soltan bəyin iki oğlu (İsmayıl bəy, İsa bəy) olmuşdur. İsmayıl bəyin Əliqulu bəy, Mürsəl bəy (zərgər), Bala bəy, Məşədi Əliyar bəy adlı 4 oğlu və bir qızı olmuşdur.

Əliqulu bəyin həyat yoldaşı Aybikə xanım 9-cu məhəllənin sakini Məmərza bəyin qızı idi. Mürsəl bəyin arvadı Səlimə xanım 2-ci məhəllə sakini Cavadın nəvəsi, Hacıağanın qızı idi. Bala bəyin həyat yoldaşı (Cəlil bəyin anası) Çitkarlar nəslindən olan Məşədi Məhəmmədrzanın nəvəsi idi. Məşədi Əliyar bəyin həyat yoldaşı Zivər xanım 9-cu məhəllə sakini Məhəmmədəmin bəyin qızı, Məmərza bəyin nəvəsi, Səftər Soltanovun anası olmuşdur. Əliqulu bəyin 3 oğlu və 2 qızı var idi. Mürsəl bəyin 2 oğlu var idi: Əhməd bəy, Süleyman bəy. Bala bəyin bir oğlu (Cəlil bəy) və bir qızı var idi. Məşədi Əliyar bəyin bir oğlu və 2 qızı var idi.

İsa bəyin İbrahim adlı bir oğlu var idi. İbrahim bəyin İsa bəy və Babək bəy adlı oğlanları doğulmuşdur. Bu nəsil Dərbəndə XV əsrin sonunda, Şirvanşahlar dövründə gəlmişdir.

Soltan bəy Şahmərdan bəyin atası idi. Şahmərdan bəyin bacısı Ayna milyonçu və mesenat Hacı Şahmərdanın arvadı olmuşdur. Məşədi Ələkbərin ikinci arvadı Xədicə xanım 6-cı məhəllə sakini Ələvsətin qızı, Məşədi Hacıbabanın nəvəsi, Hacı Əbütalıbın nəticəsi olmuşdur.

Əziz bəy Tahir bəy oğlunun nəsli (6-cı məhəllə)

Əziz bəy Tahir bəyin oğludur. Tahir bəyin 2 oğlu və 2 qızı var idi. Qızı Cicibikə general Cahangir bəy Ərəblinskinin həyat yoldaşı olmuşdur. İkinci qızı – 9-cu məhəllə sakini İsmayıl bəyin həyat yoldaşı, Mirzə bəyin gəlini idi. Tahir bəyin ikinci oğlu – Ağadadaş bəy idi. Tahir bəyin kiçik qardaşı Həmzə bəyin yeganə qızı 7-ci məhəllə sakini Hacı bəyin oğlu Əhmədxan bəyin həyat yoldaşı idi. Ayna xanım Əhmədxan bəyin birinci arvadı və Həmid bəyin doğma anası olmuşdur.

Mirzə bəy Nağı oğlunun nəsli (7-ci məhəllə)

Mirzə bəyin atası Nağı bəy rus çarına xidmət etmişdir. Mirzə bəy pristav işləmişdir. Onun 4 oğlu: böyük oğlu (Hacı Sadıq bəy, Hacıağa bəy, Əhməd bəy, Zal bəy) var idi.

Hacıağa bəyin oğlu İsa bəy Azərbaycanda tanınmış ədəbiyyatçı olmuşdur. İsa bəyin törəmələri indi Bakıda yaşayırlar.

Əhməd bəyin oğlu İsfəndiyar ziyalı idi. Onlar Bakıya 1937-ci ildə köçmüşlər. Əhməd bəyin böyük qızı görkəmli maarifçi və yazıçı Abdulla Şaiqin həyat yoldaşı olmuşdur. O, ədəbiyyatçı professor, mərhum Kamal Talıbzadənin anasıdır. Əhməd bəyin ikinci qızı Xavər xanım Azərbaycanın Xalq şairi, Azərbaycan Respublikası Yazıçılar İttifaqının keçmiş sədri, görkəmli şair və dramaturq Səməd Vurğunun (Vəkilovun) həyat yoldaşı olmuşdur. Xavər xanım mərhum şair Yusif Səmədoğlu və şair Vaqif Səmədoğlunun anasıdır. Onların bacısının adı Aybəniz xanımdır.

Onların əcdadlarının yaşadığı ev hazırda Dərbəndin 7-ci məhəlləsində Orta qapının yaxınlığındadır.

Mirzə bəyin oğlu Zal 5-ci məhəllədə yaşamışdır.

Məşədi Vəli bəyin nəsli (7-ci məhəllə)

Məşədi Vəli bəyin 3 oğlu var idi: Abdin bəy, Əbusət bəy və Məmmədmirzə bəy. Məşədi Vəlibəyovları «rus bəyləri» adlandırırdılar. Onlar 1806-cı ildə Dərbənd Rusiya tərəfindən işğal edildikdən sonra buraya gəlmişlər. Dərbənd sakinləri onları «ac bəy» adlandırırdılar. Çünki onların çuxadan, papaqdan və qılıncdan başqa heç nələri olmamışdı, cibləri isə bomboş idi. Buna baxmayaraq onlar vüqarlı idilər. Bu, hətta onların yerişində də hiss olunurdu. Vəli bəyin nəvəsi Ənvər Məhəmməd Mirzə oğlu polkovnik rütbəsində xidmət edirdi və hərbi həkim idi. O, Bakıda vəfat etmişdir.

Bu nəsildən Həmid bəyin oğlu Zübayıl Bakıda yaşayır, Zübayılın qardaşı Ağalar Dərbənddəki Məzahir Rzayev adına məktəbin direktorudur.

Xıdırbəyovlar nəsli (7-ci məhəllə)

Xidirbəyovlar nəsli Hacı Huma bəydən başlayır. Onlar Dərbəndin 7-ci məhəlləsinin sakinləri olmuşlar.

Hacı Huma bəy təxminən 1798-ci ildə vəfat edib. Bu sülalədə üç Hüseyn bəy var idi.

Huma bəyin oğlu birinci Hüseyn 1832-ci ildə vəfat edib. Onun həyat yoldaşı Reyhan xanım Əlişan bəyin qızı idi. O, 1825-ci ildə vəfat edib.

Hüseyn bəyin oğlu Xıdırbəyin Ağaşbəy adlı bir oğlu var idi. Ağaşbəyin iki oğlu var idi: böyük oğlunun adı Hacı bəy, kiçik oğlunun adı Hüseyn bəy idi. Kiçik oğlunu Ağadadaş bəy çağırırdılar. Hacı bəyin oğlu Hacı Məhəmməd bəy kapitan rütbəsində çar ordusunda xidmət etmişdir. Onun çoxlu mükafatları var idi. 1910-cu ildə o, şəhər idarəçiliyinin üzvlərindən biri olmuşdur. O, əhali arasında böyük nüfuza malik idi. Dərbənddə sovet hakimiyyəti qurulduqdan sonra kommunist rejimindən can qurtarmaq üçün Vətəni tərk etmişdir. Onun sonrakı taleyi haqqında məlumat yoxdur.

Ağaş bəyin ikinci oğlu Hüseyn bəy də (Ağadadaş bəy) çar ordusunda xidmət etmişdir. Onun 4 oğlu və bir qızı var idi. Qızı 7-ci məhəllə sakini Məşədi Vəli bəyin oğlunun həyat yoldaşı idi.

Ağadadaş bəyin böyük oğlu Mürsəl bəy Xıdırbəyov imperator II Aleksandr adına Dərbənddəki realnı məktəbini bitirmişdir. Bundan sonra Mürsəl bəy Krasnodar şəhərində Memarlıq İnstitutuna daxil olur. İnstitutu bitirdikdən sonra o, inşaatçı-mühəndis işləyir. Onun rəhbərliyi altında Dərbənddə çoxlu müəssisələr və məktəblər tikilir. 5-ci məhəllədə çar dövründə tikilməyə başlamış məktəbin tikintisini inqilabdan sonra bitirmək lazım idi. Kərbalayı Mehdinin başçılığı altında bənnaların köməyi ilə məktəbin tikintisi başa çatdırıldı. Bu məktəbin tikintisində Kərbalayı Mehdinin 7-ci məhəllədə yaşayan qardaşı Əlibala, 7-ci məhəllə sakini Əlisultan, 9-cu məhəllədən Nağı və Əbumüslüm də iştirak etmişdir. Bu məktəbdən başqa şəhərdə daha iki məktəb tikilmişdir (biri Nizaminin, o birisi isə Leninin adını daşıyırdı). 1910-cu ildə Dərbənddə daha bir məktəbin tikintisinə başlandı. Bu məktəbi milyonçu Hacı Şahmərdan Eminov tikdirirdi. Bu məktəb Cümə məscidinin yaxınlığında yerləşirdi. Bu məktəb üç sinifdən ibarət idi və 1935-ci ilə qədər mövcud olmuşdur. Məktəbdə Miryaqubun atası Miri Seyidov (zabit, cəbhədə həlak olub), Seyid Seyidov və onun qardaşı Mirəfsər Seyidov müəllim işləmişlər. 1936-cı ildə məktəbi bağladılar və onun binasını Dağıstan Xalq Daxili İşlər Komissarlığının tabeliyinə verdilər.

Şəhərdə 3 məktəbin tikintisi başa çatdıqdan sonra mühəndis Mürsəl Xıdırbəyov 1928-ci ildə indiki Tağızadə küçəsindəki «Passaj» ticarət mərkəzinin tikintisinə başlayır. 1930-cu ildə «Dağün» fabrikini, həmin ildəcə həm də konserv kombinatını tikir. Bu kombinatı o, Hacımirzə Abdullayevlə birlikdə tikir.

Bundan əlavə mühəndis Mürsəl bəy evsiz yəhudilər üçün 4 böyük ev tikməyə başlayır. Bunlardan 1-ci ev Lenin küçəsi, tikiş fabrikinin yanında, 2-ci ev keçmiş Kənd Təsərrüfatı Texnikumunun yanında, 3-cü ev çörək zavodunun yanında və 4-cü ev keçmiş yağ zavodunun qarşısında (Qaqarin küç.) idi.

Mürsəl bəy ziyalı Həmid ağa Mirzəbəyovun qızı ilə evlənmişdi. Qızın adı Mənzər xanım idi. Onun anası Səriyyə xanım keçmiş şəhər başçısı Həmid bəy Vəzirovun bacısı idi. Onların 2 qızı var idi. Böyük qızı Gülnaz uşaqları ilə Bakıda yaşayır, ikinci qızı Sevər xanım həkimdir. Onun həyat yoldaşı Sevin bəy Həsən bəy oğlu Mirzəbəyov aqronomdur.

Ağadadaş bəyin ikinci oğlu Ağalar bəy çox insanpərvər və xehirxah adam idi. Ağalar bəyin həyat yoldaşı Zeynəb xanım Məmməd xanın oğlu İbrahim Mirzağanın qızı idi.

Ağadadaş bəyin 3-cü oğlu İsmayıl bəy aqronom idi. Onun həyat yoldaşı Soltənət xanım Ağalar bəyin qızı, Mirzə bəyin nəvəsi, Yəhya bəyin nəticəsi idi. O, rus dili müəllimi idi. Onların 3 oğlu var idi. Böyük oğlunun adı Hüseyn bəy idi. O, Hacı Huma bəyin sülaləsinin 3-cü Hüseyn bəy idi. Sovet ordusunda zabit kimi xidmət etmişdi. Hüseyn bəy N.Xruşşovun dövründə başqa zabitlərlə birlikdə ordu sıralarından tərxis olunmuşdur. Bundan sonra gənc zabit, baş leytenant Hüseyn bəy Hərbi Akademiyaya daxil olmağı qərara alır. Lakin onun bu istəyi baş tutmur. O, ağır xəstələnir və vəfat edir. Onu Dərbəndin cənub qəbiristanlığında dəfn edirlər. Onun oğlu və nəvələri hazırda Dərbənd şəhərində yaşayırlar.

Xıdır bəy Hüseyn bəy oğlunun nəsli (7-ci məhəllə)

Xıdır bəyin atası Hüseyn bəy olmuşdur. Hüseyn bəyin atası isə Huma bəy idi. Onların nəsli XI əsrin ortalarında Qafqaza gəlmiş səlcuq türklərindən idi. Xıdırbəyovlar sülaləsi hazırda da davam edir. Xıdır bəyin oğlu Ağası bəy, Ağası bəyin oğlu isə Hüseyn bəy idi. Yaxşı görkəminə görə onu Ağadadaş çağırırdılar. Ağadadaş rus zabiti rütbəsini daşıyırdı. O, 1893-cü ildə vəfat etmişdir. Böyük oğlu Yəhya bəy çar zabiti idi. Sovet dövründə güllələnmişdir. Ağadadaşın 2-ci oğlu Mürsəl bəy, 3-cü oğlu Ağalar bəy, 4-cü oğlu İsmayıl bəy idi.

Ağası bəyin 2-ci oğlu Hacıbəy idi. Hacıbəyin yeganə oğlu Məmməd bəy (ştabs-kapitan) 1842-ci ildə anadan olmuşdur. 1900-cü ildən 1908-ci ilə kimi Dərbənd şəhər idarəçilik təşkilatlarında çalışmışdır. Dərbənddə sovetləşmədən sonra yoxa çıxmışdır.

Ağadadaş bəyin ikinci oğlu Mürsəl bəy ziyalı idi. O, II Aleksandr adına Dərbənd realnı məktəbini, həmçinin Don Politexnik İnstitutunu (Krasnodar) memarlıq ixtisası üzrə fərqlənmə ilə bitirmişdir. 1922-ci ildə Dərbənd şəhər sovetinin sədri Mehrab Məmərzabəyov Mürsəl bəyi Dərbənd şəhərinin baş memarı və baş mühəndisi təyin edir.

Mürsəl bəy Xıdırbəyov 1937-ci ildə xalq düşməni kimi Sibirə sürgün olunur və geri qayıtmır. Onun həyat yoldaşı Mənzər xanım keçmiş şəhər başçısı Həmid bəy Vəkilovun bacısı Səriyyə xanımın qızı idi.

Ağadadaş bəyin digər oğlu İsmayıl bəy də həbs olunmuşdu. O, Dərbəndə çox gec qayıtdı və vətənində vəfat etdi. İsmayıl bəyin həyat yoldaşı Soltanat xanım Ağalar Paşabəyovun qızı idi və Dərbəndin məktəblərində rus dili və ədəbiyyat müəllimi işləyirdi. Ağadadaş bəyin 4-cü oğlu çar zabiti idi. Mürsəl bəyin həyat yoldaşı Mənzər xanım savadlı qadın və Xudat bəyin nəvəsi idi.

Ağalar bəyin 2 oğlu və qızı Gülnaz hazırda yaşayırlar.

İsmayıl bəyin iki oğlu var idi: Rüfət bəy və Eynur bəy Xıdırbəyov. Ağalar bəyin həyat yoldaşı Zeynəb xanım Mirzağanın qızı, Əhməd xanın nəvəsi, şair Gumrinin qardaşı İbrahimin nəticəsi idi.

Mürsəl bəyin yeganə qızı Sevər xanım uşaq həkimi idi. Sevər xanım aqronom Sevin bəy Mirzəbəyovun həyat yoldaşı, Həsən bəyin gəlini idi.

Ağadadaş bəyin qızı 7-ci məhəllə sakini Məşədi Vəli bəyin gəlini olmuşdur.

Hacı Əlişan bəy nəsli (7-ci məhəllə)

Əlişan bəy Əlipənah bəyin oğlu idi. Əlişan bəyin Mahmudcahan adlı yeganə qızı var idi. Onun həyat yoldaşı 7-ci məhəllə sakini Huma bəyin oğlu Hüseyn bəy idi. Mahmudcahan xanım h. 1270-ci ildə vəfat edib. Mahmudcahan xanım Hüseyn

bəyin oğlu, tanınmış Xıdır bəyin anası və məşhur Ağası bəyin nənəsi idi. Tanınmış zabit Ağadadaş bəy Mahmudcahan xanımın nəticəsi, Ağalar bəy və Mursəl bəyin kötükcəsi idi. Mürsəl bəy XX əsrin 30-cu illərinin əvvəlində Dərbənd şəhərinin ilk memarı olmuşdur.

Əlişan bəy şimali Qırxlar qəbiristanlığında atası, altı qardaşı və bir bacısı ilə yanaşı dəfn olunmuşdur.

Birinci Əlipənah bəy Məhəmmədəli Şam bəy oğlunun nəsli (9-cu məhəllə)

Məhəmmədəli Şam bəyin oğlu Əlipənah bəyin sülaləsi 9-cu məhəllədə Dəvə damı adlanan yerdə yaşamışdır. Onun 8 oğlu və bir qızı var idi. Onlar əslən Şamdan-Suriyadan idilər və Dəməşqin yaxınlığındakı Bediyyatı-Əşşam adlı yerin sakini olmuşdular. Onlar vaxtilə Qafqaza köçmüş oğuz türklərinə aiddirlər. Dərbəndin oğuz bəyləri əvvəl Tabasaranda, sonra isə Dərbənddə məskünlaşmışdılar.

Şam bəyin nəvəsi Məhəmməd Əli Əlihəsən bəyin 8 oğlundan birinin – Əlipənah bəyin oğlu idi.

İkinci Əlipənah bəyin oğlunun 3 oğlu və iki qızı var idi. İkinci Əlipənah bəyin həyat yoldaşı 6-cı məhəllə sakini Paşabəyovların nəslindən olan Qasım bəyin nəvəsi, Mirzə Mehdiqulu bəyin qızı idi. Böyük oğlu Osman bəy polkovnik idi. İkinci oğlu Əlihəsən bəy babasının adını daşıyırdı. 3-cü oğlunun adı Həbail idi. Osman bəyin həyat yoldaşı tanınmış Nuh bəyin qızı, pristav Musa bəy və Teymur bəyin bacısı, Heydər bəyin nəvəsi, Əlimərdan bəyin nəticəsi idi.

Əlihəsən bəyin böyük oğlu inqilab zamanı Türkiyəyə gedir. O, çar zabiti idi.

Həbail bəy 1924-cü ildə Samur çayında atı ilə bərabər batmışdır. Əlipənah bəy polkovnik rütbəsini daşıyırdı. Vaxtilə imperatorun adından Narınqalanın müdafiəsi ona tapşırılmışdı.

Əlipənah bəyin böyük qızı Biçə xanım Ərəblinski kimi tanınan Əli bəyin oğlu general-leytenant Balakişi bəyin həyat yoldaşı idi.

Əlipənah bəyin kiçik qızı Xədicə xanım 1887-ci ildə vəfat etmişdir.

Onun qəbri Qırxlar qəbiristanlığındadır.

Biçə xanımın Cahangir bəy adlı bir oğlu və 3 qızı var idi. Böyük qızı Sona xanım milyonçu Hacı Zeynalabdin Tağıyevin həyat yoldaşı, ikinci qızı Hüriyyə xanım knyaz polkovnik Əbdülcəlil Usmiyevin həyat yoldaşı, 3-cü qızı Hüricahanbikə İsmayılın həyat yoldaşı idi.

Cahangir bəyin həyat yoldaşı Cicibikə 6-cı məhəllə sakini Tahir bəyin qızı, Əziz bəyin bacısı idi. Onların Minəxanım adlı bir qızı, Muxtar bəy və İsgəndər bəy adlı iki oğlu var idi. Cahangir bəyin ikinci oğlu Saratovda yaşamış və hərbi zavodun baş mühasibi olmuşdur. Cahangir bəyin qızı Minəxanım ziyalı Xanbəyin həyat yoldaşı idi. Onların 4 qızı var idi: Sara xanım, Tamara xanım, Nahidə xanım və dördüncüsü Minəxanım Çiçibikə 1941-ci ilin əvvəlində vəfat etmişdir. Onu Mahaçqalada dəfn etmişdilər. 1945-ci ildən sonra qızları anasının qohumlarının yanına, Bakıya köçürlər. Onlar o zamandan Bakıda yaşayırlar.

Abdullayev Şahlar
Mirzabəy oğlunun nəsli

Ş.M. Abdullayev fizika-riyaziyyat elmləri namizədidir. 1968-ci ildə Bakıda vəfat edib.

Onun bacısı Aybikə 1914-cü ildə polkovnik Yaraqi Laçuyevə ərə getmişdir. Yaraqi Laçuyev Dərbənddə polis rəisi işləyirdi. O, Aslan xanın nəslindən olan Qazi Qumux xanın oğlu Şahmərdan bəyin oğlu idi.

Abdullayevin nəvəsi Mirzəbəyin ailəsi 1942-ci ildə Barnaul şəhərinə (Şimali Qazaxıstan) sürgün edilmişdir. Mirzəbəyin həyat yoldaşı, Hacı Fətullanın qızı Ayət xanım, oğlu Şahlar və qızı Aybikə orada 5 il yaşamış və 1947-ci ildə Bakıya qayıtmışdılar.

Həmdulla Abdullayevin həyat yoldaşı Suvat xanım general Ərəblinskinin nəvəsi, polkovnik Əbdülcəlil Usmiyevin qızı idi. O, 1894-cü ildə anadan olmuş və 1992-ci ildə vəfat etmişdir.

Hacı Fətullanın ikinci oğlu Minətulla idi. Onun həyat yoldaşı Sürəyya xanım Feyzullanın qızı idi. O, 1930-cu ildə vəfat etmişdir. Bir oğlu və bir qızı var idi. Qızı Məxfirət Bakıda Sənaye İnstitutunu bitirmişdir.

Abdullayev Həmdulla
Hacı Fətulla oğlunun nəsli

Abdullayev Həmdulla Hacı Fətulla oğlu 1881-ci ildə Dərbənd şəhərində tacir ailəsində anadan olmuşdur. Dərbənd realnı məktəbini bitirmişdir. Ali təhsili Almaniyada almışdır. 1910-cu ildə Qaytağın

keçmiş hökmdarı Əbdülcəlil Usmiyevin oğul nəvəsinin qızı Suvat xanımla evlənmişdir. Suvat xanım ana tərəfdən general B.Ərəblinskinin nəvəsi idi. Onların 5 övladı olmuşdur: Həyat, Adil, Emin, Yusif və Aida.

Həyat 1912-ci ildə Dərbənddə anadan olmuş, Bakıda orta məktəbi, Leninqradda Repin adına Rəssamlıq, Heykaltaraşlıq və Memarlıq İnstitutunu bitirmişdir. Uzun müddət Bakı şəhərində işləmişdir.

Adil (1915) və Eminin (1917) taleləri eyni olmuş və onlar ömrü boyu bir yerdə olmuşlar. 1926-cı ildə Həmdulla oğlanlarını təhsil almaq üçün Almaniyaya aparmışdır. Həmdulla həbs olunduqdan sonra, sərhədlər bağlandığı üçün onlar Almaniyada qalmışlar. Almaniyada hakimiyyət dəyişildikdən sonra, qardaşlar Türkiyəyə gedirlər və orada alman firmasında işləyirlər. 1945-ci ildə müharibə qurtardıqdan sonra Adil və Emin Almaniyaya qayıdırlar. Onlar burada ali texniki təhsil alırlar.

Adil mühəndis-elektrotexnik idi. Əvvəlcə istehsalatda işləmiş, sonra isə universitetdə dərs demiş və universitetin rektoru olmuşdur. O, professor və akademik elmi adlarını almışdır. Müharibədən sonrakı illərdə Bakıya gəlmiş və Azərbaycan Neft və Kimya İnstitutu rektorunun xahişi ilə institutda alman dilində mühazirə oxumuşdur.

Emin institutun maşınqayırma fakültəsini bitirmişdir. O, mühəndis, ixtiraçı və alman konsernlərindən birinin vitse-prezidenti işləmişdir.

Yusif – 1918-ci ildə anadan olmuşdur. Bakıda Azərbaycan Neft və Kimya İnstitutunun mexanika fakültəsini bitirmişdir. O, Orta Asiyada, sonra isə Moskvada SSRİ Neft Sənayesi nazirliyində işləmişdir.

Aidə 1922-ci ildə anadan olmuşdur. O, Ü.Hacıbəyov adına Bakı Konservatoriyasını bitirmişdir. Musiqi Akademiyasının professoru olmuşdur.

Əlimərdan bəy Hüseyn bəy oğlunun nəsli

Hüseyn bəy tanınmış nəsildən idi. Onun varisləri şəhər idarəçiliyində, dövlət vəzifələrində işləmişlər və çoxlu daşınmaz əmlak sahibi olmuşdur. Onun oğlu Əlimərdanın 4 övladı var idi: Nuhu bəy, Hüseyn bəy, Nazir bəy və bir qızı. Qızı Əlipənahbəyov Osman bəyin həyat yoldaşı idi. Oğlu Nuhu bəyin iki oğlu var idi: Teyuh bəy və Heydər bəy. Digər oğlu Hüseyn bəyin Musa adlı bir oğlu var idi.

Məmərzabəyov Məmmədəmin bəyin nəsli

Məmərzabəyov Məmmədəmin qədim Dərbənd bəylərinin nəslindən idi. Onun böyük malikanəsi, üzüm bağı və böyük karvansarası var idi. O, Dərbənd şəhəri dövlət idarələrində məsul vəzifələrdə çalışmış və fəxri ada layiq görülmüşdür. Məmmədəmin bəy orta yaşlarında vəfat etmiş və «Bair-bulağ»ın yanında dəfn olunmuşdur. 1920-ci ildə həyat yoldaşı Xanım da onun yanında dəfn olunmuşdur. Onların 5 övladı var idi: İsmayıl, Süleyman, Mehrab, Zivər və Tutubikə.

İsmayıl Dərbənddə bağçılıq məktəbini bitirmiş və üzümçülük üzrə tanınmış mütəxəssis olmuşdur. Tanınmış qafqazşünas Kozubskinin 1906-cı ildə çap edilmiş məşhur «Dərbəndin tarixi»də onun adı iki dəfə çəkilir. O, gənc yaşında vəfat etmişdir. Onun üç övladı var idi: Şahzadə, Milay, Məmərza bəy.

Mehrab 1890-cı ildə anadan olmuş, bağçılıq məktəbini bitirmişdir. Onun 2 oğlu var idi: Sədi, Əsəd.

General-leytenant Ərəblinski Balakişi Əli bəy oğlunun nəsli

Ərəblinskilərin ailəsi Ərəblər məhəlləsindən olduğu üçün Ərəblinski soy adını götürmüşlər. Balakişi erkən yaşlarından valideynlərini itirdiyi üçün onun tərbiyəsi ilə dayısı, rus ordusunun istefada olan polkovniki Dibrov bəy məşğul olmuşdur. Ərəblinski Peterburqda 1-ci dərəcəli kadet korpusunu qurtardıqdan sonra 50 il rus ordusunda süvari zabiti kimi xidmət edir. Onun həyat yoldaşı Biçə şəhərdə tanınmış zadəgan olan Əlipənah bəyin bacısı idi. Onların 1 oğlu və 3 qızı var idi: Cahangir, Nurcahan, Üryət və Sona.

Oğlu Cahangirin 5 övladı var idi: Nailə, Tamara, Muxtar, Əlibəy, İsgəndər.

Qızı Nurcahan milyonçu Z.Tağıyevin oğlu İsmayılın həyat yoldaşı idi. O, 1916-cı ildə vəfat etmişdir. Qızı Üryət rus ordusunun polkovniki Əbdülcəlil Usmiyevin həyat yoldaşı idi. Digər qızı Sona xanım milyonçusu H.Z.Tağıyevin həyat yoldaşı idi. Onların 5 övladı var idi: Leyla, Sara, Məhəmməd, İlyas, Suriyə. Leyla milyonçu Ş.Əsədullayevin oğlu Əlini həyat yoldaşı idi. Onların iki oğlu və bir qızı var idi.

Sara milyonçunun qızı olduğu üçün daim təqiblərə məruz qalmışdır. Azərbaycanda siyasi vəziyyət

düzəldikdən sonra o, atasının adını qoruyub saxlamış və onu H.Z.Tağıyev adına xeyriyyəçilik cəmiyyətinin sədri seçmişlər. Sara xanım 1992-ci ildə Bakıda vəfat etmişdir.

Sona xanımın oğlu İlyas 30-cu illərin əvvəll-ərində vəfat etmişdir. Qızı Suriyə isə tibb institutunu bitirmiş və stomatoloq işləmişdir. O, balıq sənayeçisi Həmdullanın qardaşı Əsəd Əsədullayevin həyat yoldaşı olmuşdur. Onların Rəsmi və Dilarə adlı iki övladı olmuşdur.

Sultanov İsmayıl bəyin nəsli

İsmayıl bəy Sultanov Dərbəndin qədim bəy nəslindən idi. Sultanovlar şəhərdə dövlət vəzifələrində işləmiş və şəhər sakinlərinin dərin hörmətini qazanmışdılar. İsmayıl bəyin 6 övladı var idi: Bala bəy, Mürsəl bəy, Əliyar bəy, Əliqulu bəy, Dəniyar bəy və Şəhrəbanu.

Bala bəy ziyalı olmuş və şəhər idarəçiliyində dövlət vəzifələrində işləmişdir. O, 1897-ci ildə gənc yaşlarında vəfat etmişdir. Onun iki övladı var idi: Cəlil bəy və Zivər xanım.

Mürsəl bəy zərgər idi və onun zərgərlik emalatxanası var idi. Onun üç övladı var idi: Əhməd bəy, Süleyman, Xanım.

Əliyar bəy mehriban və hörmətli şəxslərdən biri olmuş, şəhərin yoxsul sakinlərinə maddi yardım göstərmişdir. Onun malikanəsi, üzüm bağı və baqqal dükanı var idi. O, 1923-cü ildə vəfat etmişdir. Onun Kitail və Səftər adlı 2 övladı olmuşdur.

Əliqulu bəy üzümçülüklə və bağçılıqla məşğul olmuşdur. Onun 5 övladı var idi: Maytəb, Həmid, İlyas, Hacı, Papı.

Məşədi Dəniyar bəy Dərbənddə məktəbi bitirdikdən sonra Aşqabada köçmüş, orada Rusiya konsuluğunda işləmiş və oradaca vəfat etmişdir. Onun iki övladı var idi.

Məşədi Arıx nəsli (Bayat qapı məhəlləsi)

Məşədi Arıxın atası Dərbəndə 1850-ci ildə Qurax bölgəsindən köçmüşdür. O, əvvəllər Mollakənddə yaşamış və milyonçu Abdullayevin balıq kombinatında işləmişdir. XIX əsrin 90-cı illərində Məşədi Arıxın nəsli Dərbəndin Bayat qapı məhəlləsinə köçmüşdür. Məşədi Arıxın həyat yoldaşı Fatimə xanım idi. Onların 2 oğlu var idi. Böyük oğlu Babanın həyat yoldaşı Çitkarlar nəslindən olan Hacı Soltanın nəvəsi, Məhəmmədzamanın qızı, Hacı Qiyasın bacısı Geya xanım idi.

İkinci oğlunun həyat yoldaşı Səkinə xanım əslən 9-cu məhəllədən idi. O, Ağaməmmədin nəticəsi, Nazaralının nəvəsi, Əbülqasımın qızı, Mirzə Fəttahın bacısı idi. XX əsrin 20-ci illərində onlar Murtuzun evini alırlar. Hazırda Məşədi Arıxın varisləri burada yaşayırlar.

DƏRBƏNDİN TANINMIŞ AİLƏLƏRİ

İkinci məhəllə

Hacı Abdullanın oğlu Məşədi Həmdulla, Hacı Əlövsətin oğlu Məşədi Məhəmməd Saleh, Molla Hüseynqulunun övladları – Əsədulla və Seyfulla, Məşədi Cəlil, Fefi müəllim, Molla Həmid kişi, Sədrəddin, qaragöz Məşədi Həsənbala, onun oğlu Hacı Adil, Səftər Pənayev.

Dördüncü məhəllə

Əsədullanın atası Məşədi Əzim, Hacı Nəsrulanın oğlu Cəfər, Kərbalayı Həbib Sədullanın oğlu Həbib, Hacı Mirzə Əhməd, papaqçı Məşədi Əsgər, Hacı Həsən, Şamxal, saatsaz Əbdülsalam, Kərbalayı Abdullanın oğlu Məmmədli, usta Qulamhüseyn, Hacı Qadir, ovçu Mahmud, dülgər Kərbalayı Ədil.

Beşinci məhəllə

Hacı Əhədin oğlanları – Məşədi Əbdüləli və Molla Əliəhməd, Soltanın oğlu Məşədi Məhəmməd Tağı və onun qardaşı axund Məşədi Məhəmməd Kazım, Baba oğlu İslam, Qoçu Ələkbər, Kərbalayı Əhməd, Məşədi İsifin oğlu Seyfulla, pambıqçı Feyzullanın oğlu, Hacıhüseynbalanın oğlu Vəli, Kərbalayı Mirbağır, Ağa Mirzəhüseynin oğlu, zərgər Əbdülsalam, Məşədi Nemətin oğlu, Seyranın atası Hacı, Hacının atası Məşədi Əsədulla, Məşədi Baba Sultanov.

Altıncı məhəllə

Məşədi Həsənin oğlanları Əbdülxaliq və Zeynal, görkəmli riyaziyyatçı Mirsəməd, Məhəmmədin oğlu çəkməçi Əlibala, İtəmən Məmmədəli, «piyan» Abı, bənna Abidinin oğlu Eldar (onlar ayrılmaz dost olmuşdular). Hacı Ələsgərin nəvələri, Kərbalayı Həmzənin övladları (7 oğul və 1 qız, onların hamısı ziyalı olmuşlar. Onlardan ikisi – alim, professor olmuşdur), Məhəmmədin oğlu dülgər Kəlbə Rəcəb idi. Kərbalayı Hacıbalanın oğlu – Qara Hacı Mirzə, Mirteyyubun atası Mir Cəfər, məhəllənin Xan küçəsinin sakinləri: Həsənin nəvəsi, Baharın oğlu – Əbdüləhəd, Ağa Mirzə Əhməd, Seyid Soltan və onun oğlu Təvəkkül, Məşədi Kazım və onun oğlu Fərhad.

Yeddinci məhəllə

Mirmusanın atası Mirhacıbaba, Kəlbə Tağının nəticələri Kərbalayı Heydər, Hacıbala, Səttər. Hacı Kəlbənin oğlanları – Hüseyn Əli – Əhməd və Yusif; Mir Seyidəli Ələkbər, onun qardaşı Əliheydər, Məşədi Əsədulla, Hacı Məhəmməd Əli, Əlimirzənin oğlu Baxşəli, Mərdanın oğlu Əliağa (həkim), Mirzə Məhəmməd Kazım, Ağacan, Seyid Məmmədin oğlu Seyid Əhməd, Kərbalayı Məhəmməd İbrahimin nəvələri, Hacının oğlu Əli, Əhmədxanın oğlanları – Mirzağa, Abuzər, Asəf.

Doqquzuncu məhəllə

Əli Mədətin oğlu Kərbalayı Abdulla və onun gözəl dostu, qalanın gözətçisi İsgəndərin oğlu Abbasmirzə. Kərbalayı Rəsulun oğlanları – Əhəd kişi, onun nəvələri Niftalı, Molla Əbuzər, Hüseyn, Qayaqulu, Ələkbərin oğlanları: Hacı Məhəmməd Tağı, Məhəmməd Mehdi, Cəfərin oğlu Məşədi Rəşid, Fərəcullanın nəvəsi Abuş kişi, Əsgər Aslanın oğlu, Abigül, Kərbalayı Rzaqulunun oğlu, Kəlbə Abasqulunun nəvəsi (bunlar köhnə dərbəndlilər və Paşabəyovların qohumudurlar).

Çahartəpə və Şirvan burnu sakinləri

Çahartəpə və Şirvan burnunun sakinləri: baqqalçı qardaşlar Mövsüm, Şamdan bəy, Mehdi, Məşədi Nemətin oğlu Əlipənah, ata Abdulla Hacı, Hacıağa Mir Əhməd, Məşədi Əhməd, Kərbə Nəsrulla, Əlövsətin atası İsabəy, çarıqçıların övladları Hacı Hacıbala, Hacı Növruz, Qızıldiş Əbdülsəlim, Vəli Aşurov, Hacı Abbasəli, onun oğlu Kərbalayı Yəhya, Xəbəilin atası Məşədi Bəydadaş, Vəliyulla, Mir İsmayıl Daşdəmir, Kərbalayı Əlibala.

Çahartəpədən üzü aşağı Şirvan burnunadək yaşayan ailələr Şirvandan çıxmışdılar. Onlar buraya kütləvi şəkildə birinci dəfə Şirvanşahlar dövründə, ikinci dəfə isə I Şah Abbas dövründə gəlmişlər.

Xudadat bəyin ailəsi (1-ci məhəllə)

Xudadat bəy Vəkilov – Azərbaycanın xalq şairi Səməd Vurğun Vəkilovun nəslindəndir.

Onun oğlu Həmid Vəkilov inqilabdan əvvəl Dərbəndin şəhər başçısı olmuşdur. Onun Səriyyə adlı qızı var idi. Qardaşları Həmid bəyin və Sədulla bəyin qızları Dünyanaz və Bədisabah müəllimdirlər. Dünyanaz İsmayılova – polkovnik Nazim Hikmətin anasıdır.

Rza bəy Nağı bəy oğlunun ailəsi (4-cü məhəllə)

Nağı bəyin oğlu Rza bəyin Ömər bəy, Əlibəy və Mirzə bəy adlı 3 oğlu olmuşdur. Ömər bəyin birinci arvadı – Humay xanımın böyük bacısı, ikinci arvadı – Humay xanım özü olmuşdur. Bu qadınlar qarabağlı Zöhrab bəyin nəvələri idi.

Ömər bəyin 7 oğlu var idi. Onlardan beşi Bakıda yaşamışdır. Ən böyük oğlu İdris vəfat etmiş və Dərbənddə dəfn olunmuşdur.

Ələkbərli Kazım Ələkbər oğlunun ailəsi (5-ci məhəllə)

Ələkbərli Kazım Ələkbər oğlu XX əsrin görkəmli və tanınmış filosof və ədibi olmuşdur. O, 1905-ci ildə Dərbənd şəhərində 5-ci məhəllədə anadan olmuşdur. İbtidai təhsili o dövrün savadlı adamı hesab olunan molla Ələhməddən almışdır. Molla Ələhməd Məşədi Əbdüləlinin kiçik qardaşı və Hacı Əhədin oğlu, Emu Əlicanın nəvəsi idi. Onlar Dərbəndin 5-ci məhəlləsində yaşayırdılar. Qırmız Professura İnstitutunu bitirdikdən sonra Bakı Pedaqoji İnstitutunda təhsil almışdır. Dərbənddə və Gəncədə işləmişdir. Sonralar Azərbaycan Dövlət Universitetinin rektoru vəzifəsində işləmiş və fəlsəfə fənnini tədris etmişdir.

1937-ci ilə qədər Azərbaycan Yazıçılar İttifaqının birinci katibi işləmişdir. «Azərbaycan ədəbiyyatı» qəzetinin baş redaktoru olmuşdur. 1927-ci ildə Moskva şəhərində ədəbiyyatçıların qurultayında iştirak etmiş Azərbaycan Respublikası adından rus dilində çıxış etmişdir. Onun çıxışına həm Azərbaycanda, həm də Moskvada heyran olmuşdular. Onda onun cəmi 22 yaşı var idi. O, «Dərbənd şəhərinin qısa tarixi» kitabının və fəlsəfi broşuraların müəllifidir. 1936-cı ildə «Azərbaycan ədəbiyyatı» qəzetində şeirlərini çap etdirirdi. Lakin ölümün qara buludları onun başı üzərini almışdı.12 oktyabr 1937-ci ildə onu istintaqa cəlb edirlər. Onun işinə 6 dəqiqə ərzində baxmışlar. 6 dəqiqədən sonra onu məhkum edirlər. 18 saat ərzində Azərbaycanın 40 alimi məhv edildi.

32 yaşlı Kazım Ələkbərli evli olmamışdır. Onlar 4 qardaşı idilər. Böyük qardaş Kazım, 2-cisi Süleyman (aqronom işləyirdi), 3-cüsü Məmmədkəsir, 4-cüsü isə Məmmədvəli (ali təhsil almışdır və cəbhədə həlak olmuşdur) idi.

Məmmədkəsir Azərbaycan Dövlət Universitetini bitirdikdən sonra Moskvada aspiranturaya qəbul olur və oranı fərqlənmə ilə bitirir. Sonra Ukraynada, Kiyevin ali təhsil müəssisələrində müəllim işləyir. Bir neçə ildən sonra Dağıstana qayıdır və Dağıstan Dövlət Universitetində müəllim işləyir, burada ümumi tarix kafedrasına rəhbərlik edir. Tarix elmləri doktoru, professor idi.

O, Mahaçqalada vəfat etmiş və Dərbənd şəhərinin cənub qəbiristanlığında dəfn olunmuşdur.

Kərbalayı Ağasi bəy Xancan bəy oğlu (6-cı məhəllə)

Kərbalayı Ağasının iki qızı və iki oğlu var idi: İsa bəy və Hüseyn bəy. Onlar əslən Ağdaşdan idilər.

Hacı Nağı bəyin ailəsi (6-cı məhəllə)

Hacı Nağının atası Hacıbaba idi. Hacı Nağının birinci arvadı Məmmədəminin qızı idi. Məmmədəmin Məmərzanın nəvəsi idi. Onlar Qubadan idilər. Onlar Dərbəndə Fətəli xanın dövründə gəlmişdilər.

Hacı Nağının övladları: Hacı Tağı bəy, Mirzə Ələkbər bəy, Hacı Əhməd bəy, qızı Ayət xanım. İkinci qızı Rəşid bəy Sadıqovun həyat yoldaşı idi.

Məmməd bəyin ailəsi (6-cı məhəllə)

Məmməd bəyin 3 oğlu və bir qızı var idi. Yeganə qızı tacir Hacı Kazımın oğlu tacir Hacı Tağının həyat yoldaşı idi. Məmməd bəy ömrü boyu çar ordusunda xidmət etmiş və podpolkovnik rütbəsinədək qalxmışdır. Onun böyük oğlu Mirzəəhməd Tabasaranın Şimal kəndlərinin birində pristav olmuşdur, sonra isə Dərbənddə həbsxana rəisi işləmişdir. Böyük oğlu Kərimbəy Məmmədbəyov – Dağıstan Nazirlər Sovetinin sədri olmuşdur. 1937-ci ildə xalq düşməni kimi həbs olunmuşdur. Bacısının biri müəllimə, o birisi Moskva metropoliteninin mühəndisi işləmişdir. Üçüncü bacısı Krımda yaşamışdır. Onlar əslən Qubadandırlar. Mirzəəhməd bəyin oğlu Xəlil bəy Moskva şəhərində yaşamış və RSFSR yeyinti sənayesi nazirliyində işləmişdir.

Ağa xan ailəsi (6-cı məhəllə)

Ağa xan – Cəfər xanın atası idi. Cəfər xanın oğlu isə İsa bəy idi.

İsa bəyin oğlu Daşdi bəy olmuşdur. Onlar əslən Türkiyədəndirlər. Onların ulu babaları Dərbəndə XVI əsrin 3-cü rübündə gəlmişlər. XVI əsrin sonları Dərbənd bir müddət Osmanlı imperiyasının tər-

kibində olmuşdur. Bu dövrdə Anadoludan Dərbəndə bir neçə ailə köçmüşdü. Onlardan milyonçu Abdullayevin, Rəcəblinin nəsillərini göstərmək olar.

Kərbalayı Hacı Hüseynin ailəsi (6-cı məhəllə)

Kərbalayı Hacı Hüseyn. 1834-cü ildən 1843-cü ilədək Fransanın Avinyon şəhərində yaşamışdır. Hələ Fransada yaşayarkən Hacı Hüseyn İraqın müqəddəs yerlərinin ziyarətinə gedir.

Fransanın Avinyon şəhərində boyaq otunun (marena) yetişdirilməsindəki xidmətlərinə görə Hacı Hüseynin abidəsi uçaldılmışdır. O, ilk dəfə olaraq Fransada marenanın səkkizillik köklərindən 5 növ boyaq almışdır. O, dövrdə Fransanın manufaktura sənayesinin uğurlu inkişafında onun böyük əməyi olmuşdur.

Avinyon şəhəri Fransanın cənubunda Marsel şəhərindən təxminən 180 km aralıda yerləşir. Maarsel şəhəri Reno çayının sahilində yerləşir. Kərbalayı Hacı Hüseyn gəmidə Odessadan Türkiyəyə, oradan da Fransaya getmişdir. Onun dostu və köməkçisi Alten adlı fransız olmuşdur.

Aylar, illər keçdi. Kərbalayı Hacı Hüseyn Altenin köməyi ilə fransız dilini mükəmməl öyrənmiş, Alten isə Azərbaycan dilində gözəl danışmışdı. Bu müddət ərzində boyaqçılıq Fransada uğurla inkişaf edirdi. Müqavilənin vaxtı qurtardıqdan sonra fransızlar Kərbalayı Hacı Hüseyni böyük ehtiramla Avinyondan Dərbəndə yola saldılar. Fransa sənayesinin inkişafındakı böyük xidmətlərinə görə Kərbalayı Hacı Hüseynə 40 min məbləğində qızıl pul verdilər. Bir az istirahət etdikdən sonra Kərbalayı Hacı Hüseyn doğma şəhəri Dərbəndi abadlaşdırmağı qərara alır. O, yeni yaşayış binaları tikdirdi. Bir müddətdən sonra Kərbalayı Hacı Hüseyn Səudiyyə Ərəbistanına – Məkkəyə ziyarətə gedir. Bir il keçəndən sonra 1887-ci ildə Kərbalayı Hacı Hüseyn İraqa gedir və az sonra bu müqəddəs torpaqda vəfat edir. Onu oradaca dəfn edirlər. O, ölümündən sonra uşaqlarına çoxlu var-dövlət qoymuşdur. Onun 4 oğlu və Hacıbikə adlı bir qızı var idi. Onun qızı Hacıbikə Niftalının oğlu tacir Hacı Ələhmədin (6-cı məhəllə) həyat yoldaşı idi.

Böyük oğlu Ağarəhim 1915-ci ildə vəfat etmişdir. 2-ci oğlu Rzaqulu 1886-ci ildə, 3-cü oğlu Məşədi Mehdiqulu 1928-ci ildə, 4-cü oğlu Hacıbala 1912-ci ildə vəfat edib. Qızı Hacıbikə 1914-cü ildə vəfat edib. Hacı Hüseynin həyat yoldaşı Seyid Ümcahan 7-ci məhəllə sakini Məşədi Mir Qadirin qızı, Hacı Seyid Rzanın bacısı idi. O, 1910-cu ildə vəfat edib.

Əbdülkərimin ailəsi (7-ci məhəllə)

Cərrahiyyə sahəsində görkəmli mütəxəssis olan Əbdülkərim (milliyətcə kumık idi) – Tərki kəndində anadan olmuşdur. O, Dərbənddə XIX-XX əsrlərdə yaşamışdır. Dərbəndlilər bu istedadlı həkimi indiyədək xatırlayırlar. O, xalq təbabəti üzrə gözəl mütəxəssis olmuş, otlardan və çiçəklərdən çox səmərəli dərmanlar hazırlamışdı.

Nağı bəyin ailəsi (7-ci məhəllə)

Nağı bəy çar ordusunda xidmət etmişdi. Onun oğlu Mirzə bəy 1882-ci ildə Dərbənddə pristav vəzifəsində xidmət etmişdi. Onun 3 oğlu var idi. Böyük oğlu Hacıağa bəyin İsa bəy adlı oğlu var idi. O, Bakıda yaşamışdır. Ədəbiyyatla məşğul olurdu. O, 85 yaşında vəfat etmişdir.

Mirzə bəyin ikinci oğlu Yasif bəy də öz oğlu Əlisgəndər bəylə Bakıda yaşamışdır.

Mirzə bəyin kiçik oğlu Əhməd bəyin iki qızı var idi. Böyük qızı Şahzadə xanım məşhur şair və dramaturq Abdulla Şaiq Talıbzadənin həyat yoldaşı olmuşdur. Onların oğlu Kamal Talıbzadə məşhur ədəbiyyatçı olmuşdur. İkinci qızı Xavər xanım dahi Azərbaycan şairi Səməd Vurğunun həyat yoldaşı olmuşdur. Onların iki oğlu və bir qızı var idi. Böyük oğlunun adı Yusif, kiçik oğlunun adı Vaqif, qızının adı isə Aybəniz idi. İnqilab dövründə Mirzə bəyin oğlanları Bakıya köçürlər. Bu nəslin nümayəndələri hazırda yaşayırlar.

Nağı bəyin nəsli çox tanınmış ziyalı nəsli kimi şöhrət tapmışdır.

Həmidağa bəy Mirzəbəyov (7-ci məhəllə)

Həmidağa bəy tanınmış maliyyəçi olmuşdur. Onun qızı Mənzər xanım Mürsəl bəy Xıdırbəyovun həyat yoldaşı idi. Onların 2 qızı var idi. Böyük qızı Sevər xanım aqronom Sevin bəy Mirzəbəyovun həyat yoldaşı, 9-cu məhəllə sakini Həsən bəyin gəlini idi.

Ağadadaş bəyin ikinci oğlu Ağalar bəy idi. Onun həyat yoldaşı Zeynəb xanım Əhmədxanın nəvəsi, İbrahim bəyin nəticəsi, Gümri nəslindən olan Abuzərin (7-ci məhəllə sakini) qızı idi. Ağalar bəyin uşaqları: Niyaz bəy, Maksud bəy, Gülşən xanım.

Ağadadaş bəyin 3-cü oğlu İsmayıl bəy həbs olunmuşdu. Onun həyat yoldaşı Soltanat (Ağalar bəyin qızı) rus dili müəllimi idi.

Sadıq bəyin ailəsi (7-ci məhəllə)

Sadıq bəyin oğlu Vəli bəy, Vəli bəyin oğlu Həmzə bəy, Həmzə bəyin oğlu isə Hacı bəy olmuşdur. Hacı bəyin böyük oğlu Əhmədxan bəy, ortancıl oğlu Cəfər bəy, 3-cü oğlu çar ordusunun mayoru İbrahim idi.

Həmzə bəyin həyat yoldaşı milyonçu Hacı Abdullanın, Hacı Abutalıbın və Əbdülhəmidin bacısı, Hacı Rəcəbəlinin qızı idi. Hacı bəyin həyat yoldaşı Humay xanım Ədürəhim bəyin qızı, 4-cü məhəllə sakini Hacımirzənin bacısı idi. Humay xanımın 3 oğlu və 2 qızı var idi. Böyük oğlu Əhmədxan bəyin birinci arvadı Ayna xanım Həmid bəyin anası, əmisi Əziz bəyin qızı (Həmzə bəyin qardaşı), Xan küçəsinin sakini idi.

İbrahim bəyin həyat yoldaşı Soltanat xanım Hacımirzə bəyin qızı idi. İbrahim bəyin igidliyi və qəhrəmanlığı çarın özünə də məlum idi. 1914-cü ildə İrana girmiş rus ordusunun başında daxili işlər naziri Sazonov və İbrahim bəy dururdu. Bir ildən sonra o, vətənə dönür. 1916-cı ildə İbrahim bəyin başçılığı altında qoşun qatarda gedərkən bombardmana məruz qalır. Qəhrəman komandir öz əsgərləri ilə birlikdə həlak olur. Bu hadisə Avropa ərazisində baş verir. Onun cəsədinin dalınca Avropaya xalası oğlu Məmmədəmin bəy (Məmərza bəyin oğlu) və bacısının əri Məmmədəli Mirzəağa oğlu Teymurov gedirlər. İbrahim bəyin cəsədi Vətəni Azərbaycana gətirilir və Dərbənddə Şeyx Saleh bulağının sağ tərəfində dəfn olunur.

Bu nəsildən Həmid bəyin oğlu Zübayıl Bakıda yaşayır. Zübayılın qardaşı Ağalar Dərbənddəki Məzahir Rzayev adına məktəbin direktorudur.

Hacı Həsən bəy Müsaib bəy oğlunun ailəsi (7-ci məhəllə)

Hacı Həsən bəy «rus» bəylərindən idi. Bu nəslin ilk məskunlaşdığı yer Darvaq kəndidir. Onlar Dərbəndə 170 il bundan əvvəl gəlmişlər. Dərbəndin şimal hissəsində onların çoxlu torpaqları var idi. Hacı Həsən bəy Dərbəndin cənub qəbiristanlığında dəfn olunub. Nəvələri Həsən bəy və İsa bəy ailələri ilə birlikdə 7-ci məhəllədə yaşayırlar.

Hacı Məhərrəm Hacı Məhəmməd oğlunun ailəsi (8-ci məhəllə)

Onlar indi Bestujev – Marlinskinin muzeyi yerləşdiyi binada yaşamışlar. Bu nəslin kökləri Dəməşqdə yaşamış türk-səlcuqlarına gedib çıxır. Onlar Tabasarandan keçərək Dərbəndə gəlmişdilər

Hacı Məhəmməd bəy Məkkədə ziyarətdə olarkən vəfat etmiş və burada dəfn olunmuşdur. Onun oğlu Hacı Məhərrəm bəy XIX əsrin ikinci yarısının əvvəlində Dərbənddə rus pristavı vəzifəsində xidmət etmişdir. O da Məkkədə ziyarətdə olarkən vəfat etmişdir. Onun oğlu Əli bəy 1937-ci ilin repressiya qurbanı olmuşdur. Əli bəy 3 dəfə evli olmuşdur. Onun birinci arvadı Kyurin dairəsinin Stal kəndindən olan Əmrahın qızı idi. Ondan Əli bəyin bir Məhəmməd bəy adlı oğlu (ali təhsilli) və Sarabikə adlı (orta təhsilli) qızı var idi. İkinci arvadından iki oğlu var idi: böyük oğlu Tofiq Bakıda yaşayır, kiçik oğlu Əbülfəz vəfat edib. 3-cü arvadından bir qızı var idi. O, Mirzəcanın oğlu Bəhmənin həyat yoldaşı idi. Bu nəslin nümayəndələri Bakıda və Dərbənddə yaşayırlar. Məhəmməd bəy Minətulla bəyin oğlu İsa bəy Heydərovun kürəkəni idi. İbrahim bəyin bacıları davamçıları ilə birlikdə İstanbulda yaşayırlar.

Bala bəy Məhəmməd oğlunun ailəsi (8-ci məhəllə)

Bala bəyin atası Məhəmməd bəy, Məhəmməd bəyin atası Məmərza bəy olmuşdur.

Balabəyin iki oğlu var idi: Yəhya bəy və Adil bəy. Yəhya bəy çar II Nikolayın dövründə Cənubi Tabasaranda dairə rəisi idi. Onun iqamətgahı Qasımkənddə yerləşirdi. O dövrdə Qasımkənd Kürinsk dairəsinin tərkibində idi. Yəhya bəyin 2-ci arvadı Nabat xanım (çox gözəl qadın idi) Tabasaranın Tinit kəndindən olan Qafarın bacısı, bəstəkar Hacı Xanməmmədovun atasının əmisi Dadaşbalanın qızı idi. Nabat xanımın oğlu Məhəmməd bəy aqronom idi. Onun qızı Həcər gözəllikdə anasından geri qalmırdı.

Bala bəyin ikinci oğlu Adilin iki oğlu var idi: Mədət bəy və İsmayıl bəy. Hər ikisi realnı məktəbini bitirmişdilər.

Rəsulbəyovlar ailəsi (8-ci məhəllə)

Rəsulbəyovların 1-ci babası Fərhad bəy, 2-ci babası Azad bəy, 3-cu babası Rəsul bəy, 4-cü babası İmran bəy olmuşdur. İmran bəyin qardaşı Hüseyn bəy Hacıbikənin həyat yoldaşı idi.

İmran bəyin iki qızı və Cümşüd adlı bir oğlu var idi. Böyük qızı Xonça xanım 1-ci məhəllə sakini Kərbalayı Həmzənin həyat yoldaşı, Hacı Abasəlinin gəlini idi. İkinci qızı Nabat xanım Məşədi Baba Sultanovun həyat yoldaşı, həkim – polkovnik Niyazinin anası idi.

Cəmşid bəyin 3 oğlu və 2 qızı var idi. Onun həyat yoldaşı Sonabikə Adilgəray bəyin qızı, Mustafa və Ağadadaş bəyin bacısı idi. Cəmşid bəyin oğlanları: general – leytenant Hüseyn bəy, general – mayor İmran bəy və polkovnik Rəsulbəy Rəsulbəyov idi. Qızı Bikə xanım fizika-riyaziyyat elmləri doktorudur. Onlar Bakıda yaşayırlar.

Nuh bəy Heydər bəy oğlunun ailəsi (8-ci məhəllə)

Heydər bəy Əlimərdan bəyin oğlu olmuşdur. Nuh bəyin özünün isə iki oğlu var idi: Musa bəy və Heydər bəy. Musa bəy pristav işləmişdi. İnqilabdan sonra sürgün edilmiş və sürgündən qayıtmamışdır.

Pristav Musanın 3 oğlu var idi. Böyük oğlu Şahlar aqronom olmuşdu. Onun həyat yoldaşı Xandadaş Tağıyevin, bacısı Məşədi Mirzənin qızı idi. Musa bəyin ikinci oğlu Nazir bəyin həyat yoldaşı 2-ci məhəllənin sakini Məşədi Məhəmmədsalehin qızı, Kərbalayı Ələvsətin nəvəsi idi. Musa bəyin 3-cü oğlunun adı Mobil idi. Onlar Bakıda yaşayırdılar.

Nun bəyin 2-ci oğlu Teymur bəyin oğlu babası Heydər bəyin adını daşıyırdı. O, aqronom idi. Onun birinci arvadı Fatma xanım qubalı Əbdüsalamın qızı, Şəfinin bacısı idi. İkinci arvadı Maral xanım – 7-ci məhəllənin sakini idi.

Əhəd Məhəmmədxan oğlunun ailəsi (8-ci məhəllə)

Əhədin atası Məhəmmədxan ailəsi ilə birlikdə Dərbəndə Tabasarandan gəlmişdir. O, 8-ci məhəllədə məskunlaşmış və tezliklə 8-ci məhəllənin sakini Hacı Ələsgərin qızı və Baba dayının bacısı ilə evlənmişdir. Məhəmmədxanın 3 oğlu olmuşdur. Böyük oğlu Əhədin həyat yoldaşı böyük tacir Hacı Şərif Abbas oğlunun qızı idi. Hacı Şərifin böyük malikanəsi və dərin su quyuları olan həyəti var idi. Bu malikanə evi 14 otaqdan və 7 enli eyvandan ibarət idi. Evin yanında 3 hektar üzüm bağı var idi.

Məmərza bəyin ailəsi (9-cu məhəllə)

Məmərza bəy çox gözəl, əliaçıq, xeyirxah insan olmuşdur. Onun 3 qızı və 3 oğlu var idi: böyük oğlu Məşədi Ağa bəy, ortancıl oğlu İsa bəy, kiçik oğlu Kazım bəy. Kazım bəy 1918-ci ildə kazaklarla qarşıdurmada həlak olub. İsa bəy Sibir sürgünündən qayıtmamışdır. Məşədi Ağa bəy 1931-ci ildə vəfat etmişdir.

Bu ailə əsasən əkinçiliklə məşğul olurdu. Məmərza bəyin atası Baba xan, Baba xanın atası Məmərza bəy, Məmərza bəyin atası Ağa bəy, Ağa bəyin atası Kazım bəy, Kazım bəyin atası Baxan bəy, Baxan bəyin atası Burhanəddin bəy olmuşdur. Onların əsli-kökü dəməşqli səlcuq türklərinə gedib çıxır.

Məmərzanın 3 qızı var idi: böyük qızı Mərziyə xanım 1-ci məhəllənin sakini Musa bəyin anası olmuşdur. İkinci qızı Aybikə – İsmayıl bəyin gəlini, Əliqulu bəyin həyat yoldaşı idi. Məmərzanın 3-cü qızı Pəricahan 7-ci məhəllə sakinlərindən birinə ərə getmişdir. Nəslin davamçıları içərisində ali təhsilli müəllimə Diana xanım, onun qardaşları Nizami və Vidadini göstərmək olar.

Mirzəbəyovlar ailəsi (9-cu məhəllə)

Mirzə bəyin İsmayıl bəy, Əhməd bəy, Həsən bəy və Hüseyn bəy adlı dörd oğlu olmuşdur. İsmayıl bəyin Bəylər adlı oğlu və bir qızı var idi. Bəylərin iki oğlu var idi. Böyük oğlu Rəhim bəy polkovnik idi. O, müharibədən sonra Qroznı şəhərində yerləşən Ali Hərbi Təyyarəçilik məktəbinin rəisi olmuşdur. Onun oğlu Dövlət polkovnik rütbəsində Rusiya ordusunda xidmət edir.

Bəylərin qızı mühəndis işləyir. Onun kiçik oğlu Səlim bəy (podpolkovnik) hərbi mühəndis kimi nüvə silahlarının işlənib hazırlanmasında iştrak etmişdir. Çox erkən vəfat etmişdir. Onun oğlu – mühəndis, qızı – həkimdir. Mahaçqala şəhərində yaşayırlar.

Əhməd bəyin 4 oğlu və 2 qızı var idi. Böyük qızı Kiçikbikə Məmərza bəyin gəlini, Məşədi Ağa bəyin həyat yoldaşı idi. 2-ci qızı Tuqiyə xanım əmisi Bəylərin gəlini idi.

Əhməd bəyin böyük oğlu Ağa Mirzəbəyov pristav idi. 2-ci oğlu Abdulla bəy inqilaba qədər polis, sovet dövründə isə «Talqi» kurortunun direktoru işləmişdir. 3-cü oğlu Mərdan bəy Dağıstanın MSSR Kənd Təsərrüfatı nazirliyində işləmişdir. Mərdan bəyin 2 qızı və 3 oğlu var idi.

Böyük oğlu Əbdürəzaq Dağıstan MSSR Nazirlər Sovetinin sədri, ikinci oğlu Dalqat Dərbənddəki «Elektrosiqnal» zavodunın direktoru və 3-cü oğlu Əhməd bəy Xasavyurddakı zavodun direktoru işləmişdir. Mərdan bəyin həyat yoldaşı dargin idi. O, 7-ci məhəllədə yaşamış Əhməd Usminin qızı idi. Əhməd Usmi Əmir Çoban xanın yaxın qohumu idi.

Əlipənah bəy Əlihəsən bəy oğlunun ailəsi (9-cu məhəllə)

İkinci Əlipənah bəy Əlihəsən bəyin oğludur.

Əlihəsən bəy isə birinci Əlipənah bəyin oğludur. Birinci Əlipənah bəy Məhəmməd Əlişan bəyin oğludur. Onlar da Dəməşqdən olan səlcuq turklərinin nəslindən törəmişdilər. Onlar 400 ilə yaxındır ki, Dərbənddə yaşayırlar. Onların nəslindən vəfat etmiş adamların məzarları Qırxlar qəbiristanlığındadır.

İkinci Əlipənah bəyin həyat yoldaşı Kicikbikə Mirzə Mehdiqulu bəyin qızı, Qasım bəyin nəvəsi idi. Onlar Paşabəyovlar nəslinə mənsubdular.

Əlipənah bəyin 2 oğlu və 2 qızı var idi. Üçüncü oğlu Həbail ikinci arvaddandır.

Əlipənah bəyin böyük oğlu Osman bəyin həyat yoldaşı Nuhu bəyin qızı, pristav Musa bəyin bacısı, Heydər bəyin nəvəsi idi. Əlipənah bəyin ikinci oğlu Əlihəsən bəy sovetləşmədən sonra Dərbəndi tərk edərək Türkiyəyə getmişdir. Əlipənah bəyin 3-cü oğlu 1924-cü ildə Samur çayında batmışdır. Əlipənah bəyin böyük qızı Mina xanım erkən yaşında 1852-ci ildə vəfat etmişdir. İkinci qızı Biçə xanım general Əlibəy Ərəblinskinin həyat yoldaşı idi. Onların kəbini 1872-ci ildə Dərbəndin Cümə məscidində axund birinci Hacı Ağa Mirəhməd tərəfindən kəsilmişdir.

Ağa Mirəhməd Seyid Məhəmmədin atasıdır. Onların qəbirləri Düldül Əli (cənub qəbiristanlığı) qəbirstanlığındadır. Əlipənah bəy çar hökuməti tərəfindən müxtəlif mükafatlarla təltif olunmuşdur. Dərbəndin cənubunda Əlipənah bəyə 600 qapan (2,5 qapan=1 ha) torpaq sahəsi, general Ərəblinskiyə isə 300 qapan torpaq sahəsi ayrılmışdır. Əlipənah bəyin böyük oğlu polkovnik Osman bəy də yüksək mükafatlarla təltif olunmuşdur. Onların yaşadıqları ev 9-cu məhəllədə Dəvə damı adlanan yerdə idi. Fətəli xan və onun oğlu Şeyxəli xandan sonra Dərbənd Narınqalası bu nəsl idarə etmişdi.

Heydər bəyin ailəsi (9-cu məhəllə)

Heydər bəyin 4 oğlu və 2 qızı var idi. Onun həyat yoldaşı 8-ci məhəllə sakini Hacı Ələləsgərin 9 qızından altıncısı idi. Heydər bəyin böyük oğlu Təlhəd Bəybalanın atası idi. İkinci oğlunun adı Şeyda bəy, 3-cü oğlunun adı Qəzənfər bəy, 4-cü oğlunun adı Nüsrət idi.

Heydər bəyin böyük qızı Dilarəm – Kərbalayı Abinin (8-ci məhəllə) həyat yoldaşı, ikinci qızı Xonça xanım 7-ci məhəllə sakini Məşədi Vəli bəyin gəlini, Abusətin həyat yoldaşı idi. Heydər bəyin nəslindən Nüsrət bəyin nəvələri yaşayırlar.

I Əlipənah bəyin oğlu Kavus bəy (9-cu məhəllə)

Kavus bəyin oğlu İlyas bəy, İlyas bəyin oğlu isə Fərhad bəy olmuşdur.

Fərhad bəyin 2 oğlu və 2 qızı var idi. Fərhad bəyin həyat yoldaşı Qızbikə xanım 9-cu məhəllə sakini Zeynal bəyin qızı, Əli bəyin bacısı idi. Böyük oğlu Bəydadaş, kiçik oğlu isə Nadir bəy idi. Böyük qızı Bakı axundunun həyat yoldaşı idi. Kiçik qızı isə erkən yaşında vəfat etmişdir. Fərhad bəyin tabeçiliyində bir neçə kənd var idi.

XIX əsrin 2-ci yarısında Kavus bəy Dərbənddə Bestujev – Marlinski ilə dostluq etmişdi. Onun nəslindən yalnız bir nəfər, Bəydadaşın nəvəsi Dərbənddə yaşayır. Kavus bəyin Sərturan adında yeganə qızı olmuşdur. O, 1875-ci ildə vəfat etmişdir.

Məhəmmədəmin bəy Məmərza bəy oğlunun ailəsi (9-cu məhəllə)

Məhəmmədəmin bəyin Mehrab adlı bir oğlu var idi. O, sovet işğalından sonra Dərbənd şəhər icraiyyə komitəsinə başçılıq etmişdi. 1937-ci ildə həbs olunmuş və Dərbəndə 10 ildən sonra qayıtmışdı.

Məhəmmədəmin bəyin həyat yoldaşı 4-cü məhəllə sakini Əbdürəhim bəyin qızı, Hacı Mirzə bəyin bacısı idi. Məhəmmədəminin böyük qızı 9-cu məhəllə sakini Əhməd bəyin həyat yoldaşı, Mirzə bəyin gəlini idi. İkinci qızı Hüseyn bəyin (Əhməd bəyin qardaşı) həyat yoldaşı idi. 3-cü qızı 6-cı məhəllə sakini Hacıbaba bəyin oğlu Yəhya bəyin həyat yoldaşı idi. 4-cü qızı Zivər xanım 6-cı məhəllə sakini İsmayıl bəyin oğlu Məşədi bəyin həyat yoldaşı, mühəndis Sultanovun anası idi. Onların övladları Volqoqrad şəhərində yaşayır.

Mehrab bəy I Əlipənah bəy oğlunun ailəsi

Mehrab bəyin Məhəmmədəmin bəy adlı oğlu var idi. Məhəmmədəmin bəyin oğlu babası Mehrab bəyin adını daşıyırdı. Məhəmmədəmin bəyin həyat yoldaşı məşhur Əbdürəhim bəyin qızı 4-cü məhəllə sakinləri Hacımirzə bəyin və Hacı Şeyda bəyin bacısı idi. Onların 4 qızı və 1 oğlu var idi. Böyük qızının həyat yoldaşı 9-cu məhəllə sakini Mirzə bəyin oğlu Əhməd bəy idi. İkinci qızın həyat yoldaşı Mirzə bəyin kiçik oğlu Hüseyn bəy idi. 4-cü qızının həyat yoldaşı 6-cı məhəllə sakini Hacıbaba bəyin oğlu Hacınağı bəy idi. Onlar əslən Quba rayonundan idilər.

Mehrab bəyin həyat yoldaşı Soltənət xanım Hacımirzə bəyin qızı idi. Mehrab bəy Dərbənd şəhər

icra hakimiyyətinin birinci katibi olmuşdur. 1937-ci ildə Mehrab bəyi «xalq düşməni» kimi mühakimə etdilər. Xruşşovun hakimiyyəti dövründə bir sıra digər günahsız adamlar kimi onu da azad etdilər.

Mehrab bəy Dərbənddə vəfat edib. Mehrab bəyin iki oğlu var idi. Böyük oğlu Səlahəddin 1930-cu ildə anadan olmuşdur. Kiçik oğlunun adı Məhəmmədəmindir. Onlar hazırda Volqoqrad şəhərində yaşayırlar.

Birinci Əlipənah bəyin uşaqları (Əlişam bəyin nəvələri):

– Əlişam bəy, h. 1215-ci ildə vəfat edib.
– Əbdüləli bəy, h. 1245-ci ildə vəfat edib.
– Fərhad bəy, h. 1258-ci ildə vəfat edib.
– Nağı bəy, h. 1258-ci ildə vəfat edib.
– Əlihəsən bəy, h. 1267-ci ildə vəfat edib.
– Məhəmmədəli bəy, h. 1252-ci ildə vəfat edib.
– Mehrab bəy, h. 1257-ci ildə vəfat edib.
– Kavus bəy, h. 1257-ci ildə vəfat edib.
– Əlipənah bəyin yeganə qızı Sayadbikə h. 1252-ci ildə vəfat edib.

Həmzəyev Sədulla Hacıbaba oğlunun ailəsi

Hacıbaba Həmzəyev Dərbənd şəhərində məşhur tacir, böyük torpaq sahibi olmuşdur. Onun şəxsi mülkləri, bağları və 2960 rubl dəyərində əkin sahələri var idi (1875).

Hacıbaba şəhərin içtimai və siyasi həyatında fəal iştirak edirdi. 1904-cü ildən 1908-ci ilədək şəhər müvəkkillər məclisininə daxil idi. Hacıbabanın həyat yoldaşı – Hacıbikə xanım məşhur tacir Hacı Cəfərin qızı idi.

Hacıbabanın oğlu Dadaş Həmzəyev ticarətlə məşğul olmuş və erkən yaşında vəfat etmişdir, onun qızıı – Susana (Həmzəyeva) şəhərdə məşhur tacir Hacı Mirzəyə ərə getmişdir.

Hacıbabanın oğlu Sədulla Həmzəyev 1899-cu ildə Dərbənd şəhərində anadan olmuşdur.

Sədulla Həmzəyev öz yaşıdlarından mütərəqqi baxışları ilə seçilirdi. O, Qafqazdakı inqilab hərəkatının (1917-1920) fəal iştirakçısı idi. Dağıstanda sovet hakimiyyəti qurulduqdan sonra, respublikanın ictimai-siyasi işlərində fəal iştirak etmiş, Mahaçqala şəhərinin dövlət və partiya orqanlarında məsul vəzifələrdə çalışmışdır. Bakı şəhərinə köçdükdən sonra Sədulla Həmzəyev Sankt-Peterburq şəhərində yaxşı təhsil almış, xarici dilləri və şərq xalqlarının mədəniyyətini öyrənmişdir. 1941-1945-ci illər müharibəsinin iştirakçısı olmuşdur. Uzun müddət diplomatiya sahəsində işləmişdir. 1960-cı illərin əvvəllərində Sovet İttifaqının İranda səfiri, sonralar isə Azərbaycanda Dağıstanın nümayəndəsi olmuşdur. 1973-cü ildə vəfat etmişdir. Bakı şəhərində dəfn olunmuşdur.

S.Həmzəyevin arvadı alman olub. **Mariya Həmzəyeva** həkim-terapevt idi.

Sədulla Həmzəyev Mariya xanımla müharibə illərində evlənmiş və ömrünün sonunadək onunla yaşamışdır. Mariya xanım Bakıda vəfat etmişdir və burada dəfn olmuşdur. Sədulla Həmzəyevin qızı – **İzzət Sədulla qızı Əliyeva (Həmzəyeva)** 1925-ci ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan Tibb İnstitutunu mikrobioloq ixtisası üzrə bitirmişdir. Uzun müddət Azərbaycan Tibb İnstitutunda müəllimdən professor vəzifəsinədək yüksəlmişdir, Biologiya elmləri doktorudur. İzzət xanımın əri **Həbib Əliyev** Göyçay şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan Tibb İnstitutunu həkim-terapevt ixtisası üzrə bitirmişdir. Uzun müddət Respublikanın Səhiyyə Nazirliyi sistemində çalışmışdır. Respublika xəstaxanasının baş həkimi olmuşdur (1968-1981). Tibb elmləri doktoru idi. 1990-cı ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur. Onların övladları:

Oğlu **Fərhad Həbib oğlu Əliyev** 1945-ci ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan Tibb İnstitutunu bitirmişdir. Səhiyyə sistemində işləmişdir. Evlidir. Bir qızı və bir oğlu var.

Oğlu **Murad Həbib oğlu Əliyev** 1947-ci ildə Bakı şəhərində anadan olmuşdur. Azərbaycanlıdır. Azərbaycan Tibb İnstitutunu həkim-stomatoloq ixtisası üzrə bitirmişdir. Səhiyyə Nazirliyi sistemində işləmiş, Semaşko (indiki M.Nağıyev) adına mərkəzi xəstəxananın stomatologiya kafedrasının müdiri olmuşdur. Tibb elmləri namizədidir. Evlidir. İki oğul atasıdır.

Hacıbabanın qızı-Xavər xanım İsmayılova (Həmzəyeva) öz fəaliyyətini uşaqların tərbiyəsinə həsr etmişdir. Bir qız və iki oğul böyütmüşdür. 1962-ci ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur. Onun əri **Əliheydər İsmayılov** məşhur tacir İzmaylovların ailəsində anadan olmuşdur.

Əliheydər İsmayılovun Dərbənd şəhərində xeyli daşınmaz əmlakı, şəxsi karamel və qənnadı fabrikləri var idi. O, həm bu fabriklərə rəhbərlik edir, həm də şəhərdə ticarətlə məşğul olurdu.

Sovet həkimiyyəti qurulduqdan sonra respublikada aparılan əsl inkvizisiya siyasəti nəticəsində

«qolçomaqlıqdan salınmış», əmlakı müsadirə olunmuş və Dərbənd şəhərindən məcburi sürgün edilmiş. O, gizli İrana qaçmağa nail olmuşdur. Uzun illərin əzab-əziyyətindən sonra, yenidən gizli yolla Azərbaycan Respublikasının Quba şəhərinə qayıtmışdır. Quba şəhərində qənnadı sexi açmış, qənnadı mağazası tikmiş və uzun müddət həmin mağazanın müdiri olmuşdur. Bakı şəhərinə köçdükdən sonra sahibkarlıq fəaliyyətilə məşğul olmuşdur. Bakı şəhərində qənnadı mağazasının müdiri işləmişdir. 1961-ci ildə vəfat etmiş və Bakı şəhərində dəfn olunmuşdur. Onların övladları: Maral Əliheydər qızı İsmayılova (1916), Xəlil Əliheydər oğlu İsmayılov (1920) və Vəliulla Əliheydər oğlu İsmayılov (1927).

Bəybala bəy Əlisoltan bəy oğlunun ailəsi

Bəybala bəyin yeganə qızı İqlimə xanım – marağalı həkim Məcidin həyat yoldaşı, polkovnik Nazimin anası idi. Bəybala bəyin oğlu Şıxəli bəy Suxdıq kəndindən olan Hüseyn bəyin yeznəsi idi. Onun 5 qardaşı var idi. Onlardan biri Əlimərdan bəy idi. O, 2-ci məhəllənin sakini idi. 3-cü qardaşın adı İlyas bəy, 4-cüsünün Məhəmməd bəy, 5-ci qardaşının adı isə Əhmədxan bəy idi.

Deyilənlərə görə Şıxəli bəyin silahlanmış 30 süvari cangüdəni var imiş. Onun yeganə oğlu Kamil bəy 1937-ci ildə həbs edilmişdir. Böyük qızı Mahmudcahan Mirzəmin Teymurovun həyat yoldaşı, ikinci qızı Nabat Xandadaş Tağıyevin həyat yoldaşı olmuşdur.

Əhmədxan bəyin həyat yoldaşı darginli Soltan bəyin qızı, Abdulla bəyin bacısı idi. Onların böyük qızı Fatimə xanım Cirəli Qudunun oğlu Bəylərin həyat yoldaşı idi. İkinci qızı Başlıkənddən olan Əbdülxaliqin həyat yoldaşı və Məhəmmədli ilə Nərimanın anası idi.

Əlimərdan bəyin 3 oğlu və Ədilə adlı bir qız var idi. Böyük oğlu Bəybala Səftər Axundovun kürəkəni idi. İkinci oğlunun adı İsfəndiyar idi. 3-cü oğlu Zeynal bəy riyaziyyat elmləri doktoru idi. Sonuncu oğlunun adı Məhəmməd bəy idi.

İlyas bəyin oğlu Məmmədağa bəy Aslan bəyin kürəkəni idi. Aslan bəy isə Daniyal bəyin oğlu idi.

Erlix ailəsi

Erlix ailəsi 1917-ci ilə qədər Dərbənddə yaşamışdır. Ailənin başçısı maliyyəçi idi və yerli bankda işləyirdi. Onun həyat yoldaşı ağıllı və savadlı qadın idi və uşaqlarının tərbiyəsi ilə məşğul olurdu. Onların 3 oğlu və 1 qızı var idi.

Böyük oğlu Aron 1899-cu ildə Dərbənd şəhərində anadan olmuşdur. O, 15 yaşından gizli marksist dərnəyinin üzvü idi. Aron 1916-cı ildə Dərbənd realnı məktəbini bitirir və həmin il Moskva Ali Texniki məktəbinə qəbul olur. 1917-ci ilin fevral inqilabından sonra Dərbəndə qayıdır və inqilabi işə qoşulur. 1918-ci il aprelin sonunda Aron Dərbənddə yerli bolşevik komitəsinin sədri seçilir. O, burada böyük ictimai-partiya işi aparır, Dərbənd bolşeviklərinin orqanı olan «Известия» qəzetinin nəşr edilməsində iştirak edirdi. 1918-ci ilin avqustunda Aron həbs olunur və 1918-ci ilin sentyabr ayının 27-də Mahaçqala şəhərində güllələnir. Onunla birlikdə Dərbəndin bolşeviklərindən Kandelaki, Beşentsev və Kobyakov da güllələnmişdilər.

Aronun qardaşı Xaim Dağıstanın Botlix rayonunda döyüş zamanı həlak olmuşdur.

Aronun digər qardaşı Bauman adına Moskva Ali Texniki Məktəbin rektoru olmuş və 1937-ci ildə «xalq düşməni» kimi həbs edilmişdir.

Aronun bacısı – Lyuba Dağıstanın Nazirlər Şurasının sədri Kərim Məmmədbəyovun həyat yoldaşı idi. Hər ikisi 1937-ci ildə həbs olunmuşlar. Məmmədbəyov Rostov-Don şəhərində güllələnmişdir. Lyuba isə 10 ildən sonra həbsdən qayıtmış və Moskva şəhərində yaşamışdır. Onların yeganə oğlu Harun 1941-1945-ci illər müharibəsində həlak olmuşdur.

Fiqarov Tofiq Hacı Həsən oglunun ailəsi

Fiqarov Tofiq 1932-ci ildə Bakıda anadan olmuşdur. Moskva Yeyinti Sənayesi İnstitutunu bitirmişdir. 20 il Azərbaycan Ət və Süd Sənayesi nazirliyində idarə rəisi işləmişdir. 2003-cü ildə vəfat etmişdir. Onun həyat yoldaşı Zemfira xanım həkim olmuşdur. Onların Əminə adlı bir qızı olmuşdur.

Sultanovlar ailəsi

Sultanov Hacı Qadir Qulam oğlu məhəllənin ən hörmətli sakinlərindən biri olmuşdur. O, 14 yaşında yetim qalmışdır. Onun anası Minə xanım çox zəhmətkeş qadın olmuşdur. Hacı Qadir anasının və kiçik qardaşının dayağı idi. O, 1941-1945-ci illər müharibəsində iştirak etmişdir. 1945-ci ildə doğma şəhəri Dərbəndə qayıtmışdır. Bu yaxınlarda müqəddəs Məkkədə həcc ziyarətində olmuşdur.

Tarkovski (Tərki) ailəsi

Tarkovskilər şamxal nəslindən olub Dağıstanın Tərki kəndindəndirlər. Onların Dərbəndlə əlaqələri:

1. Fətəli xanın qızı Pəricə xanım Mehdi bəy Məhəmmədoviç Tarkovskinin həyat yoldaşı olmuşdur. O, Dərbənddə qalmış və bir müddət şəhəri idarə etmişdir.
2. Sonuncu Rusiya imperatoru II Nikolay (1868-1917) 25 noyabr 1914-cü ildə Qafqaz hərbi əməliyyatlar teatrına gedərkən yolüstü Dərbənddə olmuşdur. Vağzalda onu Dağıstan vilayətinin qubernatoru general-leytenant Volski və b. ilə yanaşı Şamxal nəslinin başçısı Zubair bəy Tarkovskidə qarşılamışlar.
3. Tarkovskilərdən birinin general-leytenant Ərəblinski ilə qohumluq əlaqəsi var idi. Tarkovskilərdən biri Ərəblinskinin nəvəsi Üryətin qızı (Üryət Əbdülcəlil Usmiyevin həyat yoldaşı idi, Usmiyev çar ordusunun zabiti olmuşdur) ilə evlənmişdir. Sovet hakimiyyəti qurulduqdan sonra Tarkovskilərin bəziləri İrana mühacirət etmişdir.
4. Suvat Tarkovskaya (Süleyman paşanın qızı) – Dərbənddə məşhur ziyalı zadəganı Mərdan bəy Mirzəbəyovun həyat yoldaşı idi. Onların oğlu Əbdürəzaq Dağıstanın Nazirlər Sovetinin sədri olmuşdur. İkinci oğlu Dalqat Dərbənddə zavod direktoru işləyir. Onların daha 1 oğlu və iki qızı Mahaçqala şəhərində yaşayırlar.
5. Sovet dövründə Tarkovski nəslinin aşağıdakı məşhur nümayəndələri olmuşlar: Arseni Tarkovski məşhur şair. Andrey Arsenyeviç Tarkovski ümümdünya şöhrətli kinorejissor olmuşdur. O, «Иваново детство», «Солярис», «Ностальгия» və başqa filmləri çəkmişdir.

Bəzi nəsil nümayəndələrinin ölüm tarixləri (hicri təqvimi ilə)

1. Əlipənah bəy – 1317-ci il;
2. Osman bəy – 1328-ci il;
3. Həbail bəy – 1340-cı il;
4. Mina xanım – 1322-ci il;
5. Əlipənah bəyin atası Əlihəsən bəy – 1368-ci il. Əlipənah bəyin babası – ikinci Əlipənah bəyin 6 oğlu və bir qızı var idi.

Onların ölüm tarixləri (miladi təqvimi ilə)

1. Əlihəsən bəy – 1850-ci il;
2. Fərhad bəy – 1856-cı il;
3. Mehrab bəy – 1858-ci il;
4. Məhəmmədəli bəy – 1880-ci il;
5. Nağı bəy – 1840-cı il;
6. Fərəh xanım – 1852-ci il;
7. Kavus bəy – 1835-ci il;
8. Məhəmməd bəy – 1826-cı il.

REPRESSİYAYA MƏRUZ QALMIŞ BƏZİ DƏRBƏNDLİLƏR (1930-1947) HAQQINDA

1. Məmmədbəyov Kərim Mirzə Əhməd bəy oğlu – 6-cı məhəllənin sakini
2. Tağıyev Xandadaş Məşədi Mirzə oğlu – 8-ci məhəllənin sakini
3. Abdullayev Həmdulla Hacı Fətulla oğlu – 9-cu məhəllənin sakini
4. Abdullayev Minətulla Hacı Fətulla oğlu – 9-cu məhəllənin sakini
5. Abdullayev Şahlar Məşədi Mirzə bəy oğlu – 9-cu məhəllənin sakini
6. Abdullayev Hacı Minətulla oğlu – 9-cu məhəllənin sakini
7. Abdullayeva Ayət Hacı Fətulla qızı – 9-cu məhəllənin sakini
8. Abdullayeva Aybikə Məşədi Mirzəbəy qızı – 9-cu məhəllənin sakini
9. Abdullayeva Həyat Həmdulla qızı – 9-cu məhəllənin sakini
10. Abdullayeva Aidə Həmdulla qızı – 9-cu məhəllənin sakini
11. Abdullayeva Suvatbikə Əbdülcəlil qızı (Usmiyalı)
12. Teymurov Ağa Mirzəağa oğlu – 7-ci məhəllənin sakini
13. Məhəmməd Məşədi Metkazım oğlu – 7-ci məhəllənin sakini
14. Vahabov Xandadaşın həyat yoldaşı (2 uşağı ilə) – 8-ci məhəllənin sakini
15. Seyidov Mir İmamverdi – 6-cı məhəllənin sakini
16. Qırxlarov Sədrəddin Məcid oğlu – 6-cı məhəllənin sakini
17. İsgəndərov Nüsrət, Hacı Əliməmmədin qardaşı oğlu –2-ci məhəllənin sakini
18. Əsgərov Əliheydər Kərbalayı Həmzə oğlu – 6-cı məhəllənin sakini
19. Əsgərov Məşədi Əbdülqədir oğlu – 6-cı məhəllənin sakini
20. Mirzəhəsən Molla Hüseynqulu oğlu – 5-ci məhəllənin sakini
21. Seyidov Seyidhüseyn – 5-ci məhəllənin sakini
22. Dəllək Nəbi – 6-cı məhəllənin sakini
23. Ələkbərov Həşim (Möminlər) – 6-cı məhəllənin sakini
24. Fətullayev Məşədi Əbdülsəməd (zərgər) – 5-ci məhəllənin sakini
25. Həsənov Mirzə Ürvə Məmmədrza oğlu – 6-cı məhəllənin sakini
26. Paşabəyov Ağalar Mirzə bəy oğlu – 6-cı məhəllənin sakini
27. Əbümüslüm Nasir oğlu – 6-cı məhəllə (Kommunarlar küçəsi)
28. Əli bəy Hacı Məhərrəm bəy oğlu – Kommunarlar küçəsi
29. Məhəmməd bəy Əli bəy oğlu – Kommunarlar küçəsi
30. Hüseynov Abbasmirzə Saleh oğlu – Kommunarlar küçəsi
31. Kəsir Abbasmirzə oğlu (Azərbaycan KP MK-nin birinci katibi M.Bağırovun birinci cangüdəni) – 5-ci məhəllənin sakini
32. Tacir Hacı Şərifin oğlanları – Buynaksk küçəsi
33. Talıbov Talıb – 5-ci məhəllənin sakini
34. Əbdürəhimov Ağa bəy – 2-ci məhəllənin sakini
35. Talıbov Qəzənfər Məşədi Hacıbaba oğlu – 6-cı məhəllənin sakini
36. Qürrə İbrahim Xəlilin atası – 1-ci məhəllənin sakini
37. Hüseynov Məşədi Həmdulla Hacı Abdulla oğlu – 2-ci məhəllənin sakini
38. Eyyub, Əmiraslanın və Qaflanın atası – 2-ci məhəllənin sakini
39. İsmov Qaflanın atası – 1-ci məhəllənin sakini
40. Cavadov Mirzə Şəfi Hacı Hacıağa oğlu – 2-ci məhəllənin sakini
41. Nəbiyev Cəfər – 1-ci məhəllənin sakini
42. Məmmədağanın qardaşı Səmədov Hacıbaba – 6-cı məhəllənin sakini
43. Məzahirin qardaşı Paşa (dəllək) – 4-cü məhəllənin sakini
44. Əliyev Müzəffər icraiyyə komitəsinin keçmiş sədri – 4-cü məhəllənin sakini
45. Məmərzabəyov Mehrab, icraiyyə komitəsinin birinci sədri – Buynaksk küçəsi
46. Xıdırbəyov Mürsəl bəy, Dərbəndin ilk memarı – Buynaksk küçəsi
47. Xıdırbəyov İsmayıl Ağadadaş bəy – Buynaksk küçəsi
48. Hüseynov Abasmirzə Saleh oğlu – Kommunarlar küçəsi
49. Seyidov Mirağa, Mir Ələkbərin atası – 1-ci məhəllənin sakini
50. Dindar Seyfəli Abbas oğlu – 8-ci məhəllənin sakini
51. Seyidov Mircəfər, Mir İsmayılın atası – Lenin küçəsi
52. Talıbov Axund Molla Əli – 4-cü məhəllənin sakini
53. Molla Mövsüm, Nurinin qardaşı – 7-ci məhəllənin sakini
54. İlyasov Bəydadaş, Xurşudun atası – Kommunarlar küçəsi

55. Allahverdiyev Kərbalayı Məlik, Həşimin atası – Lenin küçəsi
56. Eldarov Həsənbala, heykəltəraş Ömərin atası – 3-cü məhəllənin sakini
57. Əliyev Məcid, həkim – Azadlıq meydanı
58. Mirzəbəyov Ağa, Əhməd bəyin oğlu – 9-cu məhəllənin sakini
59. Kamil bəy, Şixalı bəyin oğlu – 1-ci məhəllənin sakini
60. Səlahəddin bəy, Məhəmməd bəyin oğlu, Bəybala bəyin nəvəsi
61. Ələkbərov Mustafa Hacıbaba oğlu – Kommunarlar küçəsi
62. Axundov Səftər – 7-ci məhəllənin sakini
63. Fiqarov Əlimirzə – 4-cü məhəllənin sakini
64. Pristav Musa bəy, Nuh bəyin oğlu, Heydər bəyin nəvəsi – 8-ci məhəllənin sakini
65. Cəfərov Nəbiulla Məmməd Rza oğlu – (Azərbaycan SSR Nazirlər Sovetində işləmişdir) 5-ci məhəllənin sakini
66. Əsgərov Əbdülcəlil Kərbalayı Həmzə oğlu – 6-cı məhəllənin sakini
67. Soltanov Süleyman Məşədi Mürsəlbəy oğlu – 6-cı məhəllənin sakini
68. Ələkbərli Kazım – (Azərbaycanda «Ədəbiyyat» qəzetinin redaktoru, Azərbaycan SSR Yazıçılar İffifaqının sədri vəzifəsində çalışmışdır) 5-ci məhəllənin sakini
69. Xandadaş – (Karl Marks adına sovxozda aqronom işləmişdir) Dərbəndin yuxarı hissəsinin keçmiş sakini

Yuxarıda adları çəkilənlərin çoxu bir daha geri qayıtmamışdır**.**

SOVET İTTİFAQI QƏHRƏMANLARI VƏ «ŞÖHRƏT ORDENİ»NİN HƏR ÜÇ DƏRƏCƏSİNİN KAVALERLƏRİ

Böyü Vətən müharibəsi illərində 8 nəfər dərbəndli Sovet İttifaqı qəhrəmanı adına və 1 nəfər 3-cü dərəcəli «Şöhrət Ordeni»nin hər üç dərəcəsinə layiq görülmüşdür.

– Şatiel Semyonoviç Abramov – batalyon komandiri, 1918-ci ildə anadan olmuşdur. SSRİ Ali Sovetinin 31 may 1944-cü il tarixli fərmanı ilə Sovet İttifaqı qəhrəmanı adına layiq görülmüşdür;

– Şəmsulla Feyzulla oğlu Əliyev – batalyon komandiri, 1915-ci ildə anadan olmuşdur. SSRİ Ali Sovetinin 16 may 1944-cü il tarixli fərmanı ilə Sovet İttifaqı qəhrəmanı adına (ölümündən sonra) layiq görülmüşdür;

– Vladimir Aleksandroviç Qromakovski – 1922-ci ildə anadan olmuşdur. SSRİ Ali Sovetinin 15 may 1946-cı il tarixli fərmanı ilə Sovet İttifaqı qəhrəmanı adına layiq görülmüşdür;

– Nikolay Vasilyeviç Kalutski – 1919-cu ildə anadan olmuşdur. SSRİ Ali Sovetinin 15 aprel 1945-ci il tarixli fərmanı ilə Sovet İttifaqı qəhrəmanı adına layiq görülmüşdür;

– Aleksandr İliç Rıbnikov – batalyon komandiri, 1919-cu ildə anadan olmuşdur. SSRİ Ali Sovetinin 19 aprel 1945-ci il tarixli fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür;

– Vladimir Petroviç Sençenko – 1922-ci ildə anadan olmuşdur. SSRİ Ali Sovetinin 27 iyun 1945-ci il tarixli fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür;

– Mixail Mixayloviç Surmaç – 1913-cü ildə anadan olmuşdur. SSRİ Ali Sovetinin 10 aprel 1945-ci il tarixli fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür;


– Muhuddin Umurdinov – 1912-ci ildə anadan olmuşdur. SSRİ Ali Sovetinin 4 iyun 1944-cü il tarixli fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür;

– Yakov İqnatyeviç Xoroles – 1923-cü ildə anadan olmuşdur. «Şöhrət ordeni»nin hər üç dərəcəsinə layiq görülmüşdür: 1944-cü ilin avqustunda 3-cü dərəcəli, 1945-ci ilin fevralında 2-ci dərəcəli, 1945-ci ilin mayında isə 1-ci dərəcəli «Şöhrət ordeni» ilə təltif olunmuşdur.

SOVET İTTİFAQI QƏHRƏMANLARI VƏ «ŞÖHRƏT ORDENİ»NİN HƏR ÜÇ DƏRƏCƏSİNİN KAVALERLƏRİ



Abramov Şatiel Semyonoviç



Əliyev Şəmsulla Feyzulla oğlu



Qromakovski Vladimir Aleksandroviç



Kalutski Nikolay Vasilyeviç



Rıbnikov Aleksandr İliç



Sençenko Vladimir Petroviç



Surmaç Mixail Mixayloviç



Umurdinov Muhuddin



Xoroles Yakov İqnatyeviç

DƏRBƏNDİN SOSİALİST ƏMƏYİ QƏHRƏMANLARI

- Abramov İsay – V.İ.Lenin adına kolxozun, üzümçüsü;
- Avuşalumov Yevdo – Stalin adına kolxozun üzümçüsü;
- Həsənov Henrix Əli oğlu – gəmi enerji qurğularının konstruktoru;
- Davıdova Gülbahar Şaulovna – Kaqanoviç adına kolxozun üzümçüsü;
- İsayev Mardaxay İsa oğlu – Kaqanoviç adına kolxozun üzümçüsü;
- Qaziyeva Xamis Əbdülsalam qızı – internat məktəbinin direktoru;
- Rabayev Avşalum Rabayeviç – Stalin adına kolxozun üzümçüsü;
- Rabayev Solomon Pinxasoviç – Molotov adına kolxozun üzümçüsü.
- Əliyev Nəriman Abdulxalıq oğlu – Ş.Əliyev adına sovxozun direktoru.

DƏRBƏNDİN SOSİALİST ƏMƏYİ QƏHRƏMANLARI



Həsənov Henrix



Davıdova Gülbahar



Abramov İsay



Avuşalumov Yevdo




İsayev Mardaxay




Qaziyeva Xamis



Rabayev Solomon



Rabayev Avşalum



Əliyev Nəriman

DƏRBƏNDİN GENERALLARI VƏ ADMİRALLARI

– Sadıqov Nəcməddin Hüseyn oğlu – general-polkovnik;
– Ərəblinski Balakişi Əli bəy oğlu – general-leytenant;
– Rəsulbəyov Hüseyn Cümşüd oğlu – general-leytenant;
– Rəsulbəyov İmran Cümşüd oğlu – general-mayor
– Balaşov Sədifə Nəriman oğlu – general-mayor;
– Heydərov Nemətulla Minətulla oğlu– general-mayor;
– İmamqulu bəy – general-mayor;
– Yusifxanov Hacı Yusif xan Tahir xan oğlu – general-mayor;
– Məmmədov Şeydabəy Fərəc oğlu – general-mayor;
– Həsənov Henrix Əli oğlu – kontr-admiral;
– Nəsirov Mustafa Cəfər oğlu – general-mayor;
– Sençenko Vladimir Petroviç –general-mayor;
– Seyidov Tofiq Mirzə oğlu – general-mayor;
– Cəfərov Füzuli Həbibulla oğlu – general-mayor (Dəmiryol);
– Ələkbərov Əhməd Şahlar oğlu – general-mayor (Ədliyyə);
– Sultanov Tofiq Abdulhəmid oğlu – general-mayor;
– Bayramov Vladimir İbrahim oğlu – general-mayor.

DƏRBƏNDİN HƏRBÇİ POLKOVNİKLƏRİ

– Cəlal İsmalı oğlu;
– Əliyev Nurulla Arif oğlu;
– Əliyev Ənvər Müseyib oğlu;
– Əmirov Rüfət Məzahir oğlu;
– Məmmədbəyov Şəmsəddin Hacıbaba oğlu;
– Mirzəbəyov Dövlət Rəhim bəy oğlu;
– Mirzəbəyov Rəhim bəy Bəylər oğlu;
– Muxtar Kazımoğlu;
– Rəsulbəyov Rəsulbəy;
– Sadıqov Həsən;
– Sultanov İsmayıl Məmməd oğlu.

DƏRBƏNDİN MİLİS POLKOVNİKLƏRİ

– Cavadov Hafiz Kərbalayı Həşim oğlu;
– Əbdüləzim;
– İsmayılov İsmayıl;
– Nazim Hikmət;
– Pənayev Səftər;
– Şahbazov Məmməd Əlirza oğlu;
– Zeynalov Cəfər.

DƏRBƏNDİN ELM XADİMLƏRİ

Qədim dövr

– Əl-Bərrak, Yusif bin İbrahim bin Nəsr əl-Hafiz Əbu-l-Qasim əl-Babi (XI əsr) – Bab əl-Əbvabda şafi icmasının baş ruhanisi, hədislərin gözəl bilicisi.
– Əl-Qədari, Əhməd bin Hüseyn bin Ubaydullah aş-Şiyi (XI əsr) – Bab əl-Əbvabın baş hakimi.
– Əd-Dərbəndi, Məhəmməd bin Musa əl-Fərəc Əbu Bəkr aş-Şafiyi as Sufi (XII əsr) – böyük müsəlman ilahiyyatçısı.
– Əl-Lakzi, Yusif bin əl-Hüseyn bin Daud Əbu Yaqub əl-Fəqih əl-Babi (XI əsr) – hədislərin gözəl bilicisi və Əqləbilər sülaləsinin saray tarixşünası.
– Əl-Lokazi, Mammus bin əl-Həsən bin Məhəmməd Əbu Abdallah əd-Dərbəndi (1040-1110) – hədislərin bilicisi və tarixçi, Bab əl-Əbvabın hörmətli şeyxlərindən biri.
– Əl-Fəkai, Yusuf bin Əhməd Əbu-l-Qasim əd-Dərbəndi (XI əsr) – sufi şeyxi, sufi ruhanilərinin başçısı, Bab əl-Əbvabda ən hörmətli və mötəbər şəxs.

XIX əsr

– Mirzə Kazımbəy (1802-1870) – şərqşünas, filosof, tarixçi, filoloq, dünyanın bir çox elmlər akademiyasının üzvü, Rusiya Elmlər akademiyasının müxbir üzvü, Rusiya şərqşünaslığının banisi.
– Kazımbəy Aleksey Nikolayevic – tibb elmləri doktoru, Əməkdar professor, Kazan həkimləri cəmiyyətinin sədri.
– Mirzə Məhəmmədtağı İbrahim oğlu («Qümri» (1819-1891) – məşhur şair.
– Əbdül-Səttar Kazımbəy – Mirzə Kazımbəyin kiçik qardaşı – Rusiya şərqşünaslığının inkşafında böyük rol oynamışdır.
– Mirzə Cəbrayıl («Sipeyri») – müəllim-şair.
– Mirzə Kərim («Şuai» (1820-1895) – məşhur alim və şair.
– Hacı Mirzə («Zövqi») – şair.

XX-XXI əsrlər

– Əliyev Nurulla Arif oğlu – tarix elmləri doktoru (Bakı)
– Ərəblinski Muxtar – xüsusi elmlər doktoru, professor (Moskva)
– Cavadov Hətəm Ağaəli oğlu – iqtisad elmləri doktoru, professor (Moskva)
– Abbasmirzə Hüseynov – tarix elmləri doktoru (Moskva)
– Zeynal bəy Əlimərdan bəy oğlu – riyaziyyat elmləri doktoru, professor (Moskva).
– Abdullayev Yusif Həmdulla oğlu – neft, kimya elmləri doktoru. SSRİ-nin Neft Sənayesi - Nazirliyində işləmişdir. (Moskva)
– Yusifov Rasim Fərəculla oğlu – riyaziyyat elmləri doktoru, professor (Mahaçqala)
– Əliyev Həşim Hüseynbala oğlu – riyaziyyat elmləri doktoru, professor (Bakı)
– Seyidov Tofik Mirzə oğlu – hərbi-texniki elmləri doktoru, professor (Moskva)
– Rəsulbəyova Bikə Cümşüd qızı – texnika elmləri doktoru, professor (Bakı)
– Rəsulbəyova Afaq Cümşid qızı – tibb elmləri doktoru (Bakı)
– Rəsulbəyova Sofa Cümşüd qızı – tibb elmləri doktoru (Bakı)
– Abbasquliyev Mövlüd Abgül oğlu – hüquq elmləri doktoru, professor (Bakı)
– Abdullayev Şahlar Mirzəbəy oğlu – fizika-riyaziyyat elmləri namizədi (Bakı)
– Turabov Sabir Fətulla oğlu – filologiya elmləri namizədi (Bakı)
– Xancanbəyov... İsabəy oğlu – tibb elmləri doktoru, professor (Mahaçqala)

– Ələkbərov Xeyrulla Hacıbaba oğlu – tibb elmləri doktoru, professor (Mahaçqala)
– Ələkbərova Fatimə Hacı qızı – tibb elmləri doktoru, professor
– Ələkbərova Zemfira Sədulla qızı – tibb elmləri doktoru (Moskva)
– Ələkbərov Sədulla Hacıbaba oğlu – tibb elmləri doktoru (Mahaçqala)
– Ələkbərova Fatimə Əhməd qızı – tibb elmləri doktoru (Mahaçqala)
– Hüseynov Ramiz Abasmirzə oğlu – tibb elmləri namizədi (Moskva)
– Hüseynov Çingiz Saleh oğlu – tibb elmləri namizədi (Moskva)
– Sadıqov Nazim Məmmədəli oğlu – tibb elmləri namizədi (Moskva)
– Fiqarov İsmət Hacı Hüseyn oğlu – tibb elmləri doktoru (Bakı)

DƏRBƏND ŞƏHƏRİNİN TANINMIŞ HƏKİMLƏRİ (XIX-XXI əsrlər)

– Mirzə Məhəmməd Kazım – 7-ci məhəllə
– Molla Hüseynqulu – 2-ci məhəllə
– Sürəyya Hacı qızı (Bakıda vəfat etmişdir) – 7-ci məhəllə
– Bahadur Kərbalayı Məhəmmədin oğlu Əliyev – 7-ci məhəllə, tibb elmləri doktoru, professor, Moskvada yaşayır
– Çingiz Saleh oğlu Hüseynov – 2-ci məhəllə, tibb elmləri namizədi, Moskvada yaşayır
– Nazim Məmmədəli oğlu Sadıqov – 2-ci məhəllə, tibb elmləri namizədi, Moskva şəhərində vəfat edib
– Ənvər Məhəmmədmirzə oğlu Vəlibəyov – 7-ci məhəllə, hərbi həkim, polkovnik, Bakı şəhərində dəfn olunub
– Niyazi Məşədi Baba oğlu Sultanov –5-ci məhəllə, hərbi həkim, polkovnik
– Teyyub Əhməd oğlu Əliyev – Çahartəpə, hərbi həkim, polkovnik, Bakıda vəfat edib
– Zeynəddin Məşədi Baba oğlu Sultanov – 5-ci məhəllə, terapevt, Bakı şəhərində vəfat edib
– Afaq Cəmşid qızı Rəsulbəyova – 8-ci məhəllə, tibb elmləri doktoru, Bakı şəhərində yaşayır
– Ayət Rəsulbəyova – hərbi həkim, stomatoloq, mayor, Bakı şəhəri
– Zenfira Sədulla qızı Ələkbərova – 5-ci məhəllə, tibb elmləri doktoru, Moskva şəhərində yaşayır
– Sədulla Hacıbaba oğlu Ələkbərov tibb elmləri doktoru – Mahaçqala şəhəri
– Fatimə Hacı qızı Ələkbərova – 5-ci məhəllə, tibb elmləri doktoru
– Fatimə Əhməd qızı Ələkbərova – tibb elmləri doktoru, Mahaçqala şəhəri
– Leyla Nəbi qızı Ələkbərova – Tağızadə küçəsi, pediatr
– İsmət Hacı Hüseyn oğlu Fiqarov – 4-cü məhəllə, cərrah, tibb elmləri doktoru. Bakı şəhərində yaşayır
– Ramiz Əliməmməd oğlu Rzayev – 7-ci məhəllə, terapevt
– Bikəxanım Mirzəağa qızı Əsgərova – 4-ci məhəllə, okulist. 1942-ci ildə Bakı şəhərində vəfat edib
– Ramis Abbasmirzə oğlu Hüseynov – Kommunarlar küçəsi, rentgenoloq
– Rahib Abbasmirzə oğlu Hüseynov – Kommunarlar küçəsi, rentgenoloq
– Səbilə Mirzə Şəfi qızı Cavadova – 2-ci məhəllə, okulist
– Ədilə Mirzə Şəfi qızı Cavadova – 2-ci məhəllə, qulaq-burun-boğaz həkimi
– Möhtəbər Əli Qiyas qızı – Gen küçə, pediatr, Azərbaycan Tibb İnstitutunun məzunu, Moskva şəhəri Krasno-Presnensk rayonunun uşaq klinikasının müdiri, Moskva şəhərində vəfat edib
– Möhtəbər Hacımirzə qızı – Puşkin küçəsi, stomatoloq
– Hacı Rəhim Hacı Mirzə oğlu Rzayev – Puşkin küçəsi
– Şəfiqə Əlirza qızı Fiqarova – 4-cü məhəllə, terapevt, Bakı şəhəri

– Asiya Abasqulu qızı Seyidova – terapevt, Dərbənddə vəfat edib
– Səkinə İsabala qızı İsayeva – 2-ci məhəllə, oftalmoloq
– Məcid Əliyev, polkovnik Nazimin atası – Azadlıq meydanı, 1937-ci ilin qurbanı
– Roza Mirəli Əsgər qızı Seyidova – ginekoloq
– Zinşira Cümşüd qızı Nəbiyeva – Puşkin küçəsi, ginekoloq, Bakı şəhərində yaşayır
– Mirzəhüseyn Əliyev – Lenin küçəsi, terapevt
– Həcimə Hacı qızı Nəsirova – 2-ci məhəllə, pediatr
– Aslanov Əsgər Məşədi Məhəmmədsaleh oğlu – 2-ci məhəllə, terapevt
– Aslanova Ümgülsüm Əli qızı – 2-ci məhəllə, pediatr
– Nərgiz Mirələm qızı Seyidova – 6-cı məhəllə, terapevt
– Şahzadə Mirələm qızı Seyidova – 6-cı məhəllə, stomatoloq
– İmamverdi Natiq oğlu Seyidov – 6-cı məhəllə, stomatoloq
– Həsən Natiq oğlu Seyidov – 6-cı məhəllə, stomatoloq
– Seyidqüdrət Seyidəli oğlu Seyidov – 7-ci məhəllə, stomatoloq
– Camal Mahmud oğlu – 4-cü məhəllə, cərrah
– Yasər Sərdar oğlu Əliyev – 8-ci məhəllə, pediatr
– Əlikrəm Sərdar oğlu Heydərov – 6-cı məhəllə, stomatoloq
– Sevər Mürsəl bəy qızı Mirzəbəyova – Buynaksk küçəsi, pediatr
– Şərqiyyə Abdulla bəy qızı Mirzəbəyova – 9-cu məhəllə, terapevt
– Ruqiyyə Səlim bəy qızı Mirzəbəyova – Mahaçqala şəhəri, ginekoloq
– Abdulla bəy Mirzəbəyov – 9-cu məhəllə, cərrah
– Məmmədəli Əliqulu oğlu Sadıqov – 2-ci məhəllə, terapevt
– Dilaram Əsəd qızı Abdullayeva – Bakı şəhəri, psixiatr
– Ramiz Teyyub oğlu Məmmədov – terapevt
– Nüsrət Mirzəhüseyn oğlu İsmayılov – Kandelakı küçəsi
– Məsumə Beytulla qızı Qucayeva – 1-ci məhəllə, pediatr
– Nəzərova Lətifə Dadaş qızı – ginekoloq
– Reyhan Uzdən qızı İsmayılova – 6-cı məhəllə, pediatr
– Gülnarə Hacı Həsən qızı Kərimova – 7-ci məhəllə, pediatr
– Şölə Həmdul qızı Rüstəmova – 1-ci məhəllə, psixiatr
– Maisə Bədrəddin qızı Əsədova – 7-ci məhəllə, pediatr
– Cənnət Məşədi Məmmədbağır qızı Kazımova – hərbi həkim, Bakı şəhərində vəfat edib
– Nailə Fərəc qızı Cəfərova – 5-ci məhəllə, stomatoloq, Mahaçqala şəhərində vəfat edib
– Fəridə Daşdəmir qızı Əsgərova – pediatr
– İndira Qəni qızı Əliyeva – 4-cü məhəllə, pediatr
– Mahmud Cümşüd oğlu – psixiatr.
– Zərifə Mahmud qızı Məmmədova – Puşkin küçəsi, cərrah
– Əbdüləli Hüseynov – stomatoloq
– Şəhla Cümşüd qızı Nəbiyeva – Puşkin küçəsi, pediatr, Bakı şəhəri
– Zenfira Cümşüd qızı Nəbiyeva – uşaq həkimi, Bakı şəhərində vəfat edib
– Hüseyn Aydın oğlu İsmaylov – 1-ci məhəllə, cərrah, Bakı şəhərində yaşayır
– Sveta İslam Qədirova – Kommunarlar küçəsi, uşaq həkim
– Solmaz Şıx qızı Fətullayeva – 5-ci məhəllə, nevropatoloq
– Etibar Şixoğlu Əmirseyidov – burun-boğaz-qulaq həkimi

– Solmaz Şıx qızı Həsənova – nevropatoloq
– Zenfira Zubailovna Rzayeva – terapevt
– Əlibala Məmmədrəsul oğlu Mərdanov – terapevt
– Əsgər Eminxanbaba oğlu – 6-cı məhəllə
– Nəbiyulla Səməd oğlu – 2-ci məhəllə
– Əbdülkərim – 7-ci məhəllə
– Dilərəm Esov qızı Abdullayeva – 2-ci məhəllə, terapevt
– Sima Abbasqulu qızı Seyidova – 5-ci məhəllə, terapevt
– Şəmiyə Şahmərdan qızı Yusifxanova – terapevt
– Məlahət Salix qızı Ağamoğlanova – terapevt, Bakı şəhərində yaşayır
– İntizar Vəliyulla qızı Cəlilova (Mürsəlova) – ginekoloq, Bakı şəhərində yaşayır

DƏRBƏNDİN FƏXRİ VƏTƏNDAŞLARI

– Paşayev Arif Mircəlal oğlu
– Nəsirov Mustafa Cəfər oğlu
– İsmayılov Eldar İsmayıl oğlu
– QuliyevHacıağa İmanqulu oğlu

DƏRBƏND ŞƏHƏRİNİN ŞAİRLƏRİ VƏ İNCƏSƏNƏT XADİMLƏRİ (XIX-XX əsrlər)

– Şair Gümri Məhəmməd Tağı İbrət – 9-cu məhəllə
– Şair Mirzə Səməndər – 1-ci məhəllə
– Şair Şüai
– Şair Gümri
– Şair Hacı Mirzə Kərbalayı Əsgər oğlu – 4-cü məhəllə
– Şairə Rəna xanım Türksoylu – 7-ci məhəllə (2 kitab müəllifi)
– Şairə Diləfruz Pəri
– Şairə Zərnigar xanım
– Şair Fazil Camal oğlu Məmmədov – 8-ci məhəllə
– Şair Adil Xosrov oğlu Abbasov – 3-cü məhəllə
– Müğənni Dürək Abasqulu – 5-ci məhəllə
– Müğənni Seyid Müzəffər – 5-ci məhəllə
– Müğənni Hüseyn Xankişi oğlu – 2-ci məhəllə
– Müğənni Paşa Məhəmməd oğlu Kərimov – 7-ci məhəllə
– Tarçı Əhəd – Bayat qapı – 8-ci məhəllə
– Tarçı Nurəddin, Matının kürəkəni – 1-ci məhəllə
– Tarçı Muxtar – 1-ci məhəllə
– Tarçı və bəstəkar Baba Quliyev – 1-ci məhəllə
– Tarçı Sədi Zamanov (İmamə küçəsi) – 1-ci məhəllə
– Tarçı Cabir Qəzənfər oğlu Sadıqov – 5-ci məhəllə
– Kamança çalan Ramazan kişi – 5-ci məhəllə
– Kamança çalan Məşədi Rza Mehrəliyev– 7-ci məhəllə
– Musiqiçi-Pianoçu Emin Fiqarov – Bakı şəhərində yaşayır
– Akkordeonçu Madılı xanım – 1-ci məhəllə

– Bubonçu Hacınisə Əsgər qızı – 5-ci məhəllə
– Seyfulla Quliyev – 2-ci məhəllə, gözəl aktyor, XX əsrin əvəzsiz ifaçısı
– Əsədulla Quliyev – 2-ci məhəllə, baş aktyor, Məcnunun atası rolunun ifaçısı
– İzmaylova Səriyyə (Sira) Aleksandrovna – 7-ci məhəllə, «Leyla və Məcnun» operasında Leyli rolunun mahir ifaçısı, Dağıstanın MSSR Xalq artisti, Qırxlar qəbiristanlığında dəfn olunub
– İzmaylov Əbilfəz – 6-cı məhəllə, gözəl aktyor, «Vaqif» dramında Qacar rolunun ifaçısı
– Hilal Səftər oğlu Mərdanov – 7-ci məhəllə, Dağıstanın Əməkdar artisti, «Vaqif» dramında Eldar rolunun ifaçısı
– Gülçəmən Mərdanova – 7-ci məhəllə, Dağıstanın Əməkdar artisti, Hilal Mərdanovun həyat yoldaşı
– Cümcüm Müsaib Məmmədəli oğlu – Lenin küçəsi, Dağıstan MSSR Xalq artisti, istedadlı rejissor və aktyor, «Məşədi İbad» komediyasında hambal rolunun ifaçısı
– Həkəm Vəli – 6-cı məhəllə, 24 yaşında kazaklar tərəfindən dar ağacından asılmış, Abbasmirzənin qardaşı oğlu, Nəsim və Kəsirin əmisi oğlu
– Kazım bəy Məmərza bəy oğlu, XX əsrin 18-19-cu illərində kazaklar tərəfindən dar ağacından asılmışdır
– Hacı Cubbay Ələkbər oğlu – 8-ci məhəllə, Şeyx Saleh bulağının yanında kazaklar tərəfindən dar ağacından asılmış, xoşbəxtlikdən dar ağacı ona tab gətirməmiş və Hacı Cubbay eşşəyinə minərək evinə getmişdir

DƏRBƏNDİN OPERA ARTİSTLƏRİ

– Hüseyn Qulı
– Hüseyn Xankişi oğlu
– Fətulla Hacı Səlim oğlu
– Pərviz
– Mirələm Mir Sadıq oğlu Seyidov
– Əsədulla Quliyev
– Seyfulla Quliyev
– Sira İzmaylova

DƏRBƏNDİN DRAM JANRINDA ÇIXIŞ EDƏN ARTİSTLƏRİ

– Abı Müslim Dərbəndli (aktyor və rejissor)
– Əbilfəz İzmaylov (Qara Hacı Mirzənin oğlu)
– Məmmədova Şəfiqə Həşim qızı (aktrisa)
– Məmmədov Məmməd Həşim oğlu (aktyor)
– Yusif Vəliyev (aktyor)
– Müzəffər Əliyev
– İsabəy Mirzəbəyov
– Xandadaş Tağıyev
– Seyid Hüseyn Abdullayev
– Kazım Ələkbərli
– Süleyman Ələkbərli
– Əbdül Cəlil Əsgərov
– Mirfazil Seyidov
– Nüsrət Vəzirov

– Məşədi Kazımov (tacir Hacı Tağının oğlu)
– Məzahir Əmirov (Bakı Teatr texnikumunu bitirib)
– Həmdulla Qarayev

DƏRBƏNDİN AŞIQLARI

– Bayat Abbas
– Aşıq Rəcəb (1825-1935)
– Zərnigar xanım
– Məsum
– Diləfruz Pəri
– Sakit Qurbanov
– Damaday Məcidov
– Şəmşir Məmmədov
– «Sarvili» aşıq ansamblı

DƏRBƏND ŞƏHƏRİNİN QƏNNADIÇILARI (XIX-XX əsrlər)

– Abusət və Rzaqulu Aslanovlar – 3-cü məhəllə, onların atalarıda qənnadıçı olmuşdu
– Qannadıçı Kərbalayı Hacıbalanın uşaqları: Əliheydər, Əlisəftər, Əlibran. Kərbalayı Hacıbala – Hacı İsmayılın oğlu, Hacı İsmayıl – Hacı Əbdülsəmədin oğlu, Hacı Əbdülsəməd – Hacı Əbdülhəmidin oğlu. Əbdülhəmid 1849-cu ildə vəfat edib.

DƏRBƏND ŞƏHƏRİNİN ZƏRGƏRLƏRİ (XIX-XX əsrlər)

– Məşədi Mürsəl bəy – İsmayıl bəyin oğlu, Soltan bəyin nəvəsi, Əhməd bəyin atası – 6-cı məhəllə
– Məşədi Əbdülsəməd – Məşədi Nemətullanın oğlu, Kərbalayı Fətullanın nəvəsi, Məhəmməd Ağanın atası – 5-ci məhəllə
– Əliəhməd Hacı Həsən oğlu, Məşədi Əbdülsəmədin şagirdi – 5-ci məhəllə
– Həsənbala – 5-ci məhəllə

DƏRBƏND ŞƏHƏRİNİN BULAQ VƏ ÇAYLARI

– Avain bulağı
– Bair (bayır) bulağı (Qırxlar bulağı)
– Bazar bulağı
– Beşinci məhəllə bulağı
– Cangəlməstan dərəsinin bulaqları
– Cur-cur bulağı
– Çahartəpə bulağı
– Carçı bulağı
– Çortəpə bulağı
– Genküçə bulağı
– Gəur-qaya bulağı
– Xan bulağı
– Kilsə bulağı
– Qala bulağı
– Quruq bulağı
– Məscid bulağı
– Mikri bulağı
– Peyinnik bulağı
– Pirəməşqi dərəsi bulağı
– Şeyx Salah bulağı

DƏRBƏND ŞƏHƏRİNİN BƏZİ NƏSİLLƏRİNİN LƏQƏBLƏRİ

(Ləqəblər peşəni, hansı nəsildən olduğunu, vəzifəni və b. əlamətləri əks etdirir)

– Abdallar
– Dovşan babalar
– Mömin Hacılar
– Kafir Hacılar
– Dəryadan çıxanlar
– Öküz vuranlar
– Öküz sevənlər
– Top oğurlayanlar
– Eşşək oğurlayanlar
– Şərbaflar
– Keçə basanlar
– Qara eşşək minənlər
– Natanlar
– Küräçilər
– Qıllı Tarıverdilər
– Xövləkilər
– Salxaq yanlar
– Quyruq Hacılar
– Bədəllər
– Çarıqçılar
– Dabbaqlar
– Siçanlar
– Məhəmmələr
– Çitkarlar
– Ərbablar
– İt Nəbilər
– Mir kitanlar
– Şəlləlilər
– Bəddaqçılar
– Bıçaqçılar
– Pambıqçılar
– Kənarkələr
– Xoxlar
– Qəcələ qıranlar
– Təndirə oturanlar
– Qıdanlar
– Qarğalar
– Dombovskilər
– Meşovlar
– Dibovskilər
– Çaqqal Cavadlar
– Buzdaqçılar
– Bülbül Ələsgərlər
– Svoluçlar
– Çığaylar
– Çındatlar
– Bəbəqutdular
– Xurma Tağılar
– Salyanlar
– Kəpəkçilər
– Şəbarayilər
– Axmaq Ələbbaslar
– İdala qaxlar
– Daş qovuranlar
– Canavarlar
– Qaymaq bacılar
– Qara gözlər
– Şantululer
– Dabanı yarıq Mövsümlər
– Çıqqanay Kazımlar
– Sirkəçilər
– Keçməzlər

Dərbənddə 90-dan çox belə ailə var idi.

Ə D Ə B İ Y Y A T

1. Ağayev İ. «Molla Nəsrəddin»in tarixi hünəri, B., 1976.
2. Axundov N. «Molla Nəsrəddin» jurnalının nəşri tarixi, B., 1959.
3. «Azərbaycan arxeologiyası». Altı cilddə, VI cild. Bakı, «Şərq-Qərb», 2008.
4. «Azərbaycan arxeologiyası». Altı cilddə, I cild. Bakı, «Şərq-Qərb», 2008.
5. Azərbaycan dosyesi. Ankara, 1990.
6. «Azərbaycan dünyası» jurnalı, sentyabr 2006, №79.
7. «Azərbaycan dünyası» jurnalı, dekabr 2007, №83.
8. «Azərbaycan dünyası» jurnalı, may 2008, №85.
9. «Azərbaycan dünyası» jurnalı, iyul 2008, №86.
10. «Azərbaycan dünyası» jurnalı, iyul 2008, №86.
11. «Azərbaycan dünyası» jurnalı, yanvar 2010, №91.
12. Azərbaycan etnoqrafiyası. Üç cilddə. I cild. Bakı, «Şərq-Qərb», 2007.
13. Azərbaycan etnoqrafiyası. Üç cilddə. II cild. Bakı, «Şərq-Qərb», 2007.
14. Azərbaycan etnoqrafiyası. Üç cilddə. III cild. Bakı, «Şərq-Qərb», 2007.
15. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar), birinci cild, B., 1998.
16. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). B., 1998.
17. Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. B., 1964.
18. Azərbaycan kulinariyası ensiklopediyası. Bakı, «Şərq-Qərb», 2007.
19. «Azərbaycan» qəzeti, 14 aprel 2010-cu il, №78.
20. «Azərbaycan» qəzeti, 1 may 2010-cu il, №93.
21. Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. Məsul katib akademik T.M.Nağıyev. «Azərbaycan» cildi. «Azərbaycan Milli Ensiklopediyası» Elmi mərkəzi, Bakı, 2007, 884 s.
22. Azərbaycan Sovet Ensiklopediyası. X cilddə. B., 1987.
23. Azərbaycan tarixi. Yeddi cilddə. I cild (Ən qədimdən – b.e. III əsri). Bakı. «Elm». 2007.
24. Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü). Bakı. «Elm». 2007.
25. Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). Bakı. «Elm». 2007.
26. Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). Bakı. «Elm». 2007.
27. Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). Bakı. «Elm». 2008.
28. Azərbaycan tarixi, 3 cilddə, 2-3 cildlər, B., 1964; 1973
29. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki cilddə. I cild. Bakı, «Şərq-Qərb», 2007, 304 səh.
30. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. İki cilddə. II cild. Bakı, «Şərq-Qərb», 2007, 304 səh.
31. Darabadi P.Q., Əliyev N.A. Xəzər bölgəsində geosiyasi rəqabət və Azərbaycan. B., 2001.
32. Dostiyev T.M. Bakı, Şabran və Dərbənd şəhərlərinin IX-XV əsrlərdə beynəlxalq ticarətdə iştirakı. //Azərbaycanın çoxtərəfli qarşılıqlı əlaqələrində Bakının rolu. III Bakı beynəlxalq simpozimumu. B., 1997.
33. «Dövlət və Din» ictimai fikir toplusu. Dekabr. 2008 4(8).
34. «Ədalətin zəfəri» qəzeti, 2 aprel 2010-cu il, №01 (06).
35. Əfəndiyev S.M. Türk proletariatının inqilabi hərəkatı tarixindən. B., 1957
36. Əliyev N.A. Azərbaycanın hərbi dənizçilik tarixi. I hissə, B., 2003.
37. Əliyev N.A., Əhmədov S.Ə. Şirvanşahlar hərbi-dəniz donanması. B., 2003.
38. Əliyev N.A. Azərbaycan hərbi dənizçilik tarixi. II hissə. Bakı, 2005.
39. Əliyev N.A. Azərbaycan hərbi dənizçilik tarixi (ən mühüm hərbi-siyasi hadisələrin tarixi xronoloji xülasəsi). B., 2008.
40. Əliyev N.A. Dərbəndin hirbi-strateji əhəmiyyəti və onun tanınmış hərbçiləri. Bakı 2016
41. Ə.İ.Muxtarova. Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər). Dərslik. Bakı, 1999, 362s.
42. Göyuşov A. Azərbaycanda ittihadçılıq. B., 1977.
43. Gözəlova Y.H. IX-XII əsrlərdə Azərbaycanın beynəlxalq ticarət əlaqələri (ərəb mənbələri əsasında). Tarix elmləri namizədi dissertasiyasının avtoreferatı. B., 2000.
44. Həbibbəyli İ., Cəlil Məmmədquluzadə. Mühiti və müasirləri, B., 1997

45. «Hərbi bilik» jurnalı, №1, B., 2009.
46. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). B., 1993.
47. «Həqiqət» qəzeti, №13 (59), 06 oktyabr 2003-cü il.
48. Hüseynov H. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən. B., 2007.
49. Hüseyn Baykara, Azərbaycan istiqlal mübarizəsi tarixi, B., 1992; Azərbaycan Cümhuriyyəti (1918-1920), B., 1998.
50. Hüseynov C, «Əkinçi» qəzetinin izahlı biblioqrafiyası, B., 1977.
51. Hüseynov Q.H. Atatürk dövründə Türkiyənin xarici siyasətinə dair. B., 1970.
52. İlqar İ. Rusiyada birinci Müsəlman Konqresi. Bütün Rusiya Müsəlmanlarının (türklərin) 1917 yılın 1-11 mayısında Moskvada yapdıkları geneltoplantının protokolları, İstambul, 1988.
53. Qasımov M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti (1914-1918-ci illər), 3 hissədə, h.1, B., 2000.
54. Qasımov M. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər), B., 1998.
55. Məmmədli Q. «Molla Nəsrəddin», B., 1966.
56. Məmmədov Z. Azərbaycan fəlsəfəsi tarixi. B., 2006.
57. Məmmədov B. «Əkinçi» qəzeti, B., 1976; Axundov H., Mətbuatımızın ilki, B., 1976.
58. Məmmədov X. Azərbaycan milli hərəkatı. 1875-1917, B., 1996.
59. Məmmədov X. İlk «Rus-müsəlman» məktəbi və onun tarixi rolu. «Azərbaycan məktəbi» jurnalı, 1964, № 5.
60. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. B., 1992.
61. Mustafayev Q. XX əsrin əvvəllərində Azərbaycanda İslam ideologiyası və onun tənqidi. B., 1973.
62. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. B., 1991.
63. Nəsibzadə N. Azərbaycanın xarici siyasəti (1918-1920). B., 1996.
64. Nəzirli Ş. Arxivlərin sirri açılır. B., 1999.
65. Novruz bayramı ensiklopediyası. Bakı, «Şərq-Qərb», 2008.
66. Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti. Bakı, «Şərq-Qərb», 2007.
67. Rəsulzadə M.Ə. Azərbaycan Xalq Cümhuriyyəti. B., 1990.
68. Rəsulzadə M.Ə. Əsərləri, c.1 (toplayanı və tərtib edəni Şirməmməd Hüseynov). B., 1992.
69. Rüstəmova-Tohidi S. Azərbaycan dövrü mətbuatı. B., 1993.
70. Sadıqoğlu Afət. Azərbaycan-Hindistan əlaqələri. B, 2009.
71. Sara Aşurbəyli. Şirvanşahlar dövləti. Bakı, «Avrasiya press», 2006.
72. Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. B., 2004.
73. Siyasi tarix, c.1., B., 1995.
74. Süleymanov M. Qafqaz İslam ordusu və Azərbaycan. B., 1999.
75. Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu – XX yüzilliyin əvvəlləri). B., 1999.
76. Süleymanov M. Azərbaycan ordusu (1918-1920). B., 1998.
77. Şəmistan Nəzirli. Güllələnmiş Azərbaycan generalları. B., 2006.
78. Şəmsir Sabahəddin. Azərbaycan İstiqlal mücadiləsi. İstambul, 2002.
79. Şəmsizadə Nizaməddin. Rejissor taleyi (görkəmli rejissor Faiq Zöhrabovun həyat və fəaliyyəti haqqında). Bakı, «Tural» NPM, 2004.
80. Şərif Əziz. «Molla Nəsrəddin» necə yarandı, B., 1986.
81. Tahirli A. Azərbaycan mühacirətmətbuatı. 2 hissədə, h. 1, B., 2002.
82. Topçubaşov Ə. Azərbaycanın təşəkkülü, Azərbaycan SSR EA-nın Xəbərləri (tarix, fəlsəfə, hüquq seriyası), 1990, №3.
83. Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas səyyahları Azərbaycan haqqında. B., 1974.
84. Vəzirov H. Rus-müsəlman məktəblərinin iyirmi beş illik yubileyi münasibətilə. Kefim gələn kitabında, B., 2001.
85. Yarəhmədov M. Dağıstan töhfələri. B., 1987.
86. Yüceer N. Birinci Dünya savaşında Osmanlı ordusunun Azərbaycan və Dağıstan hərəkatı. Ankara, 1996.
87. Ziya Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. B., 2007.
88. Ziya Bünyadov. Azərbaycan Atabəyləri Dövləti (1136 -1225-ci illər). Bakı, «Şərq-Qərb». 2007.
89. Zöhrabov Ramiz. Hacı Xanməmmədov. B., «Şur», 1992.

İngilis və türk dillərində

1. Gropp G. Die Derbent-Inschriften, s. 318
2. Hamd-Allah Mustawfi. 1919. The Georaphical part of the Nuzhat-al-qulub composed by Hamd-Allah Mustawfi of Qazwin in 740 (1340). Translated by G. Le Strange. Leiden – London.
3. Hilal as-Sabi. 1904. The historical remains of Hilal as-Sabi. First part of his Kitab al-Wuzara and fragments of his History 389-393 A.H. Ed. With notes and glossary by H.F. Amedroz. Leyden.
4. Hudud al-Alam "The Regions of the World". A Persian Geography 372 A.H. – 982 A.D. Translated and explained by V. Minorsky. London, 1937.
5. Ibn Haukal. Kitab surat al-ard.Secondum textum et imagines codicis Constantinopolitani edidit J.H. Kramers. Fasc. I-II. Lugduni Baravorum (Leiden), 1938-1939.
6. Kudrjavcev A.A., Gadziev M.S. Archaologische Unterwasseruntersuchungen an der Kuste von Darband // Archaologische Mitteilungen aus Iran und Turan. Band 33. Berlin, 2001.
7. The Derbend-Nameh, or the history of Derbend. Translated by Mirsa A. Kasev-Beq. SPb., 1851.
8. «İnce Donanma». İstanbul, Ekim 2005.
9. Kurat A.N. Türkiyə və Rusiya, Ankara, 1990.

Rus dilində

1. Абдуллаев М.А. Мыслители Дагестана XIX- нач. XX вв. Махачкала, 1963 г.
2. Абдуллаев М.А. Из истории научной и педагогической мысли досоветского Дагестана. Махачкала, 1986 г.
3. Абдуллаев М.А. Ибрагим-бек Гайдаров. Махачкала, 1999 г.
4. Абу Мухаммад Ахмад ибн Асам ал-Куфи. Книга завоеваний. Извлечения из истории Азербайджана VII-IX вв. Пер. З.М. Буниятова. Баку, 1981 г.
5. Агамалиева Н.; Худиев Р.; Азербайджанская Республика. Страницы истории. 1918-1920, Б., 1994.
6. Азербайджанская Демократическая Республика (1918-1920). Внешняя политика (документы и материалы), Б., 1998.
7. Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты (сборник документов), Б., 1998.
8. Азербайджанские сказки. Баку, 1956 г.
9. Академия наук СССР. История народов Северного Кавказа с древнейших времен до конца XVIII в. -М.: Наука, 1988.-54с.
10. Акташи Мухаммад Аваби. Дербенд-наме. Пер. с тюрского и арабского списков, предисловие и библиография Г.М-Р. Оразаева и А.Р. Шихсаидова. Махачкала. 1992 г.
11. Алиев К.Г. К вопросу о племенах Кавказской Албании. М., 1964 г.
12. Алиев Нурулла «Род Гаджи Джафара из Дербента». Баку, 2007г.
13. Али-заде А.А. Некоторые сведения о Ширване (до начала XII века). Изв.АН АзССР, отд. общ.наук, № 12, 1947 г.
14. Али-заде А.А. Монгольские завоеватели в Азербайджане и сопредельных странах в XIII-XIV веках. Баку, 1960 г.
15. Алкадари Гасан-Эфенди. Асари Дагестан. Махачкала, 1929 г.
16. Ал–Мукаддаси. Лучшее из делений для познания климатов. Пер. Н.А. Караулова. СМОМПК, Тифлис, 1908 г.
17. Алп-Илитверу. Записки Института востоковедения АН СССР. М-Л., 1839 г.
18. Аллахманов М. Ашуг Зярнигяр. Журн. «Женщина Азербайджана» (на азерб.яз.), 1988 г., № 2.

19. Аль-Истахри. Книга путей и царств. Пер. Н.А. Караулова. Журн. «Сборник материалов для описания местностей и племён Кавказа». (СМОМПК). вып. XXIX, Тифлис, 1901 г.
20. Ал–Мукаддаси. Лучшее из делений для познания климатов. Пер. Н.А. Караулова. СМОМПК, Тифлис, 1908 г.
21. Ат-Табари. История пророков и царей. Пер. А.Р. Шихсаидова. Махачкала, 1971 г.
22. Аммиан Марцелин. История, кн.23.
23. Анчабадзе З.В. Кыпчаки Северного Кавказа по данным грузинских летописей XI-XIV вв. Нальчик, 1960 г.
24. Анучин Д.Н. Отчёт о поездке в Дагестан летом 1882 года. Журн. «Известия русского географического обществ», т.XX, вып. 4, СПб, 1884 г.
25. Апполов Б.А. Каспийское море и его бассейн. М., 1956 г.
26. Артамонов М.И. Древний Дербент. Журн. «Советская археология». № 8, 1946 г.
27. Артамонов М.И. История хазар. Л., 1962 г.
28. Ашурбейли С. Государство Ширваншахов в XI-XVI вв. Баку, 1983 г.
29. Ахвердов А.И. Описание Дагестана. 1804 г. История, география и этнография Дагестана. Архивный материал. XVIII-XIX вв. Под ред. М.О. Косвена и Х.М.Хашаева. М., 1958 г.
30. Ахмедов Г.М., Фоменко В.П. Стеклянные изделия из раскопок Кабалы (1972-1976). // МКА, т.X. Баку, 1987.
31. Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века, Б., 1997.
32. Бакиханов А.К. Гюлистан-и Ирам. Баку, 1991 г.
33. Бакланов Н.Б. Архитектурные памятники Дагестана. Вып. 2, Л., 1935 г.
34. Бакланов Н.Б. Архитектурные сооружения Дагестана. В книге: «III Международный конгресс по иранскому искусству и археологии». М.-Л., 1939 г.
35. Бакунина В.И. Персидский поход в 1796 году. Журн. «Русская старина» №2, 1889 г.
36. Баладзори. Китаб футух ал-булдан (Книга завоевания стран). Пер. с араб. П.К. Жузе. Материалы по истории Азербайджана. Вып. III. Баку, 1927 г.
37. Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг., Б., 1998.
38. Баркуев К., Ахмедов М-К., Шихсаидов А.Р. Исторические сведения о Дагестане из арабских рукописей. Учён. зап. ИИЯЛ Даг. филиала АН СССР, Т. XI, 1963 г.
39. Бартольд В.В. Дербент. Соч., т.3. М., 1965 г.
40. Бартольд В.В. Место Прикаспийских областей в истории мусульманского мира. Соч., т. II. М., 1963 г.
41. Бартольд В.В. К вопросу о происхождении “Дербенд-наме”. Иран, т.I, Л., 1926 г.
42. Бейбалаева А.А. Свадебные обряды и наряды дербентских азербайджанцев. Дербент, 2006 г.
43. [Бель Джон]. Белевы путешествия через Россию в разные асиятские земли, а именно в Испагань, в Пекин, в Дербент и Константинополь. СПб., 1776 г.
44. Белецкий А.М., Бентович Н.Б., Большаков О.С. Средневековые города Средней Азии. Л., 1973 г.
45. Белокуров С. Сношения России с Кавказом. Материалы, извлечённые из Московского главного архива иностранных дел. Вып. I, 1578-1613гг. М., 1889 г.
46. Беляев Е.А. Арабы, ислам и Арабский халифат в раннее средневековье. М., 1965 г.
47. Березин И. Арабские надписи в Дербенте. Зап. С.-Петербургского архиологическо-нумизматического общества. т. II, вып. I, СПб., 1850 г.
48. Березин И. Путешествие по Дагестану и Закавказью. М., 1849 г.
49. Березин И. Путешествие по Востоку. Казань, 1849 г.
50. Бестужев-Марлинский А.А. Письма из Дагестана. Полн. собр. соч. т.2, СПб.,1834 г.
51. Броневской С. Новейшие географические и исторические известия о Кавказе. ч. II, М.,1823 г.
52. Буниятов З.М. Азербайджан в VII-IX вв. Баку, 1965 г.
53. Буниятов З.М. О длительности пребывания хазар в Албании в VII-VIII вв. Известия АН Азербайджанской ССР, 1961 г.

54. Буниятов З.М. Государство атабеков Азербайджана (1136-1225 гг.). Баку, 1978 г.
55. Бутков П.Г. Сведения о Кубинском и Дербентском владениях. 1798 г. – История, география и этнография Дагестана XVIII-XIX вв. Архивные материалы. Под редакцией М.О. Косвена и Х.М. Хашаева. М., 1958 г.
56. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 год. СПб., 1869 г.
57. Великая Октябрьская Социалистическая Революция. Энциклопедия, М., 1987.
58. Всесоюзная перепись населения 1926 года. т.5. М., 1928 г.
59. Гаджиев В.Г. Борьба народов Дагестана против владычества Ирана в начале XVIII века. Ученые записки ИИЯЛ Дагестанского филиала АН СССР, 1963 г.
60. Гаджиев В.Г. Роль России в истории Дагестана. М., 1965 г.
61. Гаджиев В.Г. Дербенд-наме Мирза Хайдар Визирова. Журн. «Вопросы истории Дагестана». Махачкала, 1975 г.
62. Гаджиев М.Г., Даудов О.М., Шихсаидов А.Р. История Дагестана. Махачкала, 1996 г.
63. Гаджиев М.Г. Этнокультурные процессы в древнем Дагестане. Махачкала, 1982 г.
64. Гаджиев М.С. Древний город Дагестана. Опыт историко-топографического и социально-экономического анализа. Москва, 2002.
65. Гаджиев М.С., Шихсаидов А.Р. Сведения Дербенднаме о Харун Ар-Рашиде и новооткрытая официальная арабская надпись 176 г. хиджры. // ААЕ. 2004, №1.
66. Гаджиева С.С. Дагестанские азербайджанцы. М., 1999 г.
67. Газета «Вышка». №26, 10-16 июля 2009 года.
68. Гамзатов Г.Г. Дворцовые сооружения Дербента XIV-XVвв и XVI-XVIIвв. //Древние и средневековые археологические памятники Дагестана. Махачкала, 1980.
69. Гамзатов Г.Г. Историческая топография позднесредневекового Дербента (XIII-XVIIвв). // СА. 1982, №1, стр.10.
70. Гаркави А.Я. Сказание мусульманских писателей о славянах и русских (с половины VII века до конца X века по р.х.). СПб, 1870 г.
71. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев, т. I – Баку: Элм, 1991. – 552с.
72. Гербер И.Г. Описание стран и народов вдоль западного берега Каспийского моря. 1728 г.
73. Гербер И.Г. Известия о находящихся с западной стороны Каспийского моря между Астраханью и рекою Курою народах и землях. СПб., 1760 г.
74. Геродот. История. М., 1971 г.
75. Гмелин С.Г. Путешествие по России для исследования всех трёх царств в природе. ч.I-IV. СПб., 1771-1785 гг.
76. Гмыря Л.Б. Страна гуннов у Каспийских ворот. –Махачкала: Даг.кн.изд-во, 1995 г. -228с.
77. Гольдциер И. Культ святых в исламе (Мухаммеданские эскизы). Пер. с немецкого. М., 1938 г.
78. Гордлевский В.А. Государство Сельджуков Малой Азии. М., 1960 г.
79. Гордость отчизны. ООО «Лотос», г. Махачкала.
80. Гражданская война и военная интервенция в СССР. Энциклопедия, М., 1983.
81. Гумилёв Л.Н. Древние тюрки. М., 1967 г.
82. Гумилёв Л.Н. Из истории азербайджано-русских отношений. Баку,1957 г.
83. Гумилёв Л.Н. Открытие Хазарии. М., 1966 г.
84. Гумилёв Л.Н. Тысячелетие вокруг Каспия. Баку, 1991 г.
85. Гусейнов Р.А. О тюрках IV –VII вв. в зоне Кавказской Албании. Баку, 1962 г.
86. Гусейнов Г.Б. «Дербент и Китаби Деде Коркуд». Дербент 2007.
87. Гусейнов Г.-Б.Я. Краткая энциклопедия города Дербента. Махачкала, 2005.
88. Гусейнов Гусейнбала. Энциклопедия города Дербента. М., 2009.
89. Гусейнов Г-Б.Я. Город тысячи легенд. Махачкала, 1980 г.

90. Гусейнов Г-Б.Я. Легенды древнего Дербента. Дербент, 2000 г.
91. Гусейнов Г-Б.Я. Дербент и мусульманская традиция. Дербент, 2002 г.
92. Дагестан в годы Великой Отечественной войны (1941-1945 гг.). (Материалы и документы). Махачкала. 1995 г.
93. «Дагестан. Вчера, Сегодня, Завтра». ООО «Издательский дом КСН»-РФ.
94. Дагестанский филиал АН СССР Институт истории, языка и литературы им. Г.Цадасы. Памятники древнего искусства Дагестана. (Сборник статей). Махачкала, 1990 г.
95. Дагестанский филиал АН СССР Ордена «Знак почета» Институт истории, языка и литературы им. Г.Цадасы. Этнокультурные процессы в древнем Дагестане. (Сборник статей). Махачкала, 1987 г.
96. Дирр А. Экскурсия по Дагестану. Журн. «Кавказ» № 187, Тбилиси, 1903 г.
97. Дорн Б. Каспий. О походах древних русских в Табаристан, с дополнительными сведениями о других набегах их на побережья Каспийского моря. СПб., 1875 г.
98. Дубровин Н. История войны и владычества русских на Кавказе. СПб., 1871 г.
99. Дубровин Н. Поход графа Зубова в Персию в 1796 году. Журн. «Военный вестник», № 2-6, 1874 г.
100. Дьяконов М.М. Очерки истории древнего Ирана. М., 1961 г.
101. Есай Хасан Джалалян. Краткая история страны Албанской. Баку, 1989 г.
102. Заходер Б.И. История восточного средневековья. М., 1944 г.
103. Заходер Б.И. Из истории волжско-каспийских связей древней Руси. Журн. «Советское востоковедение» № 3, 1955 г.
104. Заходер Б.Н. Каспийский свод сведений о Восточной Европе. М., 1962 г.
105. Зубов П. Картина Кавказского края, принадлежащего России и сопредельных оному земель в историческом, статистическом и этнографическом отношении. Спб., 1835 г.
106. Ибн ал-Асир. Тарих ал-Камиль фи-т-тарих (Полный свод истории). Пер. с араб. П.К. Жузе. Баку, 1940 г.
107. Исаков М.И. Археологические памятники Дагестана. // МАД. Махачкала, 1959.
108. Исследования по истории культуры народов Востока. Сборник в честь академика И.А.Орбели. М.-Л., 1960 г.
109. История Азербайджана (с древнейших времён до присоединения к России). т. I, Баку, 1958 г.
110. История Ирана с древнейших времён до конца XVIII века. Под ред. В.В.Струве, И.А.Орбели, М.П.Петрушевского. М., 1958 г.
111. История государства и права Азербайджанской ССР, Б., 1964.
112. Ибн ал-Факих. Книга о странах. Пер. Н.А. Караулова. – СМОМПК, Тифлис, 1902 г.
113. Ибн Щювгял. Книга путей и царств. Пер. Н.А. Караулова. – СМОМПК, Тифлис, 1908 г.
114. Ибн Хордадбех. Книга путей и царств. Пер. Н.А. Караулов. – СМОМПК, Тифлис, 1903 г.
115. Иностранная военная интервенция и гражданская война в Средней Азии и Казахстане. Документы и материалы, т.1-2, Алма-Ата, 1963-1964.
116. Иосиф Флавий. Иудейские древности, кн. XVIII.
117. История, география и этнография Дагестана. Архивные материалы. XVIII-XIX вв. М., 1958 г.
118. История Дагестана. М., 1967 г.
119. История Коммунистической Партии Советского Союза, т.4, М., 1970.
120. История халифов вардапета Гевонда, писателя VIII века. Пер. К. Патканова СПб., 1862г.
121. Кавказский календарь на 1917 г., Б., 1916.
122. Каймаразов Г.Ш. Очерки истории культуры народов Дагестана. М., 1971 г.
123. Кажлаев А.Н. Возникновение и экономическое развитие Дербента. Махачкала, 1972 г.
124. Караулов Н.А. Сведения арабских географов IX-X вв. по Р.Х. о Кавказе, Армении и Азербайджане.Сборник материалов для описания местностей и племён Кавказа, вып.38. Тифлис, 1908 г.
125. Касумов М. Боевой революционно-демократический журнал «Молла Насреддин», Б., 1966.

126. Касумова С.Ю. Среднеперсидская эпиграфика Кавказской Албании (Дербент). Баку, 1994 г.
127. Кашкаев Б. Борьба за Советы в Дагестане. М., 1963 г.
128. Клавдий Птоломей. Географическое руководство, кн. XI.
129. Клавдий Элиан. О животных, кн. XVIII.
130. Книга моего Деде Коркуда. Огузский героический эпос. М.-Л., 1962 г.
131. Ковалевский А.П. Книга Ахмеда ибн Фадлана о его путешествии на Волгу в 921-922 годах. Харьков, 1956 г.
132. Ковалевский М.К. Закон и обычай на Кавказе. М., 1890 г.
133. Козубский Е.И. История города Дербента. Темир-хан Шура, 1906.
134. Коковцев П.К. Еврейско-хазарская переписка в X веке. Л., 1932 г.
135. Контарини. Путешествие к персидскому шаху Узун Гасану в 1473 году. СПб., 1836 г.
136. Комаров А. Список населённых мест Дагестанской области. – Сборник статистических сведений о Кавказе. Тифлис, 1869 г.
137. Коран. Пер. И.Ю. Крачковского. М. 1963 г.
138. Коран. Пер. Валерии Пороховой. М., 1997 г.
139. Корнелий Тацит.Анналы, кн.VI.
140. [Котов Федот]. Хождение купца Федота Котова в Персию. М., 1958 г.
141. Кремский А.А. Выдержки из описания Дагестана и Ширвана. 1806 г.
142. Крупнов Е.Н. Древняя история Северного Кавказа. М., 1960 г.
143. Кудама. Книга о харадже. Пер.Н.А. Караулова. СМОМПК, Тифлис, 1903 г.
144. Кудрявцев А.А. Город не подвластный векам. Махачкала, 1976 г.
145. Кудрявцев А.А. Великий город на Каспии. Махачкала, 1980 г.
146. Кудрявцев А.А. Древний Дербент. -М.: Наука, 1982 г.
147. Кудрявцев А.А. Мусульманский город Дагестана. Махачкала, 1994 г.
148. Кудрявцев А.А. Раскопки в цитадели древнего Дербента. // АО 1973 года. Москва, 1974.
149. Кудрявцев А.А. Развитие торговли в Дербенте в VI – первой половине XIII века. // Ближний и Средний Восток: товарно-денежное отношения при феодализме. Москва, 1980.
150. Кудрявцев А.А. Дербенту 5000 лет. Москва, 1989.
151. Кудрявцев А.А., Гусев С.В. Мореходное дело и рыболовный промысел средневекового Дербента (XI-XIII вв). // Махачкала, 1988.
152. Кушева Е.Н. Русско-дагестанские отношения в XVI-XVII веках. Махачкала, 1954 г.
153. Кушева Е.Н. Народы Северного Кавказа и их связи с Россией (вторая половина XVI – 30 годы XVII века). М., 1963 г.
154. Лавров Л.И. Эмиры Дербента. – Источниковедение истории досоветского Дагестана. Махачкала, 1987 г.
155. Лавров Л.И. Эпиграфические памятники Северного Кавказа на арабском, персидском и турецком языках. М., 1966 г.
156. Латышев В.В. Известия древних писателей греческих и латинских о Скифии и Кавказе. СПб., 1904 г.
157. Левитов В.Н. Фатали-хан Кубинский. Журн. «Известия АН Азербайджанской ССР, № 9. Баку, 1949 г.
158. [Лерх И.] Из путешествия Иоанна Лерха, продолжавшегося от 1733 по 1735 год из Московии до Астрахани, а оттуда по странам, лежащим на западном берегу Каспийского моря. – Новые ежемесячные сочинения. СПб., январь 1790 г.
159. [Лерх И.] Известия о втором путешествии доктора и коллежского советника Лерха в Персию от 1746 до 1747 года. – Новые ежемесячные сочинения. СПб., август 1791 г.
160. Лопухин А.И. Журнал путешествия через Дагестан. 1718г. История, география и этнография Дагестана


XVII-XIX вв. Архивные материалы. Под редакцией М.О. Косвена и Хашаева. М., 1958 г.
161. Лысцов В.П. Персидский поход Петра I (1722-1723гг.). М., 195 1г.
162. Магомедов Н.А. Экономическое развитие Дербентского ханства в XVIII в. Автореферат канд. истор. наук. Нальчик, 1985 г.
163. Магомедов М.Г. Образование Хазарского каганата. М., 1983 г.
164. Магомедов Р.М. Древний Дербент. Махачкала, 1940 г.
165. Магомедов Р.М. Легенды и факты о Дагестане. Махачкала, 1969 г.
166. Материалы по истории Азербайджана. Вып. III, Баку, 1927 г.
167. Мас'уди. Золотые луга. Пер. Н.А. Караулова. Журн. «Сборник материалов для описания местностей и племён Кавказа». Тифлис, 1908 г.
168. Материалы по истории Азербайджана. Вып. III, Баку, 1927 г.
169. Мецонский Ф. История Тимур-ланка и его преемников. Баку, 1957 г.
170. Мильман А. И. Политический строй Азербайджана в XIX – нач. XX веков. Б., 1966.
171. Минорский В.Ф. История Ширвана и Дербента X-XI веков. М., 1963 г.
172. Минаев М.М. Памятники древнего искусства Дагестана. Махачкала, 1990 г.
173. [Моисей Каланкатуйский.] История албан Моисея Каланкатуйского. Пер. К. Патканьяна. СПб., 1861г.
174. Мровели Леонти. Жизнь картлинских царей. Пер. и комментарий Г.В. Цулая. М., 1979 г.
175. Муравьёв С.Н. Три этюда о кавказско-албанской письменности. – Ежегодник иберийско-кавказского языкознания. VIII. Тбилиси, 1981 г.
176. Мухаммад Аваби Акташи. Дербенд-наме. Пер. с тюрского и арабского списков, предисловие и библиография Г.М-Р. Оразаева и А.Р. Шихсаидова. Махачкала. 1992 г.
177. Народы Дагестана /Отв. ред. С.А. Арутюнов, А.И. Османов, Г.А. Сергеева.- М.: Наука, 2002. -588 с.: ил. – (Народы и культуры).
178. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана, т. IV. (Арабо-персидско-тюркскоязычные надписи Куба-Хачмазской зоны и Южного Дагестана). Баку, 2008.
179. Ниберг Г.С. Материалы по истолковыванию пехлевинских надписей Дербента. Известия Общества обследования и изучения Азербайджана. Баку, № 3, 1923 г.
180. Низами Гянджеви. Искендер наме.Избранное. Баку. 1989 г.
181. [Никитин Афанасий]. Хождение за три моря Афанасия Никитина. 1466-1472гг. М – Л., 1948 г.
182. Обзор Дагестанской области за 1896 год. Темир-Хан-Шура, 1987 г.
183. Обзор Дагестанской области за 1897 год. Темир-Хан-Шура, 1898 г.
184. Обзор Дагестанской области за 1898 год. Темир-Хан-Шура, 1900 г.
185. Обзор Дагестанской области за 1899 год. Темир-Хан-Шура, 1900 г.
186. Обзор Дагестанской области за 1913 год. Темир-Хан-Шура, 1914 г.
187. Обозрение Российских владений за Кавказом ч.1-4, СПб., 1836.
188. Обозрение российских владений за Кавказом. СПб., 1867 г.
189. Огородников П. На пути в Персию. СПб, 1878 г.
190. Одватова К. Городское самоуправление. Б., 2003.
191. Олеарий А. Описание путешествия в Московию и через Московию в Персию и обратно. СПб, 1906 г.
192. О мареноводах и кризисе. – Газ. «Тверские ведомости». № 34, 1876 г.
193. О шафрановой промышленности в Дербентской губернии. – Журн. «Кавказ». Тифлис. № 15, 1848 г.
194. Очерки истории Дагестана. Махачкала, 1957 г.
195. Очерки истории коммунистических организаций Закавказя. ч.1, Тбилиси, 1967.
196. Очерки истории Коммунистической партии Азербайджана. т.1, Баку, 1985.
197. Отчет сенатора Кузминского, проделанный в Баку и Бакинской губернии в 1905 г., Баку, 1906.

198. Отчёт Дербентского градоначальника от 19 мая 1874 года. – Рукописный фонд Института истории языка и литературы Дагестанского научного центра Российской Академии наук.
199. Отчёт военного губернатора города Дербента за 1854 год. – ЦГА Дагестана.
200. Памятная книжка Дагестанской области. Темир-Хан-Шура, 1895 г.
201. Патканов К. Из нового списка географии, приписываемой Моисею Хоренскому. «Журнал Министерства народного образования», ч. CCXXVI, СПб, март 1883 г.
202. Пахомов Е.А. К истолковыванию пехлевийских надписей Дербента. Известия Азербайджанского научно-исследовательского института, т.I, Баку, 1930 г.
203. Пахомов Е.А. Крупнейшие памятники сасанидского строительства в Закавказье. В кн. «Проблемы истории материальной культуры», Л., 1930 г.
204. Пахомов Е.А. Пехлевийские надписи Дербента. Баку, 1929 г.
205. Пахомов Е.А. О находке пехлевийских надписей Дербента. Изв. Азербайджанского государственного научно-исследовательского института. т. I, вып. 2, Баку, 1930 г.
206. Пахомов Е.А. Монетные клады Азербайджана. Баку, 1926 г.
207. Пахомов Е.А. О Дербентском княжестве XII-XIII вв. – Известия Азербайджанского научно-исследовательского института (Аз.ГНИИ). т.I, Баку, 1930 г.
208. Пахомов Е.А. Монетное обращение Азербайджана в XII – начале XIII в. // Труды ГИМ, вып. XVI. Москва, 1957, стр. 85-89.
209. Первая всеобщая перепись населения Российской империи. 1897г. Дагестанская область. СПб., 1905 г.
210. Петрушевский И.П. Великий патриот ширваншах Ибрагим. Баку, 1942 г.
211. Петрушевский И.П. Государство Азербайджана в XV веке. Сборник статей по истории Азербайджана. Вып.I, Баку, 1949 г.
212. Петрушевский И.П. Сирийские источники по истории народов СССР. Труды истории востоковедения академии наук. Вып. XLI, М-Л., 1941 г.
213. Петрушевский И.П. Хамдуллах Казвини как источник по социально-экономической истории восточного Закавказья. Известия АН СССР №4, М-Л., 1937 г.
214. Пигулевская Н.В. История Ирана с древнейших времён до конца XVIII века. Л., 1958 г.
215. Пигулевская Н.В. Сирийские источники по истории народов СССР. М.-Л., 1941г.
216. Пирогов Н.И. Отчёт о путешествии по Кавказу. М., 1852 г.
217. Письма и инструкции Петра Великого ген. Матюшину. Русский вестник, кн. IV, 1967 г.
218. Плиний Секунд (Старший). Естественная история, кн. VI.
219. Победа Советской власти в Закавказье, Тбилиси, 1971.
220. Полиевктов М.И. Еврейские путешественники XIII-XVIII в.в. по Кавказу. Тифлис, 1935 г.
221. Потто В. Кавказская война. Том 3. Персидская война 1826-1828гг. Вып. 1. –СПб., 1886.
222. Пржецлавский П. Воспоминание о блокаде города Дербента в 1831 году.– Военный сборник. № 2. СПб., 1864 г.
223. Програмные документы мусульманских политических партий 1917-1920гг., Оксфора, 1985.
224. Путешествие Абу Хамида ал-Гарнати в Восточную и Центральную Европу. Публикация О.Г.Большакова и А.Л.Монгайта. М., 1971 г.
225. Радожицкий И.Т. Историческое известие о походе российских войск в 1796 году в Дагестан и Персию под командованием графа Валериана Александровичем Зубова. – Отечественные записки, июль 1827 г.
226. Рамазанов Х.Х. К вопросу о рабстве в Дагестане. – Учёные записки Института истории языка и литературы (ИИЯЛ). Махачкала, 1961г.
227. Рамазанов Х.Х., Шихсаидов А.Р. Очерки истории Южного Дагестана. Махачкала, 1964 г.
228. Рзаев А.К. Мирза Казем-Бек. Баку, 1965 г.


229. Российская академия наук, Дагестанский научный центр, институт истории, археологии и этнографии. Северный Кавказ в древности и средние века. Махачкала, 2008 г.
230. Ртищев Ф.Н. Сведения о Дагестане. 1813 год. – История, география и этнография Дагестана XVII-XIX вв. Архивные материалы. Под ред. М.О. Косвена и Х.М. Хашаева. М., 1958 г.
231. Рубрук В. Путешествия в восточные страны. СПб., 1911 г.
232. Русско-дагестанские отношения XVII- первой четверти XVIII веков. Документы, материалы. Махачкала, 1858 г.
233. Рыбаков Б.А. Геродотова Скифия. М., 1979 г.
234. Саидов З.А. Сведения арабоязычных биографических сочинений об Абу-л-Валиде ал-Хасане ибн Мухаммаде ибн Али ад-Дербенди. – Источниковедение истории и культуры народов Дагестана и Северного Кавказа. Тезисы докладов. Махачкала, 1985 г.
235. Саидов М.С., Шихсаидов А.Р. Дербенд-наме (К вопросу об изучении). – Восточные источники по истории Дагестана. Махачкала, 1980 г.
236. Сафтар Султанов, Гамид Зейналов, Дербент и дербентцы, г.Баку, 2001 г.
237. Свод статистических данных о населении Закавказского края, извлечённых из посемейных списков 1886г. Дагестанская область. Тифлис, 1893 г.
238. Святочовоски Т. Русский Азербайджан 1905-1920. Формирования национального самосознания в мусульманском обществе, «Хазар», 1990, №1-2.
239. Северный Кавказ в древности и в средние века. Махачкала: Институт истории, археологии и этнографии Дагестанского научного центра РАН. 2008.
240. Селимханов А.Г. Из истории просвещения в Дагестане в XIX веке. Учебные записки Дагестанского Государственного женского педагогического института. Махачкала, 1959 г.
241. Серебров А.Г. Историко-этнографическое описание Дагестана. 1796г. – История, география и этнография Дагестан XVIII-XIX вв. Архивные материалы. Под ред. М.О. Косвена и Х.М. Хашаева. М., 1958 г.
242. Симонович Ф.Ф. Описание Южного Дагестана. 1796г. – История, география и этнография Дагестана XVIII-XIX вв. Архивные материалы. Под ред. М.О. Косвена и Х.М. Хашаева. М., 1958 г.
243. Смирнов К.Ф. Сарматы и утверждение их политического господства в Скифии. М., 1984 г.
244. Соймонов Ф.И. Описание Каспийского моря и чинённых на оном Российских завоеваний. – Ежемесячные сочинения и известия об учёных делах. СПб., январь 1763 г.
245. Соколов А. Очерк западного берега Каспийского моря от Петровского укрепления до реки Самура между горами и морем, со включением морской торговли города Дербента. – Журн. «Кавказ», Тифлис, № 11, 1848 г.
246. Спасский П.Н. Укрепления Дербента. Баку, 1929 г.
247. Страбон. География, кн. XI.
248. Стрейс Я.Я. Три путешествия. М., 1935 г.
249. Струве В.В., Орбели И.А., Петрушевского М.П. История Ирана с древнейших времён до конца XVIII века. М., 1958 г.
250. Султанов С.А., Зейналов Г.Э. Дербент и Известные люди. Баку, 2004.
251. Султанов С.А., Зейналов Г.Э. «Дербент и дербентцы», Баку, 2001.
252. Сумбат-заде А.С. Азербайджанцы – этногенез и формирование народа. Баку,1990 г.
253. Талыбов Д.А. Дербент: Судьбы и люди. М.2002.
254. Тарихи Дербенд-намэ. (под редакцией М. Алиханова-Аварского). Тифлис, 1898 г.
255. Тревер К.В.Очерки по истории и культуре Кавказской Албании. М - Л., 1959 г.
256. Усейнов М., Бретаницкий Л., Саламзаде А. История архитектуры Азербайджана. Москва, 1963, стр. 170.
257. Фёдоров Я.А., Фёдоров Г.С. Ранние тюрки на Северном Кавказе. М., 1978 г.
258. Флавий Иосиф. Иудейские древности, кн. XVIII.
259. Фрай Р. Наследие Ирана. М., 1972 г.

260. Френ Х.Д. О надписях города Дербента. – Труды и летописи общества истории и древностей российских при Московском университете. ч.VIII, 1834 г.
261. Хамдаллах Казвини. Наслаждения сердец.
262. Ханмагомедов С.О. Дербент. М., 1958 г.
263. Ханмагомедов С.О. Ворота Дербента. // Архитектурное наследие. 1972, № 20.
264. Ханмагомедов С.О. Дербент. Горная стена. Аулы Табасарана. М., 1979 г.
265. Ханыков Н.В. Альбом рисунков с памятников и надписей города Дербента. Учёный архив Всесоюзного географического общества, разд. 52, оп.1, № 63. (Ленинград).
266. Ханыков Н.В. О некоторых арабских надписях в Дербенте и Баку. Труды Восточного отделения (Имп.) Русского археологического общества. ч. II, СПб., 1856 г.
267. Хрестоматия по истории государства и права СССР, М., 1990.
268. Шихаб ад-Дин Мухаммад ан-Насави. Сират ас-султан Джалал ад-Дин Манкбурны (Жизнеописание султана Джалал ад-Дина Манкбурны). Пер. с араб. Буниятова З.М. М., 1996 г.
269. Шихсаидов А.Р. Дагестан в X-XIV вв. Махачкала, 1975 г.
270. Шихсаидов А.Р. Надписи рассказывают. Махачкала, 1969 г.
271. Шихсаидов А.Р. Дагестан в «Словаре стран» Йакута. – Тезисы докладов конференции, посвящённой итогам географических исследований Дагестана. Махачкала, 1985 г.
272. Шихсаидов А.Р. Закарийа ал-Казвини о Дагестане. – Источниковедение истории досоветского Дагестана. Махачкала, 1987 г.
273. Шихсаидов А.Р. Ислам в средневековом Дагестане (VII – XV вв.).Махачкала,1969 г.
274. Шихсаидов А.Р. Распространение ислама в Южном Дагестане в X-XV веках. Учёные записки ИИЯЛ Даг. Филиала АН СССР, т.VI, 1959 г.
275. Шихсаидов А.Р. Арабские строительные надписи Дагестана (XI-XVII вв.). Учёные записки ИИЯЛ Даг. Филиала АН СССР, т. XIII, 1964 г.
276. Шихсаидов А.Р., Тагирова Н.А., Гаджиева Д.Х. Арабская рукописная книга в Дагестане. Махачкала, 2001 г.
277. Эвлия Челеби. Книга путешествий. М., 1979 г.
278. [*Эйхвальд*]. Путешествие профессора Эйхвальда. – Библиотека для чтения. Вып.2, 1838 г.
279. Юшков С.В. К вопросу о границах древней Албании. Исторические записки, т.1, 1937 г.
280. Якуби. Тарих (История). Пер. с араб. П.К. Жузе. Материалы по истории Азербайджана. Вып. IV. Баку, 1927 г.
281. Якубовский А.Ю. О русско-хазарских и русско-кавказских отношениях в IX-X веках. Изв. АН СССР. т.III, № 5, 1946 г.
282. Ямпольский З.И. Из истории Древней Кавказской Албании. М., 1949 г.


ARXEOLOGİYA
XƏRİTƏLƏR VƏ ABİDƏLƏR




Dərbənd şəhərinin sxematik planı




Silahlar.
1-8-qılınc fraqmentləri




Kənd təsərrüfatı alətləri.
1-2-gavahın; 3-5-oraq; 6-bel




Metal məmulat. 1-12-çəki daşları




Zireh və zirehli geyim qalıqları



At ləvazimatı və məişət əşyaları
1-5, 8-nallar; 6-7-toqqa başlığı; 9- inşaat əşyası;
10-17-mıx və mismarlar




Gəc oymaları




Sənətkar alətləri
1-3-çəkic; 4-5-iskənə nümunələri

BƏDİİ DULUSÇULUQ MƏMULATLARI


Dərbənd qoruq muzeyinin fondundan




Dənəvərli məhsullar üçün gil qab (b.e.ə.II minillik)




Dənəvərli məhsullar üçün gil qab (b.e.ə.II minillik)



Su səhəngi (b.e.ə.I minillik)



Gil qab (VI-VII əsrlər)




Su səhəngi (XV əsr)



Dekorativ səhəng (XVII-XVIII əsrlər)

METALLARIN BƏDİİ EMALI

Dərbənd qoruq muzeyinin fondundan




Mis qazan (XIX əsr)




Tökmə qazan (XIX əsr)




Mis qumquma (XIX əsr)




Şüşə bilərziklər



Dərbənd Came məscidinin planı




Antik Azərbaycan (Qafqaz) Albaniyası



Albaniya və Adurbadaqan (Atropatena) erkən orta əsrlərdə



Aran və digər Azərbaycan vilayətləri Ərəb xilafətinin tərkibində




SACİLƏR (879-941) VƏ SALARİLƏR (941-983) DÖVLƏTLƏRİNİN ƏN QÜDRƏTLİ ÇAĞI


Azərbaycan (IX əsrin II yarısı – X əsrin II yarısı)




Azərbaycan (X əsrin II yarısı – XI əsrin II yarısı)




Azərbaycan Atabəylər (Eldənizlər) dövləti (1136-1225)




Şirvanşahlar və qonşu dövlətlər



Azərbaycan (XIII-XIV əsrlər)




Azərbaycan (XV əsr)




Azərbaycan Səfəvilər dövləti (I Şah İsmayıl dövründə 1501-1524)



Azərbaycan Səfəvilər dövləti
(Şah Təhmasib dövründə 1524-1576)



Azərbaycan Səfəvilər dövləti
(Şah Məhəmməd Xudabəndə dövründə 1578-1587)



Azərbaycan (XVII əsr)




Azərbaycan (XVI əsr)




Azərbaycan xanlıqları (XVIII əsrin II yarısı)




Şimali Azərbaycanın inzibati bölgüsü (1846-1860-cı illər)




Şimali Azərbaycan Rusiya imperiyasının tərkibində (XIX əsrin yarısı)



Xəzər dənizinin hidrocorafi xəritəsi (XIX əsrin sonu)



Azərbaycan Xalq Cümhuriyyətinin inzibati ərazi bölgüsü (1918-1920-ci illər)





Dərbəndin ümumi görünüşü



Keçilməz Dərbənd səddi (VI əsr)



Səddin dənizə qədər uzanan divarları (VI əsr)



Möhtəşəm qala qülləsinin çöl tərəfdən görünüşü



Qədim qalanın əzəməti



Möhtəşəm qala qülləsinə aparan pilləkan



Qalanın qərb divarları



Qala divarının gecə görüntüsü



Qala divarları




Qaladaxili yollar




Qaladaxili həbsxana

DƏRBƏND ABİDƏLƏRİNİN SXEMİ



1. Narınqala
2. Carçı qapı
3. Şimal qala divarı
4. Minarəli məscid
5. "Kilsə" məscidi
6. Cümə məscidi kompleksi
7. Qırxlar hamamı
8. Qırxlar qapısı
9. Qırxlar məscidi
10. Georgi Pobedonosets kilsəsi
11. Daş qapı
12. I Pyotrun qazması
13. Qalanın Qərb qapıları
14. Qala qapısı
15. Narınqala-qapı; divarları
16. Bayat qapı
17. Karvansara
18. Cənub qala divarının qalıqları
19. Orta qapı
20. Bala məscidi
21. XIX əsr hamamları (Məscid hamamı və Qızlar hamamı)
22. XIX əsr hamamı. Hacı Tağı hamamı
23. Dübarə qapı


DƏRBƏND MÜDAFİƏ KOMPLEKSİNİN PLAN - SXEMİ



ŞƏRTİ İŞARƏLƏR

1. Qala qapısı
2. Bayat qapı
3. Orta qapı
4. Dübarə qapısı
5. Carçı qapı
6. Qırxlar qapısı
7. Daş qapı
8. Narınqala qapısı
9. Cümə məscidi
10. Qırxlar məscidi
11. Minarəli məscid
12. "Kilsə" məscidi

DƏRBƏND MÜDAFİƏ SİSTEMİNİN SXEMATİK PLANI



İSTEHKAM DİVARININ ELEMENTLƏRİ



Qədim hörgüdən fraqment



İstehkam divarının qalıqları




İstehkam divarının bədii tamamlama elementi



Dərbəndin müdafiə-istehkam sistemi



Xan türbəsi



Düldül Əli məqbərəsi. Cənub qəbiristanlığı



Qırxlar qəbiristanlığından bir görünüş



Şeyx Cüneyd piri (Qırxlar piri)



Cənub qəbiristanlığının bir guşəsi



Cənub qəbiristanlığında seyid qəbri



Cənub qəbiristanlığında seyid Zəkanın qəbri




Cümcüm qəbri



General-leytenant Balakişi Ərəblinskinini qəbri



Qırxlar məscidi (XVII əsr)



Qırxlar məscidinin en kəsiklərinin planları



Qırxlar məscidində ibadət



Cümə məscidinin əsas girişi



Cümə məscidinin həyəti



Cümə məscidi kompleksində mədrəsə



Cümə məscidinin bir hissəsi



Cümə məscidinin giriş qapısı



Cümə məscidi kompleksinin həyəti



Cümə məscidinin daxili interyerinin bir hissəsi




Xan Sarayı



Minarəli məscid

NARINQALANIN PLAN-SXEMİ





Narınqala kompleksinin ümumi görünüşü



Narınqala



Narınqala



Dərbəndin Narınqaladan görünüşü



Narınqala



Narınqalada qauptvaxta



Narınqalada yeraltı tikililər



Xan hamamı



Narınqala istehkamları



Narınqala divarlarının bir hissəsi



Xan hamamının giriş qapısı




Xan hamamının bir hissəsi



Xan hamamının önündəki heykəl



Bazar hamamı (Qızlar hamamı)



Qırxlar hamamının en kəsiyinin planı



Qırxlar hamamının qalıqları. Daxili interyer



Qırxlar qapısı




Orta əsrlərə aid yeraltı hamam kompleksi



Carçı qapı



Carçı qapı



Carçı qapının üstdən görünüşü



Qalanın qərb qapıları



Bayat qapı



Orta qapı



Yermolov qapıları



Narınqalanın şimal divarındakı Qırxlar qapısı



Orta əsrlərə aid qədim epiqrafik abidə


BULAQLAR



Şeyx Salah bulağı (1938-ci il)



Yenidən bərpa olunmuş
Şeyx Salah bulağı



Yenidən bərpa olunmuş
Peyinnikbaşı bulağı



Xan bulağı. 1849-cu il



Yenidən bərpa olunmuş
Xan bulağı



Yenidən bərpa olunmuş
Bair bulağı



Bair bulağı (1928-ci il).
Qırxlar bulağı



Bair bulağı (1928-ci il)



Kilsə bulağının qalıqları



Avain bulağı



Dərbənd mayakı



Limanda yükün boşaldılması




Dərbənd xalçalarının sərgisi



Dərbənd sənətkarlarının əl işləri



Saxsı qabların hazırlanması



Şirələnmiş və naxışlı saxsı qablar



Dərbəndin kaşı qabları



I Pyotrun qazması (XX əsrin əvvəli)




Dərbənd dəmiryolu vağzalı



Örtülü bazar



Taxta bazar



Yuxarı bazar və Cümə məscidi



Dərbənddə dövriyyədə işlədilmiş gümüş abbası (XVIII-XIX əsrlər)

Avers: Ön hissəsi. Diskin mərkəzində – pulun dəyəri «10 рублей» *qeyd olunub. Rəqəmin daxilində* «0» *- gizli, görünmə bucağını növbə ilə dəyişdirdikdə 10 rəqəmi və* «руб» *yazısı görünür. Diskin aşağı hissəsində – zərbxananın əmtəə nişanı. Dairə üzrə dairənin yuxarı hissəsində –* «БАНК РОССИИ» *yazısı, aşağı hissəsində tarix* «2002», *sağda və solda – diskə keçən stilləşdirilmiş bitki budaqları*





Revers: Arxa hissəsi. Dağların qoynunda şəhər qalasının təsviri, onun üstündə – Dərbənd şəhərinin gerbi, sağda – üzümün stilləşdirilmiş budağı, dairə üzrə yazılar: yuxarıda «ДРЕВНИЕ ГОРОДА РОСИИ», *aşağıda* «ДЕРБЕНТ»



Baryatinsk küçəsi



Baryatinsk küçəsi




Dağ yolu (1928-ci il)



Kilsə küçəsi



Kilsə küçəsi



Quba küçəsindəki taxta bazar





General-leytenanat Balakişi Ərəblinskinin yaşadığı ev



Balıqsənayeçisi Abdullayev Həmdulla Hacıbala oğluna məxsus «Qrand-otel» mehmanxanası. Hazırda burada (Lenin adına küçə 8) uşaq poliklinikası yerləşir

İmperator II Nikolay Romanov adına realnı məktəbin binası. 1914-cü ildə balıqsənayeçiləri Səftər Axundov və Abram Dadaşov tərəfindən tikilib. 1923-cü ildə realnı məktəbi ləğv edildikdən sonra Pedaqoji texnikum və hazırda burada (Lenin adına küçə 83) «Elektrosiqnal» zavodu yerləşir





Kommunarlar küçəsi, 27. Tacir Hacıbaba Ələkbərovun evi (1880-ci ildə tikilib)



Lenin adına küçə,73.
Salamon, Qavriil, Avşalum və Asəf Xanukayev qardaşlarına məxsus «əjdahalı» ev



Tağızadə küçəsi 2. Hayk və Artaşes Poqosov qardaşlarına məxsus ev. İnqilaba qədər bu ev zabitlər mehmanxanası, 1900-cü ildə Realnı məktəbi, 1915-ci ildən adi məktəb olmuşdur. Binanın şərq görünüşü



Kommunarlar küçəsi, 33.
Tacir Hacı Şahmərdan Eminovun evi. Sovet dövründə burada rayon icraiyyə komitəsi yerləşirdi



III İnternasional küçəsi, 35. Vəkilov Həmid bəy Xudadat oğluna məxsus ev (1912-ci ildə tikilib)

Buynaksk küçəsi, 43. Balıq sənayeçisi Axundov Səftər Hacımehdi oğlunun evi (1916-cı ildə tikilib). 1922-ci ilədək burada inqilab komitəsi, sonra isə xəstəxana yerləşirdi





III İnternasional küçəsi, 6. Şəhər klubunun binası (1863-cü ildə tikilib). 1927-ci il yanğınına qədər burada türk dram teatrı, hazırda isə Şəhər təhsil idarəsi yerləşir



Dağıstanın 345-ci atıcı diviziyasının döyüşçülərinin şərəfinə ucaldılmış abidə



1941-1945-ci illərdə müharibəsində həlak olmuş Dərbənd döyüşçülərinin şərəfinə ucaldılmış abidə



Nizami Gəncəvinin abidəsi

MÜNDƏRİCAT

Tərtibçidən..... 3
Ümumi məlumat 5
Təbii – coğrafi şərait 7
Xalq. Etnoqrafiya Dərbənd şəhəri..... 14
Əhali 34
Əkinçilik 41
Maldarlıq 44
Sənətkarlıq 45
Yaşayış məskənləri və evlər 47
Karvansaralar 47
Mətbəx 48
Geyimlər və bəzəklər 55
Ailə və ailə məişəti 56
Dərbənd azərbaycanlılarının adət-ənənələri və toy mərasimləri 58
Hamamlar 65
Xalq bayramları 67
Xalq oyunları 81
İslamaqədərki dini inanclar 82
Toponimlər 83
Dil 88
Yazılar və əlyazmalar 97
Din 100
Kitabələr 109
Dini-tarixi abidələr 111
Dərbəndin qapıları 118
Qəbiristanlıqlar 124
Məqbərələr 127
Arxeologiya 130
Tarix. Dərbənd şəhərinin qısa tarixi oçerki..... 172
Siyasi – ictimai partiyalar və təşkilatlar 286
«Dərbənd» Xeyriyyə İctimai Birliyi 307
İqtisadiyyat 311
Sənaye 318
Kənd təsərrüfatı 323
Tikinti 328
Nəqliyyat 330
Rabitə 332
Ticarət 333
Əhalininin həyat səviyyəsi və sosial təminatı 344
Pul - kredit və bank sistemi 346
Maliyyə və vergi sistemi..... 352

Gömrük 356
Hüquq və məhkəmə sistemi 358
Elm 359
Fəlsəfə 362
Təbiət və texnika elmləri 367
Elmi elita və ziyalılar 367
Təhsil 372
Mətbuat, radio və televiziya 387
Mədəniyyət və incəsənət 390
Kitabxana 390
Muzeylər 391
Ədəbiyyat 392
Şairlər 406
Memarlıq 408
Təsviri və dekorativ tətbiqi sənətlər 412
Musiqi 416
Teatr 420
Kinoteatr 425
Klub 425
Şəhərsalma mədəniyyəti 427
Bağlar və parklar 447
Məhəllələr 448
Küçələr 450
Kəndlər 454
Səhiyyə 455
Turizm 459
Dərbəndin fövqəladə hallarda idarə edilməsi 460
Hərbi komissarlıq 461
Dərbəndin inzibati – ərazi vahidləri və idarəetmə 461
Tanınmış insanlar və dərbənd 477
Dərbəndin mühüm hadisələrinin tarixi xronoloji xülasəsi 632
Əlavələr. Dünyada "Dərbənd" adının qeyd olunduğu yerlər 660
Orta əsrlər ərəb müəlliflərinin əsərləri 660
Dərbəndin hökmdar sülalələri 661
Dərbəndin hökmdarları 662
Dərbəndin qubernatorları 663
Dərbəndin zadəganları 663
Şəhər özünüidarə təşkilatının üzvləri (1896-1917) 664
Şəhər icraiyyə komitəsi başbılarının siyahısı (1994) 664
Dərbənd seyidlərinin ailələri 665
Dərbəndin axundları 667
Dərbəndin mollaları 667
Dərbənd şəhərinin məscidləri 667

Dərbənd şəhəri «realnı» məktəbinin məzunları 668
Dərbənd şəhərinin tanınmış nəsilləri (XIX-XX əsrlər) 669
Dərbəndin tanınmış ailələri 690
Repressiyaya məruz qalmış bəzi dərbəndlilər (1930-1947) haqqında 699
Sovet ittifaqı qəhrəmanları və «şöhrət ordeni»nin hər üç dərəcəsinin kavalerləri 700
Dərbəndin sosialist əməyi qəhrəmanları 702
Dərbəndin generalları və admiralları 704
Dərbəndin hərbçi polkovnikləri 704
Dərbəndin milis polkovnikləri 704
Dərbəndin elm xadimləri 705
Dərbənd şəhərinin tanınmış həkimləri (XIX-XXI əsrlər) 706
Dərbəndin fəxri vətəndaşları 708
Dərbənd şəhərinin şairləri və incəsənət xadimləri (XIX-XX əsrlər) 708
Dərbəndin opera artistləri 709
Dərbəndin dram janrında çıxış edən artistləri 709
Dərbəndin aşıqları 710
Dərbənd şəhərinin qənnadıçıları (XIX-XX əsrlər) 710
Dərbənd şəhərinin zərgərləri (XIX-XX əsrlər) 710
Dərbənd şəhərinin bulaq və çayları 710
Dərbənd şəhərinin bəzi nəsillərinin ləqəbləri 711
Ədəbiyyat 712
Arxeologiya. Xəritələr və abidələr 723

Резюме

В книге в энциклопедической форме дана информация о процессе зарождения города Дербента, его археологии, истории, топографии, топонимики, этнографии, архитектурных памятников, роли города в судьбах других народов и страны, в том числе в полной и системной форме представлены данные о его видных личностей.

Книга предназначена для широкого круга читателей, интересующихся интересными событиями имевшее место в многовековой истории города, его видными и известными личностями, этническими процессами происходившие в городе и социальным составом населения, экономическим и культурным развитием города Дербент, его древней истории.

За оказанную помощь в подготовки энциклопедии выражаем благодарность академик Ариф Пашаеву, академику Ягуб Махмудову, Гусейнбала Гусейнову.

Abstract

The book provides a comprehensive and sistematic information about formation of Derbend city, it's archeology, history, topography, toponymics, ethnography, architectural monuments, outstanding personalities, the role of the city in the life of other nations and countries.

This book is intended to serve as a resource for the wide range readers who are interested in centuries-old history city's outstanding and world famous personalities, social composition of the population and ethnical procceses, economical and cultural development of Derbend.

We are eternally grateful for their invaluable support to academician Mr. Arif Pashayev, academician Mr. Yagub Mahmudov and to Mr. Huseinbala Huseinov.

Большая Энциклопедия Дербента

Баку – 2018, стр. 782

BÖYÜK DƏRBƏND EKSİKLOPEDİYASI

Nurulla Əliyev

Texniki redaktorlar:
M.V.Musayeva
G.B.Qədirova
N.R.Kərimov

Kompüter
tərtibatı və dizaynı:
AA DESIGN

Kitab ***"AFPoliqrAF"*** mətbəəsində çap olunmuşdur

Qarnitura: Times New Roman
Şərti çap vərəqi: 49
Formatı: 64x90 $^{1}/_{8}$
Tiraj 500

Əliyev Nurulla Arif oğlu. Böyük Dərbənd Ensiklopediyası
Bakı – 2018, 782 səh.



Əliyev Nurulla Arif oğlu, 25 sentyabr 1962-ci ildə Dərbənd şəhərində anadan olub, azərbaycanlıdır.

1969-cu ildən 1977-ci ilədək Bakı şəhəri 68 saylı orta məktəbdə təhsil almışdır. 1979-cu ildə C.Naxçıvanski adına hərbi liseyi bitirmiş, Kiyev Ali Hərbi Dənizçilik Siyasi məktəbinə daxil olmuş və həmin məktəbi 1983-cü ildə başa vurmuşdur.

1990-cı ildən 1993-cü ilə qədər Moskva şəhərində Silahlı Qüvvələrin Humanitar Akademiyasında təhsil almışdır.

1992-1995-ci illərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi aparatında xidmət etmişdir. 1997-2010-cu illərdə Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin rəisi, 2015-ci ilə qədər Azərbaycan Respublikasının Çin Xalq Respublikasında hərbi attaşesi olmuşdur. 2015-ci ildə "Dərbənd" Xeyriyyə Cəmiyyəti sədrinin birinci müavini, 2016-cı ildən "Dərbənd" Xeyriyyə İctimai Birliyinin sədri vəzifəsində çalışır. 2016-cı ildən Azərbaycan Respublikası Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunktura və elmi şöbəsinin hərb tarixi üzrə professorudur.

1998-ci il oktyabrın 28-də Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunda «Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələri üçün kadr hazırlığı (1917–1997-ci illər)» mövzusunda namizədlik dissertasiyası və 2007-ci il fevralın 14-də «Azərbaycanın Hərbi-Dənizçilik tarixi» mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

46 kitabın, 187 elmi və elmi-publisistik məqalənin müəllifidir. Müharibə və Silahlı Qüvvələr veteranıdır. Ehtiyatda olan I dərəcəli kapitandır.

QEYDLƏR

QEYDLƏR

QEYDLƏR